
Ədalət TAHİRZADƏ
Oğuztoğrul TAHİRLİ

AZƏRBAYCAN CÜMHURİYYƏTİ TƏLƏBƏLƏRİ

TARİXİ ARAYIŞ. BƏLGƏLƏR. YAŞAMLAR



TEAS PRESS

"...Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir..."

Azərbaycan Respublikasının Prezidenti
Heydər Əliyevin sərəncamından

30 yanvar 1998-ci il

AVROPA AZƏRBAYCAN CƏMİYYƏTİNİN
AZƏRBAYCANŞÜNASLIQ ARAŞDIRMALAR MƏRKƏZİ

Ədalət Tahirzadə
Oğuztoğrul Tahirli

AZƏRBAYCAN CÜMHURİYYƏTİ TƏLƏBƏLƏRİ

TARİXİ ARAYIŞ
BƏLGƏLƏR
YAŞAMLAR

106557

Azərbaycan Milli Kitabxanası

TEAS PRESS

T3(2A)7-8

Redaktor:
filologiya üzrə fəlsəfə doktoru, dosent
Əsgər Quluyev

Ön sözün müəllifi:
tarix üzrə elmlər doktoru, professor
Kərim Şükürov

Ədalət Tahirzadə, Oğuztoğrul Tahirli
AZƏRBAYCAN CÜMHURİYYƏTİ TƏLƏBƏLƏRİ
(tarixi arayış, bəlgələr, yaşamlar)

Bakı, TEAS Press Nəşriyyat evi, 2016, 1222 s.

ISBN 978 9952 494 55 6

www.teaspress.az

©TEAS Press Nəşriyyat evi, 2016

Bütün hüquqlar qorunur.
Bu nəşrin heç bir hissəsi naşirin əvvəlcədən verilmiş yazılı icazəsi olmadan elektron, mexaniki, fotonüsxələrin çıxarılması, səsyazma və ya hər hansı məlumat bazası və axtarış sistemləri vasitəsilə təkrar nəşr edilə və ya ötürülə bilməz.

ARXİV

MÜNDƏRİCAT

K.Şükürov. Azərbaycan dövlətçiliyi tarixində təhsil məsələləri ... IX
Giriş ... 1

I BÖLÜM. Tarixi arayış ... 7
1. "Azərbaycan Cümhuriyyəti" termini haqqında ... 17
2. Bilgi qaynaqları ... 16
3. Mövzunun öyrənilməsi tarixi ... 18
4. Azərbaycanlıların ali təhsil tarixinə ümumi baxış ... 21
5. "100 tələbə"nin xaricə göndərilməsi tarixçəsi ... 57
6. Bakı – Tiflis – Batum – Trabzon – İstanbul – Trento – Neapol – Roma – Paris – Bazel –Berlin ... 79
7. 100 tələbə? ... 101
8. Tələbələrin oxuduğu xarici dövlətlər ... 106
9. Tələbələrin taleyində rol oynamış şəxslər ... 120
10. Tələbələrin sovet hakimiyyəti dönəmində taleyi ... 153
11. Xaricdəki tələbə cəmiyyətləri ... 194

II BÖLÜM. Bəlgələr ... 197

III BÖLÜM. Tərcümeyi-hallar ... 313
1. Abdinov Bəhram Əliövsət oğlu ... 313
2. Ağabababəyov-Muğanlinski Adil bəy Abbasəli bəy oğlu ... 325
3. Ağasıbəyli Yusif bəy Süleyman bəy oğlu ... 332
4. Ağayev Balaağa Məhəmmədhənifə oğlu ... 345
5. Axundov Əjdər bəy İsgəndər bəy oğlu ... 348
6. Axundov İsmayıl Əbdülxalıq oğlu ... 353
7. Axundzadə Səməndər Axund Zəki oğlu ... 363
8. Aslanov Teymur bəy Zəkəriyyə bəy oğlu ... 385
9. Atamalıbəyov Abbas bəy Seyfulla bəy oğlu ... 407
10. Bağırlı Abdulla Məşədi Sadıq oğlu ... 429
11. Bosnalızadə Məhəmmədrəşid Mustafa oğlu ... 436
12. Cabbarov Əliəkbər Kərbəlayı Məhəmmədəli oğlu ... 441
13. Cavanşir Əbdülhəmid ağa Həmid ağa oğlu ... 443

14. Cəfərov Əliyusif Məşədi Abutalıb oğlu 447
15. Dadaşov Ağa Əbdülhüseyn Hacı Əliəsgər oğlu 457
16. Dagirov Zaur bəy Yusif bəy oğlu 460
17. Dursunzadə Məhəmmədzəki 467
18. Əbdülzadə Əbdül Kərbəlayı Abbas oğlu 471
19. Əbdürrəhmanlı Ağacəfər Məşədi Səftər oğlu 492
20. Əfəndiyev Abdulla Molla İbrahim oğlu 496
21. Əfəndiyev Məhəmmədəmin Hüseyn əfəndi oğlu 500
22. Əlimuradbəyli Cəmil bəy Cümşüd bəy oğlu 508
23. Əliyev Abbasmirzə Əhməd oğlu 520
24. Əliyev Əliəkbər Qəhrəman oğlu 528
25. Əliyev Əşrəf Ağaəli oğlu 549
26. Əliyev Firidun Əzim oğlu 559
27. Əlizadə Zeynalabdin bəy Kərbəlayı Hacıağa bəy oğlu (Saray, Zeynal A.) 572
28. Əmircanov Əliyar bəy Hacı bəy oğlu 579
29. Əmirov Humbay bəy Məşədi Abbas oğlu 587
30. Əşrəfov İsrafil İsmayıl oğlu 590
31. Hacı Həsən əfəndi oğlu Sadəddin 593
32. Hacıyev Bayram İbrahim oğlu 596
33. Hacıyev Xasfolad bəy İsmayıl bəy oğlu 599
34. Hacıyev Məhəmməd bəy Kərim bəy oğlu (Karatekin, Mehmet) 604
35. Hacızadə Mirzə bəy Məşədi Yusif bəy oğlu (Göygöl, Mirzə) 606
36. Həsənov Əlimuxtar Kərbəlayı Yaqub oğlu 615
37. Həsənov Rzaqulu İsmayıl oğlu 618
38. Hüseynbəyov Zeynalabdin bəy Adil bəy oğlu 624
39. Hüseynzadə Bəhram bəy İsmayıl bəy oğlu 627
40. Hüseynzadə Əlihüseyn Ağahüseyn oğlu 636
41. Hüseynzadə Salman Hüseyn oğlu 641
42. Xiromanov Zəkəriyyə Əbdürrəşid oğlu 644
43. Xudaverdiyev Əlibala Hacı Mürtəzaqulu oğlu 649
44. İsgəndərli Ağalar Məşədi Abbasqulu oğlu (Batu, İsgəndər) 652
45. Kazımov Cəfər Hacı Əliəsgər oğlu 662
46. Kərimov Əli Məşədi Xaspulat oğlu 690
47. Qaracəmirlinski Məcid bəy Qasım bəy oğlu 703
48. Qədimi Lətif Məşədi Şirin oğlu 707
49. Quluyev Mirzəhüseyn Kərbəlayı Hənifə oğlu 722

50. Mahmudov Məhəmməd bəy Xələf bəy oğlu 725
51. Məhəmməd oğlu Həmid Məhəmməd oğlu (Ataman, Həmid Xəlil) 741
52. Məhəmmədov Ağababa Kərbəlayı Əliəsgər oğlu 770
53. Məhəmmədov Hüseynbala Cəfərqulu oğlu 773
54. Məhəmmədov Nəbi Nəsib oğlu 775
55. Məmmədli Zal Məşədi Cavad oğlu 779
56. Məmmədov Qəhrəman İsrafil oğlu 788
57. Məmmədyarov Səməd Əbdülbağı oğlu 796
58. Mirqasımov Zeynalabdin Mirələsgər oğlu (Mirqasım, Abdin) 809
59. Muğanlı Əsildar bəy Abbasəli bəy oğlu 817
60. Muxarski Süleyman Bəkir oğlu 824
61. Muradov Abbas Həmid oğlu 827
62. Muradov Məhəmməd bəy Fərhad bəy oğlu 831
63. Musai Cəmil İbrahim Tahir oğlu 834
64. Mustafayev Ağacəfər Kərbəlayı Əbdülbağı oğlu 842
65. Mustafayev Ağahəsən Manaf oğlu 845
66. Mustafayev Mustafa Molla Hacı Rəhim oğlu 847
67. Münşi Hilal Məşədi Mirzə Məhəmməd oğlu 850
68. Nağıyev Hüseyn Hacı Musa oğlu 877
69. Nəbiyev Mahmud Əbdürrəhim oğlu 881
70. Nərimanbəyov Fərman bəy Əmir bəy oğlu 884
71. Pirverdiyev Hənifə Hacı Mahmud oğlu 896
72. Rəcəbli Əhməd Məşədi Cabbar oğlu 901
73. Rəhimli Məhəmməd Paşa oğlu 917
74. Rəhimov Cəbrayıl Məhəmmədrza oğlu 924
75. Rəhimzadə Abdulla Məhəmməd oğlu 927
76. Rzayev Nüsrət Rza oğlu 931
77. Rzayev Tağı Kərbəlayı Əsgər oğlu 933
78. Rzazadə İsgəndər Mirzə Cabbar oğlu 936
79. Sadıqov Mirsadıq Kərbəlayı Seyid Kamil oğlu 966
80. Salahlı Yusif Məşədi Hüseyn oğlu 973
81. Seyidəliyev Mirməhəmmədrza Mirabutalıb oğlu 980
82. Seyidzadə Mirismayıl Mir Hacı Seyid Əhməd oğlu (Saryal, İsmayıl) 982
83. Səfərov Məhiş Məşədi Hacı oğlu 1002
84. Səlimov Hüseynqulu Kərbəlayı Yusif oğlu 1013
85. Sultanov Baxış bəy İsmayıl bəy oğlu 1017

86. Sultanov İsgəndər bəy Rüstəm bəy oğlu 1022
87. Şahnəzərov Əhmədhacı Hədis oğlu 1031
88. Şahsuvarlı Mürsəl bəy Adilxan oğlu 1035
89. Şahsuvarov Surxay bəy Əzim oğlu 1048
90. Şeyxzaman İsaq bəy Musa bəy oğlu 1054
91. Şıxıyev Hüseyn Hacı Mustafa oğlu (Argüdər, Hüseyn) 1067
92. Tahirzadə Abdulla Mabud oğlu 1071
93. Temirxanov Murad bəy Məhəmmədzübeyir bəy oğlu 1085
94. Topçubaşov Rəşid bəy Əlimərdan bəy oğlu 1091
95. Vəkilov Mustafa ağa Məhəmməd ağa oğlu 1094
96. Vəkilov Teymur ağa Məhəmməd ağa oğlu 1110
97. Vəliyev İsgəndər Məşədi Mahmud oğlu 1113
98. Vəzirzadə Aslan bəy Zeynalabdin bəy oğlu 1120
99. Yusifzadə Ağaəli Mirzə Cəlal oğlu (Əli Yusif) 1126
100. Yüzbaşınski İsmayıl Qafur oğlu 1134
101. Zeynallı Hənəfi Baba oğlu 1128
102. Zeynalov Behbudəli Məşədi Həmid oğlu 1151

Qısaltmalar 1154
Qaynaqlar 1156
Adlar göstəricisi 1171

AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ TARİXİNDƏ TƏHSİL MƏSƏLƏLƏRİ

Təhsil hər bir ölkənin ümumi tarixinin, xüsusilə də dövlətçilik tarixinin mühüm tərkib hissəsidir. Müstəqil dövlətlər xalqın və dövlətin mənafeyinə uyğun təhsil siyasəti həyata keçirir, işğalçı dövlətlər isə əsarət altına aldığı yerli xalqın təhsil ənənələrini dağıtmağa, yaxud öz məqsədinə uyğunlaşdırmağa çalışır. Beləliklə, dövlətçilik baxımından təhsil daha geniş anlayışa malik olub, qlobal səciyyə daşıyır və siyasi arenanın mühüm faktoru kimi çıxış edir.

Bütün xalqlarda olduğu kimi, Azərbaycanda da təhsilin ilkin kökləri ibtidai cəmiyyətdə meydana gəlir, dövlətin meydana gəlməsi ilə xüsusi fəaliyyət sferasına çevrilir. Azərbaycanın təhsil tarixinin müxtəlif dövrləri, xalq pedaqogikası və pedaqoji fikir tarixi, təlim və tərbiyənin təkamülü və s. məsələlər bu və ya digər dərəcədə tədqiqat obyekti olmuşdur.[1] Azərbaycan dövlətləri və onların təhsil siyasəti, bu siyasətin dövlət həyatının digər sahələri ilə əlaqəsi, dövlət və dini qurumların təhsilin tənzimlənməsindəki əməkdaşlığı, müəyyən tarixi dövrdə Azərbaycanda ağalıq etmiş işğalçı dövlətlərin ölkə təhsilinə təsiri və onun nəticələri isə kompleks şəkildə araşdırılmamışdır.

Azərbaycanın dövlətçilik tarixi kontekstində təhsil məsələlərini nəzərdən keçirdikdə Azərbaycan Xalq Cümhuriyyəti ilə (1918-1920) burada keyfiyyətcə yeni bir dövrün başlandığını qeyd etmək olar ki, o, müəyyən dəyişikliklərlə müasir zamanda da davam edir. Azərbaycanın cümhuriyyətəqədərki dövrdə mövcud olan təhsil sistemində istər Azərbaycan, istərsə də Azərbaycanda hökmranlıq etmiş işğalçı dövlətlərlə eyni zamanda, mövcud olmuş dini sistemlər də həlledici rola malik olmuşdur.

[1] *Yəqubi Ə.* Azərbaycanın qədim məktəblərinin tarixinə dair bəzi qeydlər. // APİ-nin Elmi əsərləri. 1965, XI ser., №6; *Əhmədov H.* Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı, 2001; Yenə onun, XIX əsr Azərbaycan məktəbi. Bakı, 1985; *Mollayev İ.A.* Orta əsr Azərbaycan mütəfəkkirləri təlim-tərbiyə haqqında. Bakı, 1996; *İshaqi N.* Azərbaycanın məktəb və mədrəsələri XVI-XVII əsrlərdə. // Azərbaycan məktəbi. 1970, №5; *Tağıyev Ə.* Azərbaycanda məktəb tarixi (XIX əsrin sonu-XX əsrin əvvəlləri). Bakı, 1993; *Mərdanov M.C., Quliyev Ə.Q.* Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində (1918-1920). Bakı, 2003; *Mərdanov M.* Azərbaycan təhsil tarixi. I-IV cc. Bakı, 2011-2012; Просвещение, школа и педагогическая мысль в Азербайджане. // Очерки истории школы и педагогической мысли народов СССР. М., 1989, С. 393-408; Антология педагогической мысли Азербайджанской ССР, М., 1989 və s.

Metodoloji baxımdan burada müəyyən dövrlər və problemlər ayırmaq mümkündür: 1) Manna dövlətinin təhsil siyasəti; 2) Zərdüştlüyə əsaslanan təhsil sisteminin yaranması, Atropatena və Albaniyanın təhsil siyasətinə təsiri (e.ə. VI əsrin əvvəlləri – e. VII əsri); 3) Albaniyada xristianlığın dövlət dini elan edilməsi, xristian təhsil sisteminin formalaşdırılması; 4) İslam təhsil sisteminin yayılması, onun Azərbaycanın və müxtəlif tarixi dövrlərdə burada hökmranlıq edən müsəlman dövlətlərinin təhsil siyasətinə təsiri; 5) Rusiya imperiyasının Şimali Azərbaycanda təhsil siyasəti; 6) Azərbaycan Xalq Cümhuriyyətinin yeni təhsil siyasətinin yaradılması və s.

Azərbaycan ərazisində meydana gələn ilk mərkəzləşdirilmiş dövlət Manna dövləti (e.ə. IX-e.ə.VI əsrin başlanğıcı) olmuşdur. Manna dövləti haqqında monoqrafik tədqiqatda dövlətin siyasi tarixindən, təsərrüfat, məişət və dini etiqadından bəhs edilsə də, təhsil məsələsi xüsusi olaraq ayrılmamışdır.[1] Təbii ki, bu, Manna tarixinə dair mənbələrin vəziyyəti ilə əlaqədardır. Bununla eyni zamanda, Manna dövlətinin idarə sistemi, dövrün Assuriya və Urartu kimi dövlətləri ilə hərbi və diplomatik münasibətləri və inkişaf etmiş şəhər həyatının mövcudluğu, ən başlıcası, yazının varlığı[2] və s. müvafiq göstəricilər burada inkişaf etmiş təhsil sisteminin yaradılmasını dolayısı ilə sübut edir.

Manna dövlətinin süqutu və Azərbaycan torpaqlarının Midiya, sonra isə Əhəməni dövlətlərinin tərkibinə qatılması, təbii ki, əvvəl formalaşmış təhsil siyasətinə və sisteminə mənfi təsir göstərməyə bilməzdi. İstər Midiya, istərsə də Əhəməni dövlətində həyata keçirilən inzibati-idarə bölgüsü nəticəsində yaradılan əyalətlərə rəhbərlik edən hakimlər mərkəzi hakimiyyətin siyasətini həyata keçirirdi. Belə güman etmək olar ki, bu dövrdə təhsilin təşkilinə tədricən möhkəmlənən zərdüştlük etiqadı və onun dini qurumları rəhbərlik edirdi.

Makedoniyalı İsgəndərin imperiyası dağıldıqdan sonra Azərbaycan ərazisində meydana gələn Atropatena (e.ə. IV-e. III əsrləri) və Albaniya (e.ə. IV – e. VII əsrləri) dövlətləri təhsil sisteminin dirçəldilməsi, onun ənənəvi nailiyyətləri ilə eyni zamanda dövrün yeni çağırışlarının özündə ehtiva olunmasına xüsusi diqqət yetirməyə çalışmışdır.

Atropatena dövlətində ilk olaraq dövlətin banisi Atropatın nəslindən olan Atropatilər sülaləsi hökmranlıq etmiş (e.ə. IV – e. 20-ci illəri), sonra hakimiyyət Parfiya Arşakilərinin kiçik qoluna keçmişdir (e. 20-ci illəri – 220-ci illər). Bu dövr Atropatenanın müstəqillik dövrü olduğuna görə təhsil məsələləri də dövlət həyatında önəmli yer tutmuşdur. III əsrin 20-ci illərindən Atropatena dövlət müstəqilliyini itirdi və Sasani dövlətinin tərkibində mərzbanlığa çevrildi. Beləliklə, Atropatenada siyasi hakimiyyətlə yanaşı, təhsil məsələlərinin tənzimlənməsi də Sasanilərin əlinə keçdi.

Albaniya dövlətində xristianlığın dövlət dininə çevrilməsi ilə xristian təhsil sisteminin formalaşdırılması başlandı. Alban əlifbasının meydana gəlməsi bu sahədə mühüm rola malik idi. Alban yazısını ilk dəfə deşifrə edən Z.Aleksidze yazır: "Alban yazısının mövcud

[1] *Кашкай С.М.* Из истории Маннейского царства, Баку, 1977.

[2] II Sarqon relyasiyasında (məlumatında) bildirir ki, Manna çarı Ullusunu ona stela həsr etmişdir. Stelalar daha çox yazılı olurdu. Bundan başqa, yazılardan birində yəqin ki, "mannalı katib"dən bəhs edilirdi. *Дьяконов И.М.* История Мидии, М.,1956, С. 366.

olmasına və onun rüşeym halında ikən məhv olmadığına şübhə etmək olmaz. Alban dilində və alban yazısı ilə kifayət qədər inkişaf etmiş ədəbiyyat mövcud olmuşdur".[1]

Albaniyada dövlət tərəfindən təhsilə xüsusi diqqət yetirilməsinin tarixi şəraiti diqqəti xüsusilə cəlb edir. 459-463-cü illərdə Albaniya ilə Sasanilər arasında baş verən müharibə Albaniyanın məğlubiyyəti ilə başa çatır. Sasanilər 463-487-ci illərdə çar hakimiyyətini ləğv edir və burada mərzbanlıq yaradırlar. III Mömin Vaçaqan (487-510) çar hakimiyyətini bərpa etməyə nail olur.

Moisey Kalankatuklunun "Albaniya tarixi" kitabında Vaçaqanın təhsil siyasətinə dair unikal bir məlumat vardır. O yazırdı: "Allah tərəfindən taxta çıxarılan çar Vaçaqan əmr etdi ki, cadugər, sehrbaz, bütpərəst kahinlərin, barmaqkəsənlər və ağıverənlərin uşaqlarını yığıb məktəblərə versinlər... Həmin gənclərin bir çoxunu öz şəxsi Rustak adlı kəndinə toplayıb, onların yeməklərinə pul ayırdı və müəllimlər təyin edib əmr etdi ki, uşaqlara dərs desinlər və xristian dininin bələdçiləri hazırlasınlar. Hər dəfə çar öz kəndinə müqəddəslər xatirəsinə ibadət üçün gələndə o, məktəbə gəlib cadugər və bütpərəst kahinlərin uşaqlarını ətrafına yığırdı və bu uşaqlar əllərində kitab və qrifel taxtaları çarı dövrələrinə alırdılar. O zaman çar onlara əmr edirdi ki, hamı birdən ucadan oxusun, özü isə qulaq asıb sevinir və xəzinə tapmış insandan daha çox onlarla fəxr edirdi".[2] Bu parçanı şərh edən K.V.Trever yazırdı ki, V əsrin sonunda (alban əlifbasının ixtirasından sonra) əsası qoyulmuş bu xüsusi məktəb haqqında məlumat güman etməyə əsas verir ki, bu zamanlar uşaqlara oxuma və yazmanın öyrədildiyi adi məktəblər də fəaliyyət göstərirdi.[3] Əslində bu, o qədər aydın bir faktdır ki, onu güman əsasında söyləmək həqiqətə uyğun deyil.

Bu parça daha önəmli məsələləri ortaya çıxarır. Vaçaqan Sasani asılılığından qurtarmaq üçün onun dini təsir vasitələrini aradan qaldırmağa çalışırdı və bu siyasətdə əsas vasitə kimi xüsusi tipli məktəb yaradılmasına üstünlük verirdi. Belə bir fikir irəli sürmək olar ki, Vaçaqan dövründə dövlət həyatının digər mühüm sahələri üzrə də xüsusi tipli məktəblər açılmış və yuxarıda qeyd edilən məktəb kimi, bu məktəblər də hökmdarın himayəsində olmuşdur.

Ərəb xilafətinin (VII-IX əsrlər) işğalları nəticəsində Azərbaycanın cənubunda yerləşən keçmiş Atropatena torpaqları tutuldu, sonra isə Albaniyanın varlığına son qoyuldu. İslam dininin yayılması və yeni siyasi hakimiyyətin bərqərar olması ilə ölkədəki təhsil sisteminin dəyişdirilməsi başlandı.

Müsəlman təhsil sisteminin əsasını ibtidai təhsil verən məktəblər (dəbistan və dəbiristanlar), orta, yaxud ali təhsil verən mədrəsələr təşkil edirdi. «Məktəb» anlayışının ilk dəfə xilafətin canişini olan Həccac ibn Yusif (661-714) tərəfindən işlədildiyi bildirilir.[4] Mədrəsələrə gəldikdə isə qeyd edilir ki, ilahiyyat və fiqh, adətən, məscidlərdə tədris edilirdi. Lakin ziddiyyətli fikirlər artdıqca "Allahın evi"ndə mübahisə açmaq istəməyən

[1] *Aleksidze Z.* Qafqaz albanları dilləndilər. Sinay dağından tapılmış alban mətninin identifikasiyası və izahı, Bakı, 2003, S. 52.

[2] *Kalankatuklu M.* Albaniya tarixi, Bakı, 1993, S. 53.

[3] *Тревер К.В.* Очерки по истории и культуре Кавказской Албании IV в. до н.э. – VII в. н.э., М.-Л., 1959, С. 313.

[4] Антология педагогической мысли Азербайджанской ССР, М., 1989, С. 13.

alimlər xüsusi dini təhsil müəssisələrinin – mədrəsənin əsasını qoydular. Mənbələrdən aydın olur ki, ilk mədrəsə X yüzilliyin sonunda Nişapurda açılmış, daha sonra isə müsəlman dünyasının, demək olar, bütün böyük şəhərlərinə yayılmışdı".[1] Məktəb və mədrəsələrdən əlavə, sarayda, xanəgahlar və təkyələrdə, evlərdə və digər yerlərdə ümumi və fərdi təhsil təşkil olunurdu. İslam dininin yayılmasında hakimiyyət və dini təsisatlarla eyni zamanda, yeni formalaşdırılan təhsil sistemi də önəmli yer tuturdu. Xilafətin istilaları zamanı İslam dini ilə birgə, ərəb dili də geniş yayılmağa başlayır və XII əsrədək kargüzarlıq, təhsil, elm və mədəniyyətdə əsas rola malik olur.

Ərəb xilafəti dövründə və onun dağılmasından sonra mövcud olmuş Azərbaycan müsəlman dövlətlərində (Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər və Şəddadilər) də belə bir təhsil sistemi mövcud olmuşdur.

Əsəd Rza Yəqubi qeyd edir: "...məscidlərin nəzdində ərəb əlifbasını və Quranın qiraətini tədris edən "məktəb" və ya "kottab" adı altında ibtidai təhsil mərkəzləri açılırdı. Azərbaycanda gedən döyüşlərdən sonra Bağdada qayıdan ərəb ordusunun başçısı Həzifə Yəmaninin xəlifə Osmana verdiyi məlumatından aydın olur ki, 640-cı illərdə Azərbaycan məscidlərində artıq Quranın qiraətinə başlanmışdır".[2]

Təhsil sisteminin eyni olmasına baxmayaraq, hər bir dövlət bu sahədə sosial-siyasi və mədəni tələbatdan irəli gələn şərtlər daxilində yeni, daha mükəmməl təhsil müəssisələri açmaqla onu zənginləşdirməyə çalışırdı. Bu dövrdə İslam vasitəsilə böyük bir ərazidə vahid dini məkanın meydana gəlməsi nəticəsində azərbaycanlıların digər müsəlman ölkələrində təhsil alması, mədrəsə və elmi mərkəzlərdə çalışması kimi təcrübə də yaranmağa başlayır.

Səlcuq dövlətinin yaranması və İslam dünyasının siyasi liderinə çevrilməsi təhsil siyasətində də yeniliklərlə müşahidə olundu. Bu sahədə vəzir Nizamülmülkün (1018-1092) böyük xidməti var idi. "Bu uzaqgörən vəzir dövrünün tələb etdiyi mütəxəssislər və savadlılar ordusunu yaratmaq üçün sonralar "Nizamiyyə" mədrəsələri adı altında şöhrət tapmış və Nizamülmülk adını hələ öz dövründə, "Siyasətnamə" əsəri yazılmamışdan çox-çox əvvəl əbədiləşdirmiş və ona dünya şöhrəti qazandırmış təhsil sistemini icad etdi və onu ilk dəfə olaraq 1067-ci ildə – Alp Arslan dövründə ərəb xilafətinin və İslam dininin mərkəzi olan Bağdad şəhərində açdırdı".[3] Bu mədrəsədə Xətib Təbrizi ilə birgə, digər görkəmli Azərbaycan alimləri də çalışır, bu ölkədən olan gənclər təhsil alırdı.[4]

Səlcuq imperiyasının parçalanmasından sonra meydana gələn Atabəylər dövlətləri sistemində xüsusi yeri olan Azərbaycan Atabəylər dövləti (1136-1225) də təhsilə

[1] Azərbaycan tarixi. Yeddi cilddə. İkinci cild. Bakı, 1998, S. 260-261.
[2] *Yəqubi Ə.* Azərbaycanda qədim dövr və orta əsrlərdə məktəb və təhsil tarixinin ümumi mənzərəsi, yaxud xülasə. // "Kredo" qəzeti, 12 iyun 2015.
[3] *Sultanov R.* Nizamülmülkün həyat və fəaliyyəti. // Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk. Siyasətnamə. Bakı, 1987, S. 8.
[4] *N.Əliyeva* XI-XIII əsrlərdə ölkədə və onun hüdudlarından kənarda müxtəlif elm və təhsil mərkəzlərində çalışan Azərbaycan ziyalıları haqqında monoqrafik tədqiqatlarında məlumat vermişdir. Bax: *Əliyeva N.* İbn Makula (1030-1082) Azərbaycan ziyalıları haqqında, Bakı, 2014; Yenə onun, Azərbaycanın elmi-mədəni mühitinin öyrənilməsində ərəbdilli ədəbiyyatın rolu (XI-XIII əsrlər), Bakı, 2015; Yenə onun, Orta əsrlərdə Azərbaycan alimlərinin elmi əlaqələri və tədris fəaliyyəti, Bakı, 2015.

mühüm diqqət yetirirdi. Naxçıvanda bərpa edilmiş, Atabəylər dövrünə aid iki mədrəsə haqqında "Təqriri-tədris mədrəseyi-Naxçıvan əz inşa mərhum Şəmsəddin sahib-divan" başlıqlı fərman dövlətin təhsil siyasəti barədə müəyyən təsəvvür yaradır. Fərmanda müəllim və şagirdlər arasındakı münasibətlər və s. məsələlər əksini tapmışdır.[1]

Dövrün tədqiqatçısı akademik Ziya Bünyadov yazır ki, mənbələrdən birində Azərbaycan Atabəylərinin mədrəsə, məscid və saraylar tikintisinə diqqəti qeyd edilir. Mədrəsə və digər təhsil müəssisələrinin tikintisi Atabəylərin dövlətdə elm və təhsilin inkişafına qayğısını sübut edir. Azərbaycan şəhərlərində tikilən mədrəsələr sonralar banilərinin adını daşıyırdı. Ziya Bünyadov Bağdad, Qahirə, Dəməşq və başqa şəhərlərin təhsil müəssisələrində çalışan azərbaycanlı alimlərin adlarını da müəyyən etməyə nail olmuşdur.[2]

XII əsrin birinci yarısında təbrizli alim Fəxrəddin Əbülfəzl İsmayıl ibn əl-Müsənnənin fars dilində "Tarixi-Azərbaycan" adlı əsər yazması da mühüm hadisə idi.[3] XII-XIII əsrin əvvəllərində Azərbaycanda yetişən görkəmli ədəbiyyat, incəsənət və elm adamları pleyadası dövrün təhsil səviyyəsinin göstəricilərindən idi. Nizami Gəncəvinin yaradıcılığı ilə öz zirvəsinə yüksələn Azərbaycan poeziya məktəbi, Əcəmi Naxçıvaninin banisi olduğu Naxçıvan memarlıq məktəbi yerli və regional sərhədlərdən çıxaraq, ümumbəşəri əhəmiyyət kəsb etmişdir.

Monqol imperiyasının işğalları dövründə Azərbaycanda siyasi və iqtisadi həyata ağır zərbə vurulmasına baxmayaraq, XIII-XIV əsrlərdə və bu imperiyanın dağılmasından sonra meydana gələn Azərbaycan Qaraqoyunlu (1410-1468) və Ağqoyunlu (1468-1501) dövlətlərində təhsil və elmin rolu yenidən artmağa başlamışdır. Azərbaycanın görkəmli mütəfəkkiri Nəsirəddin Tusinin (1201-1274) iştirakı ilə Hülaku xan (1256-1265) tərəfindən 1258-ci ildə Bağdad tutulduqdan bir il sonra Marağada onun rəhbərliyi ilə əlli ilədək fəaliyyət göstərən rəsədxana təsis edilmişdir. "Bu hadisə (Bağdadın tutulması. – K.Ş.) Hülakunun gözündə Tusinin hörmətini daha da artırır və nəhayət, Tusi özünün çoxdan arzuladığı məşhur Marağa rəsədxanasının tikilməsinə lazım olan bütün vəsaiti Hülakudan alır. Beləliklə, həm özünə, həm də bütün Şərq mədəniyyətinə əzəmətli bir abidə olan haman rəsədxananı qurub başa çatdırır və dövrünün ən görkəmli astronom alimlərini başına toplayıb Nizamülmülkün Bağdadda yarada bildiyi Nizamiyyə akademiyasından heç də geri qalmayan Marağa akademiyasını yaratmağa nail olur".[4] Ümumiyyətlə, XIII-XIV əsrlərdə Azərbaycanda 170 məktəb və 30 mədrəsə fəaliyyət göstərirdi.[5]

Mərkəzi Azərbaycan olan Elxanilər imperiyasının təhsil sistemində Qazan xanın (1295-1304) vəziri Fəzlullah Rəşiddin tərəfindən Təbrizdə təsis edilmiş darülfünun mühüm yer tuturdu. Burada yeddi min tələbə təhsil alır, Çindən, Hindistandan, Misir və Suriyadan dəvət edilmiş əlli görkəmli alim tədrislə məşğul olur, həmçinin xəstələri

[1] *Hüseynzadə Ə.* Tədris tarixinə dair nadir fərman, Bakı, 1968, S. 46.
[2] *Бунятов З.М.* Государство атабеков Азербайджана (1136-1225 годы), Баку, 1978, S. 234-236.
[3] *Onullahi S.* XIII-XIV əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi), Bakı, 1982, S. 188.
[4] *Sultanov R.* Nəsirəddin Tusi və onun "Əxlaqi-Nasiri" əsəri. //Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri, Bakı, 1989, S. 10.
[5] Просвещение, школа и педагогическая мысль в Азербайджане, С. 396.

müalicə edirdi.[1] Təbii ki, burada təhsil alan tələbələrin və çalışan heyətin müəyyən hissəsini azərbaycanlılar təşkil edirdi.

XIII əsrdə ana dilində ədəbi əsərlərin meydana gəlməsi, məktəb və mədrəsələrdə bu dilə diqqət yetirilməsi də ciddi yeniliklərdən idi. Bunun nəticəsi idi ki, Səfəvilər dövləti zamanı Azərbaycan dili dövlət dilinə çevrilmişdir. Məhəmməd Hinduşah Naxçıvani "Dəstur əl-katib" («Katib üçün qaydalar») kitabında Azərbaycandakı məktəb və mədrəsələrin fəaliyyətindən də bəhs edir.[2]

Səfəvilər dövləti də təhsil sahəsinə ciddi diqqət yetirirdi. Dövlətin banisi Şah İsmayıl Xətai (1501-1524) təhsil sahəsində mütərəqqi baxışlara malik idi. Digər görkəmli Səfəvi hökmdarları da təhsil məsələlərinə mühüm önəm verirdi. Bunun nəticəsi idi ki, XVI-XVII əsrlərdə "Azərbaycan şəhərlərində xeyli məktəb və mədrəsə var idi. 1647-ci ildə Təbrizdə 600 məhəllə məktəbi və 47 mədrəsə fəaliyyət göstərirdi. Mədrəsələrdə şagirdlərin sayı 50 nəfərdən artıq olmurdu. Ərdəbilin Şeyx Səfi məqbərəsi nəzdindəki mədrəsədə də xeyli şagird təhsil alırdı. XVII əsrin ortalarında Şamaxıda 40 məktəb və 7 mədrəsə var idi".[3] Şah İsmayıl və onun varislərindən olan I Şah Abbas zamanı (1587-1629) Marağa rəsədxanasının bərpasına da cəhd edilmişdir.

Nadir şahın (1736-1747) ölümündən sonra Azərbaycanda xanlıqlar meydan gəlmişdir. Ölkənin parçalanmış vəziyyəti ümumi təhsil sisteminin dağılmasına və məhəlli xarakter almasına səbəb olurdu.

Azərbaycan torpaqlarının 1804-1813 və 1826-1828-ci illər rus-İran müharibələri nəticəsində parçalanması tarixən formalaşmış təhsil sistemini də böldü. İran tərkibində Cənubi Azərbaycanın təhsil sistemi ənənəvi axında davam etdiyi halda, Rusiyaya ilhaq edilən Şimali Azərbaycanda vəziyyət radikal şəkildə dəyişdirildi.

Rusiya imperiyasının Şimali Azərbaycanda təhsil siyasəti onun müstəmləkəçilik siyasətinə xidmət edirdi. Şimali Azərbaycanda imperiya Rusiyasının müstəmləkə sisteminin möhkəmlənməsinin ilk dövründə xalq maarif naziri olmuş (1833-1849) S.S.Uvarov təhsil sahəsindəki siyasəti "Pravoslavlıq, Mütləqiyyət, Xalqçılıq" triadası ilə müəyyən etmişdir ki, bu da rəsmi xalqçılıq ideologiyasına çevrilmişdir.

Rusiyanın Şimali Azərbaycanın təhsil sahəsindəki müstəmləkəçilik siyasətinin nəticəsi idi ki, XIX-XX əsrin əvvəllərində burada mürəkkəb bir təhsil sistemi formalaşdırılmışdı. Çar hakimiyyəti bir tərəfdən tarixən təşəkkül tapmış təhsil sistemini saxlamaq və təkmilləşdirmək, digər tərəfdən isə müasir tipli təhsil sistemi yaratmaq istəmirdi. Çarizmin məktəb və mədrəsələrə dair qanunları mürtəce xarakter daşıyırdı. Hökumətin məktəb və mədrəsələrə dair 1874-cü il 20 noyabr qanununun təhlili göstərir ki, "bu qanunla müəyyən edilmiş nəzarət sistemi bu tədris ocaqlarına hökumətin yaxından bələd olmamağının nəticəsi olub, onların yenidən qurulması işində heç bir əhəmiyyət kəsb etmədi. Əksinə, hökumətin müsəlman əhalisinə etibarsızlığını büruzə verdi,

[1] Azərbaycan tarixi. Yeddi cilddə. Üçüncü cild. Bakı, 1999, S. 124.
[2] Дастур ал-катиб фи тайин ал-маратиб (критический текст). Т. 1 (кн. 1-2). М., 1964-71; т. 2. М., 1976.
[3] Azərbaycan tarixi. Yeddi cilddə. Üçüncü cild, S. 299; *Рагимли А.А.* Азербайджан в конце XVI и в XVII веке (1590-1700 годы), Баку, 1981, С. 199.

bu tədris ocaqlarının sonrakı inkişafının qarşısına sədd çəkdi".[1] 1893-cü ildə qəbul edilmiş yeni qanun da bu sahədə ciddi dəyişiklik yarada bilmədi.[2]

Rusiya imperiyası dövründə yaradılan təhsil sistemi (qəza məktəbləri, müsəlman məktəbləri, rus-tatar (Azərbaycan – K.Ş.) məktəbləri və s.) isə müxtəlifliyi, mürəkkəbliyi və müstəmləkəçi xarakteri ilə fərqlənirdi.[3] Bu, ümumi müstəmləkəçilik sisteminin tərkib hissəsi idi.

İsmayıl xan Ziyadxanov (1867-1920) Rusiya imperiyasının I Dövlət Dumasında çıxışı zamanı müstəmləkəçilik sistemini xarakterizə edərkən təhsil sahəsindəki gerçək vəziyyətdən də bəhs edərək demişdir (məsələnin əhəmiyyəti nəzərə alınaraq müvafiq yer tam şəkildə iqtibas edilir): "...Zaqafqaziya bir əsr bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir. Bu əsr ərzində biz müsəlmanlar əsir kimi həyat sürmüşük, təqiblərə məruz qalmışıq, bizə heç bir haqq və hüquq verilməmiş, kölə halına salınmışıq. Sözün əsl mənasında, yüz il ərzində biz hökumətin şiddətli hücumlarına məruz qalmışıq. Siyasi, sosial və iqtisadi sahənin hansına nəzər salsanız, hamısında bizim haqqımızda haqsızlığın hökm sürdüyünün şahidi olacaqsınız... Xalq təhsilindən, ümumiyyətlə maarif sahəsindən danışmağa belə dəyməz. Çünki bizim kəndlərin heç birində məktəb yoxdur. Yüz kilometrlərlə gedilsə belə, hər hansı bir yaşayış məntəqəsində məktəbə rast gəlməzsiniz, halbuki bizdən maarif işləri üçün vergi toplanır. Görəsən, bu pullar hara sərf edilir? Yəqin ki, heç bir işə yaramayan drednout (böyük zirehli hərbi gəmi – tərc.) inşasına, yaxud da rus millətinin bu gün, bizim isə yüz ildən bəri heç birinə inanmadığımız cənab nazirlərə sərf edilir. Bir müddət bizdə də müasir təhsil sistemi tətbiq etmək həvəsi meydan gəlmişdi. Dəlilsiz qalmamaq üçün bir hadisəyə müraciət edəcəyəm. Bir neçə il bundan əvvəl Gəncə mədrəsəsinin yanındakı bir neçə sinifli məktəbdə təhsil köhnə qayda ilə aparılırdı. Uşaqların yerdə bardaş qurub oturmamağı üçün bir neçə adam məktəbə skamya, stul və qara lövhə hədiyyə etdi. Bilirsiniz nələr baş verdi? Bunun üstündə bir çox ziyalılarımız iki ilə yaxın həbsdə oldular, amma onların mövcud quruluşu yıxmaq cəhdi barədə heç bir dəlil tapılmadığı üçün iki ildən sonra həbsdən buraxıldılar. Nəzakət xatirinə, "kiçik bir yanlışlıq olmuşdur" deyərək, bununla da kifayətləndilər... Biz müsəlmanlara bəzi ali məktəblərə qəbul olunmaq hüququ verilməmişdir. Başqa məktəblərə isə sırf bir diplom əldə etmək məqsədilə girilməkdədir. Çünki ali məktəblərdən birini, məsələn, filologiya fakültəsini bitirən türk gənci diplomunu alıb vətəninə döndüyü zaman, ancaq "vodkanın sərtlik dərəcəsini təyin etmək məcburiyyətindədir". Bu ali təhsilli gənc müsəlman olduğu üçün yalnız Qafqazda deyil, Rusiyanın bütün ərazisində orta dərəcəli ali məktəblərdə müəllimlik etmək hüququndan belə, məhrumdur. Bu hüquq bizdən alınmışdır...".[4]

[1] *Əhmədov H.* Azərbaycan məktəb və pedaqoji fikir tarixi, I hissə. Bakı, 2001, S. 158.
[2] Yenə orada, S. 159.
[3] Bu barədə bax: *Таирзаде Н.А.* О мектебах в Азербайджане в 30-50-х гг. XIX в. // Известия АН Азерб. ССР, серия общ. наук. 1961, № 1; *Əhmədov H.* Azərbaycan məktəb və pedaqoji fikir tarixi, I hissə. Bakı, 2001; *Tağıyev Ə.* Azərbaycanda məktəb tarixi (XIX əsrin sonu-XX əsrin əvvəlləri), Bakı, 1993 və s.
[4] *Baykara H.* Azərbaycan istiqlal mübarizəsi tarixi, Bakı, 1992, S. 127-128.

Beləliklə, təhsil sistemində mürəkkəb və ziddiyyətli vəziyyət yaradılmışdı. Rusiya imperiyası Şimali Azərbaycanın (ümumən Qafqaz müsəlmanlarının) təhsil sistemində nəinki ruslarla, hətta erməni və gürcülərlə müqayisədə diskriminasiya siyasəti həyata keçirirdi. İmperiya bu təhsil sistemində müsəlmanların ali məktəblərdə oxumaq imkanlarını həddsiz məhdudlaşdırmışdı. Ona görə də Azərbaycanın müsəlman gənclərinin az bir hissəsi ali təhsil almaq üçün çox böyük çətinliklərlə Rusiya və Avropanın universitetlərinə üz tuturdu. Mütləqiyyət rejimi bununla kifayətlənməyərək, xaricdə verilmiş ali təhsil haqqında diplomları tanımır, ali təhsilli mütəxəssislərin Rusiyada ya bir il oxuyaraq, ya da ekstern yolu ilə imtahan verərək yenidən diplom almasını tələb edirdi.

Çarizmin təhsil sahəsindəki müstəmləkəçilik siyasəti və dövrün çağırışları Şimali Azərbaycanda maarifçilik hərəkatının meydana gəlməsinə səbəb oldu. Azərbaycan maarifçiləri hökumətin təhsil sahəsindəki siyasətinə təsir göstərməyə, ölkədə maarifin geniş yayılmasına çalışırdı.[1]

Rusiya imperiyasının dağılması və Bakıda bolşeviklərin hakimiyyəti ələ alması nəticəsində meydana gələn Bakı Xalq Komissarları Soveti antiazərbaycan mahiyyəti daşıdığına görə, onun təhsil sahəsindəki siyasəti də bu cür qiymətləndirilməlidir.[2]

Beləliklə, Cümhuriyyət qurulanadək olan müddətdə ölkədə dövlət və onun təhsil siyasətinin özünəməxsus yol keçdiyi aydın olur. Rusiya imperiyasının Şimali Azərbaycanda hakimiyyətinədək təhsilin təşkili və məzmununun müəyyən edilməsində hakim dini sistem həlledici rola malik olmuşdur. Bununla belə, dövlət təhsil siyasətinin tənzimlənməsində bu və ya digər dərəcədə iştirak etməyə çalışmışdır. Rusiya imperiyasının hakimiyyəti dövründə təhsil sisteminə nəzarət tamamilə dövlətin əlinə keçmiş, müstəmləkəçilik mahiyyəti daşımışdır. Belə bir təhsil sistemi Azərbaycan tarixində yeni qurulan ilk respublikanın tələblərinə cavab verə bilməzdi. Təhsil sahəsində köklü dəyişikliklərə nail olmadan dövlətin qarşısında duran strateji məsələləri həll etmək mümkün deyildi.

Azərbaycan Cümhuriyyəti qurulandan sonra dövlətçilik, o cümlədən təhsil sahəsində bir sıra qanunvericilik və təşkilati tədbirləri həyata keçirildi. Cümhuriyyət dövründə ilk əsas qanunvericilik orqanı Milli Şura olmuşdur. Milli Şura müvəqqəti olaraq ləğv edildikdən sonra, onun qərarı ilə yaradılan hökumətin qəbul etdiyi qərarlar əsas qanunvericilik bazası idi. Parlamentin təşkilindən sonra qanunvericilik funksiyası onun əlində toplanmışdı.

Milli Şura 1918-ci il may ayının 28-də Azərbaycanın dövlət müstəqilliyini elan etmişdir. İstiqlal Bəyannaməsinin dördüncü maddəsi ilə bütün vətəndaşlara milliyyəti, dini etiqadı, sosial vəziyyəti və cinsindən asılı olmayaraq respublika hüdudları daxilində

[1] Bax: *Ахмедов Э.М.* Философия азербайджанского просвещения, Баку, 1982 və b.

[2] Azərbaycan Dövlət Universitetinin tarixinə dair sovet dövrünün sonlarında nəşr edilmiş kitabda Bakı Xalq Komissarları Sovetinin təhsil sahəsindəki siyasəti qeyri-elmi şəkildə verilmiş, deklarativ tədbirlərin mahiyyəti açılmamışdır. Bax: *Аталишев А.М.* История Азербайджанского Университета, Баку, 1989, С. 40-41.

vətəndaşlıq və siyasi hüquqlar verilməsi elan edilmişdir.[1] Təbii ki, təhsil də bu hüquqlar içərisində mühüm yer tuturdu. Milli Şuranın qərarı ilə təşkil edilən ilk iki hökumət kabinəsində və sonrakı üç kabinədə maarif naziri vəzifəsi olmuşdur. İlk üç kabinədə bu vəzifəni Nəsib bəy Yusifbəyli icra etmişdir. O, baş nazir olduqdan sonra, dördüncü kabinədə bu vəzifəni R.K.Qaplanov, beşinci kabinədə isə H.Şaxtaxtinski tutmuşdur.

Hökumətin təhsil sahəsində ilk tədbirlərindən biri Zaqafqaziya Müəllimlər Seminariyası tatar (Azərbaycan – K.Ş.) şöbəsinin mülkiyyətinin Tiflisdən Qazaxa köçürülməsi məqsədi ilə kredit ayrılması (22 iyun 1918) olmuşdur. Hökumətin dövlət həyatına dair Parlamentin açılışınadək qəbul etdiyi bir sıra qanunlar təhsil sahəsi üçün strateji əhəmiyyətə malik idi. 1918-ci il iyunun 27-də hökumətin qərarı ilə türk dili dövlət dili elan edilmişdir.[2] İyulun 22-də Azərbaycanın tədris müəssisələrinin milliləşdirilməsi üçün Türkiyədən tədris kitabları gətirilməsi və müəllimlər dəvət olunması zəruri hesab olunaraq, bu məqsədlə İstanbula məlumatlı şəxsin ezam edilməsi, avqustun 28-də isə aşağı və ali ibtidai məktəblərin, həmçinin orta təhsil müəssisələrinin milliləşdirilməsi haqqında qərar qəbul edilmişdir.[3] Noyabrın 13-də qəbul edilmiş yeni qərarla məktəblərin milliləşdirilməsi haqqında 28 avqust qərarında müəyyən dəyişikliklər olundu.[4] Hökumət Parlamentədək təhsil sahəsinə dair digər mühüm qərarlar da qəbul etmişdir.[5]

Parlamentin qəbul etdiyi sənədlər təhsil sahəsi üzrə qanunvericilikdə xüsusi mərhələ sayıla bilər. Əvvəla, bu sənədlər qanun idi, digər tərəfdən, həmin qanunlar Parlamentdə aparılan müzakirələrdən sonra qəbul edildiyinə görə ümumi vəziyyəti də ortaya çıxarırdı. Parlament iyirmiyədək belə qanun çıxarmışdır. Onların içərisində qadın orta təhsil müəssisələri haqqında əsasnaməyə dəyişiklik və əlavələr, qısa müddətli pedaqoji kurslar (1919-cu il iyulun 1-dən Qazax, Nuxa, Şuşa, Quba, Zaqatala, Salyan, Bakı və Gəncədə) və Göyçayda realnı məktəbin açılması və s. haqqında qanunları göstərmək olar.[6] Hökumət Parlamentin fəaliyyətə başlamasından sonra təhsil sahəsində qərarlar qəbul etməkdə davam etmişdir. Beləliklə, qısa bir müddət ərzində dövlət təhsil sahəsi üzrə həm qanunvericilik bazası yaratmağa, həm də yeni təhsil strukturu formalaşdırmağa çalışmışdır.

Cümhuriyyətin təhsil sahəsində ən böyük xidmətlərindən biri ali təhsil siyasəti ilə bağlı idi. Bu, Azərbaycan üçün həmin dövrdə yeni fəaliyyət sahəsi idi. Cümhuriyyət ali təhsil sahəsində iki paralel xətt həyata keçirirdi. Bir tərəfdən, Bakıda universitet açılması üçün tədbirlər görülür, digər tərəfdən, xarici ölkə universitetlərinə azərbaycanlı tələbələr göndərilirdi. Bakı Dövlət Universitetinin açılması Cümhuriyyət tarixinin ən mühüm səhifələrindən birini təşkil edir.

[1] Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (Сборник документов). Баку, 1998, С. 10.

[2] Там же, С. 201.

[3] Там же, С. 215, 225.

[4] Там же, С. 251-252.

[5] Там же, С. 220, 222,228, 296 и др.

[6] Там же, С. 64, 70, 121 и др.

Qafqazda ali təhsil müəssisəsinin yaradılması haqqında təşəbbüslərin Krım müharibəsindən (1853-1856-cı illər) sonra meydana gəlməsinə baxmayaraq, ilk ali təhsil ocağı 1909-cu ildə açılan Tiflis ali qadın kursları olmuşdur.[1] Çar hökuməti süqut etdikdən sonra, 1918-ci il yanvarın 26-da Tiflisdə gürcü universiteti açılır. (Bu universitet Gürcüstanın müstəqilliyinin elan edilməsindən sonra, sentyabrın 3-də dövlət universitetinə çevrilib). Ali qadın kursları ilə əlaqədar yeni situasiya meydana gəlir.

Bakı Universitetinin ilk rektoru professor V.İ.Razumovski (1857-1935) yazır ki, 1917-ci ilin yayında Tiflisin şəhər duması.Rusiya xalq maarif nazirindən tələsik olaraq Tiflisdə rus universiteti üçün layihə və smeta tərtib etmək təklifi ilə teleqram aldı. Bu iş iki ayadək çəkdi... Bizim işin sonuna yaxın Qafqaz Rusiyadan ayrıldı. Gürcü, erməni və türklərdən ibarət qarışıq hökumət yarandı. Xalq maarif komissarı bakılı Xan-Xoyski idi. Biz hökumətə Tiflisdə rus universiteti təşkil etmək üçün işimizdən istifadə etmək təklifi ilə müraciət etdik. Nazir Xan-Xoyski bizi dinlədi, Qafqazda rus universiteti açılmasına rəğbətini bildirdi, lakin bununla birgə, əlavə etdi: nə üçün məhz Tiflisdə? Tiflisdə politexnikum var, indi gürcü universiteti. Bəlkə Bakıda universitet təşkil etmək daha yerinə düşər?[2]

Yeni tarixi şəraitdə Tiflisdə rus universiteti açmaq uğurlu hesab edilmədiyindən, o, 1918-ci ilin iyununda Zaqafqaziya Universiteti elan edilir. Gürcüstan hökuməti əsas diqqətini Gürcüstan Dövlət Universitetinə yönəltdiyindən Zaqafqaziya Universiteti özünü doğrultmur. Cümhuriyyət ilk vaxtlar Zaqafqaziya Universitetinin Bakıya köçürülməsinə çalışırdı. Hadisələrin sonrakı gedişi göstərir ki, əslində Bakı Dövlət Universiteti yeni ideyalara əsaslanan orijinal ali təhsil müəssisəsi kimi açılmışdır.

Universitetin təşkili məsələsi isə Parlamentdə geniş müzakirələrə səbəb olur. Parlament müzakirələri məsələ ətrafındakı gərgin fikir mübadiləsini, ayrı-ayrı fraksiya və şəxslərin mövqeyini bütün dramatizmi ilə ortaya çıxarır. Bu müzakirələrin xarakterini az da olsa müəyyən etmək üçün Parlament iclaslarındakı bəzi çıxışlardan müəyyən parçalara diqqət yetirək. Parlamentin 21 avqust 1919-cu il 67-ci iclasından. Gündəlikdəki məsələ (təqdim olunan parça orijinalda olduğu kimi verilir – K.Ş.):

"1. Azərbaycan darülfununun təşkili haqqında. Məruzəçi Hacınski...

Mehdi bəy Hacınski – Möhtərəm məbusanlar! Bakıda Azərbaycan dövlət darülfununu açmaq barəsində böyük gurultu qopmuşdur. Bunun lehində və əleyhində olanlar da çoxdurlar. Bu barədə hökumət bir layiheyi-qanuniyyə təklif edir ki, həmin layiheyi-qanuniyyəni sizə oxuyacağam...

Qara bəy Qarabəyli – Həzərat, bu məsələnin nə qədər mühüm olduğu məlumdur. Bir aydan fəzlədir, bu xüsusda çox-çox danışıq oldu. Nəticədə hər kəs etiraf edir ki, darülfunun lazımdır. Fəqət nasıl olacaq, kimlər oxuyacaq, nasıl qanunlar, qaydalar olacaq, onlar bizcə məlum deyil...

[1] *Благовидов Ф.В.* Начальные страницы из истории высшего образования на Кавказе. // Известия АГУ им. Ленина. Общ. науки. 1925, № 2-3, С. 285, 292.

[2] *Разумовский В.И.* Основание Университета в гор. Баку. // Известия Бакинского Университета. 1922, № 2, С. IV.

Məmməd Əmin – ...Hər şeydən əvvəl biz hamımız bunu etiraf edirik ki, Azərbaycan daxilində ülüm, fınuna aşına mütəxəssis adamlar ələlümum məmləkət üffanını yüksəltmək üçün darülfunun binası lazımdır. Deyirlər ki, əsas etibarilə universitet açılması əleyhinə deyilik. Fəqət doğrudan isə əleyhinədirlər...Etiraf etməliyik ki, darülfunun da bizə lazımdır... Əlbəttə, biz daha ixtisaslı və bilikli adamlar yetişdirmək üçün Avropaya tələbələr göndərəcəyik. Fəqət, eyni zamanda məmləkət daxilində bir fənn və elm ocağı vücuda gətirəcəyik. Çünki darülfunun yalnız tələbələr hazır etməyir... Darülfununun faydalarından birisi də budur ki, burada bir kərə elmi bir müəssisə vücuda gələcək. Bununla məmləkətin məchul qalmış bir çox xüsusiyyəti öyrəniləcəkdir. Camaat arasında elmə və fənnə nə qədər həvəs artacaqdır. Digər tərəfdən xaricə getməyə imkanı olmayan tələbələr elm və fənn hasil etmək imkanında olacaqlar. Vəqtilə bu darülfunun get-gedə milliləşəcək. Bununla bərabər, orada türk dili ümumi surətdə məcburi olaraq keçiləcək və öyrədiləcəkdir...

Maarif naziri Kaplanov – ...Bilirsiniz ki, hər mədəni millət və qövm darülfunun haqqındakı fədakarlıqdan çəkinməz. Bu mühüm və müqəddəs vəzifəni şayan çox şərait təhtində qəbul və ifa edir. Və yenə məmləkətimiz daxilində açılacaq olan darülfunun mövcudiyyətilə biz vətənimizi daha başqa bir surətdə Avropaya qarşı göstərəcək və yaşamağa layiq bir millət olduğumuzu da bu surətlə əda və isbat edəcək...".[1]

Universitetin təşkili məsələsi Parlamentin 1919-cu il 25, 28 avqust və 1 sentyabr iclaslarında da müzakirə edilir[2] və nəhayət, sentyabrın 1-də Bakı şəhərində Dövlət Universitetinin təsis edilməsi haqqında qanun qəbul olunur.[3] Universitetin Nizamnaməsi isə Parlamentin 29 sentyabr 1919-cu il 70-ci iclasında ciddi müzakirələrdən sonra təsdiq edilmişdir.[4] (Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan Cümhuriyyətininqanunvericilikaktlarıtoplusundabusənəd29apreltarixiiləverilmişdir[5]). Bu sənədlərə uyğun olaraq, Azərbaycanda ilk dəfə Avropa tipli ali təhsil müəssisəsi – universitet fəaliyyətə başlayır. Bakı Dövlət Universitetinin maddi bazasını möhkəmləndirmək məqsədi ilə də ciddi tədbirlər görülür.

Fəaliyyətə başladıqdan sonra universitetə 877 tələbə və 217 azad dinləyici qəbul edilmişdi ki, onlardan 604 nəfəri, o cümlədən 509 tələbə tarix-filologiya fakültəsində, 490 nəfəri, o cümlədən 368 tələbə tibb fakültəsində oxuyurdu.[6]

Cümhuriyyətin ali təhsilli kadrlarla təminatı üçün xarici dövlətlərin ali məktəblərinə gənclərin göndərilməsi üzrə də tədbirlər həyata keçirilir. Bakı Dövlət Universitetinin

[1] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. II kitab. (Stenoqrafik hesabatlar). Bakı, 1998, S. 5, 7, 8,10-11, 25.

[2] Yenə orada, S. 30-74.

[3] Yenə orada, S. 101-103.

[4] Yenə orada , S. 167-178.

[5] Bax: Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты. (Сборник документов), С. 43-55.

[6] *Маковельский А.* Азербайджанский государственный университет им. Ленина. Первое десятилетие. 1919-1929. Баку, 1930, s. 5.

təsis edilməsi ilə eyni gündə – 1919-cu il sentyabrın 1-də xaricə göndərilən 100 abituriyent və tələbə haqqında qanun qəbul edilir.[1]

Beləliklə, Cümhuriyyət Azərbaycanın dövlətçilik tarixində təhsil siyasəti üzrə yeni mərhələnin əsasını qoyur və qısa müddət ərzində Rusiya imperiyasının müstəmləkəçilik siyasəti nəticəsində formalaşmış təhsil sistemini öz dövrü üçün müasir səviyyəyə yüksəldə bilir. İstər Bakı Dövlət Universitetinin təşkili və fəaliyyəti, istərsə də digər dövlətlərin ali məktəblərinə abituriyentlərin göndərilməsi təcrübəsi Azərbaycanın sonrakı dövr dövlətçilik tarixində uğurla tətbiq edilmiş və yeni şəraitə uyğun olaraq daha da təkmilləşdirilmişdir.

* * *

Azərbaycan Cümhuriyyəti tərəfindən ilk ali təhsil müəssisəsi olan Bakı Dövlət Universitetinin açılması və xarici dövlətlərin ali məktəblərində təhsil almaq üçün gənclərin göndərilməsi ölkə həyatında ziyalıların yeni təbəqəsinin – tələbə kontingentinin formalaşdırılması istiqamətində mühüm addım oldu. 1920-ci ilin aprelində Cümhuriyyətin devrilməsi və Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə bu iki tələbə nəsli arasında kəskin sərhəd çəkildi. Həqiqətin ortaya çıxarılması üçün onlardan hər birinin tarixinin xüsusi tədqiqinə və sonra ümumiləşdirilmiş yeni bir əsərin yazılmasına ehtiyac vardır.

Professor Ədalət Tahirzadə və Oğuztoğrul Tahirlinin «Azərbaycan Cümhuriyyəti tələbələri» kitabı Azərbaycanın təhsil tarixinin indiyədək az öyrənilmiş səhifələrindən birinə – Cümhuriyyətin ali təhsil sahəsində siyasətinin tərkib hissəsi kimi, xaricə tələbələrin göndərilməsinin təşkilinə, həyata keçirilməsinə və bu tələbələrin sonrakı taleyinə həsr edilmişdir.

Təqdim olunan əsər bir sıra önəmli cəhətləri ilə diqqəti cəlb edir. Kitab tədqiq olunan problem üzrə geniş mənbə bazasına malikdir. Müəlliflər müxtəlif arxivlərdən toplanan materialları ilk dəfə elmi dövriyyəyə cəlb etmiş, bütövlükdə Cümhuriyyət dövrünün, o cümlədən təhsil sahəsinin tarixini yeni qaynaqlarla zənginləşdirmişlər. Nəşr olunmuş mənbələrin fakt və sənədləri isə yeni, orijinal şərhi ilə diqqəti cəlb edir. Kitabda şifahi tarix metodlarının – hadisə iştirakçıları və ya informatorlarla müsahibələrin keçirilməsi də xüsusi qeyd edilməlidir.

Geniş və hərtərəfli mənbə bazasının yaradılması mövzunun ən mürəkkəb məsələlərinin irəli sürülməsi və həllinə imkan vermişdir. Bu, kitabın orijinal strukturunda əksini tapmışdır. Birinci bölmədə dövr və tədqiqat predmeti haqqında tarixi arayış, ikincidə sənədlər, üçüncüdə isə tələblərin tərcümeyi-halları verilmişdir. Kitabda dövrə və şəxsiyyətlərə dair toplanmış nadir fotomateriallardan seçilərək təqdim olunan illüstrasiyalar real vəziyyət və obrazlarla düşünməyə imkan verir. Kitabın ən diqqətəlayiq cəhətlərindən biri də onun dili və materialın maraqlı şəkildə çatdırılması ilə bağlıdır.

Kitabın elmi-tədqiqat xarakteri, eyni zamanda ensiklopedik səciyyə daşıması və

[1] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. II kitab. (Stenoqrafik hesabatlar), S. 100-101.

geniş indekslə təmin olunması ondan istifadənin səmərəliliyini daha da artırır və onu stolüstü nəşrə çevirir. Bu kitabla Azərbaycanın yeni dövr tarixinin ən mühüm problemlərindən biri elmi həllini tapmış olur, eyni zamanda qarşıda duran vəzifələri də müəyyən edir. Bu kitab həm də Cümhuriyyət tələbələrinin yuxarıda qeyd edilən səpkidə öyrənilməsi üçün bir nümunədir. Məsələ ondadır ki, Bakı Dövlət Universitetindən bəhs edən bütün müəlliflər, demək olar ki, diqqəti təşkilati-texniki məsələlərə yönəltmiş, insan faktoru tamamilə unudulmuşdur.

Kitab Avropa Azərbaycan Cəmiyyətinin xüsusi layihəsi kimi hazırlanmış və nəşr edilmişdir.

Kərim Şükürov
tarix üzrə elmlər doktoru, professor

GİRİŞ



Allahın müstəqil dövlət yaratmaq xoşbəxtliyi nəsib etdiyi millətlərdən biri də bizik. 1918-ci ildə "Azərbaycan Cümhuriyyəti" adlı milli dövlətimizin meydana çıxması dünya tarixinin olaylarından birinə çevrildi. 23 aylıq qısa ömründə Azərbaycan Cümhuriyyətinin gördüyü mühüm işlərdən biri də milli ziyalı kadrlar hazırlamağa başlamaq oldu. Bu məqsədlə Cümhuriyyət hökuməti maliyyə baxımından ən sıxıntılı bir dönəmində 100 nəfər tələbənin əcnəbi dövlətlərdə ali təhsil almasına milyonlarca vəsait ayırdı və onları oxumağa göndərdi. Tək-tük istisnalarla bu tələbələrin hamısı diplom alaraq yüksək ixtisaslı mütəxəssis oldu. Ancaq Cümhuriyyətin devrilməsi və onun yerinə kommunist rejiminin gəlməsi nəticəsində bu tələbələrin çoxu ana yurduna dönməkdən imtina etdi, gələnləri isə 10-15 il sonra kommunistlər ya güllələdilər, ya da Sibir buzlaqlarına – ölümə göndərdilər. Aradan yüz ilə yaxın bir müddət keçsə də, millətimizin ziyalı elitasının önəmli hissəsini təşkil edən həmin tələbələrin taleyi bugünədək hətta ortabab səviyyədə öyrənilməyib, halbuki cəmiyyətimiz onların hər biriylə tanış olmaq istəyir, onların sonrakı taleyi ilə maraqlanır.

Biz 1980-ci illərin sonunda – Azərbaycanda Xalq hərəkatı başlayan dönəmdə arxivlərin üzümüzə açılması ilə eyni zamanda həmin tələbələri üzə çıxarmağa, onlar haqqında bilgilər və bəlgələr toplamağa başladıq. Aradan 20 ilə yaxın bir vaxt keçdi, əlimizdə külli miqdarda yazılı sənəd toplandı. Ancaq gündəlik qayğılar və daim zəncir halqaları kimi bir-birinə fasiləsiz bağlanan cari kitab və məqalələr üzərində iş onların hamısını sistemləşdirərək bir kitab halına salmağa imkan vermirdi. Hədsiz əmək sərf etdiyimizə görə bu işi başa çatdırmağı ürəkdən istəsək də, həmin kitabı yazmağa heç cür başlaya bilmirdik. Ancaq 2013-cü ilin sentyabrından bütün işləri bir qıraға qoyaraq bu kitab üzərində çalışmağa başladıq.

Sonra qeyd edəcəyimiz kimi, Cümhuriyyət tələbələri ilə bağlı indiyədək bir sıra araşdırmalar aparılıb, məqalələr nəşr edilib, ancaq onların həyatını sistemli biçimdə ortaya qoyan bir əsər yaradılmayıb. Oxuculara təqdim edilən bu kitab Cümhuriyyət tələbələrinin tarixini sistemli şəkildə və ən incəliyinədək araşdıran ilk məqsədyönlü tədqiqatdır.

Əsər məzmunca 3 hissəyə bölünüb.

Birinci bölümdə Cümhuriyyət tələbələrinin oxuması ilə bağlı ən müxtəlif problemlər incəliyinədək araşdırılıb. Məsələn, burada təqaüdçülərin göndərilməsinin fikirdən gerçəkləşməyədək olan bütün mərhələləri, onların dəqiq sayı, oxuduqları dövlətlər üzrə onların dəqiq bölgüsü, maddi-məişət və tədris qayğıları, Cümhuriyyət və Sovet hakimiyyətlərinin onlara münasibəti, onların taleyində mühüm rol oynamış bəzi şəxslər... haqqında məsələlər sənədlərə əsaslanmaqla təsvir və təhlil edilib, indiyədək elmi ədəbiyyatda rast gəlmədiyimiz bir çox mühüm faktlar ortalığa qoyulub və hələ də təkrarlanmaqda olan bir çox yanlış fikirlərə düzəliş verilib. Bu bölümdə gördüyümüz ən faydalı işlərdən biri, bizcə, zamanca Cümhuriyyət tələbələrindən öncə – 1920-ci ildək Türkiyə, Rusiya və Avropanın ali məktəblərində təhsil aldığını müəyyənləşdirdiyimiz hələlik 774 Azərbaycan tələbəsi siyahısının elmi ədəbiyyatda ilk dəfə verilməsidir. Bununla biz həm də Azərbaycan xalqının ali təhsilə həvəsinin daimiliyini və kəsilməzliyini göstərməyə çalışmışıq.

İndiyədək Cümhuriyyət tələbələri mövzusunun yetərincə işlənilməməsinin ən başlıca səbəblərindən biri araşdırıcıların arxiv sənədlərini əldə edə bilməməsi, eləcə də ərəb əlifbasında, ya da əski rus orfoqrafiyasında yazılmış sənədlərin oxunması və tərcüməsi zamanı qarşıya çıxan çətinliklərdir. Bu vacib amili nəzərə alaraq biz tələbələrlə bağlı bütün önəmli sənədləri toplayıb xronoloji ardıcıllıqla düzmüş, əsərin ikinci bölümü şəklində oxucuların və gələcək araşdırıcıların istifadəsinə vermişik.

Əsərin üçüncü bölümü Cümhuriyyət tələbələrinin hər birinin ayrıca tərcümeyi-hal oçerklərindən ibarətdir. Burada Azərbaycan Cümhuriyyətinin təqaüd kəsdiyi 100 tələbə və öz hesabına, ancaq Cümhuriyyətin göndərişi ilə oxumuş 2 tələbə (cəmi 102 tələbə) haqqında ətraflı bioqrafik məlumat verilir. Bu bilgilər həm dövlət arxivlərindən, həm də özəl ailə arxivlərindən götürülmüş sənədlərə əsaslanır. Bunlarla yanaşı, tələbələrin həyatı haqqında əlavə məlumat almaqdan ötrü onların yaşadıqları bir çox rayon və kəndlərdə olmuş, qohum və tanışlarından gərəkli bilgi toplamışıq.

Bildirməliyik ki, yararlandığımız arxiv sənədlərinin, demək olar ki, hamısı ya ruscadır (əski orfoqrafiyada), ya da ana dilimizdə ərəb qrafikasında yazılıb. Bu sənədlərin böyük qismi, özəlliklə ərəb qrafikasındakılar elmi dövriyyəyə ilk dəfə buraxılır. Bu zaman mətnlərdə bəzi redaktələr aparmağa və əlavələr etməyə məcbur olmuşuq. Mətnlərin içərisindəki qısaltmalar düz mötərizə içərisindəki nöqtələrlə [...] bildirilib, mətnə artırılmış hərf, söz və cümlələr isə düz mötərizə [] içərisində göstərilib. Rus dilindəki bütün sənədlərin ana dilimizə tərcüməsi də bizimdir.

* * *

Qeyd edilməsi vacib olan bir məsələ də var: demək olar ki, əksər tələbələrin ad və soyadlarının yazılışında müxtəlifliyə rast gəlirik. Soyadlar bir qayda olaraq rusca sənədlərdə *"-ov/-yev"*, türkcələrdə isə *"-zadə"* soyad şəkilçisi ilə yazılıb. Belə hallarda biz hər sənədin özündəki yazılışı saxlamağa çalışmışıq.

Ancaq bəzən eyni dildəki sənədlərdə müxtəliflik özünü göstərir. Məsələn, tələbə Mirzeynalabdin Mirqasımovun adını sənədlərdə "Mirabdin", "Zeynalabdin", "Zeynal" və ən çox "Abdin" kimi görürük. Yaxud "Əlihüseyn"/ "Hüseyn", "Əliəkbər"/ "Əkbər", "Məhəmmədəli" / "Əli", "Ağaəli"/ "Əli", "Əliövsət"/ "Övsət"... kimi o qədər cürbəcür yazılışlarla qarşılaşırıq ki, onlardan hansınasa üstünlük verməkdə adam əməlli-başlı çətinlik çəkir. Belə hallarda isə biz dövlət təqaüdçüsünün xaricə ali təhsil almağa getdiyini təsdiqləyən, Maarif Nəzarətinin 13-15 yanvar 1920-ci ildə verdiyi vəsiqədə qeyd olunmuş ad-soyadı əsas götürmüşük (halbuki onlarda da yanlışlıq olur).

Çar dönəmində möhkəm bir qayda vardı – ad-soyad doğum şəhadətnaməsində, eləcə də təhsil haqqında attestat və şəhadətnamədə necə yazılıbsa həmin yazılış adamın ömrünün sonunadək bütün sənədlərdə dəyişməz şəkildə qalırdı. İş burasındadır ki, rus məmurlar bəzən türkcə yazılmış ad, ata adı və soyadı fərqləndirə bilməyərək ruscaya yanlış tərcümə edirdilər. Məsələn, doğum şəhadətnaməsində yazılıb ki, Məhəmməd atası Paşa Sadıq oğlu Ağarəhimovun qanuni arvadından doğulub. Təhsil haqqında attestat və şəhadətnamədə isə (təbii ki, onların hamısı ruscadır) şagirdin tam adı belə göstərilib: *"Məhəmməd Paşa Sadıq oğlu Ağarəhimov"*, bu yazılış isə sonrakı bütün sənədlərə ötürülüb (hətta Maarif Nəzarətinin verdiyi vəsiqədə də belə yazılıb), halbuki burada "Sadıq" babanın adıdır və sənədə düşməli deyildi. Yaxud Hüseyn Şıxıyevin bütün arxiv sənədlərində atasının adı doğum şəhadətnaməsində rusca əllə yazılmış *"Таджи"* ("Hacı") sözünün yanlış oxunması nəticəsində "Qasım" kimi yazıldığına görə onun sonrakı bütün sənədlərində tam adı yanlış olaraq *"Hüseyn Qasım Mustafa oğlu Şıxıyev"* gedib. Əlbəttə, biz bütün bu cür yanlışları düzəltməyə çalışmışıq.

Bir iş də var ki, tələbələrin hamısı doğum şəhadətnaməsini çar dönəmində alsa da, sovet dönəmində, yaxud da xaricdə oxuduğu vaxt ya adında, ya da soyadında dəyişiklik edib. Məsələn, Məhəmməd bəyin soyadı hətta Türkiyədə oxuduğu müddətdə də sənədlərdə "Xələf bəy oğlu"/ "Xələfbəyov" gedib, ancaq sovet dönəmində o, soyadını "Mahmudov"a dəyişib. Yaxud Əsildar bəyin soyadı oxumağa gedərkən rusca sənədlərdə "Ağabababəyov-Muğanlinski", Azərbaycana qayıtdıqdan sonra yalnız "Muğanlı" yazılıb. Bugünkü oxucuya həmin tələbələri hansı soyadla tanıtmalı? Bu zaman da çıxış yolu kimi həm hər sənədin və hər dönəmin öz soyadını işlətməyi məqbul saymışıq, həm də ömrünün son dönəmlərində işlətdiyi ad-soyada üstünlük vermişik.

Çar dönəmində Azərbaycandakı mürəkkəb şəxs adlarındakı *"Paşa"* və *"Sultan"* tərkib hissələri (məsələn, Məhəmmədpaşa, Əhmədpaşa, Əlipaşa, Sultanməcid, Sultanəhməd, Sultanmahmud... kimi), əsasən, Osmanlı sultanlarının və paşalarının şərəfinə verilirdi. Dövlətlilər isə ad və soyadlarına *"ağa"*, *"xan"*, *"bəy"* titullarını artırmağı xoşlayırdılar (Ağarəhim, Ağabababəy, Ziyadxan, Ağarəhimov, Ağabababəyov, Ziyadxanov... kimi). Ancaq sovet hakimiyyəti gələndən sonra bütün bu ad və soyadlar onun daşıyıcısının əsl başağrısına çevrildi, çünki özünü çulucırıq proletarların və kəndlilərin hakimiyyəti elan etmiş kommunist rejimi "proletariatın sinfi düşməni" adlandırdığı ağa, xan və bəyləri büsbütün cismən məhv etdiyi kimi, adında Türkiyəyə sevgi ifadə olunmuş şəxsləri də müxtəlif bəhanələrlə aradan götürürdü. Bu üzdən sovet rejimində yaşamağa məcbur olanların xeyli hissəsi ad-soyadlarını "proletarlaşdırmalı" oldu. Bu hala Cümhuriyyət tələbələri içərisində də rast gəlirik ("Ağarəhimov"-"Rəhimli" olan kimi).

Avropada, özəlliklə Almaniyada oxumuş tələbələrdə güclü millətçilik duyğuları yaranmışdı. Bunun nəticəsində tələbələrimizin bir çoxu rus soyad sonluğu *"-ov/-yev"*dən imtina etmişdi: *Məmmədli, Rəcəbli, Rəhimli, Şahsuvarlı...*

Tələbə Azərbaycanda bir soyad, Türkiyə, yaxud Avropada başqa soyad daşıyıb (məsələn, *Həmid Məhəmmədov/ Həmid Ataman, Mirismayıl Seyidzadə/ İsmayıl Saryal, Ağalar İsgəndərli/ İsgəndər Batu* və b.).

Bu son üç halda da tələbənin həyatından danışarkən soyadı hər dönəmdə və hər ölkədə işlədildiyi kimi qeyd etmişik.

* * *

Bu əsərin ortaya çıxmasında xeyli xeyirxah insanın əməyi və rolu olub.

Ortaya qoyulmuş əsərin üstünlüklərindən birinin buradakı nadir fotoşəkillərin bolluğundan başqa, həm də fotolardakı insanların həlledici çoxluğunun şəxsiyyətinin müəyyənləşdirilməsi olduğunu bildirməklə təvazökarlıqdan çox da uzaqlaşmadığımızı düşünürük. Bu mühüm işdə mərhum tarixçi, Milli Azərbaycan Tarixi Muzeyinin şöbə müdiri Nərmin xanım Tahirzadənin (1921-2012) müstəsna xidməti var. Onunla uzun illər boyunca sürən əməkdaşlığımız sayəsində həm çoxlu-çoxlu yeni fotoşəkillər üzə çıxarılıb, həm də qarşılıqlı yardımlaşmamızla fotolardakı adamların adları müəyyənləşdirilib, dəqiqləşdirilib. Bundan başqa, aramızda daim tələbələrlə bağlı fikir mübadiləsi olub. Əsərin artıq nəşrə hazır olduğu bu anda onun əziz xatirəsini yad etməyi özümüzə vicdan borcu sayırıq.

Kitabda yazılan hər cümlə, hər fikir hökmən müəyyən bir sənədə, bəlgəyə söykənir. Bəlgələrin üzə çıxarılmasında zəhmətimizi ən çox çəkənlərsə, təbii ki, arxiv, kitabxana və muzey işçiləri olub. Onların hamısına: Azərbaycan Milli Arxiv İdarəsinin rəisi, professor Ataxan Paşayevə, AR Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivinin direktoru Mais Bağırova və həmin arxivin əməkdaşlarına, AR Dövlət Arxivinin direktoru Emin Sərdarova, müavini Sima Babayevaya, xüsusi fondlar şöbəsinin müdiri Azad Bilalova və arxivin, zəhmətimizi çəkmiş bütün əməkdaşlarına, AR Tarix Arxivinin direktoru Anar Məmmədova və zəhmətimizi çəkmiş bütün əməkdaşlarına, Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivinin direktoru Maarif Teymura və şöbə müdiri Aslan Kənana, Milli Arxiv İdarəsi Elmi-Məlumat Kitabxanasının müdiri Yeganə Cabbarlıya və əməkdaşlarına, Dövlət Təhlükəsizliyi Xidmətinin (keçmiş Milli Təhlükəsizlik Nazirliyi – red.) arxivindəki axtarışlarımıza əlindən gələn köməyi etmiş Elşad Əliyevə və əməkdaşlarına, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimliyə və direktor müavini, professor Paşa Kərimova, Elmlər Akademiyası Mərkəzi Elmi Arxivinin[1] işçiləri Solmaz Cəlilova və Aliyə Qəhrəmanovaya, Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlıya və elmi katibi, tarix üzrə fəlsəfə doktoru Fərhad Cabbarova, M.F.Axundzadə adına Milli Kitabxananın şöbə müdirləri Səidə Abdullayeva və Almaz Əliyevaya, Kiyev Şəhəri Dövlət Arxivinin direktoru Vera Kupçenkoya və məsul

1 İndi *"AMEA Azərbaycanda Elmi İrsin Toplanması və Sistemləşdirilməsi Mərkəzi"* (AMEA AEİTS Mərkəzi) adlanır.

işçiləri Janna Serqa, Natalya Solovyova, Sergey Karamaş və Olqa Qurikə, Xarkov Vilayəti Dövlət Arxivinin direktoru Lyudmila Momot və oxu zalının müdiri Yuliya Qulkoya sonsuz təşəkkürümüzü bildiririk!

Bakı Avrasiya Universitetinin rektoru, professor Nazim Hüseynli bu kitab üzərində səmərəli çalışmağımız üçün ondan asılı olan hər şəraiti bizə yaradıb.

Görkəmli diplomat, tələbələrə aid xeyli sənədləri xarici ölkələrdən gətirərək Azərbaycan arxivlərinə təhvil vermiş Ramiz Abutalıbov qiymətli sənədləri, şifahi məlumatları və çoxlu məsləhət və tövsiyələri ilə bu kitabın yazılışı prosesində əlimizdən tutub. İzmir Ege Universitetinin professoru Yavuz Akpınar, istanbullu professorlar Fəthi Gədikli və İbrahim Yıldırım, TC Milli Təhsil Nazirliyi Təlim və Tərbiyə Kurulunun əski üzvü, görkəmli araşdırmaçı Ömər Özcan bəylər özəlliklə Türkiyədə yaşamış, ancaq bizə bəlli olmayan, yaxud az tanıdığımız tələbələri üzə çıxarmaqda ən yaxın yardımçımız olublar. Bakıda yaşayan məşhur geoloq alim Asəf Əliyev, Ankarada yaşayan professor Nuri Saryal, Turunc və Narınc Ataman bacıları yalnız öz ataları haqqında deyil, onların tələbə yoldaşları haqqında da bizə xeyli yazılı və şifahi bilgi veriblər. Ankaradan görkəmli yazıçı və jurnalist dostumuz Mina xanım Tansel həmin tələbələrdən danışılan Türkiyə nəşrlərini toplayaraq bizə göndərib. Bakılı alim və tədqiqatçılardan AMEA Tarix İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Tamilla Kərimovanın sənədli yardımlarından illər boyunca faydalanmışıq. Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Sevinc Əliyeva özəlliklə Dağıstandan olan tələbələrlə bağlı bilgilərin əldə edilməsində yaxın köməkçimiz olub.

Elmi redaktor Əsgər Quluyev əsərin əlyazmasını diqqətlə oxuyub, xeyli düzəliş və əlavələr edib, çoxlu faydalı məsləhət və tövsiyələr verib.

Dostlarımızdan İsmayıl Calallı əsərin taleyi ilə yaxından maraqlanaraq daim xeyir-dua verməklə yanaşı, neçə-neçə tələbənin bugünkü varislərini üzə çıxarmaqda bizə misilsiz yardım göstərib.

Əzizimiz Feyzi Səbzəliyev tələbələrin yerini müəyyənləşdirməkdən ötrü öz qiymətli vaxtını sərf edərək bizi rayonbarayon gəzdirib.

Hamısına ürəkdən təşəkkür edirik! Allah hamısından razı olsun! Haqlarını halal etmələrini istəyirik.

I BÖLÜM
TARİXİ ARAYIŞ

1. "Azərbaycan Cümhuriyyəti" termini haqqında

Bu əsərdə biz indi ölkəmizdə rəsmi və qeyri-rəsmi nəşrlərdə işlədilən "Azərbaycan Xalq Cümhuriyyəti", "Azərbaycan Demokratik Cümhuriyyəti", "Azərbaycan Demokratik Respublikası" və b. terminlər əvəzinə yalnız "Azərbaycan Cümhuriyyəti" ifadəsindən yararlanmışıq və bunun səbəbini də dəyərli oxucumuza izah etməyə borcluyuq. Doğrudur, bu haqda vaxtilə mətbuatda da çıxış etmişik,[1] ancaq həmin yazılardan sonra arxivlərdən bir çox yeni sənədlər də əldə etmiş, bir çox faktları dəqiqləşdirmişik. Bu kitabda həm pərakəndə, həm də toplu şəkildə verilmiş bütün arxiv sənədlərindən də görəcəyimiz kimi, 1918-1920-ci illərdəki milli dövlətimizin adı yalnız "Azərbaycan Cümhuriyyəti" kimi işlədilib.

Beləliklə, burada yalnız "Azərbaycan Cümhuriyyəti"nin qeyd olunması, hər şeydən öncə, əsərdəki sənədlərin qəti tələbi kimi ortaya çıxırsa, ikinci tərəfdən, indiyədək elmi ədəbiyyatda hökm sürməkdə olan mühüm yanlışlığa son qoymaq istəyimizdən də irəli gəlir. Ancaq məsələnin müəyyən dairələrdə etiraz doğura biləcəyini nəzərə alaraq öz mövqeyimizi subyektiv düşüncələrə əsla yer vermədən yalnız və yalnız inkaredilməz faktlara, ən son bilgi və bəlgələrə söykənməklə açıqlayırıq.

* * *

Azərbaycan xalqı böyük bir imperiyayla çoxillik çarpışması və axıtdığı çoxlu şəhid qanı bahasına 18 oktyabr 1991-ci ildə qurtuluşunu yenidən qazandı və yaratdığı bu respublikanı 28 may 1918-ci il də qurulmuş və 28 aprel 1920-ci ildə XI rus ordusu süngüləriylə yıxılmış ilk milli dövlətimizin varisi elan etdi. Bəs bu ilk milli dövlətimizin rəsmi adı necə olub?

Nüfuzlu çoxcildlik nəşrlərdə və dövlət sənədlərində bu ad indiyədək ən müxtəlif biçimlərdə: "Azərbaycan Demokratik Respublikası (ADR)", "Azərbaycan Xalq Cümhuriyyəti (AXC)", "Azərbaycan Respublikası (AR)", "Azərbaycan Cümhuriyyəti"... kimi işlədilib və işlədilməkdədir. Özümüzü varisi elan etdiyimiz bir dövlətin adını indiyədək doğru-düzgün öyrənməməyimiz və onu hərənin istədiyi kimi adlandırması bizə ayıbdır. Ona görə də, gec də olsa, bütün yanlışlıqlara son qoya biləcək danılmaz tutarqaları heç kəslə dartışma-çəkişməyə girmədən və mövzunu əsla siyasiləşdirmədən oxucularımıza təqdim edirik.

Sadaladığımız terminlərdən:

- ilk ikisi ("Azərbaycan Demokratik Respublikası", "Azərbaycan Xalq Cümhuriyyəti") bütünlüklə yanlışdır;
- üçüncüsü ("Azərbaycan Respublikası") tərcümə xətasıdır;
- yalnız sonuncusu – "Azərbaycan Cümhuriyyəti" doğrudur və tarixi gerçəkliyə uyğundur.

İndisə birbaşa sübutlara keçirik.

[1] Bax: *"Ulu Xudafərin"* jurnalı, 2004, №1, ss. 35-38; *"525-ci qəzet"*, 26 fevral 2005, №38.

"Azərbaycan Xalq Cümhuriyyəti" və "Azərbaycan Demokratik Respublikası" terminlərinin yanlışlığı Azərbaycan Milli Şurasının 28 may 1918-ci il tarixli Bəyannaməsindən, daha doğrusu, bu Bəyannamənin düzgün yozulmamasından qaynaqlanır. "Azərbaycan Xalq Cümhuriyyəti"nin tərəfdarları iddia edirlər ki, Bəyannamədə ilk milli dövlətimizin adı məhz belə işlədilib. Aşağıda həmin Bəyannamənin "Azərbaycan Cümhuriyyəti hökumətinin qanun və binagüzarlıqları məcməi"ndən götürərək verdiyimiz mətnini oxuyursunuz:

"...Arayi-ümumiyyə üzərinə[1] seçilmiş Azərbaycan Milli Şurası şimdi ümumə elan ediyor ki:

1. Bu gündən etibarən Azərbaycan xəlqi həqqi-hakimiyyətə[2] malik və Şərqi və Cənubi Mavərayi-Qafqasdan ibarət Azərbaycan kamiləlhüquq[3] müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycanın şəkli-idareyi-siyasiyyəsi[4] xəlq cümhuriyyəti təyin olunur.

3. Azərbaycan xəlq cümhuriyyəti ümum münasibati-beynəlmiləl üzvləriylə, ələlxüsus həmhüdud millətlər və dövlətlərlə dostanə qomşuluq münasibatı hüsuluna səy edəcəkdir.

4. Azərbaycan xəlq cümhuriyyəti kəndi hüdudu daxilində bilafərqi-milliyyət, din, cins və vəziyyəti-ictimaiyyə bütün vətəndaşların mülki və siyasi hüququnu təmin ediyor.

5. Azərbaycan xəlq cümhuriyyəti kəndi ərazisində yaşayan ümum millətlərə azadə tərəqqi və inkişaf üçün geniş meydan verəcəkdir.

6. Məclisi-Müəssisan[5] dəvətinə qədər bütün Azərbaycan idarəsi başında arayi-ümumiyyə üzrə seçilmiş Milli Şura və bu Milli Şura qarşısında məsul müvəqqəti hökumət duruyor".[6]

Göründüyü kimi, burada "xəlq cümhuriyyəti" ifadəsi dövlətin rəsmi adının tərkib hissəsi kimi yox, sadəcə, "şəkli-idareyi-siyasiyyə" (siyasi idarə forması) olaraq işlədilib. Dediyimizin düzgünlüyünü bunlar da təsdiqləyir:

1) 28 may 1918-ci ildə dövlət hələ yaradılmamışdı ki, onun qəti bir adı da olaydı; bu gün yalnız onun yaradılması bəyan edilib. İlk vaxtlar bu dövlət sadəcə "Azərbaycan", yaxud "Azərbaycan hökuməti" adlanıb. Məsələn, 21 iyun 1918-ci ildə hökumətin "Dövləti bayraq təyini haqqında" qərarında deyilir: *"Azərbaycan bayrağı olmaq surətiylə qırmızı parçadan yapılmış, üzərində ağ aypara və ağ səkkizguşəli yıldız olan bayraq qəbul edilsin".*[7] Göründüyü kimi, burada dövlətin adı yalnız "Azərbaycan" kimi verilib. Hökumətin qərarlarında dövlətin rəsmi adıyla 27 iyun 1918-dən başlayaraq üzləşirik. Həmin tarixli "Post və teleqraf müamilatını ödəmək üçün Gəncə post və teleqraf kantorasına vəsait burakılması haqqında" qərarda ilk dəfə olaraq "Azərbaycan Cümhuriyyəti" adını oxuyuruq,[8] ancaq dövlət dəftərxanasında hələlik "Azərbaycan hökuməti" ifadəsi daha çox işlədir;

[1] Ümumi razılıqla.
[2] Hakimiyyət haqqına.
[3] Tamhüquqlu.
[4] Siyasi idarə forması.
[5] Müəssislər Məclisi.
[6] *Azərbaycan Cümhuriyyəti hökumətinin qanun və binagüzarlıqları məcməi.* 15 təşrini-sani (noyabr) 1919, №1, ss. 6-7.
[7] Yenə orada, s. 11.
[8] Yenə orada, s. 17.

"Azərbaycan Xalq Cümhuriyyəti" və "Azərbaycan Demokratik Respublikası" isə yerli-dibli yoxdur.

2) Bu Bəyannamənin 1919-cu ildə dərc edildiyi ən etibarlı mənbədə – "Azərbaycan Cümhuriyyəti hökumətinin qanun və binagüzarlıqları məcməi"ndə dövlətin adı heç bir şübhə doğurmayacaq şəkildə, açıq-aydın "Azərbaycan Cümhuriyyəti" yazılıb!

3) Bəyannamədəki "xalq" sözü "demokratik" anlamındadır və dövlətin idarə formasının demokratikliyini bildirir. Bunu sənədin rusca mətnindən də görürük:

"II. Формой политического устройства независимого Азербайджана устанавливается Демократическая Республика.

III. Азербайджанская Демократическая Республика стремится установить добрососедские отношения со всеми членами международного общения, а в особенности с сопредельными народами и государствами...".[1]

Yeri gəlmişkən, "Azərbaycan Demokratik Respublikası" söz birləşməsinin tərəfdarları da məhz rusca mətndəki "Азербайджанская Демократическая Республика" ifadəsinə söykənirlər ki, burada da dövlətin adı yox, onun siyasi idarə forması bildirilib. Belə olmasaydı, bu söz birləşməsi hansı sənəddə dövlətin adı kimi *bircə dəfə də olsa* üzə çıxardı!

4) M.Rəsulzadə "Əsrimizin Səyavuşu" əsərinin "Azərbaycan Cümhuriyyəti" bölümündə yazır:

"Burada[2] Avropada tətbiq olunmayan həqiqi bir xalq cümhuriyyəti qurulmuşdu. Azərbaycan xalq cümhuriyyətində vətəndaşlar arasında siyasi bərabərlik bərqərar olmaqla bərabər, sosial ədalətsizliyin zərərli nəticələri də aydın tərzdə dəyişdirilirdi".

Sanki İstiqlal Bəyannaməsini oxuyursan! Buradakı "Azərbaycan xalq cümhuriyyəti" də dövlətin rəsmi adı kimi yozulacaqmı?! Halbuki Məhəmmədəmin bəy həmin dövlətin tarixindən bəhs edən əsərinin adını "Azərbaycan Cümhuriyyəti" qoyub![3]

5) Dövlətin mövcud olduğu 28 may 1918-ci ildən 28 aprel 1920-ci ilədək heç bir dövlət idarəsinin möhür və ştampında, heç bir rəsmi sənəddə "Azərbaycan Xalq Cümhuriyyəti" (rusca mətnlərdəsə: "Азербайджанская Демократическая Республика") adı işlədilməyib. Bircə örnək varsa ortaya qoyulsun!!! Ancaq onların hamısında 1918-ci ilin iyunundan 1920-ci aprelinədək yalnız "Azərbaycan Cümhuriyyəti" (rusca mətnlərdə: "Азербайджанская Республика", fransızca mətnlərdə: "Republique d'Azerbaidjan") işlədilib!

Bu gün əlimizdə olan dövlət möhürlərinin üstündə oxuyuruq: "Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusanı"[4], "Azərbaycan Cümhuriyyəti Xariciyyə Nəzarəti"[5],

[1] *Собрание узаконений и распоряжений правительства Азербайджанской Республики.* 15 ноября 1919, №1, s. 5.
[2] Azərbaycanda.
[3] *Rəsulzadə M.* "Əsrimizin Səyavuşu". Bakı, 1991, s. 41.
[4] *Resulzade M.E.* Azerbaycan Cumhuriyeti. (Keyfiyet-i teşekkülü ve şimdiki vaziyeti). İstanbul, 1990; *Rəsulzadə M.Ə.* Azərbaycan Cümhurİyyəti. Bakı, 1990.
[5] "Məclisi-Məbusan" "parlament" deməkdir.

"Azərbaycan Cümhuriyyəti Daxiliyyə Nəzarəti"[1], "Azərbaycan Cümhuriyyəti Ədliyyə Nəzarəti"[2], "Azərbaycan Cümhuriyyəti Maarif Nəzarəti", "Azərbaycan Cümhuriyyəti Təriq və Məabir Nəzarəti"[3], "Azərbaycan Cümhuriyyəti Ümuri-Xeyriyyə Nəzarəti"[4], "Azərbaycan Cümhuriyyəti könüllü birinci alayı birinci tabur komandanlığı", "Azərbaycan Cümhuriyyəti hökumət xəstəxanası", "Azərbaycan Cümhuriyyəti. Gürcüstan Cümhuriyyətində siyasi vəkil", "Azərbaycan Cümhuriyyəti Zaqatala vilayəti xalq məhkəmeyi-şəriyyəsi" və b.

Cümhuriyyətin xarici pasportlarının üstündə dövlətin adı "Azərbaycan Cümhuriyyəti" yazılıb.[5]

Yenə bildiririk ki, rəsmi sənədlərdə "Azərbaycan hökuməti-cümhuriyyəsi" ("Azərbaycan Cümhuriyyəti hökuməti") və "Azərbaycan hökuməti" ifadələri özəlliklə Cümhuriyyətin ilk çağlarında sıx-sıx işlədilib, ancaq onları da dövlətin rəsmi adı kimi götürmək olmaz.

* * *

Yeni qurulmuş Azərbaycan dövlətinin müstəqilliyini Dünya birliyinin tanımasında həlledici rol oynamış Azərbaycan Parlamanının sədri Əlimərdan bəy Topçubaşov (1862-1934) 1918-ci ilin noyabrında İstanbuldan Antanta dövlətləri nümayəndələrinə göndərdiyi məşhur Memorandumunu "Azərbaycan Cümhuriyyəti hökumətinin üzvü, fövqəladə nazir-səfir" kimi imzalamışdı.

Birinci milli dövlətimizin ilkin tarixini yaradanlar elə bu dövləti quranların özləri oldu, onlarsa həm dövlətdə, həm də özlərinin tarix əsərlərində "Azərbaycan Cümhuriyyəti" adını əbədiləşdirdilər.

Cümhuriyyətin fəal qurucularından olan Rəhim bəy Vəkilovun (1897-1934) "Azərbaycan Cümhuriyyətinin yaranma tarixi" adlı oçerki ilk milli dövlətimizin ilk tarixidir. "1920-ci il üçün Azərbaycan Cümhuriyyətinin ünvan-təqvimi. Bakı, 1919" adlı rusca sorğu kitabında verilən və 1998-ci ildə Bakıda "Azərbaycan Respublikasının yaranma tarixi" adıyla ana dilimizdə də nəşr edilən bu oçerkdə dövlətin rəsmi adı yalnız "Azərbaycan Cümhuriyyəti" (rusca: "Азербайджанская Республика") kimi çəkilib.

Milli dövlətçiliyimizin banisi və Cümhuriyyətin azman qurucusu – böyük Məhəmmədəmin Rəsulzadənin (1884-1955) *"Azərbaycan Cümhuriyyəti: keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti"* adlı kitabı Cümhuriyyət tarixini işıqlandıran ikinci mühüm əsərdir. İlk milli dövlət quruluşumuzu yalnız "Azərbaycan Cümhuriyyəti" adlandıran M.Rəsulzadə Türkiyədə (1923, 1990) və Azərbaycanda (1990) bir neçə yol nəşr edilmiş həmin "Azərbaycan Cümhuriyyəti" kitabında, məsələn, yazır:

[1] Xarici İşlər Nazirliyi.
[2] Daxili İşlər Nazirliyi.
[3] Yollar Nazirliyi.
[4] Sosial Müdafiə Nazirliyi.
[5] Məsələn, bax: Azərbaycan Respublikası Dövlət Arxivi (bundan sonra: ARDA), fond 970, siyahı 2, iş 175. Əli Kərimovun xarici pasportu.

"...Azərbaycan Cümhuriyyəti düvəli-müttəfiqənin[1] və bütün dünyanın nəzəri-diqqətini cəlb ilə beynəlmiləl bir həyatə giriyordu. 12 kanuni-sani[2] 1920 tarixində iniqad edən[3] düvəli-müttəfiqə Şurayi-Alisi Azərbaycan Cümhuriyyətini bilfel[4] tanıdı".[5]

Xatırladırıq ki, bu xəbər Azərbaycanda bayram edilmiş, 14 yanvar Azərbaycanda qeyri-iş günü elan olunmuşdu. Baş nazir Nəsib bəy Yusifbəyli (1881-1920) "Azərbaycan vətəndaşlarına" müraciətində bu münasibətlə demişdi:

"Müstəqil həyata və kəndisini idarəyə müqtədir olduğunu göstərən millət kəndi iradəsiylə hürr və demokratik yeni Azərbaycan Cümhuriyyətinin təsis və davamına təntənəli surətdə müvəffəq oldu".[6]

Bunu da bildirməliyik ki, ilk milli dövlətimizin rəsmi adı onun mətbuat orqanı olan türkcə "Azərbaycan" qəzetindəki bütün rəsmi sənədlərdə "Azərbaycan Cümhuriyyəti", rusca "Азербайджан" qəzetindəkilərdəsə "Азербайджанская Республика" kimi göstərilib.

Burayadək yazdıqlarımızdan oxucunun özü də artıq nəticə çıxara bilər ki, "Azərbaycan Respublikası" termini də məhz rusca sənədlərin yanlış çevrilməsindən qaynaqlanır.

* * *

Dövlətin rəsmi adının göstərildiyi ən inanılmış sənədin pul və poçt markası olduğunu kimsə dana bilməz. İlk Cümhuriyyətimiz çağında buraxılmış bütün əskinas və poçt markaları üzərindəsə yalnız bir ad oxuyuruq[7] – ana dilimizdə (ərəb qrafikasında) "Azərbaycan Cümhuriyyəti", rusca "Азербайджанская Республика", fransızca "Republique d'Azerbaidjan"! Onların heçbirində "Azərbaycan Xalq Cümhuriyyəti", yaxud "Azərbaycan Demokratik Respublikası" adıyla üzləşmirik. Dediyimizin gerçəkliyini Cümhuriyyətin buraxdığı pul və markaların şəkilləri əyani təsdiqləyir.

Beləliklə, yazılanlara yekun vururuq: 1918-1920-ci illərdə yaşamış ilk milli dövlətimiz rəsmən yalnız "Azərbaycan Cümhuriyyəti" adlandırılıb, buna görə biz də bu əsərdə yalnız "Azərbaycan Cümhuriyyəti" işlədəcəyik.

[1] Müttəfiq dövlətlərin.
[2] Yanvar.
[3] Yığılan, gerçəkləşən.
[4] Felən, de-fakto.
[5] *Rəsulzadə M.Ə.* Azərbaycan Cümhuriyyəti, s. 57.
[6] *Həsənov C.* Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920. Bakı, 1993, ss. 326-327.
[7] Fətəli xan Xoyskinin Baş nazir olduğu dönəmdə pulların üstündə bəzən "Azərbaycan hökuməti" də yazılıb, ancaq Nəsib bəy Yusifbəyli zamanında yalnız "Azərbaycan Cümhuriyyəti"dir.

Möhürlər

















1. Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusanı (Parlamenti)
2. Azərbaycan Cümhuriyyəti Xariciyyə Nəzarəti
   Republique d'Azerbeidjan, Ministère des Affaires étrangères
   Азербейджанская республика, Министерство иностран. дел
3. Azərbaycan Cümhuriyyəti Daxiliyyə Nəzarəti
4. Azərbaycan Cümhuriyyəti Maarif Nəzarəti
5. Azərbaycan Cümhuriyyətinin Ədliyyə Nəzarəti
   Министерство юстиции
6. Azərbaycan Cümhuriyyətinin Ümuri-Xeyriyyə Nəzarəti
7. Azərbaycan Cümhuriyyəti könüllü birinci alayı birinci tabor komandanlığı
8. Azərbaycan Cümhuriyyətinin Hökumət xəstəxanası
   Правительственный лазарет Азербайджанской Республики

Pullar









1. Azərbaycan Cümhuriyyəti. 250 manat (üz tərəfi). 1919
2. Азербайджанская Республика. 250 рублей (arxa üzü)
3. Azərbaycan Cümhuriyyəti. 500 manat. 1920 (üz tərəfi). 1920
4. Republique d'Azerbaidjan. 500 roubles (arxa üzü)

Markalar







1. Azərbaycan Cümhuriyyəti. Republique d'Azerbaidjan. 40 qəpik
2. Azərbaycan Cümhuriyyəti. Republique d'Azerbaidjan. 10 manat
3. Azərbaycan Cümhuriyyəti. Republique d'Azerbaidjan. 50 manat

Blanklar



آذربایجان جمهوریتی حربیه ناظری

ВОЕННЫЙ МИНИСТРЪ
АЗЕРБАЙДЖАНСКОЙ
РЕСПУБЛИКИ

«21» августа 1919 г.
№ 9266

Гор. Баку

1



آذربایجان جمهوریه‌سی
هیئت وکلا صدری

Предсѣдатель
Совѣта Министровъ
Азербайджанской
Республики.

«21» Августа 1919
№ 1888


г. Баку.

2


آذربایجان جمهوریتی مجلس مبوثان
رئیسی

«15» فیورال ۱۹۱۹
نومرو ۳۵۵
باکو


3


آذربایجان
جمهوریتی حکومتی
داخلیه ناظری

4

1. Azərbaycan Cümhuriyyəti hərbiyyə naziri
   Военный министр Азербайджанской Республики
2. Azərbaycan Cümhuriyyəsi Heyəti-Vükəla (Nazirlər Şurası) sədri
   Председатель Совета Министров Азербайджанской Республики
3. Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusan rəisi
4. Azərbaycan Cümhuriyyəti hökuməti, daxiliyyə naziri

Digər sənəd nümunələri


№133

آذربایجان جمهوریتی
خارجی نظارتی

Азербайджанская Республика
ЗАГРАНИЧНЫЙ ПАСПОРТЪ

1


2


آذربایجان جمهوریه‌سی
خارجه نظارتی

موروذت
خارج
نومرو

10 ИЮЯ 1918

АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА.
Б. кн. Ин. Дѣлъ.
Вх № 431
Исх

3

1. Azərbaycan Cümhuriyyəti. Xarici təzkirə (pasport)
   Азербайджанская Республика. Заграничный паспорт
2. İran şəhbəndərinin "Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusan rəisi hüzuri-alilərinə" məktubu (19 avqust 1919-cu ildə alınıb)
3. Azərbaycan Cümhuriyyəsi Xariciyyə Nəzarəti (ştamp)
   Азербайджанская Республика Мин. Ин. Дел (штамп)

2. Bilgi qaynaqları

Bu əsərin yazılmasında ən müxtəlif qaynaqlardan yararlanmışıq. 15 ildən artıq müddətdə Azərbaycanın, bir sıra başqa dövlətlərin arxivlərində, tələbələrin özlərinin, yaxud qohumlarının ailə arxivlərində geniş axtarışlar aparmış, ötən əsrin birinci yarısının mətbuatından mövzu ilə bağlı ən başlıca yazı və xəbərləri toplamış, özəlliklə son illərdə nəşr olunmuş kitabları, elmi-publisist məqalələri gözdən keçirmiş, həmin tələbələrlə bağlı ayrı-ayrı insanların xatirələrini əldə etmişik.

Azərbaycan Respublikasının Dövlət Arxivində, Tarix Arxivində, Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivində, AR Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində, Dövlət Təhlükəsizliyi Xidmətinin arxivində çoxillik axtarışlar nəticəsində tələbələrin həyatı ilə bağlı ən ilkin sənədlər müəyyənləşdirilərək üzə çıxarılıb. Bunlardan başqa, Rusiyanın Moskva Şəhəri Mərkəzi Dövlət Tarix Arxivində, Sankt-Peterburq Şəhəri Mərkəzi Tarix Arxivində, Ukraynanın Kiyev Şəhəri Tarix Arxivində, Xarkov Vilayəti Dövlət Arxivində, Odessa Vilayəti Dövlət Arxivində, Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivində və bəzi başqa arxivlərdə də çalışmalarımız bir çox dəyərli sənədlərin əldə edilməsi ilə nəticələnib. Bu arxivlərdəki materiallar, əsasən, tələbələrin çeşidli dövlət idarələrindəki qulluqları ilə bağlı müxtəlif səciyyəli bəlgələrdən, onların özəl dosyalarından, ayrı-ayrı şəhərlərin universitetlərində oxuduqları zaman universitetlərarası yazışmalardan, tələbələrin Azərbaycan Cümhuriyyəti Xalq Maarif Nəzarəti rəhbərliyi və başqa dövlət qurumları ilə yazışmalarından, Sovet dövründə Xalq Maarif Komissarlığı Kollegiyasının, Azərbaycan K(b)P Bakı Komitəsi Bürosunun qərar və sərəncamlarından, 1930-40-cı illərdə repressiyalar zamanı onlarla bağlı açılmış istintaq sənədlərindən, tələbələrin öz aralarındakı məktublaşmalardan ibarətdir. Bu kitabın əsasında daha çox həmin arxivlərin materialları dayanır.

Xatırlatmağa borcluyuq ki, tələbələrdən yazan müəlliflərin çoxu ana dilimizdə, ancaq ərəb qrafikasında yazılmış sənədləri oxuya bilmədiklərindən rusca qaynaqlara üstünlük verib, bu üzdən də ərəb qrafikasında olan bir çox ən mühüm sənədlər indiyədək araşdırmadan kənarda qalıb. Bu əsər üzərində işləyərkən biz məhz həmin sənədlərə daha çox diqqət yetirərək onları ilk dəfə elmi-tədqiqata cəlb etmişik.

Başda AMEA Milli Azərbaycan Tarixi Muzeyi olmaqla, ölkəmizin bir sıra muzeylərinin fondlarından da az da olsa dəyərli sənədlər (ilk növbədə fotolar) götürmüşük.

Doğrudur, özəlliklə 1937-38 və 1948-49-cu illərdə siyasi repressiyaların güclü dönəmində casus damğası ilə ən çox ittiham olunan bir təbəqə kimi "yüz tələbə" onların xaricdə təhsil alması ilə bağlı özlərində olan sənədlərin əksəriyyətini qorxudan məhv edib. Həmin tələbələrin böyük əksəriyyəti ya güllələnib, ya da uzunmüddətli sürgünə göndərilərək ömrünü həbs düşərgələrində başa vurub. Bu zaman onların mənzilləri əllərindən alınıb və ailələri dağılıb. Bunun nəticəsində həmin tələbələrin ailə arxivləri, demək olar ki, 90 faiz məhv edilib. Ancaq möcüzə nəticəsində repressiya dəyirmanından qurtula bilən, ölüm düşərgəsindən sağ qayıtmağı bacaran tək-tük insanlar, yaxud artıq məhv edilmiş tələbələrin əzizləri onlara aid bəzi sənədləri öz həyatlarını riskə atmaqla qoruyub saxlaya biliblər. Məsələn, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) xarici dillər kafedrasının müdiri, Almaniyada ali təhsil almış, "100 tələbə"dən biri olan

professor Əliəkbər Əliyevin ailə arxivində Almaniya, Türkiyə, Fransa və İtaliyada oxumuş tələbə yoldaşlarının külli miqdarda nadir fotoşəkilləri vardır və həmin fotoların çoxu indi bu kitabı bəzəyir.

Repressiya olunmuş tələbələrin ailələrini, qohumlarını tapmaq nə qədər çətin olsa da biz onların böyük qismi ilə əlaqə yaratmağa müvəffəq olmuş və onların ailə arxivindəki sənədlərin surətini çıxarmışıq. Bu işdə internet də yardımçımız olub. Bəllidir ki, həmin tələbələrin müəyyən hissəsi sonralar qardaş Türkiyəni özlərinə ikinci vətən seçib və ömrünün sonunadək orada yaşayıb-yaradıblar. Onların ailələrinin müəyyənləşdirilməsində internetin imkanları dadımıza çatıb. Ailə arxivlərinin axtarışlarını yalnız Azərbaycanda deyil, qardaş Türkiyədə də davam etdirmişik. Bircə misal: təkcə 2013-cü ilin oktyabr ayında Ankara səfərimizdə "100 tələbə"nin iki görkəmli nümayəndəsinin - Mirismayıl Seyidzadənin (Türkiyədə: İsmayıl Saryal) və Həmid Məhəmmədovun (Türkiyədə: Həmid Ataman) övladları ilə görüşərək onlar haqqında olduqca dəyərli bilgilər və sənədlər əldə etdik.

"100 tələbə"nin həyatı, təhsili və əmək fəaliyyəti XX əsrin birinci yarısındakı Azərbaycan mətbuatında da müəyyən qədər əksini tapıb. İstər Sovet mətbuatında, istərsə də siyasi mühacirətin çıxardığı qəzet və dərgilərdə (bunların içərisində "Yeni Kafkasya" dərgisi xüsusi ilə seçilir) bu mövzuda yazılara rast gəlməkdəyik. Həmin mətbuatla tanış olmaq üçün başlıca olaraq AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun, M.F.Axundzadə adına Milli Kitabxana və Siyasi Sənədlər Arxivinin fondlarından yararlanmışıq.

Bir sıra ciddi nəşrlərdə tələbələrlə bağlı məlumat və sənədlər cəmlənib. Məsələn, "Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar (1918-1920-ci illər)", "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası" (2 cilddə), Məmməd Cəfərlinin "Siyasi terror və Azərbaycan almanlarının taleyi",[1] Misir Mərdanov və Əsgər Quluyevin "Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində (1918-1920)",[2] Əzizə Nəzərlinin "Azərbaycan Cümhuriyyətində xalq təhsili (1918-1920-ci illər)",[3] Misir Mərdanovun "Azərbaycan təhsil tarixi" (I cild), Ramız Abutalıbovun "Paris illəri və görüşləri"[4] kimi bir sıra əsərlərdən, Zərifə Dulayeva[5], Sevil Qazıyeva[6] kimi müəlliflərin elmi məqalələrindən mövzumuzla bağlı qaynaq kimi faydalanmışıq.

Arxiv sənədlərinin və başqa bəlgələrin olmadığı yerdə ən etibarlı qaynaq xatirədir. Biz bütün ağırlığı sənədlərin üzərinə salmaq istəsək də, təəssüf ki, bəzi tələbələr haqqında lazımi qədər sənəd tapmaq mümkün deyil. Bu zaman ən güvənməli qaynaq onların ailə üzvlərinin və yaxın qohumlarının söylədikləri xatirələr olub. Doğrudur, xatirələr sənədlər qədər dəqiq deyil, ancaq onlarda heç bir sənədə düşməyən çox məhrəm və nadir bilgilər də əks olunur. Əlbəttə, nəşr olunmuş bilgilər daha önəmli və mötəbərdir. Məsələn, İsmayıl Saryalın "Bakı rüzgarı"[7] əsəri Azərbaycandan Türkiyəyə qaçmış bir neçə tələbənin həyatının

[1] *Əzizbəyli M.* Политический террор и судьбы азербайджанских немцев. (Второе издание). Баку, 2003.

[2] *Mərdanov M., Quluyev Ə.* Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində (1918-1920). Bakı, 2003.

[3] *Nəzərli A.* Народное образование в Азербайджанской Республике (1918-1920 гг.). Баку, 2008.

[4] *Абуталыбов Р.* Годы и встречи в Париже. Москва, 2006.

[5] *Дулаева З.* Страницы истории национальной интеллигенции. //"Milli Azərbaycan Tarixi Muzeyi – 2003". Bakı, 2003, ss. 68-81.

[6] *Казиева С.* Выпускник Дармштадтского Высшего Технического Института. //"Milli Azərbaycan Tarixi Muzeyi – 2009". Bakı, 2009, ss.188-193.

[7] *Saryal İ.* Bakü rüzgarı. Ankara, 1998.

1066554

Azərbaycan Milli Kitabxanası

müəyyən hissəsini əks etdirən ən səciyyəvi faktlarla zəngindir. Təəssüf ki, əlimizin altında bu səviyyədə xatirələr yox dərəcəsindədir. Ona görə də biz şifahi xatirələrə üstünlük verməyə məcbur olmuşuq.

3. Mövzunun öyrənilməsi tarixi

İndiyədək "yüz tələbə"nin həyatından bəhs edən heç bir kitab ortalıqda yoxdur. Ancaq bəzi kitablarda, ayrı-ayrı tələbələrin həyatına həsr edilmiş oçerk və məqalələr mövcuddur və təbii ki, bütün bunlar mövzunu hətta ən ötəri şəkildə də ehtiva etmir. Ancaq Azərbaycan Cümhuriyyəti tarixindən bəhs edən bəzi əsərlərin təhsillə bağlı bölümlərində "yüz tələbə" mövzusuna da toxunulub, bir sıra elmi və publisist məqalələrdə ayrı-ayrı tələbələrin həyatı araşdırılıb. Bunlarla yanaşı "yüz tələbə"nin əcnəbi dövlətlərə göndərilməsi tarixi və onların həyatı indiyədək sistem halında öyrənilməyib.

Rusca nəşr edilmiş "Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar (1918-1920-ci illər)" toplusunda[1] xaricə göndərilmiş tələbələrin siyahısı ilk dəfə elmi ictimaiyyətə təqdim edilib. Ancaq burada Maarif Nəzarətinin tərtib etdiyi ilk siyahıdan yararlanıldığına görə onu elmi istifadəyə tam yararlı saymaq olmaz. Təəssüf ki, belə dəyərli bir elmi nəşr-də "Azərbaycan" qəzetinin 18 dekabr 1919-cu il tarixli 349-cu sayındakı tələbələrin ən son siyahısı nəzərə alınmayıb. Ona görə də sonrakı tədqiqatlarda bu əsərə istinad edən bəzi müəlliflər yanlış nəticələr çıxarıblar. İş burasındadır ki, kitabdakı siyahıda tələbə kimi göstərilən şahzadə Bəhmən Mirzə Qacar, Mirəli xan Talışınski, İsmayıl Yaqubov, Rza Şabanov, Həmid Rüstəmbəyli, Sadıq Hüseynov, Sultan Səid Qazıbəyov, Nəsrulla İmanverdiyev, Qafar xan Rzayev, Hüseyn Əliyev, Ağabəy Şəmşirov, Həbib Babayev tələbə olmayıblar, ancaq orada göstərilən 31 tələbəliyə namizədin əksəriyyəti tələbə kimi oxumağa göndərilib və bu, "Azərbaycan" qəzetindəki son siyahıda öz əksini tapıb.

Cümhuriyyət tələbələri haqqında ilk yazılar görkəmli araşdırıcı, mərhum Mövsüm Əliyevin qələmindən çıxıb. Onun iki məqaləsində[2] İtaliyada təhsil almış Zeynal Əlizadə haqqında bilgi verilib. Bu, Cümhuriyyət tələbələri haqqında sovet dönəmi mətbuatında ilk "qaranquşlar" idi.

AMEA-nın müxbir üzvü, professor Yaqub Mahmudovun təşəbbüsü və rəhbərliyi altında nəşr edilmiş 2 cildlik "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nda[3] ilk dəfə, demək olar ki, bütün tələbələr haqqında qısa da olsa məlumat verilib. Həmin ensiklopediyada daha çox AR Dövlət Arxivindəki tələbələrin özəl dosyalarından istifadə edilsə də müxtəlif müəlliflərin yazdıqları oçerklərdən də yararlanılıb. Bugünədək Cümhuriyyət tələbələri haqqında toplu olaraq ən geniş bilgi almaq mümkün olan nəşr məhz budur.

[1] Азербайджанская Республика. Документы и материалы (1918-1920 гг.). Под редакцией *Дж.Б.Гулиева*. Баку, 1998, ss. 413-417.

[2] *Əliyev M.* Azərbaycanda medal sənəti. //"Qobustan" toplusu, 1989, №1, ss. 80-86; yenə onun: Azərbaycan Demokratik Respublikasının poçt markaları. //"Qobustan" toplusu, 1990, №1, ss. 85-86.

[3] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Baş redaktor *Yaqub Mahmudov*. I cild, Bakı, 2004; II cild, Bakı, 2005.

Ayrı-ayrı kitablarda bəzi tələbələr haqqında oçerklərə rast gəlinir. Məsələn, tanınmış araşdırıcı İsmayıl Umudlu özünün qiymətli "Vəkiloğulları" əsərində Mustafa ağa Vəkilov və Teymur ağa Vəkilov haqqında dəyərli tərcümeyi-hal oçerkləri verib.[1] Onun "Salahlı eli" adlı sanballı əsərində isə Hüseyn Şıxıyev, Mustafa ağa Vəkilov və Teymur ağa Vəkilov haqqında bilgilər əksini tapıb.[2]

Mərhum araşdırıcı Nazif Qəhrəmanlı özünün "Vətən və istiqlal aşiqi Əli Yusif" adlı monoqrafiyasını[3] bütünlüklə Ağaəli Yusifzadəyə həsr edib.

AMEA Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçiləri Nərmin Tahirzadə,[4] Zərifə Dulayeva[5], Sevil Qazıyeva, Lyudmila Şalamova[6] və başqalarının yazılarında tələbələrlə bağlı qiymətli məlumatlar verilib. Məsələn, Zərifə Dulayevanın məqaləsində[7] Almaniya, Fransa və İtaliyada ali təhsil almış İsmayıl Axundov, Mustafa Mustafayev, Əhməd Rəcəbli haqqında ilk dəfə geniş bilgi verilib.

Sevil Qazıyevanın məqaləsində[8] isə Almaniyada oxumuş Məhəmməd Rəhimlinin həyatı haqqında geniş və ətraflı bilgi verilib. Məqalənin ən dəyərli cəhəti burasındadır ki, müəllif daha çox M.Rəhimlinin qohumları vasitəsilə əldə etdiyi və arxivlərdə tapılması mümkün olmayan sənədlərə istinad edib.

Tamilla Kərimovanın monoqrafiyasında[9] Hənəfi Zeynallı[10], Cəfər Kazımov[11], İsgəndər Rzazadə[12] kimi tələbələr haqqında ayrıca oçerklər verilib. Onun məqaləsində[13] Avropada oxuyaraq vətənə dönmüş bəzi tələbələrin faciəsinə də toxunulub.

Misir Mərdanov və Əsgər Quluyevin "Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində (1918-1920)" adlı əsərinin "Milli hökumətin təhsil quruculuğu sahəsində ilk tədbirləri və apardığı islahatlar..." adlı bölümündə[14] "100 tələbə" məsələsindən söz açılır, onların siyahısı verilir (ixtisaslar üzrə), dövlətin bu tədbiri yüksək dəyərləndirilir: Azərbaycan Cümhuriyyəti hökumətinin "milli təhsil salnaməsində qoyduğu ən yaddaqalan, milli tariximizə qızıl hərflərlə həkk olunan addımlarından biri dövlət səviyyəsində "Vətəndən kənarda Vətən üçün!" ali təhsilli mütəxəssislər hazırlamaq işinin təməlini qoyması sayıla bilər".[15] Bu kitabda tələbələrdən Əhməd Rəcəbli və Mustafa Vəkilovun həyatından da danışılıb.

[1] *Umudlu İ.* Vəkiloğulları. Bakı, 2003, ss. 244-245, 305-319.

[2] *Umudlu İ.* Salahlı eli. Tarix. Etnoqrafiya. İnsanlar. Yurd bilgisi. Bakı, 2011, ss. 694-697, 749-750, 766-767.

[3] *Qəhrəmanlı N.* Vətən və istiqlal aşiqi Əli Yusif. Bakı, 2010.

[4] *Tatırzadə H. K* истории формирования технической интеллигенции в Азербайджане в кон. XIX-нач. XX в. // *"Milli Azərbaycan Tarix Muzeyi – 2003"*. Bakı, 2003, ss. 124-141.

[5] *Дулаева З.* Страницы истории национальной интеллигенции, ss. 68-81.

[6] *Шаламова Л.* Стипендиант Азербайджанской Демократической Республики (из писем Бахрама Гусейнзаде).// *"Azərbaycan Tarixi Muzeyi-2007"*. Bakı, 2007, ss. 161-171.

[7] *Дулаева З.* Страницы истории национальной интеллигенции, ss. 68-81.

[8] *Казиева С.* Выпускник Дармштадтского Высшего Технического Института, ss. 188-193.

[9] *Керимова Т.* Из истории Национальной Академии наук Азербайджана. Баку, 2005.

[10] Yenə orada, ss. 385-386.

[11] Yenə orada, ss. 423-424.

[12] Yenə orada, ss. 454-455.

[13] *Керимова Т.* Репрессированная наука Азербайджана (30-е годы XX столетия).// *"Milli Azərbaycan Tarixi Muzeyi-2005"*. Bakı, 2005, ss. 326-342.

[14] *Mərdanov M., Quluyev Ə.* Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində (1918-1920), ss. 27-63.

[15] Yenə orada, ss. 48-49.

Əsgər Quluyevin Azərbaycan Milli Ensiklopediyasının xüsusi "Azərbaycan" cildindəki "Təhsil" oçerkində Cümhuriyyətin xaricə oxumağa göndərdiyi tələbələrlə bağlı "Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində" kitabındakı bilgilər daha da dəqiqləşdirilib və özəlliklə tələbələrin təhsil aldığı ölkələrin coğrafiyası haqqında özündən əvvəlki bütün qaynaqlara nisbətən ən dəqiq məlumat verilib.[1]

Azərbaycanın təhsil tarixinin araşdırıcısı Əzizə Nəzərli özünün "Azərbaycan Cümhuriyyətində xalq təhsili (1918-1920-ci illər)" adlı dəyərli monoqrafiyasında "100 tələbə"nin oxumağa göndərilməsi haqqında bir çox yeni faktları ilk dəfə elmi ədəbiyyata gətirib.[2]

Prof. Misir Mərdanov 4-cildlik "Azərbaycan təhsil tarixi" adlı əsərinin birinci cildinin III fəslindəki "Xalq Cümhuriyyəti dövründə Azərbaycanda təhsil" bölməsində[3] Cümhuriyyətin həmin tələbələrlə bağlı gördüyü işlərə və tələbələrin sonrakı həyatına dair ətraflı bilgi verib.

Araşdırıcı Teyyub Qurban da "100 tələbə" mövzusunda uzun illərdir axtarışlar aparır. Onun özəlliklə "Nota bene" qəzetinin 2006-2007-ci il saylarında və başqa mətbuat orqanlarında "Cümhuriyyət tələbələri" adlı silsilə məqalələri nəşr edilib. Ancaq təəssüf ki, o, yazılarını indiyədək kitab şəklində nəşr etdirməyib.

Filologiya elmləri doktoru Məmməd Cəfərli Almaniyada oxumuş, vətənə qayıtdıqdan sonra repressiyaya uğramış tələbələrin həyatını AR Dövlət Təhlükəsizliyi Xidmətinin arxivində saxlanılan istintaq sənədlərinə əsasən incəliklə araşdırıb. O, Yusif Ağasıbəyli, Əşrəf Əliyev, Teymur Aslanov, Bəhram Hüseynzadə, Əsildar Muğanlı, Hüseyn Nağıyev və İsgəndər bəy Sultanovun istintaq sənədləriylə tanışlıqdan sonra onlar haqqında nisbətən ətraflı bilgi verib. O, sənədlərdən Behbud Zeynallı, [Lətif] Qədimi, [Mirzə]hüseyn Quluyev, Cəfər Kazımov, Qəhrəman Məmmədov, Cəmil [Əli]muradbəyli, Məhəmməd Rəhimli, İsgəndər Rzazadə, Mirsadıq Sadıqov, Surxay Şahsuvarov və başqalarının adlarını müəyyənləşdirərək onlar haqqında bir-ikisətirlik tərcümeyi-hal faktlarını qeyd edib.[4]

Prof. Ədalət Tahirzadə uzun illərdən bəri həmin tələbələrin həyat və yaradıcılığını öyrənərək onlar haqqında kitablar və məqalələr nəşr etdirib.[5]

Bəzi tələbələr haqqında ayrıca məqalələr də işıq üzü görüb.[6]

Bir sıra başqa mənbələrdə bu mövzu ilə bağlı ötəri qeydlər olduğuna görə onların üzərində dayanmağı zəruri saymırıq.

[1] *Quluyev Ə.* "Təhsil" oçerki. // Azərbaycan Milli Ensiklopediyası. Xüsusi "Azərbaycan" cildi. Bakı, 2007, ss. 689-690.

[2] *Nəzərli A.* Народное образование в Азербайджанской Республике (1918-1920 гг.), ss. 177-180.

[3] *Mərdanov M.* Azərbaycan təhsil tarixi. I cild. Bakı, 2011, ss. 221, 227.

[4] *Əjəfərli M.* Политический террор и судьбы азербайджанских немцев. (Второе издание). Баку, 2003, ss. 47-52.

[5] *Tahirzadə Ə.* İsgəndər Rzazadə – Azərbaycanın ilk energetiki. Bakı, 2000; *yenə onun:* Искендер Риза-заде – первый энергетик Азербайджана. Баку, 2000; *yenə onun:* Cəfər Kazımov – Sovet uranını tapanlardan biri. Bakı, 2001; *yenə onun:* Əliyev Əliəkbər Məşədi Qəhrəman oğlu. // *"525-ci qəzet"*, 28 sentyabr, 4, 11 oktyabr 2008, №180, №182, №187 və b.

[6] *Sadıq Hafiz.* "100-dən 99-u" rubrikasından, yaxud Surxay Əzim bəy oğlu Şahsuvarov kimdir? // *"Ədalət"* qəzeti, 21.12.1993; *Teymur M.* Ələkbər Əliyev kimdir? // *"Naxçıvan"* qəzeti, 22.9.2000; *Quluyev V.* Vağzalda həbs. // *"Azərbaycan"*, 4 may 2004, №103; *Turan Azər.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə xaricə göndərilən tələbələr və onların taleyi barədə qeydlər. // *"Xalq qəzeti"*, 25-26 iyul 2012 və b.

4. Azərbaycanlıların ali təhsil tarixinə ümumi baxış

XX yüzilin başlanğıcından üzübəri gələrək mətbuatda və bədii ədəbiyyatda möhkəm oturuşan, bugünün özündə belə tez-tez üzləşdiyimiz belə düşüncələr mövcuddur:

- biz azərbaycanlılar[1] çar və sovet dönəmlərində qonşu gürcülərdən və ermənilərdən mədəniyyətcə geri qalmışıq;
- bizim ali və orta təhsillilərimiz onlarınkından müqayisəolunmaz dərəcədə azdır;
- ermənilər və gürcülər çoxlu qəzet-jurnal nəşr etdikləri halda, biz bu sahədə də həddən artıq geridəydik;
- biz savadlı mütəxəssislər yetişdirə bilmədiyimizə görə Azərbaycanın dövlət idarələrində ermənilər və başqa yad millətlər üstünlük təşkil edib və s.

Ən pisi odur ki, bu fikirlər irəli sürülərkən millətimizin bacarıqsızlığı təsəvvürü yaradılır, guya erməni və gürcülərin bizdən daha qabiliyyətli olduğu beyinlərə yeridilir, soydaşlarımızın milli qürur duyğusu yaralanır. Çar və sovet zamanında xalqımıza qarşı bu cür təbliğat dövlət siyasətinin tərkib hissəsi idisə, hətta indiki müstəqillik dönəmində də bu cür yanlış düşüncələrin mövcud olmasının başlıca səbəbini yalnız məlumatsızlıqda görürük. Nə yazıqlar ki, gerçək mədəniyyət, o sıradan təhsil tariximizi indiyədək lazım olduğu səviyyədə tədqiq edərək xalqımıza çatdıra bilməmişik.

Bəli, yuxarıda sadalanan müddəaların bəzisi fakt olaraq doğrudur, ancaq bilməliyik ki, günah bizdə yox, bizə qarşı yönəldilmiş müstəmləkə siyasətində olub! Düzdür, bizdən sayca qat-qat az olan erməni və gürcülərin istər çar, istərsə sovet dövrlərində ali təhsilli mütəxəssisləri, alimləri, dövlət qulluqçuları, mətbuat orqanları bizimkilərdən qat-qat çox olub, ancaq bunun təqsiri bizdəydimi? Bizim bacarıqsızlığımızdaydımı? Əsla yox! Özəlliklə çar dövründə bütün müsəlmanların (deməli, o sıradan bizim də) ali məktəbdə oxumasını, onların milli orta və ibtidai məktəblər yaratmasını, mətbuat orqanları açmasını rəsmi qanunlar və gizli göstərişlər ciddi şəkildə əngəlləyirdi. Hacı Zeynalabdin Tağıyev kimi ən nüfuzlu bir şəxsin qızının ali məktəbə götürülməməsi, bu işə yalnız qızın ana babası general Balakişi Ərəblinskiyə görə razılıq verilməsi, Həbib bəy Mahmudbəyli və Sultanməcid Qənizadənin Bakıda rus-türk məktəbi[2] açarkən qarşılaşdıqları məşəqqətlər, Həsən bəy Zərdabi başda olmaqla, onlarca ziyalımızın mətbuat orqanları yaratmaq istərkən dövlət idarələrinin qapılarına illərcə təpik döyməsi, onların ərizələrinin inadla rədd edilməsi tarixi gerçəklikdir. Halbuki Rusiyanın xristian əhalisi, o sıradan gürcülər və ermənilər üçün bütün qapılar taybatay açıqdı. Xüsusən Pyotrun vəsiyyətinə əsasən ermənilərı Qafqazda həlledici qüvvəyə çevirməyə çalışan çarizm və kommunistlər bu xalq üçün ən imtiyazlı şərait yaratmışdılar.

Sankt-Peterburq Mərkəzi Tarix Arxivindəki sənədlərlə tanış olarkən heyrət içində qaldıq – 1870-1880-ci illər arasında o boyda Peterburq Universitetində yalnız bir-iki müsəlman oxuyub, halbuki həmin illərdə orada təhsil alan erməni tələbələrin sayı, yalan olmasın, ruslarınkına bərabərdi! Başqa illərə aid göstəricilər də o qədər fərqli deyil.

[1] Burada "azərbaycanlılar" terminini "Azərbaycanın bütün müsəlman əhalisi" anlamında işlətmişik.

[2] Ona elmi ədəbiyyatımızda daha çox "rus-tatar məktəbi" deyilir, ancaq "tatar" sözü rusca qaynaqlarda "türk"ün qarşılığı kimi işlədildiyinə görə "rus-türk məktəbi" ifadəsi daha doğrudur.

Müsəlmanlar tələbələr sırasına qəbul edilsələr də, ən müxtəlif səbəblər üzündən təhsili II-III, hətta IV-V kurslardan yarımçıq qoymağa məcbur olublar/ediliblər, halbuki erməni və gürcülər əsasən sonadək oxuyaraq diplom alıblar. Belə bir durumda özümüzü əsla suçlaya bilmərik. Əksinə, istər Moskva və Sankt-Peterburq, istərsə də Rusiya və Ukraynanın başqa şəhərlərinin arxivlərində çalışarkən qürur duyacağımız çox fərəhli bir hal müəyyənləşdirdik – Rusiya imperiyasının ali məktəblərində oxuyan bütün müsəlman tələbələrin yarıdan çoxu Azərbaycan Türküdür!! Buna şübhəsi olan istənilən oxucuya dəqiq siyahı təqdim edə bilərik. Deməli, məsələ qətiyyən bacarıqsızlıqda deyilmiş.

* * *

Sovet dönəmində Azərbaycanın maarif komissarı/naziri olmuş kommunist Dadaş Bünyadzadə 1920-ci ildə bəyan edib: bu gün Azərbaycanda 62 nəfər ali təhsilli müsəlman var![1] Azərbaycanın ali təhsil tarixindən yazanların çoxu bu rəqəmi indiyədək təkrar etməkdədir. Ən pisi də odur ki, deyilən fikir daha yanlış bir istiqamətə yönəldilib – Azərbaycanda 1920-ci ilədək guya cəmi 62 nəfər ali təhsil alıb!

Kommunist komissarların o dönəmdə Azərbaycanda güllələdikləri Xudadat bəy Rəfibəyli, Müseyib bəy Axicanov, Abuzər bəy Rzayev... kimi, terrorla aradan götürdükləri Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev... kimi, Türkiyə, İran, Avropa və Amerikaya cəlayi-vətən etdikləri Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Əbdüləli bəy Əmircanov... kimi onlarca ali təhsillimiz, əlbəttə, Dadaş Bünyadzadələrin siyahısına düşə bilməzdi! Ana dilində də, rusca da adını belə əməlli-başlı yazmağı bacarmayan savadsız təhsil naziri Bünyadzadənin təhsilə "atalıq etdiyi", acından qarnı quruldayan şalvarıcırıq, mədəniyyətsiz proletkultçuların[2] "Doloy Nizamilər, doloy Füzulilər! Bizə Verxarnlar, Uitmenlər, Mayakovskilər lazımdır!" hayqırdığı bir dönəmdə Azərbaycanda mədəniyyət və savad deyilən şeyin olmadığı, bunu bizə yalnız 1920-ci ilin 28 aprelindən sonra Rusiyanın gətirdiyi ən yüksək kürsülərdən və ən uca səslə bağırılırdı. Bu bağırtını 70 il eşitdik! Ulu Tanrıya şükürlər olsun ki, bu gün Azərbaycanımız müstəqildir və tarixi gerçəklikləri elmi şəkildə ortaya qoymağa imkanımız var.

* * *

Hər şeydən öncə, bunu bildirmək vicdan borcumuzdur ki, Azərbaycanda ali təhsil tarixinin öyrənilməsində ən ciddi addımı Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı, tarix elmləri namizədi mərhum Nərmin xanım Tahirzadə atıb. O, keçmiş SSRİ-nin, demək olar ki, bütün paytaxt və mərkəzi şəhərlərindəki ən böyük dövlət arxivlərində uzun illər boyu çalışaraq çar dönəmində Rusiya ali məktəblərində oxumuş azərbaycanlı tələbələr haqqında ilk dəfə geniş bilgi toplayıb və çoxsaylı elmi məqalələrində bu haqda ətraflı danışıb. Onun yazılarının böyük qismi 2009-cu ildə Bakıda rusca nəşr edilmiş "Azərbaycan ziyalılarının tarixindən" adlı kitabında toplanıb.

[1] "Kommunist" qəzeti, 7 sentyabr 1920-ci il.

[2] Rusca "proletarskaya kultura" ("proletar mədəniyyəti") sözlərindən yaranmış bir termindir. Sovet hakimiyyətinin ilk illərində proletar "ziyalılar" özlərindən qabaqkı bütün mədəniyyəti məhv edərək yerində yeni proletar mədəniyyəti qurmağı təbliğ edirdilər. İş o yerə çatmışdı ki, onlar çardan qalmış dəmiryollarını da sökərək "proletar dəmiryolu" salmaq istəyirdilər. Leninin bir məqaləsiylə bu dəliliyin qarşısı xeyli alındı.

Nərmin xanım 1920-ci ilədək ali təhsil almış xeyli soydaşımızı müəyyənləşdirərək onlar haqqında həm tərcümeyi-hal oçerkləri, həm də ümumi icmal məqalələri (hüquqşünaslar, mühəndislər, həkimlər və b. haqqında) yazıb.

"Qeyri-normal həyat şəraiti üzündən Azərbaycan Cümhuriyyətinin abituriyent və tələbələri son 2 il boyunca öz təhsillərini ali məktəblərdə davam etdirə bilməyiblər. İndi Bakı şəhərində Dövlət Universiteti yaratmaq nəzərdə tutulur. Ancaq o, heç bir halda Azərbaycanın bütün abituriyent və tələbələrini yerləşdirə bilməz, çünki Universitetin, şübhəsiz, bütün fakültə və kursları olmayacaq və buna görə də təbiidir ki, öz vətənləri Azərbaycanda ali təhsil almaq imkanından məhrum qalan xeyli gənc olacaq. Bu şərait özəlliklə ali ixtisas təhsili almaq istəyən şəxslərə daha çox təsir edəcək. Göstərilən səbəblər Bakı Universitetinə hər hansı səbəbdən girmək imkanından məhrum olan abituriyent və tələbələri əcnəbi universitetlərə yollanmağa can atmağa və ali təhsilini orada başa vurmağa məcbur edəcək. Xaricə getməyə lazım olan vəsait heç də bütün abituriyent və tələbələrdə yoxdur, onların çoxunun buna əsla güçü çatmır və buna görə də Xalq Maarif Nəzarəti baxılması və təsdiqi üçün Parlamana cari 1919-20-ci dərs ilində ali təhsil almaq üçün xaricə abituriyent və tələbələr göndərməkdən ötrü 410.000 (dörd yüz on min) frank buraxılması haqqında qanun layihəsini təqdim edir. İstənilən məbləğ yüz tələbənin göndərilməsi üçün bu hesabdan edilib: onların hər birinin xərcliyinə 3.600 frank və yol xərcləri üçün 500 frank. Bu məbləğ ümumən bütün ölkələrdə həyatın ümumi bahalaşmasının baş verməsi üzündən ən aşağı sayılır və o, əsla azaldıla bilməz. Təqaüd kəsiləcək şəxslər təhsillərini başa vurduqdan sonra Azərbaycanda ən azı 2 il xidmət etməyi öhdələrinə götürürlər".[1]

Bundan sonra "Azərbaycan" qəzeti 12 avqustda yazdı: "Tələbələri Avropaya göndərmək üçün lazım olan qədər para təxsis etmək haqqında Parlamana bir layihə təqdim edilmişdir".[2]

Burada kiçik bir haşiyə çıxmağa ehtiyac var: Niyə *"abituriyent"* və *"tələbə"*? Onların fərqi nədir? Bu təbii sual oxucuların çoxunda yaranır. Aydınlıq üçün bildirək ki, "abituriyent" dedikdə gimnaziyanı, yaxud real məktəbi bitirmiş, ümumən əlində ali məktəbə girmək hüququ verən sənədi olan məzunlar nəzərdə tutulur. "Tələbə"lər isə artıq Türkiyə, Avropa, Rusiya və Ukraynanın ali məktəblərində gerçəkdən təhsil almaqda olan tələbələrdir. Onların az bir qismi oxuduğu universitet, yaxud institutda qalmaq, ancaq dövlətdən təqaüd almaq (bunlar, əsasən, Rusiya və Ukraynada oxuyanlardı), əksər qismi isə oxuduğu ali məktəbdən çıxaraq Avropaya getmək istəyənlərdi.

"Azərbaycan" qəzeti 13 avqustda xəbər verib: *"Avropaya gedən tələbələr üçün hökumət tərəfindən 410 min frank burakılması haqqında Parlamana daxil olan layihə maliyyə-büdcə komisyonunun müzakirəsinə təqdim edilmişdir".*[3] Adıçəkilən komisyonun 20 avqust 1919-cu il tarixli iclasının protokolundan çıxarışda oxuyuruq:

"Yüz nəfər Azərbaycan tələbələrinin ikmali-təhsil üçün xaricə darülfununlarına iğram edilməsindən ötrü dörd yüz on min frank buraxılması haqqında Maarif Nəzarətinin qanun layihəsi barəsində məruzəçi Əhmədcövdət Pepinov məruzədə bulunub, Türk tələbələrinin ikmali-təhsil üçün xaricə darülfununlarına göndərilməsini lüzumlu görüb, məzkur qanun layihəsinin qəbul olunmasını təklif edir. Maarif naziri cənabları da həmin qanun layihəsi xüsusunda bəzi məlumat verdikdən sonra qanun layihəsi müzakirəyə qoyulur, bir qədər mübadileyi-əfkardan sonra layihədə göstərilən hər bir tələbəyə yol kirayəsi beş yüz (500) frank, aylıq maaş üç yüz (300) frank az görüldükdə haman məbləğin dəyişdirilib birincisinin min (1.000) frank və ikincisinin dörd yüz (400) frank olunması və Rusiyaya göndərilən tələbələrə yol kirayəsi üç min (3.000) rublə və aylıq maaş da üç min (3.000) rublə verilməsi təklif olunur. Təklif səsə qoyulduqda ümumiyyətlə qəbula keçir və ona binaən Komisyon qət eləyir: Maarif Nəzarətinin təqdim [etdiyi] işbu qanun layihəsi yuxarıda göstərilən təğyir və təbdil ilə və layihədə göstərilən

[1] Bakı xəbərləri. Avropaya gedən tələbələr. // *"Azərbaycan"* qəzeti, 12.08.1919, №249, s. 4.

[2] Rusiyada okuyan tələbələrimiz. // *"Azərbaycan"* qəzeti, 04.08.1919, №242, s. 4.

[3] *«Азербайджан»*, 5.VIII.1919, № 164.

[4] ARDA, fond 895, siyahı 3, iş 103, vərəq 6. Sənəd Parlamentə 10 avqustda daxil olub və 228 nömrə ilə qeydə alınıb.

[1] ARDA, fond 895, siyahı 3, iş 103, vərəq 4.

[2] Parlaman komisyonlarında. //*"Azərbaycan"*, 12.08.1919, №249, s. 4.

[3] Yenə orada.

"dörd yüz on min frank" əvəzində yeddi milyon (7 milyon) rublə burakılması qəbul olunsun.

Komisyon sədri əvəzinə: (Əbdüləli bəy Əmircanovun imzası).

Katib: (Əhmədcövdət Pepinovun imzası)".[1]

Bu qərar vəsait ayrılması üçün Parlamanın "hə" deməsinə yetərliydi. Ona görə də Parlamanda ən nüfuzlu söz sahibi olan Məhəmmədəmin Rəsulzadə 21 avqust 1919-cu il tarixli 67-ci iclasda qəti şəkildə bəyan etdi: *"Əlbəttə, biz daha ixtisaslı və bilikli adamlar yetişdirmək üçün Avropaya tələbələr göndərəcəyik".*[2] Deməli, məsələ artıq Parlamanın müzakirəsinə çıxarılа bilərdi.

Görünür, maliyyə-büdcə komisyonunun bu qərarı o qədər ciddi sayılıb ki, Cümhuriyyətin Rəisi-vükəlası (Baş naziri) F.Xoyski Parisdəki Azərbaycan Sülh Heyətinin sədri Əlimərdan bəy Topçubaşova elə bu günlərdə məktub yazaraq, göndəriləcək təqaüdçülərlə bağlı yardımda bulunmağı ondan rica edib. Bu məktubu 50 gündən sonra – 9 oktyabrda (!) alan Əlimərdan bəy 6-10 noyabr 1919-cu il tarixli cavabında bildirib:

"Əlbəttə, ali təhsil almaq üçün bura gəlmək istəyən gənclərin səfəri ilə bağlı məsələlərin həllinin sürətləndirilməsi üçün əlimdən gələn hər şeyi etməyi özümə borc sayıram. Təəssüf ki, Xalq Təhsil Nazirliyi, Poçt və Teleqraf Nazirliyi kimi, bu məsələ ilə əlaqədar Nümayəndə Heyətinə rəsmi şəkildə müraciət etməyi ağlına gətirməyib. Lakin buna baxmayaraq, mən Fransanın xalq təhsil nazirinə ayrıca bir məktubla müraciət etdim. Şəraiti sona qədər aydınlaşdırmaq üçün bugünlərdə onun qəbulunda olacağam. Təəssüf ki, burada hələlik Parlament seçkiləri hər şeyin qarşısını alıb. Yeni Parlament seçkilərindən sonra iş başına yeni hökumət və təbii ki, yeni xalq təhsil naziri gələcəkdir".[3]

Bu sənədləşmələrdən hiss olunur ki, hökumət bütün gərəkli tədbirləri görməklə, 100 nəfəri sentyabrın başlanğıcınadək xaricə göndərməyə çalışıb ki, onlar yeni dərs ilinə çata bilsinlər. Ancaq istər beynəlxalq şərait, istərsə də ölkənin öz daxilindəki durum, hətta nazirliklərdəki astagəllik bu işi sürətləndirməyə ongəl olurdu.

Parlamanın 25 avqust 1919-cu il tarixli 68-ci iclasının gündəliyinə 3-cü məsələ olaraq salınıb: *"Yüz nəfər tələbələrin xaricdə ikmali-təhsil etmək üçün göndərilməsi haqqında qanun layihəsi".*[4] Ancaq ilk iki məsələ – Azərbaycan Darülfünununun və Azərbaycan Hökumət Bankının yaradılması haqqında uzun sürən müzakirələr imkan vermədiyinə görə tələbə məsələsi 28 avqustdakı 69-cu iclasa keçirilib: *"Əcnəbi məmləkətlərinə 100 nəfər tələbələrin hökumət xərci ilə göndərilməsi haqqında".* Bu dəfə könkret məruzəçi də təyin edilib – Parlamanın katibi Əhmədcövdət Pepinov.[5] Bu iclas da gərgin keçib və "tələbələrə" növbə çatmayıb. Eyni məsələ Parlamanın 1 sentyabr yığıncağına adladılıb.[6]

Həmin gün axşam iclasında maarif nazirinin təqdim etdiyi qanun layihəsi haqqında Ə.Pepinov məruzə edib. Mövzu ilə bağlı məbuslardan (deputatlardan) Rəhim ağa Vəkilov, Abdulla bəy Əfəndizadə, Rza bəy Ağabəyov, Məhəmmədrza ağa Vəkilov, Qasım bəy Camalbəyov, Behbud xan Cavanşir, Muxtar Əfəndizadə, Ağa Aşurov və başqaları çıxış edib. Sonra Ə.Pepinov və R.x.Qaplanov bəyanat veriblər.

Daha sonra təkliflər irəli sürülüb. "Əhrar" partiyası iki təklif verib: 1) tələbələrin məişət və güzəranını təmin üçün onların üzərinə nəzarət olunsun; 2) göndərilənlərin bir qismi riyaziyyat, ədəbiyyat və təbiət fakültələrinə girməlidir. Müzakirələr sonucunda bunlardan birincisi qəbul, ikincisi rədd edilib. Növbəti təklif dövlət təqaüdü ilə oxuyan tələbələrin təhsili bitirdikdən sonra hökumətin göstərdiyi yerlərdə dörd il qulluq etməyə məcbur olması haqqındadır və səsə qoyularaq qəbul edilib.[1]

Parlamanın 1 sentyabr 1919-cu ildə qəbul etdiyi sənəd indiyədək, demək olar ki, bütün qaynaqlarda yanlış olaraq "1 sentyabr qanunu" adlandırılıb.[2] Doğrudur, maarif naziri Rəşid xan Qaplanov bu sənədi qanun layihəsi şəklində təqdim edib[3], ancaq Parlaman onu qərar olaraq qəbul edib, buna görə də sənədin "qanun" adlandırılması doğru deyil. Bu yanlışlıq, təəssüf ki, araşdırıcıların heç birinin indiyədək sənədin özünə istinad etməməsi üzündən ortaya çıxıb. Dediyimizin təsdiqi üçün onu aşağıda olduğu kimi təqdim edirik.

"1 sentyabr 1919 sənəsi tarixli Azərbaycan Parlamanı iclasında çıxarılmış

QƏRAR

Maddə I. 1919-20 sənəyi-təhsiliyyədə yüz nəfər Azərbaycan tələbələrini ikmali-təhsil üçün xarici məmləkətlər məktəblərinə göndərməkdən ötrü dövlət xəzinəsindən maarif nazirinin ixtiyarına yeddi milyon rublәlik bir təxsisat burakılır (dörd yüz frank aylıq və bin frank yolxərci Avropaya gedən, üç bin rublə aylıq və üç bin rublə də yolxərci Rusiyaya gedən tələbələrə təyin edilməsi şərtilə).

Maddə II. Hökumət istipendiyasından[4] istifadə edən tələbələr təhsillərini bitirdikdən sonra hökumətin göstərdiyi yerlərdə dörd sənə qulluq etməyə borcludurlar.

Bu təxsisatın qəbulu ilə bərabər, Parlaman böylə bir əlavədə bulunoyur: "Tələbələrin məişət və güzəranının təmini üçün onlara nəzarət olunsun".

Azərbaycan Parlamanı rəisi namına ikinci müavin (Sultanməcid Qənizadənin imzası)

Katib (Əhmədcövdət Pepinovun imzası)

İdarə rəisi (Məhəmməd ağa Vəkilovun imzası)".[5]

Bu qərardan sonra Parlaman "tələbə işləri üçün" xüsusi komissiya təşkil edib. Komissiyaya deputatlardan Məhəmmədəmin Rəsulzadə sədr, Mehdi bəy Hacınski, Qara bəy Qarabəyov, Əhmədcövdət Pepinov, Abdulla bəy Əfəndizadə üzv seçilib.[6]

Tələbə Birliyinin sədri Yusif bəy Ağasıbəyov 10 sentyabrda, görünür, hərbi xidmətdə olduğu Hacıkənddən Parlaman sədrinə belə bir teleqram göndərib: "Dövlət Müdafiə

[1] ARDA, fond 895, siyahı 3, iş 103, vərəq 8a.

[2] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. (Stenoqrafik hesabatlar). 2-ci cild. Bakı, 1998, s. 11.

[3] *Topçubaşov Ə.b.* Paris məktubları. Bakı, 1998, s. 87-88.

[4] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. (Stenoqrafik hesabatlar). 2-ci cild, s. 30.

[5] Yenə orada, s 51.

[6] Yenə orada, s. 71.

[1] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. (Stenoqrafik hesabatlar). 2-ci cild, ss. 74-75.

[2] Təəssüf ki, buna ən çox elə Xalq Maarif Nəzarətinin sənədlərində rast gəlinir.

[3] ARDA, fond 895, siyahı 3, iş 103, vərəq 3.

[4] Təqaüddən.

[5] ARDA, fond 895, siyahı 3, iş 103, vərəq 2.

[6] *Mərdanov M.* Azərbaycan təhsil tarixi. 1-ci cild, s. 220.

Komitəsinin tələbələrin müvəqqəti azad edilməsi haqqında sərəncamına baxmayaraq, tələbələrin bir çoxu hərbi məktəblərdə və qoşunlarda qalmaqdadır; onların xaricə göndərilmək və ali məktəblərə girmək haqqında xahiş etmək imkanları yoxdur. Onların gerçəkdən azad edilməsi üçün uyğun tədbirlər görmənizi dönə-dönə xahiş edirəm".[1] Yeri gəlmişkən, bu haqda hələ 13 avqustda "Azərbaycan" qəzeti yazmışdı:

"Rəsmi surətdə hökumət tərəfindən tələbələrin əsgərlikdən burakılması qərara alınıb, əmr olunduğuna bakmayaraq tələbələr hənuz yerlərində durub əxzi-əsgər idarəsi tərəfindən aparılıyorlar. Hökumətin nəzəri-diqqətini buna cəlb edirik".[2]

Əlbəttə, ədalətli seçim etməkdən ötrü Ağasıbəyovun teleqramında əksini tapmış tələbə olmaq istəyən hər kəsə bərabər şərait yaratmaq arzusu nəzərə alınmalıydı və xalqın öz hakimiyyətinin başında duran Cümhuriyyət rəhbərləri gecikmədən bu istəyi gerçəkləşdirdilər. 13 avqust 1919-cu ildə Parlamentə daxil olmuş teleqram ertəsi gün komissiya sədri Məhəmmədəmin Rəsulzadəyə təqdim edilib və o da növbəti gün komissiyanın yığıncağını çağırıb.

15 sentyabr 1919-cu ildə Aynulhəyat xanım Yusifbəyova,[3] Behbud xan Cavanşir, Şahtaxtinski, Səməndər Axundov[4] və Bakı Müsəlman Tələbələri Komitəsinin nümayəndəsi Məhəmmədqulu Hacınski[5] də qatılmaqla komissiyanın M.Rəsulzadənin sədrliyi altında geniş tərkibdə iclası keçirilib. Burada bir çox vacib məsələlər müzakirə edilib, tələbələrin göndərilməsini və bölüşdürülməsini təşkil etməkdən ötrü komissiya yaradılıb. Yerlər ixtisaslar üzrə bu cür bölüşdürülüb: təbiiyyat 8 nəfər, tibb 8, dağ-mədən işi 7, mexanika 11, kimya 3, elektrotexnika 8, tikinti 4, yollar – 6, kənd təsərrüfatı 10, gəmiqayırma 4, aviasiya 2, aqronomluq 3, iqtisadiyyat 5, tarix və filologiya 5, fəlsəfə 7, hüquq elmləri 6, politologiya 3.

Bu vaxtadək Komissiyaya 280 ərizə daxil olub. Tələbələrin seçimində Türk dilini və gedəcəyi ölkənin dilini bilənlərə, attestat qiymətləri yüksək olanlara, eləcə də kasıb balalarına üstünlük verilib.[6] Ancaq məcburi şərtlərdən biri təqaüdçünün hökmən Azərbaycan təbəəsi olması idi, buna görə də 10-a yaxın tələbə Azərbaycan vətəndaşlığını qəbul etmişdi. Parlamanın 11 avqustda Azərbaycan təbəiyyəti (vətəndaşlığı) haqqında qanunu qəbul etməsi[7] bu məsələnin hüquqi həllinə yardımçı olmuşdu.

Rusiyada oxumuş, ancaq 1917-ci il Fevral inqilabından sonra vətənə dönmüş tələbələrlə bağlı Komissiya belə siyasət yürütdü ki, hələ 1-ci kursda oxuyan, yaxud 2-ci kursa keçən tələbələr Avropaya göndərilsin, ancaq yuxarı kurslarda oxuyanlara yalnız həmin ali məktəblərdə təhsili davam etdirmək üçün təqaüd ayrılsın. Buna görə də

[1] ARDA, fond 895, siyahı 1, iş 228, vərəq 134.

[2] Tələbələr və əsgərlik. //*"Azərbaycan"*, 13.08.1919, №250, s. 4.

[3] Nəsib bəy Yusifbəylinin ikinci həyat yoldaşıdır.

[4] "100 tələbə"dən biri.

[5] Onun haqqında bax: *Tahirzadə Ə.* Professor Məhəmmədqulu bəy Kərbəlayı Ağa bəy oğlu Hacınski. // *"525-ci qəzet"*, 19 mart 2005, №52; 26 mart 2005, №56.

[6] *Hasəpalı A.* Народное образование в Азербайджанской Республике (1918-1920 гг.), s. 178.

[7] Təbəiyyət qanunu. // *"Azərbaycan"*, 13.08.1919, №250, s. 4.

avqustdakı ərizələrdə 3-cü və daha yuxarı kurslarda oxuduğunu yazanlar Avropaya göndərilmədiklərini görərək noyabr ayında peşman oldular. Bu deyiləni Moskva Ali Texniki Məktəbinin tələbəsi Əliyar bəy Əmircanovun 5 noyabr 1919-cu ildə maarif nazirinə ünvanladığı ərizə təsdiqləyir. O yazıb: "1915-ci ildə Moskva Ali Texniki Məktəbinə girərək 5 semestr oxumuş və uğurla 20-yə yaxın imtahan vermişəm. Bu vaxt bolşevik çevrilişi məni Qafqaza qayıtmağa məcbur etdi. Təhsilimi davam etdirmək haqqında düşüncədən əl çəkməyərək hələ Türklər zamanında Politexnikuma girməkdən ötrü Almaniyaya ezamiyyət almışdım, ancaq sonrakı hadisələr planlarımı pozdu. İndi hökumətimiz tələbələri xaricə göndərməyi qərara alarkən mən də ərizə verdim, ancaq yoldaşlarımın məsləhəti ilə ərizəmdə göstərdim ki, mən 3-cü kurs tələbəsiyəm, halbuki bizdə dərs sistemi kurslar üzrə deyil, fənlər üzrədir. İndi mən kədərlə öyrəndim ki, bu düşüncəsiz addımıma görə Komissiya məni Rusiyaya göndərilən tələbələr siyahısına salıb".[1]

Komissiya uzaqgörənlik edərək xaricə göndəriləcək 100 təqaüdçüdən başqa daha 31 təqaüdə namizəd müəyyənləşdirmişdi ki, təqaüdçülərdən getməyən olarsa onlar əvəzlənsinlər. 24 oktyabr 1919-cu ildə türkcə və rusca "Azərbaycan" qəzetləri ixtisaslar və gedəcəyi ölkələr üzrə bölünmüş 100 təqaüdçünün və həmin 31 namizədin siyahısını dərc edib. Çox təəssüf ki, bir sıra tədqiqatlarda "100 tələbə" mövzusundan söhbət açan kimi məhz bu ilkin siyahıya istinad olunur. Məsələn, rusca "Azərbaycan Cümhuriyyəti" kitabı kimi nüfuzlu bir nəşr[2] yalnız bu siyahını verib və sonrakı araşdırıcılar da dərinə getməyərək təkcə bu əsərdən yararlanmaqla yanlış nəticələr çıxarıblar. Bu siyahının tarixi qaynaq kimi başlıca yararsızlığı ondadır ki, adı 100 tələbə içərisində verilənlərdən 12-si (şahzadə Bəhmən Mirzə Qacar, Mirəli xan Talışınski, İsmayıl Yaqubov, Rza Şabanov, Həmid Rüstəmbəyli, Sadıq Hüseynov, Sultan Səid Qazıbəyov, Nəsrulla İmanverdiyev, Qafar xan Rzayev, Hüseyn Əliyev, Ağabəy Şəmşirov, Həbib Babayev) tələbələrin 18 dekabr tarixli son siyahısına düşməyib, adı namizədlər içində keçənlərin isə 20-si (Əbdül Əbdülzadə, Rəşid bəy Topçubaşov, Murad bəy Temirxanov, Məhəmməd bəy Xələfbəyov, Məhəmməd bəy Hacıyev, Zaur bəy Dagirov, İsgəndər Vəlizadə, Məhəmməd Rəhimov, Hüseyn Şıxıyev, İsrafil Əşrəfov, Xasfolad bəy Hacıyev, Əliyusif Cəfərov, Hilal Münşizadə, Səməndər Axundzadə, Mürsəl bəy Şahsuvarlı, Salman Hüseynov, Əliəkbər bəy Mirzəbəyli, Həmid Məhəmmədov, Əlibala Xudaverdiyev, Balaağa Ağayev) dövlət təqaüdçüləri siyahısında yer tutublar. (Oxucular bu deyilənin doğruluğunu az sonra təqdim edəcəyimiz 18 dekabr 1919-cu il siyahısıyla tutuşdurmadan sonra özləri təsdiqləyəcək).

Bu siyahının dərcindən sonra tələbələrə xarici pasportların verilməsi, gediləcək ölkələrdən viza alınması, qatar və gəmilərdə gediş üçün bilet əldə edilməsi... kimi çətin məsələlərin təxirəsalınmaz həlli gündəmə gəldi. Əslində çözülməsi sentyabra kimi zəruri olan məsələlərin beynəlxalq durum və Azərbaycanın daxili problemləri üzündən noyabradək həll edilə bilməməsinin tələbələrin bir dərs ilini itirəcəyi və dövlət vəsaitinin

[1] ARDA, fond 51, siyahı 3, iş 44, vərəq 4-4a.

[2] Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг., ss. 413-417.

havaya sovrulması ilə nəticələnəcəyi qorxusu vardı. Bu üzdən həm hökumət, həm də tələbələrin özləri tələsirdilər.

Əlimizdəki bir sənədə görə, 7 noyabr 1919-cu il cümə günü hökumətin Qərbi Avropa və Rusiyaya göndərdiyi tələbə və abituriyentlərin ümumi yığıncağı olub, M.Rəsulzadənin başçılıq etdiyi komissiyaya yardım məqsədiylə 5 nəfərdən ibarət müvəqqəti Büro[1] seçilib. Büroya bu şəxslər daxil olub: Mustafa Vəkilov, Ağalar İsgəndərli, Baxış Sultanov, Umbay Əmirov və Əliəkbər Əliyev.

Yığıncağın sədri göndərilən tələbə və abituriyentlər adından xalq maarif nazirinə məlumat verərək ondan xahiş edib ki, onlarla bağlı bütün məsələlər üzrə indiyədək edildiyi kimi Bakı şəhərindəki Müsəlman Tələbə və Abituriyentləri Komitəsinə deyil, onların müvəqqəti Bürosuna müraciət edilsin. Büro Bakı şəhərindəki Müsəlman Tələbə və Abituriyentləri Komitəsinin olduğu binada – Mirbabayevin evində[2] yerləşir.[3]

Ancaq bizcə, müvəqqəti Büro 7 noyabrdan öncə yaradılıb. Bunu söyləməyə əsasımız odur ki, müvəqqəti Büronun həmin 5 üzvünün noyabr ayı üzrə növbətçilik cədvəli tərtib edilib və növbətçilik tarixi 30 oktyabrdan başlanıb.[4] Belə düşünmək olar ki, müvəqqəti Büro faktik olaraq oktyabrın sonunda yaranıb, ancaq 7 noyabrda rəsmiləşdirilib.

Burada bir məsələyə də toxunmaq gərəkdir – 7 noyabrda Büronun sədri müəyyənləşməyib, ancaq sonrakı sənəd və məlumatlarda 5 üzvün içində olmayan Teymur Aslanovun sədrlik etdiyini görürük. Onun nə vaxtdan seçildiyi bəlli olmur. Noyabrın ortalarında o, tələbələrin gediş sənədlərini qaydaya salmaq, gərəkli icazələri almaq üçün Maarif Nəzarətinin nümayəndəsi Şahtaxtinski ilə birgə Tiflis və Batum şəhərlərində olub.[5]

Müvəqqəti Büro gedəcək tələbələr üçün Ticarət və Sənaye Nəzarətindən ümumi dəyəri 2 min manat olmaqla hər tələbəyə 40 arşın parça, iki cüt döşəkağı, iki cüt dəsmal və yarım düjün əl yaylığı, eləcə də çay və şəkər verilməsini xahiş edib və bu istək yerinə yetirilib.[6]

Müvəqqəti Büronu "Tələbə Komitəsi" adlandıran İsmayıl Saryalın (Mirismayıl Seyidzadənin) yazdığına görə, "bəzi fabrikantlar və zəngin kişilər tələbələrə paylamaqdan ötrü Komitəyə ərməğanlar yağdırdılar".[7] Deməli, göndərilənlərə dövlətdən başqa, ayrı-ayrı şəxslər də yardım edibmiş.

24 noyabr 1919-cu ildə rusca "Azərbaycan" qəzeti xəbər verib ki, Avropaya göndəriləcək tələbələr Bürosunun nümayəndəsi dünən Tiflisdən qayıdaraq tələbələrin getməsi haqqında məruzə oxuyub. Fransa, İtaliya və İngiltərəyə gedəcək tələbələrin

[1] Büronun rəsmi adı onun möhüründə və ştampında türkcə *"İtmami-Təhsil üçün Əcnəbi Məmləkətlərə Göndərilən Tələbələr Bürosu"*, rusca isə *"Бюро Отд(елов) Мус[ульман], Командир(уемых) Прав[ительством] Азерб[айджанской] Респ[ублики] заграницу"* yazılıb (örnək üçün bax: ARDA, fond 51, siyahı 3, iş 77, vərəq 5).

[2] İndi burada ARDNŞ yerləşir.

[3] ARDA, fond 895, siyahı 1, iş 174, vərəq 1.

[4] Yenə orada, vərəq 2.

[5] *Hacıbəyli A.* Народное образование в Азербайджанской Республике (1918-1920 гг.), s. 178; *"Азербайджан"*, 21 ноября 1919 г.

[6] Yenə orada.

[7] *Saryal İ.* Bakü rüzgarı. Ankara, 1998, s. 96.

getmələrinə maneə olmadığı kimi, onların pasportları da ən yaxın zamanda hazırlanacaqdır. Almaniya və Türkiyəyə isə tələbələrin buraxılmasına Müttəfiqlər[1] razı olmurlar; İsveçrədən isə hələ məlumat alınmayıb. İclasın sonunda qərara alınıb ki, Almaniya, İsveçrə və Türkiyəyə gedəcək tələbələr də Müttəfiqlərin məmləkətlərinə qeyd edilsinlər.

Nəticədə qərara alınıb ki, tələbələr Azərbaycandan bir vaxtda çıxsınlar.[2]

Tələbələrin göndərilməsi cəmiyyətdə də sevinclə qarşılanmış və ruh yüksəkliyi yaratmışdı. Mətbuatda bununla bağlı xoş ovqatlı çoxlu yazı verilirdi. Hacıağa Nurinin 11 dekabr 1919-cu il tarixli "Azərbaycan" qəzetindəki "Gənclərimizin Avropaya getmələri münasibətiylə" başlıqlı məqaləsi bu baxımdan daha səciyyəvidir. Özündə bir çox vacib faktları, tələbələrin oxumağa getməsinə xalqın hansı səmimi umudlar bəslədiyini əks etdirən həmin yazını qısaltmadan, ancaq dilini bir qədər sadələşdirərək oxuculara təqdim etməyin faydalı olacağını düşünürük. Sovet dönəmində özü də Avropaya oxumağa göndərilmiş Hacıağa Nuri yazır:

"Parlamanın çıxardığı qərara əsasən, azəri Türk tələbələrindən yüz kişinin Avropaya göndərilməsi üzərində bir neçə vaxtdır ki, çalışılırdı. Əldə etdiyimiz məlumata görə, hökumət tərəfindən bu məsələ üzrə əcnəbi dövlətlərin nümayəndələriylə müzakirələrə girişmək üçün göndərilən heyət, tələbələrimizin əcnəbi məmləkətlərə getmələrinə Avropanın Tiflis və Batum nümayəndələrindən icazə alıb. Artıq tələbələrimizin Avropaya getmələrinə heç bir maneə yoxdur. Elm və ürfan qazanmağa dünyanın müxtəlif məmləkətlərinə gedəcək əfəndilərə öz məqsədlərinə yetmələrini və bu uğurda müvəffəqiyyət əldə etmələrini səmimi-qəlbdən arzu etməklə bərabər, bu haqda bir neçə söz demək istərdik.

Bütün dünyanın, xüsusilə Vətənimizin keçirdiyi siyasi vəziyyət içində millətimizin seçmə övladları sayılan münəvvər gənclərimizin Azərbaycanı buraxıb da qürbət diyarlara taxılmalarını istiqlaliyyət dostu olan heç bir kimsə, təbii, arzu edə bilməz.

Əgər bu gün bu əfəndilərin Avropaya getmələrinə qərar verilmişsə və hökumətin bu barədə etdiyi fikir təsdiqlənmişsə, demək, millət özünün bir məcburiyyət qarşısında olduğunu hiss etmiş və tələbələrin təhsillərini tamamlamaq üçün Avropaya getmələrinə böyük umudlar bəslədiyindən ona razılıq vermişdir.

Həqiqətən, Azərbaycan Cümhuriyyəti Avropanın müxtəlif guşələrinə yüz kişi göndərməklə bir çox faydalar əldə edə biləcək.

Vətəndən ayrılacaq bu əfəndilər bir neçə ildən sonra Avropanın mədəni və mütərəqqi millətləri mühitində müxtəlif ixtisaslar qazanmış, haman millətlərin tərəqqi və mədəniləşmələrinə səbəb olan amilləri bir-bir tədqiq etmiş və Avropada mövcud millətpərəst və vətənpərəstlik şüarının yüksəklikləri sayəsində bir azərbaycançı, bir türkçü sifəti ilə Vətənə dönəcək və topladığı məlumatı millət arasında yayaraq azəri Türkləri arasında da bir çox fikirlərin oyanması ilə Azərbaycanın mədəniləşməsinə, təbii, yardım edəcəklər.

[1] İngiltərə, Fransa və İtaliya dövlətləri.

[2] *«Азербайджан»*, 24.XI.1919, № 249.

Digər tərəfdən, Avropanın müxtəlif guşələrində gənclərimizin varlığı yeni istiqlaliyyət qazanmış Azərbaycan üçün bir canlı reklam surətini alacaq.

Avropaya göndərilən tələbə əfəndilər zamanın ciddiliyini və millətin onlardan gözlədiyi umudları nəzərə alaraq özlərinə indidən bir məqsəd qəbul edib, daim onun ardınca qaçmalı və hər bir iş və hərəkətlərində hamıdan artıq Azərbaycan istiqlaliyyətini və türklüyün şanının artmasını düşünməlidirlər.

Hər bir tələbə təhsil alacağı məmləkətdə təhsillə bərabər, öz millətinin varlığını, azəri Türklərinin də özünüidarəyə bacarıqlı olduqlarını və istiqlal yolunda onun bütün var-yoxdan keçməyə hazır olduğunu o məmləkətin ictimai fikrinə anlatmaq, Azərbaycanın istiqlal tarixini və istiqlaliyyət uğrunda gördüyü işlərini yaymaq, düşmənlərimizin əleyhimizə çıxardıqları böhtan və iftiraları təkzib edərək, o məmləkətin ictimai fikrini lehimizə çevirmək vəzifələri ilə görəvlidir.

Bu göstərdiyimiz fikrin qüvvədən felə çıxması elə ağır bir şey deyil. Bunun üçün Avropa dillərinə bələd olmaq şərt deyil, çünki Avropa mətbuatının Azərbaycana dair Türk [dilində], yaxud rusca yazılmış bütün sənəd və məqalələri böyük məmnuniyyətlə qəbul edəcəyini düşünürük. Əlbəttə, bunların tələbələrimizin deyil, siyasi nümayəndələrimizin öhdələrinə həvalə olunması daha doğrudur. Ancaq Azərbaycanda ziyalı sinfi məhdud olduğuna görə başqa məmləkətlər kimi biz Avropanın mühüm mərkəzlərinə siyasi nümayəndələr göndərməyi hələ bacarmadıq. Bu tələbələrimiz təhsil zamanı qeyri-rəsmi nümayəndəlik vəzifəsini də ifa etmələri lazım gəlir. Avropaya gedəcək tələbələrimizin həm təhsil, həm də bu yolda var qüvvələriylə çalışacaqlarına əmin olaraq onlara bir daha müvəffəqiyyətlər arzu edirik".[1]

12 dekabr 1919-da Komissiya dövlət təqaüdçüləri sırasına 100 nəfər götürməyi qərara aldı. İnflyasiya olduğuna görə 400 frank əvəzinə 500 frank, eləcə də paltar almaq üçün 200 frank vermək qərarlaşdırıldı. Maliyyə Nəzarəti gedənin hər birinə 2.600 frank ödədi.[2]

18 dekabrda həm türkcə, həm də rusca "Azərbaycan" qəzetləri 100 tələbənin siyahısını dərc etdi.[3]

Hər iki qəzetdəki ad-soyadları ortaq məxrəcə gətirərək (türkcə qəzetdəki yazılışa üstünlük verməklə) və tələbələrin atalarının adlarını da artıraraq *hökumətin elan etdiyi 100 təqaüdçünün yekun siyahısını* oxucuların işini asanlaşdırmaq üçün əlifba sırasıyla ilk dəfə ən kamil şəkildə təqdim edirik:

1. Abdinov Mirzə Bəhram [Əliövsət oğlu]
2. *Abdullayev Ağaəli [Məşədi Rəsul oğlu] (getmədi)*
3. Ağabababəyov-Muğanlinski Adil bəy [Abbasəli bəy oğlu]
4. [Ağabababəyov-] Muğanlinski Əsildar bəy [Abbasəli bəy oğlu]
5. Ağasıbəyov Yusif [bəy Süleyman bəy oğlu]
6. Axundov İsmayıl [Əbdülxalıq oğlu]

[1] *"Azərbaycan"*, 11.12.1919, № 342, s. 3.
[2] *Нагдали А.* Народное образование в Азербайджанской Республике (1918-1920 гг.), ss. 178-179.
[3] *"Azərbaycan"*, 18.12.1919, № 347, s. 5; *«Азербайджан»*, 18.12.1919, № 274, s. 3.

7. Axundzadə Səməndər [Axund Zəki oğlu]
8. Aslanov Teymur bəy [Zəkəriyyə bəy oğlu]
9. Atamalıbəyov Abbas bəy [Seyfulla bəy oğlu]
10. Bağırlı Abdulla [Sadıq oğlu]
11. Bosnalızadə Məhəmmədrəşid [Mustafa oğlu]
12. Cabbarov Əliəkbər [Kərbəlayı Məhəmmədəli oğlu]
13. Cavanşir Əbdülhəmid [Həmid oğlu]
14. Cəfərov Əliyusif [Məşədi Abutalıb oğlu]
15. Dagirov Zaur bəy[1] [Yusif bəy oğlu]
16. Dursunzadə Məhəmmədzəki [Dursun oğlu]
17. Əbdülzadə Əbdül [Kərbəlayı Abbas oğlu]
18. Əbdürrəhmanov Ağacəfər[2] [Məşədi Səftər oğlu]
19. Əfəndiyev Abdulla bəy [Molla İbrahimxəlil oğlu]
20. Əfəndiyev Məhəmmədəmin ağa [Hüseyn əfəndi oğlu]
21. Əlimuradov Cavad[3] [Cümşüd bəy oğlu]
22. Əliyev Abbasmirzə [Əhməd oğlu]
23. Əliyev Əliəkbər [Qəhrəman oğlu]
24. Əliyev Əşrəf [Ağaəli oğlu]
25. Əliyev Firidun [Əzim oğlu]
26. *Əliyev Qambay (getmədi)*
27. Əliyev Zeynal bəy [Kərbəlayı Hacıağa bəy oğlu]
28. Əmircanov Əliyar [bəy Hacı bəy oğlu]
29. Əmirov Humbay [bəy Abbas bəy oğlu]
30. Əşrəfov İsrafil [İsmayıl oğlu]
31. Hacı Həsən oğlu Sadəddin
32. Hacıyev Bayram [İbrahim oğlu]
33. Hacıyev Xasfolad bəy [İsmayıl bəy oğlu]
34. Hacıyev Məhəmməd bəy [Kərim bəy oğlu]
35. Hacızadə Mirzə [Məşədi Yusif oğlu]
36. Həsənov Əlimuxtar [Yaqub oğlu]
37. Həsənov Rzaqulu [İsmayıl oğlu]
38. Hüseynbəyov Zeynalabdin bəy [Adil bəy oğlu]
39. Hüseynov Əlihüseyn [Ağahüseyn oğlu]
40. Hüseynov Salman [Hüseyn oğlu]
41. Hüseynzadə Bəhram bəy [İsmayıl bəy oğlu]
42. Xələfbəyov Məhəmməd bəy [Xələf bəy oğlu][4]
43. Xiromanov Zəkəriyyə [Əbdülhəmid oğlu]

[1] Qəzetdə: Zahir bəy.
[2] Qəzetdə: Cəfər.
[3] Oxumağa onun yerinə qardaşı Cəmil gedib.
[4] Qəzetdə: Xələfbəyov Məhəmməd Əli bəy oğlu.

44. *İmanov Ərəstun (getmədi)*
45. İsgəndərli Ağalar [Məşədi Abbasqulu oğlu]
46. Kazımov Cəfər [Hacı Əliəsgər oğlu]
47. Kərimov Əli [Məşədi Xasbulat oğlu]
48. Qaracəmirlinski Məcid bəy [Qasım bəy oğlu]
49. Qədimov Lətif [Şirin oğlu]
50. Quluyev Mirzəhüseyn [Hənifə oğlu]
51. Məhəmmədov Ağababa [Əliəsgər oğlu]
52. Məhəmmədov Hüseynbala [Cəfərqulu oğlu]
53. Məhəmmədov Qəhrəman [İsrafil oğlu]
54. Məhəmmədov Nəbi [Nəsib oğlu]
55. Məhəmmədov Zal [Məşədi Cavad oğlu]
56. Məhəmmədyarov Əbdüssəməd [Əbdülbağı oğlu]
57. *Mirabdullayev Miryusif [Seyid Cənab oğlu] (getmədi)*
58. Mirqasımov Abdin [Mirəliəsgər oğlu]
59. *Mirzəbəyli Əliəkbər bəy (getmədi)*
60. Muxarski Süleyman [Bəkir oğlu]
61. Muradov Abbas [Həmid oğlu]
62. Muradov Məhəmməd bəy [Fərhad bəy oğlu]
63. Musayev Cəmil [İbrahim Tahir oğlu]
64. Mustafayev Ağacəfər [Kərbəlayı Əbdülbağı oğlu]
65. Mustafayev Ağahəsən [Manaf oğlu]
66. Mustafayev Mustafa [Molla Hacı Rəhim oğlu]
67. Münşizadə Hilal [Mirzə Məhəmməd oğlu]
68. Nağıyev Hüseyn [Hacı Musa oğlu]
69. Nəbiyev Mahmud [Əbdürəhim oğlu]
70. Nərimanbəyov Yaqub bəy[1] [Əmir bəy oğlu]
71. Rəcəbov Əhməd [Məşədi Cabbar oğlu]
72. Rəhimov Abdulla [Məhəmməd oğlu]
73. Rəhimov Cəbrayıl [Məhəmmədrza oğlu]
74. Rəhimov Məhəmmədəli [Paşa oğlu]
75. Rzayev İsgəndər [Mirzə Cabbar oğlu]
76. Rzayev Nüsrət [Rza oğlu]
77. Rzayev Tağı [Kərbəlayı Əsgər oğlu]
78. Sadıqov Mirsadıq [Seyid Kamil oğlu]
79. Salahzadə Yusif [Məşədi Hüseyn oğlu]
80. Seyidəliyev Mirməhəmmədrza [Mirabutalıb oğlu]
81. Seyidzadə Mirismayıl [Seyid Əhməd oğlu]
82. Səfərov Məhiş [Məşədi Hacı oğlu]
83. Səlimov Hüseynqulu [Yusif oğlu]

[1] Oxumağa onun yerinə qardaşı Fərman bəy gedib.

84. Sultanov Baxşəli bəy [İsmayıl bəy oğlu]
85. Sultanov İsgəndər [bəy Rüstəm bəy oğlu]
86. Şahnəzərov Əhməd [Hədis oğlu]
87. Şahsuvarov Mürsəl [Adilxan oğlu]
88. Şahsuvarov Surxay [Əzim oğlu]
89. Şıxıyev Hüseyn [Mustafa oğlu]
90. Tahirli Abdulla [Mabud oğlu]
91. Temirxanov Murad [bəy Məhəmmədzübeyir bəy oğlu]
92. Topçubaşov Rəşid bəy [Əlimərdan bəy oğlu]
93. Vəkilov Mustafa [ağa Məhəmməd ağa oğlu]
94. Vəkilov Teymur bəy [Məhəmməd ağa oğlu]
95. Vəlizadə İsgəndər [Məşədi Mahmud oğlu]
96. Vəzirov Aslan [bəy Zeynalabdin bəy oğlu]
97. Yusifzadə Ağaəli[1] [Mirzə Cəlal oğlu]
98. Yüzbaşınski İsmayıl [Qafur oğlu]
99. Zeynallı Məhəmmədhənifə [Baba oğlu]
100. Zeynalov Behbudəli [Məşədi Həmid oğlu].

"Azərbaycan" qəzetində siyahının sonuna belə izahat və bildirişlər də artırılıb:

"1) Maarif naziri həzrətlərinə ixtiyar veriliyor ki, yol məsarifinin lazım olduğu qədər yolpulunu artırıb və ya əksiltsin.

2) İqtisadi şəraitin hal-hazırda ağır olmasına görə aylıq maaş 100 franka qədər artırılıb, 400 frank əvəzinə 500 frank verilsin.[2]

3) Əlbəsə və qeyri əşya almaq üçün tələbələrə birdəfəlik 200 frank verilsin.

Hökumət tərəfindən Qərbi Avropaya ezam edilən tələbələrin Bürosu bütün istipendiyaçılara elam ediyor ki, onlar ayın 20-sinə kibi Bakıya toplanıb və Büroda qeyd edilməlidirlər (Naberejni küçə, Mirbabayevin evi).

Hökumət tərəfindən Qərbi Avropaya ezam edilən tələbələrin nəzəri-diqqətinə:

Bütün yoldaşlara bildiriliyor ki, manufakturun[3] *pulunu vermiş şəxslər cümə günü, 19 kanuni-əvvəldə*[4] *Müsəlman Tələbələri Komisyası binasında saat 10-dan 3-ə qədər manufakturu ala bilərlər.*

Pul verməyənlər tez zamanda verməlidirlər ki, getmək işləri təxirə düşməsin".[5]

Bu başdan bildirək ki, bu siyahı dərc edildikdən sonra da orada dəyişikliklər baş verib – oradakılardan 5 təqaüdçü müxtəlif səbəblər üzündən gedə bilməyib və onların yerinə namizədlərdən 5 nəfər göndərilib (bu haqda az sonra dəqiq bilgilər veriləcək).

Ərəb qrafikasında olduğuna və yaxşı xətlə yazılmadığına görə indiyədək araşdırmalardan qırada qalmış çox önəmli bir sənəd yoləncəsi görülmüş işlər, eləcə də göndəriləcək

[1] Qəzetdə: Əli.

[2] Sonrakı sənədlərdən görəcəyimiz kimi, tələbələrə 500 frank təqaüd vermək mümkün olmayıb.

[3] Parçanın.

[4] Dekabrda.

[5] *"Azərbaycan"*, 18.12.1919, №347, s. 5.

abituriyent və tələbələr arasında hökm sürən psixoloji gərginlik və s. haqqında aydın təsəvvür yaradır. Əhəmiyyətini nəzərə alaraq dilini bir qədər sadələşdirməklə bəlgəni burada bütünlüklə veririk. Bu, 22 dekabr 1919-cu ildə axşam saat 5:30-da tələbələrin müvəqqəti Bürosu iclasının stenoqramıdır. İclasın sədri Mustafa ağa Vəkilov, katibi Mirzeynalabdin Mirqasımovdur.

"Teymur bəy Aslanovun məruzəsi:

–Yol xərcini artırmaq, yaxud əskiltmək məsələsi Maarif Nəzarətinin rəyinə qalmışdır. Bu da tələbənin gedəcəyi yolun uzaq-yaxınlığına görədir. Zənnimcə, yol xərci artırılır ki, əskilməz.

Qısa müddət içərisində çox böyük işlər görülmüşdür. Bakıda pasportlar hazırlanmış, fransızcaya tərcümə edilmişdir. Parça malı alınmış, əcnəbi missiyaların[1] adına kağızlar yazılmışdır. Burada üzvlərə istinadən müsamirə[2] haqqında bir şey söyləyə bilməyəcəyəm, çünki burada deyildim.

Tiflisə getdikdən sonra İsveçrə nümayəndəsindən cavab olub-olmadığını soruşdum. Əvvəla, cavab olmadığını söylədi. Arxadaşlar, burada qəbahətin böyüyü başda olanlarımızdadır, çünki Xariciyyə Nəzarətimiz bu xüsusda əcnəbi missiyalara bir parça kağız belə yazmamışdır. Nəticədə İsveçrədən cavab alınmayacağını bildim. Sonra Fransa nümayəndəsinə müraciət etdim, halı anlatdım. O, çox yaxşı bir yüzlə məni qəbul etdi və dəftərxanasına əmr verdi və az zamanda kağızlarımızı hazırlatdırdı.

Sonra İtaliya nümayəndəsinə müraciət etdim və o, Tiflisdəki İtaliya konsuluna bizim ricalarımızın gerçəkləşdirilməsini söyləmişdir. 2 saat içində pasportlar hazırlanmış, sonra hərbi nümayəndə öz razılığını vermişdir. Bundan başqa, Uordropa[3] müraciət etdimsə də özü qəbul etmədi. Katibi qəbul etdi və ingilis əks-kəşfiyyatına müraciət edilməsini söylədisə də mənim xahişimlə özü telefonla danışdı və buna görə də mister Havuz məni qəbul etdi.

Bayaqdan ərz etdiyim kimi, Fransa İtaliyadan icazə almışdır. Rəsmən hər pasportdan on frank alınırdı. Ancaq tələbə olduğumuz üçün bizdən viza üçün ikişər frank alacaqlarını vəd etdilər. Mister Havuzun razılığı olduğunda Batum general-qubernatoru bizə izn verəcəkdir. Mister Havuz bizi Türkiyəyə buraxa bilməyəcəyini söylədi. Ancaq bizim işimizi daha çətinləşdirən Brenştaynın bizim siyahılar arasında olması idi, çünki Brenştaynın getdiyini gördükdə Havuzun halı aşkar surətdə dəyişdi və buna görə bizim işlərimizi Batum general-qubernatoruna buraxacağını söylədi, halbuki bu, büstübün rədd cavabı demək idi. Buna görə siyahıları geri aldım, oradan Brenştaynın adını sildim. Sonra Fransa, İngiltərə, İtaliyaya gedilməsinə bir əngəl olmadığını söylədi və razılığını yazdı.

Bunlardan sonra Almaniyaya, İsveçrəyə gedənlər üçün təkrar İsveçrə nümayəndəsinin yanına getdim. Bu dəfə cavab alınmayacağını və [səbəbin] bundan ibarət olduğunu söylədi: "Məlumatınız açıq olmadığına və onlar arasında bəzi şəxslər olduğuna görə onları ərazimiz daxilinə buraxa bilmərik". Bir çox müzakiratdan sonra İsveçrə nümayəndəsi müsyö Meyyer "İtaliya missiyası tranzitə razı olursa mən də razı oluram" dedi. Buna görə Qabbaya[4]

[1] Diplomatik nümayəndəliklərin.

[2] Yoxsul tələbələrin xeyrinə keçirilmiş xeyriyyə müsamirəsi nəzərdə tutulur.

[3] *Oliver Uordrop* – Böyük Britaniyanın Qafqazda ozamankı səlahiyyətli nümayəndəsi.

[4] İtaliyanın Qafqazdakı ozamankı hərbi missiyasının başçısı.

müraciət etdim, çox gözəl surətdə qəbul etdi və razı oldu. [Tələbələrin] Almaniyaya göndərilməməsini nazirə[1] söyləməmi rica etdi. Nazirlə telefonla görüşdüm, nazir də yerdə qalanların Fransaya, İtaliyaya, İngiltərəyə getmələrini söylədi.

İndiki halda Meyyer getmişdir və yerində kim oturacağını özündən soruşduğumda o, bu haqqını kimsəyə verməyəcəyini söylədi.

Görürsünüz, arxadaşlar, bütün yuxarıda ərz etdiklərimə görə Almaniyaya gediləsilər, mənim fikrimcə, yerdə qalanlar da Fransa, İngiltərə, İtaliyaya gedənlər arasına yazılmalıdır. İngiltərəyə gedənlər üçün Fransadan tranzit haqqı alınmışdır.

Sonra məruzəçi gedənlərin siyahısını oxuyur.

Bundan sonra Aslanovun məruzəsi haqqında söz, söyləmək istəyənlərə verilir.

Məruzəçiyə verilən suallar:

Əliyev:[2] Kağızlar yenə də geriyə götürüləcəkmi?

Məruzəçi: Tiflisə götürülməyəcəkdir.

[Yusif bəy] Ağasıbəyov: İngiltərə, Fransa, İtaliyaya gedənlərə icazə veriləcəkmi (yerdə qa[lanlara])?



Tələbələrin müvəqqəti Bürosunun iclasından stenoqram (ARDA, fond 895, siyahı 1, iş 180, vərəq 1). 22 dekabr 1919-cu il

Məruzəçi: Maneçilik olmayacaqdır.

Rzaqulu Həsənov: Türkiyəyə gedilməməsinə səbəb nədir?

Məruzəçi: Siyasidir, kimsəyə söylənilməz.

[Hüseyn] Şıxıyev: Gürcülər getmişlərmi? İtaliyaya gediləcəyi təqdirdə Almaniyaya bir il gedilə bilirmi?

İsmayılov:[3] Almaniyaya, İsveçrəyə gedənlər Fransaya, İngiltərəyə, İtaliyaya gedə bilirmi?

Məruzəçi söylədiklərini təkrar edir.

[?]: Fransa, İtaliya və İngiltərəyə gedənlər isə ixtisaslarını dəyişdirə bilərmi?

Məruzəçi: Xeyr.

Ağasıbəyov: Yerdə qalanlar yalnız Fransaya gedə bilməzlərmi?

Məruzəçi: Siyasət üzündən bunların üç məmləkət arasında bölünmələri lazımdır.

Zeynal Əliyev: Məsələnin tez həll edilməsini istəyirəm.

Məruzəçi: Nazirin dediyinə görə, "maneçilik olursa Fransa və İtaliyaya İngiltərəyə gedən[lər] yazılsınlar" söyləmişdi.

[1] Azərbaycanın maarif nazirinə.

[2] Bu soyadla bir neçə tələbə olduğuna görə sual veräni dəqiqləşdirmək mümkün olmadı.

[3] "100 tələbə" içərisində "İsmayılov" soyadlı adam yoxdur. Bizcə, bu, İsmayıl Axundovdur.

[Ağalar] İsgəndərli: Yerdə qalanlar İtaliyaya, Fransaya, İngiltərəyə getmək istədiklərini anlatmaq [?],[1] [məsələnin həllinin] təxirini İsveçrədən cavab gəlincəyə qədər buraxmalı.

İsmayıl Axundov: Əgər gözlənirsə çox uzun sürəcək.

Rəis müzakirəni kəsməyi səsə qoyur.

Teymur [Aslanov]: Natiqlər söylədikdən sonra iclası kəsməyi təklif edirəm.

Bu, qəbul olunur.

Abbas[mirzə] Əliyev: Yerdə qalanlar iki gündə haraya gedəcəklər?

Bundan sonra məruzə haqqında söz söyləmək istəyənlərə soruşdu.

Mirqasımov: Arxadaşlar, necə ki arxadaşımız Teymur Aslanovun dediyindən anlaşıldı, Fransa, İtaliya, İngiltərəyə gedənlər üçün icazə alınmışdır. Mən icazə alınan tələbəyə dekabrın iyirmi altısı üçün pasportlarının ver[ilməsini] və hazırlanaraq getmələrini təklif edirəm. Əvvəlcə də burada dediyimiz kimi, paroxodda yalnız otuz yer vardır. Demək ki, texnika səbəblərinə görə də 100 tələbənin bir arada getməsi qeyri-mümkündür. Buna görə yenə təkrar edirəm: icazələri alınan tələbə[lər] birinci qrup təşkil edərək getsinlər, çünki əgər təxirə düşərsə bəlkə bu il təhsilə getmək mümkün olmasın. *(Gurultu-patırtı, "getməsinlər" sədaları eşidilir).*

[?]: Bəzi texnika səbəblərinə görə istər dəmiryolu ilə, istər vapur ilə hamımız bir yerdə gedə bilmərik. Buna görə də əvvəldə həll olunmuşdu ki, tələbələr qrupla getsinlər. İcazəsi alınan 40 kişidən getmək istəməyənlər qala bilirlər. *(Gurultu-patırtı bir qədər davam edir).* Ancaq rica edirəm şəxsiyyətə girişilməsin. *(Yenə çılğıncasına gurultu-patırtı eşidilir).* "Siz gedirsiniz, ancaq bizi haraya buraxırsınız" deyirlər, halbuki bu o qədər də doğru deyildir. Hüquqən bizim haqqımız vardır, fəqət biz sizdən mənən də yardım göstərməyinizi istəyirik.

Söz söyləmək istəyənlərə üç dəqiqə vaxt verilməsi istənilir. Teymur bunun əleyhinə söz söyləyir.

[?]: Natiqlərin çox olduğunu söyləyir. Bunun üçün də "üç dəqiqə vaxt kafidir" deyir.

Rəis iclasın kəsilməsini səsə qoyur.

2 səs iclası kəsmək tərəfdarı, 20 səs iclası kəsməmək tərəfdarıdır. Natiqlərin nə qədər vaxt söyləyə bilmələri səsə qoyulur. [?] dəqiqə üçün 26 səs lehinə, [?] dəqiqə üçün 4 səs lehinə.

[?] mənəviyyata keçir, birlik haqqında danışır. Almaniyaya, İsveçrəyə gedənləri gözləyəkmi, gözləməyəkmi? Təkrar birlikdən danışır: Nə şərtlərlə birlik edək? Gedənlərin namusuna toxunursa qalsınlar. Məmləkət dəyişməklə ixtisası dəyişmədiyi kimi, şərtlər də dəyişmir. Texnikaya görə tələbənin hamısının bir yerdə getmələri mümkün olmadığından əgər biz gedənləri geri qoyarsaq bəlkə onlar da heç gedə bilməsinlər. Halbuki biz əgər beş adam da getsək qazanırız. Mənim təklifim budur ki, gedənlər üçün çalışılsın.

[?]: Dörd-beş gün də gözlənilməsini istəyir.

[?]: Əgər icazə alanlar 1-ci qrup ilə gedərlərsə yerdə qalanların vəziyyəti dəyişəcək. Teymurun işi bildiyinə görə başqasına qalırsa 15 günə bəlkə olmaz və buna görə hamısının bir yerdə getməsini istəyirəm. Yerdə qalanların hansı məmləkətə bölünməsi məsələsinin isə Büroya həvalə edilməsini istəyirəm.

[?]: [Dekabrın] 28-də gedilməsi mümkündürmü?

[1] Bundan sonrakı söz(lər) vərəqin tikiş yerinə düşdüyünə görə oxunmadı. Bu sənəddəki başqa oxunmayan sözlər də [?] ilə işarə olunub.

[?]: Əlimuxtarın dediyinə tərəfdaram. Birinci qrupa ayrılmasını təklif edirəm. Getmək istəyənlərə qarşı burada çox ağır sözlər dedilər. Mən də bu fikirdəyəm ki, getmək istəyənlər vicdanlarına müraciət etsələr, təbii, getməməlidirlər. Fəqət təəssüf ki, qalanlara icazə almaq bir çox vaxt istəyəcəkdir. Yerdə qalanların da getmələrinin Büroya buraxılmasını istəyirəm.

Ağasıbəyov: Məncə, getmək istəyənlər getməyənləri gözləsinlərmi, gözləməsinlərmi, bu haqda danışmaq istəmirəm, çünki bu məsələnin həlli büsbütün getmək is[təyənlərə] aiddir – onlar özləri bu məsələni həll etməyə haqlıdırlar. Yerdə qalanların hansı məmləkətə getmələri işinin həlli isə Büroya buraxılmasın, özləri bunu həll etsinlər. Əgər hamısı Fransaya getmək istərlərsə püşk çəkilsin, kim haraya düşərsə oraya getsin.

Əliyev III:[1] Teymurun icazələri alınmayan tələbə üçün icazə alınıncaya qədər burada [?] təklif edirəm. Arxadaşların hamısı burada olduğu üçün bu xüsusda fikirlərini söyləmələrini təklif edirəm.

İsmayıl Axundov: Mən icazələri alınan tələbənin getməmələri tərəfdarıyam, çünki onlar bundan öz şəxsi mənfəətlərini düşünürlər və digər arxadaşları nəzərə almırlar. Mən arxadaşlıq naminə bütün tələbələrin həp bir yerdə getməsini istəyirəm. Qrup ilə gedilirsə yerdə qalanlar üçün bəlkə 2-3 ay vaxt istər[?], gedərlərsə yerdə qalanların işi çox çətin olur.

[Cəfər] Kazımov: Görünür ki, burada 2 cərəyan vardır: biri getmək istəyənlər, [biri də] onları buraxmamak istəyənlər. Əsasa baxsaq 2 cərəyan ikisi də [haqlıdır], çünki 2 tərəf də tez getmək istəyir. Məncə, Teymur burada müsav[?]. Əgər o, Tiflisdə İsveçrəyə, Almaniyaya izn verilmədiyi vaxtda bu məmləkətlərə getmək istəyənləri Fransa, İngiltərə, İtaliyaya yazmış olsaydı indi hamımızın icazəsi alınmış olardı. Teymur gərək bir gün də qalaydı, yerdə qalan 3 məmləkət arasında bölərdi. Heç bir vaxt ayrı ged[ilməsin]. Hamımız igirmi səkkizində Tiflisə gedək və orada işlərimizi bitirək.

Teymur: Arxadaşlar mənə səhlənkarlıq etdiyimi söyləyirlər. Bu, səhlənkarlıq deyil, çünki bu ixtiyar yoxdu. Çünki ilk dəfə belə hərəkət etdiyim üçün burada çox rahatsız etdilər. 28-ində hamımızın getməmizə bir vəsiqə almaqçün on gün lazım olacağını söyləyirəm. Hətta hamımız gedərsək bir gündə vəsiqələri alacağımız qeyri-mümkündür. Mən sizə söz verirəm ki, mən heç vaxt özümü bu və ya o qrupa [daxil] etmədim. Mən hamımızın bir yerdə Tiflisə getməsi tərəfdarı deyiləm, çünki əgər 10 gün də qalsaq fransız, ingilis missiyaları buna heç [razılaşmaya]caqlar. Buna görə mən işlərin tez getməsi üçün arxadaşlardan öz siyahılarını vermələrini rica edirəm. Mən 12-13 gündən çox çalışdım.

(Bu arada bir çok təkliflər verilir. Hətta bəziləri oxuyur da. Sonra bir çox gurultu-patırtı olduğundan bir qədər tənəffüs edilməsi qərara alınır).

10 dəqiqə tənəffüsdən sonra məclis açılır.


[Teymur]: Seçilən Büro öz vəzifəsini ifa etmişdir. Parça alınsın, sabah pullar verilsin. Çay, şəkər alınmışdır. Yoxsul tələbələrin mənfəətinə müsamirə verilmişdir, hər pasport üçün pul verilsin. Kasıb tələbələr nağd ianə almaq üçün Büroya ərizə versinlər.

[?]: Bezin[2] gec alınmasının səbəbini söyləyir, sabaha umud edir.

[1] "Əliyev" soyadlı 4 Cümhuriyyət tələbəsi var: Abbasmirzə, Əliəkbər, Əşrəf, Firidun. O dönəm sənədlərindəki sıralamada onlardan hansının 3-cü olması bəlli deyil.

[2] Tələbələrə kostyum tikmək üçün alınmış parçadan danışılır.





Hər bir dövlət təqaüdçüsünün AC Xalq Maarif Nəzarətinə verdiyi dilkağızına örnəklər (ARDA, fond 51, siyahı 3, iş 112, vv. 6, 7)

[İsgəndərli]: Tələbənin Büroya gəlib qeyd olunmaları haqqında qəzetdə elan olunmuşdur. Yoldaşların sonraya qalıb yazılmalarını rica edirəm. Xariciyyə Nəzarətində Azərbaycan haqqında məlumat toplanılır.

[?]ov: Getmək istəyən tələbə bizi gözləsinlərmi, gözləməsinlərmi? Bunun səsə qoyulmasını istəyirəm. Əgər iş burada qalsa təkliflərini geri götürürlər.

[Rəis] Axundovun təklifini oxuyur: *"Резолюция [Исмаила] Ахундова: Выслушав доклад Т.Асланова от [имени] студентов мусульман в Запад[ную] Европу, общее собрание вынесло следующую резолюцию:*

1) В интересах товарищеской этики и до разрешения судьбы оставш[ихся] товарищей отвергнуть отъезд части студентов.

2) Предложить бюро распределить между странами остающую гр[уппу]".[1]

Təklif səsə qoyulur: Lehinə 31 səs, əleyhinə 9 səs, bitərəf qalanlar 8 səs.

[Mirqa]sımovun təklifi oxunur. Təklif: Fransaya, İngiltərəyə, İtaliyaya gedənlərin madam ki, icazənamələri alınmışdır, onlar [get]sinlər, çünki bu vaxta qədər gördüyümüz kimi, əgər məsələni təxirə uğradarsaq bəlkə ola bilsin ki, bu il də təhsilə gedə bilməyək. Məncə, bunlar birinci qrupa daxil edilsinlər. İcazələri alınmayanlar da 2-ci qrupu təşkil edərlər.

Bu təklif səsə qoyulur: lehinə 9 səs, əleyhinə 31 səs, bitərəflər 7 səs.

Ağasıbəyov: Məncə, bu məsələ gedənlərə aiddir. İş təxirə düşməsin deyə əleyhinə səs [?]. Bunun təklifi oxunur. Təklif budur: İcazələri alınanların [dekabrın] 26-da getsinlərmi, getməsinlərmi? – bu məsələ büsbütün onların özlərinə aiddir, həllini onların özlərinə buraxılmasını təklif edirəm. Yerdə qalanların hansı məmləkətə getməsi Büroya buraxılmayaraq, tələbənin özlərinə buraxılsın. Yalnız əgər hamısı Fransaya getmək [istərsə] o vaxt püşk çəkilsin, kim haraya düşərsə oraya gedər.

Bu təklif səsə qoyulur: lehinə 17 səs, əleyhinə 5 səs, bitərəf 18 səs.

Axundovun təklifinin ikinci qismi oxunur: *"Предложить бюро распределить между странами остающую группу".*

Lehinə 24, əleyhinə 7, bitərəf qalanlar 10 səs. Demək, sondakı təklif keçir.

Əlimuxtar: Aldığım məlumata görə, gedənlərdən 20-si getmək istəyir, məclis [buna] necə baxır? *(Ortadan səslər: "eyib olsun", "eyib olsun").*

[1] Tərcüməsi: *" [İsmayıl] Axundovun qətnaməsi: Qərbi Avropaya gedən müsəlman tələbələr adından T.Aslanovun məruzəsini dinləyərək ümumi yığıncaq bunu qərara aldı: 1) Yoldaşlıq münasibətlərinin mənafeyi baxımından və yerdə qalan yoldaşların taleyi həll edilincəyə qədər tələbələrin bir qisminin getməsi dayandırılsın. 2) Qalan tələbələri ölkələr arasında bölüşdürmək Büroya təklif edilsin".*

Kazımov: Eşidilən sözlər müfsidlikdir[1]. *(Сплетни).*

Rəis: Spravoçniki kim götürmüşsə qaytarsın [?].

İsmayıl Axundov: Nümayəndə gedəcəkmi, getməyəcəkmi soruşur.

Rəis: İcazələri alınanlar toplaşsınlar. Gedəcəklərmi, getməyəcəklərmi?

İsmayıl Axundov: Gedənləri tənqid edir. *(Səslər gedənləri tənqid edir).*

Rəis: Əfəndilər! Sükut etmənizi rica edirəm.

Teymur: Bir qrup getmək istəyir. Bu, qanunidirmi?

Axundov: Rica edirəm, Büro getmək istəyənlərə mane olmaq üçün nə edəcəkdir və bunları necə mövqeyi-icraya qoyacaqdır?

Teymur: Əfəndilər, burada ümumi iclasda əksəriyyət icazələri alınanların [getməməsini] qərara almışdır. Hər halda bunun üçün Büro lazımi tədbirləri görəcək və Büro bundan məsuldur, çünki ümumi iclasın verdiyi qərarı [icraya] felən məcburdur. Buna görə siz Bürodan əmin ola bilərsiniz. Hətta [lazım] gəlsə getmək istəyənlərin pasportlarını vermərik və onları bu surətlə getmə[məyə] məcbur edərik.

Rəis: Büronun rəisi məsuliyyəti üzərinə alır və getmək istəyənlərin paspo[rtlarını] verməyəcəyini söyləyir.

Teymur: Rəis məclisi apara bilmir. Demək, hamımız bu məclisin qərarına [tabe] olacağımız lazım olduğunu təkrar söyləyirəm".[2]

Sənəddən göründüyü kimi, hamının bir yerdə gedib-getməməsi məsələsi ciddi müzakirə mövzusuna çevrilb. Ancaq o da anlaşılır ki, təqüdçülərin dekabrın 26-sında yola çıxması da ciddi təkliflər arasında olub. Bu isə gərəkli sənədlərin vaxtında əldə edilə bilməməsi üzündən baş tutmayıb.

23 dekabr 1919-cu ildə "Azərbaycan" qəzetində Fərhad Ağazadənin "Avropaya gedən tələbələrin Azərbaycana töhfələri" adlı çox dəyərli bir məqaləsi dərc edilib.[3] Müəllif göstərir ki, Şərqin ən dəyərli qədim maddi abidələri və əlyazma əsərləri Avropanın mərkəzi şəhərlərinin muzey və kitabxanalarındadır (F.Ağazadə onların bir çoxunu sadalayır). Onları öyrənmək üçün indi bizim mütəxəssis göndərmək imkanımız yoxdur. Avropaya gedəcək tələbələrimiz bizlərə məxsus həmin əsərlərin surətini çıxarıb bizə gətirsinlər. Məqalə bu cümlələrlə bitir:

"İştə Avropaya əzimət edən tələbələrə "Allah yaxşı yol versin" deyib də millət naminə bircə təmənna edə bilərik: "Qardaşlar! Bu zikr edilmiş əsərlərdən bizə bir sovqat gətiriniz. Qarınca kibi hər yerdən Vətənimizə bir şey toplayınız. Bu şeylər cəmləyib sonra mükəmməl tariximizi, əhəngki qəvaidimizi,[4] dəbdəbəli ədəbiyyatımızı yapaq, daha doğrusu, yenidən icad edək. İcad edib də mədəniyyətə doğru həvəsli bir millət olduğumuzu Avropaya sübut edək!".[5]

1919-cu ilin ilk ongünlüyündə artıq bütün dövlət təqaüdçüləri üçün xarici viza alınmışdı və 11 dekabr 1919-cu ildə onlara xarici pasportlar verilmişdi. Xaricə getmək istəyənlərin

[1] Şayiədir.

[2] ARDA, fond 895, siyahı 1, iş 180, vv. 1-6.

[3] *Ağazadə F.* Avropaya gedən tələbələrin Azərbaycana töhfələri. //*"Azərbaycan"*, 23.12.1919, 351, ss. 4-5.

[4] Qaydalarımızı.

[5] *Ağazadə F.* Avropaya gedən tələbələrin Azərbaycana töhfələri. //*"Azərbaycan"*, 23. 12.1919, 351, s. 5.



[Axundzadə] Səməndər Axund Zəki oğluna verilmiş vəsiqənin əsli (ailə arxivindən)

Maarif Nəzarətinə avqust-noyabr aylarında verdikləri sənədlərin əsli də dekabrda son siyahı dərc edildikdən sonra, oxuyacaqları dövlətdə ali məktəbə təqdim etmək üçün onlara qaytarılmışdı (AR Dövlət Arxivində onların yalnız surəti saxlanılır).

Xalq Maarif Nəzarəti xaricə oxumağa göndəriləsi təqaüdçülərdən, Azərbaycana qayıdıbişləməkhaqqındadilkağızı–iltizamnamə alırdı. 1919-cu ilin sentyabrınadək alınmış dilkağızlarında "ali təhsilimi bitirdikdən sonra Azərbaycan Cümhuriyyətinin hüdudunda 2 ildən az olmamaqla işləməyi öhdəmə götürürəm" sözləri öz əksini tapmışdısa, dekabrda verilən dilkağızlarında "əcnəbi ali məktəblərdə ali təhsilimi bitirdikdən sonra "Azərbaycan Parlamanının 1 sentyabr 1919-cu ildə qəbul etdiyi qanunun 2-ci maddəsinə əsasən, hökumətin göstərdiyi yerdə 4 (dörd) il qulluq etməyi öhdəmə götürürəm" yazılırdı. Dövlət təqaüdü kəsilmiş bütün tələbələrin arxivdəki şəxsi işində bu cür sənəd var.

Dövlət təqaüdçülərindən ikinci bir dilkağızı da alınıb. Dekabr ayında onlar söz veriblər ki, "Azərbaycan Xalq Maarif Nəzarətinin təqaüdçüsü kimi ali təhsil almaq üçün göndərildiyim dövlətin ərazisində heç bir siyasi və partiya işlərinə qarışmayacağam".[6] Bu məzmunda dilkağızları tələbələrin arxivdəki şəxsi işlərində sayca çox azdır.

Xaricə yola salınan bütün təqaüdçülərin hər birinə 13 yanvar 1920-ci ildə üstündə fotosu yapışdırılmış, maarif naziri əvəzi N.b.Şahsuvarov və dəftərxana müdiri F.b.Rzabəyovun imzaladıqları bu məzmunda bəlgə verilmişdi: *"Bu, Filankəs Filankəs oğlu Filankəszadəyə ona görə verilib ki, onu Azərbaycan Cümhuriyyətinin Hökuməti dövlət hesabına xaricə ali təhsilini bitirmək üçün göndərir və bu, imza ilə və dövlət möhürünün basılması ilə təsdiqlənir".*[7] Demək olar ki, bütün təqaüdçülərin şəxsi işində həmin sənədin surəti qalmaqdadır.

13 yanvarda artıq hər bir təqaüdçü bu sənəddən başqa, xarici pasportunu və oxuyacağı ali məktəbə təqdim edəcəyi sənədlərini də (orta təhsil haqqında şəhadətnamə, doğum haqqında şəhadətnamə və b.) özüylə götürmüşdü...

[6] Məsələn, İsmayıl Axundovun verdiyi dilkağızına baxılsın: ARDA, fond 51, siyahı 3, iş 47, vərəq 7.

[7] Səməndər Axundzadə həmin sənədi əziz xatirə kimi kimsəyə vermədən özü ilə vətənə qaytarıb və özəl arxivində qoruyaraq saxlayıb.

6. Bakı – Tiflis – Batum – Trabzon – İstanbul – Trento – Neapol – Roma – Paris – Bazel – Berlin

Dövlət təqaüdçülərinin Azərbaycandan haçan çıxmaları haqqında indiyədək elmi ədəbiyyatda dəqiq bilgi verilməyib. Doğrudur, bu əlamətdar hadisənin 1920-ci ilin yanvar ayında baş verdiyi qaynaqların çoxunda göstərilib, ancaq hansı günün olması barədə, demək olar ki, hamısı susur. İndiyədək yazılanlardan həm də elə anlaşılır ki, guya bütün təqaüdçülərin hamısı bir günün içində gedib, halbuki belə deyil.

Təqaüdçülərin 24 nəfərlik ilk dəstəsi Bakıdan 14 yanvar 1920-ci ildə (çərşənbə günü) yola salınıb. Bu, Cümhuriyyətin 23 aylıq ömrünün ən fərəhli günlərindən biridir. 12 yanvarda Parisdə Müttəfiq Dövlətlərin Ali Şurası Azərbaycan Cümhuriyyətini bilfel (de-fakto) tanımış, bu xəbər bayram edilmiş və 14 yanvar Azərbaycanda qeyri-iş günü elan olunmuşdu. Dövlət təqaüdçüləri Türkiyə və Qərbi Avropaya məhz belə bir bayram ovqatında yola salınmışdılar. Həmin gün onların uğurlandığı Bakı vağzalında nələr yaşandığını mətbuat səhifələrindən izləyə bilirik.

Türkcə "Azərbaycan" qəzeti:

"Kanuni-sanin[1] *14-də axşam saat 9-da Azərbaycan Türk tələbələrinin 24 nəfərdən ibarət birinci dəstəsi Batuma yola düşdü.*

Tələbələri istasyonda müşayiət üçün qohum və əqrəbalarından başqa, Parlamanın Müsavat və sosialist fraksiyası nümayəndələri, məsaf naziri Əhmədcövdət əfəndi [Pepinov], Məhəmmədəmin Rəsulzadə, bir çok siyasi və ictimai təşkilatlar tərəfindən nümayəndələr hazır idilər.

Yola düşməzdən əvvəl əzimət edəcək tələbələr masa başına toplandılar. Salman Mümtaz əfəndi məclisi açıb, birinci sözü Məhəmmədəmin Rəsulzadə əfəndiyə verdi.

Məhəmmədəmin əfəndidən sonra sosyalistlər tərəfindən [İbrahim] Əbilov, Müsavat tərəfindən Hüseyn Mirzəcamalov, "Yaşıl qələm" dərnəyi tərəfindən Salman Mümtaz əfəndi, Türkçü Tələbələr Komitəsi və "Bəsirət" qəzetəsi namından Məhəmmədzadə Mirzəbala nitqlər irad etdilər.

Sonra Abbasqulu Kazımzadə, Ağamalıoğlu Səmədağa, Əhməd Pepinov dəxi tələbələrə nəsihətdə bulundular.

Tələbələrdən Zəki Pepinov[3] *və gənc şairimiz Əli Yusif əfəndi*[4] *cavabən niqtlər söyləyib məclisi bitirdilər.*

Tələbələr vağona binərkən səmimi qucaqlaşmalar, öpüşmələr ilə ayrıldılar.

Qatar hərəkət edərkən tələbələr Azərbaycan bayrağı çıkarıb tar və nəğmə tərənnümü altında "Yaşasın Azərbaycan" deyə yola düşdülər.

Allah səlamət versin!".[5]

[1] Yanvarın.

[2] Əmək.

[3] Əhmədcövdət Pepinovun kiçik qardaşı olan Zəki Pepinov bu vaxt ali məktəb tələbəsi idi, ancaq o, Cümhuriyyət tələbələri içərisində yoxdur.

[4] Ağaəli Yusifzadə.

[5] *"Azərbaycan"*, 16 kanuni-sani (yanvar) 1920, № 13, s. 3.



Salman Mümtaz

Rusca "Azərbaycan" qəzetində bu haqda xəbər 17 yanvar 1920-ci ildə dərc edilib. Orada oxuyuruq:

"14 yanvarda sürətli qatarla tələbələrin ilk dəstəsi xaricə getdi. Qatar axşam saat 8:48 dəqiqədə tərpənməli idi. Saat 7-dən vağzala əsasən tələbələri yola salan çoxlu adam toplaşmışdı. Vağzala Parlaman üzvləri M.Rəsulzadə, İ.Əfəndiyev, S.Ağamalıoğlu, A.b.Səfikürdski, A.Kazımzadə və Hökumət üzvü Ə.Pepinov da gəlmişdilər. İkinci dərəcəli zalda yola düşən tələbələrə çay verildi. Burada vida nitqi ilə M.Rəsulzadə, Azərbaycan sosial-demokrat partiyası adından İ.Əfəndiyev, sosialist-inqilabçıların "Xalqçı" partiyası adından A.b.Səfikürdski, Ağamalıoğlu, Piri Mürsəlzadə, A.Kazımzadə və b. çıxış etdilər.

Natiqlərin çıxışlarının məğzi gələcək tələbələrə əcnəbi ali məktəblərdə təhsillərini uğurla başa vurmaq və Vətənə döndükdən sonra bu bilikləri ziyalı işçilərə çox ehtiyacı olan doğma dövlətin çiçəklənməsi uğrunda sərf etmək arzularından ibarətdi. Hökumət adından Ə.Pepinov çıxış edərək tələbələri əmin etdi ki, hökumət tələbələrin xaricdə təhsillərini başa vurmasından ötrü lazım olan heç bir xərcdən çəkinməməyi qərara alıb.

Çaydan sonra tələbələr onlar üçün özəl hazırlanmış vaqonda yerləşdilər. Platformada yola salan çoxdu. Vaqonun qapıları Azərbaycan bayraqları ilə bəzədilmişdi. Hamının kefi kökdü. Vaqondan tar sədaları və "Segah" səsi gəlir. Üçüncü zəng çalınır. Tar səsləri altında qatar yerindən tərpənir. Gedənlər və qalanlar arasından sevincli səslər ucalır: "Yaşasın Azərbaycan!"[1]

Türkcə "Azərbaycan" qəzeti 18 yanvar tarixli sayında bu hadisə ilə bağlı başqa bir xəbər də yerləşdirib:

"Avropaya təhsilə gedəcək tələbələr içərisində "Yaşıl qələm" dərnəyinin fəal və çalışqan üzvlərindən Əli Yusif və Hənifə Zeynallı ilə bərabər, bir neçə sair, gənc ədəbiyyat maraqlılarının şərəfinə olaraq "Yaşıl qələm" heyəti-idarəsi tərəfindən kanuni-saninin[2] *13-də bir çay məclisi tərtib edilmişdi. Çay məclisində "Yaşıl qələm" üzvləri ilə bərabər, bir çok ədəbiyyat maraqlıları, Osmanlı şair və mühərrirlərindən Feyzulla Sacid və Rəşid Sürəyya bəylə arkadaşları və möhtərəm Məhəmmədəmin Rəsulzadə həzrətləri də hazır idilər.*

Məclisi "Yaşıl qələm" üzvü, şair Salman Mümtaz əfəndi idarə ediyordu. Müfariqət edəcək[3] *yoldaşların ünvanına bir çok nitqlər söyləndikdən sonra məclisin ricasına görə Əli Yusif əfəndi yeni yazmış olduğu "Aras" mənzuməsini okudular. Sonra Feyzulla Sacid bəy, doktor Rəşid Sürəyya, Salman Mümtaz əfəndi kəndi əşarlarından*[4] *bir neçəsini okudular. Böyləliklə, çay məclisi gecə saat 12-də bitdi.*

Sabahısı – kanuni-saninin 14-də "Yaşıl qələm" dərnəyi üzvləri kəndi arkadaşlarını müşayiət və son vida etmək məqsədi ilə istasyonda hazır bulunmuşlardı. Salman Mümtaz əfəndinin ciddü cəhdi sayəsində mütəfərriq surətdə bulunan[5] *30 nəfər tələbə bir araya toplanmış, "Yaşıl qələm" dərnəyinin məsarifətiylə*[6] *böyük bir ustol açılaraq çaylar içilmiş, yenə nitqlər söylənmişdir.*

[1] *"Азербайджан"*, 17.01.1920, № 11, s. 3.
[2] Yanvarın.
[3] Ayrılıb gedəcək.
[4] Şeirlərindən.
[5] Ayrı-ayrılıqda olan.
[6] Xərciylə.

Saat 9-da tren Batuma mütəvəccehən[1] *hərəkət etmişdir".*[2]



Əhmədcövdət Pepinov

Yazıçı Manaf Süleymanovun qeydləri 14 yanvar günü vağzaldakı olayların mənzərəsini daha da genişləndirir, qəzetlərdəki bilgini tamamlayır. O, özünün sovet dönəmində qələmə aldığı məşhur "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" əsərində yazır:

"...1920-ci ilin yanvar ayında tələbələr xarici ölkələrə yola düşürdülər. Gedənləri yola salmaq üçün stansiyaya çoxlu adam: qohum-əqrəba, yoldaşlar və tanışlar, elm-mədəniyyət xadimləri, ədiblər, şairlər, müxtəlif partiyaların nümayəndələri gəlmişdi. Onlar vağzalın böyük salonunda toplaşmışdılar. Balaxana məktəbinin müəllimi Seyid Bağır Axundzadə ayağa durub dedi: "Cavanlar, siz xaricə oxumağa yüz nəfər yollanacaqdız, çox təəssüf ki, yoldaşınız Miryusif Mirabdullazadə həyata vida etdi..."...

Səmədağa Ağamalıoğlu ilə bərabər İbrahim Əfəndiyev, Əhməd Pepinov və başqaları da məclisdə iştirak edib tələbələrə nəsihət, məsləhət verdilər. Məclisə tar və kamança çalan, bir də xanəndə Cabbar Qaryağdıoğlu dəvət olunmuşdu. Böyük salon musiqi tərənələrinə, Cabbarın ecazkar, əfsanəvi əhənginə darısqallıq edirdi.

Ədəbiyyatşünas Salman Mümtaz qürbətə gedənlərin şərəfinə çay-şirniyyat-meyvə süfrəsi açdı.

Səmədağa Ağamalıoğlu gedənlərə nəsihət etdi, bol-bol elm, mədəniyyət, texniki fənn ləvazimatı gətirməyi tapşırdı.

Nitqlər söyləndi, xoş arzular dilədi. Qurban Pirimov tar, Saşa Oqanezaşvili kamança çalır, Cabbar Qaryağdıoğlu vaxtaşırı oxuyurdu.

Məclisdə çox xoş bir əhvali-ruhiyyə vardı. Lakin dünyanın bu qarmaqarışıq vaxtında Vətəndən, qohum-əqrəba və dostlardan ayrılmaq, övladı uzaq, qürbət ellərə yola salmaq intizarı üzlərdə oxunurdu.

Vida məclisində Səmədağa Ağamalıoğlu maraqla danışırdı: "Tiflisdə Seym iclasında məndən soruşdular ki, bu inqilabın axırı nə olacaq? Hərçənd ki, gələcək barədə söz deyənlərin çoxunun yalanı çıxıb, amma indi deyirəm ki, hərdən qaz yumurtalarını bir toyuğun altına qoyurdular, gələcəkdə o yumurtalardan qaz cücələri çıxırdı, su görən kimi yüyürüb özlərini tullayırdılar suya, qırt toyuq özünü itirirdi, o yan-bu yana qaçıb hərdən qaqqıldayırdı..."[3]*.*

Məclisdə olanlar güldülər. Səmədağa Ağamalıoğlu sözünə davam etdi: "Baxın, indi biz də bu hürriyyət yumurtalarını qoymuşuq burjuyların altına və bunlar da çırtlayıb çıxanda qırt... qırt... qartıldayacaq, ördək təki qaçıb özlərini atacaq bizim hürriyyət nohuruna. Qırt toyuqlar – burjuylar nə qədər qırt-qırt edib qanad çalacaqsa heç bir şey çıxmayacaq... Bu azərbaycanlı cavanlar gedir oxumağa, təhsil alıb qayıdanda bizə, xalqa qulluq edəcəklər...".

Stansiyada zəng çalındı. Parovoz uzun, sürəkli xəbərdarlıq fiti verdi. Həyəcan daha da artdı, gedənlər də, qalanlar da üzüntülü dəqiqələr keçirirdilər, gözlərdə yaş, dodaqlarda həzin bir təbəssüm vardı. Astadan səslər eşidilirdi: "Tezliklə məktub yaz!", "Özündən muğayat ol!",

[1] Üz tutaraq.
[2] "Yaşıl qələm"də. *//"Azərbaycan"*, 18 kanuni-sani (yanvar) 1920, №14, s. 3.
[3] Əsər sovet dönəmində yazıldığına görə müəllif yalnız S.Ağamalıoğlunun çıxışını verib.



Piri Mürsəlzadə

"Dərslərində diqqətli ol!", "Qürbət eldə xoşrəftar ol!", "Həftədə çox yox, heç olmasa bir sətir yaz!".

Tarzən birdən "Orta Mahur" çalmağa başladı, gözəl xanəndənin ilhamı coşqun dəniz təki tələtümə gəldi.

Şəbi-hicran yanar canım,
Tökər qan çeşmi-giryanım...
Oyadar xəlqi əfqanım,
Qara bəxtim oyanmazmı...

Hamı ayağa qalxdı...

Tələbələr qohum-əqrəba, valideynləri ilə vidalaşıb vaqonlara doluşdular.

Musiqi təranələri altında qatar stansiyadan yavaş-yavaş ayrıldı.

Pəncərələrdən yaylıqlar göyərçin qanadları təki yellənirdi. Göz yaşları ilə əzizlərini yad diyarlara yola salanlar da əlləri ilə, yelləndikləri yaylıqlarla vida salamı göndərir, onlara uğurlu yol diləyirdilər".[1]

Göründüyü kimi, bu yazıların heç birində Məhəmmədəmin Rəsulzadənin nitqinin məzmunu verilməyib, M.Süleymanov isə kommunistlərin qorxusundan heç onun adını belə çəkməyib. Bu haqda yalnız İsmayıl Saryalın "Bakı rüzgarı" kitabından öyrənə bilirik. O, xatirələrində yazır:

"Vağzalda Məhəmmədəmin Rəsulzadə bəy bizlərə çay ziyafəti verdi. Qısa nitqində "Sizə yaxşı yol diləyirəm. Gülə-gülə gedin, ancaq gəlirkən yabançı gəlin gətirməyin" dedi".[2]

Təqaüdçülərin ikinci və böyük dəstəsi yanvarın 16-sında cümə günü yola düşüb. Türkcə "Azərbaycan" qəzeti 18 yanvar sayında bugünkü yolasalmanı belə təsvir edir:

"Srağagün axşam Bakı stasyonu Avropaya gedən tələbələr və bunları müşayiətə gələn əhali ilə məmlu idi. Bu münasibətlə əvvəlcə stasyon ötəsində zurnalar çalınıb şadlıqlar edilməkdə idi. Trenin yola düşməsinə bir qədər qalmış tələbələri müşayiətə gələnlər bir araya cəm olub nitqlər söyləmək xahişində olduqlarından, möhtərəm şairlərimizdən Salman Mümtaz əfəndini sədr intixab edərək nitqə başlayırlar. Piri Mürsəlzadə, Zəki Pepinov, Salman Mümtaz əfəndi və başqaları nitqlər söyləyiyorlar. Sonra trenin yola düşmək vəqti yetişdiyindən, tələbələr onları müşayiətə gələnlər ilə görüşməyə başlayıb, əlvida edərlər. Tələbələrin əlində Azərbaycan bayrağı olduğu və "Yaşasın Azərbaycan!" sədaları altında tren yola düşüb, hazirun zurna çalqılarıyla evlərinə qayıdarlar".[3]

Təqaüdçülərin bugünkü gedişi haqqında rusca "Azərbaycan"da yalnız bircə cümləlik xəbər verilib: *"Bu gün saat 8:48 dəqiqədə tələbələrin ikinci və sonuncu dəstəsi xaricə göndərilir".*[4]

Görkəmli Azərbaycan diplomatı Ramiz Abutalıbov isə tələbələrin Avropaya yola salınmasını belə təsvir edir:

"...Onları Bakıda təntənə ilə və cah-cəlalla yola saldılar. Yolları üstündə – Kürdəmirdə, Hacıqabulda, Yevlaxda, Gəncədə... adamlar yola saldıqları öz gənclərini salamlayır, onlara uğurlar arzulayırdılar...

[1] *Süleymanov M.* Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı, 1996, ss. 333-336.

[2] *Saryal İ.* Bakü rüzgarı, s. 97.

[3] Bakı xəbərləri. Avropaya gedən tələbələrin əzimәti.// *"Azərbaycan"*, 18 kanuni-sani (yanvar) 1920, №14, s. 3.

[4] *"Азербайджан"*, 16.01.1920, № 10, s. 4.

Tiflisdə gənc azərbaycanlılar üçün Batuma getməkdən ötrü özəl vaqon ayrılmışdı. Sonra İstanbul, Azərbaycan səfirliyində hərarətli qəbul. Oradan gənclərimizi Gürcüstan səfirliyinin əməkdaşlarının qarşıladığı Romaya. Nəhayət, 11 fevralda 78 gələcək tələbə (qalan gənclər Rusiya və Türkiyəyə oxumağa göndərilmişdi) Parisə, Lion vağzalına yetişir. Parisdəki Azərbaycan Heyətinin əməkdaşları onları "Belmon" və "Yena" adlı iki mehmanxanada yerləşdirir".[1]

Azərbaycan Cümhuriyyətinin xalq maarif naziri Həmid bəy Şahtaxtinski 16 yanvar 1920-ci ildə Parisdəki Azərbaycan Sülh Heyətinin sədri Əlimərdan bəy Topçubaşova aşağıdakı 657 saylı məktubu göndərib:

"Bu məktuba 1 sentyabr 1919-cu il qanununa[2] *əsasən dövlət hesabına təhsilini başa vurmaq üçün 1919/20-ci dərs ilində xaricə oxumağa göndərilən 78 abituriyent və tələbənin siyahısını da qoşaraq və həmin şəxslərə yuxarıda sözükeçən qanuna uyğun olaraq Bakı şəhərindən çıxdıqları gündən yolpulu ödənildiyini və 1 fevral 1920-ci ilədək xərclik verildiyini bildirərək Sizdən xahiş edirəm ki, göndərilənlərin uyğun ali məktəblərə yerləşdirilməsi və ümumən adıçəkilən yurddaşlarımıza xaricdə yaxşı yaşam şəraitinin yaradılması qayğısını öz üzərinizə götürməkdən imtina etməyəsiniz. Göndərilənlərə dərs ilinin sonunadək lazım olan zəruri frank məbləği ən yaxın vaxtda köçürüləcək. Siyahıda adı keçən şəxslərdən [Abbas bəy] Atamalıbəyov, [Rəşid bəy] Topçubaşov artıq Parisdədir və onlara çatacaq pulu və bu ilin 1 fevralınadək hesablanmış xərcliyin məbləği səkkiz qəbzdə buraya əlavə edilir. Dövlət hesabına göndərilənlərdən başqa, üç nəfər də öz hesabına gedir (siyahının sonunda göstərilib). Göndərilənlərin ali məktəblərə gerçək qəbul vaxtı və ümumən onların xaricdəki yaşam tərzi haqqında Nəzarətə vaxtaşırı bilgi verməyinizi xahiş edirəm".*[3]

Ertəsi gün – 17 yanvar 1920-ci ildə Xalq Maarif Nəzarəti nazir müavini Nurməhəmməd bəy Şahsuvarovun imzasıyla "İstanbulda Azərbaycan Hökuməti Diplomatik Missiyasının c-b nümayəndəsinə" (Yusif bəy Vəzirova) təxminən eyni məzmunlu 662 saylı məktub göndərdi. Burada Türkiyəyə oxumağa göndərilmiş 9 nəfərin siyahısı verilir və qeyd olunur ki, siyahıda adları çəkilən Sədi Hacı Həsən oğlu və Abdulla Tahirov artıq İstanbuldadır, qalanları Türkiyəyə getmək üçün 16 yanvardan Bakıdan çıxıblar. 7 nəfərə isə yolpulları və bu ilin 1 fevralınadək xərclik verilib. İstanbuldakı Sədi Hacı Həsən oğlu və Abdulla Tahirova gəlincə, onların hər birinə çatası 3 min frank dörd köçürmə biletində onlara göndərilir.[4]

Bu məktubda bildirilir ki, Türkiyəyə göndərilən tələbələrin dolanışığı üçün 1 fevraldan tədris ilinin sonunadək ən yaxın vaxtda Sizin sərəncamınıza zəruri məbləğ göndəriləcək ki, onları aybaay tələbələrə verəsiniz. Nəzarətə öz fotosunu təqdim etməmiş Sədi Həsən oğlundan başqa, siyahıdakı bütün tələbələrə Bakı şəhər rəisi xarici pasportlar verib.

Nazir əvəzi[5] daha sonra göstərir ki, Qərbi Avropaya dövlət hesabına göndərilən 78 nəfərin içərisində Məhəmmədrəşid Bosnalızadə də var. Onun Fransaya göndərilməsi nəzərdə tutulub. Bu məqsədlə o, İstanbulda oxuduğu universitetdən lazımi sənədlərini geri almaq üçün hələ keçən ildən oraya gedib və Fransaya yollanmaqdan ötrü vəsait gözləyir.

[1] *Абутальбов Р.* Годы и встречи в Париже, ss. 70-71.

[2] Bir daha xatırladırıq ki, bu, qanun yox, qərar idi.

[3] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 1.

[4] Yenə orada, vərəq 5-5a.

[5] Nazir müavini N.b.Şahsuvarov nazirin yerinə imzaladığı sənədlərə "nazir əvəzi" kimi qol çəkirdi.

Bunu nəzərə alaraq Nəzarət Sizə həmin tələbə üçün 3000 frank göndərir, bu pulu gecikmədən ona çatdırmağı, onu Fransaya göndərməyinizi[1] və bu haqda Parisdəki Azərbaycan Sülh Heyəti sədrinə məlumat verməyinizi xahiş edirik.[2]

Məktubun sonunda nazir əvəzi N.Şahsuvarov xahiş edir ki, Türkiyəyə göndərilmiş tələbələrin ali məktəbə haçan girmələri və onların xaricdəki həyat tərzi haqqında Nəzarətə vaxtaşırı məlumat verilsin.[3]

Nurməhəmməd bəy Şahsuvarov tələbələrlə bağlı bütün bu və başqa sənədləri 17 yanvar 1920-ci ildə 663 saylı məktubu ilə birlikdə xariciyyə nazirinə (F.x.Xoyskiyə) göndərərək xahiş edir ki, bunları təcili şəkildə İstanbuldakı Azərbaycan Hökuməti Diplomatik Missiyasının nümayəndəsinə çatdırsın və təqdim edilmə tarixini ona bildirsin.[4]

N.b.Şahsuvarovun xariciyyə nazirinə həmin gün göndərdiyi 661 saylı məktub məzmunca çox maraqlıdır. Xalq Maarif Nazirliyi (XMN) ali təhsil almaq üçün xarici ölkələrə göndərilən bütün tələbələrin siyahısını təqdim edərək xəbər verir ki, onlar artıq Bakı şəhərindən çıxıblar. F.x.Xoyskidən xahiş edilir ki, onun tabeliyində olan bütün diplomatik missiyalara və şəxslərə siyahılardakı tələbələrin ali məktəblərə girməsi və onların xaricdə ən münasib şəkildə yerləşdirilməsi, eləcə də onlar üzərində hökumət nəzarətinin təmin edilməsi üçün göstəriş versin və bunun nəticələri haqqında XMN-i vaxtaşırı bilgiləndirsin.[5]

O dönəmdə ölkələrarası yazışmaların durumu haqqında oxucuda təsəvvür yaratmaq üçün bir faktı nəzərə çatdırmaq istəyirik. Azərbaycanın Xariciyyə Nəzarəti 10 mart 1920-ci ildə Xalq Maarif Nəzarətinə aşağıdakı məzmunda 1606 saylı bir məktub göndərib:

"Builki 17 yanvar tarixli 662 saylı məktubunuzla bağlı olaraq Xariciyyə Nəzarəti İstanbuldakı Diplomatik Missiyamızın bilgilərinə əsasən xəbər verir ki, məktubda göstərilmiş frank qəbzləri tələbələr Sədi Hacı Həsən oğlu, Abdulla Tahirov və Məhəmmədrəşid Bosnalızadəyə verilib, onların qəbzləri alması haqqında dilkağızları Missiyanın dəftərxanasındadır".[6]

Başqa sözlə, Xariciyyə Nəzarəti 17 yanvardakı məktuba yalnız 7 həftədən sonra – 10 martda cavab yaza bilib! Əlbəttə, bu qədər ləngimədə Xariciyyə Nəzarətini suçlamaq, onu səhlənkar, bacarıqsız saymaq əsla mümkün deyil – təqsirkar cahan savaşıyla yenicə üzüləşmiş bütün dünyada hələ də hökm sürən anarxiya və hərc-mərcliyin qlobal rabitə

[1] Səlahiyyətli nümayəndə Yusif Vəzirov 25 mart 1920-ci ildə maarif nazirinə yazıb: "Tələbə Məhəmmədrəşid Bosnalızadə Sizin məktubunuz alınanadək Fransaya gedib" (bax: ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 49).

[2] Xariciyyə Nəzarəti dəftərxanasının direktor müavini Sulkeviç Xalq Maarif Nəzarətinə göndərdiyi 10 mart 1920-ci il tarixli 1606 saylı məktubunda bildirir ki, İstanbuldakı diplomatik missiyamız xəbər verir ki, göndərdiyiniz frank qəbzləri tələbələr Sədi Hacı Həsən oğluna, Abdulla Tahirova və Məhəmmədrəşid Bosnalızadəyə təqdim edilib və qəbzlərin götürülməsi haqqında onların dilindən alınmış kağızlar Missiyanın dəftərxanasındadır (bax: ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 30). Ancaq sonralar A.Tahirzadə (Tahirov) bu pulların onlara verilmədiyini bəyan edib (A.Tahirzadənin tərcümeyi-halına bax).

[3] XN Dəftərxanası 15 mart 1920-ci ildə 1719 saylı məktubla bildirib ki, göndərilmiş 7 tələbə artıq İstanbul Universitetinə müxtəlif fakültələrə yerləşdirilib və onlar bugünlərdə məşğələlərə başlayacaqlar, ancaq İstanbulda bahalıq olduğuna görə təqaüdlərin artırılmasını və başqa aylar üçün də təcili göndərilməsini xahiş edirlər (bax: ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 38).

[4] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 7.

[5] Yenə orada, vərəq 8-8a.

[6] Yenə orada, vərəq 30. Məktub Maarif Nəzarətində 12 mart 1920-ci ildə qeydə alınıb.



Oxumağa göndərilən tələbələr "Frans İosif" paroxodunda. *Soldan sağa:* Əliəkbər Əliyev, Məhəmməd Xələfbəyov (Mahmudov). 1920



Oxumağa göndərilən tələbələr "Frans İosif" paroxodunda. *Soldan sağa:* Əli Kərimov, Əliəkbər Əliyev, Adil bəy Ağabababəyov-Muğanlinski. 1920

sisteminə də mənfi təsir göstərməsidir.[1] Tələbələrimizin öz hökumətləri və hökumətin də öz tələbələriylə əlaqəsi də bu qeyri-normal şəraitdə davam edir, bundan da ən çox, sözsüz ki, tələbələr əziyyət çəkirdi, çünki onlar göndəriləsi təqaüdlərini vaxtlı-vaxtında ala bilmirdilər.[2]

18 yanvar 1920-ci ildə maarif nazirinin ünvanına Teymur Aslanovdan teleqram gəlib ki, ümumi heyətlə gedən 18 tələbəni saxlayıblar, biletləri olmadığına görə onları Batuma buraxmırlar. Bundan sonra nə baş verdiyini, ümumən Tiflisdən İstanbuladək səfərin macəralarını T.Aslanovun 23-25 yanvar arasında İstanbuldan maarif nazirinin müavini Nurməhəmməd bəy Şahsuvarova rusca yazdığı maraqlı məktubdan öyrənirik:

"Şərait indiyədək elə idi ki, Sizə yazmağa imkan tapmadım. Tiflisə bazar günü gəldik, heç nə edə bilmədik, ertəsi gün də xaç suyuna salma ("kreşeniye") günü idi. Bəzi şəxslər üçün icazə almaq lazım idi, ancaq bütün bu əngəllərə baxmayaraq hamısını ala bildik. Vaxtımızın çoxu Batumda saxlanılmış yoldaşlarımıza getdi. İş burasındadır ki, biz Bakıdan çıxanda Yollar Nəzarətindən əlimizdə heç bir sənəd yox idi. Bir vaqondan başqa, ümumi heyətdə 18 tələbə İtaliyaya gedirdi ki, onlar bizi gözləmədən hərəkət edərək Batuma çatıblar. Bu vaxt bizim vaqonu onların qatarından ayırmışdılar. Nəticədə Batumda onlardan yol-pulu ödəməyi tələb ediblər və tələbələrimiz bundan boyun qaçırıblar, buna görə də hər şeyi aydınlaşdıranadək onları tutub saxlayıblar. Mən teleqram alan kimi Sizi xəbərdar etdim və özüm Tiflis stansiyası rəisinə müraciət etdim, o, Gürcüstan yolları rəisinə xəbər verdi və bunun nəticəsində həmin rəis onların buraxılmasını əmr etdi. Biz icazə aldıqdan sonra Batuma getdik. Elə həmin gün[3] *buradan ən böyük İtaliya paroxodu*[4] *gedirdi. Biz öncədən Tiflisdə*

[1] Deyilənə əyani bir örnək: Parisdəki Azərbaycan Sülh Heyətinin başçısı Əlimərdan bəy Topçubaşov AC Baş nazirinə yazırdı: *"Oktyabrın 9-da kuryer sifətində Abbas bəy Atamalıbəyov xanımı ilə birlikdə gəldi. Onlar yola düz əlli gün vaxt sərf etmişdilər. Uzun müddət Romada ləngimali olmuşdular, çünki fransızlar ölkəyə giriş vizası vermirdilər"* (bax: *Topçubaşov Ə.b.* Paris məktubları, s. 86).

[2] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 12.

[3] 20 yanvar 1920-ci ildə.

[4] Batum – Trabzon – İstanbul – Trento yoluyla üzən həmin paroxodun adı "Frans İosif" idi (bax: Əliyev Abbasmirzə Əhməd oğlunun öz əli ilə yazdığı izahat. //AR MTN arxivi, PR-22247, vərəq 17).

İtaliyadan keçib getmək üçün sənədlər almışdıq, çünki 24 yerin ayrıldığı fransız paroxoduna yerləşəcəyimizi düşünməmişdik. [Batuma] çatan kimi bilet almağa, çekləri xırdalamağa və b. başımız qarışdı. Bizdən vəbaya qarşı peyvənd etdirməyimiz haqqında sənəd istədilər, bunu biz hamımız Batumda etdirdik. Ümumən bəxtimiz yaxşı gətirdi. Hamı üçün bilet tapdıq.[1] *Agentlik bizim qəbzləri qəbul etdi. İtalyanların münasibəti gözlədiyimizdən qat-qat yaxşı oldu və bütün bunlar c-b Qabbanın münasibətinə görə idi. İtaliya Hərbi Missiyasının başçısına Xalq Maarif Nəzarətinin açıq məktubu, yaxud təliqəsi ilə bizim minnətdarlığımızı bildirməyinizi xahiş edərdik. Şübhəsiz, Siz mənim vəziyyətimi təsəvvür edirsiniz, çünki hər şey 3 günün içində baş verib və buna görə də Sizə yaza bilməmişəm.*

XX yüzilin mədəni barbarlarının ayağının dəydiyi Trabzonda[2] *olduq. Orada məscidlərdə at saxlayıblar, tonqal qalayıblar və s.*

İndi biz İstanbulda karantindəyik. Hamımız özümüzü yaxşı, gümrah hiss edirik. Yoldaşlarımız tar çalır və oxuyurlar. Bizi paroxodda yaxşı yediriblər".[3]

Məktubunun sonunda T.Aslanov bütün tanışlara: Fətulla bəyə, Kondratyevə, Azad bəyə və Rəsul əmiyə səmimi ehtiram və salamlarını yetirir. Xatırladaq ki, burada adı çəkilən Fətulla bəy Rzabəyli (1885-1968) nəzarət dəftərxanasının direktoru, M.V.Kondratyev onun müavini,[4] Azad bəy Əmirov (1889-1939) nəzarətin şöbə müdiri işləyirdilər. "Rəsul əmi" isə, çox güman ki, nəzarətin məsul işçisi Rəsul bəy Tahirovdur (1871-1925).

İstanbula tələbələr cümə günü (23 yanvarda) çatıblar və burada üç gün qalıblar. İlk gün onları dəstə-dəstə gəzintiyə aparıblar. Onlar şəhərin Bəyoğlu, Qalata körpüsü, Ayasofya və Sultan Əhməd cameləri kimi görməli yerlərini gəziblər. İsmayıl Saryal yazır ki, "İstanbulun işğal altında olduğunu öyrəndik, ancaq küçələrdə bir dənə də yabançı əsgərə rast gəlmədik".[5]

Axşam 20-25 tələbə "Türk Ocağı"nın dəvətlisi olaraq tar və dəflərini də götürərək oraya gedib. İ.Saryal o anları belə xatırlayır:

"Mən də qrupda vardım. Salona yerli Türk qardaşlarımızın sonugəlməz alqışları altında girdik. Salonun səhnəsindən Ocaq başqanı Həmdullah Sübhi Tanrıöver bəy[6] *qarşılama nitqinə bu cümlə ilə başladı: "Qardaş Azərbaycanın gənc övladlarını candan salamlayıram. Sizləri bağrıma basmaqla duyduğumuz mutluluq sonsuzdur. Öz məmləkətinizə xoş gəldiniz".*

Tortla çaylar içilərkən yerli Türklər səhnədə xor halında şərqilər söylədilər və şeirlər oxudular. Bizim şair yoldaşımız Yusif[7] *də iki şeirini oxudu və çox alqışlandı. Salonda olan hər kəs mutlu idi".*[8]

[1] İ.Saryalın bildirdiyinə görə, bu italyan paroxodunda (vapurunda) 86 tələbə Batumdan İstanbula yollanıb (bax: *Saryal İ.* Bakü rüzgarı, s. 97).

[2] Trabzon 1916-cı ilin aprelindən 1918-ci ilin martınadək rus işğalı altında olub. T.Aslanov bunu nəzərdə tutur.

[3] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 27-28a.

[4] Yenə orada, vərəq 22.

[5] *Saryal İ.* Bakü rüzgarı, s. 99.

[6] Professor *Həmdullah Sübhi Tanrıöver* (1885-1966) Türkiyənin görkəmli dövlət adamlarından biridir. 35 yaşında millət vəkili olub. Mətbuat və istixbarat genəl müdiri, milli təhsil naziri, Türkiyənin Buxarestdə səfiri, fasilələrlə 34 il (1912-1931; 1949-1959; 1961-1966) Türk Ocağının genəl başqanı işləyib.

[7] Fransada oxumuş (Ağa)əli Yusifzadə nəzərdə tutulur (haqqında bu kitabdakı tərcümeyi-halına bax).

[8] *Saryal İ.* Bakü rüzgarı, s. 99



Əlimərdan bəy Topçubaşov



Məhəmməd Məhərrəmov



Abbas bəy Atamalıbəyov



Həmdullah Sübhi Tanrıöver

İstanbuldan Berlinədək olan səfərin incəliklərini, əsasən, İsmayıl Saryalın əsərindən öyrənirik. Nazirliyə göndərilmiş hesabat şəklindəki tələbə məktublarında xırdalıqlara varmaq mümkün deyildi, ancaq İ.Saryal şəxsən özünün keçdiyi bütün yolları başlarına gələn hadisələrdən söz açmaqla təsvir etdiyindən, onun yazdıqları ümumən Avropaya getmiş bütün tələbələrə aiddir.

Saryalın yazdıqlarından bəlli olur ki, tələbələr üçün İtaliya və Fransaya viza İstanbulda alınmalıymış (bu hələ Batumda qərarlaşdırılıb). Şənbə və bazar günləri konsulluqlar bağlı olduğuna görə vizalarla məşğul olmaq bazar ertəsinə saxlanılıb. Həmin gün – yanvarın 26-sında saat 12-yə işləmiş İtaliyanın "Frans İosif" paroxodu yola düşməliymiş. Pasportlar yalnız paroxodda üçüncü fit çalınıb yola düşmək əsnasında hazır olub. Gəmi tərpəndikdən sonra aydınlaşıb ki, 6 pasport konsulluqda unudularaq qalıb! Ancaq artıq iş işdən keçib – gəmini geri döndərmək, yaxud kimisə düşürüb, bu işdən ötrü İstanbula qaytarmaq mümkün deyil. Bəxtəbəxt yola davam ediblər.

Xeyli yol getdikdən sonra Yunan dənizində bir yunan dorlu qayığı burnu ilə paroxoda çırpılıb və onu deşib. Allahın tələbələrə yazığı gəlib – deşik sudan 60 sm yuxarıda və dəniz də sakit olduğuna görə paroxod batmayıb, yoluna davam edə bilib. Beləcə 28 yanvarda Trentoya çatıblar. Burada pasportsuz 6 tələbəni saxlamaq təhlükəsi olduğuna görə gəmidən tökülən bütün tələbələr qəsdən möhkəm basabas yaradaraq pasportsuz yoldaşlarını da nəzarət məmurları önündən rahatca keçiriblər.[1]

Trentoda bir gecə qaldıqdan sonra 29 yanvarda qatarla Neapoldan keçməklə[2] Romaya yola düşüblər. Pasportsuz yoldaşlarını yük vaqonuna mindirərək vaqonun qapısını da möhürləyiblər ki, pasport nəzarətçiləri buraya girməsinlər. Beləcə Romaya macərasız çataraq orada yerləşiblər. Oxumaq üçün *on iki nəfər* İtaliyada qalıb.[3]

İki gündən sonra – 1920-ci il yanvarın 31-də qatarla Parisə gəliblər. Vağzalda onları Azərbaycan Sülh Heyətinin başçısı Əlimərdan bəy Topçubaşı və iki əməkdaşı: Abbas bəy Atamalıbəyovla Məhəmməd Məhərrəmov qarşılayıblar. Onlar bildiriblər ki, sizin üçün iki oteldə[4] yer hazırlatmışıq. Hər otelin özəl avtobusu vağzalın qarşısında sizi gözləyir. Otellərinizə gedərsiniz, yerləşərsiniz, axşam və səhər yeməklərinizi orada yeyərsiniz.[5]

[1] *Saryal İ.* Bakü rüzgarı, s. 100-101.

[2] Bax: Əliyev Abbasmirzə Əhməd oğlunun öz əli ilə yazdığı izahat. //AR MTN arxivi, PR-22247, vərəq 17a.

[3] *Saryal İ.* Bakü rüzgarı, s. 103.

[4] "Yena" və "Belmont" otellərində (bax: ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 56).

[5] *Saryal İ.* Bakü rüzgarı, s. 104.

Tələbələr üçün Parisdə yaradılmış şərait Sülh Heyətimizin onlara nə qədər önəm verdiyini, nə qədər sevgi və qayğı ilə yanaşdığını sübut edir. Bu qayğı əslində Cümhuriyyət hakimiyyətinin təbiətindən qaynaqlanırdı.

İsmayıl Saryal yazır:

"Otel bir saray qədər ehtişamlı idi. Küçənin böyük bir qismini tutmuşdu. Mən [Məhəmməd]əmin Əfəndizadə[1] adlı yoldaşla ikiyataqlı bir otaq aldım. Otaq şahanə idi. Geniş və süslü cüt yataqlı çarpayı, yumşaq və geniş kreslolar, süslü yazı masası, divalardan asılmış rəngli şəkillər və yerə döşənmiş xalı ürək açırdı. Bitişikdəki süslü fayanslarla döşənmiş hamam otağında hər zaman isti su var. Həyatımızdan məmnunduq".[2]

Cümhuriyyət tələbələri ilə bağlı yazıların çoxunda məşhur bir foto verilir. Parisdəki "Claridge's" otelinin qarşısında 13 fevral 1920-ci ildə çəkildiyini müəyyənləşdirdiyimiz bu şəkildə 48 tələbə ilə birgə Sülh Heyətinin işçiləri M.Məhərrəmov və A.b.Atamalıbəyovu da görürük (sonuncu həm də "100 tələbə"dən biridir). Əlimərdan bəy Topçubaşı kimi, bu kişilər də Parisdə olduqları bütün müddət boyunca tələbələrimizin qayğısına qalaraq onlara hayan olmağa çalışıblar.

Parisdə tələbələr bir ay olublar. Onlardan *otuz bir nəfər* Fransada qalaraq, müxtəlif universitetlərə girib oxumağa başlayıb. Yerdə qalan *qırx tələbə* isə Almaniyaya gedərək təhsili orada başa vurmaq istəyib. Dünya savaşında məğlub olmuş Almaniyaya getməyə isə Müttəfiqlər icazə verməyib, tələbələrin Fransa, İngiltərə və Belçikada oxumalarını tələb ediblər. Sülh Heyətinin bu məsələni çözmək üçün göstərdiyi bütün cəhdlər də boşa çıxıb. Bu müddətdə Heyətimiz pasportsuz qalmış 6 tələbəyə pasport yerinə keçərli bəlgə verib (onlar da Almaniyaya getmək istəyənlərdi).

Bəs necə olub ki, tələbələrin çoxu Almaniyaya gedərək orada oxuya bilib? Bu suala indiyədək heç bir ədəbiyyatda cavab verilməyib. Ancaq İsmayıl Saryalın "Bakı rüzgarı" əsərindən bunun necə baş verdiyini dəqiqliklə öyrənirik:

"Bir gün üç yoldaş gəzməyə çıxmışdıq. Aramızda rusca danışırdıq. Yanımıza orta yaşlı bir adam gəldi və bizim rus olub-olmadığımızı soruşdu. Özü də yaxşı rusca danışırdı. Türk olduğumuzu öyrənincə bizimlə türkcə danımağa başladı. Adam yəhudi imiş, doqquz dildə danışırmış. Almaniyaya getməmizə Müttəfiqlərin icazə verməyini öyrənincə ucadan güldü və bunun çox asan olduğunu söylədi. İsveçrədə təhsil alacağımızı bildirərək oraya getməyimizi və oradan Almaniyaya keçməyimizi məsləhət bildi. Bu çözüm Sülh Heyəti üzvlərinin də ağlına batdı və biz yol hazırlıqlarına başladıq.

Heyətin başçısı Topçubaşı lüks otellərin birində günorta yeməyi ziyafəti verdi. Ertəsi gün, Rusiyadakı qarışıq durumu hesaba qataraq, bizlərə yenidən altıaylıq avans pul verdirdi. Beləcə, Parisdən hərəkətimizdə iki ilə yaxın bir zaman üçün dolanışıq pulumuz vardı".[3]

Tələbələr 1920-ci il fevralın sonunda Parisdən ayrılaraq İsveçrənin böyük şəhərlərindən biri olan Bazelə yola düşüblər. Oraya çatınca giriş vizası üçün Almaniya konsulluğuna müraciət ediblər. Göndərdikləri teleqrama on gün sonra müsbət cavab gəlib. Bu müddətdə onlar İsveçrənin gözəl yerlərini gəzərək dincəliblər.[4]

[1] Bu, məşhur yazıçı Rəşid bəy Əfəndizadənin qardaşı oğludur.

[2] *Saryal İ.* Bakü rüzgarı, s. 104.

[3] Yenə orada, s. 106.

[4] Yenə orada.

Onlar Almaniyaya gəldikdə burada siyasi durum çox xoşagəlməzdi. 1918-ci ildə imperator və knyazlar hakimiyyəti sosial-demokratlara vermişdilər və ölkədə respublika qurulmuşdu. Birinci dünya savaşında məğlub olmuş Almaniya çox ağır şərtləri olan Versal sülh müqaviləsini imzalamalı olmuşdu. Pulun qiymətdən düşməsi, kommunist çevrilişlərinə cəhdlər və s. ölkə həyatını sarsıdırdı. Berlində onlar fəhlə tətilləri ilə qarşılaşıblar.

Abbasmirzə Əliyev yazır:

"Münxenə gələrək biz öncə burada qalmaq istədik, ancaq [Almaniya] Maarif Nazirliyindən bizə bildirdilər ki, Qafqazdan olduğunuza və bolşevizm ruhu ilə yoluxduğunuza görə Bavariya hüdudlarında yaşaya bilməzsiniz və 48 saat içərisində buranı tərk etməlisiniz. Əlimizdən heç nə gəlmirdi və Ştutqarta, oradan da Berlinə getdik. Aprel ayında[1] Berlinə çatdıq və tələbələrə kirayə verilən müxtəlif mənzillərdə tək-tək yerləşdik".[2]

Əşrəf Əliyev XDİK zindanında müstəntiqə demişdi:

"Almaniyada biz belə paylandıq: Berlində 10-12 nəfər, Baden hersoqluğunda 13-15 nəfər... Frayberqə mənimlə birlikdə 7 nəfər getdi".[3]

* * *

Maarif Nəzarətinin tələbələrin arzu və istəklərinə nə qədər həssaslıqla yanaşdığını Nurməhəmməd bəyin xariciyyə nazirinə 16 martda yazdığı 3973 saylı məktub əyani şəkildə göstərir. Teymur Aslanovun xahişini yerinə yetirən N.b.Şahsuvarov nazirə bildirir ki, Qafqazdakı İtaliya hərbi missiyası onların Qərbi Avropaya göndərilməsində ən yaxından iştirak edib, pul qəbzlərinin xırdalanması, paroxoda biletlərin alınması və müxtəlif formallıqların icrası ilə bağlı çoxlu texniki çətinlikləri aradan qaldırıb. Nazirdən xahiş edir ki, xaricə göndərilmiş tələbələrimizə münasibətdə göstərdiyi qayğıkeşlik və yüksək səviyyədə lütfkarlığa görə Xalq Maarif Nəzarətinin adından Qafqazdakı İtaliya hərbi missiyasına onun başçısı c-b Qabbanın şəxsində səmimi minnətdarlığımızı çatdırasınız.[4]

Bir qədər geriyə dönərək bildirək ki, Avropaya göndəriləsi tələbələrin bəziləri artıq Bakı Dövlət Universitetinə qəbul olunaraq orada oxuyurdular. Ancaq, görünür, onların xaricə getməsi haqqında Universitet rəhbərliyi bilgiləndirilməyib. Bu üzdən Universitet Şurasının və İdarə Heyətinin katibi 24 yanvar 1920-ci ildə Xalq Maarif Nəzarətinin Dəftərxanasına müraciət edib:

"Zərurət yarandığına görə Universitet Dəftərxanası xahiş edir ki, Bakı Universiteti tibb fakültəsinə qəbul edilmiş tələbələr: 1) Kazımov Cəfər, 2) Axundov İsmayıl, 3) Əlimuradov Cavad və 4) Seyidəliyev Məhəmmədin həqiqətən xarici ölkələrə gedib-getmədikləri haqqında məlumat verməkdən imtina etməyəsiniz".[5]

30 yanvarda Nəzarətdən belə cavab alınıb:

"...İsmayıl Əbdülxalıq oğu Axundov, Cəfər Kərbəlayı Əliəsgər oğlu Kazımov, Cavad bəy Cümşüd bəy oğlu Əlimuradbəyov və Mirməhəmmədrza Mirabutalıb oğlu Seyidəliyevi Hökumət ali təhsilini bitirmək üçün dövlət hesabına xaricə göndərib".[6]

[1] Yazılan tarix doğrudursa, deməli, onlar Bazeldən Berlinədək yolu bir aya gəliblər (?).

[2] Əliyev Abbasmirzə Əhməd oğlunun öz əli ilə yazdığı izahat. //AR MTN arxivi, PR-2247, vv. 17a-18.

[3] AR MTN arxivi, PR-39087, vərəq 47.

[4] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 29-29a.

[5] Yenə orada, vərəq 16. Bu məktub Nəzarətə 26 yanvar 1920-ci ildə daxil olub və 976-cı nömrə ilə qeydə alınıb.

[6] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 17.



İtaliyada oxuyan tələbələrimiz. *Soldan sağa:* Mirzə Hacızadə, Məcid Hacızadə, İsgəndər Vəliyev, Əhməd Rəcəbli. 1921-1923

Nazir əvəzi N.b.Şahsuvarov 25 yanvar 1920-ci ildə xariciyyə nazirinə (Fətəli xan Xoyskiyə) 1288 saylı məktub göndərərək ona bildirib ki, Sizə 1289 və 1290 saylı iki zərf göndəririk, onlardan biri surğucla möhürlənib. Xahiş edirik ki, surğuclu məktubu Parisdə Azərbaycan Sülh Heyətinin sədrinə, ikincisini isə Azərbaycan Hökumətinin İstanbuldakı Diplomatik Missiyasının nümayəndəsinə çatdırasınız və bu haqda məni bilgiləndirəsiniz.[1]

İndisə Ə.b.Topçubaşova (1289 saylı) və Y.b.Vəzirova (Çəmənzəminliyə) (1290 saylı) göndərilmiş məktubların məzmunu ilə tanış olaq.

Əlimərdan bəyə ünvanlanmış 1289 saylı məktubda bildirilirdi ki, Sizə 42.868 (qırx iki min səkkiz yüz altmış səkkiz) franklıq bir qəbz göndərilir və xahiş edilir ki, həmin məbləğdən İngiltərə, İtaliya və Fransada olan və adları siyahıda dəqiq göstərilmiş bütün tələbələrin hər birinə ayda 400 frank verəsiniz.[2]

İstanbuldakı Diplomatik Missiyanın nümayəndəsi Yusif bəy Vəzirova göndərilən 1 290 saylı məktubda isə ondan xahiş edilirdi ki, tələbə Məhəmmədrəşid Bosnalızadəni Fransaya deyil, İtaliyaya göndərsin.[3]

Bu vaxt İtaliya, Almaniya və İstanbulda olan tələbələr maarif nazirinə məktub göndərərək maddi durumlarının ağırlığından şikayətlənirdilər.

Mirzə Hacızadə, Cəmil Musayev və Zeynal Əliyevin imzalayaraq 27 fevral 1920-ci ildə Romadan göndərdikləri məktubda həm İtaliya, həm də Almaniyada həmin tarixdə oxuyan

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 15.

[2] Yenə orada, vv. 13-13a.

[3] Yenə orada, vərəq 14.

tələbələrin siyahısı verilməklə yanaşı, hər qrupun durumundan ayrıca söz açılıb. İtaliya qrupu haqqında bunlar yazılıb:

"...İtaliyada cəmisi 6 nəfər qalıb; onlardan ikisi – Əhməd Məşədi Cabbar oğlu [Rəcəbli] və Vəliyev İsgəndər Peruciada, qalan 4-ü isə Romada yaşayırlar və italyan dilini öyrənirlər. Pulumuz, demək olar ki, qurtarıb. Bu haqda Bakıya Sizə və Parisə c-b Topçubaşova yazmışıq. O, teleqramla bildirir ki, bizim üçün Bakıdan pul almayıb, ancaq fevral ayı üçün kredit şəklində göndərəcək, halbuki onu da hələ indiyədək almamışıq. Bildirməklə şərəflənirik ki, aldığımız 400 frank həyati ehtiyacları minimum ödəmək üçün yetərli deyil – [400 frank] maksimum 500 lirə edir ki, italiyalıların qayda-qanunları və adətləri ilə tanış olmayan, dil bilməyən biz əcnəbilərin bu pula yaşaması ağlasığmazdır. Ən aşağı fəhlə burada 540 lirə alır ki, əlbəttə, bu, çox azdır, ona görə də yanvar ayında bütün İtaliyada möhtəşəm tətillər keçirilib və bizim buraya gəlməyimizdən 3 gün öncə onların arzusunun barışıqla ödənilməsi ilə bitib. İndi hökumət yeni maaşlar hazırlayır. Bahalıq indi bizim Azərbaycanda olduğu kimi burada da gözgörəsi artır. Yuxarıdakıları bildirərək xahiş etməklə şərəflənirik:

1) Biz İtaliyada yaşayanlara ayda 800 lirə göndərilsin;

2) Ən azı 3 ayın pulu qabaqcadan göndərilsin, çünki Azərbaycanla normal əlaqələr olmadığına görə pulu vaxtlı-vaxtında almaq mümkün deyil və biz indi bunu kəskin hiss edirik;

3) Bundan başqa, hər tələbəyə illik 1000 lirə həcmində tədris ehtiyacları üçün yardım edilsin, çünki 800 lirəyə yalnız ən qənaətlə yaşamaq mümkündür və qırağa pul qoymaq haqqında düşünmək olmaz;

4) İtaliyada müxtəlif məktəblərdə tədris haqqı 170-250 lirə arasındadır. Kənd təsərrüfatı, politexnik və memarlıq ixtisasları üzrə oxuyan tələbələrə lazım olan rəsm alətləri dəsti 300-500 lirə, rəssamlar üçün boya və kitablar həddsiz bahadır, belə ki, aşağısı 1 000 lirədir. İndi hər birimiz ayda 135 lirə Berlits məktəbində dil öyrənməyə veririk.

Bunu bildirməyi artıq saymırıq ki, İtaliyadakı gürcü tələbələr (onlar 4 nəfərdir) öz hökumətlərindən iyul ayınadək ayda 600 lirə alıblar; bu, onlara 3 ay bundan qabaq verilib. Ancaq indi onlar xərcin çoxaldığını görərək məbləği artırmağı xahiş edirlər. Təkidlə xahiş edirik ki, bizə pulu təcili göndərəsiniz, çünki vəziyyətimiz dəhşətlidir, son lirələrimizə yaşayırıq".

Məktub müəllifləri Almaniya qrupunun da vəziyyətini aydınladaraq qeyd edirlər ki, onlara buraxılış almaq üçün bizim Paris Sülh Heyəti çalışıb, ancaq "bu yaxınlarda c-b Topçubaşovdan bunun Parisdə alınmasının mümkünsüzlüyü haqqında teleqram almışıq. Buna görə də onlar bu işə Romadakı gürcü nümayəndəliyi vasitəsilə nail olmağa çalışırlar. Ancaq nəzərə alsaq ki Romaya artıq təyin edilmiş Almaniya və Avstriya səfirləri gəlib, onlar bir neçə gündən sonra icazə almağa və Avstriyadan keçməklə [Almaniyaya] getməyə umud bəsləyirlər; belə ki, İsveçrə hətta öz ərazisindən keçməyə də icazə vermir".[1]

O dönəmdə Cümhuriyyətin bütün nəzarətləri (nazirlikləri) xarici dövlətlərlə yazışmalarını Xariciyyə Nəzarəti vasitəsiylə aparırdılar. Dünyadakı hərc-mərclik səbəbindən

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 34-38a. (Məktub Nəzarətə 7 aprelda çatıb).

poçta elə də etibar edilmədiyinə görə Xariciyyə Nəzarəti ən qiymətli sənədləri xüsusi kuryerlərlə göndərirdi. Buna görə də 26 fevralda Xalq Maarif Nəzarəti belə bir məktub aldı: "Xariciyyə Nəzarəti məlumat üçün bildirir ki, bazar günü, bu ilin 29 fevralında, İstanbuldan keçməklə Parisə diplomatik kuryer göndəriləcək. Zərfləri bazar günü saat 3-dək (daxil olmaqla) yollamaq olar".[1]

Bu imkandan yararlanan Maarif Nəzarəti sanki tələbələrin 28 fevralda Romadan göndərdiyi məktubdakı sızıltıları ekstrasensçəsinə duyaraq onlara yardıma tələsdi. Nazir müavini N.b.Şahsuvarov 29 fevral 1920-ci ildə Parisdəki Azərbaycan Sülh Heyətinin sədri Əlimərdan bəy Topçubaşova 3099 saylı məktub göndərərək xəbər verdi ki, bununla Parisə yüz yetmiş iki min yeddi yüz otuz iki (172.732) franklıq iki qəbz göndərilir; bunlar Qərbi Avropaya dövlət hesabına təhsilini tamamlamaq üçün göndərilmiş 77 abituriyent və tələbənin 1 sentyabr 1920-ci ilədək zəruri xərclərindən ötrü yerdə qalmış məbləğdir. Göndərilən şəxslərə 1 fevral 1920-ci ilədək dolanışıq xərcləri verilib. Onların sonrakı xərcləri üçün 25 yanvarda 1289 saylı məktubla 42 min 868 frank göndərilib. Siyahıda 18-ci yerdə adı göstərilən Ağaəli Məşədi Rəsul oğlu Abdullayev xaricə getməyib. Yerdə qalan bütün abituriyent və tələbələrə 1 sentyabr 1919-cu il qanununa əsasən, ayda hər birinə 400 frank[2] verilməlidir. Tələbələrin yerlərinə çatması və məktəblərə qəbulu haqqında indiyədək heç bir məlumatımız olmadığına görə xahiş edirəm məni bu haqda bilgiləndirəsiniz.[3]

"İtaliyalılar"la eyni gündə – 27 fevral 1920-ci ildə İstanbuldakı tələbələr də Bakıya maddi durumlarından şikayətləndikləri məktubu yola saldılar. Əbdül Əbdülzadə, Sadəddin Hacı Həsən əfəndi oğlu, Məhəmmədzəki Dursunzadə, Məhəmmədhənifə Zeynallı, Əlimuxtar Həsənzadə, Əli Kərimzadə, Əliyusif Cəfərzadə, Məhəmməd Xələfbəyzadə və Abdulla Tahirli Maarif Nəzarətinə yazırdılar:

"Aşağıda imzaları mühərrər[4] biz doqquz kişi tələbə əfəndilər hökumət hesabına təhsil üçün İstanbula göndərildik. Hər birimizə Parisdə tədiyyə eləmək üzərə Azov-Don bankasının üçər bin franklıq bir çeki verilmiş idi. İstanbula müvasilətimizdən[5] sonra cəmli bulduğumuz çeki pozdurmaq[6] üçün günlərcə sokak-sokak bankaları dolaşdıq, məələsəf, Azov-Don bankasını burada tanıyan və şayani-etimad olub-olmadığını bilən şəxs yok denilsə səzadır. Hal böylə olduğu halda İstanbulda təhsil üçün göndərilən bir tələbəyə burada şöbəsi olmayan bir bankanın çekini vermək nə dərəcəyə qədər müvafiq olacağını təqdiri-alilərinə həvalə edəriz. Bilaxərə ənvayi-məşşaq ilə çeklərimizi üç bin frankı 230 lirəyə pozdura bildik. Bu hal davam edəcək olursa Azərbaycan hökuməti bizi deyil, bəlkə sərrafları istifadə etdirəcəkdir. Binaənəleyh Azərbaycan köylüsünün can və yürəkdən bizə verdiyi paraları bizlər deyil, sərraflar yeyir. Bu xüsusu Azərbaycan hökumətinin İstanbul müməssiliyində[7] də təhqiq etmək vacibdir. Bu xüsus haqqında hökumətin təşəbbüsati-ciddiyyədə bulunmasını şiddətlə rica edəriz. Böylə hər ay bizə para deyil, çek göndərilərsə biz də bunu pozdurmaq üçün yüzlərcə şəxsə yalvarır isək əcəba hökumət bizdən nə kibi istifadə edəcəkdir? Bu miqdar para iskonto edildikdən sonra ancaq yigirmi-otuz lirə qədər[1] tutacaqdır. Bununla keçinmək əlimül-imkandır[2]. Bununla burada keçinə bilmək adəta səfilanə imrari-həyat deməkdir. Biz tələbələr rica edəriz ki, hökumət bizim təxsisatımızı təzyid və çek deyil, ancaq para göndərsin, zira Bakıda verilən 3 bin frankın bin frankı məsarifi-rahiyyəyə[3] sərf edildiyi kibi, mütəbaqi qalan 2 bin frank ilə də əlbəsə, ayaqqabı, kitab, oda kirası, ləvazimati-zəruriyyə üçün sərf edilmişdir. Arkadaşlardan bəzilərinin parası tamamən bitdiyi kibi, bəzilərinin də bitmək üzrədir. Bu xüsusu lütfən təəmmül buyurularaq dünyanın ən bahalı bir şəhərində səfalət və pərişaniyyətimizə meydan verilməməsini rica və istirham edəriz, əfəndim".[4]



Məhəmmədşərif Əfəndizadə

Bu məktub hələ yoldaykən – 29 fevral 1920-ci ildə 3100 saylı məktubla Azərbaycan hökumətinin İstanbuldakı Diplomatik Missiyasının nümayəndəsinə müraciət etmiş "Xalq Maarif Nəzarətini idarə edən" Şahsuvarov bildirib ki, bu məktubla Parisə 590 saylı qəbzlə 25 min 200 frank göndərir və xahiş edib ki, Türkiyəyə təhsilini bitirmək üçün göndərilmiş həmin 9 tələbənin hər birinə 1 fevraldan başlayaraq ayda 400 frank ödənilsin.

Nazir əvəzi tələbələrin yerlərinə çatması və məktəblərə qəbulu haqqında indiyədək onda heç bir məlumat olmadığını nəzərə çatdırır və xahiş edir ki, mənə bu haqda bilgi verəsiniz.[5]

Bu sənəddə çox maraqlı bir faktla qarşılaşırıq. Məktubunu Nurməhəmməd bəy bu abzasla bitirib:

"İstanbul şəhərindən qayıtmış Şərif Əfəndizadə bildirib ki, ona verilmiş bütün pulları xərcləyib, "İslam və əsgəri" kitab mağazasına 450 lirə borclu qalıb, həm də xərclədiyi pullar haqqında qəbzləri və alınmış kitabların fakturasını İstanbul şəhərində unudaraq qoyub. İndi Şərif Əfəndizadə ilə hesabları qaydaya salmaq üçün onun aldığı kitabların miqdarı və kitablara ödədiyi məbləğ haqqında məlumat əldə etməliyik, buna görə də Sizdən xahiş edirəm ki, Şərif Əfəndizadənin Nəzarət üçün satın aldığı kitabların qəbzlərinin surətini əldə edərək bizə göndərəsiniz".[6]

Burada adı çəkilən "Şərif Əfəndizadə" kimdir və nə istəyir? Azərbaycanda bu adamın şəxsiyyəti, demək olar ki, tanınmır. Türkiyəli araşdırmaçı dostumuz Ömər Özcan bəylə birgə onun həyat və yaradıcılığını incələdiyimizə görə onun haqqında artıq

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 19. Maarif Nəzarəti bu məktubu 28 fevralda alıb.

[2] Doğrudur, Maarif Nəzarəti bu məbləği 500 franka qaldırmağı qərara almışdı, ancaq, görünür, son anda maliyyə çatışmazlığı üzündən ilkin məbləğ yenə qüvvədə saxlanılıb.

[3] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 20.

[4] Yazılmış.

[5] Çatmağımızdan.

[6] Xırdalamaq.

[7] Nümayəndəliyində.

[1] Bundan sonra yazılmış "ancaq" sözünü artıq olduğu üçün atdıq.

[2] İmkansızdır.

[3] Yol xərclərinə.

[4] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 42-43.

[5] Yenə orada, vərəq 21. Azərbaycan Cümhuriyyətinin İstanbuldakı diplomatik nümayəndəliyinin başçısı, səlahiyyətli nümayəndə Yusif Vəzirov bu məktubla bağlı maarif nazirinə 24 mart 1920-ci ildə belə bir cabab yazıb: *"Siz Əlahəzrətin builki 29 fevral tarixli 3100 saylı məktubuna cavab olaraq Parisə iyirmi beş min iki yüz frank məbləğində 590 saylı qəbzin alınmasını təsdiqləməklə şərəllənirəm. Göstərişlərə əsasən, məktubda göstərilmiş doqquz tələbə fevral və mart ayları üçün maaşla təmin ediliblər. Onlar İstanbulun ali tədris müəssisələrində müəhzirələrə gedirlər. Bu haqda uyğun sənədlər Xalq Maarif Nəzarətinə göndəriləcək"* (bax: ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 50).

[6] Yenə orada, vərəq 21.

yetərincə bilgi əldə etmişik. Doğrudur, burada ondan geniş danışmağa ehtiyac yoxdur, ancaq Cümhuriyyət dönəmi və 1920-1921-ci illər təhsil tariximizlə bağlı olduğuna görə haqqında ötəri bilgi verməyi zəruri sayırıq.

İstanbul müəllimlər seminariyasının sabiq müdiri, Azərbaycan Cümhuriyyəti dönəmində Türkiyədən Azərbaycana müəllimlər və dərs kitabları gətirilməsində müəyyən xidmətləri olmuş *Məhəmməd̈şərif Mehdi oğlu Əfəndizadə* (Türkiyədə: *Mehmet Şərif/Şərif Bilgəxan*) (1887, Şamaxı – 1954, İstanbul) Cümhuriyyətin yıxılması səbəbindən ona çatacaq pulları ala bilmədiyini iddia edib və bu üzdən milli hökumətimizin rəhbərlərinə qarşı çox qəzəbli olub. 1921-ci ildə İstanbulda nəşr etdirdiyi "Azərbaycan və inqilabı" adlı kitabında onlar haqqında çoxlu xoşagəlməz sözlər yazıb. O, sovet çağında da Azərbaycana Türkiyədən müəllimlərin gəlməsinə çalışıb və o zaman da ona çatacaq vəsaiti ala bilmədiyindən şikayətlənib.[1] Sonralar Türkiyədə müəllimliklə məşğul olan Əfəndizadə Azərbaycandan "küsüb".

Şahsuvarovun bu məktubundan da göründüyü kimi, Maarif Nəzarəti hətta ayyarıma İstanbuldan öz tələbələrinin məktəblərə yerləşməsi haqqında məlumat ala bilmir. Bu məktubdan cəmi 2 ay sonra Cümhuriyyət süquta uğrayıb və təbii ki, Nəzarətin bu müddətdə Y.b.Vəzirovdan qəbz surətlərini alaraq məsələni aydınlaşdırmağa və M.Əfəndizadəyə pulların ödənilib-ödənilmədiyini dəqiqləşdirməyə vaxtı çatmayıb. Bu səbəbdən də onun Cümhuriyyətə hücumları ədalətsizdir.

"100 tələbə"nin ölkədən getməsi bu qədər gələcək əsgərin də getməsi deməkdi. İş burasındaydı ki, Azərbaycan Ordusunun da belə savadlı əsgərlərə böyük ehtiyacı vardı. (O dönəmdə orta məktəbi bitirmiş şəxs olduqca savadlı adam sayılırdı). Təbii ki, Ordu onun "kisəsindən gedənlər"lə maraqlanır, onların kimliyini araşdırırdı. Məsələn, Bakı qəzasının hərbi rəisinin əvəzi, ştabs-kapitan Dudarov 8 mart 1920-ci ildə Xalq Maarif Nəzarətinə yazmışdı: "Təhsilini davam etdirmək üçün xaricə göndərilmiş çağırış yaşlı tələbələrin siyahısını tabeliyimdəki idarəyə göndərməyi Nəzarət Dəftərxanasından xahiş edirəm".[2] Nəzarətin dəftərxanası 14 martda həmin siyahını hərbi rəisə göndərib.[3]

Almaniyaya gedəsi 17 tələbənin adından Məhəmməd Xəlil Həmid və Mirsadıq Sadıqov 9 mart 1920-ci ildə xalq maarif nazirinə qısa bir məktub göndəriblər:

"...İtaliyadan keçməklə Almaniyaya gedən biz tələbələr hal-hazırda Romada viza gözləyirik. Parisdəki Sülh Heyətimizin xəbəri olmaqla bizim maraqlarımızı Romada Gürcüstan missiyası müdafiə edir. Bugünlərdə viza alacaq və bu haqda sonra Sizə ətraflı məlumat verəcəyik. Parisdən 1 maya qədər olan təqaüdləri almışıq. Bütün yoldaşlarımız sağlamdır".[4]

Elə bu ərəfədə – təxminən 1 martda Mirzə Hacızadə, Cəmil Musayev və Zeynal Əliyev xalq maarif nazirinə İtaliyada qalmış 6 tələbə adından ikinci bir məktub göndəriblər. Özündə bir çox maraqlı faktları cəmləmiş bu məktubla tanış olaq:

"Siz Əlahəzrətə məruzə etməklə şərəflənirik ki, biz, bütün tələbələr Romaya çatdıq. Fransa, İngiltərə qrupları artıq Parisə gedib. İtaliya qrupundan İtaliyada 6 nəfər qalıb və onların siyahısı bu məktuba əlavə edilir; İtaliya qrupunun qalan tələbələri və fransız qrupundan bir neçə tələbə (cəmi 15 nəfər) Romada qalıb ki, Almaniyaya getmək üçün icazə alsınlar. İtaliyada qalan tələbələrdən ikisi: Əhməd Məşədi Cabbar oğlu və Vəlizadə İsgəndər Kənd Təsərrüfatı İnstitutuna girmək üçün Peruciaya getməyə hazırlaşır. Əliyev Zeynal bəy və Musayev Cəmil Roma Bədaye Akademiyasına girməyə hazırlaşırlar; Rəhimzadə Abdulla Roma Politexnik İnstitutuna girməyə hazırlaşır. Hacızadə Mirzə Neapolitan Kənd Təsərrüfatı İnstitutuna hazırlaşır, ancaq burada dərs ili noyabrda başlandığına görə o, payızadək Romada qalacaq. Hələlik biz – İtaliyada qalan tələbələr italyan dilini öyrənməklə məşğuluq, ancaq fransızca söz ehtiyatımız az olduğuna görə onu çətin mənimsəyirik.

Həyat şərtləri bizim Azərbaycanda olduğundan xeyli bahadır. Hələ dil bilmədiyimizə görə bizdən xeyli pul çıxır (bir lirə yerinə 3-5 lirə). Bu üzdən də tələbənin yaşaması üçün nə qədər xərc lazım olduğunu deməyə çətinlik çəkirik, ancaq italyan tələbələrin sözlərinə görə, burada ən azı 700 italyan lirəsi gərəkdir. Bu haqda yerli həyatla daha yaxından tanış olduqdan sonra yazacağıq. Burada mənzil məsələsi daha kəskindir. Otaq tapmaq çox çətindir, çünki bütün mənzillər tam tutulub. Mənzil tapa bilsən [ayda] 300 lirədən az istəmirlər. Mehmanxanalarda nisbətən ucuzluqdur, buna görə də hamımız hələlik mehmanxanada qalır və bir nömrə üçün 210, 240 lirə veririk.

Sizə bildirməliyik ki, əlimizdəki pullar, demək olar ki, qurtarıb, ancaq fevral ayının pullarını hələ də almamışıq. İstanbulda diplomatik nümayəndəliyimiz vasitəsilə qəbzlərimizi lirəyə dəyişərkən ən çox itirən biz, İtaliyaya gedənlər olduq, çünki onları İtaliyada dəyişə bilməyə umudumuz olmadığından hamısını dəyişmişdik. Bu zaman 15% itirdik.

Bütün bunları məruzə edərək Sizdən xahiş etməklə şərəflənirik ki, pulları bizə vaxtlı-vaxtında Romadakı gürcü missiyasının adına bu ünvana göndərəsiniz: İtalia, Roma. Via venti settembre, albergo "Reale", mission diplomatique Georgienne".[1]

Məktubun sonunda İtaliyada qalan həmin 6 tələbənin siyahısı verilib.

Haqq naminə demək lazımdır ki, bu məktublarda tələbələrin pulsuzluqdan "ağlaşma qurmaları" o qədər də doğru deyil. Gerçək durumu çox-çox illər sonra İsmayıl Saryal öz xatirələrində anladacaqdı:

"Batum – İstanbul – Roma yoluyla Parisə gediləcəkdi. Bir illik dolanışıq və ayrıca yol-pulu qabaqcadan çeklər halında bizlərə verildi. Hesablar geniş tutulmuşdu – verilən pul il yarıma yetəcək qədərdi".[2]

Bu gün çoxumuza bəllidir ki, Avropaya göndərilmiş tələbələrin uyğun dövlətlərdə və ali məktəblərdə yerləşdirilməsindən tutmuş onların ən müxtəlif problemlərinin həllində hamıdan çox əmək sərf etmiş dövlət qurumu Parisdəki Azərbaycan Sülh Heyəti[3] olub. Filologiya elmləri doktoru Məmməd Cəfərli yazır:

"Fransada gələcək tələbələri Parisdəki Azərbaycan Sülh Heyətinin başçısı Əlimərdan bəy Topçubaşov qəbul edib, uyğun sənədlərin qaydaya salınmasını o təşkil edib, bundan

[1] ARDA, fond 57, siyahı 1, iş 8, vv. 52-52a.

[2] Yenə orada, fond 51, siyahı 3, iş 40, vərəq 25. Nəzarət bu məktubu 9 mart 1920-ci ildə 2766 nömrə altında qeydə götürüb.

[3] Yenə orada, vərəq 26.

[4] Yenə orada, vərəq 46.

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 31-33. Bu məktubun üstündə onun Maarif Nəzarətində 16 mart 1920-ci ildə alındığı göstərilib.

[2] *Saryal İ.* Bakü rüzgarı, s. 97.

[3] Bir çox sənədlərdə bu qurumun adı ana dilimizdə *"Sülh Nümayəndə Heyəti"* adlandırılsa da öz möhüründə *"Azərbaycan Hökuməti-Cümhuriyyəsi Sülh Heyəti"* yazılıb, buna görə də biz burada "Sülh Heyəti" ifadəsini əsas götürdük.

sonra gənclərin bir hissəsi Fransa ali məktəbləri arasında bölüşdürülüb, Azərbaycan Demokratik Cümhuriyyətinin xaricə oxumağa göndərdiklərinin yerdə qalan hissənin yarıdan çoxu Berlinə gedib".[1]

Maarif Nəzarəti ən etibarlı bilgiləri məhz Sülh Heyətindən gözləyirdi, çünki tələbə məktublarında subyektivliyin mövcudluğu gözlənilməndi. Heyətin üzvü Məhəmməd Məhərrəmov və katibi Abbas bəy Atamalıbəyov maarif nazirinə Heyət adından ilk və son məktubu 28 mart 1920-ci ildə imzalayaraq Berlindən keçməklə Bakıya gedən bir şəxslə göndəriblər. Bu rəsmi sənəddə yazılıb ki, Avropaya göndərilmiş tələbələrin 52 nəfəri fevralın başlanğıcında Parisə çatıb, 23 nəfər isə İtaliyada qalıb. Parisə gələnlərdən 28 nəfər artıq Almaniyaya yollanıb və İtaliyada qalan 23 nəfərdən 17-si də Almaniyaya getmək istəyini bildirib; bu 17 nəfər hal-hazırda Romada Almaniyaya viza gözləməkdədir. Onlara veriləcək təqaüdün indiyədək yetişməməsinə baxmayaraq, Sülh Heyətimiz öz vəsaitindən Almaniyaya gedən tələbələrə 3 ay qabaqcadan təqaüd verməyə məcbur olub. Belə ki, bu cür edilməsəydi onlar gedə bilməzdilər. Fransada təhsil almaq üçün qalmış 24 nəfərə və İtaliyada qalmış 6 nəfərə gəlincə, Sizin məktubunuza əsasən, onlara fevral ayı üçün təqaüd verilib və mart üçün də verilməlidir, çünki mart artıq bitməkdədir, Sizdən isə təqaüd vermək üçün pullar alınmayıb. Nəzərinizə çatdırmağı gərəkli sayırıq ki, bundan sonra da pulların alınmaması tələbələrimizi faciəli duruma sala bilər, heç onu demirik ki, mövcud həyat şərtlərində təyin edilmiş aylıq 400 frank həyat üçün yetərsizdir. Buna görə də tələbələrin yaşaması üçün onlardan ötrü nəzərdə tutulmuş pulların maksimum təcili şəkildə göndərilməsi üçün mümkün olan bütün tədbirləri görməyinizi xahiş edirik.[2]

Məktub bu cümlə ilə bitir: "Məlumat üçün bildiririk ki, Gürcüstan nümayəndəliyi öz tələbələrinə təhsil haqqı və kitab xərclərini nəzərə almadan yalnız yaşayış üçün ayda 750 frank verir".[3]

Rusca "Azərbaycan" qəzeti bu məktubdan yararlanaraq 23 aprel 1920-ci ildə yazırdı:

"Azərbaycanın Parisdəki Sülh Heyəti Xalq Maarif Nəzarətinə xəbər verir ki, hökumətin Qərbi Avropaya göndərdiyi tələbələrdən 52 nəfəri fevralın başlanğıcında Parisə gəlib, onlardan 28-i artıq Parisdən Almaniyaya gedib, qalan 24-ü isə Fransada qalıb. Almaniyaya gedən tələbələrə üçaylıq təqaüdləri qabaqcadan verilib. Hər tələbəyə verilən aylıq 400 frank dolanmağa yetmir, buna görə də Sülh Heyəti təqaüdün həcmini artırmağı xahiş edir. Bu zaman göstərilir ki, Gürcüstan Heyəti öz tələbələrinə yalnız dolanışıqdan ötrü 750 frank verir. Təhsil haqqına, dərs vəsaitinin və başqa vəsaitin alınmasına gəlincə, Gürcüstan hökuməti bu xərcləri də ödəyir".[4]

* * *

Artıq qeyd etdiyimiz kimi, göndəriləcək tələbələrin sonuncu siyahısı təsdiqlənərək 18 dekabr 1919-cu ildə mətbuatda dərc edilmişdi. Ancaq Xalq Maarif Nəzarətinə ərizələr hələ də gəlməkdəydi.

[1] *Джафарлы М.* Политический террор и судьбы азербайджанских немцев, s. 47.
[2] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 45-45a. Məktubu Maarif Nəzarəti Cümhuriyyətin yıxılmasına 11 gün qalmış – 18 aprel 1920-ci ildə alıb.
[3] Yenə orada.
[4] Студенты за границей. //*"Азербайджан"*, 23.04.1920, № 80, s. 3.

Gəncə şəhər sakini, Paris Universiteti hüquq fakültəsinin tələbəsi İsaq bəy Musa bəy oğlu Şeyxzamanov[1] Parlamanın qərarı çıxandan az sonra – hələ 1919-cu il sentyabrında maarif nazirinə onun da hökumət təqaüdçüləri sırasına salınmasını xahiş edən bir ərizə[2] yazaraq buna tələbəliyini təsdiqləyən sənədlərini də[3] əlavə etmiş, bunların hamısını Parisdəki Sülh Heyətinin üzvü Məhəmmədhəsən Hacınski ilə Bakıya göndərmişdi. Ərizənin arxasında Heyətin sədri Əlimərdan bəy Topçubaşov əz əliylə yazmışdı:

"Bununla təsdiq edirəm ki, sənəddə adı keçən Şıxzamanov həqiqətən Paris Universitetinin kursunu bitirir, onun surətlərdən ibarət sənədləri doğrudur və həqiqidir, o, Azərbaycan hökumətinin təqaüdçüləri sırasına salınmağa layiqdir. Yeri gəlmişkən, o, indi bizim Sülh Heyətimizdə qulluqdadır.

25 sentyabr 1919-cu il. Paris".[4]

Ancaq bu zaman hələ tələbələrin seçiminə başlanılmadığına görə məktub, görünür ki, hansısa qovluqda unudularaq qalıb. Yəqin ki, adını dərc edilmiş siyahıda görməyən İ.b.Şıxzamanov 24 dekabr 1919-cu ildə xalq maarif nazirinə bu məzmunda ikinci ərizə göndərib:

"Sizə bir ərizə verməklə və onu [Sülh] Heyətinin üzvü cənab [Məhəmmədhəsən] Hacınski ilə göndərməklə şərəflənmişdim.

Dediyim ərizədə Sizdən, cənab nazir, məni ali təhsilini başa çatdırmaq üçün xaricə göndərilmiş tələbələr sırasına salmağı xahiş etmişdim. Oraya hüquq fakültəsinin verdiyi, sonuncu kursda olduğumu və universiteti tam bitirmək üçün sonuncu dərs ilimin qaldığını təsdiqləyən şəhadətnamə də əlavə edilmişdi. Sonuncu imtahanımı 1920-ci ilin iyulunda verməliyəm.

Parisdə [Sülh] Heyətimizdə xidmət etdiyimi və bütün vaxtımın buna getdiyini nəzərə alaraq, cənab nazir, Sizdən acizanə xahiş edirəm ki, bir dərs ili üçün, yəni gələn il iyulun sonunadək, eləcə də Vətənə qayıtmaqdan ötrü mənə təqaüd verilməsi haqqında sərəncam verəsiniz. Bütün bir ili itirməyim deyə Sizdən xahiş edirəm ki, həmin təqaüdü bugünlərdə buraya – Parisə qayıdacaq kuryerimizlə göndərəsiniz".[5]

Maarif naziri bu ərizəni aldıqdan az sonra Nazirlər Şurasının sədrinə müraciət edib:

"Parisdə Azərbaycan Sülh Heyətinin sədri Əlimərdan bəy Topçubaşov həmin heyətdə xidmət edən Paris Universiteti hüquq fakültəsinin tələbəsi, Gəncə şəhərinin sakini İsaq bəy Şeyxzamanovun ona dövlət təqaüdü verilməsi haqqında ərizəsini mənə göndərib. Həmin ərizəyə dövlət təqaüdünü bölüşdürən komissiyada baxılıb və Şeyxzamanovun ərizəsi gec daxil olduğuna görə komissiya artıq bölüşdürülmüş 100 təqaüddən birini ona verməyi mümkün saymayıb, ancaq ərizəçinin müstəsna durumuna görə və Topçubaşovun özəl vəsatətinə uyğun olaraq komissiya hökumətdən bunu öyrənmək istədi ki, Şeyxzamanovun Paris Universitetində oxumasının xərcini hökumət Azərbaycan Sülh Heyətinin sərəncamına buraxdığı məbləğdən, yaxud hər hansı bir başqa qaynaq hesabına öz üzərinə götürə bilərmi?

[1] İsaq bəyin soyadı sənədlərdə həm "Şıxzamanov", həm də "Şeyxzamanov" kimi yazılıb. Biz hər sənədin özündəki yazılışı saxladıq. Xatırladaq ki, sovet dönəmində onun soyadı "Şeyxzaman" olub.
[2] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 82-82a.
[3] Yenə orada, vv. 83-86.
[4] Yenə orada, vərəq 85.
[5] Yenə orada, vv. 80-81. Məktubu Maarif Nəzarəti 29 dekabr 1919-cu ildə işə tikib.

Deyilənlərə əsasən, Siz Alihəzrətdən Paris Universitetinin tələbəsi İsaq bəy Şeyxzamanova ali təhsilini Parisdə başa vurmaq üçün Sülh Heyətinin sərəncamına buraxılmış məbləğdən, yaxud hökumətin sərəncamındakı hər hansı başqa bir məbləğdən təqaüd verilməsindən imtina etməməyinizi xahiş edirəm".[1]

Əlbəttə, Əlimərdan bəy kimi ən nüfuzlu bir dövlət adamının tövsiyəsinin nəzərə alınmaması mümkün deyildi. Sonrakı sənədlərdə görəcəyimiz kimi, Şeyxzamanovun təqaüdü Xariciyyə Nəzarətinin büdcəsindən verilmişdi.

Həmin İsaq bəy Şıxzamanov 27 mart 1920-ci ildə xalq maarif nazirinə bir daha ərizə göndərərək ondan dövlət yardımı istəyib:

"...Mən yayda hüquq fakültəsini "Licence" – lisensiat, yaxud hüquq elmləri doktorluğuna namizəd rütbəsi ilə bitirəcəyəm, yəni bu imtahan mənə doktorant imtahanı vermək və dissertasiya müdafiə etmək hüququ verir. Mən Azərbaycana gəldiyim zaman Bakı hüquq fakültəsində dərs demək istəyirəm. Mən universitetdə başlıca olaraq ümumi və xüsusi beynəlmiləl hüquqa, müstəmləkə qanunvericiliyinə (başlıca olaraq müsəlman xalqşünaslığına, yəni Avropa dövlətlərinə münasibətdə bütün müstəmləkələrin siyasi durumuna və əsasən Mərakeş, Tunis, Əlcəzair, Misir, Sudan, Ərəbistan, Hindistan, eləcə də Türkiyə və İranın daxili qanunvericiliyinə) diqqət yetirmişəm. Siyasi iqtisadı və maliyyə qanunvericiliyini (Legislation Financiere) öyrənmişəm. Buna görə də fakültəni bitirincə Paris Universitetində qalmaq və bir neçə ay bu elmlərlə (Beynəlmiləl hüquq, Müsəlman qanunvericiliyi, Maliyyə qanunvericiliyi və Siyasi iqtisad) məşğul olmaq istəyirəm. Bundan ötrü, cənab nazir, xahiş edirəm ki, mənim təqaüdümün (1920-ci ilin yanvarından 1 sentyabrınadək təyin edilib) vaxtını gələn, yəni 1921-ci ilin iyun ayınadək uzadasınız. Ancaq mən Azərbaycana vaxtından öncə dönməyi fikirləşirəm. Düşünürəm ki, Azərbaycanın mədəniləşməsi üçün bizim universitetdə milli professorların olmasının çox böyük əhəmiyyəti var. Güman edirəm ki, mənim xahişim qızğın müdafiə ediləcək".[2]

Maddi ehtiyacının çoxluğunu nəzərə çarpdırmaq üçün İ.b.Şıxzamanov ərizənin sonuna bu cümləni də artırmışdı: *"Evliyəm, bir uşağım var".*[3]

Təbii ki, Şeyxzamanovun bu istəyinin gerçəkləməsi Cümhuriyyət dönəmində vaxt baxımından mümkün olmadı və yalnız "Şuralar Azərbaycanı"nda ona yardım edildi, o da təhsilini 1922-ci ildə başa vurdu.

Oxucular bəlkə də bizi Şeyxzamanovun sənədlərinə geniş yer ayırdığımıza görə qınaya bilərlər, ancaq xatırlatmaq istəyirik ki, İsaq bəy Şeyxzamanov (1897-1940) sovet dönəmində – 1922-ci ilin martında Genuya konfransında Sovet Heyətinin tərkibində Qafqaz və Şərq məsələləri üzrə ekspert kimi iştirak edib,[4] Azərbaycan Dövlət Elmi-Tədqiqat Məktəblər İnstitutunun direktoru vəzifəsində çalışıb[5] və s. Ancaq indiyədək onunla bağlı ən kiçik bir məqalə belə yazılmayıb. O üzdən də onun haqqında heç olmazsa bu sənədlər vasitəsilə ötəri də varsa təsəvvür yaratmaq istədik.

[1] Bax: ARDA, fond 51, siyahı 3, iş 40, vv. 79-79a.
[2] Yenə orada, vv. 77-77a.
[3] Yenə orada.
[4] ARPİSSA, fond 1, siyahı 122, iş 636, vərəq 14.
[5] ARTA, fond 57, siyahı 1, iş 1295.

İstanbul Universitetində oxuyan *Əmin Abid Mütəllibzadə* də dövlət təqaüdçüləri sırasına salınması xahişiylə İstanbuldakı Azərbaycan səfirliyinə ərizə ilə müraciət etmiş və səfirlik onun məktubunu Bakıya – Xariciyyə Nəzarətinə, XN isə öz növbəsində 3 aprel 1920-ci ildə Xalq Maarif Nəzarətinə göndərmişdi.[1] Sonralar Azərbaycanda görkəmli ədəbiyyatşünas kimi şöhrət qazanmış Əmin Abid (1898-1938) bu məktubunda yazırdı:

"Bu vəqtə kadar kəndi məsarifimlə təhsilə davam etdim. Şimdi ehtiyac dolayısıyla istianəyə[2] məcbur olduğumdan, bir Azərbaycan tələbəsi sifəti ilə zati-alinizə müraciətən təhsilimin sona kadar hökuməti-əliyyəmiz tərəfindən acizlərinə maddi müavinətdə bulunulmasını rica və istirham edirəm. Ol babda əmrü fərma əfəndim həzrətlərinindir.

İstanbul Darülfünunu müdavimlərindən Əmin Abid Mütəllibzadə. Səneyi-[1]336 mart (mart 1920)".[3]

Bu məktuba əlavə olaraq səfirlik həmin səhifənin aşağısında Ə.Abidlə bağlı aşağıdakı arayışı əlavə edib:

"Sahibi-istida Əmin Abid Mütəllibzadə bakılı şair Əliabbas Müznib əfəndinin bəradəridir[4]. Kəndisi Bakıda Alekseyevski məktəbini bitirdikdən sonra İstanbula gələrək darülfünuna daxil olmuşdur. Birinci sinfə[5] davam ediyor. İstanbula 27 kanuni-əvvəl [1]335 tarixində[6] gəlmişdir.

Bakıdakı adresi: Birinci Paralelni[7] və Yuxarı Tazapir[8] caddələrinin köşəsində 2 nömrülü çıkmaz sokakda[9] bir nömrülü xanə.

İstanbuldakı adresi: Dərsəadət, Cığaloğlunda, Darülmüəllimini-aliyyə birinci sinif tələbələrindən qafqasyalı Ə.Abid".

Əmin Abidə də, təbii ki, sovet dönəmində dövlət təqaüdü kəsildi.

Gəncə şəhərində Əttarlar küçəsindəki 38-ci evdə yaşayan, Gəncə kişi gimnaziyasının tam kursunu bitirmiş *Cahangir Nağıyev* 19 aprel 1920-ci ildə "Azərbaycan Cümhuriyyəti Xalq Maarif Nazirliyinin idarəçisinə" (nazir əvəzinə) ərizə yazaraq, ali təhsilini bitirməyi arzu etdiyinə görə onu hökumət hesabına Qərbi Avropaya – Almaniya universitetlərindən birinin hüquq (yaxud tarix-filologiya) fakültəsinə göndərilən tələbələrin siyahısına daxil edilməsini xahiş edib, seçəcəyi şəhərin adını sonra göstərəcəyini bildirib.[10] Onun ərizəsi icrasız qalıb. Bizcə, bunun başlıca səbəbi odur ki, C.Nağıyevin qardaşı Hüseyn Nağıyev "100 tələbə" siyahısına daxil edilərək Avropaya oxumağa göndərilmiş və Berlin Kənd Təsərrüfatı İnstitutunda ali təhsil almışdı.

Bunu da xatırladaq ki, Cahangir Nağıyev sonralar sovet Azərbaycanının görkəmli filosoflarından biri kimi şöhrət qazanıb.

Qazax şəhərinin sakini *T.b.Batıyev* 21 apreldə birbaşa Nazirlər Şurası sədrinə belə bir ərizə yazıb:

[1] Bax: ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 39.
[2] Yardım istəməyə.
[3] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 40.
[4] Qardaşıdır.
[5] Kursa.
[6] 27 dekabr 1919-cu il.
[7] İndiki Əli bəy Hüseynzadə küçəsi.
[8] İndiki Mustafa Sübhi küçəsi.
[9] Dalanda.
[10] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 87.

"Zəngin səs ehtiyatım olduğuna və Moskvada professor Markovdan ibtidai musiqi təhsili aldığıma görə Xalq Təhsili Nazirliyindən musiqi təhsilimi başa vurmaq üçün İtaliyaya göndərilməyimi xahiş etmişdim. Ərizəm əsasında c-b xalq maarif naziri Nazirlər Şurasına mənim İtaliyaya göndərilməyim üçün məruzə edib, ancaq təəssüf ki, indiyədək bu məsələyə baxılmayıb. Bununla Sizdən ehtiramla xahiş edirəm ki, nüfuzlu müdaxilənizlə xaricə göndərilməyimi sürətləndirəsiniz; ən pis halda qulluqda qalmaqla bərabər musiqi təhsilimi bitirmək üçün göndərilməsi nəzərdə tutulmuş diplomatik missiyamızın tərkibində məni İtaliyaya yollayasınız".[1]

Tarixindən də göründüyü kimi, bu məktub da həddən artıq gecikmişdi – 6 gün sonra Cümhuriyyət devrilmiş və Batıyevə cavab verəsi Baş nazir isə bir ay sonra siyasi terrorun qurbanı olmuşdu...

Paris siyasi elmlər fakültəsinin tələbəsi *Miri bəy Vəzirov*[2] 23 iyun 1920-ci ildə – artıq Xalq Maarif Komissarlığı dönəmində "Azərbaycan Cümhuriyyətinin cənab xalq maarif nazirinə" yazdığı ərizə ilə hökumət təqaüdçüləri sırasına götürülməsini istəyib:

"1919-cu ilin yayında, Qərbi Avropaya təhsilini bitirməkdən ötrü getmək istəyən tələbələrin yazılışı gedərkən mən də öz növbəmdə oraya daxil edilməyim üçün ərizə verərək avqustun 11-də Diplomatik Nümayəndəliyin katibi kimi Azərbaycandan İstanbula getdim.

Azərbaycandan uzaq yola çıxdığıma, bu səbəbdən də müəyyən komissiyalarla yerində danışıqlar apara bilmədiyimə görə gedən tələbələrin sırasına düşmək imkanından məhrum oldum.

1920-ci ilin yanvarında xidməti işlərimlə bağlı olaraq Bakıya ilk gəlişimdə Xalq Maarif Nəzarətində oldum, orada Nəzarətin uyğun rəhbərləri ilə bu barədə söhbət apardım və nəticədə ilk boşalan yerə mənim götürülməyimə söz verdilər, rəsmiyyətdən ötrü Nəzarətə ərizə yazaraq orada qoydum.

Vaxtı itirməməkdən ötrü mən mart ayında İstanbuldan öz hesabıma Parisə getdim, orada təhsilimi bitirmək niyyətində idim. Həmin vaxt Xalq Maarifi Nəzarətinə məni təqaüdçülər sırasına salması üçün ikinci ərizə ilə müraciət etdim.

İndi 2 təqaüdçü tələbə: [Zaur bəy] Dagirov və [Əjdər bəy] Axundov[3] *Parisdən Azərbaycana getdiklərinə və deməli, boş yerlər yarandığına görə mənim Avropada oxuyan hökumət təqaüdçüləri sırasına götürülməyimə etiraz etməməyinizi xahiş edirəm. Bunu deməyi gərəkli sayıram ki, mənim İstanbulda nümayəndə olan, özünün azacıq maaşı ilə yaşayan qardaşımdan başqa, maddi durumumu təmin edə biləcək heç bir qaynağım yoxdur. Buna görə yuxarıda deyilənləri və mənim artıq təhsil yerində olduğumu, oxumaqda davam etdiyimi nəzərə alaraq Nəzarətin xahişimi müsbət həll edəcəyinə umud bəsləyirəm".*[4]

Miri bəyin bu ərizəsinin yazıldığı zaman Cümhuriyyətin yıxılmasından 2 ay 5 gün keçirdi. Ancaq ərizənin maarif komissarına deyil, maarif nazirinə ünvanlanması, İstanbulda Azərbaycan Diplomatik Nümayəndəliyinin katibi işləməsini gizlətməməsi onun Cümhuriyyətin taleyindən xəbərsiz olduğunu göstərir. (16 iyun 1920-ci ildə Almaniyadakı

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 88-88a. Sənədi AC hökuməti işlər müdirinin əvəzi Nayman Mirzə Kriçinski 22 aprel 1920-ci ildə baxılmaq üçün xalq təhsili nazirinə göndərib.

[2] Bu, görkəmli yazıçı və Azərbaycan Cümhuriyyətinin Türkiyədə ozamankı səlahiyyətli diplomatik nümayəndəsi (səfiri) Yusif bəy Vəzirovun (Çəmənzəminlinin) qardaşıdır.

[3] Əjdər bəy Axundov dövlət təqaüdçüsü deyildi, Fransaya öz hesabına oxumağa getmişdi.

[4] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 57-57a.

Azərbaycan Tələbələri Komitəsinin məruzəsinin[1] də "Azərbaycan Cümhuriyyətinin Xalq Maarif Nəzarətinə" ünvanlanması Almaniyadakı tələbələrin də bu qədər müddətdə Cümhuriyyətin devrilməsindən məlumatsız qaldıqları təəssüratı yaradır).

M.b.Vəzirova sovet dönəmində də təqaüd verilməyib.[2] Buna baxmayaraq, o, Paris Siyasi Elmlər Məktəbini diplomatiya ixtisası üzrə bitirərək 6 iyul 1922-ci ildə bu haqda diplom alıb.[3]

7. 100 tələbə?

Bugünədək yazılan istisnasız olaraq bütün kitab və məqalələrdə Cümhuriyyətin oxumağa yüz tələbə göndərdiyi qeyd olunur və bu rəqəm mübahisəsiz qəbul edilir. Ancaq baxaq görək göndərilən tələbələrin sayı gerçəkdən 100 nəfərdirmi?

"Yüz tələbə" ifadəsi türkcə və rusca "Azərbaycan" qəzetlərinin 18 dekabr 1919-cu il saylarında çıxmış və bu kitabda təqdim etdiyimiz siyahıya əsaslanır. Burada düz 100 tələbənin və onların göndəriləcəyi dövlətlərin adları qeyd olunub. İş burasındadır ki, həmin siyahı sonra tam gerçəkləşmədi. Niyə?

1) Siyahıdakı 2 nəfərin oxumağa getmədiyi dəqiq bilinir:

1. Abdullayev Ağaəli Məşədi Rəsul oğlu (səbəbi bilinmir)
2. Mirabdullayev Miryusif Seyid Cənab oğlu (getmək ərəfəsində ölüb).

Beləliklə, qaldı 98 nəfər.

2) Siyahıda yalnız adları və soyadları keçən, heç atalarının adlarını da bilmədiyimiz, arxivlərdə heç bir sənədi (ərizə, attestat, doğum şəhadətnaməsi və s.) mövcud olmayan, adları nə Avropada, nə də Rusiya və Ukraynada oxuyan tələbələrin arasında görünən bu 3 nəfərin də dövlət təqaüdçüləri siyahısından çıxarıldığı bəlli olur:

1. Əliyev/Əlizadə Qambay
2. İmanov Ərəstun
3. Mirzəbəyli Əliəkbər.

İndi qaldı 95 nəfər.

3) Deməli, "Azərbaycan" qəzetindəki siyahı 18 dekabrda dərc edildikdən sonra oradakı 5 nəfərin oxumağa getməyəcəyi yanvar ayında bəlli olub və onların əvəzinə, siyahıya düşməyən aşağıdakı 5 nəfər dövlət təqaüdü təyin edilməklə, qanuni yolla xaricə göndərilib:

1. Ağayev Balaağa Məhəmmədhənifə oğlu
2. Xudaverdiyev Əlibala Hacı Mürtəzaqulu oğlu
3. Məhəmmədov Həmid (Həmdi Məhəmməd oğlu)
4. Pirverdiyev Hənifə Hacı Mahmud oğlu
5. Şeyxzaman İsaq bəy Musa bəy oğlu.

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 51-52.

[2] Doğrudur, Bəhram bəy Axundov Parisdə olarkən Miri bəyə də dövlət vəsaiti hesabına pul verib, ancaq ona rəsmən təqaüd kəsilməmişdi və bu, əslində, Bəhram bəyin şəxsi təşəbbüsü idi.

[3] AMEA Əlyazmalar İnstitutu (bundan sonra: AMEA Əl), fond 21, iş 391.

Yenə oldu düz 100 nəfər!

Başqa sözlə, Azərbaycan Cümhuriyyəti öz xəzinəsindən 100 tələbəyə xaricdə oxumaq üçün təqaüd ayırıb və həmin təqaüd "Azərbaycan" qəzetində dərc edilmiş son siyahıdakı 5 nəfəri əvəzləməklə öz yiyələrinə verilib.

4) Əmircanov Əliyar Hacı oğlu 1915-1917-ci illərdə Moskva Ali Texniki Məktəbində oxuyub. Oktyabr çevrilişindən sonra Azərbaycana dönüb. 1919-cu ildə AC Xariciyyə Nəzarətində işə girib. Tələbələrin siyahısı hazırlanarkən onun Rusiyaya təhsilini davam etdirmək üçün göndərilməsi nəzərdə tutulub və "Azərbaycan" qəzetində də bu cür qeydə alınıb. 29 noyabr 1919-cu il tarixli sənədlə ona 21 min manat təqaüd ödənilib, ancaq gedəcəyi məktəb Cümhuriyyət dönəmində açılmadığından Əliyar bəyin orada oxuması mümkün olmayıb. O, bir də 1922-ci ilin martında sovet Azərbaycanının təqaüdü ilə göndərilərək Berlin Ali Texniki Məktəbində oxuyub. Beləliklə, Ə.b.Əmircanov qanuni Cümhuriyyət təqaüdçüsüdür.

5) Cümhuriyyət hökuməti bu 100 tələbədən başqa, aşağıdakı 3 nəfərə də ali təhsil almaq üçün (ancaq öz xərci ilə) Avropaya getməkdən ötrü rəsmi icazə verib, onları xarici pasport, viza və s. ilə təmin edib:

1. Axundov Əjdər bəy İsgəndər bəy oğlu
2. Dadaşov Ağa Əbdülhüseyn Hacı Əliəsgər oğlu
3. Umudov Mirzə Mansur Mirzə İbrahim oğlu.

Daşkənddən olan M.M.Umudov oxumağa getməyib (səbəbi bilinmir), ona görə də siyahıya düşmür. Deməli, öz xərcinə oxumağa göndərilmiş 2 nəfər qalır ki, onlar da Cümhuriyyət tələbəsi sayılır. Beləliklə, bütün Cümhuriyyət tələbələri 100 yox, 102 nəfər olur. Bu kitabda həmin 102 tələbənin hər biri haqqında ayrıca bilgi verilib.

6) Bir şeyi hökmən qeyd etməliyik – 102 nəfərdən ikisi öz qardaşının yerinə oxumağa gedib: Fərman Nərimanbəyov və Cəmil Əlimuradbəyli. Fərman Nərimanbəyov qardaşı Yaqubun yerinə getdikdən sonra Fransadakı bütün sənədlərində adını "Yaqubfərman" kimi qeyd etdirməli olub, halbuki qardaşı Yaqub onun təhsil aldığı illərdə Bakıda yaşayıb və o da özünü "Fərman" adlandırmalı və onun sənədlərindən yararlanmalı olub. Cəmil Əlimuradbəyli isə qardaşı Cavadın yerinə Avropaya gedib. Biz ümumi siyahıya gerçək tələbələrin (Fərman və Cəmilin) adını daxil etmiş və kitabda onların tərcümeyi-halını vermişik.

7) Bəzi qaynaqlarda *"Kazımova Dinara"* adlı tələbənin də adı çəkilir. Məsələn, M.Cəfərli yazır: "Kazımova Dinara – 1920-ci ilin yanvarında Azərbaycan Demokratik Cümhuriyyəti Almaniyaya oxumağa göndərib. 1925-ci ildə Frayberqdə Dağ İnstitutunu bitirib. Qayıdandan sonra Az.SSR Dövlət Plan Komitəsinin sənaye şöbəsində çalışıb".[1] Təqaüdçülər içərisində Dinara adlı tələbə olmayıb. Bu, rusca cümlə içərisində *"Джафара Кязимова"* ("Cəfər Kazımovun") sözlərinin əlyazmadan düzgün oxunmaması nəticəsində yaranmış bir yanlışlıqdır. Onunla bağlı verilmiş bilgilər də Cəfər Kazımova aiddir.

[1] *Джафарли М.* Политический террор и судьбы азербайджанских немцев, s. 51.

Hacı Zeynalabdin Tağıyevin nəvəsi *Əbdürrəhman Tağıyev* və görkəmli şair Əliabbas Müznibin qardaşı *Əmin Abid Mütəllibzadə* İstanbul Universitetində, Yusif Vəzir Çəmənzəminlinin qardaşı *Miri bəy Vəzirov* isə Parisdə oxuyurdular. Onlar yalnız Sovet hakimiyyətinin ilk illərində dövlət təqaüdü ala biliblər. Sovet hakimiyyəti *Məhəmməd Ağaoğlu, Qəmər xanım Ağaoğlu, Səfvət bəy Məlikzadə, Xəlil Musayev, Hacıağa Nuruyev* və *Şamil Səfərova* da təqaüd kəsərək, onları xaricə oxumağa göndərib. Bu 9 nəfər bir neçə il Cümhuriyyət tələbələri ilə bir yerdə oxuyub. Təəssüf ki, bu kitabda onlardan da danışmağa imkanımız olmadı. Ancaq, inşallah, gələcəkdə bu kitabın yeni nəşri olarsa hökmən onların da tərcümeyi-hallarını verməyə çalışacağıq (onlar haqqında da yetərincə bilgimiz var).

Beləliklə,

Oxumağa getmiş cümhuriyyət tələbələrinin dəqiq siyahısı

(Rusiya və Ukraynada oxumalı olanlar da nəzərə alınmaqla: 102 nəfər)

1. Abdinov Bəhram Əliövsət oğlu
2. Ağabababəyov-Muğanlinski Adil bəy Abbasəli bəy oğlu
3. Ağasıbəyli Yusif bəy Süleyman bəy oğlu
4. Ağayev Balaağa Məhəmmədhənifə oğlu
5. *Axundov Əjdər bəy İsgəndər bəy oğlu (öz hesabına)*
6. Axundov İsmayıl Əbdülxalıq oğlu
7. Axundzadə Səməndər Axund Zəki oğlu
8. Aslanov Teymur bəy Zəkəriyyə bəy oğlu
9. Atamalıbəyov Abbas bəy Seyfulla bəy oğlu
10. Bağırlı Abdulla Məşədi Sadıq oğlu
11. Bosnalızadə Məhəmmədrəşid Mustafa oğlu
12. Cabbarov Əliəkbər Kərbəlayı Məhəmmədəli oğlu
13. Cavanşir Əbdülhəmid ağa Həmid ağa oğlu
14. Cəfərov Əliyusif Məşədi Abutalıb oğlu
15. *Dadaşov Ağa Əbdülhüseyn Hacı Əliəsgər oğlu (öz hesabına)*
16. Dagirov Zaur bəy Yusif bəy oğlu
17. Dursunzadə Məhəmmədzəki Dursun oğlu
18. Əbdülzadə Əbdül Kərbəlayı Abbas oğlu
19. Əbdürrəhmanlı Ağacəfər Məşədi Səftər oğlu
20. Əfəndiyev Abdulla Molla İbrahimxəlil oğlu
21. Əfəndiyev Məhəmmədəmin Hüseyn əfəndi oğlu
22. Əlimuradbəyli Cəmil bəy Cümşüd bəy oğlu
23. Əliyev Abbasmirzə Əhməd oğlu
24. Əliyev Əliəkbər Məşədi Qəhrəman oğlu
25. Əliyev Əşrəf Ağaəli oğlu
26. Əliyev Firidun Əzim oğlu

27. Əlizadə Zeynalabdin bəy Kərbəlayı Hacıağa bəy oğlu (Saray, Zeynal A.)
28. Əmircanov Əliyar bəy Hacı bəy oğlu
29. Əmirov Humbay bəy Məşədi Abbas oğlu
30. Əşrəfov İsrafil İsmayıl oğlu
31. Hacı Həsən əfəndi oğlu Sadəddin
32. Hacıyev Bayram İbrahim oğlu
33. Hacıyev Xasfolad bəy İsmayıl bəy oğlu
34. Hacıyev Məhəmməd bəy Kərim bəy oğlu (Karatekin, Mehmet)
35. Hacızadə Mirzə bəy Məşədi Yusif bəy oğlu (Göygöl, Mirzə)
36. Həsənov Əlimuxtar Kərbəlayı Yaqub oğlu
37. Həsənov Rzaqulu İsmayıl oğlu
38. Hüseynbəyov Zeynalabdin bəy Adil bəy oğlu
39. Hüseynzadə Bəhram bəy İsmayıl bəy oğlu
40. Hüseynzadə Əlihüseyn Ağahüseyn oğlu
41. Hüseynzadə Salman Hüseyn oğlu
42. Xiromanov Zəkəriyyə Əbdürrəşid oğlu
43. Xudaverdiyev Əlibala Hacı Mürtəzaqulu oğlu
44. İsgəndərli Ağalar Məşədi Abbasqulu oğlu (Batu, İsgəndər)
45. Kazımov Cəfər Hacı Əliəsgər oğlu
46. Kərimov Əli Məşədi Xaspulat oğlu
47. Qaracəmirlinski Məcid bəy Qasım bəy oğlu
48. Qədimi Lətif Məşədi Şirin oğlu
49. Quluyev Mirzəhüseyn Kərbəlayı Hənifə oğlu
50. Mahmudov Məhəmməd bəy Xələf bəy oğlu
51. Məhəmməd oğlu Həmid (Ataman, Həmid Xəlil)
52. Məhəmmədov Ağababa Kərbəlayı Əliəsgər oğlu
53. Məhəmmədov Hüseynbala Cəfərqulu oğlu
54. Məhəmmədov Nəbi Nəsib oğlu
55. Məmmədli Zal Məşədi Cavad oğlu
56. Məmmədov Qəhrəman İsrafil oğlu
57. Məmmədyarov Səməd Əbdülbağı oğlu
58. Mirqasımov (Mir)(zeynal)abdin Mirəliəsgər oğlu (Mirqasım Abdin)
59. Muğanlı Əsildar bəy Abbasəli bəy oğlu
60. Muxarski Süleyman Bəkir oğlu
61. Muradov Abbas Həmid oğlu
62. Muradov Məhəmməd bəy Fərhad bəy oğlu
63. Musai Cəmil İbrahim Tahir oğlu
64. Mustafayev Ağacəfər Kərbəlayı Əbdülbağı oğlu
65. Mustafayev Ağahəsən Manaf oğlu
66. Mustafayev Mustafa Molla Hacı Rəhim oğlu
67. Münşi Hilal Məşədi Mirzə Məhəmməd oğlu
68. Nağıyev Hüseyn Hacı Musa oğlu
69. Nəbiyev Mahmud Əbdürrəhim oğlu
70. Nərimanbəyov Fərman bəy Əmir bəy oğlu

71. Pirverdiyev Hənifə Hacı Mahmud oğlu
72. Rəcəbli Əhməd Məşədi Cabbar oğlu
73. Rəhimli Məhəmməd Paşa oğlu
74. Rəhimov Cəbrayıl Məhəmmədrza oğlu
75. Rəhimzadə Abdulla Məhəmməd oğlu
76. Rzayev Nüsrət Rza oğlu
77. Rzayev Tağı Kərbəlayı Əsgər oğlu
78. Rzazadə İsgəndər Mirzə Cabbar oğlu
79. Sadıqov Mirsadıq Kərbəlayı Seyid Kamil oğlu
80. Salahlı Yusif Məşədi Hüseyn oğlu
81. Seyidəliyev Mirməhəmmədrza Mirabutalıb oğlu
82. Seyidzadə Mirismayıl Mir Hacı Seyid Əhməd oğlu (Saryal, İsmayıl)
83. Səfərov Məhiş Məşədi Hacı oğlu
84. Səlimov Hüseynqulu Kərbəlayı Yusif oğlu
85. Sultanov Baxış bəy İsmayıl bəy oğlu
86. Sultanov İsgəndər bəy Rüstəm bəy oğlu
87. Şahnəzərov Əhmədhacı Hədis oğlu
88. Şahsuvarlı Mürsəl bəy Adilxan oğlu
89. Şahsuvarov Surxay bəy Əzim oğlu
90. Şeyxzaman İsaq bəy Musa bəy oğlu
91. Şıxıyev Hüseyn Hacı Mustafa oğlu (Argüdər, Hüseyn)
92. Tahirzadə Abdulla Mabud oğlu
93. Temirxanov Murad bəy Məhəmmədzübeyir bəy oğlu
94. Topçubaşov Rəşid bəy Əlimərdan bəy oğlu
95. Vəkilov Mustafa ağa Məhəmməd ağa oğlu
96. Vəkilov Teymur ağa Məhəmməd ağa oğlu
97. Vəliyev İsgəndər Məşədi Mahmud oğlu
98. Vəzirzadə Aslan bəy Zeynalabdin bəy oğlu
99. Yusifzadə Ağaəli Mirzə Cəlal oğlu (Əli Yusif)
100. Yüzbaşınski İsmayıl Qafur oğlu
101. Zeynallı Hənəfi Baba oğlu
102. Zeynalov Behbudəli Məşədi Həmid oğlu.

Doğrudur, Rusiya və Ukraynaya göndərilməsi nəzərdə tutulmuş 13 təqaüdçünün də adı 100 nəfərin siyahısındadır və bu təqaüd onların hər birinə ödənilib, ancaq onların Cümhuriyyət dönəmində oxumağa getməsini təsdiqləyən bəlgələr əldə yoxdur. Buna baxmayaraq, onlar haqqında da bilgi verməyi özümüzə borc sayırıq.

* * *

Beləliklə, öz Vətəninə xidmət edəcək, onun çiçəklənməsi üçün çalışacaq savadlı mütəxəssislər olmaq niyyətiylə müqəddəs yola çıxmış 90 nəfərə yaxın Azərbaycan gənci qardaş Türkiyəyə, Qərbi və Mərkəzi Avropaya üz tutdu. Onların min kilometrlərcə uzanan dəniz və quru yolları bu şəhərlərdən keçdi: Bakı – Tiflis – Batum – Trabzon –






İstanbul – Trento – Neapol – Roma – Paris – Bazel – Berlin. Bəziləri Romadan, bəziləri Parisdən, bəziləri də Berlindən ayrılaraq, oxuyacaqları şəhərlərə yol aldılar.

Bu kitabda həmin tələbələrdən 99 nəfərinin fotosunu təqdim edirik. Ancaq iş burasındadır ki, onlardan öncə də Avropaya gedib öz hesabına oxuyan və sovet dönəmində də təqaüd alaraq Avropada təhsil alan tələbələr vardı və onların hamısı istər Almaniyada, istərsə də Fransada birgə şəkillər çəkdiriblər. Biz onlardan bir-iki nəfəri müəyyənləşdirə bilsək də bu səhifənin fotolarındakı şəxsləri tanıya bilmədik. Onların "100 tələbə"dən olması ehtimalı minimumdur. Bəlkə kiminsə ailə arxivində təsadüfən bu tələbələrin də əks olunduğu fotolardan qalıb və şəklin arxasında adamların ad-soyadı qeyd edilib. Bu haqda bizə məlumat verməyinizi rica edirik.

8. Tələbələrin oxuduğu xarici dövlətlər

İndiyədək Cümhuriyyətin oxumağa göndərdiyi tələbələrin təhsil aldığı dövlətlər haqqında hətta ən son yazılarda belə yanlış məlumatlar gedir. Bircə misal. AR Dövlət Arxivinin direktoru kimi mötəbər bir şəxs faktları yoxlamadan Cümhuriyyət tələbələri haqqında yazır:

"Azərbaycanın göndərdiyi gəncləri müxtəlif Avropa ölkələrinin çoxlu şəhərlərində görmək olardı: Sürix, Cenevrə, Bern, Roma, Berlin, Frayberq, Darmştadt, Paris, Lion, Nansi və başqalarında. Bu fakt maraqlıdır: İngiltərədə 6 tələbə oxuyub, onlardan 3-ü respublikamız üçün nadir olan gəmiqayırma ixtisası alıb. Bunlar Abbas bəy Atamalıbəyov, Cəfər Əbdürrəhmanov, Ağahəsən Mustafayevdir".[1]

Halbuki adı çəkilən Sürix, Cenevrə və Bern şəhərlərində, eləcə də İngiltərədə bir nəfər də Cümhuriyyət tələbəsi oxumayıb. İş burasındadır ki, arxiv direktoru da başqa mötəbər qaynağa inanıb – 1919-cu ilin sonunda mətbəəyə verilmiş və bu cür də 1920-ci ilin aprelində nəşr edilmiş rusca və türkcə[2] "Azərbaycan Cümhuriyyənin ünvan-təqvimi"ndə göstərilib ki, 10 nəfər İngiltərəyə, 23 nəfər İtaliyaya, 45 nəfər Fransaya və 9 nəfər Türkiyəyə göndərilib; Rusiyada baş verən hadisələr üzündən oraya nəzərdə tutulmuş 13 nəfər göndərilə bilməyib.[3]

[1] *Əlizadə F.* Закладывался фундамент образования. // *«Hədəf»* (Bakı), 24.04.1998, s. 6.
[2] Türkcə "Azərbaycan" qəzetindən öyrənirik ki, türkcə ünvan-təqvimin nəşri lap Cümhuriyyətin yıxıldığı günlərdə başa çatıb. Çox güman ki, kommunistlər onun bütün nüsxələrini mətbəədə müsadirə və məhv edib, bu üzdən də heç bir arxiv və kitabxanamızda onun bircə nüsxəsi belə qalmayıb.
[3] Адрес-календарь Азербайджанской Республики. Баку, 1920, s. 57.

Bu bilgiyə inananlar yuxarıdakı müəllif kimi ciddi yanlışlığa yol verirlər, çünki onlara bəlli deyil ki, Bakıda hazırlanmış bu bölgü təqaüdçülər Avropaya çatdıqdan sonra tamamilə dəyişib (yalnız 9 nəfər gerçəkdən Türkiyədə oxumağa başlayıb). Belə ki, İngiltərədə bir nəfər də təhsil almayıb, Fransa və İtaliyada isə, nəzərdə tutulanların heç dörddən biri də oxumayıb. Əksinə, tələbələrin həlledici qismini adı heç bu siyahıya salınmayan ölkə – Almaniya qəbul edib, hətta Fransa və İtaliyada oxumağa başlayanların bir çoxu da az sonra Almaniyaya gedərək təhsilini orada başa vurub. Rusiyaya gəlincə, onsuz da, həmin 13 nəfərin hamısı Rusiya və Ukraynanın ali məktəblərində oxuyurdu. Təhsili başa vurmaqdan ötrü Cümhuriyyət onlara 13 təqaüd ayırıb və hər birinə ilk yarımil üçün 21 min manat nağd ödəyib. Ancaq onlar Rusiya və Ukraynada yaranmış dözülməz siyasi-sosial durum üzündən Azərbaycandan çıxaraq oxumağa gedə bilməyib.

Deməli, tələbələrdən danışarkən hətta nüfuzlu saydığımız qaynaqların və şəxslərin də yazdıqlarına tənqidi yanaşmağa, sənədləri yenidən gözdən keçirməyə ehtiyac yaranır.

Bizcə, Cümhuriyyət tələbələrinin hansı dövlətlərdə oxuduğunu dəqiq müəyyənləşdirməyə indiyədək ilk cəhdi filologiya elmləri doktoru Məmməd Cəfərli edib. AR Dövlət Təhlükəsizliyi Xidməti arxivindəki çoxlu istintaq sənədlərini incələyən alim bu nəticəyə gəlib ki, 10 İngiltərə, 23 İtaliya, 45 Fransa, 9 Türkiyə, 13 Rusiya bölgüsü gerçəkliklə uzlaşmır, çünki istintaqa cəlb edilmiş keçmiş tələbələrin çoxuna *"Müsavat hökumətinin göndərdiyi neçə tələbə hansı ölkələrdə oxuyub?" sualı verilib. Onların hamısı Rusiya və İngiltərədən başqa, yuxarıda sadalanan bütün dövlətlərin adlarını çəkib".*[1] M.Cəfərli istintaq sənədləri üzrə hesablamalar apararaq bu nəticəyə gəlib ki, müttəhimlər tələbələri dövlətlər arasında bü cür bölüblər: *Türkiyədə 10, İtaliyada 20, Fransada 20, Almaniyada 50 nəfər.*[2]

Azərbaycan Milli Ensiklopediyasının xüsusi "Azərbaycan" cildindəki "Təhsil" oçerkinin müəllifi Əsgər Quluyev də Cümhuriyyət tələbələrinin təhsil aldığı ölkələrin coğrafiyasından danışarkən qeyd edir ki, *Türkiyədə 6, İngiltərədə 1, Fransada 27, İtaliyada 4, Almaniyada 49 və Rusiyada 13 tələbəmiz* oxuyub.[3]

Göründüyü kimi, hər iki müəllifin gəldiyi nəticə Azərbaycan Cümhuriyyətinin ünvan-təqvimində göstərilən rəqəmlərdən daha dəqiqdir, ancaq onların dediyinin də düzəlişə ehtiyacı var.

"Azərbaycan Cümhuriyyətinin ünvan-təqvimi"ndə verilmiş ümumi rəqəmlər xalq maarif nazirinin əvəzi N.b.Şahsuvarovun imzalayaraq xariciyyə naziri F.x.Xoyskiyə 17 yanvar 1920-ci ildə göndərdiyi aşağıdakı siyahıdan[4] qaynaqlanıb. İlk dəfə yayımlanan bu siyahı Azərbaycan Cümhuriyyəti hökumətinin Rusiya çıxılmaqla 4 dövlət (İngiltərə, Fransa, İtaliya, Türkiyə) arasında 87 tələbənin bölgüsünü necə nəzərdə tutduğunu əyani şəkildə göstərir:

[1] *Əcəfərli M.* Политический террор и судьбы азербайджанских немцев, s. 47.
[2] Yenə orada.
[3] *Quluyev Ə.* "Təhsil" oçerki, s. 690.
[4] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 9-10.

İngiltərə (10 nəfər)

1. Abbas bəy Atamalıbəyov
2. Ağacəfər Məşədi Səftər oğlu Əbdürrəhmanov
3. Ağahəsən Manaf oğlu Mustafayev
4. Xasfolad bəy İsmayıl bəy oğlu Hacıyev
5. Salman Hüseynzadə
6. Yusif bəy Süleyman bəy oğlu Ağasıbəyov
7. Məhəmməd bəy Kərim bəy oğlu Hacıyev
8. Məhəmmədəmin [Hüseyn əfəndi oğlu] Əfəndiyev
9. Zal Məşədi Cavad oğlu Məmmədov
10. İsmayıl Əbdülxalıq oğlu Axundov.

İtaliya (23 nəfər)

11. Cəmil İbrahim Tahir oğlu Musayev
12. Zeynaladin bəy Hacıağa bəy oğlu Əliyev
13. Abbasmirzə Əhməd oğlu Əliyev
14. Qəhrəman İsrafil oğlu Məmmədov
15. Əhməd Məşədi Cabbar oğlu Rəcəbov
16. Mirzə Bəhram Övsət oğlu Abdinov
17. Mirzə Məşədi Yusif oğlu Hacızadə
18. Ağaəli Məşədi Rəsul oğlu Abdullayev
19. Hüseyn Hacı Musa oğlu Nağıyev
20. Hüseynbala Cəfərqulu oğlu Məhəmmədov
21. Mirsadıq Kərbəlayı Seyid Kamil oğlu Sadıqov
22. Rzaqulu İsmayıl oğlu Həsənov
23. Abdulla Məhəmməd oğlu Rəhimzadə
24. Məhəmməd bəy Fərhad bəy oğlu Muradov
25. Süleyman Bəkir oğlu Muxarski
26. Adil bəy Ağabababəyov-Muğanlinski
27. Həmdi Məhəmməd oğlu (Həmid Məhəmmədov)
28. Məhəmmədrəşid Bosnalızadə
29. Əsildar bəy Abbasəli bəy oğlu Ağabababəyov-Muğanlinski
30. İsgəndər Məşədi Mahmud oğlu Vəliyev
31. Hüseyn Qasım Mustafa oğlu Şıxıyev
32. Firidun Əliyev
33. Əbdülhəmid (Georgi Həmidoviç) Cavanşir.

Fransa (45 nəfər)

34. Tağı Kərbəlayı Əsgər oğlu Rzayev
35. Abbas Həmid oğlu Muradov
36. Zeynalabdin bəy Adil bəy oğlu Hüseynbəyov
37. Bayram İbrahim oğlu Hacıyev
38. Teymur bəy Aslanov

39. Mirqasımov Mirabdin
40. Mustafa ağa Məhəmməd ağa oğlu Vəkilov
41. Ağaəli Yusifzadə
42. Mirzəhüseyn Kərbəlayı Hənifə oğlu Quluyev
43. Mustafa Molla Hacı Rəhim oğlu Mustafayev
44. Mirismayıl Seyidzadə
45. Cəbrayıl Məhəmmədrza oğlu Rəhimov
46. Əliəkbər Kərbəlayı Məhəmmədəli oğlu Cabbarov[1]
47. Cəfər Kərbəlayı Əliəsgər oğlu Kazımov
48. Yaqub bəy Əmir bəy oğlu Nərimanbəyov
49. Zaur bəy Yusif bəy [oğlu] Dagirov[2]
50. Rəşid bəy Əlimərdan bəy oğlu Topçubaşov
51. İsrafil İsmayıl oğlu Əşrəfov
52. Məhəmməd Paşa oğlu Ağarəhimov
53. Əşrəf Ağaəli [oğlu] Əliyev
54. İsgəndər bəy Sultanov
55. Aslan bəy Zeynalabidin bəy oğlu Vəzirov
56. Abdulla Molla İbrahim oğlu Əfəndiyev
57. Surxay Əzim oğlu Şahsuvarov
58. Mürsəl Adilxan oğlu Şahsuvarov
59. Ağalar Məşədi Abbasqulu oğlu İsgəndərov
60. Əhməd Şahnəzərov (Əhməd Hədis oğlu Hacıyev)
61. Bəhram bəy Hüseynzadə
62. İsgəndər Cabbar xan oğlu Rzayev
63. Lətif Qədimov
64. Zəkəriyyə Əbdürrəşid oğlu Xiromanov
65. Behbudəli Məşədi Həmid oğlu Zeynalov
66. Məhiş Məşədi Hacı oğlu Səfərov
67. Hənifə Hacı Mahmud oğlu Pirverdiyev
68. Əlihüseyn Ağahüseyn oğlu Hüseynov
69. Cavad bəy Cümşüd bəy oğlu Əlimuradbəyov
70. Nüsrət Rza oğlu Rzayev
71. Yusif Məşədi Hüseyn oğlu Salahov
72. Murad bəy Məhəmməd[zübeyir bəy] oğlu xanov
73. Mirməhəmmədrza Mirabutalıb oğlu Seyidəliyev
74. [Əli]əkbər Qəhrəman oğlu Əliyev
75. Hilal Münşiyev
76. Səməndər Axund Zəki oğlu [Axundzadə]
77. Balaağa Məhəmmədhənifə oğlu Ağayev
78. Əlibala Hacı Murtuzaqulu oğlu Xudaverdiyev.

[1] Adı qarşısında karandaşla "geri dönüb" yazılıb.
[2] Adı qarşısında karandaşla "geri dönüb" yazılıb.

Türkiyə (9 nəfər)

79. Əbdül Kərbəlayı Abbas oğlu Əbdülov[1]
80. Sədi Hacı Həsən oğlu
81. Məhəmmədzəki Dursunzadə
82. Əlimuxtar Yaqub oğlu Həsənov[2]
83. Əli Məşədi Xaspulat oğlu Kərimov[3]
84. Abdulla Tahirov
85. Məhəmməd bəy Xələf bəy oğlu
86. Əliyusif Məşədi Abutalıb oğlu Cəfərov[4]
87. Məhəmmədhənifə Zeynallı.[5]

Göründüyü kimi, siyahı Türkiyə və Avropada oxuyanlarla bağlı tərtib edildiyi üçün buraya Rusiyada oxuması nəzərdə tutulmuş 13 nəfər salınmayıb.[6] İş burasındadır ki, Cümhuriyyətin ünvan-təqvimində 13 nəfərin Rusiyada oxuduğu göstərilsə də, əslində, bu, gerçəkliyə əsla uyğun gəlmir, çünki onlardan yalnız 5-i Rusiyanın, 8-i isə Ukraynanın ali məktəblərinə getməli idi. Buna görə də onların ucdantutma "Rusiya tələbələri" adlandırılması tarix və məntiq baxımından yanlışdır. Biz tələbələrin ölkələr üzrə sonrakı bölgüsündə Rusiya və Ukraynanı ayrı-ayrılıqda göstəririk.

Bundan öncəki paraqrafda yazdığımız kimi, "Azərbaycan" qəzetindəki 18 dekabr 1919-cu il siyahısındakı Qərbi Avropaya göndəriləsi tələbələr *Qambay Əliyev/Əlizadə, Ərəstun İmanov* və *Əliəkbər Mirzəbəyli*nin adları sonradan heç bir rəsmi sənədə düşməyib – onlar nə Türkiyə və Avropada, nə də Rusiya və Ukraynada oxuyan tələbələr arasında var. Bu isə onların da oxumağa getmədiyini təsdiqləyir, buna görə də onları ölkələr üzrə bölgüyə salmadıq.

"Azərbaycan Cümhuriyyənin ünvan-təqvimi"ndə verilmiş ölkələrin və onlarda oxuyan tələbələrin sayının sonradan nə qədər dəyişdiyini Türkiyə və Qərbi Avropada oxuyan Azərbaycan tələbələrinin işləri üzrə müvəkkil Bəhram bəy Axundovun 2 mart 1922-ci ildə Azərbaycan Xalq Komissarları Şurasının sədrinə yazdığı raport açıq-aydın göstərir. Çox qiymətli bu sənəddə Bəhram bəy tələbələrin oxuduğu nəinki ölkələrin, hətta şəhərlərin və bəzən ali məktəblərin və fakültələrin də adını qeyd edib. Həmin raportdan bəzi çıxarışları veririk.

1922-ci ilin martına olan dövrdə Fransada Azərbaycanın dövlət təqaüdçüsü olan cəmi 26 tələbəsi oxuyub. Onlar şəhərlər, məktəblər və fakültələr üzrə aşağıdakı qaydada bölüşdürülüb:

[1] Adı qarşısında karandaşla "geri dönüb" yazılıb.
[2] Adı qarşısında karandaşla "geri dönüb" yazılıb.
[3] Adı qarşısında karandaşla "geri dönüb" yazılıb.
[4] Adı qarşısında karandaşla "geri dönüb" yazılıb.
[5] Adı qarşısında karandaşla "geri dönüb" yazılıb.
[6] Bunlardan başqa, öz hesabına oxumaq üçün İngiltərəyə 1 (Ağa Əbdülhüseyn Əliəsgər oğlu Dadaşov), Fransaya 2 (Mirzə Mansur Umudov, Əjdər bəy Axundov) tələbənin getdiyi qeyd olunub.

Parisdə

Hüquq fakültəsində:	8 nəfər
Siyasi Elmlər Məktəbində:	3 nəfər
Tibb fakültəsində:	3 nəfər
Memarlıq fakültəsində:	1 nəfər
Mühəndislik İnstitutunda:	1 nəfər
Beləliklə, *bütün Parisdə*	16 nəfər
Lionda	
Hüquq fakültəsində:	1 nəfər
Bezansonda	
Tibb fakültəsində:	1 nəfər
Tuluzada	
Elektrotexnika fakültəsində:	2 nəfər
Nansidə	
Elektrotexnika fakültəsində:	2 nəfər
Geologiya fakültəsində:	1 nəfər
Aqronomluq fakültəsində:	2 nəfər
Mülxuzda	
Toxuculuq məktəbində:	1 nəfər[1]

Həmin dönəmdə Almaniyada 49 Azərbaycan təqaüdçü tələbəsi oxuyub. Bəhram bəy onlar haqqında bilgini Fransada olduğu kimi çox incəliklə deyil, ümumi şəkildə və şəhərlərlə ixtisasları bir-birindən ayırmaqla verib:

Berlində	24 tələbə
Darmştadtda	5 tələbə
Frayberqdə	8 tələbə
Karlsruedə	2 tələbə
Münxendə	4 tələbə
Göttingendə	3 tələbə
Hannoverdə	1 tələbə
Drezdendə	1 tələbə
Leypsiqdə	1 tələbə
Dağ mühəndisləri	10 nəfər
Yol mühəndisləri	5 nəfər
Elektrotexniklər	8 nəfər
Memarlar	4 nəfər
Kənd təsərrüfatı üzrə	... nəfər[2]
Kimya	2 nəfər
Ticarət	2 nəfər
Gəmiqayırma	2 nəfər
Kağız işi	1 nəfər
Keramika	1 nəfər
Hüquq	1 nəfər
Təbabət	8 nəfər[3]

[1] ARDA, fond 410, siyahı 1, iş 342, vərəq 4.
[2] Burada rəqəm yazılmayıb.
[3] ARDA, fond 410, siyahı 1, iş 342, vərəq 5.

Bəhram bəy İtaliyada yalnız 3 təqaüdçü azərbaycanlı tələbə qaldığını göstərib. Onların 3-ü də Perucadadır, 2-si Aqronomluq İnstitutunda, 1-i Bədaye Akademiyasında oxuyur.[1]

Türkiyəyə gəlincə, B.b.Axundov orada 3 tələbə oxuduğunu yazmaqla kifayətlənir.[2]

Beləliklə, Bəhram bəy 4 ölkəni (Türkiyə, Fransa, Almaniya, İtaliya) sadalayaraq onlarda 81 Azərbaycan tələbəsinin oxuması haqqında bilgi verib. Bu gerçəkdən çox dəyərli bəlgə daha çox maliyyə məsələlərinə həsr olunduğuna, Bəhram bəy Türkiyə və Avropada tələbələrimizə payladığı pulların hesabını verməyə çalışdığına görə adbaad hansı tələbənin hansı ölkədə oxuması haqqında məlumatı buradan öyrənə bilmirik. Sənəddə müvəkkil yalnız yaxşı oxuyan bir neçə tələbənin adını çəkib. O, bu tələbələrin adını həm də ona görə çəkməyib ki, evində onlar haqqında hər cür bilgini qapsamaqla özünün tərtib etdiyi geniş kartotekası vardı,[3] lazım gələcəyi anda hər kəs haqqında ayrıca bilgi verə biləcəyinə arxayındı.

Biz Bəhram bəy Axundovun bu hesabatından da yararlanaraq və başqa bir çox arxiv sənədlərindəki məlumatları ümumiləşdirərək, nəhayət, 102 tələbənin hansı dövlətlərdə və hansı şəhərlərdə, hansı ixtisaslar üzrə oxuması haqqında aşağıdakı yekun siyahını tərtib etmişik:

1. Abdinov (Mirzə) Bəhram (Əli)övsət oğlu. Ştutqart, Bonn – kənd təsərrüfatı
2. Ağabababəyov-Muğanlinski Adil bəy Abbasəli bəy oğlu. Leypsiq – hüquq
3. (Ağabababəyov-) Muğanlinski Əsildar bəy Abbasəli bəy oğlu. Leypsiq
4. Ağarəhimov/ Rəhimov/ Rəhimli Məhəmməd Paşa oğlu. Berlin, Darmştadt – maşınqayırma
5. Ağasıbəyov/Ağasıbəyli Yusif bəy Süleyman bəy oğlu. Berlin – elektrotexnika
6. Ağayev Balaağa Məhəmmədhənifə oğlu. Paris – tibb
7. Axundov Əjdər bəy İsgəndər bəy oğlu. (Öz hesabına). Paris
8. Axundov İsmayıl Əbdülxalıq oğlu. Haydelberq, Münxen – tibb
9. Axundzadə Səməndər Axund Zəki oğlu. Frayberq Dağ-Mədən Akademiyası
10. Aslanov Teymur bəy Zəkəriyyə bəy oğlu. Paris, Kotbus (Almaniya) – toxuculuq
11. Atamalıbəyov Abbas bəy Seyfulla bəy oğlu. Paris, Lion
12. (Bağırlı) Abdulla Sadıq oğlu. Kiyev Kommersiya İnstitutu
13. Bosnalızadə Məhəmmədrəşid Mustafa oğlu. İstanbul Universitetinin hüquq fakültəsi, III kurs; Paris – hüquq
14. Cabbarov Əliəkbər Kərbəlayı Məhəmmədəli oğlu. Nansi
15. Cavanşir Əbdülhəmid (Georgi) Həmid oğlu. Nansi – aqronomluq, Paris – kənd təsərrüfatı
16. Cəfərov Əliyusif Məşədi Abutalıb oğlu. İstanbul Universiteti
17. Dadaşov Ağa Əbdülhüseyn Hacı Əliəsgər oğlu. (Öz hesabına). Berlin
18. Dagirov Zaur bəy Yusif bəy oğlu. Paris
19. Dursunzadə Məhəmmədzəki Dursun oğlu. İstanbul Universiteti, Almaniya
20. Əbdülzadə Əbdül Kərbəlayı Abbas oğlu. İstanbul Universiteti

[1] ARDA, fond 410, siyahı 1, iş 342, vərəq 5a.

[2] Yenə orada, vərəq 6a.

[3] Repressiya illərində gəlini həmin kartotekanı qorxudan məhv edib.

21. Əbdürrəhmanov/Əbdürrəhmanlı (Ağa)cəfər Məşədi Səftər oğlu. Berlin – kimya
22. Əfəndiyev Abdulla Molla İbrahim(xəlil) oğlu. Berlin, Manheym – Kommersiya İnstitutu
23. Əfəndiyev Məhəmmədəmin Hüseyn əfəndi oğlu. Berlin, Darmştadt – yol mühəndisliyi
24. Əlimuradov/Əlimuradbəyli Cəmil bəy Cümşüd bəy oğlu. Frayberq Dağ-Mədən Akademiyası
25. Əliyev Abbas(mirzə) Əhməd oğlu. Berlin Kommersiya İnstitutu
26. Əliyev (Əli)əkbər Qəhrəman oğlu. Berlin – kənd təsərrüfatı
27. Əliyev Əşrəf Ağaəli oğlu. Frayberq Dağ-Mədən Akademiyası
28. Əliyev Firidun Əzim oğlu. Karlsrue – elektrotexnika
29. Əlizadə/ Əliyev Zeynal(abdin) bəy Hacıağa bəy oğlu. Peruca – heykəltəraşlıq
30. Əmircanov Əliyar bəy Hacı bəy oğlu. Berlin – aviasiya
31. Əmirov Humbay bəy Abbas bəy oğlu. Odessa Novorossiya Universiteti tibb fakültəsi, IV kurs
32. Əşrəfov İsrafil İsmayıl oğlu. Paris
33. Hacı Həsən əfəndi oğlu Sadəddin. İstanbul Universiteti tibb fakültəsi
34. Hacıyev Bayram İbrahim oğlu. Paris – iqtisadiyyat
35. Hacıyev Xasfolad bəy İsmayıl bəy oğlu. Paris, Almaniya – toxuculuq
36. Hacıyev Məhəmməd bəy Kərim bəy oğlu. Berlin – maşınqayırma
37. Hacızadə Mirzə bəy Məşədi Yusif bəy oğlu. İtaliya, Berlin – kənd təsərrüfatı
38. Həsənov Əlimuxtar Kərbəlayı Yaqub oğlu. İstanbul Universiteti
39. Həsənov Rzaqulu İsmayıl oğlu. Frayberq Dağ-Mədən Akademiyası
40. Hüseynbəyov Zeynalabdin bəy Adil bəy oğlu. Paris – tibb
41. Hüseynzadə Bəhram bəy İsmayıl bəy oğlu. Darmştadt – elektrotexnika
42. Hüseynzadə/ Hüseynov (Əli)hüseyn Ağahüseyn oğlu. Berlin, Rostok – tibb
43. Hüseynzadə/ Hüseynov Salman Hüseyn oğlu. Berlin, Firtsburq – tibb
44. Xələfbəyov/ Xələf bəy oğlu/ Mahmudov Məhəmmədəli bəy Xələf bəy oğlu. İstanbul Universiteti tibb fakültəsi
45. Xiromanov Zəkəriyyə Əbdürrəşid oğlu. Ştutqart, Karlsrue – elektrotexnika
46. Xudaverdiyev Əlibala Hacı Mürtəzaqulu oğlu. Paris, Bonn – kənd təsərrüfatı
47. İsgəndərli/ İsgəndərov Ağalar Məşədi Abbasqulu oğlu. Berlin – kimya
48. Kazımov Cəfər Hacı Əliəsgər oğlu. Darmştadt, Frayberq Dağ-Mədən Akademiyası
49. Kərimov Əli Məşədi Xasbulat oğlu. İstanbul Universiteti
50. Qaracəmirlinski Məcid bəy Qasım bəy oğlu. Xarkov Univ. hüquq fakültəsi, III kurs
51. Qədimi/ Qədimov Lətif Şirin oğlu. Berlin, Karlsrue – yol mühəndisliyi
52. Quluyev (Mirzə)hüseyn Kərbəlayı Hənifə oğlu. Paris
53. Məhəmmədov Ağababa Kərbəlayı Əliəsgər oğlu. Xarkov Texnologiya İnsitutu
54. Məhəmmədov/ Məhəmməd oğlu Həmid (Həmdi Məhəmməd oğlu). Ştutqart, Münxen – tibb
55. Məhəmmədov Hüseynbala Cəfərqulu oğlu. Ştutqart, Bonn – kənd təsərrüfatı
56. Məhəmmədov Nəbi Məhəmməd oğlu. Kiyev Kommersiya İnstitutu

57. Mə(hə)mmədyarov (Əbdüs)səməd Əbdülbağı oğlu. Xarkov Texnologiya İnstitutu, IV kurs
58. Məmmədli/ Məhəmmədov Zal Məşədi Cavad oğlu. Frayberq, Drezden – yol müh.
59. Məmmədov Qəhrəman İsrafil oğlu. Berlin – yol mühəndisliyi
60. Mirqasımov (Mir)(zeynal)abdin Mirəliəsgər oğlu. Paris – hüquq
61. Muxarski Süleyman Bəkir oğlu. Lion
62. Muradov Abbas Həmid oğlu. Paris – tibb
63. Muradov Məhəmməd,bəy Fərhad bəy oğlu. Paris – tibb
64. Musai/ Musayev Cəmil İbrahim Tahir oğlu. İtaliya, Berlin – arxitektura
65. Mustafayev Ağacəfər Kərbəlayı Əbdülbağı oğlu. Don Universiteti (Rostov), III kurs
66. Mustafayev Ağahəsən Manaf oğlu. Berlin – gəmiqayırma
67. Mustafayev Mustafa Molla Hacı Rəhim oğlu. Tuluza – energetika
68. Münşi(zadə) Hilal Məşədi Məhəmməd oğlu. Berlin – yol mühəndisliyi
69. Nağıyev Hüseyn Hacı Musa oğlu. Berlin – kənd təsərrüfatı
70. Nəbiyev Mahmud Əbdürrəhim oğlu. Sankt-Peterburq, Kiyev
71. Nərimanbəyov Fərman bəy Əmir bəy oğlu. Paris – elektrotexnika
72. Pirverdiyev Hənifə Hacı Mahmud oğlu. Berlin – memarlıq
73. Rəcəbli/ Rəcəbov Əhməd Məşədi Cabbar oğlu. Peruca – kənd təsərrüfatı
74. Rəhimov Cəbrayıl Məhəmmədrza oğlu. Paris
75. Rəhimzadə/ Rəhimov Abdulla Məhəmməd oğlu. Roma, Berlin – elektrotexnika
76. Rzazadə/ Rzayev İsgəndər Mirzə Cabbar oğlu. Paris, Darmştadt – elektrotexnika
77. Rzayev Nüsrət(ulla) Rza oğlu. Berlin – tibb
78. Rzayev Tağı Kərbəlayı (Əli)əsgər oğlu. Paris
79. Sadıqov (Mir)sadıq Kərbəlayı Seyid Kamil oğlu. Frayberq Dağ-Mədən Akademiyası
80. Salahlı/ Salahov/ Salahzadə Yusif Məşədi Hüseyn oğlu. Haydelberq, Münxen – tibb
81. Seyidəliyev (Mir)məhəmmədrza (Mir)abutalıb oğlu. Paris
82. Seyidzadə (Mir)ismayıl Mir Hacı Seyid Əhməd oğlu. Berlin – elektrotexnika
83. Səfərov Məhiş Məşədi Hacı oğlu. Berlin, Darmştadt – yol müh.
84. Səlimov Hüseynqulu Kərbəlayı Yusif oğlu. Xarkov Texnologiya İnstitutu
85. Sultanov Baxış/ Baxşəli bəy İsmayıl bəy oğlu. Don Politexnik İnstitutu (Rostov), III kurs
86. Sultanov İsgəndər bəy Rüstəm bəy oğlu. Berlin – dağ-mədən
87. Şahnəzərov Əhmədhacı Hədis oğlu. Berlin, Mülxuz – toxuculuq məktəbi, Nansi
88. Şahsuvarlı/ Şahsuvarov Mürsəl bəy Adilxan oğlu. Leypsiq, Münxen – tibb
89. Şahsuvarov Surxay bəy Əzim oğlu. Frayberq Dağ-Mədən Akademiyası
90. Şeyxzaman(ov) İsaq bəy Musa bəy oğlu. Paris, hüquq
91. Şıxıyev/ Şeyxi Hüseyn Hacı Mustafa oğlu. Berlin, Darmştadt – elektrotexnika
92. Tahirzadə/ Tahirov/ Tahirli/ Tahiroğlu Abdulla Mabud oğlu. Dərsəadət (İstanbul) Ali Ticarət Məktəbi

93. Temirxanov Murad bəy Məhəmmədzübeyir bəy oğlu. Paris, Karlsrue – yol mühəndisliyi
94. Topçubaşov Rəşid bəy Əlimərdan bəy oğlu. Paris
95. Vəkilov Mustafa ağa Məhəmməd ağa oğlu. Paris – hüquq
96. Vəkilov Teymur ağa Məhəmməd ağa oğlu. Petroqrad Psixo-Nevroloji İnsitutunun hüquq fakültəsi, III kurs
97. Vəliyev/ Vəlizadə İsgəndər Məşədi Mahmud oğlu. Peruca – kənd təsərrüfatı
98. Vəzirzadə/ Vəzirov Aslan bəy Zeynalabdin bəy oğlu. Paris
99. Yusifzadə (Ağa)əli Mirzə Cəlal oğlu. Paris Siyasi Elmlər Məktəbi
100. Yüzbaşınski İsmayıl Qafur oğlu. Xarkov Texnologiya İnsitutu
101. Zeynallı (Məhəmməd)hənifə/ Hənəfi Baba oğlu. İstanbul Universiteti
102. Zeynalov Behbud(əli) Məşədi Həmid oğlu. Berlin – yol mühəndisliyi.

İndi isə həmin siyahıdan istifadəni asanlaşdırmaq üçün 102 tələbənin ölkələr üzrə bölgüsünü veririk. Bu zaman nəzərə almaq gərəkdir ki, Qərbi Avropada oxuyan bəzi tələbələr bir neçə şəhər, yaxud ali məktəb dəyişib; onların oxuduğu ölkə kimi sonuncu – diplom aldığı dövləti əsas götürmüşük.

Türkiyə

1. Cəfərov Əliyusif Məşədi Abutalıb oğlu. İstanbul Universiteti
2. Dursunzadə Məhəmmədzəki. İstanbul Universiteti
3. Əbdülzadə Əbdül Kərbəlayı Abbas oğlu. İstanbul Universiteti
4. Hacı Həsən əfəndi oğlu Sadəddin. İstanbul Universiteti
5. Həsənov Əlimuxtar Kərbəlayı Yaqub oğlu. İstanbul Universiteti
6. Xələfbəyov/ Xələf bəy oğlu/ Mahmudov Məhəmməd bəy Xələf bəy oğlu. İstanbul Universiteti
7. Kərimov Əli Məşədi Xasbulat oğlu. İstanbul Universiteti
8. Tahirov/Tahiroğlu/Tahirli/Tahirzadə Abdulla Mabud oğlu. Dərsəadət (İstanbul) Ali Ticarət Məktəbi, İstanbul Universitetinin riyaziyyat fakültəsi
9. Zeynallı (Məhəmməd)hənifə/Hənəfi Baba oğlu. İstanbul Universiteti.

Almaniya

1. Abdinov Mirzə Bəhram (Əli)övsət oğlu. Georg August adına Göttingen Universiteti, Bonn Kənd Təsərrüfatı Ali Məktəbi
2. Ağabababəyov-Muğanlinski Adil bəy Abbasəli bəy oğlu. Leypsiq – hüquq
3. Ağabababəyov-Muğanlinski Əsildar bəy Abbasəli bəy oğlu. Leypsiq
4. Ağarəhimov/Rəhimov/Rəhimli Məhəmməd Paşa oğlu. Darmştadt – maşınqayırma
5. Ağasıbəyli/ Ağasıbəyov Yusif bəy Süleyman bəy oğlu. Berlin
6. Axundov İsmayıl Əbdülxalıq oğlu. Münxen – tibb
7. Axundzadə Səməndər Axund Zəki oğlu. Frayberq Dağ-Mədən Akademiyası
8. Aslanov Teymur bəy Zəkəriyyə bəy oğlu. Paris, Kotbus (Almaniya) – toxuculuq
9. Dadaşov Ağa Əbdülhüseyn Hacı Əliəsgər oğlu (öz hesabına). Berlin
10. Əbdürrəhmanlı/ Əbdürrəhmanov (Ağa)cəfər Məşədi Səftər oğlu. Berlin

11. Əfəndiyev Abdulla Molla İbrahim oğlu. Manheym Kommersiya İnstitutu
12. Əfəndiyev Məhəmmədəmin Hüseyn əfəndi oğlu. Darmştadt – yol mühəndisliyi
13. Əlimuradbəyli/ Əlimuradov Cəmil bəy Cümşüd bəy oğlu. Frayberq Dağ-Mədən Akademiyası
14. Əliyev Abbasmirzə Əhməd oğlu. Berlin Kommersiya İnstitutu
15. Əliyev Əliəkbər Məşədi Qəhrəman oğlu. Berlin
16. Əliyev Əşrəf Ağaəli oğlu. Frayberq Dağ-Mədən Akademiyası
17. Əliyev Firidun Əzim oğlu. Karlsrue – elektrotexnika
18. Hacıyev Xasfolad bəy İsmayıl bəy oğlu. Paris, Almaniya – toxuculuq
19. Hacıyev Məhəmməd bəy Kərim bəy oğlu. Berlin – maşınqayırma
20. Hacızadə Mirzə bəy Məşədi Yusif bəy oğlu. Berlin – kənd təsərrüfatı
21. Həsənov Rzaqulu İsmayıl oğlu. Frayberq Dağ-Mədən Akademiyası
22. Hüseynzadə Bəhram bəy İsmayıl bəy oğlu. Darmştadt – elektrotexnika
23. Hüseynzadə Əlihüseyn Ağahüseyn oğlu. Rostok – tibb
24. Hüseynzadə/ Hüseynov Salman Hüseyn oğlu. Firtsburq – tibb
25. Xiromanov Zəkəriyyə Əbdürrəşid oğlu. Karlsrue – elektrotexnika
26. Xudaverdiyev Əlibala Hacı Mürtəzaqulu oğlu. Bonn – kənd təsərrüfatı
27. İsgəndərli Ağalar Məşədi Abbasqulu oğlu. Berlin – kimya
28. Kazımov Cəfər Hacı Əliəsgər oğlu. Frayberq Dağ-Mədən Akademiyası
29. Qədimi/ Qədimov Lətif Şirin oğlu. Karlsrue – yol müh.
30. Məhəmmədov Həmid (Məhəmməd oğlu Həmdi). Münxen – tibb
31. Məhəmmədov Hüseynbala Cəfərqulu oğlu. Bonn – kənd təsərrüfatı
32. Məmmədli/ Məhəmmədov Zal Məşədi Cavad oğlu. Drezden – yol mühəndisliyi
33. Məmmədov Qəhrəman İsrafil oğlu. Berlin – yol mühəndisliyi
34. Musai/ Musayev Cəmil İbrahim Tahir oğlu. Berlin – memarlıq
35. Mustafayev Ağahəsən Manaf oğlu. Berlin – gəmiqayırma
36. Münşi(zadə) Hilal Məşədi Məhəmməd oğlu. Berlin – yol mühəndisliyi
37. Nağıyev Hüseyn Hacı Musa oğlu. Berlin – kənd təsərrüfatı
38. Pirverdiyev Hənifə Hacı Mahmud oğlu. Berlin – memarlıq
39. Rəhimzadə/ Rəhimov Abdulla Məhəmməd oğlu. Berlin – elektrotexnika
40. Rzazadə/ Rzayev İsgəndər Mirzə Cabbar oğlu. Darmştadt – elektrotexnika
41. Rzayev Nüsrət Rza oğlu. Berlin – tibb
42. Rzayev Tağı Kərbəlayı Əsgər oğlu. Darmştadt Elektrotexnika İnstitutu
43. Sadıqov (Mir)sadıq Kərbəlayı Seyid Kamil oğlu. Frayberq Dağ-Mədən Akademiyası
44. Salahlı/ Salahov/ Salahzadə Yusif Məşədi Hüseyn oğlu. Münxen – tibb
45. Seyidzadə (Mir)ismayıl Mir Hacı Seyid Əhməd oğlu. Berlin – elektrotexnika
46. Səfərov Məhiş Məşədi Hacı oğlu. Darmştadt – yol mühəndisliyi
47. Sultanov İsgəndər bəy Rüstəm bəy oğlu. Berlin Dağ-Mədən Akademiyası
48. Şahsuvarlı/ Şahsuvarov Mürsəl bəy Adilxan oğlu. Münxen – tibb
49. Şahsuvarov Surxay bəy Əzim oğlu. Frayberq Dağ-Mədən Akademiyası
50. Şıxıyev/ Şeyxi Hüseyn Hacı Mustafa oğlu. Darmştadt – elektrotexnika
51. Temirxanov Murad bəy Məhəmməd(zübeyir) bəy oğlu. Karlsrue – yol mühəndisliyi
52. Zeynalov Behbud(əli) Məşədi Həmid oğlu. Berlin – yol mühəndisliyi.

Fransa

1. Ağayev Balaağa Məhəmmədhənifə oğlu. Paris – tibb
2. Axundov Əjdər bəy İsgəndər bəy oğlu (öz hesabına). Paris
3. Atamalıbəyov Abbas bəy Seyfulla bəy oğlu. Paris, Lion
4. Bosnalızadə Məhəmmədrəşid Mustafa oğlu. Paris – hüquq
5. Cabbarov Əliəkbər Kərbəlayı Məhəmmədəli oğlu. Nansi
6. Cavanşir Əbdülhəmid (Georgi) Həmid oğlu. Paris – kənd təsərrüfatı
7. Dagirov Zaur bəy Yusif bəy oğlu. Paris
8. Əşrəfov İsrafil İsmayıl oğlu. Paris
9. Hacıyev Bayram İbrahim oğlu. Paris – iqtisadiyyat
10. Hüseynbəyov Zeynalabdin bəy Adil bəy oğlu. Paris – tibb
11. Quluyev (Mirzə)hüseyn Kərbəlayı Hənifə oğlu. Paris
12. Mirqasımov (Mir)(zeynal)abdin Mirəliəsgər oğlu. Paris – hüquq
13. Muxarski Süleyman Bəkir oğlu. Lion
14. Muradov Abbas Həmid oğlu. Paris – tibb
15. Muradov Məhəmməd bəy Fərhad bəy oğlu. Paris – tibb
16. Mustafayev Mustafa Molla Hacı Rəhim oğlu. Paris – elektrotexnika
17. Nərimanbəyov Fərman bəy Əmir bəy oğlu. Paris – elektrotexnika
18. Rəhimov Cəbrayıl Məhəmmədrza oğlu. Paris
19. Seyidəliyev (Mir)məhəmmədrza (Mir)abutalıb oğlu. Paris
20. Şahnəzərov Əhmədhacı Hədis oğlu. Nansi
21. Şeyxzaman(ov) İsaq bəy Musa bəy oğlu. Paris Universiteti
22. Topçubaşov Rəşid bəy Əlimərdan bəy oğlu. Paris
23. Vəkilov Mustafa ağa Məhəmməd ağa oğlu. Paris
24. Vəzirzadə/ Vəzirov Aslan bəy Zeynalabdin bəy oğlu. Paris
25. Yusifzadə (Ağa)əli Mirzə Cəlal oğlu. Paris.

İtaliya

1. Əlizadə/ Əliyev Zeynal(abdin) bəy Hacıağa bəy oğlu. Peruca – heykəltəraş
2. Rəcəbli/ Rəcəbov Əhməd Məşədi Cabbar oğlu. Peruca – kənd təsərrüfatı
3. Vəliyev/ Vəlizadə İsgəndər Məşədi Mahmud oğlu. Peruca – kənd təsərrüfatı.

Ukrayna

1. (Bağırlı) Abdulla Sadıq oğlu. Kiyev Kommersiya İnstitutu
2. Əmirov Humbay bəy Abbas bəy oğlu. Novorossiya Universiteti (Odessa) tibb fakültəsi, IV kurs
3. Qaracəmirlinski Məcid bəy Qasım bəy oğlu. Xarkov Universitetinin hüquq fakültəsi, III kurs
4. Məhəmmədov Ağababa Kərbəlayı Əliəsgər oğlu. Xarkov Texnologiya İnstitutu
5. Məhəmmədov Nəbi Məhəmməd oğlu. Kiyev Kommersiya İnstitutu
6. Mə(hə)mmədyarov (Əbdüs)səməd Əbdülbağı oğlu. Xarkov Texnologiya İnstitutu, IV kurs

7. Səlimov Hüseynqulu Kərbəlayı Yusif oğlu. Xarkov Texnologiya İnstitutu
8. Yüzbaşınski İsmayıl Qafur oğlu. Xarkov Texnologiya İnstitutu.

Rusiya

1. Əmircanov Əliyar bəy Hacı bəy oğlu. Moskva Ali Texniki Məktəbi, mexanika bölümünün 3-cü kursu; sovet dönəmində: Berlin Ali Texniki Məktəbi
2. Mustafayev Ağacəfər Kərbəlayı Əbdülbağı oğlu. Don Universiteti (Rostov), III kurs
3. Nəbiyev Mahmud Əbdürrəhim oğlu. Sankt-Peterburq
4. Sultanov Baxış/ Baxşəli bəy İsmayıl bəy oğlu. Don Politexnik İnstitutu (Rostov), III kurs
5. Vəkilov Teymur ağa Məhəmməd ağa oğlu. Petroqrad Psixo-Nevroloji İnstitutunun hüquq fakültəsi, III kurs.

İş burasındadır ki, Ukrayna və Rusiyaya oxumağa gedəsi 13 nəfər Cümhuriyyətin umudlarını doğrultmadı, belə ki, həmin tələbələrin hər biri Cümhuriyyətdən 21 min manat təqaüd alsa da həmin dönəmdə təyinat yerinə getmədi və sözün gerçək anlamında Cümhuriyyətin pulları batdı. Həmin 13 yer Türkiyəyə, yaxud Avropaya ayrılsaydı bunun faydası daha çox olardı. (Doğrudur, bunu biz indi inamla deyirik, ancaq o zaman işlərin gedişinin necə olacağını kim bilirdi ki?..).

O vaxt Rusiyaya oxumağa getmək, həqiqətən, həddən artıq riskliydi. Dünənki Rusiya imperiyasındakı durumu və təqaüdçülərin oraya getməməsinin, yaxud getmək istəməməsinin səbəbini aşağıda verəcəyimiz məktub qədər incəliklə açıqlaya biləcək ikinci qaynaq tanımırıq.

Xarkov Universiteti hüquq fakültəsi III kursunun tələbəsi Məcid bəy Qaracəmirlinskinin 17 noyabr 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizədə oxuyuruq:

"Təhsili davam etdirmək üçün Rusiyaya göndərilməsi hökumət təqaüdçüləri sırasına salındığımı keçən ayın son günlərində öyrənərək öz xidməti yerim olan Gədəbəydən təcili Bakıya gəldim və tələbələrin Rusiyaya göndərilməsi şərtləri ilə tanış olmaq üçün ləngimədən Sizinlə görüşdüm. Təşəbbüsümlə bağlı Sizdən gərəkli bilgilər alaraq getməyimizlə əlaqədar məsələləri müzakirə etmək üçün tələbələrin ümumi yığıncağını keçirdik. Orada Xarkovdan bu il 20 oktyabrda gəlmiş 2 tələbə – Adıgözəlbəyov və Şahbazov da iştirak edirdilər; onlar yığıncağın xahişi ilə Rusiyanın cənub-qərbindəki durum haqqında geniş məruzə etdilər.

Yuxarıda adı keçən həmkarlarımın qərəzsiz bəyanatlarına görə, Rusiyada dolanışıq həddsiz bahadır. Şəhərdə boş otaqlar demək olar ki, yoxdur. Mənzil tapılsa da (o da inanılmaz qiymətə) işıq və istilikpulu xaric 1200-dən 2000 manata qədərdir. Ağ neft və odunla bağlı məsələ isə daha bərbad vəziyyətdədir. Ağ nefti olduqca məhdud miqdarda verirlər (reseptlə dərman verən kimi), odun isə 350 manata və bəzən daha baha olur. Ən başlıcası və ən kədərləndiricisi isə universitet həyatındakı tam durğunluqdur: cüzi əməkhaqqına görə sayları həddən azalmış professorlar öz vəzifələrinin icrasına laqeyd yanaşırlar və ona görə də bəzən professorların yoxluğu üzündən universitet həftələrlə bağlı olur. Tələbələrin də çoxu əsgərliyə cəlb edilib. Təhsilhaqqı 10-12 dəfə artırılıb. Gərəkli dərsliklər mağazalarda da yoxdur.

Həmkarlarımızın dediyinə görə, cənub-qərbi Rusiyada bu saat universitet yada düşmür. Orada hər şey cəbhə üçündür. Bu ehtimalı da nəzərə alsaq ki, qışda istilik olmadığına görə universitet bağlanacaq, onda bütün dediklərimizi bir yerə toplayanda aydın nəticə əldə etmiş oluruq – indiki vaxtda Rusiyaya getmək məqsədəuyğun deyil. Bu fikirlə Rusiyaya getməyə hazırlaşmış yoldaşlarımızın çoxu razıdır. Ancaq elələri də var ki necə olsa getmək istəyir.

Yalnız bir məqsəd naminə – yaranmış imkandan yararlanaraq təhsili davam etdirməkdən ötrü bütün mümkün məhrumiyyətlərə və yoxsulluğa, bundan da betərinə, hətta həyatla risk etməyə dözmək olar. Rusiyadan qaçıb gəlmiş həmkarlarımız deyirdilər ki, biz tez -tez milliyyətimizi və ondan da tez-tez təbəəliyimizi gizlətməyə məcbur olurduq. Ancaq bu qədər əzab-əziyyətdən sonra universitetin bağlı qapıları arxasında qalmaq qorxusu daha gerçəkdir. Bu fikirlərlə yola düşmək, məqsədə çatmadan xalq pullarını havaya sovurmaq düşüncələri mənî və mənimlə eyni əqidədə olan həmkarlarımı Sizdən israrla xahiş etməyə vadar edir ki, tezliklə təhsilini bitirərək Vətənə dönməyi ürəkdən istəyən bizlərə yaxın gələcəkdə hökumət təqaüdündən yararlanmaq imkanı yaradasınız, yaxud bizə də Qərbi Avropaya getmək hüququ verəsiniz".[1]

Bizcə, araşdırmamızın bu nəticələri yetərincə ciddi və dəqiqdir. Bu mövzuda yazacaq tarixçilərimizin, qarşılarına çıxacaq ən müxtəlif suallara buradan dəqiq cavab ala biləcəklərinə umudvarıq.

Oxucularımızı bir sual təbii olaraq maraqlandıra bilər ki, Avropaya göndərilmiş tələbələrin yarıdan çoxunun Almaniyanı seçərək orada oxumaq istəməsinin səbəbi nədir? Fikrimizcə, bunun üç başlıca səbəbi var. Birinci səbəbi filologiya elmləri doktoru Məmməd Cəfərli izah edir:

"O çağlarda Almaniya özünün qədim ali məktəblərivlə və ali təhsil sisteminin dəqiq təşkiliylə ad çıxarmışdı. Haydelberqdəki universitetin – ən qədim alman ali məktəbinin əsası hələ 1386-cı ildə, Rostokda 1419-cu ildə, Frayberqdə 1457-ci ildə qoyulmuşdu".[2]

İkincisi, ənənəvi olaraq Türkiyə ilə dostluq münasibətlərində bulunmuş Almaniyanı Azərbaycan Türkləri olan tələbələr də özlərinə başqa ölkələrdən daha doğma sayırdılar. Üçüncüsü, Bəhram bəy Axundovun da göstərdiyi kimi, Almaniyada Fransa və İtaliyaya nisbətən daha ucuzluq idi. Məsələn, hər tələbəyə bir ayda Türkiyə kağız lirəsi hesabıyla Türkiyədə ortalama 75, İtaliyada 80, Fransada 110 lirə tələb olunurdusa Almaniyada 60 lirə yetərli idi.[3] Buna görə də öncə Fransa və İtaliyada yerləşən tələbələrin çoxu 1920-ci ilin sonlarından Almaniyaya üz tutmağa məcbur oldu.

[1] ARDA, fond 51, siyahı 3, iş 89, vv. 4-5.
[2] *Ələsgərzadə M.* Политический террор и судьбы азербайджанских немцев, s. 47.
[3] ARDA, fond 410, siyahı 1, iş 342, vv. 6-6a.



Yusif Vəzir Çəmənzəminli



Ceyhun bəy Hacıbəyli



Bəhram bəy Axundov



İbadulla Əlizadə (İbad Əliyev)

9. Tələbələrin taleyində rol oynamış şəxslər

"100 tələbə"nin Bakıdan yola düşdükdən sonrakı həyatında – onların həm təhsil almasında, həm də gündəlik dolanışığında həlledici rol oynamış bir çox şəxslər olub. "Həlledici rol"dedikdə bunu həm müsbət, həm də mənfi anlamda başa düşmək gərəkdir, çünki adını çəkəcəyimiz adamların, xoşbəxtlikdən, əksəriyyəti onları öz doğma balaları kimi sevərək, qayğılarına qalıb, ancaq erməni Simon Pirumov (Pirumyans) kimi bəziləri onların nəinki oxumalarına, hətta yaşamalarına belə çözülməz problemlər yaradıblar. Əlimizdəki mövcud sənədlərə dayanaraq həmin ən önəmli şəxslərin adlarını sadalaya bilərik: *Əlimərdan bəy Topçubaşov* – Azərbaycan Cümhuriyyətinin Parisdəki Sülh Heyətinin başçısı; *Məhəmməd Məhərrəmov, Abbas bəy Atamalıbəyov, Ceyhun bəy Hacıbəyli* – həmin Heyətin üzvləri; *Yusif Vəzir(ov) (Çəmənzəminli)* – Azərbaycan Cümhuriyyətinin Türkiyədəki səfiri, *Nəriman Nərimanov* – Azərbaycan İnqilab Komitəsinin və Azərbaycan Xalq Komissarları Şurasının sədri; *Ruhulla Axundov* – Azərbaycanın kommunist rəhbərlərindən biri; *Simon Pirumov (Pirumyans)* – Sovet Baş Dövlət Siyasi İdarəsində zabit-çekist, Qərbi Avropada oxuyan tələbələrin də işinə nəzarət edən ən səlahiyyətli şəxs; *İbadulla Əlizadə (İbad Əliyev)* – Azərneft xəttilə Azərbaycanın Berlindəki Ticarət Nümayəndəliyində texniki şöbənin mühəndisi və Almaniyada oxuyan tələbələrin işinə nəzarət üzrə komissiyanın üzvü; *Bəhram bəy Axundov* – görkəmli həkim və dövlət xadimi, sovet hakimiyyətinin ilk illərində yüz tələbənin gerçək durumunu öyrənmək üçün Azərbaycan XKŞ-nın Türkiyə və Qərbi Avropaya göndərdiyi səlahiyyətli şəxs və b. Oxucularımızın adıkeçən şəxslərin bir çoxu haqqında artıq az-çox bilgisi var. Adı çəkilənlərin ilk dördünün hər biri haqqında bir çox kitablar, saysız məqalələr yazılıb və cəmiyyət onlara bələddir. Ancaq son 3 nəfərin (S.Pirumov, İ.Əlizadə, B.b.Axundov) şəxsiyyəti haqqında isə hətta ən məlumatlı oxucularımız belə, demək olar ki, heç nə oxumayıb, heç nə eşitməyiblər, çünki İbadulla Əlizadəyə həsr edilmiş "525-ci qəzet"dəki məqaləmiz[1] istisna olmaqla onlar haqqında indiyədək ayrıca kiçicik məqalə belə yazılmayıb.

[1] *Tahirzadə Ə.* İbadulla Ağaməli oğlu Əlizadə. *//"525-ci qəzet"*, 20 noyabr 2004, №224; 23 noyabr, №225; 24 noyabr, №226.

Əlimərdan bəy Topçubaşov (Topçubaşı) (1863-1934) Avropada oxuyan tələbələrimizə gerçəkdən atalıq qayğısı ilə yanaşıb. Nabələd və əcnəbi dil bilməyən 70-dən artıq gəncin yad Avropa ölkələrində (Almaniya, Fransa və İtaliyada) ali məktəblərə yerləşdirilməsində və ixtisas seçimində[1] Əlimərdan bəyin şəxsi xidməti ölçüyəgəlməzdir. O, gələcək mütəxəssislərin təhsilini uğurla başa vurması və dolanışıq xərcləri ilə təmin edilməsi üçün mümkün olan və bəzən hətta imkansız görünən şeyləri də gerçəkləşdirib. Özəlliklə Cümhuriyyət devrildikdən sonra bolşeviklərin tələbələri ən azından yarım il yada salmadıqları və onları yad ölkələrdə ac-susuz buraxdıqları dönəmdə həmin gənclərimizi öz isti qanadları altına alan məhz Əlimərdan bəy olub. O, uzun müddət Paris Sülh Heyətimizin vəsaitindən yardım göstərərək tələbələri böhranlı durumdan çıxarıb.



Nəriman Nərimanov

Ceyhun bəy Hacıbəyli (1891-1962) tələbələrə maddi yardım göstərmək işində səlahiyyətli şəxs deyildi, ancaq inamla deyə bilərik ki, Avropada həyatın sərt üzünü görmüş həmin gənclərin şəxsi yardım üçün ən çox müraciət etdikləri və kömək aldıqları adam Ceyhun bəy olub. Parisdə yaşayan siyasi mühacirlər içində maddi imkanlarının genişliyinə görə başqalarından seçilən C.b.Hacıbəyli ona edilən müraciətlərə qayğıkeşliklə yanaşıb, tələbələrə daim maddi və mənəvi dəstəkdə bulunub. Azərbaycan Tələbələri Birliyinin 6 iyul 1922-ci ildə Parisdən Ceyhun bəyə göndərdiyi aşağıdakı məktub deyilənə şübhə yeri qoymur:

"Bununla Komita[2] nəzərinizə çatdırmaqla şərəflənir ki, Fransada oxuyan Azərbaycan tələbələrinin ümumi yığıncağı özünün builki 16 iyun tarixli iclasında Sizə təşkilatımızın xeyrinə üç yüz (300) frank ianə etdiyinizə görə təşəkkür etməyi qərara alıb.

Kəmali-ehtiramla,

Komitənin sədri D.Raguimoff.[3]

Katib (imzası oxunmur)".[4]

Yusif Vəzir(ov) (Çəmənzəminli) (1887-1943) tələbələrin Türkiyədə, *Məhəmməd Məhərrəmov* (1885-1982) və *Abbas bəy Atamalıbəyov* (1896-1971) isə Avropada yerləşdirilməsində fəal iştirak ediblər. Sonuncu ikisi Fransada oxuyan tələbələrin maddi durumunun yaxşılaşdırılması üçün əllərindən gələni edib.

Nəriman Nərimanov (1870-1925) Azərbaycanın başçısı sayılsa da (o, öncə Azərbaycan İnqilab Komitəsinin, sonra Xalq Komissarları Şurasının sədri idi) əslində ölkədə bütün hakimiyyət rusların və ermənilərin rəhbərlik etdiyi Bakı Partiya Komitəsində və XI orduya tabe Fövqəladə Komissiyada ("ÇK"-da) idi. Təsir gücü baxımından N.Nərimanov Azərbaycanın hakimiyyət nərdivanının 7-8-ci pillələrində dururdu,[5] buna

[1] Doğrudur, hələ Bakıda olarkən hər bir tələbə Avropanın hansı ölkəsində və hansı ixtisas üzrə oxumaq istədiyini bildirmiş və Xalq Maarif Nəzarəti də onları elə bu cür qeydiyyata götürmüşdü, ancaq onlar Parisə çatdıqdan sonra vəziyyət gözlənilməz şəkildə bütünlüklə dəyişdi və həm ölkələr, həm şəhərlər, həm universitetlər, həm də ixtisaslar gerçək şəraitə uyğun olaraq yenidən seçilməli oldu.

[2] Tələbələr Birliyi nəzərdə tutulur.

[3] Cəbrayıl Rəhimov.

[4] *Топчубашов А.М.:* документы из личных архивов. 1903-1934 гг., s. 187.

[5] N.Nərimanovun Moskvadan narazılıqları da buradan qaynaqlanmağa başlamışdı.

görə də onun dövlət büdcəsindən tələbələr üçün pul götürməyə əslində gücü çatmırdı. Xalq içərisində ziyalı kimi ad çıxardığına görə acizliyini pərdələməkdən ötrü Nərimanov ayrı-ayrı şəxslərdən (yəqin ki, müsadirə şəklində) bir mücrü ləl-cavahirat toplayaraq gec də olsa Avropaya göndərib və həmin daş-qaş satılaraq tələbələrə bir neçə aylıq təqaüd şəklində verilib (bunu İ.Əlizadənin[1] və B.b.Axundovun[2] hesabatları da təsdiqləyir). Nərimanov Azərbaycanda hakimiyyətdə olduğu qısa müddətdə tələbələrə dövlət büdcəsindən yardım göstərilməsi üçün çox təzyiq göstərsə də büdcəyə nəzarət edən Bakı Partiya Komitəsinin qarşısında çox vaxt aciz qalıb.

Ruhulla Axundov (1897-1938) Azərbaycanın kommunist liderləri içərisində savadlı sayılacaq azsaylı kadrlardandı. Ancaq milli duyğuları yetərincə korşalmış R.Axundov da Moskvanın bütün göstərişlərini can-başla yerinə yetirənlərdəndi. Avropada olarkən onun sədrliyi altındakı Zaqafqaziya hökuməti tərəfindən tələbələrin SSRİ-yə cəlb edilməsi üzrə komissiya tələbələrin sinfi mənsubiyyət üzrə ayrı-seçkiliyə uğradılmasında, "proletar" olmayan tələbələrin təqaüddən məhrum edilməsində yaxından iştirak etmişdi.

Türkiyə və Qərbi Avropaya göndərilmiş tələbələrlə birbaşa ünsiyyətdə olaraq onların yaşam və təhsilinə olduqca mühüm təsir göstərmiş üç şəxsin: *Simon Pirumov (Pirumyans), İbadulla Əlizadə (İbad Əliyev)* və *Bəhram bəy Axundov* haqqında isə oxucularımıza geniş bilgi verəcəyik.

Simon Pirumov (Pirumyans) (1889-?).

Bu, Avropada oxuyan tələbələrimizin həyatında ən mənfi rol oynamış ən səlahiyyətli dövlət adamıdır. S.Pirumovun həyatı haqqında çox az şey bilirik, çünki o, fəaliyyəti cəmiyyətə və araşdırıcılara qapalı olan gizli xidmət əməkdaşıdır. Yalnız gürcü tarixçi *Georgi Mamulia*'nın "Qafqazın azadlığı və bağımsızlığı uğrunda mübarizə (1921-1945)" kitabından[3] və "BDSİ-nin[4] "Prometey" hərəkatının yaradılması ərəfəsi və dövründə gürcü antibolşevik müxalifətini dağıtmağa cəhdləri (1924-1926-cı illər)" adlı məqaləsindən[5] bəzi faktlar əldə edə bilmişik. Kitabının "Parisdəki Sovet səfirliyi BDSİ-nin Qafqaz mühacirətinə qarşı pozuculuq fəaliyyətinin mərkəzi kimi. Rezident S.Pirumov",[6] "«Volter» kafesinin işi və «Parisdə yeni gürcü koloniyası»",[7] "BDSİ və Parisdəki gürcü səfirliyinin adını ləkələmək cəhdləri",[8] "Kəşfiyyat sahəsində qarşıdurma: Pirumov Çolokaşviliyə qarşı"[9] adlı bölümlərində və məqaləsində müəllif Pirumovun fəaliyyəti haqqında konkret bilgilər verir.

[1] Bax: ARDA, fond 57, siyahı 1, iş 260, vv. 115-119a.

[2] Yenə orada, fond 410, siyahı 1, iş 342, vv. 3-7, 8-13.

[3] *Мамулиа Г.* Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012.

[4] Birləşmiş Dövlət Siyasi İdarəsi.

[5] *Мамулиа Г.* Попытки ОГПУ по разложению грузинской антибольшевистской эмиграции накануне и в период создания движения «Прометей» (1924-1926 гг.). // Историко-культурологический онлайн журнал «PROMETHUS», № 12 (октябрь-ноябрь-декабрь 2011 г.).

[6] *Мамулиа Г.* Борьба за свободу и независимость Кавказа (1921-1945), ss. 124-126.

[7] Yenə orada, ss. 130-136.


[8] Yenə orada, ss. 136-138.

[9] Yenə orada, ss. 138-146.


"...Təhsil-tərbiyə təşkilatına ayrı bir təzəlik verilmişdi. Məmləkəti irfanın nuruyla işıqlandırmaq üçün ciddiyyətlə işə başlanmışdı.

...Azərbaycan gəncliyini elm və texnika əsrinə hazırlamaq üçün Bakı Universiteti açılmışdı. Bundan başqa, yüzə yaxın tələbə müxtəlif texniki sahələrdə təhsil almaq üçün dövlət məsrəfi ilə Avropanın universitetlərinə göndərilmiş, bir o qədər də tələbənin İstanbula yollanması qərara alınmışdı..."

Məhəmməd Əmin Rəsulzadə
"Əsrimizin Səyavuşu" əsərindən




Azərbaycan Cümhuriyyətinin Avropaya oxumağa göndərdiyi tələbələrdən. Paris, "Claridge's" otelinin qarşısı, 13 fevral 1920-ci il.
(Parisdə oxuyan Bayram Hacıyevin Berlində oxuyan Əliəkbər Əliyevə ərməğanı. 18 noyabr 1920-ci il)



1. Mirismayıl Seyidzadə
2. Fərman bəy Nərimanbəyov
3. Əjdər bəy Axundov
4. Abdulla Əfəndiyev
5. İsgəndər bəy Sultanov
6. Cəmil bəy Əlimuradbəyli
7. Ağa Əbdulhüseyn Dadaşov
8. Ağahəsən Mustafayev
9. Balaağa Ağayev
10. Rəşid bəy Topçubaşov
11. Teymur bəy Aslanov
12. Abbas Muradov
13. Əşrəf Əliyev
14. Məhəmməd Məhərrəmov (diplomat)
15. Abbas bəy Atamalıbəyov (diplomat)
16. Behbudəli Zeynalov
17. Əbdülhəmid bəy Cavanşir
18. İsmayıl Axundov
19. Ağacəfər Əbdürrəhmanlı
20. Mirzəhüseyn Quluyev
21. Salman Hüseynzadə
22. Cəbrayıl Rəhimov
23. Ağəli Yusifzadə
24. Aslan bəy Vəzirzadə
25. Bayram Hacıyev
26. Mustafa Mustafayev
27. İsrafil Əşrəfov
28. Hilal Münşizadə
29. Mustafa ağa Vəkilov
30. Nüsrət Rzayev
31. Məhəmməd Rəhimli
32. Ağalar İsgəndərli
33. Xasfolad bəy Hacıyev
34. Bəhram bəy Hüseynzadə
35. Əlibala Xudaverdiyev
36. Yusif Salahlı
37. Məhiş Səfərov
38. Zeynalabdin bəy Hüseynbəyov
39. Cəfər Kazımov
40. Zaur bəy Dağirov
41. Murad bəy Temirxanov
42. Məhəmməd bəy Muradov
43. Əliəkbər Əliyev
44. Lətif Qədimi
45. Mirməhəmmədrza Seyidəliyev
46. İsgəndər Rzazadə
47. Tağı Rzayev
48. Səməndər Axundzadə
49. Məhəmmədəmin Əfəndiyev




Fransada oxuyan Azərbaycan tələbələri 28 May Azadlıq bayramını qeyd edərkən. Paris, 28 may 1920-ci il



1. İsrafil Əşrəfov
2. Fərman bəy Nərimanbəyov
3. Tağı Rzayev.
4. Cəbrayıl Rəhimov
5. Abbas Muradov
6. Əbdülhəmid bəy Cavanşir
7. Ağaəli Yusifzadə
8. Teymur bəy Aslanov
9. Zeynalabdin bəy Hüseynbəyov
10. İsgəndər Rzazadə
11. Mirzəhüseyn Quluyev
12. Rəşid bəy Topçubaşov
13. Murad bəy Təmirxanov
14. Aslan bəy Vəzirzadə
15. Miri bəy Vəzirov
16. Mirzeynalabdin Mirqasımov
17. Mustafa ağa Vəkilov
18. Məhəmməd bəy Muradov
19. Bayram Hacıyev
20. Mustafa Mustafayev
21. Xasfolad bəy Hacıyev
22. Əlibala Xudaverdiyev
23. Mirməhəmmədrza Seyidəliyev
24. Balaağa Ağayev



Avropada oxuyan Cümhuriyyət tələbələrinin ümumi yığıncağı (Berlin, Anadolu klubu. Təx. 1922-1923)



1. Adil bəy Ağabababəyov-Muğanlinski
2. Mirzəhüseyn Quluyev
3. Ağahəsən Mustafayev
4. Hüseynbala Məhəmmədov
5. Lətif Qədimi
6. Murad bəy Temirxanov
7. Mürsəl bəy Şahsuvarlı
8. Qəmər xanım Ağaoğlu (Talıbxanbəyli)
9. Əşrəf Əliyev
10. Səməndər Axundzadə
11. (?)
12. Məhiş Səfərov
13. Mirsadıq Sadıqov
14. (?)
15. Abdulla Əfəndiyev
16. Bəhram Abdinov
17. Hənifə Pirverdiyev
18. Hüseyn Nağıyev
19. Mirismayıl Seyidzadə
20. Bəhram bəy Hüseynzadə
21. Məhəmmədəmin Əfəndiyev
22. Əliəkbər Əliyev
23. Hilal Münşizadə
24. Rzaqulu Həsənov
25. Hüseyn Şıxıyev
26. Mustafa ağa Vəkilov
27. Məhəmməd Ağaoğlu
28. Salman Hüseynzadə
29. Məhəmməd Rəhimli
30. (?)
31. Surxay bəy Şahsuvarov
32. (?)
33. İsgəndər Rzazadə
34. Abbasmirzə Əliyev
35. Əlihüseyn Hüseynzadə
36. Abdulla Rəhimzadə
37. Cəbrayıl Rəhimov
38. Əsildar bəy Muğanlı
39. Cəmil bəy Əlimuradbəyli
40. İsgəndər bəy Sultanov
41. Fərman bəy Nərimanbəyov

G.Mamulianın yazdıqlarından öyrənirik ki, 28 dekabr 1924-cü ildə Fransa SSRİ-ni tanıdıqdan sonra həmin ilin dekabrında Parisdə L.Krasinin başçılıq etdiyi Sovet İttifaqının diplomatik nümayəndəliyi açılıb və bu, BDSİ-nə açıq təşkilatda gizli fəaliyyət göstərməyə şərait yaradıb. Həmin dönəmdə Güney Qafqaz mühacirətinin böyük hissəsi Fransada yaşayırdı. Türklərə nifrət bəsləyən ermənilər böyük həvəslə yalnız azərbaycanlılar və dağlılar haqqında deyil, gürcülər və başqa Qafqaz xalqları haqqında da sovet kəşfiyyatına həvəslə məlumat verirdilər. Görünür, bu səbəbdən Zaqafqaziya BDSİ Parisdəki Sovet səfirliyində öz adamı kimi çekist Simon Pirumovu (Pirumyansı) ikinci katib vəzifəsi çətiri altında yerləşdirib.[1]

Fransa polisinin məlumatına görə, 30 may 1889-cu ildə Azərbaycanın Şuşa şəhərində doğulmuş Pirumov Parisə 28 dekabr 1924-cü ildə gəlib. Paris polisinin qeydiyyat kitabında Pirumov özü haqqında belə qeyd yazıb: "Pirumyan Simon, peşəsiz, Şuşada (Qafqazda) doğulub, daimi yaşayış yeri Berlin, Marseldən gəlib".[2]

Pirumov Ümumittifaq BDSİ xarici şöbəsinin Paris nümayəndəliyindəki rezidenti Q.Elanskiyə, eləcə də RK(b)P Zaqafqaziya Diyar Komitəsinin I katibi A.Myasnikova (Myasnikyana) tabe idi və sonuncuya Güney Qafqaz mühacirəti haqqında müntəzəm raportlar göndərirdi.[3]

Pirumov Parisdə olarkən buradakı Qafqaz tələbələrini Sovet hakimiyyəti tərəfinə çəkmək üçün ciddi iş aparır, onların içərisindən pullu agentlər cəlb edirdi. Bolşeviklər tərəfinə keçmiş hər gürcü tələbəsinə o, mükafat olaraq ayda 50 dollar verirdi və bu, o dönəmdə böyük məbləğdi. 1925-ci ilin fevralında Paris polisi belə məlumat alıb ki, gürcü tələbə agentlər Pirumovdan narazıdırlar, çünki o, rus və erməni agentlərinə verdiyi aylıq pulu 50 dollardan 80 dollara qaldırdığı halda, gürcülərin pulunda dəyişiklik etməyib[4]. Təəssüf ki, Mamulianın əsərində Pirumovun Azərbaycan tələbələri ilə bağlı gördüyü işlərdən söz açılmır. Buna baxmayaraq, həmin rezidentin soydaşlarımıza da eyni məqsəd və üsulla yanaşacağı təbiidir.

Sözsüz ki, S.Pirumovun nəzarətində olan şəxslər içərisində Azərbaycandan Almaniya, Fransaya və İtaliyaya oxumağa getmiş tələbələr də müəyyən yer tutub və onun tələbələrimizlə bağlı ən mühüm fəaliyyəti məhz Almaniyada – Fransaya gələnə qədərki dönəmdə olub. Sədrlik etdiyi komissiyada birgə çalışdığı İbadulla Əlizadənin (İbad Əliyevin) köskin müqavimətinə baxmayaraq, Pirumov tələbələrimizə sırf türkofob mövqedən yanaşıb və onların taleyində hədsiz mənhus rol oynayıb. Belə ki, həm ermənilərin əsas qüvvəyə çevrildiyi Zaqafqaziya hökumətinin, həm də Əliheydər Qarayevlərin at oynatdığı Azərbaycan rəhbərliyinin tələblərinə uyğun hərəkət edən S.Pirumov onların göstərişlərinə öz şəxsi nifrətini də qataraq Almaniyada oxuyan tələbələrimizin müstəqil birliklərinin ləğv edilib Zaqafqaziya, sonra Ümumittifaq birliklərində əridilməsini, tələbə heyətinin sinfi baxımdan parçalanmasını ("bizimkilər" – fəhlə və kəndli balaları və "yadlar"

[1] *Мамулиа Г.* Борьба за свободу и независимость Кавказа (1921-1945), s. 125.
[2] Rapport de la préfecture de police au sujet de M. Piroumian Siméon, 9. 7. 1925. Archives de la préfecture de police (APP), Paris, France. Dossier S. Piroumoff, GA 2639. (Qaynaq G.Mamuliadandır).
[3] *Мамулиа Г.* Борьба за свободу и независимость Кавказа (1921-1945), s. 125.
[4] Yenə orada, s. 136.

– "burjuy", "istismarçı" balaları deyə bölməklə), bununla da "yadlar"ın təqaüddən məhrum edilməsini təşkil edib və onların maddi baxımdan faciəli duruma düşməsinə səbəb olub. Rezident S.Pirumov bir mehriban ailə kimi Avropaya gəlmiş yurddaşlar içində nifaq toxumu səpib, onlar arasında bir-birinə inamsızlıq, şübhə mühiti yaradıb. Əlinizdəki kitabın konkret tələbələrlə bağlı hissələrində bu haqda yeri gəldikcə daha geniş danışılacaq.

Almaniyada Azərbaycan Tələbələri Komitəsinin sədri olmuş *Abbasmirzə Əliyev* yazır:

"[19]22-ci il gəldi, bú vaxt artıq bizim Berlində Ticarət Nümayəndəliyimiz də yarandı. Ticarət Nümayəndəliyində isə ZSFSR-in Xalq Komissarları Şurasının nümayəndəsi Pirumov idi. O, bizə bildirdi ki, bundan sonra pulları mənim vasitəmlə alacaqsınız.

Gürcüstan, Azərbaycan və Ermənistan təqaüdçü tələbələrinin ümumi yığıncağı çağırıldı və bu yığıncaqda Mərkəzi Büro seçildi. Büro yalnız tələbələrin işini aparmalı deyil, həm də ayrı-ayrı tələbələrin uğurları və onların davranışları haqqında məlumat toplamalı idi. Mərkəzi Büroya seçilənlər içərisində mən də var idim və bir müddət katib kimi işlədim.

Sonra Pirumov Parisə təyin edildi, onun yerinə Aqniaşvili gəldi. Göstərmək gərəkdir ki, ZSFSR yarananadək Ticarət Nümayəndəliyində Azərneftin nümayəndəliyi vardı və pulları işçilərdən biri olan mühəndis Əliyev İbad verirdi. (Bu, Pirumovadək olmuşdu)".[1]

"Yeni Kafkasya" dərgisi 1923-cü ilin martında Pirumovla bağlı yazırdı ki, Avropadakı ümumqafqaz tələbələrinə nəzarət etmək üçün *"son zamanlarda Tiflisdən 3 kişidən ibarət bir kontrol komisyonu göndərilmişdir. Bu komisyon erməni Pirumov, gürcü Qoqoberidze və türk İbad Əliyevdən təşəkkül etmişdir. Komisyonun rəisi və amiri-mütləqi Pirumovdur. Tiflisdən alınan salifüs-zikr təlimatın tətbiqi Pirumovun mülahizəsinə bağlıdır. Ona istədiyi miqdarda yeni tələbə qəbul eləmək və "müzürr, hala milliyətpərvər" təsəvvür elədiyi tələbələri listədən ixrac etmək kibi vasə səlahiyyətlər verilmişdir".*[2]

Dərgi bildirir ki, bundan iki-üç ay öncə Pirumov və Rusiyanın Berlin səfiri Krestinskinin əmrləri ilə Berlində ümumqafqaz tələbələrinin yığıncağı olub. Burada yeni bir tələbə təşkilatı seçilib, daha doğrusu, təyin olunub. Pirumovun səyi nəticəsində yığıncaq başdan-aşağıya kommunist ruhunda tərtib edilib, bunun üçün tələbələrdən yalnız müəyyən bir qismi dəvətnamə alıb, başqalarının iştirakına isə "lüzum görülməyib". Bu təşkilatın vasitəsilə Zaqafqaziya hesabına yeni tələbələr qəbul edilib. Onların arasında Kilikiyadan gəlmə bir çox mühacir ermənilər vardır. Pirumov buna etiraz edənlərə "bizim üçün milliyyət fərqi yoxdur" deyə cavab verib. Gürcülərdən də bir çox yeni tələbələr qəbul edilib, ancaq azərbaycanlı tələbələr qəbul edilməyib. Bu, bir yana, mövcud azərbaycanlı tələbələr arasında şiddətli bir təsviyə aparılacağı xəbəri də yayılıb.

Məqalənin son cümlələrində oxuyuruq: "Axirən aldığımız mütəmmim[3] məlumata nəzərən, Pirumov son günlərdə gürcülərdən 28, ermənilərdən 22 və türklərdən də 2 tələbəni dövlət hesabına qəbul eləmişdir".[4] Bu fakt Pirumovun millətimizə nə qədər nifrətlə yanaşdığının ən gözəl örnəyidir.

[1] Geniş.

[2] *"Yeni Kafkasya"*, 15 mart 1340, sayı 12, s. 12.

[3] Son.

[4] *"Yeni Kafkasya"*, 15 mart 1340, sayı 12, s. 12.

"Yeni Kafkasya" dərgisi 19 oktyabr 1924-cü il sayında da Pirumovun (Pirumyansın) fəaliyyətini işıqlandırıb. Ümumən Avropadakı tələbələrimizin durumuna həsr edilmiş həmin məqalədə oxuyuruq (yazının dilini sadələşdirmişik):

"Əvvəlcə də tələbələrə nəzarət edən xüsusi komisyonun rəisi Pirumyans idi. O, tələbələrin yeganə ağası və diktatoru idi. Komisyonun digər iki üzvü onun əlində bir alət idilər. Bu komisyonun ikinci üzvü gürcü Oknaşvili Zaqafqaziya Tələbələr İttifaqının rus tələbə cəmiyyətinə birləməsi əleyhinə olduğundan, Pirumyans onu Moskvaya göndərib arxasından Siyasi İdarəyə teleqram göndərib ki, Oknaşvili rus siyasəti əleyhinə çalışdığından onu geri buraxmasınlar, buna görə də Oknaşvilini Moskvada saxlamışlar və daha Berlinə buraxmırlar.

Pirumyans tam mənasıyla bir erməni daşnak siyasəti yürüdür. Bir tərəfdən, Türkiyədən qaçmış və Avropanın müxtəlif məmləkətlərində yaşayan ermənilər arasında təbliğat apararaq onlara sovet əsaslarını qəbul etdirərək hamısını Qafqaza göndərməyə çalışır, digər tərəfdən də istədiyi azərbaycanlı tələbəni hökumət təqaüdü siyahısından çıxararaq onların yerinə erməniləri təyin edir. Bunların nöqteyi-nəzərincə, ermənilər Rusiyasız Qafqazda yaşaya bilməzlər. Ruslar ağmı, qaramı, qırmızımı, nə olursa olsun, ermənilər onlarla daima müttəfiq olaraq işləməlidirlər. Pirumyans hər şeydən artıq erməni tələbələri arasında belə milli bir siyasət yürütməkdədir".

"...Pirumyans bundan 3 ay əvvəl Parisdə olduğu zaman bir azərbaycanlı kommunisti hüzuruna dəvət edib, "yoldaş, aranızdan çıxarılacaq əksinqilabçı və təhsilindən geri qalan tələbələrin adlarını söyləyiniz, bunun qarşılığında sizin əllərinizi açar, geniş səlahiyyət verərik" deyibsə də istədiyi cavabı ala bilməyib. Avqustda Berlində olan konfransda Pirumyansın nə demək istədiyini bu tələbə ondan soruşub.

Doğrudanmı azərbaycanlı tələbələr əksinqilabçıdırlar, bunları bu əksikləri üçünmü siyahıdan çıxarırlar? Yetmiş beş tələbədən ancaq otuz altısı qalıb. Xeyr, azərbaycanlı tələbələr siyasətçilikdən uzaq olaraq bir mütəxəssis sifətilə vətənə dönmək və çalışmaq məqsədi güdür, çünki həqiqi xilas və nicatın bu yolda olduğuna inanırlar. Ancaq məşhur qurdun "keçi, suyu bulandırırsan!" töhməti eynilə bunlara da şamil olub, maaşlarını kəsir, təhsillərini tamam etməyə mane olurlar. Avqust konfransının nəticəsi olaraq azərbaycanlı tələbələrin milli təşkilatları dağıdılıb, özləri rus tələbə təşkilatına qatılıb, Türkiyə ermənilərı də bu müştərək cəmiyyətə qəbul olunub. Bu yeni cəmiyyətə istədikləri tələbəni hökumət təqaüdündən məhrum etmək haqqı verilib. Bu qərara əsasən, tələbələri "təmizləyərək" on bir Azərbaycan tələbəsini siyahıdan çıxarmışlar. Şu surətlə tələbələrin vəziyyəti çok fənalaşıb. Tələbələr arasında etimadsızlıq, yalan, böhtan, iftira, kim kiminlə görüşdü, nə danışdı, kim siyasi mühacətlə əlaqədədir kimi casus axtarışları meydana gəlib. Kimsə özünün bir-iki aydan sonra əksinqilabçılıqda ittiham edilərək maaşının kəsiləcəyinə şübhə etmir. Bunlara tələbələr tərəfindən yazılan bir yığın məktub, teleqram və məqalələr əlavə olunursa o zaman vəziyyətin nə dərəcədə ağır olduğu anlaşılır, çünki istənilən tələbə ona təklif olunan bir şeyin yazılmasına razılaşmasa o saat əksinqilabçılıqda ittiham olunaraq siyahıdan çıxarılacaq".[1]

[1] Avropadakı Azərbaycan tələbələrinin vəziyyəti. // *"Yeni Kafkasya"*, 19 təşrini-əvvəl 1340, sayı 2, ss. 7-8.

* * *

İbadulla Ağaməli oğlu Əlizadə (yanvar 1879, Bakı – 7 yanvar 1938, Bakı).[1]

Siz heç bir arxivdən "İbadulla Ağaməli oğlu Əlizadə" haqqında bir barmaq da kağız tapmayacaqsınız, çünki allahsız Sovet hakimiyyəti onun soyadını dəyişdirib, adından "Allah" sözünü, atasının adındansa "ağam" sözünü götürərək onu sadəcə "İbad Əli oğlu Əliyev"ə çevirib.

Onun haqqında ilk məlumatı 1989-un 8 fevralında Azərbaycan Elmlər Akademiyası Mərkəzi Elmi Arxivindən aldıq. Şəxsi işində göstərilən ünvana (Myasnikov[2] 10, mənzil 5) yollanaraq 10 fevralda İ.Əliyevin kooperativ mənzilinin indiki yiyəsi V.P.Kuznetsovla (1907) görüşsək də ondan İ.Əlizadə şəxsiyyətindən, demək olar ki, yeni heç bir bilgi ala bilmədik. İki həftə sonra öyrəndik ki, sən demə, aspiranturada bizə alman dili dərsi keçmiş Mina xanım Əliyeva onun dosdoğmaca qızıymış. 23 fevraldakı görüşümüzdə bu nəcib insan öz atası haqqında olduqca dəyərli məlumatlar verdi. Sonralar MTN arxivindən və ozamankı "Partarxiv"dən[3] də maraqlı sənədlər tapdıq.

Oxucuya bildirək ki, İbadulla Əlizadə haqqındakı ilk yazı bu sətirlərin müəllifinə məxsusdur.[4]

Mina xanımla 23 fevral 1989-cu ildə onun Ağa Nemətulla küçəsi 23-dəki 16-cı mənzilində görüşdük. Keçmiş aspirantını çox səmimi qarşıladı. Atasından nə bilirdisə hamısını söylədi. Ondan eşitdiklərimizi aşağıda dəyişiksiz veririk.

Mina xanımın söylədikləri:

- İbadulla Ağaməli oğlu Əlizadə (1932-ci ildək – Bakıda ilk dəfə pasport verilənədək ad-soyadı rəsmən belə gedib, sonralar "İbad Əli oğlu Əliyev" edilib) 1879-cu ilin yanvarında Maştağa kəndində doğulub. Atası *Ağaməli* (?-1889) kəndliydi. İbadulla 10 yaşında atadan yetim qalıb.

Anası maştağalı *Molla Bibixanım* (?-1942/43) çox hörmətli qadındı. İbadullanı, onun böyük qardaşı Hüseyni, böyük bacısı Həcəri o saxlayıb. (Yeri gəlmişkən, Qulam Məmmədli 1923-cü ildə "Molla Nəsrəddin" məcmuəsində getmiş "Molla Minaxanım" imzasının İbad Əliyevə məxsusluğunu bildirir. Bu imzada, o, görünür, anasının peşəsini və qızının adını birləşdirib).

İbadullanı hədsiz sevən böyük bacısı Həcər ona deyərmiş: dörd uşağım[5] ölsün, ancaq sənə heç nə olmasın.

Arvadı *Anna Ottovna Şneyder* (1885-1975) evdar qadındı. Onun atası alman, anası (Anna) latışdı. Anna xanım da 10 yaşında atasını itirib. İbadulla onunla Riqada oxuyarkən tanış olub. Anna Ottovna İbada deyib ki, Bakıya get, yalnız ananın razılığından sonra sənə

[1] İbadulla Əlizadə (İbad Əliyev) haqqında bu qeydlər öncə qəzet məqaləsi şəklində hazırlandığına görə sənədlərin qaynağını göstərmədik. Bütün sənədləri vaxtilə İ.Əlizadənin qızı Mina xanıma oxumağa vermişdik və onda qalmışdı. Mina xanım rəhmətə getdikdən sonra evi satıldı, yaxınları ilə əlaqəmiz tam kəsildi və sənədləri geri ala bilmədik. Bu səbəbdən, qəzetdə verilmiş sənədləri indi qaynaqsız göstərməyə məcburuq.

[2] İndiki Tərlan Əliyarbəyov.

[3] İndiki AR Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (bundan sonra: ARPİİSSA).

[4] *Tahirzadə Ə.* İbadulla Ağaməli oğlu Əlizadə. // *"525-ci qəzet"*, 20 noyabr 2004, №224; 23 noyabr, №225; 24 noyabr, №226.

[5] Bədəl Əliyevin övladları: inqilabçı Haşım (təx.1893-1921), Sadıq, Tağı, Hadı Əliyev – coğrafiya üzrə professor, sonralar EA Coğrafiya İnstitutunun direktoru.



Əlizadələr ailəsi. *Soldan sağa:* Sona, Anaxanım (Anna), Ənvər, Mina, İbadulla, Leyla. Berlin, təx. 1921

gələrəm. Anası Molla Bibixanım deyib ki, Annanı müsəlman etməklə savab qazanarsan və bu şərtlə razılıq verib. 1909-cu ildə evlənərək Bakıya gəliblər. İbadullaya sevgisi üzündən Anna Ottovna müsəlmanlığı qəbul edib, çarşab örtüb, olub Anaxanım Əta qızı. Tezliklə Azərbaycan türkcəsini də öyrənib. Xoşbəxt ailə qurublar.

Övladları bunlardır:

Sona (1910). Anadangəlmə iflicdir. Konservatoriyanı qurtarıb.

Ənvər (1912). İstanbulda yaşayır. Berlində iqtisadiyyat üzrə ali təhsil alıb. Sonra Türkiyəyə gedib. İbadullayla son dəfə 1931-ci ildə görüşüblər. İstanbulda əczaçılıq (ilaç) fabrikinin baş direktoruydu. Çox şən adamdı, idmançıydı. İndi iflicdir, heç yazmağa da gücü yoxdur. Yəqin ki, çox bədbinləşib, əsəbləri pozulub. Arvadı Türkdür. Uşaqları yoxdur. 1969/70-ci illərdə maestro Niyazi onunla Türkiyədə görüşüb. Niyazini qonaq edib. Ondan öz ailə üzvlərinə hədiyyələr göndərib.

Leyla (1914-1988). Kitabxanaçıydı. APİ-nin[1] kitabxanasında işləyirdi. Çox gözəldi. Küçədə gedəndə hətta qadınlar da geri dönüb ona baxardı. 1935-ci ildə Azərb. Dövlət Layihə İdarəsinin rəisi, xaricdə təhsil almış Qəhrəman Məmmədovun qardaşı Hüseyn Məmmədovla ailə qurub. 1937-ci ildə Hüseyn onu bir uşaqla (Elmirayla) boşayıb ki,[2] sən xalq düşməninin qızısan; səninlə qalsam evi əlimdən alacaqlar.

Mina (1915). Azərb. Neft-Kimya İnstitutunun kimya-texnologiya fakültəsini bitirib (1932-38). 1935-ci ildə oxumağa bir il məcburi fasilə verib, çünki o il Azərbaycanda nəsə olub, oğlanları hansı hərəkatlasa bağlı Lökbatana aparıblar. Onların fakültəsində də oğlan çox olduğuna görə həmin il dərs keçilməyib. İnstitutu bitirəndən sonra təyinatı Ufaya verilib. Üç bacını qoyub hara getsin? Sonra özü iş tapıb (güzəşt edərək Bakıda işləməyə icazə

[1] İndiki Nəsrəddin Tusi adına Pedaqoji Universitet.

[2] Qəhrəman Məmmədov XDİK zindanında 20.04.1939 tarixli dindirməsində bu deyiləni təsdiqləyib (bax: AR MTN Arxivi, PR-25476, vərəq 37).

veriblər). Atasının yaxşılığı itməyib – onun tələbəsi olmuş maştağalı bir dosent ona ADU-da (indiki BDU-da) qeyri-üzvi kimya kafedrasında laborant (40 manat maaşla) işə düzəlməyə kömək edib. 3 aydan sonra baş laborant keçib.

Ailədə yalnız o işləyib. Qazaxıstanda sürgündə olan anasına hər ay 500 manat göndərib, bacılarını da o saxlayıb. Müharibə illərində vəziyyəti ağır olduğuna görə bir neçə yerdə dərs deyib (o sıradan alman dilindən).

1945-ci ildə EA Azərb. Filialı aspiranturasının müdiri Ağa Mirbağırov ona alman dili dərsi keçməyə icazə verib (1989-un 15 yanvarınadək EA-nın xarici dil kafedrasında müəllim işləyib və aspirantlara, o sıradan bu sətirlərin yazarına da alman dilindən dərs deyib). 1957-ci ildə – 42 yaşındaykən ərə gedib. 1960-da oğlu Ənvər Əkbər oğlu Səfərzadə doğulub. Camaat elə bilirdi ki, onun nəvəsidir. Coğrafiya İnstitutunda işləyir, ekologiya üzrə mütəxəssisdir.

İbadulla 1935-ci ildən 1937-ci ilədək Azərbaycan Sənaye İnstitutunda analitik kimya kafedrasında assistent işləyib. Mühazirə oxumayıb.

17 avqust 1937-ci ildə tutublar, 7 yanvar 1938-ci ildə 20 il iş veriblər. Hara apardıqları bilinməyib, çünki məktub yazmaq hüququ da əlindən alınıb. 16 may 1943-cü ildə vəfat edib.[1] Ölümü haqqında arayışda "ölüm səbəbi" və "ölüm yeri" qrafalarının qarşısına iki cızıq çəkilib. 10 oktyabr 1956-da bəraət alıb.

1937-ci ilin 21/22 oktyabrında arvadı Anaxanımı da tutaraq 10 illiyə sürgünə göndəriblər. O, Şimali Qazaxıstanın Aktübinsk vilayətinin Martuk kəndində yaşayıb. 1945-ci ildə müharibə qurtaran kimi qızı Mina gedərək icazəsiz gətirib. 6 mart 1956-da bəraət alıb.

İbadulla inqilabdan qabaq Hacı Zeynalabdin Tağıyevin neft mədənlərində işləyib. Oxumağa da onu Tağıyev göndərib (öz təqaüdüylə). Hacının qızı Sara xanım çox-çox sonralar çarpayısız qalıb üç stulun üstündə yatanda Mina xanım bir çarpayı taparaq ona verib.

İbadulla Riqada institutu bitirib gələndən sonra yenə Suraxanada Tağıyevin mədənlərində neft mühəndisi işləyib.

1920-ci ildə menşeviklər Şollar su kəmərini partladıblar. Şəhərdə su tapılmayıb, camaat uzun növbəyə durub. Mənəviyyatca büllur kimi təmiz insan olduğuna görə 1921-ci ilin avqusunda İbadulla Əlizadəni Nəriman Nərimanov 5 nəfər ailə üzvüylə birgə Berlinə göndərib. 2 çamadan zinət əşyası (qızıl, daş-qaş) aparıb ki, Almaniyadan su kəməri üçün dizel maşınları alsın. Mina xanımın söylədiyinə görə, dostu Ruhulla Axundov deyərdi ki, "ay İbad, nə yaxşı bu pullarla Amerikaya getmədin?". Çünki o, pula həris deyildi – molla anasından belə tərbiyə almışdı. Deyərdi: "Mənim anam var, mənim Allahım var". Halbuki bir neçə rus bolşevikisə belə sərvətlə xaricə gedib, ancaq qayıtmayıb.

Berlində üçotaqlı mənzil tutublar. Kirayə pulunu dövlət ödəyirdi. Berlinin faydası o olub ki, uşaqlar alman məktəbində oxuyublar və alman dilini əla öyrəniblər. "Türk" adlandıqlarına görə məktəbdəki uşaqlar elə bilirdilər bu şagirdlər Türkiyədən gələnlərdir; onlara başa salmalı olurdular ki, yox, biz Azərbaycan Türküyük.

İbadulla Əlizadə özü rus və alman dillərini bilirdi. Evdə atayla ana rusca, anayla uşaqlar almanca, atayla uşaqlar isə ana dilində – türkcə danışırdılar.

Bakıdan Almaniyaya oxumağa gedənlər (tiflisli Şamil Hacınski, dilçi Cəfər Cəfərov) onun evində olurdular.

İ.Əlizadə öncə Şollar kəməriyçün, sonra neft mədənləri üçün avadanlıq göndərib.

[1] Xatırladırıq ki, bu, Mina xanımın söylədikləridir.

İ.Əlizadə sözübütöv, Allahdan qorxan adamdı. Qur'anı ona anası uşaqlıqdan öyrətmişdi. Ruhulla Axundova deyərdi ki, mən Allaha inanan adamam, kommunist partiyasına necə keçə bilərəm?

1928-ci ildə İrana gedəndə ailəsi Berlində qalıb ki, uşaqlar məktəbi bitirsinlər (onlar Bakıya 1931-ci ildə dönüblər).

İ.Əlizadə Vətənini çox sevirdi. Berlində yaşadığı evinin yanında bir neft dükanı varmış. Oradan keçəndə hər dəfə dayanar, neftin iyini ciyərinə çəkib deyərmiş ki, can Bakı, Bakının neftidir! (Bu xatirəni söyləyəndə Mina xanım gözlərinin yaşını saxlaya bilmir). İnstitutda dərs deyərkən neçə-neçə kasıb uşağını təhsilə cəlb edib.

İ.Əlizadə Ruhulla Axundov, Həmid Sultanov və Azərneftin rəisi Mixail Barinovla ailəvi dost olub. (Lətif-cavahirat dolu çamadanlar əhvalatını Mina xanıma sonralar Barinovun bacısı Olqa Vasilyevna danışıb; İ.Əlizadə bu haqda ailə üzvlərinə heç vaxt heç nə deməyibmiş).

Barinovun kiçik bacısı tanınmış kommunist Həbib Cəbiyevin arvadıydı. H.Cəbiyev təxminən 1925/27-ci ildə İsveçrəyə müalicəyə gedəndə yolüstü Berlində də qalıb, Əlizadələr ailəsinin qonağı olub.

İbadullanın kiçik qızı Mina xanım Ruhulla Axundovun arvadı Frida Naumovayla çox yaxındı.

Çekist "Altıbarmaq" Baba Əliyev də İbadullanın dostlarındandı. Onun rusca savadı yoxmuş.

Həsən bəy Zərdabinin qardaşı oğlu professor Rəhim bəy Məlikov (1886-1936) da ailənin sevimli xeyirxahlarındandı. Mina xanımı Tibb İnstitutuna girməyə o qoymayıb, Azərbaycan Sənaye İnstitutuna – indiki Neft Akademiyasına çəkib.

* * *

İbadulla Əlizadəni işdən tutub aparıblar. O tutulandan sonra ailəsi Myasnikov küçəsi 10-da Azərneft işçilərinin kooperativ evində 1938-ci ilədək yaşayıb. 1938-ci ildə onları halal evlərindən çıxarıb Kirov prospekti 2-də 1 "otaq" veriblər (pəncərəsiz). İl yarım orada qalıblar. Sonra bunu da çox görüblər. Burada milis şöbəsi yaradıblar, çünki dustaq saxlamaq-çün əla yerdi. Buradan da qovublar. Qasım İsmayılov – Zərgərpalan küçəsində bir zirzəmi veriblər (10 kv. metr), qapısı birbaşa küçəyə açılırmış.

İbadullanın bacısı Həcər bu müsibətə dözməyib, Mustafa Sübhi 82-dəki evini onlara verərək anasıyla birgə Maştağaya köçüb. Həcər xanım olmasaydı yəqin ki, ailə qırılacaqdı; o, qardaşı uşaqlarına güllələnmiş atalarını və sürgün olunmuş analarını əvəz edib...

Mina xanımın 1989-cu ildə bizə söylədikləri burada başa çatır.

* * *

Riqa Politexnik İnstitutunun kimya fakültəsində H.Z.Tağıyevin təqaüdüylə oxuyaraq (1903-1909) texnoloq mühəndis diplomu alan İbadulla Əlizadə Bakıda Tağıyevin neft mədənlərində mühəndis işləyib (1909-1917). Tanınmış yazıçı Manaf Süleymanov özünün məşhur "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" əsərində yazır:

"Professor Hadı Əliyev deyirdi ki, mühəndis dayım İbad Əliyev Tağıyevin Bibiheybətdəki mədənində müdir olmuşdu, onunla yaxın idi; Şollar su kəmərini çəkəndə avadanlığı gətirmək üçün İbadı yolladı Rusiyaya. 120 vaqon maşın, nasos və digər avadanlıq gətirdi və işi tamamlayıb başa çatdırdılar".[1]

[1] *Süleymanov M.* Eşitdiklərim, oxuduqlarım, gördüklərim, s. 64. Sonra görəcəyimiz kimi, bu iş Tağıyev dönəmində deyil, sovet hakimiyyətinin ilk illərində olmuşdu.

Adı çəkilən əsərdə İbadulla Əlizadə ilə bağlı ikinci maraqlı bir məqam da var:

"Hadının dediyinə görə, dayısı İbad nəql edirmiş ki, imperator III Aleksandr sağ olanda Tağıyev ona ərz-hal yazıb, müsəlman qızlarının öz ana dillərində oxumaları üçün Bakıda məktəb açmağa icazə istəyir. III Aleksandr bu xahişi rədd edir. O öləndən sonra II Nikolay taxta çıxır. Tacgüzarlıq mərasimi münasibətilə Hacı bir senatorun vasitəçiliyi ilə Nikolayın arvadı Aleksandra Fyodorovnaya çox bahalı hədiyyə çatdırır və eyni zamanda Bakıda qız məktəbi açmaq barədə təkrar xahişnamə göndərir və rica edir ki, rus-müsəlman qız məktəbinə çariçə Aleksandra Fyodorovnanın adı verilsin.[1] *Eyni zamanda qız məktəbinin xərcini ödəmək üçün banka 150.000 manat qoyur, bu da beş faizdən ildə 7.500 manat gəlir gətirəcəkdi və bununla da məktəbin xərc-xəracatı artıqlamasilə ödəniləcəkdi.*

İki ildən sonra, 1896-cı ildə qız məktəbi açmağa icazə verilir. Tağıyev məktəb binasının layihəsini mahir memar Qoslavskiyə tapşırır. Binanı 1898-ci ildə tikməyə başlayırlar. 1900-cü ildə hazır olur, 184.000 manata başa gəlir. Bu məktəb Nikolayevski (Kommunist)[2] *küçəsində (Azərbaycan SSR Elmlər Akademiyasının Əlyazmaları fondunun*[3] *binası) yerləşir".*[4]

İbadulla Əlizadə ali təhsil alıb Bakıya döndükdən az sonra ictimai işlərdə fəallıq göstərməyə başlayıb. Özəlliklə xalqın maariflənməsi ilə bağlı işlərə böyük həvəs göstərirdi. "Nəşri-Maarif" cəmiyyəti öz maliyyə durumunu yaxşılaşdırmaqdan ötrü hər il "Müsəlman axşamı" adlı xeyriyyə tədbiri keşirirdi. Onların təşkilində İbadulla Əlizadə də fərqlənirdi. Məsələn, 1910-cu il dekabr ayının 4-də keçiriləcək növbəti III Müsəlman axşamına xüsusi hazırlıq işləri üçün bir neçə xüsusi komissiya təşkil edilib. Həmin komissiya üzvlərindən biri də İbadulla Əlizadə (İbad Əliyev) olub.[5] "Nəşri-Maarif" cəmiyyətinin 1913-cü il fevral ayının 15-də keçiriləcək növbəti IV Müsəlman axşamının təşkili üçün yaradılmış komissiyalardan biri də bədii komissiya idi və onun sədri İbadulla Əlizadə seçilmişdi.[6]

İbadulla Əlizadənin adı 1918-ci ildən Bakı Şəhər Dumasının deputatları (qlasnıları) arasında çəkilir.[7]

O, Azərbaycan Cümhuriyyəti dövründə Şollar su kəmərinin müdiri (28.11.1918-1920) və Bakı Şəhər İdarə si nin də üzvüydü.

"Qruziya" qəzeti 1918-ci ilin oktyabrıbda Bakı hadisələrindən danışarkən yazır: "Şəhər İdarəsinin icraiyyə orqanının tərkibinə şəhər başçısı P.F.İlyuşkindən başqa, bu şəxslər də daxil olub: 1) təsərrüfat şöbəsinin müdiri mühəndis Abbasəli Kərimov,[8] 2) tikinti şöbəsinin müdiri Zivər bəy Əhmədbəyov, 3) maliyyə şöbəsinin müdiri A.P.Delitsın, 4) torpaq

[1] Tarixçi Fərhad Cabbarov bu fikrin yanlışlığını sübut edib. O yazır: *"Əvvəlcədən qeyd edim ki, sadalanan faktlardan heç biri nə arxiv, nə də sənədli mənbələrlə təsdiqlənmir və yalnız professor Hadi Əliyevin bir xatirəsinə əsaslanır. ...Arxiv materialları təsdiqləyir ki, H.Z.A.Tağıyev heç vaxt şəxsən məktəblə əlaqədar imperator ailəsinə müraciət etməyib. Məktəbə Aleksandra Fyodorovnanın adının verilməsi təəbbüsü isə həqiqətən ona məxsus idi.., lakin o, bunu imperatriçəyə deyil, K.P.Yanovskiyə məktubunda bildirmişdi"* (bax: *Cabbarov F. H. Z.A.Tağıyevin qız məktəbinin tarixindən.* Bakı, 2011, s. 10).

[2] İndiki İstiqlaliyyət.

[3] İndiki M.Füzuli adına Əlyazmalar İnstitutudur.

[4] *Süleymanov M.* Eşitdiklərim, oxuduqlarım, gördüklərim, s. 64.

[5] *Məmmədova N.* "Nəşri-Maarif" cəmiyyətinin yaranması və fəaliyyəti. Bakı, 2005, s. 134.

[6] Yenə orada, s. 135.

[7] ARDA, fond 895, siyahı 1, iş 204, vv. 41-42.

[8] Bu, kosmos üzrə çalışan general-leytenant Kərim Kərimovun atasıdır.

şöbəsinin müdiri Əliağa Həsənov, 5) su kəməri şöbəsinin müdiri mühəndis İbad Əliyev, 6) tibb şöbəsinin müdiri d-r Mustafa bəy Şərifov".[1]

1 dekabr 1918-ci ildə Bakı şəhəri müsəlman əhalisi nümayəndələrinin Azərbaycan Parlamentinə seçkiləri keçirilən zaman Bakı Şəhər Duması müsəlman deputatlarının Bakı şəhər başçısı P.F.İlyuşkinin sədrliyi altında, şəhər başçısının yoldaşı (müavini) Miryaqub Mehdiyevin, Bakı Şəhər İdarəsinin (Bələdiyyə İdarəsinin) üzvləri Heybətqulu Məhəmmədbəyov, İbad(ulla) Əliyev, Əlicabbar Orucəliyev, Mustafa bəy Şərifov və Abbasəli Kərimovun və deputatlar Əliağa Həsənov, Zeynal bəy Səlimxanov, Ağa Aşurov, Ağa bəy Səfərəliyev, Yusif Mikayılov, Kitabullah Axundov, Mahmud Quluyev, Qasım Qasımov, Qara bəy Qarabəyov, Əsəd bəy Əmirov, Əlimuxtar Əliyev, Hacıağa Babayev, Bəhram bəy Axundov, Əhməd bəy Hacınski, Məlik bəy Sultanov, Sultanməcid Qənıyev, Ağa Zeynal Tağıyev, Məhəmmədcavad Sadıqov, Məhəmmədəli Salayev, Fətullah Ağaəlizadə, İsmayıl Tağıyev, Əliağa Zeynalov, Əliisgəndər Cəfərov, İlyas Cəfərov, Abbasqulu Kazımzadə, Abbas Eyvazov, Əbülfəzl Qarayev, Yusifəli Əhmədov, Tağı Nağıyev və başqalarının iştirakı ilə keçirilmiş iclasın protokolu əlimizdədir. Buradan aydın olur ki, İbadulla Əlizadə (İbad Əliyev) 22 nəfərlə birgə Parlaman üzvlüyünə namizəd irəli sürülüb, ancaq yetərincə səs toplaya bilmədiyinə görə seçilməyib.[2]

O, sovet hakimiyyətinin başlanğıcında (1920-21) Azərbaycan SSR Xarici İşlər Komissarlığında ticarət müşaviri olub. 1921-ci ildə N.Nərimanovun təklifiylə Azərneft xəttilə Azərbaycanın Berlin dəki Ticarət Nümayəndəliyində işləməyə göndərilib. 9 sentyabr 1921-ci ildən 30 sentyabr 1927-ci ilədək burada texniki şöbənin mühəndisi olub. (1922-ci ildə SSRİ yarandıqdan sonra Almaniyadakı Ticarət Nümayəndəliyində SSRİ-nin təmsilçisinə çevrilib). Orada 1.11.1927-1.9.1928-ci illər arasında neft avadanlıqları şöbəsinin məsul əməkdaşı ("müxbir"i) işləyib.[3] Bu illərdə menşeviklərin 1920-ci ildə partlatdığı Şollar su kəmərini bərpa etməkçün Almaniyadan dizel maşınları alınmasını, Bakının neft mədənləri üçün avadanlıqlar göndərilməsini və dövlət əhəmiyyətli bir çox məsələləri uğurla təşkil edib.

M.Əzizbəyov adına Politexnik İnstitutun rektoru, professor Nikolay Dubrovski 21 dekabr 1921-ci ildə xalq maarif komissarı D.Bünyadzadəyə yazdığı 9886 saylı məktubda bildirir:

"Hələ 1921-ci ilin yanvar ayında Bakı Politexnik İnstitutu Almaniyaya getmiş İbadulla Əlizadə[4] *ilə İnstitutun avadanlıqları məsələsi ilə bağlı danışıqlara girib. Ən az xərc tələb edən ləvazimatlarla kifayətlənməklə bütün fakültələr üzrə ilk növbədə lazım olan ən zəruri şeylərin geniş siyahısı tərtib edilib. Hal-hazırda İbadulla Əlizadədən bu məktuba əlavə edilmiş məlumat alınıb ki, siyahılarda göstərdiklərimizin qiyməti Almaniyada 4.360.000 marka edir.*

İnstitut Sizdən göstərilən məbləği ona Almaniya markaları ilə buraxmağı, yaxud bu məsələ ilə bağlı, yaxud hədsiz ehtiyacımız olan avadanlıq və kitabların alınmasına yardım göstərməsindən ötrü Xarici Ticarət İdarəsi ilə danışıqlara girməyinizi xahiş edir.

[1] В Баку. // *«Труд»*, 1.X.1918, № 24.

[2] ARDA, fond 895, siyahı 1, iş 204, vv. 41-42.

[3] Bu bilgiləri əsasən İ.Əlizadənin EA Mərkəzi Elmi Arxivində saxlanan şəxsi işindəki (Azərbaycan EA Mərkəzi Elmi Arxivi, fond 39, qutu 1) sənədlərdən götürmüşük.

[4] Mətndə yanlış olaraq: "Abdulla Əlizadə".

Ən bəd ayaqda uyğun məbləği bizim pullarla bizə buraxmağı xahiş edirik ki, sifarişlərimizin Almaniyada ödənilməsindən ötrü göstərilən məbləği Almaniya markaları ilə əldə etməyə imkanımız olsun". [1]

Bu məktuba əlavə edilmiş 28 sentyabr 1921-ci il tarixli məktubda mühəndis İbad Əliyev (İbadulla Əlizadə) Politexnik İnstitutu üçün lazım olan avadanlıq və kitabların qısa təsvirini və onlara lazım olan xərcin smetasını qeyd edib.[2]

Sənədin sonunda İ.Əlizadə özünün Berlin ünvanını da göstərib: *"Berlin, Sharlottenburg, Augsburger str. № 62, Gartenhaus, İbadulla Ali Zadeh".*[3]

Xalq Maarif Komissarlığı Kollegiyasının 3 iyul 1923-cü il tarixli 28 saylı protokolundan öyrənirik ki, müzakirə edilən 13-cü məsələ mühəndis İbad Əliyevin və təhsilini bitirməkdə olan tələbələrin yardımı ilə xaricdən kənd təsərrüfatı üzrə RSFSR-də olan kitab və başqa materialların (kənd təsərrüfatı məktəblərinin proqramları dərs planları) alınmasına vəsaitin buraxılması haqqındadır. Kollegiya göstərilən məqsədlə İ.Əliyevə 3 min manat buraxmağı Xalq Komissarları Şurasından xahiş etməyi qərara alıb.[4]

1928-30-cu illərdə yenə Azərneft xət tiy lə İranda oxşar məsələlərin həlli üzərində çalışan ("Semnanneft"in direktor müavini olaraq) İbadulla Əlizadə həmin ölkədən qayıtdıqdan sonra Azərbaycan Sənaye İnstitutunda (indiki Neft Akademiyası) analitik kimya kafedrasında müəllim (1930-32) və assistent (1935-1937) işləyib.

7 fevral 1933-cü ildə ona daha məsuliyyətli bir vəzifə tapşırılıb – Azərbaycan SSR Yüngül Sənaye komissarının (nazirinin) müavini təyin edilib. Bu vəzifədə tutulduğu günə kimi çalışıb. Ancaq eyni zamanda başqa vəzifələr də daşıyıb.

O, 23 fevral 1935-ci ildən SSRİ Xarici Ticarət Komissarlığının Azərbaycanda səlahiyyətli nümayəndəsinin müavini vəzifəsinə keçirilib, az sonra Azərbaycan SSR Xalq Yüngül Sənaye Komissarlığı təchizat-satış bölümünün rəisi təyin edilib və 1937-ci ilədək orada işləyib.

1937-ci ildə ölkədə siyasi ab-hava tündləşdikdə daha sakit yer saydığı EAZFAB-a (SSRİ EA Zaqafqaziya Filialının Azərbaycan Bölməsinə) üz tutub. Neçə illər öncə Almaniyada təlbə ikən İbad Əlizadənin xeyirxahlığından yararlanmış Cəfər Kazımov indi EAZFAB-da direktor müavini işləyir. Elə onun adına da ərizə yazıb: *"Xahiş edirəm Sizə etibar edilmiş Elmlər Akademiyası Filialında mənə bir iş verəsiniz. Doldurduğum anketləri də buraya əlavə edirəm".*[5]

Onu Akademiya Filialına elmi işçi vəzifəsinə götürüblər. Ancaq bu "sakit yer" onu "NKVD"-nin cəngindən xilas edə bilməyib...

* * *

Filologiya elmləri doktoru Məmməd Cəfərli yazır:

"1930-cu ildə Bakıya qayıtdıqdan sonra İ.Əliyev İrana göndərilib, orada 1932-ci ilədək ölkənin şimal hissəsində sovet neft mədənlərində (konsessiyalarda) işləyib. Bakıya qayıtdıqdan sonra onu AzSSR yüngül sənaye xalq komissarının müavini təyin edirlər. Necə olursa, öz tanışları və işçiləri arasında Almaniyadakı işini xatırlayaraq qeyd edir ki, "Almaniyanın Avropadakı itirilmiş mövqelərini geri qaytarması nəticəsində Azərbaycanın müstəqilliyinin hərpa edilməsi ideyasının gerçəkləşməsinə şərait yarana bilər". Tezliklə casusluqda ittiham edilib və XDİK orqanları tərəfindən həbs olunub".[1]

25 iyul 1937-də "qarapaltarlılar" İbad Əlizadəni işdən "götürdülər". Sonra nə baş verdiyini MTN Arxivindən əldə etdiyimiz sənədlərdən öyrənək.

"Əliyev İbad Əli oğlunun[2] ittihamı üzrə 13917 saylı istintaq işi"[3] qarşımızdadır. 25 iyul 1937-ci ildə başlanıb 17 oktyabrda bitən bu işdəki sənədlər göstərir ki, onu 25 iyul 1937-ci ildə verilmiş 836 saylı orderə əsasən Abdullayev həbs edib. Axtarışda (həbsdə) iştirak ediblər: Azərb. XDİK (ruscası: "NKVD") 4-cü şöbəsi əməliyyat müvəkkili Qabriel Aqavelov, əməliyyatçı İsa Babayev, Mənzil Birliyi İdarəsi sədrinin müavini və b.

Həbs edilərkən İ.Əliyevin kağızları içindən Hüseyn İsrafil oğlu Məmmədovun[4] da şəxsi sənədləri tapılıb. Bu sənədləri 3-cü şöbənin rəisi mayor Borşşov 5-ci şöbənin rəisi kapitan Avanesyana göndərib və qeyd edib ki, İbad Əliyev əksinqilabi millətçi təşkilatın fəal üzvüdür.

Həbs olunanın 1340 saylı anketində bizi maraqlandıran bilgilər:

Yaşayış yeri (ünvan): Bakı, Myasnikov küçəsi, 10-cu ev, 5-ci mənzil.

İş yeri və vəzifəsi: Azərb. SSR Xalq Yüngül Sənaye Komissarlığı təchizat-satış bölümünün rəisi.

Ailəsinin tərkibi: arvadı Anna – 50 yaş
qızı Sona – 27 yaş
-"- Leyla – 23 yaş
-"- Mina – 21 yaş
oğlu Ənvər – 24 yaş

Tutmazdan öncə ona qarşı təqsirləndirici materiallar toplanıb (daha doğrusu, təşkil edilib).

Hənəfi Zeynallı[5] 15-20 may 1937 tarixli dindirilməsində İbad Əliyevin də adını çəkib:

"3. İbad Əliyev – mühəndis, Azərneftin Almaniyadakı keçmiş nümayəndəsi, R.Axundovun yaxın dostu. R.Axundov mənə bildirdi ki, o, İbad Əliyevi təşkilata ümuman (o sıradan neft sənayesi işçiləri arasında) böyük əlaqələri olan mühəndis kimi işdən ötrü cəlb edir".

Böyükağa Talıblı 20 iyul 1937 tarixli dindirilməsində deyib ki, Əsgər Eyvazovdan eşitmişəm ki, R.Axundovun yaxın dostu İbad Əliyev də gizli təşkilatın üzvüdür.

Bakı Plan Komitəsinin keçmiş sədri – müttəhim Fərəczadə Əsgər Məmməd oğlunun (?-21.4.1938) 23 iyul 1937-ci ildə dindirilməsi protokolundan:

"Əliyev Əşrəf, Əlirza Atayev, İbrahim İsmayılzadə və İbad Əliyev alman kəşfiyyatı tərəfindən hələ Almaniyada olan zaman cəlb ediliblər. Onların əlaqələrini, habelə R.Axundovun alman kəşfiyyatıyla əlaqəsini ilk dəfə 1927-ci ildə İbad Əliyev, Əliyev Əşrəf və Atayev Əlirzadan öyrənmişəm".

[1] ARDA, fond 51, siyahı 1, iş 174, vərəq 246.
[2] Yenə orada, vv. 247-249.
[3] Yenə orada, vərəq 249a.
[4] Yenə orada, fond 57, siyahı 1, iş 260, vərəq 97-97a.
[5] Bax: Azərbaycan EA Mərkəzi Elmi Arxivi, fond 39, qutu 1. İ.Əlizadənin şəxsi işi.

[1] *Ağaəfəndi M.* Политический террор и судьбы азербайджанских немцев, s. 52.
[2] İstintaq sənədlərində onun ad-soyadı bu cür yazıldığına görə biz də belə işlədirik.
[3] AR MTN Arxivi, PR-23791. İ.Əlizadənin həbsiylə bağlı bütün faktlar buradan götürülüb.
[4] Hüseyn Məmmədov İ.Əlizadənin qızı Leylanın əri olub.
[5] "100 tələbə"dən biridir.

Tutulandan sonra da "kirləndirici" materialların toplanılması davam etdirilib. Həm başqa dustaqlardan onun əleyhinə ifadə toplayıblar, həm də özündən "ifşaedici sübutlar" almağa başlayıblar.

Ruhulla Axundovun 27 iyul 1937-ci il tarixli dindirməsindən:

"2. İbad Əliyev – onun dediklərindən mənə bəllidir ki, o təxminən 1930-cu ildən alman kəşfiyyatıyla bağlıdır və onu neft sənayesi haqqında, ümumən sənaye haqqında, Azərb. SSR-də siyasi əhvali-ruhiyyələr haqqında, millətçi hərəkatın artımı və vəziyyəti haqqında, əksinqilabi-millətçi təşkilatın mövcudluğu haqqında, onun müharibə və müdaxiləyə göstərişləri haqqında müntəzəm olaraq məlumatla təchiz edib.

İbad Əliyevin xaricdə əlaqəsinin kiminlə və hansı yollarla olduğunu bilmirəm".

R.Axundov həmin günkü dindirmədə həm də deyib:

"Bundan başqa, mənə bəllidir ki, İbad Əliyev əksinqilabi təşkilata aşağıdakı şəxsləri cəlb edib:

1. Həkim İbrahim İsmayılzadə

2. Həkim Əlirza Atayev

3. Mühəndis Qəhrəman Məmmədov[1]

4. Mühəndis İsgəndər Rzazadə[2]

5. Həkim Hüseynov Məhərrəm

6. EAAz.F sədrinin müavini Cəfər Kazımov".

Qambay Məmməd oğlu Vəzirovun 29 iyul 1937-ci il tarixli dindirilməsindən:

"Əksinqilabi-millətçi təşkilata daxil olan şəxslərin içərisində Fərəczadə mənə bunların adını deyib:

...7. İbad Əliyev – Xalq Yerli Sənaye Komissarlığının mühəndisi...".

Həsən Qulam oğlu Səfərovun 7 avqust 1937-ci il tarixli dindirilməsindən:

"İbad Əliyev Almaniyanın xeyrinə casusluq işi aparıb. Alman kəşfiyyatıyla Almaniyada olduğu vaxt əlaqə yaradıb. İbad Əliyev Almaniyada evlənib[3] *və almanlar arasında geniş əlaqəsi var. [...] İbad Əliyevin alman kəşfiyyatıyla əlaqəsini Fərəczadədən eşitmişəm – o, bunu mənə 1935-ci ildə yayın sonunda bildirib. 1935-ci ilin noyabrında bunu mənə Əli Kərimov*[4] *təsdiqlədi".*

28 iyul 1937-ci ildə XDİK 4-cü şöbə 2-ci bölməsi rəis köməkçisi, DT leytenantı Nikolayev 13917 saylı işə dair ilk dindirmə protokolunu tərtib edib, başqa sözlə, o, İbad Əliyevi dindirməyə başlayıb. Onunla müttəhim arasında bu cür "söhbət" gedib:

"Sual: İstintaqla müəyyənləşib ki, Siz gizli əksinqilabi-millətçi təşkilatın (ƏMT) üzvüsünüz. Bunu boynunuza alırsınızmı?

Cavab: Qəti şəkildə inkar edirəm.

Sual: Sizə bəlli olan bütün əksinqilabi millətçilərin və müsavatçıların adlarını deyin.

Cavab: Əksinqilabi millətçilərdən və müsavatçılardan mənə heç kim bəlli deyil.

[1] "100 tələbə"dən biridir.

[2] "100 tələbə"dən biridir.

[3] Ağ yalandır!

[4] "100 tələbə"dən biridir.

Sual: Doğru deyil. Əksinqilabi millətçiləri necə tanımırsınız ki, Sizin özünüz də ƏMT-a daxildiniz? Səmimi ifadə vermək niyyətindəsinizmi?

Cavab: Bir daha bildirirəm ki, ƏMT-a girməmişəm və onun mövcudluğu haqqında mənə heç nə bəlli deyil.

Sual: Ən yaxın münasibətdə olduğunuz tanışlarınızın çevrəsini deyin.

Cavab: Ən yaxın tanışlarımdan aşağıdakı şəxslərin adını çəkə bilərəm: Ruhulla Axundov, Əhməd Triniç, Əsgər Fərəczadə, Əli Kərimov, Baba Əliyev, Həmid Sultanov.

Sual: Yuxarıda adı çəkilən şəxslər ƏMT-a daxil idilər.

Cavab: Mənə bəlli deyil".

Həmin gün dustaq Əli Kərimov deyib ki, İ.Əliyev də gizli təşkilatın üzvü olub və onu bura Ruhulla Axundov cəlb edib.

Bundan sonra, görünür, İbad Əliyevə müstəntiq cismani və psixoloji əzablar verməyə başlayıb. Onun istintaqda döyülməsini "NKVD" əməkdaşları sonralar təsdiqləyib. Psixoloji təsirə gəlincə, çox güman ki, Nikolayev "təqsir"ini boynuna almasa onun ailəsini (hamıdan öncə xəstə qızını) məhv etməklə hədələyib. Ogünkü istintaqın ardıyla tanış olanda bu deyilənin doğruluğuna inam artır:

"Sual: Müttəhim Əli Kərimovun ifadəsiylə bağlı siz mahiyyətcə indi nə deyəcəksiniz?".

İbad Əliyevin cavabı:

"İndi mən boynuma almağa məcburam ki, həqiqətən, ƏMT-ın üzvüyəm. Əksinqilabi təşkilata məni Ruhulla Axundov cəlb edib". (Bu ifadənin qarşısında ona qol çəkdirilib).

Oxucuda belə təsəvvür yarana bilər ki, bacarıqlı müstəntiq onu elə ilk istintaqdaca "sındırmağı" bacarıb. Ancaq şəxsən biz buna inanmırıq. Görünür, "NKVD"-nin hər cür allahsızlığa hazır olduğunu anlayan İbadulla Əlizadə həm ailəsini qorumaq, həm də üstündən "casus" adının rəsmən götürülməsi naminə müstəntiqi razı salıb – gizli əksinqilabi təşkilatın üzvü olduğuna "hə" deyib. Ancaq sonrakı hadisələr bu "hə"nin çox kövrək olduğunu göstərir.

2 avqust 1937-ci ildə (həbsdən 1 həftə sonra) Azərb. XDİK DTİ (Dövlət Təhlükəsizliyi İdarəsi; rusca: УГБ) 4-cü şöbəsi 2-ci bölməsi əməliyyat müvəkkili, DT kiçik leytenantı Sonkinin sərəncamıyla İbad Əliyevin işi 12493 saylı işdən (bu, "Ruhulla Axundovun əksinqilabi qrupu üzvlərinin" ümumi işiydi) ayrılaraq ayrıca icraata götürülüb və 3-cü şöbəyə keçirilib. (Təəssüf ki, bunun səbəbini bilmirik).

30 avqust 1937-ci ildə "Qazmaçı" Rayon Mənzil Birliyi Anaxanım – Anna Ottovna Əliyevanın da iştirakıyla iclas çağıraraq "ifşa olunmuş xalq düşməni" İbad Əliyevin kommunal mənzildə qalması məsələsini müzakirə edib. Sədr Bağdasarov və katib Adamyanın imzaladıqları "yekdil" (guya A.O.Əliyeva da razılaşıb!) qərarda göstərilir ki, İbad Əliyev öz mənzilindən çıxarılır və həmin mənzil (öz puluna tikdirdiyi halal malı!) staxanovçu neftçiyə verilir! (V.P.Kuznetsov əslində neftçi yox, özünün şəxsən bizə dediyinə görə, 1932-ci ildən "QPU"-nun – Baş Siyasi İdarənin əməkdaşıydı). Ertəsi gün – 31 avqust 1937-ci ildə Anna Ottovna Azərb. K(b)P MK katibi M.Bağırova ərizə göndərib:

"Ərim İbad Əliyevi bu ilin 25 iyulunda XDİK həbs edib. Dövlət Təhlükəsizliyi orqanlarımızın ədalətinə ürəkdən inanaraq qətiyyən şübhə etmirəm ki, onun suçlu, yaxud suçsuz olmasını istintaq orqanları müəyyənləşdirəcək. Buna görə ərimlə bağlı Sizdən yalnız onun işinin araşdırılmasını sürətləndirməyi xahiş edirəm.

Bu ərizənin başlıca məqsədi odur ki, biz üç qadına – mənə və iki qızıma qarşı müxtəlif müəssisə və şəxslərin tətbiq etməyə başladığı qanunsuz hərəkətlərin qarşısını almağı Sizdən xahiş edim.

1. Hər şeydən öncə, mənzil məsələsi haqqında. Bizim Myasnikov küçəsi 10-da kooperativ əsaslarla mənzilimiz var. Bu mənzilə görə 7 ildə tədricən 16 min manat pul ödəmişik. Bu məbləğin böyük hissəsini mən öz valideynlərimin verdiyi cehiz ev aşyalarının bir qismini satmaqla keçirmişəm. İndi bizim "JAKT"[1] Mənzil Birliyinin təkidiylə bizi oradan bayıra atmaq haqqında tamamilə qanunsuz qərar qəbul edib. Özü də, ödədiyimiz məbləği bizə qaytarmır və başqa mənzil də vermirlər. Beləliklə, biz üç qadın küçədə qalırıq. Bildirməyi özümə borc sayıram ki, ərimin işi üzrə istintaq hələ bitməyib.

2. Əlimizdən bütün avadanlığımızın alınacağını da danışırlar; buna "JAKT"ın bizi mənzildən bayıra atmaq haqqındakı qərarınadək inanmırdıq. İndisə inanmağa başlayırıq ki, avadanlığımızı da əlimizdən alacaqlar.

Qızlarım oxuyur; biri AQSİ-nin[2] IV kurs tələbəsidir, digərisə Musiqi texnikumunun son kurs tələbəsidir (I kateqoriya əldilir). Hər iki qız bir ildən sonra təhsillərini başa vuracaq və bütün bilik və bacarıqlarını sosialist vətənimizin xeyrinə sərf etməyə hazırdır.

Bütün bunlar haqqında xəbər verərək biz – doğma sovet hakimiyyətinə tam sadiq (çünki sovet hakimiyyətini sevməsəydik heç Almaniyadan gəlməzdik) üç qadın Sizdən xahiş edirik ki: a) bizi mənzildən çıxarmamağa, b) bizə məxsus avadanlığı əlimizdən almamağa göstəriş verəsiniz".

Həmin məktub Baksovetə göndərilib və sonrakı hadisələri gözdən geçirərək deyə bilərik ki, heç bir müsbət təsiri olmayıb.

11 sentyabr 1937-ci ildə XDİK DTİ 3-cü şöbəsi 2-ci bölməsi əməliyyat müvəkkili, DT serjantı Quxmanın xahişiylə istintaq uzadılıb. (Bu, adətən, müttəhimlər bir şeyi boyunlarına almadıqda, işi "süründürdükdə" olurdu). O, öz rəhbərliyinə belə müraciət edib:

"Aşkar etdim:

İş üzrə istintaq müddəti 25 sentyabrda başa çatır. İstintaq prosesində xüsusi diqqətlə araşdırma aparılmasını tələb edən yeni hallar üzə çıxdığına görə[3]

Qərara aldım:

SSRİ MİK qarşısında istintaq müddətinin 2 aylığa, yəni 25 noyabr 1937-ci ilədək uzadılması haqqında vəsatət qaldırılsın".

Deməli, İbad Əliyev, ilk istintaqdakı candərdi "hə"sinə baxmayaraq 1 ay 18 gündə müstəntiqə ciddi müqavimət göstərib!

"Akt

Bakı ş., 5 oktyabr 1937-ci il.

Müttəhim Əliyev İbad Əli oğlu bu gün istintaqa çağırıldı, ona yönəlik ittihamı rədd edərək XDİK orqanlarına qarşı iyrənc əksinqilabi sözlərlə hücum etdi.

DTİ 3-cü şöbəsi əməl. müvək.,

DT serjantı Quxman (qolu)".

[1] Mənzil-kommunal tresti.

[2] Azərbaycan Qırmızıbayraqlı Sənaye İnstitutu (indiki Neft Akademiyası).

[3] Başqa sözlə, "hələ boynuna heç nə qoya bilmədiyimizə görə"!

Bundan 2 gün sonra – 7 oktyabr 1937-də müstəntiq Quxman onu Əli Kərimovla üzləşdirib. Bu üzləşdirmədə Ə.Kərimov göstərib:

"...Əliyev casusluq fəaliyyətindən başqa, AQSİ-də mühazirələr oxuyaraq onlara Azərbaycanı SSRİ-dən qoparmaq kimi əksinqilabi-millətçi görüşlərini yeridib və beləliklə, sonra ƏMT-a cəlb etməkçün kadrlar hazırlayıb".

Daha sonra üzləşdirmə protokolunda oxuyuruq:

«S[ual]: Kərimovun ifadəsini təsdiqləyirsinizmi?

C[avab]: Boynuma alıram ki, 1935-ci ildə Ruhulla Axundovun məni cəlb etdiyi ƏMT-ın tərkibinə daxil olmuşam. ƏMT-ın üzvü kimi, sonuncunun tapşırığıyla aşağıdakı şəxsləri cəlb etmişəm:

1. Əliyev Əşrəfi

2. Həsənov Rzaqulunu

3. Rzayev İsgəndəri (Rzazadəni)

4. Əlimuradbəyli [Cəmili][1].

ƏMT-ın üzvü kimi mənə bəllidir ki, o,[2] Azərbaycanı SSRİ-dən qoparmağı və müstəqil dövlət yaratmağı qarşısına məqsəd qoymuşdu. Təşkilatın vəzifələri və onda mənim rolum haqqında daha geniş ifadələri ayrıca verəcəyəm. Kərimovun mənim casusluq-kəşfiyyatçılıq fəaliyyətim haqqında ifadələrinə gəlincə, onları inkar edirəm".

11 oktyabr 1937-ci il tarixli dindirmədə 6 gün qabaqkı ifadəsini inkar edib:

"Cavab: Mən şəxsən mühəndis Rzazadə İsgəndər Cabbar oğlunu 1936-cı ilin başlanğıcında cəlb etmişəm. Mən onu hələ Almaniyada olduğum vaxtdan tanıyırdım; Rzazadə burada oxuyurdu. Görüşlərimizin birində mən ona ƏMT-ın mövcudluğundan, onun vəzifə və məqsədlərindən danışdım. Antisovet əhvali-ruhiyyəli olduğuna görə millətçilərin baxışlarına bütünlüklə ortaq olaraq təşkilata girməyə razılıq verdi. Ondan başqa mən şəxsən heç kəsi cəlb etməmişəm.[3]

Sual: ƏMT-ın sizə bəlli üzvlərinin adlarını deyin.

Cavab: Əksinqilabi təşkilatın üzvlərindən mənə bəllidir:

Neft sənayesində mühəndis-işçilər:

1) Əliyev Əşrəf

2) Həsənov Rzaqulu

3) Əlimuradbəyli [Cəmil]

4) İsmayılzadə İbrahim – tibb professoru

5) Atayev Əlirza – həkim

6) Triniç Əhməd

7) Kərimov Əli

Təşkilat üzvlərindən daha heç kəsi tanımıram".[4]

[1] Bunların 4-ü də Cümhuriyyət tələbəsidir. Sonuncunun soyadı sənəddə yanlış olaraq "Muradbəyli Əli" kimi verilib.

[2] Təşkilat.

[3] Bu zaman İ.Əlizadəyə İ.Rzazadənin həbs olunduğu bəlli idi. (İsgəndər Rzazadə 11 iyul 1937-ci ildə həbs edilmişdi). İbadulla Əlizadə kimi ləyaqətli insanların çoxu məhbəsdə bu cür hərəkət edirdi – hökmən ad çəkməyə məhkum olunduğu belə bir şəraitdə ya ölmüş şəxslərin, ya da artıq həbs olunmuşların adını çəkirdilər.

[4] Bu siyahıda adı keçənlərin də hamısı artıq həbs olunmuşdu.

Artıq üçüncü müstəntiq – Popov 11.10.1937-ci ildə müttəhimlər İbad Əliyevlə Rzazadə İsgəndər Cabbar oğlunu üzləşdirib. Üzləşdirmə protokolundan:

"Müt. İbad Əliyevə sual: Rzazadə İsgəndər Cabbar oğlunu əksinqilabi-millətçi təşkilatın tərkibinə şəxsən sizin cəlb etməyiniz haqqında 8/X-37 tarixli ifadənizi təsdiqləyirsinizmi?

Müt. İbad Əliyevin cavabı: Bəli, təsdiqləyirəm ki, 1935-ci ilin sonunda, yaxud 1936-cı ilin başlanğıcında görüşlərin birində Rzazadə İsgəndərlə ilkin danışıqdan sonra onu Azərbaycanda əksinqilabi-millətçi təşkilatın mövcudluğu haqqında məlumatlandıraraq, Rzazadəni millətçi əhvali-ruhiyyəli adam kimi tanıdığıma görə ona özümün də üzvü olduğum bu təşkilata girməyi təklif etdim. Rzazadə bu təklifimə razılıqla cavab verdi.

Müt. Rzazadəyə sual: İbad Əliyevin sizi əksinqilabi-millətçi təşkilat tərkibinə cəlb etməsi haqqında ifadəsini təsdiqləyirsinizmi?

Müt. Rzazadənin cavabı: İbad Əliyevin ifadəsini təsdiqləmirəm".

Ancaq çox maraqlıdır ki, İsgəndər Rzazadəyə qarşı irəli sürülmüş rəsmi ittihamnamədə Rzazadəni "əksinqilabi-millətçi-üsyançı-trotskiçi-terrorçu təşkilat"a SSRİ Xalq Ağır Sənaye Komissarlığı Suenerjilayihə Trestinin müdiri V.A.Çiçinadzenin (1867-1937) cəlb etdiyi və Rzazadənin V.A.Çiçinadze, Əsgər Fərəczadə və Ruhulla Axundov tərəfindən ifşa olunduqları göstərilib və burada İbad Əlizadənin heç adı çəkilməyib.

14 oktyabr 1937-ci illdə müstəntiq Quxman İ.Əlizadəni Həsən Səfərovla üzləşdirib. Üzləşdirmə protokolundan:

«Sual: Səfərovun ifadələrini təsdiqləyirsinizmi?

Cavab: Səfərovun ifadələrini inkar edirəm.

Sual: Səfərovun ifadələrini nəylə izah edə bilərsiniz?

Cavab: İzah edə bilmərəm. Əlavə edirəm: Səfərovun ifadələrindən onu təsdiqləyirəm ki, ƏMT-ın tərkibinə daxil olmuşam. Səfərovun mənim casusluq-kəşfiyyatçılıq fəaliyyətim haqqında ifadələrinə gəlincə, onları inkar edirəm".

17 oktyabr 1937-ci ildə Quxman istintaqın bitməsi haqqında protokol tərtib edərək bildirib: *"Müttəhim özünü suçlu saydığını bildirdi, cəzasının yüngülləşdirilməsini xahiş edir".* (Deməli, ona verilən vədlər içərisində "cinayət"ini boynuna aldığı halda cəzasının yüngülləşdirilməsi də ola bilər).

17 oktyabrda Quxman, May və Borşşovun tərtib etdikləri, 31 oktyabrda "NKVD" şefi Y.Sumbatovun, 1 yanvar 1938-ci ildə SSRİ prokurorunun baş köməkçisi Rozovskinin təsdiqlədiyi 2 səhifəlik ittihamnamədə yazılıb:

"Azərbaycan əksinqilabi-trotskiçi-millətçi təşkilatı öz fəaliyyətində trotskiçi-zinovyevçi- terrorçu mərkəzlə və sağlar mərkəziylə bağlı olub.

İstintaq əksinqilabi millətçi təşkilatın rəhbəri Ruhulla Axundovun (həbs edilib) Əliyev İbad Əli oğlunu bura 1935-ci ilin sonunda cəlb etdiyini müəyyənləşdirib".

İş üzrə heç bir əşyayi-dəlilin olmadığı göstərilən (!) bu sənəddə İbad Əliyev Azərb. SSR Cinayət Məcəlləsinin 72/73-cü maddələrində (Rozovski maddələri dəyişərək və artıraraq 64/70/73 edib; deməli, bu işdə Moskvanın marağı daha böyük olub) nəzərdə tutulan aşağıdakı cinayətlərdə ittiham edilib:

"1. Azərbaycanı SSRİ-dən ayırmaq məqsədiylə silahlı üsyan hazırlamış əksinqilabi millətçi terrorçu[1] təşkilatın 1935-ci ildən üzvüdür.

[1] Bu sözü mətnə yaşıl mürəkkəblə Rozovski artırıb.

2. Təşkilata yeni şəxsləri cəlb edib.

3. Qərəzli əksinqilabi-millətçi təşviqat aparıb".

Göründüyü kimi, ittihamnamədə casusluqdan söz açılmır; deməli, gerçəkdən də, İ.Əliyev Sovet hökumətinə qarşı vuruşduğunu yalnız "casus" (deməli, həm də "Vətən xaini") adlandırılmamasından ötrü boynuna alıb.

Sənədin sonunda deyilir: *"Müttəhim Əliyev İbad özünü bütünlüklə suçlu sayıb. Müttəhimlər Ruhulla Axundov, Kərimov Əli, Səfərov Həsən, Vəzirov Qambay, Zeynallı Hənifə və Talıblının ifadələriylə, Kərimovla və Səfərovla üzləşdirmələrlə də ifşa edilir".*

5 yanvar 1938-ci ildə Bakıda SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının hazırlıq iclası keçirilib. İclas ittihamnaməni təsdiqləyib və SSRİ MİK-nin 1 dekabr 1934-cü il qərarını belə tətbiq etməklə işi məhkəməyə verib: *"İşə qapalı məhkəmə iclasında şahidləri çağırmadan[1] və ittiham və müdafiə[2] tərəflərinin iştirakı olmadan baxılsın".*

7 yanvar 1938-ci ildə Nikitçenko, İyevlev, İşşenko, Kudryavtsev və Rozovskidən ibarət heyət qapalı məhkəmə iclası keçirib. Saat 14.40-da başlayıb 15.00-da bitən 20 dəqiqəlik məhkəmədə müttəhimin özünü suçlu saydığı, ilkin istintaqda verdiyi ifadələri tam təsdiqlədiyi və son sözdə rəhm dilədiyi sənədləşdirilib və belə hökm çıxarılıb:

"Məhkəmə Əliyev İbad Əli oğlunu şəxsən ona məxsus bütün əmlakı müsadirə olunmaqla cinayət cəzasının ən yüksək dərəcəsinə – güllələnməyə məhkum etdi.

Hökm qətidir və SSRİ MİK-nin 1 dekabr 1934-cü il tarixli sərəncamına əsasən ləngimədən yerinə yetirilməlidir".

Bu da hökmün icrası:

"ARAYIŞ

Əliyev İbad Əli oğlunun güllələnməsi haqqında hökm Bakı şəhərində 7.I.1938-ci ildə yerinə yetirilib".

10 aprel 1938-ci ildə XDİK DTİ 8-ci bölməsinin rəisi, DT leytenantı Koqan Baksovet sədrinin müavini erməni Sarumova məktub göndərərək İbad Əliyevə məxsus əmlakı Bakı Sənaye Malları Ticarəti İdarəsinə satılmağa verməyi, satışdan alınan pulu dövlət xəzinəsinə keçirməyi tapşırıb. 14 apreldə həmin əmlak 3.255 manat dəyərləndirilərək satışa götürülüb. (Bu da Anaxanımın Bağırova yazdığı məktuba cavab!)...

* * *

Aradan illər ötdü.

Mustafa Sübhi küçəsində – bibisi Həcərin onlara bağışladığı 82 saylı evdə yaşayan Əliyeva Sona İbad qızı 8 iyun 1954-cü ildə SSRİ Nazirlər Sovetinin sədri Malenkova belə bir ərizə yazdı:

"Atam Əliyev İbad Əli oğlunu Azərbaycan SSR Xalq Yüngül Sənaye komissarının müavini işlədiyi vaxt 1937-ci ildə M.Bağırovun göstərişiylə mənzili və əmlakı müsadirə olunmaqla XDİK orqanları qəflətən götürüblər. [...]

17 il boyunca ailəmizə mənəvi və maddi baxımdan güclü ziyan dəyib. Atam tutulandan az sonra bizi Myasnikov küçəsi 10-dakı 5-ci mənzildən çıxardılar və öncə zirzəmi qatında,

[1] Şahidləri çoxdan güllələyiblər!

[2] "NKVD"-də müttəhimlərin vəkili olmur, onların hüququ müdafiə edilmirdi.

sonra "rastvor"da, daha sonra da rəhmətə getmiş bir nənənin bapbalaca otağında yerləşdirildik. Burada hətta ən gərəkli kommunal şəraitdən məhrumuq. Ailəm 5 nəfərdir: anam (hipertonik), 2 bacım, yetim qardaşoğlum və mən (II qrup əlil). Ancaq burada da bizə gün yoxdur. Qonşum Əliyev Sadıq Bədəl oğlu içkibaz avaradır. Arvadı və 3 qızıyla birgə mənim köməksiz durumumdan, onlarla bir dəhlizdə olmağımızdan yararlanıb insanlıq vicdanını bütünlüklə həyasızcasına itirərək məni ələ salır. Yerimizi daraldırlar, mənə "xalq düşməni" və buna bənzər söyüşlər yağdırırlar. [...]

Mən ruhdan düşməyərək, bütün gücümü toplayaraq qorxu-hürkü bilmədən, azad şəkildə Sizə müraciət etdiyim bugünkü günədək yaşamışam ki, Siz ədalət naminə, dahi sevimli yol. Lenin naminə: 1) Myasnikov küç. 10-dakı 5-ci mənzilimizin və əmlakımızın qaytarılmasına, 2) atamın ittiham edilməsi haqqında işə yenidən baxılmasına... göstəriş verəsiniz".

Sona xanım 4 fevral 1955-ci ildə də Azərb. SSR Nazirlər Soveti yanında Təhlükəsizlik İdarəsinin başçısı Quskova aşağıdakı məzmunda ərizə göndərib. Sənədi oxuyarkən göz yaşlarını saxlamaq çox çətindir:

"Atam – kimyaçı mühəndis Əliyev İbad Əli oğlu 1879-cu ildə Bakı şəhərində Maştağa kəndində doğulub. Tutulanadək Bakıda Azərb. SSR Xalq Yüngül Sənaye Komissarlığında işləyib. [...]

İş müddətində atam heç vaxt heç bir məhkəmə məsuliyyətinə cəlb olunmayıb. Atamın tutulmasından 17 il keçir və 8/VI-54 tarixdən başlayaraq sorğular göndərsək də bugünkü günədək ondan heç bir xəbər-ətər yoxdur. [...]

Sizə üz tutaraq artıq dərəcədə xahiş edirəm ki, atamın işinə yenidən baxasınız və işə baxılmasının nəticəsini bizə bildirəsiniz.

Şübhə etmirəm ki, atamın işini araşdıraraq, Siz II qrup əlil kimi mənim xahişimi diqqətsiz qoymayacaq, qoca atamı bizə qaytaracaqsınız ki, Vətənimizin rifahı naminə əmək həyatımızı sakitliklə davam etdirə bilək".

İnanmaq olmasa da gerçəkdir – allahsız kommunistlərin sallaqxanası olan "NKVD" aradan keçən bu 17 ildə İ.Əlizadənin ailəsinə nəinki onun güllələnməsini xəbər verməyib, hətta ona 20 il iş kəsildiyi haqqında yalanlar uydurub, daha sonra da şərəfsizcəsinə onun 16 may 1943-cü ildə vəfat etdiyini təsdiqləyən arayış verib!!!

Nəhayət, İbadulla Əlizadəyə (İbad Əliyevə) güllələndikdən 19 il sonra – 10 oktyabr 1956-da bəraət verilib...

15 iyun 1956-cı ildə tərtib olunmuş bəraət sənədində yazılıb:

"...Bu əsaslara görə Əliyev haqqındakı hökm ləğv edilməli və iş dayandırılmalıdır:

1) İlkin istintaqda və məhkəmədə Əliyev ziddiyyətli və gerçəkliyə uyğun olmayan ifadələr verib ki, onlara onun günahının sübutu kimi baxmaq olmaz.

2) Azərbaycan KP MK katibi Ruhulla Axundov (Əliyevin "cəlbedici"si), Bakı Plan Komitəsinin keçmiş sədri Fərəczadə, Tağızadə, Eyvazov və Azərbaycanın başqa rəhbər şəxsləri bütünlüklə bəraət qazanıb.

3) XDİK-nın iş üzrə araşdırma aparmış keçmiş əməkdaşı Quxman 31 mart 1956-cı il istintaqında göstərib ki, Əliyev əsassız olaraq mühakimə edilib və o (Quxman), Əliyevin istintaqda döyüldüyünü istisna etmir.

XDİK-nın iş üzrə araşdırmada iştirak etmiş başqa əməkdaşları Sinman, Qriqoryan, Gerasimov və Borşşov mühakimə ediliblər, Sumbatov isə istintaq işlərini saxtalaşdırdığına görə həbs edilib və cinayət məsuliyyətinə cəlb edilib.

4) Azərbaycan Tərəvəz Məhsulları Ticarəti İdarəsinin müdiri, SİKP üzvü İsgəndər Əliyev İbad Əliyevi müsbət səciyyələndirib".

Bu "izah edilən yeni aydınlaşmış səbəblərə və Azərb.SSR Cinayət-Prosessual Kodeksinin 368-ci maddəsinə əsasən" İbad Əliyev təqsirsiz bilinib.

Bundan sonra 26 komissar küçəsi ev 10, blok 10, məhzil 69-da yaşayan Anna Ottovna Əliyeva Azərb. SSR Nazirlər Soveti yanında fərdi təqaüdləri müəyyənləşdirən komissiyaya ərizə yazıb:

"1956-cı ildə ərim Əliyev İbad Əli oğlu ölümündən sonra bəraət qazanıb.

Azərbaycanda sovet hakimiyyətinin qurulduğu gündən ta tutulduğu günəcən o, Azərbaycanda işləmiş ilk və ən köhnə neftçi mühəndis olub. 1921-ci ildən 1928-ci ilədək SSRİ-nin Almaniyadakı Ticarət Nümayəndəliyində işləyib; eyni zamanda Bakı Sovetinin və şəxsən Nəriman Nərimanovun verdiyi səlahiyyətlə o, Bakı (Şollar) su kəməri üçün 120 vaqon dizel mühərriki və maşınlarını sifariş verib və Bakıya çatdırıb.

Öz öhdəliklərini şərəflə yerinə yetirdiyinə görə növbəti 1928-ci ildə o, İrana göndərilib və orada 1930-cu ilədək "Semnanneft"də direktor müavini vəzifəsində sovet mütəxəssisi kimi çalışıb.

İrandan qayıtdıqdan sonra son günədək[1] o, Azərb. SSR yüngül sənaye komissarının (nazirinin) müavini vəzifəsində işləyib".

Ömür-gün yoldaşı ərinin sovet dövləti qarşısındakı bu görkəmli xidmətlərinin qarşılığında özünə və qızı Sonaya verilən aylıq 30 manat təqaüdün artırılmasını xahiş edib, çünki yaxşı bilirdi ki, kommunistlərdən bundan artığını gözləməyə dəyməz...

Almaniyada oxuyan tələbələrimizin taleyi, xoşbəxtlikdən, bu cür şərəfli bir insana tapşırılmışdı. Pirumov kimi qatı Türk düməninin vurduğu ziyanların qarşısında yalnız belə bir təmiz və mətin insan dura bilərdi.

***

Bəhram bəy Məşədi Mirzə Cəfər(qulu) bəy oğlu Axundov (6 fevral 1872 – 1932).[2]

Bəhram bəy Axundov 6 fevral 1872-ci ildə Şuşada Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin nəslindən olan Məşədi Mirzə Cəfər(qulu) bəyin ailəsində dünyaya gəlib[3]. Onun ailəsi Şuşada məşhur olan soylardan Bədəlbəylilər, Vəzirovlar və Vəlibəyovlarla qohum idi.

Şuşa qəzasının qazisi, sonralar Zaqafqaziya şeyxülislamı olmuş Axund Mirzə Həsən Tahirovun 3 sentyabr 1881-ci ildə verdiyi 410 saylı doğum şəhadətnaməsində oxuyuruq:

[1] Həbs edildiyi son günədək nəzərdə tutulur.

[2] Burada Bəhram bəylə bağlı yararlandığımız və qaynağı göstərilməyən faktların çoxunu onun nəvəsi Tamara xanım Axundovanın bizə bağışladığı və indi özəl arxivimizdə saxlanan sənədlərdən götürmüşük.

[3] Bu nəslin şəcərəsi üçün Ənvər Çingizoğlunun məqaləsinə baxılsın: *"Soy"* dərgisi, oktyabr 2008, №10 (18), ss. 17-33.



Türkiyə və Avropada oxuyan tələbələr görkəmli ziyalılarla.
Soldan sağa: Məhəmməd Ağaoğlu, Məhəmmədzəki Dursunzadə, Bəhram bəy Axundov (tələbələr üzrə hökumət müvəkkili), Məhəmməd bəy Xəlfbəyov (Mahmudov), Əli bəy Hüseynzadə, Əşrəf Əliyev, Səməndər Axundzadə. İstanbul, 1921

"...Bu şəhadətnaməni verirəm Şuşa şəhərinin sakini Bəhram bəy mərhum Mirzə Cəfər bəy oğlu Axundova bu üzərə ki, Bəhram bəy məzkur[1] Mirzə Cəfər bəy Axundovun halal və sülbi[2] oğludur və Mirzə Cəfərin zövceyi-daiməsi Güllü xanım Qasım bəy qızından təvəllüd edib 1871 ilinin fevral ayının 6-cı günündə və ona ad qoyulan vəqtdə lazım olan duaları ikinci məscid camesinin axundu Molla Şəkər Məhərrəmzadə oxuyub və sünnət olan zaman kirvəsi öz qohumu Ağa Teymur Kərbalayı Sadıq [oğlu] olubdur".[3]

Bəhram bəy ilk təhsilini Şuşada real məktəbdə alıb.

Savadsız olmasına baxmayaraq təhsilin önəmini çox gözəl anlayan böyük qardaşı Kərimin yardımı ilə həm orta təhsilini, həm də Fransadakı ali təhsilini başa vurub.[4] Onun iki kiçik qardaşı – Cəmil (?-1920) və Mirzə Əliəkbər (?-1929) Qori müəllimlər seminariyasını bitiriblər və xalq məktəblərində müəllimlik ediblər.[5]

Oğlu Əli bəy Axundovun yazdığına görə,[6] Bəhram bəy öncə yerölçən və feldşer işləyib.

B.b.Axundov 1893-cü ildə Fransanın Lill şəhəri Akademiyasının fənn fakültəsinə daxil olub (fizika, kimya və təbiiyyat elmlərini öyrənib) və 13 noyabr 1896-cı ildə bu haqda şəhadətnamə alıb.[7] 1896-cı ildə Lill Akademiyasının tibb və farmasiya fakültəsinə girib və 2 oktyabr 1901-ci ildə ona "tibb doktoru" ixtisası üzrə 729 saylı diplom verilib.[8]

[1] Zikr olunan, adı çəkilən.
[2] Qanuni.
[3] Sənədin surəti özəl arxivimizdədir.
[4] Oğlu Ə.b.Axundovun tərcümeyi-halı.
[5] Yenə orada.
[6] Ə.b.Axundovun öz xətti ilə yazdığı tərcümeyi-halı özəl arxivimizdədir.
[7] Milli Azərbaycan Tarixi Muzeyi, sənədli mənbələr fondu (bundan sonra: MATM SMF), №125, iş 3.
[8] Yenə orada, iş 5.

Bəhram bəy 1904-cü ilin iyulunda Bakı Şəhər İdarəsi məktəb komissiyasının sədrinə yazdığı ərizəyə əlavə etdiyi özü haqqında arayışda göstərir ki, *"mən 1901-ci ildə tibb fakültəsini bitirdikdən sonra bir ilə yaxın Lill şəhərində Pastor İnstitutunda işləmişəm"*. Sonra davam edir: *"1902-ci ildə Rusiyaya gəldikdən sonra Təbriz şəhərində İran taxtı vəliəhdinin yanına yollanaraq orada saray həkimi rütbəsi almış və onun yanında bir il işləmişəm"*.[1] Bu faktı "Kaspi" qəzetindən götürdüyümüz bir bilgi də qüvvətləndirir: *"1902-ci ildə Bakıya gəlmiş Müzəffərəddin şah həkim Bəhram bəy Axundovu 3-cü dərəcəli "Şirü Xurşid" ordeni ilə təltif edib"*.[2] Böyük ehtimalla bu orden Bəhram bəyə Təbrizdə vəliəhd Məhəmmədəli Mirzənin (sonrakı Məhəmmədəli şahın) sarayındakı xidmətinə görə verilib.

Yuxarıdakı sənəddə daha sonra oxuyuruq:

"İrandan 1903-cü ilin sonunda dönərək 1904-cü ildə Xarkov şəhərinə getmişəm, həmin ilin yazında orada dövlət imtahanı verərək həkim rütbəsinə layiq görülmüşəm. Vəba zamanı kənd camaatının dəvətiylə Mərdəkanda həkimlik etmişəm. İndi Bakı şəhərində özəl həkim işləyirəm. Əlavə edim ki, mənim dəqiq ixtisasım uşaq xəstəlikləridir".

Oxucu haqlı olaraq soruşa bilər ki, niyə Fransada həkim diplomu almış Bəhram bəy Rusiyada qalmayaraq Qacar vəliəhdinin sarayına gedib və niyə oradan döndükdən sonra yenidən Xarkova gedərək imtahan verib? Məsələ burasındadır ki, Rusiya imperiyası vətəndaşlarının aldığı əcnəbi diplomlar ölkədə keçərli deyildi; belə ki, Avropada, Amerikada, yaxud hər hansı başqa bir xarici ölkədə ali təhsilini başa vuranlar həmin diplomla işə götürülmürdü – onlar Rusiya ali məktəblərində ya xaricdə aldıqları ixtisas üzrə yenidən dövlət imtahanları verməli, ya da ən azı bir il oxuyaraq Rusiya diplomu əldə etməli idilər. Həmin mütəxəssislər yalnız bundan sonra Rusiya daxilində işə düzələ bilərdilər. Azərbaycandan gedərək imperiya xaricində oxuyub ali təhsilli mütəxəssis olmuş bütün soydaşlarımız bu yolu keçiblər. Bəhram bəy Axundov da istisna deyildi – əlində Fransa dövlətinin kəsərli diplomu olsa da o, bu əcnəbi diplomla işə qəbul edilməyib və buna görə də məcbur olaraq Təbrizə üz tutub. Burada özünə həm təcrübə, həm də maddi imkanlar qazandıqdan sonra 1904-cü ildə Xarkov Universitetində tibb üzrə imtahan komissiyasında yenidən imtahan verərək 22 iyun 1904-cü ildə 8826 saylı Rusiya diplomu da alıb.[3]

Xatırladaq ki, Bakı Şəhər İdarəsinin məktəb komissiyasına yazdığı yuxarıdakı ərizədə Bəhram bəy Axundov Bakının rus-türk məktəbinə (ərizədə nömrəsi göstərilməyib) həkim kimi işə götürülməsini xahiş edib.

Bəhram bəy Fransanın Belfor şəhərində doğulmuş, hələ Lilldən tanıdığı Mariya Selestina Emil qızı Burjeni 1904-cü ildə Bakıya gətirib. Onu bir il qohumlarına təqdim etməyib. Bəhram bəyin nəvəsi – Əli bəyin qızı Tamara xanım Axundovanın bizə danışdığına görə, bu müddətdə onlar ər-arvad kimi yaşamayıblar, çünki Selestina hələ azyaşlı imiş (16 yaşı varmış), həm də müsəlmanlığı qəbul etməyibmiş. Ancaq onlar bir-birini həddən artıq seviblər. 1905-ci ildə Selestina müsəlmanlığı qəbul edərək "Səltənət" adlandıqdan sonra onlar ailə qurublar və 2 övladları olub: Alber (Əli) (1906-1962) və Tamara (Törə) (1908-1941).[4] Onların üçüncü övladları dünyaya gələrkən doğuş zamanı Səltənət xanımın qanı zəhərlənib və gənc ana övladını dünyaya gətirmədən 20 iyun 1916-cı ildə dünyasını dəyişib. Bu faciə Bəhram bəyi kökündən sarsıdıb. Gəlini Zeynəb xanım danışırmış ki,

[1] Nəvəsi Tamara xanım Axundovanın bizə təqdim etdiyi həmin sənədin surəti özəl arxivimizdədir.
[2] «Kaspi», IX.1902, №200.
[3] MATM SMF, №125, iş 7.
[4] AR Dövlət Tarix Arxivinin verdiyi 13.08.2004 tarixli 9/320 saylı arayış.



Bəhram bəy Axundovun ailəsi.
Soldan sağa: Bəhram bəy Axundov, dayə, Törə (Tamara) Axundova-Aqrba, Əli bəy Axundov, Mariya-Selestina Burje (Səltənət Axundova). Bakı, 1909

həyat yoldaşının ölümündən sonra o, həyatının sonunadək bir daha evlənməyib və heç bir şənliyə qatılmayıb, yalnız bircə dəfə 1931-ci ildə teatrda bir tədbirə gedib və bunu eşidən ailə üzvləri qulaqlarına inanmayıblar.

B.b.Axundov indiki İstiqlaliyyət küçəsində Doktor döngəsindəki 7-otaqlı mənzilində yaşayıb. Bu mənzildə 40 kv. metrlik böyük bir xalça da varmış. Onu arvadını müalicə etdiyinə görə Qacar şahının, yaxud Qarabağ xanzadəsinin bağışladığı söylənilir.[1]

Tarixçilərin ən etibarlı qaynaqlardan saydığı "Qafqaz təqvimi"ndə B.b.Axundovun adı 1906-cı ildən Bakı şəhər ikisinifli məktəbinin həkimi kimi çəkilməyə başlayır.[2] Elə həmin ilin qəzetlərində həkim Bəhram bəyin xəstələri Babayevin evində qəbul etməsi haqqında elanları da oxuyuruq.[3]

1907-ci ildə Bəhram bəy Bakıda Güney Azərbaycandan olanların yaratdığı "İttihad" məktəbinə həkim dəvət edilib.[4] Ancaq onun burada işləməsi haqqında bilgimiz yoxdur.

Bəhram bəy 1907-ci ildə II Dövlət Dumasının aqrar komissiyasında iştirak etməkçün Bakıdan Peterburqa aparılıb.[5]

Görkəmli yazıçı Manaf Süleymanov Bəhram bəy Axundovun Azərbaycan Xeyriyyə Cəmiyyətinin Bakıda açdığı "Səadət" məktəbində həkim işlədiyini yazır. [6]

1909-cu ildən Bəhram bəyi Bakı şəhər həkimləri arasında görürük. O, zöhrəvi, uşaq və əsəb xəstəlikləri həkimi olaraq xəstələrini Nikolay küçəsi 21 ünvanında qəbul edib.[7]

Bəhram bəy tibb sahəsində xalq arasında maarifləndirmə işinə böyük önəm verir və bu sahədə əlindən gələni edirdi. "Kaspi" qəzetində Bəhram bəyin Bakının müsəlman əhalisinə ana dilimizdə bir müraciəti dərc edilib. Həmin "Mühüm elan"da oxuyuruq:

"Bunun ilə Bakı müsəlman qardaşlarımıza elan edirik ki, həmin avqust ayının 6-cı günü cümə günündə saat 12-də Təzəpir məscidi-camesinə təşrif gətirsinlər. Müsəlman qardaşların bəzi hifzi-səhhət qaydalarına biittilə[8] olmaqlarına görə[9] qaliba ictina yolunu bilməyib cüzi bir etinasızlıqdan müzmin və bəlkə möhlik mərəzlərə[10] mübtəla olmaqlarını nəzərə alıb, növ-növ misri[1] mərəzlərin mikroblarını, baxüsus[2] xoleranın mikroblarını göstərmək, onlardan nə gunə mühafizə etmək yollarını, mübtəla olmuşlara nə tövr müalicə lazım olduğunu bildirmək üçün bir saata kimi söhbət etmək istəyirik. Doktor Bəhram bəy Axundov".[3]

1910-cu ilin sentyabr ayında "Kaspi" qəzetindəki elanda oxuyuruq: "Doktor B.b.Axundov qayıdıb və yenidən xəstələri qəbul edir".[4]

Yenə "Kaspi" qəzetinin başqa bir sayında yazılıb ki, o, 1910-cu ilin 3 dekabrında İçərişəhərdə Came məscidində xalqı toplayaraq ana dilində körpə uşaqların sağlamlığının qorunması və onların tərbiyəsi haqqında məruzə edib. Qəzet qeyd edir ki, cənab Axundov gələn cümə günü taun haqqında mühazirə oxuyacaq.[5]

1911-ci ilin mətbuatında bu məzmunlu elanlara çox rast gəlirik:

"Doktor Bəhram bəy Axundov Nikolayevski küçədə nömrə 27, Hacı Zeynalabdin Tağıyevin qız işkolasının qabağında Dadaşovun evində qəbul edir naxoşları hər gün sübh saat 8-dən 12-dək, axşam saat 4-dən 7-dək. Telefon nömrə: 799".[6]

Xarkov arxivindəki bir sənəddə Bəhram bəy Axundovun Xarkov Universiteti fakültə terapevtika klinikasında ordinator həkim işləməsi haqqında qeydə rast gəldik. O, 29 yanvar 1916-cı ildə verdiyi arayışda göstərib ki, Xarkov Universitetinin texnoloq tələbəsi, 25 yaşlı Əbdüssəməd Məhəmmədyarov 15 oktyabr - 7 dekabr 1915-ci ildə ağır formada qarın yatalağı xəstəsi olduğuna görə mənim həkim nəzarətim altında olub.[7]

1913-cü ildən 1919-cu ilədək B.b.Axundovu Bakı şəhər 2-ci kişi gimnaziyasının həkimi olaraq görürük.[8] 4 noyabr 1919-cu ildə onun Parlaman üzvü olarkən Eynülmüluk Babayevaya verdiyi arayışa özünün 2-ci Bakı kişi gimnaziyasının həkimi möhürünü basıb.[9]

O dönəmin rəsmi mətbuatından da aydın olduğu kimi, Bəhram bəy Azərbaycanın ən bacarıqlı həkimlərindən sayılıb. Nəvəsi Tamara xanımdan öyrəndiyimizə görə, Bakı milyonçularından Murtuza Muxtarovu o müalicə edib. Yenə deyilənlərə görə, o, N.Nərimanovun xəstə qardaşını Türkiyəyə müalicəyə yollayıb, ancaq xəstə, görünür, baxımsızlıq üzündən orada ölüb.

Rusiyada 1917-ci ildə baş vermiş Fevral burjua inqilabından sonra Azərbaycanda, o sıradan Bakıda da yeni yerli idarə orqanları yaradılır, yaxud təkmilləşdirilirdi. Bakı Müsəlman İctimai Təşkilatları Komitəsi (qısaca: Müsəlman Komitəsi) bu dönəmdə mühüm bir təşkilata çevrilmişdi. 5 sentyabrda Əlimərdan bəy Topçubaşovun sədrliyi altında keçirilən iclasda Komitəyə 32 üzv seçilib ki, onlardan biri də həkim Bəhram bəy Axundov idi.[10]

23 sentyabrda Əlimərdan bəyin sədrliyi altında Müsəlman Komitəsinin 5 bölməsi yaradılıb. Siyasi bölmənin tərkibinə 7 nəfər seçilib: Qasım Qasımov, Bəhram bəy Axundov, Əbülfəz Qarayev, Behbud xan Cavanşir, Fətəli xan Xoyski, Musa bəy Rəfiyev, Heybətqulu Məhəmmədbəyov.[11]

[1] Şahın ona bir neçə kənd bağışlaması haqqında da rəvayətlər dolaşmaqdadır.
[2] *"Кавказский календарь на 1907 г.".* Тифлис, 1906, s. 272.
[3] Məsələn, bax: *"Həyat"*, 17.01.1906, №14, s. 1.
[4] *«Каспий»*, 16.02.1907 № 38.
[5] *«Баку»*, 7.3.1907.
[6] *Süleymanov M.* Eşitdiklərim, oxuduqlarım, gördüklərim, s. 168.
[7] *"Кавказский календарь на 1910 г.".* Тифлис, 1909, s. 806.
[8] Laqeyd.
[9] Gigiyena qaydalarına etinasız olduqlarına görə.
[10] Öldürücü xəstəliklərə.

[1] Yoluxucu.
[2] Xüsusən.
[3] *«Каспий»*, 05.08.1910, №176.
[4] Yenə orada, 29.09.1910, №220.
[5] Yenə orada, 05.12.1910, №277.
[6] Məsələn, *"Məlumat"* qəzeti, 12.07.1911, №10 və b.
[7] XVDA, fond 770, siyahı 3, iş 1878, vərəq 13.
[8] *"Кавказский календарь на 1917 г."*, s. 316.
[9] ARDA, fond 895, siyahı 1, iş 198, vərəq 13.
[10] *«Каспий»*, 07(20).09.1917, № 200.
[11] Yenə orada, 26.09.1917, №214.

Həmin ilin oktyabrında (yeni təqvimlə noyabrında) Müsəlman Komitəsi 12 saylı siyahı ilə Bakı Şəhər Dumasına seçkilərdə öz namizədləri ilə iştirak edib. 40 namizədin içərisində 18-cisi həkim Bəhram bəy Axundovdur[1] və o, Dumaya üzv seçilib.

1 dekabr 1918-ci ildə Bakı Şəhər Duması müsəlman nümayəndələrindən Azərbaycan Parlamanına üzvlər seçilərkən B.b.Axundovun da namizədliyi verilib, ancaq o, öz namizədliyini geri götürüb.[2]

17 fevral 1919-cu ildə "Müsavat" fraksiyasının başqanı Məhəmmədəmin Rəsulzadə Məclisi-Məbusan[3] Divani-Rəyasətinə[4] öz əli ilə yazdığı və imzası ilə təsdiqlədiyi bu məktubu göndərib:

"Məclisi-Məbusan tərəfindən qəbul olunan məmurluqla məbusluq ədəmi-ictiması haqqındakı qanun ilə uzun müddət Məclisdən ayrı qalanlar haqqında nəşr olunan qanun iqtizası ilə onuncu nömrəli siyahı[5] vasitəsilə Məclisi-Məbusan əzalığını imraz etmiş olanlardan çıkmışların əvəzinə onuncu nömrə siyahıya mənsub olan əza tərəfindən aşağıdakı səkkiz zat təklif olunuyorlar: 1) Mustafa Vəkilov; 2) Ağa Əminov; 3) Yusif əli Əliyev; 4) Məhəmmədbağır Şıxzamanov; 5) Məhəmmədəli Rəsulzadə; 6) Behbud ağa Cavanşir; 7) Bəhram bəy Axundov; 8) Əbdüləli bəy Əmircan.

10-cu nömrə siyahı əzası naminə vəkalətən (Məhəmmədəmin Rəsulzadənin imzası)".[6]

Deməli, B.b.Axundov Parlamana məhz Rəsulzadənin təklifi və onuncu siyahı üzrə müsavatçı kimi qəbul edilib.

22 fevral 1919-cu ildə həkim Bəhram bəy Axundova Azərbaycan Məclisi-Məbusanına – Parlamanına üzv olması haqqında 423 saylı vəsiqə verilib.[7]

Beləliklə, Bəhram bəy həm Parlamanın, həm də Bakı Şəhər Dumasının üzvü idi.

Dumanın 2 aprel 1919-cu il qərarı ilə Bəhram bəy Bakıya gələn Azərbaycan qoşunlarının qarşılanmasını təşkil edən komissiyanın üzvü seçilib və bu haqda ona Duma sədrinin imzası və möhürü ilə 3 aprel 1919-cu ildə 120 saylı vəsiqə verilib.[8]

O dönəmdə Parlaman iclaslarında iştirak etməyən deputatların maaşı cəza olaraq kəsilirdi. O da 7 dekabr 1919-cu il tarixli iclasda iştirak etmədiyinə görə belə cəzalandırılmışdı. Ancaq 22 yanvar 1920-ci ildə Azərbaycan Parlamanı Heyəti-Rəyasətinə ərizə ilə müraciət edən Bəhram bəy həmin iclasda olduğunu və davamiyyət dəftərini imzaladığını da göstərərək onu bu cəzadan azad etməyi xahiş edib. 25 yanvarda bu xahiş nəzərə alınıb.[9]

10 eylül 1325-ci ildə (10 sentyabr 1919) Məclisi-Məbusan üzvü Bəhram bəy Axundov Məclisi-Məbusanın Divani-Rəyasətinə bu məzmunda ərizə ilə müraciət edib:

"Ümurati-xüsusiyyə və zatiyyəmin təsviyəsi üçün[10] *Şuşa şəhərinə getməyə məcbur olduğumdan, həmin eylülün 10-cu günündən etibarən 25-ci gününədək məzuniyyət vermənizi rica edərəm!".*[1]

1920-ci ildə sovet hakimiyyəti qurulunca o, Azərbaycan SSR Xalq Komissarları Şurasında və oğlu Əli bəyin yazdığına görə, Bakı-Culfa dəmiryolunda həkim işləyib.

Azərbaycan SSR Xalq Komissarları Şurasının 18 iyun 1921-ci il tarixli iclasında Bəhram bəy Axundov xaricdə təhsil alan azərbaycanlı tələbələrin işləri üzrə xüsusi müvəkkil təyin edilib.[2] Bu məqsədlə B.b.Axundov Qərbi Avropa ölkələrinin paytaxtlarına ezam olunaraq orada gördüyü işlər haqqında 1922-ci il martın 2-də N.Nərimanovun adına ətraflı hesabat təqdim edib.[3] Bu hesabat Cümhuriyyətin əcnəbi dövlətlərə oxumağa göndərdiyi tələbələrlə bağlı ən müxtəlif suallara ən dəqiq və əhatəli cavab verən ən mötəbər sənəddir. Doğrudur, onu tarixi bir vəsiqə kimi bu kitabda ayrıca veririk, ancaq Bəhram bəyin tərcümey-halından danışarkən sənəddəki bəzi mühüm məqamlara toxunmadan keçmək olmur.

2 iyul 1921-ci ildə əməkdaş Rizvan Nərimanovla[4] və dördü yeni, ikisi Avropada oxuyan tələbələrin nümayəndəsi Səməndər Axundzadə və Əşrəf Əliyev olmaqla 6 tələbə ilə birgə Bakıdan çıxan Bəhram bəy Axundov 8 iyulda Tiflisdə bir həftə ləngiyib, İtaliya konsulundan xarici vizalar alaraq Batuma gedib. Batumda ona Nərimanovun tapşırığına əsasən valyuta malları (xalça, kürü və b.) verilməli imiş ki, onları aparıb İstanbulda sataraq pulunu Türkiyədə və Avropada oxyan tələbələr arasında bölüşsünlər. Ancaq xarici ticarət idarəsi bunu verməd iyindən, o, durumu Nərimanova bildirməkdən ötrü iki nəfəri Bakıya qaytararaq 16 iyulda 5 tələbəni İstanbula yollayır, özü isə oraya 20 iyulda gedir. 24 iyul 1921-ci ildə İstanbula gəldikdə burada Azərbaycanı təmsil edən Behbud xan Cavanşirin öldürüldüyünü öyrənir. Özü yazır ki, İstanbul Birləşmiş Xarici Ticarət İdarəsində Azərbaycanın mənafelərini qoruyacaq kimsə yoxdu, ona görə də "İstanbulda 15 sentyabr 1921-ci ilədək Bakıdan vəsait gözləyə-gözləyə elə beləcə qaldıq. Bu müddətdə mən tələbələri bir yerə yığdım və onlara gəlişimin məqsədini açıqladım. İki ay yarımdan artıq tələbələrin həyatını və maddi durumunu bütün incəliklərinədək öyrəndim".[5] Ancaq, bizcə, bu gecikmənin əsl səbəbi başqa şeydir – həmin vaxt İstanbulda Behbud xanı şəhid etmiş Torlakyanın məhkəməsi gedirdi və Bəhram bəyin yol yoldaşı olan tələbə Səməndər Axundzadə onun tövsiyəsinə əsasən bu məhkəmədə şahid qismində iştirak edərək ermənilərin qarşısında Azərbaycanın mənafelərini müdafiə edib.[6]

Bəhram bəy İstanbulda valyuta mallarının satışını təşkil edib. Əldə edilmiş pullardan İstanbul tələbələrinin hərəsinə 1 oktyabr 1921-ci ildən 1 may 1922-ci ilədək 7 ay üçün ayda 60 Türkiyə kağız lirəsi təqaüd verib, bəzi güzəştlər edib.

İstanbuldakı Azərbaycan tələbələrinə vəsait verdikdən sonra yanındakı 4 tələbədən üçünü Almaniyaya və birini Fransaya göndərib, onları İran pasportları ilə təchiz edib (çünki

---

[1] *«Kaспий»*, 21.10.(03.11).1917, № 236.
[2] ARDA, fond 895, siyahı 1, iş 204, vv. 41-41a.
[3] Parlament.
[4] Rəyasət Heyəti.
[5] Bu, "Müsavat" və "bitərəflər"in ümumi seçki siyahısı idi.
[6] ARDA, fond 895, siyahı 1, iş 204, vərəq 12. Sənədin aşağısında karandaşla yazılıb: "Qəbul olunur".
[7] Yenə orada, iş 36, vərəq 2.
[8] Yenə orada, iş 204, vərəq 59.
[9] Yenə orada, vərəq 61.
[10] Burada: xüsusi və şəxsi işlərimlə bağlı olaraq.

[1] ARDA, fond 895, siyahı 1, iş 36, vərəq 4.
[2] Azərbaycan İnqilab Komitəsi və Xalq Komissarları Soveti iclaslarının protokolları (1920-1922-ci illər). Bakı, 2009, s. 22.
[3] ARDA, fond 410, siyahı 1, iş 342, vv. 3-7; 8-13.
[4] Bu, Nərimanovun xəstə qardaşıdır. Nərimanov onu müalicə etdirmək məqsədiylə Bəhram bəylə Türkiyəyə yollayıb. Ancaq, deyilənlərə görə, sonra baxımsızlıq üzündən orada ölüb.
[5] ARDA, fond 410, siyahı 1, iş 342, vərəq 3.
[6] Bu haqda geniş bilgi almaq üçün Səməndər Axundzadə haqqında oçerkə baxılsın.

Avropada sovet pasportunu götürmürdülər).[1] Parisdəki geniş şəxsi münasibətləri sayəsində Fransa xarici işlər nazirindən icazə alaraq sovet pasportu ilə (Fransa vizası ilə) İstanbuldan çıxaraq 20 oktyabr 1921-ci ildə Fransaya yollanıb. Öncə Marselə gəlib. 28 oktyabrda Parisə çatıb. Ertəsi gün azərbaycanlı tələbələri bir yerə yığaraq gəlişinin məqsədini açıqlayıb. Onun göstərişi ilə tələbələr necə oxumaları haqqında məktəblərdən sənəd gətiriblər. Bundan sonra tələbələr Bəhram bəyin türkcə hazırlayaraq onlara payladığı anket vərəqlərindəki suallara cavab veriblər. Bir müddət özü tələbələrin yaşayışını və tədris işinin necə qurulduğunu öyrənib.

Bəhram bəy Fransada Azərbaycanın 28 təqaüdçü tələbəsinin oxuduğunu, indi onlardan 26 nəfərin qaldığını qeyd edib və onların Paris, Lion, Bezanson, Tuluza, Nansi, Mülxiz şəhərlərində təhsil aldığını göstərib. O hətta hansı şəhərdəki hansı ali məktəbdə və hansı ixtisas üzrə neçə tələbənin oxuduğunu da göstərib (təəssüf ki, adlarını yazmayıb).

Ondakı vəsaitdən Fransadakı hər Azərbaycan tələbəsinə 1 oktyabr 1921-ci ildən 1 may 1922-ci ilədək yaşayış üçün aylıq 600 frank və dərslik almaq üçün hərəsinə birdəfəlik 300 frank verib.

Parisdə tələbələrlə iclasların birində özünü pis hiss edən Bəhram bəy bərk xəstələnib. Onun sol ciyərimdə kəskin sətəlcəm aşkarlanıb özəl klinikada müalicəsi bir ay çəkib.

Berlinə getməzdən qabaq 14 dekabrda tələbələrlə bir də görüşüb. İki gün sonra Berlinə yol alıb. Oraya 7 dekabr 1921-ci ildə çatıb. Oraya düşən kimi azərbaycanlı tələbələri toplayaraq gəlişinin məqsədini bildirib. Oxuduqları məktəblərdən necə oxumaları haqqında məlumat gətirmələrini, anketlərə cavab vermələrini xahiş edib və verilən məlumatları yoxlayıb.

Sonra Bəhram bəy Almaniyada 49 azərbaycanlı təqaüdçü tələbə oxuduğunu qeyd edib, onların Berlin, Darmştadt, Frayberq, Karlsrue, Münxen, Göttingen, Hannover, Drezden və Leypsiqdə oxuduqlarını, hansı ixtisas üzrə neçə tələbənin təhsil aldığını dəqiq yazıb (ad çəkmədən).

B.b.Axundov bildirir ki, Berlində həyat Parisdə olduğundan 2 dəfə ucuzdur. O yazır ki, tələbələrimizin həyatı ilə tanış olaraq onlardan maddi durumları haqqında mənə məlumat vermələrini xahiş etdim. Onlar mənə ayda 5.600 markalıq smeta təqdim etdilər. Təkcə geyimə ildə 25-30 min marka istəyirlər. Bu smeta mənə həddən çox göründü və 1921-ci ilin 1 oktyabrından 1922-ci ilin 1 mayına qədər hesablamaqla məndə olan pullardan onların hərəsinə dolanışıq üçün ayda 3 min marka verdim. Güman edirəm ki, qənaətlə dolansalar bu pul onlara 1 may 1922-ci ilə qədər çatar. Onlara dərsliklər üçün birdəfəlik 1.668 marka da verdim. Mənim qərarımla tələbələr heç cür razılaşmadılar və hətta təklifimi qəbul etməkdən kobudcasına yazılı şəkildə imtina etdilər, dedilər ki, bu məbləğ bizə 1 fevral 1922-ci ilədək güclə yetər. Bu zaman onlara bildirdim ki, yaşayış həqiqətən özəlliklə Berlində bahalaşıb. Mən də başa düşürəm ki, sizin çatışmayan şeylərinizi çoxdur, ancaq haqlı tələbələrinizi mən təcili şəkildə hökumət vasitəsilə yerinə yetirməyə çalışacağam. Onlar məndən 1.067.094 marka pul aldılar və tələbə Səfərov[2] üçün 22.168 marka verdim, 24.500 marka da

[1] 1930-cu illərdə İran pasportu onun verildiyi tələbələrdən biri Əşrəf Əliyevin faciələrinə səbəb oldu. (Geniş bilgi üçün bu kitabda onun haqqında verilmiş tərcümeyi-hal oçerkinə baxılsın).

[2] Bizcə, Bəhram bəy "100 tələbə"dən biri olan Məhiş Səfərovu deyil, yeni gələn Şamil Səfərovu nəzərdə tutur.

ikinci dəfə İstanbuldan göndərdim. Beləliklə, bizim Almaniyadakı təqaüdçülərə 1.113.762 marka verilib və fikrimcə, qənaətlə dolansalar bu pul onlara 1 may 1922-ci ilə qədər bəs edər.

Bəhram bəy İtaliyaya getməyib, çünki orada – Perucada cəmi 3 təqaüdçü azərbaycanlı tələbə oxuyurmuş. Burada həyat İstanbulda olduğu kimidir. Hər tələbəyə aylıq 800 İtaliya lirəsi, heykəltəraş Zeynal Əlizadəyə 1.300 lirə verib. Tələbələrə 800 lirə birdəfəlik yardım da edib.

Məruzəsinin sonunda Bəhram bəy Qərbi Avropada oxuyan azərbaycanlı tələbələrin bir-aylıq dolanışıq xərclərinin smetasını təqdim edib və bu fikrini bildirib ki, Qərbi Avropada oxuyan azərbaycanlı təqaüdçü tələbələrlə Azərbaycan hökuməti arasında daimi əlaqə üçün təqaüdçü tələbələr üzərində *müfəttişlik* yaratmaq lazımdır. Bu müfəttişlik tələbələrin həyat şəraitinə yaxından bələd olar, hökumətlə tələbələr arasında tələbələrin məşğələlərə davamiyyəti və onların həyatı ilə bağlı bir çox məsələlərin həlli haqqında hökumətin bilgiləndirilməsində aracı ola bilər.

Oxuculara qısa mahiyyətini çatdırdığımız bu hesabatdan başqa, Bəhram bəy tələbələrin hər biri haqqında müfəssəl qeydlər olan zəngin kartoteka da tərtib edibmiş. Tamara xanımın bizə bildirdiyinə görə, Bəhram bəyin gəlini Zeynəb xanım 1933-cü ildə həbslər getdiyi dönəmdə Bəhram bəyin evdə saxlanan bir çox sənədlərini, o sıradan həmin kartotekanı da yandıraraq məhv edib.

Tamara xanım bizə bunu da danışıb ki, Nərimanov, Bəhram bəyə Avropadan qayıdandan sonra ona iki aylıq məzuniyyət verdirib və o da uşaqlarını götürüb (həyat yoldaşı Səltənət xanım artıq həyatda deyildi) Türkiyəyə, oradan da Fransaya gedib və uşaqlarını oradakı baba-nənəsi ilə tanış edib. İstanbulda (Sirkəcidə) qaldığı oteldən yaxın dostu Ceyhun bəy Hacıbəyliyə 21 iyul 1922-ci ildə rusca bu məktubu yazıb:

"Əziz Ceyhun!

Artıq bir aydır ki, uşaqlarla İstanbuldayam. Umudvaram ki, sənin ailən və uşaqların sağ-salamatdır. Qardaşlarının və qohumlarının hamısı, eləcə də Zorya xanımın[1] anası sapsağlamdırlar və yaxşı yaşayırlar. Buna görə də onlar haqqında düşünməyinə və fikir etməyinə dəyməz. Allaha şükür, onların gözümüzün üstə yeri var, çünki onlar həmişə olduğu kimi ləyaqətli insanlardır və xalqa lazımdırlar. Mən onları, xüsusilə Zülfüqarı hər gün görmüşəm. Onlar yalnız sizin sağlığınızı düşünürlər. Üzeyir çox işləyir, ona görə onu buraxmırlar. [Bakıdan] qəflətən çıxdığıma görə onlardan məktub ala bilmədim; düşünürəm ki, mənim sözlərim sənə yetərlidir. Yenə təkrar edirəm ki, sənin bütün milyarderlərin milyonerlərlə zarafat etmirlər. Görürsənmi belə qısa vaxtda necə milyarder olmaq olar?

Əziz Ceyhun, Zülfüqar məni çox sevir və o, bütün teatr incəsənətinin (özəlliklə hərbçilər üçün) baş rəhbəridir. Məni tez-tez kiçik naharlara dəvət edib. Səni və sənin ailəni o sağaldıb.

Bu günlərdə mən Fransa konsuluna viza üçün müraciət edəcəyəm. Gələndə Parisə də baxarıq. Əmin ol ki, mənim Parisdən gəlməyimdən sonra heç kəsə, hətta qohumlarıma da bir kəlmə də yazmamışam. 4-5 gün bundan qabaq Səfvətə[2] cavab yazmışam və ikinci məktubu sənə yazıram.

[1] Ceyhun bəyin həyat yoldaşı Zöhrə xanımı dost-tanışları bəzən belə çağırırdılar.

[2] Həsən bəy Zərdabinin oğlu Səfvət bəy Məlikov nəzərdə tutulur.

Tələbələrə gəlincə, Bakıda onlar üçün 2 aydan artıq işləmişəm. Öz əllərimlə komissiyada 200 karata yaxın brilyant hazırlamışam. Moskvadan 2 tələbə ilə göndərmişəm. Onların necə satdığını bilmirəm; bu haqda Nərimanov Qaraxan[1] vasitəsilə Berlin nümayəndəliyinə məktub yazıb ki, tələbələr qarpış-qarpış[2] etməsinlər. Nərimanovun yoxluğu[3] tələbələrlə bağlı hər şeyi dəyişdi. Bundan sonra nə olacaq – Allah bilir. Mən onları unutmuram və unutmayacağam. Bakıya döndüyümdə yenə onlar üçün işləyəcəyəm. Onlar bizə lazımdır. Təki oxusunlar. Teymurun[4] işlərinin necə olduğunu bilmirəm. Valideynləri məktubunu alıb. İstanbuldan mənimlə göndərilib. Son vaxtlar bir qədər özümdə deyiləm, ona görə də heç kəsə yazmıram. Qoy o,[5] öz işləri, məşğələləri və tələbələrin pullarını necə alması haqqında yazsın.

Mən gəldiyimdə hər şey haqqında danışarıq.

Çox hörmətli Zorya xanıma salam! Uşaqlarını və səni öpürəm.

Sənin həkim Bəhram Axundovun".[6]

1921-ci ildə İstanbulda çəkilmiş olduqca qiymətli bir foto əlimizdədir. Burada öndə Bəhram bəy Axundovu, Azərbaycanın görkəmli oğlu Əli bəy Hüseynzadəni bir neçə Cümhuriyyət tələbəsinin əhatəsində görürük. Əli bəy Hüseynzadənin də məşhur həkim olduğu çoxumuza bəllidir, ancaq onun Bəhram bəylə dost olmasını burada ayrıca qeyd etməliyik.

Ə.b.Hüseynzadənin 20 avqust 1923-cü ildə İstanbuldan göndərdiyi və sonralar Ceyhun bəy Hacıbəylinin arxivinə düşmüş dəyərli bir məktub bu dostluqla yanaşı, bir çox başqa mətləblərə də işıq salır. Rusca yazılmış həmin məktubda oxuyuruq:

"Əziz yoldaş və işdaş həkim Bəhram bəy!

Fürsətdən istifadə edib Sizə bu məktubu yazıram. Bizim ümumi məhbubumuz, mənim və sənin dostun Mehmandarov Əfbdüllkərim bəy Bakıya, Sizin yanınıza müxtəlif borcları ləğv etmək üçün gəlir. Umudvaram ki, ehtiyac yaranarsa sən ona kömək edərsən. Daha yaxşı olardı ki, sən onu həkim yoldaş Musabəyovla[7] tanış edəydin, ona da Kərim bəydən yardımını əsirgəməmək xahişimi çatdıraydın.

Dostum, sən buradan gedəndən bizə heç nə yazmamısan və özün, uşaqların Tamara və Alber (Əli bəy) haqqında heç bir məlumat yoxdur. Hətta mənim balaca Feyzavərim də[8] səni də, uşaqlarını da unutmayıb və hər dəfə onların fotolarına baxaraq soruşur ki, onlar haçan gələcək ki, biz bir də avtomobildə gəzintiyə çıxaq. Sən neynirsən, nə ilə məşğulsan? Tamara və Ə. b. təhsillərini bitirdilərmi? Hansısa bir xidmətə girdilərmi?

[1] L.M.Qaraxan (Qaraxanyan) Rusiya (sonra SSRİ) xarici işlər komissarının müavini idi.

[2] Bu sözlər rusca məktubda ərəb qrafikasında türkcə yazılıb.

[3] 12 mart 1922-ci ildə Zaqafqaziya Federasiyası yarandıqdan sonra Nərimanovun Tiflisə getməsi nəzərdə tutulur.

[4] Tələbə Teymur Aslanov nəzərdə tutulur.

[5] Teymur Aslanov.

[6] B.b.Axundovun C.b.Hacıbəyliyə məktubu (rusca). //S.Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi (bundan sonra: ARDƏİA), fond 649, siyahı 3, iş 11, vv. 1-3a.

[7] Bəhram bəyə necəsə qohumluğu çatdığı deyilən Qəzənfər Musabəyov 1923-cü ildə Azərbaycan SSR Xalq Komissarları Şurasının sədri işləyirdi.

[8] Əli bəy Hüseynzadənin qızı Feyzavər xanım hal-hazırda İstanbulda yaşayır.

Rizvanın[1] ölümü ilə bağlı mən mərhum Nərimana[2] başsağlığı yazmışdım. Ancaq Nərimanın özünü itirdikdə isə heç kəsə başsağlığı yaza bilmədim, çünki onun yaxınlarından kimin sağ olduğunu bilmirəm. Beləliklə varsa lütfən mənim adımdan onlara dərin başsağlığımı çatdır. Axı biz hamımız bir-birimizi lap uşaqlıqdan tanıyır və sevirdik.



Əli bəy Bəhram bəy oğlu Axundov həbsdə

Salyandan Bakıya mənim adamlarımdan, yaxud tanışlardan kimsə gələrsə onlardan xahiş et ki, qardaşım İsmayıla çatdırsınlar ki, mən və bütün ailəm sağ və salamatıq. Onun şəkillərlə birgə göndərdiyi məktubu almışam, əlbəttə, çox sevinmişik.

Mən və bütün ailəm sənə, Tamaraya və Alberə çoxlu salam göndəririk, onların qiyabən gözlərindən öpürük.

Bakıdadırlarsa Həzrət və Rəhim Ağabəyovlara[3] da salamlar.

Əlvida, əziz dost! Səni sevən və hörmət bəsləyən həkim Əli Hüseynzadə.

Ünvan: İstanbulda tibb fakültəsi müəllimlərindən doktor Hüseynzadə Əli".[4]

Azərb. SSR Xalq Komissarları Şurasının (XKŞ) ümumi şöbəsindən 16 may 1923-cü ildə verilmiş şəhadətnamədə B.b.Axundovun maaşının ayda 30 manat olduğu göstərilir. Buradan onun həmin tarixdən bu qurumda çalışdığını düşünə bilərik.

2 avqust 1925-ci ildə verilən şəhadətnaməyə görə, o, XKŞ-da İrandan gəlmiş siyasi mühacirlərə kömək göstərmək üzrə həkim işləyib.

Oğlu Əli bəy özünün bir tərcümeyi-halında atası Bəhram bəyin ölümündən az öncə *"Əmək Qəhrəmanı"* fəxri adı ilə təltif edildiyini yazır.[5]

Bəhram bəy Axundov 1932-ci ildə mədə xərçəngindən dünyasını dəyişib.

B.b.Axundov iki övlad atasıydı. Onları çox sevir və qayğılarına qalırdı.

Onlardan böyüyü – *Əli bəy Axundov* (1906-1962) 1930-cu ildə ailə qurub. Onun qızı Tamara xanımın bizə danışdığına görə, Əli bəy kökcə Volqa tatarlarından olan Zeynəb İsa qızı Muratovanı (1912-1997) dəlicəsinə sevsə də Zeynəb xanım razılıq vermirmiş, buna görə Əli bəy iki dəfə özünə qəsd etməyə çalışıb. Bunu görən Bəhram bəy Zeynəbə yalvarıb ki, Əliyə ərə gəl, çünki o, yeganə oğlumdur; o, sənsiz yaşayammayacaq, mən də onsuz. Zeynəb bundan sonra razılıq verib.

Bəhram bəy ailədə hətta sovet dönəmində də kübar bəy qayda-qanunlarını qoruyaraq saxlayıb. Zeynəb xanım danışırmış ki, mən yenicə gəlin gəldiyim zaman bir dəfə əlimə əsgi alıb pəncərə şüşələrini silmək istədim. Əlimdə əsgini görən Bəhram bəy gözlərini yumub mənə dedi: "Səni bir də belə iş tutan görməyim. Bunun üçün qulluqçu var. Xanımsan, xanım yerində otur".

[1] O, Nərimanovun qardaşı, 1921-ci ildə müalicə üçün Bəhram bəylə Türkiyəyə göndərilmiş Rizvan Nərimanovdur.

[2] Nəriman Nərimanov.

[3] Onlar Əli bəy Hüseynzadənin yaxın qohumlarıdır. Bax: Azər Turan. Əli bəy Hüseynzadə. Həyatı, mübarizəsi, yaradıcılığı və şəcərəsi. Bakı, 2014, s. 456.

[4] Məktubun surəti özəl arxivimizdədir.

[5] Sənədin surəti özəl arxivimizdədir.

Xatırladaq ki, Əli bəy Moskvada Şərqşünaslıq İnstitutunun iqtisad fakültəsini (1926-1930), Azərbaycan Elmi-Tədqiqat İnstitutunun aspiranturasını (1930-1932) bitirib. Azərbaycan Sovet Ticarəti İnstitutunun (1933-1936) və Azərbaycan Bədən Tərbiyəsi İnstitutunun (1936-1937) direktoru işləyib.[1] O, eyni zamanda 1933-cü ildə Marksizm-Leninizm İnstitutunda elmi katib vəzifəsində çalışıb.

Onun bacısı, cərrah həkim *Tamara (Törə) xanım* (1908-1941) atası Bəhram bəyin kəskin etirazlarına baxmayaraq o zaman Qafqazda məşhur olan çekist A.S.Aqrbaya (1897-1939) ərə gedib.[2] Aqrba 1929-31-ci illərdə Azərb. SSR Dövlət Siyasi İdarəsi sədrinin müavini, 1933-34-cü illərdə Azərb. SSR xalq daxili işlər komissarı (naziri), 1934-36-cı illərdə Azərbaycan K(b)P MK-nın 2-ci katibi, 1936-37-ci illərdə Abxaziya K(b)P MK-nın 1-ci katibi, 1937-ci ildə Abxaziya MSSR MİK sədri işləyib. O, 1937-ci ildə həbs edildikdən sonra yoldaşı Tamara və yoldaşının ən yaxın qohumları, o sıradan Əli bəy Axundov və Azərbaycan Baş Milis İdarəsinin rəisi[3] Əsəd bəy Nəsir bəy oğlu Axundov (1893-1939)[4] da repressiya olunublar. 30 sentyabr 1937-ci ildə Əli bəy Axundov həbs edilib. Məhbus anketində onun ailə üzvləri kimi 24 yaşlı yoldaşı Zeynəb (1912-1997) və 3 yaş yarımlıq qızı Sevil (1934) qeyd olunub. İnstitut direktoru bunda günahlandırılıb: *"düşmən ünsürlərin ifşasından və onların kökünün qazılmasından qıraqda durub"*;[5] başqa sözlə, o, institutda "xalq düşmənləri" axtarışında iştirak etməyib.

Bir il həbsdə yatsa da istintaq onun heç bir təqsirini sübuta yetirə bilməyib və o, 1938-ci ilin may ayında sərbəst buraxılıb, ancaq Bakı şəhərində yaşaması yasaqlanıb.[6] Bütün bu faciələrin başlıca səbəbkarı olan Törə (Tamara) xanım isə 3 dekabr 1937-ci ildə əriylə birgə yaşadığı Suxumidə məhkum edilib və 1941-ci ildə həbs düşərgəsində həlak olub. Əli bəy həmin il anadan olmuş qızını onun şərəfinə "Tamara" adlandırıb.[7]

Əli bəy Axundov 1948-ci ildə Xalq Təsərrüfatı İnstitutunda *"Azərbaycanda ipəkçilik və ipək sənayesi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək iqtisad elmləri namizədi adı alıb.* O, 1951-ci ildə Azərbaycan Politexnik İnstitutunda işə girib, ömrünün sonunadək orada müəllim işləyib. Ömrünün son illərində onun çap 9 elmi məqaləsi çap edilib.

Azərbaycan Dövlət Tarix Muzeyinin 15 yanvar 1966-cı ildə verdiyi rəsmi arayışa görə, böyük elmi işçi Nərmin xanım Tahirzadə Bəhram bəy Axundovun 28 ədəd materialını Zeynəb xanım Axundovadan Muzey üçün təhvil alıb.[8]

[1] Ə.b.Axundovun özəl arxivimizdə olan kadrlar uçotunun şəxsi vərəqəsi.

[2] Bəhram bəy qızına cehiz də verib, ancaq vəsiyyət edib ki, Tamaranı mənim ölümün üstünə buraxmayın; belə də edilib.

[3] Bundan öncə o, Azərbaycanda Qlavlitin sədri və Azərnəşrin direktoru və s. vəzifələrdə işləyib.

[4] Əsəd bəyin atası Nəsir bəy Bəhram bəyin əmisidir.

[5] ARPİSSA, fond 1, siyahı 89, iş 122, vərəq 4.

[6] Bu haqda qərarın surəti özəl arxivimizdədir.

[7] Əli bəy Axundovun üçüncü və sonuncu övladı Ramiz (1946-1996) öncə ingilis dili müəllimi, sonra cazmen olub.

[8] Bax: MATM SMF, iş 125.

10. Tələbələrin sovet hakimiyyəti dönəmində taleyi

Azərbaycan Cümhuriyyətinin devrilməsi tələbələrin həyatında dönüş nöqtəsi oldu. Belə ki, yeni qurulmuş hakim kommunist rejimi onlara Azərbaycanın milli mənafeləri baxımından deyil, sinfi baxımdan yanaşdı və onları "doğmalar" və "yadlar" deyə 2 qismə ayırdı. Şuralar Azərbaycanının rəsmi hakimiyyət qurumları əslində birbaşa Moskvaya tabe olduqları, Kremlin iradəsini yerinə yetirdikləri üçün bu tələbələrə Azərbaycan xalqının övladları kimi yox, sovet rejimi siyasətinə uyğun gəlib-gəlməyən "proletar-burjua" kadrları gözüylə baxdılar.

Azərbaycan İctimai Şura Cümhuriyyəti (İŞC) Xalq Maarif Komissarlığı (XMK) Kollegiyasının iclaslarında tələbələrin durumu dəfələrlə müzakirə edilib və bu başdan bildirməliyik ki, onların bir çoxunda tələbələrin taleyi baxımından sevindirici qərarlar qəbul edilməyib.

Almaniyada oxumuş tələbələrdən biri – Abbasmirzə Əliyevin sonralar müstəntiqə verdiyi izahatdan aydın olur ki, tələbələr Azərbaycandakı çevriliş haqqında 1920-ci il may ayının başlanğıcında qəzetlərdən oxuyublar və onların bir dəstəsi (Qəhrəman Məmmədov, Abbasmirzə Əliyev və b.) bu xəbəri sevinclə qarşılayıb və ümumi yığıncaq çağıraraq Azərbaycan İnqilab Komitəsinə təbrik teleqramı göndərib. Bu hərəkət, təbii ki, Parisdəki Sülh Heyətinin xoşuna gəlməyib və bildirib ki, həmin tələbələr bundan sonra Bakıya, Sovet hökumətinə müraciət etməli və pullarını oradan almalıdırlar. Bu qərarla razılaşmayan həmin tələbələr Parisə etiraz məktubu göndərərək təqaüdlərini tələb ediblər. Bundan sonra Sülh Heyətinin üzvü Abbas bəy Atamalıbəyov Berlinə gələrək onlara 1-2 aylıq pullarını (üzülüşmə pulunu), eləcə də Bakıya dönmək üçün yolpulu verib.[1] Beləliklə, tələbələr çıxılmaz vəziyyətə düşüblər.

Almaniyadakı Azərbaycan Tələbələri Komitəsinin 16 iyun 1920-ci ildə Berlindən Azərbaycan Cümhuriyyətinin Xalq Maarif Nəzarətinə göndərdiyi məruzədə tələbələrin maddi durumlarının ağırlığı bütün çılpaqlığı ilə təsvir edilib. Sənəddə qeyd olunub ki, Azərbaycan Tələbələri Komitəsi bununla Xalq Maarif Nəzarətinin nəzərinə hər bir tələbənin Almaniyada yaşaması və oxuması üçün lazım olan ən minimum vəsait haqqında məlumatları çatdırmağı gərəkli sayır:

I. Mənzil [ayda] 250 (iki yüz əlli) marka; işıq, qaynanmış su və qızdırıcı ayrıca ödənilir, bu da ayda təxminən 50 (əlli) marka edir.

II. Nahar və şam yeməyi ən ucuz restoranlarında 32 (otuz iki) markadır: Nahar 18 (on səkkiz marka), şam yeməyi 14 (on dörd) markadır.

III. Səhər çayı 7 markaya başa gəlir.

IV. Ağların yuyulması və yamaq ayda 100 (yüz) markayadır.

V. Mənzillər, universitet və institut yaxınlığında otaqlar həddsiz baha olduğuna görə biz şəhərin kənarında yaşamağa və tramvaydan və şəhər dəmiryolundan istifadə etməyə məcburuq, bunlara isə aylıq abunə 100 (yüz) markadır.

VI. Papiros, dəllək, hamam və s. kimi xırda cibxərcikləri ayda ən azı 400 (dörd yüz) marka edir. Cəmisi yaşayış üçün ayda hər bir tələbə 2.070-2.100 (iki min yüz) marka

[1] Əliyev Abbasmirzə Əhməd oğlunun öz əli ilə yazdığı izahat. //AR MTN arxivi, PR-22247, vv. 18-19.

xərcləməlidir. Politexnikuma[1] və universitetə gəlincə, serblər, bolqarlar, misirlilər və başqaları kimi digər təqaüdçülərdən ayrıca olaraq hər semestr mühazirələri dinləmə haqqı şəklində də pul alırlar.

İnstitutda bir semestr xaricilərə almanlar üçün olandan 7 dəfə baha valyutaya (məs., misirlilərə) başa gəlir. Bolqarlar, serblər və azərbaycanlılar kimi ucuz valyutalı əcnəbi təqaüdçülər isə sülh dövrünün qanunları üzrə almanlardan 2 qat artıq ödəməlidirlər.

I. Mühazirələrin dinlənilməsi haqqı və təcrübi işlər üçün xərclər:

Universitet, politexnik institut: semestrdə (6 ayda) 1.500 (min beş yüz) marka, ildə 3.000 (üç min) marka edir ki, hər aya 250 (iki yüz əlli) marka düşür.

II. Kitablar və çertyoj əşyaları: kağız, tuş, boyalar, karandaşlar hər semestr 600 (altı yüz) marka, ildə 1.200 (min iki yüz) marka edir ki, hər aya 100 (yüz) marka düşür.

III. Texniklərdən ötrü rəsm alətləri dəsti (qotovalnya) 500 (beş yüz) markadır; bu məbləğ bütün təhsil müddəti boyunca bir dəfə ödənilir.

IV. İldə bir dəst kostyum, ayaqqabı, şlyapa və əşyalar lazımdır ki, bunlara ildə ən azı 4.000 (dörd min), 4.200 (dörd min iki yüz) lazımdır ki, aya 350 (üç yüz əlli) marka düşür.

Beləliklə, hər bir tələbənin Almaniyada yaşaması və oxuması üçün [ayda] 2.800 (iki min səkkiz yüz) marka lazımdır.

Xahiş edirik ki, bizim maaşlarımızı frankla deyil, marka ilə göndərəsiniz. Çünki, birincisi, Almaniya markaları Qafqazda ucuzdur, ikincisi də, maaşımızı frankdan çevirəndə birjadan tamamilə asılı oluruq və bu, bizim pulumuza [mənfi] təsir göstərir.[2]

Bir həftə sonra – 23 iyun 1920-ci ildə XMK Kollegiyasının iclasında müzakirə edilən 9-cu məsələ "Keçmiş Azərbaycan hökumətinin xaricə göndərdiyi, bir qisminin qayıtdığı, bir qisminin hələ xaricdə *ilişib qaldığı* tələbələrin taleyi haqqında məsələ" adlanır. Kollegiya qərara alıb:

"Tələbələrin Azərbaycana qaytarılması üçün hansı tədbirlərin görülməsi haqqında arayış hazırlamaq İşlər İdarəsinə tapşırılsın. Bakıya qayıtmış bütün tələbələrə Ali Məktəb Şöbəsində qeydə alınmaq təklif edilsin; vəsait yoxluğu üzündən qayıtmaq imkanı olmadığına görə xaricdə ilişib qalmış tələbələrə maddi yardım göstərməkdən ötrü uyğun tədbirlər görülsün".[3]

Göründüyü kimi, nazirliyin məqsədi Cümhuriyyətin oxumağa göndərdiyi tələbələrin təhsilini başa vurmasına çalışmaq deyil, onları tələm-tələsik, yarımçıq şəkildə Azərbaycana qaytarmaq, Cümhuriyyətin gördüyü mühüm tarixi bir layihəni uğursuzluğa məhkum etməkdir.

Təxminən elə bu vaxtlar – 1920-ci ilin iyun-iyul aylarında[4] Fransadakı Azərbaycanlı Tələbələr Komitəsi də "xalq maarif nazirinə" gecikmiş bir məktub göndərib. Orada göstərilir ki, Fransadakı tələbələrin Bakıda aldığı 3.000 frankın və fevral ayının maaşı kimi Sülh Konfransındakı Azərbaycan Heyətinin verdiyi 400 frankın hamısı mart ayında qurtarıb. Bu pulların nəyə xərcləndiyi Heyət sədrinin adına yazılan və bu məktuba əlavə olunan məruzədə ətraflı göstərilib. Həmin məruzədə Parisdə tələbənin bir ayda yalnız 800 franka yaşaya biləcəyi müfəssəl hesablanıb.

[1] Politexnik İnstitut nəzərdə tutulur.
[2] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 51-52.
[3] Yenə orada, fond 57, siyahı 1, iş 23, vv. 93a, 203.
[4] Məktubun üstündə tarix olmasa da iyun-iyul aylarında yazıldığı üzə çıxır.

Sülh Konfransındakı Azərbaycan Heyətinin sədri bu məbləğin gerçəkliyini təsdiqləyəcək, çünki o, öz məmurlarından birinə tələbənin Parisdə yaşaması üçün nə qədər pul lazım olduğu haqqında məlumat toplamağı tapşırıb.

Parisdə bir ayda 400 franka yaşamağın heç cür mümkün olmadığını nəzərə alaraq Heyət mart ayından tələbələrin təqaüdünü 600 frankadək artırıb. Ancaq bu məbləğ də yetərsizdir. Heyət bundan artığını edə bilməzdi, belə ki, bu ilin fevralından 1 sentyabradək tələbələrə çatacaq pul alınmamışdı (yalnız mayın başlanğıcında gəlib çatmışdı) və Heyət o pulu öz vəsaitindən verib.[1]

Məktubdakı bu cümlələr də tələbələrin maddi baxımdan nə qədər dözülməz şəraitdə olduğunu sərgiləyir:

"Ayda 600 franka yaşayırıq. Daim borc içindəyik və uzun müddət belə davam edə bilməz. Yeni ay üçün alınmış maaş köhnə borcları ödəməyə güclə çatır. Daimi maddi ehtiyac, sözsüz ki, öz durumunun qeyri-sabitliyini hiss edən tələbələrin məşğələlərinə də təsir edir. Vəziyyət aydan-aya daha da çətinləşir, çünki bizim bura gəldiyimiz vaxta nisbətən indi həyat xeyli dərəcədə bahalaşıb, buna görə də yeni qayğılar əlavə olunub. Parisdə (və ümumən Fransada) 800 frankdan aşağı yaşamaq qətiyyən mümkün olmadığına görə Fransadakı Azərbaycanlı Tələbələr Komitəsi, c-b nazir, Sizdən Fransadakı tələbələrin təqaüdünü may ayından 800 frankadək artırmağı xahiş etməklə şərəflənir. Bu məbləğ yalnız Fransada yaşamağa və xırda tədris vəsaitinin alınmasına çatacaq, ancaq bu ilin noyabrından sonra qətiyyən kifayət etməyəcək, çünki indi dil öyrənməklə məşğul olan tələbələr həmin vaxt müxtəlif ali məktəblərə girəcək və həm oxumaq və imtahan vermək haqqı kimi, həm də burada çox baha olan elmi kitablar almaq üçün böyük pullar xərcləməyə məcbur olacaqlar. Bu ilin noyabr ayından Fransadakı azərbaycanlı tələbələrin maaşı ayda təxminən 100 frank artırılmalıdır. Bu məbləğ təqribi göstərilib, çünki bu, tələbənin ixtisasından asılı olaraq dəyişir".[2]

Tələbələr daha sonra yazır ki, hal-hazırda bizim hamımız fransız dilini öyrənməklə məşğuluq. Çoxumuz əcnəbilər üçün olan *Alliance Française* kurslarına gedirik; burada fransız dili ilə yanaşı, fransız ədəbiyyatı tarixi, Fransanın siyasi tarixi və sosial həyatı, Fransa coğrafiyası və s. üzrə mühazirələr dinləyirik. Yoldaşlarımızdan bəziləri özəl dərslərə gedir. *Ali məktəblərə girə bilməmişik, çünki buraya dərs ilinin ortasında (fevralda) gəlmişik* və özəlliklə bizim kimi dil bilməyən əcnəbilər üçün dərs ilinin ortasında məşğələlərə başlamaq mümkünsüzdür. *Payızda hamımız ali məktəblərə qəbul olunacağıq.* Yalnız yoldaşlarımızdan biri – artıq dili yaxşı mənimsəmiş Mirzeynalabdin Mirqasımov hüquq fakültəsinə qəbul olub və payızda bir neçə imtahan verəcək.

Tələbələr ölkədəki siyasi dəyişikliyi bilməzlikdən gəlsələr də buna eyham vurmağa məcburdurlar:

"Azərbaycan haqqında ən müxtəlif qəzet məlumatlarına əsasən, biz son vaxtlar çox qeyri-müəyyən vəziyyətdəyik və öz işimizi davam etdirib-etdirməyəcəyimizi bilmirik. Cənab nazir, yalnız Fransada deyil, Almaniya və İtaliyada da oxuyan bütün tələbələrin adından Komitə Sizdən xahiş edir ki, göndərilmiş tələbələr üçün Qərbi Avropaya dördüllük vəsaitin köçürülməsi haqqında vəsatət qaldırasınız, çünki dünyanın daha qabaqcıl ölkələrində təhsil almış 80 nəfərə qədər [mütəxəssis] gələcəkdə siyasi hadisələrin necə inkişaf etməsindən asılı olmayaraq Vətənimiz üçün çox lazımdır".[3]

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 53.
[2] Yenə orada.
[3] Yenə orada, vərəq 54.

Məktubun sonunda Fransadakı Azərbaycan Tələbələri Komitəsi bütün tələbələr adından xahiş edir ki, bu məktubda toxunulmuş məsələlərin həllini ən yaxın vaxtda gözləyirik, çünki əski smeta ili avqustun sonunda bitir və Azərbaycanla əlaqə isə hədsiz çətindir, buna görə də Azərbaycandan məktublar və köçürmələr bizə xeyli gecikmələrlə gəlib çatır.[1]

İndi də Azərbaycan Sülh Heyəti sədrinin adına yazılmış və bu məktuba əlavə edilmiş məruzə ilə tanış olaq. Fransadakı Azərbaycan Tələbələri Komitəsinin sədri Mirzeynalabdin (Zeynalabdin, Mirabdin, Abdin)[2] Mirqasımov və katibi Mustafa ağa Vəkilovun imzaladıqları bu rusca sənədi tələbələrin həyatını əks etdirən ən önəmli vəsiqələrdən saydığımıza görə onu aşağıda, demək olar ki, ixtisarsız veririk:

"Cənab Sədr!

Sizə bəlli olduğu kimi, tələbələr Qərbi Avropaya göndərilərkən Azərbaycan Cümhuriyyətinin Parlamenti göndəriləsi tələbələr üçün təqaüd kimi ayda 400 frank müəyyən etmişdi. Bundan başqa, təyinat yerinə getmək üçün hər tələbəyə 1.000 frank buraxılmışdı. Ancaq hələ Bakıda olduğumuz zaman Xalq Maarif Nəzarəti bu qərara gəldi ki, 400 frank Qərbi Avropada yaşayış minimumu kimi az məbləğdir. Buna görə də Nəzarət bizə [pulu] Bakıdan çıxdığımız gündən deyil, qanun layihəsini Parlamentin təsdiqlədiyi gündən hesablayıb verdi.

Beləliklə, biz bu ilin fevral ayının başlanğıcında [Parisdən?] çıxaraq keçən ilin 1 sentyabrından bu il yanvarın sonunadək, yəni 5 ay üçün maaş aldıq. Bu məbləğdən əslində Bakıda keçirdiyimiz dörd ay üçün maaş Qərbi Avropada 1 aylıq dolanışığımızı qarşılamalı idi. Nəzərdə tutulurdu ki, 1.600 frankı (ötən ilin sentyabr, oktyabr, noyabr, dekabr ayları üçün maaş) növbəti ilin qalan aylarına böldükdə (bu zaman dövlət təqaüdü ilə təmin olunmalı idik) ayda orta hesabla hər tələbəyə 600 frank düşür. Ancaq bu gözləntilər özünü doğrultmadı. Gəldiyimiz zaman aldığımız həmin 3.000 frank (1.000 frank yolpulu və 2.000 frank 1919-cu ilin sentyabrından 1920-ci ilin yanvarına qədər maaş) artıq çoxdan qurtarıb.

Birincisi, yola ayrılmış 1.000 frank hədsiz az idi, çünki təkcə Batumdan Torentoyadək[3] 3-cü dərəcəli paroxoda və Torento-Roma-Paris dəmiryoluna bilet bizə aşağı-yuxarı 600 franka başa gəldi və bundan başqa, biraylıq səyahət müddətində yaşamağımıza da xeyli pul xərclədik.

İş burasındadır ki, [qiymətinə] ərzağın da daxil olduğu bileti aldığımız paroxodda biz əslində 5 gün qaldıq (2 gün Batum-İstanbul və 3 gün İstanbul – Torento). Qalan vaxtımızı ağlagəlməz bahalığın olduğu Batumda paroxod gözləməklə, ərzağa xeyli pul xərclədiyimiz İstanbul dayanacağında, sonra isə Torento – Roma – Paris dəmiryolundakı səyahətdə keçirdik. Özəlliklə Torentodan Parisədək xeyli xərcimiz çıxdı, çünki ərzaqdan başqa, mehmanxanaya da 300 [frank] xərclədik. Üst-üstə biletə xərclədiyimizdən əlavə, yolda ən azı 900 frank xərclədik ki, buraya Parisə getməyimizə lazım olan nəqd frank əldə etmək üçün İstanbulda qəbzləri mübadilə etdirdiyimiz zaman itirdiyimiz komisyon pulları da daxildir. Axır ki, Parisə çatanadək hər bir tələbə yola 1.500 frank civarında xərcləyib.

Bu zaman onu da əlavə etmək gərəkdir ki, bütün tələbələrimiz Bakıdan çıxanda çox pis geyinmişdilər, çünki son vaxtlar orada parça o qədər bahalaşmışdı ki, yeni bir şey sifariş verməyə yalnız çox zəngin adamların gücü çatırdı. Yerdə qalanlar isə köhnələri geyinirdi.

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 54.

[2] Sənəddə adı göstərilməyib.

[3] İtaliyanın Trento şəhərinin adı sənədlərdə ən müxtəlif şəkillərdə yazılıb və biz hər sənəddəki yazılışı saxlamışıq.

Ancaq paroxodda, sonra isə özəlliklə Torentoda bizə aydın oldu ki, bu görkəmdə Avropada yaşamaq mümkün olmayacaq. Parçaya ehtiyacı hamının hiss etdiyi bir yerdə[1] bu, o qədər də nəzərə çarpmırdı. Ancaq arabaçının da yeni və gözəgəlimli paltar geyindiyi bir yerdə bu, o saat gözə girirdi. Orada hətta mağazadakı əl-ayaq xidmətçisi olan uşaqlar da bizə həqarətlə baxırdılar.

Romaya gələndə biz xoşagəlimli geyinməyin zəruri olduğuna qəti şəkildə əmin olduq, çünki hamının diqqətini özümüzə cəlb edərək gördük ki, iri papaqlarımıza, Nuh əyyamından qalma çarıqlarımıza görə bizi mehmanxanalara otaqların olmaması bəhanəsi ilə buraxmırlar. Yalnız Romada olan gürcü tələbələrin yardımı ilə birtəhər yerləşə bildik.

Romada belə bir hadisə oldu ki, nahar etməyə restorana gəlmiş restoran yiyəsi bir neçə tələbəmizə hər şeyin qurtardığını deyərək nahar verməkdən imtina etdi, halbuki həmin vaxt bütün stolların arxasında oturanlara yemək paylanırdı və restorana yeni-yeni müştərilər gəlməkdə idi.

Beləliklə, Romada biz özümüzü abıra salmağa məcbur olduq. Ən zəruri şeylər: kostyum, palto, çəkmə, şlyapa və b. almalı olduq.[2] Tələbələrin bu geyim şeylərinə üst-üstə orta hesabla 700 frankı getdi. Bakıda aldığımız 3.000 frankdan Parisə gəlib çatan zaman hər kəsin 800 frank civarında pulu qalmışdı (3.000 frank – 1.500 frank – 700 frank = 800 frank).

Bu məbləğin üzərinə Parisdə 13 fevral 1920-ci ildən (bütün tələbələrin "Yena" və "Belmont" otellərini tərk etdiyi gündən) bugünədək yaşayış xərcləri də əlavə olunmalıdır.

Bizim çoxumuz fransız dilini öyrənmək üçün Alliance Française kursuna girdik, dördaylıq kurs üçün 250 frank ödədik, 50 franka yaxın da müxtəlif dərs vəsaiti və lüğətlərə – cəmisi 300 frank xərclədik. Sonuncu məbləğ Sizdən fevral ayı maaşı kimi aldığımız 400 frankdan ödənilib. Bu zaman yadda saxlamaq lazımdır ki, yoldaşlarımızdan biri – [Mirabdin] Mirqasımov artıq hüquq fakültəsinə girib və o, 250 franka yaxın kitablara xərcləməli və 97 frank 50 santim üç trimestr[3] üçün təhsilhaqqı keçirməli olub.

Beləliklə, Sizin də bu deyilənlərdən əmin olacağınız kimi, biz Bakıda aldığımız 3.000 frankın və [Sülh] Heyətindən aldığımız 400 frankın üzərinə öz cibimizdən də əlavə etməli olmuşuq. Özü də, yoldaşlarımızın çoxunun Bakıdan çıxarkən özünün hökumətdən aldıqlarından başqa bir qəpik də əlavə pulu yox idi və onlar hələ nəyisə qalmış yoldaşlarından borc almağa məcbur oldular. Beləliklə, bir neçə nəfəri çıxmaqla demək olar ki, hamı yoldaşlarına və mənzil yiyələrinə borclu qalmışdı. Hal-hazırda bir az öncə özünün pulu olanlar da borc götürməkdədir və bütün təqaüdçülərin durumu çox ağırdır, çünki heç kəsin ödəməyə heç nəyi qalmayıb.

Hal-hazırda hamımızın borc içində olduğunu, eləcə də 400 frank maaşın bizə yetməduyini nəzərə alaraq Sizdən xahiş etməklə şərəflənirik ki, bizim mart və aprel ayları üçün 800 frank həcmində maaşımızı verəsiniz. Bu məbləğlə Parisdə 1 ay müddətində güclə dolanacağıq və bunu ən az həcmdə göstərdiyimiz aşağıdakı haqq-hesabdan da aydındır.

[1] Bakı nəzərdə tutulur.

[2] Bu incəlikləri xatırlamağı özünə sığışdırmayan İsmayıl Saryal yazır: *"Qiyafətlərimizi dəyişdirmək gərəkdi. Yeni paltar, üst köynək və qalstuk almaq üçün küçələrə töküldük. Axşama hər kəs Qərb modasına uyğun geyinmişdi. Ağ köynək, boyun bağı və ütülü şlyapalar bizi avropalılardan fərqsiz etmişdi. Buna baxmayaraq, ertəsi günkü qəzetlərdə köhnə paltardakı şəkillərimiz basılı və "Roma küçələrində bolşevik gənclər" yazılı idi"* (bax: *Saryal*1. Bakü rüzgarı, s. 103).

[3] Bir trimestr 3 ay (10-12 həftə) sürən təhsil müddətidir.

Aylıq çay, səhər yeməyi, nahar	*400 frank*
Aylıq mənzil (otaq)	*175 frank*
Aylıq ağların yuyulması	*50 frank*
Aylıq başın qırxılması, üz qırxma, hamam	*30 frank*
Müəyyən edilməmiş xərclər (metro, avtobus, xırda dərs vəsaiti, yüngül xəstəliklər, ayaqqabını yamatmaq və s.)	*150 frank*
Cəmi	*805 frank".*[1]

Qərbi və Mərkəzi Avropada (Almaniya, Fransa, İtaliya) oxuyan tələbələr bu məktublarına cavab almayıblar. Onlar bu tələbələri öz övladları qədər sevən doğma Cümhuriyyətin də mövcud olmadığını, hakimiyyətin yad dilli, yad dinli, yad yerli istilaçıların əlinə keçdiyini, XI qırmızı ordunun Bakıda, Gəncədə və Azərbaycanın başqa guşələrində kütləvi qırğınlar törətdiyini... artıq dəqiq bilirdilər. Məktublardan da aydın olduğu kimi, dərs ilinin ortasında getdiklərinə görə onların çoxu hələ ali məktəblərə girə bilməmişdi. Cibdə pul yox, yeni gələn kommunist rejiminin də onları oxudacağına umud. Nə etməli? Tələbələr gerçəkdən həm maddi, həm də mənəvi baxımdan çıxılmaz duruma düşmüşdülər. Üfüqdə nəinki işıq, heç işartı da görünmürdü. Belə olduqda onlar yığışdılar və artıq tələbəliyə başlamış, Bakıda hakimiyyətdəki bir çox şəxslərlə yaxın əlaqəsi olan diribaş (Mir)(zeynal)abdin Mirqasımovu 1920-ci il avqustun lap başlanğıcında bütün avropalı tələbələr adından Azərbaycana nümayəndə göndəriblər.

Mirzeynalabdin Azərbaycan İnqilab Komitəsinin və Azərbaycan Xalq Komissarları Şurasının sədri Nəriman Nərimanovla görüşərək tələbələrin faciəli durumunu izah edib. Bu görüş Nərimanov üçün o qədər də arzuolunan deyildi, çünki onun durumu da, əslində, həmin tələbələrinkinə bənzəyirdi. Ona vəd edilmiş Azərbaycan hakimiyyəti eşqiylə milli hakimiyyəti yıxmaqda Leninə əlindən gələni yardımı etmiş Nərimanov artıq bir neçə aydan sonra gördü ki, gerçək hakimiyyət – ölkənin yerüstü və yeraltı sərvətlərindən istifadə, bütün maliyyə vəsaiti, kadrlar məsələsi... rusların, ermənilərin və yəhudilərin əlindədir, "ÇK" millətin ən dəyərli övladlarını qırıb-çatır, Nərimanovu heç sayan da yoxdur, yalnız adından yararlanırlar. İş o yerə çatdı ki, "ÇK"-nın biri erməni, biri rus olmaqla iki əməkdaşı Azərbaycan İnqilab Komitəsinin sədri (!) və Azərbaycan Xalq Komissarları Şurasının sədri (yəni baş nazir!) Nəriman Nərimanovu iyul ayında "İslam" gəmisində həbs etdi![2] Bu, Cümhuriyyətin Baş naziri Nəsib bəy Yusifbəyliyə məktub yazaraq onu xalqa qarşı ("xalq" dedikdə Rusiyanı nəzərdə tuturdu) min cür cinayətdə ittiham edən, onu və təmsil etdiyi hakimiyyəti amansız qisasla hədələyən həmin Nərimanovdu! "Fəhlə-kəndli hakimiyyəti"nin bu başçısı "xan-bəy hakimiyyəti"nin oxumağa göndərdiyi həmin fəhlə-kəndli balalarına indi yardım etməliydi! Bu, artıq prinsip məsələsiydi. Nərimanov, hakimiyyətinə inanaraq onun yanına gəlmiş nümayəndəyə öz gücünü göstərməyə məcburdu, çünki bu güc ortaya qoyulmasaydı Avropada oxuyanlar Azərbaycanın gerçək ağalarının kim olduğunu tez anlaya bilərdilər...

9 avqust 1920-ci ildə N.Nərimanovun sədrliyi, Çingiz İldırım, Həmid Sultanov, Baba Əliyev, Çurayev, Ağahüseyn Kazımov və Abid Alimovun iştirakı, Qabriçidzenin katibliyi ilə

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 55-56a. Məktub tarixsizdir, ancaq 1920-ci ilin iyun-iyul ayları arasında yazılıb. Bu sənəd öncəkinə əlavə edilmiş izahatdır.

[2] ARPİİSSA, fond 1, siyahı 1, iş 89, vərəq 123.

Azərbaycan İctimai Şura Cümhuriyyəti (sonralar: Azərbaycan SSR) İnqilab Komitəsinin iclası keçirildi. 8-ci məsələ belə adlanırdı: "Keçmiş Azərbaycan hökumətinin xaricə təhsilini bitirmək üçün göndərdiyi tələbələrin nümayəndəsinin vəsait buraxılması və ümumən maddi dəstək haqqında xahişi".

İclas belə qərar çıxardı: *"Xaricdəki tələbələrə yardımın zəruri olduğunu prinsipcə qəbul etməli və Xalq Maarif Komissarlığına Xalq Xarici İşlər Komissarlığı ilə birgə vəsait və bu vəsaitin köçürülməsinin yollarını axtarıb tapmağı təklif etməli".*[1]

Təklif edilməyinə edildi, ancaq vəsait və bu vəsaitin köçürülməsinin yollarını axtarıb tapmaq uzun çəkdi...

Əlimizdə Abdin Mirqasımovun imzaladığı iki sənəd var. Onlardan biri 10 avqust 1920-də tərtib edilmiş Fransa, İtaliya, Almaniya və Türkiyədə oxuyan 84 tələbənin ölkələr və şəhərlər üzrə siyahısı,[2] ikincisi isə 11 avqustda xalq maarif komissarına yazılmış məruzədir.[3] Görünür, Xalq Maarif Komissarlığı onu "işə salmış" tələbə Mirqasımovu axtarıb tapıb, bu sənədləri hazırlamağı ona tapşırıb. Tələbələrin siyahısı haqqında uyğun yerdə danışılır. İkinci sənəd – məruzə isə sovet çağında tələbələrlə bağlı ən geniş və ətraflı hesabatdır. Onu aşağıda eynən dərc edirik.

"Azərbaycan Şura Sosialist Cümhuriyyəti xalq [maarif] komissarı əfəndiyə Qərbi və Mərkəzi Avropada dövlət hesabına təhsildə bulunan Azərbaycan tələbəsi vəkili-mürəxxəsi[4] *Abdin Mirqasımzadə*
tərəfindən

MƏRUZƏDİR

Möhtərəm Bünyadzadə.


Dadaş Bünyadzadə

Məlumi-aliləri olduğu üzərə, keçən sənə Azərbaycan Parlamanında mövcud bütün siyasi firqələr tərəfindən müttəhidür-rəy olaraq[5] *Avropaya tələbə göndərilməsi qərara alınmış və nəticədə təqdim etdiyim siyahı vəchi ilə Avropa və İstanbula tələbə göndərilmişdi. Bu tələbəyə gedəcəkləri məmləkətlərin iqtisadi halları nəzərə alınmadan müsavi*[6] *olaraq hər birinə ayda 400 frank maaş kəsilmişdi. 1920 sənəsi sentyabr ayı birinə qədər tələbə maaşları (Avropaya gedənlərinki) yarısı Paris Sülh Nümayəndəliyimizə, İstanbula gedənlərinki İstanbul Missiyası müməssilimizə göndərilmiş və tələbəyə hər cürə müavinətdə bulunmaları kəndilərinə tövsiyə edilmişdi.*

Sonradan anlaşıldığına görə, tələbəyə təyin edilən maaş miqdarı bulunduqları məmləkətlərin hallarına görə heç də kafi gəlmiyordu. Binaənəleyh Paris Sülh Nümayəndəliyimizin

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 67.

[2] Yenə orada, vv. 62-63a.

[3] Yenə orada, vv. 59-60.

[4] Xüsusi (səlahiyyətli) nümayəndəsi.

[5] Yekdilliklə.

[6] Bərabər.

qərarı vəchi ilə Parisdə yaşayan tələbə ilə İstanbulda bulunan tələbənin maaşları birincilərinki dörd yüzdən altı yüzə, ikincilərinki dörd yüzdən beş yüzə qədər artırılmışdı. Bundan məəda, tələbə yoldaşlarımızdan Teymur Aslanov adında birisi iki aya qədər appendisitdən xəstə yataraq kəndisinə əməliyyati-cərrahiyyə yapılmış ki, 5.000 franka qədər kəndisinə sərf olunmuş və şimdi büsbütün iyiləşmişdir. Əliəkbər Cabbarov namında başqa bir arkadaşımız da zatən buradan gedərkən yolda xəstələndiyindən Parisdə qaldığı bir neçə ay zərfində xəstə yatmış və kəndisinə maaşından fazla para sərf olunmuş, təhsilə davam etməyən Zaur Dagirov adında üçüncü bir arkadaşımız Komitəmiz və Sülh Nümayəndəliyimizin qərarı vəchi ilə geri göndərilmiş ki, bu sondakılara yolxərci olaraq hər birinə iki bin beş yüz frank verilmişdi. Bütün bu yuxarıdakı məruzata görə ümumtələbə parası bir ay nöqsan gəldi[1] *və ümum tələbəyə 1920 sənəsi sentyabrın birinə qədər deyil, yalnız avqustun birinə qədər maaş verilə biləcəyi Nümayəndəlik tərəfindən kəndilərinə elan olundu. Bundan məəda, tələbənin Sülh Nümayəndəliyimizə 15 bin franka qədər borcu qalmış oldu. Tələbənin hal-hazırda nə yolda* çalışdıqlarını liğaən[2] *təqdim etdiyim məruzələrindən mütaliə buyuracaqsınız.*

Şimdiki halda Avropada və İstanbulda 83 danə azərbaycanlı tələbə bulunmaqdadır. Bundan dördü kəndi hesabına təhsilə getmişsə də fəqət həpsinin halı eyni dərəcədə ağırdır, zira onlardan heç birisinə vətəndən maaş almaq mümkün olmamışdır. Bunların halı gündən-günə daha da fənalaşmaqdadır. Bunlar heç bir tərəfdən bir müavinət almadıqları kibi, kəndilərinə bir iş bulmaq dəxi pək müşküldür, zira bir çok fransızlar belə işsizdirlər. Digər tərəfdən, Avropadan məmləkətə dönmək son dərəcə müşkül bir hal alıyor. İngilizlər haman hər tərəfə hakim bulunuyor və hər kəsi pənceyi-istibdadlarında əziyorlar. Onlar rusları, azərbaycanlıları, gürcüləri İstanbul boğazından Qara dənizə burakmayırlar. Ruslara, gürcülərə bəzi kərə istisna ediyorlarsa da azərbaycanlılara (son zamanlarda məmləkətdə şura cümhuriyyəti təşkil etdiyinə görə) heç bir vəchlə istisna yokdur. Onları heç bir surətlə Bosforda icra etdikləri kontroldan nə içəriyə, nə dışarıya burakıyorlar. Bən kəndim bu müşkülatı şəxsimdə təcrübə etdim və ən nəhayət, bin məşəqqətlə Türk vizası ilə gəlməyə müvəffəq oldum. Bu surətlə gəlmək bir, yaxud iki adama mümkün olursa da təsəvvür buyurulsun səksən kişi üçün haman mahal hökmündədir. Mümkün olsa belə bu şərait daxilində hər tələbəyə yolxərci olaraq ən azı altı bin frank verilməsi lazım gəlir.

Halbuki bu tələbə Azərbaycan gənclərinin ən çalışqanları və ən zübdələrindəndir.[3] *Bunlara iki, yaxud üç sənə çalışmağa imkan verilirsə təhsillərini bitirirsələr, onlar məmləkətə ən faydalı və ən lazımalı sağlam bir ünsür təşkil edəcəklərdir. Halbuki hal-hazırda başda duranlarımız xalqa ən yaxın bulunduqlarından, ümumun mənfəətini qeyrilərindən daha iyi təqdir edəcəklərindən, xəlqimizə gələcəkdə böyük umudlar verməkdə olan şu gənc qüvvənin məhv olmasına nəzəri-müsamihə ilə bakamıyacaqlarından əmin olduğundan Avropadakı tələbənin həyatlarını qurtarmağa sərfi-məsaidən*[4] *geri durmazlar umudundayam. Liğaən təqdim etdiyim tələbə məruzələrindən də anlaşılacağına görə, Fransa, İtaliya və İstanbulda*

[1] Əskik gəldi, az oldu.
[2] Əlavə (qoşma) şəklində.
[3] Seçilmişlərindəndir.
[4] Əmək sərf etməkdən.

bulunan tələbəyə hər birinə ayda doqquz yüz (900) frank, Almaniyada bulunanlara ayda iki min səkkiz yüz (2.800) marka lazım olduğunu dəxi əlavə edərəm, əfəndim".[1]

Diqqətli oxucu Mirzeynalabdin Mirqasımovun Cümhuriyyətə olan sevgisini və yeni nazirə (komissara) çox incə kinayə ilə yanaşdığını sənədin məzmunundan duya bilər.

31 avqust 1920-ci ildə Azərbaycan İctimai Şura Cümhuriyyəti Xalq Xarici İşlər Komissarlığının siyasi şöbəsindən Xalq Maarif Komissarlığına 189 saylı məktub göndərilib. Birinci komissarlıq (nazirlik) ikincisinə xəbər verir ki, xaricdəki Azərbaycan tələbələri ilə əlaqələrin yaradılması və onlara maddi yardım göstərilməsi haqqında məsələyə dair 5 avqust tarixli 8276 saylı məktuba Xarici İşlər Komissarlığı bildirir ki, xalq komissarının qərarına uyğun olaraq, bu məsələ ilə bağlı Azərbaycanda İtaliya diplomatik nümayəndəsi İnsonla danışıqlar nəticəsində o, bəyan edib ki, İtaliya hökuməti Qərbi Avropaya göndərilmiş Azərbaycan tələbələrini öz müdafiəsi altına götürməyə, eləcə də onlara Azərbaycan hökumətinin buraxdığı pul məbləğlərini alıb göndərməyə prinsipcə razıdır.[2]

Başqa sözlə, tələbələrə vəsaitin göndərilməsi yolu tapıldı. İndi qaldı həmin vəsaitin özünün tapılması!..

İnqilab Komitəsinin iclasından 1 ay 6 gün keçdikdən sonra (bu da Nərimanovun nüfuzu!) – 15 sentyabr 1920-ci ildə xalq maliyyə komissarının əvəzi Tağıyevin adından Xalq Maarif Komissarlığına 708 saylı bu telefonoqram göndərildi: "Xalq Maliyyə Komissarlığı xaricdəki bütün tələbələrin hər birinin hal-hazırda bulunduğu yeri dəqiq göstərməklə adbaad siyahısını göndərməyinizi xahiş edir. Siyahını sabah – 16 sentyabr səhər saat 10-dək maliyyə komissarına çatdırmaq gərəkdir".[3] Yəqin ki, maliyyə komissarı tələbələrin sayını və yerini öyrənməklə onlara nə qədər vəsait lazım olacağını dəqiqləşdirmək istəyib. İstənilən siyahını Maarif Komissarlığı komissarın imzasıyla 18 sentyabr 1920-ci ildə Maliyyə Komissarlığına göndərib. Bu, əslində, Mirzeynalabdin Mirqasımovun verdiyi 83 nəfərin siyahısı idi. Siyahının sonuna belə bir qeyd artırılıb ki, burada göstərilənlərdən İsaq bəy Musa bəy oğlu Şıxzamanov Xarici İşlər Komissarlığının təqaüdçüsüdür və Xalq Maarif Komissarlığının təqaüdçülüyünə keçirilməsini xahiş edir; Miri bəy Vəzirov və Ağa Əbdülhüseyn Əliəsgər oğlu Dadaşovu hökumət öz hesablarına oxumağa göndərib və hal-hazırda onlar da dövlət hesabına Xalq Maarif Komissarlığının təqaüdçüləri sırasına keçirilmələrini xahiş edirlər.[4]

Bu siyahını göndərməklə Maarif Komissarlığı öz üzərinə düşən vəzifəni bitmiş sayıb və daha heç nə ilə maraqlanmayıb. Mirqasımovu Avropaya hansı vədlərlə və necə qaytardıqları bəlli deyil. Ancaq görünür ki, tələbələrə heç bir yardım edilməyib. Nəticədə hakimiyyətə yeni şikayətlər daxil olub və Nərimanov yəqin ki, bundan sonra 4 ay qabaqkı (!) göstərişlərinin icra vəziyyətiylə maraqlanaraq Bünyadzadədən işin nə yerdə olduğunu soruşub. Xalq maarif komissarı da öz növbəsində 6 dekabr 1920-də Maliyyə Komissarlığına "çox təcili" qrifli məktub göndərib:

"Xahiş edirəm təcili şəkildə məlumat verəsiniz ki, xarici ezamiyyətdə olan və bu ilin 18 sentyabrında Maliyyə Komissarlığına göndərilmiş 9716 saylı siyahıda adları ətraflı

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 59-60.
[2] Yenə orada, vv. 66-66a.
[3] Yenə orada, vərəq 68.
[4] Yenə orada, vv. 70-71a; 75-76a.

sadalanan tələbələrə onlar üçün maaş pulları göndərilibmi və cavab müsbətdirsə – haçan, kimin vasitəsilə və hansı miqdarda".[1]

Adi məntiqlə cavab, əlbəttə, müsbət olmalı idi və maarif komissarı da daha çox bu cavabı gözləyirdi. Öz soydaşlarının taleyinə acımaq kimi yüksək insani duyğuları bir yana qoyaq, ən azından vəzifə borcunu yerinə yetirmək üçün Maliyyə Komissarlığı məsələni bu 3 ayda həll etməliydi. Ancaq görün o, 12 dekabr 1920-ci ildə maarif komissarına necə cavab yazdı:

"Sizin bu ayın 6-sı tarixli 13833 saylı məktubunuza cavab olaraq bununla bildirilir ki, xarici ezamiyyətdə olan tələbələrə onların yaşayışı üçün Xalq Maliyyə Komissarlığı vasitəsilə pul köçürülməyib, çünki bununla bağlı Xalq Xarici İşlər Komissarlığından heç bir sərəncam daxil olmayıb.

Diqqətinizi buna yönəltmək istəyirəm ki, bu məsələ həddsiz mürəkkəbdir, çünki hələ zəruri valyutanın miqdarını və növünü müəyyənləşdirmək gərəkdir, eləcə də, çox güman ki, onu əldə etmək imkanlarını axtarmaq lazımdır. Belə ki, Xalq Maliyyə Komissarlığında hələ valyuta ehtiyatı yoxdur".[2]

Görünür ki, maliyyə komissarı N.Tağıyev belə güman edib ki, valyuta ehtiyatını əldə etmək imkanlarını onun əvəzinə başqa planetdən gələnlər axtarmalı imiş!..

Bu da "xan-bəy hakimiyyəti"nin oxumağa göndərdiyi tələbələrə "fəhlə-kəndli hakimiyyəti"nin gerçək münasibəti! Azərbaycan Cümhuriyyəti başçılarının ünvanına min cür iftiralar ataraq onları maarif və mədəniyyətin düşməni olmaqda ittiham edən qırmızı komissarlar Azərbaycanın gələcəyi olan bu gənclərin taleyinə, bax bu cür cinayətkarcasına laqeyd yanaşırdılar, halbuki onlar Cümhuriyyəti devirməsəydilər indi həmin tələbələr ac, pulsuz və umudsuz qalmazdılar!..

Maliyyə komissarının mənfi cavabından iki gün keçmiş – 14 dekabr 1920-ci ildə Azərbaycan Tələbələrinin Mərkəzi Berlin Komitəsi Azərbaycan xalq maarif komissarına bir şikayət ərizəsi yazıb göndərdi. Ana dilimizdə yazılmasına baxmayaraq bu gün köhnəlmiş və anlaşılmaz olmuş söz və ifadələrin çoxluğundan oxucuların çətin başa düşəcəyi ərizənin başlıca məzmunu ilə tanış olaq:

Almaniyaya təhsil almağa gəldiyimiz gündən indiyədək Berlində yaratdığımız Mərkəzi Komitəmiz tələbələr adından dəfələrlə Paris Sülh Heyətimizə və Maarif Komissarlığımıza ümumi vəziyyətimiz haqqında ərizələr göndərərək bildirib ki, pulsuzluq təkcə təhsilə davamiyyətimizin deyil, adi dolanışığımızın da böhranlı bir hala düşməsinə səbəb olub. *9 aydır qeyri-müəyyən və müşkül bir vəziyyətdə olmağımız dərslərimizin gedişinə də fəna təsir göstərir. 1 sentyabradək təqaüdümüz müntəzəm yetişirdi. Təəssüf ki, bu tarixdən sonra maddi durumumuz pulsuzluğa görə pisləşməyə başladı; sonra Sülh Heyəti pulumuzu qeyri-müntəzəm şəkildə verir.*[3] Biraylıq təqaüd heç çörəyə və mənzil kirayəsinə çatmayan çox az məbləğdir. Fövqəladə bahalıq üzündən həyat şəraitimiz daim ağırlaşır. Gündəlik xərcimiz

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 72.

[2] Yenə orada, vərəq 65.

[3] Bu dönəmdə Sülh Heyətinin özünün maliyyə vəziyyəti çox ağırdı. Ə.b.Topçubaşov hələ 6-10 noyabr 1919-cu ildə Baş nazir N.b.Yusifbəyliyə yazırdı: *"...Bir daha xəbərdarlıq edirəm ki, maliyyə baxımdan Nümayəndə heyətinin vəziyəti son dərəcə acınacaqlıdır"* (*Topçubaşov Ə.b.* Paris məktubları, s. 91).

50 markadan çoxdur və bu hesaba təhsil haqqı, dərs ləvazimatı və geyim pulu daxil deyil. Bunlardan başqa, bütün Almaniyada mövcud olan rəsmi qanuna əsasən, yabançılara satdıqları əşyanın pulunu 50% artıq alırlar. İcbari məktəb qanununa görə, biz də daxi bütün yabançı tələbələr təhsil haqqını alman tələbələrindən ikiqat artıq verməlidir. Bu qədər təhsil haqqını verməyə imkanımız olmadığından indiyədək dərsləri dinləmək hüququndan məhrum olmuşuq. Yalnız adımızın məktəbin ümumi dəftərində qeyd olunması üçün ilin başında daxilolma pulu veririk.

Nazirlikdən xahiş edirik ki, təhsilimizin müntəzəm davam etməsinə imkan verilməsi üçün təqaüdü hamımızın adına köçürsün. Tələbələr adından xahiş edirik ki, işlərimizi və fəaliyyətimizi daim təftiş edəcək, pullarımızı öhdəsinə götürərək aramızda bölәcək və dərslərimizin fəna getməsinə səbəb ola biləcək bütün işlərə nəzarət edəcək bir şəxs təyin edəsiniz.[1]

Ərizəni sədr adından katib Hilal Münşiyev və Komitə üzvləri Məhiş Səfərov və Behbud Zeynalov qollayıblar.

Sənədin sonunda möhür basılıb. Möhürün üstündə türkcə (ərəb əlifbasında) və almanca yazılıb: *"Almaniyada Azərbaycan Tələbələri Komitəsi. Berlin".*[2]

Ərizənin üstündə N.Nərimanovun imzası ilə rusca belə bir dərkənar var:

"Yol. T.Əliyevə və Tağıyevə.[3] *Tələbə Komitəsinin sərəncamına yüz min marka göndərməyi təcili icra edin".*

Çox güman ki, bu məktub Bakıya çatdıqdan və Nərimanov təcili yüz min marka göndərməyi tələb etdikdən sonra Maarif Komissarlığı yenidən "fəallaşıb". 20 dekabr 1920-ci ildə maarif komissarı xarici işlər komissarına 14324 saylı məktub göndərərək xatırladıb ki, xaricə göndərilmiş tələbələrə maddi yardım göstərilməsi haqqında məsələ hələ bu ilin avqust ayında müzakirə edilərkən Azərbaycan İnqilab Komitəsi bu köməyi prinsipcə zəruri sayaraq, yeri gəlmişkən, vəsaiti və onların təyinatı üzrə köçürülməsi yollarını axtarıb tapmağı Sizə həvalə etmişdi. *"Bu haqda heç bir bilgi olmadığına görə Sizdən xahiş edirəm ki, təcili məlumat verəsiniz: xarici ezamiyyətdəki tələbələrə pul vəsaiti göndərilibmi; göndərilməyibsə bu yoldaşların maddi yardımla təmin edilməsinə Siz hansı tədbirləri görürsünüz?".*[4]

Azərbaycanın "başçısı" N.Nərimanovun yüz min marka ilə bağlı göstərişi yerinə yetirildimi? Arxivlərdə bu haqda heç bir sənəd yoxdur. Görünən budur ki, tələbələr Nərimanovun oyuncaq olduğuna, Bünyadzadənin onlarla əsla maraqlanmadığına inandılar və yeni hakimiyyətdən umudlarını birdəfəlik kəsdilər. Hərə öz başının çəmini tapmağa başladı. Əksəriyyəti avropalıların özlərinə rəva görmədiyi ən "qara" işlərdə çalışdı. Cismani baxımdan nə qədər ağır olsa da onlar gündüzlər oxuyur, gecələr işləyir, acından ölməmək üçün ən müxtəlif vasitələrə əl atırdılar.

Artıq bıçaq sümüyə dirənəndə Almaniyada oxuyan tələbələr yenə qələmə sarılmağa məcbur oldular. Maarif komissarı Bünyadzadə maliyyə komissarı Tağıyevə və xarici ticarət

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 74-74a.

[2] Yenə orada, vərəq 74a.

[3] Tağıyev Azərbaycanın maliyyə komissarı, Əliyev isə xarici ticarət komissarı idi.

[4] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 64.

komissarı Əliyevə 2 aprel 1921-ci il tarixdə yazırdı: *"Bu məktubla birgə Almaniya universitetlərində oxuyan Azərbaycan Türk Tələbələri Komitəsinin məktubu*[1] *məlumat və icra üçün [sizə] göndərilir".*[2] Göründüyü kimi, kommunist nazirlərin heç biri öz soydaşlarına yardım etmək haqqında düşünmür, hər biri "xatanı öz başından sovmağa" çalışır, ona aid işi başqasının üzərinə atırdı...

Bu gün də bir çoxları Nərimanovdan xalq qəhrəmanı yaratmağa çalışır, onun tələbələrə yardım göstərməsindən ağızdolusu danışır, ancaq gerçəkliyi ya bilmir, ya da bilib gizlətmək istəyirlər. Gerçəkliksə bundan ibarətdir ki, "Azərbaycanın başçısı" olduğu bir ildən artıq müddətdə o, tələbələrə yalnız bol-bol vədlər verdi, "tabeliyindəki" heç bir komissar (nazir) onun göstərişlərini saya salmadı, çünki onlar formal tabe olduqları Xalq Komissarları Şurası sədrinin deyil, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Bakı Komitəsinin (BK) qərar və göstərişlərini yerinə yetirirdilər, BK-nın başında isə Azərbaycanın milli mənafeyinin qəddar düşmənləri olan ruslar və ermənilər oturmuşdular. Həmin adamlar savadlı Türk kadrlarının yetişib Azərbaycana dönmələrini əsla istəmirdilər və artıq gördüyümüz kimi, Pirumovun əliylə qara niyyətlərini gerçəkləşdirməyə xeyli nail oldular.

Almaniyada oxuyan tələbələr Bakıya – N.Nərimanovun başçılıq etdiyi Azərbaycan İnqilab Komitəsinə üz tutaraq necə hərəkət etməli olduqlarını soruşublar, oradan cavab gəlib ki, yardım gözləyin və nümayəndələr göndərin. 1921-ci ilin mayında onlar ümumi yığıncaq çağıraraq Frayberq Dağ-Mədən Akademiyasında oxuyan *Səməndər Axundov* və Əşrəf *Əliyevi* nümayəndə seçiliblər.[3] Ancaq nümayəndələrin Almaniyadan Bakıyacan gedişi kimi ciddi problemi həll etmək üçün tələbələr Berlində RSFSR-in qeyri-rəsmi nümayəndəsi kimi yaşayan V.Koopu axtarıb tapıblar, o isə nümayəndələr üçün mandatlar hazırlamağı məsləhət görüb və onların Almaniyadan Rusiyaya göndərilən hərbi əsirlərlə birlikdə getməsinin mümkün olacağını bildirib. Elə də ediblər və 2 nümayəndə 1921-ci ilin mayında rus hərbi əsirlərinin eşalonunda Rusiyaya yola düşüb.[4]

Abbasmirzə Əliyev bildirib ki, elə bu vaxt – mayın başlanğıcında Almaniya tələbələrinin başqa bir qrupu isə (Mirzə Hacızadə, Hilal Münşizadə və b.) Berlində olan Türkiyə siyasi mühacirləriylə, o sıradan Osmanlının keçmiş baş naziri Tələt paşa ilə onlara maddi yardım göstərilməsi haqqında danışıqlar aparıb. Tələt paşa yardım göstərməyə söz verib, ancaq danışıqlar, nədənsə, nəticəsiz qalıb.[5]

Bizcə, burada bir düzəlişə ehtiyac var. Söhbət 1921-ci ildən gedirsə Tələt paşa ilə may ayında görüşdən danışmaq olmaz, çünki o, Berlində erməni terrorçunun əli ilə 1921-ci ilin martında şəhid edilib. Deməli, söhbət həmin il martdan öncə aparılıb və Tələt paşa ilə danışıqların "nəticəsiz qalması" onun ölümü ilə bağlıdır. Çox güman ki, S.Axundov və Ə.Əliyevin Bakıya göndərilməsi də elə bundan sonra qərara alınıb; başqa sözlə, Abbasmirzə Əliyev tarixləri dolaşıq salıb.

[1] Komitənin bu məktubu arxivdə tapılmadı.
[2] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 73.
[3] Əliyev Abbasmirzə Əhməd oğlunun öz əli ilə yazdığı izahat.// AR MTN arxivi, PR-22247, vərəq 19.
[4] Yenə orada, vv. 19-19a.
[5] Yenə orada, vərəq 20.

Bakıya göndərilən nümayəndələrə Qərbi Avropada təhsil alan tələbələri dəstəkləmək üçün Azərbaycanın sovet hökuməti ilə danışıqlar aparmaq səlahiyyəti verilmişdi. Əşrəf Əliyevin AR MTN arxivində saxlanılan mandatında oxuyuruq:

"Berlin. 19 may 1921-ci il. Mandat. Almaniyadakı Azərbaycanlı Tələbələr Komitəsi Əşrəf Əliyevi Qərbi Avropada (Almaniya, Fransa, İtaliyada) oxuyan tələbələrə maddi yardım göstərilməsi üçün Azərbaycan Cümhuriyyətinin Hökuməti ilə danışıqlar aparmaqdan ötrü göndərir. Komitə Rusiya Sovet Respublikasının bütün müəssisələrinə xahişlə müraciət edir ki, adıkeçən nümayəndəyə uyğun yardım göstərsinlər".[1]

Xatırladırıq ki, mandatı Komitənin sədri Abbasmirzə Əliyev və katib Qəhrəman Məmmədov imzalayıblar.

Hadisələrin sonrakı gedişindən aydın olur ki, Səməndər Axundov və Əşrəf Əliyev Nəriman Nərimanovla görüşərək ondan yardım ala biliblər. İndiyədək İnqilab Komitəsi xəttiylə heç nə bacarmayan Nərimanov bu dəfə "baş nazir" olduğu Xalq Komissarları Şurasının yardımıyla nəsə etməyi sınaqdan çıxarıb.

XKŞ-nın 13 iyun 1921-ci il tarixli iclasında 12-ci məsələ "Xalq Komissarları Şurasının sədri yol. Nərimanovun xarici ölkələrdə təhsil alan tələbələrə maddi yardım göstərilməsi haqqında növbədənkənar bəyanatı" olub. İclas qərara alıb: "Zəruri vəsait buraxmalı və Xalq Komissarları Şurası sədrinin nəzərdə tutduğu səlahiyyətli şəxsi xaricdə təhsil alan azərbaycanlı tələbələrin vəziyyəti ilə yerində tanış olmaqdan ötrü xaricə göndərməli".[2]

Protokolda əksini tapmayan çox vacib bir məqamı filologiya elmləri doktoru Məmməd Cəfərli üzə çıxarıb:

"Bakıdakı danışıqlar təqaüdlərin bərpa edilməsi haqqında razılaşma ilə başa çatdı. Bu zaman sovet orqanları bir sıra şərtlər irəli sürdü ki, onların arasında tələbələrin sovet vətəndaşlığını qəbul etməsi də vardı. Ancaq Berlində sovet səfirliyinin AzSSR-in büdcəsindən verməyə başladığı təqribən 30 dollar təqaüd tələbələri məşğələlərdən sonrakı boş vaxtlarda işləməyə məcbur edirdi".[3]

Tələbələrin vəziyyəti ilə yerində tanış olacaq səlahiyyətli şəxsə gəlincə, o, həkim Bəhram bəy Axundov idi. Bəhram bəy Azərbaycan Cümhuriyyəti Parlamanının üzvü olmuşdu, buna görə də kommunistlər onu məhv etməyə fürsət axtarırdılar. Nərimanovunsa ona münasibəti hələ Cümhuriyyətdən öncə də çox yaxşıydı, həm də indiki hakimiyyətdə Qəzənfər Musabəyov kimi yaxın adamları vardı, bu üzdən də ona diş batıra bilmirdilər. Gözlənilən bəlalardan onu heç olmazsa müvəqqəti uzaqlaşdırmaq üçün tələbələrin durumunu araşdırmaq adıyla Avropaya göndərdilər. Ancaq Bəhram bəy bu iş üçün, gerçəkdən, ən uğurlu namizəddi.

Axır ki, Azərbaycanın şura hökuməti tələbələrə əməli yardım göstərmək üçün real iş görmək, vəsait ayırmaq fikrinə düşdü. Ancaq burada da bir "əmma" var – göndərilən vəsait pul deyil, əmtəə şəklindəydi və ruslar onun verilməsini də çox urvatsız etdilər. Aydınlıq yaratmaqdan ötrü sənədlərə baxaq.

Almaniyada Azərbaycan Tələbələri Komitəsinin sədri olmuş Abbasmirzə Əliyev yazır: "Azərbaycanın sovet hökuməti xalçalar, ipək və kürü ayırıb və onları sataraq pullarını

[1] *Ağaoğlu M.* Политический террор и судьбы азербайджанских немцев, s. 48.
[2] *Протоколы заседаний Азревкома и Совнаркома АССР (1920-1922 гг.). Баку, 2009,* s. 246.
[3] *Ağaoğlu M.* Политический террор и судьбы азербайджанских немцев, s. 48.

tələbələrə verməyi həkim Axundov Bəhrama tapşırıb".[1] Ancaq həmin "valyuta malları" Bəhram bəyə Bakıda deyil, Batumda təhvil verilməliydi. Bəhram bəy XKŞ sədrinə 1922-ci ildəki hesabatında Bakıdan 2 iyul 1921-ci ildə çıxaraq tələbə nümayəndələriylə (Səməndər Axundzadə və Əşrəf Əliyevlə) Batuma gəldiyini yazdıqdan sonra şikayətlənir:

"Birxartic[2] bizə valyuta mallarının verilməsində bəzi əngəllər törətdiyinə görə əməkdaşım Rizvanı və tələbə [Əşrəf] Əliyevi məruzəmlə birlikdə Birxarticin bizə münasibəti və Batumda valyuta mallarını verməməsi haqqında XKŞ sədri yol. Nərimanova məruzə etməkdən ötrü Bakıya qaytarmalı oldum".[3]

Bakıdan müsbət teleqram alan Bəhram bəy 20 iyulda İstanbula gedərək 15 sentyabradək orada Bakıdan vəsait gözləyə-gözləyə qalıb.[4] Həmin mallar gəldikdən sonra B.b.Axundov onları satıb, İstanbul, Fransa, Almaniya və İtaliyada oxuyan tələbələrə paylayıb (hər birinə yarım illik təqaüd verib), Bakıya döndükdən sonra bu haqda ətraflı hesabat yazıb.

Əlbəttə, verilən bu pullar da boğazacan borca girmiş tələbələri ağır vəziyyətdən xilas edə bilməzdi.

Tələbələrin Azərbaycana göndərdiyi nümayəndə Səməndər Axundzadəni 1933-cü ildə Dövlət Siyasi İdarəsi ("QPU") həbs etmiş və o, istintaqda bildirmişdi:

"Təxminən 1920-ci ildək hamımız Müsavat hökumətinin nümayəndəsi Topçubaşovdan təqaüd aldıq. Azərbaycanda sovet hakimiyyəti qurulduqda isə Topçubaşov bizə təqaüd verilməsini dayandırdı və biz Bakıya Xalq Komissarları Şurasının sədri Nərimanovun yanına[5] Kazımov Cəfəri nümayəndə göndərdik. O, yol. Nərimanovla danışdı və bizə müxtəlif cəvahirat gətirdi. Onları satıb, alınmış pulları öz aramızda, eləcə də Almaniya və Fransanın başqa şəhərlərindəki tələbələr arasında bölüşdürdük. 1921-ci ildə pullar qurtaranda Berlindəki "tələbə komitəsi" (bu komitənin tərkibinə kimlərin daxil olduğunu xatırlamıram) Bakıya yenidən öz nümayəndələrimizi – məni və Əliyev Əşrəfi göndərdi".[6]

Abbasmirzə Əliyevsə fərqli fikir söyləyir. O, Bakıya öncə S.Axundzadə ilə Ə.Əliyevin, sonra C.Kazımovun göndərildiyini yazır:

"Bir qədər sonra biz ikinci nümayəndə Cəfər Kazımovu göndərdik; o, bizə möhürlənmiş zərfdə brilyantlar və qızıl əşyalar gətirdi. Bu zərf komissiyanın iştirakı ilə açıldı və brilyantlar satıldı".[7]

Başqa bir Cümhuriyyət tələbəsi Lətif Qədiminin XDİK zindanında verdiyi ifadə isə Səməndər Axundzadənin dediklərini təsdiqləyir:

"Komitə artıq sovet Azərbaycanına bu məsələni qaydaya salmaqdan ötrü nümayəndə heyəti göndərməyi qərara aldı. Heyət tələbələrin ümumi yığıncağında seçildi. Heyətin tərkibinə Əşrəf Əliyev və Səməndər Axundov daxil oldular. Bu, 1921-ci ilin sonunda, bəlkə də 1922-ci ilin başlanğıcında sayca ikinci heyət idi. Buna qədər komitənin təşəbbüsü ilə maddi təminat məsələsi ilə bağlı olaraq nümayəndə heyəti kimi 1920-ci ilin sonunda Cəfər Kazımov getmişdi. Birinci və ikinci nümayəndəliyin nəticələri müsbət olmuşdu".[1]

Bəhram bəyin Ceyhun bəy Hacıbəyliyə İstanbuldan yazdığı 21 iyul 1922-ci il tarixli məktubdan oxuyuruq:

"Tələbələrə gəlincə, Bakıda onlar üçün 2 aydan artıq işləmişəm. Öz əllərimlə komissiyada 200 karata yaxın brilyant hazırlamışam. Moskvadan 2 tələbə ilə göndərmişəm".[2]

Doğrusu, Bəhram bəyin hazırladığı brilyantların kiminlə göndərildiyini müəyyənləşdirməkdə çətinlik çəkirik, çünki söhbət iki tələbədən gedir, halbuki Cəfər Kazımov Bakıya tək gəlmiş və Buradan tək getmişdi, S.Axundzadə və Ə.Əliyevsə özləri ilə heç nə aparmamış, B.b.Axundovla birgə Avropaya dönmüşdülər, satılmış mallardan əldə edilmiş pulları da tələbələrə Bəhram bəy paylamışdı. Görünür, məktubda bizə bəlli olmayan başqa bir nümayəndə heyətindən söhbət gedir.

Yeri gəlmişkən, bir məsələni də gözdən qaçırmayaq – Azərbaycan hakimiyyəti tələbələrə brilyant göndərməyi müstəqil həll edə bilməmiş, yalnız Rusiya Xarici İşlər Nazirliyi, şəxsən nazirin müavini L.M.Qaraxan (Qaraxanyan) razılıq verdikdən sonra nəticə əldə edilmiş, Berlinlə bütün yazışmalar Qaraxan vasitəsilə, onun nəzarəti altında aparılmışdı. Bəhram bəy Ceyhun bəyə həmin məktubunda yazırdı ki, tələbələrin brilyantları Almaniyada "necə satdığını bilmirəm; bu haqda Nərimanov Qaraxan vasitəsilə Berlin nümayəndəliyinə məktub yazıb ki, tələbələr qarpız-qarpız etməsinlər".[3]

Bundan sonrası daha pis oldu. Moskva, tələbələrimizə yenə də göndəriləcək yardımın həcmini maksimum məhdudlaşdırmaq və xaricə Azərbaycanın hesabına rusları və erməniləri oxumağa göndərmək xətti yürütdü. Bunu əlimizdəki sənədlər sübut etməkdədir. Məsələn, Azərbaycan Xalq Maarif Komissarlığının Kollegiyası 1 dekabr 1921-ci il tarixli iclasında qərara alıb ki, Kiyev Universiteti tibb fakültəsinin 5-ci kursunda oxuyan bu tələbələr Azərbaycanın yetirməsi olduqlarına görə XMK-nın hesabına sosial təminata götürülsünlər: Armenak Avakyants, Suren Barutçev (ermənidir), Aleksandr Kotelnikov, Armenak Movsesyants, Onik Movsesyants, Artaşes Ter-Arutyunov, Qriqori Yaqubyants.[4] Bu siyahıya yalnız iki azərbaycanlı – Şövkət Əliyev və Mirxalıq Yaqubov daxil idi.

Xalq Komissarları Şurasının (XKŞ) sədri Nəriman Nərimanovun göstərişi ilə bu 9 tələbənin pul, ayaqqabı və tam geyim ilə təmin edilməsini XKŞ Maarif Komissarlığına həvalə etmişdi.[5]

Görünür, tələbələrə münasibətdə XMK rəhbərliyinin tutduğu həddsiz nihilist mövqe bəzi məsul şəxslərdə etiraz doğurub və nəticədə Kollegiyanın dörd gün sonrakı – 5 dekabr 1921-ci il tarixli iclasında son məsələ olaraq Kiyev universitetinin tələbələri Yaqub Qazıyev, Mircəfər Mirtağıyev, Xarkov Texnologiya İnstitutunun tələbəsi Ağababa Məhəmmədov (o, "100 tələbə"dən biridir) və Moskva Universitetinin tələbəsi İlyas Qayıbovun adları da öncəki 9 tələbənin siyahısına artırılıb.[6]

---

[1] Abbasmirzə Əliyevin öz əli ilə yazdığı izahat. //AR MTN arxivi, PR-22247, vərəq 20.

[2] Rusca "Obvneştorq" ("Обвнешторг") adlandırılan Birləşmiş Xarici Ticarət İdarəsi Azərbaycan, Gürcüstan və Ermənistanın 3 xarici ticarət idarəsinin 2 iyun 1921-ci ildə birləşdirilməsindən yaranıb.

[3] ARDA, fond 410, siyahı 1, iş 342, vərəq 3.

[4] Yenə orada.

[5] AR MTN arxivi, PR-7175, vərəq 13a.

[6] Yenə orada, vərəq 14.

[7] Abbasmirzə Əliyevin öz əli ilə yazdığı izahat. //AR MTN arxivi, PR-22247, vərəq 20a.

[1] AR MTN arxivi, PR-35911, vərəq 111.

[2] Bəhram bəy Axundovun Ceyhun bəy Hacıbəyliyə məktubu (rusca). // S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 3, iş 11, vərəq 2.

[3] Yenə orada.

[4] ARDA, fond 57, siyahı 1, iş 174, vərəq 88.

[5] Yenə orada.

[6] Yenə orada, vərəq 111a.

Bununla bağlı həm Azərbaycan hakimiyyəti, həm də onun daxil olduğu Zaqafqaziya Federasiyası hakimiyyəti (əlbəttə, Moskvanın göstərişlərinə əsasən) real addımlar atdı. Azərbaycanda Rusiyanın istənilən əmrini yerinə yetirməyə hazır olan Əliheydər Qarayevlər kimi milli duyğulardan məhrum "rəhbər"lərin təşəbbüsü, Ruhulla Axundovun yaxından köməyi, fəal iştirakı və sədrliyi ilə tələbələri "seçən" komissiya yaradıldı. Həmin komissiya Avropada təhqiqat apararaq tələbələri siyasi baxımdan təbəqələşdirdi – "bizimkilər" və "yadlar".

Azərbaycan tarixinin ən işıqlı simalarından olan Həsən bəy Zərdabinin ömürgün yoldaşı Hənifə xanım Məlikovanın 1922-ci ilin iyununda XKŞ sədrinə yazdığı ərizə sovet hakimiyyətinin tələbələrə münasibətini aydın şəkildə əks etdirir. Həsən bəyin silahdaşı "baş nazir"ə bildirir ki, mənim oğlumu – Sovet hökumətinin Qərbi Avropaya təhsilini bitirmək üçün göndərdiyi Səfvət Məlikovu xaricdə oxuyan tələbələrin durumunu araşdıran komissiya təqaüddən məhrum edib. Komissiya surətini bu məktuba əlavə etdiyim sənədə əsasən qərara gəlib ki, o, imkanlıdır və Topçubaşovun qaynıdır.

Sovet hökumətinə dərin hörmət bəslədiyini və Sovet hökumətində kimsənin bu cür qanunsuz qərarlar çıxara biləcəyi fikrini yaxına buraxmadığını sözgəlişi qeyd edən Hənifə xanım davam edir: "...dərindən inanıram ki, komissiyaya bütünlüklə yanlış məlumat verilib və o, səhv buraxıb. Buna görə də xahiş edirəm ki, Həsən bəy Məlikovun oğlu Səfvət Məlikovun təqaüdü haqqında məsələyə hüquqi və mənəvi əsaslar üzrə yenidən baxılsın və qərar verilsin – ya onu təqaüd verilməsi davam etdirilsin, ya da o, dövlət hesabına Vətənə qaytarılsın".[1]

Gerçəkdən, kommunist rejiminə üz qarası olan bir hadisədir! Azərbaycan xalqının maariflənməsi yolunda canı da daxil hər şeyini fəda etmiş Zərdabinin oğlunu "imkanlı və Topşubaşovun qaynı" olmaqda suçlandıraraq təqaüdünü kəsirlər! Deməyə söz tapılmır...

Dönəmin "baş nazir"i – XKŞ sədri Qəzənfər Musabəyov məktubu qərar çıxarmaq üçün 26 iyun 1922-ci ildə Xalq Maarif Komissarlığına göndərib. Səfvət Məlikovun adının tələbələrin sonrakı siyahısında çəkilməsi[2] məsələnin müsbət həll edildiyini göstərir. Deməli, rəzalətlərini ört-basdır etməyi bacarıblar.

Sovet hakimiyyəti xaricdə humanitar ixtisaslar üzrə oxuyan tələbələri dəstəkləmək əvəzinə, onları Bakıya geri çağırdı! Bu, sadəcə düşünülməmiş addım yox, milli kadrlarımıza qarşı qərəzli bir düşmənçilik, rəzalət idi. Təhsillərinə vurulan ağır zərbəni hələ bir yana qoyaq, onların maddi durumu da qayıtmağa imkan vermirdi. Bununla bağlı olaraq Fransada oxuyan tələbələr Mustafa Mustafayevi 1923-cü ilin iyununda Bakıya nümayəndə göndəriblər. Onun xalq maarif komissarına 15 iyun 1923-cü ildə Bakıda yazdığı ərizədə oxuyuruq:

"Bu məruzədə başqa məsələlərlə birgə, geri çağırılmış yoldaşlarımızdan da danışılır. Fransız qrupu üzrə tələbə yoldaşlarımızın bu məsələ ilə bağlı yekdil qərarı belədir: geri çağırılmışların yenidən siyahıya daxil edilməsi və onların bundan sonra da müntəzəm dəstəklənməsi hökumətdən təkidlə xahiş edilsin. Yoldaşlarımızın bu cür qərar çıxarması aşağıdakı düşüncələrə əsaslanır:

[1] ARDA, fond 57, siyahı 1, iş 23 (3), vərəq 143.

[2] Yenə orada, iş 276, vv. 62-63, №29.

1) Artıq 3 ildən çoxdur ki, hökumət geri çağırılan tələbələrə xərc çəkib. Onların geri çağırılması isə çəkilmiş xərclərin itirilməsi deməkdir.

2) Geri çağırılmışlar artıq 3 ildən çoxdur ki, Fransadadır. Orada xeyli məhrumiyyətlərə dözüblər və üzərlərinə götürdüyü vəzifəyə yetişmək yolunda hədsiz əmək sərf ediblər. Geri çağırılmaları ilə onların bu əməyi də heç olur.

3) Geri çağırılanlar arasında bu ilin iyulunda, yaxud noyabrında təhsilini bitirəsilər də var. İndi belə bir anda geri çağırmaq onları məqsədə çatmaqda atmaq və vətəni savadlı bir neçə şəxsdən məhrum etmək deməkdir.

4) Geri çağırılanlar arasında bir iqtisadçı[1] da var. O ən çoxu 1 il oxumalıdır.

5) Nəhayət, geri çağırılmışların hamısı təhsilini bitirərkən Avropa təhsili almış kadrlar kimi yetişəcəklər və bunlara vətənin böyük ehtiyacı var. Onları geri çağırmaq dəyərli əməkdaşlardan məhrum olmaq deməkdir.

Bax, bu düşüncələrə əsaslanaraq fransız qrupunun tələbələri geri çağırılmış yoldaşların da təqaüdçülər sırasına yenidən salınmasını hökumətdən xahiş etməyi qərara alıblar. Bu qərara alman qrupundakı bütün yoldaşlar da yekdilliklə qoşulublar. Bu deyilənlərə əsaslanaraq, mən fransız qrupu təqaüdçülərinin nümayəndəsi kimi Xalq Maarif Komissarlığından bunları xahiş edirəm:

1) Geri çağırılmış yoldaşlar siyahıya daxil edilsin.

2) Fransız qrupunun bütün tələbələrinin 1 oktyabr 1922-ci ildən bəri pulları verilsin.

3) Yaşayış minimumu bizim sizə təqdim etdiyimiz smetalarda göstərildiyi kimi, hər tələbəyə ayda 750 frank müəyyənləşdirilsin.

4) Pullarımız elə uzun müddətə verilsin ki, qarşıdakı dərs ilinin (1923-24) başlanğıcında bütün tələbələr öz məşğələlərinə başlamaq gücündə olsunlar və bir parça çörək qayğısına qalmadan təhsillərini ilin sonunadək uğurla davam etsinlər.

5) Ümumiyyətlə, təqaüdçülərin bundan sonra da müntəzəm təmin edilməsi qayğısına qalınsın.

Xahişimin birinci maddəsi bütövlükdə qəbul edilməzsə onu bu hissələrə bölməyi xahiş edirəm:

a) bu il qurtaraşı hüquqşünaslar hökmən dəstəklənsin;

b) iqtisadçı mütəxəssis Səfvət Məlikov hökmən dəstəklənsin;

c) təhsilini gec bitirəcək hüquqşünaslara ixtisaslarını dəyişmək təklif edilsin.

Bu maddələrin də qəbul edilməyəcəyi halda geri çağırılmışlara Fransadan gəlmək üçün 1 oktyabr 1922-ci ildən bugünkü günədək ayda 750 frank hesabı ilə pul verilsin ki, onlar öz işlərini qaydaya salsınlar və borclarından qurtulsunlar".[2]

Bu ərizədə qorxulu durumun ümumi mənzərəsi verilib. Ancaq Ağaəli Yusifzadənin 1923-cü ildə Azərb. SSR maarif komissarına yazdığı məktub vəziyyəti bir şəxsin nümunəsində daha da aydınlaşdırır.

"Vətəndaş ASSR xalq maarif komissarına.

Yoldaş komissar.

[1] Səfvət Məlikov nəzərdə tutulur.

[2] ARDA, fond 57, siyahı 1, iş 260, vv. 112-113.

ASSR hökumətinin Fransadan geri çağırdığı humanitar elmləri öyrənən tələbə olaraq mən keçən ilin 1 oktyabrınadək təqaüdlə təmin edilmişəm. Buna görə də borclarımı ödəməkdən ötrü mənə çatacaq məbləğin yerdə qalan hissəsini də bu ilin may ayına qədər gözləyərək Parisdə qalmağa məcbur olmuşam. Nəhayət, dözməyə səbrim çatmayıb, Fransada yaşadığım müddətdə yaranmış borclarımı orada qoyaraq gəlməli oldum. Mənim mənzilə və pansiona olan borclarımı ödəməyi Parisdə qalan yoldaşlarım öhdələrinə götürdülər.

Buna görə də sizdən xahiş edirəm ki, məni də Avropadan geri çağırılmış tələbələr smetasına salasınız ki, borclarımı ödəyə bilim və yoldaşlarımı üzərlərinə götürdükləri öhdəlikdən azad edim.

Əli Yusifzadə,

ASSR hökumətinin keçmiş təqaüdçü tələbəsi.

28 iyun 1923".[1]

Fransa kimi bir ölkədə 1922-ci ilin oktyabrından 1923-cü ilin iyununadək təqaüd almayan tələbənin nə günlərə düşdüyünü təsəvvür etmək elə də çətin deyil.

AKP MK Özəl Komissiyasının qərarına əsasən, geri çağırılmış 11 xarici ali məktəb tələbəsinə 1 oktyabrdan 1 avqustadək və xarici ölkə ali məktəb təqaüdçülərinin ümumi siyahısında unudulmuş 1 tələbəyə 8 aylıq təqaüdün verilməsi haqqında bu cür smeta tutulub:

1 tələbəyə 1 ayda 75 qızıl manat

1 tələbəyə 10 ayda 750 qızıl manat

11 tələbəyə 10 ayda 8250 qızıl manat

1 tələbəyə 1 ayda 75 qızıl manat

1 tələbəyə 8 ayda 600 qızıl manat.

Cəmisi: 8850 qızıl manat.[2]

Oxucumuz təbii olaraq soruşa bilər ki, indiyədək niyə yalnız Türkiyə və Avropaya göndərilən tələbələrdən danışılır, Rusiyaya göndərilənlərdən heç söz açılmır? İş burasındadır ki, "Rusiyaya göndərilənlər" ifadəsinin özü gerçəkliklə tam uzlaşmır. Niyə?

1) "100 tələbə"dən 13-ü təkcə Rusiyanın deyil, bu vaxt müstəqil dövlət olan Ukraynanın da payına düşürdü.

2) Onların, demək olar ki, heç biri Azərbaycandan harayasa göndərilmirdi – həmin 13 nəfər artıq Rusiya və Ukraynanın ali məktəblərində oxuyurdu. Apardığımız araşdırmalar nəticəsində onların həmin vaxt oxuduqları ali məktəbləri və kursları da müəyyənləşdirmişik:

1. Bağırlı Abdulla – Kiyev Kommersiya İnstitutu, 3-cü kurs
2. Əmircanov Əliyar – Moskva Ali Texniki Məktəbi, 3-cü kurs
3. Əmirov Humbay – Odessa Novorossiya Universiteti, 4-cü kurs
4. Qaracəmirlinski Məcid bəy – Xarkov Universiteti, 3-cü kurs
5. Məhəmmədov Ağababa – Xarkov Texnologiya İnstitutu, 3-cü kurs
6. Məhəmmədov Nəbi – Kiyev Kommersiya İnstitutu, 4-cü kurs
7. Mə(hə)mmədyarov (Əbdüs)səməd bəy – Xarkov Texnologiya İnstitutu, 4-cü kurs

[1] ARDA, fond 57, siyahı 1, iş 260, vərəq 121.

[2] Yenə orada, vərəq 114.

8. Mustafayev Ağacəfər – Don Universiteti (Rostov), 3-cü kurs
9. Nəbiyev Mahmud – Kiyev Universiteti, 3-cü kursu
10. Səlimov Hüseynqulu – Xarkov Politexnik İnstitutu, 3-cü kurs
11. Sultanov Bəxşəli/Bəxış bəy – Don Politexnik İnstitutu (Rostov), 3-cü kurs
12. Vəkilov Teymur ağa – Petroqrad Psixo-Nevroloji İnstitutu, 3-cü kurs
13. Yüzbaşınski İsmayıl – Xarkov Texnologiya İnstitutu, 6-cı kurs.

Cümhuriyyətin Xalq Maarif Nəzarəti onlara təhsillərini başa vurmaq üçün sadəcə təqaüd müəyyənləşdirmişdi.

3) Adı yuxarıda sadalanan "Rusiya tələbələri" haqqında arxiv materialları olduqca qıtdır. Biz də bu əsəri əsasən arxiv sənədləri üzərində qurduğumuza görə, təbii ki, onlardan bilgi vermək imkanımız da məhdudlaşıb.

"Rusiya tələbələri" mövzusu sovet dönəmində önəmli yer tutmağa başladı, çünki kommunistlər milli gənclərin əcnəbi dövlətlərdə deyil, Rusiyada və kommunist, sosialist ideyaları ilə "silahlanmasını" başlıca vəzifə sayırdılar.

22 iyun 1922-ci ildə xalq maarif komissarının müavini Tağı Şahbazi Azərbaycanın RSFSR-dəki səlahiyyətli nümayəndəsi Əliheydər Şirvanskiyə[1] 4854 saylı məktub göndərərək "Rusiya tələbələri" probleminə toxunub. Yeri gəlmişkən, bu, Rusiyaya tələbə göndərməklə bağlı əlimizdə bulunan ilk bəlgədir.

T.Şahbazi Ə.Şirvanskini məlumatlandırıb ki, öz kollegiyasının qərarına əsasən Azərbaycan İŞC Xalq Maarif Komissarlığı Rusiyanın müxtəlif ali məktəblərinə, o sıradan Moskva Universitetinə təhsillərini davam etdirmək və başa çatdırmaq üçün tələbələr göndərib. Həm də onların, demək olar ki, hamısı pulsuz gedişdən yararlanıb və özlərinin təyinat yerinədək müəyyənləşmiş normada ərzaqla təmin edilib. Ancaq bu zaman Azərbaycan İŞC Xalq Maarif Komissarlığı Bakının özündə ali məktəblər olduğuna görə belə qərara alıb ki, öz arzusuyla Moskvaya göndərilənlər öz hesablarına yaşamalı və oxumalıdırlar.[2]

Komissar müavini bildirib ki, tələbələrin təmin edilməsini Xalq Maarif Komissarlığı öz üzərinə yalnız o halda götürə bilərdi ki, onun uyğun vəsaiti olaydı, respublikadakı ali instansiya – Xalq Komissarları Şurası tələbələrin sosial təminatı haqqında dekret qəbul edib təsdiqləyəydi və beləliklə, Xalq Maarif Komissarlığına xüsusi fond buraxılaydı ki, ondan tələbələrə sistemli şəkildə vəsait veriləydi, ancaq tələbələrin sosial təminatı haqqında dekret qəbul olunmayıb. Buna baxmayaraq, Maarif Komissarlığının RSFSR-in müxtəlif ali məktəblərində yuxarı kurslarda oxuyan, təhsilini başa vurmaqda olan azərbaycanlı tələbələrdən ibarət 10 təqaüdçüsü var. Onlardan 5 nəfər: Əlirza Atayev, İbrahim İsmayılzadə, Musa Xəlilov, Xeyransa Axundova və İlyas Həbibov Moskvadadırlar. Xalq Komissarları Şurasının icazəsi ilə onların hər birinə ayda qızıl pulla 20 manat həcmində yardım müəyyənləşdirilib. Tələbələrdən biri – Əliyev Şövkət Kiyevdədir və Xalq Komissarlar Şurasının 16 may tarixli xüsusi qərarıyla qızıl pulla 10 manat həcmində yardım alır; ona 1922-ci ilin 16 mayından

[1] Bu sənədin 149-cu vərəqində onun adı rusca "А.Г.Ширвани" kimi qeyd olunub. Moskva Kommersiya İnstitutunu bitirmiş (1916) Şirvani/Şirvanski (Mustafabəyov) Əliheydər İbad oğlu (1896-26.4.1938) 1922-ci ilin iyunundan Azərbaycanın RSFSR-də səlahiyyətli nümayəndəsi işləyirdi. 1930-1935-ci illərdə ÜK(b)P Mari Vilayət Komitəsinin 1-ci katibi olub.

[2] ARDA, fond 57, siyahı 1, iş 237, vərəq 148.

16 noyabrınadək olan müddət üçün əsginasla 120 milyon manat ödənilib. Dörd tələbə isə: Məhəmmədov Ağababa, Babayev Həbib, Səlimov Hüseynqulu və Yüzbaşınski İsmayıl Xarkovda – Xarkov Texnologiya İnstitutundadır. Onlara da Xalq Komissarları Şurasının həmin qərarına əsasən hər birinə ayda qızıl pulla 10 manat həcmində yardım ödənilir; 1922-ci ilin 16 mayından 16 noyabrınadək onlara 480 milyon manat ödənilib.[1]

Bu sənəddə adı keçən tələbələrdən yalnız 3-ü: Ağababa Məhəmmədov, Hüseynqulu Səlimov və İsmayıl Yüzbaşınski Cümhuriyyətin tələbələriydi.

Fransada oxuyan tələbələrin durumunu onların Azərbaycana nümayəndə kimi göndərdiyi Mustafa Mustafayevin 15 İyun 1923-cü ildə Bakıda Xalq Maarif Komissarlığına yazdığı bu sənəddən öyrənirik:

"Təqaüdçü tələbələrin fransız qrupunun maddi böhranı 1 iyul 1922-ci ildən başlanıb. Onlar vəsaitdən ötrü Cəbrayıl Rəhimov və İsrafil Əşrəfovu da nümayəndə kimi göndərmişdilər. Onlar hökumətə fransız qrupu tələbələrinin gerçəkdən hədsiz ağır maddi durumu haqqında geniş yazılı məruzə təqdim edərək, hər tələbəyə ayda 750 frank yaşayış minimumu kimi, orta hesabla 1000 frank da illik təhsil haqqı kimi verilməsini xahiş ediblər. Hökumət bu smetanı qəbul etməyib və yaşayış minimumu ayda 75 manata endirilib ki, bu da son dövrün kursu ilə 560 frank civarında edir". [2]

Tanış olduğumuz bu məktubdan sonra tələbələrlə bağlı arxiv sənədləri getdikcə seyrəklaşır. Növbəti bəlgənin tarixi təxminən bir il sonraya aiddir. Bu, Azərbaycan Xalq Maarif Komissarlığının Müvəkkili, mühəndis İbadulla Əlizadənin Berlindən 16 aprel 1923-cü ildə xalq maarif komissarı Mustafa Quluyevə göndərdiyi məruzədir.

Doğrudur, biz burada bütövlükdə Azərbaycan sovet hakimiyyətinin tələbələrə cinayətkarcasına laqeydliyini tənqid edir və bunda özümüzü tam haqlı sayırıq, ancaq ədalət naminə qeyd etməliyik ki, xoşbəxtlikdən, tələbə işləriylə məşğul olan şəxslərin ikisi də: həm İbadulla Əlizadə, həm də Bəhram bəy Axundov onlara gerçəkdən ata məhəbbətiylə yanaşıb, hətta kommunist rejiminin xalqımıza zidd siyasətinə qarşı dirənərək tələbələrin təhsillərini başa vura bilməsinə əllərindən gələni ediblər. Bu dediyimizi arxiv bəlgələri də, onlar haqqında yaşayan xatirələr də təsdiqləməkdədir.

Adını çəkdiyimiz İbadulla Əlizadə (İbad Əliyev) komissara məruzə edərək bildirir ki, Berlinə çatdığım zaman tələbələrimizin durumu hədsiz ağır olduğuna görə Zaqafqaziya Xarici Ticarət İdarəsinin Berlin nümayəndəsinə bu xahişlə müraciət etdim ki, ehtiyacı olan tələbələr arasında bölüşdürməkdən ötrü şəxsi məsuliyyətim altında mənə 50 funt sterlinq versin. Mənə olan şəxsi inama görə Zaqafqaziya Xarici Ticarət İdarəsinin Berlin Nümayəndəliyi xahişimi yerinə yetirdi və mənə 50 funt sterlinq verdi. Bunun bir hissəsi tələbələrin Almaniya qrupuna avans şəklində verildi, qalan hissəsi Fransada və İtaliyada oxuyan tələbələr arasında bölüşdürmək üçün Parisə köçürüldü. Eyni şeyi mən Bakıdan Berlinə gedərkən İstanbuldan keçdiyim zaman orada da etmişdim – 3 tələbəmizin maddi durumu ağır olduğuna görə Zaqafqaziya Xarici Ticarət İdarəsi nümayəndəsi Andreyevdən 200 kağız Türkiyə lirəsi alaraq tələbələr arasında bölüşdürmüşdüm.

[1] ARDA, fond 57, siyahı 1, iş 237, vərəq 148.

[2] Yenə orada, iş 260, vərəq 112.

İ.Əlizadə daha sonra yazır: *"M[əhəmmədhəsən] Hacınskinin[1] özünün xaricdəki nümayəndələrinə kürünün satılmasına qədər tələbələrə avansın verilməsi haqqında sərəncamlara (tələbə nümayəndələrinin gətirdiyi məktublar) gəlincə, onlar çox böyük gecikmə ilə gəlib çatıb.*

Zaqafqaziya Xarici Ticarət İdarəsi teleqrafla, yaxud poçtla sərəncam vermək əvəzinə, tələbə nümayəndələrinə köçürmə verib. Onlar isə zəruri vizalar almaq və başqa formallıqları yerinə yetirməkdən ötrü Moskvada iki aya yaxın ləngiyiblər. Bakıdan bir xəbər çıxmadığına və tələbələr acınacaqlı duruma düşdüyünə görə mən Sizə və Hacınskiyə avansın sürətləndirilməsi haqqında teleqraf göndərməyə məcbur oldum, çünki kürünün İstanbulda tezliklə satılacağına heç bir umudum qalmamışdı, ona görə ki, həmin maldan oraya böyük həcmdə gətirilmişdi. Bir müddətdən sonra Hacınskidən cavab kimi 6 min qızıl manat həcmində avans verilməsi haqqında sərəncam aldım. Bu məbləğ tələbələrin Almaniya qrupu arasında bölüşdürüldü, onlardan hər biri 3 aylığına təmin olundu.

Tələbə nümayəndələrin Berlinə gəlməsindən sonra Zaqafqaziya Xarici Ticarət İdarəsi Berlin nümayəndəliyi qızıl pulla 5 min manat da tələbələrin Fransa qrupu üçün verdi; həmin məbləği Bakıdan alınmış pullarla birgə Parisə 2 "parisli" tələbə aparıb. Fransa qrupu nümayəndələrinin əlində Hacınskidən Skobelevə 4.950 qızıl manatın verilməsi haqqında məktubu vardı, ancaq Skobelev nağd pul olmadığına görə köçürməni ödəməkdən imtina etdi və Zaqafqaziya Xarici Ticarət İdarəsi Berlin Nümayəndəliyinə müraciət etdi. Berlin nümayəndəliyi Hacınskidən soruşduqdan və müsbət cavab aldıqdan sonra yalnız bugünlərdə həmin məbləği Parisə köçürüb. Yerdə qalan 8 min manat (tələbələrin 1 yanvar [19]23-cü ildək olan 2-ci üçaylıq təminatı) İstanbuldan köçürülüb, ancaq indiyədək alınmayıb. Bu məbləğ Hacınskinin sərəncamına əsasən Almaniya və Fransa tələbələri arasında bölüşdürülməlidir. Məhəmmədhəsən niyəsə bu məbləğin bölgüsündən İstanbul və İtaliya tələbələrini çıxarıb. Xahiş edirəm teleqrafla bu məsələni aydınlaşdırasınız". [2]

Azərbaycan Xalq Maarif Komissarlığı ali məktəblərə avadanlıq və incəsənət bölməsi üçün simlər alınması məsələsinə də toxunan müəllif daha sonra cavahiratın satılmasına da aydınlıq gətirir:

"Cavahiratın satılması haqqında maliyyə hesabatına gəlincə, müəyyənləşdirə bilmişəm ki, bu satış tam düzgün şəkildə aparılıb, tələbələrin Azərbaycan Xalq Maarif Komissarlığına təqdim etdiyi hesabat şəksiz doğrudur və cavahiratın satışından əldə edilmiş məbləğ yalnız onların hesabatında göstərilən müddətdə tələbələri təmin edə bilər". [3]

İ.Əlizadə xəbərdar edir ki, Azərbaycan Xalq Maarif Komissarlığının təklifi ilə köçürülmüş məbləğ tələbələri bu ilin 1 yanvarınadək təmin etməli olduğu halda, indi aprelin ortası yaxınlaşsa da göndərilmiş məbləğin təxminən yarısı hələ də alınmayıb.

Məruzəçi bir sıra çox maraqlı təkliflər irəli sürür: Almaniyada sənaye yüksək inkişaf etdiyinə, valyutası isə ucuz olduğuna görə həm türkcə, həm də rus dilində kitabların hədsiz əlverişli şərtlərlə nəşrini təşkil etmək mümkün olar. Kitabların korrekturası burada

[1] M.Hacınski 11.IX.1920-ci ildən Azərb. İŞC xarici ticarət komissarının müavini təyin edilmişdi (bax: Azərbaycan İnqilab Komitəsi və Xalq Komissarları Soveti iclaslarının protokolları, s. 130).

[2] ARDA, fond 57, siyahı 1, iş 260, vərəq 116.

[3] Yenə orada, vərəq 117.

tamamilə mümkündür – türk və rus dillərinin biliciləri var. Xarici Ticarət İdarəsinin Berlin Nümayəndəliyində ayrıca çap bölməsi var və Rusiya Almaniyada geniş ölçülərdə kitablar sifariş verib.[1]

O, tələbələrin təminatının qaydasına düşdüyü təqdirdə Berlində Türk dili kursu təşkil etməyin mümkünlüyünü bildirir, çünki tələbələrin özləri bu fikri alqışlayır və Vətənə döndükləri vaxt öz xalqlarının mənafeyinə qulluqda daha çox fayda verə bilmələri üçün ana dillərini ciddi-cəhdlə öyrənməyə hazır olduqlarını deyirlər.[2]

Məruzədən İbadulla Əlizadənin təkcə Almaniyada yox, başqa ölkələrdə oxuyan tələbələrimizin də taleyi ilə nə qədər maraqlandığı görünür. O yazır:

"Hacınskinin[3] *İtaliya qrupuna üçaylıq təminat şəklində pulların verilməsi haqqında məktubu Zaqafqaziya Xarici Ticarət İdarəsinin Roma Nümayəndəliyinə göndərilib. Düşünürəm ki, İtaliya qrupu artıq öz pulunu alıb. İstanbul tələbələrinin hansı durumda olduğu, onların pulu kimdən alacaqları haqqında məni bilgiləndirməyinizi xahiş edirəm. Bununla yanaşı, tələbələrin sonrakı təminatının hansı durumda olması haqqında da mənə məlumat verməyinizi xahiş edirəm, çünki mən tələbələrin sualları altında itib-batıram. Paris qrupu isə onların vəziyyəti ilə yerində tanış olmaqdan ötrü Parisə getməyimi təklif edir.*

İstanbuldan 8 min qızıl manatı aldıqdan və həmin məbləği tələbələr arasında bölüşdürdükdən sonra Azərbaycan Xalq Maarif Komissarlığına geniş maliyyə hesabatı təqdim edəcəyəm".[4]

Tələbələrin normal təhsil ala bilməsi üçün İ.Əlizadə komissarlığa təvsiyədə bulunur:

"Yatırlatmağa borcluyam ki, tələbələr Azərbaycan Xalq Maarif Komissarlığının onları neçə müddət təmin edəcəyini bilmədiklərinə görə qeyri-müəyyənlik şəraitində onların elmlə sakit və sistemli şəkildə məşğul olması hədsiz çətindir. Bu üzdən də tələbələrimizin elmi işlərinin uğuru və məhsuldarlığı baxımından onların məşğələlərə davam etdiyi müddətcə maddi baxımdan təmin olunmaları zəruridir. Bununla biz onları bir neçə aydan bir pul yollamaq xahişi ilə Vətənə nümayəndələr göndərmək zərurətindən azad edər, beləliklə, pullarının qurtarması ilə yeni ödənişin edilməsi arasında yarımac qalmaqdan xilas edər və onlara öz elmi işlərini sakitcə və uğurla davam etdirmək imkanı verərik.

Berlinə gəldikdən və tələbələrimizin dərs məşğələləri göstəriciləri ilə tanışlıqdan sonra bu qəti nəticəyə gəlirəm ki, pulları vaxtlı-vaxtında göndərilərsə tələbələrimizin yarıdan çoxu 1,5-2 ildən sonra elmlərin kursunu bitirərək vətənə dönə bilər. Bütün bunları nəzərə alaraq Avropadakı tələbələrin xərclik pullarını Azərbaycan Cümhuriyyətinin gəlirlər və çıxarlar smetasına daxil etməyinizi israrla xahiş edirəm. Bu, tələbələrin mənəvi sakitliyi və onların işinin məhsuldarlığı və sistemliliyi baxımından zəruridir. Mən bununla yanaşı, məktəblərdən tələbələrimizin harada oxumasını, onların tələbə işlərinin uğurunu soruşur, bu suallara cavab verməyi təklif edirəm: tələbə ali məktəbə haçan girib, tədris planı üzrə neçə imtahan verməlidir, neçə fənni verib, tədris proqramı üzrə zəruri imtahanları verməməsinin səbəbləri".[5]

[1] ARDA, fond 57, siyahı 1, iş 260, vərəq 118.
[2] Yenə orada.
[3] Söhbət Məhəmmədhəsən Hacınskidən gedir.
[4] ARDA, fond 57, siyahı 1, iş 260, vərəq 118.
[5] Yenə orada, vv. 118-119.

Parisdəki Azərbaycanlı Tələbələr Cəmiyyətinin sədri Mirzəhüseyn Quluyevin 29 may 1923-cü ildə Xalq Maarif Komissarlığına göndərdiyi məktub da tələbələrin maddi və psixoloji baxımdan yaşadığı bir sıra sarsıntılı məqamları üzə çıxarır.

Sən demə, Tədris Müəssisələri müdiri vəsaitin vaxtlı-vaxtında göndərilməsini hökumətin özü təmin edəcəyinə görə vəsaitdən ötrü bir daha Bakıya nümayəndə göndərməməyi tələbələrdən tələb edibmiş, ancaq bu tapşırığa baxmayaraq, onların durumu getdikcə daha da fənalaşdığı üçün onlar məsələnin köklü həll edilməsindən ötrü yenidən nümayəndə göndərməyə məcbur olublar.

Məktubda yazılıb:

"Sizin göndərdiyiniz, bizi keçən ilin 1 iyulundan bu ilin 1 yanvarınadək 6 ay müddətinə təmin etməli olan vəsait bizə mart ayında yalnız üçaylıq təminat şəklində yetişdi, yerdə qalan üçaylıq təminatı isə bugünədək gözləməkdəyik. Ancaq mayın ortasında Zaqafqaziya Xarici Ticarət İdarəsindən, vət. [Məhəmmədhəsən] Hacınskidən teleqram gəldiyini öyrəndik; o bildirirdi ki, biz Xarici Ticarət İdarəsindən bundan sonra daha heç nə almayacağıq. Beləliklə, keçən ilin 1 oktyabrına qədər təminat aldıq; başqa sözlə, aldığımız vəsait nəinki bir neçə ay təhsilimizi sakitcə davam etdirməyə imkan vermədi, hətta keçən aylarımızın xərclərini də ödəyə bilmədi.

Vəsaiti getdikcə daha böyük gecikmələrlə, ləngimələrlə almağımız nəticəsində maddi durumumuz gözlənilən yaxşılaşma əvəzinə, daha da çətinləşir və oxumaq, demək olar ki, imkansızlaşır".[1]

Təçləbə təşkilatının başçısı maarif komissarından (bu vaxt komissar Mustafa Quluyevdi) məsələnin köklü çözülməsini xahiş edir, çünki sabahkı günə daimi umudsuzluq və bir tikə çörək qayğısına qalmaq oxumağı qeyri-mümkün edir. Elə həcmdə vəsait göndərmək lazımdır ki, tələbələrin keçmiş aylardakı kəsirlərini də ödəsin və sonrakı bir neçə ayına da bəs etsin.

Məktubdan daha ciddi bir məqam aydınlaşır – sən demə, "Şura hökuməti" humanitar elmləri öyrənən, aralarında təhsilini bitirməyə 1 il və hətta bir neçə ay qalmış bəzi təqaüdçüləri Azərbaycana – geri çağırıbmış! Bu, bütün tələbələrin hədsiz dərəcədə təəccübünə səbəb olub. Buna görə də Maarif Komissarlığından anlayış görəcəklərinə umud bəsləyirlər:

"Vətənimizin texniki sahədə olduğu kimi başqa ixtisaslar üzrə də hər cür savadlı insanlara böyük ehtiyacı olduğunu nəzərə alaraq Fransada oxuyan azərbaycanlı tələbələrin ümumi yığıncağı geri çağırılmış təqaüdçülərin siyahıya yenidən daxil edilməsini Sizdən xahiş etməyi qərara alıb".[2]

Fransada oxuyan tələbələrin bu xahişlərinin yerinə yetirilib-yetirlməməsi haqqında bizə heç nə bəlli deyil, çünki arxivlər bu haqda susur. Bəlli olansa budur ki, Xalq Maarif Komissarlığı 21 oktyabr 1923-cü il tarixli kollegiya iclasında gündəliyə yenidən "Xaricdəki tələbələrin maddi durumu haqqında məsələ" salıb və bu məzmunda qərar çıxarıb:

[1] ARDA, fond 57, siyahı 1, iş 260, vərəq 120.
[2] Yenə orada, vərəq 120a.

"Almaniya qrupu tələbələri üçün təqaüdün həcminin 10 manat artırılması, yəni 50 manata çatdırılması (1/I-1924-cü ildək), Fransa qrupu tələbələrinin hər birinə tədris haqqı olaraq 1.000 frank verilməsi ÜİŞ-dan[1] xahiş edilsin.

Yaşayış minimumunun ödənilməməsi çoxunun hal-hazırda sonuncu kursda oxumaqda olduğu tələbələrin məşğələlərə davamiyyətinin ümumi gedişinə həddsiz mənfi təsir göstərir".[2]

Bəli, "xalqın düşməni" saydıqları müstəqil Cümhuriyyəti yıxanlar öz hakimiyyətlərindən cəmi iki il yarım keçmiş Moskvaya əl açaraq vur-tut min frank üçün yalvarırdılar. Bu xahişin də yerinə yetirilməsi haqqında məlumatla qarşılaşmadıq. Əvəzində Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Rəyasət Heyətinin 17 dekabr 1923-cü il tarixli iclasının 49 saylı protokolundan çıxarış əlimizdədir. Gündəlikdəki 7-ci məsələ xaricdə oxuyan və Azərbaycan İctimai Şura Cümhuriyyətinin himayəsində bulunan tələbələrin siyahısına 7 şəxsin də daxil edilməsi haqqında Baş Peşə Təhsili İdarəsinin məruzəsidir (həmin tələbələrdən 2-si artıq Almaniyada oxumaqdadır, qalan 5 şəxsə Qərbi Avropa və RSFSR-in uyğun ali məktəblərində məxsusi kafedralarda təhsillərini davam etdirmək və təkmilləşdirmək lazımdır). Rəyasət Heyəti qərara alıb ki, təqaüdçü tələbələrin əlavə siyahısına aşağıdakı şəxslər də artırılsın və onlara aid bütün xərclər 1/I-1924-cü il büdcəsinə daxil edilsin:

1. Tağı[3] Rzayev[4] (Berlin)
2. Ağamir Məmmədov[5] (Roma)
3. Əliyar[6] Əmircanov[7] (Berlin)
4. Mircamal Məhəmmədov (Berlin)
5. Mustafa İmaməli[8] (Getten)
6. Abdulla Tağızadə[9] (Petroqrad)
7. İlyas Qayıbov[10] (Vitsburq).[11]

O dönəmdə Kommunist Partiyasının hakimi-mütləq olduğunu nəzərə alsaq bu qərarın yerinə yetirildiyinə inanmalıyıq.

Həsən bəy Zərdabinin həyat yoldaşı Hənifə xanım Məlikovanın bir az öncə tanış olduğumuz, oğlu Səfvət bəyin təqaüddən məhrum edilməsi ilə bağlı məktubundan gördüyümüz kimi, Bakıda hələ 1922-ci ilin ilk aylarında Cümhuriyyət tələbələrini "bizimkilər"ə və "düşmənlər"ə ayıran komissiya yaradılmışdı. Bu komissiyaya Azərbaycan K(b)P MK katibi

[1] Ümumittifaq İqtisadi Şurası.

[2] ARDA, fond 51, siyahı 1, iş 265, vərəq 83.

[3] Sənəddə yanlış olaraq bu ad "Səməd" göstərilib.

[4] "100 tələbə"dən biridir.

[5] Məşhur yazıçı Rəşid bəy Əfəndizadənin kürəkəni olan Ağamir Sadıq oğlu Məmmədov (1900-6.1.1938) sonralar ADU-nun əsaslı kitabxanasının direktoru işləyib.

[6] Sənəddə yanlış olaraq bu ad "Əmir" göstərilib.

[7] Əliyar Əmircanovun adı "Azərbaycan" qəzetindəki 100 nəfərin siyahısında var. Sonradan o, sovet siyahısında da təqüdçülər sırasına daxil edilib.

[8] Haqqında geniş bigi almaq üşün bax: *Алиаде З.* Мустафа Имам-Али – первый азербайджанец профессиональный кораблестроитель (1905-1978). /http://www.ourbaku.com.

[9] Abdulla Məhəmməd oğlu Tağızadə (1897-3.1.1938) sonralar APİ-də dilçilik kafedrasının müdiri olmuş görkəmli Azərbaycan dilçisidir.

[10] İlyas Süleyman ağa oğlu Qayıbov (1892-1940) görkəmli həkimdir.

[11] ARPİSSA, fond 1, siyahı 74, iş 136, vərəq 74a.

Ruhulla Axundovun sədrlik etdiyini, onun bu məqsədlə Avropada olduğunu, bir çox tələbələri təqaüddən məhrum etdiyini eşitsək də təsdiqləyici heç bir rəsmi bilgi tapa bilmirdik. Bu kitabın yazılışı prosesində Cümhuriyyət tələbəsi Firidun Əliyevin istintaq sənədləriylə tanış olarkən eşitdiyimizin gerçəkliyinə inandıq.

F.Əliyevin partiya məsələsinin müzakirə edildiyi "Azərşəbəkətikinti" ilkin partiya təşkilatının 25 iyun 1937-ci ildə keçirilən iclasının qərarında oxuyuruq:

"Müsavat hökumətinin Almaniyaya oxumağa göndərdiyi Əliyev Firidun partiya təşkilatını hər cür yolla aldadaraq özünü Almaniyada kommunist partiyasının üzvü kimi qeləmə verməyə çalışıb ki, guya orada 1921-ci ildən 1926-cı ilədək üzv olub, bu isə onun partiya komitəsindəki birinci dediklərinə ziddir; orada göstərib ki, 1921-ci ildən 1923-cü ilədək – Ruhulla Axundovun sədrliyi altında Zaqafqaziya hökuməti tərəfindən tələbələrin SSRİ-yə cəlb edilməsi üzrə komissiyanın gəlməsinədək üzv olub və partiya biletini Almaniya polisi onu təqib etdiyinə görə təhvil verib".[1]

"NKVD" zindanında 16 dekabr 1937-ci il tarixli dindirmədə Firidun Əliyevlə müstəntiq arasında belə bir sual-cavab olub:

"Sual: Siz Almaniyada olarkən Almaniyaya gələn və Azərbaycan SSR təqaüdü üçün tələbə seçimi edən Ruhulla Axundovla görüşmüsünüzmü?

Cavab: Ruhulla Axundovu mən heç vaxt görməmişəm; başqa tələbələrdən eşitdim ki, Azərbaycanın məsul işçilərindən biri olan Ruhulla Axundov Berlinə gəlib, ancaq mən onu görmədim…".[2]

Deməli, "Ruhulla Axundov komissiyası" 1922-ci ildən mövcud olub və tələbələri sinfi mənsubiyyətinə görə iki yerə ayıraraq "düşmənlər"i (o sıradan H.b.Zərdabinin oğlu Səfvət bəyi) təqaüddən məhrum edib. Doğrudur, R.Axundovun tərcümeyi-halına dair yazılarda bu komissiya haqqında heç nə tapmaq mümkün deyil, ancaq onun Avropaya 1924-cü ildə uzunmüddətli səfərə getdiyi bildirilib.[3] Buradan aydınlaşır ki, "Ruhulla Axundov komissiyası" 1922-1923-cü illərdə qızğın işləyib və Axundovun özü 1923-cü ildə Avropaya qısamüddətli səfər edərək Pirumova yardımda bulunub. Çox güman ki, o, 1924-cü ildəki uzunmüddətli səfərində də tələbələrimizə "atalıq qayğısı" göstərib, ancaq bu haqda əlimizdə heç bir bəlgə yoxdur. Bircə onu deyə bilərik ki, bu səfərdə də o, hansısa tələbəni təqaüddən məhrum edibsə bunun üstündə ən ağır ittihamlara layiqdir, çünki o vaxt tələbələrin xeyli hissəsi ali məktəbləri bitirmək ərəfəsində idi – bir-iki ilə diplom alacaqdılar. Belə bir dönəmdə tələbəyə "sən bizdən deyilsən" deyilməsi "sən Vətəndə arzuolunmaz şəxssən" deməyə, ana yurdunda qapıların onun üzünə biryolluq bağlı olduğunu bildirməyə bərabərdi…

Cümhuriyyət tələbəsi Mirsadıq Sadıqov zindanda 10 avqust 1941-ci il dindirməsində sovet hakimiyyətinin seçim apardığını müstəntiqə açıq şəkildə bildirib:

"Nümayəndə heyəti[4] bir müddətdən sonra qayıtdı. Sovet hökuməti tələbələri süzgəcdən keçirdi və yerdə qalan azsaylı tələbələrə təhsillərini bitirənədək Almaniyada qalmaq

[1] AR MTN arxivi, PR-22307, vv. 44-44a.

[2] Yenə orada, vərəq 79.

[3] *Ашнин Ф.А., Алпатов В.М.* Дело Рухуллы Ахундова. // «Восток», 2000, № 2, s. 93.

[4] Cəfər Kazımov və başqalarının Bakıya getməsi nəzərdə tutulur.

təklif edildi. Tələbələrin süzgəcdən keçməyən hissəsi isə mühacir durumuna düşdü. Mən qalan tələbələrdən oldum. Sovet nümayəndəliyindən ayda 40 amerikan dolları təqaüd almağa başladım.

[...] ...Mühacir Müsavat dairələri Sovet hökumətinin təqaüd vermədiyi, daha doğrusu, bəziləri mühacirlərə çevrilmiş azərbaycanlı tələbələrə yardım göstərməyə davam etdi; sovet təqaüdü alanların arasında da eyni zamanda əlaqəni üzməyib mühacir Müsavat dairələrindən maliyyə yardımı almağa davam edənlər oldu. Frayberq Akademiyasında adlarını yuxarıda sadaladığım 7 nəfər azərbaycanlı tələbə içərisində, məsələn, Əliyev Əşrəf bunlardan idi, nəticədə o, həmişə bizdən yaxşı təmin olunub".[1]

Təbii ki, ölkənin kommunist qəzet-jurnalları tələbələrin vəziyyəti haqqında heç nə yazmırdı, sanki onlar heç mövcud deyildi. Mütəsna hallarda görülən nadir yazılarda isə informasiya vermək yox, yalnız kommunistlərin ideoloji məqsədləri güdülürdü. Ancaq mühacirət mətbuatında bu məsələyə vaxtaşırı toxunulur, vəziyyəti obyektiv əks etdirən yazılar dərc edilirdi. Həmin mətbuat orqanları içərisində Məhəmmədəmin Rəsulzadənin İstanbulda 1923-1927-ci illər arasında nəşr etdirdiyi "Yeni Kafkasya" dərgisi xüsusi seçilir. Məsələn, dərginin 15 mart 1340-cı (15 mart 1924-cü) il tarixli 12-ci sayında *"Almaniyada Qafqasya tələbələri"* başlıqlı geniş bir məqalə dərc edilib.[2] Yazının girişində deyilir ki, Bakıda çıxan kommunist qəzetlərində oxunduğuna görə, Berlindəki qafqazlı tələbələrin Zaqafqaziya Komissarlar Şurasına göndərdikləri təbrik teleqramına cavab olaraq Komissarlar Şurası rəisi "tələbəliyin uzaq Avropada möhkəm kommunizm mövqeyi işğal etmələrinə və sui-təfəhhüm nəticəsi olaraq hala menşevik, daşnak və müsavatçılar zümrəsində olan bir qisim tələbənin qafalarından əbədi surətdə əksixtilal fikirlərinin çıxarılmasına müvəffəqiyyət hasil olacağına sarsılmaz bir imanla inandığını" bildirmişdir. Bir "sui-təfəhhüm" nəticəsi olaraq "hala milliyyətpərvərlik ruhunu daşıyan" tələbənin, özəlliklə müsavatçılıq töhməti altındakı Türk tələbələrinin başlarına tətbiq olunan bu islah üsulunun nədən ibarət olduğunu dərgi öz oxucularına aşağıdakı kimi anladır:

Avropadakı ümumqafqas tələbələrinə nəzarət etmək üçün "son zamanlarda Tiflisdən 3 kişidən ibarət bir kontrol komisyonu göndərilmişdir. Bu komisyon erməni Pirumov, gürcü Qoqoberidze[3] və türk İbad Əliyevdən təşəkkül etmişdir. Komisyonun rəisi və amiri-mütləqi Pirumovdur. Tiflisdən alınan salifüs-zikr təlimatın tətbiqi Pirumovun mülahizəsinə bağlıdır. Ona istədiyi miqdarda yeni tələbə qəbul eləmək və "müzürr, hala milliyətpərvər" təsəvvür elədiyi tələbələri listədən ixrac etmək kibi vase[4] səlahiyyətlər verilmişdir".[5]

Yazı müəllifi xəbər verir ki, bundan iki-üç ay öncə Pirumov və Rusiyanın Berlin səfiri Krestinskinin əmrləri ilə Berlində ümumqafqaz tələbələrinin yığıncağı olub. Burada

[1] AR MTN Arxivi, PR-29995, vv. 17a-18a.

[2] *"Yeni Kafkasya"*, 15 mart 1340, sayı 12, ss. 11-12.

[3] *Levan Davidoviç Qoqoberidze* (1896-1937) gürcü zadəganlarındandır. RSDF(b)P Bakı Komitəsi bürosunun üzvü (1918), RK(b)P Qafqaz Diyar Komitəsinin üzvü (1918), Tiflis İnqilab Komitəsinin sədri (1921-1923), Gürcüstan XTŞ sədrinin müavini (1923-1924), Acarıstan vilayət K(b)P məsul katibi (1924-1925), SSRİ-nin Fransadakı Səlahiyyətli nümayəndiliyində (1925-1926), Gürcüstan K(b)P katibi və 1-ci katibi (1925-1934) və b. vəzifələrdə işləyib. 21 mart 1937-ci ildə kommunistlər onu "xalq düşməni" adı altında güllələyiblər.

[4] Geniş.

[5] *"Yeni Kafkasya"*, 15 mart 1340, sayı 12, s. 12.

yeni bir tələbə təşkilatı seçilib, daha doğrusu, təyin olunub. Pirumovun səyi nəticəsində yığıncaq başdan-aşağıya kommunist ruhunda tərtib edilib, bunun üçün tələbələrdən yalnız müəyyən bir qismi dəvətnamə alıb, başqalarının iştirakına isə "lüzum görülməyib". Bu təşkilatın vasitəsilə Zaqafqaziya hesabına yeni tələbələr qəbul edilib. Onların arasında Kilikiyadan gəlmə bir çox mühacir ermənilər vardır. Pirumov buna etiraz edənlərə "bizim üçün milliyyət fərqi yoxdur" deyə cavab verib. Gürcülərdən də bir çox yeni tələbələr qəbul edilib, ancaq azərbaycanlı tələbələr qəbul edilməyib. Bu, bir yana, mövcud azərbaycanlı tələbələr arasında şiddətli bir təsviyə aparılacağı xəbəri də yayılıb.

Məqalədə yazılır:

"Mərkəzi Frayberqdə olmaq üzərə məxsus bir kommunist qrupu təşəkkül etmişdir ki, qrupun əsl məqsədi qafqasyalı tələbələr arasında propağanda yapmaqdan ibarətdir. Propağandanın ən qüvvətli və müəssər[1] vasitəsi təxsisatsız buraxmaq təhdidi ilə təxsisata bağlamaq tətmiidir. Bütün bu üsul və tərtibata rəğmən tələbələr miyanında ibrazi-mətanət edib sərfi-elm ilə məşğul olanlarla vicdanlarını bir parça əkməyə satmayanları əksəriyyətdədir, çokdur. Tələbələr eyni zamanda Rusiya pasaportu almaq məcburiyyətində dəxi bulunduruluyorlar. İştə Mavərayi-Qafqas Komissarlar Şurası rəisinin qafqasyalı tələbənin "qafalarını təsviyə" üçün göndərdiyi təlimatın surəti-tətbiqi. Əvət, hər tərəfdə təcrübə olunan bolşevik üsulu burada da təcrübə olunuyor: tətbiq və tətmi üsulu!".[2]

Məqalənin son cümlələri də maraqlı bilgiləri əks etdirir:

"Axirən aldığımız mütəmmim[3] məlumata nəzərən, Pirumov son günlərdə gürcülərdən 28, ermənilərdən 22 və türklərdən də 2 tələbəyi dövlət hesabına qəbul eləmişdir. Hal-hazırda müxtəlif Avropa mərkəzlərində olub dövlət hesabına təhsil edən [azərbaycanlı] tələbələrin miqdarı 65 kişi olub, bunlardan 52-si Almaniyada, 7-si Fransada, ikisi İstanbulda, ikisi də İtaliyadadır".[4]

Kommunist Partiyasının tələbələrin taleyinə təsir göstərmiş yığıncaqlarından biri 5 aprel 1924-cü ildə olub. AK(b)P MK Rəyasət Heyətinin (RH) bu tarixdə Xanbudaqovun sədrliyi altında keçirilən iclasında RH üzvləri Əliheydər Qarayev, Xanbudaqov, Mircəfər Bağırov, Dadaş Bünyadzadə, Mustafa Quluyev, Qəznfər Musabəyov, RH namizədləri Çagin və Konuşgin, MK üzvləri Mirbəşir Qasımov və Həmid Sultanov iştirak ediblər.

İclasın 13-cü məsələsi "Xarici ali məktəblərdəki tələbələr haqqında"dır. Bu haqda Həbib Cəbiyev məruzə edib. Sonda RH 8 maddəlik bir qərar qəbul edib:

A) Hal-hazırda [xarici ali məktəblərə] əlavə göndəriş aparmamalı. Ümumən xarici ali məktəblərə ezamiyyət hər il yayın başlanğıcında, göndərilənlərin tərkibi diqqətlə yoxlanıldıqdan, zərurətin öyrənilməsindən sonra və yalnız xüsusi və kənd təsərrüfatı ali məktəblərinə təşkil edilsin.

B) Xaricdə oxuyan tələbələr: 1) Rzayev Tağı Əsgər[5] [oğlu] (Elektrotexnika İnstitutu,

[1] Təsirli.

[2] *"Yeni Kafkasya"*, 15 mart 1340, sayı 12, s. 12.

[3] Son.

[4] *"Yeni Kafkasya"*, 15 mart 1340, sayı 12, s. 12.

[5] Sənəddə yanlış olaraq: "Səməd".

Darmştadt), 2) Əmircanov Əliyar[1] (aviasiya, Berlin), 3) Hacıyev Xaspulat (toxuculuq, Almaniya) bizim tələbələr siyahısına daxil edilsin.

C) Zaqafqaziya Diyar Komitəsinin (Qoqoberidze) özəl komissiyasının bizim tələbələr siyahısına daxil etdiyi və xarici ali məktəblərdə oxuyan Musayev Xəlili (2-ci il, Münxen, rəssamlıq), Səfərov Şamili (Koblenz, keramika) təsdiqləməli, Aslanov Teymuru (toxuculuq, Almaniya) tələbələr siyahısından çıxarmağı ZDK-dan[2] xahiş etməli.

Ç) Beləliklə, xaricdə oxuyan bütün tələbələrin sayını 68 nəfər müəyyənləşdirməli, onlardan 48 tələbəni Zaqafqaziya Diyar Komitəsi və Zaqafqaziya Xalq Komissarları Şurasının qərarlarına əsasən Zaqafqaziya Xalq Komissarları Şurasının, qalan 20-sini isə Azərbaycan Xalq Komissarları Şurasının təqaüdçüləri saymalı.

D) Təqaüd Almaniyada oxuyan tələbələr üçün 30 dollar, Fransada oxuyanlar üçün əvvəlki kimi 75 manat müəyyən edilsin.

E) Almaniyada oxuyan tələbələrə təhsil haqqı olaraq ayrıca 45 dollar verməli və Zaqafqaziya Xalq Komissarları Şurasından özünün azərbaycanlı təqaüdçülərini də bu cür təmin etməyi xahiş etməli. "D" maddəsinə, Zaqafqaziya Xalq Komissarları Şurası müəyyənləşdirdiyi təqaüdün həcminə əsasən, Azərbaycan təqaüdçülərinin hər birinə, Ermənistan və Gürcüstanın nümunəsində olduğu kimi, əlavə 10 dollar göndərməli.

F) Berlində – tələbələrin Zaqafqaziya Bürosunun Azərbaycan Bölməsində xaricdə oxuyan tələbələrə yardım üçün 1.000 çervon manat həcmində özəl fond yaratmalı. Pulun xərclənməsini Zaqafqaziya nümayəndələri Pirumov və Əliyevin Tələbə Bürosu ilə birgə nəzarəti altında təşkil etməli.

G) Xalq Maarif Nəzarətinə xaricdə oxuyan təqaüdçü tələbələrə xaricdə oxuma vaxtının onların hər birinin akademik bacarığından, imkanından və dərslərinin lazımlılığından asılı olaraq oxuma müddətlərinin məhdudlaşdırıldığını təcili şəkildə xəbər vermək təklif edilsin.[3]

Buradan aydınlaşır ki, 1924-cü ilin aprelində sovet hakimiyyəti (Azərbaycan və Zaqfederasiya birlikdə) Cümhuriyyətin 100 təqaüdündən cəmi 68-ini saxlayıb, başqa sözlə, 32 təqaüd yeri ləğv edilib. Bu isə, əlbəttə, 32 tələbənin təqaüddən məhrum edilməsi deməkdir. Ancaq təqaüd verilməsi də hələ o demək deyildi ki, bu pula tələbələr ortabab yaşaya bilərdilər. Bizcə, Bəhram bəy Hüseynzadənin Berlindən – Şarlottenburqdan 23 sentyabr 1924-cü ildə əmisi Əli bəy Hüseynzadəyə yazdığı məktub Avropada oxuyan tələbələrimizin ümumi durumunu əyani şəkildə əks etdirir:

"...Borclarsa hər ay artmaqdadır. İlk vaxtlar mənə borc verənlər lütfkarlıqla heç nə deməzdən gözləyirdilər, ancaq axırda iş o yerə çatdı ki, onlar bütün səbirlərini lap itirdilər və məndən məhkəməyə şikayət etdilər. Bu ilin 30 sentyabrınadək borclarımı ödəməsəm (borcumun məbləği 300 qızıl markadır, təxminən 70 Amerika dolları edir) həbs edilə və buna görə də institutdan çıxarıla bilərəm. İndiyədək necə də olsa valideynlərimə umud bəsləyirdim, buna görə də Sizi rahatsız etmək istəmirdim, ancaq indi onlardan umudumu tam kəsmişəm və başqa çıxış yolum yoxdur. Məni bu durumdan qurtarmağı Sizdən xahiş etməyi qərara aldım. Sizdə bu qədər pul yoxdursa xahiş edirəm ki, mümkündürsə kimdənsə faizlə də varsa borc alın və mən elə ilk imkandaca onu qaytarmağa söz verirəm".[1]

1920-ci ildə Avropaya göndərilmiş Cümhuriyyət təqaüdçülərinin təhsili əsasən 1927-1930-cu illər arasında başa vurmasının başlıca səbəbini də bu cür ağır maddi vəziyyətlə izah etməyin daha ədalətli olacağını düşünürük.

"Yeni Kafkasya" özünün 19 təşrini-əvvəl 1340-cı il (19 oktyabr 1924-cü il) tarixli 2-ci sayında tələbələr mövzusuna yeni bir ciddi məqalə həsr edib. "Avropadakı Azərbaycan tələbələrinin vəziyyəti" adlı bu geniş məqalədə[2] tələbələrimizin durumu hərtərəfli işıqlandırılıb. İndiyədək tarixçilərimizin gözündən yayınmış bu yazının ən mühüm yerlərini aşağıda xülasə şəklində veririk:



Yeni Kafkasya, №2. 19 oktyabr 1924-cü il

Keçən ilin noyabrında Almaniyadakı Zaqafqaziya ticarət nümayəndəsi Pirumyansın təşəbbüsü ilə Avropadakı erməni, gürcü və Azərbaycan tələbələrinin bir ittifaqı yaradılmışdı. Gürcü hökumətinin xərci ilə 5-6, erməni hökumətinin adına və hesabına da 5-6 erməni tələbə qəbul edilmişdi. Bu 3 millətə mənsub müştərək Mərkəzi Tələbələr Bürosu da seçilmişdi. Hər millət muxtar olub, öz tələbə cəmiyyətinə malik olmaqla bərabər, istədiyi vaxt Zaqafqaziya Tələbələri İttifaqından çıxa bilirdi.

Tələbəlik işinə nəzarət etmək üçün üç kişilik bir komisyon təşkil edilmişdi. Komisyon rəisi Pirumyans (hakimi-mütləq), üzvləri isə müavini Aqaşvili (gürcü) və Azneft məmuru İbad Əliyevdən ibarət idi. Məlum olduğu kimi, ruslar Azərbaycana gəldiklərində Azərbaycanın daxili və xarici işlərinə qarışmayıb, tam mənasıyla Azərbaycan istiqlalına hörmət edəcəklərini vəd etmişdilər. Sonra isə yavaş-yavaş Azərbaycanın bütün hüququnu əldən alıb, ona maarif işlərində məhdud bir muxtariyyət vermişdilər. İndi isə əslində bir kölgə mahiyyətində olan bu maarif muxtariyyətinə də təcavüz edirlər. Söz olaraq qalan Azərbaycan hökuməti bir kişi də olsa İstanbula və yaxud Qərbi Avropaya yenidən tələbə göndərə bilməz, Azərbaycanın bir çox yerlərində idarə, müəssisə və məktəbləri türkləşdirmək səlahiyyəti olmaz. Azərbaycanın hal-hazırda siyasi istiqlalının deyil, maarif muxtariyyətinin belə olmadığını az-çox insaf, məntiq, vicdan sahibi olan kommunistlər belə inkar etmirlər.

[1] Sənəddə yanlış olaraq: "Əliağa".

[2] Zaqafqaziya Diyar Komitəsi.

[3] ARPİSSA, fond 1, siyahı 74, iş 136, vv. 1, 3, 17.

[1] S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 1, iş 242, vv. 12-13a.

[2] Avropadakı Azərbaycan tələbələrinin vəziyyəti. // *"Yeni Kafkasya"*, 19 təşrini-əvvəl (yanvar) 1340, sayı 2, ss. 7-8.

Keçən noyabrda Zaqafqaziya Tələbələr İttifaqı yaradılanda Avropada Azərbaycan şura hökuməti hesabına 75 azərbaycanlı tələbə təhsil edirdi və özlərinə məxsus müstəqil təşkilat və komitələri mövcud idi. Zaqafqaziya Tələbələr İttifaqı vücuda gətirildikdə tələbələrə təqaüd verilməsini də Zaqafqaziya Sovet hökuməti öz öhdəsinə götürmüşdü. Bu gün Zaqafqaziya hökuməti hesabına təhsil edən yalnız 36 azərbaycanlı tələbə mövcuddur. Azərbaycan tələbələrinin milli təşkilat və komitələri məhv edilib, bu haqda söz söyləmək istəyənlər əksinqilabçılıqda ittiham olunurlar. 900 üzvü olan rus tələbə təşkilatı ilə Zaqafqaziya Tələbələr İttifaqı birləşdikdən sonra azərbaycanı tələbələrin milli siması bu qələbəlik içərisində tamamilə yox olub.

Bu gün Azərbaycan tələbəsinin haqqı çeynənir. Öz hüququnu müdafiə etmək üçün onun nə milli bir cəmiyyəti və nə də milli cəmiyyət yaratmaq haqqı vardır. 10 ayın müddətində Zaqafqaziya Sovet hökuməti hesabına təhsil edən erməni tələbələrinin hesabı iyirmi, gürcülər isə qırxadək çoxalmışdır. Yeni yaradılmış Ümumrusiya Tələbələr Cəmiyyətinin nizamnaməsinə əsasən, bu cəmiyyətin Mərkəzi İcraiyyə Komitəsi Avropanın müxtəlif məmləkətlərində təhsil alan tələbələrdən "Cəmiyyətin ruhuna uyğun gəlməyən"lərini Cəmiyyətdən xaric və bu səbəblə hökumət təqaüdündən də məhrum edə bilir.

Bu Cəmiyyətə böyük məbləğlər verildiyi üçün istədiyi hər bir işi də icra edə bilir. Bu, işin zahiri tərəfidir, daxili isə tamam başqadır. Sovet hökumətindən təqaüd alan ermənilərin sayı azdırsa da bu avqustda keçirilən Zaqafqaziya tələbələrinə konfransdan sonra idarə səlahiyyəti büsbütün onların əlinə keçib, bütün tələbələrin müqəddəratı indi də erməni tələbələrin əlindədir.

Əvvəlcə də tələbələrə nəzarət edən xüsusi komisyonun rəyisi Pirumyans idi. O, tələbələrin yeganə ağası və diktatoru idi. Komisyonun digər iki üzvü onun əlində bir alət idilər. Bu komisyonun ikinci üzvü gürcü Oknaşvili Zaqafqaziya Tələbələr İttifaqının rus tələbə cəmiyyətinə birləməsi əleyhinə olduğundan, Pirumyans onu Moskvaya göndərib arxasından Siyasi İdarəyə teleqram göndərib ki, Oknaşvili rus siyasəti əleyhinə çalışdığından onu geri buraxmasınlar, buna görə də Oknaşvilini Moskvada saklamışlar və daha Berlinə buraxmırlar.

Pirumyans tam mənasıyla bir erməni daşnak siyasəti yürüdür. Bir tərəfdən, Türkiyədən qaçmış və Avropanın müxtəlif məmləkətlərində yaşayan ermənilər arasında təbliğat apararaq onlara sovet əsaslarını qəbul etdirərək hamısını Qafqaza göndərməyə çalışır, digər tərəfdən də istədiyi azərbaycanlı tələbəni hökumət təqaüdü siyahısından çıxararaq onların yerinə ermənileri təyin edir. Bunların nöqteyi-nəzərincə, ermənilər Rusiyasız Qafqazda yaşaya bilməzlər. Ruslar ağmı, qaramı, qırmızımı, nə olursa olsun, ermənilər onlarla daima müttəfiq olaraq işləməlidirlər. Pirumyans hər şeydən artıq erməni tələbələri arasında belə milli bir siyasət yürütməkdədir.

Ermənilərin böyük pulları var. Vyanada, Nyu-Yorkda qəzetləri çıxır. Avropa məmləkətlərində minə qədər tələbələri təhsil etməkdədir. Bunlardan bir neçə yüzü rəsmən Sovet əsaslarını qəbul eləyib. Erməni Paris Sülh Heyətinin rəisi Boğos Nübar paşa Almaniyadakı sovet əsaslarını qəbul edən erməni tələbə cəmiyyətinə üç yüz min (300.000) frank ianə edib.

Pirumyansın azərbaycanlı tələbələrə tətbiq etdiyi siyasətin davamını Almaniyada təhsil alan bir neçə azərbaycanlı kommunist Azərbaycanın ruslar tərəfindən istilası əsnasında [Əliheydər] Qarayevlər, [Hüseynov] Mirzə Davudlar, [Axundov] Ruhullalar və sairlərinin ifa etdikləri alçaq vəzifəni eynilə yerinə yetirir. Bunlardan bir neçəsi bir neçə ay sonra təhsillərini bitirib Azərbaycana qayıdacaq. Bunun üçün də çalışılar ki, ruslar, ermənilər

bunlardan məmnun olsunlar və kəndilərinə "malades" (afərin) desinlər. Azərbaycana döndükdə yüksək mövqelər tutmaq niyyəti ilə özlərini rusdan artıq rusçu göstərmək üçün konfranslar tərtib edib azərbaycanlı tələbələri təqaüdçülər siyahısından çıxarmaqla təhsillərinə mane olurlar, ancaq bu kommunistlərin arasında vicdan sahibi olanları da vardır. Məsələn, Pirumyans bundan 3 ay əvvəl Parisdə olduğu zaman bir azərbaycanlı kommunisti hüzuruna dəvət edib, "yoldaş, aranızdan çıxarılacaq əksinqilabçı və təhsilindən geri qalan tələbələrin adlarını söyləyiniz, bunun qarşılığında sizin əllərinizi açar, geniş səlahiyyət verərik" deyibsə də istədiyi cavabı ala bilməyib. Avqustda Berlində olan konfransda Pirumyansın nə demək istədiyini bu tələbə ondan soruşub.

Doğrudanmı azərbaycanlı tələbələr əksinqilabçıdırlar, bunları bu əksikləri üçünmü siyahıdan çıxarırlar? Yetmiş beş tələbədən ancaq otuz altısı qalıb. Xeyr, azərbaycanlı tələbələr siyasətçilikdən uzaq olaraq bir mütəxəssis sifətilə vətənə dönmək və çalışmaq məqsədi güdür, çünki həqiqi xilas və nicatın bu yolda olduğuna inanırlar. Ancaq məşhur qurdun "keçi, suyu bulandırırsan!" töhməti eynilə bunlara da şamil olub, maaşlarını kəsir, təhsillərini tamam etməyə mane olurlar. Avqust konfransının nəticəsi olaraq azərbaycanlı tələbələrin milli təşkilatları dağıdılıb, özləri rus tələbə təşkilatına qatılıb, Türkiyə ermənileri də bu müştərək cəmiyyətə qəbul olunub. Bu yeni cəmiyyətə istədikləri tələbəni hökumət təqaüdündən məhrum etmək haqqı verilib. Bu qərara əsasən, tələbələri "təmizləyərək" on bir Azərbaycan tələbəsini siyahıdan çıxarmışlar. Şu surətlə tələbələrin vəziyyəti çox fənalaşıb. Tələbələr arasında etimadsızlıq, yalan, böhtan, iftira, kim kiminlə görüşdü, nə danışdı, kim siyasi mühacirətlə əlaqədədir kimi casus axtarışları meydana gəlib. Kimsə özünün bir-iki aydan sonra əksinqilabçılıqda ittiham edilərək maaşının kəsiləcəyinə şübhə etmir. Bunlara tələbələr tərəfindən yazılan bir yığın məktub, teleqram və məqalələr əlavə olunursa o zaman vəziyyətin nə dərəcədə ağır olduğu anlaşılır, çünki istənilən tələbə ona təklif olunan bir şeyin yazılmasına razılaşmasa o saat əksinqilabçılıqda ittiham olunaraq siyahıdan çıxarılacaq".[1]

Məqalədə yazılanlar yalnız Pirumyansın deyil, bütövlükdə sovet hakimiyyətinin siyasətini əks etdirməkdədir, çünki Pirumyansın özü bu siyasətin gerçəkləşdirilməsində xırdaca bir vintcik idi.

1921-ci ildə Almaniyanın 9 şəhərində 49 azərbaycanlı tələbə təhsil almaqda idi. Onların bəziləri ölkəyə dönmək üçün ərizə vermişdi. Bununla bağlı olaraq Azərbaycan K(b)P Mərkəzi Komitəsi 24 oktyabr 1924-cü ildə 1339 saylı bir məktubla SSRİ Xalq Xarici İşlər Komissarlığından Berlində oxuyan Türk tələbələrin geri dönməsinə icazə verilməsini istədi. Çiçerin Əliheydər Qarayevə 25 noyabr tarixli 1261 saylı məktubunda bu tələbələrə geri dönüş izni çıxarıldığını xəbər verməkdə idi.[2] Ancaq geri dönənlər daha sonra sovet cəza düşərgələrinə göndəriləcəkdi.[3]

Üstündə Azərbaycan Tələbələri Birliyinin tərtib etdiyi göstərilən (yuxarıda gördüyümüz kimi, bu təşkilat 1925-ci ildə artıq mövcud deyildi), 1922-1925-ci illərdə oxumuş tələbələrin siyahısında 71 nəfərin adı qeyd edilib ki, onlardan 4-ü siyahıdan çıxarılıb (təqaüddən məhrum edilib), 2-si isə şərti qəbul edilib ("şərti qəbul"un məzmunu açıqlanmır).[4]

---

[1] Avropadakı Azərbaycan tələbələrinin vəziyyəti. // *"Yeni Kafkasya"*, 19 təşrini-əvvəl 1340, sayı 2, ss. 7-8.
[2] ARPİİSSA, fond 1, siyahı 85, iş 462, vərəq 57.
[3] *Qasımlı M.* Azerbaycan Türklerinin Milli Mücadele Tarihi (1920-1945). İstanbul, 2006, s. 357.
[4] ARDA, fond 57, siyahı 1, iş 276, vv. 62-63.

Sıra №	Soyadı və adı	Şəhər	İxtisas	İmtahan	Haçan bitirir	Mənşəyi
1	2	3	4	5	6	7
	Almaniyada					
1	Əbdürrəhmanov Cəfər	Berlin	Kimya	namizəd	1 il	kəndli
2	Ağasıbəyli Yusif	--	Elektr.	nam. verir	1,5 il	zadəgan
3	Abdinov Bəhram	Bonn	Kənd. təs.	namizəd	6 ay	kəndli
4	Əliyev Abbasmirzə	Berlin	Kommer. İns.	--	6 ay	məşşan
5	Əliyev Əşrəf	Frayberq	Dağ İnst.	--	1 il	--
6	Əliyev Firidun	Karlsrue	Elektr. Tex.	--	1,5 il	kəndli
7	Əliyev Əliəkbər	Berlin	Kənd Təs.	--	6 ay	məşşan
8	Axundov İsmayıl	Münxen	Tibb	--	2 il	--
9	Axund Zəki oğlu Səm[əndər]	Frayberq	Dağ İnst.	--	1 il	--
10	Əlimuradbəyli Cəmil	--	--	--	1,5 il	kəndli
11	Ağaoğlu Məhəmməd	Yena	Arxeologiya	--	2 il	məşşan
12	Ağaoğlu Qəmər xanım	--	Pedaq. İnst.	--	2 il	--
13	Hacızadə Mirzə	Berlin	Kənd Təs.	--	6 ay	--
14	Hacıyev Məhəmməd	--	Maşınqayır.	nam verir.	1,5 il	zadəgan
15	Həsənov Rzaqulu	Frayberq	Dağ İnst.	namizəd	1 il	kəndli
16	Hüseynzadə Bəhram	Darmştadt	Elektr.	--	1 il	zadəgan
17	Hüseynov Əlihüseyn	Rostok	Tibb	--	2 il	məşşan
18	Hüseynov Salman	Firtsburq	--	--	2 il	--
19	Zeynalov Behbud	Berlin	Yol müh.	Pasxayadək verir	2 il	--
20	Kazımov Cəfər	Frayberq	Dağ İnst.	namizəd	1,5 il	--
21	İsgəndərli Ağalar	Berlin	Kimya	--	1 il	--
22	Qədimi Lətif	Karlsrue	Yol müh.	--	1,5 il	--
23	Münşiyev Hilal	Berlin	Yol müh. Dağ böl.	nam. verir	2 il	--
24	Məmmədov Qəhrəman	--	--	--	2 il	--
25	Məmmədov Zal	Drezden	--	--	1,5 il	--
26	Məhəmmədov Hüseynbala	Bonn	Kənd Təs.	--	6 ay	kəndli
27	Məhəmməd Xəlil Həmid	Münxen	Tibb	--	2 il	--
28	Musai Cəmil	Berlin	Arxitek.	--	1,5 il	məşşan
29	Məlikov Səfvət	Karlsrue	--	--	2 il	zadəgan
30	Muğanlinski A[dil]	Leypsiq	Hüquq	--	6 ay	--
31	Mustafayev Ağahəsən	Berlin	Gəmiqayır.	apreldə verir	2 il	məşşan
32	Nağıyev Hüseyn	--	Kənd Təs.	namizəd	6 ay	--
33	Nuruyev Hacıağa	Qorlits	Maşınqayır.	nam. verir	1,5 il	--
34	Rəhimli Məhəmməd	Darmştadt	--	namizəd	1 il	kəndli
35	Rəhimzadə Abdul'a	Berlin	Elek. texn.	nam. verir	2 il	məşşan
36	Rzayev Nüsrət	--	Tibb	namizəd	1,5 il	--
37	Rzazadə İsgəndər	Darmştadt	Elek. texn.	Pasxada qurtarır, xəstələnib		
38	Pirverdiyev H[ənifə]	Berlin	Arxitek.	apreldə verir	1,5 il	məşşan
39	Seyidzadə Mirismayıl	--	Elek. texn.	namizəd	1 il	kəndli
40	Sadıqov Mirsadıq	Frayberq	Dağ İnst.	--	1,5 il	

1	2	3	4	5	6	7
41	Sultanov İsgəndər	Berlin	--	imtahan verir	2 il	zadəgan
42	Səfərov Məhiş	Darmştadt	Yol müh.	verməyib, xəstə	2 il	məşşan
43	Salahov Yusif	Münxen	Tibb	namizəd	2 il	--
44	Şahsuvarov Mürsəl	--	--	--	2 il	kəndli
45	Şahsuvarov Surxay	Frayberq	Dağ İnst.	--	1 il	--
46	Şeyxi Hüseyn	Darmştadt	Elektr.	--	1,5 il	--
47	Temirxan Murad	Karlsrue	Yol müh.	--	1,5 il	zadəgan
48	Xudaverdiyev Əli	Bonn	Kənd təs.	mayda verir	6 ay	--
49	Xiroman Zəkəriyyə	Karlsrue	Elektr.	namizəd	1,5 il	--
50	Əfəndiyev Abdulla	Manheym	Kommer İns.	mayda verir	6 ay	--
51	Əfəndiyev Məhəmmədəmin	Darmştadt	Yol müh.	namizəd	1 il	--
52	Aslanov Teymur	Kotbus	Toxuculuq	--	2 il	?[1]
53	Səfər[ov] Şamil	Koblents	Keram. məkt.	6 aylıq		?[2]
54	Musayev Xəlil	Münxen	Rəssam		1 il	?[3]
	Fransada					
1	Muradov Məhəmməd	Paris	Tibb	imtahanların bir hissəsi	2 il	məşşan
2	Muradov Abbas	--	--	--	2 il	--
3	Hüseyn[bəy]ov Zeynal[abdin]	--	--	--	2 il	--
4	Mustafayev Mustafa	--	Elektr.		2 il	--
5	Nərimanbəyov Yaqub	--	--		2 il	--
6	Cavanşir Əbdülhəmid	--	Kənd təs.	imtahanların bir hissəsi	1 il	--
7	Hacıyev Bayram	--	İqtisad.		5 ay	--
	Şərti qəbul edilənlər:					
1	Bosnalızadə Rəşid	Paris	Hüquq		6 ay	
2	Mirqasımov Abdin	--	--		6 ay	
	Siyahıdan çıxarılanlar:					
1	Vəzirov Aslan					
2	Şahnəzərov Əhməd					
3	Vəkilov Mustafa					
4	Ağayev [Bala]ağa	Paris	Tibb			
	İtaliyada					
1	Əliyev Zeynal	Perucia	Heykəltaraş		6 ay	məşşan
	İstanbulda:					
1	Xələfov Məhəmməd					
2	Tağıyev Əbdürrəhman					
3	Əmin Abid					

[1] Vərəqin bu hissəsi cırıldığı üçün mənşəyi ilə bağlı qeyd oxunmadı.
[2] Vərəqin bu hissəsi cırıldığı üçün mənşəyi ilə bağlı qeyd oxunmadı.
[3] Vərəqin bu hissəsi cırıldığı üçün mənşəyi ilə bağlı qeyd oxunmadı.

Təqdim edilən siyahıda diqqəti çəkən bir neçə məqam var. Hər şeydən öncə, burada tələbələrin yalnız 1925-ci ildəki deyil, 1922-1925-ci illər arasındakı siyahısı verilib. Bu üzdən də 1925-ci ildə dövlət təqaüdü alanların, "Yeni Kafkasya"da deyildiyi kimi, 36 nəfər qalıb-qalmadığını dəqiqləşdirmək olmur.

İkincisi, burada tələbələrin sinfi baxımdan bölündüyü, "kəndli", "meşşan", "zadəgan" deyə təsnifləndiyi göz önündədir. Bu qədər adamın içərisində cəmi 6 zadəgan təmsilçisinin olması o dönəmin səciyyəvi xüsusiyyətidir. Deməli, "yox edilmiş" tələbələr də məhz bolşeviklərin sevmədiyi həmin zadəgan, "xan-bəy övladları"dır.

Üçüncü gözəçarpan cəhət buradakı yeni adlardır. Almaniyada oxuyan Məhəmməd Ağaoğlu, Qəmər xanım Ağaoğlu, Səfvət Məlikov, Hacıağa Nuruyev, Şamil Səfərov, Xəlil Musayev və Türkiyədə oxuyan Əbdürrəhman Tağıyevlə Əmin Abid (8 nəfər) "100 tələbə"dən qalanların üzərinə sovet dönəmində gəlib.

İndiyədək olan siyahılardan və başqa sənədlərdən gördüyümüz kimi, Cümhuriyyət hökumətinin niyyətlərinin əksinə olaraq, İngiltərə və İsveçrə dövlətləri bir nəfər də tələbəmizi qəbul etmədi. İsveçrə hətta tələbələrin onun ərazisindən keçib getməsinə belə icazə vermədi. Bu üzdən də tələbələrimiz əsasən Almaniya, Fransa və İtaliyada yerləşdi. Az sonra Cümhuriyyətin yıxılması, yeni hakimiyyətin tələbələrə ögey münasibəti və Fransada bahalığın Almaniyaya nisbətən iki dəfədən artıq olması "fransızlar"ın da Almaniyaya gələrək bu ölkənin ali məktəblərində oxuması ilə nəticələndi. Beləliklə, 1920-ci illərin ortasında Azərbaycan tələbələrinin təxminən üçdə ikisi artıq Almaniyada toplaşmışdı. Bəs bu dönəmdə onların durumu necə idi? Bizcə, bu suala Ə.Uranın[1] 1928-ci ildə *"Azəri Türk"* dərgisində çıxmış *"Almaniyada azəri tələbəsinin vəziyyəti"* adlı məqaləsi[2] ən doğru və ən geniş cavabı verib.

Ərəb qrafikasında olan bu yazı ilə çağdaş oxucumuzun tanışlıq imkanı hədsiz məhdud olduğuna görə onun başlıca yerlərini dilini sadələşdirməklə təqdim edirik:

"...Sakit, rifahlı və fəal həyat sürən azərbaycanlı tələbələrin təhsili Azərbaycan Cümhuriyyətinin süqutu ilə çox acı bir şəkil aldı. Milli hökumət süqut etdi. Daxili iğtişaşlar və pul köçürmələrinin və sükunətin qaydaya salına bilməməsi zavallı tələbələrin həyatına təsir göstərdi. Ac və çıplaq sürünməyə başladılar. İllərcə davam edən həsrət dövrü bir parça çörək qazanmaq üçün bir çoxlarını ən aşağı məmuriyyətdə çalışmağa, hətta vapurlarda[3] kömürçülük, fəhləlik etməyə sövq etdi. Təbii, bu üzdən tələbələr vaxtında təhsillərini bitirə bilmədilər.

Bir qədər sonra bolşevik Azərbaycanın milli Azərbaycanın tələbələrinə yardım etməyə qərar verdi. Fəqət rus müstəmləkəsindən başqa bir şey olmayan bu bolşevik Azərbaycanın yardımı tələbələrin əzmini təbdil edə bilməzdi. Onlar üçün yeni bir dövrə açılmışdır. Əvvəlcə özünün milli varlıqlarını, təşkil etdikləri Azərbaycan Türk Tələbə Cəmiyyəti vasitəsilə isbat etdikləri halda, indi tamamilə qapadıldı və müqabilində Ümumi Qafqaz Tələbə Cəmiyyəti vücuda gəldi ki, bu cəmiyyətin məqsədi və hədəfi tədricən azərbaycanlıları təhsildən məhrum etmək idi. Əksəriyyəti azərbaycanlılar təşkil etdiyi halda, indiyə qədər bu cəmiyyətin məsul bir vəzifəsi bir azərbaycanlıya müyəssər olmamışdır. Daima idarə heyəti Türkiyədən fərar edən ermənilərin və Rusiya yəhudilərinin ixtiyarına verilmişdir. Hər bir haqq onlara aiddir".

[1] Bu gizli imzanın Məhəmmədsadıq Arana məxsus olduğunu güman edirik.

[2] *"Azəri Türk"* dərgisi, 1928, sayı 11, ss. 9-10.

[3] Kiçik gəmilərdə, paroxodlarda.

"Yeni üsuli-idarə ilə yeni həyat başladı. Azərbaycanlı tələbələr artıq həftədə 3 gecə saat 8-dən 1-ə qədər (bəzən isə səhər saat 3-ə qədər) bu cəmiyyəti ziyarətə məcbur idi. Bolşeviklərə xas danışmaq, boşbağazlıq dövrü meydana çıxmışdı. Proletar mövzusu elm mövzusundan daha öndə idi. Hər qafqazlı bu cəmiyyətə sanki vergi verən kimi davama məcbur idi. İşdir bir Türk azərbaycanlı buraya iki-üç dəfə gəlməzsə dərhal "xainlər"dən və müsavatçılardan sayılırdı, fövqəladə yığıncaqlar çağırılır, məhkəmələr qurulur və zavallı azərbaycanlı Türkün birisi maddi yardımdan məhrum qalırdı. Bu qədər deyə bilərəm ki, düşüncə sərbəstliyi adına bir məfhum qalmamışdı. Bir aralıq azərbaycanlı Türklər bir-biri ilə küçədə qarşılaşırkən görüşməz və danışmazdı. İşdir bir məsələ ətrafında danışmaq lazım gəlirsə o zaman rusca mükaliməni üstün tutardı, çünki türkcə danışmaq bolşevik ağalarının məmnun qalmamasına səbəb ola bilirdi. İstanbul ləhcəsində danışmaq isə qeyri-qabil bir xətadan sayılırdı. "Türk klubu"nu ziyarət etmək Ümumi Qafqaz Tələbə Cəmiyyətinin qərarına əsasən yasaq olduğu kimi, Anadolu Türküylə görüşmək də şiddətlə cəzalandırılırdı. Təbii, bu kimi tədbirlər idarə heyətini tutmuş Türkiyə ermənilərinin və yəhudilərin şah əsəri idi. Qərarı gözardı edən azərbaycanlı təhsildən məhrum edilərək səfalətə məhkum idi. Zatən məsələnin mahiyyəti azərbaycanlıları sıxışdırmaq və sanki intiqam almaq idi. Bunun üçün isə kiçicik bir bəhanə lazım idi".

"Bolşevik idarəsinin quruluşundan bir az sonra təmizləmə əməliyyatı başlanıldı. Bu gün iki azərbaycanlı müsavatçılıq, sabah ikisi əksinqilabçılıq, bir neçə gün sonra milliyyətçilik kimi ləqəblə damğalanaraq tədricən azərbaycanlı tələbələrin yerləri boşalmağa başladı. Burada qeyd edim ki, "ləqəb" axtarmaqda bolşeviklər qədər mahir kimsə yoxdur. Boşalan yerlərə isə yeni tələbə qəbul edildi, fəqət bu yeni tələbələr kimdir? Bunu da anlamaq və kəsdirmək müşkül deyildir. Həqiqi azərbaycanlı tələbəsi üçün "pul yoxdur" deyən bu xain idarə heyəti daşnak fırqəsinə mənsub Türkiyə ermənilərindən Vyanada bolşeviklər əleyhinə qəzet çıxaran Zoryanı azərbaycanlı bir tələbə olaraq öz arasına almışdır. Zavallı azərbaycanlı analarının kökslərindən altunları çalınaraq ermənilərin təhsilinə sərf edilir və bir müddət sonra [həmin ermənilər] azərbaycanlı Türklərinin ağası olaraq Azərbaycana göndərilir. [...] Gəncə erməni kəşişi olan Mikaelyanın oğlu bütün ömrünü Azərbaycanda keçirdiyi halda, Gürcüstan hökuməti təhsəsi olaraq Almaniyaya təhsil üçün göndərilmiş və bu gün min marka təqaüd alaraq Almaniyada rifahlı həyat sürməkdədir, halbuki Azərbaycan və Gürcüstan tələbəsinə "pul yoxdur" deyilir".

"Belə bir anarxiya içərisindəki məhrum azərbaycanlı tələbələri göz önünə gətirərkən nə qədər dərin acı hiss etdiyimizi düşünün. Kimsəsiz və mərhəmətə möhtac olan bu Türklərə yardım etmək hər bir Türkün öhdəsinə düşən vicdani bir vəzifədir – [onlar] təhsillərini bitirməyə bir neçə ay qaldığı halda, təhsildən məhrum olmaq kimi fəlakət qarşısındadırlar".

"Berlin Türkiyə Cümhuriyyəti Böyükelçisi möhtərəm Kəmaləddin Sami paşa həzrətləri öz rəyasətindəki "Türk klubu" vasitəsilə bəzi azərbaycanlı tələbələrinə yardımda bulunmaq nəcabətini göstərdilər və bununla iki gənci ölümdən xilas etdilər. Bəzi yardımlar Almaniya hökuməti tərəfindən də göstərilmişdir. Darmştadtda iki azərbaycanlı tələbənin iaşəsini hökumət pulsuz təmin edib. Berlin Aleksandr fon Humboldt Xeyriyyə Cəmiyyəti də bir-iki azərbaycanlıya aylıq təqaüd verirdi. Məzkur cəmiyyətin müdiri doktor Koppel hər bir müraciətdə azərbaycanlılara qarşı olduqca hörmət göstərmişdir".[1]

[1] *"Azəri Türk"* dərgisi, 1928, sayı 11, ss. 9-10.

Doğrudur, elə bu yazı tələbələrin acınacaqlı durumunu təsəvvür etmək üçün yetərlidir, ancaq bunun yazarı qıraqdandır – tələbə deyil. İndisə tələbənin özünün yazdığı ilə tanış olaq. Almaniyada – Darmştadtda oxuyan Bəhram bəy Hüseynzadənin 14 sentyabr 1925-ci ildə bu şəhərdən əmisi Əli bəy Hüseynzadəyə yazdığı məktub maddi sıxıntıların tələbələrdə necə ciddi ruhi-psixoloji sarsıntı ilə nəticələndiyinə sübutdur. Bəhram bəy yazır:

"Başıma gözlənilməz bir iş gəlməzsə yazda institutu bitirib yanınıza gəlməyi düşünürəm. O zamanadək məni heç olmazsa mənəvi yardımsız qoymayacağınıza umudvaram. Təkcə məktublarınızın mənə nə qədər güc, enerji verdiyini təsəvvür edə bilməzsiniz. Bunsuz da adam kütləşir, hər şeyə laqeyd olur və heç nəyə həvəsi qalmır. Buna görə valideynlərimi çox qınayıram – onlar indiyədək ya uzaqda olduqlarından, ya da mənə bəlli olmayan səbəblərdən Avropaya gəldiyim zaman məndə olan coşğunluq və həvəsi dəstəkləmədilər. Deyə bilərsiniz ki, sən uşaq deyilsən, şüurlu adamsan. Bəli, ancaq özəlliklə biz şərqlilərə təkcə şüurluluq kifayət etmir. Bəlkə də Siz mənim vətənsevərliyimə, vətənə və millətə sevgimə istinad edəcəksiniz, ancaq mən, düzünü desəm, ümumiyyətlə, buna şübhələnirəm – mənim vətənim, millətim varmı? Özəlliklə burada, Avropada hər addımda heç nəyinin olmadığına inanırsan. Nəhayət, özünü aldatmaqla məşğul olursan, bəşəriyyətin rifahı və tərəqqisi üçün çalışdığına inandırırsan. Ancaq tezliklə bu ideallar da üfüqdə əriyib gedir, çünki həmin bəşəriyyət birbirini qanda boğaraq sırf cismani mövcudluq üçün bir-birini gəmirir. Beləliklə, inanırsan ki, bütün həyat mübarizədir, yerdə qalan hər şeysə bu mübarizənin üsullarıdır və istər-istəməz özündən soruşursan ki, bu həyatdan ötrü bu qədər mübarizə aparmağa dəyərmi?..".[1]

Boynumuza alaq ki, bunlar həyatın çətinliklərindən bezmiş, vətənindən də, millətindən də, ailəsindən də bərk incimiş və intiharın cəmi bir addımlığına gəlib çatmış insanın düşüncələridir. Və bunun üstündə əsla həmin şəxsin özünü suçlamaq olmaz, çünki o, Avropaya "coşğunluq və həvəslə" gəlmişdi, ancaq onu maddi və mənəvi baxımdan dəstəkləməyə borclu olan dövlət və toplum öz vəzifəsini yerinə yetirmədi – axı bu dövlət və toplum artıq onun mənafeyinin təmsilçisi deyildi!..

Soruşula bilər ki, bəs bu sarsıntı sədlərini də aşaraq ali təhsilini zor-xoş başa vuran tələbələrimiz əllərinə diplom aldıqdan sonra necə yaşadılar?

Azərbaycana qayıtmış məzunlar 1937-ci ildək bütün başqa sovet ziyalıları kimi dolanıblar, ancaq "Şura hökuməti"nin, özünə düşmən sayaraq təqaüd verməkdən imtina etdiyi "əksinqilabçı" tələbələr məzun olduqdan sonra, oxuduqları ölkədə qalıb yaşamağa, ən yaxşı halda isə qardaş Türkiyəyə sığınmağa məcbur olublar. Doğrudur, 1920-ci illərdə Türkiyədə də iqtisadi durum çox ağırdı – ölkə xarici işğalçılardan yenicə təmizlənmişdi, hər yan müharibənin xarabalıqları içərisində idi. Belə bir zamanda yüksək maaş gözləməyin özü də insafsızlıq olardı. İşsizliyin, bahalığın hökm sürdüyü Avropada isə vətəndaşlığı olmayan əcnəbi mütəxəssislərə ehtiyac yoxdu. Dünənki tələbələr dövlət təqaüdüylə ölüm-zülüm də olsa dolanırdı, ancaq o, məzun olub təqaüdü tam kəsilincə əl-ayaqları yerdən üzüldü – ali təhsilli mütəxəssis tələbəlikdə olduğu kimi yenə də qara işlər görməyə məhkum edildi. Doğrudur, tələbə olduqları vaxt buna birtəhər dözürdülər, ancaq Avropada universitet bitirərək diplom almış bir kişinin bu həqarətə tab gətirməsi olduqca çətindi. Yadlar əlindəki ana vətəninin üz döndərdiyi bu övladların faciəli xəbərləri bir-birinin ardınca gəlməyə başladı...

[1] S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 1, iş 242, vv. 14-15a.

"Yeni Kafkasya" dərgisinin 15 mayıs 1341-ci (15 may 1925-ci) il tarixli 16-cı sayında çıxmış "Müəssəf bir irtihal"[1] başlıqlı yazıda Parisdə oxuyan, ehtiyac içərisində yaşamaqdan vərəm xəstəliyinə tutularaq dünyasını dəyişmiş tələbə Miri bəy Vəzirzadənin (Vəzirovun) faciəsindən danışılır. Dilini sadələşdirdiyimiz xəbərdə oxuyuruq:

"Son poçt ilə Parisdən təəssüflü bir xəbər aldıq. Azərbaycan gənclərindən və Paris Siyasi Elmlər Məktəbi məzunlarından Vəzirzadə Miri bəy mübtəla olduğu vərəm xəstəliyindən sağalmayaraq aylardan bəri çəkdiyi iztirab nəticəsində əbədiyyət evinə köçmüşdür. Vətənindən uzaq hüzünlü bir şəkildə vəfat edən Miri Azərbaycanın əməlpərvər gənclərindən idi. O, gənc yaşında Azərbaycan istiqlal hərəkatında olduğu kimi, Türküstan milli hərəkatında da iştirak eləmiş ruhlu bir gənc idi. Siyasi Elmlər Məktəbini müvəffəqiyyətlə bitirmiş, fəqət mühacirət həyatının ehtiyacları içində yaxalandığı vərəm ona aman verməmişdir. Bu itki onu tanıyan bütün vətəndaşlarını mütəəssir və qəmgin etmişdir. Yaxınlarına təsəlli veririk".[2]

Bu itkinin nə qədər ağır olduğunu təsəvvür etmək üçün bircə faktı xatırladaq – Miri bəy *diplomatiya* ixtisası üzrə diplom almışdı! O zaman Azərbaycanın neçə ali təhsilli diplomatı vardı ki?!. Kommunistlər onu özlərinə düşmən elan etməsəydilər o da Vətənə dönər, xalqına sədaqətlə xidmət edərdi. Heyhat!

Növbəti itki daha ürəkgöynədəndir. Miri bəyi vərəm həlak etmişdisə Mirzeynalabdin Mirqasımov (Abdin Mirqasım) yaşadığı mühitə dözməyərək özü özünə əl qaldırmışdı. Bu haqda "Odlu Yurd" dərgisinin 1929-cu ilin aprel ayında çıxmış 2-ci sayında iki yazı gedib. Birinci yazının müəllifi dərginin redaktoru Məhəmmədəmin Rəsulzadədir. "Abdin Mirqasım" adlı nekroloq belə başlayır:

"Paris poçtu bəd xəbər gətirdi: Abdin Mirqasım öz həyatına qıyıb!

Buna kim inanırdı? Kim inanırdı ki, Abdin kimi sakit, bütün koloniya arasında nəzakət, iffət və səlaməti-nəfs ilə tanınan Abdin günün birində sadə otağının içində qanına qəltan olaraq bulunsun?!..". Daha sonra Məhəmmədəmin bəy Abdin bəyi və ailəsini uşaqlıqdan tanıdığını, onunla bir məktəbdə oxuduğunu xatırladaraq, onu namuslu, şərəfli, çalışqan, təvazökar, çoxlu dillər bilən və qiymətli bir insan kimi səciyyələndirir, əqidəcə "səmimi bir demokrat, milliyətçi və istiqlalçı" olduğunu, Azərbaycanın milli davasında çarpışdığını, bir il öncə Müsavat Partiyasına girdiyini deyir, onun "Odlu Yurd", "Yeni Kafkasya", "Azəri Türk", "Azərbaycan" və "Promete" dərgilərində çalışdığını qeyd edir, bolşevik istilasından sonra Avropadan Bakıya döndüyünü və oradan təkrar Avropaya gələrək bolşevik zülmü haqqında qələmə aldığı yazının "Azərbaycan tarixinin bu dövrünə aid vəsiqələrdən biri" olduğunu bəyan edir. M.Rəsulzadə bu son dərəcə ağrılı yazısına belə bir cümlə ilə yekun vurur: *"Bir münəvvər, bir mühərrir, bir mütərcim, bir vətənsevən, bir məsləkdaş və nəhayət, bir arkadaşın bu aqibəti qarşısında bizə təsəlli verən şey yalnız fərdlərə nisbətlə daha baqi və ölməz bulunan qayənin, milli davanın yaşayacağı və müzəffər olacağıdır. Yazıq ki, Abdin bu günü görmədən getdi"*.[3]

"Odlu Yurd"un həmin sayındakı ikinci yazı isə imzasız bir xəbərdir. "Əsəfli bir irtihal" ("Təəssüflü bir ölüm") başlıqlı bu xəbər "Azərbaycan münəvvərlərindən Parisdə oturan Abdin Mirqasım bəy keçirdiyi bir böhran nəticəsində kəndinə qıyaraq fəci bir surətdə

[1] Təəssüflü bir ölüm.

[2] *"Yeni Kafkasya"*, 15 mayıs 1341, sayı 16, s. 14.

[3] *"Odlu Yurt"*, 1929, №2, s. 60.

tərki-həyat etmişdir" cümləsi ilə başlayır. Sonra Abdin bəyin qısa tərcümeyi-halı gəlir. Onun Bakının məşhur və şərəfli seyid ailəsindən olduğu, təhsili, dillərə bələdliyi, mətbuatda iştirakı haqqında məlumat verilir. Xəbər bu cümlələrlə bitir:

"42-43 yaşlarında, məmləkətə daha çox faydaları dəyəcəyi bir çağda ikən fəci surətdə dünyadan köçən vətəndaşın dəfni ilə Parisdə mövcud Azərbaycan Cəmiyyəti-xeyriyyəsi məşğul olmuş və bütün Azərbaycan koloniyası cənazə törənində iştirak eləmiş və son hörmət borclarını ödəmişlər. Azərbaycanlılardan başqa, dəfn mərasiminə qafqazlı və ukraynalı mühacir koloniyalarından da gələnlər varmış".[1]

Bura qədər tanış olduğumuz bütün bəlgələr açıq-aydın göstərir ki, "100 tələbə"nin həyatı çox ağır keçib. Buna baxmayaraq onların əksərinin təhsili uğurla başa vurması və öz sahəsinin dəyərli bir mütəxəssisi olmağı bacarması gerçəkdən qürurverici bir haldır.

Vətəndaşlarımız "100 tələbə"dən neçəsinin ali təhsilini bitirdikdən sonra Azərbaycana qayıtdığı və sonrakı taleyinin necə olması ilə çox maraqlanır. Bu haqda müxtəlif qaynaqlarda müxtəlif bilgilər var.

Oxumağa göndərilmiş tələbələrin yarıdan çoxu Vətənə dönüb, ancaq kommunist-sovet hakimiyyəti onların böyük qisminə mütəxəssis kimi etibar edərək öz ixtisasına uyğun iş verməyib. Buna görə də bir çoxu yalnız orta və ali məktəblərdə xarici dil müəllimi, yaxud ikinci dərəcəli başqa bir peşə üzrə işləməyə məcbur olub. İxtisas üzrə işləyənlər əsasən neft sənayesinə cəlb edilmiş mühəndislər və bir də ölkədə kəskin çatışmazlığı duyulan həkimlərdir.

MTN arxivi üzrə tanınmış mütəxəssis, filologiya elmləri doktoru Məmməd Cəfərli çox maraqlı bir sənəd haqqında məlumat verir: "AzSSR XDİK-nın onun başçısı Sumbatov və Xüsusi Şöbənin rəisi Avanesyan tərəfindən təsdiqlənmiş "AzSSR-də 1935-ci ildə Almaniya kəşfiyyatı ilə mübarizə haqqında" hesabatında qabaqlar Almaniyada oxumuş və işləmiş azərbaycanlılara həsr edilən "Gestaponun Bakı agentlərinin işi" adı altında xüsusi bölmə var".[2]

Qayıdanların yalnız bir neçəsi 1937-1941-ci illər arasındakı repressiyalardan xilas ola bilib.Yerdə qalanlar ya uzun müddətli həbsə məhkum edilərək Sibirə, Şimali Qazaxıstana və Orta Asiyanın başqa respublikalarına sürgün ediliblər, ya da "Vətən xaini" və "xalq düşməni" elan edilərək güllələniblər.

MTN arxivindəki istintaq sənədlərini incəliklə araşdırmış filologiya elmləri doktoru Məmməd Cəfərli yazır: "Repressiyaya uğramışların arxiv materiallarının təhlili göstərir ki, 30-cu illərdə bu və ya başqa dərəcədə Almaniya ilə bağlı olan, yaxud Azərbaycanda alman millətindən bircə nəfərlə də tanış olan respublika vətəndaşları yadfikirlilikdə və casusluqda şübhəli bilinirdilər. Bütün istintaq işlərində ADC illərində Almaniyaya oxumağa göndərilmək XDİK qeydlərində bir cinayət kimi səslənirdi: "Müsavat hökuməti tərəfindən Almaniyaya oxumağa göndərilib".[3] İş burasındadır ki, xaricdə oxuyanların bir çoxu alman (Fransada oxuyanlar isə fransız) qızları ilə evlənərək onları özləri ilə bərabər Azərbaycana gətirmişdilər. Onların ittiham edilməsində bu amil də öz rolunu oynayıb.

[1] *"Odlu Yurt"*, 1929, №2, s. 77.
[2] *Джафарлы М.* Политический террор и судьбы азербайджанских немцев, s. 50.
[3] Yenə orada, s. 51.

Burasını dəqiq bilməliyik ki, humanitar sahələrdə çalışanlar, yaxud yolu haradasa siyasətlə kəsişənlər əsasən 1937-1938-ci illərdə repressiya olunub. Ancaq siyasətdən tamamilə uzaq olanlar, yaxud heç bir siyasi prosesə qarışmaq istəmədiyinə görə 1937-38 qırğınından birtəhər salamat çıxanlar isə 1941-ci ildə müharibə yenicə başlayarkən "arzuolunmaz şəxslər" kimi, oxuduqları xarici dövlətlərin casusu elan edilərək repressiyaya uğrayıblar. Bircə örnək.

Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Nazirliyi 14 oktyabr 1949-cu ildə DTN Aşqabad vilayət idarəsinə yazdığı 11492 saylı məktubunda Surxay Şahsuvarov haqqında belə bir arayış verib ki, o, "Müsavat hökumətinin Almaniyaya göndərdiyi tələbələrlə birgə Frayberq Dağ-Mədən Akademiyasında Əlimuradbəyli və başqaları ilə birlikdə oxuyub. Agentura bilgilərinə görə, onun Almaniyada davranışı başqa tələbələrinkindən kəskin fərqlənib – tələbələrlə mübahisədə o, sovet ideyalarını müdafiə edib... Arzuolunmaz ünsür kimi 1942-ci ildə Bakıdan sürgün edilib".[1] Fikir verin – dövlət dəqiq bilir ki, adam nəinki ona qarşı olmayıb, əksinə, onu müdafiə edib, ancaq onu oxumağa Müsavat hökuməti göndərdiyinə və Almaniyada oxuduğuna görə o da "arzuolunmaz ünsür"dür və mütləq sürgün edilməlidir!..

İndi isə oxucularımızı repressiyaya uğramış Cümhuriyyət tələbələrinin siyahısı ilə tanış edirik:

1. Ağasıbəyli Yusif bəy
2. Axundzadə Səməndər
3. Aslanov Teymur bəy
4. Cavanşir Əbdülhəmid bəy
5. Cəfərov Əliyusif
6. Dagirov Zaur bəy
7. Dursunzadə Məhəmmədzəki
8. Əbdülzadə Əbdül
9. Əlimuradbəyli Cəmil bəy[2]
10. Əliyev Abbas(mirzə)
11. Əliyev Əşrəf
12. Əliyev Firidun
13. Həsənov Rzaqulu
14. Hüseynbəyov Zeynalabdin bəy
15. Hüseynzadə Bəhram bəy
16. Kazımov Cəfər
17. Kərimov Əli
18. Qədimi Lətif
19. Mahmudov (Xələfbəyov) Məhəmmədəli bəy
20. Məmmədov Qəhrəman
21. Muğanlı Əsildar bəy[3]
22. Mustafayev Ağacəfər
23. Nağıyev Hüseyn

[1] AR MTN Arxivi, PR-18702, II cild. Sənəd səhifələnməyib.
[2] 1937-ci və 1949-cu illərdə 2 dəfə həbs edilib.
[3] 1933-cü və 1935-ci illərdə 2 dəfə həbs edilib.

24. Nərimanbəyov Fərman bəy
25. Pirverdiyev Hənifə
26. Rəcəbli Əhməd[1]
27. Rəhimli Məhəmməd
28. Rəhimzadə Abdulla
29. Rzayev Tağı
30. Rzazadə İsgəndər
31. Sadıqov Mirsadıq
32. Səfərov Məhiş
33. Sultanov İsgəndər bəy
34. Şahnəzərov Əhmədhacı
35. Şahsuvarlı Mürsəl bəy
36. Şahsuvarov Surxay bəy
37. Şeyxzaman İsaq bəy
38. Tahirzadə Abdulla
39. Vəkilov Mustafa ağa
40. Yusifzadə (Ağa)əli
41. Zeynallı Hənəfi.

Bunların hamısı Türkiyə və Qərbi Avropada oxumuş tələbələrdir. Rusiyaya gedəsi 13 tələbədən də ikisi – *Əmircanov Əliyar bəy* və *Sultanov Baxış bəy* repressiyaya uğrayanlar arasındadır. Bunların bəziləri güllələnib, bəziləri isə ya Sibir buzlaqlarına, ya da Orta Asiya cəhənnəminə gedərgəlməz sürgünlərə göndərilib. Sürgündən möcüzə nəticəsində sağ qayıdanlara Azərbaycanın mərkəzi şəhərlərində (Bakı, Gəncə, Sumqayıt və b.) yaşamaq uzun müddət qadağan edilib, ona görə də onlar ucqarlarda yaşayaraq çalışmalı olublar. Bu tələbələrin, demək olar ki, hamısı cəzaçəkmə yerindən ciddi xəstəliklərlə döndüyünə görə çox keçmədən həyatla vidalaşıb.

Oxucularımızı, əlbəttə, ümumən nə qədər tələbənin Vətənə döndüyü də maraqlandırır (bunu şəxsi söhbətlərimizdə bizə verilmiş çoxsaylı suallardan bilirik). Bəllidir ki, 102 tələbədən 13-ü (Ukrayna və Rusiyaya gedəsilər) yolların açılmasını gözləyə-gözləyə Azərbaycanda qalmışdı, buna görə də onları qayıdanların ümumi sayına qatmırıq. Deməli, Türkiyə və Qərbi Avropada üst-üstə 89 Cümhuriyyət tələbəsi oxuyub. Onlardan Azərbaycana dönənlər, ancaq repressiya maşınından yaxasını qurtarmağı bacaranlar aşağıdakılardır:

42. Abdinov Bəhram bəy
43. Axundov Əjdər bəy
44. Axundov İsmayıl
45. Cabbarov Əliəkbər
46. Əliyev Əliəkbər
47. Hacıyev Xasfolad bəy
48. Xudaverdiyev Əlibala
49. Məmmədli Zal
50. Musai Cəmil

[1] 2 dəfə həbs olunub.

51. Mustafayev Ağahəsən
52. Mustafayev Mustafa
53. Rəhimov Cəbrayıl
54. Vəliyev İsgəndər
55. Vəzirzadə Aslan bəy
56. Zeynalov Behbudəli.

Buradan aydın olur ki, Türkiyə və Qərbi Avropada oxumuş 89 Cümhuriyyət tələbəsindən yalnız 56-sı Azərbaycana dönüb və onların da 41-i repressiyaya məruz qalıb. Ancaq yerdə qalan 15 nəfəri "repressiya maşınından yaxasını qurtarmağı bacaranlar" adlandırsaq da bu fikrin özü də şərtidir, çünki biz bu müddəanı yalnız MTN Arxivindən aldığımız cavaba əsasən irəli sürmüşük. İş burasındadır ki, bəzən adam repressiya olunsa belə onun cinayət işi nə qədər ciddi axtarılsa belə arxivdə tapılmır. Şəxsi təcrübəmizdən bilirik ki, uzun müddət axtarılan sənədlər əsla gözlənilmədən başqa sənədlərin arasında adamın qarşısına çıxır. Bu, demək olar ki, bütün arxivlər üçün səciyyəvi haldır, ona görə də 15 nəfərdən də bir neçəsinin repressiya olunduğunu ehtimal edirik.

Burada bir məsələni də dəqiqləşdirməyə ehtiyac duyuruq. Təhsilini başa vurduqdan sonra ata ocağına qayıtmış 56 nəfərdən başqa, 6 nəfər də yurda dönüb, ancaq bir neçə ildən sonra kommunist rejiminin zülmünə dözməyərək ölkəni tərk etməyə və ömrünü mühacirətdə keçirməyə məcbur olub. Onların ad-soyadları:

1. Əfəndiyev Məhəmmədəmin
2. Əşrəfov İsrafil
3. Salahlı Yusif[1]
4. Seyidzadə Mirismayıl (İsmayıl Saryal)[2]
5. Şıxıyev Hüseyn[3]
6. Temirxanov Murad bəy[4].

M.Əfəndiyev, M.Seyidzadə və H.Şıxıyev Bakıya qayıdaraq burada 3-4 il mühəndis işlədikdən sonra 1929-cu ilin payızında birlikdə öncə Güney Azərbaycana, sonra Türkiyəyə gizlicə qaçıblar.

İ.Əşrəfov və M.b.Temirxanov da dönənlər içərisindədir. Kommunistlərin onları hökmən məhv edəcəyini duyduqdan sonra öncə Almaniya vətəndaşı olan həyat yoldaşlarını Almaniyaya göndərərək az sonra özləri də həmin ölkəyə qaçmağı bacarıblar. İ.Əşrəfov sonra ailəsiylə Türkiyəyə köçüb.

Yusif Salahlı isə 1937-ci il repressiyasından yayına bilsə də müharibədə əsir düşüb və müharibədən sonra qardaş Türkiyəni özünə ikinci vətən seçib.

[1] Öncə SSRİ-yə dönüb, müharibədə əsir düşdükdən sonra Türkiyəyə gedib.
[2] Öncə SSRİ-yə dönüb, sonra Türkiyəyə qaçıb.
[3] Öncə SSRİ-yə dönüb, sonra Türkiyəyə qaçıb.
[4] Öncə SSRİ-yə dönüb, sonra Almaniyaya gedib.

11. Xaricdəki tələbə cəmiyyətləri

Hansı ölkədə oxumasından asılı olmayaraq tələbələrimizin böyük əksəriyyəti müəyyən bir cəmiyyət ətrafında təşkilatlanmışdı. Onların içərisində Almaniyada təhsil alanlar xüsusilə seçilirdi, çünki Almaniyada oxuyanlar sayca qat-qat çoxdu. "Təhsilin elə ilk aylarında Azərbaycan Demokratik Cümhuriyyətinin göndərdiyi tələbələr mərkəzi Berlində və bölmələri Darmştadt, Frayberq və Leypsiq şəhərlərindəki ali məktəblərdə olmaqla öz ictimai təşkilatlarını – *Almaniyadakı Azərbaycanlı Tələbələrin Birliyini* yaratdılar".[1]

Sovet hakimiyyəti bu tələbə təşkilatları ilə ciddi maraqlanırdı. Elə buna görədir ki, 1930-cu illərdə repressiyaya uğramış tələbələrə verilən suallardan biri də, adətən, həmin tələbə təşkilatları haqqında olurdu. Yeri gəlmişkən, həmin tələbə qurumları ilə bağlı ən geniş və doğru bilgiləri elə həmin ifadələrdən öyrənirik.

1 avqust 1940-cı ildə Hənifə Pirverdiyev müstəntiqin sualına öz əli ilə cavab yazıb:

"Şarlottenburqdakı Azərbaycan Tələbələri Komitəsi, yanılmıramsa, *Azərbaycan Cümhuriyyəti Tələbələri Birliyi* adlanırdı. Bu komitəyə Ağasıbəyli, Qəhrəman Məmmədov, Sultanov İsgəndər başçılıq edirdilər. Onların hamısı Azərbaycanda olub və indi həbsdədirlər.

Berlinə gələndə Komitə Gürcüstan hökumətinin nümayəndəsi Axmeteli ilə əlaqədə idi, ancaq Tələbələr Komitəsini Berlində hansısa hakimiyyət orqanının təsdiqlədiyi mənə bəlli deyil.

Sonralar SSRİ tələbələri birləşəndə Tələbə Birliyi xarici ticarət nümayəndəliyi ilə, Pirumovla və müvəkkil Əlizadə İbadla əlaqə saxladı".[2]

1933-cü ildə DSİ zindanına düşmüş Səməndər Axundzadə müstəntiqin ümuman Almaniyada və xüsusən Frayberqdə olan tələbə təşkilatları haqqında suallarını belə cavablandırır: *"Almaniyanın başqa şəhərlərinin, eləcə də Fransa və İtaliyadakı tələbələrin hansı təşkilat və dərnəklərə daxil olduğunu deyə bilmərəm, çünki biz onlardan ayrı idik"...*[3]

"Bizim Frayberqdəki Türk tələbələri qrupumuz idarə heyəti Berlin şəhərində yerləşən Türk Tələbələri Birliyinə daxil idi. Bu birliyin rəhbərliyi tez-tez dəyişirdi. Bir vaxt mən də bu təşkilatın sədri olmuşam. Başlanğıcda Türk Tələbələri Birliyi sırf iqtisadi və akademik məqsədlər güdürdü".[4]

Abbasmirzə Əliyevsə XDİK zindanında bunları yazıb:

Berlindəki "Ticarət Nümayəndəliyində isə ZSFSR-in Xalq Komissarları Şurasının nümayəndəsi Pirumov idi. O, bizə bildirdi ki, bundan sonra pulları mənim vasitəmlə alacaqsınız. Gürcüstan, Azərbaycan və Ermənistan təqaüdçü tələbələrinin ümumi yığıncağı çağırıldı və bu yığıncaqda Mərkəzi Büro seçildi. Büro yalnız tələbələrin işini aparmalı deyil, həm də ayrı-ayrı tələbələrin uğurları və onların davranışları haqqında məlumat toplamalı idi. Mərkəzi Büroya seçilənlər içərisində mən də var idim və bir müddət katib kimi işlədim.

Sonra Pirumov Parisə təyin edildi, onun yerinə Aqniaşvili gəldi. Göstərmək gərəkdir ki, ZSFSR yarananadək Ticarət Nümayəndəliyində Azərneftin nümayəndəliyi vardı və pulları işçilərdən biri olan mühəndis Əliyev İbad verirdi. (Bu, Pirumovadək olmuşdu)".[5]

[1] *Джафарли М.* Политический террор и судьбы азербайджанских немцев, s. 47.
[2] AR MTN Arxivi, PR-35911, vərəq 30.
[3] Yenə orada, PR-7175, vv. 12-14.
[4] Yenə orada, vərəq 18.
[5] Yenə orada, PR-22247, vərəq 21.

"Azərbaycan Türk Tələbələri Birliyi" sonralar "Almaniyada Sovet Zaqafqaziyası Tələbələri Birliyi"nə qovuşdu. Bu qurum tələbələrimizin həyatında önəmli rol oynadı. Azərbaycanlı tələbələrin Pirumovun əliylə təqaüddən məhrum edilməsi daha çox bu təşkilatın dövrünə düşür.

Görkəmli diplomat Ramiz Abutalıbovun bizə təqdim etdiyi "Almaniyada Sovet Zaqafqaziyası Tələbələri Birliyi"nin (ASZTB) nizamnaməsində göstərilir ki, Birlik Almaniya qanunları əsasında fəaliyyət göstərən hüquqi şəxsdir. Onun Mərkəzi Büronun sərəncamında olan möhürü var. ASZTB-nə Zaqafqaziya Federasiyası vətəndaşları, sovet platformasında duran hər kəs və təhsili bitirdikdən sonra Sovet Zaqafqaziyasında işləməyi öhdəsinə götürən şəxslər üzv ola bilər. Birliyin yalnız həqiqi üzvləri olur. Həqiqi üzvləri Mərkəzi Büro qəbul edir və onları qurultay təsdiqləyir və üzvlükdən çıxarır. Bu Birliyin üzvləri məqsədləri bu nizamnamədə göstərilənlərlə uyğun gəlməyən başqa təşkilatlara eyni zamanda üzv ola bilməz. ASZTB-nin ali orqanı qurultaydır və onun Birliklə bağlı bütün qərarları qətidir, onlardan şikayət edilə bilməz (yazıq tələbə!). Qurultay həqiqi üzvlərdən seçilmiş nümayəndələrin üçdə ikisi yığışdıqda səlahiyyətli sayılır; bu say yığılmasa Mərkəzi Büro istənilən sayda nümayəndə olduqda qurultayı çağıra bilər (Başqa sözlə, Mərkəzi Büro istədiyi vaxt "qurultay" çağırıb tələbənin taleyini həll edə bilər). Qurultayın qərarları sadə səs çoxluğu ilə qəbul edilir. Birliyin bütün işlərini aparmaq üçün qurultay açıq səsvermə ilə bir illiyə 9 üzvdən və 3 namizəddən ibarət Mərkəzi Büronu (MB) seçir. MB həftədə ən azı bir dəfə yığışır və qərarları sadə səs çoxluğu ilə qəbul edir. Birlik üzvləri yerlərdə ərazi prinsipi üzrə bölmələr yaradır; onlar birbaşa Mərkəzi Büroya tabe olur.

Tələbə birliklərində ağalıq edən kommunistlərin bütün fitnə-fəsadlarına baxmayaraq tələbələrimizin çoxu ictimai həyatda fəallıq göstərir, Azərbaycanla bağlı tədbirlərə həvəslə qatılırdılar. Bu haqda məlumatları daha çox o dönəmin mühacirət mətbuatından öyrənirik.

"Yeni Kafkasya" dərgisinin 15 təşrini-əvvəl 1339-cu il (15 oktyabr 1923-cü il) tarixli 2-ci sayında "Xaricdəki azərbaycanlılar" başlığı altında verilmiş yazıda oxuyuruq:

"Bakının, 1918-nci sənəsində Türk xilaskarlarının müavinəti ilə xilası gününə təsadüf edən eylülün 15-ndə dəxi Parisdə bulunan Azərbaycan tələbələri bu günə məxsus bir məclis tərtib eləmişlərdir. Bu məclisə Parisdəki türk kaloniyası dəxi iştirak eləmişdir. Məclisdə eylülün 15-inə və Azərbaycan vəziyyətinə aid müfəssəl bir məruzə okunmuş və nəhayət, məruzə haqqında mübadileyi-əfkar edilmişdir. Bu münasibətlə gərək azərbaycanlılar və gərək türkiyəlilər tərəfindən söylənən nitqlərdə 2 türk millətinin daha sıkı münasibətdə bulunmaları lüzumu qeyd və təsbit edilmişdir. Məclis Azərbaycana xilas və hürriyət təmənniləri ilə xitam bulmuşdur".[1]

Diqqətli oxucu yazıda konkret şəxslərin, özəlliklə tələbələrin adının çəkilməməsinə fikir verəcək. Bu, hər şeydən öncə, onları sovet "ÇK"-sının təqiblərindən, sovet Azərbaycanına döndükdən sonra onlar üçün yaradıla biləcək problemlərdən qorumaq məqsədiylə edilib. Təsəvvür edək ki, adıkeçən məclisdə iştirak edən tələbənin adını öyrəndik. Ancaq "ÇK" ən azı bir neçə gündən sonra ən yaxşı halda ona verilən dövlət təqaüdünü kəsdirəcəkdi. Azərbaycana qayıdandan sonra onu ən yaxşı halda işsizlik gözləyəcəkdi. Bütün

[1] *"Yeni Kafkasya"*, 15 təşrini-əvvəl 1339, sayı 2, s. 13.

bunları nəzərə alan mühacirət mətbuatı həmin tələblərlə bağlı bütün yazılara həssiz diqqətlə yanaşır, onların zərər görməməsinə çalışırdı. Örnək üçün bir yazıya da baxaq.

"Yeni Kafkasya"nın həmin 15 oktyabr 1923-cü il tarixli 2-ci sayındakı "Almaniyada Azərbaycan tələbəsi" adlı yazıda oxuyuruq:

"1919-ncu sənəsində Hökuməti-milliyyə tərəfindən bərayi-təhsil Avropaya göndərilən Azərbaycan tələbəsindən 52 zat Almaniyada iqamət etməkdədir". Almaniyada bulunan bu azərbaycanlı tələbənin elm və tədrisə aid bir takım xüsusatı müzakirə etmək üçün bu günlərdə Berlində mühüm bir konqreləri iniqad eləmişdir.

Almaniyada təhsil edən Azərbaycan tələbəsi makina, elektrik, mədənçilik, dəmiryol, memari, gəmiçilik, fəlahət,[1] *kimya və təbabət kibi fənni şöbələrdə çalışıb, hüquq, arkeoloji (ətiqiyyat) və pedaqoji kibi şöbələrdə dəxi birər tələbə mövcuddur. Tələbə, ümumiyyətlə, təhsillərini yarıdan keçirmişlərdir. Bunlardan bir qismi bir sənə, digər qismi də iki sənə sonra təhsillərini itmam edəcəklərdir. İşbu qurultayda bütün arkadaşlarını bir arada görüb də tələbənin hal və hissiyyatı ilə yakından aşina olan bir gənc bizə yazdığı məktubda diyor ki, tələbələrimiz əksəriyyən milli ruhdadırlar. Azərbaycan istiqlalını təsid və onun üçün çalışmaya əzm edənlərdəndirlər. Hər kəsin qayəsi təhsilini bir an əvvəl bitirib vətənə qoşmaq və millətinə əlindən gəldiyi qədər yardımda bulunmaqdır. Bütün bununla bərabər, əski rus tərbiyəsinin təsiri ilə kəndi lisan və hərsi-milliyyələri*[2] *ilə az aşina olanlarına təsadüf edilir. Bərəkət versin ki, bunlardan haman həpsinin niyyəti təhsilini bitirdikdən sonra müvəqqət bir zaman üçün Türkiyədə iqamət və məlumati-milliyyələrini tövsəə etməkdir".*[3]

"Yeni Kafkasya" dərgisinin 1 kanuni-sani 1340 (1 yanvar 1924) tarixli 7-ci sayında getmiş "Azəri tələbələrinin bir təəssüfü" başlıqlı qısa xəbərdə oxuyuruq: "İstanbul Darülfununu ədəbiyyat fakültəsi tələbə dərnəyinin hüdudi-milli xaricindən gələn Türk tələbə haqqında ittixaz etdikləri şayani-heyrət qərarı böyük bir təəssür və təəssüflə xəbər alan Avropadakı tələbələr naminə protestoyu mütəzəmmin "Azərbaycan Tələbə Birliyi" imzası ilə aldığımız məktub vəqt gec olduğundan işbu nüsxəyə girmədi".[4]

Xatırlatmaq yerinə düşər ki, Avropada, özəlliklə Almaniyada oxuyan müsəlman-türk tələbələri birləşərək müxtəlif cəmiyyətlər yaratmışdılar. Örnək üçün Berlindəki Rusiya-Müsəlman Tələbələrinə Dəstək Cəmiyyəti (1918-1925) göstərilə bilər. Bu cəmiyyətin rəhbəri o dönəmdəki Buxara Cümhuriyyətini təmsil edən Alim(can) İdrisi (1887-1945-dən sonra) idi. Öncə İstanbul Universitetində, sonra Lozanna və Lyejdə ali təhsil almış Alimcan İdrisi 1923-cü ildə bildirib ki, həmin vaxt Berlində cəmiyyətin himayəsi altında Rusiyadan olan 40-a yaxın müsəlman tələbə oxuyur və onların maddi durumu çox ağırdır. Yeri gəlmişkən, həmin tələbələri Tatarıstanın Torpaq Komissarlığı müəyyən müddət maliyyələşdirmişdi, ancaq Rusiya K(b)P Tatarıstan Vilayət Komitəsi 17 noyabr 1923-cü ildə nazirliklərə onun icazəsi olmadan tələbələrə hər hansı yardımın göstərilməsini qadağan etmişdi.[5]

[1] Kənd təsərrüfatı.

[2] Milli mədəniyyətləri.

[3] *"Yeni Kafkasya"*, 15 təşrini-əvvəl (oktyabr) 1339, sayı 2, s. 13.

[4] Yenə orada, 1 kanuni-sani (yanvar) 1340, sayı 7, s. 16.

[5] *Гилязов И.* Общество поддержки российско-мусульманских студентов в Берлине (1918-1925). // *«Эхо веков»*, 1996, № 3-4.

II BÖLÜM

BƏLGƏLƏR

Bu bölümdə ən müxtəlif arxivlərdə saxlanılan sənədlər və 1920-1930-cu illər mətbuatında (özəlliklə mühacirət mətbuatında) dərc edilmiş məqalə və xəbərlər, üst-üstə 93 bəlgə toplanıb.

Doğrudur, əsərin 1-ci bölümündə bu bəlgələrin bir çoxundan müəyyən sitatlar verilib, hətta bir-ikisindən dili sadələşdirilməklə bütöv şəkildə istifadə olunub, ancaq bu, sənədlərin ümumi həcminin çox cüzi bir hissəsidir, halbuki yararlanmadığımız hələdici qismin özündə tarixi baxımdan həssiz qiymətli bilgilər var. Onları cəm halında oxuculara təqdim etməyi faydalı saydıq, çünki burada əksini tapan yazılar təkcə Cümhuriyyət tələbələriylə bağlı olmayaraq, ümumən 1920-1930-cu illərdə Azərbaycanın ictimai-siyasi durumu haqqında da geniş təsəvvür yaradır.

Tələbələrlə bağlı tərcümeyi-hallarda da xeyli yeni bəlgədən yararlanmışıq, ancaq onlar daha çox konkret bir şəxsə aid olduğuna görə ictimai önəm daşımır, ona görə də onları "Bəlgələr" bölümünə daxil etmədik.

Buradakı bəlgələrin, demək olar ki, hamısı ya rus dilindən çevirmədir, ya da ərəb qrafikasından transliterasiyadır. Çar dönəminin ruscasında və əlyazma şəklində olan əski əlifbalı mətnlər üzərində iş bir neçə ay vaxtımızı alıb. Cəsarətlə deyə bilərik ki, təqdim etdiyimiz materialların 95 faizidən çoxu (bəlkə daha artığı!) ilk dəfə işıq üzü görür. Ancaq inanırıq ki, bu bəlgələr çoxlu-çoxlu yeni araşdırmalara təkan verəcək, onlar üçün ən etibarlı qaynaqlardan olacaqdır.


Bütün bəlgələr xronoloji ardıcıllıqla düzülüb, hamısının götürüldüyü qaynaqların dəqiq yeri göstərilib və yazılma tarixi müəyyənləşdirilib.

Ümid edirik ki, bu olduqca ciddi məsələyə belə yanaşma gələcək araşdırmaçılar üçün xüsusilə önəmli olacaq. Ona görə ki, bu mövzu bundan sonra da hələ yetərincə araşdırma və böyük diqqət tələb edir, həm də artıq yuxarıda qeyd etdiyimiz kimi bizim qələmə aldığımız bu kitab yararlanılması mümkün olan bəlgələrin, sənədlərin, materialların kiçik bir hissəsidir.

Ümumiyyətlə, Azərbaycan Respublikasının tarixinin gələcəkdə də geniş şəkildə araşdırılması, öyrənilməsi və öyrədilməsi baxımından 1918-1920-ci və 1920-1930-cu illər dönəmi çox önəmli bir mərhələdir və bu mövzuda gələcəkdə də çox sanballı əsərlərin yaranacağına, gənc araşdırmaçı alimlərimizin bu xəzinəyə ciddi töhfələr verəcəyinə şübhə etmirik.

1-ci bəlgə

Surət



1919-20-ci dərs ilində
abituriyent və tələbələrin əcnəbi
ali məktəblərə göndərilməsi üçün Dövlət
Xəzinəsi vəsaitindən xalq maarif nazirinin
sərəncamına dörd yüz on min frankın
buraxılması haqqında
Azərbaycan Parlamanının qanun

LAYİHƏSİ

1) 1919-20-ci dərs ilində abituriyent və tələbələrin əcnəbi ali məktəblərə göndərilməsi üçün Dövlət Xəzinəsi vəsaitindən Xalq Maarif Nəzarətinin sərəncamına dörd yüz on min frank buraxılsın.

Azərbaycan Cümhuriyyəti Hökumətinin
28 iyul 1919-cu il tarixli jurnalından[1]
ÇIXARIŞ

EŞİDİLDİ: 1919-20-ci dərs ilində abituriyent və tələbələrin əcnəbi ali məktəblərə göndərilməsi üçün Dövlət Xəzinəsi vəsaitindən xalq maarif nazirinin sərəncamına 4.100.000 manat buraxılması haqqında xalq maarif nazirinin qanun layihəsi.

QƏRARA ALINDI: 1919-20-ci dərs ilində abituriyent və tələbələrin əcnəbi ali məktəblərə göndərilməsi üçün Dövlət Xəzinəsi vəsaitindən xalq maarif nazirinin sərəncamına dörd milyon yüz min manatın buraxılması haqqında xalq maarif nazirinin qanun layihəsini orada göstərilən məbləği dörd yüz on min (410.000) frank ilə əvəzləyərək bəyənməli və ona bu layihənin təsdiq üçün Parlamana təqdim etməyi tapşırmalı.

Əsli ilə düzdür: Katibin köməkçisi *Nəcəfov*
Düzdür: *Kargüzar.*[2]

2-ci bəlgə

(5 avqust 1919)


Tələbələrin xaricdə oxuması üçün vəsait ayrılması haqqında
Nazirlər Şurasının qərarı haqqında məlumat

Hökumət 1919-1920-ci dərs ilində abituriyent və tələbələrin xarici ali məktəblərə göndərilməsi üçün 4 100 000 manat buraxmağı qərara alıb, həm də hər bir tələbənin dolanışığı üçün ayda 3 000 manat, yaxud 300 frank buraxılır.[3]

[1] Protokolundan.
[2] ARDA, fond 895, siyahı 3, iş 103, vərəq 4a. Tarixindən də göründüyü kimi, bu sənəd 28 iyul 1919-cu ildən hazır olub.
[3] «Азербайджан», 5.VIII.1919, № 164.

3-cü bəlgə

Surət



Azərbaycan Cümhuriyyəti
Xalq Maarif Nəzarəti[1]
"[10]" avqust 1919-cu il.
№
Bakı şəh.

1919-20-ci dərs ilində
abituriyent və tələbələrin
əcnəbi ali məktəblərə göndərilməsi üçün
Dövlət Xəzinəsi vəsaitindən 410 000 frankın
buraxılması haqqında
Azərbaycan Parlamanı qanun layihəsinə

İZAHAT VƏRƏQƏSİ

Qeyri-normal həyat şəraiti üzündən Azərbaycan Cümhuriyyətinin abituriyent və tələbələri son 2 il boyunca öz təhsillərini ali məktəblərdə davam etdirə bilməyiblər. İndi Bakı şəhərində Dövlət Universiteti yaratmaq nəzərdə tutulur. Ancaq o heç bir halda Azərbaycanın bütün abituriyent və tələbələrini yerləşdirə bilməz, çünki Universitetin, şübhəsiz, bütün fakültə və kursları olmayacaq və buna görə də təbiidir ki, öz vətənləri Azərbaycanda ali təhsil almaq imkanından məhrum qalan xeyli gənc olacaq. Bu şərait özəlliklə ali ixtisas təhsili almaq istəyən şəxslərə daha çox təsir edəcək. Göstərilən səbəblər Bakı Universitetinə hər hansı səbəbdən girmək imkanından məhrum olan abituriyent və tələbələri əcnəbi universitetlərə yollanmağa can atmağa və ali təhsilini orada başa vurmağa məcbur edəcək. Xaricə getməyə lazım olan vəsait heç də bütün abituriyent və tələbələrdə yoxdur, onların çoxunun buna əsla güçü çatmır və buna görə də Xalq Maarif Nəzarəti baxılması və təsdiqi üçün Parlamana cari 1919-20-ci dərs ilində ali təhsil almaq üçün xaricə abituriyent və tələbələr göndərməkdən ötrü 410.000 (dörd yüz on min) frank buraxılması haqqında qanun layihəsini təqdim edir. İstənilən məbləğ yüz tələbənin göndərilməsi üçün bu hesabdan edilib: Onların hər birinin xərcliyinə 3600 frank və yol xərcləri üçün 500 frank. Bu məbləğ ümumən bütün ölkələrdə həyatın ümumi bahalaşmasının baş verməsi üzündən ən aşağı sayılır və o əsla azaldıla bilməz. Təqaüd kəsiləcək şəxslər təhsillərini başa vurduqdan sonra Azərbaycanda ən azı 2 il xidmət etməyi öhdələrinə götürürlər.

Xalq maarif naziri *(imza)*
Dəftərxananın direktor müavini *(imza)*[2]

[1] Xalq Maarif Nazirliyi.
[2] ARDA, fond 895, siyahı 3, iş 103, vərəq 4.

4-cü bəlgə



Azərbaycan Cümhuriyyətinin Maarif Nəzarəti
10 avqust 1919-cu il
№ 6838
Bakı ş.

Azərbaycan Parlamanının c-b Sədrinə

Bu məktuba əcnəbi ali məktəblərə 1919/20-ci dərs ilində abituriyent və tələbələrin göndərilməsi üçün 410.000 frankın buraxılması haqqında qanun layihəsinin ona dair aydınlatma vərəqi ilə birgə qoşaraq Sizdən xahiş edirəm ki, həmin layihəni təcili şəkildə Parlamana baxılma və təsdiq üçün təqdim edəsiniz.

Xalq maarif naziri *(R.x.Qaplanovun imzası)*
Dəftərxana müdirinin müavini *(M.Kondratyevin imzası)*[1]

5-ci bəlgə

Azərbaycan Cümhuriyyəti
Maarif Nəzarəti
10 avqust 1919
№ 6838
Azərbaycan Məclisi-Məbusanının[2]
Rəyasəti-əliyyəsinə

Yüz nəfər Azərbaycan tələbələrinin ikmali-təhsil üçün xaricə darülfünunlarına iğram ediləcəyindən[3] dolayı, dörd yüz on min frank para burakılması haqqında olan layiheyi-qanuniyyə və izahat vərəqəsi liğəən[4] təqdimi-müzakirə və təsdiq üçün Məclisi-Məbusana idxal edilməsi rica olunur.

Maarif naziri: *(imza)*[5]
Vüsul olundu.[6]
15 avqust 1919.[7]
№ 1172[8]

[1] ARDA, fond 895, siyahı 3, iş 103, vərəq 6. Sənəd Parlamana 10 avqustda daxil olub və 228 nömrə ilə qeydə alınıb.
[2] Parlamanının.
[3] Göndəriləcəyindən.
[4] Qoşularaq.
[5] "Maarif naziri" sözünün qarşısında "Qaplanov" yazılaraq pozulub.
[6] Yetişdi, gəlib çatdı.
[7] Bu, sənədin Məclisi-Məbusana daxil olma tarixidir.
[8] ARDA, fond 895, siyahı 3, iş 103, vərəq 7a

6-cı bəlgə

Məclisi-Məbusan Maliyyə və Büdcə
Komisyonunun 20 avqust 1919 sənə tarixli
bəratül-qövlündən[1] iqtibas[2]



Yüz nəfər Azərbaycan tələbələrinin ikmali-təhsil üçün xaricə darülfünunlarına iğram edilməsindən ötrü dörd yüz on min frank buraxılması haqqında Maarif Nəzarətinin qanun layihəsi barəsində məruzəçi Əhmədcövdət Pepinov məruzədə bulunub, Türk tələbələrinin ikmali-təhsil üçün xaricə darülfünunlarına göndərilməsini lüzumlu görüb, məzkur-qanun layihəsinin qəbul olunmasını təklif edir. Maarif naziri cənabları da həmin qanun layihəsi xüsusunda bəzi məlumat verdikdən sonra qanun layihəsi müzakirəyə qoyulur, bir qədər mübadileyi-əfkardan sonra layihədə göstərilən hər bir tələbəyə yol kirayəsi beş yüz (500) frank, aylıq maaş üç yüz (300) frank az görüldükdə haman məbləğin dəyişdirilib birincisinin min (1 000) frank və ikincisinin dörd yüz (400) frank olunması və Rusiyaya göndərilən tələbələrə yol kirayəsi üç min (3 000) rublə və aylıq maaş da üç min (3 000) rublə verilməsi təklif olunur. Təklif səsə qoyulduqda ümumiyyətlə qəbula keçir və ona binaən Komisyon qət eləyir: Maarif Nəzarətinin təqdim [etdiyi] işbu qanun layihəsi yuxarıda göstərilən təğyir və təbdil ilə və layihədə göstərilən "dörd yüz on min frank" əvəzində yeddi milyon (7 milyon) rublə burakılması qəbul olunsun.

Komisyon sədri əvəzinə *(Əbdüləli bəy Əmircanovun imzası).*
Katib *(Əhmədcövdət Pepinovun imzası)*[3]

7-ci bəlgə



1 sentyabr 1919 sənəsi tarixli Azərbaycan
Parlamanı iclasında çıxarılmış qərar

Maddə I. 1919-20 səneyi-təhsiliyyədə yüz nəfər Azərbaycan tələbələrini ikmali-təhsil üçün xarici məmləkətlər məktəblərinə göndərməkdən ötrü dövlət xəzinəsindən maarif nazirinin ixtiyarına yeddi milyon rubləlik bir təxsisat buraklır (dört yüz frank aylıq və bin frank yolxərci Avropaya gedən, üç bin rublə aylıq və üç bin rublə də yolxərci Rusiyaya gedən tələbələrə təyin edilməsi şərtilə).

Maddə II. Hökumət istipendiyasından[4] istifadə edən tələbələr təhsillərini bitirdikdən sonra hökumətin göstərdiyi yerlərdə dörd sənə qulluq etməyə borcludurlar.

[1] Protokolundan.
[2] Çıxarış.
[3] ARDA, fond 895, siyahı 3, iş 103, vərəq 8a.
[4] Təqaüdündən.

Bu təxsisatın qəbulu ilə bərabər, Parlaman böylə bir əlavədə bulunoyur: "Tələbələrin məişət və güzəranının təmini üçün onlara nəzarət olunsun".

Azərbaycan Parlamanı rəisi namına
ikinci müavin *(Sultanməcid Qənizadənin imzası)*
Katib *(Əhmədcövdət Pepinovun imzası)*
İdarə rəisi *(Məhəmməd ağa Vəkilovun imzası).*[1]

8-ci bəlgə

Surət

Paris Universiteti hüquq fakültəsinin verdiyi
şəhadətnamənin tərcüməsi

Paris Universiteti Hüquq fakültəsi

Aşağıda imza edən hüquq fakültəsinin katibi təsdiqləyir ki, 9 oktyabr 1911-ci ildə fransız kamal attestatına (fəlsəfə seriyası) bərabər attestat almış, Rusiyanın Gəncə şəhərində 1890-cı ildə doğulmuş c-b Şeyxzamanov İsaq hüquq fakültəsi qeydiyyatlarında 8 inskripsiya alıb, onlardan sonuncusu 18 may 1916-cı ildədir. O, bakalavrın (hüquq fakültəsinin) I imtahanını 29 və 30 oktyabr 1915-ci ildə və bakalavrın II imtahanının 1-ci hissəsini 29 noyabr 1918-ci ildə uğurla verib.

O yalnız bakalavrın ikinci imtahanının 2-ci hissəsini və hüquq fakültəsinin "Licence" adlanan yekun imtahanını verməlidir.

Paris, 8 sentyabr 1919.
Katibin imzası: *Şapii*
Hüquq fakültəsinin möhürü.[2]

9-cu bəlgə

Teleqram

Bakı, Parlaman sədrinə


Hacıkənddən, 10/IX-1919.

Dövlət Müdafiə Komitəsinin tələbələrin müvəqqəti azad edilməsi haqqında sərəncamına baxmayaraq, tələbələrin bir çoxu hərbi məktəblərdə və qoşunlarda qalmaqdadır; onların xaricə göndərilmək və ali məktəblərə girmək haqqında xahiş etmək imkanları yoxdur. Onların gerçəkdən azad edilməsi üçün uyğun tədbirlər görmənizi dönə-dönə xahiş edirəm.

Tələbə Birliyinin sədri *[Yusif bəy] Ağasıbəyov.*[3]

[1] ARDA, fond 895, siyahı 3, iş 103, vərəq 2. Bu qərarın rusca tərcüməsi üçün bax: yenə orada, vərəq 1.
[2] Yenə orada, fond 51, siyahı 3, iş 40, vərəq 83.
[3] Yenə orada, fond 895, siyahı 1, iş 228, vərəq 134. Teleqram 13 avqust 1919-cu ildə Parlamentə daxil olub və 1183-cü nömrə ilə qeydə alınıb.

10-cu bəlgə



P.S.[1] Əcnəbi ölkələrdə, özəlliklə Fransada ali və orta təhsillə bağlı hər cür məlumatları çatdırmaq üçün cənab xalq maarif nazirinin qulluğunda can-başla hazıram.

I[saq] Ş[ıxzamanov]

Bununla təsdiq edirəm ki, sənəddə adı keçən Şıxzamanov həqiqətən Paris Universitetinin kursunu bitirir, onun surətlərdən ibarət sənədləri doğrudur və həqiqidir, o, Azərbaycan hökumətinin təqaüdçüləri sırasına salınmağa layiqdir. Yeri gəlmişkən, o, indi bizim Sülh Heyətimizdə qulluqdadır.

25 sentyabr 1919-cu il. Paris.[2]

Azərbaycan Cümhuriyyəti Sülh Heyətinin başçısı[3]
(Əlimərdan bəy Topçubaşovun imzası).[4]

11-ci bəlgə

Hökumətin xaricə göndərdiyi tələbə və abituriyentlərin
müvəqqəti bürosu üzvlərinin növbətçiliyi
(noyabr ayı [1919])

Ayın 30-u	İsgəndərli [Ağalar]	Ayın 10-u	İsgəndərli
Ayın 1-i	Vəkilov [Mustafa ağa]	Ayın 11-i	Vəkilov
Ayın 2-i	Əmirov [Humbay bəy]	Ayın 12-i	Əmirov
Ayın 3-ü	Əliyev [Əliəkbər]	Ayın 13-ü	Əliyev
Ayın 4-ü	Sultanov [Baxış bəy]	Ayın 14-ü	Sultanov
Ayın 5-i	İsgəndərli	Ayın 15-i	İsgəndərli
Ayın 6-ı	Vəkilov	Ayın 16-ı	Vəkilov
Ayın 7-i	Əmirov	Ayın 17-i	Əmirov
Ayın 8-i	Əliyev	Ayın 18-i	Əliyev
Ayın 9-u	Sultanov	Ayın 19-u	Sultanov


Arayışdan ötrü hər gün növbətçi Büro üzvünə axşam saat 6-dan 7-dək müraciət etmək olar.
Sədr *(M. Vəkilovun imzası)*
Katib *(A. İsgəndərlinin imzası)*[5]

[1] Bundan sonrakı qeydlər 83-cü vərəqin arxa səhifəsində yazılıb.
[2] Bu cümlələr Ə.b. Topçubaşovun öz xətti ilə rusca yazılıb.
[3] Bu vəzifə göstəricisi fransızca ştampla vurulub.
[4] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 85. Bizcə, bu vərəq bu sənədin ardıdır (arxivdə düzgün tikilmədiyinə görə vərəqlər ayrı-ayrı yerlərə düşüb): yenə orada, vərəq 83.
[5] Yenə orada, fond 895, siyahı 1, iş 174, vərəq 2.

12-ci bəlgə

Surət

Hökumətin xaricə göndərdiyi tələbə və abituriyentlərin yığıncağının sədri
[7] noyabr 1919-cu il. Bakı ş.
C-b xalq maarif nazirinə



7 noyabr cümə günü hökumətin Qərbi Avropa və Rusiyaya göndərdiyi tələbə və abituriyentlərin ümumi yığıncağı oldu, orada göndərilənlərin 5 nəfərdən ibarət Müvəqqəti Bürosu seçildi. Büroya bu şəxslər seçildilər: *Mustafa Vəkilov, Ağalar İsgəndərli, Baxış Sultanov, Umbay Əmirov* və *Əliəkbər Əliyev.*

Hökumətin xaricə göndərdiyi tələbə və abituriyentlər adından Sizə məlumat verərək, c-b nazir, Sizdən xahiş edirəm ki, xaricə göndərilən tələbə və abituriyentlərlə bağlı bütün məsələlər üzrə indiyədək edildiyi kimi Bakı şəhərindəki Müsəlman Tələbə və Abituriyentləri Komitəsinə deyil, hökumətin xaricə göndərdiyi tələbə və abituriyentlərin Müvəqqəti Bürosuna müraciət edilsin.

Büro Bakı şəhərindəki Müsəlman Tələbə və Abituriyentləri Komitəsinin olduğu binada, Mirbabayevin evində[1] yerləşir. (Giriş Sahil küçəsi tərəfdəndir).

Sədr *(imza)*
Katib *(imza)*
D ü z d ü r (Ağalar İsgəndərlinin imzası).[2]


13-cü bəlgə

(24 noyabr 1919)

Bakı xəbərləri
Tələbələr miyanında

Avropaya göndəriləcək tələbələr Bürosunun nümayəndəsi dün Tiflisdən övdət edərək[3] tələbələrin getməsi haqqında məruzə oxumuşdur. Fransa, İtaliya və İngiltərəyə gedəcək tələbələrin getmələrinə mümaniət olmadığı gibi, pasportları da ən yakın zamanda hazırlanacaqdır.

Almaniya və Türkiyəyə isə tələbələrin burakılmasına Müttəfiqlər razı olmayırlar; İsveçrədən isə hələ məlumat alınmamışdır. İclasın sonunda qərara alınmışdır ki, Almaniya, İsveçrə və Türkiyəyə gedəcək tələbələr də Müttəfiqlər məmləkətlərinə qeyd edilsinlər. Nəticədə qərara alınmışdır ki, tələbələr bir vaxtda Azərbaycandan çıxsınlar.[4]


باکو خبرلری

[1] İndi burada ARDNŞ yerləşir.
[2] ARDA, fond 895, siyahı 1, iş 174, vərəq 1.
[3] Qayıdaraq.
[4] *"Azərbaycan"* qəzeti, 24.XI.1919, №328.

14-cü bəlgə

(11 dekabr 1919)

Gənclərimizin Avropaya getmələri münasibətilə


باکو خبرلری

Parlamanın çıxardığı qərardada mübni[1] azəri Türk tələbələrindən yüz kişinin Avropaya sövq edilməsi üzərində bir neçə vaxtdır ki, çalışılırdı. Əldə etdiyimiz məlumata nəzərən, hökumət tərəfindən şu məsələ xüsusunda əcnəbi dövlətlərin nümayəndələriylə müzakirata girişmək üçün göndərilən heyət tələbələrimizin məmaliki-əcnəbiyyəyə getmələrinə Avropanın Tiflis və Batum müməssillərindən[2] izn hasil etmiş. Artıq tələbələrimizin Avropaya getmələrinə heç bir manea yokdur. Elm və ürfan əxz etməyə dünyanın müxtəlif məmləkətlərinə gedəcək əfəndilərə kəndi məqsədlərinə irmələrini və şu uğurda müvəffəqiyyət əldə etmələrini səmimi-qəlbdən arzu etmək ilə bərabər, bu xüsusda bir kaç söz demək istərdik.

Bütün cahanın, bilxassə Vətənimizin keçirdiyi siyasi vəziyyət içində millətimizin bərgüzidə[3] övladları sayılan münəvvər gənclərimizin Azərbaycanı burakıb da gürbət diyarlara takılmalarını istiqlaliyyət dostu olan heç bir kimsə, təbii, arzu edəməz.

Əgər bu gün şu əfəndilərin Avropaya getmələrinə qərar verilmiş isə və hökumətin şu barədə etdiyi fikir təsvib edilmiş isə, demək, millət kəndinin bir məcburiyyət qarşısında bulunduğunu hiss etmiş və tələbələrin itmami-təhsil üçün Avropaya getmələrinə böyük umudlar bəslədiyindən ona riza vermiş.

Filhəqiqə, Azərbaycan Cümhuriyyəti Avropanın müxtəlif guşələrinə yüz kişi əzamıyla bir çok faydalar əldə edə biləcək.

Vətəndən ayrılacaq şu əfəndilər bir kaç sənədən sonra Avropanın mədəni və mütərəqqi millətləri mühitində müxtəlif ixtisaslar kəsb etmiş, haman millətlərin mütərəqqi və mədəniləşmələrinə səbəb olan amilləri birər tədqiq etmiş və Avropada mövcud millətpərəst və vətənpərəstlik şüarının yüksəklikləri sayəsində birər azərbaycançı, birər türkçü sifəti ilə Vətənə övdət edəcək[4] və topladığı məlumatı millət arasında nəşr edərək azəri Türkləri beynində də bir çok fikirlərin oyanması ilə Azərbaycanın mədəniləşməsinə, təbii, yardım edəcəklərdir.

[1] Görə; əsasən.
[2] Nümayəndələrindən.
[3] Seçmə.
[4] Dönəcək; qayıdacaq.

Digər tərəfdən Avropanın müxtəlif guşələrində gənclərimizin varlığı yeni istiqlaliyyət qazanmış Azərbaycan üçün birər canlı reklam surətini alacaq.

Avropaya ezam olunan tələbə əfəndilər zamanın ciddiliyini və millətin onlardan gözlədiyi umudları nəzərə alaraq kəndilərinə şimdidən bir məqsəd ittixaz edib, mütəmadiyən onun ardınca qoşmalı və hər bir əfal və hərəkətlərində hamıdan artıq Azərbaycan istiqlaliyyətini və türklüyün şanının artmasını düşünməlidirlər.

Hər bir tələbə təhsil alacağı məmləkətdə təhsil ilə bərabər kəndi millətinin varlığını azəri Türklərinin də kəndisini idarəyə müstəid olduqlarını və istiqlal yolunda onun bütün var-yokdan keçməyə amadə olduğunu o məmləkətin əfkari-ümumiyyəsinə anlatmaq, Azərbaycanın tarixi-istiqlalını və istiqlaliyyət uğrunda gördüyü işlərini intişar etmək, düşmənlərimizin əleyhimizə çıkardıqları böhtan və iftiraları təkzib edərək o məmləkətin əfkari-ümumiyyəsini lehimizə çevirmək vəzifələri ilə müvəzzəfdir.[1]

Şu göstərdiyimiz fikrin qüvvədən felə çıkması öylə ağır bir şey deyil. Bunun üçün Avropa lisanlarına da aşina olmaq şərt deyil. Zira Avropa mətbuatı Azərbaycana dair Türk [dilində], yaxud rusca yazılmış bütün övraq[2] və məqalələri kəmali-məmnuniyyətlə qəbul edər zənn ediriz. Əlbəttə, bunlar tələbələrimizin deyil, siyasi nümayəndələrimizin öhdələrinə vagüzar olunması daha mətlubdur. Fəqət Azərbaycanda ziyalı sinfin məhdud olması cəhətinə başqa məmləkətlər kibi biz Avropanın mühüm mərkəzlərində siyasi nümayəndələr bulundurmağa daha müvəffəq olamadıq. Binaənəleyh tələbələrimiz təhsil zamanı qeyri-rəsmi nümayəndəlik vəzifəsini də ifa etmələri icab edər. İştə Avropaya gedəcək tələbələrimizin həm təhsil, həm də bu yolda var qüvvələriylə çalışacaqlarına əmin olaraq onlara bir daha müvəffəqiyyətlər arzu edəriz.

Hacıağa Nuri.[3]

15-ci bəlgə

(11 dekabr 1919)

[Tələbələrin ümumi yığıncağının protokolu]

İclas 22 dekabr 1919-cu ildə akşam saat 5:30-da *Mustafa ağa Vəkilovun* sədarəti altında açılıyor.

Katib: *[Mirzeynalabdin] Mirqasımov.*

Teymur bəy Aslanovun məruzəsi:

- Yol xərcini artırmaq, yaxud əskiltmək məsələsi Maarif Nəzarətinin rəyinə qalmışdır. Bu da tələbənin gedəcəyi yolun uzaq-yaxınlığına görədir. Zənnimə görə, yol xərci artırılar ki, əksilməz. Qısa müddət içərisində pək böyük işlər görülmüş. Bakıda pasportlar yapılmış, fransızcaya tərcümə edilmiş. Manufaktura malı alınmış, əcnəbi misyonları[4] adına kağızlar yazılmış. Burada üzvlərə istinadən müsamirə[5] haqqında bir şey söyləyəməyəcəyəm, çünki burada deyildim.

Tiflisə getdikdən sonra İsveçrə nümayəndəsindən cavab olub-olmadığını sordum. Əvvəla cavab olmadığını söylədi. Arkadaşlar, burada qəbahətin böyüyü başda olanlarımızdadır, zira Xariciyyə Nəzarətimiz bu xüsusda əcnəbi misyonlarına bir parça kağız belə yazmamışdır.

[1] Görəvləndirilmişdir.
[2] Sənədlər.
[3] *"Azərbaycan"*, 11.12.1919, №342, s. 3.
[4] Diplomatik nümayəndəlikləri.
[5] Yoxsul tələbələr üçün keçirilmiş xeyriyyə müsamirəsi nəzərdə tutulur.

Nəticədə İsveçrədən cavab alınmayacağını bildim. Sonra Fransa nümayəndəsinə müraciət etdim, halı anlatdım. Mumileyh pək iyi bir yüzlə bəni qəbul etdi və dəftərxanasına əmr verdi və az zamanda kağızlarımızı hazırlatdırdı.



Sonra İtaliya nümayəndəsinə müraciət etdim və mumileyh Tiflisdəki İtaliya konsuluna bizim ricalarımızın ifa edilməsini[1] söyləmiş. 2 saat zərfində[2] pasportlar hazırlanmış, sonra hərbi nümayəndə kəndi rizasını vermiş. Bundan maəda, *Uordrop*'a[3] müraciət etdim isə də kəndisi qəbul etmədi. Katibi qəbul etdi və ingilis müqabili-kəşfinə (kontr-razvetka) müraciət edilməsini söylədi isə də bənim ricam üzərinə kəndisi telefonla konuşdu və buna görə də mister *Havuz* bəni qəbul etdi.

Dəmindən[4] ərz etdiyim kibi, Fransa İtaliyadan icazə almışdır. Rəsmən hər pasportdan on frank alınırdı. Fəqət tələbə olduğumuz üçün bizdən viza üçün ikişər frank alacaqlarını vəd etdilər. Mister *Havuz*'un rizası olduğunda Batum ceneral-qubernatoru bizə izn verəcəkdir. Mister Havuz bizi Türkiyəyə burakamayacağını söylədi. Fəqət bizim işimizi daha çətinləşdirən *Brenştayn*'ın[5] bizim cədvəllər[6] arasında olması idi, çünki Brenştaynın getdiyini gördükdə Havuzun halı aşkar surətdə təğyir etdi[7] və bunun üzərinə bizim işlərimizi Batum general-qubernatoruna burakacağını söylədi, halbuki bu, büstübün rədd cavabı demək idi. Buna görə cədvəlləri geri aldım, oradan Brenştaynın adını sildim. Sonra Fransa, İngiltərə, İtaliyaya gedilməsinə bir mümaniət olmadığını söylədi və rizasını yazdı.

Bunlardan sonra Almaniyaya, İsveçrəyə gedənlər üçün təkrar İsveçrə nümayəndəsi nəzdinə getdim. Bu dəfə cavab alınmayacağını və [səbəbin] şundan ibarət olduğunu söylədi: "Məlumatınız açıq olmadığına və onlar arasında bəzi şəxslərin bulunduğuna görə onları ərazimiz daxilinə burakamayız". Bir çok müzakiratdan sonra İsveçrə nümayəndəsi müsyö *Meyyer* "İtaliya misyonu tranzitə razı olursa, bən də razı oluram" dedi. Bunun üzərinə *Qabba*'ya[8] müraciət etdim, pək gözəl surətdə qəbul etdi və razı oldu. [Tələbələrin] Almaniyaya göndərilməməsini nazirə[9] söyləməmi rica etdi. Nazirlə telefonla görüşdüm, nazir də yerdə qalanların Fransaya, İtaliyaya, İngiltərəyə getmələrini söylədi.

İndiki halda Meyyer getmişdir və yerində kimin oturacağını kəndisindən sorduğumda o, bu haqqını kimsəyə verməyəcəyini söylədi.

[1] Gerçəkləşdirilməsini.
[2] İçində.
[3] *Oliver Uordrop* – Böyük Britaniyanın Qafqazda ozamankı səlahiyyətli nümayəndəsi.
[4] Bayaqdan.
[5] Onun kimliyini müəyyənləşdirmək mümkün olmadı.
[6] Gedənlərin siyahısında.
[7] Dəyişdi.
[8] İtaliyanın o zaman Qafqazdakı hərbi missiyasının başçısı.
[9] Azərbaycanın maarif nazirinə.

Görüyorsunuz, arkadaşlar, bütün yukarıda ərz etdiklərimə görə Almaniyaya gediləsilər, bənim fikrimcə, yerdə qalanlar da Fransa, İngiltərə, İtaliyaya gedənlər arasına yazılmalıdır. İngiltərəyə gedənlər üçün Fransadan tranzit haqqı alınmışdır.

Sonra məruzəçi gedənlərin siyahısını okuyor.

Bundan sonra Aslanovun məruzəsi üzərinə söz, söyləmək istəyənlərə veriliyor.

Məruzəçiyə verilən suallar:

Əliyev:[1] Kağızlar yenə də geriyə götürüləcəkmi?

Məruzəçi: Tiflisə götürülməyəcəkdir.

[Yusif bəy]Ağasıbəyov: İngiltərə, Fransa, İtaliyaya gedənlərə müsaidə veriləcəkmi (yerdə qa[lanlara])?

Məruzəçi: Mümaniət olmayacaqdır.

Rzaqulu Həsənov: Türkiyəyə gedilməməsinə səbəb nədir?

Məruzəçi: Siyasidir, kimsəyə söylənilməz.

[Hüseyn] Şıxıyev: Gürcülər getmişlərmi? İtaliyaya gediləcəyi təqdirdə Almaniyaya bir sənə gedilə bilirmi?

İsmayılov:[2] Almaniyaya, İsveçrəyə gedənlər Fransaya, İngiltərəyə, İtaliyaya gedə bilirmi?

Məruzəçi söylədiklərini təkrar ediyor.

[?]: Fransa, İtaliya və İngiltərəyə gedənlər isə ixtisaslarını dəyişdirə bilərmi?

Məruzəçi: Xayır.

Ağasıbəyov: Yerdə qalanlar yalnız Fransaya gedə bilməzlərmi?

Məruzəçi: Siyasət icabatı olaraq bunların üç məmləkət arasında bölünmələri lazımdır.

Zeynal Əliyev: Çabuq məsələnin həll edilməsini istərəm.

Məruzəçi: Nazirin dediyinə görə, "mümaniət olursa Fransa və İtaliyaya İngiltərəyə gedən[lər] yazılsınlar" söyləmişdi.

[Ağalar] İsgəndərli: Yerdə qalanlar İtaliyaya, Fransaya, İngiltərəyə getmək istədiklərini anlatmaq [?],[3] [məsələnin həllinin] təxirini İsveçrədən cavab gəlincəyə qədər burakmalı.

İsmayıl Axundov: Əgər bəklənirsə pək uzun sürəcək.

Rəis müzakirəyi qət etməyi səsə qoyur.

Teymur [Aslanov]: Natiqlər söylədikdən sonra cələsəyi[4] kəsməyi təklif edərəm.

Bu, qəbul olunuyor.

Abbas[mirzə] Əliyev: Yerdə qalanlar iki gündə nerəyə gedəcəklər?

Bundan sonra məruzə üzərinə söz söyləmək istəyənlərə sordu.

Mirqasımov: Arkadaşlar, nasıl ki arkadaşımız Teymur Aslanovun dediyindən anlaşıldı, Fransa, İtaliya, İngiltərəyə gedənlər üçün icazə alınmışdır. Bən icazə alınan tələbəyə kanuni-əvvəlin igirmi altısı üçün pasportlarının ver[ilməsini] və hazırlanaraq getmələrini təklif edərəm. Əvvəlcə də burada dediyimiz kibi, paroxodda yalnız otuz yer vardır. Demək ki, texnika səbəblərinə görə də 100 tələbənin bir arada getmələri qeyri-mümkündür. Binaənəleyh yenə təkrar edərəm: icazələri alınan tələbə[lər] birinci qruppa təşkil edərək getsinlər, çünki əgər təxirə düşərsə bəlkə bu sənə təhsilə getmək mümkün olmasın. *(Gurultu-patırtı, "getməsinlər" sədaları eşidilir).*

[1] Bu soyadla bir neçə tələbə olduğuna görə sual veranı dəqiqləşdirmək mümkün olmadı.

[2] "100 tələbə" içərisində *İsmayılov* soyadlı adam yoxdur. Bizcə, bu, İsmayıl Axundovdur.

[3] Bundan sonrakı söz(lər) vərəqin tikiş yerinə düşdüyünə görə oxunmadı. Bu sənəddəki başqa oxunmayan sözlər də [?] ilə işarə olunub.

[4] İclası.

[?]: Bəzi texnika səbəblərinə görə istər dəmiryolu ilə, istər vapur[1] ilə həpimiz bir yerdə gedəməyiz. Buna görə də əvvəldə həll olunmuşdu ki, tələbə qruppa ilə getsinlər. İcazəsi alınan 40 kişidən getmək istəməyənlər qala bilirlər. *(Gurultu-patırtı bir qədər davam ediyor).* Fəqət rica edərəm, şəxsiyyata girişilməsin. *(Yenə çılğıncasına gurultu-patırtı eşidilir).* "Siz gediyorsunuz, fəqət bizi nerəyə bırakıyorsunuz" diyorlar, halbuki bu pək o qədər doğru deyildir. Hüquqən bizim haqqımız vardır, fəqət biz sizdən mənən də müavinət[də] bulunmanızı istiyoruz.

Söz söyləmək istəyənlərə üç dəqiqə vəqt verilməsi istəniliyor. Teymur bunun əleyhinə söz söylüyor.

[?]: Natiqlər çok olduğunu söylüyor. Bunun üçün də "üç dəqiqə vəqt kafidir" diyor.

Rəis cələsənin kəsilməsini səsə qoyuyor.

2 səs cələsəyi kəsmək tərəfdarı, 20 səs cələsəyi kəsməmək tərəfdarı. Natiqlərin nə qədər vəqt söyləyə bilmələri səsə qoyuluyor. [?] dəqiqə üçün 26 səs lehinə, [?] dəqiqə üçün 4 səs lehinə.

[?] mənəviyyata keçiyor, birlik üzərində konuşuyor. Almaniyaya, İsveçrəyə gedənləri bəkləyəlimmi, bəkləməyəlimmi? Təkrar birlik üstündə konuşuyor: Nə şərtlərlə birlik edəlim? Gedənlərin namusuna tokunursa qalsınlar. Məmləkət dəyişməklə ixtisası dəyişmədiyi kibi, şərtlər də dəyişmiyor. Texnikaya görə tələbənin həp bir yerdə getmələri mümkün olmadığından əgər biz gedənləri geri qoyarsaq bəlkə onlar da heç gedə bilməsinlər. Halbuki biz əgər beş adam da getsək qazanırız. Mənim təklifim budur ki, gedənlər üçün çalışılsın.

[?]: Dörd-beş gün də bəklənilməsini istiyor.

[?]: Əgər icazə alanlar 1-ci qruppa ilə gedərlərsə yerdə qalanların vəziyyəti dəyişəcək. Teymurun işi bildiyinə görə başqasına qalırsa 15 günə bəlkə olamaz və buna görə həpsinin bir yerdə getməsini istərəm. Yerdə qalanları hankı məmləkətə təqsim etmək məsələsinin isə Büroya həvalə edilməsini istərəm.

[?]: [Dekabrın] 28-də gedilməsi mümkünmüdür?

[?]: Əlimuxtarın dediyinə tərəfdaram. Birinci qruppaya ayrılmasını təklif edərəm. Getmək istəyənlərə qarşı burada pək ağır sözlər dedilər. Mən də bu fikirdəyəm ki, getmək istəyənlər vicdanlarına müraciət etsələr, təbii, getməməlidirlər. Fəqət, mə[ələsəf], qalanlara icazə almaq bir çok vəqt istəyəcəkdir. Yerdə qalanların da getmələrinin Büroya burakılmasını istərəm.

Ağasıbəyov: Bəncə, getmək istəyənlər getməyənləri bəklәsinlərmi, bəkləməsinlərmi, bu bəhsdə konuşmaq istəmiyorum, çünki bu məsələnin həlli büsbütün getmək is[təyənlərə] aiddir – onlar kəndiləri bu məsələyi həll etməyə haqlıdırlar. Yerdə qalanların hankı məmləkətə getmələri işinin həlli isə Büroya burakılmasın, kəndiləri bunu həll etsinlər. Əgər həpsi Fransaya getmək istərlərsə püşk çəkilsin, kim nerəyə düşərsə o, oraya getsin.

Əliyev III: Teymurun icazələri alınmayan tələbə üçün icazə alınıncaya qədər burada [?] təklif edərəm. Arkadaşların haman həpsi burada olduğu üçün bu xüsusda fikirlərini söyləmələrini təklif edərəm.

İsmayıl Axundov: Bən icazələri alınan tələbənin getməmələri tərəfdarıyam, çünki onlar bundan kəndi mənfəəti-şəxsiyyələrini düşünüyorlar və digər arkadaşları nəzərə almıyor[lar]. Bən arkadaşlıq naminə bütün tələbənin həp bir yerdə getmələrini istərəm. Qruppa ilə gedilirsə yerdə qalanlar üçün bəlkə 2-3 ay vəqt istər[?], gedərlərsə yerdə qalanların işi pək müşkül olur.

[1] Paroxod.

[Cəfər] Kazımov: Görüküyor ki, burada 2 cərəyan vardır: biri getmək istəyənlər, [biri də] onları burakmamak istəyənlər. Əsasa baksak 2 cərəyan ikisi də [haqlıdır], çünki 2 tərəf də tez getmək istiyor. Bəncə, Teymur burada müsav[?]. Əgər o, Tiflisdə İsveçrəyə, Almaniyaya izn verilmədiyi vəqtdə bu məmləkətlərə getmək istəyənləri Fransa, İngiltərə, İtaliyaya yazmış olsaydı şimdi həp izn alınmış olurdu. Teymur gərək bir gün də qalaydı, yerdə qalan 3 məmləkət arasında təqsim edəydi. Heç bir vəqt ayrı ged[ilməsin]. Həpimiz igirmi səkkizində Tiflisə gedəlim və orada işlərimizi bitirəlim.

Teymur: Arkadaşlar bana müsamihə[1] etdiyimi söylüyorlar. Bu, müsamihə deyil, çünki bu ixtiyar yokdu. Çünki ilk dəfə böylə hərəkət etdiyim üçün burada çok rahatsız etdilər. 28-ində həpimizin getməmizə bir vəsiqə almaqçün on gün lazım olacağını söylərəm. Hətta həpimiz gedərsək bir gündə vəsiqələri alacağımız qeyri-mümkündür. Bən sizə söz veriyorum ki, bən heç vəqt özümü bu və ya o qruppaya [daxil] etmədim. Bən həpimizin bir yerdə Tiflisə getməsi tərəfdarı deyiləm, çünki əgər 10 gün də qalsaq fransız, ingilis misyonları buna heç [razılaşmaya]caqlardır. Buna görə bən işlərin tez getməsi üçün arkadaşlardan öz siyahılarını vermələrini rica edərəm. Bən 12-13 gündən çok çalışdım.

(Bu arada bir çok təkliflər veriliyor. Hətta bəziləri okuyor belə. Sonra bir çok gurultu patırtı olduğundan bir qədər tənəffüs edilməsi qərara alınır).

10 dəqiqə tənəffüsdən sonra məclis açılıyor.

[Teymur]: Seçilən Büro kəndi vəzifəsini ifa etmişdir. Manufaktura alınsın, yarın paralar verilsin. Çay, şəkər alınmış. Füqəra tələbə mənfəətinə müsamirə verilmiş, hər pasport üçün para verilsin. Fəqir tələbə ianeyi-nəqdiyyə almaq üçün Büroya ərizə versinlər.

[?]: Bezin[2] gec alınmasının səbəbini söylüyor, yarına umud ediyor.

[İsgəndərli]: Tələbənin Büroya gəlib qeyd olunmaları haqqında qəzetədə elan olunmuşdur. Yoldaşların sonraya qalıb yazılmalarını rica edərəm. Xariciyyə Nəzarətində Azərbaycan haqqında məlumat toplanıyor.

[?]ov: Getmək istəyən tələbə bizi bəklәsinlərmi, bəkləməsinlərmi? Bunun səsə qoyulmasını istərəm. Əgər iş burada qalsa təkliflərini geri götürüyorlar.

[Rəis] Axundovun təklifini okuyor: *"Резолюция Ахундова: Выслушав доклад Т.Асланова от [имени] студентов мусульман в Запад[ную] Европу, общее собрание вынесло следующую резолюцию.*

1) В интересах товарищеской этики и до разрешения судьбы оставш[ихся] товарищей отвергнуть отъезд части студентов.

2) Предложить Бюро распределить между странами остающую гр[уппу]".[3]

Təklif səsə qoyuluyor: lehinə 31 səs, əleyhinə 9 səs, bitərəf qalanlar 8 səs.

[Mirqa]sımovun təklifi okunuyor. Təklif: Fransaya, İngiltərəyə, İtaliyaya gedənlərin madam ki, icazənamələri alınmışdır, onlar [get]sinlər, zira bu vəqtə qədər gördüyümüz kibi, əgər məsələyi təxirə uğradırsaq bəlkə ola bilsin ki, bu sənə də təhsilə gedə bilməyiz. Bəncə, bunlar birinci qruppaya daxil edilsinlər. İcazələri alınmayanlar da 2-ci qruppayı təşkil edərlər.

Bu təklif səsə qoyulur: lehinə 9 səs, əleyhinə 31 səs, bitərəflər 7 səs.

[1] Səhlənkarlıq.

[2] Tələbələrə kostyum tikmək üçün alınmış parçadan söz edilir.

[3] Tərcüməsi: *"Axundovun qətnaməsi: Qərbi Avropaya gedən müsəlman tələbələr adından T.Aslanovun məruzəsini dinləyərək ümumi yığıncaq bunu qərara aldı: 1) Yoldaşlıq münasibətlərinin mənafeyi baxımından və yerdə qalan yoldaşların taleyi həll edilincəyə qədər tələbələrin bir qisminin getməsi dayandırılsın. 2) Qalan tələbələri ölkələr arasında bölüşdürmək Büroya təklif edilsin".*

Ağasıbəyov: Bəncə, bu məsələ gedənlərə aiddir. İş təxirə düşməsin deyə əleyhinə səs [?]. Bunun təklifi okunuyor. Təklif budur: İcazələri alınanlar [dekabrın] 26-da getsinlərmi, getməsinlərmi? – bu məsələ büsbütün onların kəndilərinə aiddir, həllini onların kəndilərinə burakılmasını təklif edərəm. Yerdə qalanların hankı məmləkətə getməsi Büroya burakılmayaraq, tələbənin kəndilərinə burakılsın. Yalnız əgər həpsi Fransaya getmək [istərlərsə] o vəqt qürə[1] çəkilsin, kim nerəyə düşərsə o, oraya gedər.

Bu təklif səsə qoyuluyor: Lehinə 17 səs, əleyhinə 5 səs, bitərəf 18 səs.

Axundovun təklifinin ikinci qismi okunuyor: *"Предложить Бюро распределить между странами остающуюся группу".*

Lehinə 24, əleyhinə 7, bitərəf qalanlar 10 səs. Demək, sondakı təklif keçiyor.

Əlimuxtar: Aldığım məlumata görə, gedənlərdən 20-si getmək istiyor, məclis [buna] nasıl bakıyor? *(Ortadan səslər: "eyib olsun", "eyib olsun").*

Kazımov: Eşidilən sözlər müfsidlikdir[2]. (Spletni).

Rəis: Spravoçniki kim götürmüşsə iadə etsin [?].

İsmayıl Axundov: Nümayəndə gedəcəkmi, getməyəcəkmi soruyor.

Rəis: İcazələri alınanlar toplaşsınlar. Gedəcəklərmi, getməyəcəklərmi?

İsmayıl Axundov: Gedənləri tənqid ediyor. *(Səslər gedənləri tənqid ediyor).*

Rəis: Əfəndilər! Sükut etmənizi rica edərəm.

Teymur: Bir qruppa getmək istiyor. Bu, qanunimidir?

Axundov: Rica edərəm, Büro getmək istəyənlərə mane olmaq üçün nasıl ittixaz edəcəkdir və bunları nasıl mövqeyi-icraya qoyacaqdır?

Teymur: Əfəndilər, burada ümumi iclasda əksəriyyət icazələri alınanların [getməməsini] qərara almışdır. Hər halda bunun üçün Büro lazımi tədbirləri görəcək və Büro bundan məsuldur, çünki ümumi iclasın verdiyi qərarı [icraya] felən məcburdur. Buna görə siz Bürodan əmin ola bilərsiniz. Hətta [lazım] gəlsə getmək istəyənlərin pasportlarını verməyiz və onları bu surətlə getmə[məyə] məcbur edəriz.

Rəis: Büronun rəisi məsuliyyəti üzərinə alıyor və getmək istəyənlərin paspo[rtlarını] verməyəcəyini söylüyor.

Teymur: Rəis məclisi apara bilmiyor. Demək, həpimiz bu məclisin qərarına [tabe] olacağımız lazım olduğunu təkrar söylərəm.[3]

[1] Püşk.

[2] Şayiədir.

[3] ARDA, fond 895, siyahı 1, iş 180, vərəq 1-6.

16-cı bəlgə

(23 dekabr 1919)

Avropaya gedən tələbələrin Azərbaycana töhfələri

Əcnəbi vilayətlərinə elm təhsili üçün 100 nəfər azərbaycanlı tələbəsi göndəriliyor. Bugünkü bahalığı nəzərə almış olursaq xəzinəmizin bir bu qədər tələbələrə sərf edəcək məxaricinin miqdarını da təxmin etmiş olarıq. Böylə ağır məsarifi öhdəsinə almış hökumətin yeganə bir məqsədi varsa o da fəqət Azərbaycan [?] və mütəxəssislərinin ədədini artırmaqdır.

Yolayrıcında dayanıb Avropanın ən uzaq və mütəfərriq nöqtələrinə gedən cavanlarımızın ardınca bir qəb su atmalıyız ki, birincisi, bunlar təhsili bitirib tezliklə Vətənimizin imdadına tələssinlər, ikincisi də, adətdir: gözü yolda olanları şad etmək üçün səfərdən qayıdanlar özləri ilə bir töhfə gətirərlər.

İştə tələbələrimizdən bəklədiyimiz töhfə onların kəsb edəcək elmləri deyil, çünki bu [?] etdiklərin məqsədin üsulu ilə bərabər antiqə bir sovqat da gətirməlidirlər ki, yeni binası qoyulmuş Azərbaycanın türklüyünə bununla müavinət edilmiş olsun.

Türklük ilə heç bir əlaqəsi olmayan əcnəbi dövlətlərindən nə kibi antiqələr[1] gətirmək olur ki, onların türklüyümüzə təsiri olsun?

Antiqələr asari-ətiqədən[2] olduqları üçün qədim vaxtlardan qalma şeylərdir ki, əsrlərcə bizdən qabaq yaşamış babalarımızın hallarını təsvir edərək bizi bu gün maraqlandırır.

Avropalılar Şərq aləmini qarış-qarış gəzib-dolaşırkən əski vaxtlardan əllərinə hər nə düşürmüşlər həpsini diqqətlə və böyük pulların məsarifi ilə toplayıb məmləkətlərinin muzelərinə, kütubxanalarına daşımışlar. Bu şeylərin bir çoxu İslam aləminə aid olduğu üçün avropalıları maraqlandıramamışdır. Yalnız bunlardan bəzi müstəşriqlər[3] istifadə edə bilmişlər. Bunların öylələri vardır ki, rahiblər[in] əli ilə monastrlara daxil edilib, orada tozlar altında dustaq kibi qalmışlar. Ələxüsus bunların arasında dürri-yetim kibi tək nüsxələri vardır ki, misalı daha Şərqdə qalmamışdır.

Hərçənd Yevropa müstəşriqləri bu antiqələr barəsində tuli-təfsirlə bir çok əsərlər yazmışlar, naməlum yazılar üçün açarlar tapmışlar, lakin bununla belə, əsərlərin bəzi yerlərində iştibah və qüsurlar da burakmışlar ki, təshihi üçün hələ səy və məsarətlərə ehtiyac görünür. Şərqə mütəəlliq olan bu antiqələr barəsində şərqlilər özləri hələ bir şey deməmişlər. Şərq mütəxəssisləri fətvalarını yazmamışlar. Bunun üçün haman əntiqələri Şərqə doğru, yəni götürüldükləri yerlərinə qaytarmaq icab edərsə buna da avropalılar icazə verməz. Böylə olan surətdə lazım gəlir ki, şərqlilər bu antiqələrin məhfuz olduğu yerlərə gedib onların barəsində müfəssələn məlumat cəm edələr: bəzilərinin fotoğrafiya əkslərini və bəzilərinin də surətini, kopyasını alıb yerlərinə göndərməklə vətənə böyük bir xidmət göstərmiş olarlar.

Lakin bunun icrası üçün, yəni tamam Avropanın böyük mərkəzlərini gəzib-dolaşmaq məqsədilə böyük bir məsarifə və ələxüsus bu işdə ərbabi-fünun[4] dəstəyinə ehtiyac vardır. Məsarifin öhdəsindən gəlmək mümkün olsa da müəyyən qədər ərbabi-fününa malik olmadığımız cəhətlə bunun da icrası qeyri-mümkündür.

Binaənləyih varsa da bir çarə, o da Avropaya indi göndərilən tələbələrin vətənpərvərlik və heysiyyətməndliklərindən istifadə etməkdən ibarətdir. Bizim "Şərq antiqələri" dediklərdə məqsədimiz ərəblər, farslar, çinlilər olmayıb, yalnız Türk aləminə aid olan antiqələrdir ki, ən qədim vaxtlardan hicrətin yeddinci əsrinə qədər tapılmış şeylərdir. Bunların əslini Şərqdə bulmaq mümkün olmadığı halda sonrakıların əsərlərini onlarca, bəlkə yüzlərcə tapmaq olur.

[1] Antikvarlar.
[2] Antik əsərlər.
[3] Şərqşünaslar.
[4] Elm adamları.

Pəs arzumuz Türklərin qədim əsərlərindən qalmış bir neçə yadigarlardır ki, bunlardan Şərqdə heç bir nüsxə də qalmamışdır. Madam ki, bu yadigarların miqdarı azdır, bunların barəsində cəm ediləcək məlumatların da cəhətləri asanlaşıyor. Yalnız bu şeylərin indiki məkanlarını öyrənməklə bərabər, bunların barəsində əmək sərf etmiş zəvati-giramın[1] da əsərlərindən xəbərdar olmalıdır. Bunların zümrəsində ən böyük mövqe işğal etmişləri: [Vilhelm] Tomsen[2], Spasski, Radlov (Orxon kitabələri barəsində yazmışlar) və [Əli] Əmiri [əfəndi] ("Qudatqu bilik" barəsində yazmışdır), Berezin (xan yarlıqları barəsində yazmışdır) və qeyriləridir. Yadigarların məkanlarına gəldikdə, Yevropanın ən məşhur şəhərlərində Şərq asarından bir-iki şey tapılmamış olmaz. Fəqət ən böyük mərkəzlər: Qazan, Moskva, Petersburğ, London, Paris, Vyana və Berlin şəhərləridir.

Məlumumuz olan bəzi əsərlərin yerlərini burada göstərməyi faydadan xali görmədik.

1) Uyğurca *"Qudatqu bilik"* (doqquz yüz il bundan əqdəm yazılmışdır) İstanbuldan aparılıb Vyana kütubxanasının malı olmuşdur.

2) Yenə uyğur hürufatıyla *"Bəxtiyarnamə"* – yeganə nüsxəsi Oksfordda Budlean kütubxanasında bulunur.

3) Uyğurca, həm türkcə *"Meracnamə"* və *"Təzkirəti-övliya"* – yeganə nüxsələri Parisdə "Bibliotek-nasyonal" kütubxanasında bulunur.

4) Uyğur xanlarının Çin fəğfurlarına göndərmiş olduqları 15 parça uyğurca məktubları, yenidən Parisə gətirərək çincə tərcümələri ilə bərabər "Rovayal" kütubxanasında saklayırlar.

5) Orta Asiya lisanıyla *"Yüsuf və Züleyxa"* adlı mənzum əsərin bir nüsxəsi Drezdendə və bir nüxsəsi də Berlində bulunur.

6) Toqtamış xanın uyğur hərfləri ilə yaz[ıl]mış yarlıqları, yəni fərmanları. (*"Türk müntəxəbatı"* adıyla Qazanda Berezin nəşr etmişdir).

7) Səlçuk türkcəsi ilə yazılmış *"Rübabnamə"*nin bir nüsxəsi Vyana saray kütubxanasında, bir nüsxəsi Petersburq Asiya Muzesində və biri də Budapeştdə Macar Akademiyası kütubxanasında bulunur.

8) *"Katib-Sinan"* adlı səlçuk türkcəsi ilə bir əsər – macar Əncüməni-Danişi[3] kütubxanasında bulunur.

9) Yenə səlçuk türkcəsi ilə *"Gülşəni-raz"* adlı mənzum əsərin əlyazısı Londonda bulunur.

10) Səlcuqca *"Yaznamə"* (və ya "Şahin kitabı"), biricik nüsxəsi Milandakı "Amirozyana" kütubxanasında bulunur.

Bu yuxarıda zikr etdiyim uyğur və səlcukca əsərlərdən əlavə, bir çok türkcə və ərəb hürufatıyla yazılmış əsərlər də vardır ki, ədədləri yüzlərcə, minlərcədir. Lakin, bizcə, bunların ən əhəmiyyətliləri yuxarıda zikr etdiyim əsərlərdir ki, ən əski zamanlardan qalmışlar.

İştə Avropaya əzimət edən tələbələrə "Allah yaxşı yol versin" deyib də millət naminə bircə təmənna edə bilərik: "Qardaşlar! Bu zikr edilmiş əsərlərdən bizə bir sovqat gətiriniz. Qarınca kibi hər yerdən Vətənimizə bir şey toplayınız. Bu şeyləri cəmləyib sonra mükəmməl tariximizi, ahəngi-qəvaidimizi,[4] dəbdəbəli ədəbiyyatımızı yapaq, daha doğrusu, yenidən icad edək. İcad edib də mədəniyyətə doğru həvəsli bir millət olduğumuzu Avropaya sübut edək!".

Yaxşı yol!

Fərhad Ağazadə[5]

[1] Dəyərli zatların, şəxslərin.
[2] Mətndə yanlış olaraq: Tomson.
[3] Elmlər Akademiyası.
[4] Qaydalarımızı.
[5] *Ağazadə F.* Avropaya gedən tələbələrin Azərbaycana töhfələri. // *"Azərbaycan"*, 23.12.1919, № 351, ss. 4-5.

17-ci bəlgə

Paris, 24 dekabr 1919

Cənab xalq maarif nazirinə

Gəncə şəhər sakini,
Paris Universitetinin
hüquqşünas tələbəsi
İsaq bəy Musa bəy oğlu
Şıxzamanovdan

ƏRİZƏ

Sizə bir ərizə verməklə və onu Sülh Hə́yətinin üzvü cənab [Məhəmmədhəsən] Hacınski ilə göndərməklə şərəflənmişdim.

Dediyim ərizədə Sizdən, cənab nazir, məni ali təhsillərini başa çatdırmaq üçün xaricə göndərilmiş tələbələr sırasına salmağı xahiş etmişdim. Oraya hüquq fakültəsinin verdiyi, sonuncu kursda olduğumu və universiteti tam bitirmək üçün sonuncu dərs ilimin qaldığını təsdiqləyən şəhadətnamə də əlavə edilmişdi. Sonuncu imtahanımı 1920-ci ilin iyulunda verməliyəm.

Parisdə Sülh Heyətimizdə xidmət etdiyimi və bütün vaxtımın buna getdiyini nəzərə alaraq, cənab nazir, Sizdən acizanə xahiş edirəm ki, bir dərs ili üçün, yəni gələn il iyulun sonunadək, eləcə də Vətənə qayıtmaqdan ötrü mənə təqaüd verilməsi haqqında sərəncam verəsiniz. Bütün bir ili itirməyim deyə Sizdən xahiş edirəm ki, həmin təqaüdü bugünlərdə buraya - Parisə qayıdacaq kuryerimizlə göndərəsiniz.

Evliyəm, bir uşağım var.

Hökumətin bütöv bir ili itirməyimi istəmədiyinə görə arzumu yerinə yetirəcəyini düşünürəm.

Böyük hörmətlə *(İ.Şıxzamanov imzası)*

Ünvanım: ötürmək üçün Sülh Heyətinin adına yazmalı:
Mr. Chikhzamanof, 42 rue Broca, Paris.[1]

18-ci bəlgə


[Xalq Maarif Nəzarəti]
[Təx. 26 dekabr 1919]
№14581

Surət

Azərbaycan Cümhuriyyəti hökumətinin
Nazirlər Şurası[2] sədrinə[3]

Parisdə Azərbaycan Sülh Heyətinin sədri Əlimərdan bəy Topçubaşov həmin heyətdə xidmət edən Paris Universiteti hüquq fakültəsinin tələbəsi, Gəncə şəhərinin sakini İsaq bəy Şeyxzamanovun ona dövlət təqaüdü verilməsi haqqında ərizəsini mənə göndərib. Həmin ərizəyə dövlət təqaüdünü bölüşdürən Komissiyada baxılıb və Şeyxzamanovun ərizəsi

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 80-81. Məktubu Maarif Nəzarəti 29 dekabr 1919-cu ildə işə tikib.
[2] İfadə mətndə bu cür verilib.
[3] Nəsib bəy Yusifbəyliyə.



gec daxil olduğuna görə komissiya artıq bölüşdürülmüş 100 təqaüddən birini ona verməyi mümkün saymayıb, ancaq ərizəçinin müstəsna durumuna görə və Topçubaşovun özəl vəsatətinə uyğun olaraq komissiya hökumətdən bunu öyrənmək istədi ki, Şeyxzamanovun Paris Universitetində oxumasının xərcini hökumət Azərbaycan Sülh Heyətinin sərəncamına buraxdığı məbləğdən, yaxud hər hansı bir başqa qaynaq hesabına öz üzərinə götürə bilərmi?


Deyilənlərə əsasən, Siz Alihəzrətdən Paris Universitetinin tələbəsi İsaq bəy Şeyxzamanova ali təhsilini Parisdə başa vurmaq üçün Sülh Heyətinin sərəncamına buraxılmış məbləğdən, yaxud hökumətin sərəncamındakı hər hansı başqa bir məbləğdən təqaüd verilməsindən imtina etməməyinizi xahiş edirəm. Nəticə haqqında məlumat verməkdən imtina etməyin.

Xalq maarif naziri
Dəftərxananın direktor müavini.[1]

19-cu bəlgə

Azərbaycan Cümhuriyyətinin
Xalq Maarif Nəzarəti[2]
16 yanvar 1920-ci il.
№ 657
Bakı ş.

Parisdə Azərbaycan Sülh Heyətinin c-b sədrinə



Bu məktuba 1 sentyabr 1919-cu il qanununa əsasən dövlət hesabına təhsilini başa vurmaq üçün 1919/20-ci dərs ilində xaricə oxumağa göndərilən 87 abituriyent və tələbənin siyahısını da qoşaraq və həmin şəxslərə yuxarıda sözükeçən qanuna uyğun olaraq Bakı şəhərindən çıxdıqları gündən yolpulu ödənildiyini və 1 fevral 1920-ci ildək xərclik verildiyini bildirərək Sizdən xahiş edirəm ki, göndərilənlərin uyğun ali məktəblərə yerləşdirilməsi və ümumən adı çəkilən yurddaşlarımıza xaricdə yaxşı yaşam şəraitinin yaradılması qayğısını öz üzərinizə götürməkdən imtina etməyəsiniz. Göndərilənlərə dərs ilinin sonunadək lazım olan zəruri frank məbləği ən yaxın vaxtda köçürüləcək. Siyahıda adı keçən şəxslərdən [Abbas bəy] Atamalıbəyov,

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 79-79a.
[2] Blanklarda ərəb əlifbasında "Azərbaycan Cümhuriyyətinin Maarif Nəzarəti", ruscada isə "Азербайджанская Республика Министерство Народного Просвещения" yazılıb.

[Rəşid bəy] Topçubaşov artıq Parisdədir və onlara çatacaq yolpulu və bu ilin 1 fevralınadək hesablanmış xərcliyin məbləği səkkiz qəbzdə buraya əlavə edilir. Dövlət hesabına göndərilənlərdən başqa, üç nəfər də öz hesabına gedir (siyahının sonunda göstərilib). Göndərilənlərin ali məktəblərə qəbulunun gerçək qəbul vaxtı və ümumən onların xaricdəki yaşam tərzi haqqında Nəzarətə vaxtaşırı bilgi verməyinizi xahiş edirəm.

İmzalayıb:
Xalq maarif naziri *H[əmid bəy] Şahtaxtinski*
Dəftərxana müdiri *F[ətulla bəy] Rzabəyov*[1]

20-ci bəlgə
(16 yanvar 1920)

Tələbələrimizin Avropaya əzimət[2]


باکو خبرلری

Kanuni-saninin[3] 14-də axşam saat 9-da Azərbaycan Türk tələbələrinin 24 nəfərdən ibarət birinci dəstəsi Batuma yola düşdü.

Tələbələri istasyonda müşayiət üçün qohum və əqrəbalarından başqa, Parlamanın Müsavat və sosyalist fraksiyası nümayəndələri, məsai[4] naziri [Pepinov] Əhmədcövdət əfəndi, Məhəmmədəmin Rəsulzadə, bir çok siyasi və ictimai təşkilatlar tərəfindən nümayəndələr hazır idilər.

Yola düşməzdən əvvəl əzimət edəcək tələbələr masa başına toplandılar. Salman Mümtaz əfəndi məclisi açıb birinci sözü Məhəmmədəmin Rəsulzadə əfəndiyə verdi.

Məhəmmədəmin əfəndidən sonra sosyalistlər tərəfindən [İbrahim] Əbilov, Müsavat tərəfindən Hüseyn Mirzəcamalov, "Yaşıl qələm" dərnəyi tərəfindən Salman Mümtaz əfəndi, Türkçü Tələbələr Komitəsi və "Bəsirət" qəzetəsi namından Məhəmmədzadə Mirzəbala nitqlər irad etdilər.

Sonra Abbasqulu Kazımzadə, Ağamalıoğlu Səmədağa, Əhməd Pepinov dəxi tələbələrə nəsihətdə bulundular.

Tələbələrdən Zəki Pepinov[5] və gənc şairimiz Əli Yusif əfəndi cavabən niqtlər söyləyib məclisi bitirdilər.

Tələbələr vağona binərkən səmimi qucaqlaşmalar, öpüşmələr ilə ayrıldılar.

Qatar hərəkət edərkən tələbələr Azərbaycan bayrağı çıkarıb tar və nəğmə tərənnümü altında "Yaşasın Azərbaycan" deyə yola düşdülər.

Allah səlamət versin![6]

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 1.
[2] Getməsi.
[3] Yanvarın.
[4] Əmək.
[5] Əhmədcövdət Pepinovun kiçik qardaşı Zəki Pepinovun adı tələbələrin heç bir siyahısında yoxdur, onun adı yalnız bu xəbərdə çəkilib.
[6] *"Azərbaycan"*, 16 kanuni-sani (yanvar) 1920, №13, s. 3.

21-ci bəlgə

Qürbət ellərə səfər. Əlvida, Bakı

...1920-ci ilin yanvar ayında tələbələr xarici ölkələrə yola düşürdülər. Gedənləri yola salmaq üçün stansiyaya çoxlu adam: qohum-əqrəba, yoldaşlar və tanışlar, elm-mədəniyyət xadimləri, ədiblər, şairlər, müxtəlif partiyaların nümayəndələri gəlmişdi. Onlar vağzalın böyük salonunda toplaşmışdılar. Balaxana məktəbinin müəllimi Seyid Bağır Axundzadə ayağa durub dedi: "Cavanlar, siz xaricə oxumağa yüz nəfər yollanacaqdız, çox təəssüf ki, yoldaşınız Miryusif Mirabdullazadə həyata vida etdi..."

Səmədağa Ağamalıoğlu ilə bərabər İbrahim Əbilov, Əhməd Pepinov və başqaları da məclisdə iştirak edib tələbələrə nəsihət, məsləhət verdilər. Məclisə tar və kamança çalan, bir də xanəndə Cabbar Qaryağdıoğlu dəvət olunmuşdu. Böyük salon musiqi tərənələrinə, Cabbarın ecazkar, əfsanəvi ahənginə darısqallıq edirdi.

Ədəbiyyatşünas Salman Mümtaz qürbətə gedənlərin şərəfinə çay-şirniyyat-meyvə süfrəsi açdı.

Səmədağa Ağamalıoğlu gedənlərə nəsihət etdi, bol-bol elm, mədəniyyət, texniki fənn ləvazimatı gətirməyi tapşırdı.

Nitqlər söyləndi, xoş arzular diləndi. Qurban Pirimov tar, Saşa Oqanezaşvili kamança çalır, Cabbar Qaryağdıoğlu vaxtaşırı oxuyurdu.

Məclisdə çox xoş bir əhvali-ruhiyyə vardı. Lakin dünyanın bu qarmaqarışıq vaxtında Vətəndən, qohum-əqrəba və dostlardan ayrılmaq, övladı uzaq, qürbət ellərə yola salmaq intizarı üzlərdə oxunurdu.

Vida məclisində Səmədağa Ağamalıoğlu maraqla danışırdı: "Tiflisdə Seym iclasında məndən soruşdular ki, bu inqilabın axırı nə olacaq? Hərçənd ki, gələcək barədə söz deyənlərin çoxunun yalanı çıxıb, amma indi deyirəm ki, hərdən qaz yumurtalarını bir toyuğun altına qoyurdular, gələcəkdə o yumurtalardan qaz cücələri çıxırdı, su görən kimi yüyürüb özlərini tullayırdılar suya, qırt toyuq özünü itirirdi, o yan-bu yana qaçıb bərkdən qaqqıldayırdı...".[1]

Məclisdə olanlar güldülər. Səmədağa Ağamalıoğlu sözünə davam etdi: "Baxın, indi biz də bu hürriyyət yumurtalarını qoymuşuq burjuyların altına və bunlar da çırtlayıb çıxanda qırt... qırt... qartıldayacaq, ördək təki qaçıb özlərini atacaq bizim hürriyyət nohuruna. Qırt toyuqlar – burjuylar nə qədər qırt-qırt edib qanad çalacaqsa heç bir şey çıxmayacaq... Bu azərbaycanlı cavanlar gedir oxumağa, təhsil alıb qayıdanda bizə, xalqa qulluq edəcəklər...".

Stansiyada zəng çalındı. Parovoz uzun, sürəkli xəbərdarlıq fiti verdi. Həyəcan daha da artdı, gedənlər də, qalanlar da üzüntülü dəqiqələr keçirirdilər, gözlərdə yaş, dodaqlarda həzin bir təbəssüm vardı. Astadan səslər eşidilirdi: "Tezliklə məktub yaz!", "Özündən muğayat ol!", "Dərslərində diqqətli ol!", "Qürbət eldə xoşrəftar ol!", "Həftədə çox yox, heç olmasa bir sətir yaz!".

Tarzən birdən "Orta Mahur" çalmağa başladı, gözəl xanəndənin ilhamı coşqun dəniz təki tələtümə gəldi.

[1] Əsər sovet dönəmində yazıldığına görə müəllif yalnız S.Ağamalıoğlunun çıxışını verib.

Şəbi-hicran yanar canım,
Tökər qan çeşmi-giryanım...
Oyadar xəlqi əfqanım,
Qara bəxtim oyanmazmı...

Hamı ayağa qalxdı...

Tələbələr qohum-əqrəba, valideynləri ilə vidalaşıb vaqonlara doluşdular.

Musiqi təranələri altında qatar stansiyadan yavaş-yavaş ayrıldı.

Pəncərələrdən yaylıqlar göyərçin qanadları təki yellənirdi. Göz yaşları ilə əzizlərini yad diyarlara yola salanlar da əlləri ilə, yelladikləri yaylıqlarla vida salamı göndərir, onlara uğurlu yol diləyirdilər.[1]

22-ci bəlgə
(16 yanvar 1920)

Xaricə göndərilən tələbələr arasında:
Bu gün saat 8:48 dəqiqədə tələbələrin ikinci və sonuncu dəstəsi xaricə göndərilir.[2]

Tələbələrin xaricə getməsi

14 yanvarda sürətli qatarla tələbələrin ilk dəstəsi xaricə getdi. Qatar axşam saat 8:48 dəqiqədə tərpənməli idi. Saat 7-dən vağzala əsasən tələbələri yola salan çoxlu adam toplaşmışdı. Vağzala Parlaman üzvləri M.Rəsulzadə, İ.Əbilov, S.Ağamalıoğlu, A.b.Səfikürdski, A.Kazımzadə və Hökumət üzvü Ə.Pepinov da gəlmişdilər. İkinci dərəcəli zalda yola düşən tələbələrə çay verildi. Burada vida nitqi ilə M.Rəsulzadə, Azərbaycan sosial-demokrat partiyası adından İ.Əbilov, sosialist-inqilabçıların "Xalqçı" partiyası adından A.b.Səfikürdski, Ağamalıoğlu, Piri Mürsəlzadə, A.Kazımzadə və b. çıxış etdilər.

Natiqlərin çıxışlarının məğzi gələcək tələbələrə əcnəbi ali məktəblərdə təhsillərini uğurla başa vurmaq və Vətənə döndükdən sonra bu bilikləri ziyalı işçilərə çox ehtiyacı olan doğma dövlətin çiçəklənməsi uğrunda sərf etmək arzularından ibarətdi. Hökumət adından Ə.Pepinov çıxış edərək tələbələri əmin etdi ki, hökumət tələbələrin xaricdə təhsillərini başa vurmasından ötrü lazım olan heç bir xərcdən çəkinməməyi qərara alıb. Çaydan sonra tələbələr onlar üçün özəl hazırlanmış vaqonda yerləşdilər. Platformada yola salan çoxdu. Vaqonun qapıları Azərbaycan bayraqları ilə bəzədilmişdi. Hamının kefi kökdü. Vaqondan tar sədaları və "Segah" səsi gəlir. Üçüncü zəng çalınır. Tar səsləri altında qatar yerindən tərpənir. Gedənlər və qalanlar arasından sevincli səslər ucalır: "Yaşasın Azərbaycan!".[3]

[1] *Süleymanov M.* Eşitdiklərim, oxuduqlarım, gördüklərim, ss. 333-336.
[2] *"Азербайджан"*, 16.01.1920, № 10, s. 4. Bu xəbər yalnız bir cümlədən ibarətdir.
[3] *"Азербайджан"*, 17.01.1920, № 11, s. 3.

23-cü bəlgə

Azərbaycan Cümhuriyyətinin
Xalq Maarif Nəzarəti
17 yanvar 1920-ci il.
№ 662
Bakı ş.
İstanbulda Azərbaycan hökuməti
diplomatik missiyasının
c-b sədrinə

Bu məktuba Azərbaycan Cümhuriyyəti Hökumətinin ali təhsilini bitirmək üçün dövlət hesabına Türkiyəyə göndərdiyi 9 şəxsin siyahısını əlavə edərək və siyahıda göstərilmiş *Sədi*[1] *Hacı Həsən oğlu* və *Abdulla Tahirov*'un artıq İstanbulda olduğunu, yerdə qalanların isə Türkiyəyə getmək üçün bu 16 yanvarda Bakı şəhərindən çıxdığını bildirərək Sizdən xahiş edirəm ki, adı çəkilən yurddaşlarımızın uyğun ali məktəblərə müəyyənləşdirilməsi və ümumən onların xaricdə yaxşı yaşam şəraitinin yaradılması qayğısını öz üzərinizə götürməkdən imtina etməyəsiniz. Bakı şəhərindən 16 yanvarda çıxmış 7 nəfər tələbə yol pulu və bu ilin 1 fevralınadək yaşamaq üçün vəsaitlə təmin edilib.

İstanbulda yerləşən Sədi Hacı Həsən oğlu və Abdulla Tahirova gəlincə, onlara çatacaq yol pulu və bu ilin 1 fevralınadək xərclik, hər birinə 3000 frank olmaqla bu məktubla birgə dörd köçürmə biletində göndərilir ki, adı çəkilən şəxslərə təqdim edilsin. Türkiyəyə göndərilmiş tələbələrin bu ilin 1 fevralında cari dərs ilinin sonunadək xərcliyi üçün zəruri məbləğ ən qısa zamanda Sizin sərəncamınıza köçürüləcək; surəti buraya əlavə edilmiş 1 sentyabr 1919-cu il qanununa əsasən onun dəqiqliklə hər ay tələbələrə verilməsi gərəkdir. Siyahıda göstərilmiş bütün tələbələrə (Nəzarətə öz fotoşəkillərini təqdim etməmiş Sədi Hacı Həsən oğlu istisna olmaqla) Bakı şəhər rəisi 124, 131, 133, 142, 148, 169, 170 və 174 saylı xarici pasportlar verib; onlar həmin şəxslərə verilməkdən ötrü bu sənədlə birgə göndərilir.


Türkiyəyə göndərilən tələbələrdən başqa, hökumət ali təhsilini başa vurmaq üçün Qərbi Avropaya dövlət hesabına 78 nəfər göndərib ki, onlardan Fransaya göndərilməsi nəzərdə tutulmuş tələbə *Məhəmmədrəşid Bosnalızadə* yerli universitetdən gərəkli sənədləri almaqdan ötrü hələ keçən ildən İstanbul şəhərinə gedib, indi də oradadır və Fransaya getmək üçün vəsait gözləyir. Bunu nəzərə alaraq bu məktubla Nəzarətin 13 yanvar tarixli 539 saylı şəhadətnaməsini və həmin tələbənin adına 3 000 franklıq köçürmə biletini də əlavə edərək Sizdən xahiş edirəm ki, onları Məhəmmədrəşid Bosnalızadəyə təqdim edəsiniz, ali təhsilini bitirmək üçün onu təcili Fransaya göndərəsiniz və bu haqda Parisdə Azərbaycan Sülh Heyətinin sədrini və məni bilgiləndirəsiniz. Türkiyəyə göndərilənlərin ali məktəblərə gerçək qəbul vaxtı və ümumən onların xaricdəki yaşam tərzi haqqında Nəzarətə vaxtaşırı bilgi verməyinizi xahiş edirəm.

İmzalayıb:
Xalq maarif naziri əvəzi *N.Şahsuvarov*
Təsdiqləyib:
Dəftərxana müdiri *F.Rzabəyov*[2]

[1] Doğrusu: Sadəddin.
[2] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 5-5a.

24-cü bəlgə
(17 yanvar 1920)

1 sentyabr 1919-cu il qanununa əsasən ali təhsilini dövlət hesabına başa vurmaq üçün 1919/20-ci dərs ilində Türkiyəyə göndərilən abituriyent və tələbələrin SİYAHISI



Sıra №	Adı və soyadı	Tələbənin göndərildiyi dövlət
1	Əbdül Kərbəlayı Abbas oğlu Əbdülov	TÜRKİYƏ
2	Sədi Hacı Həsən oğlu	--
3	Məhəmmədzəki Dursunzadə	--
4	Əlimuxtar Yaqub oğlu Həsənov	--
5	Əli Məşədi Xaspulat oğlu Kərimov	--
6	Abdulla Tahirov	--
7	Məhəmmədəli bəy Xələf bəy oğlu	--
8	Əliyusif Məşədi Abutalıb oğlu Cəfərov	--
9	Məhəmmədhənifə Zeynallı	--


İmzalayıb:
Azərbaycan Cümhuriyyəti xalq maarif naziri əvəzi *(N.Şahsuvarov)*
Təsdiqləyib:
Dəftərxananın direktor müavini *(M.Kondratyev)*[1]

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 6.

25-ci bəlgə

[Xalq Maarif Nəzarəti]
Ümumi [şöbə]
17 yanvar [19]20
№ 661

C-b xarici işlər nazirinə



Bu məktuba cari 1919/20-ci dərs ilində 1 sentyabr 1919-cu il qanunu əsasında ali təhsilini başa vurmaq üçün dövlət hesabına xaricə göndərilmiş abituriyent və tələbələrin siyahısını əlavə edərək və siyahıda göstərilmiş şəxslərin onlara təyin edilmiş dövlətlərə getməsi üçün artıq Bakı şəhərindən çıxdıqlarını xəbər verərək Siz Alihəzrətdən xahiş edirəm ki, adı keçən tələbələrə ali məktəblərə girmək və onların xaricdə daha yaxşı həyat şəraiti ilə təmin edilməsi işinə hər cür yardım göstərməkdən ötrü tabeliyinizdəki diplomatik missiyalara və şəxslərə sərəncam verməkdən, eləcə də onlar üzərində hökumət nəzarətinin qoyulmasından imtina etməyəsiniz. Bunlar haqqında mənə tabe olan Nəzarətə vaxtaşırı məlumat vermək lazımdır.

İmzalayıb:
Xalq maarif naziri əvəzi *N.Şahsuvarov*
Təsdiqləyib:
Dəftərxana müdiri *F.Rzabəyov*[1]

26-cı bəlgə

[Xalq Maarif Nəzarəti] Ümumi [şöbə]
17 yanvar [19]20
№ 662

C-b xarici işlər nazirinə

Bu məktuba İstanbulda Azərbaycan Hökumətinin Diplomatik Missiyasının Sədri adına surğuclu möhürlərlə möhürlənmiş 662 saylı dövlət zərfini də əlavə edərək Siz Alihəzrətdən xahiş edirəm ki, onu təcili təyinat üzrə göndərməkdən və verilmə vaxtını mənə bildirməkdən imtina etməyəsiniz.


İmzalayıb:
Xalq maarif naziri əvəzi *N.Şahsuvarov*
Təsdiqləyib:
Dəftərxana müdiri *F.Rzabəyov*[2]

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 8-8a.
[2] Yenə orada, vərəq 7.

27-ci bəlgə

(İstanbul, 23-25 yanvar 1920)

Çox hörmətli Nurməhəmməd bəy![1]



Şərait indiyədək elə idi ki, Sizə yazmağa imkan tapmadım. Tiflisə bazar günü gəldik, heç nə edə bilmədik, ertəsi gün də xaç suyuna salma ("kreşeniye") günü idi.[2] Bəzi şəxslər üçün icazə almaq lazım idi, ancaq bütün bu əngəllərə baxmayaraq hamısını ala bildik. Vaxtımızın çoxu Batumda saxlanılmış yoldaşlarımıza getdi. İş burasındadır ki, biz Bakıdan çıxanda Yollar Nəzarətindən əlimizdə heç bir sənəd yox idi. Bir vaqondan başqa, ümumi heyətdə 18 tələbə İtaliyaya gedirdi ki, onlar bizi gözləmədən hərəkət edərək Batuma çatıblar. Bu vaxt bizim vaqonu onların qatarından ayırmışdılar. Nəticədə Batumda onlardan yolpulu ödəməyi tələb ediblər və tələbələrimiz bundan boyun qaçırıblar, buna görə də hər şeyi aydınlaşdıranadək onları tutub saxlayıblar. Mən teleqram alan kimi Sizi xəbərdar etdim və özüm Tiflis stansiyası rəisinə müraciət etdim, o, Gürcüstan yolları rəisinə xəbər verdi və bunun nəticəsində həmin rəis onların buraxılmasını əmr etdi. Biz icazə aldıqdan sonra Batuma getdik. Elə həmin gün buradan ən böyük İtaliya paroxodu gedirdi. Biz öncədən Tiflisdə İtaliyadan keçib getmək üçün sənədlər almışdıq, çünki bizə 24 yerin ayrıldığı fransız paroxoduna yerləşəcəyimizi düşünməmişdik. [Batuma] çatan kimi bilet almağa, çekləri xırdalamağa və s. başımız qarışdı. Bizdən vəbaya qarşı peyvənd etdirməyimiz haqqında sənəd istədilər, bunu biz hamımız Batumda etdirdik. Ümumən bəxtimiz yaxşı gətirdi. Hamı üçün bilet tapdıq. Agentlik bizim qəbzləri qəbul etdi. İtalyanların münasibəti gözlədiyimizdən qat-qat yaxşı oldu və bütün bunlar c-b Qabbanın münasibətinə görə idi. İtaliya Hərbi Missiyasının başçısına Xalq Maarif Nəzarətinin açıq məktubu, yaxud təliqəsi ilə bizim minnətdarlığımızı bildirməyinizi xahiş edərdik. Şübhəsiz, Siz mənim vəziyyətimi təsəvvür edirsiniz, çünki hər şey 3 günün içində baş verib və buna görə də Sizə yaza bilməmişəm.

XX yüzilin mədəni barbarlarının ayağının dəydiyi Trabzonda[3] olduq. Orada məscidlərdə at saxlayıblar, tonqal qalayıblar və s.

İndi biz İstanbulda karantindəyik. Hamımız özümüzü yaxşı, gümrah hiss edirik. Yoldaşlarımız tar çalır və oxuyurlar. Bizi paroxodda yaxşı yedirirlər.

Səmimi ehtiram və salamlarımı sizə və bütün tanışlara: Kondratyevə, Fətulla bəyə, Azad bəyə və Rəsul əmiyə göndərirəm.

Hörmətlə, *Aslanov Teymur.*[4]

[1] Məktubun başlanğıcında "Çox hörmətli Nurməhəmməd bəy" sözlərinin üstündə T.Aslanov bunları əlavə edib: *"Paroxodda yazıram. Şərait uyğun deyil, ona görə də məktubun çirklənməsinə görə bağışlayın".*

[2] Bu bayram 19 yanvarda qeyd edilir. Deməli, tələbələr Tiflisə 18 yanvar 1920-ci ildə gəliblər.

[3] Trabzon 1916-cı ilin aprelindən 1918-ci ilin martınadək rus işğalı altında olub. T.Aslanov bunu nəzərdə tutur.

[4] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 27-28a.

28-ci bəlgə

Azərbaycan Cümhuriyyətinin Maarif Nəzarəti
Dövlət Universitetinin Dəftərxanası
Bakı şəhərində.
24 yanvar 1920-ci il.
№ 145.

Xalq Maarif Nəzarətinin Dəftərxanasına

Zərurət yarandığına görə Universitet Dəftərxanası xahiş edir ki, Bakı Universiteti tibb fakültəsinə qəbul edilmiş tələbələr: 1) Kazımov Cəfər, 2) Axundov İsmayıl, 3) Əlimuradov Cavad və 4) Seyidəliyev Məhəmmədin həqiqətən xarici ölkələrə gedib-getmədikləri haqqında məlumat verməkdən imtina etməyəsiniz.

Şura və İdarə Heyətinin katibi *(imza)*[1]

29-cu bəlgə

Surət

[Xalq Maarif Nəzarəti Ümumi şöbə]
25 yanvar 1920
№ 1288

C-b xariciyyə nazirinə[2]

Bu məktuba 1289 və 1290 saylı iki zərf (onlardan biri beş surğuclu möhürlə möhürlənib) əlavə edərək Siz Alihəzrətdən xahiş edirəm ki, təcili şəkildə surğuclu məktubu Parisdə Azərbaycan Sülh Heyətinin sədrinə, ikincisini isə Azərbaycan Hökumətinin İstanbuldakı Diplomatik Missiyasının nümayəndəsinə çatdırasınız və bu haqda məni bilgiləndirəsiniz.

İmzalayıb:
Xalq maarif naziri əvəzi *N.Şahsuvarov*
Təsdiqləyib:
Dəftərxana müdiri *F.Rzabəyov*[3]

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 16. Bu məktub Nəzarətə 26 yanvar 1920-ci ildə daxil olub və 976-cı nömrə ilə qeydə alınıb.


[2] Fətəli xan Xoyskiyə.

[3] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 15.

30-cu bəlgə

Surət
Çox təcili

[Xalq Maarif Nəzarəti
Ümumi şöbə]
25 yanvar 1920
№ 1289



Parisdə Azərbaycan Sülh Heyətiniń
c-b sədri Əlimərdan bəy Topçubaşova

Bu 16 yanvar tarixli (657 saylı) məktuba əlavə olaraq Parisə *qırx iki min səkkiz yüz altmış səkkiz* (42.868) franklıq 542 saylı bir qəbz göndərərək Sizdən xahiş edirəm ki, həmin məbləğdən İngiltərə, İtaliya və Fransada olan və adları 657 saylı siyahıda dəqiq göstərilmiş bütün tələbələrin hər birinə ayda dörd yüz frank verməkdən imtina etməyəsiniz. Tələbələrə verəcəyiniz məbləğ, eləcə də onların xaricdəki həyat tərzi haqqında (kimin hansı ali məktəbdə oxuması göstərilməklə) rəhbərlik etdiyim nazirliyə lütfən vaxtaşırı məlumat verin.

İmzalayıb:
Xalq maarif naziri əvəzi *N.Şahsuvarov*
Təsdiqləyib:
Dəftərxana müdiri *F.Rzabəyov*[1]

31-ci bəlgə

Surət
Çox təcili

[Xalq Maarif Nəzarəti
Ümumi şöbə]
25 yanvar 1920
№ 1290
İstanbulda Azərbaycan hökuməti
diplomatik missiyasının c-b sədrinə

Bu 17 yanvar tarixli 662 saylı məktubuma dəyişiklik edərək Sizdən xahiş edirəm ki, tələbə Məhəmmədrəşid Bosnalızadəni Fransaya deyil, İtaliyaya göndərməkdən (həmin məktubda bu yanlış olaraq göstərilib) və nəticə haqqında məni bilgiləndirməkdən imtina etməyəsiniz.

İmzalayıb:
Xalq maarif naziri əvəzi *N.Şahsuvarov*
Təsdiqləyib:
Dəftərxana müdiri *F.Rzabəyov*[2]

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 13-13a.
[2] Yenə orada, vərəq 14.

32-ci bəlgə

Surət

[Xalq Maarif Nəzarəti[
Ümumi [şöbə]
30 yanvar 1920
№ 1424
976 saylı məktuba

Bakı Dövlət Universitetinin Dəftərxanasına

Dəftərxana bu 24 yanvar tarixli 145 saylı məktubunuzla bağlı bildirir ki, İsmayıl Əbdülxalıq oğlu Axundov, Cəfər Kərbəlayı Əliəsgər oğlu Kazımov, Cavad bəy Cümşüd bəy oğlu Əlimuradbəyov və Mirməhəmmədrza Mirabutalıb oğlu Seyidəliyevi Hökumət ali təhsilini bitirmək üçün dövlət hesabına xaricə göndərib.

Dəftərxana müdiri
Kargüzar[1]

33-cü bəlgə

Azərbaycan Cümhuriyyəti Hökuməti
Xariciyyə Nəzarəti
26 fevral 1920
№ 1265

Xalq Maarif Nəzarətinə

Xariciyyə Nəzarəti məlumat üçün bildirir ki, bazar günü, bu ilin 29 fevralında, İstanbuldan keçməklə Parisə diplomatik kuryer göndəriləcək.
Zərfləri bazar günü saat 3-dək (daxil olmaqla) yollamaq olar.

Dəftərxananın direktor müavini *(Sulkeviçin imzası)*
Ümumi İşlər Bölməsi rəisi əvəzi *(Mahmudbəyovun imzası)*
Kargüzar *(imza)*[2]

34-cü bəlgə

Cənab xalq maarif nazirinə


MƏRUZƏ

Bu məktubla birgə: 1) İtaliyada qalan tələbələrin və 2) Almaniyaya gedən tələbələrin siyahılarını əlavə edərək, aşağıdakılar haqqında məruzə etməklə şərəflənirik.

I. İtaliya qrupu haqqında.

Siyahıdan göründüyü kimi, İtaliyada cəmisi 6 nəfər qalıb; onlardan ikisi – Əhməd Məşədi Cabbar oğlu [Rəcəbli] və Vəliyev İsgəndər Peruciada, qalan 4-ü isə Romada yaşayırlar və italyan dilini öyrənirlər. Pulumuz, demək olar ki, qurtarıb. Bu haqda Bakıya Sizə və Parisə c-b Topçubaşova yazmışıq. O, teleqramla bildirir ki, bizim üçün Bakıdan pul almayıb, ancaq fevral ayı üçün kredit şəklində göndərəcək, halbuki onu da hələ indiyədək almamışıq. Bildirməklə şərəflənirik ki, aldığımız 400 frank həyati ehtiyacları minimum ödəmək üçün

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 17.
[2] Yenə orada, vərəq 19. Maarif Nəzarəti bu məktubu 28 fevralda alıb.



yetərli deyil – [400 frank] maksimum 500 lirə edir ki, italiyalıların qayda-qanunları və adətləri ilə tanış olmayan, dil bilməyən biz əcnəbilərin bu pula yaşaması ağlasığmazdır. Ən aşağı fəhlə burada 540 lirə alıb ki, əlbəttə, bu çox azdır, ona görə də yanvar ayında bütün İtaliyada möhtəşəm tətillər keçirilib və bizim buraya gəlməyimizdən 3 gün öncə onların arzusunun barışıqla ödənilməsi ilə bitib. İndi hökumət yeni maaşlar hazırlayır. Bahalıq indi bizim Azərbaycanda olduğu kimi burada da gözgörəsi artır. Yuxarıdakıları bildirərək xahiş etməklə şərəflənirik:

1. Biz İtaliyada yaşayanlara ayda 800 lirə göndərilsin;
2. Ən azı 3 ayın pulu qabaqcadan göndərilsin, çünki Azərbaycanla normal əlaqələr olmadığına görə pulu vaxtlı-vaxtında almaq mümkün deyil və biz indi bunu kəskin hiss edirik;
3. Bundan başqa, hər tələbəyə illik 1000 lirə həcmində tədris ehtiyacları üçün yardım edilsin, çünki 800 lirəyə yalnız ən qənaətlə yaşamaq mümkündür və qıraға pul qoymaq haqqında düşünmək olmaz;
4. İtaliyada müxtəlif məktəblərdə tədris haqqı 170-250 lirə arasındadır. Kənd təsərrüfatı, politexnik və memarlıq ixtisasları üzrə oxuyan tələbələrə lazım olan rəsm alətləri dəsti 300-500 lirə, rəssamlar üçün boya və kitablar hədsiz bahadır, belə ki, aşağısı 1000 lirədir. İndi hər birimiz ayda 135 lirə Berlits məktəbində dil öyrənməyə veririk.

Bunu bildirməyi artıq saymırıq ki, İtaliyadakı gürcü tələbələr (onlar 4 nəfərdir) öz hökumətlərindən iyul ayınadək ayda 600 lirə alıblar; bu, onlara 3 ay bundan qabaq verilib. Ancaq indi onlar xərcin çoxaldığını görərək məbləği artırmağı xahiş edirlər. Təkidlə xahiş edirik ki, bizə pulu təcili göndərəsiniz, çünki vəziyyətimiz dəhşətlidir, son lirələrimizə yaşayırıq.

II. Almaniya qrupuna gəlincə, bildirməklə şərəflənirik ki, onlara buraxılış almaq üçün bizim Paris [sülh] nümayəndə heyəti çalışıb, ancaq bu yaxınlarda c-b Topçubaşovdan bunun Parisdə alınmasının mümkünsüzlüyü haqqında teleqram almışıq. Buna görə də onlar bu işə Romadakı gürcü nümayəndəliyi vasitəsilə nail olmağa çalışırlar. Ancaq nəzərə alsaq ki Romaya artıq təyin edilmiş Almaniya və Avstriya səfirləri gəlib, onlar bir neçə gündən sonra icazə almağa və Avstriyadan keçməklə [Almaniyaya] getməyə umud bəsləyirlər; belə ki, İsveçrə hətta öz ərazisindən keçməyə də icazə vermir.

Başqanlar Şurası *(Mirzə Hacızadə, Cəmil Musayev və Zeynal Əliyevin imzaları).*
Roma, 27 fevral 1920-ci il.

İtaliyada qalan tələbələrin siyahısı:

1. Əliyev Zeynal
2. Musayev Cəmil
3. Hacızadə Mirzə
4. Əhməd Məşədi Cabbar oğlu
5. Rəhimzadə Abdulla
6. Vəlizadə İsgəndər.

Almaniyaya gedən tələbələrin siyahısı:

1. Həsənov Rzaqulu
2. Məmmədov Qəhrəman
3. Nağıyev Hüseyn
4. Şıxıyev Hüseyn
5. Həmid Məhəmmədov
6. Sadıqov Mirsadıq
7. Şahsuvarov Mürsəl
8. Şahsuvarov Surxay
9. Əliyev Abbasmirzə
10. Abdinov Mirzə Bəhram
11. Məmmədov Hüseynbala
12. Muğanlinski Adil
13. Muğanlı Əsildar
14. Xiromanov Zəkəriyyə
15. Şahnəzərov Əhməd
16. Məmmədov Zal
17. Əliyev Firidun.[1]


35-ci bəlgə

Azərbaycan Hökuməti-Cümhuriyyəsi
Məarifi-Ümumiyyə Nəzarəti-cəliləsinə

Əfəndim!

Aşağıda imzaları mühərrər[2] biz doqquz kişi tələbə əfəndilər hökumət hesabına təhsil üçün İstanbula göndərildik. Hər birimizə Parisdə tədiyyə eləmək üzərə Azov-Don bankasının üçər bin franklıq bir çeki verilmiş idi. İstanbula müvasilətimizdən[3] sonra cəmli bulduğumuz çeki pozdurmaq[4] üçün günlərcə sokak-sokak bankaları dolaşdıq, məələsəf, Azov-Don bankasını burada tanıyan və şayani-etimad olub-olmadığını bilən şəxs yok denilsə səzadır. Hal böylə olduğu halda İstanbulda təhsil üçün göndərilən bir tələbəyə burada şöbəsi olmayan bir bankanın çekini vermək nə dərəcəyə qədər müvafiq olacağını

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 34-38a. (Məktub Nəzarətə 7 apreldə çatıb).
[2] Yazılmış.
[3] Çatmağımızdan.
[4] Xırdalamaq.



təqdiri-alilərinə həvalə edəriz. Bilaxərə ənvayi-məşşaq ilə çeklərimizi üç bin frankı 230 lirəyə pozdura bildik. Bu hal davam edəcək olursa Azərbaycan hökuməti bizi deyil, bəlkə sərrafları istifadə etdirəcəkdir. Binaənəleyh Azərbaycan köylüsünün can və yürəkdən bizə verdiyi paraları bizlər deyil, sərraflar yeyir. Bu xüsusu Azərbaycan hökumətinin İstanbul müməssilliyində[1] də təhqiq etmək vacibdir. Bu xüsus haqqında hökumətin təşəbbüsati-ciddiyyədə bulunmasını şiddətlə rica edəriz. Böylə hər ay bizə para deyil, çek göndərilərsə biz də bunu pozdurmaq üçün yüzlərcə şəxsə yalvarır isək əcəba hökumət bizdən nə kibi istifadə edəcəkdir? Bu miqdar para iskonto edildikdən sonra ancaq yigirmi-otuz lirə qədər[2] tutacaqdır. Bununla keçinmək ədimül-imkandır[3]. Bununla burada keçinə bilmək adəta səfilanə imrari-həyat deməkdir. Biz tələbələr rica edəriz ki, hökumət bizim təxsisatımızı təzyid və çek deyil, ancaq para göndərsin, zira Bakıda verilən 3 bin frankın bin frankı məsarifi-rahiyyəyə[4] sərf edildiyi kibi, mütəbaqi qalan 2 bin frank ilə də əlbəsə, ayaqqabı, kitab, oda kirası, ləvazimati-zəruriyyə üçün sərf edilmişdir. Arkadaşlardan bəzilərinin parası təmamən bitdiyi kibi, bəzilərinin də bitmək üzrədir. Bu xüsusu lütfən təəmmül buyurularaq dünyanın ən bahalı bir şəhərində səfalət və pərişaniyyətimizə meydan verilməməsini rica və istirham edəriz, əfəndim.

27 şubat [1]336,[5] İstanbul.

[İmzalar]:
Əbdülzadə Əbdül, Hacı Həsən oğlu Sədəddin, Dursunzadə Məhəmmədzəki, Məhəmmədhənifə Zeynallı, Əlimuxtar Həsənzadə, Əli Kərimzadə, Əliyusif Cəfərzadə, Məhəmməd Xəlilbəyzadə, Abdulla Tahirli.[6]

[1] Nümayəndəliyində.
[2] Bundan sonra yazılmış "ancaq" sözünü artıq olduğu üçün atdıq.
[3] İmkansızdır.
[4] Yol xərclərinə.
[5] 27 fevral 1920-ci il.
[6] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 42-43.


36-cı bəlgə

Surət

Azərbaycan Cümhuriyyətinin
Maarif Nəzarəti
[Ümumi] şöbə
29 fevral 1920-ci il.
№ 3099
Bakı ş.

Parisdə Azərbaycan Sülh Heyətinin c-b Sədrinə

Mənim builki 16 və 25 yanvar tarixli 657 və 1289 saylı məktublarıma əlavə olaraq, təhsilini bitirmək üçün Qərbi Avropaya dövlət hesabına göndərilmiş 77 abituriyent və tələbənin 1 sentyabr 1920-ci ilədək xərcliyi üçün lazım olacaq məbləğin yerdə qalan yüz yetmiş iki min yeddi yüz otuz iki (172.732) franklıq hissəsini Parisə 102 və 591 saylı iki qəbzlə bu məktubda göndərirəm. Göndərilmiş şəxslər Bakı şəhərində yolpulu ilə təmin edilib və onlara 1 fevral 1920-ci ilədək xərclik verilib. Onların sonrakı xərcliyi üçün bu ilin 25 yanvarında 1289 saylı məktubla sizə Parisə qırx iki min səkkiz yüz altmış səkkiz franklıq 542 saylı qəbz göndərilib. Siyahıda göstərilmiş abituriyent və tələbələrin 18-cisi Ağaəli Məşədi Rəsul oğlu Abdullayev xaricə getməyib. Gedən abituriyent və tələbələrin hər birinə 1 sentyabr 1919-cu il qanununa əsasən xərclik üçün ayda dörd yüz frank verilməlidir.



Göndərilənlərin təyinat yerinə çatması və tədris müəssisələrinə girməsi haqqında indiyədək məlumatımız olmadığına görə sizdən xahiş edirəm ki, məni bu haqda bilgiləndirməkdən imtina etməyəsiniz. Buraya göndərilmiş şəxslərin siyahısını əlavə edirəm.

İmzalayıb:
Xalq Maarif Nəzarətini idarə edən[1] *Şahsuvarov*
Dəftərxananın direktor müavini *Kondratyev*
D ü z d ü r: Dəftərxananın mühasibi *(Yembayevin imzası)*[2]

[1] 1920-ci ilə aid bir çox sənədlərdə "nazir" əvəzinə "Nəzarəti idarə edən" (ruscası: управляющий Министерством») ifadəsi işlədilib.
[2] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 20.

37-ci bəlgə

Surət

Azərbaycan Cümhuriyyətinin Maarif
Nəzarəti [Ümumi] şöbə
29 fevral 1920-ci il.
№ 3100
Bakı ş.

İstanbulda Azərbaycan Hökuməti
Diplomatik Missiyasının c-b Sədrinə

Mənim builki 17 yanvar tarixli 662 saylı məktubuma əlavə olaraq, Parisə iyirmi beş min iki yüz (25.200) franklıq 590 saylı qəbzi bu məktubla göndərir, Sizdən xahiş edirəm ki, bu ilin 1 fevralından başlayaraq Türkiyəyə təhsilini bitirmək üçün göndərilmiş 1) Əbdül Kərbəlayı Abbas oğlu Əbdülov, 2) Sədi Hacı Həsən oğlu, 3) Məhəmmədzəki Dursunzadə, 4) Əlimuxtar Yaqub oğlu Həsənov, 5) Əli Məşədi Xaspulat oğlu Kərimov, 6) Abdulla Tahirov, 7) Məhəmmədəli bəy Xələf bəy oğlu, 8) Əliyusif Məşədi Abutalıb oğlu Cəfərov və 9) Məhəmmədhənifə Zeynallının hərəsinə ayda dörd yüz frank verəsiniz.

Göndərilənlərin təyinat yerinə çatması və tədris müəssisələrinə girməsi haqqında indiyədək məlumatımız olmadığına görə sizdən xahiş edirəm ki, məni bu haqda bilgiləndirməkdən imtina etməyəsiniz.

İstanbul şəhərindən qayıtmış Şərif Əfəndizadə bildirib ki, ona verilmiş bütün pulları xərcləyib, "İslam və əsgəri" kitab mağazasına 450 lirə borclu qalıb, həm də xərclədiyi pullar haqqında qəbzləri və alınmış kitabların fakturasını İstanbul şəhərində unudaraq qoyub. İndi Şərif Əfəndizadə ilə hesabları qaydaya salmaq üçün onun aldığı kitabların miqdarı və kitablara ödədiyi məbləğ haqqında məlumat əldə etməliyik, buna görə də Sizdən xahiş edirəm ki, Şərif Əfəndizadənin Nəzarət üçün satın aldığı kitabların qəbzlərinin surətini əldə edərək bizə göndərəsiniz.

İmzalayıb:
Xalq Maarif Nəzarətini idarə edən *Şahsuvarov*
Dəftərxananın direktor müavini *Kondratyev*
D ü z d ü r: Dəftərxananın mühasibi *(Yembayevin imzası).*[1]


38-ci bəlgə

Surət

Azərbaycan Cümhuriyyətinin
Maarif Nəzarəti
İkinci şöbə
29 fevral 1920-ci il.
№ 3101
Bakı ş.

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 21.

C-b xariciyyə nazirinə



Bu məktuba beş surğuclu möhürlə möhürlənmiş 3099 və 3100 saylı iki zərfi qoşaraq Sizdən xahiş edirəm ki, onları təcili şəkildə ünvanlarına: Parisdə Azərbaycan Sülh Heyətinin Sədrinə və İstanbulda Azərbaycan Hökumətinin Diplomatik Missiyasının Sədrinə göndərəsiniz və nəticəsi haqqında məni bilgiləndirəsiniz.

İmzalayıb:
Xalq Maarif Nəzarətini idarə edən *Şahsuvarov*
Dəftərxananın direktor müavini *Kondratyev*
D ü z d ü r: Dəftərxananın mühasibi
(Yembayevin imzası)[1]

39-cu bəlgə

(1 mart 1920)

Cənab xalq maarif nazirinə


M Ə R U Z Ə

Siz Əlahəzrətə məruzə etməklə şərəflənirik ki, biz, bütün tələbələr Romaya çatdıq. Fransa, İngiltərə qrupları artıq Parisə gedib. İtaliya qrupundan İtaliyada 6 nəfər qalıb və onların siyahısı bu məktuba əlavə edilir; İtaliya qrupunun qalan tələbələri və fransız qrupundan bir neçə tələbə (cəmi 15 nəfər) Romada qalıb ki, Almaniyaya getmək üçün icazə alsınlar. İtaliyada qalan tələbələrdən ikisi: *Əhməd Məşədi Cabbar oğlu* və *Vəlizadə İsgəndər* Kənd Təsərrüfatı İnstitutuna girmək üçün Perucaya getməyə hazırlaşır. *Əliyev Zeynal bəy* və *Musayev Cəmil* Roma Bədaye Akademiyasına girməyə hazırlaşırlar; *Rəhimzadə Abdulla* Roma Politexnik İnstitutuna girməyə hazırlaşır. *Hacızadə Mirzə* Neapolitan Kənd Təsərrüfatı İnstitutuna hazırlaşır, ancaq burada dərs ili noyabrda başlandığına görə o, payızadək Romada qalacaq. Hələlik biz – İtaliyada qalan tələbələr italyan dilini öyrənməklə məşğuluq, ancaq fransızca söz ehtiyatımız az olduğuna görə onu çətin mənimsəyirik.

Həyat şərtləri bizim Azərbaycanda olduğundan xeyli bahadır. Hələ dil bilmədiyimizə görə bizdən xeyli pul çıxır (bir lirə yerinə 3-5 lirə). Bu üzdən də tələbənin yaşaması üçün nə qədər xərc lazım olduğunu deməyə çətinlik çəkirik, ancaq italyan tələbələrin sözlərinə görə, burada ən azı 700 italyan lirəsi gərəkdir. Bu haqda yerli həyatla daha yaxından tanış olduqdan sonra yazacağıq. Burada mənzil məsələsi daha kəskindir. Otaq tapmaq çox çətindir, çünki bütün mənzillər tam tutulub. Mənzil tapa bilsən [ayda] 300 lirədən az istəmirlər. Mehmanxanalarda nisbətən ucuzluqdur, buna görə də hamımız hələlik mehmanxanada qalır və bir nömrə üçün 210, 240 lirə veririk.

Sizə bildirməliyik ki, əlimizdəki pullar, demək olar ki, qurtarıb, ancaq fevral ayının pullarını hələ də almamışıq. İstanbulda diplomatik nümayəndəliyimiz vasitəsilə qəbzlərimizi

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 22.



lirəyə dəyişərkən ən çox itirən biz, İtaliyaya gedənlər olduq, çünki onları İtaliyada dəyişə bilməyə umudumuz olmadığından hamısını dəyişmişdik. Bu zaman 15% itirdik.

Bütün bunları məruzə edərək Sizdən xahiş etməklə şərəflənirik ki, pulları bizə vaxtlı-vaxtında Romadakı gürcü missiyasının adına bu ünvana göndərəsiniz: Italia, Roma. Via venti settembre, albergo "Reale", mission diplomatique Georgienne.

İtaliyada qalan tələbələrin siyahısı:
1. Əhməd Məşədi Cabbar oğlu
2. Vəlizadə İsgəndər
3. Əliyev Zeynal bəy
4. Musayev Cəmil
5. Rəhimzadə Abdulla
6. Hacızadə Mirzə.

Başqanlar Şurası *(M.Hacızadə, C.Musayev və Z.Əliyevin imzaları).*[1]

40-cı bəlgə

Bakı qəza hərbi idarəsi
8 mart [19]20
№ 1063

Xalq Maarif Nəzarətinə

Təhsilini davam etdirmək üçün xaricə göndərilmiş çağırış yaşlı tələbələrin siyahısını tabeliyimdəki idarəyə göndərməyi Nəzarət Dəftərxanasından xahiş edirəm.

Bakı qəza hərbi rəisi əvəzi
Ş[tabs] - kapitan *(Dudarovun imzası)*
Kargüzar *(imza).*[2]


[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 31-33. Bu məktubun üstündə onun Maarif Nəzarətində 16 mart 1920-ci ildə alındığı göstərilib.

[2] Yenə orada, vərəq 25. Nəzarət bu məktubu 9 mart 1920-ci ildə 2766-cı nömrə altında qeydə götürüb.

41-ci bəlgə

Əlahəzrət cənab xalq maarif nazirinə

Bunu Sizin nəzərinizə çatdırmaqla şərəflənirik ki, İtaliyadan keçməklə Almaniyaya gedən biz tələbələr hal-hazırda Romada viza gözləyirik. Parisdəki Sülh Heyətimizin xəbəri olmaqla bizim maraqlarımızı Romada Gürcüstan missiyası müdafiə edir. Bugünlərdə viza alacaq və bu haqda sonra Sizə ətraflı məlumat verəcəyik. Parisdən 1 maya qədər olan təqaüdləri almışıq. Bütün yoldaşlarımız sağlamdır.



I Almaniya qrupunun siyahısı
1. Əliyev Abbasmirzə
2. Əliyev Firudun
3. Abdinov Bəhram
4. Həsənov Rzaqulu
5. Hacıyev-Şahnəzərov Əhməd
6. Məmmədov Qəhrəman
7. Məhəmməd Xəlil Həmid
8. Məhəmmədov Hüseynbala
9. Məmmədov Zal
10. Muğanlinski-Ağabababəyov Adil
11. Muğanlinski-Ağabababəyov Əsildar
12. Nağıyev Hüseyn
13. Sadıqov Mirsadıq
14. Şahsuvarov Surxay
15. Şahsuvarov Mürsəl
16. Şıxıyev Hüseyn
17. Xiromanov Zəkəriyyə.

Almaniyaya gedən I qrupun nümayəndələri
1) (M.Həmidin imzası)
2) (M.Sadıqovun imzası)

Roma, 9.III-[19]20.[1]

42-ci bəlgə

Azərbaycan Hökuməti-Cümhuriyyəsi
Xariciyyə Nəzarəti
10 mart 1920-ci il
№ 1606
Xalq Maarif Nəzarətinə

Bulki 17 yanvar tarixli 662 saylı məktubunuzla bağlı olaraq Xariciyyə Nəzarəti İstanbuldakı Diplomatik Missiyamızın bilgilərinə əsasən xəbər verir ki, məktubda göstərilmiş frank qəbzləri tələbələr Sədi Hacı Həsən oğlu, Abdulla Tahirov və Məhəmmədrəşid Bosnalızadəyə verilib, onların qəbzləri alması haqqında dilkağızları Missiyanın dəftərxanasındadır.

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 46.

Dəftərxana Direktorunun müavini *(Sulkeviçin imzası)*
Ümumi İşlər Bölməsinin rəisi *(imza)*
Kargüzar *(Mahmudbəyovun imzası).*[1]

43-cü bəlgə

Azərbaycan Səfarəti-əliyyəsinə məruzeyi-kəmtərənədir



Bu vəqtə kadar kəndi məsarifimlə təhsilə davam etdim. Şimdi ehtiyac dolayısıyla istianəyə məcbur olduğumdan, bir Azərbaycan tələbəsi sifəti ilə zati-alinizə müraciətən təhsilimin sona kadar hökuməti-əliyyəmiz tərəfindən acizlərinə maddi müavinətdə bulunulmasını rica və istirham edirəm. Ol babda əmrü fərma əfəndim həzrətlərinindir.

İstanbul Darülfununu müdavimlərindən *Əmin Abid Mütəllibzadə.*

Sənəyi-[1]336 mart [mart 1920].

Sahibi-istida Əmin Abid Mütəllibzadə bakılı şair Əliabbas Müznib əfəndinin bərədəridir. Kəndisi Bakıda Alekseyevski məktəbini bitirdikdən sonra İstanbula gələrək darülfununa daxil olmuşdur. Birinci sinfə davam ediyor. İstanbula 27 kanuni-əvvəl [1]335 tarixində[2] gəlmişdir.

Bakıdakı adresi: Birinci Paralelni və Yuxarı Tazapir caddələrinin köşəsində 2 nömrülü çıkmaz sokakda bir nömrülü xanə.

İstanbuldakı adresi: Dərsəadət, Cığaloğlunda, Darülmüəllimini-aliyyə birinci sinif tələbələrindən qafqasyalı *Ə.Abid.*[3]

44-cü bəlgə

Surət

[Xalq Maarif Nəzarəti
Ümumi şöbə]
14 mart [19]20
№ 3689

2766 saylı məktuba
C-b Bakı qəza hərbi rəisinə

Builki 8 mart tarixli 1063 saylı məktubunuzla bağlı olaraq Dəftərxana bu məktubla birgə təhsilini davam etdirmək üçün xaricə göndərilmiş tələbələrin siyahısının surətini göndərir.

Dəftərxana Direktorunun müavini
Kargüzar[4]

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 30. Məktub Maarif Nəzarətinə 12 mart 1920-ci ildə qeydə alınıb.
[2] 27 dekabr 1919-cu il.
[3] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 40. Sənədin üstündə belə bir dərkənar var: "Hökumətə yazmalı. Y[usif] V[əzirov]. 16.III.20". Deməli, məktub 16 martdan öncə yazılıb.
[4] Yenə orada, vərəq 26.

45-ci bəlgə

Surət

1 sentyabr 1919-cu il qanununa əsasən ali təhsilini dövlət hesabına başa vurmaq üçün 1919/20-ci dərs ilində xaricə göndərilmiş abituriyent və tələbələrin

SİYAHISI[1]

Sıra №	Adı və soyadı	Tələbənin göndərildiyi dövlət
1	Abbas bəy Atamalıbəyov	İngiltərə
2	Ağacəfər Məşədi Səftər oğlu Əbdürrəhmanov	--
3	Ağahəsən Manaf oğlu Mustafayev	--
4	Xasfolad bəy İsmayıl bəy oğlu Hacıyev	--
5	Salman Hüseynzadə	--
6	Yusif bəy Süleyman bəy oğlu Ağasıbəyov	--
7	Məhəmməd bəy Kərim bəy oğlu Hacıyev	--
8	Məhəmmədəmin Əfəndiyev	--
9	Zal Məşədi Cavad oğlu Məmmədov	--
10	İsmayıl Əbdülxalıq oğlu Axundov	--
11	Cəmil İbrahim Tahir oğlu Musayev	--
12	Zeynalabidin bəy Hacıağa bəy oğlu Əliyev	--
13	Abbasmirzə Əhməd oğlu Əliyev	--
14	Qəhrəman İsrafil oğlu Məmmədov	--
15	Əhməd Məşədi Cabbar oğlu Rəcəbov	--
16	Mirzə Bəhram Övsət oğlu Abdinov	--
17	Mirzə Məşədi Yusif oğlu Hacızadə	--
18	Ağaəli Məşədi Rəsul oğlu Abdullayev	--
19	Hüseyn Hacı Musa oğlu Nağıyev	--
20	Hüseynbala Cəfərqulu Məhəmmədov	--
21	Mirsadıq Kərbəlayı Seyid Kamil oğlu Sadıqov	--
22	Rzaqulu İsmayıl oğlu Həsənov	--
23	Abdulla Məhəmməd oğlu Rəhimzadə	--
24	Məhəmməd bəy Fəhrad bəy oğlu Muradov	--
25	Süleyman Bəkir oğlu Muxarski	--
26	Adil bəy Ağabababəyov-Muğanlinski	--
27	Həmdi Məhəmməd oğlu (Həmid Məhəmmədov)	--
28	Məhəmmədrəşid Bosnalızadə	--
29	Əsildar bəy Abbasəli bəy oğlu Ağabababəyov-Muğanlinski	--
30	İsgəndər Məşədi Mahmud oğlu Vəliyev	--
31	Hüseyn Qasım Mustafa oğlu Şıxıyev	--
32	Firidun Əliyev	--
33	Əbdülhəmid (Georgi Həmidoviç) Cavanşir	--
34	Tağı Kərbəlayı Əsgər oğlu Rzayev	Fransa
35	Abbas Həmid oğlu Muradov	--
36	Zeynalabdin bəy Adil bəy oğlu Hüseynbəyov	--
37	Bayram İbrahim oğlu Hacıyev	--
38	Teymur bəy Aslanov	--
39	Mirqasımov Mirabdin	--
40	Mustafa ağa Məhəmməd ağa oğlu Vəkilov	--

[1] Bu, Maarif Nəzarətinin 14 mart 1920-ci ildə Bakı qəzasının hərbi rəisinə göndərdiyi siyahıdır. Rusiyada oxuyası tələbələr burada əksini tapmayıb.

Sıra №	Adı və soyadı	Tələbənin göndərildiyi dövlət
41	Ağaəli Yusifzadə	--
42	Mirzəhüseyn Kərbəlayı Hənifə oğlu Quluyev	--
43	Mustafa Molla Hacı Rəhim oğlu Mustafayev	--
44	Mirismayıl Seyidzadə	--
45	Cəbrayıl Məhəmmədrza oğlu Rəhimov	--
46	Əliəkbər Kərbəlayı Məhəmmədəli oğlu Cabbarov[1]	--
47	Cəfər Kərbəlayi Əliəsgər oğlu Kazımov	--
48	Yaqub bəy Əmir bəy oğlu Nərimanbəyov	--
49	Zaur bəy Yusif bəy [oğlu] Dagirov[2]	--
50	Rəşid bəy Əlimərdan bəy oğlu Topçubaşov	--
51	İsrafil İsmayıl oğlu Əşrəfov	--
52	Məhəmməd Paşa oğlu Ağarəhimov	--
53	Əşrəf Ağaəli [oğlu] Əliyev	--
54	İsgəndər bəy Sultanov	--
55	Aslan bəy Zeynalabidin bəy oğlu Vəzirov	--
56	Abdulla Molla İbrahim oğlu Əfəndiyev	--
57	Surxay Özim oğlu Şahsuvarov	--
58	Mürsəl Adilxan oğlu Şahsuvarov	--
59	Ağalar Məşədi Abbasqulu oğlu İsgəndərov	--
60	Əhməd Şahnəzərov (Əhməd Hədis oğlu Hacıyev)	--
61	Bəhram bəy Hüseynzadə	--
62	İsgəndər Cabbar xan oğlu Rzayev	--
63	Lətif Qədimov	--
64	Zəkəriyyə Əbdürrəşidoviç Xiromanov	--
65	Behbudəli Məşədi Həmid oğlu Zeynalov	--
66	Məhiş Məşədi Hacı oğlu Səfərov	--
67	Hənifə Hacı Mahmud oğlu Pirverdiyev	--
68	Əlihüseyn Ağahüseyn oğlu Hüseynov	--
69	Cavad bəy Cümşüd bəy oğlu Əlimuradbəyov	--
70	Nüsrət Rzayeviç Rzayev	--
71	Yusif Məşədi Hüseyn oğlu Salahov	--
72	Murad bəy Məhəmməd[zübeyir bəy] oğlu Temirxanov	--
73	Mirməhəmmədrza Mirabutalıb oğlu Seyidəliyev	--
74	[Əli]əkbər Qəhrəman oğlu Əliyev	--
75	Hilal Münşiyev	--
76	Səməndər Axund Zəki oğlu	--
77	Balaağa Məhəmməd Hənifə oğlu Ağayev	--
78	Əlibala Hacı Murtuzaqulu oğlu Xudaverdiyev	--
79	Əbdül Kərbəlayı Abbas oğlu Əbdülov[1]	Türkiyə
80	Sədi Hacı Həsən oğlu	--
81	Məhəmmədzəki Dursunzadə	--
82	Əlimuxtar Yaqub oğlu Həsənov[2]	--
83	Əli Məşədi Xaspulat oğlu Kərimov[3]	--
84	Abdulla Tahirov	--
85	Məhəmmədəli bəy Xələf bəy oğlu	--


[1] Adı qarşısında karandaşla "geri dönüb" yazılıb.
[2] Adı qarşısında karandaşla "geri dönüb" yazılıb.
[3] Adı qarşısında karandaşla "geri dönüb" yazılıb.

Sıra №	Adı və soyadı	Tələbənin göndərildiyi dövlət
86	Əliyusif Məşədi Abutalıb oğlu Cəfərov[1]	--
87	Məhəmmədhənifə Zeynallı[2]	--
	Öz hesabına gedənlər:	
88	Ağa Əbdülhüseyn Əliəsgər oğlu Dadaşov	İngiltərə
89	Mirzə Mir Mansur Umudov[3]	Fransa
90	Əjdər bəy Axundov	Fransa

İmzalayıb:
Xalq maarif naziri əvəzi *N.Şahsuvarov*
Təsdiqləyib:
Dəftərxana müdiri *F.Rzabəyov.*[4]

46-cı bəlgə

Surət



[Xalq Maarif Nəzarəti
Ümumi şöbə]
16 mart 1920
№ 2973
C-b xariciyyə nazirinə

Ali təhsilini bitirmək üçün Hökumətin xaricə göndərdiyi tələbələr mənə bildiriblər ki, Qafqazdakı İtaliya hərbi missiyası onların Qərbi Avropaya göndərilməsində ən yaxından iştirak edib, pul qəbzlərinin xırdalanması, paroxoda biletlərin alınması və müxtəlif formallıqların icrası ilə bağlı çoxlu texniki çətinlikləri aradan qaldırıb.

Deyiləni nəzərə alaraq, c-b nazir, Sizdən xahiş edirəm ki, xaricə göndərilmiş tələbələrimizə münasibətdə göstərdiyi qayğıkeşlik və yüksək səviyyədə lütfkarlığa görə Xalq Maarif Nəzarətinin adından Qafqazdakı İtaliya hərbi missiyasına onun başçısı c-b Qabbanın şəxsində səmimi minnətdarlığımızı çatdırmaqdan imtina etməyəsiniz.

Nəticə haqqında məni bilgiləndirməyi xahiş edirəm.

Nazirliyi idarə edən
Dəftərxananın direktor müavini[5]

[1] Adı qarşısında karandaşla "geri dönüb" yazılıb.
[2] Adı qarşısında karandaşla "geri dönüb" yazılıb.
[3] Adı qarşısında karandaşla "geri dönüb" yazılıb.
[4] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 9-10; 23-24.
[5] Yenə orada, vv. 29-29a.

47-ci bəlgə

Azərbaycan Cümhuriyyəti
İstanbuldakı Diplomatik Nümayəndəlik
№ 314
24 mart 1920-ci il.[1]

Əlahəzrət cənab xalq maarif nazirinə

Siz Əlahəzrətin builki 29 fevral tarixli 3100 saylı məktubuna cavab olaraq Parisə iyirmi beş min iki yüz frank məbləğində 590 saylı qəbzin alınmasını təsdiqləməklə şərəflənirəm. Göstərişlərə əsasən, məktubda göstərilmiş doqquz tələbə fevral və mart ayları üçün maaşla təmin ediliblər. Onlar İstanbulun ali tədris müəssisələrində mühazirələrə gedirlər. Bu haqda uyğun sənədlər Xalq Maarif Nəzarətinə göndəriləcək.

Azərbaycan Cümhuriyyətinin İstanbuldakı diplomatik
nümayəndəliyinin başçısı, səlahiyyətli nümayəndə: *Yusif Vəzirov*[2]

48-ci bəlgə

Azərbaycan Cümhuriyyəti
İstanbuldakı Diplomatik Nümayəndəlik
№ 318
25 mart 1920-ci il.[3]

Əlahəzrət cənab xalq maarif nazirinə

Siz Əlahəzrətin builki 25 yanvar tarixli 1290 saylı məktubunuza cavab olaraq bildirməklə şərəflənirəm ki, tələbə Məhəmmədrəşid Bosnalızadə Sizin məktubunuz alınanadək Fransaya gedib.

Azərbaycan Cümhuriyyətinin İstanbuldakı diplomatik
nümayəndəliyinin başçısı, səlahiyyətli nümayəndə: *Yusif Vəzirov*[4]


[1] Diplomatik Nümayəndəliyin blankındakı bu qeydlər fransızcadır.
[2] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 50.
[3] Diplomatik Nümayəndəliyin blankındakı bu qeydlər fransızcadır.
[4] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 49.

49-cu bəlgə
(Paris, 27 mart 1920)

Cənab xalq maarif nazirinə

Gəncə şəhər sakini, Paris Universitetinin[1]
hüquqşünas tələbəsi *İsaq bəy Musa bəy oğlu*
Şıxzamanovdan

ƏRİZƏ



Cənab nazir.

Sizə bildirməklə şərəflənirəm ki, öz ölkəmizdə hüquq fakültəsinin açılmasını öyrənərək Sizdən bunları xahiş edirəm. Mən yayda hüquq fakültəsini *"Licence"* – lisensiat, yaxud hüquq elmləri doktorluğuna namizəd rütbəsi ilə bitirəcəyəm, yəni bu imtahan mənə doktorant imtahanı vermək və dissertasiya müdafiə etmək hüququ verir. Mən Azərbaycana gəldiyim zaman Bakı hüquq fakültəsində dərs demək istəyirəm. Mən universitetdə başlıca olaraq ümumi və xüsusi beynəlmiləl hüquqa, müstəmləkə qanunvericiliyinə (başlıca olaraq müsəlman xalqşünaslığına, yəni Avropa dövlətlərinə münasibətdə bütün müstəmləkələrin siyasi durumuna və əsasən Mərakeş, Tunis, Əlcəzair, Misir, Sudan, Ərəbistan, Hindistan, eləcə də Türkiyə və İranın daxili qanunvericiliyinə) diqqət yetirmişəm. Siyasi iqtisadi və maliyyə qanunvericiliyini *(Legislation Financiere)* öyrənmişəm. Buna görə də fakültəni bitirincə Paris Universitetində qalmaq və bir neçə ay bu elmlərlə (Beynəlmiləl hüquq, Müsəlman qanunvericiliyi, Maliyyə qanunvericiliyi və Siyasi iqtisad) məşğul olmaq istəyirəm. Bundan ötrü, cənab nazir, xahiş edirəm ki, mənim təqaüdümün (1920-ci ilin yanvarından 1 sentyabrınadək təyin edilib) vaxtını gələn, yəni 1921-ci ilin iyun ayınadək uzadasınız. Ancaq mən Azərbaycana vaxtından öncə dönməyi fikirləşirəm. Düşünürəm ki, Azərbaycanın mədəniləşməsi üçün bizim universitetdə milli professorların olmasının çox böyük əhəmiyyəti var. Güman edirəm ki, mənim xahişim qızğın müdafiə ediləcək.


Böyük hörmətlə *(İ.Şıxzamanov imzası)*
Mənim şəxsi ünvanım:
Paris, 42 rue Broca, Chikhzamanof.

[1] Mətndə mexaniki yanlışlıqla "Paris fakültəsi" yazılıb.

P.S. Buraya universitetin mənə təqdim etdiyi[1], *Baccalaureaendroit* (hərfi mənada rus universitetlərinin "namizəd"inə uyğun gəlir) adlanan, sonuncudan qabaqkı imtahanı verməyim haqqında şəhadətnaməni də əlavə edirəm.[2]

50-ci bəlgə

Azərbaycan Cümhuriyyətinin xalq
maarif naziri cənablarına



Cənab nazir, Berlin şəhərindən Bakı şəhərinə gedən adamla göndərilən bu məktubda aşağıdakıları Sizə bildirməklə şərəflənirik.

Avropaya göndərilmiş tələbələrin 52 nəfəri fevralın başlanğıcında Parisə çatıb, 23 nəfər[3] isə İtaliyada qalıb. Parisə gələnlərdən 28 nəfər artıq Almaniyaya yollanıb və İtaliyada qalan 23 nəfərdən 17-si də Almaniyaya getmək istəyini bildirib və bu 17 nəfər hal-hazırda Romada Almaniyaya viza gözləməkdədir. Onlara veriləcək təqaüdün indiyədək yetişməməsinə baxmayaraq [Sülh] Nümayəndəliy[imiz] öz vəsaitindən Almaniyaya gedən tələbələrə 3 ay qabaqcadan təqaüd verməyə məcbur olub. Belə ki, bu cür edilməsəydi onlar gedə bilməzdilər. Fransada təhsil almaq üçün qalmış 24 nəfərə və İtaliyada qalmış 6 nəfərə gəlincə, Sizin məktubunuza əsasən, onlara fevral ayı üçün təqaüd verilib və mart üçün də verilməlidir, çünki mart artıq bitməkdədir, Sizdən isə təqaüd vermək üçün pullar alınmayıb. Nəzərinizə çatdırmağı gərəkli sayırıq ki, bundan sonra da pulların alınmaması tələbələrimizi faciəli duruma sala bilər, heç onu demirik ki, mövcud həyat şərtlərində təyin edilmiş aylıq 400 frank həyat üçün yetərsizdir. Buna görə də tələbələrin yaşaması üçün onlardan ötrü nəzərdə tutulmuş pulların maksimum təcili şəkildə göndərilməsi üçün mümkün olan bütün tədbirləri görməyinizi xahiş edirik.

Nümayəndəliyin üzvü: *Məhərrəmov M[əhəmməd]*
Nümayəndəliyin katibi: *A[bbas bəy] Atamalıbəyov*
28 mart 1920-ci il.
Paris, Claridge's Hotel.
Delegation de la Republique d'Azerbaidjan a la Conference de Paux.

Məlumat üçün bildiririk ki, Gürcüstan nümayəndəliyi öz tələbələrinə təhsil haqqı və kitab xərclərini nəzərə almadan yalnız yaşayış üçün ayda 750 frank verir.[4]


[1] Paris Universiteti bu sənədi 23 mart 1920-ci ildə verib. Bax: ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 78.
[2] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 77-77a.
[3] 23 nəfərin siyahısı buradadır: ARDA, fond 51, siyahı 3, iş 40, vv. 34-38a (34-cü bəlgəyə bax).
[4] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 45-45a. Məktubu Maarif Nəzarəti Cümhuriyyətin yıxılmasına 11 gün qalmış – 18 aprel 1920-ci ildə alıb.

51-ci bəlgə

Azərbaycan Cümhuriyyətinin Xalq Maarif Nəzarətinə

Almaniyadakı dövlət təqaüdçüləri olan
Azərbaycan Tələbələri Komitəsindən

MƏRUZƏ



Azərbaycan Cümhuriyyətinin dövlət təqaüdçüsü olan Azərbaycan Tələbələri Komitəsi bununla Xalq Maarif Nəzarətinin nəzərinə hər bir tələbənin Almaniyada yaşaması və oxuması üçün lazım olan ən minimum vəsait haqqında məlumatları çatdırmağı gərəkli sayır:

I. Mənzil [ayda] 250 (iki yüz əlli) marka; işıq, qaynanmış su və qızdırıcı ayrıca ödənilir, bu da ayda təxminən 50 (əlli) marka edir.

II. Nahar və şam yeməyi ən ucuz restoranlarında 32 (otuz iki) markadır: Nahar 18 (on səkkiz marka), şam yeməyi 14 (on dörd) markadır.

III. Səhər çayı 7 markaya başa gəlir.

IV. Ağların yuyulması və yamaq ayda 100 (yüz) markayadır.

V. Mənzillər, universitet və institut yaxınlığında otaqlar hədsiz baha olduğuna görə biz şəhərin kənarında yaşamağa və tramvaydan və şəhər dəmiryolundan istifadə etməyə məcburuq, bunlara isə aylıq abunə 100 (yüz) markadır.

VI. Papiros, dəllək, hamam və b. kimi xırda cibxərcləri ayda ən azı 400 (dörd yüz) marka edir. Cəmisi yaşayış üçün ayda hər bir tələbə 2.070-2.100 (iki min yüz) marka xərcləməlidir. Politexnikuma[1] və universitetə gəlincə, serblər, bolqarlar, misirlilər və başqaları kimi digər təqaüdçülərdən ayrıca olaraq hər semestr mühazirələri dinləmə haqqı şəklində də pul alırlar.

İnstitutda bir semestr xaricilərə almanlar üçün olandan 7 dəfə baha valyutaya (məs., misirlilərə) başa gəlir. Bolqarlar, serblər və azərbaycanlılar kimi ucuz valyutalı əcnəbi təqaüdçülər isə sülh dövrünün qanunları üzrə almanlardan 2 qat artıq ödəməlidirlər.

I. Mühazirələrin dinlənilməsi haqqı və təcrübi işlər üçün xərclər:

Universitet, politexnik institut: semestrdə (6 ayda) 1.500 (min beş yüz) marka, ildə 3.000 (üç min) marka edir ki, hər aya 250 (iki yüz əlli) marka düşür.

II. Kitablar və çertyoj əşyaları: kağız, tuş, boyalar, karandaşlar hər semestr 600 (altı yüz) marka, ildə 1.200 (min iki yüz) marka edir ki, hər aya 100 (yüz) marka düşür.

III. Texniklərdən ötrü rəsm alətləri dəsti (qotovalnya) 500 (beş yüz) markadır; bu məbləğ bütün təhsil müddəti boyunca bir dəfə ödənilir.

[1] Politexnik İnstitut nəzərdə tutulur.

IV. İldə bir dəst kostyum, ayaqqabı, şlyapa və əşyalar lazımdır ki, bunlara ildə ən azı 4.000 (dörd min), 4.200 (dörd min iki yüz) lazımdır ki, aya 350 (üç yüz əlli) marka düşür.

Beləliklə, hər bir tələbənin Almaniyada yaşaması və oxuması üçün [ayda] 2.800 (iki min səkkiz yüz) marka lazımdır.

Xahiş edirik ki, bizim maaşlarımızı frankla deyil, marka ilə göndərəsiniz. Çünki, birincisi, Almaniya markaları Qafqazda ucuzdur, ikincisi də, maaşımızı frankdan çevirəndə birjadan tamamilə asılı oluruq və bu, bizim pulumuza [mənfi] təsir göstərir.

Almaniyadakı dövlət təqaüdçüləri olan Azərbaycan Tələbələri Komitəsi sədrinin əvəzinə: *(Məhəmməd Rəhimlinin imzası)*

Mərkəzi Komitənin üzvləri:

1. *(Qəhrəman Məmmədovun imzası)*
2. *(Məhəmmədəmin Əfəndiyevin imzası)*

Mərkəzi Komitənin katibi: *(Abbasmirzə Əliyevin imzası)*

Berlin, 16 iyun 1920-ci il.[1]

52-ci bəlgə



Alihəzrət cənab Azərbaycan Cümhuriyyəti
Xalq Maarif Nəzarətini idarəçisinə
Gəncə kişi gimnaziyasının tam kursunu
bitirmiş *Nağiyev Cahangirdən*

ƏRİZƏ

Ali təhsilimi bitirməyi arzu edərək Siz Alihəzrətdən xahiş etməklə şərəflənirəm ki, məni Xalq Maarif Nəzarətinin hökumət hesabına Qərbi Avropaya – Almaniya şəhərləri universitetlərindən birinin hüquq (yaxud tarix-filologiya) fakültəsinə göndərilən tələbələrin siyahısına daxil edəsiniz. Şəhər sonra göstəriləcək.
Gərəkli sənədlər ilk tələbdəcə təqdim ediləcək.

(C.Nağıyevin imzası).
19 aprel 1920-ci il, Gəncə şəh.

Ünvan: Gəncə şəhəri, Əttarlar küçəsi, ev № 38,
Nağıyev Cahangirə.[2]

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 51-52.
[2] Yenə orada, vərəq 87.

53-cü bəlgə



Azərbaycan Cümhuriyyəti
Nazirlər Şurasının c-b Sədrinə
Qazax şəhərinin sakini
T.b.Batıyevdən

ƏRİZƏ

Zəngin səs ehtiyatım olduğuna və Moskvada professor Markovdan ibtidai musiqi təhsili aldığıma görə Xalq Təhsili Nazirliyindən musiqi təhsilimi başa vurmaq üçün İtaliyaya göndərilməyimi xahiş etmişdim. Ərizəm əsasında c-b xalq maarif naziri Nazirlər Şurasına mənim İtaliyaya göndərilməyim üçün məruzə edib, ancaq təəssüf ki, indiyədək bu məsələyə baxılmayıb. Bununla Sizdən ehtiramla xahiş edirəm ki, nüfuzlu müdaxilənizlə xaricə göndərilməyimi sürətləndirəsiniz; ən pis halda qulluqda qalmaqla bərabər musiqi təhsilimi bitirmək üçün göndərilməsi nəzərdə tutulmuş diplomatik missiyamızın tərkibində məni İtaliyaya yollayasınız.

T.Batıyev,
Bakı, 21 aprel 1920-ci il.[1]

54-cü bəlgə

Azərbaycan Cümhuriyyətinin cənab xalq maarif nazirinə
Paris siyasi elmlər fakültəsinin tələbəsi *Miri bəy Vəzirovdan*[2]


ƏRİZƏ

1919-cu ilin yayında, Qərbi Avropaya təhsilini bitirməkdən ötrü getmək istəyən tələbələrin yazılışı gedərkən mən də öz növbəmdə oraya daxil edilməyim üçün ərizə verərək avqustun 11-də Diplomatik Nümayəndəliyin katibi kimi Azərbaycandan İstanbula getdim.

Azərbaycandan uzaq yola çıxdığıma, bu səbəbdən də müəyyən komissiyalarla yerində danışıqlar apara bilmədiyimə görə gedən tələbələrin sırasına düşmək imkanından məhrum oldum.

1920-ci ilin yanvarında xidməti işlərimlə bağlı olaraq Bakıya ilk gəlişimdə Xalq Maarif Nəzarətində oldum, orada Nəzarətin uyğun rəhbərləri ilə bu barədə söhbət apardım və nəticədə ilk boşalan yerə mənim götürülməyimə söz verdilər, rəsmiyyətdən ötrü Nəzarətə ərizə yazaraq orada qoydum.

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv.88-88a. Sənədi AC hökuməti işlər müdirinin əvəzi Nayman Mirzə Krıçinski 22 aprel 1922-ci ildə baxılmaq üçün xalq təhsili nazirinə göndərib.
[2] Bu, görkəmli yazıçı və Azərbaycan Cümhuriyyətinin Türkiyədə ozamankı səlahiyyətli diplomatik nümayəndəsi Yusif bəy Vəzirovun (Çəmənzəminlinin) qardaşıdır.



Vaxtı itirməməkdən ötrü mən mart ayında İstanbuldan öz hesabıma Parisə getdim, orada təhsilimi bitirmək niyyətində idim. Həmin vaxt Xalq Maarifi Nəzarətinə məni təqaüdçülər sırasına salması üçün ikinci ərizə ilə müraciət etdim.

İndi 2 təqaüdçü tələbə: [Zaur bəy] Dagirov və [Əjdər bəy] Axundov Parisdən Azərbaycana getdiklərinə və deməli, boş yerlər yarandığına görə mənim Avropada oxuyan hökumət təqaüdçüləri sırasına götürülməyimə etiraz etməməyinizi xahiş edirəm. Bunu deməyi gərəkli sayıram ki, mənim İstanbulda nümayəndə olan, özünün azacıq maaşı ilə yaşayan qardaşımdan başqa, maddi durumumu təmin edə biləcək heç bir qaynağım yoxdur. Buna görə yuxarıda deyilənləri və mənim artıq təhsil yerində olduğumu, oxumaqda davam etdiyimi nəzərə alaraq Nəzarətin xahişimi müsbət həll edəcəyinə umud bəsləyirəm.

(Miri bəy Vəzirovun imzası)

Paris, 23 iyun 1920-ci il.[1]

55-ci bəlgə

(iyun-iyul, 1920)

Surət

Azərbaycan Cümhuriyyəti cənab xalq maarif nazirinə

Cənab nazir.

Fransadakı Azərbaycan Tələbələri Komitəsinin Sülh Konfransındakı Azərbaycan Heyəti Sədrinin adına yazdığı və bu məktuba əlavə olunmuş məruzədən də əmin olacağınız kimi, bizim Bakıda aldığımız 3.000 frankın və fevral ayının maaşı kimi Sülh Heyətinin verdiyi 400 frankın hamısı mart ayında qurtarıb. Bu pulların nəyə xərclədiyi adıkeçən məruzədə ətraflı göstərilib. Həmin məruzədə Parisdə tələbənin bir ayda yalnız 800 franka yaşaya biləcəyi müfəssəl hesablanıb.


Sülh Konfransındakı Sülh Heyətinin cənab Sədri bu məbləğin gerçəkliyini təsdiqləyəcək, çünki o, öz məmurlarından birinə tələbənin Parisdə yaşaması üçün nə qədər pul lazım olduğu haqqında məlumat toplamağı tapşırıb.

Parisdə bir ayda 400 franka yaşamağın heç cür mümkün olmadığını nəzərə alaraq Sülh Heyəti mart ayından bizim təqaüdümüzü 600 frankadək artırıb. Ancaq bu məbləğ də yetərsizdir. Sülh Heyəti bundan artığını edə bilməzdi, belə ki, bu ilin fevralından 1 sentyabradək bizə çatacaq pullar alınmamışdı (onlar yalnız mayın başlanğıcında alınıb) və Nümayəndə Heyəti o pulu öz vəsaitindən verib.

Ayda 600 franka yaşayırıq. Daim borc içindəyik və uzun müddət belə davam edə bilməz. Yeni ay üçün alınmış maaş köhnə borcları ödəməyə güclə çatır. Daimi maddi ehtiyac, sözsüz ki, öz durumunun qeyri-sabitliyini hiss edən tələbələrin məşğələlərinə də təsir edir. Vəziyyət aydan-aya daha da çətinləşir, çünki bizim bura gəldiyimiz vaxta nisbətən indi həyat

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 57-57a.

xeyli dərəcədə bahalaşıb, buna görə də yeni qaygılar əlavə olunub. Parisdə (və ümumən Fransada) 800 frankdan aşağı yaşamaq qətiyyən mümkün olmadığına görə Fransadakı Azərbaycan Tələbələri Komitəsi, c-b nazir, Sizdən Fransadakı tələbələrin təqaüdünü may ayından 800 frankadək artırmağı xahiş etməklə şərəflənir. Bu məbləğ yalnız Fransada yaşamağa və xırda tədris vəsaitinin alınmasına çatacaq, ancaq bu ilin noyabrından sonra qətiyyən kifayət etməyəcək, çünki indi dil öyrənməklə məşğul olan tələbələr həmin vaxt müxtəlif ali məktəblərə girəcək və həm oxumaq və imtahan vermək haqqı kimi, həm də burada çox baha olan elmi kitablar almaq üçün böyük pullar xərcləməyə məcbur olacaqlar. Bu ilin noyabr ayından Fransadakı azərbaycanlı tələbələrin maaşı ayda təxminən 100 frank artırılmalıdır. Bu məbləğ təqribi göstərilib, çünki bu tələbənin ixtisasından asılı olaraq dəyişir.



Hal-hazırda bizim hamımız fransız dilini öyrənməklə məşğuluq. Əksərimiz əcnəbilər üçün olan *Alliance Française* kurslarına gedirik; burada fransız dili ilə yanaşı fransız ədəbiyyatı tarixi, Fransanın siyasi tarixi və sosial həyatı, Fransa coğrafiyası və s. üzrə mühazirələr dinləyirik. Yoldaşlarımızdan bəziləri özəl dərslərə gedir. Ali məktəblərə girə bilməmişik, çünki buraya dərs ilinin ortasında (fevralda) gəlmişik və özəlliklə bizim kimi dil bilməyən əcnəbilər üçün dərs ilinin ortasında məşğələlərə başlamaq mümkünsüzdür. Payızda hamımız ali məktəblərə qəbul olunacağıq. Yalnız yoldaşlarımızdan biri artıq dili yaxşı mənimsəmiş Mirqasımov hüquq fakültəsinə qəbul olub və payızda bir neçə imtahan verəcək.

Azərbaycan haqqında ən müxtəlif qəzet məlumatlarına əsasən biz son vaxtlar çox qeyri-müəyyən vəziyyətdəyik və öz işimizi davam etdirib-etdirməyəcəyimizi bilmirik. Cənab nazir, yalnız Fransada deyil, Almaniya və İtaliyada da oxuyan bütün tələbələrin adından Komitə Sizdən xahiş edir ki, göndərilmiş tələbələr üçün Qərbi Avropaya dördüllük vəsaitin köçürülməsi haqqında vəsatət qaldırasınız, çünki dünyanın daha qabaqcıl ölkələrində təhsil almış 80 nəfərə qədər [mütəxəssis] gələcəkdə siyasi hadisələrin necə inkişaf etməsindən asılı olmayaraq Vətənimiz üçün çox lazımdır.

Bu məktubda toxunulmuş məsələlərin həllini biz ən yaxın vaxtda gözləyirik, çünki əski smeta ili avqustun sonunda bitir və Azərbaycanla əlaqə isə hədsiz çətindir, buna görə də Azərbaycandan məktublar və köçürmələr bizə xeyli gecikmələrlə gəlib çatır.

Tələbələrimizin çoxu hal-hazırda Almaniyadadır. İtaliyada cəmi 6 nəfər qalıb. Almaniya və İtaliyada, eləcə də Fransada yaşayan tələbələrin siyahıları Sülh Heyətimizdə var və yəqin ki, onları Sizə təqdim edəcək.

Komitə sədri: *[Mirzeynalabdin] Mirqasımov*

Katib: *M[ustafa ağa] Vəkilov*

Əsli ilə düzdür.

Komitənin katibi: *(İsrafil Əşrəfovun imzası)*[1]

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 53-54. Məktub tarixsizdir, ancaq 1920-ci ilin iyun-iyul ayları arasında yazılıb.

56-cı bəlgə
(iyun-iyul, 1920)

Sülh Konfransında Azərbaycan Heyətinin cənab sədrinə

Cənab Sədr!

Sizə bəlli olduğu kimi, tələbələr Qərbi Avropaya göndərilərkən Azərbaycan Cümhuriyyətinin Parlamenti göndərilməsi tələbələr üçün təqaüd kimi ayda 400 frank müəyyən etmişdi. Bundan başqa, təyinat yerinə getmək üçün hər tələbəyə 1.000 frank buraxılmışdı. Ancaq hələ Bakıda olduğumuz zaman Xalq Maarif Nəzarəti bu qərara gəldi ki, 400 frank Qərbi Avropada yaşayış minimumu kimi az məbləğdir. Buna görə də Nəzarət bizə [pulu] Bakıdan çıxdığımız gündən deyil, qanun layihəsini Parlamentin təsdiqlədiyi gündən hesablayıb verdi.

Beləliklə, biz bu ilin fevral ayının başlanğıcında [Parisdən?] çıxaraq keçən ilin 1 sentyabrından bu il yanvarın sonunadək, yəni 5 ay üçün maaş aldıq. Bu məbləğdən əslində Bakıda keçirdiyimiz dörd ay üçün maaş Qərbi Avropada 1 aylıq dolanışığımızı qarşılamalı idi. Nəzərdə tutulurdu ki, 1.600 frankı (ötən ilin sentyabr, oktyabr, noyabr, dekabr ayları üçün maaş) növbəti ilin qalan aylarına böldükdə (bu zaman dövlət təqaüdü ilə təmin olunmalı idik), ayda orta hesabla hər tələbəyə 600 frank düşür. Ancaq bu gözləntilər özünü doğrultmadı. Gəldiyimiz zaman aldığımız həmin 3.000 frank (1.000 frank yol pulu və 2.000 frank 1919-cu ilin sentyabrından 1920-ci ilin yanvarına qədər maaş) artıq çoxdan qurtarıb.

Birincisi, yola ayrılmış 1.000 frank hədsiz az idi, çünki təkcə Batumdan Torentoyadək 3-cü dərəcəli paroxoda və Torento-Roma-Paris dəmiryoluna bilet bizə aşağı-yuxarı 600 franka başa gəldi və bundan başqa, biraylıq səyahət müddətində yaşamağımıza da xeyli pul xərclədik.

İş burasındadır ki, [qiymətinə] ərzağın da daxil olduğu bileti aldığımız paroxodda biz əslində 5 gün qaldıq (2 gün Batum-İstanbul və 3 gün İstanbul-Torento). Qalan vaxtımızı ağlagəlməz bahalığın olduğu Batumda paroxod gözləməklə, ərzağa xeyli pul xərclədiyimiz İstanbul dayanacağında, sonra isə Torento-Roma-Paris dəmiryolundakı səyahətdə keçirdik. Özəlliklə Torentodan Parisədək xeyli xərcimiz çıxdı, çünki ərzaqdan başqa, mehmanxanaya da 300 [frank] xərclədik. Üst-üstə biletə xərclədiyimizdən əlavə, yolda ən azı 900 frank xərclədik ki, buraya Parisə getməyimizə lazım olan nəqd frank əldə etmək üçün İstanbulda qəbzləri mübadilə etdirdiyimiz zaman itirdiyimiz komisyon pulları da daxildir. Axır ki, Parisə çatanadək hər bir tələbə yola 1.500 frank civarında xərcləyib.


Bu zaman onu da əlavə etmək gərəkdir ki, bütün tələbələrimiz Bakıdan çıxanda çox pis geyinmişdilər, çünki son vaxtlar orada parça o qədər bahalışmışdı ki, yeni bir şey sifariş verməyə yalnız çox zəngin adamların gücü çatırdı. Yerdə qalanlar isə köhnələri geyinirdi. Ancaq paroxodda, sonra isə özəlliklə Torentoda bizə aydın oldu ki, bu görkəmdə Avropada yaşamaq mümkün olmayacaq. Parçaya ehtiyacı hamının hiss etdiyi bir yerdə[1] bu, o qədər də nəzərə çarpmırdı. Ancaq arabaçının da yeni və gözəgəlimli paltar geyindiyi bir yerdə bu, o saat gözə girirdi. Orada hətta mağazadakı əl-ayaq xidmətçisi olan uşaqlar da bizə həqarətlə baxırdılar.

Romaya gələndə biz xoşagəlimli geyinməyin zəruri olduğuna qəti şəkildə əmin olduq, çünki hamının diqqətini özümüzə cəlb edərək gördük ki, iri papaqlarımıza, Nuh əyyamından qalma çarıqlarımıza görə bizi mehmanxanalara otaqların olmaması bəhanəsi

[1] Bakı nəzərdə tutulur.

ilə buraxmırlar. Yalnız Romada olan gürcü tələbələrin yardımı ilə birtəhər yerləşə bildik.

Romada belə bir hadisə oldu ki, nahar etməyə restorana gəlmiş restoran yiyəsi bir neçə tələbəmizə hər şeyin qurtardığını deyərək nahar verməkdən imtina etdi. Halbuki həmin vaxt bütün stolların arxasında oturanlara yemək paylanırdı və restorana yeni-yeni müştərilər gəlməkdə idi.



Beləliklə, Romada biz özümüzü abıra salmağa məcbur olduq. Ən zəruri şeyləri: kostyum, palto, çəkmələr, şlyapa və b. almalı olduq. Tələbələrin bu geyim şeylərinə üst-üstə orta hesabla 700 frankı getdi. Bakıda aldığımız 3.000 frankdan Parisə gəlib çatan zaman hər kəsin 800 frank civarında pulu qalmışdı (3.000 frank–1.500 frank–700 frank = 800 frank).

Bu məbləğin üzərinə Parisdə 13 fevral 1920-ci ildən (bütün tələbələrin "Yena" və "Belmont" otellərini tərk etdiyi gündən) bugünədək yaşayış xərcləri də əlavə olunmalıdır.

Bizim çoxumuz fransız dilini öyrənmək üçün *Alliance Française* kursuna girdik, dördaylıq kurs üçün 250 frank ödədik, 50 franka yaxın da müxtəlif dərs vəsaiti və lüğətlərə – cəmisi 300 frank xərclədik. Sonuncu məbləğ Sizdən fevral ayı maaşı kimi aldığımız 400 frankdan ödənilib. Bu zaman yadda saxlamaq lazımdır ki, yoldaşlarımızdan biri – [Mirabdin] Mirqasımov artıq hüquq fakültəsinə girib və o, 250 franka yaxın kitablara xərcləməli və 97 frank 50 santim üç trimestr[1] üçün təhsilhaqqı keçirməli olub.

Beləliklə, sizin də bu deyilənlərdən əmin olacağınız kimi, biz Bakıda aldığımız 3.000 frankın və Sülh Heyətindən aldığımız 400 frankın üzərinə öz cibimizdən də əlavə etməli olmuşuq. Özü də, yoldaşlarımızın çoxunun Bakıdan çıxarkən özünün hökumətdən aldıqlarından başqa bir qəpik də əlavə pulu yox idi və onlar hələ nəyisə qalmış yoldaşlarından borc almağa məcbur oldular. Beləliklə, bir neçə nəfəri çıxmaqla demək olar ki, hamı yoldaşlarına və mənzil yiyələrinə borclu qalmışdı. Hal-hazırda bir az öncə özünün pulu olanlar da borc götürməkdədir və bütün təqaüdçülərin durumu çox ağırdır, çünki heç kəsin ödəməyə heç nəyi qalmayıb.

Hal-hazırda hamımızın borc içində olduğunu, eləcə də 400 frank maaşın bizə yetməduyini nəzərə alaraq Sizdən xahiş etməklə şərəflənirik ki, bizim mart və aprel ayları üçün 800 frank həcmində maaşımızı verəsiniz. Bu məbləğlə Parisdə 1 ay müddətində güclə dolanacağıq və bu ən az həcmdə göstərdiyimiz aşağıdakı haqq-hesabdan da aydındır.

[1] Bir trimestr 3 ay (10-12 həftə) sürən təhsil müddətidir.

Aylıq çay, səhər yeməyi, nahar	400 frank
Aylıq mənzil (otaq)	175 frank
Aylıq ağların yuyulması	50 frank
Aylıq başın qırxılması, üz qırxma, hamam	30 frank
Müəyyən edilməmiş xərclər (metro, avtobus, xırda dərs vəsaiti, yüngül xəstəliklər, ayaqqabını yamatmaq və s.)	150 frank
Cəmi:	805 frank

Sədr *[Mirzeynalabdin] Mirqasımov*
Katib *M[ustafa ağa] Vəkilov*
Düzdür / Komitənin katibi: *(İsrafil Əşrəfovun imzası)*[1]

57-ci bəlgə



Azərbaycan İctimai Şura Cümhuriyyəti İnqilab Komitəsinin builki[2] 9 avqust tarixli iclasının protokolundan
ÇIXARIŞ
N.Nərimanovun sədrliyi altında
İştirak etdilər: [Çingiz] İldırım, [Həmid] Sultanov, [Baba] Əliyev, Çurayev, [Ağahüseyn] Kazımov, [Abid] Alimov.
Katib: Qabriçidze

Eşidildi:

8) Keçmiş Azərbaycan hökumətinin xaricə təhsilini bitirmək üçün göndərdiyi tələbələrin nümayəndəsinin vəsait buraxılması və ümumən maddi dəstək haqqında xahişi.

Qərara alındı:

Xaricdəki tələbələrə yardımın zəruri olduğunu prinsipcə qəbul etməli və Xalq Maarif Komissarlığına Xalq Xarici İşlər Komissarlığı ilə birgə vəsait və bu vəsaitin köçürülməsinin yollarını axtarıb tapmağı təklif etməli.

Doğrudur.
Katib *(Qabriçidzenin imzası)*
Möhür.[3]

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 55-56a. Məktub tarixsizdir, ancaq 1920-ci ilin iyun-iyul ayları arasında yazılıb. Bu sənəd öncəkinə əlavə edilmiş izahatdır.
[2] 1920-ci il.
[3] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 67

58-ci bəlgə

Fransa, İtaliya, Almaniya və Türkiyədəki dövlət təqaüdçüsü olan Azərbaycan tələbələrinin siyahısı



Fransada
Parisdə:
1. Ağayev Balaağa
2. Aslanov Teymur
3. Əşrəfov İsrafil
4. Bosnalızadə Rəşid
5. Vəkilov Mustafa
6. Vəzirov Aslan
7. Hacıyev Bayram
8. Hacıyev Xasfolad
9. Hüseynbəyov Zeynalabdin
10. Cavanşir Əbdülhəmid
11. Quluyev Mirzəhüseyn
12. Mirqasımov Abdin
13. Mustafayev Mustafa
14. Muradov Məhəmməd
15. Muradov Abbas
16. Nərimanbəyov Yaqub
17. Rəhimov Cəbrayıl
18. Rzayev İsgəndər
19. Rzayev Tağı
20. Seyidəliyev Məhəmmədrza
21. Temirxanov Murad
22. Topçubaşov Rəşid
23. Xudaverdiyev Əlibala
24. Yusifzadə Əli
25. Şıxzamanov İshaq: Xarici İşlər Komissarlığının təqaüdçüsüdür, indi isə Xalq Maarif Komissarlığının tabeliyinə keçirilməsini xahiş edir.
26. Axundov Əjdər: Öz hesabına gəlib, ancaq hal-hazırda ümumi tələbələr vəsaitindən dəstəklənir.
27. Vəzirov Miri: Öz hesabına oxuyur, ancaq təqaüd verilməsini xahiş edir.

Nansidə:
28. Şahnəzərov Əhməd

Lionda:
29. Muxarski Süleyman
30. Atamalıbəyov Abbas bəy[1]

İtaliyada
31. Əliyev Zeynal
Abdullayev Ağaəli[2]
32. Vəliyev İsgəndər
33. Rəcəbov Əhməd


[1] Abbas bəyin adı Parisdə oxuyanların içərisində də, nömrəsiz olaraq ən başda yazılıb.
[2] Adı bu siyahıya salınsa da o, xaricə getmədiyinə görə adının üstündən karandaşla xətt çəkilib və nömrəsi nəzərə alınmayıb.

Almaniyada
Berlində:
34. Əliyev Abbasmirzə
35. Əliyev Əliəkbər
36. Əbdürrəhmanov Ağacəfər
37. Ağasibəyov Yusif
38. Hacıyev Məhəmməd
39. Hüseynov Salman
40. Hüseynov Əlihüseyn
41. Hacızadə Mirzə
42. Zeynalov Behbud
43. İsgəndərov Ağalar
44. Qədimov Lətif
45. Münşiyev Hilal
46. Mustafayev Ağahəsən
47. Məmmədov Qəhrəman
48. Pirverdiyev Hənifə
49. Musayev Cəmil
50. Rəhimzadə Abdulla
51. Rəhimov Məhəmməd
52. Rzayev Nüsrət
53. Sultanov İsgəndər
54. Seyidzadə Mirismayıl
55. Səfərov Məhiş
56. Şıxıyev Hüseyn
57. Əfəndiyev Abdulla
58. Əfəndiyev Məhəmmədəmin
59. Nağıyev Hüseyn
Leypsiqdə:
60. Muğanlinski Adil[1]
61. Muğanlinski Əsildar
62. Şahsuvarov Mürsəl
Frayberqdə:
63. Əliyev Əşrəf
64. Əlimuradov Cavad bəy[2]
65. Axundov Səməndər
66. Həsənov Rzaqulu
67. Məmmədov Zal
68. Sadıqov Mirsadıq
69. Şahsuvarov Surxay
Ştutqartda:
70. Abdinov Mirzə Bəhram
71. Məhəmmədov Hüseynbala
72. Məhəmmədov Həmid (Həmid Məhəmməd Xəlil)
73. Xiromanov Zəkəriyyə
Darmştadtda:
74. Hüseynzadə Bəhram

[1] Adı yanlış olaraq *"Adildar"* yazılıb.
[2] *"Cəmil"* adı pozularaq qarşısında *"Cavad bəy"* yazılıb, çünki dövlət siyahısında Cavad bəyin adıdır.

75. Kazımov Cəfər
Karlsruedə:
76. Əliyev Firidun
Haydelberqdə:
77. Axundov İsmayıl
78. Salahov Yusif

Türkiyədə
İstanbulda:
79. Xələf bəy oğlu Məhəmmədəli
80. Hacı Həsən oğlu Sədi
81. Tahirov Abdulla
82. Dursunzadə Məhəmmədzəki: Almaniyadadır və öz hesabına oxuyur.
83. Dadaşov Əbdülhüseyn
84. Umudov Mirzə Mirmənsur.[1]



Avropadakı Azərbaycan dövlət təqaüdçüsü tələbələrin nümayəndəsi
Abdin Mirqasımov.
Bakı, 10/VIII-[19]20.[2]

59-cu bəlgə

Azərbaycan Şura Sosialist Cümhuriyyəti
xalq [maarif] komissarı əfəndiyə

Qərbi və Mərkəzi Avropada
dövlət hesabına təhsildə bulunan
Azərbaycan tələbəsi vəkili-mürəxxəsi[3]
Abdin Mirqasımzadə tərəfindən

MƏRUZƏDİR

Möhtərəm Bünyadzadə,

Məlumi-aliləri olduğu üzərə, keçən sənə Azərbaycan Parlamanında mövcud bütün siyasi firqələr tərəfindən müttəhidür-rəy olaraq[4] Avropaya tələbə göndərilməsi qərara alınmış və nəticədə təqdim etdiyim siyahı vəchi ilə Avropa və İstanbula tələbə göndərilmişdi. Bu tələbəyə gedəcəkləri məmləkətlərin iqtisadi halları nəzərə alınmadan müsavi[5] olaraq hər birinə ayda 400 frank maaş kəsilmişdi. 1920 sənəsi sentyabr ayı birinə qədər tələbə maaşları (Avropaya gedənlərinki) yarısı Paris Sülh Nümayəndəliyimizə, İstanbula gedənlərinki İstanbul Missiyası müməssilimizə göndərilmiş və tələbəyə hər cürə müavinətdə bulunmaları kəndilərinə tövsiyə edilmişdi.

[1] Adının üstündən xətt çəkilib, çünki o oxumağa getməyib.
[2] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 62-63a.
[3] Xüsusi (səlahiyyətli) nümayəndəsi.
[4] Yekdilliklə.
[5] Bərabər.



Sonradan anlaşıldığına görə, tələbəyə təyin edilən maaş miqdarı bulunduqları məmləkətlərin hallarına görə heç də kafi gəlmiyordu. Binaənəleyh Paris Sülh Nümayəndəliyimizin qərarı vəchi ilə Parisdə yaşayan tələbə ilə İstanbulda bulunan tələbənin maaşları birincilərinki dörd yüzdən altı yüzə, ikincilərinki dörd yüzdən beş yüzə qədər artırılmışdı. Bundan maəda, tələbə yoldaşlarımızdan Teymur Aslanov adında birisi iki aya qədər appendisitdən xəstə yataraq kəndisinə əməliyyati-cərrahiyyə yapılmış ki, 5.000 franka qədər kəndisinə sərf olunmuş və şimdi büsbütün iyiləşmişdir. Əliəkbər Cabbarov namında başqa bir arkadaşımız da zatən buradan gedərkən yolda xəstələndiyindən Parisdə qaldığı bir neçə ay zərfində xəstə yatmış və kəndisinə maaşından fazla para sərf olunmuş. Təhsilə davam etməyən Zaur Dagirov adında üçüncü bir arkadaşımız Komitəmiz və Sülh Nümayəndəliyimizin qərarı vəchi ilə geri göndərilmiş ki, bu sondakılara yolxərci olaraq hər birinə iki bin beş yüz frank verilmişdi. Bütün bu yuxarıdakı məruzata görə ümumtələbə parası bir ay nöqsan gəldi[1] və ümum tələbəyə 1920 sənəsi sentyabrın birinə qədər deyil, yalnız avqustun birinə qədər maaş verilə biləcəyi Nümayəndəlik tərəfindən kəndilərinə elan olundu. Bundan maəda, tələbənin Sülh Nümayəndəliyimizə 15 bin franka qədər borcu qalmış oldu. Tələbənin hal-hazırda nə yolda çalışdıqlarını liğəən[2] təqdim etdiyim məruzələrindən mütaliə buyuracaqsınız.


Şimdiki halda Avropada və İstanbulda 83 danə azərbaycanlı tələbə bulunmaqdadır. Bundan dördü kəndi hesabına təhsilə getmişsə də fəqət həpsinin halı eyni dərəcədə ağırdır, zira onlardan heç birisinə vətəndən maaş almaq mümkün olmamışdır. Bunların halı gündən-günə daha da fənalaşmaqdadır. Bunlar heç bir tərəfdən bir müavinət almadıqları kibi, kəndilərinə bir iş bulmaq dəxi pək müşküldür, zira bir çok fransızlar belə işsizdirlər. Digər tərəfdən, Avropadan məmləkətə dönmək son dərəcə müşkül bir hal alıyor. İngilizlər haman hər tərəfə hakim bulunuyor və hər kəsi pənceyi-istibdadlarında əziyorlar. Onlar rusları, azərbaycanlıları, gürcüləri İstanbul boğazından Qara dənizə burakmayırlar. Ruslara, gürcülərə bəzi kərə istisna ediyorlarsa da azərbaycanlılara (son zamanlarda məmləkətdə şura cümhuriyyəti təşkil etdiyinə görə) heç bir vəchlə istisna yokdur. Onları heç bir surətlə Bosforda icra etdikləri kontroldan nə içəriyə, nə dışarıya burakıyorlar. Bən kəndim bu müşkülatı şəxsimdə təcrübə etdim və ən nəhayət, bin məşəqqətlə Türk vizası ilə gəlməyə müvəffəq oldum. Bu surətlə gəlmək bir, yaxud iki adama mümkün olursa da təsəvvür buyurulsun səksən kişi üçün haman mahal hökmündədir. Mümkün olsa belə bu şərait daxilində hər tələbəyə yolxərci olaraq ən azı altı bin frank verilməsi lazım gəlir.

[1] Əskik gəldi, az oldu.
[2] Əlavə (qoşma) şəklində.

Halbuki bu tələbə Azərbaycan gənclərinin ən çalışqanları və ən zübdələrindəndir.[1] Bunlara iki, yaxud üç sənə çalışmağa imkan verilirsə təhsillərini bitirirsələr, onlar məmləkətə ən faydalı və ən lazımalı sağlam bir ünsür təşkil edəcəklərdir. Halbuki hal-hazırda başda duranlarımız xalqa ən yaxın bulunduqlarından, ümumun mənfəətini qeyrilərindən daha iyi təqdir edəcəklərindən, xəlqimizə gələcəkdə böyük umudlar verməkdə olan şu gənc qüvvənin məhv olmasına nəzəri-müsamihə ilə bakamıyacaqlarından əmin olduğundan Avropadakı tələbənin həyatlarını qurtarmağa sərfi-məsaidən[2] geri durmazlar umudundayam. Liğəən təqdim etdiyim tələbə məruzələrindən də anlaşılacağına görə, Fransa, İtaliya və İstanbulda bulunan tələbəyə hər birinə ayda doqquz yüz (900) frank, Almaniyada bulunanlara ayda iki min səkkiz yüz (2.800) marka lazım olduğunu dəxi əlavə edərəm, əfəndim.

Avropada dövlət hesabına təhsildə bulunan
Azərbaycan tələbəsi vəkili-mürəxxəsi
Abdin Mirqasımzadə.
Bakı, 11 avqust səneyi-1920.[3]

60-cı bəlgə



Azərbaycan İctimai Şura Cümhuriyyəti
Xalq Xarici İşlər Komissarlığı
Siyasi şöbə
31 avqust 1920.
№ 189.
Bakı ş.

Xalq Maarif Komissarlığına

Xaricdəki Azərbaycan tələbələri ilə əlaqələrin yaradılması və onlara maddi yardım göstərilməsi haqqında məsələyə dair 5 avqust tarixli 8276 saylı məktuba Xarici İşlər Komissarlığı bildirirki, xalq komissarının qərarınauyğun olaraq, bu məsələ ilə bağlı Azərbaycanda İtaliya diplomatik nümayəndəsi İnsonla danışıqlar nəticəsində o, bəyan edib ki, İtaliya hökuməti Qərbi Avropaya göndərilmiş Azərbaycan tələbələrini öz müdafiəsi altına götürməyə, eləcə də onlara Azərbaycan hökumətinin buraxdığı pul məbləğlərini alıb göndərməyə prinsipcə razıdır.

İşlər İdarəsinin müdiri *(Nadir İbrahimovun imzası).*
Qərb Altşöbəsinin müdiri *(Y.Axundovun imzası).*[4]

[1] Seçilmişlərindəndir.
[2] Əmək sərf etməkdən.
[3] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 59-60.
[4] Yenə orada, vv. 66-66a.

61-ci bəlgə

(15 sentyabr 1920)

7078 saylı telefonoqram

Bu ayın 15-də[1]

Xalq Maliyyə Komissarlığından Xalq Maarif Komissarlığına

Xalq Maliyyə Komissarlığı xaricdəki bütün tələbələrin hər birinin hal-hazırda bulunduğu yeri dəqiq göstərməklə adbaad siyahısını göndərməyinizi xahiş edir. Siyahını sabah – 16 sentyabr səhər saat 10-dək Maliyyə Komissarına çatdırmaq gərəkdir.

Xalq komissarı əvəzi *Tağıyev*.
Ötürdü: *Rudakova*.
Götürdü: *Botte*.[2]

62-ci bəlgə

Xalq Maarif Komissarlığı Ümumi şöbə
18 sentyabr [19]20.
№ 9716

Maliyyə Komissarlığına

Bu 15 sentyabr tarixli 7078 saylı telefonoqrama cavab olaraq bununla xaricdəki bütün tələbələrin hər birinin hal-hazırda bulunduğu yeri dəqiq göstərməklə adbaad siyahısını göndərirəm.

Xalq maarif komissarı
Xalq Maarif Komissarlığı İşlər İdarəsi müdiri.[3]

63-cü bəlgə

(18 sentyabr 1920)

Azərbaycan Cümhuriyyətinin [19]19/20-ci dərs ilində
ali təhsilini bitirmək üçün dövlət hesabına xaricə göndərdiyi,
həm Xalq Maarif Komissarlığının işlərində olan, həm də tələbələrin nümayəndəsi
Abdin Mirqasımovun verdiyi məlumatlara görə hal-hazırda xaricdə olan tələbələrin

SİYAHISI

Bütün bu yoldaşların yaşamaq və təhsilini davam etdirmək üçün pul vəsaitinə ehtiyacı var.

Sıra№	Adlar və soyadlar	Hal-hazırda haradadır
1	Abbas bəy [Seyfulla bəy oğlu] Atamalıbəyov	Fransa (Paris)
2	Balaağa Məhəmmədhənifə oğlu Ağayev	–
3	Teymur bəy [Zəkəriyyə bəy oğlu] Aslanov	–
4	İsrafil Hacı İsmayıl oğlu Əşrəfov[4]	–
5	Məhəmmədrəşid [Mustafa oğlu] Bosnalızadə	–
6	Mustafa ağa Məhəmməd ağa oğlu Vəkilov	–
7	Aslan bəy Zeynalabdin bəy oğlu Vəzirov	–

[1] 15 sentyabr 1920-ci il.
[2] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 68.
[3] Yenə orada, vərəq 69.
[4] Sənəddə yanlış olaraq belə yazılıb: "İsrafil İsmayıl Hacı Əşrəfov".


Sıra№	Adlar və soyadlar	Hal-hazırda haradadır
8	Bayram İbrahim oğlu Hacıyev	–
9	Xasfolad bəy İsmayıl bəy Hacıyev	–
10	Zeynalabdin bəy Adil bəy oğlu Hüseynbəyov	–
11	Əbdülhəmid (Georgi Həmidoviç) Cavanşir	–
12	Mirzəhüseyn Kərbəlayı Hənifə oğlu Quluyev	–
13	Mirabdin [Mirələsgər oğlu] Mirqasımov[1]	–
14	Mustafa Molla Hacı Rəhim oğlu Mustafayev	–
15	Məhəmməd bəy Fəhrad bəy oğlu Muradov	–
16	Abbas Həmid oğlu Muradov	–
17	Yaqub bəy Əmir bəy oğlu Narimanbəyov	–
18	Cəbrayıl Məhəmmədrza oğlu Rəhimov	–
19	İsgəndər Cabbar xan oğlu Rzayev	–
20	Tağı Kərbəlayı Əsgər oğlu Rzayev	–
21	Mirməhəmmədrza Mirabutalıb oğlu Seyidəliyev	–
22	Murad bəy Məhəmməd oğlu Təmirxanov	–
23	Rəşid bəy Əlimərdanbəy oğlu Topçubaşov	–
24	Əlibala Hacı Murtuzaqulu oğlu Xudaverdiyev	–
25	Ağaəli [Mirzə Cəlal oğlu] Yusifzadə	–
26	İsaq bəy Musa bəy oğlu Şıxzamanov	–
27	Əjdər bəy [İsgəndər bəy oğlu] Axundov	–
28	Miri bəy [Məşəd Mirbaba oğlu] Vəzirov	–
29	Əhməd Şahnəzərov (Əhməd Hədis oğlu Hacıyev)	(Nansi)
30	Süleyman Bəkir oğlu Muxarski	(Lion)
31	Zeynalabdin bəy Hacıağa bəy oğlu Əliyev	İtaliya
32	İsgəndər Məşədi Mahmud oğlu Vəliyev	–
33	Əhməd Məşədi Cabbar oğlu Rəcəbov	–
34	Abbasmirzə Əhməd oğlu Əliyev	Almaniya (Berlin)
35	[Əli]əkbər Qəhrəman oğlu Əliyev	–
36	Ağacəfər Məşədi Səftər oğlu Əbdürrəhmanov	–
37	Yusif bəy Süleyman bəy oğlu Ağasıbəyov	–
38	Məhəmməd bəy Kərim bəy oğlu Hacıyev	–
39	Salman [Hüseyn oğlu] Hüseynzadə	–
40	Əlihüseyn Ağahüseyn oğlu Hüseynov	–
41	Mirzə Məşədi Yusif oğlu Hacızadə	–
42	Behbudəli Məşədi Həmid oğlu Zeynalov	–
43	Ağalar Məşədi Abbasqulu oğlu İsgəndərov	–
44	Lətif [Şirin oğlu] Qədimov	–
45	Hilal [Mirzə Məhəmməd oğlu] Münşiyev	–
46	Ağahəsən Manaf oğlu Mustafayev	–
47	Qəhrəman İsrafil oğlu Məmmədov	–
48	Hənifə Hacı Mahmud oğlu Pirverdiyev	–
49	Cəmil İbrahim Tahir oğlu Musayev	–
50	Abdulla Məhəmməd oğlu Rəhimzadə	–
51	Məhəmməd Paşa Sadıq oğlu Ağarəhimov	–
52	Nüsrət Rza oğlu Rzayev	–
53	İsgəndər bəy [Rüstəm bəy oğlu] Sultanov	–
54	Mirismayıl [Seyid Əhməd oğlu] Seyidzadə	–
55	Məhiş Məşədi Hacı oğlu Səfərov	–
56	Hüseyn Hacı Mustafa oğlu Şıxıyev	–
57	Abdulla Molla İbrahim oğlu Əfəndiyev	–
58	Məhəmmədəmin [Hüseyn oğlu] Əfəndiyev	–
59	Hüseyn Hacı Musa oğlu Nağıyev	–

[1] Sənəddə yanlış olaraq belə yazılıb: "Mirqasım Mirabdin".

Sıra№	Adlar və soyadlar	Hal-hazırda haradadır
60	Ağa Əbdülhüseyn Əliəsgər oğlu Dadaşov	–
61	Adil bəy [Abbasəli bəy oğlu] Ağabababəyov-Muğanlinski	(Leypsiq)
62	Əsildar bəy Abbasəli bəy oğlu Ağabababəyov-Muğanlinski	–
63	Mürsəl Adilxan oğlu Şahsuvarov	–
64	Əşrəf Ağaəli [oğlu] Əliyev	(Frayberq)
65	Cavad bəy Cümşüd bəy oğlu Əlimuradbəyov	–
66	Səməndər Axund Zəki oğlu [Axundzadə]	–
67	Rzaqulu İsmayıl oğlu Həsənov	–
68	Zal Məşədi Cavad oğlu Məmmədov	–
69	Mirsadıq Kərbəlayı Seyid Kamil oğlu Sadıqov	–
70	Surxay Əzim oğlu Şahsuvarov	–
71	Mirzə Bəhram Övsət oğlu Abdinov	(Ştutqart)
72	Hüseynbala Cəfərqulu oğlu Məhəmmədov	–
73	Həmdi Məhəmməd oğlu (Həmid Məhəmmədov)	–
74	Zakəriyyə Əbdürrəşidoviç Xiromanov	–
75	Bəhram bəy [İsmayıl bəy oğlu] Hüseynzadə	(Darmştadt)
76	Cəfər Kərbəlayı Əliəsgər oğlu Kazımov	–
77	Firudun [Əzim oğlu] Əliyev	(Karlsrue)
78	İsmayıl Əbdülxaliq oğlu Axundov	(Haydelberq)
79	Yusif Məşədi Hüseyn oğlu Salahov	–
80	Şadi Hacı Həsən oğlu	Türkiyə (İstanbul)
81	Məhəmmədzəki [Dursun oğlu] Dursunzadə	–
82	Abdulla [Mabud oğlu] Tahirov	–
83	Məhəmmədəli bəy Xələf bəy oğlu	–

Qeyd: Bu siyahıda göstərilənlərdən №26 İsaq bəy Musa bəy oğlu Şıxzamanov Xarici İşlər Komissarlığının təqaüdçüsüdür və onu Xalq Maarif Komissarlığının təqaüdçülüyünə keçirməyi xahiş edir; №27 Miri bəy Vəzirov və №60 Ağa Əbdülhüseyn Əliəsgər oğlu Dadaşovu Hökumət öz hesablarına göndərib və hal-hazırda onlar dövlət hesabına Xalq Maarif Komissarlığının təqaüdçüləri sırasına keçirilməyi xahiş edirlər.

A.İ.Ş.C. xalq maarif komissarı
Xalq Maarif Komissarlığı
İşlər İdarəsinin müdiri[1]



[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 70-71a; 75-76a. Bu siyahını Maarif Komissarlığı 18 sentyabr 1920-ci ildə Maliyyə Komissarlığına göndərib.



- 12 - декабря 1920
ПОЛУЧЕНО
8732.
В НАРКОМПРОС.-
Вследствие В/отношения от 6-го с/м. за №13833 настоящим сообщается, что находящимся в заграничной командировке студентам деньги на их содержание через Наркоматфин не переводились, так как по этому поводу никаких распоряжений от Наркоминдела не поступало.
О высылке денег студентам - за границей.-
Считаю необходимым обратить В/внимание на то, что вопрос этот чрезвычайно сложный, так как необходимо еще установить количество и род необходимой валюты, а также, по всей вероятности, придется еще искать возможности приобретения ее, так как в распоряжении Наркоматфина запаса валюты еще не имеется.-
НАРКОМФИН
ЗАВ.ЦЕНТР.КАНЦ.
ЗАВ.ОБЩЕЙ ЧАСТЬЮ

64-cü bəlgə

A.İ.Ş.C.[1]
Xalq Maliyyə Komissarlığı
Mərkəzi Dəftərxana
"12" dekabr 1920
№9483
Bakı ş.

Xaricdəki tələbələrə pul göndərilməsi haqqında.

Xalq maarif komissarına

Sizin bu ayın 6-sı tarixli 13833 saylı məktubunuza cavab olaraq bununla bildirilir ki, xarici ezamiyyətdə olan tələbələrə onların yaşayışı üçün Xalq Maliyyə Komissarlığı vasitəsilə pul köçürülməyib, çünki bununla bağlı Xalq Xarici İşlər Komissarlığından heç bir sərəncam daxil olmayıb.

Diqqətinizi buna yönəltmək istəyirəm ki, bu məsələ hədsiz mürəkkəbdir, çünki hələ zəruri valyutanın miqdarını və növünü müəyyənləşdirmək gərəkdir, eləcə də, çox güman ki, onu əldə etmək imkanlarını axtarmaq lazımdır. Belə ki, Xalq Maliyyə Komissarlığında hələ valyuta ehtiyatı yoxdur.

Xalq maliyyə komissarı *(N. Tağıyevin imzası)*
Mərkəzi dəftərxananın müdiri *(imza)*
Ümumi hissənin müdiri *(imza)*[2]

[1] Azərbaycan İctimai Şura Cümhuriyyəti sonralar "Azərbaycan Sovet Sosialist Respublikası" adlandırıldı.
[2] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 65. Sənədi Xalq Maarif Komissarlığı 14 dekabr 1920-ci ildə alıb.

65-ci bəlgə

[Xalq Maarif Komissarlığı]
6 dekabr [1920]
№ 13833

Surət
Çox təcili

Maliyyə Komissarlığına

Xahiş edirəm təcili şəkildə məlumat verəsiniz ki, xarici ezamiyyətdə olan və bu ilin 18 sentyabrında Maliyyə Komissarlığına göndərilmiş 9716 saylı siyahıda adları ətraflı sadalanan tələbələrə onlar üçün maaş pulları göndərilibmi və cavab müsbətdirsə – haçan, kimin vasitəsilə və hansı miqdarda?

Xalq maarif komissarı
İşlər İdarəsi müdiri[1]

66-cı bəlgə
(14 dekabr 1920)

Azərbaycan xalq maarif komissarına. Nömrə 161.

Almaniyada ikmali-təhsil edən Azərbaycan Tələbələrinin
Mərkəzi Berlin Komitəsindən

ƏRZİ-HALDIR

Almaniyaya ikmali-təhsil məqsədiylə müvasilət etdiyimiz gündən təbəhal Berlində müəssis Mərkəzi Komitəmiz tələbələr namından olaraq kərrat ilə[2] gərək Paris Heyəti-Sülhiyyəmizə və gərəksə Maarif Komissarlığımıza bilavasitə vəziyyətimiz xüsusunda bilümum və əhvali-müsalihəmiz xüsusunda bilxassə ərzi-hallar təqdim etmiş və sərfipara yokluğundan dolayı təmdiditəhsilimizin deyil, bəlkə də adi imrari-məişətimizin böhranlı bir surət kəsbi-şiddət etməsi fəaliyyətimizə böyük bir sədd çəkərək öhdəmizə düşən vəzifələrimizin müntəzəmən və hüsni-surətlə ifa olunmasına mümaniət[3] göstəriyor. 9 ayın zərfində qeyri-müəyyən və müşkül bir vəziyyətdə bulunmağımızın



[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 72.
[2] Dəfələrlə.
[3] Maneə.

dərslərimizin tərəqqisinə böyük bir fəna təsirat bəxş edəcəyi mühəqqəqdir. Bir eylüldək[1] müntəzəmən təyinatımız[2] yetişiyor idi, məələsəf, bu tarixdən etibarən əhvali-maddiyəmiz para yokluğu dolayısıyla fənalaşmaya başlayaraq bədə[3] Heyəti-Sülhiyyə tərəfindən qeyri-müntəzəm bir surətdə verilir. Ufacık bir aylığın – yalnız ətmək[4] bahasının və oda kirayəsinin tədiyyə olunamayacaq qədər kafi olmayan bir məbləğin iqtiza etdiyi pək məhdud və müşkülraq bir şərait ilə imrari-həyat etmək məcburiyyəti qarşısında qalmışız. Fövqəladə bahalıqdan naşi[5] şəraiti-həyatiyyə daimən ağırlaşıyor. ... təxmin eləyə biləcək bir hesab ilə əqvati-yövmiyyəmiz[6] 50 markayı təcavüz ediyor. Bu hesaba qətiyyən nə məktəb həqqi-tədrisi, nə dərs malzəməsi və nə də əlbəsə parası idxal ediləməz. Bunlardan maəda, bütün Almaniyada mövcud qanuni-rəsmiyyə mövcibincə, paralarının dərəcəsi tənaqəsiylə yabancılardan, satdıqları əşyada tam 50% fazla mütalibə ediyorlar. Təbəhal aldıqlarımız malzəmeyi-zərurəyi eyni nisbətlə tədiyyə etmişiz. Mövcibi-diqqət burasıdır ki, icbari məktəb qanunu mövcibincə, bütün yabancı tələbələr, filcümlə biz də istisna edilməksizin həqqi-tədrisi alman tələbəsi verdiyi həqqi-tədrisin ikişər mislini verməliyiz. Məələsəf, bütün bir məbləği havi qılan bu qədər həqqi-tədrisi verməyə imkanımız olmadığından təbəhal dərsləri istima etmək haqqından məhrum olmuşuz. Yalnız ismimiz məktəb dəftəri-ümumiyyəsində qeyd olunmaq üçün sənə ibtidasında daimən düxuliyyə parası veriyoruz.


Vəziyyətimizi və surəti-məişətimizi bittəfsil sizə bəyan ilə Nəzarəti-cəliləmizdən təmənna və istirham ediyoruz ki, bizim keçirtdiyimiz fəna bir halımızı və qeyri-müəyyən bir vəziyyətimizi nəzəri-etibara alaraq müzahirəti-səriə və müavinəti-zərurədə bulunmasından müzaye etməyərək, təhsilimizin müntəzəmən davam edilməsinə imkan verməsi ilə təxsisatlarımızı bilcümlə ismimizə nəql etsin. Əlavətən tələbələr namından olaraq rica edər idik, bizim işlərimizi və fəaliyyətimizi daimən təftiş edəcək, paralarımızı dəröhdə edərək miyanımızda təqsim edici və ələlümum hər bir iqdamatizərəriyyəmizi, ki dərslərimizin fəna getməsini mühəqqəq mövcib olar, bunları kontrol yapıcı bir şəxsin təyinini acizanə təmənna edəriz. Bütün tələbə rüfəqamızın hökumətimaqbuləmizə və bütün əfradi-vətənə səmimi salamını tövdi ediyoruz.

14 kanuni-əvvəl səneyi-1920.[7]
Komitə sədri namına *(Hilal Münşiyevin imzası).*
Katib: *Hilal Münşiyev.*
Əzayi-Komitə: *(Məhiş Səfərov və Behbud Zeynalovun imzaları).*[8]

[1] Sentyabradək.
[2] Təqaüdümüz.
[3] Sonra.
[4] Çörək.
[5] Bahalığa görə.
[6] Gündəlik vaxtımız.
[7] 14 dekabr 1920.
[8] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 74-74a. Bu məktubun üstündə N.Nərimanovun imzası ilə rusca belə bir dərkənar var: *"Yol. T.Əliyevə və Tağıyevə. Tələbə Komitəsinin sərəncamına yüz min marka göndərməyi təcili icra edin".* Məktubun sonunda möhür basılıb. Möhürün üstündə türkcə (ərəb əlifbasında) və almanca yazılıb: *"Almaniyada Azərbaycan Tələbələri Komitəsi. Berlin".*

67-ci bəlgə
(20 dekabr 1920)

Surət


В НАРКОМПРОС.
Вследствие сообщения о/г. обсуждался вопрос об оказании материальной помощи переселенцам в пределах республики, а также и заграницу студентам. Авербахом принципиально решено, что помощь необходимой поручить между прочим Вам, имеющей средства и путь к первому из этих средств по принадлежности.
Не имея по этому вопросу никаких сведений прошу Вас срочно сообщить полные ли студентам находящимся в заграничных командировке денежные средства и в отрицательном случае какие меры принимаются Вами к снабжению этих товарищей материальной помощью.
НАРКОМ ПРОСВЕЩЕНИЯ
УПРАВДЕЛ
20 декабря
№ 14324

20 dekabr [1920]
№ 14324

Xalq xarici işlər komissarına

Hələ bu ilin avqust ayında keçən il[1] xaricə göndərilmiş tələbələrə maddi yardım göstərilməsi haqqında məsələ müzakirə edilmiş və elə o zaman Azərbaycan İnqilab Komitəsi bu köməyi prinsipcə zəruri sayaraq, yeri gəlmişkən, vəsaiti və onun təyinatı üzrə köçürülməsi yollarını axtarıb tapmağı Sizə həvalə etmişdi.

Bu haqda heç bir bilgi olmadığına görə Sizdən xahiş edirəm ki, təcili məlumat verəsiniz: xarici ezamiyyətdəki tələbələrə pul vəsaiti göndərilibmi; göndərilməyibsə bu yoldaşların maddi yardımla təmin edilməsinə Siz hansı tədbirləri görürsünüz?

Xalq Maarif Komissarı
İşlər İdarəsi[2]

68-ci bəlgə

[Xalq Maarif Komissarlığı]
2 aprel 1921
№3484 Xalq Maliyyə Komissarı
yol. Tağıyevə
№3482 Xalq Xarici Ticarət Komissarı
yol. Əliyevə

Bu məktubla birgə Almaniya universitetlərində oxuyan *Azərbaycan Türk Tələbələri Komitəsinin* məktubu məlumat və icra üçün [sizə] göndərilir.

Xalq maarif komissarı: *(D.Bünyadzadənin imzası)*
Katib[3]

[1] Burada "keçən il" yox, "bu il" yazılmalı idi – tələbələrin faktiki göndərilməsi ilə onların göndərilməsi haqqında Parlaman qərarının (1 sentyabr 1919) tarixləri qarışdırılıb.

[2] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 64.

[3] Yenə orada, vərəq 73.

69-cu bəlgə

Xalq Komissarları Şurası iclasının protokolu.
13 iyun 1921-ci il.

EŞİDİLDİ: 12.

Xalq Komissarları Şurasının sədri yol. Nərimanovun xarici ölkələrdə təhsil alan tələbələrə maddi yardım göstərilməsi haqqında növbədənkənar bəyanatı.

QƏRARA ALINDI: 12.

Zəruri vəsait buraxmalı və Xalq Komissarları Şurası sədrinin nəzərdə tutduğu səlahiyyətli şəxsi xaricdə təhsil alan azərbaycanlı tələbələrin vəziyyəti ilə yerində tanış olmaqdan ötrü xaricə göndərməli.[1]

70-ci bəlgə
(2 mart 1922)

Xalq Komissarları Şurasının sədri yol. Nərimanova

18 iyun 1921-ci ildə AİŞC[2] Xalq Komissarları Şurasının sədri yol. Nərimanov məni Qərbi Avropada oxuyan azərbaycanlı tələbələrin işləri üzrə müvəkkil təyin etdi. Bundan ötrü xaricdə yerləşən və orada təhsil alan azərbaycanlı tələbələrin həm maddi durumunu öyrənmək, həm də dərslərini necə oxumaları və xaricdəki tələbələrin yuxarıda adı keçən tələblərlə bağlı başqa məsələləri aydınlaşdırmaq üçün Avropanın bütün paytaxt şəhərlərinə göndərildim.

2 iyul 1921-ci ildə əməkdaş Rizvan Nərimanovla[3] və 4-ü yeni, 2-si tələbələrin nümayəndəsi[4] olmaqla 6 tələbə ilə birgə Bakıdan çıxdım. Nümayəndələr bundan sonrakı təhsillərini davam etdirməkdən ötrü hökumətin onları vəsaitlə təmin etməsini xahiş etmək üçün Bakıya gəlmişdilər, çünki Parisdəki keçmiş Azərbaycan hökumətinin [Sülh] Heyəti onlara vəsait buraxmaqdan imtina edərək üzülüşmə pulu verib və onlardan bu haqda iltizam alıb ki, Heyətin bundan sonra onlarla heç bir işi yoxdur. Mən də elə onların vəziyyətini dəqiq aydınlaşdırmaqdan ötrü göndərilmişdim.

8 iyulda Tiflisdə İtaliya konsulunun yanına bir həftə təpik döydükdən sonra xarici vizalar alaraq Batuma getdim. Batumda Birxartic[5] bizə valyuta mallarının verilməsində bəzi əngəllər törətdiyinə görə əməkdaşım Rizvanı və tələbə [Əşrəf] Əliyevi məruzəmlə birlikdə Birxarticin bizə münasibəti və Batumda valyuta mallarını verməməsi haqqında


[1] Протоколы заседаний Азревкома и Совнаркома ACCP (1920-1922 гг.), s. 246.

[2] Azərbaycan İctimai Şura Cümhuriyyəti.

[3] Bu, N.Nərimanovun xəstə qardaşıdır. Nərimanov onu Bəhram bəyə qoşaraq müalicə üçün Türkiyəyə göndərib. Ancaq bir müddət sonra o ölüb (bu vaxt Bəhram bəy Türkiyədə deyildi).

[4] Bəhram bəyin İstanbulda Əli bəy Hüseynzadə və 5 Cümhuriyyət tələbəsi ilə birgə çəkdirdiyi fotodan anlaşıldığına görə, həmin tələbələrin 3-ü Türkiyədə, 2-si isə Avropada oxuyandır. Avropada oxuyanlar və oradan nümayəndə kimi göndərilərək Bəhram bəylə birgə geri dönən Səməndər Axundzadə və Əşrəf Əliyevdir.

[5] Rusca "Obvneştorq" ("Объединенный внешторг") adlandırılan Birləşmiş Xarici Ticarət İdarəsi Azərbaycan, Gürcüstan və Ermənistanın 3 xarici ticarət idarəsinin 2 iyun 1921-ci ildə birləşdirilməsindən yaranıb.



XKŞ sədri yol. Nərimanova məruzə etməkdən ötrü Bakıya qaytarmalı oldum. Bakıdan müsbət teleqram alaraq 16 iyul 1921-ci ildə 5 tələbəni İstanbula yolladım, özüm isə oraya 20 iyul 1921-ci ildə getdim. Düşündüm ki, İstanbulda bizə mərhum [Behbud xan] Cavanşir kömək edər, çünki mənim onunla Azərbaycan Xarici Ticarət İdarəsindən münasibətlərim vardı.[1]

24 iyul 1921-ci ildə İstanbula gəldim və nə gördüm? Bədbəxt Cavanşir öldürülüb və İstanbul Birxarticində AİŞC-nin mənafelərini qoruyacaq kimsə yoxdur.[2] İstanbulda 15 sentyabr 1921-ci ilədək Bakıdan vəsait gözləyə-gözləyə elə beləcə qaldıq. Bu müddətdə mən tələbələri bir yerə yığdım və onlara gəlişimin məqsədini açıqladım. İki ay yarımdan artıq tələbələrin həyatını və maddi durumunu bütün incəliklərinədək öyrəndim.

İstanbul Universitetində elmin qoyuluşu Fransa Universitetinin nümunəsi əsasında gedir; bu, özəlliklə bütün tədrisin Türk dilində aparıldığı tibb fakültəsində belədir. Bizim Azərbaycan tələbələrindən ötrü bütün fakültələr içərisində tarix-filologiya və tibb fakültələrinin daha münasib olduğunu gördüm. Tibb fakültəsində tədris Türk dilində gedir. Yalnız reseptura fransızcadır. Bu iki fakültədə, demək olar ki, Qərbi Avropa universitetləri səviyyəsində təhsil almaq mümkündür, çünki bu fakültələr hətta Qərbi Avropada da məşhur olan təcrübəli professorları ilə seçilir.

İstanbul Universitetində tədris müddəti 3-6 il arasındadır. Və imtahanlar hər il keçirilir. İstanbul Universitetində Azərbaycandan olan təqaüdçü tələbələrin sayı, təəssüf ki, cəmi 3 nəfərdir – iki nəfər tibb fakültəsindədir, bir qız tələbə birinci kursda, oğlan tələbə üçüncü kursda oxuyur; üçüncü tələbə isə tarix fakültəsində ikinci kursdadır.[1] Azərbaycanın Türk dilində professorlar hazırlamaqdan ötrü İstanbula yenə bir neçə tələbə göndərməsi çox məqsədəuyğun olardı. Tələbələrimizin hamısı yaxşı oxuyur.

Şəxsi müşahidəm və professorlarla tanışlıq yolu ilə tələbələrin həyatını və maddi durumunu incəliklə öyrəndikdən sonra bu fikrə gəldim ki, İstanbuldakı tələbələr qənaətlə dolansalar ayda 60 Türkiyə lirəsinə yaşaya və təhsillərini davam etdirə bilərlər (təhsil haqqı və dərs vəsaiti üçün xərc bura daxil deyil).

Məndə olan vəsaitdən İstanbul tələbələrinin hərəsinə 1 oktyabr 1921-ci ildən 1 may 1922-ci ilədək 7 ay üçün ayda 60 Türkiyə kağız lirəsi təyin etdim. 2 yeni təqaüdçünün[2] hərəsinə 55 Türkiyə lirəsi, bir köhnə tələbəyə isə 25 Türkiyə lirəsi birdəfəlik vəsait verdim. Əminəm ki, qənaətlə dolansalar bu məbləğ onlara 1 may 1922-ci ilədək çatar; hər halda onların qənaət etməsi vacibdir. Onlar mənə ayhıq 94 Türkiyə kağız lirəsinin smetasını vermişdilər ki, bu, mənə həddən çox, hətta burjuycasına göründü. Həyat bahalaşdığına görə məruzəmin sonunda tələbələrin yaşayışı və təhsili, tədris vəsaiti ilə bağlı xərclərin yeni smetasını təqdim edəcəyəm.

İstanbuldakı Azərbaycan tələbələrinə vəsait verdikdən sonra yanımdakı 4 tələbədən üçünü[3] Almaniyaya və birini[4] Fransaya göndərdim, onları İran pasportları ilə təchiz etdim; bu, baha başa gəlsə də başqa cür etmək olmazdı.[5] Mənim üçün pasporta gəlincə, Fransada, özəlliklə qohumluq əlaqələrimin olduğu Parisdə geniş şəxsi münasibətlərim sayəsində Parisdən – xarici işlər nazirindən icazə ala bildim. Bundan sonra Berlindəki Azərbaycan tələbələri üçün də Parisə pul köçürərək sovet pasportu ilə (Fransa vizası ilə) İstanbuldan çıxaraq 20 oktyabr 1921-ci ildə Parisə yollandım. Öncə Marselə gəldim. Burada sovet pasportuna görə və bu zaman bolşevik hərəkatı olması üzündən məni bir neçə saat saxladılar. Bir neçə saatdan sonra buraxdılar və elə həmin axşam Parisə yola düşdüm.

28 oktyabr 1921-ci ildə Parisə çatdım. Ertəsi gün azərbaycanlı tələbələri bir yerə yığdım, gəlişimin məqsədini açıqladım və özlərinin maddi durumu və necə oxumaları haqqında mənə bilgi vermələrini xahiş etdim. Mənim göstərişimlə onlar necə oxumaları haqqında məktəblərdən sənəd gətirdilər. Bundan sonra onlar türkcə hazırlayaraq onlara payladığım anket vərəqlərindəki suallarıma cavab verməli idilər. Buna bir gün vaxt ayırdım və bu müddətdə özüm onların yaşayışını və tədris işinin necə qurulduğunu öyrəndim.

Fransada Azərbaycanın 28 təqaüdçü tələbəsi oxuyurdu. Köhnə [Sülh] Heyətindən üzülüşmə pulu aldıqdan sonra onlardan biri[6] tamam çıxıb gedib. Topçubaşov Rəşid[7] sovet Azərbaycanının təqaüdçüsü olmaqdan imtina edib. Çoxdan Parisdə olan tələbə [İsaq bəy]

[1] Əslində Bəhram bəyin Behbud xana həm qohumluğu çatırdı, həm də Şuşa məktəbində onunla bir sinifdə oxumuşdu.

[2] İstanbuldakı bu quruma Behbud xan Cavanşir rəhbərlik edirdi.

[1] Təəssüf ki, bu sənəddə həmin tələbələrin adları çəkilməyib. Ancaq 3 tələbədən 2-sinə "yeni" (yəni sovet təqaüdçüsü) deyilməsindən anlaşılır ki, Bəhram bəyin İstanbula gəldiyi 1921-ci ilin iyulunda 9 Cümhuriyyət tələbəsindən Türkiyədə cəmi 1 nəfər qalıbmış. Bizcə, Cümhuriyyət tələbəsi tibb fakültəsinin 2-ci kursunda oxuyan *Məhəmməd bəy Xələfbəyzadə (Mahmudov)*, "yeni" tələbələr isə tibb fakültəsinin 1-ci kursunda oxuyan *Qəmər Ağaoğlu (Talıbxanbəyli)* və onun tarix fakültəsində oxuyan əri *Məhəmməd Ağaoğlu*'dur. Bu fikrə bizi yönəldən ən güclü amil odur ki, heç bir siyahıda o dönəmdə Qəmər xanımdan başqa, Türkiyədə oxuyan ikinci qadın tələbənin adı yoxdur, o isə oxumağa əri ilə birgə gedib.

[2] Buradan anlaşılır ki, İstanbulda oxuyan 3 tələbədən ikisi "sovet" tələbəsi imiş.

[3] Bunlar böyük ehtimalla *Hacıağa Nuruyev, Şamil Səfərov* və *Xəlil Musayevdir*.

[4] Səfvət bəy Məlikovu.

[5] Sonralar guya bəzi İran vətəndaşlarının oxumağa göndərilməsi haqqındakı yanlış fikirlərin kökü buradan anlaşılır. Deməli, onlar sovet Azərbaycanının vətəndaşı ola-ola İran pasportu almağa məcbur olublar, çünki Fransa o dönəmdə Sovet hakimiyyətini tanımırdı.

[6] Zaur Dagirov nəzərdə tutulur.

[7] Əlimərdan bəy Topçubaşovun oğludur.

Şıxzamanov hüquq fakültəsini bitirib və Azərbaycana getməsi üçün mən ona yolpulu verdim. Sonra onlara yeni tələbə [Səfvət bəy] Məlikov[1] da qoşuldu. Beləliklə, Fransada indi Azərbaycanın cəmi 26 təqaüdçü tələbəsi oxuyur. Onlar məktəblər üzrə aşağıdakı qaydada bölüşdürülüb:

Parisdə

Hüquq fakültəsində	8 nəfər
Hərəsinə	765 frank
Cəmi:	*6.120 frank*
Siyasi Elmlər Məktəbində:	3 nəfər
Cəmi:	*2.295 frank*
Tibb fakültəsində:	3 nəfər
Cəmi:	*2.295 frank*
Memarlıq fakültəsində:	1 nəfər
Cəmi:	*765 frank*
Mühəndislik İnstitutunda:	1 nəfər
Cəmi:	*765 frank*
Beləliklə, *bütün Parisdə*	*16 nəfər*

Lionda

Hüquq fakültəsində:	1 nəfər
Cəmi:	*765 frank*

Bezansonda

Tibb fakültəsində:	1 nəfər
Cəmi:	*765 frank*
Tuluzada	
Elektrotexnika fakültəsində:	2 nəfər
Cəmi:	*1.530 frank*

Nansidə

Elektrotexnika fakültəsində:	2 nəfər
Cəmi:	*1.530 frank*
Geologiya fakültəsində:	1 nəfər
Cəmi:	*765 frank*
Aqronomluq fakültəsində:	2 nəfər
Cəmi:	*1.530 frank*

Mülxuzda

Toxuculuq məktəbində:	1 nəfər
Cəmi:	*765 frank.*

Fransanın bütün ali məktəblərində təhsil 2-6 il arasında davam edir, imtahanlar hər il keçirilir. Hüquq fakültəsindəki bütün bu tələbələrdən ikisi – [Mustafa ağa] Vəkilov və [Məhəmmədrəşid] Bosnalızadə ikinci kursa keçib, qalanları birinci kursdadır.

Tibb fakültəsində oxuyan dörd tələbədən üçü ikinci kursdadır: iki Muradov[2] və [Zeynalabdin] Hüseynbəyov. Onlar təbiiyyat elmlərini əla oxuyurlar və ikinci kursa keçiblər. Tələbələrdən biri isə birinci kursdadır.

[1] Həsən bəy Zərdabinin oğlu.

[2] Abbas Muradov və Məhəmməd Muradov nəzərdə tutulur.

Beş elektrotexnikdən [İsgəndər] Rzayev artıq imtahanlarını verib və ikinci kursa keçib. Nansidəki aqronomluq fakültəsində oxuyan Əbdülhəmid Cavanşir ikinci kursa keçib. Mülxuzdakı toxuculuq məktəbində oxuyan [Əhməd] Şahnəzərov ikinci kursa keçib.

Siyasi[1] Elmlər Məktəbində ikisi – Miri Vəzirov və [Ağaəli] Yusifzadə ikinci kursa keçiblər və 1922-ci ilin sentyabrında qurtarırlar.

Fransada oxuyan 26 tələbədən ən yaxşı oxumuşlar və oxuyanlar bunlardır: Hüquq fakültəsində Vəkilov, Bosnalızadə, Siyasi Elmlər Məktəbində Miri Vəzirov Yusifzadə, tibb fakültəsindəki iki Muradov və Hüseynbəyov, aqronomluq fakültəsində Cavanşir Əbdülhəmid, elektrotexnikada Rzayev,[2] toxuculuq məktəbində Şahnəzərov. Fransadakı 26 tələbədən 10-u çox uğurla, 11-i kafi, 5-i isə zəif oxuyur. Nəzərə almaq lazımdır ki, onların hamısı, demək olar ki, bir ili fransız dili öyrənməyə sərf edib, indi onlar fransız dilini yaxşı bilir və umud var ki, hamısı təhsilini uğurla bitirəcək. Tələbələrin necə oxuduğunu özüm ali məktəblərdən aldığım sənədlər və anketlərim əsasında müəyyənləşdirmişəm.

İndi Fransada, özəlliklə Parisdə oxuyan azərbaycanlı tələbələrin həyatının maddi tərəfinə keçirəm. Parisdə müharibədən sonra həyat hər şeydə, demək olar ki, üç dəfə bahalaşıb. Əcnəbi tələbələrin çoxu kiçik otellərdə yaşayır, nahar və şam yeməklərini ucuz restoranlarda yeyirlər. Bir balaca otağın xərci ayda 150-200 frank arasındadır. Nahar və şamın hərəsi 3-5 frank edir, başqa xərclər də nisbətən artıb.

Məndə olan vəsaitdən hər bir Azərbaycan tələbəsinə 1 oktyabr 1921-ci ildən 1 may 1922-ci ilədək yaşayış üçün aylıq 600 frank və dərslik almaq üçün hərəsinə birdəfəlik 300 frank verdim. Ehtiyaclarını nəzərə alaraq yaşayış pullarını 1 oktyabr 1921-ci ildən hesablamaqla noyabr ayının ilk günlərində vermişəm. Noyabra qədər onlar köhnə hökumətin – [Sülh] Heyətinin verdiyi üzülüşmə pulu hesabına yaşayırdılar.[3] Bu 600 franka təhsil haqqı və dərs vəsaitinin xərcləri daxil deyil. Əlimdəki vəsait az olduğuna görə başqa cür edə bilmədim və düşündüm ki, qənaətlə yaşasalar 1 mayadək dolana bilərlər, axı pul onlara noyabrın ilk günlərində verilib. Tələbələr isə ayda 750 frank istəyirdilər.

Mən gördüm ki, tələbələr Parisdə tələbə həyatından düzgün baş çıxara bilməyiblər. Paris Universiteti tələbələrin, özəlliklə əcnəbilərin həyatını yaxşılaşdırmaq üçün onlara böyük kömək göstərən qurumlar yaradıb. Məsələn, nazirliyin dəstəklədiyi universitet restoranı 1) *rue "Pierre-Curue"* nahar və şamı tələbələrə ucuz qiymətə buraxır; 2) *"L'association General des Etudiants de Paris"* qurumunun da restoranı, kitabxanası və tələbələrə lazım olan başqa şeyləri vardır; 3) *"L'association des Etudiants en Medicuere rue Dante"* tələbələrə mümkün olan hər cür yardımı göstərir; 4) *"L'association amicale des Etudiants en Pharmaise …"*. Bütün bu təşkilatlar tələbələrin maddi durumunun yaxşılaşması üçün yardım göstərir, bizim tələbələr isə onların durumunu yaxşılaşdıra bilən bu təşkilatlara ya az diqqət yetiriblər, ya da yerli-dibli fikir verməyiblər. Onlar bahalıq haqqında hay-küy salınca diqqətlərini buna yönəltməli idilər. Buna baxmayaraq, artmaqda olan bahalığa görə məruzəmin sonunda tələbələrin həyatı haqqında tam yeni smetanı təqdim edirəm. Azərbaycanlı tələbələrə, məncə, bu məbləğdən artıq vermək lazım deyil.

[1] Sənəddə rusca yanlış olaraq "siyasi" ("politiçeskix") əvəzinə "politexnik" ("politexniçeskix") yazılıb.

[2] Söhbət İsgəndər Rzazadədən gedir.

[3] Deməli, avropalı tələbələr hələ 1921-ci ilin noyabrınadək Sülh Heyətinin vəsaitindən yararlanıblar.

Bunu da deyə bilərəm ki, 26 tələbədən 10-u bahalığa və keçmiş Heyət tərəfindən təzyiqə baxmayaraq əla oxuyub və belə qısa bir vaxtda fransız dilini yaxşı mənimsəyərək universitetin birinci kursuna girib və imtahan verərək 2-ci kursa keçiblər. Bu, sübut edir ki, özəlliklə Parisdə və Berlində vəsaitə qənaət etməklə nisbətən çox pul xərclədiyi vaxtdan daha yaxşı oxumaq olar. Bu məruzənin sonunda bir Paris jurnalından götürdüyüm Paris tələbəsinin büdcəsi haqqında materialı əlavə edirəm.

Parisdə tələbələrlə iclasların birində özümü pis hiss edərək iclası yarımçıq qoydum və mehmanxanadakı otağıma getdim. Burada 3 gündən sonra professorlar mənim sol ciyərimdə kəskin sətəlcəm aşkarladılar və məni müalicə üçün özəl klinikaya yolladılar. Orada müalicəm bir ay çəkdi və professorların qayğı ilə müalicəsi sayəsində sağaldım. Xəstəxanadan çıxdıqdan bir neçə gün sonra yenidən tələbələrin işləri ilə məşğul olmağa başladım. Bizim tələbələrimizlə son yığıncağımız Berlinə getməzdən qabaq 14 dekabr 1921-ci ildə oldu.

Berlinə getmək üçün Parisdən 16 dekabrda çıxdım. Berlinə 17 dekabr 1921-ci ildə çatdım. Berlində də işim Parisdəki plan üzrə oldu. Gələn kimi azərbaycanlı tələbələrimizi topladım, gəlişimin məqsədini bildirdim. Oxuduqları məktəblərdən necə oxumaları haqqında məlumat gətirmələrini, anketlərimə cavab vermələrini xahiş etdim və verilən məlumatları yoxladım.

Almaniyada 49 azərbaycanlı təqaüdçü tələbə oxuyur. Onlar məktəblər üzrə belə bölüşüb:

Berlində	– 24 tələbə
Darmştadtda	– 5 tələbə
Frayberqdə	– 8 tələbə
Karlsruedə	– 2 tələbə
Münxendə	– 4 tələbə
Qottingendə	– 3 tələbə
Hannoverdə	– 1 tələbə
Drezdendə	– 1 tələbə
Leypsiqdə	– 1 tələbə.
Dağ mühəndisləri	– 10 nəfər
Yol mühəndisləri	– 5 nəfər
Elektrotexniklər	– 8 nəfər
Memarlar	– 4 nəfər
Kənd təsərrüfatı üzrə	– 5 nəfər
Kimya	– 2 nəfər
Ticarət	– 2 nəfər
Gəmiqayırma	– 2 nəfər
Kağız işi	– 1 nəfər
Keramika	– 1 nəfər
Hüquq	– 1 nəfər
Təbabət	– 8 nəfər.

Almaniyanın ali məktəblərində tədris 3-5 il arası davam edir. Demək olar ki, məktəblərin hamısında imtahanlar bütün tədris müddəti boyunca, yəni hər 4 semestrdən

bir keçirilir. Tələbələrimizin hamısı 3 semestri keçib, 2-ci kurs tələbələridir. Bu dərs ilinin sonunda 2 semestri keçmiş, yəni I kursda olan 4, yaxud 5 nəfərdən başqa, yerdə qalanlar imtahan verəcəklər. Ümumən 2-3 nəfərdən başqa, onların hamısı yaxşı oxuyur. Bütün mütəxəssislər təcrübədən də zaçot verməlidir. Gələn yayda tələbələrimizin necə oxuduğu lap dəqiq bilinəcək, çünki bu vaxt onlar yarım kursun imtahanlarını verəcəklər. Tələbələrimiz alman dilini yetərincə yaxşı öyrəniblər.

İndi Almaniyadakı tələbələrimizin maddi durumuna keçirəm. Almaniyada, özəlliklə Berlində tələbələrin həyatı markanın dəyərinin kəskin düşməsi nəticəsində bahalaşıb. Buna baxmayaraq, Berlində həyat Parisdə olduğundan 2 dəfə ucuzdur. Tələbələrimizin həyatı ilə tanış olaraq onlardan maddi durumları haqqında mənə məlumat vermələrini xahiş etdim. Onlar mənə ayda 5.600 markalıq smeta təqdim etdilər. Təkcə geyimə ildə 25-30 min marka istəyirlər. Bu smeta mənə həddən çox göründü və 1921-ci ilin 1 oktaybrından 1922-ci ilin 1 mayına qədər hesablamaqla məndə olan pullardan onların hərəsinə dolanışıq üçün ayda 3 min marka verdim. Güman edirəm ki, qənaətlə dolansalar bu pul onlara 1 may 1922-ci ilə qədər çatar. Onlara dərsliklər üçün birdəfəlik 1.668 marka da verdim. Mənim qərarımla tələbələr heç cür razılaşmadılar və hətta təklifimi qəbul etməkdən kobudcasına yazılı şəkildə imtina etdilər, dedilər ki, bu məbləğ bizə 1 fevral 1922-ci ilədək güclə yetər. Bu zaman onlara bildirdim ki, yaşayış həqiqətən özəlliklə Berlində bahalaşıb. Mən də başa düşürəm ki, sizin çatışmayan şeylərinizin çoxdur, ancaq haqlı tələblərinizi mən təcili şəkildə hökumət vasitəsilə yerinə yetirməyə çalışacağam. Onlar məndən 1.067.094 marka pul aldılar və tələbə Səfərov[1] üçün 22.168 marka verdim, 24.500 marka da ikinci dəfə İstanbuldan göndərdim. Beləliklə, bizim Almaniyadakı təqaüdçülərə 1.113.762 marka verilib və fikrimcə, qənaətlə dolansalar bu pul onlara 1 may 1922-ci ilə qədər bəs edər. Onlara dedim ki, bəzi çatışmayan şeylərinizi təcili şəkildə düzəltmək olar.

Mən 29 dekabra qədər onlara pul vermişəm. 1921-ci ilin oktyabrında hərəsinə 1.000 marka, noyabrında 4.000 marka, dekabrında 2.000 marka göndərmişdim. Bu vaxta qədər onların hərəsi Sülh Heyətindən 9.000 marka üzülüşmə pulu alıb. Buna görə də 29 dekabr 1921-ci ilədək ehtiyacları yox idi. 29 dekabr 1921-ci ildə mən onların hərəsinə 15.668 (22.668 – 7000) marka vermişəm. Deməli, 1 yanvar 1922-ci ildən 1 may 1922-ci ilədək ayda, demək olar ki, 4.000 markadan 4 ay üçün 15.668 marka qalır. Düşünürəm ki, qənaət etsələr dediyim vaxta qədər dolana bilərlər, çünki qış semestri üçün təhsil haqqını ödəyiblər.

Bütün bunlar haqqında məlumat verərək deyirəm ki, Almaniyadakı tələbələrin həyatı markanın kəskin dəyərsizləşməsi nəticəsində güclü şəkildə bahalaşıb. Buna görə də onlara mümkün qədər tez pul göndərmək lazımdır ki, onlar bu pulu məşğələləri buraxmadan vaxtında ala bilsinlər. Onların yalnız haqlı tələblərini yerinə yetirmək olar, ancaq onların Parisin və Berlinin küçələrində istədikləri qədər xərcləmək üçün hər şeyi vermək olmaz.

Məruzənin sonunda Almaniyada oxuyan tələbələrimizin dolanışığı, təhsil haqqı və dərs vəsaiti xərclərinin smetasını əlavə edirəm. Bundan çoxunu onlara verməyi artıq sayıram.

[1] Bizcə, Bəhram bəy "100 tələbə"dən biri olan Məhiş Səfərovu deyil, yeni gələn Şamil Səfərovu nəzərdə tutur.

İtaliyada

Perucada 3 təqaüdçü azərbaycanlı tələbə oxuyur. Onlar məktəblər üzrə bu qayda-da bölünür:

Aqronomluq İnstitutunda – 2

Bədaye Akademiyasında – 1

Onların hamısı yaxşı oxuyur və imtahanlarını verərək II kursa keçib.

İtaliyada ali məktəblərdə təhsil müddəti 3-5 il arasındadır. Bədaye Akademiyasında təhsil nisbətən baha başa gəlir, çünki modellər üçün ayrıca pul verilməlidir. Burada həyat İstanbulda olduğu kimidir. Hər tələbəyə aylıq 800 İtaliya lirəsi verdim. Heykəltəraş [Zeynal] Əliyevə isə 1.300 lirə verdim. İki tələbəyə isə 800 lirə birdəfəlik yardım etdim. Məruzənin sonunda İtaliyadakı azərbaycanlı tələbələr üçün də smetanı təqdim edirəm.

Qərbi Avropada oxuyan azərbaycanlı tələbələrin
1 aylıq dolanışıq xərclərinin
SMETASI

1. İstanbulda

Dolanışıq və geyim:	ayda 65 Türkiyə kağız lirəsi
Təhsil haqqı və dərs vəsaiti:	ayda 10 Türkiyə kağız lirəsi
Cəmi:	*ayda 75 Türkiyə kağız lirəsi*

2. İtaliyada

Dolanışıq və geyim:	ayda 800 İtaliya lirəsi
Təhsil haqqı və dərs vəsaiti:	ayda 200 İtaliya lirəsi
Cəmi:	*ayda 1.000 İtaliya lirəsi (təqribən 80 Türkiyə kağız lirəsi)*

3. Fransada

Otaq:	175 frank
Yemək:	270 frank
Paltar yudurtma:	20 frank
Hamam və dəllək:	25 frank
Şəhərdə hərəkət:	30 frank
Cibxərcliyi və gözlənilməz xərclər:	60 frank
Geyim:	70 frank
Cəmi:	*ayda 650 frank*
Adambaşına orta hesabla və təhsil vəsaiti üçün	115 frank
CƏMİ:	ayda 765 frank (təqribən 110 Türkiyə lirəsi)

4. Almaniyada

Otaq:	500 marka
Yemək:	1.800 marka
Paltar yudurtma:	180 marka
Hamam və dəllək:	150 marka
Şəhərdə hərəkət:	210 marka
Cibxərcliyi və gözlənilməz xərclər:	660 marka
Geyim:	700 marka
Cəmi:	*ayda 4.200 marka*
Adambaşına orta hesabla və təhsil vəsaiti üçün	1.400 marka
Cəmi:	*ayda 5.600 marka (təqribən 60 Türkiyə kağız lirəsi)*

Bütün bu smetalar Türkiyə kağız lirəsi ilə göstərilib, çünki o daha sabitdir və Azərbaycan üçün malların satışı daha asandır. Bundan başqa, tələbələri vəsaitlə daha asan təmin etmək üçün İstanbul ən yaxın məntəqədir. Bu smeta pulun məzənnəsinin dəyişməsinə bağlıdır, ancaq buna baxmayaraq, düşünürəm ki, o, bütöv bir il üçün münasibdir.

İLLİK SMETA

Türkiyədə:	*3 tələbə*
Dolanışıq:	ayda 65 Türkiyə kağız lirəsi
Təhsil haqqı və dərs vəsaiti üçün:	10 Türkiyə kağız lirəsi
Ayda bir tələbəyə:	75 Türkiyə kağız lirəsi
İllik bir tələbəyə:	900 Türkiyə kağız lirəsi
İtaliyada:	*3 tələbə*
Dolanışıq:	800 İtaliya lirəsi
Təhsil haqqı və dərs vəsaiti üçün:	200 İtaliya lirəsi
İldə 1 tələbəyə:	960 Türkiyə kağız lirəsi
Ayda 1 tələbəyə:	80 Türkiyə kağız lirəsi
Fransada:	*26 tələbə*
Dolanışıq və geyim:	650 frank
Təhsil haqqı və dərs vəsaiti üçün:	115 frank
Ayda 1 tələbəyə:	110 Türkiyə kağız lirəsi (765 frank)
İldə 1 tələbəyə:	1.320 Türkiyə kağız lirəsi
Almaniyada:	*49 tələbə*
Dolanışıq və geyim:	4200 marka
Təhsil haqqı və dərs vəsaiti üçün:	1.400 marka
Ayda 1 tələbəyə:	60 Türkiyə kağız lirəsi (5.600 marka)
İldə 1 tələbəyə:	720 Türkiyə kağız lirəsi.

Təhsil və dərs vəsaiti üçün pul məktəbin ödənişinə uyğun olaraq ayrıca verilməli, bu zaman nəzərə alınmalıdır ki, hər məktəbin öz ödənişi və dərslikləri var.

Qərbi Avropada oxuyan 81 tələbə üçün
1 AYLIQ VƏ 1 İLLİK SMETA

Fransada	26 tələbə	110 Türkiyə kağız lirəsi	2.860 Türkiyə kağız lirəsi
Almaniyada	49 tələbə	69 Türkiyə kağız lirəsi	2.940 Türkiyə kağız lirəsi
Türkiyədə	3 tələbə	75 Türkiyə kağız lirəsi	225 Türkiyə kağız lirəsi
İtaliyada	3 tələbə	80 Türkiyə kağız lirəsi	240 Türkiyə kağız lirəsi
Ayda:			6.265 Türkiyə kağız lirəsi
İldə:			75.180 Türkiyə kağız lirəsi

Məruzəmi bitirərək düşünürəm ki, Qərbi Avropada oxuyan azərbaycanlı təqaüdçü tələbələrlə AİŞC hökuməti arasında daimi əlaqə üçün təqaüdçü tələbələr üzərində *müfəttişlik* yaratmaq lazımdır. Bu müfəttişlik tələbələrin həyat şəraitinə yaxından bələd olar, hökumətlə tələbələr arasında tələbələrin məşğələlərə davamiyyəti və onların həyatı ilə bağlı bir çox məsələlərin həlli haqqında hökumətin bilgiləndirilməsində araçı ola bilər.


Tələbələrin həyatının yaxşılaşdırılması və məşğələlərinin uğurlu olması üçün onların tabe olacağı şəraiti yaratmaqdan ötrü geniş müfəttişliyin geniş səlahiyyətləri olmalıdır.

Hökumət müfəttişliyin Qərbi Avropada oxuyan tələbələrlə bağlı zəruri məsələlərin həyata keçirilməsi üçün istinad edəcəyi şərtləri və göstərişləri işləyib hazırlamalıdır.

Qərbi Avropada oxuyan tələbələrin işləri üzrə müvəkkil d-r B.Axundov
2.3.1922-ci il.

Bakı, Azərbaycan.[1]

71-ci bəlgə
(iyun 1922)



Xalq Komissarları Şurasına
Xalq Komissarları Şurasının sədrinə
1-ci pilləli 6-cı sovet
məktəbinin müəlliməsi
Hənifə xanım Məlikovadan

ƏRİZƏ

Mənim oğlumu – Sovet hökumətinin Qərbi Avropaya təhsilini bitirmək üçün göndərdiyi Səfvət Məlikovu xaricdə oxuyan tələbələrin durumunu araşdıran komissiya təqaüddən məhrum edib. Komissiya surətini bu məktuba əlavə etdiyim sənədə əsasən qərara gəlib ki, o, *imkanlıdır* və Topçubaşovun qaynıdır. Sovet hökumətinə dərin hörmət bəsləyərək və Sovet hökumətində kimsənin bu cür qanunsuz qərarlar çıxara biləcəyi fikrini yaxına buraxmayaraq dərindən inanıram ki, komissiyaya bütünlüklə yanlış məlumat verilib

[1] ARDA, fond 410, siyahı 1, iş 342, vv. 3-7; 8-13.

və o, səhv buraxıb. Buna görə də xahiş edirəm ki, Həsən bəy Məlikovun oğlu Səfvət MƏLİKOVUN təqaüdü haqqında məsələyə hüquqi və mənəvi əsaslar üzrə yenidən baxılsın və qərar verilsin – ya ona təqaüd verilməsi davam etdirilsin, ya da o, dövlət hesabına Vətənə qaytarılsın.

H.x.Məlikova.
"__"iyun 1922-ci il[1]

72-ci bəlgə
(22 iyun 1922)

[Xalq Maarif Komissarlığı]
22/VI-[19]22-ci il.
№ 4854.

Azərbaycan İŞC-nin RSFSR-dəki səlahiyyətli nümayəndəliyinə
Yol. Şirvanskiyə[2]

Sizin 8643 saylı məktubunuza cavab olaraq bildirilir ki, öz kollegiyasının qərarına əsasən Azərbaycan İŞC Xalq Maarif Komissarlığı Rusiyanın müxtəlif ali məktəblərinə, o sıradan Moskva Universitetinə öz təhsillərini davam etdirmək və başa çatdırmaq üçün tələbələr göndərib. Həm də onların, demək olar ki, hamısı pulsuz gedişdən yararlanıb və özlərinin təyinat yerinədək müəyyənləşmiş normada ərzaqla təmin edilib. Ancaq bu zaman Azərbaycan İŞC Xalq Maarif Komissarlığı Bakının özündə ali məktəblər olduğuna görə belə qərara alıb ki, öz arzusuyla Moskvaya göndərilənlər öz hesablarına yaşamalı və oxumalıdırlar.

Tələbələrin təmin edilməsini Xalq Maarif Komissarlığı öz üzərinə yalnız o halda götürə bilərdi ki, onun uyğun vəsaiti olaydı, respublikadakı ali instansiya – Xalq Komissarları Şurası tələbələrin sosial təminatı haqqında dekret qəbul edib təsdiqləyəydi və beləliklə, Xalq Maarif Komissarlığına xüsusi fond buraxılaydı ki, ondan tələbələrə sistemli şəkildə vəsait veriləydi. [...]

Yuxarıda xatırladıldığı kimi, tələbələrin sosial təminatı haqqında dekret qəbul olunmayıb. Ancaq buna baxmayaraq, Azərbaycan İŞC Xalq Maarif Komissarlığının RSFSR-in müxtəlif ali məktəblərində yuxarı kurslarda oxuyan, təhsilini başa vurmaqda olan yerli kökənli azərbaycanlı tələbələrdən ibarət 10 təqaüdçüsü var. Onlardan 5 nəfər: Atayev Əlirza, İsmayılzadə İbrahim, Xəlilov Musa, Axundova Xeyransa və Həbibov İlyas Moskvadadırlar. Xalq Komissarları Şurasının icazəsi ilə onların hər birinə ayda qızıl pulla 20 manat həcmində yardım müəyyənləşdirilib. Onlara Xalq Maarif Komissarlığının hesabına ödəniş edilməsi xahişi haqqında 30/III tarixli 3595 saylı məktub Sizə göndərilib. Tələbələrdən biri – Əliyev Şövkət Kiyevdədir və Xalq Komissarlar Şurasının 16/V tarixli 18 saylı xüsusi qərarıyla qızıl pulla 10 manat həcmində yardım alır; ona [19]22-ci ilin 16 mayından 16 noyabrınadək olan müddət üçün əsginasla 120 milyon manat ödənilib. Dörd tələbə isə:

[1] ARDA, fond 57, siyahı 1, iş 23 (3), vərəq 143. Məktubu Q.Musabəyov 26 iyun 1922-ci ildə Xalq Maarif Nəzarətinə qərar çıxarmaq üçün göndərib.

[2] Bu sənədin 149-cu vərəqində onun adı rusca «А.Г.Ширвани» ("A.Q.Şirvani") kimi qeyd olunub. Moskva Kommersiya İnstitutunu bitirmiş (1916) Şirvani/Şirvanski (Mustafabəyov) Əliheydər İbad oğlu (1894-?) 1922-ci ilin iyunundan Azərbaycanın RSFSR-də səlahiyyətli nümayəndəsi işləyirdi.

Məhəmmədov Ağababa, Babayev Həbib, Hüseynqulu Səlimov və Yüzbaşınski İsmayıl Xarkovda – XarkovTexnologiya İnstitutundadır. Onlara da Xalq Komissarları Şurasının həmin qərarına əsasən hər birinə ayda qızıl pulla 10 manat həcmində yardım ödənilir; [19]22-ci ilin 16 mayından 16 noyabrınadək onlara 480 milyon ödənilib.

Qeyd etmək lazımdır ki, adı çəkilən bütün tələbələrdən onların ali təhsili bitirdikdən sonra Azərbaycan İŞC-də işləməsi və onun sərəncamında olması haqqında dilkağızı alınıb.


Xalq maarif komissarının müavini *Şahbazi*.[1]

73-cü bəlgə

(21 iyul 1922)

[Bəhram bəy Axundovun Ceyhun bəy Hacıbəyliyə məktubu]

21 iyul 1922.[2]
Hotel Rchadie, Constantinople (Sirkedji).



Əziz Ceyhun!

Artıq bir aydır ki, uşaqlarla İstanbuldayam. Umudvaram ki, sən, ailən və uşaqların sağ-salamatsınız. Qardaşlarının və qohumlarının hamısı, eləcə də Zorya xanımın[3] anası sapsağlamdırlar və yaxşı yaşayırlar. Buna görə də onlar haqqında düşünməyinə və fikir etməyinə dəyməz. Allaha şükür, onların gözümüzün üstə yeri var, çünki onlar həmişə olduğu kimi ləyaqətli insanlardır və xalqa lazımdırlar. Mən onları, xüsusilə Zülfüqarı hər gün görmüşəm. Onlar yalnız sizin sağlığınızı düşünürlər. Üzeyir çox işləyir, ona görə onu buraxmırlar. [Bakıdan] qəflətən çıxdığıma görə onlardan məktub ala bilmədim; düşünürəm ki, mənim sözlərim sənə yetərlidir. Yenə təkrar edirəm ki, sənin bütün milyarderlərin milyonerlərlə zarafat etmirlər. Görürsənmi belə qısa vaxtda necə milyarder olmaq olar?

Əziz Ceyhun, Zülfüqar məni çox sevir və o, bütün teatr incəsənətinin (özəlliklə hərbçilər üçün) baş rəhbəridir. Məni tez-tez kiçik naharlara dəvət edib. Səni və sənin ailəni o sağaldıb.

Bu günlərdə mən Fransa konsuluna viza üçün müraciət edəcəyəm. Gələndə Parisə də baxarıq. Əmin ol ki, mənim Parisdən gəlməyimdən sonra heç kəsə, hətta qohumlarıma da bir kəlmə də yazmamışam. 4-5 gün bundan qabaq Səfvətə[1] cavab yazmışam və ikinci məktubu sənə yazıram.

Tələbələrə gəlincə, Bakıda onlar üçün 2 aydan artıq işləmişəm. Öz əllərimlə komissiyada 200 karata yaxın brilyant hazırlamışam. Moskvadan 2 tələbə ilə göndərmişəm. Onların necə satdığını bilmirəm; bu haqda Nərimanov Qaraxan[2] vasitəsilə Berlin nümayəndəliyinə məktub yazıb ki, tələbələr qarpış-qarpış[3] etməsinlər. Nərimanovun yoxluğu[4] tələbələrlə bağlı hər şeyi dəyişdi. Bundan sonra nə olacaq – Allah bilir. Mən onları unutmuram və unutmayacağam. Bakıya döndüyümdə yenə onlar üçün işləyəcəyəm. Onlar bizə lazımdır. Təki oxusunlar. Teymurun[5] işlərinin necə olduğunu bilmirəm. Valideynləri məktubunu alıb. İstanbuldan mənimlə göndərilib. Son vaxtlar bir qədər özümdə deyiləm, ona görə də heç kəsə yazmıram. Qoy o,[6] öz işləri, məşğələləri və tələbələrin pullarını necə alması haqqında yazsın.

Mən gəldiyimdə hər şey haqqında danışarıq.

Çox hörmətli Zorya xanıma salam! Uşaqlarını və səni öpürəm.

Sənin həkim *Bəhram Axundovun*.[7]

[1] ARDA, fond 57, siyahı 1, iş 237, vərəq 148.

[2] Bu sözlər fransızca yazılıb.

[3] Ceyhun bəyin həyat yoldaşı Zöhrə xanımı dost-tanışları bəzən belə çağırırdılar.

74-cü bəlgə

(16 aprel 1923)

Azərbaycan Xalq Maarif Komissarlığının Müvəkkili
Mühəndis Əliyev (İ.Əlizadə)
Berlin, 16 aprel 1923-cü il

Xalq Maarif Komissarlığına
Yol. [Mustafa] Quluyevə

Bakı.

MƏRUZƏ

Berlinə çatdığım zaman tələbələrimizin durumu həddsiz ağır olduğuna görə Zaqafqaziya Xarici Ticarət İdarəsinin Berlin nümayəndəsinə bu xahişlə müraciət etdim ki, ehtiyacı olan tələbələr arasında bölüşdürməkdən ötrü şəxsi məsuliyyətim altında mənə 50 funt sterlinq versin. Mənə olan şəxsi inama görə Zaqafqaziya Xarici Ticarət İdarəsinin Berlin Nümayəndəliyi xahişimi yerinə yetirdi və mənə 50 funt sterlinq verdi. Bunun bir hissəsi tələbələrin Almaniya qrupuna avans şəklində verildi, qalan hissəsi Fransada və İtaliyada oxuyan tələbələr arasında bölüşdürmək üçün Parisə köçürüldü. Eyni şeyi mən Bakıdan Berlinə gedərkən İstanbuldan keçdiyim zaman orada da etmişdim – 3 tələbəmizin maddi durumu ağır olduğuna görə Zaqafqaziya Xarici Ticarət İdarəsi nümayəndəsi

[1] Həsən bəy Zərdabinin oğlu Səfvət bəy Məlikov nəzərdə tutulur.

[2] L.M.Qaraxan (Qaraxanyan) Rusiya (sonra SSRİ) xarici işlər komissarının müavini idi.


[3] Bu sözlər rusca məktubda ərəb qrafikasında türkcə yazılıb.

[4] 12 mart 1922-ci ildə Zaqafqaziya Federasiyası yarandıqdan sonra Nərimanovun Tiflisə getməsi nəzərdə tutulur.

[5] Tələbə Teymur Aslanov nəzərdə tutulur.

[6] Teymur Aslanov.

[7] Bəhram bəy Axundovun Ceyhun bəy Hacıbəyliyə məktubu (rusca). – S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 3, iş 11, vv. 1-3a.



yoldaş Andreyevdən 200 kağız Türkiyə lirəsi alaraq tələbələr arasında bölüşdürmüşdüm.

M[əhəmmədhəsən] Hacınskinin özünün xaricdəki nümayəndələrinə kürünün satılmasına qədər tələbələrə avansın verilməsi haqqında sərəncamlara (tələbə nümayəndələrinin gətirdiyi məktublar) gəlincə, onlar çox böyük gecikmə ilə gəlib çatıb.

Zaqafqaziya Xarici Ticarət İdarəsi teleqrafla, yaxud poçtla sərəncam vermək əvəzinə, tələbə nümayəndələrinə köçürmə verib. Onlar isə zəruri vizalar almaq və başqa formalıqları yerinə yetirməkdən ötrü Moskvada iki aya yaxın ləngiyiblər. Bakıdan bir xəbər çıxmadığına və tələbələr acınacaqlı duruma düşdüyünə görə mən Sizə və Hacınskiyə avansın sürətləndirilməsi haqqında teleqraf göndərməyə məcbur oldum, çünki kürünün İstanbulda tezliklə satılacağına heç bir umudum qalmamışdı, ona görə ki, həmin maldan oraya böyük həcmdə gətirilmişdi. Bir müddətdən sonra Hacınskidən cavab kimi 6 min qızıl manat həcmində avans verilməsi haqqında sərəncam aldım. Bu məbləğ tələbələrin Almaniya qrupu arasında bölüşdürüldü, onlardan hər biri 3 aylığına təmin olundu. Tələbə nümayəndələrin Berlinə gəlməsindən sonra Zaqafqaziya Xarici Ticarət İdarəsi Berlin nümayəndəliyi qızıl pulla 5 min manat da tələbələrin Fransa qrupu üçün verdi; həmin məbləği Bakıdan alınmış pullarla birgə Parisə 2 "parisli" tələbə aparıb. Fransa qrupu nümayəndələrinin əlində Hacınskidən Skobelevə 4.950 qızıl manatın verilməsi haqqında məktubu vardı, ancaq Skobelev nağd pul olmadığına görə köçürməni ödəməkdən imtina etdi və Zaqafqaziya Xarici Ticarət İdarəsi Berlin Nümayəndəliyinə müraciət etdi. Berlin nümayəndəliyi Hacınskidən soruşduqdan və müsbət cavab aldıqdan sonra yalnız bugünlərdə həmin məbləği Parisə köçürüb. Yerdə qalan 8 min manat (tələbələrin 1 yanvar [19]23-cü ilədək olan 2-ci üçaylıq təminatı) İstanbuldan köçürülüb, ancaq indiyədək alınmayıb. Bu məbləğ Hacınskinin sərəncamına əsasən Almaniya və Fransa tələbələri arasında bölüşdürülməlidir. Məhəmmədhəsən niyəsə bu məbləğin bölgüsündən İstanbul və İtaliya tələbələrini çıxarıb. Xahiş edirəm teleqrafla bu məsələni aydınlaşdırasınız.

Azərbaycan Xalq Maarif Komissarlığı incəsənət bölməsi üçün simlər Xarici Ticarət İdarəsi Berlin Nümayəndəliyi vasitəsilə incəsənət bölməsinin göstərdiyi fabrikə sifariş verilib, ancaq bəzi zəruri formalıqlar üzündən sifariş edilmiş malın göndərilməsi bir qədər ləngiyir. İttifaq respublikalarına hər hansı bir malın göndərilməsinə təkcə icazənin alınması üçün çoxlu instansiyalardan keçmək gərəkdir. Özüm istəməsəm də bu əməliyyatı RSFSR Xarici Ticarət İdarəsi vasitəsiylə aparmağa məcburam, çünki İttifaq respublikalarına malın daşınması Xarici Ticarət İdarəsindən yan keçməklə mümkün deyil. Xarici Ticarət İdarəsinə pulların ödənilməsi haqqında qəbzlər buraya əlavə edilir. [...]

Azərbaycan Xalq Maarif Komissarlığı ali məktəblərinə avadanlıq alınmaq üçün Moskvanın verdiyi 10 min qızıl manata gəlincə, məruzə etməliyəm ki, lazımi addımları atmışam və əminəm ki, zəruri olan şeyləri 10 min manatlıq olmasa da ən azından 8-9 min manatlıq almağı və Bakıya göndərməyi bacaracağam, çünki ilkin ödənilmiş məbləğ çərçivəsində Moskva bir sıra yeni materialların alınmasına sərəncam verib, respublikalardan hər birinin payının azaldılması da bununla izah olunur.

Cəvahiratın satılması haqqında maliyyə hesabatına gəlincə, müəyyənləşdirə bilmişəm ki, bu satış tam düzgün şəkildə aparılıb, tələbələrin Azərbaycan Xalq Maarif Komissarlığına təqdim etdiyi hesabat şəksiz doğrudur və cəvahiratın satışından əldə edilmiş məbləğ yalnız onların hesabatında göstərilən müddətdə tələbələri təmin edə bilər.

Bunu da qeyd etməyi zəruri sayıram ki, Azərbaycan Xalq Maarif Komissarlığının təklifi ilə köçürülmüş məbləğ tələbələri bu ilin 1 yanvarınadək təmin etməli olduğu halda, indi biz aprelin ortasına yaxınlaşırıq və göndərilmiş məbləğin təxminən yarısı hələ də alınmayıb.

Almaniyada sənaye yüksək inkişaf etdiyinə, valyutası isə ucuz olduğuna görə həm türkcə, həm də rus dilində kitabların həcmli əlavələrlə nəşrini təşkil etmək mümkün olar. Kitabların korrekturası burada tamamilə mümkündür – türk və rus dillərinin biliciləri var. Xarici Ticarət İdarəsinin Berlin Nümayəndəliyində ayrıca çap bölməsinin olduğunu və Rusiyanın Almaniyada geniş ölçülərdə kitablar sifariş verdiyini nəzərə almağınızı xahiş edərdim.

Tələbələrin təminatı işi qaydasına düşərsə burada Türk dili kursu təşkil etmək mümkündür. Tələbələrin özləri bu fikri alqışlayır və ana dillərini ciddi-cəhdlə öyrənməyə hazır olduqlarını bildirirlər ki, Vətənə döndükləri vaxt öz xalqlarının mənafeyinə qulluqda daha çox fayda versinlər.

Hacınskinin İtaliya qrupuna üçaylıq təminat şəklində pulların verilməsi haqqında məktubu Zaqafqaziya Xarici Ticarət İdarəsinin Roma Nümayəndəliyinə göndərilib. Düşünürəm ki, İtaliya qrupu artıq öz pulunu alıb. İstanbul tələbələrinin hansı durumda olduğu, onların pulu kimdən alacaqları haqqında məni bilgiləndirməyinizi xahiş edirəm. Bununla yanaşı, tələbələrin sonrakı təminatının hansı durumda olması haqqında da mənə məlumat verməyinizi xahiş edirəm, çünki mən tələbələrin sualları altında itib-batıram. Paris qrupu isə onların vəziyyəti ilə yerində tanış olmaqdan ötrü Parisə getməyimi təklif edir.

İstanbuldan 8 min qızıl manatı aldıqdan və həmin məbləği tələbələr arasında bölüşdürdükdən sonra Azərbaycan Xalq Maarif Komissarlığına geniş maliyyə hesabatı təqdim edəcəyəm.

Xatırlatmağa borcluyam ki, tələbələr Azərbaycan Xalq Maarif Komissarlığının onları neçə müddət təmin edəcəyini bilmədiklərinə görə qeyri-müəyyənlik şəraitində onların elmlə sakit və sistemli şəkildə məşğul olması həddsiz çətindir. Bu üzdən də tələbələrimizin elmi işlərinin uğuru və məhsuldarlığı baxımından onların məşğələlərə

davam etdiyi müddətcə maddi baxımdan təmin olunmaları zəruridir. Bununla biz onları bir neçə aydan bir pul yollamaq xahişi ilə Vətənə nümayəndələr göndərmək zərurətindən azad edər, beləliklə, pullarının qurtarması ilə yeni ödənişin edilməsi arasında yarıac qalmaqdan xilas edər və onlara öz elmi işlərini sakitcə və uğurla davam etdirmək imkanı verərik.

Berlinə gəldikdən və tələbələrimizin dərs məşğələləri göstəriciləri ilə tanışlıqdan sonra bu qəti nəticəyə gəlirəm ki, pulları vaxtlı-vaxtında göndərilərsə tələbələrimizin yarıdan çoxu 1,5-2 ildən sonra elmlərin kursunu bitirərək vətənə dönə bilər. Bütün bunları nəzərə alaraq Avropadakı tələbələrin xərclik pullarını Azərbaycan Cümhuriyyətinin gəlirlər və çıxarlar smetasına daxil etməyinizi israrla xahiş edirəm. Bu, tələbələrin mənəvi sakitliyi və onların işinin məhsuldarlığı və sistemliliyi baxımından zəruridir. Mən bununla yanaşı, məktəblərdən tələbələrimizin harada oxumasını, onların tələbə işlərinin uğurunu soruşur, bu suallara cavab verməyi təklif edirəm: tələbə ali məktəbə haçan girib, tədris planı üzrə neçə imtahan verməlidir, neçə fənni verib, tədris proqramı üzrə zəruri imtahanları verməməsinin səbəbləri.

Öncədən güman etdiyim və gördüyüm kimi, tələbələr üzərində nəzarətin qoyulması faydalı olmaya bilməzdi. Təqaüd alınmasının onların üzərinə ciddi öhdəliklər qoyduğunu, Azərbaycan Xalq Maarif Komissarlığının həmin tələbələrdən elmi işlərdə səylə çalışıb uğur qazanması, dərs oxumağı daha da gücləndirmək haqqında israrlı tələbləri ilə xəbərdar etdiyimdən sonra tələbələrin hər biri mümkün qədər çox zaçot verməyə çalışır. Onların uğurları haqqında hesabatı indiki semestrin sonunda təqdim edəcəyəm.

Yoldaşlıq salamı ilə *İbadulla Alizadeh.*
Ünvan: Augshurger st. 62, Alizadeh, Berlin.[1]

75-ci bəlgə
(29 may 1923)

Parisdəki Azərbaycanlı Tələbələr Cəmiyyəti[2]
29 may 1923
№ 183


Xalq Maarif Komissarlığına

Vəsaitlərin vaxtlı-vaxtında göndərilməsini Hökumət özü təmin edəcəyinə görə bizim Bakıya vəsaitdən ötrü bir daha nümayəndə göndərməməyimiz haqqında vət[əndaş] Tədris Müəssisələri müdirinin nümayəndələrimiz vasitəsilə bizə çatdırdığı tapşırığa baxmayaraq, biz getdikcə daha da fənalaşan məsələmizin köklü həll edilməsindən ötrü bu dəfə də nümayəndə göndərməyə məcbur olduq.

Sizin göndərdiyiniz, bizi keçən ilin 1 iyulundan bu ilin 1 yanvarınadək 6 ay müddətinə təmin etməli olan vəsait bizə mart ayında yalnız üçaylıq təminat şəklində yetişdi, yerdə qalan üçaylıq təminatı isə bugünədək gözləməkdəyik. Ancaq mayın ortasında Zaqafqaziya Xarici Ticarət İdarəsindən, vət. [Məhəmmədhəsən] Hacınskidən teleqram gəldiyini öyrəndik; o bildirirdi ki, biz Xarici Ticarət İdarəsindən bundan sonra daha heç nə almayacağıq.

[1] ARDA, fond 57, siyahı 1, iş 260, vərəq 115-119a. Maarif Komissarlığı bu məktubu 26 iyunda alaraq 4238-ci nömrə ilə qeydiyyata götürüb.
[2] Blankdakı bu sözlər fransızca yazılıb.

Beləliklə, keçən ilin 1 oktyabrına qədər təminat aldıq; başqa sözlə, aldığımız vəsait nəinki bir neçə ay təhsilimizi sakitcə davam etdirməyə imkan vermədi, hətta keçən aylarımızın xərclərini də ödəyə bilmədi.



Vəsaitləri getdikcə daha böyük gecikmələrlə, ləngimələrlə almağımız nəticəsində maddi durumumuz gözlənilən yaxşılaşma əvəzinə, daha da çətinləşir və oxumaq, demək olar ki, imkansızlaşır.

Nümayəndəmizin şifahi məruzəsindən Siz necə qeyri-normal şəraitdə oxumağa məcbur olduğumuzu öyrənəcəksiniz. Biz Sizdən məsələnin köklü çözülməsini xahiş edirik, çünki sabahkı günə daimi umudsuzluq və bir tikə çörək qayğısına qalmaq oxumağı qeyri-mümkün edir. Elə həcmdə vəsait göndərmək lazımdır ki, keçmiş aylarımızın kəsirlərini də ödəsin və sonrakı bir neçə ayımıza da bəs etsin. Bundan öncə yazdığımız məruzələr bizim aylıq ehtiyaclarımızı ən dəqiq şəkildə əks etdirir.

Humanitar elmləri öyrənən, aralarında təhsilini bitirməyə 1 il və hətta bir neçə ayı qalmış bəzi təqaüdçülərin geri çağırılması bizi hədsiz dərəcədə təəccübləndirdi. Vətənimizin texniki sahədə olduğu kimi başqa ixtisaslar üzrə də hər cür savadlı insanlara böyük ehtiyacı olduğunu nəzərə alaraq Fransada oxuyan azərbaycanlı tələbələrin ümumi yığıncağı geri çağırılmış təqaüdçülərin siyahıya yenidən daxil edilməsini Sizdən xahiş etməyi qərara alıb.

(Möhür).
Komitənin sədri *(Mirzəhüseyn Quluyevin imzası)*[1]

76-cı bəlgə
(15 iyun 1923)

Xalq Maarif Komissarlığına


Fransada oxuyan azərbaycanlı təqaüdçü
tələbələrin nümayəndəsi *M.Mustafayevdən*

ƏRİZƏ

Fransada oxuyan azərbaycanlı təqaüdçü tələbələrin durumu və xahişi haqqında təqdim etdiyim məruzəyə bunları da əlavə etməyi gərəkli sayıram:

Təqaüdçü tələbələrin fransız qrupunun maddi böhranı 1 iyul 1922-ci ildən başlanıb. Onlar vəsaitdən ötrü *Cəbrayıl Rəhimov* və *İsrafil Əşrəfovu* da nümayəndə kimi

[1] ARDA, fond 57, siyahı 1, iş 260, vv. 120-120a.



göndərmişdilər. Onlar hökumətə fransız qrupu tələbələrinin gerçəkdən həddsiz ağır maddi durumu haqqında geniş yazılı məruzə təqdim edərək, hər tələbəyə ayda 750 frank yaşayış minimumu kimi, orta hesabla 1000 frank da illik təhsil haqqı kimi verilməsini xahiş ediblər. Hökumət bu smetanı qəbul etməyib və yaşayış minimumu ayda 75 manata endirilib ki, bu da son dövrün kursu ilə 560 frank civarında edir. Hökumət tələbələri göstərilən norma ilə (75 manat = 560 frank) 1 illiyə, yəni 1 iyul 1922-ci ildən 1 iyul 1923-cü ildək təmin etməyi qərara alıb. Ancaq bu təminat müddətini İqtisadi Şura da 6 ay qısaldıb. Hökumət qərarının gerçəkləşdirilməsi üçün kürü buraxılıb. Təəssüf ki, kürünün satışı hökumətin hesablarını doğrultmayıb və 6 ay yerinə tələbələr yalnız 3 aylıq, yəni 1 oktyabr 1922-ci ildək təmin edilib. Bir tərəfdən, yaşayış minimumunun qısaldılması (750 fr. əvəzinə 560 fr.), başqa tərəfdən, təminat müddətinin çox qısalığı (12 ay əvəzinə 3 ay), üçüncü tərəfdən də, təminatın vaxtında yetişməməsi (o, bu ilin mart ayının son günlərində gəlib) fransız qrupu tələbələrinin yaşadığı maddi böhranı heç də həll etməyib və onları dözülməz ağır durumdan xilas etməyib. Göstərilən təminatın əvəzinə, biz hökumətin humanitar elmlər öyrənən tələbələrin geri çağırılması haqqında qərarını da aldıq. Bu geri çağırılmışlara gəlməkdən ötrü yolpulu da göndərilib.

Ancaq bu yolpulları da, 3 aylıq təminat kimi, bizə 6 aylıq gecikmə ilə gəlib çatıb, aydın məsələdir ki, geri çağırılanların özləri nə qədər istəsələr belə buradan çıxa bilmədilər, çünki onların keçmiş aylardan borcları var, özləri isə sanki girovdurlar – nə yaşadıqları otaqları dəyişə bilirlər, nə də yemək yedikləri pansionları. Aydınlıq gətirmək üçün bütün deyilənləri rəqəmlərlə ifadə edirəm. Verilmiş cədvəldən fransız qrupu tələbələrinin onların son dəfə aldıqları yardımla müqayisədə ehtiyaclarının nə qədər böyük olduğu asanlıqla görünəcək.

Yaşayış minimumu		Maddi böhran			Göstərilmiş yardım			Göstərilməli yardım	
Zəruri	Hökumətin qəbul etdiyi	Haçan başlayıb?	Nə qədər sürüb?	Nə qədər sürmək-dədir?	Haçan gəlib?	Neçə ay üçün?	Neçə frank?	Neçə ay üçün?	Neçə frank?
ayda 750 fr.	75 man. = 560 fr.	1 iyul 1922-ci ildə	9 ay	bugünə-dək	1923-cü il martın sonunda	3 ay üçün	1.680 fr.	9 ay	6.750 fr.

Bu cədvəldən göründüyü kimi, fransız qrupunun tələbəsi 6.750 frank əvəzinə 1.680 frank alıb, yaxud başqa sözlə desək, hər tələbəyə 5.070 frank əskik verilib. Bu məbləğə bu ilin mart ayından sonrakı aprel, may və iyun aylarının maaşını da əlavə etsək, onda 7.320 franklıq məbləğ alınır. Bu qədər ağır durumdan çıxmaqdan ötrü fransız qrupunun tələbələri yenidən nümayəndə göndərməyə məcbur olublar. Bu dəfə onlar məni nümayəndə seçiblər. Mən yoldaşlarımın durumu haqqında məruzə təqdim etmişəm.

Bu məruzədə başqa məsələlərlə birgə, geri çağırılmış yoldaşlarımızdan da danışılır. Fransız qrupu üzrə tələbə yoldaşlarımızın bu məsələ ilə bağlı yekdil qərarı belədir: geri çağırılmışların yenidən siyahıya daxil edilməsi və onların bundan sonra da müntəzəm dəstəklənməsi hökumətdən təkidlə xahiş edilsin. Yoldaşlarımızın bu cür qərar çıxarması aşağıdakı düşüncələrə əsaslanır:

1) Artıq 3 ildən çoxdur ki, hökumət geri çağırılan tələbələrə xərc çəkib. Onların geri çağırılması isə çəkilmiş xərclərin itirilməsi deməkdir.

2) Geri çağırılmışlar artıq 3 ildən çoxdur ki, Fransadadır. Orada xeyli məhrumiyyətlərə dözüblər və üzərlərinə götürdüyü vəzifəyə yetişmək yolunda həddsiz əmək sərf ediblər. Geri çağırılmaları ilə onların bu əməyi də heç olur.

3) Geri çağırılanlar arasında bu ilin iyulunda, yaxud noyabrında təhsilini bitirəsilər də var. İndi belə bir anda geri çağırmaq onları məqsədə çatmaçatda atmaq və vətəni savadlı bir neçə şəxsdən məhrum etmək deməkdir.

4) Geri çağırılanlar arasında bir iqtisadçı[1] da var. O ən çoxu 1 il oxumalıdır.

5) Nəhayət, geri çağırılmışların hamısı təhsilini bitirərkən Avropa təhsili almış kadrlar kimi yetişəcəklər və bunlara vətənin böyük ehtiyacı var. Onları geri çağırmaq dəyərli əməkdaşlardan məhrum olmaq deməkdir.

Bax, bu düşüncələrə əsaslanaraq fransız qrupunun tələbələri geri çağırılmış yoldaşların da təqaüdçülər sırasına yenidən salınmasını hökumətdən xahiş etməyi qərara alıblar. Bu qərara alman qrupundakı bütün yoldaşlar da yekdilliklə qoşulublar. Bu deyilənlərə əsaslanaraq, mən fransız qrupu təqaüdçülərinin nümayəndəsi kimi Xalq Maarif Komissarlığından bunları xahiş edirəm:

1) Geri çağırılmış yoldaşlar siyahıya daxil edilsin.

2) Fransız qrupunun bütün tələbələrinin 1 oktyabr 1922-ci ildən bəri pulları verilsin.

3) Yaşayış minimumu bizim sizə təqdim etdiyimiz smetalarda göstərildiyi kimi, hər tələbəyə ayda 750 frank müəyyənləşdirilsin.

4) Pullarımız elə uzun müddətə verilsin ki, qarşıdakı dərs ilinin (1923-24) başlanğıcında bütün tələbələr öz məşğələlərinə başlamaq gücündə olsunlar və bir parça çörək qayğısına qalmadan təhsillərini ilin sonunadək uğurla davam etsinlər.

5) Ümumiyyətlə, təqaüdçülərin bundan sonra da müntəzəm təmin edilməsi qayğısına qalınsın.

Xahişimin birinci maddəsi bütövlükdə qəbul edilməzsə onu bu hissələrə bölməyi xahiş edirəm:

a) bu il qurtarası hüquqşünaslar hökmən dəstəklənsin;

b) iqtisadçı mütəxəssis Səfvət Məlikov hökmən dəstəklənsin;

c) təhsilini gec bitirəcək hüquqşünaslara ixtisaslarını dəyişmək təklif edilsin.

Bu maddələrin də qəbul edilməyəcəyi halda geri çağırılmışlara Fransadan gəlmək üçün 1 oktyabr 1922-ci ildən bugünkü günədək ayda 750 frank hesabı ilə pul verilsin ki, onlar öz işlərini qaydaya salsınlar və borclarından qurtulsunlar.

Mən bu ərizəmin yerinə yetiriləcəyinə əmin olaraq fransız qrupunun nümayəndəsi kimi Sizə öncədən təşəkkürümü bildirirəm.

Nümayəndə *(Mustafa Mustafayevin imzası)*.

15 iyun 1923-cü il, Bakı şəh.[2]

[1] Səfvət bəy Məlikov nəzərdə tutulur.

[2] ARDA, fond 57, siyahı 1, iş 260, vv. 112-113.

77-ci bəlgə
(15 oktyabr 1923)

Almaniyada Azərbaycan tələbəsi

1919-cu sənəsində Hökuməti-milliyyə tərəfindən bərayi-təhsil Avropaya göndərilən Azərbaycan tələbəsindən 52 zat Almaniyada iqamət etməkdədir". Almaniyada bulunan bu azərbaycanlı tələbənin elm və tədrisə aid bir takım xüsusatı müzakirə etmək üçün bu günlərdə Berlində mühüm bir konqreləri iniqad eləmişdir.

Almaniyada təhsil edən Azərbaycan tələbəsi makina, elektrik, mədənçilik, dəmiryol, memari, gəmiçilik, fəlahət,[1] kimya və təbabət kibi fənni şöbələrdə çalışıb, hüquq, arkeoloji (ətiqiyyat) və pedaqoji kibi şöbələrdə dəxi birər tələbə mövcuddur. Tələbə, ümumiyyətlə, təhsillərini yarıdan keçirmişlərdir. Bunlardan bir qismi bir sənə, digər qismi də iki sənə sonra təhsillərini itmam edəcəklərdir. İşbu qurultayda bütün arkadaşlarını bir arada görüb də tələbənin hal və hissiyyatı ilə yakından aşina olan bir gənc bizə yazdığı məktubda diyor ki, tələbələrimiz əksəriyyən milli ruhdadırlar. Azərbaycan istiqlalını təsid və onun üçün çalışmaya əzm edənlərdəndirlər. Hər kəsin qayəsi təhsilini bir an əvvəl bitirib vətənə qoşmaq və millətinə əlindən gəldiyi qədər yardımda bulunmaqdır. Bütün bununla bərabər, əski rus tərbiyəsinin təsiri ilə kəndi lisan və hərsi-milliyyələri[2] ilə az aşina olanlarına təsadüf edilir. Bərəkət versin ki, bunlardan haman həpsinin niyyəti təhsilini bitirdikdən sonra müvəqqət bir zaman üçün Türkiyədə iqamət və məlumati-milliyyələrini tövsiyə etməkdir.[3]

78-ci bəlgə
(15 oktyabr 1923)

Xaricdəki azərbaycanlılar

Bakının, 1918-ci sənəsində Türk xilaskarlarının müavinəti ilə xilası gününə təsadüf edən eylülün 15-də dəxi Parisdə bulunan Azərbaycan tələbələri bu günə məxsus bir məclis tərtib eləmişlərdir. Bu məclisə Parisdəki Türk kaloniyası dəxi iştirak eləmişdir. Məclisdə eylülün 15-nə və Azərbaycan vəziyyətinə aid müfəssəl bir məruzə okunmuş və nəhayət, məruzə haqqında mübadileyi-əfkar edilmişdir. Bu münasibətlə gərək azərbaycanlılar və gərək türkiyəlilər tərəfindən söylənən nitqlərdə 2 Türk millətinin daha sıkı münasibətdə bulunmaları lüzumu qeyd və təsbit edilmişdir. Məclis Azərbaycana xilas və hürriyət təmənniləri ilə xitam bulmuşdur.[4]

[1] Kənd təsərrüfatı.
[2] Milli mədəniyyətləri.
[3] *"Yeni Kafkasya"*, 15 təşrini-əvvəl 1339 (15 oktyabr 1923), sayı 2, s. 13.
[4] Yenə orada.

79-cu bəlgə
(21 oktyabr 1923)

Xalq Maarif Komissarlığı Kollegiyasının 21 oktyabr 1923-cü il tarixli iclasının 41 №-li PROTOKOLU

[...]

EŞİDİLDİ: 5.

Xaricdəki tələbələrin maddi durumu haqqında məsələ.

QƏRARA ALINDI: 5.

Almaniya qrupu tələbələri üçün təqaüdün həcminin 10 manat artırılması, yəni 50 manata çatdırılması (1/I-1924-cü ildək), Fransa qrupu tələbələrinin hər birinə tədris haqqı olaraq 1.000 frank verilməsi ÜİŞ-dan[1] xahiş edilsin.

Yaşayış minimumunun ödənilməməsi çoxunun hal-hazırda sonuncu kursda oxumaqda olduğu tələbələrin məşğələlərə davamiyyətinin ümumi gedişinə hədsiz mənfi təsir göstərir.[2]

80-ci bəlgə
(17 dekabr 1923)

Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi
Rəyasət Heyəti iclasının 17 dekabr 1923-cü il tarixli
49 №-li PROTOKOLUNDAN ÇIXARIŞ

EŞİDİLDİ:

Xaricdə oxuyan və AİŞC-nin himayəsində bulunan tələbələrin siyahısına 7 şəxsin də daxil edilməsi haqqında Baş Peşə Təhsili İdarəsinin məruzəsi; həmin tələbələrdən ikisi[3] artıq Almaniyada oxumaqdadır, qalan 5 şəxsə Qərbi Avropa və RSFSR-in uyğun ali məktəblərində məxsusi kafedralarda təhsillərini davam etdirmək və təkmilləşdirmək lazımdır.

QƏRAR:

Təqaüdçü tələbələrin əlavə siyahısına aşağıdakı şəxslər daxil edilsin:

1. Tağı[4] Rzayev (Berlin)
2. Ağamir Məmmədov (Roma)
3. Əliyar[5] Əmircanov (Berlin)
4. Mircamal Məhəmmədov (Berlin)
5. Mustafa İmaməli (Getten)
6. Abdulla Tağızadə (Petroqrad)
7. İlyas Qayıbov (Vitsburq)

Bütün xərcləri 1/I-1924-cü il büdcəsinə daxil etməli.[6]

[1] Ümumittifaq İqtisadi Şurası.
[2] ARDA, fond 51, siyahı 1, iş 265, vərəq 83.
[3] Tağı Rzayev və Əliyar Əmircanov.
[4] Sənəddə yanlış olaraq bu ad "Səməd" göstərilib.
[5] Sənəddə yanlış olaraq bu ad "Əmir" göstərilib.
[6] ARPİİSSA, fond 1, siyahı 74, iş 136, vərəq 74a.

81-ci bəlgə
(1 yanvar 1924)

Azəri tələbələrin bir təəssüfü

İstanbul Darülfünunu ədəbiyyat fakültəsi tələbə dərnəyinin hüdüdi-milli xaricindən gələn Türk tələbə haqqında ittixaz etdikləri şayani-heyrət qərarı böyük bir təəssür və təəssüflə xəbər alan Avropadakı tələbələr naminə protestoyu mütəzəmmin "Azərbaycan Tələbə Birliyi" imzası ilə aldığımız məktub vəqt gec olduğundan işbu nüsxəyə girmədi.[1]

82-ci bəlgə
(15 mart 1924)

Almaniyada Qafqasya tələbələri

Bakıda müntəşir kommunist qəzetələrində okunduğuna görə, Berlindəki Qafqasyalı tələbələrin Mavərayi-Qafqas Komissarlar Heyətinə çəkdikləri təbrik teleqrafına cavab olaraq Komissarlar Şurası rəisi "tələbəliyin uzaq Avropada möhkəm kommunizm mövqeyi işğal etmələrinə və sui-təfəhhüm nəticəsi olaraq hala menşevik, daşnak və müsavatçılar zümrəsində olan bir qisim tələbənin qafalarından əbədi surətdə əksixtilal fikirlərinin çıkarılmasına müvəffəqiyyət hasil olacağına sarsılmaz bir imanla inandığını" bildirmişdir. Bir "sui-təfəhhüm" nəticəsi olaraq "hala milliyyətpərvərlik ruhunu daşıyan" tələbənin, özəlliklə müsavatçılıq töhməti altındakı Türk tələbəsinin başlarına tətbiq olunan bu islah üsulunun nədən ibarət olduğunu dərgi öz oxucularına belə anladır: "Avropada bulunan ümumqafqasya tələbələrini kontrol etmək üçün son zamanlarda Tiflisdən 3 kişidən ibarət bir kontrol komisyonu göndərilmişdir. Bu komisyon erməni Pirumov, gürcü Qoqoberizde və türk İbad Əliyevdən təşəkkül etmişdir. Komisyonun rəisi və amiri-mütləqi Pirumovdur. Tiflisdən alınan salifüs-zikr təlimatın tətbiqi Pirumovun mülahizəsinə bağlıdır. Ona istədiyi miqdarda yeni tələbə qəbul eləmək və "müzürr, hala milliyətpərvər" təsəvvür elədiyi tələbələri listədən ixrac etmək kibi vase səlahiyyətlər verilmişdir".

Bundan iki-üç ay müqəddəm Pirumov və Rusiyanın Berlin səfiri Krestinskinin əmrləri mövcibincə Berlində ümumqafqasya tələbələrinin ictiması mövcud olmuşdur.[2] Burada yeni bir tələbə təşkilatı intixab və daha doğrusu, təyin olunmuşdur. Pirumovun səy və ehtimamıyla ictimanın başdan-aşağıya kommunist ruhunda tərtib edilməsinə əhəmiyyət verilmiş, bunun üçün tələbələrdən yalnız müəyyən bir qismi dəvətnamə almış, digərlərinin iştirakına isə "lüzum" görülməmişdir. Bu təşkilatın mərifətiylə Mavərayi-Qafqasya hesabına yeni tələbələr qəbul edilmişdir. Qəbul edilənlər miyanında Kilikiyadan gəlmə bir çok mühacir ermənilər vardır. Pirumov bu xüsusda vaqe olan etiraza "bizim üçün milliyyət fərqi yoxdur" deyə cavab vermişdir. Gürcülərdən dəxi bir çok yeni tələbələr qəbul edilmişdir, halbuki yeni azəri tələbəsi qəbul edilmədiyi səhldir. Mövcud azərilər miyanında şiddətli bir təsviyə yapılacağı xəbəri dəxi şaye olmuşdur. Mərkəzi Frayberqdə olmaq üzərə məxsus bir kommunist qrupu təşəkkül etmişdir ki, qrupun əsl məqsədi qafqasyalı tələbələr arasında propağanda yapmaqdan ibarətdir. Propağandanın ən qüvvətli və müəssər[1] vasitəsi təxsisatsız buraxmaq təhdidi ilə təxsisata bağlamaq tətmiidir. Bütün bu üsul və tərtibata rəğmən tələbələr miyanında ibrazi-mətanət edib sərfi-elm ilə məşğul olanlarla vicdanlarını bir parça əkməyə satmayanları əksəriyyətdədir, çokdur. Tələbələr eyni zamanda Rusiya pasaportu almaq məcburiyyətində dəxi bulunduruluyorlar.

İştə Mavərayi-Qafqas Komissarlar Şurası rəisinin qafqasyalı tələbənin "qafalarını təsviyə" üçün göndərdiyi təlimatın surəti-tətbiqi. Əvət, hər tərəfdə təcrübə olunan bolşevik üsulu burada da təcrübə olunuyor: tətbiq və tətmi üsulu!

***

Axirən aldığımız mütəmmim[2] məlumata nəzərən, Pirumov son günlərdə gürcülərdən 28, ermənilərdən 22 və türklərdən də 2 tələbəyi dövlət hesabına qəbul eləmişdir.

Hal-hazırda müxtəlif Avropa mərkəzlərində olub dövlət hesabına təhsil edən tələbələrin miqdarı 65 kişi olub, bunlardan 52-si Almaniyada, 7-si Fransada, ikisi İstanbulda, ikisi də İtaliyadadır.[3]

83-cü bəlgə

Azərbaycan Kommunist (bolşeviklər) Partiyası
Mərkəzi Komitəsi Rəyasət Heyəti iclasının
71 №-li PROTOKOLU

"5" aprel 1924-cü il
İştirak edən yoldaşlar. Rəyasət Heyətinin üzvləri: [Əliheydər] Qarayev,
Xanbudaqov, [Mircəfər] Bağırov, [Dadaş] Bünyadzadə,
[Mustafa] Quluyev, [Qəzənfər] Musabəyov
Namizədlər: Çagin, Konuşgin.
MK üzvləri: [Mirbəşir] Qasımov, H[əmid] Sultanov.
Sədr: yol. Xanbudaqov

[...]
EŞİDİLDİ: 13. Xarici ali məktəblərdəki tələbələr haqqında – (yol. Cəbiyev)
QƏRARA ALDILAR: 13
A) Hal-hazırda əlavə göndəriş aparmamalı. Ümumən xarici ali məktəblərə ezamiyyət hər il yayın başlanğıcında, göndərilənlərin tərkibi diqqətlə yoxlanıldıqdan, zərurətin öyrənilməsindən sonra və yalnız xüsusi və kənd təsərrüfatı ali məktəblərinə təşkil edilsin.
B) Xaricdə oxuyan tələbələr: 1) Rzayev Tağı Əsgər[4] [oğlu] (Elektrotexnika İnstitutu, Darmştadt), 2) Əmircanov Əliyar[5] (aviasiya, Berlin), 3) Hacıyev Xaspulat (toxuculuq, Almaniya) bizim tələbələr siyahısına daxil edilsin.

---

[1] *"Yeni Kafkasya"*, 1 kanuni-sani 1340 (1 yanvar 1924), sayı 7, s. 16.
[2] Yığıncağı, toplantısı.

[1] Təsirli.
[2] Son.
[3] *"Yeni Kafkasya"*, 15 mart 1340 (15 mart 1924), sayı 12, ss. 11-12.
[4] Sənəddə yanlış olaraq: "Səməd".
[5] Sənəddə yanlış olaraq: "Əliağa".

C) Zaqafqaziya Diyar Komitəsinin (Qoqoberidze) özəl komissiyasının bizim tələbələr siyahısına daxil etdiyi və xarici ali məktəblərdə oxuyan Musayev Xəlili (2-ci il, Münxen, rəssamlıq), Səfərov Şamili (Koblenz, keramika) təsdiqləməli, Aslanov Teymuru (toxuculuq, Almaniya) tələbələr siyahısından çıxarmağı ZDK-dan[1] xahiş etməli.

Ç) Beləliklə, xaricdə oxuyan bütün tələbələrin sayını 68 nəfər müəyyənləşdirməli, onlardan 48 tələbəni Zaqafqaziya Diyar Komitəsi və Zaqafqaziya Xalq Komissarları Şurasının qərarlarına əsasən Zaqafqaziya Xalq Komissarları Şurasının, qalan 20-sini isə Azərbaycan Xalq Komissarları Şurasının təqaüdçüləri saymalı.

D) Təqaüd Almaniyada oxuyan tələbələr üçün 30 dollar, Fransada oxuyanlar üçün əvvəlki kimi 75 manat müəyyən edilsin.


E) Almaniyada oxuyan tələbələrə təhsil haqqı olaraq ayrıca 45 dollar verməli və Zaqafqaziya Xalq Komissarları Şurasından özünün azərbaycanlı təqaüdçülərini də bu cür təmin etməyi xahiş etməli. "D" maddəsinə, Zaqafqaziya Xalq Komissarları Şurası müəyyənləşdirdiyi təqaüdün həcminə əsasən, Azərbaycan təqaüdçülərinin hər birinə, Ermənistan və Gürcüstanın nümunəsində olduğu kimi, əlavə 10 dollar göndərməli.

F) Berlində – tələbələrin Zaqafqaziya Bürosunun Azərbaycan Bölməsində xaricdə oxuyan tələbələrə yardım üçün 1.000 çervon manat həcmində özəl fond yaratmalı. Pulun xərclənməsini Zaqafqaziya nümayəndələri Pirumov və Əliyevin Tələbə Bürosu ilə birgə nəzarəti altında təşkil etməli.

G) Xalq Maarif Nəzarətinə xaricdə oxuyan təqaüdçü tələbələrə xaricdə oxuma vaxtının onların hər birinin akademik bacarığından, imkanından və dərslərinin lazımlılığından asılı olaraq oxuma müddətlərinin məhdudlaşdırıldığını təcili şəkildə xəbər vermək təklif edilsin.[2]

84-cü bəlgə

№ 10.
1.6.[19]24
Z.S.T.B.[3] Berlin Mərkəzi Bürosuna



Əziz yoldaşlar!

Bundan öncəki məktubumuza əlavə olaraq bildiririk ki, 22.5.[19]24-də yerli mərkəzi büroları Berlin Mərkəzi Bürosunun Birliyin Paris bölməsi üzvlərinin təmizlənməsi haqqında qərarı ilə tanış etmiş yol.S. Pirumovun şəxsi bəyanatına görə Z.S.T.B. Paris bölməsi mərkəzi bürosu üzvləri yol. Pirumovla birgə Paris bölməsinin kadr üzvlərini işləyib hazırlamışlar.

Ermənilər (18 nəfərin soyadı qeyd olunub).

[1] Zaqafqaziya Diyar Komitəsi.
[2] ARPİİSSA, fond 1, siyahı 74, iş 136, vərəq 1, 3, 17.
[3] Zaqafqaziya Sovet Tələbələri Birliyi.

Azərbaycanlılar:
19. Ağayev Balaağa
20. Hacıyev Bayram
21. Hacıyev Xaspulad
22. Hüseynbəyov [Zeynalabdin]
23.
24. Muradov Abbas
25. Muradov Məhəmməd
26. Mustafayev Mustafa
27. Nərimanbəyov [Yaqubfərman]
28. Rəhimov Cəbrayıl
29. Quluyev Mirzəhüseyn.
Gürcülər (6 nəfərin soyadı qeyd olunub).[1]

85-ci bəlgə
(25 iyun 1924)

Berlində "Turan" Akademi Cəmiyyətində
(Müxabiri-məxsusumuzdan)



"Turan" nam akademi cəmiyyəti Azərbaycan istiqlal gününün əhəmiyyətini həm kəndi əzalarına, həm də cəmiyyətə əza olmayan digər Türklərə bildirmək məqsədiylə bu günə məxsus bir ziyafət tərtib eləmişdir. Ziyafətdə Berlindəki Türk əqvamı müməssilləri isbati-vücud eləmişlərdir.

Cələsənin iftitahı əqabində rəis bəy ilk sözü Əliəkbərzadə Əliəsgər bəyə vermiş. İbtida hazirunu, sonra Türkiyə, İran və Avropada bulunub da 28 Mayısı təsid edən zəvatı və bilxassə Azərbaycanın bütün şəhər, qəza və köylərində bolşeviklərin amansız cəbr və zülmlərindən qorxmayaraq gizli məhfəllərdə və qaranlıq bodrumlarda həzin surətdə bayram saklayanları və ələlümum qəlbləri istiqlal və hürriyyət eşqiylə çarpanları təbrik və təqdis eyləmişdir. Bədə Şimal Türkləri mühərrirlərindən möhtərəm Ayaz əfəndi İshaqi cənablarının təklifinə görə Milli Azərbaycan Marşı tərənnüm

[1] Fransızca bu sənədin surətini diplomat dostumuz Ramiz Abutalıbov şəxsi arxivindən bizə bağışlayıb.

edilmişdir. Cəvahir Nəzihə xanım piyano çalaraq Azərbaycan talibə və tələbəsindən mürəkkəb bir heyət, istənilən marşı kəmali-müvəffəqiyyətlə tağənni etmişlərdir. Gurultulu alqışlar arasında bitən bu marşdan sonra natiq təkrar nitqinə davam edərək Azərbaycan məfkurəsini doğuran şəraiti bittəfsil izah etdikdən sonra Cümhuriyyətin surəti-təşəkkülü ilə iki sənəlik dövri-istiqlalı əsnasında görülən icraat haqqında məlumat vermiş və ruslar tərəfindən düçar olduğu istilayı lisani-təəssürlə sərd eylədikdən sonra fikiri-istiqlal ilə yaşayan Azəri xalqındakı həsrəti-istiqlalı izah və gəncliyə xitabən "Vəzifənə hazır ol" deyə müraciat eyləmişdir.

Əlisəgər bəydən sonra möhtərəm Ayaz əfəndi kürsiyi-xitabətə gələrək Azərbaycanın hangi şərait daxilində istiqlalını qeyb eylədiyini vazeh bir surətdə göstərmişdir. Natiqi-möhtərəm Rusiyadan ayrılan kiçik dövlətlərdən yalnız Türk cümhuriyyətlərinin təkrar rus əsarətinə girdiyindəki hikməti, Türk əqvamı arasındakı rabitənin kafi dərəcədə mətin olmadığında görmüş və ümum Türklərin birləşmək zamanı xülul eylədiyini bəyan ədərək bütün Türklərcə müştərək böyük bir günün bayram ittixaz edilməsini təklif ilə nitqini "Yaşasın Azərbaycan istiqlalı, yaşasın bütün Türklərin istiqlalı!" cümlələri ilə bitirmiş və alqış tufanları içərisində mövqeyinə oturmuşdur.

Azərbaycanlı gənclərdən Qafur və Əsəd əfəndilər hörmətli Azərbaycan şairinin "Bir gül əkdim" parçası ilə " Milli Bayrağıma" şeirini inşad eyləmişlər. Bədə Türkiyəli tələbədən Suni Xülusi bəy (İstanbul) pək müəssir bir nitq irad edərək Anadolu Türklərinin Azərbaycan istixlası yolunda şəhid olmalarını və Azərilərin Türk tarixində ilk dəfə olaraq şəhidlərə məxsus bir türbə yapdırdıqlarını lisani-təqdir ilə yad edərək şühədanın istirahəti-ruhu üçün qaimən Fatihə oxunmasını təklif eyləmiş və bu təklif kəmali-hörmətlə qəbul edilmişdir.

Bundan sonra dahi bir çok natiqlər istiqlal bayramı münasibətiylə xitabələrdə bulunaraq ziyafətin birinci qisminə nəhayət verilmiş, ikinci qismində isə dans başlamışdır.

Cəvahir Nəzihə xanımın Azəri musiqisiylə, Azəri çocuqların xain rus çizməsi altında çiğnənən Azərbaycanın sevimli bayrağına aid həzin bir surətdə tərənnüm edilən dilsuz parçalar hazirunun gözlərini nəmləndirmiş, məsum ağızlardan dinlənən bu nəğmələrlə mütəhəyyic olan hazirun bir ağızdan "Qəhr olsun Rusiya istilası!" deyə bağırmışlardır. Anadolu Türkləri dahi milli rəqs və türkülərıylə gecəyə başqa bir rövnəq vermişlərdir. Azərbaycan tələbələrinin Azərbaycan opera və operetlərindən müqtəbəs bir takım parçalar tağənni etdikləri dahi şayani-qeyddir. Bu gecənin ən şayani-zikr vəqəsi ənəsl İran Azərbaycanından olan bir gəncin yanıqlı bir surətdə Qafqaziya şikəstəsini tağənni etməsidir. Bu tağənnisiylə "otaylı" qardaşımız "butaylı" qardaşlarının sürur və ələminə pək müəssir bir tərzdə iştirak etmiş oluyordu.

Ziyafətin sonuna doğru Azəri əfəndilər Qafqaz Türklərindən Gültəkinin "Yeni Kafkasya"da mündəric "Gürcü qardaş!" ünvanlı şeirini musiqi ilə okumuşlardır. Ziyafət gecə saat üçə qədər davam eyləmiş və müsafirlər Azərbaycanda qoşulmuş "Yaşa, bin yaşa, Mustafa Kamal Paşa!" şərqisinin ahəngdar nəqəratı və Azərbaycan musiqisinin ruhnəvaz tərənnümləri altında istəməyərək salondan ayrılmışdır.

Azərbaycanlı Əli Kamal[1]

[1] *"Yeni Kafkasya"*, 25 həziran 1340/13 zilqədə 1342 (25.6.1924).Yıl:1, Sayı: 18, ss. 9-10.

86-cı bəlgə

(19 oktyabr 1924)

Avropadakı Azərbaycan tələbələrinin vəziyyəti

Azərbaycan istiqlaliyyəti dövründə milli hökumət tərəfindən yüz tələbənin Avropaya təhsilə göndərildiyini və bunların bolşevik istilasından sonra kafi miqdarda müavinət alamadıqlarından həyatlarının acı bir surətdə keçdiyi haqqında "Yeni Kafkasya"da yazılmışdı. Şimdi isə bu tələbənin vəziyyətləri daha ziyadə fənalaşmışdır. Bunu istilzam edən[1] səbəblər isə bərvəchi-atidir.[2]

Məlum olduğu üzrə, bundan bir sənə müqəddəm azərilərdən 75 tələbə Azərbaycan Sovet hökuməti tərəfindən təxsisat[3] alıyordu. Azəri tələbə fərqi-siyasiyyə inqisamatında bitərəf qalmaq, siyasətlə uğraşmayaraq təhsillərini bitirmək və vətənlərinə övdətlə bir mütəxəssis kibi çalışmaq istəyirlərdi. Keçən sənə təşrini-sanidə[4] Almaniyadakı Mavərayi-Qafqasya ticarət müməssili[5] Pirumyansın təşəbbüsü ilə Avropadakı erməni, gürcü və Azərbaycan tələbələrinin bir ittifaqı vücuda gətirilmişdi. Gürcü hökuməti məsarifi ilə 5-6, erməni hökumətinin nam və hesabına dəxi 5-6 erməni tələbə qəbul edilmişdi. Bu 3 millətə mənsub müştərək mərkəzi tələbələr bürosu dəxi intixab edilmişdi.[6] Hər millət muxtar olub, kəndi tələbə cəmiyyətinə malik olmaqla bərabər, istədiyi vəqt Mavərayi-Qafqas Tələbələri İttifaqından çıka bilir idi. Tələbəlik işinə nəzarət etmək üçün üç kişilik bir komisyon təşəkkül etmişdi. Komisyon rəisi Pirumyans (hakimi-mütləq), əzaları isə müavini Aqaşvili (gürcü) və Azneft məmuru İbad Əliyevdən ibarət idi. Məlum olduğu üzrə, ruslar Azərbaycana gəldiklərində Azərbaycanın daxili və xarici işlərinə qarışmayıb, tam mənasıyla Azərbaycan istiqlalına hörmət edəcəklərini vəd etmişlərdi. Sonra isə yavaş-yavaş Azərbaycanın bütün hüququnu əldən alıb kəndisinə sərfi-maarif sahəsində münhəsir bir muxtariyyət vermişlərdi. Şimdi isə zatən bir kölgə mahiyyətində olan bu maarif muxtariyyətinə də təcavüz ediyorlar. Ləfzi murad bir kəlmədən ibarət olaraq qalan Azərbaycan hökuməti bir kişi də olsa İstanbula və yaxud Qərbi Avropaya yenidən tələbə göndərə bilməz, Azərbaycanın bir çox yerlərində idarə, müəssisə və məktəbləri türkləşdirmək səlahiyyətini haiz olmaz. Azərbaycanın hal-hazırda istiqlali-siyasi deyil, maarif muxtariyyətinə belə malik olmadığı az-çox insaf, məntiq, vicdan sahibi olan kommunistlər belə inkar etməyirlər. Azərbaycanda ruslar tərəfindən yürüdülən işbu maarif siyasətinin mənayi-həqiqisi pək aşkardır.

Yukarıda söylədiyimiz kibi, keçən təşrini-sanidə Mavərayi-Qafqas Tələbələr İttifaqı vücuda gətirildiyi vəqt Avropada Azərbaycan şura hökuməti hesabına 75 azəri tələbəsi təhsil ediyordu və kəndilərinə məxsus müstəqil təşkilat və komitələri mövcud idi. Mavərayi-Qafqaz Tələbələr İttifaqı vücuda gətirildikdə tələbəlik təxsisatı da Mavərayi-Qafqas Sovet hökuməti tərəfindən dərəhdə edilmişdi. Bu gün Mavərayi-Qafqas hökuməti hesabına təhsil edən, fəqət 36 azərbaycanlı tələbə mövcuddur. Azərbaycan tələbələrinin milli təşkilat və komitələri məhv edilib, bu payədə söz söyləmək istəyənlər əksixtilalçılıqda[7] ittiham olunuyorlar. 900 əzaya malik rus tələbə təşkilatı ilə Mavərayi-Qafqas Tələbələr

[1] Doğuran, yaradan.
[2] Aşağıdakı kimidir.
[3] Burada: təqaüd.
[4] Noyabrda.
[5] Zaqafqaziya ticarət nümayəndəsi.
[6] Seçilmişdi.
[7] Əksinqilabçılıqda.

İttifaqı birləşdikdən sonra azəri tələbəliyinin simayi-millisi bu qələbəlik içərisində tamamilə qeyb olmuşdur.

Bu gün Azərbaycan tələbəsinin haqqı çeynəniyor. Kəndi hüququnu müdafiə etmək üçün onun nə milli bir cəmiyyəti və nə də milli cəmiyyət vücuda gətirmək üçün haqqı vardır. 10 ayın müddətində Mavərayi-Qafqasya Sovet hökuməti hesabına təhsil edən erməni tələbələrinin hesabı yigirmi, gürcülər isə qırkadək çoğalmışdır. Yeni vücuda gətirilmiş salifüz-zikr[1] Ümumrusiya Tələbələr Cəmiyyətinin nizamnaməsi mövcibincə bu cəmiyyətin Mərkəzi İcraiyyə Komitəsi Avropanın müxtəlif məmləkətlərində təhsildə olan tələbədən "Cəmiyyətin ruhuna müvafiq gəlməyən"lərini Cəmiyyətdən ixrac və bu səbəblə hökumət təxsisatından da məhrum edə bilir.

İşbu Cəmiyyətə böyük məbləğlər verildiyi üçün istədiyi digər hər bir işi də icra edə biliyor. Bu, işin zahiri tərəfidir, batini isə tamam başqadır. Sovet hökumətindən təxsisat alan ermənilərin hesabı az isə də işbu Ağustosda iniqad edən Mavərayi-Qafqas tələbələrinə konfransdan sonra idarə səlahiyyəti büsbütün onların əlinə keçib, bütün tələbələrin müqəddəratı şimdi də erməni tələbələrin əlindədir.

Zatən əvvəlcə də tələbələrə nəzarət edən xüsusi komisyonun rəyisi Pirumyans idi. O, tələbəliyin yeganə əfəndi və diktatoru idi. Komisyonun digər iki əzası onun əlində bir alət idilər. Bu komisyonun ikinci əzası gürcü Oknaşvili Mavərayi-Qafqas Tələbələr İttifaqının rus tələbə cəmiyyətinə ilhaqı əleyhində olduğundan, Pirumyans məzkuru Moskvaya göndərib arkasından Zabiteyi-Siyasiyyəyə[2] teleqraf çəkmiş: Oknaşvili rus siyasəti əleyhinə çalışdığından kəndisini geri burakmasınlar, ona binaən də Oknaşviliyi Moskvada saklamışlar və daha Berlinə burakmayırlar. Pirumyans tam mənasıyla bir erməni taşnak siyasəti yürüdüyor. Bir tərəfdən, Türkiyədən fərar etmiş və Avropanın müxtəlif məmləkətlərində yaşayan ermənilər miyanında propağanda yapıb, onlara sovet əsasatını qəbul ilə həpsini Qafqasyaya göndərməyə çalışıyor, digər tərəfdən də, istədiyi azəri tələbəyi hökumət təxsisatı listəsindən ixrac ilə onların yerinə ermənilərı təyin ediyor. Bunların nöqteyi-nəzərincə, ermənilər Rusiyasız Qafqasyada yaşayamazlar. Ruslar bəyazmı, siyahmı, qızılmı, nə olur isə olsun, ermənilər onlarla daima müttəhid olaraq işləməlidirlər. Pirumyans hər şeydən ziyadə erməni tələbələri miyanında böylə milli bir siyasət tərvic etməkdədir.

Ermənilər böyük paraya malikdirlər. Vyanada, Nyu-Yorkda qəzetələri çıkıyor. Avropa məmləkətlərində minə qədər tələbələri təhsil etməkdədir. Bunlardan bir kaç yüzü rəsmən Sovet əsasatını qəbul eləmişlərdir. Erməni Paris heyəti-mürəxxəsəsinin rəisi[3] Boğos Nübar paşa Almaniyadakı sovet əsaslarını qəbul edən erməni tələbəsi cəmiyyətinə üç yüz min (300.000) frank ianə etmişdir.

Pirumyansın azəri tələbələrinə tətbiq etdiyi siyasətinin tərvicinə Almaniyada təhsil edən bir kaç azəri kommunistləri Azərbaycanın ruslar tərəfindən istilası əsnasında [Əliheydər] Qarayevlər, [Hüseynov] Mirzədavudlar, [Axundov] Ruhullalar və sairlərinin ifa etdikləri alçaq vəzifəyi eyni ilə təqib ediyorlar. Bunlardan bir kaçı bir kaç ay sonra təhsillərini bitirib Azərbaycana övdət edəcəklərdir. Bunun üçün də çalışıyorlar ki, ruslar, ermənilər bunlardan məmnun olsunlar və kəndilərinə "malades" (afərin) desinlər. Azərbaycana övdət etdikdə yüksək mövqelər tutmaq niyyəti ilə kəndilərini rusdan ziyadə ruscu göstərmək üçün konfranslar tərtib edib azəri tələbələrini təxsisat listəsindən ixrac ilə təhsillərinə mane oluyorlar, fəqət bu kommunistlərin arasında vicdan sahibi

[1] Yuxarıda adı keçən.
[2] "QPU"-ya.
[3] Parisə sülh konfransına gedən Ermənistan nümayəndə heyətinin başçısı.

olanları da vardır. Məsələn, Pirumyans bundan 3 ay əvvəl Parisdə olduğu zaman bir azəri kommunistini hüzuruna dəvət edib, "yoldaş, aranızdan ixrac olunacaq əksixtilalçı və təhsilindən geri qalan tələbələrin isimlərini söyləyiniz, buna müqabil sizin əllərinizi açar, səlahiyyəti-vasiə[1] veririz" demiş isə də istədiyi müvafiqət cavabını alamayıb. Ağustosda Berlində olan konfransda Pirumyansın nə demək istədiyini bu tələbə kəndisinə soruyordu.

Bu sətirləri okudukdan sonra soracaqsınız: Əcəba, doğrudanmı azəri tələbələr əksixtilalçıdırlar, bunları bu əksikləri üçünmü listədən ixrac ediyorlar? Yetmiş beş tələbədən ancaq otuz altısı qalmış. Xayır, azəri tələbəliyi siyasətçilikdən mücərrəd olaraq bir mütəxəssis sifətilə vətəninə övdət etmək və çalışmaq məqsədini təqib ediyorlar, çünki həqiqi xilas və nicatın bu yolda olduğuna qanedirlər. Fəqət məruf "Qurdun, keçi, suyu bulandırıyorsan!" töhməti eyni ilə bunlara da şamil olub, maaşlarını kəsir, təhsillərini itmam etməyə mane oluyorlar. İştə Ağustos konfransının nəticəsi olaraq azəri tələbələrinin milli təşkilatları dağıdılmış, kəndiləri rus tələbə təşkilatına ilhaq edilmiş, Türkiyə ermənilərı də bu müştərək cəmiyyətə qəbul olunmuş. Bu yeni cəmiyyətə hər hanki bir tələbəyi hökumət təxsisatından məhrum etmək haqqı verilmişdir. İşbu qərar mövcibincə tələbələri "təmizləyərək" on bir Azərbaycan tələbəsini listədən ixrac etmişlərdir. Şu surətlə tələbələrin vəziyyəti çok fənalaşmışdır. Tələbələr miyanında etimadsızlıq, yalan, böhtan, iftira, kim kiminlə görüşdü, nə konuşdu, kim mühacirini-siyasiyyə ilə əlaqədədir, kibi təcəzsüz təcəlliləri[2] vücuda gəlmişdir. Kimsə kəndisinin bir-iki aydan sonra əksinqilabçılıqda müttəhim edilərək maaşının kəsiləcəyinə şübhə etməyir. Bunlara tələbələr tərəfindən yazılan bir takım məktub, teleqraf və məqalələr əlavə olunursa o zaman vəziyyətin nə dərəcədə ağır olduğu anlaşılır, zira hər hanki bir tələbə kəndisinə təklif olunan bir şeyin yazılmasına ədəmi-müvafiqət göstərər isə[3] haman əksixtilalçılıqda ittiham olunaraq listədən ixrac olunacaqdır.[4]

87-ci bəlgə

Azərbaycan Tələbələri Birliyi
(1922-25-ci illər)[5]

S. №	Soyadı və adı	Şəhər	İxtisas	İmtahan	Haçan bitirir	Mənşəyi
			Almaniyada			
1	Əbdürrəhmanov Cəfər	Berlin	Kimya	namizəd	1 il	kəndli
2	Ağasıbəyli Yusif	--	Elektr.	nam. verir	1,5 il	zadəgan
3	Abdinov Bəhram	Bonn	Kənd. təs.	namizəd	6 ay	kəndli
4	Əliyev Abbasmirzə	Berlin	Kommer. İns.	--	6 ay	meşşan
5	Əliyev Əşrəf	Frayberq	Dağ İnst.	--	1 il	--
6	Əliyev Firidun	Karlsrue	Elektr. Tex.	--	1,5 il	kəndli
7	Əliyev Əliəkbər	Berlin	Kənd Təs.	--	6 ay	meşşan
8	Axundov İsmayıl	Münxen	Tibb	--	2 il	--

[1] Geniş səlahiyyət.
[2] Burada: casus axtarışları.
[3] Razılaşmazsa.
[4] *"Yeni Kafkasya"*, 19 təşrini-əvvəl 1340-cı il (19 oktyabr 1924-cü il), №2, ss. 7-8.
[5] ARDA, fond 57, siyahı 1, iş 276, vv. 62-63.

S. №	Soyadı və adı	Şəhər	İxtisas	İmtahan	Haçan bitirir	Mənşəyi
9	Axund Zəki oğlu Səm[ədər]	Frayberq	Dağ İnst.	--	1 il	--
10	Əlimuradbəyli Cəmil	--	--	--	1,5 il	kəndli
11	Ağaoğlu Məhəmməd	Yena	Arxeologiya	--	2 il	meşşan
12	Ağaoğlu Qəmər xanım	--	Pedaq. İnst.	--	2 il	--
13	Hacızadə Mirzə	Berlin	Kənd Təs.	--	6 ay	--
14	Hacıyev Məhəmməd	--	Maşınqayır.	nam verir.	1,5 il	zadəgan
15	Həsənov Rzaqulu	Frayberq	Dağ İnst.	namizəd	1 il	kəndli
16	Hüseynzadə Bəhram	Darmştadt	Elektr.	--	1 il	zadəgan
17	Hüseynov Əlihüseyn	Roştok	Tibb	--	2 il	meşşan
18	Hüseynov Salman	Firtsburq	--	--	2 il	--
19	Zeynalov Behbud	Berlin	Yol müh.	Pasxayadək verir	2 il	--
20	Kazımov Cəfər	Frayberq	Dağ İnst.	namizəd	1,5 il	--
21	İsgəndərli Ağalar	Berlin	Kimya	--	1 il	--
22	Qədimi Lətif	Karlsrue	Yol müh.	--	1,5 il	--
23	Münşiyev Hilal	Berlin	Yol müh. Dağ böl.	nam. verir	2 il	--
24	Məmmədov Qəhrəman	--	--	--	2 il	--
25	Məmmədov Zal	Drezden	--	--	1,5 il	--
26	Məhəmmədov Hüseynbala	Bonn	Kənd Təs.	--	6 ay	kəndli
27	Məhəmməd Xəlil Həmid	Münxen	Tibb	--	2 il	--
28	Musai Cəmil	Berlin	Arxitek.	--	1,5 il	meşşan
29	Məlikov Səfvət	Karlsrue	--	--	2 il	zadəgan
30	Muğanlinski A[dil]	Leypsiq	Hüquq	--	6 ay	--
31	Mustafayev Ağahəsən	Berlin	Gəmiqayır.	apreldə verir	2 il	meşşan
32	Nağıyev Hüseyn	--	Kənd Təs.	namizəd	6 ay	--
33	Nuruyev Hacıağa	Qorlits	Maşınqayır.	nam. verir	1,5 il	--
34	Rəhimli Məhəmməd	Darmştadt	--	namizəd	1 il	kəndli
35	Rəhimzadə Abdulla	Berlin	Elek. texn.	nam. verir	2 il	meşşan
36	Rzayev Nüsrət	--	Tibb	namizəd	1,5 il	--
37	Rzazadə İsgəndər	Darmştadt	Elek. texn.	Pasxada qurtarır, xəstələnib		
38	Pirverdiyev H[ənifə]	Berlin	Arxitek.	apreldə verir	1,5 il	meşşan
39	Seyidzadə Mirismayıl	--	Elek. texn.	namizəd	1 il	kəndli
40	Sadıqov Mirsadıq	Frayberq	Dağ İnst.	--	1,5 il	
41	Sultanov İsgəndər	Berlin	--	imtahan verir	2 il	zadəgan
42	Səfərov Məhiş	Darmştadt	Yol müh.	verməyib, xəstə	2 il	meşşan
43	Salahov Yusif	Münxen	Tibb	namizəd	2 il	--
44	Şahsuvarov Mürsəl	--	--	--	2 il	kəndli
45	Şahsuvarov Surxay	Frayberq	Dağ İnst.	--	1 il	--
46	Şeyxi Hüseyn	Darmştadt	Elektr.	--	1,5 il	--
47	Temirxan Murad	Karlsrue	Yol müh.	--	1,5 il	zadəgan
48	Xudaverdiyev Əli	Bonn	Kənd təs.	mayda verir	6 ay	--
49	Xiroman Zəkəriyyə	Karlsrue	Elektr.	namizəd	1,5 il	--
50	Əfəndiyev Abdulla	Manheym	Kommer İns.	mayda verir	6 ay	--
51	Əfəndiyev Məhəmmədəmin	Darmştadt	Yol müh.	namizəd	1 il	--

S. №	Soyadı və adı	Şəhər	İxtisas	İmtahan	Haçan bitirir	Mənşəyi
52	Aslanov Teymur	Kotbus	Toxuculuq	--	2 il	?[15]
53	Səfər[ov] Şamil	Koblents	Keram.məkt.	6 aylıq		?[16]
54	Musayev Xəlil	Münxen	Rəsam		1 il	?[17]
	Fransada					
1	Muradov Məhəmməd	Paris	Tibb	imtahanların bir hissəsi	2 il	meşşan
2	Muradov Abbas	--	--	--	2 il	--
3	Hüseyn[bəy]ov Zeynal[abdin]	--	--	--	2 il	--
4	Mustafayev Mustafa	--	Elektr.		2 il	--
5	Nərimanbəyov Yaqub	--	--		2 il	--
6	Cavanşir Əbdülhəmid	--	Kənd təs.	imtahanların bir hissəsi	1 il	--
7	Hacıyev Bayram	--	İqtisad.		5 ay	--
	Şərti qəbul edilənlər:					
1	Bosnalızadə Rəşid	Paris	Hüquq		6 ay	
2	Mirqasımov Abdin	--	--		6 ay	
	Siyahıdan çıxarılanlar:					
1	Vəzirov Aslan					
2	Şahnəzərov Əhməd					
3	Vəkilov Mustafa					
4	Ağayev [Bala]ağa	Paris	Tibb			
	İtaliyada					
1	Əliyev Zeynal	Perucia	Heykəltaraş		6 ay	meşşan
	İstanbulda:					
1	Xələfov Məhəmməd					
2	Tağıyev Əbdürrəhman					
3	Əmin Abid					

88-ci bəlgə

(15 may 1925)

Müəssəf bir irtihal

Son posta ilə Parisdən müəssəf bir xəbər aldıq. Azərbaycan gənclərindən və Paris Ülumi-Siyasiyyə Məktəbi məzunlarından Vəzirzadə Miri bəy mübtəla olduğu vərəm xəstəliyindən rəhayab olamayaraq aylardan bəri çəkdiyi iztirab nəticəsində irtihali-dari-bəqa eləmişdir. Vətənindən uzaq həzin bir şəkildə vəfat edən Miri Azərbaycanın əməlpərvər gənclərindən idi. O, gənc yaşında Azərbaycan istiqlal hərəkətinə olduğu kibi Türkistan hərəkatı-milliyyəsinə dəxi iştirak eləmiş ruhlu bir gənc idi. Ülumi-Siyasiyyə Məktəbinin müvəffəqiyyətlə bitirmiş, fəqət mühacirət həyatının zərurəti içində yakalandığı vərəm kəndisinə aman verməmişdir. Bu üful[1] kəndisini tanıyan bütün vətəndaşlarını mütəəssir və mütəəllim etmişdir. Kədərdidələrini təsəliyyət edəriz.[2]

[1] Qürub, günəşin batması.

[2] *"Yeni Kafkasya"*, 15 mayıs 1341 (15 may 1925), №16, s. 14.

89-cu bəlgə

(1928, sayı 11)

Almaniyada azəri tələbəsinin vəziyyəti

Milli və müstəqil Azərbaycan Cümhuriyyətinin başlıca amalından biri milli hərsi[1] yüksəltmək, bənimsəmək olmuşdur. Əskidən mövcud olan, yeni yetişdirilmiş və Türkiyədən cəlb edilən müəllimlər vasitəsilə Türk lisanı qısa bir zamanda Azərbaycanın hər bir guşəsini istila etmiş və türkcə kitablar rəğbət bulmuş idi. Rus lisanı əskisi kibi yalnız dar bir mühit içərisində mövcudiyyəti mühafizə edərək tədricən unutulmağa başlanmışdı. Hər bir azəri münəvvəri rusca qonuşmaqdan imtina ediyordu. Cəmiyyətlərdə və məclislərdə qonuşmaq isə milli hərsə zərbə olaraq tələqqi ediliyordu. Məhəlli ləhcə və şivə fərqləri gözətmədən İstanbul ləhcəsi (təbii, Rum və fransızca və qismən ərəbcə xaric) məmləkətin yüksək və rəsmi lisanı olaraq qəbul edilmişdir. Darülmüəllimində kamilən, orta məktəblərin ilk siniflərində, darülfünunda türkcə tədrisata başlanmışdı. Binlərcə çocuq və tələbə ana lisanını hörmətlə öyrəniyordu. Milli kütubxanələr vücuda gəlmişdi. Ziya Gökalp, [Məhəmməd Fuad] Köprülüzadə, Məhəmməd Əmin [Yurdaqul], Namiq Kamal, Tofiq Fikrət, [Mahmud Əkrəm] Rəcaizadə, Xalidə Ədib, Əbdülhəqq Hamid kibi üləma ağızdan-ağıza dolaşır və rəsimləri mağazalarda satılıyor, xalq kütubxanə və qiraətxanələrini süsləyirdi. Adəta bir ev yok idi ki, bu möhtərəm zəvatın[2] rəsimlərindən və ya asarından[3] təsadüf edilməmiş olsun. Bu milli hərslə bərabər, ayrıca avropai təhsilin əhəmiyyəti hökumətcə nəzəri-diqqətə alınmış idi. Bu məqsədlə hökumət hər sənə Avropaya yüz tələbə göndərməyə qərar vermiş və ilk qafilə olaraq yüz Türk fəqir tələbə Türkiyə, Almaniya, Fransa və İsveçrəyə[4] göndərilmiş idi. Bu tələbə miyanında[5] türkiyəli və dağıstanlılar da var idi.

Sakin, mürəffə[6] və fəal həyat sürən azəri tələbələrinin təhsili Azərbaycan Cümhuriyyətinin süqutu ilə pək acı bir şəkil aldı. Milli hökumət süqut etdi. Daxili iğtişaşat və bir gunə münaqilat və sükunətin təqərrür edəməməsi zavallı tələbələrin həyatında müəssər[7] oldu. Ac və çıplaq sürünməyə başladılar. Yıllarca davam edən həsrət dövrü bir parça əkmək qazanmaq üçün bir çoklarını ən dun[8] məmuriyyətdə çalışmağa, hətta vapurlarda kömürçülük, əmələlik etməyə sövq etdi. Təbii, bu yüzdən tələbə vəqtində ikmali-təhsil edəmədilər.

Bir kaç zaman sonra bolşevik Azərbaycan milli Azərbaycanın tələbələrinə yardım etməyə qərar verdi. Fəqət rus müstəmləkəsindən başqa bir şey olmayan bu bolşevik Azərbaycanın yardımı tələbələrin əzmini təbdil edəməzdi. Onlar üçün yeni bir dövrə açılmışdır. Əvvəlcə kəndinin milli varlıqlarını, təşkil etdikləri Azərbaycan Türk Tələbə Cəmiyyəti vasitəsilə isbat etdikləri halda, şimdi tamamilə qapadıldı və müqabilində Ümumi Qafqasya Tələbə Cəmiyyəti vücuda gəldi ki, bu cəmiyyətin məqsədi və hədəfi tədricən azərilərı təhsildən məhrum etmək idi. Əksəriyyəti azərilər təşkil etdiyi halda, şimdiyə kadar bu cəmiyyətin məsul bir mövqeyi bir azərbaycanlıya müyəssər olmamışdır. Daima heyəti-idarə Türkiyədən

[1] Mədəniyyəti.
[2] Zatların, şəxslərin.
[3] Əsərlərindən.
[4] Bu kitabdan öyrənəcəyimiz kimi, tələbələri İsveçrəyə göndərmək nəzərdə tutulsa da, həmin ölkə bir nəfəri də qəbul etmədi.
[5] Arasında.
[6] Rifah içində.
[7] Təsirli.
[8] Aşağı, alçaq.

fərar edən ermənilərin və Rusiya yəhudilərinin təhti-yədinə[1] tərk edilmişdir. Hər bir haqq bu zəvata aiddir. Tələbələrin isə ən yüksək mültəcası[2] burası olaraq qəbul edilmişdir. Beləcə azəri tələbəsi hər bir haqqında[3] kəndinə nicat bu ali məqamdan bəkləməli idi.

Yeni üsuli-idarə ilə yeni həyat başladı. Azəri tələbəsi artıq həftədə 3 gecə saat 8-dən 1-ə qədər (bəzən isə səbah saat 3-ə qədər) bu cəmiyyəti ziyarətə məcbur idi. Bolşeviklərə xas qonuşmaq, boşbağazlıq dövrü nəşvü nüma bulmuşdu.[4] Proletar mövzusu elm mövzusundan daha əqdəs idi. Hər qafqasyalı bu cəmiyyətə adəta vergi verər kibi davama məcbur idi. Şayəd bir Türk azəri buraya iki-üç dəfə gəlməzsə dərhal "xainlər"dən və müsavatçılardan məqud idi.[5] Fövqəladə ictimalar dəvət edilir, məhkəmələr qurulur və zavallı azəri Türkün birisi maddi yardımdan məhrum qalıyordu. Şu kadar deyə bilirəm ki, hürriyyəti-sərbəstiyyət naminə bir məfhum qalmamışdı. Bir aralıq azəri türkləri yekdigəri ilə sokakda qarşılaşırkən görüşməz və qonuşmazdı. Şayəd bir məsələ ətrafında qonuşmaq lazım gəlirsə o təqdirdə rusca mükaliməyi tərcih edərdi, zira türkcə qonuşmaq bolşevik ağalarının ədəmi-məmnuniyyətini mövcib ola bilirdi.[6] İstanbul ləhcəsində qonuşmaq isə qeyri-qabil bir xətadan ədd ediliyordu. "Türk klubu"nu ziyarət etmək Ümumi Qafqasya Tələbə Cəmiyyətinin qərarı mövcibincə məmnu[7] olduğu kibi, Anatolu Türküylə görüşmək dəxi şiddətlə təcziyə ediliyordu.[8] Təbii, bu kibi tədabir heyəti-idarəsini işğal edən Türkiyə ermənilərinin və yəhudilərin şah əsəri idi. Qərarı ixlal edən azəri təhsildən məhrum edilərək səfalətə məhkum idi. Zatən məsələnin cövhəri azərilərı sıkışdırmak və adəta intiqam almaq idi. Bunun üçün isə ufaq bir vəsilə[9] lazım idi.

Bu vəsilələr də az deyildi. Bolşevik idarəsinin quruluşundan bir az sonra təmizləmə əməliyyatı başlanıldı. Bu gün iki azəri *müsavatçılıq*, yarın ikisi *əksinqilabçılıq*, bir kaç gün sonra *milliyyətçilik* kibi ləqəblə damğalanaraq tədricən azəri tələbələrinin səhnləri[10] boşalmağa başladı. Burada qeyd edəyim ki, "ləqəb" aramaqda bolşeviklər qədər mahir kimsə yokdur. Boşalan yerlərə isə yeni tələbə qəbul edildi, fəqət bu yeni tələbələr kimdir? Bunu da anlamaq və kəsdirmək müşkül deyildir. Həqiqi azəri tələbəsi üçün "para yok" deyən bu xain heyəti-idarə daşnak firqəsinə mənsub Türkiyə ermənilərindən Vyanada bolşeviklər əleyhinə qəzetə çıkaran Zoryanı azəri bir tələbə olaraq kəndi arasına almışdır. İştə zavallı azəri analarının köküslərindən altunları çalınaraq ermənilərin təhsilinə sərf ediliyor və bir müddət sonra [həmin ermənilər] azəri Türklərinin ağası olaraq Azərbaycana göndəriliyor. Bu kibi kombinozonlar[11] dəfələrlə vaqe olmaqdadır. Gəncə erməni papas'ı[12] olan Mikaelyanın oğlu bütün ömrünü Azərbaycanda keçirdiyi halda, Gürcüstan hökuməti tələbəsi olaraq Almaniyaya təhsil üçün göndərilmiş və bu gün bin mark təxsisat alaraq Almaniyada mürəffəh həyat sürməkdədir, halbuki Azərbaycan və Gürcüstan tələbəsinə "para yokdur" deniliyor.

Əlyövm[13] Qafqasya tələbələr idarəsi iki erməninin idarəsindədir. Kəndilərinin fövqündə heç bir idarə tanımayan bu güruh istədikləri kibi hərəkət ediyorlar. Təsadüfən Azərbaycan

[1] Əlinin altına, ixtiyarına.
[2] Pənah aparılan, sığınan yeri.
[3] Hüququnda.
[4] İnkişaf etmişdi.
[5] Sayılırdı.
[6] Məmnun qalmamasına səbəb ola bilirdi.
[7] Yasaq.
[8] Cəzalandırılırdı.
[9] Kiçik bir bəhanə.
[10] Yerləri.
[11] Kombinasiyalar.
[12] Keşişi.
[13] Bu gün.

sovet hökumətindən gələn əmrlər qalə alınmadığı[1] kibi yırtılıyor və lüzumsuz kağız qəbilindən olaraq səbətlərə atılıyor. Azərbaycan maarif komissarının qulaqları çınlasın.

İştə böylə bir anarşi içərisində bulunan məhrum azəri tələbələrini göz önünə gətirirkən nə kadar dərin acı hiss etdiyimizi düşününüz. Kimsəsiz və şayani-mərhəmət olan bu Türklərə yardım etmək hər bir Türk öhdəsinə tərtib edən vicdani bir vəzifədir. [Onlar] təhsillərini ikmala bir kaç ay qaldığı halda təhsildən məhrum olmaq kibi fəlakət qarşısındadırlar.

Berlin Türkiyə Cümhuriyyəti Böyükelçisi möhtərəm Kəmaləddin Sami paşa həzrətləri kəndi rəyasətində bulunan "Türk klubu" vasitəsilə bəzi azəri tələbələrinə yardımda bulunmaq nəcabətini göstərdilər və bu vəsilə ilə də iki gənci ölümdən xilas etdilər. Bəzi təshilat[2] Almaniya hökuməti tərəfindən də göstərilmişdir. Darmştadtda iki azəri tələbəsi hökumət naminə məccanən iaşə ediliyordu.[3] Berlín Aleksandr fon Humboldt Cəmiyyəti-Xeyriyyəsi də bir-iki azəriyə aylıq təxsisat veriyordu. Məzkur cəmiyyətin müdiri doktor Koppel hər bir müraciətdə azərilərə qarşı olduqca hörmət göstərmişdir. Bu alicənab zəvata, Türkiyə və Almaniya hökumətlərinə Azərbaycan tələbəliyi naminə ərzi-təşəkkür edilməsini vicdani bir vəzifə tələqqi edirəm.

Ə. Uran.[4]

90-cı bəlgə
(1922, №2)

Abdin Mirqasım

Paris postası fəna həvadis gətirdi: Abdin Mirqasım kəndi həyatına qıymış!

Buna kim inanırdı? Kim inanırdı ki, Abdin kibi sakit, bütün koloni arasında nəzakət, iffət və səlaməti-nəfs ilə məruf olan Abdin günün birində mütəvazi odasının içində qanına qəltan olaraq bulunsun?!

Əvət, buna kimsə inanmazdı, inanamazdı!.. Fəqət bu, bir həqiqət, çox fəci bir həqiqətdir. Bu acı həqiqət müvacihəsində duyduğumuz təəssürü izah etməkdən aciziz. Abdin bəyi namuskar bir gənc olaraq tanırdıq. İşbu aqibəti kəndisinə rəva görməsi dahi titiz bir şərəf hiss və idrakının nəticəsi olsa gərəkdir.

Abdin təqribən 42-43 yaşlarında həyata vida etmişdir. Qismi-məxsusumuzda təcrümeyi-halına aid məlumat verilmişdir. Bu məlumatdan görüləcəyi vəch ilə, milli Azərbaycan hərəkatı onun şəxsində çalışqan, mütəvazi, lisanlara aşina, qiymətli bir əməkdarını qeyb etmişdir.

"Odlu Yurd" bu dəyərli əməkdaşının üfulunu çox acı bir təəssür və təəssüflə qeyd edər.

Abdin bəy milli nəşriyyat işlərində ("Yeni Kafkasya", "Azəri Türk", "Azərbaycan" və "Promete"də) 4 sənədən bəri çalışıyordu. Fəqət bizim onunla müarifəmiz çok əskidir. Bir məktəbdə okumuşuzdur. Kəndisini və ailəsini ta çocuklukdan tanırım.

Məfkurə etibariylə məhrum səmimi bir demokrat, milliyətçi və istiqlalçı idi. Bundan bir sənə əvvəl "Müsavat" firqəsinə intisab etmişdi. Bu intisab ilə o, təbiətindəki çəkingənliyi bir növ yenmiş, rəsmi formalitəyi ifa etmişdi. Yoxsa kəndisini daha əski bir müsavatçı kibi də qəbul edə biliriz.

[1] Burada: nəzərə alınmadığı.
[2] Yardım.
[3] Pulsuz yemək verilirdi.
[4] *"Azəri Türk"* dərgisi, 1928, sayı 11, ss. 9-10.

Mərhumun bolşevik istilası üzərinə Avropadan Bakıya dönüşü və oradan təkrar Avropaya gələrək bolşevik məzalimi haqqında qələmə aldığı rapor Azərbaycan tarixinin bu dövrünə aid vəsiqələrdən biridir.

Milli Azərbaycan davasını Azərbaycan mühitində populyar etmək fəaliyyətinin artması zəruri olan böylə bir zamanda məhrum Abdin bəy kibi təlafisi müşkül münəvvər və mücəhəz bir zatı qeyb etmək ayrıca mövcibi-təəssürdür.

Bir münəvvər, bir mühərrir, bir mütərcim, bir vətənsevən, bir məsləkdaş və nəhayət, bir arkadaşın şu aqibəti qarşısında bizə təsəlli verən şey yalnız fərdlərə nisbətlə daha baqi və ölməz bulunan qayənin, milli davanın yaşayacağı və müzəffər olacağıdır.

Yazıq ki, Abdin bu günü görmədən getdi. Onu əfv edəlim, ona rəhmət deyəlim!

M[əhəmməd]əmin [Rəsulzadə][1]

91-ci bəlgə
(1929, №2)

Əsəfli bir irtihal


Azəri mühacirləri
Əsəfli bir irtihal

Azərbaycan münəvvərlərindən Parisdə oturan Abdin Mirqasım bəy keçirdiyi bir böhran nəticəsində kəndinə qıyaraq fəci bir surətdə tərki-həyat etmişdir.

Abdin bəy Bakının seyid ailəsi deyə məruf şürəfasından[2] olub vaktiylə Bakı "Nəşri-Maarif" Cəmiyyəti tərəfindən təhsil üçün İstanbula göndərilib də bairadə Qalatasaray lisəsinə qəbul olunan üç tələbədən təhsilini əliyül-əla qurtarmış olanıdır. Mərhum İstanbulda bitirdikdən sonra davami-təhsil üçün Avropaya gedərək Parisdə hüquq bitirmişdi. Abdin bəy türkçə ilə fransızcadan başqa, farisicə, rusca və bir parça da almancayı biliyordu.

Bir kaç zamandan bəri mərhum mətbuata intisab edərək[3] türkcədən fransızcaya, fransızcadan da türkcəyə tərcümələr yaparaq həm həyatını təmin ediyor, həm də "Promete" və milli Azər. nəşriyyatı kibi mətbuatda iştirakı ilə vətəni bir vəzifə ifa ediyordu. A.b. eyni zamanda frans. müstəşriqlərindən[4] müsyö Masinyon tərəfindən çıxarılan "Revü dü mond musulman" məcmuəsində iştirak ediyordu.

42-43 yaşlarında, məmləkətə daha çox faydalar tokunduracaq bir çağda ikən fəci surətdə dünyadan köçən vətəndaşın dəfni ilə Parisdə mövcud Azərbaycan Cəmiyyəti-xeyriyyəsi məşğul olmuş və bütün Azərbaycan kolonisi cənazəsinin təşyiinə iştirak eyləmiş və son hörmət borclarını ödəmişlərdir.

Azərbaycanlılardan maəda, dəfn mərasiminə qafqasyalı və ukraynalı mühacir kolonilərindən də gələnlər varmış.[5]

[1] *"Odlu Yurt"*, 1929, № 2, s. 60.
[2] Şəriflərindən, şərəfli insanlarından.
[3] Qoşularaq.
[4] Şərqşünaslarından.
[5] *"Odlu Yurt"*, 1929, №2, s. 77.

92-ci bəlgə

(21 noyabr 1938)

Əliyev Abbasmirzə Əhməd oğlunun öz əli ilə yazdığı izahat

1916-cı ilin yazında mən – Abbasmirzə Əliyev Bakı birinci real məktəbini bitirdim və cibimdə yarısını dərs verməklə topladığım və yarısını atamdan aldığım 75 manat pulla Kiyev şəhərinə getdim. Orada mənim xalaoğlum, indi rəhmətə getmiş *Rəhim Axundov* (aqronom) Politexnik İnstitutu bitirmişdi. O, dövlət imtahanlarından keçmişdi və sonra Kiyevdə işləyirdi. Mən onun yanında qaldım və qəbul imtahanlarına hazırlaşmağa başladım. Avqustun sonunda imtahanlar başladı və 1 sentyabradək mən I kursa qəbul olundum. Xalaoğlum işlədiyinə görə maaş alırdı və mənə də hər ay evdən 30-40 manat gəlirdi; ev kirayəsi vermir, yalnız tez-tez yemək pulu ödəyirdim. Birinci il yazadək Kiyevdə yaşadım. 1917-ci ilin fevralında, Fevral İnqilabından sonra [Politexnik] İnstitutu bağladılar və mən başqaları ilə birlikdə Bakıya evə döndüm. Yayı kənddə keçirdim və payızda Bakıya qayıtdım. [1918-ci ilin] mart ayında Bakıda hadisələr baş verdi və mən ailəmizlə birlikdə Bakıdan kəndə getdim, çünki Bakıda aclıq başladı.

Şəhəri Türklər alandan sonra biz başqa vətəndaşlarla birlikdə Bakıya qayıtdıq. Atam kassir kimi işə girdi, mən isə 1897-ci ilin çağırışçısı elan olunduğuma görə çağırışdan yayınmaq üçün Bakı stansiyasında (depoda) çilingər köməkçisi kimi işə başladım və payızda oktyabrdan (iyuldan başlayaraq oktyabra qədər mən qarın yatalağı və qızdırma xəstəliyinə tutulmuşdum) 1919-cu ilin mart-aprelinə qədər işlədim. 1919-cu ilin yazında elan etdilər ki, tələbələr çağırışdan azad edilir və mən getdim, iki-üç aydan sonra Ərzaq İdarəsində qeydiyyatçı işinə düzəldim. 1919-cu ilin payızında – noyabr-dekabr aylarında xaricə göndərmək üçün Rusiyada oxuyan tələbələrin və 1918-19-cu illərdə orta məktəbləri bitirmiş şəxslərin seçilib yığılması elan edildi və mən də başqaları ilə birgə ərizə verdim.

Xaricə oxumağa getmək istəyən bütün tələbələrin ümumi yığıncağı oldu və Büro seçildi. Ona Aslanov Teymur və başqaları başçılıq edirdi.

Mən artıq Kiyevdə I kurs tələbəsi olduğuma görə müsabiqə şərtləri üzrə göndəriləsilər içərisinə düşə bilərdim. Ancaq məndən başqa xalaoğlum, 1918-ci ildə Bakı ikinci gimnaziyasını bitirmiş *İsmayıl Axundov* da vardı. Hər şeydən başqa, tanışlıq da böyük rol oynadığına görə xalaoğlum Rəhim Axundov o zaman koalisyon Müsavat hökumətində hansısa vəzifəni tutan və tələbələrin seçilməsi üzrə komissiyanın üzvü olan *Pepinov Əhmədə* müraciət etdi.

Pepinov Əhməd sonralar Xalq Maarif Komissarlığı kollegiyasının üzvü, xalq komissarının müavini və Azərbaycan SSR Dövlət Plan Komitəsi Rəyasət Heyətinin üzvü oldu. 1937-ci ildə o, Rəyasət Heyətinin başqa üzvləri ilə birlikdə həbs edildi və Ulyanovska (keçmiş Simbirskə) sürgün edildi. Nəhayət, dekabr ayında siyahıya düşənləri və namizədləri elan etdilər.[1] Mən namizədlər arasındaydım, ancaq bir neçə nəfər imtina etdiyinə görə siyahıya düşdüm. Xaricdə təhsil almaq həm mənim üçün, həm də hamı üçün gələcəyə böyük umudlar vəd edirdi, çünki müstəqil təhsil almağa pul yox idi, haçan olacağı və oxumağa hara getməyin mümkün olacağı da bilinmirdi.

[1] Burada yanlışlıq var. 100 nəfər dövlət təqaüdçüsü və təqaüdə namizədlərin birgə siyahısı "Azərbaycan" qəzetinin 24 oktyabr 1919-cu il tarixli 228-ci sayında dərc edilib. Burada Abbasmirzə Əliyevin adı namizədlər içərisində deyil, təqaüdçülər içərisində 43-cü yerdədir. 18 dekabr 1919-cu ildə "Azərbaycan" qəzetində 100 təqaüdçünün son siyahısı verilib.

Bütün bunlar hədsiz pis şəkildə təşkil edilmişdi. Yanımızda nə bir nəfər müfəttiş vardı, nə nəzarətçi, nə də bizi yerləşdirəcək şəxs. Yanvar ayının ortasında biz 87 nəfərlik bir dəstə Batuma getdik (elan üzrə yığılmış 100 nəfərdən 13 nəfər yuxarı kurs tələbələri idi və onlar təhsillərini bitirmək üçün RSFSR-ə getməli idi),[1] "Frans İosif" paroxoduna mindik və Taranto[2] şəhərinə, oradan da qatarla Neapoldan keçməklə Romaya getdik.[3]

R[əhim] Axundov Əhməd Pepinovla dost idi. Şəxsən mən heç bir partiyanın, o sıradan Müsavat partiyasının da üzvü olmamışam.

Hökumətin oxumaq üçün xaricə 100 tələbə göndərmək qərarı bundan irəli gəlirdi ki, Gürcüstan menşevikləri Almaniyaya bir dəstə tələbə göndərmişdilər və ümumən müsavatçılar menşeviklərdən çox şeyi təqlid etməyə çalışırdılar.[4] Bundan başqa, Bakıda əksəriyyətinin Rusiyada oxuduğu və "inqilaba yoluxduğu" çoxlu tələbənin olması və onlara vəzifələr verilməsi qorxulu idi (Azərbaycanda sovetləşmə ilə nəticələnən çevrilişə başçılıq etmiş şəxslər arasında tələbələr Hüseynov Mirzədavud, Qarayev Əliheydər və b. vardı).

Deməli, tələbələrin bir hissəsi Fransaya, bəziləri Avstriyadan keçməklə Almaniyaya (bu qrupda mən, *[Hüseyn] Şeyxiyev, Məmmədov Qəhrəman* və b. vardıq) getdi. Münxenə gələrək biz öncə burada qalmaq istədik, ancaq [Almaniya] Maarif Nazirliyindən bizə bildirdilər ki, Qafqazdan olduğunuza və bolşevizm ruhu ilə yoluxduğunuza görə Bavariya hüdudlarında yaşaya bilməzsiniz və 48 saat içərisində buranı tərk etməlisiniz. Əlimizdən heç nə gəlmirdi vəŞtutqarta, oradan da Berlinə getdik. Aprel ayında Berlinə çatdıq və tələbələrə kirayə verilən müxtəlif mənzillərdə tək-tək yerləşdik.

Mayın başlanğıcında qəzetlərdə Azərbaycandakı çevriliş haqqında oxuduq. Bir çoxları sovetləşmə haqqında xəbəri sevinclə qarşıladı.

Parisdə Versal konfransının iclası gedirdi və tərkibinə başda Parlamentin sədri, Dövlət Dumasının keçmiş üzvü *Topçubaşov* olmaqla müsavatçıların daxil olduğu Azərbaycan Sülh Heyəti də bu konfransa gəldi. Bizi xaricə göndərərkən Müsavat hökuməti tələbələrin oxumasına müşahidə, nəzarət və maliyyələşdirməni [Azərbaycan Sülh Heyətinə] tapşırmışdı. Fransaya gedən tələbələr dəstəsindən bir çoxu Almaniyaya keçmişdi. Parisə gedərkən bu tələbələr təntənə ilə qarşılanmış və onları yaxşı otellərdə[5] yerləşdirmişdilər. Sonra Heyət tələbə pullarından buna çəkilən xərci çıxmışdı.[6]

[1920-ci il] mayın ilk günlərində ümumi yığıncaq çağırıldı və Azərbaycan İnqilab Komitəsinə təbrik teleqramı göndərildi; onu imzalayanlar içərisində mən də vardım. Sonra biz Sülh Heyətinin hansısa neft sahələrini satdığını öyrənib bizə verilməli olan pulları tələb etdik. Ancaq Sülh Heyəti cavab verdi ki, o, artıq bizim haqqımızda fikirləşmək istəmir, çünki biz Bakıya [Sovet hökumətinə] müraciət etmişik və pulu da oradan ala bilərik. Buna cavab olaraq Sülh Heyətinə ultimativ tələb göndərdik ki, pullarımız verilsin, yoxsa nə edəcəyimizi özümüz bilərik. Bu sənədi Məmmədov Qəhrəman, mən və ümumi yığıncağın rəyasət heyətinin başqa üzvləri imzaladıq.

[1] A.Əliyev 87 nəfəri 100-dən 13 çıxmaqla alıb, ancaq bu, doğru rəqəm deyil, çünki adları siyahıda olan 87 nəfərdən 3-ü (Sədəddin Hacı Həsən əfəndi oğlu, Abdulla Tahirzadə və Əbdürrəşid Bosnalızadə) Türkiyədə, 1-i (Rəşid bəy Topşubaşov) Parisdə idilər.

[2] İtaliyadakı Trento şəhərinin adı müxtəlif qaynaqlarda çeşidli biçimlərdə yazılıb.

[3] Müəllif Batum-Trento yolu arasında keçdikləri Trabzon və İstanbul şəhərlərinin adını qəsdən "unudub".

[4] Bu və bir neçə başqa cümləni A.Əliyev müstəntiqin xoşuna gəlmək üçün yazıb. Cümhuriyyətin xaricə tələbə göndərmək qərarı ölkənin öz daxili ehtiyaclarından doğmuş mühüm ümumdövlət məsələsi idi və onu təqlidçiliklə bağlamaq qeyri-ciddi yanaşmadır.

[5] "Yena" və "Belmont" otellərində.

[6] Otellərdə qalmaq üçün də təqaüdçülərə dövlət ayrıca vəsait ödəmişdi, ona görə də Sülh Heyətinin bu pulu onlardan çıxması təbiidir.

Bundan sonra Heyətin üzvü *[Abbas bəy] Atamalıbəyov* Berlinə gəldi və birmi, ikimi aylıq pulumuzu, eləcə də [Bakıya] geriyə dönmək üçün yolpulu verdi.

[1921-ci ildə] Azərbaycan İnqilab Komitəsindən necə hərəkət etməli olduğumuzu soruşduq, cavab aldıq ki, yardım gözləyin və nümayəndələr göndərin. Ümumi yığıncaqda *Axundov Səməndər* və *Əliyev Əşrəf* nümayəndə seçildilər, mən namizəd oldum. Göndərmə üzrə komissiyaya *Əliyev Əliəkbəri*, məni və başqa yoldaşları seçdilər.

Biz Berlində RSFSR-in qeyri-rəsmi nümayəndəsi kimi yaşayan yol. Koopu axtarıb tapdıq; o dedi ki, nümayəndələriniz üçün mandatlar hazırlamalısınız və onları vətənə gedən hərbi əsirlərlə birlikdə göndərməyiniz mümkün olar. Belə də etdik. [19]20-ci ilin[1] yayında nümayəndələrimiz rus hərbi əsirlərinin eşalonunda RSFSR-ə getdilər. İndi nümayəndələri gözləmək qalırdı, ancaq nə qədər gözləyəcəyimizi bilmirdik.[2]

Mən Berlindən yoldaşım [Məhəmmədəmin] Əfəndiyevlə birlikdə Eysleben şəhərinə getdim. Eysleben şəhəri Orta Almaniyada yerləşir. Orada ucuzluqdur. Biz Berlin Dağ Cəmiyyətinin məktubuna əsasən orada yerləşdik, dedik ki, tələbəyik və Dağ İnstitutuna girmək istəyirik. Təcrübəçi kimi kalium şaxtasına işə düzəldik. Burada mən gündə 32 marka alaraq şaxtaçı kimi üç aydan artıq işlədim. Həmin pulun yarısı pansionu ödəməyə gedirdi, yarısı isə özümə qalırdı.

Hələ Berlində olduğumuz zaman *Mirzə Hacızadə, [Hilal] Münşiyev* türkiyəli mühacirlərlə, o sıradan Sultan Türkiyəsinin keçmiş naziri *Tələt paşa* ilə (sonralar 1921-ci ilin yazında Berlində terrorçu təşkilatın öldürdüyü) maddi yardım haqqında danışıqlara girişiblər və o, Münşiyevin dediyinə görə, maddi yardım göstərməyə söz verib, ancaq bu danışıqlar, nədənsə, nəticəsiz qaldı. Danışıqlara mayın əvvəlindən başlanmışdı.

Nəhayət, 1920-ci ilin[3] dekabrında xəbər çatdı ki, nümayəndələrimiz və onlarla birlikdə sovet hökumətinin təyin etdiyi müfəttiş də gəlir.[4]

[1922-ci ilin] yanvarında nümayəndələrimiz Axundov Səməndər və Əliyev Əşrəf gələrək xəbər verdilər ki, Azərbaycanın sovet hökuməti xalçalar, ipək və kürü ayırıb və onları sataraq pullarını tələbələrə verməyi həkim Axundov Bəhrama tapşırıb. Həkim Axundov İstanbulda malları satıb və pulları Parisə aparıb, orada xəstələnərək düz 1 ay xəstəxanada yatıb. Həkim Axundov [Berlinə] gəldiyi zaman biz ondan xahiş etdik ki, məruzə etsin və ayrılmış malları necə, hansı qiymətə satması haqqında bizə məlumat versin. (Çünki nümayəndələrimiz danışırdılar ki, mallar ucuz satılıb). Ancaq o, bundan qəti imtina etdi və bizə 6 aylıq pul verərək getdi.

---

[1] Müəllif yanılır – bu işlər 1920-ci deyil, 1921-ci ildə baş verib.

[2] S.Axundov və Ə.Əliyev artıq 1921-ci ilin iyununda Bakıda olaraq Nərimanovla görüşüblər. Bundan sonra o, Bəhram bəy Axundovu 18 iyunda tələbələrin işi üzrə müvəkkil təyin edib. B.b.Axundov bu nümayəndələrlə birlikdə 2 iyul 1921-ci ildə Bakıdan çıxaraq Batuma gəlib, ancaq nəzərdə tutulmuş "valyuta malları"nı (xalça, ipək, kürü) burada ona vermədiklərinə görə Ə.Əliyevi məruzə ilə yenidən Bakıya – Nərimanovun yanına göndərib, özü isə İstanbula gəlib. Ə.Əliyev lazımi təchizatla İstanbula 15 sentyabrda dönüb. Bundan sonra onlar Parisdən keçməklə dekabrın ortasında Berlinə çatıblar (bax: ARDA, fond 410, siyahı 1, iş 342, vərəq 3).).

[3] Yanlışdır – "1921-ci il" olmalıdır.

[4] Bəhram bəy Axundov 2 mart 1922-ci ildə XKŞ-na yazır: *"Nümayəndələr bundan sonrakı təhsillərini davam etdirməkdən ötrü hökumətin onları vəsaitlə təmin etməsini xahiş etmək üçün Bakıya gəlmişdilər, çünki Parisdəki keçmiş Azərbaycan hökumətinin [Sülh] Heyəti onlara vəsait buraxmaqdan imtina edərək üzülüşmə pulu verib və onlardan bu haqda iltizam alıb ki, Heyətin bundan sonra onlarla heç bir işi yoxdur. Mən də elə onların vəziyyətini dəqiq aydınlaşdırmaqdan ötrü göndərilmişdim"* (bax: ARDA, fond 410, siyahı 1, iş 342, vərəq 3). Bəhram bəy və nümayəndələr Berlinə 17 dekabr 1921-ci ildə çatıblar (bax: yenə orada, vərəq 5).

Bir qədər sonra biz ikinci nümayəndə *Cəfər Kazımovu* göndərdik; o, bizə möhürlənmiş zərfdə brilyantlar və qızıl əşyalar gətirdi. Bu zərf komissiyanın iştirakı ilə açıldı və brilyantlar satıldı.

Beləliklə, [19]22-ci il gəldi, bu vaxt artıq bizim Berlində Ticarət Nümayəndəliyimiz də yarandı. Ticarət Nümayəndəliyində isə ZSFSR-in Xalq Komissarları Şurasının nümayəndəsi *Pirumov* idi. O, bizə bildirdi ki, bundan sonra pulları mənim vasitəmlə alacaqsınız.

Gürcüstan, Azərbaycan və Ermənistan təqaüdçü tələbələrinin ümumi yığıncağı çağırıldı və bu yığıncaqda Mərkəzi Büro seçildi. Büro yalnız tələbələrin işini aparmalı deyil, həm də ayrı-ayrı tələbələrin uğurları və onların davranışları haqqında məlumat toplamalı idi. Mərkəzi Büroya seçilənlər içərisində mən də var idim və bir müddət katib kimi işlədim.

Sonra Pirumov Parisə təyin edildi, onun yerinə *Aqniaşvili* gəldi. Göstərmək gərəkdir ki, ZSFSR yarananadək Ticarət Nümayəndəliyində Azərneftin nümayəndəliyi vardı və pulları işçilərdən biri olan mühəndis *Əliyev İbad* verirdi. (Bu, Pirumovadək olmuşdu).

Mən öncə Berlin Politexnik İnstitutuna girdim, ancaq sonra anamın xəstəliyi, təhsili bitirməyə pulumun çatmayacağı qorxusu və ağciyərliyimdən Kommersiya İnsitutuna keçdim və oranı 1924-cü ildə bitirdim. Berlində olduğum ilk vaxtlar *[İsgəndər bəy] Sultanovla* dostlaşdım, ancaq onun tez-tez içkili olduğunu, nizamsız həyat sürdüyünü və məni də buna sürüklədiyini görüncə ondan uzaqlaşdım.

1921-ci, yaxud 22-ci ilin sonunda Berlinə *Əmircanov Əliyar* gəldi; o oxumaq üçün RSFSR-ə getməli olan 13 tələbədən biri idi.

Yeri gəlmişkən, 100 tələbədən:

13 nəfər Bakıda qaldı;

9 nəfər İstanbulda qaldı və çevrilişdən sonra çoxları Bakıya qayıtdı;

2 nəfər İtaliyada;

27 nəfər Fransada;

49 nəfər Almaniyada oxudu.

Biz gələndən sonra Əmircanov Bakıda qalmışdı. Ancaq sonra Moskvaya getdi və Ankaradan gəlmiş Türkiyə Nümayəndəliyində tərcüməçi kimi işlədi.

Ankaradakı Sovet Nümayəndəliyində də bakılı dövlətli həkim *Əbdülxalıq Axundovun* oğlu *Axundov Yusif* işləyirdi. Axundov və Əmircanov Bakıdan tanış və dost idilər. Mən isə onların ikisini də tanıyırdım.

Berlində Əmircanovla qarşılaşdım. O, dayısı *Əliyev İsmayılın* yanında qalırdı. Danışırdı ki, Moskvada işləyib, yaxşı qazanıb və oxumağa gəlib. Əmircanov, görünür, Moskvadan tək gəlməmişdi. Söhbətdə o, köhnə hərbçi olan hansısa bir Türkü əsl əyyaş kimi xatırlayırdı. Bu Türk də Almaniyaya, deyəsən, müalicə olunmağa gəlmişdi. Onunla Əmircanovun nə münasibətində olduğunu bilmirəm. Onunla tez-tez görüşüb-görüşmədiyini deyə bilmərəm.

Bilirəm ki, Berlinə gəldikdən sonra Əmircanov bir qızla əylənirdi və az qala bütün vaxtını ona sərf edirdi. Mən bəzən onu görürdüm. Onu alman dili kurslarına düzəltməyimi xahiş etdi və mən buna yardımçı oldum. Sonralar mənimlə Əmircanov arasındakı münasibətlər soyudu, çünki Əmircanov ZSFSR Tələbələri Mərkəzi Bürosuna ona təqaüd verilməsi xahişiylə ərizə verdi. Mən bu ərizəni dəstəkləmədim. Bilirdim ki, onun pulu vardı, ancaq onları borc vermişdi, o da bu pulları qaytarmamışdı. Əmircanovun dayısı (anasının qardaşı, İran təbəəsi İsmayıl Əliyev) inqilabadək Moskvada yaşayıb. Onun böyük xəz, yaxud ipək ticarəti vardı.

1922-ci ildə Berlinə Axundov Yusif gəldi və Əmircanov onunla dostlaşdı. Bu vaxt mən öz sahibəmin yanında yaşayırdım və yemək-içməyim də orada idi. Sahibəm 1923-cü ildə tələbələrimizin də yediyi ev yeməkləri hazırlamağa başladı; onun yanında nahar edənlər içərisində *[Əliyar] Əmircanov, [Yusif] Axundov, [Məhəmməd] Rəhimli, [Yusif] Ağasıbəyli, [Behbud] Zeynalov* da vardı. Sahibəmin yanında nahar etmək bizə çox sərfəli idi. O, bizdən alman pulları alırdı. Biz həftənin sonunda dolları dəyişirdik və ona alman pulları verirdik; alman pulları çox ucuzlaşdığına görə bu, çox əlverişli idi. Axırda sahibə işi başa düşdü və alman pullarına yemək verməkdən imtina etdi.

Mən [təhsilimi bitirib] viza və yol pulunu 1925-ci ilin fevralında aldım. Moskvaya getdim. Təhsilini bitirmiş tələbələrdən *[Mirismayıl] Seyidli* də alman arvadı ilə mənimlə birgə idi. Moskvaya gəlincə yeni "Moskva"-mehmanxanasında qaldım və xəstələndim. Seyidli isə arvadıyla Bakıya getdi. Mən sağalınca Zaqafqaziya Nümayəndəliyinə yol. Ter-Qabrielyanın yanına getdim. O, mənə yol pulu verdi və mən Bakıya gəldim.

Bakıya gəlincə mən Berlindəki Nümayəndəliyin verdiyi vəsiqə ilə Azərbaycan K(b)P MK-ya getdim. I katib mərhum Sergey Mironoviç Kirov idi. O, məni dinlədi və yol. [Ruhulla] Axundovun üstünə göndərdi. O isə mənə Sənaye Bankının direktoru yol. Boqanovun adına məktub verdi. Mən haqq-hesab kassaları bölməsi müdirinin köməkçisi vəzifəsində işə başladım. Haqq-hesab kassaları pambıq şirkətinin maliyyələşdirilməsini aparırdı və mən tez-tez pambıq zavodlarına, rayonlarda məntəqələrə gedir, orada kassalar təşkil edirdim. İl yarımdan sonra haqq-hesab kassaları və sənaye bankı ləğv edildi. 1927-ci ilin yayında mən müvəqqəti olaraq Azərbaycan Dövlət Kino İdarəsinə və oktyabrda eyni zamanda Azərbaycan Dövlət Plan Komitəsinə iqtisad bölümünün üzv əməkdaşı kimi işə düzəldim, 1928-ci ilin 1 yanvarından daimi işə keçdim və 1934-cü ilin yayınadək işləyərək öz istəyimlə çıxdım. Sonra mayda "Torqsin"in[1] Azərbaycan kontorunda plan-maliyyə bölümünün rəisi vəzifəsində işə girdim, 3 ay işləyərək Moskvaya daimi işə getdim.

1931-ci ildə Dövlət Plan Komitəsinin sədri *Teymur Əliyev* idi. Onun vaxtında Plan Komitəsinə *Levon Mirzabekyan, Əsgər Eyvazov* və b. işə götürüldülər. Sonra Əliyev işdən çıxarıldı. Bu vaxt mən Dövlət Plan Komitəsinin Mərkəzi Plan Bürosunda işləyirdim və mənə sosial-mədəni bölümə işə keçmək təklif olundu. Bu bölmənin sədri Eyvazov təyin edildi. Mən keçməkdən uzun müddət imtina etdim ki, maarif və səhiyyənin planlaşdırılması ilə yetərincə tanış deyiləm. Axırda əmrlə Dövlət Plan Komitəsi sosial-mədəni bölümü sədrinin müavini təyin edildim və bildiyim mənzil-kommunal quruculuğunu üzərimə götürdüm. Maarif üzrə məsul icraçı vəzifəsinə yol. *Seyidbəyli*, səhiyyəyə isə yol. *Qalperin* dəvət edildilər.

Ancaq tezliklə Eyvazovla mənimki tutmadı. Axırda o işi o dərəcəyə gətirdi ki, müavinlikdən imtina etməyə məcbur oldum və o, mənzil-kommunal quruculuğu üzrə məsul icraçı oldu. Sonralar Dövlət Plan Komitəsinin sədri *Zarafyan, Fərəzadə* təyin edildilər. Eyvazov isə sədrin müavini oldu.

Azərbaycan xalq təsərrüfatının nəzarət rəqəmlərinin mərkəzi İttifaq təşkilatlarında qeydə alınması ilə Eyvazov məşğul idi. O, bir dəstə əsas işçilərlə birgə Tiflis və Moskvaya getmişdi. Bu, səfərlər tətil dövrünə düşdüyünə və artıq xərclərə səbəb olduğuna görə çoxları səfərə getməyə həvəssiz razı olmuşdu, ancaq tabe olmağa məcbur idilər. Moskvada mən Eyvazovla və Plan Komitəsinin başqa işçiləriylə birgə 3, yaxud 4 dəfə olmuşam. Hər dəfə o, bizi səhərdən axşamadək Plan Komitəsində saxlayıb, sonra isə mehmanxanada axşam və gecə

[1] 1931-1936-cı illərdə mövcud olmuş Xarici Ticarət üzrə Ümumittifaq Birliyinin rusca adının qısaltmasıdır.

SSRİ Dövlət Plan Komitəsi bölümlərinin bizim hansı rəqəmlərimizi qəbul etdiyini, yaxud limitlərdə hansı ixtisarlar və artırmalar olduğunu məruzə etməliydik. Onunla Moskvada olarkən biz heç olmasa teatra, yaxud kinoya getmək imkanından məhrum idik.

Dövlət Plan Komitəsində işləyəndə mən başqa işə keçmək üçün çoxlu təkliflər alırdım. Ancaq çoxdan getmək istəsəm də Eyvazov kimsəni buraxmırdı. Axırda onun yoxluğundan istifadə edərək məzuniyyət haqqında ərizə verdim, məzuniyyət alınca da işdən çıxmaq haqqında ərizə yazdım və "Torqsin"ə keçdim. Ancaq öyrəndim ki, o, yəni Eyvazov Dövlət Plan Komitəsinin və Xalq Komissarları Şurası sədrinin müavini olduğuna görə məni və ümumiyyətlə, kimi istəsə oradan da Plan Komitəsinə gətirdə bilər. Buna görə də Moskvaya köçməli oldum.

Bir qədər keçdikdən sonra Moskvada öyrəndim ki, Ümumittifaq Mədən Kooperasiyası Şurasında Azərbaycan Mədən Kooperasiyası Şurası nümayəndəsi yeri boşdur, mən oraya ərizə verdim və bu vəzifəyə götürülərək Moskvaya göndərildim. Moskvaya gəlincə bu vəzifəni öz sələfimdən qəbul edərək dörd aydan artıq işlədim.

1 yanvarda Zaqafqaziya Diyar Komitəsinin qərarı ilə bütün nümayəndəliklər ləğv edildi və mənə təklif edildi ki, yazışmanı Zaqafqaziya Nümayəndəliyinə verim, pul hesabatını isə Bakıya göndərim. Zaqafqaziya Nümayəndəliyinə sənədləri verərkən avadanlıqlar üzrə məsul icraçı kimi onların yanında işləmək təklifi aldım və buna razılaşdım. Zaqafqaziya Nümayəndəliyində 1936-cı ilin mayınadək işlədim, qarşıdan ləğvolunma gəldiyinə və son vaxtlar işlədiyim şöbə ləğv edildiyinə görə mən ştat ixtisarı səbəbindən işdən çıxarıldım və 1935-ci ilin yayında yaxşı işimə görə mükafat kimi mənə verilmiş otaqda yaşamağa başladım.

1936-cı ilin iyun ayında mən inşaat üzrə iqtisadçı işinə düzəldim.

21 noyabr 1938-ci il. *(A.Əliyevin imzası).*[1]

93-cü bəlgə

(1960-cı illərin sonu)

Abbas bəy Atamalıbəyov (1895-1971)
Siyasi mühacirin xatirələri
(Qısaltmalarla)[2]

...Görkəmli siyasi xadim, Parlamentin deputatı, sağ eser Abbas bəy Seyfulla bəy oğlu Atamalıbəyovun xatirələrini mənə oğlu, keçən ilin iyununda uzun ayrılıqdan sonra ailə üzvləri ilə birlikdə ana vətəni və doğmalarını görməyə gəlmiş Qalib bəy Atamalıbəyov ("Galib Alibeckoff") vermişdi. (Bax: "Ayna", 7 iyun 2002-ci il sayı). Onun bildirdiyinə görə, atası bu xatirələri ömrünün qürub çağında fransızca qələmə almış, lakin ömür vəfa etmədiyindən yarımçıq qalmışdır. Atasından sonra Qalib bəy bu xatirələri fransızcadan ingiliscəyə çevirmişdir.

İlk dəfə "Ayna – Zerkalo"nun səhifələrində işıq üzü görən bu xatirələrin müəllifi haqqında qısa arayış verməyi lazım bilirəm.

...Hələ Müvəqqəti Hökumət zamanından Yelizavetpol (Gəncə) general-qubernatoru İbrahim ağa Vəkilovun qızı Reyhan xanımla Peterburqdan Tiflisə gəldiyi vaxt – 1917-ci ildə evlənir.

Abbas bəy Atamalıbəyov Azərbaycandan Paris Sülh Konfransına göndərilən birinci nümayəndə heyətindən xeyli sonra – 1920-ci ilin əvvəllərində baş katib sifətilə xaricə yola

[1] AR MTN arxivi, PR-22247, vv. 16-25.

[2] Bu mətnin ana dilimizə tərcüməsi İsmayıl Umudlunundur. Mətnin əldə edilməsinə yardımçı olmuş hörmətli İsmayıl bəyə minnətdarlığımızı bildiririk. – *Ə. T., O. T.*

düşəndə (menşevik Məmməd Məhərrəmovun yerinə) ailəsini də özüylə aparmışdı. Heç 3 ay keçməmiş Bakıda çevriliş olduğu (sovet Rusiyası qoşunlarının Azərbaycanı işğal etdiyi xəbəri gəlmişdi) beləcə qürbətdə qalmağı üstün tutumuşdular. Onlar müharibə başlanana qədər bu şəhərdə yaşamışlar.

Bu dövrdə Azərbaycanın Qərbi Avropada cəmləşən siyasi mühacirətinin ən fəal xadimlərindən biri sayılan Abbas bəy burada M.Ə.Rəsulzadəyə müxalif olan qrupa mənsub idi. Abbas bəy sonrakı illərdə bizneslə məşğul olmuş, "Revyü de Prometey", eyni zamanda, "O" jurnalı ilə əməkdaşlıq etmiş, burada cənubi Qafqaza dair məqalələr dərc etdirmişdir. İlk prezidentimiz Əlimərdan bəy Topçubaşovun vəfatından sonra mühacirətin "Paris qrupu"na, əslində, Abbas bəy rəhbərlik edirdi. Müharibə illərində Qırmızı Xaç Komitəsində çalışaraq azərbaycanlı əsirlərin xilası yolunda müəyyən işlər görmüşdür. Burası da bəllidir ki, bir ara Berlində işləmiş, Azərbaycan legionu ilə Hitlerin ordu qərargahı arasında rabitə saxlayan üçlüyün tərkibinə daxil olmaqla, burada SD hissələrindəki legionları təmsil etmişdir. Eyni zamanda siyasi fəaliyyətini də davam etdirmişdir. Xüsusən də general Şulenburq, Rozen və başqaları ilə etimadlı münasibətləri olmuşdur.

Abbas bəyin 1944-cü ilin oktyabrında Qafqaz Şurasının yaradılması təşəbbüscülərindən biri kimi müharibədən sonrakı dövrdə antisovetizm zəminində Azərbaycan davasını davam etdirənlərlə bir sırada dayanmaqda olduğunu bilirik. Qalib bəy 1947-ci ildə atasını Lozannaya – Qafqaz Şurasının toplantısına müşayiət etdiyini, orada ilk dəfə milli davamızın ideoloqu Məhəmmədəmin Rəsulzadəni gördüyünü xatırladı.

Müharibədən sonrakı illərdə Çilidə (Santyaqodan 100 km aralıdakı Yeol şəhərində) yaşamışlar. 1966-cı ildə arvadı Reyhan xanım Çilidə vəfat etdikdən sonra Misirin İsgəndəriyyə şəhərinə – burada beynəlxalq şirkətdə çalışan oğlunun yanına köçmüşdür. 1967-ci ildə ailəlikcə ABŞ-ın Klivlend şəhərinə köçmüşlər və Abbas bəy uzun sürən ağır xəstəlikdən sonra 1971-ci ildə bu şəhərdə dünyasını dəyişmiş, burada ailəyə məxsus sahədə torpağa tapşırılmışdır. Vəfatından az əvvəl fransızca yazmağa başladığı, yorulanda maqnitofona diqtə etdiyi, o vaxtlar lap uşaq olmuş nəvələri Domenik (Abbas, 1962) və Tamaraya (Mari, 1969) ünvanladığı xatirələri yarımçıq qalmışdır. Qalib bəy özü ingilis dilinə çevirdiyi bu xatirələri çap olunmaq üçün "Ayna – Zerkalo" qəzetlərinə əmanət etdi. Oğlu atasının türkcə və rusca yazılmış, dəftərxana rəisi Məhəmməd ağa Vəkilov tərəfindən imzalanmış Azərbaycan Cümhuriyyəti Parlamentinin 14 saylı vəsiqəsini, atasının yazıları dərc edilmiş qəzet və jurnalları əziz bir xatirə kimi saxlayır və onları özü ilə Bakıya gətirmişdi.

İsmayıl Umudlu.

* * *

Mənim sevimli nəvələrim! Mən bunu sizlər üçün nağıl edirəm. Bu yazdıqlarımdan mən artıq dünyada olmayanda xəbər tutacaqsınız. Atanız Qalib, sizin öz mənşəyiniz və ailənizin tarixçəsi haqqında təsəvvürünüz olsun deyə bu yazıları moqnitofona diqtə etməyimi xahiş etdi. Siz bilməlisiniz ki, olduqca qədim və nəcib bir soydansınız. Bütün həyatınız boyu heç vaxt öz soyadınıza ləkə vurmamalısınız. Təəssüf ki, bizim nəslin tarixçəsini təsvir etməkdən ötrü əlimdə dəqiq məlumatlar yoxdur. Məndə olan bütün məlumatlar pərakəndə haldadır və yaddaşım da artıq o yaddaş deyil. Ailəmiz haqqında sizə danışmaq istədiyimi – bütün bilgiləri öz nənəmdən, Şərəfxan bibimdən (bizim nəcib soydan olmağımız məsələsində onun fikri birmənalı idi), atamdan və ruhani Əbdürrəhim əfəndidən almışam (onda bizim ailəyə dair doğum, evlənmə və digər hadisələrin tarixlərinin yazılmış olduğu dəftər vardı). Böyük həyəcanlar – rus bolşeviklərinin hücumu bizim diyarı sarsıtdığı günlərdə onlar hər şeyi yandırdılar və indi bizim hakimiyyətin dolğun tarixçəsi haqqında ayrı-ayrı məlumatları bir yerə

toplamaqdan ötrü heç bir mənbə qalmamışdır. Ola bilsin, siz mənim yaddaşımda qorunub saxlanan məlumatları eşitməkdən məmnun qalacaqsınız.

Öz ailəmiz haqqında danışmağa başlamazdan öncə mən sizin ölkənizin tarixi haqqında bir neçə söz demək istərdim. Ölkənizin adı Qafqazdır və bu diyarın tarixi çox-çox qədimlərə gedib çıxır. Qafqazın adı yunan əfsanələrində, Bibliyada və s. qədim qaynaqlarda çəkilir. Prometeyi xatırlamaq kifayətdir. O, allahlardan odu oğurlayıb insanlara apardığına görə Qafqaz dağlarında qayaya zəncirlənmişdi. Arqonavtları xatırlayın. Onlar Qızıl yun dalınca Kolxidaya (indiki Abxaziyaya) gəlmişdilər. Qoq və Maqoq[1] ölkəsi Qafqaz dağlarına qədər uzanırdı. İran şahları (bir məlumata görə Kir, digər məlumatlara görə Dara) tərəfindən inşa edilmiş və Makedoniyalı İsgəndər tərəfindən yenidən qurulmuş məşhur Dəmir Qapılar Qafqaz dağları silsiləsi ilə Xəzər dənizi arasındakı dar keçiddə, indiki Dərbəndin (bu adın türkcəyə tərcüməsi "Dəmir Qapı" deməkdir) yaxınlığında yerləşir. Bu yerdə ingilis misirşünası ser Flinders Petrini xatırlamaq yerinə düşər. O bildirirdi ki, ilk taxıl Misir ölkəsinə Allah Osiris tərəfindən hədiyyə edilmişdir. Petrinin yazdığına görə, taxıl Qafqaz mənşəlidir. Bu da düşünməyə imkan verir ki, Osiris də qafqazlıdır və misirlilərə taxıl gətirdiyinə görə onların Allahına çevrilmişdi.

Mən Qafqazın bütün tarixini geniş danışmayacağam. Bu heç mümkün də deyil. Yalnız onu xatırlatmalıyam ki, bir neçə min il ərzində bizim diyar farsların, romalıların, ərəblərin, türklərin, Çingiz xanın, Əmir Teymurun, Ağqoyunlu və Qaraqoyunluların yürüşlərinin şahidi olmuşdur. İndinin özündə də Azərbaycanda Ağqoyunlu və Qaraqoyunlu adlı kəndlər var. Bir zamanlar Qafqaz İran və Türkiyə arasında müharibə meydanına çevrilmişdi. 18-ci yüzilin sonlarında başlanan rus işğalı 1875-ci ildə Qafqaz sakinlərinin (özəlliklə də Şimali Qafqaz və Dağıstan əhalisinin) güclü müqavimətindən sonra yekunlaşdı. 1917-ci il inqilabından sonra Qafqaz yenidən qısa bir müddət ərzində (3 il) müstəqil oldu, lakin çox zəif və parçalanmış olduğundan rus kommunistlərinin müdhiş qüvvələri qarşısında duruş gətirə bilmədi və azadlığını itirdi. Qafqaz sakinlərinin bu qədər müdaxilələrdən sonra hər dəfə öz azadlıqlarını qaytardıqlarını göstərən tarix və keçmişin misalları bizə umud verir ki, Vətənimiz yenidən azadlığa qovuşacaqdır. Hər halda, mən – Qafqazın öz istiqlalını sonuncu dəfə bərpa etməsinin pionerlərindən biri olan sizin babanız dərindən inanıram ki, belə də olacaq.

Qafqazın Şərq qismi Xəzər dənizindən tutmuş diyarın ortasınadək olan torpaqlarda Türk mənşəli və dincə müsəlman olan əhali yaşayır. Bura sizin vətəninizdir. Onun adı *Azərbaycan*dır. Uzaq keçmişlərdə ölkəmizə *Albaniya, Arran, Şirvan* da deyilmişdir. Ən qədim tarixlərdə ölkənin adı *Atropatena* kimi göstərilir. *Azərbaycan* və ya *Azerpatjan* "Odlar ölkəsi" anlamına gəlir. Bəlkə də buna görə Azərbaycanın hazırkı paytaxtı olan Bakı şəhərinin (18-ci əsrədək başlıca şəhər Şirvan idi) ətrafında indiyədək atəşpərəstlərin məbədlərini görmək mümkündür. Onlarda yerin səthinə çıxan təbii qazlardan əbədi odlar yanır. Bizim ailənin beşiyi Şirvan və ya Şamaxı şəhəridir. Bu iki ad indiyədək işlədilir. Şəhərin rəsmi adı Şamaxıdır, lakin şəhər sakinləri onu "*Şirvan*" adlandırırlar. Bu, çox qədim bir şəhərdir. Tez-tez baş verən zəlzələlər üzündən dəfələrdə yenidən qurulub. Son zəlzələ 1903 və ya 1904-cü ildə baş verib. Buna baxmayaraq şəhər sakinləri heç vaxt onu tərk etmək fikrinə düşməyiblər. Hər zəlzələdən sonra öz evlərini əvvəlki yerində yenidən ucaldıblar.

Şübhəsiz, Şirvanın çox qədim bir tarixi var, ona görə ki, qazıntılar zamanı oradan üzərində Makedoniyalı İsgəndərin təsviri olan qədim sikkələr tapılmışdır. Habelə qədim İran şahlarının sikkələri, Venesiya sikkələri tapılmışdır. Ona görə ki, orta əsrlərdə Şirvan başlıca ipək istehsalçısı idi və Venesiya ilə ticarət əlaqəsi saxlayırdı.

[1] Yəcuc və Məcuc. – *Ə.T., O.T.*

1903-cü il zəlzələsi zamanı bütün əvvəlki zəlzələlərə duruş gətirən Cümə məscidi uçdu. Onun dəqiq şəklində bərpa etməkdən ötrü binanın bünövrəsini təmizləyəndə bir kitabə tapılmışdı. Yazıdan bəlli olurdu ki, məscid xəlifə Ömərin zamanında, yəni VII əsrdə inşa edilmişdir. Şəhəri təməlindən dağıdan son zəlzələdən sonra Şamaxı (Şirvan) əvvəlki şəklində bərpa edilə bilmədi. İndiyədək böyük keçmişin izlərini qoruyub saxlamaqla kiçik bir əyalət şəhərinə çevrilmişdir

* * *

İndi, mənim əzizlərim, mən sizə öz ailəmiz haqqında danışmaq istəyirəm. Artıq söylədiyim kimi, yaddaşımda qorunub saxlananlar natamamdır, hekayətimdə çox şeyin üstündən keçməli oluram. Rəvayətə görə, bizim nəslin əcdadı *Sürahə* Şirvanı fəth edən və Qafqazın bu hissəsini islamlaşdıran ərəb qoşunlarının başçısı olub. O, Şirvanda evlənib və burada qalmışdır. Lakin bütün bunlar rəvayətdir, əldə sənədlər yoxdur, amma Sürahə əfsanəvi şəxsiyyət deyil, onun adı ərəb mənbələrində çəkilir. Tarixçi Abbasqulu ağa Bakıxanov (o, Bakı xanlarının nəslindəndir) Azərbaycan haqqında yazdığı kitabında (bu kitab rus dilinə tərcümə olunub, lakin nə qədər çalışdımsa kitabı tapıb ala bilmədim, mən onu yalnız oxuya bildim) Sürahə və bir çox başqaları haqqında yazmışdır ki, o, Şirvana gələndə Şirvanşah (o çağlar Şirvan hökmdarlarının titulu belə idi) qala qapılarından çıxıb fatehlərin qarşısına gəlir. O, barmağındakı bütün Şərqdə məşhur olan yaqut qaşlı üzüyü çıxarıb Sürahəyə uzadır. Sürahə üzüyü alır, təbəssümlə o üzünə-bu üzünə çevirib baxır və geri qaytarır. Şirvanşah bərk təəccüblənir və Sürahəyə deyir: "Nə qəribə adamlarsınız, əgər farslar işğalçı kimi bura gəlsəydilər və məndə bu üzüyü görsəydilər, onu alımqarışıq qoparıb alardılar".

Lakin mən bu yerdə 15 əsr irəli hoppanıram, çünki bu zaman kəsimi üçün yaddaşımda heç nə yoxdur.

Onbeşinci yüzilin ikinci yarısında bizim ulu babamız *Osman bəy* Ağqoyunlular sülaləsindən çox görkəmli bir şahzadənin qızı ilə evlənir. Əmir Çoban – bu qüdrətli və nüfuzlu şahzadə Yaxın Şərqdə (İran, Qafqaz və Anadoluda) çox mühüm rol oynamışdı. Bizim ulu babamız *Osman bəy* də bu dövrün hadisələrində mühüm rol oynamışdı və ləyaqətli bir şəxs sayıldığından belə bir izdivac mümkün olmuşdu. Azərbaycanda bir neçə familiya – bizimki, *Şeyxəlibəyli*, Qaracalardan *İsmayılbəyli* və Qarabağdan başqaları bu izdivacdan törəmişlər. Bu familiyalar həmişə özlərini qohum və tez-tez öz aralarından evlənməklə müttəfiq hesab etmişlər. Çox ehtimal ki, Ağqoyunlular və Qaraqoyunlular sülaləsi, xüsusən də Əmir Çoban və Uzun Həsən arasındakı müharibələri təsvir edən salnamələrdə Osman bəyin də adı, mənim inancımca, xatırlanmış olmalıdır.

İndi mən sizə az-çox əsaslandırılmış faktlar barədə danışa bilməkdən ötrü 100 il irəliyə hopparam…

Mən hələ çox gənc ikən qədim sənədləri tədqiq etməyi xoşlayırdım. XVIII əsrə dair bir məktub yaxşı yadımdadır (onun dəqiq ilini xatırlaya bilmirəm). Bu məktub rus imperiya ordusunun iri rəsmi kağızında komandanlıq tərəfindən qraf Valerian Zubov (çariçа Yekaterinanın sevgilisi) tərəfindən mənim ulu babam *Mehralı bəy Abbas bəy oğlu*na ünvanlanmışdı. "Alicənab və qüdrətli Mehralı bəyə" ünvanlanmış bu məktubunda qraf Zubov göstərir ki, o (qraf Zubov) Gürcüstan çarının İrana qarşı müqavimətinə kömək üçün Qafqaza göndərilmiş rus qoşunlarının başçısıdır və Mehralı bəyin torpaqlarından keçib getməsinə lütfkarlıqla izn verməsini xahiş edir. Bununla belə, onun mülklərinə ziyan vurulmamış və qoşunlar çox sərt cəzalanacaqlarına dair ciddi əmr aldıqlarından özlərini çox intizamlı aparmaqla bu əmri bir dəfə də pozmamışdılar.

Bu məktub ona görə yadımda qalıb ki, qraf Zubovun titullarının sadalandığı hissə məktubun çox böyük hissəsini tutmuşdu. Bu titullar indiyədək adbaad mənim yaddaşıma həkk olunub qalmışdır…

Bizim familiyaya qayıdım – yuxarıda adını çəkdiyim *Mehralı bəyin oğlu II Abbas bəy* və onun böyük oğlu *Atamalı bəy* (familiyamız onun adından götürülüb) ruslar bizim diyara gələndə bizimkilər mənim atamın babasının adını özlərinə familiya seçiblər, ruslara qarşı vuruşmağa başlayıblar. Bu mübarizə Şirvan hökmdarı Mustafa xanla birlikdə aparılırdı. Mustafa xan və Atamalı bəy bacanaq idilər. Onlar Abxaziya tarxanının qızları olan iki xanzadə bacı ilə evlənmişdilər. Mübarizə amansız şəkil almışdı. Ruslar Şamaxıya bir neçə dəfə hücum çəkmişdilər. Bir dəfə Mustafa xan və mənim ulu babam İrana mühacirət edirlər, lakin az sonra geri qayıdırlar və Şirvanı azad edirlər. Lakin bu, çox çəkmir. Nəhayət, Rusiya və Mustafa xan arasında bağlanan müqaviləyə əsasən, Mustafa xan Rusiyanın hakimiyyəti altına keçir, ona və mənim babama bir sıra kəndlər bağışlanır. Mustafa xana general-leytenant rütbəsi, mənim ulu babama isə general-mayor rütbəsi verilir və bu minvalla Şirvanın müstəqilliyinə son qoyulur. Azərbaycanın digər hissələri də işğal edilərək Rusiyaya birləşdirilir. İranla sonrakı müharibənin nəticəsində İranın bir hissəsi olan İrəvan xanlığı da Rusiya tərəfindən ilhaq olundu. Beləliklə, Gürcüstan və Azərbaycan Rusiyanın hakimiyyəti altına keçdi. Bununla belə, Rusiya Şimali Qafqaz dağlarına eyni müvəffəqiyyətlə nüfuz edə bilmirdi. Orda Şeyx Şamilin başçılığı altında inadlı müqavimət göstərilmişdi və ruslar hər kəndi işğal edəndə çox böyük itkilər verirdilər… Mənim babam *III Abbas* hərbçi idi, çünki o vaxtlar əsilzadələr üçün başqa karyera yox idi. O, çar III Aleksandrın əsilzadələr qvardiyasında birinci idi, sonra orduda xidmətə yollanmış və polkovnik rütbəsinə qədər yüksəlmişdi, daha sonra general oldu. O, Şirvanda böyük vəba epidemiyası zamanı vəfat etmişdir.

Mənim atam da hərbçi idi. Əvvəlcə qısa bir müddət orduda həqiqi xidmətdə olmuş, sonra onu işğal edilmiş vilayətlərdə inzibati işə göndərmişdilər (hərbi-inzibatçı). Türkiyənin bir hissəsi olan Şavşetiya[1] təzəlikcə işğal edilmiş və mənim atam *Seyfulla bəy* oraya inzibatçı təyin olunmuşdu. Mənim dünyaya göz açdığım bu məkan gerçəkdən gözəl yerlərdir və qanuna tabe əhalisi vardı. Lakin orada çoxlu qaçaq dəstələri dolaşırdı, onlar diyarın təzəlikcə işğal olunmasından istifadə edərək dəstələr yaratmaqla zavallı insanların malına və canına qəsd edirdilər. Atam bu dəstələrin aradan qaldırılmasında müvəffəqiyyət qazanmışdı və o, Şavşetiyanın bir hissəsini və Artvini 14 il ərzində idarə etmişdi.

O, doğma şəhəri Şamaxıdan evlənmişdi. Anamın atası *Sultanmahmud bəy İbrahimbəyov* tanınmış və hörmətli bir adam imiş. Atam arvadını da götürüb Şavşetiyaya yollanır, mən və mənim üç bacım burada anadan olmuşuq. Mənim nənəm və bibim də bizimlə idilər.

Uşaqlıq illərim barədə uzun-uzadı danışmayacağam. Mən ailənin tək oğlu idim. On yaşım olanda məni Sankt-Peterburqa oğlanlar gimnaziyasına göndərdilər və orada qeydiyyatdan keçdim, lakin oraya oxumağa getmək vaxtı gələndə nənəm atama dedi ki, mənim getməyimi istəmir və atam dərhal onun sözünə baxdı. Beləliklə, o, övladının təhsili sarıdan çox mühüm imtiyazından imtina etmiş oldu.

Sonra atamın vəzifəsi Qars vilayət idarəsinə dəyişdirildi, sonra isə Zaqatala dairəsinə rəis göndərildi (bütün hüquqları saxlanmaqla). Mən Şamaxıda məktəbə getməyə başladım və iki il burada qohumlarımgildə yaşadım. Sonra mən xəstələndim və atam xidmətini başa çatdırıb Tiflisə getdi və mənim dalımca gəldi. Sonra mən də Tiflisə getdim və orada real məktəbə daxil oldum. Mən sizə demək istəyirəm ki, çox qabiliyyətli şagird idim. Bu məktəbdə oxuduğum 6 il ərzində həmişə sinfimizdə birinci şagird olmuşam. Mən məktəbi bitirəndə bütün məktəbdə ən yüksək etimadnaməyə layiq görülmüşdüm.

[1] İndi: Cavaxetiya (Gürcüstanda). – *Ə. T., O. T.*

İlk öncə mən Sankt-Peterburq Ali Artilleriya Məktəbinə getmək istəyirdim, amma sağlamlığım yaxşı deyildi və məndə göz zəifliyi – yaxındangörmə vardı. Bu səbəbdən həkim komissiyası mənə rədd cavabı verdi, düz 11 ay sonra onlar yenidən mənə qəbul olunmaq üçün icazə verdilər. (Birinci dünya müharibəsi başlandığından onların adamlara ehtiyacı vardı). Nəhayət, mən Sankt-Peterburq Politexnik İnstitutunun dəniz mühəndisləri fakültəsinə daxil oldum. Bura Rusiyada ən çətin məktəb idi, çünki sənin ən yüksək dərəcəli real məktəb diplomun olsa da burada namizədlər arasında müsabiqə keçirilirdi. Qəbul ancaq 100 nəfər, namizədlər isə həddən artıq çox idi. Mən 110-cu adam idim, lakin onlar fakültədən mənə yazdılar ki, adətən, 10-15 adam fikrini dəyişib başqa məktəblərə keçdiyindən mənim qəbul olunmağıma ehtimal var. Belə də oldu və mən dəniz mühəndisləri fakültəsinə daxil olaraq müharibənin əvvəlindən orada oxumağa başladım.

***

İndi mən sizə Rusiya inqilabı haqqında danışmaq istəyirəm. Mən Politexnik İnstitutda oxuduğum vaxt Rusiya inqilabı başlandı. İnqilab uzun bir vaxt apardı və bu səbəbdən çarizm rejiminin hakimiyyəti altındakı Rusiyada təsviredilməz xaos baş alıb getdi. Aclıq və qıtlıq hökm sürürdü. Cəbhədə silah götürüb vuruşmaq istəməyən çoxlu əsgər vardı və əsgərlər arasında təbliğat gedirdi ki, onlar evə qayıtmalıdırlar. Sonunda inqilabi hadisələr Sankt-Peterburqda başlandı və mən bu inqilabda iştirak etdim, çünki Rusiya tərəfindən əsarətə alınmış xalqa mənsub idim, bu xalqın təmsilçiləri Rusiyadan ayrılmaq, yaxud da heç olmasa muxtariyyət əldə etmək istəyirdilər. Dərhal ən müxtəlif komitələr yarandı və mən birincilər sırasında bu komitələrə daxil oldum və bir müddət onların bir neçəsinə sədrlik etdim. Bilmirəm nə səbəbdən, ehtimal ki, mənə inandıqlarından və tələbəlik illərindən həmişə Qafqaz qrupunun başında getdiyimdən məni sədr seçdilər. Müsəlman təşkilatları təzə-təzə formalaşmağa başlayırdı və mən onların sədri idim. Həmin vaxtadək Rusiyada xaos davam edirdi. Bu nöqteyi-nəzərdən mən Qafqaza – Tiflisə qayıtdım. Qafqaza dönməzdən öncə orada bütün Rusiya müsəlman tələbələrinin böyük bir qurultayını keçirdik. Qurultaya bütün partiyaların və Moskvanın bütün universitetlərinin nümayəndələri gəlmişdi. Mən də nümayəndə idim və məni qurultayı aparmaq üçün sədr seçdilər. Bu qurultayın çox böyük əhəmiyyəti vardı, ona görə ki, tələbələr Rusiyada və xüsusən də ziyalıların sayca az olduğu Qafqaz ölkələri və Türküstanda böyük rol oynayırdılar. Qurultayda bütün qeyri-rus ölkələr üçün muxtariyyət prinsipi elan edildi və bu, Qafqazın, xüsusən də əhalisi müsəlmanlardan ibarət olan Azərbaycan və Şimali Qafqaz kimi ölkələrin gələcəyi üçün təməl prinsipi oldu.

Rusiyada vəziyyət get-gedə pisləşirdi: Orada Müvəqqəti Hökumət iş başında idi, digər tərəfdənsə Əsgər, Kəndli və Fəhlə Deputatları Sovetləri vardı. Sovetlər Müvəqqəti Hökumət yarandığı gündən onda iştirak edirdi, olduqca inqilabı qüvvə idi və Müvəqqəti Hökuməti mürtəce və "burjua" hökuməti hesab edirdi. Müvəqqəti Hökumət bir neçə dəfə dəyişdi və nəhayət, eserlər partiyasının sədri Kerenski baş nazir oldu.

Lap əvvəldən Müvəqqəti Hökumət Qafqaza bir erməni, bir gürcü, bir azərbaycanlı və bir rusdan ibarət *Zaqafqaziya Komissarlığı* adında hökumət[1] göndərdi. Lakin onlar Qafqaza gələndə gördülər ki, burada onlara ehtiyac yoxdur və qayıdıb getdilər.[2] Qayıdanların üç nəfəri Dumanın (imperiya parlamenti) üç keçmiş üzvü idi.[3]

[1] V.Xarlamov (sədr), Məhəmmədyusif Cəfərov, A.Çxenkeli və M.Papacanovdan ibarət Özəl Zaqafqaziya Komitəsi ("OZAKOM") nəzərdə tutulur. – *Ə.T., O.T.*

[2] Bu fikir özünü doğrultmur – onlar Tiflisdə qalıb işlədilər. – *Ə.T., O.T.*

[3] Onların dördü də Dumanın üzvü idi. – *Ə.T., O.T.*

Mən Tiflisə gələndə Zaqafqaziya Komitəsi hələ hakimiyyəti əlindən saxlayırdı. Amma orada ona qarşı güclü hərəkat vardı, çünki xalq onu imperialist Rusiyasının qalığı hesab edirdi. Qafqazda muxtariyyət tendensiyası belə bir şəkildə meydana çıxmışdı ki, Gürcüstan həmişə Rusiyanın vahidliyi və bölünməzliyini dəstəkləmiş olan Sosial-Demokrat Partiyasının təsiri altında idi. Hakim ictimai rəy və sosial-demokratların əksəriyyəti muxtariyyətə tərəfdar idi və onu müvəffəqiyyətlə başa çatdırdılar. Nəhayət, Müvəqqəti Zaqafqaziya Komitəsi ləğv edildi və Zaqafqaziya Federal Komissarlığı yaradıldı. Burada hökumət və Fəhlə, Əsgər və Kəndli Deputatları Soveti şəklində Parlament vardı. Mən sovetlərə mənsub olmaqla onun rəyasət heyətinə daxil idim. Komissarlıqda muxtariyyət tendensiyası get-gedə böyüməkdə idi.

Müvəqqəti Hökumət tərəfindən buraxılan valyutanın hesabına mövcud olduğumuzdan, maliyyə məsələlərini həll etmək üçün mən Moskvaya və sonra Sankt-Peterburqa göndərildim. Razılıq alınmışdı. Mən qatarla Tiflisdən yola düşəndə Sankt-Peterburqa (Petroqrada) getmək ideyası yox idi, bunu sonra teleqramla bildirdilər. Yolda tez-tez dayandığımızdan, çox uzun çəkən səyahətdən sonra mən Petroqrada yetişdim və stansiyadan çıxar-çıxmaz qapıda hərbi geyimli və silahlı qvardiyaçıların dayandığını gördüm. Çıxış qapısından keçərkən qvardiyaçı irəli gəldi və soruşdu: "Yoldaş, sənin vəsiqən varmı?". Üstümdə Zaqafqaziya Komissarlığından verilmiş sənəd vardı. Xoşbəxtlikdən, qvardiyaçı oxumaq bilmirdi və sənədin üz qabığı qırmızı idi. Əks təqdirdə məni dərhal həbs edə bilərdilər, çünki Zaqafqaziya Komissarlığı onların gözündə mürtəce idi və həmin vaxt burada bolşeviklər dövlət çevrilişi etmişdilər...

Beləliklə, Leninin rəhbərliyi altında Kommunist Partiyası dövlət çevrilişi edərək hakimiyyəti qamarlamışdı. Yəni buraya gələndə həbs edilə bilərdim. Mən Petroqradda bir azərbaycanlı dostumun evinə yollandım, o təəccüblənərək "sən burada nə edirsən?" – deyə məndən soruşdu. Mən ona dedim ki, buraya Zaqafqaziya Komissarlığının bir məsələsinin həlli üçün gəlmişəm. O, mənə dedi ki, sən təcili buranı tərk etməlisən, çünki əks təqdirdə sənin üçün çox pis olacaq. Beləliklə, biz birlikdə mənim yola düşməyimi təşkil etməyə girişdik. Çünki bu, asan iş deyildi – mənim yola düşməyim üçün icazə vərəqəsi tələb olunurdu. Bu icazə vərəqəsi evlər komitəsi tərəfindən verilirdi, indi evlər milliləşdirilmişdi və evlər komitəsinin başında bir liman fəhləsi dururdu. Liman fəhləsi bu sertifikatı verdi və sonra bu sənəd milis idarəsində təsdiqlənməli idi və mən yalnız bundan sonra yola düşə bilərdim. Bir az rüşvət və şəxsi əlaqələri işə saldıqdan sonra sənədi əldə etdim, qatara minib yola düşdüm.

Qafqaza gələndə burada vəziyyət kökündən dəyişmişdi. Rusiyadakı dövlət çevrilişi Qafqazlarda müqavimətlə rastlaşmışdı. Zaqafqaziya Komitəsi Zaqafqaziya Parlamentini çağırmış və Rusiyadan ayrıldığını elan etmişdi. Böyük nüfuza malik Gürcüstan Sosial-Demokrat Partiyasının müqavimətinə baxmayaraq Parlamentin çağırılması baş tutmuş və Qafqazın istiqlalı elan edilmişdi. Mən Zaqafqaziya Seyminin üzvü idim və bu Seym az sonra Zaqafqaziya hökumətini təşkil etdi, lakin Qafqazda müxtəlif tendensiyalar özünü göstərməyə başladı...

Öz növbəsində Azərbaycan Türkiyəyə müraciət etdi, Türkiyə əsgəri qüvvələri irəliləyərək Azərbaycana girdilər. Beləliklə, Azərbaycan felən Türkiyə hərbi qüvvələri tərəfindən işğal edildi, Gürcüstan isə felən Almaniyanın protektoratına çevrildi. Bütün bunlarla yanaşı, Türk ordusunun Ermənistanı da işğal etməsi vəziyyəti daha da mürəkkəbləşdirdi, üstəlik də bu ölkənin Türkiyə ilə münasibətləri heç də yaxşı deyildi. Sonra Türkiyə və müttəfiqləri (Almaniya, Avstriya, Macarıstan və Bolqarıstan) ilə Qafqaz ölkələri arasında konfrans keçirmək qərara alındı. Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqaz heyətlərindən ibarət Qafqaz nümayəndələri yola düşdülər. Mən Azərbaycan heyətinin üzvü idim. Biz İstanbula gələndə orada vəziyyətin heç də yaxşı olmadığını gördük, çünki müttəfiq güclər – Fransa, İngiltərə və Birləşmiş Ştatlar hava hücumlarına baş vuraraq İstanbula bomba atırdılar. Türklər Gelibolunu müdafiə edirdilər və Türkiyə çox zəifləmişdi. Almaniyanın yardımına möhtac

olan Türklər bu yardımı ala bilmirdilər, ona görə ki, almanların özlərinin də çox şeyi çatışmırdı. Bu səbəbdən Almaniya ilə Türkiyə arasında münasibətlər heç də ideal deyildi. Bu danışıqların əsnasında mən bərk xəstələndim ("ispanka")...

Mən İstanbulun "Pera Palas" otelində huşumu itirmiş halda yatırdım.

[...] Mən gözümü açanda xanım özünü təqdim etdi – Najena xanım idi və mən onu indi tanıdım. Bu görüşə yamanca sevindim. O, mənim anamın yaxınlarından idi, Artvin yaxınlığında yaşayır, tez-tez bizə gələrdi... Onlar burada yaşayan Şavşetiya prinslərindən idilər və bizə çox yaxın idilər... Bir müddət sonra mənim üçün başqa gözlənilməz görüş də oldu. Mənim Gülyetər xalam əri ilə Türkiyəyə mühacirət etmişdi. Onun əri çox böyük din alimi idi və Türkiyədə yaxşı tanınırdı. Sultan Əbdülhəmid onlara ev vermişdi. O, burada işləmiş və vəfat etmişdi...

Bir gün "Pera Palas"da məni çağırdılar ki, burada kimlərsə sizi görmək istəyirlər...

...Cavab verdi ki, "mən sənin xalan oğluyam, adım Vəlidir". Mən xalamı və xalamın övladlarını xəbər aldım...

İspankadan çox zəifləmiş olduğumdan Qafqaza geri qayıtdım. Hələ İstanbula yola düşməzdən iki, ya üç həftə əvvəl təzəcə evlənmişdim. Mən sizin nənəniz – Qazaxda çox nəcib bir ailəyə mənsub İbrahim ağa Vəkilinin qızı Rəna[1] ilə evlənmişdim. Qazax vəkilləri gürcü çarlarının bu əyalətdə müvəkkilləri idilər. Onlar çox köhnə və qədim familiya olmaqla yaxşı tanınırdılar. Mən Tiflisə qayıdandan sonra arvadımı da götürüb Bakıya gəldim, mən burada işə başlayan Azərbaycan Parlamentinin üzvü idim.

Başlanğıcda ingilislər Azərbaycana, onun istiqlalına münasibətdə özlərini olduqca düşməncəsinə aparırdılar və ingilis qoşunlarının komandanı general Tomsonun ilk sözü bu oldu ki, Rusiya hökumətindən başqa heç bir hökuməti tanımır. Lakin üstündən bir həftə keçmiş əhalinin və Azərbaycan hökumətinin müqaviməti ilə qarşılaşıb səhvə yol verdiyini anladı. Sonra prezident Vilsonun xalqların öz müqəddəratlarını təyin etmək hüquqları və Versal konfransının toplanması barədə 14 bənddən ibarət bəyanatı çıxdı. Dərhal Versala heyət göndərilməsi elan edildi və Gürcüstan, Ermənistan, Dağlılar Respublikası və Azərbaycan oraya öz nümayəndələrini göndərdilər. Mən Azərbaycan Sülh Heyətinin baş katibi idim. Lakin bəzi işlərim olduğundan sözügedən heyətdən bir az gec yola düşdüm.

Mən "Zarya" adlı qəzet nəşr edirdim. Onun öz nəşrini davam etdirməsi zəruri olduğundan iki-üç ay sonra yola düşdüm. Mən əvvəlcə gəmi ilə İtaliyaya gəldim, çünki hökumət mənə tələbələrlə bağlı məsələnin həllini həvalə etmişdi. Hökumət Avropaya 100 tələbə göndərəcəyini elan etmişdi ki, Rusiya universitetlərində oxumaları mümkünsüz olduğundan, təhsillərini dünyanın digər ali məktəblərində bitirə bilsinlər. Qafqazda universitet açılmasının əleyhinə olan Rusiyanın imperiya siyasəti üzündən bizim məmləkətdə o vaxt universitet yox idi.

Mən əvvəlcə Romada xarici işlər naziri ilə görüşüb söhbət etdim. Qafqazla, xüsusilə də Azərbaycanla yaxından maraqlanan İtaliya hökuməti 40 tələbəni qəbul etməyə və onların İtaliyada təhsil almalarına şərait yaratmağa söz verdi. Mən oradan Sülh Konfransının təzəcə öz işinə başlamış olduğu Parisə getdim. Burada bizə təsəvvürəgəlməz bir oteldə – Britaniya və bir sıra ölkələrin nümayəndə heyətlərinin qaldığı "Klaric" otelində yer verildi.

Versal Sülh Konfransı uzun çəkdi. Paris ən müxtəlif xalqların, ölkələrin nümayəndələri ilə, hər rəngdən və irqdən olan insanlarla dolmuşdu. Şəhərin bir otelində belə sərbəst nömrə qalmamışdı. Adamlar öz vaxtlarını gözəl keçirirdilər. Bu səbəbdən deyirdilər ki, "konqres rəqs edir". Üstündən bir az keçmiş konfransın "pərdə arxası"nda çoxlu intriqalar və çoxlu siyasi manevrlər özünü göstərməyə başladı. Konfrans Müttəfiqlərin Ali Şurasının (yəni Birləşmiş Ştatlar, İngiltərə, Fransa və İtaliyanın təmsilçilərinin) himayəsi altında keçirilirdi. Birləşmiş Ştatların

[1] Doğrusu: Reyhan. – *Ə.T., O.T.*



Azərbaycan Cümhuriyyəti Sülh Heyəti "Claridge's" otelinin iş otağında yığıncaq keçirərkən. *Soldan sağa:* Məhəmməd Məhərrəmov, Abbas bəy Atamalıbəyov, Əlimərdan bəy Topçubaşı, Əkbər ağa Şeyxülislamov, Ceyhun bəy Hacıbəyli, Miryaqub (Mir)mehdiyev. Paris

təmsilçisi prezident *Vilson* idi. O, bir idealist adam kimi inanırdı ki, 1914-18-ci illər müharibəsinin bütün problemləri, nəhayət, millətlərin öz müqəddəratını təyinetmə hüququnun bazasında həll edilə bilər. Bu fakt üstündə bütün konfrans iki adamın – Fransanın təmsilçisi olan *Klemanso* və İngiltərənin təmsilçisi olan *Lloyd Corcun* arasındakı mübarizə şəraitində keçdi. Bu iki nəfər öz idealları sarıdan narahat idi. Onlara görə, məsələ daha çox əraziləri işğal etməkdə idi. İtaliyanın təmsilçisi bir elə əhəmiyyətli rol oynaya bilmirdi, çünki İtaliyanın daxilində qeyri-sabitlik vardı, hökumətlər davamlı surətdə dəyişirdi və bu səbəbdən İtaliyanın təmsilçisi çox aşağı rol oynayırdı. Lloyd Corc və Klemansoya gəldikdə isə, onlar yorğanı daim öz üstlərinə dartırdılar. Bu ikisinin arasında prezident Vilson siyasi məsələləri bütün dərinliyi ilə dərk edə bilmirdi. Lakin mən ümumilikdə siyasi məsələlər barədə danışmaq istəmirəm, Qafqaz məsələləri haqqında söz açmaq istəyirəm.

Orada dörd, hətta beş Qafqaz nümayəndə heyəti vardı. Onlar – Azərbaycan, Gürcüstan, Şimali Qafqaz və Ermənistan (biri Qafqaz Ermənistanından, digəri Türkiyə Ermənistanından) heyətləri idi. Biz mümkün qədər vahid Qafqaz cəbhəsindən çıxış etməyə çalışırdıq. Gürcüstan, Azərbaycan və Şimali Qafqaza dair məsələlər asanlıqla yoluna qoyulurdu, çünki bu üç ölkə arasında elə bir mühüm məsələ yox idi ki, həllini tapa bilməsin. Lakin Ermənistana gəldikdə məsələ çox qəliz şəkil alırdı, çünki ermənilər Türkiyədən "dənizdən dənizə Ermənistan" istəyirdilər. Onlar deyirdilər ki, Roma imperiyası zamanındakı Ermənistanı istəyirlər. Onlar Ermənistanın Yaxın Şərqdə az-çox rol oynadığı qədim İran və qədim Yunanıstan zamanındakı ərazilərinin xəyalında idilər. Guya o zamanlar Böyük Ermənistan və Kiçik Ermənistan olmuşdu. Qafqaz Ermənistanından olan daha mülayim heyət Türkiyədən olan heyətə heç cür təsir göstərə bilmirdi.

Azərbaycan nümayəndə heyətinə Parlamentin prezidenti cənab *Topçubaşı*, Gürcüstan nümayəndə heyətinə isə Parlamentin prezidenti cənab *Çxeidze* rəhbərlik edirdi. Şimali Qafqaz nümayəndə heyətinin başçısı isə Şimali Qafqaz hökumətinin xarici işlər naziri

Heydər Bammat idi. Qafqaz Ermənistanı heyətinin başçısı yazıçı Avetikyan, Türkiyə Ermənistanı heyətinin başçısı isə bir paşa, Misirdən olan çox varlı bir tacir və Türkiyənin keçmiş xarici işlər naziri *Murudibyan* idi. Vahid cəbhə yaratmaq məqsədi ilə bu heyətlər arasında bir neçə görüş keçirilsə də iş müvəffəqiyyətsizliyə uğradı. Ermənilər heç nə eşitmək istəmirdilər, çünki onlar Birləşmiş Ştatlardan xüsusi himayə almaq və Birləşmiş Ştatların Ermənistan üzərində mandatına nail olmaq umudunda idilər. Lakin ermənilərin tələbi həddən artıq böyük olduğundan və çox böyük ərazilərə iddia etdiklərindən bu, mümkünsüz idi. Bu arada digər Qafqaz ölkələrində vəziyyət belə idi: Şimali Qafqazın üçdə biri Rusiyanın əlində idi. Əvvəlcə kommunistlərə qarşı çarpışan general Denikinin Ağ rus ordusu üzünü onlara döndərmiş və cənuba – Şimali Qafqaza doğru irəliləmişdi, çünki Şimali Qafqaz istiqlal və azadlıq ideyasından ayrılmaq istəmirdi. Onların ardınca rus bolşevik orduları gəldilər, Ağların hissə-hissə tutduqları bölgələri indi Ağların ardınca gəlmiş Qırmızılar hissə-hissə özlərinə tabe etdilər. Azərbaycanlılar hər necə olsa ordu yaratmağa başladılar. Çünki onlar əvvəllər hərbi mükəlləfiyyət daşımadıqlarından öz əsgəri qüvvələri yox idi və sayca az olsa da çox gözəl bir ordu formalaşdırmaq mümkün oldu. Silahlı qüvvələrimizin başında rus ordusunun iki şöhrətli generalı – ruslarda ordu komandanı olmuş general Mehmandarov və rus ordusunda artilleriya rəisi olmuş general Şıxlinski dururdu. Onlar yaxşı təlim keçmiş bir neçə alay formalaşdıra bilsələr də silah çatışmırdı. Gürcüstan da öz növbəsində nizami ordu və qırmızı milis yaratmışdı, çünki bu ölkədə hakimiyyətdə olan sosial-demokrat menşeviklər Rusiya bolşeviklərini özlərinin qəddar düşmənləri gözündə görürdülər. Sülh Konfransı öz işinə başlayanda Qafqaz dövlətlərinin vəziyyəti bax belə idi.

Biz bir müddət konfransın başlıca təmsilçilərinə üz tutaraq özümüzü onlara təqdim etdik. Biz prezident Vilsonla görüşdük, o, tədbir görəcəyini vəd etdi, bunun ardınca general Haskel və polkovnik Rey Azərbaycan və Gürcüstana səfər edərək oranı gəzmək və yekunda raport yazıb təqdim etmək üçün göndərildilər. Britaniyanın Azərbaycanda və Gürcüstanda işğal qüvvələri var idisə də onlar silah sarıdan yardım göstərmirdilər. Əsgərlər evə qayıtmaq istədiyindən və İngiltərənin özündə bütün işğal edilmiş əraziləri tərk etmək tələbi ilə hərəkat başladığından, Britaniya yavaş-yavaş Qafqazda əsgərlərinin sayını azaldırdı. Nəticədə biz Rusiya ordusunun qarşısında silahsız qaldıq. Burası da doğru idi ki, Rusiya bolşevik ordusu sayca o qədər çox deyildi. Xalqların istiqlalına və tam ayrılmasına icazə verən Leninin rəhbərliyi altındakı rus bolşeviklərinin dedikləri inandırıcı görünürdü və heç kəs inanmırdı ki, onlar zorakılığa əl atsınlar.

Aradan bir müddət keçəndən sonra bolşeviklər onlarla əməkdaşlıq edə biləcək adamlar tapmaqdan ötrü emissarlarını və elçilərini Azərbaycana göndərməyə başladılar və belə adamları tapdılar, çünki onların qoşunları yavaş-yavaş bizim sərhədlərimizə yaxınlaşanda rus əsgərlərini çağırmaq barədə hərəkat başlanmışdı. Rus əsgərləri bizim əraziyə girdilər və bizim əsgərlər iki yerdə onlarla çarpışdılar. Onlar sərhədə yaxın yer olan Qubada və ölkənin içərisindəki Gəncədə[1] düşmənlərlə igidliklə vuruşdular, lakin özlərindən qat-qat güclü və amansız düşmənə məğlub oldular. Bolşeviklər vədlərini yerinə yetirərək müstəqil Sovet Azərbaycanı hökumətini elan etdilər. Əslində isə sovet hökuməti rusların idarəsi altında idi. Sonra Sovet Azərbaycanı hələ sovetləşməmiş olan Gürcüstan üçün çətinliklər yaratmağa başladı. Azərbaycan və Gürcüstan arasında işlər bir ilə yaxın bu vəziyyətdə davam etdi və ruslar Azərbaycana qardaşlıq yardımı bəhanəsi altında və Azərbaycanın "müttəfiqi kimi" Gürcüstana

[1] 1920-ci ilin mayında baş vermiş Gəncə üsyanı nəzərdə tutulur. – *Ə.T., O.T.*

soxuldular. Gürcülər igidliklə vuruşurdular, lakin onlarda da daxildə təbliğatçılar və təşviqatçılar vardı. Odur ki, gürcü hökuməti nəhayətdə yıxıldı və ölkəni tərk etdi. Onlar Parisə yola düşdülər. Sovet Azərbaycanını tanımayan bizim Sülh Heyəti də Parisdə idi. Biz yardım üçün Qərb ölkələrinə müraciət etdik. Lakin yardım olunmadı, yalnız müəyyən vədlər verildi. Başlanğıcda Rusiya tərəfdarı və antibolşevik olan Fransa hökuməti bizi bir neçə il Ke d'Orsedə (Fransa Xarici İşlər Nazirliyinin yerləşdiyi küçənin adı – *red.*) diplomat qismində tanımaqda davam etdi.

Biz yalnız bircə dəfə britaniyalılar tərəfindən prestij xatirinə qəbul olunduq, sonra isə mənəvi yardım göstərdilər. Sonrasında müttəfiqlər yavaş-yavaş sovet Rusiyasını tanıdılar, əlbəttə, kommersiya müqaviləsi, ardınca açıq müqavilələr imzaladılar və nəticədə Britaniyada bizim mövqeyimiz olduqca kiçildi. Parisdə isə statusumuz bir müddət qaldı.

İndi mən prezident Vilsonun proqram xətti əsasında yaradılmış Millətlər Liqası haqqında danışmaq istəyirəm. Azərbaycan və Gürcüstan bolşeviklər tərəfindən uğurla işğal edilmişdi – Azərbaycan 1920-ci ildə, Gürcüstan 1921-ci ildə, Ermənistan isə bir az sonra tam itaətə alınmışdı. Şimali Qafqaz onlardan bir az öncə işğal edilmişdi, yəni rus bolşevikləri ilə vuruşan Denikinin Ağ rus orduları cənuba yeriyərək Qafqazı tutmuş və onun istiqlalına son qoymuşdular. Onların arxasınca Qırmızı ordular gəlmiş və Dağıstan da daxil olmaqla bütün Şimali Qafqazı tutmuş, bir müddət keçəndən sonra isə Azərbaycanı da işğal etmişdilər. Bolşeviklərin Türkiyə siyasəti bütün bunları asanlaşdırmışdı. Tikə-parça edilməkdə olan Türkiyə yardım üçün Rusiyaya müraciət etmişdi. Bolşeviklərdən alınan yardımın müqabilində onlar rusların Qafqazı işğal etmələrinə imkan verdilər. Böyük Millət Məclisinin sədri Mustafa Kamalın rəhbərliyi altında Türkiyə Yaxın Şərqdə çox mühüm mövqelər qazandı. Halbuki fransızlar, onların ardınca isə italyanlar ermənilərə birbaşa yardım göstərirdilər. Britaniyalılar onların əksinə olaraq Türkiyəni dağıtmaq üçün mümkün olan hər şeyi edirdilər. Lakin sonda Milli Hökumət və Kamal zəfər qazandı və "Böyük Ermənistan" xülyasına son qoydu. Yalnız Qafqaz Ermənistanı qaldı və onu da Rusiya istila etdi. Bizə – Şimali Qafqaz, Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələrinə isə yalnız və yalnız siyasi və diplomatik mübarizə aparmaq qaldı.

Cenevrədə təşkil olunmuş Millətlər Liqası çərçivəsində imkanlarımız daxilində davamızı sürdürdük və ildə bir dəfə oraya gedərək xarici qüvvələrdən bu mübarizədə yardımçı olmalarını xahiş edirdik, lakin bu yardım heç vaxt göstərilmirdi. Millətlər Liqası isə orda-burda qətnamələr qəbul edirdi. Və nəhayət, 1923-cü ildə Sovet Rusiyası Millətlər Liqasına qəbul edildi. Əlbəttə, bu halın bizim Millətlər Liqasındakı imkanlarımıza son qoymasına baxmayaraq, hər il diplomatik notalarımızı və nümayəndələrimizi Cenevrəyə göndərməkdə davam edirdik.

* * *

...1942-ci ilin yayında mühacirətdə yaşayan azərbaycanlılara yardım təşkilatı, xüsusən də Türkiyədə yaşayan mühacirlər və mənim dostlarım olan Azərbaycanın keçmiş siyasi xadimləri mənə almanların əlində olan çoxlu miqdarda müharibə əsirləri ilə məşğul olmaq tapşırığı verdilər. 1941-ci ilin iyunundan – alman-sovet müharibəsi başlayan dövrdən alman hərbçilərinin əlində 10 minlərlə həmvətənimiz əsirlikdə idi. 1941-42-ci illərin qışında onların əksəriyyəti əsir düşərgələrində soyuqdan və aclıqdan ölürdü. Onların taleyi ilə heç kim maraqlanmırdı, çünki Sovet Rusiyası nə Beynəlxalq Qırmızı Xaç, nə də digər təşkilatların üzvü idi. Bu cür tələf olanların sayı 35-40 min olardı. Azərbaycanlıların sayının 3,5 milyon olduğunu

nəzərə alsaq, əsir düşmüş bu gənclərin taleyi bizim üçün qiymətli idi, üstəgəl onun üçün ki, onların bir hissəsi Qızıl Ordu sıralarında döyüşlər zamanı həlak olmuşdu. Qarşımıza qoyulan vəzifə çox ağır və çox çətin idi. 10 minlərlə gənci nəyin bahasına olursa-olsun xilas etmək və onlara iş tapmaq lazım idi. Üstəlik, alman komandanlığı qərara almışdı ki, bu əsirlərin müəyyən kateqoriyasından döyüşçü dəstələri təşkil etsin. İmkan dairəsində aclıqdan və soyuqdan ölməmək üçün bu dəstələrə yazılanların da həyatını xilas etmək lazım idi. 1942-ci ilin iyun ayınadək işğal olunmuş Parisdə qalaraq mən alman komandanlığı ilə heç bir əlaqədə olmadım. Məhz 1942-ci ilin iyun ayında baron Şulenberqin dəvəti ilə (mən onu hələ Qafqazdan tanıyırdım. O dövrdə Tiflisdə baş konsul işləyirdi, 1944-cü ildə Hitlerə sui-qəsd edənlərin içərisində aktiv olduğu üçün edam edildi) mən Berlinə getdim və orada Türkiyədən gələn və Almaniyada olan həmvətənlərimlə görüşdüm. Onların xahişi ilə mən haqqında söhbət gedən məsələ ilə məşğul olmağa başladım.

1941-ci ilin qışında əsir düşərgələrində olan azərbaycanlıların sayı 45 minə yaxın idi. Mən bir neçə dəfə Almaniyaya getdim. Bir çox həbs düşərgələrini gəzə bildim, müxtəlif yerlərdə və əksər hallarda mən öz həmvətənlərimi tapa və onların həyatını xilas edə bildim. Beləliklə, mən Berlində 1945-ci ilin aprelinə – Almaniyanın süqutuna qədər qaldım və qafqazlı həmkarlarım ilə (erməməni, şimali qafqazlı, gürcü) həmvətənlərimi təhlükəli zonalardan çıxarıb nisbətən döyüşlər az gedən ərazilərə – Şimali İtaliyaya, Vürtenberqə, Bavariyaya keçirdim. O dövrün şəraitində bu, çox çətin, qorxulu və təhlükəli bir iş idi, çünki texniki çətinliklərdən savayı (nəqliyyat, ərzaq təchizatı, administrativ işlər və s.) bu iş bir tərəfdən fasiləsiz surətdə baş verən saysız-hesabsız bombardmanlar, o biri tərəfdənsə tutularaq həbs düşərgəsinə salınma (bu, ən yaxşı hal idi), ya da ki, gestaponun əlinə düşmə təhlükəsi altında görülürdü.

Bütün bu dövr ərzində mənim ailəm – arvadım və 23 yaşlı oğlum (1945-ci ilin martında orduya çağırılıb və bu sətirlər yazılanda hərbi xidmətini davam etdirirdi) Fransada qaldılar. Yalnız öz missiyamı başa vurduqdan sonra mən Almaniyanı 1945-ci ilin aprelində tərk etdim və Berlində olduğum dövrdə əlaqə saxladığım Qırmızı Xaç Komitəsinin dəvəti ilə İsveçrəyə qayıtdım. Hələ 1945-ci ilin yanvarında mən Cenevrəyə gələrək öz həmvətənlərim barədə məlumat vermiş və iki həftə sonra yenidən Almaniyaya qayıtmışdım. Lakin müharibənin sona çatması ilə işlər qurtarmışdı. Doğrudur, həmvətənlərimin və digər qafqazlıların bir hissəsi vətənə qayıtdısa, digər bir hissəsi ya qayıtmadı, ya da ki, bu və ya digər səbəbdən qayıtmaq istəmədi. Almaniyada, İtaliyada, İsveçrədə (burada onlar təxminən 400 nəfər idi) qalan azərbaycanlıların dəqiq sayı məlum deyil. Dəqiq statistika yox idi. Hər halda, onların sayı bir neçə min idi. Onların taleləri qaranlıq idi. Elə ölkə tapmaq lazım idi ki, bu yeni emiqrantları qəbul etməyə razılıq versin. Mən Beynəlxalq Qırmızı Xaç və ABŞ-ın humanitar təşkilatları ilə (məsələn, UMSA) danışıqlar aparırdım, hal-hazırda da məhz bununla məşğulam. Nəzərə alaraq ki, azərbaycanlılar müsəlmandır, mən onları müsəlman ölkələrinə göndərmək imkanı barədə də fikirləşirdim; məsələn, Türkiyə, ərəb ölkələri və s. Heç şübhəsiz, bu ölkələr razıdırsa və müsbət cavab təqdirində bilmək lazımdır ki, bu və ya digər ölkə neçə nəfər qəbul edə bilər və hansı ixtisas sahibləri onlara əl verir...[1]

[1] *Atamalıbəyov A.b.* Siyasi mühacirin xatirələri. //*"Ayna" qəzeti*, 7 fevral 2003, №5, s. 9; 14 fevral 2003, №6, s. 10; 21 fevral 2003, №7, s. 9; 28 feval 2003, №8, s. 9; 7 mart 2003, №9, s. 9.

III BÖLÜM

TƏRCÜMEYİ-HALLAR

Bu bölümdə oxucularımız Azərbaycan Cümhuriyyəti tələbələrinin hər biri haqqında ayrıca tərcümeyi-hal oçerki ilə bilgiləndirilir. Oçerklərin yazılışında müəlliflər dövlət və ailə arxivlərində saxlanan bəlgələrə, tələbələrin yaxın qohumlarının, dost və tanışlarının xatirələrinə daha çox üstünlük veriblər.

Tərcümeyi-hallar tələbələrin soyadlarına görə əlifba sırası ilə düzülüb.

Biz tələbələrin xeyli hissəsinin qohum və tanışlarını taparaq onlardan gərəkli bilgilər almışıq, ancaq çoxillik axtarışlarımıza baxmayaraq onlarfın bir çoxunun varisləri ilə heç cür əlaqə yarada bilmədik. Bu kitabın işıq üzü görməsindən sonra onlar ortaya çıxarsa çox sevinər, verəcəkləri məlumatdan kitabın möhtəməl gələcək nəşrində yararlana bilərik.

Abdinov Bəhram Əliövsət oğlu



Bəhram Abdinov

(01.08.1896, Dərbənd – 05.10.1969, Bakı)

Bəhram[1] Abdinovun soyu qədim Azərbaycan torpağı Dərbəndin ilkin sakinlərindəndir. Mərhum tarixçi Nərmin xanım Tahirzadənin (1921-2012) qeydlərinə görə, B.Abdinov Qubalı Fətəli xanın (1736-1789) qardaşı Zeynalabdinin nəticəsidir.[2] Ancaq bu fikri təsdiq, yaxud inkar edəcək heç bir sənəd əlimizdə olmadığına görə onu mübahisəli sayırıq. Burası isə şübhə doğurmamalıdır ki, Zeynalabdin hətta Fətəli xanın qardaşı olmasa belə, onun yaxın qohumlarından olub, çünki Nərmin xanım kimi ciddi bir tarixçinin gerçəkliklə əlaqəsi olmayan faktı qələmə alması inandırıcı deyil.



Əliövsət Dərbəndli. Moskva, 22 may 1883-cü il

AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda Hacı Zeynalabdin Dərbəndlinin oğlu Əliövsət Dərbəndlinin (1846-1907) hicri 1300-cü (miladi 1883-cü) ildə farsca yazdığı "Töhfeyi-əhbab və sovqati-əshab" ("Sevimlilərin töhfəsi və ağaların sovqatı") adlı əlyazması saxlanılır.[3] Həmin əsəri farscadan filologiya elmləri namizədi Sevər xanım Cabbarlı ana dilimizə,[4] Rauf bəy Şeyxzamanlı isə rus dilinə[5] çeviriblər. Sevər xanımın tərcüməsindən oxuyuruq: *"Mərhum Hacı Zeynalabdin Dərbəndlinin oğlu Əliövsət, dostlarının xahişini nəzərə alaraq qüdrətli əlahəzrət şahənşahın, böyük imperatorun (III Aleksandrın – Ə.T.) tacqoyma mərasimini*

[1] Əsl adı "Mirzə Bəhram"dır. Atasının adı bir sıra qaynaqlarda "Övsət" kimi də gedib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.

[2] Qeyd özəl arxivimizdədir.

[3] AMEA Əl, A-63/506. Həmin əlyazmadan burada da danışılır: *Nurəliyeva T.* Azərbaycan ədəbiyyatının tədqiqində əlyazma kolleksiyalarının əhəmiyyəti. Bakı, 1998, s. 148.

[4] Bax: *Dərbəndli Ə.* Töhfeyi-əhbab və sovqati-əshab. (Tərcümə Sevər Cabbarlınındır). //Tarixə dair əsərlər. Bakı, 2011, ss. 87-103.

[5] *Дербенди А.* Тохфеи-эхбаб ве совгати-эсхаб. [Подарок друзьям и дар сотоварищам]. (Перевод с персидского: Р.А.Шейхзаманлы). //*"Известия АНРО"*. Выпуск 9, Баку, 2014, ss. 170-189.



Çar III Aleksandrın tacqoyma mərasimində iştirak etmiş Qafqaz nümayəndələrindən bir qrup.
Soldan sağa. Ön cərgə: praporşik Ömər Kadi Qəzali oğlu (Dağıstan, Qaytaq-Tabasaran), ştabs-kapitan İsmayıl Murtuzəli oğlu (Dağıstan, Avarıstan, Andi kəndi), ştabs-rotmistr Goray Məhəmməd oğlu (Dağıstan, Avarıstan, Andi kəndi), polkovnik Mamalov Məhəmməd oğlu (Dağıstan, Çox kəndi), podpolkovnik Hüseyn bəy Abaşidze (Batum), Hacı Neman əfəndi (Batum), Hacı Əhməd Polad oğlu (Zaqatala), nümayəndəliyin başçısı podpolkovnik Şərif ağa Qaytabaşı (tərcüməçi).
Arxa cərgə: Abxazlı Suqu Qaquli (Suxum), Samurzakanlı Hvacı Dzudzua (Suxum), Aleksey Ladariya (Suxum, tərcüməçi), Əliövsət Hacı Zeynalabdin oğlu Dərbəndli (Dağıstan), Laçın bəy Yusif ağa oğlu (Qars), Vasif ağa Mehtərbaşiyev (Batum, tərcüməçi), Həsən xan Temir ağa oğlu (Qars mahalı), Şərif ağa Laçın bəy oğlu (Qars). Moskva, 22 may 1883-cü il

qələmə aldı...".[1] Mirzə Bəhram həmin bu Əliövsət Dərbəndlinin oğludur. Deməli, o, Zeynalabdinin nəticəsi yox, nəvəsidir. Onun "Abdinov" soyadının da babası Zeynalabdinin adından götürüldüyü çox inandırıcıdır.

Bəhram Abdinovun atası Əliövsət Dərbəndliyə gəlincə, onun şəxsiyyəti haqqında əlimizdə bilgi olduqca qıtdır. Təkcə bu bilinir ki, o, hərbi xidmətdə sayılıb: *"...Qafqazdan olan və hərbçi sayılan nümayəndələrə göstəriş verildi ki, biz gərək əlahəzrət imperatoru at üstündə qarşılayaq. [...] Biz atlara minib Ali Hərbi Şuraya getdik".*[2]

Əsərindən anlaşıldığı kimi, çar hakimiyyəti Əliövsətə dərin hörmət bəsləyib; hörmətin kökünü isə, bizcə, çarizmin Qubalı Fətəli xana özəl rəğbətində axtarmalıyıq. Bu üzdəndir ki, Qafqaz canişini knyaz A.M.Dondukov-Korsakov çar III Aleksandrın 1883-cü ilin mayında Moskvada keçirilən tacqoyma

[1] *Dərbəndli Ə.* Töhfeyi-əhbab və sovqati-əshab, s. 87.
[2] *Dərbəndli Ə.* Töhfeyi-əhbab və sovqati-əshab. Əlyazma. AMEA Əl, A-63/506, vv. 8a-9.

mərasiminə Dərbənddən yalnız Fətəli xanın varislərindən olan Əliövsət Dərbəndlini nümayəndə təyin edib.[1]

Səfərnamə səciyyəli "Sevimlilərin töhfəsi və ağaların sovqatı" əsərində Ə.Dərbəndli mayın 16-sında Moskvada nümayəndələrlə görüşən çarla söhbətini bu cür təsvir edir:

"Biz iki-iki irəli gedir, əlahəzrət imperatora baş əyir və onu təbrik edirdik. Böyük imperator da hər birimizə iki-üç kəlmə söz buyururdu. Növbə mənə çatanda böyük imperatorun hüzurunda dayanan knyaz Dondukov dərhal ərz elədi ki, Dərbənd şəhərinin nümayəndəsidir. Əlahəzrət padşah buyurdu ki, rus dilini bilirsən, ya yox? Dedim ki, yox. Mən tərcüməçi Şərif bəyin[2] *vasitəsilə padşahı tac qoyması münasibətilə Dərbənd camaatı adından təbrik etdim... Bəndənin cavabında padşah xoş əda və təbəssümlə dedi: "Oççen blağodaren və oççen radiy, davolen vaşim istaranom", yəni "çox sağ ol, şad və razı oldum sizin tərəfüzdən". Mən böyük ədəb və nəzakətlə böyük imperatora və xanımına təzim edərək dalı-dalı arxaya çəkildim".*[3]


Bəhram Abdinov

Bu əsərdə müəllif tacqoyma mərasimi bitdikdən sonra Qafqaz nümayəndələrindən 16 nəfərin birlikdə padşahın buyruğu ilə şəkil çəkdirdiyini yazır:

"...Biz 12 nəfər deputatın və 4 nəfər tərcüməcinin şəklini birlikdə çəkdilər. Biz xahiş etdik ki çəkilmiş şəkillərdən bizə də versinlər. Söz verdilər ki, şəkillər hazır olanda hər kəsin rəisinə göndəriləcəkdir".[4]

Uzun axtarışlardan sonra biz həmin fotonu əldə edə bildik. Gerçəkdən, Qafqazın görkəmli şəxsiyyətlərini bir arada toplayan çox dəyərli sənəddir.[5]

* * *

Abdinovlar soyunun tarixi haqqında yazan müəlliflər içərisində mərhum Səftər Sultanov xüsusi seçilir. Ahıl yaşına baxmayaraq, Dərbənd və dərbəndlilər haqqında bir çox kitablar yazaraq nəşr etdirmiş bu olduqca yurdsevər insan 2005-ci ildə nəşr atdirdiyi "Dərbənd. Məşhur ailələrin şəcərələri" adlı rusca kitabında[6] Abdullayev Kazım Kərbəlayı Əli oğlu - 25

lara da geniş yer ayırıb. O yazır ki, XIX yüzilin ortasında Dərbənddə məşhur tacir Hacı Zeynalabdin Abdinovun "Çortəpə" adlı birinci məhəllədə böyük evi, mağazaları və üzüm bağı mövcuddu. Hacı Zeynalabdinin Əliövsət, Mehdi, Kərbə Əsgər adlı üç oğlu vardı. Onların içərisində şəhərin tarixində iz buraxmış Əliövsət özünün dövlət və ictimai fəaliyyəti ilə seçilib. Y.Kozubskinin 1906-cı ildə nəşr edilmiş "Dərbənd şəhərinin tarixi" kitabında yazılıb: "İmperator III Aleksandrın tacqoyma mərasimində Dərbənd şəhərinin təmsilçisi olmaq şərəfi 37 yaşlı, şəhərin adlı-sanlı, köklü sakinlərindən, böyük hörmət sahibi, şəhərlilərin polisə ikinci il deputat seçdikləri və 1883-cü ildə boyundan asmaq üçün Stanislav lentindəki gümüş medalla təltif edilmiş Əliövsət Hacı Zeynalabdin oğluna nəsib oldu".[7]

[1] *Dərbəndli Ə.* Töhfeyi-əhbab və sovqati-əshab. Əlyazma. AMEA Əl, A-63/506, vərəq 4.
[2] Mayor Şərif bəy Qaytabaşı (1835-?) nəzərdə tutulur.
[3] *Dərbəndli Ə.* Töhfeyi-əhbab və sovqati-əshab. AMEA Əl, A-63/506, vv. 18a-19.
[4] Yenə orada, vv. 27-27a.
[5] Həmin foto 407-ci səhifədə verilib. Şəkli Eldar İsmayılov Patimat Taxnayevadan alıb.
[6] *Султанов С.* Дербент. Родословная известных семей. Баку, 2005, ss. 7-14.
[7] Yenə orada, s. 7.



Dərbənddə Harun Tahirbəyovun dostu Bəhrama bağışladığı şəkil. *Soldan sağa:* Harun Tahirbəyov (prof. Bayram Tahirbəyovun atası), Bəhram Abdinov, ?. 24 sentyabr 1919-cu il

Əliövsətin də 3 oğlu olub: Əlimiran, Bəhram, Məsi. S.Sultanov onların hər birinin ailəsindən ətraflı söz açır. Ancaq bizim araşdırma obyektimiz Bəhram Abdinov olduğundan burada diqqəti yalnız onunla bağlı yazılanlara yönəldirik.

Bəhramın 11 yaşı olanda atası, ondan öncə isə anası dünyasını dəyişib. Bəhramgili əmisi Mehdi Abdinov saxlayaraq böyüdüb (Mehdinin öz uşaqları olmayıb).

Qeyd etməliyik ki, B.Abdinov səhifə yarımlıq tərcümeyi-halını yazaraq özündən yadigar qoyub. Bu sənədin bir nüsxəsini qızı Adilə xanım başqa bəlgələrlə birgə hələ 2006-cı ildə bizə verib. B.Abdinovun öz qələmindən çıxdığına görə burada yazılanlar, sözsüz ki, daha etibarlıdır. Bu üzdən onun tərcümeyi-halını araşdıran müəlliflər (S.Sultanov, Ə.Cəfərov və b.) özlərindən müəyyən faktları da artırmaqla, başlıca olaraq bu materialdan yararlanıblar. Ancaq AR Dövlət Arxivində saxlanılan şəxsi işindəki bəlgələrdən və Adilə xanımın bizə verdiyi çoxlu sənədlərin (onlar, əsasən, rəsmi sənədlərin surətlərindən ibarətdir) bəzilərindən indiyədək kimsə istifadə etməyib. Beləliklə, oxuculara təqdim etdiyimiz bu material Bəhram Abdinov haqqında bugünədək ortaya qoyulmuş ən əhatəli və sistemli bir araşdırma məhsuludur.

* * *

Abdinov Mirzə Bəhram Əliövsət (Övsət) oğlu 1 avqust 1896-cı ildə Dərbənd şəhərində doğulub. Bu haqda verilmiş 73 saylı doğum şəhadətnaməsində oxuyuruq: "24 avqust 1906-cı ildə Dərbənd Ruhani Şiə Şəriət məhkəməsindən Dərbənd sakini Mirzə Bəhram Övsət oğlu Abdinova ona görə verilir ki, o, Övsət Abdinovun qanuni və doğma oğludur, onun qanuni arvadı Reyhanatbikə Ağamirzə bəy qızından 1896-cı ilin avqustunda doğulub. Buna görə şəriət məhkəməsi bunu imza və dövlət möhürü basmaqla təsdiq edir.

Baş qazi: Hacı Axund Molla Məhəmmədsadıq Pişnamaz".[1]

Çar dönəmində dövlət idarələri şəxs haqqında ən etibarlı sənəd kimi yalnız doğum haqqında şəhadətnaməyə söykənir, burada yazılanları sonradan heç cür dəyişmirdi. Buna görə də B.Abdinovun adı sonrakı bütün rəsmi sənədlərdə "Mirzə Bəhram", atasının adı "Övsət", doğum tarixi "1896-cı ilin avqustu" göstəriləcək.

"Bəhram" adı göydən düşməyib. Şərq ədəbiyyatına hədsiz maraq göstərən, Nizaminin "Yeddi gözəl" poemasının baş qəhrəmanı Bəhram Gurun vurgunu olan şair təbiətli atası Əliövsət öz oğlunu da Bəhram kimi igid görmək istəyib. (O, yeni tac qoymuş III Aleksandrı da şirlər arasından tac götürən Bəhramla müqayisə edib).

Demək olar ki, bütün imkanlı yaşıdları kimi Bəhram da ilkin təhsilini evdə molladan alıb, yazıb-oxumaq öyrənib, ərəb və fars dillərinə bələd olub. Bundan sonra o, 1905-ci ildə

[1] ARDA, fond 51, siyahı 3, iş 45, vərəq 3.

Dərbənd edadisinə (real məktəbinə) girirək, 1913-cü ildə oranı bitirib.[1] Ancaq buradan aldığı sənəd ona hələ ali məktəbə girmək hüququ vermədiyinə görə əlavə bir il də oxumalı olub. Əlavə sinfi bitirərəkən aldığı şəhadətnamə onun çox savadlı bir şagird olduğunu göz önünə sərgiləyir:

"Bu şəhadətnamə Dərbənd İmperator II Nikolay edadisinin (real məktəbinin) əlavə sinfinin şagirdi, müsəlman, 1896-cı ilin avqustunda doğulmuş Mirzə Bəhram Övsət oğlu Abdinova ona görə verilib ki, o, bu sinifdə 1 sentyabr 1913-cü ildən 7 iyun 1914-cü ilədək əla əxlaqla oxuyub, səkkizsiniflik tam kursu bitirib və son imtahanda bu uğurları göstərib:

Şəriət –	əla (5)
Rus dili –	kafi (3)
Alman dili –	yaxşı (4)
Fransız dili –	yaxşı (4)
Riyaziyyat, o sıradan:	
Hesab –	əla (5)
Cəbr –	yaxşı (4)
Triqonometriya –	yaxşı (4)
Xüsusi kurs –	yaxşı (4)
Tarix –	yaxşı (4)
Təbiiyyat –	yaxşı (4)
Fizika –	yaxşı (4)
Riyazi coğrafiya –	yaxşı (4)
Rəsm –	kafi (3)
Qanunşünaslıq –	əla (5).

Buna görə Abdinov ali məktəblərə girə bilər...
Dağıstan əyaləti, Dərbənd şəhəri, 7 iyun 1914-cü il, №723.
Direktor *(imza)*
Şuranın katibi *(imza)*".[2]

B.Abdinov elə həmin 1915-ci ildə Moskva şəhərindəki Kommersiya İnstitutunda oxumaq istəyib və bu məqsədlə sənədlərini oraya verib.[3] Ancaq şəxsi işində Abdinovun həmin məktəbdə oxuması haqqında bəlgələr yoxdur. Dəqiq bilinən isə budur ki, o, Moskva Kənd Təsərrüfatı İnstitutuna girərək 1917-ci ilədək orada oxuyub.[4] 14 yanvar 1917-ci ildə verilmiş möhürlü bir vəsiqədə də qeyd olunub ki, Mirzə Bəhram Övsət oğlu Abdinov Moskva Kənd Təsərrüfatı İnstitutuna 1915-ci ildə girib, iş nömrəsi 1078-dir, institutun balıqçılıq şöbəsində oxuyur. Sənəd B.Abdinova 15 mart 1917-ci ilədək Moskva şəhərindən 50 verst aralıyadək sərbəst gəzməsi üçün verilib).[5]

1917-ci ilin fevralında Rusiyada burjua inqilabı baş verdi və çarizm devrildi. Bununla da imperiyanın geniş ərazisində anarxiya, hakimiyyətsizlik başladı. Həmin ilin sonunda bolşeviklərin, hakimiyyəti silahlı üsyanla ələ keşirməsi ölkədə vətəndaş müharibəsini alovlandırdı. Bütün bunların nəticəsində ali məktəblərdə də hərc-mərclik

[1] *Сулейманов С.* Дербент. Родословная известных семей, s. 7.
[2] ARDA, fond 51, siyahı 3, iş 45, vərəq 4.
[3] MŞMDTA, fond 417, siyahı 7, iş 735.
[4] Bu haqda verilmiş 30 may 1922-ci il tarixli 1968 saylı arayışın surəti özəl arxivimizdədir.
[5] ARDA, fond 51, siyahı 3, iş 45, vərəq 6.

yarandı, universitet və institutların bir çoxu bağlandı. Rusiyanın mərkəzi şəhərlərində, özəlliklə Peterburq və Moskvada oxuyan əyalət tələbələrinin çoxu başlarını salamat saxlamaq üçün təhsillərini yarımçıq qoyaraq vətənlərinə döndü. B.Abdinov da onların arasındaydı.

Özünün yazdığına görə, 1917-ci ildə o, Tabasarana gedərək zemstvo aqronomunun yanında təlimatçı kimi fəaliyyətə başlayıb.[1] Hətta 1919-cu ildə orada fəaliyyət göstərən partizan dəstəsinin tərkibində Denikinə qarşı hərbi əməliyyatlarda da iştirak edib.[2]

1919-cu ildə Bakıya gələn B.Abdinov Azərbaycan Cümhuriyyəti hökumətinin xarici ölkələrə 100 tələbə göndərmək istədiyini öyrənib və özünü də həmin tələbələr arasında görmək istəyib.

"Azərbaycan Cümhuriyyəti Xalq Maarif Nəzarətinə

Dərbənd şəhərinin vətəndaşı
Mirzə Bəhram Abdinovdan

ƏRİZƏ

Bu məktuba doğum şəhadətnaməsini əlavə edərək, məni təhsilini bitirməkdən ötrü xaricə göndərilən tələbələr sırasına qəbul etməyinizi xahiş edirəm.

Bu zaman əlavə edirəm ki, 1915/16-cı ildən Moskva Kənd Təsərrüfatı İnstitutu aqronomluq bölməsinin tələbəsiyəm. Aqronomluğun yüksək səviyyədə olduğu Almaniya, yaxud İsveçrədə təhsilimi davam etdirməyi arzu edirəm.

Dərbənd real məktəbini 1914-cü ildə bitirirək 1915-ci ildə instituta girmişəm.

Sənədlərimin əsli Moskva K.T. İnstitutunun dəftərxanasındadır.

Mos. K.T. İnstitutunun tələbəsi M.b.Abdinov.

Dağıstan əyaləti Dərbənd ş., "6" avqust 1919-cu il.

Ünvan: Dərbənd, Vasilyev döngəsi.

Arayış: 166 saylı xarici pasportu Bakı şəhər rəisi 11 dekabr 1919-cu ildə verib".[3]

Bu sənəddən iki məsələ aydınlaşır: 1) deməli, B.Abdinov Moskvada institutda ilk oxuduğu balıqçılıq ixtisasından aqronomluq ixtisasına dəyişilibmiş, 2) artıq onun xaricə göndərilməsi qərara alınıbmış.

Artıq xarici pasport almış B.Abdinov əcnəbi ali məktəblərdə ali təhsilini bitirdikdən sonra Azərbaycan hökumətinin göstərdiyi yerdə 4 il qulluq etməyi öhdəsinə götürməsi haqqında 29 dekabr 1919-cu ildə dilkağıza (iltizamnamə) verib.[4]

Xalq Maarif Nəzarəti 13 yanvar 1920-ci ildə aşağıdakı 517 saylı vəsiqəni təsdiqləyib:

"Bu, Mirzə Bəhram Övsət oğlu Abdinova ona görə verilib ki, onu Azərbaycan Cümhuriyyətinin hökuməti dövlət hesabına xaricə ali təhsilini bitirmək üçün göndərir və bu, imza ilə və dövlət möhürünün basılması ilə təsdiqlənir.

Qol çəkdilər: Xalq təhsili nazirinin əvəzi *N.Şahsuvarov*

Tikdi:[5] Dəftərxana müdiri *F.Rzabəyov*".[6]

[1] Özünün yazdığı tərcümeyi-hal. Özəl arxivimizdədir.
[2] *Cəfərov M.İ., Əlizadə M.Ə.* Yüzdən biri. // AMEA Gəncə Regional Elmi Mərkəzi. *Xəbərlər məcmuəsi.* Gəncə, 2004, №13, s.74.
[3] ARDA, fond 51, siyahı 3, iş 45, vərəq 1.
[4] Yenə orada, vərəq 7.
[5] Xaricə göndərilən şəxsin fotosunun sənədə tikilməsi nəzərdə tutulur.
[6] ARDA, fond 51, siyahı 3, iş 45, vərəq 9.

* * *

Oxumaq üçün Almaniyanı seçmiş B.Abdinov bir müddət Berlində yaşamalı və alman dilini öyrənməli olub.


Bəhram Abdinov və Cəmil Musai Berlində

Georg August adına Göttingen Universiteti *(Georg August-Universität zu Göttingen)* rektorunun və senatının verdiyi arayışda bildirilir ki, 17 oktyabr 1921-ci ildə universitetə girən Mirzə Bəhram Abdin 2 sentyabr 1922-ci ilədək burada semestr imtahanlarını verib.[1] Deməli o, burada bircə kurs oxuyub.

Xatırlatmalıyıq ki, Bəhram Abdinov ilk illərdə Almaniyada oxuyan Azərbaycan tələbələri yerdaşlığının sədri olub. Berlində çəkilən bəzi kollektiv fotolarda onun ön cərgədə görünməsi də bununla izah edilir.

Bəzi qaynaqlarda B.Abdinovun təhsil dönəmi haqqında yanlış fikirlərlə üzləşirik. Məsələn: *"...Çox təəssüflər olsun ki, 1920-ci il Azərbaycanda məlum aprel hadisələri Avropaya təhsil almağa gedən digər azərbaycanlılar kimi B.Abdinovun da həyatında mənfi iz buraxır. Həmyerlilər cəmiyyəti dəfələrlə yeni hakimiyyət orqanlarına müraciət etsə də bu müraciət nəticəsiz qalır. Övladlarının dediyinə görə, onların atasının bir həftənin içərisində Almaniyada saçları ağarır. Yeni hökumət qərara alır ki, tələbələr təhsil yerlərini dəyişməlidirlər. Bir çox azərbaycanlılar geri qayıtmır. B.Abdinov isə Vətənə qayıdır və 1922-ci ildə yenidən təhsilini başa vurmaq üçün Almaniyaya göndərilir".*[2]

Burada iki mühüm yanlışlığa yol verilib: 1) "bir çox azərbaycanlılar geri qayıtmır. B.Abdinov isə Vətənə qayıdır", 2) "1922-ci ildə yenidən təhsilini başa vurmaq üçün Almaniyaya göndərilir".

Doğrudur, Bəhram Abdinov Azərbaycana qayıtmışdı, ancaq bu dönüş təhsili yarımçıq qoymaq üçün deyil, Azərbaycan tələbələri cəmiyyətinin nümayəndəsi kimi, hökumətə Almaniya tələbələrinin ağır durumu haqqında bilgi vermək, maddi yardım almaq niyyətiylə gerçəkləşmişdi. Həm də gəlişin tarixi 1922 yox, 1923-cü ildir. Sübut üçün sənədlərə üz tutaq.

Azərbaycan İctimai Şura Cümhuriyyəti Xalq Komissarları Şurasının (AİŞC XKŞ) sədri Q.Musabəyov Baş Siyasi İdarəyə 11 yanvar 1923-cü il tarixli 156 saylı məktubunda yazır: "AİŞC XKŞ Almaniyada oxuyan Azərb. İŞC təqaüdçü tələbələrinin nümayəndəsi B.Ə.Abdinova hər cür yardım göstərilməsini xahiş edir".[3]

Azərbaycan İctimai Şura Cümhuriyyəti Mərkəzi İcraiyyə Komitəsinin (AİŞC MİK) sədri S.Ağamalıoğlu elə həmin gün – 11 yanvar 1923-cü ildə AİŞC-nin Rusiya Sosialist Federativ Şura Cümhuriyətindəki iqtisadi müməssilinə (nümayəndəsinə) yazıb: *"Azərbaycan*

[1] Sənədin surəti özəl arxivimizdədir.
[2] *Cəfərov M.İ., Əlizadə M.Ə.* Yüzdən biri, ss. 74-75.
[3] Sənədin surəti özəl arxivimizdədir.



Bonn Universitetindən Bəhram Abdinova verilmiş vəsiqə

Mərkəzi İcraiyyə Komitəsi rica edir ki, tələbə Mirzə Bəhram Abdinova onu sərhəd xaricinə tez getməsi üçün və Siyasi İdarədən lazımi sənədləri alması üçün mümkün olduqca müavinət edəsiniz".[1]

Göründüyü kimi, Musabəyovun "Almaniyada oxuyan Azərb. İŞC təqaüdçü tələbələrinin nümayəndəsi" və Ağamalıoğlunun "tələbə" adlandırdıqları B.Abdinov vətənə 1923-cü ildə və yalnız nümayəndə kimi müvəqqəti dönüb.

B.Abdinov Almaniyada Azərbaycan tələbələri yerdaşlığının sədri olarkən yurddaşlarının taleyi ilə çox yaxından maraqlanıb və onların ən müxtəlif problemlərinin həllinə imkanı daxilindəki bütün vasitələrlə yardım göstərməyə çalışıb. Qızı Adilə xanımdan 2006-cı ildə eşitdiyimizə görə, Almaniyada atası ilə eyni vaxtda oxumuş, sonralar Azərbaycan Dövlət Universitetində xarici dillər kafedrasının müdiri işləmiş Əliəkbər Əliyev ona danışıb ki, sənin atan Cümhuriyyət devrilib sovet hakimiyyəti gələndən sonra tələbələr baxımsız qalan vaxt onların dərdini çəkməkdən saçlarını ağardıb.

24 iyul 1922-ci ildə Bonn Kənd Təsərrüfatı Ali Məktəbinə *(Preußilche Landwirtschaftliche Hochschule zu Bonn Poppelsdorf)* girərək təhsilini burada davam etdirən "Mirzə Bəhram Abdin" oranı 10 noyabr 1924-cü ildə çox yaxşı qiymətlərlə bitirib.[2]

Almaniyada oxuduğu zaman Bəhram Abdinovun məşhur alim Albert Eynşteynin tələbəsi olması haqqında fikir də bəzi mənbələrdə əksini tapıb.[3] Bu iddianın birbaşa B.Abdinovun özündən qaynaqlandığını düşünürük – yəqin ki, bu haqda ailəsində danışıb və övladları da həmin bilgini araşdırıcılara ötürüblər. Bunu başqa cür izah etmək mümkün deyil, çünki ortada bu faktı təsdiqləyəcək heç bir bəlgə mövcud deyil.

Doğrudur, B.Abdinov təhsilini 1924-cü ilin noyabrında başa vurub, ancaq onun vətənə dönüşü bir neçə ay çəkib. Bu hadisə ilə bağlı əlimizdə çox maraqlı bəlgə var. Bu, SSRİ-nin Almaniyadakı səlahiyyətli nümayəndəliyinin (səfirliyinin) Berlində 6 fevral 1925-ci ildə verdiyi 2762 saylı vəsiqədir:

"SSRİ-nin Almaniyadakı səlahiyyətli nümayəndəliyi bununla təsdiq edir ki, Azərneftin xidməti ezamiyyətindən geri dönən Abdinov Bəhramın şəxsən ona məxsus və bu məktuba əlavə olunmuş siyahıda adbaad göstərilən ev əşyaları Xalq Xarici Ticarət Komissarlığı Gömrük İdarəsinin 29 noyabr 1922-ci il təlimatı əsasında gömrük rüsumundan və başqa vergilərdən azaddır ki, bu, imza ilə və SSRİ-nin Almaniyadakı səlahiyyətli nümayəndəliyinin möhürü ilə təsdiqlənir. (SSRİ-nin Almaniyadakı səlahiyyətli nümayəndəsinin əvəzinin imzası)".[4]

İş burasındadır ki, xaricdəki tələbələr özlərini güclə dolandırırdılar, onların ev əşyaları almağa pulu haradandı?! İkincisi də, "Azərneftin xarici ezamiyyətindən dönən" ifadəsi neftçi yox, aqronom olan B.Abdinova nə qədər yaraşır? Buradan bir başlıca nəticə çıxarmaq olur ki, Almaniyada işləyən sovet qulluqçularından kiminsə ev əşyaları Abdinovun adına yazılaraq SSRİ-yə göndərilib...

[1] Sənədin surəti özəl arxivimizdədir.
[2] Bu haqda diplomun surəti özəl arxivimizdədir.
[3] *Cəfərov M.İ., Əlizadə M.Ə.* Yüzdən biri, s. 75.
[4] Sənədin surəti özəl arxivimizdədir.



Bəhram Abdinov *(oturanlardan sağdan 2-ci)* Torpaq Komissarlığı əməkdaşları arasında

* * *

Artıq yüksək ixtisaslı kənd təsərrüfatı mütəxəssisi kimi 1925-ci ildə vətənə dönən Bəhram Abdinov Azərbaycan Xalq Torpaq Komissarlığının sərəncamına gəlib və pambıqçılıq işləri ilə tanış və məşğul olmaq üçün Özbəkistana göndərilib. Bir müddət burada qaldıqdan sonra 1926-cı ildə yenidən Azərbaycana qayıdan B.Abdinov bu dəfə Naxçıvana göndərilib.

Naxçıvan MSSR Kənd Təsərrüfat Nazirliyindən Abdinov Bəhram Övsət oğluna 28 may 1956-cı ildə verilmiş 17 saylı arayışa görə, o, 20 noyabr 1926-cı ildən 1929-cu ilin avqust ayı da daxil olmaqla Naxçıvan MSSR-in baş aqronomu və xalq torpaq komissarının müavini işləyib.[1] Doğrudur, S.Sultanov onun Naxçıvan MSSR xalq torpaq komissarı təyin edildiyini də yazıb,[2] ancaq bu, həmin arayışda əksini tapmayıb.[3]

Muxtar Respublikada çalışdığı 1926-1929-cu illərdə o, Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilib.

Naxçıvan MSSR Xalq Torpaq Komissarlığının keçmiş baş zootexniki, əməkdar zootexnik H.İ.Kərbələyevin verdiyi arayışda oxuyuruq ki, Naxçıvanda B.Abdinovun təşəbbüsü ilə Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasının fermasından "Şvets" cinsli heyvanlar gətirilərək onların burada ferması yaradılıb.[4]

S.Sultanov B.Abdinovun Naxçıvan MSSR-dəki işi dönəmində gerçəkləşdirdiyi başqa yenilikləri də qeyd edib:

– pambıqçılığın bərpası, üzvi mineral gübrələrin tətbiqi və mexanikləşdirmənin genişləndirilməsi əsasında pambıq sahələrinin məhsuldarlığının yüksəldilməsi üzrə mərkəzin xüsusi tapşırığını yerinə yetirib;

[1] Sənədin surəti özəl arxivimizdədir.
[2] *Султанов С.* Дербенгт. Родословная известных семей, s. 8.
[3] Adilə xanım bu faktı təsdiqləyərək onda Bəhram bəyin komissar vəsiqəsinin olduğunu bildirdi.
[4] Sənədin surəti özəl arxivimizdədir.



Bəhram Abdinov və həyat yoldaşı Sara xanım Məşədi Hacıbaba qızı Abdinova (Axundova). Bakı, 1929

– öz şəxsi təşəbbüsü ilə Naxçıvan MSSR kənd təsərrüfatı istehsalatına yeni sarı tütün bitkisi gətirib. Nəticədə respublikanın bu zonasının pul gəliri xeyli artıb. 1955-ci ildə tütünün satışından olan gəlir 10.540.000 manat olub;

– qoyun cinslərinin yaxşılaşdırılması üçün bu B.Ə.Abdinov İrandan cins "Balbas" qoçları gətirdib;

– quş cinslərini yaxşılaşdırmaq üçün Krım MSSR XDİK-na məxsus cins toyuq bazasından Naxçıvan MSSR-ə "Leqqorn" cinsli toyuqlar gətirdib və Azərbaycanda ilk quş fermasını yaradıb.[1]

1929-cu ildə Bakıya çağırılan B.Abdinov Azərbaycan Xalq Torpaq Komissarlığı Kənd Təsərrüfatı İdarəsi rəisinin müavini və toxumçuluq şöbəsinin müdiri vəzifəsinə təyin edilib.

B.Abdinov 1931-ci ildə 6-cı çağırış Zaqafqaziya MİK üzvü seçilib.[2]

1932-ci ildə o, Sosial Bərpa İnstitutunda elm üzrə direktor müavini və sonralar elm şöbəsinin rəisi təyin edilib. 1934-cü ildə subtropik bitkilərin və çayın tətbiqi ilə bağlı olaraq Azərbaycan SSR Xalq Torpaq Komissarlığı Subtropik Bitkilər İdarəsinin rəisi təyin edilib və 1939-cu ilədək burada işləyib.

Qızı Adilə xanımın bizə bildirdiyinə görə, B.Abdinov 1930-cu illərdə Bakıda Abşeron küçəsindəki 7-ci evin 10-cu mənzilində yaşayıb. Bu bina sənətşünaslıq doktoru, akademik Şamil Fətullayevin (Fiqarovun) babasından qalıb. Fiqarovlar isə Abdinovun həyat yoldaşı Sara xanım Məşədi Hacıbaba qızının yaxın qohumlarıdır. Bu evdə Əlimirzə Fiqarov (Sara xanımın bacısı Afiyənin əri), Ketsxoveli 19-da Sara xanımın qardaşı Hüseyn bəy Məşədi Hacıbaba oğlu Axundov, Verxnepriyutski küçədə əmisi Səftər Axundov (tanınmış iqtisadçı Vahid Axundovun babası) yaşayırdılar. Bunların üçü də vətəgə sahibi olan milyonçulardı. 1937-ci ildə Səftər, Əlimirzə və Hüseyn həbs ediliblər. Bundan sonra Bəhram Abdinov ailəsinin də əzablı günləri başlayıb. O, gözdən uzaq olmağa çalışıb, 1939-1941-ci illərdə orta məktəbdə alman dilindən dərs deyib, APİ-də saathesabı müəllimlik edib. Bu zaman onların maddi durumu fənalaşıb. Ancaq Sara xanım çox imkanlı olduğuna görə ağır günlərdə qızıllarını xərcləyərək ailəni ağır vəziyyətdən çıxarıb.

B.Abdinov 1941-1945-ci illərdə Balakən Rayon Kənd Təsərrüfatı Bankının direktoru və Balakənin baş aqronomu işləyib, ailəsini də (qızı Asyadan başqa) oraya aparıb.

1946-cı ilin mayında o, Azərbaycan SSR Əkinçilik Nazirliyində Aqrotexnika və Mexanikləşdirmə İdarəsinin rəisi vəzifəsinə keçirilib. İdarənin yenidən təşkilindən sonra şöbə rəisi və Kənd Təsərrüfatı Nazirliyinin Torpaq Quruluşu İdarəsinə baş aqronom təyin edilib. Nazirlik aparatındakı işi ilə eyni zamanda Xalq Təsərrüfatı İnstitutunda və APİ-də, Kənd Təsərrüfatı Texnikumunda müəllimliklə məşğul olub.

[1] *Султанов С.* Дербент. Родословная известных семей, s. 9.
[2] Yenə orada, s. 8. Qızı Adilə xanım B.Abdinovun 4 çağırış MİK üzvü olduğunu bildirir.



Bəhram Abdinovun qızı Asya xanım əri akad. Maqsud Əliyev, övladları Dilarə və İsfəndiyar ilə. 30 yanvar 1966-cı il

Bəhram Abdinovun məhsul dövriyyəsi, qarğıdalının Azərbaycanda yerləşməsi, çay bitkisinin aqrotexnikası haqqında elmi əsərləri var.

O, Ümumittifaq Kənd Təsərrüfatı Sərgisinin iştirakçısıdır, gümüş medalla təltif edilib.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 7 avqust 1957-ci il fərmanı ilə B.Abdinova respublikanın kənd təsərrüfatı iqtisadiyyatının yaxşılaşdırılması işində xüsusi xidmətlərinə görə "Əməkdar aqronom" adı verilib.

B.Abdinov Tərtərdə dənli bitkilərin seleksiya stansiyasının yaradılmasında fəal iştirak edib. O, Lənkəranda SSRİ-də ikinci subtropik bitkilər və çay bazasının yaradılmasına böyük əmək sərf edib. Çayın yetişdirilməsi üçün yararlı torpaqların xəritəsinin, ixtisaslı kadrların və bir sıra başqa amillərin yoxluğuna baxmayaraq bu iş uğurla başa çatdırılıb. Azərbaycanda feyxoa bitkisi ilk dəfə B.Abdinovun təşəbbüsü ilə əkilib.[1]

* * *

Bəhram Abdinovun arvadı Saranın atası, məşhur tacir Məşədi Hacıbaba Dərbənddə tanınan Axundovlar ailəsindəndir. Məşədi Hacıbaba Dərbənd Şəhər Dumasının üzvü olub. Bəhram bəy 1929-cu ildə ailə qurub. Üç övladları olub: Asya, Adilə, Övsət.

Onlar haqqında bilgini, əsasən, Səftər Sultanovun kitabından[2] yaralanmaqla veririk.

Asya Bəhram qızı 27 iyul 1930-cu ildə Bakıda doğulub. 1947-ci ildə 18-ci məktəbi və 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) fizika-riyaziyyat fakültəsini riyaziyyat ixtisası üzrə bitirib və ömrünün sonunadək (2007) həmin universitetin mexanika-riyaziyyat fakültəsində işləyib. 1960-cı ildən riyaziyyat elmləri namizədi, BDU "Riyazi analiz" kafedrasının dosenti olub. O, "2002-ci ildə Azərbaycanın məşhur qadınları" kitabına salınıb.

[1] *Султанов С.* Дербент. Родословная известных семей, s. 9.
[2] Yenə orada.

Asya xanımın əri, ixtisasca fizik Əliyev Maqsud İsfəndiyar oğlu fizika-riyaziyyat elmləri doktoru, professor, akademik, Azərbaycanın əməkdar elm xadimidir, AMEA Fizika İnstitutunda işləyir. Onların oğlu, ixtisasca fizik İsfəndiyar Əliyev (1954) fizika-riyaziyyat elmləri doktoru, professordur, BDU-nun "Ümumi fizika" kafedrasında dərs deyir. Onların qızı Dilarə Əliyeva (1959) biologiya elmləri namizədi, Azərbaycan Tibb Universitetində "Fiziologiya" kafedrasında baş müəllimdir.

Adilə Bəhram qızı 21 may 1932-ci ildə doğulub. 1949-cu ildə 18-ci məktəbi qızıl medalla, 1954-cü ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1958-ci ildən kimya elmləri namizədidir. 1965-ci ildən indiyədək Bakı Dövlət Universitetinin dosentidir. 300-dən artıq işi Avropa ölkələrində, keçmiş SSRİ-də və Azərbaycanda çap olunub, onlardan 25-i SSRİ-nin və Azərbaycanın patentidir. "2002-ci ildə Azərbaycanın məşhur qadınları" kitabına salınıb.

Adilə xanımın qızı Gülşən Rəhimova (1958) biologiya elmləri namizədi, AMEA Genetika İnstitutunun böyük elmi işçisidir. Qızı Ayan Salahova (1986) məşhur pianoçudur. Oğlu Avtandil Salahov (1994) Münxen Avropa Universiteti biznesin idarə olunması fakültəsinin son kurs tələbəsidir (2014).

Adilə xanımın oğlu Salman Rəhimov (1962) iqtisadi coğrafiyaçıdır.

İkinci oğlu Fərhad Rəhimov (1966) ixtisasca rəssamdır. Bir qızı, bir oğlu var: Sara, Mikayıl.

Övsət Bəhram oğlu 23 fevral 1944-cü ildə Balakən şəhərində doğulub, 1960-cı ildə Bakıda 175-ci məktəbi və 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirib. 1972-ci ildən fizika-riyaziyyat elmləri namizədi, 1986-cı ildən fizika-riyaziyyat elmləri doktorudur. 1975-ci ildən Fizika İnstitutunda "Yüksək enerjilər fizikası" laboratoriyasının müdiridir. Ö.Abdinov uzun müddət Birləşmiş Nüvə Tədqiqatları İnstitutunda (BNTİ; Rusiya, Dubna şəhəri) çalışıb. Azərbaycanın müxtəlif ali məktəblərində (BDU, Neft Akademiyası) müəllimlik edib. Azərbaycan Milli Grid Seqmenti layihəsinin və yaradılmasının müəllifidir. Elmi fəaliyyətinin əsas istiqamətləri: yüksək enerjili adron-adron, adron-nüvə və proton-proton toqquşmalarında elementar zərrəciklərin və atom nüvələrinin xassələrinin tədqiqi. BNTİ-da Azərbaycan Respublikasının tamhüquqlu nümayəndəsinin müavini, BNTİ Elmi Şurasının üzvüdür. 1997-ci ildən Avropa Nüvə Tədqiqatları Mərkəzinin ATLAS kollaborasiyasında Azərbaycan Respublikasının koordinatoru, ATLAS kollaborasiyasının üzvüdür. Xarici və yerli elmi jurnallarda dərc edilmiş 300-dən artıq məqalənin müəllifi və həmmüəllifidir.

Övsət Abdinovun oğlu Orxan Övsət oğlu (1967) Neft və Kimya İnstitunun avtomatika fakültəsini bitirib. Bir oğlu və bir qızı var: Qəzənfər və Ləman. Bəhram Övsət oğlu (1970) isə fizika fakültəsini 1992-ci ildə bitirib. Biznes sahəsində çalışır. Bir qızı, bir oğlu var: Adilə və Məcid.

Abdinovların soykötüyü ilə Səftər Sultanovun kitabında[1] tanış olmaq mümkündür.

[1] *Султанов С.* Дербент. Родословная известных семей, s. 14.

Ağabababəyov-Muğanlinski Adil bəy Abbasəli bəy oğlu

(13.12.1898, İrəvan – 1933-cü ildən sonra, Fransa)



Adil bəy Ağabababəyov-Muğanlinski

Cümhuriyyət tələbələri içərisində iki qardaşın birgə xaricə oxumağa göndərilməsi faktı da var. Gəncə Dairə Məhkəməsinin sədri Abbasəli bəy Ağabababəyov-Muğanlinskinin iki oğlu: Adil və Əsildar bəylər bir yerdə Qərbi Avropaya göndəriliblər. Açığı, tələbələrin xaricə göndərilməsi ilə məşğul olan Komitənin və sonra da Maarif Nəzarətinin bu istisnanı nəyə görə etdikləri bəlli deyil.

Zaqafqaziya Şiə Ruhani İdarəsinin 21 aprel 1904-cü ildə Tiflis şəhərində verdiyi, şeyxülislam Ə.Axundzadə və başqalarının imzaladığı 995 saylı doğum şəhadətnaməsində göstərilib ki, İrəvan valiliyi İrəvan şəhəri Dəyirman küçəsi məhəlləsi məscidinin 1898-ci ilə aid doğum kitabının I hissəsində İrəvan valiliyi Eçmiədzin (Üçkilsə) qəzası Əkərək kəndinin sakini, 29 yaşlı Abbasəli bəy Ağabababəyov-Muğanlinskinin öz qanuni arvadı, 20 yaşlı Leyli xanım İsgəndər bəy qızından oğlu Adil bəy 13 dekabr 1898-ci ildə doğulduğu qeyd edilib.[1]

Adil bəy 15 sentyabr 1907-ci ildə İrəvan kişi gimnaziyasına girərək 1 may 1917-ci ildək orada oxuyub və səkkizsiniflik tam kursu bitirib. Bu haqda ona İrəvan şəhərində 4 may 1917-ci ildə 605 saylı kamal attestatı verilib. Attestatda qiymətləri belədir:

Şəriət –	5 (beş)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	3 (üç)
Fəlsəfi propedevtika –	5 (beş)
Latın dili –	4 (dörd)
Riyaziyyat –	3 (üç)
Riyazi coğrafiya –	5 (beş)
Fizika –	4 (dörd)
Tarix –	4 (dörd)
Coğrafiya –	4 (dörd)
Fransız dili –	5 (beş)
Alman dili –	5 (beş)
Qanunşünaslıq –	5 (beş).[2]

Attestatı imzalayan müəllimlər içərisində türk (tatar) dili müəllimi İsmayıl Şəfibəyovun adı və qolu olsa da, gördüyümüz kimi, keçilən fənlər arasında türk dili yoxdur. Belə çıxır ki, fənn keçilib, ancaq onu attestata yazmağı məktəb rəhbərliyi artıq sayıb.

İrəvan şəhər milis rəisi 1917-ci ilin aprelində belə bir vəsiqə verib ki, Adil bəy Zaqafqaziya müsəlmanı kimi hərbi mükəlləfiyyətdən azaddır, onun əvəzində pul ödəyir.[3]

İrəvan şəhər milis rəisinin 1917-ci ilin mayında verdiyi 1197 saylı başqa bir vəsiqədə isə təsdiqlənib ki, Adil bəy Ağabababəyov-Muğanlinski həqiqətən Şərur-Dərələgöz Qəzası Sülh Bölməsinin sülh hakimi Abbasəli bəy Ağabababəyov-Muğanlinskinin oğludur və imtiyazlı bəy təbəqəsindəndir. Sənədə milis rəisi Q.Vəzirov, kargüzar M.Bağırbəyov qol çəkiblər.[4]

[1] KŞDA, fond 16, siyahı 464, iş 7261, vərəq 4.
[2] Yenə orada, vərəq 3.
[3] Yenə orada, vərəq 5.
[4] Yenə orada, vərəq 13.



Adil bəyin yaxın qohumu Canbaxış bəy Əlinağı bəy oğlu Muğanlinski



Adil bəyin yaxın qohumu, görkəmli müəllim İbadulla bəy Əlinağı bəy oğlu Muğanlinski. İrəvan, 1902

Zaqatala dairəsinin hakimi 25 mart 1904-cü ildə Zaqatala Sülh Bölməsi məhkəmə müstəntiqinin 5 yaşlı oğlu Adil bəy Abbasəli bəy oğlu Ağabababəyov-Muğanlinskiyə verdiyi tibbi arayışda onun sol çiynində çiçəyə qarşı peyvənd yeri olduğunu təsdiqləyib.[1]

Bu 3 arayışı, adətən, Rusiya ali məktəbləri tələb edirdi. Deməli, Adil bəy ali məktəbə girməyə hazırlaşıb.

İrəvan Dairə Məhkəməsi Şərur-Dərələgöz Sülh Bölməsinin sülh hakimi Abbasəli bəy Ağabababəyov-Muğanlinski 8 may 1917-ci ildə İrəvan valiliyinin Baş Norəşen kəndindən Kiyev Universitetinin rektoruna ərizə yazaraq bildirib ki, oğlum Adil bəy bu il İrəvan gimnaziyasını bitirərək bütün sənədlərini Kiyevə tibb fakültəsi tələbələri sırasına qəbul olunmaqdan ötrü göndərib. Abbasəli bəy qeyd edib ki, Kiyevdə tanışlarım var, mənim kimi kasıb bir adamın[2] uşağını orada oxutması asandır. Buna görə də onu tibb fakültəsinə götürməyinizi xahiş edirəm.[3]

İş burasındadır ki, universitetə girmək üçün adamın atası yox, özü ərizə yazmalı idi. Adil bəy də 8 may 1917-ci ildə İrəvanda Kiyev Universiteti rektoruna ərizə yazaraq tibb fakültəsinə qəbul edilməsini xahiş edib[4] və həmin universitetə qəbul olunub. Ancaq Fevral inqilabından sonra bütün imperiyada yaranmış hərc-mərclik Kiyevdə də nəinki təhsil almağı, hətta yaşamağı mümkünsüz etdi.

1919-cu ildə Cümhuriyyət hökuməti xaricə tələbə göndərmək qərarını açıqlayan kimi ilk ərizə verənlərdən biri Ağabababəyov-Muğanlinski qardaşları oldu.

Adil bəy Ağabababəyov-Muğanlinski 12 avqust 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizədə İsveçrənin Cenevrə şəhərində tibb fakültəsinə girmək istədiyini bildirib.[5]

AC Ədliyyə Nəzarəti Azərbaycan İstinaf Məhkəməsinin baş sədri Əliəkbər bəy Xasməhəmmədov 25 oktyabr 1919-cu ildə ədliyyə nazirinə 785 saylı məktub göndərib ki, Kiyev Universitetinin tələbəsi Adil bəy Ağabababəyov-Muğanlinski onun Ədliyyə Nəzarətinə aid edilməsi və Gəncə Dairə Məhkəməsi sədrinin sərəncamına istintaq hissəsi üzrə göndərilməsindən ötrü Sizə təqdimat verməyimi xahiş edib.[6]

Deməli, Abbasəli bəy xaricə göndərilmək işi düzələnədək oğlunu öz yanında işlətmək istəyib.

Ədliyyə naziri Aslan bəy Səfikürdskinin 28 oktyabr 1919-cu il tarixli 150 saylı əmri ilə Adil bəyin istəyinə əməl edilib – o, istintaq hissəsi üzrə işləmək üçün Gəncə Dairə Məhkəməsi sədrinin sərəncamına göndərilib.[7]

3 noyabr 1919-cu ildə Xalq Maarif Nəzarətinə yazdığı ərizədə Adil bəy bildirib ki,

[1] KŞDA, fond 16, siyahı 464, iş 7261, vərəq 7.
[2] O zaman hüquqşünaslar rüşvət almadığına görə yalnız maaşla dolanırdılar.
[3] KŞDA, fond 16, siyahı 464, iş 7261, vərəq 1.
[4] Yenə orada, vərəq 2.
[5] ARDA, fond 51, siyahı 3, iş 100, vərəq 1.
[6] Yenə orada, fond 100, siyahı 2, iş 615, vv. 1-1a.
[7] Yenə orada, vərəq 3.

"Azərbaycan" qəzetinin 24 oktyabr 1919-cu il tarixli 228-ci sayında çıxmış elana görə, mən Qərbi Avropaya göndərilən təqaüdçü tələbələr sırasına düşmüşəm. Mən İsveçrədə Cenevrə şəhərində tibb fakültəsinə getmək istəyirəm.[1]

30 dekabr 1919-cu ildə A.Ağabababəyov-Muğanlinski təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi[2] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[3] dilkağızları verib.

Adil bəy Ağabababəyov-Muğanlinskiyə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 541 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[4]



Abbasəli bəy Ağababa bəy oğlu Ağabababəyov-Muğanlinski və uşaqları. *Soldan sağa*: Zərifə, Əsildar, Fuad, Adil

Əliəkbər bəy Xasməhəmmədov 25 yanvar 1920-ci ildə ədliyyə nazirinə yazdığı 88 saylı məktubda bildirib ki, Gəncə Dairə Məhkəməsinin sədri 15 yanvar tarixli məktubunda Adil bəy Ağabababəyov-Muğanlinski ali məktəbə qəbul olunmaq üçün xaricə getdiyinə görə onun tutduğu vəzifədən çıxarılmasını xahiş edib.[5]

* * *

Adil bəy Cenevrədə oxuya bilmədi, çünki İsveçrə heç bir tələbəmizə orada oxumağa icazə vermədi, o da məcbur olub Almaniyaya getdi. Sovet hakimiyyəti illərində tərtib olunmuş bir arayışda onun təhsilini bitirməyinə 6 ay qaldığı göstərilib.[6]


Təhsilini bitirən Adil bəy SSRİ-yə qayıtmayıb. Aldığımız şifahi bilgilərə görə, onun son yaşayış yeri Fransanın Strasburq şəhəri olub, ancaq bunun doğruluq dərəcəsini yoxlaya bilmədik – şəxsi kanallarımızla etdiyimiz axtarışlar nəticəsiz qaldı.

Adil bəyin Almaniya-Fransa həyatı haqqında bizə bəlli faktlar yalnız onun qardaşı Əsildar bəyin 1933 və 1935-ci illərdə həbsi zamanı tərtib edilmiş istintaq sənədlərindədir. Doğrudur, bu faktlar sayca çox az, məzmunca da çox məhduddur, ancaq varını verən utanmaz.

Əsildar Muğanlı 30 mart 1933-cü ildə zindanda müstəntiqə deyib:

"1920-ci ilin başlanğıcında Müsavat hökuməti xaricdə təhsil almaq istəyən şəxsləri yığırdı. Başqa azərbaycanlılardan ibarət böyük bir qrupun tərkibində Almaniyaya oxumağa mən və qardaşım Adil Muğanlı da göndərildik. [...] Qardaşım Adil Berlinə gedəndən universitetdə tibb fakültəsində oxuyub. Qardaşım universiteti bitirməyib və kəsiri olduğuna görə təqaüddən məhrum edilərək 1923-cü ildə Berlindən Parisə gedib, təhsilini orada

[1] ARDA, fond 51, siyahı 3, iş 100, vərəq 5-5a.
[2] Yenə orada, vərəq 8.
[3] Yenə orada, vərəq 9.
[4] Yenə orada, vərəq 10.
[5] Yenə orada, fond 100, siyahı 2, iş 615, vərəq 4.
[6] Yenə orada, fond 57, siyahı 1, iş 276, vərəq 62.



Təbrizdə Azərbaycan sovet məktəbi. (İbadulla bəy Muğanlinskinin arxivindən).
Soldan sağa. Ön cərgə (müəllimlər): Zeynalov (coğrafiya), İbadulla bəy Muğanlinski (rus dili), Müzəffər Hacıyev (riyaziyyat, f.-r. e.n.), Cəlil İbrahimov (rus dili), Nəsirzadə (türk dili), Nadirli (tarix), Tağızadə (tarix), Şirinzadə (fizika), Bağırov (rəsmxət). Təbriz şəhəri, 1943/44

davam etdirib. Qardaşımın Parisdə universiteti bitirib-bitirməməyini bilmirəm, çünki 1929-cu ildən bəri ondan heç bir soraq almamışıq".[1]

26 iyun 1935-ci il dindirməsində isə Muğanlı müstəntiqə bunları bildirib: "Mənim bir doğma qardaşım da var, Parisdədir. 3 ay bundan qabaq ondan açıqca almışam. Bunadək ondan iki il müddətində heç bir xəbər yox idi. O, mənimlə birlikdə Almaniyaya oxumağa göndərilib. Berlində Tibb Universitetində oxuyub. 1924-cü ildə Almaniyadan Fransaya getdi. Orada nə ilə məşğul olduğunu bilmirəm. Onun adı Adildir".[2]

17 sentyabr 1935-ci ildə şahid kimi dindirilmiş N.N.Nijeradze Ə.Muğanlı haqqında danışarkən onun qardaşı ilə bağlı deyib:

"Muğanlı Əsildarın Adil adlı qardaşını Müsavat hökuməti Əsildar kimi Almaniyaya oxumağa göndərib və o, SSRİ-yə qayıtmaq istəməyib, xaricdə, deyəsən, Fransada qalıb. Muğanlı, məsələn, 1933-cü ildə (sonunda) onunla görüşdüyüm zaman mənə sərhədi gizlicə keçmək istədiyini söyləmişdi. Təxminən 1934-cü ilin başlanğıcında Muğanlı mənə danışmışdı ki, qardaşım Adil SSRİ-yə gələməkdə düz edib, halbuki xarici ezamiyyətə getmiş Fərəczadə ona SSRİ-yə gəlməyi təklif edib. Bu haqda danışan Muğanlı deyib ki, SSRİ-yə gəlməyimə peşmanam və bu səhvimi heç vaxt özümə bağışlamayacağam".[3]

13 oktyabr 1935-ci ildə müstəntiq Botman Adil bəyin qardaşı Fuad Muğanlinskini şahid kimi dindirib və ona belə sual verib: "Sizə Fərəczadənin qardaşınız Adillə xaricdə görüşməsi haqqında nə bəllidir və Fərəczadənin SSRİ-yə dönmək təklifinə Adil nə deyib?". Cavab belədir: "Necə olduğunu bilmirəm, ancaq mənə məlum oldu ki, Fərəczadə Adillə görüşüb. Bu görüşün təfsilatını bilmirəm".[4]

[1] AR MTN Arxivi, PR-7175, vv. 15-16.
[2] Yenə orada, vərəq 30.
[3] Yenə orada, vərəq 74.
[4] Yenə orada, vərəq 92.

* * *

Yeri gəlmişkən, Adil və Əsildar qardaşlarının atası Abbasəli bəy Ağababa bəy oğlu Ağabababəyov-Muğanlinski (02.01.1869, İrəvan – 1961, Bakı) Azərbaycanın ilk ali təhsilli hüquqşünaslarından və Cümhuriyyətin görkəmli xadimlərindəndir. Təəssüf ki, onun həyatı haqqında elmi ədəbiyyatda məlumat çox azdır. Yalnız tanınmış araşdırıcı Əsgər Zeynalovun "İrəvan ziyalıları" adlı dəyərli əsərində şifahi bilgilərə əsasən, hüquqşünasın özü ilə yanaşı, uşaqları haqqında da yığcam bilgi verilib.[1] Fürsətdən yararlanaraq burada Abbasəli bəy haqqında arxiv bəlgələrinə söykənməklə məlumat verməyi faydalı sayırıq.

Kiyev Şəhəri Dövlət Arxivində Adil bəyin sənədləri içərisində Abbasəli bəy Ağabababəyov-Muğanlinskinin 21 mart 1907-ci ildə tərtib edilmiş, AR Dövlət Arxivində Əsildar bəyin sənədləri içərisində isə 9 avqust 1919-cu ildə tərtib edilmiş əmək dəftəri saxlanılır. Məzmunca ikincisi birincisini tamamladığına görə onlardakı bilgini birləşdirərək veririk.

Öncə Kiyev Şəhəri Dövlət Arxivindəki 21 mart 1907-ci il tarixli əmək dəftərindəki bilgilərlə tanış olaq.

Kollej assesoru Abbasəli bəy Ağabababəyov Tiflis şəhəri 4-cü Sülh Bölməsi sülh hakiminin köməkçisidir. 2 yanvar 1869-cu ildə doğulub, müsəlmandır, fərqlənmə nişanları yoxdur, illik məvacibi: maaş 1.000, yeməkpulu 500, mənzilpulu 500, yolpulu 200 manat. Cəmi 2.200 manat.

İmtiyazlı təbəqədəndir. Mülkünün olması haqqında bilgi yoxdur. Moskva İmperator Universitetində hüquq fakültəsi üzrə elmlərin tam kursunu bitirərək 2-ci dərəcəli diplom alıb. İrəvan Dairə Məhkəməsi sədrinin 11 iyul 1894-cü il tarixli 101 saylı sərəncamı ilə İrəvan Dairə Məhkəməsində 6 iyul 1894-cü ildən dəftərxana qulluqçusu kimi həqiqi mülki xidmətə başlayıb.

Həmin ilin noyabrında həmin məhkəmədə katib köməkçisi təyin edilib, cinayət bölməsi 3-cü masasının müdiri vəzifəsi də ona həvalə edilib.

24 iyul 1895-ci ildən həmin məhkəmənin mülki bölməsinə keçirilib, bu bölmənin 3-cü masasının müdirliyi də ona həvalə edilib.

10 yanvar 1896-cı ildə həmin məhkəmədə xüsusi sınaqdan keçdikdən sonra ona 940 saylı vəsiqə verilib.

Tiflis Məhkəmə Odası böyük sədrinin 12 fevral 1896-cı il tarixli 10 saylı əmri ilə 31 yanvar 1896-cı ildən İrəvan Dairə Məhkəməsində maaşsız məhkəmə vəzifələrinə böyük namizəd təyin edilib, İrəvan qəzası 3-cü istintaq sahəsinin müdirliyi də ona həvalə edilib və 15 martdan 10 may 1898-ci ilədək müdirlik edib.

İrəvan Dairə Məhkəməsinin 11 may 1896-cı il təyinatı ilə ona Novobayazid qəzası özəl namizəd sahəsinə müvəqqəti müdirlik vəzifəsi həvalə edilib və o, 16 maydan 15 iyun 1896-cı ilədək orada müdirlik edib.

Həmin məhkəmə sədrinin 4 iyul 1896-cı il tarixli sərəncamı ilə Qars sahəsi müstəntiqinə kömək üçün müstəqil istintaq aparmaqdan ötrü göndərilib və orada 5 oktyabr 1896-cı ilədək qalıb.

Tiflis Məhkəmə Odası böyük sədrinin 5 iyul 1896-cı il tarixli əmri ilə ildə 1.000 manat məvaciblə ştata təyin edilib, Novobayazid qəzasında özəl istintaq sahəsi ilə məşğul olmaq üçün göndərilib.

[1] *Zeynalov Ə.* İrəvan ziyalıları, ss. 79-80.

Həmin məhkəmənin 15 oktyabr 1897-ci il tarixli təyinatı ilə ona Eçmiədzin (Üçkilsə) qəzasının 2-ci istintaq sahəsinə müvəqqəti müdirlik vəzifəsi həvalə edilib və o, 18 oktyabrdan 22 dekabr 1897-ci ilədək bu vəzifədə çalışıb.

Həmin məhkəmənin 18 dekabr 1897-ci il təyinatı ilə ona Şərur-Dərələgöz qəzasının 2-ci istintaq sahəsində daimi müdirlik vəzifəsi həvalə edilib və o, həmin sahəni 1 yanvar 1898-ci ildə qəbul edib. Həmin qəzanın 1-ci istintaq sahəsinin müvəqqəti müdirliyi də 9 fevral 1898-ci ildən ona həvalə edilib.

16 iyun 1898-ci ildə Ədliyyə Nazirliyi idarəsinin əmri ilə İrəvan qəzası sülh hakiminin köməkçisi vəzifəsinə keçirilib.

11 avqust 1898-ci ildə öz ərizəsinə əsasən tutduğu vəzifədən çıxıb. 27 noyabr 1898-ci il tarixli 55 saylı əmrlə ərizəsinə əsasən xidmətdən azad edilib.

19 avqust 1899-cu il tarixli 62 saylı əmrlə *kollej katibi* çini verilib. Tiflis Məhkəmə Odası böyük sədrinin 28 sentyabr 1900-cü il tarixli əmri ilə Tiflis Dairə Məhkəməsində böyük namizəd vəzifəsinə təyin edilib.

Həmin ilin 30 sentyabrında Tiflis Dairə Məhkəməsi ümumi yığıncağının qərarı ilə Zaqatala Sülh Bölməsi müstəntiqinə yardım üçün göndərilib.

18 oktyabr 1900-cü ildə Tiflisə çağırılaraq bu şəhərin 3-cü Sülh Bölməsinin boş qalmış müstəntiqini əvəz etmək ona həvalə edilib. 20 dekabr 1900-cü ildə 1.000 manat maaşla ştatı təsdiq edilib və Zaqatala Sülh Bölməsində istintaq sahəsinə müdirlik etməyə göndərilib və həmin sahəni 18 yanvar 1901-ci ildə qəbul edib.

15 dekabr 1901-ci ildə *titulyar müşavir* çini verilib. 23 may 1902-ci ildə Zaqatala Sülh Bölməsinə müdirlik ona tapşırılıb və 24 martdan 11 avqustadək bu vəzifəni yerinə yetirib.

1 iyul 1902-ci ildən Tiflis Dairə Məhkəməsinin yeni yaranmış sahələrinin birində sülh hakiminin köməkçisi təyin edilib.

23 yanvar 1903-cü ildə Zaqatala Bölməsi sülh hakiminin köməkçisi təyin edilib.

13 mart 1904-cü ildə Duşet istintaq sahəsinin müvəqqəti müdirliyinə göndərilib.

18 may 1904-cü ildən 19 fevral 1905-ci ilədək Duşet Sülh Bölməsinə müdirlik edib.

27 avqust 1904-cü ildə *kollej assesoru* çini verilib.

Öz birbaşa vəzifələrindən başqa, 20 yanvardan 5 dekabr 1906-cı ilədək Duşet Sülh Bölməsinə müdirlik edib.

Ədliyyə Nazirliyi idarəsi üzrə 28 avqust 1906-cı il tarixli 75 saylı əmrlə istintaq aparmaq üçün Tiflis şəhər 4-cü Sülh Bölməsi sülh hakiminin köməkçisi vəzifəsinə keçirilib.[1]

İndi isə Abbasəli bəyin AR Dövlət Arxivindəki 9 avqust 1919-cu il tarixli əmək dəftərinə göz yetirək. Xatırladırıq ki, bu sənəddən yalnız 1906-cı ildən sonraya aid bilgiləri götürmüşük.

Kollej müşaviri Abbasəli bəy Ağabababəyov Gəncə Dairə Məhkəməsinin sədridir, 2 yanvar 1869-cu ildə doğulub, müsəlmandır. İmtiyazlı təbəqədəndir. Müqəddəs Anna ordeni, II və III dərəcəli Müqəddəs Stanislav ordenləri var. İllik maaşı 3.300 manat, yeməkpulu 1.000 manat, mənzilpulu 1.000 manat, əlavə 240 manat; cəmi 5.540 manat.

16 noyabr 1907-ci ildə 76 saylı əmrlə Kutais Dairə Məhkəməsi Raçin Bölməsinin sülh hakimi təyin edilib.

5 aprel 1908-ci ildə 19 saylı əmrlə İrəvan Dairə Məhkəməsi Novobayazid Sülh Bölməsi sülh hakimliyinə keçirilib.

[1] KŞDA, fond 16, siyahı 464, iş 7261, vv. 18-26.

26 may 1909-cu ildə 38 saylı əmrlə *saray müşaviri* çini verilib.

26 aprel 1910-cu ildə 22 saylı əmrlə Şərur-Dərələgöz Bölməsi sülh hakimi vəzifəsinə keçirilib.

5 may 1910-cu il təyinatı ilə 23 may – 4 avqust 1910-cu ildə Dərəçiçək istintaq-sülh sahəsinə, 26 may 1910-cu il tarixli təyinatla 3-14 iyun 1910-cu ildə Novobayazid istintaq sahəsinə müdirlik edib.

1 yanvar 1911-ci ildə xristian olmayanlar üçün III dərəcəli Müqəddəs Anna ordeni ilə təltif edilib.

25 aprel 1912-ci il təyinatı ilə 1-9 may 1912-ci ildə Şərur istintaq sahəsinə müdirlik edib.

18 fevral 1913-cü il tarixli 10 saylı əmrlə *kollej müşaviri* çini verilib.

1 yanvar 1914-cü ildə əla – səyli xidmətinə görə 2-ci dərəcəli Müqəddəs Stanislav ordeni ilə təltif edilib.

Zaqafqaziya diyarında ilk beşillikdəki xidmətinə görə 16 noyabr 1912-ci ildən ildə 240 manat həcmində əlavə maaş təyin edilib.

14 oktyabr 1917-ci il tarixli 60 saylı əmrlə İrəvan Dairə Məhkəməsinin inzibati şöbə üzrə üzvü təyin edilib.

21 sentyabr 1914-cü ildən 7 yanvar 1918-ci ilədək Şərur istintaq sahəsinə müdirlik edib.

Zaqafqaziya hökumətinin 6 aprel 1918-ci il tarixli 131 saylı əmri ilə İrəvan Dairə Məhkəməsinin məhkəmə hissəsi üzrə üzvü təyin edilib.

Ermənistan Respublikası Nazirlər Şurasının 28 noyabr 1918-ci il tarixli təyinatı ilə vəzifəsindən və ümumən qulluqdan azad edilib.

Azərbaycan Cümhuriyyəti hökumətinin 14 may 1919-cu il sərəncamı ilə Gəncə Dairə Məhkəməsinin sədri təyin edilib.[1] 25 may 1919-cu ildə xidmət yerinə gedib və vəzifəsinə başlayıb.

27 noyabr 1898-ci ildən 28 sentyabr 1900-cü ilədək və 26 noyabr 1918-ci ildən 14 may 1919-cu ilədək istefada olub.[2]

Evlidir. İlk nikahı 27 oktyabr 1897-ci ildə 14 may 1876-cı il doğumlu *Leyli xanım İsgəndər bəy qızı Sultanova* ilədir. Bu uşaqları var: *Adil bəy,* 13 dekabr 1898-ci il; *Əsildar bəy,* 14 sentyabr 1900-cü il; *Fuadpaşa bəy,* 10 sentyabr 1902-ci il, *Zərifə xanım,* 4 dekabr 1903-cü il, *Nurəddinpaşa bəy,* 8 may 1907-ci il və *Nəzirə xanım,* 27 fevral 1909. Arvadı və uşaqları müsəlmandır, onun yanındadırlar.[3]

[1] Bu haqda bax: ARDA, fond 100, siyahı 2, iş 7, vərəq 137. Eləcə də: Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты, s. 314.
[2] ARDA, fond 51, siyahı 3, iş 97, vv. 5-14a.
[3] Yenə orada, vv. 6-7.

Ağasıbəyli Yusif bəy Süleyman bəy oğlu

(20.12.1896, Gəncə – 25.5.1980, Gəncə)

İndiyədək Yusif bəy Ağasıbəyli[1] haqqında ayrıca heç bir məqalə yazılmayıb. Biz AR Dövlət Arxivindən onun şəxsi sənədlərini əldə etdikdən sonra 19 sentyabr 2006-cı ildə nəvəsi *Rasim Ağasıbəyli* ilə görüşərək ondan da müəyyən materiallar almışdıq. O zaman Rasim bəy bizə Yusif bəyin çox qısa yazılı tərcümeyi-halını da vermişdi. Daha sonra AR MTN arxivindən Y.b.Ağasıbəylinin istintaq işiylə tanış olduq. Bu məqalənin yazılmasında həmin qaynaqların üçündən də az və ya çox dərəcədə yararlanmışıq.

* * *



Ağasıbəyli Yusif bəy Süleyman bəy oğlu

Yusif bəy Gəncənin tanınmış bəy ailəsindən çıxıb.

Atası Süleyman bəy Ağasıbəyov 1909-cu ildə Cavanşir qəzasının Bərdə kəndində 1-ci bölmənin "sülh araçısı"[2] kapitan şahzadə Sədrəddin Mirzənin yanında tərcüməçi idi.[3]

Tiflisdə Zaqafqaziya Şiəməzhəb Müsəlmanlarının Ruhani İdarəsindən 13 iyun 1905-ci ildə verilmiş doğum şəhadətnaməsində göstərilib ki, Gəncə valiliyinin (əslində "şəhərinin" yazılmalıydı) sakini Yusif bəy *"təvəllüd edibdir öz atası Süleyman bəy Əmiraslan bəy oğlu Ağasıbəyovun mənkuheyi-şəriyyəsi Bilqeyis xanım Məşədi Hacı qızından min səkkiz yüz doqsan ikiminci ilin dekabr ayının yigirminci günündə".*[4]


O dönəmin əksər imkanlı ailələrinin uşaqları kimi, Yusif bəy də ilkin təhsilini molladan alıb, ərəb və fars dillərini yaxşı bilib. Gəncə şəhər gimnaziyasının direktoru P.İoselianinin 1 may 1917-ci ildə verdiyi kamal attestatına görə, Yusif bəy Süleyman bəy oğlu 14 dekabr 1906-cı ildə Gəncə kişi gimnaziyasına girərək 1917-ci ilədək orada əla əxlaqla oxuyub və 8 siniflik tam kursu bitirib. Bu vaxt aşağıdakı qiymətləri alıb:

Şəriət –	5 (beş)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	4 (dörd)
Fəlsəfə propedevtikası –	4 (dörd)
Latın dili –	4 (dörd)
Riyaziyyat –	4 (dörd)
Riyazi coğrafiya –	4 (dörd)
Fizika –	4 (dörd)
Tarix –	4 (dörd)
Qanunşünaslıq –	4 (dörd)
Coğrafiya –	4 (dörd)
Fransız dili –	4 (dörd)
Alman dili –	4 (dörd).[5]

Göründüyü kimi, gimnazist əlaçı olmasa da çox yaxşı oxuyub, bir dənə də "3"-ü yoxdur.

7 avqust 1919-cu ildə Azərbaycan Cümhuriyyəti xalq maarif nazirinə yazdığı ərizədən

[1] Soyadı bir çox qaynaqlarda "Ağasıbəyov" kimi də gedib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.
[2] Ruscası: "мировой посредник".
[3] *"Кавказский календарь на 1910 год"*, часть 2, s. 392.
[4] ARDA, fond 51, siyahı 3, iş 48, vərəq 6.
[5] Yenə orada, vərəq 4.



Almaniyada oxuyan tələbələr. *Soldan sağa:* Əliəkbər Əliyev, Məhiş Səfərov, Abbasmirzə Əliyev, Hilal Münşizadə, Yusif bəy Ağasıbəyli, Hüseyn Şıxıyev, Teymur bəy Aslanov. Berlin, Tirqarten, iyun, 1921

öyrənirik ki, o, 1917-ci ildə Gəncə kişi gimnaziyasını bitirdikdən sonra Tiflis Politexnikumunun[1] aqronomluq bölməsinə girib və orada gərəkli zaçotları verib. 1918-ci ilin mayında bir neçə yoldaşıyla İstanbula gedib. Orada Türkiyə (Osmanlı) hökuməti onları öz himayəsinə götürərək təhsillərini davam etdirmək üçün Almaniyaya göndərməyi qərara alıb. Ancaq sonra Türkiyədə yaranan siyasi durum, müharibənin qızışması nəticəsində onların gedişi təxirə salınıb. Vəziyyətin ağırlaşdığını görən yoldaşlar kuryer kimi Qafqaza dönüblər. Beləliklə, Yusif bəy də bir dərs ilini itirməli olub. İkinci akademik ili isə ailələrinin yeganə çörək qazananı olan atasının rəhmətə getməsi ilə itirməli olub, çünki ailənin dolanışıq ağırlığı onun üzərinə düşüb. Nəvəsi Rasim bəyin dediyinə görə, o, ailəni xaricə təhsil almağa gedənədək fərdi müəllimliklə məşğul olaraq saxlayıb.

Gəncə Polisə Müdiriyyətinin 6 avqust 1919-cu il tarixli 5006 saylı təsdiqnaməsində bildirilir ki, Yusif bəy subaydır, heç bir daşınmaz əmlakı yoxdur, yoxsul ailədəndir, ondan ayrı yaşayan və ona heç bir kömək edə bilməyən 2 qardaşı var: "Rza bəy və Ağasıbəyov".[2]

7 avqust ərizəsində Yusif bəy maarif nazirindən xahiş edir ki, mənim Avropanın xüsusi məktəblərindən birinə göndərilməyim haqqında hökumət qarşısında məsələ qaldırasınız.

[1] "Politexnikum" o zamanlar Avropa və Rusiyada "Politexnik İnstitut" anlamında işlədilirdi.
[2] Göründüyü kimi sənəddə ikinci qardaşın adını qeyd etmək unudulub. Nəvəsi Rasim bəyin bizə bildirdiyinə görə, Yusif bəyin 2 qardaşı vardı: böyük qardaşı Rza Gədəbəyin misəritmə zavodunda çalışırdı (onu 1930-cu ildə bandıtlər qətlə yetirib); kiçik qardaşı Ağası isə Yevlax şəhər pambığayırma zavodunun müdiri işləyib (1948-ci ildə vəfat edib). Əlavə etməyi lazım bilirik ki, Rza bəy 1919-cu ildə AC Daxiliyyə Nəzarətində idarə müdiri vəzifəsini ifa edib (bax: məsələn, ARDA, fond 51, siyahı 3, iş 61, vv. 10-11a).



Yusif və Marqarita dostları ilə. Drezden

O, İsveçrə, Fransa, yaxud Almaniyanın şəhərlərindən birində Politexnikumun elektrokimya, yaxud aqronomluq bölməsində oxumaq arzusunu dilə gətirib.[1] (5 noyabr 1919-cu ildə Xalq Maarif Nəzarətinə yazdığı ərizədə isə istəyini bir qədər də dəqiqləşdirərək İsveçrənin Cenevrə şəhərində Elektrotexnika İnstitutunda oxumaq istədiyini bildirib).[2] Əlbəttə, belə savadlı tələbəni Cümhuriyyət hökuməti əlindən buraxmaq istəməzdi, buna görə də onu Avropaya göndəriləcək dövlət təqaüdçüləri siyahısına salıb.

Az sonra Y.b.Ağasıbəyov Tələbə Birliyinin sədri də seçilib. Həmin qurumun başçısı olaraq o, 10 sentyabr 1919-cu ildə Hacıkənddən Cümhuriyyət Parlamanının sədrinə aşağıdakı məzmunda teleqram göndərib: "Dövlət Müdafiə Komitəsinin tələbələrin [əsgəri xidmətdən] müvəqqəti azad edilməsi haqqında sərəncamına baxmayaraq, tələbələrin bir çoxu hərbi məktəblərdə və qoşunlarda qalmaqdadır; onların xaricə göndərilmək və ali məktəblərə girmək haqqında xahiş etmək imkanları yoxdur. Onların gerçəkdən azad edilməsi üçün uyğun tədbirlər görmənizi dönə-dönə xahiş edirəm".[3] Bu məktub çox tezliklə öz nəticəsini verdi.

Xalq Maarif Nəzarəti xaricə oxumağa göndəriləsi təqaüdçülərdən qayıdıb işləmək haqqında dilkağızı – iltizamnamə alırdı. Y.b.Ağasıbəyov 7 avqust 1919-cu ildə verdiyi dilkağızında[4] ali təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyətinin hüdudunda 2 ildən az olmamaqla, 31 dekabr 1919-cu il tarixli dilkağızında[5] isə 4 il qulluq etməyi öhdəsinə götürüb.

Azərbaycan Cümhuriyyəti hökuməti hesabına xaricə oxumağa göndərilməsi haqqında 577 saylı vəsiqə ona 14 yanvarda verilib.[6]

[1] ARDA, fond 51, siyahı 3, iş 48, vv.1-1a.
[2] Yenə orada, vərəq 7.
[3] Yenə orada, fond 895, siyahı 1, iş 228, vərəq 134. Teleqram 13 avqust 1919-cu ildə Parlamana daxil olub və 1183-cü nömrə ilə qeydə alınıb.
[4] Yenə orada, fond 51, siyahı 3, iş 48, vərəq 2.
[5] Yenə orada, vərəq 8.
[6] Yenə orada, vərəq 10.

* * *





Yusif bəy həbsdə

Qarşımızda AR Dövlət Təhlükəsizliyi Xidmətinin arxivindəki PR-23658 saylı istintaq işindən götürdüyümüz qeydlər durur. 14 avqust 1937-ci ildə başlanıb 11 aprel 1938-ci ildə bitən və 2 cilddən ibarət olan 308 vərəqlik işdən Yusif Ağasıbəylinin həyatı haqqında ən dəqiq məlumatları əldə edə bilirik.

Erməni müstəntiq Xocayev 8 avqust 1937-ci ildə ona 1917-1932-ci illər arasında harada olması və nə iş görməsi haqqında sual verir. Cavabında Ağasıbəyli bildirir:

"1917-ci ildə mən Gəncə şəhərində kişi gimnaziyasını bitirdim və həmin 1917-ci ilin payızında Tbilisi Kənd Təsərrüfatı İnstitutuna girdim. Burada 1918-ci ilin mart-aprelinədək oxudum. Xaricdə oxumaq istədiyimə görə gizlicə Türkiyəyə – İstanbula getdim, oraya 1918-ci il iyun ayının sonunda çatdım. Təxminən 3 aydan sonra mən Almaniyaya gediş hüququ əldə etdim. Ancaq bu vaxt İstanbula Müsavat liderləri [Xəlil bəy] Xasməhəmmədov, Rəsulzadə Məhəmmədəmin, Aslan bəy Səfikürdski və b. gəldilər və onların tələbi ilə Türkiyə hakimiyyəti Azərbaycandan olan mühacirlərə, o sıradan mənə hərbi məktəbə girməyi təklif etdi. Bundan yayınmaq üçün mən Türkiyədəki Dağlılar Hökuməti Nümayəndəliyinin yardımı ilə Gəncə şəhərinə qayıtdım. Bu, 1918-ci ilin sonunda oldu və o vaxt Gəncədə Müsavat hökuməti ağalıq edirdi.

Türkiyədən Gəncəyə gəldikdən sonra uzun müddət xəstələndim. Sağaldıqdan sonra ictimai əsaslarla tələbə yerdaşlığının[1] yaranmasına çalışdım.

Tələbə yerdaşlar cəmiyyətində işimi yarımçıq qoyaraq 1919-cu ilin sonunadək Müsavat hökumətinin keçirdiyi əhalinin siyahıya alınması üzrə işlədim.

1919-cu ilin sonunda Müsavat hökuməti tərəfindən başqaları ilə birlikdə təqaüdçü kimi mən də Almaniyaya – Berlin şəhərinə oxumağa göndərildim.

Berlinə gəldikdə, mən Politexnikuma qəbul olundum və eyni zamanda Hannover şəhərindəki "Hanomaq" zavodunda stajçı kimi işə düzəldim. Burada 6-8 ay işlədim. Elə bu şəhərdə az bir müddət – ay yarım elektromexanika zavodunda çalışdım, sonra isə yenə Berlin şəhərinə geri döndüm və "Svituş" zavodunda işə girdim. Bu vaxt xəbər aldım ki, Azərbaycanda sovetləşmə baş verib və mən Berlindəki sovet səfirliyindən məni Müsavat vətəndaşlığından sovet vətəndaşlığına keçirməyi xahiş etdim. Mənim sovet vətəndaşlığına qəti keçməyim 1924-cü ildə rəsmiləşdirildi.

1920-24-cü illərdə Berlin Politexnikumunda oxudum və heç yerdə işləmədim. 1925-ci ilin sonunda Drezden Politexnikumuna keçdim və 1926-cı ilin başlanğıcında mühəndisliyə namizəd rütbəsi aldım. 1927-ci ildə təqaüdümün vaxtı bitdi və 1927-ci ilin sonundan evdə işlədim, özəl işlər yerinə yetirdim. Bu cür 1931-ci ilədək davam etdi. 1931-ci ilin avqust ayında polis guya evimdə kommunist təmayüllü tələbə yığıncaqları keçirilmək bəhanəsi ilə (halbuki belə şey əsla olmamışdı) mənə Saksoniyanı tərk etməyi təklif etdiyinə görə diplom müdafiə etdim, Saksoniyanı tərk edərək Berlinə köçdüm. Burada sovet Ticarət Nümayəndəliyi mənə SSRİ-yə getmək üçün pul verdi. SSRİ-yə gəldikdən sonra heç yerə çıxmayaraq Azərbaycan SSR-də yaşayır və işləyirəm".[2]

[1] "Yerdaşlıq" terminini rus dilindəki "землячество"nun qarşılığı olaraq işlədirik.
[2] Yusif Ağasıbəyovun istintaq işi. //AR MTN arxivi, PR-23658, 1-ci cild, vv. 210 -211.



Yusif və Marqarita.
Drezden, təx.1926

İfadənin burayadək olan hissəsiylə bağlı bildirək ki, Yusif bəy bütün dindirmələrində, təbii ki, istintaqın "zövqünü" müəyyən qədər nəzərə almağa məcburdu. Elə buna görə də o, "müsavatçıların" tələbi ilə hərbi məktəbə girmədiyini deyir, "Müsavat vətəndaşlığı" sözü işlədir və s. Üç zavodda "stajçı" kimi işləməsinə gəlincə, əslində, maddi ehtiyac, bir çox başqa tələbələr kimi, onu da ağır işlərdə çalışmağa vadar etmişdi. Ancaq ən maraqlı məqamlardan biri onun "kommunist təmayüllü tələbə yığıncaqları" ilə bağlı dedikləridir. Başqası olsaydı bəlkə də bu məsələni şişirdər, kommunistlərə rəğbət bəslədiyini, evində müntəzəm belə toplantılar keçirdiyini, Almaniyadan elə bunun üstündə qovulduğunu bəyan edərdi, halbuki o, həqiqəti danmır, "belə şey əsla olmamışdı" deyir. Elə bu kiçik ştrix Almaniyada oxumuş tələbələrin, demək olar ki, hamısında özünü göstərən bir xüsusiyyəti Yusif bəy Ağasıbəyovda da üzə çıxarır – o, yalan danışmağı bacarmır!

Müstəntiq Xocayevin növbəti sualı Y.b.Ağasıbəylinin Berlində hansı tələbə təşkilatlarında bulunması haqqındadır. Cavab konkretdir: "Berlində mən *"Azərbaycan Sovet Tələbələri Birliyi"*ndə idim; bu təşkilat sonra *"Xaricdəki Sovet Proletar Tələbələri Birliyi"*nə qovuşdu. Başqa tələbə təşkilatlarında olmamışam. [...] Berlində başqa sovet tələbə təşkilatları olmayıb. İnstitutda müxtəlif alman milli birlikləri vardı, oraya əcnəbiləri qəbul etmirdilər. Əcnəbilər mexaniki olaraq institutdakı əcnəbi tələbələr birliyinə daxil olurdu".[1]

* * *

Bəs Yusif bəy Ağasıbəylini "NKVD" zindanına atan nə olmuşdu?

Geriyə dönərək bildirək ki, vətənə 1931-ci ildə qayıdan mühəndis-elektrik Y.Ağasıbəyli həmin ildən həbs edildiyi 1937-ci ilədək Gəncə (Kirovabad) Yağ-Piy Kombinatında baş mexanik işləyib. Həmin vaxt bu zavoda rəhbərlik Azərbaycan Türklərinin əlində idi – direktor Həsən Nuruyev, partiya təşkilatının katibi Gülzar Hüseynova, toxuculuq şöbəsinin müdiri İsmayıl Mirzəyev və mühəndis-elektrik Ağasıbəyli idi.

[1] Yusif Ağasıbəyovun istintaq işi. //AR MTN arxivi, PR-23658, 1-ci cild, 211-211a.



Yusif və Marqarita Ağasıbəylilər oğulları Arslan ilə. Drezden, 1928



Marqarita və oğlu Arslan.
Drezden, 1928

Bu mövcud durum hələ çar dövründən Gəncədə hakimiyyəti ələ keçirməyə çalışan, sovet dövründə isə nəfsləri daha da itiləşən ermənilər təmin etmirdi. Bu dönəmdə az qala bütün dünya ermənilərinin liderinə çevrilmiş Sovet dövlətinin başçılarından biri, SSRİ xalq yeyinti sənayesi komissarı (naziri) *Anastas Mikoyan* bu işə əncam çəkmək qərarına gəlib və Kirovabad Yağ-Piy Kombinatında "işləri qaydaya salmaq" əmri verib. İndi isə baxaq görək onun "Kirovabad Yağ-Piy Kombinatının işi haqqında" 7 aprel 1937-ci il tarixli 623 saylı əmrində nə yazılıb:

"Kirovabad Yağ-Piy Kombinatı, dizel stansiyasının işinə cinayətkarcasına rəhbərlik edilməsinin, dizellərin tez-tez qəzaya uğramasının nəticəsində 1936-cı ilin istehsalat planını, eləcə də 1937-ci ilin yanvar və fevral planlarını yerinə yetirməyib.

Səbəblərin yoxlanılması göstərib ki, dizel stansiyasının və kombinatın pis işi ümumilikdə başlıca olaraq bununla izah edilir ki, kombinatın direktoru Nuruyev və baş mühəndis Koltıpin istehsalatla və xüsusən güc stansiyasının işi ilə məşğul olmayıblar.


Bütün texnikaya rəhbərliyi onlar baş mexanik mühəndis Ağasıbəyliyə tam inanıblar, o da öz fəaliyyəti ilə güc stansiyasını işə yararsız hala gətirib. Kombinatda işlərin icrasının ləngiməsi, dizellərin təmirinin aşağı keyfiyyətli olması, dizellərin içində qüsurların və baş verən qəzaların şüurlu şəkildə gizlədilməsi və dizellərin ehtiyat hissələri ilə təminatı üçün heç bir iş görülməməsi, əməyin yanlış təşkili, əmək haqqının yanlış ödənilməsi, işçi qüvvəsinin dağıdılması, təsərrüfatsızlıq kök salıb.

Kombinat yad ünsürlərlə zibillənib, bolşevik yaradıcı özünütənqidi yoxdur.

Güc stansiyasının və kombinatın pis işinin səbəblərini dərindən təhlil etmək yerinə, kombinat rəhbərləri yalnız çatışmazlıqları göstəriblər və onları aradan qaldırmaq üçün konkret tədbirlər görməyiblər.

ƏMR EDİRƏM:

1. İşi dağıtdığına və Kombinata rəhbərliyi yad ünsürlərə etibar etdiyinə görə Kombinatın direktoru Nuruyevə xəbərdarlıqla şiddətli töhmət elan edilsin.



Yusif və Marqarita Ağasıbəylilər oğulları Arslan və Turxanla. Drezden, 1930-31

2. Baş mühəndis Koltupin istehsalat fəaliyyətinə texniki rəhbərliyi təmin edə bilmədiyinə görə vəzifədən götürülsün.

3. Öz fəaliyyəti ilə güc stansiyasını işə yararsız hala salmış və kombinatın işini dayanmaq təhlükəsi altında qoymuş baş mexanik Ağasıbəyli yeyinti sənayesi sistemində işləmək yasaqlanmaqla kombinatdakı işindən götürülsün.

[...]

6. Kombinatda baş mexanik Ağasıbəylinin... və güc stansiyasının işini dağıtmaqda müqəssir olan başqa şəxslərin cinayətkar fəaliyyəti haqqında material onların cinayət məsuliyyətinə cəlb edilməsi üçün istintaq orqanlarına verilsin.

[...]

9. Kombinata yad ünsürlərin soxulması imkanını aradan qaldırmaq üçün yol. Nuruyevə tapşırılsın ki, işçilərin işə qəbulunda qayda yaratsın.

SSRİ xalq yeyinti sənayesi komissarı A. Mikoyan".[1]

Bu əmrdə tarixi gerçəkliyə uyğun gəlməyən bir məqam var – Kombinatın direktoru Nuruyev Kombinatın baş mexaniki Ağasıbəylini hələ 9 mart 1937-ci il tarixli 4 saylı əmri ilə "özünün xidməti öhdəliklərinə səhlənkar yanaşdığına görə" vəzifəsindən azad etmişdi[2], buna görə də komissarın onu işdən azad etmək haqqında yenidən göstəriş verməsi "toydan sonra nağara"dır.

İkinci maraqlı məqamsa Nuruyevin öz dostunu işdən çıxarmasıdır. Çox güman ki, o artıq Moskvada gedən söhbətlərdən, dostunu gözləyən təhlükələrdən xəbərdarmış və onu daha şiddətli cəzalardan qorumaq üçün belə bir önləyici addım atıbmış. Bunun səbəbini başqa cür düşünmək mümkün deyil. Niyəsini Y.b.Ağasıbəylinin 26 iyun 1939-cu il tarixli 5-ci dindirmədə verdiyi ifadədən öyrənirik:

"1934-cü ildə Nuruyev Həsəni institut mənim işlədiyim Yağ-Piy Kombinatına istehsalat təcrübəsinə göndərmişdi. O zaman biz tanış olduq, ancaq bizim tanşlığımızın

[1] Yusif Ağasıbəyovun istintaq işi. //AR MTN arxivi, PR-23658, 1-ci cild, vərəq 19.
[2] Yenə orada, 2-ci cild, vərəq 20.



Yusif və Marqarita Gəncədə

istehsalata dəxli yoxdu. Təcrübəni bitirincə Nuruyev yenə təhsilinə döndü. Dəqiq xatırlamıram, 1934-cü ilin sonunda, yaxud 1935-in başlanğıcında institutu bitirdikdən sonra bizim Kombinatda istehsalat müdiri vəzifəsinə təyin edildi. Onunla tanışlığımız yenidən bərpa olundu. Sonra Nuruyev Kombinatın direktoru təyin edildi. Mənə çox yaxşı, hörmətlə və diqqətlə yanaşırdı. Nuruyevə qədər mənim mənzil şəraitim bərbad idi. Nuruyev mənə 3 otaqlı mənzil verməklə bunu aradan qaldırdı, hətta dörd otaq təklif etdi, ancaq mən razı olmadım. Mənim üçün sağmal inək aldı və pulunu ödəməyə möhlət verdi. İstəyirdi ki, ailəm rahat yaşasın. Bu hörmətinə görə mən Nuruyevə borclu idim və bu yaxşılığının qarşısında ona sırf istehsalat səciyyəli faydalı məsləhətlər verirdim. Nuruyevdən şikayətlənməyə heç cür haqqım yoxdur. Çünki o, Xalq Komissarlığının əmri ilə çıxarıldığım vaxta qədər mənə yaxşılıq edib. Bundan başqa, Nuruyevlə biz bir-birimizə gedib-gəlirdik..."[1]

Y.Ağasıbəylini həbs etmək üçün 26 iyul 1937-ci ildə Azərb. SSR prokurorunun müavini Yarovun imzasıyla qərar hazırlanıb.[2]

31 iyul 1937-ci ildə Azərbaycan K(b)P Kirovabad Şəhər Komitəsi Bürosunun iclası keçirilib. Gündəlikdəki ikinci məsələ "Yol. Mikoyanın Kirovabad Yağ-Piy Kombinatına dair 7/IV/37-ci il tarixli əmrinin yerinə yetirilməsinin gedişi haqqında"dır. Bu barədə erməni Xaçumov məruzə edir. Məruzəçi bəyan edir ki:

– Mikoyan yoldaşın 7 iyun tarixli əmri və bununla bağlı şəhər partiya komitəsi bürosunun qərarı yerinə yetirilməyib;

– Kombinatın direktoru Nuruyev ÜK(b)P MK-nın fevral plenumunun qərarlarından və yoldaş *Stalinin* kombinatın işini sağlamlaşdırmaq haqqında məruzəsindən irəli gələn tədbirləri qəsdən pozub;

– Kombinatdakı ziyanverici ünsürlərin qalıqları ilə qəti mübarizə aparmaq, buranı yad düşmən ünsürlərdən təmizləmək, keçmiş baş mexanik – *düşmən Ağasıbəylinin apardığı ziyanvericiliyin nəticələrini ləğv etmək* əvəzinə, Nuruyev onun partiyaya qarşı işlərinin üstünü

[1] Yusif Ağasıbəyovun istintaq işi. //AR MTN arxivi, PR-23658, 2-ci cild vv. 37a-38.
[2] Yenə orada, 1-ci cild, vərəq 147.



Marqarita Şnayder-Ağasıbəyli

örtəcək və ona kombinat fəhlələri arasında süni nüfuz yaradacaq yaltaqları öz başına toplayıb.

Bütün bunlardan sonra Kirovabad Şəhər Partiya Komitəsi bürosu qərara alıb:

1) Həsən İsa oğlu Nuruyev SSRİ xalq yeyinti sənayesi komissarı Mikoyanın əmrini şüurlu şəkildə pozduğuna, Kombinatın işləri yerinə yetirmək planını süni şəkildə artıq göstərərək dövləti aldatdığına, xalq düşmənləri İbrahim Tağıyev və Cavad Fərhadovla antisovet pozucu işdə fəal iştirakına görə xalq düşməni kimi partiya sıralarından və Kombinatın direktoru vəzifəsindən çıxarılsın, məhkəməyə verilsin.

[...]

4) Kombinatın düşmən elementlərdən təmizlənməsi və burada işlərin sağlamlaşdırılması üçün tədbirlərin keçirilməsi Xaçumova tapşırılsın.

[...]

7) Yağ-Piy Kombinatının direktoru vəzifəsi müvəqqəti olaraq Baqramov Abqar Xristoforoviçə tapşırılsın.[1]

Xoruzun quyruğu indi göründü – bütün bu ittihamlar və tut-baslar az sonra marşal olmuş İvan Xristoforoviç Baqramyanın qardaşını kombinata direktor qoymaq üçün imiş!

Haqqında danışdığımız istintaq işi Yağ-Piy Kombinatının ən məsul işçiləri Həsən Nuruyev, İsmayıl Mirzəyev və Yusif Ağasıbəylinin ittihamı üzrə açılıb. Sənəddən onlar haqqında olduqca qısa tərcümey-hal bilgiləri də öyrənirik.



Yusif Agasıbəyli. 1969

Direktor *Nuruyev Həsən İsa oğlu* 1902-ci ildə Tovuz rayonunun Yuxarı Quşçu kəndində doğulub, ali təhsilli mühəndis-texnoloqdur, 1924-cü ildən partiya üzvüdür. Ailəsi arvadı Tina, oğlu Çingiz, yaş yarımlıq körpə oğlu və bacısı Fatmadan ibarətdir. 14 avqust 1937-ci ildə həbs edilib.[2]

Mirzəyev İsmayıl Musa oğlu da Tovuzun Aşağı Quşçu kəndindəndir, 1900-cü ildə doğulub; Gəncədə Əmək küçəsi 10-da 4-cü mənzildə yaşayır. Gəncə Kombinatında əski xammal üzrə agent işləyir, partiya üzvüdür. Ailəlidir, bir qızı, bir oğlu və 65 yaşlı anası var. 11 yanvar 1938-ci ildə Gəncədə tutulub.[3]

Ağasıbəyli Yusif Süleyman oğlu 1896-cı ildə Gəncədə doğulub, ünvanı: Gəncə,

[1] Yusif Ağasıbəyovun istintaq işi. //AR MTN arxivi, PR-23658, 1-ci cild vv. 11-12.
[2] Yenə orada, vərəq 41.
[3] Yenə orada, vərəq 97.



Almaniyada oxumuş tələbələr. *Soldan sağa:* Cəmil Musai, Abbasmirzə Əliyev, Yusif Agasıbəyli. Moskva, 1 iyun 1969-cu il

Marks küçəsi 14, iş yeri Myasnikov adına yağ zavodu, mühəndis-mexanik, partiyasız, ailə tərkibi: arvadı Marqarita Emilevna, 30 yaş; oğlu A[r]slan, 9 yaş; oğlu Turxan, 8 yaş. 1 avqust 1937-ci ildə Gəncədə həbs edilib.[1] Gəncə şəhər sovetinin üzvüdür.[2]

İstintaq işindəki arayışda Kombinatın 1-ci dərəcəli önəmli obyekti olan güc və elektrik təsərrüfatına rəhbərlik etmiş Ağasıbəyli haqqında bu ittihamları oxuyuruq:

– Gəlişindən bir az sonra Gəncədə olan Ağasıbəyli keçmişdə Almaniyada oxuyan şəxslərlə əlaqəsini bərpa edib, eləcə də faşist əhval-ruhiyyəli koloniyaçı almanlar arasında geniş əlaqələr yaradıb. Bir neçə dəfə Ağasıbəylinin açıq-aydın faşist təşviqatı apardığı, Almaniyadakı faşist rejimini tərifləyiri qeyd olunub. Bundan başqa, müəyyən olunub ki, Ağasıbəyli Kirovabad şəhərində işləyərək Almaniya təbəəsi olan arvadı üçün pasport almaq bəhanəsi altında Tbilisidəki Almaniya konsulluğuna bir neçə dəfə gedib.

– 1933-cü ildə keçmiş Az. DSİ Kirovabad Yağ-Sabunbişirmə Kombinatının güc təsərrüfatında TİKS Almaniya firması nümayəndəsinin təşkil etdiyi təxribatçı qrupu aşkar və ləğv edib. TİKS-in kombinatda olduğu dönəmdə Ağasıbəyli onunla sıx əlaqə saxlayıb.

– Ağasıbəylinin kombinatın güc təsərrüfatının rəhbəri vəzifəsində olduğu dönəmdəki istehsal fəaliyyətinin təhlili onun bu sahədə açıq-aydın ziyanvericilik işi apardığını göstərib. Bunun nəticəsində kombinat bir neçə dəfə uzunmüddətli dayanmalar, istehsalat planlarının yerinə yetirilməməsi təhlükəsi altında qalıb.

– Ağasıbəylinin rəhbərlik etdiyi bütün güc təsərrüfatı mövcud əsasnamənin əksinə olaraq uzun müddət təmir edilməyib, nadir təmirlərdə isə qəsdən yararsız detallar quraşdırılıb, bunun nəticəsində də təsərrüfat yararsızlaşıb və qəzalar sıxlaşıb.

– SSRİ xalq yeyinti sənayesi komissarının əmri ilə bütün Kombinatı dayanmaq təhlükəsi altında qoymuş güc təsərrüfatını dağıtdığına görə yeyinti sənayesində işləmək yasaqlanmaqla işdən çıxarılıb.[3]

[1] Yusif Ağasıbəyovun istintaq işi. //AR MTN arxivi, PR-23658, 1-ci cild, vərəq 152.
[2] Yenə orada, vərəq 209.
[3] Yenə orada, vv. 143-144.



Almaniyada oxumuş tələbələr. *Soldan-sağa:* Abbasmirzə Əliyev, Yusif Ağasıbəyli, Cəmil Musai. Moskva, 1 iyun 1969-cu il

1 avqust 1937-ci ildə Ağasıbəyli, 14 avqustda Nuruyev və 11 yanvar 1938-də Mirzəyev həbs edildikdən sonra onların "cinayət işi" birləşdirilib. Ancaq görünən budur ki, istintaq bütün gücünü Ağasıbəyli və Nuruyevin "cinayətlərini" sübut etməyə çalışıb. Ağasıbəyli Almaniyada oxuduğuna görə "faşist" ittihamına daha münasibdir, Nuruyev isə təsərrüfat rəhbəri olduğu üçün onu işi qəsdən pozmaqda suçlamaq daha asandır.

Nə isə, 9 aprel 1938-ci ildə Nuruyev, Mirzəyev və Ağasıbəylinin təqsirləndirilməsi üzrə işin istintaqı başa çatıb və məhkəməyə göndərilib. Bu müddətdə müstəntiqlər dözülməz işgəncələr sayəsində müttəhimlərdən suçlarını etiraf edən imzalar qopara bilmişdilər. Ancaq 13 dekabr 1938-ci ildə məhkəmə zamanı Nuruyev də, Ağasıbəyli də, Mirzəyev də ilkin istintaqda verdiyi bütün ifadələrdən imtina ediblər. Buna görə Zaqafqaziya Hərbi Dairəsinin Hərbi Tribunalı həmin ilin dekabrında işi yenidən istintaqa qaytarıb. Bundan sonra onlara qarşı irəli sürülən ittihamlar sübut olmadığına görə onların üzərindən götürülüb. Ancaq aradan yarım il keçəndən sonra "möcüzə" baş verib – 22 iyun 1939-cu ildə əlavə heç bir istintaq hərəkəti aparılmadan Hərbi Tribunalın göstərişi ilə istintaq bitib və SSRİ XDİK Özəl Müşavirəsinə (ÖM) baxılmağa göndərilib.[1] 19 iyul 1939-cu ildə ittiham qətnaməsində Yusuf bəy Ağasıbəyli ilə bağlı bu ittihamlar göstərilib:


1. Əksinqilabi millətçi-üsyançı təşkilatın üzvü olub.

2. Əksinqilabi təşkilatın sovet hakimiyyətini devirmək məqsədilə silahlı üsyan hazırlamasından xəbərdar olub.

3. Buna görə də o, Azərb. SSR Cinayət Məcəlləsinin 64 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlər üzrə məsuliyyətə cəlb edilib.[2]

Özəl Müşavirə bu ittihamnaməyə əsasən 19 fevral 1940-cı ildə Ağasıbəylini 1 avqust 1937-ci ildən hesablamaqla 3 illiyə islah əmək düşərgəsinə məhkum edib.[3] Nuruyevə 5 il, Mirzəyevə 3 il verilib.[4]

[1] Yusif Ağasıbəyovun istintaq işi. //AR MTN arxivi, PR-23658, 1-ci cild, vv. 119-120.
[2] Yenə orada, vərəq 55.
[3] Yenə orada, vərəq 92.
[4] Yenə orada, vv. 119-120.



Rasim Arslan oğlu Ağasıbəyli *(solda)* və Arif Ağasıyev. Bakı, 19 sentyabr 2006-cı il

Protokollara inansaq Yusif bəy istintaqda 5 dəfə dindirilib. Müstəntiqləri erməni olub. 8 və 13 avqust 1937-ci ildə onu Xocayev, 23 noyabr 1937-ci və 1938-ci ilin Novruz bayramı günü – 21 martda Armais Akopov, 26 iyun 1919-cu ildə son dəfə yenə Xocayev dindirib.[1]

Yusif Ağasıbəyli, Həsən Nuruyev və İsmayıl Mirzəyevin üçü də 29 aprel 1956-cı ildə bəraət alıb.[2]

* * *

Təsəlli vermək məqamında xalqımızın işlətdiyi çox xoşagəlimli bir söz var – "kişinin başına iş gələr". Gerçəkdən belə düşünürük ki, Yusif bəyin XDİK zindanında çəkdiklərini, sonrakı əzablarını bəlkə də "kişinin başına iş gələr" kateqoriyasından saymaq mümkündür, ancaq həbsi zamanı çekistlətin ona qarşı törətdiyi cinayətin hansı kateqoriyaya aid olduğunu heç cür müəyyənləşdirmək mümkün deyil. Söhbət nədən gedir?

Həbs edildiyi gün Gəncədə Marks küçəsi 14 ünvanındakı evində axtarış aparılıb və mənzilindən bu şeylər götürülüb: [...] 13. Kollektiv fotoşəkillər (10 ədəd). 14. Alman dilində müxtəlif kitablar (9 ədəd). 15. Almanca patefon valları (2 ədəd). [...] 17. İdarədəki dəyişiklik haqqında məruzə (1 qovluq).[3] Çekistlər bütün bunların hamısını məhv ediblər! Hələ bir utanmadan bunu sənədləşdiriblər də!

AKT

5 aprel 1938-ci il, Bakı şəhəri.

Biz, aşağıda imza edən Azərb. SSR XDİK DTİ 3-cü bölməsinin əməliyyat müvəkkilləri – DT çavuşu Akopov Arm[ais], Rınski və Yegiyev (bu da ermənidir – müəl.) bu aktı ona görə tərtib etdik ki, müttəhim Ağasıbəyli Yusifdən götürülmüş və axtarış protokolunun 7, 8, 9, 10, 11, 12, 13, *14, 15, 16, 17 və 18-ci maddələrinə salınmış kağızlar, kitablar və s. müttəhim Ağasıbəylinin işi üzrə istintaqa heç bir dəxli olmadığına görə tərəfimizdən yandırılma yolu ilə məhv edilib.*[4]

[1] Yusif Ağasıbəyovun istintaq işi. //AR MTN arxivi, PR-23658, 1-ci cild, vv. 209-222; 2-ci cild, vv. 36-39.
[2] Yenə orada, vv. 177-178.
[3] Yenə orada, vərəq 149.
[4] Yenə orada, vərəq 150.

Bəlkə heç 3-cü sinfi də bitirməmiş kəmsavad sıravi çavuşlar Almaniyada ən yüksək səviyyədə təhsil almış savadlı və mədəni bir mühəndisin onlar üçün "maraqlı olmayan" tarixi sənədlərini, kitablarını, patefon vallarını... məhv edir! Özü də bu vandalizmi "NKVD" işçiləri təkcə Ağasıbəyliyə qarşı deyil, aydınlarımızın çoxuna tətbiq etmişdilər. Bu, əslində, Azərbaycan ziyalılarını cismən məhv etməklə yanaşı, onlardan qalan mirası da yer üzündən silmək siyasətinin tərkib hissəsi idi və Moskvadan yürüdülən bu siyasəti Azərbaycanın hər yerində icra etmək başlıca olaraq ermənilərə tapşırılmışdı. Bunun nəticəsidir ki, biz XIX əsrin sonu – XX əsrin ilk onilliklərində çəkilmiş fotoları, özəlliklə xaricdə oxumuş tələbələrimizin fotolarını və başqa sənədlərini əldə etməkdə həddsiz çətinliklərlə üzləşirik.

* * *

Oxucunu, əlbəttə, Yusif bəy Ağasıbəylinin həbsdən sonrakı taleyi də maraqlandırır. Həyatının bu dönəmi haqqında arxiv sənədləri tapmaq olduqca müşkül, hətta mümkünsüz işdir. Burada nəvəsi Rasim Ağasıbəyli ilə 19 sentyabr 2006-cı ildə öz evimizdə apardığımız söhbətdən qeydlər və Rasim bəyin bizə verdiyi çox qısa tərcümeyi-hal dadımıza çatır. Həmin qeydlərə söykənməklə bunları bildiririk ki, Yusif bəy 1940-cı ildə həbsdən azad olunduqdan sonra Gəncə şəhərinin İstilik mərkəzində baş mühəndis vəzifəsinə təyin edilib. Müharibə başladıqdan sonra, xaricdə oxumuş bütün tələbələr kimi, o da 1942-ci ildə ailə üzvləri ilə birgə Şimali Qazaxıstanın Petropavlovsk vilayəti Mamlüt rayonunun Kalugino kəndinə sürgün edilib və 1944-cü ilə kimi orada kolxozda işləyib. 1944-cü ildə Daşkənd şəhər Orta Asiya enerji sistemində işləyib. Bundan sonra o, Tacikistanın Leninabad şəhərinə göndərilərək əvvəl elektrik sistemində baş mexanik, sonra isə Leninabad ipək kombinatının baş mexaniki vəzifəsində çalışıb. 1953-cü ildə Özbəkistanın Namanqan şəhərində İstilik mərkəzinin baş mexaniki və 1957-ci ildə rezin məhsulları zavodunun müdiri vəfəsində, 1959-1960-cı illərdə yenə Leninabad ipək kombinatında işləyib.

1960-cı ildə o, vətəni Gəncə şəhərinə qayıdıb, alüminium zavodunda və sonra şəhərin İstilik mərkəzində mühəndis işləyib. 25 may 1980-ci ildə vəfat edib və Gəncə şəhərində dəfn olunub.

Həyat yoldaşı *Ağasıbəyli Marqarita Emil qızı* (qızlıq soyadı *Şnayder*; Drezden şəhərində doğulmuş almandır) 1986-cı ilin yanvarında Gəncə şəhərində vəfat edib. Oğulları: böyük oğlu *Arslan* 1928-ci ildə Almaniyanın Drezden şəhərində doğulub, ixtisasca həkimdir, hazırda təqaüdçüdür və Sankt-Peterburq şəhərində yaşayır. Kiçik oğlu *Turxan* da Drezden şəhərində 1930-cu ildə anadan olub, təqaüdçüdür, Rusiyanın Staraya Rusa şəhərində yaşayır.

Ağayev Balaağa Məhəmmədhənifə oğlu

(1899, Fatmayı/ Bakı – 1974-dən sonra, Qrenobl/ Fransa)



Balaağa Ağayev

Kökcə Bakının Fatmayı kəndindən olan Ağayevlər ailəsi ticarətlə məşğul olan imkanlı ailələrdəndi. Görkəmli diplomat Ramiz Abutalıbovun bizə verdiyi fotoşəkillərdən birində Ağayev qardaşlarının Bakı şəhərindəki mağazası təsvir edilib.

Balaağa Ağayev də Fatmayıda dünyaya gəlib. Bakı valiliyinin qazısı, valilik Şiə Ruhani Məclisinin sədri Hacı Mirməhəmmədkərim Hacı Mircəfərzadənin 27 may 1907-ci ildə verdiyi 211 saylı doğum şəhadətnaməsində bu haqda belə yazılıb:

"Bu şəhadətnaməni Bakı Valiliyi Məclisinin sədri ona görə verib ki, Bakı qəzası Fatmayı kəndinin sakini Balaağa Məhəmmədhənifə oğlu öz atası Məhəmmədhənifə Kərbəlayı Hacıağa oğlunun qanuni arvadı Bibixanım Kərbəlayı Zərbəli qızından 1899-cu ildə doğulub".[1]

Öncə Bakı real məktəbində oxuyan B.Ağayev 1915-ci ildə Bakı Kommersiya Məktəbinə girib. Buradan aldığı 723 saylı attestatda oxuyuruq: "Bu attestat müsəlman, 1899-cu il doğumlu Ağayev Balaağa Məhəmmədhənifə oğluna ona görə verilib ki, o, Bakı Kommersiya Məktəbinə 3 sentyabr 1915-ci ildə girib və əla oxlaqla 16 iyun 1919-cu ildək oxuyub və təlimin tam kursunu bitirib. Tədris kursunu keçərkən, eləcə də köçürmə və buraxılış imtahanlarında o – Ağayev Balaağa bu uğurları qazanıb:

Şəriət –	5 (beş)
Rus dili və ədəbiyyatı –	3 (üç)
Alman dili –	3 (üç)
Fransız dili –	3 (üç)
Tarix –	3 (üç)
Coğrafiya –	4 (dörd)
Riyaziyyat, o sıradan	
Həsab –	4 (dörd)
Cəbr –	3 (üç)
Həndəsə –	4 (dörd)
Triqonometriya –	3 (üç)
Analitik həndəsə –	4 (dörd)
Kosmoqrafiya –	3 (üç)
Təbii tarix –	4 (dörd)
Fizika –	3 (üç)
Ticarət hesabı –	4 (dörd)
Mühasiblik –	3 (üç)
Ticarət yazışması –	3 (üç)
Siyasi iqtisad –	3 (üç)
Qanunşünaslıq –	3 (üç)
Kimya və texnologiya ilə əmtəəşünaslıq –	4 (dörd)
Ticarət coğrafiyası –	3 (üç).[2]

[1] ARDA, fond 51, siyahı 3, iş 53, vv. 3-3a. Zadəgan Səlim bəy Səlimbəyovun rus dilinə tərcümə etdiyi bu şəhadətnaməni 3 may 1914-cü ildə Bakı notariusu L.E.Simmerman təsdiq edib.

[2] Yenə orada, vərəq 2.



Fransada oxuyan tələbələrimizdən.
Ondə: Mustafa ağa Vəkilov.
Arxada (soldan sağa): Balaağa Ağayev, İsgəndər Rzazadə, Miri bəy Vəzirov

Bundan başqa, B.Ağayev xəttatlıq, rəsmxət və rəsmdən, eləcə də keçilməsi məcburi olmayan Türk dili fənlərindən "5" alıb.[1]

10 may 1917-ci ildə Bakı şəhərində Qafqaz müsəlman şagirdlərinin I qurultayı keçirilib. Xatirə fotolarında qurultay iştirakçıları arasında Balaağa Ağayevi də görürük. Deməli, o, məktəbin fəal şagirdlərindən olub.

Ali təhsil almaq üçün əcnəbi dövlətlərə tələbə göndərilməsi xəbərini alınca Bakı şəhərində 1-ci Paralel küçəsi, 10-cu evdə yaşayan abituriyent Balaağa Ağayev 15 avqust 1919-cu ildə xalq maarif nazirinə bu məzmunda bir ərizə verib:

"Xarici ölkədə – Almaniyada ali təhsil almaq istəyərək Siz alihəzrətdən məni xaricə göndərilən tələbələrin siyahısına salmaqdan imtina etməməyinizi xahiş etməklə şərəflənirəm.

Əlavə edirəm ki, mən Bakı Kommersiya Məktəbini bitirmişəm və Ali Kommersiya İnstitutuna girmək istəyirəm.

Təhsilimi şəxsi əməyimlə qazandığım vəsait hesabına almışam".[2]

20 oktyabr 1919-cu ildə Azərbaycan Cümhuriyyəti xalq maarif naziri Rəşid xan Qaplanovun 456 saylı əmri ilə Balaağa Ağayev 10 oktyabrdan Bakı Kommersiya Məktəbinə Türk dili müəllimi təyin edilib.[3]

Müəllim işləyə-işləyə 24 noyabr 1919-cu ildə Müsəlman tələbələri bürosuna bu məzmunda ərizə ilə müraciət edib: "Bununla nəzərinizə çatdırıram ki, təhsilimi Paris şəhərində başa çatdırmaq istəyirəm. Tibb fakültəsinin olmasını arzu edərdim. Gərəkli bəlgələri birinci tələbdə çatdıracağam".[4]

Xaricə gedəsi 100 nəfərin siyahısı 18 dekabrda "Azərbaycan" qəzetində dərc edildiyi zaman B.Ağayevin adı oraya düşməmişdi. Ancaq yanvar ayında siyahıdakı 5 nəfərin getməyəcəyi dəqiq bəlli oldu və onların əvəzinə, siyahıya düşməyən 5 nəfər dövlət təqaüdü təyin edilməklə, qanuni yolla oxumağa göndərildi ki, onlardan biri də Balaağa Ağayev idi.

[1] ARDA, fond 51, siyahı 3, iş 53, vv. 2-2a.
[2] Yenə orada, vərəq 1.
[3] Yenə orada, iş 8, vərəq 232; yenə orada, iş 418, vərəq 4.
[4] Yenə orada, iş 53, vərəq 4.

Xalq maarif naziri əvəzi S.b.Şahsuvarov və dəftərxana müdiri F.b.Rzabəyovun imzası ilə 13 yanvar 1920-ci ildə Balaağa Ağayevə 548 saylı təsdiqnamə verilib ki, onu Azərbaycan Cümhuriyyəti hökuməti öz təhsilini başa vurmaq üçün dövlət hesabına xaricə oxumağa göndərir.[1]

* * *



Balaağa Ağayev

Balaağa Ağayev Parisdə tibb təhsili alıb. Əlimizdəki fotoşəkillərdən birində o, Parisdə oxuyan azərbaycanlı tələbə yoldaşları Mustafa ağa Vəkilov, İsgəndər Rzazadə və Miri bəy Vəzirovla birgə təsvir olunub.

Həkim B.Ağayev təhsilini başa vurduqdan sonra SSRİ-yə dönməyərək Fransada yaşayıb. Bundan sonrakı həyatı haqqında bilgimiz yox dərəcəsindədir.

Bir zamanlar Parisdə UNESCO-nun şöbə müdiri işləmiş görkəmli diplomat *Ramiz Abutalıbov* 18 mart 2012-ci ildə Bakıdakı söhbətimizdə bunları demişdi:

– Mən Parisdə işləyərkən – 1974-cü ildə Balaağa Ağayevlə görüşmək istədim. Bu vaxt onun 70-dən artıq yaşı vardı və Fransanın Qrenobl şəhərində yaşayırdı; son məskəni elə bura olub. Onunla görüşmək istəməkdə məqsədim tanış olmaq və həyatını öyrənməkdi. Təəssüf ki, inadlı cəhdlərim baş tutmadı – görüş çağırışlarıma müsbət yanaşmadı. Görünür, sovet adamı olduğum üçün məndən çəkinirdi. Buna bir qədər haqqı olsa da, axı Parisdəki bir çox mühacirlərimizlə əla münasibətlər qurmuşdum və onlar da mənim sovet adamı olduğumu bilirdilər, buna baxmayaraq öz şəxsi arxivlərini mənə etibar edirdilər. Nə isə, B.Ağayevlə heç cür əlaqə yarada və həyatı haqqında məlumat öyrənə bilmədim. Bir neçə il öncə Fransada oxuyan Azər Zeynallı adlı tələbəmizdən xahiş etdim ki, Qrenobla gedib ondan bir iz tapsın, ancaq o da bir məlumat əldə edə bilmədi.

Bizim xahişimizlə Ramiz bəy 2012-ci ilin noyabrında A.Zeynallı ilə yazışdı və nəticəsi ilə bizi tanış etdi. Azər bəyin yazdıqlarından aydın olurdu ki, Qrenobl arxivində onun haqqında məlumat tapmaq üçün bir çox məsələlərə aydınlıq gətirmək lazım olub, A.Zeynallı isə həmin sualların cavabını bilməyib.

Bu yazını hazırlayarkən özümüz Azər Zeynallı ilə məktublaşdıq. O, bizim xahişimizlə yenidən telefonla Qrenobl arxivi ilə əlaqə saxlayaraq nəticəsini bizə bildirdi. Arxivdən deyiblər ki, adamın yaşadığı ərazi (rayon) dəqiq bilinmirsə məlumat tapmaq mümkün deyil. Heç olmasa ölüm tarixini bilmək lazımdır, ondan yola çıxaraq harada yaşadığını tapmaq olar. Ramiz Abutalıbovun onu 1974-cü ildə görmək istədiyini nəzərə alaraq mən də B.Ağayevin 1970-ci illərdə vəfat etdiyini dedim. Arxiv işçisi isə bu tarixin çox yaxın tarix olduğunu, ölüm barədə sənədlərin hələ də şəhər meriyasında saxlandığını bildirdi və birbaşa meriyaya müraciət etməyi məsləhət gördü. Sonra da qeyd etdi ki, bu barədə məlumatlar telefonla, yaxud məktubla verilmir, yerində həll olunur. İndi mənim ora getməyə heç cür imkanım yoxdur, çünki dərslərə başım qarışıqdır. [Azər bəy Fransanın Valansiyen (Valenciennes) şəhərində yaşayır və iqtisadiyyat üzrə ali təhsil alır]. O, vaxtının sonralar ola biləcəyini vurğuladı.

Açığı, bürokratik əngəllərin çoxluğunu və vaxt qıtlığını görərək bundan sonra Azər bəyin lütfkarlığından sui-istifadə etməmək qərarına gəldik. Beləliklə, B.Ağayevin 1974-cü ildən sonrakı taleyi hələlik qaranlıqlar içində qalıb.

[1] ARDA, fond 51, siyahı 3, iş 53, vərəq 7.

Axundov Əjdər bəy İsgəndər bəy oğlu

(1897, Bakı – 1962, Bakı)



Əjdər bəyin atası İsgəndər bəy Mirzə Əbdülhüseyn bəy oğlu Axundov. Bakı, 1910

Axundovlar Şamaxının adlı-sanlı nəsillərindəndir.

Əjdər bəyin özündən qabaq atası Əliisgəndər/ İsgəndər bəy Mirzə Əbdülhüseyn bəy oğlu Axundov (1862 – 1934) haqqında qısa bir bilgi verək.

İsgəndər bəy Axundov 1862-ci ildə Şamaxı şəhərində anadan olub. Atası Mirzə Əbdülhüseyn hərbi təhsil alıb, Qafqaz canişinliyinin Şamaxıdakı idarəsində uzun müddət dilmanc (tərcüməçi) işləyib. 1872-ci ildə Şamaxıda baş vermiş dəhşətli zəlzələdən sonra o, ailəsiylə Bakıya köçüb.

Mirzə Əbdülhüseyn bəyin beş oğlu və bir qızı vardı. Qayğıkeş ata onların hamısına yüksək savad verdirib. Uşaqların ikincisi olan İsgəndər bəy ilk təhsilini Şamaxıda alsa da Bakıya köçdükləri il – 1872-ci ildə Bakı gimnaziyasına girərək oranı əla qiymətlərlə başa vurub. Bu illərdə bədii yaradıcılığa dərin həvəs göstərib. Gimnaziyanı bitirdikdən sonra ozamankı Rusiya mərkəzlərindən olan Polşanın Krakov şəhərinə gedərək oradakı Yagilon Universitetinin hüquq fakültəsinə girib və 1890-cı ildə oranı fərqlənmə diplomu ilə bitirib. Bir ildək öz ixtisasını təkmilləşdirən İsgəndər bəy 1891-ci ildə Bakıya dönüb.

Bu il İsgəndər bəy üçün həm də ailə qurmasıyla yadda qalıb – o, *Züleyxa xanım Cahangir bəy qızı Bayraməlibəyova* ilə (1872-1944) ailə qurub. Züleyxa xanım Lənkəran xanı Mirmustafa xanın qız nəvəsiydi – onun qızı Məhbanu xanımın qızıydı. Züleyxa xanım savadlı bir qadındı – Bakıda "Müqəddəs Nina" məktəbini bitirmişdi və Bakı Şəhər Qadın Xeyriyyə Cəmiyyətinin fəal üzvlərindəndi. Ola bilsin ki, bu evlənmədə Züleyxa xanımın böyük qardaşı, çar ordusunun general-mayoru Fətulla bəy Bayraməlibəyovun da müəyyən rolu olub, çünki Fətulla bəy uzun müddət Varşavada hərbi xidmətdə bulunub və orada yaşayıb (o, rus qadınla evləndikdən sonra dinini dəyişərək xristian olub).



Soldan-*sağa:* Ceyran, Əjdər, Sona, böyük oğul Aslan, İsgəndər bəy. Bakı, 1912



Soldan-sağa: Qara Qarayev, Əjdər bəyin bacısı Leyla xanım, Mürsəl Qarayev

Çar hökuməti müsəlmanların həm ali hüquq təhsili almasını mümkün olduqca əngəlləyirdi, həm də təhsil almışların yüksək vəzifələrdə işləməsinin qarşısını hər vasitə ilə alırdı. Hətta universiteti qızıl medalla bitirənlərin də ən yüksək mənsəbi əsasən vəkillik olurdu. İsgəndər bəyi də bu tale gözləyirdi. Onu dövlət idarələrində qulluğa yaxın buraxmadıqlarına görə Bakıda vəkilliklə məşğul olmağa başlayıb. İmperiya qanunlarını, hökumətin əmr və sərəncamlarını əla bilməsi ilə, əsl-nəcabəti ilə, gözəl davranışı və peşəsinə sədaqəti ilə xalq içərisində dərin hörmət qazandığına görə bütövlükdə Zaqafqaziyanın ən bacarıqlı vəkillərindən biri kimi ad çıxarıb. Bir qədər sonra Bakı şəhər məhkəməsinin katibi təyin edilib. 1910-cu ildə saray müşaviri Əliisgəndər bəy Axundovu Bakı Dairə məhkəməsində məhkəmə hüquqşünası kimi görürük.[1]

Rəhmətlik Hacı Zeynalabdin Tağıyev 1911-ci ildə Bakıya Şollar suyu çəkdirərkən su kəmərinin çəkilişinə hüquqi baxımdan rəhbərliyi məhz İsgəndər bəy Axundova tapşırıb və görkəmli hüquqçu bu işin öhdəsindən bacarıqla gəlib.

1914-cü ildən İ.b.Axundovun adını Bakı Şəhər Dumasının üzvləri arasında görürük. Həmin ildə o, Dumanın 41 iclasından 8-də iştirak edib[2]. Belə zəif iştirakı, görünür, birbaşa işinin gərginliyiylə bağlı olub.

Azərbaycan Cümhuriyyəti qurularkən İsgəndər bəy "İttihad" partiyasından Şamaxı qəzası üzrə Parlaman üzvü seçilib.

Azərbaycanın istiqlalı rus süngülərivlə məhv edildikdən sonra xalqımızın ən qeyrətli oğulları da kütləvi bolşevik terroruna məruz qalıblar. Xoşbəxtlikdən, yüksək vəzifələrdə çalışmış bolşevik Muxtar Hacıyevlə (1876-1938) yaxın münasibətdə olması onun həyatını xilas edib. Azərbaycan SSR MİK sədri işləyərkən (1921-1922) İsgəndər bəyi özünə hüquq məsləhətçisi götürən M.Hacıyev xalq torpaq komissarı (1928-1930) və Azərbaycan SSR Ali Məhkəməsinin sədri (1931-1933) işləyərkən də İsgəndər bəydən ayrılmayıb, hətta onu Ali Məhkəməyə üzv seçdirib.

İsgəndər bəy 1934-cü ildə Bakıda dünyasını dəyişib.[3]

[1] *«Кавказский календарь на 1910 г.в.* II часть, s. 257.
[2] Известия Бакинской Городской Думы. Баку, 1915, III часть, s. 41.
[3] *Sadıq H.* Şamaxılı hüquqşünas. // *"Həqiqət"* qəzeti, 18.6.1991, №17; *Садыхов Х.* Во имя Отчизны. // *"Novruz"* qəzeti, 5.6.1991, №23.



Əjdər bəyin böyük qardaşı
Aslan bəy Axundov

Onun iki oğlu, üç qızı vardı.

Böyük oğlu *Aslan bəy Axundov* (1893 – 1957) Estoniyada Tartu (Derpt) Universitetini bitirib; Bakıda dəri-zöhrəvi xəstəlikləri üzrə tanınmış həkim olub.

Böyük qızı *Sona xanım Axundova-Qarayeva* (1896 – 1970) Kiyev Ali Qadın Kurslarının dinləyicisi olub. Sonralar o, prof. Əbülfəz Qarayevin həyat yoldaşı və dahi bəstəkar Qara Qarayevin anası olub.

Qızı *Ceyran xanım Axundova-Mirqasımova* (1905 – 1985) akad. Mirəsədulla Mirqasımovun həyat yoldaşı olub.

Kiçik qızı *Leyla xanım* (1904 – 1973) yüksək təhsil almış evdar qadındı.

Oğlu *Əjdər bəy Axundov* (1897 – 1962) haqqında isə aşağıda ayrıca danışacağıq.

* * *

Bu başdan bildirək ki, arxivlərdə Əjdər bəy Axundov haqqında sənədlər həddən azdır. Əldə olan bir neçəsi ilə oxucuları tanış edirik.

11 dekabr 1919-cu ildə Bakı Dövlət Universitetinin rektoru Razumovskinin imzası ilə Ə.Axundova verilmiş vəsiqədə göstərilib ki, o, universitetin tibb fakültəsinin I kurs tələbəsidir.[1]

Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 656 saylı vəsiqə ona 16 yanvar 1920-ci ildə verilib.[2] Bəlgədə "dövlət hesabına" sözlərinin olmaması Axundovun öz hesabına oxuyacağını bildirir.

* * *

Əjdər bəy Fransaya gedərək Paris (Sorbon) Universitetinin hüquq fakültəsinə girib.

Xaricdə oxuyan bütün tələbələr kimi Ə.b.Axundovun da həyatında dəhşətli tələtümlər yaşanıb. İndiyədək bəy evində naz-nemətlə böyümüş ərköyün bir çocuq birdən-birə həyat uğrunda qaynar mübarizə burulğanına düşüb və sarsılıb. Onun Parisdə Ceyhun bəy Hacıbəyliyə yazdığı ürəkdağlayan məktubu sakit oxumaq mümkün deyil:

"Çox hörmətli Ceyhun bəy!

Bu ağır anlarda mənə göstərdiyiniz qardaşlıq diqqətinə görə Sizə səmimi təşəkkürümü ifadə etməyə bilmərəm...

Mən ev yiyələrinə artıq iki aya qədər borcluyam. Ancaq 1 iyuladək mən Parisdə işləmişəm, orada iş nisbətən asan idi və bir təhər dözürdüm, ancaq onlar yaya buraya (Dinar şəhəri, Fransada kurort) özlərinin özəl villasına gəldilər və işim on dəfə artdı,

[1] ARDA, fond 51, siyahı 3, iş 60, vərəq 1.
[2] Yenə orada, vərəq 2.



Əjdər bəy Axundov.
Paris, 1920



Qara Qarayevin atası
Əbülfəzl Fərəc oğlu
Qarayev (1884-1952)



Sona xanım
Axundova-Qarayeva



Əjdər bəyin bacısı
Ceyran xanım
Axundova-Mirqasımova

çünki burada səhər saat 6-da durmaq və şəhərin mərkəzinə süt dalınca getmək lazımdır. Bu, villadan 2,5 verst aralıdır və mənim bu sağlıq durumumda nələr çəkdiyimi təsəvvür edin.

Saat 9-un yarısında evə gəldikdə yenə iş – 14 otaqdan ibarət mənzilin yığışdırılması başlanır. Birtəhər yığışdırınca, vallah, yorğunluqdan və zəiflikdən ayaqlarım bir-birinə dolaşır və bundan başqa, daha sonra mətbəxdə də kömək etmək lazım gəlir. Bunu isə Allah göstərməsin... Elə çirklidir ki; bu şəraitdə axşam 11-in yarısınadək qalmalısan.

Siz Allah, bağışlayın, mən indi ağlayıram və yazmağa davam edə bilmirəm...

Siz Allah məni qurtarın, qorxuram ki, axırda dəli olam...

Sizə sadiq qalan Əjdər bəy".[1]

Paris Siyasi Elmlər Fakültəsinin tələbəsi Miri bəy Vəzirov Parisdən 23 iyun 1920-ci ildə Azərbaycan xalq maarif komissarına yazıb:

"1919-cu ilin yayında Qərbi Avropaya təhsilini bitirməkdən ötrü getmək istəyən tələbələrin yazılışı gedərkən... Azərbaycandan uzaq yola çıxdığıma, buna görə də müəyyən komissiyalarla yerində danışıqlar apara bilmədiyimə görə gedən tələbələrin sırasına düşmək imkanından məhrum oldum...

...İndi 2 təqaüdçü tələbə: [Zaur bəy] Dagirov və [Əjdər bəy] Axundov Parisdən Azərbaycana getdiyinə və deməli, boş yerlər yarandığına görə mənim Avropada oxuyan hökumət təqaüdçüləri sırasına götürülməyimə etiraz etməməyinizi xahiş edirəm".[2]

M.b.Vəzirov yanılırdı – Əjdər bəy Axundov dövlət taqaüdçüsü deyildi ki, onun boşalmış yerinə kimisə götürəydilər. Onun bu məktubundan belə çıxır ki, Ə.b.Axundov hələ 1920-ci ilin 23 iyunundan qabaq təhsilini yarımçıq qoyaraq Azərbaycana qayıdıb, halbuki özü 1 iyuladək Parisdə olduğunu, bundan sonra Dinar kurort şəhərinə getdiyini yazıb. Avropadakı Azərbaycan dövlət təqaüdçüsü olan tələbələrin nümayəndəsi kimi 1920-ci ilin avqustunda Bakıya gəlmiş Abdin Mirqasımov 10 avqust 1920-ci ildə Xalq Maarif Komissarlığına təqdim etdiyi sənəddə yazıb ki, "Axundov Əjdər oxumağa öz hesabına gəlib, ancaq hal-hazırda ümumi tələbələr vəsaitindən dəstəklənir".[3]

[1] *Абуталыбов Р.* Годы и встречи в Париже, ss. 72-73.
[2] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 57-57a.
[3] Yenə orada, vərəq 62a.



Əjdər bəyin əldə olan son fotosu

Ola bilsin ki, Ə.b.Axundov maddi sıxıntı üzündən bir müddət təhsildən yayınsın, ancaq bu, onun təhsili yarımçıq qoyub Azərbaycana dönməsi anlamına gəlmir. Görünür, onun Parisdə olmaması belə bir fikrin yaranmasına əsas verib.

Qohumu, Azərbaycanın xalq artisti Oqtay Mirqasımovdan 26 noyabr 2006-cı ildə Əjdər bəy haqqında bunları eşitmişik:

– Əjdər bəy Parisdə əmim Mirzeynalabdinlə oxuyub. Hədsiz nikbin, şən adamdı. Hətta özüylə bağlı əhvalatları da çəkinmədən məzəli şəkildə bəzəyib-düzəyərək danışar, adamları güldürərdi.

Özündən eşitmişəm ki, sovet hakimiyyəti gələndə Parisdə bir müddət maddi durumları çox acınacaqlı olub, çünki heç yerdən təqaüd almayıblar. O zaman Əjdər bəy Reno avtomobil zavodunda fəhləliyə düzəlib. Ancaq bəy oğlu, kübar ailədən çıxmış, demək olar ki, heç vaxt ağır cismani işlərdə işləməmiş Əjdər bəy işin öhdəsindən gələ bilmiəyib, tez-tez burğacları, açarları və b. sındırıb, ona görə də onu işdən çıxarıblar.

Az sonra eşidib ki, Eyfel külləsini yenidən rəngləməyə rəngsazlar lazımdır. O da iş üçün ağız açıb, onu götürüblər. İşə başlayanda görüb ki, fransız rəngsazlar ən aşağı mərtəbəni rəngləyir, bir az yuxarıda başqa Avropa millətlərinin nümayəndələri işləyir, onlardan yuxarıda serblər, slovaklar və başqalarıdır, ən yuxarıya isə müsəlmanları, o sıradan Əjdər bəyi dırmaşdırıblar. Burada daim güclü külək olduğundan işləmək çox çətin imiş, ona görə də tezliklə buradan da çıxıb.

İş axtara-axtara bir gəmiyə gəlib, orada yunqa kimi işə düzəlib – göyərtəni yuyub-təmizləyib, başqa qara işləri görüb. Gəmiylə Amerikaya, Braziliyaya gedib, ancaq daha Parisə qayıda bilməyib, çünki qayıtmağa başqa heyət lazımmış. Məcbur olub Braziliyada neft mədənlərində poçtalyon işləyib.

Ə.b.Axundov təhsilini başa vurduqdan sonra Azərbaycana gələn tələbələrdəndir. İsaq Şeyxzaman Parisdə oxumuş Axundovu da xatırlayaraq bildirib ki, o, Bakıya qayıdıb, Nizami küçəsində yaşayır.[1]

[1] AR MTN Arxivi, PR-39975, vərəq 64.

Axundov İsmayıl Əbdülxalıq oğlu

(25.11 (8.12).1897, Şamaxı – 22.3.1952, Moskva)



İsmayıl Axundov

Sonralar görkəmli Azərbaycan parazitoloq və tropikoloqu kimi tanınmış, tibb elmləri doktoru, professor olmuş Cümhuriyyət tələbəsi İsmayıl Axundov Azərbaycanın ən ziyalı ailələrindən birinin təmsilçisidir.

* * *

Zaqafqaziya şeyxülislamı Ə.Axundzadənin imzasıyla Tiflis şəhərində 16 sentyabr 1903-cü ildə verilmiş doğum şəhadətnaməsində oxuyuruq:

"Bu şəhadətnaməni Zaqafqaziya Şiə Ruhani İdarəsi ona görə verib ki, Şamaxı şəhərinin Meydanlı Hacı Əsəd şiə icmasının 1897-ci ilə aid doğum kitabının 1-ci hissəsindən göründüyü kimi, Şamaxı şəhərinin sakini, 43 yaşlı Əbdülxalıq Məşədi Abdulla oğlu Axundovun qanuni arvadı, 38 yaşlı Sitarə Hacı Məhəmməd qızından oğlu İsmayıl xristian tarixi ilə 25 noyabr 1897-ci ildə doğulub və Məşədi Heydər Məşədi Abdulla oğlunun[1] *və Məşədi Mehdiqulu Məşədi Kərim oğlunun şahidlik etdikləri bu doğumu icmanın mollası Molla Həbib Molla Cabbar oğlu həmin ilin doğum kitabında 4-cü nömrə altında qeydə alıb".*[2]

Araşdırıcı Zərifə Dulayevanın yazdığına görə, ailənin kiçik uşağı İsmayılın 3 yaşı olanda (deməli, 1900-cü ildə) onun valideynləri vəfat edib və 7 uşaq yetim qalıb. "Ancaq xalq içərisindəki yetim uşağı yiyəsiz qoymamaq kimi xeyirxah ənənə üzrə əmisi yetim qalmış bütün qardaşı uşaqlarını öz himayəsinə götürdü".[3]

İ.Axundova 7 aprel 1918-ci ildə verilmiş kamal attestatında göstərilib ki, müsəlman, 25 noyabr 1897-ci ildə Şamaxı şəhərində anadan olmuş Şamaxı şəhərinin sakini İsmayıl Əbdülxalıq oğlu Axundov Bakı ikinci kişi gimnaziyasına 1 sentyabr 1909-cu ildə daxil olaraq orada 7 aprel 1918-ci ilədək əla oxlaqla oxuyub və tam səkkiz siniflik kursu bitirib. Bu vaxt aşağıdakı bilikləri göstərib:

Şəriət –	5 (əla)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	4 (yaxşı)
Fəlsəfi propedevtika –	5 (əla)
Latın dili –	4 (yaxşı)
Qanunşünaslıq –	5 (əla)
Riyaziyyat –	3 (kafi)
Riyazi coğrafiya –	3 (kafi)
Fizika –	4 (yaxşı)
Tarix –	5 (əla)
Coğrafiya –	5 (əla)
Fransız dili –	4 (yaxşı)
Alman dili –	5 (əla)
Türk dili –	5 (əla).[4]

[1] Görünür, bu, Əbdülxalıq Axundovun qardaşıdır.
[2] ARDA, fond 51, siyahı 3, iş 47, vərəq 3.
[3] *Ayvazova Z.* Страницы истории национальной интеллигенции, s. 71.
[4] ARDA, fond 51, siyahı 3, iş 47, vv. 2-2a.



Tələbə İsmayıl Axundov. 1920



Rauf İsmayıl oğlu Axundov



İsmayıl Axundovun həyat yoldaşı Həvva Axundova-Əmirxan



Həvva xanımın qardaşı Fatih Əmirxan

10 may 1917-ci ildə Bakı şəhərində Qafqaz müsəlman şagirdlərinin I qurultayı keçirilib. Xatirə fotolarında qurultay iştirakçıları arasında İsmayıl Axundovu da görürük. Deməli, o, məktəbin fəal şagirdlərindən olub.



İsmayıl Axundovun böyük qardaşı Rəhim yoldaşı Xeyransa Qurbanova ilə. Türkiyə, 1923-24


Buraya çatanda bir maraqlı faktı da xatırlatmaqdan özümüzü saxlaya bilmirik.

1909-cu ilin 15 (28) oktyabrında hələ gimnaziyanın 1-ci sinfinə yenicə girmiş 12 yaşlı uşağa siyasi partiya bu məzmunda bir etimadnamə verib: *"İşbu etimadnamə hamili [1] yoldaş İsmayıl Axundzadə "Hümmət" firqəsi mərkəzi komitəsi tərəfindən Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə qaçqınlar şöbəsində iştirak etmək üçün göndəriliyor".* Sonda firqə sədri və katibinin imzaları var və "Türk kommunist firqəsi «Hümmət» mərkəzi komitəsi"nin möhürü də basılıb.[2] Sənəddən anlaşılan budur ki, İsmayıl Axundzadə o dönəmdə Bakıda həddən çox olan qaçqınların yerləşdirilməsi və onların məişət məsələlərinin həlli ilə könüllü məşğul olub. Bu, gənc İsmayılın hələ erkən yaşlardan ictimai işlərə həvəs göstərdiyini sübut edir.

...1918-ci ildə orta təhsilini başa vuran İsmayıl Axundov 1919-cu ildə Bakı valiliyi həkim idarəsində işə düzələrək kargüzar vəzifəsində çalışıb.[3]

[1] Daşıyanı.
[2] Sənədin əsli qızı Nailə xanım Axundovada, surəti şəxsi arxivimizdədir.
[3] *Cavadov R.B.* Görkəmli alimlər. Bakı, 1970, s. 87.

Şamaxı şəhərinin sakini, ancaq Bakı şəhərindəki ünvanlarını Məzarlıq küçəsi[1] 15-ci ev və Azərbaycan qoşunlarının Baş Qərargahı göstərən abituriyent İsmayıl Axundov 7 avqust 1919-cu ildə Azərbaycan Cümhuriyyəti xalq maarif nazirinə ərizə yazaraq, tibb üzrə ali təhsil almaq istədiyinə görə, xaricə göndərilməsi nəzərdə tutulan tələbələr siyahısına onun da adını salmağı xahiş edib.[2]



İsmayıl Axundov qardaşı Əbdülkərimlə

Azərbaycan Cümhuriyyəti hökuməti yalnız maddi imkanı aşağı olan uşaqlara təqaüd ayırmağa üstünlük verir, bu haqda onlardan rəsmi arayış istəyirdi. Bakı 2-ci kişi gimnaziyası direktorunun verdiyi 18 avqust 1919-cu il tarixli 743 saylı bəlgədə göstərilib ki, İsmayıl Axundov kasıblığına görə son iki ildə gimnaziyada təhsil haqqını ödəməkdən azad edilib.[3]

Xalq maarif nazirinə 8 noyabr 1919-cu ildə yazdığı ərizəsində bildirib ki, mən Almaniyanın Berlin şəhərində, bir maneə çıxarsa İsveçrənin Bern şəhərində tibb fakültəsində oxumaq istərdim. "Nəzərinizə çatdırmağı gərəkli sayıram ki, dövlət təqaüdlərini bölüşdürən komissiya məni fizika-riyaziyyat fakültəsinə salıb".[4]

Kitabın giriş hissəsində göstərdiyimiz kimi, Avropaya getdikdən sonra yaranmış şərait Bakıda tutulmuş bütün siyahıları alt-üst etdi. İsmayıl Axundov da istədiyi tibb ixtisası üzrə oxudu.

Xalq Maarif Nəzarəti İ.Axundovdan iki dilkağızı alıb. Onların 30 dekabr 1919-cu il tarixli birincisində dövlət təqaüdçüsü öhdəlik götürüb ki, dövlət hesabına göndərildiyim əcnəbi ali məktəbdə təhsilimi bitirdikdən sonra Azərbaycan Parlamanının 1 sentyabr 1919-cu il qanununun 2-ci maddəsinə əsasən, hökumətin göstərdiyi yerdə 4 il qulluq edəcəyəm.[5] 30 dekabr 1919-cu il tarixli ikinci dilkazında isə o, söz verib ki, "Azərbaycan Xalq Maarif Nəzarətinin təqaüdçüsü kimi ali təhsil almaq üçün göndərildiyim dövlətin ərazisində heç bir siyasi və partiya işlərinə qarışmayacağam".[6]

İsmayıl Axundova 13 yanvar 1920-ci ildə verilmiş 573 saylı sənəddə onun xaricə dövlət hesabına oxumağa göndərildiyi təsdiqlənir.[7]

* * *

Qeyd etməliyik ki, İsmayıl Axundov və bir neçə dövlət təqaüdçüsü artıq Bakı Dövlət Universitetinə qəbul olunaraq orada oxuyurdu. Onların xaricə getməsi haqqında Universitet rəhbərliyinə məlumat verilməyibmiş. Universitet 24 yanvar 1920-ci ildə Maarif Nəzarətinə müraciət edib ki, Bakı Universitetinin tibb fakültəsinə

[1] İndiki Mehdi Hüseyn küçəsi.
[2] ARDA, fond 51, siyahı 3, iş 47, vərəq 1.
[3] Yenə orada, vərəq 4.
[4] Yenə orada, vərəq 5.
[5] Yenə orada, vərəq 6.
[6] Yenə orada, vərəq 7.
[7] Yenə orada, vərəq 8.



İsmayıl Axundovun qardaşı prof. Ağa Axundov

qəbul edilmiş 4 tələbənin (o sıradan İsmayıl Axundovun) həqiqətən xarici ölkələrə gedib-getmədikləri haqqında bizə məlumat verəsiniz.[1] 30 yanvarda Nəzarət həqiqətən hökumətin onları ali təhsil almaq üçün dövlət hesabına xaricə göndərdiyini təsdiqləyib.[2]

Almaniyaya gedən İsmayıl Axundov Münxen şəhərində Lüdviq Maksimilian Universitetinin *(Ludwig Maximilian Universität München)* tibb fakültəsində oxuyub.

Abbasmirzə Əliyev Cümhuriyyət tələbələrinin Almaniyaya ilk dəfə ayaq basdıqları anı təsvir edərək yazır: "Münxenə gələrək biz öncə burada qalmaq istədik, ancaq [Almaniyanın] Maarif Nazirliyindən bizə bildirdilər ki, Qafqazdan olduğumuza və bolşevizm ruhu ilə yoluxduğumuza görə Bavariya hüdudlarında yaşaya bilmərik və 48 saat içərisində buranı tərk etməliyik. Əlimizdən heç nə gəlmirdi və Ştutqarta, oradan da Berlinə getdik. Aprel ayında Berlinə çatdıq və tələbələrə kirayə verilən müxtəlif mənzillərdə tək-tək yerləşdik".[3] Yerli hakimiyyətin belə kəskin münasibəti yalnız tələbələrin ilk gəlişi zamanı özünü göstərib, ancaq sonra yavaş-yavaş hər şey yoluna düşüb.

Berlindən sonra tələbələr tədricən Almaniyanın müxtəlif şəhərlərinə dağılışıblar. İsmayıl Axundov da öncə Haydelberqdə olub, sonra Münxeni seçib. O, bu şəhərdə tək deyildi. Bəhram Axundov 1922-ci ildə Münxendə 4 Cümhuriyyət təqaüdçüsünün oxuduğunu yazıb, ancaq onların adlarını çəkməyib.[4] Sənədlərlə tanışlıq nəticəsində onların adlarını dəqiqləşdirə bildik: İsmayıl Axundovdan başqa, *Həmid Məhəmməd oğlu* (onun adı sənədlərdə müxtəlif cür çəkilir: Həmdi Məhəmməd oğlu, Məhəmməd Xəlil Həmid və b.; Türkiyədə: Həmid Ataman), *Yusif Salahzadə* (Salahov, Salahlı), *Mürsəl bəy Şahsuvarov* (Şahsuvarlı). Onlardan dördü də tibb fakültəsində oxuyub. Həmid Atamanın qızı *Nərınc Ataman*'ın 2014-cü ilin martında Ankaradan bizə göndərdiyi çoxlu fotoda bu dörd yoldaşı tez-tez bir yerdə görürük. Sonradan – sovet dönəmində rəssam *Xəlil Musayev* də "münxenlilər"ə qoşulub.

İ.Axundovun tələbəlik dönəmi haqqında nisbətən geniş bilgini Zərifə Dulayevanın məqaləsindən alırıq. Zərifə xanım yazır ki, cərrah olmağı arzulayan İsmayıl Axundova Münxen Lüdviq Maksimilian Universitetində dünyaca tanınan nəhəng alimlər dərs deyiblər. Onlardan biri onun taleyində böyük rol oynamış professor *Martini*'dir. Gələcəkdə uzun illər Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsində çalışacaq *Mustafa bəy Topçubaşov* Almaniyaya auditor yoxlamasına gəldikdə İsmayıl Axundovdan ixtisasını dəyişərək cərrahlıqdan epidemiologiyaya keçməsini və malyariya ilə məşğul olmasını tövsiyə edir, çünki bu vaxt onun vətəni Azərbaycanda qızdırma – malyariya xəstəliyi özəlliklə

[1] ARDA, fond 51, siyahı 3, iş 47, vərəq 16.
[2] Yenə orada, vərəq 17.
[3] Əliyev Abbasmirzə Əhməd oğlunun öz əli ilə yazdığı izahat. // AR MTN arxivi, PR-22247, vv. 17a-18.
[4] ARDA, fond 410, siyahı 1, iş 342, vərəq 5.



Prof. İsmayıl Axundov həyat yoldaşı Həvva xanım və qızı Nailə ilə

aran rayonlarda əhaliyə qənim kəsilmişdi. Öz xalqının bu "bir nömrəli xəstəliyi" ilə mübarizəyə peşəkar mütəxəssislərin başçılıq etməli olduqlarını dərk edən İ.Axundov, Mustafa bəyin məsləhətinə əməl edərək ixtisasını dəyişir. Onun bu qərarından müəllimi, Hamburq şəhərindəki Tropik İnstitutuna başçılıq edən professor Martini də hədsiz razı qalır.

İ.Axundov Universiteti uğurla bitirib. Qızı Nailə xanım Axundova yazır:

"Məzunların bir hissəsinə, o sıradan mənim atama... Almaniyada iş təklif ediblər. Atam əvvəlcə imtina etmək istəyib, ancaq onun rəhbəri dünya şöhrətli alim professor Martini onu Tropik Xəstəliklər İnstitutunda öz yanında bir neçə il işləməyə dilə tuta bilib. O, Hamburqa köçür və canla-başla işə girişir".[1]

Professorun rəhbərliyi altında stajçı doktorant Axundov tədqiqat işi aparır, təcrübə toplayır, klinikada işləyir, dissertasiya yazır.[2] Qızı Nailə xanım Axundovanın 2007-ci ilin sentyabrında bizə bağışladığı məqalələrindən biri[3] sübut edir ki, İ.Axundov burada çox ciddi araşdırmalarla məşğul olub.

Nəzəri biliklərini təcrübədə yoxlamaq üçün İ.Axundov Martinidən icazə alaraq Afrika qitəsinə elmi ezamiyyətə gedib. Hamburqa dönərkən bütün görüb müşahidə etdikləri haqqında geniş hesabat təqdim edir. Bu hesabat professor Martiniyə elmdə yeni bir istiqaməti – ekstrosensorikanı proqnozlaşdırmağa təkan verir.[4]

Saçlarını elmdə ağartmış alman alimi ilə gənc Azərbaycan həkiminin əməkdaşlığı

[1] *Ахундова Н.* Дети осени. // «Вышка», 25.05.1991, s. 4.
[2] *Дулаева З.* Страницы истории национальной интеллигенции, s. 72.
[3] Sonderabdruck aus *"Archiv für Schiffs- und Tropenhygiene"* 1928, Band 32, ss. 547-561. Verlag von Johann Ambrosius Barth, Leipzig. (Aus dem Institut für Schiffs- und Tropenkrankheiten zu Hamburg. Direktor: Obermed.-Rat Prof. Dr. Nocht. Entomologishce Abteilung, Vorsteher: Prof. Dr. E. Martini). Die Modifikation der Anophelen unter den äußeren Bedingungen und kritische Betrachtungen der Rassenfrage Von Dr. İsmayil Achundow, Volontärassistent am Institut.
[4] *Дулаева З.* Страницы истории национальной интеллигенции, s. 72.



Azərbaycanlı tələbələr alman yoldaşları arasında. İsmayıl Axundov *(öndə uzanmış qara kostyumlu)*, Yusif Salahlı *(2-ci cərgədə oturanlar arasında dikəlmiş)*, Həmid Xəlil Məhəmməd oğlu *arxada (soldan 1-ci pəncərə tağının qurtaracağında)*. Münxen, 5 iyul 1926-cı il

5 il sürür. Çox böyük əməksevərliklə cilalanmış istedad parlaq nəticə verir – gənc alim Fransa, Əlcəzair və İsveçrədə simpoziumlarda çıxış edir, 1927-ci ildə uğurla dissertasiya müdafiə edir. Gənc elmlər doktorunun qarşısında peşəkarlıq baxımından yüksəlmək və sonrakı tədqiqat işləri üçün əla şərait yaranır. Ancaq 1926-cı ildə uzaq və doğma Bakıdan geri dönmək xahişi ilə məktub gəlir; gənc tropikoloqu xalq fəlakəti səviyyəsinə çatmış qızdırma (malyariya) xəstəliyi ilə mübarizəyə çağırırlar.[1]

İ.Axundov Vətənə 1929-cu ildə artıq təcrübəli həkim, yetişmiş alim kimi qayıdıb. Onunla birlikdə respublikaya bir yerdə oxuduqları Mürsəl Şahsuvarlı və Surxay Şahsuvarov da dönürlər.

Gənc həkimin qarşısında Almaniyada əldə etdiyi dərin peşəkar bilikləri gerçəkləşdirmək üçün geniş meydan açılıb. 1931-ci ilə qədər o, Bakı Epidemiologiya və Mikrobiologiya İnstitutunda çalışıb. 1931-ci ildən başlayaraq fasiləsiz olaraq Azərbaycan Tropik İnstitutunun entomologiya şöbəsinə başçılıq edib.

O, görkəmli alim olmaqla yanaşı, tibb işçilərinin hazırlanmasında da fəal iştirak edib. 15 ildən artıq Azərbaycan Dövlət Tibb İnstitutunun tropik xəstəliklər kafedrasında dosent, 1942-ci ildən isə həmin institutun epidemiologiya kafedrasının müdiri vəzifəsində işləyib.

Tibb elmləri doktoru adı almaq üçün dissertasiya müdafiə edən İ.Axundov Azərbaycanda ilk azərbaycanlı parazitoloq-tropikoloq professor olub (11.2.1939). Azərbaycanda tibbi entomologiya elminin inkişafı onun adı ilə bağlıdır.[2]

Z.Dulayeva yazır ki, tale İsmayıl Axundovun üzünə gülüb – 37-ci il repressiyala-

[1] *Дулаева З.* Страницы истории национальной интеллигенции, s. 72.
[2] *Cavadov R.B.* Görkəmli alimlər, s. 87.



İsmayıl Axundov, Həmid Xəlil Məhəmməd oğlu, Yusif Salahlı və Mürsəl bəy Şahsuvarlı alman dostları ilə bayram şənliyində. Münxen


rı onu uzun müddət qorxu altında saxlayıb, ancaq o, azadlıqdan məhrum edilməyib, alim, müəllim, respublika səhiyyəsi təşkilatçısının çoxsahəli fəaliyyəti kəsilməyib.[1] Bizcə, taleyin onun üzünə gülməsində – professorun istər 1937-ci ildə, istərsə də sonrakı onillikdə repressiya edilməməsinin başlıca səbəbləri onun ixtisası olub. Əslində gizli dövlət göstərişlərinə əsasən, o da Almaniyada oxuduğu üçün "Almaniya casusu" adlandırılaraq ya güllələnməli, ya da sürgünə göndərilməli idi. Ancaq bu dönəmdə qızdırma ilə mübarizə aparacaq həkimlərə o qədər ehtiyac vardı ki, hətta "Almaniya casusluğu" da yaddan çıxmışdı!.. Ancaq bu, o demək deyildi ki, İ.Axundov unudulmuşdu. Qızı N.Axundova yazır:

"Atamın böyük qardaşı, Belçikada oxumuş professor Ağa Axundovun 30-cu illərin sonunda necə həbs olunması haqqında anamın danışdıqlarını həmişə xatırlayıram. Onu Moskvaya ezamiyyətə gedərkən yolda qatarın kupesində götürüblər, ailəsinə heç nə bildirməyiblər. Qohumları, nəhayət, bu haqda biləndə atam anama deyib: şey-şüylərimi hazırla, indi növbə mənimdir. Beləcə üç ilin müddətində, lap müharibə başlananadək ailədə həbs ehtimalına qarşı ağları dəyişməklə boxçası hazır olub".[2]

N.Axundova davam edir:

"Professor Ağa Axundovun böyük oğlu, indiki elmlər doktoru, professor Davud Ağa oğlu Axundov mənə danışıb ki, o və indi elmlər doktoru olan kiçik qardaşı Fuad uzun müddət hətta namizədlik dissertasiyası müdafiə etməyə cəsarət etməyiblər ki, birdən qəzetlərdəki müdafiə haqqında elanlarda (qabaqlar belə bir qayda vardı) diqqəti cəlb edərlər. İsmayıl Axundovun böyük oğlu Rauf isə Bakı Universitetinin fizika-riyaziyyat fakültəsini bitirib, 6 xarici dil, o sıradan macar və portuqal dillərini öyrənib. Bunlar nədəsə öz atala-

[1] *Дулаева З.* Страницы истории национальной интеллигенции, s. 73.
[2] *Ахундова Н.* Дети осени, s. 4.



Üç dost. *Soldan sağa:* İsmayıl Axundov, Həmid Xəlil Məhəmməd oğlu, Yusif Salahlı

rından irəli gediblər. İsmayıl Axundov bilikləri və elmin incəliklərini almanlardan öyrənib. Onun oğlu isə 60-cı illərin başlanğıcında Mali Respublikasının kollecində 3 il ali riyaziyyat üzrə fransız dilində mühazirələr oxuyub. Özü də bu, atamızın bizə uşaqlıqda öyrətdiyi ev fransızcası idi"...[1]

Müharibə illərinədək professor Axundov eyni zamanda Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun epidemiologiya kafedrasının müdiri və Bakı Tropik Stansiyasının direktoru vəzifəsində çalışıb. Müharibə zamanı isə o, Zaqafqaziya cəbhəsinin baş epidemioloqu olub.[2]

İ.Axundov 1943-cü ildən ömrünün sonunadək Azərbaycan Dövlət Tibb İnstitutunda epidemiologiya kafedrasının müdiri və Azərbaycan SSR Səhiyyə Nazirliyində malyariya şöbəsinin rəisi vəzifələrində çalışıb.[3]



İsmayıl Axundov, Yusif Salahlı. Münxen

Onun xəstəlik rayonlarına saysız-hesabsız səfərləri, ağcaqanad sürfələri ocaqlarının ləğvində və yeni preparatların yaradılmasında iştirakı səhiyyənin bu vacib probleminin həllinə mühüm yardım göstərib. Özəlliklə buna diqqət yetirilməlidir ki, "bir nömrəli qatil" adlandırılan qızdırma ilə mübarizədə yeni vasitələrin axtarışı iki istedadlı adamı – həkim İsmayıl Axundovla kimyaçı Yusif Məmmədəliyevi dostlaşdırıb. Dostluğa keçmiş yaradıcı əməkdaşlıq əla nəticə verib.[4]

[1] *Ахундова Н.* Дети осени, s. 5.
[2] *Cavadov R.B.* Görkəmli alimlər, s. 88.
[3] Bu faktı T.Ə.Tağızadənin özəl arxivimizdəki bir səhifəlik makina qeydindən götürmüşük.
[4] *Дуалеева З.* Страницы истории национальной интеллигенции, s. 73.



Azərbaycanlı həkimlər. *Soldan sağa. Ön cərgə:* Mustafa Topçubaşov, Mirəsədulla Mirqasımov, İsmayıl Axundov. *Arxa cərgə:* Mustafa Hacıqasımov, Yaqub Qasımov, Yusif Salahlı. Almaniya

Bu haqda N.Axundovanın məqaləsində oxuyuruq:

"Bu məkrli xəstəliklə mübarizə bütün istiqamətlər üzrə aparılır, bu problemin həllinə o, başda öz dostu, o zaman hələ çox gənc olan, böyük umudlar verən və o umudları parlaq şəkildə doğruldan, Azərbaycan Respublikası Elmlər Akademiyasının gələcək prezidenti Yusif Heydər oğlu Məmmədəliyev olmaqla bir qrup gənc Azərbaycan kimyaçısını işə cəlb edir. Elə bu vaxt onların bütün ömürləri boyu davam edən dostluğu yaranır. Birgə çalışmaları sayəsində özünü əla göstərən yeni preparat yaradılır".[1]

İkinci dünya savaşı illərində ağcaqanadların sürfələrinə qarşı mübarizədə geniş istifadə olunan nefti əvəz etmək lazımdı, bunun böyük dövlət əhəmiyyəti vardı. Professor İ.Axundov bu məsələni də böyük uğurla həll edib. O, həmin məqsədlə yaşıl yağ cövhəri işlətməyi təklif edib ki, hazırda da ondan geniş istifadə olunur.



(?), prof. P.Popov, İ.Axundov. Bakı, təx.1930

Professor Axundov Azərbaycanda ilk dəfə olaraq Bakıda sarı qızdırmanın – Denge xəstəliyinin yoluxdurucusu olan ağcaqanadları aşkar edib. O, Naxçıvanda, Kür və Araz ovalığında, Muğanda, demək olar ki, bütün respublikada qızdırma – malyariya xəstəliyinin yayılmasını, onun epidemioloji xüsusiyyətlərini öyrənməkdə böyük fəallıq göstərib və həmin xəstəliyə

[1] *Ахундова Н.* Дети осени, s. 4.

qarşı geniş tədbirlərin hazırlanmasına və həyata keçirilməsinə birbaşa rəhbərlik edib.[1]

Uzun və gərgin mübarizədən sonra Azərbaycanda qızdırma xəstəliyi məğlub edilib və qaliblər içərisində İsmayıl Axundov mühüm yer tutur.

Azərbaycanda gənə ilə yoluxan qayıdan yatalağı ilk dəfə aşkar edən alimlərdən biri də professor İ.Axundovdur. Onun 1940-cı ildə nəşr olunmuş "Azərbaycanda malyariya və Culicidae" monoqrafiyası tibb işçiləri üçün qiymətli vəsaitdir. Ümumiyyətlə, görkəmli alim entomologiya sahəsində 40-dək elmi əsər yazıb.



Nailə İsmayıl qızı Axundova

Respublikamızda parazitoloq və entomoloq həkim kadrlarının hazırlanmasında professor Axundovun rolu böyükdür.[2]

İ.Axundov apardığı məhsuldar elmi-pedaqoji fəaliyyətinə və böyük təşkilatçılıq bacarığına görə bir sıra orden və medallarla, "səhiyyə əlaçısı" nişanı ilə təltif edilib.[3]

Görkəmli alim 1952-ci ildə Moskva şəhərində yanğın zamanı faciəli şəkildə dünyasını dəyişib və Bakıda dəfn edilib.[4]

* * *

Tələbələri və iş yoldaşları İ.Axundovun əlaçıqlığını uzun müddət xatırlayaraq professorun biliklərini onlarla necə paylaşdığını, necə məsləhətlər verdiyini və ehtiyacı olan hər kəsə necə asanlıqla yardım etdiyini xatırlayırdılar. Ancaq hər axşam onun ürəyində qırmızı ulduzlu furajka qoymuş adamlarla qarşılaşmaq qorxusu yaşayırdı. Axı onun böyük qardaşı, Belçikada təhsil almış, materialları Tarix Muzeyində qorunan professor Ağa Axundov həbs edilmişdi. Elə həmin gün İsmayıl Axundov onun həyatının Almaniya dönəminə aid olan sənədlərinin böyük hissəsini yandırmışdı.

Bir dəfə Yusif Məmmədəliyevlə söhbətdə İsmayıl Axundov Cümhuriyyət hökumətinin xaricə oxumağa göndərdiyi tələbələri xatırlayaraq qəmgin-qəmgin demişdi: "Bəli, təhsilimiz bizə çox baha başa gəldi".[5]

1997-ci ildə İsmayıl Axundovun 100 illiyi tibb aləmində qeyd edilib. Bu münasibətlə bəzi məqalələr yazılıb.[6] Ancaq onun həyatı və elmi fəaliyyəti haqqında ciddi araşdırılmalar aparılmasına ehtiyac var.

[1] *Cavadov R.B.* Görkəmli alimlər, s. 88.
[2] Yenə orada.
[3] Yenə orada.
[4] Yenə orada, s. 89.
[5] *Дуладева З.* Страницы истории национальной интеллигенции, s. 80.
[6] Məsələn, bax: *Велиева Э.* В нем совместились Запад и Восток. // «Вышка», 19.12.1997.

Axundzadə Səməndər Axund Zəki oğlu

(29.01.1898, Quba – 22.12.1968, Bakı)



Səməndər Axundzadə

Əsl adı "Ağasəməndər" olan, sonralar "Səməndər" kimi tanınan, soyadı türkcə bəlgələrdə "Axundzadə", ruscalarda "Axundov" kimi göstərilən bu görkəmli ziyalı Quba mahalının əslnəcabətli bir soyunun yetirməsidir.

Atası Kərbəlayı Axund Zəki (1850-1919) dönəminin dini və dünyəvi təhsil görmüş ən savadlı ruhanilərindən biri, "Ərşi" təxəllüslü şair olub. Tanınmış jurnalist Hafiz Sadıq(ov) özünün "Axund Zəki Hacızadə" adlı məqaləsində onun tərcümeyi-halını ilk dəfə geniş şəkildə araşdırıb.[1]

Bu dəyərli yazıda oxuyuruq: *"Azərbaycanın görkəmli dövlət, elm və maarif xadimi, ilahiyyat elminin mahir bilicisi, məşhur din xadimi Axund Kərbəlayı Zəki Kərbəlayı Abdulla oğlu Hacızadə 1850-ci ildə keçmiş Quba xanlığının Bərmək mahalının Xızı kəndində varlı maldar, mülkədar ailəsində dünyaya göz açmışdır".*[2]

Xızı kəndində bu ailəyə "Hacı Həmzə nəsli" deyirmişlər və görünür, axundun soyadı da elə Hacı Həmzədən götürülüb.

Zəki 9 il kəndlərində və Bakıda köhnə üsulla oxuduqdan sonra Nəcəfə ali ruhani təhsili almağa gedib. H.Sadıqov bu məsələyə toxunaraq yazır ki, çox dindar şəxs olan atası Kərbəlayı Abdulla üç oğlunun üçünü də özü kimi dindar görmək istəyib, buna görə də böyük oğlu Yəhyanı Məkkəyə həcc ziyarətinə, ortancıl oğlu Həmidi Kərbəla ziyarətinə, kiçik oğlu Zəkini isə ruhani təhsili almağa İraqi-ərəbə göndərib. Zəki qabaqca Nəcəf şəhərində ali ruhani təhsili alıb. O, burada ərəb dilini mükəmməl öyrənib. Təhsilini daha da təkmilləşdirməkdən ötrü İrana gedib. Bir neçə il Tehranda qalaraq fars dilini də incəliklə mənimsəyib.[3]

Hələ Nəcəfdə olarkən axundluq rütbəsi almış Zəki doğma vətəni Azərbaycana 1870-ci ildə qayıdıb.[4]

Axund Zəkinin həyatı haqqında ən önəmli faktları arxivlərin hələ açıq olmadığı bir dönəmdə böyük sevgi və çətinliklə toplayaraq ortaya qiymətli bir əsər qoymağı bacarmış Hafiz Sadığın bu yazısında, təəssüf ki, bəzi ciddi yanlışlıqlarla da üzləşirik. Məsələn, o yazır:

"1875-ci ildə Axund Zəki Zaqafqaziya Şeyxülislamı Axund Molla Əhməd Hüseynzadə (Azərbaycan xalqının fəxri Əli bəy Hüseynzadənin babası) tərəfindən Tiflisə çağırılır. Şeyxülislamla görüşdükdən sonra onun zəmanəti ilə Qafqaz baş canişinliyi tərəfindən Quba mahalı qazisi vəzifəsinə təyin olunur. O, bu vəzifədə 15 ilə yaxın çalışır və xalq arasında özünə böyük ehtiram və hörmət qazanır. [...] 1890-cı ildə könüllü olaraq öz qazilik vəzifəsindən əl çəkərək istefaya çıxır və Qubadan Bakı şəhərinə köçür".[5]

[1] *Sadıqov H.* Axund Zəki Hacızadə. // *"Novruz"* qəzeti, 3.04.1991, №14. (Bu məqalə bir qədər dəyişdirilərək "Görkəmli şərqşünas və həyat müəllimi" adı ilə *"Sirdaş"* qəzetinin 11 sentyabr 2004-cü il tarixli 13-14-cü saylarında müəllif göstərilmədən dərc edilib).
[2] Yenə orada.
[3] Yenə orada.
[4] Yenə orada.
[5] Yenə orada.



Kərbəlayı Axund Zəki Hacızadə

Halbuki Axund Zəkinin 11 aprel 1901-ci ildə tərtib edilmiş qulluq dəftərində göstərilib ki, çini olmayan Axund Zəki Hacızadə Quba qəzasının şiə qazisidir, 64 yaşı var, Məhəmmədiyyə dininin Əli məzhəbindədir, fərqlənmə nişanları yoxdur, ildə 300 manat maaş, 150 manat məktublaşma pulu alır (cəmisi 450 manat), ruhani ailədəndir, özünün və arvadının malikanəsi yoxdur, ev təhsili alıb, Bakı valisinin 17 noyabr 1890-cı il tarixli 17965 saylı əmri ilə Quba qəzasının şiə qazisi təyin edilib. Həmin valinin 16 noyabr 1898-ci il tarixli 17102 saylı əmri ilə qulluqdan çıxarılıb. Həmin valinin 28 iyun 1900-cü il tarixli 10601 əmri ilə yenidən Quba qəzasının qazisi təyin edilib.[1]

O, Quba qazisi vəzifəsində 1910-cu ilin yayınadək işləyib. Bunu təsdiqləyən danılmaz sənədlər var. Məsələn, "Kaspi" qəzeti 1910-cu ilin iyulunda yazır:

"Quba qəzasının qazisi Axund Molla Zəki Hacızadə istefa verib. Müvəqqəti olaraq onun vəzifəsini Quba şəhər birinci camiəsinin mollası Axund Hacı Molla Şeyxhüseyn Axundzadə icra edir. Umudvarıq ki, Bakı valiliyinin qazisi Qubaya qəza qazisi təyin edərkən lazımi hazırlıqlı şəxsi seçəcək".[2]

"Qafqaz təqvimi" də 1909-cu ildə Quba şiə qazisinin Molla Zəki Hacızadə olduğunu bildirir.[3]

Deməli, Axund Zəkinin qazilikdən istefa verərək Qubadan Bakıya köçməsi 1890-cı ildə yox, 20 il sonra – 1910-cu ildə olub.

H.Sadıqov yazır:

"Axund Zəki keçmiş Vaqif küçəsi[4] *ilə Sovet küçəsinin*[5] *kəsişdiyi yerdə yerləşən məktəbə şəriət müəllimi təyin olunur və ilahiyyatdan dərs deməyə başlayır. (Hal-hazırda həmin məktəb binası Həsən Seyidbəyli küçəsi 7 nömrəli ünvanda yerləşir. Yerli xalq arasında həmin məktəbə "Əliməmməd bəy Mustafayevin məktəbi" də deyirdilər)".*[6]

Sonra şeirləriylə tanışlıqdan da görəcəyimiz kimi, Axund Zəki çox maarifpərvər bir insandı və müsəlmanların dünya inkişafından geri qalmasının başlıca səbəbini sava-

[1] ARTA, fond 290, siyahı 2, iş 2341, vərəq 23.
[2] *«Каспий»*, 08.07.1910 №152.
[3] *«Кавказский календарь на 1910 год»*, ч. 2, s. 308.
[4] İndiki Həsən Seyidbəyli küçəsi.
[5] İndiki N.Nərimanov küçəsi.
[6] H.Sadıqovun həmin məqaləsi.

dsızlıqda, cəhalətdə görürdü. Peşədaşları olan əksər ruhanilərdən fərqlənərək o, qadın savadına da önəm verirdi. Bu üzdən də Hacı Zeynalabdin Tağıyev Bakıda qız məktəbi açmaq istədikdə və buna görə ilk növbədə ruhanilərin və qoçuların şiddətli müqavimətiylə üzləşdikdə Axund Zəki tərəddüdsüz Hacının tərəfini tutmuş, "mən bu yaxınlarda qızım Böyükxanımı[1] həmin məktəbə oxumağa göndərəcəyəm!" demiş, sözünə də əməl etmişdi.[2]

Onun bu addımı Bakıda ali ruhanilər içərisində, xüsusilə onun yaşadığı Dağlı məhəlləsində böyük sensasiyaya və narazılığa səbəb olub. "Hətta bəzi bədxahlar onu "babi" də adlandırırdılar. Məsələ böyüyüb dərinləşirdi. Söhbət Axundun nüfuzu, şərəfi və hörmətindən gedirdi. Məsələ Təzəpir və Dağlı məscidində həll olunmalı idi. (Dağlı Məscidinin yerində indi C.Cabbarlı adına 161 nömrəli məktəb tikilmişdir). Axund Zəki hər iki məsciddə Qurani-kərim ehkamları əsasında çıxış edərək sübut edir ki, Peyğəmbər özü buyurmuşdur: "Elm hər müsəlmana, istər kişi olsun, istər qadın – vacibdir". O, qətiyyətlə haqlı olduğunu sübut etmiş, ona qarşı yönələn dedi-qodunu, böhtanı aradan qaldırmış, ehtirasları yatırmışdı".[3]

Axund Zəki nümunəvi ailə başçısı olub. Onun 1901-ci ildəki qulluq dəftərində ailəsiylə bağlı göstərilib ki, Quba sakini *Məsumə xanım Hacı Seyid Zəki qızı* ilə evlənib; ondan bu uşaqları doğulub: *Ağaşərif* 1885-ci, *Zəbiyulla*[4] 1888-ci, *Ağasəməndər*[5] 1898-ci ildə, qızları *Nərgiz xanım* 1887-ci (1968), *Böyükxanım* 1900-cü (1972) ildə doğulublar.[6] (Övladlarının ən kiçiyi – 1907-ci ildə doğulmuş *Mənsur* bu qulluq dəftərinə düşməyib). Paşa Məlikovdan öyrəndiyimizə görə, Seyid Məsumə xanım 1934-cü, Ağaşərif 1959-cu, Zəbiyulla 1957-ci, Nərgiz xanım 1968-ci, Böyükxanım 1972-ci ildə Haqqın rəhmətinə qovuşublar, Mənsur isə müharibədən qayıtmayıb.

Burada həm Axund Zəkinin oğlu və Səməndərin qardaşı Zəbiyulla haqqında bilgi vermək, həm də sovet hakimiyyətinin insanlara münasibətini göstərmək üçün bir sənədi oxucularla paylaşmaq istəyirik. Bu, Zəbiyullanın sovet hakimiyyətinin ilk illərində doldurduğu anketdir.[7] Burada əksini tapmış hər bir cümləyə və həmin cümlələrin ruhuna oxucuların diqqət yetirməsini umuruq.

Lap başda yazılıb: "... şəhərində yerləşən sovet, mülki, hərbi və dəniz müəssisələrində çalışan, tutduğu vəzifədən asılı olmayaraq bütün işçilər üçün anket. Doğru olmayan məlumat vermiş şəxslər güllələnməyədək ən sərt şəkildə məsuliyyətə cəlb ediləcəklər".[8]

Bu sənəddən öyrənirik ki, 33 yaşlı, Xızının Sayad kəndində doğulmuş, orta təhsilli, Yuryevski küçəsi[9] 33-də yaşayan Zəbiyulla Axundov Əli Cəbrayılovun rəhbərlik etdiyi, Suraxanski[10] küçəsi 96-da yerləşən Bakı şəhər 1-ci pillə 40-cı Sovet məktəbində müəllim işləyir. 27 fevral 1920-ci ildəki Dəvəçidə müəllimlik edib. 1917-ci ilin 27 fevralından 25 oktyabrınadək yenə Dəvəçidə müəllim olub. Anketdə bu

[1] Qohumu Paşa Məlikovun bizə bildirdiyinə görə, o, Böyükxanım yox, Nərgiz xanım olub.
[2] H.Sadıqovun həmin məqaləsi.
[3] Yenə orada.
[4] Bu, tanınmış şair Rüfət Zəbioğlunun atasıdır.
[5] Məqaləmizin qəhrəmanı.
[6] ARTA, fond 290, siyahı 2, iş 2341, vərəq 24. (Bu qulluq dəftərini şeyxülislam Ə.Axundzadə təsdiqləyib).
[7] Yenə orada, fond 57, siyahı 1, iş 240, vv. 9-9a.
[8] Yenə orada, vərəq 9.
[9] İndiki Nərimanov prospekti.
[10] İndi bu küçə Dilarə Əliyeva və Çingiz Mustafayevin adını daşıyan iki küçədən ibarətdir.

sualın qoyulmasında siyasi məqsəd var – anketi hazırlayanlar fevral inqilabından oktyabr "inqilab"ınadək şəxsin Xüsusi Zaqafqaziya Komitəsi (OZaKom) və Zaqafqaziya Seymi hakimiyyəti dönəmində dövlət idarələrində çalışıb-çalışmamasını öyrənmək istəyir (onlar "xalq düşmənləri"dir!). Z.Axundov oktyabr "inqilab"ından sonra yenə Dəvəçidə müəllim işləyib. Məsul partiya və sovet işçilərindən heç biri onu tanımır, onun düzgünlüyünü və siyasi etibarlılığını heç kəs təsdiq edə bilməz. Partiyasızdır. Zabit olmayıb, sərmayəsi olmayıb. Sovet hakimiyyəti onun heç nəyini müsadirə etməyib. 22-ci sual belədir: *"Sənin həyat şəraitin sovet hakimiyyəti dövründə yaxşılaşmayıbmı? (Fərq nədədir?)"*. Sualın qarşısında yazılmış cavab: *"Maddi baxımdan hal-hazırda pisdir. İnqilabadək 60 manata qədər maaş alıb, indi isə bir milyon səkkiz yüz min manat alır"*...[1]

Axund Zəki Hacızadə 1919-cu ilin fevralında Bakıda vəfat edib, Çəmbərəkənd qəbiristanlığında basdırılıb. 1931-ci ildə ruslar bu müsəlman məzarlığını dağıdıb yerində əyləncə mərkəzi – Dağüstü park yaradarkən hərə gəlib öz ölüsünün sümüklərini götürərək başqa yerdə dəfn edib. Beləcə Axund Zəkinin sümükləri də ikinci dəfə Şıx kəndində, Bibiheybət qəbiristanlığında torpağa gömülüb.[2]

Axund Zəki Hacızadə hədsiz geniş mütaliəli və bilikli, eyni zamanda çağdaş düşüncəli bir ruhani – ilahiyyatşünas idi. O istər dini, istərsə dünyəvi mövzularda üç dildə dəyərli əsərlər yaradıb.

1914-cü ildə Bakıda "Orucov qardaşları" mətbəəsində nəşr edilən "Yədi-bəyza" kitabı[3] onun ilk ciddi nəşr əsəridir. Adı ana dilimizə "Ağ əl" kimi çevrilən bu kitabda əlini qoltuğuna salıb-çıxaran Musa peyğəmbərin əlindən işıq saçılması rəvayətindən yararlanılıb.

Bu kitabın basılma tarixindən o dönəmin tanınmış müəllimlərindən Əliməmməd Mustafayev belə söz açır ki, mən və Ağa bəy İsrafilbəyov ikinci bir nəşriyyat şirkəti düzəldib adını da "Ümid" qoyduq. Bu şirkətin üzvləri hər ay öz məvaciblərindən müəyyən faiz şirkətin nəfinə verdi və şirkət tez bir zamanda işə başladı. Şirkətdə Hənəfi Zeynallının "Namus", Axund Zəkinin "Yədi-bəyza" kitablarını çap etdirdik. İkinci kitab satışa buraxıldıqda mollalar "Ümid" nəşriyyatının üstünə hücum çəkdilər, ancaq əllərindən bir iş gəlmədiyini görüb susdular. "Yədi-bəyza" kitabının bir nüsxəsini Cəlil Məhəmmədquluzadəyə göndərdik. O, "Molla Nəsrəddin" jurnalında "Ümid" nəşriyyatını təbrik edərək belə yazdı: *"Şirkətiniz cavandır, hələ maddi cəhətdən zəifdir, inşallah, gələcəkdə şirkət özü üçün bir yaxşı təshihçi (korrektor) tapar və nəşr etdiyi kitablar da qələtsiz olar"*.[4]

Hafiz Sadıqovun yazdığına görə, Axund Zəkinin *"ən çox sevdiyi "Molla Nəsrəddin" məcmuəsi idi. Sabir satirasını çox sevərdi. Hər dəfə Sabiri oxuyandan sonra onun ruhuna "Fatihə" verib deyərdi: "Bu cənab hansı bir millətdə olsaydı həmin ölkənin hər yerində onun heykəli ucaldılardı". "Hophopnamə" onun stolüstü kitabı idi. O, "Molla Nəsrəddin" məcmuəsinin bütün tam nəşrini yığıb saxlamışdı"*.[5]

Həyatı və dünyagörüşü baxımından böyük maarifçi şair Hacı Seyid Əzim Şirvanini bizə xatırladan Axund KərbalayıZəki Hacızadə həm də "Ərşi" təxəllüsü ilə mənalı

[1] ARDA, fond 57, siyahı 1, iş 240, vv. 9-9a.
[2] H.Sadıqovun həmin məqaləsi.
[3] *Hacızadə A.Z.* Yədi-bəyza. Bakı, 1914.
[4] *Mustafayev Ə.* Xatirələri, hekayə və felyetonları. Bakı, 1985, s. 95.
[5] H.Sadıqovun həmin məqaləsi.

şeirlər yazan ustad bir şair idi. Türkcə, ərəbcə və farsca çoxlu şeirin müəllifi olan Axund Zəkinin öz çağındakı mətbuatda ilahiyyat, maarif və mədəniyyətə dair 100-dən çox məqaləsi çap olunduğu kimi,[1] xeyli şeiri də işıq üzü görmüşdü.[2]

AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda Əliabbas Müznibin şəxsi arxivində Hacızadə Axund Zəki Ərşinin "Mirzə Əliabbas Müznib təxəllüsə cavab" adlı mənzuməsi saxlanılır. "Cavab" 6 fevral 1909-cu ildə "İttifaq" qəzetinin 30-cu sayında bu imza ilə dərc edilib: "Qaziyi-mahali-Qübbə Axund Zəki Hacızadə mütəxəllis bə Ərşi".[3]

Təəssüf ki, bu əsərlər indiyədək bir yerə toplanaraq ayrıca nəşr edilməyib. Mərhum Cəfər Rəmzi İsmayılzadə özünün "Deyilən söz yadigardır" kitabında onun iki şeirini verib[4].

Dünyanın bir çox ölkələrini gəzib dünya elm və mədəniyyəti ilə dərindən tanış olmuş Axund Zəki Ərşi öz şeirlərində millətinin geriliyinə acıyır, onun dala qalmasının, baş verən saysız-hesabsız cinayətlərin başlıca səbəbini "cəhl"də, cəhalətdə görür. Mənsub olduğu toplumun hər bir fərdinə üz tutaraq "Səniylən dolub Sibir də, həbsxanələr də" deyə acıyır, ona məsləhət verir ki, "Dönüb Avropaya bax, bir belə izzətü cəlalə", "Hamı elm ilə həvadə uçuyor laçın misalı".[5]

Hacı Seyid Əzim kimi Axund Zəki Ərşi də tez-tez oğluna müraciət edir:

Böylə söylədi Ərşi xuni-cigər
Fəna halda oğluna ki: – Ey pesər,

Cəhalətdən, bala, eylə ictinab,[6]
Cəhalətdir sərmayeyi-istihab.

Cəhalətdir verən acı meyvələr,
Odur bu cahan içrə məlun şəcər.[7]

...Rəva görməyin zülmü insanlara,
Nə tək insana, hətta heyvanlara.

...Cəhalətdir səbəb, oğul, bunlara,
Əlacın elmdə onun sən ara.

Ülumun işığı şəri xeyr edər,
Olun keçmiş övzadən baxəbər.

Baxın avropalıların halına,
Qiyas eyləyin millət əhvalına.

[1] H.Sadıqovun həmin məqaləsi.
[2] Bizə rast gələn şeirlərindən örnəklər: *"İqbal"* qəzeti, 1912, №96; 1913, №515 və b.
[3] AMEA Əİ, fond 23, iş 176.
[4] *İsmayılzadə C.R.* Deyilən söz yadigardır. Bakı, 1987, ss. 29-31.
[5] Yenə orada, s. 30.
[6] Çəkin, sakın.
[7] Lənətlənmiş ağac.

Qərəz, cəhlə, oğlum, əlac eyləyin,
Xətakardır, zərər verəcək yəqin.[1]

Belə bir maarifsevər atanın törəmələri də onun adına layiq həm maarifli, həm maarifçi, həm də elsevər və yurdsevər övladlar oldular. Böyük oğlu Ağaşərifin oğlu, babasının adını daşıyan Zəki Axundov da şairdi və şeirlərinin birində yazır:

Dil açanda anamın hər sözünə can demişəm,
Bu əziz torpağıma Azərbaycan demişəm.

...Sevirəm torpağımı, xalqımı mən bir anatək,
Xalqını sevməyənə nankorü nadan demişəm.

Kim bölüb ölkəmizi, parçalayıbdır ikiyə?!
Götürülsün yer üzündən belə hicran demişəm!

Baxıram, ey Arazım, sahilinə həsrət ilə,
Vəslinə yetməyimi dərdimə dərman demişəm.

Mayadan dırnağı təcrid eləmək müşkül isə,
Məni ölkəmdən ayırmaq deyil asan demişəm.

Ey Zəki, canıma gəldi umudum dünyada,
Onu da Azərbaycanıma qurban demişəm!

Axund Zəki öz şeirlərində rəmzi şəkildə oğluna, əslində də hər bir yurddaşına müraciət edərək ona Avropaya nəzər salmağı, onun elm və mədəniyyətindən öyrənməyi tövsiyə edirdi. Əlbəttə, o, öz övladlarının da Avropa təhsili görməsini bir ata kimi ürəkdən arzulayardı. Təəssüf ki, 1919-cu ildə dünyasını dəyişməsi ilə Axund Zəki bu arzuları da özüylə apardı. Kiçik oğlu – doğuluşunda Ağasəməndər adı verdiyi Səməndər sanki atasının öyüdlərinə əməl etməkdən ötrü təhsil almaq üçün Avropanı seçdi və Cümhuriyyətin 100 təqaüdçüsündən biri oldu...

Arxivlərdə və başqa qaynaqlarda Səməndər Axundzadənin tərcümeyi-halı ilə bağlı bir çox sənədlərlə tanış olsaq da qohumları ilə görüşə də ehtiyac duymuş, onlardan, özəlliklə 2007-ci ilin sentyabrında görüşüb söhbətləşdiyim bacısı Nərgizin nəvəsi Paşa bəy Məlikovdan və Səməndərin qızı Firəngizin oğlu Yaşar Həsənovdan bilgilər və bəlgələr əldə etmişdik. Burada onların hamısından yararlanmışıq.

* * *

"Bu şəhadətnamə Zaqafqaziya Şiə Ruhani İdarəsindən ona görə verilib ki, Bakı valiliyi Quba şəhərinin sakini Səməndər Axund Zəki oğlu öz atası Axund Zəki Hacızadənin qanuni arvadı Seyid Məsumə xanım Hacı Seyid Zəki qızından 1898-ci ildə doğulub. Doğum ayı və günü bəlli deyil. Bunu Ruhani İdarəsi imza və dövlət möhürünün basılmasıyla təsdiq edir.

21 yanvar 1904-cü il, Tiflis şəhəri, № 213.

[1] *İsmayılzadə C.R.* Deyilən söz yadigardır, ss. 30-31.

Gerb rüsumu ödənilib.
Ruhani idarəsinin sədri, Zaqafqaziya şeyxülislamı Ə.Axundzadə.
Üzvlər: A.Sultanhüseynbəyov, A.N.Qazızadə, idarə katibi (imza).
Tərcümə etdi: Katibin köməkçisi H.Həsənzadə".[1]

Göründüyü kimi, bu sənəddən Səməndərin doğum ayı və günü bəlli olmur. Ancaq öz əliylə 15 iyun 1933-cü ildə yazdığı tərcümeyi-halında göstərib: "Mən Bakı valiliyinin Quba şəhərində 29 yanvar 1898-ci ildə anadan olmuşam".[2] Bu tarixin nəyə əsasən dəqiqləşdirildiyi bəlli olmasa da biz onu doğru sayacağıq.

Həyatının 1933-cü ilin iyununadək olan dönəmlərini də ən ümumi şəkildə bu tərcümeyi-halından öyrənirik.

"1906-cı ildə Quba ibtidai üçsinifli məktəbinə girdim və onu bitirincə Bakıya gedərək orada birinci rus-türk məktəbinə daxil oldum. Buranı qurtararaq 1911-ci ildə Bakı real məktəbinə qəbul olundum və 1917-ci ildə kamal attestatı və yeddinci sinfi bitirmək haqqında şəhadətnamə aldım.[3] *1917-ci ildən 1920-ci ilin yanvarınadək Bakıda müəllimlik etdim. 1920-ci ildə hökumət təhsilimi bitirmək üçün məni xaricə göndərdi. Mən Frayberqə (Almaniyada) getdim və orada Dağ-Mədən Akademiyasına girdim və oranın dağ bölməsini 1924-cü ilin oktyabrında bitirdim. Dağ-Mədən Akademiyasında olduğum müddətdə mən üst-üstə bir ilə yaxın daş kömür şaxtalarında və neft mədənlərində (daha çox daş kömür şaxtalarında) işlədim. 1925-ci ildə Bakıya qayıtdım. Orada 1925-ci ilin iyulundan 1929-cu ilin sentyabrınadək Azərneftin neft mədənlərində işlədim. Bu dönəmdə eyni zamanda müəllimlik fəaliyyətilə də məşğul oldum. 1929-cu ildə Nərimanov texnikumunda əsl pedaqoji işə keçdim, sonralar eyni zamanda AQNİ-də*[4] *və APİ-də*[5] *assistent oldum. Bakıda 1925-ci ildən sonrakı müstəqil fəaliyyətim zamanı Azərnəşrin tapşırığı ilə Vekslerin 2-cildlik "Qazma kursu" kitabını və üç Amerika müəllifi: Stüart, Biçerç və Corcun "Neft mənbələrinin istismarı"nı rus dilindən Türk dilinə çevirdim. Sonralar mən Mirçikin "Neft mənbələrinin geologiyası"nı Türk dilinə çevirdim və texniki səciyyəli bir sıra broşürü yenidən redaktə etdim. 1932-ci ilin sentyabrından Dövlət Plan Komitəsində 9 ay müddətində ağır sənaye üzrə məsul icraçı kimi işləmişəm, bundan sonra özümü bütünlüklə elmi işə həsr etmək üçün EAZFAB-a*[6] *girdim".*[7]

İndisə bu ömür yolunu sənədlərlə izləyək.

Quba şəhər sakininin oğlu Səməndər Axund Zəki oğluna[8] 8 may 1917-ci ildə verilmiş 1029 saylı attestatda göstərilir ki, o, 1911-ci ilin sentyabrında Bakı real məktəbinə girərək 1917-ci ilin mayınadək burada oxuyub və məktəbin tam kursunu bitirib. Attestata direktor Denferdən başqa, şəriət müəllimi M[irzə] A[bdulla] Talıbzadə də qol çəkib.[9]

Səməndər Axund Zəki oğlu ali təhsil almaqdan ötrü real məktəbin əlavə – 8-ci sinfini də bitirməliydi və bitirdi. Ona bu haqda verilmiş şəhadətnamədə yazılıb ki, o,

[1] ARDA, fond 51, siyahı 3, iş 121, vərəq 2.
[2] Azərb. EA MEA, fond 39, siyahı 1, iş 3, qutu 1, vərəq 4.
[3] Burada açıq-aşkar yanlışlıq var – adam bir ildə həm attestat, həm də şəhadətnamə ala bilməz. Əlavə sinfi o, 1917-ci deyil, 1918-ci ildə bitirib (bax: ARDA, fond 51, siyahı 3, iş 121, vərəq 4a).
[4] Azərbaycan Qırmızıbayraqlı Neft İnstitutu (indiki Azərbaycan Dövlət Neft Akademiyası).
[5] Ali Pedaqoji İnstitut (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti).
[6] SSRİ EA Zaqafqaziya Filialının Azərbaycan Bölməsi.
[7] Azərb. EA MEA-dəki şəxsi işində onun 14 iyun 1933-cü ildən EAZFAB-də birinci dərəcəli böyük mütəxəssis vəzifəsində işlədiyi göstərilib (bax: EA MEA, fond 39, siyahı 1, iş 3, qutu 1, vərəq 1).
[8] 1920-ci illərədək olan sənədlərin çoxunda onun soyadı yazılmayıb.
[9] Sənədin surəti özəl arxivimizdədir.

1 sentyabr 1917-ci ildən 6 aprel 1918-ci ilədək əlavə sinifdə əla davranışla oxuyub və səkkiz siniflik tam kursu bitirərək aşağıdakı uğurları göstərib:

Şəriət –	5 (əla)
Rus dili –	3 (kafi)
Alman dili –	4 (yaxşı)
Fransız dili –	4 (yaxşı)
Riyaziyyat, o sıradan:	
Hesab –	4 (yaxşı)
Cəbr –	4 (yaxşı)
Triqonometriya –	4 (yaxşı)
Xüsusi kurs (analitik həndəsənin əsasları, sonsuz kiçiklərin analizi) –	4 (yaxşı)
Tarix –	3 (kafi)
Təbiiyyatşünaslıq –	3 (kafi)
Fizika –	3 (kafi)
Riyazi coğrafiya –	4 (yaxşı)
Rəsm –	4 (yaxşı)
Qanunşünaslıq –	3 (kafi).

Buna görə o – Səməndər Axund Zəki oğlu nizamnamələrdə göstərilmiş qaydaları gözləməklə ali məktəblərə qəbul oluna bilər.

Bakı şəhəri, 9 aprel 1918-ci il...[1]

Özünün yazdığı tərcümeyi-haldan göründüyü kimi, bu vaxt o, müəllimlik edirdi.

1919-cu ildə xarici ölkələrə tələbə göndərmək məsələsi gündəliyə gəlincə, S.Axundzadə də bu arzuda bulundu və 1919-cu il avqustun başlanğıcında bu ərizəni qələmə aldı:

"Azərbaycan Cümhuriyyəti maarif naziri həzrətlərinə

Bakıda Krasnokrestovski sokakda[2]
43 nömrəli ev sakini
Səməndər Axundzadə tərəfindən

ƏRZİ-HAL[3]

Bəndə birinci realnı məktəbini bitirib məkatəbi-alidə ikmali-təhsil etmək arzusunda bulunduğumdan, məmaliki-əcnəbiyyəyə gedəcək tələbələr sırasında bəni daxil etməyiniz barəsində lazımi sərəncamlar buyurmanızı acizanə rica və istirham edərəm, əfəndim. Bilələvə, bəndə Almaniyada Frayberq şəhərində vaqe Ali Dağ Məktəbində təhsili-ülum etmək istərdim. Kəndim yoksul bir ailədən olub da ancaq müəllimlik vəzifəsini taşımaqla kəndi həyatımı təmin ediyorum. Qeyri bir mənbeyi-mədaxilim olmadığından, hökumət nəqdiyyəsinə pək möhtacam. Məhəzə məlum etmək istərdim ki, bən də Bakıda açılacaq hökumət darülfünununun gərək tibbiyyə və gərək tarix və filolojik şöbələrinə təhiətimə müvafiq olmadığından daxil ola bilmiyorum.

Kəmali-ehtiram ilə (imzası)".[1]

O dönəmin rəsmi üslubunu gözəlcə əks etdirən bu sənədin müəllifi yoxsul olduğunu yazır və bu üzdən təhsilini davam etdirmək üçün dövlət yardımı istəyir. Əlbəttə, bu işlə məşğul olan komissiya deyilənin təsdiqi olaraq sənəd tələb edib. 7 avqust 1919-cu ildə direktor Denfer keçmiş şagirdi ilə bağlı belə bir arayış verib: *"Bu, Bakı 1-ci real məktəbindən Səməndər Axund Zəki oğluna onun xahişi ilə Xalq Maarif Nəzarətinə təqdim etmək üçün ona görə verilib ki, o, 1-ci sinifdən 7-ci sinifədək (7-ci sinif də daxil) bu məktəbin pansionunda xəzinə hesabına qalaraq oxuyub".*[2]

Bu adi sənəddə qeyri-adi bir özəllik var – Cümhuriyyətin qurulmasından 1 il 3 aydan artıq vaxt keçməsinə, dövlət idarələrində möhürlərin millileşdirilməsinə baxmayaraq, Bakıdakı bütün rus məktəblərinin direktorları kimi, Denfer də öz məktəbinin dövlət möhürünü Azərbaycan Cümhuriyyətinin ay-ulduzlu möhürünə dəyişməyib və bu sənədin üstünə ikibaşlı qartalın əks olunduğu çar möhürünü basıb! (Bunun təqsirini hamıdan öncə Xalq Maarif Nəzarətində görürük, çünki o, məsələyə prinsipiallıqla yanaşmayıb).

S.Axundzadənin ərizəsindən sonra, görünür, Maarif Nəzarəti onunla maraqlanıb və tələbələrlə bağlı işlərə cəlb edib. Bunu təsdiqləyəcək faktlardan biri budur ki, 15 sentyabr 1919-cu ildə Aynulhəyat xanım Yusifbəyova,[3] Behbud xan Cavanşir, Şahtaxtinski, Səməndər Axundov[4] və Bakı Müsəlman Tələbələri Komitəsinin nümayəndəsi Məhəmmədqulu Hacınski[5] də qatılmaqla, tələbələrin xaricə göndərilməsi ilə bağlı yaradılmış komissiyanın M.Rəsulzadənin sədrliyi altında geniş tərkibdə iclası keçirilib. Burada bir çox vacib məsələlər müzakirə edilib, tələbələrin göndərilməsini və bölüşdürülməsini təşkil etməkdən ötrü komissiya yaradılıb. Yerlər ixtisaslar üzrə bölüşdürülüb. 15 sentyabradək komissiyaya 280 ərizə daxil olub. Tələbələrin seçimində Türk dilini və gedəcəyi ölkənin dilini bilənlərə, attestat qiymətləri yüksək olanlara, eləcə də kasıb balalarına üstünlük verilib.[6]

Məktəb qiymətlərinin münasibliyi və kasıblığı nəzərə alınmaqla S.Axundzadə də xaricə göndəriləcək abituriyentliyə namizədlər içərisinə salınıb və ondan harada oxumaq istədiyi bir daha soruşulub. O da nazirə yazılı şəkildə bildirib:

"Bununla birinci ərizəmə əlavə olaraq hüzuri-pürfüturunuza məlum etmək istərdim ki, bəndə Almaniyada Frayberq, yaxud Berlin şəhərində vaqe ali Dağ məktəbində ikmali-təhsil etmək arzusunda bulunuyorum. Fəqət Almaniyaya getmək qeyri-mümkün olsa İsveçrəyə – Tsyurix[7] şəhərinə getməkdən dəxi məmnun olaram. Bilələvə, bəndə əksimi yarın, təşrini-saninin 17-sində təqdim edərəm. Qeyri sənədlərim isə Maarif Nəzarətinin daftərxanasındadır.

Bakı, 16 təşrini-sani 1919[8]*, dər şəhri-Baku.*

(Səməndər Axundzadənin imzası)".[9]

---

[1] ARDA, fond 51, siyahı 3, iş 121, vv. 4-4a.
[2] İndiki Şeyx Şamil küçəsində.
[3] Maraqlıdır ki, hətta Cümhuriyyət dönəmində də dövlət idarələrində yazışma əsasən rus dilində aparılıb. Tələbələrin sənədlərinin də 95 faizdən çoxu rus dilindədir. Səməndər Axundzadənin ərizələri ana dilimizdə yazılmış nadir ərizələrdəndir.

[1] ARDA, fond 51, siyahı 3, iş 121, vərəq 1.
[2] Yenə orada, vərəq 3.
[3] Nəsib bəy Yusifbəylinin ikinci həyat yoldaşıdır.
[4] "100 tələbə"dən biridir.
[5] Onun haqqında geniş bilgi almaq üçün bax: *Tahirzadə Ə.* Professor Məhəmmədqulu bəy Kərbəlayi Ağa bəy oğlu Hacınski. // *"525-ci qəzet"*, 19 mart 2005, №52; 26 mart 2005, №56.
[6] *Нагиев А.* Народное образование в Азербайджанской Республике (1918-1920 гг.), s. 178.
[7] Sürix.
[8] 16 noyabr 1919.
[9] ARDA, fond 51, siyahı 3, iş 121, vərəq 5.

Xaricə gedəcək abituriyent və tələbələrin son siyahısı qəzetdə 1919-cu ilin dekabrında dərc edilərkən S.Axundzadə orada artıq dövlət təqaüdçüləri sırasında verilib.[1] 31 dekabr 1919-cu ildə verdiyi dilkağızında o, təhsilini bitirdikdən sonra 4 il hökumətin göstərdiyi yerdə işləməyi öhdəsinə götürüb.[2]

13 yanvar 1920-ci ildə Səməndər Axund Zəki oğluna verilmiş 549 saylı vəsiqədə onun dövlət hesabına xaricə oxumağa göndərildiyi təsdiqlənib.[3]


* * *

Buraya çatanda bir şeyi qeyd etmədən keçmək mümkün deyil. Haqqında danışdığımız sənəd əcnəbi dövlətlərə göndərilən bütün dövlət təqaüdçülərinə verilib (sərhəd-gömrük məntəqələrində və əcnəbi ali məktəblərdə göstərmək üçün). Ancaq S.Axundzadə yeganə tələbədir ki, ona verilmiş sənədi Cümhuriyyətdən qalma əziz bir yadigar kimi qoruyub saxlayaraq özüylə vətənə qaytarıb.[4]

Səməndər Axundzadə öz istəyinə uyğun olaraq Almaniyaya – Frayberqə gedib və oradakı Dağ-Mədən Akademiyasına girib. Dostumuz Ənvər Fərəcov Frayberqdə oxuyan bir azərbaycanlı tələbədən aldığı bilgiləri Vikipediyada "Frayberqin azərbaycanlı tələbələri" məqaləsində bölüşüb. Orada yazılanlara görə, Səməndər Axund Zəki oğlu Dağ-Mədən Akademiyasında 6212 nömrəli tələbə bileti ilə qeydiyyata düşüb. Onun tərcümeyi-halı 24 mart 1920-ci ildə 410-cu № ilə universitetin arxivinə verilib. Universitetə daxil olmaq haqqında ərizəsinə 24 martda baxılıb və universitetin rektoru bu ərizəni 12 apreldə təsdiqləyib, 26 apreldə isə möhürləyərək universitetin arxivinə verib. Səməndər Axund Zəki oğlu aradan 4 il keçdikdən sonra – 24 aprel 1924-cü ildə dağ-mədən mühəndisliyi ixtisasından diplom imtahanı verib. 24 oktyabr 1924-cü ildə ali təhsilini burada başa vuraraq dağ-mədən mühəndisi diplomu alıb.[5]

Səməndər Almaniyada oxuyan tələbələr arasında həm ağlı, həm də fərasəti, işbacaranlığı ilə seçilib. Tələbələr sovet hakimiyyəti gələndə maddi baxımdan acı durumla üzləşdikdə Bakıya – N.Nərimanovun başçılıq etdiyi Azərbaycan İnqilab Komitəsinə üz tutaraq necə hərəkət etməli olduqlarını soruşublar, oradan cavab gəlib ki, yardım gözləyin və nümayəndələr göndərin. 1921-ci ilin mayında onlar ümumi yığıncaq çağıraraq Frayberq Dağ-Mədən Akademiyasında oxuyan Səməndər Axundzadəni və Əşrəf Əliyevi Bakıya gedərək öz durumlarını anlatmaq və hökumətdən maddi yardım almaq üçün nümayəndə seçiblər.[6] Ancaq bu zaman onların Almaniyadan Bakıyacan gedişi kimi ciddi problemi həll etmək lazım gəlib. Bundan ötrü onlar Berlində RSFSR-in qeyri-rəsmi nümayəndəsi kimi yaşayan V.Koopu axtarıb tapıblar, o isə nümayəndələr üçün mandatlar hazırlamağı məsləhət görüb və onların Almaniyadan Rusiyaya göndərilən hərbi əsirlərlə birlikdə getməsinin mümkünlüyünü bildirib. Ona qulaq asan iki nümayəndə 1921-ci ilin mayında rus hərbi əsirlərini aparan eşalonda Rusiyaya, oradan da Azərbaycana gəliblər.[7] Bakıya çatandan sonra Səməndər Axundov və Əşrəf Əliyev Nəriman Nərimanovla görüşərək ondan yardım ala

[1] *"Azərbaycan"*, 18.12.1919, №349, s. 5.
[2] ARDA, fond 51, siyahı 3, iş 121, vərəq 6.
[3] Yenə orada, vərəq 7.
[4] Həmin sənədin əslinin surəti özəl arxivimizdədir.
[5] http://az.wikipedia.org/wiki/Frayberqin_az%C9%99rbaycanl%C4%B1_t%C9%99l%C9%99b%C9%99l%C9%99ri.
[6] Əliyev Abbasmirzə Əhməd oğlunun öz əli ilə yazdığı izahat. //AR MTN arxivi, PR-22247, vərəq 19.
[7] Yenə orada, vv. 19-19a.



Tələbə Səməndər şaxtada

biliblər. Onlar Bəhram bəy Axundovla birlikdə Batuma gediblər, B.b.Axundov orada valyuta malları (xalça, kürü və s.) aldıqdan sonra birgə İstanbula yollanıblar. Bəhram bəy malları satdıqdan sonra isə yenə onunla bərabər Avropaya dönərək tələbələrə yardım ediblər.[1]

İstanbulda onlar iki ay yarım ləngiyiblər. Bəhram bəy Axundov bununla bağlı olaraq yazıb ki, İstanbul xarici ticarət idarəsində Azərbaycanın mənafelərini qoruyacaq kimsə yoxdu, ona görə də "İstanbulda 15 sentyabr 1921-ci ildək Bakıdan vəsait gözləyə-gözləyə elə beləcə qaldıq. Bu müddətdə mən tələbələri bir yerə yığdım və onlara gəlişimin məqsədini açıqladım. İki ay yarımdan artıq tələbələrin həyatını və maddi durumunu bütün incəliklərinədək öyrəndim".[2] Ancaq, bizcə, iki ay yarım gecikmənin əsl səbəbi tam başqa bir şeydir – S.Axundzadəgilin İstanbulda bulunduğu bu vaxtda Behbud xan Cavanşiri erməni terrorçusu Torlakyanın şəhid etməsi ilə bağlı məhkəmə prosesi keçirilirdi.[3] Həmin məhkəmədə ittiham şahidlərinin üçüncüsü "azəri tələbə Səməndər bəy"dir. Məhkəmə sənədlərindən Səməndər bəyin kimliyi aydın olmur və nəşr edilmiş kitablarda da, təbii ki, bu haqda heç bir izahat verilməyib. Biz bu məsələyə ilk dəfə aydınlıq gətiririk.

"Azəri tələbə Səməndər bəy" bu yazımızın qəhrəmanı Səməndər Axund Zəki oğlu Axundzadədir. Bəhram bəy Axundovla birgə İstanbulda qalarkən Behbud xanın qətli ilə bağlı məhkəmə keçirildiyini eşidərək könüllü şəkildə ifadə verməyə gedib.

[1] Bu haqda B.b.Axundovun hesabatında geniş bilgi var (bax: ARDA, fond 410, siyahı 1, iş 342).
[2] ARDA, fond 410, siyahı 1, iş 342, vərəq 3.
[3] Məhkəmə prosesi ilə ətraflı tanış olmaq üçün bax: Behbud xan Cavanşirin məhkəmə prosesi. (Tərtib, tərcümə: Vilayət Quluyev). Bakı, 2008.



Qiyabi Pedaqoji İnstitutun vinetkası. 1949-50

(Bu işi Bəhram bəy Axundovun təşkil etdiyini düşünürük, çünki bu qədər gecikmənin məsuliyyətini ancaq o, öz üzərinə götürə bilərdi). S.Axundzadə bu məhkəmədə cəsarətli, ağıllı və məntiqli çıxışlarıyla erməni tərəfini susdura bilib və onları çətin duruma salıb.

Məhkəmənin gedişiylə əyani şəkildə tanış olaq.

Səməndər Axundzadə prokurorun suallarına cavabda deyir:

"Adım Səməndərdir. Azərbaycan Türklərindənəm. 1918-ci ilin mart ayında Bakıda idim. Təqribən 3-4 ay Bakıda qaldıqdan sonra İstanbula gəlmək məqsədilə oranı tərk etdim. Hazırda Sirkəçidə, Rəşidiyyə otelində qalıram".[1]

1918-ci ilin martında Bakıda ermənilərin müsəlmanları qırdıqlarını öz gözləri ilə gördüyünü söyləyən S.Axundzadə 1918-ci ilin sentyabrında Türkiyə qoşunları Bakıya girməzdən öncə şəhərin təslim edilməsi üçün əhali arasında 2 dəfə elan yaydığını bildirir və o zaman şəhər üzərində nəzarətin ermənilərin, "Daşnaksütun" partiyasının əlində olduğunu deyir. O, Türklər gələndən sonra şəhərdə qayda-qanun yaradıldığını və əhalidən silahların yığıldığını söyləyir:

"Mən də əhalidən əllərdə olan silahları toplayanların arasında olduğumdan, xalqın bütün silahları təhvil verdiklərini gördüm".[2]

S.Axundzadə söyləyir ki, şəhərin yeni polis baş müdiri Bəhaəddin bəy erməni mənzilinə girmək istəyən üç müsəlmanı, talançılıq edən əsgəri yerindəcə güllələyib, başqa bir soyğuncu əsgəri teleqraf dirəyindən asdırıb və üstündə də ermənicə və

[1] Behbud xan Cavanşirin məhkəmə prosesi. (Tərtib, tərcümə: Vilayət Quluyev). Bakı, 2008, s. 261.
[2] Yenə orada, s. 262.

rusca bu sözləri yazdırıb: *"Bu əsgər Çanaqqalda savaşdı. Millətin təhlükəsizliyini təmin etdi. Qalitsiyaya getdi. Oradan da şərflə döndü. İndi edam olundu, çünki bir erməni evindən bir dəst camaşır götürmüşdü".*[1] Şahidin bu dediklərinin məhkəmə üçün böyük əhəmiyyəti vardı, çünki ermənilər 1918-ci ilin sentyabrında Türklər gələrkən Bakıda ermənilərin kütləvi şəkildə qırılması haqqında burada hay-küy qaldırmışdılar, S.Axundzadənin ifadələri isə bunun əksini göstərir, Türklərin necə qayda-qanun yaratdığını sübut edirdi.



Səməndər Axundzadə həbsdə

Ona Behbud xan Cavanşir haqqında verilən sualı belə cavablandırır:

"Bəli, Cavanşiri şəxsən tanıyırdım. Cavanşir çox nəcib bir ailənin övladı idi və Almaniyada mükəmməl mühəndislik təhsili almışdı. Millətin hər bir fərdi Cavanşirin fəaliyyətindən məmnun idi. Lakin ermənilərin Cavanşiri sevmədiklərini, ondan narazı olduqlarını bilirəm. Yürütdüyü ümumi siyasətə gəldikdə isə, Cavanşir müxtəlif topluluqlar arasındakı ixtilafların dəf edilməsi, onların hamısının birlikdə, dinc şəraitdə yaşamaları, bərabər hüquqlara malik olmaları və bir-birləri ilə xoş münasibət saxlamaları mövqeyindən çıxış edirdi".[2]

Bundan sonra erməni tərəfi şahidə suallar verir və bu sual-cavab S.Axundzadənin qətiyyətli, hazırcavab və öz ləyaqətini qorumağı bacaran bir gənc olduğunu göstərir. Erməni vəkillə onun arasında bu cür sorğu-sual gedir:

"—Məşğuliyyətiniz?

- *Tələbəyəm.*
- *Hansı ixtisas üzrə təhsil alırsınız?*
- *Dağ-Mədən Akademiyasında oxuyuram.*
- *Mədən nə deməkdir?*
- *Mədənin nə demək olduğunu bilirəm.*
- *Mən də sizi imtahan etmək istəyirəm.*
- *Sizin məni imtahan etməyə haqqınız yoxdur.*
- *İstanbula nə üçün gəldiniz?*
- *Buradan Avropaya gedib təhsilimi davam etdirmək istəyirəm.*
- *Maraqlıdır, hələ də 1918-ci ilin martında ermənilərin müsəlman qırğını törətməsi məsələsində israr edirsiniz?*
- *Bəli, israr edirəm. 1918-ci ilin martında ermənilər müsəlmanları qətlə yetirdilər".*[3]

Bundan sonra erməni vəkil Bakıdakı İran konsulluğunun ermənilərin xeyrinə olan sənədindən söz açır.

"Şahid:

- *İran konsulluğu katibinin yazdıqları üçün mən heç bir məsuliyyət daşımıram.*
- *Şahid müsəlmanların ermənilər tərəfindən qorunması fikrini qəbul edirmi?*
- *Xeyr. Mən belə bir şeyin olduğunu eşitmədim".*[4]

[1] Behbud xan Cavanşirin məhkəmə prosesi. Bakı, 2008, s. 264.
[2] Yenə orada
[3] Yenə orada, s. 265.
[4] Yenə orada, s. 267.

Daha sonra S.Axundzadə ermənilərin xəyanətləri haqqında faktları açıqlayır, onların Müsəlman Milli Şurasının sədri Əlimərdan bəy Topçubaşovla görüşərək müsəlmanlarla bolşeviklər döyüşəcəyi halda ermənilərin bitərəf qalacağını bəyan etdiklərini, ancaq az keçməmiş bolşeviklərlə birgə müsəlmanları qırdıqlarını danışır.[1]

Erməni tərəf Behbud xanın qatili Torlakyana haqq qazandırmaq üçün dəridən-qabıqdan çıxır. Onunla S.Axundzadə arasındakı söhbətin bu hissəsi də maraq doğurur:

"Erməni vəkil:

- *Evlisiniz?*
- *Xeyr.*
- *Qohum-əqrəbanız var?*
- *Bəli. Bacım, qardaşım və anam var.*
- *Halbuki burada ittiham olunan şəxsin (Torlakyanın) bütün ailəsini sizin adamlarınız məhv etmişlər. Lakin siz ifadənizdə həmin hərəkəti artıq həyatda olmayan adamların adı ilə bağlamağa çalışdınız.*
- *Mən bura gəldim. Atam da, anam da sağdırlar, yaşayırlar. Lakin siz bir dəfə Bakıya gedib hər şeyi öz gözünüzlə görün. Orada elə bir ev, elə bir yuva tapmayacaqsınız ki, yandırılmamış, uçurulmamış, yaxud ailə üzvlərindən birini itirməmiş olsun".*[2]

Təbii ki, S.Axundzadə sonralar heç vaxt bu məsələnin üstünü açıb-ağartmayıb, çünki Sovet dönəmində bu, insana həyatı bahasına başa gələ bilərdi.

* * *

Tələbə S.Axundzadənin həyatı Almaniyada başqalarına nisbətən çox ağır keçib. Özünün yazdığı kimi, Dağ-Mədən Akademiyasında olduğu müddətdə üst-üstə bir ilə yaxın daş kömür şaxtalarında və neft mədənlərində fəhlə işləyib. Bunun nə demək olduğunu təsəvvür etmək üçün xatırladaq ki, S.Axundzadə 4 illik təhsilinin 1 ilini işə ayırıb. Əlbəttə, o, dərslərdən də yayınmayıb, deməli, işə yalnız 3 aylıq yay tətillərində gedib. Başqa sözlə, oxuduğu müddətdə heç dincəlməyib! Bu dönəmdə kömür şaxtasında işləyərkən çəkdirdiyi bir foto onun nə qədər ağır şəraitdə işlədiyini göstərir.

Tələbələrin kollektiv şəkillərini araşdırarkən bizə bir şey də aydın oldu – ən az fotosu olanlar Frayberq Dağ-Mədən Akademiyasının tələbələri, o sıradan Səməndər Axundzadədir. Onların çoxu kasıb ailədən çıxmışdı, buna görə də kollektiv fotoların daha çox çəkildiyi əylənçə və gəzintilərə vaxt qıtlığı ilə yanaşı, maddi imkanları da olmurdu. Bu üzdən də onları yalnız Berlində keçirilmiş tək-tük mühüm tədbirlərdə görürük, vəssalam!

Ailə arxivində S.Axundzadənin diplomu qalmaqdadır. Frayberq Dağ-Mədən Akademiyasının rektoru c-b Brionun 24 oktyabr 1924-cü ildə imza və möhürlə təsdiqlədiyi bu sənədlə ona diplomlu mühəndis rütbəsi verilib. Maraqlıdır ki, sənədin mətnini almancadan ruscaya Almaniyada (Drezdendə) oxumuş başqa bir Cümhuriyyət tələbəsi – Zal Cavad oğlu Məmmədli 18 aprel 1953-cü ildə tərcümə edib.[3]

Ali təhsilini 1924-cü ilin oktyabrında bitirsə də hələ vətənə dönməyə tələsmirdi, çünki gərgin tərəddüdlər içindəydi. Onun ana yurdunda bu vaxt kommunistlər dindarlara qarşı şiddətli mübarizə aparır, çarın hakimiyyət orqanlarında çalışmış insanları, onların ailələrini amansız təqib edirdilər və bundan, təbii ki, Səməndərin də xəbəri vardı.

[1] Behbud xan Cavanşirin məhkəmə prosesi. Bakı, 2008, ss. 269-270.
[2] Yenə orada, s. 261. ss. 272-273.
[3] Sənədin surəti özəl arxivimizdədir.

O isə məşhur bir ruhaninin, həm də sadə ruhaninin deyil, çar qazisinin oğlu idi! Ancaq axı atası insanlara yaxşılıqdan başqa heç nə etməmiş, onları daim düz yola, "insan olmağa", maarifllənməyə çağırmışdı! Onun özü də heç vaxt bir tikə haram çörək yeməmiş, öz əməyi ilə dolanmış, təhsil illərində də fəhləlikdən əl çəkməmişdi. Bəyəm Sövet hökuməti özünü "fəhlə-kəndli hökuməti", "əliqabarlıların hakimiyyəti" adlandırmırmı? Bəs Səməndər də o əliqabarlılardan deyilmi? Bax, bu cür "gedim-getməyim"li düşüncələr içərisində çabalayır, bir yandan da Almaniyada qalmağın faydasını görmürdü. Beləcə "nə olar olar!" deyərək 1925-ci ildə Bakıya yol aldı...



Səməndər Axundzadə. 1930

* * *

Bundan sonrakı ömür yolunu rəsmi sənədlərdən öyrənirik. Azərbaycan EA arxivindəki 14 iyun 1933-cü il tarixli kadrların uçotu üzrə şəxsi vərəqində oxuyuruq ki, o, Frayberq Dağ-Mədən Akademiyasının dağ fakültəsini bitirib; ixtisasca qeyri-filiz qazıntıları üzrə dağ mühəndisidir. Evlidir. Partiyasızdır. Ünvanı: Bakı, 2-ci Paralel küçəsi, 46. Bu işlərdə çalışıb:

1925-ci ilin iyunundan 1929-cu ilin sentyabrınadək Azərneftdə qazma üzrə mühəndis.

1929-cu ilin sentyabrından 1933-cü ilədək müəllim.

1932-ci ilin avqustundan 20 may 1933-cü ilədək Dövlət Plan Komitəsində ağır sənaye üzrə məsul icraçı.[1]

13 fevral 1949-cu ildə doldurulmuş və sonrakı illərdə əlavələr edilmiş əmək kitabçasındakı[2] bilgilər həm şəxsi vərəqdə göstərilənlərlə tam uyğun gəlmir, həm də onlarda açıq-aşkar dolaşıqlıqlar var. Əlimizdə müqayisə üçün başqa sənədlər olmadığına görə əmək kitabçasında yazılanları aşağıda şərhsiz və düzəlişsiz təqdim edirik:

1925-ci ildən 1 dekabr 1930-cu ilədək Bakı Şəhər Xalq Maarif Şöbəsinin məktəblərində müəllim.

10 sentyabr 192?-ci[3] ildən 15 sentyabr 1932-ci ilədək Nərimanov adına texnikumda müəllim.

25 sentyabr 1935-ci ildən 30 sentyabr 1931-ci ilədək[4] Azərbaycanda Dövlət Pedaqoji İnstitutunda müəllim.

1 noyabr 1935-ci ildən 1 avqust 1941-ci ilədək Rabitə Texnikumunda müəllim.

1940/41-ci dərs ilində Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunda baş müəllim.

10 fevral 1946-cı ildən Bakı Rabitə Elektrotexnikumunda mexanika müəllimi.

15 fevral 1946-cı ildən 6 yanvar 1948-ci ilədək orada tədris hissə müdiri əvəzi.

7 yanvar 1959-cu ildə təqaüdə çıxmasıyla bağlı olaraq müəllim vəzifəsindən azad edilib.

Vicdanla və qüsursuz işlədiyinə görə 1949 və 1950-ci illərin noyabrında ona şəxsi işinə yazılmaqla təşəkkür elan edilib.[5]

[1] Azərb. EA MEA, fond 39, siyahı 1, iş 3, qutu 1, vərəq 2.
[2] Sənədin surəti özəl arxivimizdədir.
[3] Sənəddə "2"-dən sonrakı rəqəmi yazmaq unudulub.
[4] Yanlışlıq olduğu göz qabağındadır.
[5] Sənədin surəti özəl arxivimizdədir.



Səməndər Axundzadə həmkarları ilə

* * *

Xaricdə təhsil alaraq Vətənə dönmüş, demək olar ki, bütün tələbələr Sovet Azərbaycanına ayaq basdıqları andan ömürlərinin sonunadək daim nəzarət altında olublar, inamsızlıqla qarşılaşıblar. Onların hər sözünə və hərəkətinə şübhə ilə yanaşılıb. Onlar öz vətənlərində ikinci növ adam sayılıblar. Bir neçə nəfər çıxılmaqla, onların hamısı 1930-cu illərdə Sovet inkvizisiyasının repressiya maşınından keçib. Səməndər Axundzadə də istisna deyil. Dövlət Siyasi İdarəsi (daha çox rusca adıyla "QPU" kimi tanınır) 1933-cü ildə onu həbsə alıb, ancaq tək yox – Almaniyada oxumuş başqa bir Cümhuriyyət tələbəsi Əsildar Muğanlı ilə.

Bu həbsin bütün gedişini MTN arxivində saxlanılan istintaq sənədlərindən öyrənirik. Beləliklə, Muğanlı Əsildar[1] Abbas oğlu və Axundov[2] Səməndər Zəki oğlunun ittihamı üzrə 33832 (indi: PR-71-75) saylı istintaq işini vərəqləyirik.

39 vərəqlik bu işdə iki Cümhuriyyət tələbəsinin ittihamı üzrə sənədlər toplanıb. Aydın olur ki, S.Axundovun həbs edilməsi üçün Azərbaycan DSİ böyük müfəttişi İvan Tarayevə 19 mart 1933-cü ildə 602 saylı order verilib.[3] Tarayevin Novruz bayramı günü – 20 mart 1933-cü ildə 602 saylı orderə əsasən apardığı axtarışın protokolunda oxuyuruq ki, o, Bakıda 2-ci Paralel küçəsi,[4] 46-cı mənzilində yaşayan Axundov Səməndər Zəki oğlunun mənzilindən bu əşyaları və sənədləri götürüb:

1. Böyük qızıl Avstriya sikkəsi (1 ədəd).
2. Sovetlərin kəsdiyi gümüş əlliqəpiklik sikkələr (18 ədəd).

[1] Bu işdə müttəhimin adı yanlış olaraq "Ələmdar" göstərilib.
[2] Soyadı bu sənəddə göstərildiyi kimi veririk.
[3] AR MTN arxivi, PR-7175, vərəq 8.
[4] İndiki Bala Məcidov küçəsi.

3. Sovetlərin kəsdiyi gümüş bir manatlıq sikkə (4 ədəd).
4. Xaricdə kəsilmiş kiçik qədim gümüş sikkələr (2 ədəd).
5. Birdaşlı brilyant halqa (1 ədəd).
6. "Karsten" firmasının mücrüsündə təhlükəsiz ülgücü itiləmək üçün alət (1 ədəd)
7. Mücrüdə xarici firmanın təhlükəsiz ülgücü (1 ədəd).
8. Əcnəbi firmanın, alman dilində istifadə qaydaları yazılmış loqarifm xətkeşi (1 ədəd)
9. Əcnəbi firmanın dəllək ülgücü (1 ədəd köhnə pasla örtülmüş).
10. Kiçik türk albomları (2 ədəd).
11. Müxtəlif kağızların, çertyojların Gəncədə metallurgiya zavodunda kokslaşdırma haqqında qeydlər, diplomlar və kamal attestatları olan qovluq. (1 ədəd).[1]

Maraqlıdır ki, həmin 20 martda növbətçi Suqurova da eyni cür blankda həmin 602 saylı orderə əsasən S.Axundovun evində axtarış apararaq protokol tərtib edib.[2] Ancaq bu protokolda yalnız 5 əşya göstərilib: 1) İttifaq kitabçası, 2) üzvlük kitabçası, 3) elmi işçilər bölməsinin üzvlük bileti, 4) bloknot, 5) 2 açar. Vəssalam!

Bu cinayət işində Əsildar Muğanlının da 2 axtarış protokolu var. Onda da 51 manat pul ikinci protokolda göstərilib; deməli, "QPU" işçiləri "kağız-kuğuzu" bir protokola, qiymətli şeyləri, zinət əşyalarını isə başqa protokola yazıblar və ikinci protokol çox vaxt "təsadüfən itirmiş".

Azərbaycan DSİ 1-ci şöbəsinin müvəkkili Nosovitski 1933-cü ilin martında çıxardığı qərarda göstərir ki, agent materiallarını gözdən keçirdikdən sonra Səməndər Axundov casusluqda yetərincə ifşa edilir. Buna görə də o, S.Axundovu Azərb. SSR CM 68-ci maddəsinə əsasən cinayət məsuliyyətinə cəlb etməyi qərara alıb.[3]

Cinayət işində Zaqafqaziya üzrə BDSİ[4] bölməsinin səlahiyyətli nümayəndəliyinin 23 mart 1933-cü ildə tərtib etdiyi 893 saylı arayışda Səməndər Zəki oğlu Axundov haqqında qısa bilgilər toplanıb. Bu bilgini tərtib edənlərin nə dərəcədə savadlı olduğunu bundan bilirik ki, "təhsili" qrafasının qarşısında yazılıb: "ibtidai, Almaniyada, 1924-cü ildə dağ institutunu bitirib". Görün, bu insanın taleyini kimlər həll edirmiş!

Bu işdə S.Axundzadənin iki dindirilmə protokolu var. Onların ikisi də Almaniyada oxumuş tələbələrimizin həyatı ilə bağlı maraqlı faktlarla zəngin olduğuna görə burada bütöv şəkildə veririk.

İlk dindirməni BDSİ xüsusi şöbəsinin müvəkkili Berezentsev 29 mart 1933-cü ildə aparıb. Protokolun başlanğıcında Səməndər Axundzadə özü ilə bağlı aşağıdakı bilgiləri verib:

...7. Ailə vəziyyəti: Arvadım Salihə Sofiyeva, öz mağazası olmuş ipək alverçisinin qızı, mənimlə birgə yaşayır. Bacım Nərgiz xanım Məlikova, Bakı şəhərində 1-ci Razyez küçəsi 11-də yaşayır. 2-ci bacım Böyükxanım Zəkiyeva Bakıda Buynak küçəsi 37-də yaşayır. Qardaşım Mənsur Axundov taxıl tədarükündə işləyir, Buynak küçəsi 37-də yaşayır. Ağaşərif Axundov, 50 yaş, Azərbaycan Ticarət İdarəsinin

[1] AR MTN arxivi, PR-7175, vərəq 34.
[2] Yenə orada, vərəq 9.
[3] Yenə orada, vərəq 11.
[4] Birləşmiş Dövlət Siyasi İdarəsi.

Lənkəranda mühasibi işləyir. Zəbi Axundov, 45 yaş, Qazax şəhərində pedaqoji texnikumda müəllimdir.

8. Əmlak vəziyyəti: Buynak küçəsi 37-də bacısının və qardaşının yaşadığı özəl evi var.

9. Təhsili: Bakı 1-ci real məktəbini və Almaniyanın Frayberq şəhərində ali Dağ İnstitutunu bitirib; partiyasızdır; Dövlət Plan Komitəsinin əməyin mühafizəsi üzrə ictimai katibidir; məhkəmə və istintaq altında olmayıb...

...15. İşin mahiyyəti üzrə ifadəsi: 1917-ci ilin başlanğıcında Bakı şəhərində 1-ci real məktəbi bitirərək 1920-ci ilədək Bakı şəhərindəki 2-ci kişi gimnaziyasının kiçik milli qruplarında müəllim işləmişəm.

1920-ci ildə Müsavat hökuməti Xalq Maarif Nəzarətinin təhsili bitirmək üçün xaricə – Almaniya, Fransa, İtaliya və Türkiyəyə göndərdiyi 75 tələbənin içərisində mən də var idim.

Tələbələrin göndərilməsi üçün seçim prinsipi belə idi – Müsavat hökuməti maddi baxımdan daha imkanlı təminatlı tələbələrin seçilməsinə təkid edirdi, o zaman mövcud olan, başında Hacınski Məhəmmədqulunun durduğu "tələbə komitəsi" isə[1] maddi baxımdan təminatsız və dövlət dəstəyinə ehtiyacı olan şəxslərin namizədliyini irəli sürürdü. Nəticədə hər iki tələb həyata keçdi və oxumağa göndərilən şəxslərin içərisinə həm imkanlı adamların, həm də kasıbların balaları düşdü.

Şəxsləri sadalaya bilməyəcəyəm, çünki xatırlamıram.

1920-ci ilin yanvarında biz Bakıdan çıxaraq İstanbuldan keçməklə Parisə getdik, orada Azərbaycan Müsavat hökumətinin nümayəndəsi Topçubaşovun yanında olduq. O, bizim sənədlərimizi hazırladı və biz Almaniyadakı təyinat yerlərimizə dağılışdıq. Bir hissə Fransada qaldı. Bizdən Almaniyaya qırx, yaxud əlli nəfər getdi. 7 nəfər Saksoniyada Frayberq Dağ İnstitutuna təyin edilərək orada 1924-1925-ci illərədək oxuduq: *Kazımov Cəfər* – Bakı şəhərində Azərbaycan Dövlət Plan Komitəsinin sənaye bölməsinin sədri işləyir; *Əliyev Əşrəf* – hal-hazırda Bakı şəhərində Stalin mədənində işləyir; *Şahsuvarov Surxay* – Bakıda Azərneftin geoloji-kəşfiyyat bürosunda; *Muradbəyli Cəmil* – Orconikidze mədənində işləyir; *Həsənov Rzaqulu* – Bakı şəhərində Kirov mədəninin direktoru işləyir; *Sadıqov Sadıq* – Stalin mədənində işləyir. Təxminən 1920-ci ilədək hamımız Müsavat hökumətinin nümayəndəsi Topçubaşovdan təqaüd aldıq, Azərbaycanda sovet hakimiyyəti qurulduqda isə Topçubaşov bizə təqaüd verilməsini dayandırdı və biz Bakıya Xalq Komissarları Şurasının sədri Nərimanovun yanına[2] Kazımov Cəfəri nümayəndə göndərdik. O, yol. Nərimanovla danışdı və bizə müxtəlif cəvahirat gətirdi. Onları satıb, alınmış pulları öz aramızda, eləcə də Almaniya və Fransanın başqa şəhərlərindəki tələbələr arasında bölüşdürdük. 1921-ci ildə pullar qurtaranda Berlindəki "tələbə komitəsi" (bu komitənin tərkibinə kimlərin daxil olduğunu xatırlamıram) Bakıya yenidən öz nümayəndələrimizi – məni və Əliyev

[1] AR MTN arxivi, PR-7175, vərəq 12.
[2] Yenə orada, vərəq 13a.

Əşrəfi göndərdi.[1] Frayberqə gələrkən Almaniya, Fransa və İtaliyada oxuyan bütün tələbələr üçün Azərb. SSR nümayəndəsi Bəhram bəy Axundovun satdığı malların pullarını gətirdik.

Sonralar Zaqafqaziya Xarici Ticarət İdarəsinin Berlindəki nümayəndəsi Pirumovla bütün tələbələrə sistemli təqaüdün verilməsi haqqında birdəfəlik razılıq əldə edə bildik. Təhsil prosesində ayrı-ayrı respublika tələbə komitələri ləğv edildi və Berlində respublika filialları olan Zaqafqaziya Tələbə Komitəsi yaradıldı. 1923-cü ildə Kazımov Cəfər, mən və Həsənov Rza Frayberqdə "ATKT" – Azərbaycanlı Tələbələrin Kommunist Təşkilatını yaratdıq; bu təşkilat öz qarşısına hələ siyasi baxımdan formalaşmamış tələbələrin kommunizm – K.Marksın təlimi ruhunda yenidən tərbiyə edilməsi məqsədini qoymuşdu. Təşkilat Kazımov Cəfərin təşəbbüsü ilə yaradılmışdı.

Almaniyanın başqa şəhərlərinin, eləcə də Fransa və İtaliyadakı tələbələrin hansı təşkilat və dərnəklərə daxil olduğunu deyə bilmərəm, çünki biz onlardan ayrı idik. Sovet hakimiyyətinə qarşı olan tələbələrdən mənə Ağaoğlu [Məhəmməd], Hacızadə Mirzə bəllidir. Sonuncu Gəncədəndir; onların indi harada olması mənə bəlli deyil.

İnstitutu bitirdikdən sonra mən 1925-ci ildə Berlinin neft mədənlərində təcrübə keçdim. Elə həmin il də SSRİ-yə, Bakı şəhərinə qayıtdım. Daha heç nə deyə bilmərəm; ifadəmi mənim sözlərimlə düzgün sayıram və buna görə imza edirəm.[2]

BDSİ-nin əməliyyat müvəkkili Nosovitski 15 aprel 1933-cü ildə Səməndər Axundzadəni ikinci dəfə dindirib. Bu dindirmə protokolunun da mövzumuzla bağlı bölümlərini aşağıda veririk.

"Sual: Türk tələbələr Frayberqə gəlincə hansı tələbə təşkilatına girdilər?

Cavab: Bizim Frayberqdəki Türk tələbələri qrupumuz idarə heyəti Berlin şəhərində yerləşən Türk Tələbələri Birliyinə daxil idi. Bu birliyin rəhbərliyi tez-tez dəyişirdi. Bir vaxt mən də bu təşkilatın sədri olmuşam. Başlanğıcda Türk Tələbələri Birliyi sırf iqtisadi və akademik məqsədlər güdürdü.

Sual: Siz Almaniyaya – Frayberq və Berlinə getdiyiniz zaman orada Türk mühacirlərindən kim yaşayırdı?

Cavab: Xatırladığım qədər, Berlində keçmiş bakılı mühacir *Mirtağı Mirbabayev* yaşayırdı; onu mən təsadüfən Berlin küçələrinin birində gördüm. Sonra mənə bəllidir ki, Parisdən mühacir *Miryaqub [Mehdiyev]* gəlib Darmştadtdanmı, yoxsa Karlsruedənmi, dəqiq xatırlamıram, keçib getmişdi. Onun haqqında mənə tələbələrdən kimsə Berlindəki qurultayda danışmışdı.

Frayberqdə mühacirlərdən şəxsən gürcü knyaz Alşibayevi[3] tanıyıram; onun adı Dağ Akademiyasının tələbəsi gedirdi, ancaq əslində heç oxumurdu. *Alşibayev*'lə yanaşı, Frayberqdən bu gürcü tələbələr mənə tanışdır: *Yedeberidze, Yenaşvili, Bakradze, Kapanaşvili, İnoşvili, Çiçinadze.* Gürcü tələbələrin Almaniyada o vaxt Berlin şəhərində öz birlikləri vardı...".[4]

[1] Abbasmirzə Əliyevin yazdığına görə, Bakıya öncə S.Axundzadə və Ə.Əliyev, ikincə dəfə isə Cəfər Kazımov nümayəndə kimi göndəriliblər (bax: Əliyev Abbasmirzə Əhməd oğlunun öz əli ilə yazdığı izahat. // AR MTN arxivi, PR-22247, vərəq 20a). Faktlar S.Axundzadənin ifadəsinin doğruluğunu təsdiqləyir.
[2] AR MTN arxivi, PR-22247, vv. 12-14.
[3] Alşibaya.
[4] AR MTN arxivi, PR-7175, vərəq 18.

* * *

Çox qəribədir – casusluq ittihamı ilə həbs edilən S.Axundzadə dindirmələrdə heç bir casusluq fəaliyyətində ittiham olunmur və başqa tələbələrin dindirilməsi zamanı gördüyümüz müstəntiqlərin amansız təzyiqinə onun istintaqında rast gəlmirik. Eyni yumşaq münasibət aşağıda oxuyacağımız sənəddə də özünü göstərir. 25 may 1933-cü ildə Azərbaycan DSİ xüsusi şöbəsi 1-ci bölməsinin əməliyyat müvəkkili Nosovitskinin tərtib etdiyi və DSİ sədrinin müavini Sumbatovun 26 mayda təsdiqlədiyi qərarda göstərilir:

"Müttəhim Axundov Səməndər (molla oğlu) və Muğanlı Əsildar (çar və Müsavat dönəmi dairə məhkəməsi sədrinin oğlu) istintaqa Zaqafqaziya DSİ və Azərb. DSİ xüsusi şöbələrinin məxfi məlumatları əsasında müttəhim kimi cəlb edilmişdilər. Bu məlumatlara görə, müttəhimləri 1920-ci ildə Müsavat hökuməti Almaniyaya öz təhsillərini başa vurmaq üçün göndərmişdi. Almaniyada olarkən Axundov və Muğanlı antisovet tələbə dəstələrinə qoşulublar, ağ mühacirlərlə və müxtəlif antisovet və alman millətçi təşkilatları ilə əlaqə saxlayıblar. İstintaq prosesində müttəhimlər Axundov və Muğanlının Almaniyadan SSRİ-yə gəldikdən sonra xariclə əlaqə saxlamaları, casusluq və millətçilik fəaliyyətlərində günahları təsdiq edilmədi".[5]

Təsdiqlənmiş qərar isə bundan ibarət oldu:

"Müttəhimlər Axundov Səməndər Zəki oğlu və Muğanlı Əsildar Abbasəli oğlu gözaltına alınmaqdan azad edilsin, işin istintaqı dayandırılsın və arxivə təhvil verilsin".[6]

Deyəsən, "QPU"-nun tarixində möcüzə baş vermişdi! Adətən, onun qapısından içəri girən kimsənin buradan ən azı bir neçə il iş almamış çıxdığını görən olmamışdı. İndi isə casusluq kimi ən ağır bir ittihamla cinayət məsuliyyətinə cəlb edilmiş iki adamın qarşısında qapılar taybatay açılır, onlar azadlığa buraxılırlar! Doğrudan, çox nadir hadisələrdən biridir. Bunun gerçək səbəbini 5 iyul 2007-ci ildə Səməndər Axundzadənin bacısı nəvəsi Paşa bəy Yusif Ziya oğlu Məlikovdan öyrəndik.

Paşa bəyin danışdığına görə, Axund Zəkinin yoldaşı və Səməndərin anası, Qubada yaşayan Seyid Məsumənin (yaxınları ona "Minə xanım" deyərdi) bu şəhərdə olduqca böyük nüfuzu vardı və hətta Mircəfər Bağırov da onunla hesablaşar, sözündən çıxmazdı. O, Qubadan birbaşa Bakıya Bağırovun yanına gəlib və oğlu Səməndərin və onunla bir yerdə dustaq olan bir neçə qohumunun buraxılmasını istəyib. Bağırov onun sözünü yerə sala bilməyib və Səməndəri də, qohumlarını da elə həmin gün buraxdırıb. Mircəfər Bağırov işə qarışandan sonra Səməndər Axundzadəyə "casus" deməyə daha kimin hünəri çatardı?! Əslində qurama işdən Əsildar Muğanlı da onun hesabına canını qurtarıb.

S.Axundzadənin xilası işini yüngülləşdirən bir obyektiv amil də vardı – Avropada, o sıradan Almaniyadan oxuyub gələnlərin əksəriyyəti orada əcnəbi qızlarla evlənmişdi, buna görə də onlara "Almaniya casusu", "Fransa casusu"... adı vermək daha asandı, ancaq Səməndər Vətənə subay döndüyünə görə onu casusluqda suçlamaq nisbətən çətindi.

[5] AR MTN arxivi, PR-7175 vərəq 18.
[6] Yenə orada.



Səməndər Axundzadə keçmiş tələbə yoldaşı Cəmil Musai ilə. 1965-68

Burada başqa bir maraqlı məqam da var – Bağırov Səməndərgili təcili buraxdırdığına görə onların üstündən ittihamın götürülməsi haqqında sənədlərin hamısı sonradan – onlar artıq evdə olarkən yazılmışdı.

Ümumən bu "casus" işinin quraşdırılmasına səbəb nə olmuşdu? Doğrudur, bu haqda əsl gerçəkləri biz heç zaman öyrənə bilməyəcəyik, çünki o zaman tutulma haqqında qərar öncə rəhbərliklə şifahi şəkildə razılaşdırılır, sonra sənədlərdə əksini tapırdı. İşə tikilməyən həmin şifahi qərarı isə öyrənmək mümkünsüzdür. Bizim zənnimizcə, S.Axundzadənin həbsinin başlıca səbəbi Behbud xan Cavanşirin məhkəməsində ermənilərin əleyhinə verdiyi şahid ifadələridir. Sovetlər Birliyi üzrə gizli xidmətlərdə ən yüksək vəzifələrdə yerləşmiş ermənilərin bilmədiyi bir şey yoxdu və Torlakyan məhkəməsindən də tam xəbərdar olmaları təbiidir. Frayberqdə Dağ-Mədən Akademiyasında oxuması bəlli olan "azəri tələbə Səməndər"in kimliyini onlar, çox güman ki, Pirumovun vasitəsilə öyrənmişdilər və qisas üçün münasib vaxt gözləyirdilər. 1933-cü ildə – Mübariz Allahsızlar İttifaqının tüğyan etdiyi bir vaxtda "molla oğlu"nu vurmağa fürsət yaranmışdı. Azərbaycan DSİ-də tam ağalıq edən ermənilər bu imkanı əldən buraxmadılar və Əsildar Muğanlını da onun "gözünə qatdılar".

Bu həbsin S.Axundzadəyə bir böyük faydası oldu – onun Mircəfər Bağırovun himayəsində olduğu üzə çıxdı və DSİ bir daha ona tərəf üz çevirmədi...

* * *

Səməndər Axundzadə 1926-cı ildə kökcə Şamaxının Sofilər nəslindən olan Salihə xanım Sofiyeva (1.6.1909-1.4.1993) ilə ailə qurub. Salihə xanım Bakıda 172 saylı orta məktəbdə dil-ədəbiyyat müəllimi işləyib. 1927-ci ildə onların qızı *Firəngiz Axundova* (15.7.1927-12.2.1995) dünyaya gəlib. Firəngiz orta məktəbi qızıl medalla, Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib. Aspiranturada oxuyub. Daxili İşlər Nazirliyinin



Paşa Məlikov

poliklinikasında nevropatoloq həkim işləyib, əməkdar həkimdi. Onun oğlu *Yaşar* (20.1.1955) Azərbaycan Neft-Kimya İnstitutunda işləyib. Texnika elmləri namizədidir.

Səməndərin böyük oğlu *Fikrət Axundov* (22.6.1929-10.7.1979) Neft-Kimya İnstitutunu bitirib və uzun müddət orada müəllim işləyib. Dövlət Plan Komitəsində maşınqayırma şöbəsinin müdiri olub. Sumqayıtda yaponlarla birgə inşa edilən kompressor zavodunun baş direktoru vəzifəsində çalışıb. Sonuncu vəzifəsi Azərbaycan Hesablama Texnikası və İnformasiya İstehsalat Birliyinin direktoru idi. Bir oğlu, bir qızı var: *Nazim* və *Cavahir*.

Səməndərin ikinci oğlu *Sənan Axundov* (28.3.1932-6.11.2006) orta məktəbi gümüş medalla bitirib. Moskvada Maşınqayırma İnstitutunu qurtarıb, Bakı kondisioner zavodunun ilk baş direktoru olub. 1982-1987-ci illərdə yerli sənaye naziri, 1987-1990-cı illərdə Moskvada Azərbaycanın səlahiyyətli nümayəndəsi, sonra isə Dövlət Standartlar Komitəsinin sədri vəzifəsində çalışıb. 2000-ci ildən səhhəti ilə bağlı işdən çıxıb, 2006-cı ilin noyabrında vəfat edib. Üç oğlu var: *Zaur, Səməndər, Riad*. Üçü də ali təhsillidir.

Səməndər Axundzadə 22 dekabr 1968-ci ildə Bakı şəhərində vəfat edib və əski Yasamal qəbiristanlığında bacı-qardaşlarının yanında dəfn olunub.

Aslanov Teymur bəy Zəkəriyyə bəy oğlu

(5.01.1899, Şuşa - 16.08.1964, Bakı)



Teymur bəy Aslanov



Zəkəriyyə bəy Aslanov

Cümhuriyyət tələbələrinin bir çoxu Azərbaycanın tanınmış ziyalı ailələrindən çıxmışdı. Onlardan biri də Teymur bəy Aslanovdur. Onun atası Zəkəriyyə bəy öz dönəminin qabaqcıl, say-seçmə maarif xadimlərindən olub.

Zəkəriyyə bəy Mirzə Mehdiqulu bəy oğlu Aslanov (1863-1917) ömrünün 32 ilini xalq maarifinə həsr edib. Arxiv bəlgələrində göstərilib ki, o, zadəgandır, Şuşa şəhərində doğulub. 1877-ci ildə şəhər məktəbinə girib, ikinci sinifdən çıxıb. Qori Müəllimlər Seminariyasına girərək orada dövlət hesabına oxuyub. 1885-ci ildə həmin məktəbi bitirərək Bərdədə ikisinifli məktəbə nazir[1] təyin edilib. Xəstəliyinə görə Alpaut məktəbinə nazir keçirilib. Daha sonra Ağdam və Gülablı məktəblərində nazir olub. Bu məktəblərdə 15 il çalışıb. 1900-cü ildə müəllim təyin edilib. İllik maaşı 900 manatdır. Kənd məktəblərində dərs demək hüququ var. Şuşada 1890-cu ildə ailə qurub. 3 oğlu, 2 qızı var.[2]

1906-1907-ci illərdə Bakıda çağırılan Qafqaz müəllimləri qurultayında iştirak edib.

1912-ci ildə ailəsiylə birgə Şuşadan Bakıya köçüb. 1912-1915-ci illərdə IV rus-türk məktəbində müdir və müəllim işləyib.

Vaxtilə Azərbaycan SSR Ali Soveti sistemində məsul vəzifələrdə işləmiş Zemfira xanım Qurbanovanın yazdığı qeydlərdən (həmin qeydləri bizə 2006-cı ildə Gülnarə xanım Qurbanova təqdim edib) aydın olur ki, bu məktəb 1920-ci ilədək Spasski küçəsi 121-ci evdə yerləşib. Sonra küçə "Qasım İsmayılov" və müstəqillik illərində "Zərgərpalan" adlandırılıb, məktəbin nömrəsi isə 19 olub. Görkəmli yazıçı və müəllim *Süleyman Sani Axundov* (1875-1939) bu məktəbin birqatlı binasında 4 otağı mənzilə çevirib və dayısı qızı Mina xanım Aslanovanın – Zəkəriyyə bəy Aslanovun qızının ailəsi ilə birgə yaşayıb. Süleyman Saninin öz ailəsi olmayıb, buna görə o, Mina xanımın 3 övladını: Xalidə, Zemfira və Tofiqi tərbiyə edərək böyüdüb. Yazıçı onları "mənim yavrucuqlarım" adlandırırmış.

4-cü məktəb 9 sinifdən ibarət olub. Onun Z.b.Aslanov, Mirhəsən Vəzirov, S.S.Axundov, Səid Rüstəmov kimi tanınmış müəllimləri olub. Orada partizan Mehdi Hüseynzadə, rəssamlar Mikayıl Abdullayev və Ağa Mehdiyev, şairlər Balaş Azəroğlu və Süleyman Rüstəm, yazıçı Hüseyn Abbaszadə, bəstəkar Məmməd İsrafilzadə və Azərbaycanın başqa məşhur adamları oxuyublar.[3]

Ə.Çingizoğlunun araşdırmalarına görə, Zəkəriyyə bəy Aslanov maarifçi "Dəbistan" jurnalı maddi çətinliklə üzləşəndə onun nəşrini davam etdirməyə hər cür köməklik göstərənlər arasındadır. O həm də vaxtilə həvəskar aktyor olub. Müəllim

[1] Müdir, direktor.
[2] ARTA, fond 389, s.6, iş 150, vərəq 191.
[3] Zemfira xanımın qeydlərinin surəti özəl arxivimizdədir.



Teymur bəyin ata-anası
Zəkəriyyə bəy və Ballı xanım

işlədiyi dönəmdə Azərbaycan dramaturgiyasının qayğıkeş təbliğatçılarından birinə çevrilib. Ağdam məktəbində çalışarkən müəllim yoldaşları ilə birgə Şuşa şəhər məktəbinin kasıb şagirdlərinin xeyrinə tamaşalar təşkil edib və bunlardan 152 manat 40 qəpik vəsait toplanıb. O, "Dağılan tifaq", "Nadanlıq", Nadir şah", "Müsibəti-Fəxrəddin", "Gavə" pyeslərinin tamaşaya qoyulmasında yaxından iştirak edib. O çağın Süleyman Sani Axundov, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Mirzə Muxtar Məhəmmədov, Əbdüləli bəy Vəlibəyov, Həbib bəy Mahmudbəyov, Əbdürrəhim Rzayev, Mirzə Əliəkbər Axundov, Zərgər Aslan, Muxtar Hüseynov, Nəcəfqulu bəy Vəliyev, Əbülfət Vəli, Bədəl bəy Bədəlbəyov, Dərya bəy Aslanov, Rəsul bəy Tahirov və başqa aydınları ilə çiyin-çiyinə Azərbaycan teatrının inkişafı yolunda külüng çalanlardan biri də Zəkəriyyə bəydi.

Z.b.Aslanov vəfat edərkən Bakı mətbuatı ona ən gözəçarpan yerlərdə başsağlıqları dərc etmişdi. Məsələn, Məhəmmədəmin Rəsulzadənin (1884-1955) "Açıq söz" qəzeti 395-ci sayında yazmışdı: Bakı Şəhər İdarəsinin məktəb şöbəsi *"kəmali-yas və təhəssürlə dördüncü zükur*[1] *rus-müsəlman məktəbinin müəllimi Zəkəriyyə bəy Aslanovun fevralın 4-ndə fücətən*[2] *vəfat elədiyini xəbər verir".*[3] "Açıq söz"ün o sayında Bakı "rus-müsəlman" məktəblərinin müəllimləri ayrıca başsağlığı veriblər.[4] Həmin qəzetdə ailənin verdiyi başsağlığı isə bu məzmundadır:

"Balaxanım,[5] *Mina xanım və Əmir bəy Aslanovlar əvvəlincisinin əri və ikincilərin atası, 4-ncü russko-tatarski şkolanın müəllimi Zəkəriyyə bəy Aslanovun fücətən vəfat etdiyini kəmali-yas və təhəssürlə öz dost və əqrəbalarına elam ediyorlar. Mərhumun təşyii-cənazəsi*[6] *Balşoy Çəmbərəkəndski*[7] *və Krasnokrestoviski*[8] *küçələrin köşəsində Lyuteranski pereulok (dalan)da 5 nömrəli evindən fevralın 5-də saat 10-da olacaqdır".*[9]

Bu ailə üzvləri "Kaspi" qəzetində də təxminən eyni məzmunlu nekroloq veriblər.[10] "Kaspi"nin həmin sayında yaxın qohumları Behbud bəy Məlikyeqanov, Rəhim

[1] Kişi.
[2] Qəflətən.
[3] *Açıq söz"*, 25 rəbiül-axir 1335-ci il (5 fevral 1917-ci il), №395.
[4] Yenə orada.
[5] T.b.Aslanovun doğum şəhadətnaməsində onun adı *"Ballı xanım Şeyxəsən qızı"* kimi verilib. Görünür, ailədə ona *"Balaxanım"* deyilib.
[6] Cənazəsini yolasalma.
[7] İndiki Lermontov.
[8] İndiki Şeyx Şamil.
[9] *"Açıq söz"*, 25 rəbiül-axir 1335-ci il (5 fevral 1917-ci il), №395.
[10] *«Kaspi»*, 5.II.1917, № 29.



Zəkəriyyə bəy Aslanov *(öndəki masanın solunda)* Bakı-Dağıstan xalq məktəbləri II rayon müəllimlərinin qurultayında. Bakı, 1913

bəy Cahangirbəyov, Məhəmməd bəy Məlikaslanov və Mustafa ağa Cavanşir, Əbdüləli bəy, Nigar xanım, Sürəyya xanım və Əziz xanım Vəlibəyovlar, Süleyman [Sani] bəy Axundov da Zəkəriyyə bəy Aslanovun vəfatı ilə bağlı başsağlığı veriblər.[1]

Zəkəriyyə bəy müəllimlər müəllimi Firidun bəy Köçərlinin (1863-1920) ən yaxın dostlarından olub. Firidun bəy onun ailəsinə məktub yazaraq bu sözlərlə təsəlli verib:

"Əzizeyi-möhtərəmələrim Balaxanım və Mina xanım, nuri-eynim[2] *Əmir bəy Aslanovlar! Əziz qardaşım və məktəb yoldaşım Zəkəriyyə bəyin vəfatı xəbərini eşidib ziyadə qəmgin oldum. Zəkəriyyə bəy Sizə sahib və ata isə də bana da mənəvi qardaş idi. Ömrümün ən gözəl çağını və tatlı vəqtlərini onunla keçirmişəm. Yoldaşlıqda xeyli vəfalı və dəyanətli bir vücud olduğundan, cümləmizin əzizi idi. Millətpərəstlikdə və dindarlıqda misli yox idi. Belə bir sədaqətli dostun əldən getməsi nə dərəcədə ağır və təsirli olduğunu yazmaqdan acizəm. Xudayi-mütəal təqsiratından keçsin və Sizə səbri-səml əta eləsin. Çox təəssüf edirəm ki, Sizinlə bir yerdə deyiləm ki, qəminizə şərik olum.*

Sizi ürəkdən istəyən Firidun Köçərli. Qori, 9.02.[1917]".[3]

Zəkəriyyə bəy Aslanovun məzar daşı üzərində yaxın dostu Abdulla Şaiqin (1881-1959) yazdığı bu bir bəndlik şeir həkk edilib:

"Cismin gömüldü qəbrə, ruhun uçar səmada.
Şəfəqlərə qarışdı o, aləmi-ziyada.

[1] *«Kaspi»*, 5.II.1917, № 29.
[2] Gözümün işığı.
[3] Əlyazmanın surəti özəl arxivimizdədir.



Teymur bəy Aslanov. Berlin, 1921

Çox çalışdın, yoruldun, çəkdin min dürlü zillət,
Uyu, zəhmət mələyi, et indi istirahət".

* * *

Zəkəriyyə bəy Aslanovla görkəmli müəllim Səfərəli bəy Vəlibəyovun (1856-1902) bacısı Ballı xanım Vəlibəyovanın (1872-?) qurduğu ailədə *Əmir bəy, Teymur bəy, Nadir bəy* adlı oğullar, *Sona xanım* və *Mina xanım* adli qızlar dünyaya gəliblər. Onlar sonralar xalqımızın dəyərli ziyalıları oldular. Ancaq bu yazımızın qəhrəmanı onlardan ikincisi – Cümhuriyyət tələbəsi Teymur bəy Aslanovdur.

* * *

1645 saylı doğum şəhadətnaməsində oxuyuruq:

"Bu, Zaqafqaziya Şiə Ruhani İdarəsindən ona görə verilib ki, Gəncə valiliyi Şuşa şəhərinin "Dəmirçilər" şiə cameəsinin 1899-cu ilə aid doğum kitabının I hissəsindən göründüyü kimi, Şuşa şəhərinin sakini, 40 yaşlı Zəkəriyyə bəy Aslanovun öz qanuni arvadı, 31 yaşlı Ballı Şeyxəsən qızından xristian tarixiylə 5 yanvar 1899-cu ildə oğlu Teymur bəy doğulub və şuşalılar Muxtar Mehdiqulu oğlu və İsmayıl Abbas oğlunun şahidlik etdikləri bu doğumu həmin ilin doğum kitabında "Dəmirçilər" cameəsinin mollası Molla Mirzə Cavad Qayıbzadə 1-ci nömrə altında qeyd edib...

3 iyul 1903-cü il, Tiflis ş."[1]

Böyük Türk cahangiri Əmir Teymuru (1370-1405) çox sevən Zəkəriyyə bəy ilk oğlunun adını "Əmir", ikincininkini isə "Teymur" qoymuşdu. Bunu yaxşı bilən görkəmli yazıçı Süleyman Sani Axundov da Ağdamdan əzizi Mina xanım Aslanovaya 1 noyabr 1932-ci ildə yazdığı rusca məktubda onların durumu ilə maraqlanıb, o sıradan "Əmir Teymur"un da necə olduğunu soruşub.[2] Təbii ki, Zəkəriyyə bəy övladlarının da Böyük Teymura bənzəməsini ürəkdən arzulayırdı. Buna görə də onlara ilk növbədə düzgün tərbiyə və yüksək savad verməyi özünün atalıq borcu sayırdı. Onun səyləri boşuna getmədi...

Zəkəriyyə bəyin özü hələ Şuşada olarkən Teymuru oxumaq üçün Bakıya göndərmişdi.

Gəncə valiliyi Şuşa şəhəri sakininin oğlu, müsəlman, 5 yanvar 1899-cu ildə Şuşa şəhərində doğulmuş Teymur bəy Zəkəriyyə bəy oğlu Aslanova 24 may 1919-cu ildə verilmiş attestatda göstərilib ki, o, 1 sentyabr 1909-cu ildə Bakı II kişi gimnaziyasına girərək orada əla davranışla 24 may 1919-cu ilədək oxuyub və 8 siniflik tam kursu bitirib, bu vaxt aşağıdakı bilikləri əldə edib:

Şəriət –	əla (5)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	yaxşı (4)

[1] ARDA, fond 51, siyahı 3, iş 43, vərəq 4.
[2] Məktubun surəti özəl arxivimizdədir.

Fəlsəfi propedevtika –	yaxşı (4)
Latın dili –	yaxşı (4)
Qanunşünaslıq –	əla (5)
Riyaziyyat –	yaxşı (4)
Riyazi coğrafiya –	kafi (3)
Fizika –	kafi (3)
Tarix (ümumi) –	kafi (3)
Coğrafiya –	əla (5)
Fransız dili –	yaxşı (4)
Alman dili –	yaxşı (4)
Türk tarixi –	yaxşı (4)
Türk dili –	əla (5).[1]

10 may 1917-ci ildə Bakı şəhərində Qafqaz müsəlman şagirdlərinin I qurultayı keçirilib. Xatirə fotolarında qurultay iştirakçıları arasında Teymur Aslanovu da görürük. Deməli, o, məktəbin fəal şagirdlərindən olub.

Teymurun hələ 18 yaşı var, ancaq artıq xalq faydasına olan ictimai işlərdə fəallığı ilə seçilir. 1917-ci ilin oktyabrında "Kaspi" qəzetində redaktora ünvanladığı yazı əslində bunun təsdiqidir:

"Vətəndaş redaktor! Qaçqınlara yardım edən müsəlman şagirdlərin bir qrupu adından redaksiya heyətindən xahiş edirəm ki, hörmətli "Xəbərlər"[3] vasitəsiylə bizim dərin minnətdarlığımızı qaçqın kürd qadınlarının xeyrinə ianə verdiklərinə görə vət. Bəşir b. Aşurbəyova (100 man.), S.b.Hacınskiyə və Əhməd bəy Bədəlbəyova (hərəsi 10 man.), eləcə də həm pulla, həm də şəxsi əməyi ilə yaxından iştirak etmiş və yardım göstərmiş bütün şəxslərə çatdırasınız.

Şagird] T.Aslanov".[3]

Onun hələ şagird olarkən necə fəallıq göstərdiyini "Kaspi" qəzetindən öyrənirik. Bu qəzetdə oxuyuruq ki, Şuşa real məktəbinin müsəlman şagirdləri, axır ki, məktəbin direktoru, yaramaz fəaliyyəti haqqında vaxtı-vaxtında "Şagird deputatları şurasının xəbərçisi"ndə[4] az yazılar verilməyən A.S.İvanovun zülmündən qurtuldular. Bu üzdəniraq müəllimin antimilli fəaliyyəti nəticəsində çoxlu şagird, özəlliklə müsəlmanlar doğma şəhəri tərk etməyə və başqa şəhərlərdə cəlayi-vətən olmağa, yaxud təhsili davam etdirmək fikrindən tamamilə əl çəkməyə məcbur olmuşdular. Şuşalı şagirdlər hətta Qafqaz Tədris Dairəsi hamisinin məktublarında da öz əksini tapmış milli bayramların keçirilməsi məsələsində nə qədər acılar çəkmişdilər.

Şuşalı yoldaşların Ümumqafqaz Müsəlman Şagirdlərinin Birinci Qurultayında məruzələrindən aydın olub ki, vət. İvanov 1911-ci ildə məktəbdən 48 müsəlman şagirdi qovub. İnqilabın başlamasıyla bir çox şagirdlər düşündülər ki, artıq vət. İvanovun zülmlərinə son qoyulacaq, ancaq o, Şuşa şəhərinin bəzi nüfuzlu və zəngin adamlarını öz tərəfinə çəkərək o zaman hadisələrin gedişi ilə ayaqlaşmağa çalışdı. Ancaq ətalətlə yenə öz gizli işini davam etdirirdi...

[1] ARDA, fond 51, siyahı 3, iş 43, vərəq 2-2a.
[2] *"Kaspi"* qəzetində 1917-ci ildən başlayaraq ayrıca bütöv bir səhifədə "Bakı Müsəlman İctimai Təşkilatları Komitəsinin xəbərləri" dərc edilirdi.
[3] *«Каспій»*, 5(18).X.1917, *№* 222.
[4] Ruscası: *«Вестник Совета Ученических Депутатов»*.



Teymur bəy tələbə yoldaşı ilə. Almaniya

I Ümumqafqaz Müsəlman Şagirdləri Qurultayı Zaqafqaziya Komissarlığının sədri c-b Xarlamova öz yüksək təyinatına az uyğun gələn bu cənabın direktor vəzifəsindən götürülməsi xahişi ilə teleqram göndərsə də ancaq, təəssüf ki, Qafqaz müsəlman uşaqlarının bu xahişi də müsəlmanların bütün xahişləri kimi uzaq səhrada gurlayan səsə bənzədi, qulaqardına vuruldu. Yalnız indi Şuşa İcraiyyə Komitəsinin qərarı əsasında şuşalı yoldaşlar vət. İvanovun zülmündən xilas olublar...[1]

"Şagird Teymur Aslanov" "Kaspi" qəzetində rus məktəblərində müəllimlərin müsəlman şagirdlərlə həddən artıq kobud rəftar etdiklərini cəsarətlə açıb göstərir:

"Müsəlman şagirdlərə münasibətdə həddsiz nifrəti ilə seçilən vət. Belski onların yeni qəbul olunanlarının sayını məhdudlaşdırmaq üçün hər cür vasitələrə əl atır. Çoxlu xahiş və etirazlara vət. Belski bu kobud və mənasız kinayəli hücumdan başqa bir cavab tapmır: "Ey sən, Türk! Yaxşısı budur, səni nə qədər qovalamamışam, səsini kəs"... Maarif məbədinin başında dayanan şəxs öz vəzifəsini bu cürmü anlamalıdır?".[2]

"Kaspi"qəzeti başqa bir sayında yazır ki, bu ilin 13 oktyabrında "Bakı şəhəri və onun rayonlarının müsəlman şagirdləri ittifaqı" üzvlərinin bu məsələlərə baxmaqdan ötrü ümumi yığıncağı oldu: İdarə Heyəti və təftiş komissiyasının məruzəsi, nizamnamə maddələrinin dəyişdirilməsi və cari məsələlər. İclası Ə.Əliyev açır. Katib İdarə Heyəti adından məruzəçi kimi çıxış etmiş V.Məmmədovdur, sonra təftiş komissiyası adından T[eymur] Aslanov məruzə etdi. Bundan sonra İdarə Heyəti ona ümumi yığıncağın inamsızlığı üzündən istefa verdi...

Növbəti ümumi yığıncaq bu ilin 15 oktyabrına təyin edildi.

Bu yığıncaqda M.S.Quluzadə sədrlik etdi...

"Bakı şəhəri və onun rayonlarının müsəlman şagirdləri ittifaqı"ndan şagird deputatları şurasına nümayəndə kimi T.Aslanov seçildi.[3]

* * *

Orta təhsilini başa vuraraq ali məktəbə girmək istəyən Teymur bəyin bəxti gətirdi – həmin il Azərbaycan Cümhuriyyəti hökuməti əcnəbi dövlətlərə 100 təqaüdçü-tələbə göndərmək haqqında qərar qəbul etdi. Hökumət istəyirdi ki, həmin təqaüdçülər 1919-cu ilin 1 sentyabrında artıq tələbə kimi ali məktəb auditoriyalarında əyləşsinlər (ancaq yenicə sonqimiş dünya müharibəsindən sonra davam etməkdə olan siyasi proseslər tələbələrin göndərilməsi işinə yetərincə əngəl törətdi və onların ilk dəstəsi Bakıdan ancaq 1920-ci

[1] *«Каспий»*, 19.IX(1.X).1917 г., №234.
[2] Yenə orada.
[3] Ученик Теймур Асланов. Кое о чем. (Голос ученика). // *«Каспий»*, 21.IX(4.X).1917 г., № 238.

ilin 14 yanvarında çıxa bildi), buna görə də avqust ayında ərizələri toplayıb seçim etməyə başladılar. Ərizəçilərdən biri də Bakıda Zabit dəngəsi №6-da yaşayan, Bakı II kişi gimnaziyasını bitirmiş Teymur bəy Aslanovdu. O, 5 avqust 1919-cu ildə xalq maarif nazirindən xahiş edirdi ki, məni hökumət hesabına xaricə göndərilən müsəlman tələbələrin siyahısına salasınız; təhsilimi Fransada – Parisdə "Siyasi Elmlərin Azad Məktəbində" almaq istəyirəm.[1]

Dövlət təqaüdçüləri sırasına daxil edilməyin mühüm şərtlərindən biri də abituriyentin maddi baxımdan imkansızlığı idi və bu, rəsmi arayışla təsdiq edilməli idi.

Azərbaycan Cümhuriyyəti Xalq Maarif Nəzarəti Bakı şəhəri və onun rayonunun xalq məktəbləri müfəttişi M.Mahmudbəyov Bakı IV rus-türk məktəbinin mərhum müəllimi Zəkəriyyə bəy Aslanovun oğlu Teymur bəy Aslanova 5 avqust 1919-cu ildə 513 saylı belə bir vəsiqə verdi ki, onun atası Zəkəriyyə bəy Aslanov 30 ildən artıq xalq məktəblərinin müəllimi olub, ölümündən sonra (1917-ci ilin yanvarında rəhmətə gedib) mərhum yaşamaq üçün ailəyə heç bir pul-para qoymayıb və onun ailəsi Petroqradla münasibətlər kəsildiyinə görə xalq müəllimləri üçün təqaüd kassasından ona verilməli təqaüdü ala bilməyib.[2]

Bundan sonra T.b.Aslanov nəinki dövlət təqaüdçüləri sırasına salınıb, hətta o, tələbələrin seçilməsi və yerləşdirilməsi işinə də yaxından cəlb edilib. Əlimizdəki bir sənədə görə, 7 noyabr 1919-cu il cümə günü hökumətin Qərbi Avropa və Rusiyaya göndərdiyi tələbə və abituriyentlərin ümumi yığıncağı olub, Məhəmmədəmin Rəsulzadənin başçılıq etdiyi komissiyaya yardım məqsədiylə 5 nəfərdən ibarət Müvəqqəti Büro seçilib. Büroya bu şəxslər daxil olub: Mustafa Vəkilov, Ağalar İsgəndərli, Baxış Sultanov, Umbay Əmirov və Əliəkbər Əliyev.[3] Ancaq 7 noyabrda Büronun sədri müəyyənləşməyib, buna baxmayaraq, sonrakı sənəd və məlumatlarda 5 üzvün içində olmayan Teymur Aslanovun sədrlik etdiyini görürük. Onun nə vaxtdan seçildiyi bəlli olmur. Noyabrın ortalarında o, tələbələrin gediş sənədlərini qaydaya salmaq, gərəkli icazələri almaq üçün Şahtaxtinski ilə birgə Tiflis və Batuma yola düşüb.[4]

O, 22 dekabr 1919-cu il axşam saat 5:30-da keçirilən tələbələrin ümumi yığıncağında Tiflis və Batumda görülmüş işlər haqqında məruzə edib. Həmin məruzənin bəzi yerləri ilə tanış olaq:

– Qısa müddət içərisində çox böyük işlər görülüb. Bakıda pasportlar hazırlanıb, fransızcaya tərcümə edilib. Parça alınıb, əcnəbi səfirliklərin adına kağızlar yazılıb.

Tiflisə getdikdən sonra İsveçrə nümayəndəsindən cavab olub-olmadığını soruşdum. Əvvəla cavab olmadığını söylədi. Burada qəbahətin böyüyü başda olanlarımızdadır, çünki Xariciyyə Nəzarətimiz bu xüsusda əcnəbi səfirliklərə bir parça kağız belə yazmayıb. Nəticədə İsveçrədən cavab alınmayacağını bildim. Sonra Fransa nümayəndəsinə müraciət etdim, halı anlatdım. O, məni gülər üzlə qəbul edərək dəftərxanasına əmr verdi və az zamanda kağızlarımızı hazırlatdırdı.

Sonra İtaliya nümayəndəsinə müraciət etdim. O da Tiflisdəki İtaliya konsuluna bizim xahişlərimizin yerinə yetirilməsini tapşırıb. İki saat içində pasportlar hazırlanıb, sonra hərbi nümayəndə öz razılığını verib. Bundan başqa, Uordropa[5]

[1] ARDA, fond 51, siyahı 3, iş 43, vərəq 1.
[2] Yenə orada, vərəq 5.
[3] Yenə orada, fond 895, siyahı 1, iş 174, vərəq 1.
[4] *Həsənli A.* Народное образование в Азербайджанской Республике (1918-1920 гг.), s. 178; *"Азербайджан"*, 21.XI.1919.
[5] *Con Oliver Uordrop* – Cənubi Qafqazda Britaniya missiyasının yüksək komissarı.



Xeyransa (Bacı) Aslanova-Vəzirova (Süleyman bəy Vəzirovun bacısı, Teymur bəyin yoldaşı). 6 mart 1932-ci il

müraciət etdimsə də özü qəbul etmədi, katibi qəbul etdi. O, ingilis əks-kəşfiyyat idarəsinə müraciət edilməsini söylədisə də mənim xahişimlə özü telefonla danışdı və buna görə də mister Havuz məni qəbul etdi.

Fransa İtaliyadan icazə alıb. Rəsmən hər pasportdan on frank alınırdı, ancaq tələbə olduğumuz üçün bizdən vizaya adama iki frank alacaqlarını vəd etdilər. Mister Havuzun razılığı olduğunda Batum general-qubernatoru bizə izn verəcəkdir. Mister Havuz bizi Türkiyəyə buraxa bilməyəcəyini söylədi. Ancaq bizim işimizi lap çətinləşdirən Brenştaynın[1] adının bizim siyahıda olması idi, çünki Brenştaynın getdiyini gördükdə Havuzun halı aşkar surətdə dəyişdi və buna görə bizim işlərimizi Batum general-qubernatoruna buraxacağını söylədi, halbuki bu, büstübün rədd cavabı demək idi. Buna görə siyahıları geri aldım, oradan Brenştaynın adını sildim. Sonra Fransa, İngiltərə, İtaliyaya gedilməsinə bir əngəl olmadığını söylədi və razılıq yazdı.

Bunlardan sonra Almaniyaya, İsveçrəyə gedənlər üçün təkrar İsveçrə nümayəndəsinin yanına getdim. Bu dəfə cavab alınmayacağını və səbəbin bundan ibarət olduğunu söylədi ki, məlumatınız açıq olmadığına və onlar arasında bəzi şəxslər bulunduğuna görə onları ərazimizə buraxa bilmərik. Bir çox müzakirələrdən sonra İsveçrə nümayəndəsi müsyö Meyyer "İtaliya səfirliyi tranzitə razı olsa mən də razı olaram" dedi. Buna görə Qabbaya[2] müraciət etdim, çox gözəl qəbul etdi və razı oldu. Tələbələrin Almaniyaya göndərilməməsini nazirə[3] söyləməyimi xahiş etdi. Nazirlə telefonla danışdım, nazir də yerdə qalanların Fransaya, İtaliyaya, İngiltərəyə getmələrini söylədi.

Bütün yuxarıda ərz etdiklərimə görə Almaniyaya gedəsilər, mənim fikrimcə, Fransa, İngiltərə, İtaliyaya gedənlər arasına yazılmalıdır. İngiltərəyə gedənlər üçün Fransadan tranzit haqqı alınıb.[4]

Teymur bəy 16 noyabr 1918-ci ildə Maarif Nəzarətinin qeydə aldığı tarixsiz ərizəsində yazır ki, təhsilimi tamamlamaq üçün Parisdə Sorbon Universitetinin filologiya fakültəsində oxumaq istəyirəm.[5]

13 yanvar 1920-ci ildə Teymur bəy Aslanova verilmiş 508 saylı vəsiqədə onun dövlət hesabına xaricə oxumağa göndərildiyi təsdiqlənir.[6]

***

18 yanvar 1920-ci ildə maarif nazirinin ünvanına Teymur Aslanovdan teleqram gəlib ki, ümumi heyətlə gedən 18 tələbəni saxlayıblar, biletləri olmadığına görə onları Batuma buraxmırlar.[7] Bakıdan çıxan tələbələrin Tiflisdən İstanbuladək keçdiyi yolun macəraları haqqında ən dəqiq məlumatı tələbələrin seçdiyi "rəhbər" Teymur Aslanovun maarif naziri əvəzi N.b.Şahsuvarova göndərdiyi məktubdan öyrənirik.[8]

"Türkcə "Azərbaycan" qəzeti 1 fevral 1920-ci il sayında yazır:

[1] Onun kimliyi bilinmir.
[2] Polkovnik *Melxior Qabba* – Cənubi Qafqazda İtaliyanın ozamankı hərbi missiyasının başçısı.
[3] Azərbaycanın maarif nazirinə.
[4] ARDA, fond 895, siyahı 1, iş 180, vv. 1-6.
[5] Yenə orada, fond 51, siyahı 3, iş 43, vərəq 6.
[6] Yenə orada, vərəq 9.
[7] Yenə orada, vərəq 12.
[8] Yenə orada, vv.27-28a.



Nadir bəy Aslanov



Nigar xanım Vəlibəyova



Mina xanım Aslanova-Qurbanova



Tofiq Qurbanov (Mina xanımın oğlu)

"İkmali-təhsil üçün dövlət xərciylə Avropaya göndərilmiş olan azərbaycanlı tələbələr Batumdan Məclisi-Məbusan rəisi namına böylə bir teleqraf çəkmişlərdir: "Sevgili, doğma Qafqasya cədvəlini[1] tərk edərkən xalq nümayəndələrinə salam göndəriyorlar. Tələbələr biliyorlar ki, onları göndərməklə Məclisi-Məbusan əzası[2] heç bir məsarifi müzayiqə etməyərək[3] tarixi bir addım atıyorlar. Tələbələr də söz veriyorlar ki, onlara bağlanan umudların puç olmadığını var qüvvələriylə isbat etsinlər.

Teymur Aslanov".[4]

Qərbi və Mərkəzi Avropada dövlət hesabına təhsil alan Azərbaycan tələbələrinin nümayəndəsi Abdin Mirqasımzadənin 11 avqust 1920-ci ildə Azərbaycan Şura Sosialist Cümhuriyyəti xalq maarif komissarı Bünyadzadəyə məruzəsində qeyd olub ki, "tələbə yoldaşlarımızdan Teymur Aslanov adında birisi iki aya qədər appendisitdən xəstə yatараq kəndisinə əməliyyati-cərrahiyyə yapılmış ki, 5.000 franka qədər kəndisinə sərf olunmuş və şimdi büsbütün iyiləşmişdir".[5]

Teymur bəy 1920-21-ci illərdə Parisdə oxuyub. Araşdırıcı-jurnalist Vasif Quluyev "Vağzalda həbs" adlı dəyərli məqaləsində yazır ki, Teymur bəyi Parisdə *"yaxın qohumu Ceyhun bəyin özü qarşıladı. Onun bir çox problemlərini dərhal həll etdi, yaşamaq və oxumaq üçün mümkün olan şərait yaratdı. Teymur bəy institutut məşğələlərindən sonra vaxtını, demək olar ki, Ceyhun bəy və Əlimərdan bəylə keçirirdi. O, Əlimərdan bəyin oğlu Əliəkbər bəylə birlikdə oxuduğuna görə tez-tez dostugilə gedir, bu iki böyük siyasi xadimlərin söhbətlərini dinləyir, siyasi əqidəsi get-gedə formalaşırdı…".*[6]

Təəssüf ki, Teymur bəyin Parisdə təhsil aldığı dönəmlə bağlı əlimizdə bəlgələr azdır.

Azərbaycan kommunist partiyasının tələbələrin taleyinə təsir göstərmiş yığıncaqlarından biri 5 aprel 1924-cü ildə olub. AK(b)P MK rəyasət heyətinin (RH) bu tarixdə keçirilən iclasında RH üzvləri, RH namizədləri, MK üzvləri iştirak ediblər. İclasın 13-cü məsələsi "Xarici ali məktəblərdəki tələbələr haqqında"dır. Sonda RH 8 maddəlik bir qərar qəbul edib. Onlardan 3-cüsündə T.b.Aslanov da "xatırlanıb":

"C) Zaqafqaziya Diyar Komitəsinin (Qoqoberidze) özəl komissiyasının bizim tələbələr siyahısına daxil etdiyi və xarici ali məktəblərdə oxuyan Musayev Xəlili (2-ci il,

[1] Burada: sınırlarını, sərhədlərini.
[2] Üzvləri.
[3] Xərcdən çəkinməyərək.
[4] Azərbaycan istiqlalının təsdiqi ətrafında. Tələbələrin teleqrafı. // *"Azərbaycan"* qəzeti, 1 şubat (fevral) 1920, № 20, s. 2.
[5] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 59-60.
[6] *Quluyev V.* Vağzalda həbs. // *"Azərbaycan"*, 4 may 2004, №103.



Bakı qız rus-türk məktəbində. Müəllimlər *(soldan):* Mina Aslanova, Sara Vəzirova *(məktəbin müdiri)*, Nigar Vəlibəyova *(Əmir bəy Aslanovun yoldaşı)*. 1910-cu illər

Münxen, rəssamlıq), Səfərov Şamili (Koblenz, keramika) təsdiqləməli, Aslanov Teymuru (toxuculuq, Almaniya) tələbələr siyahısından çıxarmağı ZDK-dan[1] *xahiş etməli".*[2]

***

Teymur bəy Aslanov 1921-ci ildən oxumağa Almaniyaya gəlib. O, *Kotbus (Cottbus) şəhərində Prussiya Ali Toxuculuq Məktəbinə (almanca: "Preußische Höhere Fachschule für Textilindustrie")* girərək toxuculuq peşəsinə yiyələnib.

Bu məktəbdə oxuyarkən Parisdə yaşayan yaxın qohumu Ceyhun bəy Hacıbəyli (1891-1962) ilə yazışıb. Görkəmli diplomat Ramiz Abutalıbovun qeyrəti sayəsində indi Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində saxlanılmaqda olan həmin məktublardan Cümhuriyyət tələbəsinin həm özünün maddi və ruhi durumu, dərslərinə münasibəti, həm də Ceyhun bəylə ərkyana davranışı haqqında təsəvvür əldə edə bilirik. Beşi də rusca olan həmin məktubları ilk dəfə ana dilimizə çevirərək oxuculara təqdim edirik.

Üstündə tarix qoyulmamış, ancaq məzmunundan 1921-ci ildə yazıldığı anlaşılan bu ilk məktubda oxuyuruq:

"Çox hörmətli Ceyhun bəy!

Srağagün Berlində idim; yeni ünvan göstərilmiş məktubunuzu aldım. Artıq 3 həftədir ki, Cottbus'da toxuculuq məktəbinə qəbul olunmuşam. 8-in yarısından saat 3-dək məşğələlərdə oluram (nəzəriyyə və təcrübə). Elə məktəbin özündə hər yanda məşhur olan fabrik var. İlk günlər işimi çətinliklə yerinə yetirirdim, ancaq tədricən alışıram. İndi çətinlik çəkmədən 7-nin yarısında qalxıram, halbuki qabaqlar mənim üçün mümkün olmayan bir şey idi. Yalnız fabriklərin yerləşdiyi Cottbus şəhəri Berlindən 3 saatlıq yoldadır. İlk vaxtlar otağım yox idi. İndi yerləşmişəm və Berlində olmuşam. Çox güman ki, mənə maddi yardım göstərəcəklər. Kurslarım 2 illikdir. Hər cür çalışıram ki, tezliklə qurtarım və müəyyən ixtisas qazanım; ixtisası hər yerdə dəyişmək olar.

[1] Zaqafqaziya Diyar Komitəsi.
[2] ARPİİSA, fond 1, siyahı 74, iş 136, vv. 1, 3, 17.

Berlində Akif ağa ilə görüşdüm. Yazıq bu müddətdə 5 otaq dəyişib. İndi dincəlir. Minnətdarlıq əlaməti olaraq o, mənə əla bir qalstuk bağışlayıb... Çox kasıb yaşayır.

Qasım ağa çəkmələrinə qulluq edir. Onun üçün ən vacib məsələ budur ki, onlar parıldayır, ya yox.

Berlində mühacirlər arasında sovet əlaltıları güclü iş aparır... Özü ilə Bakı qəzetləri gətirib. Bu gün sizə 5 nömrə göndərirəm, başqalarını da tədricən göndərəcəyəm – itirməkdən qorxuram.

And içirəm! Məndə sizi, yaxud özümü kədərləndirə biləcək heç bir məlumat yoxdur. Sizə bəlli olduğu kimi, [Məhəmmədhəsən] Hacınski hələ də Visbadendədir. Xudadat [bəy Məlikaslanov] bugünlərdə Berlinə gəlməli idi və bəlkə də gəlib. İsmayılın işləri xarabdır. Bunu mən qıraqdan öyrəndim. Sizin bir tapşırığınız, yaxud nəsə varsa yazın və mən Berlinə gedim, nə lazımdırsa edim.

Hələlik, salamat qalın və ruhdan çox düşməyin. Zorya bacıya[1] *salamlar; Ceyçiki*[2] *və sevimlim Timuçini öpürəm. Vaxtınız olanda arada yazın.*

Bütünlüklə Sizin Teymur.

Cottbus, Vionville st. 2, H/Braun".[3]

Aşağıda verdiyimiz məktub yazılarkən Teymur bəyin maddi durumu çox acınacaqlı idi...

"19.05.[19]24.

Çox hörmətli Ceyhun bəy! Uzun müddət susduğuma görə bağışlayın. Hər bir məktubda bəzən hətta istəsən də, istəməsən də daxili həyəcanlarını bildirməli olursan. Onların hamısını üzə çıxarmaq, başqalarının böyük həyəcanları kimi göstərib qan qaraltmaq, necə olmasa, yaxşı deyil... Şübhəsiz, Siz bizim bədbəxt tələbələrin işlərindən xəbərdarsınız. Təzə xəbər kimi təqaüdçülər siyahısından çıxarıldığımı bildirirəm. Xüsusi komissiyanın iclasında bir üzv mənə eyham vurdu ki, sən mürtəce dairələrlə ortaqsan və hər şey haqqında vaxtlı-vaxtında və incəliklə İstanbula məlumat ötürürsən. İndi mənim qarşımda seçənək var və boynuma alıram ki, təklikdə bunu həll etməyi bacarmayacağam: mən indi vətənə gedə bilərəmmi? Getməli olmasam onda necə olsun və hara gedim? Ya Parisdən, ya da İstanbuldan birini seçməliyəm. Bu məsələni həll etməkdə öz məsləhətinizlə mənə yardım göstərməkdən imtina etməyin. Nəzərə alın ki, bu şəhərlərdən birində tezliklə təqaüd, yaxud iş tapmağa umud bəsləmək olar ki, yalnız yaşamağı təmin etmək, sistem seçimini etmədən ümumi işə faydalı olmaq mümkün olsun. Çox təəssüf edirəm ki, bu iş başıma indi gəlib. Aydan artıqdır ki, mən fabrikation kurslarına gedirəm. Sentyabr ayında imtahanlarımızdır. Bu kursları bitirdikdə mənim bu sahədə biliklərim daha çox olardı və özümə burada qulluq tapa bilərdim.


Bu, çətin olsa da mümkün qədər tezliklə fikir və məsləhətinizi mənə çatdırmaqdan imtina etməyin. Bizim ümumi üfüqlərimizdə nəsə yeni bir şey peyda olarsa mənə də bildirin. Mənə may ayı üçün pul verilib. Hər şeyi və Sizin məsləhətinizi götür-qoy edərək təcili şəkildə hər hansı bir qərar qəbul edəcəyəm ki, buradan çıxıb gedim.

Zorya bacıya salamlar. Uşaqları öpürəm. Sizin cavabınızın intizarındayam.

Sizə hörmət edən Teymur.

Vionville st.2. Cottbus".[4]

[1] Ceyhun bəyin yoldaşı Zöhrə xanıma dost-tanışları belə deyirdi.
[2] Ceyhun bəyin oğlu Ceyhunu (1919-1941) əzizləyərək belə çağırırdılar.
[3] S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 3, iş 8, vv. 2-2a.
[4] Yenə orada, vv. 1-1a.



Əmir bəy Aslanov – Respublika klinik xəstəxanasının (indiki Fuad Əfəndiyev adına 4 saylı xəstəxana) direktoru

Bu tarixsiz məktubun isə bundan qabaqkı məktubdan sonra yazıldığını düşünürük.

"Çox hörmətli Ceyhun bəy!

Məktubunuzu aldım. Çox sağ olun. Cavabı gecikdirdim, çünki məktubunuza cavab vermək üçün bəzi məlumatları toplamaq lazım gəlirdi. Bigeyevin[1] kitabı ilə bağlı mən Berlinə məktub yazdım və pul göndərdim ki, alıb Parisə getməyə hazırlaşan Ağa Qasımov[2] vasitəsilə göndərsinlər. Bu işi görməyi xahiş etdiyim həmkarım kitabı A.Qasımovla birgə hər yanda axtarıb, ancaq tapmayıb. Ayaz əfəndi bu kitabı tapmağa söz verdi. O, öz vədini yerinə yetirincə kitab sizə göndəriləcək.

Şərq xalçalarının sərhəddən keçirilməsinə, rüsumların miqdarına və onların yerli bazarda qiymətlərinə gəlincə, yerli gömrük məmurları mənə məsləhət gördülər ki, bunlarla bağlı onlara ətraflı bilgi verilsin: rüsumlar və qiymətlər bu xalçaların İranınmı, Türkmü, Türküstanmı xalçası olmasından, ölçüsündən, rənglərindən və b. asılıdır. Məncə, onları burada satmaq çətin olmayacaq.

Bizim camaat qabaqkı kimi yaşayır. Bəzən Berlində olaraq hamıyla görüşürəm. Polkovnik, deyildiyinə görə, alman markasının son qiymətdən düşməsi vaxtı yaxşı pullar qazanıb. İsmayıl belə bahalığa baxmayaraq yenə keçmişdəki kimi pansiondadır. Bu pansionda hərədən gündə 2 dollar alırlar. Pulu olmasaydı o, buna gedə bilməzdi. Şəraiti pis olsaydı və onların təzyiqi altında o, ona 100% ucuz başa gələn başqa yaşayış tərzi seçərdi.

Yalnız Sizin maddi durumunuzu nəzərə alaraq son məktubumda kiçik bir işarə etməyə cürətləndim ki, Berlində tapşırığınız olsa yazın, mən gedim və hər şeyi edim. Qıraqdan öyrəndim ki, Sizin İsmayılla nəsə bir haqq-hesabınız var, ancaq Siz bu haqda heç nə yazmamağı gərəkli bildiniz...

Əkbər ağa[3] Berlində oturmaqdadır, doğrusu, onu başa düşmürəm. Sizə bəlli olduğu kimi, indi həyat burada Fransada olduğundan bahadır. Məktəb məsələsi olmasaydı mən bir dəqiqə də burda oturmazdım. Fəhlə kimi, nə qədər qənaətcil olsam da bu balaca şəhərcikdə gündə 1 dollar xərcləyirəm. Berlində isə xərclər burada olduğundan da yüksəkdir. Bəzi bilgilərə əsasən bu fikrə gəlirəm ki, o, Bakıya getmək istəyir, burada ondan ötrü əsas hazırlayır...

Hədsiz şadam ki, Siz bura gəlmədiniz. Görünən budur ki, biz bugünkü gün, Siz isə sabah haqqında düşünürsünüz. Biz əcnəbilərin şəraiti dözülməzdir; bir parça sabun 5 franka, bir nahar (şorba, soyutma kartofla ətli yemək) 7,5 franka başa gəlir və s. Mənim otağım 100 frankadır. Paltar yudurmağa həftədə 18 frank gedir və s. Ancaq başqa tərəfdən, qızıl valyutası kütlələrin ağlında yerləşib. Bahalığa görə iğtişaşlar və b., barmaqla sayılacaq qədər əcnəbilərə kin yoxdur. Şərait imkan versə proqram üzrə tələb edilən təcrübə üçün Elzas-Lotaringiyaya düşməyə çalışacağam və görüşəcəyimizə umudluyam.

Mən məktəbdən bütün sənədlərimi, şahadətnamələrimi təqdim edərək təqaüdçü hüququnda şərti bərpa olundum və yanvar ayı üçün mənə 20 dollar verdilər. Yerdən[1] təsdiq gözləyirəm – orada Əmir[2] bundan ötrü çalışır. Bundan başqa, mənə oxumaq üçün də pul verdilər. Burada qalmaqdan ötrü nəzərdə tutduğum şeylər taleyin əli ilə yox olmaqdadır. Ancaq necə olsa da qurtarmağa umudum var, çünki Əmir imkan daxilində pul göndərməyə söz verib. Deyirlər ki, İstanbulda mənim ixtisasımla və Sizin himayənizlə yaxşı iş tapa bilərik və vəziyyətin daha yaxşılaşacağını gözləyə bilərik. Semestr artıq sona yaxınlaşır, martın 16-dan 28-ə qədər imtahanlardır. Mən əyirici bölümü keçirəm, umudvaram ki, yeni semestr başlananda ən önəmli kurs olan Fabrikation'u keçəcəyəm.

Ceyhun bəy! Güclü şəyiələr gəzir ki, müharibəyə qədərki 1910-cu il buraxılışlı, altı qırmızı yazılı qəhvəyi rəngli, öz vaxtında müstəsna şərtlərlə təmin edilmiş alman kağız pullarını əcnəbi təbəələr təqdim etdikdə onlar Almaniyadan kənarda indi dollara bərabər olan əsl markalara dəyişdirilir. Burada bu pullara özəl möhtəkirlər 100-120 marka verirlər. Mənə yaxşı bir variant təklif edilib. Orada bu pullara tələb varsa və onları dəyişmək olarsa onda mən ora bir həftəliyə gəlim. İş çox əlverişlidir. Bu zaman mən qayıdarkən Sizin xalçalarınızı da özümlə götürərdim. İmkanınız varsa bununla bağlı mənə nəsə məlumat verin.

Evdən məktublar alıram. Həmişə yazıb Sizi, Zorya bacını soruşurlar. Bizim məktubumuz (Zorya bacının və mənim), Vildungendən olan fotoşəkillər qoyulmuş məktubumuz (Zorya bacı və mənim) Suraya çatmayıb. Öz məktublarımda mən Nadirdən[3] xahiş edirəm ki, Üzeyir bəyə baş çəksin və ondan məktub alıb mənim adıma göndərsin. Mənim bütün tapşırıqlarım (qəzet və jurnalların göndərilməsi və s. kimi) yerinə yetirilir, ancaq Üzeyir bəyin susmasını mən onun vaxtının yoxluğu və s. ilə izah edirəm; ola bilsin ki, o, birbaşa Sizə yazır.

Mən Sizə 4 dəfə Bakı qəzetləri göndərmişəm. Siz onları aldınızmı? Sabah da göndərəcəyəm. Nömrədə 6 sütun Məhəmmədəminə həsr edilib, orada onu Mimekovla müqayisə edirlər.

Zorya bacıya salamlarımı çatdırmaqdan imtina etməyin (bacı öz kiçik qardaşını belə unutmaz). Uşaqları öpürəm. And olsun ki, Timuçinə və Ceyçikə bağlı olduğum qədər heç evimizə bağlı deyilәm (yalnız anamdan başqa).

Salamat qalın. Hər şeyi ürəyinizə salmayın. Sizin bədbinliyiniz uşaqlara da keçərək onlara təsir edə bilər.

[1] Məhəmmədəmin Rəsulzadənin Peterburqdan Finlandiyaya qaçışını təşkil edənlərdən biri, Qazan Türklərindən olan çox görkəmli ilahiyyatçı Musa Carulla oğlu Bigi(yev) (1875-1949) nəzərdə tutulur.
[2] Məktubda: *"Ağa Qasımov Qasımov"*.
[3] Əkbər ağa Şeyxülislamov.

[1] Bakıdan.
[2] Teymur bəyin böyük qardaşı.
[3] Teymur bəyin kiçik qardaşı.



Teymur bəy Aslanov uşaqları Adilə və Raufla. Bakı, 8 mart 1938-ci il

Sizin Teymur.

Təcrübə, kitablar, qəzetlər olmadığına görə fransız dilini unutmağa başlayıram. İmkanınız varsa arada öz qəzetlərinizdən mənə göndərin.

Teymur.

P.S. Siz Allah kömək edin ki, bu Hacıyevlə artıq 2 həftədir göndərilmiş pasportumu redaksiya mənə mümkün qədər tez göndərsin. Bir franklıq poçt markası da göndərirəm. İndiki zamanda burada pasportsuz yaşamaq çox risklidir".[1]

Aşağıdakı məktubun da 1924-cü ildə qələmə alındığını düşünürük.

"Çox hörmətli Ceyhun bəy.

Uzun müddət susduğuma görə çox üzr istəyirəm. Bunun səbəbi ümumidir və Sizə də bəllidir... Bu müddətdə mən hətta gücüm çatmayan şeyləri də etdim ki, Sizin göstərdiyiniz yolla gedim və məktəbi, daha doğrusu, onun ən mühüm bölümü olan Fabrikation'u bitirim. Bu gün sonuncu yazılı imtahanı verdim. Hər şey yaxşı keçdi və güman ki, hətta məni şifahi imtahanlardan azad edəcəklər. Yerli qəzetlərdə bir həftədən artıqdır ki, Qafqaz, o sıradan Gürcüstan hadisələri haqqında kiçik xəbərlər görünməkdədir. Əyalət qəzetlərinin bu məlumatlarından başqa, məndə heç bir bilgi yoxdur. Onların bizə böyük *maraq göstərməsindən heç danışmağa da dəymir... Siz Allah, Sizdə olan məlumatları da mənimlə bölüşməkdən imtina etməyin.*

Mən məktəbi bitirincə vətənə getməyi və orada işləməyi düşündüm. Ancaq bu şayiə (hərəkat) doğrudursa və ehtiyac varsa (yəqin ki, var) Sizin məsləhət bildiyiniz yerə gedim. Axı indi heç zaman olmadığı qədər iş lazımdır. Bu imkanları nəzərə almasaq burada qalmaq və iş axtarmaq lazım gəlir. Sizin məktubunuzdan asılı olaraq mən bu və ya başqa qərar qəbul edəcəyəm.

Uşaqlar nə edir? Zorya bacı necədir? Bizim kompaniyanın ümumi əhval-ruhiyyəsi necədir? Mən heç kəslə yazışmıram. Berlinə 3 aydan çoxdur getmirəm. Qabaqlar Şamillə[2] *az-az yazışırdıq. Ancaq indi münasibətlərimiz soyuyub. Bakıdan xəbərim yoxdur. Bu yaxınlarda, öz aramızdır, Berlindən mənə yazdılar ki, Şamil arvadından boşanıb...*

Salamat qalın. Ehtiyatlılıq yazışmanı sifarişli məktub şəklində aparmağı tələb edir. Tezliklə Sizə geniş məktub yazacağam. Hamıya ehtiram.

Sizin tezliklə cavab yazacağınızı gözləyirəm.

Sizə səmimi hörmət bəsləyən Teymur.

Vionville, st 2. Cottbus".[3]

[1] S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 3, iş 8, vv. 4-5a.
[2] Sovet dövründə Almaniyaya oxumağa göndərilmiş qarabağlı Şamil Səfərov nəzərdə tutulur.
[3] S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 3, iş 8, vv. 3-3a.



Teymur bəy Aslanov həbsdə

Teymur bəy Aslanov Ceyhun bəy Hacıbəyliyə, əlimizdə olan bu sonuncu məktubu Parisdə Le Central (... place de la Bourse) otelində yazıb.

"9 mart 1925-ci il.

Əziz Ceyhun bəy! Qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edir, ən xoş arzularımı bildirir, ən başlıcası can sağlığı və işlərinizdə uğurlar diləyirəm. "Azərbaycan" jurnalının birinci nömrəsini aldım. Sağ olun. Ancaq xahiş edirəm bundan sonra söyüşləri azaldın. Sənin səhhətin indi necədir? Mən, deyəsən, aprelda qəti şəkildə Belçikanı tərk edəcəm. Maraqlıdır, X.Mahraramdan cavab aldım; o artıq Cahangir bəydən boşanıb. Yazır ki, o əsla uyğun gələn birisi deyildi, İstanbula göndərib. Bu da sənə indiki evlənmələr. Öpürəm. Yaz.

Səni sevən dostun Teymur".[1]

* * *

Teymur bəy Aslanov ali təhsilini 1924-cü ildə Kotbusda başa vurub.

1925-ci ildə Azərbaycana qayıdaraq Bakıda Lenin adına toxuculuq fabrikində mühəndis işləyib.

1931-32-ci illərdə ASSR Yüngül Sənaye Xalq Komissarlığında (YSXK) mühəndisdi. 1933-cü ildə Gəncə toxuculuq kombinatının direktor müavini və direktoru vəzifəsində çalışıb, sonra yenə YSXK-na dəyişdirilib.

Moskvadan xidməti ezamiyyətdən qayıdarkən 15 may 1938-də həbs edilib.

Müttəhim Aslanov Teymur Zəkəriyyə oğlunun AR MTN arxivində saxlanılan PR-27210 şifrəli cinayət işi qarşımızdadır.

2184 saylı məhbus anketində onun haqqındakı bilgilər: Aslanov Teymur Zaxaroviç – 5 yanvar 1899-cu ildə Şuşa şəhərində doğulub; Bakı şəhərində Fioletov[2] küçəsi 16, mənzil 15-də yaşayır; mühəndisdir; Azərb. SSR Xalq Yüngül Sənaye Komissarlığı sistemində toxuculuq idarəsinin mühəndisi; təhsili: xüsusi-ali; partiyasız; ailə tərkibi: arvadı Bacı (33 yaş), qızı Adilə (6 yaş), oğlu Rauf (3 yaş), oğlu Akif (4 ay); kim və nə vaxt həbs edib – Azərb. XDİK DTİ 3-cü şöbəsi, 15.05.1938.

Azərb. SSR XDİK DTİ 3-cü şöbəsi 4-cü bölməsi rəisinin müavini, DT leytenantı Kovrıjenkonun 1938-ci ilin martında tərtib etdiyi, Azərb. SSR xalq daxili işlər komissarı, DT mayoru Borşşevin 31 mart 1938-ci ildə təsdiq etdiyi qərarda göstərilir ki, Kirovabad şəhərindəki toxuculuq kombinatının keçmiş direktor müavini, indi Azərb. SSR Xalq Yüngül Sənaye Komissarlığı toxuculuq qrupunun mühəndisi Aslanov Teymur Zaxaroviç əks-inqilabi üsyançı təşkilatın üzvü olub. Buna görə də onun Azərb. SSR CM 64 və 73-cü maddələrinə əsasən həbs edilməsi qərara alınıb.[3] (Çox maraqlıdır ki, 15 mayda həbs edilməsinə baxmayaraq bu qərar T.Aslanova 8 avqust 1938-ci ildə elan edilib).[4]

[1] S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 3, iş 8, vərəq 6.
[2] İndiki Əbdülkərim Əlizadə.
[3] AR MTN arxivi, PR-27210, vv. 3-3a.
[4] Yenə orada, vərəq 3a.

Elə həbs edildiyi gün də istintaqa başlayıblar və bu istintaq düz 4 gün çəkib (15-18 may). Onu Azərb. XDİK 3-cü bölməsinin əməliyyat müvəkkili, DT kiçik leytenantı Babenko dindirib. Protokolun məhbus haqqında təqdimat bölümündə ailə tərkibi belə göstərilib: Arvadı Bacı (Xeyransa), evdar qadın, 33 yaş; qızı Adilə, 6 yaş; oğlu Rauf, 2 yaş; oğlu Akif, 4 ay; nənə Ummu, 68 yaş.[1]

İstintaqın mövzumuzla bağlı yerlərini seçərək oxuculara təqdim edirik.

"Sual: Siz ali texniki təhsili harada almısınız?

Cavab: Ali texniki təhsili mən Almaniyada almışam. 1924-cü ildə Kotbus şəhərində Prussiya Ali Toxuculuq Məktəbini bitirmişəm.

Sual: Siz xaricə necə düşmüsünüz?

Cavab: 1920-ci ilin başlanğıcında məni başqaları ilə birlikdə Müsavat hökuməti ali təhsil almaqdan ötrü xaricə göndərib.

Sual: Müsavat hökumətinin xaricə təhsil almaq üçün göndərdiyi dəstə kimlərdən ibarət idi?

Cavab: Bunlar əsasən Azərbaycan neft sənayeçiləri və mülkədarların uşaqları idi. Məsələn: Quluyev Hüseyn, Əfəndiyev Əfəndi,[2] Vəkilov və b. Onların arasında bir neçə Azərbaycan ziyalısının oğulları da vardı. Mən də onların içində idim.

Sual: Siz xaricdə çox yaşadınız?

Cavab: Mən xaricdə cəmi 4 il olmuşam.

Sual: Harada yaşayırdınız?

Cavab: Bütün 1920-ci ili mən Fransada – Parisdə, qalan vaxtlar isə Almaniyada – Kotbus şəhərində yaşamışam və bəzən Berlinə getmişəm.

Sual: Siz xaricdə Azərbaycan mühacirlərindən kimlə görüşmüsünüz?

Cavab: Parisdə yaşayarkən mən qohumum Hacıbəyli Ceyhunun, eləcə də oğlu ilə birgə oxuduğum Topçubaşov Əlimərdanın ailələrinə getmişəm.

Hacıbəyli Ceyhun Müsavat hökumətinin rəsmi orqanı olan "Azerbaycan" qəzeti redaksiyasının əsas əməkdaşlarından biri olub. 1919-cu ildə Hacıbəylini Müsavat hökuməti Azərbaycan Heyətinin tərkibində Parisə Versal konfransına göndərib. Dövlət Dumasının keçmiş üzvü, Müsavat Parlamentinin üzvü Topçubaşov Əlimərdanı da Müsavat hökuməti Versal konfransına yollayıb.

Azərbaycan sovetləşəndən sonra bu şəxslər geri qayıtmaq istəmədilər və xaricdə qaldılar. Siyasi əqidəcə onlar görkəmli müsavatçılardır.

Sual: Siz xaricdə həbs olunmusunuz?

Cavab: Yox, mən həbsə düşməmişəm. Ancaq Almaniyada yaşayarkən bir əcnəbi kimi qeydiyyat üçün Berlin şəhərinin polis idarəsində olmuşam.

Sual: Polis sizə heç bir dəfə də Almaniyanın xeyrinə əməkdaşlıq təklif etməyib?

Cavab: Yox.

Sual: Siz Sovet İttifaqına haçan qayıtmısınız?

Cavab: Sovet İttifaqına mən 1925-ci ilin yanvarında gəlmişəm və Bakıda yerləşmişəm.

Sual: Siz o vaxt hansı partiyaya mənsub idiniz?

[1] AR MTN arxivi, PR-27210, vərəq 20.

[2] T.b.Aslanovdan eşitdiyi adları müstəntiq özünün bildiyi kimi yazıb. İş burasındadır ki, Cümhuriyyət təqaüdçüləri arasında Quluyev Hüseyn, Əfəndiyev Əfəndi olmayıb. Yəqin ki, söhbət Quluyev Mirzəhüseyn və Əfəndiyev Məhəmmədəmindən gedir. Vəkilov isə Mustafa ağadır.

Cavab: Mən heç bir partiyaya mənsub olmamışam. Ancaq hələ məktəbli vaxtımdan millətçi idim.

Sual: SSRİ-yə qayıdandan sonra da Siz millətçi mövqedə qalmaqda davam etdiniz?

Cavab: Bəli, qaldım. Mən hesab edirdim ki, Sovet hakimiyyəti Azərbaycanda milli məsələni həll etməyib.[1]

Sual: Siz millətçi görüşlərinizi kimə söyləmisiniz?

Cavab: Mən bu mövzuda "Azərtoxuculuq" trestinin keçmiş müdiri Tağıyev Zeynalla söhbət etmişəm. Onunla 1926-cı ildə Lenin adına fabrikdə işləyərkən xidmət üzrə əlaqədə olmuşam.

Sual: İstintaqa bu bilgilər bəllidir ki, Siz 1926-cı ildə yalnız millətçi əhvali-ruhiyyədə olmamış, artıq Sovet hakimiyyəti ilə fəal mübarizə mövqeyində durmusunuz".[2]

***

Zaqafqaziya Hərbi Dairəsi tribunalı səyyar sessiyasının 28 dekabr 1939-cu ildə çıxardığı 00367 saylı hökmdən[3] aydın olur ki, bu cinayət işi üzrə 11 nəfər həbs edilib:

1. *Tağıyev Zeynal Sadıq oğlu* – 1893 doğumlu, Bakı şəhərinin iri milyonçu fabrikant ailəsindən çıxmış,[4] azərbaycanlı, ali təhsilli, "İttihad" partiyasının keçmiş üzvü, Müsavat Parlamentinin keçmiş üzvü, qulluqçu, həbsinədək Azərbaycan Ticarət Palatasının eksperti.

2. *Aslanov Teymur Zəkəriyyə oğlu* – 1899 doğumlu, Şuşa şəhərindən, azərbaycanlı, partiyasız, orta təhsilli.[5] Həbsinədək Azərb. SSR XYSK-da[6] mühəndis.

3. *Xanlarov İsmayıl Bəylər oğlu* – 1899 doğumlu. Şamaxılı, azərbaycanlı, ali təhsilli, 1936-cı ildə 3 il iş alıb, qulluqçu, partiyasız, həbsinədək Gəncə toxuculuq kombinatında katib.

4. *Vəzirov Cəmil İsmayıl oğlu* – 1888 doğumlu. Şuşalı, azərbaycanlı, ali təhsilli, bəy oğlu, 1908-ci ildən 1919-cu ilədək menşevik partiyasının üzvü. Həbsinədək Azərxalçaittifaqda mühəndis.

5. *Qulubəyov Əli bəy Cəfər oğlu* – 1894 doğumlu. Bakı taciri ailəsindən, ali təhsilli, azərbaycanlı, qulluqçu, partiyasız. Həbsinədək Azərb. SSR Ticarət Palatasının sədri.

6. *Rəhimzadə Abdulla (Rəhimli Abdulla)* – 1898 doğumlu, Gəncə taciri ailəsindən, azərbaycanlı, ali təhsilli, qulluqçu, partiyasız. Həbsinədək Azərdəzgahqayırmada mühəndis.

7. *Hacıyev Zeynal Əkbər oğlu* – 1897 doğumlu. Ordubad rayonundan, azərbaycanlı, ÜK(b)P-nin üzvü, qulluqçu. Həbsinədək Bakı şəhərində toxuculuq fabrikinin direktoru.

8. *Hüseynov Şahid Süleyman oğlu* – 1892 doğumlu. Şəkili, azərbaycanlı, qulluqçu, partiyasız, həbsinədək Bakı univermağı direktorunun müavini.

9. *Qədimbəyov Qədim Məhəmməd oğlu* – 1906 doğumlu. Şəki şəhəri qolçomaqbəy ailəsindən, azərbaycanlı, ali təhsilli, partiyasız, qulluqçu. Həbsinədək SSRİ XYSK-nın yanında İxtisasartırma İnstitutu direktorunun müavini.

[1] Müstəntiq son 2 cavabın qarşısında xətt çəkərək xüsusi işarələyib. Bu cavablar onu ittiham etmək üçün əsas verirdi.

[2] AR MTN Arxivi, PR-27210, vv. 21-23.

[3] Yenə orada, vv. 78-80.

[4] Hacı Zeynalabdin Tağıyevin nəvəsidir.

[5] Hökmün necə başdansovdu hazırlandığını elə bu fakt sübut edir.

[6] Xalq Yüngül Sənaye Komissarlığı.

10. *Məmmədov İsgəndər İsrafil oğlu* – 1898 doğumlu. Bakılı, azərbaycanlı, partiyasız, qulluqçu. Həbsinədək Bakısənayeticarətdə bölmə müdiri.

11. *Şahbazov Əliəsgər*[1] *Abbas oğlu* – 1898 doğumlu. Azərbaycanlı, qulluqçu, ali təhsilli, ÜK(b)P-nin keçmiş üzvü (1917-ci ildən). Həbsinədək Azərticarətdə direktor müavini. Əvvəllər Müsavat ordusunda qulluq edib.[2]

28 dekabr 1939-cu ildə bunlardan Qədimbəyov və Rəhimzadəyə 7 il, Qulubəyova və Hacıyevə 8 il, Şahbazova və Vəzirova[3] 10 il, Aslanova 12 il verilib. Tağıyev və Xanlarova[4] güllələnmə kəsilib, Hüseynov və Məmmədov bəraət qazanıblar. İş kəsilənlərin hamısının əmlakları müsadirə olunub. Cəmil Vəzirov və Teymur Aslanov 5 il siyasi hüquqlardan məhrum edilib.[5]

Məhkəmənin hökmünə görə Tağıyev, Xanlarov, Aslanov və Vəzirov bunda təqsirli biliniblər ki, onlar Bakı şəhərində mövcud olan və qarşısına Azərbaycanı Sovet İttifaqından ayırmaq məqsədi qoymuş əks-inqilabi, üsyançı-millətçi təşkilatın üzvü olublar, Tağıyev, Xanlarov və Aslanov həm də xarici kəşfiyyatların rezidentlərinə dövlət sirri olan məlumatları ötürüblər.

SSRİ Ali Məhkəməsinin 11 may 1957-ci il tarixli qərarı ilə Tağıyev, Xanlarov, Aslanov və Vəzirov işlərində cinayət tərkibi olmadığına görə bəraət qazanıblar.[6]

Teymur bəy cəzasını Kotlasda (Komi MSSR) çəkib. 1950-ci ildə Cənuba köçməyə icazə alaraq Qazaxıstan SSR Karaqanda vilayətinin Balxaş şəhərində yaşayıb.

V.Quluyev "Vağzalda həbs" məqaləsini bu cümlələrlə bitirir: *"Teymur bəy Aslanov Qazaxıstanın Karaqanda vilayətinin Cezkazkan şəhərinə sürgünə göndərildi. Və o gündən də Teymur bəyi bir daha "gördüm" deyən olmadı"*.[7] Xoşbəxtlikdən, bu fikir özünü doğrultmur, çünki Teymur bəy 1964-cü ilədək yaşadı və çalışdı...

* * *

Hələ 1 noyabr 2006-cı ildə biz Teymur bəy Aslanovun bacısı Mina xanımın oğlu Tofiqin qızı *Gülnarə Qurbanova* ilə görüşərək ondan Aslanovlar barəsində bir çox dəyərli bilgi və bəlgələr almışdıq. O zaman Gülnarə xanım bizə bir sıra məktubların surətini bağışlamışdı, özəl arxivimizdə qoruduğumuz həmin rusca məktubların demək olar ki, hamısı 1956-cı ilə, sürgündən qayıtma ərəfəsinə aiddir. Onları ana dilimizdə xülasəsini oxucularımıza təqim edirik.

Teymur bəy 20 mart 1956 tarixli məktubu bacısı oğlu Tofiqə göndərib. Ünvanı beladir: Balxaş şəhəri, Sülh küçəsi 26, mənzil 28, mərtəbə 3.

O qeyd edir ki, sənin Moskvada olduğunu və mənim işimdən ötrü (bəraət alması ilə bağlı) çalışdığını öyrənmişəm.

Yenə Tofiqə yazdığı 31 mart tarixli məktubda bildirir ki, mən Bakıdan 1938-ci ildə "getmişəm", müxtəlif yerlərdə olmuşam və 1950-ci ildən burada – Balxaşdayam. Dəmir-beton sexinin rəisiyəm. Bu, güclü tikinti təşkilatıdır. Elə iş yerimin yanında yaşayıram. Özümün hər cür şəraiti olan ayrıca otağım var.

[1] Bəzi sənədlərdə adı *Əsgər*, vəzifəsi *keçmiş yüngül sənaye komissarı* göstərilib (bax: AR MTN arxivi, PR-22247, vərəq 26).
[2] AR MTN Arxivi, PR-27210, vərəq 78.
[3] 8 sentyabr 1941-ci ildə Vəzirov qiyabi şəkildə istintaq materialları olmadan güllələnməyə məhkum edilib (bax: AR MTN Arxivi, PR-27210, vərəq 99).
[4] 17 may 1940-cı ildə Xanlarovun güllələnməsi 15 il işlə və 5 il siyasi hüquqdan məhrum edilmə ilə əvəz olunub (bax: AR MTN Arxivi, PR-27210, vərəq 99).
[5] AR MTN Arxivi, PR-27210, vərəq 80.
[6] Yenə orada, vərəq 99.
[7] *Quluyev V.* Vağzalda həbs. // *"Azərbaycan"*, 4.V.2004, №103.



Teymur bəy *(sağdan 1-ci)*. Balxaş, 23 may 1951-ci il

Bundan sonra Teymur bəy yenə öz işinin gedişi ilə, bəraətlə bağlı irəliləyiş olub-olmadığı ilə maraqlanır.

3 aprel 1956-cı il tarixli Mina, Xalidə, Zemfira, Məmməd və Tofiqə yazdığı məktubda xəbər verir ki, Xalidənin 17 martda yazdığı məktubu aldım.

Mən buraya 1950-ci ildə gələrək 10-15 gündən sonra böyük bir inşaat materialları kombinatının sex rəisi vəzifəsində işə düzəlmişəm, maaşım 980 manatdır. Kombinat misəritmə zavodunun tərkibindədir. İşlədiyim sex bərk gəc (gips), divar materialları, dəmir-beton konstruksiyalar və s. hazırlayır. Göründüyü kimi, mənim ixtisasımdan fərqlənən tam başqa bir sahədir. Yeni sahə *bizlərdən* özəlliklə inadla işləməyi tələb edir. Artıq 6 ildir ki, bu işdəyəm. Mənim bütün iş stajım orada toxuculuq üzrə, burada inşaat materialları üzrə işlərdən ibarətdir. Mən şəhərin mərkəzindəki Sülh küçəsində yaşayıram. "Oqonyok" jurnalının yanvar nömrəsinə baxsanız burada şəhərimiz, küçəmiz və evimiz təsvir olunub. Şəhər gündən-günə böyüyür. Burada 5-6 mərtəbəli evlərin tikintisi adiləşib. Onlar güclü yağışdan sonrakı göbələk kimi artır.

Yaşadığım yerin üstünlüyü bundadır ki, birinci mərtəbədə yeməkxana var, menyuda balıq, ət var, donuz ətindən başqa hər şey yeyirəm (mən onu xaricdə də, şimalda da yeməmişəm, burada da yemirəm).

Burada yay vaxtında pomidor, qarpız, yemiş də bitir. Ancaq 7-8 ay meyvə-tərəvəz olmur. Mağazalarda şəkər olanda qənnadı məhsulları olmur.

Bu maraqlı məlumatdan sonra yenə öz işini soruşur, giley edir: "bir şeyi anlamıram ki, niyə mənim işimi [Moskvadan] Bakıya göndərirlər?".

Tarixsiz bir məktubda Teymur bəy artıq Bakıya qayıtmaq ərəfəsində olduğunu bildirir və deyir ki, gəlməmişdən öncə buradakı əşyalarımı – çarpayımı, yazı stolunu, kitab rəfini və b. sataraq bilet alıb Bakıya gələcəyəm. Paltarım var, yaxşı-qış paltom və kostyumum, şarfım, şlyapam var.



Teymur bəy Aslanov *(sağdan 1-ci)*. 1960-cı illər

Tofiq Moskvadan Bakıya, əzizlərinə yazdığı 15 aprel 1956-cı il tarixli məktubda xoş xəbər göndərir ki, mən bu gün Balxaşla – Teymurla 10 dəqiqə telefonla danışmışam, o artıq ayın 5-dən işləmir və Bakıya gəlməyə hazırlaşır.

T.Aslanov bacısıoğlu Tofiqə 16 aprel 1956-cı il tarixli məktubunda yazır: "Mina mənə 10 apreldə bəraət aldığımı, təcili çıxıb gəlməyimi yazıb".

* * *

Teymur Aslanovun həbs edilməsində, əlbəttə, onun Almaniyada oxuması olduqca mühüm rol oynamışdı, çünki "Müsavat hökumətinin oxumağa göndərdiyi" ziyalı sovet hökumətinin nəzərində ən qorxulu şəxslərdəndi və Moskvadan göstəriş verən və alan kommunistlər onların hamısını məqsədyönlü şəkildə məhv etmək, bununla Azərbaycan milli ziyalı elitasına da sağalmaz yara vurmaq istəyirdilər ki, bu, danılmaz bir gerçəklikdir. Ancaq gözdən qaçırılmamalı başqa önəmli bir amil də var – onun anası Ballı xanım/Balaxanım Səfərəli bəy Vəlibəyovun bacısı, qardaşı Əmir bəyin yoldaşı Nigar xanım Səfərəli bəyin qızı idi və onların nəslinin ən qabaqcıl nümayəndəsi Bahadır bəy Vəlibəyov (1894-1940) Naxçıvanın böyüyü, Azərbaycanın baş prokuroru, Elmlər Akademiyası Azərbaycan Filialının rəhbəri... kimi ən mühüm vəzifələr tutmuş, ancaq indi həbs edilərək Moskvaya aparılmışdı (orada da güllələnmişdi). Təbii ki, Bahadır bəyin tutulması ilə onun yaxın qohumlarının da kitabı bağlanırdı. Teymur Aslanov da onların arasında idi. Tərs kimi, onun həyat yoldaşı Xeyransa (Bacı) xanım da Azad bəy Vəzirovun (1869-1921) qızı idi və bu vaxt Vəzirovların da çarxı dönmüş, onların da üzdə olanlarının çoxu "xalq düşməni" kimi zindanlara atılmış və güllələnmişdi. Buna görə də Teymur bəy Aslanovun həbsdən qurtulma ehtimalı yoxdu...

11 may 1957-ci ildə bəraət alandan sonra Bakıya qayıdan Teymur bəy Aslanov ömrünün sonunadək ASSR Xalq Komissarları Şurası Yüngül Sənaye İdarəsinin texniki şöbəsinin rəisi vəzifəsində çalışdı...

Teymur bəy görkəmli neftçi, Azərbaycanın ilk neft sənayesi naziri (1954-1959), Sosialist Əməyi Qəhrəmanı Süleyman Vəzirovun (1910-1973) bacısı *Xeyransa (Bacı) Vəzirova* ilə ailə qurmuşdu. 3 övladları olub: Adilə, Rauf, Akif.

Adilə Leninqrad Tibb İnstitutunu bitirib, Leninqradda nevropatoloq həkimdi. İnstitutu bitirdikləri zaman zalda bir neçə nəfərə qırmızı diplom verilərkən onu kürsüdən düşürüblər ki, sənin atan repressiya olunub, "xalq düşməni"dir.

Rauf Azərbaycan Sənaye İnstitutunu bitirib, mühəndis-mexanik idi.

Akif isə 1937-ci ildə bir neçə aylıq olub. Qohumlarının onu xatırlamamasından aydın olur ki, körpə ikən ölüb.

* * *

Teymur bəy Aslanovun həyatında onun bacı-qardaşları müstəsna rol oynayıb, ona görə burada onlar haqqında qısa da olsa bilgi verməyi faydalı sayırıq.

Onun böyük qardaşı *Əmir bəy Aslanov* (1892-1942) 4 saylı xəstəxanın yaradıcısı və ilk müdiri olub. Azərb. SSR XDİK-də 25 sentyabr 1933-cü ildə tərtib edilmiş 18598 saylı işdə oxuyuruq ki (bu sənədə Zemfira Qurbanovanın etdiyi əlavə və düzəlişləri də nəzərə almışıq), Bakı şəhərində Musəvi küçəsi 6-da yaşayan Əmir Aslanov 1892-ci ildə Şuşa şəhərində doğulub. 1896-1900-cü illərdə Bakıda Türk məktəbində oxuyub; 1910-cu ildə Bakı real məktəbini, 1916-cı ildə Kiyev Universitetinin tibb fakültəsini bitirib. İxtisasca zöhrəvi xəstəliklər həkimidir. Ailəlidir, yoldaşı Nigar xanım Vəlibəyova (1899) Səfərəli bəyin qızıdır. Övladları olmayıb. Nigar xanım maarifçi qadınlarımızdandır. O, Sara xanım Vəzirovanın müdir olduğu Bakı ikinci qız rus-türk məktəbində müəllimlik edib (1913-də).

Əmir bəy Aslanov 1916-1918-ci illərdə Balaxana xəstəxanasında, 1918-ci ildən 1919-cu ilin oktyabrınadək Bərdə xalq xəstəxanasında həkim işləyib. 1919-cu ildən 1930-cu ilədək Culfa-Bakı dəmiryolunun səhiyyə şöbəsinin müdiri olub. 1930-1933-cü illərdə Azərb. SSR Səhiyyə Nazirliyi Klinik İnstitutunun (bu, indi Fuad Əfəndiyev adına 4 saylı xəstəxanadır) direktoru işləyib. 1933-cü ilin yanvarından Azərbaycan Tibb İnstitutu dəri-zöhrəvi klinikasının assistenti olub. 1 may 1933-cü ildən Fəhlə-Kəndli Milisi Baş İdarəsi Poliklinikasının müdiri əvəzi, 15 noyabr 1935-ci ildən həmin poliklinikanın rəisi təyin edilib. 1938-ci ildən 10 iyun 1942-ci ilədək Azərbaycan Tibb İnstitutunun dəri-zöhrəvi kafedrasında işləyib. 10 iyun 1942-ci ildə vəfat edib.

T.b.Aslanovun böyük bacısı *Mina xanım Aslanova-Qurbanova* (1896-1968) Azərbaycanın qabaqcıl müəllimlərindən olub. 1907-ci ilin sentyabrında – Minanın 11 yaşı olanda atası Zəkəriyyə bəy Aslanov onu Hacı Zeynalabdin Tağıyevin qız məktəbinin müdiri Hənifə xanım Məlikovanın (Həsən bəy Zərdabinin həyat yoldaşı) yanına aparıb və məktəbin birinci sinfinə qoyub. Burada Hənifə xanım Məlikova, Səkinə xanım Axundzadə, Səidə xanım Şeyxzadə kimi məşhur qadın müəllimlərdən dərs alıb. 1912-ci ildə oranı bitirib. Müəllimlik hüququ almaq üçün Bakı birinci gimnaziyasında imtahan verib. İmtahan komissiyasının 1913-cü il 13 fevral tarixli qərarı ilə müəllimlik şəhadətnaməsi alaraq təyinatla Nəcəf bəy Vəzirovun qızı Sara xanım Vəzirovanın müdir olduğu dördsinifli II rus-türk qız

məktəbində müəllimlik etməyə başlayıb. İlk günlərdən Şəfiqə xanım Əfəndizadə, Sürəyya xanım Vəzirova, Səidə xanım Şeyxzadə, Əsməsultan xanım Əfəndizadə, Nigar xanım Vəlibəyova kimi müəllim rəfiqələri ilə əl-ələ verərək millət balalarının təlim-tərbiyəsi ilə məşğul olub. Sara xanım Vəzirovanın məktəbi ləğv olunandan sonra 1921-ci ildə Süleyman Sani Axundovun müdir olduğu məktəbə göndərilib. Çox çəkmədən bu məktəb görkəmli ədibin yaşadığı binaya köçüb və 19 nömrəli məktəbə çevrilib. Mina xanım bundan sonra da orada işləyib. 1942-ci ildən 14 saylı məktəbdə dərs deyib. O, 45 il fasiləsiz olaraq millət balalarını savadlandırıb. 1958-ci ildə ona "Azərbaycanın əməkdar müəllimi" adı verilib.[1]

Mina xanım Moskva Lazarev adına Şərq Dilləri İnstitutunun məzunu, 1920-ci ildən qabaq və sonra Bakının bir sıra məktəblərində müəllimlik etmiş lənkəranlı *Əhməd Qurbanov*'la (1896-1939) ailə qurub. 3 övladları olub: Xalidə, Zemfira, Tofiq. *Xalidə xanım* Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş həkimdi; hərbi həkim Məmməd Hüseynovda ərdə olub. *Zemfira Qurbanova* Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib. O, ailə qurmayıb, 47 il Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətində məsul vəzifələr də çalışıb (mükafatlar, şikayətlərin qəbulu və b. şöbələrin müdiri işləyib). *Tofiq Qurbanov* Azərbaycan Neft və Kimya İnstitutunu bitirib, 1970-80-ci illərdə Azərbaycan Giproneftkimya İnstitutunun direktoru işləyib; *Faxirə xanımla* ailə qurub. Onun qızı *Gülnarə xanım Qurbanova* 2006-cı ildə bizə bu yazıda yararlandığımız xeyli material və fotoşəkillər vermişdi.

Teymur bəyin kiçik qardaşı *Nadir bəy Aslanov* (1918-1937) atası öləndən sonra doğulub. Nə işdə çalışdığı bilinmir.

Teymur bəyin kiçik bacısı *Sona xanım Aslanova* haqqında da bilgi yiyəsi deyilik.

[1] *Aslanov M.* Məktəbin sevimlisi. // *"Azərbaycan müəllimi"*, 28.08.1958, №65; *Quluyev V.* Bakıda bir müəllim vardı... // *"Azərbaycan"*, 22.08.2004, №195.

Atamalıbəyov Abbas bəy Seyfulla bəy oğlu

(26.2.1896, Satlel k./ Şavşetiya[1] – 1971, Klivlend/ ABŞ)



Abbas bəy Atamalıbəyov

Abbas bəy Atamalıbəyov Azərbaycanın çağdaş tarixində önəmli rol oynamış, ancaq buna baxmayaraq həyat və yaradıcılığı çox az öyrənilmiş siyasi xadimlərimizdən biridir. Yalnız son illərdə Azərbaycanda onunla bağlı bəzi özəl yazılar işıq üzü görüb. Tanınmış jurnalist İsmayıl Umudlu, əməkdaşı olduğu "Ayna" qəzetində 2002-ci ildə ilk dəyərli bir məqalə buraxdırıb,[2] 2003-cü ildə isə çox qiymətli bir iş görüb – onun xatirələrini ana dilimizə çevirərək "Ayna" qəzetinin bir neçə sayında oxuculara təqdim edib.[3] "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nda da A.b.Atamalıbəyov haqqında ayrıca qısa tərcümeyi-hal oçerki verilib.[4]

Bu yazıda biz onun xatirələrindən və əsasən Azərbaycan, Türkiyə və Rusiyada son dövrdə nəşr edilmiş kitablarda onun haqqında yazılanlardan yetərincə yararlansaq da qaynaq ağırlığını indiyədək bəlli olmayan arxiv bəlgələrinin üzərinə salmağa çalışmışıq.

Doğrudur, oxucularımız Abbas bəyi daha çox Azərbaycan Cümhuriyyəti Parlamanının üzvü, Azərbaycanın Parisdəki Sülh Heyətinin üzvü kimi tanıyır, ancaq onun həm də Cümhuriyyət tələbəsi olduğunu az adam bilir. Biz onu oxucuya hərtərəfli təqdim etmək niyyətindəyik.

* * *

Öncə onun soyu ilə tanış olaq.

Xatirələrində qeyd edir ki, rəvayətə görə, bizim nəslin əcdadı *Sürahə* Şirvanı fəth edən və Qafqazın bu hissəsini islamlaşdıran ərəb qoşunlarının başçısı olub. O, Şirvanda evlənib və burada qalmışdır. Lakin bütün bunlar rəvayətdir, əldə sənədlər yoxdur, amma Sürahə əfsanəvi şəxsiyyət deyil, onun adı ərəb mənbələrində çəkilir.[5]

...Onbeşinci yüzilin ikinci yarısında bizim ulu babamız *Osman bəy* Ağqoyunlular sülaləsindən çox görkəmli bir şahzadənin qızı ilə evlənir... Azərbaycanda bir neçə familiya – bizimki, *Şeyxəlibəyli*, Qaracalardan *İsmayılbəyli* və Qarabağdan başqaları bu izdivacdan törəmişlər...

...XVIII əsrə dair bir məktub yaxşı yadımdadır (onun dəqiq ilini xatırlaya bilmirəm). Bu məktub rus imperiya ordusunun iri rəsmi kağızında komandan qraf Valerian Zubov (çariça Yekaterinanın sevgilisi) tərəfindən mənim ulu babam *Mehralı bəy Abbas bəy oğlu*na ünvanlanmışdı...

...Yuxarıda adını çəkdiyim *Mehralı bəyin oğlu II Abbas bəy* və onun böyük oğlu *Atamalı bəy* (familiyamız onun adından götürülüb) ruslar bizim diyara gələndə bizimkilər mənim atamın babasının adını özlərinə familiya seçiblər, ruslara qarşı vuruşmağa

[1] İndi: Cavaxetiya (Gürcüstanda).
[2] *Umudlu İ.* Səksən il yol gələn görüş. // *"Ayna"*, 7 iyun 2002.
[3] *Atamalıbəyov A.b.* Siyasi mühacirin xatirələri. (İ.Umudlunun ön və son sözü ilə). // *"Ayna"* qəzeti, 7, 14, 21, 28 fevral, 7 mart 2003-cü il.
[4] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild. Bakı, 2004, ss. 126-127.
[5] *Atamalıbəyov A.b.* Siyasi mühacirin xatirələri. // *"Ayna"*, 7 fevral 2003, № 5, s. 9.

başlayıblar. Bu mübarizə Şirvan hökmdarı Mustafa xanla birlikdə aparılırdı. Mustafa xan və Atamalı bəy bacanaq idilər. Onlar Abxaziya tarxanının qızları olan iki xanzadə bacı ilə evlənmişdilər. Mübarizə amansız şəkil almışdı. Ruslar Şamaxıya bir neçə dəfə hücum çəkmişdilər. Bir dəfə Mustafa xan və mənim ulu babam İrana mühacirət edirlər, lakin az sonra geri qayıdırlar və Şirvanı azad edirlər. Lakin bu, çox çəkmir. Nəhayət, Rusiya və Mustafa xan arasında bağlanan müqaviləyə əsasən, Mustafa xan Rusiyanın hakimiyyəti altına keçir, ona və mənim babama bir sıra kəndlər bağışlanır. Mustafa xana general-leytenant rütbəsi, mənim ulu babama isə general-mayor rütbəsi verilir və bu minvalla Şirvanın müstəqilliyinə son qoyulur...

...Mənim babam *III Abbas* hərbçi idi, çünki o vaxtlar əsilzadələr üçün başqa karyera yox idi. O, çar III Aleksandrın əsilzadələr qvardiyasında birinci idi, sonra orduda xidmətə yollanmış və polkovnik rütbəsinə qədər yüksəlmişdi, daha sonra general oldu. O, Şirvanda böyük vəba epidemiyası zamanı vəfat etmişdir.[1]

* * *

"Tanrının mərhəməti ilə
Biz, II Nikolay
Bütün Rusiyanın İmperatoru və Təkağası
Polşanın Çarı, Finlandiyanın Böyük Knyazı
və s. və s. və s.

Bizim sarəy müşavirimiz, Artvin Dairəsi Şavşet-İmerxev sahəsi rəisi vəzifəsini icra edən Seyfulla bəy Atamalıbəyova.

Rəisliyin şəhadətinə və Kavaler Dumasının 22 sentyabr 1822-ci ildəki təqdimatına görə, Şavşet-İmerxev sahəsi rəisliyi vəzifəsi də daxil olmaqla, Qafqazda doqquz ildən artıq çalışqan və qüsursuz xidmətinizə mükafat olaraq Biz hamıya göstərdiyimiz mərhəmətlə sizi 9 dekabr 1899-cu il Fərmanı ilə Bizim dördüncü dərəcəli Müqəddəs Ravnoapostol knyaz Vladimir İmperator ordeni ilə təltif edirik. Bu fərmanı təsdiqləyib qol çəkməyi, orden medalı ilə təsdiqləməyi və orden nişanını sizə göndərməyi Biz Rusiya İmperator və Çar Ordenləri Kapituluna buyurduq.

Sankt-Peterburqda 21 dekabr 1899-cu ildə verilib".[2]

Bir neçə önəmli şəxsin imzası və dövlət möhürü ilə təsdiqlənmiş bu sənədi Sankt-Peterburq Mərkəzi Tarix Arxivindən üzə çıxarmışıq.

Rusiya imperatorundan orden alan bu kişi Abbas bəy Atamalıbəyovun atası Seyfulla bəydir. Abbas bəy xatirələrində onun haqqında belə yazır:

– Mənim atam da hərbçi idi. Əvvəlcə qısa bir müddət orduda həqiqi xidmətdə olmuş, sonra onu işğal edilmiş vilayətlərdə inzibati işə göndərmişdilər (hərbi-inzibatçı). Türkiyənin bir hissəsi olan Şavşetiya təzəlikcə işğal edilmiş və mənim atam Seyfulla bəy oraya inzibatçı təyin olunmuşdu. Mənim dünyaya göz açdığım bu məkan gerçəkdən gözəl yerlərdir və qanuna tabe əhalisi vardı. Lakin orada çoxlu qaçaq dəstələri dolaşırdı, onlar diyarın təzəlikcə işğal olunmasından istifadə edərək dəstələr yaratmaqla zavallı insanların malına və canına qəsd edirdilər. Atam bu dəstələrin aradan qaldırılmasında müvəffəqiyyət qazanmışdı və o, Şavşetiyanın bir hissəsini və Artvini 14 il ərzində idarə etmişdi.

[1] *Atamalıbəyov A.b.* Siyasi mühacirin xatirələri. //*"Ayna"*, 14 fevral 2003, №6, s. 10.
[2] SPb. MTA fond 478, siyahı 3, iş 308, vərəq 8. Bu, sənədin əslidir.

O, doğma şəhəri Şamaxıdan evlənmişdi. Anamın atası Sultanmahmud bəy İbrahimbəyov tanınmış və hörmətli bir adam imiş. Atam arvadını da götürüb Şavşetiyaya yollanır. Mən və mənim üç bacım burada anadan olmuşuq...

...Sonra atamın vəzifəsi Qars vilayət idarəsinə dəyişdirildi, sonra isə Zaqatala dairəsinə rəis göndərildi (bütün hüquqları saxlanmaqla). Mən Şamaxıda məktəbə getməyə başladım və iki il burada qohumlarımgildə yaşadım. Sonra mən xəstələndim və atam xidmətini başa çatdırıb Tiflisə getdi və mənim dalımca gəldi. Sonra mən də Tiflisə getdim və orada real məktəbə daxil oldum...[1]

* * *

AR Tarix Arxivində Seyfulla bəy Atamalıbəyovla bağlı 3 iş var.[2] Bu işlərdə əsasən onun qulluğu haqqında rəsmi bilgilər əksini tapıb. Əlbəttə, sənədlərin hamısı maraqlı deyil, buna görə də onların içərisindən ən mühümlərini oxucuların diqqətinə çatdırırıq.

Zaqafqaziya Şiə Ruhani İdarəsi katibinin köməkçisi, *kollej qeydiyyatçısı* Seyfulla bəy Atamalıbəyovun qısa əmək siyahısında[3] qeyd olunub ki, o, bu çini 28 fevral 1881-ci ildə alıb. Bu zaman o, Qars əyaləti hərbi valisinin yanında özəl tapşırıqlar üzrə kiçik məmur vəzifəsində idi. Sonra Ruhani İdarəsində katib köməkçisi vəzifəsinə dəyişdirilib.[4]

Zaqafqaziya Şiə Ruhani İdarəsi katibinin köməkçisi Seyfulla bəy Atamalıbəyovun qulluq dəftəri 3 mart 1883-cü ildə tərtib edilib.[5] Orada göstərilir ki, *quberniya katibi* Seyfulla bəy Mirzə Abbas bəy oğlu Atamalıbəyovun 31 yaşı var, müsəlmandır, fərqlənmə nişanları yoxdur, 350 manat maaş, 70 manat yeməkpulu (cəmi 420 manat) alır. Bəylərdəndir, malikanəsi yoxdur. Ev tərbiyəsi alıb. 23 dekabr 1874-cü ildə Göyçay qəzası rəisinin əmri ilə Göyçay Qəza İdarəsində tərcüməçi vəzifəsinə götürülüb. 29 oktyabr 1876-cı ildə Kürdəmir istintaq şöbəsi müdirinin sərəncamı ilə həmin sahə katibinin köməkçisi təyin edilib. 21 yanvar 1876-ci il təlimatına əsasən, o, öz istəyi ilə Qalağayın istintaq şöbəsinə həmin vəzifəyə 5 mart 1878-ci ildə dəyişdirilib və əsas vəzifəsindən başqa, ona həmin şöbənin məhkəmə pristavı vəzifəsi də həvalə edilib.[6] 1 sentyabr 1878-ci ildə öz xahişi ilə Bakı valisi onu Göyçay şöbə araçısının tərcüməçisi təyin edib. 18 yanvar 1880-ci ildə Qafqaz canişini baş idarəsi rəisinin əmri ilə Zaqafqaziya Şiə Ruhani İdarəsi katibinin müvəqqəti köməkçisi təyin edilib. Hakim Senatın 19 mart 1880-ci il fərmanı ilə 23 dekabr 1874-cü ildən həqiqi xidmətdə sayılıb. 30 may 1880-ci ildən Şiə Ruhani İdarəsində katib köməkçisi təsdiq edilib. 6 iyul 1880-ci ildə Qars əyaləti hərbi valisinin əmri ilə 3 sentyabr 1880-ci ildən onun yanında özəl tapşırıqlar üzrə müvəqqəti kiçik məmur vəzifəsinə təyin edilib. Yenə həmin hərbi valinin 28 sentyabr 1880-ci il əmri ilə Qars şəhər polis idarəsinə xidməti tapşırıqların icrasına göndərilib. 28 fevral 1881-ci ildən *kollej qeydiyyatçısı* çini alıb. 18 may 1881-ci ildən Qafqaz canişini idarəsinin əmri üzrə Ruhani İdarəsində katib köməkçisi təyin edilib.[7]

[1] *Atamalıbəyov A.b.* Siyasi mühacirin xatirələri. //*"Ayna"*, 14 fevral 2003, №6, s. 10.
[2] ARTA, fond 290, siyahı 1, iş 312; iş 591; fond 291, siyahı 2, iş 5053.
[3] Yenə orada, fond 290, siyahı 1, iş 312, vv. 2-2a, 9.
[4] Yenə orada, vərəq 2a.
[5] Yenə orada, vv. 6-8.
[6] Yenə orada, vv. 5a-6.
[7] Yenə orada, vv. 5-8.

Zaqafqaziya Şiə Ruhani İdarəsi katibinin köməkçisi Seyfulla bəy Atamalıbəyovun xidməti haqqında qulluq dəftəri 6 aprel 1888-ci ildə tərtib edilib. Orada oxuyuruq ki, *kollej katibi*, Zaqafqaziya Şiə Ruhani İdarəsi katibinin köməkçisi Seyfulla bəyin 35 yaşı var, müsəlmandır, III dərəcəli Müqəddəs Stanislav ordeni var, 350 manat maaş, 70 manat yeməkpulu (cəmisi 420 manat) alır.

3 mart 1883-cü il qulluq dəftərindəki qeydlər burada da təkrar olunur. Oraya düşməyənlər: 12 fevral 1883-cü ildə Hakim Senatın fərmanı ilə ona *quberniya katibi* çini verilib. 24 iyun 1884-cü ildə III dərəcəli Müqəddəs Stanislav ordeni ilə təltif edilib. 18 noyabr 1885-ci ildə *kollej katibi* çini verilib.[1] 13 yanvar 1889-cu ildə biz kollej katibi S.b.Atamalıbəyovu Artvin dairə idarəsinin kargüzarı vəzifəsində görürük.[2] 26 oktyabr 1889-cu ildə Hakim Senatın fərmanı ilə Şiə Ruhani İdarəsində katibin köməkçisi *titulyar müşavir* çininə yüksəldilib.[3]

Zaqatala Dairəsinin böyük köməkçisi S.b.Atamalıbəyovun qulluq dəftəri 14 iyun 1913-cü ildə tərtib edilib. Orada göstərilir ki, Zaqatala Dairəsi rəisinin böyük köməkçisi, *kollej müşaviri* S.b.Atamalıbəyov 1855-ci ildə doğulub, müsəlmandır. Ordenləri: (bantlı) 4-cü dərəcəli Müqəddəs Vladimir, II və III dərəcəli Müqəddəs Anna, II və III dərəcəli Müqəddəs Stanislav və İmperator III Aleksandrın çarlığının xatirəsinə gümüş medal.

Malikanəsi yoxdur. (Bundan əvvəlki xidmətləri yenidən təkrarlanır). Saray müşaviri Salmanmahmud[4] bəy İbrahim bəy oğlunun qızı Mələk xanımla evlənib. Bu uşaqları var: oğlu Abbas bəy 26 fevral 1896-cı ildə doğulub; qızları: Sara 28 aprel 1894-cü ildə, Səyyarə 20 fevral 1897-ci ildə və Fəridə 20 sentyabr 1899-cu ildə doğulublar. Arvadı və uşaqları müsəlmandır və onun yanındadırlar.[5]

Tiflisdə Matinovskaya küçəsi 3-də yaşayan Mələk xanım Atamalıbəyova 17 avqust 1916-cı ildə Zaqafqaziya Sünni Ruhani İdarəsinə ərizə ilə müraciət edərək ona əri, Qafqaz Diyarı Hərbi-Xalq İdarəsinin istefada olan məmuru, *mülki müşavir* Seyfulla bəy Abbas bəy oğlu Atamalıbəyovun ölümü haqqında şəhadətnamə verilməsini xahiş edib.[6]

Tiflis valiliyi Tiflis şəhəri sünni məscidindən 18 avqust 1916-cı ildə verilmiş ölüm şəhadətnaməsinə görə, Şamaxı şəhərinin sakini, Tiflis şəhərində yaşayan mülki müşavir S.b.Atamalıbəyov hicri tarixlə 23 şəvval 1334-cü ildə, miladi tarixlə 10 avqust 1916-cı ildə vəfat edib.[7]

Yeri gəlmişkən Gürcüstan Dövlət Tarix Arxivində də Seyfulla bəyin qulluq dəftəri və başqa sənədləri saxlanılır.[8] Ancaq onlar məzmunca indiyədək haqqında danışdığımız sənədlərin təkrarı olduğuna görə onlardan burada söz açmağa ehtiyac duymadıq.

S.b.Atamalıbəyov haqqında verdiyimiz bilgiləri bir qeydlə yekunlaşdırırıq. Türkiyənin Ege Universitetinin professoru, hörmətli Yavuz Akpınar uzun illər Əli bəy Hüseynzadənin arxivini incələyib. Onun üzə çıxardığı bəlgələrdən biri Seyfulla bəyin Əli bəy Hüseynzadəyə yazdığı məktubdur. Onu qaynaqda olduğu kimi götürərək təqdim edirik:

[1] ARTA, fond 290, siyahı 1, iş 312, vv. 5-9.
[2] Yenə orada, vv. 10-10a.
[3] Yenə orada, vərəq 12.
[4] *"Sultanmahmud"* olmalıdır.
[5] SPb. MTA, fond 478, siyahı 3, iş 308, vv. 27a-28.
[6] ARTA, fond 291, siyahı 2, iş 5053, vərəq 1.
[7] Yenə orada, vərəq 2.
[8] GDTA, fond 5, siyahı 1, iş 6326.

"Seyfullah Atamalıbekof, 1 Şubat1 1906. "Huzur-ı Valalarına; İzzetlü biraderim Ali Bey Efendi Hazretleri. Ba'de'd-dua ve selam, maruz-ı hizmeti âli oldur ki, malumunuz merhum Hacı Said Efendi[9] bu memleketten İstanbul tarafına hicret etmezden evvel şu mektubun miyanesinde gönderdiğim varakın bir nüshasını bize vermişdiler..".

Not: Hz. Muhammed'in Hristiyanlara tanıdığı haklar hakkında Sait Ünsizade'nin kendisine tercüme edip verdiği bir belgeyi "Hayat" ve "Kaspi"de yayımlamasını rica ediyor)".[3]

AR Tarix Arxivində Abbas bəyin qohumları olan Məhəmməd bəy Atamalıbəyov[4] və Firidun bəy Atamalıbəyovun[5] da sənədləri saxlanılır.

* * *

İndisə Abbas bəy Atamalıbəyovun özünü tanıdaq.

Salman Mümtaz adına AR Dövlət Ədəbiyyat və İncəsənət Arxivində Təyyar Makinskinin 20 oktyabr 1990-cı ildə görkəmli diplomat Ramiz Abutalıbova Abbas bəy Atamalıbəyov haqqında rusca yazdığı bu məktub qarşımıza çıxdı:

"Çox hörmətli Ramiz müəllim!

Hər şeydən öncə, Sizi rahatsız etdiyimə görə üzr istəyirəm. Ancaq başqa cür edə bilməzdim və səbəbi də budur. Mənə Bakıdan "Odlar yurdu" qəzetini (avqust 1990) göndəriblər. Orada Versal Sülh Konfransında Azərbaycan Heyəti üzvlərinin fotoları və Sizin izahınız verilib. Nümayəndələr içərisində mənim dayım Abbas bəy Atamalıbəyov da var. Elə bununla eyni zamanda "Vışka" qəzetinin sentyabr nömrəsində Tiflis Müsəlman Xeyriyyə Cəmiyyəti İdarə Heyətinin fotosu verilib, orada da mənim anam var.

Abbas dayı Parisə yoldaşı ilə gedib və oxumaq üçün orada qalıb (Azərbaycan hökumətinin oxumağa göndərdiyi gənclərlə birlikdə). 1 yanvar 1923-cü ildə Atamalıbəyovun oğlu Qalib doğulub. Abbas dayı Tiflis real məktəbini qızıl medalla bitirmiş və Petroqradda gəmiqayırma fakültəsinə girmişdi. Burada o, eserlər partiyasına daxil olub, fevral inqilabında iştirak edib. Qarğaşalıq vaxtında Tiflisə dönüb. Orada 1918-ci ildə hərbi topoqraf polkovnik İbrahim xan Vəkilovun qızı Tatyana (İrena) Vəkilova ilə evlənib. Azərbaycan Demokratik Cümhuriyyəti yarandıqdan sonra ailə Bakıya köçüb. Dayım Azərbaycan Parlamanına seçilib.

30-cu illərədək dayımla əlaqəni İbrahim xan Vəkilov saxlayıb. Sonra əlaqə kəsilib. Sonrakı illərdə Bakıdakı ailə Parisdəki öz doğmaları haqqında heç nə bilməyib. Müharibədən sonra 60-cı illərin sonunda buraya gələn mühacirlərin gətirdiyi şayiələr dolaşırdı ki, dayım 1948-ci ildə yaşamaq üçün Çiliyə köçüb (!).

Ailəmizin taleyi çox ağır olub. Böyük ailədən ikimiz qalmışıq: dayım qızı və mən.

Nənəm, oğlunun daimi həsrətini çəkməkdən vərəmləyib öldü. Anam – Sara xanım Atamalıbəyova (ərdə Makinskaya) bəd şişə yaxalandı. Bu vaxtlar qardaşını yadına salaraq məndən onun taleyini öyrənməyi xahiş etdi. İndi Sizin sayənizdə biz bilirik ki, dayım həyatının son illərini Argentinada keçirib və orada ölüb. Əlimizdəki yetərsiz bilgilər bunlardır. Ancaq onun arvadı, oğlu Qalib necə oldu? Dayımın ailəsinin həyatı

[9] Fevral.
[3] Söhbət Hacı Səid Ünsizadədən gedir.
[3] *Akpınar Y. – Güngör G.* Hüseyinzade Ali Turan'ın Arşivindeki Belgeler. // *"Türk Dili ve Edebiyatı Araştırmaları Dergisi"*, sayı: 19, Temmuz-Aralık 2010.
[4] ARTA, fond 43, siyahı 4, iş 85.
[5] Yenə orada, fond 291, siyahı 2, iş 2851.



Abaas bəy Atamalıbəyovun Parlaman üzvü vəsiqəsi

necə keçib. Paris dönəmi? Argentina dönəmi? Xaricdə Atamalıbəyovların nəsli davam edirmi? Və yəqin ki, şahidlər yoxdur. Bəlkə onların uşaqları var?

Mən də, bacım da öz axtarışlarımızda bizə doğma insanların həyatını öyrənməkdən başqa heç bir məqsəd güdmürük. İtkilərimiz həddən çoxdur. Dayımın məzarı haradasa okean arxasındadır. Atamınkı, obiri dayımınkı haradadır, bilinmir. Tanya xalanın qardaşlarının taleyi faciəlidir. Mənim müraciətimi anlayışla qarşılayacağınıza umudvaram. Fotoya görə çox sağ olun.

Səmimiyyətlə,
Sizin Təyyar Makinski.
20.10.[19]90.
121165, Moskva, Kutuzov prospekti 26, mənzil 386".[1]

Həyəcansız oxumaq mümkün olmayan bu məktubda Abbas bəy haqqında qısa, ancaq ən dəqiq bilgilər əksini tapıb.

Abbas bəyin doğum tarixi və yeri haqqında bir-birindən fərqli fikirlər mövcuddur. Biz bununla bağlı mübahisə açmadan əlimizdə olan və doğruluğuna şübhə etmədiyimiz arxiv bəlgələrini ortalığa qoyuruq.

"Şəhadətnamədir.

İşbu şəhadətnamə Şavşet qəzası sözlü qazısı tərəfindən verildi nadvornı savetnik Seyfulla bəy Abbasbəyzadə Ataməlibəyova ondan ötəri ki, məzkurun sülbi oğlu Abbas bəy mənkuheyi-şəriyyəsi Mələk xanım nadvornı savetnik Sultanmahmud bəy qızından bin səkkiz yüz toksan altıncı sənənin şubat ayının yigirmi altıncı günündə təvəllüd etmiş. Buna görə işbu şəhadətnaməni təsdiq etdim səneyi-1900 29 oktyabr.

Şavşet qəzası sözlü qazısı Vəhbi əfəndi Hüseynəfəndizadə".[2]

Kamal attestatında[3] isə doğum yeri dəqiq şəkildə bildirilib: Şavşet-İmerxev sahəsinin Satlel kəndi.

Abbas bəy orta təhsilini Tiflis şəhərində alıb. O, 1 sentyabr 1909-cu ildə Tiflis real məktəbinə girib və 10 iyun 1912-ci ilədək orada oxuyaraq 7-ci sinfi bitirib.[4] Ancaq ali məktəbə girə bilmək üçün 8-ci sinfi də başa vurmalı idi.

Ona Tiflisdə 8 iyun 1913-cü ildə verilmiş 676 saylı şəhadətnamədə göstərilir ki, bu sənəd Qafqaz canişini İ.İ.Vorontsov-Daşkov adına Tiflis real məktəbi əlavə sinfinin şagirdi, müsəlman, 26 fevral 1890-cı ildə doğulmuş Atamalıbəyov Abbas bəy Seyfulla bəy oğluna ona görə verilib ki, o, 1 sentyabr 1912-ci ildən 8 iyun 1913-cü ilədək əlavə sinifdə əla əxlaqla oxuyaraq 8 siniflik tam kursu bitirib və aşağıdakı qiymətləri alıb:

Şəriət –	
Rus dili –	5 (beş)
Alman dili –	5 (beş)

[1] S.Mümtaz adına ARDƏİA, fond 648, siyahı 1, iş 97, vv. 1-1a.
[2] SPb. MTA, fond 478, siyahı 3, iş 308, vərəq 16.
[3] ARDA, fond 51, siyahı 3, iş 56, vv. 4-4a.
[4] Yenə orada.

Fransız dili –	5 (beş)
Riyaziyyat, o sıradan:	
Hesab –	5 (beş)
Cəbr –	5 (beş)
Triqonometriya –	5 (beş)
Xüsusi kurs (analitik həndəsənin əsasları, sonsuz kiçiklərin analizi) –	5 (beş)
Fizika –	5 (beş)
Təbiiyyatşünaslıq –	5 (beş)
Riyazi coğrafiya –	5 (beş)
Tarix –	5 (beş)
Qanunşünaslıq –	5 (beş)
Rəsm –	4 (dörd).[1]



Abbas bəy Atamalıbəyov. Paris, 1920

Boynumuza almalıyıq ki, belə yüksək göstəricisi olan tələbələr Cümhuriyyətin dövlət təqaüdçüləri arasında elə də çox deyildi.

Buraya çatanda bir məsələyə toxunmağı gərəkli bilirik. Türkiyədə Əlimərdan bəy Topçubaşı haqqında dəyərli bir əsər nəşr etdirmiş yurddaşımız Vüqar İmanov belə yanlış fikir irəli sürüb ki, 1905-ci ildə nəşrə başlayan "Həyat" qəzetinin senzoru təyin edilmiş A.Atamalıbəyov 1919-1920-ci illərdə Paris Sülh Konfransında Azərbaycan Nümayəndə Heyətinin katibi işləmiş Abbas bəy Atamalıbəyovdur.[2] Professor Cəmil Həsənli bu fikrin doğru olmadığını sübut edərək yazıb ki, "Həyat" qəzeti nəşrə başlayanda Abbas bəy Atamalıbəyovun 10 yaşı var idi. Türk dilində çıxan "Həyat" qəzetinə nəzarət etməli olan senzor kimi adı keçən isə 1901-ci ildən başlayaraq Bakı qubernatorunun katibi işləyən Asəf bəy Atamalıbəyov idi.[3]


* * *

Orta təhsilə yiyələnmiş Abbas bəy elə həmin 1913-cü ildə Sankt-Peterburq Politexnik İnstitutuna girib. Özü bu haqda yazır:

"...Nəhayət, mən Sankt-Peterburq Politexnik İnstitutunun dəniz mühəndisləri fakültəsinə daxil oldum. Bura Rusiyada ən çətin məktəb idi, çünki sənin ən yüksək dərəcəli real məktəb diplomun olsa da burada namizədlər arasında müsabiqə keçirilirdi. Qəbul ancaq 100 nəfər, namizədlər isə həddən artıq çox idi. Mən 110-cu adam idim, lakin onlar fakültədən mənə yazdılar ki, adətən, 10-15 adam fikrini dəyişib başqa məktəblərə keçdiyindən mənim qəbul olunmağıma ehtimal var. Belə də oldu və mən dəniz mühəndisləri fakültəsinə daxil olaraq müharibənin əvvəlindən orada oxumağa başladım".[4]

Xatirələrindən aydın olur ki, Abbas bəy tələbə kimi də çox fəal olub, siyasi işlərə qarışmağa başlayıb. 1917-ci ilin fevralında Rusiyanı çalxayan burjua inqilabı onun da həyatında ciddi dönüş yaradıb. Ölkənin hərc-mərclik içində inildədiyi bir vaxtda bütün "yadelli" tələbələr öz yurdlarına dönməyə vadar olan zaman Abbas bəy də Qafqaza qayıtmalı olub. Ancaq...

[1] ARDA, fond 51, siyahı 3, iş 56, vərəq 3-3a. Sənədin əsli burada saxlanılır: SPb. MTA, fond 478, siyahı 3, iş 308, vərəq 4.
[2] *İmanov V.* Ali Merdan Topçibaşi. (1865-1934). Lider Bir Aydın ve Bağımsız Azerbaycan Cumhuriyeti'nin Temsili. İstanbul, 2003, s. 33.
[3] *Həsənli C.* Tarixi şəxsiyyətin tatixi. Əlimərdan bəy Topçubaşov. Bakı, 2013, ss. 110-111.
[4] *Atamalıbəyov A.b.* Siyasi mühacirin xatirələri. // "Ayna", 14 fevral 2003, №6, s. 10.



Abbas bəy Atamalıbəyov *(ortada)* Azərbaycan Cümhuriyyətinin Parisdəki Sülh Heyətinin yığıncağında *(solda* Məhəmməd Məhərrəmov, *sağda* Əlimərdan bəy Topçubaşov (*fotodan bir parça))*

"...Mən Qafqaza – Tiflisə qayıtdım. Qafqaza dönməzdən öncə orada bütün Rusiya müsəlman tələbələrinin böyük bir qurultayını keçirdik. Qurultaya bütün partiyaların və Moskvanın bütün universitetlərinin nümayəndələri gəlmişdi. Mən də nümayəndə idim və məni qurultayı apармаq üçün sədr seçdilər. Bu qurultayın çox böyük əhəmiyyəti vardı... Qurultayda bütün qeyri-rus ölkələr üçün muxtariyyət prinsipi elan edildi və bu, Qafqazın, xüsusən də əhalisi müsəlmanlardan ibarət olan Azərbaycan və Şimali Qafqaz kimi ölkələrin gələcəyi üçün təməl prinsipi oldu".[1]

Tiflisdə Abbas bəy siyasi məsələlərə ən fəal şəkildə girişib. Bu haqda onun xatirələrindən geniş bilgi almaq mümkündür. Ancaq biz onun bu fəaliyyəti üzərində dayanmayaraq, indiyədək A.b.Atamalıbəyla bağlı olduğunu kimsənin dilə gətirmədiyi bir önəmli sənəddən danışacağıq. Bu, Abbas bəyin Tiflisdə olarkən bütün Qafqazın müsəlman camaatının taleyi ilə nə qədər maraqlandığını əyani şəkildə təsdiqləyir.

Sənəd 11 avqust 1917-ci ildə Tiflis şəhərində yazılmış, Tiflis Müsəlman Komitəsi sədrinin əvəzinə Abbas bəy Atamalıbəyovun və katib Makinskinin[2] imzaladıqları və Bakı Müsəlman Komitəsinə (eləcə də Qafqaz Müsəlman Komitələri Nümayəndələri Şurası Müvəqqəti Rəyasət Heyətinə və bütün müsəlman komitələrinə) göndərilmiş 307 saylı müraciət məktubudur. Orada bildirilir:

"Bu ilin 15-20 aprelindəki Qafqaz Müsəlmanları Qurultayının qərarına əsasən, Bakı şəhərində Zaqafqaziyanın müsəlmanlarını birləşdirici mərkəz olacaq 18 nəfərlik Zaqafqaziya Mərkəzi Müsəlman Komitəsi yaradılmalıdır. Eyni zamanda Zaqafqaziya Mərkəzi Müsəlman Komitəsinin və Şimali Qafqaz və Dağıstanın Birləşmiş Dağlıları Birliyi Mərkəzi Komitəsinin nümayəndələrindən ibarət Qafqaz Müsəlman Bürosu və onun Tiflisdə nümayəndəliyi təşkil edilməli idi.

Qurultaydan dörd aya yaxın vaxt keçib, ancaq Zaqafqaziya və Qafqazın müsəlmanlarının hərəkətlərini əlaqələndirməli və birləşdirməli olacaq həmin təşkilatlardan heç biri təşkil edilməyib, halbuki indiki həyəcanlı dönəmdə həmin təşkilatlara hədsiz ehtiyac var.

[1] *Atamalıbəyov A.b.* Siyasi mühacirin xatirələri. // *"Ayna"*, 14 fevral 2003, №7, s. 9.
[2] Çox güman ki, Teymur bəy Makinskidir.

Tiflis şəhərində 26-30 iyun arasında keçirilmiş Qafqaz Müsəlman Komitələri nümayəndələrinin müşavirəsi bu ruhda çıxış edərək, Zaqafqaziya Komitəsinin yaradılmasını qurultayın həvalə etdiyi Bakı Komitəsindən həmin mərkəzi orqanı mümkün olan ən qısa müddətdə təşkil etməyi xahiş edib.

Buna görə Tiflis [Müsəlman] Komitəsi 6 avqustdakı iclasında bu məsələni gözdən keçirərək Zaqafqaziya Mərkəzi Müsəlman Komitəsini mümkün olan ən qısa müddətdə təşkil etmək haqqında təkidlə və israrla müraciət etməyi qərara alıb".[1]

Elə bu cür təkidli və israrlı tələblər nəticəsində az sonra yaradılmış Mərkəzi Müsəlman Komitəsi Zaqafqaziya müsəlmanlarının sonrakı siyasi təşkilatlanmasında mühüm rol oynadı və bu işdə, əlbəttə, Abbas bəy Atamalıbəyovun layiqli payı var. O, siyasi proseslərdə o dərəcədə fəallıq göstərib ki, hətta özünün Seym üzvü olduğunu da sanaraq xatirələrində yazıb: *"Mən Zaqafqaziya Seyminin üzvü idim".*[2] Təəssüf ki, Seymin bütün sənədlərini, iclas stenoqramlarını nə qədər araşdırsaq da bu faktı təsdiqləyəcək ən kiçik işarəyə belə rast gəlmədik. Ancaq onun 1918-ci ilin mayında yaradılmış Azərbaycan Milli Şurasının 44 üzvündən biri olması danılmaz gerçəklikdir. İş burasındadır ki, Milli Şuranın 4 üzvü: A.b.Atamalıbəyov, R.b.Qaraşarov, Ə.Qarayev və T.b.Makinski Seym üzvü olmadan Milli Şuraya üzv olmuşdular. Çox güman ki, "mən Zaqafqaziya Seyminin üzvü idim" deyərkən Abbas bəy məhz Milli Şura üzvü olmasını xatırlayıb.

O, Milli Şura üzvü kimi Türkiyəyə də göndərilib, ancaq ağır xəstəliyə (ispanka) tutularaq uzun müddət orada müalicə edilib və geri qayıtmalı olub.

* * *

"...Mən... Qazaxda çox nəcib bir ailəyə mənsub İbrahim ağa Vəkillinin qızı Rəna[3] *ilə evlənmişdim... Mən Tiflisə qayıdandan sonra arvadımı da götürüb Bakıya gəldim. Mən burada işə başlayan Azərbaycan Parlamentinin üzvü idim".*[4]

Bəli, 1918-ci ilin dekabrında fəaliyyətə başlayan müstəqil Azərbaycan Cümhuriyyəti Parlamanının ən gənc üzvlərindən biri də Abbas bəy Atamalıbəyov oldu.

Abbas bəy Azərbaycan Məclisi-Məbusanının sosialistlər fraksiyonunda katib idi (sədr tez-tez dəyişirdi). Onun da imzasıyla Məclisi-Məbusana göndərilmiş sənədlərdən örnəklər.

"Azərbaycan Məclisi-Məbusanı Müsəlman Sosialistlər İttifaqı[5]
Məclisi-Məbusan rəisi cənablarına
Bununla zati-alilərinizə xəbər veriyoruz ki, Sosialistlər İttifaqı tərəfindən Heyəti-Rüəsada (Sinyoren Konvent) bizim nümayəndəmiz Cəmo bəy Hacınskidir.
Fraksiya sədri yerinə (Pepinovun imzası)
Katib: Abbas bəy Atamalıbəyov.
9 yanvar 1919-cu il".[6]

Bu fraksiyonun 25 yanvar 1919-cu ildə Məclisi-Məbusan rəisinə göndərdiyi başqa bir məktubu sədr Camo bəy Hacınski ilə yanaşı, katib Abbas bəy Atamalıbəyov da imzalayıb. Orada oxuyuruq:

[1] *Dr. Hablemitoğlu N. Çarlık* Rusyasında Türk Kongreleri (1905-1917). Ankara, 1997, ss. 300-301.
[2] *Atamalıbəyov A.b.* Siyasi mühacirin xatirələri. // *"Ayna"*, 21.02.2003, №7, s. 9.
[3] Adın doğrusu "İrena"dır. Öncə "Tatyana" olub.
[4] *Atamalıbəyov A.b.* Siyasi mühacirin xatirələri. //"Ayna", 21.02.2003, №7, s. 9.
[5] "İttifaq" burada "fraksiya" anlamında işlədilib.
[6] ARDA, fond 895, siyahı 1, iş 206, vərəq 106.



Soldan-sağa: Abbas bəy Atamalıbəyov, Əkbər ağa Şeyxülislamov, Məhəmməd Məhərrəmov. Paris

"Məclisi-Məbusanın keçən iclasında qəbul olunan qərardada görə, bizim firqə əzasından yoldaşımız Bağır Rzayev əzalıq haqqını qeyb ediyor[1]*. Bunun yerinə firqəmiz İbrahim Abılovu Məclisi-Məbusan əzalığına qəbul olunmasını təklif ediyor".*[2]

Abbas bəy sosialistlər fraksiyonunu Parlamanın iki komisyonunda təmsil edib. Onu öncə nizamnamənin işlənib hazırlanması üzrə komisyonda görürük. Nizamnamənin işlənib hazırlanması üzrə komisyonun sədri Stanislav Vonsoviç 2 fevral 1919-cu ildə Parlaman sədrinə göndərdiyi məktubda yazır: *"Sizin tapşırığınıza əsasən, bildirməklə şərəflənirəm ki, nizamnamənin işlənib hazırlanması üzrə komisyonun cəmi 4 iclası olub. İlk iki iclasa 4 üzv gəlib: Vonsoviç, Qarabəyov, Mahmudov və Atamalıbəyov. Sonrakı iclaslar isə yalnız komissiyanın 3 üzvü ilə: Vonsoviç, Qarabəyov və Mahmudovla keçirilib. Qalan komissiya üzvlərinin iştirak etməməsinin səbəbləri mənə bəlli deyil".*[3]

Onun etimadnamə komisyonunda da işlədiyini bu sənəd göstərir: *"Məclisi-Məbusan etimadnamə komisyonu üzvü Abbas bəy Atamalıbəyov cənablarına. Pəncşənbə günü həmin yanvar ayının 16-sı gündüz saat on yarımda etimadnamə komisyonu iclası olacağını İdarə cənabınıza elam edib, təşrif buyurmanızı rica edir".*[4]

5 may 1919-cu ildə Azərbaycan Məclisi-Məbusanı Heyəti-Rəyasətinə onun da qol çəkdiyi bu bəyanat daxil olub: *"Sosialistlər İttifaqı bununla kəndi üzvlərindən Məhəmməd Məhərrəmovun əzalıqdan istefasını havi kağızı pişnəhad etməklə, onun yerinə yoldaşımız Bağır Rzayevi Parlaman üzvlüyünə təklif ediyor".*[5]

21 may 1919-cu ildə A.b.Atamalıbəyovun imzası ilə Məclisi-Məbusanın təsərrüfat-sərəncam komissiyasına göndərilmiş məktubda fraksiya sədri, Məclisi-Məbusan üzvü Səmədağa Ağamalov üçün 3-4 otaqlı mənzil verilməsi xahiş edilir.[6]

Maraqlı olan budur ki, məktubun yazıldığı blankın üstündə fraksiyanın 2 dildəki adı məzmunca fərqlənir. Türkcə yazılıb: *"Azərbaycan Məclisi-Məbusanının sotsial-demokrat fəhlə firqəsi "Hümmət"in fraksiyonu".* Ruscasında isə öncə belə olub: *«Азербайджан. Парлам. фракция соц.-демок. рабочей партии «Гуммет»".* Ancaq ruscada yerdə qalan sözlər əllə pozularaq bu cür saxlanılıb: *"Азербайджан. Парлам. фракция социалистов".* Deməli, "Hümmət" və sosialistlər birləşib, birləşmiş fraksiyanın başçısı Səmədağa Ağamalıoğlu olub. Abbas bəy də bu fraksiyadadır.[7]

[1] Üzvlük haqqını itirir.
[2] ARDA, fond 895, siyahı 6, iş 5, vərəq 28.
[3] Yenə orada, siyahı 1, iş 206, vv. 117-117a.
[4] Yenə orada, vərəq 115.
[5] Yenə orada, siyahı 6, iş 5, vərəq 6a.
[6] Yenə orada, siyahı 5, iş 2, vərəq 139.
[7] Yenə orada, vərəq 139.

Abbas bəy Atamalıbəyov 3 iyun 1919-cu ildə valideyni xəstə olduğuna görə on günlük məzuniyyət istəyib və elə həmin gün Həsən bəy Ağayevin imzası ilə ona bu icazə verilib.[1]

* * *

Azərbaycan Parlamanının üzvü olan Petroqrad Politexnik İnstitutu gəmiqayırma bölümü (fakültəsi) IV kursunun tələbəsi Abbas bəy Atamalıbəyov 17 avqust 1919-cu ildə AC xalq maarif nazirinə bu məzmunda bir ərizə yazıb:

"Xaricdə ali təhsilimi bitirmək üçün hökumət təqaüdlərindən birinin mənə ayrılmasına sərəncam verməyinizi acizanə xahiş edirəm.

Bununla bildirirəm ki, mən 1914-cü ildən 1917-ci ilin sonunadək Petroqrad Politexnik institutunun tələbəsi olmuşam və gəmiqayırma bölümünün IV kursunda idim. İndi İsveçrənin texniki ali məktəblərindən birində oxumaq istəyirəm. Bu avqust ayının ortasında mən hökumətin tapşırığı ilə Parisə, bizim Sülh Heyətinin yanına gedəcəyimə görə istədiyim təqaüdü mənə elə verməyinizi acizanə xahiş edirəm ki, mən hökumətin tapşırığını yerinə yetirərək Avropadan qayıdan kimi yenə geri dönüb təhsilimi davam etdirə bilim".[2]

Bu ərizənin arxasında tələbələr Bürosunun sədri Teymur Aslanovun imzaladığı belə bir arayış var ki, Atamalıbəyov haqqında əlavə bilgilər və fotoşəkillər təqdim edilməyib.[3]

Azərbaycan Hökuməti-Cümhuriyyəsi xariciyyə naziri Məhəmmədyusif Cəfərov iki gün sonra – 19 avqust 1919-cu ildə Parlaman üzvü Abbas bəy Atamalıbəyova 2660 saylı bu məktubu göndərib: "Hörmətli cənab Abbas bəy. Parisə bizim Heyətə informasiya materialları ilə diplomatik kuryer göndərmək istəyərək və bundan ötrü ölkəmizin daxili həyatında baş verən bütün hadisələrdən xəbərdar olan və Heyətimizi mümkün qədər tam məlumatlandıra biləcək bir şəxsi göndərməyi vacib sayaraq Sizdən xahiş edirəm ki, həmin kuryer kimi Parisə getmək zəhmətini öz üzərinizə götürəsiniz. Sizə tam hörmət və ehtiramımı qəbul edin".[4]

Beləliklə, onun İsveçrəyə gedərək ali təhsil almaq arzusu ilə dövlətin onu Parisə göndərmək istəməsi zamanca üst-üstə düşdü.

Abbas bəy 21 avqust 1919-cu ildə "Azərbaycan Cümhuriyyəsi Parlamanı Divani-Rəyasəti-əliyyələrinə" ərizə yazdı: "Xariciyyə naziri tərəfindən bənim ismimə olan məktubu təqdim edərək məktubda mündəric məsələyi ifa üçün bəndəyə ay yarım vədəyə məzuniyyət vermənizi rica ediyorum".[5]

24 avqust 1919-cu ildə Azərbaycan Məclisi-Məbusan Divani-Rəyasətinin iclası keçirilib. Sultanməcid Qənizadə sədrlik edib. İştirakçılar Əhmədcövdət Pepinov, Mehdi bəy Hacınski, Bayramniyazi Kiçikxanovdur.

Müzakirə edilən 1-ci məsələ Parlaman üzvü Abbas bəy Atamalıbəyovun Parisə kuryer-qasid sifəti ilə getməsi üçün bir ay yarım məzuniyyət istəməsi haqqında ərizəsidir. Qərar çıxarılıb: məbus (deputat) Abbas bəy Atamalıbəyova 1 ay məzuniyyət verilsin.[6]

[1] ARDA, fond 895, siyahı 2, iş 5, vərəq 4.
[2] Yenə orada, fond 51, siyahı 3, iş 56, vərəq 1.
[3] Yenə orada.
[4] Yenə orada, siyahı 2, iş 5, vərəq 2.
[5] Yenə orada, vərəq 1.
[6] Yenə orada, siyahı 1, iş 203, vərəq 57.

Vilayət Quluyev yazır ki, 1919-cu ilin avqustunda Parlamentin sosialist fraksiyası Nümayəndə Heyətinin tərkibindəki üzvləri barəsində rotasiya qərarı çıxarmış və M.Məhərrəmovu əvəz etmək üçün Abbas bəy Atamalıbəyovu Parisə göndərmişdi. Lakin həmin dövrdə heyətin başqa bir üzvü – M.H.Hacınski artıq Azərbaycana qayıtdığından həm M.Məhərrəmovun, həm də A.Atamalıbəyovun Parisdə qalmaları məqbul sayılmışdı. Həyat və fəaliyyəti haqqında çox cüzi məlumat toplaya bildiyimiz A.Atamalıbəyov nümayəndə heyətinin katibi vəzifəsini yerinə yetirirdi.[1]

Azərbaycan Sülh Heyətinin başçısı Ə.b.Topçubaşovun Parisdən AC Nazirlər Şurası sədrinə yazdığı 22-25 sentyabr 1919-cu il tarixli 9 saylı məktubdan: "Verilən məlumatların mühüm qisminin artıq müxtəlif qaynaqlardan bizə bəlli olmasına baxmayaraq, bu, Nümayəndə Heyətinin ölkədə baş verən hadisələrlə bağlı öz hökumətindən aldığı ilk, təfərrüatlı bilgidir; ən başlıcası isə göndərdiyi məlumatlara aldığı ilk cavabdır. Lakin çox təəssüf ki, haqqında söhbət gedən sənədlər və qəzetlər əlavə edilməmişdir. C-b Sübhanverdixanov[2] onları c-b Atamalıbəyovun şəxsən gətirəcəyini yazır".[3]

Abbas bəy xatırlayır:

"...Mən Azərbaycan Nümayəndə Heyətinin baş katibi idim. Lakin bəzi işlərim olduğundan sözügedən heyətdən bir az gec yola düşdüm.

Mən "Zarya" adlı qəzet nəşr edirdim. Onun öz nəşrini davam etdirməsi zəruri olduğundan iki-üç ay sonra yola düşdüm".[4]

Sülh Heyətimizin başçısı Ə.b.Topçubaşovun AC Nazirlər Şurası sədrinə yazdığı 6-10 noyabr 1919-cu il tarixli 10 saylı məktubda bir neçə yerdə Abbas bəy Atamalıbəyovun da adı çəkilir. Onun qeydlərini oxuculara da maraqlı olacağı düşüncəsiylə aşağıda veririk:

"Oktyabrın 9-da kuryer sifətində Abbas bəy Atamalıbəyov xanımı ilə birlikdə gəldi. Onlar yola düz əlli gün vaxt sərf etmişdilər. Uzun müddət Romada ləngiməli olmuşdular. Çünki fransızlar ölkəyə giriş vizası vermirdilər. O, okytyabrın 5-də kömək üçün bizə müraciət etmişdi. Təbii ki, dərhal lazımi yardım göstərildi. Gətirilən bütün qəzetləri, qovluq və zərfləri aldıq. Əlbəttə, onların böyük bir qismi artıq köhnəlmişdir. Lakin buna baxmayaraq Nümayəndə heyətinin birinci dəfə sistemli şəkildə həm qəzetləri, həm də xüsusən xarici siyasətlə bağlı məlumatları alması bizim üçün çox sevindirici idi".[5]

"Çox təəssüf ki, haqqında söhbət gedən qəzet kəsikləri tapılmadı. Atamalıbəyovun verdiyi izahata görə, içərisində qəzet kəsikləri olan zərf Tiflisdə geri götürülüb və Bakıya qaytarılıb".[6]

"Bu fəsli c-b Atamalıbəyov üçün yaranmış vəziyyəti qeyd etməklə başa çatdırmaq istəyirəm. O, başqa sənədlərlə birlikdə xarici işlər naziri c-b Cəfərovun imzaladığı məktubu da gətirib. Həmin məktubda bildirilir ki, Parlamentin sosialist fraksiyası Məhərrəmovu geri çağırmaq və onu Atamalıbəyovla əvəz etmək barəsində qərar çıxarıb. Daha sonra göstərilir ki, əgər Məhərrəmovun və mənim hər hansı etirazımız yoxdursa fraksiyanın qərarı hökumət tərəfindən də etirazla qarşılanmır. Mən deyərdim ki, çox çətin, hətta müəyyən şərait daxilində həlledilməz bir məsələ ortaya atılmışdır - təəvvür edin ki, c-b Məhərrəmov tərəfdən heç bir maneə yoxdur, lakin mənim tərəfdən var, yaxud da əksinə, bəs onda necə olsun?

[1] *Topçubaşov Ə.b.* Paris məktubları, s. 6.
[2] AC Xariciyyə Nəzarətinin katibi Abdulla bəy Sübhanverdixanov (Divanbəyoğlu) (1883-1936).
[3] *Topçubaşov Ə.b.* Paris məktubları, s. 52.
[4] *Atamalıbəyov A.b.* Siyasi mühacirin xatirələri. // *"Ayna"*, 21 fevral 2003, №7, s. 9.
[5] *Topçubaşov Ə.b.* Paris məktubları, s. 86.
[6] Yenə orada, s. 87.

Hər şeydən əvvəl, diqqətinizə çatdırmalıyam ki, indiki şəraitdə əvəz edən şəxsin əvəz olunanın vəzifəsini aparıb-apara bilməyəcəyini qabaqcadan nəzərə almadan mexaniki şəkildə onların birinin digəri ilə yerinin dəyişdirilməsi çətin ki, məqbul sayıla bilər. Əlbəttə, Nümayəndə heyətinin tərkibinin yeni adamlarla tamamlanması niyyəti başadüşüləndir. Lakin bu və ya digər situasiyaların nəzərə alınmasını tələb edən mülahizələrdən kənarda həyata keçirilən belə əvəzetmənin işə fayda gətirəcəyini düşünmürəm. Sonra, Parlamentin qərarına istinad olunur. Əlbəttə, mən bunun əleyhinə deyiləm. Lakin Nümayəndə heyəti ayrı-ayrı partiyalara mənsub şəxslərdən təşkil olunsa da özünün indiyəqədərki fəaliyyətində bütünlükdə partiya maraqlarına deyil, Azərbaycanın mənafelərini əsas tutan ümumi mülahizələrə əsaslandığını bildirməyi özümə borc sayıram...".[1]

"Deyəsən, burada biz hamımız belə bir nəticəyə gəlmişik. Nümayəndə heyətinin hələ sentyabrda qəbul etdiyi qərara əsasən Məhəmmədhəsən Hacınskinin ardınca Məhərrəmov sentyabr ayında Bakıya ezam olunur. Abbas bəy Atamalıbəyov isə bu məsələ aydınlaşana qədər Nümayəndə heyətinin katibi vəzifəsini icra edəcəkdir".[2]

Azərbaycan Məclisi-Məbusan rəisinə 20 dekabr 1919-cu ildə sosialistlər fraksiyonu sədri Aslan bəy Səfikürdskinin və katib Bağır Rzayevin imzasıyla belə bir rəsmi məktub göndərilib:

"Parlamanın sosialistlər ittifaqı fraksiyonu (blok) Parlamandan xaric olmuş yoldaşımız Abbas Atamalıbəyovun yerinə yoldaşımız İbrahim İsmayılzadəni intixab ediyor və rica olunur ki, məzkur İsmayılzadə cənabın Parlamana üzv olmasını əvvəlimci iclasda bəyan edəsiniz".[3]

Əcnəbi dövlətlərə göndəriləcək bütün 100 dövlət təqaüdçüsü üçün şəkillisurğuclu vəsiqə artıq 13 yanvar 1920-ci ildə yazılıb qollanaraq hazır edilmişdi. Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına xaricə oxumağa göndərilməsi haqqında 527 saylı vəsiqə Abbas bəy Atamalıbəyovun adına yazılıb və altında belə bir qeyd edilib:

"Bu vəsiqənin əsli Parisdəki Azərbaycan Sülh Heyətinin sədri adına 16 yanvar 1920-ci ildə göndərilmiş 657 saylı məktuba əlavə edilib. Bu məktuba 3 min franklıq dörd qəbz də qoşulub".[4]

Bu sənəd göstərir ki, Parisə getmiş A.b.Atamalıbəyov üçün 3 min franklıq təqaüd göndərilib. Ancaq o, 14-16 yanvarda Avropaya yola düşmüş tələbələrin arasında deyil, onları Parisdə qarşılayan Sülh Heyəti üzvləri arasında idi.

* * *

Abbas bəyin xatirələrindən:

"Mən əvvəlcə gəmi ilə İtaliyaya gəldim, çünki hökumət mənə tələbələrlə bağlı məsələnin həllini həvalə etmişdi. Hökumət Avropaya 100 tələbə göndərəcəyini elan etmişdi ki, Rusiya universitetlərində oxumaları mümkünsüz olduğundan, təhsillərini dünyanın digər ali məktəblərində bitirə bilsinlər. Qafqazda universitet açılmasının əleyhinə olan Rusiyanın imperiya siyasəti üzündən bizim məmləkətdə o vaxt universitet yox idi.

[1] *Topçubaşov Ə.b.* Paris məktubları, s. 88.
[2] Yenə orada, s. 89.
[3] ARDA, fond 895, siyahı 6, iş 5, vərəq 10a.
[4] Yenə orada, fond 51, siyahı 3, iş 56, vərəq 5-5a.

Mən əvvəlcə Romada xarici işlər naziri ilə görüşüb söhbət etdim. Qafqazla, xüsusilə də Azərbaycanla yaxından maraqlanan İtaliya hökuməti 40 tələbəni qəbul etməyə və onların İtaliyada təhsil almalarına şərait yaratmağa söz verdi. Mən oradan Sülh Konfransının təzəcə öz işinə başlamış olduğu Parisə getdim. Burada bizə təsəvvürəgəlməz bir oteldə – Britaniya və bir sıra ölkələrin nümayəndə heyətlərinin qaldığı "Klaric" otelində yer verildi..."[1]

Bakı – Tiflis – Batum – Trabzon – İstanbul – Trento – Roma marşrutu üzrə yol gələn dövlət təqaüdçülərinmiz 1920-ci il yanvarın 31-də qatarla Parisə çatıblar. Vağzalda onları Azərbaycan Sülh Heyətinin başçısı Əlimərdan bəy Topçubaşı və Heyətin iki əməkdaşı: Abbas bəy Atamalıbəyovla Məhəmməd Məhərrəmov qarşılayıblar. Onlar bildiriblər ki, sizin üçün iki oteldə[2] yer hazırlatmışıq. Hər otelin özəl avtobusu vağzalın qarşısında sizi gözləyir. Otellərinizə gedərsiniz, yerləşərsiniz, axşam və səhər yeməklərinizi orada yeyərsiniz.[3]

Cümhuriyyət tələbələri ilə bağlı yazıların çoxunda məşhur bir foto verilir. Parisdəki "Claridge's" otelinin qarşısında 13 fevral 1920-ci ildə çəkilmiş bu şəkildə 48 tələbə ilə birgə Sülh Heyətinin əməkdaşları A.b.Atamalıbəyovu və M.Məhərrəmovu da görürük (onlar ən ortada yan-yana oturublar). Əlimərdan bəy Topçubaşı kimi, bu kişilər də Parisdə olduqları bütün müddət boyunca tələbələrimizin qayğısına qalaraq onlara hayan olmağa çalışıblar. Əlamətdar cəhət burasıdır ki, Abbas bəyin özü də tələbə olduğu halda tələbə yoldaşlarına himayədarlıq edirdi.

Sülh Heyətinin üzvü Məhəmməd Məhərrəmov və katibi Abbas bəy Atamalıbəyov Bakıya – maarif nazirinə Heyət adından 28 mart 1920-ci ildə tələbələrin durumu ilə bağlı ilk və son məktub yazaraq Berlindən keçməklə Bakıya gedən özəl bir şəxslə göndəriblər. Sənəddə bildirilir ki, Avropaya yola salınmış tələbələrin 52 nəfəri fevralın başlanğıcında Parisə çatıb, 23 nəfər isə İtaliyada qalıb. Parisə gələnlərdən 28 nəfər artıq Almaniyaya yollanıb və İtaliyada qalan 23 nəfərdən 17-si də Almaniyaya getmək istəyini bildirib; bu 17 nəfər hal-hazırda Romada Almaniyaya viza gözləməkdədir. Onlara veriləcək təqaüdün indiyədək yetişməməsinə baxmayaraq, Sülh Nümayəndəliyimiz öz vəsaitlərindən Almaniyaya gedən tələbələrə 3 ay qabaqcadan təqaüd verməyə məcbur olub. Belə ki, bu cür edilməsəydi onlar gedə bilməzdilər. Fransada təhsil almaq üçün qalmış 24 nəfərə və İtaliyada qalmış 6 nəfərə gəlincə, Sizin məktubunuza əsasən, onlara fevral ayı üçün təqaüd verilib və mart üçün də verilməlidir, çünki mart artıq bitməkdədir, Sizdən isə təqaüd vermək üçün pullar alınmayıb. Nəzərinizə çatdırmağı gərəkli sayırıq ki, bundan sonra da pulların alınmaması tələbələrimizi faciəli duruma sala bilər, heç onu demirik ki, mövcud həyat şərtlərində təyin edilmiş aylıq 400 frank həyat üçün yetərsizdir. Buna görə də tələbələrin yaşaması üçün onlardan ötrü nəzərdə tutulmuş pulların maksimum təcili şəkildə göndərilməsi üçün mümkün olan bütün tədbirləri görməyinizi xahiş edirik.[4]

Əslində bu məktub Sülh Heyətinin tələbələri nə qədər dəstəklədiyini təsdiqləyir.

Məktub bu cümlə ilə bitir: "Məlumat üçün bildiririk ki, Gürcüstan nümayəndəliyi öz tələbələrinə təhsil haqqı və kitab xərclərini nəzərə almadan yalnız yaşayış üçün ayda 750 frank verir".[5]

[1] *Atamalıbəyov A.b.* Siyasi mühacirin xatirələri. // *"Ayna"*, 21 fevral 2003, №7, s. 9.
[2] "Yena" və "Belmont" otellərində (bax: ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 56).
[3] *Şaryal İ.* Bakü rüzgarı, s. 104.
[4] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 45-45a. Məktubu Maarif Nəzarəti Cümhuriyyətin yıxılmasına 11 gün qalmış – 18 aprel 1920-ci ildə alıb.
[5] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 45-45a.

"100 tələbə"dən biri – Abbasmirzə Əliyevin sonralar "NKVD" zindanında müstəntiqə verdiyi izahatdan aydın olur ki, tələbələr Azərbaycandakı çevriliş xəbərini 1920-ci il mayın başlanğıcında qəzetlərdən öyrəniblər. Onların bir neçəsi (Qəhrəman Məmmədov, Abbasmirzə Əliyev və b.) bu xəbəri sevinclə qarşılayıb və ümumi yığıncaq çağıraraq Azərbaycan İnqilab Komitəsinə təbrik teleqramı göndərib. Bu hərəkət Sülh Heyətinin xoşuna gəlməyib və bildirib ki, həmin tələbələr bundan sonra Bakıya, Sovet hökumətinə müraciət etməli və pullarını oradan almalıdırlar. Bu qərarla razılaşmayan tələbələr Parisə etiraz məktubu göndərərək təqaüd istəyiblər. Bundan sonra Heyətin üzvü Abbas bəy Atamalıbəyov Berlinə gələrək onlara 1-2 aylıq pullarını (üzülüşmə pulunu), eləcə də Bakıya dönmək üçün yolpulu verib.[1]

Xatırladaq ki, Abbas bəy ali təhsil üçün İsveçrəyə getmək arzusundan əl çəkməli oldu, Parisdə qalıb elə burada da Siyasi Elmlər İnstitutunu bitirdi.

* * *

Abbas bəy Atamalıbəyovun Paris həyatının ilk dönəmində Ceyhun bəy Hacıbəyliyə yazdığı məktublar böyük vətəndaş və görkəmli diplomat Ramiz Abutalıbovun sayəsində Azərbaycana gətirilib və indi Salman Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivində saxlanılır. Rusca yazılmış həmin məktubları ana dilimizə çevirərək oxucuların ixtiyarına veririk.

Birinci məktub.

"18 mart 1920. Paris. Əziz Ceyhun bəy! Sizin Zöhrə xanımın sağ-salamat qurtarmasını[2] xəbər verdiyiniz məktubunuzu aldım. Bu xoşbəxt hadisəni mən hələ 13 martda Məhərrəmovdan öyrəndim və elə həmin gün sizə təbrik teleqramı göndərdim.[3] Ancaq iş burasındadır ki, Məhərrəmov Sizin ünvanınızı (Hotel Exelcior) tam dəqiq verməyib. Əslində Sizin ünvanınız, dünən məktubunuzda gördüyüm kimi, Exelcior Regine Hotel imiş. Buna görə də bu məktubu alıb-almadığınızı bilmirəm. Almamısınızsa poçta xəbər verin, güman edirəm ki, Sizə çatdırarlar. Hər bir halda bir daha yoldaşım və mən Zöhrə xanımı və Sizi dünyaya yeni Azərbaycan vətəndaşının xoşbəxt gəlişi münasibətilə səmimi qəlbdən təbrik edirik və onu öpməyinizi xahiş edirik.

Siz Sülh Heyətinin San-Remoya gəlməsi ilə bağlı yazırsınız, ancaq mən bu haqda heç nə deyə bilmərəm, çünki Əlimərdan bəy Əkbər ağa[4] və Miryaqub[5] indiyədək hələ də Londondadırlar və yəqin ki, 21 marta gələrlər. Buna görə heyətin sonrakı planlarından heç nə bəlli deyil. Balzakdakı apartamentlərə gəlincə keçən məktubda sizə xəbər vermişdim ki, onlar 1 apreldə boşalacaq. Bu gün mən onlara baxmaq istədim. Bu gün mən onları sizin adınıza saxlamağı xahiş etdim, ancaq aydın oldu ki, apartamentlərin sakinləri orada hələ 1 iyunadək qalacaqlar. Başqa hər hansı oteldə qalmaq istəyirsinizsə yazın və oteli, yaxud istədiyiniz küçəni göstərin, mən münasib yer tapmağa çalışacağam. Ancaq gəliş gününüzü bildirin ki, mən onlardan

[1] Əliyev Abbasmirzə Əhməd oğlunun öz əli ilə yazdığı izahat. // AR MTN arxivi, PR-22247, vv. 18-19.
[2] Söhbət Hacıbəyli ailəsinə "bəbə" gəlməsindən gedir.
[3] 13 mart 1920-ci ildə Parisdən göndərilmiş bu teleqramın mətni də bu işin içərisində saxlanılır (bax: S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 3, iş 9, vərəq 3).
[4] *Əkbər ağa Şeyxülislamov* (1891-1961).
[5] *Miryaqub (Mir)mehdiyev* (1891-1952).

bu tarixədək hazırlanmağı xahiş edim. Bizdə elə bir xəbər yoxdur. Azərbaycandan da başqa xəbərlər yoxdur.

Yoldaşımdan və məndən Zorya xanıma və Sizə salamlar. Ceyçiki öpürük.

Sizin Abbas (Atamalıbəyovun imzası).

Teymur Aslanovdan[1] salam".[2]

İkinci məktub.

"[20 iyul 1920-ci ildən öncə]

Əziz Ceyhun bəy! 20 iyulda Qafqaz Respublikaları Təmsilçilərinin Müşavirəsinin iclasında ümumi mətbuat bürosu yaratmaq qərara alındı. Bu büroya daxildirlər: Siz, c-b Veşapeli – Gürcüstan parlamentinin üzvü, Dağlılardan Cabagiyev və c-b Anulyan. Bu büronu çağırmaq mənə tapşırılıb. Buna görə, eləcə də bizim özümüzə (Heyətə) bazar günü axşam, yaxud çərşənbə axşamı iclas keçirmək vacib olduğu üçün mən mətbuat bürosunun iclasını bazar ertəsi – ayın 25-i saat 4-ə təyin etmişəm. Siz burada gecələməli və çərşənbə axşamına qalmalı olacaqsınız.

Ə.a.Şeyxülislamov dünən Romaya gedib, çünki məlumat alıb ki, İtaliya Xarici İşlər Nazirliyi onları qəbul etməyə hazırlaşır.

Ola bilsin ki, bizim şənbə günü Kabura sizin görüşünüzə gəlmək imkanımız olsun. Məhəmmədin[3] dediklərinə görə, sizdə şərait yaxşıdır. Ancaq bilmirəm ki, gələ biləcəyikmi? Bu halda biz Sizinlə bir yerdə bazar ertəsi iclasa gələrdik. Sizə iclasın gündəliyi və Ceyçik üçün doğum şəhadətnaməsini göndərirəm.

Ceyçiki, eləcə də balaca Bacını[4] bərk-bərk öpürəm.

Zöhrə xanıma səmimi salamlar.

Sizə səmimi ehtiramla,

A.Atamalıbəyov.

P.S. Bankdan pulların C.b.Qayıbovun adına köçürülməsi haqqında arayış aldım və bu gün c-b Testenuara göndərdim.

(İmza)".[5]

* * *

Abbas bəy Atamalıbəyovun katiblik etdiyi Rarisdəki Azərbaycan Sülh Heyəti Azərbaycan tarixində olduqca şərəfli yer tutur, çünki Azərbaycan Cümhuriyyətinin beynəlxalq aləmdə de-fakto (felən) tanınmasında onun müstəsna əməyi olub. Bu gün BMT-nin üzvü olan müstəqil dövlətimizin hər bir vətəndaşının başda Əlimərdan bəy Topçubaşı olmaqla bu Heyətin hər bir üzvünə minnətdarlıq borcu var.

Qarşısına qoyulan ən mühüm vəzifənin – Azərbaycanın tanıdılmasının öhdəsindən bacarıqla gəlmiş Sülh Heyəti 1920-ci ilin aprelində Cümhuriyyətin süqutundan sonra da siyasi fəaliyyətini dayandırmadı, əksinə, daha da genişləndirdi. Doğrudur, 1930-cu illərin ortalarına yaxın Rusiya ilə əlaqələrini yavaş-yavaş sahmana salmağa başlamış ABŞ və aparıcı Qərbi Avropa dövlətlərinin siyasi mühacirətdən üz döndərməsi səbəbindən yaranmış maddi imkansızlığa görə (Əlimərdan bəyin pulsuzluq üzündən hətta

[1] "100 tələbə"dən biri.
[2] S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 3, iş 9, vv. 1-2.
[3] *Məhəmməd Məhərrəmov* (1885-1982) nəzərdə tutulur.
[4] "Bacı" Hacıbəylinin kiçik oğlu Timuçinə verilən əzizləmə addır (bax: *Топчибаши А.М.:* документы из личных архивов. 1903-1934 гг. М., 2012, s. 185).
[5] S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 3, iş 9, vərəq 7a.

küçəyə çıxmağa imkanının olmamasını xatırlayaq) bu fəaliyyət yetərincə zəifləsə də ümumqafqaz, ümumtürk mücadiləsində Müsavat Partiyası və başqa siyasi qurumlarla birgə mübarizəni inadla davam etdirdi.

Abbas bəy Atamalıyev o günləri yada salır:

"...Azərbaycan nümayəndə heyətinə Parlamentin prezidenti cənab Topçubaşı, Gürcüstan nümayəndə heyətinə isə Parlamentin prezidenti cənab Çxeidze rəhbərlik edirdi. Şimali Qafqaz nümayəndə heyətinin başçısı isə Şimali Qafqaz hökumətinin xarici işlər naziri Heydər Bammat idi. Qafqaz Ermənistanı heyətinin başçısı yazıçı Avetikyan, Türkiyə Ermənistanı heyətinin başçısı isə bir paşa, Misirdən olan çox varlı bir tacir və Türkiyənin keçmiş xarici işlər naziri Murudibyan idi. Vahid cəbhə yaratmaq məqsədi ilə bu heyətlər arasında bir neçə görüş keçirilsə də iş müvəffəqiyyətsizliyə uğradı. Ermənilər heç nə eşitmək istəmirdilər, çünki onlar Birləşmiş Ştatlardan xüsusi himayə almaq və Birləşmiş Ştatların Ermənistan üzərində mandatına nail olmaq umudunda idilər...

...Cenevrədə təşkil olunmuş Millətlər Liqası çərçivəsində imkanlarımız daxilində davamızı sürdürürdük və ildə bir dəfə oraya gedərək xarici qüvvələrdən bu mübarizədə yardımçı olmalarını xahiş edirdik, lakin bu yardım heç vaxt göstərilmirdi. Millətlər Liqası isə orda-burda qətnamələr qəbul edirdi. Və nəhayət, 1923-cü ildə Sovet Rusiyası Millətlər Liqasına qəbul edildi. Əlbəttə, bu halın bizim Millətlər Liqasındakı imkanlarımıza son qoymasına baxmayaraq, hər il diplomatik notalarımızı və nümayəndələrimizi Cenevrəyə göndərməkdə davam edirdik".[1]

Başda Məhəmmədəmin Rəsulzadə olmaqla İstanbulda toplaşan Azərbaycan Türkləri öz aralarında siyasi bir birlik qurmaq məqsədi ilə bir təşkilata ehtiyac duymuşdular. Bu ehtiyacı ödəmək üçün *Azərbaycan Milli Mərkəzi* (AMM) adlı təşkilat yaratmışdılar. AMM Azərbaycanın istiqlalçı və milliyyətçi fəal ünsürlərini birləşdirmək, milli istiqlal davasını xaricdə təmsil, sövq və idarə etmək məqsədilə 27 aprel 1924-cü ildə Müsavat Partiyası lideri və Azərbaycan Milli Şurası rəisi Məhəmmədəmin Rəsulzadənin sədrliyi altında Milli Hökumətin öndə getmiş dövlət adamları tərəfindən İstanbulda qurulub. Milli Mərkəz 28 may 1918 – 27 aprel 1920-ci illər arasındakı Milli Hökumətin mühacirətdəki davamı idi.

Bu dönəmdə, yəni 1924-1931-ci illər arasında Azərbaycan Milli Mərkəzində bu şəxslər yer almışdı:

1. Məhəmmədəmin Rəsulzadə
2. Abbas(qulu) Kazımzadə
3. Məhəmmədəli Rəsuloğlu
4. Xəlil bəy Xasməhəmmədli
5. Əlimərdan bəy Topçubaşı
6. Əkbər ağa Şeyxülislam
7. Mustafa Vəkilli
8. Miryaqub Mehdizadə
9. Ceyhun Hacıbəyli
10. Məhəmmədsadıq Aran
11. Şəfi bəy Rüstəmbəyli
12. General İsrafil bəy [Yadigar]

[1] *Atamalıbəyov A.b.* Siyasi mühacirin xatirələri. // *"Ayna"*, 28 fevral 2003, №8, s. 9.

13. Abbas Atamalıbəyli
14. Əbdüləli bəy Əmircan
15. Nağı (Keykurun) Şeyxzamanlı
16. Məhəmməd Məhərrəm[ov].[1]

Məhəmmədəmin Rəsulzadənin redaktorluğu ilə İstanbulda çıxan "Bildiriş" qəzeti 1930-cu ilin oktyabrında "Azərbaycanın muhtırası"[2] başlıqlı xəbərdə bildirirdi:

"Parisdə müqim Azərbaycan Heyəti-Müraxxəsəsi Cəmiyyəti-Əqvamın[3] eylül ictiması rəisi[4] Tituleskoya bir muhtıra təqdim eləmişdir. Muhtırada Sovet istilası altında bulunan Azərbaycanın bulunduğu ağır vəziyyəti və bu üzdən mühacir olan azərilərin fəci halları təsvir edilmişdir. Muhtırayı Miryaqub bəylə katib Abbas bəylər imzalamışlardır".[5]

10 may 1934-cü ildə Gürcüstanın və Ukrayna Xalq Respublikasının keçmiş xarici işlər nazirləri Yevgeni Gegeçkori və Aleksandr Şulginin təşəbbüsü ilə Parisdə Qafqaz, Türküstan və Ukrayna Xalqlarının Dostluğu Komitəsi *(le Comité d'Amitié des Peuples du Caucase, du Turkestan et de l'Ukraine)* yaradıldı.

2 il sonra bu qurum Varşavadan xarici dövlətlər və Millətlər Liqası qarşısında diplomatik demarşlarla çıxış etmək hüququ aldı və bu demarşlarda "Promotey" klubu üzvü olan, ancaq Dostluq Komitəsinə daxil olmayan dövlətlərin də işini müdafiə etməyi öhdəsinə götürdü. Hücum etməmək haqqında 1932-ci il Fransa-Sovet sazişinin müddəalarına uyğun olaraq, Fransa ərazisində rəsmi antibolşevik təşkilatların yaradılması qadağan edildiyinə görə dostluq komitəsinin statusunda onun fəaliyyət məqsədi formal baxımdan mədəni tədbirlərin təşkili, o sıradan "a) konfransların, ədəbi və musiqili axşamların, qəbul və ziyafətlərin təşkili; b) dərgilərin və b. nəşri yolu ilə Qafqaz (Azərbaycan, Şimali Qafqaz, Gürcüstan), Türküstan və Ukrayna xalqlarının yaxınlaşmasına və dostluğuna yardım göstərmək" qeyd olunmuşdu.

Komitənin Aleksandr Şulgin (sədr) və Abbas bəy Atamalıbəyovdan (katib) ibarət rəhbər bürosu seçilib. Komitənin üzvləri Azərbaycandan Mirqayub Mehdiyev və Əli bəy Əlibəyov, Gürcüstandan Akaki Çxenkeli, Şimali Qafqazdan İbrahim Çulik, Türküstandan Mustafa Çokay, Ukraynadan A.Şulgin və İ.Kosenko idi. Büronun tərkibi hər iki ildən bir yenilənməli idi.[6]

Abbas bəy Atamalıbəyov "Prometey" hərəkatının fəal iştirakçılarındandı. O, 1935-1939-cu illərdə Qafqaz Konfederasiyası Şurasının tərkibinə daxil olub.[7]

Qafqaz Konfederasiyasının 15-16 yanvar, 23 fevral 1935-ci il tarixli iclaslarında Azərbaycandan Məhəmmədəmin Rəsulzadə, Miryaqub Mehdiyev, Məhəmməd Məhərrəmov, Abbas bəy Atamalıbəyov, Əliəkbər bəy Topçubaşı iştirak ediblər. Azərbaycandan katib A.b.Atamalıbəyov seçilib.[8]

[1] Doç. *Dr. Şimşir S.* Azerbaycanın İstiklal mucadelesi. İstanbul, 2006, ss. 28-30.
[2] Memorandum.
[3] Millətlər Cəmiyyətinin.
[4] Sentyabr toplantısının sədri.
[5] *"Bildiriş"*qəzeti, 2 təşrini-əvvəl (oktyabr) 1930, №9, s. 1.
[6] *Мамулия Г.* От Тифлиса до Киева и Варшавы. Из истории кавказско-украинского сотрудничества в рамках движения «Прометей (1918-1939). // http://kavkasia.net/World/article/1319844971.php.
[7] Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения «Прометей»: Сборник документов / Сост., пред., пер., прим. Г.Г.Мамулия. // М., 2012, s. 215.
[8] Yenə orada, s. 101.

Qafqaz Konfederasiyası Şurasının (QKŞ) 8 mart 1936-cı il tarixli iclasında Azərbaycandan Məhəmmədəmin Rəsulzadə, Miryaqub Mehdiyev, Abbas bəy Atamalıbəyov və Məhəmməd Məhərrəmov iştirak ediblər.[1] Abbas bəy QKŞ-nın 17 mart 1936-cı il iclasında da iştirak və çıxış edib.[2] O, QKŞ-nın 24 mart 1936-cı il iclasına da qatılıb və öz təkliflərini verib.[3]

QKŞ-nın 24 sentyabr 1938-ci ilədək keçirilən bütün yığıncaqlarında A.b.Atamalıbəyovun iştirak etdiyini görürük.[4]

Qafqaz Respublikaları Nümayəndələri Komissiyasının 4 fevral 1939-cu il iclasında Azərbaycandan Miryaqub Mehdiyev və Atamalıbəyov iştirak ediblər.[5]

1942-ci ildə Almaniyada sovet hərbi əsirlərindən milli legionlar təşkil olunarkən A.b.Atamalıbəyov da bu işdə yaxından iştirak edib. O, Əbdürrəhman Fətəlibəyli-Düdənginski və Fuad Əmircanla birlikdə Almaniyanın Şərq Nazirliyinin milli legionlarla iş aparmaq üçün yaratdığı "Rabitə qurumu"nun tərkibinə daxil idi və burada SD birliklərindəki legionerləri təmsil edirdi.

"Rəsulzadənin və Müsavat partiyasının tərəfdarı olmayan Abbas bəy Atamalıbəyov "Sonderstab Kaukasus" bünyəsində Azərbaycan özəl qrupunun başqanı olmuşdu".[6]

Özü bu dönəmdəki fəaliyyətini belə dəyərləndirir:

"...1942-ci ilin yayında mühacirətdə yaşayan azərbaycanlılara yardım təşkilatı, xüsusən də Türkiyədə yaşayan mühacirlər və mənim dostlarım olan Azərbaycanın keçmiş siyasi xadimləri mənə almanların əlində olan çoxlu miqdarda müharibə əsirləri ilə məşğul olmaq tapşırığı verdilər. 1941-ci ilin iyunundan – alman-sovet müharibəsi başlayan dövrdən alman hərbçilərinin əlində 10 minlərlə həmvətənimiz əsirlikdə idi. 1941-42-ci illərin qışında onların əksəriyyəti əsir düşərgələrində soyuqdan və aclıqdan ölürdü. Onların taleyi ilə heç kim maraqlanmırdı, çünki Sovet Rusiyası nə Beynəlxalq Qırmızı Xaç, nə də digər təşkilatların üzvü idi. Bu cür tələf olanların sayı 35-40 min olardı. Azərbaycanlıların sayının 3,5 milyon olduğunu nəzərə alsaq, əsir düşmüş bu gənclərin taleyi bizim üçün qiymətli idi, üstəgəl onun üçün ki, onların bir hissəsi Qızıl Ordu sıralarında döyüşlər zamanı həlak olmuşdu.

Qarşımıza qoyulan vəzifə çox ağır və çox çətin idi. 10 minlərlə gənci nəyin bahasına olursa-olsun xilas etmək və onlara iş tapmaq lazım idi...

...1941-ci ilin qışında əsir düşərgələrində olan azərbaycanlıların sayı 45 minə yaxın idi. Mən bir neçə dəfə Almaniyaya getdim. Bir çox həbs düşərgələrini gəzə bildim, müxtəlif yerlərdə və əksər hallarda mən öz həmvətənlərimi tapa və onların həyatını xilas edə bildim. Beləliklə, mən Berlində 1945-ci ilin aprelinə – Almaniyanın süqutuna qədər qaldım və qafqazlı həmkarlarım ilə... həmvətənlərimi təhlükəli zonalardan çıxarıb nisbətən döyüşlər az gedən ərazilərə – Şimali İtaliyaya, Vürtenberqə, Bavariyaya keçirdim. O dövrün şəraitində bu, çox çətin, qorxulu və təhlükəli bir iş idi, çünki texniki çətinliklərdən savayı (nəqliyyat, ərzaq təchizatı, administrativ işlər və s.) bu iş bir tərəfdən fasiləsiz surətdə baş verən saysız-hesabsız bombardmanlar,

[1] Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения «Прометей»: Сборник документов/Сост., пред., пер., прим. Г.Г.Мамулия.// М., 2012, s. 138.
[2] Yenə orada, ss. 142-143.
[3] Yenə orada, ss. 147-148.
[4] Yenə orada, s. 188.
[5] Yenə orada, s. 199.
[6] *Von zur Mühlen P.* Gamalıhaç ilə Kızılyıldız Arasında. (İkinci Dünya Harbi`nde Sovyet Doğu Halkları). İstanbul, 2006, s. 127.

o biri tərəfdənsə tutularaq həbs düşərgəsinə salınma (bu, ən yaxşı hal idi), ya da ki, gestaponun əlinə düşmə təhlükəsi altında görülürdü.

...Mən Almaniyanı 1945-ci ilin aprelində tərk etdim və Berlində olduğum dövrdə əlaqə saxladığım Qırmızı Xaç Komitəsinin dəvəti ilə İsveçrəyə qayıtdım. Hələ 1945-ci ilin yanvarında mən Cenevrəyə gələrək öz həmvətənlərim barədə məlumat vermiş və iki həftə sonra yenidən Almaniyaya qayıtmışdım. Lakin müharibənin sona çatması ilə işlər qurtarmışdı. Doğrudur, həmvətənlərimin və digər qafqazlıların bir hissəsi vətənə qayıtdısa, digər bir hissəsi ya qayıtmadı, ya da ki, bu və ya digər səbəbdən qayıtmaq istəmədi. Almaniyada, İtaliyada, İsveçrədə (burada onlar təxminən 400 nəfər idi) qalan azərbaycanlıların dəqiq sayı məlum deyil. Dəqiq statistika yox idi. Hər halda, onların sayı bir neçə min idi. Onların taleləri qaranlıq idi. Elə ölkə tapmaq lazım idi ki, bu yeni emiqrantları qəbul etməyə razılıq versin. Mən Beynəlxalq Qırmızı Xaç və ABŞ-ın humanitar təşkilatları ilə (məsələn, UMSA) danışıqlar aparırdım, hal-hazırda da məhz bununla məşğulam. Nəzərə alaraq ki, azərbaycanlılar müsəlmandır, mən onları müsəlman ölkələrinə göndərmək imkanı barədə də fikirləşirdim; məsələn, Türkiyə, ərəb ölkələri və s. Heç şübhəsiz, bu ölkələr razıdırsa və müsbət cavab təqdirində bilmək lazımdır ki, bu və ya digər ölkə neçə nəfər qəbul edə bilər və hansı ixtisas sahibləri onlara əl verir...".[1]

28 may 1943-cü ildə Berlində Məhəmmədəmin Rəsulzadənin təşəbbüsü, Şərq Nazirliyi və Xarici İşlər Nazirliyinin iştirakı ilə Kayzerhof otelində Azərbaycanın bağımsızlığının 25-ci ildönümü bayram edilib. Tədbirə 150 Azərbaycan Türkü ilə yanaşı, bəzi alman vəzifəliləri də qatılıb. Təbriklərdə lazımi bilgi və açıqlama verməsi üçün Abbas bəy Atamalıbəyov və türkoloq prof. Yeşke çıxış ediblər. Atamalıbəyov Azərbaycan milli mücadiləsi, Azərbaycan Cümhuriyyətinin təşkili, fəaliyyəti, daxili və xarici siyasəti haqqında açıqlamalar verib.[2]

6 noyabr 1943-cü ildə Berlinin Kayzerhof otelində Azərbaycan Milli Birliyinin 1-ci qurultayı açılıb. Qurultay üç gün davam edib. Abbas bəy Atamalıbəyovun təklifi ilə 1918-1920-ci illər arasında fəaliyyət göstərən Milli Hökumətin təmsilçilərindən ibarət İdarə Heyətinin seçilməsinə keçilib. Təklif səs çoxluğu ilə qəbul edilib. Məhəmmədəmin Rəsulzadə, Xəlil bəy Xasməhəmmədov, Mustafa Vəkilov, Miryaqub Mehdizadə, Şəfi bəy Rüstəmbəyov, Adil xan Ziyadxanov, Əbdüləli Əmircanov təşkil edilən İdarə Heyətinə seçilmiş adamlardı. A.b.Atamalıbəyov öz nitqində Azərbaycan Türklərinin müstəqil yaşamağı və öz torpaqlarında haqq sahibi olmağı müqəddəs saydıqlarını söyləyib.[3]

Qurultaydan bir neçə gün sonra Düdənginski Azərbaycan Milli Komitəsinin 4 kişidən ibarət İdarəsinin siyahısını təsdiqlənmək üçün Almaniya Mərkəzi Hərbi Qərargahına təqdim edib. Almaniya vəzifəliləri Milli Komitənin qəbul edilə bilməyəcəyini, bu üzdən təşkilatın adının dəyişdirilib almanca "Verbindungstab", yəni "Rabitə qurumu" olmasını və vəzifəlilərinin də ixtisarını istəyib. Buna görə Komitədəki vəzifələrin sayı 3-ə endirilib. Başqan Düdənginski, üzvləri isə Abbas bəy Atamalıbəyov ilə Fuad Əmircanov olub. "Qurumun maliyyə dəstəkçisi Şərq Nazirliyi idi. Quruma hər ay 30.000 marka maliyə dəstəyi veriləcəkdi. Ayrılan bu maliyyə dəstəyinin

[1] *Atamalıbəyov A.b.* Siyasi mühacirin xatirələri. // *"Ayna"*, 7 mart 2003, №9, s. 9.
[2] *Qasımlı M.* Azerbaycan Türklerinin Milli Mücadele Tarihi. 1920-1945. İstanbul, 2006, s. 660.
[3] Yenə orada, ss. 661-662.

nəzarətinin Rəsulzadənin başçılıq etdiyi bir komisyona verilməsi təklif edilsə də o, Almaniya rəhbərliyi ilə əlaqələrdən uzaq durduğu üçün bu vəzifə də Düdənginskiyə verildi".[1] Qurum bütün təlimatları alman vəzifəlilərindən alırdı. Qurumda 3 şöbə təşkil edilmişdi: hərbi şöbə – başqanı Düdənginski; siyasi-diplomatik şöbə – başqanı Atamalıbəyov və mülki şöbə – başqanı Fuad Əmircanov idilər. Bunlardan başqa qurumun bölümləri də vardı...[2]


Abbas bəyin yaşlı dönəmi

SD birlikləri ilə əməkdaşlıq etdiyinə görə Abbas bəy Atamalıbəyov İkinci dünya müharibəsi başa çatdıqdan sonra Avropada qalmaqdan ehtiyatlanmış və daha uzaqlara – Çiliyə mühacirət etmişdi.[3]

A.b.Atamalıbəyovun həyat hekayəsinin ardını İsmayıl Umudlu davam etdirir: "Müharibədən sonrakı illərdə Çilidə (Santyaqodan 100 km aralıdakı Yeol şəhərində) yaşamışlar. 1966-cı ildə arvadı Rəna xanım Çilidə vəfat etdikdən sonra Misirin İsgəndəriyyə şəhərinə - burada beynəlxalq şirkətdə çalışan oğlunun yanına köçmüşdür. 1967-ci ildə ailəlikcə ABŞ-ın Klivlend şəhərinə köçmüşlər və Abbas bəy uzun sürən ağır xəstəlikdən sonra 1971-ci ildə bu şəhərdə dünyasını dəyişmiş, burada ailəyə məxsus sahədə torpağa tapşırılmışdır".[4]

2008-ci idə Abbas bəy Atamalıbəyovun oğlu *Qalib Atamalıbəyov* AzərTAg-ın xüsusi müxbirinə öz xatirələrini danışıb:

– Atam Abbas bəy Atamalıbəyov 1895-ci ildə doğulub. Sankt-Peterburqda dəniz mühəndisliyi ixtisası üzrə ali təhsil alarkən Rusiyada sosialist inqilabı baş verib. O zaman atam sosialist-inqilabçılar (eserlər) partiyasının üzvü idi. O, Qafqaza dönərək Zaqafqaziya hökumətinin üzvü olub. Daha sonra Azərbaycan müstəqillik əldə edib və atam ilk Azərbaycan Parlementinin üzvü seçilib.

Abbas bəy Atamalıbəyov 1919-cu ildə Əlimərdan bəy Topçubaşovun rəhbərliyi altında Paris Sülh Konfransında iştirak edən nümayəndə heyətinin üzvü olmuşdur. Heyətin digər üzvləri arasında Miryaqub Mirmehdiyev, Məhəmməd Məhərrəmov, Ceyhun Hacıbəyli və Əkbər ağa Şeyxülislamov da var idi. Yadımdadır, atam ABŞ prezidenti Vudro Vilsonla görüşdüklərini danışardı. Onlar Konfransda Azərbaycan Cümhuriyyətinin de-fakto tanınmasına nail olmuşdular. Ancaq təssüflər olsun ki, Cenevrədə Millətlər Liqasında müstəqil Azərbaycanı de-yure tanımaq haqda tələbləri qəbul olunmayıb. O vaxt artıq bolşeviklər ölkəyə daxil olmuş və Nümayəndə Heyəti daha heç bir şey edə bilməmişdi. Bundan sonra atamın həyatı asan olmayıb.

Təbii ki, o, mühəndislik təhsilini dayandırmaq məcburiyyətində qalıb. Azərbaycana dönə bilməyən atam Parisdə qiymətli daş-qaşlar üzrə ekspert kimi işləməyə başlayıb. Ancaq buna baxmayaraq, siyasi fəaliyyətini davam etdirib. Topçubaşov, daha sonra isə Miryaqub Mirmehdiyev dünyasını dəyişdikdən sonra Abbas bəy, bir növ, Parisdə yaşayan azərbaycanlı mühacir icmasının başçısı qalıb. Xatırlayıram, İkinci dünya müharibəsi zamanı o, alman tərəfi ilə işləyərək əsir düşərgələrindəki

[1] *Qasımlı M.* Azerbaycan Türklerinin Milli Mücadele Tarihi. 1920-1945. İstanbul, 2006, s. 664.
[2] Yenə orada.
[3] *Topçubaşov Ə.b.* Paris məktubları, s. 15.
[4] *Atamalıbəyov A.b.* Siyasi mühacirin xatirələri. // *"Ayna"*, 7 fevral 2003, №5, s. 9.

azərbaycanlıları azad etməyə çalışırdı. Atam əvvəl inanırdı ki, Azərbaycan yenidən müstəqil olacaqdır, ancaq Sovet İttifaqı möhkəmləndikdən sonra umudunu itirdi.

Mən böyüyüb kimyaçı mühəndis oldum. İşimlə bağlı müxtəlif ölkələrdə yaşadım. 1947-ci ildə Çiliyə köçəndə valideynlərimi də yanıma gətirdim. Daha sonra biz Birləşmiş Ştatlara getdik.

Beynəlmiləl ailəmiz var. Həyat yoldaşımla Serbiyada tanış olmuşam. Oğlum Misirdə, qızım isə ABŞ-da anadan olub. Ancaq biz Vətənimizin Azərbaycan olduğunu unutmuruq. Bir neçə il əvvəl Vaşinqtondakı Azərbaycan səfirliyinə müraciət edib Azərbaycanda olan qohumlarımı axtarmaq qərarına gəldim. Ana babam general İbrahim ağa Vəkilov idi. Onun nəvəsi olan dayım qızı, pedaqoji elmlər doktoru Leyla Vəkilovanı tapdım. O, məni Azərbaycan dəvət etdi. Səfərim çox emosional oldu. Vətəni görmək, təbii ki, mənim üçün böyük xoşbəxtlik idi. Bu yay yenə də Azərbaycana səfər etməyə çalışacağam.[1]

* * *

Beləliklə, Azərbaycan Cümhuriyyətinin 100 dövlət təqaüdçüsü içərisində ən seçilənlərdən biri – yalnız Azərbaycanın deyil, ümumən Qafqazın azadlıq mücadiləsi tarixində böyük rol oynamış Abbas bəy Atamalıbəyov haqqında yazımız burada bitir. Ancaq bu mövzuya yaxın gələcəkdə bir də qayıdacağımızı düşünürük...

[1] http://www.diaspora.az/new/az/newsview.php?news_id=200805292.

Bağırlı Abdulla Məşədi Sadıq oğlu

(1888, Gəncə – 1922-ci ildən sonra)

Cümhuriyyət tələbələrindən söz açılarkən, adətən, bir cümlə ilə Cümhuriyyətin dövlət hesabına oxumağa göndərdiyi qeyd edilərək "sonrakı həyatı haqqında heç bir məlumat yoxdur" yazılanlardan biri də Abdulla Bağırlıdır. Doğrudur, biz də onun 1922-ci ildən sonrakı taleyini müəyyənləşdirə bilməmişik, ancaq Azərbaycan Respublikası Dövlət Arxivindən və Kiyev Şəhəri Dövlət Arxivindən əldə etdiyimiz sənədlər onun həyatının 34 ili haqqında təsəvvür yaradır.



Abdulla Bağırlının doğum şəhadətnaməsi

Mövzuya başlamazdan öncə bildirək ki, qəhrəmanımızın ad-soyadı 1919-cu ilədək olan sənədlərdə "Abdulla Məşədi Sadıq oğlu", həmin tarixdən sonrakılarda "Bağırlı Abdulla Məşədi Sadıq oğlu" yazılıb.

Doğum haqqında şəhadətnaməsindən onun valideynləri, doğum yeri və tarixi haqqında ən dəqiq bilgi əldə edirik. Orada oxuyuruq:

"Verilir bu şəhadətnamə Zaqafqazın Şiəməzhəb Müsəlmanlarının İdareyi-Ruhaniyyəsindən ol xüsusda ki, Yelisavetpol şəhərinin sakini Abdulla Məşədi Sadıq oğlu təvəllüd edibdir öz atası Məşədi Sadıq Məhəmmədbağır oğlunun mənkuheyi-şəriyyəsi[1] Telli Məhəmmədbağır qızından 1888-ci ildə və təvəllüdünün ili və günü məlum deyildir. Filhəzə İdareyi-Ruhaniyyə bu şəhadətnaməni imza edib padşahlıq möhürü ilə məmhur etdi. Yazıldı dekabr ayının 9-cu günündə 1904-cü ildə. Tiflis şəhərində, № 3029.


Bu şəhadətnamədən ötrü gerbovaya marka idarəyə yetişibdir".[2]

Sənədin altında Ruhani İdarəsinin sədri, Qafqaz şeyxülislamı Ə.Axundzadə və başqalarının imzası var.

A.Bağırlı orta təhsilini Gəncə gimnaziyasında alıb və oranı 1912-ci ildə bitirib.

Gəncə şəhəri sakini, Məşədi Sadıq Məhəmmədbağır oğlunun oğlu, müsəlman, 1888-ci il doğumlu Abdulla Məşədi Sadıq oğluna verilmiş kamal attestatında bildirilir ki, o, 1 sentyabr 1906-cı ildə Gəncə kişi gimnaziyasına girərək 2 iyun 1912-ci ilədək orada əla əxlaqla oxuyub, 8 sinifli tam kursu bitirib və aşağıdakı bilikləri əldə edib:

[1] Şəriətlə nikahda olduğu.
[2] KŞDA, fond 153, siyahı 4, iş 4888, vərəq 8.





Məzun Abdulla Məşədi Sadıq oğlunun (Bağırlının) fotosu. Çar dönəmində ali təhsil almaq istəyən hər bir məzun gimnaziya rəhbərliyinin bu cür təsdiqlədiyi bir beçə fotosunu ali məktəbə təqdim etməliydi.

Şəriət –	keçib
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	3 (üç)
Fəlsəfi propedevtika –	3 (üç)
Latın dili –	3 (üç)
Riyaziyyat –	3 (üç)
Riyazi coğrafiya –	3 (üç)
Fizika –	3 (üç)
Tarix –	3 (üç)
Qanunşünaslıq –	3 (üç)
Təbiiyyatşünaslıq –	3 (üç)
Coğrafiya –	3 (üç)
Fransız dili –	3 (üç)
Alman dili –	3 (üç).[1]

Gəncənin Əttarlar küçəsində yaşayan Abdulla Məşədi Sadıq oğlu 22 avqust 1912-ci ildə Kiyev Kommersiya İnstitutu direktorunun adına ərizə yazaraq Gəncə klassik gimnaziyasını bitirməsi haqqında 560 saylı kamal attestatını, 3027 saylı doğum şəhadətnaməsini, İran imperator konsulluğunun verdiyi təbəəlik haqqında vəsiqəni, 3 fotoşəklini təqdim etdiyini bildirib və bunlara əsasən İnstitutun

[1] KŞDA, fond 153, siyahı 4, iş 4888, vərəq 7.

kommersiya bölməsinin dinləyiciləri sırasına qəbul edilməsi xahişində bulunub.[1]

Bu ərizədən və sonrakı bir sıra bəlgələrdən aydın olur ki, A.Bağırlının atası və özü Gəncə şəhərində yaşasa da İran təbəəsi imiş. O dönəmdə Güney Azərbaycandan gəlmiş çox sayda soydaşlarımız Bakı, Gəncə və başqa şəhərlərdə, bölgələrdə sərbəst şəkildə ticarətlə, yaxud fəhləliklə məşğul olur, oxuyur, hətta dövlət qulluğunda çalışırdılar. Məşədi Sadıq da həmin fəhlələrdən biri idi.

Gəncədə İran imperator vitse-konsulluğu 23 avqust 1912-ci ildə 444 saylı belə bir vəsiqə tərtib edib:

"İran təbəəsi, Urmiya şəhərinin sakini Abdulla Məşədi Sadıq oğluna ona görə verilir ki, bu konsulluq tərəfindən onun üçün İranda Rusiya İmperator Baş Konsulluğunun vizası ilə milli pasport yazılıb. Həmin pasport alınınca təyinatı üzrə təqdim ediləcək ki, Rusiya imperiyasında rus yaşayış bileti almaqdan ötrü vəsatət qaldırılsın. Bu, imza və xəzinə möhürünün basılması ilə təsdiqlənir".[2] (Sənədin altında vitse-konsul Müsəddiqdövlənin və katib F.Muxtarovun imzaları var).

Deməli, A.Bağırlı Kiyev Kommersiya İnstitutuna İran təbəəsi kimi girib.

* * *

Rusiya imperiyası ali məktəblərində tez-tez ali məktəb rəhbərliyi sənədlərindən şübhələndiyi tələbələrin sənədlərinin gerçəkliyini yoxlayırdı. Başlıca sənəd attestat olduğuna görə onu verən məktəbin direktoruna müraciət edilərək gerçəkdən həmin sənədin kimin adına olduğunu, hansı tarixdə və hansı nömrə ilə verildiyini dəqiqləşdirirdilər. Kiyev Kommersiya İnstitutu da 30 aprel 1913-cü ildə Gəncə kişi gimnaziyası direktoruna müraciət edərək Abdulla Məşədi Sadıq oğluna 1912-ci ildə verilmiş attestatın gerçək olub-olmadığını soruşurdu.[3]

Elə həmin sənədin arxasında direktor sənədin gerçəkliyini təsdiqləyib.

II semestr tələbəsi Abdulla Məşədi Sadıq oğlu 28 avqust 1913-cü ildə rektora ərizə yazaraq Odessadakı xəstə anası ilə görüşmək üçün ona bir həftəlik məzuniyyət və Odessa stansiyasınadək güzəştli bilet verilməsini xahiş edib.[4]

19 sentyabr 1913-cü ildə kommersiya bölməsi III semestrinin dinləyicisi Abdulla Sadıq oğlunun Kiyev Kommersiya İnstitutu İdarə Heyətinə yazdığı ərizəsi onun tərcümeyi-halı ilə bağlı bəzi məqamları açıqlayır. Buradan oxuyuruq ki, Abdulla Sadıq oğlu 1912-ci ildə valideynləri ilə birgə yaşadığı Gəncədə klassik gimnaziyanı bitirib. Atası sadə qara fəhlə olub. O, 8-ci sinifdə ikən atası ölüb. Bundan sonra gimnaziyanı bitirərkən çox ağır durumda qalıblar və ali məktəbə getməkdən ötrü dərs verib, bir qədər pul toplayaraq Kiyevə gəlib və Kommersiya İnsitutuna girib. Ancaq bu il yolpulundan başqa əlavə gəlir əldə edə bilmədiyinə və kənardan da heç bir yardımı olmadığına görə indi təhsil haqqını ödəməyə imkanı yoxdur, buna görə də onun təhsil haqqından azad edilməsini xahiş edir.[5]

Kommersiya bölməsi VI semestrinin[6] tələbəsi Abdulla Məşədi Sadıq oğlu 19 noyabr 1914-cü ildə İnstitut direktorunun adına belə bir ərizə yazıb:

[1] KŞDA, fond 153, siyahı 4, iş 4888, vərəq 14.
[2] Yenə orada, vv. 9-9a.
[3] Yenə orada, vərəq 21.
[4] Yenə orada, vərəq 15.
[5] Yenə orada, vv. 23-23a.
[6] Bizcə, burada mexaniki yanlışlıq nəticəsində "IV semestr" əvəzinə "VI semestr" gedib.



Kiyev Kommersiya İnstitutunun tələbəsi Abdulla Bağırlının zaçot kitabçası

"Rusiya təbəəliyini qəbul etmək və bu ilin dekabrında Kiyev Hərbi Məktəbinə qəbul olmaq istədiyimə görə oraya zəruri sənədləri təqdim etməliyəm. Buna görə də zati-alilərinizdən Kiyev valilik idarəsinə milli pasportumu, gimnaziyanı bitirmək haqqında attestatımı və doğum şəhadətnaməmi göndərmək haqqında sərəncam verməyinizi acizanə xahiş edirəm".[1]

Artıq üçüncü kursda – V semestrdə oxuyan A.M.Sadıq oğlu 23 yanvar 1915-ci ildə institut yazdığı ərizədə bəyan edib ki, hərbi məktəbə girə bilmədiyimə görə məni yenidən kommersiya bölməsi tələbələri sırasına bərpa etmək haqqında gərəkli sərəncam verməyinizi acizanə xahiş edirəm. Bununla əlavə edirəm ki, mənim xahişimlə İnstitutun valilik idarəsinə göndərdiyi sənədlərin əslini oradan istəyəsiniz. Həmin sənədlər oraya keçən 1914-cü ilin 20 noyabrında göndərilib.[2]

22 aprel 1915-ci ildə İnstitut direktorunun adına yazdığı ərizədə A.Məşədi Sadıq oğlu bildirib ki, 1914-cü ildə 5-ci payız semestrindən təhsil haqqımı ödəməyimə görə çıxarılmışdım, 1915-ci ilin yanvarında Sizə müraciət etdikdən sonra mən bu ilin V payız semestrinə qəbul olunmuşam, ancaq institut kassası məndən zaçotlarını vermədiyim semestrin də pullarını istəyir, mənim isə buna imkanım yoxdur, ona görə xahiş edirəm məndən yalnız cari yaz semestri üçün təhsilhaqqı alınsın.[3]

8 iyul 1915-ci ildə Kiyev Kommersiya İnstitutunun keçmiş tələbəsi direktora yazdığı ərizədə bildirib ki, təhsil haqqını ödəmədiyimə görə 1914-cü ilin payız yarımilində İnstitutdan çıxarılmışam. Sizdən acizanə xahiş edirəm ki, mənim bu payızda kommersiya bölməsinin 5-ci semestrinə qəbul edəsiniz.[4]

Üstündə 4 sentyabr 1915-ci il tarixi olan bildirişdə Kiyev Kommersiya İnstitutu İdarə Heyəti A.Məşədi Sadıq oğluna xəbər verib ki, siz bu 1915-ci ildə

[1] KŞDA, fond 153, siyahı 4, iş 4888, vərəq 27.
[2] Yenə orada vərəq 16.
[3] Yenə orada, vv. 18-18a.
[4] Yenə orada, vərəq 4.

Kommersiya bölməsinin həqiqi dinləyiciləri sırasına siyasi etibarlılıq haqqında arayış təqdim etmək şərti ilə qəbul edilmisiniz. Məşğələlərin vaxtı elan ediləcək.[1]

Kommersiya bölməsinin həqiqi dinləyicisi Abdulla Məşədi Sadıq oğlunun Kommersiya İnstitutunun direktoruna 7 noyabr 1916-cı ildə yazdığı ərizədə oxuyuruq ki, ərizəm əsasında bu il 21 oktyabr tarixli iclasın 7 saylı protokolu ilə mən 2 semestr üçün təhsil haqqını ödəmək şərti ilə siyahılarda bərpa edilmişəm. Bu məktubla birgə kasıblığım haqqında arayış təqdim edərək zati-alilərinizə bildirməklə şərəflənirəm ki, mən çox kasıb tələbəyəm, qıraqdan heç bir yardımım yoxdur, öz əməyimlə dolanıram və yeganə köməkçim qardaşım idi, o da rus ordusuna könüllü girərək müharibədə həlak olub. Bütün bunlar haqqında bilgi verərək durumumu nəzərə almağınızı və 7 saylı protokolda məndən tələb edilən buraxılmış semestrlər üçün pulları ödəməkdən məni azad etməyinizi acizanə xahiş edirəm.

Sənədin üstündə belə bir arayış var:

"Sadıq oğlu A.M. 1912-ci ilin payızında kom.-texn. bölməyə qəbul edilib. Təhsil haqqını ödəmədiyinə görə çıxarılıb və 1915-ci ilin payızında yenidən 5-ci semestrə qəbul edilib. 23/II-1916-cı ildə təhsil haqqını ödəmədiyinə görə çıxarılıb. 21/X.1916-cı ildə 2 semestrin təhsil haqqını ödəmək şərtilə siyahılarda bərpa edilib".[2]

Kiyev Kommersiya İnstitutu İdarə Heyətinə kommersiya-texnika bölməsi VI semestrinin dinləyicisi Abdulla Məşədi Sadıq oğlu 27 mart 1917-ci ildə yazdığı ərizəsində təcrübi məşğələlərə getmək imkanı olmadığına görə xahiş edir ki, məni kommersiya bölməsindən iqtisad bölməsinə verdiyim fənlərin zaçotları ilə birlikdə və uyğun VI semestrə keçirəsiniz.

Burada belə bir qeyd var ki, Sadıq oğlu 10 imtahan və 5 zaçot verməlidir, onlardan 5 imtahan və 1 kollokviumu verib.[3]

Görünür ki, bu istəyi yerinə yetirilməyib və o, həmin 5-ci semestrdə də saxlanılıb və bundan sonra Vətənə qayıdıb. Bunu Abdulla Sadıq oğlunun (Bağırlının) 18 avqust 1919-cu ildə yenə "Gəncə şəhərinin sakini, Kiyev Kommersiya İnstitutu V semestrinin tələbəsi" olması təsdiqləyir. Həmin gün Azərbaycan Cümhuriyyəti xalq maarif nazirinə ünvanladığı ərizəsində yazır:

"Yaranmış siyasi şərait üzündən indiki halda Kiyevdə təhsilimi davam etdirmək mümkün deyil, buna görə də Xarkova getmək niyyətindəyəm. Bunları bildirərək Sizdən, cənab nazir, acizanə xahiş edirəm ki, məni təhsili bitirməkdən ötrü hökumət hesabına xaricə göndərilən tələbələrin siyahısına salasınız. Əlavə edirəm ki, tezliklə təqdim edəcəyim giriş biletindən başqa, bütün sənədlərim Kiyev Kommersiya İnstitutunun dəftərxanasındadır".[4]

* * *

Çox keçmədən A.Bağırlı Gəncədə müəllim işləməyə başlayır. Azərbaycan Cümhuriyyəti xalq maarif naziri Rəşid xan Qaplanovun 25 oktyabr 1919-cu il tarixli 476 saylı əmri ilə Gəncə Ə[liəkbər bəy] Rəfibəyov adına 17-ci məktəbin naziri[5] Paşa

[1] KŞDA, fond 153, siyahı 4, iş 4888, vərəq 6.
[2] Yenə orada, vərəq 2.
[3] Yenə orada, vərəq 1.
[4] ARDA, fond 51, siyahı 3, iş 54, vərəq 2.
[5] O dönəmdə məktəblərlə bağlı işlənən "nazir" sözü "müdir, direktor" anlamı verirdi.



Tələbə Abdulla Bağırlının KŞDA-dəki şəxsi işi

Hüseynov, ibtidai məktəbin müəllimi Davud Cəfərzadə və müəllim Abdulla Sadıq oğlu Bağırlı bu 16 oktyabrdan Gəncə kişi gimnaziyasına ilk ikisi yuxarı hazırlıq siniflərinin, sonuncusu isə əlifba sinfinin müəllimi təyin ediliblər.[1]

Kiyev Kommersiya İnstitutunun tələbəsi Abdulla Bağırlı 24 noyabr 1919-cu ildə maarif nazirinə ərizə yazıb ki, təhsilimi davam etdirməkdən ötrü Rusiyaya getmək istədiyimə görə Sizdən xahiş edirəm ki, təyin edilmiş təqaüdü və gərəkli sənədləri almağıma sərəncam verəsiniz.[2] Nazir öz növbəsində 27 noyabr 1919-cu ildə Nəzarətin mühasibinə 13523 saylı belə bir göstəriş verib: *"Tələbə Abdulla Sadıq oğluna (Bağırlıya) Rusiyaya ali təhsilini bitirməyə getməkdən ötrü 21 min manat yazmağınızı təklif edirəm; həmin məbləğdən 18 min manat bugünkü gündən sayılmaqla 6 aylıq dolanışıq üçün, 3 min manat isə yolpuludur".*[3]

Təbii ki, bundan sonra A.Bağırlının həmin məbləği alması şübhə doğura bilməz. Deməli, o artıq Cümhuriyyətin təqaüdünü almış tələbədir və Cümhuriyyət tələbəsi olması inkar edilə bilməz.

Gəncə Şəhər Polis İdarəsindən Gəncənin 1-ci hissəsində yaşayan Abdulla Sadıq oğluna təhsil müəssisəsinə təqdim etmək üçün 301 saylı şəhadətnamə ona görə verilib ki, Gəncənin 1-ci sahəsi pristavının builki 16 dekabr 1919-cu il tarixli 15107 saylı andlı dindirməsinin protokolundan göründüyü kimi, ərizəçi həqiqətən kasıb adamdır, atası yoxdur, yalnız anası var, yaşadıqları balaca bir evdir, nağd pulları yoxdur, təqaüd almır, yeganə balaca evlərindən başqa heç bir daşınmaz əmlakı yoxdur.[4] Bu sənəd Kiyev Kommersiya İnstitutuna təqdim etmək məqsədiylə hazırlanıb. Ancaq əlimizdə onun həmin məktəbi bitirdiyini sübut edəcək heç bir bəlgə yoxdur. Buna baxmayaraq, onu 1921-ci ildə artıq Tovuz Qəzası Xalq Maarif Şöbəsinin müdiri vəzifəsində görürük. Diplomu olmayan şəxsin belə məsul bir vəzifəyə təyin edilməsi əsla inandırıcı deyil. Həm də aradan keçən 2 ildə o, təhsilini problemsiz başa vura bilərdi.


[1] ARDA, fond 51, siyahı 3, iş 12, vərəq 192.
[2] Yenə orada, iş 54, vərəq 3.
[3] Yenə orada, vərəq 1.
[4] KŞDA, fond 153, siyahı 4, iş 4888, vərəq 3.

* * *

Tovuz Qəzası Xalq Maarif Şöbəsinin müdiri Abdulla Bağırlı 12 noyabr 1921-ci ildə Bakıdan Xalq Maarif Komissarlığına belə bir ərizə yazıb ki, Xalq Komissarları Şurasının Tovuz Qəzası Xalq Maarif Şöbəsinə şagird partalarına dəyişməkdən ötrü ağ neft, arpa, duz və parça buraxılması haqqında sərəncamını Sizə xatırladaraq bunu bildirirəm: duzu və parçanı Xalq Ərzaq Komissarlığı buraxır. Arpanı, yaxud onun dəyərini buraxmırlar ki, guya xalq komissarı darı deyib, Tovuz Qəza İcraiyyə Komitəsi özü onu buraxmağa söz verib, ancaq düşünürəm ki, bu, səhvdir və Tovuz Qəza İcraiyyə Komitəsi pulsuz heç nə edə bilməz. Ağ neftə gəlincə, mən indiyədək öyrənə bilməmişəm ki, Azərbaycan İctimai Şura Cümhuriyyətində bunu kim buraxmalıdır. Tovuzda vacib işlərim olduğuna görə mən müvəqqəti getməyə məcburam və Xalq Maarif Komissarlığından xahiş edirəm ki, yuxarıda göstərilən anlaşılmazlıqları aydınlaşdırsın, çünki işin ləngiməsi nəticəsində məktəb partaları ala bilmir.[1]

Bu ərizədən sonra oradakı istəkləri gerçəkləşdirmək məqsədiylə əməli işə başlanılıb. 5 yanvar 1922-ci ildə Tovuz şəhərində tərtib edilmiş akt durumu gerçək şəkildə əks etdirir. Orada oxuyuruq ki, bu akt Xalq Maarif Komissarlığının nümayəndəsi Mahmud Yolçuyevin, Tovuz Xalq Maarif Şöbəsinin müdiri Abdulla Bağırovun, Xalq Maarif Şöbəsi müdirini müavini Qəhrəman Babayevin və bir sıra başqalarının iştirakı ilə ona görə tərtib edilib ki, 14 iyun1921-ci ildə bağlanmış müqaviləyə əsasən, müxtəlif vaxtlarda Tovuz Xalq Maarif Şöbəsinə 110 ədəd yazı lövhəsi, 40 ədəd taxta verilib, fəhlə arteli nümayəndələrindən 610 ədəd ikiyerli şagird partası qəbul edilib və onlardan Maarif Şöbəsinə 180-i daxil olub, qalan 430 parta Tovuzqala kəndinin emalatxanasında saxlanılır. Bu partaların əvəzinə fəhlə artelinə ağ neft 1.740 litr, taxıl 834 pud 26 funt, duz 720 pud və parça təxminən 610 arşın verilib. Maarif Şöbəsi bu akta əsasən, 419 pud 14 funt taxıl və 1.178 pud duz borclu qalıb.[2]

Bu, Abdulla Bağırlının adını oxuduğumuz son sənəddir...


Gəncədəki İran vitse-konsulluğundan verilmiş vəsiqənin ilk səhifəsi

[1] ARDA, fond 57, siyahı 1, iş 174, vərəq 136.
[2] Yenə orada, iş 235, vərəq 69.

Bosnalızadə Məhəmmədraşid Mustafa oğlu

(21.06.1892 - ?)



Məhəmmədraşid Bosnalızadə

Azərbaycan Cümhuriyyətinin yaranmasından az sonra Türkiyədən bir çox müəllimlər gələrək Azərbaycandakı qandaşlarına maarif işığı yaymağa başladılar. Doğrudur, Türkiyədən müəllim çağırılıb gətirilməsi ənənəsi hələ çar dönəmində də vardı, ancaq çarizm bunun qarşısını almaq üçün bütün mümkün vasitələrə əl atırdı. Cümhuriyyətin qurulması ilə ortada heç bir rəsmi əngəl qalmasa da, Azərbaycanın özünün iç problemlərindən dolayı, bu sahədə inqilabi dəyişiklik baş verdiyini söyləyə bilmərik, çünki ölkədə rus-bolşevik və erməni-daşnak hərbi qüvvələriylə aparılmış şiddətli iç savaşı nəticəsində məktəblər də dağılmışdı, dərslik və tədris vəsaitləri kəskin çatışmırdı, iqtisadi çətinliklər üzündən müəllimlərə yüksək maaş vermək mümkün deyildi və s. və ilax.

Türkiyədən gələn müəllimlərin bir çoxu əslində hərbçilərdi. Onlar istiqlalımıza müəllim adı altında dəstək verir, yerli xalqın döyüş ruhunu qaldırırdılar. Bu üzdən də xalq içində onların böyük hörməti vardı. Özəlliklə Nuru paşanın başçılığı altında Qafqaz İslam Ordusu Azərbaycanı rus-erməni işğalçılarından təmizlədikdən sonra hər bir Türkiyə vətəndaşına olduğu kimi, həmin müəllimlərə də xalqda sonsuz ehtiram və pərəstiş dərəcəsinə çatan sevgi yarandı. O müəllimlərdən biri də haqqında danışacağımız Məhəmmədraşid Bosnalızadədir.

* * *

Gəncə ali ibtidai məktəbi nəzdindəki iki illik müəllimlər kursu müəllimi M.Bosnalızadə 27 yanvar 1919-cu ildə Gəncə Qəzası Maarif Müfəttişliyinə müəllimlik kursundakı müəllimlik vəzifəsindən istefaya dair məruzə yazaraq bildirir: "Kursda olan dərslərim edadi məktəbi[1] ilə eyni zamana təsadüf etdiyindən dolayı, kursu tərk etməyə məcbur olurum. Təvəqqe edərəm istefamı qəbul ilə yerimə başqasını təyin ediniz".[2]

Görünən budur ki, onun kursdan istefası qəbul olunmayıb.

1919-cu ilin yayında Cümhuriyyətin xarici dövlətlərə tələbə göndərmək istəyi ilə tanış olan M.Bosnalızadə də bu fürsətdən yararlanmaq istəyib. Öncə lazımlı sənədləri toplayıb. Onların ən vaciblərindən biri Gəncə ali ibtidai məktəbi yazdığı bu bəlgədir:

"Məktəbimizin cünbündə kain[3] müəllimlər kursunda bir sənədən bəri müəllimlik vəzifəsi görən Məhəmmədraşid əfəndi İstanbul Darülfünunu hüquq fakültəsi üçüncü sinif[4] tələbəsindən olduğu və övraqlarının nüsuxu[5] təzkirəsi[6] ilə bərabər İstanbul Darülfünunda bulunduğu təsdiq olunur. Tələb vüquunda bir qitə kopyasını Azərbaycanın İstanbul səfarətinə əta edəcəkdir.

04.08.1919".[7]

[1] Bu məktəblərə rus termini ilə "real məktəb" deyilirdi.
[2] ARDA, fond 51, siyahı 3, iş 279, vərəq 3.
[3] Nəzdində yerləşən.
[4] Kurs.
[5] Sənədlərinin nüsxələri.
[6] Pasportu.
[7] ARDA, fond 51, siyahı 3, iş 61, vərəq 3.

Elə həmin vərəqdə türkcə mətnin altında rusca bu cümlə yazılıb: "Burada bildirilənləri imza və məktəbin möhürünü basmaqla təsdiq edirəm. Məktəbin müəttişi əvəzi (imza)".

Rusca cümlənin altında yenidə türkcə mətn gəlir:

"Müəllim və müəllimələr kursu müəllimi Məhəmmədraşid əfəndi, təhqiqatım nəticəsi, İstanbul Darülfünunu hüquq fakültəsi üçüncü sinif tələbəsindən olduğunu və övraqlarının İstanbul fakültəsində qaldığını təbyin[1] etmişdir.

Gəncə qəzasının maarif müfəttişi: Cavad bəy Cuvarlı.

05/8/1919.

(Gəncə qəzasının maarif müfəttişinin möhürü)".[2]

(Sənədin arxasında bu mətnlərin ruscaya tərcüməsi də verilib).[3]



Tofiq Nurəddinin Məhəmmədəmin Rəsulzadəyə yazdığı məktub və aşağısında Rəsulzadənin yazaraq imzaladığı rəy. 7 avqust 1919-cu il

Artıq əlində "daşdan keçən" sənədi olan M.Bosnalızadə 5 avqust 1919-cu ildə "Azərbaycan Cümhuriyyəti Maarif Nəzarəti-cəliləsinə" "əcnəbi məmləkətlərindən birinə təlabə göndərmək barəsində məruzat"ında yazır:

"Azərbaycan Cümhuriyyəti Maarif Nəzarətinin taşraya[4] ali təhsil görmək üçün tələbə göndərəcəyini eşitdim. Bəndəniz İstanbul Darülfünunu hüquq fakültəsi üçüncü sənə tələbəsindənəm. Almanca lisanını pək gözəl biliyorum. İsveçrənin Bern şəhərində hüquq təhsil etdikdən sonra Azərbaycana gəlib xidmət edəcəyəm. Övraqlarım[5] halhazırda İstanbul hüquq fakültəsindədir. Kəndimin həqiqətən hüquq tələbəsindən olduğumu ali ibtidai məktəbi müdiri və maarif müfəttişi təsdiq etmişdir.

Avropaya ezamım təqdirində İstanbula gedib övraqlarımın bir qitə kopyasını Azərbaycan İstanbul nümayəndəsi vasitəsilə Azərbaycana göndərməyi təəhhüd elərəm. İcab edərsə qanuni kəfalət də göstərə bilirəm.

İstanbul Darülfünunu hüquq fakültəsi üçüncü sinif tələbəsi

Bosnalızadə Məhəmmədraşid (imzası)".[6]

Bu məktubun rusca tərcüməsi həmin vərəqin arxasında makinada çap edilib.[7]

Ancaq dövlət təqaüdçüləri sırasına daxil edilməyin önəmli şərtlərindən biri kasıblıq haqqında arayışın təqdim edilməsi idi. Bosnalızadə Gəncədən həmin arayışı da aldı:

"İstanbul hüquq fakültəsi üçüncü sinif tələbəsindən Məhəmmədraşid əfəndinin ailəsi bulunmadığı və kəndisinin əcnəbi bir məmləkətdə kəndi puluyla təhsil edəcək bir iqtidarı haiz olmadığına dair bir qitə vəsiqə tərəfimizdən mumileyh yədinə əta qılındı.

[1] Bəyan.
[2] ARDA, fond 51, siyahı 3, iş 61, vərəq 3.
[3] Yenə orada, vərəq 3a.
[4] Xaricə.
[5] Sənədlərim.
[6] ARDA, fond 51, siyahı 3, iş 61, vərəq 1a.
[7] Yenə orada, vərəq 1.



Azərbaycan təbəəliyinə girməsi haqqında Məhəmmədrəşid Bosnalızadəyə AC daxiliyyə nazirinin verdiyi vəsiqə. 9 noyabr 1919-cu il

Gəncə qəzasının maarif müfəttişi Cavad bəy Cuvarlı. 5/8/1919.

(Gəncə qəzasının maarif müfəttişinin möhürü)".[1]

(Bu mətnin altında rusca tərcüməsi verilib).

Görünür ki, artıq ona dövlət təqaüdü veriləcəyinə gerçək umud yaranmış, bu haqda söz verilmişdi, yoxsa o, bu öhdəliyi götürməzdi:

"Azərbaycan Cümhuriyyəti Maarif Nəzarəti tərəfindən təhsil məsarifi əta olunaraq hər hankı əcnəbi darülfünunu hüquq fakültəsində təhsilimi ikmal etdikdən sonra iki sənədən az olmamaq üzrə Azərbaycan Cümhuriyyəti qulluğunda bulunmanı təəhhüd elədiyimi mübin bir qitə sənədim Məarif Nəzarətinə əta qılındı. İstanbul Darülfünunu hüquq fakültəsi üçüncü sinif tələbəsindən

(M.Bosnalızadənin imzası).

5/8/1919.

Sənəd və imza mumileyh Məhəmmədrəşid əfəndinin olduğu təsdiq olunur.

Gəncə qəzasının maarif müfəttişi: Cavad bəy Cuvarlı".[2]

Bu mətnin altında rusca tərcüməsi verilib.

Gəncə Darülmüəlliminində müəllim işləyən Tofiq Nurəddin[3] 7 avqust 1919-cu ildə Məhəmmədəmin Rəsulzadəyə və maarif naziri Rəşid xan Qaplanova məktub yazaraq Məhəmmədrəşid Bosnalızadəni onlara tapşırıb. O, Rəsulzadəyə yazıb:

"Əziz və möhtərəm Məhəmmədəmin,

Sizə müəllim arkadaşlarımızdan Məhəmmədrəşidi təqdim edərəm. Kəndisi İstanbul Məktəbi-Hüquqi tələbələrindən və ehtiyat zabitlərindəndir. Azərbaycan hesabına Avropaya təhsilə getmək istəyir. Mükəmməl almanca bildiyi üçün Avropa darülfünunları dərslərini doğrudan-doğruya təqib edə bilir. Lazım gələn dairələrə tövsiyə etmənizi hüquqi-qədimə naminə pək rica edərəm, əzizim əfəndim.

Hörməti-məxsusə ilə: (Tofiq Nurəddinin imzası)".[4]

Elə həmin səhifədəcə M.Rəsulzadə öz əliylə bu cümləni yazaraq altından qol çəkib:

"Məruf Tofiq Nurəddin bəyəfəndiyi şəxsən tanıdığımdan bu xüsusdakı təyinata əhəmiyyət vermək [rica] olunur.

(Məhəmmədəmin Rəsulzadənin imzası)".[5]

Tofiq Nurəddin bəyin məktubundakı "hüquqi-qədimə naminə" sözlərindən anlaşılır ki, Rəsulzadə ilə onun arasında çoxdan dostluq münasibətləri olub və haçansa onun da Rəsulzadəyə yardımı dəyib.


T.Nurəddinin R.x.Qaplanova məktubunda isə oxuyuruq:

"Pək möhtərəm Rəşid bəyəfəndi,

İşbu hörmətnaməm ilə zati-alilərinə müəllim arkadaşlarımdan Məhəmmədrəşid əfəndiyi təqdim edərəm. Kəndisi İstanbul Darülfününu hüquq şöbəsi tələbələrindən və ehtiyat zabitlərindəndir. Azərbaycan hökuməti tərəfindən Avropaya göndəriləcək tələbələr arasında getmək istəyir. Mükəmməl almanca bildiyi üçün Darülfünun dərslərini doğrudan-doğruya təqib edə bilir. Bədət-təhsil[1] *Azərbaycan hökumətinə xidmət edəcəyinə dair kəfalətqəviyyə göstərəcəkdir. Ləyaqəti və hüsni-əxlaqı ilə bütün Gəncənin təqdirini qazanmış bu idealist Türk gəncinin məzhəri-təvəccöhünüz olacağına şübhə yokdur. Hörməti-məxsusəmin lütfən qəbulunu istirham elərəm, möhtərəm Rəşid bəyəfəndi.*

Gəncə, 7 ağustos 1919.

Gəncə Darülmüəllimini müəllimlərindən (Tofiq Nurəddinin imzası)".[2]



Məhəmmədrəşid Bosnalızadənin AC xalq maarif nazirinə yazdığı ərizə. 26 noyabr 1919-cu il

Özəlliklə Məhəmmədəmin Rəsulzadənin tövsiyəsindən sonra M.Bosnalızadənin 100 təqaüdçü sırasında düşməmək ehtimalı aradan qalxıb.

Gəncə polis müdiriyyəti 3 noyabr 1919-cu ildə 6944 saylı belə bir vəsiqə verib ki, Gəncə şəhərində yaşayan Məhəmmədrəşid Bosnalızadə gerçəkdən imkansız adamdır.[3]

Gəncə şəhər xalq məktəbləri müfəttişi 4 noyabr 1919-cu ildə Xalq Maarif Nəzarətinə 4764 saylı məktubla müraciət edərək, Gəncə ali ibtidai məktəbindəki ikiillik metodik kursların müəllimi Məhəmmədrəşid Bosnalızadəni ərizəsinə əsasən işdən azad etməyi xahiş edib.[4] Çünki bir neçə gündən sonra təqaüdçülərin Avropa yola düşməsi gözlənilirdi (ancaq ilk gediş 14 yanvar 1920-ci ildə oldu).

Bosnalızadə Bakıda 9 noyabr 1919-cu ildə maarif nazirinə rusca yazdığı[5] ərizədə də bildirir ki, İsveçrənin Bern Universitetinin hüquq fakültəsində oxumaq istəyirəm, bütün sənədlərim İstanbuldadır, İstanbuldan keçdiyimiz zaman onların surətlərini götürərək Azərbaycan səfirliyinə verəcək, əslini isə özümlə götürəcəyəm. Bu haqda tələbələrin xaricə göndərilməsi üzrə komissiyaya məlumat vermişəm. Mənə bu imkanı veriniz ki, Qərbi Avropaya gedəcək yoldaşlarımdan ayrı düşməyim.[6]

Onu yoldaşlarından ayrı sala biləcək başqa mühüm bir əngəl də vardı – Azərbaycan təbəəliyini qəbul etməli idi. Azərbaycan Cümhuriyyəti daxiliyyə naziri 9 təşrini-sani (noyabr) 1919-cu ildə 11049 saylı belə bir vəsiqə verib ki, Azərbaycan təbəiyyəti (vətəndaşlığı) haqqında 11 avqust 1919-cu il tarixli qanunun 6-cı fəsli 1-nci qisminə əsasən Məhəmmədrəşid Mustafa oğlu Bosnalızadəyə Azərbaycan Cümhuriyyəti vətəndaşlığı verilib.

21 iyun 1892-ci ildə doğulub. Milliyyəti: Türk. Dini: müsəlman. Ailəcə: bikar.

Daxiliyyə naziri namına general-mayor *Ağabəyov*.

---

[1] ARDA, fond 51, siyahı 3, iş 61, vərəq 6.
[2] Yenə orada, vərəq 5.
[3] Tofiq Nurəddin Ağayevin sənədləri buradadır: ARDA, fond 51, siyahı 3, iş 282.
[4] Yenə orada, iş 61, vərəq 4a.
[5] Yenə orada.

[1] Təhsildən sonra.
[2] ARDA, fond 51, siyahı 3, iş 61, vərəq 2a.
[3] Yenə orada, vərəq 9.
[4] Yenə orada, iş 279, vərəq 1.
[5] Əslində həmin məktubu başqası yazıb, o isə altından qol çəkib.
[6] ARDA, fond 51, siyahı 3, iş 61, vərəq 7.

İdarə müdiri vəzifəsini ifa edən *Rza Ağasıbəyov.*[1]

Şöbə müdiri *Bəhram Rzabəyli.*[2]

(Bu vərəqin arxasında həmin mətnin rusca tərcüməsi verilib).

Azərbaycan Cümhuriyyətinin xalq maarif naziri Rəşid xan Qaplanovun 10 noyabr 1919-cu il tarixli 544 saylı əmri ilə Gəncə kişi gimnaziyasının müəllimi Bosnalızadə 1 noyabrdan öz ərizəsi ilə ailə vəziyyəti ilə bağlı olaraq vəzifəsindən və bütövlükdə xidmətdən azad edilib. (Onun yerinə İlyas əfəndi Şıxzamanov təyin edilib).[3]

Bosnalızadə 15 noyabr 1919-cu ildə Bakı şəhərində "Serbiya" mehmanxanasından maarif nazirinə yazdığı ərizədə bildirib ki, tələbələrin xaricə göndərilməsi üzrə təyinat komissiyasının sərəncamına əsasən Azərbaycan Cümhuriyyəti vətəndaşları sırasına qəbul edilməyim haqqında 9 noyabr 1919-cu il tarixli 11049 saylı təsdiqnaməni təqdim edirəm.[4]

26 noyabr 1919-cu ildə o, xalq maarif nazirinə bildirir ki, mən İstanbul Universiteti hüquq fakültəsinin üçüncü kurs tələbəsi kimi hökumətin Avropaya göndərdiyi tələbələr sırasına salınmışam. Gerçəkdən üçüncü kurs tələbəsi olduğumu təsdiqləyən universitet sənədindən başqa, bütün sənədləri tələbələrin göndərilməsi üzrə komissiyaya təqdim etmişəm. İndi Bakıda yaşamaq imkanım olmadığına görə İstanbula getməyimə icazə verməyinizi xahiş edirəm ki, tələb edilən bütün sənədləri əldə etməyimə imkan olsun. Mənə çatası təqaüdü İstanbulda Azərbaycan səfarətinə göndərməyinizi xahiş edirəm ki, zəruri sənədləri təqdim etdikdən sonra onu ala bilim.[5]

Onun bütün xahişləri nəzərə alınıb.

9 dekabr 1919-cu ildə M.Bosnalızadə oxuyacağı dövlətdə siyasi və partiya işlərinə qoşulmayacağına[6] və təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti Xalq Maarif Nəzarətinin təqaüdçüsü kimi üzərinə düşən bütün öhdəliklərə yerinə yetirəcəyinə[7] dair dilkağızları verib.

13 yanvar 1920-ci ildə Azərbaycan Cümhuriyyəti hökumətinin onu dövlət hesabına ali təhsil almaqçün xaricə göndərməsi haqqında 539 saylı vəsiqə verilib.[8]

* * *

M.Bosnalızadə Fransada – Paris Universitetində hüquq fakültəsində oxuyub. Təhsilini bitirdikdən sonra Azərbaycana dönməyib. Çox böyük ehtimalla o, Türkiyəyə qayıdıb və orada yaşayaraq işləyib. Ancaq bu haqda əlimizdə heç bir bilgi yoxdur. Onu tapmaq üçün indiyədək göstərdiyimiz bütün səylər nəticəsiz qalıb.

[1] O, Cümhuriyyət tələbəsi Yusif bəy Ağasıbəylinin qardaşıdır.
[2] ARDA, fond 51, siyahı 3, iş 61, vərəq 11-11a.
[3] Yenə orada, iş 12, vərəq 74.
[4] Yenə orada, iş 61, vərəq 10.
[5] Yenə orada, fond 51, siyahı 3, iş 61, vərəq 12.
[6] Yenə orada, vərəq 13.
[7] Yenə orada, vərəq 14.
[8] Yenə orada, vərəq 15.

Cabbarov Əliəkbər Kərbəlayı Məhəmmədəli oğlu

(3.1.1898, Bakı – təx. 1920/1921)



Əliəkbər Cabbarov

Cümhuriyyətin oxumağa göndərdiyi təqaüdçülərdən heç də hamısı təhsilini başa vurmayıb. Onlardan biri də xəstəliyi üzündən Parisdən yarımçıq qayıtmış Əliəkbər Cabbarovdur.

Avropada oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi Abdin Mirqasımzadə 11 avqust 1920-ci idə Bakıda olarkən Azərbaycan xalq maarif komissarına yazdığı məruzədə bildirir: "...Əliəkbər Cabbarov namında başqa bir arkadaşımız da zatən buradan gedərkən yolda xəstələndiyindən Parisdə qaldığı bir neçə ay zərfində xəstə yatmış və kəndisinə maaşından fazla para sərf olunmuş, təhsilə davam etməyən Zaur Dagirov adında üçüncü bir arkadaşımız Komitəmiz və Sülh Nümayəndəliyimizin qərarı vəchi ilə geri göndərilmiş ki, bu sondakılara yolxərci olaraq hər birinə iki bin beş yüz frank verilmişdi".[1]

Deməli, Ə.Cabbarov hələ yolda ikən xəstələnib, Parisdə bir neçə ay müalicə olunub və xəstəliyinə görə də təhsilini davam etdirə bilməyərək (bəlkə də heç oxumağa başlamadan) Bakıya dönməyə məcbur olub.

Doğrudur, onun adı Azərbaycan Cümhuriyyəti hökumətinin 1919/20-ci dərs ilində xaricə göndərdiyi abituriyent və tələbələrin 14 mart 1920-ci il tarixli siyahısında Fransada oxuyacaq tələbələrin içərisində yer alıb.2 Həmin tələbələrin 10 avqust 1920-ci il3 və 18 sentyabr 1920-ci il4 tarixli siyahılarında isə onun adına rast gəlinməməsi onun həqiqətən Azərbaycana qayıtdığını sübut edir.

Sonrakı illərdə adının heç bir yazılı qaynaqda əks olunmaması onun xəstəlikdən tam sağalmayaraq elə 1920-ci, yaxud 1921-ci ildə dünyasını dəyişdiyini güman etməyimizə əsas verir.

* * *


Ali təhsil ala bilməsə də Cümhuriyyət təqaüdçülərindən biri olduğuna görə onun da arxiv sənədləriylə oxucuları tanış etməyi vəzifəmiz sayırıq.

Zaqafqaziya Şiə Ruhani İdarəsinin 8 aprel 1913-cü ildə Tiflisdə verdiyi, şeyxülislam Pişnamazzadənin və Ruhani İdarəsi üzvlərinin imzaladığı 1049 saylı doğum şəhadətnaməsindən öyrənirik ki, Bakı şəhərinin "Gilək" məscidinin 1898-ci il doğum kitabının I hissəsindən göründüyü kimi, Bakı şəhərinin sakini Kərbəlayı Məhəmmədəli Kərbəlayı Əbdülcabbar oğlunun öz qanuni arvadı Cavahir xanım Əbdüssalam bəy qızından oğlu Əliəkbər 3 yanvar 1898-ci ildə doğulub.[5]

O, orta təhsilini də Bakıda alıb.

Müsəlman, 3 yanvar 1898-ci il doğumlu Cabbarov Əliəkbər Kərbəlayı Məhəmmədəli oğluna 24 may 1919-cu ildə verilmiş 302 saylı kamal attestatında qeyd olunub ki, o, 7 noyabr 1918-ci ildə Bakı I kişi gimnaziyasına girərək orada əla əxlaqla

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 59-60.
[2] Bu, Maarif Nəzarətinin 14 mart 1920-ci ildə Bakı qəzasının hərbi rəisinə göndərdiyi siyahıdır. Rusiyada oxuyası tələbələr burada əksini tapmayıb.
[3] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 62-63a.
[4] Yenə orada, vv.70-71a; 75-76a.
[5] Yenə orada, iş 76, vərəq 5.



Əliəkbər Cabbarovun doğum şəhadətnaməsinin surəti

15 may 1919-cu ildədək əlavə sinifdə oxuyub və 8 illik tam kursu bitirib, aşağıdakı qiymətləri alıb:

Şəriət –	beş (5)
Rus dili və ədəbiyyatı –	üç (3)
Fəlsəfi propedevtika –	dörd (4)
Latın dili –	dörd (4)
Qanunşünaslıq –	dörd (4)
Riyaziyyat –	dörd (4)
Fizika –	dörd (4)
Riyazi coğrafiya –	dörd (4)
Tarix –	dörd (4)
Coğrafiya –	dörd (4)
Fransız dili –	üç (3)
Alman dili –	dörd (4)
Türk dili –	beş (5).[1]

Məktəbi bitirdikdən sonra o da özünü Cümhuriyyətin xaricə oxumağa göndərəcəyi tələbələr arasında görmək istəyib. Bakının Kiçik Qala küçəsi 54/15 saylı evdə yaşayan Əliəkbər Cabbarov 11 avqust 1919-cu ildə xalq maarif nazirinə yazdığı ərizədə xahiş edib ki, onu xaricə göndəriləcək tələbələr sırasına salsınlar, çünki təhsil almağa maddi imkanı yoxdur. O, Fransanın Nansi şəhərində tibb fakültəsində oxumaq arzusunu bildirib.[2]

Həmin ərizənin aşağısında 127 saylı xarici pasportun ona 11 dekabrda verildiyi qeyd olunub.

Nazirə 8 noyabr 1919-cu ildə yazdığı növbəti ərizəsində Ə.Cabbarov bildirib ki, Sizin 24 oktyabr tarixli əmrinizi yerinə yetirərək Berlində təbiiyyat fakültəsində oxumağa öz razılığımı bildirirəm...[3]

Bu ərəzələrinə əsasən dövlət təqaüdçüləri siyahısına düşən Ə.Cabbarov 29 dekabr 1919-cu ildə Maarif Nəzarətinə təhsildən sonra 4 il işləyəcəyi barədə dilkağızı verib.[4]

Ona Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına xaricə ali təhsil almağa göndərilməsi barədə 500 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[5]

Təəssüf ki, amansız xəstəlik ona təhsilini başa vurmaq imkanı verməyib...

[1] ARDA, fond 51, siyahı 3, iş 76, vv. 2-2a.
[2] Yenə orada, vərəq 1.
[3] Yenə orada, vərəq 4.
[4] Yenə orada, vərəq 7.
[5] Yenə orada, vərəq 9.

Cavanşir Əbdülhəmid ağa Həmid ağa oğlu

(1897, Şuşa - 1962, Bakı)



Əbdülhəmid ağa Cavanşir

Vaxtılə "Gənclik" nəşriyyatında redaktor işləmiş Zəminə xanım Rəşid bəy qızı Cavanşirlə 9 yanvar 2007-ci ildə söhbət edərək Əbdülhəmid ağa Cavanşir haqqında bilgi əldə etdik. Zəminə xanım bildirdi ki, Əbdülhəmid ağanın atası Həmid ağa Cavanşir mülkədar Paşa ağa Cavanşirin oğludur. Həmid ağa tacir olub, pravoslavlığı qəbul edib. Ona görə Əbdülhəmid də pravoslav kimi doğulub və ilk adı Georgi olub. Əbdülhəmid ağa xaricdə ali təhsilini bitirib gəldikdən sonra Azərbaycan SSR Xalq Torpaq Komissarlığında çalışıb. Sonra Gəncəyə köçüb, orada Zaqafqaziya maşın-sınaq stansiyasının direktoru işləyib.


Zəminə xanım danışır ki, mən 1957-ci ildə Bakıda universiteti bitirərkən Əbdülhəmid ağa Gəncədə stansiyada direktor işləyirdi. Neçə il və neçənci ildədək işlədiyini və haçan vəfat etdiyini bilmirəm, çünki gediş-gəlişimiz olmayıb. Bizim evə (indiki Natəvan döngəsi, 2/4, mənzil 10) gəlib-gedərdi, çünki əmisi qızı Dilşad Azad ağa qızı Cavanşir bizimlə qalırdı. Bilirəm ki, Əbdülhəmid ağa Parisdə oxuyub, repressiya olunmayıb.

Behbud xan Cavanşir indiki İstiqlaliyyət küçəsində Əlyazmalar İnstitutu ilə üzbəüz binadakı aptekin üstündə 3-cü mərtəbədə yaşayırdı. Behbud xanın qardaşları Cümşüd ağa (?-1886) və Surxay ağa da (?-1886) subay vaxtı bu mənzildə yaşayıblar. Behbud xanı 1921-ci ildə Türkiyədə erməni terrorçusu şəhid etdikdən sonra qardaşlar Türkiyəyə getdi, bundan sonra həmin mənzilə onların əmisi Həmid ağa Cavanşir və oğlu Əbdülhəmid ağa köçdülər. Həmid ağa rəhmətə gedəndən çox sonra Əbdülhəmid ağa Gəncəyə köçdü, evində isə əmisi qızı Mahtabanın oğlu (Xanlar ağa Cavanşirin oğlu) Əkbər ağa Cavanşiri (1911-12.12.1995) qoydu.

1942-ci ildə Mircəfər Bağırov göstəriş verdi ki, şübhəli soyadlı şəxslər Bakıdan sürgün edilsin. Əkbəri də Qazaxıstana sürdülər, Əbdülhəmid ağanın evini verdilər "NKVD" Ağasəlim Atakişiyevin ailəsinə. İstanbulda yaşayan əmim Surxay ağa 6 iyun 1976-cı ildə Bakıya gəlmişdi. Vaxtilə yaxşı xatırladığı bir çox binalara baxandan sonra həmin mənzili də görmək istədi. Mən Atakişiyevin arvadına zəng edib bundan ötrü icazə almaq istədikdə o qəzəbləndi və icazə vermədi.

Əkbər ağa Azərbaycan Sənaye İnstitutunu maşınqayırma üzrə fərqlənmə diplomu ilə bitirmişdi, mexanik-mühəndisdi. 1942-ci ildə Şimali Qazaxıstan vilayətinin Nalobino kəndinə sürgün edildi. Firidun Mirzə Qacar da onunla birlikdə Bakıdan buraya sürgünə göndərilmişdi. Əkbər başqaları üçün müxtəlif alətləri təmir etməklə qazandığı çörəyi, ərzağı onlarla bölüşürdü. Öncə Qacarın arvadı, sonra özü elə bu kənddə rəhmətə gedib, onları Əkbər ağa Cavanşir dəfn edib. Əkbər ağa 1947-ci ildə sürgündən qayıtdı, 5 il Bakıya buraxılmadı. 1953-cü ildə Sumqayıta gəldi, ona ev verdilər. Elmi işçi oldu, müəllimlik etdi.

Behbud xan, qardaşları Cümşüdlə Surxayı 1920-ci ildə oxumaq üçün İstanbula aparıb. Sovet hökuməti qurulandan sonra onlar təqaüd ala bilməyiblər, işləyiblər, qardaşlarının ölümündən sonra da Azərbaycana geri qayıtmayıblar. Cümşüd ağa Behbud



Əbdülhəmid ağa ovda. 1930-cu illər

xan Cavanşirin ölümünü araşdıran hakimin qızı Hamiyət xanımla evlənib. O, İstanbulda yüngül sənaye üzrə mühəndisdi. Eyni zamanda mebel və xalça ticarəti ilə məşğuldu. Övladları da İstanbulda yaşayır. Surxay ağa isə elektrik mühəndisi idi. İstanbulda işləyirdi.

Zəminə xanım bacısı Bəturə xanımla birgə 1976-cı ilin iyununda İstanbulda Cümşüd ağagildə bir ay qonaq olarkən Surxay ağa də tez-tez gəlib onlara baş çəkirmiş.

* * *

Ənvər Çingizoğlunun araşdırmalarına görə, Qarabağlı İbrahimxəlil xanın soyundan olan Məhəmmədqasım ağanın ikinci oğlu Paşa ağa təxminən 1820-ci ildə Şuşa şəhərində dünyaya gəlib. Atasının ona ayırdığı mülkü idarə etməklə dolanıb.

Paşa ağanın böyük ailəsi vardı. Əsəd bəyin qızı Mahtəban xanımla, Məşədi Məmmədhüseynin qızı Şəkər xanımla ailə qurub. Oğulları: *Cavad ağa*, *Azad ağa*, *Süleyman ağa*, *Səməd ağa*, *Mahmud ağa* və *Həmid ağa*, qızları: *Tuti bəyim*, *Sənəm bəyim*.

Onun altıncı oğlu Həmid ağa təxminən 1867-ci ildə Azad-Qaraqoyunlu obasında dünyaya gəlib. 1917-ci ilin bilgilərinə görə, saray müşaviri idi. Gəncə valiliyinin Şəmkir meşə təsərrüfatı idarəsində çalışıb. Həmid ağanın *Əbdülhəmid ağa* adlı oğlu vardı.

Əbdülhəmid ağa Qaraqoyunlu obasında dünyaya göz açıb. Orta məktəbi bitirəndən sonra Fransada təhsil alıb. Gəncə şəhərində Zaqafqaziya Maşınsınaqdan-çıxarma Stansiyasında direktor vəzifəsində çalışıb. Əbdülhəmid ağanın *Kamal ağa* adlı oğlu var.[1]

[1] *Çingizoğlu Ə.* Məhəmmədqasım ağa Sarıcalı-Cavanşir və törəmələri. *//ATŞC Xəbərləri*. Bakı, 2010, 7-ci buraxılış, ss. 48-56.

* * *



Əbdülhəmid ağa Cavanşir

Əbdülhəmid ağanın doğum haqqında şəhadətnaməsi yerdə qalan tələbələrinkindən məzmunca fərqlənir. Bu fərqin nədən ibarət olduğunu müəyyənləşdirmək oxuculara çətin olmayacaq:

"Azərbaycan Cümhuriyyəsi Qəzavatxanası, 12 təşrini-əvvəl[1] *1919-cu il.*

Xarici nömrə 2757, Bakıda.

Şəhadətnamə.

Verildi bu şəhadətnamə Bakı qazisi tərəfindən Şuşa sakini Georgi Həmidoviç Cavanşirə ol xüsusda ki, müşarileyh Lutski Akrujnoy Suddan 19 ağustos 1910-mcu sənədə 9911-minci nömrə ilə verilmiş şəhadətnaməyə görə bin səkkiz yüz toksan yeddinci sənədə sentyabr ayının yeddisində təvəllüd etmişdir. Sabiqdə rus məzhəbində olub, həmin 1919-mcu sənədə iyun ayının 5-mci günündə Bakı qazisi hüzurunda hazır olaraq İslam dinini qəbul edib. "Əbdülhəmid xan Həmid ağa oğlu Cavanşir" ismi ilə müsəmma olmuşdur. Buna görə Bakı qazisi bu şəhadətnaməni imza və təsdiq etdi 12 təşrini-əvvəl 1919-mcu sənədə.

Bakı qazisi Axund Əbdürrəhim Qadızadə".[2]

Özü savadlı adam olan Həmid ağa övladını da savadlı görmək istədiyinə görə onu Gəncə gimnaziyasına qoyub. Əbdülhəmid ağa burada özünü ən yaxşı şagirdlərdən biri kimi göstərib. Ona verilmiş 287 saylı kamal attestatı da dediyimizə sübutdur. Burada bildirilir ki, pravoslav, 7 sentyabr 1897-ci il doğumlu vətəndaş Georgi Həmidoviç Cavanşir Gəncə kişi gimnaziyasına 1 sentyabr 1915-ci ildə girərək orada əla əxlaqla 20 fevral 1918-ci ilədək oxuyub və 8 sinifli tam kursu bitirib, bu zaman aşağıdakı qiymətləri alıb:

Şəriət –	5 (beş)
Kilsə-slavyan ədəbiyyatı ilə rus dili –	5 (beş)
Fəlsəfi propedevtika –	4 (dörd)
Latın dili –	5 (beş)
Riyaziyyat –	5 (beş)
Riyazi coğrafiya –	5 (beş)
Fizika –	5 (beş)
Tarix –	5 (beş)
Qanunşünaslıq –	5 (beş)
Coğrafiya –	5 (beş)
Fransız dili –	5 (beş)
Alman dili –	5 (beş).

16 mart 1918-ci ildə Gəncədə verilib.[3]

[1] Oktyabr.
[2] ARDA, fond 51, siyahı 3, iş 79, vərəq 4.
[3] Yenə orada, vərəq 3.



Zəminə xanım Cavanşir

1919-cu ildə Cümhuriyyətin əcnəbi dövlətlərə tələbə göndərmək qərarı bilinərkən Bakı şəhərində Nikolay küçəsi[1] 26-cı evdə (haqqında Zəminə xanımın danışdığı mənzildə) yaşayan Azərbaycan meşələrinin müfəttişi Həmid ağa Cavanşir 28 avqust 1919-cu ildə xalq maarif nazirinə ərizə yazıb: *"Oğlum Əbdülhəmid Cavanşir 1918-ci ildə Gəncə gimnaziyasının kursunu bitirib. Sonrakı təhsilini davam etdirməsi üçün onu dövlət hesabına Saksoniyaya dağ işini öyrənməkdən ötrü Frayberq Dağ-Mədən Akademiyasına göndərmək haqqında sərəncam verməyi həzrəti-alilərinizdən acizanə xahiş edirəm".*[2]

10 noyabr 1919-cu ildə Həmid ağa Cavanşir nazirə yazdığı ikinci məktubda da oğlunun Saksoniyada Frayberq Dağ-Mədən Akademiyasında oxumaq istədiyini bildirib.[3]

Ərizələri atasının yazmasından görünür ki, bu vaxt Əbdülhəmid Bakıda, ya da ümumən Azərbaycanda deyilmiş.

Əbdülhəmin ağa Cavanşir 15 yanvar 1920-ci ildə, təhsilini bitirdikdən sonra hökumətin göstərdiyi yerdə 4 il işləyəcəyi,[4] həm də oxuduğu ölkədə siyasi və partiya işlərinə qarışmayacağı haqqında[5] dilkağızları verib.

Əbdülhəmid (Georgi Həmidoviç) Cavanşirə dövlət hesabına xaricə oxumağa göndərilməsi haqqında vəsiqə 15 yanvar 1920-ci ildə verilib.[6]

Buradan aydın olur ki, o, 16 yanvarda göndərilən dəstə ilə gedib.

Sənədlərdən aydın olur ki, o, Nansi və Parisdə kənd təsərrüfatı (aqronomluq) üzrə oxuyub.[7]

Əbdülhəmid ağanın Azərbaycana qayıtdıqdan sonrakı fəaliyyəti haqqında qısa da olsa yuxarıda söz açmışdıq.

Qohumlarından öyrəndiyimizə görə, o, 1962-ci ildə dünyasını dəyişib.

[1] İndiki İstiqlaliyyət.
[2] ARDA, fond 51, siyahı 3, iş 79, vərəq 1.
[3] Yenə orada, vərəq 2.
[4] Yenə orada, vərəq 5.
[5] Yenə orada, vərəq 6.
[6] Yenə orada, vərəq 7.
[7] Yenə orada, fond 57, siyahı 1, iş 276, vərəq 62a.

Cəfərov Əliyusif Məşədi Abutalıb oğlu

(14.1.1901, Bakı – 4.1.1938, Bakı)



Əliyusif Cəfərov. 1919

Azərbaycan Cümhuriyyəti hökumətinin Türkiyəyə ali təhsil almağa göndərdiyi 9 tələbədən biri Əliyusif Cəfərovdur.

Ə.Cəfərov Bakı şəhərində anadan olub. Doğum şəhadətnaməsində bu haqda yazılıb ki, Bakı şəhərinin sakini Əliyusif Məşədi Abutalıb oğlu öz atası Məşədi Abutalıb Hacı Cəfərqulu oğlu Cəfərovun qanuni arvadı Sultannisə Məlikməhəmmədrza qızından 14 yanvar 1901-ci ildə anadan olub. Doğum şəhadətnaməsi 27 sentyabr 1910-cu ildə Tiflisdə verilib. Zaqafqaziya şeyxülislamı və Zaqafqaziya Şiə Ruhani İdarəsinin üzvləri sənədə qol çəkiblər.[1]

Əliyusif orta təhsilini Bakıda alıb. 24 may 1919-cu ildə verilmiş 553 saylı kamal attestatında onun 1 sentyabr 1911-ci ildə Bakı II kişi gimnaziyasına girərək orada 24 may 1919-cu ilədək əla əxlaqla oxuması və səkkiz siniflik tam kursu bitirərək bu qiymətləri alması göstərilib:

Şəriət –	əla (5)
Kilsə-slavyan dili ilə	
rus dili və ədəbiyyatı –	yaxşı (4)
Fəlsəfi propedevtika –	yaxşı (4)
Latın dili –	yaxşı (4)
Qanunşünaslıq –	əla (5)
Riyaziyyat –	kafi (3)
Riyazi coğrafiya –	kafi (3)
Fizika –	kafi (3)
Tarix (ümumi) –	kafi (3)
Coğrafiya –	əla (5)
Fransız dili –	yaxşı (4)
Alman dili –	yaxşı (4)
Türk tarixi –	yaxşı (4)
Türk dili –	əla (5).[2]

Məktəbi qurtardığı il uğurlu olub – Azərbaycan Cümhuriyyəti hökuməti ali təhsil almaqdan ötrü əcnəbi ölkələrə 100 tələbə göndərməyi qərara alıb. Bakının Persidski[3] küçəsindəki 121-ci evdə yaşayan abituriyent Əliyusif Cəfərov da Cümhuriyyətin maarif nazirinə 14 avqust 1919-cu ildə ərizə yazıb, İsveçrədə, Sürixdə tibb fakültəsində oxumaq istədiyini bildirib, buna görə də onun da xaricə göndəriləcək tələbələrin siyahısına salınmasını xahiş edib.[4]

[1] ARDA, fond 51, siyahı 3, iş 77, vərəq 2.
[2] Yenə orada, vərəq 3.
[3] İndiki Murtuza Muxtarov küçəsi.
[4] ARDA, fond 51, siyahı 3, iş 77, vərəq 1.



Hərbçi Əliyusif Cəfərov. 13 yanvar 1933-cü il

Dünya müharibəsinin yenicə bitdiyi bir dönəmdə xəstəliklər həddən çox yayıldığına görə ali məktəblərə girmək istəyənlərdən çiçəyə qarşı peyvənd olunması haqqında arayış istəyirdilər. Doğrudur, Cümhuriyyət özünün 100 təqaüdçüsü qarşısında belə bir məcburi tələb qoymamışdı, ancaq Ə.Cəfərov tələbələrin xaricə göndərilməsiylə məşğul olan komissiyaya uğurla qoruyucu peyvənd edilməsi haqqında şəhadətnamə verib. Əlamətdar cəhət budur ki, həmin arayışı 31 oktyabr 1907-ci ildə Bakının ozamankı ən məşhur həkimlərindən olan, professorlar Ağa Axundov və İsmayıl Axundovun atası Dr. Əbdülxalıq Axundov verib.[1]

Xaricə göndəriləcək 100 təqaüdçüdən başqa, 30 da namizəd seçilmişdi ki, təqaüdçülərdən getməyən olarsa onu əvəzləsinlər. Ə.Cəfərov hökumət təqaüdçülərinin siyahısında 15-ci belə namizəd idi. O, 5 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı əlavə ərizəsində oxumaq üçün qəti olaraq İstanbulu və tibb ixtisasını seçdiyini bildirib.[2]

"İtmami-təhsil üçün əcnəbi məmləkətlərə göndərilən tələbələr bürosu" 28 dekabr 1919-cu ildə 69 saylı belə bir vəsiqə verib:

"Bu vəsiqə tələbə Əliyusif Cəfərova ona görə verilir ki, büro onu tələbələrin göndərilməsindən ötrü lazım olan zəruri pasportların və buna bənzər vəsiqələrin alınması məsələlərini həll etmək üçün Türkiyəyə göndərir.

Bütün şəxslərdən və idarələrdən adıkeçən Ə.Cəfərova yardım göstərmələri xahiş olunur.

Sədr: (T.Aslanovun imzası)

Katib əvəzi: Əlimuradov

(Tələbə bürosunun möhürü)".[3]

Bu vaxt getməyəcək şəxslər müəyyənləşib və Ə.Cəfərov namizədlikdən təqaüdçülüyə keçirilib. Buna görə də təhsilini bitirdikdən sonra Azərbaycan hökumətinin göstərdiyi yerdə 4 il işləməsi[4] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qarışmayacağı haqqında 31 dekabr 1919-cu ildə ondan dilkağızları alınıb.[5]

Xaricə hökumət hesabına oxumağa göndərildiyi haqqında 590 saylı vəsiqə ona 14 yanvar 1920-ci ildə verilib.[6]

O, 16 yanvar 1920-ci ildə başqa tələbələrlə birlikdə İstanbula yola düşüb. İstanbul Universitetinin tibb fakültəsinə girən Əliyusif Türkiyədə tək deyildi – onunla birlikdə burada Azərbaycandan 9 dövlət təqaüdçüsü vardı. Ancaq aprelin sonunda Cümhuriyyətin süqutu ilə sovet hakimiyyəti həmin tələbələri geri qaytarmaq üçün təbliğat apardı. Nəticədə Bəhram bəy Axundov 1921-ci ildə Türkiyədə artıq 3 tələbənin qaldığını göstərib.7 Qayıdanların içində Əliyusif Cəfərov da vardı.

[1] ARDA, fond 51, siyahı 3, iş 77, vərəq 4.
[2] Yenə orada, vərəq 6.
[3] Yenə orada, vərəq 5.
[4] Yenə orada, vərəq 7.
[5] Yenə orada, vərəq 8.
[6] Yenə orada, vərəq 9.
[7] Yenə orada, fond 410, siyahı 1, iş 342, vərəq 6a.

* * *



Əliyusif Cəfərov həbsdə

O, iyun ayında Bakıya döndükdən sonra Xalq Maarif Komissarlığının (XMK) 1920-ci ilin sentyabrında açdığı 3-cü qrupda müəllim işləyib. Onun müəllim yoldaşları çox ciddi adamlardı (siyahını sənəddəki ardıcıllıqla veririk):

1. Əlibəyov Ağaemin
2. Axundzadə Mirzəhüseyn
3. Sübhanverdixanov Abdulla
4. Talıbzadə Abdulla [Şaiq]
5. Rəsizadə Hüseyn Cavid
6. Cəfərov Əliyusif
7. Əlimirzəzadə Zəkəriyyə.

Kurs sentyabrda açılsa da sənədin üstündə müəllimlərin 7 avqustdan təyin edilməsi haqqında 16 sentyabr tarixli dərkənar var.[1]

Çox keçmədən – 1920-ci ilin oktyabrından Ə.Cəfərov XMK məktəbdənkənar şöbəsində altşöbə müdirinin müavini işləməyə başlayıb.[2] Məktəbdənkənar şöbənin müdir müavini onun İstanbul Universitetindən yoldaşı, oradan onunla birgə qayıtmış Məhəmmədhənifə (Hənəfi) Zeynallı idi.

Xalq maarif komissarının müavini Tağı Şahbazinin imzasıyla 7 mart 1922-ci ildə AKP MK-ya göndərilmiş 1950 saylı bu məktub 1922-ci ildə Ə.Cəfərovun yenidən İstanbulda təhsilini başa vurmaq istədiyindən soraq verir:

"Yol. Cəfərov Əliyusif İstanbul tibb fakültəsinin tələbəsi olduğuna, Azərbaycana müvəqqəti qayıtdığına və Xalq Maarif Komissarlığı Kollegiyasının qərarına əsasən təhsilini bitirmək üçün xaricə göndərildiyinə görə (RKP MK Qafqaz Bürosu icazə verib) Xalq Maarif Komissarlığının Kollegiyası adı çəkilən yoldaşa möhlət verməyi sizdən xahiş edir, çünki o, dövlət təqaüdçüsüdür".[3]

Elə həmin gün – 7 mart 1922-ci ildə Tomaşevskiyə yazdığı ərizədən Ə.Cəfərovun Azərbaycan İctimai Şura Cümhuriyyəti İşçi və Əkinci Müfəttişliyi Xalq Komissarlığı Kollegiyasının üzvü olduğunu öyrənirik.[4]

AK(b)P MK Rəyasət Heyəti 21 dekabr 1926-cı il iclasında 23-cü məsələ kimi Zaqafqaziya Hərbi Hazırlıq Məktəbinin rəis müavini Əliyusif Cəfərovun ərizəsini müzakirə edib. Təəssüf ki, ərizədə nə yazıldığını qeyd olunmayıb. İclasın 46 saylı protokolundan çıxarışdan aydın olur ki, məsələ haqqında Mirzoyan məruzə edib və qərara alınıb: "Rədd etməli".[5]

Əliyusif Cəfərov 1935-ci ildə Moskvada Qırmızı Professorlar İnstitutunun iqtisad fakültəsini bitirib. Aşağıdakı sənəd bu haqqadır:

[1] ARDA, fond 57, siyahı 1, iş 7, vərəq 15.
[2] Yenə orada, iş 165, vərəq 40.
[3] Yenə orada, iş 237, vərəq 111.
[4] Sənədin surəti özəl arxivimizdədir.
[5] ARPİSSA, fond 1, siyahı 74, iş 689-695, vərəq 61b.



Əliyusif Cəfərovun yoldaşı Zəhra *(sağda)*, qızı Emiliya

"Şəhadətnamə.

Yol. Cəfərov Əliyusif Əbutalıb [oğlu] 1933-cü ildə Qırmızı Professorlar İnstitutunun iqtisad bölümünə girib və İnstitutda olduğu 1935-ci ilədək nəzəri kursları dinləyib, müəyyən edilmiş proqramlar üzrə təcrübi məşğələləri yerinə yetirib və dövlət imtahanlarını verib. Bunların əsasında bu şəhadətnamə Qırmızı Professorlar İnstitutunun iqtisad bölümünün tam kursunu bitirmiş yol. Cəfərov Əliyusif Abutalıb oğluna verilir. Bu, imza və möhürün basılması ilə təsdiq edilir.

SSR İttifaqı MİK Elmi və Tədris Müəssisələrinin İdarə Edilməsi üzrə Komitənin sədri (imza),

Qırmızı Professorlar İnstitutunun direktoru (imza),

Komitənin məsul katibi (imza).

№ 97, 28 oktyabr 1935-ci il. Moskva ş.".[1]

Xatırladaq ki, Əliyusif Cəfərov 1935-ci ildə N.Q.Tolmaçov adına Hərbi-Siyasi Akademiyanı da başa vurub. Vəzirov Qambay Məmməd oğlunun 11 avqust 1937-ci il tarixli dindirməsinin protokolundan öyrənirik ki, Ə.Cəfərov Tolmaçov Akademiyasını (deməli, həm də Qırmızı Professorlar İnstitutunu) bitirərək Bakıya gəldikdən sonra 1936-cı il dekabrın sonunda Bakı Piyada Məktəbi siyasi şöbəsi rəisinin müavini vəzifəsinə təyin olunub.[2]

* * *

AR MTN Arxivində Cəfərov Əliyusif Abutalıb oğlunun ittihamı üzrə 13896 (indi: PR-24041) saylı istintaq işi ilə tanış olmuşuq. 138 vərəqlik iş 5 avqust 1937-ci ildə başlanıb, 19 noyabr 1937-ci ildə bitib. Bu işlə bağlı bu adamlar keçir: Mikayıl Hüseynov, Vəli Xuluflu, Abdulla Məlikov, Qambay Vəzirov, Axundov Ruhulla.[3]

Bəri başdan bildirirk ki, işdə saxtakarlıqlar olduğunu müəyyənləşdirmək elə də çətin deyil. Məsələn, cinayət işi 5 avqustda açıldığı halda onun həbs olunması haqqında qərar 8 avqustda çıxarılıb[4] və həbsinə dair 1023 saylı order isə 9 avqustda verilib.[5] Bu orderə əsasən onun Tolstoy küçəsindəki 156-cı evin 41-ci mənzilində axtarış aparılıb.[6] Halbuki məhbusun 1538 saylı anketi 8 avqustda doldurulub.[7]

Bütün bunları bir qıraға qoyaraq, istintaq işində bizi hər şeydən çox maraqlandıran Əliyusif Cəfərovun tərcümeyi-halı ilə birbaşa bağlı bilgiləri ortaya çıxarmağa çalışacağıq.

Beləliklə, Azərb. SSR XDİK DTİ 5-ci bölümünün 4-cü bölməsinin rəisi, DT baş leytenantı Naumkin Ə.Cəfərovun həbs edilməsi ilə bağlı 8 avqust 1937-ci ildə qərar

[1] Sənədin surəti özəl arxivimizdədir.
[2] AR MTN arxivi, PR-24041, vərəq 42.
[3] Yenə orada, vərəq 57.
[4] Yenə orada, vərəq 2.
[5] Yenə orada, vərəq 3.
[6] Yenə orada, vərəq 4.
[7] Yenə orada, vərəq 6.

çıxarıb və 9 avqust 1937-ci ildə evində aparılan axtarış zamanı bu əşyalar götürülüb:

1) tapança; 2) fotoşəkillər (25 ədəd); 3) müxtəlif kitablar (29 ədəd); 4) müxtəlif şəxsi sənədlər (100 ədəd); 5) ümumi dəftərlər (22 ədəd); 6) müxtəlif yazışmalar (qeydlər, konspektlər; 500 vərəq); 7) müxtəlif fərqlənmə nişanları (petlitsalar; 10 ədəd) və b.[1]



Əliyusif Cəfərovun qayını Abdulla Məlikov

Naumkin 9 avqust 1937-ci ildə müttəhim Cəfərov Əliyusif Abutalıb oğlunu ilk dəfə dindirib. Müttəhim haqqındakı bilgilər bunlardır: 1901-ci ildə Bakıda doğulub. Tolstoy küçəsi 156-da yaşayır. Azərbaycanlı; SSRİ vətəndaşı; həbsdən öncə Bakı Piyada Məktəbi siyasi bölməsi rəisinin müavini kimi son vaxtlar qulluq etdiyi Qırmızı ordu sıralarından çıxarılıb; atası fərdi sənətkar – dəmirçi olub, indi çox yaşlandığına görə işləmir; inqilabadək valideynlərinin himayəsində olub, oxuyub; inqilabdan sonra qulluqçudur. Ailə tərkibi: arvadı Zəhra Hüseynəli qızı, evdar qadın, üç uşağı var. Təhsili ali, Qırmızı Professorlar İqtisad İnstitutunu bitirib.[2] 1920-ci ildən 3/VIII.1937-ci ilədək ÜK(b)P sıralarında olub, yad elementlə əlaqəsinə, həbs edilmiş Məlikovla bağlı vaxtında məlumat vermədiyinə görə çıxarılıb. 1918-ci ildə Bakı Kommunası orqanlarında işləmiş adam kimi Türk komandanlığı onu saxlayıb, 1919-cu ildə Müsavat ordusunun yunker məktəbində oxuduğu vaxt məktəbdəki intizam əleyhinə çıxış etdiyi üçün həbs edilib. Məhkəməyə düşməyib. 1930-cu ildə ASSR XKŞ onu tapança ilə mükafatlandırıb; 1924-cü ildən 8/VIII. 1937-ci ilədək komandir siyasi heyəti vəzifəsində (Qırmızı orduda) olub. Ağ orduda qulluq etməyib. ASSR Maarif İşçiləri Şurası Rəyasət Heyətinin üzvü seçilib. 1922-ci ildə ASSR Toxucular İttifaqı MK-nın sədri, 2 çağırış Bakı Sovetinin üzvü; Azərb. MİK üzvlüyünə namizəd; AK(b)P Bakı şəhər raykomunun üzvü; aşağı partiya təşkilatlarının partiya özəklərində büro üzvü seçilib.[3]

Bütün dindirmələrdə olduğu kimi, burada da müstəntiqin ilk sualı budur ki, istintaq materialları ilə əks-inqilabi milliyyətçi təşkilata mənsubluqda ifşa edilirsiniz; deyin görək Sizi[4] kim və nə vaxt bu təşkilata cəlb edib?

Cavab belədir ki, mən heç vaxt və heç bir əks-inqilabi təşkilatda olmamışam və heç vaxt kimsə məni həmin təşkilata cəlb etməyib. Bundan sonra müstəntiq bildirir ki, Siz yalan ifadələr verirsiniz.[5]

Müstəntiq ondan əks-inqilabi cinayətlər üstündə repressiya olunmuş tanış və qohumlarının adlarını soruşur.

Cəfərov bildirir ki, "xalq düşməni" kimi indi həbs olunmuş qohumlarım bunlardır: arvadımın dayısı *Axundov Ruhulla;* təxminən 1936-cı ilin dekabr ayında həbs edilib; arvadımın qardaşı *Məlikov Abdulla*, bu ilin iyulunda həbs edilib. Başqa repressiya olunmuş qohumlarım yoxdur. Yaxın olmayan tanışlarıma *Cəbiyev Həbib* daxildir; onu 1919-21-ci illər dönəmindən, Bakı partiya təşkilatında birgə olduğumuz dövrdən tanıyıram. Ondan 1936-cı ildə partiya sənədləri dəyişdirilən vaxt Kommunist Partiyasına

[1] AR MTN arxivi, PR-24041, vərəq 4.
[2] Məktəbin adı yanlış yazılıb – "Qırmızı Professorlar İnstitutunun iqtisad bölümü" olmalıdır.
[3] AR MTN arxivi, PR-24041, vərəq 15.
[4] Qəribədir ki, "NKVD" zindanında müttəhimə ağlasığmaz işgəncələr verir, ancaq ona müraciətlə deyilmiş "siz" sözünü istintaq protokolunda böyük hərflə yazırdılar!
[5] AR MTN arxivi, PR-24041, vərəq 16a.

mənsubiyyətim haqqında arayış almışam.[1] Cəbiyevlə əlaqəm olmayıb və bu, yeganə görüşümüzdür, bundan sonra mən demək olar ki, 15 ildir onunla görüşmürəm. Cəbiyevi 1921-ci ildə millətçi-təmayülçü kimi tanımışam. 1936-cı ildə ondan SSRİ Xalq Yeyinti Sənayesi Komissarlığı siyasi idarəsi rəisinin müavini vəzifəsində olduğu vaxt partiya üzvü kimi arayış almışam və düşünmüşəm ki, bu uzun müddətdə o, artıq millətçi-təmayülçülükdən əl çəkmiş olar.

Bundan sonra müstəntiqlə müttəhim arasında sual-cavab bu cür gedir:

"Sual: Siz Müsavat ordusunda xidmət etmisinizmi, nə qədər vaxt və hansı rütbədə?

Cavab: 1919-cu ildə gimnaziyanı bitirərkən Müsavat ordusuna səfərbər edilmişəm. Hərbi hissəyə getməmişəm; yunker məktəbinə qəbul olunmuşam, orada 2 ay qalmışam və məktəbdəki rejimə qarşı çıxış etdiyimə görə həbs edilmişəm və Bakı hərbi qospitalına köçürülmüşəm, tezliklə oradan qaçmışam.

Sual: Müsavat ordusunda qulluq etdiyiniz vaxt Qırmızı orduya qarşı döyüşlərdə iştirak etmisinizmi?

Cavab: Qırmızı orduya qarşı döyüşlərdə iştirak etməmişəm.

Sual: Müsavat ordusunda olduğunuz dönəmdə Müsavat Partiyasına münasibətiniz?

Cavab: Müsavat Partiyasına heç bir qarışacağım olmayıb və ona mənfi yanaşmışam.

Sual: ÜK(b)P-dən başqa hansı siyasi partiyalarda olmusunuz?

Cavab: 1918-ci ilin yanvar ayından 1919-cu ilin mayınadək sol eserlər təşkilatının Bakı Türk qrupunun üzvü olmuşam və o da 1919-cu ilin mayında özünü buraxıb. ÜK(b)P-dən başqa heç bir partiyada olmamışam.

Sual: Sol eserlərin bu qrupuna kim başçılıq edib?

Cavab: Bu qrupun başlıca rəhbəri 26 Bakı komissarı sırasında güllələnmiş *Mirhəsən Vəzirov* idi. Bakı kommunasının yıxılmasından sonra bu qrupun daha görkəmli rəhbəri indi həbs edilmiş *Ruhulla Axundov*, eləcə də Müsavat hökuməti zamanı öldürülmüş *Əli Bayramov* və yenə Müsavat hökuməti vaxtı *Tağıyev* olublar.

Sual: Siz xaricdə olmusunuzmu, haçan, nə qədər və hansı səbəblərə görə?

Cavab: 1920-ci ilin yanvar ayında Müsavat hökuməti Maarif Nazirliyinin oxumaq üçün xaricə bir qrup tələbə göndərməsi ilə bağlı olaraq mən də tələbələrin bu qrupu ilə göndərilməyim üçün ərizə verdim. Mən İstanbula göndərildim və orada 1920-ci ilin may ayınadək qaldım. Türkiyədə mövcud olan rejimə və ağır maddi şəraitə dözməyərək, eləcə də xaricə getməklə siyasi səhv buraxdığımı anlayaraq 1920-ci ilin iyun ayında Bakıya qayıtdım və sovet müəssisələrində işləməyə başladım".[2]

15 avqust 1937-ci il tarixli dindirmənin protokolundan:

"Sual: 1936-cı ildə Leninqradda olarkən Bakıdakı tanışlarınızdan kimləri gördüyünüzü deyin.

Cavab: 1936-cı ildə Leninqradda müxtəlif vaxtlarda bu şəxslərlə görüşmüşəm:

1. Azərbaycan yazıçılarının Leninqrad yazıçıları ilə görüşü şərəfinə olan qəbulda mən öz xalaoğlum3 şair Süleyman Rüstəmlə Leninqrad yazıçılar evində görüşmüşəm.

2. Kommunist, Azərbaycan yazıçısı İbrahimov Mirzə öz yoldaşı ilə evimizə gəlib. İbrahimovla küçədə də bir neçə təsadüfi görüşüm olub.

[1] AR MTN arxivi, PR-24041, vərəq 16c.
[2] Yenə orada, vv. 17-20.
[3] Rusca «двоюродный брат» sözüylə ifadə olunub, deməli, bibisi oğlu da ola bilər.

3. Heydərov Əliəkbərlə görüşmüşəm. O, arvadı ilə yanıma gəlib, mənzilimizdə olub. Heydərov Leninqrada tərcüməçilər kursunda oxumağa gəlmişdi.

4. Tolmaçov Akademiyasının[1] dinləyicisi, indi Zaqafqaziya Hərbi Dairəsi siyasi idarə mədəniyyət və təbliğat şöbəsinin rəisi Əmir Dadaşovla görüşmüşəm. Biz bir-birimizin mənzilinə gedib-gəlirdik.

5. Hərbi Akademiyanın dinləyicisi Novruzovla bir-birimizə get-gəl etmişik.

6. 1937-ci ildə qış aylarının təxminən sonunda Xuluflu ilə görüşdüm. Bu zaman o, Bakıdan ezamiyyətə, dediyinə görə, Elmlər Akademiyasının işlərinə görə gəlmişdi. Onun Leninqrada gəlişini arvadımdan öyrəndim. O, Xuluflunu özünün işlədiyi [SSRİ EA] Şərqşünaslıq İnstitutunun kitabxanasında görüb. Arvadım Xuluflunu, oxuduğu Bakı Universitetindən tanıyır, onda Xuluflu dekan olub. Mən Xuluflunun yanına getdim, onunla qısa söhbətim oldu. Ondan Azərbaycan rəhbərlərindən mənim Bakıya köçürülməyimə yardım etməsini xahiş etdim. Xuluflu şəxsən Bağırovla bu haqda danışmağı və nəticəsini mənə xəbər verməyi boynuna götürdü. Ancaq ondan xəbər çıxmadı. Xuluflunu, oxuduğum Bakı Universitetindən 1923-cü ildən tanıyıram.



Əliyusif Cəfərov. İstanbul, 1920

ARTIRMA: Vəli Məhəmmədhüseyn oğlu Xuluflunun 7 iyul 1937-ci il tarixli istintaqda verdiyi ifadəsində oxuyuruq ki, o, R. Axundovla məsləhətləşdikdən sonra AK(b)P MK-nın ali məktəb və elm şöbəsinin müdiri İsmayıl İsmayılovla görüşərək Ə. Cəfərovun iqtisadiyyat və fəlsəfə müəllimi kimi Bakıya köçürülməsinə ehtiyac olduğunu bildirib, İsmayılov buna yardım etməyə söz verib və müəyyən vaxtdan sonra artıq bu köçürmənin baş tutduğunu bildirib.

7. Tramvayda təsadüfən arvadı ilə gedən bakılı [Seyfulla] Şamilovla görüşdüm. Bu vaxt o, markiszm-leninizm tərcüməçiləri kursunda oxuyurdu.

8. ÜK(b)P Leninqrad vilayəti binasının girişində təsadüfən bakılı Həbib Cəbiyevlə görüşdüm, onunla söhbətim şəxsi məişət səciyyəli oldu.

9. 1935-36-cı illərdə (vaxtını dəqiq xatırlamıram) yanıma ikinci alayın komissarı, sonra isə Azərbaycan diviziyası topçuluq alayının komissarı Məlikov (arvadımın qardaşı) məzuniyyəti vaxtı gəlmişdi. O, adətən, 4-6 gün qonağımız olurdu. Məlikov Abdulla öz bacısı ilə görüşmək və qabaqlar heç vaxt görmədiyi Leninqradla tanış olmaq istəyirdi.[2]

[...]

Sual: Sizinlə birgə sol eserlerin qrupunda olanların adlarını çəkin və onların indi harada olduqlarını göstərin.

Cavab: Sol eserlerin qrupuna qoşulan adamlardan bunları xatırlayıram:

Ruhulla Axundov – indi XDİK həbs edib.

Həsənov Rzaqulu – indi Azərnerf sistemində işləyir, neftçi mühəndisdir, ÜK(b)P-nin üzvüdür.[3]

Kazımov Cəfər – Elmlər Akademiyasının Azərbaycan filialında işləyib, ÜK(b)P üzvüdür.[4]

[1] N.Q.Tolmaçov adına Hərbi-Siyasi Akademiya (sonralar V.İ.Lenin adına Hərbi-Siyasi Akademiya). Ə.Cəfərov burani da 1935-ci ildə bitirib.
[2] AR MTN arxivi, PR-24041, vv.21-23.
[3] Cümhuriyyət tələbələrindəndir.
[4] Cümhuriyyət tələbələrindəndir.

Zeynallı Hənifə - qəzet məlumatlarından mənə bəllidir ki, işfa edilib və xalq düşməni kimi həbs olunub.[1]

Dəqiq xatırlamıram, ancaq deyəsən bu qrupa *Heydərov*, yaxud *Heydərli Əliəkbər* də qoşulmuşdu. O, qəzet işçisi, ÜK(b)P üzvüdür.

Sual: Sadalanan şəxslərdən hansılarla şəxsi əlaqəniz və görüşləriniz olub?

Cavab: Şəxsi əlaqəm yalnız qohumluq münasibətlərinə görə Ruhulla Axundovla olub – arvadım onun bacısı qızıdır.[2] Evlənənədək mənim Axundovla əlaqəm və görüşüm olmayıb. Bu yalnız Azərbaycan sovetləşəndən sonra olub.

Heydərovla da şəxsi əlaqəm onun 1935-36-cı illərdə tərcüməçi redaktorlar kursunda oxuduğu dönəmdə olub. Mən 2 dəfə onun mənzilində olmuşam və bir dəfə də o, arvadı ilə bizə gəlib. Sol.eserlər qrupunun başqa keçmiş üzvləri ilə yalnız təsadüfi görüşlərim olub".[3]

Ə.Cəfərovun 27 sentyabr 1937-ci il istintaqındakı cavabından:

– 1932-ci ilin başlanğıcında mən Moskvaya oxumağa getdim, 1933-cü ildə isə Leninqrad şəhərinə işləməyə və təhsilimi davam etdirməyə keçirildim. 1932-ci ildən başlayaraq hər il ailəmlə birlikdə məzuniyyət vaxtı Bakı şəhərinə dincəlməyə və eyni zamanda partiya fəalları kurslarında işləməyə gəlirdim... Qohum olduğumuza görə arada öz ailəmlə birgə Axundov Ruhullagilə gedirdik. Adətən, Buzovna kəndindəki qayınanamın yanında qalırdım.

1932-ci ildə qayınanamın yanına gedərkən onun mənzilində Ruhulla Axundovu gördüm. O, bir neçə gündən sonra getdi. Həmin il onun yanına gəlmişdilər: *Şahbazov [Müseyib]*, bir vaxt xalq maarif komissarı vəzifəsində olub; *Kərimov [Əli]*, sonralar Azərbaycan Dram Teatrının direktoru; *Triniç [Əhməd Bədi]*, dövlət nəşriyyatının direktoru; *Rəhmanov Həsən*, o zaman Azərbaycan K(b)P Bakı Komitəsinin katibi; *Əliyev Baba*, Azərb. MİK-də işləyib; *Hüseynov Mikayıl*; *Hüseynov Rəhim*, sosial təminat komissarı; soyadlarını indi xatırlaya bilmədiyim bir sıra Bakı işçiləri...[4]

3 oktyabr 1937-ci il tarixli dindirmədə verdiyi cavabdan:

– 1936-cı ildə yazın başlarında arvadım – [SSRİ] Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun kitabxanasında işləyən Məlikova Zəhra işdən gələrək mənə dedi ki, iş vaxtımda Azərbaycan Dövlət Universitetinin keçmiş dekanı Xuluflu yanıma gəlib, məndən təəccüblə soruşdu ki, sən nə əcəb Leninqraddasan? Arvadım Xulufluya deyib ki, o, mənimlə birgə çoxdan Leninqraddadır və mən Tolmaçov Akademiyasında işləyirəm və Leninqrad Qırmızı Professorlar İnstitutunu bitirmişəm. Arvadım Məlikovanın dediyinə görə, Xuluflu deyib: "Siz niyə burada otursunuz, Bakıya getmirsiniz, halbuki orada nəzəriyyəçi kadrlara böyük ehtiyac var". Arvadım Xulufluya cavab verir ki, mən – Cəfərov Bakıya köçürülmək istəyirəm, ancaq hələlik heç bir nəticəsi yoxdur.[5]

DT baş leytenantı Pavel Naumkin 16 noyabr 1937-ci ildə istintaqın bitməsi haqqında protokol tərtib edib.[6]

Azərb. XDİK DTİ 5-ci bölümünün rəisi, DT kapitanı Avanesyanın 17 noyabr 1937-ci ildə tərtib etdiyi, SSRİ prokurorunun baş köməkçisi Rozovskinin və Azərbaycan

[1] Cümhuriyyət tələbələrindəndir.
[2] Abdulla Sadıqovdan öyrəndiyimizə görə, Zəhra xanım R.Axundovun bacısı Minəbacının qızıdır.
[3] AR MTN arxivi, PR-24041, vv. 25-26.
[4] Yenə orada, vv. 28-29.
[5] Yenə orada, vərəq 32.
[6] Yenə orada, vərəq 52.

SSR daxili işlər komissarı, 3-cü ranqlı DT komissarı Sumbatovun 19 noyabr 1937-ci ildə təsdiq etdikləri ittihamnamədə göstərilir ki, müttəhim Cəfərov Əliyusif Abutalıb oğlu özünü günahkar saymayıb.1

3 yanvar 1938-ci ildə Bakı şəhərində diviziya hərbi hüquqçusu Nikitçenkonun sədrliyi altında SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının səyyar sessiyasının qapalı məhkəmə iclası olub. Məhkəmə saat 19:00-da başlayaraq saat 19:15-də bitib. Müttəhim deyib: ona qarşı olan ifadələri bütünlüklə iftira sayır, onda heç vaxt anti-sovet əhvalruhiyyə olmayıb, onun əks-inqilabi təşkilata aidliyini ifşa edən şəxslərin ifadələrini heç nə ilə izah edə bilməz. Onların heç biri ilə pis münasibətdə olmayıb. Leninqradda görüşləri vaxtı Xuluflu ilə anti-sovet söhbətlər etməyib.2

15 dəqiqəlik "məhkəmə" Cəfərov Əliyusif Abutalıb oğlunun güllələnməsi haqqında hökm çıxarıb. Hökm 3 yanvardan 4 yanvar 1938-ci ilə keçən gecə yerinə yetirilib.[3] Arayışa görə, hökmün icrası Bakı şəhərində 3 yanvar 1938-ci ildə olub.[4]

Aşağıdakı sənədi nöqtə-vergülünə toxunmadan öz tərcüməmizdə veririk:

"Azərb. SSR NS yanında DTK-ya Bakı Buzovna qəsəbəsi 224-də yaşayan Məlikova-Cəfərova Zəhra Hüseynəli qızından ərizə.

Bununla 7/VIII-1937-ci ildə Bakı şəhərində repressiya olunmuş 1901-ci il təvəllüdlü ərim Cəfərov Əliyusif Abutalıb oğlunun işinin yoxlanılmasının nəticələri haqqında mənə məlumat verməyinizi xahiş edirəm. Bildirirəm ki, 19 ildir ondan heç bir xəbərim yoxdur və məni onun taleyi maraqlandırır. Buna görə cavab verərkən mənə bildirin ki, o, sağdırmı? Xahişimi rədd etməməyinizi acizanə xahiş edirəm.

(İmza)

27.02.1956".[5]

Hər hansı şərhə ehtiyac varmı?!.

16 mart 1956-cı ildə Moskvada Baş Hərbi Prokurorluqda o zaman Azərbaycan XDİK-də müstəntiq işləmiş V.P.Medvedev dindirilib. O deyib: "Şəxsən mən və tabeliyimdəki işçilər Sapfir, Naumkin, Staroveyt və başqaları məhbuslara repressiya tətbiq edirdik. Repressiyalar bundan ibarət idi ki, məhbusları günlərlə ayaq üstə saxlayırdıq, "konveyer üsulu" deyilən üsulla dindirirdik və inadla "etiraf ifadələri" verməyənləri döyürdük".[6] Xatırladaq ki, burada adı çəkilən Naumkin Ə.Cəfərovun da müstəntiqi olub, deməli, bu cəza üsulları ona da tətbiq edilib, ancaq onu sındırmaq mümkün olmayıb.

SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası 31 oktyabr 1956-cı ildə Əliyusif Cəfərova bəraət verib.[7]

1956-cı ildə ona bəraət verməzdən öncə bəzi tanışlarından rəylər alınıb. Onlardan biri:

"Mən Salayev Mirhaşım Mirbağır oğlu, 1896 doğumlu, 1917-ci ildən SİKP üzvü (Bakı şəhəri Caparidze rayonu 1 saylı hüquq məsləhətxanasının müdiri) Cəfərov Əliyusifi (atasının adını unutmuşam) 1920-1921-ci ildən Azərbaycan diviziyasında siyasi işçi kimi birgə işimizdən tanıyıram (mən 1920-ci ildən 1923-cü ilin sonunadək alay

[1] AR MTN arxivi, PR-24041, vərəq 56.
[2] Yenə orada, vv. 60-60a.
[3] Yenə orada, vərəq 53.
[4] Yenə orada, vərəq 62.
[5] Yenə orada, vərəq 56.
[6] Yenə orada, vərəq 34.
[7] Yenə orada, vərəq 138.

komissarı, respublikanın konvoy qorumasının komissarı və b., eləcə də 1924-cü ildən 1929-cu ilin sonunadək Hərbi Tribunalın sədri olmuşam, Cəfərov Əliyusif isə kadet korpusunun komissarı, başqa hissələrin komissarı olub və mən Hərbi Tribunaldan tərxis olunduqdan sonra o, mənim yerimə Azərbaycanın, ikinci Qafqaz atıcı diviziyasının və Xəzər Donanmasının hərbi tribunalının sədri olub).

Cəfərovla on illik birgə işimizdə mən onun tərəfindən partiyanın baş xəttindən heç bir sapma müşahidə etməmişəm.

Cəfərovun 1937-ci ildə Ruhulla Axundovun qohumu kimi tutulduğunu sayıram. (O, Ruhulla Axundovun yaxın qohumu Zəhra Məlikova ilə evlənib). Cəfərov Əliyusif partiyamızın sədaqətli oğlu idi.

Salayev M.M.

8 mart 1956-cı il".[1]

Bu istintaq işində Ə.Cəfərovun həyat və fəaliyyəti ilə bağlı bir sıra maraqlı məqamlar da aydınlaşır. O, 1924-cü ildən Qırmızı ordu sıralarındadır. Bir sıra məsul vəzifələr daşıyıb: Zaqafqaziya Hərbi Hazırlıq Məktəbi rəisinin siyasi müavini; Xəzər Donanmasının, Azərbaycan Diviziyasının hərbi tribunalının sədri. 1933-cü ildə Qırmızı Professorlar İnstitutunun tələbəsi olarkən eyni zamanda Qırmızı ordu Lenin ordenli Hərbi Siyasi Akademiyasının adyunktu olub.[2]

* * *

Nəvəsi Abdulla Sadıqovla tanış olaraq ondan Əliyusif Cəfərovun ailəsi haqqında aşağıdakı bilgiləri topladıq.

Arvadı Məlikova-Cəfərova Zəhra Hüseynəli qızı (1908-1989) Buzovna kəndində Ruhulla Axundov küçəsi 143-də yaşayıb. (Əri tutulandan sonra onu da "vətən xaininin həyat yoldaşı" kimi 9 aprel 1938-ci ildə həbs edərək 8 il iş veriblər. 29 oktyabr 1956-cı ildə bəraət alıb).[3]

Əliyusiflə Zəhra xanımın iki qızı olub:

1) Sadıqova Luiza Əliyusif qızı (1929-2006). Buzovnada yaşayıb. Əlibala Sadıqovla ailə qurub. Uşaqları: Sadıqov Abdulla (1955); Sadıqov Hüseynəli (1963); Xəlilova Zərminə (1960).

2) Karlova Emiliya Əliyusif qızı (1931). Rostov vilayətinin Şaxtı şəhərində yaşayır. Onun uşaqları: Karlov Vitali Gennadiyeviç (1956); Karlova İrina Gennadiyevna (1965).

[1] AR MTN arxivi, PR-24041, vərəq 104.
[2] Yenə orada, vərəq 88.
[3] *Məmmədova Ş.* Anaların fəryadı. Bakı, 2006, s. 305.

Dadaşov Ağa Əbdülhüseyn Hacı Ağa Əliəsgər oğlu

(01.04.1902, Bakı – ?)



Ağa Əbdülhüseyn Dadaşov

Dadaşovlar Bakının tarixində gəmi sahibkarları kimi ad çıxarıb. Azər Xanlarovun çox dəyərli məqaləsi daha çox Ağa Əliəkbər Dadaşova həsr edilsə də orada ümumən bütün bu nəsil haqqında çox qiymətli bilgilər toplanıb.[1] Oradan öyrənirik ki, Bakının Maştağa kəndindən olan Ağa Dadaşın iki oğlu olub: Hacı Şıxəli, Hacı Hacıağa.

Hacı Şıxəli Dadaşov (təx. 1830 – 1911) 1-ci gildiya tacirdi. Onun 2 oğlunu tanıyırıq: Ağa Əliəsgər (1864 – ?), Ağa Əliəkbər (1865 – 1938).

Ağa Əliəkbərin 5 oğlu və iki qızı olub. Böyük oğlu Ağa Məhəmmədhəsən Dadaşov (1902 – 1966) Londona təhsil almağa və biznesləmə məşğul olmağa gedərkən 1919-cu ildə Əlimərdan bəy Topçubaşı ilə tanış olub. Ali təhsilini Azərbaycanda alıb. Professor (1959) və Azərbaycanın əməkdar iqtisadçısıdır (1964).[2]

Ağa Əliəkbərin ikinci oğlu Ağa Məhəmmədsadıq Dadaşov (1905-1945) daha çox Sadıq Dadaşov kimi məşhurdur. Görkəmli memar S.Dadaşov isə Azərb. EA-nın ilk akademiklərindəndir (1945). SSRİ Dövlət mükafatı laureatıdır. O və akademik Mikayıl HüseynovAzərbaycan sovet memarlığının baniləri sayılır.

Ağa Əliəkbərin oğulları Ağa Məhəmmədbağır (1908 – 1986) Azərbaycanın əməkdar iqtisadçısı, Ağa Məhəmmədhadı (1910 – 1971) Azərbaycan Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin direkroru, Ağa Məhəmmədşıxəli (1912 – 2001) Azərbaycanın əməkdar inşaatçısı, qızı Fatma xanım Dadaşova (1915 – 1994)[3] görkəmli cərrah idi.[4]

Hacı Şıxəlinin ikinci oğlu *Ağa Əliəsgər* haqqında bilgimiz yalnız bundan ibarətdir ki, o, qardaşı Ağa Əliəkbərlə birlikdə Bakının Şıx kəndində məscid tikdirib.[5]

Azər Xanlarovdan öyrəndiyimizə görə, Ağa Əliəsgərin 5 qızı və 2 oğlu olub. Onun oğlu Şıxəli[6] Dadaşov məşhur neftçi, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı olub. Təəssüf ki, haqqında geniş bilgi əldə edə bilmədik.

Ağa Əliəsgərin obiri oğlu Ağa Əbdülhüseyn Avropada öz hesabına oxumuş Cümhuriyyət tələbələrindəndir.

* * *

Zaqafqaziya Şiə Ruhani İdarəsinin 1 iyul 1913-cü ildə verdiyi 1957 saylı doğum şəhadətnaməsindən bəlli olur ki, Bakı şəhərinin "Cami" məscidinin 1902-ci ilə aid doğum kitabının I hissəsində belə yazılıb: Ağa Əbdülhüseyn Bakı sakini Ağa Əliəsgər Hacı Şıxəli oğlunun qanuni arvadı Cəvahir xanım Hacı Nağı qızından[7] 1 aprel 1902-ci ildə doğulub.[8]

[1] *Ханларов А.Т.* Бакинский купец Ага Алекпер Дадашев и его потомки. // *Известия АИРО*, вып. 3. Bakı, 2001, ss. 31-41.
[2] A.T.Xanlarovun məqaləsində onun haqqında daha geniş bilgi var.
[3] Fatma xanım SSRİ qaz sənayesi naziri Sabit Orucovun həyat yoldaşı idi.
[4] *Ханларов А.Т.* Бакинский купец Ага Алекпер Дадашев и его потомки, ss. 33-40.
[5] Yenə orada, s. 34.
[6] Qardaşlar küsülü olduğuna görə ikisi də öz oğluna ataları Şıxəlinin adını qoyub.
[7] Maraqlıdır ki, Hacı Əliəsgərin qardaşı Ağa Əliəkbər də Hacı Nağı Mehdiyevin başqa qızı Zəhrabəyim xanımla ailə qurmuşdu (bax: *Ханларов А.Т.* Бакинский купец Ага Алекпер Дадашев и его потомки, s. 34).
[8] ARDA, fond 51, siyahı 3, iş 80, vərəq 5.



Ağa Əbdülhüseyn Dadaşov. Paris, 1920

O, təhsilini Bakıda alıb. 989 saylı attestatda göstərilib ki, Ağa Əbdülhüseyn Dadaşov Bakı edadi (real) məktəbinə 1917-ci ilin sentyabrında girərək orada 20 aprel 1918-ci ilədək oxuyub və tam kursu bitirib. Onun qiymətləri yalnız şəriətdən "5"-dir, yerdə qalan 12 fənnin hamısından "3"-dür.[1]

962 saylı şəhadətnamədə isə qeyd olunub ki, Bakı I real məktəbinin əlavə sinfinin şagirdi Ağa Əbdülhüseyn Dadaşov bu sinifdə 1918-ci ilin oktyabrından 1919-cu ilədək əla əxlaqla oxuyub və aşağıdakı uğurları qazanıb:

Şəriət –	əla (5)
Rus dili –	kafi (3)
Alman dili –	kafi (3)
Fransız dili –	kafi (3)
Riyaziyyat, o sıradan:	
Hesab –	kafi (3)
Cəbr –	kafi (3)
Triqonometriya –	kafi (3)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	kafi (3)
Tarix –	kafi (3)
Təbiiyyatşünaslıq –	kafi (3)
Fizika –	kafi (3)
Riyazi coğrafiya –	kafi (3)
Rəsm –	kafi (3)
Qanunşünaslıq –	kafi (3)
Türk dili –	əla (5)
Türk-tatar tarixi –	kafi (3).[2]

Bakı real məktəbinin tam kursunu (7 sinif) bitirmiş Dadaşov 8 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı ərizəsində bildirib ki, öz hesabına təhsil almaq üçün Almaniyanın Darmştadt şəhərində Böyükhersoq Politexnik İnstitutunun elektrotexnika bölümünə göndərilməsini istəyir. Ünvanını belə göstərib: Naberejni küçə,[3] ev № 57, Əliəsgər Dadaşovun kontoru.[4]

Ağa Əbdülhüseyn Əliəsgər oğlu Dadaşova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 572 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[5]

[1] ARDA, fond 51, siyahı 3, iş 80, vərəq 3.
[2] Yenə orada, vərəq 2.
[3] İndiki Neftçilər prospekti.
[4] ARDA, fond 51, siyahı 3, iş 80, vərəq 1.
[5] Yenə orada, vərəq 6.



Hacı Şıxəli Dadaşov



Hacı Hacıağa Dadaşov



Əliabbas Dadaşov



Əliəsgər Dadaşov

* * *



Yusif Ağa Dadaşov
("Барабан", 2 dekabr 1912-ci il, №3)

Dadaşov Berlində öz hesabına gəmiqayırma ixtisası üzrə oxuyub. Cümhuriyyət yıxıldıqdan sonra sovet hakimiyyətinin ona münasibəti həddsiz pis olub. O, Almaniyadan Parisə – Ceyhun bəy Hacıbəyliyə yazırdı:

"Çox hörmətli Ceyhun bəy!

Hökumət siyahıdan bir neçə tələbəni silib; mən də onların içindəyəm. Bunun səbəbi düşüncələri mənim görüşlərimlərimlə uyğun gəlməyən buradakı yoldaşlar oldu.

Sizə hörmət bəsləyən Əbdülhüseyn".[1]

Buna görə də Dadaşov SSRİ-yə dönmədi.

28 iyul 1940-cı ildə XDİK zindanındakı dindirməsində Cümhuriyyət tələbəsi – Berlində (Şarlottenburqda) Ali Texniki Məktəbdə memarlıq ixtisası üzrə oxumuş *Hənifə Pirverdiyev* müstəntiqə deyib: "Mənim tədris yoldaşlarım bunlar idi: *Musai Cəmil* və *Mustafayev Ağahəsən*. Bu adamlardan başqa, mən Berlində başqalarıyla da, məsələn, *Sadıqov Sadıq, Axundov Səməndər, Hacıyev Məhəmməd, Sultanov İsgəndər, [Ağa Əbdülhüseyn] Dadaşovla da görüşürdüm; sonuncusu öz hesabına oxuyurdu və Almaniyada qaldı".*[2]

[1] *Абуталыбов Р.* Годы и встречи в Париже, s. 73.
[2] AR MTN Arxivi, PR-35911, vərəq 20.

Dagirov Zaur bəy Yusif bəy oğlu

(28.05.1901, Aşağı Kazanişe k./Dağıstan – 1957)

Dağıstan nümayəndəsidir.

Azərbaycan Cümhuriyyətinin xalq maarif naziri Rəşid xan Qaplanovun qumuq olması qumuqlara düşdü. Nazir onlardan bir neçəsinin Azərbaycanın dövlət təqaüdçüsü kimi Avropaya göndərilməsinə nail oldu. Onlardan biri də Zaur bəy Dagirovdur.



Zaur bəy Dagirov

Vladiqafqaz məscidi mollası Məhəmmədsadıq Rəhimkurovun 11 may 1902-ci ildə 78-ci Navahı piyada alayının kapitanı Yusif bəy Dagirova verdiyi doğum şəhadətnaməsində göstərilib ki, oğlu Zaur bəy onun qanuni kəbindən olan arvadı Umurahildən 28 may 1901-ci ildə doğulub və adı müsəlman adətilə azanla ona deyilib.[1]

Zaur bəyin doğulduğu, ancaq, nədənsə, doğum şəhadətnaməsində qeyd olunmayan Aşağı Kazanişe kəndi qumuqların ana vətənidir və Zaur Dagir(ov), onun bütün nəsli də Türkdür.

Zaur bəy orta təhsilini Tiflisdə kadet korpusunda alıb.

"Bu attestat Hərbi İdarənin Tiflis gimnaziyasından 7-ci sinif şagirdi, polkovnik oğlu Zaur bəy Yusif oğlu Dagirova ona görə verilib ki, həmin şagird əla axlaqla və Hərbi İdarə gimnaziyasının tam kursunu uğurla bitirib və son imtahanların nəticəsinə əsasən bu qiymətləri alıb:

Şəriət –	5 bal
Rus dili yazı işləri –	4 bal
Ədəbiyyat –	4 bal
Fransız dili –	3 bal
Alman dili –	3 bal
Hesab –	3 bal
Cəbr –	4 bal
Sonsuz kiçiklərin analizi –	3 bal
Coğrafiya –	4 bal
Analitik coğrafiya –	4 bal
Triqonometriya –	3 bal
Kosmoqrafiya –	5 bal
Fizika –	3 bal
Təbii tarix –	4 bal
Kimya –	4 bal
Tarix –	4 bal
Coğrafiya –	4 bal
Qanunşünaslıq –	5 bal
Rəsm –	5 bal
Orta bal:	3,89 bal.

[...]

Tiflis, 7 iyun 1918-ci il.

Gimnaziyanın direktoru, general-leytenant (*imza*)".[2]

[1] ARDA, fond 51, siyahı 3, iş 78, vərəq 3.
[2] Yenə orada, vərəq 2.

* * *

Zaur bəy Dagirov Azərbaycan Cümhuriyyətinin xalq maarif nazirinə 1919-cu ilin avqustunda yazdığı ərizədə onun da xaricə göndərilən tələbələr siyahısına salınmasını xahiş edib, Fransa, yaxud İsveçrənin xüsusi texniki məktəblərindən birində oxumaq istədiyini bildirib.[1]

Həmin sənədin sonunda 178 saylı xarici pasportun ona 11 dekabr 1919-cu ildə verilməsi göstərilib.

Abituriyent Dagirov 25 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı yeni ərizədə onun Almaniyaya – Şarlottenburq şəhərinə politexnik institutda oxumağa göndərilməsini xahiş edib.[2]

Dagirov 29 dekabr 1919-cu ildə təhsilini bitirdikdən sonra Azərbaycanda 4 il işləyəcəyi haqqında[3] və oxuyacağı dövlətdə heç bir siyasi və partiya işinə qarışmayacağı barədə dilkağızları verib.[4]

Dövlət hesabına xaricə oxumağa göndərilməsi haqqında ona 13 yanvar 1920-ci ildə 497 saylı vəsiqə verilib.[5]

Paris siyasi elmlər fakültəsinin tələbəsi Miri bəy Vəzirov Parisdən Azərbaycan Cümhuriyyətinin xalq maarif nazirinə 23 iyun 1920-ci ildə yazıb:

"1919-cu ilin yayında Qərbi Avropaya təhsilini bitirməkdən ötrü getmək istəyən tələbələrin yazılışı gedərkən mən də öz növbəmdə oraya daxil edilməyim üçün ərizə verərək avqustun 11-də Diplomatik Nümayəndəliyin katibi kimi Azərbaycandan İstanbula getdim.

Azərbaycandan uzaq yola çıxdığıma, buna görə də müəyyən komissiyalarla yerində danışıqlar apara bilmədiyimə görə gedən tələbələrin sırasına düşmək imkanından məhrum oldum.

1920-ci ilin yanvarında xidməti işlərimlə bağlı olaraq Bakıya ilk gəlişimdə Xalq Maarif Nəzarətində oldum, orada Nəzarətin uyğun rəhbərləri ilə bu barədə söhbət apardım və nəticədə ilk boşalan yerə mənim götürülməyimə söz verdilər, rəsmiyyətdən ötrü Nəzarətə ərizə yazaraq orada qoydum.

Vaxtı itirməməkdən ötrü mən mart ayında İstanbuldan öz hesabıma Parisə getdim, orada təhsilimi bitirmək niyyətində idim. Həmin vaxt Xalq Maarifi Nəzarətinə məni təqaüdçülər sırasına salması üçün ikinci ərizə ilə müraciət etdim.

İndi 2 təqaüdçü tələbə: [Zaur bəy] Dagirov və [Öjdər bəy] Axundov Parisdən Azərbaycana getdiklərinə və deməli, boş yerlər yarandığına görə mənim Avropada oxuyan hökumət təqaüdçüləri sırasına götürülməyimə etiraz etməməyinizi xahiş edirəm".[6]

"Qərbi və Mərkəzi Avropada dövlət hesabına təhsildə bulunan Azərbaycan tələbəsi vəkili-mürəxxəsi"[7] Abdin Mirqasımzadə 11 avqust 1920-ci ildə Azərbaycan Şura Sosialist Cümhuriyyəti xalq maarif komissarına yazdığı məruzədə bildirib: "Təhsilə davam etməyən Zaur Dagirov adında üçüncü bir arkadaşımız Komitəmiz və Sülh

[1] ARDA, fond 51, siyahı 3, iş 78, vərəq 1
[2] Yenə orada, vərəq 4.
[3] Yenə orada, vərəq 5.
[4] Yenə orada, vərəq 6.
[5] Yenə orada, vərəq 7.
[6] Yenə orada, iş 40, vv. 57-57a.
[7] Xüsusi (səlahiyyətli) nümayəndəsi.



İslam-Girey Dagirov *(2-ci sırada sağdan 2-ci)* Belamorkanalda

Nümayəndəliyimizin qərarı vəchi ilə geri göndərilmiş ki, ...yolxərci olaraq ...iki bin beş yüz frank verilmişdi".[1] Başqa sözlə, Dagirov Parisə getdikdən iki-üç aydan sonra – hələ ali məktəbə girmədən Bakıya geri dönüb və Cümhuriyyətin bir tələbə yerini "batırıb", halbuki həmin yerə ciddi bir adamı göndərib ali təhsilli mütəxəssis kimi yetişdirmək olardı...

* * *

Tələbə kimi oxusa da, oxumasa da, boynuna düşən vəzifəni yerinə yetirsə, yetirməsə də "Cümhuriyyət tələbəsi" adı altında getdiyinə görə onun da sonrakı taleyi haqqında oxucuya bilgi verməyi özümüzə borc sayırıq.

Uzun illərin axtarışından sonra, nəhayət, 2011-ci ilin sonunda Zaurun qardaşı İslam-Girey Dagirovun indi Sankt-Peterburqda yaşayan nəvəsi *İslam Girey (Rauf Girey oğlu) Dagirovu* taparaq onunla yazışdıq. Çox ünsiyyətcil və səmimi insan olan İslam bəy 1957-ci ildə Bakıda doğulub. Xəzər Ali Hərbi Dəniz Məktəbini bitirib. Strateji əhəmiyyətli sualtı atom kreyserlərində on il qulluq edib, III dərəcəli kapitan rütbəsində istefaya çıxıb. İndi ailəsi ilə birgə Sankt-Peterburqda yaşayır. İki övladı var. Oğlu Zaura (1980) artist Zaur Dagirovun adını qoyub (hüquq fakültəsini bitirib), qızı Nailə şagirddir.

İslam bəy, Dagirovlarla bağlı bizə bir çox bəlgə və bilgilər göndərdi. Burada ona təşəkkürlərimizi bildirərək, təqdim etdiyi sənədlərdən öyrəndiklərimizi aşağıda qeyd edirik:

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 59-60.



Umurahil və Yusif bəy Dagirovlar

– Zaurun atası Yusif Dagir oğlu Dagirov 17 oktyabr 1861-ci ildə doğulub, müsəlmandır, Dağıstan əyalətinin zadəganlarındandır. Stavropol gimnaziyasında oxuyub. 3-cü hərbi Aleksandr məktəbində sıravi rütbəli yunker kimi 12 avqust 1880-ci ildə xidmətə başlayıb. 5 fevral 1881-ci ildən unter-zabit, 9 dekabr 1881-ci ildən portupey-yunkerdir. 7 avqust 1882-ci ildə kursu bitirdikdən sonra 78-ci Navahı piyada alayına podporuçik təyin edilib. 24 avqust 1886-cı ildən poruçik, 30 avqust 1889-cu ildən ştabs-kapitandır. 4 sentyabr 1900-cü ildə zabit atıcı məktəbini bitirib. 26 fevral 1905-ci ildə podpolkovnik, 14 mart 1911-ci ildə polkovnik rütbələri alıb. III dərəcəli Müq. Stanislav (1900), III dərəcəli Müq. Anna (1904), II dərəcəli Müq. Stanislav (1906), II dərəcəli Müq. Anna (1910) ordenləri ilə, bir çox medallarla təltif edilib.

22 iyul 1913-cü ildə vəfat edib. Praporşik Akköbək Kadinin qızı Umurahillə evlənib. Qızları: Zahidə, Fatimə, oğulları: İslam-Girey, Zaur bəy, Əsildar. Arvadı və uşaqları müsəlmandır, oğulları Tiflis kadet korpusunda oxuyur. Böyük qızı (Zahidə) Demidov tədris-tərbiyə müəssisəsində oxuyur.[1] Bu adamların doğum-ölüm tarixlərini İslam bəy dəqiqləşdirib: Yusif bəy Dagirov (17.10.1861-22.07.1913), Umurahil Akköbək Kadi qızı (08.03.1872-15.09.1921). Övladları: Zahidə (13.05.1893-05.07.1936), Fatma (08.01.1895-31.08.1943), İslam-Girey (09.10.1896-27.10.1938), Zaur bəy (28.05.1901-1957), Əsildar bəy (09.11.1902-28.03.1944). Fatmanın oğlu Atakişiyev Ülfət əl-Murad Yusif oğlu (15.11.1925-25.01.2001) Birinci dərəcəli kapitan rütbəsində istefaya çıxıb.

[1] Sənədin surəti şəxsi arximizdədir.

* * *

İslam Dagirovun atası *Rauf-Girey (bundan sonra: Girey) İslam oğlu Dagirov* özünün tərcümeyi-halını və nəslinin şəcərəsini hazırlayıb. O, 18 avqust 1922-ci ildə Tiflisdə zadəgan ailəsində doğulub, 1940-cı ildə Bakıda orta məktəbi bitirib və Xalq Təsərrüfatı İnstitutunun hüquq fakültəsinə girib. Sonra Azərbaycan Dövlət Universitetinin eyni fakültəsinə dəyişdirilib. 18 yaşında ikən – 27 oktyabr 1938-ci ildə güllələnmiş xalq düşməninin oğlu kimi həbs edilib və qiyabi məhkum olunub.

1953-cü ildən Bakının sənaye obyektlərində kombinatın baş mühəndisi vəzifəsinədək işləyib, 1982-ci ilin iyulundan ailəsi ilə Sankt-Peterburqa köçüb və 1992-ci ildədək orada çalışıb. İndi təqaüdçüdür, Sankt-Peterburq Zadəgan Məclisinin həqiqi üzvüdür.

Girey İslam oğlu Dagirov öz həyatı ilə bağlı qeydləri bədii şəkildə qələmə alıb. Hələ nəşr edilməmiş bu çox maraqlı qeydləri bizə onun oğlu İslam Gireyeviç göndərib. Bu qeydlərdən Zaurla bağlı yerləri oxuculara təqdim edirik:

"Zaur bəy, yaxud sadəcə Zora, Bakıda yaşamayıb və ümumiyyətlə, çox qapalı idi. Hələ inqilabadək onun əla dramatik tenor səsi açıldı və Parisə gedərək[1] məşhur Qrand Opera teatrında oxudu. Ancaq Paris onu pozdu; o, narkotiklərə aludə oldu və 1922-ci ildə[2] Bakıya əli ətəyindən uzun qayıtdı. Qardaşları onu narkomaniyadan vəhşicəsinə üsullarla (tapançanı onun gicgahına dirəməklə) müalicə etdilər – ancaq çox təsirli və həmişəlik. Zora Bakıdan gedərək operettada oxumağa başladı. Sonra operettanın direktoru oldu, çoxlu qastrollara çıxdı. Bakıya da gəldi – həm məzuniyyətə dincəlməyə, həm də doğmaları ilə görüşməyə".

Zaur bəy, ümumiyyətlə, ailə üzvləriylə çox sıx əlaqə saxlamayıb. Məsələn, bacısı Zahidə xanım ölərkən hətta onun dəfninə də gəlməyib. Buna görə də onun ölüm tarixi də tam dəqiq bilinmir. Girey İslam oğlu yazır:

"1938-ci ilin yayında mənim həyatımda çoxlu hadisələr və çoxlu təəssüratlar oldu. Atamın qardaşı, o zaman Leninqrad qastrol bürosu operatta truppasının direktoru olan Zaur Tima, Murik və mənə onun teatrı ilə birgə qastrol səfərlərinə getməyi təklif etdi. Biz də elə etdik, teatrla Kostroma, Yaroslavl və Voloqdada olduq. Bu səfər zamanı başıma gülməli bir iş gəldi. Zaur və onun arvadı Vera kütləvi epizodların birində məni səhnəyə çıxmaq üçün dilə tutdular. Ancaq mən inadla müqavimət göstərdim, halbuki Murka cəsarətlə hansısa səhnəyə qəzet satıcısı kimi çıxmışdı…".

Maraqlı cəhətlərdən biri budur ki, məşhur aktyor, SSRİ xalq artisti Georgi Stepanoviç Jyonov 1938-ci ildə casusluq üstündə həbs edilib. O öz xatirələrində yazır:

"Mən Faymonvilli sonuncu dəfə bir neçə gündən sonra Böyük Teatrda "Sonalar gölü" tamaşasında görmüşəm. Dostlarım – Moskva Operatta Teatrının artistləri Vera Klimova və onun əri Zaur Dagir də mənimlə idilər. Fasilələrdə biz onunla[3] balet, ümumən incəsənət haqqında danışır, siqaret çəkirdik".[4]

Dağıstanda çıxan "Yoldaş" qəzetindəki "Zaur Dagir Dağıstanın birinci opera müğənnisidir" adlı məqalədə[5] başlıca olaraq onun Jyonovla dostluğundan söz açılır və ən sonda bildirilir ki, Aşağı Kazanişenin yetirməsi olan Zaur Dagir 1927-ci ilədək Moskva Böyük Teatrındakı Dövlət Opera Studiyasını uğurla bitirib. Böyük Teatrın bu studiyası 1918-ci ildə yaranıb. Görünür ki, Zaur Dagir Moskva operetta teatrına (qabaqlar səyyar teatr olub) işə düzəlib, bu teatr 1927-ci ildə açılıb. Zaur Dagirin ustalıq və istedadını bu fakt təsdiqləyir ki, o, "Payatsı", "Qaratoxmaq qadın", "Karmen" və "Yevgeni Onegin" operalarında mürəkkəb partiyaları oxuyub. O, məşhur Y.M.Dekanovanın tələbəsi olub.



Cəmilə xanım Dagirova

"Krasnı Daqestan" qəzetindəki "Zaur Dagirin konserti" adlı qısa xəbərdə oxuyuruq: "Mayın ikisində Dövlət Akademik Teatrında artist Zaur Dagirin konserti olacaq. Moskva Böyük Teatrı nəzdindəki Dövlət Opera Studiyasının yetirməsi, prof. Dekanovanın sinfini bitirmiş Zaur Dagir indi Moskva səyyar teatrında oxuyur. Zaur Dagir Aşağı Kazanişe kəndinin yetirməsidir və dağıstanlılar arasında hələlik yeganə opera müğənnisidir. Konsertant "Payatsı", "Qaratoxmaq qadın", "Karmen" və "Yevgeni Onegin" operalarından parçalarla çıxış edəcək".[1]

* * *

İslam Dagirov bizə yazmışdı ki, atam da, babam da, babamın qardaşları da 1930-cu illərdə repressiya olunub. Buna görə biz Azərbaycan MTN Arxivinə müraciət etdik və orada bizi çox maraqlı bir istintaq işi ilə tanış etdilər. Ümumən Azərbaycanın sovet dönəmi hərb tarixi üçün də maraqlı olacağına görə başlıca diqqəti *İslam-Girey Yusif oğlu Dagirova* yönəltməklə oradakı bir sıra önəmli faktları aşağıda veririk.

AR MTN arxivindəki 571201 saylı (indi: PR-29914) 24 cildlik istintaq sənədlərinin 198 vərəqlik 15-ci cildi *İslam-Girey Dagirov* (1-99-cu vərəqlər), *Nəcəf Şahtaxtinski* (100-141-ci vərəqlər) və *Nikolay Novruzova* (142-198-ci vərəqlər) həsr edilib.

İslam-Girey Dagirovun həbsi üçün 12 mart 1931-ci ildə 1410 saylı order verilib və həmin gün onun Naberejni küçədəki[2] 62-ci evdə olan 35-ci mənzilində Azərbaycan Dövlət Siyasi İdarəsi (DSİ) axtarış aparıb.[3] DSİ-nin tərtib etdiyi 662 saylı anketdə[4] və 18 mart 1931-ci ildəki dindirməsində İslam-Girey Dagirov haqqında bu bilgilər verilib: 9 oktyabr 1896-cı il doğumlu, Dağıstan Respublikasının sakini, Buynak şəhəri, ləzgi,[5] SSRİ vətəndaşı, Azərbaycan diviziyası təchizatının hərbi təsərrüfat hissəsinin rəisi; ali hərbi təhsili var – kadet korpusunu, topçuluq məktəbini, Kənd Təsərrüfatı İnstitutunu bitirib, 1918-ci ildən aprel 1920-ci ilədək Müsavat ordusunda qulluq edib, partiyasız, peşəsi hərbçi və aqronom. 1 dekabr 12 martda 1931-ci ildə həbs olunub, ailəlidir.[6]

Ailə tərkibi: arvadı – Dagirova Cəmilə, 30 yaş, işləmir, Naberejni küçəsi[7] 35.

Oğlu – Dagirov Rauf-Girey, 8 yaş, oxuyur.

Qardaşı – Dagirov Əsildar, 28 yaş, Azərneftin hüquq məsləhətçisi, Naberejni küçəsi 35.

Bacısı – Dagirova Zahidə, 37 yaş, Azərtikintidə kargüzar, Naberejni küçəsi 35.

Bacısı – Dagirova Fatimə, 35 yaş, Azərtoxucusənayedə mühasib. Sadovoy küçəsi[8] 4.

Qardaşı – Dagirov Zaur, 30 yaş, artist, bilmirəm.

Xatırladaq ki, İslam-Gireyin yoldaşı (Gireyin anası), zadəgan nəslindən, Qafqaz atıcı alayı polkovnikinin qızı Yekaterina Nikolayevna Stroyeva müsəlmanlığı qəbul edərək

---

[1] Cümhuriyyətin 1920-ci ildə göndərməsi nəzərdə tutulur.
[2] Yuxarıda göstərdiyimiz kimi, bu, 1920-ci ildə olub.
[3] *"Casus"* Faymonvillə.
[4] http://ixbook.net/read_rasskazy_id78672_page4.html.
[5] *Алиев К.* Заур Дагир – первый оперный певец из Дагестана. // Газ. *«Ёлдаш»*, 03.04.2009, № 13.

[1] Газ. *«Красный Дагестан»*, 28.04.1927.
[2] İndiki Neftçilər prospekti.
[3] AR MTN arxivi, PR-29914, 15-ci cild, vərəq 2.
[4] Yenə orada, vərəq 4.
[5] Çar dönəmində Dağıstanda yaşayanların çoxu rəsmi sənədlərdə özünü "ləzgi" adlandırıb. İslam-Girey Dagirov isə tərtəmiz qumuq Türküdür.
[6] AR MTN arxivi, PR-29914, 15-ci cild, vərəq 4.
[7] İndiki Neftçilər prospekti.
[8] İndiki Niyazi küçəsi.

"Cəmilə" adlanıb. Əlimizdə Tiflis 5-ci qadın gimnaziyasını bitirmiş Cəmilə xanım Dagirovanın Azərbaycan Cümhuriyyətinin Torpaq Nazirliyində nazir Xosrov bəy Sultanovun 6 saylı əmri ilə 19 noyabr 1918-ci ildən qeydiyyatçı işləməsi haqqında sənədlər var.[1]

Zaur Dagirovun qardaşı İslam-Girey Dagirov 18 mart 1931-ci ildə istintaqda işin mahiyyəti ilə bağlı bildirib:

"1918-ci ildən Azərbaycanda yaşayıram. Buraya Qərb cəbhəsinin ləğvindən sonra gəlmişəm. Hərbi xidməti davam etdirmək istəməsəm də başqa peşəm olmadığına görə Müsavat Ordusuna girməli olmuşam. Oradan da 1920-ci ildə Qırmızı orduya keçmişəm. Azərbaycan sovetləşəndən sonra keçmiş zabitlərin durumu ağır oldu, çünki onlara etibar yox idi, ancaq sonra, təxminən 1924-cü ildən bizə əla münasibət, sonsuz inam yarandı və mən bütünlüklə Qırmızı ordunun ümumi ailəsinə daxil oldum...

Mənim ən yaxın yoldaşım [Nəcəf] Şahtaxtinski idi. Onunla məktəb illərindən bir-birimizə bağlıyıq. [Cəmşid xan] Naxçıvanski də məktəb yoldaşım olsa da, ancaq birgə qurtardığımız korpusdan sonra biz görüşməmişdik. Mən onunla diviziya komandiri təyin edildikdən sonra görüşmüşəm. Ancaq münasibətlərimiz bərpa edilməyib, çünki o, köhnə yoldaşlarını qınayırdı və böyük adamlarla bir yerdə olurdu. Son iki ildə onun arvadıyla tanışlığa görə bir neçə dəfə onlarda olmuşam, ancaq o, həmişə qaradinməz olub".[2]

İ.-G.Dagirovu 7 sentyabr 1931-ci ildə erməni Arutyun Davidyan satıb.[3]

21 sentyabr 1931-ci ildə İslam-Girey Bakıda xarici ölkələrin səfirliklərinin nümayəndələri ilə əlaqə saxlamaqla casusluqda ittiham edilib.[4]

İ.-G.Dagirovla birlikdə həbs edilmiş obiri hərbçilər haqqında da qısa bilgi verək. *Nikolay Iosifoviç Novruzov:* milliyyətcə Türk, 43 yaş, 1887-ci ilin oktyabrında doğulub, real məktəbi bitirib. Arvadı Mariya Nikolayevna, 37 yaş, evdar qadın. Oğlu Cəbrayıl, 21 yaş, Az. DSİ, Şəkidə müvəkkil. Maraqlıdır ki, atasını onun özü həbs edib.

Nəcəf Əbülfət oğlu Şahtaxtinski: milliyyətcə Türk, 33 yaş, 1898-ci ilin avqustunda doğulub, Tiflis kadet korpusunu bitirib, Axalsıxda doğulub. Azərbaycan topçu alayı qərargahının rəisi. Arvadı Anna Vasilyevna Şahtaxtinskaya, 30 yaş, evdar. Qardaşı Abbas Şahtaxtinski, 26 yaş, mühasib; qardaşı Sergey Georgiyeviç Şahtaxtinski, 42 yaş, hərbi təyyarəçi, Leninqrad, partiyasız, hərbçi, topçu.[5]

İslam-Girey Dagirov 1938-ci ildə ikinci həbsi zamanı 7 martdakı dindirməsi zamanı öz qohumları haqqında bilgi verərkən qardaşı Zaurdan da danışıb. Deyib ki, o, ixtisasca artistdir, Bakıda daimi mənzili olsa da SSRİ-nin şəhərlərinə qastrola gedir. Bakıda az olur. Zaur 1916-cı ildə Tiflis kadet korpusunu bitirib, ancaq zabit olmayıb. 1921-ci ildə XDİK orqanları onu Bakıda həbs edib, yalnız 9 gün yatıb, sonra azad olunub.[6]

Xatırladaq ki, İslam-Girey Dagirov casus kimi ittiham olunaraq 27 oktyabr 1938-ci ildə güllələnib.[7]

Beləliklə, Azərbaycan Cümhuriyyətinin 100 tələbəsindən biri və Dağıstanın ilk opera müğənnisi Zaur Dagir(ov) haqqında indiyədək yazılmış ən geniş məqalə burada başa çatır...

[1] ARDA, fond 77, siyahı 1, iş 219, vərəq 1; yenə orada, siyahı 5, iş 44, vərəq 2.
[2] AR MTN arxivi, PR-29914, 15-ci cild, vərəq 5.
[3] Yenə orada, vərəq 74.
[4] Yenə orada, vərəq 93.
[5] Yenə orada, vərəq 144.
[6] Yenə orada, vərəq 12.
[7] Yenə orada, vərəq 54.

Dursunzadə Məhəmmədzəki Dursun oğlu

(1893, Asxur k./ Axalsix r./ Gürcüstan – 1937, Tiflis)



Məhəmmədzəki Dursunzadə

Görkəmli Azərbaycan maarif xadimi Ömər Faiq Nemanzadənin (1872-1937) və Cümhuriyyət dönəminin görkəmli dövlət adamlarından Əhmədcövdət Pepinovun[1] (1893-1938) yaxın qohumu olan Məhəmmədzəki Dursunzadənin həyatı haqqında çox az şey bilirik.

Ömər Faiqin qızı Bəxtli xanım 13 avqust 2006-cı ildə Məhəmmədzəki haqqında bizə bunları söyləmişdi:

– Məhəmmədzəki Dursunzadə Ömər Faiq Nemanzadənin həyat yoldaşı Abidə xanımın əmisi oğludur.

Məhəmmədzəkinin böyük bacısı Münirə Ləman Dursunzadə Cümhuriyyət Parlamanında katibə işləyib. O, ərə getməyib. 1944-cü ildə Orta Asiyaya sürgün edilib və orada da vəfat edib.[2]

Məhəmmədzəkinin həyat yoldaşı Nəzirə xanım Əhmədcövdət bəy Pepinovun böyük bacısıdır.[3] *Təxminən 1936-cı ildə o, Bakıda arvadıyla boşanaraq Asxura gedib.*

M.Dursunzadə Pənah Qasımovun müdirlik etdiyi darülmüəllimində (kişi müəllimlər seminariyasında) dil-ədəbiyyatdan dərs deyib. 44 yaşında güllələnib.

O, şairlik də edirmiş. Yazdığı bir dəftər şeir Moskvada yaşayan Fuad İsgəndər oğlu Pepinovdadır. (Bir şeiri də Bəxtli xanıma həsr edib).

Məhəmmədzəkinin qızı Afət xanım Firuz Ləmbəranskinin həyat yoldaşıdır.

* * *

Dostu Çingiz Nemanzadənin yardımı ilə 2008-ci ildə Fuad Pepinovla əlaqə yaratdıq. Ancaq çox təəssüf ki, o, qeyri-ciddi adam çıxdı – nəinki M.Dursunzadə haqqında bizə heç bir bilgi vermədi, hətta dəfələrlə boyun olmasına baxmayaraq, ondakı ərəb əlifbasında yazılmış şeir dəftərinin üzünü çıxarıb bizə göndərmədi. Açığı, ondakı laqeydlikdən incidik, umudumuzu və əlaqəmizi kəsdik.

* * *

M.Dursunzadənin dövlət arxivində saxlanan şəxsi işində onun həyatını işıqlandıran bir sıra sənədlər mövcuddur.

Onun Bakıda 25 avqust 1919-cu ildə Azərbaycan Maarif Nəzarətinə yazdığı ərizədə oxuyuruq:

"İstanbul Darülfünuni-Osmani birinci sənə qismi tələbəsindən olub, əvvəlcə xəstəliyim, müxxərən müharibə münasibətilə darülfununu müvəqqətən tərkə məcbur oldum. Şimdi yenidən gedib əvvəlcə olduğum İstanbul Darülfünunda təhsili-ikmal etmək istiyorsam da əmval və əmlaki-mövcudəmizin düşmənlər tərəfindən tamamilə qarət və məhv edildiyindən, ücrətitəhsiliyyə ilə məişətimi təminə əsla istitaətim yoxdur. Əski elm və fənn müdavim və məftunu olduğumla bərabər, şimdiki məzvərət halımı nəzərə alaraq hökumət müavinəti ilə İstanbula gedib bir sənə tarix və ədəbiyyat qisminin ikmalıma vəsatətdə bulunmağınızı istirham edərəm, əfəndim.

[1] Ə.Pepinov Ömər Faiqin bacısı oğludur.
[2] "Kommunist" qəzetinin 30 təşrini-sani (noyabr) 1923-cü il tarixli 271-ci sayındakı "Xalq ədəbiyyatı həyatdan doğar" səhifəsində (7-ci səh.) Münirə Ləman Xacəzadənin "Annəsiz çocuq" şeiri var.
[3] "Kommunist" qəzetinin 31 ağustos 1923-cü il tarixli 196-cı sayındakı "Xalq ədəbiyyatı həyatdan doğar" səhifəsində (3-cü səh.) Nəzirə Zəkinin "Gənc bir qadının təəssürləri" şeiri var.

Sabiq Darülfünuni-Osmanı birinci sənə qismi müdavimlərindən Məhəmmədzəki Dursun oğlu.

551 nömrəli Darülfünuni-Osmani hüviyyət vərəqəmi də təqdim ediyorum".[1]

İstanbul Universitetinin tələbəsi M.Dursunzadənin 15 noyabr 1919-cu ildə Bakıda Xalq Maarif Komissarına yazdığı ərizədə, təqdim etdiyi sənədlər sadalandıqdan sonra göstərilir ki, mən Brüsseldə Müəllimlər İnstitutu kursunu bitirmişəm, sənədlərim İstanbul Universitetindədir; oraya mən hüquq və filologiya fakültələrinə əlavə imtahan verməklə qəbul olunmuşam. Filologiya fakültəsinin vəsiqəsini tələbə ərizələrinə baxan Komissiyaya 13 sentyabr 1919-cu ildə təqdim etmişəm və Komissiya onu Xalq Maarif Nəzarətinə təqdim edib. Tələbə ərizələrinə baxan Komissiyanın qərarı ilə mən İstanbul Universitetinin tarix-filologiya fakültəsinə yazılmışam. Əlavə olaraq bildirirəm ki, Azərbaycan Cümhuriyyəti təbəəsi olmağım haqqında pasportu alan kimi təqdim edəcəyəm.

Bu ərizənin altında Dursunzadəyə xarici pasportun 15 yanvar 1920-ci ildə təqdim edildiyi qeyd olunub.[2]

M.Dursunzadə Azərbaycanda deyil, Gürcüstan ərazisində yerləşən Asxurda doğulmuşdu və Azərbaycan təbəəsi deyildi. Onun Cümhuriyyətin dövlət təqaüdünü alması üçün ilk növbədə Azərbaycan vətəndaşlığını götürməsi gərəkdi. Buna görə də o, Daxiliyyə Nəzarətinə (Nazirliyinə) müraciət etmişdi. Azərbaycan Hökuməti-Cümhuriyyəsinin daxiliyyə naziri onun istəyinə əməl edərək 16 təşrini-sani (noyabr) 1919-cu ildə 11337 saylı vəsiqə verib. Burada oxuyuruq:

"İşbu vəsiqə Azərbaycan təbəəiyyəti haqqında 11 avqust 1919-cu yılda olan qanunun ikinci qismi, 6-cı fəsli mövcibincə Məhəmmədzəki Dursunzadənin haman qanunun 2-ci fəsli "G" nöqtəsi mövcibincə Azərbaycan təbəəsi arasına qəbul olunduğu haqqında kəndisinə verilir. Tamğa parası[3] *alınmışdır. Təvəllüdü: 1890-ncı sənə, Açsxur köyündə, Tiflis quberniyası. Milliyyəti: Türk, məzhəbi: islam, ailəcə: subay.*

Daxiliyyə naziri naminə: general-mayor Ağasıbəyov.

İdarə müdiri əvəzi: Rza Ağabəyov.

Şöbə müdiri: Bəhram Rzabəyov".[4]

Bu vərəqin arxasında sənədin rusca tərcüməsi verilib.

Təxminən elə bu vaxtlar "Azərbaycan" qəzetində M.Dursunzadənin Məşixət üzvü Əlaəddin əfəndi Sübhanquluzadənin vəfatı haqqında yazısı dərc edilib.[5]

Artıq Cümhuriyyət təqaüdlərindən birini qazanmış Məhəmmədzəki 30 dekabr 1919-cu ildə oxuduğu dövlətdə heç bir siyasi və partiya işinə qarışmayacağı haqqında,[6] 31 dekabrda isə təhsilini bitirdikdən sonra Azərbaycan hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[7] dilkağızları verib.

Dövlət hesabına xaricə oxumağa göndərilməsi haqqında 595 saylı vəsiqə isə ona 13 yanvar 1920-ci ildə təqdim olunub.[8]

Beləliklə, Cümhuriyyət onu tarix-filologiya sahəsində oxumaq üçün İstanbul Universitetinə göndərib. Cümhuriyyətin süqutundan sonra təhsilini öz hesabına davam etdirməkçün o,

[1] ARDA, fond 51, siyahı 3, iş 81, vərəq 1.
[2] Yenə orada, vərəq 2.
[3] Marka pulu.
[4] ARDA, fond 51, siyahı 3, iş 81, vərəq 3.
[5] "Azərbaycan", 24.XI.1919, №328.
[6] ARDA, fond 51, siyahı 3, iş 81, vərəq 5.
[7] Yenə orada, vərəq 4.
[8] Yenə orada, vərəq 6.



Almaniyada oxuyan tələbələrimiz. *Soldan sağa, öndə:* (?), Məhəmməd bəy Hacıyev. *Arxada:* Hacıağa Nuruzadə, Hilal Münşizadə, Əliəkbər Əliyev, Məhəmmədzəki Dursunzadə. 1923-1925-ci illər

Türkiyədən Almaniyaya gedib. Burada hüquq fakültəsini bitirib. Təhsilini qurtardıqdan sonra Bakıya qayıdaraq pedaqoji məktəbdə və Yer Quruluşu Texnikumunda müəllimlik edib. 1937-ci ildə doğma kəndinə gedib, orada həbs olunaraq güllələnib.[1]

* * *

Məhəmmədzəkinin 1937-ci ildə Gürcüstanda güllələnməsi bizə bəlli idi. Buna görə də 2008-ci ildə Tiflis arxivlərində çalışarkən Gürcüstan təhlükəsizlik orqanlarına müraciət edərək Məhəmmədzəki Dursunzadənin onlarda saxlanan istintaq sənədləri ilə tanış olmaq istədiyimizi bildirdik. Bizə yalnız onun məhbus anketini və bir də hökmü təqdim etdilər. Təəssüf ki, istintaq sənədləri ilə tanış olmağa imkan yaradılmadı.

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild, s. 313.



Məhəmmədzəki Dursunzadə. İstanbul, 1921

Məhbus anketində bunlar yazılıdır: Məhəmmədzəki Dursunzadə 1893-cü ildə Axalsix rayonunun Asxur kəndində doğulub, Axalsix şəhərində Hərbi (Voyennaya) küçədə 26-cı evdə yaşayır. Pedaqoji məktəbin müəllimidir. Ruhani ailədəndir, ali təhsillidir, partiyasızdır. Arvadı Həyat Hacızadə, bacısı Münirədir (müəllimə).

Onun haqqındakı digər sənəddə qeyd olunub: Məhəmmədzəki Dursunzadə 1893-cü il doğumlu, Axalsix şəhər sakinidir. Həbs edilənədək müəllim işləyib. Molla oğludur. 1918-ci ildə Türkiyə komandanlığında qulluq edib. 1919-cu ildə Müsavat hökuməti onu İstanbula oxumağa göndərib. Təhsilini bitirdikdən sonra Gürcüstan SSR-ə qayıdıb. 1921-ci ildə kamalçı[1] qoşunlarla Ərdəhan şəhərinə gedib, orada qaimməqam təyin edilib. Ali hüquq təhsillidir.

Bunda ittiham edilir ki, qaynı Ömər Faiq Nemanzadə onu əks-inqilabi təşkilata cəlb edib, Ömər Məhəmmədovdan, Türk kəşfiyyatından məktublar alıb. 1933-cü Türkiyəyə mühacirət etmək istəyib. Gürcüstan CM 58/10 və 58/11-ci maddələri ilə ittiham edilib. Suçunu qismən boynuna alıb.

Ona güllələnmə hökmü çıxarılıb, təəssüf ki, hökmün tarixi göstərilməyib. Ancaq elə eyni səhifədə Muradov Balabəy Aslan oğluna (1896) 28 avqust 1937-ci ildə, Günəşov Bəhram Nəsib oğluna (1910) 17 iyul 1937-ci ildə hökm çıxarılması bunu deməyə əsas verir ki, Məhəmmədzəki haqqındakı hökm də elə təxminən 1937-ci ilin iyul-avqust aylarına düşür.

Yeri gəlmişkən, 10 il iş kəsilmiş Balabəy Aslan oğlu Muradov və Bəhram Nəsib oğlu Günəşov da Asxurdandırlar və onların da "təqsiri" Ömər Faiq Nemanzadənin başçılıq etdiyi əks-inqilabi komitənin üzvü olmalarıdır. Balabəy Muradova ittihamlardan biri budur: "1922-ci ildə birlikdə Türkiyəyə getdiyi və Türkiyə hakimiyyətində qulluq etdiyi Məhəmmədzəki ilə sıx bağlıdır. Məhəmmədzəki ilə birlikdə Yusif Hacıyevin başçılıq etdiyi Aspindza əks-inqilabi təşkilatı ilə əlaqə saxlayıb".[2]

İstanbulda, Osmanlı arxivində Məhəmmədzəki haqqında bir sənəd saxlanılır. Adı belədir: "Masrafları Azerbaycan Cümhuriyyeti Maarif Nezaretince karşılanmaq üzere Mektebi-Mülkiyyeye Samiin sıfatıyla kayd və kabul edilen Mehmedzeki haqqında".[3] Təəssüf ki, bu sənədlə tanış ola bilməmişik.

Dursunzadənin həyatı haqqında əlavə bilgilərə Abdulla Tahirzadənin zindanda 30 may 1949-cu ildəki dindirməsində də rast gəlirik.

"Dursunzadə Məhəmmədzəki (atasının adını bilmirəm) 55 yaşlı, azərbaycanlı, Gürcüstanın Axaltsix rayonundandır. İxtisasca dil və ədəbiyyat müəllimidir. Türkiyədə, deyəsən, Müsavat hökumətinin vəsaiti ilə xaricdə oxumuş təlabələr sırasında təhsil alıb. Onunla 1924-cü ildə Bakı müəllimlər seminariyasında (darülmüəllimində) birgə işlədiyimiz zaman tanış olmuşam.

Aramızda xidməti münasibət olub, ancaq 1926-27-ci illərdə mən bir neçə dəfə onun evində olmuşam, o da bir neçə dəfə arvadı ilə bizə gəlib. Bu gediş-gəliş Dursunzadənin o vaxt Pedaqoji İnstituta girmiş arvadına riyaziyyatdan bəzi məsləhətlər verməyim xahişinə görə olub.

Onun yoldaşı institutu bitirincə Dursunzadənin sərxoşluğu ilə bağlı ailədə söz-söhbət yarandı. O, məndən xahiş etdi ki, arvadı ilə onu barışdırım, ancaq əlimdən heç nə gəlmədi, çünki qadın barışmaqdan qəti boyun qaçırdı. Təxminən 1928, yaxud 1929-cu ildə Dursunzadə öz bacısı ilə Axaltsixə köçdü və ondan sonra onun haqqında heç nə eşitmədim".[4]

[1] Mustafa Kamal Atatürkün başçılıq etdiyi.
[2] Sənədlərin surəti şəxsi arxivimizdədir.
[3] Tarih: 18/B/1338 (Hicri), Dosya No: 5/-2, Gömlek No: 1//18, Fon Kodu: DH.İUM.
[4] AR MTN Arxivi, PR-21950, vv. 33-34.

Əbdülzadə Əbdül Kərbəlayı Abbas oğlu

(12.03.1898, Bakı – 27.7.1937)



Bakı Politexnik Məktəbinin məzunu Əbdül Əbdülzadə. 1917

Azərbaycanın istiqlal tarixində önəmli yeri olan, ancaq indiyədək nəinki haqq etdiyi layiqli qiymətini ala bilməyən, hətta adı da az qala unudulmaqda olan Əbdül[1] Əbdülzadənin[2] həyatı Azərbaycan ziyalılığının ən şərəfli səhifələrindəndir. Çox acınacaqlıdır ki, oxuduğunuz bu yazı 116 yaşlı Əbdül Əbdülzadəyə həsr olunmuş ilk məqalədir!..

Öncə yığcam tərcümeyi-halı ilə tanış olaq. Bunu bizə 2006-cı ildə oğlu Elxan təqdim edib.

Atası tacir Kərbəlayı Abbas Əbdül oğlu (təx. 1870, Təbriz – təx.1900, Bakı) təxminən 1890-cı ildə Bakıya köçüb. Aşağı Təzəpir[3] küçəsində (17-ci döngə, 7-ci ev) ev alıb. İndiki Füzuli meydanında – köhnə "1001 xırdavat" mağazasının yerində dükanı olub. Kərbəla ziyarətinə gedərkən orada vəfat edərək dəfn olunub.

Anası Hürnisə Sayıl qızı Binəqədi kəndindəndir.

Qardaşı Qulam Əbdülzadə (1892/94-təx. 1940) müəllim işləyib.

Əbdül Əbdülzadə öncə Sonqulu məscidində molla yanında oxuyub. Sonra Bakı Politexnik Məktəbinin mexanika bölməsində neft sənayesi ixtisası üzrə təhsil alaraq oranı bitirib (3.5.1918). 18 may 1919-cu ildən Gəncə ibtidai məktəbində müəllim işləyib. 1920-ci ilin yanvarında Cümhuriyyət onu oxumağa Türkiyəyə – İstanbul Universitetinin hüquq fakültəsinə göndərib. Bu vaxt London və Parisdə də olub. 1920-ci ilin iyulunda Tiflisdən keçməklə Bakıya qayıdıb və 25 avqust 1920-ci ildən nəşriyyatlarda tərcüməçilik edib. 1921-ci ildə təhsilini M.Əzizbəyov adına Bakı Politexnik İnstitutunda (indiki Neft Akademiyasında) davam etdirib və 1925-ci ildə mexanika bölməsini bitirərək mühəndis olub. Eyni zamanda Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini də riyaziyyat ixtisası üzrə qurtarıb (20.5.1926).

11 sentyabr 1922-ci ildən 14 may 1927-ci ilədək Nərimanov adına texnikumda müəllim işləyən Ə.Əbdülzadə 18 yanvar 1927-ci ildə həbs edilib və 1922-1924-cü illərdə Müsavat Partiyasının gizli təşkilatında iştirak etməsi üstündə 8 il iş verilərək 1928-ci ilin yayında Solovki adasına sürgünə göndərilib. 1934-cü ildə sürgündən qayıdıb, ancaq Bakıda yaşamağa icazə verilmədiyinə görə Gəncəyə gedib. 1934-1936-cı illərdə orada Gəncə Sənaye Politexnik Texnikumunda, Gəncə Dəmiryol İnşaatı Texnikumunda və fəhlə fakültəsində dərs deyib. 9 nəfər köhnə məhbus yoldaşıyla birgə 24 dekabr 1936-cı ildə yenidən gizli müsavatçılıq fəaliyyətinə görə həbs edilərək 28 iyul 1937-də onlarla birgə güllələnib.

* * *

İndi isə sənədləri gözdən keçirək.

9 may 1910-cu ildə Hüseynqulu ("Sonqulu") məscidinin mollası Axund Hacı Molla Sadıq Mollazadənin Əbdül Kərbəlayı Abbas oğluna verdiyi şəhadətnamədə göstərilib ki, Əbdul 1898-ci ildə doğulub, 11 yaşı tamam olub.[4]

[1] Əsl adı "Əbdülhüseyn" olsa da sonrakı sənədlərin, demək olar ki, hamısında "Əbdül" yazılıb.
[2] Soyadı bir çox qaynaqlarda "Əbdülov" kimi də gedib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.
[3] İndiki Mirzə Fətəli.
[4] Sənədin surəti özəl arxivimizdədir.



Qafqaz müsəlman şagirdlərinin qurultayı. *Soldan sağa, 1-ci cərgə:* 1-ci Əli Kərimov, 4-cü Zal Məmmədli, 5-ci Məhəmməd Rəhimli; *2-ci cərgə:* 1-ci Bayram Hacıyev, 6-cı Əlimuxtar Həsənov *(gözlüklü)*, 15-ci Lətif Qədimi (düyməli paltarda); *3-cü cərgə:* 5-ci Behbudəli Zeynalov; *4-cü cərgə:* 1-ci Mirzəhüseyn Quluyev, 4-cü Həmid Xəlil Məhəmməd oğlu, 6-cı Balaağa Ağayev, 7-ci Əbdül Əbdülzadə, 13-cü Teymur bəy Aslanov, 15-ci İsmayıl Axundov; *5-ci cərgə:* Mustafa ağa Vəkilov *(sonuncu)*. Bakı, 10 may 1917-ci il

Bakı Politexnik Məktəbi Pedaqoji Şurasının müsəlman, 1898-ci il doğumlu Əbdül Kərbəlayı Abbas oğlu Əbdülova 30 may 1917-ci il qanunu əsasında 2 aprel 1918-ci ildə verdiyi 311/413 saylı attestatda göstərilib ki, o, 19[??]-cu ildə[1] Bakı Politexnik Məktəbinə daxil olaraq orada 1 yanvar 1918-ci ilədək oxuyub və neft sənayesi bölməsi üzrə elmlərin tam kursunu bitirib. Buna görə yuxarıda adı keçən qanunun 7-ci maddəsinə əsasən, Ə.Əbdülov bu rütbəyə aid olunan hüquqlarla birgə neft sənayesi ixtisası üzrə texnik rütbəsinə layiq görülüb. Bu attestat yuxarıdakı bütün deyilənləri təsdiq etmək üçün verilib, lazımi imzalarla və məktəb möhürünün basılması ilə təsdiq edilib.[2]

Əbdülzadə hələ Politexnik məktəbdə oxuyarkən elmi araşdırmalara və jurnalistikaya ciddi maraq göstərib. Bakıda 1917-ci ildə nəşr edilən, cəmi 2 sayı çıxmış *"İttifaqi-mütəəllimin"* qəzeti Bakı Mütəəllimləri[3] İttifaqının orqanı idi. Həftədə bir dəfə 4 səhifədə çıxan bu siyasi-ictimai, ədəbi, elmi qəzetin redaktoru Əbdülvahab Məhəmmədzadə, müdiri Əbdül Əbdülzadə idi. Qəzeti redaksiya heyəti idarə edirdi. "İttifaqi-mütəəllimin" ayda bir dəfə *"Mədəniyyət"* jurnalı da buraxıb (1918-1919). Onu redaksiya heyəti nəşr edib (heyətdə Ə.Əbdülzadənin də ola bilməsi təbiidir).

Bizcə, Əbdülvahab Məhəmmədzadə ilə yaxınlığı nəticəsində onda müsavatçı düşüncələr yaranıb və möhkəmlənib.

[1] Məktəbə girmə ilinin yeri attestatda boş qoyulub.
[2] ARDA, fond 2802, siyahı 1, iş 772, vərəq 6.
[3] Şagirdləri.



Qafqaz müsəlman şagirdlərinin qurultayı. *Düz ortada* İsa bəy Aşurbəyli *əyləşib (papaqlı). Başı onun dirsəyinə toxunan ağ paltarlı isə* Əbdül Əbdülzadədir. Bakı, 10 may 1917-ci il

Oğlu Elxanın ailə arxivindən götürərək bizə təqdim etdiyi iki nadir fotoda 10 may 1917-ci ildə Bakı şəhərində 3 gün davam etmiş Qafqaz müsəlman şagirdlərinin I qurultayı təsvir olunub. Həmin xatirə fotolarında qurultay iştirakçıları arasında Əbdül Əbdülzadəni də görürük.

* * *


Əbdül Əbdülzadə fitri istedaddı. Onda elmə, axtarışlara yaşıdlarıyla müqayisə edilə bilməyəcək qədər həvəs vardı. Erkən yaşda millətçi olduğuna görə məsələlərə ümummilli baxımdan yanaşırdı. Yazılarını daha çox "Ə.Əbdül" imzası ilə nəşr etdirirdi.

Ə.Əbdül "Azərbaycan" qəzetində 1918-ci ilin oktyabrında dərc etdirdiyi *"İqtisadiyyat. I. Ticarət və sənaət"* məqaləsində[1] yazır:

"Bir məmləkətin bəqası istəniliyorsa, bir millətin istirahəti arzu ediliyorsa o məmləkətin, o millətin iqtisadi cəhətlərinin təmini icab edər.

İqtisadi cəhətlər isə məmləkətin təbii sərvəti, millətin istedadı sayəsində əldə edilmiş olacaqdır. Təbii sərvət kürreyi-ərzin hər bir cəhətində var kibidir; təvafüt fəqət kəşf edilməsi, istifadə edilməsindədir. Misal üçün, götürəlim mərkəzi Avropa dövlətləri və indiki Rusiyayı".

[1] *"Azərbaycan"*, 14 təşrini-əvvəl (oktyabr) 1918, №14, ss. 3-4.



Bakı Politexnik Məktəbi mühəndislərinin 1-ci buraxılışı.
Sağ qanadda 5 nəfərlik tələbə cərgəsində ilk şəkil Əbdül Əbdülzadənindir. 1917

Bundan sonra müəllif müxtəlif rəqəmlərlə mülahizələrini əsaslandırmağa çalışır.

"Məmləkətimiz təbii istehsalat cəhətindən pək zəngindir, fəqət millətimiz... iqtisad və sənaətdən[1] məhrumdur. Ticarəti-milliyyəmizi artırmaqdan ötrü sənaətimizi artırmalıyız. Bu iki məsələ biri-birindən ayrılamaz. Biri o birisi[nin] tərəqqisinin rəhni kibi tələqqi edildiyindən dolayı, ikisi də bir dərəcədə şayani-diqqətdir. Nefti bir kənara qoyub məmləkətimizdəki sair xammala bakalım.

Muğan səhrası. Bu səhra bin desyatin ilə... əkilməyə yarar əraziyə malikdir. Burada paxta –pambıq qozası ziyadəsincə gözəl hasil oluyor. Fəqət su qəhətindən çox il toxum yanıb, məhsulat verməyir. Bu səhrayı Aras nəhri yarıb akıyor. Bu nəhrin suyu bol, suya möhtac ərazi də bol, fəqət su da akıb heç oluyor, ərazi də susuz qalıyor. İştə bizim bacarıqsızlığımız bunu göstəriyor. Köhnə istibdad hökuməti burada az-çok hasilə gələn paxtayı xamlığında alıb Rusiyaya irsal ediyordu, halbuki yenə haman Aras nəhri vasitəsilə bir çok sənaət müəssisələri düzəlib bura ətraf köylərinə milyonlarca mənfəət verəcək idi.

Biz istibdad Rusiyasını müttəhim etmiyoruz, Qafqasyanın Rusyaya ögey oğul kibi tələqqi edildiyi cümləyə məlumdur.

Qarabağ və Dağıstan nəvahisində saklanılan qoyunların yunu da xammaldır ki, öz fabrikalarımızda işlədilməsi icab ediyor.

Bunların əhəmiyyəti yukarıda göstərdiyimiz neft və paxta kibi birinciliyi haiz olmadığından burakıyoruz. Ancaq bircə neft ilə paxta ticarətini layiqincə irəli sürərsək məmləkətimiz və millətimiz təmin ediləcəkdir. Sənəlik çıkarımız gəlirimizdən dəfələrlə az olacaqdır, zənn ediyoruz.

Bundan tolayı, ən lüzumlu bir şey varsa o da sənaətimizi təkmil etməkdir. Bir neçə sənə xəsarət görərsək sonralar daimi surətdə təmin ediləcəyiz".[1]

"Tələbə Ə.Əbdül" həmin silsiləni *"İqtisadiyyat. II. Yeni vətənimizdə yeni məktəb"* başlığı altında[2] davam etdirib:

"...Məktəb həyat olmalıdır. Həyatdan qeyri məktəb məktəb adlandırılmamalıdır. Götürəlim bir edadiyi bitirmiş tələbəyi. Bu elmli zat zavoda daxil olduqda taraq-turuqdan başqa səs eşidəməz. Zor gövdəli mühərrik makinədən başqa bir şey görəməz, halbuki zavodda başqa səslər də var, başqa şeylər də görmək mümkündür. Makinənin bir taraq-turuğu, bir növ həyatı təbliğ ediyor, makinənin bir qolu, ya bir yayı bir növ zəhməti göstəriyor. Bizim tələbə isə zavodu seyr edər də çıkıb gedər, zavoddan isə heç bir şey aparamaz. Bəs məktəb nə imiş? Yeni vətənimizi məmləkət halına salmaqdan ötrü, millətimizi millətlər sırasında daxil etməkdən ötrü çelik məzaclı, dəniz kirdarlı qüvvələr istəniliyor. Heyflər olsun ki, əski məktəblərimiz əski zəmanə insanları, qurumuş mumyalar burakıyor, istiqbalın, təbiəti qovğa meydanı, məqsədi-amal təriqi əld edən qəhrəmanlar çıkarmağa qadir deyildir.



Əbdül Əbdülzadə dostu Əliheydər Babayevlə. 1917

Əvət! Əski məktəb həqiqətən əskidir. İşbu məkəb tədrisatı hal-hazirə həyatına tətbiq ediləməz. Məktəb mütəəllimin bir məktəb həyatı deyil, ev həyatı və cəmiyyətlərdə keçirdiyi həyatı heç vəqt nəzəri-etibara almamış, bundan dolayı bir çok fəna nəticələr görülməkdədir. Böylə məktəbdən çıkmış tələbə arkadaşlarını, bəzən ata-anasını belə bəyənmiyor. Bunlar ilə cəmiyyətlərdə konuşmayı özünə ar biliyor. Nə üçün? Babasının əlbəsəsi köhnə, anasının çadırı ipək deyildir. Arkadaşı şapka deyil, papaqlıdır. Bunu bizə tərbiyəmiz verməmiş, Nikolaylar bağışlamamışlar, məktəblərimizdən qalmış irsdir...

[...] Bu gün Bakı əhvalına bir nəzər salalım. Bir bu qədər zavodlara malik bir islam ölkəsində sənaət, texnika nə haldadır?

Zavodlar gurhagur işliyor, müsəlman çocuqları isə səfil-sərgərdan alma-armud satıyor, küçələrdə diləniyor. İnsaf ediniz, bu zavodlar məktəb deyilmi, əcaba? Bu millət yavrularını bir qarın çörək, bir dəst əlbəsəyə bu zavodlara alıb atilərini təmin etməklə səkkiz qat mənfəət əldə edəcəyiz. Çocuk səfil olmaz, elmli olar, sənətli olar, bir qəpik də artıq xərc olmaz, zira ki, çocuk çalışıyor. Nə isə, yeni vətənimizə yeni məktəb lazımdır. Yeni məktəbsiz vətənimiz xaraba qalmağa məhkumdur. Yeni məktəblər də dirilər məktəbi olmalıdır, əski məktəblər ölülər məktəbidir".[3]

[1] Sənayedən.

[1] *"Azərbaycan"*, 14 təşrini-əvvəl (oktyabr) 1918, №14, s. 4.
[2] Yenə orada, №15, ss. 3-4.
[3] Yenə orada, s. 4.



Bakı Politexnik Məktəbinin tələbələri.
Soldan sağa, oturanlar: Əbdül Əbdülzadə, Əliheydər Babayev. *Ayaq üstə:* (?), Hənəfi Zeynallı. 1917

"Azərbaycan" qəzetində *"Tələbə Ə.Əbdül"*ün növbəti yazısı *"İqtisadiyyat. III. Həyati-iqtisadiyyəmizdə qadınlarımızın rolu"* adlanır.[1] Müəllifin gəldiyi nəticə budur: "Qadınlıq yardımı təcrübəsizliyimizi azaldacaq, bizi mübarizeyi-həyatiyyəyə silahlandıracaqdır".[2]

Əbdülzadə "Azərbaycan" qəzetində *"Ə.Ə."* imzası ilə də məqalələr yazıb. Məsələn: *"Azərbaycan islahatı. 1. Daxiləmiz haqqında"*,[3] *"Azərbaycan islahatı. 2. Əhali və polis nəfəratı"*,[4] *"Ərzaq paylamaq"*[5]...

* * *

Parlaman sədrini əvəz edən Həsən bəy Ağayevin 31 dekabr 1918-ci il tarixli 31 saylı əmri ilə Əbdül Əbdülzadə 7 dekabr 1918-ci ildən dəftərxanada türkcə stenoqrafi təyin edilib[6] və Həsən bəyin 42 saylı əmri ilə 1 yanvar 1919-cu ildən Azərbaycan Məclisi-Məbusan idarəsinin məzbətə mühərririyyindən[7] azad edilib.[8] Bundan sonra o, 1919-cu ilin yanvarından 1920-ci ilin yanvarınadək müəllim işləyib. Bu haqda sənədləri izləyək.

29 dekabr 1918-ci ildə Bakı III ali ibtidai məktəbinin müfəttişi[9] Bakı Şəhər İdarəsinin Məktəblər Bölməsi üzrə üzvünə məktub yazaraq xahiş edib ki, bu məktəbə Mehdi bəy İsmayılovun yerinə Bakı Politexnik Məktəbini bitirmiş Əbdül Əbdülovu göndərəsiniz.[10]

1919-cu ilin yanvarında Aşağı Təzəpir küçəsi 17-ci döngə, 6-cı evdə yaşayan tələbə Əbdül Əbdülov Bakı Şəhər İdarəsi Məktəblər Bölməsinə ərizə yazaraq Bakı Politexnik Məktəbini bitirdiyini və onu şəhər məktəblərinin birində boş müəllim yerinə təyin etməyi xahiş edib.[11]

2 yanvar 1919-cu ildə Bakı Şəhər İdarəsinin Məktəblər Bölməsi üzrə üzvü həmin məktəbin müfəttişinə məktub göndərərək bildirib ki, Əbdül Əbdülov onun məktəbinə müəllim vəzifəsini müvəqqəti əvəz etmək üçün göndərilir və onun işləməyə başladığı günü bildirməyiniz xahiş olunur.[12]

3-cü ali ibtidai məktəbin müfəttişi 5 yanvar 1919-cu ildə Bakı Şəhər İdarəsinin həmin

1 *"Azərbaycan"*, 12 təşrini-sani (noyabr) 1918, №37, s. 2-3.
2 Yenə orada, s. 2.
3 *"Azərbaycan"*, 07.08.1919, №245, s. 3.
4 *"Azərbaycan"*, 11.08.1919, №248, s. 3.
5 *"Azərbaycan"*, 14.08.1919, №251, s. 3.
6 ARDA, fond 895, siyahı 1, iş 193, vərəq 19.
7 Protokol yazan, stenoqrafçı.
8 ARDA, fond 895, siyahı 1, iş 22, vərəq 20; iş 193, vərəq 30.
9 Məktəb müfəttişi o tarixdə direktor anlamına gəlirdi.
10 ARDA, fond 2802, siyahı 1, iş 772, vərəq 2.
11 Yenə orada, vərəq 5.
12 Yenə orada, vərəq 1.



«Azərbaycan» qəzetinin redaksiya işçiləri və yazarları.
Soldan sağa. Öndə oturanlar: Piri Mürsəlzadə, Rəhim ağa Vəkilov. *Orta cərgədə:* Hənəfi Zeynallı, Rübabə xanım Tağızadə (Parlamanda idarə qulluqçusu), Şəfiqə xanım Əfəndizadə, Məhəmmədəmin Rəsulzadə, Səhra xanım Paşazadə (Parlamanda idarə qulluqçusu), Üzeyir bəy Hacıbəyli, Mustafa ağa Vəkilov. *Ayaq üstə duranlar:* Əbdül Əbdülzadə, Mirzə Hadi Atlasov, Hacıibrahim Qasımov, Məhəmmədəli Sidqi Səfərov, Şəfi bəy Rüstəmbəyli, Seyid Hüseyn Sadıq, Xəlil İbrahim, Qədir Heydərov, Əli Yusifzadə, Məhəmməd Hadi Əbdüssəlimzadə. 1919

üzvünə xəbər verib ki, Əbdül Əbdülov bu 5 yanvardan öz vəzifəsinin icrasına başlayıb.[1]

3-cü ali-ibtidai şəhər məktəbinin müəllimi Əbdül Əbdülov 17 yanvar 1920-ci ildə Bakı Şəhər İdarəsinin Məktəblər Bölməsinə 17 yanvar 1920-ci ildə ərizə verərək xahiş edib ki, hökumət Avropaya ali təhsil almaq üçün göndərdiyinə görə məni 16 yanvar 1920-ci ildən işdən azad olunmuş sayasınız, maaşımı ödəyəsiniz və s. Son haqq-hesabı aparmağı qardaşım Qulam Əbdülova etibar edirəm.[2]

Bakı şəhər başçısının 1 mart 1920-ci il 439 saylı əmri ilə Aleksey məktəbinin müəllimi Əbdül Əbdülov 16 yanvar 1920-ci ildən vəzifəsindən azad edilib.[3]

* * *

Əbdülzadə oxumağa İstanbul Universitetinə getmişdi. Onlar 9 nəfərdi: Əbdül Əbdülzadə, Sadəddin Hacı Həsən oğlu, Məhəmmədzəki Dursunzadə, Məhəmmədhənifə Zeynallı, Əlimuxtar Həsənzadə, Əli Kərimzadə, Əliyusif Cəfərzadə, Məhəmməd Xələfbəyzadə, Abdulla Tahirli.

27 fevral 1920-ci ildə – hələ heç "yerlərini isitməmiş" maarif nazirinə şikayət məktubu yazdılar ki, bizə verilən pul çeklərini Azov-Don bankında xırdalatmalıyıq, ancaq İstanbulda onun şöbəsi yoxdur. Məcbur olub çekləri xeyli itki ilə başqa banklarda xırdalatmışıq. Bundan sonra təqaüdümüzü bizə çeklə deyil, pulla göndərin.[4]

1 Yenə orada, vərəq 4.
2 ARDA, fond 2802, siyahı 1, iş 772, vərəq 9.
3 Yenə orada, vərəq 13.
4 Yenə orada, fond 51, siyahı 3, iş 40, vv. 42-43.



Bakı müəllimləri İstiqlal bayramını qeyd edir.
Soldan sağa. 1-ci cərgə: 4-cü Mirzəbala Məhəmmədzadə, 6-cı Əbdül Əbdülzadə, 10-cu Hənəfi Zeynallı; *2-ci cərgə:* 4-cü Əliisgəndər Cəfərzadə, 5-ci Əliheydər Babazadə, 6-cı Məhəmmədhəsən Həsənov, 7-ci Xudaverdi Kələntərli, 8-ci Həbib bəy Mahmudbəyov, 9-cu Baba bəy Səfərəlibəyov, 10-cu Mirzə Səlim Səyyah Qasımzadə; *3-cü cərgə:* 6-cı Teymur bəy Bayraməlibəyov, 7-ci Süleyman Sani Axundov, 8-ci Sultan Zəki: *4-cü cərgə:* 3-cü Qulu Hüseynov, 11-ci Hilal Münşizadə. 28 may 1919-cu il

* * *

Azərbaycanda sovet hakimiyyəti qurulan kimi bolşeviklər tələbələri oxumağa ruhlandırmaq əvəzinə, onları geri çağırdılar. Nəticədə 1920-ci ilin sentyabrında İstanbulda yalnız 3 Cümhuriyyət tələbəsi qalmış, qalanlar həmin vaxtadək Bakıya dönmüşdü. Qayıdanlar içərisində Ə.Əbdülzadə də vardı.

25 avqust 1920-ci ildə verilmiş 77 saylı vəsiqəyə görə, Ə.Əbdülov Bakı qəza hərbi komissarlığında, Azərbaycan mərkəzi nəşr nəzdindəki Türk nəşriyyatına tərcüməçi vəzifəsinə götürülüb.[1]

18 mart 1922-ci ildə "Sabir Kütubxanəsi Qarein Şurası"[2] Sabir gecəsi münasibətilə *"Yaşıl yapraqlar"* adlı dərgi nəşr edərək onu Azərbaycan xalq şairi Sabirə ithaf edib.[3] Dərginin bu birinci sayında Hüseyn Cavidin "Bənim Tanrım", Əhməd Cavadın "Bir gün", Mirzəbala Məhəmmədzadənin "Sabir və xalq", Əbdül Əbdülzadənin "Vicdani-millinin təcəllisi", Əbdülvahab Məhəmmədzadənin "Bünyani-tərəqqimizdən bir təməl", Hüseyn Sadiqin (Seyid Hüseynin) "Sabirin atası", Ümgülsümün (Seyid Hüseynin yoldaşı) "Vəfasız", Məhəmmədəli Sidqinin "Küçük bir xatirat", M.Ə.Veysovun "Sabirin sərgüştəsindən", Türfə Sultanın "Sabirin şeirlərinin xalqımıza faydası", Heydərovun "Sabir kütubxanasının təsisi", Ə.Babazadənin "Qarein şurası" məqalələri dərc edilib. Göründüyü kimi, bunlar ən məşhur müsavatçılardır.

Prof. Abbas Zamanov 1962-ci ildə Sabirin yüz illiyi münasibətilə hazırlayıb nəşr

[1] Sənədin surəti şəxsi arxivimizdədir.
[2] Oxucular Şurası.
[3] *"Yaşıl yapraqlar"*. 1-ci sayı. 18 mart 1922.

etdirdiyi "Müasirləri Sabir haqqında" kitabına[1] bu məqalələrdən bəzilərini daxil etsə də, Əbdül Əbdülzadənin yazısını orada görmürük. Ə.Əbdülzadənin bu yazısı, ümumiyyətlə, indiyədək oxucuların diqqətindən kənarda qalıb və yəqin ki, onu oxuyanların da əksəriyyətinin müəllif haqqında heç bir təsəvvürü olmayıb. *"Vicdani-millinin təcəllisi"* adlı həmin yazıdan bəzi parçaları oxucuların diqqətinə təqdim edirik.



Əbdül Əbdülzadə. İstanbul, mart 1920

"Sabir kimdir?" sualına, şübhəsiz ki, azərilərin iftixar edəcəkləri "bir nasihi-bülənd", "bir simayi-nadir" və ilax. cavabı veriləcək. Sabir ədəbiyyatımızda təcəddüd[2] yapdı. Biz kibi kiçik adamların gözlərinə görünəməyən həqiqətləri dühası sayəsində önərdi, təfriq və tənzim etdi, dərdlərimizi altun telli sazında tərənnüm etdirdi. İnci yaşlar aktdı.

Zəviül-həyatda bilümum, başərdə xüsusən bir xasseyi-ruhi və ümumi mövcuddur ki, hər şeyi kəndisində və həmnövündə görmək istər, kəndisini baş vermiş və verəcək vüquati-tarixiyyənin amili-amiri tələqqi edər. Həyati-bəşərin canlı səhifələrini təşkil edən əfsanələrdə, daha sonra tarixdə məzkur xassənin vücudunu təsdiqə xadim bir çox həqiqət mövcuddur. Həzrəti-Adəmin behiştdən qovulması əsbabı kəndisində, lisanların dəyişilməsi, Babil qülləsinin zəlzələyə məruz qalması, yenə insanın kəndisində və insanın rifahiyyəti üçün və ilax. kibi beynəlmiləl əhəmiyyəti haiz əfsanələrdə həp insanı görəcəksiniz. Tarixdə də eyni vəchlə həqayiqi-məzkurəyi bula bilirsiniz: Fransa ixtilalının müəssisləri Robespyer, XVI Lui Bonapart, islamiyyət Həzrəti seyyidül-bəşərin bir tabe müstəqimi, bilaxərə son Avropa qətalının müəssisi Rusiya inqilabı, Romanovlar, Kerenski, Lenin, bu, şu və qeyrə".

"Filhəqiqə, tedad etdiyimiz tarixi vəqələrdə bəzi zəvat, fərdlərə böyük rollar ifası qismət olmuşdur. Fəqət bu, o demək deyildir ki, Fransa inqilabını Robespyer yapmış və yaxud Avropayı Napolyon istila etmişdir. Robespyer də, Bonapart da vicdani-ümumi tələbatını ya anlamış və yaxud təsadüfən anlamış kibi müamilatda bulunduqlarından müvəffəq olmuşlardır. Bunlar ancaq və ancaq mühitlərinin övladıdırlar, təbiri-digərlə, tarixi və felə qəvanini tətbiqə xadim amillərin ən qullanışlı olanlarıdırlar. Hər xəstəlik müəyyən nətayic tövlid etdirdiyi kibi, bu və yaxud şu vəqeyi-tarixi də bu və yaxud şu nasihəyi bir nəticə kibi doğurur. Bir şəxsin tarix icadına qədər olacağı nəzəriyyəsi, fəqət başərdəki "hər şey bən" xasseyi-ruhisidir. Sabir də kəndi mühitinin, kəndi dövrünün bir oğludur. Sabiri 1905-nci sənəyi mütəaqibən təməzzi etmiş vicdani-ümumi doğmuşdur".

"Qafqasyadakı hadisati-tarixiyyə nəticəsində azəri Türklərində qayət kəskin məxsus bir fikir təşəkkül etdi ki, vicdani-ümuminin təsiridir. Vicdani-məzkur hərəkəti-ehtizaziyyə nəticəsində hüsulə gəlmiş səvti-musiqi bir hailə təsadüflə inikas etməli, məxsus bir səda çıkarılmalıydı. İştə Sabir təbii bir hail idi ki, əksi-səvti-mükərrərləri müntəzəm bir surətdə toplamış, təntənə yapmaya müvəffəq olmuşdur".

"Sabir Türk vicdani-millisinin bir təcəlliyi-müqəddəsidir!".[3]

* * *

Nərimanov adına Azərbaycan Sənaye Texnikumunun 27 yanvar 1935-ci ildə verdiyi 51 saylı arayışa görə, Əbdülzadə 11 sentyabr 1922-ci ildən 14 may 1927-ci ilə qədər burada müəllim işləyib.[4] *"Nərimanov adına texnikum illiyi"* adlı dərginin 1-ci sayı[5] (sonrakı sayları

[1] Müasirləri Sabir haqqında. Bakı, 1962.
[2] Yeniləşmə.
[3] *Əbdül Ə.* Vicdani-millinin təcəllisi. //*"Yaşıl yapraqlar"*, sayı 1. 1922-ci il, ss. 3-6.
[4] Sənədin surəti özəl arxivimizdədir.
[5] Nərimanov adına texnikum illiyi. 1924, №1.



Əbdül Əbdülzadə İstanbul Universitetində tələbə yoldaşları arasında *(2-ci sırada sağdan 2-ci).*
İstanbul, 10 may 1920-ci il

çıxmadı) ilə tanış olarkən 1923-cü ildə yaradılmış bu məktəbin həyatında Ə.Əbdülzadənin çox mühüm yer tutduğu aydınlaşır. Dərginin 8-ci səhifəsi "müəssislər"in, yəni texnikumu yaradan 8 kişinin (Səməd Məhəmmədyarlı, Əbdülvahab Məhəmmədzadə, Ə.Əbdül, Əliheydər Babazadə, Həsən Mehdizadə, P.Pukolov, Cavad Məlikyeqanov və Hacıbaba Əlizadənin) fotolarına ayrılıb. Lap başda sağda Ə.Əbdülzadənin şəklini görürük. Dərginin 20-ci səhifəsindəki "Məktəbimizin heyəti-rəyasəti" yazısının altında isə Nərimanov texnikumu rəhbərlərinin kollektiv şəkli verilib: müdir müavini Səməd Məhəmmədyarlı, müdir Ağa Axundov, katib Ə.Əbdül, müəllimlər nümayəndəsi Əliheydər Babayev.

Ə.Əbdülün elə bu dərgidə nəşr etdirdiyi *"Əsrimizdə fənn"* yazısı onun dəyərli elmi məqalələrindəndir. Burada müəllif 3 sxem verməklə əsasən fizika mövzusunda o çağ üçün maraqlı olan bir məqalə ortaya qoyub.[1]

Texniki fənlərdən dərs deyərkən və tərcüməçi vəzifəsində çalışarkən Ə.Əbdülzadə başlıca olaraq tələbələrin ehtiyacını ödəmək üçün bir çox gərəkli elmi əsərləri ana dilimizə çevirib. Bizə bunlar bəllidir.

"Mexanika. Ümumi kurs" (I qism, I təb). Müəllifi: Almaniya sənaye məktəbləri professoru Hehen-Miller. Mütərcimi: Nərimanov Nəriman naminə texnikum və əmələ fakültəsi hikməti-təbiiyyə və mexanik müəllimi Ə.Əbdül. Bakı: Maarif Komissarlığı nəşriyyatı, 1923.

"Mexanika". II hissə. Yazanı: Hehen-Miller, çevirəni: Ə.Əbdülzadə. Bakı: "Azərnəşr", 1926.

"Təbiiyyat təcrübələri". Yazanı: L.N.Nikonov. Çevirəni: Ə.Əbdül. Bakı: "Azərnəşr", 1926.


"Göy gurultusu, yıldırım və elektrik". M.Qremyatski, Ə.Əbdül. Bakı: "Azərnəşr", 1927.

* * *

Bu sonuncu əsərdən sonra Ə.Əbdülzadənin həyatında da göy gurultusu və şimşəklər, sonra da zəlzələ baş verib. Onun dəyərli yazılarına və tərcümələrinə son qoyulub...

24 dekabr 1936-cı il. Əbdül Əbdülzadə "NKVD" zindanında müstəntiq qarşısındadır.

[1] Nərimanov adına texnikum illiyi. 1924, №1, səhifə 25-28.



Sabir adına kitabxanada. *Soldan sağa:* 1-ci Əbdül Əbdülzadə, 3-cü Mirzəbala Məhəmmədzadə.
Bakı, 7 aprel 1923-cü il

Ancaq bu, onun həmin zindanda ikinci və son oluşudur. Bəs birincisi? Gəlin istintaq sənədlərinə göz yetirək:

"Sual: İstintaqa bəllidir ki, Siz fəal əks-inqilabi Müsavat işinə görə həbs olunmusunuz. Hansı əks-inqilabi fəaliyyətinizə görə həbs olunduğunuzu izah edin.

Cavab: 1927-ci ildə mən Bakı şəhərində əks-inqilabi müsavatçı təşkilatda iştirakıma görə 8 illiyə həbs düşərgələrinə məhkum edilmişəm.

Sual: Siz əks-inqilabi Müsavat təşkilatına ilk dəfə haçan girmisiniz və Sizi bu təşkilata kim cəlb edib?

Cavab: Yadımda qaldığına görə, təxminən 1922-ci ildə məni əks-inqilabi Müsavat təşkilatına Məhəmmədov Əbdülvahab[1] cəlb edib". 2

Bəli, bütün mövcudluqları boyunca "mənim kimi düşünməyənlər məhvə məhkumdur" şüarı ilə hakimiyyəti idarə edən kommunistlər müsavatçı düşüncəsinə görə Əbdülzadəni 18 yanvar 1927-ci ildə həbs edərək, 1922-1924-cü illərdə Müsavat Partiyasının gizli təşkilatında iştirak etməsi üstündə ona 8 il iş verib 1928-ci ilin yayında Solovki adasına sürgünə göndərdilər. Oradakı durumu göz özünə gətirmək üçün "Bildiriş" qəzetinin 1931-ci ildə *"Solovkidə həyat. Məhkumlar necə yaşayır və necə çalışırlar? Fərar etmiş bir çekistin anlatdıqları"* başlıqlı yazını oxumaq yetərlidir. Bu yazı dərc edilən vaxt Əbdülzadə hələ orada həyat uğrunda ölüm-dirim mübarizəsi aparırdı.

"Keçən ilin yayında GPU-nun məsul məmurlarından bir zat şübhə altında olduğunu anlayaraq sovet Rusiyasından fərar etmiş və Finlandiyaya iltica etmişdi.

Bir müddət əvvəl fin polisi tərəfindən istintaq edilən sabiq çekist Solovkinin vəziyyəti haqqında müfəssəl məlumat vermişdir. "Tayms" qəzetəsinin Helsinqfors müxbiri çekistin bəyanatını bu şəkildə xülasə etməkdədir:

"1930-un 1 mayına qədər GPU-nun rəsmi rəqəmlərinə görə Solovkidə 662.000-ə

[1] Bu, sonralar Türkiyədə fəal müsavatçı kimi tanınmış Əbdülvahab Məhəmmədzadə-Yurdsevərdir.
[2] AR MTN arxivi, PR-36150, II cild, vərəq 263.



Azərbaycan Türk İşçi Fakültəsinin ikinci buraxılışı.
Yuxarı cərgədə soldan 3-cü: müəllim Əbdül Əbdülzadə

qədər məhkum bulunur. Bunlardan 569.982-i kişi, 73.285-i qadın və 18.932-si də 13-17 yaşlarında gənclərdir. Məhkumlar ağac doğramaqda, nəqliyyatda, strateji yollar inşasında və digər işlərdə çalışmaq üzrə 8 qismə təqsim edilmişlər. 8 qismə təqsim edilən məhkumlardan ən böyük qismi Kareloles və Severoles kibi ağacqırma sənayesi trestlərinə kölə kibi satılmışlar. GPU ilə trest arasında müəyyən maaş müqabilində fəhlə qüvvəti vermək üçün xüsusi bir müqavilə bağlanmışdır. Maaş çox az olduğu üçün məhkumların işləri son dərəcə fənadır. 1929-30-un qışında Solovkidə 72.000 kişi ölmüşdür. Bunların bir qismi zəiflikdən, xəstəlikdən ölmüş, digər qismi də fərarə təşəbbüs etdiyi bəhanə edilərək güllələnmişdir.

662 min məhkuma məxsus olmaq üzrə 445 çarpayılı yalnız 4 xəstəxana vardı. Hərgünkü vəzifəsini müntəzəm görən məhkumlar 1 kq çörək alırlar. Bəzən bu miqdar 300 qrama da enir. Çörəkdən başqa Solovki vətəndaşı bir də şorba alır. Yağ kibi maddələr qətiyyən mövcud olmadığı üçün məhkumların çoxu toyuq korluğu deyilən xəstəliyə yoluxub.

1930-un 1 mayına qədər olan rəsmi məlumata görə, 14.875 "paltarsız" məhkum mövcuddur. "Paltarsız" demək yəni yalnız cırıq alt paltarıyla keçinmək deməkdir. Bunlar işə gedərkən müdiriyyətin əmri ilə işdən qayıdanların paltarını alıb gedirlər".[1]

[1] *"Bildiriş"* qəzeti, 1931, №28, səhifə 4.

* * *

Əbdülzadə sürgündən 1934-cü ildə qayıtdı. Bakıda yaşamasına icazə verilməsinə görə Gəncəyə getməli oldu.

Gəncə Dəmiryol İnşaat Texnikumundan 12 iyul 1936-cı ildə verilmiş 298 saylı arayışa görə, həmin texnikumun müəllimi Əbdülzadə Əbdül Abbas oğlu 1 sentyabr 1934-cü ildən 1936-cı ilədək bu texnikumun Türk və rus bölmələrində nəzəri mexanika, fizika, elektrotexnika fənlərindən dərs deyib. Bundan başqa, o, təbii-riyazi fənlərin dövri komissiya işlərinə rəhbərlik edib, bu komissiyanın sədri kimi metodbüronun üzvü olub, fizika və kimya kabinetlərinə rəhbərlik edib. Bütün bu müddət ərzində üzərinə qoyulmuş vəzifələri səliqə və vicdanla yerinə yetirib, 5 dəfə mükafatlandırılıb, fizikanı və təbiətşünaslığı sevənlər dərnəyini yaradaraq ona başçılıq edib və s., texnikumun Bakıya köçürülməsi ilə bağlı olaraq işdən çıxıb.[1]

* * *

AR MTN arxivində Mirqasımov Mir[əbdül] qəni, Hacıyev Hacı, Rəhimov Əbdülhəsən, İsrafilov Süleyman, Əbdülzadə Əbdül, Məhəmmədzadə Əbdülbağı, Bəydəmirov Mövsüm, Sultanov Qəzənfər, Sultanov Mehdi bəy və Nəsibov Əsədin ittihamı üzrə açılmış 12412 saylı (indi: PR-36150) cinayət işi ilə diqqətlə tanış olmuşuq. İş 2 cilddir; birincisi 261 səhifə, ikincisi 373 vərəqdir. 3 aprel 1936-cı ildə başlanaraq 20 aprel 1937-ci ildə bitib.



Nərimanov adına Sənaye Texnikumunun qurucuları (müəssislər). *Ortada:* Səməd Məhəmmədyarlı *(yuxarıda)*, Əbdülvahab Məhəmmədzadə. *Sağ cərgə (yuxarıdan aşağı):* Əbdül Əbdülzadə, Əliheydər Babazadə, Həsən Mehdizadə. *Sol cərgə (yuxarıdan aşağı):* P.Pukolov, Cavad bəy Məlikyeqanov, Hacıbaba Əlizadə. 1924

Azərb. SSR XDİK DTİ IV bölümünün 6-cı bölməsinin rəis müavini Nikolayevin, 2-ci bölməsinin rəisi Atakişiyevin tərtib etdikləri, IV bölümün rəisi Sinmanla razılaşdırılmış, Sumbatovun 20 aprel 1937-ci ildə təsdiqlədiyi ittihamnamədə oxuyuruq ki, 1936-cı ilin avqust ayında Azərb. SSR XDİK DTİ gizli Müsavat təşkilatını və onun Babayev Əfülfəz, Baharlı Məhəmmədhəsən və Hacınski Əhməddən ibarət Mərkəzi Komitəsini (MK) üzə çıxarıb və ləğv edib. İstintaq müəyyənləşdirib ki, həmin MK 1926-cı ildə əks-inqilabi gizli Müsavat təşkilatı ləğv edildikdən sonra – Solovki düşərgələrinə onun üzvlərinin gəlməsindən sonra orada yaradılıb.[2] Düşərgələrdəki yeni gizli Müsavat MK-sı özünün əməli işində bu faallara söykənib: Mirqasımov Mir[əbdül]qəni, Mirfeyzullayev Əbdülmüün, Hacıyev Hacı, Rəhimov Əbdülhəsən, İsrafilov Süleyman, Əbdülzadə Əbdül, Məhəmmədzadə Əbdülbağı, Bəydəmirov Mövsüm, Sultanov Qəzənfər, Sultanov Mehdi bəy və Nəsibov Əsəd. Onlar MK-nın keçirdiyi tədbirlərə fəal yardım göstəriblər.

Yeni gizli Müsavat MK-sının üzvləri sürgündən qayıdınca ASSR-də Müsavatı gizli şəkildə bərpa etməyə başlayıblar. Baharlı Məhəmmədhəsən Azərb. texniki ziyalılarından gizli Müsavat qrupu təşkil edib. Babayev Əfülfəz Müsavatın Aşqabad qrupuna rəhbərlik edib.[3] [...]

[1] Şəxsi arxivimizdədir.
[2] AR MTN arxivi, PR-36150, II cild, vərəq 536.
[3] Yenə orada, vərəq 537.



Nərimanov adına Sənaye Texnikumunun rəhbərliyi. *Soldan sağa:* Əliheydər Babayev (müəllimlər nümayəndəsi), Əbdül Əbdülzadə (katib), Ağa Axundov (müdir), Səməd Məhəmmədyarlı (müdir müavini). 1924

Yuxarıda deyilənlərə əsasən ittiham edilirlər:

1. *Mirqasımov Mirəbdülqəni Əliəkbər oğlu* – 1896-cı il doğumlu, Bakı şəhər sakini, SSRİ vətəndaşı, əks-inqilabi Müsavat partiyasının üzvü, qulluqçulardan, Quba xəstəxanasının təsərrüfat müdiri, orta təhsilli, subay. 1926-cı ildə həbs edilib və əks-inqilabi Müsavat fəaliyyəti üstündə 6 illiyə həbs düşərgələrinə məhkum edilib. Quba şəhərində yaşayıb. 10.09.1936-cı ildə həbs edilib... Bunlardan xəbəri olub: Müsavat qrupunun Aşqabadda yerləşməsindən, bu qrupun görkəmli müsavatçılar Mikayılov Kərbəlayı Vəlini və Əbdülvahab Məhəmmədzadəni İrana keçirmələrindən. Özünü günahkar sayıb.[1]

2. *Hacıyev Hacı Şükür oğlu* – 1897-ci il doğumlu, Az. SSR Tərtər rayonu Qaradağlı kənd sakini, SSRİ vətəndaşı, əks-inqilabi Müsavat partiyasının üzvü, qulluqçulardan, Dəli Məmmədli MTS-nin mühasibi, təhsili ortadan aşağı, ailəli, əks-inqilabi müsavatçı fəaliyyəti üstündə 1927-ci ildə həbs edilib və 8 illiyə həbs düşərgələrinə məhkum olunub. Az. SSR Qasım İsmayılov[2] rayonunun Dəli Məmmədli stansiyasında yaşayıb. 14.09.1936-cı ildə həbs edilib. Özünü günahkar sayıb.[3]

3. *Rəhimov Əbdülhəsən Əliəkbər oğlu* – 1899-cu il doğumlu, Salyan şəhərinin sakini, SSRİ vətəndaşı, əks-inqilabi Müsavat partiyasının üzvü, qulluqçulardan, Qışlaq-Samox tibb məntəqəsinin feldşeri, ali tibb təhsilli, subay, əks-inqilabi müsavatçı fəaliyyəti üstündə 1927-ci ildə həbs edilib, Özbəkistan SSR Yakab rayonunun Qışlaq-Samox kəndində yaşayıb. 03.12.1936-cı ildə həbs edilib. Özünü günahkar sayıb.[4]

4. *İsrafilov Süleyman Hüseyn oğlu* – 1904-cü il doğumlu, Bakı şəhər sakini, SSRİ vətəndaşı, əks-inqilabi Müsavat partiyasının üzvü, qulluqçulardan, Ağdam şəhər poliklinikasının həkimi, ali təhsilli, ailəli. Əks-inqilabi müsavatçı fəaliyyəti üstündə 1926-cı ildə həbs edilib və 6 il iş kəsilib. Az. SSR-in Ağdam şəhərində yaşayıb. 27.12.1936-cı ildə həbs edilib. Müsavatın yeni MK-sının fəallarından olması istisna edilməklə, özünü günahkar sayıb.[5]

5. *Əbdülzadə Əbdül Abbas oğlu* – 1898-ci il doğumlu, Bakı şəhər sakini, SSRİ vətəndaşı, əks-inqilabi Müsavat partiyasının üzvü, Kirovabad Sənaye Politexnikumunun müəlliimi.

[1] AR MTN arxivi, PR-36150, II cild, vv. 539-540.
[2] İndiki Goranboy.
[3] AR MTN arxivi, PR-36150, II cild, vərəq 540.
[4] Yenə orada, vv. 540-541.
[5] Yenə orada, vv. 541-542.



N.Nərimanov adına texnikumun və işçi fakültəsi hikməti-təbiiyyə və mexanika müəllimi Əbdülzadə Əbdülün tərcümə etdiyi kitablar (1-3): 1. Almaniya sənaye məktəbləri professoru Hehen Miller. Mexanik(a). Ümumi kurs. (Birinci qisim). 1-ci nəşr. Bakı, Maarif Komissarlığı nəşriyyatı, 1923. 2. Hehen Miller. Mexanik(a). II hissə. Bakı, Azərnəşr, 1926. 3. L.N.Nikonov. Təbiiyyat təcrübələri. Bakı, Azərnəşr, 1926. M.Qremyatski və Ə.Əbdülün əsəri (4): Göy gurultusu, yıldırım və elektrik. Bakı, Azərnəşr, 1927

Ali təhsili, ailəli. Əks-inqilabi müsavatçı fəaliyyəti üstündə 1927-ci ildə həbs edilib və 8 illiyə həbs düşərgələrinə məhkum olunub. Az. SSR-in Kirovabad şəhərində yaşayıb. 24.12.1936-cı ildə həbs edilib. Özünü günahkar sayıb.

6. *Məhəmmədzadə Əbdülbağı Nəsrulla oğlu* – 1891-ci il doğumlu, İranın Tehran şəhərinin sakini, SSRİ vətəndaşı, partiyalılığı: 1909-cu ildə RSDFP üzvü, 1916-cı ildə "Hümmət"in üzvü, 1917-ci ildə ÜK(b)P üzvü, 1921-ci ildə çıxarılıb; əks-inqilabi Müsavat partiyasının üzvü; qulluqçulardan, ev təhsilli, savadlı, Kirovabad toxuculuq kombinatı fabrik-zavod məktəbinin qarovulçusu, ailəli. Əks-inqilabi müsavatçı fəaliyyəti üstündə 1927-ci ildə həbs edilib və 10 il iş kəsilib, 1936-cı ilin aprelində qayıdıb, Kirovabad şəhərində yaşayıb. 25.12.1936-cı ildə həbs edilib. Müsavatçı söhbətlər aparıb, Stalin konstitusiyasına böhtanlar atıb. Özünü günahkar saymayıb. Ancaq Feyzullayev Əbdülmüin və Mikayılzadə Cəbrayılın ifadələri ilə ifşa edilib.[1]

7. *Bəydəmirov Mövsüm Məzahir oğlu* – 1899-cu il doğumlu, Bakının Bülbülə kəndinin sakini, SSRİ vətəndaşı. Əks-inqilabi Müsavat partiyasının üzvü, qulluqçulardan, ASSR XKŞ konvenbürosu Yevlax rayonu üzrə müfəttişi, orta təhsilli, ailəli. Əks-inqilabi müsavatçı fəaliyyəti üstündə 1926-cı ildə həbs edilərək məhkum olunub. Bakı şəhər Lenin rayonunun Bülbülə kəndində yaşayıb. 24.12.1936-da həbs edilib. Özünü qismən günahkar sayıb.[2]

8. *Sultanov Qəzənfər Hacı Zeynal oğlu* – 1897-ci il doğumlu, Şamaxı şəhər sakini, SSRİ vətəndaşı. Əks-inqilabi Müsavat partiyasının üzvü, qulluqçulardan, Pedaqoji Texnikumun tədris hissəsinin katibi, natamam ali təhsilli, ailəli. Əks-inqilabi müsavatçı fəaliyyəti üstündə 1926-cı ilin noyabrında həbs edilib və 6 il iş kəsilib. 1932-ci ildə azad olunub, Bakı şəhərində yaşayıb (Suraxanski,[3] 52). 23.12.1936-cı ildə həbs olunub. Özünü qismən günahkar sayıb.[4]

1918-ci ildən 1925-ci ilədək müəllimlik edib. 1925-ci ildən 1926-cı ilədək APİ-də oxuyub, 1926-cı ildən 1932-ci ilədək həbs düşərgəsində yatıb, 1932-c ildən həbs olunduğu günədək ASSR XMK-da və Pedtexnikumda qulluq edib.[5]

[1] AR MTN arxivi, PR-36150, II cild, vv. 542-543
[2] Yenə orada, vərəq 543.
[3] İndi həmin küçə Dilarə Əliyeva və Çingiz Mustafayev küçələrindən ibarətdir.
[4] AR MTN arxivi, PR-36150, II cild, vərəq 544.
[5] Yenə orada, vərəq 352.



Əbdül Əbdülzadə *(sağda)*
mərkəzi dustaqxanada.
Bakı, aprel, 1928

9. *Sultanov Mehdi bəy Eynalı bəy oğlu*[1] – 1880-ci il doğumlu, Naxçıvan şəhərinin sakini, SSRİ vətəndaşı. Əks-inqilabi Müsavat partiyasının üzvü, qulluqçulardan, Quba-Xaçmaz suvarma sistemi idarəsinin kassir-katibi, orta təhsilli. Əks-inqilabi müsavatçı fəaliyyəti üstündə 1927-ci ildə həbs edilib və 10 illiyə həbs düşərgələrinə məhkum olunub. Quba şəhərində yaşayıb. 26.12.1936-cı ildə həbs olunub. Müsavatın yeni MK-sının fəallarından olması istisna edilməklə, özünü günahkar sayıb.[2]

Kapitan rütbəsində çar ordusunda hərbi xidmət edib, 1919-cu ildə 9-10 aya qədər Müsavat Ordusunda alay komandiri, 1926-cı ilədək Qırmızı orduda olub (1921-26-cı illərdə alay komandiri və Zaqafqaziya Hərbi Hazırlıq Məktəbinin rəisi). 1926-1935-ci illərdə həbs düşərgəsində olub.[3]

10. *Nəsibov Əsəd Nəsib oğlu* – 1901-ci il doğumlu, Az. SSR Qazax rayon 2-ci Şıxlı kəndinin sakini, SSRİ vətəndaşı. Əks-inqilabi Müsavat partiyasının üzvü, qulluqçulardan. "Başət" [4] Ucar bölməsinin mühasibi, orta təhsilli, ailəli. Əks-inqilabi müsavatçı fəaliyyəti üstündə 1926-cı ildə həbs edilərək 10 il iş alıb. 1934-cü ildə qayıdıb. Ucar stansiyasında yaşayıb. 28.12.1936-cı ildə həbs edilib. Özünü günahkar saymayıb, ancaq şahid ifadələri ilə ifşa olunub.[5]

Bu müsavatçıların hamısına, o sıradan Əbdül Əbdülzadəyə əmlakı müsadirə olunmaqla güllələnmə hökmü kəsilib və onların hamısı 28 iyul 1937-ci ildə saat 00:50 dəqiqədə güllələnib[6] (yalnız Nəsibov Əsəd onlardan bir qədər gec – 8 avqust 1937-ci ildə güllələnib).[7]

12 aprel 1990-cı ildə bu müsavatçıların hamısına bəraət verilib.[8]

[1] Bu cinayət işində onun 1936-cı ildə Səməd Vurğun küçəsi 85, 159-cu mənzildə yaşayan nəvəsi A.M.Sultanovun (AR MTN arxivi, PR-36150, II cild, vərəq 591) adı çəkilir. Ailə üzvləri belə göstərilib: arvadı Cəmilə, oğlu Əziz 19 yaş, oğlu Şamil 16 yaş, qardaşı Kamil 36 yaş, bacısı Fatma 45 yaş (bax: AR MTN arxivi, PR-36150, II cild, vərəq 593).
[2] AR MTN arxivi, PR-36150, II cild, vv. 544-545.
[3] Yenə orada, vərəq 385.
[4] Ruscası: *Глава́рко.*
[5] AR MTN arxivi, PR-36150, II cild, vərəq 546.
[6] Yenə orada, vv. 563-565.
[7] Yenə orada, vərəq 564.
[8] Yenə orada, vərəq 591.

* * *

Yenə 12412 saylı (indi: PR-36150) cinayət işini vərəqləyirik...



Əbdül Əbdülzadə.
Solovki, 1933

Azərb. XDİK DTİ Gizli Siyasi Bölümünün (GSB) rəisi, DT kapitanı Gerasimovun 8 dekabr 1936-cı ildə təsdiqlədiyi arayışda Əbdül Əbdülzadə haqqında bunlar yazılıb:

Əbdül Əbdülzadə, 1896-cı il doğumlu, Türk, SSRİ vətəndaşı, ali təhsilli, 1919-cu ilədək es-erlər partiyasında olub. Gizli əks-inqilabi müsavatçı fəaliyyətinə 1922-ci ildən başlayıb, Müsavatın şəhər özəklərindən birində olub, sonralar fəallığına görə BK-nın 2-ci tərkibinə daxil edilib. Müsavat MK-BK-sı 2-ci tərkibi ləğv edildikdən sonra azadlıqda qalan müsavatçılarla əlaqələrini kəsməyib, gizli işi davam etdirib və MK-nın 3-cü tərkibi ilə əlaqə saxlayıb. 1927-ci ildə tutulub və sürgün edilib.

Azərb. XDİK DTİ GSB-də Əbdül Əbdülzadənin həbs düşərgəsində olduğu zaman Müsavatın yeni MK-sının gizli əks-inqilabi işində iştirak etdiyini, MK-nın əks-inqilabi fəaliyyətindən xəbərdar olduğunu və onun fəallarından olduğunu göstərən bilgilər var. [...] Əbdül Əbdülzadə 1934-cü ildə qayıdıb və qayıdan kimi sürgündən dönən müsavatçılar Tağıyev Mirxalıq, Axundov Nəriman, Məhəmmədzadə Əbdülbağı ilə əks-inqilabi əlaqələrini bərpa edib. Əks-inqilabi müsavatçı əqidəsində və sovet hakimiyyəti ilə mübarizə mövqeyində qalmaqdadır. Kirovabad əks-inqilabi Müsavat qrupunun üzvüdür...[1]

Əbdül Əbdülzadəni DTİ Qazax rayon bölməsinin rəisi, DT leytenantı Yelyan 24 və 31 dekabr 1936-cı, 7 və 16 yanvar, 13 fevral 1937-ci ildə 5 dəfə dindirib. 24 dekabr 1936-cı il tarixli ilk dindirmədə Əbdül Əbdülzadə haqqında bu bilgilər verilib: 1898-ci il doğumludur, yaşayış yeri – Kirovabad şəhəri, onillik dəmiryol məktəbinin yataqxanası; Türk, ASSR vətəndaşı; Bakı şəhəri, M.Fətəli küçəsi, döngə 17, ev 7; məşğulluğu: Kirovabad sənaye politexnikumunda, dəmiryol onilliyində və fəhlə fakültəsində müəllim. İctimai mənşəyi: atası göysatan kəndli. İctimai durumu: qulluqçu. Ailə tərkibi: anası, 65 yaş; arvadı *Lyubov*, 34 yaş; oğlu *Töğrul*, 12 yaş; qızı *Yulqar*, 10 yaş; oğlu *Elxan*, 1 yaş; Bakıda yaşayırlar.

Ali təhsilli, partiyasız, 1927-ci ildə keçmiş Birləşmiş Dövlət Siyasi İdarəsinin kollegiyası ona 8 il iş verib, 1934-cü ildə azad olunub. Cəzasını çəkdikdən sonra ASSR CM 63-cü maddəsi ilə ittiham edilib; 1922-ci ildən 1924-cü ilədək əks-inqilabi Müsavat gizli təşkilatında iştirak edib.[2]

24 dekabr 1936-cı ildəki ilk dindirilməsindən:

"Sual: Kirovabad şəhərində son vaxtlar Siz müsavatçılardan kimləri görmüsünüz?

Cavab: Son vaxtlar Kirovabad şəhərində bakılı müsavatçılardan bunları görmüşəm: Bəydəmirov Mövsümü, Atakişiyev İbrahimi, Feyzullayev Haşımı, Məhəmmədov Əbdülbağını. Onlardan Bəydəmirov Mövsüm məndən Bakı fəhlə fakültəsində oxuması haqqında arayış istədi və mən də ona qeyri-rəsmi arayış verdim. Məhəmmədov Əbdülbağı mənə işə düzəlmək xahişi ilə müraciət etdi. Bu haqda mən toxuculuq kombinatı fabrik-zavod məktəbinin direktoru Axundov Fərəcdən xahiş etdim, onu cəzasını çəkib gəlmiş Məhəmmədovun şəxsiyyəti haqqında xəbərdar etdim".[3]

Burada oxucu nəzərə almalıdır ki, müttəhimin cavablarında əksini tapmış bir çox

[1] AR MTN arxivi, PR-36150, I cild, vərəq 41.
[2] Yenə orada, II cild, vərəq 262a.
[3] Yenə orada, vərəq 263.



Dəmiryol İnşaat Texnikumunun 3-cü buraxılışı. *Müəllimlər cərgəsində soldan 2-ci:* Əbdül Əbdülzadə. Kirovabad (indiki Gəncə), 1936

sözlər və ifadələr ona deyil, müstəntiqə məxsusdur (məsələn, Ə.Əbdülzadə heç vaxt mənsub olduğu Müsavat təşkilatını "əks-inqilabi" adlandırmazdı və s.).

31 dekabr 1936-cı il tarixli ikinci dindirməsində Yelyan Əbdülzadəyə bu sualı verib: "Siz həbs düşərgəsində müsavatçılardan kimləri tanıyırdınız və onlardan hansılarla əlaqə saxlamısınız? Onların hər birini ayrı-ayrılıqda səciyyələndirin". Əbdülzadə onunla Solovkidə eyni həbs düşərgəsində olmuş *Əhməd Hacınski, Müin Niyazi (Mirfeyzullayev), Əbülfəz Babayev, Məhəmmədhəsən Baharlı, Rəhim Vəkilov, Sadıq İmanov, Məhəmmədhəsən Baxşəliyev, Abdulla Şəfiyev, Mövsüm Bəydəmirov, Hüseyn Paşayev, Zəkəriyyə Vəkilov, Mirəbdülqəni Mirqasımov, Müseyib Bədəlbəyov* və *Mirməcid Ağamirovun* adlarını çəkib, onlarla harada və necə tanış olduğunu bildirib.[1]

7 yanvar 1937-ci ildəki 3-cü dindirmədə Yelyanın müttəhimə sualları həbs düşərgəsində müsavatçıların aclıq təşkil etməsi ilə bağlıdır.

"Sual: Müsavatçıların həbs düşərgəsindəki fəaliyyəti barədə Sizə nə bəllidir?

Cavab: Mənə bəllidir ki, məhkum müsavatçılar aclıq təşkil etmişdilər. Düşərgədə müsavatçılar tərəfindən başqa növ işlər şəxsən mənə bəlli deyil.

Sual: Siz əks-inqilabi müsavatçı əqidənizə görə müsavatçıların təşkil etdiyi aclıqlarda iştirak etmisiniz. Bunu danmırsınız ki?

Cavab: Bəli, həqiqətən, mən əks-inqilabi müsavatçı mövqedə olaraq müsavatçıların təşkil etdiyi aclıqlarda iki dəfə iştirak etmişəm.

Sual: Bu aclıqları kim təşkil edib?

Cavab: Müsavatçıların keçirdiyi və mənim də iştirak etdiyim iki aclıq zamanı mən Bolşaya Muksulmada ezamiyyətdə idim. Aclıq keçirmək haqqındakı göstərişlər Kemdən,

[1] AR MTN arxivi, PR-36150, II cild, vv. 265-266.



Dəmiryol İnşaat Texnikumunun müəllimi Əbdül Əbdülzadə. Kirovabad, 1936

Baharlı Məhəmmədhəsəndən gəlmişdi, bizim başçımız Babayev Əbülfəz onunla əlaqədə idi. Sonralar mənə bəlli olduğu kimi, *aclıqların təşəbbüskarları Vəkilov Rəhim, Baharlı Məhəmmədhəsən və Babayev Əbülfəz olublar.* Onlar bu məsələni əməli baxımdan necə həll ediblərsə bilmirəm, ancaq qəti bilirəm ki, aclıq haqqında göstəriş Kemdən gəlib.

Sual: Həbs düşərgəsində müsavatçıların rəhbər qrupunun olduğunu və bu qrupun aclıq məsələsində də müsavatçılara rəhbərlik etdiyini danmırsınız ki?

Cavab: Bəli, danmıram ki, biz müsavatçılar arasında həbs düşərgəsində Əbülfəz Babayev, Vəkilov Rəhim, Baharlı Məhəmmədhəsən, Mirqasımov Mirqəni, Əliövsət Nəcəfov başda olmaqla rəhbər qrup vardı, ona başqa fəal müsavatçılar da qoşulmuşdular. Ancaq bu dediklərim yalnız aclıq məsələsi ilə bağlıdır, çünki müsavatçıların apardığı başqa işlər mənə bəlli deyil.

Sual: İstintaqa məlumdur ki, adını çəkdiyiniz qrup yalnız aclıq üzrə rəhbər heyət olmayıb, həbs düşərgəsində əks-inqilabi müsavatçı işin rəhbərləri olub.

Cavab: Ola bilsin ki, adını çəkdiyim qrup aclığa rəhbərlik etməkdən başqa da hansısa işlər aparsın, ancaq bu haqda mən heç nə bilmirəm. Mənə məlum idi ki, Əhməd Hacınski və Müin Niyazi bu qrupa qarşı çıxırdılar. Onlar aclığa qarşı və düşərgə qayda-qanunlar əleyhinə olan bütün çıxışlara qarşı idilər. Hacınski və Müin Niyazi heç vaxt onlarla, yəni Babayev, Baharlı, Vəkilov, Mirqasımov və Nəcəfovla düşərgədəki əks-inqilabi müsavatçı işdə birgə ola bilməzdilər. Məni Hacınski və Müin Niyazinin tərəfdarı sayırdılar. […]

Öz ifadəmi təsdiqləyərək, bir daha bildirirəm ki, Hacınski və Müin Niyazi Baharlı, Babayev, Vəkilov və başqalarının, onların tərəfdarlarının düşmənləri idilər və hətta danışmırdılar. Heç bir halda onlar Müsavat üzrə birgə iş apara bilməzdilər…

Sual: Siz rəhbər Müsavat qrupunun fəaliyyətini aclıqlarla malalamağa çalışırsınız. İstintaq müəyyən edib ki, bu rəhbər qrup rəhbər müsavatçı mərkəz olub. İstintaq səmimi ifadə verməyinizi tələb edir.

Cavab: Səmimi şəkildə bildirirəm ki, rəhbər müsavatçı qrup haqqında mənə heç nə məlum deyil… Danmıram ki, həbs düşərgəsindəki müsavatçılara Baharlı Məhəmmədhəsən, Babayev Əbülfəz, Vəkilov Rəhim başçılıq ediblər, onlara Nəcəfov, Mirqasımov (o da rəhbərlərdən sayılırdı) və b. qoşulublar. Ancaq onları kimlərin və necə rəhbər tanıdığını mən bilmirəm. Eləcə də onların müsavatçı mərkəzi olduğundan xəbərim yoxdur.

Sual: Siz tərslik edirsiniz. Həmin Hacınski Əhməd düşərgədə Müsavat MK-sının olmasını bildirir. İstintaq doğru ifadə verməyinizi tələb edir.

Cavab: Həbs düşərgəsində biz müsavatçılar arasında yuxarıda göstərdiyim şəxslərdən ibarət rəhbər qrupun olduğunu təsdiqləyirəm. Ancaq bu qrupun necə adlanmasını – MK, yaxud başqa cür adlanmasını bilmirəm. Təsdiləməkdə davam edirəm ki, heç kəs, o sıradan yaxın olduğum Əhməd Hacınski, Müin Niyazi mənə düşərgə MK-sının olması haqqında heç nə deməyib. Bildiyim budur ki, Əhməd Hacınski aclıq məsələsinə qarşı olub.



Əbdül Əbdülzadənin son fotosu. 1936



Əbdül Əbdülzadənin qardaşı Qulam Əbdülzadə *(solda)* şərqşünas Məhəmmədrza Müslümzadə (1896-1928) ilə. Təx. 1925-26

Sual: İstintaq sizə inanmır. Siz inadkarlıqda davam edirsiniz".[1]

16 yanvar 1937-ci ildəki dindirmədəki bəzi cavablardan seçmələr:

"...Müsavatçıların hansısa siyasi fəaliyyəti haqqında məlumatım yox idi... Həbs düşərgəsindən sonra, yəni 1934-cü ilin başlanğıcında mən bütünlüklə əks-inqilabi mövqelərdən və Müsavatdan aralandım...".

"Bəli, 1934-cü ilin başlanğıcınadək mən əks-inqilabi, milliyyətçi mövqedə durmuşam".

"1935-ci ilin yayında Əhməd Hacınski və Müin Niyazi evimdə olublar, buraya onlar qardaşımın ölümü münasibətilə gəlmişdilər".[2]

13 fevral 1937-ci ildəki sonuncu – 5-ci dindirmədə də Yelyan bildirib: "Sizin dediklərinizi gözdən pərdə asmaq üçündür. İstintaq müəyyənləşdirib ki, Siz həbs düşərgəsindən qayıdandan sonra da qayıtmış bir sıra müsavatçılarla əks-inqilabi milliyətçi-müsavatçı əlaqədə olmusunuz.[3] [...] Siz Kirovabadda olarkən Hitleri tərifləmisiniz, bildirmisiniz ki, Hitler hər şeyi yoluna qoyacaq.

Cavab: Bu, olmayıb, ola da bilməz. Mən faşizmə düşmənəm".[4]

İstintaq sənədləriylə tanışlıq təcrübəsi olmayan oxucular Əbdülzadənin ifadələrindən narazı qalaraq onun məhbəs yoldaşlarını satdığını düşünə bilər. Belə oxucularımız üçün durumu aydınlaşdırmağa borcluyuq. Hər şeydən öncə, bilməliyik ki, "NKVD" zindanında yazılmış istintaq protokolunda əksini tapmış fikirlərin həlledici qismi məhbusun deyil, müstəntiqin olur. İkincisi, Əbdülzadənin özünü müdafiə üçün müstəntiqi dolaşdırmaqdan ötrü yalan ifadələr vermək hüququ var. Üçüncüsü də, onun dedikləri həqiqətdən çox da uzaq deyil. Bircə şeyə tam əmin olmaq gərəkdir – Əbdül Əbdülzadə Azərbaycan xalqının indiyədək yetirdiyi ən ləyaqətli oğullardan biridir! O, bütün şüurlu həyatını Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizəyə, müsavatçılığa həsr edib və bu əqidəsi yolunda da şəhid olub. Onun xatirəsini ehtiramla yad etmək hər birimizin borcudur.

Nə isə. Bu cinayət işində adı çəkilən şəxslərin hamısının istintaqı 3 aprel 1937-ci ildə başa çatıb və onlar 28 iyul 1937-ci ildə güllələniblər.

* * *

"Azərbaycan KP MK yanında hökumət komissiyasının sədri Q.Ş.Əfəndiyevə
Mirzə Fətəli küçəsi 17-ci döngə, 7-ci evdə yaşayan
Əbdülzadə Elxan Əbdül oğlundan

[1] AR MTN arxivi, PR-36150, II cild, vv. 270-272b.
[2] Yenə orada, vv. 274-276.
[3] Yenə orada, vərəq 277.
[4] Yenə orada, vərəq 278.



Əbdül Əbdülzadənin soyu. *Soldan sağa:* Elxan Əbdül oğlu Əbdülzadə, Süleyman və Toğrul Vəliyevlər, onların atası Seyran Vəliyev (yazıçı Süleyman Vəliyevin oğlu), Fəridə Ərtoğrul qızı Əbdülzadə-Vəliyeva (Əbdülün nəvəsi, Seyranın yoldaşı)

ƏRİZƏ

Mənim atam – Əbdülzadə Əbdül Abbas oğlu 1898-ci ildə Bakı şəhərində doğulub. O, Kirovabad şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda, Sənaye politexnikumunda müəllim işləyib. 24.12.1936-cı ildə XDİK orqanları tərəfindən tutulub və 26.06.1937-ci ilədək Keşlə türməsində olub. Həmin vaxtdan sonra harada olması bizə bəlli deyil. Xahiş edirəm bildirəsiniz: O sağdırmı və haradadır?

Rica edirəm xahişimi rədd etməyəsiniz.

10.04.1956.

(Əbdülzadənin imzası)".[1]

20 il insan haqqında onun ailəsinə heç bir bilgi verməyən kommunist çekistlər görün insanlıqdan kənar olan necə saxtakarlığa əl atıblar:

"Uçot-arxiv bölməsi.

20 avqust 1956-cı il. Məxfi.

Azərb. SSR DİN 1-ci xüsusi şöbəsinin rəis əvəzi.

Podpolkovnik yol. Panyukova.

Xahiş edirik 1898-ci il doğumlu Əbdülzadə Əbdül Abbas oğlunun uçot kartoçkasında qeyd edəsiniz ki, həbs yerində olarkən 1 aprel 1939-cu ildə ağciyər sətəlcəmindən vəfat edib; onun ölümü 14 avqust 1956-cı ildə gəlini Əbdülovaya bildirilib.

Uçot-arxiv bölməsinin rəisi müavini, mayor (imza)".[2]

Vəssalam. Artıq, sözün bitdiyi yerdir!..

[1] AR MTN arxivi, PR-36150, II cild, vərəq 577.
[2] Yenə orada, vərəq 578.

Əbdürrəhmanlı Ağacəfər Məşədi Səftər oğlu

(30.07.1896, Şamaxı – 1980, İstanbul)



Ağacəfər Əbdürrəhmanlı

2000-ci illərin ortalarında Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Böyükelçiliyində Fəthi Gədikli mədəniyyət və tanıtma müşaviri idi. Əsl elm adamı olan millətsevər, yurdsevər bir insandı. Azərbaycan ziyalılarının gerçək dostuydu. İndi İstanbul Universitetinin hüquq professorudur. Qardaşı Yusif Gədikli kimi o da bütün gücünü Azərbaycanın Türkiyədə, Türkiyənin Azərbaycanda tanıdılmasına, Türkiyə – Azərbaycan qardaşlığının möhkəmləndirilməsinə yönəltmişdi. Burada Nizami Zöhrabinin redaktorluğu altında "Yom" dərgisinin nəşrini təşkil etmişdi (indi onu İstanbulda buraxdırır). Vaxtaşırı onunla görüşür, İnternetlə yazışır, ortaq dəyərlərimizlə bağlı müzakirələr aparırdıq. Bilirdik ki, o da Cümhuriyyət tələbələriylə maraqlanır, bu üzdən həmin tələbələrdən təhsilini bitirəndən sonra Türkiyəyə gedərək orada yaşayanları haqqında məlumat əldə etməyimizə yardımçı olmasını xahiş etmişdik.

Fəthi bəy 2006-cı ilin 4 iyulunda Şamaxılı ziyalı, mərhum Bəxtiyar İsmayıllı Türkcanlının bir vaxt yazıb ona verdiyi aşağıdakı qeydləri bizə göndərdi:

"Azərbaycan Parlamentində kargüzar işləyən 19 yaşlı dayım Ağalar İsgəndərli ilə bir yerdə işləyən Şamaxılı Ağacəfər Əbdürrəhmanlı[1] 1919-cu ildə Azərbaycan hökuməti tərəfindən ali təhsil almaq üçün Almaniyaya oxumağa göndərilmişdir.

Azərbaycan Demokratik Respublikası devrildiyindən dayım və Ağacəfər Almaniyada ali təhsil aldıqdan sonra, əlbəttə ki, Azərbaycana qayıda bilməzdilər.

Bu səbəbdən onlar Türkiyəyə gedib, orada işləməli və yaşamali oldular. Dayım Ağalar İsgəndərli sonralar İsgəndər Batu adı ilə tanınır, doktor-mühəndis, professor, kimya sənayesi sahəsində Türkiyədə tanınmış bir mütəxəssis olur. Ağacəfər Əbdürrəhmanlı isə yeni dərman preparatları yaratmaqla əczaçılıq fabrikinin sahibi kimi Türkiyədə məşhur bir şəxs olur…".

Bir çox axtarışlardan sonra Ağacəfər Əbdürrəhmanlının yaxın qohumu *Aidə xanım Əliövsət qızı Musayevanı* tapdıq. 2006-cı ilin 10 dekabrında onunla etdiyimiz söhbətin məzmununu aşağıda veririk:

– Şamaxıda doğulan Ağacəfər Əbdürrəhmanlı İstanbulda ölüb. Arvadı da Şamaxıdandı. Uşaqları olmayıb. Türkiyədəki evində onlardan sonra qalanlar arvadının bacısı qızlarıdır. Mənim anam Sona xanımın (1902-1967) atası Əliheydər (?-1902) ilə Ağacəfərin anası Şirinbikə bacı-qardaşdırlar. Mən Ağacəfər dayını görməmişəm. 1902-ci ildə Şamaxı zəlzələsində babam və nənəm həlak olublar.

Ağacəfər kimyaçı alimdi. O, ağaclardakı qatranın müalicəvi əhəmiyyətini öyrənib. Zəngin kitabxanası vardı.


Almaniyada təhsilini bitirdikdən sonra Ağacəfər Əbdürrəhmanlı Azərbaycana qayıtmayıb, çünki sovet hakimiyyətini sevmirdi və onun repressiyalarından çəkinirdi. 1974-cü ildə öləndən sonra arvadı bizi axtarmağa başladı.

[1] Adı bir çox qaynaqlarda "Cəfər", soyadı "Əbdürrəhmanov" kimi gedib. Sənədlərdəki həmin yazılışları da saxlamışıq.

Ağacəfər istədi ki, mən gedib İstanbulda onunla qalım. Ancaq ailə vəziyyətimlə əlaqədar gedə bilmədim. Yazdım ki, Siz bura gəlsəniz hamını görə bilərsiniz, ancaq mən ora gələndə tək məni görəcəksiniz. Qardaşım Fuadın oğlu Surxay təxminən 1996-cı ildə İstanbula gedib, onun evini tapıb. Orada qalan qızlar onu pis qarşılayıblar. Onun qardaşı Şamilin iki oğlu olub: Əhmər (1928-?), Ramiz (1930-?).

* * *

Ağacəfər Əbdürrəhmanlının ömür yolunun 1920-ci ilədək olan dönəmini arxiv bəlgələrindən öyrənək.



Ağacəfər Əbdürrəhmanlının doğum şəhadətnaməsi

Zaqafqaziya Şiə Ruhani İdarəsindən 24 iyun 1915-ci ildə Tiflis şəhərində verilmiş 1053 saylı doğum şəhadətnaməsində yazılıb ki, Bakı valiliyi Şamaxı şəhəri "İmamlı" şiə cameəsinin 1896-cı ilə aid doğum kitabının I hissəsindən göründüyü kimi, Ağacəfər Şamaxı şəhərinin sakini Məşədi Səftər Hacı Cəfər oğlu Əbdürrəhmanovun öz qanuni arvadı Şirinbikə Məşədi Məhəmmədbağır qızından 30 iyul 1896-cı ildə doğulub və bu doğumu həmin cameənin ştatlı mollası həmin il kitabda 15-ci nömrə altında qeydə alıb.[1]

Ağacəfər orta təhsilini Şamaxı edadisində (real məktəbində) alıb. O, bu məktəbdə 1 sentyabr 1908-ci ildən 30 aprel 1917-ci ilədək oxuyaraq əsas bölümü bitirib.[2] Ancaq 7-ci sinfi bitirmək haqqında attestatı ona ali məktəbə girmək hüququ vermirdi, ona görə bir il də əlavə sinifdə oxumalı olub. Məzmunu aşağıda verilən şəhadətnamə isə ali məktəblərin qapılarını onun üzünə açırdı.

"Türk millətindən, müsəlman, Şamaxı şəhərində 30 iyul 1896-cı ildə doğulmuş Şamaxı real məktəbi əlavə sinfinin şagirdi Ağacəfər Məşədi Səftər oğlu Əbdürrəhmanova ona görə verilib ki, o, əlavə sinifdə 20 sentyabr 1917-ci ildən 13 mart 1918-ci ilə kimi əla əxlaqla oxuyub və 8-siniflik tam kursu bitirib, aşağıdakı fənlərdən bu qiymətləri alıb:

Şəriət –	5 (beş)
Rus dili –	4 (dörd)
Alman dili –	4 (dörd)
Fransız dili –	4 (dörd)
Riyaziyyat, o sıradan:	
Hesab –	5 (beş)
Cəbr –	5 (beş)
Triqonometriya –	5 (beş)

[1] ARDA, fond 51, siyahı 3, iş 42, vərəq 5.
[2] Yenə orada, vərəq 3.

Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	5 (beş)
Fizika –	5 (beş)
Təbiiyyatşünaslıq –	5 (beş)
Riyazi coğrafiya –	5 (beş)
Tarix –	4 (dörd)
Qanunşünaslıq –	4 (dörd)
Rəsmxət –	5 (beş)
Türk dili –	5 (beş)".[1]

Soruşula bilər ki, orta təhsilini 1918-ciildə bitirmiş Ağacəfər niyə həmin il ali məktəbə girmək haqqında düşünmədi? Bizcə, bu sorğunun cavabı Şamaxı şəhərindən qaçqın, oranın sakini, indi Gəncə şəhərində yaşayan, Gəncə xəzinədarlığında müvəqqəti 2-ci dərəcəli mühasib vəzifəsində işləyən Cəfər Əbdürrəhmanovun AC maarif nazirinə yazdığı 4 avqust 1919-cu il tarixli bu ərizədə verilib ki, Şamaxı real məktəbinin tam kursunu bitirdikdən sonra mən də başqaları kimi təhsilimi Rusiya hüdudları daxilində başa vurmaq istədim, ancaq Şamaxı şəhərində baş vermiş son qanlı hadisələr məni məcbur etdi ki, qurtuluşu anamla və kiçik qardaşımla vətəndən qaçmaqda tapım. Bütün daşınar və danışmaz əmlakımızı itirdik, nəticədə bu, anamın sağlamlığına təsir etdi və o, yol-irizlərin məşəqqətindən xəstələnib öldü, bizi arxasız qoydu. O cümlədən təhsilimizi davam etdirmək yolumuz kəsildi. "Azərbaycan" qəzetinin 160-cı sayında çıxan Azərbaycan Cümhuriyyətinin əcnəbi dövlətlərə oxumağa göndərdiyi tələbələrə müraciəti ilə, məktəbi bitirdikdən sonra Azərbaycanda iki il xidmət etmək öhdəliyi ilə tanış oldum. Xaricə göndərilməyə namizədlər siyahısına mənim də salınmağımı Sizdən xahiş edirəm. Qəzetdə yazılan sənədləri tələb edilən vaxt təqdim edə bilərəm.[2]

Bu sənədin altında C.Əbdürrəhmanova 141 saylı xarici pasportun 11 dekabr 1919-cu ildə verildiyi göstərilib.

AC Xalq Maarif Nəzarəti dəftərxanasına 9 avqust 1919-cu ildə Gəncədən yazdığı ikinci ərizəsində C.Əndürrəhmanov oxuyacağı xarici ölkədə Texnologiya İnstitutuna mexanika bölümü üzrə, yaxud Politexnik İnstituta elektromexanika bölümü üzrə girmək istədiyini bildirib.[3]

Abituriyent Ağacəfər Əbdürrəhmanov Bakıda 5 noyabr 1919-cu ildə Xalq Maarif Nəzarəti dəftərxanasına yazdığı ərizəsində xahiş edir ki, onu gəmiqayırma ixtisasına girmək istəyən Surxay Şahsuvarovun yerinə 4-cü ixtisas qrupuna daxil etsinlər. Bundan sonra əlavə edir ki, mən Almaniyada – Darmştadtda Böyük Hersoq İnstitutunda (Gessen Darmştadt) elektrotexnika bölümündə oxumaq istəyirəm.[4]

Artıq dövlət təqaüdü kəsilmiş A.Əbdürrəhmanov 29 dekabr 1919-cu ildə belə bir dilkağızı verib ki, təhsilimi bitirdikdən sonra Azərbaycan hökumətinin göstərdiyi yerdə 4 il qulluq etməyi öhdəmə götürürəm.[5]

Ona dövlət hesabına ali təhsil almağa xaricə göndərilməsi haqqında 526 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[6]

[1] ARDA, fond 51, siyahı 3, iş 42, vərəq 4.
[2] Yenə orada, vv. 1-1a.
[3] Yenə orada, vərəq 2.
[4] Yenə orada, vərəq 6.
[5] Yenə orada, vərəq 8.
[6] Yenə orada, vərəq 9.

Əbdürrəhmanlı (Əbdürrəhmanov) (Ağa)cəfər Məşədi Səftər oğlu Berlində kimya ixtisası üzrə oxuyub. Sənədlərdə onun təhsilini bitirməyə 1 ilinin qaldığı göstərilib.[1]

* * *


Ağacəfər Əbdürrəhmanlı. İstanbul

Ağacəfər Əbdürrəhmanlı da onunla eyni zamanda Almaniyada oxumuş Şamaxılı yurddaşı Ağalar İsgəndərli (İsgəndər Batu) kimi SSRİ-yə – kommunist cəhənnəminə dönməyərək Türkiyəni özünə yeni vətən seçdi və həyatının sonunadək onlar ən yaxın dostlar oldular.

Ağalar İsgəndərli (İsgəndər Batu) 1974-1983-cü illər arasında Şamaxıdakı bacısı oğli Bəxtiyar İsmayıllıya çoxlu məktublar yazıb və həmin məktublarda Ağacəfər Əbdürrəhmanlının da adını çəkib (həmin məktubların surətini Bəxtiyar bəyin oğlu Faruq bəy bizə verib). İ.Batunun 5 fevral 1974-cü il məktubu belə başlayır: *"60 ildən bəri tale birliyi etdiyim Ağacəfər qardaşımın yardımı ilə [sənin] ünvanını öyrəndim"*.

Sual doğur: bəs Ağacəfər Şamaxıda yaşayanların ünvanını haradan bilib? Bizcə, bu suala 2 iyul 1975-ci il məktubu cavab verir: *"Şamil bəyə salamlarımı yetirməyinizi rica edirəm. Qardaşı Ağacəfər sağ və salamatdır"*. Deməli, Ağacəfərin Şamaxıda Şamil adlı qardaşı varmış (Aidə xanım Musayeva da bunu təsdiqləyib və hətta Şamilin oğlanlarının adını da çəkib) və Ağacəfər onunla əlaqə saxlayırmış. O, dostu İsgəndər Batuya da qohumları ilə əlaqə saxlamaqda yardımçı olub. İ.Batu 6 mart 1974-cü ildə yazır: *"Məndən Şamil bəyə çox-çox salam söyləməni rica edirəm"*. Buradan aydın olur ki, Şamili Batu da yaxşı tanıyırmış.

10 oktyabr 1974-cü ildə İsgəndər Batu bacısı oğluna yazır: *"Allah qismət edərsə, önümüzdəki ilin may ayında sizləri görməyə gələcəyik. Şamil bəyin qardaşı Ağacəfər də bərabər gələcəkdir"*. Doğrudur, İ.Batu həyat yoldaşı Sevim xanımla birgə Şamaxıya gələrək iki ay burada qonaq qalıb və əzizləri ilə görüşüb, ancaq Ağacəfər Əbdürrəhmanlıya Azərbaycana gəlmək nəsib olmayıb. Çox güman ki, buna xəstəliyi səbəb olub.

[1] ARDA, fond 57, siyahı 1, iş 276, vv. 62-63.

Əfəndiyev Abdulla Molla Ibrahimxəlil oğlu

(30.09.1897, Axtı k./ Dağıstan – ?)



Abdulla Əfəndiyev

Dağıstan nümayəndəsidir.

Sevindirici hallardan biri budur ki, Azərbaycan Cümhuriyyəti hökuməti yalnız Azərbaycanın öz ərazisindən deyil, qonşu Dağıstan və Şimali Qafqazdan da müsəlman tələbələrin xaricə ali təhsil almağa göndərilməsinə imkan yaratmışdı. Doğrudur, onların Azərbaycan təbəəliyini (vətəndaşlığını) qəbul etməsi vacib şərt idi, ancaq ən başlıcası budur ki, Azərbaycan onlara da öz övladları kimi səmimi və qayğıkeşliklə yanaşırdı. Dağıstandan olan həmin gənclərdən biri Abdulla Əfəndiyev idi.

Əfəndiyevin doğum şəhadətnaməsində yazılıb:

"25 iyul 1907-ci il, Axtı kəndi. Mən, aşağıda imza edən Axtı kəndinin mollası vəzifəsini icra edən Molla Nurməhəmməd Hacı Hüseyn oğlu bu şəhadətnaməni ona görə verirəm ki, Samur dairəsi Axtı kəndinin sakini Molla İbrahimxəlil Molla Şüay oğlu Əfəndiyevin və onun qanuni arvadı, Axtı kəndinin sakini Müvəninat Molla Kişi qızının oğlu Abdulla min səkkiz yüz doxsan yeddinci (1897) ildə sentyabrın 30-cu günündə doğulub və bunu öz əlimlə qol çəkməklə və dövlət möhürünü basmaqla təsdiq edirəm".[1]

Doğrudur, sonrakı bəzi sənədlərində Abdulla öz adı qarşısına "bəy" titulu da artırıb, ancaq o, soykökcə ruhani olduğundan bəy (zadəgan) sayıla bilməz.

Əhalisi əsasən ləzgilərdən ibarət olan Axtıya gəlincə, çar dönəmində Samur dairəsində yerləşən Axtı kəndi bu gün Dağıstanın Axtı rayonunun mərkəzidir. Çağdaş oxucunun bilmədiyi bir gerçəklik var – tarix boyunca Axtı camaatı özünü Azərbaycana bağlı sayıb və sovet hakimiyyətinin ilk onilliklərinəcən özəlliklə Şəki və Quba bölgələrindən Axtıya hətta dağ yollarıyla, at cığırlarıyla güclü gediş-gəliş olub. Axtılıların çoxu təhsil almaq üçün Bakıya gəlir, burada gimnaziya bitirdikdən sonra Rusiya ali məktəblərinə oxumağa gedirdi. Onların xeyli hissəsi təhsilini başa vurduqdan sonra Bakıya qayıdaraq bu şəhərdə müxtəlif vəzifələrdə çalışırdı. Örnək üçün deyək ki, Azərbaycan Cümhuriyyətinin qurulmasından qabaq da, sonra da Azərbaycanın ictimai-siyasi hadisələrində fəal iştirak etmiş Axtılı ali təhsilli hüquqşünas Qazıəhməd (Xanbaba) bəy Məhəmmədbəyov (1890-1937) bizim Parlamanda deputat kimi "İttihad" fraksiyasında təmsil olunmuşdu. Rusiya II Dövlət Dumasının üzvü, həkim Bəybala bəy Sultanov (1879-1918) Dağıstanla yanaşı, Zaqatala dairəsindən də deputat seçilmişdi və təəssüf ki, tarixçilərimiz Azərbaycandan Duma üzvü olanlar arasında onun adını heç vaxt çəkmirlər. Bəybala bəy də Bakıda yaşayır, xəstələrini burada qəbul edirdi.[2] Onu Bakıda 1918-ci ilin mart qırğınlarında ermənilər şəhid etmişdilər...[3]

Axtıdakı bir çox yurddaşları kimi, Abdulla Əfəndiyev də orta təhsilini Bakıda almışdı. Müsəlman, Dağıstan əyalətinin Axtı kəndində 30 sentyabr 1897-ci ildə doğulmuş kənd sakini Abdulla Molla İbrahim oğlu Əfəndiyevə Bakıda 1 may 1915-ci ildə verilmiş 1004 saylı attestatda göstərilib ki, o, 1 sentyabr 1907-ci ildən 30 aprel 1915-ci ilədək Bakı edadisində (real məktəbində) oxuyub və əsas bölmə üzrə tam kursu bitirib.[1]

Qiymətləri yaxşı deyil, yalnız şəriət və rəsmdən "5" alıb, 3 fəndən qiyməti "4", 8 fəndən isə "3"dür.

1 iyun 1916-cı ildə verilmiş 1168 saylı şəhadətnamədə göstərilib ki, o, 1915-ci ilin sentyabrından 1916-cı ilin 1 iyununadək Bakı real məktəbinin əlavə 8-ci sinfində oxuyaraq tam kursu bitirib və aşağıdakı uğurları qazanıb:

Şəriət –	yaxşı (4)
Rus dili –	kafi (3)
Fransız dili –	kafi (3)
Riyaziyyat, o sıradan:	
Hesab –	kafi (3)
Cəbr –	kafi (3)
Triqonometriya –	kafi (3)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	kafi (3)
Tarix –	kafi (3)
Təbiiyyatşünaslıq –	kafi (3)
Fizika –	kafi (3)
Riyazi coğrafiya –	kafi (3)
Rəsm –	yaxşı (4)
Qanunşünaslıq –	kafi (3).[2]

Bu sənədlə o, Moskvaya gedərək Moskva Kommersiya İnstitutunda oxumağa başlayıb. Ancaq 1917-ci ilin fevralında baş vermiş Rusiya burjua inqilabından sonra onun da Moskvada yaşaması qeyri-mümkün olub və vətənə dönüb.

Kommersiya İnstitutu iqtisad bölməsinin II kurs tələbəsi Abdulla Əfəndiyev Azərbaycan Cümhuriyyəti xalq maarif nazirinə 3 sentyabr 1919-cu ildə yazdığı ərizəsində özünün İsveçrəyə göndərilən tələbələr sırasına salınmasını xahiş edib və maddi baxımdan imkansız olduğunu bildirib. Ərizənin sonunda ünvanı olaraq Persidski[3] küçəsi 5 ünvanını göstərib və rusca "А-К-Б. Эфендиев" soyadını qeyd edib.[4] Bu şəxsin Əbdülqədir bəy Əfəndiyev olduğuna heç bir şübhəmiz yoxdur. Niyə? Abdulla bəyin babası (Molla İbrahimxəlil əfəndinin atası) *Molla Şüay*'dır. Bu ad yadımızda qaldığına görə Sankt-Peterburq arxivində çalışarkən Piter Universitetində oxumuş tələbələrin siyahısında *Əbdülqədir Molla Şüayb oğlu Əfəndiyev*'in adını oxuduqda onun da şəxsi işiylə tanış olmağı qərara aldıq. İşə baxarkən Əbdülqədir Əfəndiyevin də Axtıdan olduğu aydınlaşdı. Deməli, *Molla Şüay* və *Molla Şüayb* eyni adammış (adların sənədlərdə belə yanlış göstərilməsi o dönəm üçün adi haldı) və Peterburq tələbəsi Əbdülqədir Əfəndiyev Cümhuriyyət tələbəsi Abdulla Əfəndiyevin əmisi – onun atası Molla İbrahimxəlil əfəndinin qardaşıymış! Piterdə oxumuş soydaşlarımızdan yazarkən biz Ə.Əfəndiyevin də haqqında ayrıca məqalə qələmə almışıq.[5]

---

[1] ARDA, fond 51, siyahı 3, iş 140, vərəq 4.

[2] Məsələn, *"Kaspi"* qəzetindəki (20.10.1917, № 235) elana baxılsın.

[3] ARPİİSSA, fond 277, siyahı 2, iş 26, vv. 68-68a.

[1] ARDA, fond 51, siyahı 3, iş 140, vərəq 2.

[2] Yenə orada, vərəq 3.

[3] İndiki Murtuza Muxtarov.

[4] ARDA, fond 51, siyahı 3, iş 140, vərəq 1-1a.

[5] *Tahirzadə Ə.* Peterburqda oxumuş tələbələrimiz. 4. Əfəndiyev Əbdülqədir Molla Şüayb oğlu (12.9.1877, Axtı k./ Samur dairəsi-?). // *"Azərbaycan müəllimi"*, 30 mart 2012, №12, s. 4.

Sonradan Peterburq Mülki Mühəndislər İnstitutuna dəyişilən Əbdülqədir Əfəndiyevin sənədləri içərisində 1904-cü ildə həmin institutun verdiyi diplomun surəti saxlanılır.[1] Deməli, o, mühəndis olub. 1919-cu ildə Əbdülqədir Əfəndiyev Cümhuriyyətin dövlət orqanlarında çalışan sayılıb-seçilən şəxslərdəndi – o, özəlliklə Ticarət və Sənaye Nəzarətində (Nazirliyində) mühüm mövqe tuturdu. Böyük ehtimalla, gənc Abdullanın Azərbaycanın dövlət təqaüdçüləri sırasına salınmasında da elə Əbdülqədir bəyin rolu olub.

A.Əfəndiyev 9 noyabr 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizədə göstərib ki, mən Almaniyada, Frayberqdə Dağ-Mədən Akademiyasında oxumaq istəyirəm.[2]

Yuxarıda göstərdiyimiz kimi, Cümhuriyyətin xaricə göndərdiyi şəxslərin mütləq Azərbaycan təbəəsi/vətəndaşı olması lazımdı. Bu tələbə uyğun olaraq A.Əfəndiyev də təbəəliyə girmək üçün bu işə baxan Daxiliyyə Nəzarətinə müraciət etmişdi.

"Bu vəsiqə Moskva Kommersiya İnstitutunun tələbəsi, Azərbaycan Cümhuriyyətinin dövlət qulluğunda duran – Dövlət Nəzarəti Nazirliyinin özəl tapşırıqlar üzrə məmuru Abdulla bəy Əfəndiyevə ona görə verilib ki, o, Daxiliyyə Nəzarəti qarşısında Azərbaycan vətəndaşlığına qəbul olunması üçün vəsatət qaldırıb və bu, imzalarla və möhür basılmaqla təsdiq edilir".[3]

Azərbaycan daxiliyyə naziri əvəzi general-mayor Ağabəyovun imzası ilə 4 dekabr 1919-cu ildə verilmiş 1223 saylı vəsiqədə oxuyuruq:

"İşbu şəhadətnamə 1919 sənəsi 11 avqustda olan qanunun 6-cı fəsli ikinci qisminə istinadən Abdulla bəy İbrahimxəlil əfəndi oğlu Əfəndiyevə [ona görə verilib ki], mumileyh Əfəndiyev qanunun 2-ci fəsli "Ğ" nöqtəsinin ikinci qisminə istinadən Azərbaycan Cümhuriyyəti təbəəsi miyanına alınmış olduğu xüsusunda əta edilmişdir. Təvəllüdü: 21 sənədir. Milliyyəti: ləzgi. Dini: islamdır. Ailəcə vəziyyəti: bikardır (subay).

Bu xüsusu təyidən imza və dövləti möhür ilə təmhir olunmuşdur.

Təmğa parası[4] *alınmışdır.*

Daxiliyyə naziri naminə general Ağabəyov

İdarə müdiri vəzifəsini ifa edən (imzası)

Tərcüman: İsmayılzadə İbrahim".[5]

15 yanvar 1920-ci ildə A.Əfəndiyev oxuyacağı dövlətdə heç bir siyasi və partiya işinə qarışmayacağı[6] və təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti Hökumətinin göstərəcəyi yerdə 4 il işləyəcəyi haqqında[7] dilkağızları verib.

15 yanvar 1920-ci ildə Abdulla Molla İbrahim oğlu Əfəndiyevə 569 saylı vəsiqə verilib ki, Azərbaycan Cümhuriyyəti Hökuməti onu dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərir.[8]

Beləcə, qardaş ləzgi xalqının nümayəndəsi 16 yanvar 1920-ci ildə 70-dən artıq gənclə birlikdə Bakıdan Qərbi Avropaya yola düşdü.

[1] SPb. MTA, fond 963, siyahı 1, iş 13955, vərəq 531.

[2] ARDA, fond 51, siyahı 3, iş 140, vərəq 6..

[3] Yenə orada, vərəq 7.

[4] Gerb rüsumu.

[5] ARDA, fond 51, siyahı 3, iş 140, vərəq 9a.

[6] Yenə orada, vərəq 10.

[7] Yenə orada, vərəq 11.

[8] Yenə orada, vərəq 12.

* * *



Abdulla Əfəndiyev. Almaniya

Araşdırdığımız sənədlərdən aydın olur ki, Əfəndiyev Abdulla Molla İbrahim(xəlil) oğlu Bakıda olarkən Frayberq Dağ-Mədən Akademiyasında oxumaq istəməsinə baxmayaraq öncə Berlində oxuyub, sonra Manhaym şəhərinə[1] gedərək orada Kommersiya İnstitutunda təhsilini davam etdirib. Arayışlarda onun təhsilini bitirməyə 6 ay qaldığı göstərilib.[2]

Əlimizdə onun tələbə yoldaşlarıyla çəkdirdiyi fotoşəkillər var. Bu fotolara baxınca onun azərbaycanlı tələbələrlə çox yaxından qaynayıb-qarışdığı hiss olunmaqdadır.

Nə yazıq ki, Abdulla Əfəndiyevin təhsildən sonrakı həyatını öyrənmək bizə nəsib olmadı. Bundan ötrü çox çalışdıq. 2009-cu ildə Axtı kəndinin İnternet saytında onun haqqında bizə bilgi vermələri üçün həmin kəndin hakimiyyət orqanlarına, tarix müəllimlərinə və bütün sakinlərinə iki dəfə müraciət etdik[3], ancaq bir nəfərdən də səs çıxmadı. Onda həmin müraciəti Dağıstanın *"Lezgi qezet"*i redaksiyasına göndərdik. Həmin qəzet bizə heç cavab da vermədi. Bunların xeyri olmadığını görüb Bakıda hörmətli Sədaqət xanım Kərimovanın *"Samur"* qəzetində Azərbaycanın və Dağıstanın bütün ləzgilərinə müraciət ünvanlayaraq Abdulla Əfəndiyev və Xanbaba (Qazıəhməd) bəy Məhəmmədbəyov haqqında bilgi verələrini xahiş etdik.[4] Təəssüf ki, bu dəfə də daşdan səs çıxdı, ancaq müraciət etdiklərimdən yox... Doğrudur, sonrakı inadlı axtarışlarımız nəticəsində Odessa arxivindən X.b.Məhəmmədbəyovun şəxsi sənədlərini, nadir fotolarını əldə etdik və Moskvadan qohumlarını tapıb onlardan az-çox məlumat aldıq, ancaq Abdulla Əfəndiyev haqqında heç bir ipucu ələ keçmədi.

Heç bir istintaq sənədində adının keçməməsi A.Əfəndiyevin SSRİ-yə qayıtmadığını düşünməyə əsas verir.

[1] Manhaym (Mannheim) indi təxminən 313.000 nəfər əhalisi iləŞtutqartdan sonra Baden-Württemberq əyalətinin ikinci böyük şəhəridir. Hessen, Raynland-Pfalts və Baden-Württemberq əyalətlərinin kəsişdiyi nöqtədədir.

[2] ARDA, fond 57, siyahı 1, iş 276, vərəq 62-63.

[3] http://ahty.dagle.ru/index.php?option=com_easybook&Itemid=63.

[4] *Tatırxanə A.* В поисках исторической справедливости. // Газ. *"Самур"*, 24.X.2009, №10.

Əfəndiyev Məhəmmədəmin Hüseyn əfəndi oğlu

(14.02.1897, İrəvan – ?, Türkiyə)



Məhəmmədəmin Əfəndiyev

Yazımızın qəhrəmanını çox vaxt iki başqa Məhəmmədəmin Əfəndiyevlə qarışdırırlar. Əfəndiyev Məhəmmədəmin Ağa Əli bəy (Naseh) oğlu (3.3.1897-?) Peterburq Texnologiya İnstitutunda (1916), Əfəndiyev Məhəmmədəmin Molla Mustafa oğlu (28.9.1897-?) Peterburq Elektrotexnika İnstitutunda (1917) oxuyub.

Cümhuriyyət tələbəsi olan Məhəmmədəmin Əfəndiyev isə Şəkinin ən hörmətli soylarından birinin nümayəndəsidir. Bu nəsil haqqında *"Şəkidə məhəllə adları, soylar və ləqəblər"* kitabında belə bir ümumiləşdirici bilgi verilib:

"Türkiyədə təhsil alan İsmayıl əfəndinin oğlanları qazi Hüseyn əfəndi, Rəşid bəy Əfəndiyev, Abdulla bəy Əfəndiyev və qardaşı Əsədulla əfəndinin oğlu Rəcəb Əfəndiyev Azərbaycan elmi, maarifi, mədəniyyəti və ictimai fikrinin inkişafında müstəsna xidmətləri olan şəxsiyyətlər idilər. Onların övladları bu yolun davamçıları olmuşlar. İstanbul təhsili almış qazi Hüseyn əfəndi kamil ruhani alim, tarixçi, qazi olub. Azərbaycanda ilk demokratik respublika qurulduqdan sonra Şəkidə oğlan gimnaziyasında şəriət dərsi deyib. Gimnaziyanın rektoru Məmməd bəy, prorektoru[1] isə Əbdülməbud əfəndi olmuşdur.

Sovet dövründə qazi Hüseyn əfəndi Şəkidəki 5 saylı ünas (qız) məktəbinin müdiri vəzifəsində çalışıb. Həmin dövlərdə o, özünün 2 cilddə "Zübdətül-əhkamüş-şəriət" kitabını da yazmışdır. Qazi Hüseyn əfəndidən sonra ünas məktəbinin müdiri Sabit Rəhmanın əmisi Əliəkbər Mahmudov olmuşdur. Qazi Hüseyn əfəndinin böyük oğlu Məmmədəmin Azərbaycan Cümhuriyyəti vaxtı hökumət tərəfindən dəmiryol ixtisasını almaq üçün Almaniyaya oxumağa göndərilib. Vətənə qayıdandan bir müddət Bakıda işləyib, sonra İrana mühacirət edib. Digər oğlu Şahid isə riyaziyyat müəllimi olub, uzun müddət Zaqatalada işləmişdir. Qızı Siddiqə də Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. Qazi Hüseyn əfəndinin özündən kiçik qardaşı Rəşid bəy Əfəndizadə isə tanınmış pedaqoq, yazıçı-dramaturq, folklor örnəklərinin toplayıcısı olmuşdur".[2]

Bu dəyərli bilgiyə əlavələr etməyə ehtiyac duyuruq.

Əfəndizadələr soyunun tarixi ilə bağlı indiyədək yazılanlarda İsmayıl əfəndidən oyana gedilməyib, çünki əldə bəlgə və bilgi yoxdu. Bu yazıda onların tarixini Şəki xanı Fətəli xan dövrünədək izləyəcəyik.

Fətəli xan (? – 13.05.1815) Şəkinin ən hörmətli ruhanilərindən biri olan Hacı Çələbi əfəndiyə (? – 09.12.1841) belə bir məktub yazıb:

"Hörmətli cənab, yaxşı axund, xeyirxah insan, atam yerinə hesab etdiyim Hacı Çələbi əfəndi. ...Məktubunuzda Taxta Körpü qışlağı haqqında yazırsınız. ...Mənim bütün mülklərim Sizindir. Sizdən heç nəyi əsirgəmirəm. Siz Taxta Körpü qışlağı istəyirsiniz və mən onu Sizə əbədi olaraq bəxş edirəm və heç kəs ona toxunmağa cürət edə bilməz".[3]

Doğrudur, biz "Şəkinin tarixi qaynaqlarda" kitabımızda bu məsələyə toxunmuşuq,[4] ancaq o zaman bilmirdik ki, haqqında söhbət gedən Hacı Çələbi əfəndi "bizim" İsmayıl əfəndinin atasıdır. Bu haqda ilk dəfə burada söz açırıq. Əlimizdə hələlik nəinki Hacı Çələbi əfəndi, hətta İsmayıl əfəndinin özü barəsində də tutarlı sənədlər yoxdur. İş burasındadır ki, Hacı Çələbinin nəvələri olan 3 qardaşdan ikisi (Rəşid bəy və Abdulla bəy Əfəndizadələr) haqqında az-çox məlumatımız olsa da (özəlliklə Rəşid bəy haqqında çox dəyərli əsərlər yazılıb), üçüncüsü – Hüseyn əfəndidən heç nə bimirik, halbuki Cümhuriyyət tələbəsi Məhəmmədəmin Əfəndiyevin atası olan bu şəxs Azərbaycan ruhaniliyi və maarifçiliyi tarixində çox müsbət rol oynayıb.

Təlәbə Məhəmmədəmindən söz düşmüşkən onun atası barəsində də danışmağı məqsədəuyğun sayır, onunla bağlı topladığımız arxiv sənədlərinin bəziləri ilə oxucuları tanış edirik. Həmin bəlgələr ilk dəfə işıq üzü gördüyünə və hər cümləsində tariximizlə bağlı maraqlı faktlar əks olunduğu üçün onları qısaltmamağa çalışdıq.



Almaniyada oxuyan tələbələrimiz.
Soldan sağa: Bəhram Abdinov, Abdulla Əfəndiyev, Məhəmmədəmin Əfəndiyev

Gəncə valiliyi Şəki şəhərinin sakini Hüseyn əfəndi İsmayıl əfəndi oğlu 25 iyun 1892-ci ildə Şəki şəhərindən Zaqafqaziya müftisi Hüseyn əfəndi Qayıbzadəyə bu məzmunda ərizə yazıb:

"Mərhum atam, Gəncə Valiliyi Sünni Məclisinin keçmiş üzvü İsmayıl əfəndi Hacı Çələbi əfəndi oğlu[1] 35 il ruhani hissəsi üzrə qazi vəzifəsi daşıyıb... Mərhum həmişə övladlarını xeyirxah yolda tərbiyə edib, onları hökumət məktəblərinə yönəldib. Qardaşlarımdan biri Rəşid bəy Əfəndiyev[2] Zaqafqaziya Müəllimlər Seminariyasında təhsil alaraq həmin məktəbin kursunu bitirib, indi kənd müəllimi işləyir. Kiçik qardaşım Abdulla Əfəndiyev[3] Gəncə Mixail Peşə Məktəbində oxuyub. Mən isə öncə Şəki şəhər məktəbində və Tiflisdə özəl pansionda oxumuşam; orada nisbətən yetərincə dövlət dili və yazısını öyrənmişəm. Bütün bunlardan sonra fasiləsiz olaraq ərəb elmlərini və müsəlman ədəbiyyatını öyrənmişəm, eləcə də uzun illər Valilik Məclisində çalışmışam, orada bu dövlət müəssisəsinin vəzifələrini mənimsəmişəm. Müsəlman elmini, şəriəti, ilahiyyatı və Şərq ədəbiyyatını bilməyimə gəlincə, 20 sentyabr 1889-cu ildə əfəndi rütbəsi almaq üçün imtahan vermişəm və bu, təqdim etdiyim attestatdan görünür.

1) 20 sentyabr 1889-cu il tarixli 357 saylı attestatımı, 2) 17 iyun 1892-ci ildən Şəki şəhər məktəbində oxumağım haqqında 137 saylı şəhadətnaməni, 3) Şəki Qəza İdarəsinin mənim davranışım haqqında verdiyi 25 iyun 1892-ci il tarixli 21/1326 saylı şəhadətnaməni, 4) 27 fevral 1889-cu il tarixli 160 saylı doğum şəhadətnaməmi, 5) Gəncə Valiliyi Məclisi heyəti qarşısında 20 iyul 1892-ci ildə verdiyim zərərli cəmiyyətlərin ardıcılları sırasında olmamağım haqqında dilxəyimi bu ərizəyə əlavə edərək Siz alicahdan tam itaətlə xahiş edirəm ki, Gəncə Valiliyi

---

[1] Çar dönəmində rektor və prorektor vəzifələri yalnız universitetlərdə olurdu.

[2] Şəkidə məhəllə adları, soylar və ləqəblər. I kitab. Bakı, 2004, ss. 276-277.

[3] *Hüseynli R.* Azərbaycan ruhaniliyi. Bakı, 2002, s.130.

[4] *Tahirzadə Ə.* Şəkinin tarixi qaynaqlarda. Bakı, 2005, s. 220.

[1] İsmayıl əfəndi 1819-cu ildə doğulub (bax: *Tahirzadə Ə.* Şəkinin tarixi qaynaqlarda, s. 219), 13 iyun 1892-ci ildə vəfat edib (bax: ARTA, fond 291, siyahı 1, iş 1354, vərəq 1).

[2] Görkəmli maarif xadimi və yazıçı Rəşid bəy Əfəndizadə (1863, Şəki-1942, Bakı).

[3] Görkəmli maarif xadimi, sonralar Azərbaycan Cümhuriyyəti Parlamanının üzvü olmuş Abdulla bəy Əfəndizadə (1873, Şəki-1928, Bakı).



Cümhuriyyət təlabələri Berlində. *Ondə oturan:* Mirismayıl Seyidzadə. *Soldan sağa:* Məhəmməd Rəhimli, Əhməd Rəcəbli, Hüseyn Şıxıyev, Məhəmmədəmin Əfəndiyev, Balaağa Ağayev, Bəhram bəy Hüseynzadə

Sünni Məclisinin boş olan üzvü vəzifəsinə mərhum atamın yerinə təyin edilməyim haqqında əlahəzrət Gəncə valisi cənabları qarşısında vəsatət qaldırasınız…".[1]

Əlbəttə, müfti ilə vali, vali ilə başqa dövlət qurumları arasında da bu məsələylə bağlı yazışmalar gedib və onlar xeyli vaxt aparıb. Nəhayət, vali (ancaq Gəncə deyil, İrəvan valisi!) məsələni gözlənildiyindən də yüksək şəkildə həll edib.

İrəvan valisi 15 dekabr 1893-cü ildə Zaqafqaziya Sünni Ruhani İdarəsinin sədrinə (müfti Qayıbzadəyə) 5922 saylı məktub ünvanlayıb:

"Cari ilin 24 avqustunda 966 saylı məktubla birgə göndərdiyiniz sənədləri gözdən keçirərək və Zaqafqaziya müsəlman ruhaniliyi haqqında Əsasnamənin 23-cü maddəsinə əsaslanaraq Gəncə valiliyi Şəki şəhərinin sakini Hüseyn əfəndi İsmayıl əfəndi oğlu Əfəndiyevi mənə tapşırılmış valiliyin İrəvan, Naxçıvan, Novobayazid və Şərur-Dərələgöz qəzalarının sünni qazisi təyin edirəm. Siz alicaha bu haqda xəbər verərək həmin əfəndini təcili şəkildə təyinat yerinə göndərməyinizi və onun vəzifəsinə başlamasını xahiş edirəm.

Baş qərargahın general-mayoru (imza)".[2]

Hüseyn əfəndinin bundan sonrakı həyat və fəaliyyətini onun Gəncə Valiliyi Sünni Ruhani Məclisinin sədri və Şəki qəzasının qazisi işlədiyi dönəmdə – 11 iyun 1912-ci ildə tərtib edilmiş

[1] ARTA, fond 291, siyahı 1, iş 1354, vv. 10-11.
[2] Yenə orada, vərəq 22.

əmək dəftərindən[1] öyrənirik. Bu sənəddə Hüseyn əfəndi haqqında aşağıdakı bilgilər əksini tapıb: 49 yaşı var. Müsəlmandır, sünnidir. Bu medalları var: İmperator 3-cü Aleksandrın çarlığı xatirəsinə gümüş medal (16 yanvar 1898), boyundan asmaq üçün Stanislav lentində qızıl medal (1 yanvar 1904). İldə 450 manat məvacib alır. Ali ruhani silkindəndir. Şəki şəhərində dədə-babadan qalma 1/8 hissə hamam və bağı, özünə məxsus həyəti və suyu olan evi var. Təhsilini Şəki şəhər məktəbində alıb, 35 saylı şəhadətnaməsinə görə, tam kursu bitirməyib; Şəki şəhər cümə məscidindəki ruhani mədrəsədə oxuyub, Zaqafqaziya Sünni Ruhani İdarəsində əfəndi rütbəsi almaq üçün imtahan verib, bu haqda 20 sentyabr 1889-cu il tarixli 857 saylı attestatı var.[2]



Məhəmmədəmin Əfəndiyev. Almaniya

15 dekabr 1893-cü ildə İrəvan valiliyinin qazisi təyin edilib.

27 avqust 1897-ci ildə Zaqafqaziya Sünni Ruhani İdarəsinin üzvü vəzifəsinə keçirilib.

1 yanvar 1904-cü ildə səyinə görə boyundan asmaq üçün Stanislav lentində qızıl medalla təltif edilib.

Ailə vəziyyəti ilə bağlı xahişinə görə Qafqaz canişini 20 yanvar 1906-cı ildə 22 saylı əmrlə onu İdarə üzvlüyü vəzifəsindən azad edib.

26 oktyabr 1910-cu ildə Gəncə valisinin əmri ilə Gəncə Valiliyi Sünni Məclisinin sədri və Şəki qəzasının qazisi təyin edilib.

5 iyun 1870-ci il doğumlu, 42 yaşlı *Fatma xanım*[3] *Əbdürrəhim əfəndi qızı* ilə evlənib. 3 uşağı var: *Məhəmmədəmin* – 14 fevral 1897-ci il doğumlu, *Siddiqə xanım* – 6 yanvar 1905-ci il doğumlu, *Şahid* – 10 oktyabr 1906-cı il doğumlu. Hamısı onun yanındadır və müsəlmandır.[4]

* * *

Belə yüksək ziyalı bir ailənin təmsilçisi olan Məhəmmədəmin Əfəndiyevin 31 yanvar 1901-ci il tarixli doğum şəhadətnaməsində yazılıb ki, Tiflis şəhəri sünni məscidinin 1897-ci il üçün doğum kitabında kişi cinsindən doğulmuşların I hissəsində 3-cü nömrə altında belə qeyd var:

"14 fevral 1897-ci ildə İrəvan qazisi Hüseyn əfəndi İsmayıl əfəndi oğlu Əfəndiyevin qanuni arvadı Məsumə xanım[5] *Əbdürrəhim əfəndi qızından oğlu Məhəmmədəmin doğulub və bunu Zaqafqaziya Sünni Ruhani İdarəsi imza və dövlət möhürünün basılması ilə təsdiqləyir".*[6]

Tiflis o zaman Qafqazın "paytaxtı" sayıldığına və imtiyazlı təbəqələrin balalarının oxuduğu Tiflis gimnaziyası ən nüfuzlu orta təhsil müəssisəsi sayıldığına görə Hüseyn əfəndi də böyük oğlu Məhəmmədəmini burada oxutmaq istəyib.

Tiflisdə 31 may 1916-cı ildə verilmiş 972 saylı kamal attestatında oxuyruq ki, müsəlman, qazi oğlu, 14 fevral 1897-ci ildə İrəvan şəhərində doğulmuş Məhəmmədəmin Əfəndiyevə ona görə verilib ki, o, Tiflis İmperator I Aleksandr kişi gimnaziyasına 1 sentyabr 1907-ci ildə girərək 30 may 1916-cı ilədək orada əla əxlaqla oxuyub, səkkizsiniflik tam kursu bitirib və aşağıdakı bilikləri göstərib:

[1] ARTA, fond 291, siyahı 2, iş 4535, vv. 45-46.
[2] Göründüyü kimi, onun İstanbulda oxuması haqqında burada heç nə deyilmir.
[3] İrəvan, Naxçıvan, Novobəyazid və Şərur-Dərələgöz qəzalarının sünni qazisi Hüseyn əfəndi İsmayıl əfəndi oğlu Əfəndiyevin 1894-cü ildə tərtib edilmiş əmək dəftərində onun arvadının adı *"Məsumə xanım Əbdürrəhim əfəndi qızı"* göstərilib (bax: ARTA, fond 291, siyahı 1, iş 2389, vərəq 119).
[4] ARTA, fond 291, siyahı 2, iş 4363, vərəq 46.
[5] Onun adı Hüseyn əfəndinin 1912-ci ildəki əmək dəftərində *"Fatma xanım"* kimi yazılıb.
[6] ARDA, fond 51, siyahı 3, iş 139, vərəq 5.

Şəriət –	5 (beş)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	4 (dörd)
Fəlsəfi propedevtika –	4 (dörd)
Qanunşünaslıq –	5 (beş)
Latın dili –	4 (dörd)
Riyaziyyat –	5 (beş)
Riyazi coğrafiya –	4 (dörd)
Fizika –	4 (dörd)
Tarix –	4 (dörd)
Coğrafiya –	4 (dörd)
Alman dili –	4 (dörd)
Fransız dili –	4 (dörd).[1]

Sənədi imzalayanlar içərisində İ.ə.Qayıbov və müəllim D.Şərifov da var.

Şəki qəza rəisi 10 avqust 1919-cu ildə Şəki şəhər sakini Məhəmmədəmin Əfəndiyevin xahişi ilə ona 167 saylı belə bir şəhadətnamə verib ki, onun atası – Şəki kişi gimnaziyasının şəriət müəllimi Hüseyn əfəndi Əfəndiyev öz vəzifəsində ildə 14 min manat maaş alaraq arvadı və 3 uşağından ibarət ailəsini güclə dolandırır, buna görə də özünün yuxarıda adı çəkilən oğlunu ali məktəbdə öz hesabına oxutmaq imkanı yoxdur.[2]

Bu arayış ona ali məktəbə təqdim etmək üçün verilib.

Moskva Universiteti fizika-riyaziyyat fakültəsi riyaziyyat bölümünün tələbəsi Məhəmmədəmin Əfəndiyev 14 avqust 1919-cu ildə xalq maarif nazirinə yazdığı ərizəsində İsveçrənin Sürix Politexnikumunda təhsilini davam etdirmək istədiyini, ancaq bunun üçün vəsaiti olmadığını bildirməklə yanaşı, hökumətin dövlət hesabına xaricə göndərəcəyi tələbələrin siyahısına salınmasını xahiş edib.[3]

Əfəndiyev 10 noyabr 1919-cu ildə xalq maarif nazirinə ərizə yazıb ki, tələbələrin xaricə göndərilməsi üçün təqaüdlərin bölüşdürülməsi üzrə komissiyanın bəzi üzvlərinin mənə bildirdiyinə görə, mən yanlış olaraq mənimlə eyni soyadlı başqa tələbələrlə qarışıq salınaraq fizika-riyaziyyat fakültəsinə göndəriləsilər siyahısına düşmüşəm, halbuki komissiya məni Dağ İnstitutuna göndərmək istəyir. Buna görə də Sizin bu yanlışlığı düzəldəcəyinizə umudvaram. Mən təhsilimi Frayberq Dağ-Mədən Akademiyasında davam etdirmək istədiyirəm".[4]

M.Əfəndiyev 10 yanvar 1920-ci ildə, ali təhsilini bitirdikdən sonra ümumi əsaslarla üzərinə düşən bütün öhdəlikləri yerinə yetirəcəyi haqqında dilkağızı verib.[5]

Məhəmmədəmin Əfəndiyevə dövlət hesabına xaricə oxumağa göndərildiyi haqqında 575 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[6]

* * *

Öncə Berlində oxuyan Məhəmmədəmin sonra Darmştadta gedərək orada Ali Texniki İnstituta girib və yol mühəndisliyi ixtisası üzrə ali təhsil alıb. Tələbə yoldaşı Məhiş Səfərov zindanda 27 sentyabr 1935-ci ildə müstəntiq Avanesyana onunla birgə oxumuşların adını sadalayıb: "*Məmmədov Qəhrəman* – Bakıdadır, Azərbaşyolnəqliyyatda, sonra isə Azərdövlətlayihədə

[1] ARDA, fond 51, siyahı 3, iş 139, vv. 3-3a.
[2] Yenə orada, vv. 2-2a.
[3] Yenə orada, vv. 1-1a.
[4] Yenə orada, vərəq 6.
[5] Yenə orada, vərəq 7.
[6] Yenə orada, vərəq 9.

işləyib. O, Almaniyadan, deyəsən, 1927-ci ildə gəlib. *Rəhimli Məhəmməd* – Bakıdadır, Azbaşyolnəqliyyatda işləyir. *Şıxıyev Hüseyn* – Almaniyadan, deyəsən, 1927-ci ildə qayıdıb və 1929-30-cu ildə xaricə qaçıb. *Hüseynzadə Bəhram* – Bakıdadır, Gəncədə işləyib, ay yarım bundan qabaq Bakıya köçüb, Hüseynzadə Firidunun qardaşıdır. *Əfəndiyev Məhəmməd[əmin]* Almaniyadan, deyəsən, 1927-ci ildə qayıdıb və 1929-30-cu ildə xaricə qaçıb".[1]

Əfəndiyev, görünür, Azərbaycanda məşhur olan görkəmli əmilərinin nüfuzuna daha çox arxayın olduğuna görə sovet Azərbaycanına qayıtmağa razılıq verib və Bakıda öz ixtisası üzrə işləməyə başlayıb. Ancaq xaricdə, özəlliklə Almaniyada ali təhsil almış tələbələrə bolşeviklər əsla inanmır, onların hər addımını izləyir, onları da yalnız özləri kimi düşünməyə məcbur etmək istəyir, özəlliklə hakimiyyətdə əsas söz yiyəsi olan ermənі-rus qüvvələri bu milli kadrları ləkələmək, onları sıradan çıxarmaq üçün hər fürsətdən yararlanırdılar. Artıq durumun dözülməz həddə çatdığını görən Məhəmmədəmin Əfəndiyev onunla eyni vaxtda Almaniyada təhsil almış Cümhuriyyət tələbələriylə söz-ləşərək 1929-cu ilin payızında öncə Güney Azərbaycana qaçdı, oradan da Türkiyəyə keçdi. Bu qaçışın incəlikləri onun tələbə və qaçış yoldaşı Mirismayıl Seyidzadənin (İsmayıl Saryalın) yazdığı *"Bakı rüzgarı"* kitabında geniş təsvir edilib. Həmin kitabda Məhəmmədəmin Əfəndizadə ilə bağlı yerləri oxucuların diqqətinə çatdırırıq.

"İran yolçuluğu bu dəfə Emin Əfəndizadə[2] adlı yoldaşla ediləcəkdi.

[Oğuz][3] Emini yaxşı tanıyırdı. Parisdə olduqları vaxt onunla eyni otel otağında qalmışdı. Yüksək inşaat mühəndisi olan Emin təhsilini Almaniyada almış, sakit və dürüst bir insandı. Evlənməmişdi və evlənməyi də düşünmürdü. Oğuz onunla birlikdə Reyn çayı vapurlarıyla və Almaniyanın tanınmış qəra meşələrində gəzintilərdə olmuşdu. Yoldaşlığı xoşdu. Az, ancaq yerində zarafatlaşmağı bilirdi. Bolşevik rejiminə heç cür uyğunlaşa bilməmiş və beyninə qaçmağı salmışdı".[4]

"[Oğuz] qonşuların diqqətini çəkməyəcək səssizliklə küçəyə düşdü. Balkondan ona əl yellə-yən həyat yoldaşına bir neçə dəfə qarşılıq verdi və az qala qaça-qaça birlikdə səfərə çıxacağı yoldaşı Eminin yanına getdi. Hava alatorandı, qaranlıq çökmək üzrə idi. Keçdiyi küçələr bomboşdu, yoldaşı stansiya yaxınlığında kirələdiyi bir otaqda otururdu.

Otağa girdiyində əlində kiçik çantasıyla Eminin onu ayaq üstə gözlədiyini gördü. Emin gülərək:

"Haydı görək. Harada hərəkət, orada bərəkət!", - dedi.

Sonra otağın işığını söndürdü, pəncərənin pərdəsini araladı və küçəyə göz yetirdi. Qarşı səkidə küçə fənəri altında duran birisinin evi gözətlədiyini gördülər. Adam Oğuzun arxasınca gəlib, indi onların küçəyə çıxmasınımı gözləyirdi? Durum şübhələndirici idi. Onları qorxu aldı, evdən çıxmağa cəsarət etmədilər və bir az gözləməyi uyğun gördülər. Aradabir pərdəni aralayıb adamı izlədilər. Adam isə bir heykəl kimi yerindən qımıldanmırdı. Gənclərin əsəbləri gərginləşdikcə gərginləşdi. Az qala qatara gecikəcəkdilər. Çox gözləmək imkanı yoxdu. Nə olacaqsa olsun, getmələri lazımdı.

Hələ küçəyə çıxmadan pilləkən işığının yandığını və gənc bir qızın pillələrdən düşdüyünü gördülər. Qız küçəyə çıxdı, fanar altında gözləyən adamın qoluna girdi və həmən oradan uzaqlaşdılar.

[1] AR MTN Arxivi, PR-21927, vərəq 9.
[2] Məhəmmədəmin Əfəndiyev bu əsər boyunca *"Emin"* adlandırılıb.
[3] İsmayıl Saryalın əsərdə özünə götürdüyü addır.
[4] *Saryal İ.* Bakü rüzgarı. Ankara, 1998, ss. 225-226.

Gənclər ancaq indi nəfəs ala bildilər, qatara gecikməmələri üçün qaçmağa başladılar".[1]

Əsərdə oxuyuruq ki, sovet rejimindən qaçan bu yoldaşlar Ələt stansiyasında düşür, sonra Salyana, oradan Muğan çölü ilə Biləsuvara gedirlər. Onları kirələdikləri bələdçi aparır və İran sərhədinədək öncə öküz arabasında, əsas yolu isə piyada gedirlər.

Bütün gün bir loxma yemək yeməmiş Emin öyrəşmədiyi ağır şərtlər altında özünü itirmiş kimi olur, arabada keçə üzərinə uzanıb gözüyumulu səfər edir. Ağcaqanadlar Oğuza toxunmadıqları halda Eminin üzündə dişləmədikləri yer qoymur, onun üzü dəyişərək tanınmaz olur. Təraş dəstindən çıxardığı güzgüdə özünü görüncə o da Oğuz kimi acı-acı gülməyə başlayır. Az sonra o, cibindən bir bəlgə çıxararaq Oğuza uzadır.

"Bu bəlgəni Hüseyn Şeyxi yoldaşımız yola çıxmadan öncə bizə buraxıb, - dedi. Buradakı zabitlərə göstəriləcək və keçməyimiz asanlaşacaq".

Oğuz bəlgəni aldı və oxudu. Hüseyn ondan sonra səfərə çıxacaq[2] *yoldaşlarını düşünərək onlar üçün, çalışdığı Təhsil Nazirliyi adından bir sənəd hazırlamışdı. Sənəddə sərhəd boyunca inşa edilməkdə olan kənd məktəblərini yoxlamaqla vəzifələndirilmiş Oğuz Qayalı və Emin Əfəndizadə adlı 2 yüksək mühəndisin səfərə çıxdıqları yazılmışdı. Bəlgə rəsmi möhür ilə möhürlənmiş və imzalanmışdı".*[3]

Qaçqınlar yolda achq və susuzluqdan çox əziyyət çəkiblər və Emin iki dəfə bayılıb.[4] Bələdçi yolu itirdiyindən, onlar azıblar və eyni yeri bir neçə dəfə dolanıblar. Nəhayət, Eminin bunu başa düşməsi sayəsində onlar doğru yolu taparaq Araz qırağına gəliblər, ancaq bu vaxt onlar ayaq üstündə dura bilməyəcək dərəcədə halsız olublar.

"Oğuz sərhədi keçmə hadisəsinin bir təsadüf nəticəsi olduğunu çoban Əliyə xatırlatmaq istədi:

– Yolu yaxşı bilmədən üzərinə bələdçilik götürməyin böyük xətadır. Dairə içində dolaşdığımızı yoldaşım Emin fərq etməsəydi, batmaqda olan Aya doğru getməyimizin lazım olduğu da mənim ağlıma gəlməsəydi yaxalanıb edam ediləcəkdik".[5]

Onlar bir çox macəralardan sonra Biləsuvardan Güney Azərbaycana keçirlər. Öncə Ərdəbildə olur və gərəkli sənədlər əldə edirlər. Orada "imzalı və möhürlü olan bəlgə əlyazısı və ərəb hərfləri ilə hazırlanmışdı. Bu bəlgə Oğuzla Eminin İran sərhədləri içərisində yaşamalarına izin verirdi".[6]

Ərdəbildə onların işi polisdən keçir.

"Komissar polis müdirinin onları görmək istədiyini və bir az gözləməli olacaqlarını söylədi. Söhbət sırasında gənclərin sünnimi, yoxsa şiəmi olduqlarını öyrənmək istədi. Özəlliklə Eminin soyadının Əfəndizadə olmasından şübhələnmiş və sualı ona yönəltmişdi. Əsəbiləşən Emin ona sərt bir dillə qarşılıq verdi:

– Bizim Azərbaycanda sünni-şiə problemi yoxtur. Bu problem çox uzaqlarda qalmışdır. Kimin sünni, kimin şiə olduğu bizim məmləkətdə bilinməz və hər müsəlman adam qardaş kimi yaşayar.

– Bizdə də elədir, - dedi müdir, - ancaq siz yenə hansı məzhəbdən olduğunuzu mənə açıqlayın.

[1] *Saryal İ.* Bakü rüzgarı. Ankara, 1998, ss. 27-28.
[2] Hüseyn Şıxıyev onlardan 1-2 gün öncə qaçmışdı.
[3] *Saryal İ.* Bakü rüzgarı, s. 233.
[4] Yenə orada, s. 244.
[5] Yenə orada, s. 250.
[6] Yenə orada, s. 264.

– Hansı məzhəbdən olduğumu ailəm mənə öyrətmədi. Siz mənə məni hansı məzhəbdə görmək istədiyinizi söyləyin, mən də ona girim, çünki bugünə qədər yalnız Türk və müsəlman olduğumu bilirdim, bu da mənim üçün yetərli idi.

Eminin bu tərzdə danışması komissarı pozmuşdu. Üzü ciddiləşdi və bir az susduqdan sonra bitirmiş olduğu siqaretini külqabında söndürdü və ayağa qalxaraq:

– Buyurun, ağalar, müdirə gedək, - dedi".[7]

"Yeməklərini bitirincə otelə döndülər. Bütün örgüt[8] *yoldaşları yenidən bir araya gəlmiş oldu və sevincləri təzələndi. Hər kəs öz yerində oturdu və yeni gələnlərdən səfərləri haqqında bilgi istəndi. Oğuzla Eminin anlatdıqları səfər təsvirindən bütün yoldaşların ağzı açılı qaldı. İçlərindən heç biri belə çətinliklərlə qarşılaşmamışdı. Biləsuvar gömrükçülərinin bir bəhanə uydurараq pullarını almasına da çox üzüldülər, çünki bütün umudlarını Oğuzun gətirəcəyi pula bağlamışdılar... İran torpaqlarındakı bugünkü toplantının Bakıda baş verənlərin bir davamı olduğunu qəbul etmək gərəkirdi".*[9]

Ərdəbildə *"Hüseynlə Emin avtobus terminalında keçici iş tapdılar. Sıxıntıları bir qədər azalmış oldu".*[10]

Məhəmmədəminin sonrakı taleyi haqqında bu əsər də, başqa qaynaqlar da susur. Türkiyədəki şəxsi tanışlarımızdan da onun haqqında heç bir bilgi ala bilmədik.

[7] *Saryal İ.* Bakü rüzgarı, s. 265.
[8] Bakıdan İrana, oradan Türkiyəyə birgə qaçanların yaratdığı qrupa deyilir.
[9] *Saryal İ.* Bakü rüzgarı, s. 269.
[10] Yenə orada, s. 272.

Əlimuradbəyli Cəmil bəy Cümşüd bəy oğlu

(1897, Qorqan k./ Füzuli r. – təx. 1959, Bakı)



Cəmil bəy Əlimuradbəyli

Azərbaycan Cümhuriyyəti hökumətinin ali təhsil almaq üçün xarici dövlətlərə oxumağa göndərdiyi təqaüdçülər içərisində qardaşının yerinə getmə halları da olub. Onlardan biri qardaşı Cavadın yerinə Almaniyaya oxumağa getmiş Cəmil bəy Əlimuradbəyli-dir.[1] İş burasındadır ki, AR Dövlət Arxivindəki sənədlər Cavadın sənədləridir, ancaq oxumağa gedənsə Cəmildir, buna görə də biz Cavadın sənədlərinin yalnız qısa xülasəsini verəcək, sonra Cəmil Əlimuradbəyli haqqında ətraflı danışacağıq.

Doğum haqqındakı şəhadətnaməsinə görə, *Cavad bəy* atası Cümşüd bəy Əlimurad bəy oğlu Əlimuradbəyovun qanuni arvadı Mahşərəf xanım Hüseynəli bəy qızından 1898-ci ilin iyun ayında doğulub.[2]

376 saylı kamal attestatında onun 5 sentyabr 1919-cu ildən 7 aprel 1918-ci ilədək Bakı 2-ci kişi gimnaziyasında oxuduğu göstərilib. O yalnız şəriət, qanunşünaslıq və Türk dilindən "5" alıb, yerdə qalan 7 fəndən qiymətləri "4", 3 fəndən "3"-dür.[3]

Bakının Vodovozni[4] küçəsi, 14-cü evdə yaşayan *Cavad Əlimuradbəyov* xalq maarif nazirinə 1919-cu ilin yəqin ki, avqustunda yazdığı ərizəsində Cümhuriyyət hökumətinin xaricə göndərəcəyi tələbələr siyahısına özünün də salınmasını xahiş edib,[5] 8 noyabr 1919-cu ildə yazdığı 2-ci ərizəsində isə Almaniyanın Berlin, yaxud İsveçrənin Bern şəhərində dağ institutunda oxumaq istədiyini bildirib.[6]

Hökumətin dövlət hesabına xaricə oxumağa göndərməsi barədə Cavad bəyə verilmiş vəsiqədə qeyri-adi durumla qarşılaşırıq. Belə ki, bu vəsiqənin üzərində 2 foto var. Təbii ki, Fətulla bəy Rzabəyovun tikərək surğucladığı foto Cavad bəyindir, ancaq onun yuxarısındakı papaqlı fotoşəkildə isə qardaşı Cəmil bəy təsvir olunub.[7] Onlar üzdən bir-birinə həddən artıq bənzəyirlər. Bu da, görünür ki, gömrük-sərhəd məntəqəsindəki məmurları və oxuyacağı ali məktəb rəhbərliyini aldatmaq məqsədi ilə edilib. Əlbəttə, belə ciddi saxtakarlıq yalnız Maarif Nəzarətində bu işlə məşğul olan hansısa məsul məmurun iştirakı ilə mümkündü.

Xatırladaq ki, Cavad bəy Bakı Dövlət Universitetinin tibb fakültəsinə qəbul edilmişdi.[8] Ancaq qardaşı Cəmil bəy onun sənədləri ilə onun yerinə Avropaya oxumağa getdiyinə görə o, burada təhsilini yarımçıq qoymağa məcbur olmuşdu.

Ənvər Çingizoğlunun Almaniyada 2000-ci illərdə oxuyan tələbələrdən birinin vasitəsilə əldə edərək vikipediyada yerləşdirdiyi bilgiyə görə, Cavad Əlimuradbəyov 1909-cu ildə Bakıda 2-ci kişi gimnaziyasına girərək 1918-ci ildə oranı bitirib, 1920-ci ildə dövlət hesabına Frayberq Dağ-Mədən Akademiyasına oxumağa göndərilib, 21 mart 1923-cü ildə o, Akademiyanın verdiyi sənədə əsasən, təhsilin 9 semestrlik ilkin pilləsində dağ-mədən mühəndisi ixtisasını uğurla başa vurub, 19 dekabr 1924-cü ildə dağ-mədən mühəndisi diplomu alıb.[1] Əlbəttə, Cavad Almaniyaya getmədiyinə görə, buradan aydın olur ki, diplom alan Almaniyada onun sənədləri ilə oxumuş Cəmildir.

* * *

Sual doğuran məsələlərdən biri də Cəmil bəyin doğum tarixidir. İndiyə qədər gördüyümüz kimi, o, qardaşının sənədlərindən yararlandığı üçün həmin sənədlərdəki bilgilərin çoxunu sonrakı bəlgələrdə də təkrarlamağa məcbur olub. Məsələn, 1934-cü ildəki kadrların şəxsi uçotu vərəqində[2] 1898-ci ilin iyununda, onun haqqında 1937-ci ildə Azərb. XDİK-də tərtib edilmiş arayışda[3] 1898-ci ildə doğulduğu göstərilib. Ancaq onun AR MTN arxivində saxlanılan cinayət işində biz ən müxtəlif doğum tarixləri ilə qarşılaşırıq – həbs edilməsi haqqında qərarda[4] və məhbus anketində[5] 1898-ci il, 20 noyabr 1937-ci il istintaqında[6] 1893-cü il göstərilib. 16 dekabr 1919-cu ildəki məhkəmə iclasında isə özü 1893-cü ildə doğulduğunu bildirib.[7] Haqqında çıxarılan hökmdə də 1893-cü il yazılıb.[8] Öz əli ilə Mircəfər Bağırova yazdığı ərizədə 1897-ci il doğumlu olduğunu qeyd edib.[9] Bu qədər müxtəlif tarixlərin içərisindən dəqiq seçim etmək çox çətin və bəlkə də mümkünsüzdür, ona görə də biz yalnız bir tarixin üzərində – onun Mircəfər Bağırova yazdığı məktubdakı tarixə üstünlük veririk, çünki Bağırova yalan deməyə cürət etməyəcəyini düşünür, bu məntiqlə də onun doğum tarixini 1897-ci il götürürük.



Cavad bəy Əlimuradbəyli

Əlbəttə, oxucu soruşa bilər ki, Almaniyaya gedən bəlkə elə Cavad bəyin özü olub? Ancaq Cəmil Əlimuradbəylinin bundan sonra da görəcəyimiz bütün sənədlərində onun Frayberqdə Dağ-Mədən Akademiyasını bitirdiyi göstərilir və bu fakt heç bir şübhə doğurmur, halbuki 1924-cü ildən sonra heç bir arxivdə *Cavad Əlimuradbəyov* adlı adamın Frayberq Akademiyasını qurtarması haqqında heç bir sənədə rast gəlmirik, halbuki Cəmil bəy istintaqda onu Almaniyaya Müsavat hökumətinin göndərdiyini bildirib. Almaniyada oxumuş tələbələr də onlarla birgə gedənlər içərisində yalnız Cəmil Əlimuradbəylinin adını çəkib. Məsələn, Lətif Qədimi 1940-cı il istintaqında Almaniyada oxuyan 15-ci tələbə olaraq Cəmil Əlimuradbəylini göstərib.[10] İki qardaşın eyni zamanda Frayberqdə oxuması isə heç bir sənədlə təsdiqlənmir. Bu üzdən məsələni bitmiş sayırıq.

***

Cəmil bəy Əlimuradbəyli Qarabağın bəy nəslindəndir. Onun babası *Əlimurad bəy Məhəmmədhüseyn bəy oğlu* sərhəddə çalışan çar məmuru olub. O, 1818-ci ildə Cavanşir-Dizaq mahalının Hacılı camaatına bağlı Aybasanlı obasında doğulub. Ə.Çingizoğlunun bilgilərinə görə, o, molla yanında oxuyub. Rus idarəsində işə düzəlib. Könüllü milis heyətinə başçılıq edib, bir müddət sərhəd gözətçisi olub. Praporşik milis rütbəsi, sonra bəy ünvanı alıb. Onun törəmələri *Əlimuradbəyov* soyadı daşıyıb. Əlimuradbəyin *Cümşüd bəy* adlı oğlu,

[1] Soyadı bir çox qaynaqlarda "Əlimuradbəyov", "Əlimuradov" kimi də gedib. Sənədlərdəki həmin yazılışları da saxlamışıq.
[2] ARDA, fond 51, siyahı 3, iş 51, vərəq 3.
[3] Yenə orada, vərəq 2.
[4] İndiki Almaz İldırım.
[5] ARDA, fond 51, siyahı 3, iş 51, vərəq 1.
[6] Yenə orada, vərəq 4.
[7] Yenə orada, vərəq 7.
[8] Yenə orada, iş 40, vərəq 16. Bu məktub Nəzarətə 26 yanvar 1920-ci ildə daxil olub və 976-cı nömrə ilə qeydə alınıb.

[1] http://az.wikipedia.org/wiki/Frayberqin_az%C9%99rbaycanl%C4%B1_t%C9%99l%C9%99b%C9%99l%C9%99ri.
[2] ARPİİSSA, fond 1, siyahı 8, iş 4025, vərəq 1.
[3] AR MTN arxivi, PR-18702, I cild, vərəq 1.
[4] Yenə orada, vərəq 4.
[5] Yenə orada, vərəq 15.
[6] Yenə orada, vərəq 7.
[7] Yenə orada, vərəq 175.
[8] Yenə orada, vərəq 182.
[9] Yenə orada, vərəq 185.
[10] Yenə orada, PR-35911, vərəq 110.

Nənəş xanım adlı qızı vardı.[1] Cəmil bəy və Cavad bəy Əlimuradbəylilər Cümşüd bəyin övladlarıdır.

Cəmil bəy Əlimuradbəyli ilə bağlı bizə bəlli ilk sənəd 1934-cü ilə aidddir. Bu, 31 oktyabr 1934-cü ildə özünün doldurub qolladığı "kadroların hesabı üçün şəxsi vərəqə"dir.[2] Burada həmin sənəddən götürdüyümüz bilgiləri veririk.

Mikoyan mədəninin direktoru Muradbəyli[3] Cəmil Cümşüd oğlu VI.1898-ci ildə Karyagin[4] rayonunun Qorqan kəndində doğulub, Türkdür, mənşəcə bəydir, valideynlərinin əsas peşəsi – əkinçilik və heyvandarlıq. Öz peşəsi – qazma mühəndisi; bu peşədə 14 il işləyib; ictimai durumu – qulluqçu; AK(b)P üzvü (1932-ci ildən), bilet №2714639; Neftçilər Həmkarlar İttifaqının üzvü (1925-ci ildən); təhsili – ali, Almaniyada Frayberq Dağ Akademiyasının dağ bölməsini bitirib (1920-1924[5]). Təhsil müddəti – 6 il. İxtisası – neftçi.



Cəmil bəy Əlimuradbəyli. Almaniya

Xarici məmləkətlərdə olması. – Xaricdə 2 dəfə olub: 1-ci dəfə Almaniyada 1920-1925-ci illərdə ali təhsilini başa vurub; 2-ci dəfə 1933-cü ilin iyul ayından dekabr ayına qədər Amerikada olub. Amerikada qazma işinin qoyuluşunu öyrənmək üçün elmi ezamiyyətdə olub.[6]

Bu vəzifələrdə çalışıb:

Azərneft sistemi üzrə Bakı-Suraxana neft mədənlərində işləyib: qazma üzrə mühəndis (1925), qazma bölməsində müdir köməkçisi (1926), qazma bölməsinin müdiri (1927), qazma kontoru rəisinin köməkçisi (1929), qazma rəisi (1932), Azərneftin Bakı-Lökbatan mədənlərində mədən direktoru (1934).

Bakı Sovetinin üzvü (1932), raykom plenumunun üzvü (1933) seçilib. Alman və rus dillərini mükəmməl bilir.[7]

Lenin ordeni ilə təltif olunub. Ev ünvanı: Suraxana, Dzerjinski qəsəbəsi, ev 48, mənzil 32.[8]

* * *

7 fevral 2007-ci ildə Tofiq bəy Surxay bəy oğlu Şahsuvarovla olan söhbətimizdən.

Cəmil Əlimuradbəyli SSRİ-də ilk Lenin ordeni alanlardan biridir. ABŞ-da olub. 1937-ci ildə tutublar. Sürgünə gedib və qayıdıb. 1949-cu ildə ikinci dəfə tutublar. Qambay əmimizlə Sibirə göndərəndə yolda bir məntəqədə rastlaşıblar. Cəmil bəy soruşub ki, burada Bakıdan kimsə varmı? Bu vaxt Qambay əmim onu tanıyıb. Görüşəndə Cəmil bəy ağlayıb – onu türmədə həddsiz incidiblərmiş. 1956-cı ildə yenə qayıdıb gəlib, 2-3 il yaşayaraq ölüb. Yoldaşının adı

[1] *Çingizoğlu Ə.* Hacılılar. Bakı, 2004, s. 217.
[2] ARPİİSSA, fond 1, siyahı 8, iş 4025, vərəq 3.
[3] Soyadı sənəddə belə göstərilib.
[4] İndiki Füzuli.
[5] Sonra dəfələrlə görəcəyimiz kimi, Əlimuradbəyli təhsilini gah 1924-cü, gah da 1925-ci ildə bitirdiyini qeyd edib.
[6] ARPİİSSA, fond 1, siyahı 8, iş 4025, vərəq 1.
[7] Yenə orada, vərəq 2.
[8] Yenə orada, vərəq 3.

Sərriyyə idi. Cəmil bəy arvad tərəfdən Mirzə Babayevlə qohumdur. Mirzəağa Əliyev küçəsində üçmərtəbəli binada yaşayıb.

* * *

İndi isə oxucuları Əlimuradbəyli Cəmil Cümşüd oğlunun AR MTN Arxivində saxlanılan 6197 saylı cinayət işi ilə tanış edəcəyik. Cinayət işi 2 noyabr 1937-ci ildə başlanıb.

1937-ci ilin oktyabrında Azərb. SSR XDİK DTİ rəisinin müavini, DT mayoru Borşşevin və XDİK DTİ 3-cü bölümünün müvəqqəti rəisi, DT kapitanı erməni Xocamirovun tərtib etdikləri arayışda bunlar qeyd olunub: 1898-ci il doğumlu, Cəbrayıl rayonunun Qorqan kəndinin yetirməsi, azərbaycanlı, iri bəylərdən, SSRİ vətəndaşı, Az.K(b)P üzvü, ixtisasca dağ mühəndisi, təhsilini Almaniyada almış, ailəli, indi "Stalinneft" trestinin rəisi işləyən, Kirov[1] prospekti 27-də yaşayan Əlimuradbəyli Cəmil Cümşüd oğlu, istintaqın müəyyənləşdirdiyinə görə, Bakı şəhərindəki əks-inqilabi trotskiçi təşkilata mənsubdur və Azərbaycan neft sənayesinin neft mədənlərində pozuculuq işləri aparıb.[2]

Az. SSR XDİK DTİ 3-cü bölümünün 5-ci bölməsi rəisinin müavini erməni A.Akopov onun həbs edilməsi haqqında 1937-ci ilin oktyabrında qərar çıxarıb.[3]

15 noyabr 1937-ci ildə həmin Akopov DT leytenantı Koqana yazır ki, Cəmil Əlimuradbəylidən götürdüyümüz bu şeyləri qəbul edin:

1. 161 saylı Lenin ordeni
2. 020686 saylı orden kitabçası
3. Həmin saylı pul verilməsinə kuponlar
4. Həmin saylı gediş biletləri
5. Azərb. MİK-nin 144 saylı nişanı
6. Azərb. MİK-nin 144 saylı üzvlük bileti
7. Bakı Sovetinin 428 saylı üzvlük bileti
8. Azərb. K(b)P Stalin RK-nin 11 saylı üzvlük bileti.[4]



Cəmil bəy şaxtada. Frayberq

31 mart 1939-cu il tarixli aktda göstərilir ki, 2 fevral 1937-ci ildəki axtarış zamanı Cəmil Əlimuradbəylinin evindən götürülmüş bu əşyaları XDİK əməkdaşları məhv edib:

1. 10 ədəd kitab
2. 6 ədəd qeyd dəftərçəsi
3. 28 vərəq müxtəlif yazışma
4. 3 ədəd fotoşəkil.[5]

Onun 2 noyabr 1937-ci il tarixli məhbus anketindən öyrənirik ki, tutulan zaman Bakıda Kirov prospekti 27-də 8-ci mənzildə yaşayıb, "Stalinneft" trestinin rəisidir. 1932-ci ildən ÜK(b)P üzvüdür. Ailəsi 28 yaşlı yoldaşı

[1] İndiki Bülbül prospekti.
[2] AR MTN arxivi, PR-18702, I cild, vərəq 1.
[3] Yenə orada, vərəq 4.
[4] Yenə orada, vərəq 10.
[5] Yenə orada, vərəq 14.





Cəmil bəy ilk həbsində. 1937

Səriyyədən, 9 yaşlı Cəmilə və 5 yaşlı qızı Elmiradan ibarətdir.[1]

2 noyabr 1937-ci il tarixli dindirməsində atasının keçmiş iri mülkədar olduğu, özünün 1924-cü ildə Frayberq Dağ-Mədən Akademiyasını bitirdiyi, Lenin ordeni ilə təltif etdiyi, Azərb. MİK-nin, Bakı Sovetinin və Stalin Rayon Sovetinin, Azərb. K(b)P BK-nın və Azərb. K(b)P Stalin RK bürosunun üzvü olduğu göstərilib.[2]

İstintaq işinin gedişi mövzumuza daxil olmadığına görə bu işdəki yalnız tələbələrlə bağlı bəzi məqamlara toxunacağıq.

19 mart 1938-ci il tarixli dindirməsində müstəntiq ondan harada oxuduğunu soruşub və bu cavabı alıb: "Frayberq Dağ-Mədən Akademiyasında oxumuşam, oranı 1924-cü ilin dekabrında bitirmişəm. Akademiyanı bitirdikdən sonra 6 ay Hannover şəhəri yaxınlığındakı neft mədənlərində təcrübəçi mühəndis kimi çalışmışam".[3]

Bundan sonrakı sual-cavaba diqqət yetirək:

"*Sual:* Müsavat hökumətinin xaricə göndərdiyi şəxslərdən daha kimlər Sizinlə birgə Frayberq Akademiyasında olublar?

Cavab: Mənimlə Frayberq Akademiyasında birgə oxuyublar:

1. Əliyev Əşrəf
2. Sadıqov Mirsadıq
3. Həsənov Rzaqulu
4. Şahsuvarov Surxay (hamısı Azneftkombinatın mühəndisləridir)
5. Kazımov Cəfər (son vaxtlar EA Azərbaycan Filialında çalışıb)
6. Axundov Səməndər (1926-cı ildən onun haqqında məlumatım yoxdur; o zaman Stalin neft mədəni rayonunda işləyirdi).

Göstərilən şəxslərdən mənimlə birgə SSRİ-yə 1925-ci ildə Həsənov, Şahsuvarov və Axundov qayıdıblar. Yerdə qalanlar Almaniyadan sonra, 1927-ci ildə qayıtdılar".[4]

Elə həmin dindirmədə C.Əlimuradbəyli bildirib ki, mən, Həsənov, Kazımov və Şahsuvarov Almaniyada Azərbaycan tələbələrinin kommunist təşkilatına daxil idik və həmin təşkilatın rəhbəri Cəfər Kazımov idi.[5]

Müstəntiqin "alman tələbələrini bu qrupda özünüzə cəlb etməyə cəhd etdinizmi?" sualına Əlimuradbəyli cavab verib ki, biz Almaniyaya gedərkən siyasi işlərə qarışmayacağımız haqqında öhdəlik götürdüyümüzə görə bu işə cəhd göstərmədik.[6]

10 iyul 1938-ci il tarixli dindirməsində Muradbəyli xaricdə iki dəfə olduğunu göstərib. Birinci dəfə 1920-ci ildə Almaniyaya getdiyini və orada 1925-ci ilə qədər oxuduğunu, ikinci dəfə 1933-cü ilin iyul ayında ABŞ-a xidməti ezamiyyətə gedərək həmin ilin dekabrınadək orada qaldığını bildirib.

ABŞ-a səfəri zamanı o, Kaliforniya (Long Beach, Votiruso, Ketelman-has), Oklahama və Texas ştatlarının neft mədənlərində olub. Amerikaya gedərkən yolüstü Almaniyada (Berlində) və Fransada (Parisdə) dayanıb. ABŞ-dan dönəndə isə İngiltərədə və Almaniyada qalıb.[1]

[1] AR MTN arxivi, PR-18702, I cild, vv. 15-15a.
[2] Yenə orada, vərəq 7-7a.
[3] Yenə orada, vərəq 48.
[4] Yenə orada, vərəq 49.
[5] Yenə orada, vərəq 51.
[6] Yenə orada, vərəq 52.



Cəmil bəy 1940-cı illərdə

Müstəntiq onun boynuna qoymağa çalışıb ki, siz Azərbaycandakı əks-inqilabi milliyyətçi təşkilatın göstərişi ilə "Anqlo-perşen" neft firması ilə danışıqlar aparmısınız.[2] Təbii ki, Əlimuradbəyli belə bir şey olmadığını bildirib.

1939-cu ilin aprelində Qavrilov və Qriqoryanın tərtib etdikləri qərarda göstərilib ki, istintaqın bitməsi elan edilərkən müttəhim Əlimuradbəyli özünün bütün ifadələrindən, o sıradan trostkiçi təşkilata mənsubluğundan imtina edib.[3]

16 dekabr 1939-cu ildə Bakı şəhərində Zaqafqaziya Hərbi Dairəsi Hərbi Tribunalının səyyar sessiyasında müttəhim Cəmil Əlimuradbəyli bildirib ki, 1893-cü il təvəllüdlüyəm, Azərb. SSR Karyagin rayonunun Qorqan kəndində doğulmuşam, milliyyətcə azərbaycanlıyam, sosial mənşəcə bəylərdənəm, qulluqçuyam, ailəliyəm, ali təhsilimi Müsavat hökumətinin oxumağa göndərdiyi Almaniyada almışam, ancaq Azərbaycan sovetləşməndən sonra sovet hökumətinin təqaüdçüsü olmuşam və ali məktəbi bitirincə 1924-cü ildə SSRi-yə qayıtmışam, ÜK(b)P üzvü olmuşam və bu işlə bağlı olaraq partiyadan çıxarılmışam. 1936-cı ildə qardaşım həbs edilib, ancaq nə üstündə tutulduğunu bilmirəm və onunla əlaqəm yoxdur. İndiki işlə bağlı mən 2 noyabr 1937-ci ildə həbs edilmişəm, işimlə bağlı ittihamnamə mənə 10 noyabr 1939-cu ildə elan edilib.[4]

Bu, əslində o deməkdi ki, "NKVD" zindanında C.Əlimuradbəyliyə 2 ildən artıq işgəncə verilib. İstintaqın bu qədər uzun sürməsi onun mətin adam olduğuna, asanlıqla sındırılmadığına sübutdur. O, məhkəmədə də bildirib ki, ilkin istintaqda verdiyim ifadələr həqiqətə uyğun deyil, çünki məni özümə böhtan atmağa məcbur ediblər;[5] məni heç kim əks-inqilabi təşkilata cəlb etməyib və ziyanvericiliklə məşğul olmamışam. Mən həmişə Lenin və Stalin partiyasına, sovet hakimiyyətinə sədaqətli olmuşam və həmişə də olacağam.[6]

16 dekabr 1939-cu ildə həmin məhkəmə Cəmil Əlimuradbəylini 7 il islah əmək düşərgəsinə, 5 il seçki hüququndan məhrumluğa məhkum edib və Lenin ordeninin alınması haqqında SSRİ Ali Soveti Rəyasət Heyəti qarşısında vəsatət qaldırıb.[7]

C.Əlimuradbəyli məhkəmənin hökmü ilə razılaşmayıb. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası 12 iyul 1940-cı ildə onun kassasiya şikayəti əsasında qərara alıb ki, bu iş yenidən əlavə istintaqa göndərilsin.[8]

Hələ Bayıl türməsində saxlanılan C.Əlimuradbəyli 27 iyul 1940-cı ildə Azərbaycan K(b)P MK və BK katibi Mircəfər Bağırova ərizə yazıb. Həmin ərizədən bəzi seçmələr:

"Mircəfər, mən Akopov Atanesin və milyonçunun nəvəsi Tağıyev Zeynalın düşmənçəsinə iftirasının günahsız qurbanıyam, türmədə çürüyürəm. Cəfər, azadlıqda olduğum bütün vaxt ərzində mənim neft cəbhəsindəki işim zamanı Lenin-Stalin partiyası məni yalnız tanımayıb, həm də Sizin vasitənizlə yaxşı bir kommunist, mühəndis və təsərrüfatçı kimi dəstəkləyib. Partiya mənim yaxşı işimi dəfələrlə qeyd edib, hələ 1931-ci ildə Lenin ordeni ilə təltif

[1] AR MTN arxivi, PR-18702, I cild, vərəq 58.
[2] Yenə orada, vərəq 59.
[3] Yenə orada, vərəq 158.
[4] Yenə orada, vərəq 175.
[5] Cəmi Əlimuradbəyli məhkəmədə deyib ki, məni müstəntiq Xocamirov döyürdü, eləcə də Akopov və Borisov da dəfələrlə döyəcəkləri ilə hədələyiblər (bax: AR MTN arxivi, PR-18702, I cild, vərəq 180).
[6] AR MTN arxivi, PR-18702, I cild, vərəq 176.
[7] Yenə orada, vərəq 102.
[8] Yenə orada, vərəq 183.



Cəmil bəy ikinci həbsində. 1949

edib. Amerikaya ezamiyyətə göndərib və məni Stalin adına trestin rəisi vəzifəsinədək yüksəldib. Partiyanın bu inamı və dəstəyi məni daha da ruhlandırıb. Mən öz enerji və biliyimi neft üzrə planın yerinə yetirilməsindən əsirgəməmişəm".[1]

"Qala rayonunda aparılan kəşfiyyat işlərinin təşkili mənə 1932-ci ilin dekabr ayında 20-ci quyunu, 1933-cü ilin yanvarında 17-ci və 1933-cü ilin 1 mayında 27-ci quyunu qazmağa imkan verib və onların hamısı bir yerdə 1933-cü ilin may ayında 3.600 ton neft verib. İndi bu rayon 14 min ton neft verməkdədir və partiyanın ilk beşillik göstərişləri 2 il yarımda yerinə yetirilib".[2]

"Beləliklə, Cəfər, mən Sizi artıq yormaq istəmirəm. Sizdən xahiş edirəm ki, mənim işimlə şəxsən maraqlanasınız və mənim yenidən neft cəbhəsində yaradıcı işə qayıtmağıma şərait yaradasınız; orada öz iş bacarığımı, Lenin-Stalin partiyasına və sovet hakimiyyətinə sevgi və sədaqətimi bir daha sübut edə bilərəm".[3]

5 oktyabr 1940-cı ildə Cəmil Əlimuradbəyliyə anti-sovet trotskiçi təşkilatda iştirakına görə 8 il iş kəsildi və bu müddət tutulduğu gündən – 2 noyabr 1937-ci ildən sayıldı.[4] Bu da Bağırovun ərizəyə cavabı və ərklə "Cəfər" deməsinin əvəzi!

* * *

Cəmil bəy getdi, yatdı, 1947-ci ildə qayıtdı. 1937-ci ildə sürgünə göndərilən, ancaq ölməyib sağ qayıda bilənləri 1947-1949-cu illərdə ikinci dəfə tutmağa başladılar. Bu ikinci həbslər zamanı, adətən, istintaq formal aparılır, birinci istintaqdakı ittihamlar yenidən səsləndirilir və müttəhim əslində köhnə "cinayət"i üstündə bir də cəzalandırılırdı.

C.Əlimuradbəylinin indiyədək tanış olduğumuz cinayət işindəki sənədlər arasında olan 19 dekabr 1949-cu il tarixli bir arayışda göstərilir ki, o, 24 avqust 1949-cu ildə yenidən həbs edilərək cinayət məsuliyyətinə cəlb edilib.[5] Bunun başvermə tarixçəsini 1954-cü ilin oktyabrında SSRİ Baş Hərbi Prokurorluğuna yazdığı ərizəsində göstərib. Həmin ərizədə oxuyuruq ki, 18 oktyabr 1942-ci il məhkəməsi mənə 8 il iş kəsəndən sonra 25 oktyabr 1940-cı ildə Komi MSSR-in Uxta düşərgəsinə sürgünə göndərildim və orada 2 noyabr 1945-ci ilədək müddətimi çəkdim. Bundan sonra azad işə keçirildim və 1947-ci ilin avqustunadək orada işlədim. 1947-ci il avqustun başlanğıcında səhhətimə görə işdən azad edildim və Bakıya gələrək öz ixtisasım üzrə, yəni neft sənayesində çalışdım. 1948-ci ilin martında keçmiş Azərbaycan MK katibi M.Bağırovun göstərişi ilə Azərbaycanda işə girmək hüququm ləğv edilməklə işdən çıxarıldım. Bu zaman SSRİ neft sənayesi naziri yol. Baybakov Bakıda idi və o, məni Türkmənistan SSR-ə – "Türkmənneft"ə göndərdi. Orada 22 avqust 1949-cu ilədək işlədim. Həmin tarixdə həbs olunaraq Aşqabad şəhərinə gətirildim və 1950-ci ilin mart ayında SSRİ DTN-nin Özəl Müşavirəsinin qərarı ilə Krasnoyarsk diyarı Norilsk şəhərinə sürgün edildim. İndiyədək oradayam.[6] 8 sentyabr 1954-cü ildə C.Əlimuradbəyli sürgündən azad edilib və yaşayış yerinə qayıtmağa ona icazə verilib.[7]

[1] AR MTN arxivi, PR-18702, I cild, vərəq 185.
[2] Yenə orada, vərəq 185a.
[3] Yenə orada, vərəq 186.
[4] Yenə orada, vərəq 193.
[5] Yenə orada, vərəq 195.
[6] Yenə orada, vərəq 205.
[7] Yenə orada, vərəq 197.

SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası 5 noyabr 1955-ci ildə C.Əlimuradbəyli ilə bağlı SSRİ XDİK Özəl Müşavirəsinin 5 oktyabr 1940-cı il və SSRİ DTN Özəl Müşavirəsinin 13 fevral 1950-ci il sərəncamlarını ləğv etdi və işdə cinayət tərkibi olmadığını bildirərək C.Əlimuradbəylini sürgündən azad etdi.[1]

* * *

Cəmil Əlimuradbəylinin ikinci həbsi ilə bağlı cinayət işindən (AR MTN Arxivi, PR-18702, II cild) aydın olur ki, bu istintaq əvvəlki kimi iki il yox, cəmi iki ay çəkib – 24 avqust 1949-cu ildə başlanıb, 20 oktyabr 1949-cu ildə bitib.

Bu iş C.Əlimuradbəylinin Türkmənistanda həbs edildiyi zaman açılıb və ondakı sənədlərdə müttəhimin tərcümeyi-halı ilə bağlı bilgilər daha çoxdur. Fikrimizcə, bu, ondan irəli gəlir ki, Əlimuradbəylini Türkmənistanda yaxşı tanımayıblar və orada onun şəxsi düşmənləri olmayıb. Buna görə də müstəntiqlər, düzdür, nə qədər onun cinayətini boynuna qoymağa çalışsalar da, Bakıdakı kimi amansız münasibəti bu istintaq protokollarında görmürük. Əksinə, bu sənədlərdə müttəhimlə bağlı hər şeyi sadəcə bir insan kimi öyrənməyə maraq var. Ona görə də onun həyatı ilə də bağlı bir çox faktlar dəqiqliklə qeyd olunub.

1 sentyabr 1949-cu ildə aparılmış istintaq protokolundan bilinir ki, arvadı Səriyyə Salman qızı Əlimuradbəyli 1909-cu il, qızı Cəmilə 1928-ci il, Elmira isə 1932-ci il doğumludurlar.[2] Məhbus anketində "Sarya Salamonovna"nın (Səriyyə Salman qızının) Bakıda Teatr İnstitutunda dərs dediyi qeyd olunub.[3]

Bu dindirmədə C.Əlimuradbəyli atası haqqında maraqlı bilgilər verir:

"Atam Əlimuradbəyli Cümşüd Əlimurad oğlu 1924-cü ildək Karyagin rayonunun Qorqan kəndində əkinçilik və maldarlıqla məşğul olub. Bu təsərrüfat qolçomaq dərəcəsinə aid edilib. 2 desyatindən[4] *artıq mülkü və 100 desyatindən artıq əkin-otlaq yeri olub.*[5] *Muzdla daim 4 nəfər işlədib. Təsərrüfatda xırda buynuzlu heyvanların sayı 200 baş, iri buynuzluların sayı 50 baş olub. Atamın mülkünü sovet hakimiyyəti əlindən almayıb və o, repressiyalara uğramayıb. Yuxarıda göstərdiyim kimi, 1924-cü ildə ölüb, daha doğrusu, soyadını unutduğum Cəmil adlı qonşumuz qisas üzündən onu öldürüb. 1929-cu ildə atamın təsərrüfatı kolxoza verilib, onun da başında ögey anam Nübər Səfər qızı Əlimuradbəyli durub".*[6]

7 sentyabr 1949-cu il tarixli dindirməsindən:

"*Sual:* Siz Almaniyada nə qədər oxumusunuz?

Cavab: Almaniyada mən 5 il yarım təhsil almışam. Sovet İttifaqına 1925-ci ilin yayında gəlmişəm və Azərneftin Suraxana qazma kontoruna qazma üzrə mühəndis kimi göndərilmişəm.

Sual: Frayberq şəhərində oxuduğunuz Dağ-Mədən Akademiyasının müəllim və qulluq heyəti kimlərdən ibarət olub?

Cavab: Dağ-Mədən Akademiyasının müəllim və qulluq heyəti yalnız almanlardan ibarətdi.

Sual: Tədris hansı dildə gedirdi?

Cavab: Tədris yalnız alman dilində gedib.

Sual: Adıkeçən Dağ Akademiyasında oxumağa başlayarkən Siz alman dilini kamil bilirdiniz?

Cavab: Mən alman dilini Bakıda gimnaziyada öyrənmişəm. Bu dili gimnaziyada oxuduğum illərdə tam mənimsəyə bilməmişəm, buna görə də Almaniyada Frayberq şəhərinə gedərkən

[1] AR MTN arxivi, PR-18702, I cild, vərəq 267.
[2] Yenə orada, II cild, vərəq 23.
[3] Yenə orada, vərəq 7a.
[4] 1 desyatin = 1,0925 hektar.
[5] Bu cinayət işinin sonrakı vərəqlərində göstərilib ki, Qorqan kəndi bütövlükdə Cümşüd bəyə məxsus olub.
[6] AR MTN arxivi, PR-18702, II cild, vərəq 23a.

soyadını unutduğum bir alman dili müəllimi tutmuşam; o, alman idi. Onun yanında 3 ay oxudum, alman dilində yetərli dərəcədə anladığımı görəndən sonra Dağ-Mədən Akademiyasında oxumağa girdim...

Sual: Alman hakimiyyət orqanları oxumaq üçün Sizə necə şərait yaratmışdı?

Cavab: Dərs prosesi bütün məktəblərdə mühazirə-laboratoriya kursları üzrə gedirdi. Məişət şəraitinə gəlincə, hər bir tələbə öz puluna uyğun mənzil tuturdu. Mən də şəraiti olan bir mənzil kirayə etmişdim.

Sual: Almaniyada 5 il yarımda hansı şəhərlərdə olmusunuz və onlara getməyiniz nə ilə bağlı olub?

Cavab: Almaniyada oxuduğum müddətdə Drezden, Leypsiq, Hannover, Dortmund, Berlin, Münxen və başqa şəhərlərdə olmuşam. Bu şəhərlərə təcrübə ilə bağlı getmişəm".[1]

30 sentyabr 1949-cu il dindirməsindən:

"Sual: Öncəki dindirmələrdə Siz Amerikaya elmi ezamiyyətə getdiyinizi demişdiniz.

Cavab: Bəli, mən belə ifadə vermişəm.

Sual: Amerikaya nə vaxt və kim tərəfindən göndərildiyinizi danışın.

Cavab: Amerikaya mən 1933-cü ilin mayında İttifaq Ağır Sənaye Nazirliyi tərəfindən göndərilmişəm. Dediyim kimi, o zaman mən Suraxanada "Orconikidzeneft" trestində qazma kontorunun direktoru işləyirdim.

Sual: Amerikaya getmək üçün namizədliyinizi kim irəli sürüb?

Cavab: Amerikaya getmək üçün mənim namizədliyimi Xalq Ağır Sənaye Komissarlığına Azərneftkombinatın rəisi Barinov Mixail (atasının adını unutmuşam) verib. Mən 1933-cü ilin dekabrında Amerikadan qayıdarkən o, artıq Moskvada "Başneft"in rəisi idi. 1937-ci ildə XDİK orqanları onu həbs etdi, indi hardadır bilmirəm".[2]

Daha sonra C.Əlimuradbəyli Amerikaya onunla bərabər Azərneft rəisinin müavini Hüseynbala Ağaverdiyev, A.Çerkasov, P.Sıçevoy və Badalyanın getdiyini, bu heyətə H.Ağaverdiyevin rəhbərlik etdiyini bildirir.[3]

Onlar ABŞ-da Kaliforniyanın neft mədənlərində, ştatın başlıca şəhəri Los-Ancelesdə, Texasda, başlıca şəhər Hüstonda və Oklohamada, başlıca şəhər Oklohama Sitidə olublar.[4] Onlar Nyu-Yorka 25 iyun 1933-cü ildə gedərək orada 2 gün qalıblar. Kaliforniyada 15 avqust 1933-cü ildək təxminən ay yarım olublar.[5]

19 oktyabr 1949-cu il dindirməsindən:

"Sual: Qohumlarınızı sayın.

Cavab: Qohumlarım bunlardır:

Qardaşım Rəşid Əlimuradbəyli, 1923-cü il doğumlu, Bakıda yaşayır, Sovet ordusu sıralarında qulluq edir.

Bacım Minəş Ağayeva, 1915-ci il doğumlu, Bakıda yaşayır, evdardır, əri Bəhram Ağayevin 38 yaşı var, elmi işçidir, ancaq hansı təşkilatda olduğunu deməyə çətinlik çəkirəm.

Bibioğlum[6] Məlikyeqanov Bağdad, 1912-ci il doğumlu, Bakıda yaşayır, Azərneftdə mühəndisdir, onunla birgə 60 yaşlı qayınanam Sila Muxtar qızı yaşayır.

Bibiqızlarım[7] Nazimə Məlikyeqanova, 1923-cü il doğumlu, universitetdə oxuyur; Xalidə Salman qızı, 1925 doğumlu, Bakıda təşkilatların birində kassir işləyir.

[1] AR MTN arxivi, PR-18702, II cild, vv. 28a-29.
[2] Yenə orada, vv. 34-34a.
[3] Yenə orada, vərəq 34a.
[4] Yenə orada, vərəq 35.
[5] Yenə orada, vərəq 35a.
[6] Ruscası: "двоюродный брат".
[7] Ruscası: "двоюродные сестры".

Ögey anam Nübər Səfərəli qızı, 62 yaşlı, Karyagin rayonunun Qorqan kəndində yaşayır. Kolxozda işləyir.

Bacım Zivər Cümşüd qızı Əlimuradbəyli, 1915-ci il doğumlu, kolxozda işləyir, anam Nübərlə birgə yaşayır.

Başqa qohumlarım yoxdur".[1]

20 oktyabr 1949-cu il dindirməsindən:

"Sual: Topçubaşovu tanıyırsınızmı?

Cavab: Bəli, Topçubaşov Əlimərdan bəyi tanıyıram.

Sual: O, kimdir?

Cavab: Topçubaşov Əlimərdan bəy Müsavat hökumətinin Parisdəki nümayəndəsi idi.

Sual: Siz onunla Parisdə görüşmüsünüz?

Cavab: Bəli, mən 1920-ci ilin yanvar[2] ayında Parisdə onunla görüşmüşəm.

Sual: Onunla görüşünüz hansı şəraitdə olub?

Cavab: 1920-ci ildə Müsavat hökuməti Almaniyaya göndərərkən mən öncə başqa tələbələrlə birlikdə Parisə getdim və orada vağzalda bizi Topçubaşov qarşıladı və mehmanxanalarda yerləşdirdi.

Sual: Niyə Siz birbaşa Almaniyaya deyil, Parisə getdiniz?

Cavab: Almaniyaya girişə viza olmadığına görə hesab edirdik ki, Parisdə alman nümayəndəliyindən viza almaq olar. 1920-ci ildə Parisdə alman nümayəndəliyi yox idi, ona görə Almaniyaya viza ala bilmədik. Parisdən İsveçrənin Bazel şəhərinə getməli olduq, oradakı alman nümayəndəliyindən Almaniyaya viza aldıq, oradan Berlinə, Berlindən isə Frayberqə getdik.[3]

Sual: Parisdə nə qədər qaldınız?

Cavab: Parisdə 20 gün qaldıq, sonra Almaniyaya getdik.

Sual: Almaniyaya Sizinlə birgə kimlər gedib?

Cavab: Almaniyaya mənimlə birgə gedənlər: Şahsuvarov Surxay, Əşrəf Əliyev, İsmayıl Axundov, Kazımov Cəfər, İrzaqulu Həsənov, Zal Məhəmmədov, Axundov Səməndər, Əliəkbər Əliyev, Səfərov Məhiş və soyadlarını xatırlamadığım başqaları".[4]

Cinayət işində 1949-cu ilin sentyabrında kənd soveti sədri Əsədovun verdiyi yoxlama da var. Onu nöqtə-vergülünə toxunmadan, yazıldığı kimi veririk:

"Verilir həmin yoxlama Azərbaycan DTN Karyagin rayon şöbəsinə ondan ötəri ki, vaqtı ilə Qorqan kənd sakini Almuradbəyli Cəmil Cümşüd bəy oğlunun məşhur bəy ailəsində anadan olmuşdur. Atası Cümşüd bəyin öhdəsində Qorqan kəndi olmuş, muzdur saxlamış, 1920-ci ildə sovet hökuməti tərəfindən tutulmuş, 1922-ci ildə buraxılmış və sonra naməlum şəxs tərəfindən öldürülmüşdür, yoxlamanın doğruluğu təsdiq olunur".

6 sentyabr 1949-cu il dindirməsi C.Əlimuradbəylinin bütün məhbus və sürgün həyatını dəqiqliklə əks etdirir:

"Sual: Sizi nə vaxt və kim həbs edib?

Cavab: Məni 2 noyabr 1937-ci ildə Azərbaycan SSR XDİK həbs edib.

Sual: İstintaq altında nə qədər olmusunuz?

Cavab: 2 noyabr 1937-ci ildən 16 dekabr 1939-cu ilədək.

Sual: Nədə ittiham edilmisiniz?

Cavab: Trotskiçi təşkilatın iştirakçısı kimi əks-inqilabi ziyanverici fəaliyyətdə.

[1] AR MTN arxivi, PR-18702, II cild, vərəq 39.
[2] Doğrusu: fevral ayında.
[3] AR MTN arxivi, PR-18702, II cild, vərəq 43a.
[4] Yenə orada, vv. 43a-44.

Sual: Hansı məhkəmə Sizi məhkum edib?

Cavab: 16 dekabr 1939-cu ildə Zaqafqaziya Hərbi Dairəsinin Hərbi Tribunalı cəza müddətini çəkdikdən sonra 5 illiyə hüquqlarım ləğv edilməklə 7 iş kəsib. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası qarşısında hökmdən şikayət etmişəm və Hərbi Kollegiya kassasiya şikayətimi 1940-cı ilin iyununda araşdırıb, Zaqafqaziya Dairəsi Hərbi Tribunalının işimlə bağlı qərarını ləğv edib və işi ilkin istintaq mərhələsindən yenidən baxılmağa qaytarıb. 17 oktyabr 1940-cı ildə Azərbaycan SSR XDİK daxili türməsində olduğum zaman SSRİ XDİK Özəl Müşavirəsinin 6 oktyabr 1940-cı il tarixli qərarı mənə elan edilib ki, 8 illiyə islah-əmək işlərinə məhkum olunmuşam.

Sual: Cəzanızı harada çəkmisiniz və ümumiləşdirsək nə ilə məşğul olmusunuz?

Cavab: Komi MSSR-də Daxili İşlər Nazirliyinin Uxta kombinatında 1 saylı neft şaxtasında neftçıxarma üzrə növbə ustalığından başlayaraq sahə rəisliyinə qədər müxtəlif vəzifələrdə işləmişəm.

Sual: Həbsdən nə vaxt azad edilmisiniz?

Cavab: 2 noyabr 1945-ci ildə.

Sual: Azad edildikdən sonra hara getdiniz?

Cavab: 1 avqust 1947-ci ilədək Uxta 1 saylı neft şaxtasında azad əməklə mədən rəisinin müavini işləmişəm. 1947-ci ilin avqustunda səhhətimə görə azad edilərək Bakı şəhərinə gəlmiş və Azərneft birliyi "Neftçalaneft" tresti qazma kontorunun sahə rəisi olmuşam. 1948-ci ilin aprel ayında Neft Sənayesi Nazirliyinin əmri ilə Nebitdağa "Türkmənneft" Birliyinə işə göndərilmişəm, orada "Türkmənneftkəşfiyyat" Birliyinin texniki bölməsinin rəisi işləmişəm. 24 avqust 1949-cu ildə həbs edilmişəm.

Sual: Nebitdağda Sizinlə birgə kim yaşayıb?

Cavab: Nebitdağda mənimlə 1928-ci il doğumlu qızım Cəmilə yaşayıb; o, onuncu sinifdə oxuyurdu".[1]

* * *

SSRİ cənubi və qərbi rayonların neft sənayesi naziri N.Baybakov 12 aprel 1948-ci ildə "Azərneft" Birliyinin rəis müavini N.Q.Heydərova (surəti "Türkmənneft" Birliyi rəisi əvəzi M.D.Kudinova olmaqla) D-995 saylı xidməti qeyd göndərib: *"Qazma üzrə mühəndis yol. C.C.Əlimuradbəylini ixtisası üzrə istifadə etmək üçün "Türkmənneft" Birliyinin sərəncamına göndərin".*[2]

Neftçala tresti qazma kontoru üzrə 31 mart 1948 tarixli 64 saylı əmrlə qazma üzrə sahə rəisi C.C.Əlimuradbəyli Neftçala tresti üzrə 31 mart 1948-ci il tarixli 42/K saylı əmrin icrası üçün 31 mart 1948-ci ildən vəzifəsindən azad edilib[3] və Türkmənistana yollanıb və trestdə bölmə rəisi vəzifəsində çalışıb. "Türkmənneft" Birliyi "Türkmənneftkəşfiyyat" trestinin rəisi V.D.Xoxlovun Nebitdağ şəhərində 1 avqust 1949-cu il tarixli 209 saylı əmri ilə "Türkmənneftkəşfiyyat" tresti texniki bölməsinin rəisi C.C.Əlimuradbəyli Qoturtəpə neft kəşfiyyatına ştat cədvəli üzrə maaşla bu il 1 avqustdan baş mühəndis vəzifəsinə keçirilib...[4]

* * *

Həyatının son illəri ilə tanışlıq üçün Krasnoyarsk diyarının Norilsk şəhərində Zavod küçəsi 11-də 1-ci mənzildə yaşayan Əlimuradbəyli Cəmil Cümşüd oğlunun SSRİ Nazirlər Sovetinin sədri G.M.Malenkova yazdığı 15 mart 1954-cü il tarixli aşağıdakı ərizəsinə göz yetirək:

[1] AR MTN arxivi, PR-18702, II cild, vv. 25-26.

[2] Sənədin surəti özəl arxivimizdədir.

[3] Sənədin surəti özəl arxivimizdədir.

[4] Sənədin surəti özəl arxivimizdədir.

"Artıq 17 ildir ki, şimalda can qoymuşam, indi də uzaq Zapolyaryedə sürgün həyatı yaşayıram – heç olmazsa biləydim nəyə görə.

2 noyabr 1937-ci ildə Azərb. SSR keçmiş daxili işlər komissarı, mənə şəxsi nifrət bəsləyən Sumbatov-Topuridzenin əlinə məni neft sənayesindən, sevimli uşaqlarımdan, ailəmdən qoparmağa və guya sovet quruluşunun cinayətkarı kimi türməyə basmağa imkan düşdü. İstintaq prosesində istintaqın anti-sovet və inkvizisiya üsullarını tətbiq edərək məni özümə və üzvü olduğum partiyaya qarşı, məni yetişdirmiş, mənə yüksək etibar göstərmiş hökumətə qarşı iftiralar atmağa məcbur etdilər. 1939-cu ilin başlanğıcında Sumbatov-Topuridze işdən götürüldükdə və Moskvada yeni vəzifəyə keçirildikdən sonra özümə qarşı söylədiyim, məndən repressiyalar yoluyla alınmış yalan ifadələrdən imtina etdim və bunu Azərb. SSR XDİK prokuroru qeydə aldı. Bütün bunlara baxmayaraq, çox təəssüf ki, Zaqafqaziya Hərbi Tribunalının səyyar sessiyası 16 dekabr 1939-cu ildə məni 7 il azadlıqdan məhrum etdi.

1940-cı ilin iyulunda SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası məhkəmənin bu qərarını ləğv etdi və işimi yenidən istintaqa qaytardı. Sizə bu da məlumdur ki, beriyaçılıq, Azərbaycanda isə Beriyanın sağ əli olan Mircəfər Bağırov öz cinayətlərində tüğyan edir, əsl özbaşınalığa ilham verir və qızışdırırdı... Açıq məhkəmədə suçsuz adamı məhv etmək mümkün olmadısa bunu SSRİ XDİK yanında Özəl Müşavirə vasitəsilə etmək mümkündü. Orada o zaman Beriyanın əli hakim idi. Orada artıq mən azadlıqdan 8 illiyə məhrum edildim.

Sovet təqaüdçüsü kimi mən Frayberq Dağ-Mədən Akademiyasını Almaniyada bitirmiş və onu başa vurandan sonra 1925-ci ildə Bakıya qayıtmış və Azərbaycan neft sənayesi sistemində işləməyə başlamışam. Bu tarixdən həbs olunduğum günədək neft sənayesi üzrə işə özümü bütünlüklə vermişəm. Gücümü, enerjimi və biliyimi əsirgəməmişəm. Mənim obyektim üzrə hələ bir il, bir rüb olmayıb ki, planları artıqlaması ilə yerinə yetirməyim. Bu sahədə yaxşı işimə görə Lenin ordeni ilə təltif edilmişəm və dəfələrlə pul və əşya mükafatları almışam. Bütün bunlardan başqa, 1933-cü ildə yol. Orconikidzenin sərəncamı ilə Amerikaya bir illiyə göndərilmişəm.

Neft sənayesində mən işə sıravi işçi vəzifəsində başlamışam, 1935-ci ildən həbs olunduğum günədək Bakıda ən böyük neft tresti olan "Stalinneft"in rəisi olmuşam.

Beriya dönəmi əbədiyyətə qovuşdu, beriyaçılıq bütünlüklə məhv oldu. Leninin böyük partiyasının və sovet xalqının iradəsi ilə indi Azərbaycanda Bağırovun və onun əlaltılarının özbaşınalığına, həqiqi tiranlığına son qoyulub. Lənətə gəlmiş Sumbatov-Topuridze də cəzasız qalmadı. Yəni onların özbaşınalığının qurbanı olan mən bundan sonra da həqiqi cinayətkar kimi başaşağı gəzməliyəm? Doğrudanmı mənim əzablarıma, övladlarımın iztiablarına son qoyulmayacaq? Doğrudanmı ədalət naminə məni həyatıma, ailəmə, sevimli işimə qaytarmaq vaxtı çatmayıb?

Bəli, bu vaxt yetişib. Vətən xainlərinin üzərindəki məhkəmə, onların ilğa edilməsi özü-özünə bunu deyir.

Mənim 17 il cəlayi-vətən olmağım, yaşadığım iztirablar kommunizmin tam qələbəsinə olan inamıma əsla təsir göstərməyib. Mən bütün hallarda öz sovet vətənimin vətənpərvəri olmuşam, varam və həyatımın son günündədək olacağam.

Dövlətin başçısı kimi Sizdən bir xahişim var: işimə müdaxilə edərək rüsvayçı ləkəni üzərimdən silməkdə mənə kömək edin. Mən yenidən bütün enerjimlə özümün sevimli neft sənayesinə can atıram".[1]

Cəmil bəyə yalnız 1956-cı ildə bəraət verərək sürgündən azad etdilər. Tofiq bəy Şahsuvarovun dediyinə görə, vətənə döndü və iki-üç ildən sonra dünyasını dəyişdi...

[1] Əlyazmanın surəti özəl arxivimizdədir.

Əliyev Abbasmirzə Əhməd oğlu

(23.07.1897, Şamaxı – 1972, Moskva)



Abbasmirzə Əliyev. Bakı

Vətəni, milləti üçün faydalı bir mütəxəssis kimi yetişmək arzusu və sevinci ilə Almaniyaya ali təhsil almağa yollanan, ancaq orada yiyələndiyi yüksək savadı gerçəkləşdirməyə fəaliyyət sahəsi yaratmayan Sovet hakimiyyətinin iki dəfə zinlara ataraq xəyal qırıqlığına uğratdığı Cümhuriyyət tələbələrindən biri də Abbasmirzə[1] Əliyevdir.

Onun haqqında bilgini əsasən 4 qaynaqdan əldə etmişik: 1) AMEA Milli Azərbaycan Tarixi Muzeyindən, 2) AR Dövlət Arxivindəki şəxsi işindən, 3) AR MTN Arxivindəki istintaq sənədlərindən, 4) əski tələbə yoldaşlarının övladlarından və öz dost-tanışlarından.

Milli Azərbaycan Tarixi Muzeyinin sənədli mənbələr fondunda A.Əliyevlə bağlı qiymətli fotolar toplanıb (bir vərəq də qısa, ancaq doğruluğu elə də inam yaratmayan tərcümeyi-halı var).[2] Fotolar onun tələbəlik və müharibə dönəminə, eləcə də Moskvada yaşadığı illərə aiddir. Şəkillərin arasında iki tələbə yoldaşının (Ağahəsən Mustafayev və Mustafa ağa Vəkilovun) orijinal fotoları da var.

AR Dövlər Arxivindəki şəxsi işində saxlanılan bəlgələr doğruluq baxımından heç bir şübhə doğurmur və onun həyatını işıqlandırmaq baxımından əvəzsiz qaynaqdır. Buradakı sənədlərlə onların tarixi ardıcıllığı ilə tanış olaq.

17 sentyabr 1903-cü ildə Tiflis şəhərində Zaqafqaziya Şiə Ruhani İdarəsindən verilmiş 2451 saylı doğum şəhadətnaməsində yazılıb ki, Bakı valiliyi Şamaxı şəhəri Ərdəbilli məhəlləsi şiə cameəsinin 1897-ci ilə aid doğum kitabının I hissəsindən göründüyü kimi, Şamaxı şəhərinin sakini, 27 yaşlı Əhməd Məşədi Abdulla oğlunun öz qanuni arvadı, 27 yaşlı Gövhər xanım Əbdülhüseyn bəy qızından oğlu Abbasmirzə xristian tarixi ilə 23 iyul 1897-ci ildə doğulub.[3]

O, orta təhsilini Bakıda alıb. 1 may 1915-ci il tarixli 1005 saylı attestatda onun 1907-ci ildə Bakı real məktəbinə girərək 30 aprel 1915-ci ilədək orada əla əxlaqla oxuması, əsas bölmə üzrə tam kursu bitirməsi və bu zaman aşağıdakı uğurları qazanması göstərilib:

Şəriət –	yaxşı (4)
Rus dili –	kafi (3)
Alman dili –	kafi (3)
Fransız dili –	kafi (3)
Riyaziyyat, o sıradan:	
Hesab –	yaxşı (4)
Cəbr –	kafi (3)
Həndəsə –	kafi (3)
Triqonometriya –	yaxşı (4)
Tarix –	kafi (3)
Coğrafiya –	yaxşı (4)
Təbii tarix –	kafi (3)
Fizika –	kafi (3)
Rəsm və rəsmxət –	kafi (3).[4]

[1] Adına bəzi qaynaqlarda *"Abbas"* kimi də rast gəlinir.
[2] AMEA MATM SMF, qovluq № 2096.
[3] KŞDA, fond 16, siyahı 464, iş 69, vərəq 10.
[4] Bu attestatın əsli Kiyev Şəhəri Dövlət Arxivində saxlanılır (bax: KŞDA, fond 16, siyahı 464, iş 69, vv. 9-9a).

Bu məktəbdə onun şəriət müəllimi M.A.Talıbzadə[1] olub.

Ancaq ali məktəbə girə bilmək üçün o, əlavə – 8-ci sinfi də bitirməli idi. 1 iyun 1916-cı ildə verilmiş 1169 saylı şəhadətnaməyə görə, o, 1 sentyabr 1915-ci ildən 1 iyun 1916-cı ilədək Bakı real məktəbinin əlavə sinfində də oxuyub. Canına çox da əziyyət verməyib – şəriət, tarix, təbiiyyatşünaslıq və qanunşünaslıqdan "4" alıb, qalan qiymətlərinin isə hamısı "3"dür.[2]

Artıq orta təhsilini bitirmiş A.Əliyev 4 iyul 1916-cı ildə Kiyev İmperator II Aleksandr Politexnik İnstitutunun direktoruna ərizə yazaraq mühəndislik bölməsinin birinci kursuna girmək üçün müsabiqə imtahanlarına buraxılmasını xahiş edib və təqdim etdiyi sənədləri sadalayıb.[3]

Şamaxı şəhər başçısı 29 iyul 1916-cı ildə verdiyi 1940 saylı vəsiqədə Abbasmirzə Əhməd oğlu Əliyevin Şamaxı şəhəri meşşanlarından olduğunu təsdiqləyib.[4] Bu arayış ali məktəbə vermək üçün lazımdı.



Abbasmirzə Əliyev. Berlin, 5 avqust 1923-cü il

Kiyev Politexnik İnstitutunun 17 sentyabr 1916-cı ildə verdiyi şəxsiyyət vəsiqəsində tələbə A.Əliyevin instituta 1 sentyabr 1916-cı ildə götürüldüyü göstərilib.[5] Ancaq o, burada çox oxuya bilməyib və 1917-ci il Fevral inqilabından sonra Vətənə dönməyə məcbur olub.

Bundan sonra başına nələrin gəldiyini 9 avqust 1919-cu ildə Bakıda Azərbaycan Cümhuriyyəti maarif nazirinə yazdığı ərizədən öyrənirik: "Bakı I real məktəbini 1916-cı ildə bitirib Kiyev Politexnik İnstitutuna daxil olaraq və inşaat mühəndisliyi bölməsində oxuyaraq 1918-ci ilin yanvarında Kiyevi bolşeviklərin tutmasından sonra Kiyevdən çıxmağa məcbur oldum.

Bakıya valideynlərimin yanına gəldikdən sonra tezliklə onlarla birlikdə yeni sınaqlardan keçməli oldum. Mart hadisələri zamanı bütün əmlakımızı itirdik, o sıradan Azərbaycan dəmiryolu Kürdəmir stansiyası yaxınlığındakı atama məxsus üç gözlü un dəyirmanını və evi daşnak bandaları yandırdılar. Bu haqda keçən ilin yayında ermənilərin mart hadisələri zamanı müsəlmanlara vurduğu ziyanları aydınlaşdıran Fövqəladə Təftiş Komissiyası protokol tərtib edib. Şamaxıdakı evimiz də yandırılıb. İndi təhsilimi davam etdirməyə vəsaitim olmadığına görə məni hökumətin xaricə təhsil almağa göndərdiyi tələbələr sırasına salmaqdan imtina etməməyinizi xahiş edirəm. Təhsilimi Kiyevdə Politexnik İnstitutda, yaxud Sürix Politexnikumunda mühəndislik bölməsində davam etdirmək istərdim".[6] (Əliyev bundan sonra təqdim etdiyi sənədləri sadalayır).

[1] Mirzə Abdulla Talıbzadə – Abdulla Şaiq.
[2] KŞDA, fond 16, siyahı 464, iş 69, vv. 8-8a.
[3] Yenə orada, vərəq 5.
[4] Yenə orada, vərəq 11.
[5] ARDA, fond 51, siyahı 3, iş 49, vərəq 5.
[6] Yenə orada, vv. 1-1a.



Abbasmirzə Əliyev dostları ilə. Almaniya

AC Ticarət, Sənaye və Ərzaq Nəzarəti üzrə 12 aprel 1919-cu il tarixli 74 saylı əmrdən öyrənirik ki, nazir Mirzə Əsədullayev Abbasmirzə Əliyevi ticarət şöbəsi kargüzarının köməkçisi təyin edib.[1] Deməli, Əliyev həmin tarixdən bu nazirliyin ştatlı işçisi olub.

Xalq maarif nazirinə yazdığı 8 noyabr 1919-cu il tarixli sonuncu ərizəsində A.Əliyev təqdim etdiyi sənədləri sadalayaraq eyni zamanda Münxendə Kral İnşaat Akademiyasında oxumaq istədiyini, ən sonda doğum haqqında şəhadətnaməsinin Kiyev Politexnik İnstitutunun dəftərxanasında olduğunu bildirib.[2]

Abbasmirzə Əliyevə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına xaricə oxumağa göndərilməsi haqqında 520 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[3]

Əliyev Almaniyada oxuyub və Berlin Kommersiya İnstitutunu bitirib.

* * *

AR MTN Arxivindəki PR-22247 şifrəli sənədlər toplusu Abbasmirzə Əhməd oğlu Əliyevin istintaq işidir. Burada təkcə Abbasmirzənin deyil, genəlliklə Cümhuriyyət təlabələrinin həyatı ilə bağlı çox dəyərli faktlar toplanıb. Özəlliklə onun öz əliylə yazdığı izahat əvəzsiz bir tarixi qaynaqdır (bu kitabın 3-cü bölümündə onu ayrıca bəlgə kimi bütöv şəkildə vermişik).

Yuxarıda göstərdiyimiz kimi, A.Əliyevi kommunistlər iki dəfə həbs edib. Birinci dəfə o, 5 dekabr 1938-ci ildə tutulub. Bu başdan bildirək ki, zindanda ona verilmiş bütün əzabəziyyətlərə, işgəncələrə baxmayaraq özünü təqsirli bilməyib.[4]

İstintaq işindəki sənədlərdən aydınlaşır ki, o, ali təhsilini 1924-cü ildə[5] Berlində bitirib, bundan sonra Almaniyada yaşayıb. SSRİ-yə 1927-ci ildə qayıdıb. 1927-28-ci illərdə Bakıda yaşayıb, sonra Moskvaya köçüb.[6] Son iş yeri: "Qoznak" fabrikində korrektordur. Ailəsi: arvadı və 3 aylıq oğlu, qardaşı – mühəndis Sultan Əliyev. Ünvan: "Москва, Скатертный переулок, 17, кв. 3".[7]

Mühasib atası 1930-cu ildə, evdar anası 1922-ci ildə ölüb. Arvadı Yevgeniya Aleksandrovna Əliyeva mühasibdir (yaşayır: Kalujskaya küç., 43-17). Oğlu Rüstəm 3 aylıqdır.[8]

Berlində Ali Ticarət Məktəbini (Kommersiya İnstitutunu) bitirib. Partiyasızdır.

1931-32-ci illərdə Azərb.SSR Dövlət Plan Komitəsində işləyib, yerli komitənin üzvü seçilib.[9]

[1] ARDA, fond 51, siyahı 3, iş 108, vərəq 55.
[2] Yenə orada, vərəq 6.
[3] Yenə orada, vərəq 10.
[4] AR MTN Arxivi, PR-22247, vərəq 58.
[5] Yenə orada, vərəq 14b.
[6] Yenə orada, vərəq 2.
[7] Yenə orada, vərəq 4. Bakıda Buynak (indiki Şeyx Şamil) küçəsi 2-də yaşayıb.
[8] Yenə orada, vərəq 13a.
[9] Yenə orada, vərəq 13a.



Abbasmirzə Əliyev ilk həbsində. 1938

İstintaq işində Əliyar Əmircanovla bağlı qeydləri var. (Münasibətlərinin gərgin olduğu hiss edilir). Bildirib ki, Əmircanovun atası öz qardaşı, İranla ticarət edən iri tacir Musa Əmircanovun yanında işləyib.[1] Əmircanov Berlin Politexnikumuna girib[2]. O, Heydər Əliyevin (bu, başqa Heydər Əliyevdir) bacısı Səkinə ilə ailə qurub.[3]

A.Əliyevin 21 noyabr 1938-ci ildə yazdığı izahatda öz həyatı ilə də bağlı çox maraqlı faktlarla tanış oluruq. Həmin sənəddən bəzi seçmələri təqdim edirik:

1916-cı ilin yazında mən – Abbasmirzə Əliyev Bakı birinci real məktəbini bitirdim və cibimdə yarısını dərs verməklə topladığım və yarısını atamdan aldığım 75 manat pulla Kiyev şəhərinə getdim. Orada mənim xalaoğlum, indi rəhmətə getmiş Rəhim Axundov (aqronom) Politexnik İnstitutu bitirmişdi. O, dövlət imtahanlarından keçmişdi və sonra Kiyevdə işləyirdi. Mən onun yanında qaldım və qəbul imtahanlarına hazırlaşmağa başladım. Avqustun sonunda imtahanlar başladı və 1 sentyabradək mən I kursa qəbul olundum. Xalaoğlum işlədiyinə görə maaş alırdı və mənə də hər ay evdən 30-40 manat gəlirdi; ev kirayəsi vermir, yalnız tez-tez yemək pulu ödəyirdim. Birinci il yazadək Kiyevdə yaşadım. 1917-ci ilin fevralında, Fevral inqilabından sonra [Politexnik] İnstitutu bağladılar və mən başqaları ilə birlikdə Bakıya evə döndüm. Yayı kənddə keçirdim və payızda Bakıya qayıtdım. [1918-ci ilin] mart ayında Bakıda hadisələr baş verdi və mən ailəmizlə birlikdə Bakıdan kəndə getdim, çünki Bakıda aclıq başladı.

Şəhəri Türklər alandan sonra biz başqa vətəndaşlarla birlikdə Bakıya qayıtdıq. Atam kassir kimi işə girdi, mən isə 1897-ci il çağırışçısı elan olunduğuma görə çağırışdan yayınmaq üçün Bakı stansiyasında (depoda) çilingər köməkçisi kimi işə başladım və payızda oktyabrdan (iyuldan başlayaraq oktyabra qədər mən qarın yatalağı və qızdırma xəstəliyinə tutulmuşdum) 1919-cu ilin mart-aprelinə qədər işlədim. 1919-cu ilin yazında elan etdilər ki, tələbələr çağırışdan azad edilir və mən getdim, iki-üç aydan sonra Ərzaq İdarəsində qeydiyyatçı işinə düzəldim. 1919-cu ilin payızında – noyabr-dekabr aylarında xaricə göndərmək üçün Rusiyada oxuyan tələbələrin və 1918-19-cu illərdə orta məktəbləri bitirmiş şəxslərin seçilib yığılması elan edildi və mən də başqaları ilə birgə ərizə verdim.

Xaricə oxumağa getmək istəyən bütün tələbələrin ümumi yığıncağı oldu və Büro seçildi. Ona Aslanov Teymur və başqaları başçılıq edirdi.

Mən artıq Kiyevdə I kurs tələbəsi olduğuma görə müsabiqə şərtləri üzrə göndərilənlər içərisinə düşə bilərdim. Ancaq məndən başqa xalaoğlum, 1918-ci ildə Bakı ikinci

[1] AR MTN Arxivi, PR-22247, vərəq 14.
[2] Yenə orada, vərəq 14b.
[3] Yenə orada, vərəq 14b.



Abbasmirzənin yeganə bacısı Leylaya göndərdiyi foto. 14 aprel 1942-ci il

gimnaziyasını bitirmiş İsmayıl Axundov da vardı. Hər şeydən başqa, tanışlıq da böyük rol oynadığına görə xalaoğlum Rəhim Axundov o zaman koalisyon Müsavat hökumətində hansısa vəzifəni tutan və tələbələrin seçilməsi üzrə komissiyanın üzvü olan Pepinov Əhmədə müraciət etdi.

Pepinov Əhməd sonralar Xalq Maarif Komissarlığı kollegiyasının üzvü, xalq komissarının müavini və Azərbaycan SSR Dövlət Plan Komitəsi Rəyasət Heyətinin üzvü oldu. 1937-ci ildə o, Rəyasət Heyətinin başqa üzvləri ilə birlikdə həbs edildi və Ulyanovska (keçmiş Simbirskə) sürgün edildi. Nəhayət, dekabr ayında siyahıya düşənləri və namizədləri elan etdilər.[1] *Mən namizədlər arasındaydım, ancaq bir neçə nəfər imtina etdiyinə görə siyahıya düşdüm. Xaricdə təhsil almaq həm mənim üçün, həm də hamı üçün gələcəyə böyüklər umudlar vəd edirdi, çünki müstəqil təhsil almağa pul yox idi, haçan olacağı və oxumağa hara getməyin mümkün olacağı isə bilinmirdi.*

Bütün bunlar hədsiz pis şəkildə təşkil edilmişdi. Yanımızda nə bir nəfər müfəttiş vardı, nə nəzarətçi, nə də bizi yerləşdirəcək şəxs. Yanvar ayının ortasında biz 87 nəfərlik bir dəstə Batuma getdik (elan üzrə yığılmış 100 nəfərdən 13 nəfər yuxarı kurs tələbələri idi və onlar təhsillərini bitirmək üçün RSFSR-ə getməli idi),[2] *"Frans İosif" paroxoduna mindik və Taranto*[3] *şəhərinə, oradan da qatarla Neapoldan keçməklə Romaya getdik.*[4]

R[əhim] Axundov Əhməd Pepinovla dost idi. Şəxsən mən heç bir partiyanın, o sıradan Müsavat partiyasının da üzvü olmamışam.

…Deməli, tələbələrin bir hissəsi Fransaya, bəziləri Avstriyadan keçməklə Almaniyaya (bu qrupda mən, [Hüseyn] Şeyxiyev, Məmmədov Qəhrəman və b. vardıq) getdi. Münxenə gələrək biz öncə burada qalmaq istədik, ancaq [Almaniya] Maarif Nazirliyindən bizə bildirdilər ki, Qafqazdan olduğumuza və bolşevizm ruhu ilə yoluxduğumuza görə Bavariya hüdudlarında yaşaya bilmərik və 48 saat içərisində buranı tərk etməliyik. Əlimizdən heç nə gəlmirdi vəŞtutqarta, oradan da Berlinə getdik. Aprel ayında Berlinə çatdıq və tələbələrə kirayə verilən müxtəlif mənzillərdə tək-tək yerləşdik.

…[1921-ci ildə] Azərbaycan İnqilab Komitəsindən necə hərəkət etməli olduğumuzu soruşduq, cavab aldıq ki, yardım gözləyin və nümayəndələr göndərin. Ümumi yığıncaqda Axundov Səməndər və Əliyev Əşrəf nümayəndə seçildilər, mən namizəd oldum. Göndərmə üzrə komissiyaya Əliyev Əliəkbəri, məni və başqa yoldaşları seçdilər.

[1] Burada yanlışlıq var. 100 nəfər dövlət təqaüdçüsü və təqaüdə namizədlərin birgə siyahısı "Azərbaycan" qəzetinin 24 oktyabr 1919-cu il tarixli 228-ci sayında dərc edilib. Burada Abbasmirzə Əliyevin adı namizədlər içərisində deyil, təqaüdçülər içərisində 43-cü yerdədir. Dekabrda – 18 dekabr 1919-cu ildə "Azərbaycan" qəzetində 100 təqaüdçünün son siyahısı verilib.

[2] A.Əliyev 87 nəfəri 100-dən 13 çıxmaqla alıb, ancaq bu, doğru rəqəm deyil, çünki adları siyahıda olan 87 nəfərdən 3-ü (Sədəddin Hacı Həsən əfəndi oğlu, Abdulla Tahirzadə və Əbdürrəşid Bosnalızadə) Türkiyədə, 1-i (Rəşid bəy Topşubaşov) Parisdə idilər.

[3] Trento. İtaliyadakı bu şəhərin adı müxtəlif qaynaqlarda çeşidli biçimlərdə yazılıb.

[4] Müəllif Batum – Trento yolu arasında keçdikləri Trabzon və İstanbul şəhərlərinin adını qəsdən "unudub".

Biz Berlində RSFSR-in qeyri-rəsmi nümayəndəsi kimi yaşayan yol. Koopu axtarıb tapdıq; o dedi ki, nümayəndələriniz üçün mandatlar hazırlamalısınız və onları vətənə gedən hərbi əsirlərlə birlikdə göndərməyiniz mümkün olar. Belə də etdik. [19]20-ci ilin[1] *yayında nümayəndələrimiz rus hərbi əsirlərinin eşalonunda RSFSR-ə getdilər. İndi nümayəndələri gözləmək qalırdı, ancaq nə qədər gözləyəcəyimizi bilmirdik.*[2]

Mən Berlindən yoldaşım Əfəndiyevlə birlikdə Eysleben şəhərinə getdim. Eysleben şəhəri Orta Almaniyada yerləşir. Orada ucuzluqdur. Biz Berlin Dağ Cəmiyyətinin məktubuna əsasən orada yerləşdik, dedik ki, tələbəyik və Dağ İnstitutuna girmək istəyirik. Təcrübəçi kimi kalium şaxtasında işə düzəldik. Burada mən gündə 32 marka alaraq şaxtaçı kimi üç aydan artıq işlədim. Həmin pulun yarısı pansionu ödəməyə gedirdi, yarısı isə özümə qalırdı.

…Mən öncə Berlin Politexnik İnstitutuna girdim, ancaq sonra anamın xəstəliyi, təhsili bitirməyə pulumun çatmayacağı qorxusu və ağciyərliyimdən Kommersiya İnstitutuna keçdim və oranı 1924-cü ildə bitirdim. Berlində olduğum ilk vaxtlar [İsgəndər bəy] Sultanovla dostlaşdım, ancaq onun tez-tez içkili olduğunu, nizamsız həyat sürdüyünü və məni də buna sürüklədiyini görüncə ondan uzaqlaşdım.

…Mən [təhsilimi bitirib] viza və yol pulunu 1925-ci ilin fevralında aldım. Moskvaya getdim. Təhsilini bitirmiş tələbələrdən [Mirismayıl] Seyidli də alman arvadı ilə mənimlə birgə idi. Moskvaya gəlincə yeni "Moskva" mehmanxanasında qaldım və xəstələndim. Seyidli isə arvadıyla Bakıya getdi. Mən sağalınca Zaqafqaziya Nümayəndəliyinə yol. Ter-Qabrielyanın yanına getdim. O, mənə yol pulu verdi və mən Bakıya gəldim.

Bakıya gəlincə mən Berlindəki Nümayəndəliyin verdiyi vəsiqə ilə Azərbaycan K(b)P MK-ya getdim. İ katib mərhum Sergey Mironoviç Kirov idi. O, məni dinlədi və yol. [Ruhulla] Axundovun üstünə göndərdi. O isə mənə Sənaye Bankının direktoru yol. Boqanovun adına məktub verdi. Mən haqq-hesab kassaları bölməsi müdirinin köməkçisi vəzifəsində işə başladım. Haqq-hesab kassaları pambıq şirkətinin maliyyələşdirilməsini aparırdı və mən tez-tez pambıq zavodlarına, rayonlarda məntəqələrə gedir, orada kassalar təşkil edirdim. İl yarımdan sonra haqq-hesab kassaları və Sənaye Bankı ləğv edildi. 1927-ci ilin yayında mən müvəqqəti olaraq Azərbaycan Dövlət Kino İdarəsinə və oktyabrda eyni zamanda Azərbaycan Dövlət Plan Komitəsinə iqtisad bölümünün üzv əməkdaşı kimi işə düzəldim, 1928-ci ilin 1 yanvarından daimi işə keçdim və 1934-cü ilin yayınadək işləyərək öz istəyimlə çıxdım. Sonra mayda "Torqsin"in[3] *Azərbaycan kontorunda plan-maliyyə bölümünün rəisi vəzifəsində işə girdim, 3 ay işləyərək Moskvaya daimi işə getdim.*

1931-ci ildə Dövlət Plan Komitəsinin sədri Teymur Əliyev idi. Onun vaxtında Plan Komitəsinə Levon Mirzabekyan, Əsgər Eyvazov və b. işə götürüldülər. Sonra Əliyev işdən çıxarıldı. Bu vaxt mən Dövlət Plan Komitəsinin Mərkəzi Plan Bürosunda işləyirdim və mənə sosial-mədəni bölümə işə keçmək təklif olundu. Bu bölmənin sədri Eyvazov təyin edildi. Mən keçməkdən uzun müddət imtina etdim ki, maarif və

[1] Müəllif yanılır – bu işlər 1920-ci deyil, 1921-ci ildə baş verib.

[2] S.Axundov və Ə.Əliyev artıq 1921-ci ilin iyununda Bakıda olaraq Nərimanovla görüşüblər. Bundan sonra o, Bəhram bəy Axundovu 18 iyunda tələbələrin işi üzrə müvəkkil təyin edib. B.b Axundov bu nümayəndələrlə birlikdə 2 iyul 1921-ci ildə Bakıdan çıxaraq Batuma gəlib, ancaq nəzərdə tutulmuş "valyuta malları"nı (xalça, ipək, kürk) burada ona vermədiklərinə görə Ə.Əliyevi məruzə ilə yenidən Bakıya – Nərimanovun yanına göndərib, özü isə İstanbula gəlib. Ə.Əliyev lazımı təchizatla İstanbula 15 sentyabrda dönüb. Bundan sonra onlar Parisdən keçməklə dekabrın ortasında Berlinə çatıblar (bax: ARDA, fond 410, siyahı 1, iş 342, vərəq 3).

[3] 1931-1936-cı illərdə mövcud olmuş Xarici Ticarət üzrə Ümumittifaq Birliyinin rusca adının qısaltmasıdır.



Abbasmirzə Əliyev əzizləri ilə. Moskva

səhiyyənin planlaşdırılması ilə yetərincə tanış deyiləm. Axırda əmrlə Dövlət Plan Komitəsi sosial-mədəni bölümü sədrinin müavini təyin edildim və bildiyim mənzil-kommunal quruculuğunu üzərimə götürdüm. Maarif üzrə məsul icraçı vəzifəsinə yol. Seyidbəyli, səhiyyəyə isə yol. Qalperin dəvət edildilər.

Ancaq tezliklə Eyvazovla mənimki tutmadı. Axırda o, işi o dərəcəyə gətirdi ki, müavinlikdən imtina etməyə məcbur oldum və o, mənzil-kommunal quruculuğu üzrə məsul icraçı oldu. Sonralar Dövlət Plan Komitəsinin sədri Zarafyan, Fərəcadə təyin edildilər. Eyvazov isə sədrin müavini oldu.

Azərbaycan xalq təsərrüfatının nəzarət rəqəmlərinin mərkəzi İttifaq təşkilatlarında qeydə alınması ilə Eyvazov məşğul idi. O, bir dəstə əsas işçilərlə birgə Tiflis və Moskvaya getmişdi. Bu, səfərlər tətil dövrünə düşdüyünə və artıq xərclərə səbəb olduğuna görə çoxları səfərə getməyə həvəssiz razı olmuşdu, ancaq tabe olmağa məcbur idilər. Moskvada mən Eyvazovla və Plan Komitəsinin başqa işçiləriylə birgə 3, yaxud 4 dəfə olmuşam. Hər dəfə o, bizi səhərdən axşamadək Plan Komitəsində saxlayıb, sonra isə mehmanxanada axşam və gecə SSRİ Dövlət Plan Komitəsi bölümlərinin bizim hansı rəqəmlərimizi qəbul etdiyini, yaxud limitlərdə hansı ixtisarlar və artırmalar olduğunu məruzə etməliydik. Onunla Moskvada olarkən biz heç olmasa teatra, yaxud kinoya getmək imkanından məhrum idik.

Dövlət Plan Komitəsində işləyəndə mən başqa işə keçmək üçün çoxlu təkliflər alırdım. Ancaq çoxdan getmək istəsəm də Eyvazov kimsəni buraxmırdı. Axırda onun yoxluğundan istifadə edərək məzuniyyət haqqında ərizə verdim, məzuniyyət alınca da işdən çıxmaq haqqında ərizə yazdım və "Torqsin"ə keçdim. Ancaq öyrəndim ki, o, yəni Eyvazov Dövlət Plan Komitəsinin və Xalq Komissarları Şurası sədrinin müavini olduğuna görə məni və ümumiyyətlə, kimi istəsə oradan da Plan Komitəsinə gətirdə bilər. Buna görə də Moskvaya köçməli oldum.

Bir qədər keçdikdən sonra Moskvada öyrəndim ki, Ümumittifaq Mədən Kooperasiyası Şurasında Azərbaycan Mədən Kooperasiyası Şurası nümayəndəsi yeri boşdur, mən oraya ərizə verdim və bu vəzifəyə götürülərək Moskvaya göndərildim. Moskvaya gəlincə bu vəzifəni öz sələfimdən qəbul edərək dörd aydan artıq işlədim.

1 yanvarda Zaqafqaziya Diyar Komitəsinin qərarı ilə bütün nümayəndəliklər ləğv edildi və mənə təklif edildi ki, yazışmanı Zaqafqaziya Nümayəndəliyinə verim, pul



Abbasmirzə Əliyev *(soldan 2-ci)* Moskvada işləyərkən

hesabatını isə Bakıya göndərim. Zaqafqaziya Nümayəndəliyinə sənədləri verərkən avadanlıqlar üzrə məsul icraçı kimi onların yanında işləmək təklifi aldım və buna razılaşdım. Zaqafqaziya Nümayəndəliyində 1936-cı ilin mayınadək işlədim, qarşıdan ləğv olunma gəldiyinə və son vaxtlar işlədiyim şöbə ləğv edildiyinə görə mən ştat ixtisarı səbəbindən işdən çıxarıldım və 1935-ci ilin yayında yaxşı işimə görə mükafat kimi mənə verilmiş otaqda yaşamağa başladım.

1936-cı ilin iyun ayında mən inşaat üzrə iqtisadçı işinə düzəldim...[1]

* * *

Abbasmirzə Əliyevin həyatında bəs sonra nələr baş verib? Müxtəlif qaynaqlardan əldə etdiyimiz bilgilərə görə, o, 1938-ci ildə Moskvada həbs edilərək Bakıya gətirilib, 6 ay həbsdə yatıb, suçunu sübut edəcək tutarqalar olmadığına görə buraxılıb. Yenə Moskvaya gedib.

1941-45-ci illərdə cəbhədə olub. 1946-da ordudan buraxılaraq Moskvaya dönüb.

1947-ci ildə yenidən həbs edilərək 5 il iş kəsilib. 1953-cü ildə bəraət alıb.

Azərbaycanın Moskvadakı nümayəndəliyinin sərəncamıyla 1967-ci ildə təqaüdə çıxanacan "Bakı" restoranında öncə inzibatçı, sonra direktor müavini vəzifəsində çalışıb.

1972-cidə Moskvada vəfat edib, Vətəndə basdırılıb.

[1] AR MTN arxivi, PR-22247, vv. 16-25.

Əliyev Əliəkbər Məşədi Qəhrəman oğlu

(25.08.1898, Şuşa – 17.02.1977, Bakı)



Əliəkbər Əliyev. Berlin

Görkəmli ziyalı Əliəkbər[1] Əliyevlə bağlı geniş bilgi əldə etməyə illər öncə başlasam, hətta oğlu *Asəf bəy*'lə əlaqə yaratsam da heç nə alınmırdı – ən müxtəlif problemlər onunla görüşməyimizə imkan vermirdi. Ancaq 2008-ci ilin yayında üz-üzə oturub dəfələrlə görüşməyi və Əliəkbər bəylə bağlı sənədlərlə yaxından tanış olmağı Ulu Tanrı bizə nəsib etdi. Ünsiyyətimiz çox yaxşı alındı. Atası kimi ciddi və tələbkar, ancaq onun kimi də həssas və xeyirxah Asəf bəy bizə nəinki Əliəkbər bəylə, həm də onun bir çox tələbə yoldaşlarıyla bağlı olduqca maraqlı sənədlər, fotolar təqdim etdi, indiyədək heç kəsə göstərmədiyi ən məhrəm albomların qatını ilk dəfə mənə açdı. Açığı, Asəf bəyin həm atasına və onunla birgə xaricə oxumağa getmiş bütün tələbələrimizə sonsuz sevgi və hörməti və həm də vətəndaşlıq qeyrətiylə onları öyrənib araya-ərsəyə gətirməyimizə əlindən gələn hər şeyi etdiyinə görə onun belə yüksək ziyalı davranışı boynumuza böyük minnət qoydu və artıq kitabın nəşrini gözləmədən Əliəkbər Əliyev haqqında *"525-ci qəzet"*in *"Bismillah"* rubrikasında ayrıca yazı[2] verməyi qərara aldıq. Doğrudur, Əliəkbər bəy haqqında indiyədək başqa müəlliflər də yazıb,[3] ancaq təvazökarlıqdan nə qədər uzaq olsa da bildirməliyik ki, buradakı faktların və sənədlərin əksəriyyəti ilk dəfə işıq üzü görür. Bunun iki başlıca səbəbi var. Birincisi, Ə.Əliyev haqqında indiyədək həddən az yazılıb. İkincisi də, görkəmli alimin dəyərli oğlu Asəf Əliyev, atasının tərcümeyi-halı ilə bağlı faktları bir yerə yığaraq geniş bilgi toplusu yaradıb və onu bilgisayarda yazdıraraq bir nüsxəsini də 2008-ci ildə bizə bağışlayıb. Bu yazıda arxiv sənədlərindən və Asəf müəllimlə söhbətdə öyrəndiklərimizdən başqa, həmin qeydlərdən də yararlanmışıq.

* * *

Əliəkbər Əliyev Qarabağın ürəyi Şuşa şəhərində tacir ailəsində dünyaya göz açıb. Onun babası *Məşədi Baxşəli* də, atası *Məşədi Qəhrəman* da bu şəhərin adlı-sanlı, seçilib-sayılan kişilərindəndi.

Məşədi Qəhrəmanın üç övladı: iki oğlu və bir qızı olmuşdu. Oğlu Əliəkbər ortancılıydı.

Düzdür, bu gün Əliəkbərin doğum tarixi haqqında müxtəlif fikirlər var, ancaq mənçə, Zaqafqaziya Şiə Ruhani İdarəsinin sədri və Zaqafqaziya şeyxülislamı *Əbdüssalam Axundzadə*[1]nin, həmin İdarənin üzvləri *Sultan Hüseynbəyov*, *Poladzadə*, katibi *Xanbudaqov* və katib yardımçısı *Q.Eyvazxanbəyov*'un imzaladıqları aşağıdakı bəlgə rəsmi dövlət sənədi olduğuna görə ən etibarlı vəsiqə sayılmalıdır.

"Zaqafqaziya Şiə Ruhani İdarəsindən ona görə verilib ki, Gəncə qəzası Şuşa şəhəri sakini Əkbər Qəhrəman oğlu öz atası Qəhrəman Baxşəli oğlu Əliyevin qanuni arvadından – Ayna Məşədi Sadıq qızından iyirmi beş avqust min səkkiz yüz doxsan səkkizinci ildə doğulub və bunu Ruhani İdarəsi imza ilə və dövlət möhürünün basılması ilə təsdiqləyir.

[1] Adına bəzi qaynaqlarda "Əkbər" kimi də rast gəlinir.

[2] *Tahirzadə Ə.* Əliyev Əliəkbər Məşədi Qəhrəman oğlu. // *"525-ci qəzet"*, 28 sentyabr, 4, 11 oktyabr 2008, №№180, 182, 187. Bu kitabdakı oçerkin mətni əsasən Ə.Tahirzadənin məqaləsindən götürülsə də ona bir çox yeni faktlar artırılıb.

[3] Məsələn: *Teymur M.* Əliəkbər Əliyev kimdir? // *"Naxçıvan"* qəzeti, 22 sentyabr 2000, s. 13.



Əliəkbər Əliyevin atası Məşədi Qəhrəman. 1916



Əliəkbər Əliyevin anası Ayna xanım. 1916

18 iyun 1907. Tiflis ş. № 1581".[1]

Göründüyü kimi, burada biz *"Əliəkbər"* deyil, *"Əkbər"* adıyla qarşılaşırıq. *"Əkbər"*adı onun məktəb sənədlərində də təkrarlanır və yalnız 1919-da verilmiş aşağıdakı sənəddə ilk dəfə *"Əliəkbər"*ə rast gəlirik.

"Şuşa şəhərinin sakini, Şuşa real məktəbinin kursunu bitirmiş Əliəkbər Məşədi Qəhrəman oğlu Əliyevə onun xahişinə əsasən və Şuşa şəhəri 2-ci sahəsi pristavının bu ilin (1919-un – Ə.T.) 8 avqust tarixli 1342 saylı məlumatı əsasında ona görə verilib ki, onun – Əliəkbərin ailəsi ibarətdir: Əliəkbərdən – 25 yaşlı; atası Qəhrəmandan – 68 yaşlı; anası Aynadan – 55 yaşlı; qardaşı Əyyubdan – 37 yaşlı, evli, atasından ayrı yaşayır…".[2]

Yeri gəlmişkən, burada Məşədi Qəhrəmanın ailəsinin çox yoxsul olduğu, oğlunu xaricdə oxutmağa onun maddi gücünün yetmədiyi də göstərilib. Ancaq bu yazılan gerçək durumu əks etdirməyə də bilir, çünki bir çox belə arayışlar Cümhuriyyət hökumətindən dövlət təqaüdü almaq üçün tanışlıqla verilib…

* * *

Məşədi Qəhrəman ticarətin çətinlikləri içərisində böyümüşdü və istəyirdi ki, övladları da böyüyəndə bu zorluqlarla üzləşməsin. Zamanın elm və savad əsri olduğunu, savadlı insanların daha rahat yaşayaraq hörmət qazandığını görən Məşədi Qəhrəman, oğlu Əliəkbəri də oxutmaq istəyirdi. Düzünə qalanda, oxumaq hamıdan çox Əliəkbərin özünü maraqlandırırdı. Yaxın qohumu, ondan 2 yaş böyük olsa da uşaqlıq yoldaşı və yaxın sirdaşı,

[1] ARDA, fond 51, siyahı 3, iş 50, vərəq 4.

[2] Yenə orada, vərəq 5.



Əliəkbər Əliyev *(sağdan 2-ci)* məktəb yoldaşları arasında *(soldan 2-ci* Bayram Hacıyev)


Odessa Universitetinin tələbəsi (sonralar 26 Bakı komissarından biri olmuş) *Mirhəsən Vəzirov* (1886-1918) onda oxumağa dərin həvəs oyatmışdı. Beləliklə, atayla oğulun dilə-yi üst-üstə düşmüş, Əliəkbər 1 sentyabr 1907-də Şuşadakı real məktəbə qoyulmuşdu.

Əliəkbər burada 28 may 1916-cı ilədək oxuyaraq əsas bölmə üzrə tam kursu bitirmişdi, ancaq bu təhsilə görə aldığı attestat[1] ona ali məktəbə girmək hüququ vermirdi, buna görə əlavə bir il də oxumalı oldu. Ancaq aşağıda verdiyimiz şəhadətnamə Ə.Əliyevin ali məktəbə yolunu açdı.

"Şuşa real məktəbinin əlavə sinfinin şagirdi, müsəlman, 25 avqust 1898-də doğulmuş Əkbər Əliyevə ondan ötrü verilir ki, o, həmin sinifdə 17 avqust 1916-dan 20 aprel 1917-yədək əla əxlaqla oxuyub və səkkiz siniflik tam kursu bitirib, son sınaqda aşağıdakı qiymətləri alıb:

Şəriət	əla (5)
Rus dili	kafi (3)
Alman dili	əla (5)
Fransız dili	yaxşı (4)
Riyaziyyat, o sıradan:	
hesab	kafi (3)
cəbr	kafi (3)
triqonometriya	kafi (3)
xüsusi kurs (analitik həndəsənin və sonsuz kiçiklərin analizi)	kafi (3)
Tarix	yaxşı (4)
Təbiiyyatşünaslıq	yaxşı (4)
Fizika	əla (5)

[1] ARDA, fond 51, siyahı 3, iş 50, vərəq 3.



Əliəkbər Əliyev. 1913

Riyazi coğrafiya	əla (5)
Rəsm	yaxşı (4)
Qanunşünaslıq	yaxşı (4)
Türk dili	əla (5).

Buna görə də o – Əliyev nizamnamələrində aidiyyatına görə göstərilmiş qaydaları gözləməklə ali məktəblərə qəbul oluna bilər. Şuşa ş. 20 aprel 1917…".[1]

Yeri gəlmişkən, onu da bildirim ki, sonralar Əliəkbərlə birgə xaricə oxumağa göndərilmiş Cümhuriyyət tələbələri *Lətif Qədimov (Qədimi), Hilal Münşizadə (Münşi)* və *Bayram Hacıyev* Şuşa məktəbində də onunla birgə oxumuşdular. Bu uşaqlıq dostlarını o, ömrünün sonunadək unutmadı (*Hilal* Almaniyadan, *Bayram*'sa Fransadan SSRİ-yə qayıtmadılar), onların xatirini əziz tutdu, gənclik fotolarını sevə-sevə qoruyub saxladı…

* * *

Şuşa real məktəbində orta təhsilini 1917-də başa vuran Əliəkbər öncə müəllim işlədi. O, 1919-un ortalarınadək Şuşa şəhərində və kənddə millət balalarına savad verdi. Doğrudur, onun müəllimliyə böyük həvəsi vardı, ancaq savadını artırmaq, ali təhsil almaq ən böyük arzusuydu. Bu istəklə o, Zaqafqaziya Özəl Universitetinin təbiiyyat fakültəsinə uğurla imtahan verərək tələbə olmuşdu.

* * *

Əliəkbər Əliyev ömrünün sonunadək bir çox tərcümeyi-hallar yazıb. Onun ömür yoluyla bağlı istər özünün, istərsə də başqalarının qələmə aldığı yazılarda bu insanın həyatındakı çox mühüm və şərəfli bir səhifə qəsdən cırılaraq qoparılıb. Onun 1919-un 11 iyunundan 1920-nin 18 yanvarınadək – Almaniyaya oxumağa göndərilənədək valilər

[1] ARDA, fond 51, siyahı 3, iş 50, vərəq 2.



Əliəkbər Əliyev *(sağdan 2-ci)* teatr tamaşası ərəfəsində

(qubernatorlar) *Rəşid bəy Axundzadə* və *Əmir bəy Nərimanbəyov*'un dönəmində Bakı Valiliyi İdarəsində mühüm vəzifələrdə çalışması indiyədək heç kəsə bəlli deyil. Sovet dönəmində özü bu faktı var gücüylə gizlətməyə məcburdu – onu "Müsavat hökumətinin qulluqçusu" kimi sorğu-sualsız güllələyər, yaxud sürgünə göndərərdilər, oxucularla çatdırdığımız aşağıdakı arxiv sənədləri isə indiki araşdırıcıların diqqətini cəlb etməyib. Yalnız Əliəkbər Əliyevin özüylə deyil, bütövlükdə Azərbaycan Cümhuriyyətinin (1918-1920) tarixiylə bağlı olduğuna görə əlimizdəki sənədləri burada genişliklə işıqlandırırıq.

Beləliklə, Zaqafqaziya Universiteti təbiiyyat fakültəsinin tələbəsi Əliəkbər Əliyev 9 iyun 1919-da Bakı valisinə (*Rəşid bəy Axundzadəyə*) ilk ərizəsini yazıb:

"Zati-alinizdən acizanə xahiş etməyi şərəf bilirəm ki, rəhbərlik etdiyiniz İdarənin Ümumi şöbəsindəki boş kargüzar yardımçısı yerinin [mənə] verilməsinə sərəncam verəsiniz. Özü də mənim orta təhsil məktəbini bitirməyim haqqında sənədlər Zaqafqaziya Universitetinin dəftərxanasındadır, mənim həmin universitetə qəbul olunmağım haqqındakı sənədlərsə Sizin ilk tələbinizdəcə təqdim edilə bilər".[1]

Bu ərizənin üstündə vali R.b.Axundzadənin imzasıyla 11 iyun tarixli dərkənarı oxuyuruq: *"Rəsulov Bakı Polis İdarəsinə köçürüldükdə Ümumi şöbəyə kargüzar yardımçısı təyin etməli".*[2]

Ə.Əliyev çox gözləməli olmadı – 25 iyun 1919-da Rəşid bəy özünün 467 saylı əmrini verdi:

"Mənim İdarəmin Ümumi şöbəsinin kargüzar yardımçısı Əliağa Məhəmmədrəsulov 11 iyundan vəzifəsindən və bütövlükdə qulluqdan azad olunur, onun yerinəsə elə həmin tarixdən təbiiyyat fakültəsinin tələbəsi Əliəkbər Əliyev təyin olunur"[3].

14 avqust 1919-da Bakı valisi aşağıdakı məzmunda bir raport alıb:

"Rəhbərlik etdiyim şöbənin kargüzarı Nekrasov işdən çıxdığına görə bu ilin 1 avqustundan kargüzar vəzifəsini Əliəkbər ƏLİYEV icra edib, yardımçı vəzifəsinisə əslində dəftərxana qulluqçusu Yelişkeviç aparıb, buna görə də sözügedən şəxslərə uyğun maaş verilməsini təmin etməyinizi xahiş edirəm.

Ümumi şöbə rəisinin əvəzi (Ququşovun qolu)".[4]

Vali şöbə müdirinin xahişini yerinə yetirərək 17 avqust 1919-da 541 saylı əmriylə Əliəkbər Əliyevi kargüzar vəzifəsinin müvəqqəti icraçısı təyin edib.

Bəlkə bu gün kimsə kargüzar vəzifəsinə dodaq büzə bilər, ancaq 90 il öncəki kargüzar (özü də valinin idarəsində!) çox mühüm dövlət işçisi sayılırdı.

[1] ARDA, fond 1046, siyahı 3, iş 5, vərəq 1.
[2] Yenə orada.
[3] Yenə orada, vərəq 2.
[4] Yenə orada, vərəq 3.

Görünür ki, Ə.Əliyev vəzifəsinin öhdəsindən bacarıqla gəlib, bu üzdən də yeni vali (qubernator) *Əmir bəy Nərimanbəyov* 9 noyabr 1919-dakı 713 saylı əmriylə ona daha mühüm vəzifə – ekzekutor görəvi etibar edib. Bilməyənlərə xatırladım ki, çar Rusiyası və Azərbaycan Cümhuriyyəti dönəmində ekzekutor "müəssisədə təsərrüfat hissəsinə baxan icraçı məmur" deməkdi. Ə.Əliyevə verilmiş, vali Ə.b.Nərimanbəyovun imzaladığı 20 noyabr 1919 tarixli 16317 saylı vəsiqə də deyimizi təsdiqləyir: *"Bunu təqdim edən Əliyev Əliəkbər mənim İdarəmin təsərrüfat hissəsinin müdiridir".*[1] Əlimizdəki bir raportdan aydınlaşır ki, Ə.Əliyev sözügedən vəzifəyə təyin olunduqdan az sonra Valilik İdarəsində təhvil-təslim aparılıb və o, İdarənin bütün əmlakını siyahı üzrə təhvil götürüb.



Əliəkbər Əliyev

İdarədə qulluğu uğurla davam etsə də gənc Əliəkbəri daha işıqlı bir gələcək gözləyirdi – Azərbaycan Cümhuriyyəti hökuməti onu xaricə oxumağa göndərəcəkdi. Doğrudur, bu haqda hələ tam dəqiq bilgisi olmasa da, görünür, vali Əmir bəy Nərimanbəyov onu əmin etmişdi, bu üzdən də səfərdən qabaq Şuşaya gedərək ailəsinə, qohum-qardaşa baş çəkməliydi. 10 dekabr 1919-da "Bakı Valilik İdarəsi təsərrüfat hissəsinin müdiri" Ə.Əliyev valiyə belə bir ərizə verdi: *"Məndən asılı olmayan bəzi ailə məsələləri müəyyən müddətə vətənim Şuşa şəhərinə getməyimi zəruri edir. Buna görə, əlahəzrət, mənə 12 günlük məzuniyyət verməyinizi xahiş edirəm".*[2] Əmir bəy elə həmin gün icazə verərək onu məzuniyyətə yollayıb. Ancaq Əliəkbər məzuniyyətdən iki gün tez qayıdıb – valiyə 20 dekabr 1919-dakı raportunda o, məzuniyyətdən qayıdaraq vəzifəsinin icrasına başladığını bildirib. Bizcə, *"Azərbaycan"* qəzetində 18 dekabrda dərc edilmiş xaricə göndəriləcək tələbələrin siyahısına adının düşdüyünü eşitdiyinə görə o, Bakıya tələsik dönüb.

* * *

"Zaqafqaziya Özəl Universiteti təbiiyyat fakültəsi 2-ci kursunun tələbəsi, Kilsə[3] küçəsində 77-ci evdə Livşitsin mənzilində yaşayan" Əliəkbər Əliyev Valilik İdarəsində çalışarkən – hələ 11 avqust 1919-da Azərbaycan Cümhuriyyətinin maarif nazirinə ərizə yazmışdı:

"Təhsilimin ardını Almaniya universitetlərindən birində təbiiyyat fakültəsi üzrə başa vurmaq istədiyimə və buna öz vəsaitim olmadığına görə Siz əlahəzrətdən acizanə xahiş etməklə şərəflənirəm ki, məni xarici ali məktəblərə göndərilən tələbələrin siyahısına daxil edəsiniz.

Mən təbiiyyat elmlərində kamilləşməyə və təhsilimi bitirdikdən sonra tibb sahəsində çalışmağa ürəkdən can atıram.

[1] ARDA, fond 1046, siyahı 3, iş 5, vərəq 7.
[2] Yenə orada, vərəq 8.
[3] İndiki Vidadi.



Cümhuriyyət tələbələri. *Soldan sağa. Oturanlar:* Məhəmməd bəy Hacıyev, Şamil Səfərov, (?). *Arxada:* (?), Hilal Münşizadə, (?). Almaniya, 1923-1925-ci illər

Bu ərizəmlə birgə aşağıdakı sənədlərin notariusda çıxarılmış surətlərini də təqdim edirəm: 1) attestat, 2) əlavə 7-ci sinfə dair şəhadətnamə və 3) doğum haqqında şəhadətnamə. Əmlak və ailə vəziyyətim haqqında şəhadətnamələrsə bu yaxınlarda təqdim ediləcək".[1]

Noyabr ayında Cümhuriyyətin Maarif Nəzarəti[2] xaricə göndəriləcək tələbələrin təxmini siyahısını hazırlamışdı, indi də kimin məhz hansı ölkəyə, hansı şəhərə və hansı ali məktəbə göndəriləcəyini dəqiqləşdirmək istəyirdi, buna görə də bu haqda onların özündən bilgi almağa başlamışdı. "Bakı Valiliyi İdarəsində Nikolay[3] küçəsində yaşayan təbiiyyatçı tələbə" Ə.Əliyev də 8 noyabr 1919-da nazirə əlavə ərizə yazaraq bunları bildirməli oldu:

"Bu ərizəmə 6 fotoşəkli də əlavə edərək Siz alihəzrətin nəzərinə çatdırıram ki, Berlin Universitetinin (Berlində) təbiiyyat-tarix fakültəsinə girmək niyyətindəyəm.

Eyni zamanda bildirirəm ki, ilk ərizəm 1) Şuşa real məktəbinin 7 sinfi bitirməyim haqqında şəhadətnamənin, 2) həmin məktəbin 6 sinfinə görə attestatın və 3) doğum haqqında şəhadətnamənin surətləriylə birgə Bakı Müsəlman Tələbələr Komitəsinə 31 nömrəsiylə təqdim olunub".[4]

Onu da xatırladım ki, tələbələrin xaricə göndərilməsinə həm hökumət, həm də onların özü ciddi hazırlaşırdı. Fəal abituriyentlərin içərisində Əliəkbər Əliyev də vardı. "Hökumətin xaricə oxumağa göndərdiyi tələbə və abituriyentlərin yığıncağının sədri"nin (*Mustafa Vəkilov*'un) 7 noyabr 1919-da Cümhuriyyətin maarif nazirinə göndərdiyi 1 saylı protokol, bizcə, oxuculara maraqlı ola bilər:

"7 noyabr cümə günü Hökumətin Qərbi Avropa və Rusiyaya göndərdiyi tələbə və abituriyentlərin ümumi yığıncağı oldu, orada göndərilənlərin 5 nəfərdən ibarət Müvəqqəti Bürosu seçildi. Büroya bu şəxslər seçildilər: Mustafa Vəkilov, Ağalar İsgəndərli, Baxış Sultanov, Umbay Əmirov və Əliəkbər Əliyev.

Hökumətin xaricə göndərdiyi tələbə və abituriyentlər adından Sizə məlumat verərək, c-b nazir, Sizdən xahiş edirəm ki, xaricə göndərilən tələbə və abituriyentlərlə bağlı bütün məsələlər üzrə indiyədək edildiyi kimi Bakı şəhərindəki Müsəlman Tələbə və Abituriyentləri Komitəsinə deyil, Hökumətin xaricə göndərdiyi tələbə və abituriyentlərin Müvəqqəti Bürosuna müraciət edilsin.

Büro Bakı şəhərindəki Müsəlman Tələbə və Abituriyentləri Komitəsinin olduğu binada, Mirbabayevin evində[5] yerləşir. (Giriş Sahil küçəsi tərəfdəndir)".[6]

[1] ARDA, fond 51, siyahı 3, iş 50, vərəq 1.
[2] Nazirliyi.
[3] İndiki İstiqlaliyyət.
[4] ARDA, fond 51, siyahı 3, iş 50, vərəq 6.
[5] İndi burada ARDNŞ yerləşir.
[6] ARDA, fond 895, siyahı 1, iş 174, vərəq 1.

Büronun sədri *Mustafa Vəkilov* və katibi *Ağalar İsgəndərlinin* tərtib edərək imzaladıqları Büro üzvlərinin növbətçiliyi cədvəlindən öyrənirik ki, noyabrın 10-dan sonra 20 gün ərzində Büroda ardıcıllıqla yuxarıda adları keçən *İsgəndərli, Vəkilov, Əmirov, Əliyev* və *Sultanov* növbətçilik ediblər. Hər hansı sorğuyla müraciət edənlərə məhz onlar hər gün axşam saat 6-dan 7-yədək cavab veriblər.



Əkbər Əliyev. Almaniya

Artıq bildirdiyimiz kimi, 18 dekabr 1919-da *"Azərbaycan"* qəzeti xaricə göndəriləcək 100 tələbənin son siyahısını dərc etdi və Maarif Nəzarəti onların son yol tədarükünü görməyə başladı. Onların hamısına viza və vəsiqə hazırlandı. 13 yanvar 1920-də Ə.Əliyevə də standart məzmunlu belə bir vəsiqə (551 saylı) yazıldı:

"Əkbər Qəhrəman oğlu Əliyevə ondan ötrü verilib ki, onu Azərbaycan Cümhuriyyəti hökuməti dövlət hesabına ali təhsilini başa vurmaqçün xaricə göndərir; bu, imza və dövlət möhürünün basılması ilə təsdiqlənir.

Xalq maarif naziri əvəzinə qol çəkdi N[urməhəmməd bəy] Şahsuvarov

Dəftərxana müdiri F[ətulla bəy] Rzabəyov".[1]

15 yanvar 1920-ci ildə Əliəkbər Əliyev dilindən iki iltizam verdi. Birinci dilkağızında o, təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin onun üzərinə qoyduğu bütün vəzifələri başqa təqaüdçü tələbələr kimi ümumi əsaslarla yerinə yetirəcəyi barədə öhdəlik götürür,[2] ikincində isə təhsil alacağı dövlətdə heç bir siyasi və partiya işinə qoşulmayacağına boyun olurdu.[3]

Mənim şəxsi fikrimcə, Əliəkbər Əliyev də daxil olmaqla Qarabağdan olan aşağıdakı 4 gəncin Almaniyaya oxumağa göndərilməsi məhz Bakı valisi (qubernatoru), özü də qarabağlı olan *Əmir bəy Nərimanbəyov*'un (rəssam *Toğrul Nərimanbəyov*'un babası) xidmətidir – öncə onları öz idarəsində işə düzəldən Əmir bəy onları xaricə də göndərərək oxutdurmaq, "adam etmək" istəyib, olduqca xeyirxah bir iş görüb. Beləliklə, Bakı valisinin imzaladığı 18 yanvar 1920 tarixli 23 saylı əmr:

"Mənim İdarəmin Ümumi şöbəsinin kargüzarı Lətif Qədimov, Tikinti şöbəsinin çertyojçusu Firidun Əliyev, tərcüməçi Behbud Zeynalov və Təsərrüfat hissəsinin müdiri Əliəkbər Əliyev hökumət onları təhsilini başa vurmaqdan ötrü xaricə oxumağa göndərdiyinə görə vəzifələrindən azad edilirlər".[4]

Bu, Əliəkbər Əliyevlə bağlı Azərbaycan Cümhuriyyətində verilmiş sonuncu sənəddir. Ancaq burada da maraqlı bir məqam var. İş burasındadır ki, əmrdə adları keçən tələbələrin dördü də iki gün idi ki, xaricə yola düşmüşdü və artıq Tiflisdə idi. Deməli, Əmir bəy məhz onların çox maaş alması və uzaq səfərə yollanarkən ciblərində daha çox pul

[1] ARDA, fond 51, siyahı 3, iş 50, vərəq 9.
[2] Yenə orada, vərəq 7.
[3] Yenə orada, vərəq 8.
[4] Yenə orada, fond 1046, siyahı 3, iş 5, vərəq 10.



Əliəkbər Əliyev, Hilal Münşizadə. Berlin, iyul, 1920

olması üçün işdən çıxma əmrlərini də mümkün olan ən gec tarixdə verib. Bu da onun bacaracağı bir xeyirxahlıq idi...

* * *

Azərbaycan Cümhuriyyətinin maarif naziri *Həmid bəy Şahtaxtinski* 16 yanvar 1920-də Parisdəki Azərbaycan sülh nümayəndə heyətinin sədri *Əlimərdan bəy Topçubaşov*'a bu məzmunda 657 saylı məktub yolladı:

"Bu məktuba 1 sentyabr 1919-cu il qanununa əsasən dövlət hesabına təhsilini başa vurmaq üçün 1919/20-ci dərs ilində xaricə oxumağa göndərilən 78 abituriyent və tələbənin siyahısını da qoşaraq və həmin şəxslərə yuxarıda sözükeçən qanuna uyğun olaraq Bakı şəhərindən çıxdıqları gündən yolpulu ödənildiyini və 1 fevral 1920-ci ilədək xərclik verildiyini bildirərək Sizdən xahiş edirəm ki, göndərilənlərin uyğun ali məktəblərə yerləşdirilməsi və ümumən adı çəkilən yurddaşlarımıza xaricdə yaxşı yaşam şəraitinin yaradılması qayğısını öz üzərinizə götürməkdən imtina etməyəsiniz. Göndərilənlərə dərs ilinin sonunadək lazım olan zəruri frank məbləği ən yaxın vaxtda köçürüləcək...".[1]

Doğrudur, bu məktubda vur-tut 78 nəfərin adı keçir, ancaq yada salaq ki, Türkiyəyə və Rusiyaya göndərilən tələbələrin Parisdəki Əlimərdan bəyə aidiyyatı olmadığına görə onlardan burada danışıla bilməzdi.

Beləliklə, Həmid bəyin bu məktubunu da özləriylə götürən 90-a yaxın gəncimiz elm və biliklə yaraqlandıqdan sonra Azərbaycana dönərək ömürlərini ona qulluqda keçirmək kimi müqəddəs bir diləklə gülə-gülə, sevinə-sevinə, fərəhlə hələ tanımadıqları uzaq ölkələrə yola düşdü – qarşıdakı ağlasığmaz çətinliklərdən, məşəqqətlərdən xəbərsiz! Özünü çox xoşbəxt sayan həmin gənclərin içində anasının isti qoynundan yenicə ayrılmış 23 yaşlı Əliəkbər də vardı.

Maarif Nazirliyinin 1920-ci il yanvarın başlanğıcında tərtib etdiyi siyahıdan görünür ki, nazirlik *10 nəfərin İngiltərədə, 23 nəfərin İtaliyada, 45 nəfərin Fransada, 9 nəfərinsə*

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 1.



Əliəkbər Əliyev, Şamil Səfərov, (?). Berlin, 1923-1925



Əliəkbər Əliyev Lətif Qədimi ilə. Berlin

Türkiyədə təhsil alacağını nəzərdə tutub (Rusiyadasa 13 nəfər oxumalıydı). *"Azərbaycanın 1919-cu il üçün ünvan-təqvimi"*ndə Azərbaycan Cümhuriyyətinin ilk tarixini qələmə almış görkəmli millət vəkili *Rəhim bəy Vəkilov* öz əsərində məhz bu bilgidən yararlanmışdı və kitab nəşrə gedən anda bu siyahı qüvvədəydi. Ancaq sən saydığını say, gör fələk nə sayır! Dünyadakı siyasi hadisələr elə sürətlə dəyişdi, Rusiyadan yenicə qopmuş müstəqil dövlətlərə münasibət elə kəskin dəyişdi ki, heç kəsin kəndirinin üstünə darı sərmək mümkün olmadı. Bunun nəticəsində qoca və kinli *İngiltərə kimsəni qəbul etmədi, İtaliyada cəmi 6 tələbəmiz qaldı, əksəriyyətsə Fransada deyil, adı siyahıya salınmayan, ancaq isti qucağını övladlarımıza geniş açan mehriban Almaniyada oxumalı oldu (Fransada oxuyanların da çoxu sonradan Almaniyaya dəyişilməyə üstünlük verdi).* Təəssüf ki, Azərbaycan tarixçiləri arxiv sənədlərini araşdıraraq bu gerçəkliyi öyrənməkdənsə sözügedən *"Ünvan-təqvim"*-dəki yanlış bilgini kitabdan kitaba köçürməkdən əl çəkmirlər. Məsələn, yaxın zamanın ən nüfuzlu nəşrlərinin birində oxuyuruq: *"Abituriyentlər arasından seçilmiş yüz nəfər daha çox umudverici gəncdən 45 nəfəri Fransanın, 23 nəfəri İtaliyanın, 10 nəfəri İngiltərənin, 9 nəfəri isə Türkiyənin müxtəlif ali məktəblərinə göndərilir..."*.[1]

Nə isə, "fransalılar" siyahısındakı "Əkbər Əliyev"in də taleyinə Almaniyada oxumaq yazıldı. O, *Almaniyanın paytaxtı Berlindəki Kənd Təsərrüfatı İnstitutunda aqronomluq ixtisasına yiyələndi.*

Sonralar oğlu Asəfə danışacaqdı ki, dövlətli balalarının başı başqa şeylərə də qarışdı, ancaq mən də daxil, yoxsul tələbələrin gecə-gündüz oxumaqdan savayı bir məşğuliyyəti yoxdu.

Aradan cəmi üç ay keçəndən sonra Azərbaycanın müstəqilliyi rus süngülərilə məhv edilərək burada savadsız, kütbeyin və mədəniyyətsiz kənd nökərlərinin və şəhər muzdurlarının, adını yazmağı belə bacarmayan tör-töküntülərindən tarixdə bənzəri az tapılan qaniçən bir hakimiyyət – "proletariat diktaturası" quruldu və yalnız Əliəkbərin deyil, xaricdəki bütün tələbələrin həyatında ən fəlakətli dönəm başlandı. Cümhuriyyətin göndərdiyi pullar tükəndi. Sovet hakimiyyətisə onları nəinki yadına salmır, hətta bu "xan-bəy balaları"na

[1] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. I cild, ss. 20-21.



Xaricdə kənd təsərrüfatı üzrə ali təhsil almış Cümhuriyyət tələbələri. *Soldan sağa:* Hüseyn Nağıyev, Əliəkbər Əliyev, İsgəndər Vəliyev. 1920-ci illərin sonu.

nifrət edirdi. Əslində rusların və ermənilərin tam hökmranlığı altında olan "Azərbaycan İctimai Şura Cümhuriyyəti" (Azərbaycan SSR) hakimiyyəti bütün milli qüvvələrə olduğu kimi həmin tələbələrə də düşməncəsinə yanaşırdı. Bakıda hakimiyyət kürsüsünə oturmasından hələ bir neçə ay öncə Moskvadan Cümhuriyyətin baş naziri *Nəsib bəy Yusifbəyli* yəqanqoxuluhədələrlədoluməktub göndərən, "Azərbaycanın başçısı" olduğu vaxt isə xalqımızın əliqanlı cəlladlarına çevrilmiş XI ordu rəhbərlərinə "minnətdar Azərbaycan xalqı adından" üstü brilyantlarla bəzədilmiş qılınc bağışlayaraq onlara atəşin təşəkkürlərlər yağdıran Nəriman Nərimanov xalq qarşısındakı günahlarının bir qismini yumaqçün həmin tələbələrə qayğı göstərməyi qərara aldı. Azərbaycanın gerçək hakimi olan, Nərimanovusa xalqı aldatmaqçün müqəvva kimi göz önündə oturdan ruslar onun sözlərini eşitmir, göstərişlərini veclərinə almırdılar. Bu zaman Nərimanov yağmaçı bolşeviklərin xalqı talan edərək topladığı tonlarla qızıl-gümüş və ləl-cəvahiratdan bir mücrüyə dolduraraq Avropaya göndərdi ki, tələbələr satıb özlərinə xərclik etsinlər. Ancaq bundan Fatıya tuman olmazdı və olmadı da. Tələbələrin çoxu çıxılmaz maddi böhrana düşdü. Yaşadığı ölkənin dilini yaxşı mənimsəyənlər işləməyə başladılar. Onlardan biri də Əliəkbər Əliyevdi.

Əliəkbər dərslərini çox ciddi oxuyurdu. Müəllimləri də tələbkardı. Aspiranturada oxuduğu zaman Ə.Əliyevdən alman dili dərsi almış mərhum professor *Şamil Qurbanov* ona həsr etdiyi *"Bakıdan Drezdenə"* məqaləsində yazır:

"Əliəkbər müəllim bir dəfə dərsdə almanların bir yaxşı cəhətini də danışdı.

- Mən sinifdə alman dilindən zəif idim. Professor yaxşı oxuyan tələbələrdən birini mənə təhkim etdi və bir yerdə çalışmağı tapşırdı. Onu da tapşırdı ki, almanca çox danışaq. Bizim işimiz hər gün dərsləri öyrənmək və alman dilində danışmaq idi. İmtahan zamanı professor ona məndən aşağı qiymət yazdı. Mən bir qafqazlı kimi buna dözmədim və professorun yanına gedib xahiş elədim ki, məni o hazırlayıb, ona da yüksək qiymət verin. O dedi:

- Sən qonaqsan, həm də alman deyilsən. Buna görə sənə güzəşt elədim. Mən ona güzəşt eləmərəm. Dərs zamanı alman almana güzəşt etməməlidir.

Bax, bu, almanlarda gözəl xüsusiyyətdir".[1]

Avropa millətləri istirahət günlərində qətiyyən işləməz, yalnız dincələrlər. Bizim tələbələr də buna alışmışdılar. Əliəkbər də çox vaxt Berlindəki soydaşlarını başına yığaraq birgə gəzintiyə çıxar, şənlənərdi. Bəzən Almaniyanın başqa şəhərlərində oxuyan bütün azərbaycanlılar paytaxt Berlinə toplaşar, birlikdə məclis qurardılar. Bu zaman Qarabağdan olanlar musiqi bacarıqlarını göstərər, muğamlarımızı uzaq ellərdə səsləndirərdilər. Ansamblın aparıcı üzvlərindən biri də tarçalan Əliəkbər Əliyev olardı.

Professor *Şamil Qurbanovun* başqa bir xatirəsi:

"Mən aspiranturanı bitirmiş, müdafiə eləmişdim. Bir gün küçədə rastlaşdıq. Söhbət etdik. Birdən yadıma düşdü ki, Azərbaycan Maarif Nazirliyinin arxivində işləyəndə Əliəkbər

[1] *Qurbanov Ş.* Müəllimlər. Bakı, 2003, s. 244.



Əliəkbər Əliyev *(öndə, başı şlyapalı)* kənd təsərrüfatı işçiləri arasında. *Arxa cərgədə sağdan 1-ci* İsgəndər Vəliyev *(bayraqlı), 4-cü* Hüseyn Nağıyev

Əliyevin Drezdendən[1] *göndərdiyi bir məktub əlimə keçdi. Orada Əliəkbər müəllim Cümhuriyyətin maarif nazirinə yazırdı ki, "Mən gələndə özümlə bir alət gətirmişəm. Onu burada istifadə edə bilmirəm. Əvvəlcə gərək qeydiyyatdan keçirim, sonra istifadə edim. Xahiş edirəm bizim İstanbuldakı rəhbərimiz Əmin Abidin adına mənim üçün 300 manat pul göndərəsiniz".*

Bu məsələ mənim üçün bir qədər qaranlıq idi, başa düşmədim bu, nə alətdir. Əliəkbər müəllimdən soruşdum: "O, nə alət idi elə?".

Əliəkbər müəllim dilləndi:

- Pay atonnan sənin, ə, o məktubu hələ saxlayırlar?

- Saxlayırlar saxlasınlar, Sizə nə qorxusu var?

- Yox, qorxusundan ötrü demirəm. Sadəcə, bir tar idi. Axı mən həm də yaxşı tar çalanam. Alə, şuşalı olasan, ya oxumaq, ya çalmaq bacarmayasan – bu, bağışlanmazdı. Onu əlimə alan kimi qəlib başımın üstünü kəsdirdirdilər, qeydiyyat tələb edirdilər. Ona görə yazmışdım".[2]

Əliəkbərin Almaniyadakı dostları uşaqlıqdan bir yerdə olduğu, özünə ən yaxın sirdaş saydığı *Lətif Qədimov (Qədimi)*, hələ Qarabağdaykən yaxın ünsiyyət saxladığı *Hilal Münşizadə (Münşi)*, *Məhiş Səfərov*, *Behbud Zeynalov* və Parisdə oxuyan *Bayram Hacıyevdi*. Xatırladım ki, *Hilal Münşi* Almaniyadan, *Bayram Hacıyevsə* Fransadan SSRİ-yə qayıtmayıblar. Hilal Münşi Almaniyada *Məhəmmədəmin Rəsulzadəylə* birgə Azərbaycanın müstəqilliyi uğrunda çarpışan ən fəal siyasilərdəndi və xarici mətbuatda çox yaxından iştirak edirdi. Mən Əliəkbər bəyin albomlarını vərəqlərkən orada Hilal Münşinin xeyli fotosunu görəndə həddsiz təəcübləndim – "ÇeKa"/"KQB" bu fotolardan birini onun evində tapsaydı cəzası

[1] Ş.Qurbanov bütün yazısı boyu yanlış olaraq Ə.Əliyevin Drezdendə oxuduğunu bildirir.
[2] *Qurbanov Ş.* Müəllimlər, s. 247.



Ali təhsilli aqronom Əliəkbər Əliyev. 1920-ci illərin sonu

10 il Sibir sürgünündən güllələnməyə qədərdi! L.Qədimi, M.Səfərov, T.Aslanov, B.Zeynalov da repressiya olunaraq sürgünə göndərilmişdilər və onların da fotosunun evdə saxlanılması ən ağır siyasi cinayətlərdən sayılırdı! Bunu indi biz biliriksə, təbii ki, o zaman Əliəkbər bəyə incəliyinədək bəlliydi, ancaq dostlarına bəslədiyi hədsiz sevgi və onlara sədaqəti "KQB" qorxusunu unutdurmuşdu! Onun bu kişiyana davranışı Azərbaycan ziyalısının tarixində ən şərəfli səhifələrdən biridir!!

"Diplomlu aqronom" Ə.Əliyevin Berlindəki vizit kartında *"Şuşa, Azərbaycan"* yazdırması isə onun Vətənini necə sevdiyinin göstəricisidir. O, yaxşı bilirdi ki, Vətən qarşısında o zaman başıuca ola bilər ki, Vətənin adını ucalda biləcək dəyərli bir mütəxəssisə çevrilsin. Bunu da bacardı. Xaricdə oxuyan tələbələrə yeni pasportların verilməsi məsələsi ortaya çıxarkən *1923-də Bakıya gələn* Əliəkbər Əliyev Almaniyada papağını günə yandırmadığını sübut etdi. Azərbaycanda olduğu müddətdə ozamankı torpaq komissarı *Dadaş Bünyadzadə* yerlərdə torpaq işləri üzrə məntəqələrin işini yoxlamaq və komissarlığa ətraflı məruzə təqdim etməkçün onu rayonlara göndərdi. Əliəkbər tapşırığı uğurla yerinə yetirdi və yenidən Almaniyaya qayıtdı.

Berlin Kənd Təsərrüfatı İnstitutunu 1924-də bitirdikdən sonra həmin ilin oktyabrında Almaniyadakı Zaqafqaziya nümayəndəliyi (səfirliyi) ona Berlində qalaraq Nümayəndəlik idarəsində tələbə işləri üzrə çalışmasını təklif etsə də Əliəkbər Vətənə qayıtmağı üstün tutdu.

* * *

Əliəkbər diplomlu aqronom kimi 1924-ün son rübündə Azərbaycana dönərkən respublikada kənd təsərrüfatı da olduqca acınacaqlı haldaydı. İqtisadi durumun ağırlığı bir yana, problemlərdən baş açacaq və onları həll edəcək savadlı işçilər yox dərəcəsindəydi. *Cümhuriyyətin ağıllı siyasəti öz bəhrəsini indi verməyə başladı – onun oxumağa göndərdiyi tələbələr indi ali savadlı mütəxəssis kimi Vətənin ağır günündə haraya yetişdi.*

Komissar (nazir) *D.Bünyadzadəylə* birbaşa ünsiyyət quran Əliəkbər Əliyev *Azərbaycanda qəza aqronomu vəzifəsinin təsis olunmasını və rayonların torpaq işləri üzrə məntəqələrinə məhz onların başçılıq etməsini məsləhət gördü.* D.Bünyadzadə nəinki yeni düşüncəni qəbul və tətbiq etdi, hətta *yeni yaradılan ilk qəza aqronomu vəzifəsinə Ə.Əliyevin özünü təyin etdi.* Əliəkbər Əliyevə Ağdam qəzasının aqronomluğuyla yanaşı, *Ağdamda kənd təsərrüfatı texnikumu yaratmaq* kimi ağır bir iş də tapşırıldı.

Gənc mütəxəssis Ağdama gəlişiylə işə çox ciddi girişdi. O, qısa vaxtda həm qəza torpaq məntəqəsinin işini qaydaya saldı, həm də direktor kimi texnikuma tələbə qəbulu elan edərək dərslərə başladı. Ancaq texnikum quru yerdə qurulurdu – nə binası vardı, nə də maliyyəsi. Direktor çox qapılar döydü, nəhayət, *Ağamalıoğlunun* əliylə hökumətdən texnikum binasının tikintisinə vəsait ala bildi. Çox keçmədən texnikumda Ə.Əliyevin gərgin çalışması nəticəsində xarici avadanlıqla təchiz edilmiş kimya, fizika və aqrokimya kabinələri təşkil edildi. Bu məktəb az vaxt içində nəinki bütün qəzanın, hətta mahalın da tədris-metodik mərkəzinə çevrildi.

Texnikumu öz övladı kimi sevən Əliəkbər Əliyev onun inkişafı yolunda ən çətin sınaqlara, məhrumiyyətlərə dözürdü. Büdcədə yetərli vəsait olmadığına görə o, şəxsi əmlakını girov qoyaraq Bakıdan 2 traktor alınmasına nail oldu; beləliklə, qəzaya ilk traktorlar gətirildi.



Əliəkbər Əliyev *(öndə soldan 4-cü)* kənd təsərrüfatı işçiləri arasında *(2-ci cərgədə sağdan 3-cü Hüseyn Nağıyev).* 1920-ci illərin sonu

Ə.Əliyev qəzada heyvandarlığın və atçılığın inkişafına da böyük diqqət yetirirdi.

Bitməz-tükənməz enerjili gənc aqronom artıq yalnız Ağdamın deyil, bütün ölkənin kənd təsərrüfatındakı problemlərlə məşğul olmağa can atırdı. *1925-in mayında onun təklifiylə Bakıda ilk aqronomlar qurultayı çağırıldı.*

1924-ün noyabrından 1927-nin iyulunadək Ə.Əliyev *Ağdamda öncə qəza, sonra mahal aqronomu, kənd təsərrüfatı texnikumunun direktoru işləməklə yanaşı, orta məktəbdə alman dili müəllimi, bir müddətsə mahal torpaq şöbəsinin müdiri və mahal torpaq məhkəməsinin sədri vəzifələrində də çalışdı.*

1927-nin yazında Ə.Əliyevin həyatında yenilik baş verdi – qəzadan Bakıya dəyişdirildi. *«Köybirliyi»* kənd təsərrüfatı kooperasiyası respublika ittifaqı idarə heyətinin tərkibinə seçilən Əliəkbər bəy elmi işlə məşğul olmağı qərara aldığı 1929-cu ilədək bu qurumda çalışdı.

1927-nin sentyabrından 1935-in iyununa qədər Azərbaycan Kənd Təsərrüfatı Texnikumunda elmi işçi və müəllim işləyən Əliəkbər Əliyev 1929-1937-ci illərdə *Azərbaycan Dövlət Kənd Təsərrüfatı Muzeyinin direktoru,* eyni zamanda 1935-dən 1939-un iyununadək respublika kommunist partiyası mərkəzi komitəsi və Mərkəzi İcraiyyə Komitəsi nəzdində sovet və partiya kadrlarının hazırlığı kurslarında müəllim kimi çalışdı, *"Azərbaycan kolxozçusu"* qəzetiylə (redaktoru *Qulam Məmmədli*'ydi) yaxından əməkdaşlıq etdi.

1934-ün sentyabrından 1936-nın iyununadək Bakı Kənd Təsərrüfatı Texnikumunda əkinçilik və torpaqşünaslıqdan, geologiya və mineralogiyanın əsaslarından mühazirələr oxuyan Ə.Əliyev 1934-dən 1937-yə qədər respublika Nazirlər Sovetində Ümumittifaq Kənd Təsərrüfatı Sərgisində Azərbaycan pavilyonunun təşkili üzrə komitədə *məsul katib,* 1938-1941-ci illərdə Xalq Təsərrüfatı İnstitutunda *müəllim* vəzifəsində çalışdı.



ADU, Qərbi Avropa dilləri kafedrası. 1947

1944-1947-ci illərdə o, Azərbaycan Qiyabi Pedaqoji İnstitutunda oxudu, 1950-1952-ci illərdə isə KP MK nəzdində axşam marksizm-leninizm universitetinin dinləyicisi oldu. Ən maraqlısı budur ki, bu zamanlar ADU partkomunun, hətta şəxsən *Mircəfər Bağırov*'un səylərinə baxmayaraq Ə.Əliyev kommunist partiyasına girməkdən inadla boyun qaçırdı və ömrünün sonunadək bitərəf qaldı.

* * *

Cümhuriyyətin xaricə oxumağa göndərdiyi tələbələrin çoxu SSRİ-yə qaydandan sonra cismən və ruhən məhv edildi. Kommunistlər onlara inanmadı, yiyələndikləri ixtisas üzrə işləməyə qoymadı, çoxunu sadəcə xarici dil müəllimi kimi işlətdi və 1937-38-də xarici ölkələrdən birinin casusu kimi həbs edərək güllələdi, Sibirə, Orta Asiyaya sürgünə (daha doğrusu, katorqaya) göndərdi. Əliəkbər Əliyevinsə repressiya olunmaması, açığı, mənə qəribə gəlirdi. Oğlu *Asəf bəylə* 2008-ci ilin 13 mayındakı söhbətimizdə bu haqda sorğuma da geniş cavab tapdım. Asəf bəy mənə bunları söylədi:

- 1938-də gecə yarısı Nizami küçəsindəki 12-ci evdə 6-cı mənzilin – bizim mənzilin qapısı döyülüb. İçəri girən «qarapaltarlılar» atama bildiriş vərəqəsi veriblər ki, siz ailəlikcə Orta Asiyaya sürgün ediləcəksiniz, ancaq Üzeyir bəyin yaxın qohumu kimi Sizə hörmət bəsləyərək öncədən xəbərdarlıq edirik.

Atam vəziyyətdən çıxmaq üçün Üzeyir bəydən yardım istəyib. Üzeyir bəy durumu anladaraq bildirib ki, bəy oğlu olduğuma görə mənim özüm də hər an aparılacağımı gözləyirəm; hər qapı döyüləndə elə bilirəm ki, məndən ötrü gəliblər.

Ancaq Üzeyir bəy də, bu zaman onların evində olan başqa qohumlar da deyib ki, Əliəkbər, axı ali məktəbi qurtaranda sənə Berlində qalmaq, tələbələrin işləriylə məşğul olmaq təklif edilmişdi, ancaq qəbul etməyib demişdin ki, mən Azərbaycana dönmək, bilik və bacarığımı Vətənimə, xalqıma sərf etmək istəyirəm. Bax, bütün bunları Mircəfər Bağırova məktubla bildir, bəlkə köməyi oldu.

Qohumların məsləhətinə qulaq asan atam məktubu yazaraq Mərkəzi Komitəyə aparıb və orada nəqliyyat üzrə çalışan qohumumuz Hacı Sadıqovla görüşüb. H.Sadıqov deyib ki, Bağırovun ətrafı tamam ermənilərdir və onlar bizimkilərin şikayətlərinin birinci katibə çatmasına imkan vermir.

H.Sadıqov atamın məktubunu özü götürərək birbaşa Bağırovun katibəsinə verib və xahiş edib ki, şəxsən Bağırovun özünə çatdırsın. Bir neçə gündən sonra Bağırov atamın məktubunu oxuyub və təəccüblə soruşub: «Bəs Əliyevi nəyə görə?». Ətrafındakılar başlarını aşağı dikərək susub. Bağırov əmr edib ki, onu təcili geri çağırın.



Kafedra müdiri Əliəkbər Əliyev

Bu anda atam ailəsiylə birgə dəniz limanında bərənin yanında dayanaraq onları sürgünə aparası bərəyə mindirilməyi gözləyirmiş. Özü bərəyə yaxın durubmuş ki, tez minsin və yaxşı yer tutsun, çünki anam hamiləymiş (Akifi gözləyirmiş). Elə bu vaxt şinelli bir hərbçi adamlara yaxınlaşaraq soruşub ki, Əliəkbər Əliyev hansınızsınız? Atam qabağa çıxıb. Həmin hərbçi deyib ki, mənimlə gedəcəksən. Atam limana ailəmizi ötürməyə gəlmiş qohumlarına və iş yoldaşlarına tapşırıb ki, evimizdə qalanlara çatdırın ki, məni apardılar.

Həmin hərbçi atamı götürərək gəlib, ancaq hara getdikləri haqqında heç nə deməyib. Atam bir də görüb ki, Mərkəzi Komitəyə çatıblar. Dəhlizdə bir otağın qarşısından keçərkən o, burada işləyən bir sinif yoldaşının kabinetinə girmək istəsə də qoymayıblar, başqa bir kabinetə gətiriblər. Görüb ki, pasportu və başqa sənədləri burada stolun üstündədir. Deyiblər ki, sənədlərini götür get və işinə davam et.

Bundan sonra daha heç vaxt atamla işləri olmayıb.

* * *

Hamını udan əjdahanın ağzından salamat qurtulmuş Əliəkbər Əliyevin həyatında ən önəmli dəyişiklik 1938-ci ildə baş verdi – o, Azərbaycan Dövlət Universitetində (indiki BDU) Qərbi Avropa dilləri kafedrasında öncə müəllim, sonra da kafedra müdiri işlədi.

Respublikamızın ali məktəblərində Qərbi Avropa dillərinin öyrənilməsi, tədrisi və təbliği mühüm dərəcədə məhz Ə.Əliyevin adıyla bağlıdır. 1967-də təqaüdə çıxanadək həmin kafedraya başçılıq edən Əliəkbər bəy xarici dillərin tədrisini yaxşılaşdırmaq üçün mümkün olan və olmayan bir çox yeniliklər etmişdi. Ana dilindən başqa, alman, ingilis, fransız, rus dillərini də əla bilən Ə.Əliyev kafedrasına ən sanballı mütəxəssisləri cəlb edə bilmişdi. Qısa müddətdə burada 30-dan çox müəllimi birləşdirən çox savadlı, bacarıqlı və işgüzar kollektiv yaratmışdı. Həmin müəllimlərdən ikisi Fransadandı (*Potapova* Parisdən, *Krjijanovskaya*'sa Liondandı), alman dili müəllimi *Məhiş Səfərov*'sa Almaniyada onunla birgə oxumuş Cümhuriyyət tələbələrindəndi. Sovet hakimiyyətinin amansız repressiyalarına uğrayan M.Səfərovu Ə.Əliyev öz yanına çəkərək bir çox haqsız hücumlardan qorumuşdu.

Oğlu *Asəf bəy* atasından eşitdiyi bir əhvalatı bizə danışdı:



Müdir Əliəkbər Əliyev kafedra iclasını apararkən *(arxada ayaq üstdə Məhiş Səfərov)*

- Bir dəfə Moskvadan gələn hansısa komissiyanın üzvləri kafedranın müəllimi, «siyasi baxımdan etibarsız» Məhiş Səfərovu sorğu-suala tuturlar. Soruşurlar ki, sən «Pravda» qəzetini hansı səhifədən başlayaraq oxuyursan? Məhiş müəllim də ağlına gələni deyir ki, sonuncudan. Moskvalılar qayıdır ki, hə, deməli, səni ölkəmizdəki quruculuq işləri deyil, xaricdə baş verənlər daha çox maraqlandırır, buna görə də ilk növbədə 4-cü səhifəyə baxırsan.

Sürgün yollarında cəhənnəm əzabları yaşamış, möcüzə sayəsində ölümdən qayıtmış Məhiş müəllim yenidən o məşəqqətli günləri yaşaya biləcəyini göz önünə gətirərək sarsılır, özünü itirir. Bu zaman Əliəkbər müəllim işə qarışaraq komissiya üzvlərinə təpinir: - Siz nə haqla müəllimi bu cür təhqir edirsiniz? Şəxsən mən də «Pravda»nı oxumağa həmişə 4-cü səhifədən başlayıram, Deməli, mən düşmənəm? Məgər son səhifədən başlamaq dövlətə inamsızlıq göstəricisidir? Bu, nə cəfəngiyatdır?!

Komissiya üzvləri kafedra müdirinin sərt mövqeyi qarşısında geri çəkilərək M.Səfərovu sıxma-boğmaya salmaqdan əl çəkirlər...

Kafedranın texniki təchizatı da Ə.Əliyevi ciddi düşündürüb. Bu məqsədlə o, Moskvaya gedərək Moskva Dövlət Universitetində və SSRİ Maarif Nazirliyində olub və kafedranın linqofon kabineti üçün çoxlu sayda maqnitofonların Bakıya gətirilməsini bacarıb.

Ümumiyyətlə, hədsiz tələbkar, eyni zamanda da hədsiz qayğıkeş insan olan Əliəkbər bəy yalnız müəllim yoldaşlarına deyil, tələbələrə də canıyananlıqla, milli təəssübkeşliklə yanaşırdı. *Kafedra müəllimlərindən tələb edirdi ki, rayondan gələn azərbaycanlı uşaqları qəbul imtahanında xarici dildən kəsməsinlər, çünki onlar bu fəndən «2» alanda onların yerinə universitetə ruslar, ermənilər, yəhudilər girir, halbuki rus dilini yaxşı bildiklərinə görə onların SSRİ-nin hər yerində oxumaq imkanları var.*

Məhz Ə.Əliyevin təşəbbüsüylə universitetin akt zalında *Azərbaycanda ilk dəfə olaraq xarici dil gecələri keçirilib.* Bu gecələrdə xarici yazıçıların (Şekspir, Dikkens, Moem və b.) əsərləri, eləcə də dahi *Üzeyir bəy Hacıbəyli*'nin məşhur



Əliəkbər Əliyev tələbələri ilə

*"Arşın mal alan"*ı alman dilində səhnələşdirilmişdi. Qısa müddətdə bu gecələr respublika gəncləri, tələbələri arasında o qədər məşhurlaşmışdı ki, akt zalı həmişə ağzınadək dolu olurdu.

Özünün elmi səviyyəsini də daim yüksəldən Ə.Əliyev 1948-də alman dili və Azərbaycan türkcəsinin müqayisəli qrammatikası mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi alıb. O, bir sıra dərslik (*"Alman dilinin qrammatikası"*, ikicildlik *"Alman dili"* dərsliyi və b.) və lüğətlərin, alman dili və Azərbaycan türkcəsinin müqayisəli qrammatikası üzrə sanballı elmi məqalələrin müəllifidir. Elmi-pedaqoji fəaliyyətini nəzərə alan filologiya fakültəsinin elmi şurası ona professor adı verilməsini universitet elmi şurasına təklif etmişdi.

* * *

Əliəkbər Əliyev gözəl mütəxəssis olduğu kimi həm də nümunəvi ailə başçısıydı.

1925-ci ildə – Almaniyadan qayıdandan az sonra Şuşa bəylərindən *Səlim bəy Əliverdibəyov*'un qızı *Ənbər xanımla* ailə quran Əliəkbər bəy onunla uzun illər boyu xoşbəxt yaşamışdı. Xatırladım ki, Səlim bəy *Üzeyir bəy Hacıbəyli*'nin xalası *Gövhər xanım*'ın əriydi. Buna görə də Əliəkbər bəylə Üzeyir bəyin ailəsi arasında yaxın ünsiyyət, sürəkli gediş-gəliş vardı. Ə.Əliyev Üzeyir bəylə tez-tez görüşər, onunla dostluq edər və ondan dəyərli məsləhətlər alardı.



Əliəkbər Əliyevin kitablarından biri

Yeri gəlmişkən, bir dəfə *Mircəfər Bağırov* Əliəkbər Əliyevin bacısı oğlu *Məmməd Hilal oğlu Əliyev*'lə söhbətində deyibmiş ki, sənin dayın sovet hökumətindən qorxmayıb gedib bəy qızı aldı...

Məşhur yazıçı *Yusif Vəzir Çəmənzəminli*, dərin muğam bilicisi və ifaçısı *Ağalar bəy Əliverdibəyov* (Ənbər xanımın dayısı) da onun yaxın qohumları olmaqla yanaşı, həm də yaxın



Soldan sağa. Ön sırada oturan böyüklər: Yusif Salahlı, Məryəm xanım – Yusif Salahlının yoldaşı, Nabat xanım – Yusifin anası, Ənbər xanım – Əliəkbər Əliyevin yoldaşı, Ayna xanım – Əliəkbərin anası, Əliəkbər Əliyev. *Arxada:* Məhbubə xanım Əliverdibəyova oğlu Kazımla, Nüşabə Ağalar bəy qızı, Ağalar bəy Əliverdibəyov, Sona xanım – Yusif Salahlının bacısı, Əliəkbərin oğlu Nadir. *Öndəki uşaqlar:* Rasim və Nazim Əliverdibəyovlar, Əliəkbərin oğlu Rafiq, Əliəkbərin qızı Elmira. Kislovodsk, 25 sentyabr 1935-ci il

dostlarıydı. Onlar tez-tez bir yerə yığışar, ədəbiyyat və incəsənətimizin, o sıradan muğamlarımızın keçdiyi və keçəcəyi yolları, müxtəlif ustadların muğamların ayrı-ayrı guşələrini necə oxumasını saatlarla ciddi şəkildə müzakirə edər, sonra hərəsi bir alətdə çalaraq Ağalar bəyin məlahətli səsindən zövq alardılar. Bu görüşlər əsl ziyalı yığıncağı, ciddi müzakirə meydanı olardı.

Əliəkbər Əliyevin 5 övladı olmuşdu: 4 oğlu və 1 qızı. Qızı *Elmira* gəncliyində dünyasını dəyişib, oğlu *Akif*'sə həyatlərində hərbçinin ehtiyatsız atdığı güllədən həlak olub. Böyük oğlu *Nadir* (1926-1994) ticarət işçisiydi. *Rafiq* (1930) mühəndisdi; zavod direktoru, şöbə müdiri və b. vəzifələrdə çalışıb. *Asəf* (1935) geoloqdur.



Əliəkbər Əliyevin həyat yoldaşı Ənbər xanım Səlim bəy qızı Əliverdibəyova

Əliəkbər bəy övladlarını doğrucul, ədalətli, haqsevər insanlar kimi tərbiyə edir, onlara ailədən heç nəyi gizlətməməyi, kiçik sirlərini belə ata-anaya danışmağı tövsiyə edirdi. Oğlu Asəfdən eşitdiyim:

- Biz ailəmizdən heç nəyi gizlətməzdik. Mən 32-ci məktəbdə oxuyurdum. Fransız dili müəlliməmiz dərsdə dedi ki, valideynləriniz sizə çar dövründə yaxşı yaşadıqlarını desələr onlara inanmayın. Mən də eşitdiklərimi evdə atama danışdım. O, bərk əsəbiləşdi və səhər mənimlə məktəbə getdi. Direktorun yanına girib soruşdu ki, siz sovet vətəndaşı, yoxsa hitleryugend yetişdirirsiniz? Sizin tərbiyə sisteminizlə faşistlərin sistemi arasında nə fərq oldu? Onlar da ata-anaya yox, Hitlerə inanmağı təbliğ edir, siz də uşaqlara aşılayırsınız ki, ata-ananıza inanmayın.



Əliəkbər Əliyev əzizləri ilə

Atamın qırımını pis görən direktor əl-ayağa düşərək həmin müəlliməni çağırdı və onu bərk danlayaraq bir də belə sözlərə yol verməməyi tapşırdı.

Yeri gəlmişkən, Əliəkbər bəyin bu kiçik oğlu Asəfdən ayrıca danışmağa ehtiyac duyuruq.

* * *

12 noyabr 1935-də Bakıda doğulmuş *Asəf Əliəkbər oğlu Əliyev* gənc nəslə örnək olacaq dərin mənalı, ibrətamiz, elmi axtarış və kəşflərlə dolu bir ömür yaşayıb. O, 1953-də orta məktəbi uğurla bitirərək Azərbaycan Dövlət Universitetinin geologiya-coğrafiya fakültəsinə daxil olub və oranı 1958-də başa vurub. Hələ sovet dönəmində dünya geologiya elmindəki yenilikləri daha yaxşı öyrənməkdə ingilis dilinin əvəzsiz rol oynadığını görən gənc mühəndis bu arzuya çatmaqçün 1963-də Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinin axşam şöbəsinə də girib və 1967-də ingilis dili mütəxəssisi diplomu da alıb. 1966-cı ildə o, geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün *"Tutqun qızıl filizi zolağının mineralogiyası və mineral parageneziləri"* mövzusu üzrə dissertasiya müdafiə edib.

Asəf Əliyev mürəkkəb və çoxşaxəli həyat və fəaliyyət yolu keçib. O, Azərbaycan EA Geologiya İnstitutunda böyük laborantdan böyük elmi işçi vəzifəsinədək yüksəlib.

1968-69-cu illərdə *Birləşmiş Millətlər Təşkilatının Misir Ərəb Respublikasında eksperti* kimi mühüm vəzifədə çalışıb, 1972-73-cü illərdəsə *ABŞ-ın* bütün dünyada məşhur olan *Harvard Universitetində elmi məzuniyyətdə olub*. O, *ABŞ-ın Kolumbiya Universiteti* və *Massaçusets Texnoloji Universitetində* yeni müasir üsullarla mineral və filizlərin öyrənilməsi metodikalarını mənimsəyib və Azərbaycan filizlərini bu metodikalar əsasında araşdırıb. Bütün bunlarla yanaşı o, *Corctaun Universitetinin* və *Triniti Kollecinin* ingilis dili sahəsində təkmilləşdirmə kurslarında fəal dinləyici olub. Boynumuza alaq ki, sovet dönəmində bu cür nailiyyət hər kəsə nəsib olmurdu, çünki



Əliəkbərin oğlu Asəf



Əliəkbərin oğlu Rafiq

Moskva xüsusən Azərbaycandan olan milli kadrların xarici ölkələrə yolunu kəsirdi.

1980-ci ildən Moskvadakı SSRİ Geologiya Nazirliyi nəzdində olan Əlvan və Nəcib Metallar İnstitutunun Bakıdakı Cənub filialında laboratoriya müdiri, partiya (dəstə) rəisi, baş geoloq vəzifələrində çalışan A.Əliyev 1993-cü ildən həmin filialın elmi işlər üzrə direktor müavini işləyib. Çalışdığı bu dövrlər ərzində A.Əliyev SSRİ Geologiya Nazirliyinin *"Yer təkinin əlaçı kəşfiyyatçısı"* döş nişanına və dəfələrlə Azərbaycan EA Rəyasət Heyətinin fəxri fərmanlarına layiq görülüb.

Müstəqilliyimiz dövründə Əlvan və Nəcib Metallar İnstitutunun Cənub filialı Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyi sisteminə verilib, onun əsasında Mineral Xammal Elmi-Tədqiqat İnstitutu (MXETİ) yaradılıb. Asəf müəllim indi həmin institutda *elmi işlər üzrə direktor müavinidir.*

Görkəmli alimi *Pakistanın Atom Energetikası Nazirliyi* filiz yataqlarının öyrənilməsində texniki kömək və məsləhətlər üçün 1994-cü ildə bu ölkəyə dəvət etmişdi.

Asəf Əliyev 80-dən çox elmi əsərin, o cümlədən 4 monoqrafiyanın müəllifidir. Azərbaycanda filiz və qeyri-filiz yataqları üzrə onlarca mineralı ilk dəfə məhz o aşkarlayaraq öyrənib. Zaqafqaziyada qızıl və bəzi filiz yataqlarında mineraləmələgəlmə birliklərinin dövriliyini ilk dəfə o sciyyələndirib. 2006-cı ildə 3 başqa müəlliflə birgə nəşr etdirdiyi 727 səhifəlik *"Azərbaycanca-rusca-ingiliscə-fransızca izahlı geoloji (geologiya, dağ-mədən işləri, Yer təkindən istifadə, texnologiya, metallogeniya, filiz yataqları) terminlər lüğəti"* onun dərin zəkasının və uzun illər boyu çəkdiyi ağır əməyin bəhrəsidir.

2005-ci ildə Asəf bəyin 70 yaşı çalışdığı kollektivdə təntənəylə qeyd olunub.

Bunu da bildirək ki, hələ tələbəlik illərindən filateliya və numizmatikayla məşğul olan Əliəkbər Əliyevin işini indi oğlu Asəf və nəvələri davam etdirir.

* * *

Azərbaycan Cümhuriyyətinin xaricə oxumağa göndərdiyi tələbələrdən biri – Əliəkbər Məşədi Qəhrəman oğlu Əliyev haqqında indiyədək qələmə alınmış ən geniş yazı burada sona yetir. Ancaq inanmaq istərdim ki, Bakı Dövlət Universitetində uzun illər boyu Azərbaycan elminə sədaqətlə qulluq etmiş bu görkəmli şəxsin əməyinə layiqincə qiymət veriləcək – onun yubileyləri qeyd olunacaq, həyat və yaradıcılıq yolu elmi tədqiqat mövzusu olaraq diplomçulara və dissertantlara veriləcək, BDU-nun xarici dillər kafedrasında ona həsr olunmuş guşə yaradılacaq... İnşaallah!



Asəf Əliəkbər oğlu Əliyev

Əliyev Əşrəf Ağaəli oğlu

(02.04.1900, Şuşa – 03.05.1938)



Əşrəf Əliyev. Paris, 1920

Cümhuriyyət tələbələri içərisində ictimai işlərdə ən fəal iştirak edənlərdən və vətənə döndükdən sonra öz bacarığı ilə yüksək mövqe tutmağı bacaran, ancaq sovet cəza aparatından yayına bilməyənlərdən biri də Əşrəf Əliyevdir.

Bu başdan oxuculara bildirək ki, Əşrəf Əliyevin əsli-nəsli Şuşadandır. Ancaq 1921-ci ildə İstanbuldan Almaniyaya rahat gedə bilməsi üçün ona saxta İran pasportu düzəldilib. Təbiətcə diribaş və gözüaçıq adam olan Ə.Əliyev bu pasportdan 1930-cu illərin ortalarınadək yararlanmağı bacarıb, ancaq sonra həmin pasport hakimiyyətdəki düşmənlərinin əlinə onu aradan götürməyə fürsət verdi...

* * *

Vladiqafqaz camaatı mollasının 16 iyul 1910-cu ildə verdiyi 11 saylı doğum şəhadətnaməsində yazılır ki, Əşrəf, Ağaəli Əliyevin qanuni oğludur və onun qanuni arvadı Məşədi Bilqeyis Kərbəlayı Qasım qızından 2 aprel 1900-cü ildə doğulub.[1]

Müsəlman, 2 aprel 1900-cü il doğumlu Əşrəf Ağaəli oğlu Əliyevin 223 saylı kamal attestatından görünür ki, o, Vladiqafqaz gimnaziyasına girərək[2] 30 aprel 1919-cu ilədək orada əla əxlaqla oxuyub, səkkizsiniflik tam kursu bitirib və bu zaman aşağıdakı bilikləri qazanıb:

Şəriət –	
Rus dili və ədəbiyyatı –	5 (beş)
Fəlsəfi propedevtika –	5 (beş)
Latın dii –	4 (dörd)
Fransız dili –	5 (beş)
Alman dili –	5 (beş)
Riyaziyyat –	5 (beş)
Riyazi coğrafiya –	5 (beş)
Fizika –	4 (dörd)
Tarix –	5 (beş)
Coğrafiya –	5 (beş)
Qanunşünaslıq –	4 (dörd).

Attestat Tersk əyaləti Vladiqafqaz şəhərində 1 may 1919-cu ildə verilib.[3]

Orta məktəbi bitirən Əliyev həmin ilin sentyabrında Rostov Universitetinin tibb fakültəsinə girərək bir semestr orada oxuyub. Bu zaman Cümhuriyyətin xarici ölkələrə tələbə göndərmək niyyəti bəlli olub və Əşrəf də bundan yararlanmaq istəyib. Gərəkli sənədləri hazırlamağa başlayıb. Vladiqafqaz kişi gimnaziyasının direktoru 14 may 1919-cu ildə 339 saylı belə bir vəsiqə verib ki, gimnaziyanın keçmiş səkkizinci sinif şagirdi Əşrəf Əliyev burada oxuyarkən kasıblığına görə təhsil haqqından azad edilib.[4] Bu arayış vacib sənədlərdən biri idi.

[1] ARDA, fond 51, siyahı 3, iş 57, vv. 3-3a.
[2] Girmə tarixi yazılmayıb.
[3] ARDA, fond 51, siyahı 3, iş 57, vv. 2-2a.
[4] Yenə orada, vərəq 4.



Əşrəf Əliyev. İstanbul, 1921

Xaricə göndəriləsilər Azərbaycan təbəəsi olmalı idi. Başqa dövlətlərin təbəələri isə təqaüdçülər sırasına düşmək üçün hökmən Azərbaycan vətəndaşlığını qəbul etməyə məcburdular. Bu zaman heç bir problem yaranmasın deyə "Şuşa şəhərinin sakini" Əşrəf Əliyev Bakı şəhərində 31 avqust 1919-cu ildə Müsəlman Tələbə Komitəsinə ərizə yazaraq onu hökumətin Qərbə göndərdiyi tələbələr sırasına salmağı xahiş edib və Cenevrə şəhərində Dağ İnstitutunda oxumaq istədiyini bildirib.[1] Təbii ki, bu zaman onun Şuşadan olması heç bir şübhə doğurmayıb və ondan təbəəliyini dəyişmək də tələb edilməyib.

Medalçı[2] abituriyent Əşrəf Əliyev tələbələrin Qərbi Avropaya göndərilməsi üzrə Komissiyaya 21 noyabr 1919-cu ildə yazdığı son ərizədə xahiş edib ki, məni dağ, yollar, yaxud mexanika ixtisaslarından birinə göndərin, ancaq xalqşünaslıq ixtisasına yox, çünki bu ixtisasa heç həvəsim yoxdur; ilk ərizəmdə mən İsveçrədə Dağ İnstitutuna girmək istədiyimi bildirmişdim.[3]

Əşrəf Əliyevə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına xaricə oxumağa göndərilməsi haqqında 493 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[4]

Əliyev 1920-1925-ci illərdə Almaniyanın Frayberq şəhərindəki Dağ-Mədən Akademiyasında oxuyaraq oranı 30 yanvar 1925-ci ildə geodeziya ixtisasını bitirib. Maraqlı burasıdır ki, özünün dediyi kimi, həm dağ mühəndisi, həm də markşeyder diplomları alıb.

* * *

Cümhuriyyət devrilib Azərbaycanda kommunist rejimi qurulduqdan sonra xaricdəki tələbələrimizin qara günləri başlandı, çünki sovet hakimiyyəti onlara uzun müddət təqaüd vermədi. Bu zaman Almaniyadakı Azərbaycan Tələbələri Komitəsi Əşrəf Əliyev və Səmsəndər Axundzadəni Bakıya göndərdi. Berlində 19 may 1921-ci ildə verilmiş 84 saylı mandatda yazılmışdı: "Bu, yol. Əşrəf Əliyevə ona görə verilib ki, onu Almaniyada Azərbaycan Tələbələri Komitəsi Azərbaycan Cümhuriyyəti Hökuməti ilə Qərbi Avropada (Almaniya, Fransa və İtaliyada) təhsil alan təqaüdçü tələbələrə maddi yardım haqqında danışıqlar aparmaq üçün göndərir. Komitə Rusiya Sovet Respublikasının bütün müəssisələrinə yuxarıda adıkeçən nümayəndəyə uyğun yardım göstərmək xahişi ilə müraciət edir".[5]

Mandatı Komitənin sədri Abbasmirzə Əliyev və katibi Qəhrəman Məmmədov imzalayıblar, ona Almaniyada Azərbaycan Tələbələri Komitəsinin möhürü basılıb. Mandatın arxasında yazılıb: "Azərbaycan İctimai Şura Cümhuriyyətinin nümayəndəliyi təsdiq edir ki, Əliyev Əşrəf Qərbi Avropada oxuyan azərbaycanlı tələbələrin nümayəndəsidir".

Mətnin altında imza qoyulub və Azərbaycan İctimai Şura Cümhuriyyətinin Rusiyadakı səlahiyyətli nümayəndəliyinin möhürü basılıb. Bundan aşağıda Rusiya Xarici İşlər Nazirliyinin ştampı basılıb və üstündə yazılıb: "Xalq Xarici İşlər Komissarlığında qeydə alınıb. 28/V.1921-ci il, №1190a".

Ondan da altda Rusiya Xarici İşlər Komissarlığının 3345 və 5087 saylı vizaları verməsi möhürlə təsdiqlənib.[6]

[1] ARDA, fond 51, siyahı 3, iş 57, vərəq 1.
[2] Gimnaziyanı əla qiymətlərlə bitirdiyinə görə aldığı medal nəzərdə tutulur.
[3] ARDA, fond 51, siyahı 3, iş 57, vərəq 6.
[4] Yenə orada, vərəq 9.
[5] AR MTN arxivi, PR-39087, vərəq 22.
[6] Yenə orada, vərəq 22a.

Frayberq Dağ-Mədən Akademiyasını bitirmək ərəfəsində Əliyev oraya özü haqqında bu bilgini yazaraq verib:

"Mən, Əşrəf Əliyev 04.05.1900-cü ildə Şuşada anadan olmuşam. 1919-cu ildə Vladiqafqaz (Şimali Qafqaz) gimnaziyasını bitirmişəm. 1919-cu ildə 1 semestr Rostov Universitetində tibb ixtisası üzrə oxumuşam. 1920-ci ildə Azərbaycan Cümhuriyyəti təqaüdü əsasında Almaniyaya təhsil almaq üçün göndərilmişəm. 10.4.1920-ci ildə Frayberq Texniki Universitetinə daxil olmuşam və indiyə kimi də təhsilimi davam etdirirəm. Diplom imtahanlarımın hamısını (1922-23) uğurla vermişəm. Praktikamı 345 iş növbəsində (345 Schichten) yerinə yetirmişəm. […] Frayberq, 17.04.1924".[1]



Almaniyada oxuyan tələbələrimizdən. *Soldan sağa: Ondə:* Əlimuradbəyli Cəmil, Əliyev Əşrəf. *Arxada:* Axundzadə Səmsəndər, Axundov İsmayıl, Salahlı Yusif

Əliyevlə eyni vaxtda Almaniyada oxumuş Mirsadıq Kamil oğlu Sadıqov 7 fevral 1937-ci ildə "NKVD" zindanında şahid kimi dindirilərkən demişdi:

"Əliyev Əşrəfi 1920-ci ildən tanıyıram. 1920-ci ilin yanvarında məni Müsavat hökuməti başqa tələbələrlə birlikdə xaricə oxumağa göndərdi. Bakıdan gedərkən qatarda Əliyev Əşrəflə tanış oldum. Onunla İtaliyayadək getdik. Orada ayrıldıq. Əliyev Əşrəfin də daxil olduğu bir qrup Fransaya getdi, mən başqa bir qrupla Almaniyaya yollandım. İkinci dəfə onunla Almaniyada Dağ-Mədən Akademiyasında oxuduğumuz Frayberq şəhərində görüşdük. O, dağ fakültəsində, mən isə metallurgiya fakültəsində oxuyurduq…

Tələbələrə Müsavat hökuməti xarici pasportlar vermişdi. Əliyev Əşrəfdə də həmin pasportdan olmalı idi, çünki Müsavat hökuməti başqa təbəəliyi olanları xaricə göndərmirdi… Əvvəl-əvvəl o, özünü Müsavat Azərbaycanının təbəəsi kimi göstərirdi, ancaq Azərbaycan sovetləşəndən sonra Əliyev Əşrəf təqaüd məsələsini aydınlaşdırmaqdan ötrü tələbələrin nümayəndəsi kimi ASSR-ə göndəriləndə onun əlində İran pasportu göründü. İran pasportunu harada və necə əldə etdiyini bilmirəm. Bəli, biz paroxoddа İstanbuldan keçmişik. Orada 2-3 gün qalıb sahilə sərbəst çıxışımız və İstanbulu gəzməyə imkanımız olub".[2]

"O, dərsdən kənar vaxtlarda mühacirlərin daha çox toplaşdığı Drezden şəhərində yoxa çıxırdı. Güman etmək olar ki, o elə onlarla oturub-dururmuş… Əliyev Əşrəf geninə-boluna yaşayır, başqa tələbələrin təqaüdlə necə yaşadığını bilmirdi".[3]

[1] http://az.wikipedia.org/wiki/Frayberqin_az%C9%99rbaycanl%C4%B1_t%C9%99l%C9%99b%C9%99l%C9%99ri
[2] AR MTN arxivi, PR-39087, vərəq 123.
[3] Yenə orada, vərəq 124.

***



Əşrəf Əliyev həbsdə. 1936

Ali təhsilini bitirib böyük arzu və umudlarla vətənə dönən, öz ixtisası üzrə həvəslə çalışan Əşrəf Əliyev də başqa Cümhuriyyət tələbələri kimi "NKVD" inkvizisiyasından qurtula bilmədi.

Doğrudur, Əşrəf Əliyev 1937-ci ilə çatsaydı o zaman, o dönəmdən də keçə bilsəydi 1941-ci ilin iyununda hökmən tutulacaqdı. Onun daha tez – 1936-cı ildə tutulmasının səbəbi başqadır. Bu səbəbi isə səbəbkarın özündən öyrənirik. Onunla Almaniyada bir yerdə oxumuş Mirsadıq Sadıqov da zindanda yatarkən 1941-ci ildəki dindirməsində demişdi: *"Bakıya gəlincə mən Əliyev Əşrəflə Stalin rayonunda işlədim; burada o, müxtəlif sahələrdə öncə istismarda, sonra isə 1928-ci ildən 1932-ci ilədək qazmada işlədi. 1936-cı ildə mən Əliyev Əşrəfə dair XDİK orqanlarına material ötürdüm. Bundan başqa, mən vaxtında xəbərdarlıq etdim ki, Əliyev Əşrəfin İran pasportu var".*[1] Bununla da Əşrəf Əliyevin kitabı bağlanmışdı.

Bəs "material ötürməyə" səbəb nə olmuşdu? Adicə insan paxıllığı! Əşrəf Əliyev Lenin ordeni almışdı, bunu gözü götürməyən Sadıqov dünənki ən yaxın dostunu güdaza vermişdi...

Lətif Qədimi 13 oktyabr 1940-cı il dindirməsində deyib:

"Qabaqlar Sadıqovun yaxın dostu Əşrəf Əliyev idi. Əşrəf Əliyev ordenlə təltif edilmişdi. Buna görə Sadıqov narazılığını bildirirdi ki, onu saymayıblar və orden verməyiblər. Onun narazılığı rəhbərliyin ünvanına hər cür iftiralarla müşayiət olundu. Orden almaması onun millətçi ifadələr söyləməyinə əsas oldu. O deyirdi ki, bütün rəhbər vəzifələri ruslar tutub, azərbaycanlıları irəli çəkmirlər. Onun fikrincə, Azərbaycan azad respublika deyil və rusların sərəncamındadır".[2]

Bununla bağlı Sadıqovun özü istintaqda deyib: *"Təkrar edirəm ki, incimişdim ki, məni işdən qeyd etməyiblər. Öz inciklik və narazılığımı yetərincə açıq bildirmişəm".*[3]

Azərneftkəşfiyyatda mühəndis işləyən Y.A.Şvarts 1942-ci ilin 13 yanvarında şahid kimi dindirilərkən M.Sadıqov və Ə.Əliyevi nəzərdə tutaraq deyib:

"Hər ikisi Azərneftin rəis müavini Ağaverdiyevin güclü dəstəyindən yararlanırdı. Sonralar Əliyev Əşrəf Lenin ordeni ilə təltif edildi, bu, Sadıqovu açıq-aşkar qıcıqlandırdı. Açıqca deyirdi ki, ondan yan keçiblər. Xatırlayıram ki, Sadıqov Əliyevlə dostluq etməsinə baxmayaraq onunla hələ Almaniyada olarkən hansısa şəxsi haqq-hesabı olduğunu mənə danışıb".[4]

Əşrəf Ağaəli oğlu Əliyevin ittihamı üzrə AR MTN arxivində saxlanılan PS-2444 (indi PR-39087) şifrəli cinayət işi 172 vərəqdir. Bu cinayət işində Əliyevin tərcümeyi-halıyla bağlı bir çox dəyərli bilgilər əksini tapıb.

Azərb. SSR XDİK DTİ 3-cü bölümü 9-cu bölməsinin rəisi, DT leytenantı Genkinin apardığı, 19 dekabr 1936-cı ildən 5 aprel 1937-ci ilədək çəkən 28 istintaqın protokollarında (31-111-ci vərəqlər) müttəhimin "cinayət"ini boynuna qoymaq üçün hansı üsullara əl atdığından yan keçərək, yalnız mövzumuzla bağlı faktları seçib təqdim edəcəyik.

Onun həbs edilməsi haqqında qərar 17 dekabr 1936-cı ildə verilib və həmin gün 1746 saylı həbs orderi imzalanıb.[1] Bakıda Qırmızı küçə[2] 2-dəki mənzilində axtarış aparılıb və bu əşyalar götürülüb: Lenin ordeni və onun kitabçası; 65 manatlıq qızıl çar sikkələri; qızıl saat, qızıl zəncir, 28 ədəd nikel xarici sikkələr, 6 jeton və b.[3]

2301 saylı məhbus anketində bu bilgilər verilib: Əliyev Əşrəf Ağaəli oğlu – 1898-ci il doğumlu; doğum yeri – Təbriz şəhəri, yaşayış yeri – Bakı, Qırmızı küçə, 2-ci ev, 19-cu mənzil. Sənəti və peşəsi – neftçi mühəndis; iş yeri və vəzifəsi – "Molotovneft" 3-cü qazma qrupunun müdiri; kəndlilərdən; 1925-ci ilədək oxuyub, sonra qulluqçudur. Ali təhsilli, partiyasız, Türk, repressiyalara uğramayıb. Ailə tərkibi: arvadı – Nina, 24 yaş; anası Bilqeyis, 85 yaş. Həbs edilib: 18/XII.1936.[4]

"Kölnişe saytunq" qəzetinin müxbiri Artur Yust və "Alfred Virt" firmasının Bakıya gələn nümayəndələri Karl İmmiş və Alt Teygelerlə əlaqə saxladığına görə Almaniyanın xeyrinə casusluq etmək və antisovet sözlər söyləmək ittihamlarıyla həbs edilib.

Azərb. SSR XDİK DTİ 3-cü bölümü 9-cu bölməsinin rəisi, DT leytenantı Genkin və həmin qurumun 3-cü bölümünün rəis müavini, DT kapitanı erməni Xocamirov istintaqın uzadılması barədə SSRİ MİK Rəyasət Heyəti qarşısında 4 dəfə vəsatət qaldırıblar və buna nail olublar.[5] İstintaqın vaxtı, adətən, müttəhimin "dilini açmaq" üçün əlavə vaxta ehtiyac olanda, daha doğrusu, onu özünə və başqalarına böhtan atmağa məcbur etmək mümkün olmayanda uzadılırdı. Nəhayət, 18 iyun 1937-ci ildə Əliyevin 69-cu maddəsi 68-ci maddə ilə dəyişdirilib və bunun üzərinə əlavə 72-ci maddə də artırılıb və beləliklə, o, "ifşa edilmiş casus"a çevrilib.[6]

Cinayət işindəki maraq doğuran sənədlərdən biri 29 yanvar 1926-cı ildə Əşrəf Əliyevin öz əli ilə yazdığı tərcümeyi-halıdır. Həmin sənədin tərcüməsini olduğu kimi təqdim edirik.

"15 aprel 1898-ci ildə Gəncə valiliyinin Şuşa şəhərində anadan olmuşam. Valideynlərim: Ağaəli Əliyev sənətkar (daşyonan) idi və anam Bilqeyis Qasım qızı ev işləriylə məşğul olurdu. 1903-cü ildə atam öldü və özündən sonra heç bir var-dövlət qoymadı. Atamı erkən itirib yalnız böyük qardaşım Hacının himayəsində yaşadım, o da 1906-cı ildə bütün ailəmizi Vladiqafqaza (Şimali Qafqaza) apardı, orada məni oxutmağa başladı. 1909-cu ildə mən Vladiqafqaz kişi gimnaziyasına girdim. Orada 1910-cu ildən kasıblığıma görə təhsil haqqından azad edildim. 1914-cü ildən böyük qardaşıma daha yük olmaq istəmədim, doğma ailəmi tərk etdim, müstəqil yaşamağa başladım. Aşağı sinif şagirdlərinə özəl dərslər verməklə dolanışıq xərcləri qazandım. 1919-cu ilin başlanğıcında gimnaziyanı medalla bitirdim və Rostov Universitetinin tibb fakültəsinə qəbul olundum. Orada çox oxumadım, çünki bundan az sonra Azərbaycan hökumətinin hesabına başqa tələbələrlə birlikdə Qərbi Avropaya ali təhsil almaq üçün göndərildim və 10 avqust 1925-ci ilədək ASSR-in təqaüdçüsü oldum. Özümə dağ mühəndisliyi

[1] AR MTN Arxivi, PR-29995, vv. 19-20.
[2] Yenə orada, vərəq 56.
[3] Yenə orada, vərəq 49.
[4] Yenə orada, vərəq 59a.

[1] AR MTN arxivi, PR-39087, vərəq 5.
[2] İndiki Neftçi Qurban küçəsi.
[3] AR MTN arxivi, PR-39087, vərəq 6.
[4] Yenə orada, vərəq 11.
[5] Yenə orada, vv. 14, 16, 17, 18.
[6] Yenə orada, vərəq 13.

ixtisasını seçdim və Almaniyaya (Frayberq şəhərinə) getməyi qərara aldım, Bakıdan 1920-ci ilin yanvarında çıxdım və Almaniyadadək olan yolda keçdiyimiz bütün ölkələrdə dayandım ki, bu ölkələrlə tanış olmaq imkanından yararlanım.

1920-ci ilin 26 martında mən Frayberq Dağ-Mədən Akademiyasına qəbul olundum və onu 1925-ci ilin iyulunda bitirdim, 2 diplom aldım: dağ mühəndisi və markşeyder diplomları. Məşğələlərdən kənar vaxtlarda (tətil zamanı) mən 1920-1925-ci illərdə 18 ay Saksoniyada, Hannover əyalətində, Rur, Reyn və Elzasda şaxtalarda, mədənlərdə, zavodlarda işləmişəm. 1 avqust 1925-ci ildə A.P.Serebrovski[1] *məni alman və fransız neft mədənlərində 4 ay işləmək şərtilə Azneftə qulluğa götürüb. Mən neft üzrə Hannover (Ninchayen, Oberg) əyalətində və Elzasda (Pechelbrone) işlədim.*

Xaricdə olduğum vaxt Almaniyada Azərbaycan Tələbələri Birliyinin və 1922-ci ildən genişləndirilmiş ZSFSR Tələbələri Birliyinin üzvü olmuşam. Əlbəttə, Almaniyadakı hər iki birlik rəsmi idi və sovet platformasında dururdu.

Qafqazda (Vladiqafqazda) mən bütün idman təşkilatlarında: gimnastika, futbol, velosiped, laun-tennis və b. geniş iştirak etmişəm.

İndiyədək heç bir siyasi təşkilatda olmamışam, indi də deyiləm və heç bir siyasi hadisədə iştirak etməmişəm, çünki bütünlüklə orta məktəbdə dərslərə və özəl dərslər deməyə başım qarışıb. Heç zaman məhkəməyə düşməmişəm və inzibati cəzalar almamışam. Bakıya 26 dekabr 1925-ci ildə gəlmişəm və 28 dekabr 1925-ci ildə Bibiheybət rayonu ikinci mədəninin müdir yardımçısı təyin edilmişəm".[2]

* * *

Əşrəf Əliyevə qarşı irəli sürülmüş ittihamlardan biri budur:

"1920-ci ildə Əliyev Əşrəfi Müsavat hökuməti Almaniyaya oxumağa göndərib. Xaricdə olarkən o, İranda doğulması haqqında saxta sənəd əldə edib, xarici vətəndaşlıq düzəldib və Almaniyada İran təbəəsi kimi qeydə götürülüb, halbuki köklü azərbaycanlı olub".[3]

Bu faktı yoxlamaq üçün sovet orqanları Almaniyaya müraciət edib və belə bir cavab alıblar:

"Frayberq, Saksoniya, 31 may 1930-cu il. Şəhadətnamə. Məktubunuza əsasən təsdiq edilir ki, 2 aprel 1898-ci ildə Təbrizdə (İranda) doğulmuş cənab diplomlu mühəndis Əşrəf Əliyev 23 mart 1920-ci ildən 10 avqust 1925-ci ilədək fasilələrlə burada yaşayıb və bütün bu müddət ərzində burada İran təbəəsi kimi qeyd olunub.

Saksoniyada Frayberq şəhər polisi (imza), şəhər idarəsi müfəttişi (imza). Tərcümə etdi: Məhəmməd Paşa oğlu Rəhimli. Bakı, 20 noyabr 1930-cu il".[4]

Əslində burada heç bir cinayət hadisəsi yox idi və gerçəkdən nə baş verdiyini Bəhram bəy Axundovun 1922-ci ildəki hesabatından dəqiq öyrənirik. O, Avropadakı tələbələrin nümayəndəsi kimi Azərbaycana göndərilmiş Əşrəf Əliyev və Səməndər Axundzadəni də özü ilə götürərək Avropaya tələbələrin durumunu öyrənməyə gedərkən onlarla birgə İstanbuldan keçib. Bu şəhərdə olarkən Avropaya getmək üçün pasport alarkən oraya sovet pasportu ilə daxil olmağın mümkünsüzlüyünü görüb və buna görə də çoxlu pul xərcləyərək həmin tələbələrə saxta İran pasportu düzəltməyə məcbur olub ki, onları Avropaya buraxsınlar.

[1] Azərneftin başçısı.
[2] AR MTN arxivi, PR-39087, vv. 14-14a.
[3] Yenə orada, vərəq 163.
[4] Yenə orada, vərəq 27.

Bu haqda Bəhram bəy yazır: *"İstanbuldakı Azərbaycan tələbələrinə vəsait verdikdən sonra yanımdakı 4 tələbədən üçünü Almaniyaya və birini Fransaya göndərdim, onları İran pasportları ilə təchiz etdim; bu, baha başa gəlsə də başqa cür etmək olmazdı".*[1] Xatırladaq ki, bu olay 1921-ci ilin iyul ayında baş verib.

Bu məsələni müstəntiq 29 dekabr 1936-cı ildəki ilk istintaqdanca aydınlaşdırmağa çalışıb.

"*Sual:* Doğum yerinizi dəqiqləşdirin, çünki protokolda doğum yerinizi Təbriz şəhəri (İran) göstərirsiniz, halbuki Azərneft üzrə doldurduğunuz anketlərinizdə doğum yerinizi Şuşa şəhəri göstərirsiniz.

Cavab: 1907-ci ildə mən Vladiqafqazda progimnaziyaya girdim, çünki uşaqdım və məni götürmədilər. Mən molladan 1901-ci ildə doğulmağım haqqında arayış aldım, orada göstərildi ki, Şuşa şəhərində doğulmuşam. Əslində isə mən 1898-ci ildə Təbriz şəhərində (İran) doğulmuşam.

Sual: 1926-cı ildə Azərneft üçün anket doldurarkən orada niyə Şuşada doğulduğunuzu göstərmisiniz?

Cavab: Mənim bütün tədris sənədlərim, yəni gimnaziyanı bitirməyim haqqında attestat və Frayberq Dağ-Mədən Akademiyasını bitirməyim haqqında aldığım diplomda mən Şuşa şəhərinin yetirməsi kimi qeyd olunmuşam və Azərneft üçün doldurduğum anketlərdə də göstərmişəm ki, Şuşa şəhərinin yetirməsiyəm. Bunu mən qorxumdan etmişəm ki, attestatım və anketim arasında doğum yeri ilə bağlı fərq yaranarsa birdən məni Azərneftə işə götürməzlər. [...] Bəli, Şuşa şəhərində doğulmağım haqqında arayış məktəbə təqdim etmək üçün idi. Mən Vladiqafqazda sovetləşməyə qədər Rusiya imperiyasının vətəndaşı olaraq yaşamışam...

1925-ci ildə Almaniyadan qayıdaraq mən Bakı şəhərində 1929-cu ilədək sovet vətəndaşı kimi yaşamışam...

Sovet vətəndaşı kimi yaşayaraq mənim sovet vətəndaşlığımı müəyyənləşdirəcək heç bir sənədim olmayıb... 1929-cu ildən sonra mən İran pasportu ilə İran təbəəsi kimi yaşamışam. O pasportu mən Moskvadakı İran səfirliyindən almışam, onu hələ Almaniyada aldığım köhnə İran pasportunun əvəzinə almışam... Berlində aldığım köhnə İran pasportum əsasında 1929-cu ildə İran vətəndaşlığımı qeyd etdirərkən bu məqsədi güdürdüm ki, zərurət yaranarsa Sovet İttifaqından xarici təbəə kimi gedə bilim.

Sual: Bakıya birinci dəfə nə vaxt gəlmisiniz?

Cavab: Bakıya birinci dəfə 1917-ci ildə Qafqazın müsəlman şagirdlərinin qurultayına Tersk əyaləti müsəlman şagirdlərinin nümayəndəsi kimi gəlmişəm. Sonra 1919-cu ildə idman səyahəti təşkil edərək velosipedlə Vladiqafqazdan Tiflisə, oradan isə qatarla Gəncəyə gəlmişəm. Gəncədən velosipedlə Yevlax, Ağdam və Şuşaya getmişəm. Şuşadan velosipedlə Yevlaxa qədər və oradan qatarla Bakıya və artıq Bakıdan Vlafiqafqaza qatarla geriyə dönmüşəm.

Sual: Siz xaricə göndərilən Müsavat təqaüdçüləri sırasına necə düşmüsünüz?

Cavab: 1919-cu ildə Bakıda olarkən təsadüfən qəzetlərdən öyrəndim ki, Müsavat hökumətinin hesabına sonralar həmin hökumət üçün 4 il xidmət etmək şərtilə xaricə oxumağa göndərməkdən ötrü tələbələr yığılır. Mən Müsavat hökuməti Maarif Nəzarətinin adına ərizə yazaraq orta məktəbi bitirmək haqqında attestatımın surətini əlavə etdim və məni xaricə göndəriləcək tələbələr sırasına salmağı xahiş etdim. Göndəriləcək tələbələr

[1] ARDA, fond 410, siyahı 1, iş 342, vərəq 5.

sırasına düşməyə umud bəsləməyərək Vladiqafqaza döndüm, oradan Rostova getdim və tibb fakültəsinə qəbul olundum. Bakıda Vladiqafqazdan tanıdığım bir tanış tələbəyə, eləcə də indi də Almaniyada olan Əliyev Mikayıla tapşırmışdım ki, məni qəbul etsələr bu haqda mənə xəbər verin... Bəli, Müsavat hökumətinin təqaüdçüləri sırasına mən tam təsadüfən düşmüşəm...".[1]

20 dekabr 1936-cı ildəki 2-ci dindirmədə Əliyev yenə İran təbəəliyi məsələsinə aydınlıq gətirir:

"...Almaniyada təhsil aldığım bütün illərdə İran təbəəsi kimi yaşamışam... İran təbəəliyimi ilk dəfə keçib getdiyimiz İstanbuldakı (Türkiyə) İranın baş konsulluğunda qeydə aldırmışam...[2] *Bu, üstümdə olan, Təbriz şəhərində (İran) doğulduğumu göstərən doğum şəhadətnaməsinə əsasən edilib...*

İran vətəndaşlığını mən İstanbulda ilk dəfə oxumağa getdiyim 1920-ci ildə deyil, 1921-ci ildə Almaniyada oxuyan tələbələrin sovet təqaüdü almasından ötrü nümayəndə kimi SSRİ-yə gəldiyim zaman Almaniyaya qayıdarkən yolüstü İstanbulda qeyd etdirmişdim...".[3]

"Sual: İran təbəəsi ola-ola Siz necə sovet təqaüdü almısınız?

Cavab: Sovet təqaüdünü mənə təhsilimi qurtarana qədər veriblər və bütün tələbələrə olduğu kimi ümumi əsaslarla SSRİ-yə dönmək üçün mənə yolpulu da verilib... Təhsili bitirincə mən Ticarət Nümayəndəliyindəki Azərneft nümayəndəsindən kağız aldım ki, Azneftdə işləməyə gedirəm. Bu arayışa mənim fotoşəklimi də yapışdırdılar və bu sənəd əsasında sovet pasportum olmadan viza aldım və SSRi-yə getdim".[4]

Bu son cümlələr də inandırıcıdır, çünki Bəhram Abdinovla da bağlı buna oxşar bir durum görmüşük – Berlindəki sovet nümayəndələri özlərinin ev əşyalarını tələbələrin adına yazdıraraq (guya bu tələbələr Azərneftin işçiləridir) SSRİ-yə göndərir və bundan ötrü onlara viza verirdilər. Çox güman ki, kimsə SSRİ-yə öz əşyalarını göndərməkdən ötrü Əşrəf Əliyevdən də bu cür istifadə edib və ona viza təşkil edib.

7-ci dindirmədə müstəntiq Əliyevə Almaniyada oxuyan tələbələrlə bağlı suallar verib və ondan bu cavabları alıb: "Rəqəmlərin dəqiqliyinə cavabdeh deyiləm, təxmini deyə bilərəm; 1920-ci ildə Müsavat hökuməti xaricə oxumağa cəmisi 85-87 nəfər göndərib, onlardan Türkiyəyə 13 nəfər, İtaliyaya 20 nəfər, Fransaya da 20 nəfər, qalanları isə Almaniyaya göndərilib.

Almaniyada oxumağa qalanlar şəhərlər üzrə təxminən bu cür bölüşdürülüb: Berlində və Berlin altında – 10-12 nəfər, Baden hersoqluğunda – 13-15 nəfər, hersoqluğun ayrı-ayrı şəhərlərində: *Ştutqartda – 3, Darmştadtda – 7-8, Karlsruedə – 3; Münxendə 4 nəfər oxuyub, Drezdendə 2 nəfər, Frayberqdə mənimlə birlikdə 7 nəfər.* [...]

Sual: Bu qədər azərbaycanlı tələbəni kim birləşdirib?

Cavab: Sovetləşməyə qədər tələbələri heç kim birləşdirməyib. Sovetləşmədən sonra *Azərbaycan Sovet Tələbələri Bürosu* yaradılıb, o, sonra *Sovet Tələbələri Bürosu* ilə qovuşdu.

Sual: Bu, rəsmi birlik idi. Tələbələrin öz arasında hansı birləşmələr və qruplaşmalar vardı?

Cavab: Almaniyadakı azərbaycanlı tələbələr arasında birliklər və qruplaşmalar olması mənə bəlli deyil. Bilirəm ki, tələbələr arasında bir qism müsavatçılar vardı, onlar bizdən

[1] AR MTN arxivi, PR-39087, vv. 32-33b

[2] Bu iki cümlə bir-birini inkar edir, çünki Əliyev tələbəliyə 1920-ci ildə başlasa da İran pasportunu 1921-ci ildə alıb.

[3] AR MTN arxivi, PR-39087, vərəq 34-34a. Bu cümlə Bəhram bəy Axundovun qeydi ilə üst-üstə düşür.

[4] Yenə orada, vv. 35-35a.

uzaqlaşdılar və sovetləşməni tanımadılar. Bundan başqa, Azərbaycan tələbələrindən sovet təqaüdçüsü olan bir qismi də təhsilini bitirdikdən sonra qayıtmadı.

Sual: Frayberq Dağ-Mədən Akademiyasında Sizinlə birgə azərbayanlı tələbələrdən kim oxuyub?

Cavab: Frayberqdə azərbaycanlı tələbələrdən mənimlə birgə oxuyublar: Əlimuradbəyli [Cəmil], Şahsuvarov Surxay, Həsənov Rzaqulu, Kazımov Cəfər, Axundov Səməndər, Sadıqov Mirsadıq...".[1]

"Sual: Sizinlə bir yerdə oxumuş tələbələrdən kimlərlə dostluq etmisiniz?

Cavab: Almaniyada mənimlə oxuyan tələbələrdən dostluq etdiyim bunlardır: Məmmədov Zal – Xalq Təsərrüfatı Komissarlığında işləyir, Məmmədov Qəhrəman – Azərdövlətlayihədə işləyir, Əlimuradbəyli – "Stalinneft"də işləyir, Şahsuvarov Surxay – "Molotovneft"in geoloqudur, Məhəmməd Rəhimli – Dəzgahqayırmada işləyir, aram olmayan Mirsadıq Sadıqovdan başqa, yerdə qalanlarla normal münasibətdə olmuşam.

Sual: Siz istər Almaniyada, istərsə də SSRİ-də dostluq etdiyiniz tələbələrin hamısının adını saymadınız. Yenə yadınıza salın.

Cavab: Ovaxtkı dostlarım içərisində bunların da adını çəkə bilərəm: ... Nərimanbəyov Fərman – Dövlət Plan Komitəsində işləyir, Fransada oxuyub; Kazımov Cəfər – EA Zaqafqaziya Filialının Azərbaycan Bölməsində işləyir. Daha deyə bilmərəm".[2]

Dindirmələrinin bir çoxu Əliyevin "Virt" firmasının nümayəndəsi Karl Lüdviqoviç İmmişlə, Artur Yustla və b. ilə casusluq əlaqəsində olmasını sübut etməyə yönəlib.

27-28-ci fevral 1937-ci ildə 2 gün çəkən 18-ci dindirmədə dindirmədə Əliyev tələbə yoldaşı Məhəmməd Rəhimlidən də söz açıb. Deyib ki, o, Dəzgahqayırma zavodunda, deyəsən, direktor müavini işləyir. Onunla yaxşı münasibətdə idim; 1917-ci ildə Bakıda Qafqaz müsəlman şagirdlərinin qurultayında tanış olmuşam. Biz Almaniyaya oxumağa birgə getmişik, ancaq müxtəlif şəhərlərdə oxumuşuq. O, Darmştadtda təhsil alıb.[3]

19-cu dindirmədə (4-5 mart 1937) Əliyevdən İsgəndər bəy Sultanov, Əhməd Bədi Triniç və Ruhulla Axundovla münasibətləri soruşulub. Müstəntiq İsgəndər bəy Sultanovun Frayberqə tez-tez Əliyevin yanına gəldiyini sübut etməyə çalışıb, o isə bildirib ki, İsgəndər bəy cəmi bir dəfə gəlib, orada 3 gün qalıb və Frayberq Akademiyasına girmək istəsə də sonra bəyənməyərək Berlinə gedib. Mən SSRİ-yə gələndən sonra İ.b.Sultanov ona pul göndərməsini atasına çatdırmağımı xahiş edib və bildirib ki, SSRİ-yə gəlmək istəyir. Mən bu məktubu atası Rüstəm bəy Sultanova verdim, ancaq onun özünə cavab yazmadım. SSRİ-yə gələn ilk dönəmdə atası ilə Azərneftdə tanış oldum; o, 1926-cı ildə məni evlərinə dəvət etdi. Onlarda cəmi bir dəfə İsgəndər bəy gələn vaxt olmuşam, bu da ya 1933-cü, ya da 1934-cü il idi. İsgəndər bəylə siyasi söhbətlərim olmayıb, o, Almaniyadan söz açarkən deyirdi ki, orada faşistləşmə gedir, əcnəbiləri sevmirlər, adi salamlaşmaları "hayl Hitler!"dir.[4]

Əliyev heç bir dindirmədə özünü təqsirli bilməyib və 4-5 may 1937-ci ildəki sonuncu – 25-ci dindirmədə də qəti şəkildə bildirib ki, mən günahsızam.[5]

20 fevral 1937-ci ildə Əşrəf Əliyevin arvadı Nina Mixaylovna Əliyeva şahid kimi dindirilib. Onun haqqında bilgilər: 1912-ci il doğumlu, Yelts şəhərinin yetirməsi, yaşayış

[1] AR MTN arxivi, PR-39087, vv. 47-47a.

[2] Yenə orada, vv. 48-48a.

[3] Yenə orada, vərəq 78.

[4] Almanca "Yaşasın Hitler!" deməkdir.

[5] AR MTN arxivi, PR-39087, vərəq 111b.

yeri Bakı, Qırmızı küçə 2; rus; evdar. Ailə tərkibi: anası Polyakova M.D. – evdar; qardaşı Polyakov V.M. – dağ mühəndisi, Donbasda işləyir; qardaşı Polyakov F.M. – aviakonstruktor mühəndis, Sevastopolda işləyir. Təhsili ali pedaqoji, partiyasız.

"Əliyev Əşrəflə mən 1935-ci ilin yazında Azərneftin texniki təchizat idarəsindəki müşavirədə tanış olmuşam. Əliyev Əşrəfə 1936-cı ilin martında ərə getmişəm".[1] (O, ərinin əleyhinə heç nə deməyib).

9 mart 1937-ci ildə şahid Əsədulla İsmayıl oğlu Xudadatov (1897, Salyan) dindirilib. O deyib ki, məni Əşrəf Əliyevlə hələ Vladiqafqazdan tanıdığım qardaşı Qaraş Əliyev tanış edib. Ağayar Cəfərovun dediyinə görə, Əliyevlər köklü şuşalılardır. Mənə bəllidir ki, Əliyevlər ailəsi Şuşa şəhərindən çıxmadır, köklü qarabağlılardır. Onun atası kiçik ticarətlə məşğuldu və ömrü boyu Şuşada yaşayıb. Atalarının ölümündən sonra onların böyük qardaşı Hacı Əliyev ailəsini də götürüb Vladiqafqaza yaşamağa gətirib. Hacı Əliyev məşhur qaçaqmalçı olub.

Vladiqafqazda bütün Əliyevlər ailəsinin yaşadığı özəl evi vardı. Onun qardaşı Qaraş da xırda ticarətlə məşğuldu, meyvə bağlarını icarəyə götürərək meyvə satırdı. Obiri qardaşı Cahangir Şuşada yaşayır, tez-tez Vladiqafqaza gəlirdi. Cahangirin də ailəsi Vladiqafqazda yaşayırdı.[2]

22 iyun 1937-ci ildə leytenant Genkin istintaqın bitməsi haqqında protokol tərtib edib.[3]

SSRİ XDİK Özəl Müşavirəsinin 4 oktyabr 1937-ci il tarixli iclasının protokolundan çıxarış. Qərara alındı: Əliyev Əşrəf Ağaəli oğlu casusluqda şübhələnildiyinə görə 5 illiyə islah əmək düşərgəsinə göndərilsin, müddəti 18.12.1936-cı ildən sayılsın.[4]

Ancaq Əşrəf Əliyev 3 may 1938-ci ildə I kateqoriya ilə ittiham olunaraq güllələnib. 25 dekabr 1989-cu ildə bəraət alıb.[5]

[1] AR MTN arxivi, PR-39087, vərəq 136.
[2] Yenə orada, vərəq 141.
[3] Yenə orada, vərəq 162.
[4] Yenə orada, vərəq 170.
[5] Yenə orada, vərəq 172.

Əliyev Firidun Əzim oğlu

(30.12.1898, Gülablı k./Ağdam – 10.12.1948, Bakı)


Firidun Əliyev

Cümhuriyyət tələbələrinin əksəri gerçəkdən çox kasıb ailələrdən çıxmışdı. Bu üzdən onlar xaricdə də hədsiz maddi sıxıntı içində yaşayaraq oxuyublar. Təhsillərini bitirdikdən sonra isə onların çoxu sovet ölkəsinə qorxusuz-hürküsüz dönmüşdülər, çünki kommunistlərin "sovet hakimiyyəti fəhlə-kəndli, proletar hakimiyyətidir" şüarının doğruluğuna inanmışdılar. Ancaq bu inam ən geci 10 il sonra onlara həyatları bahasına başa gəldi. Həmin aldadılmışlardan biri Firidun Əliyevdir.

Bakı şəhər rəisi 30 iyun 1914-cü ildə 13206 saylı belə bir vəsiqə verib:

"Bu, Gəncə valiliyi Şuşa qəzası Gülablı kəndinin sakini, Bakıda yaşayan Əzim Hüseyn oğlu Əliyevə ona görə verilib ki, Bakı şəhərində yaşayan Gəncə valiliyi Şuşa şəhərinin sakinləri Nəcəf bəy Vəzirov və Süleyman bəy Axundovun[1] dediklərinə görə, həmin Əliyevin və onun qanuni arvadı Sara Kazım qızının 30 dekabr 1898-ci ildə Bakı şəhərində oğulları Firidun doğulub və ərizəçinin təqdim etdiyi Zaqafqaziya Şiə Ruhani İdarəsinin verdiyi 16 yanvar 1914-cü il tarixli 201 saylı şəhadətnaməyə görə, bu haqda doğum kitablarında heç bir qeyd aparılmayıb. Bu vəsiqə Firidunun Qafqaz diyarı məktəblərinə düzəldilməsi üçün verilib, imza ilə və dövlət möhürünün basılması ilə təsdiqlənir.

(İmzalar)".[2]

Bakı Politexnik Məktəbinin pedaqoji şurası müsəlman, 30 dekabr 1898-ci ildə doğulmuş Əliyev Firiduna 2 iyul 1919-cu ildə 369/493 saylı attestat verib. Burada oxuyuruq ki, o, 1914-cü ildə Bakı Politexnik Məktəbinə girərək 1 iyul 1919-cu ilədək oxuyub və elektromexanika bölməsi üzrə elmlərin tam kursunu bitirib, buna görə Əliyev Firiduna elektromexanika ixtisası üzrə texnik rütbəsi verilib.[3]

Bakı Politexnik Məktəbinin pedaqoji şurası müsəlman, 30 dekabr 1898-ci ildə doğulmuş Əliyev Firiduna 14 iyul 1919-cu ildə 425 saylı şəhadətnamə də verib və orada yazılıb ki, o, elektromexanika üzrə elmlərin tam kursunu bitirib, son imtahanlarda aşağıdakı uğurları göstərib:

Şəriət –	
Rus dili –	yaxşı (4)
Coğrafiya –	yaxşı (4)
Cəbr –	əla (beş)
Triqonometriya –	əla (5)
Fizika –	yaxşı (4)
Mexanika –	kafi (3)
Termodinamika –	yaxşı (4)
Maşın hissələri –	kafi (3)
Metalların texnologiyası –	yaxşı (4)
Materiallar müqaviməti –	kafi (3)

[1] Görkəmli yazıçı Süleyman Sani Axundov.
[2] ARDA, fond 51, siyahı 3, iş 41, vərəq 4.
[3] Yenə orada, vərəq 2.

Qeyri-üzvi kimya –	kafi (3)
İnşaat sənəti –	
Qazma işi –	əla (5)
Qanunşünaslıq –	əla (5)
Daxiliyanma mühərrikləri –	kafi (3)
Buxar maşınları –	yaxşı (4)
Buxar qazanları –	yaxşı (4)
Tərsimi həndəsə –	yaxşı (4)
Texniki rəsmxət –	yaxşı (4)
Konstruktor rəsmxəti –	əla (5)
Elektrotexnika –	əla (5)
Elektrik xətlərinin və işıqlandırmanın quraşdırılması –	əla (5)
Elektrik laboratoriyası –	əla (5)
Elektrik işıqlandırması –	əla (5)
Mineralogiya –	kafi (3)
Xəttatlıq –	kafi (3)
Rəsm –	yaxşı (4)
Diplom layihəsi –	əla (5)
Emalatxanalar –	yaxşı (4).[1]

Elektrik-mühəndisin köməkçisi, Persidski küçədə[2] 119-cu evdə yaşayan Firidun Əliyev 4 iyul 1919-cu ildə Bakı valisinə ərizə yazaraq Bakı Politexnik Məktəbinin ona verdiyi attestatı təqdim edib və bunun əsasında hər hansı bir vəzifəyə təyin edilməsini xahiş edib.[3]

Bakı valisi Rəşid bəy Axundzadə 12 iyul 1919-cu il tarixli 484 saylı əmri ilə Firidun Əliyevi 5 iyul 1919-cu ildən özünün idarəsində inşaat bölməsinə dəftərxana qulluqçusu təyin edib.[4] Vali 30 iyul 1919-cu il tarixli 518 saylı əmri ilə dəftərxana qulluqçusu Əliyevi 26 iyuldan inşaat şöbəsində boşalmış çertyojçu vəzifəsinə keçirib.[5]

Persidski küçədə 119-cu evdə yaşayan F.Əliyev 31 iyul 1919-cu ildə AC xalq maarif nazirinə yazdığı ərizədə bildirir ki, Bakı Politexnik Məktəbinin elektromexanika bölməsini bu il dərəcə üzrə birinci olaraq və müsəlmanlardan tək mən bitirmişəm. Məktəb qarovulçusunun oğlu olaraq[6] həyatımın məqsədi həmişə orta-texniki təhsili bitirincə onu xaricdə kamilləşdirmək olub ki, öz işimi mükəmməl bilməyimlə xalqıma fayda verim. Vətənimizin belə texniklərə ehtiyacı var və onları özümüzünkülər arasında görmək arzu olunur. Bax, məni də soyuğa, aclığa dözməyə məcbur edən amil qarşıma qoyduğum məqsədə çatmağa yorulmadan can atmağımdır. Öz əməkhaqqıma bel bağlayaraq təhsilimi davam etdirməyin mümkünsüzlüyünü hiss edərək Siz alihəzrətə yalvarıram ki, məni Almaniyaya elektromexanikanı öyrənmək üçün göndərməyə yardım etməkdən boyun qaçırmayasınız. Mən gecə-gündüz çalışaraq bu işi 3 ildə bitirməyə və vətənə hazır alman texniki kimi dönməyə söz verirəm.[7]

Tələbə-abituriyent Əliyev 4 avqust 1919-cu ildə xalq maarif nazirinə yazdığı ərizədə xahiş edib ki, Qafqaz təbiətinə hidravlika qanunlarından yararlanmaq üçün ən uyğun məktəb

[1] ARDA, fond 51, siyahı 3, iş 41, vv. 3-3a.
[2] İndiki Murtuza Muxtarov küçəsi.
[3] ARDA, fond 1046, siyahı 3, iş 6, vərəq 1.
[4] Yenə orada, vərəq 2.
[5] Yenə orada, vərəq 3.
[6] Atası Əzim kişi N.b.Vəzirovun qızı Sara xanımın müdir olduğu məktəbdə qarovulçu işləyirdi.
[7] ARDA, fond 51, siyahı 3, iş 41, vərəq 1.



Bakı qız rus-türk məktəbi. *Soldan sağa (müəllimlər):* Mina Aslanova, Sara Vəzirova *(məktəbin müdiri)*, Nigar Vəlibəyova. *Yuxarıda soldan 1-ci* Firidun Əliyevin atası, məktəbin qarovulçusu Əzim Əliyev. Təx. 1912-ci ildədək

Mülhauzendəki Politexnik İnstitutdur, ona görə məni Mülhauzen[1] – Elzasa göndərməyinizi xahiş edirəm.[2]

Bakı valisi 16 avqust 1919-cu ildə Bakı Politexnik Məktəbini bitirmiş Firidun Əliyevə onun xahişi ilə 11881 saylı bu şəhadətnaməni verib ki, o, gerçəkdən Bakı 2-ci Türk məktəbinin qarovulçusu Əzim Əliyevin oğludur. Şəhadətnaməni vali Rəşid bəy Axundzadə imzalayıb.[3]

Əliyev 8 noyabr 1919-cu ildə ya Berlinin, ya da Almaniyanın ona yaxın şəhərlərindəki institutlarda təhsilini bitirmək istədiyini bildirib.[4]

Əliyev 14 yanvar 1920-ci ildə təhsilini bitirdikdən sonra dörd il işləmək haqqında[5] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[6] öhdəlik götürərək dilkağızları verib.

Azərbaycan Cümhuriyyəti Hökumətinin dövlət hesabına xaricə oxumağa göndərməsi haqqında 535 saylı vəsiqə Firidun Əliyevə 14 yanvar 1920-ci ildə verilib. [7]

Bakı valisi Əmir bəy Nərimanbəyovun 18 yanvar 1920-ci il tarixli 23 saylı əmri ilə inşaat bölməsinin çertojçusu Firidun Əliyev ali təhsil almaq üçün xaricə göndərildiyinə görə vəzifəsindən azad edilib.[8]

Avropaya gedən Əliyev Almaniyanın Hannover şəhərində Ali Texniki Məktəbdə oxuyub (may 1921, 1 semestr), sonra isə Karlsrue şəhərinə gedərək oradakı Ali Texniki Məktəbi bitirib (1922-1926).[9]

[1] Bəhram bəy Axundovun hesabatında bu şəhərin adı "Mülxuz" gedib.
[2] ARDA, fond 51, siyahı 3, iş 41, vərəq 5.
[3] Yenə orada, vərəq 6.
[4] Yenə orada, vərəq 7.
[5] Yenə orada, vərəq 8.
[6] Yenə orada, vərəq 9.
[7] Yenə orada, vərəq 10.
[8] Yenə orada, fond 1046, siyahı 3, iş 6, vərəq 4.
[9] AR MTN arxivi, PR-22307, vərəq 71.

* * *





Firidun Əliyev həbsdə. 1937

Nə qədər qəribə görünsə də, Cümhuriyyət tələblərinin bir çoxunun ali məktəbu başa vurduqdan sonrakı ömür yolu haqqında yeganə bilgi qaynağı MTN Arxivindəki istintaq sənədləridir.

AR MTN arxivi, Əliyev Firidun Əzim oğlunun ittihamı üzrə 23506 saylı (indi: PR-22307) istintaq işi 12 iyul 1937-ci ildə başlanıb, 11 aprel 1938-ci ildə bitib, 217 vərəqdir.

Əliyevin həbs edilməsi üçün 11 iyul 1937-ci ildə 701 saylı order verilib.[1]

1264 saylı məhbus anketində bilgilər: Əliyev Firidun Əzim oğlu – 1898-ci il Bakı doğumlu; yaşayış yeri – Qızıl əsgər küçəsi,[2] ev 2/15,[3] mənzil 160. Mühəndis; Azərenerjinin[4] Azərşəbəkətikinti idarəsinin rəisi; fəhlələrdən; qulluqçu; ali təhsilli; 1929-cu ildən ÜK(b)P üzvlüyünə namizəd, ilkin partiya təşkilatı onu çıxarıb; azərbaycanlı, repressiyalara uğramayıb. Ailə tərkibi: arvadı – Yelizaveta [Petrovna], 21 yaş; anası – Sara, 56 yaş; atası – Əzim 65 yaş; qardaşı – Niyazi, 27 yaş. 12 iyul 1937-ci ildə Azərb. SSR XDİK DTİ 4-cü bölümü həbs edib. Həmin gün evində axtarış aparıblar, götürülən əşyaların içərisində bunlar da var: xarici ədəbiyyat – 1 ədəd; müxtəlif kitablar – 1 bağlama; müxtəlif ölçülü fotoşəkillər – 19 ədəd.

29 iyul 1937-ci ildə Poluxin küçəsi[5] 105-də yaşayan *anası Sara Əliyeva* Azərbaycan K(b)P MK və BK katibi Mircəfər Bağırova məktub yazıb. Bu məktub F.Əliyevin həyatını müəyyən dərəcədə işıqlandırdığına görə onun məzmununu genişliklə veririk.

Ana yazır ki, oğlum Firidun Əzim oğlu Əliyev Sabunçuda Azərşəbəkətikintidə elektrotexnik-mühəndis işləyib. Bu il 12 iyulda, səhər saat 9-da onu mənzilindən XDİK götürüb və bugünkü günədək mənə bəlli olmayan səbəbdən yatır. Bununla Sizə bildirirəm ki, mənim oğlum Ağdam rayonunun Gülablı kəndinin kəndlilərindəndir. 1905-ci ildəki erməni-müsəlman qırğınında bizim ev də yandıqdan sonra Bakı şəhərinə köçdük; bu zaman Firidunun 2-3 yaşı vardı.[6] Bakıda atası Əzim Əli oğlu və mən məktəbdə qarovulçu işinə düzəldik və elə oradaca ən ağır şəraitdə onu tərbiyə etməyə başladıq. Nəhayət, aldığımız cüzi əməkhaqqı ilə ona birtəhər orta təhsil verdik. Ancaq sovet hakimiyyətimizin qəhrəmancasına dəstəyi sayəsində o, mühəndis diplomu ala bildi. Beləliklə, onu sovet hökuməti tərbiyə edib. 1930-cu ildə partiyaya namizəd keçirilib. Bütün bunlar yəqin ki, onun tərcümeyi-halında əks olunub...

Ərim kəndli Əzim 75 yaşlı şikəst qocadır, sovet hakimiyyəti dövründə 1905-ci ildən 1933-cü ilədək ürəklə işləyib. Mən də 1905-ci ildən 1937-ci ilə qədər yorulmadan işləmişəm, indi isə əliləm. 4 dəfə Bakı Sovetinə üzv seçilmişəm. Oktyabr rayon yaşayış birliyi idarəsinin, Bakı Soveti yanında inqilabi qanunçuluq rəyasət heyətinin üzvüyəm, Bakı Sovetinin və rayon sovetlərinin bütün tapşırıqlarını vicdanla 100% yerinə yetirmişəm, oğlum Firidun da

[1] AR MTN arxivi, PR-22307, vərəq 4.
[2] İndiki Şıxəli Qurbanov küçəsi.
[3] İndi həmin ev "Beşmərtəbə" adlanır.
[4] Azərenerjinin rəisi Musa Dadaşov imiş və görünür ki, Firidun Əliyevin həbs edilməsində ona qarşı çirkləndirici materiallar əldə etmək niyyəti də olub.
[5] İndiki Murtuza Muxtarov küçəsi.
[6] Buradan aydınlaşır ki, Firidun Bakıda deyil (doğum şəhadətnaməsində yazıldığı kimi), Gülablı kəndində doğulub.

valideynlərindən nümunə götürərək ciddi-cəhdlə işləyib. Ona görə də belə enerjili gəncin qəfil həbs edilməsi məni təəccübləndirir...

Bunları bildirərək Sizdən xahiş edirəm ki, oğlum Firidun Əliyevin işinə təcili baxılması və onun azad edilməsi üçün lazım olan adamlara sərəncam verəsiniz.[1]

Qeyd edək ki, Sara Əliyeva xalq daxili işlər komissarı Sumbatova da 20, 21 iyulda, 7 avqustda ərizələr yazıb.

Ağdam rayonunun Gülablı kəndində yaşayan təqaüdçü *Əzim Əli oğlu* da 23 avqust 1937-ci ildə Mircəfər Bağırova məktub yazıb və yoldaşının məktubundakı fikirləri təkrarlayıb. Sonda xahiş edib ki, inqilabi qanunçuluq və proletar ədaləti naminə oğlunun işinin təzliklə qurtarması və onun azad edilməsi üçün tədbir görsün.[2]



Firidun Əliyev həbsdən sonra

Təbii ki, bu məktubların heç bir xeyri olmadı. Əksinə, bundan sonra Bağırovun, Sumbatovun və başqa rəhbərlərin adına Əliyevi ləkələməyə çalışan çoxlu məktublar təşkil edildi. Onun haqqında ən ağlasığmaz böhtanlar atılırdı. Məsələn, N.Sameryan yazırdı: "Əliyevin müsbət cəhətlərindən mənfi cəhətləri daha çoxdur. 1920-ci ildə Almaniyaya yalnız müsavatçı uşaqlarını göndərirdilər, Əliyev də onların arasında idi. Mən başa düşmürəm ki, F.Əliyev kasıb oğlu ola-ola Almaniyaya oxumağa necə gedə bilərdi?".[3] Göründüyü kimi, bu cür insanlar yalnız Firidun Əliyevin deyil, Cümhuriyyətin də düşməni idilər və yalnız ona deyil, Cümhuriyyətin də siyasətinə böhtan və iftira atırdılar. Yerdə qalan bütün "sübut"lar da bu mahiyyətdə idi. Məsələn, Abbasbəyli soyadlı bir mühəndis bildirir ki, F.Əliyev texnikum direktoru olarkən tanışlıqla diplomlar verib...[4]

Əliyevin rəhbərlik etdiyi Azərşəbəkətikinti idarəsi partiya təşkilatının 5 iyun 1937-ci ildə keçirilmiş iclasında öncə Əliyevin partiya namizədliyindən üzvlüyünə keçirilməsi müzakirə olunub və hamı onu tərifləyib. Elə buradaca Trep soyadlı birisi ona qarşı ittihamlar yağdırandan sonra durum bütünlüklə dəyişib. Erməni Şamsov da aranı qatıb və axırda belə qərar çıxarılıb:

"1. Uyğun şəxslərlə və müəssisələrlə əlaqə saxlayaraq Əliyevin Almaniyaya oxumağa kimin göndərməsini aydınlaşdırmaq yol. Sarkisova tapşırılsın.

2. Yol. N.Sarkisova tapşırılsın ki, F.Əliyevin xaricdəki fəaliyyətini daha dəqiq aydınlaşdırsın və gələn partiya iclasında məlumat versin.

3. Yol. Rutşteynə tapşırılsın ki, F.Əliyevin qanunsuz diplomlar verməsi məsələsi ilə bağlı uyğun şəxslərlə əlaqə saxlasın.

4. Yol. N.Sarkisova tapşırılsın ki, F.Əliyevin təxribatçılarla, casuslarla, Musa Dadaşov və başqaları ilə əlaqələri haqqında daha dəqiq məlumatlar əldə etsin".[5]

Bizcə, bu qərarın şərhə ehtiyacı yoxdur – bu, əslində quzunun qurda tapşırılması idi.

22 iyun 1937-ci ildə partiya təşkilatının növbəti yığıncağı keçirilib. Təbii ki, burada hər şey artıq Firidun Əliyevin əleyhinə olub. Həmin S.M.Rutşteyn onun partiya namizədliyindən çıxarılmasını təklif edib[6] və təklif qəbul edilib.[7]

Əliyev buradakı çıxışında bəzi maraqlı faktlar söyləyib:

[1] AR MTN arxivi, PR-22307, vərəq 14.
[2] Yenə orada, vərəq 17.
[3] Yenə orada, vərəq 33a.
[4] Yenə orada, vərəq 33b.
[5] Yenə orada, vərəq 35.
[6] Yenə orada, vərəq 38.
[7] Yenə orada, vərəq 41.



Əliyə Firidun qızı adını unutduğu bir qohumu ilə *(Niyazi əmisi deyil)*. Ağdam, 2 aprel 1949-cu il

"Mən Əşrəf Əliyevlə onun anasının dəfnində görüşdüm. Onun "Kaqanoviçneft"dən niyə işdən götürüldüyü ilə maraqlandım. Dedi ki, İran pasportum var; bundan sonra 1935-ci ildən onunla əlaqəni kəsdim".[1]

"Kəndimiz məhv edildikdən sonra biz Hindarxa, sonra isə Bakıya köçdük. Mənim atam qarovulçu, anam isə xadimə idi. 1920-ci ildə mən xaricə oxumağa Nəcəf bəy Vəzirovun yardımı ilə göndərilmişəm".

"Xaricdə heç vaxt evlənməmişəm".

"Məni xaricdə inqilabi hərəkatda iştirak etdiyimdən şübhələnərək həbs ediblər, ikinci dəfə isə məni ev sahibəmin çuğulluğuna görə tutublar".[2]

"Xaricdən qayıtdıqdan sonra mən Gəncədə Sənaye Texnikumu yaratdım".

"Əliyev Əşrəfi mən cəmi 2 həftə tanımışam, 1933-cü ildə cəmi bir dəfə görüşmüşük. Məni Əşrəf Əliyevin bacısı ilə evləndirmək istəyirdilər, ancaq onu işdən çıxardılar və mən onunla əlaqəni kəsdim. Onunla bircə dəfə Kislovodskda kurortda olmuşam".[3]

"Azərşəbəkətikinti" ilkin partiya təşkilatının 25 iyun 1937-ci ildə keçirilən iclasının qərarı məzmunca "NKVD" Özəl Müşavirəsinin hökmlərindən elə də çox fərqlənmir:

"Müsavat hökumətinin Almaniyaya oxumağa göndərdiyi Əliyev Firidun partiya təşkilatını hər cür yolla aldadaraq özünü Almaniyada kommunist partiyasının üzvü kimi qələmə verməyə çalışıb ki, guya orada 1921-ci ildən 1926-cı ilədək üzv olub, bu isə onun partiya komitəsindəki birinci dediklərinə ziddir. Orada göstərib ki, 1921-ci ildən 1923-cü ilədək – Ruhulla Axundovun sədrliyi altında Zaqafqaziya hökuməti tərəfindən tələbələrin SSRİ-yə cəlb edilməsi üzrə komissiyanın gəlməsinədək üzv olub və partiya biletini Almaniya polisi onu təqib etdiyinə görə təhvil verib".[4]

Zindanda 16 dekabr 1937-ci il tarixli dindirməsində Firidun Əliyev maraqlı faktlar söyləyib. Həmin dindirmə protokolundan bir parça:

"Sual: Sizi Almaniyaya oxumağa kim və nə vaxt göndərib?

Cavab: Məni Almaniyaya oxumağa Müsavat hökuməti göndərib və Azərbaycandan 15 yanvar[5] 1920-ci ildə çıxmışam.

Sual: Xaricdə oxumağa göndərmək üçün Sizi hansı əlamətlərə görə seçiblər və Sizi kim tövsiyə edib?

Cavab: Mən xaricə orta məktəbi bitirmək haqqında attestatımın müsabiqəsi nəticəsində seçilmişəm. Məni dramaturq Nəcəf bəy Vəzirov tövsiyə edib – anam onun məktəbində qulluqçu idi. [...]

[1] AR MTN arxivi, PR-22307, vərəq 37.
[2] Yenə orada, vərəq 38.
[3] Yenə orada, vərəq 42.
[4] Yenə orada, vv. 44-44a.
[5] F.Əliyev Bakıdan 16 yanvarda çıxıb – 15 yanvarda gediş olmayıb.

Sual: Almaniyaya getdiyiniz yoldan və özünüzün Almaniyada olmağınızdan müfəssəl danışın.

Cavab: Mən Almaniyaya bu marşrutla getmişəm: Bakı – Batum – Taranto[1] (İtaliya) – Roma – Bern (İsveçrə) – Karlsrue (Almaniya). Almaniyaya 2 aprel 1920-ci ildə çatmışam.

Sual: Almaniyayadək xaricdə haralarda dayanmısınız?

Cavab: Deməyi unutdum ki, Batumdan biz tələbələr İstanbula gəldik, ondan sonra artıq Taranto – Romaya. Türkiyədə – İstanbul şəhərində biz 1, yaxud 2 gün (dəqiq xatırlamıram) dayandıq, özü də xəstə olduğuma görə mən paroxoddan sahilə düşmədim. Neapolda biz bir neçə saat dayanaraq bilet alınmasını və qatarın yüklənməsini gözlədik. 2 aya yaxın Romada yaşayaraq yolumuza davam etmək üçün viza gözlədik, çünki vizamız yox idi. Romada mən azərbaycanlı yoldaşlarımı qoyub özüm tək İsveçrədən keçib getdim, orada Bern şəhərində dayandım. Berndə 5-6 gün Almaniyaya viza gözlədim. Berndən də Almaniyaya – Karlsrueyə yollandım.

Sual: Romada harada qaldınız?

Cavab: "Nou-Roma" qonaq evində.

Sual: İsveçrədə harada və kimin yanında qaldınız?

Cavab: İsveçrədə mən "Düpont" qonaq evində qaldım.

Sual: Siz niyə İsveçrədən getməyi qərara aldınız?

Cavab: Başqa azərbaycanlı tələbələr Almaniyaya Parisdən getmək qərarına gəlmişdilər. Mən isə bir dəstə yoldaşla dalaşmışdım və İsveçrədən tək getmək istəmişdim...

Sual: Xaricə gedən tələbələr qrupuna kim başçılıq edirdi?

Cavab: Gedənlərə hansısa şəxsin başçılıq etdiyini dəqiq xatırlamıram. Ancaq bütün tələbələrin içərisində hamıdan çox Əliyev Əşrəf seçilirdi. Xatırlayıram ki, hələ Bakıda tələbələrdən 5 nəfər seçilmişdi ki, onların yeməyi, qonaq evi, gecələməsi, biletləri və s. qayğısına qalsınlar; onların soyadlarını xatırlamıram, bu beşliyi tələbələr seçmişdi, mən ora daxil deyildim.

Sual: Almaniyada olmağınız haqqında ətraflı danışın.

Cavab: Almaniyaya – Karlsrueyə mən 2 aprel 1920-ci ildə çatdım və Serqnerştrasse ilə Kronştrasse küçələrinin tinində Qoldşmidt soyadlı bir yəhudinin evində qaldım. Qoldşmidtin evini qəzet elanı ilə tapmışdım. Həmin evdə Karlsruedən Unterrixsdorf kəndinə gedənəcən – 1920-ci ilin sentyabr ayınadək yaşadım...

Sual: Karlsruedə nə iş görürdünüz?

Cavab: Karlsruedə oxuyur və işləyirdim. Alman dilini öyrəndim və iş axtardım.

Sual: Müsavat hökumətindən nə qədər təqaüd almısınız?

Cavab: Müsavat hökumətindən mən yalnız yolxərci almışam, 1 dəfə də təqaüd almamışam, çünki tezliklə Azərbaycan sovetləşdirilib.[2] İşsizliyə görə mən Karlsrueni tərk edərək Unterrixsdorf kəndinə getməyə məcbur oldum, orada "Ditrichshau" şaxtasında işə düzəldim. Öncə fəhlə, sonra elektrik montyoru köməkçisi oldum. Bu şaxtalarda ay yarıma qədər işlədim, sonra Kunfernamerhütte çilingər emalatxanasında işə göndərildim, orada da elektrik montyoru köməkçisi oldum. Burada mən 1920-ci ilin oktyabrından 1921-ci ilin mayınadək işlədim. Hetştadt şəhərində dul qarı Heytlasın yanında yaşadım, sonra Burgerner adlı elektrik sentralının olduğu yerə köçdüm. 1921-ci ilin mayında Hannoverə getdim, çünki işdən çıxarılmışdım. Hannoverdə

[1] Trento.
[2] F.Əliyevin dedikləri gerçəklikdən uzaqdır, çünki Cümhuriyyət hökuməti onlara təxminən 2 illik dolanışıq pulu vermişdi və bu, sənədlərlə də təsdiqlənir. Ancaq, görünür, Əliyev istintaqda özünü qorumaq üçün Müsavat hökumətindən bacardıqca uzaq durmağa çalışır.



Aliyə Firidun qızı Ağdamdan onun dalınca gəlmiş, adlarını unutduğu qohumları ilə. Moskva, 12 fevral 1951-ci il

Ali Texniki Məktəbə oxumağa girdim, burada cəmi 1 semestr oxudum, sonra yenidən Karlsrueyə qayıtmağa məcbur oldum, çünki Prussiya məktəbləri ağzınacan dolmuşdu və professorlar əcnəbilərə çox pis münasibət bəsləyirdi. Karlsruedə Kayzerştrasse № 93-də 4-cü qatda soyadını unutduğum 3 uşaqlı qarının evində qalırdım; bu, ayını unutduğum 1922-ci ildə olub. Karlsruedə oradan çıxmamaqla 1926-cı ilədək, yəni Sovet İttifaqına qayıdanadək yaşamışam. Karlsruedə yalnız oxumuşam; sovet Azərbaycanından aldığım təqaüdlə və işləyərək topladığım pulla yaşamışam.

Sual: Almaniyadakı ictimai-siyasi fəaliyyətinizdən ətraflı danışın.

Cavab: 1923-cü ilin ortalarında Almaniyadakı SSRİ Tələbələri Birliyinin Baden bölməsinə Almaniyadan SSRİ-yə gedənəcən rəhbərlik etmişəm.

Sual: Tələbə bölməsinə necə başçılıq etməyə başladınız?

Cavab: SSRİ Tələbələri Birliyi Baden bölməsinin sədri olaraq məni Badendə oxuyan SSRİ tələbələri seçiblər...

Sual: Siz Almaniyada olarkən Almaniyaya gələn və Azərbaycan SSR təqaüdü üçün tələbə seçimi edən Ruhulla Axundovla görüşmüsünüzmü?

Cavab: Ruhulla Axundovu mən heç vaxt görməmişəm; başqa tələbələrdən eşitdim ki, Azərbaycanın məsul işçilərindən biri olan Ruhulla Axundov Berlinə gəlib, ancaq mən onu görmədim...

Sual: Almaniyada Siz neçə dəfə həbs olunmusunuz?

Cavab: 2 dəfə. Birinci dəfə 21 mart 1921-ci ildə Hetştadtda Makshelsev üsyanından sonra və 2-ci dəfə 1926-cı ilin sentyabrında Karlsruedə mənzil sahibəmin çuğulluğuna görə – guya mənim mənzilimdə siyasi yığıncaqlar keçirilib, həm də mənə mənzilhaqqını və mebel təmiri haqqını ödəməmək üstündə iddia qaldırmışdı. Əslində isə bir neçə tələbə yanıma tələbə işləri ilə bağlı gəlmişdi. İkinci dəfə məni Karlsruedə polis həbs etmişdi. Mən Amsirkel küçəsindəki istintaq dustaqxanasında ay yarım gözaltına alındım, istintaqı polis müstəntiqi apardı. İşimin aparıldığı açıq məhkəmə iclasında siyasi fəaliyyətdə iştirakım sübut olunmadı və azadlığa buraxıldım, dilkağızı verdim ki, ev sahibəsinə borcumu ödəyəcəyəm. Şəxsi sənədlərim, o sıradan ali məktəbi bitirməyim haqqında attestat girov qoyuldu. Pulu ödəyib sənədlərimi geri almağı bacarmadım. Əsasən təhsilimlə bağlı

sənədlər qaldı. 1926-cı il dekabrın ortasında azadlığa çıxdım və Almaniyadan 1926-cı ilin dekabrında gəldim.

Sual: Dustaqdan buraxıldıqdan sonra nə iş gördünüz?

Cavab: Ali məktəbə imtahan verdim."[1]

Firidun Əliyev 13 iyul 1937-ci ildən 11 aprel 1938-ci ilədək 6 dəfə dindirilib. 11 aprel 1938-ci ildə istintaqın bitməsi haqqında protokol tərtib edilib.[2]

15 mart 1939-cu ildə keçirilən məhkəmə iclasında o göstərib ki, xaricdə olarkən təqaüdü az olub; borcla palto, çəkmə və başqa şeylər alıb və oradan qaçdığına görə diplomunu da götürə bilməyib.

"Xaricdən heç bir məktub almamışam. Məni xalq xarici işlər komissarı pulu ödəmək üçün çağırıb. Mən pulu ödəmədim, çünki ödəməyə imkanım yox idi".[3]

"1931-ci ildən 1933-cü ilədək Nərimanov texnikumunun direktoru olmuşam".[4]

İfadələrinin birində Əliyev bildirib ki, "1933-cü ildə mən məsul işçi – Xalq Torpaq Komissarlığı Elektrikləşdirmə idarəsinin rəisi, Azərkəndtəsərrüfatıtəchizatın rəisi olmuşam və bundan sonra sıravi mühəndisliyə düşərək 300 manat almışam".[5]

1939-cu ilin mart ayının 15-16-da Azərbaycan SSR Baş Məhkəməsi Cinayət Məhkəmə Kollegiyası hökm çıxarıb və o illərdə ana dilimizdə yazılmış yeganə hökm olan bu sənəddə[6] yazılıb:

"Vət. Əliyev Firidun Əzim oğlu, 1898 tarixdə Bakı şəhərində anadan olmuş, işçi ailəsindən, ali-texniki savadlı, evli, partiyadan çıxarılmış, həbsə alınan zaman Azsetstroyun naçalniki, Bakıda Qızıl əsgər küçəsi, 2/15 №-li evdə yaşayan, m. olmamış[7], CK 73, 72, 21-64, 69 m. ilə[8] müqəssirlənməsi barədəki işə baxaraq işdə olan istintaq materiallarını və məhkəmədə toplanmış əsasları nəzərdən keçirərək CMK[9] müəyyən etdi:

İşdən görünür ki:

1) Əliyev Firidun 1919-cu ildə Müsavat hökuməti tərəfindən Germaniyaya[10] göndərilərək 1926-cı ilə kimi Germaniyada oxumuşdur.

2) Təhsili müddətində 2 dəfə polis repressiyasına düşərək azad olunmuşdur.

3) Kontr-revolyusyon[11], millətçi təşkilatın üzvü Həsənov Rzaqulu ilə bir yerdə xaricə gedərək təhsil almış və Azərbaycanda onunla münasibətdə olmaqla, onun yaşadığı yerin adresini belə öz şəxsi dəftərçəsinə salaraq özündə saxlamışdır.

4) Kontr-revolyusyon təşkilatın üzvü Axundzadə Cahangirlə yaxın münasibətdə olmaqla, Axundzadə onu müdafiə etməkdən başqa, onu partiyaya rekomendovat[12] etmişdir.

5) Kontr-revolyusyon təşkilatın başçılarından Müzəffər Nərimanovla yaxın əlaqədə olmaqla, Nərimanov Əliyevin müdafiə olunmasını və irəli çəkilməsini Axundzadəyə

[1] AR MTN arxivi, PR-22307, vv. 76-80.
[2] Yenə orada, vərəq 116.
[3] Yenə orada, vərəq 186.
[4] Yenə orada, vərəq 190.
[5] Yenə orada, vərəq 193.
[6] Yenə orada, vv. 206-207.
[7] Məhkum olmamış.
[8] Cinayət Kodeksinin 73, 72, 21-64, 69 maddələri ilə.
[9] Cinayət Məhkəmə Kollegiyası.
[10] Almaniyaya.
[11] Əks-inqilabi.
[12] Tövsiyə.

tapşırmış, axırıncı isə onu K.Marks adına elektrik setləri idarəsinin direktor müavini təyin etmişdir.

6) Kontr-revolyusyon təkilatın üzvü Kartaşov və Musa Dadaşovla sıkı əlaqədə olmaqla, onlar Əliyevi kontr-revolyusyoner kimi tanımış və onlar bu məqsədlə əlaqə saxlamışlar.

7) İran konsulundan aldığı məktubun konvertini şəxsi sənədləri içərisində saxlamışdır...

Bütün bu faktlar Əliyevin hələ 1920-ci ildən başlayaraq pis nöqteyi-nəzərdə olduğunu və 1934-cü ildə Azərbaycanda olan və öz qarşısına sovet dövlətini üsyan yolu ilə yıxmaq istəyən kontr-revolyusyon üsyançı təşkilata daxil olmuşdur, yəni CK 73, 21-64 maddələrində göstərilən cinayəti yapmışdır. Müttəhim Əliyevin həqqində CK 72-ci m. ilə qaldırılmış cinayəti təsdiq edən heç bir əsas olmadığından, bu hissə sübuta keçməmiş hesab olunur. Həmçinin aşağıdakı əsaslara görə Əliyevin həqqində CK 69-cu m. ilə qaldırılmış cinayət sübuta keçməmiş hesab olunmalıdır... Beləliklə, vət. Əliyevin həqqində CK 69 və 72-ci m. ilə qaldırılmış cinayət sübuta keçməyir. Yuxarıdakılara əsasən və CK 316, 317, 323-cü m. rəhbər tutaraq Cinayət Məhkəmə Kollegiyası hökm etdi:

Əliyev Firidun Əzim oğluna CK 69, 72-ci m. ilə bəraət vermək; CK 73, 21-64-cü m. ilə onu – Əliyev Firidunu müqəssir bilərək CK 21-64-cü m. ilə səkkiz (8) il müddətinə həbs cəzasına məhkum etmək. Cəzasını çəkəndən sonra üç (3) il müddətinə siyasi hüquqdan məhrum etmək; şəxsən özünə məxsus olan əmlakının hamısını dövlət xeyrinə müsadirə etmək. Cəzasını 12 iyul 1937-dən hesab etmək. Hökm qətidir, kassasiya şikayəti vermək olmaz".[1]

11 fevral 1948-ci ildə SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası Azərbaycan SSR Ali Məhkəməsinin bu hökmünü ləğv edib,[2] başqa sözlə, Əliyevin cinayət törətmədiyini təsdiqləyib. 24 aprel 1948-ci ildə Azərb. SSR dövlət təhlükəsizliyi naziri, general-mayor Yemelyanov öz şəxsi imzası ilə buna etiraz edərək SSR təhlükəsizlik naziri Abakumova etiraz məktubu göndərib,[3] yəni F.Əliyevi cinayətdə bir daha suçlu sayıb. 13 avqust 1948-ci ildə SSRİ Ali Məhkəməsinin sədri Qolyakov SSRİ təhlükəsizlik nazirinin müavini Oqoltsova məktub göndərib: *"...mən SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının 11 fevral 1948-ci ildəki hökmünü ləğv etmək üçün yetərincə əsas görmürəm".*[4]

Burada maraqlı bir məqam üzə çıxıb. Təhlükəsizlik orqanları Firidun Əliyevin hökmən cinayətkar olduğunda israr edib, daha doğrusu, 1937-38-ci illərdəki saxtakarlıqlarını örtmək istəyiblər, məhkəmə orqanları isə işdə cinayət tərkibi olmadığına görə bu haqsız hökmə etiraz edib. Əlbəttə, son söz məhkəmənindir, deməli, Firidun Əliyev ən geci 11 fevral 1948-ci ildən bəraət almış sayılmalıdır.

1 dekabr 2006-cı ildə biz Azərbaycan Cümhuriyyəti dönəmində (1919) Bakının valisi olmuş Rəşid bəy Axundzadənin qızı Validə xanımla söhbət edərkən o, bizə söyləmişdi ki, Firidun Əliyevi və onun qardaşı Niyazini anam Sara xanımın atası Nəcəf bəy Vəzirov xaricə oxumağa göndərib. Firidunun atası Əzim Nəcəf bəyin məktəbində qarovulçu idi. Firidun həbsdən qayıdıb Bakıya gəlmişdi, ancaq "NKVD"nin adamları Bakı vağzalında onu elektrik qatarının altına itələyib salaraq məhv etdilər. Bunun ilini xatırlamıram, hər halda 1945-ci ildən sonradır.

[1] AR MTN arxivi, PR-22307, vv. 206-207.
[2] Yenə orada, vv. 209-210.
[3] Yenə orada, vərəq 213.
[4] Yenə orada, vərəq 216.

* * *

Firidun Əliyevin Moskvada yaşadığını öyrəndiyimiz qızı *Aliyə (Alla) Bakşevnikova* ilə əlaqə yaratmağa bir neçə il uğursuz cəhd etdik. Nəhayət, əlahəzrət feysbukun yardımı ilə bu aprel ayında yaxından tanış ola bildik. Aliyə xanım çox savadlı, geniş dünyagörüşlü, alicənab və yardımsevər bir insanmış! O həm ata-anasının, həm də özünün ürəkgöynədən həyatını yazaraq İnternetlə bizə göndərdi. Aramızdakı yazışma sürəkli oldu, günlərcə çəkdi. Onun hər məktubundan bizim üçün yeni suallar ortaya çıxdı, o da səbirlə, lütfkarlıqla bütün suallarımızı cavablandırdı. Beləliklə, Firidun Əliyevin həyatının son dönəmi haqqında da təsəvvürümüz oldu.

Aliyə xanımın yazdığı məktubların hər cümləsi informasiya ilə doludur və F.Əliyevin həyatı ilə bağlı hansısa nöqtəni işıqlandırır. Bu üzdən onun məktublarını burada ixtisarsız verməyi məqsədəuyğun saydıq, çünki onlardan aldığımız bilgini bizə verə biləcək heç bir arxiv bəlgəsi qalmayıb...

20 aprel 2014-cü ildə Aliyə xanım bizə yazıb:

"Uzun müddət ata qohumlarımı tapmağa çalışmışam. Həbs edildiyi vaxt yaşadığı, onun valideynlərinin qaldığı və qardaşı Niyazinin qayıda biləcəyi ünvana yazmışam (Niyazi bir müddət Moskvada arvadı Nina və bəlkə də Azərbaycanda başqa adı olan oğlu Leonidlə yaşayıb). Qırmızı Xaç Cəmiyyətinə və "Məni tap" verilişinə müraciət etmişəm, ancaq heç bir nəticəsi olmayıb.

Mən, həqiqətən, atamın işi ilə[1] tanış olmuşam. Doğrudur, ona incəliklə baxmağa imkanım olmadı, çünki onu Moskvaya çox qısa bir müddətə göndərmişdilər.

Təəssüf ki, mən atamı, demək olar ki, xatırlamıram. O, Bakıda 1948-ci ilin dekabrında qatarın altına düşüb və bu vaxt mənim iki yaşım vardı. Məndə onun ölüm şəhadətnaməsi var. Deyirlər ki, onu relslərə itələyənlər bir vaxt onu tutduranlar olub.

Mən Azərbaycanda 5 ilə yaxın nənəm Sara xanımın yanında Bakıda və Gülablı kəndində yaşamışam. Azərbaycanca danışırdım. Ancaq o vaxtdan Azərbaycanla heç bir əlaqəm qalmayıb.

Nənəm məni anamın əlindən almaq istəyirdi, məni az qala gizlədirdi, anam isə məni müxtəlif ünvanlardan axtarmalı olurdu. Axı atamı "ittiham sübut edilmədiyinə görə" azad etmişdilər, anamın isə məhkumluğu hələ üstündəydi və hüquqları bərpa edilməmişdi. Bundan başqa, o, "özününkü" – azərbaycanlı deyil, yəhudi idi. Buna baxmayaraq, nənəm sonra da bizə tez-tez meyvə bağlamaları göndərirdi və bu da bizim üçün əsl bayrama çevrilirdi.

Atam mənim anam Vildman Raisa Mixaylovna ilə Vyatsk həbs düşərgəsində ("Vyatlaq"da) tanış olub, burada onlar "sərbəst muzdla" işləyiblər, əslində isə XDİK-nin gizli göstərişinə əsasən, siyasi dustaq olmaqda davam edirdilər. Mən 6 sentyabr 1946-cı ildə orada anadan olmuşam.

Anamın kökü Polşadandır. 10 yaşında Moskvaya gəlib. Burada onun iki bibisi vardı. O, təhsilini davam etdirib. Deyilənə görə, qeyri-adi bacarığı varmış. 1934-cü ildə o, Hərbi-Kimya Akademiyasını qırmızı diplomla bitirən, deyəsən, yeganə qız olub. 1937-ci ildə onu "burjua Polşasının xeyrinə casusluq üstündə" həbs ediblər. Onun əri və dörd yaşlı qızı (mənim anabir bacım) vardı. Anama Moskvaya qayıtmağa yalnız 1956-cı ildə icazə veriblər və həmin il də o, xərçəngdən ölüb. Mən yetim qalmışam. İnternatda böyümüşəm.

Niyazi əmim haqqında bildiyim budur ki, o, Moskvada yaşayıb, sonra ailəsi ilə Bakıya qayıdıb. Arvadı Nina haqqında deyirdilər ki, o, fransız qızıdır. O, xalama toxuculuq

[1] F.Əliyevin AR MTN Arxivində saxlanılan işini nəzərdə tutur.

öyrətmişdi, xalam da qızı ilə bunun sayəsində yaşayırdı, çünki onun əri də repressiya olunmuşdu. Xalalarım danışırdılar ki, anamın dəfnində Niyazi əmim deyib: "Biz öz qanımızı kimsəyə vermərik". Ancaq sonra ondan heç bir xəbər çıxmadı, halbuki ona mənim haqqımda yazmışdılar. Yəqin ki, nə isə baş vermişdi...

Beləliklə, Firidun Əliyevin birbaşa qohumlarını mən tanımıram.

Atamın şəxsi arxivi nənəmin ölümündən sonra yalnız onun qardaşı Niyazidə qala bilərdi. Məndə atamın yalnız bir sənədin üstündəki kiçicik fotosu, ölüm şəhadətnaməsi və üstündə belə bir qəribə yazı olan almanca-rusca lüğəti var: "Əliyev. Berlin. 29/1-48". Onun Berlinə hansı səfərindən söhbət getdiyini bilmirəm.

Xalam qızı mənə danışırdı ki, atam 1946-cı ildə Moskvaya gəlib və onlarda qalıb. Bir dəfə onlar Moskvanın mərkəzində gedərkən (o, atama metroya gedən yolu göstərirmiş) birdən atam deyib: "Mən bilirəm ki, bu qədər adamı niyə içəri salırlar. Sadəcə, havayı işçi qüvvəsi lazım idi". Xalam qızının 18 yaşı vardı, atası da repressiya olunmuşdu və buna görə qorxu içərisində ətrafa boylanıb ki, eşidən olmadı ha. Belə görünür ki, o qədər dustaqda yatmaq atamı qorxmağa öyrətməyibmiş...

Xalam qızının sözlərinə görə, atamla ünsiyyət çox maraqlı imiş. Deyəsən, o, Almaniyada oxumaqla yanaşı, Moskva Universitetinin tarix fakültəsində də oxuyub, ancaq bu, fakt deyil.

Mən uşaqlıq illərindən bəri Azərbaycanda olmağı arzulayıram. Onun haqqında məndə işıqlı uşaq xatirələri qalıb. Ancaq heç cür alınmır. Çox istərdim ki, Bakıda atamın həbs edildiyi Qırmızı Əsgər küçəsi 2/15-ci (18-ci) evin 160-cı mənzilini görüm. Mən bu mənzildəki nəhəng royalı, dənizə baxan pəncərələri çox yaxşı xatırlayıram.[1] *Orada indi kim yaşayır? Bəlkə də Niyazi ailəsi ilə yaşayıb. Özü çətin ki, sağ qalsın, ancaq oğlu mənimlə yaşıddı. Yəqin ki, ev kitabı ilə nəyisə axtarıb tapmaq olar. Qırmızı Əsgər küçəsi keçmiş Şah küçəsi idi. İndi onun adı başqa cürdür,*[2] *ancaq yəqin ki, şəhərin mərkəzindədir.*

Mən indi təqaüdçüyəm, ancaq keçmişdə Sizin həmkarınız olmuşam. MDU-nun jurnalistika fakültəsini bitirmişəm, sonra Murmanskda "Zapolyarnı trud" qəzetinin müxbiri və Moksvada elm və mədəniyyət üzrə müxtəlif informasiya nəşrlərinin redaktoru işləmişəm. Ailəm haqqında: ərim keçmiş hərbi mühəndisdir. Qızım Y.Başmetin rəhbərliyi altında "Novaya Rossiya" dövlət simfonik orkestrində skripka çalır. Üç qız nəvəm var, tezliklə nəticəm də olmalıdır. Vəssalam. Başa düşürəm ki, məndən aldığınız bilgi dəryadan bir damladır, ancaq çox-çox sevinirəm ki, kimsə mənə Azərbaycanlı qohumlarım haqqında nəsə öyrənməyə kömək edir.

Mənim qızım orkestrlə birgə Sizin doğma Qəbələdə 2 dəfə festivalda olub. Orkestrlə Bakıda da olub, orada atamın evini axtarmağa çalışıb, ancaq bir şey alınmayıb – qastroldakı musiqiçilərin vaxtı çox az olur. Umudvaram ki, haçansa alınacaq.

Hörmət və minnətdarlıqla,

Aliyə Bakşevnikova".

Aliyə xanımın bizə 21 aprel 2014-cü ildə yazdığı başqa məktubda isə o, bizim göndərdiyimiz bəzi suallara cavablar verib. Ancaq həmin cavabları özü də dəqiq saymadığına görə biz bəzi yerləri götürərək məktubu ixtisarla veririk:

[1] Bu bina indiki məşhur Beşmərtəbədir. Deməli, o illərdə oradan dəniz görünürmüş.

[2] İndi Şıxəli Qurbanov adına küçədir.

"1946-cı ilin noyabrında atam anamla yenicə doğulmuş məni də götürərək Vyatsk düşərgəsindən Vartaşen[1] *rayonuna gedib. Yeri gəlmişkən, o zaman mən ikiaylıqdım və ciyərlərim ikitərəfli sətəlcəm olmuşdu. Yalnız atamın o vaxt (!) haradansa tapıb gətirdiyi penisillin sayəsində mən bu gün Sizinlə yazışa bilirəm. Atamın orada nə işində işlədiyini bilmirəm, ancaq anam işsiz idi və bizi il yarım atam saxlayıb.*

Sonra 1948-ci ilin fevralında atama tam bəraət verildi, anama isə yox. Anam yalnız Stalinin ölümündən sonra bəraət aldı. Atam Bakıda yaşaya bilərdi və bura qayıtdı. Orada da nə işlədiyi mənim üçün sualdır. Bəlkə də corab fabrikində işləyib?

Atamla Bakıda yaşamağa anama icazə vermədilər. Vartaşendə isə məhkumluğuna görə ona iş vermirdilər. O, məni də götürüb Nijni Tagilə getdi. Orada ona birinci ərinin qohumları vasitəsilə kombinatda iş düzəltdilər.

Deməliyəm ki, sonra məni anamın ilk ərinin ailəsi, özəlliklə anabir bacımın nənəsi saxlayıb. O, ilk gəlinini – mənim anamı, onun ölümündən sonra isə məni çox istəyirdi.

Valideynlərim anamın ölümünədək bir-birlərini gördülərmi, bunu da bilmirəm. Çox güman ki, yox. Axı Ural çox uzaqdadır. Məzuniyyət götürmək isə heç də asan deyildi. Beləliklə, anamın ikinci ailəsini də rejim darmadağın etdi və o, bəraət aldıqdan az sonra 47 yaşında dünyasını dəyişdi.

Deyəsən, mən Sizə daha heç nə əlavə deyə bilməyəcəyəm.

Xudahafiz, hörmətli professor".

Bu ürəkparçalayan hekayətlərlə tanış olduqca insanda sovet rejiminə, kommunizmə nifrət birə-beş artır! Axı Almaniya kimi böyük bir mədəniyyət beşiyində yüksək təhsil almış mühəndisin suçu nə idi ki, onun şəxsən özü və ailəsi belə dəhşətli amansızlıqla məhv edilirdi?! SSRİ-yə dönmüş Cümhuriyyət tələbələrinin demək olar ki, hamısının yeganə "cinayət"i onların Avropa dövlətlərində təhsil almasıydı!

Əlbəttə, keçmişi düzəltməyə kimsənin gücü çatmaz. Bizə yalnız Allaha dua etmək qalır ki, Aliyə xanım və övladlarına Azərbaycana gələrək atasının yurdunu görməyi, uşaqlığını keçirdiyi bu yurdun havasını udmağı, suyunu içməyi bir də nəsib etsin! İnşaallah!

[1] İndiki Oğuz.

Əlizadə Zeynalabdin Kərbəlayı Hacıağa oğlu (Saray, Zeynal A.)

(24.04.1894, Bakı – 01.09.1937)



Zeynalabdin Əlizadə

Qaynaqlarda adı daha çox "Zeynal" kimi işlədilən, ancaq əsl adı "Ağa Zeynalabdin" olan Z.b.Əlizadə[1] Azərbaycanın ilk peşəkar heykəltəraşıdır. O, haqqında ən çox araşdırma aparılmış Cümhuriyyət tələbələrindəndir. Rəhmətlik *Mövsüm Əliyev* hələ sovet dönəmində – 1969-cu ildə "Elm və həyat" jurnalındakı məqaləsindən[2] başlayaraq onun işləri ilə bağlı bir neçə yazı dərc etdirib.[3] M.Əliyev ilk dəfə olaraq onun qısa da varsa tərcümeyi-halını hazırlayıb, əsərlərini taparaq onların təsvirini və təhlilini verib (onun özü də sənətşünasdı), əsərlərin fotolarını dərc etdirib və Z.b.Əlizadənin ümumən Azərbaycan incəsənəti tarixində önəmli yer tutduğunu müəyyənləşdirib. Sonralar vətənpərvər diplomatımız Ramiz Abutalıbovun Fransadan gətirərək AR Dövlət Arxivinə və AR Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə təhvil verdiyi minlərcə material tədqiqatçıların başqa Cümhuriyyət tələbələri ilə yanaşı, Zeynalabdin bəy haqqında da sanballı araşdırmalar aparmasına imkan yaratdı. Çox keçmədən sənətşünas *Mübariz Süleymanlı*'nın "Azərbaycanın ilk peşəkar heykəltəraşı Zeynal Əlizadə: ehtimallar və həqiqətlər" adlı dəyərli məqaləsi işıq üzü gördü.[4] Bu, Z.b.Əlizadəyə həsr olunmuş ilk ən geniş yazıdır. Mübariz bəy həm Azərbaycan arxivlərindəki bəlgələrdən, həm də Türkiyə qaynaqlarından yararlandığına görə onun yazısı maraqla oxunur. Bir il sonra yaxın qohumu (Zeynalabdin bəy onun anasının əmisi oğludur), kimya professoru *Zaur Əlizadə* Zeynalabdin bəyin özü və nəsli haqqında yeni sanballı araşdırma ortaya qoydu. Onun "Zerkalo" qəzetindəki məqaləsində[5] başqalarına əlçatmaz olan ailə arxivi materiallarına daha çox yer verildiyinə görə burada başqa qaynaqlarda rast gəlinməsi mümkün olmayan zəngin faktlar toplanıb. Bəyənilməli haldır ki, Zaur bəy bu sahədə araşdırmalarını daim davam etdirərək yeniləşdirir və onları İnternetə qoyaraq oxucularla paylaşır.

Doğrudur, adını çəkdiyimiz son iki məqalədən öncə də, sonra da başqa yazılar da mövcuddur,[6] ancaq M.Süleymanlı və Z.Əlizadənin tədqiqatları birbaşa Z.b.Əlizadə ilə bağlı olduğuna görə onların üzərində daha çox dayandıq.

Prof. Zaur Əlizadənin yazdıqlarına əsaslanaraq bildiririk ki, Zeynalabdin bəyin atası *Kərbəlayı Hacıağa bəy* (1861-1918/19) tacir olub. İlk həyat yoldaşı Bibixanım Fəxrəddinovadan (1867-?) onun övladı olmayıb, ancaq ikinci yoldaşı *Məryəmnisə xanım İsgəndərbəyova* (1878-?) isə ona iki oğul və bir qız bəxş edib. Kərbəlayı ilk oğluna öz atası, titulyar müşavir Mirzə *Zeynalabdin bəy*'in (1826-1891) adını verib. Zeynalabdinin qardaşının adı *Cəbrayıl* (1897-1920-ci illər), bacısınınkı *Sara* (1905-?) idi.

İndisə AR Dövlət Arxivində saxlanılan şəxsi işindəki sənədlərlə tanış olaq.

17 avqust 1919-cu ildə Bakı şəhəri Hacı Qasım bəy məscidinin mollası Molla Ruhulla Hacı Abdulla oğlunun öz möhürü ilə təsdiqləyib verdiyi doğum şəhadətnaməsində Ağa Zeynalabdin bəy Hacıağa bəy oğlu Əliyevin 1894-cü il aprel ayının 24-cü günündə doğulduğu qeyd edilib.[1]



Məhəmmədəli bəy Əlizadə *(soldan 3-cü)*, Vəsilə (yoldaşı), Vəzifə və Nadir İbrahimovlarla. 1906

Zeynalabdin bəy təhsilini Bakı edadi (real) məktəbində alıb. 9 iyun 1914-cü il tarixli 1142 saylı attestatında bu haqda yazılıb ki, bəy oğlu, müsəlman, 24 aprel 1894-cü ildə Bakı şəhərində doğulmuş Zeynalabdin bəy Hacıağa bəy oğlu 1905-ci ilin sentyabrında Bakı real məktəbinə girərək orada əla əxlaqla 7 iyun 1914-cü ilədək oxuyub, əsas bölmə üzrə tam kursu bitirib və aşağıdakı uğurları qazanıb:

Şəriət –	yaxşı (4)
Rus dili –	kafi (3)
Alman dili –	kafi (3)
Fransız dili –	kafi (3)
Riyaziyyat, o sıradan:	
Hesab –	kafi (3)
Cəbr –	kafi (3)
Həndəsə –	kafi (3)
Triqonometriya –	kafi (3)
Tarix –	yaxşı (4)
Coğrafiya –	yaxşı (4)
Təbii tarix –	kafi (3)
Fizika –	kafi (3)
Rəsm və rəsmxət –	əla (5).[2]

Elə həmin il Mokva Kommersiya İnstitutunun iqtisad bölümünə girib.[3] 1917-ci ildə Rusiyada Fevral inqilabı baş verdikdən sonra imperiyanın ali məktəblərində oxuyan Azərbaycan tələbələrinin demək olar ki, hamısı ana yurduna dönməyə məcbur oldu. Zeynalabdin də onların arasındaydı. Mövsüm Əliyevin yazdığına görə, o, Bakıya 1918-ci ilin payızında qayıdıb.

[1] Soyadı bir çox qaynaqlarda "Əliyev" kimi də gedib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.

[2] *Əliyev M.* Heykəltəraş Zeynal Əlizadə. // *"Elm və həyat"*, 1969, №9, s. 7. Bizcə, "Qobustan"da getmiş "İllərdə izlər" adlı yazıdakı foto da (*"Qobustan"*, 1969, №1, s. 86) M.Əliyevin təşəbbüsü ilə verilib.

[3] *Əliyev M.* Azərbaycanda medal sənəti. // *"Qobustan"* toplusu, 1989, №1, ss. 80-86; yenə onun: Azərbaycan Demokratik Respublikasının poçt markaları. // *"Qobustan"* toplusu, 1990, №1, ss. 85-86 və b.

[4] *Süleymanlı M.* Azərbaycanın ilk peşəkar heykəltəraşı Zeynal Əlizadə: ehtimallar və həqiqətlər. // *"Qobustan"* toplusu, 2008, №2, ss. 9-18.


[5] *Алиаде З.* Первый азербайджанский профессиональный скульптор – Зейнал Абдин Алиев. // *«Зеркало»*, 4.7.2009, №117, s. 34; 11.7.2009, №122, s. 34.

[6] Məsələn: *Abutalıbova N.R.* Azərbaycan – Fransa mədəni əlaqələri. // *"Qobustan" toplusu*, 1988, №4, ss. 32-35; *Касимова С., Ахмедов Р.* Первые почтовые марки Азербайджана. // *"Milli Azərbaycan Tarixi Muzeyi – 2002"*. Bakı, 2002, ss. 277-281; *Bağırov V.* Azərbaycanda kiçik formatlı heykəltəraşlığın inkişafı (XX əsr). Bakı, 2004; *Hüseynova A.* İnanclar Azərbaycan mühacirət folklorşünaslarının araşdırmalarında. // *"Dədə Qorqud"* dərgisi, 2011, №11, ss. 53-62 və b.

[1] ARDA, fond 51, siyahı 3, iş 52, vərəq 4.

[2] Yenə orada, vərəq 2.

[3] MŞMDTA, fond 417, siyahı 7, iş 1098.



Əlizadələr ailəsi. *Soldan sağa:* Hacıağa bəyin ilk yoldaşı Bibixanım Fəxrəddinova, Hacıağa bəy, Zeynalın bacısı Sara xanım, qardaşı Cəbrayıl bəy və anası Məryəmnisə xanım İsgəndərbəyova. Fotodakı ağ yerdə Zeynalın da şəkli olub, ancaq kəsilərək götürülüb. Bakı, 1915-1916

Bakının 1-ci gildiya taciri olan atası Hacı Aslan Aşurovun (1850-1909) tacir Əlizadələrlə daimi səmimi münasibətini, haqqı-salamını unutmayan Azərbaycan Cümhuriyyətinin poçt və teleqraf naziri, Cümhuriyyətin görkəmli dövlət xadimi *Ağa Aşurov* (1886-1936) 15 oktyabr 1918-ci ildə 57 saylı əmrilə Zeynal bəy Əlizadəni 1 oktyabrdan nazir yanında özəl tapşırıqlar üzrə məmur təyin edib[1]. Beləliklə, Zeynal bəyin istedadını ilk dəfə kəşf edərək onu dövlət əhəmiyyətli ciddi işlərə doğru yönəldən də A.Aşurov olub. O, Zeynal bəyin öz bacarığını üzə çıxarmasına hər cür şərait yaradıb və onu öz mənəvi himayəsi altına götürüb. Bu xeyirxahlığının nəticəsində A.Aşurov da Azərbaycanın ilk poçt markalarının məhz onun nazirliyi dönəmində hazırlanması şərəfinə nail olub.

Kommersiya İnstitutu V semestrinin iqtisadçı tələbəsi Zeynal bəy Əliyev[2] 16 avqust 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizədə dövlət hesabına ali təhsilini bitirməyə ona imkan yaradılmasını xahiş edib, Frankfurt-Mayn şəhərindəki Siyasi-İqtisadi Elmlər Akademiyasında oxumaq istədiyini bildirib və alman dilini bildiyini göstərib. Sonda belə bir xahişdə bulunub: Frankfurta getmək mümkün olmazsa məni İtaliyaya – Toskanaya, yaxud Romaya memarlıq-heykəltəraşlıq təhsili almağa göndərməyinizi xahiş edirəm.[3]



Z.Əlizadənin yaxın qohumları: əmisi oğlu İsgəndər Əliyev *(solda)* və sonralar Cümhuriyyət tələbəsi olmuş Cəfər Kazımov. Moskva, 1 iyul 1917-ci il

[1] ARDA, fond 24, siyahı 1, iş 19, vərəq 19a.
[2] Soyadı sənəddə olduğu kimi saxlayırıq.
[3] ARDA, fond 51, siyahı 3, iş 52, vərəq 1.



Cümhuriyyət tələbələri Almaniyada bir arada. *Soldan sağa. Ön cərgə:* Yusif Salahlı, Mürsəl bəy Şahsuvarlı, Hilal Münşizadə, Həmid Xəlil Məhəmməd oğlu, İsmayıl Axundov. *Arxa cərgə:* İsgəndər Vəliyev, Zeynal Əlizadə. Münxen, 1924



Zeynalabdin Əlizadə. Roma, 17 dekabr 1925-ci il

Ərizənin yazıldığı vərəqin aşağısında 140 saylı xarici pasportun ona 11 dekabr 1919-cu ildə verildiyi qeyd olunub.

Persidki küçədə[1] 30-cu evdə yaşayan (telefon 57-81) tələbə Zeynal bəy Əliyev 3 noyabr 1919-cu ildə AC maarif nazirinə ünvanladığı ərizədə yazıb:

"Bununla Siz alihəzrətdən acizanə xahiş edirəm ki, mənim xahişimin mahiyyətini xaricə tələbələr göndərmək üzrə Nəzarət[2] komissiyasına izah edəsiniz.

Mənə birdəfəlik veriləcək vəsaitin artırılmasını, yaxud müəyyən edilmiş aylıq məbləğin Sizin məsləhət bildiyiniz qədər artırılmasını xahiş edirəm.

İstər İtaliya missiyasından, istərsə də İtaliyada bədaye təhsili almış şəxslərdən öyrəndiklərimə görə, rəssam-tələbənin xərcləri başqa universitetlərdə və xüsusi məktəblərdə oxuyan tələbələrlə müqayisədə daha çox olur. Bu, şəhər kənarına eskiz cizgiləri çəkməkdən ötrü gəzintilərlə, eləcə də onun işi üçün tələb edilən geniş işıqlı otağın olması zərurəti ilə bağlıdır. Bunlara da artıq xərclər gedir. Karandaş, kağız, boyalar, kətan, çərçivələr və başqalarına da çoxlu xırda xərclər sərf olunur. Akademiyanın istər birinci, istərsə də sonrakı kurslarında modellərə də az pul xərclənmir. Məsələn, mən Moskvada rəssam Meşkovun studiyasında şagird olarkən bir iş yerinə yetirdim. Mövzu belə idi: hələk olmuş aviatora heykəlin layihəsini hazırlamaq lazımdı, ancaq layihə ucuz, sadə və bədii baxımdan gözəl olmalı idi. Mən belə bir məcazi təsvir yaratdım – yüngül barelyefdə bunları təsvir etdim: budaqda iki qaranquş oturub, onlardan biri havada açılmış qanadlarını tərpədir, ikincisi isə torpağa düşərək tərpənməz qalıb. Bu barelyefi yaratmaqdan ötrü mən mağazadan model üçün qaranquşun müqəvvəsini

[1] İndiki Murtuza Muxtarov küçəsi.
[2] Nazirlik.



Zeynal Əlizadə Perucadakı emalatxanasında Milandakı "La Skala" opera teatrının solisti Sigizmund Zalevskinin (1885-1945) büstünü ona baxaraq yaradır.



"Maarif və mədəniyyət" jurnalında (1924, № 7-8, s. 33) verilmiş bu fotonun altında yazılıb: *"Gənc sənətkarlarımızdan Romada ali təhsil görmüş heykəltəraş Zeynal Əlizadə (Əlizadənin kəndisi yapmış olduğu büstündən alınmış fotoğrafının təsviridir)".*

almalı oldum; əlbəttə, belə işlərə artıq xərc gedir. Umudvaram ki, cənab nazir, Siz mənim xahişimi dəstəkləyəcəksiniz və o gerçəkləşəcək".[1]

Həmin məktubun üzərində heç bir dərkənar qoyulmadığına görə Maarif Nəzarətinin bu yazılanlara münasibətini öyrənmək mümkün deyil. Ancaq bir şeyə əminik – Nəzarət Rusiyada oxuyan 3-cü və daha yuxarı kurslarda oxuyan tələbələrin demək olar ki, heç birini Avropaya göndərməyib, onlara yalnız Rusiya ali məktəblərində təhsillərini davam etdirməyə təqaüd ayırıb, ancaq, görünür, dövlət adamlarından kimsə (bunun Ağa Aşurov olduğuna inamımız böyükdür) Zeynalabdin bəyin məhz heykəltəraş kimi yetişməsindən ötrü istisna şəklində Avropaya göndərilməsinə nail olub.

Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilməsi haqqında 521 saylı vəsiqə Zeynalabdin bəy Hacıağa bəy oğluna 13 yanvar 1920-ci ildə verilib.[2]

***


İtaliyada oxuyan Cümhuriyyət təqaüdçüləri Mirzə Hacızadə, Cəmil Musayev və Zeynal Əlizadə 27 fevral 1920-ci ildə Romadan AC maarif nazirinə bir məruzə-məktub göndəriblər. İtaliyada qalan və Almaniyaya gedən tələbələrin siyahıları əlavə edilmiş həmin məktubda göstərilib ki, İtaliyada cəmisi 6 nəfər qalıb;[3] onlardan ikisi – Əhməd Məşədi Cabbar oğlu [Rəcəbli] və İsgəndər Vəliyev Perucada, qalan 4-ü isə Romada yaşayır və italyan dilini öyrənir.

Məktub müəlliflərı daha sonra maddi durumlarından şikayətlənirlər.[4]

Zeynal bəyin tələbəlik dönəmi ilə bağlı maraqlı bir bəlgə ("İtalya'da heykeltraşlık tahsili gören Azerbaycanlı Zepsel Akpef Bey[5] tarafından Refia Hanımefendi'ye verilmek üzere

[1] ARDA, fond 51, siyahı 3, iş 52, vərəq 6.
[2] Yenə orada, vərəq 9.
[3] Əlizadə Zeynal, Musayev Cəmil, Hacızadə Mirzə, Əhməd Məşədi Cabbar oğlu (Rəcəbli), Rəhimzadə Abdulla və Vəlizadə İsgəndər.
[4] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 34-38a.
[5] Düzgünü "Zeynel Aliyef" olmalıdır.





Zeynal Əlizadənin əsərləri.
1. Bethovenin büstü.
2. Tələbə Mesxinin büstü

mümessilliğe verilen arizanın takdimi") Türkiyənin Osmanlı Arxivində saxlanılır,[1] ancaq, təəssüf ki, onun məzmunu ilə indiyədək tanış ola bilməmişik.

Mövsüm Əliyevin araşdırmalarına görə, Z.b.Əlizadə İtaliyanın Peruca (Perugia) şəhərinin Gözəl Sənətlər Akademiyasının *(Accademia di Belle Arti)* heykəltəraşlıq fakültəsini 1923-cü ildə bitirib. Çox güman ki, kommunistlərə nifrət bəslədiyinə görə SSRİ-yə qayıtmayıb.

***

Haqqında yazılan məqalələrdə Z.b.Əlizadənin, təhsilini bitirdikdən sonra müxtəlif ölkələrdə yaşaması barədə ziddiyyətli fikirlər irəli sürülüb. Onlara münasibət bildirmədən, əlimizdəki bəlgələrə söykənməyi ən doğru yol saydıq.

Zeynal bəy 24 noyabr 1929-cu ildə Romadan Parisə – Ceyhun bəy Hacıbəyliyə rusca belə bir açıqca göndərib: *"Romanın yaz kimi qışından zövq alaraq sərt Paris həyatımın sevimli dostlarını xatırlayıram. Zorya xanıma*[2] *ehtiram, Cecik*[3] *və Timuçinə salamlar, Sizə isə ən gözəl arzular. Sizin Zeynal".*[4] Buradan aydın olur ki, o, ən azından 1929-cu ilin sonlarınadək İtaliyada – Romada olub.

1930-cu illərin başlanğıcında Qafqaz mühacirəti içərisində açıq görünən bir çəkişmə vardı. Özəlliklə Heydər Bammatın "Qafqaz" dərgisi ilə Müsavat Partiyasının mövqeyini müdafiə edən mətbuat orqanları arasında güclü söz döyüşü gedirdi. Bammatçılar Müsavata qarşı azərbaycanlıların çıxışlarını verməkdə daha maraqlı idilər. Bununla bağlı olaraq Münxendə çıxan "Qurtuluş" dərgisi "Bir yalansıtma" başlıqlı xəbərində yazır:

"«Qafqaz» məcmuəsində nəşr olunan bir protestonun[5] *altında Zeynal ismi də vardı. İstanbuldan aldığımız bir məktubda bu imzanın uydurma olduğu qeyd olunur. Bu məktubu aşağıya köçürürük:*

"Qurtuluş" məcmuəsi idarəsinə:

İndiyə qədər heç bir protestoya imza atmadığımı və "Qafqaz" məcmuəsindəki Zeynal isminin mənə aid olmadığını bununla bəyan eləyirəm.

İstanbul, 8.12.1934.

Salam və hörmətlərlə Zeynal.

[1] Osmanlı Arşivi, Tarih: 28/12/1922 (Miladi), Dosya No:64, Gömlek No:46, Fon Kodu: HR.İM..
[2] Ceyhun bəyin yoldaşı Zöhrə xanıma dost-tanışları belə deyirdi.
[3] Ceyhun bəyin oğlu Ceyhunu (1919-1941) əzizləyərək belə çağırırdılar.
[4] Salman Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, fond 649, siyahı 3, iş 24, vərəq 1.
[5] Müsavatçılara qarşı etiraz nəzərdə tutulur.



Tərana xanım Musayeva.
Əlizadələrə yaxın qohumluğu çatan Təranə xanımın ailə albomlarında Əlizadə soyunun görkəmli nümayəndələrinin ən nadir əski fotoları saxlanmaqdadır. Zeynalabdin bəyin Romada çəkilmiş 17 dekabr 1925-ci il tarixli fotosunu da həmin albomların birindən tapdıq.
Bakı, 18 aprel 2008-ci il

İdarədən: Bu zat İtaliyada təhsil etmiş Azərbaycan heykəltəraşıdır".[1]

Buradan aydın olur ki, Zeynal bəy 1934-cü ildə artıq Türkiyədə – İstanbulda imiş. Bəs burada o, haçandan yaşayıb? Təəssüf ki, bu sorğuya dəqiq cavab verə bilmirik, ancaq onun "Azərbaycan Yurd Bilgisi" dərgisindəki yazıları 1933-cü ildə dərc edilib.[2] Bu isə onun geci 1932-ci ildən burada yaşamağa başladığının göstəricisidir. Yazıların altındakı "Zeynel A.Saray" imzasındakı "Saray" isə, bizcə, onun Türkiyə vətəndaşlığını və "Saray" soyadını götürdüyünü təsdiqləyir.

***

Mərhum Mövsüm Əliyevin, Vüsal Bağırov, Mübariz Süleymanlı, Zaur Əlizadə və başqalarının əsərlərində Zeynal(abdin) bəy Əlizadənin Azərbaycan incəsənəti tarixindəki yeri incəliklə araşdırılıb. Sənətşünas olmadığımız, bu üzdən həmin müəlliflərin yazdıqlarını təkrarlamaqdan irəli gedə bilməyəcəyimiz və təkrarçılığı da özümüzə rəva görmədiyimiz üçün oxuculara Z.b.Əlizadənin yaradıcılığı haqqında həmin araşdırıcıların dəyərli yazılarını oxumağı tövsiyə edərək məqaləmizi burada bitiririk.

[1] *"Kurtuluş"* dergisi, 1934, №2, s. 71.

[2] Heykeltraş: *Saray Zeynel A.* Azerbaycan Güzel Sanatları Hakkında. // *"Azerbaycan Yurt Bilgisi"*, yıl: 3, 1933, №33-34, ss. 348-351 (1390-1393); Heykeltraş: *Saray Zeynel A.* Azerbaycan Güzel Sanatları Hakkında. II. // *"Azerbaycan Yurt Bilgisi"*, yıl: 3, 1933, №35-36, ss. 388-399 (1434-1445).

Əmircanov Əliyar bəy Hacı bəy oğlu

(17.05.1897, Şəki – 1945-dən sonra, Zaporojye)



Mühəndis
Əliyar bəy Əmircanov

Əmircanovlar qədim Şəki şəhərinin tarixində önəmli rol oynamış bir soydur. Təəssüf ki, onların tarixi indiyədək öyrənilməyib. Görünür, bu, həmin nəslin sovet dönəmində hədsiz təqiblərə uğrayaraq pərən-pərən düşməsiylə bağlıdır. Təkcə bunu demək yetər ki, Əbdüləli bəy Əmircanov (1874, Şəki – 1948, Türkiyə) Cümhuriyyətin Parlaman üzvü, maliyyə naziri və dövlət nəzarətçisi olmuş və Cümhuriyyət devrilincə Türkiyəyə mühacirət etmişdi. Əmircanovlar nəsli orada davam etməkdədir.

Əliyar bəy də bu soydandır. O, "NKVD" zindanında 9 fevral 1935-ci il dindirməsində öz tərcümeyi-halını belə danışıb:


"1897-ci ildə Azərbaycanın Şəki şəhərində ozamankı rus-türk şəhər ibtidai məktəbinin müəllimi ailəsində doğulmuşam. Atam Bakı şəhərində 1907, ya da 1908-ci ildə müəllimlik edib.[1] *Bundan sonra o, qulluq yerini dəyişib və doğma qardaşı Əmircanov Musa Süleyman oğluna məxsus özəl komisyon kontorda hesabdar işləməyə başlayıb. Orada təxminən 1920-ci ildə Azərbaycan sovetləşənədək çalışıb. Mən də bütün bu vaxt 1919-cu ilədək atamın himayəsində yaşamışam. 1906-1907-ci ildən Bakı real məktəbinə girərək 1915-ci ildə oranı bitirmişəm. Bundan sonra Moskva Ali Texniki Məktəbinə girmişəm. Oranı qurtara bilmədim, çünki 1917-ci ildəki oktyabr çevrilişi mənim üçün o qədər gözlənilməz oldu ki, Vətənə dönməyi qərara aldım. Vətəndən – Bakıdan Moskvaya yenidən təhsil almağa qayıda bilmədim, çünki vətəndaş müharibəsi başlandı. Bakıda qalaraq, xatırladığım qədər, bütün 1918-ci ildə heç nə ilə məşğul olmayaraq atamın himayəsində yaşamışam. Mən də, bir sıra başqa tələbə yoldaşlarım da bu umudla yaşayırdıq ki, tezliklə vətəndaş müharibəsi qurtaracaq və yenidən Moskvaya oxumağa qayıdacağıq.*

1919-cu ildə Bakıda təcrübəçi tələbə kimi öncə 2 ay dəmiryol emalatxanasında, sonra isə avtomobil təmiri emalatxanasında işləmişəm. 1920-ci ildə Azərbaycan hökumətinin Xariciyyə Nəzarətində işə düzəlmiş və ümumi şöbədə kargüzar kimi çalışmışam. Azərbaycan sovetləşdikdən sonra Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığının Şərq şöbəsində kargüzar olmuş və orada eyni vəzifədə 1921-ci ildək işləmişəm. 1922-ci ilin fevral ayında RSFSR XXİK-dan ali təhsilimi davam etdirmək məqsədilə xaricə getmək haqqında rəsmi icazə almışam.

Həmin ildə və ayda mən Berlinə getmiş, Berlin Ali Texniki Məktəbinə girmiş və oranı 1927-ci ilin iyun ayında bitirmişəm. Məktəbi bitirdikdən sonra 1927-ci ilin dekabr ayınadək "Yunkers"in zavodunda sürətli daxiliyanma mühərrikləri üzrə təcrübəçi-mühəndis kimi işləmişəm. Həmin ilin dekabr ayında mən SSRİ-yə – Bakı şəhərinə getmiş, orada 08.01.1928-ci ildən XTŞ Azərdövlətmetalsənaye 5-ci zavodunda mühəndis-konstruktor kimi işə başlamış və orada həmin ilin sentyabrınadək işləmişəm. Mən bu işdən getdim, çünki birbaşa ixtisasımla düz gəlmirdi. Həmin ilin oktyabr ayında Azərneftin avtomobil təmiri zavoduna mühəndis-konstruktor kimi işə girmişəm. 1932-ci ilin noyabr ayında Elmi-Tədqiqat Dizel İnstitutunun dəvəti ilə Leninqrad şəhərinə köçərək həmin institutda bugünkü günədək avtomobil dizellərinin layihələndirilməsi mühəndisi kimi çalışmaqdayam".[2]

[1] Hacı bəy Əmircanov Bakı 4-cü rus-türk məktəbinin müdiri olub.

[2] AR MTN arxivi, PR-2423, vv. 221-221a.



Əliyar bəy Əmircanov *(soldan 1-ci)* çalışdığı zavodda

***

AC Ticarət, Sənaye və Ərzaq Nəzarəti üzrə 12 aprel 1919-cu il tarixli 74 saylı əmrdən öyrənirik ki, nazir Mirzə Əsədullayev iqtisad elmləri namizədi Məhəmmədhəsən bəy Vəlilini nazirlik dəftərxanası ümumi şöbəsinin kargüzarı, və Əliyar Əmircanov və Səməd Məhəmmədyarovu onun müavinləri təyin edib.[1] Deməli, Əmircanov həmin tarixdən bu nazirliyin ştatlı işçisi olub.

Moskva Ali Texniki Məktəbi mexanika bölümünün üçüncü kurs tələbəsi Əliyar Əmircanov 2 avqust 1919-cu ildə Bakıda Zabit döngəsi[2], 5-ci ev ünvanından AC xalq maarif nazirinə ərizə yazıb ki, mən 1915-ci ildə Bakı 1-ci real məktəbini bitirmiş və attestatların müsabiqəsi üzrə Petroqrad Politexnik İnstitutunun elektromexanika bölümünə qəbul olunmuşam. Arzum Moskva Ali Texniki Məktəbinin mexanika bölümünə girməkdi, oraya isə qəbul müsabiqə imtahanı üzrə idi. Texniki Məktəbdə mən iki dərs ilində (1915-16 və 1916-17-ci illərdə) olmuşam və bu müddətdə 18 imtahan vermişəm. 1917-1918-ci il bolşevik çevrilişi ilə əlamətdar oldu, biz qafqazlıları evə qayıtmağa məcbur etdi və payız yarımili üçün 4 zaçot fənn kitabçama yazılmamış qaldı.

Mən Qafqazdakı hadisələrdən danışmayacağam. Təkcə onu deyim ki, Türklərin 1918-ci ilin ortasında [Azərbaycana] gəlməsi ilə [Rusiyada oxuyan, ancaq vətənə qayıtmağa məcbur olmuş] müsəlman tələbələr təhsili başa çatdırmaq üçün xaricə getməyi arzulamağa başladılar. Bu fikir hökumət dairələrində də rəğbətlə qarşılandı. Biz, deyəsən, xoşbəxtlik qapısının ağzında idik – xarici pasport və Türk komandanlığının İstanbula gedişə yardım göstərmək haqqında verdiyi məktublar məndə indi də durur.

[1] ARDA, fond 51, siyahı 3, iş 108, vərəq 55.
[2] İndiki Məmməd Əfəndiyev döngəsi.

Ancaq avqust-sentyabr ayları və sonrası Almaniyanın Qərb cəbhəsində böyük məğlubiyyətləri ilə yadda qaldı. Türkiyənin durumu da laxladı və biz tələbələrin əl-ayağı yenə hər yerdən üzüldü. Getmək fikri ertələndi.

Vaxtı boşuna keçirməmək üçün mən Türklərin yanında sürücü işlədim. Onlar gedəndən sonra Azərbaycan dəmiryoluna təcrübəçiliyə girdim və nəhayət, səfərbərlik elan olunduğu zaman könüllü şəkildə orduya hərbi avtomobillərin təmiri üzrə çilingər kimi getdim, halbuki ailənin yeganə oğlu kimi hərbi mükəlləfiyyətli deyildim.



Mühəndis Əliyar bəy Əmircanov

İndi hökumət yenə müsəlman tələbələri xaricə göndərməyi qərara alıb. Mən Siz alihəzrətdən acizanə xahiş etməklə şərəflənirəm ki, ali təhsilimi İsveçrədə məşhur Sürix Politexnikumunun mexanika bölməsində bitirməyə mənə imkan yaradasınız. Oraya Moskvada verdiyim imtahanlara görə öncədən imtahan vermədən qəbul olunacağam. Ailə vəziyyətimə gəlincə, deyə bilərəm ki, atamın 5 uşağı var və o, nə qədər istəsə də hökumətin göndəriləsi tələbələrə verdiyi yardımı vermək imkanında deyil...[1]

Bu ərizədə Əmircanovun təqdim etdiyi sənədlərin siyahısı da göstərilib. Sənədin ən aşağısında onun yazaraq qol çəkdiyi belə qeydi var ki, bütün bu sənədləri 3 may 1924-cü ildə geri götürdüm.

Moskva Ali Texniki Məktəbinin tələbəsi Əliyar bəy Əmircanov 5 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı növbəti ərizədə qeyd edib ki, 1915-ci ildə Moskva Ali Texniki Məktəbinə girərək 5 semestr oxumuş və uğurla 20-yə yaxın imtahan vermişəm. Bu vaxt bolşevik çevrilişi məni Qafqaza qayıtmağa məcbur etdi. Təhsilimi davam etdirmək haqqında düşüncədən əl çəkməyərək hələ Türklər zamanında Politexnikuma girməkdən ötrü Almaniyaya ezamiyyət almışdım, ancaq sonrakı hadisələr planlarımı pozdu. İndi hökumətimiz tələbələri xaricə göndərməyi qərara alarkən mən də ərizə verdim, ancaq yoldaşlarımın məsləhəti ilə ərizəmdə göstərdim ki, mən 3-cü kurs tələbəsiyəm, halbuki bizdə dərs sistemi kurslar üzrə deyil, fənlər üzrədir. İndi mən kədərlə öyrəndim ki, bu düşüncəsiz addımıma görə Komissiya məni Rusiyaya göndərilən tələbələr siyahısına salıb. Ürəyimdə razı olmasam da, Komissiyanın bu qərarına tabe oldum, ancaq öyrəndim ki, xaricə göndərilən texnik tələbələr məndən də çox imtahan veriblər. Buna görə də Siz alihəzrətdən acizanə xahiş edirəm ki, məni birinci ərizəmə uyğun olaraq xaricə – İsveçrənin Sürix şəhərinə, Sürix Politexnikumunun mexanika bölməsinə göndərəsiniz. (Sonra təqdim etdiyi sənədləri sadalayıb).[2]

Tələbə Əmircanov maarif nazirinə yazdığı 25 noyabr 1919-cu il tarixli ərizəsində təhsilini Xarkov şəhərində davam etdirməkdən ötrü Rusiyaya getmək üçün ona çatası pulların verilməsini xahiş edib.[3]

Nazir Xalq Maarif Nəzarətinin mühasibinə 29 noyabr 1919-cu ildə 13654 saylı belə bir təliqə göndərib ki, Rusiyaya ali təhsilini davam etdirmək üçün getməkdən ötrü tələbə Əliyar bəy Əmircanova 21 min manat yazmağınızı təklif edirəm; həmin məbləğdən 18 min manat bugünkü gündən 6 aylıq dolanışıq üçün və 3 min manat yolpuludur.[4]

[1] ARDA, fond 51, siyahı 3, iş 44, vv.1-2.
[2] Yenə orada, vv. 4-4a.
[3] Yenə orada, vərəq 3.
[4] Yenə orada, vərəq 5.



Əliyar bəy Əmircanov layihə üzərində işləyərkən

Əmircanov, Rusiyaya gedəsi başqa tələbələr kimi, pulu alsa da həmin vaxt oxumağa getmədi və Bakıda qaldı. Həyatının bundan sonrakı dönəmini "NKVD" zindanında verdiyi ifadələrdən öyrənirik.

***

AR MTN Arxivində saxlanılan 4591 saylı (indi: PR-2423) istintaq işi Əliyar Əmircanov, Əhməd Zeynalov, Fərhad Mustafayev, Sultan Hüseynov, Abbasqulu Abbasov, Mirqiyas Ağalarov, Qulamhüseyn Bağırovun ittihamı üzrə tərtib edilib. 1 fevral 1935-ci ildə başlanıb, 254 vərəqdir.

6 fevral 1935-ci ildə Leninqrad Vilayət XDİK İdarəsi Gizli Siyasi Bölümü (GSB) 2-ci bölməsinin müvəkkili Fyodorov, Əliyar Hacı oğlu Əmircanovun tutulması və ona qarşı ittiham irəli sürülməsi haqqında qərar verib, çünki onun əks-inqilabçı *"Qafqaz-Türk Xalq Partiyası"nın* üzvü olması yetərincə ifşa edilib.[1] Bu qərara əsasən o, Leninqrad şəhərində həbs edilib.

Bakıda da 23 fevral 1935-ci ildə Azərbaycan XDİK DTİ 2-ci bölümünün rəisi Cabbarov belə qərar çıxarıb: 4357 saylı istintaq işini gözdən keçirərək müəyyən etdim ki, bu işlə bağlı əks-inqilabi iş aparmaqda yetərincə ifşa olunan Əmircanov Əliyar bəy Leninqrad şəhərində həbs edilib və Bakı şəhərinə Az. XDİK DTİ-yə baxılmaq üçün gətirilib.[2] Ə.b.Əmircanov bu qərara əsasən Bakıda həbsdə saxlanılıb.

Məhbus anketində onun haqqında bu bilgilər verilib: Əmircanov Əliyar Hacı oğlu – 17 may 1897 (37 yaş); Qafqaz, Şəki şəhəri; Leninqrad şəhəri, Bolşaya Posadskaya ev №1, mənzil 24. İş yeri və vəzifəsi – Leninqrad Elmi-Tədqiqat Dizel İnstitutu, mühəndis-konstruktor, 1932-ci ildən işləyir; meşşanlardandır; heç bir partiyada olmayıb; SSRİ Türküdür; partiyasız; ali təhsilli, Berlində Ali Texniki Məktəbi bitirib (1927-ci ildə); xəstəliyinə görə hərbi uçotdan çıxarılıb. Sağlıq durumu – ciyəri xəstədir, mədəsində xora var.

[1] AR MTN arxivi, PR-2423, vərəq 45.
[2] Yenə orada, vərəq 46.

Ailə tərkibi: subay. Bacıları – Ağahüseynova Hüsniyyə, 40 yaş, evdar, Bakı şəhəri; Əmircanova Hökumə, 33 yaş, Bakı şəhəri, XMK, katibə; Dadanova Zivər, 29 yaş, evdar, Bakı şəhəri; İbrahimova Cavahir, 27 yaş, Bakı, Azərneft, kimyaçı mühəndis; Əmircanova İsmət, 24 yaş, Bakı, teleqrafçı; Əmircanova Şövkət, 21 yaş, makinaçı, Bakı. Bütün bacıları partiyasızdır. 07.02.1935-ci ildə həbs edilib; order №1855.[1]



Əliyar bəy Əmircanov ilk həbsində. 1935

İstintaq sənədləri içərisində Əmircanovun xəstəlik tarixçəsindən çıxarış var. 21.07.1931-ci ildə Dövlət Klinik İnstitutu ambulatoriyasında (Balaxana küçəsi, 83) mikroskopiyadan sonra professor Şirokoqorov onda sadə xərçəng müəyyən edib.[2]

8 fevral 1935-ci ildə Leninqradda müstəntiq Fyodorovla onun arasında bu cür sual-cavab gedib:

"*Sual:* Xaricdə yaşayan qohumlarınızı sayın.

Cavab: Xaricdə Berlin şəhərində mənim dayım İsmayıl Əlizadə yaşayır. O, Bakıdan 1921-ci ildə Azərbaycan sovetləşəndən sonra gedib. Keçmişdə o, Şəki şəhərində iri tacirlərdəndi. İndi İran təbəəsidir. Paris şəhərində mənim dayım oğlu *Əlizadə Heydər* olur. O, Bakıdan 1920-ci ildə Azərbaycan sovetləşəndən sonra gedib. Tacirdir. Türkiyə təbəəsidir. Əlizadə Moskvaya tez-tez qanuni yolla gəlir. Sonuncu dəfə o, Moskvaya 1934-cü ildə gəlib və buradan həmin ilin oktyabrında geri dönüb. 1934-cü ildə SSRİ-yə gəldiyində mən onunla Kislovodskda görüşmüşəm. Orada onun arvadı müalicə olunurdu. Bu vaxt mən Jeleznovodskda kurortda idim və Əlizadənin Kislovodskda olduğunu öyrənib onunla görüşmək üçün yanına getmişdim. Dayım İsmayıl Əlizadə ilə bacım Hökumə yazışır.

Sual: Almaniyaya oxumağa nə vaxt getdiniz və Sizi kim göndərdi?

Cavab: Almaniyaya mən Moskvadan 1922-ci ilin fevralında getmişəm. Berlinə oxumağa göndərilməmişəm, oraya hər hansı göndəriş olmadan öz xərcimlə getmişəm, Xarici İşlər Komissarlığından gərəkli viza almışam.

Berlinə gedərkən umudvardım ki, dayım İsmayıl Əlizadə mənə maddi dəstək verəcək. İlk iki ili mən orada İsmayıl Əlizadənin hesabına yaşadım və oxudum, sonra Azərb. SSR Xalq Maarif Komissarlığından təqaüd aldım. Berlində Ali Texniki Məktəbi bitirdikdən sonra Berlindəki Türkiyə səfirliyinə ərizə verdim ki, yaşamaq üçün Türkiyəyə getməkdən ötrü mənə viza versin. Səfirlik bundan imtina etdi[3] və mən SSRİ-yə gəldim".[4]

***

10 fevral 1935-ci ildə Cabbarovun apardığı dindirmədə bu sual-cavabla tanış oluruq:

"*Sual:* Siz keçmiş azərbaycanlı tələbələr içərisindən Hilal Münşi və Əhməd Cəfərоğlunu tanıyırsınızmı və sizə onların şəxsiyyəti və siyasi görüşləri haqqında nə bəllidir?

[1] AR MTN arxivi, PR-2423, vərəq 50.
[2] Yenə orada, vərəq 64.
[3] İstintaqın sonunda Ə.Əmircanov bildirib ki, mən səfirliyə Türkiyədən Qafqaza keçib getmək üçün ərizə vermişdim.
[4] AR MTN arxivi, PR-2423, vərəq 217.



Əliyar bəyin oğlu
Fərid Əmircanov

Cavab: Bəli, mən onlarla yemək yediyimiz pansionda görüşürdüm. Bilirəm ki, Hilal Münşi nəyə görəsə təqaüddən məhrum edildi. Bundan başqa, eşitmişəm ki, o, o vaxt hələ ədəbi yaradıcılıqla da məşğul olub. Onun indi harada olduğunu bilmirəm. Əhməd Cəfərоğlu ilə də dediyim pansionda qarşılaşmışam. Bilirdim ki, o, Türkiyədən gəlib, orada türkologiya ilə məşğuldur, ya da Almaniyaya türkologiyanı öyrənmək məqsədilə gəlib. Hilal Münşi və Əhməd Cəfərоğlu da mənimlə siyasi mövzuda söhbət etməyib. Buna görə də mən onların siyasi oqidəsinin necəliyini onda da bilmirdim, indi də bilmirəm. Onlarla, eləcə də Almaniyada və başqa ölkələrdə yaşamış digər tələbələrlə mən SSRİ-yə qayıdandan sonra heç bir əlaqə saxlamamışam".[1]

Azərb. XDİK DTİ GSB 2-ci bölməsinin müvəkkili S.Sonkin 19 may 1935-ci ildə Bakı şəhərində Ə.Əmircanov, A.Abbasov, S.Hüseynov və başqalarının ittihamı üzrə 4591 saylı istintaq-həbs işini gözdən keçirərək müəyyən edib ki, istintaq nəticəsində onların əks-inqilabi təşkilata mənsubluğu sübuta yetirilməyib, buna görə də adı çəkilən 3 nəfəri həbsdən azad edərək işi arxivə vermək haqqında qərar çıxarıb. Qərarı 21 may 1935-ci ildə Sumbatov təsdiqləyib.[2]

Bacısı İsmət Əmircanova 28 fevral 1935-ci ildə ASSR xalq daxili işlər komissarı Sumbatova ərizə yazaraq bildirib ki, qardaşım 8 fevralda Leninqradda həbs olunub və indi Azərb. XDİK-nın sərəncamındadır. O, 1931-ci ildə böyrəyindəki şişə görə əməliyyat olunub və o vaxtdan indiyədək ciddi pəhrizdə və həkim nəzarəti altındadır. Xəstəliyin mümkün ağırlaşmasından qorxaraq xahiş edirəm ki, onun işinə baxılması sürətləndirilsin.[3]

Leninqrad Tibb İnstitutu fakültə-terapevtik klinikasının 12.09.1931-ci ildə verdiyi şəhadətnamədə əlavə olunub ki, Ə.Əmircanov bu ilin bütün avqust ayı boyunca klinikada nəzarət altında olub. Xərçəng şişi üzündən bu yaxınlarda onun böyrəyi əməliyyatla götürülüb.[4]

11 mart 1935-ci ildə müstəntiqlə onun arasındakı söhbətdən:

"Sual: Albomunuzda bir fotoşəkil var; orada Siz Moskvadakı Türkiyə səfirliyinin bir neçə əməkdaşı ilə çəkilmisiniz. Deyin görək bu şəkil hansı dövrə aiddir və xarici dövlətin əməkdaşları ilə nəyə görə şəkil çəkdirmisiniz?

Cavab: Bu şəkillər 1921-ci ilə aiddir. O zaman mən ASSR-in keçmiş Xarici İşlər Komissarlığının sərəncamı ilə Moskvadakı Türkiyə diplomatik missiyasının sərəncamına göndərilmişdim və 1922-ci ilin fevralında Almaniyaya gedənədək orada işləmişəm. Moskvadakı konsulluqda məndən başlıca olaraq tərcüməçi kimi yararlanıblar. Konsulluq əməkdaşları ilə onların xahişi ilə şəkil çəkdirmişəm. Yalnız indi başa düşürəm ki, konsulluqda işə rəsmən göndərilmiş olsam da bu, sovet vətəndaşı üçün yolverilməzdir. Əlbəttə, mən bu gün o axmaqlığa yol verməzdim. Onda belə hərəkətin yolverilməz olduğunu başa düşmürdüm. Orada məndən başqa, həmin vaxt sovet vətəndaşlarından Türk dilini yaxşı bilən Pepinov Zəki[5] də işləyirdi. Zəki Pepinov indi haradadırsa bilmirəm.

[1] AR MTN arxivi, PR-2423, vv. 223-223a.
[2] Yenə orada, vərəq 244.
[3] Yenə orada, vərəq 61.
[4] Yenə orada, vərəq 62.
[5] Cümhuriyyət dönəminin görkəmli dövlət xadimi Əhmədcövdət bəy Pepinovun qardaşıdır.

Sual: Siz ASSR XXİK-də işə necə girmisiniz və nə işləmisiniz?

Cavab: Mən xaricdə təhsil almağı arzulayaraq hələ Müsavat hökuməti dönəmində, təxminən 1920-ci ilin martında Xariciyyə Nəzarətində kargüzar işinə düzəlmiş, sovetləşmədən sonra orada qalmış və XXİK-nın Şərq şöbəsində də kargüzar işləmişdim. Komissarlıqda məni xalq komissarı Hüseynov Mirzədavud şəxsən tanıyırdı – onunla bir yerdə oxuduğumuz real məktəbdən tanış idik...

Almaniyada oxuduğum vaxt və "Yunkers"in zavodunda staj keçərkən orada Türk mühəndislərlə görüşmüşdüm; onlar da "Yunkers"də staj keçirdilər. Onlar mənə təklif etmişdilər ki, təhsili başa vurandan sonra işləməyə Türkiyəyə gəl. Deyirdilər ki, Türklər Kayseri şəhərində aviasiya zavodu tikməyi nəzərdə tuturlar. Mən onlara qəti cavab vermədim, çünki əvvəlcə özüm də tərəddüd edirdim ki, təhsili qurtarandan sonra işləməyə haraya gedəcəyəm. Sonra isə SSRİ-yə qayıtmağı qəti qərara aldım, ona görə də mənə Türkiyəyə iş üçün getmək təklifini rədd etdim.

Sual: Sizi SSRİ-yə qayıdıb-qayıtmamaq üzərində düşünməyə vadar edən nə idi?

Cavab: Mən bunu şəxsən onunla izah edirəm ki, SSRİ-ni 1922-ci ildə, yəni aclıq və dağıntılar dönəmində tərk etdiyim zaman kapitalist Almaniyasına getmiş və yalnız kapitalist mətbuatı ilə qidalanmışdım; o mətbuat daim SSRİ-dəki durum haqqında ağlagəlməz şeylər yazırdı. Buna görə də mən buraya qayıtmaq məsələsi üzərində tərəddüd edirdim...

Sual: Bakıda və ümumiyyətlə, Azərbaycanda ən yaxın dostlarınızı sadalayın.

Cavab: 1931-ci ilədək, yəni Bakıdan Leninqrada qəti olaraq köçdüyüm vaxtadək Bakıda aşağıdakı şəxslərlə yaxın əlaqələrim olub:

1. *Məmmədov Qəhrəman* – kommunist, inşaatçı mühəndis, Almaniyada birgə oxumuşuq.
2. *Rəhimli Məhəmməd* – mühəndis-mexanik, Almaniyada birgə oxumuşuq.
3. *Rəhimli Abdulla* – mühəndis-mexanik, Almaniyada birgə oxumuşuq.
4. *Əliyev Abbas[mirzə]* – iqtisadçı, indi Moskvada işləyir, Almaniyada birgə oxumuşuq".[1]

Azərb. XDİK DTİ müvəkkili S.Sonkinin 19 may 1935-ci ildə tərtib etdiyi və 21 mayda ZSFSR XDİK Azərbaycan İdarəsinin rəisi Sumbatovun təsdiqlədiyi qərara əsasən, istintaq zamanı Ə.Əmircanovun əks-inqilabi təşkilata mənsubluğu sübut olunmadığına görə işinə xitam verilib və o, həbsdən azad edilib.[2]

Yeri gəlmişkən, Abbasmirzə Əhməd oğlu Əliyevin istintaq işində (1938) də Əliyar Əmircanov haqqında (ona qarşı) qeydlər var. Biz bu mövzuya toxunmuruq.

Abbasmirzə Əliyev bildirib: Əmircanovun atası öz qardaşı, İranla ticarət edən iri tacir Musa Əmircanovun yanında işləyib;[3] Əliyar Əmircanov Berlin Politexnikumuna girib;[4] o, Heydər Əliyevin[5] bacısı *Səkinə* ilə ailə qurub.[6]

4 may 2010-cu ildə Əliyar bəyin bacısı Hüsniyənin (1895) oğulları: general-polkovnik Tofiq Ağahüseynovun (1923) qızı *Elmira Ağahüseynova* və Rəhim Ağahüseynovun qızı *Leyla Ağahüseynova* ilə görüşümüz zamanı onlar bildirdilər ki,

[1] AR MTN arxivi, PR-2423, vv. 224-225.
[2] Yenə orada, vərəq 244.
[3] Yenə orada, PR-22247, vərəq 14.
[4] Yenə orada, vərəq 14b.
[5] Bu, başqa Heydər Əliyevdir.
[6] AR MTN Arxivi, PR-22247, vərəq 14b.



Əliyar bəy Əmircanovun yaxın qohumları.
Elmira Ağahüseynova *(solda)* və Leyla Ağahüseynova

Əliyar bəyin *Fərid* (1935-17.8.1986) adlı oğlu vardı. Təəssüf ki, bu görüşdə həmin xanımlar bizə Ə.Əmircanovun onlarda olan 5 fotoşəklindən və ailəsi haqqında bir neçə cümləlik məlumatdan başqa, əlavə heç bir bilgi verə bilmədilər.

29 may 2014-cü ildə Leyla xanımla bir daha söhbətləşdik. O dedi ki, Fəridin 3 yaşı olanda (deməli, ya 1937-ci ilin sonunda, ya da 1938-ci ildə) Əliyar bəyi yenə həbs ediblər. O, həbsdən çıxandan sonra yenə Leninqradda işləməyə başlayıb və Zaporojyeyə ezamiyyətə gedib. Elə orada xəstələnib, ölüb və basdırılıb. Dəfninə heç kəs gedə bilməyib. Bu, müharibədən sonra olub. Onun oğlu Fərid çox gec – 49 yaşında ailə qurub və həkim Zemfira xanımla ailə qurub. Uşaqları olmayıb.

Əmirov Humbay bəy Məşədi Abbas bəy oğlu

(1899, Şuşa – 1942-ci ildən sonra)



Tələbə
Humbay Əmirov

Bu qısa yazını Salman Mümtazın adı ilə başlamağımıza oxucular təəccüblənməsin. Biz ondan çox yazmışıq. 1937-ci ildə onu həbs etdikdən sonra kommunistlər ailənin mənzilini əlindən almış, oxuyanlarını məktəbdən qovmuş, işləyənlərini işdən çıxarmış, bələdiklə, ailəni acından ölmək qarşısında qoymuşdular. Qorxusundan kimsə "xalq düşməni"nin ailə üzvlərinə nəinki bir tikə çörək, heç Allahın havayı salamını belə verməyə cürət eləmirdi. Belə dəhşətli bir durumda gözlənilmədən bir xilaskar meydana çıxmışdı – Tibb İnstitutunun professoru, Azərbaycanın çox dəyərli aydınlarından biri Azad bəy Əmirov! S.Mümtazın qızı rəhmətlik *Şəhla xanım Mümtazzadə* (onun adını Hüseyn Cavid qoymuşdu) bizə dəfələrlə danışıb ki, o ağır zamanda Azad bəy heç kəs görməsin deyə axşamlar qaranlıq düşəndən sonra mənə xəlvətcə skelet və insan orqanizmlərinin kitabdakı şəkillərini böyüdüb iri kağızlarda çəkməyi sifariş edir (Şəhla xanımın yaxşı əl bacarığı olub) və hər birinin pulunu nağd ödəyirdi. Bunun ailənin ayaq üstə qalmasına çox böyük köməyi olub.

Biz heç vaxt professor Azad bəy Əmirovdan yazmamışıq, çünki buna bir səbəb olmayıb, ancaq bu əhvalata görə onun adı gələndə həmişə gözlərimiz önündə nəcib bir xilaskar surəti canlanır.

Humbay[1] Əmirovdan yazarkən istər-istəməz bu əhvalat yadımıza düşdü – axı Azad bəy onun böyük qardaşıdır!

Humbay Əmirov "Rusiyada oxuyanlar" dəstəsindəndir. (Doğrudur, onların Rusiyada oxuduğunu demək əslində yanlışdır, çünki əksəri Ukraynada oxuyub, Ukraynanı isə "Rusiya" adlandırmaq ədalətsizlikdir). Bu dəstənin Avropaya göndərilənlərdən başlıca fərqi ondadır ki, AR Dövlət Arxivində onların yalnız bir-iki sənədi var, bəzilərinin heç fotosu da yoxdur. Unbay da istisna deyil – onun sənədləri arasında nə doğum şəhadətnaməsi var, nə orta təhsil haqqında bəlgələri. Buna görə də tərcümeyi-halı haqqında oxuculara geniş bilgi verə bilmirik.[2]

Araşdırıcı jurnalist Ə.Çingizoğlu tacir Abbas Məşədi Əli oğlunun (1870-?) Minə Hacı İbrahim qızı ilə ailə qurduğunu və *Azad, Surxay, Umbay, Cavad, Fizzə* adlı övladlarının olduğunu bildirir.[3]

Orta təhsilini bitirdikdən sonra Humbay Odessadakı Novorossiya Universitetinin tibb fakültəsinə girib. Həmin fakültənin dekanı 20 iyun 1918-ci ildə 1339 saylı belə bir vəsiqə verib ki, III kurs tələbəsi Əmirov Onbay burada 6 semestr oxuyub.[4]


Gəncə valiliyi Şuşa şəhərinin sakini Umbay Əmirov Xalq Maarif Nəzarətinə Bakıda 19 avqust 1919-cu ildə yazdığı ərizədə həmin 20 iyun 1918-ci il tarixli vəsiqəni

[1] Onun adı sənədlərdə ən müxtəlif biçimlərdə (Humbay, Umbay, Unbay, Onbay, Ombay...) yazılıb. Biz daha çox işlədilən "Humbay" üzərində dayandıq, ancaq bəlgələrdəki yazılışı da saxlamağa çalışdıq.

[2] Əmirovlar soyu haqqında geniş bilgi almaq istəyənlər bu yazını oxuya bilər: *Çingizoğlu Ə.* Əmirovlar: rəiyyətlikdən tacirliyə qədər. // *"Soy"* dərgisi, 2009, №6 (26), ss. 11-16.

[3] *Çingizoğlu Ə.* Əmirovlar: rəiyyətlikdən tacirliyə qədər. // *"Soy"* dərgisi, 2009, №6 (26), s. 11.

[4] ARDA, fond 51, siyahı 3, iş 55, vərəq 3.



УДОСТОВѢРЕНІЕ.

Тələbə Onbay (Humbay) Əmirova Novorossiya Universitetindən verilmiş vəsiqə

təqdim edərək xahiş edir ki, təhsilini Fransada davam etdirmək üçün ona təqaüd ayrılsın, çünki özünü ən kasıb tələbələr kateqoriyasına aid edir.[1]

Yeri gəlmişkən, Azərbaycan hökumətinin xaricə göndərdiyi tələbə və abituriyentlərin 7 noyabr 1919-cu il tarixli yığıncağında xaricə göndərilənlərin 5 nəfərdən ibarət müvəqqəti bürosu seçilib və həmin büroya Mustafa Vəkilov, Ağalar İsgəndərli, Baxış Sultanov və Əliəkbər Əliyevlə yanaşı Umbay Əmirov da seçilmişdi.[2]

Biz başqa "Rusiya tələbələri"nin işi ilə də tanış olarkən görmüşdük ki, keçmiş Rusiya imperiyası ali məktəblərində oxuyan yuxarı kurs tələbələrini Maarif Nəzarəti onların arzusuna rəğmən Avropaya göndərməyib, təhsillərini yalnız Rusiyada davam etdirməsinə təqaüd ayırıb. Bu baxımdan H.Əmirova da güzəştə gedilməyib, hətta onun tələbə bürosunun üzvü olması da işə müsbət təsir göstərə bilməyib. Ərizənin üstündə maarif naziri Rəşid xan Qaplanov öz əli ilə karandaşla Humbayın 3-cü kurs tələbəsi olduğunu qeyd edib və "Rusiyaya göndərməli" yazıb. Taleyi ilə barışmalı olan Əmirov Onbay maarif nazirinə Bakı şəhərində yazdığı 23 noyabr 1919-cu il tarixli ərizəsində bildirib ki, mən Novorossiya Universitetinin IV kurs tələbəsiyəm və Odessa şəhərinə oxumağa getmək istəyirəm.[3]

Şəxsi sənədləri arasında Onbay Məşədi Abbas oğlu Əmirovun Novorossiya İmperator Universiteti tibb fakültəsindən verilmiş 1145 saylı tələbə bileti də var.[4]

Novorossiya Universitetinə gəlincə, 2012-ci ilin avqustunda Odessada olduğumuz zaman bir vaxtlar çoxlu həmyerlimizin oxuduğu bu universiteti görmək istədik. Çox təəccüblüdür ki, Odessada hətta ən məlumatlı bir neçə ziyalıdan da həmin universitetin yerləşdiyi ünvanı öyrənə bilmədik, nəhayət, təsadüfən qarşımıza çıxan yaşlı bir şəhər sakini vaxtilə həmin universiteti bitirdiyini söylədi və onun yerləşdiyi yeri dedi. Universitetin binasını tapdıq və üstündə yazılan lövhədən aydın oldu ki, bura indi İ.İ.Meçnikov adına Odessa Milli Universiteti adlanır. Binada indi universitetin Riyaziyyat, İqtisadiyyat və Mexanika İnsitututu da yerləşir.

Nəisə. Nazir Xalq Maarif Nəzarətinin mühasibinə 24 noyabr 1919-cu ildə 13 360 saylı belə bir təliqə göndərib ki, Rusiyaya ali təhsilini davam etdirmək üçün getməkdən ötrü tələbə Onbay Əmirova iyirmi bir min manat yazmağınızı təklif edirəm, həmin məbləğdən 18.000 manat bugünkü gündən 6 aylıq dolanışıq üçün və 3.000 manat yolpuludur.[5]

[1] ARDA, fond 51, siyahı 3, iş 55, vərəq 2.
[2] Yenə orada, fond 895, siyahı 1, iş 174, vv. 1-2.
[3] Yenə orada, fond 51, siyahı 3, iş 55, vərəq 4.
[4] Yenə orada, fond 7, siyahı 3, iş 12, sənəd nömrələnməyib.
[5] Yenə orada, fond 51, siyahı 3, iş 55, vərəq 1.

* * *



Həkim Humbay Əmirov

Ancaq pulu almasına baxmayaraq o, oxumağa getməyə tələsmədi. Buna bir neçə ciddi səbəb vardı, biri də dövlət idarəsində işləməsi idi.

Novorossiya Universitetinin IV kurs tələbəsi Onbay Əmirov 23 noyabr 1919-cu ildə məsai (əmək) nazirinə yazdığı ərizədə xahiş edib ki, ona Qarabağ rayonu üzrə əmək müfəttişi yeri verilsin. Ərizəçi məlumat verib ki, hal-hazırda Dövlət Nəzarəti Nazirliyində müfəttiş köməkçisiyəm. Ərizənin sonunda isə Bakıdakı ünvanını göstərib: Qaraul döngəsi, 2.[1]

Əmək naziri Aslan bəy Səfikürdski Novorossiya Universitetinin IV kurs tələbəsi Onbay Əmirovu 78 saylı əmrlə 25 noyabr 1919-cu ildən Şuşa rayonu üzrə əmək müfəttişi təyin edib.[2]

Azərbaycan Cümhuriyyəsi Məsai Nəzarəti 6 yanvar 1920-ci ildə yeni nazir Ə.Pepinovun imzası ilə 82 saylı belə vəsiqə verib ki, Onbay Əmirov həqiqətən Şuşa rayonu üzrə əmək müfəttişidir.[3]

Əmək müfəttişi Onbay Əmirov 13 may 1920-ci ildə artıq sovet Azərbaycanının əmək komissarına yazdığı ərizədə xahiş edib ki, Əmək Komissarlığında xidməti davam etdirmək istədiyimə görə məni ya Qarabağda köhnə vəzifəmə, ya da qaçqın şöbəsinə təyin edəsiniz.[4]

Xalq Əmək Komissarlığı Kollegiyasının 28 iyun 1920-ci il tarixli iclasının protokolunda oxuyuruq ki, komissarlığın qaçqınlar şöbəsinə bunlar təyin edilib: Ə.Qarayevin təqdimatı ilə Qarabağ rayonu üzrə müvəkkil Məhəmmədbəy[ov] Heybətqulu və Pepinovun təqdimatı ilə müvəkkil köməkçisi Umbay Əmirov.[5]

Humbay Əmirovun bunlardan başqa heç bir sənədi bizə bəlli deyil. Doğrudur, onun həkim diplomunun surətini də görməmişik, ancaq ali təhsilini bitirdiyinə şübhəmiz yoxdur (bu artıq sovet dönəminə düşüb), çünki o, səhiyyə sistemi üzrə mühüm vəzifələrdə çalışıb. Xidmətlərinə görə Şamaxı Mərkəzi Rayon Xəstəxanasının baş həkimi Əmirov Ombay Abbas oğluna 1942-ci ildə *"Azərbaycanın əməkdar həkimi"* fəxri adı verilib.[6] Ə.Çingizoğlu yazır ki, U.Əmirov "Azərbaycan SSR-in səhiyyə nazirinin müavini vəzifəsində çalışmışdı".[7] Təəssüf ki, bu haqda heç bir sənəd əldə edə bimədik.

Ə.Çingizoğlu bildirir ki, Umbay bəy *Dilarə Səfərova* ilə ailə qurmuşdu. *Rasim* adlı oğlu, *Alya* adlı qızı vardı.

[1] ARDA, fond 7, siyahı 3, iş 12, vərəq 1.
[2] Yenə orada, vərəq 2.
[3] Yenə orada, vərəq 9.
[4] Yenə orada, fond 51, siyahı 3, iş 12, vərəq 8.
[5] Yenə orada, vərəq 10.
[6] *İnsanov Ə.* Azərbaycan səhiyyəsinin tarixi. Bakı, 2002, s. 510.
[7] *Çingizoğlu Ə.* Əmirovlar: rəiyyətlikdən tacirliyə qədər, s. 11.

Əşrəfov İsrafil İsmayıl oğlu

(01.01.1900, Bakı – 1980-ci illər, Ankara)



Tələbə İsrafil Əşrəfov

İsrafil Əşrəfov Bakı şəhərində dünyaya gəlib. Bu haqda Zaqafqaziya Şiə Ruhani İdarəsinin Tiflis şəhərində 4 iyun 1904-cü ildə verdiyi 1479 saylı doğum şəhadətnaməsində oxuyuruq ki, Bakı şəhəri Came məscidinin şiə cameəsi doğum kitabının 1-ci hissəsindən göründüyü kimi, İsrafil Bakı şəhərinin sakini, 47 yaşlı İsmayıl Hacı Kazım oğlunun öz qanuni arvadı 30 yaşlı Xədicə xanım Hacı Mirəbdülvahab qızından xristian tarixi ilə 1 yanvar 1900-cü ildə anadan olub və Kərbəlayı Mustafa Hacı Molla Məhəmmədhaşım oğlu və Kərbəlayı Əbdülvahab Hacı Molla Qasım oğlunun təsdiqlədikləri bu doğumu həmin ilin doğum kitabına Came məscidinin mollası Axund Məhəmməd Axundzadə 14-cü nömrə altında qeyd edib.[1]

İ.Əşrəfov ibtidai təhsil alandan sonra 12 yaşında Bakı Kommersiya Məktəbinə girib. 3 aprel 1918-ci il tarixli 164 saylı attestatında göstərilib ki, o, 6 sentyabr 1912-ci ildə bu məktəbə daxil olaraq orada əla əxlaqla 15 mart 1918-ci ilədək oxuyub, təlimin tam kursunu bitirib və aşağıdakı uğurları qazanıb:

Şəriət –	beş (5)
Rus dili və ədəbiyyatı –	üç (3)
Alman dili –	üç (3)
Fransız dili –	üç (3)
Tarix –	dörd (4)
Coğrafiya –	üç (3)
Riyaziyyat, o sıradan:	
Hesab –	dörd (4)
Cəbr –	dörd (4)
Həndəsə –	beş (5)
Triqonometriya –	dörd (4)
Analitik həndəsə –	üç (3)
Təbii tarix –	üç (3)
Fizika –	dörd (4)
Kosmoqrafiya –	dörd (4)
Ticarət hesabı –	dörd (4)
Mühasiblik –	beş (5)
Ticarət yazışması –	dörd (4)
Siyasi iqtisad –	üç (3)
Qanunşünaslıq –	üç (3)
Kimya, texnologiya ilə əmtəşünaslıq –	dörd (4)
İqtisadi coğrafiya –	üç (3)
Xəttatlıq, rəsm və rəsmxət –	dörd (4)
Türk dili –	beş (5).[2]

1919-cu ilin avqustunda Azərbaycan Cümhuriyyəti hökumətinin xaricə göndərmək istədiyi tələbələr arasında olmaq istəyən 300-ə yaxın abituriyentin içərisində İçərişəhərdə – Qalada

[1] ARDA, fond 51, siyahı 3, iş 59, vərəq 2.
[2] Yenə orada, vərəq 3.

Saray küçəsi 25-də yaşayan İsrafil Əşrəfov da vardı Maarif nazirinə yazdığı ərizədə xahiş edib ki, Fransaya getmək, Politexnik İnstituta girmək üçün ona da maddi yardım edilsin və dövlət təqaüdçüləri sırasına götürülsün.[1]

Sənədləri qəbul edilən, ancaq təqaüdçülüyə 11 saylı namizəd olan İsrafil Əşrəfov 16 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı yeni ərizədə göstərib ki, qəzetlərdə əlavə məlumatların namizədlərə də aid olması elan edilmədiyinə görə, mən onları indiyədək verməmişəm, ancaq indi aydın olur ki, bu bilgiləri namizədlər də verməlidir. 6 fotoşəkli hələ hazırlamadığıma görə xahiş edirəm ki, əlavə bilgilər bu gün qəbul edilsin, ancaq şəkillər üçün mənə 2 gün vaxt verilsin; onları bu müddətdə nazirliyə çatdıracağıma söz verirəm.



İsrafil Əşrəfov. Paris, 1923

Ərizəçi İsveçrənin Lozanna şəhərində təhsil almaq istəyini dilə gətirib, ancaq bunu da qeyd etməyi unutmayıb ki, mən namizəd olduğuma görə hansı ali məktəbə girmək istədiyimi deyə bilmərəm, buna görə də xahiş edirəm məni ixtisas məktəbinə təyin edəsiniz – elektrotexnika və Dağ İnstitutunu arzu edərdim.[2]

Dekabrın sonunda durum aydınlaşdıqdan sonra İ.Əşrəfovun da təqaüdçülər sırasına keçirilməsi mümkün olub. 29 dekabr 1919-cu ildə o, ali təhsilini bitirdikdən sonra Azərbaycan hökumətinin göstərəcəyi yerdə 4 il qulluq edəcəyi haqqında[3] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında dilkağızları verib.[4]

İsrafil İsmayıl oğlu Əşrəfov Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 495 saylı vəsiqəni 13 yanvar 1920-ci ildə alıb.[5]

***

İsrafil Əşrəfovun Avropada oxuyub gələndən sonrakı taleyi haqqında bilgilər az və olduqca ziddiyyətlidir.

Vaxtılə Cümhuriyyət tələbələri ilə birgə Parisdə Azərbaycan Cümhuriyyəti Xariciyyə Nəzarətinin təqaüdü ilə hüquq təhsili alıb Azərbaycana qayıtmış və mühüm vəzifələrdə çalışmış İsaq Şeyxzamanın AR MTN arxivində saxlanılan PR-39975 saylı istintaq işində İ.Şeyxzamanın 15 mart 1940-cı il tarixli istintaqdakı sual cavabda oxuyuruq:

"Sual: Azərbaycanlılardan kimlərlə Parisdə əlaqə saxlamısınız?

Cavab: Azərbaycanlılardan bu şəxslərlə əlaqə saxlamışam:

1. Əşrəfov İsrafil (indi XDİK orqanları həbs edib)...[6]

[...] *Sual:* Siz SSRİ-də olarkən bu keçmiş tələbələrlə görüşmüsünüzmü?

Cavab: Bakı şəhərində Əşrəfov İsrafillə, Xudaverdiyev Əli ilə, professor Vəzirzadə və Axundov Əjdərlə görüşmüşəm. Görüşlərimiz təsadüfi və nadir halda olub".[7]

[1] ARDA, fond 51, siyahı 3, iş 59, vərəq 1.
[2] Yenə orada, vərəq 4.
[3] Yenə orada, vərəq 5.
[4] Yenə orada, vərəq 6.
[5] Yenə orada, vərəq 7.
[6] MTN-dən bizə bildirilib ki, onların arxivində İ.Əşrəfovun həbsi ilə bağlı sənədlər yoxdur.
[7] AR MTN arxivi, PR-39975, vv. 64-65.

Həmin Şeyxzaman 1922-ci ildə Berlində olduğu zaman gördüyü işlərlə bağlı istintaqda verdiyi ifadədə bildirmişdi: "Mən Parisdən sovet Rusiyasına gedən 2 tələbə – Əşrəfov İsrafil və soyadını unutduğum Cəbrayıldan[1] borc alaraq Rusiyaya gedə bildim".[2] Buradan aydın olur ki, İ.Əşrəfov 1922-ci ildə Azərbaycana qayıdıb. Başqa bir Cümhuriyyət tələbəsinin yazdığı sənəd bu qayıdışın səbəbini açıqlayır. Fransada oxuyan tələbələrin Azərbaycana nümayəndə kimi göndərdiyi Mustafa Mustafayev 15 iyun 1923-cü ildə Bakıda Xalq Maarif Komissarlığına yazıb:

"Təqaüdçü tələbələrin fransız qrupunun maddi böhranı 1 iyul 1922-ci ildən başlanıb. Onlar vəsaitdən ötrü Cəbrayıl Rəhimov və İsrafil Əşrəfovu da nümayəndə kimi göndərmişdilər. Onlar hökumətə fransız qrupu tələbələrinin gerçəkdən hədsiz ağır maddi durumu haqqında geniş yazılı məruzə təqdim edərək, hər tələbəyə ayda 750 frank yaşayış minimumu kimi, orta hesabla 1000 frank da illik təhsil haqqı kimi verilməsini xahiş ediblər. Hökumət bu smetanı qəbul etməyib və yaşayış minimumu ayda 75 manata endirilib ki, bu da son dövrün kursu ilə 560 frank civarında edir".[3]

Təəssüf ki, əlimizdə İ.Əşrəfovun təhsili və ali məktəbi bitirdikdən sonrakı fəaliyyəti haqqında geniş bilgi yoxdur. Bu barədə az-çox məlumatı Ə.Hüseynbətlidən ala bilirik.

Vaxtilə Azərb. SSR DTK-da əməkdaş olmuş, 20 ildən artıq sovet xarici kəşfiyyatında (başlıca olaraq Türkiyədə) çalışmış podpolkovnik, beynəlxalq jurnalist Əsildar Hüseynbəyli 1994-cü ildə yazıb Bakıda rusca nəşr etdirdiyi "Mühacirlər" kitabına[4] 1989-cu ildə yazdığı *«Sakit» mühacir"* məqaləsini də daxil edib. Bu məqalə İsrafil Əşrəfova və oğlu Nail Azərioğluna həsr edib.[5] Sən demə, müəllif Türkiyədə işləyərkən görkəmli fizik, Münxen Universitetində doktorluq dissertasiyası müdafiə etmiş professor *Nail Azərioğlu* ilə dostluq edib və indi o, Azərbaycan Elmlər Akademiyasının dəvəti ilə Bakıya gəlib. Bir həftə sevimli qonaqla Azərbaycanı gəzən müəllif onun valideynlərindən də söz açır. Bildirir ki, İsrafil Əşrəfov mühəndis-energetikdir. Ali təhsilini bitirdikdən sonra 1926-cı ildə Maarif Komissarlığının dəvəti ilə alman xanımı Laura ilə birgə Bakıya qayıdıb. Texniki real məktəbdə (indiki Neft Akademiyası) energetikadan dərs deyib (görkəmli alim Zəki Kazımzadə onun tələbəsi olub). Ana dilimizdə ilk energetika dərsliyi yazaraq nəşr etdirib. *"...30-cu illərin başlanğıcında həbslərin ilk dalğası başlananda İsrafil bəy axır ki, qərara gəlib: bu vaxt arvadının ağır xəstələnməsindən yararlanaraq o, arvadı və oğlu ilə xaricə getməkdən ötrü xahiş edərək ezamiyyətə gedib – onda hələ buna icazə verilirdi".*[6] Almaniyada olduğu vaxt mühacirlərlə əlaqədən qaçıb, siyasətə qoşulmayıb. Müharibə başlandıqdan sonra Türkiyəyə – Ankaraya köçüb, orada Bağçalıevlərdə öz dördqatlı imarətində ömrünün sonunadək yoldaşı, oğlu Nail və gəlini, şairə Nərgizlə birgə yaşayıb. Türkiyədə böyük bəstəkar və dirijor Niyazi ilə dostlaşıblar. Nail Azərioğlu 1989-cu ildə Bakıya gələndə Niyazi də onu qonaq edib.[7]

Bu qədər danılmaz faktlara da inanmamaq mümkün deyil. Onda, bizcə, məntiqlə düşünməliyik ki, İsaq Şeyxzamanın dediyi kimi, İsrafil Əşrəfov gerçəkdən həbs edilib, ancaq suçsuz olduğuna görə tezliklə buraxılıb. MTN arxivində işinin olmamasından belə də güman etmək olar ki, o, ümumiyyətlə, həbs edilməyib, ancaq bu haqda şayiə yayılıb və Şeyxzaman da şayiə əsasında danışıb. Hər iki halda "həbs"dən az sonra İ.Əşrəfov ailəsini də götürərək Almaniyaya gedib. Sonrası isə Ə.Hüseynbəylinin kitabındakı kimidir.

[1] Cəbrayıl Rəhimov nəzərdə tutulur.
[2] AR MTN Arxivi, PR-39975, vərəq 73a.
[3] ARDA, fond 57, siyahı 1, iş 260, vərəq 112.
[4] *Гусейнбейли А.* Эмигранты. Почти невыдуманные истории. Баку (без места и даты издания).
[5] Yenə orada, ss. 286-292.
[6] Yenə orada, s. 290.
[7] Yenə orada, ss. 286-292.

Hacı Həsən əfəndi oğlu Sadəddin

(?, Bərgüşad k./ Ucar r. – ?, İstanbul)

Sadəddin[1] Hacı Həsən əfəndi oğlu Cümhuriyyət tələbələrindən olsa da sənədlərini təqdim etmək üçün şəxsən Bakıya gəlməyib. Bu üzdən arxivdə onun yalnız bir-iki sənədi var, hətta heç fotosunu da verməyib.

Sadəddinin sənədində onun Göyçay qəzasının Bərgüşad kəndindən olduğu yazılıb. Cümhuriyyət təqaüdçüləri içərisində ən az sənədi olan bu tələbə haqqında geniş bilgi əldə etmək üçün 2007-ci ilin sentyabrında ziyalı dostumuz, istedadlı memar Feyzi Səbzəliyevlə birgə Göyçaya yollandıq. Öncə Bərgüşad stansiyasına gəldik. Burada bəlli oldu ki, bu yaşayış məntəqəsi əslində "Küçəkənd" kəndidir. Bizim axtardığımız isə *"Bağban Bərgüşad"* imiş, o da buradan 12 kilometr uzaqda, Ucar rayonu ərazisindədir.

Ucar Bərgüşadında da olduq. Sadəddin Hacı Həsən oğlunu soraqladıq. Öncə *Abdulxalıq Ələmməd oğlu Məmmədov*'la (1910) görüşdük. 97 yaşlı Abdulxalıq kişi bizə danışdı ki, Hacı Həsən İstanbulda yaşayırdı. Təxminən 1920-ci illərdə Bərgüşada gəlmişdi. Canlı-başlı, hündür adamdı. O, bu kənddəki Əsədli nəsliylə qohum idi, birbirinə "əmioğlu" deyirdilər. O qayıdıb İstanbula gedəndə Əsədlilərdən Şamil adlı bir oğlanı da özü ilə İstanbula aparmışdı, ancaq o, bir azdan qayıdıb gəldi.

Abdulxalıq kişi Sadəddin haqqında heç nə deyə bilmədi.

Daha sonra *Əşrəf Şamil oğlu Ərəstunov*'la (1935) söhbətləşdik. O dedi ki, Hacı Həsən İstanbulda Məhəlleyi-Şəmsəddində yaşayıb. O, türkiyəli *Səbihə xanım*'la evlənmişdi, *Əkrəm, Zahid* və *Zinhar* adlı oğulları vardı.

Əşrəf kişi Sadəddin adını eşitmədiyini bildirdi. Dedi ki, Hacı Həsən və övladlarından 1920-ci ildən bəri heç bir xəbər yoxdur: "Babam Ərəstun, Hacı Həsənlə əmioğlu idi. Atam Şamilin də adını Hacı Həsən qoyub, çünki o, Şeyx Şamilə çox hörmət edirdi". (Abdulxalıq Məmmədovun dediyi Şamil, Əşrəf Ərəstunovun atasıdır).

Əşrəf Şamil oğlu daha sonra bildirdi: "Hacı Həsənin əsli-kökü Bərgüşaddandır. O, Bərgüşada iki dəfə gəlib-gedib. Atam Şamil əmisi nəvəsi Carullahın qızının adını onun arvadının şərəfinə Səbihə qoyub. Mənim atam Şamil, onun atası Ərəstun, onun da atası Abdusalamdır. Deməli, mənim ulu babam olan Abdusalam kişi Hacı Həsənin əmisidir. Çox təəssüf ki, bundan artıq bir şey bilmirəm".

İstər Abdulxalıq Məmmədovda, istərsə də Əşrəf Ərəstunovda Hacı Həsən və övladları ilə bağlı heç bir sənəd tapılmadı.

***

Azərbaycan Hökuməti-Cümhuriyyəsi Dərsəadət[2] konsolosxanasının verdiyi tarixsiz 174 saylı rusca vəsiqədə yazılıb:

"Bunu təqdim edən Sədi Hacı Həsən oğlu Bakı valiliyi Göyçay qəzasının Bərgüşad kəndinin sakini, İstanbul Universiteti tibb fakültəsinin son kurs tələbəsidir. Təhsilini bitirmək üçün heç bir vəsaiti yoxdur, imza və möhür basılması ilə təsdiq edilir".[3]

Açığı, bu vəsiqənin gerçəkliyi şübhə doğurur, çünki onun nə yazılma tarixi var, nə də qol çəkən şəxslərin vəzifələri yazılıb. Əslində imzaların ikisini də sanki eyni adam çəkib... Ən başlıcası – Sadəddinin adı "Sədi" kimi yazılaraq təhrif edilib. Ancaq görünür ki, onu çox inanılmış bir adam Maarif Nəzarətinə təqdim etdiyinə görə nəzərə alınıb.

[1] Adının düzgün oxunmaması nəticəsində bəzi bəlgələrdə "Sədi" yazılışına da rast gəlirik. Sənədlərdəki bu cür yazılışı da saxlamışıq.
[2] İstanbul.
[3] ARDA, fond 51, siyahı 3, iş 125, vərəq 2.



Sadəddin Hacı Həsən əfəndi oğlunun yazdığı ərizə

İndisə ana dilimizdə, ancaq ərəb əlifbasında yazıldığına görə indiyədək araşdırmalardan qıraqda qalmış aşağıdakı ərizənin məzmunu ilə tanış olaq:

"Azərbaycan Hökuməti-Cümhuriyyəsi Maarif Nəzarəti-cəliləsinə.

Dövlətli əfəndim həzrətləri!

Bəndələri[1] *Bakı vilayətinin Göyçay uyezdindən Bərgüşad qəryəsindən*[2] *Hacı Həsən əfəndi oğlu olub, şimdiyə qədər İstanbulda təhsil etməkdə idim. Mütarəkənin*[3] *əqdindən*[4] *əvvəlinə qədər "İttihad və tərəqqi" və "Türk ocağı" tərəfindən bilanöqsan*[5] *hər bir ləvazimim ikmal və heç bir gunə müşkülata məruz qalmıyor və məzkur cəmiyyətlər tərəfindən hər ay müntəzəmən məxsusat alaraq Darülfünun tibb fakültəsinə davam etməkdə idim, halbuki şimdi isə "İttihad və tərəqqi" və "Türk ocağı" tərəfindən müavinət imkanı qalmadığından təhsilimə davam edəməyəcəyəm. Bu hal nəzdimdə mövcud İstanbul Azərbaycan konsolosluğu tərəfindən də təsdiq edilməkdədir. Bən rica və istirham ediyorum ki, tibb fakültəsinin son sinfinə qədər gəldim, diploma almaqlığıma az bir zaman qalmışdır, Azərbaycan hökuməti tərəfindən bana müavinəti-nəqdiyyədə bulunulsun, bən də təəhhüd edərim ki, Darülfününu ikmal edər-etməz hər nə Azərbaycan hökumətinin göstərdiyi bir yerdə doktorluq edərəm.*

Keçən sənə Azərbaycan hökuməti tərəfindən İstanbula sülh konfransı üçün göndərilən Rəsulzadə Məhəmmədəmin bəyin nəzdində ifayi-xidmət etdim; kəndiləri də məlumatdardırlar. Bu xüsusda lazım gələn müamilənin ifasıyla eylülün on beşində açılacaq olan fakültəmə əzimətimin təyinini rica və istirham edərəm, əfəndim həzrətləri.

Fi 2 eylül [1]335[6]

İstanbul Darülfününu tibb fakültəsi son sinif tələbəsindən 1112 nömrülü Sədəddin".[7]

Ərizənin üstündə rusca "Tələbələrin siyahısına. 2/IX.19" yazılıb və nazir R.x.Qaplanov qol çəkib.

Həmin ərizənin aşağı sağ tərəfində rusca yazılıb: *"Sədi Hacı Həsən oğlundan. Onu Az[ərbaycan] Universitetinin tibb fakültəsinə qəbul etməyi xahiş edir".* Burada iki ciddi yanlışlığa yol verilib: 1) ərizədə ad "Sədi" yox, "Sədəddin" ("Sədəddin") yazılıb; 2) ərizəçi Azərbaycan Universitetində deyil, İstanbul Universitetində təhsilini bitirmək istədiyini yazıb. Deməli, qeydi yazan kimdirsə o, ərizəni düzgün oxuya bilməyib.

Burada diqqəti cəlb edən məsələlərdən biri də Sədəddin Hacı Həsən əfəndi oğlunun İstanbul sülh konfransı zamanı (iyun-iyul 1918-ci il) Azərbaycan Nümayəndə Heyətinin rəisi (başçısı) Məhəmmədəmin Rəsulzadənin qulluğunda olmasıdır. Biz Rəsulzadənin Azərbaycan Cümhuriyyətinin ozamankı xariciyyə naziri Məhəmmədhəsən Hacınskiyə İstanbuldan göndərdiyi və indi ARDA-də saxlanılan məktublarını gözdən keçirdik, ancaq Sədəddinin adına

[1] Özünü nəzərdə tutur.
[2] Kəndindən.
[3] 30 oktyabr 1918-ci ildə bağlanmış Mudros (Mondros) müqaviləsi (mütarəkəsi) nəzərdə tutulur.
[4] Bağlanmasından.
[5] Nöqsansız, qüsursuz.
[6] 2 sentyabr 1919-cu il.
[7] ARDA, fond 51, siyahı 3, iş 125, vərəq 1.




AC-nin Dərsəadət (İstanbul) konsulluğundan verilmiş vəsiqə

rast gəlmədik. Bəlkə də o, bir tələbə kimi elə işlərdə yardımçı olub ki, buna görə onun adını qeyd etməyə dəyməzmiş. Ancaq Sədəddinin ərizəsinin az qala göndərilən kimi etirazsız qəbul edilməsi və ona yardım göstərilməsi bi işdə Məhəmmədəmin Rəsulzadənin rolu olduğunu düşünməyə əsas verir.

Beləliklə, 13 yanvar 1920-ci ildə "Sədi Hacı Həsən oğlu"na Azərbaycan Cümhuriyyəti Hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 596 saylı vəsiqə verilib.[1] Ancaq bu vaxt onun özü İstanbuldaydı, buna görə də vəsiqəsinin üstündə fotoşəkli yoxdur.

4 gün sonra – 17 yanvar 1920-ci ildə "İstanbulda Azərbaycan Hökuməti Diplomatik Missiyasının c-b nümayəndəsinə" (Yusif bəy Vəzirova) nazir müavini N.b.Şahsuvarovun imzasıyla göndərilmiş 662 saylı məktubda Türkiyəyə oxumağa yola salınmış 9 nəfərin siyahısı verilib və qeyd olunub ki, siyahıda adları çəkilən Sədi Hacı Həsən oğlu və Abdulla Tahirov artıq İstanbuldadır, qalanları isə Türkiyəyə getmək üçün 16 yanvardan Bakıdan çıxıblar... İstanbuldakı Sədi Hacı Həsən oğlu və Abdulla Tahirova gəlincə, onların hər birinə çatası 3 min frank dörd köçürmə biletində onlara göndərilir.[2]



Sadəddin Hacı Həsən əfəndi oğluna AC Maarif Nəzarətindən verilmiş vəsiqə

Bu məktubda o da bildirilib ki, Türkiyəyə göndərilən tələbələrin dolanışığı üçün 1 fevraldan tədris ilinin sonunadək ən yaxın vaxtda Sizin sərəncamınıza zəruri məbləğ göndəriləcək ki, onları aybaay tələbələrə verəsiniz. Nəzarətə (nazirliyə) öz fotosunu təqdim etməmiş Sədi Həsən oğlundan başqa, siyahıdakı bütün tələbələrə Bakı şəhər rəisi xarici pasportlar verib.[3]

Azərbaycanın Xariciyyə Nəzarəti 10 mart 1920-ci ildə Xalq Maarif Nəzarətinə göndərdiyi 1606 saylı məktubda yazıb ki, builki 17 yanvar tarixli 662 saylı məktubunuzla bağlı Xariciyyə Nəzarəti İstanbuldakı Diplomatik Missiyamızın bilgilərinə əsasən xəbər verir ki, məktubda göstərilmiş frank qəbzləri tələbələr Sədi Hacı Həsən oğlu, Abdulla Tahirov və Məhəmmədrəşid Bosnalızadəyə verilib, onların qəbzləri alması haqqında dilkağızları Missiyanın dəftərxanasındadır.[4]

27 fevral 1920-ci ildə İstanbulda oxuyan tələbələrin 9-u da: Əbdül Əbdülzadə, Sadəddin Hacı Həsən oğlu, Məhəmmədzəki Dursunzadə, Məhəmmədhənifə Zeynallı, Əlimuxtar Həsənzadə, Əli Kərimzadə, Əliyusif Cəfərzadə, Məhəmməd Xələfbəyzadə və Abdulla Tahirli Bakıya – Maarif Nəzarətinə maddi durumlarından şikayətləndikləri bir məktub yazaraq altından qol çəkdilər.[5] Bu, Sadəddin Hacı Həsən əfəndi oğlunun Azərbaycanda ən sonuncu nişanəsi idi...

[1] ARDA, fond 51, siyahı 3, iş 125, vərəq 3.
[2] Yenə orada, iş 40, vv. 5-5a.
[3] Yenə orada.
[4] Yenə orada. Məktub Maarif Nəzarətində 12 mart 1920-ci ildə qeydə alınıb.
[5] Yenə orada, vv. 42-43.

Hacıyev Bayram İbrahim oğlu

(30.07.1900, Şuşa – ?)



Bayram Hacıyev

Cümhuriyyət tələbələrinin xeyli hissəsi Qarabağdan, özəlliklə Şuşadandır. Bizcə, hökumət bunu bilərəkdən edib ki, gələcəkdə ermənilərin Qarabağ iddiaları qarşısında dura biləcək güclü bir ziyalı dəstə yetişsin. Öz aramızdır, elə ermənilər də bunu gözəl anladıqlarından, ağalıq etdikləri Azərbaycan "ÇK"-sının və "NKVD"-sinin əliylə onları xüsusi diqqətdə saxlayaraq Azərbaycandan təmizlədirlər. Onların bir çoxu sovet Azərbaycanına gəlməkdən imtina etdi, gələnlərsə siyasi terrorun qurbanı oldu. Gəlməyənlərdən biri Bayram Hacıyevdir.

Zaqafqaziya Şiə Ruhani İdarəsinin 13 avqust 1909-cu ildə Tiflis şəhərində verdiyi 2685 saylı doğum şəhadətnaməsində qeyd edilib ki, Gəncə valiliyi Şuşa şəhərinin sakini Bayram İbrahim oğlu, atası İbrahim Məşədi Abdulla oğlu Hacıyevin qanuni arvadı Ayna xanım Kərbəlayı Əliəsgər bəy qızından 30 iyul 1900-cü ildə doğulub.[1]

O, təhsilini Şuşa şəhərində alıb. 300 saylı attestatında yazılıb ki, Şuşa şəhərinin sakini Bayram Hacıyev 1 oktyabr 1917-ci ildə Şuşa real məktəbinə girərək 15 mart 1918-ci ildə oranın tam kursunu bitirib. Onun qiymətləri yüksəkdir. 5 fəndən "5", 10 fəndən isə "4" alıb.[2]

Aldığı attestat ona ali məktəbə girmək hüququ vermirdi, buna görə əlavə 8-ci sinfi də oxuyaraq şəhadətnamə almalı idi. B.Hacıyev 24 dekabr 1918-ci ildən 21 iyun 1919-cu iləd̈ək Şuşa real məktəbinin əlavə – 8-ci sinfində oxuyaraq tam orta təhsilə yiyələnib və yekun sınaqlarda aşağıdakı uğurları göstərib:

Şəriət –	əla (5)
Rus dili –	yaxşı (4)
Alman dili –	əla (5)
Fransız dili –	əla (5)
Riyaziyyat, o sıradan:	
Hesab –	əla (5)
Cəbr –	əla (5)
Triqonometriya –	yaxşı (4)
Xüsusi kurs (Analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	yaxşı (4)
Tarix –	əla (5)
Təbiiyyatşünaslıq –	əla (5)
Fizika –	əla (5)
Riyazi coğrafiya –	əla (5)
Rəsm –	yaxşı (4)
Qanunşünaslıq –	əla (5)
Türk dili –	əla (5).[3]

[1] ARDA, fond 51, siyahı 3, iş 67, vərəq 4.
[2] Yenə orada, vərəq 2.
[3] Yenə orada, vərəq 3.



Bayram Hacıyev *(soldan 2-ci)* məktəb yoldaşları arasında. Şuşa, 1914

Yaxşı oxuduğuna görə o, 10 may 1917-ci ildə Bakı şəhərində keçirilən Qafqaz müsəlman şagirdlərinin I qurultayının nümayəndəsi seçilmişdi. Xatirə fotolarında qurultay iştirakçıları arasında onun da şəklini görürük.


1919-cu ildə dövlət hesabına ali təhsil almaq üçün xaricə tələbə göndərmək xəbəri çıxanda Bayram da çox sevindi. Nə qədər yaxşı oxusa da o qədər kasıbdı ki, öz hesabına haçansa ali təhsil alacağı yuxusuna belə girməzdi. İndi isə onun doğma dövləti öz balalarına qucaq açıb, onlardan ötrü xəzinə qızıllarını sərf edəcəyini bildirir. Bundan ruhlanan B.Hacıyev 10 avqust 1919-cu ildə xalq maarif nazirinə yazdığı ərizədə ali təhsil almaq üçün maddi imkanının olmadığını bildirib, onu hökumətin xaricə oxumağa göndərdiyi tələbələrin sırasına daxil etməyi xahiş edib və Fransa universitetlərinin birində fizika-riyaziyyat fakültəsində oxumaq arzusunu bəyan edib.[1]

Sənədin sonunda 119 saylı xarici pasportun ona 11 dekabr 1919-cu ildə verildiyi göstərilib.

Ancaq kasıblığın ərizədə göstərilməsi yetərli deyildi, bundan ötrü yerli hakimiyyət orqanından, yaxud hamının tanıdığı nüfuzlu ziyalılardan, Parlaman üzvlərindən kimsə bu haqda arayış verməliydi. O da bu kağızı aldı. 5 avqust 1919-cu ildə verilmiş 1228 saylı vəsiqədən görünür ki, B.Hacıyevin ailəsi bu şəxslərdən ibarətdir: anası *Ayna xanım*, 70 yaşlı dul qadın; qardaşları: 37 yaşlı *Abdulla*, onun arvadı və 2 uşağı; 23 yaşlı *Bəylər*, indi əsgərlikdədir və 34 yaşlı bacısı *Malikə*, 4 körpə uşaqla duldur.

Gəlir gətirə bilən heç bir əmlakı yoxdur, ailə çox kasıbdır.[2]

[1] ARDA, fond 51, siyahı 3, iş 67, vərəq 1.
[2] Yenə orada, vərəq 5.



Fransada oxuyan Cümhuriyyət tələbələri. *Soldan sağa:* Məhəmməd bəy Muradov, Bayram Hacıyev, Ağaəli Yusifzadə. Paris, 1920-ci illər

Abituriyent Bayram Hacıyev nazirə ünvanladığı 6 noyabr 1919-cu il tarixli son ərizəsində onu Fransaya (Parisə) fizika-riyaziyyat fakültəsinə qəbul olunmaq üçün göndərməyi xahiş edib.[1]

Bayram İbrahim oğlu Hacıyevə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 509 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[2]

B.Hacıyev "evdən" – Bakıdan İngiltərəyə göndərilən tələbə kimi çıxsa da Fransaya – Parisə getməli olub və orada iqtisad fakültəsində oxuyub. Bir hesabatda onun təhsilini bitirməyə 5 ay qaldığı göstərilib.[3]

Bundan sonra B.Hacıyev haqqında əlimizdə heç bir bilgi yoxdur. Bildiyimiz təkcə budur ki, təhsilini başa vurduqdan sonra SSRİ-yə qayıtmayıb.



Almaniya və Fransada oxuyan tələbələrimiz. *Soldan. Öndə:* Zal Məmmədli, (?), Əliəkbər Əliyev, Bayram Hacıyev. Arxada: Hilal Münşizadə, Hüseyn Şıxıyev, Teymur bəy Aslanov. Berlin, 1920-ci illər

[1] ARDA, fond 51, siyahı 3, iş 67, vərəq 6.
[2] Yenə orada, vərəq 9.
[3] Yenə orada, fond 57, siyahı 1, iş 276, vv. 62-63.

Hacıyev Xasfolad bəy İsmayıl bəy oğlu

(21.01.1900, Ərdəhan ş. – ?)



Xasfolad bəy Hacıyev

Zaqafqaziya Şiə Ruhani İdarəsindən Tiflis şəhərində 19 yanvar 1904-cü ildə verilmiş doğum şəhadətnaməsində yazılıb ki, Gəncə valiliyi Şuşa qəzasının sakini Xasfolad[1] bəy Hacıyev atası İsmayıl bəy Hüseyn bəy oğlu Hacıyevin qanuni arvadı Hacıyeva Sandrit xanım Kaspulat qızından 21 yanvar 1900-cü ildə doğulub.[2]

Kökcə Qarabağdan – Şuşadan olsa da atasının işinə görə diyar-bədiyar gəzməli olmuş Xasfolad bəy ana yurdundan çox uzaq olan Ərdəhanda dünyaya göz açmışdı. Doğrudur, doğum şəhadətnaməsində bu haqda heç nə yoxdur, ancaq 611 saylı kamal attestatı bunu təsdiqləyir. Orada yazılıb ki, müsəlman, Xasfolad bəy İsmayıl bəy oğlu Hacıyev Ərdəhan şəhərində 21 yanvar 1900-cü ildə doğulub.[3]

Bu attestatdan öyrənirik ki, X.b.Hacıyev 15 sentyabr 1915-ci ildə İrəvan kişi gimnaziyasına girərək orada əla əxlaqla 1 may 1917-ci ilədək oxuyub və 8 siniflik tam kursu bitirib. Bu zaman aşağıdakı bilikləri qazanıb:

Şəriət –	keçməyib
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	3 (üç)
Fəlsəfi propedevtika –	4 (dörd)
Latın dili –	3 (üç)
Riyaziyyat –	4 (dörd)
Riyazi coğrafiya –	4 (dörd)
Fizika –	4 (dörd)
Tarix –	4 (dörd)
Coğrafiya –	5 (beş)
Fransız dili –	3 (üç)
Alman dili –	3 (üç)
Qanunşünaslıq –	4 (dörd).[4]

Şuşa şəhərinin sakini, Petroqrad Dağ İnstitutunun I kurs tələbəsi Xasbulat bəy Hacıyev 15 avqust 1919-cu ildə Gəncə şəhərindən maarif nazirinə yazdığı ərizədə onun da Avropaya göndərilən tələbələr sırasına salınmasını xahiş edib və dağ ixtisası üzrə oxumaq istədiyini bildirib. Ərizənin aşağısında 193 saylı pasport kitabçasının (xarici pasportun) ona 11 dekabr 1919-cu ildə verildiyi qeyd olunub.[5]

1919-cu ilin dekabrında Xasfolad Hacıyev təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[6] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[7] dilkağızları verib.

Xasfolad bəy İsmayıl bəy oğlu Hacıyevə Azərbaycan Cümhuriyyəti hökuməti

[1] Xasfolad bəyin adı sənədlərdə ən müxtəlif şəkillərdə yazılıb. Biz hər sənədin öz yazılışını saxladıq.
[2] ARDA, fond 51, siyahı 3, iş 69, vərəq 3.
[3] Yenə orada, vərəq 2.
[4] Yenə orada.
[5] Yenə orada, vərəq 1.
[6] Yenə orada, vərəq 4.
[7] Yenə orada, vərəq 5.



Xasfolad bəyin atası İsmayıl bəy Hacıyev. Qars, 1908



Xasfolad bəyin anası Seyidreyhan (Sandrit) xanım. Qars, 1908



Xasfolad bəyin qardaşı Canpolad bəy Hacıyev



Xasfolad bəy Hacıyev. Bakı

tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 524 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[1]

X.b.Hacıyev öncə Parisdə oxuyub. Fransa, İtaliya, Almaniya və Türkiyədəki dövlət təqaüdçüsü olan Azərbaycan tələbələrinin 10 avqust 1920-ci il tarixli siyahısında onun adı Parisdə oxuyan tələbələr içərisində keçir.[2] Onun Parisdə nə qədər və hansı ixtisas üzrə oxuduğu dəqiq bilinmir. Ancaq 4 il sonra onun Almaniyada toxuculuq ixtisası üzrə oxuduğunu görürük. Bunu isə aşağıdakı sənəddən öyrənirik.

AK(b)P MK Rəyasət Heyətinin (RH) 5 aprel 1924-cü ildə Xanbudaqovun sədrliyi altında keçirilən iclasında RH üzvləri Əliheydər Qarayev, Xanbudaqov, Mircəfər Bağırov, Dadaş Bünyadzadə, Mustafa Quluyev, Qəzənfər Musabəyov, RH namizədləri Çagin və Konuşgin, MK üzvləri Mirbəşir Qasımov və Həmid Sultanov iştirak ediblər. İclasın 13-cü məsələsi "Xarici ali məktəblərdəki tələbələr haqqında"dır. Bu haqda Həbib Cəbiyev məruzə edib. Sonda RH 8 maddəlik bir qərar qəbul edib; o sıradan:

"A) Hal-hazırda [xarici ali məktəblərə] əlavə göndəriş aparmamalı. Ümumən xarici ali məktəblərə ezamiyyət hər il yayın başlanğıcında, göndərilənlərin tərkibi diqqətlə yoxlanıldıqdan, zərurətin öyrənilməsindən sonra və yalnız xüsusi və kənd təsərrüfatı ali məktəblərinə təşkil edilsin.

B) Xaricdə oxuyan tələbələr: 1) Rzayev Tağı Əsgər[3] [oğlu] (Elektrotexnika İnstitutu, Darmştadt), 2) Əmircanov Əliyar[4] (aviasiya, Berlin), 3) Hacıyev Xaspulat (toxuculuq, Almaniya) *bizim* tələbələr siyahısına daxil edilsin".[5]

Normal məntiqlə bu zaman Hacıyev III-IV kurslarda olmalı idi. Təəssüf ki, onun nə qədər oxuduğu bəlli deyil.

Xasfolad bəyə qohumluğu çatan, Cümhuriyyət Parlamanının üzvü Rza bəy Ağabəyovun nəvəsi *Canpolad bəy Rauf bəy oğlu Ağabəyov* (1955) bizə 2006-cı ilin dekabrında onun haqqında qısa da olsa bilgi verdi. O bildirdi ki, Xasfolad bəy neft üzrə mühəndis olub. Öncə Parisdə ali texniki məktəbdə oxuyub, ancaq sovet hakimiyyəti gəldikdən sonra təqaüdü kəsildiyinə görə işləməyə məcbur olub, sonra Sorbon Universitetində hüquq fakültəsində oxuyub, ancaq o, bütün ömrü boyu Parisdə oxumasını gizlədib. Diplom almayıb. Xasfolad Fransada evlənib, ancaq Bakıya qayıdarkən ailəsi orada qalıb. Atası təkidlə çağırdığına görə 1920-ci illərdə Bakıya dönüb.

[1] ARDA, fond 51, siyahı 3, iş 69, vərəq 6.
[2] Yenə orada, vərəq 62.
[3] Sənəddə yanlış olaraq: "Səməd".
[4] Sənəddə yanlış olaraq: "Əliağa".
[5] ARPİİSSÁ, fond 1, siyahı 74, iş 136, vərəq 3.

Bu bilgidəki bəzi məqamlara münasibət bildirməyə borcluyuq. Birincisi, bir adamın Parisdə bir-birindən tam fərqli iki ixtisas (neft və hüquq) üzrə oxuması inandırıcı görünmür. Ola bilsin ki, Xasfolad bəy xaricdən gəldikdən sonra neft sənayesində çalışıb, bu isə onun hüquq oxumasının üzərindən xətt çəkir. İkincisi, Canpolad bəyə Hacıyevin Almaniyada oxuması bəlli deyildi; görünür, o, bunu da dost-tanışlardan gizlədib. Üçüncüsü də, Xasfolad bəyin Fransada deyil, Almaniyada evlənməsi daha inandırıcıdır, çünki o, Fransada evli ola-ola Almaniyada oxumazdı.

Təəssüf ki, Xasfolad bəy haqqında bundan artıq bilgimiz yoxdur. Ancaq Canpolad bəy Ağabəyov bizə onun qardaşı *Canbulat bəy* və bacısı *Mina xanım* haqqında da danışdı.



İsmayıl bəy *(ortada)* iş yoldaşları ilə. Tiflis, 2 fevral 1915-ci il

***

Yeri gəlmişkən, Xasfoladın atası, mülki müşavir *İsmayıl bəy Hüseyn bəy oğlu Hacıyevin* (25.9.1865 – 1934) də həyatı ilə tanışlıq maraqlıdır, çünki o, Azərbaycanın ilk ali təhsilli meşəçilərindən və Cümhuriyyətin dəyərli dövlət adamlarındandır.

Azərbaycan Respublikası Dövlət Arxivində Xasfoladın atası Gəncə ziraət idarəsi rəisi İsmayıl Hacıyevin şəxsi işi saxlanılır.[1] Burada əsasən İsmayıl bəyin təyinat əmrləri,[2] raportları[3] və onun 1919-cu ildə tərtib edilmiş geniş əmək dəftəri[4] və b. saxlanılır.

Onun əmək dəftərində ailə durumu ilə bağlı bu qeydlər var. İkinci nikahı 3 dekabr 1898-ci ildə kapitan [Kaspulat] Xusistovun qızı Sandrit xanım Xusistova (1878) ilə olub. İlk arvadından qızı Bilqeyis xanım (20 dekabr 1895), ikinci arvadından oğlanları Xasfolad bəylə (21 yanvar 1900) Canbulat bəy (1 aprel 1904) və qızı Mina xanım (11 noyabr 1906)[5] doğulub.[6]

Canpolad bəy Ağabəyov İsmayıl bəy Hacıyevin 3 yanvar 1926-cı ildə Bakıda tərtib edilmiş rusca tərcümeyi-halının surətini bizə təqdim edib. Orada oxuyuruq ki, İ.b.Hacıyev 1863-cü ildə Şuşa şəhərində doğulub. İlk təhsilini Şuşa şəhər məktəbində, orta təhsilini isə 1883-cü ildə Bakı real məktəbində alıb. Həmin il o, Petrovski-Razimovski Kənd Təsərrüfatı və Meşə Akademiyasına girib və orada Qafqaz Tədris Dairəsinin təqaüdü ilə oxuyub. 1889-cu ildə oranı bitirərək Şamaxı meşəçilik idarəsində meşəbəyi köməkçisi vəzifəsində işə girib və həmin vaxtdan fasiləsiz olaraq meşə təsərrüfatı sahəsində meşəbəyi, meşə müfəttişi, Ziraət və Əmlak İdarəsinin rəisi vəzifələrində çalışıb.

1914-cü ildə dünya müharibəsi başlanarkən o, Ərdəhan dairəsində idi. Türk Ordusunun hücumları nəticəsində orada olan başqa vəzifəli şəxslərlə birgə İ.b.Hacıyev də dövlət əmlakı

[1] ARDA, fond 77, siyahı 5, iş 35.
[2] Yenə orada, vərəq 1.
[3] Yenə orada, vv. 12-12a, 13-13a.
[4] Yenə orada, vv. 2-9.
[5] Canpolad bəy Ağabəyovun bildirdiyinə görə, Mina xanım həkim olub və 1942-ci ildə vəfat edib.
[6] ARDA, fond 77, siyahı 5, iş 35, vərəq 3.



İsmayıl bəy *(2-ci sıra, sağdan 3-cü)* Torpaq Komissarlığı işçiləri arasında

ilə birlikdə İrəvana çəkilib, ancaq bu zaman özünə məxsus bütün şəxsi əmlakını Ərdəhanda qoyub gəlməyə məcbur olub.

1917-ci il fevral inqilabından sonra Özəl Zaqafqaziya Komitəsi onu öncə İrəvan – Qars Əkinçilik İdarəsinin komissarı, sonra isə rəisi təyin edib, daha sonra eyni vəzifəylə Gəncəyə göndərib.

Bura çatanda qeyd etməliyik ki, İ.b.Hacıyevin istər bu qısa tərcümeyi-halında, istərsə də 1927-ci ildədək olan əmək dəftərindən çıxarışda onun Azərbaycan Cümhuriyyəti dönəmindəki vəzifələri göstərilməyib. Əlbəttə, bu, başadüşüləndir, çünki sovet dönəmində "Müsavat hökuməti"nə işləmiş kadrlara düşmənçəsinə münasibət vardı, o üzdən də həmin dönəm fəaliyyətini gizlətməyə məcbur olub. Biz onun Dövlət Arxivimizdə saxlanılan şəxsi işindəki əmək dəftərinə əsasən bu boşluğu doldururuq. Gəncə Ziraət və Əmlak İdarəsinin rəisi İ.b.Hacıyevə AC Ziraət Nəzarətinin 5 sentyabr 1918-ci il tarixli 33 saylı əmri ilə əsas vəzifəsində qalmaqla ziraət nazirinin müavini vəzifəsini müvəqqəti icra etmək də həvalə edilib. Nazirin 29 oktyabr 1918-ci il tarixli 658 saylı əmri ilə o, nazir müavini vəzifəsini icra etməkdən azad olunub.[1]

Azərbaycan "sovetləşəndən" sonra Hacıyev ASSR Xalq Torpaq Komissarlığı meşə şöbəsinin müdir müavini təyin edilib və bu şöbə 1923-cü ildə ləğv edilincə ona meşə müfəttişi vəzifəsi verilib. Tərcümeyi-halının tərtib edildiyi 1926-cı ilədək o, meşələr üzrə müfəttiş işləyib. 1928-ci ildə əlil kimi işdən gedib.

Hacıyev Ərdəhanda xidməti zamanı uzun illər kənd təsərrüfatına dair statistik bilgilər toplayıb gətirməklə məşğul olub və 100 desyatinə qədər sahədə küknar meşəsinin salınması üzrə böyük iş görüb. Son vaxtlar o, yerli əhəmiyyətli meşələrin öyrənilməsində ən fəal iştirak edib.

35 illik yüksək faydalı meşəçilik fəaliyyəti dövründə o, adi meşəbəyi köməkçiliyindən ən müxtəlif vəzifələrədək çalışıb və daim ünsiyyətdə sadəliyi, hamı ilə səmimiliyi və

[1] ARDA, fond 77, siyahı 5, iş 35, vərəq 9.



İsmayıl bəy Hacıyev. 1920-ci illər

həyatı boyunca qarşılaşdığı hər kəsə xeyirxah münasibətləri qoruyub saxlayıb.[1]

İsmayıl bəyin nə qədər təmiz bir insan olduğunu aşağıda verdiyimiz sənəd də təsdiqləyir.

24 iyun 1919-cu ildə o, Gəncədə ziraət nazirinə yazdığı raportda bildirib ki, mən Özəl Zaqafqaziya Komitəsinin 14 noyabr 1917-ci il tarixli əmri ilə Gəncə Ziraət və Əmlak İdarəsinin rəisi təyin ediləndə İrəvan Ziraət və Əmlak İdarəsində məşəbəyi və komissar idim, ancaq 1917-ci ilin sonu – 1918-ci ilin birinci yarısında hadisələr elə cərəyan etdi ki, Gəncəyə vaxtında gələ bilmədim. Ancaq 1918-ci ilin avqustunda İrəvanda elə vəziyyət yarandı ki, bütün müsəlmanlar böyük təhlükə altında və fövqəladə namünasib şəraitdə oranı buraxıb qaçmağa məcbur oldu, mən də bütün əşyalarımı götürə, yaxud sata bilmədən atıb gəlməyə məcbur qaldım. Bundan başqa, 1914-cü ildə Türk qoşunları Qars əyalətinin Ərdəhan şəhərinə hücum edən zaman orada da bütün əmlakımı itirdim. Bu iki hadisə məni həddsiz yoxsul duruma saldı, borca girdim və 5 nəfərdən ibarət ailəmin ağırlığı altına düşdüm. Onlardan da ikisi gimnaziyada oxuyur və aldığım maaş indiki həddsiz bahalıq şəraitində ən vacib əşyaları almağa imkan vermir, buna görə də sizdən durumumu hökumətə bildirərək mənə birdəfəlik yardım göstərilməsi məsələsini qaldırmağınızı xahiş edirəm.[2]

Bir qədər də Xasfolad bəyin qardaşı *Canbulat Hacıyev* haqqında.

AR Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivində Canbulat bəyin 1761 saylı şəxsi işi saxlanılır.[3] 17 mart 1941-ci ildə yazdığı tərcümeyi-halından öyrənirik ki, Azərbaycan SSR xalq əkinçilik komissarının (nazirinin) müavini Canbulat Hacıyev keçmiş Qars əyalətinin Ərdəhan şəhərində doğulub. Onun şikəst anası, Azərbaycan neft sənayesində çalışan qardaşı [Xasfolad] və Mikrobiologiya İnstitutunda çalışan bacısı [Mina xanım] var.

C.Hacıyev təhsilini 1913-cü ildə Tiflis I gimnaziyasında alıb, sonra atasının iş yeri olan İrəvanda, Gəncədə oxuyub və orta məktəbi 1922-ci ildə Bakıda bitirib. Həmin il Azərbaycan Politexnik İnstitutunun (sonrakı Neft və Kimya İnstitutu) kənd təsərrüfatı fakültəsinə girib. 1925-1926-cı illərdə Abşeronun kənd təsərrüfatında çalışıb. 1927-ci ildə institutu bitirib, 1929-cu ildə alim-aqronom rütbəsində diplom alıb. Sonra Azərbaycanın müxtəlif rayonlarında çalışıb. 1930-cu ildə Bakı dairəsinin aqronomu, 1940-cı ilin yanvarında "Azərçay" Trestinin direktoru, 25 yanvar 1940-cı ildə Azərb. SSR Xalq Torpaq Komissarlığında subtropiklər idarəsinin rəisi təyin edilib və orada 1941-ci ilin fevralınadək çalışıb.[4]



Xasfolad bəy Hacıyev. Bakı

Azərbaycan KP(b) MK bürosunun 9 fevral 1941-ci il qərarı ilə C.Hacıyev Azərb. SSR xalq torpaq komissarının müavini təyin edilib[5] və bu vəzifədə 1942-ci ilin dekabrınadək işləyib. Sonra o, Azərbaycan Neft Kombinatının kənd təsərrüfatı üzrə idarəsinə rəis müavini təyin edilib.[6]

Canpolad bəy Ağabəyovun bildirdiyinə görə, Canbulat bəy Hacıyev 1951-ci ildə dünyasını dəyişib.

[1] Sənədin surəti özəl arxivimizdədir.
[2] ARDA, fond 77, siyahı 5, iş 35, vv. 12-12a.
[3] ARPİİSSA, fond 1, siyahı 185, iş 7.
[4] ARDA, fond 77, siyahı 5, iş 35, vv. 10-11.
[5] Yenə orada, vərəq 13.
[6] Yenə orada, vərəq 24.

Hacıyev Məhəmməd bəy Kərim bəy oğlu (Karatekin, Mehmet)

(06.02.1896, Şuşa – 01.06.1960, Ankara)



Məhəmməd bəy Hacıyev. Almaniya

Zaqafqaziya Şiə Ruhani İdarəsindən Tiflis şəhərində 15 iyul 1903-cü ildə verilmiş 773 saylı doğum şəhadətnaməsindən aydın olur ki, Məhəmməd bəy Şuşa şəhəri Dəmirçilər məhəlləsinin sakini, 56 yaşlı Kərim bəy Məşədi Həsən oğlu Hacıyevin qanuni arvadı, 25 yaşlı Gövhər xanım Əhməd bəy qızından 6 fevral 1896-cı ildə doğulub.[1]

O, ibtidai və orta təhsilini Şuşada alıb. Məmur oğlu Məhəmməd bəy Hacıyevə 29 aprel 1915-ci ildə Şuşada verilmiş 480 saylı attestatda onun Şuşa edadi (real) məktəbinə 1 sentyabr 1906-cı ildə girərək 29 aprel 1915-ci ildə əsas bölüm üzrə tam kursu bitirdiyi göstərilib. O, 4 fəndən "5", 7 fəndən "4" və 2 fəndən "3" alıb.[2]

Ali məktəbə girmək üçün məcburi olan əlavə sinfi də o, Şuşa real məktəbində bitirib. 17 may 1916-cı ildə verilmiş 494 saylı şəhadətnamə qeyd olunub ki, o, burada 17 avqust 1915-ci ildən 16 may 1916-cı ildək oxuyaraq aşağıdakı qiymətləri alıb:

Şəriət –	əla (5)
Rus dili –	kafi (3)
Alman dili –	yaxşı (4)
Fransız dili –	yaxşı (4)
Riyaziyyat, o sıradan:	
Hesab –	yaxşı (4)
Cəbr –	yaxşı (4)
Triqonometriya –	kafi (3)
Xüsusi kurs (analitik həndəsənin başlanğıcı, sonsuz kiçiklərin analizi) –	yaxşı (4)
Təbiiyyatşünaslıq –	yaxşı (4)
Fizika –	yaxşı (4)
Riyazi coğrafiya –	yaxşı (4)
Rəsm –	yaxşı (4)
Qanunşünaslıq –	yaxşı (4).[3]

Hacıyev 12 avqust 1919-cu ildə Bakı şəhərində R.b.Tahirovun[4] 9-cu rus-türk məktəbindəki mənzilindən AC maarif nazirinə yazdığı ərizədə ali təhsil almaq üçün İsveçrəyə ya Elektrotexnika İnstitutuna, ya da Politexnik İnstitutun elektrotexnika bölümünə göndərilmək arzusunu bildirib. Eyni zamanda, maddi durumunun ona təhsil almağa imkan vermədiyini bildirib və kasıblığını ədliyyə naziri Aslan bəy Səfikürdskinin və Əbdürrəhim bəy Haqverdiyevin təsdiq edə biləcəklərini, eləcə də sənədlərinin əslinin 1918-ci ildə təhsil almaq üçün Türkiyəyə gedərkən yolda itdiyini göstərib.[5]

Şuşa edadi (real) məktəbindən 5 sentyabr 1919-cu ildə maarif nazirinə göndərilmiş 397 saylı məktubda Məhəmməd bəy Hacıyevin bu məktəbi bitirərək attestat aldığı və həmin attestatın surətinin göndərildiyi bildirilib.[6]

[1] ARDA, fond 51, siyahı 3, iş 68, vərəq 7.
[2] Yenə orada, vərəq 3.
[3] Yenə orada, vərəq 4.
[4] Rəsul bəy Tahirov Maarif Nəzarətində məsul vəzifədə çalışırdı.
[5] ARDA, fond 51, siyahı 3, iş 68, vv. 1-1a.
[6] Yenə orada, vərəq 2.

Ərizə verdikdən sonra xaricə göndəriləcək təqaüdçülər sırasına düşməyən, ancaq təqaüdçülüyə 6-cı namizəd kimi qeydə alınmış[1] M.b.Hacıyev 13 noyabr 1919-cu ildə nazirə göndərdiyi son ərizədə İsveçrənin Sürix şəhərinə, Politexnik İnstitutun elektrotexnika bölümünə getmək istədiyini bildirib.[2]

31 dekabr 1919-cu ildə Məhəmməd bəy Hacıyev təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi barədə[3] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[4] dilkağızları verib. Bu, o deməkdir ki, Hacıyev artıq namizədlikdən təqaüdçülüyə keçirilib və hökmən xaricə göndərilir.

Məhəmməd bəy Kərim bəy oğlu Hacıyevə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 576 saylı vəsiqə 15 yanvar 1920-ci ildə verilib.[5] O, 16 yanvarda başqa yoldaşlarıyla birgə qatarla Tiflis üzərindən Avropaya yola düşüb.



Almaniyada oxuyan tələbələrimiz. *Soldan sağa. Oturanlar:* Məhəmməd bəy Hacıyev, Şamil Səfərov, (?). *Arxada:* Hilal Münşizadə, (?), (?). 1920-ci illər

O, Berlində maşınqayırma ixtisası üzrə oxuyub.[6]

Təhsilini bitirdikdən sonra SSRİ-yə qayıtmayan Hacıyev qardaş Türkiyəni özünə ikinci vətən seçib. Ənvər Çingizoğlunun araşdırmalarına görə, makina yüksək mühəndisi Türkiyədə özünə "Qaratəkin" soyadı götürüb; Mehmet Qaratəkin alman qızı *Hesma xanım* (? – 13.08.1968) ilə ailə qurub, *Güllü xanım* (1961) və *Aysel xanım* (1964) adlı qızları olub.[7] Ənvər bəy onların fotoşəkillərinin surətlərini də lütfkarlıqla bizə bağışlayıb.



Məhəmməd bəy Hacıyev (Mehmet Karatekin). Ankara



Aysel Karatekin



Hesma Karatekin



Güllü Karatekin

[1] Dərc edilmiş ilk siyahıda 100 nəfər tələbədən başqa, 31 nəfər də ehtiyat namizəd vardı.
[2] ARDA, fond 51, siyahı 3, iş 68, vərəq 5.
[3] Yenə orada, vərəq 8.
[4] Yenə orada, vərəq 9.
[5] Yenə orada, vərəq 10.
[6] Yenə orada, fond 57, siyahı 1, iş 276, vərəq 62.
[7] http://az.wikipedia.org/wiki/M%C9%99mm%C9%99d_b%C9%99y_Hac%C4%B1yev. *Çingizoğlu Ə.* Hacıyevlər, ss. 30-33.

Hacızadə Mirzə bəy Məşədi Yusif bəy oğlu (Göygöl, Mirzə)

(1897, Gəncə – 21.04.1981, İstanbul)

6 avqust 1919-cu ildə Gəncə valilik idarəsindən verilmiş 10932a saylı vəsiqədə göstərilib ki, Gəncə şəhəri sakinlərindən olan Mirzə Hacızadə 1897-ci ildə atası Məşədi Yusifin qanuni arvadından doğulub.[1]

Gəncə şəhərinin sakini, müsəlman, 1897-ci il doğumlu Hacızadə Mirzə Məşədi Yusif oğlunun kamal attestatında onun Gəncə kişi gimnaziyasına 1 sentyabr 1906-cı ildə girərək orada 16 aprel 1915-ci ildək oxuduğu və səkkizsiniflik tam kursu bitirdiyi yazılıb. O, bu vaxt aşağıdakı qiymətləri alıb:

Şəriət –	oxuyub
Kilsə-slavyan dili ilə	
rus dili və ədəbiyyatı –	3 (üç)
Fəlsəfi propedevtika –	3 (üç)
Latın dili –	3 (üç)
Riyaziyyat –	4 (dörd)
Riyazi coğrafiya –	3 (üç)
Fizika –	3 (üç)
Tarix –	3 (üç)
Qanunşünaslıq –	3 (üç)
Coğrafiya –	3 (üç)
Fransız dili –	3 (üç)
Alman dili –	3 (üç).[2]

Bu məktəbi bitirdikdən sonra o, Lüblin quberniyasında (Xarkovda) Novo-Aleksandr Kənd Təsərrüfatı və Meşəçilik İnstitutuna girərək orada oxuyub. Həmin ali məktəbdən 24 noyabr 1917-ci ildə tələbə Mirzə Hacızadəyə verilmiş 832 saylı biletdə göstərilib ki, o, Rusiyanın bütün şəhər və yerlərinə məzuniyyətə buraxılıb və İnstituta 7 yanvar 1918-ci ildə qayıtmalıdır.[3]

Bu, Rusiya imperiyasının ali məktəblərində oxuyan bütün azərbaycanlı tələbələrin vətənə qayıtmağa məcbur olduğu dönəmdi. Mirzə bəy Hacızadə nəinki 7 yanvar 1918-ci ildə, hətta ondan sonra da bir daha Rusiyaya qayıtmayacaqdı.

1919-cu ildə Cümhuriyyət xaricə tələbələr göndərməyə hazırlaşanda o da gərəkli sənədlər toplamağa başladı. Gəncə Şəhər Polis İdarəsindən 5 avqust 1919-cu ildə verilmiş 4977 saylı bəlgədə yazılıb ki, şəhər sakini M.Hacızadənin 22 yaşı var, subaydır, məhkəməyə düşməyib və maddi durumu onun xaricdə öz hesabına təhsilini davam etdirməyə imkan vermir.[4] Bu sənəd Cümhuriyyətin Xalq Maarif Nəzarətinə veriləcəkdi.

Gəncə sakini, Xarkovdakı Novo-Aleksandr Kənd Təsərrüfatı və Meşəçilik İnstitutu 4-cü semestrinin tələbə-aqronomu Mirzə Hacızadə Gəncədən 16 avqust 1919-cu ildə AC Maarif nazirinə yazdığı ərizədə bildirib ki, indi Rusiyada təhsili davam etdirmək mümkün olmadığına görə Sizdən Azərbaycan hökumətinin xaricə oxumağa göndərdiyi tələbələr sırasında məni də Sürix Politexnik İnstitutunun kənd təsərrüfatı bölümünə göndərməyinizi xahiş edirəm və

[1] ARDA, fond 51, siyahı 3, iş 71, vərəq 4. Qadının adı yazılmayıb.
[2] Yenə orada, vərəq 3.
[3] Yenə orada, vərəq 2.
[4] Yenə orada, vərəq 5.



Tələbə Mirzə bəy Hacızadə. Təx. 1923

əlavə edirəm ki, təhsili öz hesabıma davam etdirməyə heç bir vəsaitim yoxdur.[1]

Ərizənin arxasında qeyd olunub ki, 121 saylı xarici pasport ona 11 dekabr 1919-cu ildə verilib.

Gəncə şəhəri İmamlı küçəsinin sakini M.Hacızadənin 3 noyabr 1919-cu ildə Gəncədə AC maarif nazirinə yazdığı növbəti məktubda oxuyuruq ki, [rusca] "Azərbaycan" qəzetinin 228-ci sayındakı elandan göründüyü kimi, məndən Azərbaycan təbəəliyini qəbul etmək tələb olunur. Bildirirəm ki, mən başqa dövlətin təbəəliyinə girməmişəm və Gəncə şəhərinin köklü sakini kimi Azərbaycan Cümhuriyyətinin təbəəsiyəm... Sənədlərimin əsli Xarkovda, Kənd Təsərrüfatı və Meşəçilik İnstitutunun dəftərxanasındadır və onları indi oradan almağa heç cür imkan yoxdur.[2]

Daha sonra ərizəçi təhsilini Sürix Politexnik İnstitutunun kənd təsərrüfatı bölümündə davam etdirmək, bu mümkün olmasa İsveçrə, Avstriya-Macarıstan, Almaniya, yaxud Fransanın kənd təsərrüfatı məktəblərinin birində oxumaq istədiyini yazıb.[3]

Gəncə Polis İdarəsi 3 noyabr 1919-cu ildə ona həqiqətən Azərbaycan Cümhuriyyətinin təbəəsi olması haqqında 550 saylı vəsiqə verib.[4]



İtaliyada oxuyan tələbələrimiz.
Soldan sağa: Məcid bəy Hacızadə, Əhməd Rəcəbli, Mirzə bəy Hacızadə, İsgəndər Vəliyev

[1] ARDA, fond 51, siyahı 3, iş 71, vərəq 1.
[2] Yenə orada, vərəq 6.
[3] Yenə orada, vərəq 6.
[4] Yenə orada, vərəq 7.



Tələbə M.Hacızadə.
Təx. 1920-1925

31 dekabr 1919-cu ildə Hacızadə təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[1] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[2] dilkağızları verib.

Mirzə Məşədi Yusif oğlu Hacızadəyə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 516 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[3]

* * *

Hacızadə öncə İtaliyada oxuyub. 27 fevral 1920-ci ildə o, Cəmil Musayev və Zeynal Əliyev Romadan AC xalq maarif nazirinə göndərdikləri məruzədə[4] göstərirdilər ki, İtaliyada cəmi 6 nəfər qalıb: Zeynal Əliyev, Cəmil Musayev, Mirzə Hacızadə, Əhməd Məşədi Cabbar oğlu, Abdulla Rəhimzadə, İsgəndər Vəlizadə. Onlardan ikisi – Əhməd Məşədi Cabbar oğlu [Rəcəbli] və İsgəndər Vəlizadə Perucada, qalan 4-ü isə (deməli, M.Hacızadə də) Romada yaşayır və italyan dilini öyrənir.

Maarif nazirinə təxminən 1 mart 1920-ci ildə yazılmış başqa bir məktubda oxuyuruq: "Hacızadə Mirzə Neapolitan Kənd Təsərrüfatı İnstitutuna hazırlaşır, ancaq burada dərs ili noyabrda başlandığına görə o, payızadək Romada qalacaq".[5]

Təəssüf ki, əlimizdə Hacızadənin Romada nə qədər qalaraq oxuduğunu göstərən dəqiq bəlgələr yoxdur. Ancaq aradan 3 il keçəndən sonra onun sorağını Almaniyadan – Berlindən alırıq. 15 may 1923-cü ildə Berlindən Azərbaycan Maarif Komissarlığına belə bir məktub göndərib:

"Azərbaycan Maarif Nəzarəti hüzuri-alilərinə.

Şimdi Almaniyada ziraət təhsil edən[6] 6 və İtaliyada 2 tələbələrimiz vardırlar və bunlar təhsillərini bitirb geriyə dönəndə Azərbaycanda 1 orta ziraət məktəbi binası qoyub qaidəsi apara bilmələrinə ümid edərəm. Buna binaən bu edadi ziraət məktəbinə lazım olan kitabları və albomları almaq üçün mühəndis İbad Əliyevin üstünə 200 dollar, yaxud 50 ingilis lirəsi göndərməyinizi rica edirəm. Kitabların siyahısını mən buradakı ziraət təhsil edən tələblərimizə təsdiq etdirəndən sonra mühəndis İbad Əliyevə verərəm. Təvəqqe edirəm paranı tez göndərəsiniz. Almaniya və İtaliya orta ziraət məktəblərinin məramnaməsini mən özüm ilə bərabər gətirərəm.

Mirzə Hacızadə.

Berlin, Ali Ziraət Məktəbinin[7] tələbəsi".[8]

Hacızadə elə bu ali məktəbi bitirib.

Təbiətcə çevik və diribaş, gözüaçıq adam olan Mirzə bəy tələbəlik illərində də fəallığı ilə seçilirdi. Bunu tələbələr adından Bakıya göndərdiyi məktublardan da görürük. Abbasmirzə Əliyevin 21 noyabr 1938-ci ildə "NKVD" zindanında yazdığı izahatda isə başqa bir faktla rastlaşırıq: *"Hələ Berlində olduğumuz zaman Mirzə Hacızadə, [Hilal] Münşiyev türkiyəli mühacirlərlə, o sıradan Sultan Türkiyəsinin keçmiş naziri Tələt paşa ilə (sonralar 1921-ci ilin yazında Berlində terrorçu təşkilatın öldürdüyü) maddi yardım haqqında danışıqlara girişiblər..."*.[1]

[1] ARDA, fond 51, siyahı 3, iş 71, vərəq 8.
[2] Yenə orada, vərəq 9.
[3] Yenə orada, vərəq 20.
[4] Yenə orada, iş 40, vv. 34-38a.
[5] Yenə orada, vv. 31-33.
[6] Kənd təsərrüfatı üzrə oxuyan.
[7] Kənd Təsərrüfatı İnstitutunun.
[8] ARDA, fond 57, siyahı 1, iş 260, vərəq 152.

***



Mirzə və Zöhrə Göygöllər. İstanbul, 1929

27 iyun 2006-cı ildə *Türkan xanım Əliəsgər bəy qızı Bağırova-Hacızadə* (10.02.1925) və onun oğlu *Əliəsgər İslam oğlu Bağırov* (28.03.1947) ilə Mirzə Hacızadənin bütün nəsli və özünün taleyi haqqında geniş söhbət etdik. Onlar bizi bir sıra maraqlı sənədlərlə də tanış etdilər. Aşağıda həmin söhbət və bəlgələrdən əldə etdiyimiz bilgiləri "rəndələyərək" oxucularımıza təqdim edirik.

Mirzə bəyin atası *Hacızadə Məşədi Yusif bəy* (təx.1850-1901) Gəncənin ən imkanlı kübarlarındandı. Onun çoxlu torpağı və ticarət obyektləri vardı. İndiki Gəncə bazarının ərazisi onun mülküydü. Burada Məşədi Yusif bəyin olduqca gözəl bir imarəti vardı. Bakıda Ədəbiyyat Muzeyi yaradılarkən bir qrup rəssam Gəncəyə gedərək həmin imarətdəki nəfis naxışların üzünü çıxarıb və muzeydə həmin naxışlardan geniş istifadə olunub. Hacızadələr sürgün edildikdən sonra, görünür, ermənilərin fitnəkarlığı sayəsində o əzəmətli mülk buldozer qabağına verilərək yerlə yeksan edilib.

Məşədi Yusif bəy yaxın qohumu *Məşədi Yaqut xanım*'la (təx.1870-2.7.1942, Qazaxıstan) ailə qurub və onların 3 övladı olub: *Mirzə bəy* (1897-1981, İstanbul), *Məcid bəy* (1899-1930, itkin düşüb; Özbəkistan) və *Mahtabanı xanım* (təx.1900-1970, Məşhəd).

Məşədi Yusif bəy 1901-ci ildə vəfat edib. O zaman Azərbaycanda geniş yayılmış bir adətə görə, gəlini – Məşədi Yaqut xanımı evdən buraxmayaraq Məşədi Yusifin bacısı oğlu *Muxtar Hacızadə*'yə (?, Gəncə-təx.1921, Gəncə) ərə veriblər və Məşədi Yaqut xanımın ondan da 3 övladı dünyaya gəlib: *Aslan* (1905, Gəncə-1930, Gəncə), *Şölə xanım* (1907-17.9.1979, Bakı) və *İslam Göygöl* (1908-1987, Ankara). (Başqa sözlə, bunlar Mirzə bəyin anabir bacı-qardaşlarıdır).

1941-ci ilin oktyabrında Məşədi Yaqut xanımı qızı *Şölə xanım* və 12 yaşlı nəvəsi (Şölənin qızı) *Nəzmiyyə* (25.01.1929-5.2.1942) ilə birgə oğlanları *Mirzə Göygöl* və *Məcid Hacızadə*'yə, kürəkəni *Əliəsgər Şeyxzamanlı*'ya görə Qazaxıstanın Semipalatinsk vilayətinin Ayaqusski rayonuna sürgün ediblər. Yaqut xanım və Nəzmiyyə məşəqqətlərə dözməyərək 1942-də elə oradaca vəfat ediblər, Şölə xanıma isə Azərbaycana dönmək nəsib olub.

M.Hacızadə Gəncə gimnaziyasını bitirəndən (1915) sonra ali təhsilə Xarkovda Novo-Aleksandr Kənd Təsərrüfatı və Meşəçilik İnstitutuna girib. Təhsilini davam etdirməkçün Cümhuriyyət hökumətinin 1920-ci ildə xaricə göndərdiyi tələbələrlə birgə İtaliyaya yola düşüb və *Neapol* şəhərindəki Portiçi Yüksək Ziraət Məktəbinə (Kənd

[1] Əliyev Abbasmirzə Əhməd oğlunun öz əli ilə yazdığı izahat. //AR MTN arxivi, PR-22247, vərəq 20.



Mirzə bəyin qardaşı Məcid bəy Hacızadə. Moskva, 20 yanvar 1930-cu il

Təsərrüfatı İnstitutuna) qəbul olunsa da[1] eyni ildə (?) *Berlin*'ə gedərək Berlin Yüksək Ziraət Məktəbində toxumçu-seleksiyaçı ixtisası üzrə təhsilini davam etdirib. Ali təhsilini bu institutda başa vuraraq doktorluq dərəcəsiylə diplom alandan (1923) sonra Almaniyada qalaraq işləməyə başlayıb.

1926-cı ilin 3 martında Hacızadə doktorluq imtahanının şifahi qismini də verdikdən sonra Berlin Yüksək Ziraət Məktəbində açılmış, dosent *Elizabet Şiman*'ın başçılıq etdiyi toxum islahçılığı (seleksiyası) müfəttişliyi (Saatzucht-İnspektör) kursunda da iştirak edərək uğurla islah müfəttişi diplomu alıb.

Artıq nüfuzlu seleksiyaçı alim kimi özünü tanıtmış Hacızadə Berlindəki *"İnstitut für Acker-und Pflanzenbau"* İnstitutuna bağlı Alman Ziraət Cəmiyyətinin (DLG) kətan çeşid dənəmələrini idarə edib. Doktorluq diplomunu alan gün – 3 mart 1926-cı ildə Azərbaycana dönməkçün viza almaq məqsədiylə Berlindəki Sovet səfirliyinə ərizə verib, ancaq ərizəsi aylarla cavabsız qalıb, çünki Sovet hakimiyyəti onu özünə "arzuolunmaz şəxs" sayırdı.

1926-cı il iyulun sonlarında Türkiyə ziraət vəkili (kənd təsərrüfatı naziri) *Səbri Toprak* və Halkalı Ali Ziraət Məktəbinin meyvəçilik professoru *Həmdi Dikmən* Berlin Yüksək Ziraət Məktəbini ziyarət etdikdən sonra Səbri Toprak bu institutun müdiri professor *Ervin Bauer*'i Türkiyəyə toxum islahçısı olaraq dəvət edib, ancaq *Bauer* bununla razılaşmayıb. Bu zaman ziraət vəkili ondan inandığı başqa birisini tövsiyə etməsini diləyib və Bauer öz yetirməsi Mirzə bəyi məsləhət bilib.

Türkiyə Böyükelçiliyinə çağırılan Hacızadə səfir *Kəmaləddin Sami paşa*'nın kabinetində *Səbri Toprak*'la görüşərkən ona toxum islahçısı (seleksiyaçı) olaraq Türkiyədə işləməkçün müqavilə imzalamağı təklif edib. Sovet səfirliyinin 5 aylıq susqunluğundan sonra Azərbaycana dönə bilmək umudunu tam itirmiş Mirzə bəy Səbri Toprak bəyin dəvətini qəbul edib, ancaq müqavilə imzalamağı özünə sığışdırmayaraq bir Türk kimi Türkiyədə çalışmağa söz verib.

Öncə Ankaraya, oradan da 11 avqust 1926-cı ildə *Halkalıya* gələn Hacızadə dayanmadan işə başlayaraq Halkalı Ali Ziraət Məktəbinə (Kənd Təsərrüfatı İnstitutuna) bağlı Toxum İslah Stansiyasını qurub və 1931-də həmin stansiyanı Yeşilköyə, indiki yerinə köçürüb.

Türkiyə vətəndaşlığını qəbul edən Mirzə bəy soyadı qanunundan sonra özünə "Göygöl" soyadı götürüb.

Uzun illər sürən gərgin əməyi sayəsində *Yeşilköy Zirai Araşdırma İnstitutu*'nda çox nüfuzlu elmi-tədqiqat mərkəzinə çevirə bildiyi toxumçuluq stansiyasında fasiləsiz 35 il müdir işləyən[2] Mirzə Göygöl 1961-ci ildə təqaüdə çıxıb. Bundan sonra Almaniyada Göttingen Universitetində iki semestr üçün qonaq professor olaraq dərs verməyə təklif alsa da qəbul etməyib, ancaq Türkiyə-Almaniya Cəmiyyətinin çağırışıyla Almaniyanın 8 universitetində konfranslar verib. Türkiyə ali məktəblərində də dərs deyib. Məsələn, İzmirdə Ege Universitetinin ziraət fakültəsində, İstanbul Teknik Universiteti ziraət makinaları bölümündə mühazirələr oxuyub. Onun Türkiyə və Almaniyada türk və alman dillərində nəşr olunmuş 36 monoqrafiyası (onların içində

[1] M.Hacızadənin Romada oxuması şübhə doğurmasa da Neapolla bağlı əlimizdə heç bir bəlgə yoxdur.

[2] *Göygöl M., Taşan R.* Yeşilköy Zirai Araştırma Enstitüsü'nün (Marmara – Trakya Bölge Zirai Araştırma Enstitüsü) 50 yılı (1926-1976). İstanbul, 1978.



Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi. *Soldan:* muzeyin baş rəssamı İsmayıl Axundov, Mirzə Göygöl, muzeyin elmi katibi Rasimə Məlikova, muzeyin direktoru prof. Abbas Zamanov, direktor müavini Ağarəfi Zeynalzadə (?-24.12.2004). Bakı, may 1969

"Türkiyə buğdaları" adlı çoxcildliyi xüsusi yer tutur) və sanballı elmi məqalələri vardır (almancalar əsasən *"Der Züchter"* və *"Zeitschrift für Pflanzenzüchtung"* dərgilərində çıxıb).


Mirzə Göygöl dünyanın bir çox genetik-seleksiyaçıları ilə, o sıradan məşhur Azərbaycan alimi, akademik *İmam Mustafayev*'lə yaxın elmi əlaqələr saxlayıb.

Tanınmış sovet alimi, akademik *N.İ.Vavilov* 1926-cı ildə buğdanın mənşəyini bir-birindən minlərcə kilometr aralıda yerləşən üç müxtəlif bölgədə axtaran nəzəriyyəsini irəli sürüb və bu nəzəriyyə dünyada çoxlu tərəfdarlar qazanıb. Ancaq *Mirzə Göygöl* bu nəzəriyyənin yanlışlığını sübut edərək (may 1939) göstərib ki, buğda yalnız bir bölgədə yetişib və həmin bölgə Ön Asiya, yəni içinə başda Anadolu olmaqla Güney Qafqaz (Zaqafqaziya), İraq və Qərbi İranı alan çox geniş bir ərazidir. Vavilov sonda *Mirzə Göygöl*'ün fikirləriylə razılaşmaq məcburiyyətində qalıb. Bu haqda Göygölün özü qürurla yazır:

"Əvvəlcə Vavilovun irəli sürdüyü və aşağı-yuxarı dünyanın hər tərəfində heyranlıqla qarşılanan və qəbul edilən 3 mənşə nəzəriyyəsi, yəni diploid qrupun mənşəyinin Ön Asiya, tetraploid qrupun mənşəyinin Həbəşistan və heksaploid qrupun mənşəyinin isə Pamir yaylası və Himalay ətəklərinin olduğu iddiası bu gün aşağı-yuxarı hər tərəfdə tərk edilmiş və ilk dəfə bizim irəli sürdüyümüz hər üç qrupun yalnız bir mənşəyi və bir gen mərkəzi olduğu və bunun da Ön Asiyada bulunduğu nəzəriyyəsi bu gün aşağı-yuxarı bütün dünyada qəbul edilmişdir".[1]

Göstərək ki, bu, Mirzə Göygölün elmə verdiyi çoxlu yeni düşüncələrdən yalnız biridir. (Yeri gəlmişkən, Türkiyə buğdalarının ilk təsnifini də Mirzə Göygöl verib).

[1] *Göygöl M.* Buğdayların tasnif anahtarı. İstanbul, 1955.



Mirzə bəy Göygöl, Ceyran (Mirzə bəyin ikinci oğlu Oğuzun qızı), Şölə xanım (Mirzə bəyin qızı). İstanbul, 1972

Mirzə Göygöl Azərbaycan Cümhuriyyətinin ikinci Baş naziri, görkəmli dövlət xadimi *Nəsib bəy Yusifbəyli*'nin (1881-1920) qızı *Zöhrə xanım*'la (1908) İstanbulda tanış olaraq 1929-cu ildə onunla ailə qurub. Bundan sonra Nəsib bəyin həyat yoldaşı *Şəfiqə xanım* (1886-1975) da İstanbulda Kabataşda onlarla birgə yaşamağa başlayıb.[1]

Göygöllərin 4 övladı dünyaya gəlib: *Səlcuq* (1930-1999, İstanbul), *Oğuz* (1932; Hamburqda yaşayır), *Dəmir* (1936; Hamburqda yaşayır) və *Şölə* (1946; Visbadendə yaşayır).

Azərbaycanı hədsiz sevən Mirzə Göygöl daim ana yurdundan xəbərlər alıb, buradakı bir çox insanlarla əlaqə saxlamağa (sovet dönəmində bu, nə qədər çətin olsa da) can atıb. Məsələn, böyük bəstəkar və dirijor Niyazi ilə ailəvi dost olub. Elə Niyazinin dəvəti ilə 18 aprel-13 iyun 1969-cu ildə Zöhrə xanımla birlikdə ilk və son dəfə Bakıya gəlib və Türkan xanımgildə qalıb. Çekistlər onun buradakı hər addımını izləyiblər və bu, ona çox pis təsir edib. Buna baxmayaraq respublika alimləri qarşısında mühazirələr oxuyub. Qubaya, Gəncəyə gedib. Gəncədə vaxtilə ata-baba mülkünün olduğu yerləri, qardaşı Aslanın məzarını ziyarət edib.

***

Bütün bunları bizə söyləyən *Türkan xanım* və oğlu *Əliəsgər bəy Bağırovlar* yalnız Mirzə bəyin deyil, başqa qohumlarının da həyatı haqqında maraqlı bilgilər verdilər. Aşağıdakıları da onlardan öyrənmişik.

Mirzə bəyin qardaşı *Məcid bəy Hacızadə* də İtaliyada ali təhsil alıb. O, təhsilini bitirərək 1928-ci ildə Gəncəyə qayıdıb, orada ipək stansiyasına müdir təyin edilib. Məcid bəy 1930-cu ildə həbs edilərək Özbəkistana sürgün olunub. Sonrakı taleyi bilinmir.

Mirzə bəy kiçik qardaşı İslama da himayə göstərib. *İslam Muxtar oğlu Hacızadə (İslam Göygöl)* (1908-1987) Gəncədə doğulub və orta təhsilini burada alıb. 1926-27-ci illərdə o, Gəncə şəhər komsomol komitəsində işə düzəlib, ancaq burada işləmək ona

[1] Bax: *Doç. Dr. Hablemitoğlu Ş., Dr. Hablemitoğlu N.* Şefika Gaspıralı ve Rusya'da Türk Kadın Hareketi (1893-1920). Ankara, 1998, s. 307.



Soldan sağa: Şölə xanım Muxtar qızı Hacızadə (Mirzə Göygölün bacısı), Şölə xanım Mirzə bəy qızı Göygöl *(ayaq üstə)*, Türkan xanım Əliəsgər bəy qızı Bağırova (Şölə Hacızadənin qızı), Zöhrə xanım Nəsib bəy qızı Yusifbəyli/ Göygöl, Mirzə bəy, Mirzə bəyin nəvələri. İstanbul, 1977

nəsib olmayıb – ərə gedərək ailəlikcə Məşhəd şəhərinə köçmüş bacısı Mahtabanı görməkçün İrana yollanıb, ancaq bu vaxt sərhədlər bağlanıb və İslamın Şimali Azərbaycana qayıtmaq cəhdləri baş tutmayıb. Əlacsız qalaraq Türkiyəyə – İstanbula gedib və qardaşı Mirzə Göygölün ailəsində yaşayıb. O, Türkiyədə ali təhsil alaraq inşaatçı mühəndis olub. Həyat yoldaşı *Pərixan Göygöl*'dən 4 qızı dünyaya gəlib: *Yaqut* (1940),[1] *Qulis* (1944), *Türkis* (1947) və *Nərgis* (1949)[2]. Türkis xanım Vaşinqtonda BMT-nin ana və uşaq mühafizəsi üzrə komissiyasına başçılıq edib və Azərbaycana da bir neçə dəfə gələrək burada dövlət tərəfindən ən yüksək səviyyədə qarşılanıb.

Əliəsgər bəy Hacı İsa bəy oğlu Şeyxzaman (1902-1948) Azərbaycanın xalq artisti *Məmmədrza Şeyxzamanovun* qardaşıdır. O, Mirzənin qardaşı Məcid Hacızadə ilə bir yerdə İtaliyaya gedib və bir yerdə oxuyublar. İtaliyada (Milan, Padova) kənd təsərrüfatı üzrə ali təhsil alıb.

İtaliyaya gedərkən Əliəsgər bəy Gəncədə Mirzə bəyin bacısı Şölə xanımla evli idi. O, Şölə xanımı da özü ilə İtaliyaya aparmışdı. Qızı Türkan xanım 1925-ci ildə Milanda anadan olub. Şölə xanım 1928-ci ildə qardaşı Məcid Hacızadə ilə Gəncəyə qayıdıb. Bu zaman o, hamilə imiş və Nəzmiyyə xanım 1929-cu ildə Gəncədə doğulub.

Əliəsgər bəy sonralar bir italyan qızla ailə qurub. Bir oğlu, iki qızı olub: *İsa bəy* (1936, La Spezia; gəmi kapitanı), *Leyla* (1934), *Olqa* (1939).

Təhsilini bitirdikdən sonra Əliəsgər bəy Sovetlərin qorxusundan Azərbaycana qayıda bilməyib. İtaliyada faşistlər (Mussolini) hakimiyyət başına gələrkən onu sovet agenti kimi həbs ediblər (1941-1945). Həbsdən xəstə çıxıb.

Əliəsgər bəyin üstündə anası Məşədi Yaqut xanımı, yoldaşı Şölə xanımı, qızı Nəzmiyyəni və qardaşı Məmmədrza Şeyxzamanovu 1941-ci ildə sürgün ediblər. Yaqut xanım orada 1942-ci ilin iyulunda rəhmətə gedib, Nəzmiyyə də həmin il orada dünyasını dəyişib.

[1] Ona anasının adını verib.
[2] Ona nənəsinin adı verib.



Türkan və Əliəsgər Bağırovlar

***

Türkan xanımla Əliəsgər bəyin bizə verdiyi bu qiymətli bilgilərə Vilayət Quluyevin Mirzə bəylə Zöhrə xanımın ailə qurması ilə bağlı qələmə aldığı bir faktı da artırmağın oxuculara faydalı ola biləcəyini düşündük.

Qızı Zöhrə xanım ailə qurmazdan öncə Şəfiqə xanım bu haqda Gəncədəki qohumlara, ilk növbədə Nəsib bəyin bacısı Şükufə xanıma məlumat verməyi özünə borc bilib. O, 27 mart 1929-cu ildə yazdığı kağızı "son məktub" adlandırıb. Tezliklə Gəncədən cavab gəlib. Şükufə xanım "Sevgili Şəfiqəciyim! Məktubunuzu aldım, amma "son məktub" deyə yazmağınız məni nəhayət dərəcədə mütəəssir etdi" sözləri ilə başlayan cavabında nakam qardaşının balalarına – Zöhrə ilə Niyaziyə heç bir yardım göstərə bilmədiklərinə görə acı-acı şikayətlənib, sonra isə bunları yazıb: *"Zöhrənin ərə getmək xəbəri cümləmizi şad etdi... Hər halda, bir vətən övladı ilə, namuslu bir gənclə evlənməsini məmnuniyyətlə qarşıladıq. Digər tərəfdən, gözlərimizdən qanlı yaşlar axdı. Əziz qardaşımızın sevgili balasının toyunda iştirak edə bilməməyimiz heç insafdandırmı? Sevgili qızımızın xoşbəxt olmasına nəzir-niyaz edirik. Sevgili bacım, sizə yalvarıb rica edirəm: Zöhrənin üzünə həsrət, toyuna məhrum qaldığımıza görə hamınızın şəkillərinizi göndərin. Öpürəm cümlənizin gözlərindən..."*.[1]

***

Mirzə Göygöl qardaş Türkiyədə elmi çalışmalarla məşğul olsa da siyasətə də qoşulub. Özəlliklə bu ölkədəki Azərbaycan siyasi mühacirəti ilə sıx əlaqə saxlayıb (onların içərisində Gəncə yetirmələri üstünlük təşkil edirdi) və bir çox siyasi tədbirlərə qatılıb. Ancaq bunun ayrıca bir araşdırmanın mövzusu olduğunu düşündüyümüzdən, burada həmin məsələyə toxunmadıq.

[1] *Quluyev V.* Baş nazirin xanımı. // *"525-ci qəzet"*, 31 dekabr 2010-cu il, №241, s. 25.

Həsənov Əlimuxtar Kərbəlayı Yaqub oğlu

(1894, Bakı – ?)



Əlimuxtar Həsənov

Bakı Qazi İdarəsinin 20 avqust 1919-cu ildə verdiyi 2219 saylı doğum şəhadətnaməsinə görə, Bakının Gilək məhəlləsindən olan Əlimuxtar atası Yaqub Həsən oğlunun qanuni arvadı Dürsədəf Ağa qızından 1894-cü ildə[1] doğulub, doğumun ayı və günü bilinmir.[2]

Əlimuxtar Həsənova 1 iyun 1916-cı ildə verilmiş kamal attestatında göstərilib ki, o, 1 iyul 1910-cu ildə Bakı 2-ci kişi gimnaziyasına girərək 1 iyun 1916-cı ilədək orada əla əxlaqla oxuyub, səkkizsiniflik tam kursu bitirib və aşağıdakı bilikləri qazanıb:

Şəriət –	əla (5)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	kafi (3)
Fəlsəfi propedevtika –	kafi (3)
Latın dili –	kafi (3)
Qanunşünaslıq –	kafi (3)
Riyaziyyat –	kafi (3)
Riyazi coğrafiya –	kafi (3)
Fizika –	kafi (3)
Tarix –	kafi (3)
Coğrafiya –	kafi (3)
Vətənşünaslıq –	kafi (3)
Fransız dili –	kafi (3)
Alman dili –	kafi (3)
Rəsm –	kafi (3)
Rəsmxət –	kafi (3).[3]

Göründüyü kimi, Ə.Həsənov heç də yaxşı oxumayıb. Ancaq 10 may 1917-ci ildə Bakı şəhərində Qafqaz müsəlman şagirdlərinin I qurultayı keçirilib və xatirə fotolarında qurultay iştirakçıları arasında o da var. Bu vaxt onun məktəbi artıq bitirdiyini nəzərə alsaq burada iştirakının səbəbini, bizcə, ictimai fəallığı və diribaşlığı ilə izah edə bilərik.

Orta təhsili bitirən Həsənov Rostovdakı Don Universitetinin fizika-riyaziyyat fakültəsi təbiiyyatşünaslıq bölümünə girib. Rusiyada oxuyan başqa tələbələr kimi, o da Fevral inqilabından sonra ana yurduna dönmək məcburiyyətində qalıb.

1919-cu ilin yayında Azərbaycan Cümhuriyyəti hökuməti xaricə göndərmək üçün tələbə axtarışına başladıqda adı çəkilən universitetin ikinci kurs tələbəsi, Bakıda Tverskoy küçədə[4] 113-cü evdə yaşayan Həsənov da ali təhsini xaricdə davam etdirmək arzusuna düşüb. 19 avqust 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizəsində

[1] Attestatında doğumu 1896-cı il göstərilib.
[2] ARDA, fond 51, siyahı 3, iş 72, vərəq 4.
[3] Yenə orada, vərəq 2.
[4] İndiki Mirzə Mansur Mansurov küçəsi.



Əlimuxtar Həsənov.
İstanbul, 1920



Əlimuxtar Həsənov (*sağda*) və tələbə yoldaşı Məhəmməd bəy Xələfbəyov (Mahmudov). İstanbul, 1920

o, Türkiyəyə, İstanbul Universitetinin fizika-riyaziyyat fakültəsinin təbiiyyatşünaslıq bölümünə göndərilməsi istəyini ifadə edib və əlavə olaraq bildirib ki, valideynlərim rəhmətə gedib və mən öz əməyimlə dolanıram.[1]

Öz kasıb övladlarına atalıq qayğısı göstərməyi sevən Cümhuriyyət hökuməti Həsənovun da arzusunu gözündə qoymayıb və onu da dövlət təqaüdçüləri siyahısına daxil edib.

31 dekabr 1919-cu ildə o, təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[2] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı barədə[3] dilkağızları verib.

Əlimuxtar Yaqub oğlu Həsənova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 13 yanvar 1920-ci ildə 594 saylı vəsiqə verilib.[4]

O, oxumağa Türkiyəyə – İstanbul Universitetinə göndərilib. İstanbulda 1920-ci ildə çəkilmiş bir fotoda Əlimuxtar Həsənovu Məhəmməd bəy Xələf bəy oğlu və Əliyusif Cəfərovla birlikdə görürük. Əyinlərindəki qalın paltodan hiss olunur ki, İstanbula yeni gəldikləri qış dönəmidir.

Bir neçə aydan sonra Cümhuriyyət devrildi və hakimiyyəti ələ alan kommunistlər xaricdə oxuyan tələbələrə şərait yaratmaq əvəzinə, onları Bakıya geri çağırdı.

[1] ARDA, fond 51, siyahı 3, iş 72, vərəq 1.
[2] Yenə orada, vərəq 5.
[3] Yenə orada, vərəq 6.
[4] Yenə orada, vərəq 7.

Türkiyədə oxuyan 9 tələdən 6-sı 1920-ci ilin yayında artıq Bakıya dönmüşdü. Əlimuxtar Həsənov da onların arasındaydı.

1921-ci ilin sentyabrında Əlimuxtar Həsənov AİŞÇ Xalq Maarif Komissarlığı təlimat-məlumat-statistika şöbəsinin təlimatçıları sırasında idi.[1]

Ancaq aradan bir il keçincə o, ciddi yanıldığını anlayıb və yenidən Türkiyəyə qayıtmaq istəyib.

İstanbul Universiteti hüquq fakültəsinin I kurs tələbəsi Əlimuxtar Yaqub oğlu Həsənzadə 10 dekabr 1921-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığına yazdığı ərizədə ona Müsavat hökuməti dönəmində 100 tələbə içərisində təqaüd verilərək təhsilini bitirmək üçün xaricə göndərilməsi haqqında arayış verilməsini xahiş edib. Əlavə edib ki, məndən asılı olan və asılı olmayan səbəblərdən vətənə dönmüşəm, köhnə təqaüdçü hüququmu bərpa etmək istəyirəm.[2]



Türkiyədə oxuyan Cümhuriyyət tələbələri. *Soldan sağa:* Məhəmməd bəy Xələfbəyov (Mahmudov), Əlimuxtar Həsənov, Əliyusif Cəfərov. İstanbul, 1920

11 dekabr 1921-ci ildə ona istədiyi məzmunda 131138 saylı arayış verilib.[3] Xalq Maarif Komissarlığının 19 dekabr 1921-ci ildə keçirilən iclasında (60 saylı protokol) 26-cı məsələ keçmiş hökumət təqaüdçüləri olan 3 tələbənin – Xarkov Texnologiya İnstitutunun tələbəsi Hüseynqulu Səlimovun, Xarkov Kommersiya İnstitutunun tələbəsi Həbib Mirzə oğlu Babayevin və İstanbul Universitetinin tələbəsi Əlimuxtar Yaqub oğlu Həsənovun ASSR hökuməti hesabına təhsilini bitirmək üçün öz ali məktəblərinə göndərilməsidir. Çıxarılan qərar müsbətdir – "onların xahişi ödənilsin".[4] Deməli, Həsənov ikinci dəfə Türkiyəyə oxumağa göndərilib. Ancaq arxivlərdə bu andan sonraya dair onunla bağlı heç bir sənəd qarşımıza çıxmadı.

Əlimuxtar Həsənov adlı şəxs tarixin qaranlığında əriyib gedib...

[1] ARDA, fond 57, siyahı 21, iş 204, vv. 4-5.
[2] Yenə orada, fond 51, siyahı 3, iş 72, vərəq 9.
[3] Yenə orada, vərəq 8.
[4] Yenə orada, siyahı 1, iş 174, vərəq 185a.

Həsənov Rzaqulu İsmayıl oğlu

(08.03.1895, Şıxhəzi k./ Quba r. – 30.1.1939, Vladivostok)



Rzaqulu Həsənov

Tiflis şəhərində 22 dekabr 1911-ci ildə verilmiş 4087 saylı doğum şəhadətnaməsində Zaqafqaziya Şiə Ruhani İdarəsi göstərib ki, Bakı valiliyi Quba qəzası Şıxhəzi kəndinin sakini Rzaqulu İsmayıl oğlu atası İsmayıl Həsən oğlunun qanuni arvadı Qızxanım[1] Hüseyn qızından 1895-ci ildə doğulub, doğumun ayı və günü bəlli deyil.[2]

Bakı Orta Mexanika-İnşaat-Texniki Məktəbi Pedaqoji Şurasından 2 may 1917-ci ildə verilmiş 1205/317 saylı attestatda isə müsəlman, 1895-ci il doğumlu Rzaqulu Həsənovun[3] 1912-ci ildə Bakı Orta Texniki Məktəbinin yuxarı hazırlıq siniflərinə girərək orada 20 aprel 1917-ci ilədək əla əxlaqla oxuduğu, mexanika bölümü (özəlliklə neft sənayesi işi) üzrə elmlərin tam kursunu bitirdiyi və yekun sınaqlarında aşağıdakı uğurları göstərdiyi qeyd olunub:

Şəriət –	keçməyib
Rus dili –	kafi (3)
Cəbr –	yaxşı (4)
Həndəsə –	yaxşı (4)
Triqonometriya –	yaxşı (4)
Analitik həndəsə –	kafi (3)
Fizika –	kafi (3)
Qeyri-üzvi kimya –	kafi (3)
Üzvi kimya –	kafi (3)
Nəzəri mexanika –	kafi (3)
Materiallar müqaviməti –	kafi (3)
Maşın detalları –	yaxşı (4)
Buxar qazanları –	kafi (3)
Buxar maşınları –	kafi (3)
Daxiliyanma mühərrikləri –	kafi (3)
Ağacın texnologiyası –	yaxşı (4)
Metalların texnologiyası –	kafi (3)
Elektrotexnika –	kafi (3)
Fiziki-geologiya –	
Tarixi geologiya –	kafi (3)
Paleontologiya –	
Abşeron yarımadasının geologiyası –	yaxşı (4)
Neft texnologiyası –	yaxşı (4)
Qazma işi –	əla (5)
Tikinti sənəti –	kafi (3)
Çəkiliş və cilalama –	kafi (3)
Qanunşünaslıq –	keçməyib
Rəsm –	yaxşı (4)
Proyeksiya rəsmxəti –	yaxşı (4)
Texniki rəsmxət –	yaxşı (4)
Emalatxanalarda təcrübi məşğələlər: (çilingər, tornaçı, dəmirçi,	
ərimə və dülgər-model) –	yaxşı (4).

Bunlara əsasən ona mexanika ixtisası üzrə texnik rütbəsi verilib.[1]

Ali təhsil almaq istəyən R.Həsənov Moskva Ali Mühəndis Məktəbinə daxil olub. 1917-ci ilin fevralından sonra Moskvada da elə bir ictimai-siyasi durum yaranmışdı ki, orada qalmaq həyatı riskə atmağa bərabərdi, buna görə də özəlliklə qeyri-xristianlar oradan başlarını götürüb vətənlərinə qaçmağa məcbur olurdular. Həsənov da Bakıya dönmüşdü.

Ali məktəbdə güzəştlə oxumaq üçün o, kasıblığı haqqında arayış düzəltmişdi. Bakıda Hacıbani məscidinin sədri Qasımov 19 oktyabr 1918-ci ildə belə bir vəsiqə vermişdi ki, R.Həsənov kasıb ailədəndir və təhsilini bitirmək üçün kənardan yardıma hədsiz möhtacdır.[2]



Məktəbli Rzaqulu Həsənzadənin ərizəsi

Bu sənədin üstündə keçmiş maliyyə naziri Məhəmmədhəsən Hacınski rusca "şəxsən tanıyıram, vəsaiti yoxdur" sözləri yazmışdı. Həmin Hacınski 20 oktyabr 1918-ci ildə 475 saylı ayrıca belə bir arayış da vermişdi ki, tələbə Rzaqulu Həsənov şəxsən mənə tanışdır, kasıb ailədəndir, təhsilini davam etdirmək üçün maddi yardıma möhtacdır.[3] Bu arayışlar ona 1919-cu ildə lazım oldu.


Moskva Ali Mühəndis Məktəbi 2-ci kursunun tələbəsi Rzaqulu Həsənzadə 1919-cu ildə AC Maarif Nəzarətinə bu məzmunda ərizə yazdı:

"Bakı Edadi[4] Sənaye Məktəbini itmam edib texnika fənnini ikmal üçün məktəbialidə təhsil etmək arzusundayam. Bununla zati-alilərinizdən hökumət tərəfindən Avropaya göndəriləcək 100 tələbənin sırasına daxil edilməyimi rica ediyorum.

Kəndim Almaniyada Berlin Dağ Akademiyasının təbəqatül-ərz (geologiya) şöbəsində və yaxud Şarlottenburğ Politexnikumunun mexanik şöbəsində okumak fikrindəyəm və yoksul bir ailədən olduğum üçün hökumət müavinətinə pək ehtiyacım vardır. Və əlavə, zati-alilərinizə dəxi məlum ediyorum ki, bəndə kafi miqdarda neft mədənində və makina fabrikasında təcrübə hasil etmişəm. Pedaqojik elminə son dərəcədə həvəsli olduğumdan dolayı, kəndim texnikanı təkmil etməklə bərabər, pedaqojikaya dəxi rəğbət edəcəyəm, ta ki ali məktəbi itmam edəndən sonra vətənə qayıdıb da milliləşmiş sənaye məktəblərində

[1] Sənəddə rusca: "Кяз-Кяндя". Bizcə, sözün ikinci tərəfi "xanım"ın əlyazmadan düzgün oxunmamış yazılışıdır.
[2] ARDA, fond 51, siyahı 3, iş 75, vərəq 4.
[3] Soyadı bəzi bəlgələrdə "Həsənzadə" kimi də verilib. Sənədlərdə həmin yazılışı da saxlamışıq.

[1] ARDA, fond 51, siyahı 3, iş 75, vv. 2-3.
[2] Yenə orada, vərəq 6.
[3] Yenə orada, vərəq 7.
[4] Orta.



Almaniyada oxuyan Azərbaycan tələbələri. *Soldan sağa:* Bəhram Abdinov, Behbudəli Zeynalov, Cəfər Kazımov, Məhiş Səfərov, Rzaqulu Həsənov. 1920-ci illər

təlim və tədrisə şüru edəyim. Təkrarən zati-alilərinizdən son dərəcədə təhsilə göndərməyi rica və istirham ediyorum, əfəndim. Bununla təqdim ediyorum:

1) Edadi Sənaye Məktəbi diploması

2) Metrik sənədi

3) Sabiq maliyyə naziri Məhəmmədhəsən Hacınski tərəfindən verilən yoksulluk şəhadətnaməsi

4) Moskva Ali Mühəndis Məktəbi vəsiqəsi".[1]

21 sentyabr 1919-cu ildə Həsənzadə "Maarif Nəzarəti-cəliləsinə" yeni bir ərizə yazıb:

"Əcnəbiyyə məmləkətinə təhsilə getmək üçün verdiyim ərzi-hala əlavə olaraq zati-alilərinizə məlum edirəm ki, Almaniya (Berlin) Dağ Akademiyasının geologiya şöbəsində və yaxud Münxendə Politexnik İnstitutun mexanik şöbəsində təhsil etmək arzusundayım.

Bununla bərabər, zati-alilərinizə yenə məlum edirəm ki, kəndim Bakı Edadi Sənaye Məktəbinin mexanik və mədəniyyat şöbəsini itmam etdiyim ilə bərabər, neft mədənlərində və zavodlarda təcrübə hasil etmişəm.

Maarif Komisyonu fövqəzzikr[2] *şöbələrin hankı birinə bəni təyin edərsə tərəfimdən razılıq veriləcəkdir.*

Türk dilini bildiyim ilə bərabər, alman lisanına aşna olduğumu bəyan edirəm.

Rzaqulu Həsənzadə".[3]

[1] ARDA, fond 51, siyahı 3, iş 75, vərəq 1.
[2] Yuxarıda adı keçən.
[3] ARDA, fond 51, siyahı 3, iş 75, vərəq 5.

Tələbə-texnik Həsənzadə AC maarif nazirinə 1919-cu ilin noyabrında yazdığı ərizədə Almaniyada Berlin Dağ Akademiyasında təhsilini davam etdirmək istədiyini bildirib və ünvanını belə göstərib: 8-ci Qala döngəsi, 8-ci ev.[1]

Noyabrda ərizə yazanlar artıq dövlət təqaüdçüsü təyin edilərək xaricə göndəriləsilərdi.

31 dekabr 1919-cu ildə o, təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[2] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[3] dilkağızları verib.

Rzaqulu İsmayıl oğlu Həsənova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 14 yanvar 1920-ci ildə 545 saylı vəsiqə verilib.[4]

Rzaqulu Həsənov 17 aprel 1920-ci ildə 533 saylı aktla Frayberq Dağ-Mədən Akademiyasına qəbul edilib. Təhsilini burada 19 dekabr 1924-cü ildə başa vuraraq dağ mühəndisi diplomu alıb.[5] Azərbaycana isə 1925-ci ildə qayıdıb.[6]

* * *

Rzaqulu Həsənovun Vətənə qayıdandan sonrakı həyatı haqında yeganə bilgi qaynağımız AR MTN Arxivində saxlanılan 23731 (indi PR-22038) şifrəli istintaq işidir. 101 vərəqlik bu iş 9 iyul 1937-ci ildə başlanıb, 19 aprel 1938-ci ildə qurtarıb.

11 iyul 1937-ci ildə həbsi üçün 710 saylı order verilib.[7]

26 iyul, 3 və 22 avqust 1937-ci ildə Suraxana küçəsindəki[8] 229-cu evin 11-ci mənzilində[9] axtarış aparılıb.[10] 3 avqustdakı axtarışda mənzilindən bu şeylər də götürülüb: müxtəlif əski sənədlər; kitablar (11 ədəd); 1 dəri yol çantası dolusu müxtəlif bəlgələr; fotoşəkillər (65 ədəd).[11] Təbii ki, bunların hamısı az sonra "istintaq üçün heç bir önəm daşımadığına görə" məhv edilib.

Məhbus anketində onun haqqında bu bilgilərlə tanış oluruq: Həsənov Rzaqulu İsmayıl oğlu – 1896-cı il doğumlu; doğum yeri: Bakı şəhəri; yaşayış yeri: Bakı, Suraxana küçəsi, 229-cu ev, Şmidt küçəsinin tini; dağ mühəndisi; iş yeri və vəzifəsi: 26 komissar adına mədən (Neftçala), mədən direktoru (başqa bir yerdə isə həbs edilərkən Kirov adına mədənin direktoru olduğu yazılıb[12]); kəndlilərdən; qulluqçu, ali təhsilli; 1927-ci ildən ÜK(b)P üzvü; azərbaycanlı; repressiyaya uğramayıb. Ailə tərkibi – arvadı Nahidə, 32 yaş; qızı Aliyə, 17 yaş. Həbs edilib: Az.SSR XDİK DTİ 4-cü bölməsi tərəfindən, 26.07.1937-ci ildə. Arvadı Heydərova Nahidə Xəlil qızı 1956-cı ildə burada yaşayıb: Park küçəsi,[13] 69-cu ev, 3-cü mərtəbə.[14]

Mirsadıq Sadıqov da 1941-ci ildəki dindirməsində deyib:

[1] ARDA, fond 51, siyahı 3, iş 75, vərəq 8.
[2] Yenə orada, vərəq 9.
[3] Yenə orada, vərəq 10.
[4] Yenə orada, vərəq 11.
[5] http://az.wikipedia.org/wiki/Frayberqin_az%C9%99rbaycanl%C4%B1_t%C9%99l%C9%99b%C9%99l%C9%99ri
[6] AR MTN arxivi, PR-22038, vərəq 46.
[7] Yenə orada, vərəq 3.
[8] Bu küçə indi Çingiz Mustafayev və Dilarə Əliyeva küçələrindən ibarətdir.
[9] Qardaşı Ağamehdi Həsənov (1956) 4-cü Sovet döngəsi, 21-ci evdə yaşayıb.
[10] AR MTN arxivi, PR-22038, vv. 4-6.
[11] Yenə orada, vərəq 4.
[12] Yenə orada, vərəq 1.
[13] İndiki Mehdi Hüseyn küçəsi.
[14] AR MTN arxivi, PR-22038, vərəq 9.



Rzaqulu Həsənov həbsdə. 1937

"Həsənov Rzaqulunu, deyəsən, 1936-cı ildə XDİK orqanları o, Neftçala mədənində direktor işləyən zaman tutmuşdu".[1]

Azərbaycan K(b)P Salyan RK onu "xalq düşməni" kimi 20-21 avqust 1937-ci il plenumunda partiyadan çıxarıb.[2]

XDİK DTİ 4-cü bölümü 6-cı bölməsinin rəisi, DT baş leytenantı erməni Xocayev onu 8 dəfə dindirib. İstintaq işinin mövzumuzla bağlı yerləri ilə oxucuları tanış edirik.

29 iyul 1937-ci il dindirməsindən.

"*Sual:* Firidun Əliyevi tanıyırsınızmı?

Cavab: Firidun Əliyevi tanıyıram. 1912-1917-ci illərdə onunla Bakı Texniki Məktəbində oxumuşam, 1920-25-ci illərdə isə Firidun Əliyevlə xaricdə – Almaniyada oxumuşuq, ancaq mən Saksoniyada (Frayberqdə) idim, o isə Hannoverdə. [...]

Sual: 1934-cü ildə Siz harada və hansı vəzifədə işləmisiniz?

Cavab: 1934-cü ildə mən Bakıda Kirov mədəninin direktoru işləmişəm, 1934-cü ilin aprelində isə Stalin mədəninə qazma üzrə baş mühəndis keçmişəm.

Sual: Stalin mədəninə işə keçməyiniz nə ilə bağlı olub?

Cavab: Stalin mədəninə mən Azərneftin keçmiş rəisi Petersonun sərəncamı ilə keçirilmişəm. O, məni Kirov mədəninin direktoru işini bacarmamaqda günahlandırırdı".[3]

İstintaqın gedişi prosesində müstəntiq R.Həsənova qarşı başqa müttəhimlərdən də ifadələr almağa çalışıb. Məsələn, İbad Əliyev (İbadulla Əlizadə) 8 oktyabr 1937-ci il dindirməsində Cəmil Əlimuradbəyli və Rzaqulu Həsənovu sovet hökumətini yıxmağa çalışan gizli əksinqilabi təşkilata Ruhulla Axundovun cəlb etdiyini və onların ikisini də Axundovun yanına özünün göndərdiyini deyib.[4] Ancaq həmin il 27 dekabr tarixli dindirməsində bütün dediklərini inkar edib; deməli, o, həmin ifadənin altından qol çəkməyə məcbur edilibmiş. Müstəntiqlə onun arasında gedən sual-cavaba diqqət yetirək:

"*Sual:* Deməli, siz Həsənov Rzaqulu haqqında istintaqa yalan ifadə vermisiniz?

Cavab: İkinci dəfə bildirirəm ki, mən güclü sarsılmışdım və öz ifadələrimin məzmununu dərk etmirdim".[5]

Xocayev 19 aprel 1938-ci ildə istintaqın bitməsi haqqında protokol tərtib edib.[6] Bunu unutmayaq ki, Rzaqulu Həsənov istintaqlarda özünü günahkar saymayıb.[7]

SSRİ XDİK Özəl Müşavirəsi 23 avqust 1938-ci ildə Rzaqulu Həsənovu əksinqilabi fəaliyyəti üstündə müddəti 26 iyul 1937-ci ildən sayılmaqla 5 illiyə islah-əmək düşərgələrinə məhkum edib.[8]

1950-ci ilin noyabrında Azərb. SSR DTN 7-ci şöbəsinə tapşırıq verilib ki, Həsənov Rzaqulu İsmayıl oğlunun yeri müəyyənləşdirilsin (Bakıya gəlibmi, harada, nə ilə məşğuldur, Bakıdan haraya gedib və s.).[1] 23 noyabr 1950-ci ildə baş leytenant Rezunenko bildirib: "Müəyyənləşdirilib: 1 may küçəsi, 225-ci evdə (keçmiş Suraxana küçəsi, ev 229) həqiqətən Həsənov Rzaqulu İsmayıl oğlu yaşayıb... Həmin evdə 1932-ci ildən yaşayıb. 1937-ci ildə orqanlar onu "xalq düşməni" kimi həbs edib. Gizli xəbərçi Lyudanın dediklərindən bəlli olub ki, obyektin (yəni R.Həsənovun – *müəl.*) arvadı və atasının məsələ qaldırmasından sonra guya o, bəraət alıb və dustaqlıqdan buraxılıb, sonra Bakıya qayıdarkən yolda yatalaq xəstəliyinə tutulub və ölüb.

Obyektin həbsindən sonra onun arvadı Həsənova Nahidə (başqa bilgilər əldə edilməyib) həmin ünvandan sürgün edilib, onun indi harada yaşaması xəbər mənbəyinə də, evdə olanlardan da kimsəyə məlum deyil.[2]

"Dalstroy" İslah-Əmək Düşərgələri İdarəsinin bölmə rəisi, mayor Mixaylenko Azərb. SSR DTN 5-ci bölməsi rəis müavininə 10 mart 1951-ci ildə yazaraq bildirib ki, məhbus, 1895-ci il doğumlu, Bakı şəhər sakini Həsənov Rzaqulu İsmayıl oğlu DİN-nin "Dalstroy" islah əmək düşərgələrində cəzasını çəkərkən 30 yanvar 1939-cu ildə Primorsk diyarının Vladivostok şəhərində ölüb.[3]

Bakıda Park küçəsində 69-cu evin 3-cü qatında yaşayan Heydərova Nahidə Xəlil qızı (R.Həsənovun yoldaşı) 8 avqust 1956-cı ildə Azərb. SSR Hərbi Tribunalına, prokuror Çesnokova yazdığı ərizədə əri haqqında heç bir bilgisi olmadığını, onun sağ olub-olmadığını belə bilmədiyini yazıb və onun işinə baxılmasını xahiş edib.

4-cü Sovet döngəsi 21-ci evdə yaşayan qardaşı Ağamehdi İsmayıl oğlu Həsənov da Azərbaycan SSR prokuroruna yazdığı 19 oktyabr 1956-cı il tarixli ərizədə qardaşının tutulduğunu deyib, ancaq onun Lenin işinə sadiq bir kommunist olduğunu sübut etməyə çalışıb və bildirib ki, həbs edildiyi gündən bəri onun həyatı haqqında heç nə bilmir. Sonra o göstərib ki, qardaşıma görə mən də uzun müddət layiq olmadığım təhqirlərə və məhrumiyyətlərə məruz qalmışam. O, qardaşına bəraət verilməsini xahiş edib.[4]

12 oktyabr 1957-ci ildə Nahidə Heydərovaya Azərb. SSR prokurorluğu yazıb ki, Azərbaycan SSR Ali Məhkəməsi 7 oktyabr 1957-ci ildə Rzaqulu Həsənova bəraət verib.[5] Ancaq bu məktubun ona çatıb-çatmaması bəlli deyil...

[1] AR MTN arxivi, PR-29995, vərəq 32a.
[2] Yenə orada, PR-22038, vərəq 9.
[3] Yenə orada, vərəq 13.
[4] Yenə orada, vərəq 50.
[5] Yenə orada, vərəq 54.
[6] Yenə orada, vərəq 65.
[7] Yenə orada, vərəq 69.
[8] Yenə orada, vərəq 75.

[1] AR MTN arxivi, PR-22038, vərəq 76.
[2] Yenə orada, vərəq 77.
[3] Yenə orada, vərəq 83.
[4] Yenə orada, vərəq 85.
[5] Yenə orada, vərəq 99.

Hüseynbəyov Zeynalabdin bəy Adil bəy oğlu

(1900, Ərəbqardaşbəyli k. / Salyan – 1969, Bakı)



Tələbə Zeynalabdin Hüseynbəyov

Fransada oxumuş tələbələrdəndir.

Zaqafqaziya Şiə Ruhani İdarəsindən Bakı valiliyi Cavad qəzasının Ərəbqardaşbəyli kəndinin sakini Zeynalabdin bəy Adil bəy oğluna Tiflis şəhərində 29 mart 1911-ci ildə verilmiş 659 saylı doğum şəhadətnaməsindən bəlli olur ki, o, atası Adil bəy Məhəmmədhüseyn bəy oğlunun qanuni arvadı Məsmə xanım Kəlbə Hüseyn bəy qızından 1900-cü ildə doğulub, doğumun ayı və günü bilinmir.[1]

20 yanvar 1918-ci ildə Lənkəran şəhərində verilmiş 27 saylı kamal attestatında Zeynalabdin bəy Hüseynbəyovun 1911-ci ilin avqust ayında Lənkəran kişi gimnaziyasına girərək orada 20 yanvar 1918-ci ilədək əla əxlaqla oxuduğu, səkkizsiniflik tam kursu bitirdiyi və aşağıdakı qiymətləri aldığı qeyd edilib:

Şəriət –	əla (5)
Rus dili –	yaxşı (4)
Ədəbiyyat –	yaxşı (4)
Latın dili –	yaxşı (4)
Riyaziyyat –	yaxşı (4)
Fizika və kosmoqrafiya –	yaxşı (4)
Tarix –	əla (5)
Coğrafiya –	əla (5)
Fransız dili –	əla (5)
Alman dili –	əla (5)
Fəlsəfi propedevtika –	əla (5)
Qanunşünaslıq–	yaxşı (4).

Bu cür yaxşı oxuyan şagird gümüş medala layiq görülüb.[2]

Bakı şəhər valisi, özü də Salyandan olan Rəşid bəy Axundzadə 10 avqust 1919-cu ildə Z.b.Hüseynbəyova onun həqiqətən yoxsul olduğunu və təhsilini davam etdirməyə heç bir vəsaiti olmadığını təsdiqləyən 11695 saylı vəsiqə verib.[3]

Salyan şəhərində yaşayan Ərəbqardaşbəyli kəndinin sakini Z.b.Hüseynbəyov AC Maarif nazirinə 12 avqust 1919-cu ildə yazdığı ərizəsində onu xaricə göndəriləcək tələbələr sırasına salmağı xahiş edib və Paris Universitetinin tibb fakültəsinə girmək istədiyini bildirib.[4]

Hüseynbəyov tələbələrin xaricə getməsini təşkil edən komissiyaya 17 oktyabr 1919-cu ildə yazaraq bildirib ki, komissiyanın mənim imkanlı olmağım haqqında topladığı bilgilər gerçəkliyə uyğun deyil və ikinci dəfə bildirirəm ki, xaricə öz gücümlə təhsil almağa gedə bilmərəm. Bunu aşağıda imza edənlər də təsdiq edə bilər, buna görə də komissiyanın öz qərarını dəyişməsini xahiş edirəm.

Ərizənin yazıldığı vərəqin aşağısında Parlaman üzvü Baxış bəy Rüstəmbəyov və Lənkəran gimnaziyasında Hüseynbəyova 7 il dərs dediyini qeyd etmiş Parlaman üzvü Hacı Mirzə Səlim Axundzadə onun təhsil almağa maddi cəhətdən qüvvəsi olmadığını təsdiqləyiblər.[1]

[1] ARDA, fond 51, siyahı 3, iş 64, vərəq 3.
[2] Yenə orada, vv. 2-2a.
[3] Yenə orada, vərəq 4.
[4] Yenə orada, vərəq 1.



Tələbə Zeynalabdin Hüseynbəyov

AC maarif nazirinə yazdığı 4 noyabr 1919-cu il tarixli başqa ərizəsində Hüseynbəyov Fransaya, Paris Universitetinin tibb fakültəsinə göndərilməsini xahiş edib.[2]

Hüseynbəyov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[3] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[4] 31 dekabr 1919-cu ildə dilkağızları verib.

Zeynalabdin bəy Adil bəy oğlu Hüseynbəyova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 510 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[5]

Avropaya göndərilən dövlət təqaüdçüsü Paris Universitetinin tibb fakültəsində oxuyub.

O, təhsilini bitirdikdən sonra Azərbaycana qayıdıb. Müxtəlif sahələrdə çalışıb. Həbs edilənədək ən son iş yeri Azərbaycan Tibb İnstitutunda kafedra müdirliyi olub. O, həmin institutun professoru idi.

***

Əlimizdə Hüseynbəyovun AR MTN Arxivində saxlanılan PR-16658 şifrəli istintaq sənədlərindən götürdüyümüz qeydlər var. 245 vərəqlik bu işdə onunla bağlı ən müxtəlif sənədlər toplanıb.

Onun həbsi üçün 14 may 1940-cı ildə 196 saylı order verilib və bu orderlə də 16 mayda tutulub.[6] Açığı, onun sənədlərində mövzumuzla bağlı "dişədəyən" bir şey tapmadıq. Tanış olduğumuz bəlgələrdən Hüseynbəyovun, ətrafındakı adamlarla yola getməkdə, özündən yuxarı vəzifədəki insanlarla subordinasiya gözləməkdə çətinlik çəkdiyi açıq duyulur və bu zaman o, günahı əsasən başqalarında görür və onlar haqqında mənfi rəy yaratmağa çalışır. Ümumən istintaq sənədlərinin həlledici qismi onunla başqaları arasındakı sırf şəxsi münasibətlərə həsr olunub, yerdə qalanlar da, təbii ki, müstəntiqin ondan "xalq düşməni" yaratmaq cəhdlərinin məhsuludur. Elə buna görə də 245 vərəqin işərisindən oxucunu maraqlandıra biləcək material seçib üzə çıxarmaqda həddsiz çətinlik çəkdik. Örnəkdən ötrü hörmətli oxucuları yalnız bircə sənədlə tanış edəcəyik.

Hüseynbəyovun Parisdən gətirdiyi arvadı, fransız qızı, sovet vətəndaşı, Qazaxıstanda – Cezkazqan stansiyasındakı mədəndə, Şaxta küçəsi 5/3 saylı evdə yaşayan Mariya Tereza Hüseynbəyovanın 14-15 may 1944-cü ildə SSRİ daxili işlər naziri Beriyaya yazdığı şikayət ərizəsində Hüseynbəyovla bağlı bir sıra faktlar əksini tapıb. 7 səhifəlik bu şikayət məktubunda göstərilib ki, mənim ərim 5 oktyabr 1940-cı ildə SSRİ XDİK Özəl Müşavirəsinin qərarı ilə millətçi və türkpərəst təşviqat üstündə 8 il azadlıqdan məhrum edilib.

Ərinə bəraət qazandırmaq istəyən, görünür, ərinin həbsindən sonra özü də Qazaxıstana sürgün edilmiş Mariya Tereza çoxlu dəlil-sübut ortaya qoymağa çalışıb.

[1] ARDA, fond 51, siyahı 3, iş 64, vərəq 5.
[2] Yenə orada, vərəq 6.
[3] Yenə orada, vərəq 7.
[4] Yenə orada, vərəq 8.
[5] Yenə orada, vərəq 9.
[6] AR MTN arxivi, PR-16658, vərəq 3.



Zeynalabdin Hüseynbəyov həbsdə. 1940

Məsələn, o bildirib ki, ərim səhiyyə nazirinin (ad-soyadı göstərilib) Azərb. SSR daxili işlər komissarına 13 may 1940-cı ildə göndərdiyi məktub əsasında tutulub. Burada göstərilib ki, Hüseynbəyov Ə.Əliyevin kafedraya göndərdiyi aspirantı – professor Həsənovun bacısını işdən çıxarıb, çünki Həsənova ermənilərə və ruslara qarşı daim intriqalar yaradıb.

Tibb İnstitutunun maliyyə komissiyasında işləyən Hüseynbəyov ştatdan artıq 4 işçinin, o cümlədən Ə.Əliyevin özünün də işdən çıxarılmasına təkid edib və bundan sonra onların arasında düşmənçilik yaranıb.

Mariya Tereza şikayət məktubunda azərbaycanlı tələbələrin onun ərinə münasibətindən də şikayətlənib. Tələbələr deyib ki, sənin ərin beynəlmiləl qruplara daha yaxşı münasibət bəsləyir; o, ruspərəstdir və onda heç bir azərbaycanlı duyğusu yoxdur. Əri bu hədələrlə bağlı Tibb İnstitutunun direktoruna yazıb.

Şikayət məktubunda "keçmiş müsavatçı", onun ərinin qatı düşməni olan professor Əbülfəz Qarayevə də yer ayrılıb. Xanım göstərib ki, ərim partiyanın, hökumətin və böyük Stalinin qayğısı sayəsində tezliklə vəzifədə böyüyüb və öz yoldaşlarını ötüb keçib, bu da onların qısqanclığına səbəb olub.

Açığı, ərinə haqq qazandırmaq üçün Mariya Terezanın sovet orqanlarının xoşuna gəlməkdən ötrü irəli sürdüyü tutarqalar bu gün bizdə Z.Hüseynbəyov haqqında heç də xoş təəssürat yaratmır.

Onun ərinə istintaqda ağır işgəncələr verildiyi də şikayət məktubunda yer alıb. Onun bildirdiyinə görə, bunun nəticəsində də günahını boynuna almağa məcbur edilib. Xanım göstərir ki, istənilən heyvanı dəyənəklə bataqlığa salmaq mümkündür.

Bu şikayət məktubunda gerçəkdən maraqlı bir faktla da qarşılaşırıq. Yeni Bakı su kəməri çəkilərkən 1939-cu ildə Hüseynbəyov Fransadakı müəllimi professor Tyerin bu fikrini söyləyib ki, şəhərə su kəməri çəkərkən bədbəxt hadisə olacağını nəzərə alaraq şəhərin bütün tərəflərinin su ilə təchizatına çalışmaq lazımdır, ancaq Azərbaycan KP MK-nın keçmiş katibi Mirzoyan şəhərdəki bütün su quyularını məhv etməyə və bununla şəhəri içməli sudan məhrum etməyə əmr veribmiş. Professor Z.Məmmədov və bir erməni ərimin fikrini təhrif edərək XDİK-na xəbər veriblər.

Məktubda bu da yazılıb ki, ərim hər gün işdən gedərkən yoldaş Stalinin portreti qarşısında 5 dəqiqə başıaçıq dayanmağı özünün borcu sayıb.

Bu sənəddən bəlli olur ki, Hüseybəyov Parisdə tibb və təbiiyyat fakültələrini, Gigiyena İnstitutunu bitirib.[1]

[1] AR MTN Arxivi, PR-16658. Məktub səhifələnməyib.

Hüseynzadə Bəhram bəy İsmayıl bəy oğlu

(04.03.1901, Şamaxı – 16.10.1965, Bakı)



Bəhram bəy Hüseynzadə

Azərbaycan xalqının böyük oğlu Əli bəy Hüseynzadənin (1864-1940) qardaşı oğlu olan Bəhram bəy ali təhsilini Almaniyanın Darmştadt şəhərində alıb.

Zaqafqaziya Şiə Ruhani İdarəsindən Tiflis şəhərində 20 mart 1904-cü ildə verilmiş 727 saylı doğum şəhadətnaməsində Bakı valiliyi Cavad qəzası Salyan sakini, 33 yaşlı İsmayıl bəy Hüseynzadənin öz qanuni arvadı, 23 yaşlı Mina xanım Məşədi Məhəmməd qızından oğlu Bəhram bəyin 4 mart 1901-ci ildə doğulduğu göstərilib.[1] Bu sənəddə Bəhram bəyin doğulduğu yer göstərilməyib (Salyan onun atasının yaşayış yeridir). Qızı Rəna xanımın bizə bildirdiyinə görə isə Bəhram bəy Şamaxıda doğulub.

B.b.Hüseynzadə 5 il – 1 sentyabr 1913-cü ildən 14 mart 1918-ci ilədək Şamaxı edadi (real) məktəbində oxuyub. 4 fəndən "5", 10 fəndən "4" qiyməti alıb.[2]

Ali məktəbə girmək üçün zəruri sayılan əlavə – səkkizinci sinfi bitirməkdən ötrü Bakıda oxumalı olub. Bakı 1-ci edadi (real) məktəbində 1918-ci ilin oktyabrından 1919-cu ilin 14 iyununadək oxuyub və səkkizsiniflik tam kursu bitirib. Onun 16 iyun 1919-cu ildə aldığı 959 saylı şəhadətnamədəki qiymətləri 1 il öncəkinə nisbətən xeyli aşağıdır və bu, ermənilərin Şamaxıda törətdiyi vəhşiliklərin gənc şagirdin psixologiyasına mənfi təsiri ilə izah oluna bilər. Beləliklə, onun aldığı qiymətlər:

Şəriət –	əla (5)
Rus dili –	kafi (3)
Fransız dili –	kafi (3)
Riyaziyyat, o sıradan:	
Hesab –	əla (5)
Cəbr –	əla (5)
Triqonometriya –	kafi (3)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	kafi (3)
Tarix –	kafi (3)
Təbiiyyatşünaslıq –	kafi (3)
Fizika –	yaxşı (4)
Riyazi coğrafiya –	kafi (3)
Rəsm –	kafi (3)
Qanunşünaslıq –	kafi (3)
Türk dili –	kafi (3)
Türk-tatar tarixi –	kafi (3).[3]

Cümhuriyyət hökuməti əcnəbi dövlətlərə göndərmək üçün tələbə axtarışına çıxanda onun çağırışına ilk səslənənlərdən biri B.b.Hüseynzadə oldu. O, yavaş-yavaş sənədlərini

[1] ARDA, fond 51, siyahı 3, iş 70, vərəq 3.
[2] Yenə orada, vərəq 2.
[3] Yenə orada, vv. 6-6a.



Qafqaz şeyxülislamı Axund Əhməd Hüseynzadə Salyani



Bəhram bəyin anası Mina xanım



Əli bəy Hüseynzadə



İsmayıl bəy Hüseynzadə

toplamağa başladı. 7 avqust 1919-cu ildə Cavad qəzası qaimməqamından (rəisindən) 1283 saylı belə vəsiqə aldı ki, Salyan şəhərinin sakini Bəhram bəy Hüseyn(bəy)zadə həqiqətən zəngin adam deyil; atası – 51 yaşlı müəllim İsmayıl bəydən, 42 yaşlı anasından, 22 yaşlı zabit qardaşından,[1] 17 və 12 yaşlı şagird qardaşlarından[2] ibarət ailəsi var.[3]

Sonra o, 16 avqust 1919-cu ildə maarif nazirinə ərizə yazaraq xaricə göndəriləcək tələbələr sırasına salınmasını xahiş edib, İsveçrədə Texnoloji İnstitutda oxumaq arzusunu bildirib.[4]

AR Dövlət Arxivində saxlanılan AC Daxiliyyə Nəzarəti dəftərxanasında idarə məmuru vəzifəsində çalışan Bəhram bəy Hüseynzadənin əmək dəftərindən öyrənirik ki, o, ildə 19 min 200 manat maaş alır; bəylərdəndir; Salyanda dədə-baba evi var; Bakı I real məktəbini bitirib; daxiliyyə nazirinin 30 sentyabr 1919-cu il tarixli 135 saylı əmri ilə 29 sentyabrdan Daxiliyyə Nəzarəti dəftərxanasında dəftərxana məmuru təyin edilib; subaydır.[5]



Bəhram bəy Hüseynzadə tələbə yoldaşı İsgəndər Rzazadə ilə. Berlin, iyun 1922

Xatırlatmaq yerinə düşər ki, daxiliyyə nazirini əvəz edən general-mayor (Məhəmməd)sadıq Ağabəyzadə (Ağabəyov) Bəhram bəy Hüseynzadənin yaxın qohumlarındandı və onun həm xaricə göndərilməsində, həm də Daxiliyyə Nəzarətində işə götürülməsində generalın yardımının olması şübhə doğurmamalıdır.

Hüseynzadə 29 sentyabr 1919-cu ildə AC daxiliyyə nazirinə məktub yazaraq ona Nəzarət sistemində münasib iş verilməsini xahiş edib. General Ağabəyov 29 sentyabrda onun həmin gündən dəftərxana qulluqçusu götürülməsi haqqında dərkənar yazıb.[6]

5 noyabr 1919-cu ildə nazirə yazdığı ərizəsində B.b.Hüseynzadə Almaniyada Darmştadt Böyük Hersoq Politexnik İnstitutunda elektrotexnika bölümü üzrə oxumaq istədiyini bildirib.[7]

Dəftərxana məmuru B.b.Hüseynzadə 7 dekabr 1919-cu ildə Daxiliyyə Nəzarəti idarəsinin direktoruna ərizə yazaraq özünün ailə vəziyyəti ilə bağlı

[1] Sultan(ibrahim) bəy Hüseynzadə (1897-1962-ci ildən sonra) nəzərdə tutulur.
[2] Şəmsəddin(sami) bəy Hüseynzadə (1908-22.01.1992) və Firidun bəy Hüseynzadə (1903-?) nəzərdə tutulur.
[3] ARDA, fond 51, siyahı 3, iş 70, vərəq 4.
[4] Yenə orada, vv. 1-1a.
[5] Yenə orada, fond 894, siyahı 2, iş 104, vərəq 3.
[6] Yenə orada, vv. 5, 6.
[7] Yenə orada, fond 51, siyahı 3, iş 70, vərəq 5.



Bəhram bəyin anası Mina xanım. Bakı, tax. 1959



(Məhəmməd)sadıq bəy Ağabəyzadə



Bəhram bəy Hüseynzadə. Almaniya



Bəhram bəyin həyat yoldaşı Luiza Hüseynzadə

9 dekabrdan 2 həftəlik məzuniyyət verilməsi üçün daxiliyyə nazirinin müavini qarşısında məsələ qaldırmağı ondan xahiş edib.[1] Nazir müavini general-mayor Ağabəyovun 10 dekabr 1919-cu il tarixli 180 saylı əmri ilə B.b.Hüseynzadəyə 9 dekabrdan maaşı saxlanılmaqla 2 həftəlik məzuniyyət verilib.[2]

Cümhuriyyət hökuməti tələbələri xaricə dekabrın sonuna yaxın göndərməyi nəzərdə tutmuşdu. Görünür, elə bu səbəbdən Bəhram bəy də Salyana getmək, ailə üzvləriylə səfərqabağı sağollaşmaq istəyib. Ancaq sonra səfər yanvarın ortasınadək təxirə düşdü.

31 dekabr 1919-cu ildə Hüseynzadə təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[3] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[4] dilkağızları verib.

Dəftərxana qulluqçu Hüseynzadə 10 yanvar 1920-ci ildə daxiliyyə nazirinə ərizə yazaraq xaricə təhsil almağa göndərildiyinə görə onu tutduğu vəzifədən azad etməyi xahiş edib. Ərizənin üstündə 11 yanvardan azad edilməsi haqqında dərkənar var.[5] Nazir əvəzi Ağabəyovun 12 yanvar 1920-ci il tarixli 10 saylı əmri ilə B.b.Hüseynzadə həmin gündən vəzifəsindən azad edilib.[6]

Bəhram bəy Hüseynzadənin dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 564 saylı vəsiqə ona 14 yanvar 1920-ci ildə verilib.[7]

* * *

Salman Mümtaz adına AR Dövlət Ədəbiyyat və İncəsənət Arxivində Bəhram bəy Hüseyzadənin, əmisi Əli bəy Hüseynzadəyə 1921-1925-ci illərdə yazdığı 7 məktub saxlanılır.[8] Həmin məktubları görkəmli diplomat Ramiz Abutalıbov Parisdə Ceyhun bəy Hacıbəylinin ailəsindən götürərək bu arxivə təqdim edib. Xaricdə



Bəhram bəy Hüseynzadə. Almaniya

[1] ARDA, fond 894, siyahı 2, iş 104, vərəq 8.
[2] Yenə orada, vərəq 9.
[3] Yenə orada, fond 51, siyahı 3, iş 70, vərəq 7.
[4] Yenə orada, vərəq 8.
[5] Yenə orada, fond 894, siyahı 2, iş 104, vərəq 10.
[6] Yenə orada, vərəq 11.
[7] Yenə orada, fond 51, siyahı 3, iş 70, vərəq 9.
[8] S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 1, iş 242.



Bəhram bəy *(sağda)* və Luiza Almaniyadakı dostlarından biri ilə. Darmştadt, 1926

oxuyan tələbələrin necə həyat sürməsi haqqında əyani təsəvvür yaradan həmin məktubların bir neçəsini ana dilimizə çevirərək oxuculara təqdim edirik.

"Darmştadt. 30.03.1922.

Əziz əmi! Dözülməz maddi durumum məni Sizə müraciət etməyə vadar etdi. Məsələ bu yerdədir: Sizə yaxın bəllidir ki, keçən ilin sonunda hökumətin tələbə işləri üzrə göndərdiyi Dr. Bfəhram bəyJ Axundov burada oldu, bizi 1 fevraladək təmin etdi, özü də Azərbaycana qayıdınca təcili şəkildə sonrakı təminatımız üçün ləngimədən çalışacağına söz verdi; ancaq indiyədək nəinki kömək yoxdur, heç xəbər də yoxdur ki, hökumət ümumiyyətlə kömək edəcək, ya yox, halbuki Axundovun dalınca hələ 2 tələbə nümayəndə də göndərmişik. Öz aramızdır, bu Dr. Axundov bizimlə çox pis oyun oynadı. O, əslində tələbələri deyil, bizim hesabımıza özünü təmin etdi. Əlbəttə, hökumətdən yardım almayaraq, əlimdəki pullarla burada indiyədək, yəni fevral və mart aylarınadək davam gətirə bilməzdim, ona görə də həmin vaxt Parisdə olan Sadıq bəy Ağabəyova müraciət etdim. Əlbəttə, o, məni uzun müddətə təmin edə bilməzdi, mənə borc kimi 3.000 marka verdi, mən də onları ilk imkandaca qaytarmağa boyun oldum.

Mən tezliklə hökumətdən yardım alacağımıza indiyədək umudluydum, ancaq artıq bütün umudum ölüb, hər halda tezliklə alacağımızı düşünmürəm. İndiki halda çıxılmaz durumdayam. Bir tərəfdən, burada qalmaq imkanım yoxdur, obiri tərəfdən, hələ bir ay-ay yarım dözməliyəm ki, 20 apreldən başlanacaq imtahanları verə bilim.

Bax, mənim vəziyyətim bu cürdür. Şəxsən özüm istərdim ki, ən azından bir ay-ay yarım da burda qalım, imtahanları verim, bəlkə ovaxtacan yardım aldıq. Ancaq buna da imkanım yoxdur. Evdən isə bu qeyri-normal şəraitdə az qala 10 min manatadək pulu almaq mümkün deyil. Yeganə umudum Sizə qalır, ona görə də xahiş edirəm mümkündürsə İstanbuldan Almaniyaya mənim üçün Səlanik bankı vasitəsilə 50-100 türk lirəsi göndərəsiniz. Onların burada "Deutsche Bank" ilə əlaqələri var. Bu bankın Darmştadtda şöbəsi var.

Əziz əmi. Bir daha Sizdən xahiş edirəm ki, imkan varsa mənə mümkün qədər tezliklə yardım edəsiniz. Kömək edə bilməsəniz də yenə xəbər verməyinizi xahiş edirəm. Yardımınızı gözləyirəm.

Sizin Bəhram.

Ünvanım: Darmstadt, Heinrich str. 152".[1]

"Şarlottenburqdan. 23.09.1924.

Əziz əmi. Umudsuz durumum məni yenə yardım xahişi ilə Sizə müraciət etməyə məcbur edir. Valideynlərimin və qardaşım Sultanın üzündən mən bu axmaq və çıxılmaz vəziyyətə düşdüm. Evə bir neçə dəfə yazdım ki, biz təqaüdçü tələbələrin hökumətdən aldığımız (onu da nizamlı yox, erməni müfəttişimizin[2] *kefindən asılı olaraq) azacıq pulla indiki bahalıq şəraitində burada yaşamaq mümkün deyil, ona görə heç olmazsa müvəqqəti də olsa institutu buraxmaq və Qafqaza evə gəlmək, münasib vaxtda da qayıtmaq və təhsilimi bitirmək istəyirdim. Ancaq onlar hər dəfə cavab verdilər ki, nəbadə institutu bitirməmiş geri qayıdasan və dedilər ki, sənə təhsili bitirincəyədək*

[1] S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 1, iş 242, vv.1-6.

[2] Pirumov nəzərdə tutulur.



Azərbaycan Kənd Təsərrüfatı İnstitutu. *Soldan sağa. Orta sırada:* 7-ci Hüseyn Nağıyev, 8-ci Bəhram bəy Hüseynzadə. Gəncə, təx. 1927

kömək edəcəyik, halbuki onların ağır durumunu bildiyimə görə onlardan bu yardımı istəməmişəm. Hətta yazıblar ki, guya mənə birinci dəfə alman konsulu ilə, ikinci dəfə isə bir tələbə ilə pul göndəriblər, ancaq mən bugünkü günədək onları almamışam. Bir dəfə bir il bundan qabaq, obiri isə beş ay qabaq olub. Mənsə indi görürəm ki, axmaqlıq edərək onların vədlərinə və məktublarına inanıb burada qaldım, borclarım yığıldı – başqa cür burada qalmaq mümkün deyildi. Borclarsa hər ay artmaqdadır. İlk vaxtlar mənə borc verənlər lütfkarlıqla heç nə demədən gözləyirdilər, ancaq axırda iş o yerə çatdı ki, onlar bütün səbrlərini lap itirdilər və məndən məhkəməyə şikayət etdilər. Bu ilin 30 sentyabrınadək borclarımı ödəməsəm (borcumun məbləği 300 qızıl markadır, təxminən 70 Amerika dolları edir) həbs edilə və buna görə də institutdan çıxarıla bilərəm. İndiyədək necə də olsa valideynlərimə umud bəsləyirdim, buna görə də Sizi rahatsız etmək istəmirdim, ancaq indi onlardan umudumu tam kəsmişəm və başqa çıxış yolum yoxdur. Məni bu durumdan qurtarmağı Sizdən xahiş etməyi qərara aldım.

Sizdə bu qədər pul yoxdursa xahiş edirəm ki, mümkündürsə kimdənsə faizlə də olsa borc alın və mən elə ilk imkandaca onu qaytarmağa söz verirəm. Umudvaram ki, yaza qədər institutu bitirəcək və diplomlu mühəndis rütbəsi alacağam. Avqust ayından Siemens-schukert zavodunda könüllü kimi işləyəcəyəm. İmkan yaransa burada bir ay da qalacaq və sonra Darmştadta gedəcəyəm.

Əziz əmi, Sizdən bir xahişim də var. Mənə yardım etməyə imkanınız olsa xahiş edirəm ki, bunu hansısa bankdan teleqrafla göndərin. Sizə böyük umudlar bəsləyir, ailəniz qarşısında baş əyir, uşaqları öpürəm.

Sizin Bəhram".[1]

"Darmştadt, 14.09.1925.

Əziz əmi. Necə də Sizinlə görüşmək və Avropada olduğum son 6 il müddətində bütün yaşadıqlarımı Sizinlə paylaşmaq istərdim.

[1] S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 1, iş 242, vv. 12-13a.



Firidun və Bəhram Hüseynzadə qardaşları

İstanbuldan gəldiyim zaman mənə "bir ildən sonra yanınıza gələcəyəm" dediyiniz yadımdadır. Ancaq tək-tək hallardan deyil, müxtəlif şəraitlərdən asılı olaraq həmin tarix getdikcə təxirə düşür. Başıma gözlənilməz bir iş gəlməzsə yazda institutu bitirib yanınıza gəlməyi düşünürəm. O zamanadək məni heç olmazsa mənəvi yardımsız qoymayacağınıza umudvaram. Təkcə məktublarınızın mənə nə qədər güc, enerji verdiyini təsəvvür edə bilməzsiniz. Bunsuz da adam kütləşir, hər şeyə laqeyd olur və heç nəyə həvəsi qalmır. Buna görə valideynlərimi çox qınayıram – onlar indiyədək ya uzaqda olduqlarından, ya da mənə bəlli olmayan səbəblərdən Avropaya gəldiyim zaman məndə olan coşğunluq və həvəsi dəstəkləmədilər. Deyə bilərsiniz ki, sən uşaq deyilsən, şüurlu adamsan. Bəli, ancaq özəlliklə biz şərqlilərə təkcə şüurluluq kifayət etmir. Bəlkə də Siz mənim vətənsevərliyimə, vətənə və millətə sevgimə istinad edəcəksiniz, ancaq mən, düzünü desəm, ümumiyyətlə, buna şübhələnirəm – mənim vətənim, millətim varmı? Özəlliklə burada, Avropada hər addımda heç nəyinin olmadığına inanırsan. Nəhayət, özünü aldatmaqla məşğul olursan, bəşəriyyətin rifahı və tərəqqisi üçün çalışdığına inandırırsan. Ancaq tezliklə bu ideallar da üfüqdə əriyib gedir, çünki həmin bəşəriyyət bir-birini qanda boğaraq sırf cismani mövcudluq üçün bir-birini gəmirir. Beləliklə, inanırsan ki, bütün həyat mübarizədir, yerdə qalan hər şeysə bu mübarizənin üsullarıdır və istər-istəməz özündən soruşursan ki, bu həyatdan ötrü bu qədər mübarizə aparmağa dəyərmi?..

Səidə və Mehmet yəqin artıq yaza bilirlər. Niyə mənə heç olmasa bir sətir də yazmırlar? Feyzavər[1] nə edir?

Bu məktubla Sizə öz fotoşəklimi göndərirəm. Siz də özünüzün və uşaqların şəkillərini göndərin. Uşaqları öpürəm, xalanın və bütün qalan əzizlərimin qarşısında baş əyirəm.

Sizin Bəhram.

Ünvanım: Darmstadt, Osann str. 54".[2]

Bunlardan başqa, Bəhram bəyin əmisi Əli bəy Hüseynzadəyə Darmştadtdan 15 oktyabr 1921-ci ildə,[3] 5 iyul 1922-ci ildə,[4] 24 may 1923-cü ildə,[5] Berlindən isə 5 avqust 1923-cü ildə[6] yazdığı məktublar da var. Onların hamısında Bəhram bəy maddi durumunun ağırlığından şikayətlənir, bəzilərində Əli bəyin ona göndərdiyi pullara görə minnətdarlıq edir və s. Bu məktublar Avropada oxuyan tələbələrimizin Cümhuriyyətin yıxılmasından sonra sovet hakimiyyəti dönəmindəki acınacaqlı durumunu, onların mənəvi sarsıntılarını əyani şəkildə göstərən qiymətli sənədlərdir.

***

2006-cı ilin 1 avqustunda Bəhram bəyin qızı *Rəna xanımla* onun mənzilində görüşərək söhbətləşdik. O, atası, anası və ümumən nəsilləri haqqında bizə bunları danışdı:

[1] Səidə, Məhəmməd(səlim) və Feyzavər Əli bəy Hüseynzadənin uşaqlarıdır.
[2] S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 1, iş 242, vv. 14-15a.
[3] Yenə orada, vv. 5-6.
[4] Yenə orada, vv. 3-4a.
[5] Yenə orada, vv. 8-9a.
[6] Yenə orada, vv. 10-11a.



Bəhram bəyin yeganə övladı Rəna (Rayana) Hüseynzadə. Darmştadt, 1930



Bəhram bəy Hüseynzadə yoldaşı Sara xanım Aşurbəyli ilə öz mənzillərində. 1950-ci illərin sonu

– Bəhram bəy 1901-ci ildə Şamaxıda anadan olub, çünki onun anası Mina xanım Şamaxıdandı. Onun ailəsi sonradan Salyan şəhərinə köçüb. Bəhram bəyin atası İsmayıl bəy Hüseynzadə (1868 – 1943) uzun müddət Salyanda rus dili müəllimi işləyib.

Bəhram təhsilini 1919-cu ildə Bakıda 1 real məktəbdə bitirib. Bundan sonra onu Cümhuriyyət hökuməti Almaniyaya ali təhsil almağa göndərib. O, 1927-ci ildə Darmştadt Texniki İnstitutunu bitirib, ixtisasca elektrik mühəndisidir. 1927-ci ildə Azərbaycana dönən Bəhram bəyi işləməyə Gəncəyə göndəriblər.

1935-ci ilədək o, burada Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda fəhlə fakültəsinin müdiri və mahud kombinatının baş mühəndisi işləyib.[1]

1935-ci ildə o, ailəsi ilə Bakıya köçüb və həbs olunanadək "Azərenerji" idarəsində çalışıb.

Bəhram bəy 1938-ci ildə 1 aprelə keçən gecə həbs olunub. Ona öncə ömürlük həbs cəzası kəsilib, sonra bu hökm ləğv edilib, 25 il iş kəsilərək Sibirə sürgünə göndərilib. Müharibə başlananda onu yenidən istintaq etmək üçün Bakıya qaytarıblar. Bir daha mühakimə edilərək yenə ölüm cəzası kəsilib. 1 ay ölüm kamerasında yatıb. Bir qədər sonra bu hökmü də ləğv edərək ona 20 il iş veriblər. Müharibədən sonra bir müddət Kuybışevdə yatıb. Orada tikilən elektrik stansiyasında işləyib. Sonra Krasnoyarsk diyarına göndərilib, orada da elektrik stansiyası tikintisində çalışıb.

[1] Azər Turan B.b.Hüseynzadənin Gəncədə Toxuculuq Kombinatında elektrik təsərrüfatının, sonralar isə Azərbaycan Xalq Torpaq Komissarlığında "Azərkəndelektrik" bölməsinin rəisi vəzifələrində çalışdığını yazır. (Bax: *Turan A.* Əli bəy Hüseynzadə, s. 470).



Bəhram bəy
Sara xanımla.
Qobustan,
1960-cı illər

Bəhram bəy cəzaçəkmə yerindən 1954-cü ildə qayıdıb və son gününədək Xalq Təsərrüfatı Şurasında mühəndis işləyib.

Atam 1928-ci ildə evlənib. O, hələ Almaniyada sevdiyi Luiza Held Bernarı (1903-1968) valideynlərindən icazə aldıqdan sonra Gəncəyə çağırıb və orada ailə qurublar. Yoldaşı Luiza tacir ailəsindəndi. 13 yanvar 1929-cu ildə onların yeganə övladı – qohum-qardaşların "Rəna" adlandırdığı Rayana, yəni mən anadan olmuşam. Luiza Almaniya vətəndaşlığında qalmışdı. Görünür ki, Bəhram bəy özünün yaxın gələcəkdəki faciələrini artıq öncədən ciddi şəkildə hiss edib və həyat yoldaşını da bu faciələrə ortaq etmək istəməyib. Bu üzdən onlar rəsmən boşanıblar və Luiza Almaniyaya dönüb. O, qızı Rənanı da özüylə aparmaq istəyib; bu, öz taleyindən narahat Bəhram bəyin də ürəyincə olub, buna görə ata-ana birlikdə şəxsən SSRİ Ali Sovetinin sədri Mixail Kalininin qəbulunda da olublar. Ancaq sovet qanunlarına görə, Sovet İttifaqında sovet vətəndaşından doğulan bütün uşaqlar sovet vətəndaşı olduğuna görə onların xaricə aparılması yasaqdı. Beləliklə, 8 yaşlı qız atasının yanında qalıb. Bəhram bəy Luizanı 13 yanvar 1938-ci ildə Moskvadan yola salıb və ər-arvad bir daha görüşməyiblər.[1]

Bəhram bəy 1954-cü ildə sürgündən qayıtdıqdan bir müddət sonra Bakıda ikinci dəfə görkəmli tarixçi-alim, professor Sara xanımı Aşurbəyli ilə ailə qurub, birlikdə 10 il yaşayıblar.

Atam 11 may 1957-ci ildə bəraət alıb.[2]

O, 1965-ci ilin oktyabrında dünyasını dəyişib.

Mən 1938-ci ilin aprelindən ata-anasız qalmışam. Məni nənəm Mina xanım və əmim Şəmsəddin bəy böyüdüblər.

[1] Azər Turan yazır ki, Luiza Almaniyaya getdikdən sonra Darmştadt şəhərində dükan açıb və onu "Luiza Hüseynzadə" adlandırıb. (Bax: *Turan A.* Əli bəy Hüseynzadə, s. 470).

[2] Rəna xanımın bu haqda bizə təqdim etdiyi, SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasından verilmiş 24.V.1957-ci il tarixli 364941/39 saylı rəsmi arayışın surəti özəl arxivimizdədir.



Luiza Hüseynzadə
ömrünün son illərində



Bəhram bəyin qızı Rəna xanım

* * *

Hörmətli Rəna xanımın söylədiklərinə sənədlərdən dəqiqləşdirdiyimiz bəzi faktları da əlavə edirik.

4 oktyabr 1941-ci ildə bütün Hüseynzadələri [İsmayıl bəy (1868), onun yoldaşı Mina xanım (1872), oğlu Şəmsəddin bəy, onun yoldaşı Anna Yakovlevna (1908), onların iki qızı Eleanora (1933) və Leyla (1937), İsmayıl bəyin oğlu Firidun bəy, onun yoldaşı Aleksandra Konstantinovna, kiçik oğlu, 2 yaşlı Atilla və bir də Bəhram bəyin qızı Rəna xanım (1929)] Şimali Qazaxıstanın Cangi Tope stansiyasının Georgev rayonundakı Balacalı qızıl mədəninə sürgün ediblər.[1] Onlar 1945-ci ilədək orada yaşayıblar.

1945-ci ildə hamısı Çimkəndə köçərək orada qalsa da Rəna 1948-ci ildə Bakıya, bibisi Böyükxanımın yanına gəlib. 1949-cu ildə o, Həsən Həmzəyevlə ailə qurub. 1967-ci ildə Bakıda Rus Dili İnstitutunu bitirib və 42 il (1996-cı ilədək) Bakıdakı 7 saylı məktəbdə rus dili müəllimi işləyib.

Bəhramın anası, Bakıda Üzeyir Hacıbəyov küçəsi 5-ci evdə yaşayan Hüseynzadə Mina Məhəmməd qızı SSRİ Nazirlər Sovetinin sədri G.M.Malenkova 30 sentyabr 1954-cü ildə üçüncü dəfə ərizə göndərərək 1938-ci ildən həbsdə olan oğlunu buraxdırmağı ondan xahiş edib.Yazıb ki, oğlum indi İrkutsk vilayətinin Çunsk rayonundadır.[2] Bəhram bəyin azad edilməsində bu məktubun həlledici rolu olduğunu düşünürük.

[1] Bu haqda Azərb. SSR DİN-dən verilmiş 17.XI.1989-cu il tarixli 16/23-3102 saylı arayışın surəti özəl arxivimizdədir. Burada göstərilib ki, onların inzibati qaydada sürgünə göndərilməsi haqqında 1941-ci ildəki qərar 17 noyabr 1989-cu ildə (!) ləğv edilib.

[2] Məktubun surəti özəl arxivimizdədir.

Hüseynzadə Əlihüseyn Ağahüseyn oğlu

(1898, Salyan ş. – ?)



Əlihüseyn Hüseynzadə

Zaqafqaziya Şiə Ruhani İdarəsindən 17 may 1911-ci ildə Tiflis şəhərində Bakı valiliyi Cavad qəzası Salyan məntəqəsi sakini Əlihüseyn Ağahüseyn oğluna verilmiş 1266 saylı doğum şəhadətnaməsində göstərilib ki, o, atası Ağahüseyn Hacı Hüseyn oğlunun qanuni arvadı Püstə xanım Məşədi Mehdi qızından 1898-ci ildə doğulub. Doğumun ayı və günü bilinmir.[1]

Ə.Hüseynzadə[2] orta təhsilini Lənkəranda alıb. 23 may 1919-cu ildə Lənkəran şəhərində aldığı kamal attestatında göstərilib ki, o, 14 avqust 1912-ci ildə Lənkəran kişi gimnaziyasına daxil olaraq 18 may 1919-cu ilədək orada əla oxlaqla oxuyaraq səkkizsiniflik tam kursu bitirib və aşağıdakı bilikləri qazanıb:

Şəriət –	əla (5)
Rus dili –	yaxşı (4)
Rus ədəbiyyatı –	yaxşı (4)
Latın dili –	yaxşı (4)
Riyaziyyat –	yaxşı (4)
Fizika –	yaxşı (4)
Riyazi coğrafiya –	yaxşı (4)
Tarix –	yaxşı (4)
Coğrafiya –	yaxşı (4)
Fransız dili –	yaxşı (4)
Alman dili –	yaxşı (4)
Fəlsəfi propedevtika –	yaxşı (4)
Qanunşünaslıq –	yaxşı (4)
Türk dili –	əla (5).[3]

1919-cu ildə xaricə tələbələr göndərmək məsələsi gündəmə gələndə Salyan şəhərinin sakini tələbə Əlihüseyn Hüseynov 21 avqustda xalq maarif nazirinə ərizə yazaraq ali təhsilini xaricdə – Türkiyədə tibb fakültəsində bitirmək istədiyini, ancaq çox ağır maddi durumda olduğunu, əmilərinin və bibilərinin, babasının vəsiyyətinə əməl etməyərək, onu babasından və atasından qalmış mirasdan məhrum etdiklərini bildirib və onu xaricə göndərilən Azərbaycan Cümhuriyyətinin müsəlman tələbələri sırasına salmağı xahiş edib.[4]

Cavad qəzasının qaimməqamı (rəisi) onun gerçəkdən kasıb olduğunu təsdiqləyən 25 sentyabr 1919-cu il tarixli, 22 saylı belə vəsiqə verib ki, Əlihüseyn Hüseynov Salyan şəhərinin sakinidir, atasından ona yaşayış üçün heç bir miras qalmayıb, anası dul qadındır və bütünlüklə Əlihüseynin himayəsindədir.[5]

Ə.Hüseynov xalq maarif nazirinə 24 sentyabr 1919-cu ildə ərizə yazaraq hədsiz maddi çətinlik çəkdiyinə görə xahiş edib ki, Salyan edadisində (real məktəbində) ona riyaziyyat müəllimi yeri verilsin.[6]

[1] ARDA, fond 51, siyahı 3, iş 73, vərəq 6.
[2] Soyadı bir çox qaynaqlarda "Hüseynov" kimi də gedib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.
[3] ARDA, fond 51, siyahı 3, iş 73, vv. 2, 5.
[4] Yenə orada, vərəq 1.
[5] Yenə orada, vərəq 7.
[6] Yenə orada, iş 379, vərəq 1.

Ərizənin üstündə nazir Nəsib bəy Yusifbəyli ertəsi gün – 25 sentyabr 1919-cu il tarixli dərkənarında Salyan real məktəbi direktoruna onu işə götürməyi tapşırıb.

Əlihüseyn Hüseynov 28 sentyabr 1919-cu ildə Bakı Şəhər İdarəsi üzvünə də ərizə yazaraq hədsiz çətin maddi durumunu nəzərə almaqla ona məktəblərin birində müəllim yeri verilməsini xahiş edib.[1]

Bakı Şəhər İdarəsinin üzvü 7 oktyabr 1919-cu ildə Ə.Hüseynova 1606 saylı məktub yazaraq Persidski küçədə,[2] Mikayılovun evində yerləşən 9-cu şəhər kişi Türk məktəbində müəllim vəzifəsini müvəqqəti əvəz etməsini xahiş edib.[3]



Salyan real məktəbinin 377 saylı məktubu

Həmin idarə üzvü 7 oktyabrda 9-cu kişi Türk məktəbinin müdirinə də 1607 saylı məktub göndərərək Əlihüseyn Hüseynovu müəllim vəzifəsini müvəqqəti əvəz etmək üçün onun məktəbinə göndərdiyini xəbər verib.[4]

9-cu kişi Türk məktəbinin müdiri Rəsul bəy Tahirov 7 oktyabr 1919-cu ildə Bakı Şəhər İdarəsinin məktəblər şöbəsinə 32 saylı məktub göndərərək Əlihüseyn Hüseynovun bugündən sinif müəllimi vəzifəsinə başladığını bildirib.[5]

Salyan real məktəbinin direktor əvəzi 1919-cu ilin oktyabrında Maarif Nəzarətinin orta məktəblər bölməsinə məktub yazaraq bildirib ki, məktəbdə riyaziyyat müəllimi var, ancaq paralel yuxarı hazırlıq sinfində boş müəllim yeri var və tələbə Əlihüseyn Hüseynovu oraya təyin etməyinizi xahiş edirəm.[6]

Həmin ərizənin üstündə nazir Nəsib bəyYusifbəyli 21 oktyabr 1919-cu ildə dərkənar qoyaraq Ə.Hüseynovu həmin yerə təyin etməyi tapşırıb.


Maraqlıdır ki, Əlihüseyn Hüseynov Salyan real məktəbinin paralel yuxarı hazırlıq sinfinə yeni nazir Rəşid xan Qaplanovun 25 oktyabr 1919-cu il tarixli 475 saylı əmri ilə müəllim təyin edilib.[7]

Ə.Hüseynov tələbələrin xaricə göndərilməsi üzrə komissiyaya 18 oktyabr 1910-cu ildə yazdığı ərizəsində bildirib ki, mən maddi imkansız olduğuma görə təhsilimi xaricdə davam etdirə bilməyəcəyəm. Bunu aşağıda imza edənlər təsdiqləyir.

Ərizənin aşağısında Baxış bəy Rüstəmbəyov (Parlaman üzvü), Salyan peşə məktəbinin direktoru (imzası oxunmur), Cavad qəzasının qaimməqamı (rəisi) (imzası oxunmur), Bakı I real məktəbinin müəllimi Ağaəli Qasımov və Parlaman üzvü Hacı Mirzə Səlim Axundzadə imza ediblər. H.M.S.Axundzadə ərəb əlifbasında belə bir qeyd yazıb:

"Mən – Parlaman üzvü Hacı Mirzə Səlim Axundzadə ərz edirəm ki, həqiqətən Əlihüseyn Hüseynov maddi cəhətdən əcnəbi məmləkətlərə oxumağa müavinət üçün möhtacdır".[8]

[1] ARDA, fond 2802, siyahı 1, iş 816, vərəq 1.
[2] İndiki Murtuza Muxtarov küçəsində.
[3] ARDA, fond 2802, siyahı 1, iş 816, vərəq 3.
[4] Yenə orada, vərəq 4.
[5] Yenə orada, vərəq 5.
[6] Yenə orada, fond 51, siyahı 3, iş 379, vərəq 2.
[7] Yenə orada, vərəq 3.
[8] Yenə orada.



Salyanlı dostlar bir arada. *Soldan sağa:* Ağahüseyn Hüseynov, Əlihüseyn Hüseynzadə, Bəhram bəy Hüseynzadə, Zeynalabdin bəy Hüseynbəyov. Bakı, təx. 1919-cu il

Hacı Mirzə Səlim Lənkəranlı olduğu və Ə.Hüseynovu şəxsən tanıdığına görə bu sənədə imza atıb.

8 noyabr 1919-cu ildə Ə.Hüseynov xalq maarif nazirinə yazdığı ərizəsində Berlin Universitetinin təbiiyyat fakültəsində oxumaq istədiyini bildirib.[1] Ancaq müsəlman tələbələrin xaricə göndərilməsi üzrə Büroya 20 noyabr 1919-cu ildə yazdığı ərizəsində bildirib ki, mən ərizəmdə tibb fakültəsinə girməyi xahiş etsəm də, komissiya məni təbiiyyat fakültəsinə yazıb. Buna görə də Sizdən xahiş edirəm ki, yer boşaldıqda ilk imkanda məni xaricə tibb fakültəsinə göndərəsiniz.[2]


9-cu kişi Türk məktəbinin Türk dili müəlliminin müavini Əlihüseyn Hüseynov 8 dekabr 1919-cu ildə Bakı Şəhər İdarəsinin məktəblər şöbəsinə belə bir ərizə yazıb:

"Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən başqa müsəlman tələbə və abituriyentləri içərisində təhsilimi başa vurmaqdan ötrü xaricə göndərilirəm, buna görə də xahiş etməklə şərəflənirəm ki, mənə bu ayın 9-dan 15-dək məzuniyyət verəsiniz, çünki bizim xaricə getməyimiz haqqında məsələ ayın 15-də qəti şəkildə aydınlaşacaq, o vaxta qədər aydınlaşmasa məni dekabrın 9-dan işdən çıxmış saymağınızı xahiş edirəm".[3]

31 dekabr 1919-cu ildə Ə.Hüseynov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[4] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında dilkağızları verib.[5]

Əlihüseyn Ağahüseyn oğlu Hüseynova 14 yanvar 1920-ci ildə Azərbaycan Cümhuriyyəti Hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 557 saylı vəsiqə verilib.[6]

[1] ARDA, fond 51, siyahı 3, iş 379 vərəq 4.
[2] Yenə orada, iş 73, vərəq 8.
[3] Yenə orada, fond 2802, siyahı 1, iş 816, vərəq 8.
[4] Yenə orada, fond 51, siyahı 3, iş 73, vərəq 9.
[5] Yenə orada, vərəq 10.
[6] Yenə orada, vərəq 11.



Əlihüseyn Hüseynzadənin Əli bəy Hüseynzadəyə məktubu. 1927

* * *

Əlihüseyn Hüseynzadənin sonrakı taleyi haqqında yeganə bəlli sənəd aşağıdadır.

Dostumuz, İzmir Ege Universitetinin professoru Yavuz Akpınar 20 may 2010-cu ildə bizə belə bir məktub göndərib:

"Muhterem Edalet Bey, selamlar.

Yıl sonu geliyor, bir hafta sonra Size yazmak için daha fazla zamanım olacak.

Hüseyinzade Ali Bey'in arşivini tasnife devam ediyoruz. Oradan her gün yeni belgeler çıkıyor.

Almanya'da tıp tahsili yapmış Salyanlı Ali Hüseyin Hüseyinzade adlı birisinin 1927'de Hüseyinzade Ali (Turan) Bey'e yazdığı bir mektup gördüm. Azerbaycan'a dönemediği için Türkiye'ye gelmek istiyormuş. Yardım istemiş.

Sizin Almanya'da tahsil yapan gençlere ilgi duyduğunuzu bildiğim için mektubun suretini de ekte size gönderiyorum. Belki de bildiğiniz birisinin mektubudur.

Sağlık ve esenlik dileklerimle. Saygılarımla.

Yavuz Akpınar".

Yavuz bəyin bizə göndərdiyi Əlihüseyn Hüseynzadənin Əli bəy Hüseynzadəyə məktubunu ərəb əlifbasından çevirərək aşağıda təqdim edirik:

"Hamburq, 22.09.1927.

Pək möhtərəm professor Hüseynzadə Əli bəyəfəndi! Bən Azərbaycanın Bakı civarında Salyan şəhərində 1898 sənəsində təvəllüd etmişəm. 1920 sənəsində Avropaya gəldim və tibb məsləkini intixab etdim. Təhsilimi Berlin, Rostok və Hamburq tibb fakültələrində ikmal etdim və istajya müddətimi də Hamburqda yapdım. Müddətin ikmalından dolayı Azərbaycana

övdət etmək[1] *icab ediyordu. Fəqət Berlindəki Sovyet hökuməti səfiri bəni bolşevik əleyhdarı tələqqi edərək övdət üçün pasaport əta etmiyor. Bunun üzərinə Türkiyəyə gedə bilmək üçün Türkiyə Cümhuriyyəti Hamburq başşəhbəndərliyinə*[2] *müraciət etdim. Başşəhbəndərlik mərzuatımı və övraqımı Türk Cümhuriyyəti Xariciyyə Vəkalətinə*[3] *göndərmişdir. Bu, müraciətim üzərinə Xariciyyə Vəkalətindən zati-alinizdən bənim haqqımda soracaqlardır. Türkiyə pasaportu əxz edib Türkiyə vətəninə övdət etmək və orada çalışmaq umudundayam. Bu xüsusdakı müraicətlərində bənim haqqımda lazım gələn insaniyyət və yardımı icra buyurmanızı istirham*[4] *elərəm. Əks təqdirdə, yabancı bir məmləkətdə səfil və pərişan bir halda qalacağam. Ən son umud və istinadgahım zati-aliləridir. Bu nəcib əməlin xüsus üçün vətəndaşınıza lazım gələn vəzifəyi icradan çəkinməyəcəyinizə umud edər, nəticəyə müntəzir bulunuyorum.*

Şimdidən çok-çok təşəkkürlər edər, hörmətlə əllərinizdən öpər, səhhət və afiyətinizi dua edərəm, möhtərəm əfəndim!

Kəmali-ehtiramatla, doktor Əlihüseyn Hüseynzadə".

Bu mətnin altında Əli bəy Hüseynzadə öz xətti ilə yazıb: *"İstanbul Səhiyyə Müdiriyyətindən Səhiyyə və Müavinəti-İctimaiyyə Vəkalətinə. 22 mart 1928. 20028/951.*

Addaşım salyanlı doktor Hüseynzadənin Əlinin[5] *işi".*

Təəssüf ki, Əlihüseyn Hüseynzadənin bundan sonrakı taleyi bəlli olmadı.

Əli bəy Hüseynzadənin görkəmli tədqiqatçısı, şəxsiyyətinə və qələminə böyük hörmət bəslədiyimiz Azər Turan "Əli bəy Hüseynzadə. Həyatı, mübarizəsi, yaradıcılığı və şəcərəsi" adlı dəyərli kitabında *"Doktor Əlihüseyn Hüseynzadə"* adlı bir bölüm verib.[6] Burada müəllif Əlihüseyn Hüseynzadə haqqında indiyədək bəlli olmayan bir çox maraqlı bilgi və bəlgələri ortaya çıxarıb. O göstərib ki, Əlihüseyn Hüseynzadə Əli bəy Hüseynzadənin baba tərəfdən əmisi oğludur.[7]

Təəssüf ki, bu bölümdə bəzi yanlışlıqlara da yol verilib. Məsələn, Azər bəy kitabın 480-ci səhifəsində nadir bir foto yerləşdirib və oradakıların Z.Hüseynbəyov, B.Hüseynzadə, Ə.Hüseynzadə və Ə.Xudaverdiyev olduqlarını göstərib. Ancaq fotodakı soldan birinci şəxs Əlibala Xudaverdiyev deyil, Əlihüseyn Hüseynzadənin yaxın qohumu Ağahüseyn Hüseynovdur (bunu Ağahüseynin bizdəki başqa fotoları da təsdiqləyir). Daha sonra müəllif yazır: *"Hamburqdan İstanbula – Əli bəy Hüseynzadəyə yazdığı məktub Əlihüseyn Hüseynzadənin dünyadakı yeganə yadigarıdır"*[8]. İndiyədək oxucuların məzmununu təqdim etdiyimiz sənədlər əyani şəkildə göstərir ki, bu məktub heç də yeganə yadigar deyil.

Təəssüf ki, məktubun oxunuşunda da bir sıra yanlışlıqlarla üzləşirik. Onlardan biri üzərində hökmən dayanmağa ehtiyac var. Məktubun sonunda Əli bəy Hüseynzadənin öz əli ilə yazdığı "Addaşım salyanlı doktor Hüseynzadə(nin) Əlinin işi" qeydindəki *"Əlinin işi"* sözlərini hörmətli Azər bəy *"Əlinəzər əmi"* kimi oxuyub və bu oxunuşa söykənərək yanlış nəticələr çıxarıb...[9]

Ərizəsinə münasibətin necə olduğunu bilməsək də Əlühüseyn Hüseynzadənin Türkiyəyə gəldiyini güman edirik, çünki Əli bəy Hüseynzadə kimi humanist bir şəxsin öz yerlisinin dadına yetişməyəcəyini düşünmək çox çətindir. Hər halda, bu məsələ öz araşdırıcısını gözləyir.


[1] Qayıtmaq.
[2] Səfirliyinə.
[3] Xarici İşlər Nazirliyinə.
[4] Xahiş.
[5] Göründüyü kimi, "Hüseynzadə Əlinin" olmalı idi.
[6] *Turan A.* Əli bəy Hüseynzadə, ss. 480-488.
[7] Yenə orada, s. 480.
[8] Yenə orada, s. 481.
[9] Yenə orada, s. 483.

Hüseynzadə Salman Hüseyn oğlu

(04.01.1901, İsfahan – ?, Avropa)

"Qafqazdakı İran Yaranal[1] *Konsulxanası"nın 1912-ci il avqust ayının 6-da Tiflis şəhərində verdiyi 165 saylı təvəllüd şəhanətnaməsində oxuyuruq: "Verilir bu şəhadətnamə İran təbəəsi, İsfahan əhlindən Salman Hüseynzadəyə*[2] *ol xüsusda ki, Konsulxanada olan əhvala görə, o – Salman təvəllüd edibdir atası Hüseynin mənkuheyi-şəriyyəsi Məsumə Qasım qızından 1901-ci ildə yanvarın 4-də. Konsulxana bunu imza və padşahlıq möhürü ilə təsdiq edir.*

Yaranal konsul yerinə vis-konsul (imza)".[3]



Salman Hüseynzadənin doğum şəhadətnaməsi

5 oktyabr 1918-ci ildə Tiflisdə verilmiş 232 saylı kamal attestatında oxuyuruq ki, İ.M.Maçaidze gimnaziyası bu attestatı müsəlman, 4 yanvar 1901-ci ildə doğulmuş vətəndaş Salman Hüseynzadəyə ona görə verib ki, o, 22 sentyabr 1917-ci ildə Tiflis İ.M.Maçaidze gimnaziyasına girərək orada 1 sentyabr 1918-ci ildədək əla əxlaqla oxuyub və səkkizsiniflik tam kursu bitirib, bu zaman aşağıdakı bilikləri qazanıb:

Şəriət –	
Gürcü dili –	
Rus dili və ədəbiyyatı –	kafi 3 (üç)
Fəlsəfi propedevtika –	kafi 3 (üç)
Latın dili –	yaxşı 4 (dörd)
Alman dili –	yaxşı 4 (dörd)
Fransız dili –	kafi 3 (üç)
Riyaziyyat, o sıradan:	
Hesab –	yaxşı 4 (dörd)
Cəbr –	yaxşı 4 (dörd)
Həndəsə –	yaxşı 4 (dörd)
Triqonometriya –	yaxşı 4 (dörd)
Fizika –	yaxşı 4 (dörd)
Riyazi coğrafiya –	yaxşı 4 (dörd)
Gürcüstan tarixi –	
Tarix –	yaxşı 4 (dörd)

[1] "General" sözünün təhrif edilmiş şəklidir.
[2] Soyadı bir çox qaynaqlarda "Hüseynov" kimi də gedib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.
[3] ARDA, fond 51, siyahı 3, iş 74, vərəq 4.



Salman Hüseynzadə

Coğrafiya –	yaxşı 4 (dörd)
Təbii tarix –	yaxşı 4 (dörd)
Qanunşünaslıq –	yaxşı 4 (dörd)
Hüsnxət –	əla 5 (beş).[1]

Tiflis şəhərində yaşayan S.Hüseynzadə 22 noyabr 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizədə qeyd edib ki, Xalq Maarif Nəzarətinin 20 oktyabr 1919-cu il tarixli sərəncamına uyğun olaraq və Nəzarətə göndərdiyim sənədlərə bunları əlavə edirəm...

Saksoniyada, Drezdenə yaxın olan Frayberq şəhərində Dağ Akademiyasında oxumaq istəyirəm.[2]

O, 22 noyabr 1919-cu ildə Tiflisdən AC maarif nazirinə yazdığı son ərizədə göstərib ki, Azərbaycan Cümhuriyyəti Xalq Maarif Nəzarətinin sərəncamını nəzərə alaraq bildirməklə şərəflənirəm ki, mən Azərbaycan Cümhuriyyəti təbəəliyini təntənə ilə qəbul edirəm və onun sədaqətli təbəəsi olmağa and içirəm.[3]

29 dekabr 1919-cu ildə Hüseynov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi[4] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı[5] haqqında dilkağızları verib.

Salman Hüseynzadəyə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 523 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[6]

Hüseynzadə öncə Berlində, sonra Firtsburqda tibb fakültəsində oxuyub. Təhsilini bitirdikdən sonra sovet Azərbaycanına qayıtmayıb, Almaniyada qalıb.

* * *

Onun Almaniyadakı taleyi haqqında yeganə bilgi İsgəndər bəy Sultanovun 4 noyabr 1935-ci ildə təsdiqlənmiş ittihamnaməsi və onun istintaq işindəki bəzi protokollardır. 4 noyabr ittihamnaməsində Almaniyada fəaliyyət göstən azərbaycanlı siyasi mühacirlər içərisində Salman Hüseynzadənin də adı çəkilir. İ.b.Sultanova qarşı irəli sürülən ittihamlardan:

"..3) 1932-ci ilin sonunda Almaniyada faşistlərin hakimiyyətə gəlişinin lap ərəfəsində onu[7] Salman Hüseynzadə Berlində əks-inqilabi terrorçu "Kiçikqafqazlılar" təşkilatına cəlb edib; təşkilat öz qarşısına sovet hakimiyyəti ilə lap terrora qədər bütün vasitələrlə fəal mübarizə aparmağı məqsəd qoymuşdu. O, təşkilatın təşkilati yığıncağında iştirak edib və 1933-cü ildə Almaniyadan SSRİ-yə gələn ərəfədə bu təşkilatın rəhbəri Salman Hüseynzadə ilə söhbət edib. O, Sultanova SSRİ-də sovet hakimiyyəti ilə mübarizəni davam etdirməyin zəruriliyini söyləyib. Bu məsələ üzrə ifadələrində Sultanov bildirib ki, Salman Hüseynzadənin göstərişlərinə o heç nə deməyib. Buna qədər o, Azərbaycan Milli Komitəsinin sədri və üzvləri Hilal Münşiyevin və Şamil Səfərzadənin tələbləri üzrə "Kiçikqafqazlılar" təşkilatından çıxması haqqında dilkağızı verib və özünün "Milli Komitə" təşkilatına mənsubluğu haqqında dilkağızı verib".

[1] ARDA, fond 51, siyahı 3, iş 74, vərəq 3.
[2] Yenə orada, vərəq 2.
[3] Yenə orada, vərəq 6.
[4] Yenə orada, vərəq 7.
[5] Yenə orada, vərəq 8.
[6] Yenə orada, vərəq 9.
[7] İsgəndər bəy Sultanovu.

Müstəntiqin sualına Sultanov belə cavab verib:

"1932-ci ilin sonunda – Hitlerin hakimiyyətə gəlməsi ərəfəsində öncə Müsavat, sonra sovet hökumətlərinin keçmiş tələbəsi və təqaüdçüsü Salman Hüseynzadə məni o zaman yaranmış əks-inqilabi "Kiçikqafqazlılar" təşkilatına cəlb edib. Bu təşkilat Salman Hüseynzadənin, Liparit Vartapetov qardaşlarının (2-cinin adını unutmuşam) və Ter-Minasyanın təşəbbüsü ilə yaradılmışdı. Həmin 1932-ci ilin sonunda mən "Kiçikqafqazlılar"ın təşkilati yığıncağında iştirak etmişəm. Bu yığıncağa məndən və təşkilatı yaratmağın təşəbbüsçülərindən başqa bunlar da qatılmışdılar: Kobaxidze Datiko, tanımadığım ukraynalı, Anton və Gogi adlı 2 gənc gürcü; Salman dedi ki, onlar 1930-cu ildə SSRİ sərhədini gizli keçiblər. Bu təşkilati yığıncaqda bildirildi ki, "Kiçikqafqazlılar" təşkilatı sovet hakimiyyəti ilə lap terroradək bütün vasitələrlə fəal mübarizə aparmaq məqsədilə gürcü, türk və erməni gənclərini birləşdirmək üçün yaradılır. Mən Salmanın "Kiçikqafqazlılar" təşkilatının tərkibinə daxil olmaq təklifi ilə başlıca olaraq Xosrov bəy Sultanovun yuxarıda dediyim göstərişlərini yerinə yetirməkdən ötrü razılaşdım.

1933-cü ilin yanvar-fevralında Milli Komitənin sədri [Hilal] Münşiyev (Münşi) və Milli Komitənin üzvü Şamil Səfərzadə "Kiçikqafqazlılar" təşkilatına daxil olduğumu bilərək mənzilimə gəldilər və dedilər ki, Milli Komitənin başçılıq etdiyi təşkilatın üzvü kimi "Kiçikqafqazlılar" təşkilatına girməkdə yanlış hərəkət etmisən və tələb etdilər ki, təcili şəkildə həmin təşkilatla əlaqələri kəsim. Bildirdim ki, "Kiçikqafqazlılar"ın yığıncağına yalnız bir dəfə getmişəm və bu təşkilatla tanış olmaq istəyirdim. Bununla bağlı olaraq Münşiyevə "Kiçikqafqazlılar" təşkilatı ilə qurtarmağım və Milli Komitənin başçılıq etdiyi təşkilata mənsubluğumu təsdiqləyən dilkağızı verdim.

Sual: İstintaqa bəllidir ki, SSRİ-yə gəlməzdən öncə siz Salman Hüseynzadə ilə görüşmüsünüz. Bakıya gəlməzdən öncə Salmandan hansı göstərişləri almısınız?


Cavab: Boynuma alıram ki, Berlindən gəlməyimə bir neçə gün qalmış Salman Hüseynzadə Leonardştrasse 2-dəki mənzilimə gəlib. Salman mənə bildirdi ki, sən möhkəm Türk millətçisi, sovet hakimiyyətinin fəal əleyhdarı kimi məşhursan və SSRİ-yə çatınca öz əqidə möhkəmliyini tam və sonadək qoruyub saxlamalı, mübarizəni davam etdirməlisən... Mən Salmana heç bir cavab vermədim...

"Kiçikqafqazlılar" təşkilatının yaradılmasının təşəbbüsçülərindən biri olan Salman Hüseynzadə Tiflis şəhərinin sakinidir. O, mənə deyib ki, Tiflisdə 1918-1919-cu illərdə kommersiya məktəbini bitirib, 1920-ci ildə Bakıya göndərilib və Müsavat hökuməti onu Almaniyaya oxumağa yollayıb. Biz o vaxt tanış olmuşuq. Tiflisdə onun anası yaşayır. Salman ünvanlarını mənə deyib *(Botaniçeski küçə, 22-ci ev)*. Bundan başqa, Tiflisdə onun qardaşları da var. Salmanın dediyinə görə, qardaşların biri artistdir, o biri isə guya Tiflis "QPU"-sunda işləyir. Tiflisdə onun bacıları da yaşayır. "Kiçikqafqazlılar" təşkilatının SSRİ ərazisindəki başqa üzvlərinin əlaqələrini bilmirəm".[1]

[1] Təəssüf ki, MTN Arxivində çalışarkən İ.b.Sultanovun cinayət işinin nömrəsini qeyd etməyi unutmuşuq, ancaq bu qeydlər həmin işdəki 56 və 57-ci vərəqlərdən götürülüb.

Xiromanov Zəkəriyyə Əbdürrəşid oğlu

(22.11.1899, Kuma k./ Qazıqumuq dairəsi/ Dağıstan – ?)



Zəkəriyyə Xiromanovun doğum şəhadətnaməsinin surəti

Rusiyada 1917-ci il Fevral inqilabından az sonra – 5 may 1917-ci ildə Quzey Qafqaz və Dağıstanın Birləşmiş Dağlıları Birliyi Mərkəzi Komitəsi (BDB MK) yaradıldı (1917-ci ilin noyabrında bu orqan Qafqaz dağlılarının Müvəqqəti hökuməti elan edildi). Birliyin başında qumuq Rəşid xan Qaplanov dururdu. Birləşmiş Dağlılar Birliyinin Konstitusiyası haqqındakı məruzəsində Rəşid xan bu Birliyin mahiyyətini açırdı: "Bütün dəyərləri yenidən dəyərləndirməyin vaxtı gəlib çatıb. Aydındır ki, indi dövlət quruculuğu səviyyəsinə qalxmağa gücü çatanların hamısı təcili şəkildə təşkilatlanmalıdır...".

R.x.Qaplanovun Quzey Qafqaz və Dağıstanın BDB MK-sı adından Zaqafqaziya Mərkəzi Müsəlman Komitəsinə göndərdiyi teleqramda deyilirdi: "Qafqazın Birləşmiş Dağlılar Birliyinin Mərkəzi Komitəsi dağlılar birliyinin muxtariyyətini bəyan edib və özünü bu birliyin müvəqqəti hökuməti elan edib... Dağlılar hökuməti möhkəm umudvardır ki, muxtariyyətin bəyan edilməsi... qardaş Azərbaycanla dostluq əlaqələrinin bundan sonra da möhkəmlənməsinə, eləcə də Qafqaz müsəlman birliyinin bütün üzvlərinin ümumi işinin təntənəsinə yardım edəcəkdir...".

Qumuq xanı bunu da bildirirdi: "Din, hüquq, iqtisadi məişət şəraiti kimi çox güclü birləşdirici amillərimiz var. Biz yalnız Tersk əyaləti ilə məhdudlaşmayaraq müttəfiqlər axtarmağa başladıq və bunu etmək asan oldu. Biz Bakıya yollandıq. Burada anlamaq çətin deyil ki, Zaqafqaziya müsəlmanları bizimlə eyni düşüncədədirlər. Birliyimiz haqqında düşüncəmiz beləcə qəti möhkəmləndi...".[1]

Rəşid xan Tersk hərbi hökumətinin, Quzey Qafqaz və Dağıstanın BDB MK-sının, Tersk-Dağıstan diyarı şəhərləri birliyinin, eserlərin və birləşmiş xalqlar nümayəndələrinin ortaq orqanı olan Quzey Qafqazda yaradılmış müvəqqəti Tersk-Dağıstan hökumətinin baş idarəetmə qurumuna (nazirliyinə) rəhbərlik edirdi. 1917-ci ilin dekabrında BDB MK-sı Dağlılar muxtariyyətini elan etdi. 1-2 (14-15) dekabrda BDB MK-sı Dağlılar Hökumətinə çevrildi, R.x.Qaplanov da onun tərkibinə daxil oldu. 2 (15) dekabrda Hökumətin sədri və BDB MK-sının başçısı Ə.Çermoyev istefa verdi. 3 (16) dekabrda Dağlılar Hökumətinin başçısı Rəşid xan Qaplanov seçildi. "Bu da əlamətdardır ki, Dağlılar hökumətinin nümayəndəsi R.x.Qaplanov Azərbaycan hökumətində iki dəfə nazir vəzifəsi tutub. Birinci dəfə o, 1919-cu ilin aprelində maarif

[1] Çıxarışlar buradandır: *Атаева С.* Азербайджан и народы Северного Кавказа, ss. 318, 331.

və məzhəblər naziri, ikinci dəfə isə - həmin ilin dekabrında ticarət, sənaye və ərzaq naziri olub".[1]



Zəkəriyyə Xiromanov

R.x.Qaplanov Azərbaycanla Quzey Qafqaz xalqlarının birbirinə daha da yaxınlaşmasını ən çox arzulayan siyasi xadimlərdəndi. Azərbaycan - Quzey Qafqaz əlaqələri tarixini Azərbaycanda daha çox araşdıran tarix elmləri doktoru Sevinc Əliyeva yazır ki, Dağıstan və Azərbaycan Cümhuriyyətinin birləşməsi planı müzakirə edilərkən Dağlılar hökumətinin üzvü R.Qaplanov öz müsbət rəyini belə bildirdi: «Cümhuriyyətin[2] bütün əhalisinin əhval-ruhiyyəsi, şübhəsiz, Azərbaycanla birləşməyin tərəfindədir...».[3]

Görkəmli dövlət adamı Rəşid xan Azərbaycanda maarif naziri işləyərkən Quzey Qafqaz - Azərbaycan əlaqələrini gələcəkdə daha da gücləndirmək məqsədiylə bu işi gerçəkləşdirəcək kadrların hazırlanmasına da ciddi önəm verirdi. Elə bu səbəbdəndir ki, Azərbaycan hökuməti əcnəbi ölkələrin ali məktəblərində oxumağa dövlət təqaüdçüləri göndərdiyi zaman Dağıstandan da bir neçə nəfərin «100 tələbə» içərisində olmasını təmin edə bilmişdi. Bunlar Abdulla Əfəndiyev, Zəkəriyyə Xiromanov, Süleyman Muxarski, Əhməd Şahnəzərov və Murad bəy Temirxanov idi. Doğrudur, Azərbaycan Cümhuriyyətinin yıxılmasından sonra onların da taleyi acı oldu və onlara bəslənən umudlar doğrulmadı, ancaq ən önəmlisi bu idi ki, həmin dönəmdə bu tələbələrin simasında Azərbaycan və dağlı xalqlarının qardaşlıq istəyi ortaya qoyulmuşdu.

* * *

Rəşid xan Qaplanovun tövsiyəsi ilə oxumağa göndərilən Dağıstan nümayəndələrindən biri milliyyətcə qumuq türklərindən olan Zəkəriyyə Xiromanovdur.[4]

Onun sənədləri tam qaydasında deyildi. Xaricə göndərilməklə bağlı hazırlanmış şəxsi işində hətta ən önəmli bəlgələrədən biri olan doğum haqqında şəhadətnaməsini belə görmürük, onun yerinə başqa bir arayış qoyulub. Azərbaycan Cümhuriyyəti hökumətində Qafqaz Dağlıları Birliyi Cümhuriyyətinin diplomatik nümayəndəsi əvəzi *Bahadur bəy Mallaçixan*'ın[5] verdiyi 9 sentyabr 1919-cu il tarixli 625 saylı vəsiqədə göstərilib ki, Dağıstan əyaləti Qazıqumuq dairəsi Kuma kəndinin sakini Zəkəriyyə Xiromanov 22 noyabr 1899-cu ildə doğulub və onun


[1] *Атаева С.* Азербайджан и народы Северного Кавказа, ss. 347, 349. Azərbaycan tarixşünaslığında daha çox «Dağlılar Cümhuriyyəti» kimi tanınan Quzey Qafqaz və Dağıstanın Birləşmiş Dağlıları Birliyinin tarixi haqqında geniş bilgi almaq üçün bax: *Атаева С.* Азербайджанская Демократическая Республика и Горская республика: сотрудничество и совместные проекты// Azərbaycan Xalq Cümhuriyyətinin 95 illiyinə həsr edilmiş Respublika elmi konfransı materialları. 22 may 2013-cü il, Bakı, 2014, ss. 211-226; *Атаева С.* Азербайджанская Демократическая республика и Горская республика: сотрудничество и совместные проекты в конце XIX – начале XX в.// Известия Ингушского научно-исследовательского Института гуманитарных наук имени Ч.Э.Ахриева. Магас, 2013, № 1, ss. 22-30; *Атаева С.* Азербайджан и Горская Республика: стремление к единению// Qarabağ dünən, bu gün və sabah. 12-ci elmi-əməli konfransın materialları toplusu. Bakı, 2013, ss. 140-153; *Атаева С.* АДР и Горская республика: сотрудничество, проекты объединения// Elmi əsərlər. B., 2008, 25-ci cild, ss. 126-150; *Атаева С.* Взаимоотношения Азербайджанской Демократической Республики с горскими народами Северного Кавказа в 1918-1920-е годы// Историко-культурные и экономические связи народов Дагестана и Азербайджана: через прошлый опыт взгляд в XXI век. (Материалы торжественного собрания и Международной научно-практической конференции, посвященных 110-летию со дня рождения Азиза Алиева 8 июня 2007 г.). Махачкала: ДНЦ РАН, 2007, ss. 202-216; *Атаева С.* Азербайджан и Северный Кавказ: из истории взаимоотношений в 1918 – 1924 годы// Elmi araşdırmalar. Bakı, 2006, № 1-4, ss. 412 – 425.

[2] Dağlılar Cümhuriyyəti nəzərdə tutulur.

[3] *Атаева С.* Азербайджан и народы Северного Кавказа, s. 343.

[4] Soyadı bəzi sənədlərdə "Xiramanov" və "Xiroman" kimi də yazılıb.

[5] Mühəndis Bahadur bəy Mallaçixan/ Malaçixan (1882-1938) sonralar Azərbaycan Cümhuriyyətində mühüm dövlət vəzifələrində çalışıb, hətta Zaqatalanın valisi (qubernatoru) olub (1920-ci ilin yanvarından Cümhuriyyətin süqutunadək) (bax: ARDA, fond 894, siyahı 2, iş 136).



Zəkəriyyə Xiromanovun Azərbaycan təbəəliyini qəbul etməsi haqqında sənəd

Missiyaya bəlli qanuni valideynləri *Əbdürrəşid Xiromanov* və *Aymese Abakar qızı*'dır.[1] Azərbaycan Cümhuriyyəti Maarif Nəzarəti dəftərxanasında kargüzar köməkçisi olan Zəkəriyyə Xiromanova 2 noyabr 1919-cu ildə verilmiş 11958 saylı vəsiqədə göstərilib ki, o, subaydır, atası *Rəşid*, anası *Aymisə*, qardaşı *Abakar* və bacısı *Fatma*'dır.[2]

Dağıstan əyalətinin Kuma kənd sakini Zəkəriyyə Əbdürrəşid oğlu Xiromanovun 1203 saylı attestatında (attestat əvəzinin surətidir) 1 sentyabr 1909-cu ildə Temirxan-Şura real məktəbinə girərək, 28 may 1916-cı ildək orada əla əxlaqla oxuması və əsas bölmə üzrə tam kursu bitirməsi qeyd olunub.

100 Cümhuriyyət təqaüdçüsü içərisində şəhadətnamə və attestat qiymətləri arasında ən kəskin fərq Z.Xiromanovun sənədlərindədir. Belə ki, onun attestatında cəmi 2 fəndən "5", 2 fəndən "4", 9 fəndən isə "3" qiymət olduğu halda,[3] orta təhsili bitirmək haqqındakı 318 saylı şəhadətnaməsində (bu da şəhadətnamə əvəzinin surətidir) tam başqa mənzərə ilə qarşılaşırıq. 318 saylı şəhadətnamədə oxuyuruq: "Bu, Temirxan-Şura real məktəbinin əlavə sinfinin şagirdi, müsəlman, 22 noyabr 1899-cu ildə doğulmuş kənd sakini Zəkəriyyə Əbdürrəşid oğlu Xiromanova ona görə verilib ki, o, bu sinifdə 1 sentyabr 1916-cı ildən 17 mart 1918-ci ilədək əla əxlaqla oxuyub və səkkizsiniflik tam kursu bitirərkən aşağıdakı uğurları qazanıb:

Şəriət –	
Rus dili –	yaxşı (4)
Alman dili –	yaxşı (4)
Fransız dili –	yaxşı (4)
Riyaziyyat, o sıradan:	
Hesab –	əla (5)
Cəbr –	əla (5)
Triqonometriya –	əla (5)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	əla (5)
Tarix –	yaxşı (4)
Təbiiyyatşünaslıq –	əla (5)
Fizika –	əla (5)
Riyazi coğrafiya –	əla (5)
Rəsm –	əla (5)
Qanunşünaslıq –	əla (5).

Temirxan-Şura şəhəri, 7 aprel 1918-ci il".[4]

Buraya çatanda iki məqamı qeyd etməyi özümüzə borc bilirik:

[1] ARDA, fond 51, siyahı 3, iş 134, vərəq 5.
[2] Yenə orada, iş 326, vərəq 4.
[3] Yenə orada, iş 134, vərəq 3.
[4] Yenə orada, vərəq 4.

Birincisi, oxuculara məlumat üçün bildirək ki, çar və Cümhuriyyət dönəmlərində edadiyyələrin (orta/ real məktəblərin) 7-illik əsas kursunu bitirənlərə *attestat*, əlavə 8-ci sinfini də bitirənlərə isə *şəhadətnamə* verilirdi və ali məktəblərə yalnız şəhadətnaməsi olanlar qəbul oluna bilərdi.

İkincisi, adətən, attestatın başlanğıcında şagirdin şəxsiyyəti ilə bağlı yazılan bütün qeydlər şəhadətnamədə də dəyişilmədən təkrarlanırdı (əhəmiyyətsiz dəyişikliklərlə). Attestat və şəhadətnamə qiymətləri arasında fərq az olurdu, ancaq Xiromanovda bunun tam əksini görürük. Məsələn, attestatda onun doğulduğu ilin ayı və günü, şəhadətnamədə isə harada doğulduğu göstərilməyib. Attestatda 9 fəndən "3", 2 fəndən "5" aldığı halda, cəmi 1 il sonrakı şəhadətnamədə bir dənə də "3" yoxdur, "5"lərin sayı isə 9-dur. Şagirdin az vaxtda bu cür savadlanması əsla inandırıcı deyil. Onun surətdən surət, əvəzdən (dublikatdan) surət olan sənədlərinin heç biri notariusda təsdiqlənməyib, onlar yalnız Maarif Nəzarətində "əsli ilə düzdür" qeydi ilə qəbul edilib. Buna görə də Xiromanovun sənədlərində şübhəli məqamlar var. Bizcə, milliyyətcə qumuq Türkü olan nazir Rəşid xan Qaplanov Zəkəriyyə Xiromanovun xaricə göndərilə bilməsi üçün ona yardımda bulunub...

Kasıblığını təsdiqləməkdən ötrü Temirxan-Şura real məktəbinin direktoru Əmirov 30 iyul 1919-cu ildə Zəkəriyyə Əbdürrəşid oğlu Xiromanova 475 saylı belə bir vəsiqə verib ki, o, 1913-cü ildən Temirxana-Şura real məktəbinin əlavə 8-ci sinfini 1918-ci ildə bitirənədək dövlət hesabına həmin məktəbin pansionçusu[1] olub.[2]

Xiromanov Bakı şəhərində 16 avqust 1919-cu ildə Azərbaycan Cümhuriyyəti xalq maarif nazirinə yazdığı ərizəsində təhsilini bitirmək, öz müsəlman xalqına qulluq etmək istədiyini, ancaq ovsunağa pulunun olmadığını və anarxiya içində məhv olan doğma Dağıstan tərəfdən heç bir kömək gözləmədiyini bildirərək, Bakıya gəlib Azərbaycanın xeyirxah müsəlman hökumətinə müraciətlə Dağıstanlı üçün məhdudiyyət qoymadan onun da ali təhsil almaqdan ötrü xaricə göndərilən müsəlman tələbələri sırasına salınmasını xahiş edib. Daha sonra o, sənədlərin əslini itirdiyini göstərib və onların surətlərini təqdim etdiyini nəzərə çatdırıb. Qeyd edib ki, real məktəbi bitirincəyədək dövlət pansionçusu kimi oxumuşam, bu da mənim kasıb ailədən olduğumu göstərir. Ailəmiz 7 nəfərdən ibarətdir.

Xiromanov İsveçrəyə – Sürix Politexnikumuna getmək istədiyini yazıb, ancaq bunu da əlavə edib ki, Tiflis Politexnik İnstitutuna sənədlər versəm də oraya oxumağa getməyə imkanım olmayıb.[3]

14 oktyabr 1919-cu ildə Bakı şəhərində maarif nazirinə yazdığı ərizədə Xiromanov xahiş edib ki, məni Maarif Nəzarətində boş olan yerlərdən birinə – tapşırıqlar üzrə məmur, yaxud kargüzar köməkçisi vəzifəsinə qəbul edəsiniz. Mən bu işlərlə yaxşı tanışam; Qunib dairəsi idarəsində məktubdaşıyan[4] işləmişəm. Dağlılar Cümhuriyyətində öncə Ticarət və Sənaye Nazirliyində kargüzar, sonra isə tapşırıqlar məmuru olmuşam.[5]

Nazir Qaplanovun 17 oktyabr 1919-cu il tarixli 438 saylı əmri ilə iki qumuq – Zəkəriyyə Xiromanov və Murad Temirxanov[6] 1 oktyabrdan Xalq Maarif Nəzarətinin dəftərxanasında kargüzar köməkçisi vəzifəsinə təyin edilib.[7]

[1] "Pansionçu" yemək-içməyi və yatmağı da məktəbdə olan şagirdə deyilirdi.
[2] ARDA, fond 51, siyahı 3, iş 134, vərəq 2.
[3] Yenə orada, vərəq 1.
[4] Ruscası: «письмоводитель».
[5] ARDA, fond 51, siyahı 3, iş 326, vərəq 1.
[6] Murad Temirxanov da 100 tələbədən biridir.
[7] ARDA, fond 51, siyahı 3, iş 326, vərəq 2; iş 8, vərəq 214.

Azərbaycandan qıraqda yaşayanların xaricə oxumağa göndərilməsi üçün onlar hökmən Azərbaycan təbəəliyini qəbul etməliydilər. Azərbaycan Hökuməti-Cümhuriyyəsi daxiliyyə nazirinin 5 noyabr 1919-cu ildə verdiyi 10863 saylı vəsiqədə oxuyuruq:

"İşbu vəsiqə Azərbaycan təbəəiyyəti haqqında 11 avqust 1919-ncu yılında olan qanunun 2-nci qismi, 6-nı fəsli mövcibincə Zəkəriyyə Əbdürrəşid oğlu Xiromanovun haman qanunun 2-nci fəsli "Ğ" nöqtəsi mövcibincə Azərbaycan təbəəsi arasına qəbul olunduğu haqqında kəndisinə verilir.

Tamğa parası alınmışdır.

Təvəllüdü: 22 noyabr 1899-ncu yılda.

Milliyyəti – qumuq.

Məzhəbi – islam.

Ailəcə – subay.

Daxiliyyə naziri namına general-mayor (Ağabəyovun imzası)

İdarə müdiri əvəzi (Rza Ağasıbəyovun imzası)

Şöbə müdiri (Bəhram Rzabəylinin imzası)".[1]

7 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı ərizəsində Z.Xiromanov 6 fotoşəkillə birgə Azərbaycan vətəndaşlığını qəbul etməsi haqqında 10864 saylı vəsiqəni də təqdim edərək xahiş edib ki, onu Almaniyaya – Şarlottenburqa yol fakültəsinə göndərsinlər.[2]

Zəkəriyyə Xiromanov ali təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi barədə[3] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[4] 31 dekabr 1919-cu ildə dilkağızları verib.

Nəzarətin kargüzar köməkçisi Zəkəriyyə Xiromanov 11 yanvar 1920-ci ildə nazirə ərizə yazaraq bir neçə xahişdə bulunub:

1) xaricə getməyimlə əlaqədar olaraq məni vəzifəmdən azad edəsiniz;

2) 1920-ci ilin 1 yanvarından 1 fevralınadək olan dövr üçün mənə maaş verəsiniz;

3) Avropaya getmək ərəfəsində paltardan dəhşətli dərəcədə korluq çəkirəm, çünki hər şeyim Dağıstanda qalıb və oradan heç nə götürə bilməmişəm...[5]

Xalq maarif naziri Şahtaxtinskinin 11 yanvar 1920-ci il tarixli 17 saylı əmri ilə Nəzarətin kargüzar köməkçiləri Zəkəriyyə Xiromanov və Murad Təmirxanov 12 yanvardan vəzifələrindən azad ediliblər.[6]

Zəkəriyyə Əbdürrəşid oğlu Xiromanova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 561 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.

Xiromanov Almaniyanın öncə Ştutqart,[7] sonra isə Karlsrue şəhərində oxuyub. Karlsruedə ixtisası elektrotexnika olub. Bir arayışda onun təhsili bitirməyinə il yarım qaldığı göstərilib.[8]

Böyük ehtimalla o da təhsilini başa vurduqdan sonra SSRİ-yə qayıtmayıb.

[1] ARDA, fond 51, siyahı 3, iş 134, vərəq 7.
[2] Yenə orada, vərəq 6.
[3] Yenə orada, vərəq 8.
[4] Yenə orada, vərəq 9.
[5] Yenə orada, iş 326, vərəq 5.
[6] Yenə orada, iş 326, vərəq 6.
[7] Yenə orada, iş 40, vərəq 63.
[8] Yenə orada, fond 57, siyahı 1, iş 276, vərəq 62a.

Xudaverdiyev Əlibala Hacı Mürtəzaqulu oğlu

(1901, Navahı/ Şamaxı – 1941-ci ildən sonra)



Əlibala Xudaverdiyev

Şirvan torpağının yetirməsi olan Əlibala Xudaverdiyevin adı sənədlərdə bəzən sadəcə "Əli" kimi də işlədilib.

Zaqafqaziya Şiə Ruhani İdarəsindən Tiflis şəhərində 3 oktyabr 1911-ci ildə verilmiş 32029 saylı şəhadətnamədə oxuyuruq ki, Bakı valiliyi Şamaxı qəzasının Navahı kəndinin sakini Əlibala Hacı Mürtəzaqulu oğlu atası Hacı Mürtəzaqulu Xudaverdi oğlunun qanuni arvadı Xırdaxanım Molla Hadı qızından 1901-ci ildə doğulub. Doğumun ayı və günü bilinmir...[1]

Xudaverdiyev təhsilini Bakıda alıb.

25 may 1919-cu il tarixli kamal attestatında onun 3 sentyabr 1914-cü ildə Bakı 1-ci kişi gimnaziyasına girərək orada 15 may 1919-cu ilədək əla əxlaqla oxuması, səkkizsiniflik tam kursu bitirməsi və bu vaxt aşağıdakı bilikləri qazanması qeyd olunub:

Şəriət –	dörd (4)
Rus dili və ədəbiyyatı –	üç (3)
Fəlsəfi propedevtika –	dörd (4)
Latın dili –	üç (3)
Qanunşünaslıq –	dörd (4)
Riyaziyyat –	üç (3)
Riyazi coğrafiya –	dörd (4)
Fizika –	dörd (4)
Tarix –	üç (3)
Coğrafiya –	dörd (4)
Fransız dili –	üç (3)
Alman dili –	dörd (4)
Türk dili –	dörd (4).[2]

Abituriyent Əlibala Xudaverdiyev 10 avqust 1919-cu ildə maarif nazirinə yazdığı ərizədə onu xaricə göndərilən tələbələr sırasına salmağı xahiş edib. "Mən hökumətin dəstəyinə möhtacam və bunu Müsəlman Şagirdlərin Mərkəzi Komitəsi, Müsəlman Şagirdlər Birliyi təsdiq edə bilərlər, çünki kasıblığıma görə onlar mənə yardım göstəriblər. Maarif Nəzarəti 1918-19-cu dərs ilində mənə hər ay yardım verib". Sonda o, xaricdə tibb, yaxud kənd təsərrüfatı institutunda oxumaq istədiyini bildirib.[3]

Cavad qəzası qaimməqamı (rəisi) 7 avqust 1919-cu ildə Salyan şəhər sakini abituriyent Əlibala Xudaverdiyevə 1284 saylı bu məzmunda vəsiqə verib ki, o, həqiqətən kasıbdır, ailəsi 31 yaşlı qardaşı, cüzi maaşa qulluq edən Böyükağa Xudaverdiyevdən, onun himayəsindəki 2 bacısından və dul anasından ibarətdir. Gimnaziyada oxuyarkən kasıblığına görə ona həm hökumət, həm də camaat tərəfdən yardım edilib.[4]

[1] ARDA, fond 51, siyahı 3, iş 133, vərəq 4.
[2] Yenə orada, vərəq 3.
[3] Yenə orada, vv. 1-1a.
[4] Yenə orada, vv. 2-2a.



Əlibala Xudaverdiyev. Paris, may, 1920

Salyan şəhərində yaşayan Ə.Xudaverdiyev 15 sentyabr 1919-cu ildə Salyan real məktəbinin direktoruna yazdığı ərizədə onu həmin məktəbdəki boş müəllim yerinə götürməyi xahiş edib və gərəkli sənədləri təqdim edib.[1]

21.10.1919-cu ildə ona göndərilən 10970 saylı məktubda bildirirlib ki, xalq maarif nazirinin bugünkü tarixli 449 saylı əmri ilə Siz Salyan real məktəbində 16 oktyabrdan aşağı hazırlıq sinfində müəllim vəzifəsinin icrasına buraxılmısınız.[2]

Abituriyent Əlibala Xudaverdiyev Salyandan 27 oktyabr 1919-cu ildə Xalq Maarif Nəzarətinə və tələbələrin ərizələrinə baxan Komissiyaya yazdığı ərizədə bildirib ki, rusca "Azərbaycan" qəzetinin 228-ci sayında gedəsi tələbələrin siyahısı verilib və orada mən 23-cü namizəd kimi göstərilmişəm. Bundan bərk incidiyini qeyd edən Ə.Xudaverdiyev yazıb ki, göndərilənlər kasıblıq meyarı üzrə seçilirsə məndən kasıbı yoxdur, ancaq siyahıda elə adamlar var ki, nəinki öz hesabına gedə bilər, hətta başqalarını da oxuda bilərlər; attestatların müsabiqəsi meyarına gəlsək mən yenə də tələbələr sırasında olmalı idim. Buna görə də Xudaverdiyev təkidlə xahiş edib ki, ərizəmə yenidən baxılsın, adım tələbələr sırasına daxil edilsin və işin nəticəsi haqqında mənə Salyan şəhərinə məlumat göndərilsin.[3]

Bu ərizə öz təsirini göstərib və onu dövlət təqaüdçüləri siyahısına salıblar. 7 dekabr 1919-cu ildə Xalq Maarif Nəzarətinə və tələbələrin xaricə göndərilməsi üzrə Komissiyaya yazdığı ərizəsində Parisdə, yaxud İsveçrədə Politexnik İnstituta (mexanika bölməsinə) girmək istədiyini bildirib.[4]

13 yanvar 1920-ci ildə ildə Xudaverdiyev təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[5] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[6] dilkağızları verib.

Əlibala Hacı Mürtəzaqulu oğlu Xudaverdiyevə Azərbaycan Cümhuriyyəti Hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 547 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[7]

Salyan zükur[8] edadisi (real məktəbi) müdirinin əvəzi 2 fevral 1920-ci ildə Maarif Nəzarətinin orta məktəblər şöbəsinə yazdığı məktubda bildirib ki, məktəbimizin müəllimi Ə.Xudaverdiyev bu il 15 yanvardan işə çıxmayıb.[9]

Həmin direktor əvəzi 29 mart 1920-ci ildə Maarif Nəzarəti dəftərxanasına yazdığı 120 saylı məktubda bildirib ki, Xudaverdiyev xidmətdən getmək haqqında istəyini bildirməyib, ona görə də olmadığı müddətdə onun dərsləri başqa müəllimlərə verilib. Xudaverdiyev aşağı hazırlıq "B" sinfində dərs deyib, V və VI siniflərdə tarix dərsi aparıb. O, cəmi 27 dərs keçib.[10]

[1] ARDA, fond 51, siyahı 3, iş 380, vərəq 1.
[2] Yenə orada, vərəq 3.
[3] Yenə orada, vv. 5-5a.
[4] Yenə orada, vərəq 6.
[5] Yenə orada, iş 133, vərəq 7.
[6] Yenə orada, vərəq 8.
[7] Yenə orada, vərəq 9.
[8] Kişi.
[9] ARDA, fond 51, siyahı 3, iş 380, vərəq 8.
[10] Yenə orada, vərəq 10.

Xalq Maarif Nəzarətini idarə edən N.Şahsuvarovun 6 aprel 1920-ci il tarixli 120-ci əmri ilə Ə.Xudaverdiyev 15 yanvar 1920-ci ildən Salyan zükur edadisində müəllim vəzifəsindən azad olunub.[1]

***

Xudaverdiyev Almaniyanın Bonn şəhərində kənd təsərrüfatı ixtisası üzrə oxuyub.[2] Avropada oxuyub gələndən sonrakı taleyi haqqında bilgilər çox azdır.

Vaxtilə Cümhuriyyət tələbələri ilə birgə Parisdə oxumuş İsaq Şeyxzamanın AR MTN arxivində saxlanılan PR-39975 saylı istintaq işində 15 mart 1940-cı il tarixli dindirmədən bir parça:

"Sual: Azərbaycanlılardan Parisdə kimlərlə əlaqə saxlamısınız?

Cavab: Azərbaycanlılardan bu şəxslərlə əlaqə saxlamışam:

1. Əşrəfov İsrafil (indi XDİK orqanları həbs edib)
2. Xudaverdiyev Əli[bala] (sənəti müəllimlikdir, Nizami küçəsində yaşayır)
3. Vəzirzadə [Aslan bəy] (professor, Azərbaycan Neft İnstitutunda işləyir)
4. Vəkilov [Mustafa ağa] (indi XDİK həbs edib)
5. Axundov Əjdər (fransız dili müəllimi)
6. Nərimanbəyov [Fərman] (indi XDİK həbs edib).

Sual: Deyin görək bu adamlar hansı təşkilata qoşulub?

Cavab: Onların hamısı tələbə idi və yerdaşlığın üzvü idilər. Onlardan Xudaverdiyev Əli 1921-ci ildə mənim zəmanətimlə Parisdə kommunist partiyasına girib.

Sual: Siz SSRİ-də olarkən bu keçmiş tələbələrlə görüşmüsünüzmü?

Cavab: Bakı şəhərində Əşrəfov İsrafillə, Xudaverdiyev Əli ilə, professor Vəzirzadə və Axundov Əjdərlə görüşmüşəm. Görüşlərimiz təsadüfi və nadir halda olub".[3]

Rafael Hüseynovun "Millətin zərrəsi" kitabında Xudaverdiyev haqqında maraqlı bilgi verilib. Müəllif yazır: *"Zəkinin kiçik bacısı Büllurun əri Əli Xudaverdiyev də elə [19]23-də o dəstəylə Almaniyada aqronomluq oxumuşdu. Müharibə dövründə Bakıda Xarici Dillər İnstitutundakı almanlar sürgün ediləndə mütəxəssis qıtlığından fakültə bağlanmasın deyə onu alman dili fakültəsinə dekan qoymuşdular".*[4] Xatırladaq ki, burada adı çəkilmiş Zəki Pepinov (1898-1954) görkəmli dövlət xadimi Əhmədcövdət Pepinovun (1893-1938) kiçik qardaşıdır. Başqa sözlə, Xudaverdiyev Ə.Pepinovun da yeznəsidir.

Ömər Faiq Nemanzadənin bacısı uşaqları olan Pepinov qardaşlarının hamısı repressiyaya uğrayıb və o çağın məntiqi ilə onların qohumu olan Xudaverdiyev də tutulmalı idi. Ancaq AR MTN və DİN arxivlərindən aldığımız bilgiyə görə, həmin qurumlarda onun istintaq sənədləri yoxdur; bu isə onun həbs olunmadığını düşünməyə əsas verir.

[1] ARDA, fond 51, siyahı 3, iş 380, vərəq 11.
[2] Yenə orada, fond 57, siyahı 1, iş 276, vərəq 62a.
[3] AR MTN arxivi, PR-39975, vv. 64-65.
[4] *Hüseynov R.* Millətin zərrəsi. Bakı, 2001, s. 394.

İsgəndərli Ağalar Məşədi Abbasqulu oğlu (Batu, İsgəndər)

(09.1899, Şamaxı – may 1984,[1] İstanbul)[2]



Ağasadıq bəy Qocamanbəyov

Bir vaxtlar Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Böyükelçiliyində mədəniyyət və tanıtma müşaviri çalışan dostumuz *Fəthi Gədiklidən* xahiş etmişdik ki, Türkiyədə yaşamış Cümhuriyyət tələbələri haqqında bizə bilgilər versin. Burada işlədiyi müddətdə o, heç nə öyrənə bilmədi. 4 iyul 2006-cı ildə İnternetlə bizə İstanbuldan aşağıdakı məktubu göndərdi. Məktubdakı mətn şamaxılı mərhum ziyalı *Bəxtiyar İsmayıllı Türkcanlının* (03.08.1920 – 24.12.2005) bir vaxt yazıb ona verdiyi qeydlərdən ibarətdi. Bunu da oxuculara xatırlatmağa borcluyuq ki, Bəxtiyar bəy Acıdərədəki məşhur "Türkün qəbri"ni abadlaşdırdığına görə onunla Türkiyə Böyükelçiliyinin işçiləri, o sıradan Fəthi bəy arasında səmimi münasibət yaranmışdı.

Fəthi Gədikli Bəxtiyar İsmayıllıdan aldığı bu bilgini bizimlə paylaşırdı:

"Azərbaycan Parlamentində kargüzar işləyən 19 yaşlı dayım Ağalar İsgəndərli[3] *ilə bir yerdə işləyən Şamaxılı Ağacəfər Əbdürrəhmanlı 1919-cu ildə Azərbaycan hökuməti tərəfindən ali təhsil almaq üçün Almaniyaya oxumağa göndərilmişdir.*

Azərbaycan Demokratik Respublikası devrildiyindən dayım və Ağacəfər Almaniyada ali təhsil aldıqdan sonra, əlbəttə ki, Azərbaycana qayıda bilməzdilər.

Bu səbəbdən onlar Türkiyəyə gedib, orada işləməli və yaşamalı oldular. Dayım Ağalar İsgəndərli sonralar İsgəndər Batu adı ilə tanınır, doktor-mühəndis, professor, kimya sənayesi sahəsində Türkiyədə tanınmış bir mütəxəssis olur. Ağacəfər Əbdürrəhmanlı isə yeni dərman preparatları yaratmaqla əczaçılıq fabrikinin sahibi kimi Türkiyədə məşhur bir şəxs olur.

II dünya müharibəsi başlanan ildən 35 il müddətində – ta 1976-cı ilə qədər Türkiyə ilə məktub əlaqələrimiz kəsilmişdir.

Məktub əlaqələrimiz bərpa edildikdən sonra – 1976-cı ildə Şamaxıda yaşayan xalam Gülsüm xanımın rəsmi dəvəti ilə 57 illik ayrılıqdan sonra dayım Ağalara vətənə – Azərbaycana, Şamaxıya 2 aylığa müsafir kimi, milliyyətcə alman olan qadını Şarlotta ilə birlikdə gəlmək qismət olur.

Bəli! 57 il vətəndən uzaqlarda – elindən-obasından, qohum-əqrabasından ayrı düşüb qürbətdə yaşamaq az vaxt, az zaman, az ömür deyil. Uzun illər vətən həsrətiylə qürbətdə yaşamanın bir faciə olmasını dayım məktublarının birində çox təsirli ürk yandırıcı sözləri ilə ifadə etmişdir».

[1] Bu ölüm tarixini Bəxtiyar İsmayıllı-Türkcanlının qeydlərindən götürmüşük.

[2] Bu məqalənin yazılışında yararlandığımız sənədləri bizə verdiyinə görə Faruq Bəxtiyar oğluna dərin minnətdarlığımızı bildiririk

[3] Soyadı bir çox qaynaqlarda "İsgəndərov" kimi də gedib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.

Fəthi bəyin göndərdiyi bu məktub bizə ipucu oldu – ondan yararlanaraq iki tələbəmiz Ağalar və Ağacəfərin Bakıda yaşayan qohumlarını axtarıb tapdıq və onlar haqqında az-çox bilgi və bəlgələr əldə edə bildik. Buna görə dəyərli dostumuz Fəthi Gədikliyə dərin minnətdarlığımızı bildiririk.

***

Öncə AR Dövlət Arxivində saxlanılan sənədləri ilə tanış olaq.

Zaqafqaziya Şiəməzhəb Müsəlmanlarının Ruhani İdarəsindən 12 iyun 1918-ci ildə verilmiş 391 saylı doğum şəhadətnaməsində yazılıb ki, Bakı quberniyası Şamaxı şəhərinin sakini Ağalar Məşədi Abbasqulu oğlu təvəllüd edibdir öz atası Məşədi Abbasqulu İsgəndərovun şəri mənkuhəsi[1] Turabikə Ağasadıq bəy qızından 1899-cu ilin sentyabr ayında; təvəllüd günü məlum deyildir.[2]



Azad bəy Ağasadıq bəy oğlu Qocamanbəyov

Ağaların həm ata, həm də ana tərəfdən qohumları Şamaxının ən hörmətli ailələrinə mənsubdu. Atası Şamaxının sayılıb-seçilən dövlət məmurlarından, anası isə Şamaxının idarəçiliyində mühüm rolu olmuş məşhur Qocamanbəyovlardandı – onun qardaşı, İsgəndərin dayısı, rus ordusunun kapitanı olan *Azad bəy Qocamanbəyov* qəza rəisi vəzifəsində işləyib.[3]

Ağalar İsgəndərov 7 yanvar 1911-ci ildə Şamaxı real məktəbinə girərək 30 aprel 1917-ci ildə orada əsas bölmə üzrə tam kursu əla və yaxşı qiymətlərlə bitirib. O, yalnız rus dilindən "3" alsa da 8 fəndən "5", 4 fəndən isə "4" alıb.[4]

27 iyun 1918-ci ildə ona verilmiş 2 saylı şəhadətnamədən görürük ki, Ağalar 20 sentyabr 1917-ci ildən 13 mart 1918-ci ilədək Şamaxı (edadi) real məktəbinin əlavə sinfində oxuyub və tam səkkizsiniflik kursu bitirərək aşağıdakı qiymətləri alıb:

Şəriət –	5 (beş)
Rus dili –	4 (dörd)
Alman dili –	5 (beş)
Fransız dili –	5 (beş)
Riyaziyyat, o sıradan:	
Hesab –	5 (beş)
Cəbr –	5 (beş)
Triqonometriya –	5 (beş)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	5 (beş)
Fizika –	5 (beş)

[1] Şəriətlə arvadı.

[2] ARDA, fond 51, siyahı 3, iş 84, vərəq 5.

[3] Onun haqqında bilgi almaq üçün bax: ARTA, fond 43, siyahı 2, iş 844.

[4] ARDA, fond 51, siyahı 3, iş 84, vərəq 7.

Təbiiyyatşünaslıq – 5 (beş)
Riyazi coğrafiya – 5 (beş)
Tarix – 5 (beş)
Qanunşünaslıq – 5 (beş)
Rəsm – 5 (beş)
Türk dili – 5 (beş).[1]



Ağalar İsgəndərli

Çar dönəmində də bu cür əla oxuyanlara məktəbi bitirdikdə medal verirdilər. Bunu da unutmayaq ki, o dönəmdə dövlətin istər orta, istər ali məktəblərində qayda-qanun o qədər ciddi idi ki, məktəbin işinə valideynlərin kənar müdaxiləsi əsla mümkün deyildi – onların dövlətdə tutduğu mövqe, yaxud varlı-kasıblığı şagirdin qiymətinə təsir edə bilmirdi. Bunu yazmaqda məqsədimiz Ağaların aldığı qiymətlərin yalnız öz əməyinin nəticəsi olduğunu təsdiqləməkdir.

İsgəndərlinin nüfuzlu soydan çıxması bir şeyə təsir göstərdi – onu Azərbaycan Cümhuriyyəti Parlamanının İdarəsində (Dəftərxanasında) həvəslə işə götürdülər. Parlaman Dəftərxanası əməkdaşlarının 27 may 1919-cu ildə Parlamanın (indiki Əlyazmalar İnstitutunun) həyətində sabahkı istiqlal bayramı münasibətilə çəkdirdikləri kollektiv fotoşəkildə Ağalar İsgəndərli görkəmli qələm əhli olan Məhəmmədəli Sidqi (Səfərov), Seyid Hüseyn və Mirbədrəddin Seyidzadə kimi o dönəmin məşhur şəxsiyyətləriylə yanaşı təsvir olunub.

Biz bu kitabda, bir qayda olaraq, tələbələrin Maarif Nəzarətinə yazdığı ərizə və başqa sənədlərin ən qısa məzmununu təqdim edirik, ancaq onların arasında bəzən (çox təəssüf ki, "bəzən"!) ana dilimizdə yazılanlar da olur. Doğma türkcəmizin ozamankı rəsmi üslubunu əks etdirmək baxımından maraq doğuran həmin bəlgələri isə bütöv verməyi faydalı sayırıq.

İsgəndərlinin ərizəsində yazılıb:

"Maarif Nəzarəti-cəliləsinə[2]
Şamaxı realnı məktəbini itmam etmiş
tələbə Ağalar İsgəndərli tərəfindən

ƏRİZƏDİR

İkmali-təhsil etmək üzərə[3] buradan Avropaya 100 tələbə göndərilməsinə Nəzarət məsailərincə[4] qərar verilmişdir. Bu miyanda bəndənizi[5] də Almaniyada elektrotexnik məktəbi-alisinə ezam buyurmanızı istirham elərəm,[6] əfəndim həzrətləri! Bununla əlavə ediyorum:

1) Realnı məktəbini bitirməyim xüsusda aldığım şəhadətnamə və attestatımın katibi-ədl[7] tərəfindən təsdiq edilmiş surətləri.

2) Gəncədə "Qaçqınlara Köməkçi Cəmiyyəti"ndən aldığım vəsiqənin əsli.

3) Məclisi-Məbusan İdarəsinin ləvayehi-qanuniyyə şöbəsi[8] kargüzarı olduğum barəsində aldığım vəsiqənin surəti.

Qeyd: Metrik şəhadətnamə Şamaxı hadisələrində yandığından, Məşixətdən[9] aldıqdan sonra təqdim edəcəyəm.

[1] ARDA, fond 51, siyahı 3, iş 84, vərəq 6.
[2] Yüksək, uca Maarif Nazirliyinə.
[3] Təhsili bitirmək üçün.
[4] Nazirliyin çalışmaları sayəsində.
[5] Özünü nəzərdə tutur.
[6] Göndərməyinizi xahiş edirəm.
[7] Notarius.
[8] Parlamentin qanun layihələri şöbəsi.
[9] Azərbaycan Cümhuriyyətinin özünün Bakıda yaratdığı milli ruhani idarəsi.



1



2

1. Ağalar İsgəndərlinin ata-anası Məşədi Turəbikə xanım Ağasadıq bəy qızı Qocamanbəyova/ İsgəndərli (?-23.5.1952, İstanbul) və Məşədi Abbasqulu Hacı Ağəli oğlu İsgəndərli (?-30.12.1959, İstanbul). İstanbul, 21 mart 1933/ 24 zilqədə 1351. Şəklin arxasında ərəb əlifbasında yazılıb: "Bu rəsmi yetirəsüz Seyfullah bəyə – harada sakin olursa. Əzizimiz Seyfullah bəyə bibisi Turəbikə və əmisi Məşədi Abbasqulu tərəfindən yadigardır. Bu gün Novruz bayramı günüdür. Şəklimizi sənə hədiyyə olaraq göndəririk. 21.3.1933, 24 zilqədətülhəram 1351. Fevralda yazdığın kağızuzu aldıq. Biləsən heç vaxt mən səndən rəncidə olmaram. Sən mənim əziz qardaşımın yadigarısan və mənim ciyərimin güşəsi və gözlərimin işığısan. Hər vaxt xatirimdəsən. Öylə zənn etmə ki, sən mənim xatirimdən çıkarsan. Hər gün xatirimdəsən, əziz yadigarım. Gözlərindən öpən bu qərib bibin Turə". 2. Ağalar İsgəndərlinin ata-anası Məşədi Turəbikə xanım və Məşədi Abbasqulu. Şəklin arxasında ərəb əlifbasında yazılıb: "Əziz qərib qızımız Bikə xanıma. Xatirat və yadigar olaraq göndərdük, tarix 6 dekabr 19... (rəqəm əllə pozulub, oxunmur). Biləsüz Ramazanda oruc tutmağım məni çok zəif elədi və bir də mən cavan dögüləm, 75 yaşında qoca adamın şəkli bundan yaxşı olamaz". İstanbul

Umudvaram zati-alilərinizi bənim mühacir[1] olmağımı və sənədlərimdən elmə, ələxüsus fənn hissəsinə nə qədər şövqü həvəsim olduğunu nəzərdə tutaraq bəndənin istidasını rədd etməz.

(İsgəndərli Ağaların imzası).

4 ağustos 1919, Bakı".[2]

Gəncədə Qaçqınlara Köməkçi Cəmiyyətinin 15 oktyabr 1918-ci ildə verdiyi 1272 saylı şəhadətnamədə Ağalar İsgəndərlinin həqiqətən Şamaxı şəhərindən qaçqın olduğu təsdiqlənib və bütün rəhbər şəxslərdən ona yardım göstərmələri xahiş edilib.[3]

Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusan İdarəsinin rəisi Məhəmməd ağa Vəkilovun 18 iyun 1919-cu ildə imzaladığı 1973 saylı vəsiqədə Şamaxı şəhərinin sakini, tələbə Ağalar İsgəndərlinin həqiqətən ləvayehi-qanuniyyə şöbəsində kargüzar işlədiyi təsdiqlənib.[4]

[1] Burada "qaçqın" anlamında işlədilib.
[2] ARDA, fond 51, siyahı 3, iş 84, vərəq 1.
[3] Yenə orada, vv. 2-2a.
[4] Yenə orada, vərəq 3.



Ağalar İsgəndərli/ İsgəndər Batu ata-anası ilə. Ankara, 1930-cu illər

İsgəndərli 2 oktyabr 1919-cu ildə Bakıda belə bir dilkağızı yazaraq qol çəkib: "Mən, Ağalar İsgəndərli öz istəyimlə Seyidzadə Mirismayılla fakültəmi dəyişirəm (elektrotexnikanı kimya fakültəsinə)".[5] Bundan bir neçə gün sonra – 5 oktyabr 1919-cu ildə Mirismayıl Seyidzadə maarif nazirinə yazdığı ərizədə xahiş edib: "Məni elektrotexnik tələbələrin sırasına salmağınızı acizanə xahiş edirəm, çünki artıq Kiyev Politexnikumunda həmin fakültənin tələbəsiyəm. Bunun təsdiqi olaraq zaçotlarım haqqında vərəq də təqdim etmişəm... *Fakültələri dəyişmək üçün mən özümə yoldaş Ağalar İsgəndərlini tapmışam*; o, iki şahidin yanında (tələbə Rəhimzadə və tələbə Qasımov) dəyişilməyə könüllü razılığı haqqında dilkağızı verib; onu mən bu ərizəyə əlavə edirəm".[6]

Ancaq burada anlaşılmaz bir məqam var – İsgəndərli maarif nazirinə 4 noyabr 1919-cu ildə yazdığı ərizəsində Almaniyaya Darmştadt şəhərindəki Böyük Hersoq Politexnik İnstitutunun elektrotexnika bölümünə göndərilməsini xahiş edib,[7] halbuki o, elektrotexnikanı kimyaya dəyişmişdi və elə kimya üzrə də oxumuşdu...

İsgəndərli təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[8] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[9] 31 dekabr 1919-cu ildə dilkağızları verib.


Ağalar Məşədi Abbasqulu oğlu İsgəndərova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 566 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[10]

Qəhrəman Məmmədovun XDİK zindanında verdiyi ifadədən aydın olur ki, *Ağalar İsgəndərli Berlin Politexnik İnstitutunun kimya fakültəsini bitirib.*[11]

[5] ARDA, fond 51, siyahı 3, iş 126, vərəq 6.
[6] Yenə orada, vv. 5-5a.
[7] Yenə orada, iş 84, vərəq 4.
[8] Yenə orada, vərəq 8.
[9] Yenə orada, vərəq 9.
[10] Yenə orada, vərəq 10.
[11] AR MTN arxivi, PR-25476, vərəq 35.

* * *

Türkiyədə Ağalar İsgəndərli *İsgəndər Batu* ad-soyadı götürmüşdü. Qardaş ölkədə yaşayanlar, adətən, adlarına toxunmur, yalnız soyadlarını dəyişirdilər. Ağaların isə adını da dəyişdirməsinə, görünür, çox ciddi səbəb olub. Bizcə, bu səbəb onun məşğul olduğu araşdırmalarla bağlıdır. Bəxtiyar İsmayıllının oğlu Atilla bəyin bizə verdiyi bilgiyə görə, İsgəndər Batu 1938-1955-ci illər arasında nüvə kimyası sahəsində ən öndə gedən mütəxəssislərdən olub və təbii ki, onun işlərinin hamısı ən məxfi şəraitdə aparılıb. Bizcə, o, SSRİ də daxil, müxtəlif ölkələrin gizli xidmətlərindən yayınmaq üçün keçmişi ilə indisi arasında sədd yaratmaqdan ötrü tam yeni ad-soyadla fəaliyyət göstərməyə məcbur olub.



Almaniyada oxuyan azərbaycanlı tələbələr. *Soldan sağa:* Həmid Xəlil Məhəmməd oğlu, Yusif Salahlı, Ağalar İsgəndərli, İsmayıl Axundov. Münxen, 1923

Bütün işləri fövqəladə gizli aparıldığına görə bu gün İsgəndər Batunun elmi fəaliyyəti haqqında heç nə deyə bilmirik, ancaq burası bəlidir ki, bir çox dövlətlər onu qaçırmağı arzulayıb. Hətta 1976-cı ildə Azərbaycana gəldiyi zaman Türkiyəyə dönməyə 10 gün qalmış onu Bakıda "hara lazımdırsa" apararaq 5 saat sorğu-suala çəkiblər, SSRİ-də qalmağı təklif ediblər, o isə razılıq verməyib və SSRİ-yə gəlməyinə peşman olub...

Şamaxıya, sevgili bacısı oğlu Bəxtiyar İsmayıllı Türkcanlıya 1974-83-cü illərdə çoxlu məktub yazıb. Bəxtiyar bəy İsgəndər Batunun bacısı *Sultanbikə xanım İsgəndərli*'nin (1895, Şamaxı – 1971, Bakı) oğludur. Sultanbikə xanım Şamaxının məşhur bəylərindən Ağasadıq bəy Qocamanbəyovun qız nəvəsi, kapitan Azad bəy Qocamanbəyovun bacısı qızı idi.

Məktubların surətini bizə hələ 2007-ci ildə Bəxtiyar bəyin oğlu Faruq bəy bağışlayıb. Məktublar çox olduğuna görə ən önəmli yerlərini seçərək onlarla oxucuları tanış edirik.

İlk məktublarında İsgəndərlinin ünvanı belədir: *Şaşkınbakkal, Küçükağa sok., №6. Ağa Apartmanı D. №9. İstanbul-Suadiye.*

5 fevral 1974-cü il məktubunu belə başlayır:

"60 ildən bəri tale birliyi etdiyim Ağacəfər qardaşımın[1] *yardımı ilə ünvanını öyrəndim. Biz sağ və səlamətik. Uşaqlarlımdan ikisi Federal Almaniyada və ikisi də Amerika Birləşmiş Ştatlarında çalışır. İkisi oğlan və biri qız olmaqla 3 nəvəmiz var. Mən 9 il əvvəl*[2] *təqaüdə çıxmışam.*

Böyük anamı[3] *23.05.1952-də, böyük atamı*[4] *30.12.1959-da itirdik".*

6 mart 1974-cü il məktubundan:

"Bizim 3-ü oğlan və 1-i qız olmaqla 4 uşağımız var. Bunların ikisi Amerikada, ikisi də Almaniyada çalışır. Alptəkin 46 yaşında, Gültəkin 43, Gülsən 37, Atilla 35 yaşındadır.

[1] Söhbət Cümhuriyyət tələbəsi Ağacəfər Əbdürrəhmanlıdan gedir.
[2] 1965-ci ildə.
[3] Məktubun göndərildiyi zərfin üstündə B.İsmayıllı onun Məşədi Turəbikə xanım Ağasadıq bəy qızı İsgəndərli olduğunu qeyd edib.
[4] B.İsmayıllı onun Məşədi Abbasqulu Hacı Ağaəli oğlu İsgəndərli olduğunu qeyd edib.



Ağalar İsgəndərli iş başında



Soldan sağa: Ağalar İsgəndərlinin həyat yoldaşı Sevim xanım (Şarlotta), Məşədi Abbasqulu İsgəndərli, Alptəkin. İstanbul, təx. 1930-cu il

Alptəkin evlənmək istəmir. Gültəkinin bir oğlu var 13 yaşında, adı da Atilladır. Gülsənin uşağı yoxdur – ya istəmir və ya olmur. Atillanın bir qızı var 11 yaşında, adı Süzandır. Bir də oğlu var 5 yaşında, adı Kərimdir.

Mənə gəlincə, 75 yaşındayam. Bu il 10 il olur təqaüdçü olalı. Təqaüdçü maaşı alıram... Xanımımın adı Sevimdir.[1] *Sizlərə çox-çox salam-duası var... Məndən Şamil bəyə*[2] *çox-çox salam söyləməni rica edirəm".*

10 oktyabr 1974-cü il məktubundan:

"Allah qismət edərsə önümüzdəki ilin may ayında sizləri görməyə gələcəyik. Şamil bəyin qardaşı Ağacəfər də birəbir gələcəkdir.[3]

Bakıda olan Əqdəs və Yaqut xanımlara[4] *salamlarımı yetir, sevgilərimlə gözlərindən öpdüyümü söylə lütfən".*

10 dekabr 1974-cü il məktubundan:

"Seyfulla bəyin[5] *gənc yaşda vəfat etdiyinə çox üzüldüm. Hər zaman iftixar etdiyimiz biricik dayımızın ocağının sönmədiyi təsəllim olmuşdur. Səni, uşaqları Əqdəs xanımı, sevgili qızını, Yaqut xanımı qucaqlayaraq həsrətlə və sevgilərimlə gözlərinizdən, yanaqlarınızdan öpürəm".*

25fevral 1975-ci il məktubundan:

"Səndən bir az məlumat rica edəcəyəm. Söylədiyinə görə, turist olaraq gələnlər müəyyən otellərdə qalmalı imişlər. Tanış-bilişləri ancaq oteldə onları ziyarət edə bilirmiş. Bir də avtobuslarla şəhəri gəzdirirlərmiş. Bakıda gələn turist, məsələn, Şamaxıya gedə bilməzmiş. Bu deyilənlər doğrumu? Bakıdan Qarsa həftədə neçə dəfə qatar var? Bakı-Qars arası neçə saat çəkir? Qatarın yemək salonu və yataq vaqonu varmı?".

15 aprel 1975-ci il məktubundan:

"Turist olaraq gəlmənin gərəyi yoxdur, çünki onların otelində qalınacaq və ziyarətçilər qəbul ediləcəkdir. Sevgili və biricik bacım bir məktub yazıb bizi iki ay üçün dəvət etmişdi. Onun məktubu və şəkli ilə konsulluğa getdim, ancaq kimsə ilə görüşdürmədilər. Bir məmur 3 anket verdi və dedi ki, bunları doldurub bacınıza göndərin. Orada lazım gələn işlər görüləcək və bizə gələcək, o zaman ünvanınıza yazacağıq".

1 iyun 1975-ci il məktubundan:

[1] Onun alman adı Şarlottadır.
[2] O, Ağacəfər Əbdürrəhmanlının Şamaxıda yaşayan qardaşıdır.
[3] A.Əbdürrəhmanlı Azərbaycana gələ bilməyib.
[4] Bu iki xanım İ.Batunun bacısı Gülsüm xanımın qızlarıdır.
[5] Azad bəy Qocamanbəyovun oğludur.

"Bizim xarici pasportlarımız hazırdır".

2 iyul 1975-ci il məktubundan:

"Şamil bəyə salamlarımı yetirməyinizi rica edirəm. Qardaşı Ağacəfər sağ və salamatdır. Bizə gəldiyində Şamil bəyə istəyini özünə bildirirəm".

2 mart 1976-cı il məktubundan:

"Biz, Allah qismət edərsə, may ayının başında buradan hərəkət edəcəyik.

Solmaz xanımdan[1] *məktub aldım. Bizi Leninakandan*[2] *gəlib alacaqlar".*

11 aprel 1976-cı il məktubundan:

Bu məktubun üstündə Dr. Mühəndis İsgəndər Batu ev telefonunu da qeyd edib: 553-636.

"Allah qismət edərsə, biz may ayının 8-də şənbə günü saat 22-də yataqlı qatarla İstanbuldan Qarsa hərəkət edəcəyik. Həftəiçi ayın 10-cu günü saat 20:00-də Qarsa çataca ğıq. Gecəni Qarsda oteldə qalacaq və ertəsi çərşənbə axşamı ayın 11-də saat 9-da Qarsdan qatarla hərəkət edəcək və həmin gün saat 12-də Leninakan vağzalında olacağıq. Görüşməyimiz burada və bu saatda olacaqdır".



Ağalar İsgəndərlinin (İsgəndər Batunun) oğulları Alptəkin və Gültəkin. Şəklin arxasında *"Alptəkin və Gültəkin tərəfindən bibisi Bikə xanıma və bibisi oğlu Bəxtiyarımıza yadigar olaraq göndərdük. 18 sentyabr 1934"* yazılıb.

Qohumları Gümrüyə (Leninakana) gedərək İsgəndər bəy və Sevim xanımı qarşılayıblar və öz maşınlarında Bakıya gətiriblər. Onları Şamaxıya ata yurduna, Ağaların oxuduğu məktəbə, Şamaxı rəsədxanasına və b. yerlərə də aparıblar. Azərbaycanda təxminən iki ay qaldıqdan sonra qohumları onları 9 iyul 1976-cı ildə yenə Gümrüdən qatarla yola salıblar.

Bundan sonra məktublara bir neçə il ara verilib. Yazışma bir də 6 illik aradan sonra başlayıb.

6 dekabr 1982-ci il məktubundan:

"Mən oradan döndüyümdən bəri Sizdən məktub almadım. Tamella xanıma[3] *yazmış olduğum məktuba da cavab almadım, ancaq Haqqıpaşa*[4] *və Solmaz xanımla yazışmamız sürür".*

12 aprel 1983-cü il məktubundan:

"Mən də iki aydır rahatsızam. Dışarı çıxa bilmirəm, bazar işlərimi Sevim görür. Ona da, Allah göstərməsin, bir şey olursa bir baxanımız olmayacaq... Biz də tamamən yalnızıq. Mən sizlərin hamınızı görmək istəyirəm. İndi də müalicə altındayam... Səksən dörd yaşın rolu da az olmasa gərək".

[1] İ.Batunun bacısı Gülsüm xanımın qızıdır.
[2] Gümrüdən.
[3] Bəxtiyar İsmayıllının qızıdır.
[4] İ.Batunun bacısı Gülsüm xanımın oğlu.



Ağalar İsgəndərlinin övladları. *Soldan sağa:* Gültəkin, onun oğlu Atilla, xanımı Ursula, İsgəndər Batunun qızı, Gültəkinin bacısı Gülsən. Avqust, 1974

26 avqust 1983-cü il məktubundan:

"Yalnızlıq içində dörd divar arasında qurbanlıq qoyun kimi keçir həyatımız. Uşaqlar da bizim kimi qürbətdədir. Çörəklərini orada çıxara bilirlər. Bəlkə qəzetlərdə oxumusunuz, [Türkiyədə] işsizlərin sayı üç milyondan artıqdır. Allah yardım eləsin. Təkcə Almaniyada [Türk] işçilərin sayı bir milyondan artıqdır".

11 dekabr 1983-cü il tarixli, əlimizdəki son məktubdan:

"Yaş və yurd həsrəti səbəbiylə rahatsızlıqlar meydana gəlir. Qalxan təzyiq, baş gicəllənməsi, göz qaralması kimi rahatsızlıqlar üzündən aylardan bəri evdən çıxa bilmirəm. Çarşı-bazar işini Sevim görür. Uşaqlara gəlincə, onlar həyatlarını qazanmaq üçün bu yola baş vurmaq zorunda qaldılar. İndi Almaniyada bir milyon yarımdan artıq ailələri ilə birlikdə Türk işçisi var. Bundan başqa, Avropanın başqa məmləkətlərində, ərəb məmləkətlərində, hətta Avstraliyada çoxlu Türk işçiləri çalışmaqda və məmləkətə pul göndərməkdədirlər. Bizimkilər də təqaüdə çıxanadək çalışacaqlar və biz də yalqız qalacağıq. Burada bunlara "qürbətçi" deyirlər...

Sevgili bacımı qərib qardaşı yerinə qucaqlayıb öpməni istəyirəm. Bilirsinizmi, Bəxtiyar bəy, insanın doğulub- böyüdüyü yurduna həsrət qalması qədər faciə təsəvvür edilə bilməz...

Xoşca qal.

Dayı".

Oxuculara xatırlatmaq istərdik ki, dayısı ilə Şamaxıda görüşdükdən sonra Bəxtiyar İsmayıllı ondan çoxlu folklor nümunələri də toplayıb və onları nəşr etdirib. O, "Söz çələngi" adlı almanaxın ikinci cildində[1] bir çox bayatılar cəmləyib və həmin bayatılara belə bir giriş sözü yazıb:

"57 il Türkiyədə mühacirətdə yaşadıqdan sonra 1976-cı ildə iki aylığa vətənə – Şamaxıya gələn, Türkiyənin kimya sənayesinin yaradıcılarından biri olan[2] dayım, professor[3] Ağalar İsgəndərli – İsgəndər Batudan (Şamaxı, 1899 – 1985, Ankara[4]) söhbət əsnasında eşidib qələmə aldığım bayatılar".

* * *

"Azərbaycan" jurnalında Sadiq Qafarlının "Macəra" adlı əsəri[5] dərc olunub. Bu bədii əsərdə Ağalar bəyin atası Məşədi Abbasquludan da söz açılır. Oradan götürdüyümüz, 1915-ci ilin yanvarına aid hissədən kiçik bir parçanı oxuculara təqdim edirik.

"Nömrəyə 40-45 yaşlı, orta boylu, dolubədən bir kişi girdi, hambalın dalından şeylərini alıb yerə qoyduqdan sonra Məhəmmədə diqqətlə nəzər salıb ərk ilə dedi:

[1] Söz çələngi. Almanax. II cild. Bakı, 2005, ss. 314-318.

[2] Bu sözləri Bəxtiyar bəyin, dayısının ünvanına söylədiyi tərif saya bilərik...

[3] Bəxtiyar bəy, "Dr." (Doktor) adlandırıldığına görə dayısı İsgəndər Batunun kimya elmləri doktoru, professor olduğunu düşünüb, ancaq Türkiyədə həmin "Dr." ünvanı bizdəki statusla uzlaşmır.

[4] İstanbul olmalıdır.

[5] *Qafarlı S.* Macəra (xatirə-povest). // *"Azərbaycan"*, 1966 dekabr, №12, ss. 57-105.

Oğlum, Sən burada olacaqsanmı? Şeylərimə göz olsaydın yarım saatlığa getmək istərdim.

- Əmi, mənə xatircəm olmayın. Məni izləyən var. Ola bilər ki, nömrəni qaflətən buraxıb getməyə məcbur olam... Düşmənim var.

Kişi ona diqqətlə baxıb təəccüblə dilləndi:

- Sən ki uşaqsan, sənin nə düşmənin, oğlum?! Soruşmaq ayıb olmasın, hara getmək istəyirsən?

- Şamaxıya gedəcəyəm.

- Mən özüm Şamaxılıyam. De görüm kimlərdənsən?

- Tanımazsınız, çoxdan Şamaxıdan çıxmışıq. İndi orada qohumlarımız var.

- Qohumlarınız kimlərdir, bala?

- Birisi Hacı Ağaəli oğlu Məşədi Abbasquludur.

Kişi bu sözdən diksindiyini hiss etdirmədən soruşdu:

- Şamaxıya kimin yanına gedirsən?

- Hələ heç kimin. Qəza rəisinin idarəsinə gedirəm. Məni İran Astarasından sürüblər. – Məhəmməd kədərini gizlədə bilmədi.

- Kim sürüb, nə üçün? Kimlərdənsən, utanma de, oğlum!

- Öz konsulumuz sürüb, təqsirsiz. Mən Hacı Səfərəlinin nəvəsiyəm. Ağa Nəzərin qardaşı oğluyam.

- Məşədi Abbasqulunu heç görmüsənmi? - deyə kişi bir də diqqətlə gəncə baxdı.

- Yox, görməmişəm. Əmim ona kağız yazıb, özümlə aparıram.

Kişi mütəəssir halda Məhəmmədin çiyinlərini qucaqladı.

"Məşədi Abbasqulu mən özüməm!" – deyən kimi Məhəmməd hönkür-hönkür ağladı. Kişi ötkəm səslə:

- Qorxma, oğlum! Səni buralarda heç kəs incidə bilməz. Qaynım Azad bəy [Qocamanbəyov] yaralanıb cəbhədən qayıtmışdır. Mən onu qarşılamağa gəlmişəm. İndi qubernatorun yanındadır, gələcək, bir yerdə evimizə gedəcəyik. Oğlum Ağalar da dayısının yanındadır. Elə sən yaşdadır. Söhbət edərsiniz, darıxmazsan, - dedi.

Məhəmməd, əmisinin yazdığı məktubu ona verib, başına gələn hadisəni qısaca danışdı".[1]



Soldan-sağa. Orta cərgədə: 1-ci Gülsüm xanım, 2-ci Ağalar İsgəndərli/İsgəndər Batu, 3-cü Sevim xanım (Şarlotta), 4-cü Solmaz xanım. *Arxa cərgədə:* 1-ci Bəxtiyar İsmayıllı. Şamaxı, may, 1976

* * *

Biz Ağalar İsgəndərlidən – İsgəndər Batudan bu qədər öyrənə bildik. Çox güman ki, ciddi araşdırmalar nəticəsində onun özəlliklə Türkiyədəki fəaliyyəti haqqında maraqlı faktlar toplamaq olar.

[1] *Qafarlı S.* Macəra (xatirə-povest). // *"Azərbaycan"*, 1966 dekabr, №12, s. 89.

Kazımov Cəfər Hacı Əliəsgər oğlu

(21.12.1896/4.1.1897, Bakı – 14.8.1968, Bakı)



Cəfər Kazımov. Təx. 1910

Sovet dövlətinə uran qazandırmış nəhəng geoloqlardan biri olan Cəfər Kazımov Azərbaycanın elm quruculuğu tarixinə də əbədi olaraq şərəfli imzasını atıb – sədr müavini[1] vəzifəsinə yüksəldiyi SSRİ EA Azərbaycan Filialının formalaşmasında müstəsna xidmətləri olub. Nə yazıqlar ki, onun adı və əməlləri 60 il (!) insafsızcasına unutdurulub. 1997-ci ildə rəhmətlik xalq şairimiz Xəlil Rza Ulutürkün baş redaktor olduğu, iki dildə çıxan "Günay" qəzetinin bir neçə sayında bizim böyük məqaləmiz işıq üzü görüb.[2] Bu, 1937-ci ildən sonra Cəfər Kazımovun adı çəkilən ilk mətbu yazıdır. Aradan 4 il keçəndən sonra həmin yazını bir qədər də təkmilləşdirərək kitabça halında nəşr etdirdik.[3] Bundan sonra C.Kazımov haqqında əsasən bizim yazıdakı faktlardan yararlanmaqla başqa məqalələr də ortaya çıxdı.[4] Beləliklə, bu görkəmli insanın adı Azərbaycanın elm tarixində yenidən öz layiqli yerini tutdu. Bu işdə həlledici rol oynadığımızla fəxr etməklə yanaşı, bildirməliyik ki, bizim yazımızda (bizdən yararlandıqları üçün, təbii ki, obiri müəlliflərin yazılarında da) ən mühüm çatışmayan cəhət C.Kazımovun Almaniyada oxuduğu tələbəlik illəri haqqında, demək olar ki, heç bir məlumatın verilməməsi idi, çünki o vaxt əlimizdə bununla bağlı materiallar yoxdu. Aradan keçən 13 il müddətində arxivlərdən və başqa qaynaqlardan Cəfər Kazımovun həyat və fəaliyyəti, eləcə də Almaniyadakı təhsil dönəmi haqqında xeyli yeni faktlar üzə çıxarmışıq. Beləliklə, bu yenidən işlənilmiş yazı Cəfər Kazımov haqqında ən son bilgiləri də əhatə edən ən son sözdür.

* * *

Bütün ömrünü öz elinin və yurdunun mədəniyyət və elminin çiçəklənməsi, maddi rifahının yüksəlməsi yolunda xərcləmiş adamların adıyla bağlı nə varsa təkcə tarix səhifələrindən deyil, hətta sadə insanların yaddaşından da insafsızcasına silinmə hallarıyla qarşılaşanda bir araşdırıcı kimi ürəyim göynəyir. Hər dəfə arxivlərdə 1930-cu illərdə şiddətli cəzalara uğramış, adları bugünədək kimsəyə bəlli olmayan Azərbaycan alimləri və dövlət adamları haqqında sənədləri əlimizə götürəndə bu işi sona yetirməyi – onlar haqqında hər şeyi incəliklə araşdırmağı, imkan daxilində bütün bilgiləri toplamağı, ömür yolları və yaradıcılıqları barəsində mətbuatda çıxış etməyi özümüzə vicdan borcu sayırıq. Boynumuza alaq ki, bu istəyimizi ən müxtəlif obyektiv və subyektiv səbəblər üzündən bəzən gerçəkləşdirə bilmirik. Cəfər Kazımovla da belə olub.

[1] İndiki meyarlarla bu görəv vitse-prezident vəzifəsinə uyğun gəlir.

[2] *Tahirzadə Ə.* Cəfər Kazımov – sovet uranını tapanlardan biri. // *"Günay"* qəzeti, 26.04.1997, № 45; 29.04.1997, № 46; 01.05.1997, № 47; *Tazapsade A.* Джафар Кязимов – один из первооткрывателей советского урана. // *№ "Günay"* (rusca), 26.04.1997, № 45; 29.04.1997, № 46; 01.05.1997, № 47.

[3] Yenə orada.

[4] *Шариф А., Багиров М.* Азербайджанский геолог, подаривший СССР уран. // Газ. *«Зеркало»*, 25.09.2004; *Керимова Т.* Из истории Национальной Академии Наук Азербайджана. Баку, 2005, ss. 423-424.

Hələ 1987-də Azərbaycan EA Arxivində və ozamankı partiya tarixi arxivində – indiki ARPİİSSA-də onunla bağlı sənədlər tapsaq da həyatının 1957-dən sonrakı dönəmini uzun müddət heç cür öyrənə bilmədik, çünki həmin ildə yaşadığı mənzildə bu gün onun adını ilk dəfə bizdən eşidən adamlar yaşayırdı. Heç yerdən və heç kimdən onun haqqında kiçicik də soraq ala bilmirdik. Sənəddə oxuduğumuz *"uran tapmışam"* söz birləşməsi isə bizi inadcılıqla alimin izinə düşməyə təhrik edirdi. Nə yazıqlar ki, bütün axtarışlarımız boşa gedirdi. Ancaq 1996-cı ildə dostumuz – Azərbaycan tarixinin, xüsusən 1918-1920-ci illərin yorulmaz araşdırıcısı *Mövsüm Əliyev* Müsavat hökumətinin əcnəbi ali məktəblərə oxumağa göndərdiyi 100 tələbədən söz açarkən gözləmədiyimiz halda bildirdi ki, onlardan biri olan Cəfər Kazımovun ailəsi (qadını və qızı) 28 May küçəsində yaşayır. 9 ildən sonra yenidən əski mövzuya qayıtdıq və C.Kazımovun ömrünün son illərini yaşadığı həmin mənzildə olduq.



Cəfərin anası Xanım Mirzə Zeynalabdin qızı

Öncədən gözümüzün qabağına gətirdiyimiz durumla qarşılaşdıq. Sonsuz işgəncələrə, təhqirlərə, yalanlara və alçaldılmalara uğrayan ailə – alimin 94 yaşlı arvadı Mariya Nikolayevna və 60 yaşlı qızı Leyla xanım ilk vaxtlar bizə təbii çəkingənliklə, ehtiyatcıllıqla yanaşdı. Mariya Nikolayevnanın davranışısa bizi əməlli-başlı sarsıtdı; o düşünürdü ki, biz paltarını dəyişmiş "NKVD" əməkdaşıyıq və onlara ziyan yetirmək istəyirik. O, aramsız olaraq yalvarırdı: *"Yoldaş, qızımdan başqa mənim heç kəsim yoxdur. Yalvarıram, ona toxunmayın, bizə pislik etməyin"*. Hətta qızının onu təkidlə inandırmağa çalışması da nəticəsiz qaldı. Doğrudur, iki-üç görüşdən sonra onun şübhələri seyrəlməyə başladı, ancaq yenə də bu xahişdə bulundu: *"Bütün bunları mümkün qədər tez qurtarın"*. O, bir də rica etdi ki, yazıları çap etdirməzdən qabaq qaralamanı mənə oxu, orada "artıq şeylər" getməsin. Əlbəttə, "yox" deyə bilməzdik, ona görə də bu tərcümeyi-hal oçerkini öncə rus dilində yazmalı olduq (Azərbaycan türkcəsindəki bu variantı ruscadan çevirmişik).

Gerçəkdən də, dəhşətli faktdır! Mənəvi və cismani baxımdan sındırılmış, məhv edilmiş alimin ömür-gün yoldaşı 1996-cı ildə belə o illərin qorxusunu yaşamaqdaydı; "NKVD" kabusu onu hələ də tərk etməmişdi. Onun özü də mənəvi və psixoloji əlilə çevrilmişdi!..

Bu cür vəziyyətə ilk dəfə 1986-cı ildə – ilk redaktoru olduğumuz *"Elm"* qəzetində *"Salman Mümtaz məktəbi"* başlığını açıb ilk yazını da elə onun özü haqqında verəndə düşmüşdük. Həmin yazı çıxandan bir həftə sonra Mümtazın qızı, rəhmətlik Şəhla xanım Mümtazzadə (1916-4.8.1996) qayğıkeşliklə soruşmuşdu: *"Atam haqqında məqaləyə görə başın ağrımadı ki?"*. Ancaq Şəhla xanım gerçəkliyə tez uyğunlaşdı, əmin oldu ki, qorxu zamanı keçib, əksinə, atasının nüfuzunu qaytarmaq uğrunda çarpışmaq gərəkdir. Ömrünün son dəqiqəsinədək elə bu yolda da əlindən gələni etdi. (Allah ona rəhmət eləsin!).

Repressiya olunmuşların çoxlu qadınlarıyla və qızlarıyla Şəhla xanımdan sonra da görüşdük. Onlar da həyəcan, qorxu içərisindəydilər. Ancaq bir qədər ünsiyyətimizdən sonra



Soldan sağa: Əbülfəz, Cəfər və Ağahüseyn Kazımovlar dayıları Əliyevlə *(əsalı)*



Cəfər və bacısı Umleyla. Bakı, 1917

onlar az qala bütünlüklə dərdlərini unudur və artıq ərlərinə (atalarına) elmi bəraət qazandırmaq haqqında düşünürdülər.

...Mariya Nikolayevnayla uğursuz söhbətdən bizdə bu fikir oyandı ki, biz ziyalılar millətimizin də minlərcə ən say-seçmə oğlunun həyatını məhv etmiş, milyonlarca adamın ocağını söndürmüş, ən adi insani sevincinə düşmən kəsilmiş KOMMUNİZM'in cinayətlərini yorulmadan ifşa etməliyik! Elə KOMMUNİZM'ə nifrətimiz üzündən də bu oçerk öncəki ən böyük məqalələrimizdən həcmcə üçqat böyük alındı.

Bu tərcümeyi-hal oçerkində Azərbaycan Cümhuriyyətinin Avropaya ali təhsil almağa göndərdiyi "100 tələbə"dən biri, sonralar Şimal qütbündə sovet uranını ilk dəfə tapmış Azərbaycan alimi və geoloqu Cəfər Kazımovdan danışılır. Onun iştirak etdiyi geoloji ekspedisiyanın rəisisə başqa bir azərbaycanlı – məşhur geoloq *Rüstəm Gəray oğlu Vəkilov* (1916-1993) idi. Bu yazıda biz bilərəkdən onun yalnız adını xatırlamaqla kifayətlənirik, çünki onun haqqında tanınmış jurnalist və araşdırıcı İsmayıl Umudlunun dəyərli yazıları var.[1]

* * *

Zaqafqaziya Şiə Ruhani İdarəsinin 31 may 1905-də verdiyi doğum şəhadətnaməsinə görə, Cəfər 21 dekabr (köhnə üslubla) 1896-da Bakı şəhərinin sakini Kərbəlayı[2] Əliəsgər Hacı Məstan oğlunun qanuni arvadı Xanım Mirzə Zeynalabdin qızından doğulub.[3] (Ulu babasının adı *Kazım* olduğuna görə soyadları *"Kazımov"* olub). 7 mart 1926-da milliyyətcə *"Türk"* Cəfər Kazımova verilmiş şəxsi vəsiqədə (bu vəsiqə pasportu əvəz edirdi) isə göstərilir ki, o, 4 yanvar 1897-də Bakı şəhərində dünyaya gəlib. Bu tarixlər ilk baxışda bir-birindən fərqli görünsə də əslində eyni zamana aiddir – sadəcə, birincisi köhnə, ikincisi isə yeni üslubla göstərilib.

[1] Məsələn, bax: *Umudlu İ.* Vəkiloğulları. Tarixi-bioqrafik araşdırma. Bakı, 2003, ss. 452-453.
[2] O, sonralar hacı olmuşdu.
[3] ARDA, fond 51, siyahı 3, iş 87, vərəq 4.

Əlimizdə alimin özünün yazdığı bir neçə tərcümeyi-halı var; onlar C.Kazımovun həyatının ən müxtəlif dönəmlərində qələmə alındığı üçün konkret şəraitin tələbindən irəli gələn müxtəlif məzmundadır.

Aşağıda Azərbaycan EA Arxivində saxlanılan tərcümeyi-halın bütöv mətni verilir. Gümanımızca, 1937-nin başlanğıcında yazılmış bu sənəddə müəllifin 1937-dən sonra haqqında inadla susduğu çoxlu maraqlı faktlar əks olunub.

"4 yanvar 1897-ci ildə Bakı şəhərində doğulmuşam. Uşaqlıqdan yetim qalaraq qardaşımın himayəsinə sığınmışam. İctimai mənşəcə qulluqçuyam.

Təhsilimi öncə 6-sinifli şəhər məktəbində, sonra isə Bakı real məktəbində alaraq 1915/16-cı ildə başa vurmuşam.

Real məktəbi bitirdikdən sonra Moskva Kommersiya İnstitutuna girmiş, burada 2 il qaldıqdan sonra Bakıya gələrək Xalq xəstəxanasında hesabdar işləmişəm.

1919-cu ildə partiyanın razılığı ilə [Azərbaycan Cümhuriyyətinin] Əmək Nazirliyində 1920-ci ilədək katib işləmişəm.

4 yanvar 1920-ci ildə partiyanın razılığı ilə[1] *ali təhsilimi bitirmək üçün xaricə getmişəm.*

1920-ci ildən 1925-ci ilədək Freyberq Dağ-Mədən Akademiyasında (Almaniya) oxuyaraq oranı uğurla bitirmişəm.

[1.I.] 1926-cı ildən 16/X-26-cı ilədək Bakıda Suraxana rayon V mədənində müdir müavini olmuşam.

[16.] X-1926-cı ildən [1.IV.] 1930-cu ilədək Nərimanov texnikumunda direktor müavini işləmişəm.

Xalq Təsərrüfatı Ali Şurasında (XTAŞ) 4 ayadək [2.IV.1930-31.XII.1930] kadr-lar şöbəsinin rəhbəri olmuşam.

[1.I.] 1931-ci ildən [16.V.] 1933-cü ilədək ASSR Dövlət Plan Komitəsində Rəyasət Heyətinin üzvü və Sənaye bölümünün sədri işləmişəm.

1933-cü ildən indiyədək EA AzF-da (Elmlər Akademiyasının Azərbaycan Filialında) işləyirəm.

1918-ci ildə sol sosialist-inqilabçıların[2] *"Əksinçi" partiyasına girmiş, burada Əli Bayramov, Ruhulla Axundov, Vəzirov, Rəhim Hüseynov və b. yoldaşlarla çalışmışam.*

1919-cu ilin martında biz kommunist partiyası ilə qovuşduq. Gizli işdə mən Suraxana rayonuna təhkim olunmuşdum.

Almaniyada öncə azərbaycanlı, sonra isə zaqafqaziyalı tələbələrin kommunist təşkilatının katibi idim.

Almaniya kommunist partiyasının da üzvü olmuşam.

Ünvanım: Bakı, Mütəxəssislər evi, 3-cü blok, 19-cu mənzil.



Cəfərin bacısı Umleyla İbrahimova. Bakı, 1919-20

[1] Bu hadisələr "Müsavat hökuməti" dövrünə düşdüyünə görə C.Kazımov özünü kommunistlərin yanında sığortalamaqdan ötrü "partiyanın razılığı ilə" ifadəsini işlədir.
[2] Eserlərin.



Cəfərin qardaşı Ağahüseyn Kazımov. Kiyev, 12 mart 1917-ci il



Cəfərin qardaşı Əliəkbər Kazımov. 1920

Telefon (xidməti): 3-62-75
(ev) kommutator: 3-95-30 (107)
(C.KAZIMOV)".[1]

Bu sənəddəki düz mötərizə içərisindəki tarixləri C.Kazımovun EA Arxivində saxlanan əmək kitabçasına[2] əsasən biz artırmışıq.

İndişə 1945-də yazılan və məzmunca əvvəlkini tamamlayan ikinci tərcümeyi-halı gözdən keçirək.

"4/I.1897-ci ildə Bakı şəhərində doğulmuşam. Valideynlərim çoxdan ölüb (anam 1909-cu, atam 1915-ci ildə). Atam qulluqçu-hesabdar, anam evdar qadın idi.

Mən öncə ibtidai məktəbdə, sonra isə orta təhsil müəssisəsinin tam kursunu 1916-cı ildə bitirdiyim Bakı Real Məktəbində oxumuşam. Bundan sonra Moskva Kommersiya İnstitutuna girmiş, burada yalnız bir il oxumuşam.[3] *1917-ci ilin sonunda Bakıya gəlmiş və xəstəxanada hesabdar işləmişəm. 1918-ci ildə Bakıda Azərbaycan sosialist-inqilabçılar partiyasına girmiş, 1919-cu ilin martında Azərbaycan kompartiyasına keçmiş və 1938-ci ildək - həbs olunduğum günədək onun üzvü olmuşam. Azərbaycan Əmək Nazirliyində 1919-cu ildən 1920-ci ildək katib işləmişəm.*

1920-ci ilin başlanğıcında Azərbaycan hökumətinin göndərdiyi 100 təqaüdçü-tələbənin içərisində mən də xaricə ali təhsilimi davam etdirmək üçün getmişəm.

Azərbaycanda Sovet hakimiyyəti qurulanda 1920-nin aprelindən 1925-ci ildək (daxil olmaqla) Frayberq Dağ-Mədən Akademiyasında (Almaniya) oxuyaraq Akademiyanın tam kursunu bitirmiş və dağ-mədən mühəndisi rütbəsi almışam. Bitmiş ali təhsili başa vuraraq

[1] EA MEA, fond 39, siyahı 1, iş 87, qutu 4, vv. 5-5a.
[2] Yenə orada.
[3] Cümlənin ardı olan "eyni zamanda Moskvada bankda xidmət etmişəm" sözlərini özü pozub.



Cəfər Kazımov. Almaniya

Bakı şəhərinə gəlmiş, öncə Azərneftin neft mədənlərində 1927-ci ildək işləmişəm.

1927-ci ildən 1930-cu ilədək Azərbaycan kommunist partiyasının qərarı ilə Nərimanov adına (sənaye) texnikumuna direktor müavini və texniki fənlər (qazma, dağ-mədən sənəti, mineralogiya və petroqrafiya) üzrə müəllim kimi göndərilmişəm.

1930-cu ildən 1933-cü ilədək Azərbaycan XTAŞ-da kadrlar şöbəsində, sonra isə Dövlət Plan Komitəsində bölüm sədri olmuşam.

1933-cü ildən 1938-ci ilədək Elmlər Akademiyası Azərbaycan Filialında Rəyasət Heyəti sədrinin müavini işləmişəm.

(İmza) 18/IV.1945".[1]

C.Kazımovun bütün başqa sənədləri kimi, rusca yazılmış bu iki tərcümeyi-hal da onun həyatının 1945-ədək olan ən mühüm anlarını ətraflı aydınlaşdırır. Ancaq sənədlərin soyuq rəsmiyyəti sonsuz iztirab və həyəcanların, ürək parçalayan hönkürtü və nalələrin, acı göz yaşlarının… daha çox yer tutduğu əsl insan həyatının bütün mənzərəsini əsla əks etdirmir…

* * *

Beləliklə, 1909-da anasını itirmiş oğluna Kərbəlayı Əliəsgər ata məhəbbətini daha da artırıb. O, balaca Cəfərin özünü yetim hiss etməməsindən ötrü əlindən gələni əsirgəməyib. Tərbiyəsinə və təhsilinə ciddi qayğıyla yanaşıb.

C.Kazımov 1906-cı ildən Bakı edadisində (real məktəbində) təhsil almağa başlayıb. Onun attestatından aydın olur ki, o, burada 1 sentyabr 1906-cı ildən 30 aprel 1915-ci ilədək oxuyub və əsas bölmə üzrə tam kursu bitirib. Ancaq yaxşı oxuduğunu demək mümkün deyil, çünki hətta hamının "5" aldığı şəriətdən də ona "4" verilib; bundan başqa, onun yalnız hesab və tarixdən "4"-ü var, yerdə qalan 9 qiymətinin hamısı "3"-dür.[2]

Ali məktəbə girməkdən ötrü o, əlavə bir sinif də oxumağa məcburdu. 1 sentyabr 1915-ci ildən 1 iyun 1916-cı ilədək həmin məktəbin əlavə – 8-ci sinfində oxuyub. Bu zaman qiymətləri daha da aşağı düşüb. Şəhadətnaməsində daha "4" görmürük – 14 qiymətinin hamısı "3"-dür (hətta şəriətdən də!).[3] Belə zəif oxumasının səbəbi bizə bəlli deyil.

Real məktəbin son sinfinə olarkən – 1915-ci ildə atası Kərbəlayı Əliəsgər də dünyasını dəyişib. 18 yaşlı gənc böyük qardaşı Ağahüseynin himayəsinə sığınıb.

Cəfər ali təhsil almaq istəyirdi, bu isə yalnız Rusiyada mümkündü. Diləyinin çin olmasında qardaşı ona köməklik göstərib.

Kiyev Şəhəri Dövlət Arxivində saxlanılan Kiyev Kommersiya İnstitutunun sənədləri arasında Cəfər Kazımovun da şəxsi qovluğu ilə tanış olduq. Görünür ki, Cəfər real məktəbi

[1] Sonunda qaynağı göstərilməyən bütün bəlgələrin əsli Cəfər Kazımovun ailə arxivində, surətləri bizim özəl arxivimizdədir.
[2] ARDA, fond 51, siyahı 3, iş 87, vərəq 2.
[3] Yenə orada, vərəq 3.



Cəfər Kazımov. 1919

bitirərkən öncə bu ali məktəbə girmək istəyib və sənədlərini oraya göndərib, ancaq sonra hansı səbəbdənsə fikrindən vaz keçərək Moskvaya gedib və oradakı Kommersiya İnstitutuna daxil olub. Kiyev Kommersiya İnstitutu direktorunun[1] adına yazdığı ərizədə o, təqdim etdiyi sənədləri sadalayır və institutun ticarət-texnika, yaxud iqtisad bölməsinə qəbul edilməsini xahiş edir. Sənədin üstündə onun 7 iyul 1916-cı ildə bu instituta qəbul edilməsi haqqında qeyd var.[2] Ancaq Cəfər burada bir gün də oxumayıb və 3 noyabr 1916-cı ildə Moskvadan institut direktorunun adına göndərdiyi poçt kartında yazaraq xahiş edib ki, onun instituta təqdim etdiyi notariusda təsdiq edilmiş sənədlərinin surətlərini Moskvaya 2-ci Meşşan küçəsi 20-ci ev, 23-cü mənzilə[3] göndərsinlər.[4]

C.Kazımovun Kiyev arxivindəki sənədləri yalnız əllə köçürülmüş surətlərdən ibarətdir (çünki orijinallar Moskvaya göndərilib). Onların içərisində bizə maraqlı ola biləcək bircə sənəd var. Bakı Meşşan İdarəsi C.Kazımova onun yazılı xahişi ilə 21 iyun 1916-cı ildə 1170 saylı belə bir arayış verib ki, o, həqiqətən, 21.12.1896-cı ildə doğulub, Bakı şəhərinin meşşanıdır (sakinidir) və Bakı şəhərinin əyal dəftərində 678-ci nömrə altında qeydə alınıb.[5]

Moskva Kommersiya İnstitutundan 19 iyun 1917-ci ildə verilmiş 3529 saylı sənəddə göstərilir ki, Cəfər Kərbəlayı Əliəsgər oğlu Kazımov Moskva Kommersiya İnstitutu texnika bölməsinin 2-ci semestrinin həqiqi dinləyicisidir və sənədləri institutda saxlanılır.[6]

Qardaşının mənəvi və maddi yardımı 1917-ci ildək – Rusiyada böyük iğtişaş başlayanadək davam edib. Dəhşətli hərc-mərclik üzündən 1917-ci ildə artıq Moskvada yaşamaq həyat üçün qorxulu olarkən Bakıya dönməyə məcbur qalıb.

1918-ci ildə milli hakimiyyət – Azərbaycan Cümhuriyyəti quruldu. Cəfər də ziyalı kimi bir işin qulpundan yapışmaq istəyirdi.

Moskva Kommersiya İnstitutunun tələbəsi, Spasski[7] küçəsi 11-də yaşayan Cəfər Kazımov 4 noyabr 1918-ci ildə Azərbaycan Cümhuriyyəti posta-teleqraf nazirinə belə bir ərizə verdi: "Mühasib vəzifəsinə götürülməyim haqqında sərəncam verməyinizi Siz əlahəzrətdən acizanə xahiş etməklə şərəflənirəm, çünki bu sahə üzrə xeyli təcrübəm var və təcrübədən başqa, Moskva Kommersiya İnstitutunun tələbəsi kimi nəzəri biliklər də almışam. Hal-hazırda "Səadət" Türk Hərbi Xəstəxanasında hesabdar işləyirəm[8]. Həmin xəstəxana köçəcəyinə görə özümə münasib iş yeri axtarmağa məcburam, buna görə də Siz əlahəzrətə məni uyğun vəzifəyə götürməyinizi xahiş etmək üçün müraciət edirəm. Xatırlatmağı artıq saymıram ki, Moskvada 2 il İranın Hesabat-Borc Bankında hesabat bölməsinin müdiri vəzifəsində çalışmışam".[9]

Görünür, Posta-Teleqraf Nəzarətində ona münasib bir iş tapılmayıb. 20 yanvar 1919-cu ildə o, bu dəfə Azərbaycan Cümhuriyyəti məsai[10] nazirinə ərizə yazıb: *"Sizə tapşırılmış Nəzarətdə[11] mənə təhsilimə uyğun yer verməyinizi acizanə xahiş etməklə şərəflənirəm".*[12]

[1] O zaman universitet başçısına "rektor", institut başçısına isə "direktor" deyilirdi.
[2] KŞDA, fond 153, siyahı 4, iş 2543, vərəq 1.
[3] C.Kazımov burada yaşayırdı.
[4] KŞDA, fond 153, siyahı 4, iş 2543, vərəq 2.
[5] Yenə orada, vərəq 7.
[6] ARDA, fond 51, siyahı 3, iş 111, vərəq 5a.
[7] İndiki Zərgərpalan.
[8] Deməli, onun "Xalq xəstəxanası" adlandırdığı bu imiş!
[9] ARDA, fond 7, siyahı 3, iş 30, vərəq 1.
[10] Əmək.
[11] Nazirlikdə.
[12] ARDA, fond 7, siyahı 3, iş 30, vərəq 2.

Məsai naziri, sosialist *Aslan bəy Səfikürdski* Cəfər Hacı Əliəsgər oğlu Kazımovun 21 yanvar 1919-cu ildən Məsai Nəzarətinə katib təyin edilməsi haqqında 4 saylı əmr verib.[1] Ona ayda 1.500, ildə 18.000 manat maaş təyin edilib.[2]

Sənədlərlə sonrakı tanışlıqdan hiss olunur ki, C.Kazımov iş bacarığı və intizamıyla tezliklə A.b.Səfikürdskinin hörmət və rəğbətini qazana bilib. Əlbəttə, onların siyasi baxışlarının çox yaxınlığı da münasibətlərin səmimiliyinə müsbət təsir göstərə bilərdi. Nazir onun səmərəli çalışması və dövlət işində təcrübə qazanması üçün ondan asılı olan hər cür şərait yaradıb, ona şəxsi qayğı göstərib. Elə bu inamın nəticəsidir ki, Aslan bəy dəftərxana direktorunun əvəzi Sultansəid Kazbekov məzuniyyətdə olan zaman onun məsul vəzifəsini 21 sentyabr 1919-cu ildən şəxsi katibi Cəfər Kazımova həvalə etmişdi.[3]

10 noyabr 1919-cu ildə Məsai Nəzarətinin katibi Cəfər Kazımov nazirə ərizə yazaraq bildirib ki, ciddi xəstəyəm, uzunmüddətli və ciddi müalicəyə ehtiyacım var (bu haqda hökumət xəstəxanası həkimi ona 26 oktyabr 1919-cu ildə arayış verib[4]), ancaq bunun üçün vəsaitim yoxdur. O, nazirdən xahiş edir ki, müalicə almaqdan ötrü münasib bildiyi qədər vəsait ayırsın.[5] Ərizənin üstündə A.b.Səfikürdski ona 1 aylıq maaşı həcmində yardım edilməsinə göstəriş verib.

12 noyabr 1919-cu ildə Məsai Nəzarəti dəftərxanası direktorunun əvəzi C.Kazımov nazirə yeni bir ərizə ilə müraciət edərək müalicə olunmaqdan ötrü ona bir aylıq məzuniyyət verilməsini xahiş edib. Nazir dərhal şəxsi katibinə 20 noyabr 1919-cu ildən bir aylıq məzuniyyət verib.[6]

Təbii ki, müalicədən qayıdan Cəfər Kazımovun maddi durumu xoşagələn olmayıb, ona görə 1919-cu ilin dekabrında nazirə belə bir raport yazıb: "Nəzarətin yaranması günündən Özəl Müşavirənin işlərində fəal iştirak etmişəm və bu işlərlə bağlı xidmətdənkənar vaxtda da tapşırıqlar yerinə yetirmişəm. Buna görə və hədsiz ehtiyacım üzündən mənə münasib bildiyiniz qədər hər hansı mükafat təyin etməyinizi xahiş etməklə şərəflənirəm".[7]

Fikrimizcə, yardımla bağlı olaraq nazirə ünvanlanmış bütün bu ərizələri Cəfərə elə Aslan bəyin özü yazdırıb və gümanımızın doğruluğuna inanırıq ki, Aslan bəyin rəhbərliyi altında çalışdığı dönəmin Cəfər Kazımovun həyatının ən xoş, ən unudulmaz dönəmlərindən olduğunu düşünməklə yəqin ki, xətaya yol vermirik.

6 yanvar 1920-ci ildə Cəfər nazirə ərizə yazaraq, xaricə gedəcəyinə görə işdən çıxarılmasını xahiş edərkən[8] artıq Aslan bəyin kürsüsündə başqa nazir əyləşmişdi. Yeni nazir Əhmədcövdət Pepinov Cəfər Kazımovun tutduğu katib vəzifəsindən həmin ilin 1 yanvarından öz ərizəsinə əsasən azad edilməsi haqqında 96 saylı əmr verib.[9]

Məsai naziri Ə.Pepinovun, dəftərxana müdiri Kənan və ümumi şöbə müdiri əvəzi Məhəmməd Hacıyevin imzası ilə C.Kazımova verilmiş 3 yanvar 1920-ci il tarixli sənəddə oxuyuruq:

"Bu attestat Cəfər Kazımova ona görə verilir ki, o həqiqətən Məsai Nəzarətinin Mərkəzi İdarəsində 20 dekabr 1918-ci ildən 3 yanvar 1920-ci ildək katib vəzifəsində qulluq edib və xaricə getdiyinə görə öz ərizəsi ilə tutduğu vəzifədən azad olunub. Özü də, bütün fəaliyyəti

[1] ARDA, fond 7, siyahı 3, iş 30, vərəq 3.
[2] Yenə orada, vərəq 4.
[3] Yenə orada, vərəq 5.
[4] Yenə orada, vərəq 7.
[5] Yenə orada, vərəq 6.
[6] Yenə orada, vərəq 10.
[7] Sənədin üstündə nazirin yardım verilməsi haqqında 2 dekabr 1919-cu il tarixli dərkənarı var.
[8] ARDA, fond 7, siyahı 3, iş 30, vərəq 11.
[9] Yenə orada, vərəq 12.



Cəfər Kazımov və yoldaşı Mariya Nikolayevna. Kislovodsk, 1936

boyunca o, heç bir pis hərəkətdə bulunmayıb və üzərinə düşən vəzifələri tam layiqincə yerinə yetirib".[1]

Elə Məsai Nəzarətində çalışdığı vaxt Cəfər Kazımov eşitmişdi ki, Cümhuriyyət hökuməti əcnəbi dövlətlərdə oxutmaq üçün namizədlər seçir. O da xaricdə oxuyaraq ali təhsilini başa vurmaq arzusunu bildirib. 16 avqust 1919-cu ildə xalq maarif nazirinə bu məzmunda ərizə yazıb ki, valideynlərimin ikisini də itirmişəm. Son hadisələr nəticəsində yarımçıq qalmış təhsilimi Fransada – Lion şəhərindəki Politexnikumda (mexanika bölməsində) davam etdirmək istəyirəm, ancaq buna maddi imkanım yoxdur. Məni dövlət hesabına xaricə təhsilini davam etdirməyə göndərilən tələbələrin siyahısına salmağınızı acizanə xahiş etməklə şərəflənirəm.[2]

1 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı ikinci ərizəsində göstərib ki, mən təhsilimi Almaniyanın Manheym şəhərindəki Politexnikumun mexanika bölməsində davam etdirmək istəyirəm. O xatırladıb ki, Nazirlik Komissiyasının sərəncamı ilə mən xaricə göndərilməsi nəzərdə tutulmuş şəxslərin siyahısındayam.[3]

Yuxarıda göstərmişdik ki, C.Kazımovun orta təhsil haqqındakı sənədində qiymətləri heç də ürəkaçan deyildi və buna görə də o, əslində xaricə göndərilməyə də bilərdi. Ancaq Aslan bəy Səfikürdski kimi nüfuzlu bir dövlət adamının yanında bir ildən artıq çalışması və özünü yalnız yaxşı cəhətdən tanıtması bu əngəli aradan qaldırıb. Çox güman ki, Aslan bəy, əlində diplom Azərbaycana qayıdacaq Cəfərin çox dəyərli mütəxəssis kimi yetişəcəyinə tam əmin olub, bu üzdən onun da xaricə göndərilməsini tələbələri seçən komissiyaya tövsiyə edib və onun sözünün çəkisinə inanıblar.

13 yanvar 1920-ci ildə C.Kazımova xaricə dövlət hesabına təhsilini davam etdirməyə göndərildiyi haqqında sənəd verilib[4]. Bir neçə gün sonra o da Avropaya gedən dövlət təqaüdçüləriylə birgə Bakıdan yola düşmüş qatarın sərnişinləri arasındaydı...

Cəfər Kazımova kommunist ideyaları Moskvada olarkən yoluxub. Öncə sol eserlərin (o, *"eser"* yerinə *"sosialist inqilabçılar partiyası"* işlətməyə üstünlük verir) *"Əkinçi"* partiyasına girib, sonra kommunist olub, özü də möhkəmindən. İlk tərcümeyi-halından da göründüyü kimi, Almaniyada tələbələrin kommunist özəyinə başçılıq edib, hətta Almaniya kommunist partiyasının da üzvü olub.

***

Yuxarıda qeyd etdiyimiz kimi, C.Kazımovun Almaniyaya oxumağa göndərilməsində Cümhuriyyət Parlamanının üzvü, Cümhuriyyətin naziri, baş prokuroru və b. vəzifələrdə çalışmış Aslan bəy Səfikürdskinin rolu olduğunu düşünürük.

Xaricə göndəriləsi tələbələrin bəziləri artıq Bakı Dövlət Universitetinə girərək orada oxuyurdular. Ancaq onlar qısa müddətdən sonra xaricə oxumağa göndərildilər. Görünür ki,

[1] ARDA, fond 7, siyahı 3, iş 30, vərəq 13.
[2] Yenə orada, fond 51, siyahı 3, iş 87, vərəq 1. Bu ərizənin üstündə göstərilib ki, xarici pasport ona 11 dekabr 1919-cu ildə verilib.
[3] Yenə orada, vərəq 6.
[4] Yenə orada, vərəq 9.



N.Nərimanov adına texnikumun inşaat şöbəsi 1-ci buraxılışının vinetkası. 7 müəllimin 4-ü keçmiş Cümhuriyyət tələbəsidir *(soldan sağa, yuxarıdan aşağıya)*: 1-ci Cəfər Kazımov, 3-cü Surxay Şahsuvarov, 8-ci Lətif Qədimi, 9-cu Cəmil Musai. 1928

Maarif Nəzarətində işlər çox gərgin olduğuna görə bu haqda Universitetə məlumat verilməyib. Buna görə də Universitet Maarif Nəzarətinə 24 yanvar 1920-ci ildə 145 saylı məktubla müraciət edərək soruşub ki, Bakı Universiteti tibb fakültəsinə qəbul edilmiş tələbələr: 1) Kazımov Cəfər, 2) Axundov İsmayıl, 3) Əlimuradov Cavad, 4) Seyidəliyev Məhəmməd həqiqətən xarici ölkələrə gediblərmi?[1] Nazirlik bu sorğunu 30 yanvarda 1424 saylı məktubla müsbət cavablandırıb.[2]

Cəfər Kazımov öz arzusuna çatdı – Frayberq şəhərindəki istədiyi məşhur ali məktəbə girdi. Onun buradakı tələbə yoldaşlarından biri Səməndər Axundzadə idi.

Səməndəri 1933-cü ildə Dövlət Siyasi İdarəsi ("QPU") həbs etmiş və o, istintaqda bildirmişdi:

"1920-ci ilin yanvarında biz Bakıdan çıxaraq İstanbuldan keçməklə Parisə getdik, orada Azərbaycan Müsavat hökumətinin nümayəndəsi Topçubaşovun yanında olduq. O, bizim sənədlərimizi hazırladı və biz Almaniyadakı təyinat yerlərimizə dağılışdıq. Bir hissə Fransada qaldı. Bizdən Almaniyaya qırx, yaxud əlli nəfər getdi. 7 nəfər Saksoniyada Frayberq Dağ İnstitutuna təyin edilərək orada 1924-1925-ci illərdək oxuduq: Kazımov Cəfər – Bakı şəhərində Azərbaycan Dövlət Plan Komitəsinin sənaye bölməsinin sədri işləyir; Əliyev Əşrəf – halhazırda Bakı şəhərində Stalin mədənində işləyir; Şahsuvarov Surxay – Bakıda Azərneftin geoloji-kəşfiyyat bürosunda; Muradbəyli Cəmil – Orconikidze mədənində işləyir; Həsənov Rzaqulu – Bakı şəhərində Kirov mədəninin direktoru işləyir; Sadıqov Sadıq – Stalin mədənində işləyir.

[1] ARDA, fond 7, siyahı 3, iş 40, vərəq 16.
[2] Yenə orada, vərəq 17.



N.Nərimanov adına texnikumda imtahan. *Soldan sağa:* 1-ci Surxay bəy Şahsuvarov, 3-cü Əliəkbər bəy Mirzəbəyli, 4-cü Cəfər Kazımov. Bakı, 1927-28

Təxminən 1920-ci ilədək hamımız Müsavat hökumətinin nümayəndəsi Topçubaşovdan təqaüd aldıq. Azərbaycanda sovet hakimiyyəti qurulduqda isə Topçubaşov bizə təqaüd verilməsini dayandırdı və biz Bakıya Xalq Komissarları Şurasının sədri Nərimanovun yanına Kazımov Cəfəri nümayəndə göndərdik. O, yol. Nərimanovla danışdı və bizə müxtəlif cəvahirat gətirdi. Onları satıb, alınmış pulları öz aramızda, eləcə də Almaniya və Fransanın başqa şəhərlərindəki tələbələr arasında bölüşdürdük. 1921-ci ildə pullar qurtaranda Berlindəki "tələbə komitəsi" (bu komitənin tərkibinə kimlərin daxil olduğunu xatırlamıram) Bakıya yenidən öz nümayəndələrimizi – məni və Əliyev Əşrəfi göndərdi".[1]

Almaniyada, ancaq Berlində onunla eyni zamanda oxumuş Abbasmirzə Əliyev də repressiya olunub. O, zindanda yazdığı izahatında bildirir:

"Bir qədər sonra[2] *biz ikinci nümayəndə Cəfər Kazımovu göndərdik; o, bizə möhürlənmiş zərfdə brilyantlar və qızıl əşyalar gətirdi. Bu zərf komissiyanın iştirakı ilə açıldı və brilyantlar satıldı".*[3]

Bu yazılanla bağlı bircə faktı dəqiqləşdirməyə ehtiyac var – brilyantları tələbələrin özləri satmayıb. C.Kazımovun qızı Leyla xanımın bizə danışdığına görə, atası həmin cəvahiratı Berlində İbadulla Əlizadəyə (İbad Əliyevə) təhvil verib və satışı da o təşkil edib.

Əlbəttə, brilyantların Cəfər Kazımova etibar edilməsi onun şəxsiyyətinə şərəf gətirən çox müsbət bir haldır. Ancaq Azərbaycandan Avropayadək ləl-cəvahiratı aparmağın özü olduqca məsuliyyətli və çətin bir işdir, çünki onu daşıyanın başına yolda hər cür hadisə gələ bilərdi!

Bəhram bəy Axundovun Ceyhun bəy Hacıbəyliyə İstanbuldan yazdığı 21 iyul 1922-ci il tarixli məktubdan oxuyuruq:

[1] AR MTN arxivi, PR-7175, vərəq 13a.
[2] 1922-ci ildə.
[3] Abbasmirzə Əhməd oğlunun öz əli ilə yazdığı izahat. //AR MTN arxivi, PR-22247, vərəq 20a.

"Tələbələrə gəlincə, Bakıda onlar üçün 2 aydan artıq işləmişəm. Öz əllərimlə komissiyada 200 karata yaxın brilyant hazırlamışam. Moskvadan 2 tələbə ilə göndərmişəm".[1]

Doğrusu, haqqında Bəhram bəyin danışdığı bu brilyantların Səməndər Axundzadə və Abbasmirzə Əliyevin dediyi həmin cəvahirat olub-olmamasını qəti deyə bilmərəm, çünki tələbələr yalnız bir nümayəndəni – Cəfər Kazımovu göndərdiklərini yazırlar, Bəhram bəy isə iki tələbədən söz açır. Bəlkə də bu, başqa bir göndərişdir.

Yeri gəlmişkən, bir məsələni də gözdən qaçırmayaq – Azərbaycan hakimiyyəti tələbələrə brilyant göndərməyi müstəqil həll edə bilməmiş, yalnız Rusiya Xarici İşlər Nazirliyi, şəxsən nazirin müavini L.M.Qaraxan (Qaraxanyan) razılıq verdikdən sonra nəticə əldə edilmiş, Berlinlə bütün yazışmalar Qaraxan vasitəsilə, onun nəzarəti altında aparılmışdı. Bəhram bəy Ceyhun bəyə həmin məktubunda yazır ki, tələbələrin brilyantları Almaniyada "necə satdığını bilmirəm; bu haqda Nərimanov Qaraxan vasitəsilə Berlin nümayəndəliyinə məktub yazıb ki, tələbələr qarpış-qarpış etməsinlər".[2]

Artıq bildiyimiz kimi, xaricə göndərilmiş tələbələr oxuduqları ölkələrdə siyasətə qarışmayacaqları haqqında da öz üzərlərinə öhdəlik götürmüşdülər. Ancaq onlardan bəziləri sözlərinin üstündə durmadılar. Onlardan biri də Cəfər Kazımovdur.

Səməndər Axundov 1933-cü ildə yazırdı:

"1923-cü ildə Kazımov Cəfər, mən və Həsənov Rza(qulu) Frayberqdə "ATKT " – Azərbaycanlı Tələbələrin Kommunist Təşkilatını yaratdıq; bu təşkilat öz qarşısına hələ siyasi baxımdan formalaşmamış tələbələrin kommunizm – K.Marksın təlimi ruhunda yenidən tərbiyə edilməsi məqsədini qoymuşdu. Təşkilat Kazımov Cəfərin təşəbbüsü ilə yaradılmışdı".[3]

Əlbəttə, Cəfərin bu mövqeyinə onun qardaşı Ağahüseynin də böyük təsiri olmuşdu.

Yeri gəlmişkən, bir qədər ***Ağahüseyn Kazımov*** (1892-1937) haqqında. O, Kiyev Universitetinin tibb fakültəsini bitirib (1916) və cəbhədə hərbi həkim işləyib. Əqidəli kommunistdi (1918-dən). Azərbaycan Cümhuriyyətinə ultimatum verən Həmid Sultanovun dəstəsindəydi. Sovet Azərbaycanının ilk səhiyyə naziri (sonra nazirin müavini), Azərbaycan Qırmızı Aypara Cəmiyyətinin sədri və b. yüksək dövlət vəzifələrində çalışıb. Öz dövründə sovetlərin ən sayılan xadimlərindəndi – AK(b)P MK Rəyasət Heyətinin üzvü idi. Ancaq özünün də yaratdığı mexanizmin qurbanı olub – 1937-də həbs edilərək "vətən xaini" adı altında güllələnib. Bakı şəhərində "Sahil" metro stansiyasının girişi ilə üzbəüzdəki 1 saylı poliklinika indi onun adını daşıyır.[4]

Nə isə. Cəfər Kazımov 1925-ci ildə Frayberq Dağ-Mədən Akademiyasında təhsilini başa vuraraq dağ-mədən mühəndisi diplomu alıb. Elə həmin il də Bakıya dönüb.

* * *

Azərbaycanda Cəfər Kazımov müəllim, alim və elm təşkilatçısı kimi respublika rəhbərliyinin və kommunist partiyasının mədəni sahədəki bütün göstərişlərini gerçəkləşdirməkçün əlindən gələni edib.

Onun Azərbaycana döndükdən sonra 1925-1937-ci illərdəki fəaliyyətini vəzifələrinin bu ardıcıllığı ilə ifadə edə bilərik:

- Orconikidze rayonu 5-ci mədənində müdir müavini (1925-1927);
- Nərimanov adına Sənaye Texnikumunda direktor müavini və texniki fənlər (qazma, dağ-mədən sənəti, mineralogiya və petroqrafiya) üzrə müəllim (1927-1930);

[1] Bəhram bəy Axundovun Ceyhun bəy Hacıbəyliyə məktubu (rusca). //Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivi, fond 649, siyahı 3, iş 11, vərəq 2.
[2] Yenə orada, vərəq 2. "Qarpış-qarpış" ifadəsi rusca məktubda işlədilib.
[3] AR MTN arxivi, PR-7175, vv. 12-14.
[4] Bax: Azərbaycan Sovet Ensiklopediyası, V c., s. 210.



Soldan sağa: prof. Vladimir Pavloviç Smirnov-Loginov (1877-1944), onun yoldaşı, akademik Frans Yulyeviç Levinson-Lessinq (1861-1939), onun yoldaşı Varvara İppolitovna Levinson-Lessinq (Tarnovskaya), SSRİ Elmlər Akademiyası Azərbaycan Filialı Rəyasət Heyəti sədrinin müavini Cəfər Kazımov. Bakı, may, 1935

- Azərbaycan Xalq Təsərrüfatı Ali Şurası kadrlar şöbəsinin rəisi, sonra isə Dövlət Plan Komitəsində bölüm sədri və Rəyasət Heyətinin üzvü (1930-1933);
- SSRİ Elmlər Akademiyası Azərbaycan Filialında Rəyasət Heyəti sədrinin müavini (1930-1937).[1]

Bu vəzifələrin hamısında o, sözün əsl mənasında canını qoyub. 1937-ci ilin 9 iyununda EA AzF-nın sədr müavini Bahadur Vəlibəyovun ona verdiyi bu xasiyyətnamə də deyiləni sübut edir:

"Cəfər Kazımov EA AzF-nın əsasının qoyulduğu vaxtdan, yəni 1932-ci ildən EA AzF-da Rəyasət Heyəti sədrinin müavini işləyir. İşlədiyi müddətcə heç bir qəbahəti olmayıb, üzərinə düşən vəzifələri vicdanla və səliqəli yerinə yetirib.

Elmi işin xalq təsərrüfatıyla bağlanmasında təşəbbüskarlıq göstərir.

İnzibati-təşkilati işdən başqa, elmi işlə də məşğuldur, bunun nəticəsi olaraq ixtisası – geologiya üzrə elmi əsərləri də var.

EA AzF-nın paritiya və ictimai işinə də az vaxt sərf etmir. Həmişə EA AzF-nın əməkdaşlarıyla siyasi-həmkarlar təhsili xətti üzrə dərnək aparıb".[2]

Bu gözəl xasiyyətnaməyədək hər şey necə də gözəldi!..

Cəfər Kazımov 1930-cu ildən Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin, 1932-ci ildən başlayaraq öncə SSRİ EA Zaqafqaziya Filialı Azərbaycan Bölməsinin (EA ZFAB), 1935-ci ildənsə SSRİ EA Azərbaycan Filialının (EA AzF) qurulmasında ən fəal şəkildə iştirak edib. Düzdür o, Akademiya sistemində hələ 1930-cu ildən elmi araşdırmalarla məşğuldu (bir arxiv arayışına görə, C.Kazımov 15 oktyabr 1931-dən başlayaraq ardıcıllıqla Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu təbii məhsuldar qüvvələrin öyrənilməsi şöbəsində minerallar bölümünün müdiri, EA ZFAB dağ-mədən filizləri şöbəsinin rəhbəri işləyib). Rəyasət Heyətindəki işi onun böyük rəhbərlik bacarığı olduğunu üzə çıxardı.

[1] ARPİİSSA, fond 6, siyahı 8, iş 3521, vərəq 5.

[2] EA MEA, fond 39, siyahı 1, iş 87, qutu 4, vərəq 6.

Azərbaycan SSR Xalq Komissarları Şurası (XKŞ) 19 iyun 1934-də *"Azərbaycan Sovet Ensiklopediyasının nəşri haqqında"* qərar çıxardı. Bu qərara görə, 15 cilddə və hər cildi 50 çap vərəqi olacaq ASE-ni yaratmaqçün XKŞ nəzdindəki komitənin tərkibinə Hüseyn Rəhimov, Ruhulla Axundov, Cəmil Rəhimov, Mövsüm Qədirli, Vəli Xuluflu (elmi katib) və b. ilə yanaşı Cəfər Kazımov da daxildi. O, həbs edildiyi vaxtadək Azərbaycan Ensiklopediyasının ərsəyə gəlməsiyçün xeyli iş gördü.

1935-in 25 oktyabrında yaradılmış EA AzF Rəyasət Heyətində bunlar vardı: *nəşriyyat, redaksiya-nəşriyyat şurası; kitabxana; eksmpedisiya araşdırmalarının biblioqrafiya komissiyası, aspirantura üzrə komissiya, elmi nailiyyətlərin məsləhətləndirilməsi və təbliği və yeni obyektlərin tikintisi komissiyası.*

EA AzF-nın elmi-operativ fəaliyyətinə rəhbərliyi aşağıdakı tərkibdəki Rəyasət Heyəti həyata keçirirdi: sədr *F.Y.Levinson-Lessinq*, sədrin müavinləri *Ruhulla Axundov* və *Cəfər Kazımov*, akademik *İ.İ.Meşşaninov*, professor *A.A.Qrossheym* və *M.Ə.Əfəndi*. Levinson-Lessinqin SSRİ EA-nın həm Azərbaycan, həm də Ermənistan filiallarının sədri olduğunu və həmişə Peterburqda oturduğunu, R.Axundovunsa siyasətlə də məşğul olduğunu nəzərə alsaq EA AzF-na rəhbərlikdə C.Kazımovun aparıcı rol oynadığını qəbul etməliyik. Deməli, o, yeni Azərbaycan elminin yaradıcılarından və rəhbərlərindən biriydi.

*"Azərbaycan Filialının Xəbərləri"*nin 1936-cı il 1-ci sayı qarşımızdadır. 11-12-ci səhifələrdə *"SSRİ EA Azərbaycan Filialının 1935-inci ildəki işinə dair hesabat"* geniş şəkildə dərc edilib. Məruzəçi Rəyasət Heyəti sədrinin müavini C.Kazımovdur.

Bu hesabat indinin özündə də tarixi dəyərini qoruyub saxlayır. Məruzədən aydınlaşır ki, o zaman EA AzF-nın qurumu aşağıdakı elmi-tədqiqat müəssisələrindən ibarətdi: *Botanika, Zoologiya, Kimya institutları, Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu, Dil və Ədəbiyyat İnstitutu, Geologiya, Fizika, Torpaqşünaslıq, Energetika bölümləri, biblioqrafiya komissiyası.* Elmi araşdırma işlərisə bu bölmələrdə aparılırdı:

1) təbiiyyatşünaslıq bölməsində: Botanika, Torpaqşünaslıq, Geologiya, Zoologiya, Fizika, Kimya bölümlərində;

2) texnika bölməsində: Tətbiqi Kimya və Energetika bölümlərində;

3) ictimaiyyat bölməsində: Dil, Ədəbiyyat və Tarix bölümlərində.

1935-ci hesabat ilində EA AzF-da 181 kadr vardı ki, onlardan 116-sı elmi işçiydi.

* * *

Sənədlərdən göründüyü kimi, Cəfər Kazımovun elmi işləri də vardı. Onun özü *"Azərbaycanın dağ-mədən sərvətləri"* monoqrafiyasını yazdığını qeyd edir; həmin əsər onun həbsi zamanı müsadirə edilib və görünür, biryolluq itib (çox güman ki, başqa müəllifin adı və başqa ad altında nəşr edilib). Həyat yoldaşının söylədiyinə görə, bu əsəri yazmağa o, xeyli vaxt və enerji sərf etmişdi.

Bacarıqlı elm təşkilatçısı və geologiya sahəsində yüksək səviyyəli mütəxəssis kimi o, 1937-ci ilin may-iyulunda keçirilən XVII Beynəlxalq Geologiya Konqresinin təşkilat komitəsinə daxildi. Ancaq belə çox nüfuzlu yığıncağın sevincli təəssüratlarının onda uzun sürdüyünə inanmaq çətindir – hələ konqres qurtarmamış (1 iyul 1937) onu vəzifəsindən götürdülər və sözün əsl mənasında Akademiyadan dışarı atdılar. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvü bununla yalnız alim və dövlət xadiminin deyil, adi insanın da imtiyazlarından məhrum edildi. Almaniyadan qayıdandan (1925) sonrakı 12 illik xoşbəxtlik dövrü artıq arxada qaldı.

1 iyul 1937-ci ildən sonra alimin həyatında dönüş mərhələsi başlandı; bu dönəm onun içində kommunist düşünüşüylə həmin əqidənin yaratdığı uydurma ilğımları alt-üst edən sərt həyat gerçəklikləri arasında gedən amansız çarpışmayla səciyyələnir – doğrudur, o heç vaxt



SSRİ EA Azərbaycan Filialında. *Öndə (soldan sağa):* 1-ci Əhəd Yaqubov, 2-ci Xudaverdi Kələntərli, 3-cü Cəfər Kazımov. 1936-1937-ci illər

istər yazılı, istərsə də şifahi şəkildə kommunist düşüncələrinə qarşı çıxmayıb və bundan peşmançılıq duyduğunu bildirməyib, daha doğrusu, bunu heç zaman açıqdan-açığa boynuna almayıb və özünü həmişə kommunist sayıb...

* * *

Nəysə, bu da EA AzF Rəyasət Heyətinin 1 iyul 1937 tarixli iclasının qərarı:

"QƏRARA ALINDI:

İşi yarıtmadığına, EA AzF-na rəhbərlik işinin yoxluğuna, bu üzdən planlar sistemli şəkildə yerinə yetirilmədiyinə, başısoyuqluq və siyasi korluq nəticəsində institutlar və bölümlər xalq düşmənləri və antisovet ruhlu ünsürlərlə zibilləndiyinə və bu, yekunda EA AzF-nın ayrı-ayrı həlqələrində ziyankarlığa gətirib çıxardığına görə Rəyasət Heyətinin sədr müavini C.Kazımov vəzifəsindən götürülsün.

Bu qərar SSRİ EA Rəyasət Heyətinin təsdiqinə verilsin.

Sədr / VƏLİBƏYOV B./

Katib / ŞERBİNA /".[1]

Bu sərt ittihamlar Rəyasət Heyətinin vur-tut üç ay qabaq ona verdiyi əla xasiyyətnaməylə qətiyyən uzlaşmır. B.Vəlibəyovun imzaladığı bu sənəd, əlbəttə, onun şəxsi fikrini deyil, əlahəzrət CƏZA MAŞINI'nın rəyini əks etdirir. (Respublika prokuroru olmuş Bahadır Qasım oğlu Vəlibəyovun özü 24 gün sonra – 25 iyul 1937-də əksinqilabi təşkilatda iştirakına və ziyankarlıq fəaliyyətinə görə həbs edilərək üçillik "istintaq"dan sonra 16 fevral 1940-da güllələnməyə məhkum edilib).

Özlüyündə aydındı ki, bu sənəd Cəfər Kazımovun taleyini öncədən həll edən hökmdü. İndi ona evdə oturmaq və qara geyimli adamların ORADAN haçan gəlib çıxacağını gözləmək qalırdı.

[1] EA MEA, fond 39, siyahı 1, iş 87, qutu 4, vərəq 8.

Burada yadıma sevimli yazıçımız Anarın bir hekayəsi düşdü. 1938-ci ildə həmin durumda bulunan bir kişi evində oturub pilləkənlərdəki çəkmə tappıltılarının yaxınlaşmasını ürək çırpıntılarıyla izləyir və mənzilinin qapısının açılacağını, həbs olunacağını intizarla gözləyir. (Sən demə, pilləkəndəki çəkmə səsləri hamilə qadını doğum evinə aparan "təcili yardım" həkimininmiş). Anarın hekayəsinin qəhrəmanı yalnız bircə gecə yuxusuz qalıb. Cəfər Kazımovsa pilləkəndəki çəkmə səslərini nə az, nə çox – 9 ay 3 gün gözlədi! Düz 279 gün o nə ölü kimi ölu, nə diri kimi diri oldu, hər gün o dünyanı gözləriylə görüb qayıtdı!

Maraqlıdır ki, belə tale SSRİ-də Stalindən başqa hamını gözləyirdi. Məsələn, bütün SSRİ-də yüz minlərcə, milyonlarca insanı ölümə göndərmiş xalq daxili işlər komissarı N.İ.Yejovu (1890-1939) 1939-un martında partiyanın XVIII qurultayında MK üzvlüyündən qovmazdan öncə plenumda Stalin onu əməlli-başlı ittiham etmiş, bundan sonra nazirlikdə də kollegiya iclası olmuş və Yejovu "yıxıb-sürümüşdülər". Ancaq onu hələ həbs etmirdilər. "Boş" keçən günlər ərzində o, neçə dəfə ölüb-dirilmişdi. Adı çəkiləndə hamının qorxudan ödü yarıldığı Yejov, nəhayət, onu aparmağa gələn "NKVD" əməkdaşlarını görüncə ayağa qalxaraq az qala sevinclə "mən bunu nə qədər çox gözlədim!" demişdi.

...Nəhayət, ruhi işgəncələr dövrü qurtardı və çoxdan – hər gün, hər saat, hər dəqiqə intizarında olduğu "xoşbəxt" həbs günü gəlib çatdı. O, adi insanca yaşayışını zəhərə döndərmiş çağırılmamış qonaqları qarşılamaq və qəbul etmək "qayğı"sından qurtuldu. Ancaq...

* * *

4 aprel 1938-dən əlimin həyatında, demək olar ki, iki il (1 il 10 ay 15 gün) sürən ən dəhşətli dövr başlandı.

"İstintaq"ı Xalq Daxili İşlər Komissarlığı (XDİK – "NKVD") mühakimə üsulu şöbəsinin 4-cü bölməsində A.Atakişiyev və müstəntiqlərdən Mustafayevlə Petrunin aparıblar. Bu zaman mühakimə üsulunun ən adi qaydaları da gözlənilmir, ədalət kökündən baltalanırdı. Deyiləni C.Kazımovun müxtəlif illərdə çeşidli ünvanlara yolladığı çoxlu ərizələr də açıq-aşkar göstərməkdədir. (Məsələn, 1947-ci ildə yazılmış bir ərizənin qaralamasında XDİK dustaqxanasında keçirdiyi cəhənnəm əzablarını ətraflı təsvir edib).

İstintaq zamanı C.Kazımovu vəhşicəsinə döyür, ona ağlı başından çıxanadək amansız işgəncələr verirdilər (başına və bədəninə zərbələr, Mustafayevin kabinetində öncə 6 gün, ikinci dəfəsə 4 gün çəkən fasiləsiz sorğular, söyüş, yuxusuzluq və b. kimi). Bunun nəticəsində o, müstəntiqlərin diktəsi altında başdan-ayağa uydurma və yalan ifadələrə qol çəkməyə məcbur edilirdi. Bu ifadələr bayğınlıq durumunda verildiyi üçün o, ağlı üstünə qayıdan kimi istər şifahi, istərsə də yazılı olaraq onlardan qəti şəkildə imtina edirdi.

C.Kazımov ona böhtan atmış şəxslərlə onu üzləşdirməyi istintaqdan dönə-dönə tələb etsə də buna əhəmiyyət verilmədi.

İstintaq dəridən-qabıqdan çıxsa da məhbusa qarşı "çalışqan" müstəntiqlərin onun özündən qopartdığı ifadələrdən başqa heç bir əşyayi-dəlil, sübut tapmaq mümkün olmadı. Elə buna görə də iş istintaqdan sonra Azərb. SSR xüsusi prokurorluğunda, Azərb. SSR hərbi prokurorluğunda və SSRİ XDİK nəzdindəki Özəl Müşavirədə olarkən kifayət qədər dəlil-sübut olmadığına görə geri qaytarıldı. Ancaq alimi nəyin bahasına olursa-olsun həbs etmək gərəkdi; məhz bu üzdən ASSR xalq daxili işlər komissarının müavini Kərimovun özü işə qarışaraq 1940-cı ilin yanvarında Moskvaya getdi və Özəl Müşavirədə C.Kazımova iş kəsilməsinə nail oldu.

Nəhayət, acı bağırsaq kimi uzanan istintaqdan (1 il 8 ay 22 gün çəkmişdi) sonra SSRİ XDİK nəzdindəki Özəl Müşavirə 26 yanvar 1940-da C.Kazımovu islah-əmək düşərgəsində 5 il işləməyə məhkum etdi (belə hökm "heç nə üstündə" çıxarılırdı).

* * *

1940-cı ilin başlanğıcında "xalq düşməni"ni Komi MSSR-in Uxta şəhərində yerləşən uzaq Şimal qütbü düşərgəsinə yolladılar. Havayı "əmək fəaliyyəti"nə o, ümumi işlərdən (ağac qırmaq, bataqlıqlarda kanal qazmaq və b.) başladı. Bütün ətrafın donduğu və qalın qar içində itib-batdığı bir yerdə 12 saatlıq iş günü istənilən məhbusu əldən-dildən salırdı. Uzunboğaz çəkməsiz işləmək mümkün deyildi. Arvadı Mariya Nikolayevna Bakıdan ərinə çəkmə və onun dabanlığında gizlədilmiş 1.000 manat pul göndərmişdi (tərslikdən, C.Kazımov puldan sonadək xəbərsiz qalıb).

Qızı Leyla xanımın söylədiyinə görə, düşərgədə C.Kazımovun həmyerliləri də vardı: Azərbaycan alimi, görkəmli professor V.V.Boqaçyov, Mirsüca Ağamirov (o, məşhur qaraçı müğənnisi Nikolay Sliçenkonun arvadı Tamilla Ağamirovanın atasıdır). Məhz M.Ağamirov həyatının ən ağır dəqiqələrində C.Kazımova hayan olub, ona xilaskarlıq edib.

QULAQ (rusca "Baş Düşərgələr və Cəzaçəkmə Yerləri İdarəsi" mənası verən bu sözü orijinalda olduğu kimi[1] saxlamağı məqsədəuyğun saydıq) düşərgələrində alim-mütəxəssislərçün belə bir ssenari hazırlanıb tətbiq edilirdi – öncə ən çətin və alçaldıcı şəraitdə işlədərək onları cismani və mənəvi cəhətdən sındırır, sonrasa onlara sanki böyük bir lütfkarlıq və mərhəmət göstərərək, həbs edilmələrinə başlıca səbəb olan əsl işlərinə cəlb edirdilər. Cəfər Kazımovla da belə oldu.

"Ədalət aşiqi"ni tam "təslimolma"dan sonra 1941-də Uxta kombinatında (İjem islah-əmək düşərgəsi – İƏD) Mərkəzi Elmi-Tədqiqat Laboratoriyasına (METL) öz ixtisası üzrə elmi işçi keçirdilər və burada 1 oktyabr 1945-ci ilədək işlədi. Xoşbəxtlikdən, laboratoriyanın rəisi öz yaşlı yoldaş və əməkdaşına heç bir qayğını əsirgəməyən gənc Azərbaycan geoloqu *Rüstəm Vəkilov* (1916-1993) idi.

* * *

Rusiya imperiyası ərazisində uran filizi yataqları 1899-cu ildə aşkarlanıb. Bu, Fərqanə vadisindəki *Tüya-Muyun* adlı yerdə hələ orta əsrlərdən tərk edilmiş qədim bir Çin mədəniyidi.

Nadir metalların çıxarılmasıyçün 1908-də özəl *Fərqanə Cəmiyyəti* yaradılmışdı (o, birinci dünya müharibəsinin başlanğıcınadək yaşadı).

Hələ müharibədən qabaqkı illərdə Rusiya EA A.P.Karpinski, V.İ.Vernadski və b. alimlərin təşəbbüsüylə tərkibində radioaktiv xammal olan yerli faydalı qazıntıları öyrənməyə başlamışdı.

Radioaktiv preparatların istehsalını sahmana salmaqçün ruslar ayrıca zavodun tikintisinə hazırlıqda bulundular, ancaq 1914-cü ildə müharibənin başlanmasıyla bütün işlər, o sıradan radium və uran qaynaqlarının axtarışı da dayandırıldı. EA-da *Rusiya Təbii Məhsuldar Qüvvələrini Öyrənən Komissiya* yaradıldı.

Sovet hakimiyyətinin ilk illərində Leninin qızğın dəstəkləməsiylə radiumun istehsalı ideyasına qayıdılması qərara alındı. 1919-da *Berezniki*'də (Perm vilayəti) olan soda zavodunda radiumun bölünməsini qaydaya salmaq cəhdləri uğursuzluqla bitdi və istehsal təsərrüfatını *Bondüj* (indiki *Mendeleyev*) zavoduna (Tatarıstandadır) köçürdülər. Burada işi sahmanlamaq mümkün oldu.

1921-in dekabrında Ümumittifaq Xalq Təsərrüfatı Şurası Baş Kimya İdarəsinin rəisi akad. V.N.İpatyevə İ.Y.Başilov və V.Q.Xlopinin aldıqları sovet radiumunun ilk preparatları təqdim olundu.

Dövlət Radium İnstitutu (direktoru akad. V.İ.Vernadski oldu) və *Tətbiqi Mineralogiya İnstitutu* yaradıldı. 1925-ci ilin payızında Nadir Metallar üzrə Ümumittifaq Tresti də quruldu.

[1] Главное управление лагерей и мест заключения (ГУЛаг).

1928-ci ildə İ.Y.Başilov *Uxta*'nın (*Peçora*'nın) axar sularından radioaktiv xammalı çıxarmağa imkan verən yeni texnologiya təklif etdi. Bu texnologiya 1930-cu ildən həmin rayonu öz idarəsində saxlayan SSRİ Xalq Komissarları Şurası (XKŞ) nəzdindəki Birləşmiş Baş Siyasi İdarəyə (rusca: "OQPU") verildi. Beləliklə, Uxtada zavodun tikintisinə başlandı və o, 1934-cü ildə işə düşərək öz "qonaqlar"ını, o sıradan Cəfər Kazımovu da gözləməyə başladı. (Bu, 1934-cü ilədək zavodda məhbusların olmadığı anlamına gəlmir).

* * *

Cəfər Kazımov SSRİ Xalq Daxili İşlər Komissarlığı (XDİK) *Uxta kombinatının geoloji-kəşfiyyat kontorunda (GKK)* həbsdəydi. Kombinatın kadrlar şöbəsinin rəisi, baş serjant Kozlovskayanın verdiyi arayışdan görünür ki, 135 saylı sərəncama əsasən *"işinə vicdanla yanaşdığına və bir sıra araşdırmaların işlənib hazırlanmasında iştirakına görə, METL rəisinin müsbət xasiyyətnaməsi və vəsatəti nəzərə alınaraq yoldaş Kazımov istehsalatdan götürülərək XDİK Uxta-İjem düşərgəsində ümumi əsaslar üzrə saxlanılıb"*. Bu, o deməkdir ki, C.Kazımov həbsdən vaxtından qabaq azad edilir. Ancaq Uxta kombinatı şəraitində "azadolunma" hələ *"azadlıq"* demək deyildi, çünki o vaxt "xalq düşmənləri"ni müharibənin sonunadək azad etməməyi buyuran *"185-ci direktiv"* deyilən göstəriş mövcuddu. Cəfər Kazımov da evə qayıda bilmədi, çünki ona məhdudiyyətli pasport vermişdilər, buna görə də o, Uxtada qalmağa və Uxta kombinatında muzdla (başqa sözlə, pul alaraq) işləməyə məcbur oldu.

Beləliklə, artıq "yoldaş" olmuş C.Kazımov 15 aprel 1945-ci ildən SSRİ DİN İstintaq Şöbəsi (İŞ) İslah-Əmək Düşərgələri (İƏD) İdarəsi bölməsində geoloq-petroqraf vəzifəsində işləməyə başladı. (Göstərək ki, DİN İŞ islah-əmək düşərgələrində keçən bir il 1 yanvar 1946-cı ildən başlayaraq iki il hesab olunurdu).

Onun birbaşa rəisi, dostu və hamısı Rüstəm Vəkilov belə bir xasiyyətnamə vermişdi ki, C.Kazımov 1941-ci ildən Mərkəzi Elmi-Tədqiqat Laboratoriyasında (METL-da), 15 aprel 1945-dən 1 oktyabr 1945-ci ilədəksə sərbəst muzdla geoloq-petroqraf işləyib. R.Vəkilov yazırdı:

"Dağ süxurlarının mikroskopik araşdırılması üsullarına yiyələnməsi, regional və mədən geologiyasının başqa sahələrindəki göstəriciləri C.Ə.Kazımov yoldaşın ona tapşırılmış bütün işləri tez və yaxşı yerinə yetirməsinə imkan verir. Yol. Kazımov C.Ə. çox çalışqan və müstəsna dərəcədə intizamlıdır. METL-da işlədiyi vaxtda bir sıra araşdırma mövzularının işlənib hazırlanmasında fəal iştirak edib.

Heç bir inzibati cəza və irad almayıb".

1 oktyabr 1945-ci ildən C.Kazımov yenə R.Vəkilovun rəhbərlik etdiyi SSRİ DİN Uxta kombinatının *Şimali Timan ekspedisiyası*'nda işləydi. Ekspedisiya rəisi R.Vəkilova verilmiş sənəddə göstərilir ki, ekspedisiya Arxangelsk vilayətinin ərazisinə daxil olan *Çeşskaya Quba* rayonuna yollanır.

C.Kazımov ekspedisiyada geoloji-axtarış işlərində *iki dəfə* iştirak edib: öncə 14 ay (1 oktyabr 1945 – 20 dekabr 1946), sonrasa 9 ay (15 aprel 1947 – 10 yanvar 1948).

Şimali Timan ekspedisiyası baş geoloqu A.V.İvanovun verdiyi xasiyyətnaməyə görə, C.Kazımov ekspedisiya vaxtı *"özünü çox faydalı, bacarıqlı və şimalın çöllük tundra şəraitində dözümlü işçi kimi göstərib"* və *"üzərinə qoyulan bütün vəzifələri həmişə səliqəli, vicdanla və namusla yerinə yetirib"*.

1947-ci il onunçün uğurlar ili oldu. O, Rüstəm Vəkilovun başçılıq etdiyi dörd nəfər mütəxəssis və iki fəhlədən ibarət ekspedisiyanın tərkibində möhtəşəm bir uğur qazandı – *sovet uranını tapdı*!

Uxta kombinatının rəisi, podpolkovnik *Karasyov*'un və kombinat siyasi şöbəsinin rəisi, podpolkovnik Belyakovun GKK-nın böyük texnik-geoloqu C.Kazımova verdikləri xasiyyətnamədə bu hadisə aşağıdakı cümləylə qeydə alınıb:

"Zapolyaryedə hökumət tapşırığını uğurla yerinə yetirdiyinə görə yol. C.Ə.Kazımova DİN Uxta kombinatının rəisi 1947-ci ildə şəxsi işinə yazılmaqla təşəkkür elan edib". Karasyov və Belyakov C.Kazımovu *"çöl şəraitində olduğu kimi, laboratoriya və materialların elmi işlənilməsi şəraitində də geoloji və kəşfiyyat istehsalatı sahəsinin qiymətli işçisi"* adlandırırlar.

Sovet uranını tapmasından ruhlanaraq o, elə həmin il yuxarı dövlət orqanlarına ərizə yazmağa başladı:

"1946-da mən 6 nəfərlə birgə 1 illiyə Zapolyaryeyə dövlət müdaflə əhəmiyyətli mühüm işə, Şimali Timana (Barens dənizinin sahilləri) geoloji-axtarış ekspedisiyasına ezam edildim. Ekspedisiyanı başa vuraraq Uxta kombinatı rəisinin əmriylə dövlət tapşırığını uğurla yerinə yetirdiyimə görə şəxsi işimə yazılmaqla təşəkkür aldım. İndi də Zapolyarye ekspedisiyasının əməkdaşlarındanam və bildir başlanmış işi davam etdirirəm. Mənim 50 yaşım var. Xahiş edirəm ki, işimə yenidən baxılsın, günahsız həbs edilməyimlə nəticələnən iftiraçı ittiham üzərimdən götürülsün və mənə bütünlüklə bəraət verilsin".

Sözsüz ki, bu sadəlövh müraciəti heç saya salan da olmadı və ərizəçi bu mövzuya bir də yalnız Stalinin ölümündən sonra – 1954-də qayıtdı.

Cəfər Kazımov ekspedisiyanın sıradan bir üzvü deyildi; onun rəis Rüstəm Vəkilovdan sonra aparıcı mövqeyi vardı. 12 aprel 1947-də Uxta kombinatı GKK-nın rəisi Verxorubov və rəis müavini Sakoviçin verdikləri şəhadətnamə də bunu göstərir:

"DİN-nin Uxta İƏD əməkdaşı yol. C.Ə.Kazımova ondan ötrü verilib ki, o, fəhlələrlə və Şimali Timan ekspedisiyasının təcili yüküylə Nenes Milli Dairəsinin Kanino-Timan rayonuna gedir.

Ekspedisiyaya tapşırılmış məsələnin əhəmiyyətini nəzərə alaraq partiya, sovet və təsərrüfat təşkilatlarından yol. C.Ə.Kazımova iş yerinə hərəkət etməkdə hərtərəfli yardım göstərmələrini xahiş edirik".

Yada salım ki, sənəddəki *"təcili yük"* söz birləşməsi altında geoloji-kəşfiyyat araşdırmalarında radioaktiv xammalı çıxarmaqçün işlədilən texniki vasitələr nəzərdə tutulurdu.

Barens dənizinin sahillərindəki iş coşğunluqda davam edirdi.

Cəfər Kazımovu Zapolyaryeyə iki dəfə də göndərdilər. 17 iyul 1948-ci ildə verilmiş sonuncu ezamiyyə vərəqəsində deyilir ki, Şimali Timan ekspedisiyasının böyük texnik-geoloqu C.Kazımov elə həmin Kanino-Timan rayonuna *"31 dekabr 1948-ci ildək çöl geoloji işləri aparmaqdan ötrü"* ezam olunur.

Son ekspedisiyadan qayıdaraq Bakıya – arvadı M.N.Kazımova-Siosinskayaya bir məktub yazdı. [Milliyyətcə polşalı olan, 1902 təvəllüdlü Mariya Nikolayevna C.Kazımova 1927-də ərə getmişdi. O, Bakıda məşhur cərrahlardandı. Bütün həkimlik bacarığını o, 30 ildən artıq fasiləsiz çalışdığı Caparidze adına xəstəxanada (Sabunçuda) göstərmişdi. Yeri gəlmişkən, o, içindəki bütün enerji və qüvvəsini ərinin həbsdən qurtarılmasına, yaxud heç olmazsa yaşadığı şəraitin yaxşılaşdırılmasına sərf etmişdi. Bu son dərəcə qayğıkeş və sədaqətli qadının fədakarlığı şəxsən bizdə ona sonsuz ehtiram doğurmuşdu]. Bu məktub C.Kazımovun insani həyatını təsvir edən, demək olar ki, yeganə sənəddir.

"Əziz Mariya!

Bu il 15/XI-də sağ-salamat Uxtaya yetişdim. Məni və iki məsul işçini bu işdə yenə 1, yaxud 1 ½ aylığa, yəni bu ilin 15, ya da 30 dekabrınadək saxladılar ki, çöldə gördüyümüz

işlər haqqında ilkin hesabat verək. Hesabatı verəndən sonra bizə məzuniyyətə çıxmağı təklif edəcəklər (düzdür, mənim məzuniyyətim bütöv il üçün yox, 8 ay üçündür), məzuniyyətdən sonra isə daha pis başqa bir işə ötürəcəklər. Ancaq mən tam haqq-hesab götürüb Uxtadan gedə bilərəm və belə də edərək cənuba getməyi qərara almışam. Moskvaya göndəriş almağa çalışacağam – mənə nəsib olsa.



Cəfər Kazımov. Təx. 1933-cü il

Qarşıda məni nə gözləyir – özüm də bilmirəm.

Anadan[1] məktub almışam, o da məni Rostovda gözləyir. Ona cavab yazdım və məni unutmadığına görə təşəkkür etdim. Ona mən isti qış şeyləri almışam.

Mariya, yaz, Liliyaya[2] qol saatı almamısansa mən Moskvada olanda alım. Mütləq yaz ki, bilim. Özün də yaz görək sənə gətirəcəklərimdən başqa daha nə almaq lazımdır? Nəyə ehtiyacın var? Sən mənə yazmadın ki, işin necə gedir, indi rəisin[3] kimdir, dissertasiya işini haçan təhvil verməyi düşünürsən?

Aşqabadda zəlzələ olub...

Bacıma salam söylə...

Səni və Liliyanı öpürəm.

(İmza) 18/XI.48".

Necə də nəcib, həssas, qayğıkeş və hələ nikbin ər və atadır! Görəsən, qızına qol saatı almağa pulu haradan tapıb? Sən demə, o, "öz vətəninin rifahı naminə vicdanla və şərəflə çalışıb, bütün güc-qüvvəsini Lenin-Stalinin böyük partiyasına sərf edib" (özü belə yazır) və buna görə də Vətən və partiya onun xidmətlərini unutmayıb. Öz əliylə yazdığı (11.XI.1955), partiya arxivində saxlanan məlumatdan aydın olur ki, "Zapolyaryedə ekspedisiyada olarkən uran tapıldığına görə təşəkkür və *bir aylıq maaş həcmində pul mükafatı*" alıb. Budur onun böyük bir imperiyaya uran qazandırması qarşılığında aldığı maddi "sağ ol"! Kommunist partiyası və Sovet hökumətinin necə də görünməmiş əliaçıqlığı varmış!..

* * *

15 gündən sonra Bakıya ikinci məktub da gəldi – C.Kazımovun ən yaxın dostu, qeyri-adi dərəcədə alicənab və kübar insan olduğuna oxucuların da tezliklə əmin olacağı Rüstəm Vəkilovdan.

"1/XII-48. Uxta.

Çox hörmətli Mariya Nikolayevna!

Mənim üzərimə heç də xoşa gəlməyən bir vəzifə düşüb. Ancaq nə etməli, mən baş verən hadisə haqqında Sizə məlumat verməyi özümə borc sayıram, halbuki Cəfər buna razılıq verməyib.

Bazar günü – 28/XI-də mən Cəfərin çox da sağlam olmadığını gördüm (Sizə bəlli olduğu kimi, Cəfər mənim yanımda yaşayıb). Elə həmin gün ona həkim baş çəkdi, ertəsi günsə nevropatoloq dəvət olundu, Cəfərin sağ qolunun, üzünün sağ tərəfinin (ətrafının) əsəbinin iflic və sağ ayağının parez olduğunu bildirdi. Nitqi bir qədər dolaşıqdır.

Həkimin fikrincə, bu, hipertoniya xəstəliyi nəticəsində beyinə qan sızmağa başlamasından əmələ gəlib (?). Hal-hazırda Cəfərin əhval-ruhiyyəsi pis deyil. Həkim stasionar müalicədən ötrü onu xəstəxanaya qoymağı təklif edib. Onu cümə günü – 3/XII-48-də aparacağam.

Həkimin deməsinə görə, xəstəlik ciddidir, ancaq qorxulu deyil...Sizə bu haqda yazmağa ehtiyac yoxdur, Siz özünüz bu xəstəliyi çox gözəl bilirsiniz.

[1] Mariya Nikolayevnanın anasından.
[2] C.Kazımovun qızı Leyla xanım.
[3] Xəstəxanadakı rəis.

Mariya Nikolayevna, xahiş edirəm həyəcanlanmayın və narahat olmayın. Burada Cəfəri ayaq üstə qaldıracaq bacarıqlı həkimlər var.

Mənim fikrimcə, Siz bu məktubu alanda artıq Cəfərin vəziyyəti xeyli yaxşılaşacaq.

Sizə qəm-qüssə və narahatlıq gətirən bir pis xəbər verdiyimə görə üzr istəyirəm. Ancaq Sizə belə məlumatı verməyi lazım bildim ki, işdən xəbəriniz olsun.

Sizə səmimi-qəlbdən hörmət bəslədiyimə əmin olun.

R. Vəkilov".

6 il sonrasa Cəfər Kazımovun özü yazacaq:

"Bütün başıma gələnlərin, Zapolyaryedə ən ağır iş şəraitinin nəticəsində 1948-ci ilin noyabr ayında bədənimin bütün sağ tərəfinin ağır ifliciylə birgə beynimə qan sızdı.

Altı ildir ki, xəstəyəm və xəstəliyə görə təqaüddən məhrumam, çünki həbsdə yatmışam. Ruhən əzilmişəm".

Ancaq xəstəliyə görə təqaüd qayğısına qalmaq hələ çox tezdi, çünki o, Uxtadaydı. Tam haqq-hesab götürüb cənuba çıxıb getmək kimi şirin arzusu yalnız 1949-cu ilin avqustunda gerçəkləşəcəkdi.

* * *

…İflic vurmuş Cəfər Kazımovu – sağ tərəfini itirmiş keçmiş sol eseri və indiki zorən solaxayı Uxtadan Bakıya ümumi vaqonlarda Mariya Nikolayevna gətirdi. Artıq özü müstəqil şəkildə bir addım da ata bilməyən əlil Cəfər Kazımov Azərbaycana döndükdə ona Bakıda yaşamağa icazə verməsələr və Şamaxı şəhərində yurdlaşmağa məcbur oldu. Ancaq qayğıkeş ömür-gün yoldaşı tez-tez onu gizlincə Bakıya gətirər, çuğul qonşuları bu haqda milisə xəbər verənədək aylarla saxlayardı. Bakıya o yalnız 1955-də – bəraət alandan sonra köçə bildi.

Başqa birisi olsaydı bəlkə də sağlıq durumunun ağırlığı üzündən tezliklə həyatla vidalaşmalı olardı. Ancaq Cəfər Kazımovun iflic vurduqdan sonra da 20 ilə yaxın ömür sürməsinin səbəbkarı onun hədsiz qayğıkeş, cəfakeş və fədakar həyat yoldaşı Mariya Nikolayevna idi. Həm də əla həkim olan Mariya xanım Cəfəri uşaq kimi qoruyur, onun hər arzu-istəyini yerinə yetirir, hər şıltağına dözürdü. Burada "şıltaq" sözü əslində o qədər də yerinə düşmür, çünki Cəfər o qədər mədəni insandı ki, ailəni öz qayğılarıyla yükləməmək üçün əlindən gələni edirdi.

Bunu da qeyd etməliyik ki, "NKVD" zindanında görünməmiş işgəncələrə uğraması (bundan sonra xəstəxanaya düşmüşdü), haqsız yerə buzlu cəhənnəmə göndərilməsi və burada bədəninin bir hissəsini itirməsi, çəkdiyi təsvirəgəlməz məşəqqətlər belə Cəfər Kazımovun yüksək fitri insani keyfiyyətlərini zədələyə, onu kobudlaşdıra bilməmişdi. Qızı Leyla xanım bizə danışır ki, bir dəfə anam xəstəxanadan gəlib rəislərindən gileyləndi ki, o əclaflar ən ağır xəstələri mənə verirlər. "Əclaf" sözünü eşidən atam qulaqlarını tutub heyrətlə anamdan soruşdu ki, sən nə söz dedin?! Bundan sonra anam onun yanında bir də heç vaxt kobud söz işlətmədi…

* * *

Günahsız olduğunu sübut edə biləcəyinə Cəfər Kazımovun hələ 1947-də umudu vardı. Bu düşüncəyə onu uzaq qütb ekspedisiyalarındakı olduqca böyük uğuru – sovet uranını tapması yönəltmişdi. Ancaq o, çox tez ayıldı və anladı ki, Stalinin sağlığında bəraət qazanması mümkünsüzdür, ona görə də Stalin ölüncəyədək susmağı qərara aldı. Nikita Xruşşovun yaratdığı mülayim ab-hava başlar-başlamaz Lenin (indiki "Azadlıq") prospektindəki 80-ci evin 3-cü blokundakı 19-cu mənzildə yaşayan C.Kazımov Azərb.SSR DİN-nə – nazir Quskova ərizə göndərdi:

"Xahiş edirəm ki, həbs edilməyim və partiyadan çıxarılmağım üzrə işim araşdırılsın. Sovet qanununun ədalətinə əminəm, inanıram ki, bütünlüklə bəraət alacaq və partiyaya bərpa olunacağam" (30.XII.1954).

Azərbaycan DİN-də işə baxılması müsbət nəticələndi. Zaqafqaziya Dairəsi Hərbi Prokurorluğunda yoxlanıldıqdan sonra o, 9 may 1955-ci ildə Moskvaya – SSRİ Hərbi Prokurorluğuna göndərildi.

30 iyul 1955-ci ildə C.Kazımov bu dəfə SİKP MK-ya və Partiya Nəzarəti Komitəsinə Hərbi Prokurorluğun işə baxılmasını sürətləndirməsi xahişiylə müraciət etdi. Ancaq Moskvadan heç bir cavab gəlmir, bəraət xəbəri gözləyən Kazımovunsa əsəbləri artıq dözmürdü. Buna görə də 4 sentyabr 1955-də həmin ünvanlara *ikinci dəfə* ərizə göndərdi. Burada bildirdi ki, hələ 1955-ci ilin mayından mənim işim İttifaq Hərbi Prokurorluğuna göndərilib.

"Mənim işimdən ötrü Hərbi Prokurorluğa arvadım gedib, burada ona işi sürətləndirməyə söz veriblər, ancaq İttifaq prokurorluğu əlini ağdan qaraya vurmayıb. Mənim özüm iflicdən yatağa düşmüşəm, bu haqda Hərbi Prokurorluqda arayış var. Sizə müraciət edərək Hərbi Prokurorluqda və Ali Məhkəmədə işimi irəlilətməyi işçilərinizdən birinə həvalə etməyinizi və nəticə haqqında mənə məlumat verməyinizi xahiş edirəm".[1]

Görünür, məhz bu ərizə və Mariya Nikolayevnanın Moskvada olması indi Azərbaycan partiya tarixi arxivində[2] saxlanılan aşağıdakı sənədin qəbul edilməsində həlledici rol oynadı.

Beləliklə, SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası 15 oktyabr 1955-ci ildəki iclasında SSRİ Baş prokurorunun etirazını gözdən keçirərək

QƏRARA ALDI:

"Kazımov bunda ittiham olunurdu ki, o, 1930-cu ildən Azərbaycanda fəaliyyət göstərən əksinqilabi milləti təşkilatın üzvü olub, göstərilən təşkilatın məqsəd və vəzifələrinə bələd olub, onun fəaliyyətində təcrübi cəhətdən iştirak edib, elm cəbhəsində pozuculuq işi aparıb və casusluqla məşğul olub.

[…]İşin materiallarından göründüyü kimi, Kazımovun həbsi üçün məhbuslar R.Axundov, H.Səfərov, Qubaydullin və Fərəczadənin onun burjua-millətçi təşkilatın üzvü olması haqqında ifadələri əsas olub.

Kazımov 10 aprel 1938-ci ildəki dindirmə zamanı ona qarşı irəli sürülən ittihamda özünü günahkar saymayıb…

3-5 iyun 1938-ci ildəki, yəni birincidən iki ay sonrakı növbəti istintaqda o, özünü günahkar bilib və göstərib ki, əksinqilabi təşkilata onu 1930-cu ildə Əliyev İbad cəlb edib, onun tapşırığıyla Azərbaycan sənayesinin planlaşdırılmasında və elm sahəsində pozuculuqla məşğul olub. Sonrakı istintaq prosesində Kazımov 3-5 iyun 1938-ci ildə verdiyi ifadələrdən imtina edərək onların yalan olduğunu, müstəntiqlər Mustafayev və Petruninin ona cismani təsir üsulları tətbiq etməsi nəticəsində alındığını deyib və əksinqilabi təşkilatın üzvü olmadığını və pozuculuq fəaliyyətində bulunmadığını bəyan edib. Guya Kazımovu əksinqilabi təşkilata cəlb etmiş İbad Əliyev iş üzrə dindirilməyib. Onun arxiv-istintaq işi gözdən keçirildikdə o istər ilkin istintaqda, istərsə də məhkəmədə Kazımovun əksinqilabi-millətçi təşkilata mənsub olması haqqında heç bir ifadə verməyib və onu namuslu və Sovet hakimiyyətinə sədaqətli bir adam kimi səciyyələndirib.[3]

[1] ARPİİSSA, fond 6, siyahı 8, iş 3521, vərəq 15.

[2] İndiki ARPİİSSA.

[3] Cəfər Kazımov son dərəcə ləyaqətli insandı və kiməsə böhtan atmağa onun vicdanı yol verməzdi. Belə olduğu halda 1938-ci ilin iyununda guya İbad Əliyevin onu əksinqilabi təşkilata cəlb etməsi haqqında yalan ifadə verməsinə haqq qazandırmaq mümkündür, belə ki, həmin ifadə verilərkən İ.Əliyev həbs olunmuş (25 iyul 1937-də) və artıq "xalq düşməni" kimi güllələnmişdi (7 yanvar 1938-də); deməli, C.Kazımov ona bu ifadəylə heç bir ziyan yetirə bilməzdi.

Başqa işlər üzrə həbs olunmuş Axundov, Səfərov, Fərəczadə və Qubaydullinin ifadələrində Kazımovun cinayət fəaliyyəti haqqında konkret faktlar yoxdur. Bu şahidlər yalnız onu göstərmişlər ki, Kazımovun əksinqilabi təşkilata mənsubluğu və onun casusluq fəaliyyəti onlara Əliyev və Xulufludan məlumdur. Ancaq Əliyev və Xuluflunun artıq istintaq sənədlərinin gözdən keçirilməsi ilə müəyyənləşdirilib ki, onların heç biri Kazımovun əksinqilabi təşkilatda iştirakı haqqında heç bir ifadə verməyib.

Əlavə yoxlamayla müəyyənləşdirilib ki, Az. SSR XDİK-nin keçmiş işçiləri Axundov, Səfərov, Fərəczadə və Qubaydullinin dindirilməsi prosesində istintaqın qanunsuz metodlarını tətbiq etmiş, onları döymüş və bu yolla onlardan istintaqa lazım olan ifadələri almışlar. Başqa iş üzrə həbs olunmuş, üzləşdirmədə Kazımovu əksinqilabi təşkilata mənsubluqda ifşa etmiş Xanlarov özünün işi üzrə ilkin istintaqın bitdiyi ona elan edildikdə və hərbi tribunalın məhkəmə iclasında əvvəllər verdiyi, özünün əksinqilabi təşkilata mənsubluqda günahkar sayması və başqa şəxsləri ifşa etməsi haqqındakı ifadələrindən imtina edərək bildirib ki, o, özünə və başqalarına yalnız ona görə böhtan atıb ki, istintaqın qanunsuz metodları ona tətbiq edilməsin.

Belə vəziyyətdə Axundov, Səfərov, Fərəczadə, Qubaydullin və Xanlarovun ifadələri Kazımovun əksinqilabi fəaliyyətdə təqsirləndirilməsi üçün sübut sayıla bilməz.

İşdə Kazımovun əksinqilabi fəaliyyətini təsdiqləyəcək başqa materiallar yoxdur.

SİKP Partiya Nəzarəti Komitəsinin məlumatından görünür ki, 1919-cu ildən SİKP üzvü olan Kazımov antipartiya qruplaşmalarında iştirak etməyib və müxalifətdə olmayıb.

Beləliklə, prokurorun etirazında göstərildiyi kimi, Kazımov əksinqilabi fəaliyyət üstündə əsassız olaraq məhkum edilib.

SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası işin materiallarını gözdən keçirərək və etirazda irəli sürülən tutarqaları əsaslı və təsdiq edilməli sayaraq

MÜƏYYƏN ETDİ:

SSRİ XDİK-nin Özəl Müşavirəsinin Kazımov Cəfər Əliəsgər oğlu haqqında 26 yanvar 1940-cı il tarixli qərarı ləğv edilsin və ona dair işə onun əməlində cinayət tərkibi olmadığına görə xitam verilsin".[1]

Bəli, axır ki, ədalət zəfər çaldı! Ancaq "doğma partiya və hökumət" cəmi 14 il 9 ay gecikdi! C.Kazımov artıq onların "qayğısı" sayəsində xəstəliyə görə təqaüd almaq hüququna da yiyələnib və özünü sovet xalqının tamhüquqlu üzvü saya bilər!..

* * *

Məhkumluğun götürülməsi ona partiya xəttiylə də bərəət qazanmağa imkan yaratdı. 20 oktyabr 1955-ci ildə Azərbaycan KP MK partiya nəzarəti komissiyasına (PNK) ərizə verərək xahiş etdi ki, *"mənim işim tələb edilərək yoxlanılsın, Böyük Leninin doğma partiyasının sıralarına bərpa edilim. Mən Azərbaycan KP Bakı şəhər təşkilatının Voroşilov rayon komitəsi tərəfindən qiyabi olaraq partiyadan çıxarılmışam".*[2]

Azərbaycan KP MK PNK və Azərbaycan KP Voroşilov RK 13 dekabr 1955 tarixli 152 saylı protokolla (Azərbaycan KP MK katibi M.İsgəndərovun imzasıyla) C.Kazımovu SİKP üzvlüyünə 1919-cu ilin martından bərpa etməyi qərara aldı. Partiya bərəəti verilərkən aşağıdakı sənəd də nəzərə alınmışdı.

"RƏY

Mən, 1926-cı ildən SİKP üzvü, partbilet № 06597721, Azərbaycan Politexnik İnstitutu partiya təşkilatının uçotunda duran və xarici dillər kafedrası müdirinin əvəzi vəzifəsində işləyən Məmmədli Zal Cavad oğlu yol. Kazımov Cəfər Əliəsgər oğlunu 1919-cu ildən tanıyıram.

[1] ARPİİSSA, fond 6, siyahı 8, iş 3521, vərəq 11.
[2] Yenə orada, vərəq 4.

Biz Almaniyada bir yerdə oxumuşuq – o, Saksoniyada – Frayberqdə, mənsə Frayberqdən 40 dəqiqəlik məsafədəki Drezdendə. 1928-ci ildən 1938-ci ilədək Bakıda müxtəlif müəssisələrdə işləmişik, ancaq dostluq əlaqəmiz davam edib. Mən onunla dostluq edə bildim, çünki onda büllur kimi saf, Lenin partiyasına sədaqətli, öz xalqını və Vətənini sevən, intizamlı və mədəni yoldaş tapmışam. Onun ölkəmizçün kim olduğunu mən yox, əmək kitabçası və işlədiyi müəssisələrin kollektivləri söyləyə bilər.

Bu rəy yol. C.Ə.Kazımova Azərbaycan KP MK Partkomissiyasına təqdim etməkçün verilir.

İmza: (qol) */ Məmmədli Z.C./*

9 noyabr 1955".[1]



Sovet uranını tapmış ekspedisiyanın üzvləri. *Soldan sağa:* İvanov, ekspedisiyanın rəhbəri Rüstəm Vəkilov, (?), Cəfər Kazımov. Arxangelsk, 1947

Bəli, Cəfər Kazımov ona vur-tut 17 il inanmamış "Böyük Leninin doğma partiyası"nın da yenidən tamhüquqlu üzvü oldu.

Bəli, artıq onun sonuncu arzusu da gerçəkləşdi! Artıq bütün həyəcan və iztirabları arxada qaldı! Bəs qarşıda onu nələr gözləyir? Bunu arvadının Rostovdakı qardaşı İvan Nikolayeviçə yazdığı məktub açıqlayır.

"Dünən məktubunu aldım, buna görə sənə təşəkkür edirəm. Çox şadam ki, siz sağ və salamatsınız, ana özünü sağlam hiss edir, hətta təsərrüfatda və heyvandarlıqda işləyir. Yəqin sizin çoxlu dovşanınız və b. var.

Mənə gəlincə, özümü pis hiss edirəm, ayaqlarım azca şişib, bilmirəm evdə oturub heç yana çıxmadığıma, yoxsa başqa şeyə görədir.

Bəli, əzizim, qocalmışam, çox təəssüf ki, vaxt belə tez ötdü, ancaq neyləmək olar? Artıq 10 ildir ki, xəstəyəm, heç nə etmirəm, evdə otururam, mənzilə qarovul çəkirəm. Mariya və Liliya gediblər, mənsə mənzili qoruyuram.

Telefonla Mariyayla (Moskvayla) danışdım, o, Sizi görməyə Rostova gələcək, sonrasa Bakıya qayıdacaq. Mariyaya söylə ki, məndən narahat olmasın…

İvan Nikol., sən məktuba görə bağışla; sol əlimlə yazıram, ona görə də belə eybəcər alınır…

Məndən və Umleyladan anaya, sənə və arvadına ehtiram.

Səni görürəm,

Cəfərin.

1.VIII-59".

Məktub müəllifinin kağızı yazarkən keçirdiyi ağrı və əzabı göz önünə gətirməkçün elə uzaqdanca onun əyri-üyrü hərflərinə və kardioqram cizgilərinə bənzəyən dalğavari sətirlərinə baxmaq yetər. Bu "ilan-qurbağa" yazı ölümün yaxınlaşmasından başqa heç bir istəyi olmayacaq şəxsin – mənən və cismən sındırılaraq, əzizlərək, tapdanaraq, çeynənərək cismani varlığına əslində son qoyulmuş Cəfər Kazımovun yaşadığı müsibətlər haqqında səssiz-səmirsiz bir hönkürtüdür!..

[1] ARPİİSSA, fond 6, siyahı 8, iş 3521, vərəq 6.



Cəfər Kazımov. Arxangelsk, 5 may 1947-ci il

1956-cı ildə dəyişdikləri, 28 May küçəsində yerləşən yeni mənzildə də ata, ana və qız yenə də üçlükdə yaşamağa başladılar. Cəfər Kazımov öz qızını sevimli bacısı Umleyla xanımın şərəfinə *Leyla* adlandırdı, ancaq bu ad bacısının xoşuna gəlmədi, çünki azərbaycanlılar öz sağlıqlarında adlarının kiməsə qoyulmasını xoşlamırlar, buna görə də adı dəyişdirib *Liliya* etməyə məcbur oldu. Leyla xanım musiqişünas oldu; indi Konservatoriyada müəllimdir. İndiyədək ailə qurmayıb.

Qayğıkeş Mariya Nikolayevna ərini müalicə etdirməkçün neçə yol Moskvaya apardı, ancaq uzun-uzadı müalicələr heç bir müsbət nəticə verməmişdi.

28 oktyabr 1967-ci ildə (görünür ki, 60 illiyi münasibətilə) C.Kazımov Qırmızı Əmək Bayrağı ordeniylə təltif edildi. Ancaq bu mükafatın onunçün artıq həm mənəvi, həm də maddi baxımdan heç bir əhəmiyyəti yoxdu.

Cəfər Kazımov 14 avqust 1968-də insanların bu müvəqqəti və amansız yer dünyasını tərk edərək əbədi rahatlıq və dinclik dünyasına köçdü...

* * *

Ölümə məhkum edilmiş N.İ.Buxarin (1888-1938) Stalinə bir kağız parçasında belə bir sual göndərmişdi: *"Koba, mənim ölümüm sənə nəyə görə lazımdır?"*. Əlbəttə, cavab almamışdı. (Ancaq Stalin həmin kağızın üstündə yazmışdı: *"Axmaq!"*).

Bəlkə bizim sadəlövh oxucumuz da Buxarin kimi beləcə soruşacaq: *"Sovet dövlətinə nəyin bahasına olursa-olsun Cəfər Kazımovun cinayətkarlığını sübut etmək, onu tutmaq və həbs düşərgəsinə göndərmək nəyə görə lazımdı?"*. Lakin biz oxucunun sualını cavabsız qoymayacağıq. Ancaq ona cavab verməzdən öncə Sovet İttifaqının başqa bir ucqarında yaşamış digər görkəmli mütəxəssisin, sovet *radiumunu ilk dəfə tapmış* bir alimin qısaca tərcümeyi-halıyla onu tanış etməyi məqsədəuyğun sayırıq.

İvan Yakovleviç Başilov'un (1892-1953) taleyi sanki Cəfər Kazımovun həyatının güzgüdəki əksidir.[1] O da inqilabadək eserdi, ancaq heç vaxt kommunist olmamışdı. O da ilk kəşfedicilərdəndi – sovet radiumunun ilk preparatlarını 1921-ci ildə o və V.Q.Xlopin meydana qoymuşdular. Özü tələbəlik illərinin dostu V.M.Molotova belə yazmışdı: *"SSRİ-də əldə edilmiş və edilməkdə olan bütün radiumu şəxsən mən almışam, yaxud da o, əsasən və başlıca olaraq mənim təklif edərək işləyib hazırladığım yeni və orijinal üsullar üzrə alınıb"*.

O, çox qiymətli *"Radioaktiv filizlərin texnologiyası"* (1927), *"Nadir elementlər və onlardan istifadə edilməsi"* (1930), *"Nadir elementlərin texnologiyasına giriş"* (1932) monoqrafiyalarının müəllifidir.

Uxtada Peçoranın axar sularından radium və uranın çıxarılması işlərinə məhz onun təklifiylə başlanılmışdı. O, Uxta kombinatının tikintisinə dəfələrlə baş çəkmiş və onun işinə məsləhətlər vermişdi.

1932-ci ildə İ.Y.Başilov Nadir Metallar İnstitutunun elmi rəhbəri oldu. *Taboşarı*'da (Tacikistan) radiumlu filiz aşkar edildikdən sonra yeni radium zavodunu layihələndirdi. 1937-ci ildə dissertasiya müdafiə etmədən texnika elmləri doktoru oldu.

Başilovu da 1938-ci ildə (21 avqustda) "ziyankarlığa və antisovet təşkilatda iştiraka görə" həbs etdilər. İstintaqın aparılmasının ən amansız üsullarına baxmayaraq onun da boynuna heç nə qoya bilmədilər (çünki ortada heç nə yoxdu!). O da uzun istintaqdan sonra (14.II.1939) 5 illiyə düşərgələrə məhkum edildi. O da *Qulaq* arxipelaqına göndərildi (Kotlas-Arxangelsk – *Qulaq*-ın Şimal məntəqəsi).

Öncə o da "qaragünlü"ydü, ağac qırmaqda, xəndək qazmaqda və b. işlərdə can çürüdürdü və daha ayaq üstə dayanmağa taqəti qalmayıb əhədi kəsiləndə özünün layihəsi əsasında tikilmiş radium zavoduna qarovulçu "vəzifə"sinə keçirdilər. Çox keçmədən onu "təsadüfən" tanıdılar və öz ixtisası üzrə elmi işə dəvət etdilər. 1942-ci ilin sentyabrında onun da məhkumluq müddətini *"yüksək istehsalat göstəricilərinə və məişətdəki əla davranışına görə"* altı ay azaltdılar.

1943-cü ildə Başilov Moskvaya köçürüldü, ancaq azadlığa buraxılmadı. 1945-ci ildə "Şərəf nişanı" ordeni aldı, 1948-ci ildə Stalin mükafatına (!) layiq görüldü! Hətta bu təntənəli təltiflərdən sonra da onun L.P.Beriyaya (1899-1953), Stalinə və ölkənin başqa rəhbərlərinə məhkumluğunun götürülməsi haqqında müraciətləri cavabsız qaldı. İ.Y.Başilov 20 avqust 1953-cü ildə öz bəraətini gözləyə-gözləyə ürək partlamasından dünyasını dəyişdi. Ona yalnız ölümündən sonra (1957) bəraət verdilər...

Nəhəng ölkənin iki ən uzaq guşəsində yaşayan tamamilə yad iki şəxsin az qala eyni olan talelərini gözdən keçirəndə kor da görər ki, sovet kommunist dövlətinə onların müqəssir olduğunu nəyin bahasına olsa sübut etmək ona görə zəruriydi ki, onlar tutulsun. Tutmaq onları QULAQ düşərgəsinə yollamaq, düşərgəyə göndərməksə onları radioaktiv materiallar çıxarmağa (özü də havayı, yalnız təşəkkür və artıq yemək payı xatirinə) məcbur etməkdən ötrü lazımdı. Elə bu üzdən də ölüm cəzası kəsməyərək (bunu etməyə nə vardı ki!) "sadəcə" 5 il iş verdilər, heç əmlakları da müsadirə olunmadı. Buna görə də onların faciələrinin süjet xəttini çox ciddi vahid ssenari əsasında eyni müəllif hazırlamışdı.

Bəs standart ssenarinin müəllifi kimdi? Bu sorğuya cavab verməzdən öncə bəzi tarixi arayışları gözdən keçirək.

Çində miladdan qabaq 221-246-cı illərdə ağalıq etmiş Tsin imperatoru – şöhrətpərəst *Tsin Şi-xuandi* o çağlarçün çox nəhəng sayılan tikililər ucaltmağı əmr etmişdi. Bu əmrə əsasən onun özünün gələcək məqbərəsinin tikintisində 700 mindən, böyük Çin səddinin inşasındasa milyondan artıq adam işləyirdi. Cəhənnəm əzabına bərabər iş şəraiti üzündən burada könüllülər yoxdu. Tikintiləri işçi qüvvəsiylə təmin etməkdən ötrü Tsin Şi-xuandi fərman vermişdi ki, bir qanun pozuntusuna görə 10 ailə qul edilərək imperatorun tikintisində işləməyə göndərilsin. Bu "cani"lərə hərbi əsirləri də qoşurdular. (Yeri gəlmişkən, 1974-cü ildə *Sian* şəhəri yaxınlığında həmin hökmdarın məzarından *öz təbii böyüklüyündə* hazırlanmış *7 mindən artıq döyüşçü və at heykəli* aşkar edilib). Tsin Şi-xuandidən sonra (elə ondan qabaq da) bütün qorxunc imperatorlar: Makedoniyalı İsgəndər də, Neron da, Çingiz xan da, Dəli Petro da, Napoleon da, Hitler də, Stalin də... özlərinin çılovgötürməz çılğın şəxsi istəklərini gerçəkləşdirməkçün yüz minlərcə, milyonlarca insanın həyatına "ul" demədən son veriblər.

İ.V.Stalin (1879-1953) ilk növbədə özünün təkbaşına hakimiyyətinin təhlükəsizliyini təmin etməkdən ötrü bütün siyasi rəqiblərini cismən məhv etdi, bu zaman onların kommunist, yoxsa antikommunist olmasına əsla fərq qoymadı. Məsələn, o, SİKP XVII qurultayının 1966 nəfər sədaqətli kommunist nümayəndəsindən 1108-ini aradan götürdü. O, sovet ordusu, donanması və hava qüvvələri rəhbərliyinə hələ Almaniyayla müharibədən qabaq görünməmiş qəddarlıqla divan tutdu. Belə ki, o, 5 marşaldan 3-ünü, 15 ordu komandanından 13-ünü, 9 admiraldan 8-ini, 16 ordu "zampolit"indən 16-sını, müdafiə nazirinin 11 müavinindən 11-ini və b. məhv etdi. Həbs edilərək sonra güllələnənlərin, yaxud

[1] İ.Y.Başilov haqqındakı bütün bilgilər bu yazıdandır: *Палищук В.Р.* Судьба профессора И.Я.Башилова. // Репрессированная наука. Ленинград, 1991, ss. 352-366.



Leyla Kazımova. 1978-ci il

düşərgəyə sürgün edilənlərin və ordudan çıxarılanların ümumi sayı rota və batalyon komandiri səviyyəsindəki rəis heyətinin 43 min nəfərini təşkil edirdi!..

Stalinin diktator hakimiyyəti yaratmaq səyləri onun dünyanın ən varlı və güclü dövlətinə ağalıq etmək istəyiylə üst-üstə düşürdü. Belə bir istəyi gerçəkləşdirməkçünsə, əlbəttə, qızılla doldurulmuş xəzinənin, eləcə də qorxunc silahla yaraqlanmış çağdaş ordunun mövtudluğu ən ilkin şərtdi. Ancaq qızıl da, qorxunc silahın tərkib hissələri də (radioaktiv xammal) şimalın əbədi buzlaqlarının altındaydı, oraların şaxtasınasa hətta marallar da dözmürdü. Orada heç bir insan məskəni (bir neçə yüz köklü sakinin alaçıqları çıxılmaqla), yol, başqa əlaqə vasitəsi yoxdu. Ağlı üstündə olan adamların könüllü şəkildə pul qazanmaqçün həmin buzlaqlara gedəcəyini düşünmək, söz yox ki, gülməli olardı. Amma hətta fanatik kommunist və komsomolçular içərisindən könüllülər tapılsaydı belə vətəndaş müharibəsi, yeni iqtisadi siyasət, kollektivləşdirmə... illərində sovulmuş dövlət xəzinəsi fəhlələrə əməkhaqqı verməyə qadir deyildi, xarici yatırımlar haqqında düşünməksə ağlasığmaz şeydi – SSRİ-ni heç kəs normal bir dövlət kimi tanımır, ona borc belə vermirdi. Deməli, vur-tut bircə yol qalırdı – adamları şimala və insanın yaşaması mümkünsüz olan başqa yerlərə zorla qovlamaq və onları qızılı, radioaktiv materialları və b. havayı çıxarmağa məcbur etmək! Yeri gəlmişkən, Lenindən – XX yüzilin ən böyük terrorçusundan üzübəri sovet kommunist hakimiyyəti bu sahədə zəngin təcrübə qazanmışdı.

Nəhəng arzular nəhəng də layihələr doğururdu. Belə ki, tezliklə SSRİ-də islah-əmək düşərgələrinin çox böyük şəbəkəsinin yaradılması planı ortaya qoyuldu. *Qulaq* arxipelaqının böyük adalarının tərkib hissəsi olan bu düşərgələrin siyahısı 1937-ci ildə dərc edildi. Burada hər birində 200 düşərgə olmaqla 35 qrup (üst-üstə 7.000 düşərgə!) qeyd olunub. 1935-37-ci illərdə bu şəbəkənin məhbuslarının (kişi və qadınlar) ümumi sayı 5-6 milyon nəfər arasında dəyişmişdi. Onların əksəriyyəti onlarla vəhşicəsinə rəftar edilməsinə və dözülməz iqlim şəraitinə tablaşmayaraq məhv olmuşdu.

Qulaq arxipelaqının iki ən böyük məskəni Rusiyanın *quzey-qərbində* (Komi MSSR-də) və *quzey-şərqində* (Uzaq Şərqdə – Lena çayıyla Şelixov körfəzindən quzeydəki Kolıma dağ zənciri arasında) yerləşirdi. *Komidə* (Peçora çayı hövzəsində) Rusiyada ən böyük – milyondan artıq dustağın (o sıradan Cəfər Kazımovun) saxlandığı düşərgə yerləşirdi. *Kolımada* (Fransadan iki dəfə böyük ərazidə) düşərgələrə *"Dalstroy"* (Uzaq Şərq Tikinti İdarəsi) rəhbərlik edirdi. Bu idarənin tabeliyində yarım milyon dustaq vardı. Düşərgələrin bu iki şəbəkəsi əsasən Peçora və Kolıma çayları boyunca yerləşirdi və öncə qızıl, sonralarsa uran da çıxarmaqla məşğuldu.

Məşhur Amerika tarixçisi Alan Bullok yazır:

"Nə qədər adam tutulub, güllələnib və ölüm düşərgələrinə göndərilib? Bu suala yəqin ki, heç vaxt qəti cavab almayacağıq. Robert Konvestin 1991-ci ildə dərc etdirdiyi yeni faktlara əsasən, 1930-cu ilin başlanğıcıyla 1939-cu ilin başlanğıcı arasındakı dövrdə həlak olanların ümumi sayının 18 milyondan az olmadığını güman etmək mümkündür. Volkoqonov 16 milyona yaxın rəqəm göstərir, başqa qaynaqlar 20 milyondan söz açır.

Öncədən qırılmış 11 milyonu çıxsaq 1937-ci ilin başlanğıcında dustaqxana və düşərgələrdə, Konvestin fikrincə, yeddi milyona yaxın adam saxlanırdı. Yeddi milyon da 1937-38-ci illərdə həbs edilib.

14 milyonluq ümumi saydan ən azı 8 milyonu 1937-38-ci illərdə güllələnib, yaxud ölüb; beləliklə, 1939-cu ilin başlanğıcında həbsxana və düşərgələrdə hələ altı milyona yaxın siyasi məhbus qalırdı. Bu rəqəmlərə 1939-1953-cü illər arasındakı dövrdə repressiya olunmuşlar salınmır".[1]

1936-38-ci ildə tutulanlardan yalnız 10 faizi sağ qaldı. Andrey Saxarovun hesablamalarına görə, düşərgələrdəki 600 min SİKP üzvündən yalnız 50 min nəfər (o sıradan Cəfər Kazımov) ölümdən xilas ola bildi.

Beləliklə, bu milyonlarca insanın: kommunistlərin və bitərəflərin; inqilabçıların və əksinqilabçıların; kübarların və çulucırıqların; dostların və düşmənlərin; kişilərin və qadınların... cəlladı *Sovet İttifaqı Kommunist Partiyası* idi, onun rəhbəri *Stalin* idi. Onlar isə *kommunizm*'in yetirməsiydi.

Kommunizm ölümsaçan taun epidemiyasıdır. O, *Leninin, Stalinin, Dzerjinskinin, Xo Şi Minin, Mao Tsze Dunun, Çoybalsanın, Çauşeskunun, Jivkovun, Honekkerin, Kastronun, Titonun, Pol Potun, Bağırovun...* şəxsində bəşəriyyəti total terrora uğradıb.



Cəfər Kazımov bircə övladı Leyla ilə. 1967

Stalinlə yanaşı, planetdə başqa bir böyük cəllad – üzərində *faşizm*'in ağalıq etdiyi *Hitler* də addımlayırdı. Faşizm də öz yetirmələri *Hitler, Mussolini, Franko* və başqalarının şəxsində bəşəriyyətə insan ağlına sığmayacaq inanılmaz faciə və bəlaların bütöv toplusunu yaşatdı.

Bəli, *kommunizm* və *faşizm* Siam əkizləridir! Bu əkizlər XX yüzilin taunudur. Əkizlərin bir başı (faşizm) ikinci dünya savaşında məhv edildi, ikincisisə (kommunizm) bugünədək yaşayır və insanlığı yeni kütləvi qırğınlarla hədələyir! Cəfər Kazımovun faciəsi təkrarlanmasın deyə, Mariya Nikolayevna bir daha heç nədən və heç kimdən qorxmasın deyə Azərbaycan xalqı da əkizlərin ikinci başının birdəfəlik məhv edilməsi üçün mübarizə aparmalıdır! Tanrı bu işdə yardımçımız olsun!

P.S. *Yazıda adları çəkilən Mövsüm Əliyev (1938-1998) və Mariya Nikolayevna Kazımova-Siosinskaya (1902-1998) artıq Haqq dünyasındadırlar.*

Cəfər Kazımovun bu tərcümeyi-hal oçerkinin ilk variantı "Günay" qəzetində dərc edildikdən sonra (1997) Mariya Nikolayevna ruhən tam sakitləşdi və ərinə az qala 60 ildən sonra elmi hərəət qazandırıldığına görə bizə ən səmimi duyğularla minnətdarlıq etdi, "daha dünyadan rahat köçə bilərəm" söyləndi və bundan sonra cəmi bircə il yaşadı. O sanki elə bu hərəəti gözləyə-gözləyə 96 il ömür sürmüşdü...

[1] *Буллок А.* Гитлер и Сталин. Жизнь и власть. II том. Смоленск, 1994, s. 105.

Kərimov Əli Məşədi Xaspulat[1] oğlu

(02.1902, Balaxana/Bakı – 13.10.1937, Bakı)



Əli Kərimov

Əli Kərimov Azərbaycan Cümhuriyyəti hökumətinin Türkiyəyə oxumağa göndərdiyi tələbələrdəndir.

Sovet Azərbaycanının ilk onilliklərində ölkənin ictimai-siyasi və mədəni həyatında önəmli rol oynamış bu şəxs, çox təəssüf ki, indiyədək yerli-dibli unudulub və onun haqqında hələ bircə məqalə belə yazılaraq ortaya qoyulmayıb, halbuki onun həyatı sanballı kitablara mövzu olmağa layiqdir.

Biz sənədlərdə göstərilən ünvanları uzun müddət inadla axtararaq onun indi sağ qalan qohumlarını tapmağa, haqqında daha geniş bilgilər əldə etməyə çalışsaq da səylərimiz boşa çıxdı. Buna görə də yalnız sənədlər əsasında danışmağa məcburuq.

* * *

Zaqafqaziya Şiə Ruhani İdarəsindən 25 iyul 1912-ci ildə alınmış 3688 saylı doğum şəhadətnaməsindən öyrənirik ki, Bakının Balaxana kəndinin sakini Əli Məşədi Xaspulat oğlu, atası Məşədi Xaspulat Kərimovun qanuni arvadı Anaxanım Kərim qızından 1902-ci ilin fevralında doğulub; doğum günü bəlli deyil.[2]

Sənədləri arasında 29 aprel 1914-cü il tarixli həkim arayışında 13 yaşlı Əli Kərimovun sağ qolunda çiçəyə qarşı peyvənd edildiyi göstərilib.[3]

31 may 1919-cu ildə Bakı şəhərində verilmiş 188 saylı kamal attestatında müsəlman Əli Məşədi Xaspulat oğlu Kərimovun 1918-ci ilin noyabrında Bakı 2-ci kişi gimnaziyasına girərək 15 may 1919-cu ildək orada əla əxlaqla oxuyub səkkizsiniflik tam kursu bitirməsi yazılıb. Bu zaman o, aşağıdakı bilikləri qazanıb:

Şəriət –	əla (5)
Rus dili və ədəbiyyatı –	yaxşı (4)
Fəlsəfi propedevtika –	əla (5)
Latın dili –	yaxşı (4)
Qanunşünaslıq –	əla (5)
Riyazi coğrafiya –	əla (5)
Fizika –	əla (5)
Tarix –	əla (5)
Coğrafiya –	əla (5)
Fransız dili –	əla (5)
Alman dili –	əla (5)
Türk dili –	əla (5).[4]

1917-ci ildə Bakı şəhərində Qafqaz müsəlman şagirdlərinin I qurultayı keçirilərkən 10 mayda çəkilmiş xatirə fotolarında qurultay iştirakçıları arasında Əli Kərimovu da görürük. Bu, onun məktəbin fəal şagirdlərindən olduğuna sübutdur.

Əli Kərimov, bir növ, bəxti gətirmiş şagirdlərdəndir – elə məktəbi qurtardığı il Cümhuriyyət ali təhsil almaq üçün xaricə tələbələr göndərməyi qərara alıb. Balaxana kəndi

[1] Bu adın hər sənəddəki yazılışını saxladıq.
[2] ARDA, fond 51, siyahı 3, iş 88, vərəq 4.
[3] Yenə orada, vərəq 5.
[4] Yenə orada, vərəq 3.

sakini olaraq o da 17 avqust 1919-cu ildə maarif nazirinə yazdığı ərizəsində dövlət hesabına xaricdə oxuyacaq tələbələr sırasına götürülməsini xahiş edib, Türkiyədə, yaxud Fransada tarix-filologiya fakültəsini bitirmək arzusunu bildirib.[1]

Nazirə 5 noyabr 1919-cu ildə yazdığı sonuncu ərizədə o, Qərbi Avropaya deyil, İstanbula, tarix-filologiya fakültəsinə getmək istədiyini göstərib.[2]

31 dekabr 1919-cu ildə Əli Kərimov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləmək[3] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmamaq haqqında[4] dilkağızları verib.

Əli Məşədi Xasfulad oğlu Kərimova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 513 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[5]

Xaricə göndərilən bütün dövlət təqaüdçüləri Maarif Nəzarətinə verdikləri sənədlərin əslini götürürdülər ki, oxuyacaqları ali məktəblərə versinlər. Onların hamısına, əlbəttə, xarici pasport da təqdim etmişdilər. Kərimovun nazirə yazdığı 17 avqust tarixli ərizənin aşağısında göstərilib ki, attestat, doğum şəhadətnaməsi və xarici pasport ona 15 yanvarda verilib.[6] Maraqlı burasıdır ki, 100 təqaüdçü içərisində yalnız Əli Kərimovun xarici pasportu arxivdə qalıb. Görünür ki, həmin sənəd onun Türkiyədən qayıtmasından sonra hansı səbəbləsə özündən götürülərək arxivə düşüb. İndiki oxucuya ozamanki xarici pasportun necə olmasının maraqlı gələ biləcəyini nəzərə alaraq onun qısa təsvirini veririk. Pasportun cildinin arxasındakı 1-ci səhifəsinə Əli Kərimovun fotoşəkli tikilərək surquçlanıb. Titul səhifəsində səkkizguşəli ulduz və ayın təsviri altında türkcə (əlbəttə, ərəb əlifbasında) hərəsi bir sətirdə olmaqla yazılıb: "Azərbaycan Cümhuriyyəti. Xarici təzkirə. Sahibi-təzkirənin imzası". Ancaq pasport sahibinin imzası yoxdur. Səhifənin yuxarı sağ küncündə pasportun nömrəsi əllə yazılıb: №133. Pasportun içindəki bütün xidməti qeydlər rusca və fransızcadır. Yalnız son 8 səhifədə "Xarici təzkirələr (pasportlar) haqqında qərardadlar" türkcə verilib. Titul səhifəsinin arxasında rusca bu qeydlər yazılıb: "Bunu təqdim edən Azərbaycan Cümhuriyyəti Bakı valiliyi Balaxana kəndinin sakini vətəndaş Əli Məşədi Xaspulat oğlu Kərimovun 17 yaşı var, Qərbi Avropaya gedir. Bu pasportun müddəti 1 ildir, yəni 11 dekabr 1920-ci ilədək. 60 manat pasport rüsumu alınıb". Pasport 11 dekabr 1919-cu ildə verilib.[7] Sonra eyni məzmun fransız dilində başqa səhifələrdə yazılıb.

Ə.Kərimov Türkiyəyə göndərilərək İstanbul Universitetinin tarix-ədəbiyyat fakültəsində oxumağa başlayıb. O, Cümhuriyyət yıxılandan bir neçə ay sonra – 3 avqust 1920-ci ildə Bakıya dönüb...

* * *

Azərbaycana qayıtdıqdan sonra həyatında nələrin baş verdiyi arxiv sənədlərində əksini tapıb. Kommunist və rəhbər vəzifələrdə olduğuna görə bugünkü ARPİİSSA-də və repressiya edildiyinə görə isə AR MTN Arxivində onunla bağlı sənədlər durur. Hər iki arxivin materialları əsasında Ə.Kərimovun həyat yolunu işıqlandırmağa çalışacağıq.

Öncə ARPİİSSA-də saxlanılan "kadro uçotu şəxsi vərəqəsi"ndə Kərimov Əli Xasbulat oğlu haqqında qeydləri gözdən keçirək (buradakı qeydləri öz əliylə yazıb): Bakının Balaxana

[1] ARDA, fond 51, siyahı 3, iş 88, vərəq 1.
[2] Yenə orada, vərəq 2.
[3] Yenə orada, vərəq 6.
[4] Yenə orada, vərəq 7.
[5] Yenə orada, vərəq 8.
[6] Yenə orada, vərəq 1.
[7] Yenə orada, fond 970, siyahı 2, iş 175.



ADU Şərq fakültəsinin müəllim və tələbələri (*"Maarif və mədəniyyət"*, 1923, № 12, s. 6).
Soldan sağa. Oturanlar (müəllimlər): 2-ci prof. B.Juze – fakültə dekanı, 3-cü prof. Həmid bəy Şahtaxtinski, 4-cü prof. A.Qulyayev – rektor, 5-ci prof. A.Samoyloviç, 6-cı prof. B.Tomaşevski.
Ayaq üstə (tələbələr): 2-ci İdris Həsənov, 10-cu Əli Kərimov

kəndində doğulub; Türkdür; kiçik burjua ailəsindəndir; jurnalistdir; qulluqçudur; 1926-cı ildən AK(b)P üzvüdür (bilet № 0892158), heç bir müxalifətdə olmayıb; ali təhsillidir, ancaq qurtarmaq haqqında diplomu yoxdur; gimnaziyanın 8 sinfini bitirib və Bakı Universitetinin tarix və ədəbiyyat fakültəsində oxuyub, 1924-cü ildə 4-cü kursdan çıxıb.

1919-cu ildən 03.08.1920-ci ilədək İstanbulda oxuyub.

01.03.1925-ci ildən 25.02.1926-cı ilədək türkcə "Kommunist" qəzetinin Tehranda müxbiri olub.[1]

"Kadro uçotu şəxsi vərəqəsi"ndə Ə.Kərimovun əmək fəaliyyətinin əvvəlindən gördüyü iş haqqında dəqiq bilgilər əks olunub. O, şəxsi vərəqi doldurduğu 15 yanvar 1936-cı ilədək aşağıdakı vəzifələrdə çalışıb:

1920-1923-cü illər – Azərbaycan yığma hərbi məktəbində ştatlı müəllim.

1921-1922-ci illər – "Zəhmət" qəzetində tərcüməçi.

1922-1923-cü illər – AK(b)P MK və BK-nın orqanı "Bakınski raboçi" qəzetində şöbə müdiri.

1923-1928-ci illər – AK(b)P-nin orqanı olan türkcə "Kommunist" qəzetində redaksiyanın katibi.

1929-1930-cu illər – Azərbaycan Dövlət Nəşriyyatının direktoru.

01.10.1930-01.04.1931 – AK(b)P MK kütləvi təşviqat şöbəsində bölüm müdiri.

01.04.1931-01.06.1935 – Şaumyan adına İnstitutda[2] Lenin əsərlərinin tərcüməsi şöbəsinin müdiri.

[1] ARPİSSA, fond 1, siyahı 8, iş 2927, vərəq 1.
[2] Bu institut öncə SİKP yanında Marksizm-Leninizm İnstitutunun Azərbaycan filialı, sonra isə yenə SİKP yanında Partiya Tarixi İnstitutunun Azərbaycan filialı olub. Müstəqillik dönəmində ləğv edilib, onun əsasında öncə AR Prezidenti İşlər İdarəsinin Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi, sonra isə indiki AR Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi yaradılıb.



"Kommunist" qəzetinin əməkdaşları.
Soldan sağa. 1-ci cərgə: Əliabbas Müznib, F.Ağayev (?), Hidayət Mahmudov, Nemət Bəsir Hacıyev, Məryəm. *2-ci cərgə:* Mahmud Nədim Qaragözov, Özim Özimzadə, Qədir Heydərov, (?), Məhəmməd Səid Ordubadi, Həbib Cəbiyev (redaktor), Məhəmmədqulu Əlixanov, Məhəmmədəli Sidqi Səfərov, Əli Kərimov, Abdulla Şərifzadə. *3-cü cərgə:* Abbas Hilmi, (?), Balaqardaş Mürşid, (?), Mahmud Sadıqov, (?), Süleyman Məlikov, Cəfər Cabbarlı, (?),Əhməd Hacınski, Seyid Hüseyn Sadiq, (?), Əliəkbər Heydərli. *4-cü cərgə* (tanınmadılar). Yanvar, 1924

01.12.1931-01.10.1932 – Azərbaycan Dövlət Konservatoriyasının direktoru.

05.05.1933-01.07.1934 – Azərbaycan Dövlət Opera Teatrının direktoru.

01.06.1935-ci ildən indiyədək (15 yanvar 1936-cı ilədək) Xalq Maarif Komissarlığında İncəsənət İdarəsinin rəisi.

1929-1931, 1931-1934-cü illərdə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi üzvlüyünə namizəd, 1924-1925, 1931-1934-cü illərdə Bakı Sovetinin üzvü olub.

Türk, rus və fars dillərini yaxşı, ingilis və fransız dillərini zəif bilir.

1919-cu ilin mayından oktyabrınadək Müsavat ordusunda siravi əsgər olub.[1]

1934-cü ildə "Şahsənəm" operasının qoyuluşuna görə XKŞ və AzMİK ona təşəkkür elan edib. 1936-cı ildə incəsənət olimpiadasının təşkilinə görə XMK-nın fəxri fərmanını alıb. 1929-1930-cu illərdə AK(b)P MK ona iki dəfə töhmət verib.

Bakıda Krasnopresnenski küçədə[2] 8-ci evin 8-ci mənzilində yaşayır.[3]

* * *

ARPİSSA-də AKP üzvlüyünə namizəd Əli Kərimovun öz əliylə yazdığı başqa bir sənəd – tərcümeyi-halı da saxlanılır. Həmin bəlgədə bunları bildirib:

"1901-ci ildə Bakı valiliyinin Balaxana kəndində kiçik burjua[4] ailəsində doğulmuşam. Atam kiçik sənətkar və podratçı olub. 7 yaşımda məktəbə verilmişəm və Balaxana ibtidai rus-türk

[1] ARPİSSA, fond 1, siyahı 8, iş 2927, vərəq 2.
[2] İndiki Nizami küçəsi.
[3] ARPİSSA, fond 1, siyahı 8, iş 2927, vərəq 2a.
[4] Əslində Ə.Kərimovun atası əsla "burjua" kateqoriyasına daxil edilə bilməzdi, ancaq o, "partiyadan heç nəyi gizlətmirəm" anlamı verən bu hərəkəti ilə özünü sonrakı mümkün hücumlardan qorumaq istəyirdi.

məktəbində oxumuşam. Sonra gimnaziyaya girmiş, 1917-ci ildək oxumuş və doğmalarının vəsaiti ilə yaşamışam. Fevral inqilabından sonra və vətəndaş müharibəsi illərində neft sənayesində durğunluq yarananda neft işi ilə bağlı olan atam var-yoxdan çıxıb, ona görə mən gimnaziyanı hökumət hesabına qurtarmalı və dərslərimlə məşğul olmalı, şagird hazırlamalı olmuşam.

Gimnaziyanı Müsavat hökuməti dönəmi bu cür qurtarıb əsgərliyə səfərbər edilmiş və hərbi borcumu yerinə yetirmək üçün Qubaya göndərilmişəm. Orduda 4 ay sıravi kimi qulluq edərək tərxis olunmuş və dövlət hesabına xaricə göndərilən tələbələr sırasına götürülməyim üçün ərizə vermişəm.

1919-20-ci ildə Müsavat nazirlərinin mərhəməti üzündən deyil, attestatların müsabiqəsi yolu ilə qəbul edilmiş və yüz tələbə içərisində xaricə göndərilmişəm.

İstanbulda 2 ay oxumuş və Azərbaycanda sovet çevrilişini eşidib Bakıya dönmüşəm.

Gələn kimi hərbi xidmətə başlamışam. 1920-ci ilin avqustundan 1923-cü ilin sentyabrınadək Qarayev adına Azərbaycan yığma hərbi məktəbdə müəllim işləmişəm.

Bundan başqa, o zaman AHİŞ sədri olan yol. Mirzoyanın dəvəti ilə 1921-1922-ci illərdə AHİŞ-in türk dilindəki orqanı "Zəhmət" qəzetində işləmişəm. 1922-ci ildə "Zəhmət" bağlanmış və mən öncə türkcə "Kommunist", sonra BK-nın qərarı ilə "Bakınski raboçi" qəzetinə keçirilmiş və orada tam il yarım və yarım il də "Kommunist"lə eyni zamanda işləmişəm. 1924-cü ildə bütünlüklə "Kommunist"ə keçirilmişəm və indiyədək orada işləyirəm. Beləliklə, demək olar ki, Azərbaycanın sovetləşməsinin ilk günlərindən sovet hakimiyyətini tam qəbul edərək onunla işləmişəm. Ancaq bəzi fərdiyyətçi və intelligent düşüncələrimə və xırda burjua görüşlərimə və tərəddüdlərə görə Mirzoyan, Cəbiyev, Ruhulla Axundov və b. yoldaşların təkidli çağırışlarına baxmayaraq kommunist partiyasından qıraqda qalmışam. Aydındır ki, bu durum çox davam edə bilməzdi və mən möhkəm və həmişəlik kommunist partiyası ilə bağlanmağı qərara almışam. 1924-cü ilin yanvarında kompartiya sıralarına qəbul edilməyim üçün ərizə vermişəm və fevral ayında Lenin çağırışı[1] *vaxtı AKP BK Rəyasət Heyəti məni yekdilliklə namizəd təsdiq edib...*

Ə.Kərimov.

1926-cı il".[2]

Yeri gəlmişkən, ARPİİSSA-də Əli Kərimovun 15 may 1932-ci ildə Ruhulla Axundova yazdığı türkcə məktubların tərcüməsi də saxlanılır.[3]

***

Əli Kərimov 1920-1930-cu illərdə Azərbaycanda ən üzdə olan ziyalılardan biri sayılır. Görünür, mənsəb pilləkəni üzrə yüksəlişində Ruhulla Axundovun müstəsna rolu olduğuna və aralarındakı şəxsi münasibətlərin də hədsiz səmimiliyinə görə 1937-ci ilin başlanğıcınadək o, hansı sürətlə yuxarı qalxmışdısa Ruhulla Axundov "xalq düşməni" kimi həbs olunan andan eyni sürətlə də aşağı yuvarlanmağa başladı və nəhayət, onun taleyini yaşadı, ancaq bir mühüm fərqlə – savad, mədəniyyət və nüfuz baxımından qat-qat üstün olan R.Axundovu özünə birinci rəqib sayan, buna görə də istintaqlarına şəxsən qatılan Mircəfər Bağırovun göstərişi ilə Axundov ağlasığmaz işgəncə üsulları nəticəsində zindan qapısı açılan kimi qorxudan qaçıb taxtın altında gizlənən, istənilən sənədə asanlıqla qol çəkdirilə bilən, iradəsi əlindən tam alınmış bir şəxsə çevrilmişdisə Ə.Kərimov da dəhşətli işgəncələr sonucunda özünə və bir çox başqalarına atılan siyasi böhtan və iftiralara qol çəkməyə məcbur edilsə də sözün həqiqi

[1] Leninin 1924-cü ilin yanvarında ölümündən az sonra bolşeviklər kompartiyaya "Lenin çağırışı" adı altında kütləvi qəbul başlatmışdılar.
[2] ARPİİSSA, fond 1, siyahı 8, iş 2928, vv. 3-6.
[3] Yenə orada, siyahı 122, iş 91/8, vv. 66-70.



"Kommunist" qəzetinin əməkdaşları. *Sağdan sola:* 1-ci Nemət Bəsir Hacıyev, 2-ci Abdulla Şərifzadə, 4-cü Hidayət Mahmudov, 5-ci Süleyman Məlikov, 8-ci Dostu Səfərova, 9-cu Əli Kərimov, 10-cu Məhəmmədqulu Əlixanov, 11-ci Məhəmmədov, 12-ci Cəfər Cabbarlı, 13-cü Məhəmməd Səid Ordubadi, 14-cü Əhməd Bədi Triniç, 15-ci Mahmud Nədim Qaraqözov, 16-cı Balaqardaş Mürşid, 17-ci Özim Əzimzadə, 18-ci Zöhrab, 19-cu Seyid Hüseyn Sadiq, 21-ci Hacıibrahim Qasımov, 22-ci Məhəmmədəli Sidqi Səfərov. Yanvar, 1924

mənasında ağlı başına gələndə, psixoloji şokdan çıxan kimi qol çəkdiyi hər şeydən imtina etmiş, çəkistlər sürüsü ilə onun arasında qeyri-bərabər mənəvi-psixoloji savaş getmiş və bu savaşdan əslində o qalib çıxmışdı! Bolşeviklər ona uduzduqlarını ört-basdır etməkdən ötrü yeganə yolu onu cismən məhv etməkdə gördülər...

AR MTN Arxivi. Əli Kərimovun istintaqı üzrə 12493/90 saylı (indi: PR-27227) iş. 2 cilddədir. 8 fevral 1937-ci ildə başlanıb, 5 oktyabr 1937-ci ildə bitib. I cild 219, II cild 250 vərəqdir.

Tanış olduğumuz çoxsaylı istintaq işlərində bir qanunauyğunluğu müşahidə etmişik – onların qalınlığı əsasən iki amillə bağlı olur: 1) müttəhimin cəmiyyətdə nüfuzu ilə, 2) müttəhimin sınmazlığı ilə. Birinci halda çəkistlər müttəhimdən daha çox adama qarşı ifadə almağa çalışırlar, ikinci halda isə istintaqı dəfələrlə uzatmağa məcbur olurlar və nəticədə hər iki halda dindirmə protokollarının sayı çoxalır. Ancaq adam həm nüfuzlu, həm də "sözəbaxmayan" olduqda (Əli Kərimov da onlardandır) işin həcmi vərəqlərlə deyil, cildlərlə artır...

Azərb. XDİK-nin əməliyyat müvəkkili, DT çavuşu Platonov 8 fevral 1937-ci ildə Kərimov haqqında arayış hazırlayıb[1] və elə həmin gün də o, 99 saylı orderlə həbs edilib.[2] Həbs edilərkən Kərimov Azərbaycan Türk Dram İşçi Teatrının direktoru işləyirdi. Ailəsi özündən və 32 yaşlı arvadı *Yekaterina Moskvitina*'dan ibarətdi (övladları yoxdu).

Kərimov aradan xeyli keçəndən sonra – 1 oktyabr 1937-ci ildə "əks-inqilabi, trostkiçi, qızğın millətçi, XDİK orqanlarının həbs etdiyi xalq düşməni" kimi partiyadan çıxarılıb.[3]

[1] AR MTN Arxivi, PR-27227, I cild, vərəq 1.
[2] Yenə orada, vərəq 4.
[3] Yenə orada, vərəq 10.



Azərbaycan yazıçıları. *Soldan sağa. Ön cərgə (oturanlar):* Mirzə Əbdülxaliq "Raqi", Əliağa "Vahid", Əli Hüseynzadə, Adil "Nəcdət" (Öfəndiyev), Cavad Əhməd, Cabbar Əfəndizadə, Atababa Musaxanlı, Mikayıl Rəfili, Bayraməli "Hambal" (Abbaszadə), Ağahüseyn Rəsulzadə. *Orta cərgə:* Mirzə Rəhim "Fəna", Əbdülxaliq "Cənnəti", Səməd "Mənsur", Məşədi "Azər" (İmaməliyev), Mədinə xanım Qiyasbəyli, Həbib Cəbiyev, Məhəmməd Fuad Köprülüzadə (Türkiyə), Böyükağa Talıblı, Şəfiqə xanım Əfəndizadə, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Bəkir Çobanzadə, Cəlil Məhəmmədzadə, Ağadadaş "Müniri".

Dindirmələr başlandıqdan az sonra ilk istintaq sənədləri içərisində məhbus Ə.Kərimovun AK(b)P MK katibi Mircəfər Bağırova (surəti daxili işlər komissarı Sumbatova olmaqla) yazdığı tarixsiz bir ərizə ilə qarşılaşırıq. Zindandan bu cür ərizələri, adətən, ya sındırılmış, ya da aldadılmış məhbuslara yazdırardılar. Həmin məktublarda məhbuslar indiyədək istintaqa əks-inqilabi müqavimət göstərdiyini, ancaq bundan sonra səmimqəlbdən hər şeyi boynuna alaraq düzgün ifadə verəcəyini bildirir və sonda bağışlanmalarını xahiş edirdi. Bu məktubların məhbuslara xeyri olmur, əksinə, sonra onlardan müttəhimin özünə qarşı istifadə edirdilər.

Kərimovun Bağırova məktubu bu cümlələrlə başlayır:

"Bilirəm ki, yol. Bağırov, yazmaq artıq gecdir, həddən artıq gec. Mən bunu həbsimədək etməli və partiyaya ikiüzlü və xalq düşməni R.Axundovun təsiri altına düşərək özümün də necə ikiüzlü olduğumu və xalq düşmənləri arasına düşdüyümü danışmalı idim".

Bundan sonra o, davam edir:

Arxa cərgə: Mirzə Cəlal Yusifzadə, (Mir)bədrəddin "Seydi" (Seyidzadə), Salman "Mümtaz" (Əsgərzadə), Süleyman "Sani" Axundov, Abdulla "Şaiq" (Talıbzadə), İsmayıl Hikmət (Türkiyə), Hüseyn "Cavid" (Rəsizadə), Əli Kərimov, (Ağa)əli Mirzə Cəlal oğlu Yusifzadə (Əli Yusif), Qulamrza Qasımbəyli, Sami Kamal "Sürəyya" (Türkiyə), Sultanməcid Qənizadə, Əhmədcövdət Pepinov, Əliisgəndər Cəfərzadə, Abdulla bəy Əfəndizadə, Yusif (yazıçılar cəmiyyətinin kuryeri), Seyid Hüseyn "Sadiq" (Sadıqzadə). Bakı, 1924

"Ancaq indi – xalq[1] *qarşısında tamamilə tərk-silah olduğum və yalnız özümün əks-inqilabi, millətçi fəaliyyətim haqqında deyil, təşkilatın başqa üzvlərinin də işləri haqqında istintaqa həqiqi ifadələr verdiyim bir vaxtda düşünürəm ki, Siz mənim sözlərimə inanacaqsınız, çünki bu, bir ikiüzlünün sənədi deyil, bu, başdan-ayağa təslim olmuş bir adamın etiraflarıdır. İndi mən Sizə məni xalq düşmənləri sırasına gətirib çıxaran şərait haqqında qısaca danışmaq istəyirəm.*

... Azərbaycanın sovetləşməsinədək mən, təbii ki, millətçi ilğımların, o sıradan pantürkizm, panturanizm və başqa düşüncələrin əsiri idim və Türkiyənin guya türk-tatar dünyasının lideri və müdafiəçisi kimi tarixi missiyasına inanırdım. Bu gənclik ilğımları üzündən 1919-cu ildə gimnaziyanı bitirən kimi Müsavat hökuməti vaxtı xaricə göndərilmiş 100 tələbənin içərisində mən də İstanbula oxumağa gedərək orada oxudum, ancaq çox yox, cəmi yarım il. Ancaq bu çox qısa müddətin özü də mənə bəs elədi ki, Türkiyənin tam gücsüzlüyünə və dişsizliyinə əmin olum. Mənim pantürkist ilğımlarım duman kimi dağılmağa

[1] "Xalq" ifadəsi altında istintaq nəzərdə tutulur.



Azərbaycan Maarif İttifaqı mətbuat işçiləri seksiya bürosu.
Soldan sağa. Ön cərgə: 1-ci Əli Kərimov, 3-cü Məhəmmədəli Sidqi Səfərov.
Arxa cərgə: 3-cü Hənəfi Zeynallı, 6-cı Abdulla Şərifzadə

başladı və peşman olaraq artıq sovetləşmiş Azərbaycana geri döndüm və elə ilk günlərdən sovet müəssisələrində loyal çalışmağa başladım. Ancaq Sizə həqiqəti deməliyəm ki, geri dönəndən sonra mən dostluq və birgə təhsil bağları ilə əlaqədə olduğum əks-inqilabi millətçi ünsürlərlə oturub-durdum. O sıradan Əbdül Əbdülovla və Əhməd Hacınski ilə (sonralar Müsavat partiyasının üzvləri olmuşdular), eləcə də əks-inqilabi millətçilər Əlimuxtar Həsənov və Hənifə Zeynallı[1] ilə dostluq etdim.

Sovet müəssisələrində və nəşr orqanlarında işləyərək tədricən sovet gerçəkliyinə alışdım, sovet quruluşunu prinsipcə qəbul etdim, ancaq kiçik burjuaya xas ikili təbiətimlə əks-inqilabi millətçilərlə əlaqələri eyni zamanda davam etdirdim, o sıradan "Kommunist" qəzeti redaksiyasında müsavatçılar qrupunun mövcudluğunu bilsəm də bu haqda lazım olduğu yerə xəbər vermədim.

1924-cü ildə mən AK(b)P-yə namizəd təsdiq edildim, 1926-cı ildə isə AK(b)P sıralarına qəbul olundum və o vaxtdan əks-inqilabi millətçi ünsürlərlə əlaqələrim kəsildi, əks-inqilabi millətçi görüşlərim unudulmağa başladı. Beləliklə, mənim həyatımda partiyalılıq dönəmi oldu, o zaman mən bolşevik mövqelərində dayandım.[2] Ancaq 1930-cu ildən başlayaraq R.Axundovla dostluğum başlandı və o, bu dostluqdan istifadə edərək məni özünə yaxınlaşdırdı

[1] Ə.Hacınskidən başqa, yerdə qalan 3 nəfər Cümhuriyyətin Türkiyəyə oxumağa göndərdiyi tələbələrdəndir.

[2] Bu deyilən doğrudur. Mirzəbala Məhəmmədzadə "Müsavatçılar və kommunistlər" adlı məqaləsində (*"Odlu Yurt"*, 1929, №2, ss. 50-55; №3, ss. 93-99) Müsavata qarşı yazanlardan Əliheydər Qarayev, Mustafa Quluyev, Sultanməcid Əfəndiyev, [Zinnətşah] Zakirov, Əli Yaqubov, Əhməd Bədi [Triniç] ilə bir sırada Əli Kərimovun da fəaliyyətini tənqid edib. Məsələn: "Əli Kərimov «Müsavat firqəsi keçmişdə və indi» ünvanıyla (*"Kommunist"*, №2435, 2443, 2456) Müsavat firqəsinin tarixini, proqramını, prinsip və fəlsəfəsini təhlil etməkdədir; səhifələr dolduran uzun seriyasında beşinci məqaləsini yazdığı halda, o, hənuz 1917 sənəsindədir" (*"Odlu Yurt"*, 1929, №2, s. 51).



Azərbaycan müəllimləri xalq müəllimlərinin 1-ci Ümumittifaq qurultayında.
Soldan sağa. 2-ci cərgədə: 3-cü Cəmilə Sultanova, 4-cü Məryəm xanım Bayraməlibəyova, 5-ci Qulu Hüseynov (maarif işçiləri həmkarlar ittifaqının sədri), 7-ci Şahmalıyeva. *3-cü cərgədə:* 5-ci Əlicabbar Orucəliyev. *4-cü cərgədə:* 6-cı Əli Kərimov. Moskva, 12 yanvar 1925-ci il


və mənə bu kəskin əks-inqilabi görüşləri söyləməyə başladı ki, Azərbaycanda mədəni quruculuq, Azərbaycan xalqının mənafelərinə uyğun gəlmir, əslində isə ruslaşdırma baş verir. Bu, əksini guya onda tapır ki, Azərbaycan xalqı ruslarla eyni səviyyədə deyil, təzyiq altındadır, dövlət idarələrində, müəssisələrində rus dili vasitəsilə sıxışdırılır, Sizin və Rəhmanovun şəxsində partiya və sovet rəhbərliyi nəinki bu mənfi halla mübarizə aparmır, əksinə, buna özləri şərait yaradırlar.

R.Axundov sonra yazının və əlifbanın milli azlıqlar arasında inkişafını vahid Azərbaycan xalqının və onun dilinin parçalanması kimi dəyərləndirirdi. O, eləcə də iftira ataraq təsdiq edirdi ki, Azərbaycan milli mədəniyyəti və incəsənəti təzyiq altındadır; bu sahədə işləmək üçün partiya rəhbərliyi təsadüfi, qeyri-mədəni adamları göndərir və s. R.Axundov daim bildirirdi ki, Azərbaycan Sovet İttifaqının tərkibində bərabərhüquqlu deyil, yalnız Sovet Rusiyası üçün xammal bazasıdır (neft və pambıq). Rusiya guya Azərbaycanın sənayeləşməsində maraqlı deyil, ancaq Azərbaycanın hesabına Gürcüstan sənayeləşdirilir və buradan belə nəticə çıxır ki, Azərbaycan Zaqfederasiya sistemində hüquqca bərabər deyil və s. Sistemli şəkildə bu cür əks-inqilabi millətçi görüşlərini mənə tələqin edən R.Axundov məndə yatmış əks-inqilabi millətçi görüşləri yenidən canlandırıb və beləliklə, məni də ikiüzlüyə çevirib, məni tədricən partiya və sovet hakimiyyəti ilə mübarizəyə çəkib aparıb və mübarizə məqsəd və üsulları, məncə, artıq Sizə bəlli olan əks-inqilabi millətçi təşkilata cəlb edib.

Bu təşkilatın başlıca məqsədi Almaniya-Yaponiya faşizmi və SSRİ arasında uğursuz müharibə və SSRİ-nin parçalanması nəticəsində "müstəqil" Azərbaycan respublikasının yaradılması idi…

R.Axundov həmçinin mənə Sizə və Rəhmanova qarşı terror aktları keçirməyi həvalə etmək istədi, ancaq mən qətiyyətlə imtina etdim…

Yol. Bağırov, mən azdım…



Azərbaycanın yazıçı və ədəbiyyatşünaslarından bir qrupu.
Soldan sağa. Masa ətrafında oturanlar: A.V.Baqri, Əli Kərimov, Böyükağa Talıblı, R.X.Tumbil (?), Vəli Xuluflu, Həbib Cəbiyev, Əbdürrəhim bəy Haqverdiyev, İ.P.Petruşevski, (?), Bəkir Çobanzadə, Hənəfi Zeynallı, Məhəmməd Səid Ordubadi, (?), Abdulla Şərifzadə. *Ayaq üstdə:* Mikayıl Rəfili, A.A.Klimov, (?)

Mənim taleyim sizdən asılıdır, yol. Bağırov. Mənim məhkum edilərək həbs düşərgəsinə göndərilməyimə imkan verməyin. Məni həbs düşərgəsinə göndərmədən xalq qarşısında öz günahımı yumağa hazır olduğumu istənilən iş sahəsində sübut etməyə imkan verin. Bütün umudlarım sizədir, yol. Bağırov.

Məndə umud qığılcımlarını söndürməyin.

Ə.Kərimov".[1]

Bu məktubu Kərimova yazdıran çekistlər əslində Ruhulla Axundova qarşı necə bir sanballı ifadə aldıqlarını sevinclə Bağırova raport vermək istəyirdilər. Ancaq Kərimov onları çox sevinməyə qoymadı...

Artıq göstərdiyimiz kimi, Kərimov o dönəmin ən qabaqcıl ideoloji işçilərindəndi və vəzifəcə birbaşa Ruhulla Axundovun nəzarəti altında işləyirdi. Azərbaycan kommunistlərinin xeyli hissəsi, özəlliklə ziyalılar o dönəmdə kompartiya rəhbərliyində R.Axundovu Mircəfər Bağırovun yerinə ən layiqli namizəd sayır və onu dəstəkləyirdilər. İş burasındaydı ki, R.Axundovun özü də Sovetlər Birliyində Stalinə müxalifətdə olan qrupa mənsubdu. Bağırov isə dostu Beriya ilə birlikdə stalinçilərdən sayılırdı. Beləliklə, Bağırovun əliylə nəinki Ruhulla Axundovu, hətta onunla az-çox normal münasibətləri olmuş bütün adamları məhv etmək Stalinin də ürəyindəndi. Görünür ki, axundovçulara, o sıradan Kərimova qarşı xüsusi amansızlıqla cəza verilməsinin səbəbini bunda axtarmalıyıq.

XDİK maksimum işgəncə və təzyiqlərlə Kərimovdan maksimum faydalanmağa çalışıb. 1937-ci ilin 9 fevralından 2 oktyabrınadək onunla rəsmən 33 dindirmə keçirilib (xeyli dindirmənin protokollaşdırılmadığı aydın hiss edilir) və bu dindirmələr üst-üstə 59 gün (!) davam edib. Bəzən bir dindirmə fasiləsiz olaraq 3-4-5-6 gün çəkib! Məsələn, 30-cu dindirmə

[1] AR MTN Arxivi, PR-27227, I cild, vv. 16-20.

27 iyuldan 3 avqusta qədər davam edib. Əlbəttə, bu qeyri-insani üsullarla istənilən insanın "dilini açmaq" mümkündür; bunun üçün onu təkcə iki-üç gün yuxusuz saxlamaq yetərlidir. Bundan sonra məhbus bayılır və hərəkətləri öz idarəsindən çıxır. Bu durumdakı müttəhimə özündən xəbərsiz istənilən protokola qol çəkdirilir. Ə.Kərimovun imzaladığı istintaq protokollarında əksini tapmış xeyli adama (o sıradan özünə də) qarşı böhtan və iftiralar, şübhəsiz, bu cür anların məhsuludur və onların Kərimovun gerçək ifadələri olduğuna yox, saxtakar müstəntiqin qələmindən çıxdığına inanmalıyıq.



Əli Kərimov həbsdə. 1937

Bəli, saathesabı 59 gün çəkən istintaqın, demək olar ki, bütün protokolları başdan-ayağa siyasi məzmunludur, kimisə "ilişdirməyə" həsr edilib. Müstəntiqlər bütün diqqəti yalnız müttəhimdən R.Axundov və ona yaxın şəxslərin əleyhinə ifadələr almağa yönəldib. Bu ifadələrin əksərinin sonunda göstərilib ki, həmin şəxslər Azərbaycanı Zaqafqaziyadan və SSRİ-dən ayırmaq, müstəqil Azərbaycan Cümhuriyyəti yaratmaq, kommunist partiyası və sovet hökumətinə qarşı mübarizə aparmaq yolu seçmişdilər, Bağırova və digər partiya-dövlət rəhbərlərinə qarşı terror törətmək istəyirdilər. Həmin şəxslər Vəli Xuluflu, Salman Mümtaz, Hənəfi Zeynallı, Əhməd Triniç, Bəkir Çobanzadə, Rəhman Hüseynov, Abdulla Tağızadə, Əli Nazim və başqalarıdır. Təcrübəsiz oxucu bu cümlələrlə tanışlıqdan sonra Əli Kərimovu ürəkdən qınaya bilər. Bu yanlışlığa yol verməmək üçün 27-28 mart 1937-ci il tarixli ikigünlük dindirmədən bu parçaya diqqət yetirək:

"*Sual:* Sonuncu dindirmənin sonunda[1] siz əks-inqilabi təşkilatın üzvü olmağınız və bu təşkilatın ÜK(b)P və sovet hakimiyyətinə qarşı Azərbaycanı SSRİ-dən qoparmaq və "müstəqil" Azərbaycan dövləti yaratmaq məqsədi ilə fəal mübarizə apardığı haqqında verdiyiniz ifadələrdən 5-ci dəfə imtina etmisiniz. Siz verdiyiniz ifadələri yenidən təsdiqləmək və onlara əlavələr etmək, yoxsa onlardan imtinaya davam etmək fikrindəsiniz?

Cavab: Qəti şəkildə bildirirəm ki, mən əks-inqilabi millətçi təşkilatın üzvü olmamışam. Azərbaycanın SSRİ-dən qoparılması haqqında heç kimlə söhbət etməmişəm".[2]

Görün insan nə qədər dözümlü və mətindir ki, müstəntiqlərin verdiyi bir ay 20 günlük əzab və işgəncələrə sinə gərərək indiyədək qol çəkdiklərinin hamısından 6-cı dəfə imtina edir! Şəxsən biz bundan sonra onun adından protokollaşdırılmış ifadələrdə "satqınlıq" axtaranları cəsarətlə "allahsız" adlandırardıq.

Sözün doğrusu, indiyə qədər tanış olduğumuz onlarca istintaq işi içərisində ilk dəfədir məhbusun istintaqa qarşı 6 dəfə üsyan etdiyini (bunun başqa adı yoxdur!) görürük.

Həbsindən 4 ay yarım, yuxarıdakı sual-cavabdan 3 ay keçib. İndi də 23 iyun dindirməsi gedir. Qarşısındakı insanı heç bir üsulla sındırmağı bacaqmayan aciz müstəntiq hirsindən cilov gəmirir: "İstintaqda inadkarlığı davam etdirməklə siz istintaqın aşkar etdiyi əks-inqilabi işinizi boynunuza almırsınız. İstintaq istintaqla əks-inqilabi mübarizəni dayandırmağınızı, təslim olmağınızı və səmimi ifadələr verməyinizi tələb edir".[3] Ancaq hədələr yenə təsirsiz qalır.

11 iyul 1937-ci il. Kərimov tam təslim olduğunu və istintaqa əks-inqilabi təşkilatın Azərbaycan partiya və hökumət rəhbərlərinə qarşı terror aktları hazırlaması haqqında ifadələr verməyə razı olduğunu bildirib...[4] Görünür, istintaq artıq Kərimovu da Axundovun

[1] 23-25 mart 1937-ci il dindirməsi nəzərdə tutulur.
[2] AR MTN Arxivi, PR-27227, I cild, vərəq 174.
[3] Yenə orada, II cild, vərəq 31.
[4] AR MTN Arxivi, PR-27227, II cild, vərəq 93.

durumuna salmağı bacarıb – ancaq *5 aydan sonra!* Bu müddətdə nəinki insan, heç daş da olsa dözməzdi…

Bundan sonra da istintaq yetərincə müqavimətlə qarşılaşsa da protokollara qol çəkdirməkdə çox da ciddi "problem"lə üzləşməyib. Bundan sonrakı bütün ifadələrin qondarma olması şübhəsizdir.

Beləliklə, 1937-ci ilin 5 oktyabrı da gəlib çatdı. Müstəntiq Nikolayev istintaqın bitməsi haqqında protokol tərtib edərək yəqin ki, Kərimovun əlindən qurtardığına görə Allaha şükür edib. Həmin gün Kərimov da sənədlə tanış edilib. Orada göstərilib ki, müttəhim hər şeyi boynuna alıb…[1]

12 oktyabr 1937-ci ildə Matuleviç, Zıryanov, Jiqur və Kostyuşkonun iştirakı ilə qapalı məhkəmə iclası keçirilib. 16:40-da başlanan 20 dəqiqəlik "məhkəmə" 17:00-da bitib və Əli Kərimovu əmlakı müsadirə olunmaqla güllələnməyə məhkum edib.[2]

Sənədə görə, hökm oktyabrın 12-sindən 13-ünə keçən gecə Bakı şəhərində yerinə yetirilib.[3] Ruhu şad olsun!

Stalinin ölümündən sonra artıq bəraətlər dönəmi başlananda Əli Kərimovun qardaşı Məhəmmədtağı Kərimov da Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinə ərizə yazaraq qardaşı haqqında ona məlumat verilməsini xahiş edib ("onun sağmı, ölümü olduğunu bilmirəm"). Bildirib ki, Azərb. SSR Ticarət Nazirliyi aparatındakı sökkizillik qüsursuz işimdən sonra qardaşıma görə məni də işdən çıxarıblar. Ərizəçi qardaşının işinə yenidən baxılmasını xahiş edib.[4]

Əli Kərimova 25 iyun 1957-ci ildə bəraət verilib.[5]

* * *

Bu cinayət işindən oxucuları maraqlandıracaq bir parça gətirməklə istintaq sənədləri ilə tanışlığa yekun vururuq.

Kərimovla eyni taleyi yaşamış *Hənəfi Baba oğlu Zeynallı* özünün "NKVD"-də 15-20 may 1937-ci ildəki 6 gün (!) dalbadal çəkən istintaqında Əli Kərimovla bağlı bunları demişdi:

"Əli Kərimovu mən şəxsən 1920-ci ildən tanıyıram. O zaman biz İstanbul Universitetində onunla birgə oxumuşuq. 1922-23-cü illərdə mən və Əli Kərimov "Zəhmət" və azərbaycanca "Kommunist" redaksiyalarında işləmişik. Redaksiyanın katibi Əli Kərimov idi.

1923-cü ildə mən Azərnəşrə nəşriyyat üzrə işə keçdim, Əli Kərimov "Kommunist" redaksiyasında 1927-ci ilədək işləməkdə davam etdi.

Əli Kərimovla görüşərkən biz bir-birimizdən çəkinmədən… söhbətlər edirdik…"[6]

Zeynallı daha sonra deyir:

"Əli Kərimov İstanbul Universitetindən [Məhəmməd Fuad] Köprülüzadənin tələbəsi idi və onlar burada, Bakıda köhnə dostlar kimi görüşmüşdülər. "Kommunist" redaksiyası Bakıya Köprülüzadə ilə birgə gəlmiş Əli bəy Hüseynzadənin pantürkist məqalələrini dərc edib. 1927-29-cu illərdə mən Əli Kərimovla Azərnəşrdə işləmişəm və Əli Kərimov mənimlə birgə Hüseyn Cavidin, Haqverdiyevin… əsərlərinin nəşrində fəal iştirak edib".[7]

Leninin və Şaumyanın yadigarları belə bir dəyərli ziyalımızı (yazılarında nə qədər yanlışlığa yol versə də) aradan götürdülər.

Ən dəhşətlisi isə onun adının indiyədək heç yanda çəkilməməsidir…

[1] AR MTN Arxivi, PR-27227, II cild, vərəq 251.
[2] Yenə orada, vv. 259-261.
[3] Yenə orada, vərəq 263.
[4] Yenə orada, vərəq 261.
[5] Yenə orada, vərəq 324.
[6] Yenə orada, vərəq 157.
[7] Yenə orada, vərəq 158.

Qaracəmirlinski Məcid bəy Qasım bəy oğlu

(1894, Qaracəmirli k./ Şəmkir r. – ?)

Batum əyaləti hərbi valisi dəftərxanasının kargüzar köməkçisi, kollej qeydiyyatçısı *Qasım bəy Qaracəmirlinski* 24 may 1904-cü ildə Batum şəhərində Zaqafqaziya Sünni Ruhani İdarəsinin sədrinə (müftiyə) ərizə yazaraq onun oğlu Məcid bəyin doğum tarixi haqqında ona şəhadətnamə verməyi xahiş edib.[1] Bundan sonra Sünni Ruhani İdarəsi məsələni araşdırmaq üçün işə başlayıb.

Müfti *Hüseyn əfəndi Qayıbov* 3 iyun 1904-cü ildə Gəncə qəza rəisinə 753 saylı məktub göndərərək Qaracəmirli kəndinin sakini Qasım bəy Qaracəmirlinskinin oğlu Məcid bəyin doğumu haqqında doğum şəhadətnaməsi verməkdən ötrü etibarlı adamlar və məscid mollası vasitəsilə andlı sorğu keçirməyi xahiş edib.[2]



Qasım bəy Qaracəmirlinskinin pasportu

Qəza rəisi 22 sentyabr 1904-cü ildə bir neçə adama bu *qəsəmnaməyə* qol çəkdirib:

"Mən zirdə[3] *yazılan vəd edirəm və and içirəm qadiri-zülcəlal olan cənab Pərvərdigarın Qurani-Məcidinə ki, hər nə iş məndən sual eləyərlər, vallah və billah və tallah nə ki görmüşəm və eşitmişəm, hər nə ki bilirəm, gizlətməyib, nə artıq izafə eləməyib, əksiltməyib, tərəfgirlik, qohumluq , dostluq, düşmənlik, tamahkarlıq və qorxu mənzur etməyib dürüst həqiqəti göstərəcəyəm ki, qiyamət günündə cənab əqdəsi-ilahinin divanında cavab verməyə qadir olum və bən bu qəsəm yar etməyimə görə öpürəm Qurani-Şərifin kəlmələrini, amin, ya Müin".*[4]

Bu sənədi bütöv verməkdə məqsədimiz odur ki, dəqiq doğum tarixi bilinməyən şəxslərin doğumunu dəqiqləşdirmək üçün o dönəmdə hakimiyyət orqanlarının hansı üsuldan istifadə etdikləri ilə oxucuları tanış edək. Başqa sözlə, Ruhani İdarəsinin xahişinə əsasən qəza rəisləri yerlərdə şahidlərə bu cür qəsəmnaməni imzaladaraq tarixi onlardan bu vasitə ilə dəqiqləşdirirdilər.

Gəncə qəzası I sahəsinin polis pristavı 22 sentyabr 1904-cü ildə Qaracəmirli kəndinin 11 sakinindən Məcid bəy Qaracəmirlinin doğumu haqqında sorğu-sualın nəticələri haqqında protokol tərtib edib.[5] Nəhayət, bu protokollara əsasən Zaqafqaziya Sünni Ruhani İdarəsi 13 oktyabr 1904-cü ildə Tiflis şəhərində 1306 saylı belə bir doğum şəhadətnaməsi tərtib edib ki, Gəncə qəzası Qaracəmirli kəndinin sakini Məcid bəy atası, kollej qeydiyyatçısı Qasım bəy Qaracəmirlinskinin qanuni arvadı Tamaşa Molla Süleyman qızından 1894-cü ildə doğulub.[6]

[1] ARTA, fond 291, siyahı 2, iş 3447, vərəq 1.
[2] Yenə orada, vv. 4-4a.
[3] Aşağıda.
[4] ARTA, fond 291, siyahı 2, iş 3447, vərəq 6.
[5] Yenə orada, vv. 7-8; 9-11.
[6] Yenə orada, vərəq 11.



Qəsəmnamə

Biz 2008-ci ilin yanvarında Məcid bəyin Şəmkir rayonunun Qaracəmirli kəndində olan qohumları ilə əlaqə saxladıq. Onların qohumlardan *Nazim bəy* bildirdi ki, Məcid bəyin ailə üzvlərindən bu gün Şəmkir rayonunda heç kəs qalmayıb. Onun oğlu *Gəray bəy Qaracəmirlinski* Belorusiyanın paytaxtı Minsk şəhərində yaşayır. Biz İnternetlə Gəray bəyin Minsk ünvanını və ev telefonunu tapsaq da, Miskdə yaşayan tanışlarımız vasitəsilə Gəray bəyin özü, yaxud ailə üzvləri ilə əlaqə yaratmaq istəsək də bütün cəhdlərimiz uğursuz oldu.

Əlimizdə Məcid bəyin atası Qasım Musa oğlu Qaracəmirlinskinin 15 iyun 1936-cı ildə verilmiş pasportunun əsli var. Burada göstərilib ki, Qasım bəy 1864-cü il doğumludur, Gəncədə doğulub, Türkdür, qulluqçudur. Pasportun cildində kimsə karandaşla onun 1941-ci ildə vəfat etdiyini yazıb.

Xatırladırıq ki, AR Dövlət Arxivindəki şəxsi işində Məcid bəyin fotoşəkli yoxdur.

Xarkov Arxivində çalışdığımız zaman bəlli oldu ki, müharibə dövründə Xarkov Universitetinin 1920-ci ildək oxumuş tələbələrinin sənədləri saxlanılan arxiv yanıb. Buna görə də həmin univeristetdə oxuyan heç bir azərbaycanlı tələbənin, o sıradan Məcid bəy Qaracəmirlinskinin də sənədləri ələ gəlmədi.

Xarkov Universitetdən 9 sentyabr 1917-ci ildə verilmiş 313 saylı vəsiqəyə görə, Məcid bəy Qaracəmirlinski Xarkov Universiteti hüquq fakültəsinin V semestr tələbəsidir.[1]

Gəncə qəzası Qaracəmirli kəndinin sakini, Xarkov Universiteti hüquq fakültəsinin III kurs tələbəsi Məcid bəy Qaracəmirlinski 18 avqust 1919-cu ildə Bakı şəhərində AC xalq maarif nazirinə yazdığı ərizədə göstərib ki, təhsilimi ya Xarkov Universitetində, ya da İsveçrədə davam etdirmək istəyirəm, ancaq maddi imkanım olmadığına görə dövlət hesabına xaricə göndərilən tələbələr sırasına salınmağımı xahiş edirəm. Mənim kasıb olduğumu bu şəxslər təsdiqləyə bilər: Əliəkbər bəy Xasməhəmmədov (Məhkəmə Odasının sədri), Abbasəli bəy Ağabababəyov (Gəncə Dairə Məhkəməsinin sədri), Əliəsgər bəy Xasməhəmmədov (Gəncə şəhərinin başçısı), Fəhrat Əliyev (Gəncə Şəhər İdarəsinin katibi) və b.

Ərizənin sonunda Məcid bəy ünvanını belə göstərib: *"Bakı şəh., Böyük Dəniz[2] küçəsi, "Brüssel" mehmanxanası, topoqrafiya şöbəsinin məmuru Qasım bəy Qaracəmirlinskiyə (mənim atama)".*[3]

Xarkov Universiteti hüquq fakültəsi III kursunun tələbəsi Məcid bəy Qaracəmirlinskinin sənədləri içərisində onun 17 noyabr 1919-cu ildə Gəncə qəzasının Gədəbəy kəndindən AC maarif nazirinə yazdığı bir ərizə də diqqəti cəlb edir. Sənəddə bunları oxuyuruq:

"Təhsili davam etdirmək üçün Rusiyaya göndərilməsi hökumət təqaüdçüləri sırasına salındığımı keçən ayın son günlərində öyrənərək öz xidməti yerim olan Gədəbəydən

[1] ARDA, fond 51, siyahı 3, iş 89, vərəq 2.
[2] İndiki Bülbül küçəsi.
[3] ARDA, fond 51, siyahı 3, iş 89, vv. 1-1a.




1. Məcid bəyin doğum şəhadətnaməsi
2. Qasım bəyin Qafqaz müftisinə ərizəsi

təcili Bakıya gəldim və tələbələrin Rusiyaya göndərilməsi şərtləri ilə tanış olmaq üçün ləngimədən Sizinlə görüşdüm. Təşəbbüsümlə bağlı Sizdən gərəkli bilgilər alaraq getməyimizlə əlaqədar məsələləri müzakirə etmək üçün tələbələrin ümumi yığıncağını keçirdik. Orada Xarkovdan bu il 20 oktyabrda gəlmiş 2 tələbə – Adıgözəlbəyov və Şahbazov da iştirak edirdilər; onlar yığıncağın xahişi ilə Rusiyanın cənub-qərbindəki durum haqqında geniş məruzə etdilər.

Yuxarıda adı keçən həmkarlarımın qərəzsiz bəyanatlarına görə, Rusiyada dolanışıq hədsiz bahadır. Şəhərdə boş otaqlar demək olar ki, yoxdur. Mənzil tapılsa da (o da inanılmaz qiymətə) işıq və istilikpulu xaric 1200-dən 2000 manata qədərdir. Ağ neft və odunla bağlı məsələ isə daha bərbad vəziyyətdədir. Ağ nefti olduqca məhdud miqdarda verirlər (reseptlə dərman verən kimi), odun isə 350 manata və bəzən daha baha olur. Ən başlıcası və ən kədərləndiricisi isə universitet həyatındakı tam durğunluqdur: cüzi əməkhaqqına görə sayları həddən azalmış professorlar öz vəzifələrinin icrasına laqeyd yanaşırlar və ona görə də bəzən professorların yoxluğu üzündən universitet həftələrlə bağlı olur. Tələbələrin də çoxu əsgərliyə cəlb edilib. Təhsilhaqqı 10-12 dəfə artırılıb. Gərəkli dərsliklər mağazalarda da yoxdur.

Həmkarlarımızın dediyinə görə, cənub-qərbi Rusiyada bu saat universitet yada düşmür. Orada hər şey cəbhə üçündür. Bu ehtimalı da nəzərə alsaq ki, qışda istilik olmadığına görə universitet bağlanacaq, onda bütün dediklərimizi bir yerə toplayanda aydın nəticə əldə etmiş oluruq – indiki vaxtda Rusiyaya getmək məqsədəuyğun deyil. Bu fikirlə Rusiyaya getməyə hazırlaşmış yoldaşlarımızın çoxu razıdır. Ancaq elələri də var ki necə olsa getmək istəyir. Yalnız bir məqsəd naminə – yararlanaraq təhsili davam etdirməkdən ötrü bütün mümkün məhrumiyyətlərə və yoxsulluğa, bundan da betərinə, hətta həyatla risk etməyə dözmək olar. Rusiyadan qaçıb gəlmiş həmkarlarımız deyirdilər ki, biz tez -tez milliyyətimizi və ondan da tez-tez təbəəliyimizi gizlətməyə məcbur olurduq. Ancaq bu qədər əzab-əziyyətdən sonra universitetin bağlı qapıları arxasında qalmaq qorxusu daha gerçəkdir. Bu fikirlərlə yola düşmək, məqsədə çatmadan xalq



AC maarif nazirinin mühasibə məktubu

pullarını havaya sovurmaq düşüncələri məni və mənimlə eyni əqidədə olan həmkarlarımı Sizdən israrla xahiş etməyə vadar edir ki, tezliklə təhsilini bitirərək Vətənə dönməyi ürəkdən istəyən bizlərə yaxın gələcəkdə hökumət təqaüdündən yararlanmaq imkanı yaradasınız, yaxud bizə də Qərbi Avropaya getmək hüququ verəsiniz. Əlavə etməyi gərəkli sayıram ki, bəzilərimiz, o sıradan mən də alman dilini bilirik".[1]

Xalq Maarif Nəzarətinin mühasibinə 24 noyabr 1919-cu ildə nazir 13361 saylı belə bir təliqə göndərib ki, Rusiyaya ali təhsilini davam etdirmək üçün getməkdən ötrü tələbə Məcid bəy Qaracəmirlinskiyə 21 min manat yazmağınızı təklif edirəm. Həmin məbləğdən 18 min manat bugünkü gündən 6 aylıq dolanışıq üçün və 3 min manat yolpuludur.[2]

***



Vaqif Qaracəmirli. 1972

Məcid bəyin təqaüdü aldıqdan sonra Xarkova 1919-1920-ci illərdə gedib-getməməsi bəlli deyil, ancaq getməməsi daha inandırıcıdır. Onun təhsilini nə vaxt bitirməsi də bəlli deyil. Bəlli olan budur ki, o, sovet dönəmində Gəncədə hüquqşünas işləyib (bunu Qaracəmirlidə yaşayan qohumlarından öyrənmişik).

Məcid bəy Qaracəmirlinskini arxivdə axtararkən ARPİİSSA-də *Vaqif Yunis oğlu Qaracəmirli*'nin (16.05.1942) şəxsi işi ilə tanış olduq.[3]

31 iyul 1973-cü ildə yazdığı tərcümeyi-halında 16 may 1942-ci ildə doğulduğunu, 1964-cü ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirdiyini, 1972-ci ilin oktyabrından Azərbaycan KP Kirovabad şəhər komitəsində şöbə müdirinin müavini işlədiyini qeyd edib.[4]

Kirovabad şəhər partiya komitəsinin katibi Ə.Vəzirovun Azərbaycan KP MK-a 18 iyul 1973-cü il tarixli təqdimatından[5] və oradan razılıq alındıqdan sonra 25 iyulda həmin vəzifəyə təsdiq edilib.[6]

Azərbaycan KP Kirovabad şəhər komitəsi bürosunun 16 yanvar 1979-cu il tarixli qərarı ilə V.Y.Qaracəmirli vəzifəsindən azad edilib.[7]

Əlbəttə, Vaqif Qaracəmirli də Məcid bəyin qohumlarındandır, ancaq onun qohumluq dərəcəsini müəyyənləşdirə bilmədik.

[1] ARDA, fond 51, siyahı 3, iş 89, vv. 4-5.
[2] Yenə orada, vərəq 3.
[3] ARPİİSSA, fond 1, siyahı 77, iş 608.
[4] Yenə orada, vərəq 4.
[5] Yenə orada, vərəq 7.
[6] Yenə orada, vərəq 8.
[7] Yenə orada, vərəq 9.

Qədimi Lətif Məşədi Şirin oğlu

(20.03.1895, Şuşa – 01.08.1942, Perm vilayəti; həbsdə)



Lətif Qədimli

Ali təhsilini Almaniyada başa vurmuş Lətif Qədimi[1] Azərbaycanın sənaye və təhsil tarixində müəyyən iz buraxmış şəxsiyyətdir. Təəssüf ki, onun həyatı haqqında indiyədək qeyd edilməyə yararlı heç bir yazı qələmə alınmayıb. Bu məqalədə biz Qədiminin tərcümeyi-hal faktlarına daha geniş yer verməklə oxucunu ilk növbədə onun həyatı ilə tanış etməyə, kimliyini tanıtmağa çalışmışıq. Düşündük ki, bu bilgilərə söykənən gələcək araşdırıcılar onun fəaliyyətini daha asanlıqla öyrənə bilmək imkanı qazanar.

***

Uzun axtarışlardan sonra, nəhayət, qohumlarını tapa bildik. 7 noyabr 2007-ci ildə Lətifin qardaşı *İslamın qızı Səidə Qədimova* (1938), Lətifin kürəkəninin oğlu *Aqil Barat oğlu Quluyev* (1950) və onun həyat yoldaşı *Roza İsa qızı Məmmədova* (1952) ilə görüşərək Lətif Qədimi haqqında ətraflı söhbət etdik. Onlardan Qədimi ilə bağlı fotolar və sənədlər aldıq, onlara fotolar və sənədlər verdik. Heç bir arxiv sənədində rast gəlinməyəcək çox maraqlı faktlar ortaya çıxdı, artıq yaddaşlardan silinməkdə olan neçə-neçə hadisə yenidən yada düşdü. Qohumlar bir-birinə dəstək verə-verə, bir-birinin yadına nələrisə sala-sala çox unudulmuş mətləblərə işıq saldılar. Həmin söhbətin qısa məzmunu ilə oxucuları tanış edirik.

Roza xanım bildirdi ki, Lətifin övladı olmayıb. O, bacısı Zəhranın (1895-1984) yenicə doğulmuş qızı Rəfiqəni (1927-2003) rəsmən övladlığa götürüb. Həmin Rəfiqə (ona "Rəna" da deyirdilər) sonra mənim qayınanam oldu və ona qürurla "anam" deyirəm. Həmin anam danışardı ki, Lətifin arvadı Doranın anasının Almaniyada şirniyyat fabriki olub. Lətif həbs olunub, ancaq onun harada qaldığını evdə bir-iki gün heç kəs bilməyib. Rəfiqə eşidibmiş ki, Lətif "məni güdürlər" deyirmiş.

Səidə xanım əlavə edir: Lətifi işdən evə gələndə tutublar. Arvadı Dora iki gün milisə gedib-gəlib ki, ərim haradadır? (Dora Azərbaycan Tibb İnstitutunda alman dili müəllimi işləyirdi). Ona deyiblər ki, siz də hazırlaşın, sürgünə gedəcəksiniz. Doğrudan, onun ailəsini də Qazaxıstana sürgün ediblər.

Rəfiqə 12 yaş yarımlıq olanda, nəhayət, su boğaza yığılanda Dora ona açıb deyib ki, sən bizim öz qızımız deyilsən. Bunu hökumət orqanlarına söylə, bizə görə sənə də toxunmasınlar, ancaq Rəfiqə (Rəna) razılaşmayıb ki, yox, mənim əsl anam sənsən, səni heç vaxt tək buraxmaram. Və onunla birgə sürgünə gedib!

Roza xanım: Lətifi işdən gələndə yolüstü bazara dəyərkən elə bazardaca həbs ediblər. Dora və Rəna ertəsi gün gedib onunla görüşüblər. 2-ci dəfə gedəndə Doraya deyiblər ki, Lətif burada yoxdur. Harasa köçürüblərmiş.

Bundan təxminən 10 gün sonra Doranı da qızı ilə birlikdə heyvanları daşıyan şalonda sürgünə göndəriblər. Onları Qazaxıstanda yiyəsiz bir düzün ortasında düşürüblər. Özləri min əziyyətlə gedib bir kolxoz tapıblar. Dora həmin kolxozda cəmi 6 ay yaşayıb. O, fermada işləyirmiş, brüsselyoz xəstəliyinə yoluxub, xəstəxanada yatıb. 3 gündən sonra Rənaya deyiblər ki, anan can verir, gəlib onunla vidalaşa bilərsən. O, xəstəxanaya çatanda Dora artıq keçinibmiş. Anasını özü araba ilə aparıb dəfn edib. Bu, çox çətin imiş, çünki torpaq buz bağlayıb, qalın buzu yarıb qəbir qazmaq qız uşağına əzab verib.

[1] Soyadı bir çox qaynaqlarda "Qədimov" kimi də gedib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.



Lətif Qədimi *(soldan 5-ci)* məktəb yoldaşları arasında *(sağdan 1-ci Əliəkbər Əliyev)*

Rəna anasının ölümündən sonra müharibə qurtaranadək 5 il orada qalaraq yaşayıb. Vaxtilə Bakıda Qırmızı küçədə[1] yaşayarkən bir həyətdə rəfiqə olduğu, bu vaxt Həştərxanda atası ilə yaşayan Dilarə xanım Qacar onu axtarıb tapıb və daim ona pul göndərib. Rəna danışırmış ki, Dilarə xanımın göndərdiyi pul olmasaydı mən ölərdim. Dilarə xanım təxminən 1946-cı ildə Rənanı da Qazaxıstadan Həştərxana öz yanlarına aparıb. Bu vaxt Lətif Qədiminin Bakıdakı mənzilini qohumları talan etmişdilər.

Dilarənin atası Bakıya xəbər verib ki, Lətifin qızı bizim yanımızdadır. Rənanın dayısı Manaf onu 1947-ci ildə Bakıya gətirib. Onun arvadı Rənaya gün verməyib. Buna görə Rənanın doğma qardaşları Əbülfətlə İrşad onu Nizami küçəsindəki mənzillərinə apararaq öz yanlarında saxlayıblar. İrşad polkovnik, hərbi hakim olduğuna görə ona verilən ərzaqla birtəhər dolanıblar. Yayda qardaşların hərəsi bir yana getdiyinə görə qız tək qalmasın deyə onu doğma ata-anasının yanına göndəriblər. Yayların birində Ağdamda əmisi oğlu, sonralar Azərittifaqda 56 il böyük müfəttiş işləmiş Barat Quluyevlə (1924-2005) nişanlanıb, 1949-cu ildə toyları olub. Rəna 1993-cü ildə Bakıya oğlanlarının yanına gəlib.

* * *

Qohumlarından Lətif Qədimovun ailəsi haqqında da bilgi əldə etdik. Onlardan öyrəndiyimizi aşağıda veririk.

Tacir *Şirin Qədimov* (?-1917) *Bilqeyis Əli qızı* ilə (?-1910) ailə qurub və ondan 7 övladı olub:

[1] İndiki Bünyad Sərdarov küçəsi.



Lətif Qədimi *(öndə soldan 3-cü)* məktəb yoldaşları və dostları ilə

1. *Manaf* (1893-?). Fotoqraf olub, sonra trest müdiri işləyib. Onun qızı akad. Yusif Məmmədəliyevin həyat yoldaşıdır.

2. *Lətif* (1895-1942). Alman qızı Dora ilə evlənib, övladları olmayıb. Bacısı Zəhranın qızı Rəfiqəni (Rənanı) övladlığa götürüblər.

3. *Zəhra* (1895-1984). Mirzə Səlim Quluzadə ilə ailə qurub, 6 övladı olub.

4. *Hacı* (1899-?).

5. *Qulam* (1903-1964). Xırda ticarətçi olub.

6. *Xanım* (?-1964). Bahadır Bəhramovla ailə qurub, 4 övladı olub.

7. *İslam* (1907-1973). Rövşənə Mustafayeva ilə ailə qurub, jurnalist Səidə (1938) (bizim söhbətdaşımız) və filoloq Dilarənin (1944) atasıdır. Başqa qadından Yusif və Oqtay adlı oğulları da var. Leninqradda və Bakıda 2 ali məktəb bitirib, Moskvada ali partiya məktəbini qurtarıb, Azərbaycanın mənzil təsərrüfatı naziri (1944-48) və həmin illərdə Azərbaycan Ali Sovetinin deputatı olub.

Şirin Qədimov Bilqeyis vəfat edəndən sonra *Züleyxa* adlı başqa bir qadınla ailə qurub və ondan təxminən 1912-ci ildə *Əsgər* adlı oğlu olub. Əsgər Tərtərdə yaşayıb və haqqında bilgi yoxdur.

Şirinin qardaşı *Şükür* 1870-ci il doğumludur, ticarətlə məşğul olub.

* * *

İndi isə növbə Lətif Qədiminin AR Dövlət Arxivindəki sənədlərindədir.

Zaqafqaziya Müsəlman Şiə Ruhani İdarəsindən 13 may 1902-ci ildə verilmiş doğum şəhadətnaməsinə görə, Gəncə valiliyi Şuşa şəhərinin Çuxurməhəllə doğum kitabının



Lətif Qədimi. Almaniya

I hissəsində göstərilib ki, Şuşa şəhərinin sakini Şirin Hacı Ağakişi oğlu Qədimovun öz qanuni arvadı Bilqeyis xanım Əlibəy qızından oğlu Lətif hicri tarixlə 1312-ci il şəvval ayının 7-sində, xristian tarixi ilə 20 mart 1895-ci ildə doğulub.[1]

Lətif Qədimova 24 aprel 1917-ci ildə Şuşada verilmiş 419 saylı attestatda onun 12 yanvar 1907-ci ildə Şuşa edadi (real) məktəbinə girərək orada 20 aprel 1917-ci ilədək oxuyaraq əsas bölmə üzrə tam kursu bitirdiyi göstərilib. Onun qiymətləri 6 fəndən "5", 6 fəndən "4", yalnız rus dili və coğrafiyadan "3"-dür.[2]

Ali məktəbə girmək üçün vacib olan əlavə sinfi də o, 1 oktyabr 1917-ci ildən 15 mart 1918-ci ilədək həmin məktəbdə oxuyub. Bu haqda 19 mart 1918-ci ildə verilmiş 126 saylı şəhadətnamədə göstərilib ki, o, son sınaqlarda bu qiymətləri alıb:

Şəriət –	əla (5)
Rus dili –	əla (5)
Alman dili –	əla (5)
Fransız dili –	yaxşı (4)
Riyaziyyat, o sıradan:	
Hesab –	əla (5)
Cəbr –	yaxşı (4)
Triqonometriya –	yaxşı (4)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	əla (5)
Tarix –	əla (5)
Təbiiyyatşünaslıq –	əla (5)
Fizika –	əla (5)
Riyazi coğrafiya –	əla (5)
Rəsm –	əla (5)
Qanunşünaslıq –	əla (5)
Türk dili –	əla (5).[3]

Bakı şəhərində Qafqaz müsəlman şagirdlərinin I qurultayı keçirilərkən 10 may 1917-ci ildə çəkilmiş xatirə fotolarında qurultay iştirakçıları arasında Lətif Qədimini də görürük. Deməli, o, məktəbin fəal şagirdlərindən olub.

Şuşa real məktəbini bitirmiş Lətif Qədimov 10 noyabr 1918-ci ildə Bakı şəhərində vali müavininə ərizə yazaraq bildirib ki, ali məktəbə girmək imkanım olmadığından Vətənə mümkün qədər faydalı olmaq istəyirəm, buna görə də mənə Sizə tapşırılmış idarədə bir yer verməyinizi xahiş edirəm. Nəzərinizə çatdırıram ki, mən türk və rus dillərini bilirəm, fransız və alman dillərinə kurs üzrə bələdəm.[4]

[1] ARDA, fond 51, siyahı 3, iş 86, vərəq 2.
[2] Yenə orada, vv. 3-3a.
[3] Yenə orada, fond 1046, siyahı 3, iş 29, vərəq 4.
[4] Yenə orada, vərəq 1.



Lətif Qədimi Əliəkbər Əliyevlə. Almaniya

Bu ərizənin üstündə vali Əmir bəy Nərimanbəyov dərkənar qoyub ki, 11 noyabr 1918-ci ildən məhkəmə-inzibati bölməsinə kargüzar köməkçisi təyin edilsin. 20 noyabrda bu haqda 191 saylı əmr verilib.

Məhkəmə-inzibati bölməsi kargüzarının köməkçisi Qədimov 20 fevral 1919-cu ildə Bakı valisinə yazdığı raportda bildirib ki, Sizin 18 fevral tarixli 1538 saylı göstərişinizə əsasən Quba qəzasına ezamiyyət yerinə bugündən getdiyimi Siz həzrətlərin nəzərinə çatdırmaqla şərəflənirəm.[1]

Bakıda Kilsə[2] küçəsi 77-ci evdə yaşayan Lətif Qədimov AC maarif nazirinə 7 avqust 1919-cu il tarixli ərizəsində yazıb ki, orta məktəbi keçən il bitirsəm də bəzi səbəblər üzündən təhsilimi Zaqafqaziyada davam etdirə bilməmişəm. Başlıca əngəl bunda olub ki, mən aşağı siniflərdən ixtisas təhsili almağa çalışmışam. Ancaq Zaqafqaziya Universiteti bu baxımdan məni təmin etməyib. Mən Yol Mühəndisləri İnstitutuna, yaxud Texnologiya İnstitutuna girməyi azu edərdim. Ona görə də məni xaricə göndəriləcək tələbələr sırasına salmağınızı xahiş edirəm.[3]

Bu vaxt o, Bakı valiliyində çalışmaqda davam edirdi. Vali Əmir bəy Nərimanbəyovun 9 noyabr 1919-cu il tarixli 716 saylı əmri ilə məhkəmə bölməsinin kargüzar köməkçisi Lətif Qədimov ümumi bölmənin kargüzarı təyin edilib.[4]

8 noyabr 1919-cu ildə nazirə yazdığı son ərizəsində o, Prussiyada – Berlində (Şarlottenburqda) Politexnik İnstitutun yollar bölümünə girmək istədiyini bildirib.[5]

Qədimov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[6] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[7] 31 dekabr 1919-cu ildə iki dilkağızı verib.

Lətif Qədimova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 512 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[8]

Vali Əmir bəyin 18 yanvar 1920-ci il tarixli 23 saylı əmri ilə ümumi bölmənin kargüzarı Lətif Qədimov, inşaat bölməsinin çertyojçusu Firidun Əliyev, tərcüməçi [Behbudəli] Zeynalov və təsərrüfat hissəsinin müdiri Əliəkbər Əliyev hökumət tərəfindən xaricə oxumağa göndərildiklərinə görə tutduğu vəzifələrindən azad ediliblər.[9]

Qədimi öncə Berlində – Şarlottenburqda Politexnik İnstitutda, 1923-cü ildən isə Karlsrue şəhərində Ali Texniki Məktəbdə inşaat ixtisası üzrə oxuyub və oranı bitirərək 1927-ci ildə SSRİ-yə qayıdıb.

[1] ARDA, fond 1046, siyahı 3, iş 29, vərəq 2.
[2] İndiki Vidadi küçəsi.
[3] ARDA, fond 51, siyahı 3, iş 86, vərəq 1.
[4] Yenə orada, fond 1046, siyahı 3, iş 29, vərəq 3.
[5] Yenə orada, fond 51, siyahı 3, iş 86, vərəq 5.
[6] Yenə orada, vərəq 6.
[7] Yenə orada, vərəq 7.
[8] Yenə orada, vərəq 8.
[9] Yenə orada, fond 1046, siyahı 3, iş 29, vərəq 4.

* * *



Lətif, Rəna, Dora (Doriye). Bakı, 1930-31


AR MTN Arxivində saxlanılan PR-35911 şifrəli istintaq işi onun SSRİ-yə döndükdən sonrakı həyatı haqqında ən doğru bilgiləri əks etdirir. Buradan götürdüyümüz mövzumuzla bağlı başlıca qeydləri oxuculara da təqdim edirik.

Lətif Şirin oğlu Qədimi Azərb. SSR XDİK-nin 5 avqust 1940-cı il tarixli qərarı və 6 avqust tarixli 291 saylı orderi ilə həbs edilib.[1] 6 avqust 1940-cı ildə mənzilində axtarış aparılıb.[2] 16 sentyabrda isə evindən götürülmüş bir çox şeylər məhv edilib və bu haqda aşağıdakı akt tərtib olunub: "İş üçün önəm daşımadığına görə müttəhim L.Ş.Qədimidən götürülmüş 6 ədəd fotoşəkil, inflyasiya dönəminə aid və işlək olmayan 100 ədəd alman kağız pulu kolleksiyası, özəl təyinatlı anket yandırılma yolu ilə və taxta saplı kiçik xəncər sındırılma yolu ilə məhv edilib".[3] Kütbeyin çekistlər törətdikləri vandalizmi sənədləşdirərək gələcək nəsillərə də ötürüblər! Bunlardan nə insanpərvərlik, humanizm, ədalət gözləməyə dəyər?!.

Qədiminin məhbus anketində bu bilgilər qeyd olunub: Qədimi Lətif Şirin oğlu – 1897-ci il[4] Şuşa doğumlu; yaşayış yeri – Bakı ş., Qırmızı küçə,[5] 23-cü ev, 14-cü mənzil; inşaatçı mühəndis (müəllim); son iş yeri – Azərb. Sənaye İnstitutu,[6] müəllim, müəssisə SSRİ Xalq Neft Komissarlığına daxildir; partiyasız; azərbaycanlı, ali təhsilli; qulluqçulardan, mənşəcə kiçik ticarətçi; antisovet partiyalara qoşulmayıb. Ailə tərkibi: atası *Qədimov Şirin Atakişi*[7] *oğlu,* 1917-ci ildə ölüb; anası *Qədimova Bilqeyis Əli qızı*, 1910-cu ildə ölüb; arvadı *Doriye Karlovna Qədimi,* 40 yaş, Bakıda Qırmızı küçə 23-cü evdə yaşayır; qızı *Qədimi İrina Lətif qızı,* 12 yaş yarım, həmin ünanda; qardaşları: *Qədimov Manaf Şirin oğlu,* 47 yaş, Bakıda Müsəvi küçəsi 8/2 ünvanında yaşayır; *Qədimov Qulam Şirin oğlu,* 36 yaş, Bakı, ünvanını bilmirəm; *Qədimov Hacı Şirin oğlu,* 41 yaş, Bakı, Qırmızı küçə, 23-cü ev, 9-cu mənzil. Azərb. SSR XDİK DTİ 3-cü bölümü onu 6 avqust 1940-cı ildə həbs edib.

Qədimi bir neçə dəfə dindirilib, ancaq protokolların məzmunundan aydın olur ki, bütün dindirmələr protokollaşdırılmayıb. Mövcud protokollarda isə diqqətimizi cəlb edən başlıca cəhət budur ki, müttəhim Qədiminin yalan danışa bilmədiyi açıqca hiss olunur. O verilən bütün suallara doğru cavab verib və bu zaman kimsəyə, eləcə də özünə böhtan atmayıb, ürəyindəkilərin hamısını müstəntiqə deyib. Buna görə də, bizcə,

[1] AR MTN Arxivi, PR-35911, vv. 93-94.
[2] Yenə orada, vərəq 100.
[3] Yenə orada, vərəq 103.
[4] İstintaqlarda L.Qədimi 1897-ci ildə doğulduğunu göstərib, ancaq biz doğum şəhadətnaməsindəki 20 mart 1895-ci il tarixini əsas götürürük.
[5] İndiki B.Sərdarov küçəsi.
[6] İndiki Neft Akademiyası.
[7] Ağakişi olmalıdır.



Lətif, Rəna, Dora. Bakı, 1934-35-ci illər

müstəntiqin ona işgəncələr verməsinə ehtiyac qalmayıb. Ancaq istintaqın sonuna doğru getdikcə müstəntiqi Qədiminin həqiqətləri qane etməyib və onun boynuna yalan ifadələr qoymağa da səy göstərildiyi hiss olunur.

Həbs edildiyi 1940-cı ilin elə 6 avqust günü Az.XDİK müstəntiqi Al.Polyakov onu dindirib. Protokolun girişində göstərilib ki, o, Azərbaycan Sənaye İnstitutunda alman dili müəllimidir, Karlsrue şəhərində Ali Texniki Məktəbi bitirib və s. Hiss olunur ki, müstəntiq nisbətən ziyalı adamdır, çünki o, ilk sual olaraq müttəhimə öz tərcümeyi-halını danışmağı təklif edib (adətən, XDİK müstəntiqlərinin ilk sualı əksinqilabi təşkilatda iştirak etməklə və suçu boynuna almaqla bağlı olur) və müttəhim də bunları bildirib:

– 1897-ci ildə Şuşa şəhərində kiçik ticarətçi Qədimi Məşədi Şirin Ağakişi oğlunun ailəsində doğulmuşam. 7 yaşımda rus-türk məktəbinə girmişəm, həmin məktəbin 3-cü sinfindən Şuşa real məktəbinə keçərək oranı 1918-ci ildə bitirmişəm. Həmin il təhsilimi artırmaq üçün Bakıya böyük qardaşımın[1] *yanına köçmüşəm. Bakıya gələrək Bakı valiliyi idarəsində kargüzar köməkçisi vəzifəsinə düzəlmişəm. Kargüzar vəzifəsində 6 ay civarında, bəlkə daha çox, ancaq ildən az işləmişəm. O dönəmdə, yəni 1919-cu ilin sonunda təhsili bitirmək üçün xaricə göndərilməkdən ötrü attestatların müsabiqəsi elan edilmişdi. Mən ərizə vermiş və xaricə göndəriləsilər qrupuna salınmışdım. O vaxt Azərbaycanda Müsavat hökuməti idi və bizi bu hökumət Almaniyaya oxumağa göndərmişdi. Gedən qrup təxminən 45 nəfərdi. Müsavat hökumətinin Avropaya göndərdiyi cəmi 80 nəfərə qədərdi.*

Biz Bakıdan 20 yanvar 1920-ci ildə çıxdıq[2] *və Berlinə həmin il martın ortalarında çatdıq. Hər birimizin, istədiyi fakültəni seçmək hüququ vardı. Mən inşaat fakültəsinə girdim. Berlinə gələrək lap 1923-cü ilədək mədə xəstəsi oldum. Bu xəstəliyə və həkimlərin məsləhətinə görə mən Almaniyanın cənubuna – Karlsrue şəhərinə getməli oldum, orada*

[1] Manafın.
[2] Təqaüdçülərin sonuncu – 2-ci dəstəsi Bakıdan 16 yanvarda çıxıb.



Dora Bakıda

eyni fakültəyə girdim və 1927-ci ildə bitirdim. Ali məktəbi bitirincə həmin 1927-ci ildə SSRİ-yə, Bakıya döndüm.

Bakıya gəlincə ixtisasım üzrə müxtəlif sovet müəssisələrində işlədim. İnşaatçı-mühəndis ixtisası ilə 1940-cı ilin fevral ayınadək çalışdım. 1938-ci ildən həbs edildiyim günədək Azərbaycan Sənaye İnstitutunda alman dili müəllimi kimi işlədim. 1938-ci ilin fevralından 1940-cı ilin fevralınadək İnstitutda ikinci iş yeri kimi, 1940-cı ildən sonra isə əsas iş yeri kimi çalışdım.

Qeyd etməliyəm ki, Almaniyada olarkən mən Doriye Karlovna Lanqnerlə tanış oldum, sonra onunla evləndim və indiyədək birgə yaşamaqdayıq. Yoldaşım qulluqçu ailəsindəndir, atası Pivəbişirənlər Birliyinin katibi olub, 1915-ci ildə ölüb. Atasının ölümündən sonra anası istefada olan kapitan Karl Foqta (atasının adını xatırlamıram) ərə gedib. Arvadım 1916-cı ildə gimnaziyanı bitirib, bitirincə də işləməyə başlayıb. Biz 1924-cü ildə evləndik, o da həmin il sovet təbəəliyini qəbul etdi, 1927-ci ildə isə mənimlə birgə Bakıya gəldi və burada indiyədək heç yana getmədən yaşayır. 1935-ci ilə qədər o, Almaniya ilə – anası ilə yazışırdı; 1935-ci ildə sırf siyasi mülahizələrə görə bu yazışma kəsildi. Almaniyadan gələndən sonra arvadımın Berlində bu qohumları qalıb: anası Berta (atasının adını xatırlamıram, soyadı Foqtdur); doğma bacısı Liza Fride ərdədir, bacısının əri adını bilmədiyim idman qəzetinin müxbiridir; arvadımın Berlində bir ögey bacısı da var – Marqarita Karl qızı Foqt. 1935-ci ilədək, mənə bəllidir ki, Marqarita ərə getməmişdi, indisə bilmirəm, çünki yazışma kəsilib. Hal-hazırda arvadım Bakı şəhərində Tibb İnstitutunda alman dili müəlliməsi işləyir.[1]

[1] AR MTN Arxivi, PR-35911, vv. 108-109a.

* * *



Lətif Qədimi evdə çalışarkən. Bakı

Bundan sonra müstəntiq Qədimidən onunla birlikdə Almaniyaya gedən, oxuyan və SSRİ-yə geri dönən şəxslərin soyadlarını soruşub.

"Cavab: Almaniyaya gedənlər:

1) Əşrəf Əliyev, 2) Firidun Əliyev, 3) Zeynallı Behbud, 4) Məmmədov Qəhrəman, 5) Əliyev Abbas[mirzə], 6) Pirverdiyev Hənifə, 7) Rəhimli Məhəmməd, 8) Musai Cəmil, 9) Rəhimli Abdulla, 10) Ağasıbəyli Yusif, 11) Hacızadə [Mirzə], 12) Hacıyev Məhəmməd, 13) Münşi Hilal,[1] 14) Mirsadıqov Mirsadıq, 15) Əlimuradbəyli Cəmil, 16) Axundov Səməndər, 17) Aslanov Teymur, 18) Muradov Məhəmməd, 19) Şahsuvarov (Şahsuvarlı) Mürsəl, 20) Şahsuvarov Surxay, 21) Mustafayev Mustafa, 22) Nərimanbəyov Fərman, 23) Sultanov İsgəndər, 24) iki qardaş Muğanlinskilər: Əsildar və Adil, 25) Temirxanov Murad, 26) Xiroman (Xiromanov) Zəkəriyyə, 27) Xudaverdiyev Əli[bala], 28) Seyidzadə İsmayıl, 29) Mustafa Vəkilov, 30) Cəbrayılov Cəbrayıl,[2] 31) İsgəndərli, yanılmıramsa adı İsgəndərdi,[3] 32) [Mirzə]hüseyn Quluyev, 33) Əşrəfov Əşrəf,[4] 34) Vəzirov Aslan – indi Azərb. Sənaye İnstitutunda professordur.

Sadaladığım şəxslərdən Berlində mənimlə birgə inşaat fakültəsində Zeynallı Behbud və Məmmədov Qəhrəman oxuyublar. Karlsruedə mənimlə yalnız Temirxanov oxuyub. Qeyd etməliyəm ki, Zeynallı Behbud sonra Kənd Təsərrüfatı İnstitutuna keçdi, onu bitirdi və deyəsən, indi Kirovabadda aqronom işləyir. Yuxarıda adlarını çəkdiklərimdən Muğanlinski Adil, Hacıyev Məhəmməd,[5] Münşi Hilal, Hacızadə və İsgəndərlidən başqa hamısı SSRİ-yə dönüb; Şıxıyev Hüseyn SSRİ-yə döndü, ancaq sonra xaricə qaçdı. Almaniyaya gedən başqaları da yadıma düşərsə növbəti istintaqda bildirərəm".[6]

7 avqust 1940-cı il tarixli istintaq da mövzumuzla bağlı zəngin faktlar verir. Bu protokoldan müəyyən hissələri bütöv veririk:

"*Sual:* Almaniyaya gedən azərbaycanlı tələbələr qrupuna kimsə başçılıq edirdi, yoxsa hər tələbə özü ayrıca müstəqil gedib?

Cavab: Qrupun başçısı Əşrəf Əliyev idi.

Sual: Berlinə gəldiyinizdə sizin qrupu kimsə qarşıladımı?

Cavab: Yox, Berlində bizi kimsə qarşılamadı, ancaq Parisdə bizi Azərbaycan missiyasının katibi Atamalıbəyov qarşılamışdı; adını və atasının adını xatırlamıram.

Sual: Berlində Azərbaycan tələbələrinə kimsə rəhbərlik edib, ya yox?

Cavab: Berlinə gəldiyimizdən təxminən 7-8 aya qədər Azərbaycan tələbələrinə kimsə rəhbərlik etmədi, ancaq sonra biz Berlindəki Zaqafqaziya Ticarət Nümayəndəliyi ilə əlaqə saxladıq və oradan təqaüd aldıq.

Sual: Azərbaycan tələbələri arasında ictimai məzmunlu təşkilatlar vardımı?

[1] Bu işdə bütün protokollarda müstəntiq Hilalın adını yanlış olaraq "Bilal" yazıb.
[2] Rəhimov Cəbrayıl olmalıdır.
[3] İsgəndərlinin adı Ağalardır.
[4] Əşrəfov İsrafil olmalıdır.
[5] Adı siyahıda 2 dəfə gedib.
[6] AR MTN Arxivi, PR-35911, vv. 109a-110.



Ləif Qədimi. Bakı

Cavab: Bəli. Tələbələrin özlərinin təşəbbüsü ilə yaradılmış tələbə komitəsi vardı. O, *Berlindəki Azərbaycan Tələbələri Komitəsi* adlanırdı. Həmin komitə tələbələrin maddi təminatı məsələləri ilə məşğuldu. Belə ki, məsələn, Müsavat hökuməti yıxılandan sonra bizə təqaüd verilməsi kəsildi. Maddi yardımsız qaldığımızı görüncə, Komitə artıq sovet Azərbaycanına bu məsələni qaydaya salmaqdan ötrü nümayəndə heyəti göndərməyi qərara aldı. Heyət tələbələrin ümumi yığıncağında seçildi. Heyətin tərkibinə Əşrəf Əliyev və Səməndər Axundov daxil oldular. Bu, 1921-ci ilin sonunda, bəlkə də 1922-ci ilin başlanğıcında[1] sayca ikinci heyət idi. Buna qədər komitənin təşəbbüsü ilə maddi təminat məsələsi ilə bağlı olaraq nümayəndə heyəti kimi 1920-ci ilin sonunda Cəfər Kazımov getmişdi. Birinci və ikinci nümayəndəliyin nəticələri müsbət olmuşdu. Komitənin tərkibi çox tez-tez dəyişilirdi; ona müxtəlif vaxtlarda şəxsən mən də üzv olmuşam, Seyidzadə, Əliyev Əliəkbər, Münşi Hilal və çox vaxt keçdiyinə görə soyadlarını unutduğum başqa şəxslər də daxil olublar.

Komitəmiz təxminən 1923-cü ilə qədər mövcud oldu, sonra o, bütünlüklə Sovet İttifaqı Tələbələri Komitəsinə qovuşdu; o, *Almaniyada Qırmızı Tələbələr Birliyi* adlanırdı.

Sual: Azərbaycan Tələbələri Komitəsində Berlindəki Qırmızı Tələbə Komitəsi ilə birləşmə məsələsi qaldırılmışdımı? Qaldırılmışdısa bu məsələ ilə bağlı müzakirələr olmuşdumu?

Cavab: Komitələrin qovuşması mən olmayanda baş vermişdi – onda mən Karlsruedə idim, ancaq bu qovuşmanın bəzi incəlikləri haqqında bunları deyə bilərəm:

Komitələr birləşəndən sonra Sovet İttifaqı tələbələrinin konfransı çağırılıb. Bu konfransa sovet tələbələrinin olduğu hər şəhərdən nümayəndələr seçilmişdi. Mən konfransa Karlsrue şəhəri tələbələrinin nümayəndəsi seçilmişdim. Konfrans Berlin şəhərində

[1] 1921-ci ilin mayında olmuşdu.



N.Nərimanov adına texnikumun inşaat-yol şöbəsinin 4-cü texnik buraxılışı.
Cümhuriyyət tələbəsi olmuş müəllimlər *(soldan sağa):* Baxış bəy Sultanov *(1-ci cərgə, 2-ci)*, Surxay bəy Şahsuvarov *(1-ci cərgə, 8-ci)*, Lətif Qədimi *(2-ci cərgə, 3-cü)*, Zal Məmmədli *(2-ci cərgə, 11-ci)*. 1931

təxminən 1926-cı ilin ortalarında keçirildi. Konfransın gedişində öyrəndim ki, konfransa SSRİ-yə getməkdən imtina etmiş tələbələrin heç biri gəlməyib. Onların hamısı haqqında mən keçən dindirmələrdə istintaqa məlumat vermişəm.[1]

Gəlməyən tələbələr sovet hakimiyyətinin əleyhdarı idi, buna görə də konfransın işində iştirakdan nümayişkaranə şəkildə imtina etmişdilər.

Konfransda iki başlıca məsələ müzakirə olunaraq həll edildi – sovet tələbələri arasında mədəni-maarif işi və Sovet İttifaqı ilə əlaqələr saxlanılması haqqında.

Sual: Tələbələrdən başqa kimlərlə oturub-durduğunuzu bildirin.

Cavab: Mən yalnız tələbələrlə və arvadımın qohumları ilə birgə olmuşam, başqa oturub-durduqlarım olmayıb.

Sual: Almaniyada sizin yaxın dostunuz kim olub?

Cavab: Yaxın dostum *Temirxanov Murad* idi.

Sual: Temirxanov siyasi baxımdan necə adamdı?

Cavab: Mənə elə gəlir ki, Temirxanov Murad siyasi adam deyildi, o, istənilən siyasətə qarşı laqeyd idi.

Sual: Sizin ifadələrinizdən göründüyü kimi, Temirxanov M. xaricə qaçıb.

Cavab: Onu xaricə qaçmağa məcbur edən səbəbləri bilmirəm.

Sual: Siz Temirxanovu siyasətdən uzaq, ümumiyyətlə, siyasətlə maraqlanmayan adam kimi təqdim edirsiniz. Buna görə aydın olmur ki, siyasətlə əsla maraqlanmayan adam birdən-birə niyə bir dövlətdən başqasına qaçsın. Siz bunu nə ilə izah edirsiniz?

[1] İstintaq sənədində bundan qabaq cəmi 1 dindirmənin protokolu var, deməli başqa dindirmələr protokola salınmayıb.



Lətif Qədimi.
1930-cu illər

Cavab: 1928-ci ildə onun arvadı Almaniyaya getdi və oradan bir də SSRİ-yə qayıtmadı. Mən belə güman edirəm ki, yəqin arvadı Almaniyaya gedərkən belə şərt qoyub ki, o da oraya gəlsin. Mən onun xaricə qaçmasını bununla izah edirəm.

Sual: Deyin görək Azərbaycanda sovet hakimiyyətinin qurulmasını Berlindəki Azərbaycan tələbələri, o sıradan da Siz necə qarşıladınız?

Cavab: Azərbaycan tələbələrinin çoxu Azərbaycan sovet hakimiyyətini sərt qarşıladı, mən isə çox normal qəbul etdim.

Sual: Azərbaycan sovet hakimiyyətindən kimin narazı olduğunu konkretləşdirin.

Cavab: Azərbaycan sovet hakimiyyətindən narazı olanlar:

1) *Hacıyev Məhəmməd* – SSRİ-yə qayıtmadı.
2) *Münşiyev Hilal* – SSRİ-yə qayıtmadı.
3) *İsgəndərli [Ağalar]* – SSRİ-yə qayıtmadı.
4) *Sultanov İsgəndər* – XDİK orqanları təcrid edib.
5) *Hacızadə [Mirzə]* – SSRİ-yə qayıtmadı.
6) *[Mirzə]hüseyn Quluyev* – SSRİ-yə qayıtmadı.

Sual: İstintaq Sizin cavablarınızı bunlara görə heç də tam doğru saymır... Siz sovet hakimiyyətinə qarşı dost münasibətdə olmayan şəxslərdən yalnız SSRİ-yə qayıtmayanların adını çəkdiniz, ancaq Bakıda olan və indi də antisovet əhval-ruhiyyəli şəxsləri demirsiniz...

Cavab: 16.09.1927-ci ildə mən həyat yoldaşımla birgə Almaniyadan Bakıya gəldim. Bu vaxtdan 1937-ci ilədək yoldaşımla tez-tez M.Şahsuvarlı, Pirverdiyev, Mirsadıq Sadıqovgildə olurduq. Bəzən də mən Əliyev Əliəkbərlə, Musai Cəmillə, Məmmədov Qəhrəmanla təsadüfən görüşürdüm. Bu adamlar da mənim kimi Almaniyada oxumuşdular. Təkrar edirəm ki, 1937-ci ilədək Şahsuvarlı Mürsəl, Pirverdiyev Hənifə və Mirsadıq Sadıqovla daim görüşmüşəm. Bizim bunlarla daimi görüşümüzün səbəbi bu idi ki, hamımız Almaniyadan Bakıya bizimlə gəlmiş alman qızları ilə evlənmişdik. Arvadlarımız çox tez-tez bir-birinin yanına gedirdilər, çünki başqa tanıdıqları yox idi, buna görə də biz ərlər də görüşürdük... 1937-ci ildə M.Şahsuvarlı, həmin il bir qədər sonra Pirverdiyevin qardaşı həbs edildilər. Bunların həbsi bizi də qorxutdu və daha bir-birimizlə görüşməməyi qərara aldıq. Görüşlərimiz kəsildi, ancaq arvadlarımız necə olsa yenə görüşürdülər. Şahsuvarlı həbs olunduqdan az sonra, 1937-ci ildə arvadı Almaniyaya getdi, bir də SSRİ-yə dönmədi. 1937-ci ildən 1940-cı ilin yanvarınadək mən Pirverdiyevlə görüşməmişəm və hətta 1937-ci ildə onun qardaşının ölümü ilə bağlı başsağlığı verməyi də lazım bilmədim, çünki mən onunla görüşməkdən sadəcə qorxurdum, ona görə ki, onun başqa qardaşı Bilal Pirverdiyevi XDİK orqanları həbs etmişdilər...".[1]



Rəna Səlim (Lətif) qızı
Quluyeva-Qədimi

10 avqust 1940-cı il dindirməsində Lətif Qədimi bir əhvalat danışıb. Onunla müstəntiq arasında gedən söhbətin bugünkü oxucular üçün də maraqlı olacağını düşünürük:

[1] AR MTN Arxivi, PR-35911, vv. 111-114a.





Lətif Qədimi həbsdə. 1940

"Həbsimə təxminən 15-20 gün qalmış mən Spasski[1] küçəsində, pasajda yağ növbəsinə durmuşdum. Mən növbəyə duranda Əliyev Əliəkbər də yanıma gəldi. Söhbətləşdik. Növbədən çəkilib Spasski küçəsində meyvə pasajının yanında bir kölgədə durduq. Əliyevlə həmin söhbətdə biz öz durumumuzdan narazılıq etdik ki, gör guya biz mühəndis ola-ola yağ növbəsinə dururuq, hansısa dünənki çocuq bu gün mənə əmr edir. Sonuncu sözləri Əliyev Əliəkbər dedi, mən də öz növbəmdə dedim ki, bizə heç vaxt inanmayacaqlar, çünki biz Almaniyada oxumuşuq, biz pillə-pillə aşağı düşəcəyik. Bu zaman mən də, Əliyev də Almaniyaya oxumağa getdiyimiz günü və ümumiyyətlə, Almaniyada oxumağımızı lənətlədik...

Sonuncu şəraitlə bağlı təxminən 1936-37-ci ildən başlayaraq mən SSRİ-yə qayıtmağıma təəssüfləndim... Hal-hazırda da təəssüf edirəm ki, SSRİ-yə gəlmişəm...

Söhbət vaxtı Fransada oxumuş aqronom Əbdülhəmid Cavanşir də bizə yaxınlaşdı. Cavanşiri mən az tanıyıram və Azərbaycanda olduğum 13 ildə onunla cəmi 2-3 dəfə görüşmüşəm. Söhbət əsnasında öyrəndim ki, Cavanşir 3 ay bundan qabaq Xalq Torpaq Komissarlığındakı işindən çıxarılıb və bu 3 ayda işə bərpa olunmaq üçün ərizə yazmadığı yer qoymayıb, ancaq heç bir nəticəsi yoxdur. Cavanşirin işdən çıxarılmasını və nəticəsiz çırpınmalarını və bununla bağlı mənəvi həyəcanlarını dinləyəndən sonra mən ona məsləhət gördüm ki, daha heç yerə ərizə vermə, çünki xeyri yoxdur, ona görə ki, Fransada oxumusan. Yaşayış minimumu əldə etməkdən ötrü mən ona məsləhət gördüm ki, Xalq Maarif Komissarlığına müraciət etsin və orada fransız dili dərsləri götürsün. Fransız dili müəllimləri azdır, o isə fransızcanı yaxşı bilir və beləliklə, işə düzələ bilər. Mənim fikrimlə Əliyev Əliəkbər də razılaşdı.

Sual: Cavabınızdan görünür ki, siz Sovet hakimiyyətindən narazısınız. Bu, belədir, ya yox?

Cavab: Bəli, bu, belədir. Mən Almaniyadan gələndə düşünürdüm ki, Sovet İttifaqında daha yaxşı yaşayacağam, ancaq əksinə oldu, buna görə də məndə sovet hakimiyyətindən narazılıq yarandı...

Müəssisələrin ayrı-ayrı rəhbərləri – mənim işdəki birbaşa rəislərim tərəfindən mənə inamsızlıq göstərilib və bu inamsızlıq anında mən SSRİ-yə gəldiyimə görə özümü söymüşəm... Mən hesab edirəm ki, Sovet İttifaqında bir vaxt Müsavat hökumətinin Almaniyaya oxumaq üçün göndərdiyi bütün mütəxəssislərə inamsızlıq var, ancaq bu inamsızlığı sıxışdırma adlandırmıram".[2]

***

İstintaqda müstəntiq Qədimidən Mürsəl bəy Şahsuvarlı və onun arvadı Marqarita Şahsuvarlı haqqında kirləndirici materiallar almağa çox cəhd edib və bir neçə dindirmədə başlıca mövzu onlar olub.

[1] İndiki Zərgərpalan küçəsi.
[2] AR MTN Arxivi, PR-35911, vv. 119a-121.



Rəna, yoldaşı Barat Quluyev, Tatyana, Dilarə Qacar. Bakı, 1978



Lətifin qardaşı İslam Qədimov

Ümumiyyətlə, yalan danışmağı bacarmayan Qədiminin Şahsuvarlılar haqqında danışdıqları iftira və böhtan yox, gerçəklərdir. Doğrudur, bugünkü oxucu deyə bilər ki, axı onun dediklərindən "NKVD" Şahsuvarlılara qarşı istifadə edəcək; iş burasındadır ki, Mürsəl bəyin yoldaşı Almaniyada – əlçatmazda idi, özü isə artıq həbs olunmuşdu və onu cəzadan heç kəs xilas edə bilməzdi, ancaq Qədiminin onun haqqında dediyi gerçək sözlər bu gün bizdə Mürsəl Şahsuvarlı şəxsiyyətinə dərin hörmət yaradır.

15 avqust 1940-cı il dindirməsində Qədimi Mürsəl bəy haqqında deyib ki, o, sovet hökumətinin çıxardığı qanunlara həmişə saymazyana yanaşıb; əmin idi ki, Qərbi Avropada heç vaxt sosializm olmayacaq, çünki buna Qərbi Avropa dövlətləri dözməz... Bütün bunlara baxmayaraq Şahsuvarlı böyük millətçi idi – rusları o əsla həzm edə bilmirdi; deyirdi ki, rusları hər yerdə qabağa çəkirlər, azərbaycanlıları isə yox. Bununla bərabər, o deyirdi ki, guya Azərbaycana ruslar başçılıq edir...

Şahsuvarlı Marqarita yaxşı geyməyi sevən (özü də bu, onun üçün hər şeydən irəliydi, çox məncil (eqoist) bir həyatsevər xanımdı. Adam kimi çox quru idi. SSRİ-də bulunmasına o, qonaqlıqlarda olması kimi baxırdı, Almaniya təbəəsi idi, siyasətlə məşğul deyildi, onu siyasi məsələlər qətiyyən maraqlandırmırdı. XDİK orqanları onun ərini həbs etdikdən az sonra o, Almaniyaya getdi və bir də oradan SSRİ-yə dönmədi. Azərbaycanda olduğu 1929-cu ildən 1937-ci ilədək o, Almaniyaya 3-4 dəfə gedib-gəlib... Bakıda onun yanında Hüqo İordan adlı bacısı oğlu da olurdu, o, Almaniyada yaşayırdı. İordanın o vaxt 2-3 yaşı vardı.[1]

Qədimiyə 19 avqust 1940-cı ildə ittihamnamə təqdim edilib.[2] Bununla bağlı olaraq müstəntiq onu yenidən dindirib. Bu zaman o deyib: "Beləliklə, yuxarıda deyilənlərdən görünür ki, mən Qədimi L.Ş. sovet adamı deyiləm, buna görə özümü günahkar sayıram. Qeyri-sovet adamları ilə, sovet hakimiyyəti ilə ümumi heç nəyi olmayan adamlarla ünsiyyətim məni qeyri-sovet adamı edib.[3]

[1] AR MTN Arxivi, PR-35911, vv. 123-124.
[2] Yenə orada, vərəq 134.
[3] Yenə orada, vərəq 136.



Aqilin qızı, Aqil Quluyev, Səidə Qədimova, Aqilin yoldaşı Rəza

Beləliklə, məsələn, H.M.Pirverdiyevin yanında mən Almaniyadakı tələbə həyatı ilə SSRİ-dəki mühəndisin həyatını müqayisə etmişəm. Bu müqayisədə Almaniyadakı tələbənin həyatı təriflənib və eyni zamanda SSRİ-dəki mühəndisin həyatı layiqincə qiymətləndirilməyib. Başqa cür desək, dediyimizdən belə çıxıb ki, Almaniyadakı tələbənin həyatı sovet mühəndisinin həyatından daha yaxşıdır.[1]

Şəki şəhərində 1933-cü ilin martından 1935-ci ilin aprelinədək şose sahəsi rəisi kimi işləməyimlə bağlı olaraq arvadımla birgə Şəkidə yaşamışam, ildə 2-3 dəfə bir neçə günlüyə Bakıya ezamiyyətə gəlmişəm.[2]

11 sentyabr 1940-cı ildə tərtib edilmiş, 14 sentyabrda isə təsdiqlənmiş qərara əsasən Lətif Qədimi və Hənifə Pirverdiyevin istintaq işləri birləşdirilib.[3]

İttihamnamə 22 sentyabr 1940-cı ildə təsdiqlənib.[4]

SSRİ XDİK Özəl Müşavirəsinin 25 yanvar 1941-ci il qərarı ilə müttəhimlər Pirverdiyev Hənifə Mahmud oğlu və Qədimi Lətif Şirin oğlu antisovet təşviqat üstündə Azərb. SSR CM 72-ci maddəsinin I hissəsi ilə 8 il islah-əmək düşərgəsinə məhkum ediliblər.[5]

Məhbusla bağlı sənədlərin birində göstərilib ki, Lətif Qədimi Perm vilayətində cəzasını çəkərkən 1 avqust 1942-ci ildə ölüb.[6]

Onun arvadı, 1900-cü il Berlin doğumlu Qədimi Dora Karlovna alman millətindən olan şəxs kimi hərbi dövrün tədbirlərinə əsasən SSRİ Dövlət Müdafiə Komitəsinin 8 oktyabr 1941-ci il tarixli 744S saylı sərəncamı ilə 1941-ci ilin oktyabrında Bakı şəhərindən sürgün edilib və sürgündə də ölüb.[7]

Lətif Qədimiyə 6 oktyabr 1962-ci ildə bəraət verilib.[8]

[1] AR MTN Arxivi, PR-35911, vərəq 138.
[2] Yenə orada, vərəq 142.
[3] Yenə orada, vərəq 152.
[4] Yenə orada, vərəq 163.
[5] Yenə orada, vərəq 171.
[6] Yenə orada, vərəq 176.
[7] Yenə orada.
[8] Yenə orada, vv. 183-184.

Quluyev Mirzəhüseyn Kərbəlayı Hənifə oğlu

(1.1.1900, Bülbülə k./ Bakı – ?)



Mirzəhüseyn Quluyev

Ali təhsilini başa vurduqdan sonra vətənə dönməyən çoxsaylı tələbələrdən biri də Mirzəhüseyn[1] Quluyevdir.

Zaqafqaziya Şiə Ruhani İdarəsindən 15 iyun 1920-ci ildə Tiflis şəhərində verilmiş 1458 saylı doğum şəhadətnaməsində göstərilib ki, Bakının Bülbülə kəndinin sakini Mirzəhüseyn, atası Kərbəlayı Hənifə Hacı Məhəmmədhüseyn oğlu Quluyevin qanuni arvadı Seyid Nisə Hacı Mirnağı qızından 1 yanvar 1900-cü ildə doğulub.[2]

557 saylı kamal attestatında Bülbülə kəndinin sakini Mirzəhüseyn Kərbəlayı Hənifə oğlu Quluyevin 1 sentyabr 1911-ci ildə Bakı 2-ci kişi gimnaziyasına girərək 24 may 1919-cu ildək orada əla əxlaqla oxuduğu, səkkiz siniflik tam kursu bitirdiyi və bu vaxt aşağıdakı bilikləri qazandığı göstərilib:

Şəriət –	əla (5)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	yaxşı (4)
Fəlsəfi propedevtika –	yaxşı (4)
Latın dili –	əla (5)
Qanunşünaslıq –	əla (5)
Riyaziyyat –	yaxşı (4)
Riyazi coğrafiya –	kafi (3)
Fizika –	kafi (3)
Tarix (ümumi) –	yaxşı (4)
Coğrafiya –	əla (5)
Fransız dili –	yaxşı (4)
Alman dili –	əla (5)
Türk tarixi –	yaxşı (4)
Türk dili –	əla (5).[3]

10 may 1917-ci ildə Bakı şəhərində Qafqaz müsəlman şagirdlərinin I qurultayı keçirilib. Xatirə fotolarında qurultay iştirakçıları arasında Mirzəhüseyn Quluyevi də görürük. Deməli, o, məktəbin fəal şagirdlərindən olub.

Mirzəhüseyn Quluyev Parlaman dəftərxanasında kvestor yardımçısı vəzifəsində çalışıb. Dəftərxana işçilərinin görəvi və maaşı qeyd olunmuş siyahıda oxuyuruq: Mirzəhüseyn Quluzadə – kvestor müavini, 2.500 manat; Ağalar İsgəndərli – kargüzar, 3.200 manat.[4]

Parlaman Dəftərxanası əməkdaşlarının 27 may 1919-cu ildə Parlamanın həyətində sabahkı istiqlal bayramı münasibətilə çəkdirdikləri kollektiv fotoşəkildə Cümhuriyyətin iki tələbəsi – Mirzəhüseyn Quluyev və Ağalar İsgəndərli də təsvir olunub.

Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusanı (Parlamanı) Divani-Rəyasətinin (Rəyasət Heyətinin) 24 sentyabr 1919-ildə rəis doktor Həsən bəy Ağayevin sədrliyi ilə Sultanməcid Qənizadə, Mehdi bəy Hacınski, Əhmədcövdət Pepinov, Bayramniyazi Kiçikxanovun iştirakı ilə iclası keçirilib. İkinci məsələ kvestor müavini Mirzəhüseyn Quluzadəyə 1 ay məzuniyyət

[1] Adına bəzi qaynaqlarda "Hüseyn" kimi də rast gəlinir.
[2] ARDA, fond 51, siyahı 3, iş 85, vərəq 3, 7.
[3] Yenə orada, vərəq 2, 6.
[4] Yenə orada, fond 895, siyahı 1, iş 212, vərəq 50a.

verilməsi haqqında onun ərzi-halının (ərizəsinin) müzakirəsidir. Ona məzuniyyət verilməsi qərara alınıb.[1]

Verxne-Priyutski küçəsi[2] 95-ci evdə yaşayan abituriyent Mirzəhüseyn Quluyev 1 avqust 1919-cu ildə maarif nazirinə yazdığı ərizədə Almaniyada Frayberq Dağ-Mədən Akademiyasının mexanika bölməsində təhsilini davam etdirmək istədiyini bildirərək onu da xaricə göndərilən müsəlman tələbə və abituriyentlər sırasına salmağı xahiş edib və məlumat verib ki, indi dolanışığımın yeganə qaynağı şəxsi əməyimdir (mən indi Parlamanda kvestoram).[3]



Mirzəhüseyn Quluyev. Paris, 24 yanvar 1921-ci il

Sənədin aşağısında göstərilib ki, pasport kitabçası[4] ona 11 dekabr 1919-cu ildə verilib.

M.Quluyev 20 sentyabr 1919-cu ildə tələbələrin xaricə göndərilməsi üzrə komissiyaya yazdığı əlavə ərizədə politexnik institutun gəmiqayırma bölməsinə göndərilməsini xahiş edib.[5]

Parlamanın kvestor müavini Mirzəhüseyn Quluzadə Parlamanın ləvazim komisyonu müdirinə 12.10.1919-cu ildə ərizə yazaraq işi ilə bağlı ehtiyac duyulduğuna görə evinə telefon çəkilməsini xahiş edib.[6]

5 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı ərizədə isə Fransaya Paris Universitetinin təbiiyyat fakültəsinə göndərilməsini xahiş edib.[7]

Cümhuriyyət tələbələrinin yüzlərcə sənədləri arasındakı ana dilimizdə yazılmış tək-tük sənədlərdən biri də aşağıdakı ərizədir:

"Maarif Nəzarəti-cəliləsinə ərzi-hal.

Məmaliki-əcnəbiyyəyə gedəcək tələbələr sırasında bəndəniz də komisyon tərəfindən təbiiyyat şöbəsinə təyin olunmuşam. Əldə etdiyim məlumata nəzərən, siyahıya səbt olunmuş tələbələrdən bir çoxu xaricə gedəməyəcəklər. Binaənaleyh iqtisad və yaxud hüquq şöbələrindən birinə təbiiyyat şöbəsindən daha artıq iştiyaqım[8] olduğundan, o şöbələrin (iqtisad, yaxud hüquq) birini bəndənizə təqdim etməniz rica və istirham olunur, əfəndim!

Bakı, 10 noyabr 1919.

Tələbə Mirzəhüseyn Quluyev".[9]

Mirzəhüseynin ərizələrinə müsbət cavab verildi, o, dövlət təqaüdçüləri sırasına daxil edildi.

Onun aşağıdakı ərizəsi ailəsinin ağır maddi durumu haqqında təsəvvür yaradır:

"Məclisi-Məbusan Divani-Rəyasətinə.

Məclisi-Məbusan kvestor müavini Mirzəhüseyn Quluzadə tərəfindən.

Hal-hazırda pedərim[10] 11 nəfər külfət (7 nəfər mərhum olan əmimin və 4 nəfər özümüz) başında durub və ixtiyar olduğundan çalışmağa heç iqtidarı yokdur. Bən pedərimin bu halını nəzərə alıb ona müaviniyyət etmək məcburiyyətindəyəm. Bunun üçün maaşımdan hər ay hissə-hissə kəsmək şərtilə bəndənizə iki aylıq maaş avans surətilə vermənizi rica edirəm, əfəndim.

(M.Quluyevin imzası).

Bakı, 11.11.1919-cu il".[11]

[1] ARDA, fond 895, iş 203 vərəq 75.
[2] İndiki akad. Şamil Əzizbəyov küçəsi.
[3] ARDA, fond 51, siyahı 3, iş 85, vərəq 1.
[4] Söhbət əcnəbi dövlətlərə getmək üçün verilmiş xarici pasportdan gedir.
[5] ARDA, fond 51, siyahı 3, iş 85, vərəq 4.
[6] Yenə orada, fond 895, siyahı 5, iş 2, vərəq 211.
[7] Yenə orada, fond 51, siyahı 3, iş 85, vərəq 5.
[8] Həvəsim.
[9] ARDA, fond 51, siyahı 3, iş 85, vərəq 8.
[10] Atam.
[11] ARDA, fond 895, siyahı 1, iş 198, vərəq 10.

Sənədin üstündə belə bir qeyd var: "Divani-Rəyasətin 13 noyabr tarixli iclası qərarınca rədd edildi". Görünür ki, ərizəçinin bir azdan xaricə göndəriləcəyi və aldığı borcu ödəməyə vaxtının qalmayacağı nəzərə alınmışdı.

M.Quluyev 29 dekabr 1919-cu ildə təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[1] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[2] dilkağızları verib.

Mirzəhüseyn Kərbəlayı Hənifə oğlu Quluyevə Azərbaycan Cümhuriyyəti Hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 504 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[3]

29 may 1923-cü ildə Parisdəki Azərbaycanlı Tələbələr Cəmiyyəti Xalq Maarif Komissarlığına aşağıdakı ərizəni göndərmiş, sənədi Cəmiyyətin sədri *Mirzəhüseyn Quluyev* imzalamışdı:

"Vəsaitin vaxtlı-vaxtında göndərilməsini Hökumət özü təmin edəcəyinə görə bizim Bakıya vəsaitdən ötrü bir daha nümayəndə göndərməməyimiz haqqında vət[əndaş] Tədris Müəssisələri müdirinin nümayəndələrimiz vasitəsilə bizə çatdırdığı tapşırığa baxmayaraq, biz getdikcə daha da fənalaşan məsələmizin köklü həll edilməsindən ötrü bu dəfə də nümayəndə göndərməyə məcbur olduq.

Sizin göndərdiyiniz, bizi keçən ilin 1 iyulundan bu ilin 1 yanvarınadək 6 ay müddətinə təmin etməli olan vəsait bizə mart ayında yalnız üçaylıq təminat şəklində yetişdi, yerdə qalan üçaylıq təminatı isə bugünədək gözləməkdəyik. Ancaq mayın ortasında Zaqafqaziya Xarici Ticarət İdarəsindən, vət. [Məhəmmədhəsən] Hacınskidən teleqram gəldiyini öyrəndik; o bildirirdi ki, biz Xarici Ticarət İdarəsindən bundan sonra daha heç nə almayacağıq. Beləliklə, keçən ilin 1 oktyabrına qədər təminat aldıq; başqa sözlə, aldığımız vəsait nəinki bir neçə ay təhsilimizi sakitcə davam etdirməyə imkan vermədi, hətta keçən aylarımızın xərclərini də ödəyə bilmədi.

Vəsaiti getdikcə daha böyük gecikmələrlə, ləngimələrlə almağımız nəticəsində maddi durumumuz gözlənilən yaxşılaşma əvəzinə, daha da çətinləşir və oxumaq, demək olar ki, imkansızlaşır.

Nümayəndəmizin şifahi məruzəsindən Siz necə qeyri-normal şəraitdə oxumağa məcbur olduğumuzu öyrənəcəksiniz. Biz Sizdən məsələnin köklü çözülməsini xahiş edirik, çünki sabahkı günə daimi umudsuzluq və bir tikə çörək qayğısına qalmaq oxumağı qeyri-mümkün edir. Elə həcmdə vəsait göndərmək lazımdır ki, keçmiş aylarımızın kəsirlərini də ödəsin və sonrakı bir neçə ayımıza da bəs etsin. Bundan öncə yazdığımız məruzələr bizim aylıq ehtiyaclarımızı ən dəqiq şəkildə əks etdirir.

Humanitar elmləri öyrənən, aralarında təhsilini bitirməyə 1 il və hətta bir neçə ayı qalmış bəzi təqaüdçülərin geri çağırılması bizi həddsiz dərəcədə təəccübləndirdi. Vətənimizin texniki sahədə olduğu kimi başqa ixtisaslar üzrə də hər cür savadlı insanlara böyük ehtiyacı olduğunu nəzərə alaraq Fransada oxuyan azərbaycanlı tələbələrin ümumi yığıncağı geri çağırılmış təqaüdçülərin siyahıya yenidən daxil edilməsini Sizdən xahiş etməyi qərara aldı".[4]

Xatırladaq ki, Parisdə ali təhsil alan M.Quluyev sovet hakimiyyətinə qarşı barışmaz mövqedə durduğuna görə 1923-cü ildən sonra təqaüddən məhrum edilmişdi. Bundan sonra onun başına nələrin gəldiyindən xəbərsizik.

[1] ARDA, fond 51, siyahı 3, iş 85, vərəq 9.
[2] Yenə orada, vərəq 10.
[3] Yenə orada, vərəq 11.
[4] Yenə orada, fond 57, siyahı 1, iş 260, vv. 120-120a.

Məhmudov Məhəmməd bəy Xələf bəy oğlu

(1894, Basqal/ İsmayıllı – 20.06.1952, Muğanlı/ Şamaxı)



Məhəmməd bəy Xələfbəyov (Mahmudov)

Allahın möcüzələri az deyilmiş! Cümhuriyyət tələbələrini axtararkən bəzən möcüzələr də bizə yardımçı olub. Bir azdan oxucu özü də danışdığımızın gerçəkdən möcüzədən başqa bir şey olmadığına inanacaq...

Soyadı sovet dönəminədək bütün sənədlərdə *"Xələfbəyov"*, yaxud *"Xələf bəy oğlu"* kimi getmiş Məhəmməd bəyi tapmaq üçün həmişə bu işdə yardımından yararlandığımız dəyərli dostumuz İsmayıl Calallının vasitəsilə telefonlarını öyrəndiyimiz *Xələfbəyov* soyadlı bir neçə şəxsə müraciət etdik. Onlardan biri – *Tahirə xanım Xələfbəyova* Məhəmməd bəyi axtardığımızı bildikdə bizi həddsiz təəccübləndirdi. O dedi ki, birincisi, axtardığınız adamın soyadı "Xələfbəyov" deyil – o, 1930-cu illərdən sonra yalnız "Mahmudov" soyadı daşıyıb. İkincisi, "Xələfbəyov" mənim yox, ərimin soyadıdır, o isə Basqaldan yox, Qarabağdandır. Üçüncüsü də, axtardığınız Məhəmməd bəy bizim yaxın qohumumuzdur, bizim ailədə böyüyüb və onu mənim atam Baba bəy Səfərəlibəyov oxudub.

Bunları eşidincə yerimizdə donub qaldıq! Belə bir təsadüf, görəsən, neçə milyonda bir ola bilərdi?! Yox, bu əsla təsadüf deyildi – Uca Tanrının özü istəyirdi ki, Məhəmməd bəy unudulmasın, onun şəxsiyyəti xalqa tanıdılsın, buna görə də açılması qeyri-mümkün qapıları üzümüzə açmışdı!

...Tahirə xanımla şərtləşib onun evində görüşdük. O, atası – Bakının 5-ci rus-türk məktəbinin müdiri, Azərbaycanın çox görkəmli maarif xadimi Baba bəy Səfərəlibəyovun bacısı oğlu Məhəmməd bəyin həyatı haqqında bizə bilgilər, nadir fotoşəkillər və sənədlər verdi.

Artıq Məhəmməd bəyin soyadını dəqiq bildikdən sonra MTN arxivinə müraciət etdik və onun istintaq sənədləri ilə ətraflı tanış olduq. Bu haqda isə bir qədər sonra.

Hələlik Məhəmməd bəy Xələfbəyovun (Xələf bəy oğlunun) Azərbaycan arxivlərində saxlanılan sənədləriylə tanış olaq. (Xatırladaq ki, "Məhəmməd bəy Xələf bəy oğlu"nun Sankt-Peterburq Mərkəzi Tarix Arxivində də şəxsi işi saxlanılır,[1] ancaq 2011-ci ilin sentyabrında həmin arxivdə çalışarkən, təəssüf ki, vaxt çatışmazlığı üzündən həmin işə baxa bilmədik).

***

Bakı şəhər 5-ci rus-türk məktəbinin müdiri Baba bəy Səfərəlibəyov 2 iyun 1912-ci ildə Şamaxı qəzası Qoşun sahəsinin Sulut və Basqal sünni camaatından olan bacısı oğlanları Sultanmahmud bəy Sultanov və Ağa bəy Mahmudbəyovun doğumu haqqında şəhadətnamə verməyi Zaqafqaziya Sünni Ruhani İdarəsindən xahiş edib.[2] Bu ərizəyə əsasən aşağıdakı iki şəhadətnamə verilib.

Sultanmahmud bəyin doğum şəhadətnaməsində yazılıb ki, 1910-cu ilin fevral ayının əvvəlinci günündə mən, Sulut camaatının molası Ağamirzə Qurban oğlu bu şəhadətnaməni Sulut sakini Sultanmahmud bəyə ona görə verirəm ki, o, Şəfisultan bəy Sultan bəy

[1] SPb. MTA, fond 990, siyahı 3, iş 136.
[2] ARTA, fond 291, siyahı 2, iş 4604, vərəq 1.

oğlunun qanuni arvadı Səltənət xanım Ağa bəy qızından 1904-cü ildə sentyabr ayının 15-də doğulub.[1]

Basqal camaatının mollası Molla Hacı Hüseyn Hacı Molla Heydər oğlunun 1910-cu il iyul ayının 7-sində verdiyi şəhadətnamədə isə Basqal sakini Ağa bəy Xələf bəy oğlu Mahmudbəyovun Xələf bəy Mahmud bəy oğlunun qanuni arvadı Nisbət xanım Ağa bəy qızından 1898-ci il sentyabr ayının 7-sində doğulduğu təsdiqlənib...[2]

Sonuncu doğum şəhadətnaməsi Məhəmməd bəyin kiçik qardaşı Ağa bəy Mahmudbəyova aiddir. Deməli, onların gerçək soyadı *"Mahmudbəyov"* imiş!

***



Həkim Məhəmməd bəy Xələfbəyov

Zaqafqaziya Sünni Ruhani İdarəsindən 20 iyun 1898-ci ildə Tiflisdə verilmiş 936 saylı doğum şəhadətnaməsində göstərilib ki, Bakı valiliyi Şamaxı qəzası Basqal kəndinin sakini Məhəmməd bəy, atası Xələf bəy Mahmud bəy oğlunun qanuni arvadı Nisbət xanım Ağa bəy qızından 1894-cü ildə doğulub. Doğum şəhadətnaməsini Zaqafqaziya müftisi Hüseyn əfəndi Qayıbzadə imzalayıb.[3]

Göründüyü kimi, bu sənəddə soyadı yoxdur. Ancaq türkcə və rusca "Azərbaycan" qəzetlərində Cümhuriyyət təqaüdçülərinin siyahısında o, *"Xələfbəyov Məhəmməd Əli bəy oğlu"* kimi, İstanbul Universitetinə göndərilərkən rəsmi sənəddə *"Xələfbəyov Məhəmməd Xələf bəy oğlu"* kimi,[4] Türkiyədə oxuyan tələbələrin siyahısında isə *Məhəmməd bəy Xələf bəy oğlu* kimi[5] qeyd edilib.

O, sovet hakimiyyətinin təzyiqlərindən yayınmaq üçün sonralar pasportda ad-soyadını bu cür "proletarlaşdırıb": *Məhəmməd Xələf oğlu Mahmudov*.

***

Şamaxı qəzası polis idarəsi Basqal kəndinin sakini Xələf bəy Mahmud bəy oğluna 8 yanvar 1907-ci ildəki ərizəsinə əsasən 1 fevral 1907-ci ildə arayış verib ki, o, gerçəkdən yoxsul adamdır və 14 yaşlı oğlu Məhəmməd bəyə təhsil vermək üçün vəsaiti yoxdur.[6] Bu arayış Məhəmməd bəyi məktəbdə dövlət hesabına oxutmaqdan ötrü lazımdı.

Məhəmməd bəy 1 sentyabr 1909-cu ildən 28 may 1916-cı ilədək Şamaxı edadi (real) məktəbində oxuyub və əsas bölmənin tam kursunu bitirib. O yalnız şəriətdən "5", 10 fəndən "4", yalnız rus və fransız dillərindən "3" alıb.[7]

Ali məktəbə girə bilmək üçün o, 1 sentyabr 1916-cı ildən 2 may 1917-ci ilədək adı çəkilən məktəbin əlavə sinfində də oxuyaraq 8-siniflik tam kursu bitirib. 2 may 1917-ci ildə Şamaxıda verilmiş 225 saylı şəhadətnamədə onun qiymətləri bu cürdür:

[1] ARTA, fond 291, siyahı 2, iş 4604, vərəq 2.
[2] Yenə orada, vərəq 3.
[3] ARDA, fond 51, siyahı 3, iş 92, vərəq 3.
[4] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, II cild, s. 20.
[5] ARDA, fond 51, siyahı 3, iş 51, vərəq 6.
[6] Yenə orada, iş 92, vərəq 7.
[7] Yenə orada, vərəq 4.



Cümhuriyyət tələbələri Əliəkbər Əliyev və Məhəmməd bəy Xələfbəyov (Mahmudov) gəmidə İstanbula gedərkən. 1920

Şəriət –	beş (5)
Rus dili –	üç (3)
Alman dili –	dörd (4)
Fransız dili –	üç (3)
Riyaziyyat, o sıradan:	
Hesab –	dörd (4)
Cəbr –	dörd (4)
Triqonometriya –	dörd (4)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	dörd (4)
Tarix –	dörd (4)
Təbiiyyatşünaslıq –	dörd (4)
Fizika –	dörd (4)
Riyazi coğrafiya –	dörd (4)
Rəsm –	dörd (4)
Qanunşünaslıq –	dörd (4).[1]

AR Dövlət Arxivində müəllim Məhəmməd bəy Xələf bəy oğlunun şəxsi işi saxlanır. Bu şəxsi iş 5 sentyabr 1917-ci ildə başlanaraq 20 dekabr 1919-cu ildə qapadılıb. Oradakı sənədləri gözdən keçirək.

Şamaxı real məktəbini bitirmiş Məhəmməd bəy Xələf bəy oğlu 4 sentyabr 1917-ci ildə Bakı Şəhər Dumasındakı Məktəblər Komissiyası sədrinə ərizə yazaraq Bakı şəhər rus-türk məktəblərində boş olan müəllim yerlərindən birinə təyin edilməsini xahiş edib.[2]

Bakı şəhər 5-ci rus-türk ibtidai məktəbinin müdiri Baba bəy Səfərəlibəyov 19 oktyabr 1917-ci ildə həmin ünvana göndərdiyi 58 saylı məktubunda bildirib ki, keçmiş müəllim Davud İbrahimovun boş qalmış vəzifəsinə 24 sentyabr 1917-ci ildən Məhəmməd bəy Xələf bəy oğlu göndərilib.[3]

Baba bəy 1917-ci ildə Bakı Şəhər İdarəsinin məktəblər bölməsinə yazdığı 52 saylı məktubda şagirdlərin buraxdığı dərslər və ehtiyat müəllimlərin məşğələləri haqqında 1917-ci

[1] ARDA, fond 51, siyahı 3, iş 92, vərəq 2–2a.
[2] Yenə orada, fond 2802, siyahı 1, iş 971, vərəq 2.
[3] Yenə orada, vərəq 7.



Türk Sənət Texnikumunun 2-ci buraxılışı. *Yuxarı cərgədə sağdan 1-ci* "Məhəmməd Xələfov" (Mahmudov). 1927

ilin sentyabr ayı üçün bilgi göndərib.[1] Buradan öyrənirik ki, Məhəmməd bəy Xələf bəy oğlu müəllim Davud İbrahimovu 24-30 sentyabrda əvəz edərək 24 dərs keçib.[2]

B.b.Səfərəlibəyov 1917-ci ilin 31 oktyabrında Bakı Şəhər Duması Məktəblər Komissiyasının sədrinə yazıb ki, mənə tapşırılmış məktəbin 2-ci bölməsinin müəllimi Məhəmməd bəy Xələf bəy oğlu rəsm dərsinə böyük diqqət yetirilən Şamaxı real məktəbini bitirib. Məktəblərin milliləşdirilməsi ilə bağlı olaraq Sizdən xahiş edirəm ki, mənə tapşırılmış məktəbdə 4 rəsm dərsini rəsmə yetərincə hazırlıqlı və uşaqların dilini bilən yuxarıda adıkeçən müəllimə verəsiniz.[3] Onun xahişi yerinə yetirilib[4] və Məhəmməd bəy bu dərsləri 8 noyabrdan deməyə başlayıb.[5]

Sənədlərin birindən öyrənirik ki, Məhəmməd bəy bu məktəbdə məzuniyyətə çıxmış görkəmli müəllim və ictimai-siyasi xadim İslam bəy Qəbulovu 30 dekabr 1917-ci ildən 31 yanvar 1918-ci ilədək[6] və 1-28 fevral 1918-ci ildə əvəz edib.[7]

5-ci rus-türk məktəbinin müdiri B.b.Səfərəlibəyov 22 yanvar 1919-cu ildə Bakı Şəhər Dumasındakı Məktəblər Komissiyası sədrinə Məhəmməd bəy Xələf bəy oğlunun müəllimlik fəaliyyəti haqqında rəy yazaraq göstərib: Sizin 20 yanvar 1919-cu il tarixli 162 saylı

[1] ARDA, fond 2802, siyahı 1, iş 971, vərəq 5.
[2] Yenə orada, vərəq 6.
[3] Yenə orada, vərəq 8.
[4] Yenə orada, vərəq 9.
[5] Yenə orada, vərəq 11.
[6] Yenə orada, vərəq 14.
[7] Yenə orada, vərəq 15.



Azərbaycanlı ailələr. *Soldan sağa. Oturanlar:* Şəfiqə Səfərəlibəyova-Atamalıbəyova (Baba bəy Səfərəlibəyovun yoldaşı), Adilə Baba bəy qızı (uşaq), Hüseynağa Hacıbababəyovun yoldaşı, İsmət Baba bəy oğlu (uşaq), Sima Hüseynova (Sadıq Hüseynovun yoldaşı, X.b.Natəvanın yaxın qohumu), Leyla Sadıq qızı, Zəminə Səfərəlibəyova (Şirin bəy Səfərəlibəyovun yoldaşı), Utarid xanım. *Ayaq üstə:* Baba bəy Səfərəlibəyov, Mehdi bəy Səfərəlibəyov, Hüseynağa Hacıbababəyov, Mirəziz, prof. Sadıq Hüseynov, Məhəmməd bəy Xələfbəyov (Mahmudov), Şirin bəy Səfərəlibəyov. Kislovodsk, 1928

məktubunuza əsasən bildirməklə şərəflənirəm ki, 1917-ci ilin sentyabr ayında mənə tapşırılmış məktəbdə boş qalmış yerə Şamaxı real məktəbində elmlərin tam kursunu bitirmiş Məhəmməd bəy Xələf bəy oğlu göndərilib. O, ikinci bölmədə çalışıb. Məşğələlər zamanı Məhəmməd bəy Xələf bəy oğlu özünün pedaqogikada və fənlərin metodikasında biliklərini, uşaqları maraqlandırmaq bacarığını, işinə ciddi və vicdanlı münasibətini, uşaqlarla mehriban davranışını göstərib və sinifdə ciddi intizamı gözləyib. Bu deyilənlərə əsasən Sizdən Məhəmməd bəyin tutduğu vəzifəni təsdiqləmək üçün Məktəblər Komissiyası qarşısında vəsatət qaldırmağınızı xahiş edirəm.[1]

Bakı şəhər başçısının 4 mart 1919-cu il tarixli 522 saylı əmri ilə Məhəmməd bəy Xələf bəy oğlu 1 oktyabr 1917-ci ildən Bakı 5-ci kişi türk məktəbinə ayda 75 manat maaşla müəllim təyin edilib.[2] Bu haqda 11 may 1919-cu ildə ona 926 saylı vəsiqə də verilib.[3]

* * *

Artıq 1919-cu ilin avqustu gəlib yetişdi! Cümhuriyyətin xaricə göndərmək üçün tələbə axtarışlarının ən qızğın çağıdır. Baba bəy Səfərəlibəyov indiyədək öz doğma oğlu kimi qayğı göstərdiyi, atalıq himayəsinə aldığı sevimli bacısı oğlunu Avropada təhsil almış gənclərin içərisində görmək istəyir və sənədlər hazırlamaqda da ona yardımçı olur. Doğrudur, hökumət, özəlliklə Maarif Nəzarəti yanında Baba bəyin çox böyük hörməti var, onun bir sözü iki

[1] ARDA, fond 2802, siyahı 1, iş 971, vərəq 21-21a.
[2] Yenə orada, vərəq 23.
[3] Yenə orada, vərəq 24.



Azərbaycanlı ailələr Lermontovun duelə çıxdığı yerdə. *Soldan sağa. Öndəki uşaqlar:* 2-ci Nazimə Aşurbəyli, 4-cü Adilə Aşurbəyli. *Oturanlar:* İsmət Aşurbəyli (Bala bəy Aşurbəylinin yoldaşı), Şəfiqə Səfərəlibəyova, Sima Hüseynova, Hüseynağa Hacıbababəyovun yoldaşı, Zəminə Səfərəlibəyova, Utarid xanım. *Ayaq üstə:* Şirin bəy Səfərəlibəyov, prof. Sadıq Hüseynov, Sara Aşurbəyli, Rişad Aşurbəyli (onun qardaşı), Sitarə Aşurbəyli, Mehdi bəy Səfərəlibəyov, Hüseynağa Hacıbabəyov, Məhəmməd bəy Xələfbəyov, Baba bəy Səfərəlibəyov, Məryəm Aşurbəyli, Mirəziz, Bala bəy Aşurbəyli. Pyatiqorsk, 1928

edilmir, ancaq təqaüdçülərin hamısına eyni tələblə yanaşılır, bu üzdən Məhəmməd bəy də bütün lazımlı sənədləri təqdim etməyə borcludur.

"Bu vəsiqə Bakı şəhərində Kilsə küçəsində[1] 164 və 166 saylı evlərin ev komitəsindən Bakı şəhər 5-ci Türk məktəbinin müəllimi Məhəmməd bəy Xələf bəy oğluna onun şəxsi xahişi ilə 2 avqust 1919-cu ildə ona görə verilib ki, Məhəmməd bəy gerçəkdən yoxsul adamdır və Avropanın ali məktəblərindən birində təhsilini davam etdirməyə vəsaiti yoxdur".

Vəsiqəni 3 avqust 1919-cu ildə Bakı şəhərində ev komitəsinin sədri B[aba bəy] Səfərəlibəyov imzalayıb.[2] Baba bəy sonuncu anadək dayılıq vəzifəsini layiqincə yerinə yetirir!

Məhəmməd bəy Xələf bəy oğlu 3 avqust 1919-cu ildə xalq maarif nazirinə yazdığı ərizədə onun da xarici ali məktəblərə göndərilməsi nəzərdə tutulmuş 100 tələbə siyahısına

[1] İndiki Vidadi küçəsi.

[2] ARDA, fond 51, siyahı 3, iş 92, vərəq 6.



Azərbaycanlı ailələr Hiylə və Sevgi qəsrində.
Soldan sağa. Ön cərgə: Rişad Aşurbəyli, Məhəmməd bəy Xələfbəyov (Mahmudov), Hüseynağa Hacıbabəyovun yoldaşı. *Orta cərgə:* Adilə Aşurbəyli, Nazimə Aşurbəyli (qız), İsmət Aşurbəyli, Zəminə Səfərəlibəyova, Məryəm Aşurbəyli, Hüseynağa Hacıbabəyov, Hüseynağa Hacıbabəyovun qızı. *Arxa cərgə:* Sara Aşurbəyli, Mehdi bəy Səfərəlibəyov, Şirin bəy Səfərəlibəyov, Mirəziz. Kislovodsk, 1928

salınmasını xahiş edib və İstanbul Hərbi-Tibb Akademiyasına girmək arzusunu bildirib. Ərizənin sonunda ünvanı olaraq Kilsə küçəsi 164-cü evi göstərib.[1]

Ərizənin yazıldığı vərəqin sonunda o, attestat, şəhadətnamə, doğum haqqında şəhadətnamə və xarici pasportu 15 yanvar 1920-ci ildə aldığını qeyd edib.

Bakı Şəhər İdarəsinin Məktəblər Şöbəsi üzrə üzvü 6 noyabr 1919-cu ildə 3-cü ümumi məktəbin müdirinə 2213 saylı məktubla müraciət edərək bildirib ki, Məhəmməd bəy Xələfbəyov Sizə tapşırılmış məktəbə Məktəblər Komissiyası təsdiq edənə qədər 3 buraxılış sinfində 12 türk dili dərsi demək üçün göndərilir. Onun vəzifəsinə başladığı günü Məktəblər Şöbəsinə bildirməyinizi xahiş edirəm.[2]

3-cü şəhər qız məktəbinin müdiri Q.Molçanova 13 noyabr 1919-cu ildə Məktəblər

[1] ARDA, fond 51, siyahı 3, iş 92, vərəq 1.

[2] Yenə orada, fond 2802, siyahı 1, iş 971, vərəq 26.



Türk teatr xadimləri. *Soldan sağa. Öndə:* Sultanməcid Qənizadə, Nəriman Nərimanov. *Orta cərgə: (?),* Əlicabbar İsmayılov (?), Həbib bəy Mahmudbəyov, Anton Zaxarov, Baba bəy Səfərəlibəyov. *Arxa cərgə:* Həmid Qorçubaşov, (?), Süleyman Sani Axundov. Bakı, 1898

Şöbəsinə bildirib ki, Məhəmməd bəy Xələfbəyov buraxılış siniflərində türk dili dərslərini keçmək üçün öz vəzifəsinin icrasına bu ayın 12-sindən başlayıb.[1]

Bakı şəhər 5-ci Türk məktəbinin müdiri Baba bəy Səfərəlibəyov 16 noyabr 1919-cu ildə Məktəblər Şöbəsinə yazaraq bildirib ki, Məhəmməd bəy Xələf bəy oğlunu məktəbimizin pedaqoji şurası 18 sentyabr 1919-cu ildə yekdilliklə idarənin münşisi[2] seçib. Ona görə də Məhəmməd bəyə 18 sentyabrdan bu vəzifə üçün məvacib verilməsini xahiş edirəm.[3]

Buradan aydın olur ki, Məhəmməd bəy eyni zamanda iki məktəbdə müəllimlik edib.

Məhəmməd bəy Xələf bəy oğlu 16 noyabr 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizəsində də İstanbulda Hərbi-Tibb Akademiyasında oxumaq istədiyini bildirib.[4]

Şəhər 5-ci türk məktəbinin sinif müəllimi və ümumi məktəbinin fənn müəllimi Məhəmməd bəy Xələf bəy oğlunun 20 dekabr 1919-cu ildə Bakı Şəhər İdarəsi Məktəblər Komissiyası sədrinə yazdığı ərizədə göstərib:

"Sizə bəlli olduğu kimi, bu 28 dekabrda yüz tələbə xaricə göndəriləcək. Mən xoşbəxt də həmin tələbələr içərisindəyəm və 28-də gedəcəyəm. Bu haqda məlumat verərək Sizdən məni tutduğum vəzifədən çıxarmanızı və noyabr ayı üçün maaşımın qalan yarısını, dekabr ayı üçün aylıq maaşımı və 3 il üçün məzuniyyət pullarımı (hər il üçün yarımaylıq maaş həcmində) verməyinizi xahiş etməklə şərəflənirəm.

Mənə dövlət müəssisəsində qulluqdan çıxaraq xaricə gedən bütün qulluqçular üçün nəzərdə tutulmuş aylıq maaş həcmində vəsait verilməsi üçün Şəhər İdarəsi qarşısında məsələ qaldırmaqdan imtina etməməyinizi xahiş edirəm".[5]

[1] ARDA, fond 2802, siyahı 1, iş 971, vərəq 28.
[2] Sənədləri yazan, onların üzünü köçürən.
[3] ARDA, fond 2802, siyahı 1, iş 971, vərəq 30.
[4] Yenə orada, fond 51, siyahı 3, iş 92, vərəq 8.
[5] Yenə orada, fond 2802, siyahı 1, iş 971, vərəq 31.



Səfərəlibəyovlar və başqaları. *Soldan sağa. Öndə:* Nüsrət, Əminə Məhəmmədhəsən bəy qızı Atamalıbəyova. *Oturanlar:* Zəminə Səfərəlibəyova (Şirin bəyin yoldaşı), Rəna Səfərəlibəyova (Hüseyn bəy Səfərəlibəyovun yoldaşı; Şirin, Mehdi və Kimya Səfərəlibəyovların anası), Kimya Səfərəlibəyova-Atamalıbəyova (Məhəmmədhəsən bəy Atamalıbəyovun yoldaşı), Məhəmmədhəsən bəy Atamalıbəyovun qızı (uşaq), Şəfiqə Səfərəlibəyova-Atamalıbəyova (Baba bəyin yoldaşı), Nadejda (qulluqçu), İsmət Səfərəlibəyov (diz üstündə). *Ayaq üstə:* Şirin bəy Səfərəlibəyov, Mehdi bəy Səfərəlibəyov, Məhəmmədhəsən bəy Atamalıbəyov, Baba bəy Səfərəlibəyov. Bakı, iyul, 1923

Bakı şəhər başçısının 21 dekabr 1919-cu il tarixli 2938 saylı əmri ilə Bakı 5-ci kişi-türk məktəbinin müəllimi Məhəmməd bəy Xələf bəy oğlu 1 oktyabr 1917-ci ildən 28 dekabr 1919-cu ilədək işlədiyi müddət üçün məzuniyyətlərinin pulunu tam maaşının 25% həcmində almaqla vəzifəsindən azad edilib.[1]

Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 591 saylı vəsiqə Məhəmməd bəy Xələf bəy oğluna 15 yanvar 1920-ci ildə verilib.[2]

***

Qarşımızda artıq "Məhəmməd Xələf oğlu Mahmudov" adlandırılan Məhəmməd bəyin ittihamı üzrə 22954 saylı (indi: PR-28729) istintaq işi durur. 105 vərəqlik bu iş 16 iyul 1938-ci ildə başlanıb və 27 mart 1939-cu ildə bitib.

Məhbus haqqında 16 iyul 1938-ci ildə Azərb. SSR XDİK DTİ 3-cü bölümü 1-ci bölməsinin rəisi, DT leytenantı Tevosyanın və 3-cü bölümün rəis müavini, DT kapitanı Meşeryakovun 16 iyul[3] 1938-ci ildə tərtib etdiklər arayışda göstərilib ki, 1898-ci il doğumlu, həkim, ÜK(b)P-da olmamış, Aziatski küçədə[4] 35-ci evdə yaşayan Məhəmməd Xələf

[1] ARDA, fond 2802, siyahı 1, iş 971, vərəq 32.
[2] Yenə orada, fond 51, siyahı 3, iş 92, vərəq 10.
[3] Sənəddə öncə "aprel" yazılıb, sonra üstündən xətt çəkilərək "iyul" edilib. Deməli, onu hələ aprel ayından tutmaq istəyiblər.
[4] İndiki Əliövsət Quluyev küçəsi.



Müəllim dostlar. *Soldan sağa:* Əliməmməd Mustafayev, Mehdi bəy Səfərəlibəyov, Baba bəy Səfərəlibəyov. Bakı, 1920

Mahmudov 1926-cı ildə İstanbulda Hərbi-Tibb Akademiyasını bitirib. İstanbulda olduğu vaxt müsavatçı mühacir dairələrlə sıx əlaqə saxlayıb. Orada müsavatçı, millətçi Milli Mərkəzin tərkibinə daxil olub. 1930-cu ildə Bakıda gizli Müsavat təşkilatının üzvü olub, əks-inqilabi ədəbiyyat yayıb. 1933-cü ildə keçmiş Az. DSİ onu öz tərəfinə çəkib, ancaq sonra əməkdaşlıqdan imtina edib. Buna əsasən də o, həbs edilməlidir.[1]

2584 saylı məhbus anketində Məhəmməd Xələf oğlu Mahmudov haqqında bu bilgilər verilib: 1898-ci ildə[2] İsmayıllı rayonunun Basqal kəndində doğulub. Yaşayış yeri – Bakı, 6-cı Kommunist döngəsi, ev 12, mənzil 33. Peşəsi – cərrah. İş yeri və vəzifəsi – Xaçmaz r. xəstəxanasının direktoru və cərrah. Pasportu Naxçıvanda verilib. İctimai mənşəyi – kəndli. İctimai durumu – qulluqçu. Təhsili – ali tibb. Partiyasız. Repressiyaya uğramayıb. Ailə tərkibi: arvadı *Əminə*,[3] 21 yaş; anası *Nisbət*, 65 yaş; qardaşı qızı *Safura*, 12 yaş; qardaşı oğlu *Məcid*, 19 yaş. 16 iyul 1938-ci ildə həbs edilib.[4]

Öncə Məhəmməd Xələf oğlu Mahmudovun 26 iyul 1938-ci il tarixli dindirməsinin protokoluna nəzər yetirək. Bu başdan bildirək ki, bu dindirmə protokolunda yazılanların çoxu müstəntiqin uydurmasıdır. Bu, ondan görünür ki, çəkilən ad-soyadların neçəsi yanlış yazılıb – onları Məhəmməd bəyin bu cür deməsi mümkün deyil. Bu hissədən bir parça.

"*Sual:* Siz Türkiyədə neçə il olmusunuz və Sizi kim göndərmişdi?

Cavab: 1918-ci ildə[5] başqa azərbaycanlı tələbələrlə birgə Türkiyəyə göndərildim, heç yana çıxmadan orada 1918-ci ildən 1926-cı ilədək oxudum və İstanbulda Tibb İnstitutunu[6] bitirdim. Tibb İnstitutunu bitirdikdən sonra 1 il İstanbul xəstəxanasında təcrübə keçdim, təcrübi işi bitirəndən sonra yenidən Azərbaycana döndüm və həbs olunduğum günədək burada oldum.

Sual: Azərbaycanlı tələbələrdən Sizinlə birlikdə Türkiyədə kimlər oxuyub və onlarla əlaqəniz?

Cavab: İstanbul şəhərində (Türkiyə) mənimlə birlikdə bu tələbələr olub: Əli Kərimov, Hənifə Zeynallı, Muxtar Muxtarov,[7] Abdin Abdinov,[8] Əbdül Tahirzadə,[9] Əmin Abid Mütəllibzadə,[10] Abdulla Tahirzadə. Ancaq məndən və başqa iki tələbədən – Əmin Abid

[1] AR MTN Arxivi, PR-28729, vərəq 1.
[2] Sənəddə belə yazılıb.
[3] Bu, Məhəmməd bəyin ilk yoldaşıdır.
[4] AR MTN Arxivi, PR-28729, vərəq 13.
[5] Əslində 1920-ci ildə. Məhəmməd bəyin özünün "1918-ci il" deməsi inandırıcı deyil; deməli, bu, müstəntiqin öz uydurmasıdır.
[6] Hərbi-Tibb Akademiyasını. Məhəmməd bəyin "Tibb İnstitutu" deməsi də inandırıcı görünmür.
[7] Belə tələbə olmayıb. Çox güman ki, Əlimuxtar Həsənov nəzərdə tutulur.
[8] Belə tələbə olmayıb. Çox güman ki, Əbdül Əbdülzadə nəzərdə tutulur.
[9] Abdulla Tahirzadə olmalıdır, ancaq onun adı ayrıca da qeyd olunub.
[10] Əmin Abid Cümhuriyyət tələbələri ilə birgə getməyib.

Mütəllimzadə və Tahirzadədən başqa, bütün qalan tələbələr bir il sonra Azərbaycana qayıtdılar, onların getməsi səbəbi mənə bəlli deyil, onlarla bu haqda söhbət etməmişəm.

Sual: Bakıdan və ümumiyyətlə, Azərbaycandan olan mühacirlərdən kimlər Sizə bəllidir?

Cavab: İstanbul şəhərində mən şəxsən bu mühacirləri tanıyırdım:

1) Məhəmmədəmin Rəsulzadə, Müsavat Partiyasının keçmiş katibi.

2) Vəkilov Mustafa, Müsavat dönəmi 1918-1919-cu illərdə Azərbaycanın keçmiş daxili işlər naziri.

3) Şəfi Rüstəmbəyov, Müsavat dönəmində "Kaspi" [1] qəzetinin keçmiş redaktoru.

4) Əmircanov Əbdüləli və bir sıra başqalarını; hamısını dəqiq xatırlamıram.

Sual: Azərbaycandan olan mühacirlərdən kimlərlə görüşmüsünüz və neçə dəfə?

Cavab: İstanbul şəhərində Şəfi Rüstəmbəyovla bir neçə dəfə görüşmüşəm, Mustafa Vəkilovla onun yanında görüşmüşəm, başqaları ilə görüşməmişəm. Məhəmmədəmin Rəsulzadəni bir neçə dəfə küçədə görmüşəm.

Sual: Tələbələrdən kimlər İstanbulda çıxan qəzet və jurnallarla əməkdaşlıq edib?

Cavab: İstanbulda olan tələbələrdən Əmin Abid Mütəllimzadə Türkiyədə çıxan qəzet və jurnallarda tez-tez məqalə verirdi... Qəzet və jurnallarla əməkdaşlıq edən başqa tələbələri xatırlamıram".[2]

2 avqust 1938-ci il tarixli dindirməsinin protokolundan.

"*Sual:* Üzləşdirmədə müttəhim Əmin Abid Sizin İstanbul şəhərində (Türkiyə) tələbə olarkən Məhəmmədəmin Rəsulzadənin başçılıq etdiyi Müsavat təşkilatına mənsubluğunuzu təsdiq edib. Bunu təsdiqləyirsinizmi?

Cavab: İndi Məhəmmədəmin Rəsulzadənin evində onun çağırdığı müsavatçıların yığıncaqlarında neçə dəfə olduğumu dəqiq xatırlamıram, ancaq olmuşam. Rəsmən Müsavat Partiyasının üzvü olmamışam.

Sual: İstanbul şəhərində (Türkiyə) Siz müsavatçıların yaratdığı gənc tələbələr komitəsinin (milli mədəni komitənin) üzvü olmusunuzmu?

Cavab: Həqiqətən, mən İstanbul şəhərində başqa tələbələrlə birlikdə milli komitənin üzvü olmuşam. Mənimlə birlikdə həmin komitəyə Tağıyev Əbdürrəhman (Tağıyev Hacı Zeynalabdinin nəvəsi), Sədi[3] – atasının adını və soyadını xatırlamıram, Əmin Abid Mütəllimzadə Əhmədov, Əhməd[4] Ağaoğlu (sonra Macarıstana getdi) daxil idilər.

Sual: İstanbul şəhərində mühacirlərlə, Müsavat partiyasının keçmiş başçıları Mustafa Vəkilov və Şəfi Rüstəmbəyovla neçə dəfə və harada görüşmüsünüz?

Cavab: İndi dəqiq xatırlamıram, ancaq Rüstəmbəyov Şəfi ilə 4 dəfəyə yaxın görüşmüşəm. Mustafa Vəkilov da onun yanında olub; onlar İstanbul şəhərində (Türkiyə) bir küçədə yaşayırdılar.

Sual: Tələbələr arasında həyata keçirmək üçün onlardan hansı müsavatçı tapşırıqlar almısınız?

Cavab: Mən onlarla Türkiyədə indi soyadını və adını xatırlamadığım səlahiyyətli nümayəndəliyin[5] bir işçisinin tapşırığı əsasında görüşmüşəm, onlardan heç bir tapşırıq almamışam. Hər görüşdə yalnız şəxsi söhbətlər olub".[6]

[1] Şəfi bəy "Kaspi" qəzetinin deyil, rusca "Azərbaycan" qəzetinin redaktoru olub. Məhəmməd bəy belə savadsız cavab verməzdi.
[2] AR MTN Arxivi, PR-28729, vv. 19-20.
[3] Bu, Sadəddin Hacı Həsən əfəndi oğludur.
[4] "Məhəmməd" olmalıdır.
[5] Sovet səfirliyi nəzərdə tutulur.
[6] AR MTN Arxivi, PR-28729, vərəq 21.

22 oktyabr 1938-ci il tarixli dindirməsində Məhəmməd Mahmudova qarşı sürülən əsas ittiham bundan ibarətdir ki, o, Əkbər Fərəcov və Əliabbas Axundova əks-inqilabi ədəbiyyat paylayıb. Ancaq cavabında müttəhim bildirib ki, Türkiyədən gələrkən mən bir sıra kitablar almışdım. Həmin kitablar Türkiyədəki sovet konsulluğunda yoxlanıldı və onları aparmağıma icazə verildi. "Həmin illərdə bu kitablar əks-inqilabi deyildi".[1]

8 mart 1939-cu il tarixli dindirmədən.

"1919-cu ildə Müsavat vaxtı Bakı şəhərində mən şəhər məktəbinin müəllimi idim. Müsavat hökuməti Maarif Nəzarətinin elanına görə mən ərizə verdim və İstanbul Universitetinin tibb fakültəsində oxumağa getmək arzumu bildirdim. Mənimlə birlikdə Hənifə Zeynallı, Kərimov Əli, (Əmin) Abid (soyadını xatırlamıram), Əlimuxtar [Həsənov] və başqaları getmişdi.

1925-ci ildə mən tibb fakültəsini bitirdim və 1926-cı ilədək Qürəbə[2] xəstəxanasında staj keçdim. 1920-ci ildə mənimlə İstanbula getmiş[3] bütün şəxslər Bakıya qayıtdılar, ancaq niyəsini bilmirəm.

1921-22-ci ildə İstanbula həkim Bəhram Axundov gəldi. Mənə bildirdi ki, sovet hökumətinin qərarı ilə mən başqaları ilə birlikdə dövlət təqaüdçüləri sırasına salınmışam. Mən 1926-cı ilin birinci yarısınadək, yəni yenidən Bakıya qayıtdığım anadək təqaüdçü olmuşam. 1926-cı ildə təhsilim bitərkən şəxsən İstanbul şəhərindəki sovet konsulluğuna ərizə verərək Bakı şəhərinə qayıtmağıma icazə verilməsini xahiş etmişəm. Mənə viza verilib, ona əsasən Batumdan keçməklə Bakıya qayıtmışam.

İstanbul şəhərində yaşayarkən Bakı şəhərinə getməyimə bir az qalmış sovet konsulluğuna çağırıldım, orada konsulluğun işçilərindən biri (tutduğu vəzifəni və soyadı bilmirəm) mənə Bakı şəhərində "Kaspi" qəzetinin keçmiş redaktoru Şəfi Rüstəmbəyovun ünvanını verdi və konsulluğun bu işçisinin onunla görüş yeri haqqında danışmağımı xahiş etdi. Mən tapşırığa əməl edərək sovet konsulluğu işçisindən götürdüyüm ünvana əsasən Şəfi Rüstəmbəyovun evinə getdim, onunla ilk dəfə görüşdüm. Aldığım tapşırığa uyğun olaraq Şəfi Rüstəmbəyovla görüş yerini razılaşdırdıq.

Təqribən 1 həftə sonra mən sovet konsulluğunun işçisi ilə Rüstəmbəyovla görüş yerinə getdim, özü də, ona yaxınlaşmadım, avtomaşında sovet konsulluğu işçisini gözlədim.

Bundan sonra mən Şəfi Rüstəmbəyovla heç vaxt görüşməmişəm.

Öz ifadələrimə bunu da əlavə edirəm ki, sovet konsulluğu işçisi ilə görüşə Rüstəmbəyov Müsavat vaxtı Azərbaycanın Daxili İşlər Nazirliyinin keçmiş işçisi Mustafa Vəkilovla birlikdə gəlmişdi.

Mən şəxsən onunla tanış deyildim, görüşməmişəm və söhbət etməmişəm.

Bundan başqa, Azərbaycandan olan mühacirlərdən və müsavatçılardan qətiyyən heç kimi tanımamışam və görüşməmişəm.

Mənə bəlli idi ki, İstanbulda Müsavat hökumətinin keçmiş rəhbərləri Məhəmmədəmin Rəsulzadə, Əmircanov və başqaları yaşayır. Ancaq onlarla görüşməmişəm və ümumi heç nəyimiz olmayıb. Bütün başqa ifadələrimdən imtina edirəm və bildirirəm ki, onlar doğru deyil və dindirmə protokollarını mən oxumadan imzalamışam…

Qəti şəkildə bildirirəm ki, İstanbulda yaşayarkən heç vaxt Müsavatçı təşkilatın üzvü olmamışam, bu təşkilatın heç bircə iclasında da iştirak etməmişəm".[4]

[1] AR MTN Arxivi, PR-28729, vərəq 24.
[2] Qəriblər.
[3] Deməli, Məhəmməd bəy İstanbula 1920-ci ildə getdiyini yaxşı xatırlayır və o, 1918-ci ildə getdiklərini deməzdi.
[4] AR MTN Arxivi, PR-28729, vv. 28-29a.

Dindirmə protokollarında qeyd olunmuş ifadələrin onun ağzından çıxmayıb müstəntiqin uydurması olduğunu heç bir müttəhim açıq deyə bilməzdi – bu zaman o, sovet istintaqına əks-inqilabi iftira atan böhtançı kimi cəzalandırılardı. Buna görə də müttəhimlər çox vaxt bu ifadələri verərkən oxumayıb qol çəkdiklərini bildirir və yaxud başqa bəhanələr söyləməyə məcbur olurdular.

Novruz bayramı günündə – 22 mart 1939-cu ildə keçirilmiş dindirmənin protokolundan.

"Sual: 2 avqust 1938-ci il dindirməsində Siz göstərmisiniz ki, Türkiyədə yaşayarkən Məhəmmədəmin Rəsulzadənin mənzilində çağırılan müsavatçıların yığıncaqlarında olmusunuz. Belə ifadələr vermisinizmi?

Cavab: Türkiyədə yaşadığım vaxt Məhəmmədəmin Rəsulzadənin mənzilində çağırılmış müsavatçıların yığıncaqlarında olmağım haqqında ifadə verməmişəm.

Sual: 2 avqust 1938-ci il tarixli dindirmə protokolunun altındakı imza Sizindirmi?

Cavab: 2 avqust 1938-ci il tarixli dindirmə protokolunun altındakı imza mənimdir.

Sual: Həmin protokolda qeyd olunmuş ifadələri təsdiqləyirsinizmi?

Cavab: 2 avqust 1938-ci il tarixli dindirmədəki ifadələrdən mən yalnız bunu təsdiqləyirəm ki, Şəfi bəy Rüstəmbəyovla SSRİ konsulluğu işçisinin tapşırığı ilə görüşmüşəm. Qalan ifadələri inkar edirəm".[1]

Həmin dindirmədə müstəntiq onu sovet hökumətinə qarşı casusluq aparmaqda da ittiham edib və belə bir cavab alıb: "Mən – Mahmudov Məhəmməd Xələf oğlu həm SSRİ-yə qarşı casusluq fəaliyyətində, həm də anti-sovet təşviqat aparılmasında özümü günahkar bilmirəm".[2]

Məhəmməd bəydən özünə qarşı ciddi bir ifadə ala bilməyən müstəntiqlər başqalarının ifadələrinə əsasən onu "ifşa" etməyə çalışıblar. Onlardan biri deyib ki, Məhəmməd Xələf oğlu yalandan şər atıb ki, guya artist Bülbül xaricə gedərkən Məhəmməd Xələf oğlu onun evini pulla alıb, ancaq Bülbül qayıtdıqdan sonra həmin evi onun əlindən zorla alıblar.[3]

Müstəntiq Splis 22 mart 1939-cu ildə həmin şəxslə Məhəmməd Xələf oğlunu üzləşdirib. Ə.F. üzləşdirmədə bir daha bildirib:

"Məhəmməd Xələf [oğlu] guya SSRİ-də ədalətin olmamasından şikayətlənirdi. Fakt kimi o, bu hadisəni misal göstərirdi ki, artist Bülbül xaricə getməzdən qabaq onun mənzilini satın alıb. Bülbül xaricdən qayıtdıqda ona – Məhəmməd Xələf [oğluna] guya Bülbülün mənzilini qaytarmağı təklif ediblər".[4]

Maraqlıdır ki, M.Mahmudov bu şahidin bütün dediklərini inkar etsə də Bülbüllə bağlı deyilən məsələdə susub, bu isə həmin əhvalatın doğruluğunu təsdiqlədiyi anlamına gəlir.

22 mart 1939-cu ildə müstəntiq Splis istintaqın bitməsi haqqında protokol tərtib edib.[5]

DTİ 3-cü bölümü 1-ci bölməsinin rəisi, DT leytenantı erməni Martirosovun və DTİ 3-cü bölümünün rəisi, DT baş leytenantı Qriqoryanın 27 mart 1939-cu ildə tərtib etdikləri ittihamnaməyə görə, Mahmudov Məhəmməd Xələf oğlu özünü günahkar saymayıb.[6]

SSRİ XDİK Özəl Müşavirəsi 9 iyun 1939-cu il tarixli yığıncağında M.X.Mahmudovu "ictimai təhlükəli ünsür" kimi 5 il azadlıqdan məhrum edib.[7]

[1] AR MTN Arxivi, PR-28729, vv. 32-32a.
[2] Yenə orada, vərəq 33.
[3] Yenə orada, vərəq 49.
[4] Yenə orada, vərəq 55.
[5] Yenə orada, vərəq 57.
[6] Yenə orada, vərəq 59.
[7] Yenə orada, vərəq 71.

21 avqust 1950-ci ildə Azərb. SSR XDTN M.X.Mahmudov haqqında agentura məlumatları toplayıb. Buradan onun haqqında bu bilgiləri öyrənirik: Bakıda 1 May küçəsi 47-ci evdə yaşayıb. 1937-ci ildə Bakıdan "xalq düşməni" kimi 10 illiyə sürgün edilib. 1947-ci ildə cəza müddətini çəkib, cəzaçəkmə yerində yaşayıb,[1] indiyədək orada yaşamaqdadır. 20 aprel 1949-cu ildə Maqadan şəhərindən gəlib. Şimali Evenk rayonunda 23 aprel 1947-ci ildə verilmiş arayışla Bakıda qeydiyyata götürülüb. 1949-cu ildə 2 aylığa məzuniyyətə gəlib, sonra Nalçikə gedərək 20 iyul 1949-cu ilədək orda yaşayıb. 20 iyul 1949-cu ildə Maqadan şəhərinə gedib. Onun arvadı *Asadumi Rəhilə Kafiulla qızı* 1918-ci il doğumludur, Ufa şəhərindəndir, başqırddır, "obyekt"lə birgə 20 iyul 1949-cu ildə Maqadan şəhərinə gedib.[2]

Məhəmmədəli bəyin həyat yoldaşı, Bakıda Aşağı Dağlıq küçəsi 92-ci mənzildə yaşayan Rəhilə Mahmudova 16 avqust 1956-cı ildə Azərbaycan SSR prokurorluğuna müraciət edərək bildirib k, mən 2 uşaqla tam köməksiz qalmışam və mənzilim yoxdur, harada gəldi yaşayıram. Uşaqlarım Bakı şəhərində oxuyur. Xahiş edirəm ki, ərim həbs edilənədək yaşadığı Kommunist küçəsi[3] 8-dəki 33-cü mənzili bizə qaytarasınız.[4]

R.Mahmudova 5 iyun 1956-cı ildə İmişli qəsəbəsindən SSRİ-in baş prokuroru Rudenkoya göndərdiyi ərizədə bunları yazıb:

"Ərim Mahmudov Məhəmməd Xələf oğlu 1935-37-ci illərdə Naxçıvan şəhərinin baş həkimi və cərrahı, 1937-1938-ci illərdə Xaçmaz şəhərinin baş həkimi və cərrahı işləyib. 9 iyul 1939-cu ildə SSRİ XDİK Özəl Müşavirəsi onu 5 illiyə islah-əmək düşərgəsinə məhkum edib və 16 iyul 1943-cü ildə o azad edilib.

1943-47-ci illərdə o, Xabarovsk diyarının Omsukçan sanitar hissəsinin rəisi və xəstəxanasının baş həkimi və cərrahı işləyib. 1947-51-ci illərdə Omsukçanda Xabarovsk diyarı islah-əmək düşərgəsinin baş həkimi və cərrahı olub. 1951-ci ildə ağır xəstəliyi ilə bağlı olaraq Moskva şəhərinə göndərilib, ancaq artıq gec olub və 1952-ci ildə ərim 20 iyunda qida borusunun xərçəngindən vəfat edib".[5]

Rəhilə Mahmudova 5 aprel 1957-ci ildə Azərb. SSR prokuroruna ərizə yazaraq bildirib ki, ərim bütün həyatı boyu həkim işləyib, 9 iyun 1939-cu ildə 5 illiyə islah-əmək düşərgəsinə məhkum edilib. Cəzasını Kolımada çəkib və 1952-ci ildə qida borusunun xərçəngindən dünyasını dəyişib. O, İstanbul Universitetinin tibb fakültəsini bitirib. Onun işinə yenidən baxılmasını xahiş edirəm.[6]

M.X.Mahmudov 4 iyul 1946-cı ildə məhkumluğunun götürülməsi ilə bağlı SSRİ Ali Soveti Rəyasət Heyətinə ərizə yazıb. Bu ərizədən aşağıdakıları öyrənirik: ünvanı: Xabarovsk diyarı, Olsk rayonu, Omsukçan qəsəbəsi; iş yeri və vəzifəsi: Omsukçan cənub-qərb bölməsi sanitar hissəsinin rəisi və cərrahı; 16 iyun 1943-cü ildə Omsukçan cənub-qərb [dağ sənaye] idarəsi onu azad edib; 16 iyun 1943-cü ildə azad edildiyi vaxtdan heç bir cinayət törətməyib, məhkəmə məsuliyyətinə cəlb edilməyib; 1926-cı ildən 1935-ci ilin mayına qədər Bakı şəhərində Semaşko adına xəstəxanada qospital-cərrahi klinikada işləyib; 1935-ci ilin mayından 1937-ci iyunundək Naxçıvan şəhərində baş həkim və cərrah olub; 1937-ci ilin iyunundan 16 iyul 1938-ci ilədək Xaçmaz rayon xəstəxanasında baş həkim və cərrah işləyib; heç bir intizam pozuntusu olmayıb və tənbeh almayıb; 5 il dustaqda yataraq düşərgə rejimini bir

[1] Məhbusların cəzaçəkmə müddəti bitsə də onları buraxmır, orada saxlayaraq muzdla işlədirdilər.
[2] AR MTN Arxivi, PR-28729, vərəq 72.
[3] İndiki İstiqlaliyyət küçəsi.
[4] AR MTN Arxivi, PR-28729, vərəq 77.
[5] Yenə orada, vərəq 79.
[6] Yenə orada, vərəq 76.

dəfə də pozmayıb və 16 iyul 1943-cü ildən sanitar hissəsi rəisi işləyərək yaxşı işinə görə fəxri fərman və təşəkkür alıb.[1]

Nərmin xanım Tahirzadə 7 iyul 2006-cı ildə bizə bunları danışıb: *Hüseyn Cavid* öncə Kolımada *Məhəmməd Xələf Mahmudovla* bir yerdə olub. Məhəmməd Xələf xəstəxananın baş həkimi olduğuna görə Cavidə yüngül işdə işləməyə (valinkaları sahmana salmağa) imkan yaradıb. Bir qədər sonra Cavid deyib ki, bizi başqa yerə aparmaq istəyirlər, nə deyirsən? O da deyib ki, burada olanda əlim sənə çatır, ancaq orada kim bilir nə olacaq; getməməyin məsləhətdir. Ancaq Cavid necəsə Tayşetə aparılıb və orada da həlak olub.

Omsukçan Dağ-Mədən Kombinatının rəisi A.Quba və onun siyasi işlər üzrə müavini Paramonov 30 mart 1946-cı ildə verdikləri xasiyyətnamədə həkim M.X.Mahmudovu ən yaxşı cəhətləri ilə səciyyələndiriblər. Burada bildirilir ki, o, 5 illik cəza müddətini çəkdikdən sonra 16 iyul 1943-cü ildə azad edilib. Azad olunduğu andan cənub düşərgələrinin Omsukçan sanitar hissəsinin rəisi və düşərgənin mərkəzi xəstəxanasında və Omsukçan Dağ-Mədən Kombinatı xəstəxanasında cərrah-həkim işləyib. İşinə vicdanla və məsuliyyətlə yanaşır, işində enerjilidir. Sanitar hissəsinin rəisi işləyərkən onun inadkarlığı, enerjisi və rəhbərliyi sayəsində Omsukçanda əlavə pul vəsaitləri qoyulmadan əla mərkəzi xəstəxana tikilib. Görülmüş profilaktik tədbirlər nəticəsində həbs düşərgəsində xəstələnmə və ölüm xeyli aşağı düşüb, bununla da işləməyən məhbusların sayı aşağı düşüb və dövlət vəsaitlərinə qənaət edilib. Məsələn, 1943-cü ildə "B" qrupu 10%, ölüm 164 nəfər, 1944-cü ildə "B" qrupu 6.8%, ölüm 49 nəfər və 1945-ci ildə "B" qrupu 6.1, ölüm 31 nəfər təşkil edib. Bütün illər boyunca plan üzrə "B" qrupu 10-9% nəzərdə tutulub və hər il 19 min adam-gün qənaət edilib. Yol. Mahmudov cərrah həkim kimi işləyərək cərrahlıq üçün şəraitsizlikdə çoxlu məhbusun və vətəndaşın həyatını xilas edib. Omsukçanda işlədiyi vaxt müxtəlif səciyyəli 300-dən artıq əməliyyat aparıb və əməliyyatdan sonra bir dənə də ölüm hadisəsi baş verməyib. Məişətdə ciddidir, qayğıkeş yoldaşdır, siyasi baxımdan savadlıdır, azad edildikdən sonra 1944-cü ildə Omsukçan Dağ-Mədən Kombinatında partiya-təsərrüfat fəalları məktəbini "yaxşı" qiymətlə bitirib. Yol. Mahmudov işinə, davranışına, siyasi savadına və partiya siyasətinə sədaqətinə görə məhkumluğunun götürülməsinə tamamilə layiqdir.[2]

SSRİ DTN Özəl Müşavirəsi 9 iyun 1947-ci ildə M.X.Mahmudovun məhkumluğunun götürülməsi xahişini rədd edib.

Azərb. SSR Ali Məhkəməsi 25 oktyabr 1957-ci ildə ona bəraət verib.[3]

Tahirə xanım Baba bəy qızı Səfərəlibəyova-Xələfbəyova (1929) ilə 12 fevral 2006-cı ildəki söhbətimizdə Məhəmməd bəy haqqında bunları da demişdi ki, onun anası Nisbət xanım atam Baba bəyin bacısı olub. Xələf bəylə Nisbət xanımın 2 övladı olub: *Məhəmməd* və *Böyükxanım*.[4] Məhəmmədin həbsdən öncəki yoldaşı *Əminə* bakılı qızı idi. Ondan övladı olmayıb. Sürgündə evləndiyi *Rəhilə*'dən 2 uşağı var. Onun bacısı Böyükxanım Muğanlıda yaşayıb və orada vəfat edib. *Safura* adlı qızı vardı.

Məhəmməd Mahmudov 1950-ci ildə Bakıya gəlib, Suraxana (indiki Dilarə Əliyeva) küçəsində 47-ci evdə dayısı qızı *Kimya Atamalıbəyova*'gildə qalıb. O, ağır xəstə idi. Bir qədər Semaşko adına xəstəxanada[5] yatıb. Qida borusunda xərçəng vardı və professor Ginzburq onu müalicə edirdi. Ancaq şiş artıq gecikmişdi. Təxminən 2 həftədən sonra Muğanlıya bacısı

[1] AR MTN Arxivi, PR-28729, vərəq 93.
[2] Yenə orada, vərəq 98.
[3] Yenə orada, vv. 87-88.
[4] Ağa bəyin olması Tahirə xanıma məlum deyildi.
[5] İndiki Ağa Musa Nağıyev adına.

Böyükxanımgilə gedib, onlarda vəfat edib və orada da basdırılıb. İndi Basqalda onun heç kəsi qalmayıb.

Məhəmməd bəyin həyatı haqqında əlavə bilgilərə Abdulla Tahirzadənin zindanda 30 may 1949-cu ildəki dindirməsində də rast gəlirik:

"Xələfov Məhəmməd (atasının adını bilmirəm) mənim yaşıdımdır, azərbaycanlıdır, Azərb. SSR Şamaxı rayonunun Basqal kəndindəndir,[1] *ixtisasca cərrah-həkimdir. Onunla 1922-ci ildə İstanbul şəhərində yerli kimi tanış olmuşam. O vaxt o, Tibb İnstitutunda oxuyurdu. Türkiyədə yaşadığımız vaxt onunla dost olmuşuq. İstirahət günləri o, mənim evimə gəlib və vaxtı birgə keçirmişik, ancaq mən də ailəmlə onun tələbə mənzilində olmuşam. 1923-cü ildə mən Türkiyədən Bakıya gəldim, ailəmi Xələfovun himayəsinə tapşırdım, o da ailəmə Türkiyədən gəlməyə kömək etdi.*

O, Türkiydən təhsilini bitirəndən sonra 1925, yaxud 1926-cı ildə qayıtdı və Bakıda Səmaşko adına xəstəxanada işlədi. Həmin vaxtdan 1933-cü ildək aramızda dostluq münasibətləri davam elədi. Həm də o vaxt mən də, yoldaşım da xəstələnəndə bizim üçün əlindən gələni etdi. 1933-cü ildə o evləndi və həmin vaxtdan münasibətlərimiz öz-özünə kəsildi. 1936-cı ildə onun dayısı, mənimlə birgə müəllim işləyən Səfərəlibəyov Baba bəy (3-4 il bundan qabaq rəhmətə gedib) mənə bildirdi ki, Xələfov həbs edilib və İstanbulda olduğu zaman müsavatçılarla əlaqə saxladığına görə 5 illiyə azadlıqdan məhrum edilib. Sonra həmin Səfərəlibəyov mənə bildirdi ki, Xələfov cəza müddətini Uzaq Şimalda çəkib və işləmək üçün orada qalıb".[2]

11 avqust 1949-cu il dindirməsində A.Tahirzadə "Məhəmməd Xələfov" haqqında əlavə məlumat verib və bildirib ki, onu İstanbuldan tanıyıram. Dayısı Baba bəy Səfərəlibəyovun dediyinə görə, onu sovetləşmədən sonra Azərbaycandan qaçaraq İstanbulda yaşayan müsavatçılarla əlaqəsinə görə tutublar.

"Xələfovun arvadı tezliklə bir çəkistə ərə getdi. 1949-cu ildə Xələfov ikinci arvadı ilə Bakı şəhərinə gəldi, sonra o, Kislovodsk kurortuna getməli idi və yenə Sibirə qayıtdı. Orada dustaqlıqdan azad edildikdən sonra işləməkçün qaldı. Bakıya gələrkən mən arvadımla Xələfova baş çəkdim və öz növbəmdə onu da bizə dəvət etdim. O, bizə gəldi, ancaq arvadım evdə olmadı. Beləliklə, biz onunla yalnız bir dəfə görüşdük".[3]

21 sentyabr 1949-cu il tarixli dindirmədə müstəntiq A.Tahirzadəyə yenə Məhəmməd Xələfov haqqında sual verib. Ümumiyyətlə, bütün dindirmələri boyu eyni suala on dəfələrcə cavab verməyə və eyni şeyi dönə-dönə təkrarlamağa məcbur edilən Tahirzadə bu dəfə də əlavə bilgilər söyləyib:

"Məhəmməd Xələfovla sonuncu dəfə 1949-cu ilin aprelində, o, sürgündən Bakıya qayıdarkən görüşmüşəm. Onun evinə getmişəm, ona başqaları da baş çəkirdilər. Buna görə də onunla, demək olar ki, söhbət edə bilmədim. O, bizə gəlməyə söz verdi və həqiqətən gəldi, ancaq məni evdə tapmayıb.[4]

Xələfov Məhəmməd mənimlə yaxın münasibətdə idi və o, tutulanadək tez-tez bir-birimizə gediş-gəlişimiz olurdu, onu mənim qızım Nərmin də tanıyırdı. 1949-cu ilin aprelində sürgündən qayıdanda qızım onunla görüşüb və harada yaşadığını öyrənib, bunu mənə danışıb, bundan sonra arvadımla gedib Xələfovu gördük. Xələfov Türkiyədən 1926-27-ci illərdə gəlib".[5]

[1] Basqal kəndi indi İsmayıllı rayonundadır.
[2] AR MTN Arxivi, PR-21950, vv. 33-34.
[3] Yenə orada, vərəq 51a.
[4] Yenə orada, vərəq 63a.
[5] Yenə orada, vərəq 64.

Məhəmməd oğlu[1] Həmid Xəlil (Ataman, Həmid Xəlil)

[20.1 (2.2).1900, Qars – 18.3.1979, Ankara]

Allah, adamınkını gətirəndə gətirir!

13 iyul 2013-dür. İnternetdə "gəzişirik". Gözümüz "İsmi de, mesleği de dedesinden miras" adlı bir müsahibəyə sataşır. "Akşam" qəzetinin əməkdaşı *Türkan Yılmazer* 16 yanvar 2011-ci il tarixli sayda Nyu-York Rokfeller Universitetinin əməkdaşı olan gənc alim *Ataman Şəndöl'lə* söhbət edərkən qarşıdakı cavab verir ki, mənim babam Dr. Həmid Atamandır.[2] O Ataman ki, Cümhuriyyət hökuməti onu Almaniyaya oxumağa göndərib, o da Sovetlərə nifrət etdiyinə görə təhsilini bitirəndən sonra Azərbaycana dönməyərək Türkiyəyə gedib. O Ataman ki, qardaş ölkədəki yaşamı və fəaliyyəti haqqında geniş bilgi almaqdan ötrü döymədiyimiz qapı qalmayıb, ancaq nəticəsiz. Əlimizdəki yalnız dostumuz Ömər Özcanın Ankaradan göndərdiyi bir neçə qəzet-jurnal məqaləsidir ki, onlarda da Atamanın həyatının Türkiyə dönəmi zəif işıqlandırılıb.

Müsahibənin altında "Akşam"ın sağlıq editörü Türkan xanımın e-maili də vardı. Tez ona məktub yazıb bizi Ataman bəylə calaşdırmasını xahiş etdik. Sağ olsun, bir neçə saatdan sonra A.Şəndölün e-mailini göndərdi.

Lənqimədən Ataman bəyə yazaraq məqsədimizi açıqladıq və babası haqqında bilgilər verməsini xahiş etdik (və biz də ona Həmid bəylə bağlı bəzi materiallar göndərdik). Ertəsi gün cavab aldıq:

"Değerli Adalet Tahirzade. Mektubunuz ve gönderdiğiniz materyaller için candan teşekkür ederim. Evet, ben Dr. Hamid Halil Ataman'ın torunu, büyük kızının oğluyum. Şu anda New York'ta bulunmaktayım. Dedemin Türkiye'deki hayatı hakkındaki bilgiler için annem Dr. Turunç Şendöl ve teyzem Ecz. Narınç Ataman Size yardımcı olacaklardır. Mektubunuzu onlara ileteceğim. Sizinle seve seve haberleşir, bilgi verirler".

Bir-iki gün sonra Ankaradan Narınc xanımdan məktub gəldi. Sonra Turunc xanımla da əlaqə saxladıq. Oktyabr ayında Ankarada Narınc xanımın özüylə görüşdük. Bacılar bizə təkcə ataları və anaları yox, onların valideynləri haqqında da geniş yazılı bilgilər və bəlgələr verdilər, Həmid bəyin bir çox nadir fotolarını təqdim etdilər. (Yeri gəlmişkən, onlardan bir neçəsi Məhəmmədəmin Rəsulzadə və yoldaşının onların evində çəkilmiş şəkilləri idi).

Beləliklə, Dr. Həmid Atamanla bağlı ən geniş bilgi artıq ortalıqdadır.

* * *

Bu yazının ortaya çıxmasında yararlandığımız başlıca qaynaqlar Turunc və Narınc Atamanların bizə göndərdiyi bəlgələr və xatirələr, Həmid Məhəmməd oğlunun (Məhəmmədovun) AR Dövlət Arxivində saxlanılan şəxsi işindəki[3] sənədlər və Azərbaycan Kültür Dərnəyinin orqanı olan "Azərbaycan" dərgisinin Dr. Həmid Atamanın ölümünə həsr edilmiş sayındakı silsilə məqalələrdir.[4]

[1] Soyadı bir çox qaynaqlarda "Məhəmmədov" kimi də gedib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.
[2] http://www.aksam.com.tr/roportaj/ismi-de-meslegi-dedesinden-miras--12473h/haber-12473.
[3] ARDA, f.ond 51, siyahı 3, iş 98.
[4] Op. Dr. Hamid Halil Ataman (02.02.1900-18.03.1979). // *"Azerbaycan"* Dergisi, 1979, sayı 230, ss. 11-13; *Dr. Ataman Ş.* Eşim Dr. Hamid Ataman. // *"Azerbaycan"* Dergisi, 1979, sayı 230, ss. 14-16; *Aküzüm F.* Bir Lideri Daha Kaybettik. // *"Azerbaycan"* Dergisi, 1979, sayı 230, ss. 17-20; *Ataman Ünver N.* Sen. (Şeir). // *"Azerbaycan"* Dergisi, 1979, sayı 230, s. 20; *Karaca A.* Dr. Hamid Ataman Azerbaycan Milli Davamıza Unutulmaz Hizmetler Verdi. // *"Azerbaycan"* Dergisi, 1979, sayı 230, ss. 21-23; Dr. Ataman Bey Toprağa Verildi. // *"Azerbaycan"* Dergisi, 1979, sayı 230, ss. 24-26; *Karaca A.* Azerbaycan Kültür Derneğinin Kurucusu ve İlk Genel Başkanı Dr. Hamit Ataman. // *"Azerbaycan"* Dergisi, 1996, sayı 311, ss. 22-25 və b.

Əlbəttə, oxuduqlarımızın hamısını diqqətlə yoxlamış, onlarda yol verilmiş bəzi yanlışlıqlara tənqidi yanaşaraq onları düzəltməyə də çalışmışıq. Eyni fakt haqqında fərqli fikirlər ortaya çıxarkən, təbii ki, rəsmi sənədlərdə yazılanlara üstünlük vermişik.

* * *



İsmayıl bəy Qazıyev, yoldaşı Əfruz xanım. İrəvan, 1900

Həmid Xəlil Ataman əski üslubla 20 yanvar, yeni üslubla 2 fevral 1900-cü ildə Qarsda doğulub. Babası Qarsda "Sarı Xəlil" ləqəbiylə anılırdı. Anası *Turunc xanım*, atası *Məhəmməd bəy*'di.

Azərbaycan Dövlət Arxivində saxlanılan şəxsi işindəki doğum şəhadətnaməsində yazılıb:

"Bunu Qars əyaləti Qars dairəsinin qazısı Əli əfəndi Həsrətzadə Qars şəhərinin sakini Həmdi Məhəmməd oğluna onun xahişinə əsasən ona görə verib ki, Həmdi həqiqətən Qars şəhərində öz atası Məhəmməd Xəlil ağa oğlunun qanuni arvadı, elə həmin şəhərin sakini Turunc xatun Molla Süleyman qızından hicri 1317-ci il rəbiül-axir ayının 10-cu günü (rus tarixi ilə 20 yanvar 1900-cü il) doğulub və bunu imza və şəxsi möhür basmaqla təsdiqləyirəm. 22 iyun 1908-ci il. Qars əyaləti Qars dairəsinin qazısı Ə.ə.Həsrətzadə".[1]

Turunc və Narınc bacılarının da bildirdiyinə görə, doktor Həmid Xəlilin atasının adı Məhəmməddir (Mehmet). Onun harada və haçan doğulduğu bilinmir. Fotosu da qalmayıb. Tək bilinən budur ki, Həmid çox kiçik ikən atası dünyadan köçüb, heç oğlunun yadında qalmayıb. Həmidin anası gənc Turunc xanım Məhəmməd adlı başqa bir kişiyə ərə gedib və körpə oğlunu da özüylə götürüb. Bu əri Məhəmməd bəy də çox gözəl bir insanmış və Həmidə doğma övladı kimi qayğı göstərib. Həmid 7-8 yaşınadək onu öz atası bilib. Bir gün Məhəmməd bəy onu yanına alıb gəzməyə çıxıb və o zaman gerçəyi anladıb. Həmid bundan çox kədərlənib və çaşıb qalıb, çünki, onun fikrincə, bu Məhəmməd bəydən daha yaxşı atanın olması mümkün deyilmiş. O da Məhəmməd bəyə sonadək öz doğma atası kimi hörmət və sevgi ilə yanaşıb.

Həmid Xəlilin anası Turunc xanım haqqında da bilgi çox deyil. Həmid onu çox sevirmiş. Turunc xanım ləzzətli xörəklər bişirmək ustasıymış. Məsələn, onun bişirdiyi qazdan olmazmış. Sonralar yoldaşı Şəfiqə xanım sulu köftə bişirəndə Həmid bəy çox sevinər, "anamın köftəsindəndir" deyərmiş.

Həmid Xəlil Qarsda (indiki Kaleiçi məhəlləsində) bir çiftlikdə doğulub (burada 6 aylığında çəkilmiş uşaqlıq fotosu qalmaqdadır). Əkin-biçin yerləri, tarlaları varmış. Həyatları gözəl keçirmiş, ehtiyacları yoxmuş. Hətta bacılarına Parisdən sabun və ətriyyat gətirilirmiş. Həmidin 5 yaşı olanda atası ona ad günü hədiyyəsi olaraq kiçik bir arabaya qoşulmuş balaca at (poni) və kiçik tarla parçası bağışlayıb, o sahənin əkin-biçin ağalığını da ona həvalə edib.

[1] ARDA, fond 51, siyahı 3, iş 98, vərəq 3.



Həmid Xəlil Məhəmməd oğlu



Məhəmməd bəy Əlibəyzadə

Həmid Xəlilgil 8 bacı-qardaş olublar. Həmid onların sonbeşiyidir. Böyük qardaşlarından ikisini bolşeviklər 1920-ci illərdə evdən aparıblar və onlar bir daha geri dönməyiblər. Yerdə qalan böyük bacıları və qardaşları yaş sırasına görə Emeti xanım, Təmimdar bəy (neft uzmanı), Müxlis bəy və İrəvanda yaşayan 82 yaşlı (1979-cu ildə) böyük bacısı Səkinə xanımdır.[1] Səkinə xanım 1917-ci ildə ərə gedərkən Həmid onun belinə qırmızı qurşağını bağlayıb və bundan sonra bir-birini görməyiblərmiş. 1973-cü ildə İrəvanda yaşayan Səkinə xanım oğlu Kamil Miskərov ilə birlikdə İrəvandan Türkiyəyə gedib, bacı-qardaş 56 il ayrılıqdan sonra yenidən görüşüblər. (Bu görüşü təşkil etmək üçün Həmid Atamanın həyat yoldaşı Şəfiqə xanım da o illərdə çox zəhmət çəkibmiş). Kamil Miskərovun 3 qızı var və Bakıda yaşayırlar. H.Atamanın kiçik qızı Narınc xanım onlardan birinin oğlu Zaur Qaraisayevlə 2008-ci ildə Bakıda görüşüb.

İlk məktəbi Həmid Qarsda bitirib. Bundan sonra böyük qardaşı Təmimdar bəy rus zülmünə qarşı qaçaq kimi mübarizə apardığına görə bütün ailə üzvlərinin mal və mülkləri əllərindən alınaraq Bessarabiyanın güneyindəki Bolqrad şəhərinə sürgün ediliblər. Bu üzdən Həmid orta təhsilin ilk illərini bu şəhərdəki Bolqrad liseyində oxumalı olub.

Romanov xanədanının 300 illiyi münasibətilə çıxan əfvdən faydalanan ailəsi 1913-cü ildə Qarsa qayıdıb. Ancaq az sonra etibarlı bir sənəddən oxuyacağımız kimi, "1914-cü il hadisələri zamanı"[2] atasını, anasını və bütün varidatını itirən Həmid Qarsdan Bakıya gəlib. Bu dönəmdə özəlliklə Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti Qars qaçqınlarına yaxından yardım göstərir və onları yerləşdirirdi. Yerli mətbuatda da bu haqda geniş yazılar verilirdi.

H.Atamanın böyük qardaşı *Müxlis bəy Məhəmməd oğlu (Məhəmmədov)* Cənubi Qafqaz Hökumətinin (Araz Cümhuriyyətinin) xəbərləşmədən məsul ümum müdiri (poçt-teleqraf işlərinə məsul) olub. İngilislər 1919-cu ildə onu da həbs edərək Maltaya sürgünə göndəriblər.

1920-ci ilin aprelində Araz Cümhuriyyətinin rəhbərlərindən 10 nəfər Maltadan Azərbaycan Cümhuriyyətinin İstanbuldakı Diplomatik Nümayəndəliyinə bu məzmunda məktub göndərib:

"Türk qoşunları Qarsdan getdikdən sonra durumun ağırlığını hiss edərək, hər bir millət kimi biz də öz təhlükəsizliyimizin qayğısına qalmağa başladıq. Bizi yerli əhali yaradılmış Cənub-Qərb Qafqaz Hökumətinin işlərini idarə etməkdən ötrü seçmişdi. Təhlükəsizlik işlərini qaydaya salarkən və əhalinin ehtiyaclarını aradan qaldırarkən 12 may 1335-ci ildə[3] ingilislər qəflətən və heç bir xəbərdarlıq etmədən bizi tutaraq Maltaya gətirdilər. 11 aydır ki, buradayıq. Kimsə müraciətlərimizə cavab vermir və bizə münasibətdə vicdanla davranmır. Buna görə də Azərbaycan Hökumətinin müstəqilliyi haqqında xəbərdən hədsiz sevinən bizlər onun diqqətini durumumuza yönəldərək bizimlə bağlı gərəkli tədbirlər görülməsini acizanə xahiş edirik.

[1] Op.Dr. Hamid Halil Ataman (02.02.1900-18.03.1979). // *"Azerbaycan"* Dergisi, 1979, sayı 230, s. 11.

[2] Bizcə, *H.Xəlilin* yazdığı "1914-cü il hadisələri" Qarsda baş verən erməni-müsəlman qırğınlarıdır ki, onun ata və anasını ermənilər bu davada məhv ediblər.

[3] 12 may 1919-cu ildə.



Ruqiyyə xanım

İmzalar: Əziz bəy, hüquq üzrə müavir	*2712*[1]
Əlifbəyzadə Məhəmməd bəy, Qars maliyyə müdiri	*2719*
Ərzaq naziri Yusif Yusifov	*2721*
Hərbi nazir Cahangirzadə	*2715*
Cənub-Qərb Hökumətinin müvəqqəti Baş naziri İbrahim	*2717*
Mühacirlər komissiyasının sədri (xəstə)	
Polis komissarı Musa Salam	*2720*
Poçt-Teleqraf İdarəsinin müdiri	
Müxlis bəy Məhəmmədzadə	*2727*
Mühacirlər komissiyasının üzvü M.Raçinski	*2725*
Mühacirlər komissiyasının üzvü Pavel Cantiyev	*2714*
Polis rəisi (imzası qarışıqdır)	*2722".*[2]

Bilal Şimşirin "Maltə sürgünləri"[3] və Erkan Karagözün "Güneybatı Kafkasya" kitablarında Müxlis bəydən də söz açılıb. İkinci kitabda Maltada sürgün olanların kollektiv fotoları arasında Müxlis bəyi də görürük. O, Malta illərində Qarsdan yaxın dostu, sonralar Dr. Həmid Atamanın qayınatası olmuş Məhəmməd bəy Əlibəyzadə ilə (Milli Şura Hökumətinin ilk mülki Qars valisi) daha da yaxın dostluq və əməkdaşlıq edib].

Bakıda gimnaziyada oxuyan Həmid Xəlil dərslərini yaxşı oxumaqla yanaşı, məktəb həyatında da çox fəal iştirak edib. Şəxsi arxivimizdəki nadir fotolarda Qafqaz müsəlman şagirdlərinin Bakıda 10 may 1917-ci ildə keçirilmiş I qurultayının nümayəndələri arasında Həmid Xəlil Məhəmmədovu[4] da görürük. Bu, o zamandı ki, artıq Rusiyada çarizm devrilmişdi və indiyədək əsarətdə qalan xalqlar öz azadlıqları uğrunda mübarizə haqqında düşünməyə, siyasi baxımdan təşkilatlanmağa başlamışdılar. Bütün Qafqazda Bakı müsəlmanların və Türklərin siyasi hərəkatının ən fəal mərkəzi idi. Hələ gimnaziya şagirdi olmasına baxmayaraq Həmid də o sıralarda milli hərəkata qatılaraq Azərbaycanın azadlıq və müstəqillik mücadiləsində önəmli işlər görürdü.[5] 1918-ci ilin yayında qəhrəman Türk Ordusunun qardaş yardımı ilə Azərbaycan və onun paytaxtı Bakı rus və erməni quldurlarından qurtarıldığı sırada bu orduya qatılan Həmid Xəlil düşmənlə üzbəüz ölüm-dirim savaşına girişib.[6]

Həmid Xəlil orta təhsilini 1919-cu ildə başa vurub. 311 saylı kamal attestatında oxuyuruq ki, bu attestat müsəlman, 20 yanvar 1900-cü ildə Qars şəhərində doğulmuş Həmdi Məhəmməd oğluna (Həmid Məhəmmədova) ona görə verilir ki, o, Bakı 1-ci kişi gimnaziyasına 23 sentyabr 1916-cı ildə girərək, 15 may 1919-cu ilə qədər əla əxlaqla oxuyub və 8-siniflik tam kursu bitirib, bu zaman aşağıdakı qiymətləri alıb:

Şəriət –	dörd (4)
Rus dili və ədəbiyyatı –	üç (3)
Fəlsəfi propedevtika –	dörd (4)
Latın dili –	üç (3)
Qanunşünaslıq –	dörd (4)
Riyaziyyat –	üç (3)

[1] Bu rəqəmlər Maltadakı dustaq nömrələrini bildirir.
[2] ARDA, fond 970, siyahı 1, iş 28, vv. 2-3.
[3] *Şimşir B.* Malta sürgünleri. İstanbul: "Bilgi" Yayınevi, 2009.
[4] Onun ailəsinin soyadı Bakıdakı bəlgələrdə "Məhəmmədov" göstərilib. Türkiyəyə getdikdən və soyadı qanunu çıxdıqdan sonra "Ataman"ı qəbul ediblər.
[5] Op. Dr. Hamid Halil Ataman (02.02.1900-18.03.1979). // *"Azerbaycan"* Dergisi, 1979, sayı 230, s. 11.
[6] Yenə orada.



Güney-Batı Qafqaz Cümhuriyyətinin (Araz Cümhuriyyətinin) öndərləri Malta adasındakı sürgün zamanı *(Erkan Karagözün "Güney-Batı Kafkasya" kitabından).*
Soldan sağa. Öndə: (?), Tövhididdin Mamilov, Stefan Valyadis, Simon Raçinski.
Arxada: (?), Müxlis Məhəmmədzadə (Ataman), Məhəmməd bəy Əlibəyzadə (Araslı), Musa Salahoğlu



Güney-Batı Qafqaz Cümhuriyyətinin (Araz Cümhuriyyətinin) öndərləri Malta adasındakı sürgün zamanı *(Erkan Karagözün "Güney-Batı Kafkasya" kitabından). Soldan sağa. Öndə:* 1-ci Əziz Cahangirzadə (Aydın).
Arxada: 3-cü Musa Salahoğlu, 4-cü Məhəmməd bəy Əlibəyzadə (Araslı)



Cümhuriyyət tələbələri. *Soldan sağa:* Qəhrəman Məmmədov, Həmid Xəlil Məhəmməd oğlu, Cəfər Kazımov, Rzaqulu Həsənov. Berlin, 1920

Riyazi coğrafiya –	dörd (4)
Fizika –	dörd (4)
Coğrafiya –	dörd (4)
Fransız dili –	üç (3)
Alman dili –	üç (3)
Türk dili –	dörd (4).[1]

Bu attestat ona ali məktəbə girmək hüququ verirdi və o, bu hüquqdan yararlanıb.

Artıq 1919-cu ilin yayında söhbət gedirdi ki, Azərbaycan Cümhuriyyəti hökuməti dövlət hesabına ali təhsil almaq üçün əcnəbi dövlətlərdə oxumağa 100 tələbə seçir. 11 avqust 1919-cu ildə Həmid Məhəmmədov Bakı şəhərində Cümhuriyyətin xalq maarif nazirinə rusca bu ərizəni yazıb:

"Buraya gimnaziyanı bitirməyim haqqında attestatın surətini, doğum şəhadətnaməsinin surətini və maddi durumum haqqında şəhadətnaməni əlavə edərək, cənab xalq maarif naziri, Sizdən xahiş edirəm ki, xaricə ali təhsil almaq üçün göndərdiyiniz tələbələrin siyahısına məni də salasınız. Mən Nansidə (Fransa) tibb fakültəsini bitirməyi arzulayıram.

1914-cü il hadisələri zamanı Qarsdan çıxaraq atamı, anamı və bütün varidatımı itirərək yalnız öz vəsaitimlə gimnaziyanı bitirmişəm. İndi bulunduğum acınacaqlı maddi durumum mənə haçansa ali məktəbi bitirmək imkanı çətin ki, versin. Nəhayət, qardaşım Müxlis Məhəmmədovun ingilis hakimiyyət orqanları tərəfindən Cənub-Qərbi Hökumətin üzvü kimi həbs edilməsi və onun İstanbuldan Malta adasına sürgün edilməsi məni çıxılmaz durumda qoydu, çünki onun yardımına umud bəsləyirdim. Qürbətdə tək qalaraq şagird hazırlamaqla özümə vəsait qazanıram, Azərbaycanı ikinci vətən sayıram və bununla yanaşı, Sizə bildirirəm ki, cənab nazir, Azərbaycana sərəncama əsasən olan iki il deyil, üç il xidmət etməyi öhdəmə götürürəm.

Umudvaram ki, xahişimi diqqətsiz qoymayacaqsınız".[2]

Cümhuriyyət hökuməti Həmidin adını öncə tələbəliyə namizədlər siyahısına salıb.

Həmid Məhəmmədov xalq maarif nazirinə 16 noyabr 1919-cu ildə yazdığı yeni ərizəsində də Fransanın Nansi şəhərində tibb fakültəsində (cərrahiyə bölməsi) oxumaq istədiyini bildirib. Ərizənin sonunda əl xətti ilə yazıb ki, mən 3 gündən sonra fotoşəkillərimi təqdim edəcəyəm.[3]

Həmid Məhəmmədov – Həmid Məhəmməd Xəlil 10 dekabr 1919-cu ildə ali təhsil alacağı xarici ölkədə heç bir siyasi və partiya işinə qarışmayacağı haqqında dilkağızı verib.[4] Ancaq 1919-cu ilin 18 dekabrında "Azərbaycan" qəzetində çıxmış 100 nəfərin son siyahısına onun adı düşməyib. 30 dekabr 1919-cu ildə isə Azərbaycan hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında dövlət qarşısında öhdəlik götürüb.[1]

İş burasındadır ki, qəzetdə adları çıxan 100 nəfərdən 5-i hansı səbəbdənsə oxumağa getməyib, ona görə də tələbələrin işləri ilə məşğul olan komissiya onların yerinə yeni 5 nəfəri daxil edib ki, onlardan biri də Həmid Məhəmməd oğlu (Məhəmmədov) olub. Hökumətin yanvar1920-ci il tarixli ən son siyahısında Həmid Məhəmmədov (Həmdi Məhəmməd oğlu) *İtaliyaya göndərilən* 23 nəfərin arasında yer alıb.[2] (İtaliyada 23 nəfərdən cəmi 6 nəfər oxudu).

13 yanvar 1920-ci ildə Həmdi Məhəmməd oğluna (Həmid Məhəmmədova) verilmiş 540 saylı bəlgədə onun Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına xaricə ali təhsil almaq üçün göndərilməsi yazılıb və Həmid bu sənədi 14 yanvarda alıb.[3]



Həmid Xəlil Məhəmməd oğlu və Xəlil Musayev alman xanımlarla. Münxen, 1922

* * *


Türkiyədəki bir sıra mətbu qaynaqlarda göstərilir ki, Həmid Ataman Almaniyada öncə Tübingendə, sonra Berlində tibb təhsili alıb.[4] Ancaq əlimizdə mövcud olan və bu kitabın ikinci bölümündə verdiyimiz siyahılardan da göründüyü kimi, Həmid Xəlil az müddət Ştutqartda, sonra isə Münxen Lüdviq Maksimilian Universitetinin tibb fakültəsində oxuyub. Təsadüfi deyil ki, onun tələbəlik şəkillərinin çoxu elə Münxendə çəkilib və ən yaxın dostları da onunla eyni fakültədə oxuyan azərbaycanlı tələbələr, sonralar üçü də professor olmuş *İsmayıl Axundov, Mürsəl bəy Şahsuvarov (Şahsuvarlı)* və *Yusif Salahlı*'dır. Nəhayət, H.Atamana verilmiş "ətibbaya məxsus ixtisas vəsiqəsi"ndə də (1938) onun Lüdviq Maksimilian Universitetində tibb təhsili aldığı göstərilib.[5]

Birinci dünya savaşının qaliblərі olan İngiltərə, Fransa və İtaliya Azərbaycan tələbələrinin Almaniyada oxumasına icazə vermirdilər. Ancaq bu dövlətlərdə yaşayış hədsiz baha olduğuna görə tələbələrin çoxu az sonra Almaniyaya yol tapdı.

9 mart 1920-ci ildə Almaniyaya gedən 17 tələbənin nümayəndələri Həmid Məhəmmədov və Mirsadıq Sadıqovun imzaları ilə Romadan Azərbaycan Cümhuriyyətinin xalq maarif naziri adına rusca belə bir məktub göndərilib:

"Bunu Sizin nəzərinizə çatdırmaqla şərəflənirik ki, İtaliyadan keçməklə Almaniyaya gedən biz tələbələr hal-hazırda Romada viza gözləyirik. Parisdəki Sülh Heyətimizin xəbəri olmaqla bizim maraqlarımızı Romada Gürcüstan missiyası müdafiə edir. Bugünlərdə viza alacaq və bu haqda sonra Sizə ətraflı məlumat verəcəyik. Parisdən 1 maya qədər olan təqaüdləri almışıq. Bütün yoldaşlarımız sağlamdır".[6] (Sonra Almaniyaya gedəcək ilk 17 nəfərin siyahısı verilib).

[1] ARDA, fond 51, siyahı 3, iş 98, vərəq 2.
[2] Yenə orada, vv. 1-1a.
[3] Yenə orada, vərəq 4.
[4] Yenə orada, vərəq 6.
[1] ARDA, fond 51, siyahı 3, iş 98, vərəq 5.
[2] Yenə orada, iş 40, vv. 9-10.
[3] Yenə orada, iş 98, vərəq 7.
[4] Məsələn: Op. Dr. Hamid Halil Ataman (02.02.1900-18.03.1979). // *"Azerbaycan"* Dergisi, 1979, sayı 230, s. 11.
[5] Bu sənədin surətini bizə dəyərli Ataman bacıları göndərib.
[6] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 46



Almaniyada tibb təhsili alan azərbaycanlı tələbələr. *Soldan sağa:* İsmayıl Axundov, Həmid Xəlil Məhəmməd oğlu, Yusif Salahlı, Mürsəl bəy Şahsüvarlı. Münxen, 1923

Həmid bəy Almaniyada təhsilinə davam edərkən yurdu Azərbaycanı 27 aprel 1920-ci ildə bu dəfə də kommunist ruslar istila edincə təhsil alan tələbələrlə birlikdə o da böyük maddi sıxıntılarla qarşı-qarşıya qaldı. *"Bu dönəmdən söz açarkən özündən danışmaz, ancaq yoldaşlarına kommunistlərin necə təzyiq etdiklərini, bu üzdən bəzi tələbələrin məktəbi tərk etdiklərini acı-acı anladırdı. Bütün bu basqı və sıxıntılara baxmayaraq Dr. Ataman Almaniyada tibb təhsilini tamamlayaraq özünü tamamilə Milli Azərbaycan Davamıza xidmətə verdi".*[1]

Almaniyada ağır durumda olduğu, dövlət təqaüdünün kəsildiyi zaman ona böyük qardaşı *Təmimdar bəyin* maddi yardım etdiyi anlaşılır.[2]

Həmid bəy hər zaman, hər vasitə ilə Azərbaycandakı rus-bolşevik zülmünü lənətlədi, heç vaxt onunla barışmadı. Bu haqda çıxışlarında belə deyirdi:

"Müstəqil Azərbaycanı rusların 5-ci qolu içdən, 11-ci ordusu çöldən (quzeydən) hücum edərək süngü gücüylə istila etdilər. Görünməmiş, eşidilməmiş zülmlər Azərbaycan Türklərinə rəva görüldü. Bolşevizm deyilən xortlamış əski rus imperializmi var gücüylə Azərbaycanda milli nə varsa hamısını yox etməyə çalışdı, fəqət başara bilmədi. Son dünya müharibəsi bunu göstərdi ki, bolşeviklərin basqısına baxmayaraq milli hiss inkişaf etdi və genişləndi. Günün birində bolşeviklər əkdiklərini biçəcəklər. Biz nə istiqlalımızı və nə də Vətənimizi unutmadıq, unutmayacağıq. O günə – o 28 May Qurtuluş gününə təkrar qovuşmaq üçün hamımız birlikdə çalışırıq və yenə çalışacağıq".[3]

Azərbaycan Cümhuriyyətinin qurulmasına böyük əmək sərf edən insanların xeyli hissəsi kommunist terrorundan qurtulmaq üçün qardaş Türkiyəyə sığındı və burada siyasi

[1] *Karacə A.* Dr. Hamid Ataman Azerbaycan Milli Davamıza Unutulmaz Hizmetler Verdi, s. 22.
[2] Op.Dr. Hamid Halil Ataman (02.02.1900-18.03.1979). // *"Azerbaycan"* Dergisi, 1979, sayı 230, s. 11.
[3] *Aküzüm F.* Bir Lideri Daha Kaybettik. // *"Azerbaycan"* Dergisi, 1979, sayı 230, ss. 19-20.

mühacir həyatı yaşadı. Məhəmmədəmin Rəsulzadənin hələ Türkiyəyə gəlmədiyi ilk vaxtlarda bu siyasi xadimlərin hər biri, necə deyərlər, öz canının hayında idi və Azərbaycan uğrunda mübarizədə birləşməmişdilər, halbuki buna ciddi ehtiyac vardı. Bu ehtiyacı hətta Almaniyada oxuyan tələbələr də hiss edirdilər. Onların içində, əlbəttə, xüsusi seçilənlərdən biri Həmid bəy idi. 1922-ci ilin yayında 6 tələbə İstanbuldakı Azərbaycan siyasi xadimlərinə ayrı-ayrı müraciətlə belə bir məktub göndərdi:

"Cümşüd xana,[1] *hərəminə.*
Ustad Hüseynzadə Əli bəyə və möhtərəm ailəsi əfradına.
Ağaoğlu Əhməd bəyin möhtərəm ailə əfradına.
Möhtərəm Yusif bəy Vəzirova.
Doktor Yaqub bəy[2] *dayımıza.*
Möhtərəm Şəfi bəy Rüstəmbəyova.
Möhtərəm Həmdi bəyə.[3]
Möhtərəm Xəlil bəy Xasməhəmmədova.
[...] Əmircanova.[4]

Biz atidə vazehül-imza[5] *iki Osmanlı və dört Azərbaycan Türkü sizi canü könüldən salamlar, ehtiramlar təqdim ediyoruz. İki qardaş qövmün xətrəsini təqdisən bu gün birləşin. Bir çox məhəbbətlərdən sonra sizin nami-mübəccəllərinizi*[6] *yad etdik. Bu münasibətlə qürbət diyarından gələn və salam və səadət təmənni edən hissiyatımızı hüsni-qəbul buyurmanızı rica ediyoruz.*

2-7-[13]38 / [1]922
1) Yusif Salahzadə Qarabağlı, Şuşa şəhərindən.
2) Hənifə Zülqədər, Qarabağ.
3) İsmayıl Axundov, Bakı.
4) Həmid Məhəmməd Xəlil, Qarslı.
5) Həmid Rüfət
6) (Həmid Rüfətin qızı Semi)".[7]

Münxen Lüdviq Maksimilian Universitetinin tibb fakültəsini 1927-ci ildə bitirib həkim diplomu alan Həmid Xəlil hələ bir neçə il Almaniyada qalaraq burada təcrübə qazandı.

Berlində çıxan "İstiqlal" qəzetindən alınmış kiçik bir xəbər Dr. Həmid Məhəmməd Xəlilin bu dönəmdə ciddi siyasi fəaliyyətlə də məşğul olduğunu təsdiqləyir.

Berlindəki Azərbaycan Türkləri 28 may 1932-ci il tarixini istiqlal ildönümü olaraq qeyd ediblər. Azərbaycan İstiqlal Cəbhəsinin təşkil etdiyi bu tədbirə azərbaycanlılardan başqa, Berlindəki Gürcüstan, Türküstan, İdil-Ural, Ukrayna, İran və Türkiyədən nümayəndələr, çox sayda alman qonaqlar da qatılıb. Toplantını Cəbhənin lideri Hilal Münşi açıb. Çıxışlardan sonra təbrik məktub və teleqramları da oxunub. Azərbaycan İstiqlal Cəbhəsi Münxen Şöbəsinin başqanı Dr. H.M.Xəlildən də təbrik məsajı gəlib.[8]

[1] Erməni terrorçusu Torlakyanın İstanbulda 1921-ci ildə şəhid etdiyi Behbud xan Cavanşirin qardaşıdır.
[2] Güman ki, Miryaqub Mehdiyev nəzərdə tutulur.
[3] Cümhuriyyət Parlamanının üzvü olmuş Əhməd Həmdi Qaraağazadə ola biləcəyini düşünürük.
[4] Cümhuriyyətin Parlaman üzvü və naziri olmuş Əbdüləli bəy Əmircanov.
[5] Aşağıda imzaları olan.
[6] Şanlı adlarınızı.
[7] Prof. Dr. Yavuz Akpınara məktubun əslinin fotosurətini Əli bəy Hüseynzadənin İzmir Ege Universitetinin arxivindən götürərək bizə göndərdiyinə görə minnətdarlığımızı bildiririk.
[8] *Qasımlı M.* Azerbaycan Türklerinin Milli Mücadele Tarihi. 1920-1945, ss. 517-518. Müəllif bilgini buradan götürüb: *"İstiklal"* gazetesi (Berlin), 28 Mayıs 1932, №11.



Almaniyada tibb təhsili alan azərbaycanlı tələbələr. *Soldan sağa:* İsmayıl Axundov, (?), Həmid Xəlil Məhəmməd oğlu, Yusif Salahlı, Mürsəl bəy Şahsuvarlı. Münxen, 1923



Cümhuriyyət tələbələri. *Soldan sağa:* Mürsəl bəy Şahsuvarlı, Həmid Xəlil Məhəmməd oğlu, Yusif Salahlı, İsmayıl Axundov. Münxen, 1923



Almaniyada oxuyan azərbaycanlı tələbələr yeni il ərəfəsində.
Soldan sağa. Öndə: 1-ci İsmayıl Axundov, 2-ci Həmid Xəlil Məhəmməd oğlu, 3-cü Mürsəl bəy Şahsuvarlı.
Arxada: 2-ci Xəlil Musayev, 7-ci Yusif Salahlı. Berlin, 28 dekabr 1925-ci il

Buradan aydın olur ki, İstiqlal Cəbhəsinin Almaniyadakı ən fəal üzvlərindən biri Dr. Həmid Xəlil imiş.

* * *

Almaniyada ümumcərrahi ixtisasını tamamlamış Dr. Həmid Ataman 1934-cü ildə[1] Türkiyəyə gəlib. Öncə bir müddət Kırklareli/ Bahaəski Hökumət Təbibliyində çalışıb.

Buradaca bir məqamı qeyd etməliyik ki, istər Almaniyada oxuduğu bütün müddətdə, istərsə də Türkiyəyə ayaq basdığı ilk andan Dr. Ataman Azərbaycanın istiqlal savaşı uğrunda mübarizəsini bir an belə dayandırmayıb və özünü ən fəal müsavatçılardan biri kimi göstərib. Dediyimizə bircə sübut. 1936-cı ildə Varşavada Azərbaycan Milli Müsavat Partiyasının konfransı keçirilib. Bu yığıncaqda partiyanın Ankara təşkilatından Həmid Ataman bəy nümayəndə seçilib[2], ancaq o, konfransa şəxsən qatıla bilməyib və öz mandatını partiya Divanı üzvlüyünə namizəd Kərim Odərə etibar edib.[3]

1938-ci ildə Sağlıq Vəkaləti (Səhiyyə Nazirliyi) tərəfindən genəl cərrah kimi Manisaya hökumət təbibi olaraq təyin edilib və Manisada nüfus kötüyünə qeyd olunub.

1941-ci ildə Dr. Ataman Sağlıq Bakanlığı tərəfindən Ankara Nümunə Xəstəxanasına (əski Qürəba xəstəxanası) təyin edilib. Öncə kiçik bir daş binada yerləşən xəstəxana bir az böyüdülüb, ona yeni klinikalar əlavə edilib. Almaniyadan – nasistlərdən qaçan professorlara gənc Türkiyə Cümhuriyyəti təhsil qurumlarında üstünlük verdiyi bir dönəmdə Nümunə Xəstəxanasında Qulaq-Burun-Boğaz Xəstəlikləri (QBB) Klinikasını qurmaq prof. *Maks Meyer*'ə tapşırılıb. Operator doktor Həmid Xəlil Ataman yüksək dərəcədə almanca bildiyinə və həkim kimi də özünü ən yaxşı cəhətdən göstərdiyinə görə professor Meyerin

[1] Bu tarixi Şəfiqə xanım Atamanın yazısından götürmüşük.
[2] Из истории Азербайджанской эмиграции. Сборник документов, произведений, писем, s. 270.
[3] Yenə orada, s. 272.



Soldan sağa: İsmayıl Axundov, (?), Həmid Xəlil Məhəmməd oğlu. Münxen, 1922

assistenti olaraq Nümunə Xəstəxanasına təyin edilib. O, Meyerlə birlikdə QBB Klinikasını quraraq bir yandan yeni QBB uzmanları yetişdirməyə xidmət edib, bir yandan da ikinci ixtisasını tamamlayıb.

Bu müddət içində xəstəxanada çalışa-çalışa eyni zamanda Ulus, Anafartalar caddəsində Berkman apartmanında özəl müayinəxanasını açaraq QBB mütəxəssisi kimi həm xəstəxanada, həm də müayinəxanada çalışıb.

1941-1942-ci illər arasında əsgərliyini çəkdikdən sonra Ankara uşaq islahevinə təyin edilib. Bu qurumda təqaüdə çıxdığı 1965-ci ilədək çalışıb.[1]

"Doktor Ataman bəy" (yoldaşının 4 qardaşı da daxil, ona hər kəs belə deyərdi) 23 mart 1946-cı ildə qadın doğum mütəxəssisi olan operator doktor *Şəfiqə Arslı* ilə ailə qurub. Şəfiqə xanım Qarsda qurulan Cənub-Qərbi Qafqaz Demokratik Cümhuriyyəti Milli Müvəqqəti Hökumətinin ilk mülki Qars valisi Məhəmməd bəy Əlibəyzadənin qızıdır.

Burada tarixə ötəricə göz yetirməyə ehtiyac duyulur. 27 sentyabr 1918-ci ildə Qarsda Müsəlman Milli Komitəsi (Milli Şura) yaradılıb.[2] 1 dekabr 1918-ci ildə Milli Şura "Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin yaradılması haqqında" qərar qəbul edib və həmin dövlət tarixə "Qars Cümhuriyyəti" adı ilə düşüb.[3]

17-18 yanvar 1919-cu ildə Cənub-Qərbi Qafqazdan gəlmiş 131 nümayəndənin iştirakı ilə keçirilən qurultayda Cənub-Qərbi Qafqaz Demokratik Cümhuriyyəti Milli Müvəqqəti Hökuməti yaradılıb.[4] Həmin hökumətin tərkibi belə idi: başçısı – Nazirlər Şurasının sədri *İbrahim bəy Cahangirzadə*, Parlament sədri Çıldırlı Dr. *Əsəd bəy Qazıyev (Oqtay)*, daxili işlər naziri Kağızmanlı *Əlirza bəy Ataman*, ədliyyə naziri *Abbasəli bəy Ağabababəyov-Muğanlinski*,[5] xarici işlər naziri *Fəxrəddin bəy (Ərdoğan)*, hərbiyyə naziri *Həsən bəy Cahangiroğlu*, maliyyə naziri *Mixail Andrianov* (daha sonra *Məhəmməd bəy Qocaoğlu*), iaşə naziri *Məhəmməd bəy Həsənbəyoğlu* (daha sonra *Yusif bəy Yusifzadə*), nafiə naziri *Mahmud bəy*, ziraət, meşə və ticarət naziri *Əliəkbər Kazım*, Poçt Genəl Müdiri *Orlov* (daha sonra *Müxlis bəy Məhəmmədov*).[6]

Dr. Həmid Atamanın qayınatası olan *Məhəmməd bəy Əlibəyzadə* Həmid bəyin böyük qardaşı Müxlis bəy Məhəmmədovun yaxın dostu idi. Onlar bir yerdə Maltada sürgündə olublar. Şəfiqə hələ 4-5 yaşındaykən Müxlis bəy Qarsda onların evinə gedərkən "sənі Almaniyada oxuyan qardaşım Həmid Xəlilə alacağam" deyərək Şəfiqəni hirsləndirir. Bir-birindən xəbəri olmayan bu iki insanın yolları 1944-cü ildə Ankarada birləşir. Ortaq

[1] Op. Dr. Hamid Halil Ataman (02.02.1900-18.03.1979). // "Azerbaycan" Dergisi, 1979, sayı 230, s. 12.
[2] *Hacıyev A.* Qars və Araz-Türk Respublikalarının tarixindən. Bakı, 1994, s. 13.
[3] Yenə orada, s. 16.
[4] http://www.karskentrehberi.com/cenubu_garbu_kafkas.asp.
[5] O, "100 tələbə"dən ikisinin (Adil və Əsildar Ağabababəyov-Muğanlinskilərin) atasıdır.
[6] http://www.karskentrehberi.com/cenubu_garbu_kafkas.asp.



Həmid Xəlil Məhəmməd oğlu, Qriqol Robakidze, Xəlil Musayev. Münxen, 1935

yaxınlarının tanış etdiyi Şəfiqə ilə Həmid anlaşıb və evlənməyə qərar veriblər. Beləcə Müxlis bəyin neçə illər öncəki arzusu yerinə yetib.

Həmid bəyin qızları Turunc və Narınc xanımlar bizə olduqca qiymətli iki yazılı xatirə təqdim ediblər. Onların biri Məhəmməd bəy Əlibəyzadənin, obiri isə onun qızı, Dr. Atamanın yoldaşı Şəfiqə xanımındır. Narınc xanım bunları özünün topladığı bir çox başqa sənədlərlə birlikdə kitab şəklində nəşrə hazırlayır. Təkcə Ataman və Əlibəyzadə ailələrinin keçmişiylə deyil, ümumən Azərbaycanın tarixi ilə də bağlı olduğuna görə həmin xatirələrin ən önəmli yerlərini burada xeyli qısaldaraq oxuculara təqdim edir, bu dəyərli vəsiqələri bizdən əsirgəmədiyinə görə Narınc xanıma ən dərin təşəkkürümüzü bildiririk.

* * *

Mən Məhəmməd Əlibəyzadə, yaxud Məhəmməd Əlibəyov İğdırda bir kənd bəyi olan Azərbaycan köklü Əli bəy (?-1921) ilə yenə İğdırda Hüseynkənddən olan 1850-ci il doğumlu Həcər xanımın 8 uşağından biriyəm. İğdır və ətrafı tarixdə bir çox dəfə əldən-ələ keçib. 1293 hərbi sonunda, yəni 1878-ci ildə hüdüddakı 3 vilayətlə birlikdə təzminat qarşılığı olaraq ruslara tərk edilib. Bu tərk zamanı yerli xalqın bir çoxu torpaqlarını buraxmamış, yerlərində qalmışdı. Qardaşım Həsəndən başqa, 6 da bacım var: Cavahir, Məhi, Gülsüm, Məsmə, Xurşid və ailəmizin ali təhsil görmüş bircə qızı Sara.

Atam bizləri oxumaq üçün öncə İrəvana, sonra da Moskvaya göndərdi. Moskva Universiteti hüquq fakültəsini bitirdim. Əhalisinin yüzdə altmışı Türk əsillilərdən ibarət, Azərbaycan Türk xanlıqlarının ən güclülərindən biri olan İrəvanın polis idarəsində məmuram. 1828-ci ildəki Türkmənçay müqaviləsi ilə İrəvan xanlığı və Naxçıvan xanlıqları da Rusiya idarəsinə keçdi. Çarın xidmətində məmur olan İrəvanlı bəyzadə İsmayıl bəy Qazızadə (Qazıyev) (1840-1910) ilə şəhərli aristokrat Mələk Əfruz xanımın 9 uşağından biri olan Ruqiyyə xanımla (?-1919) toy-düyün edərək evləndim.



Həmid Xəlil Ataman. Manisa

İsmayıl bəylə Mələk xanımın Ruqiyyədən başqa Fatma, Səkinə, Maku xanı Xurşid, Şövkət, Səltənət (Səlti) adında 6 qızı, Məhəmməd, Paşa və Yusif adında Moskvada təhsil almış üç oğulları var. Baldızım Fatma xanımın "Popka" ləqəbli qızı Kübra Moskvada tibb üzrə oxuyaraq qadın xəstəlikləri uzmanı olub. Qazıyevlərdən Məhəmməd və Paşa bəylərlə Moskvada hüquq fakültəsində oxuyan zamandan dostuq. Məhəmməd də mənim kimi vəkildir, Paşa bəy prokurordur, Yusif bəy isə meşə mühəndisi oldu.

Ailəmizdə İsmayıl bəy Qaspıralının qızı Şəfiqə Qaspıralı-Yusifbəyli hamımızın heyranlıq duyduğu bacarıqlı, güclü bir qadındır. 1904-cü ildə ailəmiz böyüdü, Ruqiyyə ilə Fuada qovuşduq. Sonra 1906-cı ildə Tofiq, 1909-cu ildə Ziya doğuldu. Bir qızımız da oldu, adını Qaspıralılara ithafən Şəfiqə qoyduq. Şəfiqə 2 yaşındaykən gəzməyə getdiyində yediyi bir otdan zəhərlənib öldü. 1912-ci ildə İrəvanın yay vaxtı getdiyimiz Dərəçiçək yaylağında 28 iyulda Adil doğuldu. Adildən sonra dünyaya gələn 2 oğlumuz Ənvər və Tələt də hələ balacaykən yoluxucu xəstəlikdən öldülər. 1916-cı ildə, eynən Adil qardaşı kimi, Dərəçiçək yaylağında 28 iyulda bir qızımız da dünyaya gəldi, onun da adını Şəfiqə qoyduq.

İğdırda həyat getdikcə çətinləşməyə başladı. Erməni zülmü və qətliamı ruslardan dəstək gördükcə artır, yayılırdı. Hərbi baxımdan güclənən rus hökuməti genişlənmə və ermənilərı yerləşdirmə siyasətini artırırdı. Osmanlı ilə İran sərhədində bir xristian xətti qurmaq məqsədilə İrandan 40 min erməni köçürüldü buralara. Artıq təkcə İrəvanın deyil, nəfəs aldığımız gözəl yaylağımız Dərəçiçəyin də dadı qalmadı. Bir gün Ruqiyyədən heç gözləmədiyim bir söz eşitdim: "Türk Ordusu buraya gələr və bizi bu zülmdən qurtararsa övladlarımdan birini qurban edərəm!".

Çox heyrətləndim, çox! Ancaq durum bu sevgi dolu qadına bunları söyləyəcək qədər çətin, qorxulu və əzablıdır.

Həyat qaralır, əziyyət böyüyür, çəmbər daralır. Çarə yoxdur, buralardan getməliyik. Düşünürük ki, evi-eşiyi toplayıb böyük və qiymətli əşyaları, xalıları İrəvanda dəvələrə yükləyib Qarakösəyə keçər, oradan Trabzona gedərik, Trabzonda dəvəçilərdən yükümüzü alıb vapurla İstanbula çatarıq.

Ailəcə Kağızmana çatırıq. Yanımda ailəm və balalarımdan başqa, anamla atam, bir də dayım Əlinağı bəy var. Köç yolunda daha sonra bacılarım da bizə qatılırlar.

Qarsda bir fəaliyyət, bir oyanış var. Türk Ordusunun qoruyucu qanadından məhrum qalan xalq özünü erməni və gürcü hücumlarından qorumaq üçün Milli Şura Hökuməti qurmağa çalışır. "Hüquq bilən, dil bilən, idarə təcrübəsi olan Məhəmməd bəyə ehtiyac var, bizə qatılsın" deyirlər. Məqsədlərini yaxşıca öyrənir, aldığım təhsil və qazandığım təcrübə ilə bu oyanış və müqavimətə dəyər qata biləcəyimə inanır və aralarına qatılıram. Qurucular arasında məndən başqa ali təhsilli yoxdur. 1 yanvar 1919-cu ildə qurduğumuz Milli Şura Hökumətinin ilk mülki Qars valisi olaraq vəzifəyə başlayıram. Bütün ailəm hələlik Kağızmandadır. Mən də gedib-gəlirəm.



Həmid Xəlil Ataman Ankara Nümunə Xəstəxanası önündə

Kağızmandan xəbər gəldi. Ruqiyyə xəstələnib. Qarsa dönüb bir ingilis həkim tapıb Kağızmana çatdırdım. Sən demə, Ruqiyyə 9-cu uşağımıza hamilə imiş, uşaq salıb. İngilis həkim Ruqiyyəni müalicə etmək üçün əlindən gələni edir. Müalicə nəticə vermir... Şəfiqə hələ 3 yaşında belə deyil.

Həyat yoldaşımı itirdim. Toparlanmam lazımdır. Uşaqları anama və artıq çox yaşlanmış atamla dayıma buraxıb vəzifəmin başına, Qarsa dönürəm. Milli Şura Hökuməti aylardır erməni zülmünə, gürcü istilasına və ingilislərə qarşı dirənməkdədir.

İngilislər erməni məsələsini müzakirə etmək üçün Milli Şura Hökumətindən bir toplantı tələb edib. 13 aprel 1919-cu ildə vali kabinetində ingilis nümayəndələri ilə toplanacağıq. Hökumət üzvlərinin hamısı deyil, ancaq xəbərləşmədən məsul vəkil Müxlis bəy (Məhəmmədoğlu – Ataman) də aramızda olmaq üzrə hökuməti təmsil edən 11 nəfərik. İngilislərin insan ovu başlatdıqlarından və Qarsı ermənilərə təslim etmək planlarından xəbərsiz halda, toplantıya gələcək vəzifə adamlarını gözləyərkən vali kabinetini ingilis əsgərləri mühasirəyə aldı. Dəhşətli bir plan hazırlanıb. Hamımızı əsgər gücünə tutuqlayıb bəşəriyyətdən uzaq məxluqlar kimi itələyə-itələyə yük vaqonlarına təpdilər.

Batuma doğru olduğunu sonradan öyrənəcəyimiz bilinməz bir yola çıxırıq. Milli Şura Hökumətinin qurucusu və başqanı Cahangiroğlu İbrahim bəy də bizimlədir...

13 apreldə mindirildiyimiz vaqonlarla Batuma nəql edildik, oradan da bir gəminin murdar qoxular və səfalət içindəki yük yerində İstanbula. 30 apreldə gəldiyimiz İstanbulda 45 gün Arabiyan xanda[1] tutdular bizi və İstanbulda toplanan padşah əleyhdarı dirənişçilərlə birlikdə 28 mayda "Princess Anne" gəmisiylə Maltaya 766 gün sürgün qalacağımız həbsxanaya götürdülər.

Artıq 2716 nömrəli Malta sürgünüyəm. Ən yaxın dostlarımdan biri Müxlis bəydir. 2727 nömrəli sürgün Müxlis bəy adanın evlərini model alaraq Malta daşından kiçik-kiçik evlər oyur.

Tutulduğum gündən bəri heç bir xəbər ala bilmədiyim uşaqlarımın yabançılar arasında, anasız-atasız qaldıqlarını, onları dolandıracaq kimsələri olmadığını, heç bir dolanışıq mənbəyi bulunmadığını və balalarımın yardımına getməyimin gərək olduğunu ingilis komandanlığına məktublarla açıqladım. İngilislər ərizələrimi cavabsız buraxdılar. Bu dəfə də Şərq Ordu komutanı Kazım Qarabəkir paşaya uşaqlarımın durumunu bildirərək balalarımı tapmasını xahiş etdim. Sən demə, məktubum əlinə keçib və [Kazım] Qarabəkir paşa uşaqlarımın tapılmasını əmr edib.

İngilislər erməni məsələsini yeni başdan ələ almaq istəyirlər. Bizləri özəl hərbi məhkəmə önünə çıxaracaqları xəbərini alırıq. Sonra Mustafa Kamal paşanın ingilislərlə durumu müzakirə etdiyini, onların niyyətini anlayınca "yaxşı, siz onları məhkəmə önünə çıxara bilərsiniz,

[1] "Xan" sözü Türkiyədə "karvansaray" anlamında işlədilib.



Həmid Xəlil yoldaşı Şəfiqə xanımla.
15 dekabr 1950-ci il

mən də buradakı ingilisləri casus olaraq məhkəmə önünə çıxaracağam" dediyini öyrənirik. Bundan sonra mühakimə edilməyimizlə bağlı niyyətlərinin qarşısı alındı və məhkəməyə çıxarılmadıq.

İngilislərlə təşkil edilən əsirdəyişmə anlaşmasıyla biz, Qarsda tutulanlar 30 may 1921-ci ildə İstanbula gətirildik və qatarla Batum yoluyla Qarsa döndük. 25 aylıq əsarət bitdi. Balalarıma qovuşdum.

Bir müddət Qarsda qaldıqdan sonra bolşeviklərin "Leninakan" adı verdiyi Gümrüyə vitse-konsul təyin edilirəm. Oğullarımı hərbi məktəbdə buraxıb anam və Şəfiqə ilə Gümrüyə gedir, konsulluqda yerləşirik.

Konsulluqda bir müddət az maaşla çalışdıqdan sonra Qarsdan olan təşəbbüsçülərin qurduğu Türkiyə-Rusiya arasında ticarət aparacaq bir şirkətə ortaq olur, şirkətin Gümrü təmsilçiliyini üzərimə götürürəm. Çox şükür, işlər yolunda gedir, narazı deyiləm.

Şirkətin işləri yaxşı gedir. Bolşeviklərin diqqətini çəkirik və bir gün ÇEKA tərəfindən həbs edilirəm. Mənə irəli sürülən suçlama "Türklərə bizdən bilgi verirsən" yönündədir. İnsanın taleyində əziyyət dolu günlər yazılıdırsa mən bu günləri artıqlamasıyla çəkdim. Ankara hökuməti mənim onlarla heç bir əlaqəm olmadığını bildirərək həbsimə etiraz etdi. Sonunda bolşevik hökuməti 1926-cı ilin qışında məni sınırdışı etmək qərarı verdi.

Tofiq, Ziya, Adil və Şəfiqə İstanbulda oxuyurlar. Onlardan ötrü çox darıxıram. Qarsda anam, Fuad, Leyla və uşaqları ilə birlikdə xoşbəxtəm. Ənvərdən sonra dünyaya gələn Günər o qədər gözəl bir çocuqdur ki, onu "gözəllik kraliçası olacaq mənim qızım" deyə əzizləyirəm.

1933-cü ilin 9 iyul günü Fuad ilə Leylanın 2-ci oğulları Atilla doğuldu. Günərlə Maral hələ çox kiçikdirlər…

Oxucuya xatırlatma: bu xatirənin yazarı Məhəmməd bəy Əlibəyzadə 24 avqust 1933-cü ildə dünyasını dəyişib.

* * *

Mən Şəfiqə Əlibəyzadə-Araslı hələ 3 yaşımda deyiləmmiş… Yataqda dodaqları bənövşəyi olmuş bir qadın yatır. Bu, mənim anam imiş. Yüksək iltihab qanını zəhərləyib. Mən hələ çox kiçiyəm. Ancaq ən böyüyümüz Fuad qardaşım on beş yaşındadır.

Ailənin böyükləri Qarakösəyə gedib dəvəçilərdən əşyalarımızı almağa qərar verdi. Çətin bir yolçuluqla bəzən at belində, bəzən öküz arabalarıyla, bəzən piyada ac və yorğun kürd kəndlərindən keçərək Qarakösəyə doğru yollanırıq. Qarakösəyə çatdığımızda dəvəçilər anamın öldüyü, atamın da əsir düşdüyü xəbərini almışdılar. Əşyalarımızı ailənin yaşlılarına və uşaqlarına vermək istəmədilər, ancaq bizdən də qurtula bilmədilər. Dəvəçilər bizim atlas yorğanları söküb qadınlarına paltar tikmişlər.

Qarakösədə yarıac-yarıtox titrəyərək aylar keçirdik. Atamın anası Həcər xanım zaman-zaman yeyəcək bir şeylər tapıb gətirirdi bizə. Boğazımızdan keçənlərin sonradan

anam Ruqiyyə xanıma aidliyini və köç vaxtı Həcər nənəmin sinəsində gizlətdiyi, qənaətlə çıxardığı cavahirat və rus gümüş pullarıyla alınan qidalar olduğunu anlayıram. Bu çətin günlər böyük qardaşlarımın danışdıqlarından yadımdadır. Qarakösədən özümün xatırladığım bircə şey Qurban bayramında yeməyə heç bir şey tapa bilməməyimizdir.

Sonradan öyrəndim ki, Kazım Qarabəkir paşa bizim tapılmağımıza əmr verib, ancaq bizlə bağlı bir məlumat əldə edə bilməyib. Allahdan bir gün Qarabəkir paşa və yanındakılar Qarakösəyə gəlir. Buranın böyükləri gələn qonaqları öz evlərində ağırlamaq istəyirlər. Torpağa basdırdıqları qazları bişirəcəklər, ancaq nə boşqab var, nə çəngəl-bıçaq. Araларından biri "burada görüb-götürmüş qaçqın bir ailənin uşaqları var, olarsa onlarda olar" deyir. Bizdən çəngəl-bıçaq, boşqab istəyirlər, veririk. Rus istehsalı olan gümüş çəngəl-bıçağın üstündə İsmayıl bəy Qazıyevlə onun yoldaşı Mələk xanımın, yəni babamla nənəmin gerbləri həkk olunub. Paşalar bu gerbləri görüncə "kimdir bu gerbli qaşıqları işlədən?" deyə soruşurlar. Şanssızlıq içindəki şans bax budur! Paşa bizi tapır. Yeyəcəkləri daşıyan iki furqon təcili göndərildi bizim qaldığımız yerə. Dəvəçilərin əlindən ala bildiyimiz əşyalarla birlikdə furqonlara mindik və Ərzuruma göndərildik.

Dörd qardaşımla bibioğulları Osman və Abbas Ərzurumdakı hərbi məktəbə yerləşdirildi, bizə maaş kəsildi, ayrıca Ərzurumun Aşağı Mumçu məhəlləsindəki ikiqatlı evimizə hər ay bir furqon dolusu ərzaq göndərilməyə başlandı.

Bir də babamın 1921-ci ildə Ərzurumda ölümünü xatırlayıram.

O əsnada Sarıqamış və Qars ingilislərdən geri alındığına görə Ərzurumdakı hərbi məktəb Sarıqamışa köçürülmüşdü. Təbii ki, biz də müraciət etdik, böyük qardaşlarım kimi Qarsa köçdük.

Əsirlər dönür. Atama sarılıram. Evimizə gələn qonaqlar arasında atamın yaxın dostu Müxlis bəy də var. Müxlis bəy məni çox əzizləyir: "Bu qız çox ağıllıdır. Ən yaxşısı, bu gözəl qızı qardaşım Həmidə alaq" deyir. "Bu adam nə biçim danışır?" deyə çox qızıram. Deyirəm: "Ata, bu adam bir daha gəlməsin evimizə".

Necə olur bilmirəm, özümüzü Gümrüdə görürəm. Konsulluğun önündə bir bina var. Orada qalırıq. Əslində ibtidai məktəbə getməyim lazımdır, ancaq Leninakanda (Gümrüdə) Türk məktəbi yoxdur. Konsulluğun katibi müəllimim olur, konsulluğun başqa məmuru Bəhriyə xanım mənə əski türkcə oxuma-yazma öyrədir. Başqa bir rus madmazeldən rusca, digər rus madamdan piano dərsi alıram.

Mən 7-8 yaşındayam. Atamın yanında çox xoşbəxtəm. Başımı oxşayır, məni dizinin üstündə oturdub atıb-tutur, "həkim qızım mənim, Popka bibiqızım kimi həkim olacaq, həkim qızım mənim" deyə əzizləyir.

Nənəm Tiflisdə yaşayan Həsən əmimi görmək istəyir. Əmim orada müəllimlik edir. Vera küçəsində U şəklində üçqatlı, gözəl bir bağçaya açılan, yüksək tavanlı möhtəşəm bir evi var. İki ay onunla qalırıq. 1968-ci ildə Fuad qardaşımla birlikdə Sovetlər Birliyinə bir turist gəzintisi



Narınc, Şəfiqə xanım, Turunc, Həmid Xəlil.
Ankara, 1956



Həmid Xəlil Atamanın evində. *Soldan sağa. Ondə:* Həmid Atamanın qızı Turunc. *Ortada:* Məhəmmədəmin Rəsulzadənin yoldaşı Leyla xanım, H.X.Atamanın yoldaşı Şəfiqə xanım, Məhəmmədəmin Rəsulzadə. *Ayaq üstdə:* Həmid Xəlil Ataman. Ankara, 1949

ilə getdiyimiz zaman Tiflisə də baş çəkdik, iki gün bir gecə orada qaldıq, gedib əlimlə qoymuş kimi tapdım Vera küçəsindəki o evi.

Bir başqa tətildə atam nənəmlə bizi Bakıda yaşayan Sara bibimin yanına göndərdi. Bir ay qaldıq orada, gözəl günlər keçirdik.

Gümrüyə döndükdən qısa müddət sonra həyat yenidən qaralmağa başladı.

1926-cı il. Rus maşınından babamı düşürürlər. Hamımız birlikdə Türk hökumətinin göndərdiyi kiçik bir arabaya minirik. Yerlər buz tutub. Qarabağ atının qoşulduğu araba titrəyir, biz də titrəyirik. Yenə də yolboyu bir-birimizi həsrətlə və umudla isidərək axşamüstü Qarsa yetişirik. Fuad qardaşım Qarsa dönüb, Leyla xanımla evlənib, bir oğulları da olub; kiçik Ənvər bir neçə aylıqdır. Bizi qarşılayırlar. Fuad qardaşım Qarsda fotoqrafxana açıb, onların qaldığı evə yerləşirik.

1927-ci ilin payızında məktəbə gedirəm. Qars mərkəz ibtidai məktəbinin müəllimləri məni imtahan edir, aydın olur ki, Gümrüdəki konsulluq məmuru müəllimlərim məni yaxşı yetişdiriblər, dördüncü sinifdə oxumağıma qərar verilir.

Dördüncü və beşinci sinfi çox gözəl oxudum.

1928-ci ildə Qars orta məktəbinə getməyə başladım. O il Ankaradan əmr gəldi ki, oğlanlarla qızlar eyni məktəbdə oxuya bilər.

Orta məktəbi çox yaxşı bitirdim, ancaq Qarsda lisey yoxdur. Mənsə oxuyacağam, buna heç şübhə yoxdur. Ancaq necə və harada düşünərkən bir möcüzə baş verir – valilik orta məktəbdə bacarıqlı olan 6 şagirdi İstanbula liseydə oxumağa göndərməyə qərar verir. Üç qız və üç oğlan təhsil xərcləri valilikdən ödənilməklə İstanbula müxtəlif liseylərə göndəriləcək. Qars orta məktəbini ən yüksək dərəcə ilə bitirmiş 3 qızdan biri mənəm. İstanbulda Kandilli qız liseyində Sultan II Mahmudun öz qızı Adilə sultan üçün tikdirdiyi sarayda oxuyuruq.

Mən getdiyim zaman dərslər çoxdan başlanıb. "Mən onlara necə çatacağam, evdən ötrü də darıxıram" deyə-deyə üç ay keçirirəm.

Doqquzuncu-onuncu siniflə iki şöbə var – fənn və ədəbiyyat şöbəsi. Toplam 84 qızıq. Fənn şöbəsində 22 qız tələbəyik, yerdə qalanlar ədəbiyyatdadır.

1934-cü ilin yazında, nəhayət, liseyi bitiririk, bakalavr imtahanları başlayır. Kandillini yalnız 3 nəfər bitirdik o yazda. Məktəbi bitirdikdən sonra Adil qardaşımla birgə Qarsa səyahət edirik. Öyrəndim ki, atam ötən il vəfat edib. 17 yaşımda atasız da qaldım.



Məhəmmədəmin Rəsulzadə mühacirlərlə Anıtqəbir önündə. *Soldan sağa. Ondə:* 1-ci Fevzi Aküzüm, 2-ci Məhəmmədəmin Rəsulzadə, 3-cü Əbdülvahab Yurdsevər, 4-cü Həmid Xəlil Ataman. *Arxadə:* 1-ci Rəsul Ünsal (Azərbaycan Kültür Dərnəyinin 2-ci başqanı), 5-ci Əli Azərtəkin. Ankara, təx. 1940-cı illər

1934-cü ilin payızında Bəyazidə gedib əlimdəki bakalavr diplomuyla tibb fakültəsinə qeyd olunuram. Sevərək, istəklə, zövqlə çalışdım və bir gün belə tibb fakültəsinə girdiyimə peşman olmadım. Klinik dərslərin hamısından zövq aldım, ancaq bir uşağın dünyaya gəlişini, xəstə bir qadının yaxşılaşdırılmasını daim məqsədlərimə daha yaxın gördüm.

Buranı bitirdikdən sonra Dr. Şəfiqə Araslı olaraq nazirliyə etdiyim müraciətlə Haseki xəstəxanası ginekoloji klinikaya Tofiq Rəmzi Qazançıgil xocanın yanına assistent olaraq verilirəm. Bir qədər sonra ixtisas imtahanı da verdim, ginekologiya uzmanı oldum. Bundan sonra başqa həkimlər bir adamın canını qurtarmağa çalışırsa sən iki adam uğrunda çarpışırsan.

Tətili bitirib İstanbula döndüyümdə Səhiyyə Nazirliyinin Çorum doğum evinə ginekoloji mütəxəssis olaraq təyin edildiyimi bildirən yazını görürəm. 1943-cü ilin payızında mən də bir neçə parça əşyamı alaraq çalışma istəyi və həyəcanı içində Çoruma doğru yola çıxıram...

* * *

Dr. Həmid Ataman evləndikdən az sonra yoldaşı Şəfiqə xanım da onunla eyni binada müayinəxana açıb. Artıq səhərlər xəstəxanada çalışan ər-arvad günortadan sonra müayinəxanada görüşər, xəstəyə baxmağa davam edərdilər.

7 aprel 1948-ci ildə Həmid Xəlilin anasının adı verilmiş *Turunc* dünyaya gəlib.

Evliliklərinin ilk illərində Şəfiqə Atamanın Qurtuluş, Ozanlar sokakda böyük qardaşları və qardaşarvadları ilə yaşadığı binadakı mənzilini 1950-ci ildə Anafartalar caddəsində müayinəxananın olduğu binanın üçüncü qatındakı böyük dairəyə köçürüblər. İndi eyni binada həm işləyib, həm də yaşayıblar.

Qısa zamanda müayinəxanası dostlarının, yoldaşlarının görüş yerinə çevrilib. Dr. Həmid Ataman peşəsində olduğu qədər ictimai həyatda da qurduğu mükəmməl insani münasibətləri ilə gənc Türkiyə Cümhuriyyətində Azərbaycanın duyulması və tanıdılması yönündə bir çox dəyərli işlər görüb. Məsələn, radioda ilk dəfə Azərbaycan türkcəsi ilə şərqilər çalınmasını o təşkil edib.

Ailə dostları olan Məhəmmədəmin Rəsulzadə başda olmaqla başqa dava yoldaşları toplantıları onun bu müayinəxanasında gerçəkləşdirirdilər. "Bir kərə yüksələn bayraq bir daha enməz!" ülküsünə ürəkdən bağlanan bu gənclər Azərbaycanın bağımsızlığına könüldən inanaraq danışıblar, dartışıblar, çalışıblar. Əbdülvahab Yurdsevər, Rəsul Ünsal, Kərim



Məhəmməd bəy və Ruqiyyə xanım Əlibəyzadələrin övladları olan Araslı ailəsi. *Soldan sağa. Öndə:* Şəfiqə Ataman (Araslı), Fuad Araslı. *Arxada:* Ziya Araslı, Tofiq Araslı, Adil Araslı. Ankara

Yaycılı, Rəhim bəy və bir çox başqaları bu çalışmaların mərkəzində olub.

Azərbaycan mühacirətinin lideri Məhəmmədəmin Rəsulzadə Türkiyədə çoxpartiyalı sistemin həyata tətbiqinin yaratdığı şəraitdən istifadə edərək Ankarada da bir dərnək qurulması üçün dostlarına tövsiyədə bulunub. Bu tövsiyələrin icraçıları içərisində Dr. Ataman bəy önəmli yer tuturdu.

Ümumiyyətlə, Dr. Ataman və Rəsulzadənin həm öz aralarında, həm də ailələri arasında çox isti, səmimi münasibət vardı. Rəsulzadə dəfələrlə ömür-gün yoldaşı Leyla xanımla birgə Həmid bəyin ailəsinin əziz qonağı olmuşdu və bununla bağlı Ataman ailəsi bir çox nadir fotoları qoruyub saxlamaqdadır.

Beləliklə, məhz Rəsulzadənin təşviqi və tövsiyəsi isə Dr. Həmid Ataman, Dr. Əziz Alpaut və Məhəmməd Altunbayın rəhbərliyi altında 1 fevral 1949-cu ildə Ankarada Azərbaycan Kültür Dərnəyinin özülü qoyulub. Azərbaycan Kültür Dərnəyinin başqanı Dr. Həmid Ataman, başqan yardımçısı Dr. Əziz Alpaut, baş katib Fevzi Aküzüm, mühasib üzv Ənvər Roman, üzv isə Məhəmməd Altunbay seçiliblər.

Dr. Ataman, ilk qurulduğunda Dərnəyin binası olmadığı üçün toplantıların öz evində keçirildiyini, min bir çətinliklə bugünlərə gəlindiyini bildirib.[1]

1950-ci illərin başlanğıcında Həmid Ataman Ədliyyə Nazirliyi Ankara uşaq islahevinə təyin edilib və 1965-ci ildə təqaüdə çıxanadək orada çalışıb.

1953-cü ildə ikinci qızları *Nərinc* dünyaya gəlib.

1960-cı ildə müayinəxana və evlərini İzmir caddəsinə, yan-yana iki mənzilə köçürüblər. Müayinəxanaları artıq bu ünvanda qaldı, evlərini isə 1970-ci ildə Cinnah caddəsinə köçürəndə ilk dəfə evləri və işləri ayrı-ayrı yerlərdə oldu.

Dr. Həmid Ataman həkim kimi dünyadan köçənədək çalışıb.

1 *Dr. Şimşir S.* Azerbaycanlıların Türkiyede Siyasi ve Kültürel Faaliyetleri (1920-1991), ss. 166-167.

1977-ci ilin iyununda dünyaya gələn nəvəsi Atamanla (Turunc xanımın oğlu) həyatının ən böyük sevinclərindən birini yaşayıb.

1979-cu ilin fevralında evdə yıxılaraq çanaq sümüyünü *(kaput femur)* sındırıb. Bununla bağlı keçirdiyi əməliyyatdan sonra durumu ağırlaşıb və həmin ilin 18 martında dünyasını dəyişib.

"Azərbaycan" dərgisi redaksiya qeydində yazır:

"Yeri heç bir zaman doldurula bilməyəcək böyük mücahid, türkçü, azərbaycançı, milliyyətçi və Azərbaycan Kültür Dərnəyinin qurucusu Dr. Həmid Ataman bəyə Tanrıdan rəhmət, möhtərəm yoldaşı Dr. Şəfiqə xanımələndiyə, övladları Turunc və Nərinc xanımlarla kürəkənlərinə, Araslı ailəsinə, dost və qohumlarına və yerlilərimizə səbr və başsağlığı diləyirik".[1]

20 mart çərşənbə axşamı günü saat 12-də Dr. Həmid bəyin cənazəsi dost və yaxınları tərəfindən Maltəpə camesinə gətirilib. Orada cənazə namazının qılınacağı saata qədər havanın yağışlı olmasına baxmayaraq Azərbaycan Kültür Dərnəyi Mərkəz yönətim qurulu üzvləri ilə gənclik qolu üzvləri rəhmətliyin cənazəsi başında beş dəqiqə ara ilə sayğı növbəsində durublar. Mollanın Qurani-Kərim oxumasından və dualar edilməsindən sonra Azərbaycan Kültür Dərnəyi genəl başqanı Fevzi Aküzüm çıxış edərək mərhumun şəxsiyyəti üzərində dayanıb. Bununla da mərasim başa çatıb.[2]

* * *

Dr. Həmid Atamana ölümündən sonra bir çox məqalələr həsr edilib. Bu məqalələrin ən dəyərli cəhəti budur ki, onlarda Həmid Ataman kimliyi həm həkim, həm insan, həm də siyasətçi kimi obyektiv və hərtərəfli dəyərləndirilib. Həmin dəyərləndirmələr Ataman şəxsiyyətini tanımaqda oxuculara yardım edə bilər, bu üzdən oxucuları onlarla tanış edirik.

Azərbaycan Kültür Dərnəyinin orqanı olan "Azərbaycan" dərgisi onun ölümünə həsr eydiyi geniş redaksiya məqaləsində yazır ki, Dr. Həmid Ataman əsir Türk xalqlarının gec-tez əsarətdən və zülmdən qurtulacağı və mədəni dünyada layiq olduğu yeri alacağı inancını heç bir zaman itirməsdi.[3]

Bu sözlər qızlarının dilindəndir:

"Dr. Ataman təbiətə aşiqdi, təbiətə gəzintiyə çıxdıqları əsnada qızlarına kiçik çaylar üzərində bənd qurmağı, ağacların, bitkilərin tək-tək adlarını öyrətməyi sevərdi. Opera dinləməyə, teatr və baletə tamaşa etməyə həvəskardı. Rəqs etməyi çox sevən bir bəyəfəndi idi. Uşaqla uşaq, böyüklə böyük olur, hər yaşdan insanla az sonra əlaqə yaratmağı bacarırdı. Heç kəsin kefinə dəyməzdi, buna görə də zaman-zaman həyatı zorlaşırdı.

Həmid Xəlil misli olmayan demokrat, anlayış və sevgi dolu, ağıllı, yolagedən, uşaqlarının şəxsiyyətlərinin inkişafı üçün meydan açan, hər durumda inam doğuran, nəzakətli, sirdaş bir ata oldu".

Bunları isə onun mücadilə yoldaşı Fevzi Aküzüm deyib:

"Bəli, 1 fevral 1940-cı ildə Ankarada Azərbaycanı tanıtmaq, onun tarixini, iqtisadiyyatını, mədəniyyətini, sənətini toplamaq, işləmək, yaymaq, milli və tarixi günlərini təbrik etmək, hər cür nəşrlər etmək, konfranslar, seminarlar keçirmək, möhtac durumdakı yurddaşlarımıza yardım etmək, gənclik və qadın qolları qurmaq, folklor dəstələri yetişdirmək kimi müxtəlif fəaliyyətlərdə bulunmaq məqsədilə Azərbaycan Kültür Dərnəyi çalışmalarına başlarkən Dr. Həmid bəyin o zamankı həyəcanı, tükənməkbilməyən əzmi, əksilməyən enerjisi

1 Op. Dr. Hamid Halil Ataman (02.02.1900-18.03.1979). // *"Azerbaycan"* Dergisi, 1979, sayı 230, s. 13.
2 Dr. Ataman Bey Toprağa Verildi. // *"Azerbaycan"* Dergisi, 1979, sayı 230, s. 24.
3 Op. Dr. Hamid Halil Ataman (02.02.1900-18.03.1979). // *"Azerbaycan"* Dergisi, 1979, sayı 230, s. 12.



Həmid Xəlil Ataman *(arxa cərgədə sağdan 1-ci)* Almaniyada onunla eyni zamanda oxumuş Mirismayıl Seyidzadənin (İsmayıl Sarıalın) *(ön cərgədə soldan 1-ci)* oğlu Nuri Sarıalın *(öndə soldan 3-cü)* toyunda. Gəlin Nərimandır.

görülməyə dəyərdi. 1920-ci ilin 27 aprelində rusların istilaya uğratdığı minlərcə zülm və işgəncəyə məruz qalan sevgili yurdu Azərbaycanın səsini uzun bir zamandan sonra qurduğu və ilk başqanı olduğu bir Dərnək tərəfindən bütün dünyaya eşitdirməyə çalışma əzmi kiçikli-böyüklü hər kəsi ovsunlamış və onları bu Dərnək ətrafında toplamağa, birləşdirməyə kafi gəlmişdi".[1]

Fevzi bəy daha sonra Həmid Ataman haqqında öz düşüncələrini beləcə paylaşır:

Dr. Ataman bəyin başqanlığında 5 ilə yaxın İdarə Heyəti üzvü olaraq birlikdə zövqlə çalışmaq, ondan çox şeylər öyrənmək və təcrübələrindən yararlanmaq bəxtiyarlığına çatmış bir insanam.

Dr. Ataman bəy insani yönü yüksək bir şəxsiyyətə sahibdi. Böyüklə böyük, kiçiklə kiçik olmasını bilirdi. Milli və sosial yönü qüvvətli idi. Millətçilik mövzusunda ən irəli səviyyədə inanclı idi.

Təvazökar və müsbət davranışlarıyla gənclərı özünə bağlamağı bilirdi. Hələ evlənməmişkən Samanbazarı səmtində açdığı müaniyəxanasında dostlarımızla birlikdə sıx-sıx ziyarətinə gedər, çayımı içər, çox maraq göstərdiyi şahmatımızı oynayar, nərd oyunları keçirər və müxtəlif məmləkət məsələləri üzərində fikir və görüşlərini alar, özümüzə ona görə bir yön verərdik.

Ataman bəyin Azərbaycanın böyük lideri mərhum Məhəmmədəmin Rəsulzadəyə sonsuz sayğısı vardı. Hər fürsətdə onu dilə gətirməkdən, onun xatirələrini yad etməkdən böyük məmnunluq duyardı. Hələ dava yoldaşları, eyni zamanda yandaşları mərhum Əbdülvahab Yurdsevər və mərhum Mirzəbalaya həm candan bağlılığı, həm də heyranlığı vardı.

O, Əbdülvahab Yurdsevər üçün "məktəb yoldaşımdı. Azərbaycanın hürriyyət və istiqlal mücadiləsində Vahab və indi bir qismi rəhmətə qovuşan dostlarımızla birlikdə o zamanın

[1] *Aküzüm F.* Bir Lideri Daha Kaybettik. // *"Azerbaycan"* Dergisi, 1979, sayı 230, s. 17.

Azərbaycan gəncliyi olaraq bizə düşən vəzifələri yerinə yetirməyə çalışırdıq. Vahab çox natiqdi. Gənclik quruluşlarında, həmkarlar ittifaqları hərəkatlarında, milliyətçilik görüşünü özünə təməl fəlsəfə bilən Türk Ədəmi-Mərkəziyyət Milli Müsavat Partiyasının proqramını gənclərə, işçilərə, bütün xalqa anlatmaq üçün ön cərgədə yer alırdı. Bu mücadiləmiz Azərbaycanın istiqlala qovuşduğu günə qədər davam etdi. Bakının bolşevik-ermənı çətələrindən qurtulmasında ön cərgələrdə birlikdə çarpışdıq. Azərbaycanın istilasında (ki, mən o zaman Almaniyada təhsildə idim) qurduqları gizli təşkilatla kommunistlərə savaş açan Mirzəbala, Əbdülvahab Yurdsevər, Cəfər Cabbarlı və digər dostlarımızı nə sürgünlər, nə "ÇK" zindanları, nə də Sibirin buzlu cəhənnəmləri bu mücadilədən çəkindirə bilmədi. Onları yayındıra bilmədi" deyirdi.[1]

Çox sevdiyi, çox təqdir etdiyi mərhum Mirzəbala üçün də "o heç bir zaman dünyalığın əsiri olmamış və ancaq Azərbaycanın halını və gələcəyini düşünərək hərəkət etmişdir. Tanrı ona müdhiş bir hafizə və yazma qüdrəti verdiyi kimi, çox yüksək bir xitabət qabiliyyəti də vermişdir. Mirzəbala idealist bir türkçü, qeydsiz-şərtsiz istiqlalçı olub, bu fikirlərin gerçəkləşməsi üçün yaşayan bir insandı. Mirzəbala təkcə qələmi və kəlamı ilə bolşevikləri Azərbaycanda sarsıtdı, milyonlarca zərərə uğratdı və bütün dünyanın nəzərini Azərbaycanın üzərinə çəkməsini bildi" deyirdi.[2]

Dr. Həmid Ataman bəy böyük bir boşluq buraxaraq heç bir zaman unudulmayacaq xatirələrlə dolu olaraq aramızdan ayrıldı. Xəstə yatdığı Nümunə Xəstəxanasında ziyarətim sırasında daima hərəkətli və mətin olan Dr. Ataman bəyi bu dəfə üzgün və düşüncəli gördüm. Mənə "Fevzi, mən beləmi olacaqdım, mən beləmi qımıldamadan yataqdamı yatacaqdım?" deyirdi. Xəstəliyini heç cür qəbullanmaq istəmirdi.[3]

Əhməd Qaraca da Dr. Həmid Atamanı yüksək qiymətləndirir:

Təbəssümü çəkilməyən bir üzü, uzunboylu, yaraşıqlı, kübar və gözəl geyinməyi bacaran bir bəyəfəndini harada görürəmsə-görüm rəhmətlik Dr. Atamanı anmamaq, xatırlamamaq əcəba mümkünmü? Bu baxımdan Əbdülvahab Yurdsevər bəy haqlıdır. Dr. Ataman öz nəslinin olduğu qədər mən yaşda olanların və məndən kiçiklərin də Azərbaycan davamızda müəllimi idi. Mən şəxsən bu mövzuda rəhmətlik Dr. Atamana çox şey borcluyam.

İlk olaraq onu 1949-cu il fevralının ilk günü Azərbaycan Kültür Dərnəyi quruluşu toplantısında gördüm. Məhəmməd Altunbayı bir tərəfinə, Dr. Əziz Alpautu digər yanına alan Dr. Həmid Atamanı mənə savaşa hazırlaşan tarixi qəhrəmanlarımızı xatırladırdı.

Rəhmətlik Əbdülvahab Yurdsevər şagirdlik illəri xatirələrini nəql edərkən "Bizim xocamız dr. Həmiddir" deməkdən özünü saxlaya bilməzdi.

O yalnız Azərbaycan Kültür Dərnəyinin qurucusu, genəl başqanı, Heysiyyət Divanı başqanı, Məşvərət Məclisi üzvü deyil, Azərbaycan Milli Davamızın siyasi cəbhəsini təşkil edən Milli Azərbaycan Mərkəzi ilə Azərbaycan Milli Müsavat Xalq Partiyasının qabaqcıl bir üzvü olaraq böyük xidmətlər vermişdir.

Azərbaycan Türk gəncləri qədirbilməndir – 60 ildən artıq bir ömrü Azərbaycanın istiqlal və hürriyyət davasına, Milli Azərbaycan Hərəkatına sərf etmiş olan pirimiz Dr. Ataman bəyi unutmayacaqdır.[4]

Dr. Həmid Atamanın bir insan kimi ən gözəl səciyyəsini, bizcə, həyat yoldaşı Şəfiqə xanım verib. Onun son dərəcə səmimi yazısını həyəcansız oxumaq mümkün deyil.

[1] *Aküzüm F.* Bir Lideri Daha Kaybettik. // *"Azerbaycan"* Dergisi, 1979, sayı 230, ss. 17-19.
[2] Yenə orada, s. 19.
[3] Yenə orada, s. 20.
[4] *Karaca A.* Dr. Hamid Ataman Azerbaycan Milli Davamıza Unutulmaz Hizmetler Verdi, ss. 21-23.

Şəfiqə xanımın yazdığından bəzi seçmələr:

Onu 35 il sürən ortaq yaşantımızda tanıdığım kimi, olduğu kimi tanıtmaq istəyirəm; bu, mənim ona qarşı son görəvimdir, məncə.

Həmid cismən boylu, qüvvətli bədənli, güvənverici, zərif hal və hərəkətli – qısacası, yaraşıqlı bir kişi idi, ancaq əsl gözəl olan onun iç dünyası və ruh halı idi. Məncə, ondakı bu ruh əsliyyi nə oxuduğu yabancı məktəblərdən, nə də uzun müddət içində bulunduğu yabancı çevrədən təsirlənərək yaranmışdı. Bu, doğuşdan və ailəsi içindəki yetişmə tərzindən irəli gəlirdi. Bunu 59 illik bir ayrılıqdan sonra 1973-də İrəvandan bizləri görməyi gələn böyük bacısı Səkinə xanımı tanıdıqdan sonra açıqca anlamışdım. Gənclik həyatı yabancı ölkələrdə keçdiyi halda, keçmişinə çox bağlı idi, uşaqlıq illərini heç unutmaz, o günlərdəki yaşamını həsrətlə anardı hər zaman.

Təhsil və çalışma həyatım həmişə kişilərlə yaxın əlaqə və işbirliyi içində keçmişdi və onun qədər yaxşı ürəkli, yumşaq və müşfiq, işıqlı bir kişi tanımadım. Son dərəcə dürüst, xoşniyyətli və namuslu idi. Bütün insanları da özü kimi görmək istərdi. Həmidin bütün təhsil dönəmi yabancı məktəblərdə keçmiş və yabancı dillərdə olmuşdu. Buna görə türkcə din dərsi oxumamış, Quran kurslarına da getməmişdir. Ortaq yaşantımızda namaz qıldığını, oruc tutduğunu heç görməmişdim, buna baxmayaraq o, dindar və tam bir müsəlmandı. Allaha və ilahi qüvvətə inanırdı. İslam dininin istədiyi bir çox özəllik onda artıqlamasıyla vardı. Namuslu idi, düzgündü, heç kimsəyə pislik etməz və heç kimsə üçün pis düşünməzdi. Hər zaman bağışlayıcı və xoşgörülü idi. Gerçəkdən möhtac olanlara yardımı sevər, yoxsul xəstələrə pulsuz baxardı. Onun lüğətində yalan, iftira, haqsızlıq, əziyyət və işgəncə sözləri yoxdu. İslam dininin incəliklərini almanca kitablardan və türkcəyə çevrilmiş Qurandan oxuduğunu çox görmüşdüm. Hər mövzuda olduğu kimi, bu mövzuda da uşaqlarına əsla zor etməz, ancaq onları öyrənməyə həvəsləndirərdi. Tək-tük özəl günlər xaric içkini sevməz, qumara nifrət edərdi, ancaq yaxınları ilə nərd və şahmat oynamaqdan zövq alardı. Doğruluğunun uzantısı olan isti bir bağlılığı vardı.

Biz onunla yalnız ər-arvad deyil, bir-birimizin anası, atası və övladı kimi idik.

Həmid lap çox sahədə geniş bilgilərə sahib bir insandı. Təkcə peşəsi ilə bağlı deyil, bir çox mövzularda, özəlliklə yaxın Türk tarixinə aid kitabları çox oxuyur və böyük həvəs göstərdiyi kitabları üçün büdcəsindən böyük bir miqdarı sevə-sevə ayırırdı. Ana dili kimi rusca və almancanı, orta dərəcədə də fransızcanı bilirdi. Dünyanın tanınmış musiqiçi, sənətkar, alim, ixtiraçı və ədəbiyyatçılarını uşaqlarımız ondan öyrənirdi.

Təbiətə və təbii olan hər şeyə heyrandı. Botanika və zoologiya sahələrində də geniş bilgisi vardı və uşaqlarının marağını özəlliklə bu mövzuya çəkmək istərcəsinə bildiklərini nəşə və zövqlə onlara ötürürdü. O, gəzməyi və əylənməyi çox sevər, dost-əqrəba toplantılarından sevinc duyardı. Sıx-sıx səyahət etmək və çox sevdiyi Anadolunun hər guşəsini görüb tanımaq ona həzz verirdi.[1] Gəzdikcə Türkiyənin hər guşəsində ayrı bir gözəllik tapır və hər fürsətdə "cənnətdir bu məmləkət" deyirdi.

Millətini və vətənini çox sevərdi və yalnız bu səbəblə Almaniyada Berlin[2] tibb fakültəsini bitirdikdən sonra oradakı maddi durumunun və çalışma sahəsinin çox yaxşı olmasına baxmayaraq "artıq ölkəmə və millətimə xidmət etməliyəm" deyərək 1934-cü ildə yurduna dönmüşdür.

Milliyyətçiliyi son dərəcə güclü idi. Bütün Türk ellərindəki soydaşlarını çox sevərdi, ancaq Azərbaycan Türklərinin yeri onun qəlbində çox köklü idi. Azərbaycan Kültür Dərnəyi onun üçün, doğub-böyütdüyü və çox sevdiyi bir övlad kimi idi sanki.

[1] *Dr. Ataman Ş.* Eşim Dr. Hamid Ataman, ss. 14-15.

[2] Doğrusu "Münxen" olmalıdır.

Oğlunun olmasını çox istədiyini bilirəm, ancaq bunu mənə bunca illik bərabərliyimizdə bir dəfə də hiss etdirməmişdir, əksinə, hər il övladlarımızın doğum günlərində onlardan öncə məni təbrik edər və çiçəklərlə, ona verdiyim uşaqlar üçün təşəkkür edərdi. Onun sağlılı, incə və düşüncəli şəxsiyyətini göstərən anlardan yalnızca biri idi bu, mənim üçün.

Həmid görmüş-keçirmiş, hər cür davranış qaydalarının incəliklərini bilən, bunları içindən gələn təbii hərəkətlərlə yaşantısının hər anında tətbiq edən tam bir cəmiyyət adamı, eyni zamanda evini hər yerdən çox sevən sevgi dolu işıqsaçan bir ata və yoldaş idi.

Hər cür düşüncəyə gerçək anlamda sayğı göstərməsini bilən, tam anlamı ilə demokrat ruh və düşüncəli bir insandı. Bunu ailə yaşantımızda da tətbiq edər, kişi-qadın bərabərliyinə sonsuz sayğı duyar, kiçiyin böyüyə, böyüyün kiçiyə sayğı duyması lazım olduğuna inanardı.

Yaşantımıza aid hər mövzuda danışır, dartışır və qərarı birlikdə verirdik. Uşaqlarımız böyüdükcə bu durum daha da qətiləşir və ailəmiz tam anlamıyla 4 nəfərdən ibarət, hər mövzuda 4 adamın fikri öyrənilib çoxluğun fikrinə uyulan kiçik bir birlikdi.

Xəsislik bilməyən Həmid bədxərc də deyildi. Pul, vəzifə və hər cür mənafelər üçün kimsəyə minnət etmədi və kimsənin önündə kiçilmədi. Peşəsi və bilgiləri sakit, alçaqkönüllü, dinc və sağlam bir yaşam onun üçün yetərli idi. Son dərəcə qürurlu idi və heç bir dəyər üçün qürurundan fədakarlıq etmədi.

Rusca və almanca ana dilindəki kimi danışan Dr. Ataman Türk Dil Qurumunun ilk qurucu üzvləri arasında yer alıb. Ailəsini və bütün çevrəsini təmiz bir türkcə danışmağa təşviq edirdi.

Ayrıca Türk dilinin özləşdirilməsi mövzusuna sıx-sıx bağlı idi və bu üzdən bu mövzuda çox əmək sərf etmişdir. Təhsili üzündən uzun illər ayrı qaldığı, Türk dili çalışmalarını və üzvü olduğu Türk Dil Qurumu yayınlarını böyük bir həvəslə incələr, oxuyar və izlərdi. "Təşəkkür" yerinə "sağ ol" deyilişini ilk dəfə Həmiddən eşitmişdim və bunun kimi öztürkcə sözləri mənimsətmək və yaymağa böyük çabalar sərf etmişdir.

Bax, Dr. Həmid Ataman belə bir insandı.[1]

***

Yuxarıdakı sözlərin yazarı Dr. Şəfiqə Ataman 2002-ci ildə dünyadan köçdü. Bu haqda "Hürriyət" qəzetinin 4 mart 2002-ci il tarixli sayındakı "Acı kaybımız" başlıqlı nekroloqda oxuyuruq ki, Azərbaycanın xan soyundan mərhumə Ruqiyyə xanım ilə Milli Şura Hökuməti Qars mülki valisi Əlibəyzadə Məhəmməd bəyin qızı, ... mərhum Op. Dr. Həmid Xəlil Atamanın yoldaşı, Dr. Turunc Ataman Şəndöl və əczaçı Narınc Atamanın çalışqanlığı, dürüstlüyü, güclü şəxsiyyəti və mərdliyi ilə qürur qaynağı olan anası, həyatını sevdiklərinə, qadın sağlığına həsr etmiş olan, Dr. Z.T.Burak doğum evi və Tur-Nar Klinikası qurucularından, doğum və qadın xəstəlikləri uzmanı Op. Dr. Şəfiqə Ataman 3 mart 2002-ci ildə vəfat etmişdir. Əziz naşi 5 mart 2002 çərşənbə axşamı günü Qocatəpə camesində qılınacaq günorta namazının ardından Qarşıqaya məzarlığında torpağa veriləcəkdir.[2]

***

Doğrudur, Dr. Həmid Atamanın oğul övladı olmadı. Ancaq onun qızları və qızlarının oğulları nəinki istənilən ataya və babaya, eyni zamanda bütün Türk millətinə başucalığı gətirən şərəfli övladlar oldular.

[1] *Dr. Ataman Ş.* Eşim Dr. Hamid Ataman, ss. 15-16.

[2] *"Hürriyet"* gazetesi, 04.03.2002.

Doktor Həmid Atamanın böyük qızı *Dr. Turunc Ataman Şəndöl* hədsiz təvazökar bir insan olduğuna görə ondan özü haqqında geniş bilgi ala bilmədik. Yalnız aşağıda yazılanlarla kifayətlənməli olduq.

Dr. Turunc Ataman Şəndöl 1948-ci ildə Ankarada doğulub.

1954-65-ci illər arasında Ankara Kollecində ilk-orta-lisey təhsilini tamamlayıb.

1965-71-ci illərdə Ankara Universitetinin diş həkimliyi fakültəsində oxuyaraq diş həkimi diplomu alıb.

1972-76-cı illərdə atası Dr. Həmid Ataman bəyin Qulaq-Burun-Boğaz Klinikasını qurduğu Ankara Nümunə Xəstəxanasında diş həkimi olaraq çalışıb.

1976-cı ildə ailə quraraq İsveçrəyə gedib. O tarixdən bəri Sürixdə yaşayır və işləyir.

1977-ci ildə onun oğlu *Dr. Ataman Şəndöl* Sürixdə dünyaya gəlib. Ataman bəy Sürix Universitetində tibb təhsilini başa vurub, elmdə ümumdünya önəmli kəşflərinə görə çox nüfuzlu beynəlxalq mükafatlar alıb və gənc Türk dahisi kimi tanınıb. İndi Nyu-Yorkdakı Rokfellər Universitetində araşdırmalar aparır.

Molekulyar bioloq olan Dr. Ataman Şəndöl "2010-cu il Avropa Qitəsi Gənc Araşdırmaçı Mükafatı"nı alıb. Mükafat "Science" dərgisi və "Ge Healthcare" firması tərəfindən 4 qitədəki ən yaxşı araşdırmaçılara verilir. Ataman Şəndöl, mükafatını Stokholmda düzənlənən törəndə alıb.

Dr. Ataman apardığı araşdırmada xərçəng hüceyrələrinin oksigen çatışmazlığı səbəbi ilə ölmədiyini ortaya qoyub və buna səbəb olan bir geni tapıb. O, özünə mükafat qazandıran "Proqramlanmış hüceyrə ölümü"nü belə anladır:

"Vücuddakı hər hüceyrə öz DNA-sındakı problemi anlaya bilir və deyir ki, "mənim DNA-mda yanlışlıq var". Hüceyrə bu problemi çözə bilməyəcəyini anlayarsa özünü yox edir. Üstəlik, bunu çox qısa müddətdə edir və 20 dəqiqədə ölür. İnsan vücudunda bir gündə aşağı-yuxarı 50 milyard hüceyrə intihar edir.

Xərçənglə bağlı araşdırma aparan elm adamları hüceyrə ölümlərini 1950-ci və 1960-cı illərdə aparılmış çalışmalarda görmüşdülər, ancaq oksigen ala bilməyən hüceyrələrin öldüyünü düşünürdülər. Əksinə, bu, aktiv bir proqram tərəfindən yürüdülürdü. Bu durum 1980-ci illərdə təsbit edildi və hüceyrələrin ölümünü kontrol edən genlər tapıldı. Sürix Universitetinin mikrobiologiya bölümündə Prof. Dr. Michael Hen Gartner bu nəticəni almış ilk elm adamlarındandır. Prof. Dr. Robert Horvitz də proqramlanmış hüceyrə ölümü işinə görə 2002-ci ildə Nobel mükafatı aldı. Artıq bilinir ki, oksigensiz qalmaq hüceyrələri yaxşıca böyüdür. Oksigen azalınca o hüceyrələrə nə olduğuna baxdım və orada çalışan tirosinas genini tapdım".[1]

Bu, Türkiyənin HaberTürk informasiya agentliyinin yaydığı rəsmi xəbərdəndir. Türkiyə müxbirləri 2010-11-ci illərdə Dr. Ataman Şəndöldən araşdırmaları ilə bağlı çoxlu müsahibə götürüblər. Bu müsahibələr həm müxtəlif qəzet və dərgilərdə, həm də saytlarda geniş yayılıb. Biz onlardan yalnız birinə toxunuruq.

Müxbir ondan soruşur: "Başqa çalışma mövzularınız və nəticə aldığınız təcrübələriniz varmı?" və cavab alır: "Maraq duyduğum başqa mövzulardan biri də oksigendir – bədəndə oksigen azalınca aktivləşən proqramlar və onların funksiyası".

Müxbir yenidən soruşur ki, "elə laboratoriyada xərçəngin çarəsi tapıldı" deyilir, bunun bir dərmana və ya müalicəyə çevrilməsi çox uzaqdırmı? Ataman Şəndöl deyir ki, çox fərqli xərçəng növləri bulunmaqdadır və hər xərçəngin özünəməxsus mexanizmi var. Bəzi tip xərçənglərin çox yaxşı müalicəsi mövcuddur. Məsələn, testis xərçəngi... Ancaq başqa

[1] http://www.alaturkaonline.com/prof-ataman-sendol.

xərçənglərin müalicəsi hələ yetərli deyil. Hər cinsin mexanizmini çözmək və buna uyğun dərman tapmaq gərəkdir. Yəni xərçəng tipinin mexanizmini çözmək və ona qarşı təsirli dərman tapmaq fərqli şeylərdir və bu iki mərhələ arasındakı müddət ən azından 5-10 il çəkir. Bu səbəblə bir araşdırma xəbər olduğu zaman insanlar çox umudlanırlar, ancaq onun dərhal dərman olması imkansızdır.[1]



Həmid Xəlilin böyük qızı
Turunc Ataman Şəndöl

Dr. Həmid Atamanın kiçik qızı, əczaçı *Narınc Ataman* Türkiyə Eyitim Dərnəyinin (TED) Ankara Kolleci və Qazi Universitetinin əczaçılıq fakültəsini bitirib. Səhiyyə Nazirliyində Sıtma Eradikasyon genəl müdiri, Dünya Səhiyyə Təşkilatında təhsil şöbəsi müdiri olaraq çalışıb. Ankara Universiteti Avropa Topluluqları Araşdırma və Uyğulama Mərkəzi (ATAUM) Avropa Birliyi Təmsl Eyitim və Beynəlxalq Münasibətlər uzmanlıq sertifikatı və Ankara Universiteti Qadın Çalışmalarında yüksək lisans diplomu alıb. Mədəniyyət və Dövlət Nazirliklərində müşavirlik (danışmanlıq), Başbakanlıq Qadının Statusu genəl müdiri, TBMM Qadının Statusu Araşdırma Komisyonu reportyoru olub. Avropa Birliyi və BMT Bərabərlik (Eşitlik) Komisyonunda rəsmi təmsilçi olaraq yer alıb.

Ailənin qorunması ilə bağlı 4320 saylı qanunun memarlarındandır.

1999-2004-cü illər arasında TRT-də "Aynanın iki üzü", "Səsimi duy" və "Zəmanə" proqramlarına layihə təqdimatçısı (tasarımçısı), aparıcısı və məsləhətçi olaraq iştirak edib.

1980-ci illərdən bu yana demokratiya və eşitlik sahəsində vətəndaş cəmiyyətləri çalışmalarını davam etdirməkdədir. Vətəndaş cəmiyyətləri quruluşları (sivil toplum quruluşları) üçün müdafiəçilik və kampaniya texnikaları, bədən dili, söz sənəti, diksiya, şəxsiyyət inkişafı və b. mövzuları tədris edib. 2004-cü ildən bu yana şəxsiyyətin inkişafı mövzusunda çalışmaqdadır.

ICF (International Coach Federation) indi Dəngə Mərkəzi Sistemində Yeni Dil Proqramlaşdırması (NLP) Uzman Uyqulayıcısı və öyrədici olaraq təşkilatlara, birliklərə xidmət etməkdədir. Qarşısına qoyduğu vəzifə sürətlə dəyişən dünyada sevincli və məhsuldar birliklərin yaranmasında rol oynamaqdır.


ABŞ-ın Prinston Universitetinin müəllimi *Dr. Həmid Akın Ünver*'in anasıdır.

Türkiyə saytlarındakı xəbərlərdən birinin başlığı belədir: *"Amerika Birləşmiş Ştatları akademik dünyasının ən nüfuzlu mükafatlarından Malcolm Kerr Sosial Elmlər Mükafatı'nı gənc Türk siyasətşünası Dr. Həmid Akın Ünver qazandı".*

Həmin xəbərdən öyrənirik ki, mükafat Orta Şərq Çalışmaları Dərnəyi (MESA) tərəfindən 2010-cu il içərisində dünyada ingiliscə yazılan doktorluq işləri arasından seçilərək verilir.

Ünver, mükafatı İngiltərənin Essex Universitetində müdafiə etdiyi *"Kürd sorununu tanımlamaq"* başlıqlı dissertasiyasıyla qazanıb. Ünver, dissertasiyasında kürd məsələsinə ABŞ Konqresi, Avropa Parlamenti və Türkiyə Böyük Millət Məclisində necə yanaşıldığını və səciyyələndirildiyini (tanımlandığını) araşdırıb.

[1] http://www.ezberim.biz/kanser/192700-ataman-sendol-ile-kanser-hakkinda-bilinmeyenler.



Həmid Xəlilin nəvəsi,
Turunc xanımın oğlu Ataman Şəndöl



Həmid Xəlilin nəvəsi,
Narınc xanımın oğlu Akin Ünver

ABŞ-ın müxtəlif universitetlərindən gələn elm adamlarından ibarət jüri mükafatın Dr. Ünverin yaxın tarixin ən çətin məsələlərindən biri olan kürd məsələsini məclislər səviyyəsində, indiyədək görünməmiş fərqli bir şərhlə dəyərləndirdiyinə və bu məsələnin ən çətin dönəmi olan 1990-cı illərə yeni bir işıq tutduğuna görə verildiyini bildirib, bundan başqa, tətbiq etdiyi yöntəmlə sosial elmlər sahəsinə önəmli bir qatqı gətirdiyini vurğulayıb.[1]

1982-ci il Ankara doğumlu Həmid Akın Ünver təhsilinə TED Ankara Kollecində başlayıb. Bilkənd Universitetində beynəlxalq əlaqələr üzrə oxuduqdan sonra Orta Doğu Texnik Universitetində Avropa Çalışmaları mövzusunda müdafiə edib. Doktorluğunu İngiltərənin Essex Universitetində beynəlxalq əlaqələr haqqında, doktorluq sonrası çalışmalarını Amerikada Miçiqan Universitetində tamamlayıb. İndi ABŞ-ın Prinston Universitetində Türkiyə və Orta Şərq siyasi tarixindən dərs deyir.

Dr. Ünver mükafat aldığı əsərin məğziylə bağlı bunları aydınladır:

- Dissertasiyam kürd məsələsinin itirilmiş 10 ili kimi bilinən 1990-1999-cu illər arasında TBMM, Amerika Konqresi və Avropa Parlamentində nə şəkildə dartışıldığını və necə tanımlanmasını (səciyyələndirildiyini) ortaya qoyur. Sadəcə səciyyələndirilmə ilə maraqlandım, çünki bir məsələnin həllində böyük sıxıntılar çəkilirsə bunun səbəbi o məsələnin əslində nədən ibarət olduğunun bilinməməsidir. Məsələnin yaxşı səciyyələndirilməsi onun həllinə yol açır. Fərqli seçici maraqlarının bir-biriylə çarpışdığı ən önəmli yer Məclisdir. Bir mənada Haqqaridəki seçici ilə Ədirnədəki seçici bir-biriylə dolayısıyla siyasi dialoq içərisinə girir. Məsələnin 1990-cı illərdə içindən çıxılmaz bir şəkildə düyümləndiyini gördüm və diqqəti bu 10 ildə cəmləməyə qərar verdim.

Kürd məsələsinin nə olduğunu nə dövlət, nə də toplum səviyəsində bilirik. Məsələnin tanımlanması adamın ideoloji mövqeyini ortaya qoyan bir lakmus kağızı kimidir. Sözgəlişi, kürd məsələsini "terror məsələsi" olaraq səciyyələndirən adamın ideoloji perspektiviylə "demokratiya əksikliyi" olaraq səciyyələndirən arasında böyük bir uçurum var. "Kürd məsələsi nədir?" deyildiyində Türk olsun, avropalı olsun, amerikalı olsun, vəkillərin ağlına yalnız eyni şeylər gəlib: işlədilmə faizi sıralarına görə insan haqları, demokratikləşmə, güvənlik güclərinin hədsiz zor işlətməsi, terror məsələsi (güvənlik ölçüsü), bölgəsəl iqtisadi yüksəliş/təhsilsizlik məsələsi, etnik-mədəni gerilik (Türk-kürd çarpışması) və "qaranlıq xarici güclər"in qısqırtması. Bu amillərin hamısının eyni anda ələ alınması lazımdır, çünkü mövzuların hamısı bir-birinə bağlıdır. Bunun üçün də öncəliklə yürüdüləcək siyasətin arxasında geniş bir ictimai uzlaşmanın və demokratik dəstəyin olması şərtdir. Mövzunun səciyyəsinə yönəlik forumlar, toplumsal platformaların yaradılması çox önəmlidir.

1990-1999-cu illər arasındakı TBMM, Avropa Parlamenti və ABŞ Konqresindəki kürd məsələsi ilə bağlı bütün dartışmaların stenoqrafik qeydlərini incələmişəm. Sonrasında tapdıqlarımı dəstəkləmək üçün uzun bir reportaj dönəmi keçirdim. Bölgəyə getmədim, ancaq bölgədən olan, mövzunu yaxşı bilən təcrübəli kişilərlə söhbətləşdim. Xüsusən TBMM-də ən çox sözügedən "Qərb PKK-ya yardım edir" arqumenti haqqında Körfəz savaşı sonrasında bölgədə yardım fəaliyyətləri yürütmüş insan haqları qurumlarındakı şəxslərlə söhbət imkanım oldu. Anam neçə dəfə "övladım, bu işlərlə məşğul olma!" dedi. Ancaq dissertasiyanı yazınca əslində kimsəni rahatsız etməyəcək, sadəcə, bilgi toplusundan ibarət tərəfsiz çalışma çıxdı. Araşdırma yazı və təslim müddəti 5 ilə yaxın sürdü. Qaynaqlarla birlikdə 450 səhifədən çox oldu.[1]

* * *

Beləliklə, Azərbaycanda Dr. Həmid Ataman bəylə bağlı ilk yazını ortaya qoyduq. Ancaq Həmid bəy o qədər önəmli şəxsiyyətdir ki, onun haqqında ayrıca nəinki məqalələr, hətta kitablar yazılmasına ehtiyac var. Bu baxımdan umudvar olduğumuzu bildiririk ki, bu görkəmli yurddaşımızı Azərbaycan cəmiyyətinə daha yaxından tanıtmaq üçün yaxın gələcəkdə daha ciddi işlər görüləcək.

[1] http://www.internethaber.com/turk-bilimciye-amerikadan-odul-334286h.htm.



Ədalət Tahirzadə Həmid Xəlilin kiçik qızı Narınc xanımla. Ankara, 26 oktyabr 2013-cü il

[1] http://www.hurriyet.com.tr/pazar/17320502.asp.

Məhəmmədov[1] Ağababa Kərbəlayı Əliəsgər oğlu

(1892, Şamaxı – ?, Bakı)



Ağababa Məhəmməd oğlu (Məhəmmədov)

Rusiyada (əslində isə Ukraynada) oxuması üçün təqaüd ayrılmış tələbələrdəndir.

Zaqafqaziya Şiə Ruhani İdarəsinin 23 avqust 1905-ci ildə Tiflis şəhərində verdiyi 1765 saylı doğum şəhadətnaməsində yazılıb ki, Bakı valiliyi Şamaxı şəhərinin sakini Ağababa Kərbəlayı Əliəsgər oğlu, atası Kərbəlayı Əliəsgər Məşədi Gülməhəmməd oğlunun qanuni arvadı Sultan Kərbəlayı Cabbar qızından 1892-ci ildə doğulub. Doğumun ayı və günü bəlli deyil.[2]

Kamal attestatında onun 1911-ci ilin mayında Moskvada N.Q.Bajanovun özəl real məktəbinə girərək 24 may 1913-cü ildə oranın tam kursunu bitirməsi göstərilib. "5" aldığı rəsm və rəsmxətdən başqa, yerdə qalan 10 fənnin hamısından qiymətləri "3"dür.[3]

N.Q.Bajanovun özəl real məktəbinin əlavə sinfinin şagirdi A.Məhəmmədoğlu bu sinifdə 1913-cü ilin avqustundan 4 iyun 1914-cü ilədək əla əxlaqla oxuyaraq yekun imtahanlarında bu uğurları qazanıb:

Şəriət –	
Rus dili –	kafi (3)
Alman dili –	kafi (3)
Fransız dili –	kafi (3)
Riyaziyyat, o sıradan:	
Cəbr –	kafi (3)
Triqonometriya –	kafi (3)
Xüsusi kurs (analitik həndəsinin əsasları və sonsuz kiçiklərin analizi) –	kafi (3)
Tarix –	yaxşı (4)
Fizika –	kafi (3)
Təbiiyyatşünaslıq –	kafi (3)
Riyazi coğrafiya –	kafi (3)
Rəsm –	yaxşı (4)
Qanunşünaslıq –	kafi (3).[4]

Bakı şəhər polis rəisi vəzifəsini icra edən polkovnik Martınov 24 iyun 1915-ci ildə Şamaxı şəhər meşşanı, 22 yaşlı A.Məhəmmədoğluna ali məktəbə təqdim etmək üçün onun siyasi baxımdan etibarlı olması haqqında arayış verib.[5] Belə arayışı Rusiyanın ali məktəblərinə girmək istəyənlərdən tələb edirdilər.

A.Məhəmmədoğlu 10 iyul 1915-ci ildə Xarkov Texnologiya İnstitutunun direktoruna ərizə yazaraq onu mexanika bölümünün I kurs tələbələri sırasına götürməyi xahiş edib.[6]

[1] Soyadı bir çox qaynaqlarda "Məhəmməd oğlu/ Məhəmmədoğlu" kimi də gedib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.
[2] XVDA, fond 683, siyahı 3, iş 838, vərəq 15; ARDA, fond 51, siyahı 3, iş 106, vərəq 4.
[3] ARDA, fond 51, siyahı 3, iş 106, vərəq 2a.
[4] Yenə orada, vərəq 3a.
[5] XVDA, fond 683, siyahı 3, iş 838, vərəq 13.
[6] Yenə orada, vərəq 1.



Tələbə Ağababa

Ərizənin sonunda ünvanını qeyd edib: Bakı, Köhnə poçt[1] küçəsi, 7-ci döngə, 5-ci ev.

Xarkov Texnologiya İnstitutunun (mexanika bölümü) VI semestr tələbəsi Ağababa Məhəmmədov Azərbaycan Cümhuriyyəti maarif nazirinə yazdığı 19 avqust 1919-cu il tarixli ərizəsində təhsilini Xarkovda bitirmək üçün ona dövlət təqaüdü verilməsini xahiş edib. Sonra bildirib ki, oraya getmək imkanı olmazsa mənə təhsilimi Almaniyada bitirməyə icazə verməyinizi xahiş edirəm.[2]

Ağababa Məhəmmədov tələbələrin xaricə göndərilməsi üzrə Komissiyanın sədrinə ərizə yazaraq bildirib ki, ilk ərizəmi yazan vaxt Rusiyadakı tələbələrin vəziyyəti ilə yaxşı tanış olmadığıma görə bildirmişdim ki, Almaniyaya getmək mümkün olmazsa Xarkova göndərilməyimi istəyirəm, ancaq mənə indi bəlli olub ki, Rusiyada oxumaq mümkün deyil. Ona görə də məni Avropaya – Almaniyaya göndərməyinizi xahiş edirəm.[3]

Texnoloq tələbə A.Məhəmmədov Bakıda 23 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı ərizədə Xarkova təhsilini davam etdirməyə getmək üçün ona çatası pulları və sənədləri verməyi xahiş edib.[4]

Nazir Xalq Maarif Nəzarətinin mühasibinə 24 noyabr 1919-cu ildə 13357 saylı belə bir təliqə göndərib ki, Rusiyaya ali təhsilini davam etdirmək üçün getməkdən ötrü tələbə Ağababa Məhəmmədova 21 min manat yazmağınızı təklif edirəm; həmin məbləğdən 18 min manat bugünkü gündən 6 aylıq dolanışıq üçün və 3 min manat yolpuludur.[5]

* * *

Texnoloq tələbə Ağababa Məhəmmədov 23 noyabr 1921-ci ildə Xalq Maarif Komissarlığına yazdığı ərizəsində ona 1919-cu ildə dövlət təqaüdçüsü olması haqqında arayış verilməsini xahiş edib.[6]

Xalq Maarif Komissarlığı Kollegiyasının 5 dekabr 1921-ci il tarixli iclasında müzakirə edulən 10-cu məsələ 4 tələbənin, o sıradan Xarkov Texnologiya İnstitutunun (XTİ) tələbəsi Ağababa Məhəmmədovun dövlət təminatına keçirilməsi haqqında məsələdir və o, özünün müsbət həllini tapıb.[7]

Azərbaycan Peşə-Texniki Təhsili Komitəsi 13 dekabr 1921-ci ildə Xarkov Vilayət Peşə Təhsili Komitəsinə 3905 saylı məktub göndərərək Xarkov Texnologiya İnstitutunun keçmiş 3-cü kurs tələbəsi Ağababa Məhəmmədovun, təhsilini davam etdirmək üçün həmin instituta qəbul edilməsi haqqında lazımi sərəncam verilməsini xahiş edib.[8]

XTİ mexanika fakültəsinin keçmiş tələbəsi A.Məhəmmədoğlu (Məhəmmədov) mexanika fakültəsi dekanına 10 yanvar 1922-ci ildə ərizə yazaraq bildirib ki, 1918-ci ilin sonunda məndən asılı olmayan səbəblərə görə (pul böhranı) institutu tərk edərək vətənimə qayıtmalı oldum. İndi təhsilimi davam etdirmək istəyirəm. Ona görə də məni köhnə yerimə bərpa etməyinizi xahiş edirəm. (Sonra imtahan verdiyi fənləri sadalayır).[9]

[1] İndiki Süleyman Tağızadə küçəsi.
[2] ARDA, fond 51, siyahı 3, iş 106, vərəq 1.
[3] Yenə orada, vərəq 8.
[4] Yenə orada, vərəq 7.
[5] Yenə orada, vərəq 9.
[6] Yenə orada, vərəq 13.
[7] Yenə orada, vərəq 111a.
[8] XVDA, fond 683, siyahı 3, iş 838, vərəq 9.
[9] Yenə orada, vərəq 11.

Onun sənədlərin içərisində Ukrayna ali məktəbləri tələbələrinin qeydiyyatı anketi var. Buradakı qeydlərdən: Məhəmmədoğlu Ağababa Əliəsgər oğlu; 1892-ci il doğumlu; yaşadığı yer – Yeparxial küçəsi, ev 38, mənzil 4; Türk; subay; valideynləri yoxdur; Azərbaycan Cümhuriyyətinin dövlət təqaüdçüsüdür.

İnstituta girmə tarixi: 1915-ci il, 2-ci dəfə 1922-ci il.

Fakültəsi: mexanika, 4-cü trimestr. Tələbə biletinin nömrəsi: 3144.



N.Nərimanov adına texnikumun müəllimləri. *Soldan sağa:* (Əbdüs)səməd bəy Məhəmmədyarlı, Əlisahib Əliəkbərov, Ağababa Məhəmmədov

Anket 1923-cü ilin yanvarında Xarkovda tərtib edilib.

Komissiyanın qərarı:

a) əski orduda olmayıb;

b) Azərbaycan Sosialist Şura Cümhuriyyətinin dövlət təqaüdçüsüdür.[1]

Lenin adına Xarkov Texnologiya İnstitutunun (XTİ) tələbəsi A.Məhəmmədoğluna tələbə kartı 1925-ci ilin 6 noyabrında verilib.[2]

AK(b)P MK Katibliyinin 25 sentyabr 1926-cı il tarixli iclasında (bax: 37 saylı protokol) RSFSR-in ali məktəblərində oxuyan və təqaüdlərini ÜK(b)P Zaqafqaziya Diyar Komitəsinin kəsdiyi ASSR-in təqaüdçü tələbələri haqqında məsələ müzakirə edilərək qərara alınıb: RSFSR-in ali məktəblərində oxuyan ASSR-in təqaüdçü tələbələrinin təqaüdünü saxlamaq artırılan siyahıya əsasən (6 saylı qoşmaya bax) ÜK(b)P Zaqafqaziya Diyar Komitəsindən xahiş edilsin.[3] Həmin təqaüdçü tələbələrinin siyahısında[4] Ağabala Məhəmmədovun XTİ mexanika fakültəsində oxuduğu, diplomçu olduğu, 1922-ci ildən təqaüd aldığı, Baş layihəni hazırladığı, metalların soyuq işlənməsi üzrə ixtisaslaşdığı göstərilir bu layihəni 1927-nin yanvarına bitirəcəyi güman edilir.

Mexanika bölümünü bitirmiş A.Məhəmmədoğlu XTİ rektoruna 1 noyabr 1926-cı il tarixli ərizəsində xahiş edir ki, institutu bitirmək haqqında mənə arayış verilsin, çünki əsas layihə ilə məşğul olmaq üçün götürdüyüm xidməti məzuniyyətin vaxtı bitdiyinə görə, mən bu ilin 3 noyabrında qulluq yerimdə olmağa borcluyam.[5]

Ağababa Məhəmmədovun ömrünün sonrakı dönəmi haqqında əlimizdə yazılı bəlgələr yoxdur. Ancaq Nərimanov adına Sənaye Texnikumunun müəllimləri (Əbdüs)səməd bəy Məhəmmədyarlı, Əlisahib Əliəkbərov və Ağababa Məhəmmədovun birgə çəkdirdikləri fotoşəkil özəl arxivimizdədir. Arxasında tarixi göstərilməmiş bu şəklin 1920-ci illərin sonu – 1930-cu illərin başlanğıcında çəkildiyini güman edirik. Bu, A.Məhəmmədovun həm XTİ-ni bitirdiyini, həm də ən azından 1930-cu illərin başlanğıcınadək texniki fənlər üzrə müəllim işlədiyini göstərir.

AR MTN Arxivində istintaq sənədləri aşkarlanmadığına görə repressiya olunmadığını düşünürük.

[1] XVDA, fond 683, siyahı 3, iş 838, vv. 4-4a.
[2] Yenə orada, vv. 6-6a.
[3] ARPİSSA, fond 1, siyahı 74, iş 689, vərəq 2.
[4] Yenə orada, vərəq 47.
[5] XVDA, fond 683, siyahı 3, iş 838, vərəq 8.

Məhəmmədov Hüseynbala Cəfərqulu oğlu

(23.10.1899, Quba – ?)



Hüseynbala Məhəmmədov

"Quba şəhərinin sakini Hüseynbala Cəfərqulu oğlu Məhəmmədova ona görə verilib ki, o, atası Cəfərqulu Məhəmmədovun qanuni arvadı Kövsər Xurşid qızından 23 oktyabr 1899-cu ildə doğulub və bunun gerçəkliyini mən – Quba şəhəri 3-cü mahalının mollası Molla Cavad Molla Mahmud oğlu imza və dövlət möhürünün basılması ilə təsdiq edirəm".[1]

Bu, Hüseynbala Məhəmmədovun doğum şəhadətnaməsidir.

O, təhsil almağa Bakıya deyil, Dərbəndə gedib. Dərbənd şəhərində 29 aprel 1917-ci ildə aldığı 490 saylı kamal attestatında onun Dərbənd edadiyyəsinə (real məktəbinə) 1 sentyabr 1912-ci ildə girərək orada əla əxlaqla 20 aprel 1917-ci ilədək oxuması və əsas bölmənin tam kursunu bitirməsi qeyd edilib. O, 2 fəndən "5, 6 fəndən "4", 6 fəndən də "3" qiyməti alıb.[2]

Orta təhsilini tam başa vurması üçün edadi məktəbin əlavə – səkkizinci sinfini də oxumalı idi. 26 aprel 1918-ci il tarixli 183 saylı şəhadətnaməsinə görə, o, bu sinifdə 1 oktyabr 1917-ci ildən 14 fevral 1918-ci ilədək əla əxlaqla oxuyaraq orta təhsilin tam kursunu bitirib və aşağıdakı qiymətləri alıb:

Şəriət –	əla (5)
Rus dili –	yaxşı (4)
Alman dili –	əla (5)
Fransız dili –	əla (5)
Riyaziyyat, o sıradan:	
Hesab –	kafi (3)
Cəbr –	kafi (3)
Həndəsə –	kafi (3)
Triqonometriya –	kafi (3)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	kafi (3)
Tarix –	əla (5)
Təbiiyyatşünaslıq –	kafi (3)
Fizika –	yaxşı (4)
Riyazi coğrafiya –	əla (5)
Rəsm –	yaxşı (4)
Qanunşünaslıq –	əla (5).[3]

Dərbənd edadisinin (real məktəbinin) məzunu H.Məhəmmədov 10 avqust 1919-cu ildə Azərbaycan Cümhuriyyəti xalq maarif nazirinə yazdığı ərizədə İsveçrənin Sürix şəhərində Kənd Təsərrüfatı İnstitutunda oxumaq arzusunu bildirərək dövlət təqaüdlərindən birinin ona ayrılmasını xahiş edib.[4] O, ünvanını Quba şəhəri, yaşadığı yeri Bakıda Kilsə[5] küçəsi 181-ci ev göstərib. Sənədin sonunda 152 saylı xarici pasportun ona 11 dekabrda verilməsi haqqında qeyd var.

Əmlak və ailə durumu haqqında bilgi verən H.Məhəmmədov yazır:

"Mənim – Quba şəhərinin sakini Hüseynbala Məhəmmədovun gəlir götürə biləcəyim

[1] ARDA, fond 51, siyahı 3, iş 96, vərəq 4.
[2] Yenə orada, vərəq 2.
[3] Yenə orada, vərəq 3.
[4] Yenə orada, vərəq 1.
[5] İndiki Vidadi küçəsi.



Azərbaycanlı tələbələr alman dostlarıyla. *Sağdan. Ön cərgə:* 2-ci Hüseynbala Məhəmmədov. *Orta cərgə:* 2-ci Bəhram Abdinov. Berlin, təx. 1921-22

heç bir daşınmaz əmlakım yoxdur. Bir hissəsi əmimə, obiri hissəsi mənə və qardaşıma məxsus olan köhnə ev var. Qardaşım ticarətlə məşğuldur və 13 başdan ibarət ailəsini birtəhər dolandırır. Mənə real məktəbi bitirmək imkanı yaratmış atam 7 ay bundan qabaq rəhmətə gedib. Qardaşım ailəsini saxlamaqla yanaşı, mənə də baxmaq imkanında deyil. Bütün bunları öz imzamla təsdiqləyirəm.

(İmzası). 10 avqust 1919-cu il".[1]

5 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı son ərizəsində o, yenə də İsveçrənin Sürix şəhərində Kənd Təsərrüfatı İnstitutunda oxumaq istədiyini bildirib.[2]

Hüseynbala Cəfərqulu oğlu Məhəmmədova Azərbaycan Cümhuriyyəti Hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 513 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[3]

Əlimizdəki sənədlərə görə, H.Məhəmmədov Almaniyanın Ştutqart və Bonn şəhərlərində kənd təsərrüfatı ixtisası üzrə oxuyub. 1925-ci ildə Bonnda təhsilini bitirməyə 6 ay qalıbmış.[4]

AR MTN Arxivindən aldığımız bilgiyə görə, orada onun istintaq sənədləri yoxdur, deməli, həbs olunmayıb. Repressiya olunmuş tələbə yoldaşlarının ifadələrində də onu Azərbaycanda görmələri haqqında qeydə rast gəlmirik. Bu, H.Məhəmmədovun SSRİ-yə dönməsini göstərir.



Azərbaycanlı tələbələr. *Soldan sağa. Ön cərgə:* 1-ci Abdulla Rəhimzadə. *Orta cərgə:* 1-ci Bəhram Abdinov, 5-ci Hüseynbala Məhəmmədov, 6-cı Cəbrayıl Rəhimov. Berlin, təx. 1921-22

[1] ARDA, fond 51, siyahı 3, iş 96, vərəq 5.
[2] Yenə orada, vərəq 6.
[3] Yenə orada, vərəq 9.
[4] Yenə orada, fond 57, siyahı 1, iş 276, vərəq 62.

Məhəmmədov Nəbi Nəsib oğlu

(10.02.1891, Aslanbəyli k./ Qazax - ?)



Nəbi Məhəmmədov

Cümhuriyyət tələbələrindən danışılarkən üstündən az qala tam sükutla keçilənlərdən, haqqında əlavə heç bir bilgi verilməyənlərdən biri də Nəbi Məhəmmədovdur.[1]

Zaqafqaziya Sünni Ruhani İdarəsinin 9 aprel 1913-cü ildə Tiflis şəhərində verdiyi doğum şəhadətnaməsində yazılıb ki, Gəncə valiliyi Qazax qəzası Aslanbəyli kəndi cameəsi üzrə aparılmış 1891-ci ilə aid doğum kitabına görə, kişi cinsindən doğulanlar haqqında I bölmədə 4-cü nömrə altındakı qeyd belədir: Nəbi həmin kəndin sakini Nəsib Məhəmməd oğlunun öz qanuni arvadı Fatma Paşa ağa qızından 10 fevral 1891-ci ildə doğulub.

Sənədin altında Zaqafqaziya müftisi Hüseyn əfəndi Qayıbovun və başqalarının imzaları var.[2]

Gəncə şəhərində 5 iyun 1913-cü ildə verilmiş 532 saylı kamal attestatında Nəbi Məhəmmədoğlunun Gəncə kişi gimnaziyasına 1 sentyabr 1905-ci ildə girərək 1 iyun 1913-cü ildək orada əla əxlaqla oxuduğu və 8 sinifli tam kursu bitirdiyi, eləcə də bu zaman aşağıdakı bilikləri qazandığı qeyd olunub:

Şəriət –	5 (beş)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	3 (üç)
Fəlsəfi propedevtika –	3 (üç)
Latın dili –	3 (üç)
Riyaziyyat –	3 (üç)
Riyazi coğrafiya –	3 (üç)
Fizika –	3 (üç)
Tarix –	4 (dörd)
Qanunşünaslıq –	3 (üç)
Coğrafiya –	5 (beş)
Fransız dili –	4 (dörd)
Alman dili –	4 (dörd).[3]

Gəncə gimnaziyasının tam səkkizsinifli kursunu bitirmiş, Gəncə valiliyi Qazax qəzası Aslanbəyli kəndinin sakini Nəbi Məhəmməd oğlu (Məhəmmədov) 22 iyun 1913-cü ildə Kiyev Kommersiya İnstitutunun direktoruna ərizə yazaraq təqdim etdiyi sənədləri sadalayıb və onu bu sənədlər əsasında İnstitutun həqiqi tələbələri siyahısına salmağı xahiş edib.[4]

Ərizənin sonunda ünvanını belə göstərib: *Qazax şəhərinə (Zaqafqaziya), Mahmud ağa Qiyasbəyova – Nəbi Məhəmmədov üçün.*

N.Məhəmmədov İnstituta qəbul olunmaqdan ötrü məcburi sayılan iki sənəd təqdim edib. Qazax qəzasının rəisi Reut 22 iyun 1913-cü ildə Aslanbəyli kəndinin sakini Nəbi Məhəmmədova onun həqiqətən vergi ödəyən təbəqədən olması haqqında arayış verib.[5]

[1] Soyadı bir çox qaynaqlarda "Məhəmməd oğlu" kimi də gedib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.
[2] KŞDA, fond 153, siyahı 5, iş 5124, vərəq 9.
[3] Yenə orada, vv. 7a-8.
[4] Yenə orada, vərəq 6.
[5] Yenə orada, vərəq 10.


Bu arayış ona təhsil haqqında güzəşt edilməsi üçündür. Reut elə həmin 22 iyun günü ona 378 saylı belə bir arayış da verib ki, o, Qafqaz müsəlmanı olduğuna görə hərbi mükəlləfiyyətli deyil.[1] Bu arayışı da bütün müsəlman tələbələrdən istəyirdilər.

Nəbi sənədlərini Odessadakı Novorossiya Universitetinə də göndərərək 22 avqust 1913-cü ildə həmin məktəbin tibb fakültəsinə də qəbul olunub.[2]

20 avqust 1913-cü ildə Kiyev Kommersiya İnstitutunun işlər müdiri Odessadakı Novorossiya Universitetinin dəftərxanasına 8364 saylı məktub göndərərək xahiş edib ki, Kiyev Kommersiya İnstitutuna girmək istəyən Nəbi Məhəmmədoğlunun (Məhəmmədovun) sənədlərinin əslini mümkün olan ən qısa vaxtda bizə göndərəsiniz.[3]

Yeri gəlmişkən, çar dönəmində ali məktəblərdə oxumaq imtiyazı olanlar üçün universitet və institutlara girmək (bəzi texniki ali məktəbləri çıxmaqla) çox asandı – orta təhsil haqqında sənədləri, başqa bir neçə məcburi sənədi poçtla göndərmək yetərliydi. Həmin sənədlərə əsasən abituriyent istədiyi fakültəyə qəbul olunurdu. Bu zaman attestat qiymətləri əsasında müsabiqə keçirilir, çox nadir hallarda abituriyent imtahan da verməli olur (daha çox texniki ali məktəblərdə), ən nadir hallarda isə ona istədiyi fakültəyə girə bilməyəcəyi bildirilərək başqa fakültəyə dəyişilməyi tövsiyə edilirdi.

Odessadakı Novorossiya İmperator Universitetinin prorektoru 31 avqust 1913-cü ildə Kiyev Kommersiya İnstitutunun dəftərxanasına 11876 saylı məktub göndərərək bildirib ki, Nəbi Məhəmmədoğlu (Məhəmmədov) öz ərizəsinə əsasən 22 avqust 1913-cü ildən bizim Universitetin tibb fakültəsinin həqiqi tələbəsidir. Onun Kiyev Kommersiya İnstitutuna keçmək istəməsi haqqında bizə əlavə bilgi verməyinizi xahiş edirik.[4]



Nəbi Məhəmmədovun ərizəsi

"Nəbi Məhəmməd oğlu Məhəmmədov" Novorossiya İmperator Universitetinin rektoruna 3 sentyabr 1913-cü ildə Kiyevdən belə bir ərizə göndərib: *"Sizə tapşırılmış universitetin tibb fakültəsinə qəbul edilməyimdən sırf maddi imkansızlığım üzündən yararlana bilmədiyimə görə sənədlərimi Kiyev Kommersiya İnstitutu direktorunun adına göndərmək haqqında sərəncam verməyinizi acizanə xahiş edirəm"*.[5]

16 sentyabr 1913-cü ildə Kiyev Kommersiya İnstitutu artıq Novorossiya İmperator Universitetinin dəftərxanasına 9148 saylı məktubla xəbər verib ki, Məhəmmədoğlu Nəbinin sənədlərini Kiyev Kommersiya İnstitutu alıb və o, İnstitutun həqiqi tələbələri sırasındadır.[6]

[1] KŞDA, fond 153, siyahı 5, iş 5124, vərəq 11.
[2] Odessa Vilayəti Dövlət Arxivi (bundan sonra: OVDA), fond 45, siyahı 5, iş 8293, vərəq 2.
[3] KŞDA, fond 153, siyahı 5, iş 5124, vərəq 13
[4] Yenə orada, vərəq 19.
[5] OVDA, fond 45, siyahı 5, iş 8293, vərəq 6.
[6] Yenə orada, vərəq 17.



Nəbi Məhəmmədovun şəxsi işi

Kiyev Kommersiya İnstitutu 16 may 1916-cı ildə Bakıya cənab Murtuza Muxtarovun kontoruna təqaüd məsələsini qaldırmaqdan ötrü 4655 saylı vəsiqə yollayaraq bildirib ki, Nəbi Məhəmmədov həqiqətən İnstitutun iqtisad bölməsinin VI semestrinin dinləyicisidir.[1]

Bu sənəd Nəbi Məhəmmədovun (Məhəmmədoğlunun) Murtuza Muxtarovun təqaüdü ilə oxuduğunu deməyə əsas verir.

İqtisad bölümü 3-cü kursunun tələbəsi Nəbi Məhəmmədov elə həmin vaxt Saratov şəhərindən (B.Qornaya küç. 159) Kiyev Kommersiya İnstitutu direktoruna ərizə yazaraq xahiş edib ki, mənə IV kursa keçməyim haqqında vəsiqə verəsiniz; bu, mənə Bakıda Murtuza Muxtarovun kontorunda təqaüd haqqında xahiş etmək üçün lazımdır.[2]

Görünür, M.Muxtarov ona yalnız birillik təhsil haqqı verib və o, 1917-ci ilədək oxuyub. Sonra nələrin baş verdiyini Nəbi Məhəmmədovun 13 avqust 1919-cu ildə Bakıda Azərbaycan Cümhuriyyətinin xalq maarif nazirinə yazdığı ərizədən öyrənirik. Bu ərizəsində N.Məhəmmədov onu xaricə göndəriləcək tələbələr siyahısına salmağı xahiş edib və Kiyevə getmək istədiyini bildirib. O qeyd edib ki, institutu bitirə bilməməyim öz günahım deyil; inqilab başlanandan Qars vilayətində işləmişəm və Azərbaycan Cümhuriyyəti yarananadək orada olmuşam; mənim bütün sənədlərim Kiyevdədir.[3]


Onun bu xahişi nəzərə alınıb. Xalq Maarif Nəzarətinə 23 noyabr 1919-cu ildə Bakı şəhərində yazdığı ərizədə Rusiyaya (Kiyevə) getmək istədiyinə görə ona çatası pulun verilməsini xahiş edib.[4] Nazir də Xalq Maarif Nəzarətinin mühasibinə 27 noyabr 1919-cu ildə 13521 saylı təliqə göndərərək Rusiyaya ali təhsilini davam etdirmək üçün getməkdən ötrü tələbə Nəbi Məhəmmədova 21 min manat yazmağı təklif edib; həmin məbləğdən 18 min manat bugünkü gündən 6 aylıq dolanışıq üçün və 3 min manat yolpuludur.[5]

* * *

Kiyev Şəhəri Dövlət Arxivində üzə çıxardığımız Kiyev Kommersiya İnstitutunun tələbəsi Nəbi Məhəmmədoğlunun şəxsi işi ilə tanışlığımız zamanı bizdə belə bir yəqinlik yarandı ki, o, təhsilini sonra da – sovet dönəmində də davam etdirə bilməyib.

AİŞC xalq maarif komissarının müavini C.Məhəmmədzadə 2 oktyabr 1924-cü ildə Kiyev Kommersiya İnstitutunun rektoruna məktub yazaraq xahiş edib ki, Sizin institutun iqtisad bölməsinin keçmiş IV kurs tələbəsi (1913-cü ildə qəbul olunub) Nəbi

[1] KŞDA, fond 153, siyahı 5, iş 5124, vərəq 4.
[2] Yenə orada, vərəq 5.
[3] ARDA, fond 51, siyahı 3, iş 101, vərəq 2.
[4] Yenə orada, vərəq 3.
[5] Yenə orada, vərəq 1.



РЕКТОРУ Б.КИЕВСКОГО КОММЕРЧЕСКОГО ИНСТИТУТА

Настоящим Наркомпрос АССР просит срочно по Вашего распоряжения выслать в адрес Азербайджанского Наркомпроса через доверенное лицо А.И.ПУКЛЕВИЧ все имеющиеся у Вас в канцелярии документы б.студента IУ курса экономического Отделения Института Наби МАМЕДОВА /Мамед оглы/ поступления 1913 года.

Копия доверенности Наби МАМЕДОВА, выдан- А.И.Пуклевич при сем прилагается.

/Д.МАНКЕ САДЕ/

/О.ДЖАНАБЕКОВА/

Kiyev Kommersiya İnstitutu rektoruna məktub

Məhəmmədovun (Məhəmmədoğlunun) dəftərxananızda saxlanan bütün sənədlərini etibarlı şəxs A.İ.Pukleviçlə Azərbaycan XMK-nın sərəncamına təcili göndərəsiniz.[1]

N.Məhəmmədov 2 oktyabr 1924-cü ildə Kiyevdə yaşayan vətəndaş Anna İvanovna Pukleviçə onun sənədlərini Kiyev Kommersiya İnstitutundan götürmək üçün etibarnamə verib.[2]

Tələbənin, bütün sənədlərini institutdan götürməsi onun orada bir daha oxumayacağı anlamına gəlir. Buradan bir şey də məlum olur ki, 1924-cü ilədək o, 4-cü kursdan sonra başqa ali məktəbdə təhsilini davam etdirməyib, çünki başqa yerdə oxumaqdan ötrü o hökmən Kommersiya İnstitutundan sənədlərinin əslini götürməli idi, halbuki onlar 1924-cü ilədək orada qalıb. Sənədləri Xalq Maarif Komissarlığının istəməsinə gəlincə, deməli, komissarlıq natamam ali təhsilli iqtisadçı Nəbi Məhəmmədovdan maarif sistemində yararlanmaq fikrinə düşüb.

Nəbi Məhəmmədovun adına bundan sonrakı sənədlərdə rastlaşmadıq.

[1] KŞDA, fond 153, siyahı 5, iş 5124, vərəq 2.

[2] Yenə orada, vərəq 3.

Məmmədli Zal Məşədi Cavad oğlu

(03.04.1898, Şuşa – 17.01.1969, Bakı)



Zal Məmmədli

Zal Məmmədli[1] haqqında indiyədək bircə məqalə qələmə alınıb, o da görkəmli jurnalist Hafiz Sadıqovun "İnşaatçı" qəzetində çıxmış *"Unutsaq unudarlar"* adlı dəyəri yazısıdır.[2]

28 oktyabr 2005-ci ildə Zal Məmmədlinin oğlu *Rüstəm müəllim* və qızı *Adilə xanım*'la söhbətləşərək ataları haqqında xeyli bilgi və mühüm sənədlər əldə etdik. Onlardan öyrəndik ki, Zalın atası *Məşədi Cavad* Şuşada imkanlı tacirlərdən olub. Burada onun böyük dükanı, 3 faytonu varmış.

Məşədi Cavadın 4 oğlu olub. *Talıb* Cümhuriyyət Parlamanı İdarəsində katib işləyib.[3] O, çox savadlı imiş. Qardaşlarını da o oxudub. Sonra Türkiyəyə köçüb gedib. Sərəncam xanımla qurduğu ailədən Bakıda gənc yaşlarında dünyasını dəyişən Elmar adlı oğlu olub.

Məşədi Cavadın ikinci oğlu *Mahmud* Ağdamda tacirlik edib. Onu quldurlar öldürüb. Nisə xanımla ailə quran Mahmudun Validə adlı qızı Ağdamın Qiyaslı kəndində müəllimə işləyib.

Məşədi Cavadın 3-cü oğlu *Bəylər* (1900-1953) okulist professor olub. Onun həyat yoldaşı Xırda xanım Qarayeva akademik Abdulla Qarayevin (1910-1968) bacısı idi. Onların iki qızı olub: Nərminə (musiqiçi, indi Moskvadadır) və Gülər (energetikdir, Neft Akademiyasında işləyir).

Zal Məmmədli Məşədi Cavadın sonbeşiyidir. O, Bilqeyis xanımla (1914-1967) ailə qurub. 3 övladı olub. *Adilə xanım* (1934) rus dili müəlliməsidir. O, Yeni Bakı Neftayırma Zavodunun direktoru Fuad Rəhimovla ailə qurub, Nailə adlı qızları var. *Rasim* (1935-1998) inşaatçı mühəndis idi, Elmira Orucova ilə ailə qurmuşdu. Nigar və Samir adlı övladları var. Sonbeşikləri *Rüstəm* (1940) texniki kibernetika üzrə çalışır, texnika elmləri namizədidir. İndi AR Ali Attestasiya Komissiyasında çalışır. Həkim Leyla xanımla ailə qurub, qızlarına anası Bilqeyis xanımın adını verib.

Zal Məmmədli 1933-cü ildə evləndiyi həyat yoldaşı Bilqeyis xanımı həddən çox sevib. O, Bərdənin Əyricə kəndinin ən hörmətli adamlarından Cəmil bəyin qızıdır. Qafqaz canişini Bərdəyə turac ovuna gələndə onun yorğan-döşəyini Cəmil bəy və onun anası Nigar xanım göndərirmiş. Bilqeyis xanımın anası isə Cəvahir xanımdır.

Bilqeyis xanım dünyasını dəyişəndən sonra Z.Məmmədli deyirmiş ki, daha yaşamağın mənası yoxdur.

***

Bunlar şifahi bilgilərdir. Bəs onun həyatında ən əlamətdar hadisələr hansılardır? Bunu özünün 1 aprel 1953-cü ildə yazdığı, Azərbaycan Politexnik İnstitutunun arxivindən götürdüyümüz tərcümeyi-halından öyrənirik. Doğrudur, bu sənəd kommunistlərin hələ də qan-qan dediyi bir dönəmdə, kommunist rəhbərliyin tələb etdiyi meyarlar əsasında, onun xoşuna gələcək tərzdə yazılıb, ancaq oradan Məmmədlinin həyatının 1930-cu illərədək olan dönəmi haqqında təsəvvür əldə edə bilirik.

[1] Soyadı bir çox qaynaqlarda "Məmmədov" kimi də gedib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.

[2] *Sadıq H.* Unutsaq unudarlar. // *"İnşaatçı"*, 15 iyun 1994-cü il, s. 4.

[3] Bu faktı dəqiqləşdirməyə ehtiyac var, çünki mövcud arxiv sənədlərində onun adına rast gəlmirik.



Zal Məmmədli. Almaniya

Tərcümeyi-halında yazıb ki, mən – Məmmədli Zal Cavad oğlu Şuşa şəhərində 1898-ci ildə kiçik ticarətçi, keçmiş arabaçı ailəsində doğulmuşam. Atam 1912-ci ildə, anam isə 1926-cı ildə vəfat edib. 1906/1907-ci dərs ilindən Ağdam 4-sinifli məktəbində oxumuşam. 1910-cu ildə böyük qardaşım məni Gəncəyə aparıb. Orada gimnaziyaya girərək 1918-ci ildə bitirmişəm. 1918-ci ildə Müsavat Ordusu sıralarına səfərbər edilərək topçu kimi türk-Müsavat qoşunları sıralarında iştirak etmişəm. 1918-ci ilin iyulunda Müsüslüdə ishal xəstəliyinə tutulmuşam və iki ay yarım Gəncədə hərbi hospitalda yatmışam. Tam sağalandan sonra 1919-cu ildə Müsavat hərbi məktəbinə təyin edilmişəm. Məktəbi qurtarmağa iki ay qalmış Müsavat hökumətinin təhsili davam etdirmək məqsədilə abituriyent və tələbələrin tərxis edilməsi haqqında qərarı dərc edildi. Mən ilk ərizə verənlərdən oldum və o saat azad edildim. 1919-cu ilin sonunda Müsavat hökumətinin xaricə göndərdiyi tələbələr siyahısına düşdüm. 1920-ci ildə Drezdendə Ali Texniki Məktəbə girdim və onu 1928-ci ildə bitirdim. 1922-ci ildə Almaniyadakı Sovet Tələbələri Birliyinə girdim. 1 fevral 1926-cı ildə gizli şəkildə Almaniya Kommunist Partiyası sıralarına daxil oldum. Orada 1928-ci ilin noyabrında Almaniyadan gələnədək gizli iş apardım. Mən Almaniya Kommunist Partiyası Saksoniya vilayət komitəsində fəhlələr üçün partiya məktəbində "Leninizm məsələləri" üzrə məşğələlər aparırdım. 1929-cu ildə Komintern vasitəsilə SİKP sıralarına dəyişildim və 23.03.1929-cu ildə SİKP MK-nın verdiyi 10252 saylı vəsiqəyə əsasən 1926-cı ildən, yəni Almaniya Kommunist Partiyası sıralarına girdiyim tarixdən stajım hesablanmaqla partiya bileti aldım. 1929 və 1930-cu illərdə Azərbaycan AXTŞ partiya təşkilatında və 1933-cü ildə Azərb. SSR Kommunal Təsərrüfat Nazirliyi partiya təşkilatında təmizləmələrdən, eləcə də 1935-36-cı illərdə partiya sənədlərinin həqiqiliyinin yoxlanmasından keçmişəm.

Mənim əmək fəaliyyətim hələ 1917-ci ildən – böyük qardaşımın ailəsini tərk etdiyim və öyrətmənliklə[1] dolanışıq və təhsilimi davam etdirmək üçün pul qazandığım vaxtdan başlanıb. Almaniyada Mansfeld mis mədənlərində və kömür şaxtalarında, eləcə də Bavariyada su elektrik stansiyasının (MJAG) tikintisində işləmişəm. Ancaq əsl əmək fəaliyyətim 20.12.1928-ci ildən başlanır. O zamandan fasiləsiz olaraq bugünədək AXTŞ, Kommunal Təsərrüfat Nazirliyi, Dövlət Plan Komitəsi və Azərb. SSR Nazirlər Soveti yanında İncəsənət İdarəsində və yenə Azərb. SSR Kommunal Təsərrüfat Nazirliyi və SSRİ Nazirlər Soveti yanında Mərkəzi Statistika İdarəsi sistemində və nəhayət, SSRİ Mədəniyyət Nazirliyi sistemində davam etməkdədir... 1950-ci ildə Azərb. KP BK yanında axşam Marksizm-Leninizm universitetini bitirmişəm.

[1] Şagird hazırlamaqla.



Zal Məmmədli. Almaniya

Arvadım orta kəndli ailəsindəndir. Onun atasını 1920-ci ildə qırmızı ordu üçün ərzaq tədarükü edərkən bəylər öldürüb. Onun anası indi fərdi təqaüdçüdür. Həm mənim, həm də arvadım tərəfdən həbs olunmuş, eləcə də xaricdə olan qohumlarımız yoxdur. Məhkəmə və istintaqda olmamışam.

Əsas işimlə eyni zamanda pedaqoji fəaliyyətim 1929/30-cu dərs ilindən Sənaye Politexnikumunda və 1931/32-ci dərs ilindən Azərbaycan Sənaye İnstitutunda,[1] eləcə də Kommunal Təsərrüfat Nazirliyinin İnşaat Texnikumunda həm özümün inşaatçı-mühəndis ixtisasım üzrə, həm də alman dili üzrə başlanıb.[2]

* * *

Zal Məmmədlinin həyatı haqqında ən etibarlı sənədlərin bir qismi də ARPİİSSA-da saxlanılır.[3] Onun 18 noyabr 1938-ci ildə öz əli ilə yazdığı tərcümeyi-halı indicə oxuduğumuz sənədi məzmunca tamamlayır. Burada da Məmmədlinin həyatını yalnız 1930-cu illərədək izləyə bilirik. Tərcümeyi-halda oxuyuruq:

"Gəncə valiliyi Şuşa şəhərində (DQMV) 1898-ci ildə, kiçik ticarətçi ailəsində doğulmuşam. 1906-1909-cu illərdə Ağdamda rus-türk məktəbində oxumuşam. 1909-cu ildə Gəncədə sülh hakiminin katibi işləyən böyük qardaşım məni öz yanına aparıb və həmin il Gəncə kişi gimnaziyasına girmişəm. 1917-ci ilədək qardaşımın yanında yaşamışam. 1917-ci ildə onun yanından gedərək öyrətmənliyə başlayıb müstəqil şəkildə gimnaziyanı 1918-ci ildə bitirmişəm. Gimnaziyanı qurtarandan az sonra Azərbaycan Müsavat-Türk ordusuna səfərbər edilmişəm. Həmin il Bakı cəbhəsinə topçu kimi düşmüşəm. Cəbhədə ağır xəstələnmişəm və Türk qoşunlarının Bakı şəhərini tutduğu vaxt Gəncə hərbi xəstəxanasında yatmışam.[4] Sağalandan sonra Gəncədə hərbi məktəbə (praporşiklər məktəbinə) təyin edilmişəm. Müsavat hökumətinin fərmanı ilə 1918-ci ildə hərbi səfərbəyliyə alınmış, başqa tələbələrlə birlikdə 1919-cu ildə azad edilmişəm.

Həmin il mən Müsavat hökumətinin xaricə oxumağa göndərdiyi yüz tələbə siyahısına nüfuzlu və dövlətli valideynlərin himayəsi ilə deyil, kasıblığına və attestatlarının müsabiqəsinə görə düşmüş azsaylı tələbələrdən olmuşam.



Zal Məmmədli. Almaniya

[1] İndiki Neft Akademiyası.

[2] Azərbaycan Politexnik İnstitutunun Arxivi (bundan sonra: APİA), fond 1, siyahı 67, iş 19, vv. 24-24a.

[3] ARPİİSSA, fond 1, siyahı 7, iş 3390; fond 1, siyahı 8, iş 3479.

[4] Bu cümlənin məzmunu o anlama gəlir ki, "Bakı alınarkən mən ermənilərlə vuruşmamışam". Müstəntiqlər ermənilərlə döyüşənlərə xüsusi qəddarlıqla yanaşırdılar.



Zal Məmmədli və Məhəmməd Rəhimli. Almaniya

1920-ci ilin yanvarında Almaniyaya gedərək Drezdendə Ali Texniki Məktəbə girmişəm. 1926-cı ilin fevralında Almaniya Kommunist Partiyası sıralarına girərək orada "Adolf Bedke" gizli adı altında işləmişəm. 1928-ci ildə Ali Texniki Məktəbi bitirən kimi vətənə dönmüşəm.

Öz gizli partiya biletimi Almaniya Kommunist Partiyasının Saksoniya vilayət komitəsində qoymuşam və üzvlüyümün Komintern vasitəsilə ÜK(b)P sıralarına keçirilməsi haqqında ərizə vermişəm. 1928-ci ilin noyabrında Almaniyadan gələrkən Moskvada Kominternə baş çəkib rusca və almanca anketləri doldurараq ÜK(b)P-na keçirilməyim haqqında ərizə yazmışam.

Bakıya gəlincə AK(b)P MK məni Ali Xalq Təsərrüfatı Şurasına (AXTŞ) məsul işə göndərib. İxtisasım üzrə – inşaatçı mühəndis işləmək istədiyimə görə öz xahişimlə AXTŞ-nın Azdövlettexinşaat idarəsinə mühəndis kimi göndərilmişəm.

3 aprel 1929-cu ildə AK(b)P MK mənə stajım 1926-cı ildən sayılmaqla ÜK(b)P üzvlüyünə qəbul edilməyim haqqında MK-nın katibi yol. Molotovun imzası ilə 23.0.1929-cu il tarixli 10252 saylı vəsiqə verib. Bu vəsiqəyə əsasən mənə AK(b)P şəhər komitəsində 1116374 saylı köhnə nümunəli partiya bileti veriblər... Almaniyada Sovet Tələbələri Birliyi Drezden bölməsinin sədri olarkən mən əslində Drezden Ali Texniki Məktəbində Almaniya kompartiyasına girdiyim tələbə təşkilatının da işinə rəhbərlik edirdim".[1]

* * *


Bu ümumi bilgilərdən sonra geriyə dönərək AR Dövlət Arxivindəki sənədlərə üz tutaq.

21 avqust 1907-ci ildə verilmiş 2397 saylı doğum şəhadətnaməsində yazılıb: "Verilir bu şəhadətnamə Zaqafqasın Şiəməzhəb Müsəlmanlarının İdareyi-Ruhaniyyəsindən ol xüsusda ki, Yelisavetpol quberniyasının Şuşa şəhərinin sakini Zal Məşədi Cavad oğlu təvəllüd edibdir öz atası Məşədi Cavad Məşədi Məhəmməd oğlu Məhəmmədovun mənkuheyi-şəriyyəsi Güllü Kərbəlayı Rüstəm qızından 1898-ci ildə və təvəllüdünün ayı və günü məlum deyildir".[2]

Gəncədə 15 mart 1918-ci ildə verilmiş 278 saylı kamal attestatında qeyd olunub ki, vətəndaş Zal Məşədi Cavad oğlu Məmmədov 30 yanvar 1910-cu ildə Gəncə kişi gimnaziyasına girərək orada 20 fevral 1918-ci ilədək əla əxlaqla oxuyub, səkkizsiniflik tam kursu bitirib və bu zaman aşağıdakı bilikləri qazanıb:

Şəriət –	5 (beş)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	4 (dörd)
Fəlsəfi propedevtika –	4 (dörd)
Latın dili –	4 (dörd)

[1] ARPİİSSA, fond 1, siyahı 8, iş 3479, vv. 4-7.
[2] ARDA, fond 51, siyahı 3, iş 105, vərəq 3.



Almaniyada təhsil alan azərbaycanlı tələbələr. *Soldan sağa:* Zal Məmmədli, Surxay bəy Şahsuvarov, Mürsəl bəy Şahsuvarlı. 1920-ci illər

Riyaziyyat –	4 (dörd)
Riyazi coğrafiya –	4 (dörd)
Fizika –	4 (dörd)
Tarix –	4 (dörd)
Qanunşünaslıq –	3 (üç)
Coğrafiya –	3 (üç)
Fransız dili –	4 (dörd)
Alman dili –	5 (beş).[1]

1917-ci ildə Bakı şəhərində Qafqaz müsəlman şagirdlərinin I qurultayı keçirilib. 10 mayda çəkilmiş xatirə fotolarında qurultay iştirakçıları arasında Zal Məmmədlini də görürük. Deməli, onu buraya yaxşı oxuduğuna görə nümayəndə seçiblər.

Şuşa şəhərinin sakini, Gəncə şəhərində Bulatov küçəsi 58-də yaşayan Zal Məmmədov 17 avqust 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizədə onun da xaricə dövlət hesabına göndəriləcək tələbələr sırasına salınmasını xahiş edib və Frayberq Dağ İnstitutunun mühəndislik bölümünə girmək istəyini bildirib.[2]

Şuşa qəzasının qaimməqamı Şuşa şəhərinin sakini Zal Məmmədova 11 avqust 1919-cu ildə 1314 saylı belə bir vəsiqə verib ki, onun ailəsi bunlardan ibarətdir: 21 yaşlı subay Zalın özü; 45 yaşlı dul anası Güllü; qardaşları: 35 yaşlı Talıb, ailəli, arvadı və uşağı var, Bakıda ayrıca yaşayır; 30 yaşlı Mahmud, ailəli, arvadı və uşağı var, Qiyas kəndində yaşayır.[3]

[1] ARDA, fond 51, siyahı 3, iş 105, vərəq 2.
[2] Yenə orada, vv. 1-1a.
[3] Yenə orada, vərəq 4.



Mühəndis və texniklərin 4-cü Ümumittifaq qurultayının nümayəndələri.
Zal Məmmədli - *arxa cərgədə sağdan 2-ci*. Moskva, 15 aprel 1929-cu il



Mühəndis və texniklərin 4-cü Ümumittifaq qurultayının nümayəndələri.
Zal Məmmədli - *ən arxa cərgədə soldan 5-ci (dairədə)*. Moskva, 15 aprel 1929-cu il



Zal Məmmədli *(arxa sırada ortada)*. Çox güman ki, Layihə İnstitutu kollektivi ilə

Gəncədən 2 oktyabr[1] 1919-cu ildə xaricə göndərilən tələbələrin ərizələrinə baxan Komissiyaya məktub yazan Məmmədov XMN-nin 24 oktyabr 1919-cu il tarixli elanında göstərilən bütün şərtləri yerinə yetirdiyini bildirib.[2]

O, təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında 24 dekabr 1919-cu ildə [3] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında 30 dekabr 1919-cu ildə[4] dilkağızları verib.

Zal Məşədi Cavad oğlu Məmmədova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 574 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[5]

Hafiz Sadığın məqaləsindən öyrənirik ki, Məmmədli 1920-ci ildən 1923-cü ilədək Almaniyada – Frayberq Dağ-Mədən Akademiyasında oxuyub, ancaq kömür şaxtalarında işləməsi onun səhhətini pozub və buradakı təhsilini yarımçıq qoymalı olub. 1923-cü ildən Drezden şəhərindəki Ali Texniki Məktəbin inşaat fakültəsinə girib, 1928-ci ildə oranı bitirib və inşaatçı mühəndis diplomu alaraq SSRİ-yə qayıdıb.[6]

* * *

Vətənə "Məmmədli" soyadıyla dönmüş Zalın hansı işlərdə çalışdığını ən dəqiq şəkildə onun 1 aprel 1953-cü ildə doldurduğu kadr uçotunun şəxsi vərəqəsindən

[1] Məktubun məzmunundan aydın olur ki, yazılma tarixi yanlış göstərilib – 2 oktyabr yox, 2 noyabr olmalıdır.
[2] ARDA, fond 51, siyahı 3, iş 105, vv. 5-5a.
[3] Yenə orada, vərəq 6.
[4] Yenə orada, vərəq 7.
[5] Yenə orada, vərəq 8.
[6] *Sadıq H.* Unutsaq unudarlar. // *"İnşaatçı"*, 15 iyun 1994-cü il, s. 4.



Məmmədlilər ailəsi: Zal, Rüstəm *(oğlu)*, Bilqeyis xanım *(yoldaşı)*. Borjomi, 13 iyul 1946-cı il

öyrənirik. Azərbaycan Politexnik İnstitutunun arxivindən götürdüyümüz həmin sənəddə onun işlədiyi yerlər və tarixlər bu ardıcıllıqla sıralanıb:

"20.12.1928 – 10.11.1932 – Azərb. SSR Kommunal Təsərrüfat Nazirliyi yanında Azərbaycan Dövlət Layihə İnstitutunun direktoru.

10.11.1932 – 04.03.1937 – İnşaat İdarəsinin rəisi və Azərb. SSR Kommunal Təsərrüfat Nazirliyi Kollegiyasının üzvü.

04.03.1937 – 04.10.1938 – Azərb. SSR Nazirlər Soveti yanında Dövlət Plan Komitəsi inşaat bölümünün rəisi.

04.10.1938 – 15.04.1940 – Azərb. SSR Nazirlər Soveti yanında İncəsənət İdarəsi abidələrin tikintisi rəisi.

15.04.1940–01.06.1943–Azərbaycan Dövlət Layihə İnstitutu direktorunun müavini və Azərb. SSR Kommunal Təsərrüfat Nazirliyinin baş mühəndisi.

01.06.1943 – 01.01.1945 – SSRİ Nazirlər Soveti yanında Mərkəzi Statistika İdarəsinin Azərbaycan Tədris Kombinatının tədris hissəsi üzrə direktor müavini.

01.01.1945 – 01.11.1950 – K.Marks adına Xalq Təsərrüfatı İnstitutu xarici dillər kafedrasının müdiri.

01.11.1950-ci ildən Azərbaycan Politexnik İnstitutunda xarici dillər kafedrasının müdiri".[1]

Bu kadrlar vərəqəsində ünvanı Bakı, 1 May küçəsi 225, 13-cü mənzil göstərilib.[2]

* * *

Zal Məmmədlinin oğlu Rüstəm müəllim və qızı Adilə xanımın 28 oktyabr 2005-ci ildə bizə danışdıqlarından:

– Almaniyada oxuyarkən Müsavat hökuməti yıxıldıqdan sonra başqa tələbələr kimi Zal Məmmədli də pulsuz qalıb, şaxtada işləməyə məcbur olub. Ruhulla Axundov tələbələrin işi ilə bağlı Berlində olarkən Zal Məmmədli də onunla görüşüb. Təhsilini bitirib SSRİ-yə qayıdarkən onu Moskvada Dövlət Tikinti İdarəsində saxlamaq istəyiblər, ancaq o, Azərbaycanda işləməyi üstün



Zal Məmmədli. 1965



Zal Məmmədlinin həyat yoldaşı Bilqeyis xanım

[1] APİA, fond 1, siyahı 67, iş 19, vv. 22-23.

[2] Yenə orada, vv. 22-23.



Bəylər Məsədi Cavad oğlu



Adilə Zal qızı



Rasim Zal oğlu



Rüstəm Zal oğlu

tutduğuna görə orada qalmayıb. Bakıya gələndən sonra bacarığını görərək nazir təyin etmək istəyiblər, ancaq o razılaşmayıb, çünki "narkom"ların taleyinə bələd idi.

Yeni qurduğu ailəsinə dəniz kənarında Qız qalası ilə üzbəüzdəki İsa bəy Hacınskinin mülkündə mənzil veriblər. Görüb ki, burada yaşayanların evlərini əlindən almaqdan ötrü onları "xalq düşməni" edirlər, ona görə də vaxtında mənzilini şəhərin başqa yerinə dəyişib.

Almaniyada da, Bakıda da ən yaxın dostları Surxay və Mürsəl Şahsuvarlılar, Yusif Ağasıbəyli olub. Surxay bəy həbs ediləndən sonra Zal Məmmədlini çəkistlər çağıraraq onu "xalq düşməni"nin evinə getdiyinə görə sıxma-boğmaya salıblar. Məmmədli isə mərdi-mərdana bildirib: *"Mən Surxay Şahsuvarovun evinə getmirəm, mən onu himayə edirəm. Buradan da çıxıb onun evinə gedəcəyəm".*

Övladlarının dediklərinə bunu da əlavə edək ki, Zal Məmmədli istər 1937-38-ci illərdə, istərsə də sonralar repressiya olunmayıb və adı çəkiləndə hamının zağ-zağ əsdiyi çəkistlərlə də belə ürəkli danışması təsadüfi deyildi. Onu ölümdən qurtaran və cəsarətli edən bu amil idi ki, onun Almaniya kompartiyası biletinin üstündə alman kommunistlərinin başçısı Ernst Telmanın və SSRİ-dəki partbiletinin üstündə isə Molotovun imzaları olub. Bu, o dönəmdə olduqca təsirli bir müdafiə vasitəsi idi.

Zal Məmmədli almanca və ruscanı da ana dili kimi gözəl bilib və 3 dildə şeirlər yazıb. Şeir yazmasını övladlarından eşitsək də onlarla tanış ola bilmədik. Yəqin haçansa onlar da üzə çıxar.

Azərbaycan Politexnik İnstitutu rektorunun əvəzi, dosent M.Orucəliyevin 20 dekabr 1967-ci il tarixli 698 saylı əmri ilə İnstitutun xarici dillər kafedrasının baş müəllimi Zal Cavad oğlu Məmmədli təqaüdə çıxması ilə bağlı olaraq 15 dekabr 1967-ci ildən tutduğu vəzifədən azad edilib.[1]

Bütün həyatını coşğun və yaradıcı işə həsr etmiş bu ləyaqətli Cümhuriyyət tələbəsi təqaüdə çıxdıqdan bir il sonra – 17 yanvar 1969-cu ildə Haqqın rəhmətinə qovuşdu. Yeri cənnət olsun!

[1] APİA, fond 1, siyahı 67, iş 19, vərəq 47.

Məmmədov Qəhrəman İsrafil oğlu

(1897, Bakı – 04.03.1949, Çarcou/ Türkmənistan)



Qəhrəman Məmmədovun anası Leyla xanım Məmmədova

Almaniyada ali təhsil almış Qəhrəman Məmmədov haqqında indiyədək heç nə yazılmayıb. Biz 29 noyabr 2005-ci ildə onun qardaşı Teyyubun oğlu professor *Fuad Məmmədovla* görüşərək əmisi haqqında bilgi əldə etdik. O, bizə lütfkarlıqla Q.Məmmədov və ailəsi ilə bağlı xeyli fotosənəd verdi və bizi onun nəsli ilə tanış etdi. Professor söhbətdə bildirdi ki, vaxtilə Azərb. EA Memarlıq və İncəsənət İnstitutunun direktoru işləmiş akademik Mikayıl Hüseynov mənə deyib ki, məni və memar Sadıq Dadaşovu Moskvaya oxumağa Qəhrəman Məmmədov göndərib. Fuad bəydən öyrəndik ki, Azərbaycan Memarlar İttifaqını 1934-cü ildə Qəhrəman Məmmədov yaradıb və onun ilk sədri də özü olub.

Q.Məmmədovun həyat yoldaşı Mədinə xanım Müftizadə kökcə Qazaxdandı. Onların bircə övladı olub – Tamilla xanım; o, ərə gedəndən sonra Tiflis şəhərinə köçüb və orada diş həkimi işləyib; onun övladları Teymur Şahbəyov Tiflisdədir, Alik (Əli) isə Kanadaya köçüb, orada yaşayır. Qəhrəmanın atası İsrafil Kərbəlayı Məlikrza oğlu Məmmədov müəllim işləyib. Ancaq onun həyatı haqqında demək olar ki, heç nə bilinmir. O, 1899-cu ildə nökərlərindən Kamil Məcid oğlu və Əziz Məşədi Nəcəfqulu oğlu ilə birgə Məşhədə gedib.

* * *



Qəhrəman Məmmədov

AR Dövlət Arxivində saxlanılan şəxsi işindəki sənədlər Q.Məmmədovun həyatının Almaniyaya oxumağa gedənədək olan dövrünü əks etdirir. Bunlar doğum haqqında şəhadətnamə, təhsil haqqında sənədləri, ərizələri, dilkağızları, ona verilmiş vəsiqə və b. bəlgələrdir.

8 avqust 1909-cu ildə verilmiş doğum haqqında 2547 saylı şəhadətnaməsində göstərilib ki, Zaqafqasın Şiəməzhəb Müsəlmanlarının İdarəyi-Ruhaniyyəsi bu sənədi o haqda verib ki, Bakı şəhərinin sakini Qəhrəman İsrafil oğlu öz atası İsrafil Kərbəlayı Məlikrza oğlunun mənkuheyi-şəriyyəsi[1] Leyla Kərbəlayı Həsənrza qızından 1897-ci ildə təvəllüd edibdir və təvəllüdünün ayı və günü məlum deyildir.[2]


Bakıda 25 may 1918-ci ildə Bakı Politexnik Məktəbinin pedaqoji şurasından verilmiş şəhadətnamədə isə Qəhrəman Məmmədovun həmin məktəbin tikinti bölməsi (özəlliklə, memarlıq-tikinti işi) üzrə elmlərin tam kursunu bitirdiyi və yekun imtahanlarında aşağıdakı uğurları qazandığı qeyd olunub:

Şəriət –	keçməyib
Rus dili –	yaxşı (4)
Cəbr –	əla (5)
Həndəsə –	əla (5)
Fizika –	yaxşı (4)
Sulu boya ilə rəsm –	yaxşı (4)
Konstruksiya rəsmxəti –	əla (5)
Emalatxanalar –	yaxşı (4)

[1] Qanuni arvadı.

[2] ARDA, fond 51, siyahı 3, iş 93, vərəq 4.





Qəhrəman Məmmədov. Almaniya

Triqonometriya –	əla (5)
Mineralogiya –	yaxşı (4)
Xəttatlıq –	yaxşı (4)
Tərsimi həndəsə –	əla (5)
Kimya –	yaxşı (4)
Nəzəri mexanika –	yaxşı (4)
Geodeziya –	əla (5)
Karandaşla rəsm –	yaxşı (4)
Memarlıq rəsmxəti –	əla (5)
Analitik həndəsə –	yaxşı (4)
Materiallar müqaviməti –	əla (5)
Bina hissələri –	əla (5)
Tikinti işləri –	yaxşı (4)
Tikinti materialları –	yaxşı (4)
Memarlıq formaları –	əla (5)
Kölgələr nəzəriyyəsi –	yaxşı (4)
Qrafostatika –	əla (5)
Yollar və körpülər –	yaxşı (4)
İsitmə və havadəyişmə –	əla (5)
Dəmir-beton –	əla (5)
Smetalar –	yaxşı (4).[1]

[1] ARDA, fond 51, siyahı 3, iş 93, vv. 3-3a.



Almaniyada oxuyan tələbələr.
Soldan sağa: Qəhrəman Məmmədov, Mirismayıl Seyidzadə, Əliəkbər Əliyev

Eyni tarixdə verilmiş 674/485 saylı attestatda göstərilib ki, Qəhrəman Məmmədov Bakı Politexnik Məktəbinə 1914-cü ildə girərək orada 25 may 1918-ci ilədək oxuyub və memarlıq-tikinti bölümü üzrə elmlərin tam kursunu bitirib. Buna görə də ona memarlıq-tikinti ixtisası üzrə texnik rütbəsi verilib.[1]

Bakıda Aziatski[2] küçədə 18-ci evdə yaşayan Q.Məmmədov 7 avqust 1919-cu ildə maarif nazirinə yazdığı ərizəsində Almaniyada dövlət hesabına ali təhsil almaq istədiyini bildirib.[3] (Sənədin aşağısında 123 saylı xarici pasportun ona 11 dekabr 1919-cu ildə verilməsi haqqında qeyd var).

15 noyabr 1919-cu il tarixli ərizəsində isə o, Berlində memarlıq ixtisası üzrə oxumaq istədiyini bildirib.[4]

31 dekabr 1919-cu ildə Məmmədov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[5] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[6] dilkağızları verib.

Qəhrəman İsrafil oğlu Məmmədova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 519 saylı vəsiqə 13 yanvar 1920-ci ildə təqdim olunub.[7]


* * *

Qəhrəman Məmmədov 1920-1924-cü illərdə Berlin Politexnik İnstitutunda, 1924-1928-ci illərdə Darmştadt Politexnik İnstitutunda inşaat ixtisası üzrə oxuyub. Lətif Qədimi 1940-cı ildə istintaqda bildirmişdi ki, mənimlə Berlində inşaat fakültəsində Behbud Zeynallı və Qəhrəman Məmmədov oxuyublar.[8]

Məmmədov Almaniyada da, Azərbaycanda da özünü gerçək kommunist kimi göstərib. Kommunist olduğuna görə ARPİİSSA-da bəzi sənədləri qalmaqdadır.

Onun "kadroların hesabı üçün şəxsi vərəqə"sindən[9] tərcümeyi-halı ilə bağlı aşağıdakı bilgiləri öyrənirik:

- Məmmədov Qəhrəman İsrafil oğlu 1898-ci ildə Bakıda doğulub, Türkdür, meşşandır, atası dəmirçi olub (ölüb); 1922-ci ildən ÜK(b)P üzvüdür; ali təhsillidir; 1906-1908-ci illərdə rus-türk məktəbini, 1908-1914-cü illərdə şəhər məktəbini, 1914-1918-ci illərdə Bakı Texniki Məktəbini, 1920-1928-ci illərdə Almaniyada Politexnik İnstitutu bitirib; mühəndisdir. 10 dekabr 1928-ci ildən 11 mart 1933-cü ilədək Azərbaycan Yol-Nəqliyyat İdarəsi rəisinin müavini, 1933-cü ilin martından 1937-ci ilədək Azərbaycan Dövlət Layihə İdarəsinin direktoru olub. 1920-1923-cü illərdə Almaniyada Sovet Azərbaycanı Tələbələri Birliyinin, 1923-1924-cü illərdə Sovet Zaqafqaziyası Tələbələri Birliyinin, 1924-28-ci illərdə SSRİ Tələbələri Birliyinin ilk ikisində sədri, üçüncüsündə İcraiyyə Komitəsinin üzvü olub. Türk, rus və alman dillərini mükəmməl bilir.[1]



Qəhrəman Məmmədov həbsdə. 1938

* * *

Məmmədov Qəhrəman İsrafil oğlunun AR MTN Arxivində saxlanılan 24249 saylı (indi: PR-25476) istintaq işində də onun həyatı ilə bağlı maraqlı bilgilərə rast gəlirik. Onlardan ən mühümlərini seçərək aşağıda veririk.

Q.Məmmədovu Azərb. XDİK DTİ III bölməsi 10 avqust 1938-ci ildə verilmiş M-55 saylı orderə əsasən 11 avqust 1938-ci ildə həbs edib.

2773 saylı məhbus anketindən bilgilər: Məmmədov Qəhrəman İsrafil oğlu – 1898-ci il Bakı doğumlu; yaşayış yeri: Bakı şəhəri; mühəndis, iş yeri: Xalq Kommunal Təsərrüfatı Komissarlığı, yaşayış idarəsinin baş mühəndisi; qulluqçulardan; ali təhsilli. 1937-ci ildə ÜK(b)P-dən çıxarılıb. Ailə tərkibi: arvadı *Mədinə*, 26 yaş; qızı *Tamilla*, 5 yaş.[2]

1938-ci ilin avqustundan 1939-cu ilin aprelinədək cəmi 4 dəfə dindirilib. İstintaqdakı uzunmüddətli fasilələr oxucularda belə təsəvvür yarada bilər ki, Məmmədov həbsxanada başqaları ilə müqayisədə işgəncələrdən nisbətən uzaq olub. Unutmamaq gərəkdir ki, çekistlərin ən "mədəni", ancaq ən təsirli üsullarından biri müttəhimi təkadamlıq kamerada saxlayaraq aylarla dindirməmək idi. İstintaqdakı fasilələr dustaqlarda dəhşətli psixoloji sarsıntı yaradırdı. Fikir verək, Məmmədovun 11 avqust dindirməsindən sonrakı 2-ci dindirməsi noyabrın 1-də olub, 11 noyabr1938-ci ildəki 3-cü dindirməsindən 20 aprel 1939-cu ildəki 4-cü və sonuncu dindirməsinədək isə 5 aydan artıq vaxt keçib. 3-5 ay dindirilməyən və təkadamlıq kamerada yatan dustağın əsəb sistemi bəzən gərginliyə dözməyərək pozulurdu...

1 noyabr 1938-ci il tarixli 2-ci dindirməsində o, müstəntiqin tələbi ilə yaxın qohumlarından 4 doğma qardaşını sadalayır:

Məmmədov Əliabbas İsrafil oğlu – 1896-cı il; İctimai-İqtisadi İnstitutda müəllim işləyir.

Məmmədov İsgəndər İsrafil oğlu – 1902-ci il; Bakısənayeticarətdə iqtisadçı işləyib, indi həbsdədir.

Məmmədov Hüseyn İsrafil oğlu – 1905-ci il; Xalq Rabitə Komissarlığında inzibati- təsərrüfat şöbəsinin rəisidir.

[1] ARDA, fond 51, siyahı 3, iş 93, vərəq 2.
[2] İndiki Əliövsət Quluyev küçəsi.
[3] ARDA, fond 51, siyahı 3, iş 93, vərəq 1.
[4] Yenə orada, vərəq 5.
[5] Yenə orada, vərəq 6.
[6] ARDA, fond 51, siyahı 3, iş 93, vərəq 7.
[7] Yenə orada, vərəq 8.
[8] AR MTN Arxivi, PR-35911, vərəq 110.
[9] ARPİİSSA, fond 1, siyahı 8, iş 3545, vv. 1-2.

[1] ARPİİSSA, fond 1, siyahı 8, iş 3545, vv. 1-2.
[2] AR MTN Arxivi, PR-25476, vərəq 2.


Əliabbas Məmmədov


Teyyub Məmmədov


İsgəndər Məmmədov


Hüseyn Məmmədov

Məmmədov Teyyub İsrafil oğlu – 1914; AQNİ-nin[1] tələbəsidir.[2]

İkinci dindirməsindəki sual-cavabdan:

"...*Cavab:* Mən Bakı şəhər əhlindənəm. Atam dəmirçi olub və atları nallayıb.

Sual: Siz dəmirçi oğlu ola-ola himayəsiz xaricə oxumağa necə düşmüsünüz, özü də Müsavat hökumətinin hesabına?

Cavab: Mən təqaüdçülər sırasına Bakı Texniki Məktəbini əla bitirdiyimə görə salınmışdım.

Sual: Siz xaricdə olarkən harada oxumusunuz?

Cavab: Mən 1920-ci ildən 1924-cü ilədək Berlində – Şarlottenburqda Politexnik İnstitutda oxumuşam. 1924-cü ildən 1928-ci il də daxil, Darmştadt şəhərində (Almaniya) Politexnik İnstitutun tələbəsi olmuşam".[3]

20 aprel 1939-cu il tarixli 4-cü dindirməsindən:

"...*Cavab:* 1933-cü ildə mən Azərdövlətlayihəyə işləməyə keçdim. Bir müddətdən sonra [Ağa bəy] Səlimbəyov oraya işə keçdi. Beləliklə, mənim onunla tanışlığım 1936-cı ilin sonunadək, yəni mənim Azərbaycan K(b)P MK bürosuna çağırıldığım vaxtadək davam etdi; Büroda Azərdövlətlayihənin işi haqqında məsələ qoyulmuşdu. O vaxt Büroda Azərb. K(b)P MK katibi M.Bağırov Azərdövlətlayihə aparatının zibillənməsinə toxundu və eyni zamanda Səlimbəyov, Tarxanov, Belkov və başqaları haqqında mənfi fikirlər söylədi, həm də Səlimbəyovu və başqalarını da işdən çıxarmaq təklif edildi. Azərb. K(b)P MK katibinin bu təklifi mənə Səlimbəyovla bütün əlaqələri kəsməyin zəruriliyi haqqında xəbərdarlıq oldu... Səlimbəyov Azərdövlətlayihədə plan şöbəsinin müdiri işləyirdi".[4]

"...*Cavab:* Bəli, mən Azərbaycan Sovet Tələbələri Komitəsinə rəhbərlik etmişəm.

Sual: Azərbaycan Sovet Tələbələri Komitəsi öz işində nə məqsəd güdürdü?

Cavab: 1920-ci ildə Azərbaycan sovetləşəndən sonra tələbələrin çoxu sovet dövlətinin təqaüdçüləri sırasına qəbul edildi. Yaradılmış Azərbaycan Sovet Tələbələri Birliyi Komitəsi öz qarşısına tələbələr arasında burjua-millətçi ünsürlərlə mübarizə məsələsi qoymuşdu.

[1] Azərbaycan Qırmızıbayraqlı Neft İnstitutu.
[2] AR MTN Arxivi, PR-25476, vərəq 19.
[3] Yenə orada, vərəq 21.
[4] Yenə orada, vərəq 32.


Qəhrəman Məmmədov Bakıda Aziatski 18-dəki mənzilində.
İndi burada professor Fuad Məmmədov yaşayır

Sual: Azərbaycan Sovet Tələbələri Komitəsinin tələbələr arasında burjua-millətçi ünsürlərə aid etdiyi konkret şəxslərin adını çəkin.

Cavab: Milliyətçilik təzahürü göstərən bu tələbələr yadımda qalıb: *İsgəndərli Ağalar* – Berlin Politexnik İnstitutu kimya fakültəsinin tələbəsi; *Hacızadə Mirzə* – Berlin Kənd Təsərrüfatı İnstitutunun tələbəsi; *Sultanov İsgəndər* – Berlin Politexnik İnstitutunun tələbəsi; *Ağaoğlu*,[1] adını bilmirəm – Berlin Universiteti tarix fakültəsinin tələbəsi; tələbələr *Münşiyev*[2] və *Nuruyev*[3] – adlarını xatırlamıram, harada olduqlarını da bilmirəm. Bütün sadaladıqlarımdan Sovet İttifaqına, deyəsən, yalnız Sultanov İsgəndər qayıtdı, onun da indi harada olduğu mənə bəlli deyil. Yerdə qalanlar, bildiyim qədərincə, Almaniyada qaldılar".[4]

Diqqət yetirilsə görüləcək ki, Məmmədov elə adamların adını çəkir ki, XDİK artıq onlara ziyan verə bilməz – onlar ya xaricdədir, ya da burada artıq həbsdədir (o, boynuna almasa da, İ.Sultanovun həbs edilərək məhkum olduğunu bilməmiş deyildi).

Məmmədovun istintaq sənədləri arasında Bəhram Hüseynzadənin 4 dekabr 1938-ci ildə verdiyi ifadəsindən çıxarış var. Hüseynzadə bildirib ki, mən Darmştadtda Politexnik İnstitutda oxuyaraq ali təhsilimi 1926-cı ildə orada bitirmişəm. Orada mənimlə birgə oxuyanlar və sonra Sovet İttifaqına qayıdanlar Məmmədov Qəhrəman, Rəhimli Məhəmməd və Rzazadə İsgəndərdir. Bu zaman müstəntiq ondan bu tələbələrin şəxsiyyətini səciyyələndirməyi tələb edib.

[1] Məhəmməd Ağaoğlu nəzərdə tutulub.
[2] Hilal Münşi nəzərdə tutulub.
[3] Hacıağa Nuruyev nəzərdə tutulur, ancaq o, Cümhuriyyət tələbəsi deyil, çünki oxumağa sovet dövründə göndərilib.
[4] AR MTN Arxivi, PR-25476, vv. 35-35a.



Qəhrəman Məmmədov həyat yoldaşı Mədinə xanım və qızı Tamilla ilə

"Cavab: Məmmədov Qəhrəman heç vaxt xoşuma gələn adam olmayıb, çünki o, özünü başqalarından uca tutub. Bu mənfi cəhəti Məmmədovu başqa tələbələrdən ayırırdı. Ümumiyyətlə, Məmmədov haqqında, özəlliklə onun böyük şəxsiyyəti haqqında heç nə deyə bilmərəm, çünki onunla yaxın əlaqəm olmayıb. Rəhimli Məhəmmədə gəlincə, o, əla yoldaşdı, ünsiyyətcildi, canıyanandı, dərslərində bacarıqlıydı və hamının rəğbətini qazanmışdı. Rzazadə İsgəndər bununla seçilib ki, böyük eqoist idi, eyni zamanda çox sadəlövhdü, mənsəbini yüksəltməyə can atandı. Ümumilikdə Rzazadə müsbət tipdir.

Yuxarıda adlarını çəkdiklərimin siyasi şəxsiyyəti, onların Almaniyadakı məişəti mənə yalnız müsbət tərəfdən bəllidir. Onların hamısı sovet hakimiyyətinə loyal münasibətdə olub və SSRİ-yə tezliklə qayıtmağı arzu edib.

Almaniyadan qayıtdıqdan sonra onların siyasi dünyagörüşü mənə bəlli deyil, çünki onlarla yalnız təsadüfi görüşlərdə üzüzə gəlmişik. Təsadüfi görüşlər də nadir hallarda olub, çünki mən əsasən Gəncədə işləmiş və yaşamışam, onlar isə Bakıda olub".[1]

Əməliyyat müvəkkili, DT çavuşu A.Tsxomelidze və DT kapitanı N.Qriqoryan 30 aprel 1939-cu ildə istintaqın bitməsi haqqında protokol tərtib ediblər. Burada göstərilib ki, müttəhim özünün əks-inqilabi millətçi üsyançı təşkilata mənsub olduğunu qəti şəkildə inkar edib.[2]

SSRİ XDİK Özəl Müşavirəsinin 21 iyun 1939-cu il qərarı ilə (15-ci protokol) Məmmədov Qəhrəman İsrafil oğlu antisovet millətçi təşkilatda iştirakına görə müddəti 11 avqust 1938-ci ildən sayılmaqla 5 illiyə islah-əmək düşərgələrinə məhkum edilib.[3]

Sənədləri arasındakı 18 avqust 1945-ci il tarixli bir arayışda oxuyuruq ki, Q.Məmmədov cəzasını 11 avqust 1938-ci ildən 14 avqust 1943-cü ilədək çəkib və cəza müddəti bitdikdən sonra düşərgədə sərbəst muzdlu işə saxlanılıb. 14 avqust 1943-cü ildə XDİK Ustvım İƏD-dən[4] azad edilib. Komi MSSR Dəmiryol rayonunun Vojayel qəsəbəsinə yaşamaq üçün göndərilib.[5]

[1] AR MTN Arxivi, PR-25476, vv. 54-55.
[2] Yenə orada, vərəq 73.
[3] Yenə orada, vərəq 96.
[4] İslah-əmək düşərgəsindən.
[5] AR MTN Arxivi, PR-25476, vərəq 2.



Soldan sağa: Şirin bəy Kəsəmənli, yoldaşı Qeysər xanım Kaşıyeva, Qeysər xanımın qardaşı Davud. Tiflis, 1916



Qəhrəman Məmmədovun qardaşı Teyyub yoldaşı Ləiyyə xanım, oğlu Fuadla. Təx. 1950

Məmmədov 16 avqust 1946-cı ildə üzərindən müttəhimliyin götürülməsi üçün ərizə verib və bununla bağlı olaraq Komi MSSR daxili işlər naziri, polkovnik Dektyevin 22 oktyabr 1946-cı ildə təsdiqlədiyi belə bir arayış tərtib edilib ki, Məmmədovun törətdiyi cinayətin ağırlığına və istintaqda günahını səmimi şəkildə boynuna almadığına görə onun üstündən məhkumluğu götürmək məsləhət deyil[1] və Özəl Müşavirə 24 may 1947-ci ildə ona rəsmən rədd cavabı verib.

Türkmənistanda 21 sentyabr 1950-ci ildə verilmiş 057513 saylı ölüm haqqında şəhadətnamədə göstərilib ki, Qəhrəman Məmmədov 4 mart 1949-cu ildə Türkmənistan SSR-in Çarcou rayonunda stenokardiyadan vəfat edib.[2]

Nəhayət, 15 sentyabr 1950-ci ildə tərtib edilmiş son sənəd – arayış:

"Yetərincə bilgilər var ki, Q. Məmmədov 1949-cu ildə Çarco şəhərində ölüb, dəfn üçün oraya gediblər: 1) arvadı – Məmmədova Mədinə, 2) qardaşları – Məmmədov Teyyub İsrafil oğlu, 3) Məmmədov Əliabbas İsrafil oğlu; onlar Pyotr Montin[3] küçəsi 18-ci evdə yaşayırlar".[4]



Zülfüqar bəy Seyidbəyli, yoldaşı Qeysər Kaşıyeva, qızları Ləmiyyə və Ləiyyə. 24 noyabr 1933-cü il

Məmmədov 4 dekabr 1956-cı ildə bəraət alıb və bu haqda onun Mingəçevir şəhərində yaşayan qızı Tamilla Məmmədovaya xəbər verilib.[5]

[1] AR MTN Arxivi, PR-25476, vərəq 7.
[2] Yenə orada, vərəq 107.
[3] İndiki Əliövsət Quluyev.
[4] AR MTN Arxivi, PR-25476, vərəq 97.
[5] Yenə orada, vv. 109-110.

Məmmədyarov Səməd Əbdülbağı oğlu

(31.12.1889/13.01.1890, Quba – 10.03.1968, Bakı)



Əbdüssəməd Məhəmmədyarov

Dönəminin məşhur müəllimlərindən olan Səməd Məmmədyarov[1] haqqında bir çox bilgi və bəlgələri onun oğlu *Orxan bəylə* 3 oktyabr 2006-cı ildəki görüşümüz zamanı əldə etdik. Bu məqalədə həm Orxan Məmmədyarovun verdiyi materiallardan, həm də arxiv sənədlərindən yararlanmışıq.

Öncə öz əliylə yazdığı tərcümeyi-halını oxuyaraq həyatı haqqında ümumi bilgi alaq.

"Mən – Məmmədyarov Səməd Əbdülbağı oğlu 31 dekabr 1889-cu ildə[2] Quba şəhərində doğulmuşam. Atam Əbdülbağının xüsusi bağı vardı və o, Quba Şəhər İdarəsində qulluq edirdi. Anam evdar qadındı.

1901-ci ildə Quba şəhər məktəbinə girərək 1908-ci ildə oranı bitirmişəm. Elə həmin il Bakı Orta Mexaniki və İnşaat-Texniki Məktəbinin hazırlıq bölməsinə girmişəm. 1913-cü ildə texniki məktəbi başa vuraraq Xarkov Texniki İnstitutuna daxil olmuş və onu 1919-cu ildə qurtarmışam.[3] Hələ diplomçu tələbəykən 1918-ci ildən 1920-ci ilin aprelinədək Xarkov parovoz inşası zavodunda konstruktor vəzifəsində çalışmışam.

1920-ci ilin aprelində Bakıya gələrək Fəhlə-Kəndli Müfəttişliyi Xalq Komissarlığının yol şöbəsində təlimatçı işləmişəm.

Həmin il xalq komissarının əmriylə Azərb. SSR Xalq Maarif Komissarlığında Peşə Təhsili Baş Komitəsinin texniki ali məktəblər və texnikumlar üzrə müfəttişi təyin edilmişəm. O vəzifədə 1923-cü ilədək çalışmışam.

1923-cü ildən 1930-cu ilin may ayınadək [Nərimanov adına] Sənaye Texnikumunun [direktor müavini və] direktoru işləmişəm.

1930-cu ilin iyunundan sentyabrınadək Energetika Texnikumunun direktor müavini olaraq texnikum nəzdindəki bütün emalatxanalara da müdirlik etmişəm.

1930-cu ilin sentyabrından 1932-ci ilədək Azərb. SSR Xalq Yüngül Sənaye Komissarlığının Təhsil Müəssisələri İdarəsində müfəttiş olmuşam.

1932-ci ilin iyul ayından 1934-cü ilədək Energetika Texnikumunda xüsusi fənlər müəllimi işləmişəm.

1934-cü ilin iyulundan 1935-ci ilin sentyabrınadək Azərb. SSR Xalq Kommunal Təsərrüfatı Komissarlığının kadrlar şöbəsində metodist müfəttiş işləmişəm.

1935-ci ilin sentyabrından 1945-ci ilin 21 fevralınadək Azərbaycan Kommunal-İnşaat Texnikumunda tədris hissə müdiri və müəllim olmuşam.

21 fevral 1945-ci ildə Azərbaycan Kommunal-İnşaat Texnikumuna direktor təyin edilmişəm və indiyədək həmin vəzifədə çalışıram[4].

[1] Adı bir çox qaynaqlarda "Əbdüssəməd", soyadı isə "Məmmədyarov", "Məhəmmədyarlı" kimi də gedib. Sənədlərdəki həmin yazılışları da saxlamışıq.

[2] Bu tarix köhnə üslubladır; yeni üslubla 13.1.1890-cı ilə düşür.

[3] Bu fikir doğru deyil – Məhəmmədyarov həmin institutu 1918-ci ildə 4-cü kursda yarımçıq qoyub və Cümhuriyyət hökuməti ona təhsilini davam etdirmək üçün 1919-cu ildə təqaüd verib, ancaq bundan sonra o, təhsilini davam etdirə bilməyib.

[4] Səməd bəy həmin texnikumda 1958-ci ilədək fasiləsiz çalışsa da həmişə direktor yox, müəyyən illərdə direktor müavini də olub.

Məhkəmə və istintaq altında olmamışam. Xaricdə qohumlarım və yaxınlarım yoxdur. Heç kəslə yazışmıram.

SSRİ Ali Soveti medallarla təltif edib…

(Qolu).

17/III-1953".

Yeri gəlmişkən, ayrıca bir vərəqdə (elə həmin tarixdə) bu qeydləri edib:

"Atam Əbdülbağı Hacı Qədir oğlu 1864-cü ildə Qubada doğulub, orada xüsusi bağı olub və Quba Şəhər İdarəsində mirzəlik edib. 1908-də vəfat edib.

Anam Ayna Hacı Cəfər qızı 1869-da Qubada doğulub. Evdar qadın idi.

Üç qardaşım olub. Böyük qardaşım Əbdülqadir Əbdülbağı oğlu 1886-cı ildə Quba şəhərində doğulub, inqilabadək Bakı neft mədənlərində fəhlə işləyib. İnqilabdan sonra Quba şəhər elektrik stansiyasında montyorluq edib. 1946-da vəfat edib.

Qardaşım Yusif Əbdülbağı oğlu 1892-ci ildə Quba şəhərində doğulub. İnqilabadək Quba ərazisində meşəbəyilik edib, inqilabdan sonra isə müxtəlif sovet idarələrində işləyib. Ömrünün son illərində Quba şəhər əlillər artelində kassirdi. 1949-cu ildə vəfat edib.

Qardaşım Əhəd Əbdülbağı oğlu 1895-ci ildə Qubada doğulub. Azərbaycan Pedaqoji İnstitutunu bitirib və Quba, Şamaxı, Dəvəçi rayonlarında kənd müəllimi işləyib. Qızılburun məktəbinin müəllimi işləyərkən 1947-ci ildə vəfat edib.

Üç uşağım var.

Qızım Ayna 1922-ci ildə Bakıda doğulub və Bakı Tibb İnstitutunu bitirib. İndi Quba şəhər poliklinikasında həkim işləyir. Onun əri Heybət Kərimov SİKP Quba rayon komitəsində təlimatçı işləyir.

Oğlum Orxan 1925-ci ildə Bakıda doğulub. Azərbaycan Sənaye İnstitutunun energetika fakültəsini bitirib, Krasin adına elektrik stansiyasında baş növbətçi mühəndis işləyir; SİKP üzvüdür və Stalin rayon sovetinin deputatıdır. Azərbaycan Dövlət Konservatoriyasının müəllimi Səyyarə Hüseynəli qızı ilə ailə qurub.

Oğlum Əliəkbər 1928-ci ildə Bakıda doğulub. Bakı şəhərində Tibb İnstitutunun əczaçılıq fakültəsini bitirib. İndi sovet ordusu sıralarındadır".

***

Kiyev Şəhəri Dövlət Arxivində çalışarkən (2012) Kiyev Kommersiya İnstitutunun tələbəsi Əbdüssəməd Məhəmmədyarovun şəxsi işini taparaq tanış olduq. Buradakı sənədlərin bir çoxu onun AR Dövlət Arxivindəki şəxsi işində yoxdur.

19 iyun 1904-cü il tarixli doğum şəhadətnaməsi Bakı valiliyi Quba şəhər sakini Əbdüssəməd Məhəmmədyarova onun xahişi ilə ona görə verilib ki, o, 15 dekabr[1] 1889-cu ildə atası Əbdülbağı Məhəmmədyarovdan və onun qanuni arvadı Ayna Hacı Cəfər qızından doğulub. Quba sünni camaatının mollası Molla İbrahimxəlil Molla Şeyda oğlu bunu imza və dövlət möhürünü basmaqla təsdiqləyib.[2]

Bakı Orta Texniki Məktəbini 1913-cü ildə bitirmiş Əbdüssəməd Məhəmmədyarov Kiyev Kommersiya İnstitutunun direktoruna 22 iyul 1914-cü ildə Quba şəhərindən yazdığı ərizədə həmin institutun kommersiya-texnika bölümünə həqiqi dinləyici götürülməsini xahiş edib.[3]

[1] Bu sənəddə doğum günü belə qeyd olunub.

[2] KŞDA, fond 153, siyahı 4, iş 3274, vərəq 4.

[3] Yenə orada, vərəq 1.



Bakı Texniki Məktəbin şagirdləri. *Soldan 1-ci* Əbdüssəməd Məhəmmədyarov. 1913-cü ildən qabaq

Bakıda 1 iyun 1913-cü ildə verilmiş 135/901 saylı attestatda oxuyuruq ki, Bakı Orta Mexanika-İnşaat-Texniki Məktəbinin pedaqoji şurası bu attestatı ona görə verib ki, Əbdüssəməd Məhəmmədyarov 1906-cı ildə Bakı Orta Texniki Məktəbinin kiçik hazırlıq sinfinə girərək orada əla əxlaqla 1 iyun 1913-cü iləd ək oxuyub, mexanika bölməsi (elektrotexnika ixtisası) üzrə elmlərin tam kursunu bitirib, yekun sınaqlarında aşağıdakı uğurları göstərib:

Şəriət –	keçməyib
Rus dili –	kafi
Cəbr –	kafi
Həndəsə –	kafi
Triqonometriya –	kafi
Analitik həndəsə –	əla
Fizika –	yaxşı
Kimya –	kafi
Nəzəri mexanika –	kafi
Materiallar müqaviməti –	kafi
Maşın detalları –	yaxşı
Buxar qazanları –	kafi
Buxar maşınları –	kafi
Daxiliyanma mühərrikləri –	kafi
Ağacın texnologiyası –	kafi



Tələbə Əbdüssəməd Məhəmmədyarov

Metalların texnologiyası –	kafi
Elektrotexnikanın nəzəri əsasları –	kafi
Xətlərin çəkilişi və elektrik işıqlandırması –	yaxşı
Elektromexanika –	yaxşı
Elektrokimya –	yaxşı
Elektrotexnika laboratoriyasında işlər –	yaxşı
Qazma işi –	yaxşı
Çəkiliş və nivelirləmə –	yaxşı
Qanunşünaslıq –	əla
Rəsm –	yaxşı
Proyeksiya rəsmxəti –	kafi
Texniki rəsmxət –	kafi
Emalatxanalarda təcrübi məşğələlər –	yaxşı.

Buna görə də Məhəmmədyarova mexanika ixtisası üzrə texnik rütbəsi verilib.[1]

23 iyun 1914-cü ildə Bakı valisinin verdiyi 820 saylı arayışda Quba şəhərinin sakini Ə.Məhəmmədyarovun siyasi baxımdan etibarlılığı təsdiqlənib.[2]

Quba şəhər başçısının 9 sentyabr 1913-cü ildə verdiyi 618 saylı arayışda isə Ə.Məhəmmədyarovun Quba şəhərinin müsəlman sakini olduğuna görə hərbi mükəlləfiyyətdən azad olduğu bildirilib.[3]

Quba şəhər başçısının 12 iyun 1913-cü ildə verdiyi 499 saylı başqa bir arayışda isə qeyd olunub ki, Ə.Məhəmmədyarov Quba şəhərinin ailələr üzrə siyahısında 674/772 nömrəsi altında qeydə alınıb.[4]


* * *

Məhəmmədyarov öncə Moskva Kommersiya İnstitutuna girərək 1913-1914-cü dərs ilində orada oxuyub.[5] Sonra o, Xarkov Texnologiya İnstitutuna (XTİ) daxil olub. Onun Xarkov Vilayəti Dövlət Arxivində saxlanılan tələbə şəxsi işi ilə də tanış ola bilmişik.

Xarkovdakı sənədləri arasında onun doğum şəhadətnaməsinin surəti də saxlanılır. Orada oxuyuruq: *"Verilir həmin şəhadətnamə Badkubə quberniyasından Qübbə şəhərinin əhli Əbdüssəməd Əbdülbağı oğluna ondan ötrü ki, məzkur Əbdüssəməd Əbdülbağı oğlu Hacıməhəmmədyarov təvəllüd tapıbdır öz atası Əbdülbağı Hacı Qədir oğlunun mənkuheyi-şəriyyəsi Asya xanım Hacı Cəfər qızından 1889-cu ildə".*[6]

Xarkov İmperator III Aleksandr Texnologiya İnstitutunun direktoruna XTİ müsəlman tələbələri dərnəyinin sədri A.Yenbayevin 19 oktyabr 1915-ci ildə yazdığı ərizədə bildirilib ki, dərnəyin idarə heyətinin üzvləri bu tələbələrdir:

[1] KŞDA, fond 153, siyahı 4, iş 3274, vv. 2-3.
[2] Yenə orada, vərəq 5.
[3] Yenə orada, vərəq 6.
[4] Yenə orada, vərəq 7.
[5] Bax: MŞDMTA, fond 417, siyahı 18, iş 937.
[6] ARDA, fond 51, siyahı 3, iş 108, vərəq 5.



Səməd Məmmədyarov *(solda)*
Məhəmmədəmin Əfəndiyevlə

1) İdarə heyətinin sədri – *Arif Yenbayev.*
2) İdarə heyətinin katibi – *Əbdüssəməd Məhəmmədyarov.*
3) Dərnəyin xəzinədarı – *Hacıbaba Əliyev.*
4) Kitabxanaçı – *Abdulla Şahbazov.*
5) İdarə heyəti üzvü – *Məhəmmədəli Əliyev.*[1]

İnstitut üzrə 18 noyabr 1915-ci ildə tərtib edilmiş siyahıda göstərilib ki, müsəlman tələbələrin dərnəyi 52/1914 nömrəsi altında 1 fevral 1914-cü ildə təsdiq edilib.[2]

XTİ IV semestrinin tələbəsi, müsəlman tələbələr dərnəyi sədrinin müavini Əbdüssəməd Məhəmmədyarov 19 mart 1916-cı ildə direktora yazdığı ərizədə xahiş edib ki, institutun tədris komitəsi qarşısında onların dərnəyinə öz hesablarına şkaf qoymağa icazə vermək üçün vəsatət qaldırsın, çünki həmin dərnəyin kitabxanasının kitablarını və dəftərxana ləvazimatlarını saxlamaq üçün şkafa ehtiyac var.[3]

Bakı Orta Texniki Məktəbini 1913-cü ildə bitirmiş Ə.Məhəmmədyarov XTİ direktoruna 22 iyul 1914-cü ildə Qubadan yazdığı ərizədə onu qarşıdakı müsabiqə imtahanlarına buraxmağı xahiş edib.[4]

31 iyul 1914-cü ildə Texnologiya İnstitutu dəftərxanasından Məhəmmədyarova göndərilmiş 3941 saylı məktubda bildirilib ki, siyasi etibarlılıq haqqında sənədi indiyə qədər təqdim etməmisiniz və bu, Sizi institut tələbəsi olmaq imkanından məhrum edə bilər.[5]

Məhəmmədyarov 1914-cü ildə bu haqda 820 saylı arayışı təqdim edib.[6]

XTİ kimya bölümü I semestrinin tələbəsi Məhəmmədyarov direktora 3 sentyabr 1914-cü ildə yazdığı ərizədə onu I kursun texniki rəsmxət və rəsm fənlərindən azad etməyi xahiş edib, çünki o, Bakı texniki məktəbində bu fənləri keçib. Ərizənin üstündə onun bu fənlərdən azad edilməsi haqqında göstəriş var.[7]

Kimya bölümü III semestrinin tələbəsi Məhəmmədyarov 2 oktyabr 1915-ci ildə direktora yazdığı ərizədə xahiş edib ki, həqiqi mülki müşavir Hacı Zeynalabdin Tağıyevin kontoruna təqdim etmək üçün mənə həqiqətən institutun tələbəsi olmağım haqqında arayış verməyinizi xahiş edirəm.[8] Arxivdə 7 oktyabr 1915-ci ildə ona verilmiş həmin vəsiqənin surəti durur.[9] Buradan aydın olur ki, Məhəmmədyarov o vaxtadək Hacı Zeynalabdin Tağıyevin təqaüdü ilə oxuyurmuş.

[1] XVDA, fond 770, siyahı 1, iş 809, vərəq 23.
[2] Yenə orada, vərəq 42.
[3] Yenə orada, iş 833, vərəq 18.
[4] Yenə orada, iş 1878, vərəq 1.
[5] Yenə orada, vərəq 5.
[6] Yenə orada, vərəq 3.
[7] Yenə orada, vərəq 1.
[8] Yenə orada, vərəq 9.
[9] Yenə orada, vərəq 10.

Arxiv sənədləri arasında Xarkov Universiteti fakültə terapevtika klinikasının ordinatoru həkim *Bəhram bəy Axundov*'un 29 yanvar 1916-cı ildə verdiyi arayışda göstərilib ki, texnoloq tələbə, 25 yaşlı Əbdüssəməd Məhəmmədyarov 15 oktyabr - 7 dekabr 1915-ci ildə ağır formada qarın yatalağı xəstəsi olduğuna görə mənim həkim nəzarətim altında olub.[1]

İnstitutun mexanika bölməsinin 5-ci semestr tələbəsi Məhəmmədyarov 19 avqust 1916-cı ildə yenə institut direktorundan həqiqi mülki müşavir *Hacı Zeynalabdin Tağıyev*'in kontoruna təqdim etmək üçün həqiqətən institutun tələbəsi olması haqqında ona arayış verilməsini xahiş edib.[2] Ona 22 avqustda verilmiş arayışın surəti şəxsi işindəki sənədlər arasındadır.[3]

İnstitutun VII semestr tələbəsi Məhəmmədyarov 1917-ci ilin avqustunda eyni xahişlə direktora bir də müraciət edib[4] və 25 avqust 1917-ci ildə həmin arayış ona təqdim edilib.[5] Bu sənədlər Ə.Məhəmmədyarovun H.Z.Tağıyevin təqaüdü ilə oxuduğunu göstərir.



N.Nərimanov adına texnikumun müdir müavini Səməd Məhəmmədyarlı haqqında "Nərimanov adına texnikum illiyi" dərgisində (1924, №1) bir sıra yazılar və fotolar verilib. Fotonun üzərində *"Məktəbimizin ilk müdiri və şimdiki müdir müavini Səməd Məhəmmədyarlı"* yazılıb.

* * *

1/14 sentyabr 1918-ci ilədək Bakı valiliyinin Quba şəhərinə getmək üçün XTİ-nin VIII semestrinin tələbəsi Məhəmmədyarova 26 iyul 1918-ci ildə bilet verilib.[6]

Deməli, Xarkovda 4-cü kursadək oxumuş Əbdüssəməd 1918-ci ildə təhsilini yarımçıq qoyaraq vətənə dönməyə məcbur olub.

AC Ticarət və Sənaye Nəzarəti Dəftərxanası üzrə 8 mart 1919-cu il tarixli 2 saylı əmrdə göstərilib ki, Məhəmmədyarov dəftərxananın ümumi şöbəsinə keçirilir.[7]

Ticarət və sənaye naziri Mirzə Əsədullayevin 12 aprel 1919-cu il tarixli 74 saylı əmri ilə iqtisad elmləri namizədi *Məhəmmədhəsən bəy Vəlili* Ticarət, Sənaye və Ərzaq Nəzarəti Dəftərxanası ümumi şöbəsinin kargüzarı, *Səməd Məhəmmədyarov* və *Əliyar Əmircanov* onun müavinləri, *Mirsadıq Sadıqov* dəftərxana sənaye şöbəsi kargüzarının köməkçisi, *Abbasmirzə Əliyev* ticarət şöbəsi kargüzarının köməkçisi təyin ediliblər.[8] Sənəddə adı keçən Səməd Məhəmmədyarov Əbdüssəməd bəyin

[1] XVDA, fond 770, siyahı 1, iş 1878, vərəq 13.
[2] Yenə orada, vərəq 14.
[3] Yenə orada, vərəq 15.
[4] Yenə orada, vərəq 18.
[5] Yenə orada, vərəq 17.
[6] ARDA, fond 51, siyahı 3, iş 108, vərəq 6.
[7] Yenə orada, fond 24, siyahı 1, iş 208, vərəq 21.
[8] Yenə orada, vərəq 55.



N.Nərimanov adına texnikumun müəllim kollektivi. *Soldan sağa. Ön cərgə:* Faiq Rəşidzadə (idman), Əlicabbar Orucəliyev (rus dili), (?) (rəssam), Məryəm xanım Bayraməlibəyova (rus dili), prof. Ağa Axundov (müdir), Səməd Məmmədyarov (müdir müavini), Əbdül Əbdülzadə (fizika), Cəmil Musayev, Bəhram Mirzəyev, Əliəkbər Mirzəbəyli, (?) (rəssam), Seyid Hüseyn Sadıqzadə (ədəbiyyat), Şirin bəy Səfərəlibəyov (hüquqçu). *Orta cərgə:* P.Y.Pukolov (rəssam), Xudaverdi Kələntərli (kimya), Rəhim Məlikov (fizika), Cavad bəy Məlikyeqanov, d-r Bağı, Quluyev, Mahmud Nəbiyev (fizika), Bəxış Sultanov, Əhməd Cavad (ədəbiyyat), Məhəmmədhəsən Baharlı (coğrafiya), Abdulla Tahirzadə (riyaziyyat). *Arxa cərgə:* 3-cü Qulu Hüseynov (?), 6-cı T.Quluyev – prof. (materiallar müqaviməti), 8-ci Şəmsəddin Abbasov. 1924



Nərimanov adına texnikumun birinci buraxılışı. Məktəbin müdiri (direktoru) Ağa Axundov, onun müavini Səməd Məhəmmədyarlıdır *(Nərimanovun şəklinin sağında və solunda).* Müəllimlərdən *(soldan sağa, yuxarı cərgə):* 1-ci Məhəmmədhədən Baharlı, 8-ci Əbdül Əbdülzadə; *(aşağı cərgə):* 2-ci Fətulla bəy Rüstəmbəyov, 4-cü kimyaçı alim Sadıq Hüseynzadə, 6-cı Cavad bəy Məlikyeqanov, 8-ci Əliəkbər Mirzəbəyli, 9-cu Faiq Rəşidzadə (Türkiyə). *Sağ cərgədə ən aşağıda:* Seyid Hüseyn Sadıq. 1925



N.Nərimanov adına texnikumun müəllim kollektivi. *Soldan sağa. Orta cərgə:* 1-ci Həsən Mehdizadə, 3-cü Əbdül Əbdülzadə (fizika), 4-cü T.Quluzadə - professor, 5-ci Səməd Məhəmmədyarov – müdir, 6-cı Ağaəli Fətəliyev, 7-ci P.Y.Pukolov (rəssam). 1920-ci illər

özüdür və bundan sonrakı sənədlərin əksərində onun adı "Səməd" kimi qeyd olunub. Maraqlı burasıdır ki, əmrdə adları keçən Əmircanov, Sadıqov və Əliyev də sonrakı Cümhuriyyət təlabələridir.

AC Ticarət, Sənaye və Ərzaq Nəzarəti üzrə əmrlərin bir çoxunun əsli ilə düz olmasını Nəzarətin kargüzar köməkçisi Məhəmmədyarov öz imzası ilə təsdiqləyib.[1]

Xarkov Texnologiya İnstitutu mexanika bölümünün VIII semestr tələbəsi, AC Ticarət, Sənaye və Ərzaq Nəzarəti Dəftərxanasının kargüzar köməkçisi Əbdüssəməd Məhəmmədyarov AC maarif nazirinə 1919-cu ilin avqustunda yazdığı ərizəsində göstərib ki, mən XTİ VIII semestrinin tələbəsiyəm. Rusiyada inqilabi çevrilişdən sonra həyat bahalaşdığına, son vaxtlar isə vətəndən tamam əlaqə kəsildiyinə görə yaşamaq üçün iş axtarmaq zərurəti yaranıb. Normal tələbə həyatının bu cür yaşayışla bir araya sığmadığını görərək biz, Xarkov şəhərindəki müsəlman tələbələr Krım hökumətindən bizi vətənə göndərməyə yardım etməsi üçün xahiş etdik və onların yardımı ilə evə gəldik. Hökumətin xaricə tələbə göndərməyini öyrənmişik və mənə xaricdə dövlət hesabına təhsilimi davam etdirmək imkanının yaradılmasını xahiş edirəm. İndi tələbə olduğum XTİ-da oxumaq istərdim, Xarkova getmək mümkün olmasa təhsilimi İsveçrədə Sürix Politexnikumunda davam etdirmək istərdim.[2]

"Azərbaycan" qəzeti 2 avqust 1919-cu ildə "Rusiyada okuyan tələbələrimiz" başlıqlı xəbərdə bildirir:

[1] ARDA, fond 51, siyahı 3, iş 108, vv. 2, 7, 14, 22, 57, 61, 67, 72, 74, 90, 100, 105, 133 və s.

[2] Yenə orada, vərəq 3-3a.



Səməd Məmmədyarov N.Nərimanov adına texnikumda

"Rusiya darülfünunlarında okuyan Türk tələbələrinin neçə gün əvvəl ümumi iclasları vaqe olub, xüsusi bir komitə təşkil etmişlərdir. Komitəyə S[əməd] Məhəmmədyarov, A[ğababa] Məhəmmədov və Tahirov daxil olmuşlar və ümumi tələbələr komitəsinə dəxi girəcəklərdir".[1]

Məhəmmədyarov 23 noyabr 1919-cu ildə nazirə yazdığı ərizəsində təhsilini davam etdirmək üçün Xarkov şəhərinə getmək istədiyini bildirib, ona çatası pulların və gərəkli sənədlərin verilməsini xahiş edib.[2]

Nazir Xalq Maarif Nəzarətinin mühasibinə 24 noyabr 1919-cu ildə 13359 saylı belə bir təliqə göndərib ki, Rusiyaya ali təhsilini davam etdirmək üçün getməkdən ötrü tələbə Əbdüssəməd Məhəmmədyarova 21 min manat yazmağınızı təklif edirəm. Həmin məbləğdən 18 min manat bugünkü gündən 6 aylıq dolanışıq üçün və 3 min manat yolpuludur.[3]

Deməli, Məhəmmədyarov Cümhuriyyətin təqaüdünü alıb. Ancaq o, bir daha Xarkova gedə bilməyib, çünki Azərbaycandakı işi buna imkan verməyib.

* * *

Sovet hakimiyyəti dönəmində Səməd Məhəmmədyarlı/Məhəmmədyarov ilk vaxtlar sosial müdafiə və maliyyə sahəsində çalışıb.

1920-ci ilin noyabrında onu Bakı Qəza Sosial Təminat və Əmək Şöbəsinin müdiri vəzifəsində görürük. Onun həmin ildə Bakı İcraiyyə Komitəsinə məruzəsindən

[1] *"Azərbaycan"* qəzeti, 02.08.1919, № 242, s. 4.
[2] ARDA, fond 51, siyahı 3, iş 108, vərəq 2.
[3] Yenə orada, vərəq 1.



Azərbaycan SSR Kommunal Təsərrüfatı Nazirliyi Azərb. Kommunal-İnşaat Texnikumunun inşaatçı-texniklər buraxılışı. Direktor Səməd Məmmədyarovdur. 1954

çıxarış əlimizdədir. Bu sənəd Məhəmmədyarlının öz millətinin balalarına nə qədər qayğıkeşliklə yanaşdığını göstərir:

"Bakı İcraiyyə Komitəsinin diqqətini kəndlərdəki həm atasını, həm də anasını itirmiş yetimlərin hədsiz sayına cəlb edirəm: Qobuda 38, Nardaranda 55, Hökməlidə 58, Xırdalanda 51, Zabratda 52, Coratda 34, Zərgərlidə 31, Sayat-Xızıda[1] 11, Xalançaqda 19, Görədildə 30, Pərəköşküldə 24, Güzdəkdə 38, Bilgəhdə 93, Balaxanada 11, Qarasiyəzəndə 16, Mərdəkanda 25, Məhəmmədlidə 10, Baxışlıda 11, Xocahəsəndə 12, Binə-Kürkəndə 31, Ağsiyəzəndə 24, Bülbülədə 115, Əhmədlidə 32, Şağanda 35, Fındığanda 7, Maştağada 200.



Səməd Məmmədyarov. 1954

Bu yetimlər üçün heç yanda sığınacaq yoxdur. Kəndlər kasıbdır və tavanasızdır. Bu yetimlər əsasən azadlıq uğrunda və proletariatın hüquqları uğrunda mübarizədə həlak olanların uşaqlarıdır. Onları indi bulunduqları durumda qoymaq onları keçmiş anlayışlarla tərbiyə etmək deməkdir. Buna imkan vermək olmaz. Tezliklə sığınacaq-məktəblər açmaq lazımdır.

22 noyabr 1920-ci il".[2]

[1] Bu, Cəfər Cabbarlının doğulduğu kənddir.
[2] ARDA, fond 57, siyahı 1, iş 5, vərəq 16.



Səməd Məmmədyarov, yoldaşı Kübra xanım, qızı Ayna



Səməd Məmmədyarov, yoldaşı Kübra xanım və nəvəsi Rasim (Aynanın oğlu). 1 sentyabr 1959-cu il

Hesabdar-kassir Səməd Məhəmmədyarov "Sabir tikintisinin ləğvi[1] üzrə komissiya"ya 30 aprel 1922-ci ildə yazdığı ərizədə xahiş edib ki, mənə may ayı üçün çatası 20 milyon manat maaşı və bütün qulluqçulara verilməli olan 100% əlavəni – 40 milyon manat pulu verəsiniz.[2]

S.Məhəmmədyarlının Xalq Maarif Komissarlığında inspektor kimi çalışdığı dönəmdə yazdığı bir neçə məruzə və hesabatın mətnləri arxivdə qalmaqdadır.[3]

Qarşımızda Bakıda 1924-cü ildə nəşr edilmiş "Nərimanov adına texnikum illiyi" durur. Burada texnikumu yaradanların (müəssislərin) toplu şəkli verilib. Lap ortada bəzəkli çərçivənin içərisində *Səməd Məhəmmədyarlı*'nın, ondan aşağıda *Əbdülvahab Məhəmmədzadə*'nin, sağ cərgədə *Əbdül Əbdülzadə, Əliheydər Babazadə* və *Həsən Mehdizadə*'nin, sol cərgədə *P.Pukolov, Cavad Məlikyeqanov* və *Hacıbaba Əlizadə*'nin fotolarını görürük.

Nəşrin 12-ci səhifəsində *"Məktəbimizin ilk müdiri və şimdiki müdir müavini Səməd Məhəmmədyarlı"* qeydi ilə onun böyük fotosu təqdim edilib. 20-ci səhifədə isə Nərimanov texnikumu rəhbərliyinin birgə fotosu verilib. Orada müdir müavini *Səməd Məhəmmədyarlı*, müdir *Ağa Axundov*, katib *Əbdül Əbdülzadə* və müəllimlər nümayəndəsi *Əliheydər Babayev* təsvir ediliblər.

Bu nəşr Səməd Məhəmmədyarlının Nərimanov texnikumundakı əməyinin güzgüsüdür.

[1] Görünür ki, söhbət Sabirin ilk heykəlinin qoyulduğu yerin abadlaşdırılmasının başa çatmasından gedir.
[2] ARDA, fond 57, siyahı 1, iş 234, vərəq 20.
[3] Yenə orada, iş 174, vərəq 242; iş 259, vv. 217, 218. və s.



Səməd Məmmədyarov ailə üzvləri və qohumlarıyla. *Soldan sağa:* Heybət Kərimov (kürəkəni, Aynanın əri), Ayna (qızı), Larisa (Əliəkbərin yoldaşı), Fəridə (Əliəkbərin qızı), Zərifə (Orxanın qızı), Kübra xanım, Solmaz (qızı), Rəna (Aynanın qızı), İrina (oturan, Əliəkbərin qızı), Səməd bəy, Əliəkbər (oğlu), Rauf (onun oğlu, qucaqda), Lalə (Aynanın qızı), Rasim (Aynanın oğlu), Səyyarə (Orxanın yoldaşı), Çingiz (Orxanın oğlu), Orxan (oğlu). Quba, təx. 1965

Məhəmmədyarov 23 mart 1927-ci ildə Bakı şəhərində onun XTİ arxivində olan bütün sənədlərini və verilmiş zaçotları haqqında arayışı almaq haqqında mühəndis Yüzbaşınskiyə[1] etibarnamə verib.[2]

Görünür ki, artıq onun ali təhsili başa vurmasına ehtiyac qalmayıb, ancaq institutdakı şəxsi işindəki sənədləri Bakıda işlədiyi yerlərdə tələb edirlər.


Tərcümeyi-halını özü incəliklə açıqladığına görə biz xırdalıqlara varmırıq. Yazımızı bir sənədlə yekunlaşdırırıq. 1958-ci ildə Azərbaycan Kommunal-İnşaat Texnikumunun müəllimlər kollektivi belə bir təbriknamə yazıb:

"Hörmətli Səməd Əbdülbağı oğlu.

Azərbaycan Kommunal İnşaat Texnikumunun pedaqoji kollektivi gənc kadrların hazırlanması və yetişdirilməsi işində gördüyünüz fəaliyyətiniz üçün həyatınızın ən əlamətdar günündə[3] Sizə ürəkdən təşəkkür edir.

Nazirliyin inspektoru, sonradan isə texnikumun dərs hissə müdiri və direktoru vəzifələrində çalışdığınız zaman Siz düşünülmüş və təşəbbüskar işlərinizlə çox haqlı olaraq texnikumdakı müəllim və tələbələrin hörmətini qazanmısınız. Siz inzibati və pedaqoji işi bir-birilə məharətlə əlaqələndirmisiniz.

[1] Cümhuriyyət təlabəsi İsmayıl Yüzbaşınski.
[2] XVDA, fond 770, siyahı 3, iş 1878, vərəq 2.
[3] Təqaüdə çıxması nəzərdə tutulur.



Professor Orxan Səməd oğlu Məmmədyarov

Əmin olduğumuzu bildiririk ki, bundan sonra da kollektivimizlə əlaqə saxlayacaqsınız. Dəyərli məsləhətləriniz qarşınızda duran vəzifələrin yerinə yetirilməsində kollektivimizə kömək edəcəkdir.

Uzun illər xoşbəxt yaşamağınızı arzu edirik".[1]

* * *

Səməd müəllim gözəl ailə başçısı idi. O, iki oğul, iki qız atası idi. Onların hamısına gözəl tərbiyə vermiş və dördünün də yüksək savad almasının qayğısına qalmışdı. Böyük qızı *Ayna* (1922-1992) həkim idi. Oğlu *Orxan* (1925) energetikdir. Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutunun şöbə müdiri, texnika elmləri doktoru, professor, əməkdar elm xadimi, Beynəlxalq Ekoenergetika Akademiyasının akademikidir. Kiçik oğlu *Əliəkbər* (1928-2003) farmasevt və hərbçi idi. Kişik qızı *Solmaz* (1945) da farmasevtdir.

Bütün şüurlu həyatını xalqının rifahı və maariflənməsi işinə sərf etmiş Səməd Məmmədyarov 1968-ci ildə Haqqın rəhmətinə qovuşub.

[1] Sənədin surəti özəl arxivimizdədir.

Mirqasımov Mirzeynalabdin Mirəliəsgər oğlu (Mirqasım, Abdin)

(1887, Bakı – 1929, Paris)

Akademik Mirəsədulla Mirqasımovun qardaşı, xalq artisti Oqtay Mirqasımovun əmisi olan Mirzeynalabdinin[1] həyatı haqqında Azərbaycanda çox az şey bəllidir. Ancaq əksəriyyət Ramiz Abutalıbovun yazılarından bilir ki, o, intihar edib. Tərcümeyi-halına gəldikdə isə qaynaqlar ya tam susur, ya da bir neçə ümumi cümlə ilə kifayətlənməli olur.

Mirqasımovlar nəslinin şəcərəsi "Ya Ətağa cəddi!" adlı kitabda verilib.[2] Mirqasımovlar *Mirmövsüm ağa (Ətağa)* ilə yaxın qohumdurlar.

Bakı şəhər ikinci sahəsinin sülh hakimi 1 fevral 1913-cü ildə 353 saylı belə bir arayış verib ki, Mirəliəsgər Mirqasımovun oğlu Zeynalabdin öz atası Mirəliəsgər Mirqasımovla onun arvadı Seyid xanım Seyid Mehdi qızının qanuni nikahından doğulub və hal-hazırda 26 yaşı var.[3] Bu hesabla Mirzeynalabdin 1887-ci ildə doğulmuş olur.

M.Mirqasımov öncə Parisdə özəl şəxslərin yanında təhsil alıb və Bakıya gələrək fransız dili müəllimi işləyib. Bunu Bakı "Səadət" müsəlman ruhani məktəbi müəllimlərinin 1912/13-cü tədris ili üçün siayhısı da təsdiqləyir.[4] Məktəbin müfəttişi Fərhad Ağazadənin (Ağayevin) tərtib etdiyi bu siyahıda müəllimlər haqqında oxuyuruq:

1. Axund Molla Ağa Ağaəlizadə[5]	Müdir	Təhsilini Bakıda Axund Molla Cavaddan alıb	Bakılı
2. Fərhad Ağayev	Müfəttiş	Təhsilini Zaqafqaziya Müəllimlər Seminariyasında (ZMS) alıb	Şuşa şəhərindən
3. Axund Molla Əlipaşa (Şeyxəli) Feyzullazadə	Şəriət və ərəb dili müəllimi	Bakıda oxuyub, Zaqafqaziya Şiəməzhəb Ruhani İdarəsindən (ZŞRİ) attestatı var	Bakı valiliyinin Ağdərə kəndindən
4. Hacı Mir Məhəmmədəmin Cəfərzadə	Şəriət müəllimi	Bakıda oxuyub. Bakı Valilik Məclisindən attestatı var	Bakıdan
5. Mirzə Qədir İsmayılzadə[6]	Türk dili müəllimi	Qubada oxuyub. Bakı Valilik Məclisindən attestatı var	Quba qəzasının Xızı kəndindən
6. Məhəmmədhənifə Terequlov	Rus dili müəllimi	ZMS	Tiflisdən
7. Əli Hüseynov[7]	Rus dili müəllimi	ZMS	Gəncə valiliyi Qazax qəzasının Şıxlı kəndindən
8. Yusif Əliyev	Riyaziyyat və təbiiyyat müəllimi	ZMS	Şuşa şəhərindən

[1] Əsl adı "Mirzeynalabdin" olsa da sonrakı sənədlərdə daha çox "Zeynalabdin", "Zeynal", "Abdin" kimi, soyadı isə "Mirqasımzadə", "Mirqasım" kimi də yazılıb. Sənədlərdəki həmin yazılışları da saxlamışıq.

[2] *Həbib oğlu H.N., Zapletin G.* Ya Ətağa cəddi!.. Bakı, 1999.

[3] ARDA, fond 51, siyahı 3, iş 90, vərəq 4.

[4] ARTA, fond 46, siyahı 4, iş 253, vv. 73a-74.

[5] Akademik Akif Əlizadənin babasıdır.

9. Mirzə Musa Əsgərzadə	Fars dili müəllimi	Bakıda yerli axundların yanında oxuyub	Quba şəhərindən
10. Mirzə Ağa Zeynalzadə	Əlifba sinfinin müəllimi	Bakıda oxuyub, Bakı Valilik Məclisindən qəzilik attestatı var	Bakı qəzasının Bilgəh kəndindən
11. Məhəmməd ağa Yusifxanov	Alman dili müəllimi	Bakı real məktəbində oxuyub	Bakıdan
12.Mirzeynalabdin Mirqasımov	*Fransız dili müəllimi*	*Parisdə oxuyub (özəl şəxslərin yanında)*	*Bakıdan*
13. Əlicabbar İsmayılov	Coğrafiya və tarix müəllimi	ZMS	Şamaxıdan

Bütün müəllimlər Rusiya təbəəsidir. Müfəttiş Fərhad Ağayev.

M.Mirqasımov 1912-ci ildə İstanbulda Məktəbi-Sultaninin ədəbiyyat və ülum fakültəsini bitirib. AR Dövlət Arxivində ona həmin məktəbdən verilmiş şəhadətnamə saxlanılır. Sənəd iki dildə – fransızca və türkcə (ərəb əlifbasında) yazılıb. Türkcəsində oxuyuruq:

"Dövləti-əliyyeyi-Osmaniyyə.
Məktəbi-Sultani ədəbiyyat və ülum şəhadətnaməsi.
Ədəbiyyati-Osmaniyyə və Fəransəviyyə.
Lisani-ərəbi və lisani-farsi.
Fiqhi-şərif və elmi-hikmət, nəzəriyyə.
Elmi-iqtisad və qəvanini-mövzu.
Tarixi-ümumi və tarixi-Osmani.
Coğrafiyayi-ümumi və coğrafiyayi-Osmani.
Riyaziyyat: nəzəriyyə və tətbiqat və əməliyyə.
Ülumi-hökmiyyə və kimyəviyyə və təbiiyyə.
Hifzüs-səhhə və üsuli-dəftəri.
Rəsmi-xətti və rəsmi-təqlidi.

Mirqasımzadə Əli əfəndinin məxdumu[1] olub 1303 sənə tarixində[2] Bakıda mütəvəllid Zeynalabdin əfəndi üsuli-vəch üzrə təhrirən imtahan verdikdən sonra heyəti-imtəhaniyyə hüzurunda balada mühərrir[3] dərslərdən məktəb proqramı mövcibincə, şifahən dəxi imtəhani-bilaxir[4] ədəbiyyat üçün ümumundan "əla" və ülum və fünun üçün ümumundan "qəribəla"[5] dərəcələrini qazanmış olmaqla, işbu ədəbiyyat və ülum şəhadətnaməsi yədinə əta qılındı.[6]

Nizamat və müqərrərati-mövcudənin[7] *Məktəbi-Sultani məzunlarına verdiyi hüquq və imtiyazata əfəndiyi-mumaileyh*[8] *dəxi kəsbi-səlahiyyət eləmişdir.*

Fi 25 haziran səneyi-1328.[9]

[1] Şair Mikayıl Müşfiqin atasıdır.
[2] Yazıçı Mehdi Hüseynin atasıdır.
[3] Burada: oğlu.
[4] 1887-ci ildə.
[5] Yuxarıda yazılmış.
[6] Yekun imtahanında.
[7] "Əlaya yaxın", yəni "yaxşı" ("4").
[8] Əlinə təqdim edildi.
[9] Burada: mövcud qayda-qanunların.
[10] Yuxarıda adı keçən əfəndi.
[11] 25 iyun 1912-ci ildə.

Şəhadətnamə sahibinin imzası. (Zeynəlabdin).
Müdir (möhür).
İşbu şəhadətnamə tərəfimizdən dəxi təsdiq olunur (Maarif Nəzarəti möhürü).
(Məktəbi-Sultani möhürü)".[1]



Mirzeynalabdin Mirqasımov. Paris

Sənədin doğruluğunu AC Daxiliyyə Nəzarəti dəftərxana şöbəsinin rəisi Bəhram Rzabəyov öz imzası və Nəzarət möhürü ilə təsdiqləyib.

Mirzeynalabdinin 1913-cü ildə Kiyev Politexnik İnstitutunda oxuduğu da bəllidir.[2] Ancaq onun burada nə qədər təhsil aldığını hələ dəqiqləşdirə bilməmişik.

Bizcə, Mirqasımov öncə Parisdə oxusa da "Səadət" məktəbində Məktəbi-Sultanini bitirdikdən sonra işləməyə başlayıb.

AR Dövlət Arxivindəki əmək dəftərində[3] də Daxiliyyə Nəzarətinin tərcümanı Abdin Mirqasımovun həyatı ilə bağlı bəzi bilgilər əksini tapıb: 1886-cı ildə Bakıda doğulub, Türkdür, müsəlmandır. Öncə Bakı 6 sinifli Aleksey məktəbində 5-ci sinfədək oxuyub, sonra İstanbulda Məktəbi-Sultanini bitirib, Fransada Elektrotexnika Ali Məktəbində oxuyub (Nansi şəhəri). Daxiliyyə Nəzarətində tərcümandır. Ayda 2.380 manat maaş alır. 18 iyul 1918-ci ildə AC Daxiliyyə Nəzarətinin katibi təyin edilincəyədək müharibə hüququ ilə Türkiyənin işğal olunmuş vilayətlərinin hərbi valiliyinin Bəhriqala dairəsinin baş tərcüməçisi olub.[4] Nijni Priyutski küçədə[5] atasının qardaşları ilə birgə evi var, onun gəliri indiki qiymətlərlə ildə 8.000 manatdır. Bir evləri də Kilsə küçəsi[6] 98-dədir. Valideynləri burada yaşayır.[7]

AC daxiliyyə naziri Behbud xan Cavanşirin 30 noyabr 1918-ci il tarixli 24 saylı əmri ilə Abdin Mirqasımov Daxiliyyə Nəzarəti İdarəsində 1 noyabrdan tərcüman təyin edilib.[8]

Mirabdinin sənədləri arasında onun qardaşı həkim Mirəsədulla Mirqasımovun[9] 13 iyul 1919-cu ildə verdiyi həkim arayışı saxlanılır. Bu arayışda Abdinin ciddi xəstə olduğu, özəlliklə görməsinin xeyli zəiflədiyi, buna görə də sürəkli dincəlməyə ehtiyacı olduğu göstərilib.[10]

"Nansi şəhərində (Fransa) Elektrotexnika İnstitutunun tələbəsi və İstanbulda Məktəbi-Sultanini bitirmiş, Daxiliyyə Nəzarətinin tərcüməçisi Abdin Mirqasımov" 31 iyul 1919-cu ildə Bakı şəhərində Xalq Maarif Nəzarətinə yazdığı ərizədə Azərbaycan hökuməti hesabına xaricdə oxumağa göndəriləcək tələbələr sırasına salınmasını xahiş edib, Fransa, yaxud İsveçrədə hüquq təhsili almaq istədiyini bildirib.[11] Ərizənin sonunda 110 saylı xarici pasportun ona 11 dekabr 1919-cu ildə verildiyi göstərilib.

Daxiliyyə naziri əvəzi, general-mayor Ağabəyovun 14 avqust 1919-cu il tarixli 114 saylı əmri ilə Abdin Mirqasımova maaşı saxlanılmaqla 16 avqustdan 1 aylıq məzuniyyət verilib.[12]

Onun şəxsi sənədləri içərisində türkcə yazdığı bu ərizə də var:

"Azərbaycan Cümhuriyyəti maarif naziri hüzuri-alilərinə.

[1] ARDA, fond 51, siyahı 3, iş 90, vərəq 3.
[2] *«Kaспий»*, 1913, №16.
[3] ARDA, fond 894, siyahı 2, iş 12, vv. 1-4.
[4] Yenə orada, vərəq 3.
[5] İndiki Süleyman Rəhimov küçəsi.
[6] İndiki Vidadi küçəsi.
[7] ARDA, fond 894, siyahı 2, iş 12, vərəq 4a.
[8] Yenə orada, vərəq 5.
[9] Tələbə şəxsi işi Odessa Vilayəti Dövlət Arxivində saxlanılır (bax: OVDA, fond 45, siyahı 5, iş 8855). Burada Mirəsədulla Mirqasımovun həyatı ilə bağlı maraqlı bəlgələr var.
[10] ARDA, fond 894, siyahı 2, iş 12, vərəq 9.
[11] Yenə orada, fond 51, siyahı 3, iş 90, vərəq 1.
[12] Yenə orada, fond 894, siyahı 2, iş 12, vərəq 11.



Mirzeynalabdin Mirqasımov. Paris

İşbu müharibədən əvvəl bəndələri[1] *[Nansi] Elektrotexnik Məktəbi-Alisində təhsildə bulunuyordum. Fəqət bu kərə Azərbaycan hökumətinin Avropaya tələbə göndərməsini qət etdiyi münasibətilə Fransada hüquq fakültəsində təhsil etmək arzusunda bulunduğumu ərzlə zati-nəzarətpənahilərinə ərzi-hal*[2] *təqdim etmişdim.*

Şimdi tərəddüdə meydan verməmək məqsədilə Fransada əsasi olaraq intixab etdiyim təhsilin hüquq fakültəsi olduğunu təkrar ərz ilə, bəncə, mümkün olduğu təqdirdə hüquq fakültəsiylə bərabər, Siyasi Məktəbi-Alisinə (Sciences Politique) dəxi davam edəcəyimi ərz eylərəm, əfəndim.

Daxiliyyə Nəzarəti tərcüməni, tələbədən[3] *Abdin Mirqasımzadə.*

Bakı, 18 təşrini-əvvəl[4] *1919".*[5]

19 oktyabr 1919-cu ildə AC Daxiliyyə Nəzarətinin tərcüməni Abdin Mirqasımov Daxiliyyə Nəzarəti dəftərxanasının direktoruna 505 saylı raport yazaraq bildirib ki, Gəncədə Azərbaycan Cümhuriyyətinin ilk hökuməti yarananda mən 18 iyul 1918-ci ildə ozamankı nazir Behbud xan Cavanşirin yanında Daxiliyyə Nəzarətinin katibi təyin edilmişdim. Ancaq o zaman, nədənsə, mənim bu təyinatım haqda əmr dərc edilməmişdi. Mən həmin vəzifəni həmin ilin 1 noyabrında eyni Nəzarətdə tərcüman təyin edilənədək yerinə yetirmişəm. Əmək dəftərim tərtib edildiyinə görə dövlət qulluğunda xidmətimin həmin dövrünün hesaba alınması üçün məsələ qaldırmağınızı Sizdən acizanə xahiş edirəm.[6]

Daxiliyyə naziri vəzifəsini icra edən Ağabəyov 25 oktyabr 1919-cu ildə keçmiş daxiliyyə naziri Behbud xan Cavanşirə 10394 saylı məktub göndərərək bildirib ki, Daxiliyyə Nəzarəti İdarəsinin tərcüməni Abdin Mirqasımov onun dövlət qulluğunda Sizin nazir olduğunuz dönəmdə, yəni 18 iyul – 1 noyabr 1918-ci ildə katib işlədiyini bildirərək həmin işinin qeydə alınması üçün müraciət edib. Ancaq Nəzarətin işlərində bu haqda bilgi olmadığına görə[7] xahiş edirik ki, Abdin Mirqasımovun gerçəkdən həmin vaxt Sizin katibiniz işləməyini təsdiq edəsiniz.[8] Doğrudur, Behbud xanın cavab məktubu sənədlər arasında yoxdur, ancaq onun imzası ilə verilmiş əmr durur.

Abdin Mirqasımov 28 oktyabr 1919-cu ildə maarif nazirinə yazdığı ərizəsində oxuduğu məktəblərin sənədlərini təqdim etdiyini və Paris şəhərində oxumaq istədiyini bildirib.[9]

31 dekabr 1919-cu ildə o, təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[10] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[11] dilkağızları verib.

Mirqasımov Mirabdinə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 507 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[12]

[1] Özünü nəzərdə tutur.
[2] Ərizə.
[3] Burada "tələbə" sözü "dövlət təqaüdçüsü" anlamında işlədilib.
[4] Oktyabr.
[5] ARDA, fond 51, siyahı 3, iş 90, vərəq 6.
[6] Yenə orada, fond 894, siyahı 2, iş 12, vərəq 14-14a.
[7] Bu haqda sənədlər mövcuddur. Nazir Behbud xan Cavanşirin əmri ilə artıq tanışıq, ancaq təkcə o deyil. Məsələn, Mehdi bəy Hacınski Daxiliyyə Nəzarəti idarəsinin rəisi olan zaman Abdin Mirqasımov burada katib, Bəhram bəy Rzabəyov kargüzar, Həbib Muxtarov dəftərxana qulluqçusu və b. işləyiblər (bax: ARDA, fond 894, siyahı 4, iş 40, vərəq 34).
[8] ARDA, fond 894, siyahı 2, iş 12, vərəq 15.
[9] Yenə orada, fond 51, siyahı 3, iş 90, vərəq 5.
[10] Yenə orada, vərəq 7.
[11] Yenə orada, vərəq 8.
[12] Yenə orada, vərəq 9.

* * *

Abdin Mirqasımov Paris Universitetinin hüquq fakültəsində oxuyub. 1920-ci ilin aprelində Cümhuriyyətin yıxılması, yerinə kommunistlərin gəlməsi ilə xaricdə oxuyan tələbələrin faciəsi başlandı. Bakıya bir-birinin ardınca onların fərqad məktubları və nümayəndələri gəlməyə başladı. Həm Fransada, həm də başqa ölkələrdə oxuyan bütün tələbələrin dərdini o, öz məktub və hesabatlarında Təhsil Komissarlığına bildirirdi.

O, Avropadakı Azərbaycan dövlət təqaüdçüsü tələbələrin nümayəndəsi kimi 1920-ci ilin avqustunda Bakıya gələrək hökumət nümayəndələrinə tələbələrin durumunu anladıb və tələbələrlə bağlı bir sıra önəmli sənədlər hazırlayıb. Onun 10 avqust 1920-ci ildə Bakıda tərtib etdiyi Fransa, İtaliya, Almaniya və Türkiyədə yerləşən, dövlət təqaüdçüsü olan 83 Azərbaycan tələbəsinin ölkələr üzrə siyahısı[1] Azərbaycanın Sovet hakimiyyəti orqanlarına xaricdəki tələbələrimiz haqqında verilmiş ilk ən dəqiq bilgi idi. İstər XKŞ, istərsə XMK və istərsə də başqa komissarlıqlar öz işlərində bu siyahıya əsaslandılar.



Mirzeynalabdin Mirqasımov
(dostu Əli Yusifzadəyə bağışlayıb).
Paris, 8 dekabr 1921-ci il

"Avropada dövlət hesabına təhsildə bulunan Azərbaycan tələbəsi vəkili-mürəxxəsi" Abdin Mirqasımzadə Bakıda 11 avqust 1920-ci ildə xalq maarif komissarı Bünyadzadəyə yazdığı məruzədə[2] tələbələrimizin nə qədər dözülməz şəraitdə yaşadığını konkret faktlar və rəqəmlərlə əyani şəkildə göstərib. (Bu kitabın 3-cü bölümündə həmin məktub bütöv verildiyinə görə onun məzmununa burada toxunmuruq).

* * *

Mirzeynalabdin Mirqasımov Paris Universitetinin hüquq fakültəsini bitirdikdən sonra kommunistlərə nifrəti üzündən SSRİ-yə dönməyib. Onun Parisdə qalaraq konkret hara(lar) da işlədiyi haqqında əlimizdə bəlgələr yoxdur. Ancaq o, bizcə, dolanışığını təmin etmək üçün ən yaxşı çıxış yolu kimi "Prometey" təşkilatında çalışmağı görüb. Sənədlərdən aydın olur ki, o, Parisdə Azərbaycan Sülh Heyətinin üzvləri ilə, özəlliklə Ceyhun bəy Hacıbəyli ilə yaxın əlaqə saxlayıb. Məsələn, Əlimərdan bəy Topçubaşı 13 may 1927-ci ildə Ceyhun bəyə yazır:

"Dünən Sizi tramvayların yanında, xəstələnməyinizi bilmədən, 20 dəqiqə gözlədim. Bu gün yanınıza gəlmək istədim, ancaq Zeynal dedi ki, Siz qonaq gözləyirsiniz".[3]

Əlimərdan bəy Ceyhun bəyə 17 may 1928-ci il məktubunda isə xahiş edib ki, Zeynalla mənə xəbər göndər.[4]

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 62-63a.
[2] Yenə orada, vv. 59-60.
[3] *Топчубаши А.М.*. Документы из личных архивов. 1903-1934 гг, s. 201.
[4] Yenə orada, s. 206.



Mirqasım Mirabdin ("Odlu Yurt", 1929, № 3, s. 105)

Moskva tarixçisi, prof. Salavat İshakov Mirzeynalabdin Mirqasımov haqqında verdiyi izahda bunları da bildirib ki, o, əsasını 1926-cı ildə dağıtmış müsəlmanların və gürcülərin qoyduğu "Prometey" mason lojasının qurucu üzvlərindəndir. Parisdə "Revue du monde musulman"da (Bd. 61. 1925. P. 165-204) nəşr edilmiş "Le Reveil nasionaliste ("Pehlevi") en Perse" (Analyses et extraits de presse persane, d'arpes le Hablulmatin de Calcutta)" əsərini tərcümə edib. Bu tərcümələri də var: "*Massignon L. et A.M.Kassim*. Un essai du bloc islamo-hindou au XVIIe siele, l'humanisme mystique du prinse Dara. Paris, 1926: Extrait de la "Revue du monde musulman"; *Kassimoff K.* la Russie et les Detroits. Paris, 1926.[1]

Yeri gəlmişkən, Abdin Mirqasımovun fransızcadan tərcümələri "Odlu Yurt" dərgisində də gedib.[2]

Masonluq məsələsinə gəlincə, "rus masonları siyahısı"nda Abdin Mirqasım (Mirqasımov) ilə yanaşı, Xosrov bəy Sultanzadə və Ceyhun bəy Hacıbəylinin (Cekum Hacıbəy) də adları çəkilir.[3]

Mirabdin Mirqasımov 1929-cu ildə Parisdə özünü öldürdü. Səbəbləri indiyədək öyrənilməmiş həmin faciə bundan xəbər tutan bütün Azərbaycan aydınlarını sarsıtdı. Bu zaman Türkiyədə mühacirətdə olan böyük Məhəmmədəmin Rəsulzadə *"Abdin Mirqasım"* adlı məqaləsində ürək göynərtisi ilə bunları yazdı:

"Paris postası fəna həvadis gətirdi: Abdin Mirqasım kəndi həyatına qıymış!

Buna kim inanırdı? Kim inanırdı ki, Abdin kibi sakit, bütün koloni[4] *arasında nəzakət, iffət və səlaməti-nəfs ilə məruf olan Abdin günün birində mütəvazi odasının içində qanına qəltan olaraq bulunsun?!.*

Əvət, buna kimsə inanmazdı, inanamazdı!.. Fəqət bu, bir həqiqət, çox fəci bir həqiqətdir. Bu acı həqiqət müvacihəsində duyduğumuz təəssürü izah etməkdən aciziz. Abdin bəyi namuskar bir gənc olaraq tanırdıq. İşbu aqibəti kəndisinə rəva görməsi dahi titiz bir şərəf hiss və idrakının nəticəsi olsa gərəkdir.

Abdin təqribən 42-43 yaşlarında həyata vida etmişdir. Qismi-məxsusumuzda[5] *təcrümeyihalına aid məlumat verilmişdir. Bu məlumatdan görüləcəyi vəch ilə, Milli Azərbaycan Hərəkatı onun şəxsində çalışqan, mütəvazi, lisanlara aşina, qiymətli bir əməkdarını qeyb etmişdir.*

"Odlu Yurt" bu dəyərli əməkdaşının üfulunu[6] *çox acı bir təəssür və təəssüflə qeyd edər.*

Abdin bəy milli nəşriyyat işlərində ("Yeni Kafkasya", "Azəri Türk", "Azərbaycan" və "Promete"də) 4 sənədən bəri çalışıyordu. Fəqət bizim onunla müarifəmiz çox əskidir. Bir məktəbdə okumuşuzdur. Kəndisini və ailəsini ta çocuklukdan tanırım.

Məfkurə etibariylə mərhum səmimi bir demokrat, milliyyətçi və istiqlalçı idi. Bundan bir sənə əvvəl "Müsavat" firqəsinə intisab etmişdi. Bu intisab ilə o, təbiətindəki çəkingənliyi bir növ yenmiş, rəsmi formalitəyi ifa etmişdi. Yoxsa kəndisini daha əski bir müsavatçı kibi də qəbul edə biliriz.

[1] *Тончибашu А.М.*. Документы из личных архивов. 1903-1934 гг, s. 201.

[2] Bax: *A.Mir-Kasim*. Müstakbel Rusya. I. Cihan milliyetciliği. // *"Odlu Yurt"*, 1929, № 1, ss. 12-16; Müstakbel Rusya. II. Rusyada ayrılma temayülleri. // *"Odlu Yurt"*, 1929, № 2, ss. 61-64.

[3] http://www.samisdat.com/5/22/5221-m.htm.

[4] Parisdə yaşayan mühacirlər nəzərdə tutulur.

[5] "Odlu Yurt"dakı ayrıca yazı nəzərdə tutulur.

[6] Batmasını, qürub etməsini.

Mərhumun bolşevik istilası üzərinə Avropadan Bakıya dönüşü və oradan təkrar Avropaya gələrək bolşevik məzalimi haqqında qələmə aldığı rapor Azərbaycan tarixinin bu dövrünə aid vəsiqələrdən biridir.

Milli Azərbaycan davasını Azərbaycan mühitində populyar etmək fəaliyyətinin artması zəruri olan böylə bir zamanda mərhum Abdin bəy kibi təlafisi müşkül münəvvər və mücəhhəz bir zatı qeyb etmək ayrıca mövcibi-təəssürdür.

Bir münəvvər, bir mühərrir, bir mütərcim, bir vətənsevən, bir məsləkdaş və nəhayət, bir arkadaşın şu aqibəti qarşısında bizə təsəlli verən şey yalnız fərdlərə nisbətlə daha baqi və ölməz bulunan qayənin, milli davanın yaşayacağı və müzəffər olacağıdır.

Yazıq ki, Abdin bu günü görmədən getdi. Onu əfv edəlim, ona rəhmət deyəlim!

M[əhəmməd]əmin [Rəsulzadə]".[1]



Mirzeynalabdinin qardaşı, akademik Mirəsədulla Mirqasımov

"Odlu Yurt" dərgisinin 1929-cu il 2-ci sayında imzasız verilmiş *"Əsəfli bir irtihal"*[2] adlı məqalədə oxuyuruq:

"Azərbaycan münəvvərlərindən Parisdə oturan Abdin Mirqasım bəy keçirdiyi bir böhran nəticəsində kəndinə qıyaraq fəci bir surətdə tərki-həyat etmişdir.

Abdin bəy Bakının seyid ailəsi deyə məruf şürəfasından[3] *olub vaktiyla Bakı "Nəşri-Maarif" Cəmiyyəti tərəfindən təhsil üçün İstanbula göndərilib də orada Qalatasaray lisəsinə qəbul olunan üç tələbədən təhsilini "əliyül-əla" qurtarmış olanıdır. Mərhum İstanbulda bitirdikdən sonra davami-təhsil üçün Avropaya gedərək Parisdə hüquq bitirmişdi. Abdin bəy türkçə ilə fransızcadan başqa, farisicə, rusca və bir parça da almancayı biliyordu.*

Bir kaç zamandan bəri mərhum mətbuata intisab edərək[4] *türkcədən fransızcaya, fransızcadan da türkcəyə tərcümələr yaparaq həm həyatını təmin ediyor, həm də "Promete" və milli Azər. nəşriyyatı kibi mətbuatda iştirakı ilə vətəni bir vəzifə ifa ediyordu. A.b. eyni zamanda frans. müstəşriqlərindən*[5] *müsyö Masinyon tərəfindən çıxarılan "Revü dü mond musulman" məcmuəsində iştirak ediyordu.*

42-43 yaşlarında, məmləkətə daha çox faydalar tokunduracaq bir çağda ikən fəci surətdə dünyadan köçən vətəndaşın dəfni ilə Parisdə mövcud Azərbaycan Cəmiyyəti-Xeyriyyəsi məşğul olmuş və bütün Azərbaycan kolonisi cənazəsinin təşyiinə iştirak eyləmiş və son hörmət borclarını ödəmişlərdir.

Azərbaycanlılardan maəda, dəfn mərasiminə qafqasyalı və ukraynalı mühacir kolonilərindən də gələnlər varmış".[6]

C.b.Hacıbəylinin 1929-cu ilin iyununda yazdığı bir məktubda da Mirabdinin ölümü məsələsinə toxunulur: *"M.Abdinin dəfnindən bir neçə gün sonra (tarix o bədbəxtin ölümünə dolayısı ilə kimin səbəb olduğunu da öz vaxtında aydınlaşdıracaq) Ə[limərdan] b[əy] mənə bildirdi ki, Şeyxin*[7] *və Miryaqubun*[8] *dəvəti ilə onlarla görüşməyə gedib...".*[9]

[1] *"Odlu Yurt"*, 1929, № 2, s. 60.

[2] Təəssüf doğuran ölüm.

[3] Şərifilərindən, şərəfli insanlarından.

[4] Qoşularaq.


[5] Şərqşünaslarından.

[6] *"Odlu Yurt"*, 1929, № 2, s. 77.

[7] Əkbər ağa Şeyxülislamov nəzərdə tutulur.

[8] Miryaqub (Mir)məhmudov nəzərdə tutulur.

[9] *A.M.Тончибашu.* Документы из личных архивов. 1903-1934 гг., s. 227.



Ədalət Tahirzadə Mirzeynalabdinin qardaşı oğlu Oqtay Mirqasımovla

* * *

26 oktyabr 2006-cı ildə Mirzeynalabdinin qardaşı oğlu, görkəmli kino xadimimiz, Azərbaycanın xalq artisti Oqtay Mirqasımovla görüşüb söhbətləşmişdik. O, bizə bunları danışmışdı:

– Əmim Mirzeynalabdin Parisdə onunla bir yerdə oxuyan başqa qohumum Əjdər bəy Axundovdan tam fərqli adamdı – Əjdər bəy nə qədər ünsiyyətcil, nikbin və şəndisə Mirzeynalabdin o qədər qapalı, içindəkini heç kəsə verməyən, ünsiyyətdən qaçandı. Onun ikinci adı *Rüfət* idi – ailə üzvləri və yaxın qohumları belə çağırarmış.

Onun özünü öldürməsi də, məncə, maddi çətinliklərdən yox, həm xarakterindən irəli gəlib, həm də siyasi görüşlərilə bağlıdır. O, anasını həddsiz məhəbbətlə sevirdi, ondan ötrü bərk darıxırdı. Azərbaycana məcnuncasına vurğundu, ondan ötrü burnunun ucu göynəyirdi. Siyasi baxışlarına görəsə müsavatçıydı və Azərbaycanda müsavatçıların başına nə müsibətlər gətirildiyini yaxşı bilirdi (axı Əlimərdan bəy Topçubaşı başda olmaqla Azərbaycan Sülh Heyəti Parisdəydi və onlar başqalarından daha çox məlumatlıydılar, burada oxuyan tələbələr də daim onlarla əlaqə saxlayırdılar). Onun Vətənə yolu bağlanmışdı – iki sevgilisindən (anasından və Azərbaycandan) heç birini görə bilmirdi. Məncə, Mirzeynalabdinin özünə qıymasının başlıca səbəbi bu dərdə dözə bilməməsidir.

Böyük ehtimalla, Mirzeynalabdin Parisdə ailə qurub. Doğrudur, həmin ailə haqqında heç bir bilgimiz yoxdur, ancaq 2 ay bundan qabaq dostum, polis zabiti Qazıbəyovdan eşitdiyim bir sözü ciddi qarşılamağa məcburuq. O danışır ki, bu yaxınlarda turist səfərinə getdiyim zaman Karib adalarında eşitdim ki, həmin adalardan birinin qubernatoru Mirqasımovdur. Mirqasımovlarsa Azərbaycanda yalnız bizim nəsildir. Onlardan da Karib adalarına gedib çıxacaq yeganə şəxs məhz Mirzeynalabdinin övladı ola bilər və qubernator, məncə, onun nəvəsidir. İndi İnternetlə bu faktı dəqiqləşdirməyə çalışırıq.

Muğanlı Əsildar bəy Abbasəli bəy oğlu

(14.09.1900, İrəvan – 1961, Bakı)



Əsildar bəy Ağababababəyov-Muğanlinski

Əsildar bəy Muğanlı[1] Almaniyada ali təhsil almış tələbələrdəndir.

Zaqafqaziya Şiə Ruhani idarəsinin 21 aprel 1904-cü ildə Tiflisdə verdiyi 997 saylı doğum şəhadətnaməsinə görə, İrəvan şəhəri "Dəyirman küçəsi" camaatının 1900-cü ilə dair doğum kitabının I hissəsində göstərilib ki, İrəvan valiliyi Eçmiədzin (Üçkilsə) qəzası Əkərək kəndinin sakini, 31 yaşlı Abbasəli bəy Ağababababəyov-Muğanlinskinin qanuni arvadı, 23 yaşlı Leyli xanım İsgəndər bəy qızından oğlu Əsildar bəy xristian təqvimi ilə 14 sentyabr 1900-cü ildə doğulub.[2]

Milliyyətcə Türk, müsəlman Əsildar bəy Ağababababəyov-Muğanlinskiyə İrəvan şəhərində 18 may 1918-ci ildə verilmiş 485 saylı kamal attestatında göstərilib ki, o, 15 sentyabr 1909-cu ildə İrəvan kişi gimnaziyasına girərək orada 7 aprel 1918-ci ildək əla əxlaqla oxuyub, səkkizsiniflik tam kursu bitirib, bu zaman aşağıdakı bilikləri qazanıb:

Şəriət –	5 (beş)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	5 (beş)
Milli fənlər –	5 (beş)
Fəlsəfi propedevtika –	4 (dörd)
Latın dili –	5 (beş)
Riyaziyyat –	4 (dörd)
Riyazi coğrafiya –	4 (dörd)
Fizika –	4 (dörd)
Tarix –	5 (beş)
Coğrafiya –	4 (dörd)
Fransız dili –	5 (beş)
Alman dili –	5 (beş)
Qanunşünaslıq –	5 (beş).[3]

Ağababababəyov-Muğanlinski 10 avqust 1919-cu ildə Gəncədən AC maarif nazirinə yazdığı ərizədə xaricə göndəriləcək abituriyentlər və tələbələr siyahısına salınmasını xahiş edir və hüquq fakültəsində, bu mümkün olmazsa Yollar İnstitutunda oxumaq, Sürix şəhərinə getmək istədiyini bildirib və qeyd edib ki, qardaşım da oranı istəyir. O, təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyətində iki ildən az olmamaqla qulluq etməyi öhdəsinə götürüb.[4]

Abituriyent Ə.b.Ağababababəyov-Muğanlinski 3 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı növbəti ərizədə bildirib ki, "Азербайджан" qəzetinin builki 24 oktyabr tarixli 228-ci sayında Xalq Maarif Nəzarəti adından dərc edilmiş elanda Qərbi Avropaya göndərilən təqaüdçülər siyahısında mənim də adım var. Buna görə Qərbi Avropaya göndərilmək üçün zəruri sənədləri əlavə etməkdən ötrü 6 fotoşəkil təqdim edirəm və bildirirəm ki, başqa

[1] Soyadı sovet dönəminədək hər yerdə *"Ağababababəyov-Muğanlinski"* gedib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.
[2] ARDA, fond 51, siyahı 3, iş 97, vərəq 4.
[3] Yenə orada, vərəq 2.
[4] Yenə orada, vərəq 1.



Azərbaycanlı tələbələr Almaniyada. *Soldan sağa:* Əsildar bəy Ağabababəyov-Muğanlinski, Bəhram Abdinov, Məhəmməd Rəhimli

sənədlərimi Qərbi Avropaya getmək istəyimi bildirdiyim ilk ərizəmlə birgə vermişəm. Ali təhsilimi İsveçrənin Cenevrə şəhərində hüquq fakültəsində almaq istəyirəm.[1]

Əsildar bəy təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[2] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[3] 30 dekabr 1919-cu ildə dilkağızları verib.

Əsildar bəy Abbasəli bəy oğlu Ağabababəyov-Muğanlinskiyə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 538 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[4]

* * *

Ə.b.Muğanlı Almaniyada öncə Berlin, sonra isə Leypsiq Universitetinin hüquq fakültəsində oxuyaraq oranı 1925-ci ildə bitirib, ancaq Bakıya 1928-ci ildə qayıdıb.

Onun həyatının sonrakı dönəmi haqqında bilgilər həbs edildiyi zaman tərtib edilmiş istintaq dindirmələrinin protokollarındadır.

Əsildar bəy Avropaya "Ağabababəyov-Muğanlinski" soyadı ilə getsə də qayıdarkən "Muğanlı" olub. Bir sıra tələbə yoldaşları kimi, o da Almaniyada millətin özünə necə dəyər verdiyini görərək özTürk mənliyini dərk etmiş, bu üzdən soyadını da milliləşdirmişdi. Burası da var ki, sovet dönəmindəki sənədlərində artıq "bəy"liyi əlindən alınıb – quruca "Əsildar Muğanlı"nı görürük, ancaq o, bizim üçün yenə də bəy olaraq qalır.

Əsildar bəyi kommunistlər iki dəfə həbs edib. AR MTN Arxivində hər iki həbslə bağlı istintaq sənədləri durur. Onlardan burada növbə ilə söz açacağıq.

[1] ARDA, fond 51, siyahı 3, iş 97, vv. 16-16a.
[2] Yenə orada, vərəq 17.
[3] Yenə orada, vərəq 18.
[4] Yenə orada, vərəq 19.

Azərb. DSİ müvəkkili Nosovitskinin 1933-cü ilin martında tərtib etdiyi qərarda Muğanlı *Ələmdar* Abbas oğlunun[1] casusluqda yetərincə ifşa edildiyi göstərilib və onun həbs edilməsinin zəruriliyi bildirilib.[2]

1933-cü ilin 21 martında – Novruz bayramı günü o, ilk dəfə həbs edilib və dustaqlıq yoldaşı Almaniyada bir yerdə oxuduğu *Səməndər Axundzadə* olub. MTN Arxivindəki 33832 saylı (indi: PR-7175) istintaq sənədləri onların ikisinin birgə ittihamı üzrə tərtib edilib.

Savadsız çekistlər məsələyə o qədər səhlənkar yanaşıblar ki, hətta adını belə düzgün göstərməyiblər. Məsələn, 20 mart 1933-cü ildə verilmiş 783 saylı həbs orderində onun öz adı *"Ələmdar"*, atasının adı *"Abbas"* yazılıb.[3]

Birləşmiş Dövlət Siyasi İdarəsi Zaqafqaziya üzrə səlahiyyətli nümayəndəliyinin onun haqqında tərtib etdiyi arayışdakı bilgilərdən: *Muğanlı Əsildar Abbasəli oğlu* – 14.09.1900-cü il İrəvan doğumlu; daimi yaşayış yeri: Bakı, Tolstoy küçəsi 100; qulluq yeri və vəzifəsi: APİ və İctimai-İqtisadi İnstitut,[4] assistent; daşınmaz əmlakı yoxdur; qulluqçu; bəy oğlu; Türk; ali təhsilli; məhkəməyə düşməyib; sağlıq durumu: ürəyi və ciyərləri zəifdir. Ailə tərkibi: 1) atası: *Muğanlinski Abbasəli Ağababa oğlu*, 70 yaş, əlil; 2) anası: *Muğanlinskaya Leyla xanım*, 55 yaş, evdar; 3) qardaşı: *Muğanlinski Fuad*, 28 yaş, AQNİ-nin direktor müavini; 4) qardaşı: *Muğanlinski Nurəddin*, 27 yaş; 5) bacısı: *Muğanlinskaya Zərifə*, 24 yaş, ATİ-də müəlllimə; 6) bacısı: *Sarıyeva (Muğanlinskaya) Nəzirə*, 22 yaş.[5]

21 mart 1933-cü ildə Ə.Muğanlının Tolstoy küçəsi 100-cü evdəki 1-ci mənzilində (14-cü döngə) axtarış aparılıb və bu şeylər götürülüb:

1) Türkiyənin *"Cümhuriyyət"* və *"Rəsmli şənbə"* qəzetləri (3 nüsxə);

2) müxtəlif məqalələrin surətləri və 3-ü gizli məzmunlu sənəd olmaqla dövlət bankı üzrə başqa məlumatlar (11 vərəq);

3) zərfli məktublar və müxtəlif yazışmalar, o sıradan qəbzlər (cəmi 41 vərəq);

4) ümumi dəftər (1 ədəd), 3 bloknot.[6]

Başqa bir axtarış protokolunda isə 50 manat sovet pulunun da götürüldüyü qeyd edilib.[7]

Azərbaycan Dövlət Ali Pedaqoji İnstitutu Əsildar Muğanlıya belə bir arayış verib ki, o, 1932-33-cü dərs ilinin başlanğıcından APİ-də assistentdir və ayda 179 manat maaş alır.[8] Deməli, onu elə bu işdə çalışdığı vaxt tutublar.

Dindirmələr zamanı özü haqqında verdiyi bilgilərlə başqa heç bir sənəddə üzləşə bilməyəcəyimizə görə onların ən önəmlilərinə burada yer verəcəyik. 30 mart 1933-cü ildə tərcümeyi-halını qısaca belə danışıb:

"İrəvan şəhərində doğmalarımla birgə 1919-cu ilin başlanğıcınadək yaşamışam. Bu vaxtadək İrəvan kişi gimnaziyasını bitirmişəm. Atam Ermənistanın müxtəlif şəhərlərində hakim işləyib. İrəvanda atam Dairə Məhkəməsinin üzvü olub. Bu vəzifədə 1919-cu ildək işləyib. Həmin ildə valideynlərimlə birgə İrəvandan Azərbaycana, Gəncə şəhərinə daimi yaşamaq üçün oraya gəlmişik. Gəncədə atam Dairə Məhkəməsinin sədri təyin edilib və bu vəzifədə Azərbaycan sovetləşənədək çalışıb. Sonralar o, 1930-31-ci ildək məhkəmə orqanlarında çalışmaqda davam edib. İndi heç yerdə işləmir və təqaüdçüdür.

[1] *"Əsildar Abbasəli oğlu"* olmalıdır.
[2] AR MTN Arxivi, PR-7175, vərəq 7.
[3] Yenə orada, vərəq 1.
[4] Bizcə, bu, sonrakı Xalq Təsərrüfatı İnstitutudur.
[5] AR MTN Arxivi, PR-7175, vərəq 2.
[6] Yenə orada, vərəq 3.
[7] Yenə orada, vərəq 4.
[8] Yenə orada, vərəq 6.



Əsildar Muğanlı ikinci həbsində. 1935

Ailəmiz Gəncəyə köçərkən mən Sülh Məhkəməsində katibin köməkçisi işinə düzəldim, orada təxminən iki-üç ay qulluq etdim. 1920-ci ilin başlanğıcında Müsavat hökuməti xaricdə təhsil almaq istəyən şəxsləri yığırdı. Başqa azərbaycanlılardan ibarət böyük bir qrupun tərkibində Almaniyaya oxumağa mən və qardaşım Adil Muğanlinski də göndərildik. Hamımız Almaniyaya Müsavat hökumətinin təqaüdçüsü kimi getmişdik. Qabaqca mən Berlin Universitetinin hüquq fakültəsinə girdim. Burada 1 semestr oxudum, sonra isə Leypsiqə keçdim. Burada da hüquq fakültəsində oxudum. Oranı 1925-ci ildə bitirdim.

Qardaşım Adil Berlinə gedəndən universitetdə tibb fakültəsində oxuyub. Qardaşım universiteti bitirməyib və kəsiri olduğuna görə təqaüddən məhrum edilərək 1923-cü ildə Berlindən Parisə gedib, təhsilini orada davam etdirib. Qardaşımın Parisdə universiteti bitirib-bitirməməyini bilmirəm, çünki 1929-cu ildən bəri ondan heç bir soraq almamışıq".[1]

26 may 1933-cü il tarixli dindirməsində isə bunları söyləyib:

"Almaniyada oxuduğum zaman Leypsiq şəhərində Türk tələbələrinin milliyyətçi yönlü təşkilatı vardı. Mən də bu təşkilata 1925-26-cı ilədək qonaq kimi qatılmışam. Bu təşkilatda məni maraqlandıran bu birliyin üzvü olan tələbələrlə şəxsi dostluğum olub. Almaniyadan Bakıya qayıdandan sonra yalnız mənimlə birgə Leypsiqdə, ancaq Kommersiya İnstitutunda oxumuş Türk Hikmət Sadıqla yazışmışam. Hal-hazırda Hikmət Sadıq Türkiyədə İstanbul şəhərində yaşayır, deyəsən, sığorta cəmiyyətində, yaxud ticarət institutunda işləyir. Hikmət Sadıqla təxminən 1930-31-ci ilədək yazışmışam".[2]

İstintaqın bitməsi müttəhimə 31 may 1933-cü ildə elan edilib.[3]

Əsildar bəyin mənzilində Almaniya ali məktəbləri məzunlarının şənliyi keçirilib. Orada Azərbaycan mahnıları ilə yanaşı, tələbəlik illərini xatırlayaraq alman mahnıları da oxuyublar. Onların bu mahnıları oxuması ağır cinayət əməli kimi dəyərləndirilib.

XDİK müstəntiqinin Muğanlının mənzilində alman dilində mahnılar oxunmasının orqanlara bəlli olması haqqında sualına cavab verərkən *Səfərov Məhiş* demişdi:

"Bəli. Bəzən biz alman mahnıları oxumuşuq, ancaq onlar siyasi məzmunlu deyildi". "Bolşeviklər Almaniyaya oxumağa yalnız ADR illərində göndərilənləri deyil, sovetləşmənin ilk illərində göndərilmiş vətəndaşları da repressiya edirdilər".[4]

26 may 1933-cü ildə *Səməndər Axundzadə* və *Əsildar Muğanlı* onlara qarşı irəli sürülən ittiham təsdiq edilmədiyinə görə həbsdən azad ediliblər.[5] Bu sərbəstburaxmanın niyə baş verdiyini dəyərli oxucularımız bu kitabda Səməndər Axundzadə haqqındakı tərcümeyi-hal oçerkindən öyrənə bilərlər. Orada göstərilib ki, dustaqları Səməndərin anası Seyid Məsumə xanımın tələbi ilə Mircəfər Bağırov buraxdırıb.

* * *

Əsildar Muğanlı ikinci dəfə 25 iyun 1935-ci ildə həbs edilib.

AR MTN Arxivində saxlanılan 4671 saylı (indi: PR-24477) istintaq işi yalnız onun deyil, həm də Səfərov Məhiş Hacı oğlu və Hüseynzadə Firidun İsmayıl oğlunun ortaq cinayət

[1] AR MTN Arxivi, PR-7175, vv. 15-16.
[2] Yenə orada, vərəq 19.
[3] Yenə orada, vərəq 21.
[4] *Джафаров М.* Возвращение на Родину. // «Зеркало», 23.05.1998, № 20, ss. 26-28.
[5] AR MTN Arxivi, PR-7175, vərəq 22.

işi sayılır.[1] 25 iyun 1935-ci ildə başlanaraq 10 noyabr 1935-ci ildə bitmiş bu 186 vərəqdir.

Muğanlını ikinci dəfə guya əks-inqilabi faşist təşkilatının üzvü, həbsdə olan İsgəndər bəy Sultanovun ifadələrinə əsasən zindana atıblar. Maraqlıdır ki, bu haqda qərarı Azərb. XDİK DTİ bölmə rəisi Markaryan və bölüm rəisi Avanesyan hazırlayıblar.[2]

İstər birinci, istərsə də ikinci dəfə Əsildar bəyin həbs olunması, əlbəttə, ilk növbədə onun Almaniyada oxuması və savadlı hüquqşünas olması ilə bağlı idisə,bizcə, burada ikinci mühüm amil onun *atası Abbasəli bəyin Qarsda Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin ədliyyə naziri olması*[3]*, Qars və İrəvan valiliklərində hakimlik etdiyi zaman ermənilərin haqsızlıqlarının qarşısını alaraq müsəlmanların haqlarını qanun əsasında müdafiə etməsi olub.* Mircəfər Bağırov dönəmində Azərbaycanın cəza orqanlarının əsl ağasına çevrilmiş ermənilər vaxtilə ermənilərlə yola getməyən, ümumiyyətlə, haradasa onların qarşısına çıxmış bütün Türk və müsəlmanlardan indi asanlıqla amansız qisas alırdılar. Əsildar Muğanlı da istisna deyildi.

* * *

26 iyun 1935-ci il tarixli dindirməsinin protokolunda öncə haqqındakı bu bilgilər qeyd olunub: Ə.Muğanlı İctimai-İqtisadi İnstitutda, EA Zaqafqaziya Filialının Azərb. Bölməsində işləyir. Kooperativ İnstitutunda, Əli Bayramov klubunda alman dili dərsi deyir. Kooperativ İnstitutunda Marksın "Kapital" əsərinin tərcüməsi üzərində iş aparır. Almaniyadan Bakıya 1928-ci ildə qayıdıb.[4] 1 iyul 1930-cu ildən 8 mart 1933-cü ilədək SSRİ Dövlət Bankı Azərbaycan Kontorunun kassa planlaşdırması qrupunda məsləhətçi, baş məsləhətçi və müdir işləyib. Sonra müdir müavini edilib, bundan sonra öz ərizəsi ilə işdən çıxıb.[5] Almaniyada 1927-ci ilədək ASSR-in təqaüdçüsü olub.

İşdəki bir sənəddə göstərilib ki, Muğanlı 1933-cü ilədək Dövlət Bankında hüquq məsləhətçisi işləyib. 1934-cü ildən İctimai-İqtisadi İnstitutda alman dili dərsi deməyə başlayıb, eyni zamanda İslehlak Kooperasiyası İnstitutunda müəllim işləyib. Fənnini bilir, tədris metodikası yüksəkdir.[6] O, 1 sentyabr 1934-cü ildən 1 iyul 1935-ci ilədək Azərbaycan Sovet Kooperativ Ticarəti İnstitutu nəzdindəki fəhlə fakültəsində alman dili müəllimi işləyib.[7]

26 iyun 1935-ci il dindirməsində Muğanlı müstəntiqə deyib:

"Mənim bir doğma qardaşım da var, Parisdədir. 3 ay bundan qabaq ondan açıqca almışam. Bunadək ondan iki il müddətində heç bir xəbər yox idi. O, mənimlə birlikdə Almaniyaya oxumağa göndərilib. Berlində Tibb Universitetində oxuyub. 1924-cü ildə Almaniyadan Fransaya getdi. Orada nə ilə məşğul olduğunu bilmirəm. Onun adı Adildir".[8]

Müstəntiq Avanesyan və Botman ona Məhiş Səfərov, İsgəndər Sultanov, Firidun Hüseynzadə və başqaları ilə bağlı çoxlu suallar verərək onlara qarşı ifadə almaq istəsə də Əsildar bəy, demək olar ki, ümumən bütün dindirmələrində, haqqında soruşulanlardan yalnız müsbət danışıb, onların sovet hakimiyyətini dəstəklədiyini bildirib və var gücüylə həmin adamların qorumağa çalışıb, ancaq, təəssüf ki, onun özü haqqında rəy verənlər bu qədər qayğıkeş olmayıblar.

4 noyabr 1935-ci il dindirməsində müstəntiq Botman ondan *Fəthi bəy* adlı bir Türkiyə vətəndaşı haqqında da sual verib və bu cavabı alıb:

[1] AR MTN Arxivi, PR-7175, vərəq 169.
[2] Yenə orada, vərəq 2.
[3] Bu kitabın 967-ci səhifəsinə baxılsın.
[4] AR MTN Arxivi, PR-7175, vərəq 31.
[5] Yenə orada, vərəq 121.
[6] Yenə orada, vərəq 22.
[7] Yenə orada, vərəq 23.
[8] Yenə orada, vərəq 30.

"Fəthi bəy mənimlə birgə Leypsiq Universitetində oxuyub. Bir il, yaxud ildən bir az az olardı, Fəthi bəy ailə durumu ilə bağlı təxminən 1925-26-cı ildə İstanbula getdi. Gedərkən məndən 100-150 marka götürdü. O, Leypsiqə bir daha dönmədi və təxminən 1 ildən sonra mən Yunanıstandan (Pirey şəhəri) ondan məktub aldım və öyrəndim ki, o, Pirey şəhərində Türkiyənin vitse-konsulu işləyir. Bakıda olarkən Hikmət Sadıqın, yaxud Rüstəm Bəkirin (ondan yalnız bircə açıqca almışam) məktublarından öyrəndim ki, Fəthi bəy Türkiyə Xarici İşlər Nazirliyində katib işləyir. SSRİ-də olduğum vaxt Fəthi bəylə birbaşa əlaqəm olmayıb, Hikmət Sadıqla da əlaqəm kəsiləndən sonra onun haqqında heç nə bilmirəm".[1]

17 sentyabr 1935-ci ildə Nikolay Nikolayeviç Nijeradze şahid kimi dindirilərkən Əsildar Muğanlı haqqında sərt ifadələr işlədib və onun faşist görüşlü olduğunu bildirib. Onun qardaşı ilə bağlı isə deyib:

"Muğanlı Əsildarın Adil adlı qardaşını Müsavat hökuməti Əsildar kimi Almaniyaya oxumağa göndərib və o, SSRİ-yə qayıtmaq istəməyib, xaricdə, deyəsən, Fransada qalıb.

Muğanlı, məsələn, 1933-cü ildə (sonunda) onunla görüşdüyüm zaman mənə sərhədi gizlicə keçmək istədiyini söyləmişdi. Təxminən 1934-cü ilin başlanğıcında Muğanlı mənə danışmışdı ki, qardaşım Adil SSRİ-yə gəlməməkdə düz edib, halbuki xarici ezamiyyətə getmiş Fərəczadə ona SSRİ-yə gəlməyi təklif edib. Bu haqda danışan Muğanlı deyib ki, SSRİ-yə gəlməyimə peşmanam və bu səhvimi heç vaxt özümə bağışlamayacağam".[2]

Yaxın qohumu Cabbar Abbas oğlu Məhəmmədzadə (1882) 5 oktyabr 1935-ci ildə şahid kimi dindirilib və bildirib ki, Əsildar Muğanlı oxuduğu Almaniyadan tam yetkin türkiyəpərəst millətçi kimi qayıdıb. O, sovet hökumətinə qarşı narazılığını bildirərək *deyirdi ki, Türkləri sıxırlar, hər yerdə rusların və yəhudilərin ağalığıdır...* Qardaşı – AK(b)P üzvü Fuad Əsildarla mübahisə edir və onun dediklərinin düz olmadığını sübut edirdi.

Dediklərinin Əsildara ziyan vura biləcəyini hiss edən Məhəmmədzadə əlavə etmişdi ki, Muğanlı həbsdən çıxıdqdan sonra onun belə sözlər işlətdiyini eşitməmişəm.[3]

Bu dindirmədən bir həftə sonra – 13 oktyabr 1935-ci ildə müstəntiq Botman Əsildarın qardaşı – kommunist Fuad Muğanlinskini şahid kimi dindirib. O bildirib:

"Əsildar mənimlə söhbətlərində millətçi görüşlərini paylaşıb. Bundan başqa, Əsildar mənimlə söhbətdə sovet demokratiyası ilə tam razı olmadığını deyib, hesab edib ki, hansı məsələ olur-olsun, ona sinfi baxımdan yanaşmaq olmaz. Əsildar deyirdi ki, Türklər keçmişdə geri qalmış millətdir və indi onlara böyük diqqət yetirilməlidir ki, daha qabaqcıl millətlərin səviyyəsinə qalxsınlar. O, məsələn, deyirdi ki, Türklər hazırlıq səviyyəsinə görə hansı işə uyğun gəlirsə onun sinfi mənsubiyyətinə baxmadan həmin işə təyin etmək gərəkdir. Sovet demokratiyası məsələsi ilə bağlı Muğanlı Əsildar deyirdi ki, fikri azad ifadə etməyə imkan vermək lazımdır. Əsildarın bu söhbətlərinə və dediklərinə mən onları ayrıca yanlışlar kimi dəyərləndirərək əhəmiyyət vermirdim, çünki o, bu söhbətlərdə Sovet İttifaqının inqilabdan sonrakı nailiyyətlərini tanıyan fikirlər də bildirir və geniş kütlələrin dövlət həyatına cəlb edilməsini qəbul edirdi. Mən, adətən, Əsildara etiraz edir, o əvvəlcə mənimlə razılaşmır, sonra söhbəti kəsirdi...

Sual: Sizə Fərəczadənin qardaşınız Adillə xaricdə görüşməsi haqqında nə bəllidir və Fərəczadənin SSRİ-yə dönmək təklifinə Adil nə deyib?

Cavab: Necə olduğunu bilmirəm, ancaq mənə məlum oldu ki, Fərəczadə Adillə görüşüb. Bu görüşün təfsilatını bilmirəm".[4]

[1] AR MTN Arxivi, PR-7175, vv. 52-53.
[2] Yenə orada, vərəq 74.
[3] Yenə orada, vərəq 85.
[4] Yenə orada, vərəq 92.

Əslində bu cür demokratik görüşlərinə, sinfi mübarizəni inkar etməsinə görə kommunistlər Əsildar bəyi hökmən tutmalı idilər. Ancaq qardaşının söylədiyi bu həqiqətlər indi Əsildar bəyə hörmətimizi qat-qat artırırsa da o zaman üçün xoşagələn hal deyildi. Görünür ki, elə bu üzdən də Əsildar həbsdən buraxıldıqdan sonra qardaşı Fuadla daha səmimi olmağı bacarmadı...

Bir şahid Muğanlı haqqında belə mənfi rəy verib:

"O zaman Muğanlı deyirdi ki, Azərbaycan sarıqulaq rusların ölkəsidir. Xalqı aldatmaqdan ötrü AK(b)P MK-nın və Azərb. XKŞ-nın başına Bağırov və Rəhmanov kimi ruslara yaltaqlanan türkləri qoyublar".[1]

Qorki diyarının 10 saylı islah-əmək koloniyasının Moskur dəmiryolu Seym stansiyasından 27 noyabr 1936-cı ildə ASSR Ali Məhkəməsinin Özəl Kollegiyasına vaxtından öncə azadlığa buraxılması üçün ərizə yazaraq bidirib ki, ASSR Ali Məhkəməsinin Özəl Kollegiyası məni 3 yanvar 1936-cı ildə müddətim 25 iyun 1935-ci ildən sayılmaqla 3 illiyə azadlıqdan məhrum edib.

[...] Məhkumluqdan sonra mən etapla Daşkəndə göndərilmişəm. 1-ci ayrıca Daşkənd düşərgə məntəqəsində hesab-bölgü hissəsində uçot briqadasının briqadiri kimi işləmişəm. Avqust ayında 10 saylı islah-əmək koloniyasına gəlmişəm. Burada yenə hesab-bölgü hissəsində işləyirəm. Beləliklə, artıq 18 ay müddətim gedib və mənə ASSR CM 61-ci maddəsinin tətbiqini xahiş etmək hüququm var.[2]

Ə.Muğanlı bundan sonra onu vaxtından əvvəl həbsdən buraxmağa əsas ola biləcək keyfiyyətlərini sadalayıb. Onlardan biri budur:

"Mən... ali məktəblərdə müəllim olarkən Marksın "Kapital"ını alman dilindən türk dilinə çevirməkdə iştirak etmişəm, lüğətləri redaktə etmişəm və Ensiklopediya ilə əməkdaşlıq etmişəm. Bütün bu işlərdən mən təhlükəli cani kimi qoparılmışam və öz səhvlərimə görə sərt cəzalandırılmışam".[3]

Görünən odur ki, bundan sonra Əsildar bəy azad edilməyib, əksinə, Qazaxıstanın Karaqanda vilayətinin Kuvsk rayonuna 133-cü partiyaya göndərilib.[4]

Ə.Muğanlı yalnız 13 sentyabr 1957-ci ildə bəraət alıb.[5]

Onun həbsdən qayıtdıqdan sonrakı həyatı haqqında, demək olar ki, heç nə bilmirik. Yaxın qohumlarından olan olan Dövran İbadulla bəy oğlu Muğanlinskidən öyrəndik ki, o, 1961-ci ildə Bakıda dünyasını dəyişib.

Dindirmələrinin birində Əsildar bəyin ən yaxın dostlarından birinin APİ-də onunla birgə işləmiş, Türkiyədə ali təhsil almış Cümhuriyyət təbəəsi *Abdulla Tahirzadə* olduğu qeyd edilib.[6] Ancaq onların dostluğunun sonadək davam edib-etməməsi haqqında nəsə deməkdən acizik.

İnternetdən aldığımız bilgiyə görə, Əsildar bəyin qardaşı *Nurəddin Muğanlinski* (1907-1968) Azərbaycan Politexnik İnstitutunu[7] 1931-ci ildə bitirib; Bakının müəssisələrində işləyib (1930-1941); Başqırdıstanda "Başneftkəşfiyyat" Trestində şöbə rəisi, baş mühəndis (1941-1947), "Başneft" İstehsalat Birliyində müxtəlif vəzifələrdə, o sıradan rəis müavini vəzifəsində çalışıb (1947-1967); SSRİ ordenləri alıb; Başqırdıstanın əməkdar elm və texnika xadimi və əməkdar neftçisidir.

[1] AR MTN Arxivi, PR-7175, vərəq 96.
[2] Yenə orada, vərəq 138.
[3] Yenə orada, vərəq 139.
[4] Yenə orada, vərəq 184.
[5] Yenə orada, vərəq 185.
[6] Yenə orada, vərəq 96.
[7] İndiki Neft Akademiyasını.

Muxarski Süleyman Bəkir oğlu

(20.07.1900, Ostrina[1] – ?)



Süleyman Muxarski

"Litva tatarı" olduğu yazılıb. Quzey Qafqazın Türk xalqlarının tarixini araşdırmış, o sıradan qiymətli "Noğay Türkləri" monoqrafiyasını[2] ortaya qoymuş tarix elmləri doktoru Sevinc Əliyevanın bizə bildirdiyinə görə, "Litva tatarı" ifadəsi mahiyyətcə yanlışdır, çünki onların əksəri noğaylardan ibarətdir, Muxarski də noğaydır.

Cümhuriyyət Muxarskini Qərbi Avropaya ali təhsil almağa göndərmişdi.

Həyatı haqqında bilgimiz çox azdır, çünki həm arxivlərdə sənədləri azdır, həm 1920-ci ildən sonra Azərbaycana qayıtmayıb, həm də təhsilini davam etdirməyərək izini itirib. O üzdən az-çoxluğuna baxmadan əlimizdəki bütün bilgiləri oxucularımızla bölüşürük. Hər bir halda bu, "haqqında heç bir məlumat yoxdur" yazmaqdan daha faydalıdır.

Muxarskinin sənədləri arasında doğum şəhadətnaməsi olmadığına görə onun doğum tarixini, harada doğulduğunu, atasının adını və s. başqa sənədlərdən öyrənə bildik.

Tiflisdə 15 iyun 1919-cu ildə verilmiş 943 saylı şəhadətnamədə qeyd olunub ki, Tiflis real məktəbi əlavə sinfinin şagirdi, müsəlman, 20 iyul 1900-cü ildə doğulmuş Muxarski Süleyman bu sinifdə 1 sentyabr 1918-ci ildən 31 may 1919-cu ilədək əla əxlaqla oxuyaraq əlavə sinfin tam kursunu bitirib və bu uğurları qazanıb:


Gürcü dili –	
Rus dili –	xeyli kafi
Alman dili –	xeyli kafi
Fransız dili –	xeyli kafi
Riyaziyyat, o sıradan:	
Hesab –	xeyli kafi
Cəbr –	xeyli kafi
Triqonometriya –	xeyli kafi
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuzların kiçiklərin analizi) –	xeyli kafi
Fizika –	xeyli kafi
Təbiiyyatşünaslıq –	xeyli kafi
Riyazi coğrafiya –	xeyli kafi
Gürcüstan tarixi –	xeyli kafi
Ümumi tarixi –	xeyli kafi
Qanunşünaslıq –	xeyli kafi
Məntiq və psixologiya –	xeyli kafi
Rəsm –	xeyli kafi.[3]

[1] Çar dönəmində Vilna (Vilen) valiliyi Lidsk qəzasında yerləşən Ostrina indi Belarus ərazisindədir

[2] *Алиева С.* Ногайские тюркы: XV-XX вв. Баку: «Şərq-Qərb», 2010.

[3] ARDA, fond 51, siyahı 3, iş 104, vərəq 2.

Muxarski 17 avqust 1919-cu ildə Bakıda xalq maarif nazirinə yazdığı ərizədə ali təhsil almaq üçün Fransaya, yaxud İsveçrəyə getmək istədiyini bildirib və bu zaman göstərib ki, mən Polşa-Litva müsəlmanıyam, qaçqınam, Qərb diyarını almanlar 1915-ci ildə işğal etdiyinə görə yaşamaq üçün zəruri olan hər şeyim əlimdən çıxıb; indi yalnız Maliyyə Nəzarətində işləyib aldığım maaşla dolanıram.[1]



Süleyman Muxarskinin ərizəsi

Abituriyent Muxarski 10 noyabr 1919-cu ildə Bakı şəhərində xalq maarif nazirinə ərizə verərək bildirib ki, oxumağa Cenevrəyə getmək istəyirəm; Azərbaycan vətəndaşlığı haqqında vəsiqəni Daxiliyyə Nəzarətindən alan kimi təqdim edəcəyəm.[2]

Azərbaycan Hökuməti-Cümhuriyyəsinin daxiliyyə naziri 1919-cu ilin noyabrında bu məzmunda şəhadətnamə verib:

"İşbu şəhadətnamə 1919 sənəsi ağustosunun 11-də Azərbaycan təbəəliyi haqqındakı qanunun 6-cı fəslinə istinadən Süleyman Bəkir oğlu Muxarskiyə verilmişdir ol xüsusda ki, Muxarski qanunun 4-cü fəslinə binaən Azərbaycan vətəndaşları sırasına qəbul olunmuşdur.

Tamğa parası[3] verilmişdir.

Təvəllüd bulmuş: sənəyi-1900 iyulun 20-də Vilen vilayəti Ostrina yerində.

Milliyyət: Litva tatarı. Din: islam. Ailiyyət vəziyyəti: subay. 1919 sənəsi noyabrın 8-i, Bakı şəhəri, № 10970.

Daxiliyyə naziri namına: general-mayor Ağabəyov imza etmişdir.

İdarə müdiri Ağasıbəyov, şöbə müdiri Rzabəyov imzalamışlar.

Əslinə mütabiqdir: 4-cü şöbə kargüzarı (möhürü)".[4]

Deməli, o, Azərbaycan vətəndaşlığını 8 noyabr 1919-cu ildə qəbul edib.

Muxarski təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında 31 dekabr 1919-cu ildə[5] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında isə 10 yanvar 1920-ci ildə[6] dilkağızları verib.

Süleyman Bəkir oğlu Muxarskiyə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 542 saylı vəsiqə 15 yanvar 1920-ci ildə verilib.[7]

Azərbaycan hökumətinin dövlət nəzarətçisi 18 fevral 1920-ci ildə Heyəyi-Vükəlaya (Nazirlər Şurasına) Gəncə, Şuşa və Şəki şəhərlərində dövlət nəzarəti bölmələrinin yaradılması haqqında məruzə təqdim edib.[8] Bu 3 səhifəlik məruzəni dövlət nəzarətçisi *Məhəmmədbəyov [Heybətqulu]* və *dəftərxananın direktor müavini Muxarski*

[1] ARDA, fond 51, siyahı 3, iş 104, vərəq 1.

[2] Yenə orada, vərəq 3.

[3] Gerb rüsumu.


[4] ARDA, fond 51, siyahı 3, iş 104, vərəq 4.

[5] AR MTN Arxivi, PR-7175, vərəq 5.

[6] Yenə orada, vərəq 6.

[7] Yenə orada, vərəq 7.

[8] ARDA, fond 895, siyahı 1, iş 303, vv. 6-7.



Süleyman Muxarskinin Azərbaycan Cümhuriyyəti təbəəliyinə qəbul edilməsi haqqında şəhadətnamə

imzalayıblar. Muxarskinin Süleyman Muxarski olduğu, bizcə, şübhə doğurmamalıdır.

Muxarskinin adı Maarif Nəzarətinin tərtib etdiyi 14 mart 1920-ci il siyahısında[1] İngiltərəyə gedən tələbələr sırasında qeyd olunsa da 10 avqust 1920-ci ildəki siyahıda o, Fransada Lion şəhərində oxuyan tələbələr içərisində verilib.[2] Ancaq adı sonradan heç bir sənəddə çəkilməyib. 28 may 1920-ci ildə Parisdə Azərbaycan Cümhuriyyətinin ildönümünü qeyd edən Fransa tələbələrinin kollektiv fotosunda da Muxarskini görmürük (burada 21 tələbəmiz təsvir olunub). Bunlar Muxarskinin, təhsilini başa vurmadığını deməyə əsas verir. Onun sonrakı taleyi haqqında heç bir bilgimiz yoxdur. Çox güman ki, o, Parisdəki Qafqaz mühacirlərinə qoşulub.

Nazir Qaplanovun namizədlərindən olan Muxarski, təəssüf ki, Cümhuriyyətin ona göstərdiyi etimadı doğrulda bilməyib.

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 9-10.
[2] Yenə orada, vv. 62-63a.

Muradov Abbas Həmid oğlu

(1897, Şuşa – 1934-cü ildən sonra)



Abbas Muradov

Azərbaycan Cümhuriyyəti Şuşa qəza qazisi 10 noyabr 1919-cu ildə Şuşa qəzavətxanasından Şuşa şəhərinin sakini Həmid Kərbəlayı Məhəmməd oğluna 321 saylı şəhadətnaməni onun xahişinə görə bu xüsusda verib ki, "onun oğlu Abbas nam[1] Həmid məzkurun zövceyi-şəriyyəsi Leyli Kərbəlayı Lütfəli qızından keçən 1897-ci ilin naməlum günündə təvəllüd etməyi qeyd olub Şuşa şəhərinin Köçəri prixodunun 1902-ci ilin siyahiyi-ümumiyyə dəftərinin 13-cü nömrəsində. Bu şəhadətnamənin səhhətini öz dəsti-xəttim ilə imza edib möhürümü səbt etdim. Şuşa qəza qazisi".[2]

Bu sənədi oxuyanda aydın olur ki, çar dönəmində doğum şəhadətnaməsi almaq istəyənlər hökmən Tiflisə getməyə və orada ya Qafqaz Şiəməzhəb Müsəlmanları Ruhani İdarəsindən (şeyxülislamdan), ya da Qafqaz Sünniməzhəb Ruhani İdarəsindən (müftidən) bu sənədi almağa məcbur idilərsə Cümhuriyyət dönəmi bu sənədi vermək qəza qaziliklərinin (qazavatxanasının) öhdəsinə buraxılıb və əhalinin işi, əlbəttə, xeyli yüngülləşdirilib, çünki o dönəmdə Tiflisə getmək indi Antarktidaya getməyə bərabər bir səfərdi.

Şuşa şəhərinin sakini Abbas Muradov 15 sentyabr 1919-cu ildə maarif nazirinə aşağıdakı məzmunda bir ərizə yazıb:

"Orta təhsilimi Petroqradda real məktəbi 1918-ci ildə bitirməklə almışam. Attestatımda orta qiymət "4.7", şəhadətnaməmdə isə "4.4"-dür. Ancaq, çox təəssüf ki, təhsilimi davam etdirə bilmədim, çünki, birincisi, qulluq etdiyim Ümumrusiya Müsəlman Şurası Mərkəzi İcraiyyə Komitəsindən aldığım maaş yalnız yeməyə çatırdı. İkincisi də, hərc-mərclik, təsəvvürəgəlməz bahalıq və vəba Petroqradı tərk etməyə və cənubda haradasa sığınacaq axtarmağa məni məcbur etdi. Petroqradın çəngindən qurtarmaq özəlliklə tələbələrə asan deyildi, çünki bolşeviklər onlara inamsız yanaşırdılar.

Bir sözlə, iki aylıq gəzintidən sonra çox böyük əzab-əziyyətlə, nəhayət, doğma Azərbaycana gələ bildim. Burada bir ay valideynlərimin yanında dincəldikdən sonra Bakıya gələrək Ümuri-Xeyriyyə Nəzarətində[3] işə girdim.

Atam kasıb adamdır və böyük ailəyə baxır. Mən gələcəkdə təhsilimi davam etdirməyə bütün umudlarımı kəsmişdim, ancaq, görünür, Siz alihəzrətin 100 tələbəni xarici ali məktəblərə göndərmək haqqında sərəncamınızla bu umudların yenidən dirilməsi qadir Allaha da xoş gəlir. Buna görə məni Fransada, orada imtina etsələr İsveçrədə, yaxud Almaniyada Texnologiya İnstitutunun gəmiqayırma bölməsinə göndəriləcək tələbələr sırasına salmağınızı xahiş edirəm. Doğum şəhadətnaməsi, Petroqrad real məktəbini qurtarmaq haqqında attestat və şəhadətnamə Petroqradda məktəbdə qalıb. Bunu Ümumrusiya Müsəlman Şurası Mərkəzi İcraiyyə Komitəsinin keçmiş sədri və Müəssislər Məclisi müsəlman fraksiyasının sədri, indi Tiflisdə olan Əhməd Salikov bilir. Bu məktuba Tiflisə qaçqınlar məsələsi ilə bağlı getdiyim zaman ondan aldığım məktubu da

[1] Adlı.
[2] ARDA, fond 51, siyahı 3, iş 107, vərəq 4.
[3] Bu nazirlik indiki Əhalinin Sosial Müdafiəsi Nazirliyinə uyğun gəlir.



Abbas Muradov. Paris, 1920

əlavə edirəm. Sənədlərimin Piterdə qalması faktını isə Qarabağ hərbi valisinin köməkçisi, mühəndis Çingiz xan Sultanov[1] və onun keçmiş köməkçisi, indi burada, Lalayev pasajında Vəlixanovlargildə yaşayan Ağa Büzürg Rzayev də bilir. Şuşadan doğum haqqında şəhadətnamənin surətini bəlkə də bugünlərdə aldım.

Ümuri-Xeyriyyə Nəzarətindən 14 sentyabr 1919-cu ildə verilmiş kasıblığım haqqındakı 5229 saylı vəsiqəni də əlavə edirəm.

A.H.Muradov".[2]

(Sənədin sonunda Muradova 157 saylı xarici pasportun 11 dekabr 1919-cu ildə verilməsi haqqında qeyd var).

Petroqradda A.S.Çernyayev adına hökumət məktəbləri ilə tam hüquqda olan özəl real məktəbin 7 "b" sinfinin şagirdi Muradov Abbasın 1917/18-ci dərs ili üçün uğurları və əxlaqı haqqında təcili cədvəl. 21 may 1918, № 547.

	Birinci yarımil	*İkinci yarımil*	*İllik*
Şəriət	–	–	–
Rus dili yazılı və şifahi	kafi	4	4
Alman dili	4	4	4
Fransız dili	kafi	4	4
Hesab	–	–	–
Cəbr	kafi	4	4
Triqonometriya	kafi	4	4
Həndəsə	5	5	5
Analitik həndəsə	kafi	4	4
Riyazi coğrafiya	kafi	4	4
Anatomiya	5	4	4
Fizika	4	4	4
Kimya	5	5	5
Qanunşünaslıq	kafi	4	4
Təbiiyyatşünaslıq	kafi	5	5
Coğrafiya	–	–	–
Tarix	kafi	5	5
Rəsm	4	4	4
Rəsmxət	4	3	4
Məntiq	4	4	4
Əxlaq	5	5	5
Buraxılmış dərslərin sayı	25	36	–.

Pedaqoji şuranın qərarı: attestat və şəhadətnamə verilsin.[3]

Şuşa qəza rəisi 7 iyul 1915-ci ildə Şuşa şəhərinin sakini, Ağdam kəndində yaşayan Həmid Muradova 2739 saylı belə bir arayış verib ki, o, kasıbdır və oğlu Abbası məktəbdə oxutmağa gücü çatmır.[4]

[1] Söhbət Çingiz İldırımdan gedir.
[2] ARDA, fond 51, siyahı 3, iş 107, vv. 1-2a.
[3] Yenə orada, vv. 3-3a.
[4] Yenə orada, vərəq 5.

7 sentyabr 1919-cu ildə *Əhməd Salikov* öz əli belə bir qeydi imzalayaraq verib: "Bununla təsdiq edirəm ki, A.H.Muradov həqiqətən Ümumrusiya Müsəlman Şurası İcraiyyə Komitəsində (ÜMŞ İK) işləyib və həqiqətən real məktəbi bitirib, ancaq ÜMŞ İK ləğv edildiyinə və pulu olmadığına görə o, real məktəbdən uyğun sənədləri götürə bilməyib.[1]

AC ümuri-xeyriyyə naziri Klenevski 14 sentyabr 1919-cu ildə maarif nazirinə yazdığı 5229 saylı məktubda xahiş edib ki, mənə tapşırılmış Nəzarətin mərkəzi anbarının müdir müavini A.H.Muradovun ərizəsini götürməkdən imtina etməyin və onun ali təhsilini bitirməsi üçün xaricə göndəriləcək tələbələr sırasına salınmasına yardım göstərin. Bu zaman əlavə edirəm ki, Muradov çox diqqətcil, bacarıqlı və vicdanlı işçidir. Buna görə də onun xahişini tam dəstəkləyirəm, umudvaram ki, Siz də yardımızı əsirgəməyəcəksiniz.[2]



Abbas Muradov. Paris, 1921

Ümuri-Xeyriyyə Nəzarətinin mərkəzi anbarının müdir müavini Abbas Muradov 12 noyabr 1919-cu ildə Tiflisdən AC maarif nazirinə ərizə yazaraq bildirib ki, bu il 19 oktyabrdan Yevlax stansiyasında xidməti işdə olduğuma görə fotoşəkillərimi vaxtında təqdim edə bilməmişəm. İndi Sanain stansiyasına göndərilməyimdən yararlanaraq Azərbaycan Cümhuriyyətinin Gürcüstan hökumətindəki diplomatik nümayəndəsinin təsdiqlədiyi 6 fotoşəkli göndərirəm. Zati-alilərinizdən bu şəkilləri qəbul etməyi xahiş edirəm.[3]

Maraqlıdır ki, bu ərizəni Maarif Nəzarətinə 20 noyabr 1919-cu ildə AC Xariciyyə Nəzarəti *Sulkeviç*'in imzası ilə göndərib.[4]

Abbas Muradov tarixsiz bir ərizəsində komissiyaya yazıb ki, mən 1912-ci ildə Ağdam rus-türk məktəbini qurtarmışam, orada şəriət və türk dilini "5"lə oxumuşam. Komissiya lazım bilərsə Ağdamdan attestatın surətini ala bilərəm. İxtisas olaraq Fransada Texnologiya İnstitutunun gəmiqayırma bölümünü seçmişəm, yaxud Rusiyadan başqa, hökumətimin istədiyi yerə gedə bilərəm. Doğum şəhadətnaməmin surətini Şuşadan bugünlərdə alacağam.[5]

O, təhsil yeri kimi Paris şəhərində Politexnik İnstitutun gəmiqayırma bölümünü seçdiyini bildirib. Bundan sonra Muradov xahiş edib ki, xaricə göndəriləcək tələbələr sırasına salınması haqqında ona arayış verilsin – o, həmin sənədi də götürərək valideynləri ilə görüşmək üçün Şuşaya getmək istəyir.[6]

[1] ARDA, fond 51, siyahı 3, iş 107, vərəq 6.
[2] Yenə orada, vərəq 7.
[3] Yenə orada, vərəq 8.
[4] Yenə orada, vərəq 10.
[5] Yenə orada, vərəq 11.
[6] Yenə orada, vərəq 12-12a.

29 dekabr 1919-cu ildə Muradov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[1] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[2] dilkağızları verib.

Abbas Həmid oğlu Muradova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 511 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[3]

* * *



Abbas Muradov *(dostu Əli Yusifzadəyə bağışlayıb).* Paris, 20 yanvar 1921-ci il

Muradov Parisdə tibb fakültəsində oxuyub.[4]

Azərbaycan K(b)P MK Katibliyinin 22 aprel 1928-ci il tarixli iclasında (14-cü protokol) 37-ci məsələ "Yol. Abbas Muradov haqqında (xaricdəki tələbə)" adlanır, çıxarılmış qərar isə belə olub: "*Yol. Abbas Muradovun (Paris Universitetinin tələbəsi) Bakıya gəlməsini təmin etmək ÜK(b)P Zaqafqaziya Diyar Komitəsindən xahiş edilsin*".[5] (Bu da Nərimanovun qurduğu "müstəqil" Azərbaycan!).

Görünür, Parisdə ali təhsilini başa vurmuş Abbas Muradov Azərbaycana qayıtmaq üçün Azərbaycan KP-dən yardım istəyib və o da əməlli-başlı "yarıdıb". Bizcə, Azərbaycandakı hökumətin rusların əlində oyuncaq olduğunu hiss edən Muradov vətənə qayıtmaq fikrindən vaz keçib və Türkiyəyə gedib. Bizi bu fikrə yönəldən odur ki, 1934-cü ildə Əlimərdan bəy Topçubaşı vəfat edərkən "Qurtuluş" dərgisində (Münxen) başsağlığı verən mühacir azərbaycanlılar arasında *"Dr. Abbas bəy Muradov"*un da imzası var. Onun adı Türkiyədə yaşayan mühacirlərimizdən *Nəsrullah xan Aşurbəyli, Əli xan Kantemir, Mirtağı Mirbabayev, Xeyransa xanım Talıbxanbəyli, Hüseyn Camal (Mirzəcamalov), Mikayıl Xəlil Paşa, İsgəndər xan Xoyski, Əli bəy Hüseynzadə, Əbdüləli bəy Əmircanov, Əli bəy Zülqədər, Rəhim xan Xəlilli, Ənuşirəvan bəy Zülqədər* ilə yanaşı çəkilib.[6]

[1] ARDA, fond 51, siyahı 3, iş 107, vərəq 13.
[2] Yenə orada, vərəq 14.
[3] Yenə orada, vərəq 15.
[4] Yenə orada, fond 57, siyahı 1, iş 276, vv. 62-63.
[5] ARPİİSSA, fond 1, siyahı 74, iş 730, vərəq 157.
[6] *"Kurtuluş"* (Azerbaycan Milli Kurtuluş Hareketinin Organı). Münih. Birinci kanun (dekabr) 1934, №2, s. 62.

Muradov Məhəmməd bəy Fərhad bəy oğlu

(01.01.1900, Şuşa – ?)



Məhəmməd bəy Muradov

Doğum tarixi haqqında sənəd 26 oktyabr 1909-cu ildə verilmiş 3461 saylı şəhadətnamədir:

"Verilir bu şəhadətnamə Zaqafqasın Şiəməzhəb Müsəlmanlarının İdareyi-Ruhaniyyəsindən ol xüsusda ki, Yelisavetpol quberniyasının Şuşa şəhərinin sakini Məhəmməd bəy Fərhad bəy oğlu təvəllüd edibdir öz atası Fərhad bəy Məhəmmədrza bəy oğlu Muradovun mənkuheyi-şəriyyəsi Asya xanım Kərim bəy qızından 1900-cü ilin yanvar ayının əvvəlinci günündə".[1]

Orta təhsilini Bakıda alıb. 5 mart 1915-ci ildə Bakıda verilmiş 77 saylı kamal attestatında oxuyuruq ki, Məhəmməd bəy Fəhrad bəy oğlu Muradov Bakı 3-cü kişi gimnaziyasına 1911-ci ilin sentyabrında girərək orada əla əxlaqla 28 fevral 1918-ci ildək oxuyub və səkkizsiniflik tam kursu bitirib, bu zaman aşağıdakı biliklərə yiyələnib:

Şəriət –	əla (5)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	yaxşı (4)
Fəlsəfi propedevtika –	əla (5)
Latın dili –	əla (5)
Qanunşünaslıq –	əla (5)
Riyaziyyat –	yaxşı (4)
Riyazi coğrafiya –	yaxşı (4)
Fizika –	yaxşı (4)
Tarix –	əla (5)
Coğrafiya –	əla (5)
Fransız dili –	əla (5)
Alman dili –	yaxşı (4)
Türk dili –	əla (5).[2]


1918-ci ilin martında Şaumyan bandasının Bakıda törətdiyi qırğınların canlı şahidi olan Məhəmməd Muradzadə həmin il *"Mart hadiseyi-əliməsi"* adlı bir əsər yazıb.[3]

Ağdam sakini Məhəmməd bəy Muradov 6 avqust 1919-cu ildə Ağdamdan AC maarif nazirinə yazdığı ərizədə hökumətin xaricə göndərdiyi tələbələr sırasına salınmasını xahiş edib, İsveçrə universitetlərinin birində tibb fakültəsində oxumağı arzu edib. O, gimnaziyada da dövlət hesabına oxuduğunu göstərib. Ərizəsinin sonunda nənəsi *Gülsüm xanım Nurubəyova*'nın vaxtilə Qafqaz Tədris Dairəsinə onun dövlət hesabına götürülməsi üçün yazdığı ərizəni də təqdim edib.[4]

[1] ARDA, fond 51, siyahı 3, iş 95, vərəq 3.
[2] Yenə orada, vv. 2-2a.
[3] *Muradzadə M.* Mart hadiseyi-əliməsi. // *"Dünya"* jurnalı, 1993, №2, ss. 8-22; *Muradzadə M.* Mart hadiseyi-əliməsi. Bakı, 1996.
[4] ARDA, fond 51, siyahı 3, iş 95, vv. 1-1a.



Məhəmməd bəyin doğum şəhadətnaməsi



Gülsüm xanım Nurubəyovanın ərizəsinin ilk səhifəsi

Şuşa Qəza İdarəsindən Şuşa qəzasının Muradbəyli kəndində yaşayan Kərim bəy Nurubəyovun dul xanımı Gülsüm xanım Nurubəyovaya onun xahişi ilə 2-ci sahənin pristavının 16 may tarixli 2686 saylı məlumatı əsasında 4 iyul 1909-cu ildə 51/2467 saylı arayış ona görə verilib ki, o, həqiqətən kasıbdır və öz yetim nəvələri Məhəmməd bəy və Cəmil bəy Muradovlara ali təhsil[1] verməyə imkanı yoxdur.[2]

26 sentyabr 1910-cu ildə "bən, Ağdam camaatının yüzbaşısı bu şəhadətnaməni verirəm bənim zirdəstimdə[3] olan Muradbəyli kəndində sakin olan Şuşa şəhərinin sakinəsi Gülsüm xanım Kərbəlayı Rza qızına ondan ötrü ki, o, bir qoca övrətdir və 2 nəfər yetim nəvələri vardır: biri ola Məhəmməd bəy və biri ola Cəmil bəy. Özləri də bitaqətdirlər.[4] Bu əmrin istehkamı üçün dəsti-xətt yazıb padşahlıq möhrü səbt etdim. Ağdam camaatının yüzbaşısı (möhür)".[5]

Bu son iki arayışı Gülsüm xanım nəvələrini orta məktəbdə dövlət hesabına oxutmaqdan ötrü almışdı.

Bu maarifsevər xanım – Muradbəyli kəndinin (Ağdam) sakini Gülsüm xanım Nurubəyova 1919-cu ilin avqustunda AC maarif nazirinə yazdığı ərizədə nəvəsi Məhəmmədin xaricə göndəriləcək təqaüdçülər sırasına salınmasını xahiş edib və onun haqqında bu bilgiləri verib:

[1] Burada "ali təhsil" dedikdə molla məktəbindən yuxarı təhsil nəzərdə tutulub.

[2] ARDA, fond 51, siyahı 3, iş 95, vərəq 5.

[3] Tabeliyimdə.

[4] Maddi baxımdan kömək sizdirlər.

[5] ARDA, fond 51, siyahı 3, iş 95, vərəq 4.



Məhəmməd bəy Muradov

"Anasını vaxtsız itirib və bundan da qabaq atası onu taleyin ixtiyarına buraxıb. Bu nəvə yalnız nənənin himayəsində qalıb. Mən də tək qadınam, təhsili yüksək dəyərləndirirəm. Nəyin bahasına olsa nəvəmə təhsil vermək istəyirəm. Bu yolda bütün gücümü və imkanımı sərf edəcəyəm. Keçmiş Qafqaz Tədris Dairəsinin dövlət hesabına orta məktəblərin birinə nəvəmin götürülməsi üçün ərizə verdim, ancaq Qafqaz Tədris Dairəsinin hamisi Rudolf əvvəlcə məndən bütün gərəkli sənədləri istədi və günlərin birində onların hamısını geri qaytardı ki, nəvən heç olmasa bir il orta məktəbdə əla əxlaqla və yaxşı qiymətlə öz hesabına oxusun və yalnız bundan sonra ərizə ver. Bundan sarsılan nəvəm Bakıya gedib və uzun əzab-əziyyətdən sonra Bakı 3-cü kişi gimnaziyasına girib və qısa müddətdə yetərincə yaxşı uğurlar qazanıb və buna görə bütünlüklə təhsil haqqından azad edilib. İndi nəvəmin sonrakı təhsili haqqında düşünməliyəm.

Mən istəyirəm ki, onda yalnız savadlı bir həkimi deyil, ən başlıcası, gələcəkdə öz xalqının və gənc Azərbaycan dövlətinin rifahı uğrunda yorulmadan mübarizə aparan hərtərəfli savadlı və şərəfli bir adam görəm. Siz əlahəzrətdən xahiş edirəm ki, nəvəm Məhəmməd bəy Muradovun xaricə ali təhsil almaq üçün göndərilən tələbələr sırasına salınmaq xahişini rədd etməyəsiniz. Bunun əvəzində nəvəm yalnız iki il deyil, on illərcə dövlətin rifahı üçün qulluq etməyi, mən qoca qarı isə gənc dövlətimizin, onun hökumətinin və xalqımızın xoşbəxtliyi, səadəti və çiçəklənməsi üçün Uca Tanrıya dualar etməyi öhdəmizə götürürük". (Savadsızlığına və şəxsi xahişinə görə Gülsüm xanım Nurubəyovanın əvəzinə Cavanşir bəy Misirxanov qol çəkib)".[1]

Azərbaycan Cümhuriyyəti Ümuri-Xeyriyyə Nəzarəti İdarəsindən 15 noyabr 1919-cu ildə Xalq Maarif Nəzarətinə göndərilmiş 6858 saylı məktubda bildirilib ki, tələbə Muradov xidməti işləri ilə bağlı olaraq ezamiyyətdədir və bugünlərdə Bakıya qayıtmalıdır.[2]

Deməli, Muradov Ümuri-Xeyriyyə Nəzarətinin işçisi imiş.

13 yanvar 1920-ci ildə Muradov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[3] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[4] dilkağızları verib.

Məhəmməd bəy Fəhrad bəy oğlu Muradova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 543 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[5]

Muradov Parisdə tibb təhsili alıb.[6] SSRİ-yə qayıtması haqqında heç bir qaynağa rast gəlməmişik. AR MTN Arxivində də cinayət işi yoxdur. Bunlar onun SSRİ-yə qayıtmadığını deməyə əsas verir. Ancaq onun xaricdə izi-sorağı qalmayıb. Görünür, siyasətlə əsla maraqlanmayıb və mətbuatla əlaqə saxlamayıb.

[1] ARDA, fond 51, siyahı 3, iş 95, vv. 6-7.

[2] Yenə orada, vərəq 8.

[3] Yenə orada, vərəq 9.

[4] Yenə orada, vərəq 10.

[5] Yenə orada, vərəq 11.

[6] Yenə orada, fond 57, siyahı 1, iş 276, vərəq 62a.

Musai[1] Cəmil İbrahim Tahir oğlu

(14.03.1897, Şuşa – 29.01.1970, Bakı)



Cəmil Musai

Atası İbrahim Tahir Musayev Qarabağı (1869-1943) Azərbaycanın məşhur şairlərindəndi.

İbrahim ilk təhsilini Şuşa şəhərində Molla Əli Xəlifənin məktəbində alıb, ərəb və fars dillərini öyrənib. Ədəbiyyata böyük marağı olduğundan fars şairlərinin əsərləri ilə yaxından tanış olub, 20 yaşından şeir yazmağa başlayıb. Mirmöhsün Nəvvab (1833-1918) İbrahim Tahir haqqında "Təzkireyi-Nəvvab"da yazır:

"Tahirin adı İbrahimdir. Bu təzkirə yazılan vaxt[2] 22-23 yaşı var idi. Xoş əhvallı, düz əxlaqlı bir cavan idi. Məşədi Əbdül Qarabağinin oğludur. Şuşa şəhərinin Çuxur məhəllәsindəndir. Sənəti tacirlikdir. Farsca savadı var. Şeir deməyə çox həvəsi var. Təxəllüsü "Tahir"dir. Aşağıdakı şeirlər onundur və öz dəsti-xətti ilə yazılıb".

Bundan sonra təzkirədə İbrahim Tahirin 4 türkcə qəzəli və farsca 22 qəzəlinin türkcəyə sətri çevirməsi verilib[4].

Qazaxlı şair Mustafa ağa Qiyasbəyzadə Nasirin (15.10.1824-10.10.1873) Nizami Gəncəvinin *"Xosrov və Şirin"* məsnəvisini türkcəyə çevirməsindən, ancaq ölümüylə bağlı bu çevirmənin yarımçıq qalmasından danışan böyük Azərbaycan alimi Firidun bəy Köçərli (1863-1920) bu çevirmənin başa çatdırılması arzusuyla yazır:

"Anladığımıza görə, bizim hali-həyatda olan şairlərimizin bir neçəsi, əzəncümlə Mirzə Rəhim Fəna, Mirzə Əliəkbər Sabir, Məşədi Əyyub Baki, Mirzə Həsib Qüdsi, Mirzə İbrahim Tahir mərhum Mustafa ağanın natamam qalmış zəhmətini asanlıqla bacarıb itmama yetirə bilərlər.

...Tahirin... ruznamə və jurnallarda dərc olunan əşari-abdarları... bizim rəyimizi təsdiqedici dəlillərdir"[5].

F.b.Köçərlinin İbrahim Tahiri adı çəkilən məşhur şairlərimizlə bir cərgədə tutması ona verilən çox böyük (və gerçək) qiymətdir.

Göstərək ki, XX yüzilin başlanğıcındakı Azərbaycan mətbuatında İbrahim Tahir Musayevin yüzlərcə şeir və məqaləsi onun olduqca məhsuldar bir qələm əhli olduğunu göstərir. 1908-ci ildən başlayaraq Bakıda çıxan *"İrşad"* qəzetində, *"Həqayiq"*, *"Füyuzat"* jurnallarında müxtəlif mövzularda şeirləri d'rc edilib. Cümhuriyyət çağının *"Azərbaycan"* qəzetində də (1918-20-ci illər) onun çoxlu sayda yazıları vardır.

Öz əliylə yazdığı tərcümeyi-halında Cəmil Musai göstərir: *"Atam əsas peşəsinə görə inqilabadək Şuşa şəhərində eyni zamanda parça ticarətiylə də məşğul olmuş xalq yazıçısıdır, inqilabdan sonra yalnız yaradıcılıq işiylə məşğul olub. O, 1943-də vəfat edib"*.

Xatırladaq ki, İbrahim Tahir Musayevin əsərlərini M.Füzuli adına Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Raqub Kərimov toplayaraq nəşr etdirib və ona çox dəyərli bir ön söz yazıb.[6]

[1] Soyadı bir çox qaynaqlarda "Musayev" kimi də gedib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.
[2] 1891-ci ilin noyabrında.
[3] *Nəvvab M.* Təzkireyi-Nəvvab. Bakı, 1998, s. 506.
[4] Yenə orada, ss. 506-512.
[5] *Köçərli F.b.* Azərbaycan ədəbiyyatı. 2-ci cild. Bakı, 1960, s. 240.
[6] *Tahir İ.* Əsərləri. Bakı, 2012, ss. 3-35.

"Azərbaycangeologiya" İstehsalat Birliyinin məsul işçisi *Akif Quluyev*'lə 2006-cı ildəki görüşümüz zamanı o, dayısı Cəmil Musai haqqında bizə bir çox bilgilər və sənədlər vermişdi. Onlardan bu yazıda yeri gəldikcə yararlanmışıq. Bu yardımına görə ona dərin təşəkkürümüzü bildiririk.

Cəmil Musai 14 mart 1897-ci ildə Şuşa şəhərində (bəzi sənədlərdə Tuğ kəndi göstərilib) belə bir ziyalı ailədə anadan olub. Öncə Şuşa şəhər real məktəbində oxuyaraq onu 1914-cü ildə bitirib. Artıq orta təhsilli gənc həmin il Bakıya gəlib və 1919-cu ilədək Bakı məktəblərində müəllimlik edərək əsasən riyaziyyat və rəsm dərsləri deyib. 1919-cu ilin sonlarında o da müsabiqədən keçərək Müsavat hökumətinin qərarıyla ali təhsil almaqçün xaricə göndərilib. Düzdür, hökumət "Cəmil Musayev"in İtaliyada oxumasını nəzərdə tutub (türkcə və rusca "Azərbaycan" qəzetlərindəki siyahıya bax), ancaq o, başqa yoldaşlarıyla birgə 1920-ci ilin yanvarında Berlinə gedib və buradakı (Şarlottenburqdakı) Ali Texniki Məktəbin (Politexnik İnstitutun) memarlıq-inşaat fakültəsinə girib. İlk müstəqil Cümhuriyyətimiz rus əsgərinin süngülərinə məhv edildikdən sonra o da başqa tələbələr kimi 8 ay maddi sıxıntılar içində boğulub və yaşamaq uğrunda gərgin mübarizə aparıb. Azərbaycanda qurulmuş yeni hökumət 1921-ci ildən sonra onu da öz təqaüdçüləri siyahısına salıb və bundan sonra oxuması asanlaşıb. 1925-i ildə institutu uğurla bitirən Cəmil Musai mühəndis-memar diplomu alaraq həmin ilin sonunda Vətənə dönüb.


فوزه ياغلى ابراهيم طاهر موسى‌يوف

İbrahim Tahir Musayev "Füyuzat" dərgisində

1926-cı ilin yanvarında o, ASSR Xalq Maarif Komissarlığı tikinti şöbəsinin müdiri təyin edilib və 1930-cu ilin dekabrınadək bu vəzifədə çalışıb. Həmin illərdə C.Musai çox gərgin işləyib.

C.Musai 1931-ci ilin yanvarında öz xahişiylə Maarif Komissarlığında işdən çıxaraq Azərneft sisteminə keçib və "Azərneftlayihə"də standartlaşdırma və tipləşdirmə şöbəsinə başçılıq edərək 6 ilə yaxın bu vəzifədə çalışıb.

Həmin müəssisə yenidən qurulduğuna görə 1936-cı ilin oktyabrında yeni bir sahəyə və daha məsul vəzifəyə dəyişdirilib – ASSR Kommunal Təsərrüfatı Komissarlığının Tikinti və Tikintiyə Nəzarət idarələrinə rəis təyin edilərək 3 il də burada öz istedad və işgüzarlığını, rəhbərlik bacarığını göstərib.

Azərbaycanda ən dəhşətli dövlət terrorunun tüğyan etdiyi bir zamanda rəhbər vəzifədə işləmək iti qılıncın üstündə ayaqyalın gəzməkdən daha çətindi. Sözsüz ki, əhatəsindəki saysız-hesabsız ləyaqətli insanların izsiz-soraqsız "götürülməsi" və onların ailələrinin də xüsusi amansızlıqla məhv edilməsi bir insan olaraq C.Musaini də qorxudurdu. Belə bir tələtümlü dönəmdə o, siyasətdən inadla uzaq qaçaraq, rəhbərlərin diqqətindən maksimum yayınaraq özünü qorumağı bacardı. Özü nə qədər kölgəyə çəkilmək istəsə də buna nəinki imkan vermədilər, əksinə, onu daha da göz önünə gətirdilər – 1939-un dekabrında ASSR Nazirlər Sovetinin köçürmə şöbəsinə baş mühəndis qoydular. Ancaq burada çox işləmədi.



Cəmil Musai, Əli Bayramov *(öndə)*

1941-ci ildə bir müddət 3683 saylı təxliyyə qospitalında mənzil-istismar şöbəsinin rəisi işləsə də müharibə başlayandan sonra onu artıq Bakıdan uzaqlarda görürük. 1941-ci ilin noyabrından 1943-cü ilin iyununadək Kürdəmir, 1943-cü ilin iyunundan 1944-cü ilin yanvarınadəksə Ağdam Şəhər Kommunal Təsərrüfatı Şöbələrində eyni vəzifədə – mühəndis və təmir kontorunun rəisi işləyən (bəzi sənədlərdə 1941-43 arası yalnız Ağdamda işlədiyini, bəzi sənədlərdə də Ağdamda yalnız 1943-cü ildə işlədiyini göstərib; bunlardan hansının doğru olduğunu müəyyənləşdirə bilmədik) C.Musai, görünür, bu dövrdə "gözdən-könüldən uzaq olmaq" istəyinə çatmağı bacarıb, daha doğrusu, respublika rəhbərliyindən yarımxəlvət, yarımrəsmi gizlənə bilib.

1944-cü ildə (fevral-noyabr) Azərbaycan Konservləşdirmə Tresti 12 saylı sovxozunda baş mühəndis işləyən Musainin respublika rəhbəri Mircəfər Bağırovun gözündən yayınmaq istəyi sonadək baş tutmayıb. Bağırov, görünür, "qaçağ"ı yaxalayaraq 1944-cü ilin dekabrında ən təhlükəli bir yerə – "öz" şəhəri Qubaya baş memar təyin etdirib. Bu dövrün sənədlərindən bəllidir ki, o illərdə Qubada məsul vəzifədə işləmək Əzrayılla çilingağac oynamaq deməkdi, çünki Bağırovun buradakı çoxsaylı qohumlarının nazıyla oynamaq hər oğulun işi deyildi. Ancaq C.Musai 5 iyun 1946-cı ilədək burada uğurla işləyib (göstərilən tarixdən həmin vəzifədə onu M.Bənənyarski əvəzləyib).

1946-cı ilin sentyabrında Mədəni-Maarif Müəssisələrinin İşləri üzrə Komitədə (sonrakı Mədəniyyət Nazirliyində) əsaslı təmir şöbəsinin rəisi təyin edilən Cəmil Musai 1954-cü ilin martınadək bu vəzifədə çalışıb.

"Azərdövlətmemarlıqlayihə"də memarlıq qrupunun rəhbəri işləyən (mart 1954-dekabr 1955) Cəmil Musai 1956-cı ilin yanvarında ASSR Nazirlər Soveti yanında Tikinti və Memarlıq İşləri üzrə Dövlət Komitəsi memarlıq abidələrinin qorunması şöbəsinə rəis təyin edilib və 1957-nin iyununadək bu şöbəyə başçılıq edib. Daha sonra bu görkəmli memar "Azərdövlətsənayelayihə"də çalışıb.

Harada işləməsindən asılı olmayaraq Cəmil Musai hər yerdə vicdanla çalışıb və üzərinə düşən işləri yüksək peşəkarlıqla yerinə yetirib. Onun birbaşa rəhbərliyi altında çoxlu layihələr işlənərək hazırlanıb və respublikanın bir çox önəmli obyektləri tikilərək istifadəyə verilib.

Əla bildiyi ana dilindən başqa alman, fransız, italyan və rus dillərinə də mükəmməl yiyələnmiş C.Musai 1926-1940-cı illər arasında İnşaat Texnikumunda, ali məktəblərdə inşaat və memarlıqdan dərs deyib, gənc memar və inşaatçılarımızın yetişdirilməsinə də xüsusi diqqət yetirib.



Şuşa real məktəbinin məzunları *(müəllimdən soldakı Cəmil Musai)*. 1912

Bütün bu xidmətləri, keçdiyi şərəfli əmək yolu nəzərə alınaraq Cəmil Musaiyə "Azərbaycan SSR-in əməkdar inşaatçısı" fəxri adı verilib (1960).

"Cümhuriyyət tələbəsi" kimi şərəfli bir adı ləyaqətlə doğruldan bu görkəmli memar 29 yanvar 1970-ci ildə dünyasını dəyişib.

Cəmil bəy *Gövhər(tac) xanımla* (1907 – ?) ailə qurub. Gövhər xanımın atası Azərbaycanın görkəmli ziyalılarından biri olan *Səfərəli bəy Şeyx Həsən bəy oğlu Vəlibəyov*[1] (1861, Şuşa –31.8.1902, Bakı), anası isə şahzadə *Bəhmən Mirzə Abbas Mirzə oğlu Qacar*'ın (11.10.1811, Təbriz – 11.2.1884, Şuşa) qızı *Xurşid xanım*'dı. Gövhər xanım həkimdi – 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə fakültəsini bitirmişdi. Ancaq övladları olmadığına görə *Aliyə xanım*'ı (1923) özünə övladlığa götürmüşdü.

* * *

Mühəndis-memar Musai Cəmilin öz əli ilə yazdığı tarixsiz tərcümeyi-halı əlimizdədir:

"Mən 14 mart 1897-ci ildə Şuşa şəhərində doğulmuşam. Atam əsas peşəsinə görə xalq yazıçısıdır. İnqilabadək eyni zamanda Şuşa şəhərində parça ticarəti ilə məşğul olub, inqilabdan sonra yalnız yaradıcılıq işi ilə məşğul olub. 1943-cü ildə vəfat edib. Mən öncə Şuşa real məktəbinin tam kursunu 1914-cü ildə bitirmişəm, orta təhsilimi başa vurduqdan sonra Bakı şəhərinə gedərək 1919-cu ilədək riyaziyyat və rəsm sənəti üzrə müəllimlik etmişəm.

[1] Yazıçı S.S.Axundovun dayısıdır.



Cəmil Musai.
Berlin, 1920-22



Almaniyada oxuyan tələbələrimiz.
Soldan sağa: Məhiş Səfərov, Cəmil Musai, Yusif Salahlı

1919-cu ilin sonunda öz ərizəmlə Müsavat hökumətinin xaricə göndərdiyi tələbələrin siyahısına düşərək ali təhsilimi bitirmək üçün Almaniyaya getmişəm. Almaniyada Berlin şəhərində Politexnik İnstitutun memarlıq bölümündə oxumuşam.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra və xaricdəki bütün oxuduğum müddətdə Azərb. SSR sovet hökumətinin təqaüdünə qəbul edilmişəm. Ali təhsilimi 1925-ci ildə bitirdikdən sonra Bakıya qayıtmışam və indiyədək müxtəlif təşkilat və müəssisələrdə öz əsas ixtisasım üzrə işləyir, eyni zamanda pedaqoji iş də aparıram".[1]

Yeri gəlmişkən, 29 iyul 1940-cı ildə istintaqda müstəntiq Hənifə Pirverdiyevdən Cəmil Musai haqqında fikirlərini soruşur və belə cavab eşidir: *"Mən Musai Cəmillə Berlində 1920-ci ildən 1926-cı ildək yaşamışam, bir fakültədə oxumuşam; həmin fakültəni o, 1926-cı ildə bitirib SSRİ-yə gəldi, mən isə oranı xəstəliyimə görə bitirə bilmədim. Bizim birgəyaşayış dönəmimizdə Musai Cəmil Azərbaycanda Müsavat hökumətinin məhv olunmasına görə təəssüf edir və sovet hakimiyyətinin qurulmasından narazılıq edirdi".*[2]

* * *

İndi isə Cəmil Musainin AR Dövlət Arxivində saxlanılan sənədləriylə tanış olaq.

Zaqafqaziya Şiə Ruhani İdarəsindən 15 noyabr 1906-cı ildə verilmiş 2327 saylı doğum əhadətnaməsində oxuyuruq ki, Şuşa şəhərinin sakini Cəmil İbrahim oğlu öz atası İbrahim

[1] Sənədin surəti özəl arxivimizdədir.
[2] AR MTN Arxivi, PR-35911, vərəq 21a.



Almaniyada oxuyan tələbələrimiz.
Soldan sağa: Əliəkbər Əliyev, Cəmil Musai, Hilal Münşi(zadə)

Məşədi Əbdil oğlu Musayevin qanuni arvadı Bülqeyis Hacı Məhəmməd qızından 14 mart 1897-ci ildə doğulub.[1]

5 iyun 1914-cü ildə Şuşa şəhərində verilmiş 454 saylı attestatda qeyd edilib ki, Musayev Şuşa edadi (real) məktəbinə 1 sentyabr 1907-ci ildə girərək 4 iyun 1914-cü ildək orada əla əxlaqla oxuyub və əsas bölmənin tam kursunu bitirib. Bu zaman o, 2 fəndən "5", 2 fəndən "4" və 9 fəndən isə "3" alıb.[2]

Şuşa şəhərində 24 iyun 1915-ci ildə verilmiş 870 saylı şəhadətnamədə Cəmil Musayevin Şuşa real məktəbinin əlavə sinfində 1 sentyabr 1914-cü ildən 29 aprel 1915-ci ilədək oxuyaraq həmin sinfin tam kursunu bitirdiyi və aşağıdakı uğurları qazandığı göstərilib:

Şəriət –	əla (5)
Rus dili –	kafi (3)
Alman dili –	kafi (3)
Fransız dili –	kafi (3)
Riyaziyyat, o sıradan:	
Hesab –	kafi (3)
Cəbr –	kafi (3)
Triqonometriya –	kafi (3)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	yaxşı (4)
Tarix –	kafi (3)
Təbiiyyatşünaslıq –	yaxşı (4)
Fizika –	kafi (3)
Riyazi coğrafiya –	yaxşı (4)
Rəsm –	əla (5)
Qanunşünaslıq –	kafi (3).[3]

Moskva Şəhəri Mərkəzi Dövlət Tarix Arxivində çalışarkən Moskva Kommersiya İnstitutu tələbələrinin şəxsi işləri arasında «Musayev Cəmil İbrahim oğlu»nun da 1916-cı ildəki

[1] ARDA, fond 51, siyahı 3, iş 94, vərəq 5.
[2] Yenə orada, vərəq 2.
[3] Yenə orada, vv. 4-4a.



Cəmil Musai, yoldaşı Gövhərtac Vəlibəyova. 1930-cu illər

sənədləri ilə tanış olduq.[1] Ancaq iş burasındadır ki, Musayev sənədlərini buraya təqdim etsə də həmin institutda oxumayıb.

C.Musayev 7 avqust 1919-cu ildə maarif nazirinə yazdığı ərizədə İtaliyada incəsənət üzrə təhsil almaq istədiyini bildirib.[2]

Bakı 4-cü rus-türk məktəbinin müdiri, görkəmli yazıçı Süleyman Sani Axundov 7 avqust 1919-cu ildə 45 saylı belə bir arayış verib ki, Cəmil Musayev 6 oktyabr 1916-cı ildən rəhbərlik etdiyim 4-cü şəhər türk məktəbinin müəllimidir və yalnız öz maaşı ilə yaşayır. [3]

Şuşa qəzası qaimməqamı da 9 avqust 1919-cu ildə 1302 saylı belə arayış verib ki, Şuşa şəhərinin sakini Cəmil İbrahim oğlu Musayevin ailəsi bunlardan ibarətdir: Cəmilin özü, 23-24 yaş; atası İbrahim, 49 yaş; qardaşları: Əziz, 18 yaş və Əliş, 7 yaş; bacısı Tavus, 13 yaş; nənəsi Nabat, 80 yaş. Təhsilini davam etdirməyə çatacaq əmlakı və sərvəti yoxdur.[4]



Keçmiş Cümhuriyyət tələbələri bir arada.
Soldan-sağa: Səməd Məmmədyarov, Ağaəli Fətəliyev, (?), Cəmil Musai. Bakı, təx. 1965-1968

[1] MŞMDTA, fond 417, siyahı 18, iş 1933.
[2] Yenə orada, vərəq 1.
[3] Yenə orada, vərəq 6.
[4] Yenə orada, vərəq 7.



İbrahim Tahir Musayev

Musayev 5 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı son ərizəsində Romada Bədaye Akademiyasının bədaye-memarlıq bölümündə oxumaq istədiyini bildirib.[1]

31 dekabr 1919-cu ildə Musayev təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[2] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[3] dilkağızları verib.

Cəmil Musayevə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 522 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[4]

* * *

30 yanvar 1970-ci ildə *"Vışka"* qəzetində dərc edilmiş C.İ.Musai haqqında nekroloqda oxuyuruq ki, 29 yanvarda qısamüddətli xəstəlikdən sonra respublikanın ən qocaman inşaatçı memarlarından biri Cəmil İbrahim oğlu Musai vəfat edib. C.Musai 1897-ci ildə doğulub. 1914-cü ildə o, Şuşa real məktəbini bitirərək Bakıya gəlib, burada müəllimlik edib. 1925-ci ildə Berlin Politexnik İnstitutunun memarlıq-inşaat bölümünü bitirdikdən sonra vətənə qayıdıb və Azərbaycan SSR Xalq Maarif Komissarlığının inşaat şöbəsinin müdiri təyin edilib. "Azərneftlayihə"də, Xalq Kommunal Təsərrüfatı Komissarlığında müxtəlif vəzifələrdə, Quba şəhərində, Mədəni-Maarif Müəssisələrinin İşləri üzrə Komitədə, Azərbaycan SSR Tikinti və Memarlıq İşləri üzrə Dövlət Komitədə, "Azərdövlətsənayelayihə"də baş memar işləyərək işə bütün güc və biliyini verib, yüksək savadını üzə çıxarıb. Onun rəhbərliyi və birbaşa iştirakı ilə respublikanın bir çox mühüm obyektləri layihələşdirilib və tikilərək gerçəkləşdirilib. O, gənc memar və inşaatçı kadrlarının hazırlığına böyük diqqət yetirib. [5]

* * *



Cəmilin qardaşı Əziz Musayev həbsdə


Cəmilin qardaşı *Əziz Musayev* 1900-cü ildə Şuşada doğulub, 1929-cu ildə Moskva Xalq Təsərrüfatı İnstitutunun mühəndis-iqtisad fakültəsini bitirib, Bakı şəhərinə qayıdıb, 2 saylı qazolin zavodunda işə başlayıb. 1930-cu ilin sentyabr – 1931-ci ilin aprel aylarında ABŞ-da xidməti ezamiyyətdə olub. 1935-ci ildə zavodun direktoru, 1936-cı ildə "Azərneftzavodlar" tresti rəisinin müavini təyin edilib. 1 aprel 1940-cı ildə həbs edilib, 6 iyul 1941-ci ildə əmlakı müsadirə edilməklə güllələnməyə məhkum olunub və hökm 28 iyul 1941-ci ildə icra edilib. 4 avqust 1956-cı ildə bəraət alıb.

Daha bir qardaşı *Əli(ş) Musayev* isə 1910-cu ildə doğulub və Bakıda yaşayıb. O, respublika kinosunun təşəkkül və inkişafında böyük xidmətlər göstərib.[6]

[1] MŞMDTA, fond 417, siyahı 18, iş 1933, vərəq 8.
[2] Yenə orada, vərəq 9.
[3] Yenə orada, vərəq 10.
[4] Yenə orada, vərəq 11.
[5] А.И.Мусаи (некролог). // *«Вышка»*, 30.01.1970, s. 4.
[6] *Mirzəyev Ş.* Köhnə şəkillərin taleyi. // *"Elm"* qəzeti, 02.06.1990, s. 8.

Mustafayev Ağacəfər Kərbəlayı Əbdülbağı oğlu

(09.01.1894, Bakı – 1933-cü ildən sonra)



Ağacəfər Mustafayevin doğum şahadətnaməsi

Rusiya tələbələrindəndir.

6 iyun 1916-cı ildə Zaqafqaziya Şiə Ruhani İdarəsinin verdiyi 1149 saylı doğum şəhadətnaməsindən öyrənirik ki, Ağacəfər 9 yanvar 1894-cü ildə Bakı şəhərinin sakini Kərbəlayı Əbdülbağı Hacı Hüseynqulu oğlu Mustafayevin qanuni arvadı Gülbacı Məlikməhəmməd qızından doğulub.[1]

Bakı 2-ci kişi gimnaziyasını bitirmiş Mustafayev 13 avqust 1913-cü ildə Kiyev Politexnik İnstitutunun direktoruna yazdığı ərizədə xahiş edib ki, onu mexanika bölməsindən kimya bölməsinə keçirsinlər.[2]

Kiyev Politexnik İnstitutu *kimya bölümünün tələbəsi* Mustafayev 8 iyul 1914-cü ildə Bakıda Merkuryevski[3] küçəsi 23-dən İnstitut direktoruna yazdığı ərizədə xahiş edib ki, sizin institutda ali texniki təhsil almağı arzu edərək məni bu il müsabiqə sınağına buraxmağınızı və sınaqdan çıxaramsa məni *mexanika bölümünün I kursuna* götürmənizi xahiş edirəm.[4]

Kimya bölümünün tələbəsi Mustafayev 28 avqust 1914-cü ildə İnstitut direktoruna yazdığı ərizədə onun kimya bölümünün tələbələri sırasından çıxarılıb mexanika bölməsində kənar dinləyicilər sırasına salınmasını xahiş edib. Ərizənin üstündə "vıbıl"[5] yazılıb.[6]

Mexanika bölümünün sərbəst dinləyicisi Mustafayev 26 iyun 1915-ci ildə Bakıdakı yuxarıda göstərilən ünvandan İnstitut direktoruna yazdığı ərizədə avqust ayında mexanika bölümünün I kursuna girmək üçün onun müsabiqə imtahanına buraxılmasını xahiş edib.[7]


Kimya bölümünün 1913-14-cü il keçmiş tələbəsi A.Mustafayev direktora Bakıdan 14 iyun 1916-cı ildə yazdığı növbəti ərizəsində İnstitutun dəftərxanasında olan bütün sənədlərinin ona göndərilməsini xahiş edib.[8]

* * *

Rostovdakı Don Universiteti fizika-riyaziyyat fakültəsi təbiiyyat bölməsinin III kurs tələbəsi, Bakıda Tver[9] küçəsi 113-də yaşayan Mustafayev 14 avqust 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizədə hökumətin xaricə oxumağa göndərdiyi tələbələr sırasına salınmasını xahiş edib və Rusiyada (Don Universitetində), ya da İsveçrədə (Sürix Universitetində) oxumaq arzusunu bildirib. Nazirə 17 noyabr 1919-cu ildə yazdığı ərizəsindən isə o, Rostov-Don şəhərindəki Don Universitetinin fizika-riyaziyyat fakültəsinin təbiiyyat bölməsində təhsilini davam etdirmək istədiyini bəyan edib.[1]

Bakı II kişi gimnaziyasının direktoru 12 avqust 1919-cu ildə Mustafayevə verdiyi 729 saylı arayışda göstərib ki, o, həqiqətən, 1913-cü ildə Bakı 2-ci kişi gimnaziyasını bitirib və 5 iyun 1913-cü ildə 618 saylı kamal attestatı alıb.[2]

Sənədləri arasında Don Universitetindən 21 sentyabr 1918-ci ildə verilmiş 2829 saylı tələbə bileti də var və burada onun Don Universitetinin III kurs tələbəsi olduğu göstərilib.[3]



Ağacəfər Mustafayevin ərizəsi

AR Dövlət Arxivindəki şəxsi işində Mustafayevin Rusiyaya oxumağa göndərilməsi üçün vəsait ayrılması və onun bu vəsaiti alması haqqında heç bir qeyd yoxdur. Ancaq adının Rusiyaya göndərilən dövlət təqaüdçüləri siyahısında dərc edilməsinə, deməli, AC höhumətinin öz büdcəsindən ondan ötrü də təqaüd ayırmasına əsasən biz onun haqqında məlumatı kitabımızda veririk.

* * *

Mustafayev Ağacəfər Əbdülbağı oğlunun AR MTN Arxivində saxlanılan PR-7015 şifrəli istintaq işi onun həyatının 1933-cü ildək dönəmi haqqında az-çox bilgi verir.

Mustafayev onunla eyni soyadı daşıyan birisi ilə qarışdırılaraq 21 mart 1933-cü ildə (Novruz bayramı günü!) yanlış olaraq həbs edilib. Gerçəkdən, hər ziyanda bir xeyir varmış. O həbs edilməsəydi bu sənəd ortalıqda olmayacaqdı, bu sənəd qalmasaydı bir çox başqa tələbələr kimi Mustafayevin də həyatı əbədi məchulluğa gömüləcəkdi.

26 mart 1933-cü ildəki dindirməsində onun haqqında bu qeydlər edilib: "1894-cü ildə Bakıda doğulub, Türkdür, ev yiyəsi oğludur.[4] Son iş yeri – Azərbaycan Tibb İnstitutunda sinir xəstəlikləri kafedrasının assistenti və Ağ Şəhər ambulatoriyasında nevropatoloq-həkim. Ailə durumu – subay. Mənimlə yaşayırlar: atam Əbdülbağı, 85 yaş; anam Gülbacı, 67 yaş; qardaşlarım: Ağasəlim, "Azsnabsbıt"da işləyir; Rəhman, əmanət kassasında nəzarətçidir; Çingiz, AQNİ-nin tələbəsidir; bacım Əli Bayramov adına fabrikdə fəhlədir; şəxsi daşınmaz əmlakım yoxdur; atamın qardaşları ilə birgə evi olub, o da 1920-ci ildə milliləşdirilib. Hal-hazırda Şüvəlanda atama məxsus bağ var. Təhsilim – Azərbaycan Dövlət Universitetinin tibb fakültəsini 1924-cü ildə bitirmişəm. Partiyasızam.[5]

[1] ARDA fond 51, siyahı 3, iş 102, vərəq 3.
[2] KŞDA, fond 18, iş 1, siyahı 3499, vərəq 17.
[3] İndiki Zərifə Əliyeva küçəsi.
[4] KŞDA, fond 18, iş 1, siyahı 3499, vərəq 8.
[5] "Çıxıb gedib".
[6] KŞDA, fond 18, iş 1, siyahı 3499, vərəq 20.
[7] Yenə orada, vərəq 21.
[8] Yenə orada, vərəq 23.
[9] İndiki Mirzə Mansur Mansurov küçəsi.

[1] ARDA, fond 51, siyahı 3, iş 102, vərəq 2.
[2] Yenə orada, vərəq 4.
[3] Yenə orada, vərəq 5.
[4] Çəkistlərin lüğətində "ev yiyəsi oğlu" əslində "kapitalist oğlu" ilə eyni anlam verirdi və şəxsi həbs etmək, hətta güllələmək üçün yetərli idi.
[5] AR MTN Arxivi, PR-7015, vərəq 12.



Kiyev Politexnik İnstitutu rektoruna göndərilmiş teleqram

Həmin istintaqda özünün qısa tərcümeyihalını yazıb:

"9 yanvar 1894-cü ildə Bakıda doğulmuşam. 2-ci kişi gimnaziyasında oxuyaraq oranı 1913-cü ildə bitirmişəm. 1913 və 1914-cü illərdə Kiyev Politexnik İnstitutunda oxumuşam. 1916 və 1918-ci illərdə Rostov-Donda keçmiş Varşava Universitetində oxumuşam. 1918-ci ilin sonunda Bakıya qayıtmışam. 1919-cu ildə aprel ayında Dövlət Nəzarətçisinin İdarəsində nəzarətçi kimi qulluğa girmişəm, orada fasiləsiz olaraq 1921-ci ilədək işləmişəm. 1920-ci ildə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinə girərək oranı 1924-cü ildə bitirmişəm. 1921-ci ilin mart ayından Xalq Maarif Komissarlığının Məktəbdənkənar Təhsil İdarəsində və Baş Siyasi Maarif İdarəsində katib və kitabxana müdiri, məruzəçi işləmişəm. 1924-cü ildən Azərbaycan Dövlət Universitetində sinir xəstəlikləri klinikasında ordinator və 1931-ci ildən Azərbaycan Tibb İnstitutunda assistent işləyirəm. Bundan başqa, 1927-ci ildən Qara Şəhər və Ağ Şəhər ambulatoriyalarında həkim işləyirəm.[1]

1927-ci ildə Tiflis şəhərində hərbi yenidənhazırlıq keçərkən mənimlə birgə soyaddaşım olan Mustafayev Ağa Abdulla var idi. O, başqa həkimlərlə ünsiyyətə az girirdi. Yadımda qaldığı qədərincə, Mərkəzi Poliklinikanın göz həkimi Sudakeviçlə dostluq edirdi. Yenidənhazırlığa qədər mənim Mustafayevin şəxsiyyəti haqqında heç bir bilgim yox idi... Mustafayev Ağa Abdulla ilə ilk dəfə Tiflis şəhərində yenidənhazırlıq kurslarında tanış olmuşam və bir dəfə bilmədən məktubunu açdığıma görə onunla toqquşmuşuq. Belə ki, kursun başçısı doktor Baruçev onun məktubunu səhvən mənə verib və bundan sonra biz danışmadıq".[2]

26 mart 1933-cü ildə Bakı şəhərində tərtib edilmiş qərarda yazılıb: *"İlk dindirmədə aydın olub ki, istintaqa cəlb edilmiş həkim Mustafayev Ağacəfər Əbdülbağı*[3] *oğlu bizim casusluq fəaliyyəti üstündə axtardığımız, Sovet ərazisində kəşfiyyat işləri aparmaqda iştirakı agentura materialları ilə ifşa edilmiş obyekt həkim Mustafayev Ağa Abdullanın soyaddaşıdır.*

Yoxlanılmamış mövcud agentura bilgiləri axtardığımız Mustafayev Ağa Abdullanın İrana qaçdığını göstərir. Tutduğumuz Mustafayev Ağacəfər Əbdülbağı oğlunun axtardığımız Mustafayev Ağa Abdullanın fəaliyyəti ilə bağlılığını göstərən heç bir material işdə yoxdur". Buna görə də qərarda A.Mustafayevin həbsdən buraxılması qərara alınıb".[4]

Onun başına bundan sonra nə gəldi – Allah bilir.

Burada bir məqamı da qeyd etməyi artıq saymırıq – fotosunu əldə edə bilmədiyimiz iki-üç tələbədən biri bu Mustafayevdir. Ən qəribəsi odur ki, fotosunun olması məcburi sayılan 3 qaynağın heç birində (Kiyevdəki şəxsi işində, ARDA-dəki şəxsi işində və istintaq işində) onun fotosu yoxdur! Bu da bir qəribə taledir...

[1] AR MTN Arxivi, PR-7015, vərəq 12a.
[2] Yenə orada, vərəq 13.
[3] Bu istintaq işində bütün sənədlərdə "Əbdülbağır" gedib.
[4] AR MTN Arxivi, PR-7015, vərəq 14.

Mustafayev Ağahəsən Manaf oğlu

(1900, Bakı – 1935-ci ildən sonra, Bakı)



Gəmi sahibkarı Manaf Mustafayev

Zaqafqaziya Şiə Ruhani İdarəsinin 30 sentyabr 1917-ci ildə verilmiş 2030 saylı doğum şəhadətnaməsindən məlum olur ki, Bakı şəhərinin sakini Ağahəsən Manaf oğlu Mustafayev atası Manaf Hacı Hüseynqulu oğlunun qanuni arvadı Seyidxanım Axund Hacı qızından 1900-cü ildə doğulub. Doğumun ayı və günü bilinmir.[1]

23 fevral 1918-ci ildə verilmiş 469 saylı kamal attestatında qeyd olunub ki, A.Mustafayev 1 sentyabr 1910-cu ildə Bakı 1-ci kişi gimnaziyasına girərək orada əla əxlaqla 21 fevral 1918-ci ilədək oxuyub, səkkizsiniflik tam kursu bitirib və bu zaman aşağıdakı bilikləri qazanıb:

Şəriət –	beş (5)
Kilsə slavyan dili ilə rus dili və ədəbiyyatı –	dörd (4)
Fəlsəfi propedevtika –	beş (5)
Latın dili –	beş (5)
Qanunşünaslıq –	dörd (4)
Riyaziyyat –	dörd (4)
Riyazi coğrafiya –	beş (5)
Fizika –	dörd (4)
Tarix –	beş (5)
Coğrafiya –	beş (5)
Fransız dili –	dörd (4)
Alman dili –	beş (5)
Türk dili –	beş (5).[2]

Bakıda Məhəmmədyar küçəsi 17-də yaşayan Mustafayev 14 avqust 1919-cu ildə maarif nazirinə yazdığı ərizədə xaricə dövlət hesabına gedəcək tələbələr sırasına salınmasını xahiş edib və İsveçrədə Elektrotexnika İnstitutunda oxumaq arzusunu bildirib.[3]

14 avqust 1919-cu ildə Mustafayevə verilmiş 652 saylı arayışda onun yoxsul olduğu və təhsilini davam etdirməkçün yardıma ehtiyacı olduğu göstərilib.[4]

Maarif nazirinə 4 noyabr 1919-cu ildə yazdığı ərizəsində Mustafayev Almaniyanın Berlin şəhərində Gəmiqayırma İnstitutunda oxumaq istədiyini bildirib.[5]

29 dekabr 1919-cu ildə Mustafayev təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[6] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[7] dilkağızları verib.

[1] ARDA, fond 51, siyahı 3, iş 103, vərəq 4.
[2] Yenə orada, vv. 2-2a.
[3] Yenə orada, vərəq 1.
[4] Yenə orada, vərəq 5.
[5] Yenə orada, vərəq 6.
[6] Yenə orada, vərəq 7.
[7] Yenə orada, vərəq 8.



Gəmi sahibkarı Manaf Mustafayev ailə üzvləriylə



Ağahəsən Mustafayev.
Berlin, 19 noyabr 1920-ci il

Ağahəsən Manaf oğlu Mustafayevə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 525 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[1]

Ağahəsən Mustafayev Berlində[2] Ali Texniki Məktəbdə oxuyub. Bunu 1940-cı ildəki istintaqda Hənifə Pirverdiyev deyib. O, adıçəkilən məktəbdə Cəmil Musai və Ağahəsən Mustafayevlə oxuduğunu bildirib.[3]

Mustafayev SSRİ-yə 1928-1929-cu illərdə qayıdıb. Uzun müddət Bakıda Xəzər dəniz gəmiçiliyində gəmiqayırma mühəndisi işləyib.

O, İçərişəhərdə "Zamkovı pereulok" 34-də yaşayıb. Bunu İsgəndər bəy Sultanovun 1935-ci ilə aid 75 saylı istintaq işi də təsdiqləyir. Oradan öyrənirik ki, "Əlihəsən" Mustafayev indi Bakıdadır, Kasparda gəmiqayırma mühəndisi işləyir, Qalada yaşayır.[4]

H.Pirverdiyev isə istintaq zamanı deyib: "...Mən Mustafayev Ağahəsənlə (Birliyin müvəkkili) Berlin yaxınlığındakı Dalemdə Bağ-Tərəvəzçilik Məktəbinə getdim və təcrübəçi oldum, orada 1926-cı ildən 1927-ci ilin mayınadək işlədim...".[5]

AR MTN Arxivində A.Mustafayevin cinayət işi tapılmadı, bu isə onun repressiya olunmadığını düşünməyə əsas verir.

[1] ARDA, fond 51, siyahı 3, iş 103, vərəq 9.
[2] Yanlışlıqla onun Londonda oxuduğunu yazanlar da var [bax: *Алиев Ф.* Закладывался фундамент образования. // *«Неделя»* (Баку), 24.4.1998].
[3] AR MTN Arxivi, PR-35911, vərəq 20.
[4] Yenə orada, İ.b.Sultanovun 75 saylı istintaq işi, vərəq 37.
[5] Yenə orada, PR-35911, vərəq 30.

Mustafayev Mustafa Molla Hacı Rəhim oğlu

(17.10.1895, Saloğlu k./Qazax – 1961-ci ildən sonra)



Mustafa Mustafayev

AMEA Milli Azərbaycan Tarixi Muzeyinin şöbə müdiri *Zərifə xanım Dulayeva* milli ziyalılarımızın tarixindən bəhs edən dəyərli məqaləsində[1] M.Mustafayevə də xeyli yer ayırıb. Məqalənin rusca olduğunu, ancaq oxucularımıza maraqlı olacağını nəzərə alaraq Mustafayevlə bağlı hissələrin qısa xülasəsini veririk.

Qazaxda müəllim və maarifçi Zülfüqar Qayıbovun bacısı oğlu olan Mustafa Mustafayevin texnika elmlərinə bacarığı və ciddi meyli onun Fransanın Tuluza şəhərindəki Elektrotexnika İnstitutunu seçməsində əsas rol oynayıb. O, tələbə ikən istehsalat təcrübəsini "Reno" firmasının müəssisələrində keçib. Tuluza İnstitutunu bitirən Mustafayevə "Reno" firmasında mühəndis yerini tutmaq rəsmən təklif edilib.[2] O, Azərbaycana 1927-ci ildə qayıdıb. İstedadlı energetik-mühəndis öz bilik və gücünü, bacarıq və təcrübi vərdişlərini bir sıra elektrik stansiyalarının tikintisinə və Bakı tramvayına sərf edib.

İstedadlı mühəndisin öz vətəninin rifahı yolunda fəal və məhsuldar çalışması cəmi 15 il sürüb. Onun arvadı fransız qızı *Janna Larude* idi. Ərizələrinin birində M.Mustafayev yazıb:

"Almaniya ilə müharibə elan edildikdən sonra arvadımı fransız kimi 1941-ci ilin iyulunda həbs etdilər. 1942-ci ilin avqust ayında məni Şimali Qazaxıstan əyalətinə sürgün etdilər. 1942-ci ilin sonunda arvadımı azad etdilər və o, Özbəkistan SSR-in Səmərqənd şəhərinə yaşamağa gəldi. 1943-cü ilin noyabrında üzərimdən məhdudiyyət götürüldü və mən də yaşamaq üçün Səmərqənd şəhərinə gedərək 1961-ci ildək orada ixtisasım üzrə işlədim. Sağlıq durumuma və yaşıma görə təqaüdə çıxdım".

Bu ərizənin sətirləri arxasında onun Karaqandadakı dustaqlıq, məhrumiyyət illəri, yalnız Vətənə qayıtma qadağası deyil, həm də ixtisas üzrə işləməsi durur – Səmərqənddə olarkən M.Mustafayev riyaziyyat və fransız dilindən dərs deyib. Bakıya qayıtdıqda da o, bu fənlər üzrə universitetdə və Sənaye İnstitutunda saathesabı müəllim işləyib.[3]

* * *

AR Dövlət Arxivindəki şəxsi işindəki sənədlərdən.

Zaqafqaziya Sünni İdarəsindən 29 aprel 1904-cü ildə Zaqafqaziya müftisi Hüseyn əfəndi Qayıbovun imzası ilə verilmiş 600 saylı doğum şəhadətnaməsində göstərilib ki, Mustafa Gəncə valiliyi Qazax qəzasının Saloğlu kəndinin sakini Molla Hacı Rəhim Molla Mustafayevin qanuni arvadı Gövhər xanım Abdulla ağa qızından müsəlman tarixi ilə 11 cəmadiyül-əvvəl 1313-cü ildə, xristian tarixi ilə 17 oktyabr 1895-ci ildə doğulub.[4]

Bakıda 9 iyun 1914-cü ildə verilmiş 115 saylı attestatda yazılıb: Mustafa Molla Hacı Rəhim oğlu Mustafayev 1907-ci ilin sentyabrında Bakı edadi (real) məktəbinə girərək

[1] *Дулаева З.* Страницы истории национальной интеллигенции, ss. 68-81.
[2] Açığı, bu fikir inandırıcı deyil, çünki Fransa kimi bir ölkədə vətəndaşlığı olmayan bir gəncə mühəndis vəzifəsi təklif etməzdilər.
[3] *Дулаева З.* Страницы истории национальной интеллигенции, ss. 74-76.
[4] ARDA, fond 51, siyahı 3, iş 91, vərəq 3.

orada əla əxlaqla 7 iyun 1914-cü ildək oxuyub və əsas bölmə üzrə tam kursu bitirib. Bu zaman onun aldığı qiymətlər belədir: 7 fəndən "5", 4 fəndən "4", 2 fəndən "3".[1]

28 aprel 1915-ci ildə Bakıda verilmiş şəhadətnamədə qeyd olunub ki, Mustafayev 1914-cü ilin sentyabrından 28 aprel 1915-ci ildək Bakı real məktəbinin əlavə sinfində oxuyaraq tam kursu bitirib və aşağıdakı uğurları qazanıb:

Şəriət –	yaxşı (4)
Rus dili –	yaxşı (4)
Alman dili –	yaxşı (4)
Fransız dili –	yaxşı (4)
Riyaziyyat, o sıradan:	
Hesab –	yaxşı (4)
Cəbr –	yaxşı (4)
Triqonometriya –	əla (5)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	əla (5)
Tarix –	əla (5)
Təbiiyyatşünaslıq –	yaxşı (4)
Riyazi coğrafiya –	yaxşı (4)
Rəsm –	yaxşı (4)
Qanunşünaslıq –	yaxşı (4).[2]

Bakı şəhər 2-ci rus-türk ibtidai məktəbinin 10 noyabr 1917-ci ilə olan müəllimlərinin siyahısından görürük ki, II a sinfinin müəllimi Mustafa Mustafayevdir. Onun 34 şagirdi var və burası da maraqlıdır ki, məşhur müəllim, keçmiş Dövlət Duması və gələcək AC Parlamanı üzvü *Mustafa Mahmudov* da bu məktəbdə dərs deyir və o, I b sinfinin müəllimidir.[3]

2 avqust 1919-cu ildə maarif nazirinə yazdığı ərizəsində hökumətin xaricə göndərdiyi tələbələr sırasında olmasını arzu edən Mustafayev İsveçrənin xüsusi texniki məktəblərindən birində, yaxud universitetin tibb fakültəsində oxumaq istədiyini bildirib.[4] (Sənədin aşağısında 136 saylı xarici pasportun ona 11 dekabr 1919-cu ildə verildiyi göstərilib).

Mustafayev 7 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı son ərizədə Parisdə oxumaq istədiyini qeyd edib.[5]

31 dekabr 1919-cu ildə Mustafayev təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[6] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[7] dilkağızları verib.

Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 503 saylı vəsiqə Mustafa Molla Hacı Rəhim oğlu Mustafayevə 13 yanvar 1920-ci ildə verilib.[8]

[1] ARDA, fond 51, siyahı 3, iş 91, vərəq 2.
[2] Yenə orada, vv. 4-4a.
[3] Yenə orada, fond 57, siyahı 1, iş 260, vərəq 196.
[4] Yenə orada, vərəq 1.
[5] Yenə orada, vərəq 8.
[6] Yenə orada, vərəq 9.
[7] Yenə orada, vərəq 10.
[8] Yenə orada, vərəq 11.

* * *



Mustafa Mustafayev

Fransada oxuyan tələbələr 1923-cü ilin iyununda öz ağır durumları ilə Azərbaycan sovet hökumətini tanış etmək üçün Mustafa Mustafayevi Bakıya nümayəndə göndəriblər. O, Bakıda 15 iyun 1923-cü ildə Xalq Maarif Komissarlığına geniş bir ərizə yazaraq dəhşətli durumlarını anladıb. Ərizəni bu kitabın ikinci bölümündə bütöv şəkildə verdiyimizə görə burada təkrar etmək istəmirik. Ancaq bəzi ən mühüm məqamları xatırladırıq. Mustafayev yazır ki, Fransada oxuyan təqaüdçü tələbələrin maddi böhranı 1 iyul 1922-ci ildən başlanıb. Onlar vəsaitdən ötrü Cəbrayıl Rəhimov və İsrafil Əşrəfovu da nümayəndə kimi göndərmişdilər. Ancaq hökumət bir tərəfdən yaşayış minimumunu qısaldıb (750 fr. əvəzinə 560 fr.; ümumən 6.750 frank əvəzinə 1.680 frank), başqa tərəfdən, təminat müddətini azaldıb (12 ay əvəzinə 3 ay), üçüncü tərəfdən də, pulu vaxtında göndərmir, pullar bizə 6 aylıq gecikmə ilə gəlib çatır.

Mustafayev məktubda sovet hökumətinin tələbələri Fransadan geri çağırması məsələsinə də ciddi reaksiya verib: tələbə yoldaşlarımızın bu məsələ ilə bağlı yekdil qərarı belədir ki, geri çağırılmışların yenidən siyahıya daxil edilməsi və onların bundan sonra da müntəzəm dəstəklənməsi hökumətdən təkidlə xahiş edilsin.[1]

Tələbə yoldaşlarından Mustafa Vəkilov XDİK zindanında 20 noyabr 1937-ci ildəki dindirməsində bildirib ki, Mustafa Mustafayevlə xaricdə birgə oxumuşuq. O, indi Xalq Yerli Sənaye Komissarlığında işləyir.[2]

Fərman Nərimanbəyov 8 yanvar 1938-ci ildəki dindirməsində müstəntiqin onun qohumları haqqında sualına cavabında Xalq Yerli Sənaye Komissarlığının mühəndisi Mustafa Mustafayevin də adını çəkib.[3]

[1] ARDA, fond 57, siyahı 1, iş 260, vv. 112-113.
[2] AR MTN arxivi, PR-18730, vərəq 108a.
[3] Yenə orada, PR-22000, vərəq 10.

Münşizadə Hilal Məşədi Mirzə Məhəmməd oğlu

(12.04.1899, Şuşa – 1990, Bonn)



Hilal Münşizadə

Hilal Münşi[1] ilə bağlı Azərbaycan mətbuatında yalnız iki-üç ayrıca yazı işıq üzü görüb. Onlardan Maarif Teymurun *"Bir daha Hilal Münşi barəsində"*,[2] Nailə Hüseynovanın *"O məşhur əsərin müəllifi"* məqalələrini qeyd etmək olar.[3] Yaqub Mahmudovun rəhbərliyi ilə nəşr edilmiş *"Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"*nda da onun haqqında kiçik oçerk[4], Səbahəddin Şimşirin kitabında ötəri bir qeyd[5] verilib. Ancaq bunlar Hilal bəyin ömür yolu və fəaliyyəti barəsində yetərincə təsəvvür yaratmaqdan uzaqdır. Burada oxuculara yalnız öz araşdırmalarımızın nəticəsini təqdim edirik.

* * *

İstər Azərbaycana qayıdanların olsun, istərsə də qayıtmayıb Avropada qalanların – Cümhuriyyət tələbələrinin həyatını öyrənmək əzablı bir işdir. Hərəsinin öz çətinliyi var. Azərbaycana gələnlərin çoxunu 1937-də tutub ya güllələdilər, ya da sürgünə göndərdilər, arvad-uşağını məhv etdilər, evini də əlindən alıb ermənіyə, rusa verdilər. Xaricdə qalanlarsa bu il bu ölkədə, gələn il başqa ölkədə yaşadı, əksəri soyadını dəyişdi. Müstəqilliyimizi qazandığımız 1992-ci ilədək arxivlər bağlı olduğuna görə nə buradan bir şey öyrənə bildik, sərhədlər bağlı olduğuna görə nə də oradan bir soraq ala bildik. İndi oğulsan aradan 60-70 il keçəndən sonra gəl ipucu tap görüm necə tapırsan!..

Öncə Hilal Münşini Azərbaycanda axtardıq. Çox soraşıqdan sonra 2007-ci ilin 31 iyulunda AMEA Kimya Problemləri İnstitutunun elmi katibi, qardaşı qızı Mina xanım Münşiyevanı tapdıq. Onunla nə dedik, nə danışdıq – bu haqda yeri gələndə söz açacağıq. Ondan Hilalın Berlində deyil, Bonnda yaşadığını və hətta son məktubundakı ünvanı öyrənəndən sonra Almaniyaya üz tutduq…

Yusif Abılov ailəsi ilə birgə Almaniyaya 2000-ci illərin başlanğıcında gedib. Maynts şəhərində yaşayır. Artıq Almaniya vətəndaşıdır. Çox millət təəssübü çəkən adamdır. Hilal Münşinin ünvanını ona göndərib axtarmasını xahiş etdik. O, iş-güc adamı, Bonn da Mayntsdan xeyli aralı.

2009-cu il iyulun 17-sindən 18-inə keçən gecə Yusif bəyə belə bir məktub yazdıq:

"Abılov,[6] salam!

Bu gecə yarısında bilgisayarımı söndürüb yatmağa gedərkən dedim ki, qoy bir elektron poçtuma baxım. Baxdım və gözümə inanmadım – sənin məktubunla birgə Hilal Münşinin qocalıq şəkilləri!!! Neçə illərdi bu şəkilləri görmək istəyirdim, yalnız bu gün arzuma çatdım. Allah da səni, ailəni bütün arzularına bələcə çatdırsın, inşallah!

Abılov, Hilal Münşi çox böyük şəxsiyyətdir – "Məhəmmədəmin Rəsulzadənin sağ əlidir" desək yanılmarıq. Avropa və Türkiyədə Azərbaycan mücadiləsi aparan nəhəng bir insanımızdır. Məndə onun çoxlu uşaqlıq və tələbəlik şəkilləri var; bir şəkli də Rəsulzadə ilədir, ancaq qocalıq çağını tapa bilmirdim, onu da sənin sayəndə gördüm.

Bu fotolar kimdədirsə o, sözsüz ki, onun haqqında nələrsə eşidib, bilir. Səndən çox-çox xahiş edirəm, əziyyətindən keçib (onsuz da, artıq əziyyətin içinə girmisən), o adamdan H.Münşi haqqında bildiyi hər şeyi, hətta sizə və ona da ən lazımsız görünən şeyləri belə soruşun və kağıza yazın ki, yaddan çıxmasın. Bir neçə ən vacib suallarsə bunlardır:

1) H.Münşi hansı tarixdə ölüb (il, ay, gün)?

2) Harada dəfn olunub? (Məzarının fotosu çox maraqlıdır; görək üstündə nə yazılıb).

3) Əlyazmaları, kitabları necə olub? (O, kitablar yazıb, məndə də var).

4) Arvadının adı nədir?

5) Arvadın qohumları qalıbmı? (Onlarda Münşinin materialları, sənədləri ola bilər).

6) Uşaqları olubmu? Olubsa sağdır(lar)mı? Sağdır(lar)sa necə əlaqə yaratmaq olar?

7) Arvadın qohumları qalıbsa onlar Hilalın Azərbaycanda olan qohumları ilə (onların içində çox görkəmli adamlar var) əlaqə yaratmaq istərdilərmi?

8) Mənə göndərilən fotodakı adamlardan heç tanınan varmı?

9) Fotoalbomu haradadır?

Bunlar ən önəmlilərdir. Yerdə qalanları özünüz müəyyənləşdirərsiniz".

İyulun 25-də Y.Abılovdan aşağıdakı məktubu aldıq:

"Ədalət bəy, salam!

Bu gün Hilal bəyin evində yaşayan almanla görüşüb söhbət elədik. O dedi ki, mən kiçik uşaq ikən onu görmüşəm. Onun xanımı alman idi, uşaqları olmayıb. Xanımının bacısı (baldızı) Düsseldorfda yaşayır, bu evi də bizə o satıb. Bu ev yiyəsi söz verdi ki, onun adresini tapıb sizə verəcəyəm. Dedi ki, Hilal bəyin başqa fotoları da var, hamısını göndərəcəyəm.[1]

Ev yiyəsinin anası Hilal bəyin qonşusu olub. İndi Türkiyədədir, ayın sonunda gələcək. O qadın daha məlumatlıdır.

Çox təəssüflə deməliyəm ki, evin indiki sahibi evi alandan sonra Hilal bəyin bütün əlyazmalarını yığıb saxlasa da keçən il (2008) mənzili təmir etdirəndə hamısını zibilliyə atıb, indi çox peşmançılığını çəkir.

Mən çalışacağam ki, Sizə daha çox məlumat toplayam".

Avqustda bağda (İnternetsiz) olduğumuzdan, cavabını yalnız 5 avqust 2009-da şəhərdən göndərə bildik:

"Hörmətli Abılov, son məktubun məni həm çox sevindirdi, həm də hədsiz kədərləndirdi. Sevinməyim ona görədir ki, uzaq Almaniyada da sənin özün və ailən kimi millətini sevən insanlar araşdırmalarımızda, dəyərli adamlarımızı üzə çıxarmaqda dadımıza çatırlar, bu yolda çətinliklərdən bezmirlər. Bunun üçün sizə çox-çox minnətdaram! Çox sağ olun!

Kədərlənməyimə səbəbsə odur ki, səndən Hilal bəyin evində yaşayan almanın onun əlyazmalarını biryolluq məhv etdiyini öyrəndim. Bu, çox ağır itkidir. Ancaq hələ nələrinsə tapıla biləcəyi umudunun özü də önəmlidir.

Abılov, sənin orada Hilal bəylə bağlı gördüyün işi heç kəs ya görmək istəməyəcək, ya da bunu, sadəcə, bacarmayacaq. İndiyədək gördüyün və bugündən sonra görəcəyin işin də dəyərini səndən yaxşı bilən yoxdur, ona görə bu haqda susuram, ancaq təkcə onu xatırlatmaq



Hilalın ana babası Mirzə Həsən Yüzbaşov

[1] Soyadı bir çox qaynaqlarda "Münşizadə" və "Münşiyev", Almaniyada "Münşi" kimi də gedib. Sənədlərdəki həmin yazılışları da saxlamışıq.

[2] *"İncəsənət"* qəzeti, yanvar 1990.

[3] *"Günaydın"* qəzeti, 10 fevral 1998, № 3.

[4] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II cild, ss. 221-222.

[5] *Dr. Şimşir S.* Azerbaycanlıların Türkiyede Siyasi ve Kültürel faaliyetleri (1920-1991), s. 97.

[6] Biz ona ərklə həmişə soyadıyla müraciət edirik.

[1] Y.Abılov az sonra onları da əldə edib göndərdi. Beləliklə, o, H.Münşiyə aid üst-üstə 18 orijinal fotonu bizim ixtiyarımıza verdi.



Hilal Münşizadənin əzizləri. *Soldan sağa:* Hilal, Mina xanım Nəzərəlibəyova (Hilalın ata nənəsi), Firuzə (bibisi qızı), Hacı Hüseyn (əmisi), Ağakərim (qucaqda, qardaşı), Məşədi Hüseyn Salahov ("Qızıllı Hüseyn"; Mina xanımın bacısı oğlu), Yusif Salahlı (Məşədi Hüseynin oğlu). *Ayaq üstə:* Bahadır bəy Əliverdibəyov (Mina xanımın bacısı oğlu, Ağalar bəyin qardaşı, Nazim və Kazım Əliverdibəyovların böyük əmisi). Şuşa, 1906-cı ilin yazı

istəyirəm ki, istər təklikdə, istərsə də başqalarıyla birgə gördüyün bütün işlərdən yazdığım zaman əməyinizə dəyər vermək boynumun haqqı olacaq…".

8 oktyabr 2009-da Yusif bəyin göndərdiyi aşağıdakı məktubu və oğlu Aqillə birgə Bonnda Hilal Münşinin evində çəkdiyi fotoları aldıq:

"Ədalət bəy, salam.


…Hilal Münşinin evində çəkdiyim fotoları göndərirəm. Fotoda gördüyün bu Türk qadın onun evində yaşayır. Bağçadakı şam agacı Hilal bəyin çox sevdiyi ağac olub. Həmişə onun altında oturub çay içərmiş…".

Yusif Abılovun göndərdiyi fotoları Mina xanım Münşiyevaya da göstərdik. Xeyli təsirləndi.

* * *

İndisə gələk Mina xanımla 31 iyul 2007-ci ildə etdiyimiz söhbətə. Öncə oxucuları bilgiləndirək ki, *Mina xanım Ağakərim qızı Münşiyeva*, ailəsinin Hilal Münşinin qohumu kimi sürgünə göndərildiyi Semipalatinsk şəhərində 12 may 1945-ci ildə doğulub. İndi kimya elmləri doktoru, AMEA Kimya Problemləri İnstitutunun elmi katibidir.

Geniş dünyagörüşlü bir ziyalı olan Mina xanım xalqımızın tarixinə böyük sevgi bəsləməklə yanaşı, öz nəsillərinin tarixini də incəliklə öyrənməyə çalışır, bununla bağlı sənədləri



Hilalın dayısı Xəlil Yüzbaşov, anası Sara

təəssübkeşliklə toplayaraq qayğı ilə qoruyur. Çox maraqlı söhbətdaş olan Mina xanım bizə həm geniş bilgi, həm də dəyərli bəlgələr verdi. Bu bilgi və bəlgələr təkcə Hilal Münşinin özüylə deyil, bütün nəsliylə bağlıdır.

Mina xanım bildirdi ki, Hilal Münşi görkəmli yazıçı Yusif Vəzir Çəmənzəminlinin (1887-1943) bibisi nəvəsidir.

Münşizadələrlə bağlı hələlik bəlli ilk sənəd 5 iyul 1874-cü ilə aid arayışdır. Orada *Mirzə Kərim Hacı Məhəmməd oğlu Nəzərəlibəyov*'un adı çəkilib. Onun törəmələri sonralar "Münşizadə"/ "Münşiyev" soyadı daşıyıblar.

Mirzə Kərim Nəzərəlibəyovun, həyat yoldaşı Mina xanımdan iki övladı olub: Hacı Hüseyn və Mirzə Məhəmməd.

Mirzə Məhəmməd Münşiyev'in (1867-1905) iki oğlu olub: *Hilal Münşi(zadə)* (1902-təx. 1987) və *Ağakərim Münşizadə* (1905-1973). 1905-ci ildə Mirzə Məhəmməd dünyasını dəyişib. Mirzə Kərim Nəzərəlibəyovun arvadı Mina xanımın təkidi ilə onun yoldaşı Sara xanımı (1887-23.02.1972) qaynı Hacı Hüseynə ərə veriblər.

Hacı Hüseyn Münşiyev'in (1863-1932) birinci yoldaşının adı bəlli deyil; övladı olmadığına görə Hacı Hüseyn onu boşayıbmış. İkinci yoldaşı – qardaşı Mirzə Məhəmmədin oğulları Hilal və Ağakərimin anası *Sara xanım Yüzbaşova-Münşizadə* (1887-1972) isə Qarabağda məşhur olan şair Mirzə Həsən Yüzbaşov-Qarabağinin (1841-1904)[1] qızıdır.

Hacı Hüseyn Hilala və Ağakərimə öz doğma atalarından da artıq qayğıkeşlik göstərib. Buna görə də Ağakərimin övladları yalnız ona "baba" deyib (Hilal və Ağakərim isə ona "əmmə" deyirmiş).

Bəy nəslindən olan Hacı Hüseyn çox imkanlı adamdı.[2] Şuşada "zadəganların qabaqçəkəni" sayılırmış. Erməni-müsəlman davasında qaçqınlara çox maddi yardımı dəyib. Erməni-müsəlman münasibətlərinin tənzimlənməsində də fəal ağsaqqallıq edib.

Təxminən 1923-cü ildə Şuşadan ailəsi ilə Bakıya köçən Hacı Hüseyn burada indiki Tolstoy küçəsi 51-də *Ağalar bəy Əliverdibəyov*'la (1880-1953) bir mənzildə yaşayıb.

[1] Geniş bilgi üçün bax: *Çingizoğlu Ə.* Yüzbaşovlar. // *"Soy"* elmi-kütləvi dərgisi, 2010, № 6, ss. 3-8.
[2] Onun kasıb göstərilməsi Hilala dövlət təqaüdü kəsilməsi üçündü.



Hilalın dayısı Qasım Yüzbaşov

(Ağalar bəy Hacı Hüseynlə uzaq qohum, yaxın dostdu. Onların övladları da indiyədək çox mehriban yaşayır).

Hacı Hüseyn Bakıda müəllimlik edib. O, Şuşadan var-dövlətinin çox hissəsini Bakıya gətirə bildiyinə görə normal yaşayıblar. O, təxminən 1932-ci ildə öz əcəli ilə dünyasını dəyişib. Hilalla qardaşını anaları Sara xanım saxlayıb.

Hilal Münşi təxminən 3 yaşı olanda atasını itirib. Ona əmisi atalıq edib. Buna görə də bəzi qaynaqlar yanlış olaraq onun atasının Hacı Hüseyn olduğunu göstərirlər. Hilal Almaniyaya getməzdən öncə Xavər Əliverdibəyova ilə nişanlı idi. (Mina xanım bizə onun da şəklini göstərir).

O, öncə Berlində yaşayıb. 1939-cu ilədək anası ilə yazışıb. 1935-ci ildə qardaşı Ağakərim evlənəndə oradan çoxlu dəyərli toy hədiyyələri göndərib. 1939-cu ildə göndərdiyi şəklin arxasında yazıb ki, ana, mənə bir də məktub yazmayın, siyasi vəziyyət gərgin olduğuna görə mənimlə əlaqəni kəsin. Bundan sonra onların heç bir əlaqəsi olmayıb.

Böyük bəstəkar və dirijor *Niyazi* 1970-ci illərdə Türkiyəyə qastrola gedib. Orada onunla *Yusif Salahlı* və başqa azərbaycanlılar görüşüb. Yusif deyib ki, mən tez-tez Hilalla görüşürəm. Niyazinin yoldaşı Həcər xanım Sara xanıma xəbər verib ki, oğlun sağ-salamatdır, Almaniyadadır, ancaq siyasətlə məşğul olduğuna görə ünsiyyətdən qaçır.

Bundan sonra Yusif Salahlı yenidən Hilalla əlaqə saxlayıb və ondan aldığı məktubu yoldaşı Nəmidə xanımla 1971-ci il dekabrın sonunda *Sara*'ya çatdırıb. Məktubda rusca yazıb ki, başına gələn əhvalatları bilirəm, qarşında günahkaram, ancaq məni gözləmə, gəlməyəcəm.

Sara xanım bu məktubu ürəyinin başında gəzdirib və iki ay sonra – 23 fevral 1972-ci ildə beyninə qan sızmasından vəfat edib. (Deyirmiş ki, Hilaldan bir xəbər gəlsin, sonra ölüm). 1920-ci ildən sonra Münşizadələrdən heç kim Hilalla görüşə bilməyib.

Hilal Almaniyada iki dəfə evlənib. Yoldaşlarının ikisi də almandı, ancaq övladı olmayıb. Sonra Bonnda yaşayıb, burada mülkü vardı.

Hilalın kiçik qardaşı *Ağakərim Münşiyev* Yusif Salahlının[1] bacısı Balaxanım Salahova ilə ailə qurub. Ondan iki övladı olub: *Mina Münşiyeva* (12.05.1945) və *Sima Bağırova* (07.03.1948). Xatırladaq ki, Balaxanım Salahovanın anası Nabat xanım Ağalar bəy Əliverdibəyovun bacısıdır. Nabatın əri "Qızıllı" Məşədi Hüseynin bütün var-dövlətini Sovet hakimiyyəti əlindən alaraq özünü də tutub; 1930-31-ci illərdə Bakıda dustaqlıqda ölüb.

Ağakərim 1941-ci ildə orduya gedib. Onu orada Hilala görə həbs edərək Urala, mədənlərdə işləməyə göndəriblər. Anası Saranı və həyat yoldaşı Balaxanımı isə 1942-ci ilin oktyabrında Qazaxıstanın Semipalatinsk vilayətinin Georgiyevka kəndinə sürgün ediblər. Ağakərimin böyük qızı Mina burada doğulub. Onun adını doğum şəhadətnaməsində "Mina Kirillovna" yazıblar, sonra birtəhər "Kirimovna" etdirə bilib.

Ağakərim Uralda işləyərkən ciyəri ağır xəstələnib, ölüm ayağında olduğuna görə həkimlər onu anasının yanına Qazaxıstana göndəriblər ki, heç olmazsa əzizlərinin yanında canını tapşırsın. O, 1943-cü ilin sonunda ailəsinə qovuşub. Sara xanım sürgünə gedəndə tikiş maşınını da apara bilib və ailəni bununla dolandırıb. Orada hətta inək də alıbmış. Ağakərimi onun südü, qaymağı ilə bəsləyib. Ana sevgisi və qayğısı sayəsində möcüzə baş verib – Ağakərim sapsağlam olub.

[1] Cümhuriyyət tələbələrindəndir. Haqqında bu kitabda ayrıca oçerk var.



Hilal Münşizadə

Yusif Vəzir Çəmənzəminlinin bacısı *Əzət xanım Qurbanova* Daşkənddə yaşayırmış. Hacı Hüseynlə Mirbaba Vəzirov (Yusif Vəzirin, Əzətin atası) vaxtilə şərik olduqlarına və isti münasibətlərinə görə Əzət xanım oğlu Əkbərlə Sara xanıma xəbər yollayıb ki, Qazaxıstandan Çimkənd yoluyla qaçıb buraya gələ bilsəniz sizə pasport düzəldə bilərik.

Sara xanım və himayəsindəkilər 1947-ci ilin oktyabrında Qazaxıstandan qaçıb Daşkəndə gəliblər. Doğrudan da, Əzət xanım Daşkənddə onlara pasport düzəldib və ailə həmin sənədlə 1947-ci ildə Bakıya qayıdıb.

Üzeyir bəy Ağakərimin yoldaşı Balaxanımın böyük xalası Şirinbəyimin oğluydu. O, Mircəfər Bağırovdan xahiş edib ki, onlara Bakıda yaşamağa icazə versin, Bağırov isə bildirib ki, Azərbaycanın başqa yerlərinə getməlidirlər. Ağakərim anası və ailəsi ilə öncə Ucar (Sima burada doğulub), Yevlax, Kürdəmir, Dəvəçi rayonlarında baş mühasib işləyib, nəhayət, Stalin öləndən və Bağırov götürüləndən sonra – 1955-ci ildə Bakıya köçüblər. 1959-cu ildə rəhmətlik Əliş Ləmbəranskinin köməyi ilə ev də alıblar.

* * *

Mina xanımın dedikləri nəinki Qarabağ, hətta bir çox Azərbaycan soylarının ən mahir araşdırıcısı olan *Ənvər Çingizoğlu*'nun tədqiqatıyla da təsdiqlənir. Əslində təkrara yol vermədən yeni bilgi yaratdığına görə Ənvər bəyin yazısından Münşizadələrlə bağlı bölümü ixtisarla təqdim edirik.

Münşizadələrin ulu babası *Mirzə Kərim bəy Hacılı-Cavanşir*'dir. O, İbrahimxəlil xan Sarıcalı-Cavanşirin divanında münşi[1] vəzifəsində çalışıb. Ömrünün sonlarına yaxın xanın vəliəhdi Məhəmmədhəsən ağanın sarayında çalışıb.

Mirzə Kərim bəyin oğlu *Hacı Mirzə Məhəmməd bəy* 1800-cü ildə Şuşa şəhərində anadan olub. İlk təhsilini atasından alandan sonra Təbriz şəhərində ali təhsil görüb. Həccə gedib. Müəllimlik edib.

Hacı Mirzə Məhəmməd bəy Cəfərqulu xan Cavanşirin məiyyətində idi. Xan ona tarxanlıq torpaq vermişdi və hər cür vergidən azad etmişdi. X1X yüzil qaynaqlarında Hacı Mirzə Məhəmməd bəyin adınının önündə məaf (vergidən azad olunmuş) ünvanı yazılırdı.

Hacı Mirzə Məhəmməd bəyin oğlu *II Mirzə Kərim bəy (Nəzərəlibəyov)* 1827-ci ildə Şuşa şəhərində doğulub. İlk təhsilini atasından alandan sonra bir çox ünlü alimlərin yanında təhsilini davam etdirib. O da müəllim idi. Şuşanın Merdinli məhəlləsində "Beytül-ədəb" ("Ədəb evi") adlı mədrəsəsi vardı.

Mirzə Kərim bəy həm də şair idi. Təzkiräçi Mirmöhsün Nəvvab "Təzkireyi-Nəvvab" adlı əsərinin sonunda ondan yazıb.

Mirzə Kərim bəyin *Hüseyn bəy, Məhəmməd bəy (Məmiş bəy)* və *Əli bəy* adlı oğulları olub.

[1] Sənədləri yazan, onların üzünü köçürən.



Ənvər, Sara, Ağakərim, Balaxanım.
27 avqust 1939-cu il

Hacı Mirzə Hüseyn bəy 1863-cü ildə dünyaya gəlib. İbtidai təhsilini atasından alıb. Bir çox Şərq dillərini bilib. "Çakər" təxəllüslü şair idi. Nəvvab onun haqqında yazır: *"Mirzə Hüseyn Çakər ibn mərhum Mirzə Kərim ibn Hacı Məhəmməd Qarabağın Şuşa əhlindən, Qurdlar məhəlləsindəndir. Şuşada anadan olub, 30 yaşı var. Farsca savadı var. Peşəsi tacirlikdir. Təxəllüsü Çakərdir".* Mirzə Hüseyn bəy müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

1908-ci ilin 23 martında *Hacı Mirzə Hüseyn bəy Münşizadə* tutularaq Həştərxan quberniyasına sürgün edilib. (Onun sonrakı həyatı haqqında yuxarıda bilgi verilib).

Mirzə Kərim bəyin ikinci oğlu *Məhəmməd bəy (Məmiş bəy)* 1867-ci ildə doğulub. (Bu, Hilal və Ağakərim Münşizadələrin atasıdır. Onun haqqında da yuxarıda bilgi verilib).

Mirzə Kərim bəyin üçüncü oğlu *Əli bəy* 1871-ci ildə dünyaya gəlib. İlk təhsilini atasından alıb.[1]

* * *

Hilalın təvəllüd tarixi onun 2850 saylı doğum şəhadətnaməsində dəqiq göstərilib:

"Bu, Zaqafqaziya Şiə Ruhani İdarəsindən ona görə verilib ki, Gəncə valiliyi Şuşa şəhəri "Çuxur məhəllə" şiə cameəsinin 1899-cu ilə aid doğum kitabının birinci hissəsindən göründüyü kimi, Şuşa şəhərinin sakini Məşədi Məhəmməd Mirzə Kərim oğlu Münşiyevin öz qanuni arvadı Sara Ağa Həsən qızından oğlu Hilal 12 aprel 1899-cu ildə doğulub və həmin ilin doğum kitabında cameə mollası onu 1-ci nömrə altında qeyd edib".[2]

Şəhadətnamə 4 oktyabr 1907-ci ildə Tiflisdə verilib, onu şeyxülislam Əbdüssalam Axundzadə, idarə üzvü Poladzadə, idarə katibi İ.Eyvazxanbəyov imzalayıblar.

Hilal orta təhsilini Şuşada alıb. 428 saylı attestatda onun 1 sentyabr 1907-ci ildə Şuşa edadisinə (real məktəbinə) girərək 20 aprel 1917-ci ildə oranı bitirməsi göstərilib. Qiymətləri ortabadır: 2 fəndən "5", 6 fəndən "4", 6 fəndən "3".[3]

Real məktəbin əlavə sinfində oxuması haqqında Şuşada 16 mart 1918-ci ildə verilmiş şəhadətnamədə isə onun bu sinifdə 1 oktyabr 1917-ci ildən 15 mart 1918-ci iləd ək əla əxlaqla oxuyaraq səkkiz siniflik tam kursu bitirməsi və aldığı qiymətlər qeyd olunub:

Şəriət –	əla (5)
Rus dili –	kafi (3)
Alman dili –	yaxşı (4)
Fransız dili –	yaxşı (4)
Riyaziyyat, o sıradan:	
Hesab –	əla (5)
Cəbr –	yaxşı (4)
Triqonometriya –	yaxşı (4)

[1] Çingizoğlu Ə. Hacılılar, ss. 244-246.
[2] ARDA, fond 51, siyahı 3, iş 99, vərəq 4.
[3] Yenə orada, vərəq 2.



Qohumlar bir arada. *Soldan sağa. Ön cərgə:* Kazım Ağalar bəy oğlu Əliverdibəyov (qucaqda), onun böyük qardaşı Nazim, Nabat Salahova-Əliverdibəyova ("Qızıllı Hüseyn" Salahovun yoldaşı, Yusif Salahlının anası), Məhbubə xanım Əliverdibəyova (Ağalar bəyin yoldaşı), onun qucağında: ortancıl oğlu Rasim, Ağalar bəy Əliverdibəyov. *İkinci cərgə:* qulluqçu qadın, Xəlil Yüzbaşov (H.Münşinin dayısı), Süğra Yüzbaşova (onun yoldaşı), Sara Münşizadə (Hilalın anası), Səriyyə Xəlifəzadə. *Ən arxada:* Ağalar bəyin qızı Nüşabə.
Kislovodsk, 15 avqust 1934-cü il

Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	əla (5)
Tarix –	yaxşı (4)
Təbiiyyatşünaslıq –	yaxşı (4)
Fizika –	əla (5)
Riyazi coğrafiya –	yaxşı (4)
Rəsm –	yaxşı (4)
Qanunşünaslıq –	əla (5)
Türk dili –	əla (5).[1]

Artıq bu şəhadətnamə ilə ali məktəbə girə bilərdi. Ancaq buna həvəs göstərmədi – onsuz da, Rusiyada oxuyanlar oradakı hərc-mərclikdən qaçaraq vətənə gəlirdilər. Aranın sakitləşməsini gözlədi. O, dövlət qulluğuna girdi. Doğrudur, şəxsi işində Hilal Münşizadənin Ziraət və Dövlət Əmlakı Nəzarətinin' dəftərxanasına dəftərxana qulluqçusu vəzifəsinə götürülməsi haqqında sənəd yoxdur, ancaq şəxsi işinin cildində 14 noyabr 1919-cu il tarixi göstərilib. Deməli, həmin vəzifəyə bu tarixdən təyin edilib.

"Cənab ziraət və dövlət əmlakı naziri hüzuri-alilərinə" dəftərxana qulluqçusu Hilal Münşizadə 4 yanvar 1919-cu il tarixli ərizəsində yazıb ki, Xalq Maarif Nəzarətinin sərəncamına əsasən, mən Gəncə şəhərində hərbi məktəbə girməklə hərbi borcumu verməliyəm. Buna görə də hərbi mükəlləfiyyətlə bağlı işlərimi qaydaya salmaqdan ötrü mənə 20 günlük

[1] ARDA, fond 51, siyahı 3, iş 99, vərəq 3.
[2] Nazirliyinin.



Hilal *(ortada)* Şuşa real məktəbində. 1915-16

məzuniyyət verməyinizi xahiş edirəm.[1] Dəftərxana müdirinin imzasıyla ona 4 yanvar 1919-cu ildən 24 yanvar 1919-cu ilədək 20 günlük məzuniyyət verilib.[2]

Ziraət və dövlət əmlakı naziri *Aslan bəy Qardaşov*'un 21 iyun 1919-cu il tarixli 176 saylı əmri ilə Nəzarətin dəftərxana xidmətçisi Hilal Münşizadə 1 iyun 1919-cu ildən işdən azad edilib.[3] Görünür ki, naziri buna məcbur edən Hilalın işə çıxmaması olub.

Dəftərxana qulluqçusu Hilal Münşizadə nazirə Şuşadan 25 iyun 1919-cu ildə göndərdiyi ərizədə bildirir ki, xəstəliyim gücləndiyinə görə həkimin məsləhəti ilə işdən çıxmağa məcburam. Buna görə də Nəzarətdəki vəzifəmdən istefamı qəbul etməyinizi xahiş edirəm.[4] Deməli, Hilalın işə çıxmamasının səbəbi onun xəstəliyi olub.

Cümhuriyyətin xaricə tələbələr göndərmək istədiyini qəzetlərdən oxuyan *"Şuşa məktəbi-edadisini bitirmiş Hilal Münşizadə"* bu xəbərdən sevinərək avqustun başlanğıcında "Azərbaycan Hökuməti-Cümhuriyyəsi maarif naziri hüzuri-alilərinə istida" (ərizə) yazıb göndərdi. Bu, 100 təqaüdçünün ərizələri içərisində ana dilimizdə – türkcə yazılmış iki-üç ərizədən biridir (qalanların hamısı ruscadır). Hilalın savadlı şagird olmasını onun şəhadətnaməsindən görürük. Onun yazdığı ərizənin də savadlı olduğuna şübhə yoxdur. Deməli, bu sənəd o dönəmin rəsmi üslubu ilə tanışlıq üçün örnək ola bilər, buna görə də onu aşağıda qısaltmadan veririk:

"30-31 temmuz[5] *tarixli "Azərbaycan" qəzetələrində şövkətli və izzətli maarif nazirimiz əfəndinin təşəbbüsatıyla hökuməti-cəliləmiz tərəfindən müsəlman-türk tələbələrinin ikmali-təhsil məqsədilə Avropa məktatibi-aliyyə və ixtisasiyyələrinə göndərilməsini və binaənəleyh*[6]

[1] ARDA, fond 77, siyahı 5, iş 73, vərəq 1.
[2] Yenə orada, vərəq 2.
[3] Yenə orada, vv. 3, 4.
[4] Yenə orada, vərəq 5.
[5] İyul.
[6] Buna görə.



Hilal Münşizadə. Almaniya, 20 sentyabr 1921-ci il



Hilalın qardaşı Ağakərim Münşiyev

xahişmənd müstədilərin[1] *şimdidən ərizələr vermələri xüsusunda Nəzarəti-aidənin elan-namələrini mütaliə etmiş olduğumdan, bəndələrini də*[2] *göndərilənlər sırasına idxal ilə qeyd edilməsini zati-alilərinizdən acizanə istirhamda bulunuyorum. Bizzat mərkəzi-hökumətdə olmadığımdan dolayı*[3] *tələbələri Avropa məktatibi-aliyyələrin hansılarına göndərilmələrini [dəqiqliklə] bilməyərək məvafi yalnız ixtisas və əmalım elektrotexnik məlumati-fənniyəsi və təlimi əxz etmək olduğu dərbəyan ilə fəqət məhəlli-iqamətgahımın atidə*[4] *İsveçrə məmləkəti olmasını arzu edərdim. İstidam ilə bərabər hər dürlü vəsaiqi-lazımiyyəyi mürasilə ediyorum:*[5] *filcümlə*[6] *olaraq məktatibi-edadiyyədən aldığım 6-cı və 7-ci siniflərin şəhadətnamə surəti-müsəddəqəsini*[7] *hakəza beytəmin müsaidəli olması və eyni zamanda fəqir və yoxsul ailəyə mənsubluğumla məccanən*[8] *təhsil etməyə behəqqi-səza olduğum xüsusunda müssiseyi-aidədən aldığım vəsaiqi-zərurəyi hüzuri-alilərinizə təqdim ilə tərəfi-mərhəmətpənahınızdan hüsni-qəbul olmasına qəviən etimad ediyorum. Əmr zati-alilərinindir, bəyəfəndim!*

B.T.[9] *İlk mətalibənizdə vəsiqə və şəhadətnamələrin surəti-əsliyyələrini mürasiləyə amadəyəm.*

Seşənbə, 3 ağustos 1919 səneyi-miladiyyə.
Hilal Münşizadə.
Ünvanım: Şuşa, Hilal Münşiyevə".[10]

[1] Xahiş edən ərizəçilərin.
[2] H.Münşizadə özünü nəzərdə tutur.
[3] Şəxsən paytaxtda olmadığıma görə.
[4] Gələcəkdə.
[5] Gərəkli sənədləri göndərirəm.
[6] O cümlədən.
[7] Təsdiqlənmiş surətlərini.
[8] Pulsuz.
[9] Bu, "bəd ət-təhrir" (yazıldıqdan sonra) sözlərinin qısaltmasıdır və indi işlənən "P.S." qısaltmasına uyğundur.
[10] ARDA, fond 51, siyahı 3, iş 99, vərəq 1.









Almaniyadakı tələbələrimiz. 1. *Soldan sağa:* Hilalın yoldaşı, Əliəkbər Əliyev, Məhiş Səfərov, Hilal Münşizadə. Borby-Eckernförde, avqust, 1920. 2. Məhiş Səfərov, Əliəkbər Əliyev, Hilal Münşizadə. Borby-Eckernförde, avqust, 1920. 3. *Soldan sağa:* Hilal Münşizadə, Əliəkbər Əliyev, (?). 1923-25-ci illər. 4. *Soldan-sağa:* (?), Behbudəli Zeynalov, Hilal Münşizadə.

Əlbəttə, belə savadlı şagirdin Avropaya göndərilməsi üçün ona təqaüd ayrılmasına dəyərdi, ancaq bundan ötrü onun maddi durumu haqqında arayışa da ehtiyac vardı. Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının müvəqqəti hərbi valisi *Xosrov bəy Sultanovun* və dəftərxana ağası *B.b.Bədəlbəyovun* imzası ilə 3 avqust 1919-cu ildə Şuşa şəhərində verilmiş 3963 saylı vəsiqədə göstərilir ki, Şuşa şəhərinin sakini Hilal Münşiyevə ali məktəbə daxil olmaqla bağlı Xalq Maarif Nəzarətinə təqdim etmək üçün ona görə verilib ki, o, subaydır, əmisi Hacı Mirzə Hüseyn Münşiyevin ailəsində yaşayır, onun ailəsi isə bunlardan ibarətdir: Münşiyevin özü – 60 yaş, arvadı Saray xanım (Hilal Münşiyevin anası) – 40 yaş və qardaşı oğlu Ağa[kərim] – 15 yaş. Hilal Münşiyevin ali məktəbə girməsinə ailə tərəfdən əngəl yoxdur, onun valideynləri yoxsuldurlar və Münşiyevə öz hesablarına ali təhsil vermək imkanları yoxdur.[1]

Bu sənəd alındıqdan sonra Hilalın təqaüdçülər sırasına götürülməsinə heç bir əngəl qalmadı. Abituriyent Hilal Münşiyev 14 noyabr 1919-cu ildə Bakıda xalq maarif nazirinə ikinci bir ərizə yazdı ki, məktuba 6 fotoşəkil əlavə edərək, təhsilimi davam etdirmək üçün Almaniyanın Berlin şəhərini seçmişəm və Elektrotexnika İnstitutuna girmək istədiyimi bildirirəm. (Sonra da verdiyi sənədləri sadalayır).

Bakıdakı ünvanı budur: Məzarlıq küçəsi[2]*, Pozenov döngəsi*[3]*, ev 9, mənzil 4.*

Dekabr ayında "Azərbaycan" qəzetində çıxan 100 təqaüdçü siyahısında Hilalın da adı

[1] ARDA, fond 51, siyahı 3, iş 99, vərəq 5.
[2] İndiki Mehdi Hüseyn küçəsi.
[3] İndiki Cəfərov qardaşları döngəsi.



Milli Azərbaycan Komitəsi üzvləri yoldaşları ilə. *Soldan-sağa. Oturanlar:* Abbasqulu Kazımzadə, Məhəmmədəmin Rəsulzadə, Xosrov bəy Sultanov. *Ayaq üstə:* Mirzəbala Məhəmmədzadə, Kərim Odər, Əli Azərtəkin, Hilal Münşi. Berlin, 1943

vardı. O, 14 yanvar 1920-ci ildə həm Cümhuriyyətin göndərdiyi yerdə 4 il işləyəcəyi,[1] həm də təhsil alacağı dövlətdə heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[2] dilkağızları verib.

Azərbaycan Cümhuriyyəti hökumətinin onu dövlət hesabına xaricə oxumağa göndərməsi haqqında vəsiqə ona 14 yanvar 1920-ci ildə təqdim edilib.[3]

* * *

Hilal Məşədi Məhəmməd oğlu Münşizadə Berlində yol mühəndisliyi ixtisası üzrə oxuyub. Diplomu və başqa sənədləri əlimizdə olmadığından, hansı ali məktəbdə oxuduğunu belə dəqiq bilmirik.

Cümhuriyyətin yıxılıb sovet hakimiyyətinin qurulmasıyla xaricdəki tələbələrin çoxu kimi Hilal Münşizadənin də qara günləri başlanıb. Ancaq o, özündən də çox yoldaşlarının halına yanır, onların maddi durumunu yaxşılaşdırmaq üçün əlindən gələni edirdi.

14 dekabr 1920-ci ildə Azərbaycan Tələbələrinin Mərkəzi Berlin Komitəsi Azərbaycan xalq maarif komissarına şikayət ərizəsi göndərərək Almaniyada oxuyan tələbələrin acınacaqlı durumunu bildirdi. Ərizədə göstərilirdi ki, 9 aydır qeyri-müəyyən və müşkül bir vəziyyətdə olmağımız dərslərimizin gedişinə də mənfi təsir göstərir. 1 sentyabradək təqaüdümüz müntəzəm yetişirdi. Təəssüf ki, bu tarixdən sonra maddi durumumuz pulsuzluğa görə pisləşməyə, Sülh Heyəti də pulumuzu qeyri-müntəzəm şəkildə verməyə başladı. Bir aylıq təqaüd

[1] ARDA, fond 51, siyahı 3, iş 99, vərəq 7.
[2] Yenə orada, vərəq 8.
[3] Yenə orada, vərəq 9.

heç çörəyə və mənzil kirayəsinə çatmır. Gündəlik xərcimiz 50 markadan çoxdur və bu hesaba təhsil haqqı, dərs ləvazimatı və geyim pulu daxil deyil. İcbari məktəb qanununa görə, biz də daxi bütün yabançı tələbələr təhsil haqqını alman tələbələrindən ikiqat artıq verməlidir. Bu qədər təhsil haqqını verməyə imkanımız olmadığından indiyədək dərsləri dinləmək hüququndan məhrum olmuşuq. Yalnız adımızın məktəbin ümumi dəftərində qeyd olunması üçün ilin başında daxilolma pulu veririk.

Nazirlikdən xahiş edirik ki, təhsilimizin müntəzəm davam etməsi üçün təqaüdü hamımızın adına köçürsün. Tələbələr adından xahiş edirik ki, işlərimizi və fəaliyyətimizi daim təftiş edəcək, pullarımızı öhdəsinə götürərək aramızda bölləcək və dərslərimizin pisləməsinə səbəb ola biləcək bütün işlərə nəzarət edən bir şəxs təyin edəsiniz.[1]

Ərizəni sədr adından katib *Hilal Münşiyev* və Komitə üzvləri *Məhiş Səfərov* və *Behbud Zeynalov* imzalayıblar.

1921-ci ilin başlanğıcında Almaniya tələbələrinin bir qrupu (Hilal Münşizadə, Mirzə Hacızadə və b.) Berlində olan Osmanlı hökumətinin keçmiş sədrəzəmi (baş naziri) Tələt paşa başda olmaqla Türkiyənin siyasi mühacirlərilə onlara maddi yardım göstərilməsi haqqında danışıq aparıblar. Tələt paşa yardım göstərməyə söz verib, ancaq yardım edə bilməyib,[2] çünki mart ayında erməni terrorçunun əli ilə onu məhv ediblər.

Əlbəttə, Türkiyə mühacirlərilə ünsiyyətin qurulması sovet hakimiyyətinin əsla ürəyincə deyildi, buna görə də tələbələrin işlərinə nəzarət edən Pirumovlar onu siyasi cəhətdən etibarsız sayaraq dövlət təqaüdündən məhrum ediblər. Bundan sonra onun necə maddi böhran keçirdiyini təsəvvür etmək çətin deyil.

Təqaüdünün kəsilməsi onun sovet hakimiyyəti və kommunist ideologiyası ilə də bütün əlaqələrini kəsməsinə səbəb olub və o, bundan sonra *"Hilal Münşi"* adıyla ciddi anti-sovet siyasətə qoşulub.

Hilal bəy ali məktəbi təxminən 1927-ci ildə başa vurub və SSRİ-yə qayıtmayıb.

* * *

Təəssüf ki, Hilal Münşinin siyasi fəaliyyəti haqqında indiyədək ümumiləşdirici heç bir yazı ortaya qoyulmadığından, biz də yalnız bu haqda ayrı-ayrı faktları bir yerə toplamaqla kifayətlənməli oluruq.

28 may 1928-ci ildə Azərbaycan mühacirləri Berlində Azərbaycanın istiqlalının 10-cu ilini bayram ediblər. Axşam saat 9-da Hilal Münşi "28 Mayıs 1918-in önəmi" adlı nitq söyləyib. O, nitqində bir çox mövzulara toxunmaqla yanaşı, müstəqillik tərəfdarlarını "ÇK"-nın necə amansızlıqla ortadan qaldırdığına və Sibirə sürgün etdiyinə də yer verib.[3]

Patrik von zur Mühlen Almaniyadakı siyasi mühacirətdən söz açarkən bildirir ki, "1930-cu illərdə "Prometey"ə yaxın "Qurtuluş" dərgisini yayınlayan azərbaycanlı Hilal Münşidən bəhs etmək gərəkdir".[4]

Hilal Münşi 1930-cu ildə Berlində almanca "Azərbaycan Cümhuriyyəti" adlı bir kitabça nəşr etdirib.[5]

---

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 74-74a.

[2] Əliyev Abbasmirzə Əhməd oğlunun öz əli ilə yazdığı izahat. // AR MTN arxivi, PR-22247, vərəq 20.

[3] *Qasımlı M.* Azerbaycan Türklerinin Milli Mücadele Tarihi (1920-1945), s. 358.

[4] *Von zur Mühlen P.* Gamalıhaç ile Kızılyıldız Arasında, s. 121.

[5] Bu əsərlə ətraflı tanışlıq üçün bax: *Caferoğlu A.* Tahlil ve tenkitler. *Hilal Münşi.* Die Republik Aserbeidschan. Eine geschichtliche und politische Skizze. Berlin, 1930, s. 64. // *"Azerbaycan Yurt Bilgisi"*, yıl:1, 1932, № 6-7, s. 279.











Hilal Münşi
Almaniyada müxtəlif məclislərdə
(Yusif Abilovun göndərdiyi fotolardan seçmələr)

İstanbulda Məhəmmədəmin Rəsulzadənin nəşr etdiyi *"Bildiriş"* qəzeti 1931-ci ilin yanvarında "Berlində Azərbaycan haqqında bir konfrans" başlıqlı xəbərdə bildirir: "Aldığımız məlumata görə, Azərbaycan İstiqlal Komitəsinin Berlin müməssili[1] Hilal Münşi bəy kanuni-əvvəlin[2] 5-də Azərbaycanın etnoqrafik, iqtisadi və mədəni vəziyyəti haqqında İdil-Ural, Türküstan, Gürcüstan və azərbaycanlılar hüzurunda almanca mühüm bir konfrans vermişdir. Çox sistematik və müfəssəl şəkildə verilən bu konfrans tam 2 saat davam etmiş və hazirun[3] tərəfindən çox alqışlanmışdır".[4]

Almaniyada fəaliyyət göstərən *Azərbaycan İstiqlal Cəbhəsi* 27 aprel 1932-ci il ildə Cəbhənin bulunduğu Berlin Charlottenberg Kanstrable 160 saylı binada Azərbaycan Cümhuriyyətinin bolşeviklər tərəfindən işğalının 12-ci ildönümü münasibətilə bir toplantı təşkil edib. Axşam saat 9-da başlayan yığıncaqda İstiqlal Cəbhəsi başqanı Hilal Münşi yarım saatdan artıq sürən nitqində 27 aprel işğalının 12 il içində törətdiyi fəlakətlər üzərində durub. O, Azərbaycanın yenidən özgürlüyünə qovuşacağına inamını bildirərək istiqlal mücahidlərinin xatirəsi üçün sayğı duruşunda durulmasını xahiş edib. Daha sonra qonaqlara söz verilib.[5]

Berlindəki soydaşlarımız 28 may 1932-ci il tarixini İstiqlal ildönümü olaraq qutlayıblar. Toplantı üçün Berlinin mərkəzi zoostansiyası qarşısında binanın ilk qatında yer alan böyük salon seçilib. Azərbaycan İstiqlal Cəbhəsinin düzənlədiyi yığıncaq saat 9-da başlanıb. Binanın girişinə və salona Azərbaycan milli bayrağı asılıb. Toplantıya Berlindəki Gürcüstan, Türküstan, İdil-Ural, Ukrayna və Türkiyədən təmsilçilər, çox sayda alman qonaqlar qatılıb. Toplantını Cəbhənin lideri Hilal Münşi açıb. Onun qısa çıxışından sonra salondakılar bir dəqiqəlik sayğı duruşunda bulunublar. Münşi istiqlal yolundakı mücadilənin önəminə və bugünkü duruma diqqət çəkib. Onun nitqindən sonra İstiqlal Cəbhəsi adına göndərilən teleqram və məktublar oxunub.[6]

1932-ci ildə Azərbaycan mühacirətinin xaricdə iki dövri nəşr orqanı qalmışdı: "İstiqlal" siyasi qəzeti və "Azərbaycan Yurd Bilgisi" elmi-ədəbi dərgisi. Türkiyə iqtidarının İstanbulda çıxan "Odlu Yurd" və "Bildiriş" nəşrlərini bağlamasından sonra Müsavat Partiyası Berlində "İstiqlal" qəzetinin yayınına başladı. Bu məqsədlə İstanbulda "Odlu Yurd" dərgisinin nəşrinə məsul olan *Mirzəbala Məhəmmədzadə* və *Əli Azərtəkin* Berlinə çağırılıblar. Onlar vaxt itirmədən fəaliyyətə başlayıblar.[7]

"İstiqlal" qəzeti Azərbaycan milli hərəkatının mübariz orqanı idi. O, Azərbaycan Milli Mərkəzinin və Müsavat Partiyasının sədri Məhəmmədəmin Rəsulzadənin redaktorluğu altında ayda üç dəfə çıxırdı.[8] Qəzetdə redaksiya heyətinin üzvləri Mirzəbala Məhəmmədzadə, Dr. Miryaqub [Mirmehdiyev] bəy, Əli bəy Azərtəkin və *Hilal Münşi* daimi iştirak edirdilər. 1932-1933-cü illərdə qəzetdə Hilal Münşinin 17 məqaləsi dərc edilib.[9]

"Azərbaycan Yurd Bilgisi" 1933-cü ildə yazır: *"Berlindəki Azərbaycan koloniyası rəisi Hilal Münşi bəyəfəndi Berlin Türkiyə Böyük Elçiliyi tərəfindən Cümhuriyyətin onuncu ildönümü münasibətilə keçirilən balda iştirak etmiş və təmsil etdiyi koloniya adından Türkiyə Səfarəti ərkanını və Berlin Türk gəncliyini təbrik eyləmişdir".*[10]

[1] Səlahiyyətli nümayəndəsi.
[2] Dekabr.
[3] İştirakçılar.
[4] *"Bildiriş"* qəzeti (İstanbul), 15 ikinci kanun (yanvar) 1931, № 24, s. 4.
[5] *Qasımlı M.* Azerbaycan Türklerinin Milli Mücadele Tarihi (1920-1945), ss. 516-517.
[6] Yenə orada, ss. 517-518.
[7] Yenə orada, s. 516.
[8] 1932-ci ilin 10 yanvarından 1934-cü ilin 15 avqustunadək nəşr edilib.
[9] Из истории азербайджанской эмиграции. Сборник документов, произведений, писем, s. 98.
[10] *"Azerbaycan Yurt Bilgisi"*, yıl:2, 1933, №23, s. 421.



Yad diyar...
Qocaliq...
Tənhalıq...

28 may 1934-cü ildə Berlində Almaniyadakı Azərbaycan İstiqlal Cəbhəsi tərəfindən istiqlal günü qeyd edilib. Yığıncaqda "Prometey" təşkilatına qatılan bütün topluluqlar və Türkiyə təmsilçiləri iştirak ediblər. Toplantını Hilal Münşi açıb. Azərbaycan istiqlalının sağlam təməllərə dayandığını söyləyən Münşi Qafqaz Konfederasiyasının önəmi üzərində dayanıb. Bundan sonra qonaqlara söz verilib.[1]

Hilal Münşi 1934-cü ildə Almaniyada Azərbaycan İstiqlal Komitəsinin sədri seçilib.

Elə həmin il Berlində "Qurtuluş" dərgisi nəşrinin ağırlığını öz çiyinlərinə götürüb.

Milli Azərbaycan Nəşriyyatının Avropada yayınladığı "Qurtuluş" məcmuəsi Azərbaycan Milli Qurtuluş Hərəkatının orqanı olaraq Berlində noyabr 1934-cü il tarixində ayda bir dəfə olmaqla çıxmağa başlayıb. Təsbit edə bildiyimiz son sayı 51-dir və 1939-cu ilin yanvar tarixini daşımaqdadır.[2] Onun müəlliflər heyəti arasında bu adları saya bilirik: *Məhəmmədəmin Rəsulzadə, Mirzəbala Məhəmmədzadə, Miryaqub Mehdiyev, Hilal Münşi, V.Nuhoğlu, Almaz İldırım, Y.Əli, Azəri, Cəfər Seyidəhməd, A.K.Qulu, Əli Usta, Prof. Dr. G.Jaschke, Əlizadə Əhəd, Niyazi Aqşin, Kərim Yaycılı, Prof. Dr. Herbert W.Duda, Prof. Dr. Gerhard von Mende, K.Yılmaz, Prof. Dr. Herbert Yansky, Dr. Bertold Spuler Yohannes Bensinq.*[3]

30-cu illərin ortalarında alman mətbuatı Azərbaycanda olub-bitənlərə özəl maraq göstərməkdə idi. "Qurtuluş" dərgisində Hilal Münşinin yayımladığı məqalə alman mətbuatında "Azərbaycan" başlığını daşımaqda idi. Alman qəzetləri sovet vəhşiliyinə bağlı xəbərləri istər öz müxbirlərindən, istərsə də Tiflis və Bakı sovet mətbuatından əldə etməkdə idi.[4]

Hilal Münşinin "Qurtuluş"da çıxan məqalələrindən bir neçəsi: *"31 mart"* (1935, № 5); *"Nürnberq – Moskova"* (1935, №12); *"Bolşevik ekmeğine yağ değil de nedir?"* (1935, №№ 13-14); *"Nürnberq kurultayı"* (1936, №23); *"Almanya matbuatında meselelerimiz"* (1936, №№ 15, 17; 1937, №№ 35-36; 1938, №39) və b.

1936-37-ci illərdə Milli Azərbaycan Müsavat Xalq Firqəsi Bülleteninin 3 sayı çıxıb. Bülletenin 3-cü sayında Hilal Münşinin *"Almanya Nasyonalist Partisinin içtimai ümdeleri"* məqaləsi (noyabr 1937, ss. 27-30) dərc edilib.[5]

[1] *Qasımlı M.* Azerbaycan Türklerinin Milli Mücadele Tarihi (1920-1945), s. 521.
[2] *Doç. Dr. Şimşir S.* Azerbaycanın İsliklal Mücadelesi, s. 107.
[3] Yenə orada, s. 109.
[4] *Qasımlı M.* Azerbaycan Türklerinin Milli Mücadele Tarihi (1920-1945), s. 521.
[5] *Doç. Dr. Şimşir S.* Azerbaycanın İsliklal Mücadelesi, s. 115.

Bu gün siyasi mühacirlərimizin məktublarına çox az rast gəlməkdəyik, çünki ciddi siyasətlə məşğul olan mühacir soydaşlarımız, adətən, məktubları saxlamır, tez məhv edirdilər. Məsələn, *Məhəmmədəmin Rəsulzadə* Varşavadan 23 dekabr 1936-cı ildə Berlinə – Hilal Münşiyə belə yazıb: *"Fürsətdən yararlanaraq (dostlarımdan biri xaricə gedir) Sizə bu məktubu göndərirəm... Xahiş edirəm ki, bu məktubu oxuyan kimi yandırın"*.[1] Bu həm də Rəsulzadənin Münşiyə nə qədər etibar etdiyini göstərir.

Hilal Münşi siyasətlə ciddi məşğul olduqca, təbii ki, özünə rəqiblər də qazanır, onun haqqında şayiələr yaradılır və yayılırdı. Gizli deyildi ki, xarici mühacirətin xeyli hissəsini ayrı-ayrı dövlətlərin xüsusi xidmətləri maliyyələşdirirdi və Hilal Münşi də "Prometey" təşkilatına bağlı olduğundan Polşa orqanları ilə əlaqə saxlayırdı. "Prometey"in başlıca fəaliyyəti Sovetlərə qarşı yönəlmişdi. Rəqiblərinin şayiələri onun siyasi etibarlılığını zədələyə bilərdi, ona görə də 21 sentyabr 1937-ci ildə Polşanın məsul əməkdaşı Y.Skarjinski üçün H.Münşi haqqında bilgi hazırlanaraq təqdim edilib. Çox güman ki, bu yazının müəllifi 1937-ci il mayın birinci yarısında Berlinə özəl səfər etmiş M.Rəsulzadədir; o, Hilal Münşi ilə nəşr işlərini nizama salmaq və Almaniyadakı Azərbaycan təşkilatlarının mövqe statusunu təyin etmək üçün getmiş, eləcə də mühazirələrlə çıxış etmişdi.[2]

Bu yazının H.Münşinin həyatı və siyasi fəaliyyəti ilə bağlı bir çox məsələlərə işıq salacağını düşündüyümüzdən, eləcə də ümumən Azərbaycan siyasi mühacirətinin tarixi üçün maraqlı olacağından, ruscadan çevirərək aşağıda tam şəkildə veririk.

"Hilal Münşi haqqında Y.Skarjinski[3] üçün bilgi.

21 sentyabr 1937-ci il.

Hillal Münşi ilə bağlı şayiələrə dair arayışlar.

I. 1924-cü ildə "Дни" ("Günlər") Berlin qəzetində (№ 411) Azərbaycan Sülh Heyətinin üzvü Əkbər ağa Şeyxülislamovun Zaqafqaziya Sovet Federasiyası Xalq Maarif Komissarlığının sovet tələbələri işləri üzrə nümayəndəsi *Pirumovun* adına açıq məktubu dərc edilib. Bu məqalədə Əkbər ağa sovetlərdən həm maddi, həm də mənəvi zərər görmüş azərbaycanlı tələbələri müdafiə edir.

Bu məktuba o zaman Berlində nəşr edilən bolşevikpərəst "Накануне" ("Ərəfədə") qəzetində "Sovet Zaqafqaziyası tələbələri Azərbaycan bölməsi İdarə Heyəti"nin bütün tərkibinin imzaladığı, azərbaycanlı tələbələr adından kollektiv bəyanatı şəklində cavab verilib.

Azərbaycan mühacirətinin bütün maraqlı dairələrinə bəlli idi ki, bu məktub tələbələrdən xəbərsiz dərc edilib və təqaüddən məhrum edilmə hədəsi altında onlar susmağa məcbur ediliblər.

II. "Qurtuluş" jurnalının indiki texniki redaktoru Hilal Münşinin də imzasının başqa imzalarla yanaşı yuxarıda adı çəkilən saxta məktubda qeyd olunmasından yararlanan Bammatın *"Qafqaz"* orqanı bu faktı təhrif edərək öz fitnəkar üsulu ilə ondan siyasi rəqibini gözdən salmaq məqsədilə istifadə edib. "Qafqaz" jurnalı[4] 1936-cı ilin martındakı 27-ci sayında *"Qurtuluş'un Tərtüfləri"* başlığı altında verdiyi qeyddə "Qurtuluş" redaktorunun bir zaman bolşevikpərəst "Накануне"də Ə.a.Şeyxülislamovun yuxarıda adı keçən məqaləsinə qarşı bolşevikpərəst məktubla çıxış etməsini "ifşa edib".

III. Hilal Münşi "Qurtuluş" jurnalının 1936-cı il martındakı 18-ci sayında "Qafqaz"a cavab verib: *"Qafqaz'ın yeni saxtakarlığı"* başlığı altındakı məqalədə o müəyyənləşdirib ki:

1. "Накануне"dəki məktub apokrif[5] olub.

2. Onun altında yalnız Hilal Münşinin imzası deyil, "Sovet Zaqafqaziyası tələbələri Azərbaycan bölməsi İdarə Heyəti" üzvlərinin kollektiv imzası olub və orada adlar çəkilib: sədr İ.Sultanov və İdarə Heyətinin üzvləri: Mirzə Hacızadə, Məhəmməd Ağaoğlu, A[ğalar] İsgəndərli, H.Münşi və b.

3. "Qafqaz" jurnalı "Накануне"dəki bədnam məktubdan sitat gətirərək onu qəsdən yarımçıq verib ki, oxucudan onun altındakı imzaların kollektiv olduğunu gizlətsin. Yəqin məqsəd də bu olub – buna görə məsuliyyət yalnız Hilal Münşinin üzərinə qoyulsun və məktubla bağlı olan və Sovet İttifaqına qayıtmayaraq bugünədək Türkiyədə müxtəlif xidməti vəzifələrdə bulunan başqa şəxslərdən izahat istənilməsin.

4. "Накануне"dəki "İdarə Heyəti"nin bu məktub-bəyanatını Pirumov tələbələrin iradəsi əleyhinə olaraq dərc etdirib və zorakılıq və saxtakarlıq hərəkətinə qarşı tələbələrin etiraz cəhdi yalnız ona görə nəticəsiz qalıb ki, Pirumovun çəkistlərinin hədələri altında bulunan təqaüdçü tələbələrin ümumi yığıncağı belə qərar çıxarıb ki, "Накануне"də dərc edilən məktuba qarşı çıxmağa cəsarət edən bütün tələbələr istisnasız olaraq təqaüddən məhrum ediləcək. Sonuncu kurslarda olan, şantaja uğramış çoxlu yoldaşlarının ən ağır durumunu nəzərə alan imza sahibləri ürəkləri ağrıya-ağrıya etiraz çıxışlarından imtina etməyi qərara alıblar və fitnəkarlığın mənəvi qurbanı olublar.

IV. Hilal Münşinin izah etdiyi kimi olmasaydı Əkbər ağa Şeyxülislamov onunla bütün əlaqələri kəsərdi, halbuki H.Münşinin sübut etdiyi kimi, həm onunla, həm də Pirumov fitnəkarlığının qurbanı olan başqa tələbələrlə işləyən Əkbər ağa onlarla, eləcə də H.Münşi ilə əlaqəni kəsmədi, ən sıx əlaqələr saxlamaqda davam etdi. Buna sübut olaraq o, Şeyxülislamovun Hilal Münşiyə İstanbuldan göndərdiyi (Şeyxülislamov oraya bədnam hadisədən sonra getmişdi) 2 məktubu örnək göstərir.

12.04.1924-cü il tarixli birinci məktubda Şeyxülislamov H.Münşiyə yazır ki, *"İstanbula gəldiyində o, soydaşları ilə görüşüb, [Məhəmməd]əmin bəy Rəsulzadəni ziyarət edib"*. (Əmin bəyə tələbələr haqqında danışdığını çox dostcasına və məhrəmanə xəbər verir). O yazır ki, *"Əmin bəyi xəstə gördüm. Onun qulağı ağrıyırdı. Həyəcanlı bir durumdur. Otaqda qəzet və kitablar üst-üstə yığılıb. Çarpayının üstündə Azərbaycan xəritəsi asılıb. Hər bir şeydə Azərbaycan ideyasına sədaqət izi görünməkdədir. Mən Əmin bəyi tələbələrimizin durumu ilə tanış etdim və eləcə də "Накануне" qəzetindəki mənim "Дни"dəki məktubuma cavab kimi verilmiş məktubun tarixçəsi ilə tanış etdim, "Накануне"dəki məktubun meydana çıxma şəraitini açıqladım. "Yeni Kafkasya"nın 27 aprelə və s. həsr edilmiş özəl sayı gözlənilir..."*.

Bu ilin 16 iyun tarixli ikinci məktubunda Şeyxülislamov "yoldaşların milli həyatı ilə" maraqlanır və soruşur ki, 28 May günü Berlində necə keçdi? Xəbər verir ki, "biz burada Əmin bəyin yanında toplaşdıq".

"Qafqaz" jurnalındakı fitnəkar qeydlə bağlı H.Münşi Şeyxülislamovun birinci məqaləsinə istinadla Əmin bəydən "məktubun tarixi" haqqında onun necə danışdığını soruşur və Əmin bəyin Parisdən 13 aprel 1936-cı ildə göndərdiyi cavabı dərc edir; burada yazılıb ki, *"Şeyxülislamov gerçəkdən 1924-cü ildə danışıb ki, "Накануне"dəki məktub saxtadır, tələbələr yanlız bolşevik hədələri və Pirumovun təzyiqləri altında sözlərini danmağa məcbur olublar..."*.

Həm yuxarıda verilmiş izahatı, həm də Hilal Münşinin gətirdiyi faktları bugünədək kimsə təkzib etməyib.

V. Adıbədnam Korumidzenin şəxsində "Qafqaz"ın dostları eyni zamanda "H.Münşini ifşa edən bütün faktik materialları" gestapoya xəbər veriblər. Cavab verməyə məcbur olmuş Hilal gestaponun onu sorğulayan agentinə bütün materialı təqdim edib, "insident"in bütün tarixini açıqlayıb və özünün suçsuzluğunu, Almaniya hüdudlarından sürgün

[1] Из истории азербайджанской эмиграции. Сборник документов, произведений, писем, ss. 17-18.
[2] Yenə orada, s. 277.
[3] Yozef Skarjinski – o zaman podpolkovnik, Polşa diplomatı, Berlində hərbi attaşe.
[4] 1934-1939-cu ildə Parisdə, 1939-cu ilin aprelindən Berlində nəşr edilən jurnal. Redaktoru Heydər Bammat(ov) (1890-1965) idi.
[5] Qondarma.

edilməkdən yayındığını sübut edib. Hilalın gestapo ilə "tanışlığı" bu əsasda baş verib, buradan da onun barəsində "gestaponun agenti" olması haqqında şayiə və iftiralar yayılıb.

VI. H.Münşi 1928-ci ildən həm partiya Bürosunun, həm də Milli Mərkəzin kollektiv qərarı ilə Berlində milli iş aparır, 1930-cu ildən isə öncə "Istiqlal"ın, sonra "Qurtuluş"un texniki redaktoru vəzifəsini yerinə yetirir. 1930-cu ildə Azərbaycan haqqında alman dilində buroşür nəşr edib. Buroşür Milli Mərkəzin vəsaiti ilə nəşr olunub, buna görə də Mərkəz ona özəl təşəkkür bildirib. Berlindəki işlərində uğurlar qazanıb, yoldaşları və ümumi cəbhədən olan başqa xadimlər bunu dəfələrlə qeyd ediblər. O, ictimai dairələrlə və mətbuatla əlaqələr yaratmağı bacarıb, məsələmiz üçün dostlar qazanıb. Milli hərəkatın idarə orqanlarında heç vaxt onun hərəkətlərini qınayan heç bir məsələ qoyulmayıb.

VII. 12 iyun 1936-cı ildə Miryaqub bəy[1] ona *"Özəl və gizli"* məktub yazıb, orada Milli Mərkəzdə yaranmış münaqişə ilə tanış edib, yazdıqlarına əlavə olaraq "Hilala, Mustafa bəyə şəxsən xəbər verməli" yazaraq Parislə sıx əlaqə saxlamağı, bütün işlərin sədrin əlində cəmləşməsi üzündən dağılmaqda olan təşkilatın sağlamlaşmasını dəstəkləməyi və yazışmağı təklif edib.

Bu məktuba H.Münşinin tənqidi cavabından sonra Hilal Münşi haqqında həm Miryaqubun, həm də Mustafa bəyin fikri dəyişib".[2]

Göründüyü kimi, burada erməni Pirumovun azərbaycanlı tələbələrlə bağlı fitnəkarlıqları da ifşa olunur.

1942-ci ildə Almaniyadakı legionlarda yaradılan milli komissiyalardan söz açan Patrik von zur Mühlen yazır: "Gürcülərlə ermənilərin milli komissiyalarının ən azından adda da olsa təşkilinə baxmayaraq, azərbaycanlıların ilk komitəsi Məhəmmədəmin Rəsulzadənin adını daşıyan bir fraqman (bölmə) olaraq qaldı. Onunla bərabər "Adloniade"yə gələn iş yoldaşları Berlini qısa zamanda tərk etmişdilər. O yalnız Berlindəki mücadilə yoldaşı Hilal Münşi tərəfindən dəstəklənərək siyasi bir təcrid mövqeyində müzakirələrdə bulunurdu. Almanlar onunla işbirliyi etməyi çox istədiklərinə görə hələ avqust ayında Mende Rəsulzadəni zorla Berlində qalmağa inandıra bilmişdi".[3]

Bu parçadan aydındır ki, həmin dönəmdə Almaniyada Rəsulzadənin ən yaxın əqidədaşı Hilal Münşi olub.

H.Münşini hədəfə götürən yalnız bammatçılar deyildi.

Müsavat Partiyası Divanının Varşavada keçirilən 2 noyabr 1937-ci il tarixli iclasının protokolundan çıxarışla tanış olaq.

"Azərbaycan Milli Müsavat Partiyası Divanının üzvü c-b Münşi onun ünvanına c-b Çokayevin iyrənc ittihamını öyrənərək partiyanın sədri və Azərbaycan Milli Hərəkatının rəhbəri Əmin bəy Rəsulzadəyə bu ittihama qarşı öz etirazını bildirdiyi və onun vətəndaş, milli və partiya xadimi şərəfinin qorunması üçün təcili tədbirlər görülməsi tələbi ilə ərizə verib. Şərəfinin qorunması məqsədilə o, bu işin məhkəmədə araşdırılmasını, məhkəmənin ondan[4] öz ittihamını sübuta yetirməyi tələb etməsini, bunu edə bilməsə onu *böhtançı* adlandırmasını tələb edir.

Hilal Münşi, eyni zamanda, ağır ittiham ona zərbə vurduğuna görə iş tam aydınlaşdırılana qədər özünün həm partiya, həm də milli xətt üzrə bütün təşkilati vəzifələrdən istefa verdiyini bildirir və yalnız Berlindəki Milli Nəşriyyat işlərinin texniki redaktoru və müdirliyi vəzifələrini müvəqqəti aparmağa razılaşır. Müsavat Partiyasına olduğu kimi, Azərbaycan

[1] Miryaqub (Mir)mehdiyev.

[2] Из истории азербайджанской эмиграции. Сборник документов, произведений, писем, ss. 274-277. Sənədin əsli Rusiya Dövlət Hərbi Arxivində saxlanılır: fond 461-k, siyahı 2, iş 82, vv. 31-36.

[3] *Von zur Mühlen P.* Gamalıhaç ile Kızılyıldız Arasında. (İkinci Dünya Harbi`nde Sovyet Doğu Halkları), ss. 126-127.

[4] Çokayevdən.



Hilal Münşinin yaşadığı ev. Bonn

Milli Hərəkatının rəhbərliyinə də müəyyən vaxtdan bəri dost olmayan, hətta bəzən düşmən münasibət bəsləyən, indi bu münasibəti Azərbaycan milli işçisinin ünvanına iyrənc ittihamla başa çatdıran Çokayevin və onun əməkdaşlarının çıxışlarından hiddətlənən, ərizəni müzakirə edərək və bu çıxışla yalnız təşkilatın ayrıca bir üzvünün deyil, həm də bütünlüklə onun özünün şərəfinə xələl toxunduğunu nəzərə alan Divan qərara alıb:

1. Hilal Münşiyə tam həmrəylik və inam bildirilsin, istefası haqqında öz ərizəsini müzakirədən götürməsi xahiş edilsin, çünki kim olursa-olsun onun əsassız ittihamı kollektivin öz sınanmış üzvünə olan inamına xələl gətirə bilməz.

2. Bu məsələdə aracı olan dostlardan Çokayevin şərəf məhkəməsi qarşısında H.Münşiyə qarşı irəli sürdüyü ittihamı sübut etməsi qətiyyətlə xahiş edilsin; bunu ən qəti şəkildə şəxsi iddiaçı kimi işdəşımız Hilal da tələb edir.

3. Türküstan Milli Birliyinə onların nümayəndəsi c-b M.Çokayevin və onun "Yaş Türküstan" üzrə əməkdaşlarının Azərbaycana qarşı artıq dözülməz münasibətlərini göstərən və onların nümayəndələri haqqında lazımi ölçü götürülməsə Türküstan təşkilatı ilə münasibətlərin kəsilməsinin labüd olduğunu bildirən bəyanatla müraciət edilsin.[1]

1937-ci ilin dekabrında Hilal Münşi Türküstan mühacirətinin nümayəndələri ilə onun arasında yaranmış münaqişə haqqında Skarjinskiyə məktub yazıb.[2]

Məktubda Hilal Münşinin yazdıqları məzmunca çox genişdir və onları burada qeyd etməyi artıq sayırıq; maraqlananlar onu "Azərbaycan mühacirəti tarixindən" adlı kitabdan oxuya bilərlər. Ancaq bu məktuba Əli Azərtəkinin əlavəsi var. 10 yanvar 1938-ci ildə çox

[1] Из истории азербайджанской эмиграции. Сборник документов, произведений, писем, ss. 280-281. Sənədin əsli Rusiya Dövlət Hərbi Arxivində saxlanılır: fond 461-k, siyahı 2, iş 81, vv. 31-32.

[2] Yenə orada, ss. 285-290. Məktubun əsli Rusiya Dövlət Hərbi Arxivində saxlanılır: fond 461-k, siyahı 2, iş 82, vv. 30, 86-89.

yığcam şəkildə yazılmış əlavə, məktubun mahiyyətini də aydınlatdığına görə onu oxucuların diqqətinə çatdırırıq:

Əli Azərtəkin yazır ki, Hilal Münşinin bütün dediklərinə əlavə olaraq, aşağıdakı faktları da artırmaq maraqsız deyil:

1933-cü ildə c-b Miryaqub Varşavadan keçib Parisə gedərkən Əmin bəyin xahişi ilə, yuxarıda qeyd olunmuş 28 may insidenti[1] qalıqlarının tam ləğv edilməsinə yardım etmək üçün Berlində dayanıb.

1935-ci ildə H.Münşi Berlinə gəlmiş M[ustafa] Çokayevdən özü ilə onun əməkdaşları arasındakı münaqişəni aradan qaldırmaq xahişi ilə müraciət edib və cavab alıb ki, bu, onların öz işidir.

1936-cı ildə Əmin bəy Mustafa bəyə təklif edib ki, ikisi də Berlinə məktub yazsınlar ki, onlar öz aralarında çəkişməyə son qoyur və barışırlar. Çokayev bu təkliflə razılaşıb. Ancaq Hilalın bu istiqamətdə cəhdləri nəticəsiz qalıb və türküstanlılar barışıqdan qəti şəkildə imtina ediblər. Ayaz İshaqi də buna şahiddir.

"Yaş Türküstan"ın və M.Çokayevin Müsavat Partiyası konfransına münasibətdə düşməncəsinə çıxışları bəllidir.

Bütün deyilənlərdən bir şey aydındır: Hilal Münşi məsələsi yoxdur, bizə c-b Çokayevin düşməncəsinə münasibəti məsələsi var.[2]

M.Rəsuzadə 1937-ci ilin iyununda Yohannes Bentsinqə yazdığı məktubda bildirir ki, dostumuz H.Münşi bəydən "Kafkaz" məcmuəsi müdirinin[3] Sizə və sayğılı Prof. Yeşke dostumuza qarşı "Die Welt des Islams" məcmuəsindəki haşiyədən dolayı şikayətdə və təkzib tələbində bulunduğunu eşitmişdim. Bu dəfə də məsələnin təfsilat və təfərrüatından Sizin 2 iyun tarixli məktubunuzdan xəbərdar oldum.[4]

Hilal Münşinin 1930-cu ildə qələmə alaraq "Odlu Yurd" dərgisində dərc etdirdiyi *"«Şarkta petrol ve kan» unvanlı eserin müellifi kimdir?"* adlı məqaləsi haqqında Azərbaycan mətbuatında bəhs edilib, ancaq boynumuza alaq ki, yazanların çoxu "Odlu Yurd"u tapıb oxuya bilmədiklərinə görə oradan-buradan tapdıqları sitatlarla kifayətlənməyə məcbur olub. Bu mövzuda hələ bundan sonra da xeyli yazılacağını düşünərək gələcək müəlliflərin işini asanlaşdırmaq üçün Münşinin həmin məqaləsini "Odlu Yurd"dan götürərək dəyişdirmədən veririk.

"Şarkta petrol ve kan" unvanlı eserin müellifi kimdir?

Mecmuamızın Matbuat ve kitabiyat kısmında tafsilatile görüleceyi veçhile ahiren Almanyada "Şarkta petrol ve kan" ünvanile bir kitap intişar etmiştir. Bu mekale anası yahudi iken hüviyetini Mehmet Eset bey namı altında gizleyen müellifin mezkur eseri münasibetile Azerbaycanlı Hilal Münşi tarafından yazılmış ve "Berliner Tribun" gazetesinin 8 şubat nushasında derc edilmiştir.

Tam dokuz sene bundan evvelisi idi. Berlinde 1921 senesinde yaşadığım "Eden" hotelinde tanımadığım bir zat bir gün bana gəldi. Takriben 40 yaşlarında orta boylu, hastalıklı bu zatın refaketinde ufak bir çocuk bulunuyordu. Abraham Nussimbaum isimli bu zat derhal

[1] 28 may 1933-cü ildə Azərbaycan Cümhuriyyəti müstəqilliyinin 15 illiyi münasibətilə Berlində təntənəli yığıncaq keçirilib. Buraya mətbuat nümayəndələri, çoxlu qonaqlar və Türk təlabələri dəvət edilib. Bu yığıncağa Hilal Münşi sədrlik edib. Təbrik çıxışlarından sonra yerli komitənin katibi Usta Dadaş Azərbaycan haqqında məruzə edib və tarixdən danışarkən Azərbaycanı monqolların işğal etməsinə də toxunub. Bu zaman Mustafa Çokayevin yaxın münasibətdə olduğu Tahir Şakir (Çağatay) söz alaraq kobud şəkildə məruzəçiyə hücum edib və bildirib ki, burada türklüyə xəyanət olunur. H.Münşi onun çıxışını dayandırıb və sonra gündəlikdəki məsələlərə keçib. Bundan sonra Şakirlə onun münasibətləri korlanıb (bax: Из истории азербайджанской эмиграции. Сборник документов, произведений, писем, ss. 285-286).

[2] Из истории азербайджанской эмиграции. Сборник документов, произведений, писем, s. 289.

[3] Haydar Bammatın.

[4] *Расулзаде М.Э.* Сборник произведений и писем. Москва, 2010, s. 234.

"Leo" namını taşıyan bu oğlunu bana ayrıca taktim etti. Bu ziyaretten maksat, babanın 14 yaşındaki oğluna vasıtamla Azerbaycan hükumetinden tahsil için para temin etmek idi.

Nussimbaum ise kendisini Rusya yahudilerinden olduğunu ve vaktile Kiyef'de vuku bulan meşhur yahudi kıtahından sonra Azerbaycana hicret ettiğini ve o andan itibaren Bakuda yaşadığını bana izah etti. Bundan dolayı da kendisini bir Azerbaycanlı addeden bu zat şimdi nezdimde oğlu için teşebbüsde bulunmakta idi.

İhtimal, üzerimde daha fazla tesir etmek maksadile bu adamcağız kendi acı vaziyetini anlatmaya başladı ve müracaatta bulunduğu bilumun rus muhacir komitelerinin de her bir muavenet hususunda nasıl retti cevap verdiklerini söyledi. Hatta Berlin yahudi teavun cemiyeti[1] bile bunun acı vaziyetine lakayt kalmış. Nihayet kendi acıklı vaziyetini Azerbaycanlılara açmaya karar vermiş ki hiç olmazsa belki bu vasita ile ufak çocuğunun tahsil masarifini temin edebilsin. Şayanı dikkattir ki mükabelemiz esnasında bu zatın değil Azerbaycanlı, bilakis Gürcüstan tabaasından olduğu anlaşıldı. Söylediğine göre benden daha evvel buradakı Gürcü kolonisine müracaat etmiş ve reddedildikten sonra yalnız taliini nezdimde tecrübeye karar vermiştir.

Çocuğile beraber bu zatın bütün hikayesi üzerimde pek fantastik olduğu tesirini bıraktı. Bugüne kadar ne ben ve nede Berlinde yaşayan Azeri kolonisine mensup diger arkadaşlarımız hayatında Nussimbaum nam bir "vatandaş"a tesadüf etmiş ve nede görmüştür. Müsahebemizde kendisini daima Azerbaycanlı gösteren bu yeni "keşf edilmiş Azerbaycanlı" nedense 1920 senesindenberi mevcut olup 150 azaya malik koloni içtimaımızda bir defa olsun bile iştirak etmemiştir.

Bilhassa şayanı dikkat ve nazari dikkatı calip[2] bu zatın bana gelmezden evvelki intihap ettiği "seyahet yolu" idi. İlk önce muhacir rus kolonisinden başlayarak öte beride bazı tavekküfler yapdıktan sonra, neticede bize gelmişti. Halbuki aslı itibariyle hakiki Azerbaycanlı olan bir zat hiç bir vakıt bize düşman olan Rus teşkilatına mensup olmaz ve buna ihtimal bile verilemezdi. Bu taktirde bu olsa olsa bir "komediden" başka bir şey değildi.

Gerek Nussimbaum'in kendisinin ve gerekse oğlunun taşıdıkları gürcü pasaportu mes'elesi hakeza oldukca şüpheli idi. Hele mükalememizin nihayetine doğru, Abraham Nussimbaum'in yarım şaka tarzında oğlunun "hakiki Azerbaycanli" olması için islamiyeti kabula amade olduğunu söylemesi fevkelade hayret ve asebiyyetimi mücip oldu. Neticede bu iki zat hakkında edindiğin fikir pek karışık ve şüpheli idi. Nussimbaum'in bu görüşmesinden ve izahatından bir şey anlamak imkan haricindeidi. Kiyef yahudu kıtalı, gürcü pasaportu mes'elesi, Azeri tabaasi, rus muhacir komiteleri, islamiyyeti derhal kabula amada olmaları, bunların hepsi Nussimbaum'ın söylediklerine inanmak için pek şüpheli gözükiyordu. Bundan dolayı da bu baba ve oğula, Azerbaycan hükumeti yardımından vaz geçmelerini açıktan açığa söyledim.

Bu ilk görüşden dokuz sene geçmişdi. Berlin Azerbaycan kolonisi bu müddet zarfında Nussimbaum namlı bir azerbaycanlıyı tanımamıştır. Lakin bir gün ben tesadüfen, vaktile kendisine Azerbaycan Cumhuriyyeti yardımını temin edeceğim ve mukabilinde babası tarafından ihtida etdirilecek olan genc Nussimbaum'a, Berlinin Fazanen sokağındaki Aleksander fon Humboldt cemiyetinde tesadüf ettim. Artık Leo böyümüş, daha sağlam vücutlu idi. Tedricen Aleksander fon Humbolt cemiyetine mensup ecnebilerle görüşmeye başlamışdı. Beni görür görmez güler çehresile karşıma çıktı ve derhal son dokuz seneye ait tercümei halını söylemeye başladı.

Berlin darülfünunundaki tahsilinin iyi neticeler vermediğinden şikayet etti, fakat buna mukabil maddi vaziyetinin iyileşdiğini ve artık para kazana bildiğini beşuş çehresile bildirdi.

[1] Xeyriyyə cəmiyyəti.

[2] Cəlb edən.

Sonra Berlin sanayi cemiyetlerinin birisinde çalışdığını ve ayrıca muhtelif alaman gazetelerinde ufak hikayeler ve noveller yazdığını başdan nihayetine kadar anlattı. "Ben kendi mekalelerimi Eset bey namı tahtında[1] yazıyorum, zira çalışdığım sağ cinah gazeteleri Leo Nussimbaum imzalı mekalelerimi derc etmekden imtina ederler" diyordu. Bundan maada Alaman kulağına Eset bey ismi daha fazla tesir bırakabilirmiş.

Berlin darülfünunundaki tahsiline geldikte Nussimbaum üç fakülte nezdinde teşebbüsde bulunmuş isede fakat muhtalif sebeplerden dolayı hepsinden red cevabı almıştır. Hatta darülfünunın türkiyat sahesinde tahsiline devam etmeğe bile çalışdığını istihzaile söyledi. Lakin türk lisanına laikile aşına olmadığından isimlerini teadat ettiği bazı müderris müstaşrikler tarafından retedildiğini söyledi.

Müruru zemanla Herr Nussimbaum "Eset bey" namile gazeteciliğe başlayor ve belli başlı naşirlerlede temas temin etmeğe muvaffak oluyordu. Artık tarakki etmeye yüz tutuyor ve eskisi gibi yalnız "hikaye" ve "noveller" yazmakla iktifa etmiyup, kendi "Memuarlarını" doğrultmaya kalkışıyordu.

Bu sefer Berlin ve Leipzig şehirlerinde şübelere malik meşhur "Deutsche Verlagsanstalt" Nussimbauma yardımcı elini uzatıyor, ve 300 sahifeden ibaret eserini "Şarkta petrol ve kan" gibi mutantan bir ünvan tahtında neşr ediyor. Leo Nussimbaum ismi de alman zevkini iyice okşamak için "Eset bey"e münkalip oluyor. İşi daha fazla sağlamlaşdırmak ve mühteviyyatını hakikata yakın bir şekile sokmak için şarmant "Şarkta petrol ve kan" memuarının muallifi "Eset bey" ismini takmakla iktifa etmiyor ve ayrıca kendisine "Mohamed Eset bey" unvanını vermeyi daha muvafık ve mantıkı buluyor. Eserinde Eset bey, kendisini bir tarafdan Bakulu bir islam feodalının ve petrol kuyuları sahibinin oğlu, diger tarafdan da şayanı hayret bir surette bolşevik hapishanesinden firar eden bir rus kadını vasfında tasvir ediyor. Ayni zamanda, müellif esere göre Azerbaycan ve Gürcustan hükumet ricallarının dostu, Buhara Emirinin ve maliye nazırının akrabası, ve rus gürcu asilzadelerinin dostu imiş. Bununla da iktifa etmeyen müellif nihayet kendisine şarkın yılmak bilmeyen şakılarının hemdesti, 1905 senesi sabık Rusya hükumetinin Bakü valisinin arkadaşı, komünist fırkası kidamli azası, aynı zamanda bolşevikler aleyhine 1920 senesinde isyan çıkaranların reisi, daha ileri vararak Şarkın, Türkiyanın, Gürcistanın, Buharanın ve Türkistanın ictimai, siyasi, etnografisini, derinden bilen müdakkik süsünü veriyor. O bu memleketlerin hepsinde büyük bir servete malikmiş ve kendi itirafatına nazaren her yerde akrabası da varmış.

Esere göre Leo Nussimbaum hepsinin ince noktalarına varıncaya kadar beş şark lisanına vakıf imiş. Onu bu lisanlara aşınalığı bu memleketlerin adat, en'anat, felsefe, edebiyatına vakif olduğu kadar derin ve kuvvetli imiş. Ekseriyetle Kafkasya dahilinde cereyan eden mühim hadisatı siyasiyenin başlıca amili de o imiş. O yalnız son on beş sene zarfındaki hadisatı bilmek ve tanımakla kalmıyor, aynı zamanda bu hadiselerde rölleri olmuş mühim rical ve simalerle de temasda bulunmuştur.

"Her" babası da tabiatile eski Abraham Nussimbaum gibi kalmamıştır. Oğlu Eset bey (Nussimbaum) tercemei halinde babasını bazen Azerbaycanın medeni ve en ileri gelenlerinden, bazen ise meşhur feodal ve petrol kuyularına malik sahibi servet bir zat vasfında göstermiştir. Diger taraftan aynı eserde baba kariine avrupakarı harem ve harem ağalarına malik, zi nüfus, asilzade ve aynı zamanda katil tipinde taktim edilmektedir. Daha ileri vararak Eset bey, babasını, bazen başeriyyet ve insaniyette namına halk müdafaacısı (hakim Soloman) ve bazen de amele kanını soran zalim feodal meziyetine sahip bir şahs olarak tasvir etmekdedir. Hakikaten bu "bahtiyar" baba oğlunun bu mahirane hikmetinden pek mağrur olabilir, zira

[1] Adı altında.

ufak Leo babasını tam 12 sene bundan evvelki rolunda "nazikane" tasfir etmiştir. O devirdeki vaziyet eserde bu şekilde tersim edilmiştir.

"Türkistanın orta vahalarında mağrur babamın çıplak omuzlarında bedevilerin kıskançlığını tevlit eden beytler söyler, eğlenir ve dans ederdim...".

Şayet ben dokuz sene evelisi bu eserin müellifini ve onun babasını görmemiş ve tanımamış olsaidim ve bu iki kahramanın resmen polis tarafından tesbit edilen tabiiyet, din ve yaşlarına vakıf olmamış olsaydım, şüphesiz Eset beyi 40 ile 50 yaş arasında bir zat telekki eylerdim. Eserin münderecatı müellifin genc olduğunu gösteremezdi. Hakikatta ise bugün bu yalancı fantazyor 25 yaşına bile erişmemiştir. 20 oktobr 1905 senesinde Kiyef'de doğan Eset bey (Nussimbaum) hangi bir vasitaile olursa olsun eline bir resmi Gürcü pasaportu geçirerek 1921 senesinde babasile beraber Berline gelmiş, ve burada Leo Nussimbaum ismile polis tarafından talebe olarak kayt edilmiştir.

Şimdi bu adamcağız sahifalar dolduran büyük memuarını yazmıştır. "Deutsche Verlagsanstalt Stittgart, Berlin, Leipzig" matbaası yardımiyle neşr edilen bu eserde Azeriler, Gürciler, Ermeniler ve "vahşi hırsız" Kafkasya yahudileri ile beraber Türkiyalılar, İngilizler, Türkistanlılar, İran türkleri ve ruslar bütün avrupalı kariinin gözünde oldukça alçakca bir surette tahkir edilmektedir. Bu edebiyat "mistikatoru" hatta kendi hasta fantazisini hayasızlık derecesine kadar vardırmıştır. Bugün muellifin iltica ettiği ve kendisine misafirlik ağuşunu açan almanlar dahi, yanlış bir böhtane kurban edilmektedir. Haylaz müellif alamanları ermeni kıtalinde zimedhal göstermekle bütün beşeriyete karşı alamanya diskredite edilmiş bir vaziyyete kalmıştır.

Ben şimdi bütün cihan huzurunda resmen yüzümü bu eseri neşreden bu alaman matbaasına çevirerek sorarım: *Acaba alaman ordusu veya alaman erkanı harbiyesi muharebe esnasında Azerbaycanda bulunmuşmu? Gerek kendi memleketini ve gerekse Türk milletini tahkir eden bu eseri neden neşretmiştir?* Hatta bugün bile Versay müahedesi mucibince resmen Almanya muharebe mes'uliyetinden çıkmamıştır. Maateesüf sabık muharebe alehdarlarının "cesed hakkındaki hikayeleri" ve Alamanların muharebe esnasında gösterdikleri vahşet hakkında "lejandlar" henüz beşeriyet efkarında menkuştur. Bu günkü Alamanya bu ağır ittihamları ve bühtanları her ne bahasına olursa olsun kendi üzerinden atmakla meşguldur. Daha on sene evvelisine kadar muharebe aleyhdarları Türkiye ve Alamanyayı kıtal te vahşetle ittiham etmekte devam ediyorlardı. Bu ağır haksızlığı atmak ve saf milleltlerinin halis ve pak ahlaklarını meydana koymak için alaman ve türk milleti pek çok emekler sarf etmek mecburiyetinde kalmışlardı.

İşte tam bu sırada Eset bey beşeriyette şayanı hayret yeni bir hadiyyesini hazırlayordu. Bu yeni hadiyyesinde muellif alaman ve türk arkanıharbiyesinin memleketin an'ane ve kanununa riayet etmek hususunda cemilekarane bir karar aldığını mağrurane izah etmektedir. Bu an'ane, 1918 senesinde vaki olan Bakü şehri işgali esnasında ancak 13 yaşına erişebilen bu yalancı müellife göre Bakuyu yağmadan ibaret imiş. Bakunun işğalı mes'elesine gelince muellif bunun merkezi Gürcistanda olan alaman generallarının Kress Von Kressenstein askeri planı üzerine tertip edildiğini söylemektedir. "Eset bey" haklıdır, zira para kazanmak için Bakuyu Kress von Kressenstein tarafından istila ettirmeli, ve muellifin hatiresi ve menfaatı için de alaman erkanıharbiyesi hesabına Bakuyu üç gün yağma ettirmelidi.

İşte Eset beyin kuvvetli mantıkı. Bir mantık ki, canlı memuarın her bir sahifesinde ve her bir bahsında daima yekdigerini cerh edici ünsürlerle doludır.

Bazen ise Eset bey oldukca adil olmak istiyor. Bu adaleti büyük ihtimalla "hakim Solomon olan" babasından almıştır. Hatta Eset bey babasını "adil Solomon"la kıyas etmekten kendisini alamamıştır. Bu ise Abraham Nussimbaumın bir rus hırsızını öldürmek istemesinden istihrac edilebilinmektedir. Lakin edebi bir satra altında bu hakikat gizletilmiş ve bu şerefli vazife



Hilal Münşinin 1930-cu ildə Berlində çap edilmiş "Azərbaycan Cümhuriyyəti" kitabı ana dilimizə tərcümə edilərək çap edilib.

Abrahamın dostu İbrahim nam bir zate tahvil edilmiştir. Aslı itibarile hırsız olan bu İbrahim muallifin en iyi dostlarından birisi imiş, ve daima ona kiymettar tevsiyelerde bulunurmuş. Her halde genc oğlu, babası kadar da akıllı imiş. Bir tarafdan Alman ve Türk erkanı harbiyyesini Bakü ermeni kitalı ile ittiham eden muallif diger taraf-dan da Bakuya alman ve Türk askerinin girmesinden beş ay evvel ermenilerin nasıl vahşicesine masum Azeri çocuklarını, gebe kadınlarını ve ihtiyarlarını 30 000 den ibaret bir Azeri kitlesini katl ettiklerini tasvir etmektedir. Bu kabil mantıksızlık eserin her bir yerinde hakimdir. Hele ben muallifin mantıksızlığından daha fazla esere ilave edilen meşhur alman romançılarından Dr. Werner Schendel'in gülünç mukaddimesine şaşmaktayım. Bakü petrol kuyuları sahibinin oğlu ermenilerle o kadar da alakedar değildir. Zira muallifin verdiği malumata göre, ermeni "Daşnak" firkasına mensup bir ermeni çetesi babasından 150 000 rubla para istemişmiş. Zavallı Eset bey bu ermenileri nasıl af edebilir.

Alman ve Türk erkanıharbiyyesine savrılan buhtanlara benzer diger bir çok saçma sapan lejandlara eserin her bir sahifesinde temas etmek imkanı vardır.

Mesela Eset bey, eserine göre, bir çok şark memleketlerinde bulunmuş imiş. Bu memleketlerin hepsi eserde inanılmayacak ağır ve çirkin ittihamlarla tersim edilmiştir. Galiba muallif muayyen bir okucu muhitini suiistimal etmek için elinden gelen habasetleri bir çok memleketler hesabına sarf etmekden çekinmemiştir. O kendi yalanlarını birer hakikat olarak satmak için, hatta babasını şahit sifatile her yerde iştirak ettirmektedir.

Sensatsion bir şekilde İran, gulamperesteler memleketi, tenbel dervişler ve harem ağaları mevası, 10 yaşlı kadın fahişeler ocağı, sadist hanlar ve feodallar diyarı olarak tasvir edilmiştir. Aynı zamanda Riza Şah Pahlevi reis ve "Demir Komitesi" rehberi olarak taktim edilmiştir. Bu ise kastı istihtaf etmektedir: Bu komite güya 1918 senesinde hırsızlardan birisinin kesilmiş başını Abraham Nussimbauma göndermiş imiş. Hakikatta ise Enzeliden ireli vardıkları hiç olmamıştır.

Meşhur Gürcistan kahramanesi "her bir Gürcünün onunla bir yatakta vakit geçirmeye hakkı olan" bir fahişe ve alçak bir kadın vasfında gösterilmiştir. Bu kahramaneyi daha fazla küçültmek için katil olduğuna da bu eserde tesadüf etmekteyiz. Gürcü kadınına ise Eset beye göre, Marokkodan başlayarak ta Çine kadar her bir harem dairesinde tesadüf edilmekte imiş; Bakùda dini merasimler esnasında kadınların çıplak omuzlarını öpmek, gulam perestlik sayesinde Ankara şehri civarındaki yezit sektinin artması, Ars Amandi adetinin Türkistan kızları arasında intişarı, "vahşi" Dağıstan yahudileri arasında kan intişarının bütün şiddetle hakimiyyeti 1918 senesinde Bakùyu işğal eden İngiliz zabitlerinin ahlaksızcasına avantürleri eserin mevzuunu teşkil etmektedir.

Tarihi mahiyyeti haiz yeni keşifleri de "Eset bey" eserinde unutmamıştır. Mesela bin sene bundan daha evvel Bakù Çingiz han tarafından işğal edilmiş imiş. Halbuki bu ahmak muellif

Çingiz hanın 1227 senesinde vefat ettiğini bile bilmemiştir. Daha şayanı dikkat orasıdır ki halife Harun-el-Reşid'de Çingiz handan daha evvel Bakùyu işğal etmiş imiş. Nasıl vaktile Kief yahudularından Nussimbaum saim "Eset beye" tahavvül etmişse, tıbkı aynı tarzda muallif "Pars Zindavesta muallifinden" ansızın Azerbaycan Zaraostra'sına munkalip olmuştur.

Meşhur din müessisleri Muhammet, İsa, Musa Eset beyin eserinde kendilerine yeni bir refik bulmuşlar. Bu da "Yezidiler" mezhebi şeyhi Şeyh Adli nam bir zat imiş. Hatta bu yeni din hakkında malumat verilmiştir. Muellife göre bu din salikleri Ankara civarinda yaşar ve gulamperestlik sayesinde artarlarmış.

İşte bu alçak eser alman matbaası tarafından neşredilmekle, tevlit edilen bilumum mes'uliyyeti uhdesine almıştır. Hele mukaddime yazan romancı Dr. Wernerin şark hayatına nispi bir derecede aşına olmaması hayretimizi mucip olmaktadır. Eger vakif olsaydı hiç şüphesiz böyle yalancı esere mukaddime yazmamş olurdu.



Mina Ağakərim qızı Münşiyeva

Evet Almanya'da bir çok memleketlerden hicret etmiş bir çok mühacir bulunmaktadır. Bunların hepsi maettessüf pek acı bir ihtiyaç içerisindedir. Bazıları hırsızlık, kalpazanlık, katillik sayesinde imrarı hayat etmektedirler. Bu kabilden olarak Herr Nussimbaum da bütün ahlaksızlığını meydana koymaya muvaffak olmuştur. Hamisi Alman matbaasıdır.

Eser meydandadır. Alman matbaası kendi memleketine hiç bir güzel de hizmet göstermemiştir. Fakat buna mukabil "Temps" gazetesine sevincli teessüfünü izharetmeye yardım etmiştir. "Temps" gazetesi açıktan açığa *Kafkasya'dakı Alman ordusu vahşetini bir Azerbaycanlı şahs görmüş ve hiss etmiştir; ve Almanya'da bu hakikat bu gün "Şarkta petrol ve kan" unvanlı eserde tasvir edilmiştir*, demektedir.

Burada kayt edeyim ki, hiç bir vakit Kafkasya Azerbaycanı "Eset bey Nussimbaum" unvanlı bir vatandaşa malik olmamıştır. Bu zat eserinde Azerbaycan Türk lehçesinden bahs ettiği halde hiç bir vakit Türkçe konuşmamıştır. Onun vakıf olduğu yegane lisan evvelce Rusça ve şimdi de Almanca olmuştur.

Hilal Münşi".[1]

* * *

Bu material çapa tam hazır olduğu vaxt ədəbiyyatşünas alim, filologiya üzrə fəlsəfə doktoru Şələlə Qarabağlının tərtib edərək önsöz, qeydlər və izahlar yazdığı Hilal Münşinin "Azərbaycan Cümhuriyyəti" kitabı ("Elm və təhsil" nəşriyyatı, 2014) işıq üzü gördü, ona görə də bu qeydləri ən sonda əlavə etməli olduq. Hilal Münşinin 1930-cu ildə Berlində almanca nəşr edilmiş, Azərbaycan mühacirəti ədəbiyyatı və tarixində özəl yeri olan "Azərbaycan Cümhuriyyəti" əsəri ana dilimizə tərcümə edilərək kitabda ilk dəfə Azərbaycan oxucusuna təqdim edilib. Hilal Münşinin və alman alimi Prof. Dr. Q.Yeşkenin məqalələri də mühacirət mətbuatından götürülərək toplu halında kitaba daxil edilib.

[1] *"Odlu Yurt"* Dergisi, Yıl: 2, Sayı: 13, Mart 1930, ss. 11-18.

Kitab Şəlalə Qarabağlının 32 səhifəlik "Mühacirət irsi tarixindən" adlı geniş önsözü ilə başlayır. Müəllif burada Azərbaycan siyasi mühacirətinin tarixinə ümumi baxışdan sonra Hilal Münşinin fəaliyyəti üzərində dayanır, xüsusən onun Berlindəki Azərbaycan İstiqlal Komitəsindəki fəaliyyəti, eləcə də Berlində çıxan "Yeni Kafkasya", "Azəri Türk", "Odlu Yurt", "Bildiriş" qəzetlərinin, "Kurtuluş" dərgisinin əsasını qoymasını, onlarda öz dəyərli siyasi yazıları ilə Azərbaycanın müstəqilliyi ideyasını qızğın müdafiə etməsini, Məhəmmədəmin Rəsulzadənin ən yaxın silahdaşına çevrilərək Azərbaycanın istiqlalı uğrunda sonadək mübarizə aparmasını konkret faktlarla göstərib. Şəlalə xanımın yazdığı bu önözdə H.Münşinin "Azərbaycan Cümhuriyyəti" əsəri də yetərincə təhlil edilib. "Azərbaycan Cümhuriyyəti. Tarixi-siyasi təsvir" əsərini alman dilindən soydaşımız Namiq Abbasov ana dilimizə çevirib.

Daha sonra kitabda Hilal Münşinin "Kurtuluş" dərgisində çıxmış 16 məqaləsinin mətni ilə tanış oluruq. Təqdirəlayiq haldır ki, Şəlalə xanım həmin əsərləri çox diqqət və peşəkarlıqla dilimizin çağdaş imlasına uyğunlaşdıraraq Azərbaycan oxucusuna ilk dəfə çatdırıb. Bu məqalələr içərisində "31 mart", "Böyük azərbaycanlı", "Bolşevik çörəyinə çəkilmiş yağ deyil, bəs nədir?", "Almaniyadakı təntənə", Nürnberq qurultayı", "Mətbuat və kitab. Azərbaycan və alman mətbuatı", "Almaniya mətbuatında məsələlərimiz", "Alman fikri və məsələlərimiz" və s. xüsusi maraq doğurur.

Ş.Qarabağlı məqalələrdən sonra Üzeyir bəy Hacıbəylinin vəfatı ilə əlaqədar Hilal Münşinin Ceyhun bəy Hacıbəyliyə yazdığı təziyə məktubunu da əsərə daxil edib.

Əsərin son bölümündə yenə Şəlalə xanımın qələmindən çıxmış "Alman tarixçisi, türkoloq və şərqşünası" adlı məqalədə Azərbaycan oxucusu alman professoru Qotthard Yeşke və onun fəaliyyəti haqqqında bilgiləndirilir və bunun ardınca Yeşkenin 6 məqaləsi təqdim edilir. Bu məqalələrin hamısı Hilal Münşinin redaktor olduğu "Kurtuluş" dərgisində işıq üzü görüb. Bu yazılar içərisindəki "Almaniya və Azərbaycan", "28 Maydan 27 aprelə qədər milli Azərbaycan təqvimi", "Qarabağ, Zəngəzur və Naxçıvan sovet siyasətinin ticarət əmtəəsidir", "Transqafqaz Qırmızı rus ordusunun istila siyasətinin bir nümunəsi kimi" məqalələri bugünkü tarixçilərimiz üçün də dəyərli qaynaqdır.

Kitab tərtibçinin Əhməd Cəfəroğlu haqqında yazdığı "Görkəmli türkoloq alim, mütərəqqi ziyalı" məqaləsi və onun ardınca Əhməd Cəfəroğlunun "Azərbaycan Cümhuriyyəti" əsərindən söz açan və redaktoru olduğu "Azərbaycan Yurd Bilgisi" dərgisinin 1932-ci il 6-7-ci saylarında dərc etdirdiyi rəy ilə bitir.

Əminik ki, bu əsər Hilal Münşi irsinin öyrənilməsinin ilk mərhələsi olacaq, alimlərimiz onun bütün fəaliyyətini incəliyinədək araşdıraraq bu böyük şəxsiyyəti xalqımıza layiqincə tanıdacaqlar.

Nağıyev Hüseyn Hacı Musa oğlu

(1897, Gəncə – 1956-cı ildən sonra)



Hüseyn Nağıyev

Almaniyada oxumuş tələbələrdəndir.

Kiyev Şəhəri Dövlət Arxivində Nağıyevin şəxsi işi ilə tanış olduq. Buradakı sənədlər onun Kiyev Politexnik İnstitutunda oxuduğu dönəmlə bağlıdır və sayca AR Dövlət Arxivində olanlardan çoxdur. İş burasındadır ki, keçmiş Rusiya imperiyası ali məktəblərində oxuyan, ancaq 1917-1918-ci ildə yarımçıq gələn tələbələrin (o sıradan Nağıyevin) həmin məktəblərdə qalan sənədlərinin əksəri orijinallardır, Bakı arxivlərindəkilər isə surətlərdir, çünki tələbələrin çoxu o sənədləri oradan vaxtında götürməyi bacarmayıb, sonradan isə onlara ehtiyac qalmayıb. Tələbələri xaricə göndərərkən Cümhuriyyətin Maarif Nəzarəti bu durumu yaxşı bildiyinə görə bir sıra tələbələrdən sənədlərin əslini istəməyib.

Gəncə valiliyi komissarlığı 2 may 1917-ci ildə Məşədi Süleyman Hacı Musa oğlu Nağıyevə 6579 saylı belə bir vəsiqə verib ki, Gəncə şəhərində yaşayan Astan Nəbi oğlu, Məşədi Həsən Mehdi oğlu, Musa Əliəkbər oğlu bildiriblər ki, Hacı Musa Hacı Nağı oğlu Nağıyevin qanuni arvadı Xanım Mirzə Ağaməhəmməd qızından 1897-ci ildə Gəncə şəhərində oğlu Hüseyn doğulub və bunu 18 avqust 1915-ci ildə Zaqafqaziya Şiə Ruhani İdarəsi təsdiqləyib.[1]

1 may 1917-ci ildə Gəncə şəhərində verilmiş 107 saylı attestatda göstərilib ki, Nağıyev 1 sentyabr 1908-ci ildə Gəncə kişi gimnaziyasına girərək orada 1 may 1917-ci ilədək əla əxlaqla oxuyub, 8-siniflik tam kursu bitirib və aşağıdakı bilikləri qazanıb:

Şəriət –	5 (beş)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	4 (dörd)
Fəlsəfi propedevtika –	4 (dörd)
Latın dili –	4 (dörd)
Riyaziyyat –	4 (dörd)
Riyazi coğrafiya –	4 (dörd)
Fizika –	4 (dörd)
Tarix –	4 (dörd)
Qanunşünaslıq –	4 (dörd)
Coğrafiya –	4 (dörd)
Fransız dili –	4 (dörd)
Alman dili –	4 (dörd).[2]



Hüseyn Nağıyev. Almaniya

[1] KŞDA, fond 18, siyahı 1, iş 3518, vv. 6, 7.
[2] Yenə orada, vərəq 4.



"Kommunist" qəzetindən (23.4.1928, №93) foto. Şəklin mərkəzində texnikumun müəllimi Hüseyn Nağıyev. Şəklin üzərində "Kənd təsərrüfat cəbhəsindəki müvəffəqiyyətlərimiz", altında *"Bu yıl Gəncə Ziraət Texnikumundan birinci dəfə buraxılacaq tələbələr"* yazılıb.

Bu gimnaziyanı bitirmiş Nağıyev 17 avqust 1917-ci ildə Kiyev Politexnik İnstitutunun direktoruna Kiyevdən yazdığı ərizəsində həmin institutun mühəndislik bölümünə sərbəst dinləyici götürülməsini xahiş edib.[1] 4 sentyabr 1917-ci ildə isə o, direktora yazdığı növbəti ərizəsində mühəndislik bölümünə tələbə kimi girmək istədiyini bildirib.[2]

Kiyev Politexnik İnstitutunun tələbəsi Nağıyev 31 iyul 1919-cu ildə Gəncə şəhərindən AC maarif nazirinə yazdığı ərizəsində hökumətin xaricə göndərdiyi tələbələr sırasına salınmasını xahiş edib.[3]

Maarif Nəzarəti Daftərxanasının direktor müavini 7 avqust 1919-cu ildə Nağıyevə 6781 saylı məktub göndərərək onun 20 avqustadək Nəzarətə göndərməli olduğu sənədləri sadalayıb və hansı məktəbə girmək istədiyini soruşub.[4]

Nağıyev 10 avqust 1919-cu ildə növbəti ərizəsində Kiyev Politexnik İnstitutunun mühəndislik bölümünün III semestrində oxuduğunu bildirib və Sürix Politexnik İnstitutuna girməyi arzuladığını bəyan edib.[5]

Gəncə Polis Müdiriyyətinin 9 avqust 1919-cu ildə verdiyi 5061 saylı arayışda göstərilib ki, Hüseyn Nağıyevin 29 yaşı var, subaydır, məhkəmə və istintaq altında olmayıb, heç bir əmlakı yoxdur, maddi durumu ona xaricdə təhsilini davam etdirmək imkanı vermir.[6]

[1] KŞDA, fond 18, siyahı 1, iş 3518, vərəq 1.
[2] Yenə orada, vərəq 2.
[3] ARDA, fond 51, siyahı 3, iş 109, vərəq 1.
[4] Yenə orada, vərəq 2.
[5] Yenə orada, vərəq 3.
[6] Yenə orada, vv. 6-6a.



Azərbaycan Kənd Təsərrüfatı İnstitutu aqrar-pambıq fakültəsinin 2-ci buraxılışının (1931-1935) vinetkası. Müəllimlər kvadrat, məzunlar romb şəklində verilib. Üstü qələmlə cızılanlar "xalq düşməni" adlandırılaraq repressiya edilənlərdir. Müəllimlər *(soldan-sağa, yuxarı cərgə)*: 1-ci S.Məmmədov, 3-cü İsgəndərov (partkom), 4-cü prof. Əzim Asəf oğlu Dadaşov (direktor), 5-ci Sərdarlı (həmkarlar ittifaqı sədri), 6-cı İmam Mustafayev (direktor müavini); direktorun şəklinin altında: 1-ci Hüseyn Nağıyev (dekan), 2-ci Kaşyev (tədris hissə müdiri); *soldan-sağa aypara şəklində:* Bəhram bəy Makinski, Gülahmədov, İsgəndər Vəlizadə, Qasımov, P.Qazıbəyova, A.Quluyev, Məmmədov, Məmməyev, İbrahim Rəcəbli

Gəncədə 5 noyabr 1919-cu ildə AC Xalq Maarifi Nəzarətinə yazdığı son ərizəsində Nağıyev bildirib ki, İsveçrənin Cenevrə şəhərində Kənd Təsərrüfatı İnstitutunda təhsilini davam etdirmək istəyirəm.[1]

29 dekabr 1919-cu ildə Nağıyev təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[2] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[3] dilkağızları verib.

Hüseyn Hacı Musa oğlu Nağıyevə Azərbaycan Cümhuriyyəti Hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 514 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[4]

* * *

Nağıyev Berlin Kənd Təsərrüfatı İnstitutunu 1925-də bitirərək 1928-ci ildə Azərbaycana qayıdıb.

1928-ci ildən Gəncədə Peşə Texnikumunun direktoru olub. 1931-ci ildən Gəncədə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda bitkiçilik kafedrasının müdiri, meliorasiya fakültəsinin

[1] ARDA, fond 51, siyahı 3, iş 109, vərəq 9.
[2] Yenə orada, vərəq 10.
[3] Yenə orada, vərəq 11.
[4] Yenə orada, vərəq 12.



Hüseyn Nağıyev ilk həbsində. 1938

dekanı vəzifələrində işləyib. 1937-ci ildən kafedranın dosenti olub. Partiyasızdı.

11 yanvar 1938-ci ildə həbs edilib. Nağıyev Hüseyn Musa oğlu, Kuçayev Emin Eynudinoviç, Rəcəbli İbrahim Cabbar oğlu və Makinski Bəhram Abbasəli oğlunun ittihamı üzrə PR-23371 şifrəli istintaq işi AR MTN Arxivindədir. İş 2 cilddədir. I cild 365 vərəqdir, II cild səhifələnməyib. I cild 11 yanvar 1938-ci ildə başlanıb və 31 mart 1940-cı ildə bitib. Bu başdan bildirək ki, SSRİ XDİK Özəl Müşavirəsi 9 fevral 1940-cı ildə Hüseyn Nağıyevə 5 il, İbrahim Rəcəbliyə 3 il, Bəhram Makinskiyə 3 il iş verib və Emin Kuçayevi isə 28 fevral 1940-cı ildə həbsdən buraxıb.[1]

Nağıyev həbs edildiyi zaman Gəncədə Sabir döngəsi 2-ci evdə yaşayıb. Ailəsi bunlardan ibarət olub: arvadı Suriyə Məhəmməd qızı, 26 yaş; qızı Asya, 9 yaş, anası Xanım Məhəmməd qızı, 75 yaş.

İşdən öyrənirik ki, onun dustaq yoldaşları *Rəcəbli İbrahim Cabbar oğlu (görkəmli alim Əhməd Rəcəblinin qardaşı)* 1904-cü ildə İrəvanda doğulub. 1930-cu ildə Leninqradda Kənd Təsərrüfatı İnstitutunu bitirib, partiyasızdır, məhkəməyə cəlb edilməyib.

Makinski Bəhram Abbasəli oğlu 1908-ci ildə Ermənistanın Böyük Vedi kəndində doğulub, qulluqçulardandır, atası Bakı şəhərində Vəkillər Kollegiyasının üzvüdür, 1930-cu ildə Bakıda Kənd Təsərrüfatı İnstitutunu bitirib, ailəlidir, 1927-ci ildən ÜLKGİ üzvü olub, çıxarılıb. Həbsinədək Azərb. Xalq Torpaq Komissarlığı Toxumçuluq İdarəsinin aqronomu işləyib. Məhkəməyə cəlb edilməyib.

Kuçayev Emin Eynudinoviç 1898-ci ildə Tiflisdə doğulub, tatardır, atası Tiflisdə arabaçı olub, ali təhsillidir, partiyasızdır. Ailəlidir. AKTİ-də dosent əvəzi işləyib.[2]

12 dekabr 1938-ci ildə Gəncədə keçirilən məhkəmədə onların heç biri özünü müqəssir saymayıb. Nağıyev deyib ki, istintaqda mən özümə və başqalarına böhtan atmağa məcbur edilmişəm.[3]

Dindirmələrinin birində qeyd edib ki, mən 1928-ci ilin fevralından həbs olunduğum günədək, yəni 11 yanvar 1938-ci ilədək müxtəlif fasilələrlə XDİK orqanları ilə məxfi əməkdaşlıq etmişəm.[4]

Nağıyev cəzasını SSRİ DİN Arxangelsk vilayətində və Karaqandada olan islah-əmək düşərgələrində çəkib. Cəza müddəti 8 avqust 1946-cı ildə bitdikdən sonra İƏD-dən azad edilib, yaşayış üçün Gəncə şəhərinə gəlib və burada Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda dosent işləyib.[5]

10 yanvar 1949-cu ildə Nağıyev yenidən həbs edilib.[6] 10 mart 1949-cu ildə ittihamnamə tərtib edilib.

9 iyun 1956-cı ildə bəraət alıb.[7]

[1] AR MTN Arxivi, PR-23371, I cild, vv. 335-337.
[2] Yenə orada, vərəq 243.
[3] Yenə orada, vərəq 244.
[4] Yenə orada, vərəq 347.
[5] Yenə orada, vərəq 342.
[6] Yenə orada, vərəq 341.
[7] Yenə orada, vərəq 359.

Nəbiyev Mahmud Əbdürrəhim oğlu

(03.04.1893, Şəki – 1937-ci ildən sonra)

Rusiya tələbələrindəndir.



Mahmud Nəbiyev

Gəncə valiliyi Şəki şəhəri ikinci məscidinin 1893-cü ilə aid doğum kitabının 1-ci hissəsindən görünür ki, Şəki şəhərinin sakini Mahmud öz atası *Əbdürrəhim Hacı Mahmud oğlu*'nun qanuni arvadı *Məsumə İsmayıl əfəndi qızı*'ndan müsəlman tarixi ilə 28 ramazan 1310-cu ildə, xristian tarixi ilə 3 aprel 1893-cü ildə doğulub. Zaqafqaziya Sünni Ruhani İdarəsinin 25 avqust 1904-cü ildə Tiflis şəhərində verdiyi bu şəhadətnaməni Zaqafqaziya müftisi *Hüseyn əfəndi Qayıbov* və başqaları imzalayıb.[1]

Bu şəhadətnamənin arxasında müfti Hüseyn əfəndi Qayıbov 23 may 1914-cü ildə belə bir qeyd yazaraq altından qol çəkib: *"Zaqafqaziya Sünni Ruhani İdarəsi bununla təsdiqləyir ki, həm bu şəhadətnamənin ünvanlandığı Mahmud, həm də onun atası "Nəbiyev" soyadı daşıyırlar və Mahmudun doğumu haqqında şəhadətnaməsi qeyd edilərkən bu, yazılmayıb..."*.[2]

Bu sənədə bir əlavəmiz var – Mahmudun anası Məsumə xanım Şəkidən çıxmış görkəmli Azərbaycan din xadimi İsmayıl əfəndi Əfəndizadənin qızı və məşhur ziyalılarımız Rəşid bəy və Abdulla bəy Əfəndizadələrin bacısı idi.

Nəbiyevin sənədləri içərisində onun Qafqaz diyarı müsəlmanı olduğu, buna görə də hərbi mükəlləfiyyətli olmadığı haqqında 1 iyul 1914-cü il tarixli 1332 saylı şəhadətnamə var və bu şəhadətnaməni Şəki şəhər başçısı Ş.Əmircanov imzalayıb.[3]

915 saylı kamal attestatından bəlli olur ki, Şəki şəhər sakini M.Nəbiyev Tiflis İmperator I Aleksandr kişi gimnaziyasına 1 sentyabr 1907-ci ildə girərək orada 8 iyun 1914-cü ilədək oxuyub, səkkizsiniflik tam kursu bitirib və aşağıdakı bilikləri qazanıb:

Şəriət –	beş (5)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	üç (3)
Fəlsəfi propedevtika –	üç (3)
Qanunşünaslıq –	üç (3)
Latın dili –	üç (3)
Riyaziyyat –	üç (3)
Riyazi coğrafiya –	üç (3)
Fizika –	üç (3)
Tarix –	üç (3)
Coğrafiya –	dörd (4)
Alman dili –	dörd (4)
Fransız dili –	üç (3).[4]



Mahmud Nəbiyev

[1] KŞDA, fond 16, siyahı 464, iş 7313, vərəq 3.
[2] Yenə orada, vərəq 3a.
[3] Yenə orada, vərəq 9.
[4] KŞDA, fond 16, siyahı 464, iş 7313, vv. 2-2a.



Əhməd Nəbiyev. Bakı, 1924

Gəncə valiliyindən 29 iyul 1915-ci ildə verilmiş siyasi etibarlılıq haqqında 2241 saylı arayışda bildirilib ki, Nəbiyev Gəncə valiliyində yaşadığı müddətdə qınamılası heç bir hərəkətə yol verməyib, məhkəməyə düşməyib, istintaq olunmayıb və siyasi baxımdan onun haqqında xoşagəlməz heç bir bilgi yoxdur.[1]

Petroqrad İmperator Universitetinin keçmiş tələbəsi[2] Mahmud Nəbiyev 7 avqust 1915-ci ildə Kiyev Universitetinin rektoruna yazdığı ərizəsində onun Petroqrad Universitetindən Kiyev Universitetinə dəyişilməyinə icazə verməsini xahiş edib, çünki uzun sürən xəstəliyinə görə həkimlər ona daha cənubda yerləşən bir şəhərə köçməyi məsləhət görüblər.[3]

Nəbiyevin AC maarif nazirinə 8 avqust 1919-cu ildə yazdığı ərizədə xaricə göndəriləcək tələbələr sırasında olmaq arzusu əksini tapıb, sonra bildirib ki, Tiflis I kişi gimnaziyasını bitirib və Kiyev Universitetinin fizika-riyaziyyat fakültəsinin təbiiyyat bölümünə girib ki, buranı bitirdikdən sonra bu ixtisasla ya Dağ İnstitutuna, ya da Politexnik İnstitutun kimya bölümünə daxil olsun. İndi o, Kiyev Universitetinin təbiiyyat bölümünün III kurs V semestr tələbəsidir. 1917-ci ilin payızında həm kasıblığı, həm də yaranmış anarxiya nəticəsində müvəqqəti olaraq vətənə qayıtmağa məcbur olub. O, İsveçrəyə göndərilmək, orada Sürix Politexnik İnstitutuna girmək arzusunu dilə gətirib.[4]

Azərbaycan Respublikası Dövlət Arxivində Nəbiyevin şəxsi işində saxlanan sənədlər arasında bir qeyd var. Bunu Azərbaycan Cümhuriyyəti Parlamanının üzvü *Abdulla bəy Əfəndizadə* (Nəbiyevin dayısı) yazıb. Bəlgəni olduğu kimi veririk:

"Mən, aşağıda qol çəkmiş Azərbaycan Parlamanı üzvü, Şəki şəhərinin nümayəndəsi bununla təsdiq edirəm ki, Şəki şəhərinin sakini tələbə Mahmud Nəbiyevin təhsilini davam etdirmək üçün heç bir şəxsi vəsaiti yoxdur. Onun valideynləri kasıb yaşamasalar da öz gəlirlərindən oğullarına Şəki şəhərindən xaricdə dolanmaq üçün heç olmasa bir ilə yetəcək vəsait ayırmaq gücündə deyillər.

18 avqust 1919-cu il. Bakı şəhəri.

Parlaman üzvü (A[bdulla] b[əy] Əfəndizadənin imzası)".[5]


Yaxın qohumu – dayısı olan tələbə Məhəmmədəmin Əfəndiyev (o da Cümhuriyyət tələbələrindəndir) maarif nazirinə ərizə yazaraq 1919-cu ilin noyabrında tələbə yoldaşı, təhsilini bitirməsi üçün hökumətin Rusiyaya göndərdiyi Mahmud Nəbiyevin zaçot kitabçasını təqdim edib. M.Nəbiyev zaçot kitabçasını və doğum haqqında 1035 saylı şəhadətnaməni 4 iyul 1920-ci ildə aldığını qeyd edib.[6]

Rusiyaya oxumağa gedənlər də, Qərbi Avropaya göndərilənlər kimi, noyabr ayında oxumağa hara getmək haqqında son fikirlərini ərizə ilə bildiriblər və bu ərizəyə əsasən onlara 6 aylıq dolanışıq pulu və 3.000 manat yol pulu verilib, ancaq Nəbiyevin şəxsi işində nə noyabr ayında verilməli olan son ərizəsini, nə də ona pul ödənilməsi haqqında nazirin göstərişini tapa bildik.

[1] KŞDA, fond 16, siyahı 464, iş 7313, vərəq 1.
[2] M.Nəbiyevin tələbə şəxsi işi burada saxlanılır: SPb. MTA, fond 14, siyahı 3, iş 64298.
[3] KŞDA, fond 16, siyahı 464, iş 7313, vərəq 5-5a.
[4] Yenə orada, vv. 1-1a.
[5] Yenə orada, vərəq 4.
[6] Yenə orada, vərəq 3.



Qardaşı İbrahim Nəbiyev. Şəki, 1906



Qardaşı Əhməd Nəbiyev. Peterburq, 1907

Burada vacib bir məsələni də qeyd etməliyik ki, 18 dekabr 1919-cu ildə son siyahının dərc edildiyi "Azərbaycan" qəzetində (həm türkcə, həm rusca) Mahmud Nəbiyevin adı yanlış olaraq "Məhəmməd" gedib. Bizcə, bu, "Mahmud" və "Məhəmməd" adlarının ərəb əlifbasında çox bənzərliyinə görə qarışdırılması üzündən baş verib.

Mahmud Nəbiyevin sonrakı həyatı haqqında bizə çox az şey bəllidir. N.Nərimanov adına texnikum müəllimlərinin 1924-cü ildə çəkilmiş kollektiv fotosunda onu da görürük.

Mustafa ağa Vəkilov 20 noyabr 1937-ci ildəki ilk dindirməsində Mahmud Nəbiyevin də adını çəkərək onun Bakıda mühəndis-müəllim işlədiyini deyir.[1]

[1] AR MTN arxivi, PR-18730, vərəq 108a.

Nərimanbəyov Fərman bəy Əmir bəy oğlu

(16.07.1899, Şuşa – 02.1977, Mingəçevir)



Fərman bəy Nərimanbəyov



Yaqub bəy Nərimanbəyov

Allah, görünür, bu 102 tələbənin həyatını öyrənmək müqəddəs iş olduğuna görə bizə bəzən nəinki ağlasığmaz təsadüflərlə, hətta gerçək möcüzələrlə də yardım göstərib.

100 tələbənin siyahısında adı keçən Yaqub Nərimanbəyov haqqında heç yerdən kiçicik bir işarə belə tapmırdıq. 8 may 2006-cı ildə metronun "İçərişəhər" stansiyasının çıxışı ilə düz üzbəüzdəki fotoatelyeyə,[1] dostumuz fotoqraf Hüseyn Quluzadənin yanına əski fotoları bərpa etdirmək üçün gedirdik. Beynimizdə bircə fikir dolaşırdı: görəsən, *Toğrul Nərimanbəyov*'la görüşərək ondan Yaqub haqqında bilgi almaq olarmı? Elə o saat da öz-özümüzə gülürdük: Parisdə yaşayan, ayda-ildə bir dəfə Bakıya gələn və bu vaxt tanımadığı adamlarla ünsiyyətdən qaçan Toğrulla necə görüşmək olar ki?!

Elə bu düşüncələrlə küçənin o üzünə aparan yeraltı keçidə endik və bir neçə addım atmışdıq ki, nə görsək yaxşıdır?! – Toğrul Nərimanbəyov düz üstümüzə gəlir! Allaha inanmayan kafirdir!

Öncə bu möcüzədən özümüzü itirən kimi olduq. Toğrulun ötüb keçəcəyini hiss edincə ona yaxınlaşıb salam verdik. Sonra hər şey yağ kimi getdi. Tanış olduq. Məqsədimizi bildi, alqışladı. Hətta söhbət edə-edə geriyə döndü və fotoatelyeyə gəldik. Hüseyn bəydən xahiş etdik, küçədə müxtəlif yerlərdə şəkillərimizi də çəkdi. Ancaq Yaqub Nərimanbəyov məsələsinə gəlincə, görkəmli rəssam bildirdi ki, bu işləri mən çox zəif bilirəm. Nərimanbəyovlarla bağlı geniş bilgi almaq üçün Konservatoriyanın müəllimi *Rauf Nərimanbəyova* müraciət etməyinizi məsləhət görürəm.

Allah bu böyük sənətkara rəhmət eləsin! Gerçəkdən, bizə ən doğru yolu, ən etibarlı qaynağı göstəribmiş.

...Rauf bəylə 19 iyunda Konservatoriyada iş otağında görüşdük. Yaqubu soruşunca dedi ki, Fransaya gedən o deyil, qardaşı Fərmandır. Yaqubun subay qalıb.

Fərman haqqında isə dedi ki, o tutulub. Sürgündən bir rus qadınla qayıdaraq Mingəçevirdə yaşayıb, ona görə də oğulları ondan inciyib.

Sonrakı görüşlərimizdə Rauf Nərimanbəyov bizə bütün görkəmli qohumları, o sıradan *Haşım bəy* və *Nəriman bəy Nərimanbəyovlar* haqqında çoxlu fotolar və sənədlər verdi. Biz də ona borclu qalmadıq – Nərimanbəyovlara aid onda olmayan bir çox nadir bəlgələr və şəkillər bağışladıq.

Beləliklə, Yaqub və Fərman qardaşlarının gerçəkdən başgicəlləndirən macərası tədricən tam aydınlaşdı.

* * *

100 dövlət təqaüdçüsü içərisində iki nəfər xaricə oxumağa qardaşının əvəzinə gedib – Cəmil Əlimuradbəyli qardaşı Cavadın, Fərman Nərimanbəyov isə qardaşı Yaqubun yerinə oxuyublar və onların taleyini yaşayıblar.

[1] Həmin fotoatelye indi Murtuza Muxtarov küçəsinə köçüb.



Şuşa edadi (real) məktəbi VI sinif şagirdləri öz müəllimləri ilə. Müəllimlər *(ikinci sıra, soldan sağa)*: 3-cü Əhməd bəy Ağayev, 5-ci Haşım bəy Nərimanbəyov, 8-ci Mirzə Sadıq Piran. 1897/98-ci dərs ili

AR Dövlət Arxivində saxlanılan sənədlər xaricə gedən təqaüdçünün – Fərmanın özünün deyil, onun Bakıda qalmış qardaşı Yaqubundur. Fərman Fransaya Yaqubun sənədləri ilə və onun adı altında gedib, ancaq işin sonrasını da düşünərək əsl adının "Yaqub" deyil, "Yaqubfərman" olduğunu bildirib və bu saxta adı sənədlərə də qeyd etdirib. Sovet dönəmindəki bütün əsas sənədlərində "Yaqubfərman" göstərilib, hətta həbs olunarkən də bu ad altında tutulub. Bu ad sonralar çox dolaşıqlıq yaradıb; iş o yerə çatıb ki, Vidadi və Toğrul qardaşlarının ikisi də onun oğlu olmasına baxmayaraq bəzi qaynaqlarda onların birinin atası olaraq Yaqub, obirininki Fərman göstərilib, halbuki Yaqub heç ailə qurmayıb. Yaqubfərman özəlliklə həbsindən sonra özünü yenə "Fərman" adlandırıb, ancaq bu zaman yenə dolaşıqlıq yaradıb. Niyə?

Siyasi Sənədlər Arxivindəki 2038 saylı şəxsi işlə tanış olarkən uzun müddət çaşbaş qaldıq və bir şey anlaya bilmədik, çünki qarşımızdakı sənəd Fərman Əmir oğlu Nərimanbəyova məxsus olsa da onun tərcümeyi-halı tamamilə başqa şəxsə məxsusdu, halbuki Azərbaycanda eyni zamanda kəsiyində iki şuşalı Fərman Əmir oğlu Nərimanbəyovun yaşaması mümkün deyildi. Bu məqaləni hazırlayarkən tapmacanı açə bildik – sən demə, Fərman Yaqubun sənədləriylə Yaqub olduğu kimi, onun Bakıda qalmış sənədləriylə də Yaqub dönüb Fərman olub!

Əlbəttə, söhbət Cümhuriyyət dönəmində Bakının valisi (qubernatoru) olmuş Əmir bəy Nərimanbəyovun oğullarından, xalq rəssamı Toğrul Nərimanbəyovun atasından və əmisindən gedirsə belə bir məsələdə yanlışlığa yol verməyin nə qədər qəbahət olacağını dərk edir, oxucu qınaqlarına tuş gələcəyimizi bilirik. Ancaq məşhur bir deyimdəki kimi, Əflatun dostum olsa da gerçəklik daha qiymətlidir. Fikrimizin sübutu



İrəvan gimnaziyası müəllim və şagirdləri. *Orta cərgə (soldan-sağa):* 2-ci Həmid Şahtaxtinski (türk dili müəllimi), 3-cü Mirzə Hüseyn ağa Mirzə Həsən ağa oğlu (1868-təx. 1940-42) (şəriət müəllimi), 4-cü Haşım bəy Nərimanbəyov (1863-1941), 5-ci Mirzə Abbas Məhəmmədzadə (Fars Abbas) (1846-1919), 6-cı Mirbağır Mircəfər oğlu Mirbağırov (təx. 1880-1918). İrəvan, 1900

üçün öncə qardaşının sənədləri ilə "Fərman" olmuş əsl Yaqubun tərcümeyi-halı ilə tanış olaq.

Siyasi Sənədlər Arxivindəki 2038 saylı şəxsi iş Xalq Avtomobil Nəqliyyatı Komissarlığı plan-maliyyə şöbəsinin rəisi Fərman Əmir oğlu Nərimanbəyova məxsusdur. Həmin şəxsi işdə saxlanılan, 2 fevral 1943-cü ildə doldurulmuş kadr uçotu üzrə şəxsi vərəqdə bunlar göstərilib: Nərimanbəyov Fərman Əmir oğlu 1896-cı ildə Novorossiyskdə doğulub, hüquqşünasdır, partiyasızdır, təhsili natamam alidir. O, 1927-28-ci illərdə Leninqradda ali maliyyə kursunu iqtisadçı-maliyyəçi ixtisası üzrə bitirib, 1930-33-cü illərdə Balıq İnstitutunda 3-cü kursadək iqtisad üzrə oxuyub, 1926-30-cu illərdə Azərb. SSR Xalq Avtomobil Nəqliyyatı Komissarlığı (XANK) Dövlət Maliyyə Nəzarətində müfəttiş, 1930-35-ci illərdə Azərbaycan Balıq Trestində iqtisadçı-plançı, 1935-43-cü illərdə XANK-da plan-maliyyə şöbəsinin rəisi işləyib.[1]

Həmin şəxsi işdə Fərman Əmir oğlu Nərimanbəyov (əslində: Yaqub) öz əliylə tərcümeyi-halını da yazıb və bildirib ki, mən əslən şuşalıyam, ancaq atamın qulluq etdiyi Novorossiysk şəhərində doğulmuşam. 1905-ci ildə anam ölüb və mən yaşamaq üçün Şuşaya nənəmin yanına getmişəm. 1908-ci ildə atamın qulluq etdiyi İrəvana gedərək gimnaziyaya girmişəm. Atam Əmir Nərimanbəyov yerölçmə məktəbini bitirib və 1908-ci ildə yerölçən işləyib. 1909-cu ildə atam Kiyevə gedərək orada universitetdə oxumağa başlayıb, məni də özüylə götürüb. 1913-cü ilədək Kiyev gimnaziyasında oxumuşam.

[1] ARPİİSSA, fond 1, siyahı 355, iş 12, vv. 3-4.



İrəvan gimnaziyası müəllim və şagirdləri. *İkinci cərgə (soldan sağa):* 2-ci Mirbağır Mircəfər oğlu Mirbağırov, 3-cü Abdulla bəy Əfəndizadə (1873-1928), 4-cü Mirzə Hüseyn ağa Mirzə Həsən ağa oğlu, 5-ci Haşım bəy Nərimanbəyov, 6-cı Mirzə Abbas Məhəmmədzadə (Fars Abbas). *Arxadan 2-ci cərgədə soldan 3-cü (furajkalı)* Nəriman bəy Haşim bəy oğlu Nərimanbəyov. İrəvan, 1900


Atam universiteti bitirincə İrəvana qayıdıb və vəkilliklə məşğul olub. Mən də onunla İrəvana gəlmişəm. 1 il İrəvan gimnaziyasında oxuyub sonra Tiflis gimnaziyasına keçmiş və oranı 1918-ci ildə bitirmişəm. Gimnaziyanı bitirərək Bakıya gəlmişəm, çünki ailəmiz də buraya yaşamağa gəlmişdi. 1920-ci ildə yenicə açılmış Tibb İnstitutuna[1] girmiş, orada 1921-ci ilədək oxumuşam. Xoşuma gəlməyib. Sonra fizika-riyaziyyat fakültəsində 1923-cü ilədək oxuyub oranı da atmışam. 1923-cü ildə iqtisad fakültəsinə girmişəm. 2 il oxumuşam, qurtarmayıb 1926-cı ildə Dövlət Maliyyə Nəzarəti idarəsində nəzarətçi işinə düzəlmişəm. 1927-ci ildə Leninqrada ali maliyyə kursuna göndərilmişəm. Orada 1 il oxumuş, Leninqraddan qayıdanda dövlət maliyyə nəzarəti idarəsi ləğv edildiyinə görə Zaqatalaya göndərilmiş, orada 1923-cü ilədək yaşamışam. Zaqataladan qayıdıb Azərbalıq Trestinə iqtisadçı düzəlmişəm. Bu sistemdə 1935-ci ilədək çalışmışam. 1935-ci ildə Azərbaycan Avtomobil Nəqliyyatı Trestində plan-maliyyə şöbəsinin rəisi vəzifəsinə keçmişəm. Oradan mexaniki olaraq Xalq Avtomobil Nəqliyyatı Komissarlığına keçirilmişəm, indiyədək orada işləyirəm.

Subayam, Ostrovski küçəsi[2] 54-də yaşayıram.

2 fevral 1943-cü il (imzası)".[3]

Göründüyü kimi, burada nə Fransada oxumaqdan, nə həbsdən, nə də övladlardan söhbət gedir. Gedə də bilməzdi, çünki bu Fərman Fərman deyil, onun qardaşı Yaqubdur.

[1] Əslində Tibb İnstitutu deyil, Bakı Dövlət Universitetinin tibb fakültəsi idi.
[2] İndiki Süleyman Tağızadə küçəsi.
[3] ARPİİSSA, fond 1, siyahı 355, iş 12, vv. 5-5a.



İrəvan müəllimləri. *Soldan sağa: 3-cü* Haşım bəy Nərimanbəyov, *5-ci* Gövhər xanım Qazıyeva

* * *

İş burasındadır ki, AR Dövlət Arxivindəki şəxsi iş də Fərmanın deyil, haqqında indicə oxuduğumuz gerçək Yaqubundur. Həmin şəxsi işdəki sənədlərlə tanışlığın işin xeyrinə olacağı düşüncəsiylə onları da oxuculara təqdim edirik.

Zaqafqaziya Şiə Ruhani İdarəsinin 1 avqust 1915-ci ildə Tiflisdə verilmiş 1793 saylı doğum şəhadətnaməsində göstərilib ki, Şuşa şəhərinin sakini Yaqub bəy Əmir bəy oğlu atası *Əmir bəy Nərimanbəyov*'un qanuni arvadı *Bəyaz Məşədi Məhəmməd qızı*'ndan 14 iyun 1898-ci ildə doğulub.[1]

595 saylı kamal attestatı 5 may 1917-ci ildə müsəlman, bəylərdən olan məmur oğlu, Şuşa şəhərində 14 iyun 1898-ci ildə doğulmuş Yaqub Əmir bəy oğlu Nərimanbəyova ona görə verilib ki, o, 1914-cü ildə Tiflis I gimnaziyasına girərək 1 may 1917-ci iləd ək orada əla əxlaqla oxuyub və səkkizsiniflik tam kursu bitirib. Bu vaxt aşağıdakı bilikləri qazanıb:

Şəriət –	5 (beş)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyat –	3 (üç)
Fəlsəfi propedevtika –	3 (üç)
Qanunşünaslıq –	5 (beş)
Latın dili –	5 (beş)
Riyaziyyat –	4 (dörd)
Riyazi coğrafiya –	4 (dörd)
Fizika –	3 (üç)
Tarix –	5 (beş)
Coğrafiya –	5 (beş)
Alman dili –	5 (beş)
Fransız dili –	5 (beş)
Ana dili –	5 (beş).[1]

[1] ARDA, fond 51, siyahı 3, iş 111, vərəq 7.



Fərman bəy Nərimanbəyov. Fransa



Əmir bəy Nərimanbəyov

Gürcüstan Respublikası Tiflis I kişi gimnaziyasının direktoru 2 may 1919-cu ildə verdiyi 406 saylı vəsiqədə bildirir ki, bəy oğlu, 16 iyun[2] 1898-ci ildə doğulmuş Yaqub Nərimanbəyov Tiflis I kişi gimnaziyasının kursunu 1917-ci ildə bitirib və 5 may 1917-ci ildə 595 saylı kamal attestatı alıb.[3]

Şuşa şəhərinin sakini Yaqub bəy Nərimanbəyov 11 avqust 1919-cu ildə Bakıda AC maarif nazirinə yazdığı ərizədə onu da yüz tələbə içərisində təhsilini bitirmək üçün xaricə göndərməyi xahiş edib. İsveçrə, Fransa, yaxud Almaniyanın ali ixtisas məktəblərinin birində oxumaq istədiyini bildirib.[4]

İrəvan şəhər milis idarəsindən verilmiş 17 may 1917-ci il tarixli 1306 saylı arayışda Yaqub bəy Nərimanbəyovun Zaqafqaziya müsəlmanı olduğu, buna görə də hərbi mükəlləfiyyətdən azad edildiyi göstərilib.[5]

Həmin idarədən verilmiş 22 may 1917-ci il tarixli 1349 saylı arayışda isə Yaqub bəy Nərimanbəyovun Qarabağın əsilnəsilli bəylərindən olan vəkil Əmir bəy Nərimanbəyovun oğlu olduğu təsdiqlənib.[6]

Parlaman üzvləri *Behbud ağa Cavanşir, Qara bəy Qarabəyov, Cəmil bəy Ləmbəranski* və Azərbaycan Dəmiryol İdarəsinin rəisi *Teymur bəy Məlikaslanov*'un imzaladıqları bir arayışda göstərilib ki, biz tələbə Yaqub Nərimanbəyovun və onun atasının maaşdan başqa heç bir vəsaitinin olmadığını, atasının Yaqubdan başqa eyni zamanda 4 uşaq oxutduğunu təsdiq edirik. Onun atası ayda 4.500 manat pul alır ki, bununla o, 10 baş ailəni saxlayır.[7]

Yaqub Nərimanbəyov 5 noyabr 1919-cu ildə AC maarif nazirinə yazdığı son ərizəsində Almaniyada Berlin şəhərində – Şarlottenburqda Yollar İnstitutunda oxumaq istədiyini bildirib.[8]

10 yanvar 1920-ci ildə Yaqub bəy Nərimanbəyov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[9] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[10] dilkağızları verib.

Yaqub bəy Əmir bəy oğlu Nərimanbəyova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 498 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[11]

[1] ARDA, fond 51, siyahı 3, iş 111, vərəq 3.
[2] 14 iyun olmalıdır.
[3] ARDA, fond 51, siyahı 3, iş 111, vərəq 2.
[4] Yenə orada, vərəq 1.
[5] Yenə orada, vərəq 5.
[6] Yenə orada, vərəq 6.
[7] Yenə orada, vərəq 8.
[8] Yenə orada, vərəq 9.
[9] Yenə orada, vərəq 10.
[10] Yenə orada, vərəq 11.
[11] Yenə orada, vərəq 12.

* * *



Mustafa Mustafayev,
Fərman bəy Nərimanbəyov. Tuluza

Bakı şəhəri valisi Əmir bəy Nərimanbəyov hansı səbəbdənsə xaricə oxumağa böyük oğlu Yaqubu deyil, ondan kiçik Fərmanı göndərməyi qərara alıb. Fərman da Yaqubun sənədlərini götürərək "Yaqubfərman" adıyla Parisə yollanıb. Deməli, burayadək tanış olduğumuz sənədlərin heç birinin gerçək Fərmana dəxli yoxdur. Ancaq biz Kiyev Şəhəri Dövlət Arxivində Fərmanın öz şəxsi işini tapdıq və oxucuları onlarla tanış edirik.

Fərman Nərimanbəyov 24 may 1917-ci ildə İrəvan şəhərindən Kiyev Universitetinin rektoruna yazdığı ərizəsində onun tibb fakültəsinə qəbul edilməsini xahiş edib və sənədlərini oraya göndərib.[1]

Zaqafqaziya Şiə Ruhani İdarəsindən 31 avqust 1905-ci sayılı doğum şəhadətnaməsində göstərilib ki, Şuşa şəhəri Merdinli şiə cameəsinin 1899-cu ilə aid doğum kitabının I hissəsindən göründuyü kimi, Şuşa şəhərinin sakini, 26 yaşlı *Əmir bəy Nərimanbəyov*'un öz qanuni arvadı, 25 yaşlı *Bəyaz Məşədi Məhəmməd qızı*'ndan oğlu Fərman xristian təqvimi ilə 16 iyul 1899-cu ildə doğulub.[2]

Fərman Nərimanbəyov *Nəsib bəy Yusifbəyli*'nin sədr olduğu dönəmdən Fransaya oxumağa gedənədək Azərbaycan Cümhuriyyəti Dövlət Müdafiə Komitəsinin katibi işləyib.[3]

Tiflis I gimnaziyasını bitirmiş Fərman Nərimanbəyovun adından *6 may 1926-cı ildə* (!) Bakıdan Kiyev Universitetinin rektoruna belə bir ərizə göndərilib ki, gimnaziyanı bitirən kimi, 1917-ci ilin yayında bütün yeganə sənədlərimi, o sıradan gimnaziyanı bitirmək haqqındakı attestatımı Sizə tapşırılmış universitetə, məni tibb fakültəsinin tələbələri sırasına keçirmək xahişi ilə yazdığım ərizə ilə bərabər göndərmişdim. Onlara o vaxt tələb edilən 25 manat pul da əlavə etmişdim.

Universitetin bildiriş kağızına görə, tibb fakültəsinin tələbəliyinə götürülmüşəm, ancaq məni bu imkandan məhrum etmiş bir sıra xoşagəlməz şərait üzündən həmin hüququmdan yararlana bilməmişəm. İndi həmin sənədlərə vacib ehtiyac yarandığına görə Sizdən acizanə xahiş edirəm ki, mümkün olan ən qısa vaxtda həmin sənədlərimi mənə bu ünvana göndərəsiniz: Qubernski[4] küçəsi 14, Kolodeznino[5] tini. Nərimanbəyov Fərmana.[6]

[1] KŞDA, fond 16, siyahı 465, iş 19029, vərəq 1-1a.
[2] Yenə orada, vərəq 5.
[3] Адрес-календарь Азербайджанской Республики на 1920 г. Баку, 1920, s. 5.
[4] İndiki Nizami küçəsi.
[5] İndiki Rostropoviçlər küçəsi.
[6] KŞDA, fond 16, siyahı 465, iş 19029, vərəq 15.

Aydın məsələdir ki, 1926-cı ildə hələ Fransada olan Fərman Bakıdan bu məktubu yaza bilməzdi. Deməli, bu məktubun müəllifi artıq "Fərman" olmuş Yaqubdur.

* * *



Nəriman bəy
Nərimanbəyov

AR MTN Arxivində saxlanılan 23467 saylı (indi: PR-22000) istintaq işi 1 yanvar 1938-ci ildə həbs edilmiş Nərimanbəyov Yaqubfərman Əmir oğluna aiddir. İş 61 vərəqdir, 1 yanvar 1938-ci ildə başlanıb, 10 aprel 1938-ci ildə bağlanıb. Onun bu işə dair məhbus fotosu R.Hüseynovun "Millətin zərrəsi" kitabında verilib.[1]

İstintaq işindəki, təbii ki, rusca olan bütün sənədlərdə onun adı *"Yaqub-Forman"* və *"Yaqub-Fərman"* kimi yazılıb.

Onun həbsindən öncə hazırlanmış arayışda 1898-ci il Şuşa şəhəri doğumlu, Dövlət Plan Komitəsinin mühəndisi Nərimanbəyov Yaqubforman Əmir oğlu haqqında Azərb. XDİK DTİ 4-cü bölümünün müvəqqəti rəisi, DT kapitanı Avanesyanın hazırladığı arayışda bildirilib: Azərbaycan SSR-də əks-inqilabi burjua təşkilat mərkəzinin həbs edilmiş üzvü F.Ə. göstərib ki, Nərimanbəyov Yaqubforman Əmir oğlu onun rəhbərlik etdiyi Bakı Soveti Energetika bölümündəki əks-inqilabi ziyançı təşkilatda iştirak edib. Müttəhim F.Ə.-nin 09.12.1937-ci il tarixli ifadəsindən:

"... Dövlət Plan Komitəsi üzrə praktik ziyançılıq fəaliyyəti aparan bu şəxslər mənə bəllidir:

1) Nərimanbəyov Yaqubforman Əmir oğlu – Müsavat hökumətində Bakı şəhəri hərbi valisinin oğlu. Onun doğma əmisi[2] Müsavat hökumətinin nəzarət naziri idi. Onu 1918-ci ildən tanıyıram. Təhsilini Parisdə alıb. Fransız qızı ilə evlənib. Onun ziyançılıq sahəsindəki təcrübi işi haqqında mənə 1934-cü ildən onu təşkilata cəlb etdiyim ana qədər bəllidir... Bu, mənə əks-inqilabi millətçi mərkəzin üzvü Əsgər Eyvazovdan da məlumdur. Mən Plan Komitəsindən getdikdən sonra Nərimanbəyovu ona təhvil vermişdim...".

Avanesyan bu deyilənlərə əsasən Yaqubfərman Nərimanbəyovun Azərb. SSR CM 72, 73-cü maddələri üzrə məsuliyyətə cəlb edilməsini, bu haqda Azərb. XDİK DTİ 8-ci bölümünə və XDİK işlərinə nəzarət edən prokurora xəbər verməyi zəruri sayıb.[3]

Yaqubfərman Nərimanbəyovun həbsi üçün 31 dekabr 1937-ci ildə 4082 saylı order verilib[4] və bu orderə əsasən 1 yanvar 1938-ci ildə (yeni il gecəsi!) Nərimanov[5] küçəsi 3-cü döngə 3-cü evdə yaşayan Nərimanbəyovun evində axtarış aparılıb və o həbs edilib.[6]

1232-ci məhbus anketindəki bilgilərdən: Nərimanbəyov Yaqubfərman Əmir oğlu – 1898-ci il Şuşa şəhəri doğumlu; yaşayış yeri: Bakı şəhəri, Nərimanov küçəsi, 3-cü döngə, 3-cü ev, 2-ci mənzil; mühəndis; iş yeri: Azərb. SSR Dövlət Plan Komitəsində elektrikləşdirmə bölümünün rəisi; meşşanlardan; qulluqçu; ali təhsilli; partiyasız. Ailə tərkibi: arvadı *İrma*, 42 yaş; oğlu *Vidadi*, 11 yaş; oğlu *Toğrul*, 7 yaş.

[1] *Hüseynov R.* Millətin zərrəsi. Bakı, s. 450.
[2] Nəriman bəy Nərimanbəyov nəzərdə tutulur.
[3] AR MTN Arxivi, PR-22000, vərəq 1.
[4] Yenə orada, vərəq 3.
[5] İndiki Şövkət Ələkbərova küçəsi.
[6] AR MTN Arxivi, PR-22000, vərəq 4.



Soldan sağa. Orta cərgə: 2-ci Tağı Rzayev, 3-cü Fərman bəy Nərimanbəyov, 8-ci Aslan bəy Vəzirov. Fransa, 1920-ci illərin başlanğıcı

Onu 1 yanvar 1938-ci ildə Azərb. XDİK DTİ 4-cü bölümü həbs edib.[1]

İstintaq işində cəmi 2 dindirmə protokolu var. İki dindirmənin gerçəkliyə uyğun olmasını istintaqın 3 ay 10 günə başa çatması da təsdiqləyir.

8 yanvar 1938-ci ildə ilk dəfə əməliyyat müvəkkili, çavuş Kemarski onu dindirib və Yaqubfərman (Fərman) Nərimanbəyov deyib ki, 1920-ci ildən 1927-ci ilədək Fransada oxumuşam.

Müstəntiqin onun qohumları haqqında verdiyi suala Nərimanbəyov bildirib ki, yaxın qohumlarımdan *Bəhram Məlikovun* ("Azsnabsbıt"ın keçmiş direktor müavini) və *Mustafa Mustafayevin*[2] (Xalq Yerli Sənaye Komissarlığının mühəndisi) adlarını çəkib. Əsgər Eyvazovla bağlı suala cavab verərkən deyib ki, mən onu Dövlət Plan Komitəsində işə girdiyim 1934-cü ildən tanıyıram... Məni Plan Komitəsinə Əsgər Eyvazov götürüb. "Kəndelektrik" ləğv edildikdən sonra məni Plan Komitəsinə Ə.Eyvazov çağırdı və Dövlət Plan Komitəsinin elektrikləşdirmə bölümünün rəisi vəzifəsində işləməyi təklif etdi, mən də razı oldum.[3]

9 apreldə də davam edən həmin dindirmədə Kemarski ondan *Zeynal Tağıyev* haqqında fikirlərini soruşub.[1] İş burasındadır ki, Zeynal Tağıyev 25 noyabr 1937-ci ildəki dindirməsində mühəndis F.Nərimanbəylinin də adını çəkib.[2]



Fərman bəy həbsdə. 1938

Azərb. SSR XDİK DTİ 4-cü bölümünün rəisi, DT kapitanı Rasskazçikovun hazırlayıb 10 aprel 1938-ci ildə təsdiqlətdiyi ittihamnaməyə görə, Nərimanbəyov Yaqubfərman Əmir oğlu əks-inqilabi millətçi təşkilatın üzvləri ilə əks-inqilabi əlaqə saxlayıb və 1934-cü ildə onu əks-inqilabi təşkilata fəal üzv Fərəczadə Əsgər cəlb edib.

Nərimanbəyova qarşı bu ittihamlar irəli sürülüb:

1) 1934-cü ildən əks-inqilabi millətçi təşkilatın üzvü olub.

2) ÜK(b)P və sovet hakimiyyətinə qarşı əks-inqilabi böhtan söyləyib.

3) Partiyanın yürütdüyü siyasətin əks-inqilabi mövqedən müzakirə edildiyi əks-inqilabi yığıncaqlarda iştirak edib.

Özünü günahkar saymayıb.[3]

SSRİ XDİK yanında Özəl Müşavirə 23 avqust 1938-ci ildə Yaqubfərman Nərimanbəyovun əks-inqilabi fəaliyyətinə görə, müddəti 1 yanvar 1938-ci ildən sayılmaqla 5 illiyə islah-əmək düşərgələrinə məhkum edib. 11 sentyabr 1938-ci ildə o, Kolımaya göndərilib.[4]

2 iyun 1956-cı ildə Azərb. SSR prokuroru əvəzi İ.İsmayılov Azərb. SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasına Yaqubfərman Nərimanbəyovun işi üzrə nəzarət qaydasında etiraz göndərib və orada göstərib ki, "Nərimanbəyov cəzasını çəkib və işinə yenidən baxılmasını xahiş edir".[5]


Sənədin sonunda belə bir arayış var ki, Yaqubfərman Nərimanbəyov Mingəçevir şəhərində yaşayır və Enerjikombinatda mühəndis işləyir.[6]

Yaqubfərman Nərimanbəyovun ittihamı üzrə işə Azərb. SSR Ali Məhkəməsinin cinayət işləri üzrə Məhkəmə Kollegiyası 9 iyun 1956-cı ildə yenidən baxaraq ona bəraət verib.[7]

Fərman Fransanın Tuluza Universitetində energetika fakültəsində oxuyub. Həmin şəhərdə Qaskoniyadan olan fransız qızı dərzi *İrma lö Rude* ilə tanış olub. 1924-cü ildə evləniblər. 13 iyul 1926-cı ildə Kann şəhərində onların ilk oğlu *Vidadi*[8] doğulub. Təhsilini 1927-ci ildə bitirdikdən sonra Parisə köçərək Monparnasda yaşayıblar. Fərman burada ixtisası üzrə işləyib, arvadı isə dəbli şlyapa salonunda çalışıb. 1929-cu ildə Fərman ailəsi ilə Bakıya gəlib. 7 avqust 1930-cu ildə Bakıda onların ikinci oğlu *Toğrul*[9] doğulub.

[1] AR MTN Arxivi, PR-22000, vərəq 6.
[2] O da Cümhuriyyət təlabəsidir.
[3] AR MTN Arxivi, PR-22000, vv. 10-10a.

[1] AR MTN Arxivi, PR-22000, vv. 12-13a.
[2] Yenə orada, vərəq 33.
[3] Yenə orada, vv. 47-49.
[4] Yenə orada, vərəq 51.
[5] Yenə orada, vərəq 55.
[6] Yenə orada, vərəq 56.
[7] Yenə orada, vərəq 61.
[8] Vidadi Nərimanbəyov (13.07.1926-13.12.2001) – Azərbaycanın xalq rəssamı.
[9] Toğrul Nərimanbəyov (07.08.1930-02.06.2013) – Azərbaycanın xalq rəssamı, SSRİ dövlət mükafatı laureatı (1980).



Ədalət Tahirzadə
Toğrul Nərimanbəyovla.
8 may 2006-cı il


1938-ci ildə Fərman həbs edildikdən sonra 1941-ci ildə arvadı İrma da öncə Qazaxıstana, sonra Özbəkistana sürgün edilib və 1961-ci ilədək Səmərqənddə yaşayıb. O, Bakıda 99 yaşında vəfat edib. 1950-ci illərdə Fərman Bakıya qayıdıb və yenidən Mingəçevir SES-də işləməyə başlayıb. Bunlar haqqında Əsmər Nərimanbəyova, Qalina Mikeladze və Gülrəna Qacarın İnternetdə rusca yazıları var və bu faktların bəzilərini oradan götürmüşük.

* * *

Biz Fərmanın ölüm tarixini dəqiqləşdirməyə çalışdıq. Gəlinimiz, cərrah həkim *Könül Əmiraslanova* Mingəçevirə gedərkən bu işi aydınlaşdırmağı ondan xahiş etmişdik. O qayıdarkən bizə həm Fərman Nərimanbəyovun özü haqqında, həm də həyat yoldaşı N.A.Şişkina haqqında bilgilər gətirdi. *"Oqni Mingeçaura" ("Mingəçevir işıqları")* qəzetinin 2 mart 1977-ci il tarixli 26-cı sayında 2 başsağlığı verilib. Onların birincisində Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin aparatı İcraiyyə Komitəsinin üzvü, şəhər sovetinin deputatı N.A.Şişkinaya əri Fərman Əmir oğlu Nərimanbəyovun vəfatı ilə bağlı başsağlığı verib. Bu münasibətlə ikinci başsağlığını isə iş yoldaşları N.A.Şişkinaya 5-ci dəmir-beton məmulatları zavodunun kollektivi verib.[1]

Könül xanımın Mingəçevirdən gətirdiyi (13.08.2006) bilgilər:

[1] *«Огни Мингечаура»*, 02.03.1977, № 26, s. 4.





Rauf Nərimanbəyov

Vidadi Nərimanbəyov

Fərman Nərimanbəyov həbs edildikdən sonra Orta Asiyaya sürgünə göndərilib.[1] Mühəndis *İslam İslamzadənin* yardımıyla sürgündən qurtararaq Mingəçevirə gəlib və Mingəçevir SES-də energetik işləyib. Ona yaxşı işinə görə *"Azərbaycan SSR-in əməkdar energetiki"* fəxri adı verilib. Sürgündə *Natalya Aleksandrovna Şişkina* ilə evlənib. Mingəçevirdə də onunla yaşayıb. Övladları olmayıb.

Fərman Nərimanbəyov 1977-ci ildə vəfat edib. Arvadına *"Oqni Minqeçaura"* qəzetində 2 martda başsağlığı verilməsinə əsasən onun həmin il fevralın sonunda öldüyünü düşünə bilərik. Şişkina ərindən bir neçə il sonra vəfat edib.

Onların mənzilində indi Mingəçevirin *"Səda"* qəzetinin baş redaktoru *Naib Rüstəmov* yaşayır...[2]

* * *

Abdulla Tahirzadə zindanda olarkən 12 avqust 1949-cu il dindirməsində dustaqlıqdan qayıtdıqdan sonra görüşdüyü iki nəfərin adını çəkib; onlardan biri mühəndis Fərman Nərimanbəyovdur. Onun haqqında bildirib: "Təhsilini Fransada alıb, onunla 1928-ci ildə Azərb. SSR Şamaxı rayonunun Çuxuryurd kəndində bağda tanış olmuşam. Tanışlığımızdan bir neçə il sonra o həbs edilib, daha doğrusu, Orta Asiyaya sürgün edilib. O, 5 illiyə sürgün edilmişdi, sonra Bakıya qayıtdı və öz ailəsini götürüb yenə Orta Asiyaya çıxıb getdi. Sürgündən qayıdanda mən onunla görüşmüşdüm".[3]

[1] Deməli, o, buraya bir müddət Kolımada qaldıqdan sonra göndərilib.

[2] Təəssüf ki, N.Rüstəmov Nərimanbəyovların evində qalmış sənədlərin taleyi ilə bağlı suallarımızdan inadla boyun qaçırdı.

[3] AR MTN Arxivi, PR-21950, vərəq 53.

Pirverdiyev Hənifə Hacı Mahmud oğlu

(1893, Sabunçu k./ Bakı – 1940-42-ci illər)



Hənifə Pirverdiyev

Zaqafqaziya Şiə Ruhani İdarəsindən 20 avqust 1909-cu ildə verilmiş 2792 saylı doğum şəhadətnaməsində yazılıb ki, Bakı valiliyi Sabunçu kəndinin sakini Hənifə Hacı Mahmud oğlu öz atası Hacı Mahmud Baxış oğlu Pirverdiyevin qanuni arvadı Sona Şəfi qızından 1893-cü ildə doğulub, doğumun ayı və günü bilinmir.[1]

2 may 1917-ci ildə Bakı Orta Mexanika-İnşaat-Texniki Məktəbinin pedaqoji şurasının verdiyi attestatda oxuyuruq: H.Pirverdiyev 1910-cu ildə Bakı Orta Texniki Məktəbinin kiçik hazırlıq sinfinə girərək orada əla əxlaqla 28 aprel 1917-ci ilədək oxuyub, tikinti bölməsi üzrə elmlərin tam kursunu bitirib, bu zaman yekun sınaqlarında aşağıdakı uğurları göstərib:

Şəriət –	keçməyib
Rus dili –	kafi (3)
Cəbr –	yaxşı (4)
Həndəsə –	yaxşı (4)
Triqonometriya –	yaxşı (4)
Analitik həndəsə –	kafi (3)
Fizika –	yaxşı (4)
Kimya –	kafi (3)
Nəzəri mexanika, tikinti mexanikası –	yaxşı (4)
Tikinti materialları, tikinti işləri –	yaxşı (4)
Bina hissələri və memarlıq formaları –	yaxşı (4)
Memarlıq tarixi –	kafi (3)
İsitmə və havadəyişmə –	kafi (3)
Su kəmərləri və kanalizasiya–	kafi (3)
Yollar və körpülər –	kafi (3)
Smeta və qanunlaşdırma –	yaxşı (4)
Çəkiliş və nivelirləmə –	kafi (3)
Rəsm –	əla (5)
Proyeksiya rəsmxəti –	yaxşı (4)
İnşaat rəsmxəti –	yaxşı (4)
Emalatxanalarda təcrübi məşğələlər –	kafi (3).

Buna əsasən Pirverdiyevə tikinti üzrə texnik rütbəsi və şəxsi fəxri vətəndaş hüququ verilir.[2]

Bakının Sabunçu kəndində 198 saylı evdə yaşayan Pirverdiyev17 avqust 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizədə təhsilini Almaniyada, Frayberq şəhərində Dağ-Mədən Akademiyasında bitirmək istədiyini bildirib və qeyd edib ki, mən cənab *Əli bəy Aşurbəyovun* hesabına təhsil almışam, indi hökumətin yardımına ehtiyacım var.[3]

[1] ARDA, fond 51, siyahı 3, iş 112, vərəq 3.
[2] Yenə orada, vv. 2-2a.
[3] Yenə orada, vərəq 1.



Hənifə Pirverdiyev. Almaniya

31 oktyabr 1919-cu ildə Sabunçuda Heybətli küçəsi 198-ci evdə yaşayan Pirverdiyev AC maarif nazirinə yazdığı ərizədə onun Xalq Maarif Nəzarətindəki sənədlərinin Bakı Dövlət Universitetinin tibb fakültəsinə göndərilməsini xahiş edib. Bildirib ki, sənədlərimi xaricə göndərilmək üçün vermişəm və indi 24-cü namizədəm.[1]

Pirverdiyev 18 noyabr 1919-cu ildə yazdığı növbəti ərizəsində boş yer yaranarsa onu Almaniyaya, Frayberq şəhərinə göndərməyi xahiş edib.[2]

30 dekabr 1919-cu ildə Pirverdiyev təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[3] və 31 dekabr 1919-cu ildə isə oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı[4] barədə dilkağızları verib.

Hənifə Hacı Mahmud oğlu Pirverdiyevə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 558 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[5]

* * *

Pirverdiyev 1920-1927-ci illərdə Berlində (Şarlottenburqda) Ali Texniki Məktəbdə memarlıq ixtisası üzrə oxuyub, ancaq xəstəliyi üzündən məktəbi bitirməyib. 1927-ci ildə Bakıya gəlib. Bundan sonrakı ömürlüyünü yalnız istintaq sənədlərindən öyrənə bilirik.

AR MTN Arxivində Hənifə Pirverdiyev və Lətif Qədiminin ittihamı üzrə 386 saylı (indi: PR-35911) istintaq sənədləri saxlanılır. 194 vərəqdən ibarət bu iş 27 iyul 1940-cı ildə başlanıb və heç iki ay çəkmədən – 22 sentyabr 1940-cı ildə bağlanıb.

Pirverdiyev haqqında 25 iyul 1940-cı ildə arayış tərtib edilib və onun həbs edilməsi, evində axtarış aparılması qərara alınıb.[6] 27 iyul 1940-ci ildə 271 saylı orderlə həbs edilib.[7]

Məhbus anketindəki bilgilərdən: *Pirverdiyev Hənifə Mahmud oğlu* – 1893-cü il Bakı doğumlu; yol mühəndisi; son iş yeri və vəzifəsi – ASSR XKŞ yanında Baş Yol İdarəsində mühəndis; partiyasız; ali təhsilli; qulluqçu; kəndlilərdən. Ailə tərkibi: atası *Pirverdiyev Mahmud Baxış oğlu* 1902-ci ildə Bakı şəhərində ölüb; anası *Pirverdiyeva Sona Şəfi qızı*, 70 yaşlı, Bakıda yaşayır; arvadı *Pirverdiyeva Yelena Ernstovna*, 47 yaş (1893), *alman, Bakıda yaşayır;* uşaqları yoxdur; qardaşları: *Pirverdiyev Bilal Mahmud oğlu*, 41 yaş, 1937-ci ildə həbs edilib; *Pirverdiyev Ağababa Mahmud oğlu*, 38 yaş, Bakıda yaşayır; bacısı *Qafarova Xanımbacı*, 62 yaş, Sabunçuda yaşayır.[8]

27 iyulda evində axtarış aparılıb və bunlar da götürülüb: 143 vərəqlik müxtəlif yazışma, *44 ədəd fotoşəkil*, "Ugorouettel" fotoaparatı, 11 qutuda foto üçün lövhələr, alman dilində 35 ədəd broşürlər, dərgilər,

[1] ARDA, fond 51, siyahı 3, iş 112, vərəq 4. Burada dövlət təqaüdçülüyünə namizəddən söhbət gedir.
[2] Yenə orada, vərəq 5.
[3] Yenə orada, vərəq 6.
[4] Yenə orada, vərəq 7.
[5] Yenə orada, vərəq 8.
[6] AR MTN Arxivi, PR-35911, vərəq 1.
[7] Yenə orada, vərəq 3.
[8] Yenə orada, vv. 4-5.



Hənifə Pirverdiyev həbsdə

35 ədəd müxtəlif pullar və b.[1] Bunların bəziləri 16 sentyabrda arvadı Yelenaya qaytarılıb, yerdə qalanlar isə xüsusi qərarla məhv edilib.[2]

28 iyul 1940-cı ildəki dindirməsini müstəntiq Al. Polyakov aparıb.

"*Sual:* Tərcümeyi-halınızı danışın.

Cavab: Mən Bakı şəhərində 1893-cü ildə ortabab kəndli ailəsində doğulmuşam. Atam Mahmud Pirverdiyev təxminən 1902-ci ildə ölüb. 1904-1909-cu illərdə Sabunçu şəhər məktəbində oxumuşam və oranı qurtarıb Bakı Texniki Məktəbinə (indiki AQNİ-yə[3]) girmişəm. 1927-ci ildə oranı bitirmişəm.

1917-1918-ci illərdə özəl dərslər vermişəm. 1918-ci ildə Bakı şəhərində (Sabunçuda) ali ibtidai məktəbdə müəllimliyə başlamışam. Müəllim kimi 1920-ci ilədək işləmişəm. Sonra 1920-ci ildə Müsavat hökuməti məni oxumağa Berlinə (Almaniyaya) göndərib, orada 1927-ci ilədək oxumuşam. 1927-ci ildə Ali Texniki Məktəbi xəstəliyimə görə bitirmədən SSRİ-yə qayıtdım. Bakıya gələrək ASSR XKŞ yanında Baş Yol İdarəsində mühəndis kimi işə başladım və həbs olunduğum günədək orada işlədim. Azərb. XDİK orqanları qardaşım Bilal Pirverdiyevi 1937-ci ildə həbs edib və indiyədək harada olduğu mənə bəlli deyil".[4]

Müstəntiqin növbəti sualı Hənifə Pirverdiyevin arvadı Yelenanın sosial mənşəyi haqqındadır. O, bu cür cavab verib:

"Arvadım Yelena 1880-ci il doğumludur, Almaniyanın Memel[5] şəhərindəndir. Onun dediyindən mənə bəlli olduğuna görə, tacir ailəsindəndir. 8 yaşı olanda atası ölüb. Atasının ölümündən sonra anası onunla birlikdə Dansiq[6] şəhərinə köçüb və orada zadəgan fon Qrodikə ərə gedib. Arvadım 8 yaşında onu qızlığa götürmüş fon Qrodikin yanında tərbiyə olunub. 1916-cı ildə anası ölüb və arvadım həmin vaxt artıq Rastenburqda[7] qadın gimnaziyasını bitirərək müəllimə işləyib. 1920-ci ildə mən onunla Berlits[8] məktəbində tanış oldum. Orada arvadım alman dili dərsi deyirdi, mən isə dinləyici idim. 1925-ci ilədək biz sadəcə görüşürdük, 1925-ci ildə isə o, mənə ərə gəldi. 1927-ci ildə SSRİ-yə (Bakıya) mən gəldim, bir ildən sonra – 1928-ci ildə o da Bakıya gəldi. 1928-ci ildə arvadımın ögey atası öldü. Həyatının təxminən son iki ilini arvadımın atalığı doğma qardaşının arvadının mülkündə yaşayırdı. Arvadımın atalığının qardaşı arvadımla tanışlığımdan bir neçə il qabaq ölüb və onu heç vaxt görməmişəm. Biz Berlindən Bakıya gələndən sonra Almaniyada arvadımın qohumları və tanışları qalıb və o, 1932-ci ilədək onlarla yazışıb. Mən onun qohumları və tanışları ilə heç vaxt yazışmamışam".[9]

[1] AR MTN Arxivi, PR-35911, vərəq 9.
[2] Yenə orada, vərəq 12.
[3] Azərbaycan Qırmızıbayraqlı Neft İnstitutu; indiki Azərbaycan Neft Akademiyası; AQNİ-dən öncə: Nərimanov adına Sənaye Texnikumu.
[4] AR MTN Arxivi, PR-35911, vərəq 17.
[5] İndi Litvada olan Klaypeda şəhərini almanlar belə adlandırır.
[6] İndi Polşada olan Qdansk şəhəridir.
[7] İndi Polşada olan Kentşin şəhəridir.
[8] *M.D.Berlits* (1852-1921) alman və amerikan dilçisi və müəllimidir. Xarixi dilləri öyrənməyin asan metodikasını işləyib hazırlayıb və bu metodika ilə işləyən beynəlxalq məktəblər sistemini yaradıb.
[9] AR MTN Arxivi, PR-35911, vv. 18-18a.

Həmin günkü dindirməsində Pirverdiyevə tələbələrlə bağlı suallar verilib:

"*Sual:* Müsavat hökuməti Almaniyaya oxumağa neçə nəfər göndərmişdi?

Cavab: Müsavat hökuməti Azərbaycandan Almaniyaya oxumağa təxminən 70 nəfər göndərmişdi.

Sual: Berlində oxuduğunuz zaman sizinlə bağlı olan adamları sayın.

Cavab: Mənim tədris yoldaşlarım bunlar idi: *Musai Cəmil və Mustafayev Ağahəsən.* Bu adamlardan başqa, mən Berlində başqalarıyla da, məsələn, *Sadıqov Sadıq, Axundov Səməndər, Hacıyev Məhəmməd, Sultanov İsgəndər, [Ağa Əbdülhüseyn] Dadaşov*'la da görüşürdüm; sonuncusu öz hesabına oxuyurdu və Almaniyada qaldı.

Sual: Almaniyada oxuduğunuz adamlardan Bakıda kimlərlə görüşürdünüz?

Cavab: Almaniyada oxuduğum adamlardan *Sadıqov Sadıq, Qədimi Lətif, Şahsuvarov Mürsəl, Surxay Şahsuvarlı, Rəhimli Məhəmməd, Qəhrəman Məmmədov, Musai Cəmil, Məmmədli Zal, Əliyev Əliəkbər*'lə görüşürdüm".[1]

29 iyul dindirməsində müstəntiq ondan Cəmil Musai haqqında fikirlərini soruşur və belə cavab eşidir: *"Mən Musai Cəmillə Berlində 1920-ci ildən 1926-cı ilədək yaşamışam, bir fakültədə oxumuşam, həmin fakültəni o, 1926-cı ildə bitirib SSRİ-yə gəldi, mən isə oranı xəstəliyimə görə bitirə bilmədim. Bizim birgəyaşayış dönəmimizdə Musai Cəmil Azərbaycanda Müsavat hökumətinin məhv olunmasına görə təəssüf edir və sovet hakimiyyətinin qurulmasından narazılıq edirdi".*[2]

1 avqust 1940-cı ildə Pirverdiyev müstəntiqin suallarına öz əli ilə cavab yazıb:

"Şarlottenburqdakı Azərbaycan Tələbələri Komitəsi, yanılmıramsa, *Azərbaycan Cümhuriyyəti Tələbələri Birliyi* adlanırdı. Bu komitəyə *Ağasıbəyli, Qəhrəman Məmmədov, Sultanov İsgəndər* başçılıq edirdilər. Onların hamısı Azərbaycanda olub və indi həbsdədirlər.

Berlinə gələndə Komitə Gürcüstan hökumətinin nümayəndəsi *Axmeteli* ilə əlaqədə idi, ancaq Tələbələr Komitəsini Berlində hansısa hakimiyyət orqanının təsdiqlədiyi mənə bəlli deyil.

Sonralar SSRİ tələbələri birləşəndə Tələbə Birliyi xarici ticarət nümayəndəliyi ilə, *Pirumov*'la və müvəkkil *Əlizadə İbad*'la əlaqə saxladı.

Berlində olduğum zaman 1921-ci ildə memar Ortelin yanında 6-7 aya qədər təcrübəçi kimi işləmişəm. Bu, ali məktəbi oxumağım üçün zəruri idi.

Səhhətim (ciyərlərim) zəif olduğuna görə mən ali məktəbi bitirə bilmədim və Tələbə Birliyi mənə ixtisasımı dəyişməyə icazə verdi və mən Mustafayev Ağahəsənlə (Birliyin müvəkkili) birlikdə Berlin yaxınlığındakı Dalemə Bağ-Tərəvəzçilik Məktəbinə yollandım və təcrübəçiliyə başlayaraq 1926-cı ildən 1927-ci ilin may ayınadək orada işlədim və daha heç kəslə və heç bir müəssisə ilə əlaqəm olmadı.

Mən Almaniyada aldığım təqaüdlə dolanmışam, bundan başqa, mənim köhnə xalçam da vardı. Onu İsveçrədə 800 franka satdım, o vaxt bu, 10 min marka edirdi. Almaniyada inflyasiya vaxtı biz təqaüdü valyutada alırdıq və mən onu lazım olduqca xırdalayırdım. 1923-cü ildə Almaniyada pul möhkəmlənəndə mən indiki arvadımın mənzilinə köçdüm və bir otağı kirəyə verdik ki, mənzilpulu verməyək. Bundan başqa, arvadım bəzən əl işləri ilə və müxtəlif xırda işlərlə də pul qazanırdı.

[1] AR MTN Arxivi, PR-35911, vv. 19-20.
[2] Yenə orada, vərəq 21a.

Berlindəki tələbələrlə bağlı suala cavab olaraq bunları da bildirirəm: 1920-ci ildə Berlinə gələndən bir neçə ay keçmiş azərbaycanlı tələbələr özünü azərbaycanlı adlandıran və evində məclislər düzəldən *Azad bəy* adlı birisi ilə tanış oldular. Axşam məclisində bunlar iştirak edib: *Hilal Münşiyev, Sultanov [İsgəndər], Ağasıbəyli [Yusif bəy], Əliyev Əliəkbər, Zeynalov Behbud, Hacıyev [Məhəmməd], Rəhimli M[əhəmməd], Salahov Y[usif], Musai Cəmil, Kazımov [Cəfər], Əfəndiyev [Məhəmmədəmin], Pirverdiyev H.M., Qəhrəman Məmmədov, Mustafayev [Ağahəsən], Qədimi [Lətif], İsgəndərov [Ağalar], Əbdürrəhmanov [Ağacəfər], Rzayev [Nüsrət]* və o zaman Berlində olan başqaları, eləcə də keçmiş Türkiyə vəziri Tələt bəy bir, yaxud iki yaxın adamı ilə.

Qardaş Azərbaycan Türkləri ilə Türklərin qardaşlığı və pantürkizm haqqında nitqlər söyləndi. Birinci *Tələt bəy* danışdı. İkinci tələbələr adından *Münşiyev* danışdı. Bütün bunlardan sonra *Salahov [Yusif]* və *Rəhimli [Məhəmməd]* tarda çaldılar və Azərbaycan mahnıları oxudular".[1]

Öz əli yazdığı izahatda H.Pirverdiyev 1931-ci ildən Bakıda arvadları alman olan L.Qədimi, M.Şahsuvarlı və M.Sadıqovla tanışlığından və onlarla gediş-gəlişindən yazır, sonra qeyd edir ki, 3-4 aydan sonra məni XDİK orqanları çağırdı və vətəndaş Leyxt onlarla yenə əlaqə saxlamağımı tapşırdı. O, XDİK orqanları ilə əlaqə saxlamasının onda sovet vətəndaşı şüurunun formalaşmasında mühüm rolu olduğunu göstərib.[2]

3 avqust 1940-cı il tarixli dindirməsində müstəntiq ondan özünü antisovet təşviqat aparmaqda suçlu sayıb-saymadığını soruşur. Pirverdiyev öncə boynuna almasa da sonra ondan istənilən hər şeyi deyib və gələcək taleyi üçün yalvarıb.[3]

Başqa şahidlərin və müttəhimlərin ifadələri Pirverdiyevin əslində millətçi bir insan olduğunu təsdiqləyir. Düzdür, bu ifadələrin bir çoxu müstəntiqlərin təzyiqi altında yazıla bilər, ancaq onların çoxunda eyni sözün təkrarlanması bunların gerçəkliyinə inam yaradır və bizcə, Pirverdiyevin həbs olunmasının mühüm səbəblərindən biri də millətçi ruhda sözlər söyləməsidir. Məsələn, H.K. 3 sentyabr 1940-cı ildə Pirverdiyevlə üzləşdirilərkən deyib ki, 1940-ci ilin fevral ayında tələbələrdən biri institutda imtahanı rus dilində verməkdən kollektiv şəkildə imtina etdiklərini bildirəndə orada olan Pirverdiyev də bildirdi ki, bütün azərbaycanlı tələbələr, bütün Azərbaycan gəncləri bu tələbələr kimi möhkəm birləşmiş olsaydılar biz azərbaycanlılar indi bu vəziyyətdə olmazdıq, indi ruslar bizə ağalıq etməzdilər.

Pirverdiyev bu deyilənləri təsdiqləyib.[4]

Açığı, hiss olunur ki, amansız və imansız müstəntiqlər Pirverdiyevin xəstə olmasından sui-istifadə edərək ona cismani əzablar veriblər və bu üzdən o, iradəsinin ziddinə olaraq bəzi ifadələr söyləməyə məcbur olub. Şəxsən biz onu əsla suçlu saymırıq.

SSRİ XDİK Özəl Müşavirəsinin 25 yanvar 1941-ci il tarixli qərarı ilə Pirverdiyev Hənifə Mahmud oğlu antisovet təşviqat üstündə müddəti 27 iyul 1940-cı ildən sayılmaqla 8 illiyə islah əmək düşərgələrinə məhkum edilib.[5]

Əlbəttə, səhhəti üzündən təhsilini başa vura bilməyən bir adam sovet həbs düşərgəsində bir-iki ildən artıq dözə bilməzdi...

[1] AR MTN Arxivi, PR-35911, vv. 30-30a.
[2] Yenə orada, vv. 31a-32.
[3] Yenə orada, vv. 35-37.
[4] Yenə orada, vv. 88-89.
[5] Yenə orada, vərəq 169.

Rəcəbli Əhməd Məşədi Cabbar oğlu

(28.08.1898, İrəvan – 15.12.1963, Moskva)

Azərbaycan Kənd Təsərrüfatı Elmləri Akademiyasının[1] akademiki, professor Əhməd Rəcəbli,[2] haqqında ən çox yazılmış[3] və hətta adına Bakıda küçə belə verilmiş, başqa sözlə, haqqını az-çox ala bilmiş azsaylı Cümhuriyyət tələbələrindəndir. Onun özü də, qardaşı İbrahim Rəcəbli də Azərbaycanın tanınmış genetik alimlərindəndir və hər ikisi kommunist rejiminin antibəşəri siyasətinin qurbanı olub.

* * *


Əhməd Rəcəbli

Zaqafqaziya Şiə Ruhani İdarəsinin 13 sentyabr 1907-ci ildə verdiyi 2617 saylı doğum şəhadətnaməsində göstərilir ki, İrəvan şəhərinin sakini Əhməd Məşədi Cabbar oğlu atası Məşədi Cabbar Məşədi Cəfər oğlunun qanuni arvadı Kübra xanım Hacı Xəlil qızından 28 avqust 1898-ci ildə doğulub.[4]

Əhməd təhsilini də doğma şəhərində – qədim Türk-Azərbaycan torpağı İrəvan xanlığının paytaxtı İrəvanda alıb. Ə.Rəcəbova İrəvan şəhərində 1 iyul 1916-cı ildə verilmiş 859 saylı kamal attestatında qeyd olunub ki, o, 15 sentyabr 1907-ci ildə İrəvan kişi gimnaziyasına girərək orada əla əxlaqla 1 iyun 1916-cı ilədək oxuyub, səkkizsiniflik tam kursu bitirib və bu vaxt aşağıdakı biliklərə yiyələnib:

Şəriət –	5 (beş)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	4 (dörd)
Fəlsəfi propedevtika –	5 (beş)
Latın dili –	4 (dörd)
Riyaziyyat –	4 (dörd)
Riyazi coğrafiya –	5 (beş)
Fizika –	5 (beş)
Tarix –	5 (beş)
Coğrafiya –	5 (beş)
Fransız dili –	4 (dörd)
Alman dili –	5 (beş)
Qanunşünaslıq –	5 (beş).[5]

H.Kazımov öz kitabında belə bir fikir söyləyib ki, Ə.Rəcəbli "1918-ci ildə Moskva Dövlət Universitetinin tibb fakültəsinə daxil olmuş, maddi ehtiyac üzündən təhsilini

[1] Sovet dönəmində Azərbaycanda belə bir Akademiya vardı. (Onu bir vaxtlar Gəncədə yaradılmış "Azərbaycan Kənd Təsərrüfatı Akademiyası" adlı ali məktəblə qarışdırmamalı). O, Ümumittifaq Kənd Təsərrüfatı Elmləri Akademiyasının törəməsi idi və təxminən onunla eyni taleyi paylaşıb.
[2] Soyadı bəzi qaynaqlarda *"Rəcəbov"* kimi də gedib. Sənədlərdə bu yazılışı da saxlamışıq.
[3] *"Kommunist"* qəz., 25.9.1923, № 216; Azərbaycan Sovet Ensiklopediyası. VIII cild, ss. 141-142; *Azəri B.* Сильор Раджабли – выпускник итальянского ВУЗа. // Газ. *"Günay"*, 27.06.1995, № 56; *Ənbiya oğlu Ə.* XX əsrin 100 görkəmli azərbaycanlısı. Bakı, 2002, ss. 194-195; *Kazımov H.* Azərbaycanın aqrar-sahə rəhbərləri və görkəmli elm xadimləri. Ensiklopedik məlumat kitabı. Bakı, 2004, ss. 43-44; *Дулаева З.* Командировавный Республикой. // *«Азербайджанские известия»*, 28.05.2004, s. 2.
[4] ARDA, fond 51, siyahı 3, iş 113, vərəq 5.
[5] Yenə orada, vv. 2-2a.



Əhməd Rəcəblinin atası Məşədi Cabbar

yarımçıq qoyaraq Bakıya gəlmişdir".[1] O, Rəcəbli haqqında daha sonra yazıb: "1918-ci ildə "Azərbaycan füqərası" qəzetinin redaksiyasında korrektor işləyib".[2] Müəllifin birinci fikrindəki yanlışlığı Moskvadakı Petrovski-Razumovski Kənd Təsərrüfatı Akademiyasının tələbəsi Ə.Rəcəbov düzəldib – o, 6 avqust 1919-cu ildə Bakıda Vodovoznı küçə[3] 16-cı evdən xalq maarif nazirinə yazdığı ərizədə göstərib ki, mən İrəvan klassik gimnaziyasını 1916-cı ildə gümüş medalla bitirərək Moskva Universitetinin tibb fakültəsinə girmişəm. Birinci kursdan imtahan verərək Petrovski-Razumovski Akademiyasına dəyişilmişəm; gimnaziyanı bitirərkən də elə ora düşmək istəyirdim. İndi oranın dinləyicisiyəm. Attestat və doğum şəhadətnaməmin əsli də oradadır.

Ə.Rəcəbov əlavə edib ki, valideynlərimin imkansızlığı, yoxsulluğu üzündən gimnaziyaya girdiyim vaxtdan dövlət hesabına oxumuşam; universitetdə Qafqaz [Tədris] Dairəsinin təqaüdündən yararlanmışam. Sözlərimin doğruluğuna inanmaq üçün İrəvan gimnaziyası dəftərxanasından arayış ala bilərsiniz, onun keçmiş direktoru c-b *Kotlevski* indi Ümuri-Xeyriyyə Nəzarətinin dəftərxanasının direktoru işləyir... Bunu Parlamentin üzvü c-b *[Bağır] Rzayev* və Azərbaycanın Zakaspidəki[4] konsulu *[Əkbər] Sadıqov* da bilir.

Çox ağır maddi durumda olduğuma görə harada olsa təhsilimi yalnız kənar yardımla davam etdirə bilərəm. Buna görə də Kənd Təsərrüfatı İnstitutunda oxumağı arzu edərək Sizdən xahişimi anlayışla qarşılamağınızı, bu işdə mənə yardım göstərməyinizi xahiş edirəm. İstanbul[5] Kənd Təsərrüfatı İnstitutunda oxumağı arzu edirəm.[6]

9 avqust 1919-cu ildə İrəvan Müsəlmanları Yerdaşlığı idarə heyəti İrəvan şəhərinin vətəndaşı Əhməd Rəcəbova onun təhsilini davam etdirmək üçün heç bir vəsaitinin olmaması haqqında arayış verib. Arayışı Teymur bəy Makinski imzalayıb.[7]

Rəcəbov 4 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı ərizədə Sürix (İsveçrə) Kənd Təsərrüfatı İnstitutunda oxumaq istədiyini bildirib.[8] Ərizənin sonunda ünvan olaraq Sadovı küçə[9] 19-cu evdəki "İttihad" İran məktəbini göstərib.

Maarif Nəzarətinin 16 noyabr 1919-cu ildə qəbul etdiyi tarixsiz ərizəsində

[1] *Kazımov H.* Azərbaycanın aqrar-sahə rəhbərləri və görkəmli elm xadimləri, s. 43.
[2] Yenə orada, ss. 43-44.
[3] İndiki Almaz İldırım küçəsi.
[4] İndiki Türkmənistan.
[5] Öncə *"Lozanna"* yazıb, onun adını pozaraq üstündə *"İstanbul"* edib.
[6] ARDA, fond 51, siyahı 3, iş 113, vv. 1-1a.
[7] Yenə orada, vərəq 4.
[8] Yenə orada, vərəq 6.
[9] İndiki Niyazi küçəsi.

Əhməd Cabbar oğlu Rəcəbov təbəəliyi qəbul etməsi haqqında sənədləri təqdim etdiyini bildirib.[1]

Azərbaycan Hökuməti-Cümhuriyyəsi daxiliyyə nazirinin 9 təşrini-sani (noyabr) 1919-cu ildə verdiyi 11306 saylı vəsiqədə göstərilib: "İşbu vəsiqə Azərbaycan təbəiyyəti haqqında 1919 sənəsi 11 ağustosunda olan qanunun 6-cı fəsli, 2-ci qisminə istinadən Əhməd Cabbar oğlu Rəcəbliyə, mumileyh Rəcəblinin qanunun 2-ci fəsli "Ğ" nöqtəsinə istinadən Azərbaycan Cümhuriyyəti təbəəsi miyanına alınmış olduğu xüsusunda əta edilmişdir. Tamğa parası alınmışdır. 1898 sənəsi şubatın[2] 28-də doğmuşdur. Milliyyəti: Türk. Dini: müsəlman. Ailəcə: bikar.

Daxiliyyə naziri naminə general-mayor (Ağabəyovun imzası).

İdarə müdiri vəzifəsini ifa edən (Rza Ağasıbəyovun imzası).

Şöbə müdiri Bəhram Rzabəyli. Övraq № 48".[3]



Əhməd Rəcəbli və İsgəndər Vəliyev. İtaliya

Əhməd Rəcəbliyə belə ciddi bir sənədin verilməsi onun 9 noyabr 1919-cu ildək gerçəkdən başqa bir dövlətin təbəəsi olduğuna şübhə yeri qoymur. Bəs o dövlət hansıdır? Bizcə, Hidayət Kazımovun kitabında göstərilmiş bir fakt bu məsələ ilə ciddi bağlıdır. Kazımov yazır: Ə.Rəcəbli "1916-cı ildə İrəvan gimnaziyasını gümüş medalla bitirib, həmin vaxtlar ermənilərin orada törətdiyi münaqişə zamanı ailəsi ilə birlikdə İrana köçmüş, orada müəllimlik etmişdir".[4] Təəssüf ki, müəllif qaynaq və müddət göstərməyib, bu üzdən onun fikri tam inam doğurmur, çünki 1916-cı ildən sonra Rəcəbli Moskvada oxuyub. Ancaq Rəcəblinin özünün iranlıların "İttihad" məktəbini ünvan göstərməsi onun İran təbəəsi ola biləcəyi ehtimalını həqiqətə yaxınlaşdırır. Ola bilsin ki, Rəcəblinin atası Məşədi Cabbar ticarət düşüncələrindən dolayı elə əvvəlcədən İran təbəəliyini götürübmüş. Onların Güney Azərbaycanla əski qohumluq bağlarının ola bilməsi də çox təbiidir. Əslində 1930-cu illərədək İrəvan xanlığı və Güney Azərbaycan əhalisi eyni millət olduğuna görə kimin hansı dövlətin (Rusiya, yoxsa İran) təbəəliyini seçməsi xeyli dərəcədə sərbəst idi (məsələn, indi Gürcüstanda yaşayan soydaşlarımızın Azərbaycan vətəndaşlığını, yaxud Azərbaycanda yaşayanların Gürcüstan vətəndaşlığını götürməsi kimi). Quzey Azərbaycanda yaşayan bir çoxları da (özəlliklə iş adamları və tacirlər), Əbdürrəhim bəy Haqverdiyevin diliylə desək, "həmşəri pasportu" almaqda elə bir çətinlik çəkmirdi. Bu üzdən də Rəcəbliləri kiminsə yad, Azərbaycana haradansa gəlmə sayması bağışlanılmaz yanlışlıq olardı. Ancaq hər bir halda bu məsələnin tam aydınlaşdırılmasına ehtiyac var.

[1] ARDA, fond 51, siyahı 3, iş 113, vərəq 7.
[2] Fevralın.
[3] ARDA, fond 51, siyahı 3, iş 113, vərəq 8-8a.
[4] *Kazımov H.* Azərbaycanın aqrar-sahə rəhbərləri və görkəmli elm xadimləri, ss. 43-44.



Əhməd Rəcəbli, yoldaşı Fəhimə, qardaşı İbrahim, Abdulla Şaiq və b. 31 iyul 1927-ci il

29 dekabr 1919-cu ildə Əhməd Rəcəbov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[1] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[2] dilkağızları verib.

Əhməd Məşədi Cabbar oğlu Rəcəbova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 518 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[3]

Artıq xaricə göndərilmək ərəfəsində olan Əhməd Məşədi Cabbar oğlu (Əhməd Rəcəbov) nazirə 13 yanvar 1919-cu ildə yazdığı ərizəsində göstərib ki, mənim xarici pasportumda adım yalnız "Əhməd Məşədi Cabbar oğlu" kimi yazılıb və "Əhməd Rəcəbov" göstərilməyib. Bu üzdən də gələcəkdə mənə pul göndərilərkən yalnız "Əhməd Məşədi Cabbar oğlu" kimi yazılmasını xahiş edirəm.[4]

Romadan yazılmış, AC xalq maarif nazirinin16 mart 1920-ci ildə aldığı bir məruzədə bu vaxt İtaliyada 6 tələbənin qaldığı, onlardan *Əhməd Məşədi Cabbar oğlu* və *Vəlizadə İsgəndərin* Kənd Təsərrüfatı İnstitutuna girmək üçün Perucaya getməyə, *Zeynal bəy Əliyev* və *Cəmil Musayevin* Roma Bədaye Akademiyasına, *Abdulla Rəhimzadənin* Roma Politexnik İnstitutuna, *Mirzə Hacızadənin* Neapolitan Kənd Təsərrüfatı İnstitutuna hazırlaşdıqları göstərilib.[5]

İtaliyadan 1923-cü ildə "Rəcəbli" soyadı ilə dönən Əhməd tezliklə Azərbaycanın ən tanınmış milli kənd təsərrüfatı mütəxəssislərindən biri oldu.

[1] ARDA, fond 51, siyahı 3, iş 113, vərəq 9.
[2] Yenə orada, vərəq 10.
[3] Yenə orada, vərəq 11.
[4] Yenə orada, vərəq 12.
[5] Yenə orada, iş 40, vv. 31-33.

* * *

H.Kazımov Rəcəbli haqqındakı qısa, ancaq yalnız faktlardan ibarət dəyərli məqaləsində onun SSRİ-yə döndükdən sonrakı həyat və fəaliyyəti haqqında dəqiq bilgilər verib. Onlarla oxucuları da tanış edirik:

Rəcəbli 1923-cü ildə İtaliyanın Peruca şəhərində Ali Kral Eksperimental Aqrar İnstitutunu bitirib Bakıya qayıdıb.

1924-cü ildə Zaqatala mahalına aqronom təyin olunub, həmin ildən Zaqatala Kənd Təsərrüfatı Texnikumunu təşkil edib, 1937-ci ilə qədər oraya rəhbərlik edib və eyni zamanda Zaqatala fındıqtəmizləmə zavodunda məsləhətçi kimi fəaliyyət göstərib.

1924-cü ildə onun təşəbbüsü və iştirakı ilə Zaqatala "Car tütünçüləri" yoldaşlıq kooperativi, 1926-cı ildə Zaqatala təcrübə-sınaq stansiyası yaradılıb və 1937-ci ilin iyuluna kimi həmin stansiyaya rəhbərlik edib. Eyni zamanda 1930-36-cı illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda texniki bitkilər kafedrasının müdiri işləyib və respublika Torpaq Komissarlığında dövlət müşaviri olub.



Fəhimə Rəcəbli və Badisəba Köçərli

1935-ci ildə elmi və praktik fəaliyyətindəki görkəmli xidmətlərinə görə SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə ona professor elmi rütbəsi verilib.

1937-ci ilə kimi Ümumittifaq Kənd Təsərrüfatı Elmləri Akademiyasının subtropik bitkilər bölməsinin üzvü olub, 1937-ci ildə namizədlik dissertasiyası müdafiə edib.

1937-ci il avqustun 15-də Azərbaycan SSR Daxili İşlər Komissarlığı onu həbs edib, 1939-cu ildə "inqilab əleyhinə" fəaliyyətinə görə 8 il müddətinə məhkum olunaraq Maqadana sürgün edilib.

1945-ci ildə sürgündən qayıtdıqdan sonra Azərbaycan Elmi-Tədqiqat Çoxillik Bitkilər İnstitutunda elmi işçi, sonra şöbə müdiri vəzifəsində çalışıb, 1950-ci ildə yenidən həbs edilərək Cambula sürgün olunub.

Stalinin ölümündən sonra – 1954-cü ildə sürgündən azad olunaraq Bakıya qayıdıb, Azərbaycan Elmi-Tədqiqat Çoxillik Bitkilər İnstitutunda meyvəçilik şöbəsinə ömrünün axırına kimi rəhbərlik edib. 1955-ci ildə bərəət alıb.

1958-ci ildə Azərbaycan SSR Kənd Təsərrüfatı Elmləri Akademiyasının akademiki, onun bitkiçilik bölməsinin akademik-katibi seçilib.

1963-cü ildə Moskvada vəfat edib. 2 övladı, 2 nəvəsi var.[1]

AMEA Milli Azərbaycan Tarixi Muzeyinin şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Zərifə xanım Dulayeva Ə.Rəcəbli haqqında yazılmış ən dəyərli yazıların müəlliflərindəndir. Onun "Milli ziyalılarım tarixindən səhifələr" adlı məqaləsində[2] Rəcəblinin ömür yolu elmi-publisistik bir üslubda təsvir olunub.

[1] *Kazımov H.* Azərbaycanın aqrar-sahə rəhbərləri və görkəmli elm xadimləri, ss. 43-44.
[2] *Дулаева З.* Страницы истории национальной интеллигенции, ss. 68-81.



Fəhimə Rəcəblinin dayısı professor Qulamrza Qasımbəyli

Həmin yazıda oxuyuruq ki, Əhməd Rəcəbli İtaliyanın Peruca şəhərində Ali Kral Eksperimental Aqrar İnstitutuna girib. 1923-cü ildə həmin institutu mümkün olan 140 baldan 130-nu toplamaqla əla qiymətlərlə bitirib. Genetika-seleksiya istiqamətini özünə ixtisas seçərək görkəmli Avropa genetik alimlərinin əsərləri ilə tanış olub və onları öyrənib. Köklü biliklərə yiyələnmiş Ə.Rəcəbli 1924-cü ildə vətənə qayıdıb. İlk xidməti təyinatı Zaqatala dairəsində aqronomluqdur. Eyni zamanda onun üzərinə məsul bir vəzifə – Kənd Təsərrüfatı Texnikumunun yaradılması, respublika xalq təsərrüfatının kəskin ehtiyac duyduğu yüksək ixtisaslı kənd təsərrüfatı işçiləri hazırlamaq vəzifəsi də qoyulub. Aradan çox az vaxt keçdikdən sonra Rəcəbli öz təşəbbüsü ilə kənd təsərrüfatı sınaq stansiyasını yaradıb, burada özünün yaradıcılıq istəklərini gerçəkləşdirib, kənd təsərrüfatında gerçəkdən bir çox elmi yenilikləri sınaqdan keçirərək tətbiq edib.

Yüksək yaradıcılıq bacarığı, dərin nəzəri bilikləri və məqsədyönlü təcrübi işi Ə.Rəcəbliyə respublikada yeni texniki bitkiləri – yerfındığı (araxis) və tütünü əkməyə, ölkədə ilk dəfə olaraq kənd təsərrüfatı ziyanvericiləri ilə başqa İttifaq respublikalarında da geniş yayılmış bioloji mübarizə üsullarını tətbiq etməyə imkan verib.

1934-cü ildə Zaqatalada olmuş məşhur alim akademik N.İ.Vavilov Ə.Rəcəblidə özünün istedadlı şagirdini və ardıcılını görərək onun fəaliyyətinə yüksək qiymət verib. 1930-1936-cı illər onun həyatında elmi müəllimlik və təcrübi fəaliyyətin bir-biri ilə sıx çulğaşdığı böyük və gərgin işlərin görüldüyü illər olub.

Eyni zamanda Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda kafedra müdiri olan Ə.Rəcəbli respublika Xalq Torpaq Komissarlığının məsləhətçisi, eləcə də Ümumittifaq Kənd Təsərrüfatı Elmləri Akademiyası subtropik bitkilər bölməsinin üzvü idi.[1]

Z.Dulayeva daha sonra yazır ki, 1935-ci ildə Ali Attestasiya Komissiyası Ə.Rəcəblinin vətən elminə böyük töhfələrini nəzərə alaraq ona professor dərəcəsi verib.

İstedadlı araşdırıcı hədsiz əməksevərliyi sayəsində parlaq nəticələr əldə edib. O, Azərbaycanın meyvə bitkilərinin növ ehtiyatlarını tədqiq edib və incəliklə öyrənib, onları geniş təsvir edib və onların ən yaxşılarını öz kolleksiyasına daxil edib. O, respublikada ilk dəfə olaraq meyvə və qabıqlı meyvə bitkilərinin xalqın yaratdığı, indiyədək elmə bəlli olmayan bənzərsiz növlərini uçota alıb və təsvir edib. Onun yaratdığı hibrid fondu formaların qiymətli toplusudur, bu formalardan istifadə yeni, daha mükəmməl növlərin yaradılmasına imkanlar açıb. Ə.Rəcəbli təkcə meyvə bitkilərinin 40-dan artıq növünü ortaya çıxarıb. Onun hesabında düyünün, yerfındığının, buğdanın bir neçə növü var.

[1] *Дулаева З.* Страницы истории национальной интеллигенции, s. 77.



Fəhimə Rəcəbli və Badisəba Köçərli şagirdləriylə. Zaqatala

Seleksiyaçının seçib ortaya çıxardığı bir çox bitkilər sınaq meydanlarından cəsarətlə yalnız Azərbaycanın deyil, bütün Sovetlər Birliyinin tarlalarına da yayılıb və bunu onlarca müəlliflik şəhadətnaməsi təsdiq edir.

Alimin qələmindən 40-dan artıq elmi əsər, o sıradan mütəxəssislərin stolüstü kitabına çevrilmiş "Azərbaycanın meyvə bitkiləri" monoqrafiyası çıxıb.

Ə.Rəcəbli böyük xidmətləri qiymətləndirilərək Azərbaycan Kənd Təsərrüfatı Elmləri Akademiyasının akademiki və Akademiya Rəyasət Heyətinin üzvü seçilib.[1]

Z.Dulayeva daha sonra alimin həyatının ən acı dönəmlərinə işıq salaraq bildirir ki, 1937 və 1950-ci illərdə onun həyatının 12 ili Kolıma və Qazaxıstan sürgünlərində keçib. Ancaq seçdiyi ixtisasa ürəkdən bağlı olan Əhməd Rəcəbli şimalın ən ağır iqlim şəraitində belə ilk istilik təsərrüfatlarının özülünü qoymağı bacarıb, Cambulda isə sürgün yerində gənc təbiətçilər dərnəyini yaradaraq ona başçılıq edib.[2]

Məqalə müəllifi qeyd edir ki, Rəcəblinin ailədə və elmdə həyatının bir çox illəri əlindən alınıb, sağlamlığına zərbə vurulub, ancaq alimin yaradıcılıq ruhu əsla sındırılmayıb. Bunun sübutu kimi o, Rəcəblinin dostu və işdaşı N.Əliyevin xatirəsinə üz tutur: "1954-cü ilin payızında ikinci sürgündən Bakıya qayıdan görkəmli Azərbaycan seleksiyaçı alimi Əhməd Cabbar oğlu Rəcəblini qarşılamaq mənə nəsib oldu... Arıqlamışdı, brezent paltar və ağır nimdaş çəkmələr geymişdi, ayaqlarını güclə atırdı. Qoluna girdim və maşına tərəf apardım. Tezliklə biz artıq şəhərin küçələrində şütüyürdük. O soruşdu: "Hara belə gedirik?". "Evə, uşaqlarının yanına. Axı onlar səni dörd ildən artıqdır görməyiblər". Dedi: "Yox, yox! Öncə calğalığa gedək. Mənim heyvalarımın vəziyyəti necədir? Mən bunu bilmək istəyirəm, başa düşürsən?".[3]

Bu kiçik parça alimdə təbiətin seçilmiş insanlara bəxş etdiyi verginin mahiyyətini açır.

Elmi əsərləri, çoxsaylı eksperimentlərinin və sınaqlarının təcrübi nəticələri Ə.Rəcəbliyə Azərbaycandan çox uzaqlarda da şöhrət qazandırıb. 1963-cü ildə acı

[1] *Дулаева З.* Страницы истории национальной интеллигенции, s. 78.

[2] Yenə orada, s. 77.

[3] Yenə orada, ss. 78-79. Xatirə buradan götürülüb: *«Бакинский рабочий»*, 02.03.1988.



Doktor aqronom Əhməd Rəcəblinin "Ələf bitkilərinin kulturası (becərilməsi)" (1-ci hissə) kitabının (Bakı: "Azərnəşr", 1926) titul səhifəsi



Əhməd Rəcəblinin "Əkin torpağı" kitabının (Bakı: "Azərnəşr", 1926) titul səhifəsi

sınaqlara dözməyərək ürəyi dayandıqda Ə.C.Rəcəblinin ailəsi Florensiyadan məktub almışdı. Orada professor A.Morettini yazırdı ki, hələ Perucada gənc Rəcəbli özü haqqında xoş təəssürat yaratmışdı. O təəssüflənir ki, İtaliyaya bir də gəlmək Ə.Rəcəbliyə nəsib olmadı, halbuki orada işdaşları və dostları onu gözləyirdilər (A.Morettini özünü də o dostlardan sayır).[1]

Oxuduğumuz bu məqalədə müəllif maraqlı bir fakt da gətirib: tarixi əla bilən Ə.Rəcəbli Maqadan dustaqlığı şəraitində nazik papiros vərəqlərində IX əsr görkəmli Azərbaycan sərkərdəsi Babək haqqında hekayə yazıbmış![2]

"Cümhuriyyətin göndərdiyi" adlı ikinci məqaləsində Z.Dulayeva özünün "Milli ziyalıların tarixindən səhifələr" adlı yazısından yararlanmaqla Ə.Rəcəbliyə aid 5 fotonun tarixçəsindən danışır.[3] Ancaq burada razılaşılmayacaq bir məqam var – Zərifə xanım ikinci fotodakı şəxslər içərisində Əli Mədətov, Hüseyn Nağıyev, Bəhram Abdinov və İsgəndər Vəlizadənin olduğunu bildirir, halbuki Cümhuriyyət tələbələri içərisində Əli Mədətov olmayıb və yerdə qalan üç nəfər isə bu fotoda yoxdur.

AMEA Şəki Regional Elmi Mərkəzinin direktoru, geologiya-mineralogiya elmləri doktoru, professor *Zəkəriyyə Əlizadə* 2010-cu ilin 7 noyabrında bizə Əhməd Rəcəbli ilə bağlı bunları danışıb:

– Rəcəbli Sibirdə sürgündə ikən dustaqlar arasında vitaminsizlikdən kütləvi xəstəlik yayılıb. Rəcəbli icazə alaraq otaqda pomidor yetişdirib. Həmin pomidor

[1] *Дулаева З.* Страницы истории национальной интеллигенции, s. 79.

[2] Yenə orada.

[3] *Дулаева З.* Командированный Республикой, s. 2.

dustaqlara da paylanıb və bunun çox böyük faydası olub. Beləliklə, Sibirdə ilk pomidor yetişdirən Rəcəblidir. Rəhmətlik İmam Mustafayev Rəcəbliyə genetik alim kimi xüsusi hörmət bəsləyirdi.

Z.Əlizadə bunu da dedi ki, Rəcəblinin qiymətli heyva sortu da olub – "Rəcəbli sortu". Təəssüf ki, indi həmin sort qalmayıb.

* * *



Əhməd Rəcəbli ilk həbsində. 1937

Yuxarıda göstərildiyi kimi, Rəcəbli sovet rejiminin repressiyasına iki dəfə tuş gəlib. AR MTN Arxivində onun PR-5544 şifrəli istintaq işi saxlanılır. İş 2 cilddir. 229 vərəqlik I cild 1937-1939-cu illəri (ilk həbsini), 39 vərəqlik II cildi isə 23 mart – 6 aprel 1950-ci ili (ikinci həbsini) əhatə edir. O dönəmin bütün istintaqları məzmunca müttəhimin sovet hakimiyyətinə qarşı vuruşduğunu və mövcud olmayan "cinayət ortaqlarını" onun boynuna qoymağa çalışmaqdan ibarətdir. Bu zaman savadsız və qaniçən müstəntiqləri üçüncü bir məsələ əsla maraqlandırmayıb, bu üzdən də həmin istintaq sənədlərində müttəhimin tərcümeyi-halı ilə bağlı materiallar az olur. Rəcəblinin işi də bu baxımdan istisna deyil. Ancaq biz 229 vərəqdən Rəcəblinin həyatını işıqlandıra biləcək ən mühüm faktları diqqətlə seçməyə çalışdıq.

XDİK-nin 1937-ci ilin dekabrında tərtib etdiyi arayışda oxuyuruq: Rəcəbli Əhməd Cabbar oğlu – 39 yaş, İrəvan şəhərinin yetirməsi. 1922-ci[1] ildən Zaqatala şəhərində yaşayır; qulluqçu; mühakimə olunmayıb; bitərəf; ailəli; son iş yeri – Zaqatala yağlı bitkilər sınaq stansiyası, direktor-seleksiyaçı vəzifəsində; kənd təsərrüfatı elmləri doktoru, təhsilini İtaliyada alıb, oraya da keçmiş Müsavat hökuməti göndərib; qatı millətçidir, qeyri-türk millətindən olan şəxslərlə işləmək və onlara yardım göstərmək istəmir; "Türkofil" və "Sveji"nin araşdırmalarında o, Müsavat təşkilatının üzvü kimi keçir; bildirib ki, "mən öz biliklərimi qeyri-müsəlmana vermirəm"... Məhkum edilmiş Qədimov Əliabbasın[2] 10.08.1937-ci il tarixli dindirməsinə görə, əks-inqilabi pantürkist "Türk mühibbi" təşkilatına daxildir.[3]

Azərb. SSR xalq daxili işlər komissarının müavini, DT mayoru Borşşovun 4 noyabr 1937-ci ildə təsdiqlədiyi qərarda Rəcəbli Zaqatala rayonunun aqronomu kimi qeyd olunub.[4] Onun həbs edilməsi üçün 15 avqust 1937-ci ildə 58 saylı order hazırlanıb.[5] Çox qəribədir ki, həmişə öncə qərar çıxarılar, sonra order verilər, ancaq bu dəfə tərsini görürük, order hazırlandıqdan və 16 avqust 1937-ci ildə axtarış keçirildikdən sonra 4 noyabrda bu haqda qərar çıxarılıb. Bu isə işdə saxtakarlığın olduğu haqqında istər-istəməz şübhə doğurur.16 avqust 1937-ci ildə XDİK Zaqatala rayon şöbəsinin rəisi erməni Kasparovun Zaqatalada Rəcəblinin yaşadığı Kənd Təsərrüfatı Texnikumunun binasında apardığı axtarış nəticəsində bunlar müsadirə edilərək götürülüb:

[1] Əslində 1923-cü ildən.

[2] Ə.Qədimov haqqında geniş bilgi üçün bax: *Tahirzadə Ə., Manaflı H.* Unutdurulmuş azman – Əliabbas Qədimov. (Ömür yoluna zindandan baxış). Bakı, 2012, 204 səh.

[3] AR MTN Arxivi, PR-5544, I cild, vərəq 1.

[4] Yenə orada, vərəq 2.

[5] Yenə orada, vərəq 3.



Əhməd Rəcəbli ikinci həbsində. 1950

1) Şəxsi yazışma və fotolar – 1 qovluq (10 vərəq).

2) "Azərbaycan füqərası" qəzetindən kəsiklər – 1 qovluq (48 vərəq).[1]

3) Müxtəlif kağızlar, kəsiklər və qeydlər – 1 qovluq (158 vərəq).

4) *Elmi işlərin əsli* – 1 qovluq (151 vərəq).

5) Əlyazma – bədii oçerklər – 1 qovluq (61 vərəq).

6) *Botanikaya aid yazılmağa başlanmış kitabın əlyazması* – 1 qovluq (69 vərəq).

7) Müxtəlif sənədlər – 1 qovluq (7 vərəq).

8) Xidməti yazışma – 1 qovluq (215 vərəq).

9) "Allahsız" jurnalı – 1 ədəd.

10) "İnqilab və mədəniyyət" jurnalı – 1 ədəd.

11) *"Torpaqşünaslıq" kitabı – 1 ədəd. (Müəllif: Rəcəbli).*

12) *"Gübrə" kitabı – 1 ədəd. (Müəllif: Rəcəbli).*

13) *"Çəltik" kitabı – 1 ədəd. (Müəllif: Rəcəbli).*

14) *Aqronomluq üzrə dərslik, 2 hissə. (Müəllif: Rəcəbli).*

15) *Lüpin gübrəsinə aid kitab. (Müəllif: Rəcəbli).*

16) "İtaliyanın kənd təsərrüfatı" jurnalı – 1 ədəd.

17) "Azərbaycan dilinin orfoqrafiyası" – 1 ədəd.

18) "Sovet Azərbaycanının Türkləri" – 1ədəd.

19) *Taxıl sortlarının perspektivi – 1ədəd (Müəllif: Rəcəbli).*[2]

Sahə üzrə mütəxəssis olmadığımıza və Əhməd Rəcəblinin elmi yaradıcılığını araşdırmadığımıza görə bu siyahıda adı çəkilən əsərlərin indi Azərbaycan aqronomiya elminə bəlli olub-olmadığı haqqında bir söz deyə bilmərik. Ancaq XDİK-nin ozamankı "peşə vərdişi"nə əsasən ciddi güman edə bilərik ki, burada adı çəkilən əsərlərin hamısı yandırılaraq məhv edilib (işdə bu haqda akt olmasa da).

Məhbusun anketində onun haqqında bu bilgilər verilib: Rəcəbli Əhməd Cabbar oğlu –13 fevral 1898-ci il İrəvan doğumlu; yaşayış yeri – Zaqatala şəhəri, Kənd Təsərrüfatı Texnikumu; seleksiya üzrə professor; Zaqatala yağlı bitkilər sınaq stansiyasının direktoru; atası qulluqçu olub; 1923-cü ilədək oxuyub; təhsili ali; kənd təsərrüfatı institutunu bitirib; partiyasız; əzərbaycanlı. Ailə tərkibi: arvadı Fəhimə Mehdi qızı, laborant, Bakı, Çadrovı,[3] 126; qızı Nigar Əhməd qızı, I sinif şagirdi; qızı Xalidə Əhməd qızı, 6 yaş; qardaşı İbrahim Cabbar oğlu Rəcəbli, Kirovabad, AKTİ (Gəncə); özəl xarici əlamətləri – sağ gözü şikəstdir. XDİK Zaqatala rayon şöbəsi 18 avqust 1937-ci ildə həbs edib.[4]

Kasparov hələlik repressiya edilməmiş, ancaq haqqında kirləndirici materiallar toplanmış əks-inqilabi siyasi partiyaların üzvlərinin və əks-inqilabi ruhanilərin 6 saylı siyahısından çıxarışı təsdiqləyib. Bu çıxarışdakı siyahıda 2-ci şəxs "Rəcəbli Əhməd Rəcəb"dir. Bu işin nə qədər tələsik və saymazyana, məsuliyyətsiz yerinə yetirilməsi ondan bilinir ki,

[1] Çox güman ki, bunlar onun həmin qəzetdə çıxmış yazıları olub.
[2] AR MTN Arxivi, PR-5544, I cild, vərəq 4.
[3] İndiki Mirzəağa Əliyev küçəsi.
[4] AR MTN Arxivi, PR-5544, I cild, vərəq 7.

Rəcəblinin hətta atasının adı belə yanlış olaraq "Cabbar" yerinə "Rəcəb" yazılıb.[1]

Əməliyyat müvəkkili Demidovun 1932-ci ildə hazırladığı çıxarışda göstərilir ki, Rəcəbli Əhməd Cabbar oğlu Zaqatala Kənd Təsərrüfatı Texnikumunun direktorudur. 1898-ci il doğumlu, qulluqçudur. Ali təhsilini İtaliyada alıb, onu oraya Müsavat hökuməti göndərib. 1923-cü ilədək [İtaliyada] oxuyub, 1923-cü ildən indiyədək Kənd Təsərrüfatı Texnikumun direktoru vəzifəsində qulluqdadır. Antisovet ünsürlər olan ticarətçilərlə, mollalarla və keçmiş müsavatçılarla əlaqədədir. 1927-ci ildə antisovet ünsürlərlə – sıx əlaqə saxladığı həkim Qədimov və başqaları ilə birgə həbs edilməli idi, ancaq niyəsə həbs edilməyib, yəni həbs zamanı ortadan qeyb olub, sonra da həbs edilməyib.



Sürgündəkilər. *Soldan sağa:* Mürsəl bəy Şahsuvarlı, Əhməd Rəcəbli, Lyudmila Ivanovna Şahsuvarlı-Asanova (Mürsəl bəyin yoldaşı). Cambul, 1955

O, *Molla Nəsrulla əfəndi Qazıyevi* işə götürüb, Qazıyev isə 1927-ci ildə gizli Müsavat partiyasına mənsubluğuna görə 1927-ci həbs edilərək [19]29-cu, ya da [19]30-cu ildə azadlığa buraxılıb. Agentura məlumatlarına görə, vəzifələrinin icrasına az qala ziyançılığa bərabər səhlənkar yanaşır. Ona xidmət üzrə tabe olan adamlar arasında sevimliləri var və fəhlələrlə kobud rəftar edir, yəni fəhlələrdən kimsə hansı məsələ iləsə bağlı müraciət edəndə onu cavabsız qoyaraq danışanı axmaq duruma salır. İşçiləri özünün istədiyi kimi qulluqdan azad edir. Ümumiyyətlə, Rəcəblini sovet hakimiyyətinin tərəfdarı olmayan adam kimi səciyyələndirmək olar.[2]

2 fevral 1938-ci ildə Zaqatala şəhərində XDİK Zaqatala RŞ əməliyyat müvəkkilinin köməkçisi, aqronom və Zaqatala Kənd Təsərrüfatı Texnikumunun tədris hissə müdiri texnikumun arxiv işlərini yoxlayaraq 1934-cü ilin 4, 5 və 6-cı həftələri üçün "həftəlik sinif jurnalları"nı götürüblər. Jurnallar gözdən keçirildikdən sonra müəyyənləşib ki, 5-ci həftə jurnalında texnikum tələbələrindən Əliyev, Bəhmənov, İsaqov, Əminov, Cümayev, Hüseynov və Qurbanovun soyadlarındakı avropalaşdırılmış *"-yev"* və *"-ov"* sonluqlarının üzərindən xətt çəkilib.[3]

Sonrakı istintaqlarda bu Əhməd Rəcəbliyə irəli sürülmüş ən ciddi ittihamlardan biri bu oldu ki, o, millətçiliyi üzündən tələbələrin soyadlarındakı rus (avropalaşdırılmış) *"-ov"* və *"-yev"* sonluqlarını pozaraq onu *"-zadə"* və *"-li"* ilə əvəz etdirib.

Zaqatala kənd təsərrüfatı təcrübə stansiyası komsomol təşkilatının 29 sentyabr 1937-ci ildə (bu zaman artıq Rəcəbli həbs edilmişdi) ümumi yığıncağı keçirilib. Oxucuların diqqətini həmin yığıncağın türk dilində və latın əlifbasında yazılmış protokolundan bəzi çıxışlardan parçalara yönəldirik. Bu protokolun nə qədər savadsız yazılması Rəcəbli

[1] AR MTN Arxivi, PR-5544, I cild, vərəq 9.
[2] Yenə orada, vərəq 10.
[3] Yenə orada, vərəq 11. Ruslara məxsus *"-ov"* və *"-yev"*-dən imtina da cinayət sayılırdı.



Sürgündəkilər. *Soldan sağa:* ev sahibəsi Dina, qucağında onun uşağı, Qalva, Əhməd Rəcəbli, Vera Mürsəl bəy qızı Şahsuvarlı, Lyudmila Şahsuvarlı. Cambul, 1955

əleyhinə danışanların özünün səviyyəsini əyani göstərir. Məsələn, komsomol fəalı N.Ü. *"çıxışda bulunarax təcrübə stansiyasının sabiq müdiri Trotskiçi kontr-rovolsion burjua millətçisi Əhməd Rəcəblinin həmişə stansiyanın işinə tormuz vurmaxla aparılan təcrübə işləri gedişində özündən başqa heç kimin xəbəri və məlumatı olmadığı, siyasi-kitləvi işin gedişinə zərbə vurduğunu, kadroların qayğısına qalmadığını və onların irəli çəkilmədiyini və fəhlələr arasında Staxanov hərakətinin olmadığını qeyd edir".*[1]

Komsomolçu Benik Minasyan əsl erməni kimi danışır:

"Stansiya və texnikomun başlanğıcından işləyirəm. Mən Rəcəblinin burjua millətçisi olmasını göstərən faktı 1925/26-cı illərdə texnikomda erməni tələbələrini bir qayda olaraq qovması ilə sübut edirəm. Ondan sonra texnikom tələbələrini şəhər ermənilərı ilə düşmən salmax üçün döyüş saldırırdı. [...] Stansiya daxilində Lenin milli siyasətinin düzgün hayata keçirilməməsi sayəsində işçilər lazımi evlə təmin edilməmişdir. [...] Rəcəblinin adamı olan İbrahim Sadıxov hələ də stansiyanın evindən çıxarılmamışdır".[2]

Oxucuya bildirmək istəyirik ki, Lenin milli siyasətinə istinad edən bu erməni "işçilər" dedikdə yalnız ermənilərı nəzərdə tutub və onlara ev verməd iyinə görə Rəcəbliyə qəzəb püskürüb. Onun istəyi bu idi, gərək Türk İbrahim Sadıqov evdən çıxarılıb həmin evə bir erməni yerləşdiriləydi!..

Komsomolçu H.H. çıxışında göstərib ki, Rəcəbli *"tələbələr arasında internasional tərbiyəni pozurdu və internasional sözlərini danışanları (işlədənləri) boğurdu".*[3] (Başqa sözlə, ana dilində təmiz danışmağı tələb edib).

Rəcəblini ilişdirməkdən ötrü XDİK Zaqatala RŞ rəisi, DT kiçik leytenantı, erməni B.Kasparov 8 nəfəri şahid kimi dindirib və onlardan Rəcəbli əleyhinə ifadələr almağa çalışıb. Bunların əksəri ümumi sözlər söyləyərək Kasparovu "yarıtmayıb". Ancaq Qaxın İlisu kəndindən olan komsomolçu Z.B. bildirib ki, Rəcəbli *"-ov", "-yev"i sevmir, onları dəyişdirərək "-zadə" edir.*[4]

Zaqatalanın ITala kəndindən olan A.Ə. isə bildirib:

"Rəcəbli mənimlə çox söhbət edib və bir dəfə mənə eynən bu cür deyib: "Biz elə etməliyik ki, bizdə yalnız müsəlmanlar işləsin. Axtar, savadlı müsəlmanlar tapanda yanıma gətir, mən onları işə götürüm. Bu xoxolların hamısını qovlamaq lazımdır". Rəcəbli rusları xoxol adlandırırdı".[5]

[1] AR MTN Arxivi, PR-5544, I cild, vərəq 13.
[2] Yenə orada, vərəq 14a.
[3] Yenə orada, vərəq 16a.
[4] Yenə orada, vərəq 46.
[5] Yenə orada, vərəq 48a.



Bakı Darülmüəllimin və Darülmüəllimatının 1926-cı il məzunlarının 40 illik yubiley fotosu. 1966

Açığı, bu mətndə Kasparovun dəsti-xətti açıq-aydın izlənməkdədir. Dağıstanın Qumuq kəndindən olan komsomolçu N.Ü.-nün (yuxarıda qeyd etdiyimiz) dediyi sözlər oxucularımıza da maraqlı olacaq: *"Rəcəbli çəltiyin yeni sortunu yaradıb və bu sortu "Turani", yəni köhnə Turanlı (şimali Osmanlı) millətlərinin adı ilə adlandırıb. Yaxud o, buğdanın yeni sortunu yaradıb və onu "Azəri" adlandırıb. Bütün bunlar göstərir ki, Rəcəbli pantürkist ruhdadır..."*[1]

N.Ü. bildirib: *"Zaqatala şəhərində kənd təsərrüfatı sınaq stansiyası 1920-ci ildən mövcuddur və Rəcəbli bütün bu vaxt ərzində onun dəyişməz direktoru olub".*[2]

23 aprel 1938-ci ildə Azərb. SSR Ali Məhkəməsinin Özəl Kollegiyası qapalı məhkəmə iclasında Əhməd Rəcəblinin işinə baxaraq qərara alıb ki, iş incəliklə araşdırılmaq üçün Azərb. SSR özəl prokurorluğuna qaytarılsın.[3]

Yenidən istintaqa qaytarılan iş bu dəfə başqa ermənıyə – XDİK Zaqatala RŞ əməliyyat müvəkkilinin köməkçisi Davudyana tapşırılıb. O isə 17 iyun 1938-ci ildə belə qərar çıxarıb: "...Yetərincə müəyyənləşib ki, Rəcəbli Əhməd Cabbar oğlu Zaqatala kənd təsərrüfatı sınaq stansiyasının direktoru və eyni zamanda Zaqatala Kənd Təsərrüfatı Texnikumunun müəllimi olarkən əks-inqilabi millətçi "Türk mühibbi" təşkilatının üzvü olub, Zaqatala şəhəri əhalisi arasında əks-inqilabi iş aparıb və o sıradan şagirdlər arasında Azərbaycan SSR-in qoparılıb Türkiyəyə verilməsini təbliğ edib...".[4]

[1] AR MTN Arxivi, PR-5544, I cild, vərəq 51.
[2] Yenə orada, vərəq 52a. Unutmayaq: Rəcəbli Azərbaycan 1924-cü ildə dönüb.
[3] Yenə orada, vərəq 70a.
[4] Yenə orada, vərəq 81.



Əhmədin qardaşı
İbrahim Rəcəbli həbsdə. 1937

11 avqust 1938-ci ildə Bakıda Şahverdiyanın sədrliyi altında məhkəmə keçirilib və iş yenidən istintaqa qaytarılıb. Bu dəfə isə müstəntiq XDİK Zaqatala RŞ əməliyyat müvəkkili, DT çavuşu Vavilik olub.[1]

20 oktyabr 1938-ci ildə istintaqın bitməsi haqqında protokol tərtib edilib.[2] Ancaq 26 mart 1939-cu ildə iş yenidən dayandırılıb.[3] 29 mart 1939-cu ildə istintaqın bitməsi haqqında yenidən protokol tərtib edilib[4] və həmin gün yeni ittihamnamə oxunub.[5]

SSRİ XDİK yanında Özəl Müşavirə *9 iyun 1939-cu ildə Rəcəbli Əhməd Cabbar oğlunu müddəti 15 avqust 1937-ci ildən sayılmaqla 8 illiyə islah-əmək düşərgələrinə məhkum edib.*[6]

Rəcəbli *Kolımaya göndərilib və 5 ildən artıq "Dalstroy"un Maqadan şəhərindəki yardımçı təsərrüfatında aqronom işləyib və cəza müddəti qurtardıqdan (15 avqust 1945-ci il) sonra da "sərbəst muzdla" həmin təsərrüfatda işləməyə məcbur edilib.*[7]

Cəzasını çəkmiş Rəcəbli *1945-ci ilin sonunda Bakıya qayıdıb.*[8] Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinə tabe olan Elmi-Tədqiqat Çoxillik Bitkilər İnstitutuna böyük elmi işçi təyin edilib.[9]

9 mart 1950-ci ildə Əhməd Rəcəbli yenidən həbs edilib.[10] 3 aprel 1950-ci ildə axtarış zamanı onun evindən götürülmüş bir çox sənədlərin, o sıradan ZSFSR xalq torpaq komissarlarının 1924-cü ildə keçirilmiş I qurultayının 294 səhifəlik stenoqrafik hesabatının "istintaq üçün heç bir önəmi olmadığına görə" yandırmaqla məhv edildiyi haqqında akt tərtib edilib.[11]

İkinci həbsində də o, özünü günahkar saymayıb. Ancaq "ictimai təhlükəli ünsür" olduğuna görə SSRİ-nin uzaq rayonlarından birinə sürgünə göndərilməsi haqqında ittihamnamə 14 aprel 1950-ci ildə tərtib edilib.[12] *Özəl Müşavirə 22 iyul 1950-ci ildə onu Qazaxıstanın Cambul vilayətinə sürgün edib.*[13] Cambuldakı ünvanı belə olub: Kirov küçəsi 194, rayon kənd təsərrüfatı şöbəsi.[14]

Rəcəbli 5 mart 1951-ci ildə SSRİ dövlət təhlükəsizliyi nazirinə ərizə yazaraq elmi sahədə gördüyü işləri sadalayıb və onun işinə yenidən baxılmasını, üzərindən biabırçı ləkənin götürülməsini xahiş edib.[15]

Həmin ərizəsində o göstərib ki, mən Çoxillik Bitkilər İnstitutunda işlədiyim 4 ildə Azərbaycan meyvəçiliyi üçün bir neçə aktual mövzu üzərində çalışmışam.

[1] AR MTN Arxivi, PR-5544, I cild, vv. 84-87.
[2] Yenə orada, vərəq 105.
[3] Yenə orada, vərəq 111.
[4] Yenə orada, vərəq 112.
[5] Yenə orada, vv. 113-115.
[6] Yenə orada, vərəq 119.
[7] Yenə orada, II cild, vərəq 26a.
[8] Yenə orada, vərəq 3.
[9] Yenə orada, vərəq 26a.
[10] Yenə orada, vərəq 3.
[11] Yenə orada, vərəq 13.
[12] Yenə orada, vərəq 22.
[13] Yenə orada, vərəq 24.
[14] Yenə orada, vərəq 27a.
[15] Yenə orada, vv. 31-32.



Azərbaycan SSR Kənd Təsərrüfatı Elmləri Akademiyasının həqiqi üzvləri. *Soldan sağa. Ön cərgədə:* Y.Ə.İbadzadə, F.Ə.Məlikov, Şamama Həsənova (Akademiyanın fəxri üzvü), Ə.Q.Orucov. *Arxa cərgədə:* M.H.Sadıqov, Əhməd Rəcəbli, N.İ.Malov, V.İ.Ulyanişev, M.T.Qəniyev

Öncə Azərbaycanın bütün zonalarında meyvəli bitkilərin sortlarının üzə çıxarılması, onların təsviri, inventarlaşdırılması və vahid respublika kolleksiya bağının yaradılması işinə başlamışam. Bu işlər əsasında *"Azərbaycanın meyvə bitki sortları"* monoqrafiyasını yazmalı idim. Azərbaycanın əsas zonalarını (Naxçıvan, Şirvan zonası, Quba-Xaçmaz, Qarabağ ovalığı və DQMV) artıq bitirmişdim. Bu zonalarda alimlərə bəlli olmayan, keçmişdə və indi sovet dövründə sadə Azərbaycan kolxozçularının (Nügədidən Fazil, Ordubaddan Suğra, Naxçıvandan Tükəz, Balakəndən Nazan və yeni növlərin yaradıcıları olan başqalarının) əkdikləri çoxlu meyvə bitkiləri sortları üzə çıxarılıb. Heyva yığılarkən aydınlaşıb ki, *bütün dünya assortimentindən ən qiymətli və rəngarəng sortlar Azərbaycan sortlarıdır və onların sayı 135-dir.* Kəlbəcər rayonu haqqında çoxlarının təsəvvüründəki "ağ ləkə" qədimdə meyvəçiliyin inkişaf etdiyi ən maraqlı zonalardan biri oldu; indi bütün ecazkar Tərtərçay dərəsi İstisu kurortunu təchiz etməyə gücü çatan çiçəklənən bağa çevrilə bilər.[1]

Qısa məlumatları mən məqalələr şəklində mərkəzi İttifaq kənd təsərrüfatı jurnalı olan "Sad i oqorod" ("Bağ və bostan") jurnalında dərc etdirmişəm. *"Azərbaycanın meyvə bitki sortları"* böyük monoqrafiyasının tərtibi üzrə işləri bu zonalar üzrə demək olar ki, bitirmişdim. *Bu işlə göstərirdim ki, bizim meyvələr sort baxımından çox zəngindir. Bütün İttifaq və bütün dünya Azərbaycan xalqının meyvə bitkiləri sortlarının yaradılması sahəsində gördüyü işləri bilsin ki, nə amerikalılar, nə də bir başqası keçmişdə olduğu kimi bizim meyvə bitkilərinin sortlarını mənimsəməsin və öz xalqının adına çıxmasın.*

Bu işlə bağlı olaraq mən konserv sənayesinin tələblərinə uyğun şəkildə konserv sənayesi üçün şaftalı, ərik və faraş yetişən alma və armudun yeni sortlarının yetişdirilməsinə başladım. Bu meyvə cinslərinin hibridlərini min nüsxələrlə mən Çoxillik Bitkilər İnstitutunun filiallarında əkmişəm. Şaftalılar artıq meyvə verməyə başlamışdı. Kənd Təsərrüfatı Nazirliyinin tapşırığı ilə mən texnikumlar üçün meyvəçilik üzrə

[1] AR MTN Arxivi, PR-5544, II cild, vərəq 31.



Əhməd Rəcəbli

Azərbaycan dilində 30 çap vərəqi həcmində yeni dərslik tərtib etdim. Vəsait artıq makinada çap olunub. 200 orijinal fotoşəkil var və 2 müəssisədə rəydən keçib.

1945-ci ildə mən DİN-ə bəraət almağımla bağlı müraciət etdim. Mənə cavab verdilər ki, bu yalnız 3 ildən sonra mümkündür...

22 mart 1950-ci ildə DTN orqanları məni yenə təcrid etdi və keçmiş məhbus olmuş adam kimi Cambul vilayətinə sərbəst yaşayışa sürgün etdilər. Mənim işimə yenidən baxılmasını və üzərimdən rüsvayçı ləkənin götürülməsini xahiş edirəm".[1]

Bu ərizələrin heç bir köməyi olmayıb. Rəcəbli yalnız 1954-cü ildə sürgündən azad edilib və Bakıya qayıdıb. 1955-ci ildə bəraət alıb. Sonrakı bütün illəri Azərbaycan Elmi-Tədqiqat Çoxillik Bitkilər İnstitutunda meyvəçilik şöbəsinin müdirliyində keçib.

* * *

Əlyazmalar İnsitutunda Əhməd Rəcəblinin 1920-ci illərdə nəşr edilmiş bu kitablarını gördük: *Əkin torpağı*. Bakı, 1926; *Əlaf bitkilərinin kulturası*. Bakı, 1926; *Lüpin göbrəsi*. Azərbaycan Xəlk Toprak Komisarlığı Zakatala mahal kənt təsərrüfatı stasyonunun nəşriyyatı №1. Bakı, 1929. Bizcə, bu əsərləri Rəcəblinin başqa əsərləri ilə birgə yenidən nəşr etdirmək faydalı olardı.

[1] AR MTN Arxivi, PR-5544, II cild, vv. 31-32.

Rəhimli Məhəmməd Paşa oğlu

(10.04.1899, Tiflis – 1986, Bakı)



Məhəmməd Rəhimli

Məhəmməd Rəhimli[1] həyat və fəaliyyəti ayrıca araşdırma mövzusuna çevrilmiş azsaylı Cümhuriyyət tələbələrindəndir. AMEA Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı Sevil xanım Qaziyeva onun keçdiyi həyat yolunu diqqətlə incələyərək dəyərli bir məqalə ortaya qoyub.[2] Sevil xanım onun qohumlarını taparaq görüşüb və onlardan Rəhimlinin həyatını əks etdirən çoxlu yazılı və təsviri sənədlər əldə edərək bu tələbənin həyatının ən mühüm dönəmlərinə dair xeyli maraqlı faktı elmi dövriyyəyə gətirib. Biz də yeri gəldikcə həmin yazıdan yararlanmışıq. Ancaq hələlik AR Dövlət Arxivində saxlanılan sənədlərlə tanış olaq.

* * *

28 avqust 1906-cı ildə verilmiş 1851 saylı doğum şəhadətnaməsində göstərilib ki, Tiflis şəhərinin sakini Paşa Sadıq oğlu Ağarəhimovun öz qanuni arvadı Əsmət Şıxrəhim qızından oğlu Məhəmməd 10 aprel 1899-cu ildə doğulub.[3]

5 oktyabr 1918-ci ildə verilmiş 247 saylı kamal attestatında Məhəmməd Paşa Sadıq[4] oğlu Ağarəhimovun 1917-ci ilin sentyabrında Tiflisdə İ.M.Maçaidze gimnaziyasına girərək orada əla əxlaqla 1918-ci ilin oktyabrınadək oxuması, səkkizsiniflik tam kursu bitirməsi və bu zaman aşağıdakı bilikləri qazanması qeyd edilib:

Şəriət –	keçməyib
Gürcü dili –	keçməyib
Rus dili və ədəbiyyatı –	yaxşı (4) dörd
Fəlsəfi propedevtika –	kafi (3) üç
Latın dili –	yaxşı (4) dörd
Alman dili –	əla (5) beş
Fransız dili –	yaxşı (4) dörd
Riyaziyyat, o sıradan:	
Hesab –	yaxşı (4) dörd
Cəbr –	yaxşı (4) dörd
Həndəsə –	yaxşı (4) dörd
Triqonometriya –	kafi (3) üç
Fizika –	kafi (3) üç
Riyazi coğrafiya –	yaxşı (4) dörd
Gürcüstan tarixi –	keçməyib
Tarix –	yaxşı (4) dörd
Coğrafiya –	yaxşı (4) dörd

[1] Soyadı öncə *"Ağarəhimov"* olsa da sonralar *"Rəhimov"* kimi də işlədilib. Sənədlərdəki həmin yazılışları da saxlamışıq.

[2] *Гациева С.* Выпускник Дармштатского Высшего технического института, ss. 188-193. Sevil xanımın topladığı materiallar Milli Azərbaycan Tarixi Muzeyinin sənədli mənbələr fondunda saxlanılır. Həmin materialların surətlərini bizə təqdim etmiş S.Qaziyevaya minnətdarlığımızı bildiririk.

[3] ARDA, fond 51, siyahı 3, iş 119, vərəq 3.

[4] Göründüyü kimi, ad sənəddə yanlış gedib. Məhəmmədin atası Paşa Sadıq deyil, Paşadır, Sadıq isə Paşanın atasının adıdır. Bu səhv başqa sənədlərə də "adlayıb".

Təbii tarix –	yaxşı (4) dörd
Qanunşünaslıq –	yaxşı (4) dörd
Hüsnxət –	yaxşı (4) dörd.[1]

1917-ci ildə Bakı şəhərində Qafqaz müsəlman şagirdlərinin I qurultayı keçirilərkən 10 may 1917-ci ildə çəkilmiş xatirə fotolarında qurultay iştirakçıları arasında Məhəmməd Rəhimli də var. Bu, onun məktəbin fəal şagirdlərindən olduğunu göstərir.

Tiflis şəhərinin sakini *Məhəmməd Ağarəhimov* 1919-cu ilin oktyabrında Bakı şəhərində Xalq Maarif Nəzarətinə yazdığı ərizəsində xaricə göndəriləcək tələbələr sırasına salınmasını xahiş edib və Almaniyada, yaxud İsveçrədə ya mexanika, ya da elektrotexnika bölümündə oxumaq istədiyini bildirib.[2]

22 avqust 1907-ci ildə Tiflis şəhər xəstəxanasından verilmiş arayışda deyilir ki, Məhəmməd Paşa Sadıq oğlu Ağarəhimovun sol qolunda çiçək peyvəndi edilib.[3]

22 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı ərizəsində M.Ağarəhimov Fransada (Parisdə) ali təhsil almağa razılıq verdiyini yazıb.[4]

M.Ağarəhimov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[5] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[6] 29 dekabr 1919-cu ildə dilkağızları verib.

Məhəmməd Paşa Sadıq oğlu Ağarəhimova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 494 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[7]

Öncə Berlində oxuyan Məhəmməd sonra Darmştadt şəhərinə gedərək orada Ali Texniki İnstitutda maşınqayırma fakültəsində oxuyub. Təhsili bitirərək 1926-cı ildə SSRİ-yə qayıdıb.

* * *

M.Rəhimlinin tələbəlik illəri ilə bağlı faktlar hədsiz azdır. Onlardan biri tələbə yoldaşına aiddir. 1 avqust 1940-cı ildə Hənifə Pirverdiyev zindanda müstəntiqin suallarına cavabı öz əli ilə yazıb: "Berlindəki tələbələrlə bağlı suala cavab olaraq bunları da bildirirəm: 1920-ci ildə Berlinə gələndən bir neçə ay keçmiş azərbaycanlı tələbələr özünü azərbaycanlı adlandıran və evində məclislər düzəldən *Azad bəy* adlı birisi ilə tanış oldular. Axşam məclisində bunlar iştirak edib: *Hilal Münşiyev, Sultanov [İsgəndər], Ağasıbəyli [Yusif bəy], Əliyev Əliəkbər, Zeynalov Behbud, Hacıyev [Məhəmməd], Rəhimli M[əhəmməd], Salahov Y[usif], Musai Cəmil, Kazımov [Cəfər], Əfəndiyev [Məhəmmədəmin], Pirverdiyev H.M., Qəhrəman Məmmədov, Mustafayev [Ağahəsən], Qədimi [Lətif], İsgəndərov [Ağalar], Əbdürrəhmanov [Ağacəfər], Rzayev [Nüsrət]* və o zaman Berlində olan başqaları, eləcə də keçmiş Türkiyə vəziri Tələt bəy bir, yaxud iki yaxın adamı ilə.

Qardaş Azərbaycan Türkləri ilə Türklərin qardaşlığı və pantürkizm haqqında nitqlər söyləndi. Birinci *Tələt bəy* danışdı. İkinci tələbələr adından *Münşiyev* danışdı. Bütün bunlardan sonra *Salahov [Yusif]* və *Rəhimli [Məhəmməd]* tarda çaldılar və Azərbaycan mahnıları oxudular".[8]

[1] ARDA, fond 51, siyahı 3, iş 119, vərəq 2.
[2] Yenə orada, vərəq 1.
[3] Yenə orada, vərəq 4.
[4] Yenə orada, vərəq 5.
[5] Yenə orada, vərəq 6.
[6] Yenə orada, vərəq 7.
[7] Yenə orada, vərəq 8.
[8] AR MTN Arxivi, PR-35911, vv. 30-30a.

Bakıya *"Məhəmməd Rəhimli"* kimi qayıdaraq dəzgahqayırma zavodunda baş mühəndis işləyib. Ancaq Müsavat hökumətinin hesabına və Almaniyada ali təhsil alması kimi iki ən mühüm "cinayət"inə görə onun da günü sovet rejimində qara olub.



Mürsəl bəy Şahsuvarlı və Məhəmməd Rəhimli. Almaniya

Münxendə çıxan *"Qurtuluş"* dərgisində 1938-ci ildə dərc edilmiş "Azərbaycanda nələr olur?" adlı məqalədə[1] mühəndis Rəhimlidən də söz açılır. Məqalənin ondan söz gedən hissəsini aşağıda bütünlüklə veririk:

"Məlum olduğu üzrə, Sovetlərdə iki cür sənaye vardır: ağır və yüngül sənaye. Bunlar da ümumi sovetlər və yerli olmaq üzrə ikiyə ayrılır. Azərbaycanın bütün sərvətləri kimi, ağır və yüngül sənaye də Moskvanın əlindədir. Yenə Moskva kontrolunda olan bir yerli sənaye vardır. "Bakinski raboçi"nin (08.01.1938) yazdığına görə, "bu yerli sənaye məmləkətə dəzgah, inşaat alətləri və materialları, şüşə, mismar, spirt, şərab və s. kimi çox qiymətli məmulat verir. Bu məmulat da Azərbaycan xaricinə belə çıxarılmaqdadır. Bu sənaye 1937-də 19.000.000 manatlıq mal buraxmış, 1938-də isə 27 milyon manatlıq buraxacaqdır".

Fəqət "xalq düşmənləri" və "burjua-nasyonalistlər" buraya da soxularaq fabrik və zavodlarda ziyançılıqla məşğul imişlər. Bu üzdən "neçə gündür ki, mismar zavodu xammal olmadığı üçün işsiz durur. Azərbaycan Yerli Sənaye Komissarlığının ən mühüm müəssisələrindən biri olan beton zavodu son təşrin[2] ayında 600.000 manat ziyan etmişdir. Şüşə zavodunda məmulatı qoyacaq yer yoxdur. Zavod imkanının yarısı qədər belə işləmir.

Bütün bu vəziyyətin səbəbi Yerli Sənaye Komissarlığının "xalq düşmənləri" əlində olmasından irəli gəlirmiş. Bunların da başında Çeladze, Vartapetov və Rəhimli dururmuş. Gürcü-erməni-azəri bloku olan və aralarında rus bulunmayan bu üçlüyün ən təhlükəli üzvü mühəndis Rəhimlidir. Rəhimlinin nə qədər suçlu olduğunu göstərmək üçün qəzet "bu adam vaxtilə Müsavat hökuməti tərəfindən Almaniyaya təhsilə göndərilmiş və təhsilini Almaniyada bitirmişdir" deyir. Hələ Yerli Sənaye Komissarlığında bu kimi mütəxəssislər az deyilmiş. Qəzet bütün bu mütəxəssislərin atılıb, yerlərinə staxanovçu fəhlələri qoymağı təklif edir. Bu rus ustaları iş başına qoyulmadıqca fabriklər ziyan etməkdən qurtulmayacaqdır".[3]

Əlbəttə, çəkistlər bütün mühacirət mətbuatını vaxtında və çox diqqətlə oxuyurdular. Bəlkə də elə bu yazıya görə ona 1938-də toxunmayıblar, necə deyərlər, "dədəboyu" veriblər.

Rəhimli Məhəmməd Paşa oğlunun ittihamı üzrə 1456 saylı (indi: PR-21754) istintaq işini vərəqləyirik. Müharibədən az sonra – 7 iyul 1941-ci ildə başlanıb, 7 sentyabr 1941-ci ildə "tezbazar" bitib. 124 vərəqdir.

[1] *Kulu A.K.* Azerbaycanda neler oluyor? // *"Kurtuluş"*, Şubat 1938, sayı 40, ss. 19-22.
[2] Noyabr.
[3] *Kulu A.K.* Azerbaycanda neler oluyor?, s. 20.



Azərbaycanlı tələbələr. *Soldan sağa:* (?), Məhəmməd Rəhimli, Hüseyn Şıxıyev, Məhəmmədəmin Öfəndiyev. Almaniya

26 iyun 1941-ci ildə Nazarov və Ohanov Məhəmməd Rəhimlinin həbsi üçün qərar hazırlayıblar və həmin gün qərarı Azərb. SSR xalq dövlət təhlükəsizliyi komissarının müavini, DT mayoru Markaryan təsdiqləyib. Burada göstərilib: "Rəhimli Məhəmməd Paşa oğlu təhsilini Almaniyada Darmştadt şəhərində alıb, onu oraya oxumağa Müsavat hökuməti göndərib. 1926-cı ildə təhsili bitirərək SSRİ-yə qayıdıb. 2-ci dəfə Almaniyaya 1928-ci ildə Berlinə xəstə bacısını aparmaq bəhanəsi ilə gedib. Gediş vizasını ona Azərb. SSR MİK-nin keçmiş sədri Ağamalıoğlu (bacısı Ağamalıoğlunda ərdə idi) təşkil edib. İfşa edilmiş və repressiya olunmuş xalq düşmənləri Xasayev N.K. (Rəhimlinin bir bacısı da Xasayevdə ərdə olub), Ağaverdiyev, Balaxlinski, Həsən Səfərov, Həmid Sultanov və başqaları ilə yaxın əlaqəsi olub. Xarici mütəxəssislərdən "Elektrotok"un mühəndisləri alman Lebram və amerikalı mühəndis Tupiko ilə əlaqə saxlayıb. İfşa olunmuş xalq düşməni Həsən Səfərov əks-inqilabi təşkilata cəlb etdiyi şəxsləri sadalayarkən Rəhimli Məhəmmədin də adını çəkib".[1]

27 iyun 1941-ci ildə M.Rəhimlinin həbsi üçün 418 saylı order verilib[2] və 8 iyul 1941-ci ildə o həbs edilib.[3]

Məhbus anketində bunları oxuyuruq: Rəhimli Məhəmməd Paşa oğlu – 1899-cu il Tiflis doğumlu; Xalq Yerli Sənaye Komissarlığı fiziki cihazlar zavodunun baş mühəndisi; partiyasız; ali təhsilli; kəndlilərdən; qulluqçu; atası Rəhimli Paşa Sadıq(oğlu) 1935-ci ildə ölüb; anası Rəhimli Əsmət Rəhim qızı 1934-cü ildə ölüb; arvadı yoxdur, uşaqları yoxdur; bacıları: Muradova Fatma Paşa qızı, 57 yaş, Bakı, Qırmızı küçə,[4] 12-ci ev,

[1] AR MTN Arxivi, PR-21754, vərəq 1.

[2] Yenə orada, vərəq 3.

[3] Yenə orada, vərəq 38.

[4] İndiki Bünyad Sərdarov küçəsi.



Cümhuriyyət tələbələri. *Soldan-sağa:* Məhəmmədəmin Öfəndiyev *(sifəti aydın seçilmir)*, Məhəmməd Rəhimli, Qəhrəman Məmmədov, Axundov İsmayıl *(sifəti aydın seçilmir)*, Bəhram bəy Hüseynzadə, Salman Hüseynzadə *(sifəti aydın seçilmir)*. Almaniya, 1920-ci illər

3-cü mənzil; Muradova Düriyə Paşa qızı, 54 yaş, Bakı, 2-ci Paralel[1] 76, 2-ci mənzil; Xasayeva Nisə Paşa qızı, 44 yaş, Komi SSR (sürgündə). Ünvanı: Bakı, Çiçerin küçəsi,[2] № 7.[3] 08.07.1941-ci ildə Azərb. SSR Xalq Dövlət Təhlükəsizliyi Komissarlığı (XDTK) həbs edib.[4]

* * *

8 iyul 1941-ci ildə müstəntiq ondan tərcümeyi-halını danışmağı tələb edib və Rəhimli özü haqqında aşağıdakı bilgini verib: "1899-cu ildə Tiflis şəhərində şikəst kəndli ailəsində doğulmuşam. Atam mən uşaq olarkən müxtəlif müəssisələrdə gündəlik işlərdə çalışıb. Anam isə paltar yuyub. Mənim özüm 1918-ci ilədək Tiflis şəhərində birinci orta kişi məktəbində oxumuş, oranı 1918-ci ildə bitirmiş və 1919-cu ilin başlanğıcında Bakı şəhərinə gəlmişəm. Burada universitetin tarix-filologiya fakültəsinə girmişəm. Bakı Universitetində 1920-ci ilin başlanğıcına qədər oxuyaraq bundan sonra Almaniyada Darmştadt şəhərinə Maşınqayırma İnstitutuna[5] oxumağa göndərilmişəm. Orada 1926-cı ilədək oxuyaraq bu institutu bitirib birbaşa Bakı şəhərinə gəlmişəm. Bakı şəhərinə gəlincə Şmidt adına zavoda konstruktor vəzifəsinə göndərilmişəm. Orada 1928-ci ilədək işləyib, bundan sonra oradan öz istəyimlə "Azəryolnəqliyyat"da mexanika bazasının rəisi vəzifəsinə işə girmişəm. "Azəryolnəqliyyat"da 1936-cı ilədək işləmiş və bu təşkilatın ləğv edilməsi

[1] İndiki Bala Məcidov küçəsi.

[2] İndiki Yusif bəy İbrahimli küçəsi.

[3] AR MTN Arxivi, PR-21754, vv. 4-5.

[4] Yenə orada, vv. 4-5a.

[5] Bizcə, *"Maşınqayırma İnstitutu"* ifadəsi müstəntiq səhlənkarlığının nəticəsidir; *"maşınqayırma fakültəsi"* olmalı idi.



Məhəmməd Rəhimli. Qolunun üstündə ərəb əlifbası ilə yazılıb: *"Sevgili Leylimə bir xatirat olaraq. Məhəmməd. Darmştadt. 2.5.[19]25"*

ilə bağlı olaraq 1 saylı Azərdəzgahqayırma zavoduna baş mühəndis vəzifəsində işləməyə keçmişəm. Bu zavodda 1940-cı ilədək işləmişəm. Zavod Xalq Aviasiya Komissarlığına verildiyinə görə mən fiziki cihazlar zavoduna baş mühəndis vəzifəsinə keçirilmiş və həbs edildiyim günədək orada işləmişəm.

Sual: Sovet hakimiyyəti orqanlarının repressiyaya uğratdığı yaxın qohum və tanışlarınızı sayın.

Cavab: Sovet hakimiyyəti orqanlarının repressiya etdiyi yaxın qohumlarımdan bacımın əri Xasayev Məhəmmədzaman (atasının adını xatırlamıram) həbsinədək Qazax RİK-nin sədri işləyib. Yaxın tanışlarımdan repressiyaya uğrayan yoxdur.

Sual: Siz əks-inqilabi fəaliyyət üstündə həbs olunmusunuz. Özünüzü bunda suçlu sayırsınızmı?

Cavab: Heç bir əks-inqilabi fəaliyyətlə məşğul olmamışam və özümü bunda suçlu saymıram".[1]

Sonrakı dindirmələrdə müstəntiqlərin bütün səylərinə baxmayaraq Rəhimli cinayət işləmədiyini inadla deyir, müstəntiqlər isə Səfərov və Fərəczadənin onun əks-inqilabi fəaliyyəti haqqında dediklərini sübut kimi göstərirlər. İstədikləri cavabı ala bilməyən müstəntiqlər 13 avqust 1941-ci ildə istintaq müddətini uzatmağa məcbur olublar.[2] 7 sentyabr 1941-ci ildə istintaqın bitdiyi elan edilib.[3]

SSRİ XDİK Özəl Müşavirəsi 27 dekabr 1941-ci ildə M.Rəhimlini casusluq üstündə müddəti 7 iyul 1941-ci ildən sayılmaqla 15 illiyə islah-əmək düşərgəsinə məhkum edib.[4] Sənədin sonunda göstərilib ki, o, 27 yanvar 1942-ci ildə Şimali Ural düşərgələrinə ("Sevurallaq")a göndərilib.

Saratov vilayətində 8 saylı düşərgə bölməsində "yaşayan" M.Rəhimli 29 oktyabr 1945-ci ildə SSRİ xalq daxili işlər komissarı, marşal L.P.Beriyaya ərizə yazaraq göstərib ki, 1941-ci ildə hərbi hərəkatların başlandığı ikinci gün Azərb. SSR XDİK orqanları məni həbs edib və casusluqda günahlandırılaraq 15 il azadlıqdan məhrum edilmişəm...

Bundan sonra o, işində vicdanla çalışdığını və ona qarşı irəli sürülmüş ittihamların tam əsassız olduğunu sübut etməyə çalışıb və onun anlaşılmaz durumunu aydınlaşdırmağa sərəncam verməyi xahiş edib.[5]

7 mart 1946-cı ildə tərtib edilmiş bir sənəddən aydın olur ki, Əsgər Fərəczadənin ifadələrində Məhəmməd Rəhimlinin adı keçmir.[6]

[1] AR MTN Arxivi, PR-21754, vv. 15-15a.
[2] Yenə orada, vv. 24-25.
[3] Yenə orada, vərəq 26.
[4] Yenə orada, vərəq 34.
[5] Yenə orada, vv. 37-37a.
[6] Yenə orada, vərəq 214.



Məhəmməd Rəhimli, Bəhram Hüseynzadə. Darmstadt, 1925

1946-cı ildə M.Rəhimlinin hamısı rus və ermənilərdən ibarət olan 10 qonşusu və yoldaşı şahid kimi dindirilib, ancaq onlar Rəhimlini ya tərifləyiblər, ya da əleyhinə heç bir söz deməyiblər.[1]

İstintaq sənədlərində M.Rəhimlinin Qazaxıstan SSR Karaqanda vilayəti Cezqazqan rayonu Cezdı qəsəbəsində 4-cü düşərgə bölməsindən 1954-cü il oktyabrın sonunda,[2] 1955-ci il 3 oktyabrda[3] yenə həmin ünvandan yazdığı ərizələrdə işinə yenidən baxılmasını xahiş edib.

O, 1955-ci ilin dekabrında Azərb. SSR prokurorluğuna növbəti ərizəsini yazarkən artıq Bakıda Qırmızı küçədə 12-ci evin 3-cü mənzilində bacısı Fatmanın evində yaşayırdı. O, işinin Moskvadan gətirilərək burada baxılmasını xahiş edib.[4] İstintaq işində Rəhimlinin yazdığı eyni məzmunlu bir çox başqa ərizələr də var.[5]

Məhəmməd Rəhimliyə, nəhayət, 18 aprel 1956-cı ildə bəraət verilib.[6]

Rəhimli bəraət aldıqdan sonra yenidən işləməyə başlayıb. Öncə avtobaza rəisi təyin edilib, sonra Bakı Baş Tikinti İdarəsi rəisinin müavini olub. Son iş yeri və vəzifəsi Bakı Tikinti İdarəsi Trestində avtomobil ekspedisiyasının rəisi idi.[7]



Məhəmməd Rəhimli həbsdə. 1941

[1] AR MTN Arxivi, PR-21754 vv. 45-67.
[2] Yenə orada, vv. 75-79.
[3] Yenə orada, vv. 80-81.
[4] Yenə orada, vərəq 82.
[5] Yenə orada, vv. 83-91.
[6] Yenə orada, vərəq 124.
[7] *Катеева С.* Выпускник Дармштадтского Высшего технического института, s. 192.

Rəhimov Cəbrayıl Məhəmmədrza oğlu

(1892, Bakı – ?)



Cəbrayıl Rəhimov

Bakı Qazi İdarəsinin 19 avqust 1919-cu ildə verdiyi 2202 saylı doğum şəhadətnaməsində Bakı şəhərinin vətəndaşı Cəbrayıl Məhəmmədrza oğlu Rəhimovun[1] öz atası Məhəmmədrzanın qanuni arvadı Umubanin Əbdürrəhim qızından 1892-ci ildə doğulduğu göstərilib; doğumun ayı və günü bəlli deyil.[2]

Moskva Kommersiya İnstitutunun (MKİ) dəftərxanası 22 sentyabr 1912-ci ildə verdiyi 3961 saylı vəsiqədə Rəhimovun MKİ-nun iqtisad bölümünün 1-ci semestr dinləyicilərindən olduğunu təsdiqləyir.[3]

MKİ-nun 7 may 1914-cü ildə verdiyi biletdə bu institutun həqiqi dinləyicisi Rəhimov Cəbrayıl Məhəmməd oğlunun Rusiya İmperiyasının bütün şəhər və kəndlərinə bugünkü tarixdən 15 sentyabr 1914-cü ilədək məzuniyyətə çıxdığı təsdiqlənib.[4]

1916-17-ci dərs ilinin 1 noyabrında Rəhimovu Bakı şəhərindəki 8-ci rus-türk məktəbində müəllim kimi görürük. Qeyd edək ki, müdiri Əbdüləli bəy Vəlibəyov olan bu məktəbdə ikisi qoşa olmaqla cəmi 6 sinif və 6 müəllim var. 52 şagirdi olan 1 "a" sinfində müdir Əbdüləli bəyin özü dərs deyir. 49 şagirdli 1 "b" sinfində müəllim *Salman bəy Məlikyeqanov*, 48 şagirdli 2 "a" sinfində *Cəbrayıl Rəhimov*, 47 şagirdli 2 "b" sinfində *Abbasqulu Yusifzadə*, 52 şagirdli 3-cü sinifdə *Halay bəy Şıxlınski*, 32 şagirdli 4-cü sinifdə *Məhəmmədtağı Kərimov* dərs deyirlər.[5]

Moskva Kommersiya İnstitutunun 2-ci kurs tələbəsi, Bakıda Suraxana küçəsi 174-cü evdə yaşayan Cəbrayıl Rəhimov 19 avqust 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizədə onu Azərbaycan Cümhuriyyəti hökumətinin xaricə göndərdiyi tələbələr sırasına salmağı və iqtisadçı olduğuna görə Fransaya, yaxud İsveçrəyə öz ixtisası üzrə göndərməyi xahiş edib.[6] (Ərizənin üstündə 136 saylı xarici pasportun Rəhimova 11 dekabr 1919-cu ildə verildiyi göstərilib).

Cəbrayıl Rəhim oğluna 5 iyun 1911-ci ildə verilmiş 293 saylı attestatda onun 1 sentyabr 1909-cu ildə Şamaxı edadi (real) məktəbinə girərək orada 4 iyun 1911-ci ilədək oxuyub əsas bölmə üzrə tam kursu bitirdiyi göstərilib.[7] Qiymətləri ortababdır. Şamaxı real məktəbinin əlavə sinfinin şagirdi, Bakı şəhərinin sakini Cəbrayıl Rəhim oğluna 15 iyun 1912-ci ildə verilmiş 279 saylı şəhadətnamədə oxuyuruq: O, 1 sentyabr 1911-ci ildən 13 iyun 1912-ci ilədək bu sinifdə əla əxlaqla oxuyub və əlavə sinfin tam kursunu bitirib. Bu zaman o, yalnız şəriətdən "beş" (5), riyazi coğrafiyadan "dörd" (4), yerdə qalan 12 fəndən yalnız "üç" (üç) alıb.[8]

[1] Soyadı bəzi qaynaqlarda *"Rəhim oğlu"*, *"Rəhimzadə"* kimi də verilib. Sənədlərdəki həmin yazılışları da saxlamışıq.
[2] ARDA, fond 51, siyahı 3, iş 116, vərəq 4.
[3] Yenə orada, vərəq 6.
[4] Yenə orada, vərəq 7.
[5] Yenə orada, fond 57, siyahı 1, iş 63, vərəq 192.
[6] Yenə orada, fond 51, siyahı 3, iş 116, vərəq 1.
[7] Yenə orada, vərəq 2.
[8] Yenə orada, vərəq 3.



Cümhuriyyət tələbələri. *Soldan sağa:* Ağaəli Yusifzadə, Fərman Nərimanbəyov, Cəbrayıl Rəhimov. Fransa

Rəhimov 15 noyabr 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizədə Berlin şəhərində Kommersiya İnstitutunda oxumaq istədiyini bildirib.[1]

29 dekabr 1919-cu ildə Rəhimov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[2] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[3] dilkağızları verib.

Cəbrayıl Məhəmmədrza oğlu Rəhimova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 501 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[4]

* * *

Rəhimov ali təhsilini Parisdə alıb. O, burada fəal tələbələrdən olub. Fransadakı Azərbaycan Tələbələri Birliyinin sədri olub. Bunu aşağıdakı bəlgə təsdiqləyir:

"Azərbaycan Tələbələri Birliyinin Ceyhun bəy Hacıbəyliyə məktubu.

6 iyul 1922-ci il, Paris.

Bununla Komitə nəzərinizə çatdırmaqla şərəflənir ki, Fransada oxuyan Azərbaycan tələbələrinin ümumi yığıncağı özünün builki 16 iyun tarixli iclasında Sizə təşkilatımızın xeyrinə 300 (üç yüz) frank ianə etdiyinizə görə təşəkkür etməyi qərara alıb.

Kəmali-ehtiramla,

Komitənin sədri: D.Raguimoff,[5]

katib (imzası oxunmur).[6]

Cümhuriyyət tələbəsi İsaq Şeyxzaman 1922-ci ildə Berlində olduğu zaman gördüyü işlərlə bağlı 1940-cı ildə istintaqda verdiyi ifadədə bildirib: *"Mən Parisdən sovet Rusiyasına gedən 2 tələbə – Əşrəfov İsrafil və soyadını unutduğum Cəbrayıldan*[7] *borc alaraq Rusiyaya gedə bildim"*.[8] Buradan aydın olur ki, C.Rəhimov 1922-ci ildə Azərbaycana qayıdıb. Bu qayıdışın səbəbini Fransada oxuyan tələbələrin Azərbaycana

[1] ARDA, fond 51, siyahı 3, iş 116, vərəq 5.
[2] Yenə orada, fond 51, siyahı 3, iş 116, vərəq 8.
[3] Yenə orada, vərəq 9.
[4] Yenə orada, vərəq 10.
[5] Cəbrayıl Rəhimov.
[6] *Тончибаши А.М.*: документы из личных архивов. 1903-1934 гг., s. 187.
[7] Cəbrayıl Rəhimov nəzərdə tutulur.
[8] AR MTN Arxivi, PR-39975, vərəq 73a.



Cəbrayıl Rəhimov. Fransa

nümayəndə kimi göndərdiyi Mustafa Mustafayevin 15 iyun 1923-cü ildə Bakıda Xalq Maarif Komissarlığına yazdığı bu sənəddən öyrənirik: "Təqaüdçü tələbələrin fransız qrupunun maddi böhranı 1 iyul 1922-ci ildən başlanıb. Onlar vəsaitdən ötrü Cəbrayıl Rəhimov və İsrafil Əşrəfovu da nümayəndə kimi göndərmişdilər. Onlar hökumətə fransız qrupu tələbələrinin gerçəkdən hədsiz ağır maddi durumu haqqında geniş yazılı məruzə təqdim edərək, hər tələbəyə ayda 750 frank yaşayış minimumu kimi, orta hesabla 1000 frank da illik təhsil haqqı kimi verilməsini xahiş ediblər. Hökumət bu smetanı qəbul etməyib və yaşayış minimumu ayda 75 manata endirilib ki, bu da son dövrün kursu ilə 560 frank civarında edir. Hökumət tələbələri göstərilən norma ilə (75 manat = 560 frank) 1 illiyə, yəni 1 iyul 1922-ci ildən 1 iyul 1923-cü ilədək təmin etməyi qərara alıb. Ancaq bu təminat müddətini İqtisadi Şura da 6 ay qısaldıb. Hökumət qərarının gerçəkləşdirilməsi üçün kürü buraxılıb. Təəssüf ki, kürünün satışı hökumətin hesablarını doğrultmayıb və 6 ay yerinə tələbələr yalnız 3 aylıq, yəni 1 oktyabr 1922-ci ilədək təmin edilib. Bir tərəfdən, yaşayış minimumunun qısaldılması (750 fr. əvəzinə 560 fr.), başqa tərəfdən, təminat müddətinin çox qısalığı (12 ay əvəzinə 3 ay), üçüncü tərəfdən də, təminatın vaxtında yetişməməsi (o, bu ilin mart ayının son günlərində gəlib) fransız qrupu tələbələrinin yaşadığı maddi böhranı heç də həll etməyib və onları dözülməz ağır durumdan xilas etməyib. Göstərilən təminatın əvəzinə, biz hökumətin humanitar elmlər öyrənən tələbələrin geri çağırılması haqqında qərarını da aldıq".[1]

Deməli, Rəhimovun Bakıya gəlişi onun nümayəndə olması ilə bağlı imiş.

Sənədlərlə incəliklə tanışlıqdan sonra bizdə belə fikir yaranıb ki, Cəbrayıl Rəhimov təhsilini bitirdikdən sonra SSRİ-yə qayıtmayıb. AR MTN Arxivində onun istintaq işlərinin olmaması bu fikrə inamı xeyli artırır.



Cümhuriyyət tələbələri alman dostları ilə. *Soldan-sağa. Ön cərgə:* 1-ci Abdulla Rəhimzadə. *Orta cərgə:* 1-ci Bəhram Abdinov, 5-ci Hüseynbala Məhəmmədov, 6-cı Cəbrayıl Rəhimov. Berlin

[1] ARDA, fond 57, siyahı 1, iş 260, vv. 112-113.

Rəhimzadə Abdulla Məhəmməd oğlu

(1898, Gəncə – 1939-cu ildən sonra)



Abdulla Rəhimzadə

Kiyev Şəhəri Dövlət Arxivində Kiyev Kommersiya İnstitutu iqtisadiyyat bölümünün tələbəsi Abdulla Məhəmməd oğlu Rəhimzadənin[1] şəxsi işi saxlanılmaqdadır. Onların ən önəmliləri ilə oxucuları tanış edirik.

Zaqafqaziya Şiə Ruhani İdarəsinin 13 dekabr 1904-cü ildə verdiyi 3089 saylı doğum şəhadətnaməsindən öyrənirik ki, Gəncə şəhərinin sakini Abdulla Məhəmməd oğlu atası Məhəmməd Kərbəlayı Əliəkbər oğlu Rəhimzadənin qanuni arvadı Nabat Cəfər qızından 1898-ci ildə doğulub, doğumun ayı və günü bilinmir. Şəhadətnaməyə şeyxülislam Ə.Axundzadə və idarə üzvləri qol çəkib.[2]

Gəncə Şəhər Xalq Milisinin 27 aprel 1917-ci ildə verdiyi 1481 saylı vəsiqəyə görə, Abdulla Rəhimzadə Gəncə şəhərinin Ətlar küçəsinin köklü sakinidir, müsəlman olduğu üçün hərbi mükəlləfiyyəti pulla ödəyir.[3]

Rəhimzadəyə 1 may 1917-ci ildə verilmiş 473 saylı kamal attestatında göstərilib ki, o, 1 sentyabr 1908-ci ildə Gəncə kişi gimnaziyasına girərək orada 1 may 1917-ci ilədək əla əxlaqla oxuyub, səkkizsiniflik tam kursu bitirib və aşağıdakı bilikləri qazanıb:

Şəriət –	5 (beş)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	4 (dörd)
Fəlsəfi propedevtika –	4 (dörd)
Latın dili –	5 (beş)
Riyaziyyat –	4 (dörd)
Riyazi coğrafiya –	4 (dörd)
Fizika –	4 (dörd)
Tarix –	4 (dörd)
Qanunşünaslıq –	4 (dörd)
Coğrafiya –	4 (dörd)
Fransız dili –	5 (beş)
Alman dili –	4 (dörd).[4]

Bu gimnaziyanı bitirmiş Rəhimzadə 2 avqust 1917-ci ildə Kiyev Kommersiya İnstitutunun (KKİ) direktoruna Kiyevdə yazdığı ərizədə bildirib ki, mən İnstitutun nizamnaməsi və qəbul şərtləri ilə tanış olmuşam; məni iqtisad bölümünün həqiqi dinləyiciləri sırasına qəbul etməyinizi xahiş edirəm.[5]

Rəhimzadənin KŞDA-də saxlanılan sənədləri içərisində onun Kiyev şəhərində öz əli ilə 2 avqust 1917-ci ildə yazdığı qısa tərcümeyi-halı da var. Burada oxuyuruq: "1898-ci ildə anadan olmuşam. 8 yaşımda Gəncədə – doğma şəhərimdə rus-müsəlman məktəbinə verilmişəm. Yaxşı oxumuşam, ancaq orada çox qalmamışam. Atam bir azdan məni bir rus

[1] Soyadı bəzi qaynaqlarda "Rəhimov", "Rəhimli" kimi də işlədilib. Sənədlərdəki həmin yazılışları da saxlamışıq.
[2] KŞDA, fond 153, siyahı 4, iş 4539, vərəq 6.
[3] Yenə orada, fond 18, siyahı 1, iş 4253, vərəq 7; fond 153, siyahı 4, iş 4539, vərəq 3.
[4] Yenə orada, fond 153, siyahı 4, iş 4539, vv. 2-2a.
[5] Yenə orada, vv. 1-1a.

ailəsinə tam pansiona verib, orada məni Gəncə kişi gimnaziyasının hazırlıq sinfinin imtahanlarına hazırlayıblar. Mən imtahanları yaxşı vermişəm və qəbul ediblər. Gimnaziyaya 1908-ci ildə girmişəm. Həmişə yaxşı oxumuşam, müəllim yanında hazırlaşmamışam, əksinə, özüm hazırlaşdırmışam. Heç bir sinifdə qalmamışam və 9 ildən sonra – 1 may 1917-ci ildə Gəncə kişi gimnaziyasının 8-siniflik tam kursunu yaxşı kamal attestatı ilə bitirmişəm. Ailə durumum yaxşıdır. Atam kiçik ticarətçidir, anam hələ 1908-ci ildə rəhmətə gedib".[1]

Kiyevdə Tarasov küçəsi 38-ci evin 1-ci mənzilində yaşayan Rəhimzadə 4 sentyabr 1917-ci ildə Kiyev Politexnik İnstitutunun (KPİ) direktoruna ərizə yazaraq bildirib ki, 50 manat ödəyirəm və xahiş edib ki, məni kimya bölümünün I semestrinə əlavə qəbul üzrə həqiqi dinləyicilər sırasına qəbul edin.[2]

Artıq kimya bölümünün tələbəsi olan, 1 fevral 1918-ci ilədək təhsil haqqını ödəmiş Rəhimzadə 24 mart 1919-cu ildə Kiyev Politexnik İnstitutunun direktoruna yazdığı ərizədə nəzərə çatdırıb ki, indiyədək Zaqafqaziya ilə hər hansı bir əlaqənin yoxluğu üzündən imkanım olmadığına görə Kiyevə gələ və təhsil haqqını ödəyə bilməmişəm. Ona görə də bunu nəzərə alaraq məni yenidən kimya bölümü tələbələri sırasına qəbul etməyinizi xahiş edirəm. (Vərəqin üstündə bu qeyd var: "İnstitut İdarə heyətinin 25 mart 1919-cu il tarixli iclası qərara alıb: 50 manatı ödədiyinə görə 1918-ci ilin yazı üçün qəbul edilsin". Yenə bu ərizənin aşağısında qeyd olunub ki, ərizəçi I semestrə 1917-ci ilin payızında başlayıb).[3]

***

1919-cu ilin avqustunda Rəhimzadəyə verilmiş 5049 saylı vəsiqədə onun həqiqətən Kiyev Politexnik İnstitutu kimya fakültəsinin tələbəsi olduğu və sənədlərinin İnstitut daftərxanasında saxlanıldığı təsdiqlənib.[4]

Bakıda 16 oktyabr 1919-cu ildə Müsəlman Tələbələri Komitəsinə yazdığı ərizəsində Rəhimzadə Qərbi Avropaya dövlət hesabına göndəriləcək tələbələrlə birgə Parisə oxumağa göndərilməsini xahiş edib və bildirib ki, mən Kiyev Politexnik İnstitutunun II kurs tələbəsiyəm və sənədlərimin əsli həmin institutun daftərxanasındadır.

Bu ərizədə ailə durumuna toxunan Rəhimzadə qeyd edib ki, atam qoca kişidir, kasıbdır, ailəni – ögey anamı, 3 yetimi və xəstə qardaşımı dolandırmağa güclə pul tapır. Sonra Komitədən onun Kiyevdə keçirdiyi acı günləri və çalxalanan Rusiyaya gedərək təhsili davam etdirməyə heç bir həvəsi olmadığını nəzərə almağı xahiş edib. Ərizəni bitirib tarix qoyduqdan və imzaladıqdan sonra Rəhimzadə bunu əlavə etməli olub ki, ərizəni gec yazmağımın səbəbi budur ki, Kiyevdən yalnız dünən (15 oktyabrda) gələ bilmişəm. Yalnız xaricə getməkdən ötrü Bakıya gəlməyə tələsmişəm, yoxsa elə Kiyevdə qalardım.[5]

Rəhimzadənin sənədləri içərisində Gəncədən olan 2 görkəmli şəxsin imzaladığı önəmli bir bəlgə var. Parlaman sədrinin 1-ci müavini *Həsən bəy Ağayev* və Parlaman üzvü *Musa bəy Rəfiyev* təsdiq ediblər ki, Abdulla Rəhimzadə həqiqətən Gəncə sakini olan kasıb bir qocanın oğludur və buna görə də öz hesabına təhsilini davam etdirmək imkanında deyil. Musa bəy bu sənədi 18 oktyabrda, Həsən bəy isə bir gün sonra imzalayıb.[6]

2 noyabr 1919-cu ildə Xalq Maarif Nəzarətinə yazdığı ərizədə Rəhimzadə xaricə göndəriləcək tələbələr içərisində olduğunu "Azərbaycan" qəzetindən öyrəndiyini və İsveçrəyə

[1] KŞDA, fond 153, siyahı 4, iş 4539, vərəq 12.
[2] Yenə orada, vərəq 4.
[3] Yenə orada, vərəq 1.
[4] ARDA, fond 51, siyahı 3, iş 118, vərəq 2.
[5] Yenə orada, vv. 1-1a.
[6] Yenə orada, vərəq 3.

– Sürix Politexnikumunun mexanika fakültəsinə daxil olmaq istədiyini bildirib.[1]

30 dekabr 1919-cu ildə Rəhimzadə təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[2] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı barədə[3] dilkağızları verib.

Abdulla Məhəmməd oğlu Rəhimzadəyə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 544 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[4]



Abdulla Rəhimzadə. Almaniya

***

Sən demə, Abdulla Rəhimzadə eyni zamanda Kiyev Ukrayna Bədaye Akademiyasında da oxuyurmuş. Bu Akademiyanın tələbəsi olan Rəhimzadə 19 noyabr 1919-cu ildə Gəncədə ali ibtidai məktəbin müfəttişinə ərizə yazaraq onu həmin məktəbə rəsm və rəssamlıq müəllimi götürməyi xahiş edib.[5]

Rəhimzadənin sənədləri arasında başqa bir maraqlı bəlgə Ukrayna Dövlət Bədaye Akademiyasının Kiyevdə 23 yanvar 1919-cu ildə verdiyi biletin surətidir. Burada yazılıb ki, bu bilet Abdulla Rəhimzadənin Dövlət Bədaye Akademiyasının professor Jukun emalatxanası üzrə tələbəsi olduğunu təsdiqləyir. Bilet 25 sentyabr 1919-cu ildək etibarlıdır. Bileti rektor Fyodor Krıçevski, daftərxana müdiri D.İvanoko imzalayıblar. Daha maraqlısı budur ki, vərəqin sonunda yazılıb: "Malorus[6] dilindən rus dilinə İsfəndiyar Rəhimzadə çevirib". Gəncə notariusu qeyd edib ki, Gəncə şəhərinin sakini *İsfəndiyar Məhəmməd oğlu Rəhimzadə* bunu öz əli ilə yazıb (01.12.1919).[7] Deməli, bu İsfəndiyar Abdullanın qardaşıdır və o da savadlıdır.

***

Gəncə qəzasının maarif müfəttişi 24 dekabr 1919-cu ildə Xalq Maarif Nəzarətinə yazıb ki, mən bu ilin 10 dekabrında Sizə göndərdiyim 5277 saylı raportla Abdulla Rəhimzadəni Gəncə ali ibtidai məktəbinə təsviri sənət müəllimi təyin etməyi xahiş etmişdim. O, işə gəlmədiyinə görə mənim xahişimi yerinə yetirməməyi, o artıq təyin edilibsə azad etməyinizi xahiş edirəm.[8]

Gəncə ali ibtidai məktəbinin müfəttişi Xalq Maarif Nəzarətinə 31 dekabr 1919-cu ildə yazdığı 770 saylı məktubda bildirib ki, məktəbimizin təsviri sənət müəllimi tələbə Abdulla Rəhimzadə təhsilini bitirmək üçün xaricə gedib və onun dərsləri boş qalıb. Buna görə o yerə təyinat verməyinizi xahiş edirəm.[9]

***

Müttəhim Aslanov Teymur Zəkəriyyə oğlunun AR MTN arxivində saxlanılan PR-27210 şifrəli cinayət işi qarşımızdadır.

[1] ARDA, fond 51, siyahı 3, iş 118, vərəq 6.
[2] Yenə orada, vərəq 7.
[3] Yenə orada, vərəq 8.
[4] Yenə orada, vərəq 9.
[5] Yenə orada, iş 16, vərəq 3a.
[6] Ukrayna.
[7] ARDA, fond 51, siyahı 3, iş 16, vərəq 8.
[8] Yenə orada, vərəq 4.
[9] Yenə orada, vərəq 5.

Zaqafqaziya Hərbi Dairəsi tribunalı səyyar sessiyasının 28 dekabr 1939-cu ildə çıxardığı 00367 saylı hökmdən[1] aydın olur ki, bu cinayət işi üzrə 11 nəfər həbs edilib:

1. *Tağıyev Zeynal Sadıq oğlu* – 1893 doğumlu, Bakı şəhərinin iri milyonçu fabrikant ailəsindən çıxmış,[2] azərbaycanlı, ali təhsilli, "İttihad" partiyasının keçmiş üzvü, Müsavat Parlamentinin keçmiş üzvü, qulluqçu, həbsinədək Azərbaycan Ticarət Palatasının eksperti.

2. *Aslanov Teymur Zəkəriyyə oğlu* – 1899 doğumlu, Şuşa şəhərindən, azərbaycanlı, partiyasız, orta təhsilli.[3] Həbsinədək Azərb. SSR XYSK-da[4] mühəndis.

3. *Xanlarov İsmayıl Bəylər oğlu* – 1899 doğumlu. Şamaxılı, azərbaycanlı, ali təhsilli, 1936-cı ildə 3 il iş alıb, qulluqçu, partiyasız, həbsinədək Gəncə toxuculuq kombinatında katib.

4. *Vəzirov Cəmil İsmayıl oğlu* – 1888 doğumlu. Şuşalı, azərbaycanlı, ali təhsilli, bəy oğlu, 1908-ci ildən 1919-cu ilədək menşevik partiyasının üzvü. Həbsinədək Azərxalçaittifaqda mühəndis.

5. *Qulubəyov Əli bəy Cəfər oğlu* – 1894 doğumlu. Bakı taciri ailəsindən, ali təhsilli, azərbaycanlı, qulluqçu, partiyasız. Həbsinədək Azərb. SSR Ticarət Palatasının sədri.

6. Rəhimzadə Abdulla (Rəhimli Abdulla) – 1898 doğumlu, Gəncə taciri ailəsindən, azərbaycanlı, ali təhsilli, qulluqçu, partiyasız. Həbsinədək Azərdəzgahqayırmada mühəndis.

7. *Hacıyev Zeynal Əkbər oğlu* – 1897 doğumlu. Ordubad rayonundan, azərbaycanlı, ÜK(b)P-nin üzvü, qulluqçu. Həbsinədək Bakı şəhərində toxuculuq fabrikinin direktoru.

8. *Hüseynov Şahid Süleyman oğlu* – 1892 doğumlu. Şəkili, azərbaycanlı, qulluqçu, partiyasız, həbsinədək Bakı univermağı direktorunun müavini.

9. *Qədimbəyov Qədim Məhəmməd oğlu* – 1906 doğumlu. Şəki şəhəri qolçomaq-bəy ailəsindən, azərbaycanlı, ali təhsilli, partiyasız, qulluqçu. Həbsinədək SSRİ XYSK-nın yanında İxtisasartırma İnstitutu direktorunun müavini.

10. *Məmmədov İsgəndər İsrafil oğlu* – 1898 doğumlu. Bakılı, azərbaycanlı, partiyasız, qulluqçu. Həbsinədək Bakısənayeticarətdə bölmə müdiri.

11. *Şahbazov Əliəsgər*[5] *Abbas oğlu* – 1898 doğumlu. Azərbaycanlı, qulluqçu, ali təhsilli, ÜK(b)P-nin keçmiş üzvü (1917-ci ildən). Həbsinədək Azərticarətdə direktor müavini. Əvvəllər Müsavat ordusunda qulluq edib.[6]

28 dekabr 1939-cu ildə bunlardan Qədimbəyov və Rəhimzadəyə 7 il, Qulubəyova və Hacıyevə 8 il, Şahbazova və Vəzirova[7] 10 il, Aslanova 12 il verilib. Tağıyev və Xanlarova[8] güllələnmə kəsilib, Hüseynov və Məmmədov bəraət qazanıblar. İş kəsilənlərin hamısının əmlakları müsadirə olunub. Cəmil Vəzirov və Teymur Aslanov 5 il siyasi hüquqlardan məhrum edilib.[9]

[1] AR MTN Arxivi, PR-27210, vv. 78-80.

[2] Hacı Zeynalabdin Tağıyevin nəvəsidir.

[3] Hökmün necə başdansovdu hazırlandığını elə bu fakt sübut edir.

[4] Xalq Yüngül Sənaye Komissarlığı

[5] Bəzi sənədlərdə adı Əsgər, vəzifəsi keçmiş yügül sənaye komissarı göstərilib (bax: AR MTN arxivi, PR-22247, vərəq 26).

[6] AR MTN Arxivi, PR-27210, vərəq 78.

[7] 8 sentyabr 1941-ci ildə Vəzirov qiyabi şəkildə istintaq materialları olmadan güllələnməyə məhkum edilib (bax: AR MTN Arxivi, PR-27210, vərəq 99).

[8] 17 may 1940-cı ildə Xanlarovun güllələnməsi 15 il işlə və 5 il siyasi hüquqdan məhrum edilmə ilə əvəz olunub (bax: AR MTN Arxivi, PR-27210, vərəq 99).

[9] AR MTN Arxivi, PR-27210, vərəq 80.

Rzayev Nüsrət Rza oğlu

(1899, Lənkəran ş. – ?)



Nüsrət Rzayev

Haqqında ən az bilgi əldə etdiyimiz Cümhuriyyət tələbələrindən biri Nüsrət[1] Rzayevdir.

Lənkəran şəhər Came məscidinin mollası Molla Mirzə Camal Şəfizadənin 17 avqust 1911-ci ildə Lənkəran şəhər sakini Nüsrətulla Rza oğlu Rzayevə verdiyi doğum şəhadətnaməsində onun 1899-cu ildə doğulduğu göstərilib.[2]

41 saylı kamal attestatında yazılıb ki, Bakı valiliyi Lənkəran şəhərinin sakini, müsəlman, 1899-cu ildə doğulmuş Nüsrət Rza oğlu Rzayev 23 avqust 1913-cü ildə Lənkəran kişi gimnaziyasına girərək orada 18 may 1919-cu ilədək əla əxlaqla oxuyub və səkkizsiniflik tam kursu bitirib, bu vaxt aşağıdakı bilikləri qazanıb:

Şəriət –	əla (5)
Rus dili –	yaxşı (4)
Ədəbiyyat –	yaxşı (4)
Latın dili –	yaxşı (4)
Riyaziyyat –	yaxşı (4)
Fizika və riyazi coğrafiya –	yaxşı (4)
Tarix –	yaxşı (4)
Coğrafiya –	yaxşı (4)
Fransız dili –	kafi (3)
Alman dili –	kafi (3)
Fəlsəfi propedevtika –	yaxşı (4)
Qanunşünaslıq –	yaxşı (4)
Türk dili –	əla (5).[3]

Lənkəran şəhərinin sakini tələbə Nüsrət Rzayev 21 avqust 1919-cu ildə Bakı şəhərində maarif nazirinə yazdığı ərizədə Türkiyədə (İstanbulda tibb fakültəsində) təhsil almaq istədiyini bildirərək onu Azərbaycan Cümhuriyyəti hökumətinin xaricə göndərdiyi tələbələr sırasına salmağı xahiş edib. Əlavə edib ki, Lənkəran şəhərində baş verən sürəkli hadisələr nəticəsində[4] bir neçə dəfə axtarışlara məruz qalmışam və nəticədə maddi imkandan məhrum olmuşam, buna görə də o, xahişinin rədd edilməməsini diləyib.[5]

Rzayev nazirə yazdığı 8 noyabr 1919-cu il tarixli ərizəsində Almaniyaya – Berlinə tarix-filologiya fakültəsinə göndərilməsini xahiş edib.[6]

14 yanvar 1920-ci ildə ildə Rzayev təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[7] və oxuyacağı

[1] Əsl adı "Nüsrətulla" olsa da sonrakı sənədlərdə "Nüsrət" işlədilib.

[2] ARDA, fond 51, siyahı 3, iş 117, vərəq 5.


[3] Yenə orada, vərəq 2.

[4] Lənkəran bölgəsində rusların qurduğu "Muğan Sovet Respublikası"nın özbaşınalıqları nəzərdə tutulur.

[5] ARDA, fond 51, siyahı 3, iş 117, vərəq 1.

[6] Yenə orada, vərəq 3.

[7] Yenə orada, vərəq 6.



Nüsrət Rzayevin doğum şəhadətnaməsi



Nüsrət Rzayevin xaricdə təhsil üçün göndəriş vəsiqəsi

dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[1] dilkağızları verib.

Nüsrət Rza oğlu Rzayevə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 555 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[2]

Rzayev Almaniyaya oxumağa göndərilib və Berlində tibb ixtisası üzrə oxuyub.[3] SSRİ-yə qayıtmayıb.

[1] Yenə orada, vərəq 7.

[2] ARDA, fond 51, siyahı 3, iş 117, vərəq 8.

[3] Yenə orada, fond 57, siyahı 1, iş 276, vərəq 62a.

Rzayev Tağı Kərbəlayı Əsgər oğlu

(03.09.1895, İrəvan – 1934-cü ildən sonra)



Tağı Rzayev

Fransada oxumuş tələbələrdəndir.

AR Dövlət Arxivindəki şəxsi işində həyatı ilə bağlı bir neçə bəlgə var.

Zaqafqaziya Şiə Ruhani İdarəsindən 16 may 1906-cı ildə verilmiş 817 saylı doğum şəhadətnaməsində İrəvan şəhər sakini Tağı Kərbəlayı Əsgər[1] oğlunun öz atası Kərbəlayı Əsgər Rzayevin qanuni arvadı Leyli Hacı Xəlil qızından 3 sentyabr 1895-ci ildə doğulduğu təsdiqlənib. Şəhadətnaməni şeyxülislam Ə.Axundzadə və idarə üzvləri imzalayıb.[2]

O, təhsilini İrəvanda alıb. İrəvanda 1 iyul 1916-cı ildə verilmiş 860 saylı kamal attestatında göstərilib ki, T.Rzayev 15 sentyabr 1906-cı ildə İrəvan kişi gimnaziyasına girərək orada 1 iyun 1916-cı ilədək əla əxlaqla oxuyub və səkkizsiniflik tam kursu bitirib, bu vaxt aşağıdakı bilikləri qazanıb:

Şəriət –	5 (beş)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	3 (üç)
Fəlsəfi propedevtika –	3 (üç)
Latın dili –	3 (üç)
Riyaziyyat –	3 (üç)
Riyazi coğrafiya –	4 (dörd)
Fizika –	4 (dörd)
Tarix –	3 (üç)
Coğrafiya –	4 (dörd)
Fransız dili –	3 (üç)
Alman dili –	3 (üç)
Qanunşünaslıq –	4 (dörd).[3]

10 avqust 1919-cu ildə Bakı notariusunda bu şəhadətnamənin surətini Bakı şəhərində yaşayan vətəndaş Bağır Rzayev çıxardıb.[4] Məlumat üçün oxuculara bildirək ki, Bağır Rzayev Azərbaycan Parlamanının üzvü və hətta katibi olmuşdu və Tağının doğma qardaşıdır. Buna görə də şübhə etməyə dəyməz ki, qiymətləri könül oxşamayan Tağı Rzayevin xaricə göndərilməsində qardaşı Bağır Rzayevin həlledici rolu olub.

Moskva Universiteti hüquq fakültəsinin tələbəsi, İrəvan şəhərinin sakini Tağı Rzayevin 16 avqust 1919-cu ildə Bakı şəhərində Azərbaycan Cümhuriyyəti xalq maarif nazirinə yazdığı ərizədə maddi baxımdan imkansız olduğunu bildirib, ya Fransada, ya da Almaniyada Dağ İnstitutunda, yaxud Yollar İnstitutunda oxumaq istədiyini bəyan edib. Əlavə edib ki, mən 1916-cı ildə İrəvan klassik gimnaziyasını bitirmişəm və elə həmin il də Moskva Universitetinin hüquq fakültəsinə girmişəm.[5]

Cümhuriyyətin "Azərbaycan" qəzetində redaksiyaya göndərilən, ancaq dərc edilməyən yazıların müəlliflərinə "idarədən cavablar" başlığı altında cavablar verilir və yazılarının niyə

[1] Bir sıra sənədlərdə onun adı "Əliəsgər" kimi də işlədilib.

[2] ARDA, fond 51, siyahı 3, iş 115, vərəq 3.

[3] Yenə orada, vərəq 2.

[4] Yenə orada, vərəq 2a.

[5] Yenə orada, vərəq 1.

dərc edilmədiyi izah olunurdu. 154-cü saylı "Azərbaycan"da verilmiş 5 cavabdan biri budur: "*Tələbə Tağı Rza əfəndiyə*. Məqalənizdə məqsəd və proqramınız əsla göstərilməyir. Hankı dərdi ağladığınız məlum deyil. Bir dərman dəxi təklif etmiyorsunuz. Məqalənin qiyməti orasındadır ki, bir dərdi açsın, dərmanını da göstərsin. Bunun heç biri olmadığından, doğrusu, nə demək istədiyiniz belə anlaşılmıyor. Ona görə də məqalələriniz dərc edilməyəcəkdir".[1]

Qərbi Avropaya göndəriləcək tələbələr sırasına salınmış Tağı Rzayev 5 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı ərizədə fransız dilini bildiyinə görə onun Parisə, yaxud Fransanın hər hansı başqa şəhərinə göndərilməsini xahiş edib.[2]

29 dekabr 1919-cu ildə o, təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[3] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[4] dilkağızları verib.

Tağı Kərbəlayı Əsgər oğlu Rzayevə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 512 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[5]

* * *

Rzayev öncə Parisdə oxuyub.[6] Maraqlıdır ki, Azərbaycan Tələbələri Birliyinin 1922-25-ci illərə aid siyahısında (ən mühüm siyahıda) [7] onun adı yoxdur. Niyəsini bu gün izah etmək çox çətindir. Ancaq əlimizdəki başqa sənədlər onun təhsilinin yarımçıq qalmadığını göstərir.

Azərbaycan K(b)P MK Rəyasət Heyətinin 17 dekabr 1923-cü il tarixli iclasında (49 saylı protokol) 7-ci məsələ xaricdə oxuyan tələbələrə yardım haqqındadır. Protokolda oxuyuruq:

"EŞİDİLDİ: VII. Xaricdə oxuyan və AİŞC-nin himayəsində bulunan tələbələrin siyahısına 7 şəxsin də daxil edilməsi haqqında Baş Peşə Təhsili İdarəsinin məruzəsi; həmin tələbələrdən ikisi[8] artıq Almaniyada oxumaqdadır, qalan 5 şəxsə Qərbi Avropa və RSFSR-in uyğun ali məktəblərində məxsusi kafedralarda təhsillərini davam etdirmək və təkmilləşdirmək lazımdır.

QƏRAR: VII.

Təqaüdçü tələbələrin əlavə siyahısına aşağıdakı şəxslər daxil edilsin:

1. Tağı[9] Rzayev (Berlin)
2. Ağamir Məmmədov (Roma)
3. Əliyar[10] Əmircanov (Berlin)
4. Mircamal Məhəmmədov (Berlin)
5. Mustafa İmaməli (Getten)
6. Abdulla Tağızadə (Petroqrad)
7. İlyas Qayıbov (Vitsburq)

Bütün xərcləri 1/I-1924-cü il büdcəsinə daxil etməli".[11]

[1] "Azərbaycan" qəzeti, 18.08.1919, № 254.
[2] ARDA, fond 51, siyahı 3, iş 115, vərəq 4.
[3] Yenə orada, vərəq 5.
[4] Yenə orada, vərəq 6.
[5] Yenə orada, vərəq 7.
[6] Yenə orada, iş 40, vv. 62-63a.
[7] Yenə orada, fond 57, siyahı 1, iş 276, vv. 62-63.
[8] Tağı Rzayev və Əliyar Əmircanov.
[9] Sənəddə yanlış olaraq bu ad "Səməd" göstərilib.
[10] Sənəddə yanlış olaraq bu ad "Əmir" göstərilib.
[11] ARPİİSSA, fond 1, siyahı 74, iş 136, vərəq 74a.


Başqa sözlə, sovet hökuməti T.Rzayevə 1924-cü ildən təqaüd verməyi boynuna götürüb. Ancaq bu, elə hökumət deyildi ki, verdiyi sözün üstündə dura bilsin. Məsələni 4 aydan sonra yenidən müzakirəyə çıxarırlar.

Azərbaycan K(b)P MK Rəyasət Heyətinin bu dəfə 5 aprel 1924-cü il tarixli iclasında (71 saylı protokol) məsələyə bir də baxılıb:

"EŞİDİLDİ: 13. Xarici ali məktəblərdəki tələbələr haqqında – (Yol. Cəbiyev).

QƏRARA ALDILAR: 13.

A) Hal-hazırda əlavə göndəriş aparmamalı. Ümumən xarici ali məktəblərə ezamiyyət hər il yayın başlanğıcında, göndərilənlərin tərkibi diqqətlə yoxlanıldıqdan, zərurətin öyrənilməsindən sonra və yalnız xüsusi və kənd təsərrüfatı ali məktəblərinə təşkil edilsin.


Tağı Rzayevin ərizəsi

B) Xaricdə oxuyan tələbələr: 1) *Rzayev Tağı Əsgər*[1] *[oğlu]* (Elektrotexnika İnstitutu, Darmştadt) 2) *Əmircanov Əliyar*[2] (Aviasiya, Berlin), 3) *Hacıyev Xaspulat* (toxuculuq, Almaniya) bizim tələbələr siyahısına daxil edilsin".[3]

Bu iki protokoldan belə anlaşılır ki, T.Rzayev 1923-cü ilin dekabrında Berlində, 1924-cü ilin aprelində Darmştadtda oxuyub, bu isə heç inandırıcı görünmür. Ancaq 1-ci protokolda onun öz adını, ikinci protokolda isə atasının adını düz yaza bilməyiblərsə biz şəhərlərin sürətli yerdəyişməsinə necə inana bilərik? Ancaq hər bir halda aydın olan budur ki, Rzayevə hökumət Alamaniyada təhsil almaq üçün təqaüd ayırıb.

Tağı Rzayev təhsilini başa vurduqdan sonra Azərbaycanda onun ad-soyadını "Tağı Rza", xaricdə isə "Taki Riza" kimi görürük.

AR MTN arxivində saxlanılan PR-27210 şifrəli istintaq işində göstərilib ki, 1897-ci il doğumlu Rza Tağı Əsgər oğlu Azərb. SSR Toxuculuq Sənayesi Komissarlığı avadanlıq bölməsinin böyük mühəndisidir; Rıleyev küçəsi[4] 30-cu ev, 15-ci mənzildə yaşayır.[5]

Həmin istintaq işində *Zeynal Tağıyev* 26 yanvar 1938-ci il dindirməsində belə bir ifadə verib: mühəndis Tağı Rza təşkilata[6] hələ 1928-ci ildə mənim tərəfimdən, daha doğrusu, demək olar ki, mənim tərəfimdən cəlb edilmişdi və orada 1934-cü ildək – onun fabrikdən çıxarılıb keyfiyyətsiz məhsul buraxdığına görə məhkum edilənədək qalmış və işləmişdi. Onun təşkilata mənsubluğunu özü ilə söhbətlərdən bilirəm.[7]

Məsələyə bir az aydınlıq gətirək – Zeynal Tağıyev vaxtilə babası Hacı Zeynalabdin Tağıyevin, 1938-ci ildə isə Leninin adına daşıyan kombinatda rəhbər vəzifədəydi və Tağı Rza da bu kombinatda mühəndis işləyirdi. Deməli, Rza Tağı 1934-cü ildə həbs edilib və məhkum olunub. Ancaq maraqlıdır ki, AR MTN Arxivində onun cinayət işi tapılmadı.

[1] Sənəddə yanlış olaraq: "Səməd".
[2] Sənəddə yanlış olaraq: "Əliağa".
[3] ARPİİSSA, fond 1, siyahı 74, iş 136, vərəq 1, 3, 17.
[4] İndiki Ə.Əlizadə küçəsi.
[5] AR MTN arxivi, PR-27210, vərəq 88.
[6] Əksinqilabi təşkilata.
[7] AR MTN arxivi, PR-27210, vərəq 101.

Rzazadə İsgəndər Mirzə Cabbar oğlu

(18.11.1897, Tehran – 1.1.1938)



Balaca İsgəndər

İsgəndər Rzazadənin[1] həyatını öyrəndikdən sonra bizə aydın oldu ki, hədsiz sayda görkəmli insanlarımızdan əsla xəbərimiz yoxdur. Onlar yarım əsrdən artıq müddətdə bizə elə ustalıqla unutdurulub ki, onları yenidən üzə çıxarmaq olduqca gərgin əmək tələb edir.

Öz dönəminin ən nüfuzlu alim, müəllim və mühəndislərindən olmuş İsgəndər Rzazadə haqqında ilk yazımız – "Ərdəm" adlı məqalə 1989-cu ilin başlanğıcında Elmlər Akademiyasının "Elm" qəzetində[2] və iki başqa nəşrdə[3] müxtəlif variantlarda dərc edilmişdi. Bundan sonra həmin yazını xeyli təkmilləşdirərək 2000-ci ildə baş redaktoru olduğumuz "Düşüncə" elmi-pedaqoji dərgisinin əlavəsi kimi ana dilimizdə və rusca kitabça şəklində nəşr etdirdik.[4] Bununla da İsgəndər Rzazadənin adı elm tariximizə həkk olundu. Daha sonra tanınmış tarixçi Tamilla xanım Kərimova bu mövzuya müraciət edərək özünün "Azərbaycan Milli Elmlər Akademiyasının tarixi" adlı qiymətli monoqrafiyasında İsgəndər Rzazadəyə ayrıca oçerk həsr etdi.[5]

Aradan keçən müddətdə İsgəndər Rzazadə haqqında arxivlərdən bir çox yeni materiallar əldə etdik ki, onlar həm də bu görkəmli şəxsiyyətin xaricdəki tələbəliyi dövrüylə bağlıdır. Beləliklə, oxuculara təqdim edilən bu tərcümeyi-hal oçerkini İsgəndər Rzazadə haqqında ən son söz saymaq olar.

* * *

Dərdli insanların acı keçmişlərini üzə çıxarmaqda bizə Elmlər Akademiyası Mərkəzi Elmi Arxivinin[6] işçiləri Aliyə Qəhrəmanova və Solmaz Cəlilova daim can-başla kömək-lik göstəriblər. Onların gətirdiyi şəxsi işlərin birindən İsgəndər Rzazadənin ünvanını öyrənərək yeni bir məşum ömür yolunu araşdırmaq yanğısı ilə onlardan ayrılıb "İsmailiyyə"dən çıxanda 1988-in 27 avqustu idi. Küçəyə çıxanda sanki təndirin alovu üzümü qarsaladı – dəhşətli isti beyini deşir, gün asfaltı qaynadırdı. Sənədlərdən tanış olduğumuz insanın böyüklüyü haqqında bizdə yaranan təəssürat isə onu bir an da gecikmədən, elə günü bu gün, elə bu saat tapmağa sövq edirdi. Özü də, bu insanın adının indiyədək

[1] Soyadı bəzi qaynaqlarda "Rzayev" kimi də verilib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.

[2] *Tahirzadə Ə.* Ərdəm. // *"Elm"* qəzeti, 4 fevral 1989, №5.

[3] *Tahirzadə Ə.* Ərdəm. // *"Ağ ləkələr silinir..."*. Bakı, 1991, ss. 175-181; yenə onun: Ərdəm. // *"Dünyaya qapı"* qəzeti, dekabr 1991, №№ 24-27.

[4] *Tahirzadə Ə.* İsgəndər Rzazadə – Азәrbaycanın ilk energetiki. Bakı, 2000; *Тазирзаде А.* Искендер Ризазаде – первый энергетик Азербайджана. Баку, 2000.

[5] *Керимова Т.* Из истории Национальной Академии Наук Азербайджана, ss. 480-482.

[6] İndi "AMEA Azərbaycanda Elmi İrsin Toplanması və Sistemləşdirilməsi Mərkəzi" (AMEA AEİTS Mərkəzi) adlanır.



Rzazadələr ailəsi. *Soldan sağa:* İsgəndər, Cabbar (ata), Qafar, Firəngiz, Güləndam (ana)

heç yerdə çəkilməməsi, tarixin 51 yaşlı ağbədiyə haqsızlığı da bizi "Basin küçəsi, 79, 43-cü mənzil" adlı ünvana qovurdu.

Doğrudur, bilirdik ki, "xalq düşməni" kimi tutulmuş, işdən çıxarılmış bir çoxlarının vaxtilə yaşadığı evlər bu gün sökülüb, yerində başqaları tikilib. Bir zaman böyük qurucu Əliş Ləmbəranski də Basin (indiki Füzuli) küçəsinin yastı-yapalaq evciyəzlərini vağzaldan Lenin (sonrakı "Respublika") sarayınacan götürdüb təmizlətmişdi; deməli, axtardığımız ev də onların arasında ola bilərdi.

Bu düşüncələrlə Beşmərtəbənin qarşısına çatanda tək nömrələrin küçənin üst qatında qaldığını görüb arxayınlaşdıq. Nədənsə, əmin idik ki, bina salamatdır və alimin qohum-qardaşından da hökmən kimisə tapacağıq. Ancaq 79-cu evin yaxında, yoxsa uzaqda olduğunu bilmədiyimiz üçün soldakı binaların nömrələrini bir-bir saya-saya Basinlə üzü vağzala yol aldıq. Sən demə, 79 küçənin lap qurtaracağında, vağzalla burun-buruna olan bina imiş. Gəlib bura çatanda kələyimiz kəsilmiş, yorğunluq oyana, isti bizi əldən salmışdı.

Nə isə. Yuxarı çıxıb 43-cü mənzilin zəngini düyməsini basdıq. Qapının arxasından bir qadın səsi, kimi axtardığımı soruşdu. Dedik ki, Akademiyadan gəlmişik, vaxtilə bu mənzildə yaşamış dosent İsgəndər Cabbar oğlu Rzazadənin qohumlarını axtarırıq. Səs dedi ki, burada Rzazadə yaşamır. Dedik ki, onda heç olmasa onun mənzilinə köçənlərlə görüşmək istəyirik.

Uzaqlaşan ayaq tappıltısı eşidildi. Aradan bir müddət keçsə də çəç-səmir çıxmadı. Yenə zəngi basdıq. Bu dəfə qoca bir qadın gəldi, qapını açıb nə istədiyimizi soruşdu. Dedik ki, 1937-ci ildə "vətən xaini" kimi işdən çıxarılmış alim İsgəndər Rzazadənin ailəsi haqqında məlumat almaq istəyirik. İşdən çıxarılandan sonra onun başına nə gəldiyi bizə bəlli deyil, ona görə də yaxın adamlarını soraqlayırıq. Siz onun keçmiş mənzilində yaşayırsınız, bəlkə bu haqda bir şey biləsiniz.



İsgəndər *(solda)* qardaşı Qafarla

Qadın bizi içəri çağırdı və... hönkürtü ilə ağlamağa başladı. Gözlərindən yaş dolu kimi tökülürdü. Özünü heç cür ələ ala bilmirdi. Dedi ki, oğul, adım Hökümədir, 71 yaşım var. Mən Universitetdə oxuyanda *Əhməd Kazımov* adlı bir cavan filosofu sevirdim. O da məni özünə çox yaxın sayırdı. Olduqca centlmen gənc idi. Çox gözlədim, gəlmədi. Ərə də getdim, uşaqlarım da oldu, ancaq onu bu gün də ürəyimdən çıxara bilmirəm. Bu gün də Əhmədin xəyalı ilə yaşayıram. Xahiş edirəm ki, öyrən görək mənim Əhmədimin başına nə gəldi...

Gözləmədiyimiz sel kimi göz yaşları, 71 yaşlı qadının öz ürəyində 51 il ən dəyərli yadigar kimi qoruyub saxladığı ilk sevgisinə sədaqəti bizi sarsıtdı. Hətta bir an bura niyə gəldiyimizi də unutduq. Handan-hana toxtaqlıq tapdıq.

Bir azdan qonşular da başımıza toplaşdılar. Hökümə Salamzadənin qartmağı qopmuş yaralarına toxunmaq istəmədiyimizdən, onun qızına, qonşulara üz tutub İ.Rzazadə haqqında bir şey bilib-bilmədiklərini soruşduq. Heç kəs tutarlı söz deyə bilmədi. Artıq sakitləşmiş Hökümə xanım da söhbətimizə qoşuldu. Bildirdi ki, bu mənzili bizə verəndə burada heç kəs yaşamırdı; mən Rzazadələr ailəsindən kimsəni görməmişəm.

Az qala hər şeydən əlimi üzüb kor-peşman geri qayıtmağa yığışırdım ki, 27-ci mənzilin sakini, Universitetin[1] müəllimi *İrina Svetlova* dadıma çatdı. Dedi ki, İ.Rzazadə tutulanda mən çox kiçik olmuşam, ona görə heç nə xatırlamıram. Ancaq mərhum anamın danışdığı bəzi şeylər yadımda qalıb. Anam söyləyirdi ki, İsgəndər Rzazadə xaricdə təhsil almış yüksək savadlı və mədəni bir şəxs idi. Arvadı gözəl Asya xanımı sonsuz məhəbbətlə sevirmiş. İstəyirmiş ilk övladı oğlan olsun. Ancaq ilki qız doğulub. İkinciləri oğlan olanda isə alimin sevincinin həddi-hüdudu yoxmuş. Oğlanın adı *Nazim* idi. Mənimlə bir yerdə çəkilmiş şəkli də var. (Sonra o, ailə albomunu gətirib Nazimlə 4-5 yaşlarında çəkilmiş fotosunu göstərdi). Anam danışırdı ki, Asya xanım vərəmdən öldü. Bu hadisə alimi sarsıdıb. Arvadının qırxı günü evdə təkcə oturaraq patefonda qəmli havalar çaldırırmış. Qonşuları da evinə dəvət edib, ancaq onu tək qoymağı məsləhət biliblər. Elə həmin gecə də gəlib aparıblar. Gedəndə deyirmiş ki, mən günahsızam... (Sonralar bu danışılanların çoxunun doğruluğu təsdiqləndi).

İrina Aleksandrovna "Nazim indi haradadır?" sualı qarşısında yalnız çiyinlərini çəkdi və bacı-qardaşın xalasının yanında yaşadığını dedi.

Ev yiyəsi və qonşularla sağollaşıb küçəyə çıxdıq.

Oradan birbaş DİN-nin ünvan bürosuna gəldik. Aydın oldu ki, Bakı şəhərində Nazim İsgəndər oğlu Rzazadə adlı adam yaşamır. Ancaq bürodakı qız eyni ad-familli, atasının adı isə Abutalıb olan bir nəfərin ünvanını verdi. O illərdə hər şeyin mümkünlüyünü, hətta övladın qorxudan öz atasının adını da dəyişdirə biləcəyini düşünüb hər ehtimala qarşı Haqverdiyev küçəsindəki həmin ünvana da baş çəkməyi qərara aldıq.

[1] İndiki Bakı Dövlət Universitetinin.



Rzazadələr ailəsi. *Soldan sağa:* Qafar, İsgəndər, Güləndam, Firəngiz

Ev yiyələri işdə idi. Kiçik qızlarından telefon nömrəsini öyrənib axşam zəng etdim. Nazimin özünü yenə tapmadıq, ömür-gün yoldaşı Aida xanımla danışdıq. Bildirdi ki, ərinin atasının adı həqiqətən Abutalıbdır və o, siz axtaran adam deyil.

Məni umudsuzluq çulğadı – deməli, dövrə qapandı, son məlumat yolu bağlandı; axı ünvan bürosunda qeydə düşməyən şəxsi hansı vasitə ilə tapa bilərsən? Gərək Bakının bütün evlərini mənzilbəmənzil gəzəsən!..

Səhəri gün işdə ikən telefonum zəng çaldı. Aida xanım idi. Dedi ki, bilirsiniz, axşam ərim gələndə onunla danışdıq, sən demə, həmin Nazim onunla bir sinifdə oxuyub. Hətta ərim olimpiadada birinci yeri tutubmuş, Nazim deyirmiş ki, qalib gələn mənəm. Ərim söyləyir ki, Nazim Engels küçəsinin[1] Parkovı küçəsi[2] ilə kəsişməsindəki böyük evdə qohumlarının yanında yaşayırdı, ancaq ünvanı dəqiq xatırlamıram. Ərimlə həmin Nazim sonuncu dəfə təxminən on il qabaq görüşüblər. O, deyəsən, Moskvaya köçüb, orada yaşayır.

Məlumat üçün Aida xanıma təşəkkür edib deyilən ünvana yollandıq. Düz iki gün dalbadal Engels və Mehdi Hüseyn küçələrinin kəsişdiyi yerdəki bütün evlərin bloklarını bir-bir gəzib İsgəndər və Nazim Rzazadələri soraqladıq. Heç kəs heç nə bilmədi. Mənzil-istismar idarəsində isə 37-nin ünvanları yazılan ev kitablarının çoxdan yandırıldığını öyrəndik. (Çox-çox sonralar bildik ki, axtardığımız mənzil M.Hüseyn küçəsindəki 88 saylı evdəymiş; burada Nazimin xalası *Aliyə xanım Tahirova* yaşayırdı).

Aradan üç ay vaxt keçdi. Bu müddət uzunu İsgəndər Rzazadəni, onun yaxın adamlarını tanıyacaq şəxsləri axtarır, axtardıqca əlimiz boşa çıxır, əlimiz boşa çıxdıqca umudsuzluğa qapılırdıq. Bir gün akademik İosif Yesmanın oğlu, "Elm" qəzetində işlədiyimiz zaman[3] dostlaşdığımız *Boqdan İosifoviçi* "yaxaladı". İ.Rzazadə Energetika Bölümündə onun atasının müavini olmuşdu, buna görə də ailələri arasında indi də əlaqə ola biləcəyini

[1] İndiki Cəfərov qardaşları küçəsi.

[2] İndiki Mehdi Hüseyn.

[3] İlk redaktoru olduğumuz "Elm" qəzetində 1985-1987-ci illərdə çalışmışıq.



İsgəndər Rzazadə. Fransa

düşünürdük. Oğul Yesmanın özü heç nə bilmədi, ancaq iki nəfərin telefon nömrəsini verib onlardan soruşmağımızı məsləhət gördü.

Birinci nömrənin yardımı ilə tanınmış bir akademiklə üzbəüz görüşdük. Dedi ki, İsgəndər Rzazadə mənim müəllimim olub. Ancaq uşaqlarından xəbərim yoxdur. "Bəs İ.Rzazadə Azərbaycan energetika elminə nə kimi töhfələr verib, ondan hansı elmi-təcrübi irs qalıb?" sorğuma qocaman alim "elə bir şey yoxdur" cavabını yerdi. Sözlərindən belə çıxdı ki, İ.Rzazadə mühəndis və elmi işçi kimi orta səviyyədən də aşağı dururmuş. Əsas xidmətləri də budur ki, "bir-iki xırda-xuruş" su elektrik stansiyasının yaranmasında iştirak edib. Vəssalam!

Aradan 51 il keçəndən sonra da müəllimin əməyini etiraf etməyə qıymayan dargöz şagirdin naxələfliyi bizə bərk təsir etdi və onunla danışmağı belə artıq sayıb ikrahla ayrıldıq.

İkinci telefon nömrəsi isə Elmi-Tədqiqat Energetika İnstitutunun direktoru *Asəf Hüseynovun* idi. O da dedi ki, heç nə bilmirəm. Ancaq boyun oldu ki, bir şey öyrənən kimi xəbər verəcəyəm.

Onun zəngini neçə gün gözləsək də səs-səmir çıxmadı. Artıq əlimizi hər yerdən üzmüşdük.

İndiyədək heç bir uğursuzluq bizə bu qədər daxili əzab verməmişdi. İ.Rzazadənin qohumlarını, Nazimi tapmaq, əlimin 37-dən sonrakı taleyini hökmən öyrənmək arzusu bizi bir an da rahat qoymurdu. Elm tariximizdən düşüb itmiş bu böyük şəxsiyyətin millətimizə mütləq qaytarılmasının zəruriliyini dərk edir, ancaq acizliyimizi duyduqca əzab çəkirdik. Sözsüz ki, o ailəni tanıyanlar Bakıda yox deyildi, bəlkə də lap bizim yanımızda da hərlənirdilər, ancaq onları necə tanıyaq, necə tapaq?! Yaşadığı otağın içində qiymətli əşyasını itirən, ancaq onu heç cür tapmayan adamın gününə düşmüşdük.

...Noyabrın ilk günləri idi. Birdən Asəf Hüseynov zəng vurub bildirdi ki, təkcə onu öyrəndim ki, İ.Rzazadənin arvadı keçmiş xarici işlər nazirimiz *Tahirə xanım Tahirova*'nın qohumudur.

Bu xeyirxah insan heç ağlına da gətirmədi ki, əslində bir cümləlik məlumatı ilə üstündə aylarla baş sındırdığımız problemi çözməyə bizə qızıldan açar verdi!..

***

Tahirə xanım söylədi ki, İ.Rzazadənin arvadı *Asya xanım Əziz bəy qızı Tahirova* mənim dayıqızımdır. Oğlu *Nazim* indi Moskvada yaşayır (ünvanını və ev telefonunu verdi). Qızı *Elmira* isə Bakıdadır, kimyaçıdır, APİ-də[1] müəllim işləyirdi (telefonunu tapa bilmədi).

[1] İndiki N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti.

Moskvaya – Nazimin evinə nə qədər zəng vursaq da dəstəyi götürən olmadı. Elmira xanımı tapmaq üçünsə xeyli vaxt getdi. Vaxtilə işlədiyi APİ-nin kimya kafedrasından onun ən yaxın rəfiqəsi *Nəzirə xanım Mehmandarova*'nın telefonunu tapıb verdilər. İki gündən sonra Nəzirə xanımdan öyrənə bildik ki, Elmiranın indiki soyadı *Sultanovadır*, təqaüdə çıxıb və ev telefonu da filandır.

...Son illərdə bizi *Elmira Sultanova*'dan ilk dəfə eşitdiyimiz *"allo"* sözü qədər bəlkə də heç nə sevindirməmişdi – bu sözü eşitmək üçün çox oziyyət çəkdiyimizdənmi, yoxsa İsgəndər Rzazadə nəslindən kimsənin intizarında uzun müddət olduğumuzdanmı, bilmirik. Avqustun 27-sində nə qədər qol-qanadı sınıq idiksə bu gün on o qədər sevincəkdik!



İsgəndər Rzazadə. Fransa

Elmira xanım qardaşının Moskvadakı ev telefonunu söylədi. (Sən demə, Tahirə xanımın verdiyi nömrənin ilk iki rəqəminin yerləri dəyişik düşübmüş, həmin nömrə isə, ümumiyyətlə, yoxmuş, ona görə də Moskva ilə danışığımız baş tutmurmuş). Sonra onunla görüşməyə sözləşdik.


Axşam Moskvaya zəng vurduq. Nazim evdə yoxdu. Uşaqları ilə danışıb telefon nömrəmizi qoyduq. Səhərisi işdən bizimlə danışdı. Atası ilə bağlı bəzi sənədləri göndərəcəyini bildirdi.

Bir gün keçmiş Elmira xanımla görüşdük, ancaq söhbətimiz məcburən yarımçıq qaldı. Araya unudulmaz noyabr-dekabr hadisələri düşdü. 10 yanvar 1989-da Moskvadan məktub aldıq. İsgəndər Rzazadənin oğlu Nazim rusca məktubunda yazırdı:

"Salam, hörmətli Ədalət müəllim! Sizi yeni – 1989-cu il münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı və yaxınlarınıza xoşbəxtlik, sevinc və uğurlar arzulayıram.

...İndi mətbuatda "İnsanlar və talelər", "Böyük iş uğrunda mübarizlər", "Tarix və insan taleləri", "Heç kəs unudulmayıb" və s. başlıqlar altında çoxlu tarixi materiallar dərc edilir; onlarda Stalinin şəxsiyyətə pərəstişi dövründəki qırğınlardan, bu zaman azərbaycanlılar da daxil olmaqla sovet xalqının ən yaxşı və qabaqcıl hissəsi olan milyonlarla sədaqətli insanın cismən məhv edilməsindən danışılır. Mənim atam, 1897-ci il doğumlu Rzazadə İsgəndər Cabbar oğlu da bu dəhşətli taleyi yaşayıb.

Atamın tərcümeyi-halını və onun yaradıcılıq fəaliyyətini Siz arxiv sənədlərinə əsasən və umudvaram ki, şahidlərin (onun keçmiş şagirdləri və dostlarının) söhbətlərinə əsasən bilirsiniz. Atamın xatirəsinə hörmət etdiyinizə görə çox sağ olun! Sizdən çox xahiş edirəm ki, onun haqqında mətbuatda (qəzet, jurnal və s.) yazasınız. Bəlkə də Azərbaycanın günahsız məhv edilmiş şərəfli oğul və qızları haqqında televiziya verilişi təşkil etmək olar. İndi repressiyalarda məhv edilmiş insanların qohumlarını çağırıb onlarla söhbət aparmaq (müsahibə almaq) geniş yayılıb. Lazım olarsa mən tezliklə Bakıya gələrəm. Qarşınıza



İsgəndər Rzazadə elektrik maşınları laboratoriyasında. Darmştadt, 16 iyun 1924-cü il

bürokratik əngəllər, süründürməçilik, rəsmiyyətçilik çıxarsa mənim dayım, "Pravda" qəzetinin keçmiş xüsusi müxbiri, indi təqaüddə olan Leonid Tahirova müraciət edə bilərsiniz. Onun Bakı telefonunu bacım Elmira xanım verə bilər.

Məni MK-nın katibi yol. Rafiq Zeynalov yaxşı tanıyır; o, 1970-ci ildə bizim toyumuzda olub (o vaxt o, Azərb. MK-da təlimatçı idi)...

Sizə atamın bəraət alması haqqında arayışı (surətini) və 5 fotosunu göndərirəm, bir fotodakıları tanıdıram:

Qardaşı Qafar Cabbar oğlu texnika elmləri namizədidir, respublikada günəş enerjisindən xalq təsərrüfatında istifadə edilməsi üzrə ilk mütəxəssisdir. Çox ağır bir həyat yaşayıb, "xalq düşməni"nin qardaşı olduğuna görə heç yerdə öz bilik və bacarığına uyğun iş tapa bilməyib. 1967-ci ildə ölüb.

Bacısı Firəngiz Cabbar qızı ilk azərbaycanlı qadın həkimlərdəndir. 1937-ci ildə repressiya olunmuş xalq torpaq komissarı [Həsən] Səfərovun həyat yoldaşıdır... Bibim Firəngiz xanım da 1937-ci ildə repressiyaya uğrayıb, Sovet siyasi düşərgələrinin dəhşətlərindən keçib. 1956-cı ildə bəraət aldıqdan sonra Sverdlovsk şəhərinə, kiçik qızının yanına qayıdıb, 1983-cü ildə rəhmətə gedib. Onun böyük qızı Azərbaycan məktəblərində yaxşı tanınan xalq müəllimi Səfərova Zara xanımdır.

Atamın tərcümeyi-halını dərc edərkən çətinliklər yaranarsa professor Püstəxanım Əzizbəyovaya müraciət edin.[1] *O, məni – Əziz bəy Tahirovun nəvəsini yaxşı tanıyır...*[2]

Bununla da sizinlə xudahafizləşir və rahatsız etdiyimə görə üzr istəyirəm.

Əlinizi sıxıram.

Hörmətlə,

Nazim İsgəndər oğlu".

Bu məktubdan iki həftə sonra isə yenidən Elmira xanımla görüşüb İsgəndər Rzazadənin ömür yolunun qaranlıq səhifələrini öyrəndik.

4 fevral 1989-cu ildə "Elm" qəzetinin 5-ci sayında İsgəndər Rzazadə haqqında "Ərdəm" adlı ilk yazımız çıxdı[3] və beləliklə, Nazim Rzazadənin arzusunu o dönəmdə qismən də olsa yerinə yetirdik...


* * *

Kimdir İsgəndər Rzazadə və Azərbaycanın elm tarixində hansı yeri tutur, daha doğrusu, tutmağa mənəvi haqqı olduğu, ancaq zorakılıqla məhrum edildiyi hansı yer onun

[1] Nazim bəyin yardım üçün tövsiyə etdiyi şəxslərin heç biriylə əlaqə saxlamadıq, çünki onların yardımına ehtiyac duyulmadı.

[2] Bundan sonra N.Rzazadə özünün iş və ev telefon nömrələrini, Moskvadakı ev ünvanını qeyd edib.

[3] Sonra bu məqalə nisbətən genişləndirilərək Osman Mirzəyevin tərtib etdiyi "Ağ ləkələr silinir..." kitabında verildi. Bax: *Tahirzadə Ə.* Ərdəm. //"Ağ ləkələr silinir...", ss. 175-181.



İsgəndər və Asya Rzazadələr. Krım, avqust, 1928

adı ilə bağlıdır? Çağdaşlarının, yoldaşlarının, işdaşlarının və şagirdlərinin bilərəkdən və bilməyərəkdən, ad-sanına, xidmətlərinə yiyə çıxanların istəməyərəkdən 51 il cavabsız qoyduğu bu sorğunun cavabı ürəyi həm göynədir, həm də onu öyünc, qürur hissləri ilə doldurur. Təkcə özünə yox, bütövlükdə Azərbaycan energetika elminə qarşı edilmiş cinayətin ölçüsünü duyduqca ürək sızıldayır, ancaq yox edilmiş şəxsin yoxedilməzliyinin əzəmətlini, təntənəsini gördükcə bu sızıltının yerini iftixar duyğuları tutur...

* * *

Əlimizin altında İsgəndər Rzazadənin böyük qardaşı *Qafar Rzazadə*'nin 1964-65-ci illərdə rusca qələmə aldığı, yalnız 3 cildiylə tanış olduğum *"Xatirələr"*in makinadan çıxmış əlyazması var. Olduqca zəngin faktları içinə alan, cəlbedici bir dillə yazılmış bu maraqlı əsəri sanki şirin bir dastan kimi acgözlüklə oxuyur, "Rzazadə" soyadının keçmişiylə tanış oluruq.

...Tehranın kasıb[1] sakinlərindən biri – həmədanlı *Kərim kişi* oğlu *Cabbar*'ı çox erkən yaşlarında, özü də zorla evləndirmişdi və Cabbarın sevmədiyi bu qadından *Səttar* adlı oğlu və bir qızı da vardı. Sevgi bəsləyə bilmədiyi ailədən yaxa qurtarmaqçün 1870-ci ildə Tehrandan baş götürüb qaçan Cabbar Bakıya gəldi və burada müxtəlif şəxslərdən həkimliyin sirlərini öyrəndi. Ancaq həkimlik etməyə icazə verən rəsmi sənədi – həkimlik diplomu olmadığına görə gizli şəkildə müalicəylə məşğul olmağa başladı. Bir neçə il sonra Qazana gedərək buradakı məşhur tatar dövlətlisi *Ömər ağa*'nın qızı Gülcamalı uzunmüddətli ağır ruhi xəstəlikdən sağaltdı və 1893-cü ildə Ömər ağanın obiri qızı *Güləndam xanım*'la evləndi.

Cabbar yeni ailəsiylə 1894-cü ildə Rusiyaya səyahətə çıxdı və Yaroslavl, Moskva, Kolomna, Peterburq, Tiflis şəhərlərini gəzdi. Kolomnada olarkən oğlu Qafar (2.4.1894-1967) dünyaya gəldi.

[1] Çox güman ki, onların kasıblığı haqqında fikri Qafar Rzazadə kommunistləri "aldatmaq" üçün yazıb. Kasıb olsaydılar Cabbar və oğlu İsgəndər özlərini "xan" adlandırmazdı.



Soldan sağa: (?), Asya Rzazadə (Tahirova), Gülrux Həsən bəy qızı Ağazadə (AC Parlamenti sədrinin birinci müavini Həsən bəyin qızı), İsgəndər Rzazadə. Krım, 1928

Özünün və ailəsinin yaşayışını təmin edəcək qədər təcrübə qazandığına tam arxayın olan Cabbar yenidən Tehrana qayıtdı. Artıq Rusiyadan gəlmiş məşhur mütəxəssis sayılaraq hətta "həkimbaşı" çağırılan və başqalarından onu *"Mirzə Cabbar xan"* adlandırmağı tələb edən həkim 1894-cü ildə *Nasirəddin şah Qacar*'ın (1831-1896) sarayına dəvət edildi və saray xanımlarının müalicəsi kimi mühüm və ciddi bir işlə məşğul oldu. 1896-cı ildə şahı *Rza Kirmani* adlı birisi qətlə yetirəndən sonra həkimin şah sarayında xidməti də başa çatdı.

18 noyabr 1897-ci ildə Mirzə Cabbar xanın ikinci övladı *İsgəndər* Tehranda anadan oldu.

1899-cu ildə arvadının istəyiylə Rusiyaya dönməyə qərar verən Mirzə Cabbar ailəsiylə Tehrandan köçərək öncə Qəzvinə, 1900-cü ildə Rəştə (burada həmin il onun qızı *Firəngiz* dünyaya gəldi), 1903-cü ildəsə Ənzəliyə, oradan da Bakıya gəldi.

İrandan fərqli olaraq Rusiyada diplomsuz adamın həkim işləməsi yasaqdı və belə şəxsi istənilən vaxt həbs edə bilərdilər. Mirzə Cabbarınsa başqa heç bir sənəti yoxdu, buna görə də o xüsusən yerli həkimlərin dövlət orqanlarına şikayət etməsi üzündən tez-tez yaşayış və iş yerini dəyişməyə, bu şəhərdən başqasına köçməyə məcbur olurdu. Məsələn, 1903-cü ildə o və ailəsi Bakı – Tiflis – Qars – Qarakilsə (İrəvan mahalında), Allahverdi – Tiflis – Kutais marşrutu üzrə hərəkət etmişdi. Çox vaxt ailəsindən uzaqda işləməsi və aylarla evə gələ bilməməsi üzündən Kutaisdə arvadıyla onun arasında narazılıq yarandı və ayrılmalı oldular. Razılığa əsasən, Mirzə Cabbar İsgəndəri də götürüb Batuma getdi, Güləndam xanım, Qafar və Firəngizsə Kutaisdə qaldılar. Ancaq övlad sevgisi ailəni Tiflisdə yenidən birləşdirdi.

Təbii ki, bu zaman köhnə problem – yaşayış uğrunda mübarizənin yol yoldaşı olan məhrumiyyətlər hələ də aradan qalxmamışdı. Buna görə də Mirzə Cabbar gizli həkimlik "meydanı" tapmaqçün axtarışlarını sürdürməkdəydi. 1904-də onlar Tiflisdən Gəncəyə, oradan Yelenendorf [1] və Slavyankaya, oradan yenə Yelenendorf, Gəncə və Tiflisə getdilər. Söz yox ki, bütün bu gəzintilər balaca İsgəndərin də dünyagörüşünə ciddi təsir göstərirdi. Ən müxtəlif yerlərlə, şəhərlərlə, ən müxtəlif təbiətli ailələr və insanlarla tanış olduqca

[1] Sonrakı Xanlar, indiki Göygöl.



Əziz bəy İbad bəy oğlu Tahirov bağda ailə üzvləri ilə birgə. *Soldan 3-cü*, yaşmaqlanan onun yoldaşı Gülsüm xanımdır *(Nazim Rzazadənin arxivindən)*

onu çulğayan mühit haqqında təsəvvürləri genişlənir, eyni zamanda, atasının nə qədər əzab-əziyyət çəkdiyini müşahidə etdikcə yaşayışın çətinliklərini çox erkən yaşlarından bütün gerçəkliyiylə dərk edirdi. Bu üzücü köçəköçlər onda uşaq marağı doğursa da yaşına yaraşmayan dərəcədə zəngin həyat təcrübəsi də qazandırırdı. Görünür, sonralar öz ailəsinə qayğıcıllıqla, duyumculluqla yanaşmasının özülü də elə həmin uşaqlıq çağlarında qoyulmuşdu.

1905-ci il həm Rzazadələr ailəsinin, həm də şəxsən İsgəndərin həyatında dönüş ili oldu. Belə ki, onlar Tiflisdəykən yeni canişin *Vorontsov-Daşkov* Mirzə Cabbara xiromantiya (əl cizgilərinə baxmaqla taleyi öncədən müəyyənləşdirmə) ilə məşğul olmağa rəsmən icazə verdi. Artıq heç kəsdən çəkinmədən və heç yerə köçməyə vadar olmadan sərbəst işləmək imkanı qazanmış Mirzə Cabbardan ötrü xiromantiya əslində həkimliyini davam etdirməkçün çox gözəl və etibarlı pərdəyə çevrildi. Bundan sonra ailənin maddi və psixoloji durumu da sabitləşdi və uşaqların təhsil və tərbiyəsinə daha ciddi yanaşıldı. Məsələn, İsgəndər uşaq bağçasına verildi. İndiyədək müxtəlif rus dayələrindən tərbiyə alan və rus dilini də öyrənən İsgəndərin uşaqlığında bağça ilk ən önəmli dönəmdir.

Artıq inqilab dənizində çabalamağa başlayan Rusiya özünün xilasını xalqları birbirinə qırdırmaqda görürdü. Ondan "Böyük Ermənistan" yaratmaq vədini almış ermənilər bu gün olduğu kimi onda da Türkləri – düşmənlərinin "azərbaycanlı" adlandırmağı sevdiyi bizləri rus silahıyla qırmağa başladılar. Bu qırğın ermənilərin Türklərlə birgə yaşadığı bütün torpaqlarda, o sıradan Tiflisdə də şiddətlə gedirdi. Ermənilərin törətdiyi vəhşiliklərdən dəhşətə gələn Rzazadələr ailəsi daha bu şəhərdə yaşamağın mümkünsüzlüyünü görüb Bakını özünə ömürlük vətən seçdi.

Elə həmin 1905-ci ildə uşaqlarını məktəbə vermək istəyən Mirzə Cabbar xan çətinliklərlə üzləşdi. Yalnız *Hacı Zeynalabdin Tağıyev*'in sevimlisi, Bakı real məktəbinin şəriət müəllimi *Mirzə Yusif Talıbzadə*'nin işə qarışmasından sonra Qafar Bakı real məktəbinə qəbul edildi, İsgəndərsə yuxarı hazırlıq sinfinə götürüldü. 1 sentyabr 1907-də İsgəndər artıq həmin məktəbin birinci sinif şagirdiydi. İkinci sinifdə ona da şəriət və Türk dili dərslərini Mirzə Yusif Talıbzadə deyirdi. Məhz uşaqların sayəsində bu gözəl insanın ailəsiylə Rzazadələr arasında çox yaxın ünsiyyət yaranmışdı. Belə ki, Mirzə Yusifin həm öz ailəsi,



Əziz bəy Tahirov *(öndə qucağında uşaq)* ailə üzvləriylə birgə *(Nazim Rzazadənin arxivindən)*

həm bacısı *Ruqiyyə xanım* və onun əri *Mirzə Tağı* tez-tez Mirzə Cabbargildə və Mirzə Cabbargil də onlarda qonaq olardılar. Əlbəttə, İsgəndərin tərbiyəsinə bu amil də çox ciddi təsir göstərmişdi.

Artıq maddi vəziyyətini tam qaydaya salan ailə 1908-ci ildən başlayaraq uşaqları hər il yay tətilində ya Qafqazın mineral sularına – Kislovodsk və Jeleznovodska aparır, ya da onlarla Abşeron bağlarında dincəlirdi.

Bu müddətdə Güləndam xanım da boş oturmamış, diş həkimliyi sənətinə yiyələnmişdi və onun xeyli geniş müştəri dairəsi yaranmışdı. Bu, ananın, ailə işlərində aparıcı qüvvəyə çevrilməsiylə nəticələndi. İndiyədək öz ailəsinin şahı kimi hər yerdə və hər şeydə söz yiyəsi olmuş Mirzə Cabbar xan bu durumda, görünür, doğru yolu tapa bilməyib – 1908-ci ildə o, Salyandan olan 18 yaşlı *Mələkə* adlı bir qızla evlənib və Güləndam xanımın etirazına baxmayaraq onu evə gətirib. Bu zamandan ailə birdəfəlik parçalanıb və Mirzə Cabbar Güləndam xanımın uşaqları da götürüb başqa evdə yaşamasına icazə verib. Doğrudur, o, bundan sonra da övladlarına həmişə qayğı göstərməyə çalışıb, ancaq uğursuz seçimi sonucunda özünün maddi və mənəvi durumu sarsıntılara uğrayıb. Beləliklə, 1908-ci ildən başlayaraq İsgəndər də əslində ana himayəsindən böyüyüb və təhsil alıb.

* * *

İsgəndər Rzazadə 1907-ci ilin sentyabrında Bakı real məktəbinə girərək 7 iyun 1914-cü ildə əsas bölmə üzrə oranın tam kursunu bitirib. Ona 9 iyun 1914-cü ildə bu haqda verilmiş 1135 saylı attestatdan görürük ki, 13 fənnin yalnız üçündən (rus dili, cəbr və rəsm/rəsmxətdən) "yaxşı" alıb, yerdə qalan bütün qiymətləri "əla"dır.[1]

27 aprel 1915-ci ildə ona verilmiş 415 saylı şəhadətnamədə göstərilir ki, o, Bakı real məktəbini bitirib, 28 mart və 25 aprel 1915-ci ildə Bakı 3-cü kişi gimnaziyasında latın

[1] ARDA, fond 51, siyahı 3, iş 114, vv. 4-4a.

dilindən VIII sinif həcmində əlavə imtahan verib və "yaxşı" qiymət alıb. Buna görə də ona orta məktəbi bitirmək haqqında bu şəhadətnamə verilib.[1]

İsgəndər Rzazadə 1914-cü ilin sentyabrından 1915-ci ilin 28 aprelinədək Bakı edadisinin (real məktəbinin) əlavə – 8-ci sinfində oxuyub. Oxuduğu fənlər və aldığı qiymətlər ona bu haqda verilmiş 28 aprel 1915-ci il tarixli 959 saylı şəhadətnamədə əksini belə tapıb:

Şəriət –	əla (5)
Rus dili –	əla (5)
Alman dili –	əla (5)
Riyaziyyat, o sıradan:	
Hesab –	əla (5)
Cəbr –	əla (5)
Triqonometriya –	əla (5)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	əla (5)
Tarix –	əla (5)
Təbiiyyatşünaslıq –	əla (5)
Fizika –	əla (5)
Riyazi coğrafiya –	əla (5)
Rəsm –	əla (5)
Qanunşünaslıq –	əla (5).[2]

Beləliklə, bütün qiymətləri "əla" olan İsgəndər orta təhsilini 1915-ci ildə qızıl medalla başa vurub. Ailəsi maddi sıxıntı çəkdiyindən, o hələ 5-ci sinifdəykən evlərdə dərs deməklə özünü, ana və bacısını dolandırırdı.

Elə məktəbi qurtardığı il Peterburqa gedib Politexnik İnstitutun elektromexanika fakültəsinə girən gənc burada 4 semestr oxuyaraq 3-cü kursa keçib. Ancaq 1917-ci ilin oktyabrında bolşeviklər hakimiyyəti silahlı yolla qəsb etdikdən sonra Petroqradda vətəndaş müharibəsi başlayıb və orada qalmaq hədsiz riskli olub. Bu üzdən də İ.Rzazadə yay tətilindən sonra oraya gedə bilməyib, Bakıda qalıb. O, bu müddəti boş keçirməyib – Bibiheybətdə mərkəzi elektrik stansiyasında (sonralar L.Krasin adına oldu) 2 il təcrübəçi, sonra stansiya mexaniki işləyib.

Azərbaycan Cümhuriyyəti dövründə – 1919-cu ilin avqustundan 1920-ci ilin yanvarınadək isə Bakı və Biləcəri elektrik stansiyaları və şəbəkələrinin müdiri vəzifəsində çalışıb.

1919-cu ilin yayında öyrənib ki, Cümhuriyyət hökuməti xarici ölkələrdə oxumaq üçün 100 tələbə təqaüdü ayırıb və indi onlara namizədlər seçilir. O da, təbii ki, yarımçıq qalmış təhsilini başa vurmaq istəyib.

2-ci Bayıl[3] küçəsi 11-də yaşayan İ.Rzazadə 13 avqust 1919-cu ildə Cümhuriyyətin maarif nazirinə yazdığı ərizədə bildirib ki, Petroqrad Politexnikumunun elektrik-tələbəsi olaraq 2 kursu bitirmişəm, ancaq indi Rusiyada oxumağa umudum yoxdur. O, elektrotexnika işini öyrənməkdən ötrü İsveçrənin Sürix şəhərindəki Politexnikumun elektrotexnika fakültəsində oxumağa göndərilməsini xahiş edib. Bu zaman bildirib ki, xaricdə öz

[1] ARDA, fond 51, siyahı 3, iş 114, vərəq 2.
[2] Yenə orada, vv. 3-3a.
[3] İndiki Süleyman Məlikov.



İsgəndər Rzazadə. Bakı, 1930-cu illər

hesabıma oxumağa əsla imkanım yoxdur, çünki heç bir daşınar və daşınmaz əmlakım olmadığına görə aldığım maaşla təkcə özümü saxlamır, həm də ailəmizə (anama və bacıma) maddi yardım göstərirəm.[1]

İ.Rzazadənin Bakı Müsəlman Tələbələri İcraiyyə Komitəsinə 11 oktyabr 1919-cu ildə yazdığı ərizədə oxuyuruq:

"Mənə bəlli olub ki, xarici (İran) təbəəliyinə mənsubluğum mənim xaricə göndəriləcək tələbələr sırasında olmağıma əngəl törədir, halbuki attestat qiymətlərim, seçdiyim ixtisas və maddi durumum[2] namizədliyimi tam məqbul edir. 20 ilə yaxın Azərbaycanda yaşadığıma, onunla ruhən çulğaşdığıma görə özümü əsla yad hesab etmirəm və ruhən mənə doğma olan Azərbaycanın xeyrinə tezliklə işləməyə başlamaqdan ötrü yarımçıq təhsilimi bitirməyə hədsiz istəyimi nəzərə alaraq, İcraiyyə Komitəsinin nəzərinə çatdırıram ki, mən Azərbaycan təbəəliyini qəbul etməyə hazıram və bu ərizəmlə eyni vaxtda Azərbaycan vətəndaşlığını götürmək üçün tədbirlər görürəm. Buna görə də İcraiyyə Komitəsinə xahişlə müraciət edirəm ki, mənim ərizəmi təqaüdlərin bölüşdürülməsi üzrə komissiyanın nəzərinə çatdırsın, mənim ərizəmin yenidən gözdən keçirilməsini ondan xahiş etsin.

P.S. Hal-hazırda mən Azərbaycanda dövlət qulluğundayam – Bakı və Biləcəri elektrik stansiyaları və şəbəkələrinin müdiri vəzifəsini icra edirəm. Mənim Azərbaycan təbəəliyini qəbul etməyimin indiyədək ləngiməsi bununla izah olunur ki, Parlamentin qəbul etdiyi Azərbaycan vətəndaşlığı haqqında qanun "Hökumət xəbərləri" qəzetində yalnız bu ilin sentyabr ayında dərc edilib".[3]

Bu ərizənin üstündə İcraiyyə Komitəsinin sədri *Məhəmmədqulu Hacınski*[4]nin elə həmin günkü belə dərkənarı var: "Tələbə Komitəsində S.Axundova[5] təqdim etməli, bu ərizə haqqında nazirlik komissiyasına məruzə etməli".

Son sənədlərində özünü *"İsgəndər xan Rzayev"* adlandıran[6] Peterburq tələbəsi xalq maarif nazirinə 3 noyabr 1919-cu ildə yazdığı ərizəsində bildirir ki, "mən ya Berlin – Şarlottenburq, ya da Tuluza (Fransa) Elektrotexnika İnstitutunda oxumaq istərdim. Mənə təbəəliyi qəbul etmək tələbi irəli sürüldüyünə, ancaq 2 həftəlik belə qısa vaxtda onu yerinə yetirmək mümkün olmadığına görə, Azərbaycan vətəndaşlığını qəbul etməyim haqqında məsələ qaldırdığıma dair Daxiliyyə Nəzarəti dəftərxanasının mənə verdiyi arayışı bu ərizəmlə birlikdə təqdim edirəm. Doğum şəhadətnaməsini təqdim edə bilməyəcəyəm, çünki o, Petroqrad Politexnikumunda qalıb. Burada, Bakı şəhərində yenisini hazırlamaq isə imkan xaricindədir...

P.S. Doğumumun tarixi və yeri, rütbəm attestatlarımdadır".[1]

Daxiliyyə Nəzarəti dəftərxanasının 2 noyabr 1919-cu ildə verdiyi 10695 saylı sənəddə isə göstərilib ki, Bakı və Biləcəri elektrik stansiyaları və şəbəkələrinin müdiri İsgəndər xan Rzayev Azərbaycan vətəndaşlığını qəbul etməsi haqqında Daxiliyyə Nəzarəti qarşısında məsələ qaldırıb.[2]

Onun fövqəladə istedadını görən seçim komissiyası İsgəndərə bütün güzəştləri edib və hökmən xaricə göndərməyi qərara alaraq 100 təqaüddən birini ona ayırıb.

İ.Rzazadə 31 dekabr 1919-cu ildə hökumətin göstərdiyi yerdə 4 il işləyəcəyinə dair,[3] 10 yanvar 1920-ci ildə isə oxuyacağı dövlətdə heç bir siyasi və partiya işinə qarışmayacağı haqqında dilkağızları verib.[4]



İsgəndər Rzazadə. Bakı, 1932

Dövlət hesabına xaricə oxumağa göndərilməsi haqqında sənəd ona 14 yanvar 1920-ci ildə təqdim edilib.[5]

1920-ci ilin 16 yanvarında o, bir çox başqa yoldaşlarıyla birgə Fransaya göndərildi. 1920-nin payızında ali məktəbə girənədək Parisdə – Sorbon Universitetində fransız dili məktəbini bitirdi, eyni vaxtda avqust-noyabr aylarında Parisdəki SQE firmasında çertyoçu işlədi.[6] 1920/21-ci dərs ilində və 1921/22-ci dərs ilinin birinci yarısında Fransanın Nansi şəhərində Ali Elektrotexnika İnstitutunda oxudu. 1921-ci ilin avqust-noyabr aylarında Almaniyanın Brebax şəhərindəki "Gilbergütt" firmasında konstruktor oldu. 1922-ci ilin başlanğıcında Almaniyanın Darmştadt şəhərindəki Ali Texniki Məktəbə dəyişdirilən İ.Rzazadə 1924-də həmin məktəbin elektrotexnika fakültəsini "çox yaxşı" qiyməti və mühəndis-elektrik diplomu ilə bitirdi. "110.000 v. yüksəkvoltlu ötürmə" adlı diplom layihəsini məşhur professor Petersen'in rəhbərliyi altında yerinə yetirdi.

Ali məktəbi bitirən İ.Rzazadə 5 dekabr 1924-cü ildən Darmştadt şəhərinin elektrik stansiyasında təcrübəçi mühəndis vəzifəsində işə başladı və bir azdan sonra – 1925-ci ilin 25 yanvarında Berlindəki AEQ (Ümumi Elektrik Şirkəti) firmasına həmin vəzifəyə dəyişildi. Berlində olduğu son 4 ayda (1 aprel – 1 avqust 1925) eyni zamanda Azərneftin Berlin kontorunda mühəndis işlədi və Berlinin ən böyük elektromexanika və mexanika

[1] ARDA, fond 51, siyahı 3, iş 114, vərəq 1.
[2] Kasıb olması.
[3] ARDA, fond 51, siyahı 3, iş 114, vərəq 6-6a.
[4] Onun haqqında bax: *Tahirzadə Ə.* Professor Məhəmmədqulu bəy Kərbəlayı Ağa bəy oğlu Hacınski.
[5] Cümhuriyyət tələbələrindən biri Səməndər Axundzadə.
[6] O, atasının "Cabbar xan" adlanmasına əsaslanıb.

[1] ARDA, fond 51, siyahı 3, iş 114, vərəq 7.
[2] Yenə orada, vərəq 8.
[3] Yenə orada, vərəq 9.
[4] Yenə orada, vərəq 11.
[5] Yenə orada, vərəq 12.
[6] İ.Rzazadənin oxumağa göndərildiyi vaxtdan 29 may 1936-cı ildəki təyinatına qədər olan fəaliyyəti haqqında bütün bilgiləri onun 15 iyun 1937-ci ildə doldurduğu kadrların şəxsi uçot vərəqindən (bax: EA MEA, fond 39, siyahı 1, iş 123, qutu 5, vv. 5-7) və "AQNİ-nun dosenti müh. İ.Rzazadənin qısa tərcümeyi-halı"ndan (bax: yenə orada, vərəq 8-9) götürmüşük.



İsgəndər Rzazadə. Bakı, 1930-cu illər

zavodlarının işi ilə tanış oldu. Burada öyrəndikləri gələcək işlərində onun əlindən çox tutdu.

1925-ci ilin avqustunda o, Vətənə döndü.

* * *

Azərneftin rəisi A.P.Serebrovski 1925-in sentyabrında onu Bakıya – Elektrik Cərəyanı İdarəsinin ("Elektrotok") sərəncamına çağırdı və o, 1926-cı ilin payızınadək texniki şöbədə layihəçi mühəndis kimi çalışdı. Bu idarədə işlədiyi vaxtda Ağ şəhərdəki "Qırmızı ulduz" stansiyası ilə Şmidt zavodu arasında 20.000 voltluq ötürmə xəttini layihələndirdi (bu xətt bir qədər sonra çəkildi).

İ.Rzazadə 1927-ci ilin sentyabrında mühüm vəzifəyə irəli çəkildi – Ümumittifaq Xalq Təsərrüfatı Şurasının Bakıdakı Elekrotikinti Şöbəsi elektrotexnika hissəsinin müdiri qoyuldu və 1929-cu ilin mart-avqust aylarında şöbə baş mühəndisinin müavini oldu.

Bu şöbədə işlədiyi vaxt Şəki (1927), Aşağı Zurnabad (1928), Zaqatala (1928), Stepanakert[1] (1929) su elektrik stansiyalarının elektromexanika hissələrini layihələndirdi və onların quraşdırılmasına başçılıq etdi. O, Qarasaqqal SES-in də layihəsini vermişdi. İ.Rzazadənin 1934-cü ildə eskizini hazırladığı Tərtər – Gəncə ötürmə xəttinin layihəsi bəyənilmiş və təsdiq edilmişdi. Bunlardan başqa, Bakı şəhərindəki bir çox müəssisələrin (toxuculuq fabriki, baramaaçan fabrik, sement zavodu və b.) elektrikləşdirilməsi layihələri də İsgəndər Rzazadə əməyinin məhsuludur. Dəmiryolunun elektrikləşdirilməsində də onun zəhməti az olmayıb.

Təsadüfi deyil ki, artıq nüfuzlu mütəxəssis kimi ad-san qazanmış mühəndisdən eyni zamanda respublika Dövlət Plan Komitəsində Azərbaycan SSR-in elektrikləşdirilməsi məsələləri üzrə əsas məsləhətçi kimi istifadə olunurdu.

Qarasaqqal SES-in layihəsinin Ümumittifaq Elektrotexnika Birliyinə (ÜEB) verilməsi ilə bağlı olaraq 1929-cu ilin avqustunda buraya dəyişdirilən İ.Rzazadə 1931-ci ilin yanvarınadək Azərneft mədənlərinin və Birliyin başqa trestlərinin elektrik avadanlıqlarına xidmət edən ÜEB Neft Şöbəsinin böyük mühəndisi vəzifəsində çalışdı.

1931-ci ilin yanvarında İsgəndər Rzazadə "direktiv orqanlar"ın qərarı ilə Azərbaycan SSR Dövlət Plan Komitəsi energetika bölməsinin sədri, eyni zamanda Rəyasət Heyətinin üzvü qoyuldu və 1933-cü ilin martınadək bu vəzifədə qaldı. 1932-ci ilin iyulunda isə eyni vaxtda həm də SSRİ Ağır Sənaye Komissarlığının Azərbaycan Xalq Komissarları Şurasındakı müvəkkilinin müavini işlədi. (Bu vəzifədə 1934-cü ilin iyununadək çalışdı).

[1] İndiki Xankəndi.

Təşkilatçılıq qabiliyyətini, səriştəliliyini göz önündə tutub onu SSRİ Xalq Ağır Sənaye Komissarlığı (XASK) "Hidroenerjilayihə" Tresti Azərbaycan şöbəsinin ("Az.QidEP") başçısı qoydular (1937-ci ilin 1 martınadək).

1935-ci ilin yanvarında İsgəndər Rzazadə VII çağırış ZSFSR Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçildi.

Tapşırılan bütün işlərin öhdəsindən bacarıqla gələn, qarşıda duran hər hansı məsələnin icrasına son dərəcə məsuliyyətlə yanaşan İ.Rzazadənin "təsərrüfat cəbhəsində fədakar əməyi", "yaxşı zərbəçi işi" çalışdığı komissarlıq və trestlərin fəxri fərmanları ilə qeyd olunmuş, respublikada "texniki kadrların yetişdirilməsində məhsuldar əməyi" isə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Fəxri fərmanı ilə mükafatlandırılmışdı (1936).



İsgəndər Rzazadə. Borjomi, 1935

* * *

Leninin ölkənin elektrikləşdirilməsinin kommunizmin ən mühüm tərkib hissəsi olduğu haqqında məşhur müddəasının fəaliyyət proqramı kimi götürüldüyü və Azərbaycanın az qala başdan-başa qaraçıraq umuduna qaldığı bir vaxtda ana yurdunu gözqamaşdırıcı elektrik işığında çimdirmək istəyi ilə gecəsini gündüzünə qatan istedadlı mühəndis qüvvəsini yalnız xalq təsərrüfatındakı təcrübi işlərlə məhdudlaşdırmırdı. Məşğul olduğu sahə üzrə milli kadrların çox qıt olduğu bir zamanda üzərinə düşən tarixi vəzifənin əhəmiyyətini o, yaxşı dərk edirdi. Buna görə də daha çox yerdə, xüsusən pedaqoji və elmi işdə də xalqına fayda verməyə çalışırdı.

Geniş dünyagörüşlü müəllim və hazırlıqlı elmi işçi olan İ.Rzazadə 8 sentyabr 1925-ci ildən həbs edilən günədək Azərbaycan Politexnik İnstitutunda[1] müəllim, bir qədər sonra dosent və kafedra müdiri işləmişdi.

İlk vaxtlar elektrotexnika kafedrasında elektrikölçmə və elektrik maşınları laboratoriyalarında laboratoriya məşğələlərinə rəhbərlik edən İ.Rzazadə 1928-ci ildən İnstitutun inşaat və dağ fakültələrində ümumi elektrotexnika fənnindən müstəqil məşğələlər aparmağa başladı. 1933-cü ildən o, elektrotexnika fakültəsinin yuxarı kurslarında "elektrik enerjisinin ötürülməsi və paylanması" adlı xüsusi fəndən ilk dəfə mühazirələr təşkil edib.

1926-cı ildən N.Nərimanov adına Sənaye Texnikumunun elektrotexnika fakültəsində dekan (1927-ci ilin sentyabrınadək) və müəllim işləyən İ.Rzazadə 7 il "elektrik ölçmələri", "mərkəzi elektrik stansiyaları", "ümumi elektrotexnika" və "elek-trik maşınları" fənlərindən məşğələlər aparıb. Bu texnikumda elektrikölçmə və elektrik maşınları laboratoriyalarını da 1926-cı ildə İ.Rzazadə yaratmış, 1932-ci ilin iyununadək onlara başçılıq etmişdi.

[1] Sonralar "Azərbaycan Sənaye İnstitutu" və "Azərbaycan Neft İnstitutu" adlandırıldı; indiki Azərbaycan Neft Akademiyası.



İsgəndər Rzazadə həbsdə. 1937

1930-cu ilin mayında İsgəndər Rzazadəyə dosent elmi rütbəsi verildi. 1934-cü ildə isə Azərbaycan Sənaye İnstitutunun Elmi Şurası ona dissertasiya müdafiə etmədən texnika elmləri namizədi almlik dərəcəsi vermək haqqında vəsatət qaldırsa da, görünür, həsədini çəkənlər də tapıldı və bu işə mane oldular.

Bu gözəl müəllim sonralar Azərbaycan Neft İnstitutunun energetika fakültəsinin son kurslarında "elektrik şəbəkələri", "yüksək gərginlikli ötürmə xətləri" fənlərindən mühazirələr oxumuşdu. Onu da hökmən göstərməliyik ki, respublikada bu fənlər üzrə ana dilimizdə ilk mühazirələrin təşkili və energetika terminlərinin yaradılması İsgəndər Rzazadənin adı ilə bağlıdır.

1935-ci ildə Azərbaycan Sənaye İnstitutunda özünün yaratdığı "Elektrik şəbəkələri və yüksək gərginlik texnikası" kafedrasına müdir qoyulan dosent İ.Rzazadə burada elmi işin səviyyəsini xeyli qaldırdı. O, tələbələr üçün 18 işin qoyuluşunu təşkil etdi və həmin işlərin aparılması üçün metodik göstəriş hazırlayıb çapa verdi (sonralar nəşr olunmadı). İşlər haqqında təsəvvür yaratmaq üçün bir neçəsini ötəricə göstərək. Son dərəcə bacarıqla quraşdırılmış impuls generatoru, klidonoqraf və katod ossilloqrafı 4 nəfərlik tələbə qrupuna 3-4 akademik saatda katod ossilloqrafında, klidonoqrafda fotoların eyni zamanda çəkilişi və təhlili üçün bütün təcrübi işləri görməyə imkan verirdi.

1936-cı ildə Azərbaycan Enerji İdarəsi ("Azenerqo") qarşısında 110 kilovoltluq xətlərdəki hörüklərin üstünün duz qalıqlarının, toz və dumanın təsiri altında örtülməsinə qarşı mübarizə aparmaq məsələsi qoyuldu və həmin problemin həlli Azərbaycan Sənaye İnstitutuna tapşırıldı. İsgəndər Rzazadənin başçılıq etdiyi briqada içməli suya həddən artıq qənaət tələb olunan Abşeron şəraitində 110 kilovoltluq izolyatorların yuyulması yollarını təcrübədə uğurla həll etdi və işin nəticələri adı çəkilən müəssisə sistemində geniş ölçüdə tətbiq olundu. İşinin faydasını görən alim bütün Azərbaycanda elektrik xətlərinin iş rejiminə hava şəraitinin təsirini öyrənməyə başladı və çox maraqlı nəticələr əldə etdi. O, elmi axtarışlarını 1937-ci ilin sonunadək yekunlaşdırmağı nəzərdə tutmuşdu...

* * *

Elmdə öz sözünü deməyə başlayan alimi SSRİ EA Zaqafqaziya Filialı Azərbaycan Bölməsinə (EA ZFAB) dəvət etdilər. 1 yanvar 1934-cü ildə "Azərbaycan Qırmızıbayraqlı Neft İnstitutunun dosenti, mühəndis-elektrik" İ.Rzazadə Bölmənin Rəyasət Heyətinə belə bir ərizə yazdı:

"EA Zaqafqaziya Filialı Azərbaycan Bölməsi Rəyasət Heyətinin sədr müavini mühəndis [Cəfər] Kazımovla danışıqlarımıza əsasən bununla nəzərinizə çatdırıram ki, 1934-cü ilin başlanğıcından Energetika Bölümündə tətbiqi elektrotexnika sahəsində elmi-tədqiqat xətti ilə işləməyə hazıram və bununla məni adı çəkilən bölümün elmi əməkdaşları sırasına götürməyinizi xahiş edirəm".[1]

[1] EA MEA, fond 39, siyahı 1, iş 123, qutu 5, vərəq 2.

Ərizəyə *Cəfər Kazımov* (1897-1968) ertəsi gün belə bir dərkənar qoydu: *"Energetika Bölümü, prof. Yesmana. 1934-cü ilin ştatı təsdiq ediləndə dos. Rzazadəni I dərəcəli elmi işçi kimi ora daxil etməyinizi və Rəyasət Heyətinin təsdiqinə verməyinizi xahiş edirəm".*[1]

3 fevral 1934-cü ildən o, Energetika Bölümünə I dərəcəli elmi işçi götürüldü. 1937-ci ilin 1 aprelindənsə burada bölüm rəhbərinin müaviniydi.

Ana dilindən başqa rus, alman, fransız dillərini əla, ingilis və gürcü dillərini zəif bilən alim geniş çeşidli elmi ədəbiyyatdan bacarıqla istifadə edirdi.

İ.Rzazadə Energetika Bölümündə işlədiyi qısa vaxtda da ciddi elmi araşdırmalarla məşğul oldu. Onun *"Abşeronda küləyin gücündən istifadə məsələsinə dair"* 105 makina səhifəsi həcmindəki, 26 şəkilli elmi işində külək enerjisinin hesablanmasının bütünlüklə yeni qrafik üsulu ortaya qoyulmuşdu.

"ASSR-in energetika ehtiyatları" adlı 14 çap vərəqi həcmində ortaqlı elmi işində respublikanın neft, qaz, su, külək, günəş və bərk yanacaq ehtiyatlarının vəziyyəti çoxlu xəritələrlə təhlil edilmişdi.

EA ZFAB Nəbatat bağında quraşdırdığı SVEİ tipli çoxqatlı külək mühərrikində apardığı sınaq işlərinin nəticələri də maraqlı olmuş, bu naqda dəyərli elmi hesabat hazırlamışdı.

Vətəndaş alimin araşdırmalarında, elmi yazılarında Azərbaycan energetikasının inkişaf yolları axtarılır, onun çiçəklənməsi üçün konkret vasitələr göstərilirdi. *"Beşillik planda ASSR-in elektrikləşdirilməsi"* (1928) adlı ilk məqaləsindən başlayaraq bu təəssübkeşlik getdikcə güclənir. *"Azərbaycanın energetika istehlakının və ehtiyatlarının perspektivləri"* (1928), *"ASSR-in yerli elektrikləşdirilməsi"* (1931), *"ASSR energetikasının inkişaf yolları"* (1931), *"Yüksək gərginlikli ötürmə xətlərinin iqtisadi hesablanmasına dair"* (1931), *"ZSFSR-in energetika bazası (ASSR hissəsində)"* (1932), *"Tərtər SES-in inşası haqqında"* (1932), *"ASSR-in ağır sənayesi II beşillikdə"* (1932), *"ASSR-də su elektrik stansiyaları quruculuğunun perspektivləri"* (1934), *"Abşeronda küləyin gücündən istifadə məsələsinə dair"* (1935) adlı araşdırmalarda yurdsevər bir alimin ürəyi çırpınırdı.

Respublika energetikasının vəziyyətini hamıdan yaxşı bilməsinə görədir ki, bu mövzuda danışmaq səlahiyyəti məhz İsgəndər Rzazadəyə verilmişdi. Onun Azərbaycan energetiklərinin I konfransında (yanvar 1931) 34 makina vərəqi həcmindəki *"ASSR-də energetikanın vəziyyəti və inkişaf perspektivləri haqqında"* (1931) və ikinci beşillik planın tərtibi üzrə mərkəzi büroda oxuduğu 23 makina vərəqi həcmindəki *"ASSR-in elektrikləşdirilməsinin 2-ci beşillik planı"* (1932) adlı məruzələri onun Azərbaycan energetika elminin bayraqdarı olduğunu aydın göstərir.

24 yanvar 1931-də respublika energetiklərinin birinci konfransında sədr müavi seçildiyi Azərbaycan Energetika Komitəsində də o, ciddi işlərlə məşğul oldu.

Həmin ilin mayında həm də Elmi-Tədqiqat Energetika və Elektrikləşdirmə İnstitutu Bakı şöbəsinin müdiri seçilən (1932-ci ilin noyabrınadək) İ.Rzazadə energetika problemləri üzrə mühüm araşdırmalara girişdi. 1932-34-cü illərdə o, Azərbaycan Neft İnstitutundakı elmi-texniki dərnəkdə də bir neçə elmi məruzə oxudu.

Alimin bir sıra elmi məqalələri onun başqa işdaşları ilə ortaqlı əməyinin nəticəsidir. Məsələn, *"Azərbaycanın energetikası"* (1931), *"Azərbaycanın elektrikləşdirilməsinin baş planı"* (1932), *"ASSR-in energetika ehtiyatları"* (1932) məqalələri *Teodor Zolotaryov*'la,

[1] EA MEA, fond 39, siyahı 1, iş 123, qutu 5, vərəq 2.

"Küləyin təcrübi gücündən istifadə edək" (1932), *"İkinci beşillikdə ASSR-in elektrikləşdirilməsi planı"* (1932) yazıları *Nəriman Səlimxanov*'la, *"Mingəçevir problemi"* (1932) isə *Cəlil Məhəmmədquluzadə*'nin oğlu mühəndis *Midhət Məhəmmədquluzadə* ilə birgə yazılıb.

Təəssüf ki, kommunist irticası nəinki onun elmi yaradıcılığını yarımçıq qoydu, eləcə də çapa hazır əsərlərini məhv etdi. Alim tutulmazdan qabaq *"Vatsız güclərin istehsalı və istehlakçıları"* (1928, 43 makina səhifəsi), *"ASSR-də energetika üzrə layihə-axtarış işlərinin xülasəsi"* (*Metaksa* ilə birgə yazıb) (1935, 10 m. s.), *"ASSR-in su energetika ehtiyatları"* (*Əlibəyov*'la birgə yazıb) (1935, 100 m. s.), *"Su təchizatı və suvarma məqsədilə Abşeronda küləyin gücündən istifadə edilməsi"* (1935, 64 m. s.), *"Azərenerji sistemində 110 kilovoltluq ötürmə xətlərində hörüklərin üstünün örtülməsi səbəblərinin öyrənilməsi və onların aradan qaldırılması üçün səmərələşdirici tədbirlərin seçilməsi"* (başqa müəlliflərlə birgə yazıb) (1936, 112 m. s.) əsərlərini nəşrə hazırlamışdı. Müəllif bu işlərin çapını görə bilmədi. Onların sonrakı taleyi bizə də bəlli deyil.

İsgəndər Rzazadə eləcə də redaktoru olduğu 3 əsərin (mühəndis Veynblat. *"Paylayıcı hava xətləri və qurğuları tikilməsinin əsasları"* – 1932; mühəndis Kazımzadə. *"Elektrikvermə xəttinin mexaniki hesablanması"* – 1933; *"Azərbaycanın elektrik ehtiyatlarının atlası"* – 1935) nəşrini görmədi.[1]

Həbs olunan zaman "NKVD"-nin İ.Rzazadəni Azərbaycanın bütün energetikası sənayesindəki pozuculuq işlərinin başçısı kimi seçməsi bu gerçəkliyi bir daha təsdiqləyir ki, respublikada professor (sonralar akademik) *Yesman* kimi başqa qeyri-Türk energetik alim və mühəndislər işləsələr də o vaxt Azərbaycanda bu sahə üzrə ən aparıcı və səlahiyyətli milli mütəxəssis, eyni zamanda rəhbər işçi İ.Rzazadə idi və gənc energetika elmimizin bünövrəsi məhz onun çiyinləri üzərində ucaldılmışdı.

***

Son dərəcə həyatsevər insan olan İsgəndər Rzazadə ünsiyyətcil təbiəti ilə özünə çoxlu dostlar qazanmışdı. Ancaq o, həyatını məhz öz gücünə və özü istədiyi kimi qurmaq istəyirdi. Buna görə də özünə tam arxayın arxayın olanadək ailə haqqında düşünmədi. Yalnız 31 yaşındaydıkən artıq vaxtın ötdüyünü görərək dərin rəğbət bəslədiyi *Asya xanım*'a ürəyini açdı. 1928-ci ilin martında ailə qurduğu bu mehriban və səmimi qız həyatda onun ən yaxın və etibarlı arxadaşı oldu. (Universitetin tarix fakültəsini bitirmiş Asya xanım muzeylərin birində işləyirdi).

Şuşadakı məşhur Tahirovlar soyundan olan Asya xanımın atası *Əziz bəy Tahirov* (1880-1958) XX yüzilin başlanğıcında Bakıya köçmüşdü və onu burada yaxşı tanıyırdılar, çünki milyonçu *Şəmsi Əsədullayev*'in yanında müdir işləyirdi. Maddi baxımdan imkanlı adam olan Əziz bəy Bakıda telefonu, şəxsi avtomobili olan ilk kişilərdəndi. *Qurban Pirimov* danışırmış ki, *Bülbül*'ün İtaliyada oxumasına maddi yardım göstərənlərdən biri də məhz Əziz bəy Tahirov olub.

Əziz bəyin 4 qardaşı vardı: *Rüstəm, Yunis, Yusif, Abdulla*. "Pravda" qəzetinin Azərbaycan üzrə müxbiri işləmiş məşhur jurnalist *Leonid Tahirov* Rüstəmin oğludur. Əziz bəyin bacısı *Sürəyya xanım*'sa Azərbaycanın keçmiş xarici işlər naziri *Tahirə xanım Tahirova*'nın (1913-1991) anasıydı. Asya xanımın anası *Gülsüm xanım* (1892-1961) yüksək mədəniyyətli kübar qadınlardandı.

[1] Alimin əsərlərinin adlarını onun Azərb. EA Arxivindəki şəxsi işindəki siyahıdan götürmüşük (bax: EA MEA, fond 39, siyahı 1, iş 123, qutu 5, vv. 14-16).

İsgəndər Rzazadə hədsiz xoşbəxt bir ailə başçısıydı. 1928-ci ilin avqustunda Krımda dənizin lap qırağında qoşa çəkdirdikləri şəkildə gənc ər-arvadın üz-gözündən yalnız sonsuz səadət yağır. Sevimli ömür-gün yoldaşı tezliklə onu bir qız (*Elmira;* 1929-15.01.2007) və bir oğul (*Nazim;* 1932) atası etdi. O, uşaqlarını da hədsiz məhəbbətlə sevir, onları əzizləməkdən doymurdu. Bunu 1932-ci ilin 28 aprelində Balaxana küçəsi[1] 103 ünvanında yaşayan 3 yaşlı qızı Elmiraya Moskvadan göndərdiyi açıqca da göz önünə sərgiləyir:

"Əziz və sevimli Elmiram!

Uzaq Moskvadan göndərdiyim ən səmimi ata salamlarımı qəbul et! Atan səndən ötrü hərk darıxır. Hə, sənin ad gününü necə keçirdilər? Çoxlu hədiyyə aldınmı? Mən də sənə Moskvadan hədiyyələr gətirəcəyəm. Qardaşın Tamerlanın[2] kefi necədir? Əminəm ki, sən özünü yaxşı aparırsan, xəstələnmirsən. Çox dəcəllik etmirsən, ananın və nənələrinin sözlərinə qulaq asırsan. Rəfiqələrinə məndən salam söylə. Mənim əvəzimə qardaşını, anını və nənələrini öpərsən. Səni də Sənin Atan öpür".[3]

Onun haradansa arvadına göndərdiyi tarixsiz gülməli bir açıqcadasa yatağından qalxan bir qadın və onun 2 dəcəl uşağı təsvir edilib. İ.Rzazadə öz əliylə ananın şəklinin altından *Asya – "narkomşa"* yazıb. Uşaqların birini *"Nazimçik"*, obirini *"Elmira"* adlandırıb. Açıqcanın arxasında oxuyuruq:

"Sevimli Asyacığım!

Sənin səhərlərindən bir səhnəni göstərən bu gözəl şəkildən xoşun gəldimi? Bunlar sənin yataq otağını və səhər yuxudan durmağını necə də xatırladır. Əla uyğunluqdur. İdeal dır. Ha-ha-ha.

İsgəndər".

Nə yazıq ki İ.Rzazadə ailə xoşbəxtliyinin ləzzətini vur-tut doqquzca il dada bildi. Ailəsini həyatda hər şeydən çox sevən bu işıqlı insanın taleyi 1937-ci ilin 26 mayında büsbütün qaranlığa büründü – sevimli Asyası Bakıdan uzaqlarda dünyasını dəyişdi və qürbətdə də dəfn olundu. Dözülməz faciə alimi kökündən sarsıtdı.

Mayın 25-də səhər saat 10-da anası Güləndam xanıma, qayınanası Gülsüm xanıma, bacısı Firəngizə, yaxın qohumu Nina Seyidovaya və uşaqlarına yazdığı məktub İsgəndər Rzazadənin nə qədər kövrək, həssas, eyni zamanda qayğıkeş və alicənab insan olduğunu bir daha göstərir. Bu məktubu müəyyən qısaltmalarla oxuculara təqdim edirəm:

"Bizi müdhiş kədər gözləyir. Sevimli, gözəl Asyamızın vəziyyəti çox ağırdır. Siz mənim nə çəkdiyimi təsəvvür edə bilməzsiniz – ürəyim parça-parça olur, boğazıma sancılar dolur. Düşünürəm ki, buna dözməyəcəyəm, ürəyim partlayır.

Dünən axşam saat 7-nin yarısında mən artıq Yaltada idim. Simferopoldan maşınla buraya gütümüşəm. Mənə elə gəlirdi ki, onu sağ görməyəcəm. Mayın 24-də axşam saat 8-də artıq sanatoridəydim və mənim gözəl zavallı Asyamı gördüm. Yazıq necə də dəyişib.

Ağappaq ağarıb. Arıqlayıb. Gözləri çuxura düşüb. Ancaq onlar həmişə olduğu kimi yenə xeyirxah və gözəl olaraq qalıb. Onun ağlı bütünlüklə üstündədir və zavallı hələ də qurtulacağını düşünür. O, necə də yaşamaq, yaşamaq istəyir! Mən onu aramsız sakitləşdirirəm ki, hər şey ötəcək, o sağalacaq. Ancaq kədərli burasıdır ki, boynuma almalıyam ki, onun həyatının nəinki günləri, bəlkə də saatları artıq sayılmaqdadır.

[1] İndiki Füzuli küçəsi.

[2] Nazimə bir neçə ay "Tamerlan" deyilibmiş.

[3] Bu yazıda istifadə olunmuş bütün özəl məktubların əsli İ.Rzadənin övladlarının ailə arxivində, surətləri isə bizim özəl arxivimizdədir.

Mən dünən gecə saat 12-yədək onun başı üstündə dayanmışam. Əzizlərim, biləydiniz ki, mənə nə qədər ağırdır. Məncə, bu dərdə özümüzkülər arasında dözmək nisbətən asandır.

Mən ona gözəl qızıl güllər aparmışdım, bu gün səhər tezdən isə onun xahişi ilə inciçiçəyi tapdım. Dünən gecə sanatoridən çıxaraq bütün gecə dənizin sahili boyunca var-gəl etmişəm. Ay işıq saçır, mənsə şırıltılı dalğaların gurultusunu öz naləmlə boğmaq üçün hönkür-hönkür ağlayırdım. Göz yaşlarımdan sonra yüngülləşdim və səhərə yaxın mehmanxanadakı otağıma gəldimsə də, əlbəttə, yuxulaya bilmədim.

Bu gün səhər onun halı yaxşılaşdı. O, yalvarıcı gözlərlə mənə baxır və məndən imdad diləyirdi. Axı onu nəylə sakitləşdirə bilərəm?? Yalnız umudverici sözlərlə.

Deyirlər ki, artıq hər şey bitib. Onu daha heç nə ilə qurtarmaq mümkün deyil. Heç bir möcüzə baş verə bilməz. Bu gün saat 12-də konsilium çağırdım. Məxsusi olaraq prof. Benştoku dəvət etdim. Nə etmək lazım olduğunu qərara aldım. Həkimlər deyir ki, onu heç yana çıxarmaq olmaz – yoldaca keçinər. Bu, nə dəhşətdir? Yolda, qatarda, yaxud paroxodda ölüm! Yox, yaxşısı budur ki, o daha gözəl şəraitdə canını tapşırsın. İlahi, bu, nə dəhşətdir – yolda ölüm…

Bu gün səhər saat 10-da onun bir yanağında mənhus qızartı göründü…

Mənim əzizlərim və can-ciyərlərim, bizi necə böyük bədbəxtlik gözləyir. Hamımızın sevimlisi olan bir insanı, özü də harada, itiririk! Qürbətdə!!! Bax, ikiqat ağırlıq bundadır. Burada hamı yaddır, bizim dərdimiz heç kəsin vecinə deyil.

Ya rəbbim! Bu sətirləri yazmaq nə qədər ağırdır. Mən yazıram, əllərim titrəyir, gözlərimdən yaş süzülür. Bəlkə də siz bu sətirləri oxuyan zaman bizim zavallı, yaxşı, unudulmaz Asya artıq bu dünyada olmayacaq, həyat necə də əzazil və amansızdır! Lənətə gəlmiş ölüm özünün seçdiklərini götürür və heç nə ilə, heç bir insan gücüylə onu qova bilməzsən…

Ağlamayın, dərd çəkməyin. Yox, yaxşısı budur mənimlə birgə ağlayın. Siz də yüngülləşərsiniz. Ağlayın, bol-bol göz yaşları tökün, axı yüngülləşərsiniz!!!

Bədbəxt İsgəndəriniz".

Qəm-qüssə ona elə təsir göstərmişdi ki, hətta iyun ayında Azərbaycan Sənaye İnstitutunun tədris hissəsi görkəmli alimlərin rəyi ilə ona dissertasiya müdafiə etmədən texnika elmləri namizədi alimlik dərəcəsi verilməsi üçün ikinci dəfə vəsatət qaldıranda da bu məsələyə o, tam laqeydliklə yanaşdı.

İyulun 2-də SSRİ EA Azərbaycan Filialı Rəyasət Heyətinə yazdığı ərizədə həyat yoldaşının ölümü nəticəsində pozulmuş əsəblərini müalicə etdirmək üçün 15 iyuldan 15 sentyabradək növbəti dincəlişə buraxılmasını xahiş etdi.[1] Xahişə 1 iyulda (belə çıxır ki ərizə yazılmazdan 1 gün qabaq; hər halda, Rəyasət Heyətinin sədri *Bahadur Vəlibəyov*'un imzaladığı sənəddə belə göstərilib) razılıq verildi.[2]

* * *

Ancaq dincəlişə çıxmaq, müalicə edilmək ona qismət olmadı – 11 iyul 1937-ci ildə Xalq Daxili İşlər Komissarlığı ("NKVD") İsgəndər Rzazadəni həbs etdi.

…Qarşımızda 1937-ci ilin iyulunda başlanmış 210 səhifəlik iş durur. Üstündə yazılıb: "DTİ-nin[3] XDİK-nin ləğv etdiyi Azərbaycanın energetika sənayesindəki

[1] EA MEA, fond 39, siyahı 1, iş 123, qutu 5, vərəq 35.
[2] Bax: Azərb. EA Arxivi, fond 39, siyahı 1, iş 123, qutu 5, vərəq 36.
[3] XDİK-nin Dövlət Təhlükəsizliyi İdarəsi.

əksinqilabi milliyətçi-trotskiçi-üsyançı-təxribatçı-pozucu təşkilatın üzvlərinə dair 6136 saylı istintaq işi".[1]

Sən demə, hələ 25 iyunda DTİ 4-cü şöbəsinin rəisi, Dövlət Təhlükəsizliyi (DT) leytenantı Klemençiç İ.Rzazadəni həbs etmək üçün arayış hazırlayıbmış. Həmin sənəddə göstərilir ki, "Azərbaycan Milli Mərkəzi"nin üzvü, 1931-ci ildə Baş Siyasi İdarənin məhkum etdiyi *[Məhəmməd] Mullayev* istintaqda pozucu təşkilatın üzvləri arasında İ.Rzazadənin də adını çəkib. ASSR XDİK-nin indi həbs etdiyi İ.N.Eliava da İ.Rzazadənin V.A.Çiçinadzenin trotskiçi təşkilatının üzvü olaraq pozuculuq fəaliyyəti göstərdiyini bildirib. Elə bu sənəd əsasında da 11 iyulda İ.Rzazadəni 702 saylı həbs orderiylə evindən "götürdülər".

N.İ.Qriqoryanın rəis olduğu 4-cü şöbənin 4-cü bölməsində aparılan ilk istintaq iyulun 15-də oldu. Dindirmə protokolunda oxuyuruq:

"– Özünüzü müqəssir sayırsınızmı?

CAVAB: İnkar edirəm.

SUAL: Siz doğru danışmırsınız, doğru danışmağı təklif edirik.

CAVAB: Mən doğru danışıram.

SUAL: Siz istintaqda ifşa olunacaqsınız, bir daha inad göstərməməyi və doğru danışmağı təklif edirik.

CAVAB: Mən doğru danışıram, mənə irəli sürülmüş ittihamı rədd edirəm".

Dindirmə bu tonda və məzmunda 29 sentyabradək davam edib. Həmin gün İ.Rzazadə xalq daxili işlər komissarı *Yuvelian Davidoviç Sumbatov*'a bu məzmunda ərizə yazıb:

"Törətdiyim əksinqilabi cinayətlərin bütün dərinliyini və 2 aydan artıq müddətdə istintaqa müqavimət göstərməyimin səmərəsizliyini dərk edərək inadkarlıqdan əl çəkirəm və özümün əksinqilabi dağıdıcı pozucu-təxribatçı fəaliyyətim… haqqında həqiqi ifadə vermək istəyirəm…".

Bu ərizədə İ.Rzazadə göstərdi ki onu əksinqilabi milliyyətçi trotskiçi üsyançı təxribatçı-pozucu təşkilata 1931-də *V.A.Çiçinadze* cəlb edib və onun göstərişi ilə Azərbaycanın energetika təsərrüfatında pozuculuq fəaliyyəti ilə məşğul olub. Bundan ötrü öz tabeliyindəki adamları da əksinqilabi təşkilata cəlb edib.

Sonradan istintaqın xüsusi canfəşanlığıyla incəliyinədək "dəqiqləşdirilmiş" pozuculuq fəaliyyətinin başlıca istiqamətlərini İ.Rzazadə bu ərizədə belə göstərdi ki, Azərbaycanın energetika təsərrüfatında pozuculuq işləri görməkçün əksinqilabi, millətçi pozucu təşkilatın məqsədlərinə bunlar daxildi:

"1) Azərbaycanın həlledici iri SES-lərinin layihələndirilməsinin ləngidilməsi;

2) Yerli elektrostansiyaların (yerli elektrikləşdirmə) layihələndirilməsinin və tikintisinin ləngidilməsi;

3) SES-lərin layihələndirilməsinə və başqa məsələlərə artıq vəsaitin qoyulması…".

Beləliklə, İsgəndər Rzazadə Azərbaycanın energetika sənayesindəki bütün pozuculuq işlərinə rəhbərlik edən gizli təşkilatın başçısına çevrildi! XDİK İsgəndər Rzazadədən həm qabaq, həm də sonra həbs etdiyi *Nəriman Əhməd oğlu Səlimxanov, Sultangirey Daidbəyov, Viktor Zaxaroviç Anfinogenov* və başqalarından ibarət "əksinqilabi təşkilat" yaratmağı bacardı!..

[1] AR MTN Arxivi, PR-22975 (bu, 6136 saylı işin indiki şifrəsidir). İ.Rzazadənin həbsi və istintaqı ilə bağlı bütün faktları 210 səhifəlik bu işdən 1-2 iyun 2000-ci ildə götürmüşük.

***

Sovetlər Birliyi Kommunist (bolşeviklər) Partiyasının yaratdığı repressiya maşını 1937-ci ildə tam gücüylə işləyirdi. Sükanı arxasında *İ.V.Stalin*'in dayandığı "NKVD" adlı bu dəhşətli maşın həm kommunistləri, həm antikommunistləri, həm ziyalıları, həm cahilləri, həm iri vəzifəli dövlət adamlarını, həm çobanları və süpürgəçiləri, həm dindarları, həm allahsızları... – bir sözlə, *sovet xalqı* adlandırılan kütlənin çox mühüm qismini məhv etməklə və qorxutmaqla yeni bir cəmiyyət qurmaq niyyətindəydi. Bu maşın onu yaradanlara da aman vermir, öz konstruktorlarını da amansızcasına çeynəyib həzmirabedən keçirirdi.

...Hədəfdə S.Orconikidze və V.Kuybışev idi. Maşın onları udmaqçün ağzını açmışdı. Onlar haqqında cildlərlə ləkələyici materiallar toplanmışdı. Üstünə gələn açıq-aşkar ölüm təhlükəsini görən, artıq doğmaca qardaşı güllələnmiş SSRİ xalq ağır sənaye komissarı (naziri) *Serqo Orconikidze* var gücüylə özünü və tabeliyindəki adamları qorumağa çalışırdı. Ancaq...

Moskvada keçirilən 19-24 avqust 1936-cı il tarixli məhkəmənin hökmüylə 25 avqustda *Q.Y.Zinovyev, L.V.Kamenev* başda olmaqla əsasən yəhudilərdən ibarət 16 siyasi xadim "Turotskiçi-Zinovyevçi əksinqilabi blokun üzvü adlandırılaraq terrorçuluq üstündə (S.M.Kirovu öldürməkdə suçlandırılırdılar) güllələndi. "NKVD" onların cinayətkarlığını sübuta yetirməkçün Moskva, Leninqrad, Qorki, Minsk və Kiyevlə yanaşı, Bakıda da "trotskiçi, zinovyevçi terrorçu qruplar""aşkarladı".

Bundan sonra da trotskiçilərlə mübarizə bütün gücüylə sürməkdə idi. Məhkəmə bitən kimi sentyabrda *Yuri (Georgi) Leonidoviç Pyatakov* başda olmaqla SSRİ-nin 17 çox mühüm dövlət və partiya xadimi paralel antisovet trotskiçi mərkəzin üzvü kimi həbs edildi. Xatırladırıq ki, keçmişdə həqiqətən Trotskinin tərəfdarı olmuş Y.L.Pyatakov ağır sənaye komissarı S.Orconikidzenin birinci müavini idi. O və 16 trotskiçi kameradaşı terrorçuluqda, SSRİ-nin kimya, kömür və dəmiryol nəqliyyatı təsərrüfatlarında pozuculuq işi aparmaqda ittiham edilirdilər. Onlar uzun müddət özlərinə qarşı irəli sürülən bütün ittihamları qətiyyətlə rədd etdilər. Ancaq Orconikidze Stalindən Pyatakovun həyatını qoruyacağı haqqında "kişi sözü" alandan sonra zindana gedərək öz birinci müavininə bu haqda məlumat verdi və məhz Orconikidzeyə inanan Pyatakov ona qarşı irəli sürülən ittihamları boynuna aldı. Başqa trotskiçilər də Pyatakova baxaraq "cinayətlər"ini etiraf etdilər.

Ancaq 23-30 yanvar 1937-də Moskvada keçirilən məhkəmə sözügedən 17 nəfərdən 13-nə, o sıradan Y.L.Pyatakova ölüm hökmü kəsdi. Bu, artıq Orconikidzenin özünə də güzəşt edilməyəcəyi haqqında ciddi xəbərdarlıqdı və 18 fevral 1937-də Orconikidze özünü güllələdi. Cəza maşınısa dayanmaq bilmirdi. Güllələnənlərin gerçəkdən də cinayətkar olduğunu, SSRİ miqyasında terrorçu-pozucu şəbəkə yaratdığını sübuta yetirməkçün Orconikidzenin, Pyatakovun vəzifəyə qoyduğu bütün adamlar həbs edildilər və onların çoxu güllələndi.

S.Orconikidzenin Moskvaya çağıraraq vəzifə verdiyi və ürəkdən sevdiyi şəxslərdən biri də Zaqafqaziya Enerji İdarəsinin ("ZakEnerqo") başçısı *Vissarion Alekseyeviç Çiçinadze* (1887-1937) idi. 10 yanvar 1934-də Orconikidzenin təqdimatıyla SSRİ Xalq Ağır Sənaye Komissarlığı (XASK) Hidroenerjilayihə Trestinin başçısı təyin edilən Çiçinadze həbs edildiyi günədək həm də Moskva İnşaat Mühəndisləri İnstitutunun professoru, Leninqrad Elmi-Tədqiqat Hidrotexnika İnstitutu Elmi Şurasının həqiqi

üzvü, XASK dövlət ixtisaslaşdırma komissiyasının üzvü, SSRİ Dövlət Plan Komitəsinin və SSRİ XDİK-nın Volqa-Moskva kanalının, Rıbinsk və Uqliç su qovşaqlarının, Trudomsk su elektrik stansiyasının tikintisi üzrə eksperti, 1931-ci ildən Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının [ÜK(b)P] üzvü idi.

V.A.Çiçinadzeni 11 may 1937-də Moskvada həbs etmiş, 4 oktyabr 1937-də ona ölüm cəzası kəsmiş və ertəsi günü güllələmişdilər. Çiçinadzenin SSRİ-nin energetika sistemi üzrə "cinayətlər"ini sübuta yetirməkçün onun tabeliyində olan və onunla birgə çalışmış rəhbər vəzifəli şəxslərin əksəri, o sıradan Moksvada Baş Enerjinin rəis müavini *S.İqnat*, Gürcüstanda Gürcühidroenerjilayihənin müdiri *Çikovani*, Azərbaycanda Azhidroenerjilayihənin müdiri *İ.Rzazadə*, Tərtər SES tikinti rəisinin müavini *Ə.Poladzadə*, Ermənistanda Kanakir SES tikintisinin rəisi *İ.Astvasaturov* və b. şəxslər həbs edildilər.

Həbslər zəncirvari silsilə üzrə aparılırdı – "ən böyüklər"dən sonra onun tabeliyindəkilər, daha sonra yeni tutulanların tabeliyindəkilər, ondan sonra bu məhbusların tabeliyindəkilər... (sıra süpürgəçilər və qapıçılarda tamamlanırdı) "NKVD"-nin "qonağ"ı olurdu. Onların hamısı həqiqətən cinayətkar olduqlarını, özlərindən vəzifəcə böyük şəxslərin təhrikiylə əksinqilabi terrorçu-trostkiçi təşkilata üzv olduqlarını və məhz onların cinayətkar göstərişlərini yerinə yetirdiklərini dəhşətli işgəncələr nəticəsində boyunlarına almağa, eyni zamanda mərkəzi, yaxud yerli hakimiyyət başçılarının (*Stalin*, yaxud *Mircəfər Bağırov*'un) siyasi rəqiblərinin (Trot-ski, Kamenev, Zinovyev, yaxud Qəzənfər Musabəyov, Ruhulla Axundov, Dadaş Bünyadzadə, Hüseyn Rəhmanov...) "cinayət"lərindən müstəntiqlərin uydurduğu ssenarilər üzrə danışmağa məcbur edilirdilər.

12 iyun 1937-ci il tarixli istintaqda V.Çiçinadze bildirmişdi ki, Zaqafqaziya Xalq Komissarları Şurasının (XKŞ) sədri *Qəzənfər Musabəyovun* əksinqilabi pozucu və casusluq fəaliyyəti haqqında mühəndis İsgəndər Rzazadədən eşidib. (İ.Rzazadə bu ifadədən bir ay sonra həbs edilib).

2-3 avqust 1937-ci il tarixli dindirmələrdə Çiçinadzedən bütün Zaqafqaziya, o sıradan Azərbaycan energetika sənayesində onun başçılığı altında aparılan pozuculuq işi haqqında çox geniş ifadə alınmışdı. O, Azərbaycandakı Qarasaqqal SES, Tərtər SES, Mingəçevir bəndi və SES-i üzrə aparılan təxribatçı-pozucu işlərində başlıca olaraq Qəzənfər Musabəyovu günahlandırır və icraçılar içərisində İsgəndər Rzazadənin də adını xüsusi çəkirdi.

Çiçinadze həmçinin göstərirdi ki, Zaqafqaziyanın elektrik stansiyalarındakı və başqa sənaye obyektlərindəki pozuculuq və ziyankarlıq əməllərini o, Kuybışev və Orconikidze ilə şəxsi danışıqları nəticəsində törədib. SSRİ-nin elektrikləşdirilməsi sahəsində SSRİ XASK-da ziyankarlıq işlərini o, akademiklər Yerzikyan, Vedeneyev, Vinter, professor Laupman və başqaları ilə birgə apardığını da bildirirdi.

26 may 1955-də Çiçinadzeyə bəraət qazandırmaq üçün Tbilisidə tərtib edilmiş qərarda göstərilir ki, *L.P.Beriya* Çiçinadzeyə düşməncəsinə münasibət bəsləyib və ona yalnız Orconikidzenin ölümündən sonra divan tutmağı bacarıb. Həmin sənəddən aydınlaşır ki, istintaqlarda Çiçinadzeni vəhşicəsinə döyüblər və ondan KP-nin və Sovet hökumətinin, eləcə də tabeliyindəki şəxslərin əleyhinə başdan-ayağa uydurma ifadələr alıblar. (Ümumiyyətlə, Çiçinadzenin dindirmə protokollarında 200 nəfərdən artıq "əksinqilabçı" ilə bağlı ifadə var).

Adı çəkilən bəraət qərarında göstərilir ki, Çiçinadzeyə bütün ifadələr zorla yazdırılıb. Məsələn, professor Mostkov, mühəndislər Poloskin və Manşıyev Gürcüstanda elektrik stansiyalarının layihələndirilməsi və tikintisinə görə Stalin mükafatı laureatı olsalar da Çiçinadzenin ifadələrinə onlar həmin elektrik stansiyalarının tikintisində pozuculuq işi aparan əksinqilabçılar kimi salınıb. Bu sənəddə eləcə də göstərilir ki, dindirmə protokollarının hər səhifəsində Çiçinadzenin çəkdiyi imzalar onun həbs anketindəki imzaya uyğun gəlmir və şübhə doğurur. Beləliklə, Çiçinadzenin verdiyi bütün ifadələri müstəntiqlərin uydurduğu tam sübuta yetirilib.

* * *

İsgəndər Rzazadəyə qarşı Azərbaycan SSR Cinayət Məcəlləsinin 64, 69, 70, 71 və 73-cü maddələri üzrə (maddələrin sayının çoxluğu həbs edilmiş şəxsin "NKVD" üçün əhəmiyyətindən asılıdır) irəli sürülən rəsmi ittiham bundan ibarətdir ki, o guya Bakı şəhərində mövcud olan antisovet millətçi, trostskiçi, terrorçu, üsyançı, təxribatçı-pozucu təşkilatın üzvüdür və Azərbaycan SSR-in energetika təsərrüfatında pozuculuq, ziyankarlıq işinə rəhbərlik edib.

Çiçinadzenin keçdiyi yolla addımbaaddım aparılan İ.Rzazadə də eyni cəhənnəm əzablarını yaşayıb və sonda bütün "cinayət"lərini onun boynuna qoyublar. 29 sentyabr 1937-ci ildə müstəntiqin sındıra bildiyi İ.Rzazadədən "NKVD" artıq Bağırovun da məqsədləri üçün istifadə etməyə başlayıb. 5 oktyabr dindirməsində ondan da *R.Axundov, H.Sultanov* və *D.Bünyadzadə* əleyhinə ifadə alıblar.

17 noyabr 1937-də XDİK DTİ 3-cü şöbəsi 8-ci bölməsinin rəis müavini, DTİ kiçik leytenantı A.Popovun apardığı sonuncu dindirmədə də İ.Rzazadə özünü günahkar sayıb.

Bu gün bəlkə də həm Orconikidzeni, həm Pyatakovu, həm Çiçinadzeni, həm də Rzazadəni (eləcə də 1937-də özünə qarşı ifadə vermiş milyonlarca başqalarını) zəiflikdə, dözümsüzlükdə, iradəsizliklə suçlayanlar tapıla bilər. "Gərək sonadək dözəydilər" deyən romantiklər də olacaq. Ancaq gəlin bir anlığa "NKVD" zindanlarını qiyabi gəzək və ozamankı məhbusların həyatını göz önünə gətirək.

"Mir Cəfər Bağırovun məhkəməsi" (Bakı, 1993) kitabında verilmiş rəsmi ittihamda bunları oxuyuruq:

"Onlar[1] məni Kalininin otağında çox vaxt rezin dəyənəklə döyürdülər. [...] Biri döyüb yorulanda obiri başlayırdı".

"Azərbaycan SSR "NKVD"-sində qabaqlar həbs olunmuş şəxslərin yoxlanılmamış ifadələri əsasında aparılan kütləvi həbslərlə yanaşı, istintaq zamanı dustaqların amansızcasına döyülməsi və qanunla qadağan edilmiş digər üsullar tətbiq edilirdi. Dustaqlara çox vaxt "stoyka" üsulu, yəni onları bir neçə sutka boyu dindirmək və həmin müddətdə oturmağa qoymamaq tətbiq olunurdu. Bu üsulla dindirilən dustaqların qan dövranı pozulur, ayaqları şişib kündəyə dönürdü. Bu işgəncəyə çox az adam tab gətirirdi, çoxu huşunu itirib yıxılırdı. Müstəntiqlər bu qanunsuz üsulları tətbiq etməklə dustaqlardan özlərinə sərfəli olan yalan ifadələri almağa nail olurdular".

"Sumbatov hansı üsulla alınmasından və həqiqətə nə qədər uyğun olub-olmamasından asılı olmayaraq dustaqlardan hələ azadlıqda olanlar barədə yalan ifadə almağı tələb edirdi. Alınmış ifadələrin doğru olub-olmaması yoxlanılmırdı".

[1] Müstəntiqlər.

"Məhkəmə zamanı mənə əksinqilabi təşkilatın üzvü olmaqda təqsirimi boynuma almağım barədə 6 istintaq protokolu təqdim etdilər. Həmin protokolları istintaq zamanı mənə imzalatmışdılar. Çünki məni huşumu itirənədək döyürdülər, mən özümdə olmayanda isə müstəntiqlər mənə qol çəkdirirmişlər".

"Dustaqları döymək üçün Kudinin xüsusi rezin dəyənəyi və bambuk ağacından çubuğu var idi. Təqribən 1937-ci ilin dekabrında Qriqoryan 11-ci şöbəyə müdir təyin olunanda şöbə müdirləri vasitəsi ilə bütün müstəntiqlərə belə bir cinayətkar əmr verdi: bu və ya digər iş üzrə çalışan hər bir müstəntiq dustağın işini o yerə gətirib çıxarmalıdır ki, xalq komissarı Sumbatov, daha sonra isə Rayev həmin müttəhimi "birinci kateqoriya"ya aid edə bilsin, Ali Sovetin Hərbi Kollegiyası və hərbi tribunal həmin dustağı ən yüksək cəzaya – güllələnməyə məhkum edə bilsin. Müstəntiqlər iş keyfiyyətinə, siyasi və əməli hazırlığına... görə yox, dustaqdan yalan ifadələr ala bilmək məharətinə görə qiymətləndirilirdi. Dustaq nə qədər çox əksinliqabi təşkilat nümayəndələrinin adını çəksəydi müstəntiq bir o qədər çox təriflənirdi. Müstəntiqin xidmət tərcümeyi-halı onun işlədiyi müddətdə güllələnməyə məhkum etdiyi dustaqların sayı ilə müəyyən olunurdu. Güllələnmə qərarı nə qədər çox olsaydı onu çıxaran müstəntiq də bir o qədər qiymətli hesab olunurdu".

Bu işgəncələrin sonunda Zinovyev belə bir etiraf yazmışdı: *"Mənim qüsurlu bolşevizmim antibolşevizmə çevrilib və mən trotskizmdən faşizmə keçmişəm. Trostkizm faşizmin bir növüdür, zinoyevçiliksə trotskizmin bir növüdür".*

1938-ci ilin martında gurultulu məhkəməsi keçmiş sonuncu "trostkiçi"lərdən olan N.İ.Buxarin istintaqda 3 ay ayağını bir başmağa dirəyib "cinayətlər"ini boynuna almasa da müstəntiqin onun arvadını və yenicə doğulmuş oğlunu məhv edəcəkləri haqqında hədəsindən sonra hər şeylə razılaşıb və ona qarşı irəli sürülmüş ittihamnamənin sonunda bildirib: *"Mən özümü "sağ trotskiçi blok"un rəhbər üzvlərindən biri olmaqda günahkar sayıram. Buradan belə çıxır ki, mən bilib-bilməməyimdən, bu və ya digər aktda iştirak edib-etməməyimdən asılı olmayaraq bu əksinqilabi təşkilatda törətdiyim bütün cinayətlər toplusunda özümü günahkar sayıram".*

Məhz bu təsvir edilənlərin nəticəsidir ki, yuxarıda adı çəkilən bütün şəxslər özlərini ən qatı terror, təxribat və pozuculuq əməllərində suçlu saydılar. Özü də, qəribədir ki, onların "cinayət"ləri yalnız müstəntiqlərin maraqlarına uyğun olaraq "törədilirdi". Məsələn, İ.Rzazadənin adına yazılmış ifadələrdən belə anlaşılır ki, onu əksinqilabi trotskiçi təşkilata həm V.Çiçinadze, həm də Ə.Fərəzadə cəlb edib. Ancaq R.Axundovun 27 iyul 1937-ci ildə verdiyi ifadəyə görə, İ.Rzazadəni bu təşkilata İbad Əliyev cəlb edibmiş və gülməlimi, yoxsa ağlamalımı burasıdır ki, 11 oktyabrda İ.Rzazadə ilə üzləşmədə İ.Əliyev həqiqətən də onu cəlb etdiyini söyləmişdi (İ.Rzazədə bunu qəti rədd etmişdi). Amma müstəntiqləri bu məntiqsizlik heç maraqlandırmırdı da. Onlar yalnız məhbusun güllələnməsinə şərait yaratmaq haqqında düşünür, başqa "artıq" faktlara göz yumurdular.

Yenə maraqlı bir detal. 23 iyul 1937-ci ildə Əsgər Fərəzadə bildirmişdi ki, İsgəndər Rzazadənin alman kəşfiyyatına işlədiyi ona məlumdur. Yaxud 15-20 may dindirmələrində göstərmişdi ki, Rzazadəni əksinqilabi təşkilata cəlb etdiyini Ruhulla Axundov mənə söyləyib. Ancaq nə qədər qəribə görünsə də, mühüm sayılacaq belə ifadələr sonrakı istintaqlarda müstəntiqlərin "gözündən yayınıb", çünki onların yalan, uydurma olduğunu hamıdan yaxşı bilən müstəntiqlərə bunlar daha lazım deyildi.

"NKVD" məhbuslarının "dözümsüzlüyü"nün yuxarıda sadalanan işgəncələrdən daha mühüm səbəbləri də vardı. Çox vaxt onları əslində asanlıqda gerçəkləşdirdikləri bu həqiqətlə qorxudurdular ki, günahlarını boyunlarına almasalar onların ailələri və uşaqları məhv ediləcək. Buxarinlə bağlı yuxarıdakı örnək də deyiləni təsdiqləyir. İndiyədək tanış olduğumuz istintaq sənədlərindən belə nəticə çıxarırıq ki, nisbətən gənc məhbuslara işgəncələrlə yanaşı, həm də ailəsiylə bağlı hədələr də ciddi təsir göstərib (Qocalar üçün sonuncu amil o qədər də təsirli deyildi).

İ.Rzazadənin ailə tərkibi 15 iyul tarixli dindirmə protokolunda ilk dəfə olaraq tam göstərilib: qızı *Elmira* – 8 yaş, oğlu *Nazim* – 5 yaş, anası *Güləndam* – 62 yaş, qardaşı *Qafar* – 43 yaş. (Bacısı *Firəngiz* "xalq düşməni" olan torpaq komissarı *Həsən Səfərov*'da ərdə olduğuna görə bu siyahıya düşməyib). Fikrimizcə, İ.Rzazadə gerçəkdən də hər şeyi boynuna götürübsə (buna şübhəmiz də var) burada məhz ailə həddəsi ilə bağlı amil də həlledici rol oynaya bilərdi. Təsadüfi deyil ki, bu iş üzrə həbs edilmiş gənc ailə başçıları *Nəriman Səlimxanov, Viktor Anfinogenov* da həm əksinqilabi təşkilatın üzvü olduqlarını və orada pozuculuq işi apardıqlarını, həm də bu işə başqalarını da cəlb etdiklərini "etiraf" etmişdilər. Ancaq 42 yaşlı qumuq *Sultangirey Daidbəyov*'dan istər özünə, istərsə də başqalarına qarşı bir kəlmə də söz qopara bilməyən müstəntiqlər çoxillik işgəncələrdən sonra (2 noyabr 1937-5 oktaybr 1940 arasında) onu azad etməyə məcbur olmuşdular. Burada bəlkə də məhz xatırlatdığım ailə amilinin izlərini axtarmalıyıq.

Kommunistlərin apardığı bu kütləvi qırğınların tarixçəsini bilməyən, ona görə də 1930-cu illərdə həm özgələrinə, həm də özlərinə qarşı ifadə verməyə məcbur edilmiş qurbanların hərəkətini "xəyanət", "satqınlıq" sayanlara bircə şeyi xatırlatmaq istəyirəm ki, həmin insanlara qarşı bu ittihamların irəli sürülməsi onların ruhunu incitməyimizə səbəb olur. O dövrün cəza aparatında çalışmış əməkdaşların bugünkü etiraflarından bəllidir ki, "NKVD" zindanlarına düşmüş şəxsin istənilən cinayəti boynuna almaması, sadəcə, mümkün deyildi. Ancaq bəziləri mümkün qədər az, bəzilərisə müstəntiqlərin istədiyi qədər "cinayətlər törədir" və özlərinə yenə müstəntiqin göstərdiyi sayda yoldaş qoşurdular. Ruhulla Axundov, Bəkir Çobanzadə, Vissarion Çiçinadze... kimi məhbusların hər birinin ifadələrində 150-200 "əksinqilabçı" və "terrorçu"nun adı çəkilirsə biz heç kəsi qınamalı deyilik!..

Unutmamalıyıq ki, bu dövrün bütün istintaqları və məhkəmələri başdan-başa saxtakarlıqla keçib və onların sənədlərinə əsasən bu gün kimisə ittiham etmək böyük ədalətsizlik olardı. Yadda saxlayaq ki, həmin istintaq və məhkəmələrin bircə məqsədi var – məhbusu nəyin bahasına olursa-olsun cinayətkar elan edərək güllələmək, yaxud sürgünə göndərmək! Ona görə də onları həqiqət, məhbusun şəxsiyyəti əsla maraqlandırmırdı. Məsələn, İ.Rzazadənin nəinki bütün istintaq sənədlərində, hətta çıxarılan hökmdə onun vəzifəsi EA Azərbaycan Filialı Energetika Bölümü rəhbərinin müavini yox, Azərbaycan Qırmızıbayraqlı Neft İnstitutu Energetika Bölümü rəhbərinin müavini kimi qeyd olunub, halbuki həmin institutda belə bir elmi qurum və vəzifə yerli-dibli yoxdu. İstintaq protokollarını İ.Rzazadə həqiqətən oxumuş olsaydı həmin səhvi hökmən düzəldərdi. Deməli, onun özünə qarşı verdiyi ifadələri də oxumadığını və səhifələrin sonunda qoyulmuş "ilan-qurbağa" imzaların da onun olmadığını düşünməyə haqqımız var.

Ümumiyyətlə, bu dövrdə anlaşılmaz işlər çoxdu. Məsələn, ağır ittihamlarla həbs edilməsinə baxmayaraq İ.Rzazadə hələ də akademiyadakı işində saxlanılırdı. Nə qədər

qəribə görünsə də faktdır – İ.Rzazadə həbs olunan gün (11 iyul 1937) sədr Vəlibəyov akademik Komarovun teleqramına əsasən İ.Rzazadənin maaşını iyulun 11-dən 1100 manata qaldırmaq haqqında (özü də, 1 martdan!) Rəyasət Heyətinin qərarını təsdiqləmişdi. İşgəndər Rzazadəni həbsindən yalnız 2 ay sonra – 1937-nin 9 sentyabrında EA AzF Rəyasət Heyətinin 21 saylı protokoluyla "ifşa olunmuş xalq düşməni" adı altında vəzifəsindən götürmüşdülər. (Bu qərarı artıq yeni sədr *Yaqubov* imzalamışdı, çünki Vəlibəyovu da "xalq düşməni" etmişdilər...).

* * *

17 noyabr 1937-ci ildə aparılan sonuncu istintaqdan – müttəhimi güllələmək üçün yetərincə əsas əldə edildikdən sonra işgəncələr dövrü bitdi. Bu vaxt artıq Çiçinadze də Moskvada güllələnmişdi. Həmin ilin dekabrında İsgəndər Rzazadəyə ittiham irəli sürüldü. Bu sənəddə göstərilirdi ki, 1931-ci ildə Çiçinadze, 1933-cü ildə Fərəczadə ilə əksinqilabi təşkilatda əlaqə yaradan İ.Rzazadə başqalarını da bu təşkilata cəlb etməklə Azərbaycanın energetika təsərrüfatında pozuculuq-təxribatçılıq işlərinə rəhbərlik edib. Əslində bu, Çiçinadzeyə qarşı tərtib olunmuş ittiham qətnaməsindən (bu qətnamənin bir surəti İ.Rzazadənin istintaq sənədlərinin içərisindədir) çıxarışa bənzəyir – burada, sadəcə, ittihamların həcmi azaldılıb.

İsgəndər Rzazadə konkret olaraq bunlarda suçlandırılırdı:

1) Azərbaycanda əksinqilabi milliyətçi, üsyançı, trostkiçi, terrorçu təşkilatın üzvü olub;

2) Azərbaycanda Sovet hakimiyyətini devirmək məqsədi güdən silahlı üsyanın hazırlanmasından xəbəri olub;

3) əksinqilabi milliyətçi, trostkiçi təşviqat aparıb;

4) Çiçinadzenin göstərişlərinə uyğun olaraq Azərbaycanın energetika təsərrüfatında pozuculuq törədən qrup yaradıb;

5) 1931-1937-ci illər ərzində Səlimxanov, Zolotaryov, Daidbəyov və Anfinogenovla birgə aşağıdakı əksinqilabi pozuculuq işlərini həyata keçirib;

6) Azərbaycanın həlledici iri SES-lərindən olan Qarasaqqal və Tərtər SES-lərini pozuculuqla layihələndirib;

a) Yerli elektrik stansiyalarının: Şəki, Quba, Qazax və Cəbrayıl SES-lərinin layihələndirilməsini və inşasını pozub;

b) Azərbaycanın elektrikləşdirilməsinin baş planının tətbiqində pozuculuq edib;

7) V.A.Çiçinadzenin Zaqafqaziyanın energetika təsərrüfatında pozuculuq fəaliyyətindən xəbəri olub.

DTİ üçüncü şöbəsinin müvəqqəti rəisi, erməni Xocamirovun tərtib etdiyi bu ittiham qətnaməsində İ.Rzazadənin V.A.Çiçinadze, Əsgər Fərəczadə və Ruhulla Axundovun ifadələrinə əsasən ifşa olunduğu göstərilir.

30 dekabr 1937-ci ildə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının hazırlıq iclasında sədr – diviziya hərbi hüquqşünası Nikitçenko, üzvlər: diviziya hərbi hüquqşünası İyevlev və briqada hərbi hüquqşünası İşşenko, katib Kudryavtsev, baş hərbi prokuror, korpus hərbi hüquqşünası Rozovski ittiham qətnaməsini təsdiqləyiblər və qərar çıxarıblar: "İşi qapalı məhkəmə iclasında şahidəri çağırmadan və ittiham və müdafiə tərəflərinin iştirakı olmadan dinləməli".

"Məhkəmə" 31 dekabrda gecə saat 22-də başlanıb, cəmi 20 dəqiqə çəkib və Azərbaycanın görkəmli oğluna *ölüm hökmü* çıxarıb. Bu hökm *bütün dünyada,*



Elmira İsgəndər qızı Sultanova

eləcə də sovetlər birliyində insanların yeni ili bayram etdiyi zaman – 1937-ci ilin 31 dekabrından 1938-ci ilin 1 yanvarına keçən gecə yerinə yetirilib...

Bütün həyatını insanların gecəsinin də gündüzə çevrilməsinə, onların işıqlı yaşayışına həsr etmiş ən şərəfli bir sənətin yiyəsinin ömür çırağını 40 yaşındaca söndürdülər, həm də haçan! Bu görünməmiş vəhşiliyi yalnız *kommunistlər* edə bilərdilər və onlar da etdilər! Bəli, heç bir dəlil-sübut olmadan zəkalı bir *alimi*, özü də *bayram gecəsi* qətlə yetirməyə yalnız və yalnız dünyanın ən dəhşətli, ən amansız insanları olan *kommunistlərin* əxlaqı yol verə bilərdi.


Məhz minlərcə İsgəndər Rzazadənin belə ürəkgöynədən taleyi bu gün riyakarcasına döşlərinə döyərək dünən xalq yolunda canlarını qurban verdiklərinə və xalqa cənnət bəxş etdiklərinə and içərək cürbəcür nağıllar uyduran həmin mənfur Lenin-Stalin tör-töküntülərinə şəxsən biz heç vaxt bəraət qazandırmayacağıq! (Görünür, İsgəndər Rzazadənin özü də kommunistlərin təbiətinə dərindən bələd olduğuna görə heç vaxt kommunist partiyasının üzvü olmamışdı...).

İsgəndər Rzazadəyə qarşı vəhşilik yalnız onu güllələməklə bitmədi. Bəlkə də bu gün çoxları inanmayacaq, ancaq həqiqətdir – onun ölümü haqqında ailəsinə heç bir xəbər verilməyib. 7 fevral 1955-ci ildə oğlu Nazim Daxili İşlər Nazirliyinə yazırdı ki, mənim atam, "əldə etdiyim məlumatlara görə, 10 il iş alıb" və "1947-ci ildə biz onun qayıdacağını gözləyirdik, ancaq ondan heç bir xəbər yoxdur". Adı çəkilən nazirlikdən oğul dönə-dönə xahiş edirdi ki, atam bəraət qazanıbsa, sağdırsa mənə xəbər verin görək biz *onun evə qayıtmasını haçan gözləyək*... (Təxminən eyni məzmunlu ərizə ilə 27 iyul 1955-ci ildə qardaşı Qafar da DTK-ya müraciət edib).

...Yalnız ölümündən 19 il sonra həmin kommunistlər suçsuz İsgəndər Rzazadənin öldürüldüyünü ailəsinə bildirdilər və günahsız olduğuna görə 21 avqust 1956-da ona bəraət verdilər!..

* * *

İsgəndərin tutulması ilə Rzazadələr ailəsinin başqa üzvlərinin də ağır günləri başlandı. Yuxarıda Nazim Rzazadənin məktubunda tanış olduğumuz kimi, qardaşı – texnika elmləri namizədi, yüksək ixtisaslı mütəxəssis *Qafar Rzazadə* (1894-1968) uzun illər "xalq düşməninin qardaşı" damğasının ağır boyunduruğu altında əzilib. Bacısı – Sovet Azərbaycanının ilk qadın həkimlərindən olan *Firəngəz xanım Səfərova* (1900-1983) ikiqat əzaba uğrayıb. Birdən-birə iki "xalq düşməni" – Azərbaycan SSR-in torpaq komissarı (naziri) olan əri Həsən Səfərovla və qardaşı İsgəndərlə qohumluğu üstündə onu da 1938-ci ildə tutub həbs düşərgələrini gəzdiriblər.



Nazim Rzazadə

İsgəndərin ata-anasız qalmış uşaqları yalnız xalaları *Aliyə xanım Tahirova* və dayıları *Həsən Tahirov*'un qayğısı sahəsində sağ qalıblar. Doğrudur, Elmira xanım ərinin – tarixçi *Sultan Sultanov*'un soyadını götürməklə üstünə yağan zərbələrin sayını nisbətən azalda bilib, ancaq kənd təsərrüfatı elmləri namizədi *Nazim Rzazadə* psixoloji sarsıntılardan birdəfəlik qurtulmaqçün ali təhsil aldığı Moskva şəhərində qalıb ömürlük orada yaşamağa üstünlük verib.

* * *

Ana dilimizdə qədimdən-qədim, şirindən-şirin bir söz var – *"ərdəm"*. Mənası "qeyrət" deməkdir. Ancaq ərdəm *güc* ilə, *enerji* ilə yoğrulmuş qeyrətdir. Bütün alim gücünü və enerjisini doğma Azərbaycanımızın işıqlanmasına həsr etmiş ərdəmli alim İsgəndər Rzazadə energetika elmimizin beşiyi başında ərdəmlə, qeyrətlə dayanmışdı. O, millətimizin ləyaqətli oğlu idi. Belə şərəfli oğulların adını üzə çıxarmaq tarixşünaslıq elmimizin, o adları layiqincə yaşatmaq isə rəhbər qurumların borcudur. İnanmaq istərdik ki, yaxın gələcəkdə Azərbaycanın ən önəmli energetika qurumlarından, yaxud qurğularından, Bakıdakı küçələrdən birinə İsgəndər Rzazadənin adı veriləcək, onun əsərləri toplanaraq nəşr ediləcək...

Sadıqov Mirsadıq Kərbəlayı Seyid Kamil oğlu

(1896, Maştağa – 1942, sürgündə)



Mirsadıq Sadıqov

Almaniyada oxumuş tələbələrdəndir.

Zaqafqaziya Şiə Ruhani İdarəsindən 3 mart 1909-cu ildə verilmiş 674 saylı doğum şəhadətnaməsində qeyd olunub ki, Mirsadıq[1] atası Kərbəlayı Seyid Kamil Mirsadıq oğlunun qanuni arvadı Minabəyim Hacı Hüseynqulu qızından 1896-cı ildə doğulub; doğumun ayı və günü bilinmir.[2]

28 aprel 1917-ci ildə Bakı Orta Mexanika-Tikinti-Texniki Məktəbinin pedaqoji şurasından verilmiş 1184/329 saylı attestatda göstərilir ki, Mirsadıq Kərbəlayı Seyid Kamil oğlu Sadıqov 1911-ci ildə Bakı Orta Texniki Məktəbinin aşağı hazırlıq sinfinə girərək orada əla əxlaqla 20 aprel 1917-ci ildək oxuyub və mexanika bölümü (özəlliklə neft sənayesi işi) üzrə elmlərin tam kursunu bitirib və bu vaxt yekun imtahanlarında aşağıdakı uğurları qazanıb:

Şəriət –	keçməyib
Rus dili –	yaxşı (4)
Cəbr –	yaxşı (4)
Həndəsə –	yaxşı (4)
Triqonometriya –	yaxşı (4)
Analitik həndəsə –	kafi (3)
Fizika –	yaxşı (4)
Qeyri-üzvi kimya –	yaxşı (4)
Üzvi kimya –	yaxşı (4)
Nəzəri mexanika –	kafi (3)
Materiallar müqaviməti –	yaxşı (3)[3]
Maşın hissələri –	yaxşı (4)
Buxar qazanları –	kafi (3)
Buxar maşınları –	kafi (3)
Daxiliyanma mühərrikləri –	kafi (3)
Ağacın texnologiyası –	kafi (3)
Metalların texnologiyası –	kafi (3)
Elektrotexnika –	yaxşı (4)
Fiziki geologiya –	yaxşı (4)
Tarixi geologiya –	
Paleontologiya –	yaxşı (4)
Abşeron yarımadasının geologiyası –	yaxşı (4)
Neftin texnologiyası –	yaxşı (4)
Qazma işi –	əla (5)
Tikinti sənəti –	kafi (3)
Çəkiliş və nivelirləmə –	yaxşı (4)
Qanunşünaslıq –	
Rəsm –	əla (5)

[1] Adı bir sıra sənədlərdə *"Sadıq"* kimi də gedib.
[2] ARDA, fond 51, siyahı 3, iş 123, vərəq 4.
[3] Sənəddə belə yazılıb.

Proyeksiya rəsmxəti –	yaxşı (4)
Texniki rəsmxət –	yaxşı (4)
Emalatxanalarda təcrübi məşğələlər –	yaxşı (4).

Buna görə M.Sadıqova mexanika ixtisası üzrə texnik rütbəsi verilib.[1]

M.Sadıqovun sənədləri arasında ona Tomsk İmperator II Nikolay Texnologiya İnstitutunun verdiyi 26 saylı qəbz var. Sənəddə göstərilib ki, dağ bölümünün tələbəsi Sadıqov Mirsadıqdan 1917-18-ci tədris ili üçün 17 avqust 1917-ci ildə 50 manat təhsil haqqı götürülüb.[2]

Tomsk Texnologiya İnstitutu dağ fakültəsinin II kurs tələbəsi, Bakıda III Paralel küçəsi[3] 39/50-də yaşayan Mirsadıq Sadıqov 12 avqust 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizədə təhsilini xaricdə – Almaniyada (mümkün olmazsa İsveçrədə) Dağ İnstitutunda bitirmək istədiyini, ancaq öz hesabına heç bir maddi imkanının olmadığını bildirərək onu xaricə göndəriləcək tələbələr sırasına salmağı xahiş edib.[4]

Ticarət və sənaye naziri *Mirzə Əsədullayev'in* 12 aprel 1919-cu il tarixli 74 saylı əmri ilə Mirsadıq Sadıqov sənaye şöbəsi kargüzarının köməkçisi təyin edilib.[5]

1 avqust 1919-cu ildə Evlər Komitəsinin verdiyi vəsiqədən görünür ki, Tomsk Texnologiya İnstitutunun tələbəsi Mirsadıq Sadıqovun təhsilini davam etdirmək üçün zəruri olan vəsaiti yoxdur.[6]

Sadıqov 6 noyabr 1919-cu ildə nazirə yazdığı ikinci ərizəsində təhsilini Almaniyada – Frayberqdə Dağ-Mədən Akademiyasında bitirmək istədiyini göstərib.[7]

31 dekabr 1919-cu ildə Sadıqov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[8] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[9] dilkağızları verib.

M.Sadıqov 11 yanvar 1920-ci ildə müsəlman tələbələrin hökumət tərəfindən xaricə göndərilməsi bürosuna yazdığı ərizədə xahiş edib ki, büro Avropadakı ali məktəblərə təqdim etmək üçün onun Tomsk Texnologiya İnstitutunun həqiqi tələbəsi olması haqqında Xalq Maarif Nəzarətindən arayış almasına yardım etsin, çünki onun sənədləri Türklər gələn vaxt həqiqi tələbə kimi möhlət almaqdan ötrü verildiyi Xalq Maarif Nəzarətinin dəftərxanasında itirilib.[10]

Maarif naziri əvəzi Şahsuvarov və dəftərxana direktoru Fətulla bəy Rzabəyovun imzaları ilə 15 yanvar 1920-ci ildə M.Sadıqova belə bir vəsiqə verilib ki, o, gerçəkdən Tomsk Texnologiya İnstitutunun həqiqi tələbəsi olub. Sonədin aşağısında Sadıqov sənədin əslini 15 yanvarda alması haqqında qol çəkib.[11]

Mirsadıq Kərbəlayı Seyid Kamil oğlu Sadıqova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 546 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[12]

[1] ARDA, fond 51, siyahı 3, iş 123, vv. 2-2a.
[2] Yenə orada, vərəq 11.
[3] İndiki Mahmud Əbilov küçəsi.
[4] ARDA, fond 51, siyahı 3, iş 123, vərəq 1.
[5] Yenə orada, iş 108, vərəq 55.
[6] Yenə orada, iş 123, vərəq 5.
[7] Yenə orada, vərəq 6.
[8] Yenə orada, vərəq 7.
[9] Yenə orada, vərəq 8.
[10] Yenə orada, vərəq 10.
[11] Yenə orada, vərəq 12.
[12] Yenə orada, vərəq 9.

* * *



Mirsadıq Sadıqov. Almaniya

Mirsadıq Sadıqov Almaniyada Frayberq Dağ-Mədən Akademiyasında oxuyub. 27 noyabr 1925-ci ildə ali təhsilini başa vuraraq metallurq mühəndis diplomu alıb. Bakıya 1926-cı ilin iyununda dönüb.

11 noyabr 2007-ci ildə M.Sadıqovun yaxın qohumu *Ənvər Sadıqzadə* ilə söhbətimiz zamanı o bildirdi ki, Sadıqov Xarkovda[1] vaxtilə SSRİ-nin ovaxtkı rəhbərlərindən biri *L.Kaqanoviç*'lə bir yerdə oxuduğuna və yaxşı münasibətlərinə görə 1937-ci ildə həbs edilməyib. Ancaq o, 1941-ci ildə Almaniyada oxuyanların tutulması ilə bağlı gizli göstərişdən yaxasını qurtara bilməyib.

Mirsadıq Seyid Kamil oğlu Sadıqov müharibə başlanandan iki gün sonra –23 iyun 1941-ci ildə 209 saylı orderə əsasən həbs edilib.[2] Onun AR MTN Arxivindəki PR-29995 şifrəli istintaq işi 23 iyun 1941-ci ildə başlanıb, 15 yanvar 1942-ci ildə bitib və 90 vərəqdir. Həbsinə 22 iyun 1941-ci ildə qərar verilib.[3]

Məhbus anketindəki bilgilər: Sadıqov Mirsadıq Seyid Kamil oğlu – 1896-cı il Maştağa doğumlu; daimi yaşayış yeri: Krasin[4] küçəsi 6, mənzil 9; mühəndis; Xalq Neft Komissarlığı Azərneftkombinatının yardımçı təsərrüfat trestində mühəndis; 23 may 1941-ci ildə işdən çıxarılıb; partiyasız; ali təhsilli; məhkum olunmayıb, antisovet partiya və təşkilatlara qoşulmayıb. Ailə tərkibi: atası – *Sadıqov Seyid Kamil*, 1912-ci ildə ölüb; anası – *Sadıqova Mina xanım Hüseynqulu qızı*, 80 yaş, himayədədir; arvadı *Sadıqova Kildeqart Rudolf qızı*, 1901-ci il doğumlu, evdar, işləmir; uşaqları *Sadıqova Edite Mirsadıq qızı*, 1931-ci il doğumlu, Azərbaycan Dövlət Konservatoriyasındakı Mərkəzi Musiqi Məktəbində oxuyur; qardaşı *Sadıqov Seyid Rəhim Seyid Kamil oğlu*, 1892-ci il doğumlu, Stalin rayonunda sürücü işləyir.[5]

23 iyun 1941-ci ildə axtarış zamanı evindən bu şeylər götürülüb:

1) Diplomları və attestatları – 6 vərəq.
2) Müxtəlif sənəd və arayışlar – 20 vərəq.
3) Şəxsi yazışma – 17 vərəq.
4) Qalın cildli sənədlər – 3 ədəd.
5) Fotoşəkillər – 8 ədəd.
6) Qeyd dəftərçələri – 3 ədəd.[6]

Evindən götürülmüş bu sənədlər "istintaq üçün heç bir maraq doğurmadığına görə" 9 yanvar 1942-ci ildə yandırılaraq məhv edilib və bu haqda akt tərtib olunub.[7]

23 iyun 1941-ci il tarixli ilk istintaqı.

"*Sual:* Tərcümeyi-halınızı danışın.

Cavab: Mən, Sadıqov Mirsadıq Seyid Kamil oğlu 1896-cı ildə Azərb. SSR Bakı şəhərinin Maştağa kəndində ortabab kəndli ailəsində doğulmuşam. 1907-ci ildə Bakı 6 sinifli məktəbinə girərək 1912-ci ildə həmin məktəbin 5 sinfini bitirib Bakı Texniki Orta Məktəbinə girmişəm və oranı 1917-ci ildə bitirmişəm. 1917-18-ci illərdə Tomsk şəhərinə gedərək orada Texnologiya İnstitutuna girmişəm. I semestri bitirdikdən sonra 1918-ci ildə pulum qurtardığına görə yenidən Bakı şəhərinə geri dönmüşəm. Bakıya gəlincə 1918-ci

[1] Sadıqovun Xarkovda oxuması sənədlərlə təsdiqlənmir.
[2] AR MTN Arxivi, PR-29995, vərəq 3.
[3] Yenə orada, vv.1-2.
[4] İndiki Qurban Abbasov.
[5] AR MTN Arxivi, PR-29995, vv. 4-5.
[6] Yenə orada, vərəq 9.
[7] Yenə orada, vərəq 12.

ildə keçmiş Xatisovun zavodunda (vaqon emalatxanalarında) işə girərək orada 1920-ci ilin yanvarınadək çalışmışam. 1920-ci ildə təhsilini bitirməkdən ötrü xaricə göndərilmiş tələbələrlə birlikdə Almaniyaya getmişəm. Azərbaycan sovetləşəndən sonra mən Almaniyada təhsilimi Azərb. SSR XKŞ-nın təqaüdü hesabına almışam. Təhsili 1925-ci ilin sonunda bitirərək mühəndis-metallurq rütbəsi almışam.

1926-cı ildə Bakıya gələrək Azərneft sistemində işə başlamışam.

1 iyun 1926-cı ildən 1 noyabr 1937-ci ilədək qazma üzrə müxtəlif vəzifələrdə işləmişəm.

1937-ci ildən sonra 1939-cu ilin mart ayınadək "Stalinneft"in tikinti kontorunun planistehsalat şöbəsində işləmişəm.

1939-cu ilin martından həbs olunduğum günədək – 23 iyun 1941-ci ilə kimi Azərneftkombinatın yardımçı müəssisələr trestində baş mühəndis işləmişəm.

Atam 1900-cü ilədək Maştağa kəndində kəndli olub, 1912-ci ildə ölüb. İstintaqa bildirməyi zəruri sayıram ki, atam 1900-1912-ci illər dönəmində kiçik saman satıcılığı ilə məşğul olub.

Sual: Sovet hakimiyyəti orqanlarının həbs etdiyi kimlərinizi var?

Cavab: Yaxın qohumlarımdan heç kim həbs olunmayıb. Kirovabad şəhərində həbs edilmiş xalam oğlu Quluyev Səttar istisnadır. Ancaq onu kim və nəyə görə həbs etdiyini bilmirəm, çünki onunla əlaqəm yoxdur".[1]

8 iyul 1941-ci il dindirməsində Sadıqov ona qarşı irəli sürülmüş ittihamda özünü günahkar saymayıb. Təhsili ilə bağlı bunu bildirib: "Mən 1920-ci ilin yanvarından 1926-cı ilin may ayınadək Almaniyada, Saksoniyada Frayberq şəhərində Dağ-Mədən Akademiyasını bitirmişəm, elə Almaniyada evlənmişəm, ancaq heç bir xarici kəşfiyyatla heç bir əlaqəm olmayıb, yoxdur və heç bir antisovet hərəkətə yol verməmişəm".[2]

10 avqust 1941-ci il dindirməsində mövzumuzla bağlı bir çox məsələlərə toxunulub. Onları oxucuların diqqətinə çatdırırıq:

"*Sual:* Almaniyaya oxumağa göndərilmə şəraitinizdən danışın.

Cavab: 1920-ci ilin yanvarında mən başqa bir dəstə azərbaycanlı tələbə ilə birlikdə Almaniyaya ali təhsil və ixtisas almaqdan ötrü göndərildim. Şəxsən mən – *Sadıqov Mirsadıq, Axundov Səməndər, Əliyev Əşrəf, Kazımov Cəfər, Həsənov Rzaqulu, Şahsuvarov Surxay* və *Əlimuradbəyli Cəmil* Frayberq şəhərində (Saksoniya) Dağ-Mədən Akademiyasında oxuduq. Ancaq ümumən Azərbaycandan Almaniyaya oxumağa 75-80 nəfər[3] getmişdi, qalanlar Almaniyanın başqa şəhərlərinə və başqa ali məktəblərinə getdilər.

Sual: Sizi kim və hansı hesaba Almaniyaya oxumağa göndərib?

Cavab: Bizi Almaniyaya oxumağa keçmiş Müsavat hökuməti öz hesabına göndərib. Müsavat hökumətindən getməmişdən qabaq hər birimiz müəyyən məbləğdə xarici valyuta almışdıq. Şəxsən mən 2-3 min fransız frankı[4] almışdım. Azərbaycanda Müsavat hökuməti devrilməndən sonra Akademiyaya mənə Berlin vasitəsilə Fransadakı (Parisdəki) Müsavat nümayəndəliyindən təxminən 15 minədək alman markası verildi və bundan sonra Müsavat nümayəndəliyindən vəsait ala bilməyəcəyim və gələcəkdə vətənə qayıtmaq istəsəm öz taleyimi özümün həll etməli olduğum haqqında xəbərdarlıq aldım. Bundan sonra biz, bütün azərbaycanlı tələbələr Berlində toplaşdıq, öz içimizdən 3 nəfəri – *Məmmədov Qəhrəman, Kazımov Cəfər* və *Əliyev Əşrəfi* nümayəndə seçdik və onlara Azərbaycana gedərək sovet hökuməti ilə bizim bundan sonra necə davranacağımız – qayıdacağımız, yoxsa qalıb təhsili davam

[1] AR MTN Arxivi, PR-29995, vərəq 15a.
[2] Yenə orada, vərəq 16.
[3] Bu rəqəm əslində bütün Qərbi Avropaya gedən tələbələrə aiddir.
[4] Əslində 4 min frank.



Mirsadıq Sadıqov həbsdə. 1941

etdirəcəyimiz haqqında danışıqlar aparmağı tapşırdıq. Nümayəndə heyəti[1] bir müddətdən sonra qayıtdı. Sovet hökuməti tələbələri süzgəcdən keçirdi və yerdə qalan azsaylı tələbələrə təhsillərini bitirənədək Almaniyada qalmaq təklif edildi. Tələbələrin süzgəcdən keçməyən hissəsi isə mühacir durumuna düşdü. Mən qalan tələbələrdən oldum. Sovet nümayəndəliyindən ayda 40 amerikan dolları təqaüd almağa başladım.[2]

Təhsilimi mən 1925-ci ilin noyabrında mühəndis-metallurq rütbəsi almaqla başa vurdum.

Bakıya 1926-cı ilin iyununda qayıtdım. Belə ki, Azərneftin təklifi ilə Erkelents şəhərində (Reyn çayı üzərində) "Virt" firmasının qazma avadanlıqları hazırlanması üzrə alman zavodlarında istehsalat təcrübəsi keçməkdən ötrü hələ 5 ay da Almaniyada qaldım.

Sual: Sovet hökuməti sizə təqaüd verilməsini davam etdirməyi öz üzərinə götürdükdən sonra siz keçmiş Müsavat hökumətinin nümayəndələrindən maddi yardım almaqda davam etdinizmi?

Cavab: Şəxsən mən yararlanmadım, ancaq mühacir Müsavat dairələri Sovet hökumətinin təqaüd verməyi, daha doğrusu, bəziləri mühacirlərə çevrilmiş azərbaycanlı tələbələrə yardım göstərməyə davam etdi; sovet təqaüdü alanların arasında da eyni zamanda əlaqəni üzməyib mühacir Müsavat dairələrindən maliyyə yardımı almağa davam edənlər oldu. Frayberq Akademiyasında adlarını yuxarıda sadaladığım 7 nəfər azərbaycanlı tələbə içərisində, məsələn, Əliyev Əşrəf bunlardan idi, nəticədə o, həmişə bizdən yaxşı təmin olunub.

Bir şeyi unutdum ki, Müsavat Sülh Heyəti 1920-ci ilin may ayında mənə 15 min marka (təxminən) son məbləği verənədək mən bu Heyətdən alman markasıyla 2 dəfə aylıq pullar almışam, ancaq indi məbləği xatırlamıram".[3]

"Bakıya gəlincə mən Əliyev Əşrəflə Stalin rayonunda işlədim; burada o, müxtəlif sahələrdə öncə istismarda, sonra isə 1928-ci ildən 1932-ci ilədək qazmada işlədi. 1936-cı ildə mən Əliyev Əşrəfə dair XDİK orqanlarına material ötürdüm. Bundan başqa, mən vaxtında xəbərdarlıq etdim ki, Əliyev Əşrəfin İran pasportu var".[4]

Bundan sonra 1936-cı ildə Əşrəf Əliyevi tutdular və güllələdilər. Dünənki ən yaxın dostunu güdaza verməsinin səbəbi o idi ki, Əşrəfə Lenin ordeni verilmişdi və bunu Mirsadığın gözü götürməyib, özünə qarşı haqsızlıq saymışdı...

Lətif Qədimi 13 oktyabr 1940-cı il dindirməsində deyib: *"Qabaqlar Sadıqovun yaxın dostu Əşrəf Əliyev idi. Əşrəf Əliyev ordenlə təltif edilmişdi. Buna görə Sadıqov narazılığını bildirirdi ki, onu saymayıblar və orden verməyiblər. Onun narazılığı rəhbərliyin ünvanına hər cür iftiralarla müşayiət olundu. Orden almaması onun millətçi ifadələr söyləməyinə əsas oldu. O deyirdi ki, bütün rəhbər vəzifələri ruslar tutub, azərbaycanlıları irəli çəkmirlər. Onun fikrincə, Azərbaycan azad respublika deyil və rusların sərəncamındadır".*[5]

[1] Bizcə, burada yanlışlıq var, çünki başqa qaynaqlarda nümayəndə kimi yalnız Cəfər Kazımovun adı çəkilir.
[2] AR MTN Arxivi, PR-29995, vərəq 17a.
[3] Yenə orada, vv. 17a-18a.
[4] Yenə orada, vv. 19-20.
[5] Yenə orada, vərəq 56.

Bununla bağlı Sadıqovun özü istintaqda deyib: *"Təkrar edirəm ki, incimişdim ki, məni işdən qeyd etməyiblər. Öz inciklik və narazılığımı yetərincə açıq bildirmişəm. Ola bilsin ki, narazılığıma qeyri-sağlam rəng vermişəm. Onu da ətrafımdakılar əks-inqilabi millətçi təzahür kimi qiymətləndiriblər, ancaq mənim birbaşa əks-inqilabi millətçi əhvali-ruhiyyəm olmayıb və bunda özümü günahkar saymıram. Doğrudur, demişəm ki, ilk növbədə azərbaycanlı kadrlara qayğı göstərmək gərəkdir, bəlkə də mənim haqqımda əks-inqilabi millətçi adam təsəvvürü yaradıb".*[1]

Azərneftkəşfiyyatda mühəndis işləyən *Y.A.Şvarts* 1942-ci ilin 13 yanvarında şahid kimi dindirilərkən M.Sadıqov və Ə.Əliyevi nəzərdə tutaraq deyib: *"Hər ikisi Azərneftin rəis müavini Ağaverdiyevin güclü dəstəyindən yararlanırdı. Sonralar Əliyev Əşrəf Lenin ordeni ilə təltif edildi, bu, Sadıqovu açıq-aşkar qıcıqlandırdı. Açıqca deyirdi ki, ondan yan keçiblər. Xatırlayıram ki, Sadıqov Əliyevlə dostluq etməsinə baxmayaraq onunla hələ Almaniyada olarkən hansısa şəxsi haqq-hesabı olduğunu mənə danışıb".*[2]

İstintaq protokollarından seçmələr:

"*Sual:* Bakı şəhərində hansı vəsaitlə öncə şəhər məktəbində, sonra texniki məktəbdə oxumusunuz?

Cavab: Atamın və qohumlarımın hesabına. Atam 1914-cü ildə ölüb, onun ölümündən sonra mənə əmim və kürəkənimiz dayaq durub.

Sual: Bəs hansı vəsaitlə Tomsk şəhərinə Texnologiya İnstitutunda oxumağa getmisiniz?

Cavab: Qohumlarım atama məxsus torpaq sahəsini və evi satıblar və bu satışdan əldən edilən pulla mən ali təhsil almaq üçün Tomska getmişəm. Ancaq orada oktyabr inqilabı məni yaxaladı. Tomskda yaşayış çətinləşdi, 1918-ci ildə təhsili yarımçıq qoyub Bakıya qayıtdım..." [3]

"Atamın Persidski küçəsi[4] 156-da bir evi vardı. Həmin ev indi durmur. Zəlzələlərin birində dağıldı və sonra onu sökdülər, ancaq sahəni satdılar. Atam saman satmaqla məşğul olub. Bundan başqa, onun Maştağada bağı və üzümlüyü də vardı, sahəsinin nə boyda olduğunu xatırlamadığım üçün deyə bilmərəm".[5]

"Arvadımla bağlı qohumlarım: arvadımın atası – *Kistner Rudolf,* 1907-ci ildə ölüb. Klauxauda (Almaniya) özəl foto müəssisəsi olub. Arvadımın anası – *Kistner Ella* Bişofsverda şəhərində (Saksoniya, Almaniya) yaşayır. Birinci imperialist müharibəsində hərbi tibbi bacısı idi, əlil oldu, indi dövlət təqaüdçüsüdür. Arvadımın qardaşı – *Kistner Horst,* təxminən 1899 doğumludur, məktəbdə dərs deyir. Pozğun davranışına görə anası evdən qovub. Harada olduğu bilinmir. Arvadımın bacısı – *Valdin (Kistner) Elfrida* Stokholm yaxınlığında (İsveç) yaşayır. Onun əri *Valdin* milliyyətcə isveçlidir, adını xatırlamıram, Şpitsbergen adasında kömür şaxtalarında texnik-mexanik işləyir".[6]

"Bakıdan Almaniyaya mən 1920-ci ilin yanvar ayında getdim. Almaniyaya İtaliyadan keçməklə təxminən 1920-ci ilin aprel ayında çatdım. Elə həmin aydan da Frayberq şəhərində Dağ-Mədən Akademiyasında oxumağa yazıldım. Bu Akademiyanı 1925-ci ilin noyabrında bitirdim. Oxuduğum müddətdə Frayberqdən başqa, tədris təcrübəsi keçərəkŞtolberq şəhərində (Reyn çayı üzərində) və Saksoniyanın müxtəlif rayonlarında oldum. Şəxsi işlərimlə bağlı isə Berlin və Leypsiqdə oldum. Berlinə mən səfirlikdə müxtəlif

[1] AR MTN Arxivi, PR-29995, vərəq 49.
[2] Yenə orada, vərəq 59a.
[3] Yenə orada, vv. 37-37a.
[4] İndiki Murtuza Muxtarov.
[5] AR MTN Arxivi, PR-29995, vərəq 38.
[6] Yenə orada, vv. 40-41a.

məsələləri həll etmək üçün getmiş və bir neçə gün qalmışdım. Leypsiqdə isə müalicə olunmuşam".[1]

"*Sual:* Virt zavodunda Sizdən başqa azərbaycanlılardan daha kimlər işləyib?

Cavab: Virt zavodunda məndən başqa bu azərbaycanlılar işləyib: Əliyev Əşrəf, Həsənov Rzaqulu, Şahsuvarov [Surxay] və [Əli]muradbəyli [Cəmil]. Sonuncu ikisini mən zavoda gedəndə görmüşəm. Ancaq orada işləyib-işləmədiklərini bilmirəm".[2]

"...*Cavab:* Qədimi [Lətif] Almaniyada öncə Berlində oxuyub, ancaq təhsilini Hannover şəhərində bitirib. Almaniyadan döndükdən sonra biz onunla Bakıda görüşdük. Bir-birimizin mənzilinə get-gəl etdik. Onun arvadı da almandır, Berlinlidir, buna görə arvadlarımız öz arasında dostluq edirdilər. Qədimi Bakıda Azərbaycan Sənaye İnstitutunda alman dili müəllimi işləyirdi. Onun arvadı da Tibb İnstitutunda alman dili müəllimi idi.

Sual: Qədimi Lətifin siyasi görüşləri və əhval-ruhiyyəsi haqqında danışın.

Cavab: Mən Qədimidən və onun arvadından antisovet heç nə görməmişəm, əksinə, o hətta bolşeviklər partiyasına girmək haqqında ərizə vermək istədiyini demişdi; bu təxminən 1940-cı ildə olmuşdu".[3]

İstintaqlarda müttəhim Mirsadıq Sadıqov özünü günahkar saymayıb.[4]

15 yanvar 1942-ci ildə Zelenski, Qaqarin və Kovrıjenkonun tərtib etdikləri və Yemelyanovun təsdiq etdiyi ittihamnamədə[5] M.Sadıqovun güllələnməyə məhkum edilməsi və ona məxsus şəxsi əmlakın müsadirə olunması təklif edilib.[6]

SSRİ XDİK Özəl Müşavirəsinin 21 fevral 1942-ci il tarixli qərarı ilə M.Sadıqov ictimai-təhlükəli ünsür kimi *müddəti 23 iyun 1941-ci ildən sayılmaqla 8 illik islah-əmək düşərgəsinə məhkum edilib*[7] *və 8 aprel 1942-ci ildə Bezımyanlaqa göndərilib.*

Azərb. SSR prokurorunun müavini İ.İsmayılov Azərb. SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasına 4 aprel 1958-ci ildə yazdığı etirazda Sadıqovun əsassız məhkum edildiyi göstərilib və ona bəraət verilməsi xahiş olunub.[8]

Bu vaxt onun arvadı *Sadıqova Gilda Rudolf qızı* Bakı şəhərində Aşağı Bulvar küçəsində 643-cü məhəllədə 3-cü blok 46-cı mənzildə yaşayıb.[9] Jurnalist *Mirabbas Məmmədov*'un bizə bildirdiyinə görə, Mirsadıq Sadıqovun arvadı 1958-ci ildə Qazaxıstana, oradan da Almaniyaya gedib.

[1] AR MTN Arxivi, PR-29995, vərəq 41.
[2] Yenə orada, vərəq 42.
[3] Yenə orada, vv. 47-47a.
[4] Yenə orada, vərəq 82.
[5] Yenə orada, vv. 80-83.
[6] Yenə orada, vərəq 83.
[7] Yenə orada, vərəq 84.
[8] Yenə orada, vv. 85-86.
[9] Yenə orada, vərəq 86.

Salahlı Yusif Məşədi Hüseyn oğlu
(06.09.1897, Şuşa – 1973, İstanbul)

Almaniyada oxumuş Yusif Salahlının[1] həyatı bəzi tələbə yoldaşlarınınkından seçilir. Bir çoxları təhsilini başa vurduqdan sonra Azərbaycana qayıtmayaraq Türkiyəyə gedib. Yusif Salahlı isə Vətənə qayıdıb, ancaq müharibədə əsir düşdükdən sonra bir daha Vətənə dönə bilməyib, çünki bütün əsir düşmüşlər kimi onu da burada Stalin məhbəsi gözləyirdi, bu üzdən də Azərbaycan qədər sevdiyi Türkiyəyə sığınmağı qərara alıb.


Yusif Salahlının atası "Qızıllı" Məşədi Hüseyn


Yusif Salahlının anası Nabat xanım


Yusif Salahlının qardaşı Salah


Yusif Salahlının qardaşı Eyyub

* * *

28 may 1905-ci ildə verilmiş 1253 saylı doğum şəhadətnaməsində yazılıb: "Verilir bu şəhadətnamə Zaqafqasın Şiəməzhəb Müsəlmanlarının İdareyi-Ruhaniyyəsindən ol xüsusda ki, Yelisavetpol quberniyasının Şuşa şəhərinin sakini Yusif Məşədi Hüseyn oğlu təvəllüd edibdir öz atası Məşədi Hüseyn Həsən oğlu Salahovun mənkuheyi-şəriyyəsi Nabat xanım Kərbəlayı Əliəkbər bəy Allahverdiyevin[2] qızından 1897-ci ilin sentyabrın 6-cı günündə".[3]

Xatırladırıq ki, Yusif Salahlının anası Nabat xanım Kərbəlayı Əliəkbər qızı dahi bəstəkarımız Üzeyir bəy Hacıbəylinin dosdoğma xalasıdır.

Yusif ilk təhsilini Şuşada alıb. 24 aprel 1917-ci ildə Şuşada verilmiş 430 saylı attestatda onun 1 sentyabr 1905-ci ildə Şuşa edadi (real) məktəbinə girərək orada 20 aprel 1917-ci ilədək əla əxlaqla oxuduğu, əsas bölmə üzrə tam kursu bitirdiyi göstərilib. Bu zaman o, 3 fəndən "5", 3 fəndən "4", 8 fəndən "3" alıb.[4]

Salahovun ali məktəbə girmək üçün zəruri olan əlavə sinfi bitirmək üçün Salahov həmin məktəbdə 1 oktyabr 1917-ci ildən 15 mart 1918-ci ilədək oxuyaraq oranı bitirib. Şuşada 16 mart 1918-ci ildə verilmiş 137 saylı şəhadətnaməyə görə, o, sınaq imtahanlarında aşağıdakı uğurları qazanıb:

Şəriət –	əla (5)
Rus dili –	yaxşı (4)
Alman dili –	yaxşı (4)
Fransız dili –	yaxşı (4)
Riyaziyyat, o sıradan:	
Hesab –	yaxşı (4)
Cəbr –	yaxşı (4)

[1] Soyadı bəzi qaynaqlarda *"Salahzadə"*, *"Salahov"* kimi də işlədilib. Sənədlərdəki həmin yazılışları da saxlamışıq.
[2] "Əliverdibəyov" olmalıdır
[3] ARDA, fond 51, siyahı 3, iş 120, vv. 5, 10.
[4] Yenə orada, vərəq 4.



Məşədi Hüseyn, qızı Sona, Bahadır bəy Əliverdibəyov, Eyyub və Salah Salahovlar. Bakı, 1926

Triqonometriya –	yaxşı (4)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	əla (5)
Tarix –	yaxşı (4)
Təbiiyyatşünaslıq –	əla (5)
Fizika –	əla (5)
Riyazi coğrafiya –	yaxşı (4)
Rəsm –	yaxşı (4)
Qanunşünaslıq –	əla (5)
Türk dili –	yaxşı (4).[1]

Aşağıda 1919-cu ildə xaricə oxumağa getmək istəyən şəxslərdən AC maarif nazirinə ünvanlanmış azsaylı türkcə ərizələrdən birini oxuyuruq:

"Azərbaycan Hökuməti-Cümhuriyyəsi maarif naziri hüzuri-alilərinə

Şuşa məktəbi-edadisini bitirmiş

Yusif Salahzadədən.

30 iyul tarixli "Azərbaycan" cəridələrində[2] Maarif Nəzarəti-cəliləsinin Avropa məkatəbi-aliyyələrinə ikmali-təhsil üçün tələbələr göndərilməsi təşəbbüsünə binaən bən də atidəki [3] vəsiqələrimi təqdim edib, haman zümrəyə daxil olmağımı istirham edirəm. Xahişim: İsveçrə Darülfünununun tibbiyyə şöbəsində təhsil etməyi izhar ediyorum. Vəsiqələr: Şuşa edadi məktəbini ikmali-təhsil etdiyim üçün verilən şəhadətnamələr:

1) 20-ci aprel 1918 sənədən, № 430;

2) 15 mart 1918 sənədən, № 137;

3) Təvəllüdnamə, 28 may 1905 sənədən, № 1253;

4) Fotoğraf rəsm, № 573;

5) Qarabağ valiliyindən vəziyyəti-beytiyyə[4] və tavanasız bir ailəyə mənsub olduğum xüsusda verilən şəhadətnamə, 3 avqust 1919 sənədən, № 3962.

4 avqust 1919 səneyi-miladiyyə. Yusif Salahzadə.

Mənim ünvanım: Şuşa, Yusif Salahzadəyə".[5]

AC Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının müvəqqəti hərbi valisi *Xosrov bəy Sultanov*'un imzası ilə 3 avqust 1919-cu ildə Şuşada verilmiş 3962 saylı vəsiqədə göstərilib ki, Şuşa şəhərinin sakini Yusif Salahov subaydır, valideynlərinin ailəsində yaşayır. Ailə bunlardan ibarətdir: qoca atası *Məşədi Hüseyn Həsən oğlu*, 65 yaş; anası *Nabat xanım*, 45 yaş; onların uşaqları *Salah*, 23 yaş; *Eyyub*, 15 yaş, *Balış xanım*, 9 yaş və *Sona xanım*, yaş yarım.

Yusif Salahovun ali məktəbə girməsinə ailəsinin etirazı yoxdur, onun valideynləri tavanasızdır və Salahova öz hesablarına ali təhsil vermək gücündə deyillər.[6] (Əslində Salahovlar imkansız deyildi. Xalq içində Məşədi Hüseynə "Qızıllı Hüseyn" deyirdilər).

[1] ARDA, fond 51, siyahı 3, iş 120, vərəq 3.
[2] Qəzet iki dildə çıxdığına görə "qəzetlər" deyir.
[3] Aşağıdakı.
[4] Ailə vəziyyəti.
[5] ARDA, fond 51, siyahı 3, iş 120, vərəq 1.
[6] Yenə orada, vv. 2, 9.



Yusif Salahlı.
Bakı, 16 dekabr 1920-ci il



Moskva Universiteti tələbələrindən bir qrup.
Soldan sağa. Oturanlar: 1-ci Yusif Salahlı, 2-ci P.Poladxanov, 3-cü Məhəmmədyusif Cəfərov. Tək. 1912-ci ildək



Yusif Salahlı və Məhiş Səfərov. Almaniya



Yusif Salahlı. Almaniya



Almaniyada tibb təhsili alan tələbələr. *Soldan sağa. Öndə:* 1-ci İsmayıl Axundov, 3-cü Yusif Salahlı, 8-ci Həmid Xəlil Məhəmməd oğlu. 1920-ci illərin ortası



Azərbaycanlı həkimlər. *Soldan sağa:* Mustafa Topçubaşov, Mustafa Hacıqasımov, Mirəsədulla Mirqasımov, Yaqub Qasımov, Yusif Salahlı, İsmayıl Axundov. Berlin, 1926-1927



Azərbaycanlı həkimlər. *Soldan sağa:* Mirəsədulla Mirqasımov, Mustafa Hacıqasımov, Yaqub Qasımov, Mustafa Topçubaşov, Yusif Salahlı, İsmayıl Axundov. Berlin, 1926-1927

Dövlət təqaüdçüləri siyahısına salınmış Yusif Salahov (Salahzadə) Xalq Maarif Nəzarətinə 30 oktyabr 1919-cu il tarixində Şuşadan bu dəfə rusca yazdığı ərizədə öncə təqdim etdiyi sənədləri sadalayıb, sonra oxumaq üçün İsveçrə, yaxud Almaniyanı seçdiyini, şəhər seçimini isə hökumətin ixtiyarına buraxdığını yazıb. Ancaq tibb fakültəsində oxumaq istəsə də təbiət ixtisası üzrə oxuyacaqlar siyahısına salınmasına etiraz edib. Xahiş edib ki, Bakıya gəlməyimin vaxtını və yerini Qarabağ hərbi valisinin idarəsi vasitəsilə mənə bildirəsiniz, çünki mən burada müvəqqəti dəftərxana qulluqçusu işləyirəm.[1]

31 dekabr 1919-cu ildə Y.Salahzadə təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[2] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[3] dilkağızları verib.

Yusif Məşədi Hüseyn oğlu Salahova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 554 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[4]

* * *

Yusif Salahov öncə Haydelberq, sonra isə Münxen universitetində tibb fakültəsində oxuyub.

Almaniyaya onunla birgə oxumağa getmiş *Hənifə Pirverdiyev* 1 avqust 1940-cı ildə zindanda müstəntiqin suallarına cavab olaraq belə maraqlı bir faktı qeyd edib:

"1920-ci ildə Berlinə gələndən bir neçə ay keçmiş azərbaycanlı tələbələr özünü azərbaycanlı adlandıran və evində məclislər düzəldən *Azad bəy* adlı birisi ilə tanış oldular. Axşam məclisində bunlar iştirak edib: *Hilal Münşiyev, Sultanov [İsgəndər], Ağasıbəyli [Yusif bəy], Əliyev Əliəkbər, Zeynalov Behbud, Hacıyev [Məhəmməd], Rəhimli M[əhəmməd], Salahov*

[1] ARDA, fond 51, siyahı 3, iş 120, vərəq 6.
[2] Yenə orada, vərəq 12.
[3] Yenə orada, vərəq 13.
[4] Yenə orada, vərəq 14.



Yaxın qohumlar bir arada. *Soldan sağa:* Əliəkbər Əliyev, onun qızı Elmira və oğlu Rasim, Yusifin bacısı Sona, Məhbubə Əliverdibəyova (Ağalar bəyin yoldaşı), Nabat xanım, qucağında Ağalar bəyin oğlu Nazim, Yusifin yoldaşı Məryəm xanım, qarşısında oğlu Cəmil, samovarın arxasında Əliəkbərin oğlu Nadir, Əliəkbərin yoldaşı Önbər xanım oğlu Rafiqlə, (?), Yusif Salahlı, (?). Kislovodsk, 25 sentyabr 1935-ci il

Y[usif], Musai Cəmil, Kazımov [Cəfər], Əfəndiyev [Məhəmmədəmin], Pirverdiyev H.M., Qəhrəman Məmmədov, Mustafayev [Ağahəsən], Qədimi [Lətif], İsgəndərov [Ağalar], Əbdürrəhmanov [Ağacəfər], Rzayev [Nüsrət] və o zaman Berlində olan başqaları, eləcə də keçmiş Türkiyə vəziri Tələt bəy bir, yaxud iki yaxın adamı ilə.

Qardaş Azərbaycan Türkləri ilə Türklərin qardaşlığı və pantürkizm haqqında nitqlər söyləndi. Birinci *Tələt bəy* danışdı. İkinci tələbələr adından *Münşiyev* danışdı. Bütün bunlardan sonra *Salahov [Yusif]* və *Rəhimli [Məhəmməd]* tarda çaldılar və Azərbaycan mahnıları oxudular".[1] Burada sözügedən "Tələt bəy" Osmanlı hökumətinin Sədrəzəmi (Baş naziri) olmuş, Berlində erməni terrorçunun əliylə qətlə yetirilmiş mərhum *Tələt paşadır.*


Salahov 21 avqust 1926-cı ildə Münxendə Ludwig-Maximilian Universitetinin tibb fakültəsini tibb elmləri namizədi diplomu ilə bitirib. Bu haqda ona rektorun imzası ilə 26 avqust 1926-cı ildə diplom verilib.[2] Onun namizədlik dissertasiyası almanca belə adlanır: *"Über die Wasserstoffionenkonzentration und Die Ammoniakzahl des Urins bei Magenerkrankungen. (Inaugural-Dissertation zur Erlangung der Doktorwürde in der gesamten Medizin verfaßt und vorgelef einer Hohen medizinischen Fakültät der Bayerischen Ludwig-Maximilians-Universität in München von Jusif Salachow aus Aserbaidschan".*[3]

Salahov SSRİ-yə 1927-ci ildə qayıdıb.

* * *

"Əski fotoşəkillərin həyatı" adlı imzasız bir yazıda Salahovun həyatından danışılır. Orada göstərilir ki, Yusif Salahov 1928-ci ildən 1941-ci ilədək fəal həkimlik təcrübəsi ilə məşğul olub, əla diaqnozçu, təcrübəli klinikaçı kimi tanınıb. Bəlkə də onun həyatını 1937-ci ildə qurtaran da

[1] AR MTN Arxivi, PR-35911, vv. 30-30a.
[2] Sənədin surəti özəl arxivimizdədir.
[3] Surəti özəl arxivimizdədir.



Mərdəkan sanatorisinin baş həkimi Yusif Salahlı pasiyentlərlə. 1938



(Soldan sağa) Yusif Salahlının oğlu Cəmil və qardaşı Eyyubun uşaqları Nüsrət, Rəhimə, Fikrət. 1960-cı illər

bu olub – hər gecə "qara qarğa"[1] həkim Salahovu dindirmələrə aparır, səhər isə yenə onu səliqə ilə klinikaya gətirirdi.

1941-ci ildə Salahov könüllü olaraq cəbhəyə gedib və Kiyev yaxınlığındakı döyüşlərdə əsir düşüb. Bundan sonra o, vətənə qayıtmayaraq Türkiyəyə gedib, "Salahlı" soyadı ilə İstanbulda yurdlaşıb və həyatının sonunadək orada yaşayıb.[2]


[1] O vaxt çekistlərin gəzdiyi "M-1" maşınına xalq nifrətlə belə deyirdi.
[2] Жизнь старых фотографий. // *"Elm"* qəzeti, 07.04.1990, № 14.



1



2



3

1. Yusif Salahlı ikinci həyat yoldaşı Nəmidə xanımla. İstanbul, 5 noyabr 1965-ci il. 2. Yusifin oğulları Altay və Yavuz. 1970-ci illər. 3. Yusif Salahlının son fotosu. İstanbul, 6 dekabr 1966-cı il

* * *

2007-ci ilin 24 avqustunda Yusif Salahlının oğlu *Altay*'la görüşərək ondan atası ilə bağlı həm bilgilər, həm də bəlgələr almışdıq. O, bizə atasının diplomunun, bəzi elmi işlərinin surətini vermişdi. Ondan öyrəndik ki, atası 1931-ci ildə *Məryəm xanım Mahmud bəy qızı Hacıyeva* ilə ailə qurub və bu nikahdan *Cəmil*, *Yavuz* və *Altay* adlı üç oğlu dünyaya gəlib.

Altay bəy bizə atasının və onun Türkiyədəki həyat yoldaşı *Nəmidə Salahlı*'nın 1966-1972-ci illər arasında İstanbuldan göndərdiyi məktubları təqdim etmiş, biz də o məktubların üzünü çıxarmışdıq. Maraqlıdır ki, Yusif bəyin yazdığı bütün məktublar rusca, həyat yoldaşı Nəmidə xanımın yazdıqları isə türkcədir.

Y.Salahlı 12 oktyabr 1966-cı ildə Altaya, 3 mart 1967-ci ildə Yavuza, 18 mart 1967-ci ildə Cəmilə, 3 may 1967-ci ildə və 12 dekabr 1972-ci ildə Yavuza geniş məktublar yazıb. Nəmidə xanım isə 27 dekabr 1966-cı ildə Altaya, 18 mart 1967-ci Cəmilə, 12 aprel 1967-ci ildə yenə Altaya məktublar göndərib. Nəmidə xanımın bütün məktubları "Sevgili yavrum!" sözləri ilə başlayır və sonunda "Annen Nemide Salahlı" imzası ilə bitir.

Doğrudur, Y.Salahlının Azərbaycandakı övladlarının anası Məryəm xanımdır, ancaq Nəmidə xanım da onlara öz qayğısını göstərməyə çalışıb. Məktublar daha çox məişət məzmunludur, valideynlərin övladlara sevgisini əks etdirir və onların hamısında münasibətləri daha da səmimiləşdirməyə, get-gələ çağırışlar var. Oğlu Yavuza yazdığı sonuncu məktubunda Y.Salahlı yeni ünvanlarını da göstərib: *İstanbul, Kadıköy, Yavuz Türk caddesi № 23, dairə 4.*

Yazımızın sonunu bir müəmma ilə bitirmək istəyirik. Əldə etdiyimiz nadir fotoların birində Moskva Universitetində oxuyan azərbaycanlı tələbələrdən bir qrupu əks olunub (975-ci səhifədəki 2-ci foto). Burada soldan birinci məktəbli formasında Yusif Salahlı, ən ortada isə gələcək Azərbaycan Cümhuriyyəti dönəmində mühüm vəzifələr tutmuş Məhəmmədyusif Cəfərov və Moskva Universitetinin başqa azərbaycanlı tələbələri təsvir olunub. Şəkil böyük ehtimalla Moskvada çəkilib. İş burasındadır ki, Salahlı ilə Cəfərovun Moskvada eyni zamanda oxuması mümkün deyil, çünki ikincisi universiteti 1912-ci, birincisi isə orta məktəbi 1918-ci ildə bitirib. Onda bu şəkil haçan və nə münasibətlə çəkilib? Gələcəyə ünvanlanmış bir sual...

Seyidəliyev Mirməhəmmədrza Mirabutalıb oğlu
(1898, Şamaxı – ?)



Ağa Seyid Mirməhəmmədrza Seyidəliyev

Şamaxı şəhərinin *Axçilər* məhəlləsi üzrə 1886-cı ilə aid ailələr siyahısından *Məşədi Mirəli Mirəbülhəsən oğlu*'nun ailəsinə aid çıxarışda 180-ci nömrə altında (əski nömrə 2632) göstərilib ki, Məşədi Mirəlinin 71 yaşı və birmərtəbəli 2 daş evi var. Onun oğlanları: 1. *Mirabutalıb Seyidəliyev*, 39 yaşı var; 2. *Mirəbdürəhim*, 28 yaşı var.

Mirabutalıbın oğlanları: *Seyid Hüseyn* (11 yaş), *Seyid Həsən* (4 yaş yarım), *Seyid Əlihəsən* (2 yaş yarım), *Möhsün* (1888), *Ağa Seyid Məsum* (1887), *Seyid Ağacəfər* (1890), *Ağa Seyid Məhəmmədrza* (1898).

Mirəbdürəhim Məşədi Mirəli oğlunun oğlu: *Mirabbas* (29 aprel 1884).

Bu çıxarış Azərbaycan Xəzinə Odasından Şamaxı şəhərinin vətəndaşı Mirməhəmmədrza Mirabutalıb oğlu Seyidəliyevin xahişi ilə 10 aprel 1919-cu ildə 517-ci nömrə ilə verilib.[1]

1898-ci ildə Şamaxı şəhərində doğulmuş Ağa Seyid Məhəmmədrza (Mirməhəmmədrza) Mirabutalıb oğlu Seyidəliyevə Bakıda 24 may 1919-cu ildə verilmiş 565 saylı kamal attestatında göstərilib ki, o, Bakı 2-ci kişi gimnaziyasına 4 sentyabr 1909-cu ildə girərək orada əla əxlaqla 24 may 1919-cu ilədək oxuyub və səkkizsiniflik tam kursu bitirib və bu zaman aşağıdakı bilikləri qazanıb:

Şəriət –	əla (5)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	yaxşı (4)
Fəlsəfi propedevtika –	yaxşı (4)
Latın dili –	əla (5)
Qanunşünaslıq –	əla (5)
Riyaziyyat –	yaxşı (4)
Riyazi coğrafiya –	kafi (3)
Fizika –	yaxşı (4)
Tarix (ümumi) –	yaxşı (4)
Coğrafiya –	əla (5)
Fransız dili –	yaxşı (4)
Alman dili –	yaxşı (4)
Türk tarixi –	əla (5)
Türk dili –	əla (5).[2]

Şamaxı şəhərinin sakini, Bakıda Vodovoz[3] küçəsi 14-cü evdə yaşayan Mirməhəmmədrza Mirabutalıb oğlu Seyidəliyev 7 avqust 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizədə xaricə tibb üzrə oxumağa gedən tələbələr sırasına salınmasını xahiş edib.[4]

Bakı 2-ci kişi gimnaziyasının direktoru 18 avqust 1919-cu ildə 744 saylı belə bir vəsiqə verib ki, Mirməhəmmədrza Seyidəliyev son 2 ildə kasıblığına görə təhsil haqqı verməkdən azad edilib.[5]

[1] ARDA, fond 51, siyahı 3, iş 46, vv. 4-5.
[2] Yenə orada, vərəq 2.
[3] İndiki Almaz İldırım küçəsi.
[4] ARDA, fond 51, siyahı 3, iş 46, vərəq 1.
[5] Yenə orada, vərəq 3.



Almaniyada oxuyan tələbələr.
Soldan sağa. Öndə: Bəhram bəy Hüseynzadə. *Arxada:* Abdulla Rəhimzadə, İsmayıl Axundov, Mirməhəmmədrza Seyidəliyev, Yusif Salahlı, Həmid Xəlil Ataman. 1920-ci illər



Mirməhəmmədrza Seyidəliyev. Berlin, 1923

Seyidəliyev 8 noyabr 1919-cu ildə maarif nazirinə yeni ərizə yazaraq Berlin şəhərində tibb fakültəsinə göndərilməsini xahiş edib.[1]

30-31 dekabr 1919-cu ildə Seyidəliyev təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[2] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı barədə[3] dilkağızları verib.

Mirməhəmmədrza Mirabutalıb oğlu Seyidəliyevə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 552 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[4]

Göndərilən tələbələrin bəziləri artıq Rusiya, Türkiyə və Azərbaycanın universitetlərində oxuyurdular və oxuduqları məktəblərdə təhsili yarımçıq qoymuşdular. Görünür ki, işlər çox gərgin olduğuna görə bu haqda hətta həmin tələbələrin oxuduğu ilk məktəblərə məlumat verilməmişdi. Məsələn, Bakı Dövlət Universiteti Maarif Nəzarətinə 24 yanvar 1920-ci ildə 145 saylı məktubla müraciət edərək soruşur ki, Bakı Universiteti tibb fakültəsinə qəbul edilmiş tələbələr: 1) Kazımov Cəfər, 2) Axundov İsmayıl, 3) Əlimuradov Cavad, 4) Seyidəliyev Məhəmməd həqiqətən xarici ölkələrə gedibmi?[5]

Nazirlik həmin tələbələrin həqiqə-tən xaricə ali təhsil almağa göndərildiklərini 30 yanvarda 1424 saylı məktubla təsdiqləyib.[6]

Seyidəliyev Fransaya göndərilmiş tələbələr içərisindədir.[7] O, 10 avqust 1920-ci il siyahısında da Fransada, Parisdə göstərilib.[8] Azərbaycan Tələbələri Birliyinin siyahısında (1922-25-ci illər) isə adı yoxdur.[9]

O, Parisdə təhsilini bitirdikdən sonra SSRİ-yə qayıtmayıb.

[1] ARDA, fond 51, siyahı 3, iş 46, vərəq 6.
[2] Yenə orada, vərəq 7.
[3] Yenə orada, vərəq 8.
[4] Yenə orada, vərəq 9.
[5] Yenə orada, iş 40, vərəq 16.
[6] Yenə orada, vərəq 17.
[7] Yenə orada, vərəq 9-10; 23-24.
[8] Yenə orada, vv. 62-63a.
[9] Yenə orada, fond 57, siyahı 1, iş 276, vv. 62-63.

Seyidzadə Mirismayıl Hacı Seyid Əhməd oğlu (Saryal, İsmayıl)

[30.01(13.2).1896, Gəncə – 13.2.1982, Ankara]



Mirismail Seyidzadə. Paris, 1920

Mirismayıl[1] Seyidzadə Almaniyada təhsilini bitirib sovet Azərbaycanına dönən, ancaq sonra kommunistlərin ana yurdundan cəlayi-vətən saldığı tələbələrdəndir.

Özünə ikinci vətən seçdiyi qardaş Türkiyədə "İsmayıl Saryal" adı götürmüş Mirismayıl Seyidzadənin həyatının Türkiyəyədək olan dönəmi onun "Bakü rüzgarı" kitabında[2] genişliklə əks olunub. 1975-ci ildə qələmə aldığı və oğlu Nuri Saryalla gəlini Nəriman xanımın 1998-ci ildə nəşr etdikləri bu qiymətli xatirə romanda onun nəsli və özü haqqında olduqca maraqlı və zəngin faktlar toplanıb. Nurəddin Xəzərin[3] "Bakü rüzgarı" kitabına yazdığı rəydə[4] də onun həyatı ilə bağlı bəzi yeni faktlar əksini tapıb. Arxiv bəlgələrindən və bu qaynaqlardan, eləcə də oğlu Nuri Saryalla Ankaradakı söhbətlərimizdən yararlanmaqla bu Cümhuriyyət tələbəsinin kimliyini oxucularımıza tanıtmağa çalışacağıq.

Mirismayıl Mir Hacı Seyid Əhməd oğlu Seyidzadə 13 fevral 1896-cı ildə Gəncədə doğulub.

Nurəddin Xəzərin rəyində yazılanları çox qısa şəkildə belə yuvarlaqlaşdıra bilərik: Mirismayılın atasının babası Lənkəran şəhərindən Gəncəyə köçmüş *Talışxanlar* sülaləsindəndir. Onun atasının adı *Mir Hacı Seyid Əhməd ağa*, soyadları isə Seyidzadədir; *Seyid Rza* və *Seyid Abdullah* ağalar onun qardaşları, *Seyid Ümmü xanım* isə bacısıdır. ("Seyid" ünvanından anlaşıldığı kimi, sülalə bir tərəfdən də həzrəti-Peyğəmbərə dayanmaqdadır).

Hacı Seyid Əhməd ağa (1870-1917) Gəncədə vəqflər müdiri olub. Qabaqcıl dünyagörüşlü, oyanıq və aydın bir insandı. Rəssamlığı və fotoqraflığı da olan bir sənətkardı. 3 dəfə həccə gedib. Keçib gəldiyi İstanbuldan hər dəfəsində daha yeni və daha mükəmməl fotoaparat gətirib. Karandaş və yağlı boya ilə çəkdiyi rəsmlər bahabiçilməzdir. "İstanbuldan Gəncəyə gələn müəllimlər" adlı karandaş rəsmi və "Həzrəti Əli" adlı yağlı boya rəsmi bunlardandır.

Hacı Seyid Əhməd ağanın Minə xanımdan 2 oğlu və 3 qızı olub: *Püstəbəyim xanım, Mirismayıl (Saryal), Ülkərbəyim xanım, Mirdavud (Saryal)* və *Balabəyim xanım*. Minə xanım sonradan Azərbaycan Cümhuriyyətində Baş nazir olan şəhid Nəsib bəy Yusifbəylinin xalasıdır. Dolayısı ilə Nəsib bəyin anası Böyükxanım Böyükağa qızı da Mirismayılgilin xalasıdır. Bolşeviklərin işğalından sonra bir müddət Azərbaycan KP MK-nın katibi olmuş Eyyub bəyin mənsub olduğu *Xanbudaqovlar* ailəsi də onların qohumdur – Minə xanım o ailədəndir.[5]

Nurəddin bəyin yazdıqlarına bir əlavəmiz var. İsmayıl Saryal öz kitabında qeyd edib ki, onların qohumlarından Həmid bəy Yusifbəyli (Nəsib bəyin qardaşı) hökumətdən icazə alaraq bəzi yoldaşları ilə birlikdə Gəncədə bir mətbəə açıb. Xalq təhsilinə yarayacaq Türk dilində kitab və dərgilər nəşr edilərək bunlar ya maya dəyəri qiymətinə, ya da pulsuz olaraq xalqa paylanılmağa başlanıb. Çalışma qısa zamanda genişlənib və xalq tərəfindən mənimsənilib. Ancaq mətbəənin ömrü uzun sürməyib. Hökumət gücləri ora hücum edib, çalışmalar rus siyasətinə uyğun görülmədiyi üçün Həmid Yusifbəyli yurdundan didərgin salınıb. O, İstanbula gedib və oradan seçdiyi üç dəyərli müəllimi dərs vermək üçün Gəncəyə göndərib. Müəllimləri şəhərin aydınları və xalq böyük sevgi ilə qarşılayıb, onlardan yararlanmaq istənilib. Böyük məscidə aid binalardan bir qismi məktəbə ayrılıb, dördillik təhsil proqramı hazırlanıb və icazə üçün hökumətə müraciət edilib. İcazə almağı asanlaşdırmaqdan ötrü proqram din dərslərinə önəmli yer verilməsi və məktəbin adının Məktəbi-Ruhani olması qərarlaşdırılıb.[1]



Türkiyədən gəlmiş müəllimlər. *Soldan sağa:* Akif əfəndi, Əhməd əfəndi, Molla Qasım (gəncəli), Xeyrəddin əfəndi. *Şəkli karandaşla M. Seyidzadənin atası Mir Hacı Seyid Əhməd çəkib.* Gəncə, 1918

Türkiyədən gəlmiş müəllimlərin adını biz Hacı Seyid Əhməd ağanın karandaşla çəkdiyi rəsmdən öyrənirik. Hacı onların adını şəkillərinin altında səliqə ilə yazıb: Xeyrəddin əfəndi, Əhməd əfəndi, Akif əfəndi.[2] Bu şəkil Azərbaycanın təhsil tarixi üçün də önəmlidir.

* * *

26 oktyabr 2013-cü ildə Ankarada olduğumuz zaman Mirismayıl Seyidzadənin (İsmayıl Saryalın) yeganə oğlu Nuri Saryal bəylə onun evində görüşüb söhbətləşdik. Söhbətdə Nuri bəyin həyat yoldaşı Nəriman xanım da iştirak edirdi. Nuri bəy bizə aşağıdakıları danışdı:

– Babam Seyid Əhməd ağa imkanlı adam olub; o, üç dəfə həccə gedib.

1898-1899-cu illərdəki ziyarətində (görünür, bu, onun son ziyarəti imiş) Gəncədən çıxıb Batuma, oradan İstanbula gedib, başqa bir vapurla Hicaza yollanıb. Oradan isə həcc səfərini gerçəkləşdirərək Məkkə və Mədinədə olub. Ziyarət bitdikdən sonra dönüşdə İstanbulda qalıb, 15 gün bu şəhərlə tanış olub. İstanbuldan gələrkən özü ilə iki nadir şey gətirib – onlardan biri fotoaparatdır. Evinin qarşısında atamın üç yaşındakı fotoşəkli durur; o şəkli həmin fotoaparatla çəkib. Babam ümumən elmə, texnikaya çox maraq göstərib. Onun gətirdiyi ikinci əşya teleskop olub. Onu evinin damında qurub, çünki ulduzlarla, astronomiya ilə də hədsiz maraqlanırdı. 1979-cu ilin mayında mən rektor kimi Gəncəyə getdiyim zaman o evi ziyarət edib gördüm.

* * *

Zaqafqaziya Şiə Ruhani İdarəsindən 29 dekabr 1904-cü ildə Tiflis şəhərində verilmiş doğum şəhadətnaməsində yazılıb ki, Gəncə şəhərinin "İmamlı" şiə cameəsinin

[1] Adı bir sıra qaynaqlarda *"İsmayıl"* kimi də işlədilib.
[2] *Saryal İ.* Bakü rüzgarı, 1998.
[3] İsmayıl Saryalın bacısı oğludur. 2011-ci ildə Ankarada vəfat edib.
[4] *Hazar N.* "Bakü rüzgarı". // *"Azerbaycan"* Dergisi, Kasım-Aralık, 1998, sayı 329, ss. 18-23.
[5] Yenə orada.

[1] *Saryal İ.* Bakü rüzgarı, s. 7.
[2] Rəsmin surəti özəl arxivimizdədir.

1896-cı il üçün doğum kitabının I hissəsindən göründüyü kimi, Gəncə sakini Seyid Əhməd Seyid Bağır oğlu Seyidzadənin qanuni arvadı Minə xanım Böyükağa qızından oğlu Mirismayıl 13 yanvar 1896-cı ildə doğulub.[1]

İlk təhsilini ata ocağında alan Mirismayıl az sonra atasının razılığı ilə dədə-baba yurdları olan Lənkəranа gedib və son məktəb illərini orada keçirib.[2] Burada qohumlarından İsgəndər Talışxanlı ilə dostluq edib.

Müsəlman, 30 yanvar 1896-cı il doğumlu, Gəncə şəhər sakini Hacı Seyid Əhmədin oğlu Mirismayıl Seyidzadəyə verilmiş kamal attestatında göstərilir ki, o, 8 aprel 1915-ci ildə Lənkəran kişi gimnaziyasının əlavə sinfinə girərək 1 may 1917-ci ilədək orada əla əxlaqla oxuyub və səkkizsiniflik tam kursu bitirərək aşağıdakı qiymətləri alıb:

Şəriət –	əla (5)
Rus dili –	kafi (3)
Ədəbiyyat –	kafi (3)
Latın dili –	kafi (3)
Riyaziyyat –	əla (5)
Fizika və riyazi coğrafiya –	yaxşı (4)
Tarix –	kafi (3)
Coğrafiya –	yaxşı (4)
Fransız dili –	kafi (3)
Alman dili –	kafi (3)
Fəlsəfi propedevtika –	yaxşı (4)
Qanunşünaslıq –	kafi (3).[3]

Onun müəllimləri içərisində yeganə müsəlman, şəriət müəllimi Hacı Mirzə Səlim Axundzadədir. Xatırladaq ki, görkəmli şair Mirzə İsmayıl Qasirin oğlu olan Hacı Mirzə Səlim (1872-1930) sonralar Zaqafqaziya Seyminin və Azərbaycan Cümhuriyyəti Parlamanının üzvü olmuş görkəmli müsavatçı və istiqlalçı siyasi xadimlərimizdən biridir.

Mirismayıl 10 may 1917-ci ildə Bakıda 3 gün keçirilmiş Qafqaz müsəlman şagirdlərinin I qurultayına nümayəndə kimi qatılıb.[4] Buradan görünür ki, o, məktəbin seçilən fəallarından biri imiş. Bunu kitabında yazdığı bu cümlələr də təsdiqləyir: Lənkəranda günün birində o, bir neçə yoldaşı ilə birlikdə çar rejiminə qarşı gizli bir təşkilt qurdu... Özü təşkilat başçısı, sinif yoldaşı Dadaş Həsənzadə[5] başçının müavini və başqa bir məktəbin şagirdi olan Əli Məmmədov katib seçildilər.[6]

Lənkəranda gimnaziyanı bitirən Mirismayıl Gəncəyə dönüb. Həmin il Kiyevə gedərək Politexnik İnstituta daxil olub. Burada onun yoldaşlarından biri həmyerlisi və uşaqlıq dostu Abdulla Rəhimli olub.[7]

[1] ARDA, fond 51, siyahı 3, iş 126, vərəq 12.
[2] *Saryal İ.* Bakü rüzgarı, s. 9.
[3] ARDA, fond 51, siyahı 3, iş 126, vv. 8-8a.
[4] *Saryal İ.* Bakü rüzgarı, s. 10.
[5] Dadaş Həsənzadə Qazan türklərindən olan görkəmli ilahiyyatçı Musa Carullah Bigi(yev) ilə birgə Məhəmmədəmin Rəsulzadəni Peterburqdan Finlandiyaya qaçırmışdı. O, Mirzəbala Məhəmmədzadədən sonra gizli Müsavat təşkilatına rəhbərlik etmişdi. Kommunistlər bunlara görə onu zindanda vəhşicəsinə öldürdülər.
[6] *Saryal İ.* Bakü rüzgarısmail, s. 9.
[7] Yenə orada, ss. 10-11.

* * *

Xarkov Vilayəti Dövlət Arxivində araşdırdığımız Xarkov Texnologiya İnstitutunun sənədləri arasında Mirismayıl Seyidzadənin 1917-ci ilin iyununda təqdim etdiyi sənədlərlə tanış olduq. Burada oxuduğunu təsdiqləyəcək bəlgələrin yoxluğu, eləcə də qəbul üçün yazdığı ərizədən və fotoşəkildən başqa yerdə qalan sənədlərinin yalnız surətdən ibarət olması göstərir ki, M.Seyidzadə bu məktəbdə oxumaq məqsədilə sənədlərini öncə Xarkova göndərib, ancaq sonradan fikrini dəyişərək həmin sənədləri Texnologiya İnstitutundan götürüb, Kiyev Politexnik İnstitutuna verib və orada oxuyub. Xarkov sənədləri içərisində yalnız ərizəsini önəmli saymaq olar. Lənkəran kişi gimnaziyasının səkkizsiniflik tam kursunu bitirmiş Mirismayıl Seyidzadə Xarkov Texnologiya İnstitutunun direktoruna 2 iyun 1917-ci ildə yazdığı ərizə ilə həmin institutun mexanika bölməsinin tələbələri sırasına qəbul edilməsini xahiş edib. Ərizədə ünvanı belədir: Gəncə, Yelizaveta küçəsi, Qara bəy Babayevin mağazası, Mirismayıl Seyidzadə üçün.[1]

O, Kiyev İmperator II Aleksandr Politexnik İnstitutunda oxumağa başlayandan bir ay sonra atası ölüb.[2]

Mirismayılın tələbə yoldaşları arasında Xəlil Müslümov və sonralar maarif komissarı olmuş Mustafa Quluyev də vardı.[3]

Bu dönəmdə artıq Kiyevdə ictimai-siyasi vəziyyət dözülməz dərəcədə gərginləşdiyinə görə Kiyevdə oxuyan 5 gəncəli tələbə Gəncəyə qayıdıb, ancaq onlar bu şəhərdə ermənilərlə müsəlmanlar arasında gedən savaşın alovları içərisinə düşüblər. Durum həddən artıq gərgin olduğuna görə və rus kazakları da ermənilərə qoşularaq müsəlmanlarla vuruşduğuna görə onların şəhərə gəlməsi çox böyük çətinliklərlə üzləşib. Bir yəhudi ailəsi onları gizlədib. Onlar Gəncəyə Milli Komitənin rəhbəri Nəsib bəy Yusifbəyliyə zəng edəndən, o da "Yaşıl qvardiya" adlı hərbi birliyi yardıma göndərdikdən sonra Gəncəyə çata biliblər.[4]

Həmin günlərdə Gəncə Milli Komitəsində bir çox tələbələr maaşsız çalışıb. Mirismayıl da onlardan biri olub və "Yaşı qvardiya"ya keçib.[5] Bu, artıq 1918-ci ilin mayından sonrakı dönəmdi.

* * *

"Milli Komitə və xalq Nuru paşanı dörd gözlə gözləyirdi.

Oğuz[6] Nəsib bəygildə olduğu zaman qapının zəngi çalındı. Qapıya gedən rus xidmətçi qız döndüyü zaman Nəsib bəyə: "Bəyəfəndi, Sizi istəyirlər", – dedi. Qapıya gedən Nəsib bəy qarşısında kəndli geyimli iki nəfəri gördü.

"Nuru Paşa adamlarıyla gəlib, aşağıda sizi gözləyir" dedilər. Nəsib bəy çaşıb qaldı, nə etmək lazım olduğunu kəsdirə bilmədi, ancaq "buyursunlar yuxarı" deyə bildi. Otağa döndüyündə yoldaşına "Nuru paşa gəlib. Paşa ac gəlmiş olacaq, mən onunla görüşürkən sən yemək otağında iki nəfərlik yemək masası hazırla", – dedi.

Paşanı Nəsib bəy pilləkən başında qarşıladı: "Məmləkətimizə xoş gəldiniz, paşam. Xəbərsiz gəlməniz məni üzdü. Sizi lazım olduğu şəkildə qarşılaya bilmədik". Bunları Nəsib bəy gözəl bildiyi İstanbul ləhcəsi ilə demişdi.

[1] XVDA, fond 1682, siyahı 4, iş 3433, vərəq 1.
[2] *Saryal İ.* Bakü rüzgarı, s. 13.
[3] Yenə orada, s. 16.
[4] Yenə orada, ss. 22-37.
[5] Yenə orada, s. 40.
[6] "Oğuz" müəllif İsmayıl Saryalın (Mirismayıl Seyidzadənin) özünə götürdüyü şərti addır.



Mirismayıl Seyidzadə yoldaşı Leyla (Helena) xanım, bacısı və bacısı uşaqları ilə. Gəncə

Oğuz qaçaraq salon qapısını açdı və qonaq içəri alındı. Uzun boylu, yaraşıqlı, uzun bığlı, orta yaşda bir kişi idi. Geyimi, hərəkətləri və özəlliklə kəndli ləhcəsi ilə danışması Nəsib bəyi şübhələndirdi. Ondan bunu soruşdu: "Dostum, Azərbaycanın harasındansan?".


Adam tələşə düşdü. Suala daha cavab verməndən cibindən kiçik bir Quran çıxarıb masanın üstünə qoydu: "Bu Qurana əl basaraq kimsəyə söyləməyəcəyinə and içsən sənə kim olduğumu açıqlayaram".

Mövzu aydınlığa qovuşmuşdu. Ev camaatı da xəbərsizdi. "Paşa"nın şərəfinə evin xanımı öz əli ilə masa hazırlamışdı. Ənvər paşanın qardaşı Nuru paşanı görmək üçün hər kəs tələsirdi.

Nəsib bəy salondan çıxdı və birbaşa balkona getdi. Evin önündə çoxu süvarilər olan qələbəliyə səsləndi: "Hörmətli həmyerlilərim, gələn adam gerçək Nuru paşa deyil. Bir kəndlimizdir". Qələbəlik içində bir neçə "Yaşıl qvardiya" əsgərini görüncə əlavə etdi: "Əsgər yoldaşlar, yuxarı gəlin və yalançı paşanı Milli Komitəyə götürün və növbətçi yoldaşlara təslim edin".

Kəndlərdən keçərkən yalançı paşaya aldanan xalq ona xalı kimi dəyərli ərməğanlar vermişdi. Yalançı paşanın tərifi bütün Gəncəyə yayıldı. Onun kim olduğunu hər kəs öyrəndi. İran sərhədinə yaxın bir kənddə otururmuş, adı da Mürtəza imiş. Bir gün Mürtəzanın əlinə bir jurnal keçib, içində Nuru paşanın rəsmi varmış. Görüb ki, Nuru paşaya bənzəyir. Özünə Nuru paşa bəzəyi verərək minib atına, düşüb yola. Görünüşünə inanan kəndçi gənclər onu qorumaq üçün atlarına minib ardınca düşüblər.

Mürtəzanın tərifi hələ uzun zaman ağızdan-ağıza dolaşıb durdu. Hər kəs onu görmək həvəsinə düşdü. Saxlanıldığı həbsxana insan qələbəliyi ilə dolub-daşdı.



İsmayıl Saryal yoldaşı Leyla xanımla. Ankara

Ziyarətçilərdən alınan 5 qəpiklik pul zindan baxıcıları üçün müvəqqəti və sevindirici gəlir qaynağı oldu.[1]

Ən nəhayət, Nuru paşa və dəstəsi İrandan keçərək sevinclə və alqışlarla qarşılandı. (Nuru paşanın gəlişindən sonra Gəncədəki Erməni Komitəsi özünü buraxıb)".[2]

"Azərbaycanın sərhədlərini müəyyənləşdirmək gələn Türk zabitlərinin ilk işi oldu. Məmləkətin hər bucağından yurdu yaxşı tanıyan ağsaqqallar Gəncəyə çağırıldılar. Rəngli qələmlərlə Azərbaycan xalqının oturduğu yerlər nöqtə-nöqtə işarələndi. Azərbaycanın gerçək xəritəsi ortaya çıxdı. İndi sıra paytaxt Bakının özlərini bolşevik elan edən ermənilərdən təmizlənməsinə gəlmişdi".[3]


* * *

Bu hadisələrdən bir az sonra M.Seyidzadə təhsilini davam etdirmək üçün yenidən Kiyevə dönüb, ancaq bu zaman bolşeviklər bütün gəncləri əsgərliyə çağırdığına görə o və yoldaşları uzun müddət gizlənməli olublar. Bir müddət sonra Kiyevdə Petlyura hakimiyyəti qurulub və onlar Ukrayna milli bayraqları qaldırıblar.[4]

M.Seyidzadə Kiyevdə Azərbaycan Parlamanının Avropaya təlabə göndərmə qərarı çıxardığını eşidib və özü də həmin təlabələrə qatılmağa qərar verib. Buradan o, gərəkli sənədləri əldə edərək "bolşevizm ilə heç əlaqəsi olmadığına dair ayrıca bir bəlgə alır".[5]

Kiyev Politexnik İnstitutu elektrotexnika fakültəsi şurasının sədri 18 avqust 1919-cu ildə verdiyi 412 saylı vəsiqədə elektrotexnika fakültəsinin 1918-ci il qəbullu tələbəsi

[1] *Saryal İ.* Bakü rüzgarı, s. 45.
[2] Yenə orada, ss. 44-46.
[3] Yenə orada, ss. 46-47.
[4] Yenə orada, s. 60.
[5] Yenə orada, s. 69.



İsmayıl Saryalın "Bakı rüzgarı" kitabının cildi

M.Seyidzadənin zaçot verdiyi fənləri sadalayıb.[1] Ticarət və Sənaye Nazirliyinə tabe olan Kiyev Politexnik İnstitutunun rektoru 4 sentyabr 1919-cu ildə Mirismayıl Seyidzadəyə verdiyi 5066 saylı vəsiqədə onun sənədlərinin (adbaad göstərib) əslinin institut dəftərxanasında olduğunu təsdiqləyib.[2]

Tələbə M.Seyidzadə 5 oktyabr 1919-cu ildə AC maarif nazirinə belə bir ərizə yazıb:

"Məni elektrotexnik tələbələrin sırasına salmağınızı acizanə xahiş edirəm, çünki artıq Kiyev Politexnikumunda həmin fakültənin tələbəsiyəm. Bunun təsdiqi olaraq zaçotlarım haqqında vərəq də təqdim etmişəm... Fakültələri dəyişmək üçün mən özümə yoldaş Ağalar İsgəndərlini tapmışam; o, iki şahidin yanında (tələbə Rəhimzadə və tələbə Qasımov) dəyişilməyə könüllü razılığı haqqında dilkağızı verib; onu mən bu ərizəyə əlavə edirəm. [...] Təhsilimi Sürixdə almağı arzulayıram".[3]

Ərizədə adı keçən Ağalar İsgəndərli gerçəkdən 2 oktyabr 1919-cu ildə Bakıda belə bir dilkağızı yazaraq qol çəkib: "Mən, Ağalar İsgəndərli öz istəyimlə Seyidzadə Mirismayılla fakültəmi dəyişirəm (elektrotexnikanı kimya fakültəsinə)".[4]

16 oktyabr 1919-cu ildə Seyidzadə Bakı Şəhəri Müsəlman Tələbələri Komitəsinə yazdığı ərizədə də təhsilmi davam etdirməkdən ötrü dövlət hesabına xaricə göndərilən tələbələr sırasına salınmasını xahiş edib. Əlavə edib ki, valideynlərim yoxdur və təhsil almağıma dəstək verəcək qohumlardan da məhrumam; xahişim rədd edilərsə həmişəlik ali təhsil ala bilməyəcəyəm. Təhsilini davam etdirmək üçün o, Parisi və yenə Elektrotexnika İnstitutunu seçib.

Bu ərizənin gec verilməsinin səbəbini beləaydımaşdırıb ki, mən yalnız dünən – 15 oktyabrda Kiyevdən gəlmişəm; Kiyevdə Azərbaycan hökumətinin niyyətini öyrənən kimi Bakıya tələsdim ki, xaricə göndəriləcək yoldaşlar sırasına düşə bilim.[5]

Ərizənin üstündə dərkənar qoyulub: "Komitədə [Səməndər] Axundova təqdim etməli. XMN komissiyasına məruzə etməyi xahiş edirəm. Sədr (Məhəmmədqulu Hacınskinin imzası). 16/X-[19]19."

M.Seyidzadənin sənədləri arasında önəmli bir bəlgə də var. Üzərində Cümhuriyyətin iki önəmli şəxsi qol çəkib. Parlaman üzvü həkim *Musa bəy Rəfiyev* 18 oktyabr 1919-cu ildə tələbə M.Seyidzadənin, valideynlərini itirdiyini və ali təhsilini davam etdirməyə heç bir imkanı olmadığını qeyd edib. Parlaman sədri *Həsən bəy Ağayev* isə 19 oktyabrda "Seyidzadənin hədsiz kasıblığını təsdiq edirəm" yazaraq qol çəkib.[6]

Bu bəlgəyə əsasən, Mirismayılın xaricə göndərilməsinə onun ata-babasını Gəncədən yaxşı tanıyan Musa bəylə Həsən bəyin yardım etdiklərini düşünmək mümkündür.

Tələbə Dadaş Həsənov (Həsənzadə) 1919-cu ilin noyabrında yoldaşı Mirismayıl Seyidzadənin kamal attestatını, doğum şəhadətnaməsini təqdim edərək maarif nazirindən xahiş edib ki, bunlar M.Seyidzadənin ərizəsinə əlavə edilsin.[7]

[1] ARDA, fond 51, siyahı 3, iş 126, vərəq 2.
[2] Yenə orada, vərəq 3.
[3] Yenə orada, vv. 5-5a.
[4] Yenə orada, vərəq 6.
[5] Yenə orada, vv. 1-1a.
[6] Yenə orada, vərəq 4.
[7] ARDA, fond 51, siyahı 3, iş 126, vərəq 7.

M.Seyidzadə hökumətin göstərəcəyi yerdə dörd il işləyəcəyi[1] və oxuduğu dövlətdə heç bir siyasi və partiya işinə qarışmayacağı haqqında 29 dekabr 1919-cu ildə dilkağızları verib.[2]

Mirismayıl Seyidzadəyə dövlət hesabına xaricə ali təhsil almağa göndərilməsi haqqında 13 yanvar 1920-ci ildə 502 saylı vəsiqə verilib.[3]

O, Berlində *Charlottenburg Technische Hochschule* (Şarlottenburq Texniki Universitetini) bitirərək (1924) yüksək elektrik mühəndisi diplomu alıb.



İsmayıl Saryal

* * *

1924-cü ildə Berlindən qayıdan məzun Moskvada bir neçə gün qalmalı olub. Onu vağzalda həmyerlisi, filosof Cahangir Nağıyev qarşılayıb və guya şəxsi marağı ilə, ancaq əslində "ÇK"-nın göstərişi ilə sorğu-suala tutub. "Bakı rüzgarı" kitabında özünü "Oğuz" adlandıran Seyidzadə bu sorğu-sualı əsərdə genişliklə təsvir edib.[4] Əslində bu, ədəbi bir üsuldur və müəllif Almaniyada oxuyan tələbələrin yaşam və düşüncələrini C.Nağıyevə anlatmaq adı ilə geniş izah edib. Həmin söhbətdən bəzi seçmələri veririk:

1919-cu ildə "Bakıya son saniyədə gəldim və tələbə siyahısına düşməyi bacardım. Tələbə Komitəsi adı altında bir təşkilat qurduq və səfər hazırlıqlarına başladıq. Mən də üzv seçilmişdim, yoldaşlardan Teymur Aslanov sədr seçildi. Bəzi fabrikant və dövlətli adamlar tələbələrə paylamaq üçün komitəyə ərməğanlar yağdırdılar. Böyüklərimizin bizə önəm verdiyi və umud bağladığı anlaşılırdı. Nə yazıq ki, böyük umud bəslənən bu tələbələrin yaşamı sonunda pərişan hala düşdü. "İş başına gələn sosialist hökumət onları qanadı altına aldı" deyirsən. Yardım ancaq bir il yarımdan bəri edilməkdədir və yetərli deyil. Tələbələr yarıac durumdadır".[5]

Təqaüdçülər Avropaya yola salınarkən "vağzalda Məhəmmədəmin Rəsulzadə bəy bizlərə çay ziyafəti verdi. Etdiyi qısa nitqində "Sizlərə yaxşı yol diləyirəm, gülə-gülə gedin, ancaq gələrkən yabançı gəlin gətirməyin", - dedi. Batuma hərəkət etdik. İtalyan və fransız vizalarının alınması isə İstanbula saxlanılmışdı. Batuma gəldiyimizdə bir italyan paroxodu yola düşmək üzərə idi. Hamımız bir arada 86 tələbə bu paroxoda mindik, o saat da İstanbula yola düşdük".[6]

"İstanbulda üç gün qaldıq. Günlər hamısı nəşə içində keçdi. Buraya bir cümə günü gəlmişdik. Şənbə və bazar günləri konsulluqlar bağlı olduğundan italyan və fransız vizalarının alınması işini paroxod yola düşən günə saxladıq".[7]

[1] ARDA, fond 51, siyahı 3, iş 126, vərəq 9.
[2] Yenə orada, vərəq 10.
[3] Yenə orada, vərəq 11.
[4] *Saryal İ.* Bakü rüzgarı, ss. 91-107.
[5] Yenə orada, ss. 96-97.
[6] Yenə orada, s. 97.
[7] *Saryal İ.* Bakü rüzgarı, s. 100.



İsmayıl Saryal oğlu Nurinin toyunda yoldaşı Leyla xanımla

"Torantoya[1] çatmışdıq. Paroxoddan düşəndə basabas yaradaraq pasportsuz yoldaşları[2] nəzarət məmurları önündən rahatca keçirdik".[3]

"Roma yolçuluğu rahat keçdi... İtaliyada təhsil alacaq 12 yoldaş bizimlə vidalaşdı və öncədən seçdikləri universitetlərə hərəkət etdilər.[4] Biz Romada daha iki gün qaldıq və görməli yerləri gəzdik. Daha sonra Fransa yolçuluğuna başladıq".[5]

"Parisə qədər səfərimiz hadisəsiz keçdi. Paris vağzalında bizi Birləşmiş Millətlər qurumunda çalışan Missiyamızın iki üzvü qarşıladı.[6] Qısa nitq söyləyib bizə "xoş gəldiniz" dedilər...Yoldaşımız Teymur da onlara cavab olaraq bir nitq söylədi".[7]

"Tələbələrdən 31 nəfər Fransada qalmaq istədi. Müxtəlif universitetlərə girdilər və təhsilə başladılar. Yerdə qalanlar, mən daxil 40 tələbə israrla Almaniyaya getmək və təhsilimizi orada tamamlamaq istəyirdik, halbuki müttəfiqlər indi yenilmiş olan Almaniyaya getməyimizə icazə vermirdi. Missiyamızın çözüm üçün etdiyi təşəbbüslər də bir nəticə verməmişdi. Parisə gəldiyimizin bir ayı tamam olmuşdu. Biz icazə alınacağına hələ umud edirdik və nəşəmiz yerində idi. Dostlar da tapmışdıq və fransızcamızı olduqca irəlilətdik. Hər gün bir gəzintiyə, hər axşam bir əyləncəyə gedirdik... [Müttəfiqlər] Fransada, İngiltərədə və ya Belçikada təhsil almağımızı istəyirdilər. Almaniya ilə gedən son savaşın acısı hələ unudulmamışdı. Pasportsuz gələn 6 yoldaş Missiyamızdan pasport yerinə keçərli sənəd aldı. Onlar da Almaniyaya getmək istəyən qrupa daxil idilər.

[1] "Trento" oxunmalıdır.
[2] 6 nəfərin pasportu tələsiklikdə unudularaq İstanbulda qalıbmış.
[3] *Saryal İ.* Bakü rüzgarı Yenə orada, s. 101.
[4] Romada İtaliyada oxumaq istəyən 6, Almaniyada oxumaq istəyən 17 tələbədən (cəmi 23 nəfər) qalıb.
[5] *Saryal İ.* Bakü rüzgarı, s. 103.
[6] Söhbət Abbas bəy Atamalıbəyov və Məhəmməd Məhərrəmovdan gedir.
[7] *Saryal İ.* Bakü rüzgarı, s. 104.



Orta Doğu Texnik Universitetinin (Ankara) rektoru, prof. Nuri Saryal *(soldan 3-cü)* və universitetin elmi işlər üzrə prorektoru Orxan bəy *(soldan 4-cü)* Şəki Xan sarayında *(sağdan 3-cü* Şəki Regional Elm Mərkəzinin direktoru, prof. Zəkəriyyə Əizadədir). İyun, 1979

Bir gün üç yoldaş gəzintiyə çıxmışdıq. Aramızda rusca danışırdıq. Yanımıza orta yaşlı bir adam gəldi və bizim rus olub-olmadığımızı soruşdu. Özü də yaxşı rusca danışırdı. Türk olduğumuzu öyrənincə bizimlə türkcə danışmağa başladı. Adam musəvi[1] imiş, 9 dildə danışırmış. Almaniyaya getməyimizə müttəfiqlərin icazə vermədiyini öyrənincə ucadan güldü və bunun çox asan olduğunu söylədi. İsveçrədə təhsil alacağımızı bildirərək oraya getməyimizi və oradan Almaniyaya keçməmizi öyüdlədi. Bu çözüm Missiya üzvlərinin də ağlına batdı və biz yol hazırlıqlarına başladıq.

Missiya başqanı Topçubaşı lüks otellərdən birində nahar ziyafəti verdi. Ertəsi gün Rusiyadakı qarışıq durumu nəzərə alaraq bizlərə yenidən altı aylıq avans pul verdirdi. Beləcə, Parisdən hərəkət etdiyimiz zaman 2 ilə yaxın bir zaman üçün dolanışıq pulumuz vardı.

Bir aylıq şirin həyat sürdüyümüz Parisdən ayrıldıq və İsveçrənin böyük şəhərlərindən biri olan Bazelə hərəkət etdik. Başlanğıcda olduğu qədər qələbəlik deyildik, az-çox Avropa dillərinə aşina olmağa başlamışdıq. Asanca otellərdə yerləşdik və həmən giriş vizası üçün Almaniya konsulluğuna müraciət etdik. Göndərilən teleqrama ancaq 10 gün sonra müsbət cavab gəldi. Biz də on günlük vaxtımızı boş keçirmədik. Gözəl məmləkətin gəziləcək yerlərini gəzdik və bol-bol təmiz havasını udduq".[2]

"Böyük qrup toplu halda Berlinin Anhalter Bahnhoffunda qatardan düşəndə vağzalı tənha gördü. Sanki kiçik bir qəsəbə stansiyasına gəlmişdilər. Gəldikləri qatardan kimsə düşməmişdi. Çox keçmədən bunun səbəbini vağzal işçilərindən öyrənə bildilər.

Kapp adında yüksək rütbəli bir alman zabiti hökuməti devirərək idarəni əlinə keçirmiş, buna qarşı çıxan işçilər tətilə başlamışdılar. Şəhər elektriksiz, qazsız, susuz

[1] Yəhudi.
[2] *Saryal İ.* Bakü rüzgarı, ss. 105-106.



Yeni ailə quran Nuri Saryal və gəlini Nərimən xanım əzizləriylə. *Soldan 4-cü* Məhəmmədəmin Rəsulzadənin həyat yoldaşı, bu ailənin ən yaxın adamlarından biri Leyla xanım

qalmış və xalq qida tapmaqda zor duruma düşmüş, hər an bir hadisənin çıxmasından qorxaraq küçəyə çıxmaz olmuş və şəhərlər arasında gediş-gəliş dayanmışdı. Təhlükəli bir zamanda Berlinə gələn tələbələr əşyalarını əmanətə buraxıb ayrı-ayrı kiçik qruplar halında vağzala yaxın səmtlərdə otel axtardılar və tapdıqlarına köçdülər. Oğuz yoldaşlarından şanslı çıxdı. Onun tapdığı "Hospis" adlı bir pansiondu, daha doğrusu, bura yaşlı qadın və kişilər üçün bir dincəlmə evi idi".[1]

"Berlində baş verən inqilab hərəkatı bir gün sona çatdı və Kapp Drezden şəhərinə çəkildi. Yenidən elektrik və qaz yanmağa, sular axmağa başladı. Oğuz da girdiyi ali məktəbə yaxın bir yerə köçdü".[2]

(Az sonra M.Seyidzadə Azərbaycanda bolşeviklərin hakimiyyəti ələ keçirdiyini, buna qarşı çıxan Gəncəni xaraba halına saldıqlarını qəzetlərdən öyrənir və bir neçə gün özünə gələ bilmir, evdən bayıra çıxmır).[3]

"Oğuzun məktəbi bitirməsinə üç semestr qalanda Azərbaycan Sovet Sosialist hökuməti tələbələrə ödənək göndərməyi qəbul etdi, ancaq göndərilən pul yetərsizdi".[4]

* * *

Mirismayıl Berlində alman qızı *Helena Hoffmannla* (09.05.1900- 01.04.1989) evlənib. Helena ticarət liseyini bitirib, Berlində –Şarlottenburqda yaşayıb. Siyasət adamı olmadığına, "nə suya, nə də sabuna qarışmayacağına görə" Azərbaycana dönməyində təhlükə görməyən Seyidzadə Vətənə onunla birgə qayıdıb.[5]

[1] *Saryal İ.* Bakü rüzgarı, ss. 80-81.
[2] Yenə orada, s. 81.
[3] Yenə orada, s. 82.
[4] Yenə orada, s. 85.
[5] Yenə orada, s. 85.

Moskvadan Bakıya qatarla gələrkən vaqonda təsadüfən Baksovetin sədri Paruşinlə tanış olub.[1] Bakıya gələndə isə Kiyevdən tanıdığı tələbə dostu, indi maarif komissarı (naziri) işləyən Mustafa Quluyevin yanına ona iş verməsi xahişi ilə gedir, Mustafa onu çox soyuq qarşılayır və işə düzəltməyi bacarmır.[2]

"Azərbaycanın bütün sənaye obyektlərini, neft də daxil, ruslar əllərində saxlamaqda və idarə etməkdədir. Təhsil işlərinin də pozuq və qarışıq olduğuna özüm şahid oldum. Şəhərlərin idarəsi, Qərbdə olduğu kimi, bələdiyyələrə verilib. Əlindən bu önəmli işlərin hamısı alınmış bir hökumət var".[3]

Bundan sonra Seyidzadə Paruşinin yanına gedir və onun köməyi ilə Bakı bələdiyyəsinə bağlı tramvay idarəsində işə düzəlir.[4] "Heyrət! Adı-sanı böyük Təhsil Nazirliyi, əmrində olan məktəblərə sözünü keçirə bilmir. Halbuki bələdiyyə rəisi "əmrim əmrdir" deyə dediyini yeridir".[5]

Bakıda Seyidzadə məktəb yoldaşı Cəmillə tanış olur. Cəmil yəhudi qızı olan arvadı ilə Amerikaya köçüb gedir və evini bütün ləvazimatı ilə birgə onun adına keçirir.[6]

Artıq özünə iş tapmış Seyidzadə həyat yoldaşı Helenanı da götürərək Gəncəyə ailəsinin yanına gedir. Onları çox mehribanlıqla qarşılayırlar.

Qohumları Seyidzadəyə Gəncə üsyanının necə baş verdiyini anladırlar: "Kommunizmin nə olduğunu yaxşı bilmirdik. Bakı tutulduqdan sonra bolşevik ordusunun Gəncəyə girməsinə səs çıxarmadıq. Ordu özü ilə "ÇK" deyilən bəlalı bir təşkilat da gətirdi. Hər şeyimizi almağa, ziyalı adamlarımızı tutmağa və öldürməyə başladılar.[7]

Bu kimi hərəkətlərin qarşısı alınmaz oldu. Camaatımızın arasına güvənsizlik və qorxu girdi. Bu durum qarşısında qonşumuz ermənilərlə anlaşdıq və günün birində üsyan etdik. Bolşeviklərin əlindən silahlarını almağı bacardıq və "ÇK"-da çalışanları tutuqladıq, həbs etdik. Tiflisə təmsilçilər göndərdik və gürcü dostlarımızdan yardım istədik. Gürcülərdən xəbər alınmadı, ermənilər isə bizə xəyanət etdilər və üzərimizə göndərilən yeni bolşevik ordusuna yardımda bulundular. Göndərilən böyük sayda hərbi hissələrə məğlub olduq. Bu, bir fəlakətdi. Şəhərimiz xaraba qaldı və qadınlara da təcavüz edildi. "ÇK" yenidən qurulub hərəkətə keçdi".[8]

Seyidzadə Bakı-Suraxana elektrik qatarının çəkilməsində mühəndis kimi fəaliyyətə başlayıb. O, eyni zamanda Nərimanov adına Sənaye Texnikumuna və Əzizbəyov adına Politexnik İnstituta[9] ərizə verib və onların hər ikisi Seyidzadəni müəllim kimi qəbul edib, Tramvay İdarəsi də buna etiraz etməyib.[10]

Bakıda Seyidzadənin ailəsini ən çox ziyarət edənlərdən biri uşaqlıq dostu olan həkim Dadaş Həsənzadə idi. O, dünyagörüşlü və milliyyətçi bir insandı. Bir sıra yoldaşlarıyla gizli təşkilat qurub rejimə qarşı çarpışırmış və buna görə də "ÇK" onu tutmuşdu.[11]

[1] *Saryal İ.* Bakü rüzgarı, s. 110.
[2] Yenə orada, ss. 115-119.
[3] Yenə orada, s. 119.
[4] Yenə orada, ss. 120-125.
[5] Yenə orada, s. 125.
[6] Yenə orada, ss. 127-128.
[7] Yenə orada, s. 129.
[8] Yenə orada, s. 130.
[9] Əzizbəyov ad. Politexnik İnstitut sonralar Sənaye İnstitutu, Qırmızıbayraqlı Neft İnstitutu, Neft-Kimya İnstitutu, Neft Akademiyası adlandırıldı.
[10] *Saryal İ.* Bakü rüzgarı, s. 133.
[11] Yenə orada, s. 134.

Dadaş özü subay olub, qoca anası ilə birgə yaşayıb. Ancaq onların evi "ÇK"-nın nəzarəti altında olduğuna görə qohum-qonşu zavallı qadından üz çevirib və ona yardım edən qalmayıb. Seyidzadənin yoldaşı Helena (kitabda adı "Alya"dır) çiyələk tortu hazırlayaraq Dadaşın böyük bacısı ilə birlikdə "ÇK"-ya məhbusun yanına gediblər. Dadaş özünü şən aparmağa çalışsa da ona çox danışmağa icazə verilməyib.[1]

Sonralar bir "ÇK" agenti Seyidzadəyə gizli şəkildə bunları anladıb: "Qızıl ordunun məmləkətimizə girdiyinin ilk günlərində Müsavat Partiyasının, Parlamentin üzvlərindən bir çoxunun yaxalanaraq edam edildiyini bilirsiniz. Bu sırada Müsavat Partiyasının lideri Məhəmmədəmin Rəsulzadə qaçmağa fürsət tapmamışdı. Yoldaş Stalin onu yaxşı tanıyırmış. Onun əmri ilə Rəsulzadə sərbəst buraxılmışdı. Bu, onun təhlükədən qurtulduğu anlamına gəlməzdi. Aradan çox keçmədən onun Finlandiya sərhədindən Qərbi Avropaya qaçdığı öyrənildi. Hadisə yoldaş Stalini cin atına mindirdi və onu qaçıranların yaxalanmasını istədi. Uzun müddət kiçik bir ipucu da tapılmadı. Vlasov adında bir "ÇK" zabitinin təvsiyəsi ilə İstanbula, Varşavaya və İranın Rəşt şəhərinə agentlər göndərildi. Bu şəhərlərin rolu böyükdü. İstanbulda müsavatçılar gərgin çalışmağa başlamışdılar. Varşava Rəsulzadəni dəstəkləyir və ona hər cür yardımda bulunurdu. Rəşt isə Azərbaycanın xarici məmləkətlərlə olan ən yaxın nöqtəsi idi. Rəştə göndərilən Tamara adındakı gözəl rus qızı az müddət içində uğur qazandı. Müsavatçılardan birini tapdı, tanış oldu, sevişdi və onun evinə köçdü. Tək qaldığı bir gün evdə axtarış aparmış və Bakıdakı gizli təşkilatın üzvlərinin siyahısını tapmışdı. Tamara siyahını ləngimədən Bakıya göndərib. Doktor Həsənzadə Dadaşın adı siyahının başında idi. "ÇK" səssizcə təşkilatın çalışmalarını izlədi, hətta toplantı halında fotolarını çəkdi. Əldə edilən bilgilər yetərli gördüyü gündə onları yaxaladı. İndi də onların istintaqı aparılmaqdadır. Tutulanların bəziləri Rəsulzadəni qaçıranın Dadaş olduğunu etiraf etmişdir. Dadaş isə bunu qəbul etməməkdədir".[2]

"ÇK" prokuroru Dadaşdan bir suala cavab almaq istəyirdi. Onun bilmək istədiyi Məhəmmədəmin Rəsulzadəni Finlandiyaya kimin qaçırdığını öyrənmək idi. Dadaş bundan xəbəri olmadığını israrla söyləyib dururdu. Dünən son dəfə eyni sual soruşulduğunda Dadaş masadan böyük mürəkkəbqabını qapdığı kimi adamın üzünə firladıb və sol gözünü partladıb. Arxada duran iki rus əsgəri yaylım atəşi açaraq Dadaşı oradaca öldürmüşlər".[3]

Əzizbəyov adına Politexnik İnstitutda (indiki Neft Akademiyası) Seyidzadənin yaxınlıq etdiyi adamlardan biri də Milli Hökumət üzvlərindən professor Xudadad bəy Məlikaslanov olub. O, dəmiryollarının elektrikləşdirilməsinə aid tələbə diplom işlərinə rəhbərliyi Seyidzadəyə tapşırıb.[4]

Seyidzadə Nərimanov adına Texnikumun direktoru Ağa Axundova texniki bir jurnal çıxarmağı təklif edib və bu təklif bəyənilib. İşi gerçəkləşdirmək üçün 3 komissiya seçilib və Seyidzadə onların ikisinə qatılıb.[5] Azərbaycanın "başçılar"ından Ağamalıoğlu da jurnalın çıxmasına və maliyyələşdirilməsinə razılıq verib,[6] ancaq hakimi-mütləq kommunist partiyasının III katibi işə qarışaraq bunu dayandırıb.[7]

[1] *Saryal İ.* Bakü rüzgarı, s. 135.
[2] Yenə orada, ss. 148-149.
[3] Yenə orada, s. 175.
[4] Yenə orada, s. 139.
[5] Yenə orada, ss. 140-141.
[6] Yenə orada, s. 142.
[7] Yenə orada, s. 143.

Gündən-günə "ÇK"-nın təzyiqini üzərində hiss edən Seyidzadə artıq dözülməz duruma düşüb. Başına gələnləri o, kitabında genişliklə təsvir edib.


Professor Nuri Saryal

"Bakı rüzgarı" kitabında o dönəmin Azərbaycan rəhbərləri haqqında da maraqlı fikirlər var. Onların oxuculara da maraqlı olacağını düşünürük:

"Dadaş Bünyadzadə çar və milli Azərbaycan hakimiyyətləri zamanında küçələri dolaşaraq kürəyində daşıdığı dolu tənəkələrlə qaz yağı satardı. Bir az oxuyub-yazmağı vardı. Bolşeviklər gəlincə gizli çalışmalarını dəyərləndirərək onu ziraət[1] naziri kürsüsünə oturtdular. Dadaş səssizdi və yaxşı ürəkli bir insandı. Onu hər kəs sevərdi... Nazir masasına gələn ərizələri bəyənməsi və ya rədd etməsi öyrədildi. O da göstərilən şəkildə hərəkət edərək nazirlik işlərini gül kimi yürütməyə başlamışdı. Günün birində nazirlik anbarından özünə də bir dəri gödəkçə almaq istəyən Dadaş nazirliyə müraciətlə bir cüt ayaqqabıyla bir ədəd gödəkçə istəyib, ərizəsi onun qabağına gəlincə, rəyini bu şəkildə verib: "Ayaqqabı rədd edilsin, dəri gödəkçə isə verilsin".[2] Nazirin yoldaşı Əliəkbərin bir vəzifəsi yoxdu. Hər iki əlində də altı barmağının olması diqqəti çəkirdi. Hər halda onun gizli bir vəzifəsi vardı, ancaq bunu kimsə bilmirdi. Nazirin sağ gözü kor olduğundan Əliəkbər hər zaman onun sol tərəfində yeriyirdi. Bu iki yoldaşa "Təkgözlü", "Altıbarmaqlı" ləqəbləri verilmişdi. Hər ikisi də görüşdükləri ailələrin ənənələrinə və onların qurduğu düzənə tamam uyğunlaşırdı. Yalnız ağızlarını şappıldadaraq yemək yeməkləri və süfrə dəsmalı ilə boyun və üz tərlərini silmələri xoşa getmirdi.[3]

Bir gün mühəndis Ağaların yoldaşı Qəmər xanımın doğum günü idi. Bir çox qonaq arasında Dadaş və Əliəkbərdən başqa, guya Oğuzu tanımayan maarif naziri Mustafa Quluyev yoldaşı və katibəsi olan bir gənc qızla dəvət yerinə gəlmişdilər. Yeməklər yeyilmiş, içkilər içilmiş, nitqlər söylənilmiş və sonda özəl çalğıçıların caz gurultuları altında rəqslərə başlanmışdı. Mustafa həddən çox içdiyi üçün onun-bunun arvadına ilişirdi. Qonaqlar da ali təhsil görmüş nazirə sayğı göstərərək hadisəni böyütmək istəmirdilər. Rəqs edəcək durumu olmadığı halda arvadı bildiyi rus qızıyla rəqs edərkən bir ara öpmək istədi və onunla birlikdə yerə yıxıldı. Hadisə yerinə qaçaraq gələn yoldaşı onun sevgilisini şilləməyə başladı. Qadını ayırmaq istədilər, ancaq onun hirsi soyumamışdı və qışqırırdı: "Keçi saqqalı buraxaraq özünü partiya öndərlərinə bənzətmək istəyir, ancaq hərəkətləri utandırıcıdır".

Ortalıq qarışdı, gecənin dadı qaçdı".[4]

M.Seyidzadənin Gəncədən iki dostu olub: *İbrahim İsmayılzadə* və *Əlirza Atayev*. Sonralar İ.İsmayılzadə Cümhuriyyət Parlamanının üzvü oldu. Sosialist olduğuna görə sovet hakimiyyəti bir müddət ona dəymədi. O, Ə.Atayevlə birlikdə Moskvada, sonra isə Almaniyada təhsilini davam etdirdi. Günlərin bir günü İ.İsmayılzadə Seyidzadənin yanına

[1] Əkinçilik.
[2] Dadaş Bünyadzadə öncə maarif komissarı (naziri) olmuşdu və bu əhvalat o zaman baş vermişdi.
[3] *Saryal İ.* Bakü rüzgarı, ss. 162-163.
[4] Yenə orada, s. 164.

gələrək deyir: "Səni təmkinli, ölçülü danışan bir yoldaş olaraq tanıyıram. Texnikumda son kurs dərsi verərkən millətçilik təbliğatı apardığın və rejimə qarşı danışdığın söylənməkdədir. Bunun gerçək olduğuna inanmıram, ancaq haqqında həbs qərarı alınmaq üzrədir. Səni qorxutmuş olmayım, bunu səndən gizləməkdə bir fayda görmədim. Daha qəti qərar alınmadan bunu önləmək üçün bəlkə bir çözüm yolu tapılır. Hər halda partiyalı dostların var. Sənə yardımları dəyə bilər. Diqqətli ol, səni qısqananlar və ilişdirmək istəyənlər var".[1]

M.Seyidzadə Nərimanov Texnikumu direktorunun müavini *Cəfər Kazımzadənin* yanına gedir.[2] Cəfər onunla birlikdə Almaniyada – Frayberqdə mədənçilik məktəbini bitirmişdi. Partiyada önəmli yer tutan böyük qardaşı[3] ona direktor müdirliyi vəzifəsini verdirmişdi. "Cəfər də partiyaya yazılmışdı, ancaq onun içdən kommunist olduğuna kimsə inanmazdı. Yaxşılığı və dürüstlüyü ilə ad qazanmışdı".[4]

C.Kazımzadə onu texnikumdakı "ÇK" agentinin yanına aparır və ona deyir ki, bu, "mənim məktəbimdə ən etibarlı müəllimimdir. Onun məktəbdən çıxarılmasının xətalı olacağını sizlərə açıq dillə bildirdim. Haradansa haqqında deyilən danışıqları öyrənib və yanıma gələrək yardım istəyib. Sizi xəbərdar etməyə gəldim. Çıxaracağınız xətalı qərar məktəbimizi çətin duruma sala bilir".[5] Bu xəbərdarlığa baxmayaraq Seyidzadəyə "milliyyətçi" damğası vurularaq işdən atılır. Artıq Bakıda yaşamağın mümkün olmadığını görən Seyidzadə Azərbaycandan qaçmaq qərarına gəlir.[6]

Onun ailəsinin oturduğu hökumət binası bir müddət öncə Tramvay İdarəsindən alınaraq başqa təşkilata verilib. Arxa binalardan birinə yeni evlənmiş mühəndis *İsgəndər Rzazadə*[7] köçüb. Evi kiçik və qaranlıq olduğundan İsgəndər sıxıntı içində yaşayıb. Bundan xəbər tutan Seyidzadə səfərə çıxmazdan öncə onunla görüşüb və Leninqrada köçəcəyini söyləyərək mənzilini ona təklif edib, ancaq bir şərt irəli sürüb – İsgəndər onun mükəmməl mebelini anlaşacaqları qiymətə satın alacaq, pulu qabaqcadan ödəyəcək. Seyidzadənin gedəcəyi həftə içində mənzillər dəyişdiriləcək, ancaq mebel Leylanın gedəcəyi gün təslim ediləcəkdi. İsgəndər bu təklifə sevinib.[8]

1929-cu ilin payızında təxminən 10 nəfər adam birləşərək gizlicə (ayrı-ayrı dəstələrlə) Güney Azərbaycana qaçır, oradan da Türkiyəyə keçir. Nurəddin Xəzər həmin şəxslərdən bir neçəsinin adını müəyyənləşdirib: *İsmayıl bəy (Saryal), Yusif Əli bəy, Emin Əfəndizadə, Hüseyn Şeyxi (Argüdər), Əşrəf Dəmircan, Əli Kovancı* və *Məhəmməd Bürc*.[9] Qeyd edək ki, Yusifəli Əlizadə (Əliyev) Cümhuriyyət dönəmində ticarət nazirinin müavini olub, E.Əfəndizadə və H.Şeyxi (Şıxıyev) isə Seyidzadənin Almaniyadan tələbə yoldaşlarıdır.

Seyidzadənin (İsmayıl Saryalın) "Bakı rüzgarı" kitabında bu qaçış incəliyinədək təsvir olunub.

Bir müddət sonra onun həyat yoldaşı Leyla xanım yenicə anadan olmuş oğlu Nuri ilə birgə dəniz yolu ilə Rəştə, oradan isə Tehrana gələrək ərinə qovuşub.

[1] *Saryal İ.* Bakü rüzgarı, s. 185.
[2] Yenə orada, s. 185.
[3] Ağahüseyn Kazımov (1892-1937) Azərbaycanın səhiyyə komissarı (naziri) və b. mühüm vəzifələrdə çalışıb.
[4] *Saryal İ.* Bakü rüzgarı, s. 190.
[5] Yenə orada, s. 186.
[6] Yenə orada, s. 190.
[7] Cümhuriyyət tələbələrindəndir.
[8] *Saryal İ.* Bakü rüzgarı, s. 277.
[9] *Hazar N.* "Bakü rüzgarı", s. 23.

Nurəddin Xəzər bəy yazır ki, 1929-cu il avqustun sonuna doğru Seyidzadə və ailəsi Bakıdakı Balaxana[1] küçəsindəki evlərinə köçüb. O zaman Almaniyada İran hesabına təhsil alan qardaşı Davud bəy (Seyidzadə) də İrana keçmək üçün Bakıya gəlib və böyük qardaşının evində qalıb. Nuri Saryalın doğulacağı 1 sentyabrdan 2 sentyabra keçən gecə onunla birlikdə kinoya getmişdik. İsmayıl bəy qurudan İrana keçdikdən sonra qardaşı arvadı Leyla xanımı qucağındakı yeni doğulmuş uşaqla birgə Davud bəy vapurla İrana keçirmişdi.[2]

Səkkiz ay Tehranda qaldıqdan sonra ailə Tehranda Türk konsulluğundan Türkiyə pasportları alaraq 5 avqust 1930-cu ildə Türkiyə sərhədini keçib.

* * *

Ankara Elektrik və Havaqazı İşlətmə müəssisəsi baş mühəndisi İsmayıl Saryal 14.01.1943-cü ildə belə bir ərizə yazıb:

"Maarif Vəkaləti yüksək məqamına.

Ankara.

Məzmunu: Təhsil dərəcəmin təsbiti haqqında.

Berlin-Şarlottenburq yüksək mühəndis məktəbindən aldığım 25.11.1924 tarixli diplomun surət və tərcüməsini əlavə olaraq təqdim edir, barem qanununa görə təhsil dərəcəmin təsbitini diləyirəm.

Sayğılarımla, Mir-İsmayıl Saryal (Sait-zade)".[3]

Maarif Vəkaləti 30 mart 1943-cü ildə Ankara Elektrik və Havaqazı İşlətmə müəssisəsi baş mühəndisi İsmayıl Saryala belə bir məktub göndərib:

"14.01.1943 tarixli ərizənizə cavabdır:

Berlin Yüksək Texniki Məktəbindən almış olduğunuz 25.11.1924 tarixli "Yüksək makina mühəndisliyi" diplomuna görə ali təhsil görmüş sayılırsınız. Bəlgələriniz bu yazı ilə birlikdə geri göndərilmişdir".[4]

Ankarada Elektrik və Havaqazı fabrikində işə girən İsmayıl Saryal 1961-ci ildə bu müəssisədən baş mühəndis olaraq təqaüdə çıxıb

* * *

İsmayıl Saryal Türkiyədə də Azərbaycan təəssübkeşi kimi tanınıb. 9 sentyabr 1948-ci ildə Azərbaycan Kültür Dərnəyi (AKD) yaradılarkən onun qurucuları arasındakı ilk şəxs yüksək mühəndis İsmayıl Saryal olub. Bu haqda AKD-nin saytından bilgi almaq olur.

"Mücahid" dərgisində[5] Vətən şairi Zəyəmlinin bir şeiri dərc edilib. Orada oxuyuruq:

"Bu dəfə Zəyəmlinin çox sevdiyi, saydığı və qızıl Moskva sürülərinə qarşı neçə savaşlara girmiş Gəncə qəhrəmanı Sarı Əliəkbərin ölümünü duyunca onun oğlu Dr. İsmayıl Sarıyala yazdığı şeir məktubunu dərc edirik. Baxalım, şair nə deyir:

[1] İndiki Füzuli.
[2] *Hazar N.* "Bakü rüzgarı", s. 21.
[3] Sənədin surəti özəl arxivimizdədir.
[4] Sənədin surəti özəl arxivimizdədir.
[5] *"Mücahit"* aylık içtimai fikir məcmuası. Ankara, yıl: 5, cild: III, sayı: 2728, Mart-Nisan 1960, s. 21.



Professor Nuri Saryal Azərbaycan Kültür Dərnəyində.
Sağdan 1-ci AKD-nin başqanı Cəmil Ünal bəydir. 18 aprel 2009-cu il

Dr. İsmayıl Sarıyala məktub (15.12.1955)

Qoy sənə söyləyim, sayım, doktorum,
Başımıza nələr gəldi dünyada.
Fələyin gözləri kor olsun görüm,
Bizi nə günlərə saldı dünyada.

Sevgili Vətənim bizə yad oldu,
Ol gözəl ölkələr kimlərə qaldı?
Nə könül şahlandı, nə də şad oldu,
Nə də ki, üzümüz güldü dünyada...

İndi bildim dünya fanidir, fani,
Gəncə qəhrəmanı Ələkbər hanı?
Tərk eylədi, getdi fani dünyada,
Dost ağladı, düşmən güldü dünyada.
Saralıb bağçalar, solmuşdur güllər,
Ötməyir, susmuşdur şeyda bülbüllər.
Almadı canını nədən ərənlər?
Arsız Zəyəmli də qaldı dünyada...".

* * *

Bizcə, Mirismayıl Seyidzadənin (İsmayıl Saryalın) oğlu Nuri Saryal haqqında yazmasaq bu tərcümeyi-hal oçerki çox yarımçıq görünər.

Nuri adını atası Nuru paşanın şərəfinə qoyub.

Nuri Saryal 2 sentyabr 1929-cu ildə Bakıda doğulub. Anası Helena Hoffmann 1935-ci ildə islam dinini qəbul edərək *Leyla* adı alıb. Mirismayıl Seyidzadənin ailəsi 1931-ci ildə Türkiyə Cümhuriyyəti təbəəliyinə keçərək *Saryal* soyadı götürüb. Bu adın kökü Gəncənin yaxınlığındakı *Sarı yal* dağından gəlir.

Nuri Saryal Ankara Türk Maarif Dərnəyi (TED) ibtidai məktəbini, 1947-ci ildə Ankara Atatürk liseyini bitirib.

1947-48-ci illərdə Robert Kolej mühəndislik məktəbində (İstanbul) ingilis dili öyrənib. 1948-52-ci illərdə həmin məktəbi fəxri tələbə kimi bitirib və maşın mühəndisliyi diplomu alıb.

Nuri bəy də atası kimi mühəndis sənətini seçib. O, Türkiyənin tanınmış elm adamlarındandır.

1952-1953-cü illərdə Purdue Universitetində (İndiana, ABŞ) magistr mühəndis dərəcəsinə yiyələnib, doktorantura təhsilini isə atasının təhsil aldığı Berlin Texniki Universitetində (Şarlottenburq, Almaniya) davam etdirərək doktor-mühəndis diplomu alıb.

1956-57-ci illərdə ehtiyat zabitlik görəvini Baş Qərargah elmi-araşdırma dairəsində tamamlayıb.

1958-62-ci illərdə öz şirkətini quraraq patentini aldığı emalat işində çalışıb və bir inşaat şirkətində 5 NATO hava limanı çalışmalarında məsul baş mühəndis vəzifəsi daşıyıb.

1962-ci ilin iyun ayında Ankara Orta Doğu Texnik Universitetində (ODTÜ) maşın mühəndisliyi bölümündə yardımçı dosent çalışıb. 1963-65-ci illərdə həmin yerdə bölüm başqanı seçilib. 1964-69-cu illərdə ODTÜ-də prorektor işləyib, 1966-cı ildə dosent olub.

1970-72-ci illərdə A.Humboldt Vəqfi xətti ilə Almaniyada Münxen Texniki Universitetində dərs deyib, araşdırma aparıb, orda dərsliyini nəşr etdirib.

1975-ci ildə ODTÜ maşın mühəndisliyi bölümündə professor olub.

Uzun illər Orta Doğu Texnik Universitetində çalışıb və 1977-1979-cu illərdə həmin universitetin rektoru olub.

1979-cu ildə öz istəyi ilə rektorluqdan ayrılaraq Almaniyada Ştutqart Texniki Universitetində 3 ay seminar keçib. 1979-80-ci illərdə Münxen Texniki Universitetinə dəvət edilərək iki semestr dərs deyib və araşdırma aparıb.

1980-96-cı illərdə ODTÜ-də professor vəzifəsində çalışıb.

1992-ci ildə Almaniya Federativ Respublikasının prezidenti onu I dərəcəli "Yüksək ləyaqət ordeni" ilə təltif edib.

1962-ci ildən Azərbaycan Kültür Dərnəyinin üzvü, son 12 ildə onun Məşvərət Məclisinin sədridir.

Hərbi sənayedə elmi fəaliyyətinə görə Türkiyədə tanınmış insanlardan biridir. Bütün varlığı ilə Azərbaycana, Türk dünyasına bağlıdır. Türkiyə türkcəsi qədər Azərbaycan türkcəsində də gözəl danışır. Azərbaycanda baş verən hadisələri yaxından izləyir.

26 oktyabr 2013-cü ildə bizə öz evində etdiyi söhbətdən:

– İndi sizə 1979-cu ildəki Azərbaycan səfərimdən söz açım. Oraya Azərbaycan Elmlər Akademiyasının prezidenti, rəhmətlik Həsən Abdullayevin dəvəti ilə getmişdim. Həsən Abdullayev həm görkəmli alim, həm də böyük Türk millətçisi idi. Görüşümüzdə mən ona Türkiyə fotolarından ibarət bir albom bağışladım, o "ah, mənim



Ədalət Tahirzadə Nuri bəy və Nəriman xanımla onların evində. Ankara, 26 oktyabr 2013-cü il

Türkiyəm!" deyərək albomu sinəsinə basdı. Mən şaşırdım. Əlbəttə, onun durumunu çox gözəl anlayırdım, çünki sovet dönəmində Türkiyədən gəlmiş bir professorla görüşürdü, ancaq buna baxmayaraq öz sevgisini də gizlətməməyə cəsarət etmişdi. Məni Akademiyada demək olar ki, heç kimlə görüşdürmədilər. Bunun da səbəbini çox gözəl anlayırdım və burada H.Abdullayevdən şəxsən heç bir umacağım yoxdu.

Bakıda bibim oğlu Rəşid Babayevin evində qalırdım (o, ticarət nazirinin müstəşarı vəzifəsində işləyirdi).

Söhbətimizdə Nuri bəy çox ağrılı bir məsələyə toxundu. Biz bu haqda yazıb-yazmamağımız soruşduqda yazılmasını məsləhət gördü.

Söhbət ondan gedir ki, Məmmədov soyadlı bir azərbaycanlı SSRİ-nin Türkiyədəki səfirliyində çalışırdı. O, Türkiyəni çox sevən bir adam idi, buna görə də Türkiyəyə iltica etmək, siyasi sığınacaq almaq istəyirdi. O, niyyətini mənə söylədi, təbii ki, mən də tam gizli qalmaq şərtilə bizim Milli İstixbarat Təşkilatına (MİT) dedim və bunu gizli yolla həll etmələrini xahiş etdim. Sonradan öyrəndim ki, Məmmədovu Moskvaya apararaq orada öldürüblər. Deməli, MİT-də kimsə satqınlıq edib. Açığı, bu, indiyədək mənim ürəyimdə bir sağalmaz yara kimi qalıb; bu hadisəyə hədsiz təəssüflənirəm...

Atam İsmayıl bəy bu dünyadan gözüyaşlı getdi. O, Azərbaycanın istiqlala qovuşmasını həddən çox arzulayırdı. O, daim ana yurdu Gəncəni görmək həsrəti ilə yaşadı. Ancaq bunların heç biri ona nəsib olmadı. 1982-ci ildə bir qəza nəticəsində dünyasını dəyişdi. Evimizdə istilik sistemində qazandan tüstü çıxıb və ciyərinə hopub.

O da bronxit idi. Bir neçə gün xəstə yatdıqdan sonra elə doğulduğu 13 fevral günü də dünyadan köç etdi.

Özü çox sağlam adamdı, 100 yaşayacağını deyirdilər. Gündə 7 km piyada gedirdi. O mənhus hadisə olmasaydı yəqin ki, hələ neçə illər də yaşayardı.

Anam alman qızıdır – Helena Hoffman. 9 may 1900-cü ildə Polşada – Poznan şəhərinin yanında Obornikdə doğulub. 1 aprel 1989-cu ildə Ankarada vəfat edib. Ailəsi sonradan Obornikdən Berlinə gəlib. Anamın qohumları vardı, ancaq onlar qalmadılar. Dayım Vladislav Hoffmandır, ticarətçi idi, ölüb. Anam müsəlmanlığı qəbul edərək Leyla adı almışdı və Azərbaycanda onu qohumlarımız çox gözəl qarşılamışdılar...

Nuri bəy öz həyat yoldaşı Nəriman xanımdan söz açır. O, dövrünün tanınmış hüquqşünası Raşid bəy Duranoğlu/ Sabitoğlunun qızıdır. 1929-cu ildə Konyanın Seydişehir kəndində doğulub. Elmlə, yaradıcılıqla yaxından bağlı bir insandır. Bir vaxtlar Məhəmmədəmin Rəsulzadə ilə Ankarada Milli Kitabxanada birgə çalışıb. Rəsulzadə ailəsi ilə Saryal ailəsi yaxın dostluq edib. Məhəmmədəmin bəyin ölümündən sonra onun yoldaşı Leyla xanımın ən ərklə açdığı qapı Saryallarınkı olub. Buna özümüz də Saryalların ailə albomunu vərəqləyərkən şahid olduq. Rəsulzadənin Leylası ilə İsmayıl Saryalın Leylası ailəvi tədbirlərdə neçə fotoda bir yerdədir!..

Nəriman xanımın atasıgil üç qardaşdı: Raşid bəy, Sabit Rəhman və Emin. Raşid bəy (1878-1963) hökumətpərəstdi, sonra Atatürkçü oldu. Konya, İzmir, İstanbul və Seydişehirdə vəkillik edib.

Söhbət Azərbaycan yazıçısı Sabit Rəhmandan düşəndə Nuri bəy və Nəriman xanım bildirdilər ki, Antalyanın İbradı ilçəsindəndir. 1918-ci ildə Nuru paşa ordusu ilə birgə Azərbaycana gedib. Turançılardandı. Buradakı hərbi arxivlərdə haqqında qeydlər var. Azərbaycanda o, yaşını 10 il gəncləşdirib, sonradan Azərbaycanın məşhur dramaturqu, komediya ustası kimi tanınıb. Seydişəhirdə Sabitoğulları çiftliyi vardı.

Emin Sabitzadə/Sabitoğlu İzmirdə jurnalistdi, padşahpərəstdi. Sonradan bunun üstündə onu tutub edam etdilər. Azərbaycanın məşhur dramaturqu Sabit Rəhman, oğlu bəstəkar Emin Sabitoğluna onun adını verib.[1]

Nuri bəydən indi oturduqları üçqatlı evin tarixçəsini soruşuruq. Deyir ki, bu binanın 53 yaşı var. Onu atamla mən tikmişəm.

Nuri bəyin iki qızı var. Nilgün də, Zümrüd də mühəndisdirlər.

[1] Burasını da qeyd etməliyik ki, şəkililər Saryalların Sabit Rəhmanla bağlı dediklərinə tənqidi yanaşırlar.

Səfərov Məhiş Məşədi Hacı oğlu

(21.12.1899, Şuşa – 07.1964, Bakı)



Məhiş Səfərov

Biz bir neçə illik axtarışdan sonra, nəhayət, Məhiş Səfərovun oğlu *Əliəkbər Səfərovu* tapdıq və 24 sentyabr 2007-ci ildə onunla atasının taleyi haqqında geniş söhbət etdik. Əliəkbər Məhiş oğlu bunları söylədi:

– Məşədi Hacı ilə Xanım Məşədi İbrahim qızının qurduğu ailədən bu övladlar olub: *İbrahim (İbiş), Yusif, Məhiş, Kübra.*

İbrahim, müəllim işləyib və 1960-cı illərdə dünyasını dəyişib. Onun həyat yoldaşı Şəndədən 3 qızı və 2 oğlu olub.

Yusif də 1960-cı illərdə vəfat edib. Onun Qızbəs xanımdan 2 qızı olub.

Məhiş Səfərov 2 dəfə ailə qurub. Birinci yoldaşı *Elzadan* övladı olmayıb. İkinci yoldaşı *İrinadan* onun 3 övladı olub: *Əliəkbər* (02.12.1941), *Hacımurad* (15.05.1951), *Cəmil* (12.04.1955).

Məşədi Hacının qızı Kübra isə ailəsi ilə Güney Azərbaycanda və Tehranda yaşayıb. Övladları olmayıb.

Səfərovlar dövlətli idilər. Şuşadakı kiçik bazardakı karvansara Məşədi Hacı və qardaşının olub.

Məşədi Hacının ilk arvadı Xanım onun uşaqlarının anasıdır. O, Məhişin 4-5 yaşı olanda ölüb. Hacı bu qadının yaxın qohumu Səkinə Məşədi Cəfər qızı ilə evlənib və uşaqlara da o baxaraq böyüdüb, boya-başa çatdırıb. Uşaqların hamısı onu özünün əsl anası sayaraq hədsiz çox seviblər. Səkinə xanım 1972-ci ilin avqustunda 100 yaşında vəfat edib.

Məşədi Hacı Şuşaya sovet hakimiyyəti gələndə varlı şəxs kimi təqib olunduğuna görə bütün ailəsini də götürərək Bakıya köçüb. 1935-ci ildədək Poluxin[1] küçəsi 29-da yaşayıblar. (Məhiş Səfərov ilk dəfə burada həbs olunub, Səkinə nənəni də buradan çıxarıb küçəyə atıblar və o,Yusifin yanında yaşamalı olub).

Məşədi Hacı Bakıda müxtəlif işlərlə məşğul olub, ən sonda gözətçilik edib. Oğullarından İbrahim (İbiş) Bakıda rus dili müəllimi işləyib,Yusif isə ticarətlə məşğul olub.

Məhiş Darmştadt Ali-Texniki Məktəbində inşaat işləri (körpü və tunel) üzrə mühəndislik oxuyub. Almaniyadan 1920-ci illərin ortasında alman qızı *Elza* ilə qayıdıb. Ona ixtisası üzrə iş verməyiblər. Ali məktəb, texnikum və orta məktəblərdə alman dili müəllimi işləməli olub. Onu 1935-ci ildə Kənd Təsərrüfatı Texnikumunda elə sinifdəcə həbs edib Sibirə göndəriblər. 1939-cu ildədək Birobicanda meşə qırıb. Burada onun köhnə tələbələri olub, onu qoruyublar. Özü deyirmiş ki, həmin tələbələr olmasaydı mən sağ qayıtmazdım.

O, sürgünə göndərilərkən həyat yoldaşı Elzanı Almaniya vətəndaşı olduğu üçün SSRİ-dən çıxarıblar. Birobicandan 1939-cu ildə qayıdan Məhişə Bakıda yaşamağa icazə verməyiblər və o, Zaqatala şəhərinə gedib. Burada texnikumda alman dili müəllimi işləyib. Həmin məktəbə təyinat üzrə alman dili müəllimi gəlmiş *İrina Pavlovna Tissen*'lə tanış olub və 1939-40-cı ildə ailə qurublar. İrina da alman qızı idi və Stavropolun

[1] İndiki Murtuza Muxtarov küçəsi.

Seninfeld alman koloniyasındandı. 1941-ci ildə onların ilk övladı *Əliəkbər* doğulub.



Məhiş Səfərovun atası Məşədi Hacı Səfərov və onu böyütmüş analığı Səkinə

1943-cü ildə Məhiş xəlvətcə Bakıya gələrək ata-anasını görmək istəyib. Onu bu dəfə də həbs ediblər və işi yenə Ruben Markaryan aparıb. Ona ittiham irəli sürülməyib. Onu tutduqdan sonra arvadını və 1 yaşlı oğlu Əliəkbəri də həbs edərək Bayıla göndəriblər (!). Əslində Əliəkbəri anasından ayırıb uşaq evinə göndərməli idilər, ancaq, görünür, Allahın rəhmi gələrək onlar bir yerdə qalıblar.

2 yanvar 1944-cü ildə İrina və 2 yaşlı oğlu Əliəkbəri Bayıldan çıxararaq Qazaxıstanın Akmola vilayətinin Vişnyovski rayonunun Vyaçeslavka kəndinə sürgünə yollayıblar. Yolda onlara İrinanın atası Paul (Pavel) Borisoviç Tissenin fəhlələri olmuş sürgünçülər rast gəlib və onlar İrina ilə oğlunun sürgün yerinə sağ-salamat çatmasına yardımçı olub. Xoşbəxtlikdən, onlar Vyaçeslavkaya sürgün edilmiş qohumlarının yanına düşüblər. İrinanın anası Marqarita Danilovna Şmidt, bacısı Marqa Pavlovna Tissen və onlar bir neçə il bir ailə kimi yaşayıblar.

Həbsdən azad edilmiş Məhiş Səfərov xeyli vaxt işsiz qalıb və çox ağır günlər keçirib, hətta qəzet köşkündə satıcı işləyib. 1947-ci ildə onu ADU-nun xarici dillər kafedrasında alman dili müəllimi kimi görürük. Xatırladaq ki, bu kafedranın müdiri onun Şuşadan uşaqlıq dostu və Almaniyadakı tələbə yoldaşı Əliəkbər Əliyev idi.

1949-cu ildə Məhiş Vyaçeslavka kəndinə ailəsinin yanına gedib, 9 yaşlı oğlu Əliəkbəri ilk dəfə burada görüb. Ailəsini Bakıya öz yanına aparmaq istəyib, ancaq bacarmayıb. 1949-cu ildə özü Qazaxıstana ailəsinin yanına köçüb.

Əliəkbər Məhiş oğlu davam edir:

– 1950-ci ildə atam məni xəlvətcə Bakıya, Ostrovski[1] küçəsi 103-ə gətirdi. (İndi həmin evi söküblər). 8 kv. metrlik "mənzil"də *Səkinə nənə* və 5 uşaq – 6 nəfər yaşayırdı. Burada ölüm-zülüm təxminən 1 ay qalaraq yenidən sürgün yerinə qayıtdıq və 1956-cı ildədək Qazaxıstanda yaşadıq. 1956-cı ilin yayında artıq bəraət almış ailə Bakıya qayıdıb. Əliəkbər artıq böyüyərək hüquq, yaxud alman dili fakültələrinə sənəd vermək istəyib, ancaq xeyirxah tanışları ona bu fakültələrə sənəd verməməyi məsləhət biliblər, çünki atasının həbsi üzündən onun sənədlərini götürməyəcəkdilər. Durumu nəzərə alan Əliəkbər Azərbaycan Dövlət Universitetinin fizika fakültəsinə girib və 1974-cü ildə oranı bitirib.

Məhiş Səfərov Qazaxıstandan gələndən sonra yenə ADU-nun xarici dillər kafedrasında alman dili müəllimi işləyib və 1960-cı illərdə təqaüdə çıxıb. 1958-ci ildə ona Firidun Ağayev küçəsindəki 547-ci məhəllədə 2 otaqlı mənzil veriblər.

Məhiş Səfərov 1964-cü ilin avqust ayında vəfat edib və Bakıda Köhnə Yasamal qəbiristanlığında dəfn olunub.

[1] İndiki Süleyman Tağızadə küçəsi.

* * *



Məhiş Səfərov. Almaniya

7 fevral 2007-ci ildə *Tofiq bəy Şahsuvarov*'la söhbət etdiyimiz vaxt (bu zaman hələ Məhiş Səfərovun oğlu Əliəkbərlə görüşməmişdik) Məhiş müəllim haqqında bizə bunları demişdi:

– Məhiş Səfərov 1956-cı ildə sürgündən qayıdıb gəldi. Ona iş vermədilər. Mən onu və alman qızı olan xanımını Sovetski[1] hamamının yanındakı qəzet köşkündə qəzet satanda görmüşəm. Yanlarından elə keçdim ki, məni görməsinlər.

Başqa vaxt Məhişlə söhbətlərim olub. Mənə Mustafa bəy Topçubaşovla Almaniyadakı görüşlərindən danışırdı. O, Almaniyada oxuyarkən Mustafa bəy oraya staj keçməyə gedibmiş. Məhiş onu Berlində Qərb xəstəxanasında məşhur cərrah professor Borşardtla tanış edib. Bu, həmin Borşardtdır ki, eser Kaplan Leninі zəhərli gülləylə vuranda Leninin yanına onu çağırmışdılar; bundan sonra Lenin 6 il yaşamışdı.

Məhiş 1960-cı illərin ortalarında rəhmətə gedib.

* * *

Bunlar şifahi bilgilər idi. İndisə gəlin danılmaz sübut-dəlillərlə dolu sənədlərə üz tutaq. Əslində onlarda yuxarıda danışılanların həqiqət olduğu təsdiqlənir, ancaq bu həqiqətin həcmi qat-qat artıqdır.

Öncə AR Dövlət Arxivindəki şəxsi işində olan sənədlərdən başlayaq.

Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsindən verilmiş doğum şəhadətnaməsində Məhişin Şuşa şəhərinin sakini olan atası Məşədi Hacı Hacı İbrahim oğlu ilə onun qanuni arvadı Xanım Məşədi İbrahim qızından 21 dekabr 1899-cu ildə doğulduğu təsdiqlənib.[2]

23 sentyabr 1917-ci ildə Dağıstan vilayətinin Dərbənd şəhərində verilmiş attestatda qeyd olunub ki, Məhiş Məşədi Hacı oğlu Səfərov 1 sentyabr 1914-cü ildə imperator II Nikolay adına Dərbənd real məktəbinə girərək orada 20 aprel 1917-ci ilədək oxuyub və əsas bölmənin tam kursunu bitirib. Bu zaman o, 1 fəndən "5", 9 fəndən "4", 4 fəndən isə "3" alıb.[3]

16 mart 1918-ci ildə Şuşa şəhərində verilmiş 139 saylı şəhadətnamədə isə göstərilib ki, Səfərov 1 oktyabr 1917-ci ildən 15 mart 1918-ci ilədək Şuşa edadi (real) məktəbinin əlavə – səkkizinci sinfində əla əxlaqla oxuyub və yekun sınaqda bu uğurları göstərib:

Şəriət –	əla (5)
Rus dili –	yaxşı (4)
Alman dili –	yaxşı (4)
Fransız dili –	yaxşı (4)
Riyaziyyat, o sıradan:	
Hesab –	əla (5)
Cəbr –	yaxşı (4)
Triqonometriya –	yaxşı (4)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	əla (5)
Tarix –	yaxşı (4)
Təbiiyyatşünaslıq –	əla (5)

[1] İndiki N.Nərimanov küçəsi.
[2] ARDA, fond 51, siyahı 3, iş 122, vərəq 5.
[3] Yenə orada, vv. 2-2a.


Fizika –	əla (5)
Riyazi coğrafiya –	yaxşı (4)
Rəsm –	yaxşı (4)
Qanunşünaslıq –	əla (5)
Türk dili –	yaxşı (4).[1]

Məhiş Səfərov 8 avqust 1919-cu ildə maarif nazirinə yazdığı ərizədə xaricə göndərilən tələbələr sırasına salınmasını xahiş edib və İsveçrədə Yollar İnstitutunda ali təhsil almaq arzusunu bildirib.[2]

Bakı 1-ci real məktəbinin müəllimi *İbrahim Səfərov* tarixsiz bir məktubda Müsəlman Tələbələri Komitəsinə belə bir ərizə yazıb:

"Qardaşım – tələbə Məhiş Səfərovun təhsilini davam etdirmək üçün xaricə göndərilməsi haqqında ərizəsinə əlavə olaraq bildirməklə şərəflənirəm ki, həmin qardaşım kiçik yaşlarından mənim hesabıma oxuyub, ancaq indiki bahalıq dövründə cüzi maaş alıram və böyük ailəm var, ona görə də ona artıq maddi yardım göstərmək gücündə deyiləm. Deyilənləri nəzərə alaraq Tələbə Komitəsinin qardaşım Məhiş Səfərovu hökumətin xaricə göndərəcəyi tələbələr sırasına salmasını xahiş edirəm".[3]

İbrahim bəy Səfərov 19 oktyabr 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizəsində bu fikirləri bir daha təkrarlayıb və əlavə edib ki, keçən il mən Məhişin adını Tiflis Politexnik İnstitutuna yazdırmışdım, ancaq ona maddi yardım göstərə bilmədiyimə görə onu institutdan çıxarmağa və işə düzəltməyə məcbur oldum. Bakıya gələrək o, 9-cu ibtidai məktəbə müəllim düzəldi və indiyədək orada qulluqdadır. Mən 30 ildən artıqdır ki, müəlliməm. 5 nəfərdən ibarət böyük ailəm var və indiki bahalıq dönəmində aldığım cüzi maaşım ailəmi saxlamağa güc-bəla ilə çatır. Mən ona təhsilini davam etdirməyə daha yardım edə bilmirəm. Bu isə mənə çox böyük mənəvi zərbədir. (Daha sonra o, qardaşınının hökumət hesabına xaricə oxumağa göndərilməsini xahiş edib).[4]




Almaniyada oxuyan tələbələrimizdən. *Soldan sağa:* Bəhram bəy Hüseynzadə, Məhiş Səfərov, Abdulla Rəhimzadə. Darmştadt

İbrahim müəllimin dediyinə tam aydınlıq gətirək – Məhiş Səfərov 1919-cu ilin sonlarından 15 yanvar 1920-ci ilədək *R. Tahirov*'un müdir olduğu 9-cu Türk ibtidai məktəbində 2-ci bölmənin[5] müəllimi işləyib.[6]

Qarabağ hərbi valisini müvəqqəti əvəz edən *B.Bədəlbəyov*'un imzası ilə 27 avqust 1919-cu ildə Şuşa şəhərinin sakini Məhiş Səfərova verilmiş 4635 saylı vəsiqədə yazılıb ki, o, subaydır. Atası Məşədi Hacı Səfərovun ailəsində yaşayır. Bu ailə 65 yaşlı qoca ailə başçısından, onun arvadı, 40 yaşlı *Səkinə Məşədi*

[1] ARDA, fond 51, siyahı 3, iş 122, vərəq 4.
[2] Yenə orada, vərəq 1.
[3] Yenə orada, vərəq 6.
[4] Yenə orada, vv. 7-7a.
[5] Sinfin.
[6] ARDA, fond 2802, siyahı 1, iş 951, vv. 1-2.



Hilal Münşizadə və Məhiş Səfərov. Almaniya

Cəfər qızı'ndan, oğlu, 5 baş ailəsi olan 35 yaşlı müəllim *İbrahim*'dən və 15 yaşlı qızı *Tubuş*'dan ibarətdir. Ailənin Məhişin ali məktəbə getməsinə etirazı yoxdur. Onun ailəsi kasıbdır və Səfərova öz hesabına ali təhsil vermək gücündə deyil.[1]

M.Səfərov 8 noyabr 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizədə Almaniyada Şarlottenburq Yollar İnstitutunda oxumaq istədiyini bildirib.[2]

30-31 dekabr 1919-cu ildə Səfərov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[3] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[4] dilkağızları verib.

Məhiş Məşədi Hacı oğlu Səfərova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 559 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[5]

* * *

M.Səfərov 1920-1925-ci illərdə Darmştadt Ali Texniki İnstitutunda inşaat üzrə oxuyub. Xəstəliyinə görə təhsilini başa vura bilməyib və 1925-ci ilin mayında natamam ali təhsillə SSRİ-yə qayıdıb.

Həyatının bundan sonrakı dönəmini AR MTN Arxivində saxlanılan istintaq protokollarından öyrənəcəyik. Buradakı 236100 saylı (indi: PR-21927) istintaq işi 2 hissədən ibarətdir. Birinci hissə 84 vərəq, ikinci hissə 15 vərəqdir.

Məhiş Səfərov 22 sentyabr 1935-ci ildə İsgəndər bəy Sultanov və Əsildar Muğanlı ilə bağlı olaraq həbs edilib. Tutularkən Pedaqoji Texnikumda alman dili müəllimi və yerli

[1] ARDA, fond 51, siyahı 3, iş 122, vərəq 8.
[2] Yenə orada, vərəq 9.
[3] Yenə orada, vərəq 11.
[4] Yenə orada, vərəq 10.
[5] Yenə orada, vərəq 12.



Almaniyada oxuyan tələbələrimiz. *Soldan sağa:* Hilal Münşizadə, Əliəkbər Əliyev, Məhiş Səfərov

komitənin sədri idi. Onu həbs etmək üçün qərar 20 sentyabr 1935-ci ildə çıxarılıb.[1]

23.09.1935-ci il tarixli 1115 saylı məhbus anketindəki bilgilərdən: Səfərov Məhiş Hacı oğlu – 1896-cı il Şuşa doğumlu; yaşayış yeri: Bakı, Poluxin (keçmiş Persidski)[2] küçəsi 31; iş yeri: XMK Pedaqoji Texnikumu, alman dili müəllimi; təhsili: natamam ali; partiyasız. Ailə tərkibi: tək.[3]

Texnikumun direktoru Süleymanovun ona həbs öncəsi (bəlkə də həbs sonrası) verdiyi tarixsiz xasiyyətnamədə oxuyuruq ki, alman dili müəllimi M.Səfərov pedaqoji texnikumda 1932-ci ildən işləyir. Texnikumda işlədiyi müddətdə özünü çox ehtiyatlı aparıb, texnikumun divarları arasında ondan mənfi heç nə görünməyib. Özəlliklə son zamanlar özünü ictimaiyyətçi kimi göstərməyə çalışıb. Üzərinə qoyulmuş vəzifələri səliqə ilə yerinə yetirib. Son vaxtlar yerli komitənin üzvü olub. 1934-35-ci dərs ilində tədris planını 80% yerinə yetirib, tələbələrin uğuru 90% olub.[4]

23 sentyabr 1935-ci ildəki dindirməsində bunlar aşkara çıxıb: atası onun anasına məxsus karvansaranı idarə edib; anasının ölümündən sonra atası karvansarada, görünür, onun sahibi kimi qalıb. Arvadı Elza Səfərova Almaniyadadır.[5]

27 sentyabr 1935-ci ildəki dindirməni müstəntiq Avanesyan aparır. Onunla Səfərov arasında belə bir mükalimə gedir:

"... *Cavab:* Məni Almaniyaya oxumağa 1920-ci ilin yanvarında Müsavat hökuməti göndərib. O vaxt mən 19-cu, yaxud 9-cu rus-türk məktəbində[6] müəllim işləyirdim. Mənim heç bir siyasi əqidəm yox idi. Biz Bakı – Batum – İstanbul – Torento – Roma – Paris – Bazel

[1] AR MTN Arxivi, PR-21927, vərəq 2.
[2] İndiki Murtuza Muxtarov.
[3] AR MTN Arxivi, PR-21927, vv. 7-7a.
[4] Yenə orada, vərəq 8.
[5] Yenə orada, vərəq 9.
[6] 9-cu.



Məhiş Səfərovun Almaniyada evləndiyi həyat yoldaşı Elza



İrina Pavlovna Tissen

– Berlin marşrutu üzrə getdik. Berlindən mən Darmştadta yollandım və Ali Texniki İnstituta girdim.

Mənimlə birgə oxuyublar: *Məmmədov Qəhrəman* – Bakıdadır, Azərbaşyolnəqliyyatda, sonra isə Azərdövlətlayihədə işləyib. O, Almaniyadan, deyəsən, 1927-ci ildə gəlib. *Rəhimli Məhəmməd* – Bakıdadır, Azbaşyolnəqliyyatda işləyir. *Şıxıyev Hüseyn* – Almaniyadan, deyəsən, 1927-ci ildə qayıdıb və 1929-30-cu ildə xaricə qaçıb. *Hüseynzadə Bəhram* – Bakıdadır, Gəncədə işləyib, ay yarım bundan qabaq Bakıya köçüb, Hüseynzadə Firidunun qardaşıdır. *Əfəndiyev Məhəmməd[əmin]* Almaniyadan, deyəsən, 1927-ci ildə qayıdıb və 1929-30-cu ildə xaricə qaçıb. Göstərdiyim şəxslərdən Məmmədov AK(b)P üzvüdür, Şıxıyev Almaniyada olarkən ÜK(b)P üzvü idi.

Sual: Almaniyada olmanızla bağlı hər şeyi danışın.

Cavab: 1925-ci ilin aprel-mayınadək Darmştadtda olmuşam. Həmin ay da SSRİ-yə qayıtmışam.

Darmştadtda olarkən Ali Texniki İnstitutda oxumuşam. 1922-ci ildə xəstələndim və xəstəliyim 1924-cü ilin mayına qədər çəkdi. Keçirdiyim cərrahiyyə əməliyyatı ilə bağlı olaraq 1924-cü ilin avqustundan başlayaraq 1925-ci ilin mayınadək məşğələlərə getməmişəm.

1925-ci ilin mayında məşğələləri bərpa etdim və xəstəliyimə görə təhsilimi davam etdirməyərək (İnstitutun tikinti bölməsinin 3-cü kursunda idim) SSRİ-yə gəldim. Darmştadtda olduğum vaxt heç bir siyasi iş aparmamışam və Sovet Tələbələri Birliyindən başqa heç bir siyasi, tələbə təşkilatında olmamışam. Sonuncu Birlik 1923-cü ildə yaradılıb.

Berlində üç dəfə olmuşam. Birinci dəfə mən və başqa tələbələr Berlinə təqaüd almaq üçün getmişik. Bu, 1923-cü ilədək – doktor Axundov Bəhram bəy SSRİ-dən gələrək bizi pulla təchiz edən vaxt olub. Berlində 3-4 gün qalmışam. Almaniyada 1906-1907-ci ildən yaşayan uzaq qohumum Səfərov Şamilin yanında qalmışam. Həmin vaxt o, Berlində hansısa fabrikdə işləyirdi. İkinci dəfə Berlində 1924-cü ildə olmuşam. Oraya müalicəyə ödəməkdən ötrü pulum olmadığına görə getmişəm. Berlində Sovet Tələbələri Birliyi məni xəstəxanaya yerləşdirib. O vaxt Berlində aydan artıq qalmışam. Çoxlu tələbə yoldaşlarımla görüşmüşəm. Mənə Səfərov Şamil də baş çəkib. Üçüncü dəfə Berlində SSRİ-yə gəldiyim vaxt 2 həftə olmuşam. Bu vaxt Sovinplatsda özəl pansionda yaşamışam. Berlinə bu səfərim getmək üçün viza və pul alınması ilə bağlı olub. Həmin vaxt Berlində oxuyan azərbaycanlı tələbələrin çoxu ilə, o sıradan Münşiyev Hilalla və Sultanov İsgəndərlə də görüşmüşəm.

Sual: Xaricdə olan və sovet hakimiyyətinin repressiya etdiyi qohumlarınızı sayın.

Cavab: Xaricdə Səfərov Şamildən başqa, Mustafayev Qurban da var. Onun Bakıda kustar emalatxanası vardı. 4-5 il bundan qabaq emalatxananı ləğv edib Zakaspiyə[7] gedib və oradan sonradan, öyrəndiyimə görə, İrana əkilib.

1934-cü ildə arvadı – bacım Kübra onun yanına gedib. Bacım İnturist vasitəsilə sovet hökumətindən icazə almışdı. Sovet hakimiyyəti yalnız qardaşım Yusif Səfərovu repressiya edib. 1931-ci ildə o, CM 68-ci maddəsi ilə 3 il həbs düşərgələrinə məhkum edilib. 1934-cü ildə cəzasını çəkərək Bakıya qayıdıb. Hal-hazırda o, Azərdövlətibbticarətdə kuryer işləyir.

[7] Türkmənistana.

Arvadı və 12, 13, 14, 17 yaşlı uşaqları var. Arvadı evlərdə çalışır (paltar yuyur və s.). Onu maddi cəhətdən mən saxlayıram.

Sual: Azərbaycandakı qohumlarınızı sayın.

Cavab: Atam Səfərov Hacı 80-82 yaşlı qoca kişidir. Köhnə Poçt[1] küçəsi 103-də yaşayır, heç yanda işləmir. Anam da onunla yaşayır, qardaşımın verdiyi pullarla yaşayırlar.

Qardaşım Səfərov İbrahim – 52-53 yaşı var, təqaüdçüdür. Müəllimdir, Biləcəri məktəbində dərs deyir. 2 oğlu var; Muradın 20 yaşı var (Fəhlə fakültəsinin şagirdidir və Azərkinoda işləyir); Sabirin 10 yaşı var; qızı Bahirənin 20 yaşı var, Biləcəridə pansionda yaşayır. Bunlardan başqa, onun 11 yaş yarım və 2 yaşlı uşaqları da var.

Sual: Muğanlı Əsildar Abbasəli oğlu ilə münasibətləriniz necə olub?

Cavab: Muğanlı Əsildar mənim yaxın dostumdur. 1934-cü ildə mən və o, bir binada alman dili dərsi vermişik. Biz bir-birimizlə tez-tez görüşür və o, mənim, mən də onun mənzilində olurduq. Evdən qıraqda da görüşürdük.



Məhiş Səfərov və qardaşı Yusifin yoldaşı Qızbəs qohum uşaqlarla. 1935-ci ildədək

…*Sual:* Bəllidir ki, başqa iştirakçılarla da birgə Muğanlının yanına yığışaraq alman dilində mahnılar oxumusunuz. Bunu boynunuza alırsınızmı?

Cavab: Bəli, bəzən biz alman dilində mahnılar oxumuşuq. Orada Muğanlı, mən, Sultanov İsgəndər, bəlkə də Firidun Hüseynzadə də olmuşuq. Mahnılar yüngül, qeyri-siyasi və qeyri-millətçi məzmunda olub".[2]

24 oktyabr 1935-ci il tarixli dindirməsindən:


"*Sual:* Siz Rəhimli ilə olan əlaqənizi istintaqdan niyə gizlətmisiniz?

Cavab: Onun adını buna görə çəkməmişəm ki, nə mən onun evində olmuşam, nə də o mənim evimdə olub. Yalnız iki haldan başqa – mən Rəhimligildə onun anası və bacısının dəfnlərində olmuşam. Bu, 1930-31-ci illərdə olub. Mən onunla birgə Azərbaşyolnəqliyyatda 1929-1933-cü illərdə işləmişəm. Mən kurs müdiri idim, Rəhimli Azərbaşyolnəqliyyatda mühəndis idi. Mən Məmmədov Qəhrəmanın dəvəti ilə işə girmişdim. Azərbaşyolnəqliyyatdan getdikdən sonra Rəhimli ilə küçədə təsadüfən nadir hallarda görüşmüşəm".[3]

* * *

Məhiş Səfərovun Almaniyada yaşayan və sonra sovet hökumətinin təqaüdçüsü kimi oxuyan və XDİK materiallarına görə, orada Azərbaycan Milli Mərkəzinin üzvü olan Şamil Səfərovun qardaşı Teymur şahid qismində istintaqa cəlb edilib. 21 oktyabr 1935-ci ildə Azərb. XDİK əməliyyat müvəkkili Botman Teymur Rüstəm oğlu Səfərovu dindirib. 1884-cü

[1] İndiki Süleyman Tağızadə.
[2] AR MTN Arxivi, PR-21927, vv. 9-12.
[3] Yenə orada, vv. 18-19.



Məhiş Səfərov ilk həbsində. 1935

ildə Şuşada doğulmuş, Bakıda Şah döngə-si[1] 8-ci evdə yaşayan, Türk, müvəqqəti işsiz, 5 oktyabr 1935-ci ildədək Lənkəranda "Torq-sin" satıcısı; atası ortabab kəndli. Ailə tərkibi: arvadı – Malyət Haşım qızı Xəz Birliyinin tikişçisi; qızı – Dilgüşa, 13 yaş, şagird; anası – 80 yaş. Təhsili natamam orta, partiyasız. 1932-ci ildə Bakı xalq məhkəməsi Bakıda Dəri-Trikotaj Birliyində xidmət üzrə mal çatışmazlığına görə 7 il məhkum edib.

Sual: Sizin doğma qardaşınız Səfərov Şamil xaricə haçan və niyə mühacirət edib?

Cavab: Qardaşım Səfərov Şamil 1910-cu ildə Bakıda real məktəbi bitirdikdən sonra valideynləri onu təhsilini davam etdirmək üçün Almaniyaya göndərib. O vaxt Almaniyada bizim qohumlarımız yox idi. Atam hər ay Şamilə 30-40 manat göndərirdi. Şamil Almaniyada 1910-cu ildən yaşayır və Sovet İttifaqına gəlməyib.

Sual: Yaxın qohumlarınızı sayın.

Cavab: Yaxın qohumlarım:

1) Qardaşım Səfərov Firidun – partiyasız, AHİŞ-də işləyir, ailəsi ilə Mustafa Sübhi küçəsində yaşayır, evlərinin nömrəsini bilmirəm.

2) Qardaşım Səfərov Əmir – deyəsən, komsomolçudur, institutu Bakıda 1935-ci ildə bitirib və Azərittifaqda plançı işləyir. Tolstoy küçəsi 5, 10-cu döngədə yaşayır.

3) Bacım Səfərova Ziba – partiyasız, xəstə, heç yanda işləmir. Əmirin yanında yaşayır. Onun əri Əliəsgərov Şirin Qara şəhərdə Azneftdə qarovulçu işləyir. Əliəsgərovun qardaşı Mütəllim Əliəsgərov 7-8 ay bundan qabaq sürgündən Bakıya qayıdıb və Bakıda yaşayır. Ünvanını bilmirəm. Dəqiq deyə bilmərəm, Mütəllim Əliəsgərov 1923-24-cü illərdə müsavatçı kimi məhkum olunub.

4) Bacım Gülməmmədova Qəmər – partiyasız, xalçatoxuyan, əri kolxozçu Gülməmmədov Qazı ilə Gəncədə yaşayır.

5) Əmim oğlu Səfərov Cümşüd – həkim. 1934-cü ildə arvadını öldürdüyünə görə məhkum edilib, cəzasını Bakıda çəkir.

Başqa qohumlarım yoxdur.

Sual: Səfərov Məhişi tanıyırsınızmı?

Cavab: Səfərov Məhiş şuşalıdır, alverçi oğludur. Məhiş Səfərovun qardaşı Yusifin 1927-ci ilədək parça ticarəti vardı. Məhiş mənim uzaq qohumumdur. Səfərovun parça dükanı Bazar[2] küçəsindəydi.

Sual: Qardaşınız Şamil və onun Almaniyadakı ictimai-siyasi durumu haqqında Sizə nə bəllidir?


Cavab: Qardaşım Şamillə yazışıram. Ancaq artıq 9 aya yaxındır ki, ondan məktub yoxdur. Halbuki mən ona 3-4 ay məktub göndərmişəm və cavab verməsini xahiş etmişəm. Şamilin Almaniyada ictimai-siyasi durumunun necə olduğunu mən bilmirəm. Səfərov Məhiş Almaniyadan qayıdıb 1925-ci ildə mənə dedi ki, Şamil hansısa zavodda işləyir. Mən Məhiş Səfərovdan xahiş etdim ki, onun alman arvadı Almaniyaya gedəndə Şamilə tapşırsın ki, özü haqqında məlumat versin. Onun bu tapşırığı verib-vermədiyini bilmirəm.

[1] İndiki Şıxəli Qurbanov küçəsi.


[2] Keçmiş Hüsü Hacıyev küçəsi, indiki Azərbaycan prospekti.



Məhiş Səfərov *(soldan 1-ci)* qohumlarıyla: 2-ci oğlu Əliəkbər, 3-cü qayınanası Marqarita Smidt, 4-cü qayınatalığı Pavel Filippoviç İzaak (Marqaritanın 2-ci əri); *arxada:* İrina Tissen. 1949



Məhiş Səfərov ADU-da. Təx. 1947



Əliəkbər Məhiş oğlu Səfərov.
24 sentyabr 2007-ci il

[...] Səfərov Məhişin arvadı Almaniyaya gedəndən sonra onun özü də ora getmək istədi. Bunu mənə Məhişin özü deyib. Ona getməyə icazə verməyiblər".[1]

Müstəntiq Botman 19 noyabr 1935-ci ildə istintaqın bitməsi haqqında protokol tərtib edib.[2]

SSRİ XDİK Özəl Müşavirəsi 13 yanvar 1936-cı ildə Səfərov Məhiş Hacı oğlunu başqa şəxsin əks-inqilabi fəaliyyəti haqqında xəbər vermədiyinə görə müddəti 23 sentyabr 1935-ci ildən sayılmaqla 3 illiyə islah-əmək düşərgəsinə məhkum edib.[3]

Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası 26 yanvar 1957-ci ildə M.Səfərovun işi üzrə nəzarət qaydasında etiraz verib. Burada oxuyuruq:

"Səfərovun işinin yoxlanılması nəticəsində müəyyənləşib ki, onun həbsinin səbəbi budur ki, onu 1920-ci ildə Almaniyaya oxumağa Müsavat hökuməti göndərib, oradan o, SSRİ-yə 1925-ci ildə qayıdıb.

Səfərov tərəfindən hər hansı bir antisovet səciyyəli konkret hərəkəti istintaq müəyyən edə bilməyib...

[...] İşin materiallarından göründüyü kimi, həbsinə başqa iş üzrə ittiham edilən Hüseynzadə Firidunun bu ifadəsi əsas verib ki, [İsgəndər bəy] Sultanov sərxoş halda Stalini söyüb, o zaman Səfərov onu sakitləşdirməyə çalışıb, ancaq əlindən bir şey gəlməyib".[4]

Azərb. SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası 31 yanvar 1957-ci ildə M.Səfərova tam bəraət verib.[5]

02.07.1956-cı il tarixli arayışda göstərilib ki, Səfərov Məhiş Hacı oğlu Poluxin küçəsi 29-da 25 oktyabr 1925-ci ildən həbs edildiyi 1935-ci ilədək yaşayıb.[6]

Azərb. SSR XDTN-nin 2 yanvar 1944-cü ildə verdiyi 11/81 saylı arayışda göstərilib ki, vətəndaş Tissen İrina Pavlovna (1918-ci il, Krasnodar diyarı Armavir rayonu Leninfeld alman koloniyasının yetirməsi) 15 aprel 1943-cü ildən 2 yanvar 1944-cü ilədək Xalq Dövlət Təhlükəsizliyi Komissarlığının həbsxanasında saxlanılıb və Azərbaycan SSR-dən sürgün edilməsi ilə bağlı türmədən azad edilib. İ.P.Tissenə sonradan sürgün yerinə getmək şərtilə şəxsən ona məxsus əşyaları götürmək üçün köhnə yaşayış yeri olan Zaqatala şəhərinə getməyə icazə verilir, 2 yaşlı oğlu[7] da onunladır.[8]

Belə-belə işlər. Birisi Stalini söydü, obiri bunu vaxtında "lazım olan yerə" xəbər verməli və bununla da bütün həyatı alt-üst oldu! Komediya sayaq, yoxsa faciə?! Görünür, əsl tragikomediyadır!..

[1] AR MTN Arxivi, PR-21927, vv. 49-50.
[2] Yenə orada, vərəq 69.
[3] Yenə orada, vərəq 74.
[4] Yenə orada, vərəq 79.
[5] Yenə orada, vərəq 84.
[6] Arayışın surəti özəl arxivimizdədir.
[7] Əliəkbər.
[8] Arayışın surəti özəl arxivimizdədir.

Səlimov Hüseynqulu Kərbəlayı Yusif oğlu

(09.10.1889, Bakı – ?)

Zaqafqaziya Şiə Ruhani İdarəsinin 22 may 1904-cü ildə Tiflis şəhərində verdiyi şəhadətnamədən aydın olur ki, Bakı şəhəri Hacı Pirverdi cameəsinin 1889-cu ilə aid doğum kitabında qeyd olunub: Bakı şəhər sakini, 32 yaşlı Yusif Kərbəlayı Səlim oğlunun öz qanuni arvadı, 20 yaşlı Zəhra xanım Hacı Molla Cavad qızından oğlu Hüseynqulu 9 oktyabr 1889-cu ildə doğulub, bunu Molla Mirzə Baba Molla Talıb oğlu və Molla Şahbaz Xankişi oğlu təsdiqləyiblər. Bu doğumu kitabda 14 nömrə altında həmin cameənin mollası Axund Hacı Molla Əliəkbər Hacı Molla Məhəmmədrəsul oğlu qeydə alıb.[1]

Oxucularımız üçün də maraqlı olar ki, Hüseynqulunu Hacı Pirverdi cameəsinin doğum dəftərində qeyd edən Axund Hacı Molla Əliəkbər dahi öndər Məhəmmədəmin Rəsulzadənin atasıdır.


Səlimov 1 sentyabr 1907-ci ildən 8 iyun 1909-cu ilədək Bakı edadi (real) məktəbində oxuyaraq əsas bölmənin tam kursunu bitirib.[2] O, həmin məktəbin əlavə – səkkizinci sinfində 1 sentyabr 1909-cu ildən 8 iyun 1910-cu ilədək oxuyaraq həmin sinfi bitirib və aşağıdakı qiymətləri alıb:

Şəriət –	əla (5)
Rus dili –	kafi (3)
Alman dili –	kafi (3)
Fransız dili –	kafi (3)
Riyaziyyat, o sıradan:	
Hesab –	kafi (3)
Cəbr –	kafi (3)
Triqonometriya –	kafi (3)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	kafi (3)
Tarix –	yaxşı (4)
Təbiiyyatşünaslıq –	yaxşı (4)
Fizika –	kafi (3)
Riyazi coğrafiya –	kafi (3)
Rəsm –	kafi (3)
Qanunşünaslıq –	kafi (3).[3]

Rostovda yerləşən Varşava Politexnik İnstitutunun keçmiş tələbəsi Hüseynqulu Səlimov 5 iyul 1915-ci ildə Xarkov Texnologiya İnstitutunun direktoruna ərizə yazaraq onu avqust ayında müsabiqə sınaqlarına buraxmağı və sınaqları verərsə kimya bölümünə götürülməsini xahiş edib.[4]

15 iyul 1915-ci ildə verilmiş 8624 saylı vəsiqədə göstərilib ki, Bakı şəhər sakini Hüseynqulu Səlimov Zaqafqaziya müsəlmanı olduğuna görə hərbi mükəlləfiyyəti pulla ödəyir.[5]

[1] XVDA, fond 1682, siyahı 4, iş 3419, vərəq 19.
[2] Yenə orada, vərəq 20.
[3] Yenə orada, vv. 17-17a.
[4] Yenə orada, vərəq 1.
[5] Yenə orada, vərəq 8a.



Hüseynqulu Səlimov



Hüseynqulu Səlimovun doğum şəhadətnaməsi

H.Səlimova 17 iyul 1915-ci ildə onun siyasi etibarlılığı haqqında 14636 saylı şəhadətnamə verilib.[1]

Son iki sənəd ona Xarkov Texnologiya İnstitutuna girməkdən ötrü lazımdı.

Kimya bölümünün I kurs tələbəsi Səlimov 1915-ci ilin dekabrında Xarkov Texnologiya İnstitutu tədris komitəsinə yazdığı ərizədə bildirib ki, Varşava Politexnik İnstitutunun vəsiqəsini təqdim edərək xahiş edirəm ki, məni kimya bölümünün I kursu üçün nəzərdə tutulmuş çertyojlardan azad edəsiniz.[2] 12 fevral 1916-cı il tarixli ərizəsində isə onun Varşava Politexnik İnstitutunda verdiyi fənləri və təcrübi məşğələləri burada da nəzərə almağı xahiş edib.[3]

28 may 1916-cı ildə o, XTİ direktoruna yazdığı ərizədə bəyan edib ki, ağır həyat şəraiti üzündən, eləcə də hərbi müdafiə üzrə işlədiyimə görə I kurs minimumlarından analitik həndəsə fənnini verə bilməmişəm və bu fənni payız imtahanı müddətində verməyimə icazə verməyinizi xahiş edirəm.[4]

[1] XVDA, fond 1682, siyahı 4, iş 3419, vərəq 4.
[2] Yenə orada, vərəq 5.
[3] Yenə orada, vərəq 6.
[4] Yenə orada, vərəq 15.

* * *

Xarkov Texnologiya İnstitutu kimya bölümü VI semestrinin tələbəsi H.Səlimov 19 avqust 1919-cu ildə Müsəlman Tələbə Komitəsi vasitəsilə xalq maarif nazirinə yazdığı ərizədə təhsilini Xarkovda davam etdirmək istədiyini bildirib, Bakıdakı ünvanını 2-ci Paralel[1] küçəsi 109 saylı ev kimi göstərib.[2]

23 noyabr 1919-cu ildə Bakıda AC xalq maarif nazirinə yazdığı ərizəsində o, Xarkova getmək üçün ona çatası təqaüdün verilməsini xahiş edib.[3]

Nazir Xalq Maarif Nəzarətinin mühasibinə 24 noyabr 1919-cu ildə 13358 saylı belə bir təliqə göndərib ki, Rusiyaya ali təhsilini davam etdirmək üçün getməkdən ötrü tələbə Hüseynqulu Səlimova 21 min manat yazmağınızı təklif edirəm, həmin məbləğdən 18 min manat bugünkü gündən 6 aylıq dolanışıq üçün və 3 min manat yolpuludur.[4]

Şübhəsiz ki, Hüseynqulu bu pulu alıb, ancaq yollar bağlı olduğuna görə Xarkova gedə bilməyib.

Səlimov 27 noyabr 1919-cu ildə Maarif Nəzarətinə yazdığı ərizədə tələbə yoldaşı İsmayıl Yüzbaşınskiyə çatacaq 6000 manatın ona verilməsini (yiyəsinə çatdırmaqdan ötrü) xahiş edib və Rəşid xan Qaplanov buna icazə verib.[5]

* * *


XTİ 3-cü kurs tələbəsi Səlimov məsai nazirinə 8 mart 1920-ci ildə ərizə yazaraq ona müfəttiş yeri verilməsini xahiş edib və bildirib ki, mən Xarkov şəhərindəki zavod və fabriklərdə 3 il işləmişəm və fabrik-zavod müəssisələri məişət və qaydaları ilə, həmin müəssisələrdə fəhlələrin əmək şəraiti ilə yaxşı tanışam, bunlardan başqa daftərxana üzrə də yetərincə təcrübəm var. Ərizənin üstündə məsai naziri Ə.b.Pepinov 15 apreldə belə bir dərkənar yazıb: "Şəki əmək müfəttişinin müavini Lütfəlibəyovu kənarlaşdırmalı və onun yerinə ərizəçini təyin etməli".[6]

Baş məsai müfəttişi Azərbaycan Cümhuriyyəti Məsai Nəzarətinə[7] 22 aprel 1920-ci ildə göndərdiyi məktubda 3-cü rayon əmək müfəttişinin xəstəliyinə görə məzuniyyətdə olduğu üçün təcili Şəki rayonuna əmək müfəttişi təyin edərək oraya göndərməyi xahiş edib. Məhəmməd bəy Hacıyev həmin ərizənin üzərində 27 aprel 1920-ci ildə (Cümhuriyyətin son günündə) Hüseynqulu Səlimovun həmin gündən Şəki rayon əmək müfəttişi təyin edilərək oraya göndərilməsi haqqında dərkənar qoyub.[8]


* * *

Azərbaycan İnqilab Komitəsinin sədri və xarici işlər komissarı Mirzədavud Hüseynovun imzası ilə AİŞC Xalq Xarici İşlər Komissarlığından 1 dekabr 1921-ci ildə verilmiş 1011 saylı vəsiqədə Hüseynqulu Səlimovun həqiqətən Azərbaycan İnqilab Komitəsinin İranda səlahiyyətli nümayəndəliyinin katibi olduğu təsdiqlənib.[9]

[1] İndiki Bala Məcidov küçəsi.
[2] ARDA, fond 51, siyahı 3, iş 124, vərəq 4.
[3] Yenə orada, vərəq 3.
[4] Yenə orada, vərəq 2.
[5] Yenə orada, iş 142, vərəq 1.
[6] Yenə orada, fond 7, siyahı 3, iş 47, vərəq 2.
[7] Əmək Nazirliyi.
[8] ARDA, fond 7, siyahı 3, iş 47, vərəq 1.
[9] XVDA, fond 1682, siyahı 4, iş 3419, vərəq 3.



1



2



3

1. Hüseynqulu Səlimovun Rusiyaya oxumağa gedə bilməməsi haqqında sənəd. 14 dekabr 1920-ci il.
2. Hüseynqulu Səlimova təqaüd verilməsi haqqında sənəd. 24 noyabr 1919-cu il. 3. Hüseynqulu Səlimovun İranda Azərbaycan İnqilab Komitəsi Müvəkkilinin katibi olması haqqında arayış

14 dekabr [1921-ci ildə] verilmiş 13306 saylı vəsiqədə göstərilib ki, keçmiş Xalq Maarif Nəzarətinin işlərindən göründüyü kimi, yol. Səlimov 1919-cu ildə dövlət hesabına ali təhsilini bitirməkdən ötrü Rusiyaya göndərilmiş təqaüdçülər siyahısına salınıb, ancaq onun getməsi özündən asılı olmayan səbəblər üzündən baş tutmayıb.[1]

Xarkov Texnologiya İnstitutu kimya bölümünün keçmiş VI semestr tələbəsi Hüseynqulu Səlimov həmin fakültənin dekanına 26 fevral 1922-ci ildə zaçot kitabçasını təqdim edərək onu kimya bölümünün uyğun trimestrinə[2] keçirməyi xahiş edib.[3] Bu ərizədə diqqəti cəlb edən odur ki, Səlimov Xarkovdakı ünvanını belə göstərib: *Yaroslav küçəsi, 31-ci ev, Yüzbaşınskinin otağı*. Buradan aydın olur ki, Hüseynbala İsmayıl Yüzbaşınski ilə bir yerdə qalırmış.

Bu ərizənin altında karandaşla belə bir qeyd əlavə olunub ki, Xarkovdan 1917-ci ilin sonunda bahalıq və pulsuzluq üzündən getmişəm. Bakıda sovet hakimiyyəti qurulana qədər ərzaq bölməsində kargüzar işləmişəm, sovet hakimiyyəti gələndən sonra isə əvvəlcə qiymətləndirmə komissiyasının sədri, sonra isə ASSR-in İrandakı diplomatik nümayəndəliyinin katibi təyin edilmişəm. Nümayəndəlik ləğv edildikdən sonra öz xahişimlə təhsilimi davam etdirmək üçün buraya gəlmişəm.[4]

[1] ARDA, fond 51, siyahı 3, iş 124, vərəq 1.

[2] Əski Rusiya ali məktəblərinin bəzilərində dərs ili hərəsi 3 ay (10-12 həftə) olan 3 trimestrə bölünürdü.

[3] XVDA, fond 1682, siyahı 4, iş 3419, vərəq 2.

[4] Yenə orada.

Sultanov Baxış bəy İsmayıl bəy oğlu

(10.09.1894, Armudlu k./ Zəngəzur – 04.10.1977, Bakı)



Nəriman Nərimanov texnikumunun müəllimi Baxış bəy Sultanov

Baxış bəy[1] Sultanov Rusiya tələbələrindəndir.

Keçmiş SSRİ-də neft sənayesi üzrə ən sayılan mütəxəssislərdən olub.

Bizcə, həyatı ilə tanış ola biləcəyimiz ən yaxşı yazını qızı, bəstəkar Asya Sultanova Moskvada çıxan "Azerros" qəzetində yazıb.[2] Həmin məqalənin qısa xülasəsini veririk.

Atası haqqında xatirələrini oxucularla bölüşən Asya xanım bildirir ki, atamın böyük ailəsi Zəngəzurda mədənlərin yiyəsi idi. Baxış bəy Şamaxı real məktəbini bitirdikdən sonra Novoçerkassk şəhərinə gedərək orada Politexnik İnstituta girib. Mühəndis ixtisasını aldıqdan sonra Azərbaycana qayıdıb, inşaatçı işləyib, çoxlu gözəl binalar tikib.

Xeyli vaxt keçdikdən sonra atam birdən-birə peşəsini dəyişərək özünü bütünlüklə neftçiliyə həsr edib. O, Azərneftdə çalışaraq uğurlar qazanıb. Lökbatanda neft mədəninin açılıb işlənilməsi onun adı ilə bağlıdır. Burada neftin olub-olmaması ilə bağlı atamla akademik Qubkin arasında uzun peşə mübahisələri gedib.

13 aprel 1933-cü ildə Lökbatan dağının ətəyində palçıq vulkanlarının yanında yeni quyu qazılıb, bir qədər sonra elə bir hadisə baş verib ki, bütün gözləntiləri də üstələyib – 15 qatlı ev hündürlüklə neft sütunu fışqırıb və bu fəvvarə 16 gün davam edib. Beləliklə, Lökbatan mədəni açılıb, atamın xidmətlərini bəyənən Stalin ona "M-1" ilk sovet maşınını hədiyyə edib. Atam milli qəhrəmana çevrilib. 1933-cü ildə 2 film çəkilib: "Ən yaxşı ləpirçi" və "Neft simfoniyası". Burada kəşfiyyatçı-geoloqlardan, o sıradan atamdan və bu quyudan da danışılıb.

1937-ci ildə atamı XDİK həbs edib, gecə saat 2-də gəlib evdə axtarış aparıblar, 10 gündən sonra hamımızı mənzildən bayıra atıblar. Atama qarşı 3 maddə irəli sürmüşdülər: ziyançılıq, əks-inqilabi fəaliyyət, sabotaj. Bu vaxt anamın qardaşları Əhməd Rəcəbli və genetik İbrahim Rəcəbli də artıq siyasi maddələrlə tutulmuşdular. Belə bir durumda ailəmizin vəziyyəti dözülməz idi.

Atamın istintaqı 4 il gedib. Bundan sonra ittihamın əsassızlığına görə üzr istəyərək onu azad ediblər, işinə bərpa ediblər və keçmiş mənzilini ailəsinə qaytarıblar. Bundan sonra atam müəllimlik fəaliyyəti ilə məşğul oldu, Neft Akademiyasında mühazirələr oxudu, professor oldu, neft mədənləri üzrə məsələlərdə məsləhətçi oldu, geoloji-kəşfiyyat səfərlərinə rəhbərlik etdi. Ömrünün son illərində o, "Neftyanoe xozyaystvo" jurnalında çap olunurdu. Bu vaxtadək o, neft yataqlarının işlənilməsi haqqında bir neçə kitabın müəllifi idi.

Atam 85 il ömür sürüb və ömrünün sonunadək işləyib.

* * *

İndi isə növbə arxiv sənədlərinindir.

Don Politexnik İnstitutunun tələbəsi Baxşəli bəy Sultanova 6 may 1917-ci ildə verilmiş 2318 saylı şəhadətnamə talonunda göstərilib ki, o,Yevlax stansiyasından Novoçerkassk stansiyasınadək 3-cü dərəcəli biletlə güşəstlə gedə bilər.[3]

[1] Adı bir sıra qaynaqlarda "Baxşəli bəy" kimi işlədilib.

[2] *Султанова А.* Легендарный нефтяник. // «*Азеррос*», VI.2005, № 11 (63), s. 8.

[3] ARDA, fond 51, siyahı 3, iş 128, vərəq 2.

Don Aleksey Politexnik İnstitutunun 3-cü kurs tələbəsi Baxşəli bəy Sultanov "ermənilərin dağıtdığı Zəngəzur qəzası Tanzaver[1] kəndinin sakini" imzası ilə AC maarif nazirinə (yəqin ki, 1919-cu ilin avqustunda) yazdığı ərizəsində hökumət hesabına xaricə göndəriləcək tələbələr sırasına salınmasını və mümkün olarsa onu Rusiyaya, Kiyev Politexnik İnstitutuna göndərməyi xahiş edib.[2]

Qarabağ müvəqqəti hərbi valisinin 16 avqust 1919-cu ildə Şuşada verdiyi arayışa görə, Zəngəzur qəzası Danzaver[3] kəndinin sakini, tələbə Baxış bəy Sultanovun ali məktəbə girməsinə yerli hakimiyyətin və 8 nəfərdən ibarət ailəsinin heç bir etirazı yoxdur. Ermənilər darmadağın etdiklərinə görə onun valideynləri bütün əmlaklarını itiriblər və ona öz hesablarına təhsil vermək gücündə deyillər.[4]

Cümhuriyyət hökumətinin Qərbi Avropa və Rusiyaya göndərdiyi tələbə və abituriyentlərin 7 noyabr 1919-cu ildə ümumi yığıncağı keçirilib. Orada göndərilənlərin 5 nəfərdən ibarət müvəqqəti bürosu seçilib. Büroya bu şəxslər seçiliblər: Mustafa Vəkilov, Ağalar İsgəndərli, Baxış Sultanov, Umbay Əmirov və Əliəkbər Əliyev.[5]

Baxşəli bəy Sultanov AC maarif nazirinə 12 noyabr 1919-cu ildə yazdığı ərizədə xahiş edib ki, hökumət hesabına xaricə (Rusiyaya) göndəriləcək təqaüdçülər siyahısına salındığıma görə mənə düşən bir illik payı verəsiniz. Bununla bildirirəm ki, bəzi məcburi praktik işləri yerinə yetirməliyəm, ona görə də Rusiyada yaşamaqdan ötrü zəruri olan birillik məbləği mənə qabaqcadan verəsiniz.[6]

Əlbəttə, hər istəməklə pul verilməz – bunun üçün öhdəlik götürmək də lazımdı. Baxış bəy Sultanov 21 noyabr 1919-cu ildə Bakı şəhərindəki Rusiya ali məktəblərinə göndərilən bütün təqaüdçülərlə ümumi əsaslarda Azərbaycan Cümhuriyyəti təqaüdçüsünün üzərinə düşən bütün şərtləri institutu bitirdikdən sonra yerinə yetirəcəyi haqqında dilkağızı verib.[7]

Bundan sonra nazir 24 noyabr 1919-cu ildə Xalq Maarif Nəzarətinin mühasibinə 13371 saylı belə bir təliqə göndərib ki, Rusiyaya ali təhsilini davam etdirmək üçün getməkdən ötrü tələbə Baxış bəy Sultanova 21 min manat yazmağınızı təklif edirəm, həmin məbləğdən 18 min manat bugünkü gündən 6 aylıq dolanışıq üçün və 3 min manat yolpuludur.[8]

Beləliklə, Baxış bəy Cümhuriyyət təqaüdçüləri sırasına keçib. Ancaq o da başqa Rusiya tələbələri kimi Cümhuriyyət dönəmində oraya getməyib. Burası bəllidir ki, Don Politexnik İnsitutunu 1926-cı ildə bitirib, dağ mühəndisidir.[9]

* * *

Sovet hakimiyyəti Baxış bəy Sultanov üçün əsla xoş başlamayıb. Azərbaycan İctimai Şura Cümhuriyyəti Ali İnqilabi Məhkəməsi 13 iyun 1920-ci ildə sədr Haciliasın sədrliyi altında Baxış bəy Sultanovun əks-inqilabda və yoxsul kəndli əhalini sıxışdırmaqda ittiham edildiyi 15 sayl işi gözdən keçirib. Müttəhim Baxış bəy Sultanov özünü suçlu saymayıb. Çoxlu kəndlilərin şahid ifadələri dinlənilib. Məhkəmə Baxış bəy Sultanovu kasıb əhalini sıxışdırmaqda, kasıb sinfin əkinlərini korlamaqda və kasıb kəndliləri qarət etməkdə günahkar sayıb və onu vətəndaş müharibəsi bitənədək icbari əməyə cəlb etməklə zindanda saxlamağa məhkum

[1] B.b.Sultanovla bağlı yazılarda "Danzaver" / "Tanzaver" adı tez-tez təkrarlanır. Ermənilər bizim *Armudlu* kəndinin adını öz dillərinə tərcümə edərək "Danzaver" ediblər, ona görə də kəndin adını ermənicə işlətmək doğru deyil.
[2] ARDA, fond 51, siyahı 3, iş 128, vərəq 1.
[3] Armudlu.
[4] ARDA, fond 51, siyahı 3, iş 128, vərəq 3.
[5] Yenə orada, fond 895, siyahı 1, iş 174, vv. 1-2.
[6] Yenə orada, fond 51, siyahı 3, iş 128, vərəq 4.
[7] Yenə orada, vərəq 5.
[8] Yenə orada, vərəq 6.
[9] AR MTN Arxivi, PR-18701, I cild, vərəq 37a.

edib. Əmlakı və mal-qarası müsadirə edilib. "Hökm saat 14:45 dəqiqədə elan edilib, qətidir, ləngimədən qüvvəyə minir və şikayət etmək olmaz". 13 iyun 1920-ci ildə hökmün surəti Azərbaycan KP MK-ya məlumat üçün göndərilib.[1]

Çox maraqlıdır ki, bu hökm çıxarılandan 3 gün sonra – 16 iyun 1920-ci ildə XMK Kollegiyasının iclası olub. 8-ci məsələ tələbə Baxış Sultanova Əliheydər Qarayev və Çingiz İldırımın şifahi zəmanətinə əsasən peşə məktəbləri şöbəsinin müdiri vəzifəsinin verilməsi haqqındadır. Kollegiya belə qərar çıxarıb: bu il 12 iyundan peşə təhsili təşkilatına təlimatçı təyin etməklə Sultanova təklif edilsin ki, ona tapşırılacaq iş məsuliyyətli olduğuna görə Qarayev və İldırım yoldaşlardan yazılı zəmanət alsın və bundan sonra uyğun əmr tərtib edilsin.[2]

Görəsən, qohumu Çingiz İldırım (Sultanov) onun haqqında hökmü ləğv etdirdi, yoxsa başqa bir gözlənilməz hadisə baş verdi? Təəssüf ki, bu gün sənəd yoxluğu üzündən bu sorğunu cavabsız buraxmalı oluruq.

Tezliklə Baxış bəyi Xalq Maarif Komissarlığı (XMK) texniki-inşaat şöbəsinin müdiri vəzifəsində görürük. O, rəhbərlik etdiyi şöbənin işini yaxşılaşdırmaq üçün dəfələrlə faydalı təkliflər verib, görülən işlərin qarşısındakı əngəlləri açıqlayıb. Onun XMK Komissiyasına yazdığı ərizə bu baxımdan maraq doğurur:

"Qəzalarda XMK-nın tabeliyindəki müəssisələrin təmiri işləri başlandığına görə XMK Kollegiyasının nəzərinə bunları çatdırmağı özümə borc bilirəm ki, yerlərdə artıq işə başlamış texnikləri tutub saxlamaq üçün və işə zəruri olan hələ xeyli sayda texniki qüvvənin cəlb edilməsi üçün elə indidən onlardan ötrü tam məqbul olan iş şərtlərini müəyyənləşdirmək gərəkdir. Bu şərtlərə hər şeydən öncə onların əməyinə yetik maaş verilməsi, paltar, ayaqqabı və ağın alınmasına zəmanət aiddir. Birinci məsələ, məncə, yalnız bu vaxt müsbət həll edilə bilər ki, qəzaya göndərilən texniklərə müəyyən edilmiş ezamiyyə pullarından başqa, işlərin icrasına görə məbləğdən də 5%-lik mükafat verilsin; belə bir iş XMK Kollegiyasının icazəsi ilə Bakıda işləyən şöbə texniklərinə tətbiq edilib. Hal-hazırda Fəhlə-Kəndli Müfəttişliyi AHİŞ-in telefonoqramına əsasən texniklərə bu faizləri buraxmır. Bakı şəhərində yaşayan texniklərin müvəqqəti olaraq barışa biləcəyi şərtlərlə qəzalarda müqayisə ediləməyəcək dərəcədə çətin şəraitdə işləyən texniklər razılaşa bilməz. Özü də, onları başqa müəssisələr istehsalat mükafatları və başqa güzəşt və üstünlüklər təklif etməklə özlərinə dəvət edir. Bu deyilənlərə əsasən, XMK Kollegiyasından bunları xahiş edirəm:

1) Qəzaya göndərilən texniklərin ezamiyyə pullarından başqa, yerinə yetirilən işlərin məbləğindən 5%-lik əlavə haqq alması hüququ təsdiq edilsin.

2) Onlara iş vaxtı köhnəlib sıradan çıxmışların yerinə yeni paltar, ayaqqabı və ağ verilməsinə zəmanət verilsin.

3) Qəzada işlər üçün zəruri olan materialların və alətlərin satın alınmasından ötrü texniki-inşaat şöbəsinin nümayəndələri ilə birlikdə komissiya yaradılsın və onların alınmasına 100.000.000 kredit açılsın.

4) Təchizat şöbəsinə, texniki-inşaat şöbəsinə verməkdən ötrü faytonu təmir edib çatdırmaq haqqında sərəncam verilsin, çünki o olmadıqda bir-birindən uzaqda yerləşən müəssisələrlə və qəzalar üçün texniki və fəhlə qüvvəsinin, materialların alınmasına cavabdeh olan şəxslərlə əlaqə yaratmaq heç cür mümkün deyil. Hal-hazırda şöbənin üstündə olan bir yerlik maşın, təkəri xarab olduğuna görə sıradan çıxıb və ümumiyyətlə, hətta saz olanda belə işə yaramır, çünki onda yalnız bir adam gedə bilər, halbuki hər yerdə bütöv komissiya ilə gəzməli olursan.

5) Hər qəza üçün məktəblərin təmirinə 100.000.000 manat kredit açılsın".[3]

[1] ARPİİSSA, fond 1, siyahı 1, iş 89, vərəq 2.
[2] ARDA, fond 57, siyahı 1, iş 23-I, vv. 163-163a.
[3] Yenə orada, fond 51, siyahı 1, iş 177, vv. 109-111.

Baxış bəyin sonrakı həyatı qızı Asya xanımın məqaləsində təsvir edildiyinə görə biz incəliklərə varmırıq. Növbəti ən mühüm sənədlər onun istintaq işindəndir.

* * *



Baxış bəy Sultanov həbsdə. 1937

Baxış bəy İsmayıl bəy oğlu Sultanovun AR MTN Arxivində saxlanılan PR-18701 şifrəli istintaq işi 2 cildədir. 28 oktyabr 1937-ci ildə başlayıb 8 aprel 1938-ci ildə bitib. I cild 197 vərəq, II cild 135 vərəqdir.

27 oktyabr 1937-ci ildə Azərb. XDİK DTİ rəisi Sumbatovun 26 aprel 1937-ci ildə təsdiqlədiyi arayışda onun haqqında göstərilib ki, 1892-ci ildə Donzover kəndində doğulub, kürddür, SSRİ vətəndaşıdır, ali-texniki təhsillidir, bəy ailəsindəndir, qulluqçudur, "Molotovneft" trestinin keçmiş baş geoloqudur. Bu arayışda izahat verilib ki, Azərb. XDİK DTİ-nin Azərbaycan neft sənayesindəki ləğv etdiyi əks-inqilabi, trotskiçi, ziyançı-təxribatçı təşkilatın işi üzrə istintaqda müəyyənləşib ki, Sultanov Baxış bəy bu əks-inqilabi təşkilatın üzvü olub və onu buraya təşkilatın rəhbərlərindən biri A.P.Peterson cəlb edib. [1]

29 oktyabr 1937-ci il dindirməsinin protokolundan öyrənirik ki, Bakıda I Qanlıtəpə[2] küçəsində 64 saylı evdə yaşayır, kürddür. Ailə tərkibi: arvadı Zara Cabbar qızı[3] – 35 yaş, AQSİ-də ingilis dili müəllimidir; qızı Leyla – 15 yaş, oxuyur; qızı Asya – 14 yaş, oxuyur; qızı Elmira – 10 yaş; qayınanası Kübra Rəcəbli (yaşı oxunmur), evdar. Onların hamısı bir ailə kimi mənim mənzilimdə yaşayır. Məndən ayrı yaşayanlar – qardaşım Musa 28 yaş, Lökbatanda mühəndis işləyir. Bacım Diləfruz, 38 yaş.

Bundan sonra o, bacıları Məlahətin (23 yaş), Rəxşanənin (35 yaş), Dildadənin (22 yaş), adı oxunmayan 29 yaşlı bacısının adını çəkir.[4]

22 mart 1938-ci ildə istintaqın bitməsi elan edilib.[5] Özünü günahkar saymayıb.[6]

19 aprel 1938-ci ildə Bakıda qapalı məhkəmə keçirilib və iş yenidən istintaqa qaytarılıb.[7]

İstintaq işinin II cildi 1934-cü ilin dekabrında keçirilmiş neftçi geoloqların Ümumittifaq müşavirəsində geoloq Sultanovun məruzəsinin mətni ilə başlayır.[8]

13 noyabr 1939-cu ildə istintaqın bitməsi haqqında yeni protokol tərtib edilib.[9]

14 avqust 1939-cu ildə Ermənistan SSR XDİK Qafan rayon şöbəsi ASSR XDİK Bakı şəhər şöbəsinin rəisinə belə bir cavab yazıb:

"Qafanda Azərbaycan kəndlərinin dağıdılmasınadək, yəni 1918-ci ilədək Donzaver kəndində Sultanovlar məşhur mülkədarlar (bəylər) idi. Soruşduğunuz Sultanov Baxşı bəy İsmayıl oğlu onlardandır və bizim rayondan 1917-18-ci illərdən sonra gedib və onların bir çoxu sovetləşmədən sonra İrana keçib".[10]

29 may 1940-cı ildə XDİK-nın tərtib etdiyi və ASSR xalq daxili işlər komissarı Yemelyanovun 8 iyun 1940-cı ildə təsdiqlədiyi qərara əsasən[11] B.Sultanovun günahı sübut edilmədiyinə görə həbsdən azad edilib.

[1] AR MTN Arxivi, PR-18701, I cild, vərəq 1.
[2] İndiki Salatın Əsgərova.
[3] Əhməd Rəcəblinin bacısıdır.
[4] AR MTN Arxivi, PR-18701, I cild, vv. 37-37a.
[5] Yenə orada, vərəq 91.
[6] Yenə orada, vərəq 95.
[7] AR MTN Arxivi, PR-18701, I cild, vv. 100-101.
[8] Yenə orada, II cild, vv. 208-216.
[9] Yenə orada, vərəq 258.
[10] Yenə orada, vərəq 296.
[11] Yenə orada, vv. 330-335.

13 iyun 1940-cı ildə B.Sultanov belə bir dilkağızı imzalayıb:

"Mən Sultanov Baxış bəy İsmayıl oğlu bu dilkağızını ona görə verirəm ki, Azərb. XDİK dustaqxanalarında olduğum zaman istintaqın mənə bəlli olan üsulları haqqında hər şeyi ən ciddi şəkildə qoruyub saxlayacağam. Bununla yanaşı, həm də Azərb. XDİK türmələrində görüşdüyüm kamera yoldaşlarım haqqında mənə bəlli olan hər bir şeyi gizli saxlamağı öhdəmə götürürəm. Azərb. XDİK istintaq hissəsi sirri açmaq üstündə məsuliyyət haqqında məni xəbərdar edib".[1]

9 iyun 1940-cı ildə ona 6412 saylı belə bir arayış verilib ki, işinin xətm edilməsi ilə əlaqədar olaraq azadlığa buraxılıb.[2]

6 dekabr 1955-ci ildə Moskva şəhərində onun 29 may 1940-cı il hökmü qüvvədən salınıb və cinayət tərkibi olmadığına görə onun işinə xitam verilib.[3]

[1] AR MTN Arxivi, PR-18701, I cild, vv. 336-336a.
[2] Yenə orada, vərəq 338.
[3] Yenə orada, vərəq 342.

Sultanov İsgəndər bəy Rüstəm bəy oğlu

(25.05.1897, Qasımuşağı k./ Zəngəzur – 1942, Zərəfşan/ Özbəkistan)



İsgəndər bəy Sultanov

Ali təhsilini Almaniyada almış İsgəndər bəy Sultanov özünün potensialını üzə çıxarmağı bacarmadan məhv edilmiş aydınlarımızdandır. Cümhuriyyət dönəmində ən mühüm vəzifələrdə bulunmuş Xosrov bəy Sultanovun qardaşı oğlu olan İsgəndər bəy Sovet hakimiyyətinə nifrət bəsləyib və adamlar arasında Stalini söydüyünə görə məhv edilib. Təəssüf ki, bu mübariz şəxsiyyət haqqında Azərbaycanda indiyədək əl boyda yazı da yazılmayıb.

* * *

Zaqafqaziya Müsəlmanlarının Ruhani İdarəsindən 27 sentyabr 1908-ci ildə verilmiş 2459 saylı şəhadətnamədə göstərilib ki, Gəncə valiliyi Zəngəzur qəzası Qasımuşağı kəndinin sakini İsgəndər bəy öz atası Rüstəm bəy Sultanovun qanuni arvadı Balış xanım Mustafa bəy qızından[1] 25 may 1897-ci ildə doğulub.[2]

21 may 1916-cı ildə Bakı şəhərində verilmiş 265 saylı attestatda yazılıb: müsəlman, 25 may 1897-ci ildə doğulmuş, mühəndis-texnoloqun oğlu İsgəndər bəy Rüstəm bəy oğlu Sultanov 20 yanvar 1909-cu ildə Bakı Kommersiya Məktəbinə girərək orada 21 may 1916-cı ilədək oxuyub və təlimin tam kursunu bitirib. Tədris kursunu keçərkən, eləcə də keçid və buraxılış imtahanlarında Sultanov aşağıdakı uğurları göstərib:

Şəriət –	beş (5)
Rus dili və ədəbiyyatı –	üç (3)
Alman dili –	dörd (4)
Fransız dili –	üç (3)
Tarix –	dörd (4)
Coğrafiya –	beş (5)
Riyaziyyat, o sıradan:	
Hesab –	dörd (4)
Cəbr –	üç (3)
Həndəsə –	üç (3)
Triqonometriya –	üç (3)
Analitik həndəsə –	dörd (4)
Kosmoqrafiya –	dörd (4)
Təbii tarix –	beş (5)
Fizika –	beş (5)
Ticarət hesabı –	üç (3)
Mühasibat –	dörd (4)
Ticarət yazışması –	dörd (4)
Siyasi iqtisad –	dörd (4)
Qanunşünaslıq –	dörd (4)
Kimya və texnologiya ilə əmtəəşünaslıq –	dörd (4)

[1] İsgəndər bəy 15.5.1935-ci il tarixli dindirməsində bildirib: "Mənim doğma anam Popova Mariya Andreyevnanın 60 yaşı var, arteldə işləyir, 30 ildən artıqdır ki, atamdan boşanıb. Poluxin 69-da yaşayır" (bax: AR MTN Arxivi, PR-41006, vərəq 43).

[2] KŞDA, fond 153, siyahı 5, iş 7731, vərəq 4.

Ticarət coğrafiya –	beş (5)
Xəttatlıq, rəsmxət, rəsm –	beş (5)
Türk dili –	dörd (4).[1]

1916-cı ildə Bakı Kommersiya Məktəbini bitirən İsgəndər bəy elə həmin ilin iyulunda Kiyev Kommersiya İnstitutuna girmək istəyib. Ancaq bundan ötrü ona bəzi sənədləri toplamaq gərəkdi.

Balaxana-Sabunçu Polis İdarəsindən 22 iyun 1916-cı ildə verilmiş 7299 saylı vəsiqədə göstərilib ki, Gəncə valiliyi Zəngəzur qəzası Qasımuşağı kəndinin sakini İsgəndər bəy Rüstəm bəy oğlu Sultanov həmin valiliyin bəylərindəndir.[2]

Həmin idarədən həmin gün verilmiş 7300 saylı başqa bir vəsiqədə Zaqafqaziya müsəlmanı olduğuna görə İsgəndər bəyin hərbi mükəlləfiyyət daşımadığı göstərilib.[3]

Doğum haqqında şəhadətnaməni və təhsil haqqında şəhadətnaməni də bunlara əlavə edən İsgəndər bəy 1916-cı il iyunun sonunda Kiyev Kommersiya İnstitutunun direktoruna yazdığı ərizədə təqdim etdiyi sənədləri sadalayıb və həmin institutun iqtisad bölməsinin dinləyiciləri sırasına götürülməsini xahiş edib. Ərizənin üstündə onun iqtisadiyyat bölümünə götürülməsi haqqında 7 iyul tarixli qeyd var.[4]

Onun Kiyev arxivindəki şəxsi işində həmin institutda oxuması haqqında heç bir qeydə rast gəlmədik. Ancaq özü istintaqda belə deyib: *"...1916-cı ildə Moskvaya getdim və Kommersiya İnstitutuna girdim. Oktyabr inqilabından qabaq Bakıya qayıtdım"...*[5]

İ.b.Sultanovun 1816-1918-ci illər arasında nə iş görməsi aydınlaşdırılmalı məsələdir. Ancaq 1918-1920-ci illər arasındakı fəaliyyəti aydındır – əsasən əmisi Xosrov bəy Sultanovun yanında olub. Xosrov bəy Qarabağın hərbi valisi olarkən İsgəndər bəy Şuşada onun şəxsi yaveri işləyib və ermənilərlə döyüş zamanı gözünün birini itirib. (Tələbələrlə çəkdirdiyi şəkildə onu tanımaq asandır – bir gözü bağlı olur).

Cümhuriyyət xaricə tələbə göndərmək istədiyi zaman onun da adı tam ədalətli olaraq dövlət təqaüdçüləri siyahısına salınıb.

Şuşa Qəza Polis İdarəsindən verilmiş pasportda göstərilib ki, bunu təqdim edən Gəncə valiliyi Zəngəzur qəzası Qasımuşağı kəndinin sakini İsgəndər bəy Rüstəm bəy oğlu Sultanov Azərbaycan Cümhuriyyətinin müxtəlif şəhər və kəndlərinə 20 avqust 1919-cu ildən buraxılıb.[6] Görünür ki, bu pasrort ona Azərbaycan daxilində sərbəst hərəkət edə bilməsi üçün verilibmiş.

Hökumət hesabına tələbələrin xaricə göndərilməsi üzrə Komissiyaya Leyla xanım Sultanovanın yazdığı tarixsiz, ancaq Xalq Maarif Nəzarətində 18 noyabr 1919-cu ildə qeydə alınmış ərizədə yazılıb ki, qardaşım, indi Zəngəzur cəbhəsində olan İsgəndər Sultanovun 6 fotoşəklini də bu ərizəyə əlavə edərək Komissiyanın nəzərinə çatdırıram ki, qardaşım təhsilini Frayberqdə Dağ-Mədən İnstitutunda bitirmək istəyir.[7]

Təqaüdçü İsgəndər bəy Sultanov Şuşadan 19 noyabr 1919-cu ildə teleqram vurub ki, sənədlərini avqustda, fotoşəkilləri bu gün poçtla göndərib, gecikmə fotoların olmamasına görə idi.[8]

[1] ARDA, fond 51, siyahı 3, iş 127, vərəq 4.
[2] KŞDA, fond 153, siyahı 5, iş 7731, vərəq 5.
[3] Yenə orada, vərəq 6.
[4] Yenə orada, vərəq 1.
[5] AR MTN Arxivi, PR-41006, vərəq 36.
[6] ARDA, fond 51, siyahı 3, iş 127, vərəq 3.
[7] Yenə orada, vərəq 1.
[8] Yenə orada, vərəq 2.

İsgəndər bəy Sultanova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 571 saylı vəsiqə 15 yanvar 1920-ci ildə verilib.[1]

Sultanov Berlində Şarlottenburq Politexnik İnstitutuna girərək orada 1920-ci ildən 1928-ci ilədək oxuyub. 1933-cü ildə SSRİ-yə dönüb.

* * *



İsgəndər bəy Sultanov. Almaniya

İsgəndər Rüstəm bəy oğlu Sultanovun ittihamı üzrə AR MTN Arxivində saxlanılan PR. 41006 şifrəli istintaq işi 15 may 1935-ci ildə başlanıb, 27 sentyabr 1935-ci ildə qurtarıb və 213 vərəqdir. Bu sənədlər toplusunda onun həyatı ilə bağlı çox maraqlı faktlar əksini tapıb.

İsgəndər bəy Sultanovun həbs edilməsi üçün Tiflis şəhərində 17 may 1935-ci ildə ZSFSR daxili komissarının müavini Abulyanın,[2] Bakıda isə XDİK DTİ rəisi Sumbatovun 15 mayda təsdiqlədiyi[3] 2 qərar çıxarılıb. Həmin qərarlarda Sultanovun partiya və sovet hakimiyyəti nümayəndələrinə qarşı terror etmək niyyətində olduğu, buna görə də tapıldığı yerdə həbs edilməsi qərara alınıb. Sumbatovun imzaladığı qərarın arxasında, Sultanovun ola biləcəyi bu ünvanlar göstərilib:

1) Məmmədova Ziba – Mirzə Fətəli küçəsi, 6-cı döngə, 3-cü ev
2) Xıdırbəyli Diləfruz – Əzizbəyov[4] küçəsi 26
3) Şıxzadə Leyla – Kaqanoviç[5] küçəsi 1
4) Sultanova Dilarə və Rüstəm bəy – Malıgin[6] küçəsi 2, mənzil 21 (10)
5) Kurlyova – Aziatski[7] küçəsi 22
6) Sultanovun iş yeri – Suraxana, Elektrokəşfiyyat
7) Popova [Mariya][8] – Poluxin[9] küçəsi, 69.[10]

Əməliyyat müvəkkili Botman 15 may 1935-ci ildə Azərb. XDİK DTİ Özəl Bölümü rəisinin köməkçisi Qavrilova raport yazıb ki, bu gün Sultanov İsgəndər bəy Rüstəm bəy oğlu Lenin rayonu fabrik mətbəxində nahar edərkən görünüb. Naharı bitirib yeməkxanadan çıxarkən saat 15:35 dəqiqədə Sultanov tutulub və maşında Azərb. XDİK DTİ-nə gətirilib. Həmin saat onun qohumlarının ünvanlarında axtarışlar aparılıb.

Onun yaşadığı qadının mənzilindəki axtarış Məjlumovun ünvanından başqa bir şey verməyib. Onun yaşadığı Kurlyova Anna Filippovna çox pis şəraiti olan kiçik və kasıb bir otaqda yaşayır, Bibiheybət ambulatoriyasında tibb bacısı işləyir, 190 manat maaş alır.[11]

589 saylı məhbus anketindən bilgilər: Sultanov İsgəndər Rüstəm bəy oğlu – 1898-ci il Şuşa doğumlu; yaşayış yeri: Aziatski, 22-ci ev; mühəndis; iş yeri – Elektrikkəşfiyyat, Əmircan, mühəndis; qulluqçu oğlu, atam Azneftin mühəndisidir; ali təhsilli; partiyasız;

[1] ARDA, fond 51, siyahı 3, iş 127, vərəq 5.
[2] AR MTN Arxivi, PR-41006, vərəq XVII.
[3] Yenə orada, vərəq 2.
[4] İndiki İslam Səfərli küçəsi.
[5] İndiki Əhməd Cavad küçəsi.
[6] İndiki Hacı Zeynalabdin Tağıyev küçəsi.
[7] İndiki Əliövsət Quluyev küçəsi.
[8] Anasıdır. Rüstəm bəydən ayrı yaşayır.
[9] İndiki Murtuza Muxtarov küçəsi.
[10] AR MTN Arxivi, PR-41006, vərəq 2.
[11] Yenə orada, vərəq 6.

Türk. Ailə tərkibi: anam Mariya Andreyevna Popova, 66 yaş. Özəl xarici əlamətləri – sol gözü yoxdur, əməliyyat olunub. 15 may 1935-ci ildə Az. XDİK DTİ həbs edib.

16 may 1935-ci ildə tərtib edilmiş qərardan görünür ki, İ.Sultanov Zaqafqaziya XDİK-nın sərəncamına əsasən həbs edilib və təcili şəkildə oraya (Tiflisə) göndərilməlidir. Sultanovu aparmaq üçün əməliyyatçı Pivovarov və 2 qırmızı əsgər ayrılıb.[1]

15 maydan 27 oktyabradək İsgəndər bəyin 18 dindirməsi keçirilib və bu dindirmələr istintaq sənədində 80 vərəq yer tutur. Botmanın vəsatəti ilə istintaq işi 3 dəfə uzadılıb: birinci dəfə 1 ay – 15 avqust 1935-ci ilədək, ikinci dəfə 1 oktyabr 1935-ci ilədək, üçüncü dəfə 27 oktyabr 1935-ci ilədək.[2]

20 iyun 1935-ci ildəki dindirməsində İsgəndər bəy deyib:

"Özümün 13 illik əks-inqilabi fəaliyyətim dövründə sovet hakimiyyəti ilə mübarizənin nəticəsizliyinə və boşluğuna əmin oldum. Almaniyada hakimiyyətə gəlmiş nasional-sosializmi, onun mənfi tərəflərini: hərbi qisasçı cəhdlərini, Reyxstaqın yandırılmasını, işsizlərə yardımın azaldılmasını, irqçilik nəzəriyyəsini – bütün bu mənfi tərəflərini görərək mən öz millətçilik əqidəmə yenidən baxdım.

Bütün bunlardan əlavə, mənə atamın məni Bakıya qayıtmağa dəvət edən işgüzar məktubu təsir etdi. O qeyd edirdi ki, burada mütəxəssisləri qiymətləndirirlər, onları layiqincə irəli çəkirlər və mənim yoldaşlarım (mənimlə Almaniyada olanlar) məsul vəzifələr tuturlar və yaxşı yaşayırlar. Bax, başlıca olaraq bu üç amil və Almaniyada uzun müddət işsiz hərlənməyim məni müsbət işlər görmək üçün SSRİ-yə gəlmək haqqında qərar çıxarmağa vadar etdi".[3]

3 dekabr 1933-cü il tarixli dindirməsində İsgəndər bəy özü və ailəsi, tələbə yoldaşları haqqında bu bilgiləri verib:

"Mən Azərneftdə işləyən mühəndis Rüstəm bəy Sultanovun oğluyam. Bu il noyabr ayının yarısınadək o, Azərneft İxtiralar Şöbəsinin əməkdaşı idi. İndi Neftçalada plançı təyin edilib, hələ Bakıdadır.

59 yaşlı atam inqilabadək bu firmalarda qulluq edib:

1) Kolobovun qazma firmasında – fransız anonim cəmiyyəti

2) Musa Nağıyevin mədənlərində

3) Muxtarovun mədənlərində.

Məni və atamı çıxmaqla ailəmiz bu tərkibdədir:

1) Bacım Leyla Şeyxzadə, 37-38 yaş, ali təhsilli, ev təsərrüfatı ilə məşğuldur. Onun əri Qiyabi İqtisad Fakültəsinin direktorudur. Leylanın fəlsəfə elmləri doktoru alimlik dərəcəsi var. Kaqanoviç[4] küçəsi 1-də yaşayır.

2) Bacım Diləfruz – həkim, 3-cü şəhər xəstəxanasının müdiri, Xıdırbəylidə ərdədir; Əzizbəyov küçəsi 26-da, ev təsərrüfatı ilə məşğuldur.

3) Bacım Dilarə olduğum yerdə atamla birgə yaşayır; ünvanını bilmədiyim bir kooperativdə işləyən İbrahim Tağıyevdə ərdə idi. Bacımın 31-32 yaşı var, bir idarədə katib işləyir. Boşanmasının səbəbini bilmirəm.

4) Əmim Sultan bəy Sultanov,[5] 65 yaşlı, müəyyən ixtisası yoxdur, inqilabadək imkanlı mülkədar bəy olub, Zəngəzurda yaşayıb. İndi xaricdə – ya İranda, ya da Türkiyədə

[1] AR MTN Arxivi, PR-41006, vərəq 25.
[2] Yenə orada, vərəq 32.
[3] Yenə orada, vərəq 74.
[4] İndiki Əhməd Cavad.
[5] Sənəddə yanlış olaraq: Sultan Sultanbəyov.

yaşayır. 1922-23-cü illərdə gedib. Getməsinin səbəbini bilmirəm, güman edirəm ki, siyasi narazılığa görədir. Onun haqqında bilgim yoxdur.

5) Əmim Xosrov [bəy] Sultanov. Təhsilcə həkimdir, qabaqlar Bakıda yaşayıb. 1920-ci ildə ya İrana, ya da Türkiyəyə gedib. Xatırladığım qədərincə, Müsavat hökuməti ilə nəsə bir əlaqəsi vardı. 50-52 yaşında olar. Haqqında bilgim yoxdur.

6) Əmim Zülfüqar [bəy] Sultanov. Xüsusi təhsili yoxdur, Zəngəzurda imkanlı mülkədardır. İndi o da haradasa xaricdədir. 40 yaşı var, xaricə 1922-ci ildə gedib.

7) Bibim Məhbub Sultanova – onun əri kənd təsərrüfatı ilə məşğuldur, Zəngəzurda yaşayır.

8) Bibim Ziba Məmmədova – əri Bakıda müəllimdir, Hüseyn Məmmədov deyirlər. Mirzə Fətəli küçəsində döngələrin birində yaşayır, nömrəsini bilmirəm.

1908-ci ildə valideynlərimlə birlikdə yaşamaq üçün Bakıya köçdüm. Orada Kommersiya Məktəbini bitirdim. Sonra 1916-cı ildə Moskvaya getdim və Kommersiya İnstitutuna girdim.

Oktyabr inqilabından qabaq Bakıya qayıtdım və atamın himayəsində yaşadım. 1920-ci ilin 15 yanvarında Almaniyaya oxumağa getmək üçün xarici ezamiyyət aldım və tezliklə Berlinə getdim, orada Dağ-Mədən İnstitutuna girdim".[1]

"Müsavat hökumətinin təqaüdçüsü idim. Sonra, 1921-ci ildə atamın xahişi ilə ASSR Xalq Maarif Komissarlığının təqaüdçüləri sırasına salındım. Daim Berlin şəhərində yaşamış, bütün vaxt ərzində oxumuşam. Yay tətillərində Rur və Yuxarı Sileziyaya təcrübəyə getmişəm. Pul qazanmaq üçün müxtəlif ailələrdə dərs verərək öyrətmənlik etmişəm. Bundan başqa, özəl çertyoj işləri götürmüşəm, bəzən kinofirmalarda statist işləmişəm. 1927-28-ci illərdə təqaüd verməyi kəsdilər və mən yuxarıda dediyim təsadüfi gəlirlərlə və müəyyən qədər də atamın yardımı ilə dolanmışam. 1928-ci ildə atamın yardımı da kəsildi və mən yalnız öz qazancımla yaşamalı oldum. İnstitutu 1928-ci ildə bitirdim. Heç bir alman firmasında daimi qulluğum olmayıb.

Ağır maddi durumuma görə Sovet İttifaqına qayıtmağı qərara aldım. Bizim nümayəndəliklərə yardım üçün dəfələrlə müraciət etdim, ancaq nəticəsi olmadı. 1928-ci ildə rəsmi sovet vətəndaşı pasportu aldım. Nəhayət, 1933-cü ilin sonunda yardım üçün "Marqan – Eksport" (marqanes) gürcü trestinin nümayəndəsi yol. Kakabadzeyə müraciət etdim və o, məni xaricdən sovet Ermənistanına kömək göstərilməsi üzrə səlahiyyətli nümayəndə Ter-Qriqoryanın yanına göndərdi. (Bu, 1933-cü ilin may-iyun aylarında olmuşdu). O, mənə 180 marka verərək Berlindəki səfirliyimizdə baş konsul olan yol. Kaplanın yanına yolladı. O da mənə 50 marka və sərhədədək bilet verdi. Bu yardımla mən 30 avqustda Almaniyadan çıxdım və bu ilin 5 sentyabrında Bakıya gəldim.

Bundan başqa, mən Sovet Rusiyası Tələbələri Birliyində olmuşam. Bu tələbələrlə yaxşı tanışam:

1) Zeynalov Behbud – indi Gəncədədir, SSRİ-yə 1932-ci ildə gəlib, aqronom işləyir.

2) Mustafayev Əlihəsən[2] *– indi Bakıdadır, Kasparda gəmiqayırma mühəndisi işləyir, Sovet İttifaqına 1928-29-cu ildə gəlib, Qalada*[3] *yaşayır.*

3) Abbasmirzə Əliyev – indi Bakıdadır. Dövlət Plan Komitəsində iqtisadçı işləyir. Buynak[4] *küçəsi 2-də yaşayır. SSRİ-yə 1926-cı ildə gəlib.*

[1] AR MTN Arxivi, PR-41006, vərəq 36.
[2] Düzgünü: Ağahəsən.
[3] İçərişəhərdə.
[4] İndiki Şeyx Şamil küçəsi.



Almaniyada oxuyan tələbələrimiz. *Soldan sağa. Öndə oturanlar:* Abbasmirzə Əliyev, Mürsəl bəy Şahsuvarlı, Behbudəli Zeynalov. *Arxada oturanlar:* Əliəkbər Əliyev, Qəhrəman Məmmədov, Əsildar bəy Muğanlı, Lətif Qədimi, İsgəndər bəy Sultanov, Abdulla Əfəndiyev

4) Cəfər Kazımov. O da Dövlət Plan Komitəsində iqtisadçı işləyir. İxtisasca dağ mühəndisidir, 1917-ci ildən kompartiya üzvüdür. Ünvanını bilmirəm. İttifaqa[1] *1926-cı ildə qayıdıb.*

5) Qəhrəman Məmmədov – inşaatçı mühəndisdir. Azərinşaatda işləyir. Ünvanını bilmirəm. İttifaqa 1928-29-cu illərdə qayıdıb. Kompartiya üzvüdür.

6) Muğanlinski Əsildar – ixtisası hüquqşünasdır. Harada işlədiyini bilmirəm. Tolstoy küçəsində yaşayır. 1927-ci ildə qayıdıb.

7) Yusif Salahov – tibb həkimi, xəstəxanaların birində işləyir. Ünvanını bilmirəm. SSRİ-yə 1927-ci ildə qayıdıb.

8) Surxay Şahsuvarov – dağ mühəndisidir. Azərneftdə Lökbatanda işləyir. Geoloqdur. Ünvanını bilmirəm. 1927-ci ildə qayıdıb.

9) Əşrəf Əliyev – dağ mühəndisidir. Azərneftdə, Qaraçuxurda böyük mühəndis işləyir, Buynak küçəsində yaşayır. İşinə görə Lenin ordeni alıb. 1926-cı ildə qayıdıb.

10) Cəmil [Əlijmuradbəyli – Azərneftdə Suraxana rayonunda qazma üzrə böyük mühəndisdir. İndi dörd nəfərlə birlikdə 1933-cü ilin yayında Amerikaya göndəriləcək. 1934-cü ilin yanvarında qayıtmalıdır. Əmircanda fəhlə qəsəbəsində yaşayır. 1927-ci ildə qayıdıb, AK(b)P üzvüdür, Lenin ordeni alıb.[2]

11) Aslan Vəzirov – professor, mineraloq, AQNİ-də işləyir, ünvanını bilmirəm, 1926-27-ci illərdə qayıdıb.

12) Rzazadə İsgəndər – elektrotexnik mühəndisdir. Xalq ağır sənaye komissarının müavinidir. Ünvanını bilmirəm. 1927-28-ci illərdə qayıdıb.

Bütün yuxarıda sadaladığım şəxslər mənim yaxın yoldaşlarım olub. Bunların hamısı mənimlə birlikdə Almaniyaya gedib, indi boş vaxtın yoxluğu üzündən onların heç biri ilə görüşmürəm".[3]

[1] SSRİ-yə.
[2] AR MTN Arxivi, PR-41006, vərəq 37.
[3] Yenə orada, vərəq 38.



İsgəndər bəy Sultanov həbsdə. 1935

Bu istintaqı Azərb. DSİ 1-ci bölümünün əməliyyat müvəkkili Kovrıjenko aparıb. Qeyd edək ki, Kovrıjenko müstəntiqlər içərində ən amansızlardan idi və onun "dilini açmadığı" müttəhim yox idi. Görünür ki, İsgəndər bəy Sultanov siyasi hakimiyyət üçün olduqca önəmli "obyekt" olduğuna görə onu məhz Kovrıjenkoya tapşırmışdılar.

15 may 1935-ci il dindirməsində İsgəndər bəy bəzi faktları dəqiqləşdirib. Onları burada qeyd edirik:

"Atamla birlikdə ögey anam Zeynəb Sultanova[1] yaşayır. Heç yerdə işləmir.

Bacım Leyla Şeyxzadə (1895) fəlsəfə fakültəsini bitirib, ali məktəblərdən birində müəllimə işləyir və məsul işçilərə özəl dərslər verir. Onun əri İsmayıl Şeyxzadə Qiyabi İqtisad Fakültəsinin direktoru və deyəsən, XKŞ-da katibdir. Bacım Diləfruz Xıdırbəylinin (1908) əri Mərdan Xıdırbəyli zöhrəvi xəstəliklər həkimidir. Mənim doğma anam Popova Mariya Andreyevnanın 60 yaşı var, arteldə işləyir, 30 ildən artıqdır ki, atamdan boşanıb. Poluxin 69-da yaşayır".[2]

Elə bu dindirmədə İ.b.Sultanov ATİ-nin alman dili müəllimi Əsildar Muğanlı (Tolstoy küçəsi 100) və Pedaqoji Texnikumun müəllimi Məhiş Səfərovun (Poluxin 31) onun ən yaxın dostları olduğunu bildirib.[3]

22 may 1935-ci ildə müstəntiqin tələbi ilə İ.b.Sultanov özünün bu qısa tərcümeyi-halını söyləyib:

"Mən Leninqradda doğulmuşam. Atam Bakı neft sənayeçilərinin yanında mühəndis idi. Anam rusdur. 10 yaşım olanda məni Bakıya gətiriblər. Bakıda Kommersiya Məktəbinə girərək 1916-cı ildə oranı bitirmişəm. Atam məni Moskvaya Kommersiya İnstitutunda oxumağa göndərib. İnqilab başlayanda atam pul göndərdi ki, Bakıya qayıdım. Bakıda 1919-cu ilədək yaşadım. Bundan sonra 15 yanvar 1920-ci ildə Müsavat hökuməti 80 tələbə ilə birgə məni Almaniyaya ali təhsil almağa göndərdi. Berlinə gəldim, Şarlottenburq Politexnik İnstitutuna girdim, bu institutda 1928-29-cu ilədək oxudum. SSRİ-yə 5 sentyabr 1933-cü ildə qayıtdım və 25 sentyabr 1933-cü ildə Azərneftdə işə girdim və indiyədək orada işləyirəm…

1918-ci ildə Türklər Bakıya hücum edərkən biz Mərdəkandakı bağda yaşayırdıq. Mən Bakıya hücum edən Türklərə qoşuldum və tüfəng götürərək şəhəri qoruyanlara[4] qarşı vuruşdum. 15 sentyabr 1918-ci ildə mən qarın yatalağı xəstəliyinə tutuldum və Qalkinin xəstəxanasında yatdım. Xəstəlikdən sonra mən Bakıda 1919-cu ilin sentyabrınadək atamın yanında yaşadım.

Sentyabrda o vaxt Şuşada Qarabağın hərbi valisi olan əmim Xosrov bəy Sultanov məni yanına çağırdı. Əmim məni özünün ya şəxsi yavəri, ya da tapşırıqlar üzrə məmur təyin etdi, xatırlamıram. Mənim vəzifəm bundan ibarətdi ki, gələnləri qeyd edir, ərizələri götürürdüm.

[1] İsgəndər bəyin ögey anası 1876-cı il doğumlu, zadəgan Zeynəb xanım Krım Türklərindəndir.
[2] AR MTN Arxivi, PR-41006, vərəq 43.
[3] Yenə orada, vərəq 44.
[4] Ermənilər nəzərdə tutulub. İfadə, təbii ki, müstəntiqə məxsusdur.

Şuşada 3-4 ay işləyib Bakıya qayıtdım, ərizə verdim və Almaniyaya göndərildim…

Bakıdan getdikdən sonra əmim Xosrov bəylə bir dəfə də görüşməmişəm. Onunla yazışmışıq. Onunla yazışmam belə başladı ki, Berlində olduğum zaman ondan İstanbuldan məktub aldım. Birinci məktubunda mənə yazırdı ki, müsavatçılardan aralanıb və ədəmi-mərkəziyyətçilərə[1] qoşulub. Bu məktuba cavab olaraq mən necə oxuduğumu, necə yaşadığımı yazdım.

1925-26-cı ildə Xosrov bəydən ikinci məktubu aldım; o, qardaşı İsgəndər Sultanovun ölüm xəbərini verirdi. Həmin əmim İranda öldürülmüşdü və Xosrov bəy onu sovet agentlərinin öldürməsindən şübhələnirdi. Xosrov bəyə nə cavab verməyimi xatırlamıram, ancaq əmimin öldürülməsinə əmin deyildim.

Üçüncü məktubu 1928-29-cu ildə aldım. Bu, mənim özümün fəna maddi durumumla bağlı yazılmış məktubuma cavab idi, belə ki, mən təqaüddən məhrum edilmişdim, institutu bitirməyimə isə bir neçə ay qalmışdı. Mən yardım göstərməsi üçün ona eyham vurmuşdum. Xosrov bəy cavab vermişdi ki, mənim də vəziyyətim ağırdır və məndən heç bir kömək umma.

4-cü məktubu 1933-cü ilin başlanğıcında aldım. Orada Xosrov bəy məndən xahiş edirdi ki, hansısa danışıqlar üçün onun Hitlerlə görüşünü təşkil etməyə çalışım. Hansı görüşün olmasını o mənə yazmamışdı. Ona cavab verdim ki, bu işi üstümə götürə bilmərəm və belə işlərə qarışmıram.

5-ci məktubu 4-cüdən bir, ya iki ay sonra aldım. Onun içində Şalva Korumidzenin adına bir məktub da vardı. Yazırdı ki, bu, onun yaxşı tanışıdır və məktubu ona verməyi xahiş edirdi. Mən Korumidzeni tanımırdım. Buna görə də gürcülərin işlədiyi "Ayı" restoranına getdim və onlardan Korumidzeni necə tapa biləcəyimi soruşdum. Onlar Korumidzeni tanıdıqlarını dedilər. Mən xahiş etdim ki, ona çatdırın ki, məndə ona çatası məktub var və ünvanımı da verdim. Ertəsi gün Korumidze yanıma gəldi və məktubu aldı. Dedi ki, əmin Xosrov bəyi yaxşı tanıyıram…

Məktublarımın birində yazmışdım ki, SSRİ-yə getməyə hazırlaşıram. Bunun cavabında Xosrov bəy cavab göndərib təkidlə getməməyimi məsləhət gördü: yadında saxla ki, Sultanovsan və sərhədi keçən kimi sənin üçün pis olacaq".[2]

İsgəndər bəyin bu dediklərini həqiqət kimi qəbul etmək olar. Ancaq onun 26 may 1935-ci ildə yazdığı bu sözlərin müstəntiqin özünə məxsus olduğuna da şübhə yeri qalmır. İsgəndər bəy özü haqqında deyir:

"Mən Türk millətçisiyəm, Azərbaycanın Sovet İttifaqından ayrılmasının, sovet hakimiyyətinin yıxılmasının və Azərbaycan Cümhuriyyəti yaradılmasının tərəfdarıyam. Azərbaycanın müstəqilliyi uğrunda ideya döyüşçüsü örnəyi kimi mənim üçün həmişə əmim, keçmiş Qarabağ hərbi valisi, indi Türk mühacirətinin rəhbərlərindən biri Xosrov bəy Sultanov olub. Almaniyada 13 il yaşayaraq mən alman dövlətinə və alman mədəniyyətinə dərin hörmət bəslədim. Hitlerin hakimiyyətə gəlişini mən olduqca böyük milli yüksəliş kimi dəyərləndirdim. Mənim alman faşizminə inamım Xosrov bəy Sultanovun məktublarının təsiri altında daha da möhkəmləndi və formalaşdı…".[3]

Əlbəttə, bu cümlələrin hər biri müttəhimin güllələnməsi üçün yetərli idi və bunu İsgəndər bəyin də gözəl bildiyi şübhə doğurmamalıdır. Burada iki məqam var: İsgəndər bəy

[1] Burada Gəncədən olan "Ədəmi-mərkəziyyət" firqəsini yaradanlar nəzərdə tutulur.
[2] AR MTN Arxivi, PR-41006, vv. 48-49.
[3] Yenə orada, vərəq 53.

bu sözləri ya hədsiz işgəncə altında boynuna almalı olub, ya da o, bu sözləri deməyib, müstəntiqin yazdığı mətnin altına qol çəkməyə məcbur edilib. Doğrusu, bundan sonra istintaqda İsgəndər bəyin boynuna o qədər uydurma şeylər qoyulub ki, onları burada təkrar etməyə lüzum görmürük.

"Mən Almaniyadan Bakıya 5 sentyabr 1933-cü ildə gəlmişəm və tezliklə (25 sentyabr) Azərneftdə elektrik kəşfiyyatı mühəndisi kimi işə başlamışam".[1]

"6 milyona yaxın adamın və təkcə 5 minə yaxın mühəndisin işsiz olduğu Almaniyada acından ölməməkdən ötrü başqa heç bir iş olmadığına görə bunlara: 1) şaxtalarda işləməyə; 2) dərslər verməyə; 3) kinoda oynamağa; 4) restoranlarda rəqs etməyə məcbur oldum ki, vətənə dönmək mümkün olanadək dözə bilim. Berlindəki ticarət nümayəndəliyinə müraciət etdim, oradan da rədd cavabı aldım".[2]

Botman 27 noyabr 1935-ci ildə istintaqın bitməsi haqqında protokol tərtib edib.[3]

27 dekabr 1935-ci ildə A.Orbelyanın sədrliyi altında Azərb. SSR Ali Məhkəməsinin Özəl Kollegiyası İsgəndər Rüstəm bəy oğlu Sultanovu 10 il azadlıqdan məhrum edərək 29 yanvar 1936-cı ildə "Sazlaq"a[4] –Daşkəndə göndərib.[5]

* * *

İsgəndər bəyin sonrakı taleyini yenə istintaq işlərindəki sənədlərdən öyrənirik. Əli Səbri Qasımovun AR MTN Arxivindəki PR-6399 şifrəli istintaq işində İsgəndər bəyin bacısı, 1902-ci il doğumlu, 8-ci mikrorayon, 22-ci Dağlıq küçəsi, 23-cü ev, 76-cı mənzil, 5-ci blokda yaşayan

Sultanova Dilarə Rüstəm bəy qızının ərizəsi var. Azərb. SSR DTK repressiya və bəraətlər şöbəsinə 1 avqust 1991-ci ildə yazılmış həmin ərizədə Dilarə xanım yazır:

"...Doğma qardaşım, 1900-cü il doğumlu, 1935-ci ildə həbs edilmiş, 1942-ci ildə Zərəfşanda düşərgədə vəfat etmiş Sultanov İsgəndər bəy Rüstəm bəy oğlu (o, Azərbaycanın demokratik hökumətinin təhsil üçün xaricə göndərdiyi tələbələr qrupundandır, Almaniyada oxuyub, peşəcə mühəndisdir, Zərəfşan həbs düşərgəsinə 10 illik məhkum edilib)...".[6]

[1] AR MTN Arxivi, PR-41006, vərəq 67.
[2] Yenə orada, vərəq 112.
[3] Yenə orada, vərəq 199.
[4] Rusca: «Среднеазиатские лагеря» ("Orta Asiya düşərgələri").
[5] AR MTN Arxivi, PR-41006, vərəq 1.
[6] Yenə orada, PR-6399, III cild. Bu sənəd səhifələnməyib.

Şahnəzərov Əhməd Hacı oğlu

(02.01.1899, Çox k./Dağıstan – 1938-ci ildən sonra)



Əhmədhacı Şahnəzərov

Azərbaycan və Quzey Qafqaz, Dağıstan xalqlarının mədəni-iqtisadi əlaqələri daim qırılmaz şəkildə inkişaf edib. Azərbaycan türkcəsinin ümumünsiyyət vasitəsi kimi işlədildiyi və islam dininin ən mühüm birləşdirici amil olduğu bu geniş bölgədə xalqlarımızın görkəmli nümayəndələri aradakı uca dağların əngəllərini aşaraq xalqlararası səmimi ünsiyyətin davam etməsi üçün əllərindən gələni etmişlər.

Tarix elmləri doktoru Sevinc Əliyevanın araşdırmalarından[1] da gördüyümüz kimi, Quzey Qafqaz və Dağıstan xalqlarına həssas və şəfqətli münasibət Azərbaycan xeyriyyəçiyələrinin, mesenatlarının əməli işlərində daim özünü göstərib. Məşhur xeyriyyəçi və ictimai xadimlər Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev və başqaları Quzey Qafqazda, Dağıstanda məktəblər açır, məscidlər tikdirir, dağlıların uşaqlarını Azərbaycanda və başqa yerlərdə öz vəsaitlərinə oxudurdular. Bunun yeganə səbəbi Azərbaycanla dağlı xalqlar arasındakı tarixi dostluq və qardaşlıq münasibətləri idi. Azərbaycanda neft sənayesinin inkişafı nəticəsində Bakı dünya sivilizasiyasının qabaqcıl nailiyyətlərini mənimsədi, bütövlükdə Azərbaycan və özəlliklə Bakı bütün Qafqaz müsəlmanları üçün maarif və mədəniyyət örnəyinə çevrildi. Quzey Qafqaz və Dağıstanın bir çox ticarət, siyasət, elm və mədəniyyət xadimləri məhz Azərbaycan, Bakı mühitində püxtələşərək yetkinləşdi.

Azərbaycan Cümhuriyyəti hökumətinin Dağıstan nümayəndələrini Azərbaycan təbəəliyinə keçirərək Avropa ölkələrinə oxumağa göndərməsi də bu baxımdan tamamilə qanunauyğundu və qədim ənənələrin yeni dönəmdə də yaşadılmasının təsdiqi idi.

Avropaya təhsil almağa yollanan Dağıstan nümayəndələrindən biri də avar Ə.Şahnəzərovdur.

Onun 17 fevral 1911-ci ildə verilmiş doğum haqqında şəhadətnaməsində yazılıb: "Mən Qunib dairəsinin Andalyal sahəsi Çox kəndinin qazisi Həsən Əhməd oğlu bu şəhadətnaməni həmin kəndin sakini, ailə siyahısında 50-ci nömrə altında göstərilmiş Əhməd Haciov Hədis oğluna[2] verirəm ki, o, 2 yanvar 1899-cu ildə həmin Hədisin (düzgünü: Hacının - *müəl.*) qanuni arvadı Patimat Qiçi qızından doğulub və ona Çox kəndinin keçmiş qazisi Əbdüssəməd Gireyxan oğlu "Əhmədhacı" adı verib".[3]

20 may 1917-ci ildə Temirxanşura şəhərində verilmiş 781 saylı attestatda göstərilib ki, Əhməd Hacı oğlu Şahnəzərov Temirxanşura real məktəbinə 1 sentyabr 1911-ci ildə girərək orada əla əxlaqla 25 aprel 1917-ci ilədək oxuyub və əsas bölmə üzrə tam kursu bitirərkən bu uğurları göstərib:

Şəriət –	
Rus dili –	kafi (3)
Alman dili –	yaxşı (4)

[1] Bax: *Алиева С.* Азербайджан и народы Северного Кавказа (XVIII – начало XXI вв.). Баку, 2010; *Алиева С.* Ногайские тюрки: XV-XX вв. Баку, 2010; *Алиева С.* Азербайджан и Северный Кавказ: из истории взаимоотношений в 1918 – 1924 годы // Elmi araşdırmalar. Bakı, 2006, № 1-4, ss. 412-425; *Алиева С.* Азербайджан и Горская Республика: стремление к единению // Qarabağ dünən, bu gün və sabah. 12-ci elmi-əməli konfransın materialları toplusu. Bakı, 2013, ss. 140-153 və b.
[2] Sənəddə belə yazılıb. Bizcə yanlışdır. "Əhməd Hacı oğluna" olmalıdır.
[3] ARDA, fond 51, siyahı 3, iş 135, vərəq 3.

Fransız dili –	yaxşı (4)
Riyaziyyat, o sıradan:	
Hesab –	kafi (3)
Cəbr –	kafi (3)
Həndəsə –	kafi (3)
Triqonometriya –	kafi (3)
Tarix –	kafi (3)
Coğrafiya –	kafi (3)
Təbii tarix –	yaxşı (4)
Fizika –	kafi (3)
Rəsm –	yaxşı (4)
Rəsmxət –	yaxşı (4).[1]

Temirxanşurada 2 yanvar 1918-ci ildə verilmiş 278 saylı şəhadətnamədə Əhməd Şahnəzərovun 1 sentyabr 1917-ci ildən 1918-ci ilədək Temirxanşura real məktəbinin əlavə sinfində oxuyaraq həmin sinfin tam kursunu bitirdiyi və bu uğurları qazandığı qeyd olunub:

Şəriət –	
Rus dili –	kafi (3)
Alman dili –	yaxşı (4)
Fransız dili –	yaxşı (4)
Riyaziyyat, o sıradan:	
Hesab –	əla (5)
Cəbr –	əla (5)
Triqonometriya –	yaxşı (4)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	əla (5)
Tarix –	yaxşı (4)
Təbiiyyatşünaslıq –	yaxşı (4)
Fizika –	yaxşı (4)
Riyazi coğrafiya –	əla (5)
Rəsm –	əla (5)
Qanunşünaslıq –	yaxşı (4).[2]

Çox kəndinin sakini Əhməd Şahnəzərov 18 iyul 1919-cu ildə AC Maarif nazirinə belə bir ərizə yazıb:

"Ali təhsilimi xaricdəki ixtisaslardan birində başa vurmağı arzuladığıma, ancaq bundan ötrü öz hesabıma getmək imkanım olmadığına, eləcə də doğma Dağıstanda tam anarxiya hökm sürdüyünə və başqa heç bir kömək qaynağım olmadığına görə mən Bakıya dindaşımız Azərbaycan hökumətinə tam inamla kömək almaq üçün gəlmişəm ki, Dağıstanın maarif ehtiyaclarına həmişə həssaslıqla yanaşan qonşu qardaş Azərbaycan vətənimin bu böhranlı durumunda da Dağıstan və Azərbaycan arasında fərq qoymayacaq və məni xarici universitetlərə göndərdiyi tələbələr sırasına salacaq.


Bildirirəm ki, Almaniyanın Elektrotexnika İnstitutuna göndərilməyimi istəyərdim".[3]

[1] ARDA, fond 51, siyahı 3, iş 135, vərəq 2.
[2] Yenə orada, vərəq 4.
[3] Yenə orada, vərəq 1.

6 sentyabr 1919-cu ildə Bakı şəhərindən maarif nazirinə yazdığı ərizəsində Şahnəzərov qeyd edib ki, maddi durumum haqqında arayışı başqa sənədlərimlə birlikdə təqdim edə bilmirəm, çünki Dağlı xalqları ilə Denikin arasında müharibə gedir və evə getmək imkanım yoxdur. Kasıblığıma gəlincə, bunu bizim Şura tələbələri və indi Bakıda yaşayan yerlilərim təsdiqləyə bilər.[1]

Bahadur bəy Malləçixan 8 sentyabr 1919-cu ildə öz əli ilə yazdığı qeyddə Şahnəzərovun gerçəkdən imkansız adam olduğunu təsdiqləyib.[2]

Şahnəzərov maarif nazirinə yazdığı 10 noyabr 1919-cu il tarixli ərizəsində göstərib ki, mən Daxiliyyə Nəzarətinə Azərbaycan vətəndaşlığına götürülməyim haqqında ərizə vermişəm və mənim Almaniyanın Darmştadt şəhərində elektrotexnika fakültəsinə göndərilməyimi xahiş edirəm.[3]



Əhməd Şahnəzərovun doğum şəhadətnaməsi

AC Daxiliyyə Nəzarəti 10 noyabr 1919-cu ildə 11111 saylı belə bir arayış verib ki, Dağlılar Cümhuriyyətinin Azərbaycandakı missiyasında katib vəzifəsində qulluq edən Əhməd Şahnəzərov Daxiliyyə Nəzarəti qarşısında Azərbaycan vətəndaşlığına qəbul edilməsi haqqında vəsatət qaldırıb.[4]

Azərbaycan Hökuməti-Cümhuriyyəsi daxiliyyə naziri 20 noyabr 1919-cu ildə 11607 saylı belə bir şəhadətnamə verib:

"İşbu şəhadətnamə Azərbaycan təbəəliyi haqqında olan qanunun 2-ci qisminin 6-cı fəslinə binaən, 11 ağustos 1919 sənəsi Əhməd Şahnəzərova ol xüsusda verilmişdir ki, məzkur Şahnəzərov Azərbaycan təbəələri sırasına qəbul edilib qanunun 2-ci nöqtəsinə binaən.

Tamğa parası verilmişdir.

Təvəllüd bulmuş: 1899, 27 yanvar[5], Çox kəndində, Dağıstan mahalında.

Milliyyət: ləzgi.[6]

Din: islam.

Ailiyyət vəziyyəti: subay.

1919 sənəsi noyabr. Daxiliyyə naziri naminə: general-mayor (Ağabəyovun imzası).

İdarə müdiri (imza). Şöbə müdiri naminə (imza)".[7]

30 dekabr 1919-cu ildə Ə.Şahnəzərov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[8] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[9] dilkağızları verib.

[1] ARDA, fond 51, siyahı 3, iş 135, vv. 5-5a.
[2] Yenə orada, vərəq 6.
[3] Yenə orada, vərəq 7.
[4] Yenə orada, vərəq 8.
[5] 2 yanvar olmalıdır.
[6] Çox kəndində avarlar yaşadığına görə Ə.Şahnəzərovun da milliyyətcə avar olduğunu qəbul etməliyik. O dönəmdə Dağıstanda yaşayan xalqların, hətta azərbaycanlıların da bəziləri özünü "ləzgi" adlandırırdı.
[7] ARDA, fond 51, siyahı 3, iş 135, vərəq 10.
[8] Yenə orada, vərəq 11.
[9] Yenə orada, vərəq 12.



Əhməd Şahnəzərovun Azərbaycan təbəəliyinə keçməsi haqqında sənəd

Əhməd Şahnəzərova (Əhməd Hədis oğlu Hacıyevə) Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 565 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[1]

O, oxumağa Almaniyaya göndərilib.[2] Öncə Berlində, sonra Fransanın Mülxuz və Nansi şəhərlərində toxuculuq istisası üzrə oxuyub. Sovet dönəmində təqaüdçülər sırasından çıxarılıb.[3]

O, təhsilini bitirdikdən sonra Azərbaycana dönüb. Bunu təsdiqləyən yeganə qaynaq Elşad Qocanın "Sibir dərsi" kitabıdır. Həmin əsərdə oxuruq:

"...Azərbaycan Milli Mərkəzinin üzvü olan Zeynal Tağıyevin işi ilə əlaqədar olaraq 27 nəfər həbs edilmişdir. Onların adlarını sizə də təqdim edirik, əziz oxucular: Xəlilov Manaf Abbas oğlu, Məmmədov Əbülfət Heydər oğlu, Əliyev İsgəndər Əli oğlu, Əsədullayev İbrahim Muxtar oğlu, Mustafayev Əliəkbər Haşımzadə, Hüseynov Müseyib Məmmədcəfər oğlu, Cəfərov Hacı Abbasoviç, Rəhimzadə Böyükağa Rəhim oğlu, Səmədov İsa Səməd oğlu, Abbasov Mikayıl Ağabala oğlu, Verdiyev Əyyub İsmayıl oğlu, Şahbazov Əliəsgər Abbas oğlu, Vəzirov Cəmil İsmayıl oğlu, Aslanov Teymur Zaxaroviç, Şahnəzərov Əhməd Hacıyeviç, Qulubəyov Əli bəy Cəfər oğlu, Rəhimzadə Rəhim Əliabdulla oğlu, Əhmədov Sərdar Əhmədoviç, Xanlarov İsmayıl Bəyləroviç, Hacıyev Zeynal Əkbəroviç, Hüseynov Şahid Süleymanoviç, Mehdiyev Əliheydər Mehdi oğlu, Qədimbəyov Qədim Məmməd oğlu, Səttarov Hüseyn Əlisəttar oğlu, Hacıyev Əlibala Hacı oğlu və Məmmədov İsgəndər İsrafil oğlu. Xatırladıram ki, adı çəkilən vətəndaşlar müxtəlif dövlət orqanlarında, təşkilat və müəssisələrdə rəhbər vəzifələr tuturdular".[4]

Buradan aydın olur ki, Əhməd Hacı oğlu Şahnəzərov da Azərbaycanın toxuculuq sənayesində hansısa mühüm vəzifədə çalışırmış və Almaniyadakı tələbə yoldaşı Teymur Aslanovla eyni vaxtda (1938) həbs edilibmiş. Təəssüf ki, bu bilgi əlimizə kitab çapa verilərkən düşdüyünə görə MTN Arxivində onunla bağlı bilgiləri dəqiqləşdirməyə vaxtımız qalmadı.

[1] ARDA, fond 51, siyahı 3, iş 135, vərəq 13.
[2] Yenə orada, iş 40, vərəq 38.
[3] Yenə orada, fond 57, siyahı 1, iş 276, vərəq 63.
[4] *Qoca E.* Sibir dərsi. Bakı, ss. 146-147.

Şahsuvarlı Mürsəl bəy Adilxan bəy oğlu

(19.06.1900, Minkənd k./ Zəngəzur – 21.04.1971, Bakı)



Mürsəl bəy Şahsuvarli

2006-cı ilin 28 avqustunda Mürsəl bəy Şahsuvarlının[1] qızı Vera xanımla görüşdük. İnsan atasını nə qədər sevər, ona nə qədər hörmət edərmiş! Əlindən gələni etdi ki, atası haqqında yazı yaxşı alınsın. Təəssüf ki, kitabı o zaman hazırlaya bilmədik.

Vera xanım bizə atasının həyatı ilə bağlı çoxlu sənədlər və fotolar bağışladı (əlbəttə, biz onların üzünü çıxarıb özünü yiyəsinə qaytardıq), maraqlı xatirələr danışdı. Bunların içərisində ən qiymətlisi onun öz əliylə yazdığı tərcümeyi-hal idi. Ona bəlli olan ən mühüm məqamları bir yerə toplayaraq Mürsəl bəyin yığcam bir yaşam öyküsünü hazırlamışdı. Aşağıda Vera xanımın lütfkarlıqla yazıb verdiyi həmin tərcümeyi-halı oxucuların ixtiyarına buraxırıq.

* * *

Mürsəl Şahsuvarlı 19 iyun 1900-cü ildə Gəncə valiliyi Zəngəzur qəzasının Şahsuvarlı tayfasının Minkənd kəndində Adilxanın ailəsində doğulmuş 7-ci oğuldur. Ailədə 7 oğul və 2 qız olub. Onun babası Şahsuvar xan tayfasını İraqdan gətirib. Orta təhsilini dövlət hesabına Tiflis I kişi gimnaziyasında alıb. 1920-ci ildə xaricə oxumağa göndərilib.

1925-ci ildə Münxen Universitetinin tibb fakültəsini bitirib. 21 iyul 1927-ci ildə Hamburq Tropik İnstitutunun tibb fakültəsində doktorluq dissertasiyası müdafiə edib. O vaxt həmin institutun rektoru ordinator-professor Bernard Noxt və dekan isə uşaq xəstəlikləri üzrə ordinator-professor Hans Klaynşmidt idi.

1927-ci ildə o, milliyətcə alman Marqarita Karl qızı ilə evlənib. Uşaqları olmayıb, çünki qadının ürək çatışmazlığı vardı (1975-ci ildə ölüb). Mürsəl bəy 1928-ci il də daxil Hamburqda Tropik İnstitutda işləyib.

1929-cu ildə vətənə gələrək Mikrobiologiya İnstitutunda işləyib. 1930-cu ildə Azərbaycan Tibb İnstitutunda diaqnostika kafedrasında çalışmaqla eyni zamanda Azərbaycan Pedaqoji İnstitutunda mikrobiologiyadan dərs deyib. 1931-ci ildə ona dosent rütbəsi verilib.


1932-ci ildə Türkmənistan SSR Xalq Səhiyyə Komissarlığı onu Türkmənistan Tropik İnstitutunun direktoru və eyni zamanda Türkmənistan Tibb İnstitutu tropik xəstəliklər kafedrasının müdiri vəzifəsinə dəvət edib.

SSRİ XKŞ-nın elmi dərəcələr və rütbələr haqqında qərarına əsasən 13 yanvar 1934-cü ildə ona professor adı verilib.


1929-1936-cı illərdə onun SSRİ-də və xarici jurnallarda 19 elmi işi çıxıb. Xaricdə nəşr olunanları həyat yoldaşı Marqarita gətirirdi.

1936-cı ilin başlanğıcında onu Azərbaycan Tibbi Parazitologiya və Tropik Xəstəliklər İnstitutuna dəvət ediblər. Ancaq 1936-cı ilin iyununda institutun əməkdaşı Pravikovun çuğulluğuna əsasən həbs edilib və 58-ci maddə üzrə məhkum olunub. O, antisovet təşviqatda, partiya və hökumətin qızdırma ilə mübarizə üzrə tədbirlərinin pozulmasına yönəldilmiş ziyançılıqda ittiham edilib, halbuki Şahsuvarlı bahalı dərmanları öz puluna xaricdən gətirdib və yurddaşlarının qızdırmadan müalicəsinə sərf edib.

[1] Soyadı bəzi qaynaqlarda "Şahsuvarov" kimi də işlənib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.



Gəncə gimnaziyası şagirdləri. *3-cü cərgə. Soldan sağa:* 1-ci Surxay bəy Şahsuvarov, 2-ci Mürsəl bəy Şahsuvarlı. Təx. 1912-1913



Münxendə oxumuş Cümhuriyyət tələbələri. *Soldan sağa:* Mürsəl Şahsuvarlı, İsmayıl Axundov, Həmid Xəlil Məhəmməd oğlu, Yusif Salahlı. 1923



Mürsəl bəy Şahsuvarlının ilk yoldaşı, alman Marqarita Karl qızı Şahsuvarlı (1927-1975). Hamburq, 1960



Mürsəl bəy Şahsuvarlının Almaniyadakı nikahdankənar oğlu Ernest Raynhoff (1923, Tirol/Münxen) və onun anası Mariya Raynhoff *(Tirol burqomistrinin qızı).* Tirol *(Münxen)*, 1968

O, 100 gün ölüm kamerasında yatıb və hər gün işgəncələrə məruz qalıb. Bundan sonra güllələnməyə məhkum edilib.

Daha sonra hökm dəyişdirilib və o, etapla Uzaq Şimalın Maqadan vilayətinin Susuman qəsəbəsinə sürgünə göndərilib. Orada 1945-ci ilin avqustunacan qalıb və müxtəlif fəhlə işləri görüb. Buradakı Frunze adına düşərgə rəisinin arvadı doğa bilməyərək iki gün əzab çəkirmiş. Şahsuvarlını həkim kimi qadının üstünə aparmaq istəyiblər, o isə bildirib ki, mən ginekoloq deyiləm, ancaq əl çəkməyiblər. Yolda maşın aşıb və 6 dustaq həlak olub, yalnız sürücü, düşərgə rəisi və Şahsuvarlı sağ qalıb. Şahsuvarlının alnı yaralanıb və yarasını özü tikib. Onun həyatı rəisin arvadının həyatından asılı olub. Olduqca çətin şəraitdə qadını əməliyyat edərək ekiz uşaqları götürüb. Əməliyyat uğurla başa çatıb və qadın da, uşaqlar da sağ qalıb. Bunun nəticəsində özü də ölümdən qurtulub.

Hər gün bu ölüm dərəsində, Susuman qəsəbəsindən bir az uzaqda yüzəcən adam güllələnib. Şahsuvarlı düşərgədə bulunduğu müddətdə çox insanları – donmuşları, xəstələri müalicə edib, işləməyə yararsız neçə-neçə dustağı güllələnməkdən xilas edib. 1939-cu ildən 1945-ci ilədək o, qadın siyasi düşərgəsində həkim işləyib. 1945-ci ildə düşərgədən azad edilərək terapevt həkim kimi çalışıb.

1945-ci ildə o, kökcə Krım Türklərindən olan 18 yaşlı *Lyudmila İvanovna Asanova* ilə yeni ailə qurub. 1946-cı ildə onların böyük qızı Vera Şahsuvarlı doğulub.

1949-cu ildə Mürsəl bəy 1-ci miokard infarktı keçirib. 1950-ci ildə qadın siyasi düşərgəsində baş həkim-müfəttiş təyin edilib. Bu, Susuman qəsəbəsinə sürgün demək idi.



Mürsəl bəy Şahsuvarlı
(öndə sağdan 1-ci)
sürgündəykən həkim işlədiyi
xəstəxananın tibb işçiləriylə.
Maqadan vilayəti,
Susuman şəhəri, 1945

1953-cü ildə Stalinin ölümündən sonra o, ailəsi ilə birlikdə Cambul şəhərinə sürgün edilib və orada 1957-ci ilədək qalıblar. Cambulda o, sanitar-epidemioloji stansiyada həkim işləyib və 6 aydan bir DTK-da qeydiyyata düşüb. Cambulda professor *Əhməd Rəcəbli* də onlarla bir yerdə olub və ailələri çox yaxın dostluq edib.

Qazaxıstanda onun ikinci qızı Anfiya Şahsuvarlı dünyaya gəlib. Böyük qızı atasının yolunu seçərək həkim (uşaq həkimi) olub, kiçik qızı isə Xarici Dillər İnstitutunu və Asəf Zeynallı adına musiqi məktəbini bitirib.

1957-ci ildə Şahsuvarlı ailəsi Azərbaycana qayıdıb, çünki SSRİ Ali Məhkəməsi ona bəraət verərək azad edib.

8 sentyabr 1957-ci ildən o, Elmi-Tədqiqat Tibbi Parazitologiya və Tropik Xəstəliklər İnstitutunun klinika şöbəsinin müdiri vəzifəsində işləməyə başlayıb. 1962-ci ilin martında Aşqabad şəhərində mikrobioloq və parazitoloqların konfransı keçirilib. Şahsuvarlı ora fəxri qonaq və Tropik İnstitutunun ilk direktoru kimi dəvət edilib.

1964-cü ildə Şahsuvarlı 2-ci dəfə geniş miokard infarktı keçirib. 1967-ci ildə Türkmənistanda SİKP MK-nın Marksizm-Leninizm İnstitutu "Sosializm qurucularının hekayələri" adlı kitab buraxıb. Orada Türkmənistanın keçmiş səhiyyə komissarı Cumabəy Xanməhəmmədov professor M.A.Şahsuvarlının 1932-ci ildən 1936-cı ilədək, yəni həbsinədək olan fəaliyyətindən danışıb.

Şahsuvarlı 1970-ci ildə Leninqradda konfransda köhnə dostu Hans Fogellə görüşüb. Bundan sonra Fogel onun birinci yoldaşı Marqaritaya zəng edərək görüşlərindən danışıb. Sən demə, o, ərinin güllələndiyini düşünürmüş. Daha sonra Şahsuvarlının ikinci ailəsi ilə Marqarita uzun müddət yazışıb. (Yeri gəlmişkən, Marqarita onlara Mürsəl bəyin 1924-cü ildə Münxendə Tiroli burqomistrinin qızından *Ernest* adlı oğlunun olmasını da danışıb).

Ömrünün son illərində – 1957-ci ildən sonra 1971-ci ilədək professor 25 elmi əsər yazıb, çoxlu gənc alimlər yetişdirib, səhiyyə orqanlarına təcrübi yardım göstərib, Azərbaycan rayonlarına özəl çağırışlara gedib. O, təbiətdən yaranan xəstəliklərlə, o sıradan toksoplazmozla mübarizə üsullarını ilk dəfə işləyib hazırlayıb. Onun əsərlərini professor Pekarski də nəşr edib.



Mürsəl bəy Şahsuvarlı *(ön sıra, sağdan 2-ci)* sürgündəykən
işlədiyi xəstəxananın tibb işçiləriylə. Cambul, 1955

Mürsəl bəy 4 dili: ana dilini, alman, kürd və rus dillərini təmiz bilib. İngiliscədən lüğətlə tərcümə edib. Xarici ədəbiyyatı həmişə orijinaldan oxuyub. Deyirmiş ki, yaxşı alim ən azı bir neçə xarici dili bilməlidir.

Professor Mürsəl bəy Şahsuvarlı 21 aprel 1971-ci ildə üçüncü geniş miokard infarktından sonra Haqqın rəhmətinə qovuşub.

Bu gözəl və hərtərəfli tərcümeyi-hala görə Vera xanıma ürəkdən təşəkkür edirik! Onun bizə verdiyi, ailə arxivində saxlanılan aşağıdakı sənədlər də məzmunca bu tərcümeyi-halı tamamlayır. Onlardan öyrənirik ki, 17 iyul 1937-ci ildə məhkum edilmiş M.Şahsuvarlı DİN cəzaçəkmə yerlərində, o sıradan Uzaq Şimalda 27 oktyabr 1936-cı ildən 1 oktyabr 1950-ci ilədək olub.[1]

M.Şahsuvarlı Türkmənistan SSR-də 1932-ci ilin yanvarından dövlət Tropik İnstitutunun direktoru vəzifəsində işləyir və arvadı Marqarita Karl qızı Şahsuvarlı da onun himayəsindədir. Bu arayış Türkmənistan SSR MİK xarici şöbəsinə Hamburqa viza almaq üçün verilib.[2]

SSRİ Ali Məhkəməsinin plenumu 21 iyun 1957-ci il tarixli qərarı ilə Türkmənistan SSR Ali Məhkəməsi Özəl Kollegiyasının 17 iyul 1937-ci il tarixli hökmünü ləğv edib və M.Şahsuvarlıya bəraət verib.[3]

[1] Sənədin surəti özəl arxivimizdədir.
[2] Sənədin surəti özəl arxivimizdədir.
[3] Sənədin surəti özəl arxivimizdədir.



Parazit xəstəliklərilə mübarizə üzrə Azərbaycan, Gürcüstan və Ermənistan SSR-lərin respublikalararası müşavirəsi. *Arxa sırada soldan 7-ci* Mürsəl bəy Şahsuvarlı. Bakı, 13 aprel 1957-ci il

* * *

Mürsəl Şahsuvarlının həyatını özündə yaşadan bir çox başqa sənədlər də var və onlar da oxucularımızın "həsrətindədir". Öncə AR Dövlət Arxivindəki şəxsi işindəki bəlgələrə nəzər salaq.

1909-cu il yanvar ayının 8-də Zəngəzur qəzası Şahsuvarlı camaatının mollası Həzrətqulu Molla Lütfəli oğlu Minkənd kəndinin sakini Mürsəl Şahsuvarova atası Adilxanla onun qanuni arvadı Günəş Kərbəlayı Həsən qızından 1900-cü il iyunun 19-da doğulması haqqında şəhadətnamə verib.[1]

Tiflisdə 27 fevral 1918-ci ildə verilmiş 310 saylı kamal attestatından oxuyuruq ki, Şahsuvarov Tiflis İmperator I Aleksandr kişi gimnaziyasına 1 sentyabr 1913-cü ildə girərək orada əla əxlaqla 18 fevral 1918-ci ilədək oxuyub, 8-siniflik tam kursu bitirib və aşağıdakı bilikləri qazanıb:

Şəriət –	4 (dörd)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	3 (üç)
Fəlsəfi propedevtika –	4 (dörd)
Qanunşünaslıq –	4 (dörd)
Latın dili –	3 (üç)
Riyaziyyat –	4 (dörd)
Riyazi coğrafiya –	3 (üç)
Fizika –	4 (dörd)
Tarix –	4 (dörd)
Coğrafiya –	4 (dörd)
Alman dili –	5 (beş)
Fransız dili –	3 (üç).[2]

[1] ARDA, fond 51, siyahı 3, iş 138, vərəq 3.
[2] Yenə orada, vərəq 2.

Gəncə valiliyi Zəngəzur qəzası Minkənd kəndinin sakini Şahsuvarov 19 avqust 1919-cu ildə Bakıda AC XMN-nə yazdığı ərizədə təhsilini bitirməsi üçün onu İsveçrədəki ali ixtisas məktəblərindən birinə göndərməyi xahiş edib və özünün maddi imkanını olmadığını, Tiflis gimnaziyasını da dövlət hesabına bitirdiyini yazıb.[1]

Şahsuvarov 23 noyabr 1919-cu ildəki son ərizəsində tibb fakültəsində oxumaq istədiyini və Almaniyaya, Drezden şəhərinə getmək istədiyini bildirib.[2]

31 dekabr 1919-cu ildə o, təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[3] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[4] dilkağızları verib.



Soldan: Türkmənistanın keçmiş səhiyyə komissarı (naziri) Cumabəy Xanməhəmmədov, prof. Mürsəl bəy Şahsuvarlı, ?. Aşqabad, mart, 1962

Mürsəl Adilxan oğlu Şahsuvarova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 567 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[5]

* * *

Münxendə Hilal Münşinin redaktorluğu altında çıxan *"Qurtuluş"* dərgisinin 1938-ci il fevral tarixli 40-cı sayında Mürsəl bəy Şahsuvarlının həyat yoldaşı Marqarita Şahsuvarlıdan Münşinin götürdüyü *"Azərbaycanda məhvetmə siyasəti. (Almaniyalı bir qadının anlatdıqları)"* adlı geniş müsahibə dərc edilib.[6] H.Münşi öz şərhlərini versə də yazıda başlıca yeri Marqarita Şahsuvarlının söylədikləri tutur. Azərbaycan oxucusu üçün maraqlı olduğuna görə həmin yazıdan ən mühüm bölümləri seçərək aşağıda veririk.

Azərbaycanda məhvetmə siyasəti (alman qadının anlatdıqları):

"Bundan bir müddət əvvəl madam Marqarita Şahsuvarlı adında bir qadının Azərbaycandan Almaniyaya gəldiyini və əmləkətimiz haqqında həyəcanlı və əndişəli xəbərlər gətirdiyini xəbər alınca bu qadınla görüşmək və məlumatını dinləmək arzusundan özümüzü saxlaya bilmədik.

Görüş üçün ricamızı nəzakətlə qəbul edən bu xanımla bundan bir az əvvəl vətəndaşlarımızdan bir qrupla birlikdə məsul müdirimiz H.Münşi bəy danışaraq aşağıdakı təfsilatı əldə etmişdir...

Marqarita Şahsuvarlı gördüyü şeyləri və çəkdiyi iztirablardan duyduğu təəssüratı bu cümlələrlə ifadə etmişdir:

[1] ARDA, fond 51, siyahı 3, iş 138, vərəq 1.
[2] Yenə orada, vərəq 4.
[3] Yenə orada, vərəq 5.
[4] Yenə orada, vərəq 6.
[5] Yenə orada, vərəq 7.
[6] *Münşi H.* Azerbaycanda imha siyaseti. (Almanyalı bir kadının anlattıkları). // *"Kurtuluş"*, Şubat 1938, sayı 40, ss. 14-19. Bu müsahibənin *"Qurtuluş"* dərgisindən üzünü çıxararaq Ankaradan bizə göndərmiş dostumuz Ömər Özcan bəyə təşəkkürümüzü bildiririk.



Soldan sağa. Ön cərgə: Lyudmila İvanovna, Anfiya, Mürsəl bəy Şahsuvarlı, Nina (Lyudmilanın böyük bacısı). *Arxa cərgə:* Vera, Zina (Lyudmilanın böyük bacısı), Qalya (onun qızı). Bakı, 1958

"Vaxtılə milli hökumət tərəfindən Almaniyaya oxumaq üçün göndərilən tələbələr arasında Mürsəl Şahsuvarlı adında birisi vardı. Milli hökumətin yıxılması ilə bağlı olaraq, məlum olduğu kimi, Azərbaycan tələbəsi əvvəlcə Azərbaycan sovet hökuməti, sonra da Zaqafqaziya Sovet Federasiyası təqaüdçüləri sırasına keçmiş oldular. Mürsəl Şahsuvarlı bu andan etibarən yalnız sovet təqaüdçüsü olmaqla qalmayıb, eyni zamanda bolşeviklər tərəfindən təşkil və təşviq olunan kommunist qrupuna da intisab etmişdir.

Bu surətlə Sovetlər hesabına Hamburqdakı Tropik İnstitutunda staj görərək təhsilini bitirmiş və kommunistlərlə ülfət etdiyindən, ehtiyat etmədən Bakıya dönərək burada xidmətə girmiş və olduqca mühüm vəzifələr tutaraq mənsəb qazanmışdır.

Hamburqda təhsildə ikən, 1928-də Mürsəl Şahsuvarlı oralı almanlardan bir tacirin qızı olan Marqarita ilə evlənmiş və Azərbaycana bu həyat yoldaşı ilə birlikdə dönmüşdür.

Madamın anlatdığına görə, Şahsuvarlıların Sovet Azərbaycanındakı həyatları son günlərə qədər yaxşı keçmişdir. Bakıda öz ixtisası daxilində mühüm vəzifələrdə çalışdırılan Mürsəl, nəhayət, Türküstan sovet hökumətinin dəvəti ilə Aşqabaddakı Tropik İnstitutunun müdirliyinə dəvət olunmuşdur.

Fəqət keçən ilə qədər rifah və səadət içində keçən Şahsuvarlıların həyatı bütün sovetlərdə başlayan dəlicə "təmizlik" üzündən sarsılmağa başlamış, GPU-nun bədgümanlığından Mürsəl də dışarıda qalmamışdır. Nəhayət, Azərbaycan ilə Türküstandakı yerli kommunistlərə qarşı açılan və xüsusilə münəvvər kütləyə yönəldilən səfər nəticəsində Mürsəl Şahsuvarlı da Bakıda ikən tutulmuş və Aşqabada göndərilərək burada Türküstan sovet hökuməti üzvləri ilə birlikdə uzun müddət GPU zirzəmilərində işgəncələrə məruz qaldıqdan və nəhayət, göstəriş məhkəməsində uydurma "faşistlik, ziyançılıq, alman casusluğu və milliyyətçilik" kimi suçlarla ittiham olunaraq yüksək cəzaya məhkum edilmiş, öldürülmüşdür.[1]

[1] Marqarita gerçəkdən Mürsəl bəyin öldürüldüyünü güman edib, ancaq Mürsəl bəyin sağ olduğunu çox sonralar öyrənib.



Mürsəl bəy Şahsuvarlı. 1967

Beləliklə, dul qalan madam Marqarita sovet qanununa uyğun olaraq, ərinin vətəndaşlığını deyil, əsl vətəni olan Almaniya təbəəliyini daşıdığından, bu vəziyyətdən istifadə edərək Almaniyaya dönmək imkanı əldə etmişdir".[1]

"Azərbaycandan ayrıldığım az bir zamandır. Orada xüsusən son zamanlar gördüklərimi təsvirə özümdə güc tapmıram... Orada gördüklərimi və yaşadıqlarımı xatirimə gətirməyə başlayınca bütün bədənim lərzəyə gəlir, çünki bir çox istintaqlar, axtarışlar və dəfələrlə əzici sorğu-suallardan başqa, GPU-nun zirzəmilərində oturduğum olmayıb.

Buna baxmayaraq, oradakı vəziyyət haqqında danışmağa başlarkən istər-istəməz qorxuya düşürəm, çünki elə zənn edirəm ki, anlatdıqlarım gedib GPU-nun qulağına yetişəcəkdir və yaşadığım, bildiyim əzablara yenidən məruz qalacağam. Bu səbəbdən çəkingən olduğumu görsəniz məni üzrlü tutunuz. Hələ də heç cür inanmıram ki, Rusiyada deyil, Almaniyadayam...".[2]

[...] "Azərbaycanda təxminən 9 ilə qədər yaşadım. Bu müddətin böyük qismini Bakıda keçirdimsə də Azərbaycanın başqa hissələrini də tanıyıram. Anladacaqlarımı qısaca olaraq 1-2 sözlə belə ifadə etmək olar: Məmləkətiniz sözün tam mənasında cəhənnəm həyatı keçirir".[3]

[...] "Ruhulla Axundov tutulduğu zaman, - madam anladır, - mən Bakıda idim. Bu xəbər xalqı və ümumən ictimai fikri çox da heyrətə salmadı, çünki Kirovun qətlindən sonra bütün Sovetlər miqyasında olduğu kimi Azərbaycanda da müdhiş bir terror başlanacağını hər kəs gerçək surətdə gözləyirdi. Kirovun ölümünü hər kəs bir siqnal kimi qəbul etməkdə idi. Yüksək mövqe tutan kommunistlərlə yaxından tanış olan ərim tanıdığımız bir çox kommunistlərlə dostlarımız olan GPU məmurları, Azərbaycanda aylardan bəri cərəyan etməkdə olan və şəxsən şahidi olduğum qanlı hadisələrin başlayacağını öncədən, yəni Kirovun qətli xəbərindən sonra qəti bir surətlə söyləməkdə idilər. Kirovun ölümündən sonra Bağırov da daxil olmaqla bütün adlı-sadlı kommunistlər qəflətən GPU-nun şiddətli təzyiqi altına alınmışdı. Gözlənilən bəla gecikmədi... Fəqət hər kəsdə heyrət doğuran bu oldu ki, GPU ilk həbsləri kommunist başçılarının arasında deyil, idarələrdə, məktəblərdə, müəssisələrdə, mədəni və ədəbi təşkilatlarda icra etməyə başladı. Az bir zaman içində məmləkətin ziyalı qismi müdhiş bir şəkildə yox edildi".[4]

[...] "Ən faciəli və ən dəhşətli zərbələrə məruz qalanlar ədiblərinizdir. Bunların başına GPU zirzəmilərində min cür zülmlər açıldı. Ədib və şairlərinizin məruz qaldığı zülmlər bütün Azərbaycanı sarsıtdı. Bu şairlərdən bəzilərini şəxsən tanıyırdım, bizə gəlirdilər, ərimin dostları idi. Mən Azərbaycanı tərk etdiyim zaman bu zavallılardan heç biri azadlıqda deyildi".[5]

"1936-cı ilin II yarısından başlayaraq bugünə qədər davam edən təqib və həbslərdə əsas olaraq GPU basmaqəlib bir şəkildə daim eyni səbəbləri göstərir: "alman və yapon casusluğu", "trotskizm", "ziyançılıq", "diversantlıq", "gestapo agentliyi", "müsavatizm", "burjua millətçiliyi" və s. Təqiblər başlandığı zaman yüksək mövqelər tutan

[1] *Münşi H.* Azerbaycanda imha siyaseti. (Almanyalı bir kadının anlattıkları), s. 14.
[2] Yenə orada, ss. 14-15.
[3] Yenə orada, s. 15.
[4] Yenə orada.
[5] Yenə orada.



Qapı istiqamətində, orta cərgədə Mürsəl bəy Şahsuvarlı. Aşqabad, mart, 1962

və Ruhulla Axundov, Həmid Sultanov, Əliheydər Qarayev, Dr.Sultanməcid Əfəndiyev kimi partiyanın nəhənglərindən sayılan böyüklərin vəziyyəti hələ sarsılmamışdı, GPU-nun bu "rəhbər"lərlə hələ işi yoxdu. Əksinə, onların tövsiyə və yardımıyla yeni "ziyançı" şəbəkəsi üzə çıxarılırdı. Xülasə, GPU bir müddət bütün məqamları, idarələri və Azərbaycanın mədəni müəssisələrini alt-üst etməklə məşğul oldu... GPU-nun izlədiyi sistem artıq hər kəsə anlaşılmışdı: ilk dəfə tutulanlar sonra tutulasıları ittiham edəcəkdi ki, GPU da sonrakı dustaqlara qarşı sərbəst hərəkət edə bilsin. Bu, bir sistem olmaqla bərabər, bir siqnal idi. Bağırov da daxil olmaqla kimsə bunun nəticəsindən qurtula bilməzdi...".

[...] "Yuxarıda məzkur "etiraf"lar nəticəsində Ruhulla Axundov və yoldaşları həbsə alındılar. Ruhulla uzun müddət GPU-da müdhiş işgəncələrə məruz qaldıqdan sonra ondan tələb olunan "etirafları" imzalamadı. Onunla buna görə də faciəli şəkildə davrandılar, döydülər və ona ağlagəlməz əzablar verdilər. O, Azərbaycanın "Radek"i rolunu oynamalı idi, əsli olmayan şeyləri boynuna almalı idi və GPU-nun əsgisi rolunu oynamalı idi. Fəqət o, bunları etmədi və GPU məhbəsində nəbzini kəsərək intihar etdi".[1]

"Hadisələrin şəxsən Kommunist Partiyasına bağlı qisimlərini, deməliyəm ki, əhali sevinclə qarşılayırdı. Məlumdur ki, bu gün ortadan götürülmüş məşhur kommunistlərin vicdanı yüzlərcə məsum azərbaycanlının qanına bulaşmışdır. Azərbaycanın fəlakətində bu kommunistlərin faciəli rolu olduğunu ərimdən eşitmişdim. Bunu da qeyd edim ki, ərim Almaniyadan döndükdən sonra Azərbaycanın pərişan halını gördü və Bakıda zəruri olduğu halda yenidən partiyaya girmədi və ölüncəyədək partiya

[1] Bu fikirlə razılaşmaq olmur, çünki R.Axundova "GPU" istədiyi bütün sənədlərə imza atdıra bilib və sonda o, Moskvada güllələnib. M.Şahsuvarlı, təbii ki, bu həqiqətləri bilə bilməzdi.

üzvlüyündən boyun qaçırdı. O, vətəninin ruslaşdırıldığını daim təəssüflə mənə anladırdı. Aşqabad GPU-su zirzəmilərində ikən oxumaq üçün məndən ancaq türkcə kitablar istəyirdi. Zatən ərimin tutulmasının səbəblərindən biri də diqqətsizlik edərək Azərbaycanın ruslaşdırıldığını bəzi inandığı yoldaşları yanında tənqid etməsi idi".[1]



Nurməhəmməd bəyin kiçik, Mürsəl bəyin böyük qardaşı Səməd bəy Adilxan oğlu Şahsuvarov. 1930-cu illərin əvvəli

"Azərbaycan üçün ən faciəli bir hadisə varsa o da, təəssüf ki, ziyalı qüvvələrinizin məhv edilməsidir... Məmləkətinizi bu xüsusda, yəni fikri sahədə bir müdhiş bir hala gətirdilər. Fəqət Moskva bununla kifayətlənmədi və ilk sırada ümuman Avropa təhsili görmüş, o cümlədən, xüsusən vaxtilə milli hökumət tərəfindən Avropaya göndərilmiş və sonra geri dönmüş olan mühəndis, tibb doktoru, hüquqçu və digər ixtisas sahiblərini təqibə başladı. Bunları tamamilə məhv etmək üçün GPU müxtəlif metodlara baş vurmaqdadır".

"Sizə bir şeydən də bəhs etmək istəyirəm: Azərbaycanda bulunduğum müddətdə tanış olduğum bir çox rus ailələrində yerli Türklərə qarşı qəribə bir hiss və münasibətin şahidi oldum. Bunlar yerliləri özlərindən aşağı və ibtidai bir dərəcədə görür və dəfələrlə mənə istehza edərək üzümə qarşı "necə oldu da siz – mədəni bir millətin qızı geri irqdən bir tatara gəldiniz?!" deyə soruşmaqdan utanmırdılar. Zənn etməyiniz ki, bununla onlar bugünkü Almaniyada kök atmış irq nəzəriyyəsinə bir kinayə edirdilər, xeyr. Bu kimi istehzalara mən hitlerizmin Almaniyada meydana çıxmasından daha çox əvvəl, Veymar sistemi zamanında məruz qalırdım. Rusların yerlilərə yuxarıdan aşağı bir baxışla baxdıqları digər sahələrdə də, demək olar, hər addımda görünür: qatarda, tramvayda, GPU həyətində, konfranslarda, teatrlarda, xülasə, insan qələbəliklərinin hər birində qulağımıza daim qaba rus şivəsi ilə alçaltma anlamı daşıyan "tatarin" adı gəlir".

[...] "Azərbaycana gedərkən dilinizi bilmirdim. Ona görə də millətiniz haqqında Bakının ilk baxışdan görünən zahiri ilə hökm edərək mədəniyyətiniz haqqında, bağışlayın, yüksək bir fikrə malik deyildim. O vaxt ki teatr və operalarınızı seyr etdim, aman yarəbbi, nə qədər yanıldığımı ancaq onda anladım!.. Mən Almaniyadan gəlmişdim, alman səhnəsi, pyesləri və operasını görmüşdüm, teatr, opera və musiqi sahəsindəki duyğularım incəlmişdi. Yeni bir səhnə görüncə, təbii ki, ona qarşı böyük tələblərdə bulunacaqdım. Bəli, teatrlarınıza getdim, "Şahsənəm"inizi gördüm, "Koroğlu"nuzu seyr etdim, "Otello", "Hamlet", "Makbet" kimi bir çox Avropa klassiklərinin Türk səhnəsində türkcə oynandığına baxdım. Onları xatırladıqca, o müstəsna sənətkarlarınızın təmsil qabiliyyətini yadıma gətirincə heyrətimdən indi də bayılıram.

Sizə gerçək kompliment söyləmirəm, həqiqi duyğularımı, aldığım şirin təsirləri bildirmək istəyirəm. Həyatıma bir gün qalsa o gözəl operaları, o möhtəşəm sənəti, o müəzzəm təmsil qüdrətini bir dəfə də yenidən seyr etmək istəyirəm".[2]

"Bu, çox maraqlı müsahibəsini madam Marqarita Azərbaycanda gördüyü ümumi rus və kommunist düşmənliyini təsvir edən bu cümlələrlə tamamlamışdır: "Bunu da sizə söyləyim ki, Azərbaycanda Sovetləri, Moskvanı və rusu (kommunistləriniz də

[1] *H.Münşi.* Azerbaycanda imha siyaseti. (Almanyalı bir kadının anlattıkları), s. 16.
[2] Yenə orada, ss. 17-18.



Soldan sağa: Lyudmila Ivanovna, Qambay bəy Şahsuvarov (Mürsəl bəyin əmisi oğlu), Tamara Poladzadə (Qambayın həyat yoldaşı), Mürsəl bəy Şahsuvarlı, Anfiya, Nina (Lyudmilanın böyük bacısı), Vera *(arxada, ayaq üstdə)*. Bakı, 10 noyabr 1966-cı il

daxil olmaqla) içdən sevən bir adam tapılmaz. Ruslara qarşı nifrət ümumidir. Millətinizin başında oturanlar: ruslar, ermənilər, yəhudilər və qismən də latışlardır. Bakı GPU-su başdan-ayağa saydığım bu dörd millətə mənsub olanların əlindədir".[1]

* * *

Mürsəl bəyin qardaşı *Nurməhəmməd bəy Şahsuvarlı/ Şahsuvarov* da Azərbaycanın ən qabaqcıl maarif xadimlərindən biridir. Bu kitabda onun adı dəfələrcə çəkilib, çünki Cümhuriyyət tələbələri xaricə göndərilərkən onların hamısına verilən vəsiqənin üstündə Azərbaycan Cümhuriyyəti xalq maarif nazirinin müavini Nurməhəmməd bəyin imzası vardı.

Onun haqqında yazılmış ilk və ən dəyərli yazını aşağıda dərc edirik. Onun müəllifi mərhum *Mövsüm Əliyev*'dir.

Öz dövrünün tanınmış şəxsiyətlərindən biri olan Nurməhəmməd bəy Ədilxan oğlu Şahsuvarov 1883-cü ildə Azərbaycanın indiki Laçın rayonunun Minkənd kəndində doğulub. O, ibtidai təhsilini kənd məktəbində başa vuraraq, 1899-1903-cü illərdə Qori müəllimlər seminariyasında oxuyub. N.Şahsuvarov bir müddət Gəncədə rus dili müəllimi işlədikdən sonra Tiflis Aleksandr Müəllimlər İnstitutuna daxil olub və oranı 1912-ci ildə bitirib. O, həmin il Kiyev Universitetinin hüquq fakültəsinə daxil olub və həmin ali məktəbi ekstern yolu ilə 1915-ci ildə başa vurub. Dağıstan vilayəti xalq təhsili idarəsi üzrə Teymurxanşura (indiki Buynaksk) şəhərinə inspektor təyin edilib.

[1] *Münşi H.* Azerbaycanda imha siyaseti, s.18.

1917-ci ildə Rusida Fevral burjua inqilabı baş verdi. Bitərəf Nurməhəmməd bəy Şahsuvarov siyasi hadisələrdə yaxın iştirak etməyə başladı. 1918-ci ilin yayında Şimali Qafqazda yaşayan xalqların milli-azadlıq hərəkatı nəticəsində Dağlılar Respublikası yaradıldı. N.Şahsuvarov həmin respublikanın xalq maarif naziri təyin olundu.

1919-cu il iyunun əvvəlində Bakıya gələn N.Şahsuvarov Azərbaycan Cümhuriyyətinin Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəylinin (1881-1920) təşkil etdiyi birinci hökumət kabinəsində maarif nazirinin müavini vəzifəsini icra etməyə başlayıb. («Азербайджан» qəzeti, 3.VI.1919, № 113). O, həmin dövrdə Azərbaycanın şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılmasına və digər mütərəqqi tədbirlərin həyata keçirilməsinə böyük əmək sərf edib.



Nurməhəmməd bəy Şahsuvarlı. Moskva, noyabr, 1957

Azərbaycanın ilk ali məktəbi Bakı Dövlət Universitetinin təşkilində də N.Şahsuvarovun xidmətini qeyd etmək lazımdır.

"İttihad" partiyasının üzvü N.Şahsuvarov Nazirlər Şurasının sədri N.Yusifbəylinin II hökumət kabinəsində 1920-ci il martın 5-də istefaya çıxan H.Şahtaxtinskinin (1880-1943) yerinə maarif və dini etiqad naziri təyin olunub, 25 gün sonra – martın 30-da bütün kabinə ilə birlikdə istefaya çıxıb.

1920-ci ilin aprelin 27-də baş verən hadisələrdən sonra N.Şahsuvarov Azərbaycan SSR xalq maarif komissarının müavini təyin olunub. O, həmin dövrlərdə Bakıda Pedaqoji, S.Ağamalıoğlu adına Torpaq və Geodeziya Texnikumlarında rus dilindən dərs deyib. Sonralar isə Bakı Dövlət Universitetində rus dili kafedrasının müdiri, Azərbaycan Neft İnstitutunda isə rus dili müəllimi vəzifəsində işləyib.

1940-cı ildə həbs olunan və Krasnodar diyarına sürgünə göndərilən[1] Nurməhəmməd Şahsuvarov orada da öz ixtisası üzrə dərs deyib. Üç il sonra – 1943-cü ildə sürgündən Bakıya qayıdan N.Şahsuvarov Azərbaycan Tibb İnstitutunda rus dili kafedrasının müdiri və müəllimi işləyib. O, Azərbaycanda rus dili sahəsində bir mütəxəssis kimi məşhur idi.

Öz dövrünün tanınmış şəxsiyyətlərindən biri olan Nurməhəmməd bəy Şahsuvarov 1958-ci ilin avqustun 11-də Bakıda vəfat edib. Onu da qeyd etmək lazımdır ki, o, öz vətənində Azərbaycan istiqlal dövrünün həyatdan köçən son naziri idi.[2]

[1] AR MTN Arxivi, PR-6399.

[2] *Əliyev M.* Nurməhəmməd bəy Şahsuvarov. // *"Odlar yurdu"* qəzeti, 2.1990, № 4.

Şahsuvarov Surxay bəy Əzim bəy oğlu

(19.07.1900, Minkənd k./ Zəngəzur – 03.11.1945, Bakı)



Surxay Şahsuvarov

7 fevral 2007-ci ildə Surxay bəyin oğulları Tofiq bəy və Adil bəy Şahsuvarovlarla görüşərək Surxay bəy Şahsuvarov haqqında söhbət etdik və sonrakı görüşlərimizdə onlardan bir sıra önəmli sənədlərin surətlərini aldıq. Qardaşlar öz nəsilləri haqqında danışarkən bildirdilər ki, onların ulu babası *Şahsuvar bəy* təxminən 1820-ci ildə İraqdan Minkəndə gəlmiş kürddür. O, Kərbəlayı Pəri xanımla ailə qurub. Övladlarından biri *Adilxandır*. Günəş xanımla evlənən Adilxanın 6 övladı olub, onlardan 5 oğlunun adı bəllidir: *Əzim, Nurməhəmməd, Səməd, Mircan, Mürsəl*. Nurməhəmməd və Mürsəl Şahsuvarov qardaşları Azərbaycanın maarif tarixində iz buraxmış görkəmli şəxslərdir. (Bu kitabda Mürsəl bəy Şahsuvarlı haqqındakı məqalədə onlardan geniş söhbət açılıb).

Surxay bəy həmin qardaşların böyüyü Əzimin oğludur. Əzimlə *Nabat xanım*'ın bu övladları olub: *Surxay, Rəxşəndə, Fizzə, Firuzə, Qambay.*

Rəsul bəy Tahirovun qızı *Qonça xanım*'la (31.12.1906-27.2.1986) ailə quran Surxay bəyin *Tofiq* və *Adil* adlı oğulları dünyaya gəlib.

Övladlarının bizə verdiyi sənədlər içərisində Surxay bəyin öz əli ilə yazdığı rusca tərcümeyi-halın surəti də var. Burada oxuyuruq:

"Mən, Surxay Əzim oğlu Şahsuvarov 29.07.1900-cü ildə Laçın rayonunun (keçmiş Zəngəzur qəzasının) Minkənd kəndində kürd kəndlisi ailəsində doğulmuşam. 8 yaşım olanda atamı itirmişəm və öncə Bakıda ikisinifli məktəbin müəllimi olan dayımın himayəsinə keçərək o məktəbdə 1908-ci ildən 1910-cu ilədək oxumuşam. Sonra Gəncə şəhərində xalq müəllimi olan əmimin yanına gedərək müəyyən hazırlıqdan sonra kişi gimnaziyasına girmişəm. Çoxlu xahiş-minnətdən sonra bir kürd kimi 1913-cü ildə Tiflis I kişi gimnaziyasının pansionuna düşə bilmiş və oranı 1918-ci ildə fərqlənmə ilə bitirmişəm.

Pansionda həddsiz qıt və keyfiyyətsiz yemək nəticəsində sağlamlığım köküdən pozulmuşdu və gimnaziyanı bitirdikdən sonra mən kiçik fasilələrlə demək olar ki, bir il xəstə yatmışam. 1919-cu ilin sonunda attestatıma görə mən Müsavat hökumətinin ali təhsili bitirməkdən ötrü xaricə göndərdiyi azsaylı tələbələr qrupuna düşmüşəm. 1920-ci ilin mart ayında Almaniyaya gedərək Frayberq Dağ-Mədən Akademiyasına girib, oranı 1925-ci ilin başlanğıcında uğurla bitirmişəm. Akademiyanı bitirdikdən sonra Almaniyada hələ 6 ay da Azərneftin hesabına qalaraq Hannover yaxınlığındakı Tselle neft mədənlərində təcrübəçi fəhlə kimi işləmişəm.

Başqa tələbələrlə birlikdə təqaüdü Müsavat hökumətindən yalnız 1920-ci ilin avqust ayına qədər almışam. 01.09.1920-ci ildən Bakıya gəldiyim vaxtadək isə xaricdə sovet hökumətinin hesabına yaşamışam. Bakıya 1925-ci ilin iyulunda gələrək Bibiheybət Qazma Kontoruna işə düzəlib, 1927-ci ilin oktyabr ayınadək orada firlanma qazması mühəndisi kimi işləmişəm.

Özümü elmi-pedaqoji işə həsr etmək üçün 01.10.1927-ci ildə Bibiheybət qazma kontorundan öz istəyimlə gedərək Nərimanov adına Texnikuma müəllimliyə düzəlmiş, orada 1932-ci ilin may ayınadək işləmişəm. Bununla eyni zamanda 1929-cu il sentyabrından Azərbaycan Sənaye İnstitutunda (Az.Sİ-də) ümumi geologiya kafedrasında assistent işləməyə başlamışam.

1932-ci ilin iyun ayında mən "Azərneftkəşfiyyat"da geoloq kimi işə düzəlmiş və 1933-cü ilin sentyabr ayından Lökbatan ayrıca mədənə çevrildikdən və istismara verildikdən sonra oraya geoloq işinə keçirilmişəm.[1]

Lökbatanda 15 mart 1938-ci ildək istismar üzrə geoloq, baş əməliyyat geoloqu, ikinci mədənin baş geoloqu və nəhayət, qısa müddətə işləyib hazırlama üzrə baş geoloq vəzifəsində çalışmış və bütün bu vaxtda mədəndəki əsas işimlə yanaşı Az.Sİ-dəki işimi də davam etdirmişəm.

16 mart 1938-ci ildən mən Az. Sİ-nin ümumi geologiya kafedrasına daimi ştatlı işə keçirilmişəm və indiyədək orada işləyirəm. Dosent rütbəm var və 1940-cı ilin aprelində dissertasiya müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi dərəcəsi almışam. 15 mart 1941-ci ildən eyni zamanda Az. Sİ-də geoloji-kəşfiyyat fakültəsinin dekanı işləyirəm".[2]

* * *

Surxay bəy haqqında 1990-cı illərin başlanğıcında Azərbaycan mətbuatında bəzi yazılar çıxıb. Onlardan ikisini əldə edə bilmişik. "Bakı" qəzetində İttifaq Mirzəbəyli və Maarif Teymurun "Göndərən ölkə – Azərbaycan" məqaləsi onun haqqında yazılmış ilk ayrıca məqalədir.[3] Ancaq dəyərli araşdırıcı Hafiz Sadıqın "Ədalət" qəzetindəki ""100-dən 99-u" rubrikasından, yaxud Surxay Əzim bəy oğlu Şahsuvarov kimdir?" məqaləsi[4] faktlarının zənginliyi və Surxay bəyin həyatının ən mühüm dönəmlərini əks etdirməyi bacarması ilə seçilir. Hiss olunur ki, H.Sadıq məqalənin yazılışında Şahsuvarovun ailə üzvlərinin şəxsi söhbətlərindən və ailə arxivindəki sənədlərdən geniş yararlanıb və təbii ki, bu da yazını daha sanballı edib. Məqalənin üstünlüyü indicə oxyub bitirdiyimiz tərcümeyi-halı sanki məzmunca tamamlamasıdır.

Hafiz Sadıq yazır ki, Surxay bəy Azərbaycan Sənaye İnstitutunda işlədiyi müddətin ikinci ilində *"Xəzər dənizinin tarixi dövr ərzində su balansı"* mövzusunda namizədlik dissertasiyası müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi alıb. Bundan sonra o, İnstitutun geoloji-kəşfiyyat fakültəsinin dekanı təyin edilib.

1942-ci ildə Surxay bəy xaricdə oxumuş bütün tələbələr kimi həbsə alınıb. Ali Məhkəmə ona 5 il həbs cəzası kəsərək Şimali Qazaxıstana, sonra isə Şimali Urala sürgün edib. Bundan sonra onun evi də daxil olmaqla əmlakı müsadirə edilib, yoldaşı həkim Qonça xanım işdən çıxarılıb.

Ailə gözdən-könüldən uzaq olmaq üçün Laçın rayonunun Minkənd kəndinə, qohumlarının yanına gedib. Sürgün yerlərinin sərt şaxtasına dözməyən Surxay bəy vərəm xəstəliyinə tutulub. Uzun-uzadı yazışmalardan sonra alim sürgündən azad edilib.



Ortada: Əzim bəy Adilxan bəy oğlu Şahsuvarov (Surxay bəyin atası) – Şahsuvarlı camaatının başçısı. *Solda:* Fizzə Əzim bəy qızı (prof. Zöhrab Qarayevin anası) (1903-1977). *Sağda:* Rəxşəndə Əzim bəy qızı (1901-1986). 1934-də Qazaxıstana sürgün edilib (yoldaşı Firidun Bağırov varlı tərəkəmələrdəndi). Minkənd (Laçın), 1907-1908

[1] Çox güman ki, bu işdə Lökbatan mədəninin yaradıcısı Baxış bəy Sultanovun təsiri olub.

[2] Sənədin surəti özəl arxivimizdədir.

[3] *Mirzəbəyli İ, Teymur M.* "Göndərən ölkə – Azərbaycan". // *"Bakı"*, 6 may 1991-ci il, № 85.

[4] *Sadıq H.* "100-dən 99-u" rubrikasından, yaxud Surxay Əzim bəy oğlu Şahsuvarov kimdir? // *"Ədalət"*, 21 dekabr 1993-cü il.



Surxay bəy Şahsuvarov *(gimnaziyanı bitirəndən sonra)*. Minkənd, 1918



Surxay bəy Şahsuvarov. Almaniya, 1923-1924

Məqalədə daha sonra oxuyuruq ki, onu çox ağır vəziyyətdə Minkəndə gətiriblər. Artıq xəstəlik öz işini görübmüş. 1945-ci ilin noyabr ayının 3-də Bakı xəstəxanalarının birində Surxay bəy Əzim bəy oğlu Şahsuvarov dünyasını dəyişib.[1]

* * *

AR Dövlət Arxivində Surxay bəy Şahsuvarovun şəxsi işi var. Orada onun həyatının 1920-ci ilin yanvarınadək olan dönəmi haqqında bəlgələr toplanıb.

Doğum şəhadətnaməsində oxuyuruq:

"1909-cu ilin yanvar ayının 8-də mən, Zəngəzur qəzası Şahsuvarlı camaatının mollası Molla Həzrətqulu Molla Lütfəli oğlu bu şəhadətnaməni ona görə verirəm ki, Minkənd kəndinin sakini Surxay Əzim oğlu Şahsuvarov öz qanuni anası Nabat xanım Kərbəlayı Qəhrəman bəy qızından 19 iyul 1900-cü ildə anadan olub".[2]

27 fevral 1918-ci ildə Tiflisdə verilmiş 311 saylı kamal attestatında S.Şahsuvarovun 1 sentyabr 1913-cü ildə Tiflis imperator I Aleksandr kişi gimnaziyasına girərək orada əla əxlaqla 18 fevral 1918-ci ildək oxuması və səkkizsiniflik tam kursu bitirməsi qeyd olunub. Onun qiymətlərinin hamısı "5"dir:

Şəriət –	5 (beş)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	5 (beş)
Fəlsəfi propedevtika –	5 (beş)
Qanunşünaslıq –	5 (beş)
Latın dili –	5 (beş)
Riyaziyyat –	5 (beş)
Riyazi coğrafiya –	5 (beş)

[1] *Sadıq H.* "100-dən 99-u" rubrikasından, yaxud Surxay Əzim bəy oğlu Şahsuvarov kimdir? // *"Ədalət"*, 21 dekabr 1993-cü il.

[2] ARDA, fond 51, siyahı 3, iş 137, vərəq 3.



N.Nərimanov adına texnikumun müəllim və tələbələri. *Soldan sağa. Orta cərgə: 4-cü* Faris bəy Vəkilov, *5-ci* direktor müavini Cəfər Kazımov, *8-ci* materiallar müqaviməti müəllimi Surxay bəy Şahsuvarov. 1925-1927

Fizika –	5 (beş)
Tarix –	5 (beş)
Coğrafiya –	5 (beş)
Alman dili –	5 (beş)
Fransız dili –	5 (beş).[1]

Bu cür qiymətləri olan şagird medal alırdı.

Gəncə valiliyi Zəngəzur qəzası Minkənd kəndinin sakini Surxay Şahsuvarov AC Xalq Maarif Nəzarətinə 19 avqust 1919-cu ildə Bakıda yazdığı ərizəsində Almaniyadakı institutların birində oxumaq istədiyini bildirib və göstərib ki, kasıb olduğuma görə mən gimnaziyada dövlət hesabına pansionda yaşamaqla təhsil almışam.[2]

Şahsuvarov 5 noyabr 1919-cu ildə yazdığı ərizədə isə bildirib ki, tələbələrin ərizələrinə baxan Komissiyanın qərarına əsasən mən və tələbə Ağacəfər Əbdürrəhmanov öz aramızda ixtisaslarımızı dəyişmişik, buna görə də Sizdən məni Gəmiqayırma İnstitutuna getmək istəyən tələbələr qrupuna salmağınızı xahiş edir və təhsilimi Almaniyanın Drezden şəhərində almaq istədiyimi bildirirəm.[3]

31 dekabr 1919-cu ildə S.Şahsuvarov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[4] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[5] dilkağızları verib.

Surxay Əzim oğlu Şahsuvarova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 568 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[6]

[1] ARDA, fond 51, siyahı 3, iş 137, vərəq 2.

[2] Yenə orada, vərəq 1.

[3] Yenə orada, vərəq 4.

[4] Yenə orada, vərəq 5.

[5] Yenə orada, vərəq 6.

[6] Yenə orada, vərəq 7.



N.Nərimanov adına texnikumda imtahan. *Soldan sağa:* 1-ci Surxay bəy Şahsuvarlı, 3-cü Əliəkbər bəy Mirzəbəyli, 4-cü Cəfər Kazımov. Bakı, 1927-1928

Şahsuvarov 15 aprel 1920-ci ildə Frayberq Dağ-Mədən Akademiyasına *(Die Bergakademie Freiberg)* qəbul olunub. Ona Akademiyadan verilmiş diplomda göstərilir ki, 19 dekabr 1924-cü ildə diplomlu mühəndis rütbəsi alıb.[1] Bir müddət Hannoverdə təcrübəçi fəhlə kimi işlədikdən sonra Bakıya 1925-ci ilin iyulunda dönüb.

* * *

Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Nazirliyi 14 oktyabr 1949-cu ildə DTN Aşqabad vilayət idarəsinə yazdığı 11492 saylı məktubunda Surxay Şahsuvarov haqqında belə bir arayış verib ki, Şahsuvarov Surxay Əzimbala oğlu 1900-cü ildə Minkənd kəndində doğulub. Müsavat hökumətinin Almaniyaya göndərdiyi tələbələrlə birgə Frayberq Dağ-Mədən Akademiyasında Əlimuradbəyli və başqaları ilə birlikdə oxuyub. Agentura bilgilərinə görə, onun Almaniyada davranışı başqa tələbələrinkindən kəskin fərqlənib – tələbələrlə mübahisədə o, sovet ideyalarını müdafiə edib. Almaniyadan 1924-25-ci illərdə gəlib. Arzuolunmaz ünsür kimi 1942-ci ildə Bakıdan sürgün edilib.[2]

Təzada bax – dövlət dəqiq bilir ki, adam nəinki ona qarşı olmayıb, əksinə, onu müdafiə edib, ancaq onu oxumağa Müsavat hökuməti göndərdiyinə və Almaniyada oxuduğuna görə o da "arzuolunmaz ünsür"dür və mütləq sürgün edilməlidir! Cümhuriyyət tələbələri xaricdən, bax, belə bir amansız dövlətə qayıtmışdılar!..

SSRİ prokurorluğu 13 dekabr 1957-ci ildə Bakı şəhərində Basin[3] küçəsi 73, 32-ci mənzildə yaşayan Q.R.Şahsuvarovaya göndərdiyi 17/2172-57 saylı məktubda bildirib ki, əlavə yoxlama materialları əsasında Azərb. SSR prokurorluğu bu nəticəyə gəlib ki, əriniz – Şahsuvarov Surxay Əzimbala oğlu 1942-ci ildə Bakı şəhərindən əsassız sürgün edilib.[4]

[1] Sənədin surəti özəl arxivimizdədir.
[2] AR MTN Arxivi, PR-18702, II cild. Sənəd səhifələnməyib.
[3] İndiki Füzuli.
[4] Sənədin surəti özəl arxivimizdədir.

***



Surxay bəy Şahsuvarovun həyat yoldaşı Qonça xanım – Bakı şəhər, Kirov adına İnstitutun həkimi. Təx. 1947-1948

Araşdırmaçı jurnalist Hafiz Sadıq Surxay bəyin qohumları haqqında da bilgi verib. Onun məqaləsində oxuyuruq ki, Cümhuriyyətin sonuncu maarif naziri Nurməhəmməd bəy Şahsuvarov Surxay bəyin əmisi olub. Müəllif onun Bakı və Moskvada elm sahəsində çalışan başqa soydaşlarını da sadalayır. Məsələn, bildirir ki, Moskva Yer Fizikası İnstitutunun əməkdaşı Cahangir Şahsuvarov, fizika-riyaziyyat elmləri namizədi dosent Cahangir Şahsuvarov Surxay bəyin qardaşı oğludur. Surxay bəyin oğlu Tofiq Şahsuvarov atasının yolunu davam etdirib. Geologiya-mineralogiya elmləri namizədi dosent Tofiq Şahsuvarov bir müddət BDU-da geologiya fakültəsinin dekanı işləyib. Onun kiçik oğlu Adil Şahsuvarov da geoloqdur. O, Azərbaycan-geologiya Komitəsinin Hidrogeologiya Ekspedisiyasının baş mühəndisi vəzifəsində çalışır.[1]



Can-ciyərlər bir arada. Tofiq və Adil Şahsuvarovlar, Zöhrab Qarayev. 3 may 2006-cı il

[1] *Sadıq H.* "100-dən 99-u" rubrikasından, yaxud Surxay Əzim bəy oğlu Şahsuvarov kimdir?

Şeyxzaman İsaq bəy Musa bəy oğlu

(1897, Sarov/ Goranboy – 1941-ci ildən sonra, sürgündə)

İsaq bəy Şeyxzaman Cümhuriyyət tələbəsidir, ancaq yerdə qalan təqaüdçülərdən fərqli olaraq ona AC Xalq Maarif Nəzarətinin deyil, Xariciyyə Nəzarətinin təqaüdü verilib. Əlbəttə, Xariciyyə Nəzarətinin büdcəsi də hökumətin "cibindən" getdiyinə görə İsaq bəy də, təbii ki, Cümhuriyyət tələbəsi sayılır. Xatırladaq ki, sovet hakimiyyəti dönəmində də İsaq bəy ASSR Xarici İşlər Komissarlığının təqaüdçüsü olub.[1]

Soyadı 1921-ci ilədək gah "Şeyxzamanov", gah "Şıxzamanov", gah "Şeyxzaman" kimi yazılan İsaq bəy olduqca maraqlı bir şəxsiyyətdir. Diplomatiya və pedaqogika kimi iki ən müxtəlif sahədə fəaliyyət göstərmiş bu azərbaycanlı mütəxəssisin kimliyi haqqında ölkəmizdə azacıq belə təsəvvür yoxdur, sanki heç belə bir adam dünyaya gəlməyib. Ancaq onunla bağlı sənədlərlə tanış olduqca nəinki onun özü ilə, həm də Azərbaycanın 1920-30-cu illər ictimai-siyasi durumu ilə tanış olmaq mümkündür. İnanırıq ki, tələbkar oxucularımız İsaq bəy haqqında yazılmış bu ilk məqaləni maraqla qarşılayacaqlar.

Beləliklə, ən ümumi sual: İsaq Şeyxzaman kimdir? Bu sorğunun ən dəqiq cavabını da öz dilindən eşidəcəyik.

"NKVD" zindanında olarkən – 18 fevral 1940-cı il dindirməsində öz əli ilə olduqca geniş – 16 səhifəlik tərcümeyi-halını yazıb.[2] Doğrudur, burada yazılanların əksəri müstəntiqlərin ona yönəltdiyi suallara cavab olaraq yazılıb və siyasi məsələlərə həddən artıq yer verilib, bu üzdən də qısaltmalar apararaq, yalnız müəllifin həyatının öyrənilməsinə, şəxsiyyətinin açılmasına yardımçı ola biləcək parçaları saxlamışıq.

* * *

"Qasım İsmayılov rayonunun Saro[v] kəndində, dəqiq olmayan bilgilərə görə, 1897-ci ildə doğulmuşam. Həmin kənddə təqribən 2-3 il yaşamışam, sonra valideynlərim keçmiş Yelizavetpol, indiki Kirovabad şəhərinə köçüb və mən ta Fransaya gedənədək bu şəhərdə yaşamışam. Anamı 2 yaşımda itirmişəm, atam isə 1933-cü ildə ölüb.

Atamın Saro [v] kəndində inqilabadək qabaqca dayım Usubla bir dükanı vardı. Mənim 2-3 yaşım olanda indiki Kirovabada köçdü və orada əmim Məşədi Abdulla ilə, sonra isə ayrıca dükan açdı. Atamın dükandan başqa, torpağı da olub. Ancaq nə qədərdir, bilmirəm. Onun dükanı da, torpağı da yadıma gəlmir. O, Yelizavetpol stansiyasında hansısa pambıq zavodçusundan pambıq almaq üçün pul götürməyə başladı.

Uşaqlıqda mən gimnaziyada oxumuşam. Fransaya ailə vəziyyətim üzündən getmişəm. İki yaşımda anamı itirmişəm, atam evlənib və evdə dəhşətli vəziyyət yaranıb. Mən və bacım ögey anamın uşaqlarını saxlamışıq. Oxumayım deyə hələ 7-ci sinifdə olduğum zaman məni evləndiriblər. Ancaq məni evləndirəndə bu şəraitdə yaşamaq istəmədim. Arvadımla birgə Fransaya getdim. Mən Fransanı ona görə seçdim ki, yadımdadır, belə düşünürdüm ki, Fransa respublikadır, orada azadlıqdır, söz azadlığı, nümayiş azadlığı və s. var. Uşaqlıqda hələ sosializm haqqında heç nə bilmirdim. Qardaşımla tez-tez danışırdıq ki, nə yaxşı olardı ki, hamı bir cür yaşayaydı, hamı eyni cür geyinəydi və s. Sonra mən indiki Kirovabadda İosif Korinets adlı bir gimnazistlə görüşdüm, onda o, sosial-demokrat, bolşevik idi. O, mənə söz azadlığı, nümayiş

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 76a.

[2] AR MTN Arxivi, PR-39975, vv. 13-20a.

azadlığı və s. haqqında söhbət gedən bir broşür vermişdi. Bu Korinetsi təqib edirdilər. Yadımdadır ki, 8-ci sinifdə idi, onu həbs etmək istəyirdilər, o da Muşabağ adlı yerdə bir azərbaycanlı ailəsinin bağında gizlənmişdi. Bütün bunlar mənim məhz Fransaya getməyimə əsas oldu.

Fransaya arvadımla getdim. 1914-15-ci ilədək atam bizə bir az kömək edirdi, ancaq yaşayış üçün bu kömək yetərsizdi. Mən hamballıq etməyə məcbur oldum. Səhərlər Hallesə (yeyiləcək şeylər satılan bazara bənzər yerdir) gedir, alıcıların ərzağını evlərinə daşıyırdım, ya da sakinlərin bir evdən başqa evə keçdiyi zaman xüsusi dükanlardan aldığı şeyləri balaca əl arabaları ilə daşıyırdım. Bu arabaları "Maison de mangement" adlanan yerdə icarəyə verirdilər. Arvadım isə bu vaxt özəl evlərdə yuma işləri ilə məşğul olurdu.



Məhəmmədbağır bəy Şeyxzaman

1917-18-ci ilin sonunda mən Parisdə Qrand Operanın arxa hissəsinin qarşısında yerləşən Ticarət-Sənaye Bankına işə girdim. Ora, deyəsən, 1917-ci ilin sonunda girmişdim və hesabdar köməkçisi işləyirdim. Ayda 100 frank cüzi maaş alırdım. Xidmətimin sonunda ayda 200 manat[1] oldu.

1919-cu ildə Parisə Müsavat hökumətinin heyəti "Sülh konfransı"na gəldi. Onda həddsiz ehtiyac içində olduğuma görə partiya təşkilatımın, daha dəqiq desəm, III İnternasional Komitəsinin katibi Somononun razılığı ilə bu Müsavat təşkilatına girdim, daha düzgünü, təşkilatın üzvü Şeyxülislamova[2] köməkçi oldum. Mən coğrafi xəritələrin nəşrinə kömək edir, möhürləmiş konvertləri daşıyır və b. işlər görürdüm. Bu heyətdə heç bir siyasi rol oynamamışam, heç bir sirrə bələd olmamışam. Yalnız yuxarıda adını çəkdiyim Şeyxülislamovun yanında xırda texniki işçi kimi çalışmışam ki, bu da mənim əməkhaqqımdan görünür – mən 500 frank alırdım; bu, tələbələrin təqaüdünə bərabər idi. Mən Heyətdən işdən çıxdıqdan sonra tələbə olarkən də ayda 500 frank alırdım.

(Daha sonra Şeyxzaman İsveçrədəki Lütsern konfransında iştirakından danışır. O, burada keçirilən konfransda iştirak və çıxış etməliymiş. Ancaq İsveçrədən viza gec verildiyinə görə ora gedə bilməyib və sonra Azərbaycan sosialistlərinin bəyannaməsindən öz imzasını pozdurub).

...Bundan sonra mənim Şeyxülislamov və Məhərrəmovla heç bir əlaqəm olmadı. Sovet Azərbaycanından təqaüd alaraq, ümumiyyətlə, Müsavat hökumətinin heç bir heyəti ilə Parisdə 1920 və 1921-ci illərdə yaşayanda və oxuyanda heç bir əlaqə saxlamadım. Təkrar edirəm ki, mən müsavatçıların Heyətindən çıxdıqdan sonra heç vaxt heç kimlə, o sıradan Şeyxülislamov və Məhərrəmovla yazılı və şifahi heç bir birbaşa əlaqədə olmamışam...

Mən Parisdə Beynəlxalq Əlaqələrin Bərpası Komitəsinə daxil oldum; o, sonradan – 1916-cı ildə 3-cü İnternasional Komitəsi adlandırıldı. 1919-cu ildə Parisdə sovet hakimiyyətinin işlərinə müdaxiləyə qarşı ümumi tətil hazırlanırdı. Bu tətili kommunist və sosialist əqidəli təşkilatların partiya və həmkarlar təşkilatları hazırlayırdı. Həmin tətilə yol verməmək üçün polis şübhələndiyi bir çox tətil rəhbərini həbs etmişdi. 1919-cu ildə mən Fransadan sürgün edilməyim haqqında xəbərdarlıq almışdım. Mənə Fransanı tərk etməyə hazırlaşmaq üçün 5 gün müddət verilmişdi. Bu müddətdən istifadə edərək

[1] "Manat" yazılışı mexaniki yanlışlıqdır, "frank" olmalıdır.

[2] Əkbər ağa Şeyxülislamov (1891-1961).



Fransanın paytaxtında oxuyan azərbaycanlı tələbələr. *Soldan sağa. Arxa cərgə:* 1-ci Ağaəli Yusifzadə, 2-ci İshaq Şeyxzaman, 3-cü Miri bəy Vəzirov. Paris, 1922

"Humanite" qəzetinin redaktoru Marsel Kaşenə,[1] Şarl Rappoporta[2] və kommunist vəkil Oskar Bloka müraciət etdim və onlar "İnsan və Vətəndaşın Hüquqları Liqası"nın yardımı ilə müddətimi uzada bildilər. Bu müddətdə mən pasport əvəzinə daxili işlər naziri Pamın[3] imzaladığı sürgün haqqında sənədi gəzdirdim. Bu sənədlə mən hər həftə polisə görünməli və qeyd edilməli idim. 1921-ci ildə polisə gedərək vaxtında qeydə alınmadığıma və qaydanı pozduğuma görə həbs olundum və 1921-ci ilin sonunda Fransadan qəti şəkildə sürgün edildim. Parisdə mən hüquq fakültəsini bitirmişəm.

Mən Fransadan sürgün olunub çıxarkən həmin vaxt həkim *Axundov Bəhram bəy* orada idi; o, tələbələrə pul gətirmişdi. O, mənə və ailəmə Bakıya getməyə yolpulu verdi. Mən Berlindən keçməklə İstanbula və oradan da Bakıya getdim. İstanbulda Azərbaycana getmək üçün Zaqafqaziya Ticarət Nümayəndəliyindən icazə aldım.

Bakıya 1922-ci ilin fevralında çatdım. MK-da yol. Kirovla və XKŞ-da Nərimanovla razılaşmaya əsasən Genuya konfransına getmək üçün tapşırıq aldım. Oraya getməzdən qabaq məni yol. Kirov yanına çağırdı, Azərbaycan haqqında yazılmış bir kitabı verdi və özümü orada necə aparmağı göstərdi. Genuyaya dənizlə getdim, çünki mənə dedilər ki, Almanİya, İsveçrə və İtaliya vizası almağa vaxtın olmayacaq. Mənə Bakıda XKŞ və Xarici İşlər Komissarlığı İran pasportu verdilər ki, guya İran tələbəsiyəm və oxumağa gedirəm. Bakıdan Tiflisə yollanaraq orada İtaliya konsulluğunda birbaşa İtaliyaya viza aldım. İstanbula çatanda orada fransızlar məni tutmaq istədilər, çünki onlar mənim Fransadan sürgün edildiyimi öyrənmişdilər. Ancaq İtaliya paroxodunda və İtaliya vizası ilə olduğuma görə paroxodun italyan komandanlığı məni paroxoddan buraxmadı, ancaq gəmidə 3 gün vaxt itirməli oldum. Quruya

[1] Marsel Kaşen (1869-1958).

[2] Şarl Rappoport (1865-1941).

[3] Jül Pam 16 noyabr 1917-ci ildən 20 yanvar 1920-ci iladək nazir işləyib.



Fransanın paytaxtında oxuyan azərbaycanlı tələbələr. *Soldan sağa. Ön cərgə:* 2-ci Miri bəy Vəzirov. *Arxa cərgə:* 1-ci İshaq Şeyxzaman, 3-cü Ağaəli Yusifzadə. 1922

çıxmağa imkan vermədilər. Məndəki qızıl türk lirələrimi italyan puluna yalnız o vaxt dəyişə bildim ki, Zaqafqaziya Sovet Nümayəndəliyinin əməkdaşları yanıma gəldilər və pullarımı dəyişdilər.

İtaliyada Santa-Marqaritoya, Rapalloya getdim. Sovet nümayəndə heyəti orada dayanmışdı. Mən Genuyada yarım aya qədər qaldım. Nümayəndəlik mənə vəsiqə verdi, orada *"Şərq və Qafqaz işləri üzrə ekspert"* olduğum yazılmışdı.

Genuyadan nümayəndə heyətinin bir qismi, o sıradan Nərimanov tez çıxmışdı. Mən burada da Genuyaya gec gəldiyimə görə vizanı tez ala bilmədim, heyətin başqa bir qismi ilə Berlinə getdim. Litvinov orada idi.

Genuyada öncədən yol. Krasinlə ümumi tonunu və məzmununu razılaşdıraraq, yol. Kirovun mənə verdiyi kitabdan yararlanmaqla tam formalaşdırdığım məqaləni Berlində çıxan, Kominternin orqanı olan "Beynəlxalq şərh"ə *(İnternationale Presse Korrespondenz)* əlyazma hüququnda verdim və məqalə "Azərbaycan rəqəmlərdə" başlığı altında (almanca) çıxdı. Kominternin həmin orqanında alman dilində qabaq da Azərbaycan haqqında ümumi siyasi səciyyəli başqa məqaləm çıxmışdı.

Baltik dənizindən və Moskvadan keçməklə Berlindən Bakıya qayıtdım. Bakıya 1922-ci ilin fevralında ilk dəfə dönərkən XKŞ-dan əməkhaqqı almışdım.

Bakıya dönərkən öncə AK(b)P BK-da təbliğat-təşviqat şöbəsinə təyin edildim, bununla eyni zamanda Azərbaycan XMK-da Baş Siyasi Maarif İdarəsi sədrinin müavini təyin edildim (1923-cü ildə).

1923-cü ilin aprelində XMK məni Moskvaya Ümumittifaq Savadsızlığı Ləğvetmə Komitəsinin I qurultayına göndərdi. Onu N.K.Krupskaya[1] təşkil etmişdi. Moskvaya gəldikdə mən Kominternin fransız bölməsi qarşısında RK(b)P-yə keçməyim haqqında

[1] Leninin arvadıdır.

məsələ qaldırdım. Fransız bölməsi sənədlərimi yoxlayaraq, Fransa KP MK-dan da soruşub öyrəndikdən sonra qardaş kompartiyaların üzvlərinin köçürülməsi üzrə komissiya qarşısında RK(b)P MK-ya keçməyim haqqında məsələ qaldırdı.[1]

RK(b)P-yə daxil olduqdan sonra mən işləmək üçün Moskvada qalmağımı MK-dan xahiş etdim. Bakıdan mənə Kirovun teleqramı gəldi: "Təcili gəlməyi və gəliş gününü müəyyənləşdirməyinizi təklif edirəm". Bu teleqrama RK(b)P MK katibi yol. Molotov cavab göndərdi: "Yol. Şeyxzamanı Bakıya göndərə bilmərik, çünki o, daimi iş üçün Moskvada qalır". Mən əvvəlcə Stalin adına Şərq Əməkçiləri Kommunist Universitetində (ŞƏKU) tədris hissə müdiri təyin edildim. Ancaq sonra (1923-cü ilin sentyabr-oktyabrında) Xamovniçi rayon partiya komitəsinə baza katibi kimi keçirildim... Burada rayon soveti qərar çıxardı: "Partiyanın işinin xeyrinə yol. Şeyxzaman Azərbaycana işə keçirilsin".

RK(b)P MK-nın sərəncamına keçdikdə o, məni XXİK vasitəsilə Ankaradakı Sovet səfirliyinin diplomatik attaşesi kimi göndərdi. Ankarada eyni zamanda Sovet səfirliyinin konsul hissəsinin müdiri vəzifəsində də işlədim. Mən Ankarada 1925-ci ilin yanvarından 1926-cı ilin fevralınadək işlədim.

Ankaradan dönərkən ÜK(b)P MK məni Səmərqəndə göndərdi. Orada XalqTicarət Komissarlığı Kollegiyasının üzvü təyin edildim. 1926-cı ilin noyabrında Özbəkistandan Moskvaya ÜK(b)P-nın sərəncamına getdim və o, məni Türkmənistana yolladı. Orada əvvəlcə Dövlət Elmi Şurası (DEŞ) müavini əvəzi (1927-ci ilin başlanğıcı) işlədim. DEŞ tezliklə ləğv edildikdən sonra mənim təşəbbüsümlə Türkmənistan Mədəniyyəti İnsitutu yaradıldı. Orada mən Rəyasət Heyətinin üzvü və diyarşünaslıq mərkəzi bürosunun sədri təyin edildim. Aşqabadda 1929-cu ilədək qaldım. Türkmənistan KP MK və XMK məni Moskvaya aspiranturaya oxumağa göndərdilər. Moskvada Elmi-Pedaqogika İnstitutunda aspiranturaya girmək üçün elmi iş tələb etdilər. Mən Aşqabada qayıtdım və 1930-cu ilin sentyabrınadək 5 çap vərəqi həcmində *"Türkmənistanda xalq təhsilinin tarixi"* adlı iş yazdım. Moskvaya sentyabrda qayıtdım və Elmi-Pedaqogika İnstitutunun aspiranturasına qəbul edildim, o ləğv edildikdə isə Proqram-Metodika İnstitutuna keçdim...

(Bundan sonra Şeyxzaman trotskiçi Danilovla bağlı əhvalatı, özünün partiyadan çıxarılıb yenidən bərpa edilməsi tarixçəsini təsvir edir).

Mən sonra Xalq Təhsilinin Planlaşdırılması və Təşkili İnstitutunun aspiranturasına keçdim. Bu da ləğv edildikdən sonra Mari Muxtar Vilayətinə getdim və ÜK(b)P vilayət komitəsində məktəb-ali məktəb bölməsinin müdiri və pedaqogika kafedrasının müdiri işlədim. Aspiranturanı bitirməkdən ötrü Qazan Tatar Pedaqogika İnstitutunun aspiranturasına dəyişildim. Maridən 1934-cü ilin dekabrında Aşqabada keçdim, orada Pedaqoji İnstitutda pedaqogika kafedrasının müdiri işlədim.

Partiyada təmizləmə vaxtı ilkin partiya təşkilatı məni partiyadan çıxardı...

...Aşqabaddan 1935-ci ilin fevralında Bakıya gəldim və elmi-tədqiqat müəssisələri və universitetlərin rəisi təyin edildim, sonra isə öz istəyimlə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika (indi Məktəblər) İnstitutuna 1935-ci ilin iyununda direktor keçdim və həbsimədək direktor işlədim.[2]

[1] Şeyxzaman bundan sonra – 1923-cü ildə RK(b)P-nin üzvü olub.

[2] Həmin institutun tarixinə həsr edilmiş kitabda İ.Şeyxzamanın orada 17.06.1935-ci ildən 08.08.1936-cı ilədək direktor, 22.08.1936-cı ildən 17.08.1938-ci ilədək direktor müavini, 17.06.1938-ci ildən 20.02.1940-cı ilədək yenə direktor işlədiyi göstərilib [bax: Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu (1931-1981). Bakı: "Maarif", 1982, ss. 165, 166].

Bir qardaşım var – *Cabbar Şeyxzamanov*. Gəncədə Əmək küçəsi 1-də yaşayır, kooperativdə satıcı işləyir. Onun bir neçə oğlu və qızı var. Qızlarından biri Leyla Bakıda işləyən kommunist Əminovda ərdədir. Böyük bacım *Fatma Novruzova* evdar qadındır. Qaraşəhərdə yaşayır, onun da bir neçə oğlu və bir qızı var. Kiçik bacım *Zinət Fəttahova* ərdədir, oğlanları və qızları var. Əri Gəncədə maliyyə işçisidir. Ata tərəfdən əmilərim, bibilərim, əmiuşaqlarım, bibiuşaqlarım yoxdur. Ana tərəfdən *Ağaməhəmməd* adlı dayım var. Soyadını bilmirəm. O, Saro[v] kolxozunda naxırçı işləyir. Anam tərəfdən *Usub* adlı dayım vardı, soyadını bilmirəm. Onun oğlanları vardı, ancaq mən onları görməmişəm və tanımıram. Eşitmişəm ki, onlardan biri hərbçidir. Bir xalam qızı var – Səkinə, soyadını bilmirəm. Bağmanlarda[1] yaşayır. Kasıb kəndçidir".[2]

***

Şeyxzamanın istintaqda verdiyi ifadələr onun tərcümeyi-halı ilə bağlı bir çox başqa mətləbləri də üzə çıxarır, ancaq onlarla bir qədər sonra tanış olacağıq. İndi isə onun "Cümhuriyyət tələbəsi" statusu almasını əks etdirən bəlgələrə göz yetirək.

AC xalq maarif naziri AC Nazirlər Şurası sədrinə 14 dekabr 1919-cu ildə 14581 saylı aşağıdakı məktubu göndərib ki, Parisdə Azərbaycan Sülh Heyətinin sədri Əlimərdan bəy Topçubaşov həmin heyətdə xidmət edən Paris Universiteti hüquq fakültəsinin tələbəsi, Gəncə şəhərinin sakini İsaq bəy Şeyxzamanovun ona dövlət təqaüdü verilməsi haqqında ərizəsini mənə göndərib. Həmin ərizəyə dövlət təqaüdünü bölüşdürən Komissiyada baxılıb və Şeyxzamanovun ərizəsi gec daxil olduğuna görə komissiya artıq bölüşdürülmüş 100 təqaüddən birini ona verməyi mümkün saymayıb, ancaq ərizəçinin müstəsna durumuna görə və Topçubaşovun özəl vəsatətinə uyğun olaraq Komissiya hökumətdən bunu xahiş etməyi qərara alıb ki, Şeyxzamanovun Paris Universitetində oxumasının xərclərini hökumət Azərbaycan Sülh Heyətinin sərəncamına buraxdığı məbləğdən, yaxud hər hansı başqa qaynaqların hesabına öz üzərinə götürə bilərmi?

Deyilənlərə əsasən, Siz Alihəzrətdən Paris Universitetinin tələbəsi İsaq bəy Şeyxzamanova ali təhsilini Parisdə başa vurmaq üçün Sülh Heyətinin sərəncamına buraxılmış məbləğdən, yaxud hökumətin sərəncamındakı hər hansı başqa bir məbləğdən təqaüd verilməsindən imtina etməməyinizi xahiş edirəm".[3]

Gəncə şəhər sakini, Paris Universiteti hüquq fakültəsinin tələbəsi İsaq bəy Musa bəy oğlu Şıxzamanov 24 dekabr 1919-cu ildə Parisdən xalq maarif nazirinə yazıb:

"Sizə ərizə verməklə və onu Sülh Heyətinin üzvü cənab [Məhəmmədhəsən] Hacınski ilə göndərməklə şərəfləndim. Həmin ərizədə, cənab nazir, Sizdən məni ali təhsillərini başa çatdırmaq üçün xaricə göndərilmiş tələbələr sırasına daxil etməyinizi xahiş etmişdim. Oraya hüquq fakültəsinin verdiyi, sonuncu kursda olduğumu və universiteti tam bitirmək üçün sonuncu dərs ilimin qaldığını təsdiqləyən şəhadətnamə də əlavə edilmişdi. Sonuncu imtahanımı 1920-ci ilin iyulunda verməliyəm.

Parisdə Sülh Heyətimizdə xidmət etdiyimi və bütün vaxtımın buna getdiyini nəzərə alaraq, cənab nazir, Sizdən acizanə xahiş edirəm ki, bir dərs ili üçün, yəni gələn il iyulun sonunadək, eləcə də Vətənə qayıtmaqdan ötrü mənə təqaüd verilməsi haqqında sərəncam verəsiniz.

Bütün bir ili itirməyim deyə Sizdən xahiş edirəm ki, həmin təqaüdü bugünlərdə buraya – Parisə qayıdacaq kuryerimizlə göndərəsiniz.

[1] Gəncənin bir məhəlləsidir.

[2] AR MTN Arxivi, PR-39975, vv. 13-20a.

[3] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 79-79a.

Evliyəm, bir uşağım var.

Hökumətin bütöv bir ili itirməyimi istəməd iyinə görə arzumu yerinə yetirəcəyini düşünürəm.

Böyük hörmətlə (İ.b.Şıxzamanov imzası).

Ünvanım: çatdırmaq üçün Sülh Heyətinin adına yazmalı: Mr. Chikhzamanof, 42 rue Broca, Paris".[1]

Yuxarıda oxuduğumuz iki sənədə əsasən arzusu yerinə yetirilmiş tələbə İsaq bəy Musa bəy oğlu Şıxzamanov 27 mart 1920-ci ildə Parisdən maarif nazirinə artıq tam yeni məzmunlu başqa bir ərizə-məktub yolladı:

"Sizə bildirməklə şərəflənirəm ki, öz ölkəmizdə hüquq fakültəsinin açılmasını öyrənərək Sizdən bunları xahiş edirəm. Mən yayda hüquq fakültəsini "Licence" – lisensiat, yaxud hüquq elmləri doktorluğuna namizəd rütbəsi ilə bitirəcəyəm, yəni bu imtahan mənə doktorant imtahanı vermək və dissertasiya müdafiə etmək hüququ verir. Mən Azərbaycana gəldiyim zaman Bakı hüquq fakültəsində dərs demək istəyirəm. Mən universitetdə başlıca olaraq ümumi və xüsusi beynəlmiləl hüquqa, müstəmləkə qanunvericiliyinə (başlıca olaraq müsəlman xalqsünaslığına, yəni Avropa dövlətlərinə münasibətdə bütün müstəmləkələrin siyasi durumuna və əsasən Mərakeş, Tunis, Əlcəzair, Misir, Sudan, Ərəbistan, Hindistan, eləcə də Türkiyə və İranın daxili qanunvericiliyinə) diqqət yetirmişəm. Siyasi iqtisadı və maliyyə qanunvericiliyini (Legislation Financiere) öyrənmişəm. Buna görə də fakültəni bitirincə Paris Universitetində qalmaq və bir neçə ay bu elmlərlə (Beynəlmiləl hüquq, Müsəlman qanunvericiliyi, Maliyyə qanunvericiliyi və Siyasi iqtisad) məşğul olmaq istəyirəm. Bundan ötrü, cənab nazir, xahiş edirəm ki, mənim təqaüdümün (1920-ci ilin yanvarından 1 sentyabrınadək təyin edilib) vaxtını gələn, yəni 1921-ci ilin iyun ayınadək uzadasınız. Ancaq mən Azərbaycana vaxtından öncə dönməyi fikirləşirəm. Düşünürəm ki, Azərbaycanın mədəniləşməsi üçün bizim universitetdə milli professorların olmasının çox böyük əhəmiyyəti var, güman edirəm ki, mənim xahişim qızğın müdafiə ediləcək.

Böyük hörmətlə (İ.Şıxzamanov imzası).

Şəxsi ünvanım: Paris, 42 rue Broca, Chikhzamanof.

P.S. Buraya universitetin mənə təqdim etdiyi[2]*, Baccalauréat en Droit (hərfi mənada rus universitetlərinin "namizəd"inə uyğun gəlir) adlanan, sonuncudan qabaqkı imtahanı verməyim haqqında şəhadətnaməni də əlavə edirəm".*[3]

Ancaq hüquqşünas tələbənin bu arzusu həyata keçmədi, çünki onun bütün istəklərini çin etməyə hazır olan Cümhuriyyət yıxıldı…

Bizcə, bundan sonra nələrin baş verdiyini onun Parisdə Ceyhun bəy Hacıbəyliyə yazdığı məktublar ən dəqiq şəkildə açıb göstərir. Həmin qiymətli məktubları böyük vətəndaş Ramiz Abutalıbov Parisdən gətirərək Azərbaycan dövlətinə təqdim edib. Salman Mümtaz adına arxivdə İsaq Şeyxzamanovun Ceyhun bəy Hacıbəyliyə rusca və fransızca yazdığı 4 məktub saxlanılır.[4] Onların ikisini ana dilimizə çevirdik.

4 iyun 1921-ci il tarixli rusca birinci məktubunda oxuyuruq:

"Çox hörmətli Ceyhun bəy. Bununla Sizdən Heyətin[5] *iclasından qabaq məni müdafiə etməyinizi xahiş edirəm.*

[1] ARDA, fond 51, siyahı 3, iş 40, vv. 80-81. Məktubu Maarif Nəzarəti 29 dekabr 1919-cu ildə işə tikib.
[2] Paris Universiteti bu sənədi 23 mart 1920-ci ildə verib (bax: ARDA, fond 51, siyahı 3, iş 40, vərəq 78).
[3] Yenə orada, vv. 77-77a.
[4] S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 3, iş 34, vv. 1-7.
[5] Parisdəki Azərbaycan Sülh Heyəti nəzərdə tutulur.

Siz bilirsiniz ki, Heyət apreldə mənim keçmiş mənzil borclarımı ödəməkdən ötrü 500 frank verib. Ancaq mənim borcum 500 frank yox, 2.500 frankdır və düşündüm ki, bir dəfə pul keçirərək bununla cari ilin iyulunadək yaşamaq hüququ əldə edərəm və iyun ayında imtahanlarımı verdikdən sonra öz mebelimi ev yiyəsinə yerdə qalan borcumun əvəzinə buraxaraq Vətənə gedərəm, qalan borcları ödəməli olmaram. İmtahanları iyunda verməyi və iyunda da getməyi düşünürdüm, ancaq təəssüf ki, imtahanlar artıq 22 iyuna nəzərdə tutulub. Məni isə 20-sindən tez çağırmayacaqlar. Deməli, mən yenidən 500 frank ödəməli olacağam.

Bu ayın 9-dək pul verməsəm məni mənzildən bayıra atacaqlar. Bəs onda imtahanlarım necə olacaq? Onda, şübhəsiz ki, onları verə bilməyəcəm və küçədə qalacağam, ya da 500-dən daha çox xərcləmək lazım gələcək ki, 3 nəfər[1] *restorana gedə bilsin və yaşasın.*

Birincisi, cari ayın 9-dək 500 frankı almasam imtahanlarım batacaq və küçədə qalacağam. İkincisi, imtahanlarım bu ayın 20-sindən sonra başladığına görə və mənə isə pul bu ayın 20-sinədək verildiyinə, yəni 700 frank əvəzinə 500 frank verildiyinə görə və həm də arvadım türmədə 300 franka yaxın borc etdiyinə görə mən hər ay Abbas bəydən[2] *150 frank avans almışam (ayın başında qaytarmışam) və bunu Polşa təqaüdü ilə etmişəm. Deməli, mən iyuna görə cəmisi 350 frank almışam və bu 350 frankla mən iyulun sonunadək yaşamalı və hələ iyul ayı üçün də mənzilə görə 200 frank ödəməliyəm. Onda da mənim 190 frankım qalacaq. Bu pulla yaşamaq olarmı?*

Sizdən və Heyətdən mənə vətənə gedişimədək son dəfə yardım göstərməyinizi xahiş edirəm. Heyətdən mənə 500 frank keçmişə görə və 200 frank indiyə görə vərməsini xahiş edirəm. Bu 700 frankı bu ayın 9-dək alsam imtahanları verə və vətənə gedə bilərəm.

Düşünürəm ki, Heyət mənim təhsilimi yarımçıq qoymayacaq.

Tam ehtiramla, Sizin (Şeyxzamanovun imzası).

P.S. Azərbaycandan bəzi məlumatlar alaraq gedişimdən qabaq Sizinlə xeyli söhbət etməliyəm. Bu məlumatlar Sizi maraqlandıra bilər".[3]

4 oktyabr 1921-ci ildə Şeyxzamanov Hacıbəyliyə bu məktubu yazıb:

"Çox hörmətli Ceyhun bəy.

Sizə səmimi-qəlbdən təşəkkür edirəm, çünki Abbas bəydən 400 frank aldım; onlardan 200 frankını ona Siz vermisiniz və qalanını da Əkbər ağa[4] *verib. Pulları alınca…, şübhəsiz, ən bədayaqda Axundov*[5] *gələndə mən böyük minnətdarlıqla bu 200 frankı və eləcə də türmədə olduğum zaman arvadıma verdiyiniz 100 frankı (buna görə də Sizə səmimi təşəkkürümü bildirirəm) qaytaracağam. Gördüyünüz kimi, Əlimərdan bəy mənə kömək etmədi, çünki dünən yalnız 400 frank aldım.*

Sizə bir daha təşəkkür edirəm.

Dərin ehtiramla Sizə sədaqətli qalan (Şeyxzamanovun imzası)".[6]

Ceyhun bəyə göndərilmiş tarixsiz, ancaq 7 fevral 1922-ci ildən öncə rusca yazılmış bir qeydində oxuyuruq ki, məni indi "Sante" türməsinə aparacaqlar. Mənə vəkil lazımdır, bazar ertəsi – 7 fevralda məhkəmə olacaq.[7] (Xatırladaq ki, Şeyxzaman həmin ilin fevralında Fransadan sürgün edilib).

[1] Özü, yoldaşı *Bəyim* və oğlu *Jan* nəzərdə tutulur.
[2] Abbas bəy Atamalıbəyov nəzərdə tutulur.
[3] S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 3, iş 34, vv. 1-2.
[4] Əkbər ağa Şeyxülislamov nəzərdə tutulur.
[5] Çox güman ki, hakim Bəhram bəy Axundov nəzərdə tutulur.
[6] S.Mümtaz adına ARDƏİA, fond 649, siyahı 3, iş 34, vərəq 3.
[7] Yenə orada, vərəq 5a.

* * *



İsaq Şeyxzaman həbsdə. 1940

AR MTN Arxivində saxlanılan PR-39975 şifrəli istintaq işi Şeyxzamanın həm Parisdəki tələbəlik illəri dönəminə, həm də SSRİ-yə qayıtdıqdan sonrakı həyatına bələd olmaq baxımından çox dəyərlidir.

16 fevral 1940-cı il tarixli məhbus anketindən götürülmüş bilgilər: Şıxzaman İsaq Musa oğlu – 1897-ci ildə Qasım İsmayılov rayonunun[1] Saro[v] kəndində doğulub; Bakıda Qırmızı Əsgər küçəsi[2] 29-da yaşayır; dosent, pedaqoji elmlər namizədi; Azərbaycan Dövlət Elmi-Tədqiqat Məktəblər İnstitutunun direktoru; atası 1933-cü ildə, anası 1899-cu ildə ölüb; arvadı Kin Frida Aleksandrovna, 20 yaş, pedaqoji məktəbdə oxuyur; oğlu Şeyxzamanov Jan İsaq oğlu, 27 yaş; qızı Leyla İsaq qızı, 5 yaş.[3] Azərb. XDİK 15 fevral 1940-cı ildə həbs edib.

13 mart 1940-cı il dindirməsindən seçmələr:

...Hansı ildə doğulduğumu dəqiq bilmirəm. Güman etmək olar ki, 1892-ci illə 1897-ci il arasında doğulmuşam.[4]

...Mən 1921-ci ildə Paris şəhərində Seyn Federasiyasında 13-cü bölmədə partiya bileti aldığım zaman "Şeyxzaman İsaq Musa oğlu" olmuşam.

...Fransada yaşayarkən 1921-ci ildə mən soyadımı ona görə dəyişdim ki, doğru soyadım "Şeyxzaman"dır.[5]

...Atam inqilabadək ticarətçi, torpaq sahibi və başqa Şıxzamanovlarla birlikdə "İmamzadə" ocağının yiyəsi idi. Bundan başqa, o, pambıq zavodçusu üçün xam pambıq alırdı. İnqilabdan sonra, bildiyimə görə, o, 2 camışından sağılan südü satmaqla dolanıb.[6]

...Ağ mühacirətdə olan qohumlarım bunlardır:

1) Şıxzamanov Nağı bəy Türkiyədədir. O, mənim atamın ögey əmisi oğludur.

2) İsgəndər bəy Kərbəlayı Qəmbər oğlu Şıxzamanov. O, mənim uzaq qohumumdur, ancaq necə qohum olduğunu bilmirəm. Harada olduğu da mənə bəlli deyil.

...Keçmiş Gəncə şəhərində mən gimnaziyanın 6 sinfini bitirmişəm. Vəsiqə aldım ki, gimnaziyanın 7-ci sinfindən ailə vəziyyətinə görə çıxmışam.

...1911-ci ildə mən Saşa bəy Mirzəyevin Bəyim adlı qızı ilə evləndim. Buna görə də təhsilimi davam etdirə bilmədim. 1911-ci ildə arvadımla birgə Fransaya – Parisə getdim. Qeyd edim ki, Bəyimi mən tanıyırdım və sevirdim, ancaq evlənmək niyyətim yox idi.

Universitetə mən 1911/12-ci dərs ilində Parisdə girmişəm.[7]

...1911/12-ci dərs ilinin başlanğıcında mən Sorbonnaya (Paris Universiteti) fəlsəfə bölməsinə girdim. Növbəti 1912/13-cü dərs ilində hüquq fakültəsinə keçdim və oranı 1921-ci ildə bitirdim.[8]

[1] İndiki Goranboy rayonu.
[2] İndiki Şıxəli Qurbanov küçəsi.
[3] AR MTN Arxivi, PR-39975, vv. 4-5.
[4] Yenə orada, vərəq 51.
[5] Yenə orada.
[6] Yenə orada, vərəq 55.
[7] Yenə orada, vərəq 57.
[8] Yenə orada, vərəq 58.

15 mart 1940-cı il dindirməsindən seçmələr:

...Sosialist partiyasına girmək üçün mənə Fransa Kommunist Partiyasından olan, indi ifşa edilmiş fəal trotskiçilər Rappoport Şarl və Paliko zəmanət vermişdilər. Rappoport Şarlla mən onun arvadı vasitəsilə tanış olmuşdum; o, tez-tez mənim keçmiş xəstə arvadıma baş çəkirdi. Bir-birimizə gedib-gəlirdik.[1]

"*Sual:* Siz Parisdə azərbaycanlılardan kiminlə əlaqə saxlayırdınız?

Cavab: Azərbaycanlılardan bunlarla əlaqə saxlamışam:

1) Əşrəfov İsrafil (indi XDİK orqanları həbs edib).

2) Xudaverdiyev Əli (ixtisasca müəllimdir, Nizami küçəsində yaşayır).

3) Vəzirzadə [Aslan] (professordur, AQNİ-də işləyir).

4) Vəkilov [Mustafa ağa] (indi XDİK həbs edib).

5) Axundov Əjdər (fransız dili müəllimi).

6) Nərimanbəyov [Fərman] (indi XDİK həbs edib)".[2]

"*Sual:* Siz SSRİ-də olarkən bu keçmiş tələbələrlə görüşürdünüzmü?

Cavab: Bakı şəhərində Əşrəfov İsrafil, Xudaverdiyev Əli, professor Vəzirzadə və Axundov Əjdərlə görüşmüşəm. Görüşlərimiz təsadüfi və nadir halda olurdu".[3]

21 mart 1940-cı il dindirməsindən seçmələr:

"*Sual:* Siz 1922-ci ildə Genuya konfransında nəçi idiniz?

Cavab: Genuya konfransında mən Sovet nümayəndə heyətinin Şərq və Qafqaz işləri üzrə eksperti və eyni zamanda Sovet nümayəndə heyətinin üzvü Nəriman Nərimanovun katibi idim. Mən Santo Rapalloda otururdum...

Sual: Santo Rapalloda olarkən müsavatçı mühacirlərdən kimlərlə görüşmüsünüz?

Cavab: Mən təsadüfən Müsavat Sülh Heyətinin üzvlərindən biri Məhərrəmovla görüşdüm.

Sual: Bu, həmin Məhərrəmovdurmu ki, siz Parisdə onun yanında qulluq etmisiniz və 1919-cı ildə onunla Müsavatın II İnternasionala girməsi haqında bəyannaməyə qol çəkmisiniz?

Cavab: Bəli, həmin Məhərrəmovla...".[4]

"*Sual:* Berlindən Siz tezlikləmi sovet Rusiyasına getdiniz?

Cavab: Tezliklə yox. Mən Berlində 7 ay qaldım.

Sual: Genuya konfransında sovet eksperti ola-ola Berlində 7 ay qalmağa icazəniz vardımı?

Cavab: Nəriman Nərimanov Kominternin orqanı olan "Beynəlxalq şərh"də Azərbaycanın iqtisadi və siyasi durumu haqqında məqalə yerləşdirmək üçün icazə vermişdi.

Sual: Bu məqaləni kim hazırlayıb?

Cavab: Mən.

Sual: Həmin məqalələrdə fikir vardı ki, Azərbaycan sənayesini xarici kapitalistlərə vermək lazımdır.

Cavab: Məqalələrin birində mən Azərbaycan sənayesini konsessiyaya vermək haqqında demişdim.

Sual: Sizi buna kim vəkil etmişdi?

Cavab: Nərimanov bunu bilirdi.

Sual: Nərimanov Sizin məqalələrinizi bütünlüklə redaktə edib?

Cavab: Bəli. Qaralamada ümumi məzmununu bilirdi.

Sual: Heç bir icazə olmadan Berlində 7 ay niyə qalmısınız axı?

[1] AR MTN Arxivi, PR-39975, vərəq 63.
[2] Yenə orada, vərəq 64.
[3] Yenə orada, vərəq 65.
[4] Yenə orada, vərəq 71.

Cavab: Mən Nəriman Nərimanovun mətbuatda məqalələr yerləşdirmək, Berlində Fransanın və bir sıra başqa ölkələrin kommunist partiyaları ilə əlaqə saxlamaq tapşırığını yerinə yetirmişəm. Bundan başqa, Berlində mən Qezell adlı bir qadınla əlaqədə bulundum, orada qalmalı oldum və sovet Rusiyasına gedə bilmədim. Mən Parisdən sovet Rusiyasına gedən 2 tələbə – Əşrəfov İsrafil və soyadını unutduğum Cəbrayıldan[1] borc alaraq Rusiyaya gedə bildim.

...Sual: Berlində əlaqə saxladığınız qadın arvadınız idi?

Cavab: Mən onunla nikahdankənar yaşayırdım.

Sual: Ümumiyyətlə, Sizin neçə arvadınız olub?

Cavab: Mənim qeydə alınmış cəmi 4 arvadım olub".[2]

25 mart 1940-cı il dindirməsindən seçmələr:

...Mən Parisdə oxuyarkən eyni zamanda 1918-ci ildə Parisdə rus Ticarət-Sənaye Bankının şöbəsində işləyir və orada bu vaxt ayda 200 frank alırdım.

...1919-cu ildə "3-cü İnternasional Komitəsi"nin üzvü ola-ola bəyliyimə və atamın əmisi oğlu, Müsavat hökumətinin keçmiş əks-kəşfiyyatının rəisi Məhəmmədbağır bəy Şıxzamanovun təqdimatı ilə Parisə sülh konfransına yenicə gəlmiş Müsavat hökumətinin Sülh Heyətinə daxil oldum. Mən bu heyətə ayda 500 frank maaşla texniki işçi kimi götürüldüm.

Həmin vaxt o Heyətdə qulluq edərkən mən daha böyük antisovet, əksinqilabi hərəkətə yol verdim – "Azərbaycan sosialistləri"nin II İnternasionala girməsi haqqında bəyannaməni qatı əksinqilabçılar olan Şeyxülislamov və Məhərrəmovla birgə imzaladım. Mən yalnız, belə demək mümkünsə, bu bəyannaməni imzalamaqla qalmadım, Sovet hakimiyyəti və Kommunist Partiyası qarşısında həm də bununla cinayət törətdim ki, həmin bəyannaməni İsveçrədə – Lütserndə 1919-cu ilin avqust ayındakı konfransda müdafiə etdim. Mən, gerçəkdən, bu bəyannaməni İsveçrəyə apardım və konfrans bağlandığına görə (Lütsernə çox gec çatmışdım) konfransın katibi Qunsmansa verdim.[3]

...Müsavat Sülh Heyətində olarkən mən Müsavat hökumətinin sədri Yusifbəyova, eləcə də qohumum, əks-kəşfiyyatın keçmiş rəisi Şıxzamanov Məhəmmədbağır bəyə təqaüdçülər siyahısına salınmağım haqqında yazdım. Mən Müsavat Sülh Heyətindən bir il sonra çıxdım və öncə Müsavat hökumətinin, sovetləşmədən sonra isə Sovet hökumətinin təqaüdünü aldım; ayda 500 frank alırdım.[4]

...1920-ci ilin dekabrında mən Parisdən gəlməzdən qabaq, universiteti bitirdikdən sonra Müsavat Sülh Heyətinin üzvü Ceyhun Hacıbəyov guya mənim universiteti bitirməyim münasibətilə məni, arvadımı və oğlumu nahara dəvət etdi. Nahar vaxtı Hacıbəyov dedi ki, Azərbaycanın sovetləşməsinə baxmayaraq, Sovet Azərbaycanı ona müraciət edərsə Müttəfiqlərin, Baltikyanı respublikalar kimi, onun da müstəqilliyini tanımasına nail olmaq olar; bu zaman Sovet Azərbaycanı özünün xaricdə xüsusi diplomatik nümayəndələri olmaqla müstəqil dövlət ola bilər. O, mənə məsləhət gördü ki, bu məsələni sovet hökuməti qarşısında qaldırım. Bundan başqa, Hacıbəyov mənə təklif etdi ki, onu Azərbaycanın iqtisadi və siyasi durumu haqqında bilgiləndirim və rica etdi ki, Üzeyir Hacıbəyovun yanına gedib ondan öz əsərlərini ona Parisə göndərməsini xahiş edim.

Ceyhun Hacıbəyovla bu söhbətimi necə dəyərləndirmək olar? Şübhəsiz, bunu Hacıbəyov tərəfdən məni casuluğa cəlb etmək hərəkəti kimi qiymətləndirmək lazımdır. Mən Hacıbəyovun tapşırıqlarını yerinə yetirmədim və sonralar onunla da, qardaşı Üzeyir

[1] Cəbrayıl Rəhimov nəzərdə tutulur.
[2] AR MTN Arxivi, PR-39975, vv. 73-74.
[3] Yenə orada, vərəq 80.
[4] Yenə orada, vərəq 81.

Hacıbəyovla da (mən onu tanımıram və heç vaxt da tanış olmamışıq) heç bir əlaqə saxlamadım, onlara heç bir material verməmişəm və heç nə haqqında onları bilgiləndirməmişəm.[1]

1922-ci il fevralın sonunda mən Parisdən Bakıya qayıdarkən N.Nərimanovun təklifi ilə Genuya konfransında iştirak üçün həmin şəhərə getdim. Getdiyim paroxod Trabzon qarşısında dayandı. Öyrənmişdim ki, Müsavat əks-kəşfiyyatının keçmiş rəisi Şıxzamanov Nağı bəy Trabzonda yaşayır (bunu Nağı bəyin qardaşı İsrafildən Kirovabadda öyrənmişdim). Hansısa tanış vasitəsilə Nağı bəy Şıxzamanova kağız yazıb göndərdim ki, mənimlə görüşsün. Nağı bəy qayıqda Türk polisinin müşayiəti ilə paroxoda yaxınlaşdı. Mən paroxoddan qayığa endim və söhbətimiz cəmisi 5-6 dəqiqə çəkdi, çünki polis daim tələsdirir və qayığın getməsini tələb edirdi. Söhbətimizin təxmini məzmunu belədir: Nağı bəy dedi ki, ümumən o, kommunizmin əleyhinə deyil, ancaq çoxlu kommunistlərin əleyhinədir; o kommunistlərin ki sinələri açılsa orada xaç görünəcək və belə kommunistlər kommunizm deyil, qırmızı imperializm tərəfdarlarıdır. Sonra o, məndən soruşdu ki, Nərimanov paroxoddadırmı və onunla görüşmək istəyir.

Bax, danışığımızın məğzi budur. Mən ondan daha heç nə eşitmədim. Ona dedim ki, Genuya konfransına gedirəm. Bəyan edirəm ki, bu zaman o, mənə heç bir tapşırıq və heç bir material verməli, mən də ona heç bir tapşırıq və heç bir material ötürmədim.

Türkiyədə. 1924-cü ilin dekabr ayında XXIK məni SSRİ-nin Türkiyədəki səfirliyinə attaşe təyin etdi. Ankarada olarkən Kamal paşanın keçmiş adyutantı, deputat Cavad bəyin baldızı Nəşə Namiyə ilə evləndim. Sən demə, onu mənə Türkiyə əks-kəşfiyyatı ilişdiribmiş. Boynuma almalıyam ki, Nəşənin hər addımını Türkiyə kəşfiyyatı məni tamamilə dolaşdırmağa hesablamışdı. Etiraf edim ki, mən Nəşəni çox sevirdim. Nəşə mahir bir casus kimi, evləndiyimizdən sonra (1925-ci ilin noyabrında evlənmişdik) birgə həyatımızda bir ay məni kişi kimi yanına buraxmadı və bununla o, məni intihara itələdi və ona nail oldu ki, mən həqiqətən özümə qəsd etdim. Sağalandan sonra o, məni yanına buraxdı, ancaq çox az; hamilə oldu, bu hərəkətləri ilə məni özünə daha çox cəlb etdi.[2]

...Həmin vaxt Ankarada mən ilk dəfə tanıdığım Parlamentin deputatı Əhməd Ağaoğlu ilə bir neçə dəfə görüşdüm. Onun evində 2 dəfə olmuşam. Bir dəfə xahiş etdim ki, nikahımda mənim şahidim olsun, ikinci dəfə Namiyə Nəşə ilə yeni il münasibətilə olduq, bəzi ziyafətlərdə görüşdük, onda adi salamlaşmadan başqa bir şey olmadı.[3]

1 aprel 1940-cı il dindirməsindən seçmələr:

...Mən xaricdən birinci dəfə gələndə – 1922-ci ildə Gəncədə atamın yanına düşmüşdüm. Onda qohumlarım məni görməyə gəlirdilər. Onların içərisində Nağı bəy Şıxzamanovun qardaşı İsrafil Şıxzamanov da vardı. Bu görüşdə İsrafil mənə dedi ki, Nağı bəy Trabzonda yaşayır və onunla məktublaşıram. Bu məktubları o, Nağı bəyin imzası ilə deyil, onun oğlu Salehin imzası ilə alır və məktubları da onun ünvanına Gəncədə un satan tanışı Ağa dayının adıyla göndərir. Ağa dayı da məktubları ona gətirir.[4]

"...*Cavab:* Santo-Marqaritada 1922-ci ildə mən müsavatçı Məhərrəmov Məhəmməd ilə görüşdüm.

Sual: Ona hansı informasiya verdiniz?

Cavab: Mən bildirdim ki, Genuya konfransına gedirəm və Nəriman Nərimanov, Bekzadyan və Budu Mdivani də mənimlədirlər. O, Nərimanovla onun görüşünü təşkil etməyimi xahiş etdi. Başqa söhbətimiz olmadı".[5]

[1] Şeyxzamanın 1921-ci ilin oktyabrında Ceyhun bəy Hacıbəyli ilə yazışmaları onun bu ifadəsini təsdiqləmir.
[2] AR MTN Arxivi, PR-39975, vv. 81-82.
[3] Yenə orada, vərəq 83.
[4] Yenə orada, vv. 98-99.
[5] Yenə orada, vərəq 100.

21 iyun 1940-cı il dindirməsindən:

"Mən Bakıya gələrək, [Ceyhun bəy] Hacıbəylinin tapşırığını yerinə yetirmək üçün *Nərimanovla və Xanbudaqov Eyyubla (onu Gəncədən qonşum kimi tanıyırdım) görüşdüm. Onlarla Azərbaycanın müstəqilliyi və kapitalist dövlətlərin onu tanıması haqqında söhbət etdim. Onlara Hacıbəyli Ceyhunun tapşırığını çatdırdım və dedim ki, o, kapitalist dövlətləri ilə danışıqlar aparmağı öz üzərinə götürür. Nəriman Nərimanov və Xanbudaqov Eyyub, Hacıbəylinin təklifi ilə tam razılaşdılar və mənə Nərimanovla birgə Genuya konfransına getməyi, orada Sovet Azərbaycanının müstəqilliyi ideyasını yaymağı və təbliğ etməyi təklif etdilər.*

Bu təklifdən təxminən 20 gün sonra mən Bakıdan Genuyaya Azərbaycan Xalq Komissarları Şurası sədrinin köməkçisi kimi getdim. Genuyada yerli mətbuatla əlaqə saxladım və onun vasitəsilə Sovet Azərbaycanı haqqında məlumatlar verdim. Onu Moskvadan asılı olmayan, kapitalist ölkələrində öz nümayəndələri olan müstəqil dövlət kimi təqdim etdim. Eyni şeyi mən Berlində də etdim. Mənim məqalələrim bu qəzet və jurnallarda çıxdı: "Humanite", "Beynəlxalq şərh". Bütün bunlar 1921-22-ci illərdə baş verib".[1]

SSRİ XDİK Özəl Müşavirəsi 25 yanvar 1941-ci ildə İ.M.Şeyxzamanı 8 illiyə islah-əmək düşərgələrinə məhkum edib.[2] Bundan sonra onun başına nə gəldiyi bilinmir.

ARPİSSA-də də Şeyxzamanın sənədləri var. Onların çoxu Moskvadakı başabəla keçmiş arvadı M.Yelizarovanın M.Bağırova və başqalarına yazdığı şikayət məktubları ilə bağlıdır. Burada ən önəmli sənəd Şeyxzamanın makinada yazdıraraq imzaladığı geniş tərcümeyi-halıdır.[3]

AR Dövlət Arxivində də Şeyxzamanla bağlı sənədlər mövcuddur.[4] Onlar Azərbaycan pedaqogika tarixini öyrənmək baxımından maraqlıdır.

* * *

Bu kitab mətbəyə gedərkən öyrəndik ki, İsaq bəy Şeyxzamanın oğlu radist Jan Şeyxzamanov (o, Rusiya sənədlərində "Jan İsaakoviç Şeyxzamanov" adlandırılıb) akademik, Lenin və SSRİ Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı S.N.Vernovun (1910-1982) rəhbərliyi altında 1937-ci ildə Sakit okeana göndərilmiş çox önəmli elmi ekspedisiyanın 4 üzvündən biri olub.5

İsaq bəy 9.XI.1938-də bu haqda yazır: "...İlk arvadımdan olan 23 yaşlı oğlum Sovet hökumətinin və SSRİ Elmlər Akademiyasının göndərişi ilə üç yoldaşla birgə onlara məxsusi olaraq verilmiş "Serqo" paroxodunda aerosferdə kosmik şüalarıöyrənmək üçün ekvatora gedib. Oğlum Afrikada ekvatordan Kamçatkayadək və geriyə iki reys edib. "Pravda" qəzetində 17.X, 19.XI.37 tarixdə və "İzvestiya"da bu haqda "Sovet ekspedisiyası ekvatorda" başlığı altında yazılıb. Mənim oğlum SSRİ-də ən yaxşı radistdir, Moskvada işləyir və onunla ən gözəl münasibətdəyəm".6

Təəssüf ki, artıq çox gec olduğuna görə Jan haqqındakı əlavə bilgiləri burada yerləşdirə bilmədik.

[1] AR MTN Arxivi, PR-39975, vərəq 137.
[2] Yenə orada, vərəq 224.
[3] ARPİSSA, fond 1, iş 636, siyahı 122.
[4] ARDA, fond 57, siyahı 1, iş 1895, vv. 4, 8, 9 23, 25, 35, 55, 71, 82, 88, 94.
[5] *Иванова Н.С.* Это был настоящий друг. // Академик Сергей Николаевич Вернов: к 100-летию со дня рождения. М.: Издательство Московского университета, 2010, s. 161; *Григоров Н.Л.* Человек, преодолевший все мыслимые и немыслимые препятствия. // Академик Сергей Николаевич Вернов: к 100-летию со дня рождения, ss. 184, 186, 189, 190.
[6] ARPİSSA, fond 1, siyahı 122, iş 636, vv. 20-21.

Şıxıyev Hüseyn Hacı Mustafa oğlu (Argüdər, Hüseyn)

(25.06.1898, Salahlı k./ Qazax – 1974, Türkiyə)



Hüseyn Şıxıyev

Hüseyn Şıxıyev[1] Almaniyada oxumuş tələbələrdəndir.

Zaqafqaziya Sünni Ruhani İdarəsinin 19 may 1908-ci ildə verdiyi 550 saylı doğum şəhadətnaməsinə görə, Gəncə valiliyi Qazax qəzası Salahlı kəndinin 1898-ci ilə aid doğum kitabının 1-ci hissəsində kişi cinsindən doğulanlara dair 8-ci nömrə altında belə bir qeyd var: müsəlman tarixi ilə 1316-cı il səfər ayının 18-də, xristian tarixi ilə 25 iyun 1898-ci ildə Salahlı kəndinin sakini Hacı[2] Mustafa Şıxı oğlunun öz qanuni arvadı Sayalı Daşdəmir qızından oğlu Hüseyn doğulub. Sənədi Zaqafqaziya müftisi və başqaları imzalayıb.[3]

1911-ci ildə Bakı edadi (real) məktəbinə daxil olub və Bakı Şəhər İdarəsinin təqaüdü ilə buranı 1918-ci ildə bitirib.[4]

Realist[5] Hüseyn Şıxızadə "Məktəb" dərgisinin 29 noyabr 1911-ci il tarixli 1-ci sayında "Qonaqlıqda yaxşıdır, evdə daha yaxşıdır" başlıqlı yazı yazıb.[6] Uşaqlar üçün yazılmış bu nağılvari hekayə Hüseynin ilk qələm təcrübəsidir.

9 aprel 1918-ci ildə verilmiş şəhadətnamədə göstərilib ki, Şıxıyev Bakı edadisi (real məktəbi) əlavə sinfində 1 sentyabr 1917-ci ildən 6 aprel 1918-ci ilədək əla əxlaqla oxuyaraq bu sinfin tam kursunu bitirib və aşağıdakı uğurları qazanıb:

Şəriət –	əla (5)
Rus dili –	kafi (3)
Alman dili –	yaxşı (4)
Fransız dili –	kafi (3)
Riyaziyat, o sıradan:	
Hesab –	yaxşı (4)
Cəbr –	yaxşı (4)
Triqonometriya –	yaxşı (4)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	yaxşı (4)
Tarix –	kafi (3)
Təbiiyyatşünaslıq –	yaxşı (4)
Fizika –	yaxşı (4)
Riyazi coğrafiya –	yaxşı (4)
Rəsm –	yaxşı (4)
Qanunşünaslıq –	kafi (3).[7]

Şıxıyev 19 avqust 1919-cu ildə AC maarif nazirinə yazdığı ərizəsində onu Almaniyaya Elektrotexnika İnstitutuna (gəmiqayırma bölümü) göndərməyi xahiş edib, həm də bildirib

[1] Soyadı bəzi qaynaqlarda *"Şıxızadə"*, *"Şeyxi"* kimi də işlədilib. Sənədlərdəki həmin yazılışları da saxlamışıq.
[2] H.Şıxıyevin rusca doğum şəhadətnaməsinin əslində atasının adındakı əllə yazılmış *Таджи"* (Hacı) sözü yanlış olaraq *"Qasım"* kimi oxunub, bu üzdən təhsil sənədlərində "Hüseyn Qasım Mustafa oğlu" gedib və bundan sonrakı bütün sənədlərdə bu yanlışlıq təkrarlanıb. Biz sənədləri təsvir edərkən düz şəklini yazırıq.
[3] ARDA, fond 51, siyahı 3, iş 136, vərəq 2.
[4] *Umudlu İ.* Salahlı eli. Tarix, etnoqrafiya, insanlar, yurd bilgisi, ss. 694-695.
[5] Real məktəbin şagirdi.
[6] *"Məktəb"*, 29.11.1911, № 1, ss.12-13.
[7] ARDA, fond 51, siyahı 3, iş 136, vərəq 3.



Hüseyn Şıxıyev. Almaniya

ki, kasıblığım üzündən orta məktəbdə Bakı Şəhər İdarəsinin hesabına oxumuşam.[1] Bakı 1-ci real məktəbindən 23 avqust 1919-cu ildə verilmiş 1333 saylı vəsiqədə təsdiq edilib ki, Şıxıyev həqiqətən yuxarı hazırlıq sinfindən 7-ci sinif də daxil şəhər təqaüdçüsü olub.[2]

Təqaüdçülüyə 10-cu namizəd seçilmiş Şıxıyev xaricə gedən tələbələr arasında hökumət təqaüdlərinin bölüşdürülməsi üzrə Komissiyaya 15 noyabr 1919-cu ildə yazdığı ərizədə bildirib ki, mən Almaniyaya (Berlinə – Şarlottenburq Politexnikumunun dağ bölümünə) getmək istəyirəm. Bəzi səbəblərdən Almaniyaya getmək mümkün olmazsa məni İsveçrəyə (Sürix Politexnikumuna) həmin ixtisas üzrə göndərməyinizi xahiş edirəm.[3]

Bakı 2-ci real məktəbinin direktoru 16 dekabr 1919-cu ildə AC maarif nazirinə yazdığı 1452 saylı raportda bildirib ki, kiçik hazırlıq milli siniflərinin müəllimi Hüseyn Şıxıyev ailə vəziyyəti ilə bağlı olaraq bu 15 dekabrdan 15 günlük məzuniyyət istəyib və mən ona icazə vermişəm. Onun dərslərini müvəqqəti olaraq belə bölüşdürmüşəm: 2 "s" sinfindəki 4 türk dili dərsini müəllim Cümşüd Səfərova, 1 "s" sinfindəki 4 türk dili dərsini müfəttiş M[əhəmmədqulu] Hacınskiyə, kiçik hazırlıq milli sinfindəki 14 türk dili və riyaziyyat dərsini Mirzə Nağı Əliağazadəyə (bu sinfin rəhbərliyini ona tapşırmaqla) vermişəm.[4]

Bakı 2-ci real məktəbi hazırlıq siniflərinin müəllimi Hüseyn Şıxıyev məktəbin direktoruna yazdığı 25 dekabr 1919-cu il saylı ərizəsində 25 dekabr 1919-cu ildən vəzifəsinin icrasına başladığını bildirib (30 dekabrdək məzuniyyət götürmüşdü).[5] Həmin məktəbin direktoru 5 yanvar 1920-ci ildə maarif nazirinə yazdığı 9 saylı raportla xəbər verib ki, 16 dekabr 1919-cu il tarixli 1452 saylı raportuma əlavə olaraq bildirirəm ki, mənə tapşırılmış məktəbin müəllimi Hüseyn Şıxıyev ona icazə verilmiş məzuniyyətdən 25 dekabr 1919-cu ildə qayıdıb və öz vəzifəsinin icrasına başlayıb.[6]

Bu məktublarla tanış olan oxucumuz yəqin ürəyində güləcək ki, o boyda maarif nazirinin işi-gücü qurtarıbmış ki, hansısa məktəbdəki hansısa müəllimin dərslərinin bölgüsü, məzuniyyətə gedib-gəlməsi ilə maraqlanır? Ancaq unutmayaq ki, o dönəmdə bütün Azərbaycanda olan orta məktəb müəllimlərinin sayı bu gün Bakı şəhərindəki istənilən orta məktəbdəki müəllimlərdən az idi və nazir demək olar ki, bütün məktəbləri və müəllimləri tanıyırdı. Cəmi 15-20 işçisi olan nazirliyin ümumi işinin həcmi bugünkü bir rayon maarif şöbəsinin işindən çox deyildi, ona görə də nazirlik bu cür xırda işlərlə də məşğul olurdu.

12 yanvar 1920-cu ildə Hüseyn Şıxıyev təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[7] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[8] dilkağızları verib.

Hüseyn Hacı[9] Mustafa oğlu Şıxıyevə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 536 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.

1 ARDA, fond 51, siyahı 3, iş 136, vərəq 1.
2 Yenə orada, vərəq 4.
3 Yenə orada, vərəq 5.
4 Yenə orada, iş 250, vərəq 3.
5 Yenə orada, vərəq 2.
6 Yenə orada, vərəq 1.
7 Yenə orada, iş 136, vərəq 7.
8 Yenə orada, vərəq 6.
9 Sənəddə: "Qasım".



Hüseyn Argüdər. Türkiyə

Aşağı sinif müəllimi Hüseyn Şıxıyev Bakı 2-ci real məktəbinin direktoruna raport yazaraq bildirib ki, öz işlərimlə bağlı olaraq 22 yanvar 1920-ci ildən vəzifəmi icra edə bilməyəcəyəm, ona görə də həmin tarixdən məni ümumən qulluqdan çıxmış saymağınızı xahiş edirəm. Sənədin altında 22 yanvar 1920-ci tarixi var.[1] Ancaq bu tarix gerçək deyil, çünki Şıxıyev artıq 16 yanvarda xaricə yola düşmüşdü. Tarixin geriyə çəkilməsi, bizcə, həmin günədək maaşın alınması istəyi ilə bağlıdır. O məktəbin direktoru 24 yanvar 1920-ci ildə maarif nazirinə müraciət edərək Şıxıyevin 22 yanvardan işdən çıxmağını xahiş etdiyini bildirib.[2] Nazir H.b.Şahtaxtinskinin 27 yanvar 1920-ci il tarixli 26 saylı əmri ilə Şıxıyev 22 yanvardan Bakı 2-ci real məktəbinin müəllimliyindən azad edilib.[3]

* * *

Şıxıyev öncə Berlində, sonra Darmştadtda elektrotexnika ixtisası üzrə oxuyub.[4] Almaniyada Darmştadt Ali Texniki İnstitutunda dostu *Məhəmmədəmin Əfəndiyev*'lə (Şəki) birlikdə oxuyub. İnstitutu bitirdikdən sonra 1927-ci ilə qədər Almaniyada işləyiblər.[5] SSRİ-yə bundan sonra gəliblər.

Hüseyn Şeyxi 1927-ci ildə Almaniyadan qayıtdıqdan sonra Bakıda coğrafiyaşünas alim, şamaxılı, bacısı Şərəfin əri Qafur Mirzəzadənin bacısı ilə evlənib. Bu nikahdan bir qızı və bir oğlu doğulub: *Nəzifə* və *Aydın*.[6]

Sovet Azərbaycanında bir müddət qaldıqdan sonra gələcək müsibətlərini gözünün altına alan Şeyxi (o, Almaniyadan bu soyadla qayıtmışdı) 1929-cu ildə Almaniyada birgə oxuduğu Məhəmmədəmin Əfəndiyev, Mirismayıl Seyidzadə və başqa bir neçə nəfərlə Güney Azərbaycana, oradan da Türkiyəyə qaçıb. Bu hadisəni İsmayıl Saryal (Mirismayıl Seyidzadə) özünün "Bakı rüzgarı" kitabında geniş təsvir edib. Həmin kitabdan Şeyxi ilə bağlı seçmələr:

"[Oğuz][7] ilk olaraq sirrini ən çox inandığı dostu Hüseyn Şeyxiyə açdı. O da özü kimi təhsilini Almaniyada almış, öz qohumlarından bir qızla evləndirilmişdi. Evliliyi xoşbəxt olmadığı üçün ölkədən qaçmaq istədiyini bir neçə dəfə Oğuza anlatmışdı. Oğuzun da qaçmaq istəyini öyrənincə yoldaşı sevindi və onun da daxil olduğu bir qrupun İrana qaçmaq üçün hazırlaşdığını ona bildirdi. Ancaq qrup yoldaşlarının razılığını almadan adlarını açıqlamaq istəmədi. Oğuzun qrupa götürülməsi üçün hərəkətə keçəcəyinə söz verdi. Bir neçə gündən sonra görüşdülər. Hüseyn onun qrupa götürüldüyünü bildirdi və qrup yoldaşlarının adlarını açıqladı. Hamısı gənclər imiş. İçlərindən yalnız birini Oğuz tanıyırdı. Aralarında Hüseyndən başqa evli olan yoxmuş".[8]

"Üçüncü çözüm şəkli yoldaşımız Hüseyn Şeyxinin təklifi kimi idi: atların belində, silahlı və hamımız bir yerdə sərhədi keçməyimiz uyğun görülürdü; lazım gələrsə rus əsgərləri ilə çarpışılacaqdı. Bu çözümün təhlükəli və çətin olacağı qabaqcadan söylənə bilirdi. Buna baxmayaraq buna meylləndik. Çox az kəndlinin atı olduğunu, onu da satmaq istəmədiyini öyrəndik. Silaha gəlincə, yalnız ov tüfəngi tapmaq imkanı vardı. Əsgərlərlə

1 ARDA, fond 51, siyahı 3, iş 250, vərəq 6.
2 Yenə orada, vərəq 5.
3 Yenə orada, vərəq 7.
4 Yenə orada, fond 57, siyahı 1, iş 276, vərəq 62a.
5 *Umudlu İ.* Salahlı eli. Tarix, etnoqrafiya, insanlar, yurd bilgisi, s. 695.
6 Yenə orada, s. 696.
7 Bu əsərdə İsmayıl Saryalın taxma adıdır.
8 *Saryal İ.* Bakı rüzgarı, ss. 206-207.

savaşda itki verə, hətta hamımız öldürülə bilərdik. Qaldı ki, ən önəmli məsələ İranın bizi at üstündə və silahlı qəbul etməsinin imkansız olduğu idi. Bu deyilənin gerçəkliyini öyrənməyimiz lazımdı. Azərbaycan hökumətində Xarici İşlər Nazirliyi olmadığından bu məsələnin cavabını ancaq ÇK-dan öyrənmək imkanımız vardı. Biz bunu ÇK-dan necə öyrənə bilərdik? Ancaq bunu da bacardıq... Daha bir sıra çözüm çarələri də düşündük, ancaq əhəmiyyətsiz olduqları üçün üzərində durmayacağam.

Ən sonunda ən əmin gördüyümüz və ən çox zamanımızı alan çözümün üstündə dayandıq. Bir bələdçinin yardımı ilə sərhədi piyada keçəcəkdik. Ən doğru çarə bu idi. Məsələni yerində öyrənmək və bələdçi tapmaq üçün İran sərhədinə qədər getdim. Sərhədə 7 km-dan artıq yaxınlaşmaq yasaqdı. Kəndləri dolaşdım, kəndlilərlə görüşdüm və yaşlı bir bələdçi tapdım. Qoca kişinin işi-gücü sərhəddən adam keçirməkdi. Onunla uzun-uzadı danışdım və anlaşdım. Adambaşına İrana keçdikdən sonra ödəmək şərti ilə 40 manat istəyir. Heç də çox pul deyil. Ünvanımı verdim, qarşıdakı həftə içində mövzunu daha ətraflı danışmaq üçün Bakıya gələcək. İki və ya üç adamlıq qruplar şəklində sərhədi keçməyi düşünürük. Bələdçi öncəki qrupdan sərhədi keçdiyinə dair məktub gətirdikdən sonra növbəti qrup yola çıxacaq, beləcə bütün qrupların keçiş təhlükəsizliyi təmin edilmiş olacaqdı.

Yusifəli bəy[1] *hesabatını bitirincə yoldaşlar onu alqışladılar. Ona və iki yardımçısına təşəkkür etdilər. Ən yaxşı çözüm və ən yaxşı qaçış yolu tapılmışdı".*[2]

"Sərhədə yaxınlaşarkən Məhəmmədəmin Əfəndiyev Hüseyn Şeyxinin ona verdiyi bir sənədi göstərir və bunun qaçmalarının asanlaşdıracağını söyləyir. Oğuz bəlgəni aldı və oxudu. Hüseyn ondan sonra səfərə çıxacaq yoldaşlarını düşünərək onlar üçün, çalışdığı Maarif Nazirliyi adından bu bəlgəni hazırlamışdı. Bəlgədə sərhəd boyunca inşa edilməkdə olan kənd məktəblərini yoxlamaqla vəzifələndirilmiş Oğuz Qayalı və Emin Əfəndizadə adlı 2 yüksək mühəndisin səfərə çıxdıqları yazılmışdı. Bəlgə rəsmi möhürlə möhürlənmiş və imzalanmışdı".[3]

"Ərdəbildə olarkən Hüseynlə Emin avtobus terminalında müvəqqəti iş tapdılar. Sıxıntıları bir qədər azalmış oldu".[4]

Hüseyn Şeyxinin Türkiyədəki həyatını ən düzgün şəkildə İsmayıl Umudlu təsvir edir:

"Hüseyn xaricə qaçdıqdan sonra onun vətəndə qalan ailəsinə qaynı Qafur Mirzəzadə himayədarlıq etmişdir. Nəzifə xanım ali təhsilli həkim (onkoloq) idi. Aydın Şıxıyev musiqiçi idi, Rəşid Behbudovun ansamblında saksafonçu idi. Hər ikisi vəfat edib.

Hüseyn Şıxıyev Türkiyədə Argüdər soyadı almışdır. Mühacirət illərində ikinci dəfə evlənməyə məcbur olmuşdur. Özündən sonra Taşdəmir və Özdəmir adlı iki oğlu qalmışdır.

Taşdəmir Argüdər Almaniyaya getmiş və orada alman xanımla evlənmişdir. Almaniya vətəndaşıdır və Hamburqda polis komissarı olmuşdur.

Özdəmir Argüdər Türkiyədə yaşayır (xanımı – Nükhet Argüdər).

Vətəndəki əqrəbalar ilə münasibətlər 90-cı illərdən sonra – qardaşı Kərim Şıxıyevin nəvəsi Aida Şıxıyeva İstanbul Universitetində təhsil aldığı illərdə bərpa olunmuşdur".[5]

[1] Söhbət Cümhuriyyət Parlamanının üzvü, sonra ticarət və ərzaq nazirinin müavini olmuş Yusifəli Əliyevdən gedir.
[2] *Saryal İ.* Bakı rüzgarı, ss. 217-218.
[3] Yenə orada, s. 233.
[4] Yenə oradaı, s. 272.
[5] *Umudlu İ.* Salahlı eli. Tarix, etnoqrafiya, insanlar, yurd bilgisi, ss. 696-697.

Tahirzadə Abdulla Mabud oğlu

(1896, Xaçmaz k./ Oğuz - 27.11.1978, Bakı)



Abdulla Tahirzadə. İstanbul, 1919

Abdulla Tahirzadə[1] Azərbaycan maarifi tarixində özünəməxsus yeri olan aydınlardandır.

Həyatı haqqında ən dəqiq bilgiləri az sonra istintaq sənədlərindən öyrənəcəyik. İndisə əlimizdə olan sənədlərə müraciət edək. Bu sənədlərin özünü bizə 4-5 il öncə qızı, görkəmli tarixçi *Nərmin xanım Tahirzadə* (1921 – 2012) təqdim etmiş, biz də onların üzünü çıxaraq orijinalları yiyəsinə qaytarmışdıq. Burada həmin sənədlərin qısa məzmununu veririk.

* * *

"Dövləti-əliyyeyi-Osmaniyyə Ticarət Məktəbi-Alisi ülumi-aliyyeyi-ticariyyə şəhadətnaməsi", başqa sözlə, Osmanlı Dövləti Ali Ticarət Məktəbi ticarət ali elmləri üzrə diplom Tahir bəyin oğlu, Qafqazda 1898-ci ildə doğulmuş Abdulla əfəndiyə ona görə verilib ki, o, bu məktəbi 1337-ci (1921-ci) ildə "əliyül-əla" qiymətlə bitirib. Diplomu ali məktəbin direktoru Xülusi və xalq maarif naziri Səid imzalayıblar. Ancaq maraqlıdır ki, imzalar diplomun türkcə yox, fransızca mətninin altında çəkilib (çünki bu vaxt İstanbulda siyasi baxımdan fransızlar türklərdən daha nüfuzlu idilər).

Ancaq bu diplomu almaq üçün A.Tahirzadə hələ iki il də oxumalı idi. Bunun üçünsə maddi imkanı yoxdu. Buna görə də doğma Cümhuriyyət hökumətinə üz tutmağı qərara aldı. 1919-cu ilin payızında AC Maarif Nəzarətinə belə bir məktub yazdı:

"Maarif Nəzarəti-cəliləsinə.

Rüfətli əfəndim həzrətləri. Acizləri[2] *Gəncə vilayətinə tabe Nuxu uyezdinin Xaçmaz qəryəsindən*[3] *olub, uzun müddətdir Dərsəadətdə*[4] *təhsildəbulunuyorum. Öksüz olduğumdan təhsilə getməyə Ağdaş mötəbərasından Muxtar Əfəndizadə və Əli Hacı Mollayevlər vasitə olmuşlar. Fəci, dilsuz hərbi-ümumi bizi vətəndən, məmləkətlə müxabirədən, mükalimədən, müsafihədən alıqoydu. Şimdi lilhəmdi-inayəti-rəbbani ilə əqrəba və təəllüqata, böyük istiqlalı qazanmış milləti-nəcibəmizə qavuşduq. Hərbin ən əzim müşkülatlarına, ən zəruri ehtiyaclarına və ən son yoksulluğuna qəvi*[5] *bir imanla köks gərərək təhsili-üluma davam ilə keçən sənədə birinciliklə və "əliyül-əla" dərəcə şəhadətnamə ilə məktəbi-edadiyi*[6] *ikmal etdim və bilimtahan*[7] *Ticarət Məktəbi-Alisinə düxul etdim. İstixbaratımıza nəzərən,*[8] *hökumət kəndi məsarifiylə*[9] *məmaliki-əcnəbiyyəyə bərayi-təhsil tələbə göndərmək istiyor. Şübhəsiz, bunlar müxtəlif məmləkətlərə göndəriləcəkdir. Hökumətin böylə qəti bir qərarı varsa Türkiyəyə göndəriləcək tələbələr miyanına*[10]

[1] Soyadı bir çox qaynaqlarda "Tahirov", "Tahiroğlu", "Tahirli", "Tahir" kimi, atasının adı isə "Mahmud" kimi gedib. Sənədlərdəki həmin yazılışları da saxladıq.
[2] Ərizəçi özünü nəzərdə tutur.
[3] Kəndindən.
[4] İstanbulda.
[5] Güclü.
[6] Orta məktəbi.
[7] İmtahansız.
[8] Aldığımız xəbərlərə görə.
[9] Öz xərciylə.
[10] Arasına.



Abdulla Tahirzadə *(arxa cərgədə, soldan 3-cü)*. İstanbul, 1921

kölələrini[1] *də idxal etməsini, qərari-müəlləqdə isə qalan iki sənəlik təhsilim üçün hər hanki bir surətdə qullarına*[2] *yardım edilməsini və təshilat göstərilməsini rica ilə icab edənlərə əmr və həvalə buyurulmasını istirham elərəm, əfəndim.*

Dərsəadət Ticarət Məktəbi-Alisi müdavimlərindən Abdullah Tahir.

Türkiyədə zühur edən İzmir hadisəsi təlayısıyla ümum-ali məktəblərin imtahanları bu sənə bidayətinə atıldığından,[3] *bəndələrinə*[4] *imtahanlara yetişmək mümkün olduğu təqdirdə müamiləm Parlaman əzasından möhtərəm Muxtar Əfəndizadə tərəfindən təqib ediləcəyindən, icabı halında müşarileyhə əxbari-keyfiyyət buyurulmasını da lütfən təmənni elərəm".*[5]

Burada dəyərli oxucularımızın diqqətini bir məsələyə cəlb etmək istəyirik. Ərizənin məzmunu 1919-cu il Türkiyə sultanlığının rəsmi üslubuna tam uyğun yazılıb. Göründüyü kimi, ərizəçi burada özünü "aciz", "qul", "kölə", "bəndə" adlandırıb. Azərbaycan Cümhuriyyətində yazılmış ərizələrdə isə ərizəçinin özünü bu qədər alçaltmasına rast gəlmirik. Rus çarizmi dönəmində də ərizəçi şəxsiyyətinin ərizə verilənlərin qarşısında alçaldıldığını nəzərə alsaq insana hörmətdə cümhuriyyətin monarxiyadan üstünlüyünə elə bu xırda misalda da inanırıq.

Abdulla Tahirzadənin Türkiyədə ali təhsil almasında böyük əməyi olmuş *Muxtar Əfəndizadə* 1919-cu ilin noyabrında onun əvəzindən Maarif Nəzarətinə məktub göndərib:

[1] Ərizəçi özünü nəzərdə tutur.
[2] Ərizəçi özünü nəzərdə tutur.
[3] Sonraya keçirildiyindən.
[4] Ərizəçi özünü nəzərdə tutur.
[5] ARDA fond 51, siyahı 3, iş 131, vərəq 1.



Müəllimlər seminariyasının (Pedaqoji texnikumun) müəllim və tələbələri.
Soldan sağa. Oturanlar: Səid Rüstəmov (bəstəkar), Abdulla Tahirzadə (riyaziyyat müəllimi), Mustafa İsmayılzadə, Sirac Əhmədov, Firidun Əfəndiyev. *Ayaq üstdə:* Saleh Məmmədzadə (əməkdar müəllim), İlyas Hacıyev (ADU-nun dosenti), Məmməd Məmmədbəyov, Xəlil Eminov, Musa Əfəndiyev, Əziz Əzizov, İslam Nəbibəyov. 1925

"Maarif Nəzarəti-cəliləsi canibi-alilərinə.

Bən vəkili bulunduğum 74 nömrəli[1] *Tahirzadə Abdulla əfəndi kəndisinin hökumət hesabına İstanbul Darülfünununun ticarət şöbəsində okumak üçün zati-alilərinə istida*[2] *vermişdi. Dərsinin vəqtinin keçməsini nəzərə alaraq Komisyonun qərarını bəkləmədən bənim vəsatətimlə siyasi nümayəndəmiz Yusif bəy Vəzirovun məiyyətində İstanbula getdi. Şimdi orada dərsinə davam ediyor. Şimdi başqa tələbəyə verildiyi kibi, ona da xərci-rah namıyla*[3] *min frank və aylıq maaşı da bəhər ay İstanbuldakı siyasi nümayəndəmiz tərəfindən məzkur Tahirzadə Abdulla əfəndiyə verilməsi xüsusunda tədabiri-lazimədə bulunmanızı istirham edərəm.*

Məclisi-Məbusan üzvlərindən Muxtar Əfəndizadə.

22 təşrini-sani[4] *1919".*[5]

Əlbəttə, Parlaman üzvü M.Əfəndizadənin sözü yerə salınmayacaqdı və salınmadı da.

Abdulla Tahirova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 592 saylı vəsiqə 15 yanvar 1920-ci ildə verilib.[6]

[1] Bu, dövlət təqaüdü verilənlərin siyahısındakı yerin nömrəsidir.
[2] Ərizə.
[3] Yolpulu adıyla.
[4] Noyabr.
[5] ARDA fond 51, siyahı 3, iş 131, vərəq 2.
[6] Yenə orada, vərəq 3.



Müəllimlər seminariyasının (Pedaqoji texnikumun) müəllim və tələbələrindən. Müəllimlər *(soldan sağa)*: 1-ci Abdulla Tahirzadə, 2-ci Əlicabbar Orucəliyev, 3-cü Xədicə xanım Ağayeva (Həsən bəy Ağayevin yoldaşı), 4-cü Məhəmməd Şeydayev, 5-ci M.Abdullayev. *On cərgədə sağdan 2-ci:* Aqiyə Qazıyeva. Bakı, 1925-1930

Beləliklə, Cümhuriyyət hökuməti Abdulla Tahirzadəni də 100 təqaüdçüsü sırasına daxil edib və ona ayrılmış təqaüdü göndərib, buna görə də adı siyahıya düşmüş, pulu ödənmiş Tahirzadə hökmən Cümhuriyyət təqaüdçüsü sayılmalıdır. Ancaq o, XDİK zindanındakı istintaqda həmin təqaüdü almadığını bildirib (bu haqda sonra).

Bir məsələni də aydınlaşdıraq. Yuxarıda diplomundan da gördüyümüz kimi, Tahirzadə İstanbul Ali Ticarət Məktəbini (Ali İqtisad Elmləri İnstitutunu) qurtarıb, burada 1918-1921-ci illərdə oxuyub. Bundan sonra o, təhsilini İstanbul Universitetinin riyaziyyat fakültəsində davam etdirib və oranı 1923-cü ildə başa vuraraq Azərbaycana dönüb.

Doğrudur, arada qalan 7 ildəki fəaliyyəti haqqında bilgi verə bilməsək də 1930-cu ildən sonrakı işləri əmək kitabçasında aşağıdakı kimi qeyd olunub:

1930-cu ilin oktyabrından 1941-ci ilin iyulunadək Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda (AXTİ) müəllim təyin edilib.

1942-ci ilin yanvarından 1944-cü ilin dekabrınadək Azərb. Dövlət Universitetində mühasibat uçotu kafedrasının müəllimi işləyib.

1944-cü ilin dekabrında Xalq Təsərrüfatı İnstitutunda ali riyaziyyat və fizika kafedrasının müdiri və baş müəllim təyin edilib.

1946-cı ilin oktyabrında kafedra müdirliyindən, 1949-cu ilin iyulunda isə baş müəllimlikdən azad edilib.

1953-cü ilin oktyabrından 1955-ci ilin avqustunadək Cambul rayonunda orta məktəbdə riyaziyyat müəllimi işləyib.



Müəllimlər seminariyasının (Pedaqoji texnikumun) müəllim və tələbələrindən. *Soldan sağa. Ortada:* 1-ci Əlicabbar Orucəliyev, 2-ci Xədicə xanım Ağayeva (Həsən bəy Ağayevin həyat yoldaşı), 3-cü Abdulla Tahirzadə, 4-cü Əsgər Eyvazov. 1925-1930

1955-ci ilin avqustunda AXTİ-də baş laborant, 1956-cı ilin fevralında müəllim, 1957-ci ilin sentyabrında baş müəllim təyin edilib. 1959-cu ilin mayında İnstitut birləşdiyinə görə Azərbaycan Dövlət Universitetinə baş müəllim təyin edilib.

1966-cı ilin avqustunda Xalq Təsərrüfatı İnstitutuna keçdiyinə görə vəzifəsindən azad edilib, AXTİ-də baş müəllim təyin edilib.

1967-ci ilin fevralında təqaüdə çıxması ilə əlaqədar işdən azad edilib.

Görünür, əmək kitabçasında hər şey dəqiqliklə göstərilməyib, çünki Azərbaycan Dövlət Darülfünunu 27 noyabr 1947-ci ildə Abdulla Tahirzadəyə onun Darülfünunda baş müəllim işləməsi haqqında 39 saylı arayış verib, halbuki həmin tarixdə onun orada işləməsi haqqında qeyd yoxdur.

Əmək kitabçasına Tahirzadənin orta məktəblərdə işləməsi barəsində də bir qeydə rast gəlmirik. Azərbaycan SSR xalq maarif komissarı Əli Məmmədovun imzasıyla 23 avqust 1941-ci ildə verilmiş 15375 saylı sənəddə bildirilib ki, 1921-ci ildə İstanbul Universitetinin iqtisad şöbəsini və 1922-ci ildə İstanbul Universiteti riyaziyyat şöbəsini bitirmiş və pedaqogika işi üçün təyin edilmiş imtahan stajını məktəbdə keçmiş Abdulla Mahmud [oğlu] Tahirzadə SSRİ Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Sovetinin müəllimlərə şəxsi advermə haqqındakı 1936-cı il 10 aprel tarixli qərarına əsasən *orta məktəb müəllimi* adını alır.[1]

İstintaq sənədləri içərisində A.Tahirzadəni müəllim kimi səciyyələndirən çox maraqlı bir sənəd var. Xalq Təsərrüfatı İnstitutu mühasibat uçotu kafedrasının müdiri, iqtisad elmləri namizədi Salah İsmayıl oğlu Səmədov 16 mart 1956-cı ildə yazıb:

[1] Sənədin surəti özəl arxivimizdədir.



Abdulla Tahirzadə. İstanbul

"Sonra, 1955-ci ildə Tahirzadə yenidən Xalq Təsərrüfatı İnstitutuna işə qəbul edildi. Orada indiyədək mühasibat uçotu kafedrasında baş müəllim işləyir... Qeyd edilməlidir ki, Tahirzadə maşınlaşdırılmış hesablama üzrə yaxşı mütəxəssisdir və Tahirzadə həbs edildikdən sonra institutdakı hesablama stansiyası yetərincə işləmədi, bir çox maşınlardan yararlı mütəxəssis olmadığına görə istifadə etmək mümkün olmadı. 1955-ci ildə Tahirzadə instituta gəldikdən sonra hesablama stansiyası onun işi ilə tədricən bərpa edilməkdədir".[1]

* * *

AR MTN Arxivində 1949-cu ilin mayında həbs edilmiş Tahirzadə Abdulla Mahmud oğlunun 400 saylı (indi: PR-21950) istintaq işi saxlanılır. 18 may 1949-cu ildə başlayıb 20 oktyabr 1949-cu ildə bitən sənəd 115 vərəqdir. Burada mövzumuzla bağlı xeyli maraqlı fakt əksini tapıb.

18 may 1949-cu ildə XDİK əməliyyat müvəkkili Rezunenko onun evində axtarış apararaq bunları götürüb: "Əməyə görə" medalı və vəsiqəsi; əmək kitabçası; kadrların şəxsi uçot vərəqi (məhv edilib); tərcümeyi-halı (11 vərəq) (məhv edilib); müxtəlif əlyazmalar (1 qovluq) (məhv edilib); fərdi fotoşəkillər (11 ədəd); qrup fotoşəkillər (10 ədəd); qeyd kitabçaları (2 ədəd) (məhv edilib); İstanbul şəhəri orta və ali məktəbi bitirməsi haqqında diplomları (2 nüsxə).[2]

Götürülmüş materialların əksərini məhv etdikləri haqqında Aqaronin və Romanov 4 oktyabr 1949-cu ildə akt tərtib ediblər.

Dustaq anketindəki bilgilərdən:

Tahirzadə Abdulla Mahmud[3] oğlu – 1896, Azərbaycan SSR Vartaşen rayonu[4] Xaçmaz kəndi. Yaşayış yeri: Bakı, Ostrovski[5] küçəsi 44; müəllim, Xalq Təsərrüfatı İnstitutu; partiyasız; kəndlilərdən. Ailə tərkibi: atası – 1902-ci ildə ölüb, anası 1904-cü ildə ölüb; arvadı Tahirova Beatris İlyas qızı, 1904-cü il;[6] qızı – Tahirzadə Nərmin, 1921; bacısı – Lətifova Gülşən Mahmud qızı, 1904. 19 may 1949-cu ildə 362 saylı orderə əsasən həbs edilib.[7]

Abdulla Tahirzadənin dindirmələrinin 25 protokolu var.

19 may 1949-cu il tarixli dindirməsində müttəhim haqqında bu əlavə bilgiləri öyrənirik: 1922-ci ildə İstanbul İnstitutunu bitirib, riyaziyyat müəllimidir, təsərrüfat hesablamaları üzrə baş müəllimdir. Arvadı Beatris Müəllimləri Təkmilləşdirmə İnstitutunda müəllimədir. Qızı Nərmin ADU-da[8] tarix müəlliməsidir.[9]

Həmin dindirmədən seçmələr:

"...*Sual:* Siz nə vaxt və nəyə görə Türkiyəyə getmisiniz?

Cavab: 1913-cü ildə oraya oxumağa getmişəm.

[1] AR MTN Arxivi, PR-21950, vərəq 101.
[2] Yenə orada, vv. 9-9a.
[3] A.Tahirzadənin atasının adı Mabuddur.
[4] İndiki Oğuz rayonu.
[5] İndiki Süleyman Tağızadə.
[6] Milliyyətcə yunan olan Beatris xanım 1987-ci ildə dünyasını dəyişib.
[7] AR MTN Arxivi, PR-21950, vv. 6-7.
[8] İndiki BDU.
[9] AR MTN Arxivi, PR-21950, vərəq 17.



Abdulla Tahirzadə *(sağdan 2-ci)* Xalq Təsərrüfatı İnstitutunda. 1939-1940

Sual: Siz nə vaxtacan orada olmusunuz?

Cavab: Türkiyədə mən 1923-cü ilədək yaşamışam və sonra yenidən Bakıya qayıtmışam.

Sual: Bütün bu 10 ili Türkiyədə oxumusunuz?

Cavab: Bəli, 1913-cü ildən 1918-ci ildək İstanbul şəhərində orta məktəbdə oxumuşam. Oranı bitirib İstanbul Ali İqtisad Elmləri İnstitutuna[1] girmişəm. 1922-ci ildə[2] həmin İnstitutu iqtisadçı diplomu ilə bitirmişəm və məktəbi bitirəndən sonra bir il dörd ay Türkiyədə qalmışam. Viza alınca Bakıya qayıtmışam. (A.Tahirzadə Türkiyədən 1923-cü ilin sonunda gəldiyini göstərib[3]).

Sual: Türkiyəyə oxumağa imkanlı adamlar gedirdilər. Siz, yoxsul kəndli balası Türkiyəyə necə getmisiniz?


Cavab: 1910-13-cü illərdə mən Ağdaş şəhərində ibtidai məktəbdə müəllim işləyirdim. Bu vaxt 50 manat məbləğində bir az pul yığmışdım və bu pulla da Türkiyəyə oxumağa getdim.

Sual: Bəs Türkiyədə nə ilə yaşamısınız?

Cavab: İstanbulda mən imkansız tələbə kimi məktəbdə pansionda qalmışam. Bütün tədris boyunca, yəni 1918-ci ilədək bu məktəbdə tam pansionda olmuşam və bu cür yaşamışam.

1918-ci ildə məktəbi bitirincə mən həmin məktəbdə nazir[4] oldum və bu, mənə institutda oxumağa imkan yaratdı. Ancaq 1918-ci ildə müharibəyə görə pansionat yay vaxtı bağlandı və yığdığım az vəsait də əlimdən çıxdı. 1919-cu ilin iyununda Azərbaycana qayıtmağa məcbur oldum. Ağdaş şəhərində yoldaşlarımın və dostlarımın qohumları

[1] Ancaq diplomunda "Ticarət Ali Məktəbi" yazılıb.
[2] Düzgünü: 1921-ci ildə.
[3] AR MTN Arxivi, PR-21950, vərəq 46a.
[4] Məktəb müdiri nəzərdə tutulur.



Abdulla Tahirzadə

mənə 600-ə qədər türk lirəsi toplayaraq yardım etdilər və 1919-cu ildə iki aydan sonra təhsilimi davam etdirmək üçün İstanbula qayıtdım.

Sual: Siz Türkiyəyə Müsavat hökuməti tərəfindən təhsili davam etdirmək üçün göndərildiyinizi niyə gizlədirsiniz?

Cavab: 1918-ci ildə mən Ağdaş şəhərində yaşayan, tez-tez Bakıda olan *Səmədov Məhəmmədsadıqla* və öz keçmiş müəllimim, Ağdaşda yaşayan və Bakıda tez-tez olan *Əfəndiyev Muxtar*'la[1] məktubla əlaqə saxlayırdım. Bu dostlarım dedilər ki, 1918-ci ildə Azərbaycanda müsavatçılar hakimiyyətə gəlib. Onlar öz hesabına azərbaycanlı tələbələri xaricə oxumağa göndərirlər. Onlar, yəni Səmədov və Əfəndiyev Müsavat hökumətinin maarif nazirinin adına həmin tələbələr sırasına salınmağım xahişi ilə ərizə yazmağımı məsləhət gördülər. Səmədov və Əfəndiyevin məsləhətinə qulaq asaraq mən onlar vasitəsilə Müsavat hökumətinin Maarif Nəzarətinə ərizə və fotoşəkillər göndərdim. Bir müddət sonra Əfəndiyev və Səmədov mənim Müsavat hökuməti hesabına xaricdə təhsil alacaq tələbələr sırasına salındığımı yazdılar. Bunu onlar mən 1919-cu ildə Türkiyəyə qayıdandan sonra yazmışdılar. Müsavat hökumətinin Qərbi Avropaya oxumağa göndərdiyi, 1919-cu ildə[2] İstanbuldan keçib gedən tələbələr də mənə xəbər verdilər. 1919-cu ilin sonunda İstanbulda Müsavat səfiri Vəzirov Yusif Müsavat hökumətinin hesabına təhsil alacaq tələbələr sırasına salındığımı xəbər verdi, ancaq mən Müsavat hökumətindən qətiyyən pul almamışam.

Sual: Siz haçansa müxtəlif səbəblərə görə doldurduğunuz rəsmi sənədlərdə, tərcümeyi-hallarda, anketlərdə, xaricdə oxuyan, xərcini Müsavat hökumətinin çəkdiyi tələbələr sırasına daxil edildiyinizi göstərmisinizmi?

Cavab: Yox. Mən bunu heç yerdə və heç vaxt göstərməmişəm.

Sual: Siz bu halı niyə gizlətmisiniz?

Cavab: Mən bunu ona görə göstərməmişəm ki, Müsavat hökumətindən heç bir vəsait almamışam.

Sual: Yuxarıda adlarını çəkdiyiniz Səmədov və Əfəndiyev hal-hazırda haradadırlar və nə edirlər?

Cavab: Səmədov mən Türkiyəyə qayıdandan bir neçə il sonra Ağdaşda vəfat edib. Əfəndiyev hal-hazırda Azərbaycan Dövlət Universitetində ərəb dili dərsi deyir".[3]

23 may 1949-cu il tarixli dindirməsində o, tanışlarından bunların adını çəkir: *Hacıyev İlyas Əli oğlu* – ADU, filologiya fakültəsinin dekan müavini; *Fərəcov Əliqulu Səttar oğlu* – Xalq Təsərrüfatı İnstitutunun (XTİ) direktoru; *Datiyev İslam Məhəmməd oğlu* – XTİ kənd təsərrüfatının planlaşdırılması kafedrasının müdiri; *Sultanov Əli Rüstəm oğlu* – XTİ ticarət-iqtisad fakültəsinin dekanı; *Məmmədzadə Salih* – Azərbaycan Pedaqoji İnstitutunun baş müəllimi, ağdaşlı.[4]

25 may 1949-cu il dindirməsində Türkiyədən gəlib Azərbaycanda müəllimlik edən, sonra yenə Türkiyəyə qayıdan *Faiq əfəndi Rəşidzadə* haqqında söhbət gedir. Tahirzadə onunla bağlı deyir: "Mən onunla 1925-ci ildə Bakıda birgə işlədiyim müəllim seminariyasında (darülmüəllimində) tanış olmuşam. Bu seminariyada mən riyaziyyatdan, o isə bədən tərbiyəsindən dərs deyirdik. Seminariyada o yarım il, ya da bir il dərs dedi. Sonra indi Filarmoniyanın yerləşdiyi binada bədən tərbiyəsi müəllimi işləməyə başladı. Bizim münasibətlərimiz xidmət

[1] Muxtar Əfəndizadə.
[2] Əslində 1920-ci ildə.
[3] AR MTN Arxivi, PR-21950, vv. 19-20.
[4] Yenə orada, vərəq 21-21a.

çərçivəsindən çıxmayıb. Onunla yalnız qulluqda görüşmüşük, nə mən onlarda olmuşam, nə də o, bizim mənzildə olub.





Abdulla Tahirzadə həbsdə. 1949

O, müəllim seminariyasından işdən gedəndən sonra onunla şəhərin küçələrində nadir halda görüşmüşük. Sonra eşitdim ki, Türkiyəyə gedib".[1]

27 may 1949-cu il dindirməsində o, başqa Türkiyəli müəllimlər haqqında da ifadə verməli olub:

"... *Cavab:* Rəşidzadə Faiqdən başqa, mən yenə iki Türkiyə təbəəsi ilə xidməti əlaqə saxlamışam. *Cabbar əfəndi*[2] 1926-27-ci illərdə Bakı şəhərində müəllimlər seminariyasında ədəbiyyat müəllimi işləyirdi. Türkiyədən onu müəllimliyə Xalq Maarif Komissarlığı dəvət etmişdi. Sonra Türkiyəyə haçan getdiyini bilmirəm.[3]

Mustafa Tofiq[4] 1926-27-ci illərdə Bakıda Yerquruluşu Texnikumunda dil və ədəbiyyat dərsi verib. Bakıdan Türkiyəyə haçan çıxarıldığını bilmirəm... Mənimlə adı çəkilən Cabbar əfəndi və Mustafa Tofiq arasında yalnız məktəblərdəki birgə xidmət üzrə münasibətlər olub. Bir-birimizin ev ünvanlarını bilmirdik...

1926-27-ci illərdə Bakıda Azərb. SSR XTŞ yanında mühasiblər hazırlayan kurslar vardı. Həmin kurslarda mən ticarət hesablaması fənni üzrə müəllim işləyirdim. Mənimlə birgə həmin kursda ticarət yazışmasını türk *Ruhi Camal* keçirdi. Onun əsas işi Fəhlə fakültəsində idi. Ancaq kurslarda o, əsas işi ilə eyni zamanda çalışırdı. Aramızda sırf xidməti münasibət olub. Kurslar işini bitirdikdən sonra Ruhi Camal Türkiyəyə getdi. Özü getdimi, yoxsa sürgün etdilərmi, bilmirəm...

Sual: Sizə bəllidirmi ki, Camal Ruhi türk ordusunun zabiti idi?

Cavab: Yox, mən bunu bilmirdim.

Sual: Onun 1930-cu ilədək Bakı şəhərində Türkiyə konsulluğunda işlədiyini də bilmirdiniz?

Cavab: 1927-ci ildən sonra onunla görüşməmişəm və onun Bakıda Türkiyə konsulluğunda işləməsi haqqında heç nə bilmirəm.

Sual: Siz türklər Cəlal bəy və Sami Kamalla əlaqələrinizi niyə gizlədirsiniz?

Cavab: Cəlal bəyi ümumən tanımıram. *Sami Kamal*'ı isə ruscadan Azərbaycan dilinə dərsliklərin tərcüməçisi kimi tanıyıram. Fəhlə fakültəsində dərs dediyini eşitmişəm, ancaq şəxsən tanışlığım olmayıb... Türk Rəşidzadə Faiqin[5] mənzilinə getməmişəm. Onun *arvadı Xavər* mən olmayanda arvadımın yanına gəlib və onunla dostluq münasibətləri qurmağa çalışıb, ancaq bu, alınmayıb".[6]

Tahirzadə 30 may 1949-cu il dindirməsində Məhəmməd Orxanbəyli, Məhəmmədzəki Dursunzadə, Məhəmməd Xələfov,[7] Əhməd Kərədi Zəkuyev, Əhməd Bayramzadə, Rəcəb Əfəndiyev haqqında dəyərli bilgilər verib.[8]

[1] AR MTN Arxivi, PR-21950, vərəq 28-28a.
[2] Cabbar Əfəndizadə Azərnəşrin 1925-ci ildə buraxdığı "Türkcə sərf-nəhv" dərsliyinin ("Komisyon sərfi"nin) 6 müəllifindən biridir. O, kökcə Qəbələnin Aydınqışlaq kəndindəndir.
[3] Burada haqqında söhbət gedən şəxs Cabbar Əfəndizadədir. O, kökcə Azərbaycanın indiki Qəbələ rayonunun Aydınqışlaq kəndindəndir. Sovet dönəmində Türkiyəyə mühacirət edib.
[4] Azərnəşrin 1925-ci ildə buraxdığı "Türkcə sərf-nəhv" dərsliyinin ("Komisyon sərfi"nin) 6 müəllifindən biri.
[5] A.Tahirzadə F.Rəşidzadə ilə Nərimanov adına texnikumda da birgə işləyib, ancaq onunla birgə işi haqqında 5 iyul 1949-cu il dindirməsində danışıb.
[6] AR MTN Arxivi, PR-21950, vv. 31-32.
[7] Biz soyadları bu sənəddəki kimi veririk.
[8] AR MTN Arxivi, PR-21950, vv. 33-36.



Abdulla Tahirzadə.
3 may 1953-cü il

Onlardan ikisi – M.Dursunzadə və M.Xələfov Türkiyədə oxumuş Cümhuriyyət tələbələri olduğuna görə onlar haqqında sənəddəki bilgini burada qısaltmadan veririk. A.Tahirzadə deyib:

"Dursunzadə Məhəmmədzəki (atasının adını bilmirəm) 55 yaşlı, azərbaycanlı, Gürcüstanın Axaltsix rayonundandır. İxtisasca dil və ədəbiyyat müəllimidir. Türkiyədə, deyəsən, Müsavat hökumətinin vəsaiti ilə xaricdə oxumuş tələbələr sırasında təhsil alıb. Onunla 1924-cü ildə Bakı müəllimlər seminariyasında (darülmüəllimində) birgə işlədiyimiz zaman tanış olmuşam.

Aramızda xidməti münasibət olub, ancaq 1926-27-ci illərdə mən bir neçə dəfə onun evində olmuşam, o da bir neçə dəfə arvadı ilə bizə gəlib. Bu gediş-gəliş Dursunzadənin o vaxt Pedaqoji İnstituta girmiş arvadına riyaziyyatdan bəzi məsləhətlər verməyim xahişinə görə olub.

Onun yoldaşı institutu bitirincə Dursunzadənin sərxoşluğu ilə bağlı ailədə söz-söhbət yarandı. O, məndən xahiş etdi ki, arvadı ilə onu barışdırım, ancaq əlimdən heç nə gəlmədi, çünki qadın barışmaqdan qəti boyun qaçırdı. Təxminən 1928, yaxud 1929-cu ildə Dursunzadə öz bacısı ilə Axaltsixə köçdü və ondan sonra onun haqqında heç nə eşitmədim.

Xələfov Məhəmməd (atasının adını bilmirəm) mənim yaşıdımdır, azərbaycanlıdır, Azərb. SSR Şamaxı rayonunun Basqal kəndindəndir,[1] ixtisasca cərrah-həkimdir. Onunla 1922-ci ildə İstanbul şəhərində yerli kimi tanış olmuşam. O vaxt o, Tibb İnstitutunda oxuyurdu. Türkiyədə yaşadığımız vaxt onunla dost olmuşuq. İstirahət günləri o, mənim evimə gəlib və vaxtı birgə keçirmişik, ancaq mən də ailəmlə onun tələbə mənzilində olmuşam. 1923-cü ildə mən Türkiyədən Bakıya gəldim, ailəmi Xələfovun himayəsinə tapşırdım, o da ailəmə Türkiyədən gəlməyə kömək etdi.

O, Türkiyədən təhsilini bitirəndən sonra 1925, yaxud 1926-cı ildə qayıtdı və Bakıda Semaşko adına xəstəxanada işlədi. Həmin vaxtdan 1933-cü ilədək aramızda dostluq münasibətləri davam elədi. Həm də o vaxt mən də, yoldaşım da xəstələnəndə bizim üçün əlindən gələni etdi. 1933-cü ildə o evləndi və həmin vaxtdan münasibətlərimiz öz-özünə kəsildi. 1936-cı ildə onun dayısı, mənimlə birgə müəllim işləyən Səfərəlibəyov Baba bəy (3-4 il bundan qabaq rəhmətə gedib) mənə bildirdi ki, Xələfov həbs edilib və İstanbulda olduğu zaman müsavatçılarla əlaqə saxladığına görə 5 illiyə azadlıqdan məhrum edilib. Sonra həmin Səfərəlibəyov mənə bildirdi ki, Xələfov cəza müddətini Uzaq Şimalda çəkib və işləmək üçün orada qalıb".[2]


Azərb. SSR DTN istintaq bölümü rəisinin müavini, mayor N.Pivovarov 31 may 1949-cu ildə A.Tahirzadəyə 63-1 maddəsi (casusluq) vermək haqqında qərar çıxarıb.[3]

1 iyun 1949-cu ildə Tahirzadə özünü vətənə xəyanətdə suçlu saymadığını bildirib.[4]

24 iyun 1949-cu ildə müstəntiq, A.Tahirzadənin evindən götürülmüş 10 fotoşəkli ona göstərərək bu fotolardakı adamların kimliyini soruşub, o da geniş izahat verib.[5] Təəssüf ki, bu şəkillər Tahirzadələrin arxivində yoxdur. Çox güman ki, onlar da elə o zaman "istintaq üçün önəmli olmadığına görə" məhv edilib.

11 avqust 1949-cu il dindirməsində o, Türkiyəyə 1919-cu ildə ikinci dəfə getməsindən danışarkən deyib:

[1] Basqal kəndi indi İsmayıllı rayonundadır.
[2] AR MTN Arxivi, PR-21950, vv. 33-34.
[3] Yenə orada, vərəq 36.
[4] Yenə orada, vərəq 37.
[5] Yenə orada, vv. 41-42a.



Abdulla Tahirzadə *(sağdan 1-ci)* Xalq Təsərrüfatı İnstitutunda imtahan zamanı. Təx. 1950-ci illər

"Bu dəfə mən dümtək getdim. Batumadək mənimlə Müsavat hökumətinin ticarət nümayəndələri Qayıbov Cahangir və Vəzirov Yusif getdilər. Onlarla yolda tanış oldum. Batumda onlar ləngidilər, sonra mən onları İstanbulda qarşıladım... İstanbulda mənə bəlli oldu ki, Müsavat hökuməti azərbaycanlıları ali məktəblərdə oxumaq üçün xaricə göndərir. Dəqiq xatırlamıram, hansı yolla – İstanbuldan özüm, yoxsa Ağdaşdan olan yoldaşlarımla Müsavat hökuməti Maarif Nəzarətinə mənə maddi yardım göstərilməsi haqqında ərizə göndərdim. Ərizəmə cavab olaraq siyahıya salındığımı mənə bildirdilər, ancaq yardım göstərilmədi. Mənə rəsmi cavab göndərilməyib, ancaq bunu oxumağa İstanbula gəlmiş, daha doğrusu, Müsavat hökumətinin İstanbula göndərdiyi başqalarından öyrənmişəm. Bu məsələ ilə bağlı o zaman İstanbulda yerləşən Nümayəndəliyə müraciət etdim, oradan da müsbət cavab almadım. Orada mən yuxarıda adı keçən Qayıbov və Vəzirovla ikinci dəfə görüşdüm.

[...] Müsavat hökumətinin hesabına oxuyan tələbələrin sözlərindən mənə bəlli oldu ki, Vəzirov bütün pulları mənimsəyib və Fransada gizlənib. Qayıbov isə Tiflisdə işləyib. Ancaq bunu mənə kimin danışdığını indi xatırlamıram".[1]

Bu dindirməsində A.Tahirzadə "Məhəmməd Xələfov" haqqında əlavə məlumat verib və bildirib ki, onu İstanbuldan tanıyıram. Dayısı Baba bəy Səfərəlibəyovun dediyinə görə, onu sovetləşmədən sonra Azərbaycandan qaçaraq İstanbulda yaşayan müsavatçılarla əlaqəsinə görə tutublar.

"Xələfovun arvadı tezliklə bir çekistə ərə getdi. 1949-cu ildə Xələfov ikinci arvadı ilə Bakı şəhərinə gəldi, sonra o, Kislovodsk kurortuna getməli idi və yenə Sibirə qayıtdı. Orada dustaqlıqdan azad edildikdən sonra işləməkçün qaldı. Bakıya gələrkən mən arvadımla Xələfova baş çəkdim və öz növbəmdə onu da bizə dəvət etdim. O bizə gəldi, ancaq arvadım evdə olmadı. Beləliklə, biz onunla yalnız bir dəfə görüşdük".[2]

[1] AR MTN Arxivi, PR-21950, vərəq 50.
[2] Yenə orada, vərəq 51a.



Abdulla Tahirzadə. 1970



Beatris Tahirzadə. 1948

12 avqust 1949-cu il dindirməsində ondan dustaqlıqdan qayıtmış kimlərlə görüşdüyünü soruşublar. İki nəfərin adını çəkib, onlardan biri mühəndis Fərman Nərimanbəyovdur. Onun haqqında bildirib:

"Təhsilini Fransada alıb, onunla 1928-ci ildə Azərb. SSR Şamaxı rayonunun Çuxuryurd kəndində bağda tanış olmuşam. Tanışlığımızdan bir neçə il sonra o həbs edilib, daha doğrusu, Orta Asiyaya sürgün edilib. O, 5 illiyə sürgün edilmişdi, sonra Bakıya qayıtdı və öz ailəsini götürüb yenə Orta Asiyaya çıxıb getdi. Sürgündən qayıdanda mən onunla görüşdüm, bunu mənə bizim küçədə yaşayan anası demişdi".[1]

Sonrakı bir çox dindirmələrdə müstəntiq onun türkçü, Türkiyəpərəst olduğu sübuta yetirməyə çalışır. 21 sentyabr 1949-cu il tarixli dindirmədə müstəntiq yenə Məhəmməd Xələfov haqqında sual verir. Ümumiyyətlə, bütün dindirmələri boyu eyni suala on dəfələrcə cavab verməyə və eyni şeyi dönə-dönə təkrarlamağa məcbur edilən Tahirzadə bu dəfə də əlavə bilgilər söyləyib: Məhəmməd Xələfovla sonuncu dəfə 1949-cu ilin aprelində, o, sürgündən Bakıya qayıdarkən görüşmüşəm. Onun evinə getmişəm, ona başqaları da baş çəkirdilər. Buna görə də onunla demək olar ki, söhbət edə bilmədim. O, bizə gəlməyə söz verdi və həqiqətən gəldi, ancaq məni evdə tapmayıb.[2]

Xələfov Məhəmməd mənimlə yaxın münasibətdə idi və o, tutulanadək tez-tez birbirimizə gediş-gəlişimiz olurdu, onu mənim qızım Nərmin də tanıyırdı. 1949-cu ilin aprelində sürgündən qayıdanda qızım onunla görüşüb və harada yaşadığını öyrənib, bunu mənə danışıb, bundan sonra arvadımla Xələfovu gedib gördük. Xələfov Türkiyədən 1926-27-ci illərdə gəlib.[3]

27 iyun 1949-cu ildə müstəntiq Pivovarov A.Tahirzadəni "casusluğa cəlb etmiş" türkiyəli Faiq Rəşidzadənin həyat yoldaşı Rəşidzadə Xavər Əli qızını şahid kimi dindirib. F.Rəşidzadə 1877-ci il Ordubad doğumludur, qızı akademik Əliəşrəf Əlizadədə ərdədir.[4]

Abdulla Tahirzadənin istintaqının vaxtı 3 dəfə uzadılıb: 1949-cu ilin 18 avqustadək, 18 sentyabradək, 18 oktyabradək.[5]

10 oktyabr 1949-cu ildə haqqında çıxarılan qərarda qeyd olunub ki, o, özünü suçlu saymayıb.[6]

SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin Özəl Müşavirəsi 31 dekabr 1949-cu ildə Abdulla Mahmud oğlu Tahirzadəni ictimai təhlükəli ünsür kimi müddəti 18 may 1949-cu ildən sayılmaqla 5 illiyə İƏD-nə məhkum edib. 20 yanvar 1950-ci ildə Cezqazqanda DİN-in 4 saylı düşərgəsinə göndərilib.[7]

SSRİ DİN səhra İƏD 20 aprel 1953-cü ildə Tahirzadə Abdulla Mahmud oğluna 0005386 saylı belə bir arayış verib ki, o, 31 dekabr 1949-cu ildə RSFSR (!) CM 7.35 maddəsi ilə 5 illiyə azadlıqdan məhrum edilib. O, 20 aprel 1953-cü ildək həbs yerində cəzasını çəkib, SSRİ Ali Soveti Rəyasət Heyətinin 27 mart 1953-cü il qərarı ilə üzərindən məhkumluğu

[1] AR MTN Arxivi, PR-21950, vərəq 53.
[2] Yenə orada, vərəq 63a.
[3] Yenə orada, vərəq 64.
[4] Yenə orada vərəq 72.
[5] Yenə orada, vv. 75-80.
[6] Yenə orada, vərəq 81.
[7] Yenə orada, vərəq 87.



Beatris və Abdulla Tahirzadələr

götürülüb, 20 aprel 1953-cü ildən azad edilib və seçdiyi yaşayış yeri olan Bakı şəhərinə gedib.

A.Tahirzadə 29 avqust 1953-cü ildə Bakı şəhərində Azərb. SSR Nazirlər Sovetinin sədri Teymur Quluyevə ərizə yazaraq ona öz ixtisası üzrə işləməyə icazə verilməsini xahiş edib. Burada bildirib:

- Mən kasıb valideynlərin oğluyam, oxumağı çox istəsəm də buna imkanım olmayıb. 1913-cü ildə 16 yaşımda doğulub böyüdüyüm Vartaşen[1] *rayonunun Xaçmaz kəndindən Məkkəyə gedən zəvvarlar məni də özləri ilə Türkiyəyə aparıblar, İstanbulda oxumaq üçün məni orada qoyublar. Orada orta və ali təhsil almışam. 1923-cü ildə təhsilimi bitirdikdən sonra sovet hökumətinin vizasını alaraq Bakıya qayıtmışam və 1923-cü ildən 1930-cu ildək orta məktəblərdə (Mərkəzi Pedaqoji Texnikum, Yerquruluşu Texnikumu), 1930-cu ildən 1949-cu ilədək ali məktəblərdə (Azərbaycan Pedaqoji İnstitutu, Azərbaycan Dövlət Universiteti, Azərbaycan Xalq Təsərrüfatı İnstitutu) çalışmışam. 18 may 1949-cu ildə həbs edilmişəm və əmlakım müsadirə olunmadan 5 il azadlıqdan məhrum edilmişəm. SSRİ Ali Soveti Rəyasət Heyətinin 27 mart 1953-cü il tarixli amnistiya haqqında fərmanına əsasən üzərimdən məhkumluq götürülərək azad edilmişəm və Bakıya qayıtmışam. Son vaxtlaradək işlədiyim Xalq Təsərrüfatı İnstitutuna və Bakı Statistika Texnikumuna iş üçün müraciət etmişəm, ancaq onlar boş yer olmadığı üçün xahişimi rədd ediblər.*

Bu ərizədən sonra Tahirzadəyə iş veriblər, ancaq Azərbaycanda deyil, sürgünə göndərildiyi Cambul rayonunda! O, 1953-cü ilin oktyabrından 1955-ci ilin avqustunadək Cambul rayonunda orta məktəbdə riyaziyyat müəllimi işləyib. Azərbaycana 1955-ci ildə dönüb.

Azərb. SSR Ali Məhkəməsinin Məhkəmə Kollegiyası 27 aprel 1956-cı ildə A.Tahirzadəyə bəraət verib.[2]

1955-ci ilin avqustundan, təqaüdə çıxdığı 1967-ciədək Xalq Təsərrüfatı İnstitutunda müxtəlif vəzifələrdə çalışıb. 1967-ci ilin fevralında təqaüdə çıxması ilə əlaqədar işdən azad edilib.

[1] İndiki Oğuz.
[2] AR MTN Arxivi, PR-21950, vv. 113-114.

* * *



Nərmin Tahirzadə. 1973

Abdulla Tahirzadə gözəl müəllim olduğu kimi, həm də xoşbəxt ata idi – onun *Nərmin Tahirzadə* kimi misilsiz qızı vardı!

Nərmin 1921-də İstanbulda doğulub. Atası Abdulla 1923-cü ildə, Beatris xanımla Nərmin 1924-cü ildə Bakıya dönüblər. Valideynləri Azərbaycanın ali və orta məktəblərində dərs deyiblər.

1939-cu ildə orta məktəbi bitirən Nərmin Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə girib və 1944-cü ildə oranı bitirərək aspiranturaya daxil olub. Həmin ildən ADU-nun SSRİ xalqları tarixi kafedrasında assistent və müəllim işləyib. 1949-cu ilin mayında atası Türkiyədə oxumuş keçmiş Cümhuriyyət tələbəsi kimi həbs edilib, iyundasa Nərminlə anasını Sibirə – Tomsk vilayətinə sürgün ediblər. Ata 1953-cü ildə amnistiyaya düşüncə ailəsinə də bir ildən sonra onun yanına – Cambul şəhərinə getməyə icazə verilib. Onlar 1955-1956-cı illərdə bərəət alıblar.

Nərmin 1955-ci ildə Bakıya dönərək EA Azərbaycan Tarixi Muzeyində işə girib və ömrünün sonunadək orada çalışıb. 1956-cı ildə *"XVIII yüzilin sonlarında Rusiyada təhkimli kəndlilər hərəkatının tarixindən"* mövzusunda namizədlik dissertasiyası müdafiə edib, tarix elmləri namizədi olub. 1961-1987-ci illərdə şöbə müdiri işləyərkən Muzeydə XIV-XX yüzillər Azərbaycan tarixi üzrə ekspozisiyalar onun planlarına əsasən qurulub. Muzeydə işləməklə yanaşı, Azərbaycanın təhsil tarixiylə bağlı araşdırmalar aparıb. Ən sanballı elmi nəşrlərdə bu mövzu üzrə 50-dən artıq olduqca dəyərli məqaləsi çıxıb. Həmin yazılarda Azərbaycanın XIX-XX yüzillərdə yaşamış, ancaq adları yaddaşlardan silinmiş onlarca görkəmli mədəniyyət xadimini üzə çıxararaq haqqında ilk dəfə elmi bilgi verib.

Nərmin xanım gəncliyində də, yaşlı çağlarında da çox gözəldi, üzündən nur yağırdı. Ancaq ailə qurmamışdı. Öncə aspiranturanı bitirmək istəmiş, heç kəsi yaxına buraxmamışdı, sonra "xalq düşməni"nin qızı olmuş, heç kəs qorxudan yaxınına gəlməmişdi; daha sonra uzun illər xəstə valideynlərinə baxmışdı.

Respublikada muzey işinin inkişafında xidmətlərinə görə və Azərbaycan SSR EA Azərbaycan Tarixi Muzeyinin təşkil edilməsinin 50 illiyi ilə əlaqədar olaraq Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 6 iyul 1973-cü il tarixli Fərmanı ilə ona "Azərbaycan SSR əməkdar mədəniyyət işçisi" fəxri adı verib.

"Azərbaycanda xalq təhsilinin inkişafı (XIX-XX əsrin əvvəlləri)" adlı doktorluq dissertasiyası hələ 1994-cü ildə müdafiəyə tam hazırdı. Ancaq bu vaxt nə ailə qurmağa, nə də doktor olmağa həvəsi qalmışdı. Onu yalnız bircə şey maraqlandırırdı – iş, iş, iş!..

2009-cu ilin mayından yatağa düşdü və bir daha qalxmadı. Bütün arxivini, irsini bizə bağışladı. Bizsə bu milli sərvəti mənimsəyə bilməzdik – onları Tarix Muzeyinə təhvil verdik. Bundan özü də sonra razı qaldı.

17 yanvar 2012-ci ildə bu fani dünyanı tərk etdi...

...Nərmin xanım anasını çox sevirdi. Vəsiyyət edibmiş ki, məni onunla bir qəbirdə basdırın. Dəfn zamanı təəccüb qaldıq, başdaşının üstündə anasının, onun sinə daşının üstündə isə Nərmin xanımın adı yazılmışdı. Sən demə, özü yazdırıb qoyubmuş... Vəsiyyətinə əməl olundu. Anasına qovuşdu...

Temirxanov Murad bəy Məhəmmədzübeyir bəy oğlu

(03.01.1899, Aşağı Kazanişe k./ Dağıstan – ?)



Murad bəy Temirxanov

Dağıstan nümayəndəsidir. Qumuq Türküdür.

Aşağı Kazanişe qazisi Əbdülkərim Hacı Əbdülhəmid oğlu öz həmkəndlisi Murad bəy Məhəmməd oğlu Temirxanova ərəbcə yazıb verdiyi və 4 iyul 1919-cu ildə Teymurxanşurada ruscaya çevrilərək təsdiqlənən doğum haqqında şəhadətnamədə göstərilir ki, Murad bəy atası Məhəmməd Abdulla oğlu Temirxanovun qanuni arvadı, uzdenlərdən olan Nurcahat Arslanuka qızından 3 yanvar 1899-cu ildə doğulub.[1]

Temirxanov Teymurxanşura real məktəbinə 1 sentyabr 1906-cı ildə girərək 17 mart 1918-ci ilədək oranın tam kursunu bitirib. Yalnız alman dilindən yaxşı qiymət alıb, yerdə qalan 12 fənnin hamısından qiymətləri "3"dür.[2]

Ali məktəbə girmək üçün lazım olan əlavə sinifdə isə Temirxanov həmin məktəbdə 1 sentyabr 1918-ci ildən 12 may 1919-cu ilədək oxuyub və əlavə sinfin tam kursunu bitirərək aşağıdakı qiymətləri alıb:

Şəriət –	yaxşı (4)
Rus dili –	kafi (3)
Alman dili –	kafi (3)
Fransız dili –	kafi (3)
Riyaziyyat, o sıradan:	
Hesab –	yaxşı (4)
Cəbr –	yaxşı (4)
Triqonometriya –	yaxşı (4)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	yaxşı (4)
Tarix –	yaxşı (4)
Təbiiyyatşünaslıq –	yaxşı (4)
Fizika –	əla (5)
Riyazi coğrafiya -	əla (5)
Rəsm –	yaxşı (4)
Qanunşünaslıq –	yaxşı (4).[3]

Maarif naziri Rəşid xan Qaplanovun 28 iyul 1919-cu il tarixli 224 saylı əmri ilə Murad Temirxanov Xalq Maarif Nəzarətinin dəftərxanasında 15 iyul 1919-cu ildən idarə qulluqçusu vəzifəsinə təyin edilib.[4]

Maarif naziri Qaplanovun 7 avqust 1919-cu il tarixli 230 nömrəli əmri ilə Maarif Nəzarəti idarə məmuru Murad Temirxanova həmin avqust ayının 8-dən etibarən 2 həftəlik məzuniyyət verilib.[5]

[1] ARDA, fond 51, siyahı 3, iş 129, vərəq 5.
[2] Yenə orada, vərəq 4.
[3] Yenə orada, vərəq 3.
[4] Yenə orada, iş 8, vərəq 2.
[5] *"Azərbaycan"*, 11.08.1919, № 248, s. 1.



Məhəmmədzübeyir bəy Temirxanov

Real məktəbin 7-ci sinfini bitirmiş Murad Temirxanov 16 avqust 1919-cu ildə Bakı şəhərində AC maarif nazirinə yazdığı ərizədə göstərib ki, mən Dağıstan əyalətinin yetirməsiyəm. Milliyətcə qumuqam, müsəlmanam, cari ildə Temirxan-Şura real məktəbinin tam kursunu bitirmişəm. Təhsilimi davam etdirmək üçün heç bir vəsaitim yoxdur. Məni başqa Azərbaycanlı tələbələrlə birgə Azərbaycan dövlətinin hesabına İsveçrəyə oradakı texniki məktəblərdən birinə qəbul olunmaq üçün göndərəsiniz. Təhsilimi bitirdikdən sonra hökumətin göstərdiyi qədər Azərbaycanda qulluq etməyi öhdəmə götürürəm.[1]

Temirxanov 23 sentyabr 1919-cu ildə Bakı şəhərində Tələbələr Komitəsinin sədrinə ərizə yazaraq İsveçrədə Sürix Politexnik İnstitutunun yol fakültəsinə girmək arzusunda olduğunu bildirib.[2]

Maarif naziri Qaplanovun 17 oktyabr 1919-cu il tarixli 438 saylı əmri ilə idarə qulluqçusu Murad Temirxanov kargüzar köməkçisi vəzifəsinə keçirilib.[3]

Temirxanov 3 noyabr 1919-cu ildə peşə məktəbləri şöbəsinin müdirinə atası, xidməti işlərinə görə ezamiyyətə getmiş mülki mühəndis Z.Temirxanovun xahişi ilə ərizə yazaraq onu Politexnik Məktəbdə xüsusi fənlərdən dərs deməyə buraxmağı xahiş edib.[4]

Temirxanovun sənədləri içərisində onun Azərbaycan təbəəliyini qəbul etməsi haqqında daxiliyyə nazirinin 5 noyabr 1919-cu ildə verdiyi 10863 saylı aşağıdakı vəsiqə də var:

"İşbu vəsiqə Azərbaycan təbəiyyəti haqqında 11 avqust 1919-cu yılında olan qanunun ikinci qismi, 6-cı fəsli mövcibincə Murad Məhəmmədzübeyr oğlu Timurxanovun haman qanunun 2-ci fəsli "Ğ" nöqtəsi mövcibincə Azərbaycan təbəəsi arasına qəbul olunduğu haqqında kəndisinə verilir.

Tamğa parası alınmışdır.

Təvəllüdü: 1899-cu yılda. Milliyyəti: qumuq. Məzhəbi: islam. Ailəcə: subay.

Daxiliyyə naziri naminə general-mayor (Ağabəyovun imzası).

İdarə müdiri əvəzi (Rza Ağasıbəyovun imzası)

Şöbə müdiri (Bəhram Rzabəylinin imzası)".[5]

Qaplanovun 5 noyabr 1919-cu il tarixli 530 saylı əmri ilə mülki mühəndis Z.Temirxanov Bakı Politexnik Məktəbində xüsusi fənlərdən dərs deməyə buraxılıb.[6]

[1] ARDA, fond 51, siyahı 3, iş 129, vərəq 1.
[2] Yenə orada, vərəq 2.
[3] Yenə orada, iş 8, vərəq 214.
[4] Yenə orada, iş 231, vərəq 1.
[5] Yenə orada, iş 129, vərəq 7.
[6] Yenə orada, iş 231, vərəq 3.

Temirxanov 7 noyabr 1919-cu ildə Bakı şəhərində AC maarif nazirinə yazdığı ərizədə onu Almaniyaya – Şarlottenburq şəhərinə Politexnik İnstituta ya yol, ya da dağ-zavod ixtisası üzrə oxumağa göndərməyi xahiş edib.[1]

Hərbiyyə naziri Səməd ağa Mehmandarov nazir Rəşid xan Qaplanova 10 noyabr 1919-cu ildə 5570 saylı belə bir məktub göndərib:

"Çox hörmətli Rəşid xan.

Sərəncamımda mühəndislərin sayı yetərincə olmadığına görə onların işi gərgin və fasiləsiz aparıldığına baxmayaraq mən hər halda Cümhuriyyət üçün texniklər hazırlığını böyük əhəmiyyəti olan iş sayaraq mühəndis Temirxanova tutduğu mühəndis idarəsinin köməkçisi vəzifəsində qalmaqla Bakı Politexnik məktəbində dərs deməyi də üzərinə götürməyə icazə verdim. Sizə səmimi hörmətimi və tam sədaqətimi qəbul edin".[2]

Mühəndis Z.Temirxanov 30 noyabr 1919-cu ildə Bakı Politexnik Məktəbinin direktoruna yazdığı məktubda bildirib ki, Hərbiyyə Nəzarətində birbaşa xidmətimlə bağlı işlərlə həddsiz yükləndiyimə görə həmin işə ziyan vurmadan sizin məktəbdə işləyə, Xalq Maarif Nəzarətinin təklifini qəbul edə bilməyəcəm. Buna görə də Sizə tapşırılmış məktəbdə dərs deməkdən imtina etməyə məcburam.[3]

Qaplanovun 11 dekabr 1919-cu il tarixli 615 saylı əmri ilə Z.Temirxanov 1 dekabrdan Politexnik Məktəbdə dərs deməkdən azad edilib.[4]

31 dekabr 1919-cu ildə Murad Temirxanov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[5] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[6] dilkağızları verib.

Murad bəy Məhəmməd oğlu Temirxanova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 553 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[7]

* * *

Murad bəy Temirxanov Almaniyanın Karlsrue şəhərində Ali Texniki Məktəbdə Lətif Qədimi ilə birgə oxuyub.[8] SSRİ-yə qayıtsa da, sonradan xaricə mühacirət edib.

XDİK zindanında 7 avqust 1940-cı il tarixli istintaqda Lətif Qədimi ilə müstəntiq arasında belə sorğu-sual gedib:

"Sual: Almaniyada Sizin yaxın dostunuz kim olub?

Cavab: Yaxın dostum Temirxanov Murad idi.

Sual: Temirxanov siyasi baxımdan necə adamdı?

Cavab: Mənə elə gəlir ki, Temirxanov Murad siyasi adam deyildi, o, istənilən siyasətə qarşı laqeyd idi.

Sual: Sizin ifadələrinizdən göründüyü kimi, Temirxanov M. xaricə qaçıb.

Cavab: Onu xaricə qaçmağa məcbur edən səbəbləri bilmirəm.

Sual: Siz Temirxanovu siyasətdən uzaq, ümumiyyətlə, siyasətlə maraqlanmayan adam

[1] ARDA, fond 51, siyahı 3, iş 129, vərəq 6.
[2] Yenə orada, iş 231, vərəq 2.
[3] Yenə orada, vərəq 7.
[4] Yenə orada, vərəq 8.
[5] Yenə orada, iş 129, vərəq 8.
[6] Yenə orada, vərəq 9.
[7] Yenə orada, vərəq 10.
[8] AR MTN Arxivi, PR-35911, vərəq 110.



Məhəmmədzübeyir bəy Temirxanov

kimi təqdim edirsiniz. Buna görə aydın olmur ki, siyasətlə əsla maraqlanmayan adam birdən-birə niyə bir dövlətdən başqasına qaçsın. Siz bunu nə ilə izah edirsiniz?

Cavab: 1928-ci ildə onun arvadı Almaniyaya getdi və oradan bir də SSRİ-yə qayıtmadı. Mən belə güman edirəm ki, yəqin arvadı Almaniyaya gedərkən belə şərt qoyub ki, o da oraya gəlsin. Mən onun xaricə qaçmasını bununla izah edirəm".[1]

* * *

İndi də Murad bəyin atası Məhəmmədzübeyir bəy Temirxanov haqqında qısaca arayış verək. O, XX yüzilin başlanğıcında qumuq xalqının texniki ziyalılarının görkəmli nümayəndəsi olub. Dağıstanlı alim M.A.Abdullayev "Dağıstanda XX əsrin başlanğıcında ictimai-siyasi düşüncə" kitabında[2] mühəndis Məhəmmədzübeyir Temirxanovun Dağıstanda və Şimali Qafqazda apardığı ictimai-siyasi fəaliyyətdən söz açıb. Onun əsəri sovet dönəmində kommunist mövqeyindən yazıldığına görə, təbii ki, Temirxanovu ən mürtəce bir şəxs kimi təqdim edib. M.Abdullayevin bu yazısında Temirxanovun həyatından daha çox onun ictimai-siyasi görüşlərinə sırf kommunistcəsinə yanaşmanın şahidi oluruq.

Ancaq başqa qaynaqlardan topladığımız bilgiyə görə, Dağıstanın məşhur mühəndisi, hidravlika üzrə mütəxəssis olan Məhəmmədzübeyir bəy (onun adı bəzi sənədlərdə *Məhəmməd*, bəzi sənədlərdə *Zübeyir/Zübair* kimi verilib) 1918-ci il inqilabınadək Dağıstan əyalətinin idarə edilməsində mühüm vəzifə tutub. O, 1917-ci ilin martından müvəqqəti hökumətin Dağıstandakı hakimiyyət orqanı olan Dağıstan Əyaləti Müvəqqəti İcraiyyə Komitəsinin sədri vəzifəsində çalışıb. Dağıstanda 1917-ci ilin martından 1918-ci ilin aprel-mayınadək mülki hakimiyyəti idarə edib. O, sağ klerikallarla (Qotsalı, Uzun Hacı) və sol sosial radikallarla (Qorxmazov, Dahadayev) arasında orta mövqe tutub. 1917-ci ilin mayından Dağıstanda Dağlılar Birliyi MK-sının üzvü olub. Qafqazın Dağlı xalqlarının I qurultayında (may 1917) torpağın şəriət əsasında zəhmətkeşlərə verilməsi tərəfdarı olub.

1917-ci ilin avqustunda sosialistlərin əyalət qurultayında qələbə çalmasından sonra İcraiyyə Komitəsi sədrliyi vəzifəsindən çıxarılıb, 1917-ci ilin oktyabr, yaxud noyabrında yenidən sədr seçilib. 1918-ci ilin mayından Dağlılar hökumətində nazir vəzifələri tutub.

20 yanvar 1919-cu ildə Birlik Şurasının, Dağlılar Cümhuriyyəti "Birlik Məclisi"nin (parlamentinin) sədri seçilib.

Paris Sülh Nümayəndə Heyətinin tərkibinə daxil edilib. Həmin konfransa oradakı Antanta dövlətlərinə "Şimali Qafqaz və Dağıstanın dağlı xalqlarının memorandumu" təqdim edilib. Həmin sənəddə müstəqil Şimali Qafqaz xalq cümhuriyyətinin ideyaları

[1] AR MTN Arxivi, PR-35911, vərəq 113.

[2] *Абдуллаев М.А.* Общественно-политическая мысль в Дагестане в начале XX в. Москва, 1987, ss. 89-97.

əks olunmuş və onun tanınmasının zəruriliyi əsaslandırılmışdı.

Məhəmmədzübeyir bəy Temirxanov bolşeviklərin qələbəsindən və Dağıstan MSSR-in yaranmasından sonra müxtəlif tikinti obyektlərində, o sıradan "Oktyabr inqilabı" kanalının tikintisində mühəndis vəzifəsində çalışıb.

1917-ci ilə aid "Qafqaz təqvimi"ndə Dağıstan əyalətində vali dəftərxanasının tikinti bölməsində əyalət mühəndisi mülki müşavir *Zübair Ağarəziyeviç Temirxanov* göstərilib.[1] Elə həmin qaynaqda Teymurxanşura şəhər ictimai idarəsində müvəkkillər içində mülki müşavir *Zübeyr Ağarazıyeviç Temirxanov*'un da adı çəkilir.[2]

M.b.Temirxanov 1927-ci ildə həbs edilərək 5 illiyə Sibirə sürgün edilib, oradan xəstə qayıdıb və 1937-ci ilədək yaşamayaraq dünyasını dəyişib.[3]



Murad bəy Temirxanov. Paris

Azərbaycan Parlamanının 4 fevral 1919-cu il tarixli 12-ci sayında Həsən bəy Ağayev bildirib ki, Azərbaycan Məclisi-Məbusanı tərəfindən Dağıstan Parlamentinə göndərmiş olduğunuz teleqrama belə bir cavab teleqramı alınıb:

"Qafqaziya Ciballiyun İttihadı" Cümhuriyyətinin Müttəhid Şurası qardaşımız azərbaycanlılar Parlamentinin təbrikini gurultulu alqışlarla qarşılayaraq, mənə tapşırılmışdır dağıstanlıların tarixi bir günü, yaxın zamanda xülya kimi görülüb də şimdi arzularının həqiqət olaraq meydana gəlməsinə nail olmaqları münasibətilə təbrikinizə qarşı dərin və ən səmimil-qəlbdən təşəkkür edəyim. Dağıstanlılar inanırlar ki, ruh, din, mədəniyyət və tarixi sabiqələri mərbut olan bu millət ən yaxın bir zamanda ən gözəl və xeyirxahanə əsaslar üzərində birləşər və ümumi qüvvə ilə kəndi həyatlarının inqilab fütuhatı olan hürriyyəti-Azərbaycan və Dağıstan cəmiyyəti istiqlallarının möhkəmlənməsi yoluna sövq edərlər. Allah bu işdə kömək eləsin.

Qafqaziya Cibaliyyun İttihadı Şurası sədri Temirxanov".[4]

Yeri gəlmişkən, Azərbaycan tarixçisi, tarix elmləri doktoru Sevinc Əliyevanın *"Azərbaycan və Quzey Qafqaz xalqları (XVIII yüzil – XXI yüzilin başlanğıcı)"* adlı monoqrafiyasında da (Məhəmməd)zübeyir bəy Temirxanovun fəaliyyəti haqqında maraqlı faktlarla tanış oluruq. S.Əliyeva qeyd edir ki, Zaqafqaziya Seyminin liderləri Quzey Qafqazın Zaqafqaziya hökumətinə tabe edilməsinə təkid edərək Qafqaz hökuməti yaratmağı və bütün Qafqazı müstəqil federativ cümhuriyyət elan etməyi təklif edərkən Dağlılar Cümhuriyyətinin Milli Komitəsi bu məsələlərə baxmağa başladı. Danışıqlara içində Zübair Temirxanov da olmaqla Quzey Qafqazdan nümayəndə heyəti göndərildi.

[1] *"Кавказский календарь на 1917 г."*, s.188.

[2] Yenə orada, s. 202.

[3] İnternetdə onun 1937-ci ildə də repressiya olunduğu, sürgündən qayıdaraq 1952-ci ildə öldüyü haqqında da bilgilər var.

[4] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I cild, ss. 211-212.



Murad bəy Temirxanov. Paris

O, bu zaman Quzey Qafqaz və Dağıstanın Birləşmiş Dağlıları Birliyi Mərkəzi Komitəsinin üzvü idi. Bolşeviklər, əsgərlər və daşnaklar tərəfdən dağlılara təhlükə yarandığına görə Dağıstan İcraiyyə Komitəsi rəhbərləri ilə Dağlılar Hökuməti nümayəndələrinin qapalı müşavirəsininin sonucunda "qayda-qanun yaratmağa və islamı xilas etməyə" yardım almaqdan ötrü Osmanlı imperatorluğuna nümayəndə heyəti göndərmək haqqında yekdil qərar qəbul edilmişdi. 1918-ci ilin yazında danışıqlara yollanan səlahiyyətli Dağıstan heyətinin tərkibində Z.Temirxanov da vardı. Batumda 8 iyun 1918-ci ildə Dağlılar Cümhuriyyəti adından Osmanlı dövləti ilə müqavilə imzalayanlardan biri də o idi.

Z.Temirxanov 1919-cu ilin yanvarında Dağlılar Cümhuriyyəti Birlik Şurasının sədri və Dağlılar Cümhuriyyətinin yollar naziri oldu. O, Dağlılar Cümhuriyyəti nümayəndə heyətinin tərkibində tezliklə Paris Sülh Konfransına yollandı. 1919-cu ilin oktyabrında isə Dağıstan Müdafiə Şurasının üzvü idi.[1] S.Əliyevanın fikrincə, Z.Temirxanovun oğlunun Avropaya göndərilməsini Azərbaycan Cümhuriyyəti hökumətinin bu görkəmli siyasi xadimin xidmətlərini yüksək dəyərləndirməsi kimi də anlamaq gərəkdir.

Buraya qədər verdiyimiz qeydlər əslində Murad bəy Temirxanovun da SSRİ-yə gəldikdən sonra yenidən mühacirətə getməsinin səbəbini aydınlaşdırır – belə bir azadlıqsevər atanın oğlu "SSRİ" adlı xalqlar həbsxanasında yaşaya bilməzdi!

[1] *Алиева С.* Азербайджан и народы Северного Кавказа (XVIII – начало XXI вв.). Баку: "Şərq-Qərb", 2010, ss. 311, 330.

Topçubaşov Rəşid bəy Əlimərdan bəy oğlu

(26.10.1901, Tiflis – 17.12.1927, Paris)



Rəşid bəy Topçubaşov

Əlimərdan bəy Topşubaşovun 1893-cü ildə 30 yaşı tamam olub və elə həmin il o, tanınmış Azərbaycan maarifçisi, 1875-ci ildə müsəlman dünyasında "Əkinçi" adlı ilk dünyəvi qəzetin bünövrəsini qoymuş Həsən bəy Zərdabinin Tiflisdə təhsil alan böyük qızı Pəri xanımla ailə qurmağa qərar verib. Bu zaman Pəri xanımın artıq 20 yaşı vardı və o, təhsilini başa vurmaq üzrə idi. Əlimərdan bəylə Pəri xanımın nikah mərasimi 1893-cü ilin dekabr ayının 31-də olub. Tiflis şəhərində keçirilmiş bu mərasimdə Pəri xanımın atası Həsən bəy və Tiflis gimnaziyasında təhsil alan qardaşı Midhət bəy iştirak etmişdilər.[1]

Zaqafqaziya Şiə Ruhani İdarəsindən 7 avqust 1910-cu ildə verilmiş 2746 saylı doğum şəhadətnaməsində oxuyuruq ki, Rəşid bəy Tiflis şəhərinin sakini Əlimərdan bəy Əliəkbər bəy oğlu Topçubaşovun öz qanuni arvadı Pəri Həsən bəy qızından 26 oktyabr 1901-ci ildə doğulub və bunu məscidin ştatlı mollası 20-ci nömrə altında qeydə alıb.[2]


R.b.Topçubaşov Bakı real məktəbində 1910-cu ilin sentyabrından 17 may 1917-ci iləndək oxuyaraq əsas bölümün tam kursunu bitirib.[3]

Məmur oğlu R.b.Topçubaşova 24 aprel 1918-ci ildə Bakı şəhərində verilmiş 528 saylı şəhadətnamədə bildirilir ki, o, Bakı real məktəbinin əlavə – səkkizinci sinfində 1 sentyabr 1917-ci ildən 18 aprel 1918-ci iləndək əla əxlaqla oxuyub, əlavə sinfin tam kursunu bitirib və aşağıdakı uğurları qazanıb:

Şəriət –	əla (5)
Rus dili –	yaxşı (4)
Alman dili –	yaxşı (4)
Fransız dili –	əla (5)
Riyaziyyat, o sıradan:	
Hesab –	kafi (3)
Cəbr –	kafi (3)
Triqonometriya –	kafi (3)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	kafi (3)
Tarix –	əla (5)
Təbiiyyatşünaslıq –	yaxşı (4)
Fizika –	yaxşı (4)
Riyazi coğrafiya –	yaxşı (4)
Rəsm –	yaxşı (4)
Qanunşünaslıq –	yaxşı (4).[4]

1919-cu ildə tələbələr xaricə getmək üçün ərizə verərkən Rəşid bəy artıq atası ilə bərabər Parisə getmişdi və orada Azərbaycan Sülh Heyətinin sədri vəzifəsində çalışan atası

[1] *Həsənli C.* Tarixi şəxsiyyətin tarixi. Əlimərdan bəy Topçubaşov, s. 43.
[2] ARDA, fond 51, siyahı 3, iş 130, vərəq 4.
[3] Yenə orada, vərəq 2.
[4] Yenə orada, vərəq 3.



Azərbaycan Cümhuriyyəti Sülh Heyətinin iqamətgahında Heyət əməkdaşları iş başında *(soldan sağa):* Məhəmməd Məhərrəmov, Rəşid bəy Topçubaşov, Səfvət bəy Məlikov-Zərdabi. Paris

Əlimərdan bəyin şəxsi katibi idi[1]. Onun xaricdə oxumağa göndərilməsi haqqında sənədləri Bakıda anası Pəri xanım hazırlayıb.

Pəri xanım Topçubaşova 1-ci Bakı real məktəbini bitirmiş oğlu Rəşid bəyin əvəzinə maarif nazirinə 1919-cu il avqustun sonunda ərizə yazaraq oğlunun hökumət hesabına xaricə göndərilən tələbələr sırasına götürülməyini xahiş edib və bildirib ki, o, artıq Parisdədir və pansiona daxil olub. Tarix-filologiya, yaxud texniki təhsil almaq istəyir.[2]

Rəşid bəy Əlimərdan bəy oğlu Topçubaşova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[3] Vəsiqə Parisdəki Azərbaycan Sülh Heyətinin sədri adına göndərilib.

Rəşid bəy Paris Siyasi Elmlər Məktəbini bitirib. Bəhram bəy Axundov 2 mart 1922-ci ildəki hesabatında yazır: *"Fransada Azərbaycanın 28 təqaüdçü tələbəsi oxuyurdu. Köhnə [Sülh] Heyətindən üzülüşmə pulu aldıqdan sonra onlardan biri tamam çıxıb gedib. Topçubaşov Rəşid sovet Azərbaycanının təqaüdçüsü olmaqdan imtina edib".*[1] Elə buna görə də onun adına artıq heç bir siyahıda rast gəlmirik.

Rəşid bəy atası Əlimərdan bəyin sədr olduğu Sülh Heyətində işləyirdi. Əlimərdan bəyin arxivində saxlanan bəzi fotolarda Rəşid bəyi Heyətin əməkdaşları ilə birgə çalışan yerdə görürük (1094-cü səhifədəki fotoya baxılsın).



Rəşid bəy Topçubaşov

Azərbaycan mühacirəti tarixinin araşdırıcısı,[2] görkəmli diplomat Ramiz Abutalıbov 24 dekabr 2014-cü ildə "Vestnik Kavkaza" radiosuna müsahibəsində Fransadakı Azərbaycanlılar Cəmiyyəti (FAC) haqqında maraqlı məlumatlar üzə çıxarıb.[3] O, dostu Georgi Mamulianın Paris arxivlərindən tapdığı sənədlərə əsasən bildirib ki, 27 mart 1925-ci ildə Parisdə Montespan küçəsindəki 7-ci evdə qeydiyyata götürülmüş FAC-nin məqsədi 1920-ci ilin aprelində Azərbaycan Cümhuriyyəti yıxıldıqdan sonra Fransaya mühacirət etmiş soydaşlarımızı bu ölkənin cəmiyyətinə qovuşdurmaq və Fransa vətəndaşlarını Azərbaycanın tarix və mədəniyyəti ilə tanış etməkdir. Cəmiyyətin fəxri prezidenti məşhur fransız hindşünas alimi, akademik Emil Senar, prezidenti bakılı vəkil, "Bosfor və Dardanel: hüquqi aspektlər" monoqrafiyasının müəllifi Qasım Qasımzadə, vitse-prezidentləri Azərbaycan Cümhuriyyətinin Gürcüstandakı keçmiş diplomatik nümayəndəsi Faris bəy Vəkilov və fransız şərqşünası və islamşünası Lüsyen Buva seçiliblər. Cəmiyyətin katibi və xəzinədarı isə Paris Siyasi Elmlər Məktəbinin məzunları olan Rəşid bəy Topçubaşov və Abbas bəy Atamalıbəyov təyin ediliblər.

Qeydiyyat günü Cəmiyyətin 71 üzvü olub. Azərbaycanın Parisdəki Sülh Heyətinin başçısı Əlimərdan bəy Topçubaşı öndə olmaqla Heyətin bütün əməkdaşları, Əsədullayev qardaşları, Ümmülbanu (gələcək yazıçı Banin) və Kübra Əsədullayeva bacıları, Zülqədərovlar, Hacınskilər və başqaları bu Cəmiyyətə daxil idilər.

Fransadakı Azərbaycanlılar Cəmiyyətinin gördüyü ilk işlərdən biri 4 iyul 1925-ci ildə Parisdəki "Femina" teatının səhnəsində Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının tamaşasını (bəstəkarın qardaşı Ceyhun bəy Hacıbəylinin tərcüməsində) təşkil etmək olub.[4]

Bu məlumatdan aydın olur ki, Rəşid bəy Azərbaycan mühacirətinin ictimai işlərində fəallıq göstərib.

R.b. Topçubaşov çox gənc yaşında – 1927-ci il dekabrın 17-də dünyasını dəyişib.

---

[1] *Topçubaşov Ə.b.* Paris məktubları, s. 6.
[2] ARDA, fond 51, siyahı 3, iş 130, vərəq 1.
[3] Yenə orada, vərəq 6.

[1] Yenə orada, fond 410, siyahı 1, iş 342, vərəq 3a.
[2] Bu haqda bax: *Малулиа Г., Абуталыбов Р.* Страна огней. В борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции. 1920-1945 гг. Баку: "CBS", 2014.
[3] http://www.vestikavkaza.ru/news/Pervym-domom-azerbaydzhanskoy-diaspory-v-Evrope-okazalsya-Parizh-EKSKLYUZIV.html.
[4] Yenə orada.

Vəkilov Mustafa ağa Məhəmməd ağa oğlu

(12.01.1899, Tiflis – 01.05.1943, Komi MSSR, Ust-Vım r., Voyajel qəs.)



Mustafa ağa Vəkilov

Tiflis Sünni Məscidinin 12 oktyabr 1899-cu ildə verdiyi 2664 saylı doğum şəhadətnaməsinə görə, Mustafa ağa Hərbi-Xalq İdarəsi üzrə Baş Rəislik İdarəsinin tərcüməçisi, titulyar müşavir Məhəmməd ağa Mustafa ağa oğlu Vəkilovun qanuni arvadı Mədinə xanım Əmiraslan ağa qızından 12 yanvar 1899-cu ildə doğulub. Şəhadətnaməyə Zaqafqaziya müftisi Hüseyn əfəndi Qayıbov və başqaları imza edib.[5]

Mustafa ağanın atası Məhəmməd ağa Mustafa ağa oğlu Vəkilov (24.8.1862-1941) Azərbaycanın tanınmış ziyalılarındandı. Qori seminariyasını Firidun bəy Köçərli ilə birgə bitirib. Uzun illər Tiflisdə Canişin İdarəsində çalışıb. Azərbaycan Cümhuriyyəti dönəmində Parlaman İdarəsinin rəisi olub. Sovet dönəmində XMK sistemində işləyib. Araşdırıcı-jurnalist İsmayıl Umudlunun "Vəkiloğulları" kitabında onun haqqında yetərli bilgi verilib.[6]

"Kavkaz" qəzetinin 1905-ci il 202-ci sayından göründüyü kimi, Cəlil Məhəmmədquluzadəyə "Novruz" adlı qəzet çıxarmağa icazə verilib. Bununla bağlı Mirzə Cəlil Qafqaz canişininə yazıb: *"Cənabınızın nəzərinə çatdırıram ki, Tiflisdə "Novruz" adlı qəzet çıxarmaq üçün mənə verilmiş hüquqdan "İqbal" adlı qəzet çıxarmaq məqsədi ilə təşəbbüs göstərən Məhəmməd ağa Mustafa ağa oğlu Vəkilovun xeyrinə imtina edirəm".* Məhəmməd ağa Vəkilov da Mətbuat Komitəsinə yazdığı ərizədə C.Məmmədquluzadəyə qəzet çıxarmağa icazə verildiyini, ancaq onun bundan imtina etdiyini, buna görə də qəzet nəşr etməyə ona icazə verilməsini xahiş edib.[7]

Məhəmməd ağa Vəkilov Tiflis Şərq dilləri üzrə zabit hazırlığı məktəbində türk dilindən dərs deyib. 1914-də həmin məktəbin müəllimi M.D.Qutorla birgə türk dilinin qısa qrammitika kursunu tərtib və nəşr edib.[8]

Tanınmış hüquqşünas Səməd Vəkilovun təşəbbüsü və öncüllüyü ilə Mustafa ağa Vəkilovun anadan olmasının 110 illik yubileyi keçirilib, onun haqqında ayrıca tədqiqat işi aparılaraq gözəl bir kitab da nəşr edilib.[9] E.Məmmədovun həmin kitabında və İ.Umudlunun məqaləsində Mustafa ağanın həyatı yetərincə işıqlandırıldığına görə biz onlardan da yararlanmaqla ilk hüquq professorumuz olan Cümhuriyyət tələbəsi haqqında ümumi təsəvvür yaratmağa çalışacağıq.

* * *

5 may 1917-ci ildə Tiflisdə verilmiş kamal attestatında yazılıb ki, bu attestat müsəlman, məmur oğlu, Tiflis şəhərində 12 yanvar 1899-cu ildə doğulmuş Mustafa ağa Məhəmməd ağa Vəkilova ona görə verilib ki, o, 1 sentyabr 1907-ci ildə Tiflis 1-ci kişi gimnaziyasına girərək orada 1 may 1917-ci ildək əla əxlaqla oxuyub və səkkizsiniflik tam kursu bitirib, bu zaman aşağıdakı bilikləri qazanıb:

Şəriət –	5 (beş)
Kilsə-slavyan dili ilə rus dili və ədəbiyyatı –	4 (dörd)
Fəlsəfi propedevtika –	4 (dörd)
Qanunşünaslıq –	5 (beş)
Latın dili –	5 (beş)
Riyaziyyat –	5 (beş)
Riyazi coğrafiya –	5 (beş)
Fizika –	5 (beş)
Tarix –	5 (beş)
Coğrafiya –	5 (beş)
Alman dili –	5 (beş)
Fransız dili –	5 (beş)
Ana dili –	5 (beş).[1]

1917-ci ildə Bakı şəhərində Qafqaz müsəlman şagirdlərinin I qurultayı keçirilərkən 10 may 1917-ci ildə çəkilmiş xatirə fotolarında qurultay iştirakçıları arasında Mustafa ağa Vəkilovu da görürük. Deməli, o, məktəbin fəal şagirdlərindən olub.

Ümuri-xeyriyyə naziri 3 avqust 1919-cu ildə Mustafa ağa Vəkilova onun xahişi ilə Xalq Maarif Nəzarətinə təqdim etmək üçün 4263 saylı belə bir vəsiqə verib ki, katibim Mustafa ağa Vəkilovun ailə və əmlak durumu ilə şəxsi tanışlığım əsasında mən, aşağıda imza edən ümuri-xeyriyyə naziri V.V.Klenevski bununla təsdiqləyirəm ki, Mustafa ağa Vəkilovun atası Məhəmməd ağa Vəkilov keçmiş Qafqaz sərdarının (canişininin) dəftərxanasında qulluq edib və qulluqdan başqa heç bir gəlir mənbəyi olmayıb. İnqilabdan sonra o, ona düşən təqaüddən yararlanmaq imkanından məhrum olub və indi ahıl vaxtında (60 yaşa yaxın) şəxsi əməyi ilə yaşayışını təmin etməyə məcburdur (Parlaman İdarəsinin rəisidir). Aldığı aylıq maaş yalnız ailəsini saxlamağa yetir. Buna görə də o, haradasa ali məktəbdə oğlunu oxutmaq gücündə deyil. Dediyimin doğruluğunun təsdiqi üçün imza edirəm.[2]

Ümuri-xeyriyyə nazirinin katibi Mustafa ağa Vəkilov 5 avqust 1919-cu ildə maarif nazirinə yazdığı ərizədə bildirib ki, 1917-ci ildə Tiflis I kişi gimnaziyasını bitirsəm də Rusiyada inqilabdan sonra yaranmış hərc-mərcliyə görə oradakı universitetlərdən birində oxumağa gedə bilməmişəm və son iki ildə müsəlman ictimai müəssisələrində və sonra müstəqil Azərbaycanın dövlət müəssisələrində işləmişəm. Ya İsveçrədə – Sürixdə Politexnikumun hüquq-iqtisad fakültəsində, ya da Lozanna Universitetinin təbiiyyat fakültəsinin texnika bölməsində oxumaq istəyirəm.[3] Sənədin üstündə 99 saylı xarici pasportun ona 11 dekabr 1919-cu ildə verilməsi qeyd olunub.

Mustafa ağa Parlaman İdarəsinin rəisinin oğlu olduğuna görə, təbii ki, tələbələrin göndərilməsindən həmidan öncə xəbər tutub və elə ilk ərizələrdən birini də 5 avqustda o yazıb.

Vəkilov maarif nazirinə 6 noyabr 1919-cu il tarixli ərizəsində Parisdə ali hüquq məktəbinə girmək istədiyinə görə Fransaya göndərilməsini,[4] 14 noyabrdakı başqa ərizəsində yenə Fransaya, ancaq mümkün olsa iqtisadiyyat üzrə oxumağa getmək istədiyini dilə gətirib.[5]

[5] ARDA, fond 51, siyahı 3, iş 62, vərəq 3.

[6] *Umudlu İ.* Vəkiloğulları. Tarixi-bioqrafik araşdırma, ss. 288-291.

[7] *Məmmədli Q.* Molla Nəsrəddin. Bakı, 1966, s. 54.

[8] Краткая турецкая грамматика. Составил ген.-майор *Гутор* при участии преподавателя турецкого языка в Тифлисской офицерской школе восточных языков надворного советника *Мамед Ага Векилова*. Тифлис, 1914 [bax: *Кононов А.Н.* Биобиблиографический словарь отечественных тюркологов. (дооктябрьский период). М.: "Наука", 1989, ss. 59-60].

[9] *Məmmədov E.* Azərbaycanın ilk hüquq professoru Mustafa ağa Vəkilov – 110. Bakı, 2012.

[1] ARDA, fond 51, siyahı 3, iş 62, vərəq 2.

[2] Yenə orada, vərəq 4.


[3] Yenə orada, vərəq 1.

[4] Yenə orada, vərəq 5.

[5] Yenə orada, vərəq 6.



Azərbaycan Cümhuriyyəti məclisi-məbusanı (parlamenti) idarəsinin işçiləri. Bakı, 27 may 1919-cu il



1. Zeynalabdin Gözəlzadə – kargüzar
2. Həbib Babazadə – kargüzar
3. Mirəsədullah Seyidməhəmmədzadə – mühasib
4. Əliəkbər Quluzadə – kvestor yardımçısı
5. Yusif bəy Ağabəyov– kvestor
6. Mirzəhüseyn Quluyev – kvestor yardımçısı
7. Hacıağa Nuruzadə – kvestor yardımçısı
8. Əli Şeyxzamanov (Əli Şövqi) – dəftərxana işçisi
9. Abbasəli Əsgərzadə – mühasib yardımçısı
10. Əliyar bəy Haşımbəyov– mühafizə rəisinin müavini
11. Nağı bəy Əliyev– Parlamanın mühafizə polisinin rəisi
12. Şəfiqə xanım Əfəndizadə – dəftərxana rəisinin müavini
13. Mehdi bəy Hacıbababəyov– Parlamanın üzvü, komissiya sədri
14. Mehdi bəy Hacınski– Parlamanın üzvü, katibin köməkçisi
15. Həsən bəy Ağayev– Parlaman sədrinin birinci müavini (gerçək sədri)
16. Əhmədcövdət bəy Pepinov – Parlaman üzvü, Rəyasət Heyətinin baş katibi
17. Məhəmməd ağa Vəkilov– dəftərxananın rəisi
18. Abbasəli bəy Hacırzazadə– inzibati şöbənin rəisi
19. Hüseyn bəy Mirzəcamalov– qanunvericilik şöbəsinin rəisi
20. Məhəmmədsəid Axundzadə – Parlaman sədrinin (H.b.Ağayevin) şəxsi katibi
21. Xəlil İbrahim(zadə) – türkcə stenoqraf
22. Hüseyn Qasımov – adyutant
23. Mirəbdüssəməd Babazadə
24. Şahin Mirsiyabzadə
25. Kuryer (adı bilinmir)
26. Ağaverdi Qasımzadə – Parlaman binasının baxıcısı
27. Hacıbaba – kuryer
28. Mirzəbala Məhəmmədzadə – türkcə stenoqraf
29. Daşdəmir Əlizadə – ekzekutor (təsərrüfat işçisi)
30. Cəfər Cabbarzadə (Cabbarlı) – türkcə stenoqraf
31. Hacıibrahim Qasımov – türkcə stenoqraf
32. Seyid Hüseyn Sadıqzadə– türkcə redaktoru
33. Mirbədrəddin Seyidzadə – qeydiyyatçı
34. Həcər xanım Zeynalzadə – dəftərxana işçisi
35. Rübabə xanım Tağızadə – dəftərxana işçisi
36. Fatma xanım Mustafazadə – dəftərxana işçisi
37. Seyra xanım Paşazadə– dəftərxana işçisi
38. Cəmaləddin Məhəmmədzadə – kargüzar
39. Məhəmmədəli Səfərov (Sidqi) – türkcə stenoqraf
40. Ağalar İsgəndərli – tərcüməçi
41. Qəzənfər Sultanov – kargüzar
42. Əliəsgər – kuryer
43. Hüseynqulu Yaqubzadə – bina baxıcisinin yardımçısı
44. İsrafil – kuryer

29 dekabr 1919-cu ildə Vəkilov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[1] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[2] dilkağızları verib.

Mustafa ağa Məhəmməd ağa oğlu Vəkilova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 506 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[3]

* * *



Məhəmməd ağa Mustafa ağa oğlu Vəkilov. 1919

Mustafa ağa Vəkilov 1920-1924-cü illərdə Paris (Sorbon) Universitetinin hüquq fakültəsini magistr dərəcəsində bitirib. Azərbaycana 1924-cü ildə dönüb.

Azərbaycana qayıtdıqdan sonra Xalq Təsərrüfatı İnstitutunun (XTİ) hüquq fakültəsinin dekanı işləyib.

O, SSRİ prokuroru olmuş Vışinskinin təklifiylə hüquqşünaslığa aid dərsliklərin yaradılmasında iştirak edib. Bir sıra dərslikləri özü tərcümə edib.

1937-ci ildə Mustafa ağa Vəkilov XTİ-da bir yerdə işlədiyi Məcid Quluyev, Rəhimli Yusif və b. ilə birlikdə həbs olunub. AR MTN Arxivində onların ittihamı üzrə 12493 saylı (indi PR-18730) ortaq istintaq işi saxlanılır.

Vəkilovun həbs edilməsi üçün 1937-ci ilin noyabrında qərar çıxarılıb[4] və 10 noyabrda həbsi üçün 2500 saylı order imzalanıb.[5] Həmin gün əməliyyat müvəkkili Xaldıbanov onun A.Amiryan küçəsindəki[6] 49-cu evin 9-cu mənzilində axtarış aparıb və pasportunu, həmkarlar biletini, hərbi biletini, musiqi vallarını, hüquq bakalavrı və hüquq magistri diplomlarını, kamal attestatını götürüb.[7]

Məhbusun 11 noyabr 1937-ci il tarixli anketindəki qeydlərdən: Vəkilov Mustafa Məhəmməd oğlu – 1899-cu il Tiflis doğumlu; Bakı, A.Amiryan 49-da yaşayır; hüquqşünasdır; Xalq Təsərrüfatı İnstitutunda hüquq fakültəsinin dekanı və mülki hüquq kafedrasının müdiridir; ali təhsillidir, partiyasızdır.[8]

Məhbus yoldaşları Quluyev Məcidyusif oğlu 1905-ci ildə Bakıda doğulub. Xalq Təsərrüfatı İnstitutunun direktoru və hüquq fakültəsinin dekanıdır.[9] 1-ci Moskva Universitetini bitirib.[10]

Rəhimli Yusif Şirin oğlu 1909-cu il doğumludur, İsmayıllı rayonunun Lahıc kəndindəndir.[11] Bakıda Tolstoy küçəsi 86-da yaşayır, Azərb. SSR Xalq Ədliyyə Komissarlığı hüquq məktəbinin direktorudur (bu vəzifədən 17 iyun 1937-ci ildə götürülüb).[12]

20 noyabr 1937-ci ildəki ilk dindirməsində göstərilib ki, Vəkilov 1919-cu ilin sonundan 1924-cü ilin yazınadək Paris Universitetinin hüquq fakültəsində oxuyub; arvadı Müqəddəni-sa Məhəmmədrza qızı, 28 yaş; oğlu Çingiz, 9 yaş; qızı Nigar, 5 yaş, atası Məhəmməd Mustafa oğlu, 78 yaş; anası Mədinə Əmiraslan qızı, 58 yaş.[13] Ali hüquq təhsili alıb və Az.DETİ-nin aspiranturasını bitirib.[14]

[1] ARDA, fond 51, siyahı 3, iş 62, vərəq 7.
[2] Yenə orada, vərəq 8.
[3] Yenə orada, vərəq 9.
[4] AR MTN arxivi, PR-18730, vərəq 11.
[5] Yenə orada, vərəq 12.
[6] İndiki Mehdi Hüseyn küçəsi.
[7] AR MTN arxivi, PR-18730, vərəq 13.
[8] Yenə orada, vv. 15-15a.
[9] Yenə orada, vərəq 1.
[10] Yenə orada, vərəq 8.
[11] Yenə orada, vərəq 21.
[12] Yenə orada, vərəq 22.
[13] Yenə orada, vərəq 107.
[14] Yenə orada, vv. 107-107a.

Mustafa ağanı əməliyyat müvəkkili, DT kiçik leytenantı Yermakov dindirib:

"*Sual:* Qohumlarınızdan xaricdə kim yaşayır?

Cavab: Xaricdə Tehranda (İran) anamın qardaşı yaşayır.

Sual: Siz onunla necə əlaqə saxlayırsınız?

Cavab: Şəxsən mənim onunla heç bir əlaqəm yoxdur. Anam yazışır.

Sual: Siz şəxsən xaricdə nə qədər qalmısınız?

Cavab: Parisdə 4 il yarım.

Sual: Siz xaricə necə düşmüsünüz?

Cavab: 1919-cu ilin sonunda[1] məni 76 tələbə ilə birlikdə Müsavat hökuməti ali təhsil almaq üçün xaricə göndərib. Azərbaycan sovetləşəndən sonra Azərbaycan SSR Xalq Maarif Komissarlığının təqaüdçüləri sırasında olmuşam. SSRİ-yə institutu qurtardıqdan sonra – 1924-cü ildə qayıtmışam".[2]

"Sual: Kimlərlə məişət əlaqəsi saxlayırsınız?

Cavab: Qohumlarımdan başqa aşağıdakı adamlarla yoldaşlıq-məişət əlaqəsi saxlayıram:

1) Rəhimli Məhəmməd – xaricdə birgə oxumuşuq. İndi Dəzgahqayırmada baş mühəndis işləyir.

2) Mustafayev Mustafa – xaricdə birgə oxumuşuq; Xalq Yerli Sənaye Komissarlığında işləyir.

3) Nəbiyev Mahmud – mühəndis müəllimdir".[3]

Bu dindirmədə Mustafa ağa özünü suçlu saymayıb.

15-20 avqust 1938-ci ildə o, Azərb. XDİK DTİ 4-cü bölümünün 6-cı bölməsinin əməliyyat müvəkkili, erməni F.D.Axverdiyevin 6 gün sürən "xüsusi üsullarla" apardığı dindirmədə istintaqa əks-inqilabi müqavimət göstərməyəcəyini və əks-inqilabi-milliyyətçi təşkilata 1934-cü ilin sonunda cəlb edildiyini bildirib.[4]

Buradan aydınlaşır ki, müstəntiqlər onunla 9 ay mübarizə aparsalar da əks-inqilabi təşkilatda olduğunu və sovet hakimiyyətinə qarşı mübarizə apardığını onun boynuna qoya bilməyiblər, yalnız bu 6 günlük dəhşətli və ağlasığmaz işgəncələrin tətbiq olunduğu şübhə doğurmayan dindirmədən sonra onu "yola gətirə" biliblər.

Mustafa ağa Məcid Quluyevlə bağlı bildirib ki, onunla 1933-cü ildən yaxın münasibətdə olmuşam. Həmin vaxt o, sonralar Xalq Təsərrüfatı İnstitutuna çevrilmiş Sosial-İqtisad İnsitutunun hüquq fakültəsinin dekanı təyin edilmişdi. O deyirdi ki, Azərbaycanın yalnız azərbaycanlılar içindən çıxmış öz elmi işçiləri olmalıdır.[5]

23 noyabr 1937-ci ildə Mustafa ağa V.N.Belyayevlə üzləşdirilib. Belyayev onun gizli əks-inqilabi milliyyətçi təşkilatda olduğunu deyərək üzünə durub, Vəkilov isə onun dediklərini inkar edib.[6]

Mustafa ağa bildirib ki, Yusif Rəhimlini milliyyətçi təşkilata mən cəlb etmişəm.[7] 27 dekabr 1938-ci il tarixli dindirmədə o, Yusif Rəhimlini milliyyətçi təşkilata cəlb etdiyini qətiyyətlə inkar edib və onun hansısa belə bir təşkilata məxsus olması haqqında bilgisinin yoxluğunu bildirib.[8] Bu fakt göstərir ki, 6 günlük dindirmədə onun verdiyi bütün ifadələr müstəntiqin uydurması imiş və huşu özündə olmayan zaman ona protokola qol çəkdirilib.

[1] 1920-ci ilin yanvarında.
[2] AR MTN arxivi, PR-18730, vərəq 108.
[3] Yenə orada, vərəq 108a.
[4] Yenə orada, vərəq 109.
[5] Yenə orada, vərəq 110.
[6] Yenə orada, vərəq 142.
[7] Yenə orada, vərəq 113.
[8] Yenə orada, vərəq 141.



Mustafa ağa Vəkilov. 1923

27 dekabr 1938-ci ildə Axverdiyev istintaqın bitdiyini elan edib.[1]

27-28 mart 1939-cu ildə tərtib edilmiş aktda göstərilib ki, Mustafa Vəkilov 1933-cü ildən həbs edildiyi günədək Xalq Təsərrüfatı İnstitutunda mülki hüquq (əvvəllər təsərrüfat hüququ) kafedrasının müəllimi və rəhbəri, 5 sentyabr 1937-ci ildən həbs edildiyi günədək hüquq fakültəsinin dekanı işləyib.[2]

M.Vəkilov 14 noyabr 1937-ci il tarixli 232 saylı əmrlə Xalq Təsərrüfatı İnstitutu hüquq fakültəsinin dekanı və mülki hüquq müəllimliyindən çıxarılıb.[3]

27 mart 1939-cu ildə Axverdiyev və başqalarının tərtib etdiyi, 1939-cu ilin aprelində Markaryanın təsdiqlədiyi ittihamnamə ilə tanışlıqdan qəti əminlik yaranır ki, bu 3 hüquqşünasın həbs edilməsi o dönəmdə Azərbaycan hüquq sistemində mühüm rol oynamış Qəmbər Sadıqovu "ilişdirmək" üçün lazım imiş.[5]

27 aprel 1939-cu ildə keçirilən hərbi tribunalın məhkəmə iclasında bu hüquqşünaslardan Quluyev güllələnməyə, Vəkilov və Rəhimli isə 15 il həbs cəzasına və sonra 5 il siyasi hüquqlardan məhrum edilməyə məhkum olunublar.[6]

11 dekabr 1939-cu ildə bu hüquqşünasların işi yenidən istintaqa qaytarılıb və Qəmbər Sadıqovun ifadələri də buraya artırılıb.[7]

29 may 1940-cı ildə DT leytenantı Zelenski qərara alıb ki, Bakıda yalnız M.Vəkilov və Y.Rəhimli qalıb. 7 noyabr 1939-cu ildə onlar XDİK Vyatsk həbs düşərgəsinə göndəriliblər. Buna görə də onların işlərini və özlərini Azərb. SSR XDİK daxili həbsxanasına gətirmək lazımdır.[8]

25 yanvar 1941-ci ildə SSRİ XDİK Özəl Müşavirəsinin 25 yanvar 1941-ci il tarixli qərarı ilə Məcid Quluyev müddəti 11 noyabr 1937-ci ildən sayılmaqla 5 il[9], Mustafa Vəkilov müddəti 11 noyabr 1937-ci ildən sayılmaqla 5 il[10] həbs cəzasına məhkum olunub, Rəhimli Yusif Şirin oğlu isə həbsdən azad edilib.[11] Vəkilova cəza müddəti bitəndə (1942) vətənə qayıtmağa icazə verilməyib.

XDİK Ustvım islah-əmək düşərgəsindən 9 avqust 1950-ci ildə verilmiş arayışa görə, Mustafa Vəkilov həmin düşərgədə 1 may 1943-cü ildə dünyasını dəyişib.[12]

SSRİ Ali Soveti Hərbi Kollegiyasının 24 dekabr 1955-ci il tarixli iclasında yuxarıda adı çəkilən hüquqşünaslara bəraət verilib.[13]

[1] AR MTN arxivi, PR-18730, vərəq 143.
[2] Yenə orada, vərəq 271.
[3] Yenə orada, vərəq 284.
[4] Onun haqqında geniş bilgi almaq üçün bax: *Tahirzadə Ə.* Qəmbər Nəzir oğlu Sadıqov.
[5] AR MTN arxivi, PR-18730, vv. 324-333.
[6] Yenə orada, vərəq 368a.
[7] Yenə orada, vərəq 398.
[8] Yenə orada, vv. 400-400a.
[9] Yenə orada, vərəq 452.
[10] Yenə orada, vərəq 451.
[11] Yenə orada, vərəq 449.
[12] Yenə orada, vərəq 474.
[13] Yenə orada, vərəq 502.

* * *

Tanınmış jurnalist-araşdırıcı İsmayıl Umudlunun "Vəkiloğulları" kitabında Mustafa ağa Vəkilov haqqında verdiyi "Sorbonna Universiteti məzunu" adlı məqalədə[1] Vəkilovun yazdığı çox maraqlı məktublar var. Onları bu yazımıza artırmağın oxucuların xeyrinə olacağını düşündük. Bu zaman İsmayıl bəyin yazısını, ixtisarları çıxmaqla, olduğu kimi, redaktəsiz veririk.

İ.Umudlu yazır ki, Mustafanın məktublarını mənə qızı Nigar xanım vermişdi. Rus dilində yazılmış bu məktubları diqqətlə oxudum və anladım ki, bu məktublar əslində bir ömrün povestidir. Mustafa bu kədərli ömür povestini özü də istəmədən-bilmədən, bəlkə də fərqinə varmadan illərcə, həm də zülm altında olarkən yazıb.



Mustafa ağa həyat yoldaşı Müqəddənisa ilə

"Əzizim Müqəddənisa! Mən Bayıl etap həbsxanasındayam. Yola salınmazdan əvvəl görüşməyi yamanca istəyirəm. Ola bilsin ki, bizi tezliklə göndərsinlər. Əgər sənin vaxtın yoxsa, qoy evdən kimsə görüşə gəlsin ki, uşaqlarımın və mənim üçün doğma və unudulmaz adamların taleləri barədə xəbər tuta bilim. Əgər qalıbsa, alt paltarlarımdan əlinizə keçəndən mənə göndərin. Əllərindən, gözlərindən öpürəm, mənim yazıq, yeganə sevdiyim, bəxtsiz rəfiqəm. Nə qədər ki damarlarından qanı axır, sənin olan Mustafa Vəkilov. 15.05.1939-cu il".

Ay yarımdan sonra ikinci məktub gəldi – bu dəfə Bakının 1 saylı Keşlə həbsxanasından.

"Əziz anam! Mənə görə narahat olmayın. Mən sağ-salamatam. Hansı birinizsə görüşə gəlin. Alça lavaşı və sarımsaq, eləcə də Bayılda verdiyiniz kostyumun jiletini göndərin. Çox rica edirəm, şokolad plitkası kimi şeyləri bir də heç vaxt göndərməyin, bütün doğmalarımı öpürəm. Fikrim həmişə sizlərin yanındadır. Çalışın uşaqlar məni az xatırlasınlar və kürlük etməsinlər. Hamınızı bərk-bərk qucaqlayır və ayrıca olaraq – bəxtsiz və əziz rəfiqəmin əllərindən öpürəm. Sizin hamınıza borclu qalan Mustafa. 27 iyun 1939-cu il".

Aradan təqribən bir ay keçmiş Keşlə həbsxanasından üçüncü məktub gəldi. Mustafa yazırdı:

"Əziz anam!

Ayda bir açıqca yazmaq hüququmdan istifadə edirəm. Sağ-salamatam. Mən sarıdan nigaran qalmayın. Uşaqları yamanca görmək istəyirəm. Lakin qorxuram, birincisi, onların bu istidə buraya gəlmələri çətin olsun, sonrası da, bilmirəm onların məni burada görmələri necə olar? Bu məsələni obyektivcəsinə həll edə bilmirəm. Qoy Müqəddənisa özü yalnız uşaqların ruhi vəziyyəti üçün bunun nə dərəcədə məqsədyönlü olması baxımından həll etsin. 150 manatı aldım. Sağ olun. Həbsxanaya yemək gətirərkən yalnız zəruri şeylərlə: sarımsaq, soğan, alça lavaşı, kolbasa (ucuzundan), suxarı və s. ilə kifayətlənin. Bahalı şeylər və naharlar göndərməyin. Səni, atamı, Müqəddənisanı və uşaqları bərk-bərk öpürəm. Yaxşı oxuduğuna görə Çingizi bir daha öpürəm. Ümidvaram ki, balaca bacısını incitmir. Mustafa. 23.07.1939-cu il".

[1] *Umudlu İ.* Vəkiloğulları. Tarixi-bioqrafik araşdırma, ss. 305-319.

Nəhayət, ailə ilə görüş baş tutdu. Etapla şimala yola salınmazdan əvvəl doğmaları ilə görüşə icazə verdilər. Anası – Mədinə xanım, arvadı Müqəddənisa xanım, oğlu – Çingiz, qızı – Nigar gəlmişdilər. Görüş otağının ortasında qoyulmuş stolun arxasında gələnlərin oturması üçün yer göstərdilər, kətildə arıq, üzünü-gözünü tük basmış bir kişi oturmuşdu. "Hanı atam, hanı atam?" – deyə Nigar həmin "əmi"yə fikir verməd ən gözləri ilə öz atasını axtarırdı. Kişinin saqqal uzunu göz yaşları axırdı.

"Qızım məni tanımadı, gör nə qədər dəyişmişəm...". Onları bir-birlərinə yaxınlaşmağa qoymadılar...

* * *

...1924-cü ilin yazında Mustafa Bakıya qayıdır. Burada çox şey dəyişilib, sovetləşmədən sonra atası – müəllimliyə qayıdıb, Darülmüəllimatda türk dilindən dərs deyir. O, dərs deməklə bərabər öz sevimli məşğələsini də unutmur, on ildən bəri çalışdığı irihəcmli rusca-türkcə lüğətin üzərində işini davam etdirir.

Mustafa Konyuktur Bürosunda əvvəlcə statbüronun katibi işinə düzəlir, iki aydan sonra isə onun müdiri olur. 1925-ci ilin mayında onu hakim qismində Ədliyyə Komissarlığına işə keçirirlər. Daha iki il keçəndən sonra – 1927-ci ilin sonlarında Xalq Ədliyyə Komissarlığında müfəttiş-təlimatçı və eyni zamanda xüsusilə mühüm işlər üzrə xalq məhkəməsi hakimi təyin edirlər. Bakı və onun rayonlarında mühüm mülki işlərə rəhbərlik ona həvalə olunur.

Karyera pillələri ilə sürətlə qalxmasına baxmayaraq, bu işlər cavan oğlanın ürəyincə deyil. 1928-ci ilin martında o, öz xahişi ilə Ədliyyə Komissarlığından işdən azad olunur. Artıq 1927-ci ilin payızından ADU hüquq fakültəsinin türk qruplarında dərs deməyə başlamışdı və elmi işlər onu bərk özünə çəkirdi. AzDETİ təşkil olunduqda ali məktəbdə öz müəllimlik işinə fasilə verməd ən buranın sovet quruculuğu və hüquq şöbəsinin aspiranturasına girdi.

1930-31-ci tədris ilinin sonlarında aspiranturanı bitirib (AzDETİ aspiranturasının ilk buraxılışı) dosent oldu. Ardınca iki elmi əsər yazır: "İnqilabdan əvvəlki Azərbaycanda nikah münasibətləri", "Hüquq və əxlaq". Nəşriyyat üçün A.Bermanın "Leninin "Dövlət və İnqilab" əsərinin XV illiyinə" əsərini (türk dilinə tərcümə) və Kaqanoviçin "Sovet quruculuğunun 12 ili" əsərinin türk dilinə tərcüməsini redaktə edir. 1935-ci ildə isə gənc alim ASSR Konstitusiyası türk mətninin redaktoru olur.



Mustafa ağa oğlu Çingizlə. 1929

1935-ci ildə ona dövlət və hüquq elmləri namizədi alimlik dərəcəsi verilir, o, təsərrüfat-hüquq kafedrasının professoru olur. Musafa Vəkilov Azərbaycanın ilk hüquqşünas professorlarından biri idi.

Musafa yaxşı pul qazanır, atası pensiya alır, ailəlikcə Parkovaya küçəsindəki ikimərtəbəli evin ikinci qatında yaşayırlar (indiki həmin bina sökülüb).

Qonşular da öz qohumlarıdır. Əri Firidun bəy Köçərli Gəncədə 1920-ci ilin may hadisələri zamanı faciəli surətdə həlak olduqdan sonra dul qalmış bibisi Badisəba xanım qəzalarda müəllimə işləsə də arabir onlara gəlib-gedir.

Bibisi birinci olaraq duymuşdu ki, Mustafa Müqəddənisaya – öz bibisi qızına biganə deyildir. Valideynlər bu işə öz xeyir-dualarını verdilər – gənclər bir-birilərini dəlicəsinə sevirdilər. Nəhayət, onlar evləndilər – 30 aprel 1927-ci il...

İlk övladları – *Çingiz* dünyaya gəldi, iki ildən sonra bir qızları da oldu. Nənəsinin təkidi ilə qıza onun əmisi oğlu, şöhrətli general Əli ağa Şixlinskinin arvadı Nigar xanımın şərəfinə *Nigar* adını qoydular. Qocaman general bu niyyətə sevindi, o da öz razılığını verdi. Hər il Nigarın ad günündə "Alı ağa bava" da hədiyyələrlə – "öz" Nigarını təbrik etməyə gələrdi. Gənclər bir teatr tamaşasını, bir konserti buraxmırdılar. Tezliklə Müqəddənisa Tibb İnstitutunu bitirdi. Hər ikisi hədsiz dərəcədə bəxtəvər idi.

* * *

...İndi Mustafanın məktubları uzaq Şimaldan gəlirdi. Lakin təslim olmurdu. Özü düşərgədən, arvadı Müqəddənisa Bakıdan müxtəlif instansiyalara şikayət ərizələri yazaraq onun heç bir təqsiri olmadığını sübut edir, işə təkrarən ədalətlə baxılmasını istəyirdilər.

"Əziz anam!

Mən artıq sənə yazmışam ki, 1939-cu il dekabrın əvvəlində Bakıdan yola salınmış bir məktub və bir poçt bağlaması almışam. Bundan sonra sizdən heç bir xəbər gəlmədi. Nə üçün yazmırsınız? Doğrudanmı indiyədək Moskvadan mənim işimə dair cavab gəlməyib? Mənim işim Moskvadan geriyə - Bakıya çatan kimi onun nəticəsinin necəliyindən – müsbət və ya mənfiliyindən asılı olmayaraq mənə yazın ki, mən bundan sonra nə etməyi, hara müraciət etməyi bilim. Ümidvaram ki, hamınız sağ və salamatsınız. Müqəddənisa rayona ezamiyyətdən qayıtdımı, yoxsa indiyədək onu əvəz edəsi həkim hələ göndərilməyib?

Bu məktubu öz ad günümdə yazıram, sizə isə ehtimal ki, fevralın 10-da Müqəddənisanın ad günündə çatacaq. Onu təbrik edir və bərk-bərk öpürəm. Ümidvaram ki, bu, birlikdə keçirmədiyimiz sonuncu ildir. Moskvada mənim işimə baxılacağına və həqiqətin yerini alacağına ümidlər məni bir dəqiqə də olsun tərk etmir.

Uşaqlar necədirlər? Çingiz necə oxuyur? Hamınızı bərk-bərk öpürəm, səadət və can sağlığı arzulayıram. Məktubunuzu gözləyirəm. Bütün doğmalarıma salamlar. Oğlun Mustafa. 25 yanvar 1940-cı il.

P.S. Göndərdiyiniz pulu Voloqdadan geriyə tələb et, mənə gəlib çatmayıb. Bu pulları geri al və mənə göndərmə. Mustafa".

Növbəti məktubu mayda gəldi.

"Əziz anam! Mən artıq yazmışam ki, bağlamanı aldım, buna görə hamınıza olduqca minnətdaram. 8 aprel tarixli məktubunuzda sadalanan şeylərlə müqayisədə 200 qram tənbəki çatışmırdı, lakin bunun əvəzində qənd və alça lavaşı vardı.

Hələlik bizim təkrar istintaqa qaytarılmağımız barədə heç nə deyilmir. İşə təkrar baxılmaq üçün bizi geri göndərmələri barədə Bakıdan yola salınmalı olan tələbnamənin nə səbəbə ləngidiyini başa düşmürəm. Səbirsizliklə sizinlə nə zaman görüşəcəyimi gözləyirəm. Yəqin ki, Nigar və Çingiz böyüyüblər, görəndə onları tanımayacağam. Bütün fikrim-zikrim sizin və onların yanındadır.

Yusuf[1] *ağciyər xəstəliyinə tutulub, aktiv prosesdir. Xəstəxanada yatır. Yaxşı baxırlar. Son günlər özünü bir qədər yaxşı hiss edir.*

Uşaqları və hamınızı öpürəm. Sağ və salamat olun. Tənbəllik etməyin, məktub yazın. Mustafa. 18.05.40-cı il.

Bizi, görünür, bu tezliklə təkrar istintaqa qaytarmayacaqlar. Daha bir ərzaq bağlaması və tənbəki göndərin. Bağlamanın içinə göndərdiyiniz şeylərin siyahısını qoyun. Kirov vilayəti, Volositsı, poçt yeşiyi 231/1".

[1] Yusif Rəhimli nəzərdə tutulur.





Mustafa ağa həbsdə. 1937

On gündən sonra yazdığı məktubunda isə daha kövrək duyğular hakim idi.

"Əzizim Müqəddənisa!

Təqvimdə çoxdan yaz olmalı olduğu halda, bizdə dünən və sırağagün qar yağırdı. Həmin yağmurlu, soyuq və cansıxıcı gündə sənin məktubun mənə doğma Cənubun hərarətini və günəşini gətirdi.

...Bu günlərdə radio ilə Moskvadan Azərbaycan ədəbiyyatı ongünlüyü ilə bağlı verilən Azərbaycan musiqisindən ibarət konserti eşitdim. Bülbül "Koroğlu"dan ariyanı oxuyurdu. Yadıma düşdü ki, ayrı düşməyimizdən üç gün əvvəl sənlə birlikdə bu operada idik... Teatrdan evə həmin sərin, xoş gecədə piyada qayıtdıq...

O vaxtdan bəri nə qədər sular axıb. Amma adama elə gəlir ki, bu, dünən olmuşdur – birlikdə keçirdiyimiz həmin gecəni bütün xırdalıqları ilə apaydın xatırlayıram. Və çox heyfsiləndim ki, yanımızda kənar adamlar olmadan birlikdə keçirdiyimiz belə axşamlar az olub.

... Belə görünür ki, bizi təkrar istintaq üçün bu tezliklə buradan aparmayacaqlar. Hərçənd sən yazırsan ki, iş üzrə hökm 1939-cu ilin dekabrında ləğv edilib, lakin hökmlər verildikdən sonra onun təkrar istintaqa göndərilməsinin xeyli ləngidiyi hallar az deyil. Belə çıxır ki, bizim də təkrar istintaqa göndərilməyimiz nədənsə ləngiməkdədir. İndi hər halda çox gözləməli olmarıq, lakin iki-üç ay gözləyəcəyimiz mümkündür və ağlabatandır.

Ona görə də əgər bu maddi çətinliklərlə bağlı deyilsə, poçt bağlamalarının arasını kəsməyin. Yalnız bunu edin ki, bağlamanı poçta təhvil verərkən içindəkilərin qiymətini göstərin və göndərilən predmetlərin siyahısını bağlamanın içinə qoyun. Buradan Bakıya yola salınacağım təqdirdə sizə dərhal məlumat göndərəcəyəm.

Sənin teleqramını almamışam. Lakin göndərdiyin 100 manat maliyyə hissəsində mənim hesabıma daxil olmuşdur. Səndən xahiş edirəm, innən belə bir qəpik də olsun göndərmə, burda mənə pul lazım olmur. Voloqda etap xəstəxanasına mənim adıma göndərdiyin 200 manatı gəldikdə isə, onu hələlik buraya göndərməyiblər. O pulu Voloqdadan geriyə tələb et və bu pulları aldığını və əgər bu pullar sizə qaytarılmayıbsa, onları almaq üçün nə etdiyinizi məktubunda mənə mütləq bildir.

Yusufun hələ də ciyərləri xəstədir və xəstəxanada yatır. Onun səhhəti indi xəstəxanaya daxil olduğu günlə müqayisədə yaxşılaşıb. Sizin hamınıza salam göndərməyi və onun əvəzindən Çingizi və Nigarı öpməyi məndən xahiş etdi.

Sən yazdığın kimi, mənim balaca Nigarımın bütün şikayətlərini mən gələnə saxladığından belə fikrə gəldim ki, onu incidirsiniz. Bilirəm ki, mənim əziz Çingizim, əgər mən xahiş edirəmsə, öz balaca bacısını incitmə. Siz böyüklərə gəldikdə isə, əlbəttə mənim balaca qızıma kefi nə qədər istəyir, o qədər dəcəllik etməsinə imkan verməyinizə görə, gələn kimi hamınızı cəzalandıracağam. Mənə sonsuz dərəcədə əziz olan uşaqlarımı və səni ürəyimin başına sıxır və bərk-bərk öpürəm. Bağışla, əzizim. Mənim vicdanım təmizdir və başıma gələnlər üçün, sizə dərd-kədər gətirdiyim üçün az da olsa təqsirim yoxdur. İndi mənim işimin gedişindən görünür ki, tezliklə hər şey birdəfəlik aydınlaşacaq və mən böhtan ləkələrindən təmizlənmiş halda sizlərin yanına qayıdacağam.

Atamı və anamı, əmimi və bibilərimi bərk-bərk öpürəm. Bütün doğmalarıma və yaxınlarıma can sağlığı və səadət arzulayıram.





Məcid Yusif oğlu Quluyev. 1937





Yusif Şirin oğlu Rəhimli. 1937

Görüşənədək. Darıxma. Yanında Çingiz və Nigar var, mənim ikinci tamamlanmış və düzəlişlər verilmiş kitabım var.

Sənin Mustafan. 28.V.1940-cı il.

P.S. Hələ Keşlə etap həbsxanasında olanda mən 1939-cu ilin payızında Utesovun "Qdе bı nе skitalsya ya" mahnısının motivlərinə söz qoşmuşdum.[1] O vaxt bu, özünü tez-tez biruzə verməyən və bu sözlərdə ifadəsini tapmış əhvalıma müvafiq idi. İndi bahar olsa da, bu sözlər mənim əhvalıma tam uyğun gəlir. Ona görə də onu sənə göndərirəm.

P.P.S. Ənvərə mənim salamımı çatdır.[2] Onun sırf yoldaşlıq münasibətlərini və mənə etdiyi yardımı heç vaxrt unutmayacağam. Ümumiyyətlə, mən bir çoxlarının yaxşı münasibətlərinin qarşılığında onlara borcluyam. Mustafa".

Məktub burada bitir.

Nəhayət, uzun intizardan sonra onlar Bakıya etap olundular.

1941-ci ilin yanvarın 25-də XDİK yanında Xüsusi Müşavirədə onların işinə baxıldı (Mustafanın doğmaları üçün əziz olan bir gündə – ad günündə). İşdə tutarlı sübutların olmadığına baxmayaraq, Mustafa Vəkilova "antisovet-millətçi təşkilatda iştirakına görə cəzasını islah-əmək düşərgəsində çəkməklə 5 il müddətində azadlıqdan məhrum edilsin, cəza müddəti 1937-ci il noyabrın 11-dən sayılsın" qərarı çıxarıldı. Yusuf Rəhimlini azad etdilər, görünür, vərəmə tutulduğundan onun tezliklə öləcəyini zənn etmişdilər, lakin bəraət verilmədi. Quliyev Məcidə... 5 il sürgün kəsildi.

Keşlə həbsxanasından yola salınmazdan əvvəl yenidən ailəsi ilə görüş verdilər. Yenə atası gəlməmişdi. Yenə birinci onu soruşdu. Xəstəhaldır, belə uzaq yolu gəlməyi çətin olar, dedilər. Ondan gizlədirdilər ki, görüşün verildiyi gün atası vəfat etmişdir. Qohumlar onlara yığışmışdılar. Ata son mənzilə oğlunun çiyinlərində getməyəcəkdi...

Professor əvvəlcə Voloqda düşərgəsinə düşdü, sonra onu Komi MSSR-ə, Voyajel qəsəbəsindəki koloniyaya göndərdilər. Müqəddənisa xanımın ümidi üzüldü, bu beş ilin qalan hissəsinin nə vaxt bitəcəyini gözləməkdən başqa çarəsi qalmadı. Özünün də həbs ediləcəyini gözünün altına almışdı, psixoloji cəhətdən hər şeyə hazır idi. Həbs ediləcəyi hal üçün çamadanını bir küncdə hazır qoymuşdu, uşaqlarına da xəbərdarlıq etmişdi: əgər ananızı aparsalar, dərhal Şəfiqə xalanızın (bacısının – *İ.U.*) yanına qaçarsınız. O nə etmək lazım gəldiyini bilir...

Nigar xanım indi atasının Şimaldan göndərdiyi, əksəriyyəti poçt kartoçkalarının arxasına yazılan, anasına və arvadına ünvanlanmış rəngi solğun məktubları qayğı ilə qoruyub saxlayır...

[1] Utesov Leonid Osipoviç (1895-1982) artıq həmin illərdə məşhurlaşmış musiqiçi idi. 1941-ci ildə SSRİ-də ilk dəfə teatrlaşdırılmış caz (tea-caz) təşkil etmiş və onun dirijoru olmuşdu. Utesov o illərdə gənclər arasında son dərəcə populyar idi. – İ.U.

[2] Bizcə, qohumu Ənvər Şıxlinski nəzərdə tutulur. – İ.U.

"Əziz anam!

Beş gündür gəlib yerimizə çatdıq. Məktub yazmaqdan ötrü açıqcanı elə bu gün tapmışam. Keşlədəki görüşümüz zamanı o dərəcədə həyəcanlı idim ki, nə dillənib bir şey deyə, nə də söylədiklərinizdən bir şey anlaya bilmişdim. Sən də, Müqəddəsnisa da gözümə bir cür dəyirdiniz. (Görünür, atasının ölümünü ondan gizlətmələri çətin imiş. – İ.U.).

Yolda Rostova qədər Nəsiblə (bibisi oğlu müəllim Nəsib ağa Vəkilov – İ.U.) bir yerdə gəldim, orada bizi ayırdılar. Yolda olan-qalan bütün pullarımı cibimdən çıxarmışdılar. Əgər pul göndərməli olsanız, böyük məbləğdə göndərməyin, necə göndərməyi Yusufdan soruşun. Həbslik şikayət yazmamışam. Kağız tapan kimi şikayət və sizə müfəssəl məktub yazacağam. Mən sarıdan nigaran qalmayın, qayğıma qalarkən özünüzü çətinə salmayın – bu ilyarımı birtəhər başa vuraram. Mənə ən çox ağır gələn budur ki, sizə dayaq olmaqdansa, ağır bir yükə çevrilib boynunuzdan asıldım. Məni yaşadan təqsirsizliyimi sübut etmək və təmiz adımla sizin yanınıza qayıtmaq ümididir. Hamınızı bərk-bərk öpürəm. Salamat qalın. Özünüzü və uşaqları qoruyun. Oğlun Mustafa. 28.03.41-ci il.

Komi MSSR, Voyajel qəsəbəsi, Dəmiryol rayonu, poçt yeşiyi 243/18".

"Əzizim Müqəddəsnisa!

... Sənin məktubunun tonundan görürəm ki, bu illər ərzində əsəblərin rahatlıq görməyib, bütün bunlar mənim üçün çox kədərlidir. Lakin mən nə edə bilərəm? Mən yaxşı başa düşürəm ki, sənin üçün asan olmayıb. Bir dəqiqə də olsun sənin layiq olmadığın halda bəxtinə düşən bu ağır taleyi unutmuram. Bu hallarda özümə yalnız bununla təskinlik verirəm ki, bütün bu əhvalatda – küçədə banditlərlə atışmanın getdiyi bir vaxt təsadüfən oradan keçən və bəxtindən çovutma gülləyə tuş gələn yol adamı qədər müqəssirəm. Bir qədər də döz, mənim əzizim. Özünü ələ al. Müharibə bitər, dünya qəhvəyi taundan xilas olar, bəşəriyyət rahat nəfəs alar və biz səninlə hələ nə qədər bəxtəvər illər yaşarıq, əlbəttə, əgər sən mənə ola münasibətini dəyişməyəcəksənsə. Və ümidvaram ki, bu münasibət dəyişməyəcək. Çünki etiraf etməliyəm ki, mən daha sən gördüyün adam deyiləm. Mən yalnız həmin adamın kölgəsiyəm. Təkcə fiziki baxımdan deyil, ən pis olan odur ki, fikirlərim və mənəvi həyatım ağlasığmaz dərəcədə zəifləmiş və cılızlaşmışdır.

Hər şeydə özüm təqsirkaram. Lakin öz təbiətimi bildiyimdən, ümidsizliyə qapılmıram. Şübhə etmirəm ki, azadlıqda, normal şəraitdə xırda təmir aparılmaqla, bir neçə aylıq sərbəst həyat fiziki və əqli baxımdan qüvvələrimi sürətlə bərpa edəcək. Sınqa xəstəliyinə qarşı iynəyarpaqlı ağacın cövhərini bir həftədir müntəzəm olaraq içməyə başlamışam və artıq bu həftə ərzində səhhətimin yaxşılığa doğru xeyli dəyişdiyini hiss edirəm. Düşünürəm ki, get-gedə daha da yaxşılaşacağam. Bircə tez-tez yazın bilim ki, necə yaşayırsınız. Məktublarınız mənə qüvvət verir, bunlar məni həyata bağlayan tellərdir.

Rica edirəm, belə gerçək vəziyyətin təsvir edildiyi məktublardan bundan sonra da yaz, hərçənd anamın sənin qanını tez-tez qaraltdığını oxumaq mənə o qədər də xoş deyil. Lakin bu məktub ailədəki gerçək vəziyyətə dair məndə heç bir şübhə yeri qoymadı və məni xeyli sakitləşdirdi. Belə məlum olur ki, atam sağ və salamatdır, halbuki buna ümidim az idi. Çingizin ağıllı və ciddi oğlan kimi böyüdüyünü oxumaq mənim üçün xoş idi...".

"Əzizim Müqəddəsnisa, mənim yeganə və qiymətli rəfiqəm!

Sənin məktubunu aldığım gün həyatımın son ilində ən fərəhli gün idi. Təkcə anama məktub yazdığım, sənə isə heç nə yazmadığıma görə inciməyinə heyrətləndim. Səbəbi sadədir. Düşərgədən məktub alınmasına Bakıda nə cür münasibət göstəriləcəyini bilmədiyimdən sənə lüzumsuz zərər yetirməkdən çəkindim, hərçənd deməliyəm ki, burada məhbuslar hətta döyüşən ordudan məktublar alırlar. İndi sənin məktubundan görürəm ki, Bakı da bu baxımdan istisna deyil, çünki sən hətta məktub yazmadığıma görə məndən inciyirsən.

Açığını deyim, sənə yaxşı bəlli olmalıdır ki, heç bir məhrumiyyət mənim mövcud vəziyyətə olan münasibətimi dəyişə bilməz. Yaxşı başa düşürəm ki, müharibədən əvvəlki illərin vəziyyətində (mən həbs ediləndə) və xüsusən də müharibə dövrünün şəraitində bir gerçək daxili düşmənin azadlıqda gəzməsindənsə, mənim kimi 10 nəfərin həbsdə olması yaxşıdır. Yalnız müharibə bitdikdən sonra ola bilsin, bütün bunları sakit və obyektivcəsinə araşdıracaq və sağlamları yoluxanlardan ayıracaqlar. Bircə bunadək ölməyib sağ qalmaq, heç kimə gərək olmayan təsadüfi bir ölüm nəticəsində həlak olmağı istəməzdim. Öz uşaqlarının indisini və gələcəyini müdafiə edə-edə həlak olmaq bir işdir, vətənə bir xeyrin dəyməndən təcrid şəraitində "təsadüfi" ölümlə mənasızcasına həlak olmaq başqa işdir. Lakin ümidvaram ki, bu baş verməyəcək və mən sənin yanına, ailəmlə, mənim əsl yerimin olduğu namuslu sovet adamlarının arasına qayıdacağam.

Düzdür, sağlamlığım o qədər də könülaçan deyil, lakin mənim orqanizmim hansısa bir it dözümünə malikdir. Axı Bakıdan buraya etapla göndərilməzdən əvvəl mədə yarasının açılmış kəskin prosesindən o dərəcədə zəifləmişdim ki, indi mənim bu əsas xəstəliyimin heç bir əlaməti görünmür. Baxmayaraq bu, mənim hələ tamamilə sağlam olmağım demək deyildir. Mən sınqa xəstəliyinə tutulmuşam. Lakin bu, boş şeydir. Ən əsası ruh yüksəkliyini itirməməkdir, belə ki, məhz bu qüvvə mənim zəif bədənimə kömək olmuşdur. Son vaxtlar isə nə vaxtsa sizinlə görüşəcəyimə ümidlərimi yavaş-yavaş itirməyə başlamışdım – nəsə bir ruh düşkünlüyü, hər şeyə laqeydlik məni üstələməyə başlamışdı.

Xarakterim yamanca dəyişib. Sən məni qaynar, ekspansiv, həyata can atan, işdə və hər şeydə od-alov bir adam kimi tanıyırdın. İndi isə ləng, yerindən ağır qalxan adam olmuşam, hətta başım əvvəllər olduğu kimi yaxşı işləmir. Əvvəllər şüurum məni əhatə edən adamlarla müqayisədə xarici təzahürləri sürətlə qapır və həzm edir, onlara dərhal reaksiya verirdi. İndi isə hiss edirəm ki, məni əhatə edən adamlarla müqayisədə şüurum geri qalır, fikirlərim süstdür, ağır-ağır və ləng işləyir.

Lakin sənin son məktubun mənim üçün böyük mənəvi yardım oldu. Bu məktub məni silkələdi. Hamınız salamatsınız, deməli, mən özümü ələ almalı, bütün həyatımı nəyin bahasına olursa-olsun, sizin üçün qoruyub saxlamlıyam və buradan salamat çıxmalıyam. Burada çox yalqızam. Sürgünün nə demək olduğunu əsl mənasında yalnız burada duyub hiss etmişəm.

Vyatlaqda Yusufun yanımda olmasına vərdiş etdiyimdən çox şeyin fərqinə varmırdım. Yalnız indi yanımda bir yaxın adam olmadığından qürbət yerdə yalqızlığın nə demək olduğunu tam mənası ilə duyuram. Yusufu doğma qardaşım kimi xatırlayıram, o, mənim üçün həm həbsxanada, həm də düşərgədə belə bir adam idi. O, sənə danışdımı ki, bütün bu illər ərzində mənim fikirlərim və duyğularım yalnız sənin yanındadır, bütün həyatım sənindədir? Yəqin danışmayıb, əgər danışsaydı, sən məktubunda yazmazdın ki, mən səni yalnız əmilər və bibilərlə bir sırada soruşuram. Necə sən bunu başa düşmürsən ki, bu dünyada mənim üçün səndən əziz, səndən yaxın varlıq yoxdur. Burada sən mənim üçün təkcə özlüyündə deyil, həm də uşaqlarımın anası kimi əzizsən, yəni ikiqat əzizsən. Misal üçün, mən bir dəqiqə belə olsun şübhə etmirəm ki, doğmalarım da daxil olmaqla sənin üçün məndən əziz heç nə yoxdur.

Çingiz pioner dəstəsinə daxil olubmu – çoxdan vaxtı çatıb. Bir qədər döz. Mən qayıdaram və hər şey yaxşı olar. Ən əsası sağlamlığımı qorumaq və qüvvəmi bərpa etməkdir. Bəxtəvər, gözəl həyatımız irəlidə, müharibənin və faşizmin dəhşətləri yoxa çıxdıqdan sonradır.

Heç xoşuma gəlmədi ki, görünür, sən uşaqları tək qoymalı olursan, belə ki, babaları və nənələri qocaldıqlarından özlərinin qolundan tutan lazım gəlir və uşaqlara baxa bilməzlər. Bəlkə ailə vəziyyətini nəzərə aldılar və səni Bakıda işləmək üçün saxladılar? Hər halda harada olursan ol, tez-tez məktub yaz. Əgər sənin vaxtın yoxdursa qoy Çingiz yazsın.

Bibim haradadır? Yenə də rayondamı işləyir, yoxsa Bakıya dəyişilib və sizinlə birgə yaşayır? Əgər sizinlə birlikdə olsaydı, yaxşı olardı. Hər halda son ezamiyyətə gedəndə uşaqları ona tapşıra bilərdin. Məktublarından görürəm ki, anama ümidin yoxdur – görünür, qocalıb əldən düşüb.

Yeri gəlmişkən, bir məsələ mənə aydın deyil. Nə üçün sən bütün bu müddət ərzində maddi vəziyyətin ucbatından iki yerdə işləməli olduğun halda, bunun əvəzində evdə xəstə qəbulunu təşkil etməmisən – bu, sənin vaxtını ikinci işinlə müqayisədə çox az alar və maddi faydası da çox olardı. Evdə xəstə qəbulunu yoluna qoymaqda əmim, əlacə də onun həmkarları – Bakının köhnə həkimləri kömək edərdilər. Yadındamı, hələ mənim yanımda o, mikroskopundan faydalanmağı sənə təklif etmişdi. Demişdi ki, sən bununla evdə qan və s. analizi üçün kiçik bir şəxsi laboratoriya təşkil edə bilərsən. O vaxt sən də, mən də evdə xəstə qəbuluna qarşı çıxdıq. Lakin indi maddi vəziyyətin sənə iki yerdə işləməyə məcbur etdiyi, uşaqlar üçün demək olar vaxtın qalmadığı bir vaxtda iki yerdə işləmək əvəzinə evdə xəstə qəbuluna başlamaq ağıllı olmazdımı?

Mən keçən il əvvəlki məktublarımda səndən xahiş etmişdim və indi də təkrar etməli oluram ki, mənə pul göndərmə. Amma bu məktubda öyrəndim ki, mənə 80 manat göndərmisiniz və yenə də göndərməyə hazırlaşırsınız. Gərək deyil. Sən bu barədə yazmasan da, duyuram ki, hazırda maddi vəziyyətiniz sıxıntılı olmalıdır. Ona görə də mənim rahat olmağımı istəyirsənsə, heç göndərmə. Əgər bu olduqca vacib olarsa, özüm yazaram.

Səndən yeganə xahişim budur ki, gör Bakıda ucuz tənbəki tapa bilirsənmi? Qoy lap aşağı sortdan olsun, göndər, mənə tənbəkidən başqa heç nə gərək deyil. Ən yaxşısı isə əgər Yusuf Bakıdadırsa, mənim xahişimi ona çatdır – o, düşərgədə tənbəkisiz qalmağın nə demək olduğunu yaxşı bilir. Lakin bütün bunlar, əlbəttə, bu şərtlə olsun ki, Bakıda tənbəki tapmaq çətin deyil və ucuzdur.

Hə, indilik əlvida. Səni, uşaqları, atamı, anamı, bibiləri və əmilərimi bərk-bərk öpürəm. Nigardan çox şikayətlənsən də, ümidvaram onu döymürsən. Bu tərbiyə metodu, mən biləni, sənin zövqünə deyil. Yaxşı, bağışla, deyəsən, məktubum çox uzun alındı. Ona görə belə oldu ki, çoxdandır yazmırdım. Bir daha hamınızı bərk-bərk öpürəm. Sağlıqla qalın. Mustafa. 19/IV/42-ci il".

"Əzizim Müqəddənisa!

Təzə gətirildiyim yerdən sənə ikinci məktubumu yazıram. Birinci məktubun çatıb-çatmadığını bilmirəm. Buraya sürgün müddətinin bitdiyi səbəbincə azad edilmək üçün çağırılmışdım. Lakin son dəqiqədə elan etdilər ki, müharibə bitdikdən sonra azad ediləcəyəm. Mənim üçün bu ikiqat fərəhli gün yaxınlaşır. Hər gün alman banditləri üzərində qələbələrimiz haqqında yeni xəbərlər gəlir. Bu gün radio qoşunlarımızın Rostovu geri almaları haqqında fərəhli bir xəbər yaydı. Deməli, əgər sən mənə məktub yazmaqdan ötrü vaxt tapa bilsən, əlaqələrimiz bundan sonra müntəzəm şəkil alacaq. Yaxud da heç olmasa qoy sənin əvəzinə Çingiz yazsın.

Axı o, mənim üçün vaxt tapmalıdır. Dərsləri ki onun bütün vaxtını almır. Ailəmə, vərdiş etdiyim namuslu əməyə, faciəli anlaşılmazlıq nəticəsində qoparılmış olduğum namuslu sovet adamlarının arasına qayıdışı gözləyə-gözləyə fiziki və mənəvi baxımdan çox yorulmuşam. Elə dəyişmişəm ki, görüşəndə məni tanımayacaqsan.

Əmimdən və Badisəba bibimdən rica edirəm (səndən ona görə istəmirəm ki, dörd baş ailəni saxlamağın çətinliyini anlayıram) mənə tənbəki bağlaması göndərsinlər və əgər mümkün olarsa, vitamin və ya şirin bir şey. Əgər əlinizin altında olsa, köhnə köynəklərimdən – gimnastyorka və köhnə şalvarlarımdan (yamaqlı olsa da) mənə göndərin. Təzəsini alıb göndərməyiniz lazım deyil. Görüşənədək. Yatmaq vaxtıdır. Səni, uşaqları, atamı, anamı,

əmimi, bibilərimi və bütün doğmalarımı bərk-bərk öpürəm. Tezliklə azad ediləcəyimi gözləməklə, səni bir daha ürəyimin başına sıxıram.

Mustafa. 15/II/1943-cü il.

Komi MSSR. Voyajel qəsəbəsi, Dəmiryol rayonu, poçt yeşiyi 243/18".

* * *

Sonra məktubların arası kəsildi. Düşərgədən qayıdan tanışlar Mustafa ağanın son günləri barədə danışdılar. Son aylarında o – universitetin professoru, Sorbonna Universitetinin məzunu – Uxtijemlaqda qazanxanada işləyirmiş. Sınqa xəstəliyi onu əldən salmış, ayaqlarını don vurmuş, düşərgə həkimləri hər iki ayağını kəsmişlər, bütün bunlara üstəgəl mədə yarası...

O, 1943-cü il aprelin 30-da nə vaxtsa onun üçün xoşbəxt bir gün olmuş gündə – öz toy günündə vəfat etmişdi.

Nigar xanım danışır :

– Müharibədən sonra, 1945-ci ildə qardaşım Çingiz qarın yatalağından vəfat etdi, onu xilas etmək mümkün olmadı. Sonra Mədinə nənəm "oğul" deyə-deyə dünyasını dəyişdi. Anam işləyirdi, birtəhər yaşayırdıq, mən APİ-yə daxil oldum. Anam əvvəllər "Leçkomissiya"da işləyirdi, sonra Semaşko xəstəxanasına dəyişildi. Mustafanın həbsə atıldığı binanın yanından ötəndə anam dodağının altında o binaya lənətlər oxuyardı. Hətta Stalinin ölümündən sonra adamlar doğmalarına və yaxınlarına bəraət verilməsi xahişi ilə ərizələr yazmağa başladıqda, anam bundan imtina etdi: "Nəyə lazımdır? Mustafanın vicdanı mənim qarşımda həmişə təmizdir. Bəraət mənə nə verəcək?", - deyə o bildirmişdi.

Stalin gorbagor olduqdan sonra onun tiranlığı zamanında repressiya olunanların işlərini qaldırmağa, onlara bəraət verməyə başlamışdılar. Mustafa Vəkilovun işinin arasında onlara bəraət vermək üçün əsas qismində 50-ci illərdə alınmış bir neçə arayış vardır. Milis idarəsi rəisi Əyyub Kərimovun ifadəsində deyilir:

"Vəkilovu təhsili aldığım hüquq fakültəsinin professoru kimi tanıyırdım. Vəkilov bizə təsərrüfat hüququndan mühazirələr oxuyurdu. Bir müəllim kimi nümunəvi, yüksək mədəniyyətli adam idi, öz fənnini yaxşı bilirdi, tələbələr arasında böyük hörməti vardı. Mühazirələri məzmunlu, savadlı, siyasi baxımdan ifadəli olardı, onun barəsində mənfi heç nə deyə bilmərəm. O, hər baxımdan müsbət adam idi. İnstitutda onun antisovet işləri barədə heç nə eşitməmişdim".

Qızı Nigar xanım mənə[1] bunları da söylədi :

– 1955-ci ildə anamı "oraya" çağırdılar. O, bizimlə vidalaşdı, nə vaxtdan bəri hazır qoyduğu çamadanını götürdü, düşündü ki, indi onun da "getmək" növbəsi gəlmişdir. Lakin orada ona məlumat vermişdilər ki, SSRİ XDİK yanında xüsusi müşavirənin Vəkilov Mustafa Məhəmməd oğluna münasibətdə 25 yanvar 1941-ci il tarixli qərarına cinayət tərkibi olmadığından xitam verilir...

[1] İsmayıl Umudluya.

Vəkilov Teymur ağa Məhəmməd ağa oğlu

(1892, Tiflis – 1948, Bakı)



Teymur ağa Vəkilov

Teymur ağa Vəkilov Rusiya tələbələrindəndir.

Onun haqqında araşdırıcı-jurnalist İsmayıl Umudlunun "Vəkiloğulları" kitabında ayrıca yazı verilib.[1] Biz burada həmin yazıdan da yararlanmışıq.

AR Dövlət Arxivindəki sənədləri içərisində Teymur ağanın doğum şəhadətnaməsi yoxdur. Buna görə də oxuculara bildiririk ki, onun atası Məhəmməd ağa Pənah ağa oğlu Vəkilov (1846-1921) Zaqafqaziyanın iri mülkədarlarındandı.[2] Şəki qəzasında (1880), Şərur-Dərələyəz mahalında (1892-1893) polis pristavı, Qazax məhkəmələrində vəkil işləyib. Çar II Nikolay 1915-ci ildə Bakıdan Tiflisə gedəndə onu Tatlı stansiyasında qarşılayanlar arasında Məhəmməd bəy Vəkilov da olub.

Anası Şahnabat xanım (?-1919) Səməd Vurğunun anası Məhbub xanımla doğma əmiqızıdır. O, tikdiyi xalçanı çar Nikolayın anası Mariya Fyodorovnaya hədiyyə göndərib.[3]

Teymur ağa yeniyetmə yaşlarından Tiflisdə atasının bir yaxın dostunun ailəsində ev təlim-tərbiyəsi alıb. 1906-cı ildə Qori seminariyasına daxil olub, 1911-ci ildə oranı bitirib.[4]

3 il Bakı rus-türk məktəbində müəllimlik edib.[5] Müəllimlik ürəyincə olmadığına görə həyatda öz yerini, öz missiyasını axtaran Teymur bəy Peterburqa yollanıb. Kadet Korpusuna daxil olub. 1916-cı il iyunun 2-də Petroqrad Birinci Kadet Korpusunu bitirib, ancaq ürəyi zəif olduğu üçün hərbi xidmətdə olmayıb. Petroqrad təhsilini başa vurduqdan sonra Bakıya qayıdıb.[6]

* * *

Bundan sonrasını AR Dövlət Arxivindəki sənədlərdən izləyək.

Petroqrad Psixo-Nevroloji İnstitutu hüquq fakültəsinin III kurs tələbəsi Teymur bəy Vəkilov 24 avqust 1919-cu ildə maarif nazirinə yazdığı ərizədə dövlət hesabına Rusiyaya göndərilən tələbələr sırasına salınmasını xahiş edib.[7]

Vəkilov nazirə 1919-cu ildə (ay və gün göstərilməyib) yazdığı ərizəsində təhsilini Rusiya Universitetlərinin birində bitirmək arzusunda olduğunu, ancaq buna maddi imkanının çatmadığını bildirib və ona da dövlət təqaüdünün verilməsini xahiş edib.

Bundan sonrakı əlavəsində tərcümeyi-halı ilə bağlı bəzi bilgilər verib:

– 1911-ci ildə Zaqafqaziya Müəllimlər Seminariyasını bitirmişəm. 1914-cü ildək Bakı şəhər rus-türk məktəbində müəllim işləmişəm, eyni zamanda kamal attestatı almaq üçün imtahanlara da hazırlaşmışam. İmtahanların pulunu azacıq müəllim maaşından topladığım vəsaitlə ödəmişəm. Kamal attestatını da 1915-ci ildə 1-ci Petroqrad kadet korpusunda almışam. Öncə Petroqrad Psixo-Nevroloji İnstitutuna sərbəst dinləyici kimi girmək istəyirdim, ancaq kadet korpusundan attestat aldıqdan və latın dilindən Petroqrad Tədris Dairəsində imtahan verdikdən sonra Psixo-Nevroloji İnstituta həqiqi tələbə kimi girdim və 1916/1917-ci ilədək orada oxudum. Həmin vaxtdan Qafqaza gələrək Rusiyada baş verən müxtəlif siyasi hadisələr nəticəsində geri qayıda bilmədim. Petroqradda yaşadığım vaxt daim dərs keçməklə dolanmışam, valideynlərim mənə azacıq yardım edib. İndi anam rəhmətə getdiyinə və bundan sonra təsərrüfatımız pozulduğuna görə mən indi bu dəstəkdən də məhrum olmuşam.

Vəkilov bütün bunları nəzərə çatdıraraq təhsilini başa vurmaq üçün ona dövlət yardımı göstərməyi xahiş edib və təhsilini Xarkov Universitetində davam etdirmək arzusunu bəyan edib.[1]



Teymur ağa Vəkilov. 5 iyun 1914-cü il

Nazir Xalq Maarif Nəzarətinin mühasibinə 27 noyabr 1919-cu ildə 13522 saylı belə bir təliqə göndərib ki, Rusiyaya ali təhsilini davam etdirmək üçün getməkdən ötrü tələbə Teymur bəy Vəkilova 21 min manat yazmağınızı təklif edirəm; həmin məbləğdən 18 min manat bugünkü gündən 6 aylıq dolanışıq üçün və 3 min manat yolpuludur.[2]

* * *

Teymur ağa sovetləşmədən sonra pedaqoji fəaliyyətlə məşğul olub, ADU-da rus dilindən dərs deyib. Son dərəcə yüksək mədəniyyətli, ziyalı bir adam olub.

Vəkilov vətəninə və millətinə dərindən bağlı idi. Azərbaycanın istiqlalından məhrum olması ilə heç cür barışmayıb, sovet hakimiyyətinə düşmən münasibət bəsləyib. Dilini dinc qoymayıb, sovet hakimiyyətindən narazılığını hər yerdə açıqca bildirib. "Bunlar (yəni bolşevik hakimiyyəti) nə vaxt rədd olub gedəcəklər?" – onun tez-tez verdiyi suallardandı.

Jurnalist İsmayıl Umudlu özünün ana tərəfdən babası Məhəmmədkərim Kazım oğlu ilə Teymur bəyin arasında hələ onun gənclik dövrlərindən səmimi münasibət olduğunu qeyd edir və yazır ki, hər yay Teymur bəy Bakıdan Dilicana dincəlməyə gələndə babam onun atasından və əmisi İbrahim ağadan (babam onun sərkarı olub) gördüyü haqqı-sayı unutmayaraq dağdan Dilicana onun yanına əlidolu enər, onun qaldığı evdə oturub saatlarla söhbətləşər, keçmişləri yad edərlərmiş. Belə söhbətlərin birində savadsız çoban olan, lakin yaxşını pisdən seçməyi bacaran babam oxumuş Teymur bəyə çobansayağı belə bir sual verir:

---

1 *Umudlu İ.* Vəkiloğulları. Bakı, 2003, ss. 244-245.
2 Yenə orada, ss. 220-226.
3 Haqqında geniş bilgi almaq üçün bax: *Umudlu İ.* Vəkiloğulları, ss. 220-226.
4 *Umudlu İ.* Vəkiloğulları, s. 244.
5 *Mustafayev Ə.* Xatirələri, hekayə və felyetonları. Bakı, 1985, s. 86.
6 *Umudlu İ.* Vəkiloğulları, s. 244.
7 ARDA, fond 51, siyahı 3, iş 66, vərəq 1.

1 ARDA, fond 51, siyahı 3, iş 66, vv. 2-2a, 5.
2 Yenə orada, vərəq 3.



Teymur ağa Vəkilov

– Teymur bəy, dünyada sovet hakimiyyətinə gücü çatası dövlət varmı? Burada ona bir şey eləyə bilmədilər, görən kənardan onu yıxmağı kim bacarar?..

Teymur bəy bir az fikrə gedib deyir:

– Məhəmmədkərim lələ, buna kənardan heç kəsin gücü çatmaz. Bu, yəqindir. Ağacı qurd içindən yeyib yıxdığını görübsənmi? Bax, bu hökumət də nə zamansa içindən yıxılacaq...

Teymur bəyin dedikləri aradan 50-55 il keçəndən sonra çin oldu. Dünyanı qorxu altında saxlayan sovet hökuməti məhz öz içindən dağıldı.[1]

Vəkilov müharibə başlanandan sonra – 1942-1943-cü illərdə Qazaxıstanda sürgündə olub. Xəstə olduğundan tez buraxılıb. O, müharibədən sonrakı tuthatutlar zamanı da həbsə alınıb. Bacısı Şahniyar xanımın ağız açmasından sonra S.Vurğun özlüyündə qorxulu bir riskə baş vuraraq bu məqsədlə şəxsən Bağırovun yanında olub, əmisi oğluna zamin durub, onun sərbət buraxılmasını xahiş edərək deyib ki, bundan sonra dilindən bir söz eşidilməyəcək. Teymur ağa bundan sonra sərbəst buraxılıb. Söylənənlərə görə, bu hadisədən sonra gözə kül üfürməkdən ötrü Leninin kitabı onun qoltuğundan düşmürmüş...

Vəkilov ürəyi xəstə olduğundan evlənməyib. Bədəncə şişman adam imiş. Ayağını kətilin üstünə qoyub ayaqqabısının qaytanını bağlayarkən ürək tutmasından keçinib. Bakıda Dağüstü qəbiristanlıqda başqa Vəkilovlarla yanaşı dəfn edilib.[2]

[1] *Umudlu İ.* Vəkiloğulları, ss. 244-245.

[2] Yenə orada, s. 245.

Vəliyev İsgəndər Məşədi Mahmud oğlu

(15.04.1896, Bakı – 11.05.1974, Bakı)

İ.Vəliyev[1] İtaliyada oxumuş tələbələrdəndir.

Görkəmli seleksiyaçı alimdir. Azərbaycan Kənd Təsərrüfatı Elmləri Akademiyasının müxbir üzvü (1960-cı ildən), SSRİ Dövlət mükafatı laureatı (1949), 4-cü çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olub (1955).

* * *



İsgəndər Vəliyev

Doğum haqqında şəhadətnaməsində yazılıb:

"Verilir bu şəhadətnamə Zaqafqasın Şiəməzhəb Müsəlmanlarının İdareyi-Ruhaniyyəsindən ol xüsusda ki, Bakı şəhərinin sakini, İsgəndər Məşədi Mahmud oğlu təvəllüd edibdir öz atası Məşədi Mahmud Məhəmməd oğlu Vəliyevin mənkuheyi-şəriyyəsi Tükəzban Cəfər qızından 1896-cı ilin aprel ayının 15-ci yövmündə".[2]

3 iyun 1916-cı ildə Bakıda verilmiş inşaat ixtisası üzrə texnik rütbəsi haqqında attestatı Bakı Aleksey Orta Mexanika-Tikinti-Texniki Məktəbinin peqadoji şurası ona görə verib ki, Vəliyev 1910-cu ildə adı çəkilən məktəbin kiçik hazırlıq sinfinə girərək orada əla əxlaqla 1 iyun 1916-cı ildək oxuyub və tikinti bölməsi üzrə tam elmlər kursunu bitirib, yekun sınaqda aşağıdakı uğurları göstərib:

Şəriət –	keçməyib
Rus dili –	kafi
Cəbr –	yaxşı
Həndəsə –	yaxşı
Triqonometriya –	yaxşı
Analitik həndəsə –	keçməyib
Fizika –	kafi
Kimya –	kafi
Nəzəri mexanika, inşaat mexanikası –	yaxşı
Tikinti materialları, tikinti işləri –	yaxşı
İsitmə və havadəyişmə –	yaxşı
Su kəmərləri və kanalizasiya –	yaxşı
Yollar və körpülər –	yaxşı
Smetalar və qanuniləşdirmələr –	yaxşı
Çəkiliş və nivelirləmə –	kafi
Rəsm –	yaxşı
Yapma –	yaxşı
Proyeksiya rəsmxəti –	əla
Tikinti rəsmxəti –	yaxşı
Emalatxanalarda təcrübi məşğələlər –	yaxşı.

[1] Soyadı bəzi qaynaqlarda "Vəlizadə" kimi də işlədilib. Sənədlərdəki bu yazılışı da saxladıq.

[2] ARDA, fond 51, siyahı 3, iş 65, vərəq 3.



İtaliyada oxuyan tələbələrimiz.
Soldan sağa: Məcid Hacızadə (?), Əhməd Rəəbli, Mirzə Hacızadə, İsgəndər Vəliyev



İsgəndər Vəliyev müəllimi ilə. İtaliya



İsgəndər Vəliyev *(ön sırada soldan 4-cü)* müəllimi *(ən öndə)* və tələbə yoldaşları ilə. İtaliya



Əhməd Rəəbli və İsgəndər Vəliyev.
İtaliya



İsgəndər Vəliyev dostları ilə.
İtaliya

Buna görə də İ.M.Vəliyevə tikinti ixtisası üzrə texnik rütbəsi və şəxsi fəxri vətəndaş hüququ verilib.[1]

"Azərbaycan Cümhuriyyəti Maarif Nəzarəti-cəliləsinə.

Bakı əhli, 1-ci Paralelnı̈[2] sokakda 57 nömrəli ev sakini İsgəndər Vəlizadə tərəfindən

İstida[3]

İstidamla vəsiqələrimi təqdimən hökuməti-Cümhuriyyə Maarif Nəzarəti-cəliləsi tərəfindən Avropaya təhsilə göndəriləcək Türk tələbələri sırasında göndərilməmi rica və təmənna edərdim, əfəndim.

Kəndim Bakı Politexnikum Məktəbinin memariyyə şöbəsini ikmal etdiyimdən Şveçariyanın (İsveçrə) Zürix şəhərindəki Ali Mühəndis Məktəbində təkmil olmamı arzu edərdim.

Ailə cəhətindən kəndim bikar[4] *olduğum kibi, bir ixtiyar pedərim,*[5] *bir ixtiyar validəm,*[6] *bir də evli qardaşım vardır. Daima kəndi zəhmətimlə imrari-həyat etdiyimdən*[7] *təhsilimin dövləti-Cümhuriyyə tərəfindən təmin olunması mərcu və mütəmənnadır.*[8]

İmza: İsgəndər Vəlizadə.

Bakı, 13 ağustos 1919".[9]

Vəlizadə 16 noyabr 1919-cu il tarixində Maarif Nəzarətinə yazdığı son ərizəsində İsveçrədə Sürix şəhərində Dağ İnstitutunda oxumaq istədiyini bildirib.[10]

30 dekabr 1919-cu ildə Vəlizadə təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[11] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[12] dilkağızları verib.

1 ARDA, fond 51, siyahı 3, iş 65, vv. 2-2a.
2 İndiki Əli bəy Hüseynzadə.
3 Ərizə.
4 Subay.
5 Atam.
6 Anam.
7 Yaşadığımdan.
8 Müraciət və təmənna edilir.
9 ARDA, fond 51, siyahı 3, iş 65, vərəq 1.
10 Yenə orada, vərəq 4.
11 Yenə orada, vərəq 5.
12 Yenə orada, vərəq 6.



İsgəndər Vəliyev *(ön sırada sağdan 2-ci)* tələbə yoldaşları ilə. İtaliya

İsgəndər Məşədi Mahmud oğlu Vəliyevə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 537 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[1]

* * *

15 aprel 1896-cı ildə Gürcüstan vilayətinin (!) Bakı şəhərində doğulmuş Vəlizadə İsgəndər Mahmud oğlu Perucia Ali Kənd Təsərrüfatı Eksperimental İnstitutunda *(Instituto Superiore Agrario Sperimentale di Perugia)* 1919/20 – 1922/23-cü dərs illərdə oxuyaraq buranı 100 baldan 90-ını toplamaqla 25 mart 1923-cü ildə kənd təsərrüfatı elmləri üzrə doktor dərəcəsi ilə bitirib. Sənəd 28 may 1923-cü ildə verilib.[2]

Adı çəkilən məktəbdən verilən Azərbaycan vilayətinin Bakı şəhərində doğulmuş Vəlizadə İsgəndər Məşədi Mahmud oğlu 21, 22 və 23 mart 1923-cü ildə imtahanlar verərək kənd təsərrüfatı elmləri doktoru diplomu alıb. Sənədi institutun direktoru və prezidenti 21 avqust 1923-cü ildə imzalayıblar.[3]

* * *

"Bakinski raboçi" qəzeti 14 may 1974-cü ildə İ.M.Vəliyevin vəfatı ilə bağlı partiya və hökumət rəhbərlərinin imzası ilə böyük nekroloq verib. Burada görkəmli seleksiyaçı alim, SSRİ Dövlət mükafatı laureatı İ.Vəliyevin 78 yaşında vəfat etdiyi göstərilib. Onun elmi nailiyyətləri və qazandığı dövlət mükafatları sadalanıb.

[1] ARDA, fond 51, siyahı 3, iş 65, vərəq 7.
[2] Sənədin surəti özəl arxivimizdədir.
[3] Sənədin surəti özəl arxivimizdədir.



İsgəndər Vəliyev *(2-ci sırada soldan 3-cü)* Şəki Kənd Təsərrüfatı Texnikumunda müəllim və tələbələrlə

Qohumları bizə onun tərcümeyi-halı ilə bağlı əlyazma şəklində və makinadan çıxmış bir sıra sənədlər veriblər. Onlardan yararlanaraq alimin həyatını əks etdirən ən mühüm faktları burada qeyd edirik.

Vəliyev SənayeTexnikumunda oxuyaraq Culfa-Bakı dəmiryolunda işləyib. 1920-ci ilin başlanğıcında oxumağa İtaliyanın Perucia Kənd Təsərrüfatı İnstitutuna göndərilib və oranı 1923-cü ildə bitirib (28 aprel 1920-ci ildən öz hesabına oxuyub). İtaliyadan gələndən sonra Gəncədəki keçmiş Seleksiya Stansiyasında (sonrakı Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunda) və Şəki Kənd Təsərrüfatı Texnikumunda direktor işləyib. Pambıqçılıq İnstitutunda işləyə-işləyə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda da müəllimliklə məşğul olub.

Ömrünün son 45 ilini Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunda (ETPİ) fasiləsiz olaraq pambığın seleksiyası işinə həsr edib. Kənd təsərrüfatı elmləri namizədi idi. Onun ilk işinin nəticəsi xəstəliklərə dözümlü 1363 sortunun yaradılması olub. Bununla yanaşı, o, xəstəliyə davamlı pambıq sortlarının seleksiya işinin aparılmasının yeni üsulunu işləyib hazırlayıb. İlk uğurundan sonra faraş və yüksək məhsuldar 2421 sortunu yetişdirib, bu zaman yerli pambıq sortlarıyla coğrafi baxımdan uzaq yerlərdən gətirilmiş pambığı calaşdırıb. Az sonra bu sortu daha da yaxşılaşdırıb.

Onun yaratdığı 108F və 2833 sortları ölkəmizin kolxoz və sovxozlarının pambıq tarlalarında sınaqdan çıxarılıb, məhsuldarlığı və faraş yetişməsi ilə seçilib. 1967-ci ildə Azərbaycanın kolxoz və sovxozlarında ilk dəfə olaraq min hektarlarla sahədə 2833 sortu əkilib. Ümumən yetişdirdiyi 1363, 2306, 2018, 2580, 2421, yaxşılaşdırılmış 2421, 2833 pambıq sortları Azərbaycanda əkilib.



İsgəndər Vəliyev *(2-ci sırada soldan 1-ci)*
Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun müəllim və tələbələri ilə. Gəncə

Vəliyev bunlarla yanaşı, seleksiya işlərinin sürətinin artırılması və onların nəticələrinin səmərəliliyinin yüksəldilməsi üçün böyük metodik iş aparıb. O, pambığın dünya ehtiyatlarından istifadə üsullarını geniş öyrənib və işləyərək hazırlayıb. Bu üsulları o, ölkəmizin aspirant və tələbələrinə öyrədib.




İsgəndər Vəliyev. 1960-cı illər

Pambıqçılığın Azərbaycanda inkişaf etdiyi bir vaxtda bu sahənin bəlalarından biri olan pambıq kolunun solğunlaşması (vild) xəstəliyi orta çıxıb. Onunla mübarizə aparmaq işi İsgəndər Vəliyevin rəhbərliyi və birbaşa iştirakı ilə aparılıb və uğurla nəticələnib.

Vəliyev həddsiz əməksevər, çox təvazökar və öz vəzifələrinə qarşı tələbkar bir insandı. Buna görə də ölkənin kənd təsərrüfatı elmi ictimaiyyəti içərisində böyük hörmət qazanmışdı. Ölkənin kənd təsərrüfatı elminə verdiyi töhfələr layiqincə qiymətləndirilib. O, SSRİ-nin Dövlət mükafatı (1949) laureatı olub, Lenin ordeni (1971), 2 dəfə "Şərəf nişanı", 2 dəfə "Qırmızı əmək bayrağı" ordenləri ilə təltif edilib, 1955-ci ildə







İsgəndər Vəliyev əməkdaşları ilə pambıq tarlasında. 1950-ci illər

Azərbaycan SSR Ali Sovetinin deputatı olub. 1960-cı ildə Azərbaycan Kənd Təsərrüfatı Elmləri Akademiyasının müxbir üzvü seçilib.

Onun elmi əsərləri SSRİ-nin ən nüfuzlu elmi dərgilərində nəşr edilib.

Vəliyev 11 may 1974-cü ildə dünyasını dəyişib və Fəxri Xiyabanda dəfn edilib.

Vəzirzadə Aslan bəy Zeynalabdin bəy oğlu

(06.12.1898, Şuşa – 01.04.1984, Bakı)



Zeynalabdin bəy Vəzirov

Vəzirovlar Azərbaycan tarixində özünə şərəfli yer tutmuş qədim bir nəsildir. Onların tarixi haqqında az yazılmayıb. Bizcə, bu yazılar içində tarixi-genealoji baxımdan ən dəyərlisi Musa bəy Vəzirovun qələmindən çıxıb.[1]

Azad bəy Vəzirovun 2006-cı ilin sentyabrında bizə verdiyi bir neçə səhifəlik rusca makina yazısında Aslan bəy Vəzirzadənin özü ilə bağlı qeydlər əks olunub. Həmin qeydlərdən mühüm faktları burada göstəririk.

Həmid bəyin böyük oğlu Zeynalabdin Vəzirov (1859-1933) 1878-ci ildən 1897-ci ilədək Gəncə, Qars, Şuşa, Cəbrayıl, Şəki-Ərəş və yenə Şuşada əsasən sülh araçısı vəzifəsində işləyib və kollej assessoru vəzifəsinədək yüksəlib. O, titulyar müşavir Haşım bəyin qızı Dürnisə xanımla evlənmiş və onların 5 övladı olmuşdu: Allahyar, Aslan, Həmid, Rəna və Leyla.

İkinci oğlu Aslan Vəzirzadə[2] 6 dekabr 1898-ci ildə doğulub. 1915-ci ildə Bakı real məktəbini qızıl medalla bitirib və elə həmin il Petroqrad Dağ Mühəndisləri İnstitutuna girib, ancaq 1917-ci ildə institut bağlandığına görə oranı bitirə bilməyib. 1920-ci ildə ali təhsil almaq üçün xaricə göndərilən Azərbaycanlı tələbələr içərisində o da olub. Paris Universitetinin fizika-kimya fakültəsini, Nansi şəhərində Geologiya İnstitutunu bitirib.

1925-ci ildə o, Bakıya qayıdıb və Azərneftin Geoloji-Kəşfiyyat İdarəsində laboratoriyada elmi işçi vəzifəsinə təyin edilib. Eyni zamanda Əzizbəyov adına Azərbaycan Politexnik İnstitutunda (indiki Neft Akademiyası) və Ali Pedaqoji İnstitutda (APİ) geologiya və mineralogiyadan dərs deyib.

A.b.Vəzirzadə 1933-cü ildə professor dərəcəsi alaraq Əzizbəyov adına APİ-nin kristalloqrafiya, mineralogiya və petroqrafiya kafedrasının müdiri vəzifəsinə təyin edilib. Sonralar bu institut "Azərbaycan Neft və Kimya İnstitutu" adlandırılıb və Aslan bəy müəllimlik fəaliyyətini orada davam etdirib.

1946-cı ildə ona "Azərbaycan SSR-in əməkdar elm xadimi" adı verilib.

Səmərəli elmi və pedaqoji fəaliyyəti nəzərə alınaraq Aslan bəy Lenin ordeni, 2 "Qırmızı əmək bayrağı" ordeni və 6 medalla təltif edilib.

A.b.Vəzirzadə Azərbaycan Cümhuriyyətinin görkəmli dövlət xadimlərindən olan Əliəkbər bəy Xasməhəmmədovun qızı Nuruş xanımla ailə qurmuşdu. Ondan oğulları Fərid 1930-cu ildə dünyaya gəlib. Fərid də atası kimi geoloq olub, sonralar Bakı Şəhər İcraiyyə Komitəsi sistemində çalışıb.

* * *

Bir zamanlar Azərbaycan KP MK-nın I katibi işləmiş Əbdürrəhman Vəzirovun İnternetdə yerləşdirdiyi "Paris Dağ İnstitutunun məzunu, kristalloqraf alim, filatelist və numizmat Vəzirzadə Aslan Zeynalabdin oğlu" məqaləsində bir çox maraqlı faktlarla üzləşirik. Onlardan bəziləri ilə tanış olaq:

[1] *Везиров М.А.* Некоторые сведения о родословной Везировых. // *Известия АИРО.* Вып. 1. Баку, 2000, ss. 41-50; *yenə onun:* Везировы из селения Зумурхач. // *Известия АИРО.* Вып. 2. Баку, 2001, ss. 87-97; *yenə onun:* Физулинские Везировы. // *Известия АИРО.* Вып. 3. Баку, 2002, ss. 137-149.

[2] Soyadı bir sıra qaynaqlarda "Vəzirov" kimi də gedib. Sənədlərdəki həmin yazılışı da saxlamışıq.



Həmid bəy Vəzirovun yoldaşı Qönçə xanım oğulları *(soldan)* Zeynalabdin bəy, Cavad bəy, Azad bəy *(fürəjkalı)* və Fərrux bəy ilə



Zeynalabdin bəy Vəzirovun yoldaşı Dürnisə xanım Haşım bəy qızı Vəzirova oğlu Aslanla

– A.Vəzirzadənin anası Dürnisə xanımla mənim babam Rzaqulu bəy bacı-qardaş olublar. Onlar Vəzirovların Karyagin (indiki Füzuli) qolundan idi. Ancaq Aslanın atası Zeynalabdin bəy isə Şuşa Vəzirovlarından idi və görkəmli neftçi və dövlət xadimi Süleyman Vəzirovun dayısı idi. Aslan bəy Vəzirzadə gənc yaşlarından poçt markaları və pul nümunələri toplamaq həvəskarı idi. O hələ xaricə getməzdən öncə Azərbaycan Cümhuriyyəti poçt markalarını toplamışdı.

Aslan Romada xəstələnərək qalıb, bu vaxt yaşayış və müalicə pulu olmadığına görə qiymətləri xeyli bahalaşmış bu markaları sataraq dolanıb. O, sağalandan sonra Parisə Dağ İnstitutuna gələrək məşğələlərə başlayıb. Bir azdan çətinliklər ortaya çıxıb; Sovet hökuməti gələndən sonra tələbələrə maliyyə verilməsi dayandırılıb. Sovet orqanları onlara ya vətənə qayıtmağı, ya da öz güclərinə dolanmağı təklif edib. Aslan bəy oxuya-oxuya təsadüfi işlər də görüb və yay tətillərində kömür şaxtalarında işləyib.

O, adını bir neçə dəfə dəyişmiş Politexnik İnstitutda yarım əsrdən artıq müəllim kimi çalışıb və Azərbaycanın ən hörmətli müəllimlərindən biri olub, ən yüksək ixtisaslı geoloq-mütəxəssislərin, elmlər doktorları və akademiklərin böyük bir nəslinin tərbiyəçisi olub.

Sumqayıtda Sənaye İnstitutu filialının bünövrəsi qazılarkən içində gələcək nəsillərə müraciət olan kapsulu özülə qoymaq Aslan Vəzirzadəyə etibar edilib.

O, bir neçə əcnəbi dili əla bilib, ancaq fransızcası xüsusilə seçilib. Auditoriyada ana dilində və rusca dərslər keçib. Tələbələri ilə hədsiz nəzakətli olub, ancaq savadsız və tənbəllərlə barışmayıb. Oğlu Fərid ondan kristalloqrafiya fənni üzrə 3 dəfə imtahan verib.



Geologiya İnstitutu əməkdaşları. Aslan bəy Vəzirzadə arxada sağdan 2-ci, ağ plaşda. Nansi, 1923

Onun şagirdlərindən biri Tümen neftini kəşf edən Sosialist Əməyi Qəhrəmanı Fərman Salmanovdur. O, mənə danışıb ki, aspiranturaya girməyə hazırlaşdığım vaxt bir neçə həftə Aslan bəyin ailəsində yaşamışam. Onun yoldaşı Nuruş xanım mənə ideal şərait yaradıb. Onun hazırladığı plovdan olmazdı.

Aslan bəy ömrünün sonunadək SSRİ-nin ən aparıcı filatelistlərindən biri olub. SSRİ-də bütün dünya markalarının ən yaxşı kolleksiyalarından biri onda olub. Uzun illər Azərbaycan Filatelistlər Cəmiyyətinə başçılıq edib.

Ov vurğunu idi. İnstitut müəllimləri ilə birgə tez-tez Ələt-Səngəçal tərəflərə ova və balıq tutmağa gedərdi.

Ölkədə "Moskviç" maşını buraxılarkən onu almaq hüququ ilk dəfə görkəmli alimlərə və mədəniyyət xadimlərinə verilib və bu maşını ilk alanlar içərisində Aslan bəy də olub. O, həmin maşında məni və oğlunu tez-tez Buzovnaya çimməyə aparardı. Maşını çox səliqə ilə sürər və Fərid sükan arxasında oturub özünü göstərəndə həmişə əsəbiləşərdi.

"Hümmət" partiyasından sonra Aslan bəy heç vaxt kommunist olmayıb. O, mənə deyirdi: "Beriya kimi adamların rəhbərlik etdiyi partiyada olmaq istəmirəm". Beriyanı o, Bakıdakı fəaliyyətindən tanıyırdı.

1937-ci ildə onun tanıdığı alimlər, institut yoldaşları, eləcə də Avropaya oxumağa onunla birgə getmiş tələbələr bir-bir yox edildiyi zamanda Aslan bəyin yanına XDİK əməkdaşı olmuş keçmiş tələbələrindən biri gəlib. O, troykanın sərəncamına əsasən həbs edilməli və güllələnməli şəxslərin siyahısını göstərib. Orada Vəzirzadənin də soyadı olub. Sən demə, "enkevedeşnik" siyahıda qeyd edib ki, "troyka"nın Aslan

Vəzirzadə ilə bağlı qərarı yerinə yetirilib.[1]

Aslan bəy dözümlü və sakit adam olub, ancaq kobudluq, nadanlıq və tərbiyəsizlik görəndə özündən çıxa bilirdi.

* * *

Görkəmli diplomat və böyük ziyalı Ramiz Abutalıbov "Azerros" qəzetindəki məqaləsini bu cümlələrlə bitirib:

"Azərbaycan Dövlət Universitetinin tələbəsi olduğum zaman, 1925-ci ildə Fransada Dağ İnstitutunu bitirmiş professor Aslan Zeynal oğlu Vəzirzadənin kristalloqrafiya üzrə əla mühazirələrini dinləmişəm. 70-ci illərin sonunda onunla Bakıda görüşdüm və özünün də təsvir edildiyi tələbələrin fotosunu ona verdim. Bir qədər fasilədən sonra onun Fransada Dağ İnstitutuna girərkən yazdığı ərizənin fotosurətini də verdim. O, hədsiz təəccübləndi və o saat fransızcaya keçdi. 20-ci illərin başlanğıcındakı keçmiş tələbələr haqqında məlumat mübadiləsi üçün bir daha görüşməyə razılaşdıq. Ancaq hansısa işlər hər dəfə bizə mane oldu və görüş təxirə salındı. Bunu özümə bağışlaya bilmirəm.

Gerçəkdən, Azərbaycan xalqının bu gözəl oğlunu həyəcansız xatırlamaq mümkün deyil".[2]



Fransada oxuyan tələbələrimizdən. *Soldan sağa:* Aslan bəy Vəzirzadə, Surxay xan Cavanşir, Miri bəy Vəzirov. Paris, 1923-cü ildən sonra

* * *

İndi isə söz sənədlərindir. AR Dövlət Arxivində saxlanan şəxsi işindəki bəlgələr onun ömrünün 1920-ci ilədək – Fransaya oxumağa gedənə qədərki dövrünü işıqlandırır.

Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin 8 noyabr 1899-cu ildə verdiyi doğum şəhadətnaməsindən aydın olur ki, Şuşa şəhərinin "Dəmirçi" məhəlləsinin sakini, 36 yaşlı Zeynalabdin bəyin öz qanuni arvadı, 20 yaşlı Dürnisə xanım Haşım bəy qızından oğlu Aslan bəy hicri tarixi ilə 12 rəcəb 1314-cü ildə, xristian tarixi ilə 6 dekabr 1896-cı ildə doğulub.[3]

A.b.Vəzirov ilk təhsilini Bakı edadi (real) məktəbində alıb. O, 1907-ci ilin sentyabrından 7 iyun 1914-cü ilədək burada oxuyaraq 7 sinfi bitirib və 1124 saylı attestat alıb.[4] Ancaq ali məktəbə girmək üçün o, əlavə – 8-ci sinfi də bitirməli idi. Buna görə 1914-cü ilin sentyabrından 28 aprel 1915-ci ilədək həmin məktəbin əlavə sinfində oxuyub. Ona verilmiş 942 saylı şəhadətnamədə aşağıdakı qiymətləri aldığını görürük:

[1] Bu deyilənə şəxsən bizim inanmağımız gəlmir – özəlliklə o dönəmdə kiminsə bu cür risk etməsi ağlasığmazdır.

[2] http://www.baku.ru/enc-show.php?cmm_id=276&id=182589&c=1752.

[3] ARDA, fond 51, siyahı 3, iş 63, vərəq 5.

[4] Yenə orada, vərəq 2.

Şəriət –	əla (5)
Rus dili –	yaxşı (4)
Alman dili –	əla (5)
Fransız dili –	yaxşı (4)
Riyaziyyat, o sıradan:	
Hesab –	əla (5)
Cəbr –	əla (5)
Triqonometriya –	əla (5)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	əla (5)
Tarix –	əla (5)
Təbiiyyatşünaslıq –	əla (5)
Fizika –	əla (5)
Riyazi coğrafiya –	əla (5)
Rəsm –	əla (5)
Qanunşünaslıq –	yaxşı (4).[1]

Orta təhsilini bitirdikdən sonra Petroqrad Dağ İnstitutuna qəbul olunmuş Aslan bəy Vəzirovun Sankt-Peterburq Mərkəzi Tarix Arxivində 23 vərəqlik şəxsi işi saxlanılmaqdadır.[2]

14 iyul 1915-ci ildə A.b.Vəzirov institut direktoruna yazdığı ərizədə 1915-ci ildə Bakı real məktəbini bitirdiyini qeyd edib və onu qəbul sınaqlarına buraxmağı xahiş edib.[3]


Aslan bəy Vəzirzadə. 1936

Petroqrad Dağ İnstitutu 2-ci kursunun tələbəsi, Bakıda Gimnaziçeski küçəsi[4] 146-cı evdə yaşayan A.Vəzirov AC maarif nazirinə 11 avqust 1919-cu ildə yazdığı ərizəsində 1915-ci ildən Petroqrad Dağ İnstitutunun tələbəsi olduğunu, orada 2 il oxuduğunu, 2 kurs üçün bütün zaçotlarını verdiyini və indi Rusiyada təhsil almağa umudunu itirdiyini qeyd edərək, onu Almaniyada – Saksoniyadakı Frayberqdə Dağ-Mədən Akademiyasında dağ işini öyrənmək üçün göndərməyi xahiş edib. O, əlavə edib ki, himayəsində yaşadığım atamın məni oxutmağa heç bir imkanı yoxdur, çünki özəlliklə mart hadisələrindən sonra daşınar və daşınmaz əmlakımız qalmayıb və gəlirimiz yoxdur, yalnız atamın maaşı ilə yaşayırıq.[5]

AC məsai (əmək) naziri Aslan bəy Səfikürdskinin 46 saylı əmri ilə Petroqrad Dağ İnstitutunun III kurs tələbəsi Aslan Vəzirov 10 avqust 1919-cu ildən Baş məsai (əmək) müfəttişinin dəftərxanasında kargüzar təyin edilib.[6]

Vəzirov maarif nazirinə 9 noyabr 1919-cu ildə yazdığı son ərizəsində Berlindəki Dağ Akademiyasında geologiya üzrə oxumaq istədiyini bildirib və əlavə edib ki, Berlinə

[1] ARDA, fond 51, siyahı 3, iş 63, vərəq 4.
[2] SPb. MTA, fond 963, siyahı 1, iş 13022.
[3] Yenə orada, vərəq 3.
[4] İndiki Tolstoy küçəsində.
[5] ARDA, fond 51, siyahı 3, iş 63, vərəq 1.
[6] Yenə orada, fond 7, siyahı 3, iş 20, vərəq 2.

getmək mümkün olmazsa Frayberq Dağ-Mədən Akademiyasında oxumaq istəyirəm.[1]


Aslan bəy Vəzirzadə. 1970-ci illər

Kargüzar A.Vəzirov AC Baş məsai müfəttişinə yazdığı 16 dekabr 1919-cu il tarixli ərizəsində ağır xəstəliyini müalicə etdirmək üçün ona yardım verməkdən ötrü məsai naziri qarşısında məsələ qaldırmağı xahiş edib.[2] Aslanovun sənədləri arasında həkim Mejebovskinin onun xəstəliyi haqqında verdiyi 9 dekabr 1919-cu il tarixli arayış da var.[3]

AC Məsai Nəzarəti Baş məsai müfəttişi Məhəmməd bəy Hacıyev Məsai Nəzarəti Dəftərxanasına yazdığı 18 dekabr 1919-cu il tarixli 1017 saylı məktubunda məsai nazirindən xahiş edib ki, kargüzar Aslan Vəzirova 1 aylıq maaşı həcmində yardım verilməsi haqqında xahişi yerinə yetirilsin. Nazir Əhməd bəy Pepinov 24 dekabrda həmin yardımın məsai müfəttişliyi vəsaitindən ödənilməsinə icazə verib.[4]

31 dekabr 1919-cu ildə Aslan Vəzirov təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında dilkağızı verib.[5]

Əmək Müfəttişliyinin kargüzarı Aslan Vəzirov AC məsai (əmək) nazirinə yazdığı 6 yanvar 1920-ci il tarixli ərizəsində bildirib ki, almağıma icazə verdiyiniz yardımı məsai müfəttişliyinin vəsaitindən almaq mümkün deyil, ona görə də həmin yardımı Məsai Nəzarətinin vəsaitindən vermənizi xahiş edirəm.[6]

Aslan bəy Zeynalabdin bəy oğlu Vəzirova Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 570 saylı vəsiqə 14 yanvar 1920-ci ildə verilib.[7]

* * *

Aslan bəy Vəzirzadə oxumağa Fransaya getdi. Paris Universitetinin fizika-kimya fakültəsini, Nansi şəhərindəki Geologiya İnstitutunu bitirdi və 1925-ci ildə Bakıya qayıtdı.

Azərneftin Geoloji-Kəşfiyyat İdarəsində işə düzəldi, eyni zamanda Azərbaycan Politexnik İnstitutunda (sonra Azərbaycan Neft-Kimya İnstitutunda) dərs deməyə başladı...

Bundan sonrasını dəyərli oxucularımız artıq bilir.

[1] ARDA, fond 51, siyahı 3, iş 63, vərəq 6.
[2] Yenə orada, fond 7, siyahı 3, iş 20, vərəq 3.
[3] Yenə orada, vərəq 5.
[4] Yenə orada, vərəq 4.
[5] Yenə orada, fond 51, siyahı 3, iş 63, vərəq 10.
[6] Yenə orada, fond 7, siyahı 3, iş 20, vərəq 1.
[7] Yenə orada, fond 51, siyahı 3, iş 63, vərəq 8.

Yusifzadə Ağaəli Mirzə Cəlal oğlu (Əli Yusif)

(01.01.1900, Şuşa – 18.08.1937; güllələnib)



Ağəli Yusifzadə

Ədəbiyyatımızda və siyasi tariximizdə "Əli Yusif" adı ilə tanınan Ağəali[1] Yusifzadə Azərbaycanın istiqlal tarixinə öz adını qızıl hərflərlə yazmış şərəfli bir mücahiddir. Parisdə ali siyasi savad almış Yusifzadə Vətənə döndükdən sonra Azərbaycan Cümhuriyyətini yıxaraq torpağımızı işğal, xalqımızı əsir etmiş yadelli rejimlə çarpışmaya atılıb, gizli Müsavat təşkilatının başçılarından biri kimi azadlıq mücadiləsinin önündə gedib və bu yolda da şəhid olub. Buna görə də təsadüfi deyil ki, haqqında kitab yazılan bir neçə Cümhuriyyət tələbəmizdən biri də Ağəali Yusifzadə/ Əli Yusifdir.

Mərhum araşdırıcımız, gözəl insan və yorulmaq bilmədən daim axtarışlarda olan ciddi tədqiqatçı Nazif Qəhrəmanlı *"Vətən və istiqlal aşiqi Əli Yusif"* kitabında[2] bu görkəmli şəxsiyyətin həyat yolunu və fəaliyyətini incəliyinədək öyrənərək ortaya kamil bir əsər qoymağı bacarıb. Açığı, onun bu kitabında yazılanlara nəyisə əlavə etmək, yeni nəsə söz söyləmək bizə çox çətindir, o üzdən biz də əsasən bu kitabdan yararlanmaqla Nazif bəyin araşdırmalarından qıraqda qalan arxiv sənədlərini bu yazıya əlavə edəcəyik.

Qarabağ torpağının yetirməsi olan Yusifzadələr Şuşada ziyalı bir nəsil kimi ad çıxarıb. Bu soyun tarixini zəhmətkeş araşdırıcı Ənvər Çingizoğlu incələyib, Ağəali Yusifzadəyə, onun atası Mirzə Cəlala qədər olan kişiləri açıqlayıb.[3] Biz Mirzə Cəlal Yusifzadədən başlayırıq. Elə atasını da tanıtmaqla Yusifzadələrin nə qədər maarifsevər insanlar olduğunu, Ağəalinin necə bir mühitdə yetişdiyini təsəvvür etmək mümkündür.

* * *

Mirzə Cəlal Yusifzadə Azərbaycan tarixində əsasən müəllim, şair və jurnalist kimi tanınır. O, öz dövründə o qədər nüfuz və hörmət qazanmışdı ki, 1918-ci ildə Zaqafqaziya Seymi (Parlamenti) yaradılarkən Azərbaycandan oraya seçilmiş deputatlardan biri də M.C.Yusifzadə olmuşdu.[4]

Mirzə Cəlal maarifçi şəxsiyyət olub, özü dərs deyib, övladlarına da ali təhsil verib. Qızı Dilquşa bir müddət "Şərq qadını" jurnalında işləyib, şeir və məqalələr də yazıb.

M.C.Yusifzadənin həyatı çox vaxt səfərlərdə, çörək dalınca getdiyi şəhərlərdə və kəndlərdə keçib. O, vaxtaşırı Bakıda da yaşayıb, 1923-cü ildən ömrünün sonunadək həyatını bu şəhərdə keçirib. (Buna görə oğlu Ağəali də bir müddət Bakı real məktəbində oxumalı olub).[5]

1905-ci ildən Mirzə Cəlalın Tiflisdə və Bakıda kitabları nəşr olunmağa başlayıb: "Nəhy əz münkər",[1] "Rəşəhati-nəbəviyyə",[2] "Fərhad və Şirin",[3] "Ata-baba nəsihətləri"[4] və b.



Mirzə Cəlal Yusifzadə

Mirzə Cəlal Yusifzadənin Azərbaycan mətbuatının inkişafında da xidmətləri çoxdur. O, "İttifaq" (1909), "Hilal" (1911), "Həqiqəti-əfkar" (1911), "İqbal" (1914-15) qəzetlərinin nəşrində rəhbər şəxslərdən biri olub. 1909-1911-ci illərdə o, mətbuatda Ü.b.Hacıbəyli ilə birlikdə çalışıb, Ü.b.Hacıbəyli sonralar onun fəaliyyətini yüksək qiymətləndirib. Eyni zamanda o, "Sədayi-həqq" (1912-15), "Asari-həqiqət" (1911), "Azərbaycan" (1918-20), "Maarif və mədəniyyət" (1923-27), "Ədəbi parçalar" və s. qəzet və jurnalların işində iştirak edib, öz şeir, məqalə, tərcümə və publisistik qeydləri ilə milli mətbuatı rövnəqləndirib.

O, *"Mirzə Cəlal Yusifzadə", "Cəlal Yusifzadə", "Cəlal Qarabağı", "Cəlal", "C.", "Cəlal Yusifi", "Bəzəkçi"* və s. imzalarla mətbuatda çıxış edib.

Mirzə Cəlal Yusifzadənin Orta Asiyada mətbuatın yaranmasında və inkişafında da mühüm rolu olmuşdur. O, 1912-1913-cü illərdə Buxarada yaşayıb, burada tacik dilində "Buxarayi-şərif" və "Turan" qəzetlərini nəşr etdirib.[5] "Buxarayi-şərif" qəzetində onun 31 şeiri, ümumən qəzetin 133 nömrəsində 90-a yaxın məqalə və şeiri çap edilib.[6]

Bu deyilənlərə bircə əlavəmiz var ki, Bakıda 1911-1912-ci illərdə şənbə və bayram günlərinin sabahı çıxan siyasi-ictimai, ədəbi, elmi və iqtisadi qəzetlər olan "Həqiqəti-əfkar"ın naşiri Q.Heydərov, redaktoru M.C.Yusifzadə, "Asari-həqiqət"in redaktoru və sahibi-imtiyazı Q.Heydərov və M.C.Yusifzadə olub.[7]

Mirzə Cəlal musiqi və mahnı mətnləri də yazıb. Onun *"Ənzəli", "Üsküdar", "Arazbarı"* kimi mahnıları 1926-28-ci illərdə məxsusi olaraq Fatma Qədri üçün yazılıb.[8] "Yeni həqiqət" qəzetinin 21 fevral 1911-ci il tarixli sayında xəbər verilib ki, Cəlal Yusifzadə "Fərhad və Şirin" adlı opera yazıb, martın 6-sında oynanacaq.[9]

Yeri gəlmişkən, AR Tarix Arxivində Mirzə Cəlal Yusifzadənin axundluq imtahanı verməsi haqqında sənədlər durur.[10]

Bunlar Mirzə Cəlal Yusifzadənin yaradıcılığının ən ümumi şəkildə cizgiləridir. Ciddi araşdırma aparılarsa onun həyat və fəaliyyətinin qalın-qalın kitablara mövzu olacağına əminik.

Ağaəli Yusifzadə (Əli Yusif), bax, belə bir atanın oğludur.

* * *

Onun AR Dövlət Arxivindəki şəxsi işində saxlanan sənədləri gözdən keçirək.

---

1 Adı əksər sənədlərdə "Əli" kimi gedib.

2 *Qəhrəmanlı N.* Vətən və istiqlal aşiqi Əli Yusif. Bakı, 2010.

3 *Çingizoğlu Ə.* Yusifzadələr. // *"Soy"* dərgisi. Bakı, 2008, № 2 (10).

4 Bax: Закавказский Сейм. Стенографический отчет. Сессия первая. Заседание четвертое. Тифлис, 16-го февраля 1918 г., s. 40 və b.

5 *Qəhrəmanlı N.* Vətən və istiqlal aşiqi Əli Yusif, s. 12.

1 *Yusifzadə C.* Nəhy əz münkər. Qumar, şərab və adati-napəsəndidənin bəzi müfsidə və məzər-rətlərini göstərən risalədir. Tiflis, 1905.

2 Rəşəhati-nəbəviyyə. Fəxri-kainat, xatəmül-ənbiya… həzrətlərinin fərmayişati-baliğələrindən intixab olunmuş bir nəbzə. Müəllif və mütərcimi: *Cəlal Yusifzadə*. Bakı, 1910.

3 Fərhad və Şirin. Mərhum Şeyx Nizaminin əsari-nəzmiyyəsindən intixab olunmuş bir hekayeyi-aşiqanə. Əsəri-*Cəlal Yusifzadə*. Bakı, 1911.

4 Ata-baba nəsihətləri. Ətfala münasib elmi-əxlaqın mənzumə qismi. Bakı, 1912. Bu əsər haqda geniş bilgi üçün bax: *Abdullayev A.* Azərbaycan dilinin tədrisi tarixindən. Bakı, 1966, ss. 272-273.

5 *Qəhrəmanlı N.* Vətən və istiqlal aşiqi Əli Yusif, s. 17.

6 Yenə orada, s. 14.

7 Prof. Nazim Axundovun Azərbaycan mətbuatı tarixi ilə bağlı kitablarında bu haqda bilgi var.

8 *Qəhrəmanlı N.* Vətən və istiqlal aşiqi Əli Yusif, s. 16.

9 Yenə orada, s. 15.

10 ARTA, fond 290, siyahı 2, iş 2227.

Zaqafqaziya Şiə Ruhani İdarəsindən 16 iyun 1908-ci ildə verilmiş 1374 saylı doğum şəhadətnaməsində göstərilib ki, Gəncə valiliyi Şuşa şəhərinin sakini Ağaəli atası Axund Mirzə Cəlal Yusifzadənin qanuni arvadı Leyla Miriman qızından 1 yanvar 1900-cü ildə doğulub.[1]

Şuşada verilmiş 31 may 1916-cı il tarixli 588 saylı attestatdan öyrənirik ki, müsəlman, 1 yanvar 1900-cü ildə doğulmuş zadəgan oğlu Ağaəli Yusifzadə 1 sentyabr 1913-cü ildə Şuşa edadi (real) məktəbinə girərək orada 28 may 1916-cı ilədək əla əxlaqla oxuyub, əsas bölmə üzrə tam kursu bitirib. Qiymətləri belədir: 2 fəndən "5", 3 fəndən "4", 7 fəndən "3".[2]

Görünür, ali təhsil almaq həvəsinə düşən gənc Ağaəli sonuncu sinifdə "özünü yığışdırıb" və dərslərə çox ciddi hazırlaşıb. Bunun nəticəsində onun 400 saylı şəhadətnaməsində tam başqa mənzərə görürük. Şuşa edadi (real) məktəbinin əlavə sinif şagirdi Ağaəli Yusifzadəyə 20 aprel 1917-ci ildə verilmiş həmin şəhadətnamədə onun 17 avqust 1916-cı ildən 20 aprel 1917-ci ilədək bu məktəbin əlavə sinfində əla əxlaqla oxuduğu və sınaq imtahanlarında bu uğurları göstərdiyi qeyd olunub:

Şəriət –	əla (5)
Rus dili –	yaxşı (4)
Alman dili –	əla (5)
Fransız dili –	yaxşı (4)
Riyaziyyat, o sıradan:	
Hesab –	yaxşı (4)
Cəbr –	yaxşı (4)
Triqonometriya –	yaxşı (4)
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	yaxşı (4)
Tarix –	əla (5)
Təbiiyyatşünaslıq –	əla (5)
Fizika –	yaxşı (4)
Riyazi coğrafiya –	əla (5)
Rəsm –	əla (5)
Qanunşünaslıq –	əla (5)
Türk dili –	əla (5).[3]

Şuşa edadisinin (real məktəbinin) 7 sinfini bitirmiş, indi Azərbaycan Cümhuriyyəti hökuməti İşlər İdarəsinin tərcüməçisi işləyən Əli Cəlal oğlu Yusifzadə 2 avqust 1919-cu ildə maarif nazirinə ərizə yazaraq onu hökumətin xaricə dövlət hesabına oxumağa göndərdiyi təqaüdçülər sırasına salmağı xahiş edib və təhsilini İsveçrədə, yaxud Fransada texniki ixtisaslar üzrə almaq istədiyini bildirib. (Sənədin sonunda 143 saylı xarici pasportun ona 12 dekabr 1919-cu ildə verilməsi haqqında qeyd var).[4]

Şuşa qəzasının qaimməqamı 1919-cu ilin avqustunda verdiyi 1224 saylı arayışda göstərib ki, Əlinin ailəsi bunlardan ibarətdir: özü, 21 yaşlı tələbə; atası Mirzə Cəlal Yusifzadə, 65 yaş; anası Zeybə, 45 yaş; qardaşı Əbdüləlim, 4 yaş və bacıları: Səhba, 18 yaş; Şəhla, 16 yaş və Dilgüşa, 14 yaş.[5]

[1] ARDA, fond 51, siyahı 3, iş 141, vərəq 4.
[2] Yenə orada, vv. 3-3a.
[3] Yenə orada, vərəq 2.
[4] Yenə orada, vərəq 1.
[5] Yenə orada, vərəq 5.

Yusifzadə 2 noyabr 1919-cu ildə maarif nazirinə yazdığı ərizədə onda olan sənədləri təqdim etdiyini bildirib və nəzərə çatdırıb ki, onun sənədlərinin əsli Rostov (keçmiş Varşava) Universitetinin dəftərxanasındadır və hal-hazırda onları oradan götürmək mümkün deyil. Komissiyanın məni göndərmək istədiyi Xalqşünaslıq Məktəbini Parisdə, yaxud Fransanın başqa şəhərində oxumaq istəyirəm.[1]


Ağaəli Yusifzadə. Paris

29 dekabr 1919-cu ildə Yusifzadə təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[2] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[3] dilkağızları verib.

Ağaəli Yusifzadəyə Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 505 saylı vəsiqə 13 yanvar 1920-ci ildə verilib.[4]

Ağaəli Yusifzadə (Əli Yusif) 14 yanvar 1920-ci ildə Bakı vağzalından yola düşdü. Bu haqda türkcə "Azərbaycan" qəzeti 18 yanvar sayında yazırdı:

"Avropaya təhsilə gedəcək tələbələr içərisində "Yaşıl qələm" dərnəyinin fəal və çalışqan üzvlərindən Əli Yusif və Hənifə Zeynallı ilə bərabər bir neçə sair, gənc ədəbiyyat maraqlılarının şərəfinə olaraq "Yaşıl qələm" heyəti-idarəsi tərəfindən kanuni-saninin[5] 13-də bir çay məclisi tərtib edilmişdi. Çay məclisində "Yaşıl qələm" üzvləri ilə bərabər bir çox ədəbiyyat maraqlıları, Osmanlı şair və mühərrirlərindən Feyzulla Sacid və Rəşid Sürəyya bəylə arkadaşları və möhtərəm Məhəmmədəmin Rəsulzadə həzrətləri də hazır idilər...

...Sabahısı – kanuni-saninin 14-də "Yaşıl qələm" dərnəyi üzvləri kəndi arkadaşlarını müşayiət və son vida etmək məqsədi ilə istasyonda hazır bulunmuşlardı. Salman Mümtaz əfəndinin ciddü cəhdi sayəsində mütəfərriq surətdə bulunan[6] 30 nəfər tələbə bir araya toplanmış, "Yaşıl qələm" dərnəyinin məsarifətiylə[7] böyük bir ustol açılaraq çaylar içilmiş, yenə nitqlər söylənmişdir.

Saat 9-da tren[8] Batuma mütəvəccehən[9] hərəkət etmişdir".[10]

R.Abutalıbov müxtəlif vaxtlarda yazdığı məqalələrinin toplusu kimi nəşr etdirdiyi "Parisdə illər və görüşlər" kitabında Avropada, özəlliklə Fransada oxumuş Cümhuriyyət tələbələrinə "Onlar birincilər idi" adlı çox maraqlı məqalələrini həsr edib. Burada Ramiz bəy 14 yanvar 1920-ci ildə Bakı vağzalından yola düşərkən Əli Yusifin oxuduğu bu şeiri xatırladır:

"Ey müqəddəs, şanlı, sevimli ölkə!
Haqqını halal et, biz gedər olduq.
Kim bilir qəzayı? Dönmədik bəlkə...
Haqqını halal et, biz gedər olduq".[11]

[1] ARDA, fond 51, siyahı 3, iş 141, vərəq 7.
[2] Yenə orada, vərəq 8.
[3] Yenə orada, vərəq 9.
[4] Yenə orada, vərəq 10.
[5] Yanvarın.
[6] Ayrı-ayrılıqda olan.
[7] Xərciylə.
[8] Qatar.
[9] Üz tutaraq.
[10] "Yaşıl qələm"də. // *"Azərbaycan"* qəzeti, 18 kanuni-sani (yanvar) 1920, № 14, s. 3.
[11] *Абуталыбов Р.* Годы и встречи в Париже, s. 75.



Ağaəli Yusifzadə. Bakı

Ağaəli Yusifzadənin harada ali təhsil alması haqqında ziddiyyətli fikirlər var və bu haqda dartışmalar da gedib, ancaq biz onlara istinad etmədən mübahisədən yan keçib əlimizdəki arxiv sənədlərinə əsasən gerçəyi ortaya qoymağa çalışacağıq.

Bəhram bəy Axundov 2 mart 1922-ci il hesabatında Parisdə oxuyan tələbələrdən danışarkən yazır:

"Siyasi Elmlər Məktəbində ikisi – Miri Vəzirov və [Ağaəli] Yusifzadə ikinci kursa keçiblər və 1922-ci ilin sentyabrında qurtarırlar. Fransada oxuyan 26 tələbədən ən yaxşı oxumuşlar və oxuyanlar bunlardır: ...Siyasi Elmlər Məktəbində ... Yusifzadə...".[1]

Bizcə, bununla bütün mübahisələrə son qoyulur.

İndi isə Yusifzadənin SSRİ-yə dönməsi haqqında. Bəllidir ki, Cümhuriyyət yıxıldıqdan sonra onun yerinə gəlmiş sovet hakimiyyəti xaricdə humanitar ixtisaslar üzrə oxuyan tələbələri dəstəkləmək əvəzinə onları Bakıya geri çağırdı! Bu, sadəcə düşünülməmiş addım yox, həmin milli kadrlarımıza qarşı qərəzli bir düşmənçilik idi. Geri çağırılanlardan biri də Ağaəli Yusifzadə idi. Onun 1923-cü ildə Azərbaycan maarif komissarına yazdığı məktubla tanış olaq:

"Vətəndaş ASSR xalq maarif komissarına.

Yoldaş komissar.

ASSR hökumətinin Fransadan geri çağırdığı humanitar elmləri öyrənən tələbə olaraq mən keçən ilin 1 oktyabrınadək təqaüdlə təmin edilmişəm. Buna görə də borclarımı ödəməkdən ötrü mənə çatacaq məbləğin yerdə qalan hissəsini də bu ilin may ayına qədər gözləyərək Parisdə qalmağa məcbur olmuşam. Nəhayət, dözməyə səbrim çatmayıb, Fransada yaşadığım müddətdə yaranmış borclarımı orada qoyaraq gəlməli oldum. Mənim mənzilə və pansiona olan borclarımı ödəməyi Parisdə qalan yoldaşlarım öhdələrinə götürdülər.

Buna görə də sizdən xahiş edirəm ki, məni də Avropadan geri çağırılmış tələbələr smetasına salasınız ki, borclarımı ödəyə bilim və yoldaşlarımı üzərlərinə götürdükləri öhdəlikdən azad edim.

Əli Yusifzadə.

ASSR hökumətinin keçmiş təqaüdçü tələbəsi.

28 iyun 1923".[2]

Beləliklə, 1923-cü ildən sovet Azərbaycanına dönən Ağaəli Yusifzadənin həyatında yeni bir dönəm başlandı. Bundan sonra onu müəllim, yazıçı və siyasi mübariz kimi görürük.

"Müsavatın gizli şöbəsi yaradılarkən Əli Yusifzadə Fransada təhsil alırdı. 1923-cü ilin yayında vətənə qayıtdıqdan sonra o, Müsavatın qeyri-leqal fəaliyyətinə cəlb olundu. Onun istintaq işindən məlum olur ki, bu işə onu Mirzəbala Məhəmmədzadə cəlb edibmiş... Ə. Yusifzadə bu zaman artıq "Maarif və mədəniyyət" jurnalının məsul katibi işləyirdi".[3]


* * *

AR MTN Arxivində Əli Yusifzadənin cinayət işi ilə bağlı PR-41065 arxivistintaq işi saxlanılmaqdadır. Mərhum araşdırıcı Nazif Qəhrəmanlı həmin sənədi incəliklə təsvir etdiyinə görə biz həmin bəlgə üzərində geniş dayanmır, ancaq buradakı faktlardan

[1] ARDA, fond 410, siyahı 1, iş 342, vərəq 4.

[2] Yenə orada, fond 57, siyahı 1, iş 260, vərəq 121.

[3] *Qəhrəmanlı N.* Vətən və istiqlal aşiqi Əli Yusif, s. 135.



Gizli Müsavat təşkilatının sxemi
(Yuxarıda sağdan 1-ci Ağaəli Yusifzadə)

yararlanırıq. Xatırladırıq ki, istintaqla bağlı aşağıda verilmiş bütün qeydləri onun kitabından götürmüşük.

N.Qəhrəmanı bildirir ki, Əli Yusifzadə Parisdən qayıtdıqdan cəmi 8 ay sonra həbs edilmişdi. O, 1924-cü il fevralın 6-da həbs olunmuş, mayın 26-a qədər həbsdə qalmışdı. Çox ehtimal ki, elə Az.ÇK-nın həbs evində saxlanılmışdı.[1]

Bu, onun ilk həbsi idi. İkinci həbs isə 1927-ci ildə – Azərbaycanda ən geniş "müsavatçı ovu" aparılanda olmuşdu. Bu vaxt (Ağa)Əli Yusifzadə (Əli Yusif) Solovkiyə sürgün edilmişdi. N.Qəhrəmanlı yazır:

"1927-ci ilin qışında Solovkiyə gətirilmiş bu qrupa 20 nəfər daxil idi və B.E.Ağaoğlu onlardan 16 nəfərinin (ən çox tanınmışların) adlarını çəkir və kimlikləri haqqında məlumat da verir: 1. Vəkilov Rəhim bəy...; 2. Baharlı Məhəmmədhəsən bəy...; 3. Babazadə Əbülfəz...; 4. Hacızadə Əhməd bəy...; 5. Əli Yusif bəy – ... politikşünas, şair və mühərrir".[2]

N.Qəhrəmanlı bundan sonra onun başına gələnləri aydınlaşdırıb. Məlum olur ki, Əli Yusif 1935-ci ilin yanvarınadək 6 il Solovkidə qalıb, əlavə işlərlə ona verilən müddəti gödəltdiyinə görə vaxtından xeyli əvvəl azad edilib. Ancaq bu dəfə Daşkəndə sürgün edilib. Bunu XDİK Belomor – Balt idarəsinin 28 yanvar 1935-ci ildə Ə.Yusifzadəyə verdiyi arayış sübut edir. İnsanları cəhənnəm soyuğundan, yəni uzaq Şimaldan cəhənnəm istisinə, yəni Orta Asiyaya göndərmək siyasi məhbuslara qarşı tətbiq edilən ən ağır cəzalardan biri idi.

Yusifzadə Sibirin Tulomskoye şəhərindən 28 yanvar 1935-ci ildə çıxıb və həmin il fevralın 7-də Daşkəndə çatıb.

N.Qəhrəmanlı aşkar edib ki, Ə.Yusifzadəni 10 iyul 1937-ci ildə Özbəkistan XDİK də həbs edib. Özbəkistan XDİK fövqəladə üçlüyünün qərarı ilə o, 10 avqust 1937-ci ildə ən yüksək cəzaya – güllələnməyə məhkum edib. Hökm 18 avqust 1937-ci ildə yerinə yetirilib.[3]

İstintaqda Yusifzadə öz həyatı ilə bağlı da bilgilər verib. Onları N.Qəhrəmanlının əsərindən seçərək olduğu kimi veririk.

* * *

"Mən 1900-cü ildə Şuşa şəhərində Mirzə Cəlal Yusifzadənin və anam Leyla xanımın nikahından doğulmuşam. Anamı 5 yaşımda itirmiş, o vaxtdan analığım Zibanın himayəsində qalmışam. I dərəcəli məktəbi (o vaxt rus-tatar məktəbi belə adlanırdı) Şuşada bitirmiş, sonra Bakıya köçmüş və burada realni məktəbə daxil olmuş, lakin qurtara bilməmişəm. Ailə vəziyyəti ilə əlaqədar yenidən Şuşaya qayıtmış, Şuşa realni məktəbinin dördüncü sinfinə daxil olmuş, 1917-ci ildə həmin məktəbi bitirmişəm".

"Fevral inqilabını mən Şuşada qarşılamış və çevrilişin ilk günlərindən mitinq və nümayişlərdə iştirak etmişəm. Sonra Şuşada Usta Köməkçilərinin Peşəkarlar İttifaqı yaradıldı və mən bu ittifaqın nümayəndəsi kimi Qəza İcraiyyə Komitəsinə seçildim. Bu zaman mən heç bir partiyaya daxil deyildim, amma xatırlayıram ki, millətçi əhvali-ruhiyyədə idim. Baş vermiş inqilabın mənasını kiçik xalqların hüquq təminatında görürdüm".

"1917-ci il Milli Komitənin yaranması dövründə mən Şuşadaydım. Realni məktəbi təzəcə bitirmişdim və ayrı-ayrı şəxslərə dərs verirdim... Şuşa Milli Komitəsinə ümumxalq seçkisi yoluyla 40-50 adam daxil olmuşdu. Öz aralarından isə Komitə üzvləri 4 nəfərlik Rəyasət Heyəti seçmiş, buraya doktor Tağı Kərimov, Səlim Behbudov (hazırda, deyəsən, Şuşadadır), Xosrov Xalatov[1] (o da ölmüşdür), mən, həmçinin doktor Mehmandarov (hazırda Şuşadadır) daxil olmuşduq. Bunlardan başqa, Rəyasət Heyətinin Mirzə Cəlal, Məhəmmədhəsən və Hüseyn kimi daimi müşavirləri vardı".

"Anarxiyanın gücləndiyi, qəzaların və şose yolunun quldurlarla qaynaşdığı bir dövrdə vəziyyətdən çıxış yolu Türklərin gəlişindən idi. Bunu bütün əhali çox istəyirdi. O vaxt mən Milli Komitə tərəfindən Türklərin yanına nümayəndə olaraq göndərilmişdim. Bu, ona görə idi ki, Türklər Zaqafqaziya hökumətinə qulaq asmasınlar, anarxiyaya son qoymaq üçün bütün Zaqafqaziyanı işğal etsinlər. Bu, 1918-ci ilin əvvəlində olmuşdur. Mən Batuma getdim və oradan yolumu davam etdirə bilmədim və orada qaldım. Lakin qayıtmağı da ağlıma gətirmədim; belə ki, cəbhə xətti o vaxt Batumdan keçirdi. Mən öz mandatımı göstərdim, baş komandan Ənvər paşanın qəbuluna buraxıldım və Milli Komitənin yazılı müraciətini ona təqdim etdim. O, mənə xəbər verdi ki, onun qardaşı (yəni Nuru paşa – N.Q.) İrandan keçməklə bizim ölkəmizə doğru irəliləyir və Milli Komitəyə məsləhət gördü ki, Nuru paşa komandanlığı ilə Türk qoşunları gələnədək nizam-intizama əməl etsinlər. Türklərin ilk hissələri artıq Ağdam və Gəncəni keçmiş, Şuşada qayda yaratmaq üçün Həsən Bəsri Şuşanın komendantı təyin olunmuşdu. Hələ mənim gəlişimədək Milli Komitə bütün ixtiyaratı ona təhvil vermişdi".

"M.Rəsulzadə özünün "Çağdaş Azərbaycan ədəbiyyatı" (1950) əsərini Əli Yusifin nümunəsi, onun "Bir Turan yolçusu diyor ki" şeirinin şərhi ilə başlayır".

Yusifzadəyə 22 may 1992-ci ildə müstəqil Azərbaycan Respublikasının Baş prokurorluğu bəraət verib.[2]

Təəssüf ki, N.Qəhrəmanlı kimi ciddi bir araşdırıcı belə bəzən yanlışlığa yol verib. Məsələn, o, Əli Yusifin "Gözlər" şeirindən danışarkən yazır: "Şeirə epiqraf kimi onun şairin dostu *Əbdül Əbdülova, daha doğrusu, Əbdülrəhman Daiyə* həsr olunduğu vurğulanmışdır",[3] başqa sözlə, Qəhrəmanlı Əbdül Əbdülov (Əbdülzadə) ilə Əbdürrəhman Daini eyniləşdirir. Daha sonra yazır: "Belə hesab edirik ki, həmin şeirlər *Əbdülrəhman Əbdülova, yəni şair Əbdülrəhman Daiyə* məxsusdur".[4] Axı "Əbdülrəhman Əbdülov" adlı adam mövcud olmayıb. Əbdül Əbdülov (Əbdülzadə) isə o dövrün məşhur müsavatçılarındadır, o da Solovkidə sürgündə olub və Cümhuriyyətin Türkiyəyə oxumağa göndərdiyi tələbələrdəndir. (Bu kitabda onun haqqında da ayrıca məqalə var). Bu üzdən onu Ə.Dai ilə qarışdırmaq mümkün deyil.

* * *

Ağaəli Yusifzadə həm də görkəmli bir şairdi. N.Qəhrəmanlının kitabında onun ədəbi yaradıcılığı da geniş təhlil edilib. Oxucumuz bu haqda həmin kitabdan yetərincə bilgi ala bilər. Buna görə də biz bu məsələdən yan keçirik, yalnız bircə məsələyə münasibətimizi bildiririk. N.Qəhrəmanov da daxil olmaqla, tədqiqatçılarımızın əksəri Əli Yusifin ilk əsərinin 1911-ci ildə "İşıq" dərgisində çıxdığını yazır. Ancaq biz onun ilk yazısının "Nicat" qəzetində çıxmış "Xanımlarımız"[5] olduğunu güman edirik.

---

[1] ARDA, fond 57, siyahı 1, iş 342, s. 144.
[2] Yenə orada, s. 114.
[3] *Qəhrəmanlı N.* Vətən və istiqlal aşiqi Əli Yusif, s. 161.

[1] Bizcə, yanlış oxunub; "Həyatov" olmalıdır.
[2] *Qəhrəmanlı N.* Vətən və istiqlal aşiqi Əli Yusif, s. 160.
[3] Yenə orada, s. 58.
[4] Yenə orada, s. 59.
[5] *Yusif Əli.* Xanımlarımız. // *"Nicat"* qəzeti, 9.2.1911, № 14.

Yüzbaşınski İsmayıl Qafur oğlu

(01.01.1892, Şamaxı ş. – ?)



İsmayıl Yüzbaşınski

Şamaxı Qəza İdarəsindən Göyçay məntəqəsində yaşayan Şamaxı şəhərinin sakini Qafur Əbdürrəhim oğluna 3 aprel 1905-ci ildə verilmiş 1252 saylı vəsiqədə bildirilir ki, o, Şamaxının Sarıtorpaq məhəlləsinin 1886-cı ilə dair ailələr siyahısında vergiödəyənlər içərisində göstərilib.[1] Bu, onun və ailəsinin imtiyazsız təbəqədən olduğunu təsdiqləyir.

Zaqafqaziya Sünni Ruhani İdarəsinin 12 aprel 1905-ci ildə Tiflis şəhərində verdiyi 380 saylı doğum şəhadətnaməsində göstərilib ki, Bakı valiliyi Şamaxı şəhəri Sarıtorpaq məhəlləsi cəmeəsi üzrə aparılmış doğum kitabının 1892-ci ilə aid bölümündə kişi cinsindən doğulanlar haqqında 1-ci hissədə 2-ci nömrə altındakı qeyd belədir: müsəlman tarixi ilə on üç cəmadiüs-sani min üç yüz doqquzuncu ildə, xristian tarixi ilə bir yanvar min səkkiz yüz doxsan ikinci ildə 2-ci Sarıtorpaq sakini Qafur Əbdürrəhim oğlunun öz qanuni arvadı Xanım Aslan bəy qızından oğlu İsmayıl doğulub.[2]

İsmayıl məktəbə Şamaxıda gedib. 7-ci sinfi bitirməsi haqqında attestatda yazılıb: "Bakı valiliyi Şamaxı şəhərinin sakini, müsəlman, Şamaxı şəhərində 1 yanvar 1892-ci il doğumlu İsmayıl Qafur-Əbdürrəhim oğlu Yüzbaşınskiyə[3] ona görə verilib ki, o, Şamaxı real məktəbinə 1 sentyabr 1910-cu ildə girərək orada 5 iyun 1911-ci ilədək əla əxlaqla oxuyub və əsas bölmə üzrə tam kursu bitirib".[4]

Qeyd edək ki, attestatda onun qiymətləri çox yaxşıdır. 6 fəndən "5", 6 fəndən "4" və yalnız 1 fəndən "3" alıb.

15 iyun 1912-ci il tarixli 281 saylı şəhadətnaməsinə görə, Şamaxı edadiyyəsi (real məktəbi) əlavə sinfinin şagirdi İ.Yüzbaşınski bu sinifdə 1 sentyabr 1911-ci ildən 13 iyun 1912-ci ilədək əla əxlaqla oxuyub və əlavə sinfin tam kursunu bitirərkən aşağıdakı uğurları qazanıb:

Şəriət –	əla (5) beş
Rus dili –	yaxşı (4) dörd
Alman dili –	yaxşı (4) dörd
Fransız –	yaxşı (4) dörd
Riyaziyyat, o sıradan:	
Hesab –	əla (5) beş
Cəbr –	əla (5) beş
Triqonometriya –	yaxşı (4) dörd
Xüsusi kurs (analitik həndəsənin əsasları və sonsuz kiçiklərin analizi) –	yaxşı (4) dörd
Tarix –	əla (5) beş

[1] XVDA, fond 1682, siyahı 3, iş 1552, vərəq 8.
[2] Yenə orada, vərəq 10.
[3] Attestatda İ.Yüzbaşınskinin atasının adı yanlış olaraq "Qafur-Əbdürrəhim oğlu" yazıldığına (Əbdürrəhim Qafurun atasıdır), çar dönəmində isə attestat, yaxud şəhadətnamə ən etibarlı sənəd kimi qəbul edilərək oradakı göstəricilər dəyişdirilmədiyinə görə Yüzbaşınskinin ata adı hələ uzun illər bu cür yanlış işlədilib. (Bəzi sənədlərdə "Qafur-Rahim oğlu"da yazılıb).
[4] XVDA, fond 1682, siyahı 3, iş 1552, vərəq 11.

Təbiiyyatşünaslıq –	əla (5) beş
Fizika –	əla (5) beş
Riyazi coğrafiya –	əla (5) beş
Rəsm –	yaxşı (4) dörd
Qanunşünaslıq –	əla (5) beş.[1]

1911-ci ildə Şamaxı şəhəri İctimai İdarəsindən İ.Yüzbaşınskiyə 14 iyul 1911-ci ildə verilmiş vəsiqədə qeyd olunub ki, Şamaxı şəhəri Sarıtorpaq məhəlləsinin 1886-cı ilə aid ailələr siyahısından göründüyü kimi, Bakı Xəzinə Odasının sərəncamı ilə İsmayıl Qafur oğluna "Yüzbaşınski" soyadı verilib.[2]

8-ci Türküstan atıcı alayının podpolkovniki, Voronej sağalanlar komandasının rəisi Yüzbaşınskinin Xarkov Texnologiya İnstitutunun direktoruna yazdığı tarixsiz, ancaq İnstitut dəftərxanasının 23 sentyabr 1915-ci ildə aldığı ərizədə oxuyuruq: "Mənim doğma qardaşım oğlu, Qafqazın yetirməsi İsmayıl Yüzbaşınski hal-hazırda Tomsk İmperator II Nikolay Texnologiya İnstitutu mexanika bölümünün 5-ci semestrində təlabədir. Həmin tələbə heç bir vəsaiti olmayan tam yetimdir, mənim şəxsi hesabıma oxuyur və dolanır. Cənubun yetirməsi kimi Tomsk şəhərinin iqlimi ona çox pis təsir göstərir, buna görə də tez-tez müxtəlif xəstəliklərə tutulur. Bu deyilənlərə əsasən, tələbə Yüzbaşınskinin Tomsk Texnologiya İnstitutundan Xarkov Texnologiya İnstitutu mexanika bölümünün V semestrinə köçürülməsi üçün tam itaətlə xahiş edirəm və eyni zamanda əlavə edirəm ki, bu haqda razılığınızı mənə bildirdiyiniz zaman tələbə Yüzbaşınskinin qiymət-zaçot blankı, tibbi arayışı və bütün başqa sənədləri Tomskdan Sizin instituta teleqrafla çatdırılacaq. Bu arzumun yerinə yetirilməsi mənə öz əziz vətəni uğrunda indiki Böyük Müharibədə yaralanmış və kontuziya almış birisi kimi təsəlli olacaq. Bu arzumun yerinə yetməsi üçün Tədris Dairəsi Hamisinin qarşısında, yaxud Xalq Maarif Nazirliyi qarşısında vəsatət qaldırmaq lazımdırsa xahiş edirəm məni bu haqda bilgiləndirin ki, mən şəxsən və vaxtında məsələ qaldırım.

Çıxaracağınız qərar haqqında mənə aşağıdakı ünvana məlumat verməkdən imtina etməməyinizi rica edirəm...

Ünvanım: Voronej şəhəri.

Sağalanlar komandası rəisi podpolkovnik Yüzbaşınskiyə".[3]

Tomsk İmperator II Nikolay Texnologiya İnstitutunun direktoru 10 oktyabr 1915-ci ildə Xarkov İmperator III Aleksandr Texnologiya İnstitutunun direktoruna yazdığı 4404 saylı məktubda bildirir ki, bizim institutun mexanika bölümünün tələbəsi Yüzbaşınski İsmayıl Qafur-Rəhim oğlu Xarkov Texnologiya İnstitutuna keçmək istədiyinə görə onun sənədlərini Sizə göndəririk və həmin Yüzbaşınski tələbələriniz sırasına qəbul edildikdə bizə xəbər verməyinizi xahiş edirik.[4]

Tomsk şəhərində 15 oktyabr 1915-ci ildə verilmiş həkim arayışından görünür ki, Tomsk Texnologiya İnstitutunun tələbəsi Yüzbaşınski xroniki oynaq revmatizmindən əziyyət çəkir və sərt iqlim onun sağlamlığına ziyandır.[5]

[1] XVDA, fond 1682, siyahı 3, iş 1552, vv. 12-12a.
[2] Yenə orada, vərəq 9.
[3] Yenə orada, vv. 1-1a. Bu məktuba Texnologiya İnstitutundan 28 sentyabr 1915-ci ildə 5987 saylı məktubla müsbət cavab verilib. (Bax: XVDA, fond 1682, siyahı 3, iş 1552, vərəq 21).
[4] Yenə orada, vərəq 22.
[5] Yenə orada, vərəq 32.



İsmayıl Yüzbaşınski

Xarkov Texnologiya İnstitutunun 12-ci semestr tələbəsi Yüzbaşınski Bakı şəhərində 20 avqust 1919-cu ildə maarif nazirinə yazdığı ərizəsində xahiş edir ki, Xarkov İnstitutunda təhsilini bitirmək üçün ona hökumət təqaüdü verilsin.[1]

Yüzbaşınski Bakı şəhərində 23 oktyabr 1919-cu ildə öhdəsinə götürüb ki, İnstitutu bitirincə Azərbaycan Cümhuriyyətinin təqaüdçüsü kimi onun üzərinə düşən bütün şərtləri Rusiya ali məktəblərinə göndərilən başqa təqaüdçü tələbələr kimi ümumi əsaslarla yerinə yetirəcək.[2]

Xarkov Texnologiya İnstitutunun tələbəsi İsmayıl Yüzbaşınskiyə Xalq Maarif Nəzarətinin 25 oktyabr 1919-cu il tarixli 11266 saylı təxsisat çeki ilə 15 min manat verilib; onlardan 12 min manat bu ilin 20 oktyabrından hesablanmaqla hər aylıq dolanışıq üçün və 3 min manat Bakı şəhərindən Xarkov şəhərinədək olan yolun xərcidir.[3]

Başqa sözlə, Cümhuriyyət Yüzbaşınskini öz təqaüdçüləri sırasına salıb, ancaq onun bu pulu aldıqdan sonra Xarkova gedib-getməməsi sonrakı məsələdir.

Təqaüdçü tələbə Hüseynqulu Səlimov Xalq Maarif Komissarlığına 27 noyabr 1919-cu ildə yazdığı ərizədə bildirib ki, İsmayıl Yüzbaşınskiyə 15 min manat pul verilib, bu şərtlə ki, yerdə qalan məbləğ onun özünün göstərişi ilə yoldaşlarından birinə ona çatdırmaq üçün verilsin.

İ.Yüzbaşınski yerdə qalan 6 min manatı almağım üçün mənə etibarnamə verib, ona görə də yiyəsinə çatdırmaq üçün həmin məbləğin mənə verilməsini xahiş edirəm.

Ərizənin altında belə bir qeyd var ki, 6 min manat Nəzarətin 14 dekabr tarixli 14588 saylı təxsisat çeki üzrə verilib.[4]

5-ci trimestr tələbəsi İ.Q.Yüzbaşınski mexanika fakültəsi komissiyasına 26 oktyabr 1921-ci ildə ərizə yazaraq bildirib ki, hələ keçən il mən müxtəlif xəstəliklərlə çarpışmalı oldum, bunlar sonda məni tam əldən-ayaqdan salan yatalağa çevrildi. Hədsiz maddi çətinliyimə görə, eləcə də iqlimin əlverişsizliyi üzündən sonrakı ağırlaşmalardan özümü qurtarmaq və səhhətimi bərpa etmək üçün yeganə yol kimi vətənim Qafqaza dönməyi qərara aldım. Təhsilimi davam etdirmək istədiyimə görə Fakültə Komissiyasından mənim tələbə hüquqlarımı bərpa etməyi və yenidən 5-ci trimestrdə saxlamağı xahiş edirəm.[5]

Yüzbaşınskinin sənədləri içərisində maraq doğuran bir bəlgə də var. Azərbaycan Xalq Maarif Komissarlığı işlər idarəsi şöbəsinin 1 noyabr 1922-ci ildə verdiyi 9966 saylı vəsiqədə bildirilib ki, Xarkov Texnologiya İnstitutunun tələbəsi İsmayıl Yüzbaşınski həqiqətən Azərbaycan İctimai Şura Cümhuriyyətinin dövlət təqaüdçüsüdür. Maraqlı burasıdır ki, bu sənədin doğruluğunu həm imza, həm də möhürlə Xarkovdakı… İran baş konsulu təsdiqləyib. Sovet sənədini niyə İran konsulunun təsdiqləməsini, açığı, özümüz üçün aydınlaşdıra bilmədik.[6]

[1] ARDA, fond 51, siyahı 3, iş 142, vərəq 2.
[2] Yenə orada, vərəq 5.
[3] Yenə orada, vərəq 4.
[4] Yenə orada, vərəq 1.
[5] XVDA, fond 1682, siyahı 3, iş 1552, vv. 13-13a.
[6] Yenə orada, vərəq 17.

XTİ mexanika fakültəsi 7-ci trimestrinin tələbəsi Yüzbaşınski öz dekanına 15 yanvar 1923-cü ildə Xarkovda yazdığı ərizədə keçən il xəstəliyi üzündən tələbələr sırasından çıxarıldığını bildirib və yenidən bərpa olunmasını rica edib.[1]

Yüzbaşınskinin tələbə anketində bizə maraqlı olacaq qeydlərdən: milliyəti Türkdür, subaydır, vergiödəyən təbəqədəndir, atası kənd məktəbində Türk dili müəllimidir. Azərbaycan İŞC dövlət təqaüdçüsüdür. İnstituta 1915-ci ildə girib, tələbə biletinin nömrəsi: 1861, anketin doldurulma tarixi: 27 mart 1923-cü il.[2]

AK(b)P MK Katibliyinin 25 sentyabr 1926-cı il tarixli iclasında (bax: 37 saylı protokol) RSFSR-in ali məktəblərində oxuyan və təqaüdlərini ÜK(b)P Zaqafqaziya Diyar Komitəsinin kəsdiyi ASSR-in təqaüdçü tələbələri haqqında məsələ müzakirə edilərək qərara alınıb: RSFSR-in ali məktəblərində oxuyan ASSR-in təqaüdçü tələbələrinin təqaüdünü saxlamaq artırılan siyahıya əsasən (6 saylı qoşmaya bax) ÜK(b)P Zaqafqaziya Diyar Komitəsindən xahiş edilsin.[3] Həmin təqaüdçü tələbələrinin siyahısında İsmayıl Yüzbaşınskinin XTİ mexanika fakültəsində oxuduğu, diplomçu olduğu, 1922/23-cü ildən təqaüd aldığı, Baş layihəni hazırladığı, parovozqayırma üzrə ixtisaslaşdığı, bu layihəni 1927-nin yanvarında bitirəcəyi göstərilir.[4]

XTİ-nun verdiyi diplomun surətində burlar yazılıb: Yüzbaşınski İsmayıl Qafur oğlu – 1 yanvar 1892-ci il doğumlu, keçmiş Texnologiya İnstitutuna qəbul olunub: 1915, 1920, 1923. Bitirib: 30 noyabr 1926-cı il. İxtisası: mühəndis-mexanik. (47 fənn üzrə qiymətləri qeyd edilib. Diplom layihəsini bu mövzuda müdafiə edib: "0-5-0 tipli yük parovozunun layihəsi", qiyməti "yaxşı").[5]

Bakı Sovetinin inzibati şöbəsi 19 mart 1927-ci ildə 2798 saylı belə bir arayış verib ki, İsmayıl Qafur oğlu Yüzbaşınski və İsmayıl Qafur-Əbdürrəhim oğlu Yüzbaşınski həqiqətən eyni adamdır. Bu arayış ali məktəbə təqdim etmək üçün verilib.[6]

Sovet dönəmində Xarkov Texnologiya İnstitutundan köhnə ağ imperatorun adını götürərək ona qırmızı imperator Leninin adını verdilər. Beləliklə, indi onun adını daşıyan Texnologiya İnstitutunun verdiyi 7 aprel 1927-ci il tarixli vəsiqədə göstərilib ki, İsmayıl Qafur oğlu Yüzbaşınski 1 yanvar 1892-ci ildə Bakı valiliyinin Şamaxı şəhərində doğulub, o, həqiqətən, 1915-1920-1923-cü illərdən 1926-cı ilədək Xarkov Texnologiya İnstitutunda mexanika fakültəsində elmlər kursunu dinləyib və İnstitutun tədris planında müəyyən edilmiş bütün tələblərə əməl edib, eləcə də "0-5-0 tipli yük parovozunun layihəsi" mövzusu üzrə müstəqil işi də yerinə yetirib və onun tezislərini 30 oktyabr 1926-cı ildə İnstitutun Sınaq Komissiyası qarşısında müdafiə edib. USSR-in xalq maarifi haqqında qanunlar məcəlləsi əsasında vətəndaş İ.Q.Yüzbaşinski öz ixtisası üzrə məcburi mühəndis stajı keçməyə buraxılır.

7 aprel 1927-ci il, № 738.

(İnstitut direktoru, dekanı və idarə katibinin imzaları)".[7]

Ancaq institutu başa vurmuş Yüzbaşınski Azərbaycana döndümü, burada işlədimi, sonrakı taleyi necə oldu? Bu sualların cavabları gələcək araşdırıcılarını gözləyir.

[1] XVDA, fond 1682, siyahı 3, iş 1552, vərəq 16.
[2] Yenə orada, vv. 20-20a.
[3] ARPİİSSA, fond 1, siyahı 74, iş 689, vərəq 2.
[4] Yenə orada, vərəq 47.
[5] XVDA, fond 1682, siyahı 3, iş 1552, vərəq 2.
[6] Yenə orada, vərəq 7a.
[7] Yenə orada, vərəq 3.

Zeynallı Hənəfi Baba oğlu

(24.03.1896, Bakı – 13.10.1937, Bakı)

Cümhuriyyət tələbələri içərisində adı qürurla çəkilən aydınlarımızdan biri də Hənəfi Zeynallıdır.[1] Aşıb-daşan enerjisini yorulmaq bilmədən xalqının savadlanmasına, maarifləndirməsinə sərf etmiş Zeynallı hərtərəfli bilikli, olduqca geniş dünyagörüşlü və məhsuldar yaradıcı bir insandı. Nə yazıqlar ki, insan qanına susamış vampir kommunistlər onun da həyatına cəmi 41 yaşında son qoydular...

* * *



Məhəmmədhənifə Zeynallı

Hənəfi Zeynallının bir sıra sənədləri ARPİSSA-də saxlanılır. Onun həyatını öyrənmək üçün bu bəlgələr çox önəmlidir. Təəssüf ki, həmin arxiv özəlliklə sovet dönəmində geniş tədqiqatçılar kütləsinin üzünə qapalı olduğuna görə H.Zeynallıdan yazan müəlliflərin əksəri o sənədlərdən xəbərsiz qalıb.

Öz əliylə yazdığı tarixsiz bir tərcümeyi-halı Zeynallının həyatının ilk 23 ili haqqında ən doğru və obyektiv sənəddir. Bolşeviklər partiyasına öz keçmişini tanıtmaq məqsədiylə, görünür, elə təşkilatın tələbiylə 1920-ci illərdə yazılmış bu bəlgədə kommunistlərin "könlünü almaq" istəyi açıq duyulur. Orada oxuyuruq:

"Həm ata, həm də ana tərəfdən babam dəmirçi olub. Atam gəncliyində babamın sənətini davam etdirsə də, sonra özünü inkişaf etdirməsi sayəsində dövlətli qohumların yanında qulluq etməyə başlayıb. Anam ərinin ölümündən sonra şəxsi əməyi (paltar tikmək, təndirdə çörək bişirmək və s.) ilə mənə ibtidai təhsil verməyi bacarıb.

1904-1912-ci illərdə mən həm oxumuşam, həm də eyni zamanda, bütün kasıb balaları kimi, ayaqqabı təmizləmişəm, qəzet satmışam. 1912-ci ildən isə oxumağa başlamışam, o da bazar günü məktəblərində. Yay vaxtı işləyərək qış üçün bir tikə çörək qazanmışam və axırda Texniki Məktəbə girmişəm.

1915-16-cı ildə (onda ayda 20 manat təqaüd alırdım) Moskvaya getdim və Moskva – Kursk və Nijeqorodsk Dəmiryolu Baş İdarəsinə işə girdim. Ali Texniki Məktəbə hazırlaşdım və ora qəbul oldum. Orada sosialist tələbə hərəkatı ilə yaxından tanış oldum.

Moskvaya gedənəcən mən çara qarşı gizli milli-demokratik təşkilatlarda işləmişdim. Bu təşkilatların (məsələn, "Tövhid" partiyasının) terror və bütün Zaqafqaziyanın üsyan etməsi ideyasını təbliğ etməkdən başqa, heç bir müəyyən proqramı yox idi.

Bununla eyni zamanda inqilabi şagird cəmiyyətində ("Məhəmmədiyyə"də) iş aparırdım. Bu sonuncuda Qədirli, Talıblı və qismən R.Axundov (filialda) yoldaşlar və bir sıra başqaları da var idi.

1917-ci ildə müsəlman ümumtələbə qurultayının qərarı ilə mən dinc əhali arasında inqilabi ideyalar təbliğ etmək üçün Qafqaza gəldim.[2] Bakıya gələrkən burada burjua uşaqlarının yaratdığı kiçik bir tələbə komitəsini gördüm. Bu qrup Məhəmmədəmin Rəsulzadənin güclü təsiri altında idi. (Onların ideyası bu idi: türkləşmək, islamlaşmaq və müasirləşmək).

[1] Əsl adı "Məhəmmədhənifə" olsa da bir çox qaynaqlarda, "Hənifə", "Hənəfi" kimi, soyadı isə "Zeynalov" kimi işlədilib. Sənədlərdəki həmin yazılışları da saxlamışıq.

[2] 1917-ci il Fevral inqilabından sonra Rusiya imperiyası ali məktəblərində oxuyan tələbələrin, demək olar ki, hamısı vətənə qayıtmağa məcbur olmuşdu və bunun inqilabi işlə əlaqəsi yoxdu.



Bakı müəllim və şairləri. *Soldan sağa. 1-ci cərgə:* (Mir)bədrəddin Seyidzadə "Bədri", Mirəbdülvahab "Seyid Zərgər", Mikayıl Məhəmmədəli oğlu "Seydi", Əbdülxalıq "Cənnəti", Ağadadaş "Müniri", Mirsadıq "Sadiq", Nemət Bəsir Hacıyev. *2-ci və 3-cü cərgələr:* Hacı Səlim Qasımzadə "Səyyah", Hüseynqulu "Tülui", Mirmahmud Əliəsgərli "Nuri", Ağadadaş Əliəkbərov "Dərviş", Hüseynqulu "Sacid", Nüsrət Ərdəbili, Mirzəbala Qardaş "Xadim", Mirzə Xəlil Canıbəyov, Əliabbas "Müznib", Əliağa "Vahid", Əbdürrəhman "Asim", Əmin "Abid", Sultan "Gülşəni", Məhəmmədhənifə (Hənəfi) Zeynallı, Əlisəttar İbrahimov. 1916

Bu komitəni dağıtdıq və az-çox proletar sovet təlabə cəmiyyəti yaratdıq.[1] *Aprel ayından oktyabradək mən Göyçay, Muğan, Salyan və Şamaxı qəzalarını gəzdim, həm təşviqat və təbliğatda, həm də yeni idarə formalarının yaradılmasında fəal iştirak etdim.*

Həmin ilin avqust ayında mən eserlərə qoşuldum; onların terroru mənim başımı gicəlləndirmişdi. Tezliklə eserlərin müsəlman bölməsini yarada bildim (İsmailiyədə). 3-4 broşür tərcümə etdim. Ancaq oktyabr inqilabı məsələni qəti qoydu – bolşeviklərə münasibətin necədir? Mən bir neçə yoldaşımla sovet yolunu seçdim.

Mart hadisələrindən sonra "Sovdep"in "Xəbərlər"inin redaktoru[2] *təyin edildim, oraya Ruh. Axundovu və başqalarını dəvət etdim, sonra onunla bütün redaksiya işini bölüşdüm... Tezliklə biz sol eserlərin Türk bölməsini yarada bildik. Mənim özüm uzun müddət sol və sağlar arasında, özəlliklə idealizm və materializm arasında tərəddüd edirdim. Ancaq Moskvada sol eserlərin üsyanından sonra (onda mən həm "Xəbərlər"in, həm də sol eserlərin eyni adlı təşkilatının orqanı olan "Əkinçi"nin redaktoru idim) bolşevik ədəbiyyatı ilə maraqlanmağa başladım. 1919-cu ildə sol eserlər "Hümmət"lə qovuşanda mən də Azərb. KP sıralarına girdim. Bundan sonrasının hamısı partkomlara bəllidir".*[3]

[1] Bu fikirləri söyləyərkən H.Zeynallı səmimi deyil, ancaq bu sənədin kommunistlərə hesabat kimi yazıldığını nəzərə almalıyıq. Ümumiyyətlə, Zeynallının 1920-ci ildən sonra istər azadlıqda, istərsə də həbsdə Rəsulzadə və Müsavata, millətçilərə qarşı bütün yazdıqlarını anlayışla qarşılamalıyıq, çünki o, gerçək bir Türk millətçi ziyalısı idi və heç zaman idealist kommunist olmamışdı. Onun bir idealı vardı – çalışdığı hansı sahə olur-olsun, orada xalqına fayda verməlidir!

[2] Nəşr "Bakı ətrafı fəhlə, əsgər və matros şurasının xəbarı" adlanırdı. Bakıda 1918-ci ildə 86 sayı çıxmışdı. Redaksiya heyəti: Məhəmmədhənifə Zeynallı, Ağababa Yusifzadə, Ruhulla Axundov və b.

[3] ARPİSSA, fond 1, siyahı 8, iş 2424, vv. 5-5a.

* * *



Texniki məktəbin şagirdi Məhəmmədhənifə Zeynallı

Hələ 1980-ci illərin sonu - 1990-cı illərin lap başlanğıcında Azərbaycan EA Elmi Arxivində H.Zeynallının şəxsi işi ilə tanış olmuşduq. Həmin şəxsi işdə həm özünün doldurduğu anketi, həm də öz əliylə yazdığı tərcümeyi-halı var (təbii ki, bütün sənədlər ruscadır).

15 mart 1934-cü ildə tərtib edilmiş anketində özünün verdiyi bilgilər əksini tapıb. Burada göstərilib ki, H.Zeynallı folklor bölməsinin rəhbəridir və baş mütəxəssisdir, 400 manat maaş alır, Türkdür, ali təhsilini ADU-da alıb. Elmi əsərləri: 1) "Azərbaycan atalar sözləri", 1926; 2) "Azərbaycan tapmacaları", 1928; 3) "M.F.Axundovun yaradıcılığı", 4) "Türk poeziyasında ağının inkişafı"; 5) "Türk folkloru: məzmunu, mövzusu və təsnifatı"; 6) "Türk poeziyasının inkişafı haqqında" və s.

1919-cu ildən AK(b)P-nin üzvüdür. Ev ünvanı: Aziatski küçəsi,[1] 78.[2]

10 aprel 1936-cı ildə yazdığı tərcümeyi-halı isə məzmunca daha genişdir və demək olar ki, bütün həyatını əks etdirir. Həm də burada o, elmi yaradıcılığına da yetərincə yer ayırıb. Oxuyaq:

"Mən – Hənifə Baba oğlu Zeynallı 1896-cı ildə Bakıda fərdi dəmirçi-nalbənd ailəsində doğulmuşam. Babam nalbənd Zeynalabdin Mərdəkan kəndinin məşhur ustası kimi bütün Abşeron yarımadasında tanınırdı.

6 yaşımda atadan yetim qaldım, anama sığındım. O, dövlətli qohumlarımızın yanında işləyərək məni böyütdü və ibtidai təhsilimi öncə rus-türk ibtidai məktəbində, sonra isə ali ibtidai məktəbdə almağıma imkan yaratdı.

12 yaşımdan müstəqil həyata atılaraq ailəni saxlamağa və oxumağa başlamışam. 1915-16-cı ildə Bakı Orta Politexnik Məktəbini bitirərək müsabiqə imtahanları ilə Moskvada keçmiş İmperator Texniki Məktəbinə – indiki Bauman adına Ali Texniki Məktəbə girmişəm. 1917-ci ildə Fevral inqilabından sonra may ayından başlayaraq ictimai işə atıldım, texniki təhsili buraxdım və 1922-ci ildək partiya-ictimai və sovet təşkilati iş apardım.

1919-cu ildən partiyadayam. 1917-ci ildən müəllimlik edirəm.

1922-ci ildə ADU-ya girərək oranı 1927-ci ildə bitirmişəm. 1927-28-ci ildən keçmiş Şərq fakültəsində, sonra Ali Pedaqoji İnstitutda "Azərbaycan Türk ədəbiyyatı tarixi" kafedrasına elmi işçi qəbul olunmuşam. İlk vaxtlar professorlar Çobanzadə (Türk ədəbiyyatı tarixi və türkologiya), S.Vasilyev (fəlsəfə), [Mühiddin] Birgen (siyasi iqtisad), Baqri (rus ədəbiyyatı tarixi) və başqalarının rəhbərliyi altında işləmişəm. Sonra özəl dosent hüququnda "Azərbaycan Türk ədəbiyyatı tarixi" üzrə müstəqil müəllim işləmişəm (1930), sonra isə dosent hüququnda Ali Pedaqoji Məktəbdə həmin kafedrada həm "Azərbaycan Türk ədəbiyyatı tarixi", həm də "Dünya ədəbiyyatı tarixi"ndən dərs demişəm.

Tədris-pedaqoji işimlə eyni zamanda 1922-ci ildən mətbuatda çalışmış, elmi-tədqiqat, tənqidi iş aparmışam. İlk vaxtlar (1922-23) türkcə "Kommunist" qəzetində redaksiya heyətinin üzvü kimi işləmişəm. 1923-cü ildən Azərbaycan Dövlət Nəşriyyatının təşkilatçısı və "Azərnəşr"in baş redaktoru kimi çalışmışam.

Bu müddət boyunca Azərb. SSR-də nəşr edilmiş bütün elmi-ədəbi məhsul mənim əlimdən keçib və onlara uyğun önsözləri yazmışam. "Azərnəşr"dəki işimlə yanaşı olaraq ədəbi-publisist iş də aparır, "Kommunist" qəzetində, "Maarif və mədəniyyət", "İnqilab və mədəniyyət", "Maarif işçisi" jurnallarında (1923-31) tənqidi məruzələr və məqalələrlə çıxış edirəm.

[1] İndiki Əliövsət Quluyev küçəsi.

[2] Azərbaycan EA MEA, fond 39, qutu 4, iş 71, vərəq 1.



"Kommunist" qəzetinin əməkdaşları. *Soldan sağa. 1-ci cərgə:* Dostu Səfərova, Məryəm. *2-ci cərgə:* Məhəmmədqulu Əlixanov, Hənəfi Zeynallı, Məhəmməd Said Ordubadi, Ruhulla Axundov, Dadaş Bünyadzadə, Əhməd Bədi Tiniç, Əliheydər Qarayev, Mircəfər Bağırov. *3-cü cərgə:* Əliəkbər Heydərli, Əhməd Hacınski, Mahmud Nədim Qaragözov (Şəkidən), Abbas Hilmi, Məhəmmədəli Sidqi, Qədir Heydərov (Buzovnadan), Balaqardaş Mürşid ("Təəssübkeş"), (?), Sviridov, Seyid Hüseyn Sadiq. *4-cü cərgə:* Mahmud Sadıqov (Qarabağdan), Süleyman Məlikov "Əbülhövl" (Pirşağadan), Əli Razi Şamçızadə, Hidayət Mahmudov (Qarabağdan), Abuzər. Bakı, 1923

Mənim elmi araşdırma işlərim 2 istiqamətdə gedib:

1) Dərsliklərin tərtibi və orta məktəbin son sinifləri üçün başlıca olaraq ədəbiyyata dair metodik vəsaitlərin hazırlanması üzrə. Bəllidir ki, dərsliklərin tərtibi təcrübəsində yeganə orijinal iş milli ədəbiyyatdır.[1] *Azərbaycan ədəbiyyatı tarixi üzrə (bu tarix hələ yazılmayıb) yardımçı materialların və vəsaitlərin yoxluğu araşdırmaları zəruri edir.*

2) Azərbaycan Türkləri folklorunun yığılması və sistemləşdirilməsi üzrə. Mənim bu sahə üzrə işim bütün başqa işlərimlə yanaşı gedib və bugünədək davam edir.

3) 1930-cu ildən başlayaraq Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun (Az.DETİ) Ədəbiyyat Bölməsində folklor üzrə rəhbər işləyirəm və eyni zamanda AK(b)P MK-nın təklifi ilə V.İ.Leninin 6 cildlik əsərlərinin tərcüməçiləri və subredaktorları sırasına daxiləm. Birinci xətt üzrə işim Az.DETİ-nin bağlanmasınadək davam edib; ondan sonra APİ-də müəllimlik işimi davam etdirməklə, bütünlüklə V.İ.Leninin əsərlərinin tərcüməsinə girişmişəm və 1935-ci ildək Şaumyan adına institutda işləmişəm.

Eyni zamanda 1933-34-cü ildə Partiya nəşriyyatında işləmiş və marksizm-leninizm klassiklərinin əsərlərini redaktə etmişəm.

Hal-hazırda EA Azərbaycan Filialında işləyirəm və 1934-cü ildən Ədəbiyyat Bölməsinin folklor bölümünə rəhbərlik edirəm və "Azərnəşr"in redaktoru işləyirəm".[2]

[1] Müəllif demək istəyir ki, yalnız ədəbiyyat dərsliklərini özümüz yaradırıq, başqa fənlər üzrə dərsliklər və metodik göstərişlər tərcümə olunur.

[2] EA MEA, fond 39, qutu 4, iş 71, vv. 2-4.



"Kommunist" qəzetinin "heyəti-təhririyyə"si (redaksiya heyəti) *(soldan sağa):* Hənəfi Zeynallı, Əhməd Bədi Trinić, Məhəmməd Səid Ordubadi. ("Kommunist" qəzetindən)

***

Dəyərli araşdırmaçı, prof. Teymur Əhmədov da "XX əsr Azərbaycan yazıçıları" adlı sanballı əsərində H.Zeynallının həyat və yaradıcılığı haqqında qısa, ancaq sanballı bir faktlar toplusu hazırlayıb. Adı çəkilən kitabdakı "Hənəfi Zeynallı" məqaləsindən oxuyuruq ki, Zeynallı Bakıda 7 saylı rus-türk məktəbini bitirib, burada 3 saylı Aleksey ali ibtidai məktəbində oxuyub. 1914-cü ildə "Namus" adlı ilk hekayələr kitabı kütləvi tirajla çap olunub. 1917-ci ildən ilk şeir və hekayələrini çap etdirib. 1920-ci ildə o, İstanbul Universitetinin hüquq fakültəsinə qəbul olunsa da, geri çağırılıb, Azərbaycan rayonlarına (Göyçay, Salyan, Şamaxı və Şuşa qəzalarına) partiya təşkilatı işinə göndərilib.[1] 1922-27-ci illərdə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsində təhsil alıb.

1923-29-cu illərdə Azərbaycan Dövlət Nəşriyyatında baş redaktor, 1930-35-ci illərdə SSRİ EA Azərbaycan Filialı Dil və Ədəbiyyat İnstitutu folklor şöbəsinin müdiri işləyib.

1923-cü ildə təşkil olunan Azərbaycan Ədib və Şairlər İttifaqı Rəyasət Heyətinin sədr müavini seçilib.

"Həyat və sənət" (1923), "Ağız ədəbiyyatı", "Azərbaycanda el ədəbiyyatı" (1926) ədəbi irsin toplanması, nəşri və tədqiqi problemlərinə həsr edilib. İlk dəfə geniş müqəddimə ilə "Bayatılar" (1925) toplusunu, "Azərbaycan atalar sözü və məsəlləri" (1926), "Azərbaycan tapmacaları" (1928), "Dastanlar və nağıllar" (1929) kitablarını çap etdirib. "Ədəbiyyatdan iş kitabı"nın (1928) müəlliflərindən biri və redaktorudur.[2]

[1] Göründüyü kimi, bu cümlədə fikir yanlışlığı var, çünki özünün yazdığı tərcümeyi-halından görürük ki, o, adı çəkilən rayonlara 1917-ci ildə gedib.

[2] *Əhmədov T.* XX əsr Azərbaycan yazıçıları. Ensiklopedik məlumat kitabı. Bakı, 2004, ss. 364-365.

***

Bunlar Zeynallının tərcümeyi-halı haqqında toplu bilgilərdir. Ancaq onun həyatı ilə bağlı indiyədək yazılarda əksini tapmamış bir çox maraqlı məqamlar da var. Onlardan bəzilərini burada təqdim edirik.

"Zeynalov Məhəmmədhənifə" Moskvada öncə Kommersiya İnstitutunda oxumağa üstünlük verib. Bu üzdən sənədlərini öncə həmin instituta təqdim edib və bir müddət oranının tələbəsi olub.[1]

Özünün yazdığı tərcümeyi-halında oxumasına Bakı dövlətlilərindən Əli Əsədullayevin yardım göstərdiyini bildirib. Sənaye məktəbi mütəəllimlərindən[2] Məhəmmədhənifə Zeynallı bu haqda "İqbal" qəzeti redaktoruna məktub göndərərək "izhari-təşəkkür" bildirib:



Hənəfi Zeynallı. 1930-cu illər

"Möhtərəm əfəndim! Bakı sərvətdarlarından Əli Əsədullayev həzrətləri bənim kasıb və biçizliyimi nəzərə alıb ildə 50 manat həqqi-təlim verməklə bərabər, ayda 20 manat dəxi ianə edəcəklərini vəd buyurduqlarından və builki təlim haqqı olan 50 manatı ianə etdiklərindən, bəni okumak yolunda hər kəsə əl açmaq zəhmətindən xilas etdilər. Bəni hər bərədən təmin edən Əli Əsədullayev həzrətlərinə qəzetəniz vasitəsilə təşəkkürümü izhar etməyi zati-alilərinizdən rica və təmənna ediyorum".[3]

H.Zeynallı bədii-elmi yaradıcılığa hələ məktəb illərindən böyük maraq göstərib. Tanınmış müəllimlərdən Əliməmməd Mustafayev öz xatirələrində qeyd edib ki, mən və Ağa bəy İsrafilbəyov ikinci bir nəşriyyat şirkəti düzəldib adını da "Ümid" qoyduq. Bu şirkətin üzvləri hər ay öz məvaciblərindən müəyyən faiz şirkətin nəfinə verirdi. Şirkət tez bir zamanda işə başladı. Şirkətdə Hənəfi Zeynallının "Namus",[4] Axund Zəkinin "Yədi-bəyza" kitablarını çap etdirdik".[5]

Onun peşə seçimi ilə bağlı maraqlı bir fakt mövcuddur. Bunu Ruhulla Axundov haqqında geniş araşdırma aparmış Rusiya tarixçiləri üzə çıxarıb. R.Axundov haqqındakı həmin məqalədə oxuyuruq:

"Hələ inqilabaqədərki dövrlərdən Ruhullanın dostu olmuş H.Zeynallı onun peşə seçiminə Ruhullanın qarışmasından şikayətlənib. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra H.Zeynallı özünün çoxdankı həkim olmaq arzusunu gerçəkləşdirməyi qərara alıb. Bir neçə il o, Tibb İnstitutunda oxuyub,[6] ancaq 1925-ci ildə R.Ə.Axundov onu çağırıb və bildirib ki, Moskvaya Qırmızı Professorlar İnstitutuna oxumağa getməlisən və bu vaxt deyib: "Ya partiya bileti, ya da tibb. Bizim partiya həkimlərinə ehtiyacımız yoxdur, sən isə bizə ədəbiyyatda lazımsan". H.Zeynallı yenə ona qulaq asmayıb və həkim diplomu alıb, ancaq R.Ə.Axundov da ona həkim işləməyə imkan verməyib".[7]

***

Görkəmli alim və jurnalist, tərcüməçi... Hənəfi Zeynallının ömür yolu haqqında ümumi təsəvvür yaratdıqdan sonra onun həyatının ən az öyrənilmiş dönəmi olan 1919-1920-ci illərdəki fəaliyyətindən söz açaq.

[1] MŞMDTA, fond 417, siyahı 14, iş 641.

[2] Şagirdlərindən.

[3] *"İqbal"* qəzeti, 24.12.1913, № 537.

[4] *Zeynallı M.* Namus. Birinci müsəlman "Ümid" nəşriyyat şirkətinin nəşri. Övvəlinci təb. I-V kitablar. Bakı, 1914.

[5] *Mustafayev Ə.* Xatirələri, hekayə və felyetonları, s. 95.

[6] Burada yanlışlıq var – Zeynallı Tibb İnstitutunda deyil, ADU-nun tibb fakültəsində oxuyub.

[7] *Ашпин Ф.Д., Алпатов В.М.* Дело Рухуллы Ахундова. // *"Восток"*, 2000, № 2, s. 94.



Hənəfi Zeynallı. 1930-cu illər

Zeynallı 19 noyabr 1919-cu ildə Azərbaycan Məclisi-Məbusan (Parlaman) idarəsində Türk stenoqrafı təyin edilib. Bu haqda olan 30 saylı əmrdə yazılıb:

"Hənəfi Zeynallı 1334 sənəsi təşrini-əvvəlin 19-dan etibarən Məclisi-Məbusan cəlsələri məzbətə mühərrirliyinə təyin edilir".[1]

Hənəfinin uşaqlıq dostlarından biri sonralar mətin müsavatçı kimi tanınmış görkəmli alim və jurnalist Əbdül Əbdülzadədir. Hənəfi onunla birgə Bakıda Sənaye Məktəbində və sonra İstanbul Universitetində oxuyub. Cümhuriyyət dönəmində də onları həmişə bir yerdə görürük. Maraqlıdır ki, 31 saylı əmrlə də Əbdül Əbdülzadə eyni gündə eyni vəzifəyə təyin edilib.[2]

Hənəfi və Əbdülün Parlaman idarəsi kimi ən mühüm bir dövlət orqanında məsul işə götürülməsi heç də təsadüfi deyildi. Onlar həmin vaxtadək "Azərbaycan" qəzetində çox dəyərli yazıları ilə qələmlərinə hörmət qazandırmışdılar. "Azərbaycan" qəzeti redaksiyasında çəkilmiş, ortada Məhəmmədəmin Rəsulzadə və onun yanında Üzeyir bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, müxtəlif dövlət adamları və qəzetin yaradıcı heyəti təsvir olunan nadir bir fotoda da (613-cü səhifəyə baxılsın) Zeynallı ilə Əbdülzadəni qoşa görürük.

16 yanvar 1920-ci ildə İstanbula oxumağa getdiklərinə görə Məclisi-Məbusan rəisinin birinci müavini, əslində isə gerçək rəisi Həsən bəy Ağayev bu dostların 17 yanvardan qulluqdan çıxarılması haqqında əmr verib.[3]

* * *

İndi də Cümhuriyyət tələbəsi Məhəmmədhənifə Zeynalov/Zeynallı ilə bağlı sənədləri gözdən keçirək.

Cümhuriyyət tələbələrinin AR Dövlət Arxivində saxlanan şəxsi işlərindəki sənədlərin 95 faizdən çoxu ruscadır. Maraqlıdır ki, bir neçə nəfəri çıxmaqla yalnız Türkiyəyə oxumağa getmək istəyənlər ərizələrini ana dilimizdə – türkcə (təbii ki, ərəb əlifbasında) yazıblar. Məhəmmədhənifə Zeynallı da onların içərisindədir. Onun da ərizələri başqa tələbə yoldaşlarınınkı kimi təntənəli bir üslubdadır və ədəbi dil tariximizi öyrənmək baxımından bugünkü araşdırıcıya dəyərli material verir.

6 avqust 1919-cu ildə AC Maarif Nəzarətinə yazır:

"Maarif Nəzarəti-cəliləsinə.

Bəndələri[4] *Bakı Sənaye Edadisindən*[5] *başəhadətnamə nəşətlə*[6] *ikmali-təhsili-fənn və sənaye üzrə bir sənə Moskov Ali Sənaye Məktəbinə davam etmiş və ikinci sənəyə başladıqda ixtilali-kəbirin*[7] *tələb etdiyi kibi, xalq içində çalışmaq üçün vətənə gəldim. Fəqət ixtilalın azğın dalğaları oraya övdət*[8] *yollarını qapayıb, bir çoklarıyla bərabər bəndələrini də burada buraktı. Şimdi ya sənayeni bitirmək, fənni-sənayedən elektrik və mexanik şöbəsini təkmil ilə bu babda kəsbi-ixtisas etmək qəsdiylə Almaniya darülfünunlarında və yaxud Ali Sənaye Məktəbində təhsil üçün, xayır, buraya göndərilmək və getmək imkan xaricində olursa İstanbulda*

[1] *"Azərbaycan"* qəzeti, 1 dekabr 1919, № 334, s. 1.
[2] Yenə orada.
[3] ARDA, fond 895, siyahı 1, iş 22, vərəq 24.
[4] Özünü nəzərdə tutur.
[5] Orta Sənaye Məktəbindən.
[6] Şəhadətnamə ilə bitirərək.
[7] Böyük inqilabın.
[8] Dönüş.

Darülmüəlliminin ali məktəb qismində fənn tədris ikmalı üçün Nəzarəti-cəlilə tərəfindən məmaliki-əcnəbiyyədə ikmali-təhsilə göndəriləcək tələbə (müdavim) sırasına bəndələrinin də daxil buyurulmasını təmənna edərdim.

Əhvali-beytiyyəcə validəmdən başqa hələlik bir kimsəm yoktur. Kəndim ilə validəmi bir zaman kəndi əməyim ilə [dolandırmış] və sərvətdarlardan Əli Əsədullayevin bəzi müavinətilə məktəbə də davam edə bilmişəm. İştə məmaliki-əcnəbiyyədə təhsilə davam edəcəyim vəqt maddi cəhətdən Dövləti-Cümhuriyyənin Nəzarəti-cəliləsi tərəfindən təmin olunmaq və təhsilim xitamında müddəti-mülazimə bu vətənə xidmət etməyi təəhhüd edərəm, əfəndim.

6-8-[13]35.[1]

İxtar.[2] *İşbu ərzi-hal ilə bərabər rusca olaraq 264/1235 nömrülü şəhadətnamə surəti və 301 nömrülü təvəllüdnaməmi təqdim ilə kəsbi-iftixar və şərəf edirəm.*

Ali Moskov Sənaye Məktəbi (İmperatorski) müdavimlərindən (tələbələrindən) və təlifat komisyonu əzasından Məhəmmədhənifə Zeynalov (Zeynallı)".[3]

1919-cu ilin oktyabrında Maarif Nəzarətinə növbəti məktubunda yazıb:

"Maarif Nəzarəti-cəliləsinə.

Bəndələri vermiş olduğum istidaya lahiqə olaraq[4] *şu vərəq parəsi ilə ərz etmək istərdim ki, bən 1916-cı sənəsi ağustos nəhayətlərində Moskov Ali Sənaye Məktəbə daxil olaraq birinci sənədə iki semestr imtahanını verdikdən sonra üçüncü semestrə qeyd edilmiş idim. Hər halda bir buçuq yıl ali məktəbdə təhsil etdiyimi nəzərə alaraq əski darülfünun müdavimlərindən (tələbələrindən) ədd edilməmi istirham edərəm, əfəndim.*

10.10.[19]19.

Ali Sənaye Məktəbi müdavimlərindən və Maarif Nəzarətinin təlifat komisyonu əzasından (M.Zeynallının qolu)".[5]

Sənədin altında qeyd edib ki, xarici pasportu və bütün sənədləri aldım.

Bu ərizədə diqqəti çəkən maraqlı bir məqam var – Zeynallı özünü "Maarif Nəzarətinin təlifat komisyonu əzası", başqa sözlə, dərsliklərin yazılması üzrə komissiyanın üzvü kimi təqdim edir. Doğrudur, bu komissiyanın fəaliyyəti və orada Zeynallının iştirakı haqqında əlimizdə tutarlı bəlgələr yoxdur, ancaq bu qeydin özü də göstərir ki, dərslik yaradılması işinə Zeynallı hələ 1919-cu ildən başlayıbmış.

Onun "Məmaliki-Əcnəbiyyəyə Tələbə Ezamı[6] Komisyonuna" yazdığı ərizə xarici ali məktəbdəki ixtisasını dəqiqləşdirməklə bağlıdır:

"Bakı Sənaye Məktəbindən sonra bir buçuq sənə Ali Sənaye Məktəbinə davam etdiyim həsəbi ilə Almaniyada Dağ-Mühəndis Məktəbinə ezam edilməmi layiq görüldüyümdən naşi,[7] *Komisyona mütəşəkkir və minnətdar olduğumu bəyan ilə, vətənin atidə*[8] *sənayedən ziyadə inkişafi-elmiyə (ümranə, kültürə*[9]*) ehtiyacı olduğunu nəzərə alaraq və əməliyyatdan ziyadə nəzərə daha müştaq və həvəskar olduğumu gördüyüm üçün Dağ-Mühəndis Məktəbi deyil, əvvəla İstanbul, olmazsa Almaniya darülfünunlarından birində təhsil etmək üzərə göndərilməmi istirham edərəm. Əks halda Komisyonun bana qarşı ibraz etdiyi*[10] *iltifatından,*

[1] Miladi təqvimlə 6 avqust 1919.
[2] Bilgi.
[3] ARDA, fond 51, siyahı 3, iş 83, vərəq 1.
[4] Qoşularaq, artırılaraq.
[5] ARDA, fond 51, siyahı 3, iş 83, vərəq 3a.
[6] Əcnəbi məmləkətlərə tələbə göndərilməsi.
[7] Layiq görüldüyümə görə.
[8] Gələcəkdə.
[9] Abadlığa, mədəniyyətə.
[10] Sərgilədiyi.

məəttəəssüf, sərfi-nəzərlə[1] *kəndimi dəxi hər dürlü qüyudat və şəraitdən*[2] *azad görməyə cəsarət edərəm, əfəndim.*

19.10.1335.[3] *Bakı. Əzamı səvab görülmüş*[4] *tələbədən (M.Zeynallının imzası)".*[5]

Moskva Ali Texniki Məktəbinin 2-ci kurs tələbəsi Məhəmmədhənifə Zeynallı 1 noyabr 1919-cu ildə AC maarif nazirinə yazdığı son ərizədə Almaniyadakı Haydelberq Universitetinə getmək istədiyini yazıb,[6] ancaq, görünür, siyahı artıq dəqiqləşdiyinə görə onun bu istəyi nəzərə alınmayıb.

M.Zeynallı təhsilini bitirdikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin göstərdiyi yerdə 4 il işləyəcəyi haqqında[7] və oxuyacağı dövlətin ərazisində heç bir siyasi və partiya işinə qoşulmayacağı haqqında[8] 31 dekabr 1919-cu ildə dilkağızları verib.

Məhəmmədhənifə Zeynallıya Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən dövlət hesabına ali təhsilini başa vurmaq üçün xaricə göndərilməsi haqqında 15 yanvar 1920-ci ildə 589 saylı vəsiqə verilib.[9]

Məhəmmədhənifə Zeynallı 14 yanvar 1920-ci ildə Bakı vağzalından yola düşdü. Bu haqda türkcə "Azərbaycan" qəzeti 18 yanvar sayında yazırdı: "Avropaya təhsilə gedəcək tələbələr içərisində "Yaşıl qələm" dərnəyinin fəal və çalışqan üzvlərindən Əli Yusif və Hənifə Zeynallı ilə bərabər bir neçə sair, gənc ədəbiyyat maraqlılarının şərəfinə olaraq "Yaşıl qələm" heyətidarəsi tərəfindən kanuni-saninin[10] 13-də bir çay məclisi tərtib edilmişdi. Çay məclisində "Yaşıl qələm" üzvləri ilə bərabər bir çok ədəbiyyat maraqlıları, Osmanlı şair və müharrirlərindən Feyzulla Sacid və Rəşid Sürəyya bəylə arkadaşları və möhtərəm Məhəmmədəmin Rəsulzadə həzrətləri də hazır idilər...

...Sabahısı – kanuni-saninin 14-də "Yaşıl qələm" dərnəyi üzvləri kəndi arkadaşlarını müşayiət və son vida etmək məqsədi ilə istasyonda hazır bulunmuşlardı. Salman Mümtaz əfəndinin ciddü cəhdi sayəsində müteəfərriq surətdə bulunan[11] 30 nəfər tələbə bir araya toplanmış, "Yaşıl qələm" dərnəyinin məsarifətiylə[12] böyük bir ustol açılaraq çaylar içilmiş, yenə nitqlər söylənmişdir.

Saat 9-da tren Batuma mütəvəccehən[13] hərəkət etmişdir".[14]

Zeynallı İstanbul Universitetində oxuyub. Cümhuriyyət yıxılınca bolşeviklər Türkiyədə oxuyan tələbələri Bakıya geri çağırdılar. Zeynallı da bir neçə aydan sonra artıq Bakıda idi...

* * *

AR Dövlət Arxivindəki sənədlər içərisində ASSR Xalq Maarif Komissarlığı (XMK) nəşriyyat şöbəsinin ("Azlit"in) müdiri H.Zeynallının görülmüş işlərlə bağlı 3 səhifəlik tarixsiz hesabatı var. Burada onun sovet hakimiyyətinin ilk illərində dərslik yaratmaq sahəsində gördüyü konkret işlər sadalanıb.[15]

[1] Vaz keçərək.
[2] Hər cür qeydlər və şərtlərdən.
[3] 19.10.1919.
[4] Göndərilməsi düzgün sayılmış.
[5] ARDA, fond 51, siyahı 3, iş 83, vərəq 4.
[6] Yenə orada, vərəq 5.
[7] Yenə orada, vərəq 6.
[8] Yenə orada, vərəq 7.
[9] Yenə orada, vərəq 8.
[10] Yanvarın.
[11] Ayrı-ayrılıqda olan.
[12] Xərciylə.
[13] Üz tutaraq.
[14] "Yaşıl qələm"də. // *"Azərbaycan"* qəzeti, 18 kanuni-sani (yanvar) 1920, № 14, s. 3.
[15] ARDA, fond 57, siyahı 1, iş 260, vv. 34-35.

Zeynallının 15 mart 1923-cü ildə imzaladığı "Azlit"in ştatlı əməkdaşlarının siyahısında 11 nəfər olsa da onlardan yalnız 5-nin faktik işlədiyi və təkcə 3-nün (M.Zeynallı, Əsəd Şeyxov və Fatma Tlexas) Türk olduğu görünür.[1]

Xalq Maarif Komissarlığı 14 aprel 1923-cü ildəki Kollegiya yığıncağında (13-cü protokol) 11-ci məsələ olaraq Türk teatrının yubiley fondu haqqında komissar M.Quluyevin təklifini müzakirə edib və fondu yaratmaq üçün ianə toplamağı məsləhət görüb və bu işin təşkilini Əhməd Pepinovla Məhəmmədhənəfi Zeynallıya həvalə edib.[2]

Zeynallı 4 iyun 1923-cü ildə xalq maarif komissarına yazdığı 3 səhifəlik başqa hesabatında nəşriyyat şöbəsinə ögey münasibət bəslənildiyini, əməkdaşların maaşının həddən az olduğunu və vaxtlı-vaxtında verilmədiyini tənqid edir, işi yaxşılaşdırmaq üçün konkret təkliflər irəli sürür və işin normal gedişini dayandırmamaq üçün həmin təkliflərin 1 may tarixindən təsdiqlənməsini tələb edir.[3]

Zeynallının 22 sentyabr 1923-cü ildə bu şöbənin 1 yanvardan 15 sentyabradək gördüyü işlər haqqında hazırlayıb təqdim etdiyi hesabatda aylar üzrə nələrin və neçə nüsxə nəşr olunduğu göstərilib. Məsələn, yanvarda "Maarif və mədəniyyət" jurnalının 1-ci sayı (1.000 nüsxə), fevralda Əli Rağib Qasımovun türkcə "Məsələlər" (6.000 nüsxə), türkcə "Tələbə həyatı" jurnalı (500 nüsxə), mart ayında "Maarif və mədəniyyət"in 2-ci sayı (1.000 nüsxə), M.M.İbrahiminin "Fars ədəbiyyatı nümunələri" (2.000 nüsxə), Qafur Rəşadın "Coğrafiya"sının 4-cü hissəsi (3.000 nüsxə), "Azərbaycan Dövlət Universiteninin əxbarı", № 2, I yarımil (500 nüsxə), apreldə R.İsmayılovun "Azərbaycan tarixi" (2.000 nüsxə), mayda "Türk teatrı tarixi" (1.000 nüsxə), Əbdül Əbdülzadənin tərcüməsində Hehen Millerin "Mexanika"sı (2.000 nüsxə), iyun-iyulda Məhəmmədhənifə Zeynallının "Həndəsə" (I və II hissələr, 4.000 nüsxə), Mühiddin [Birgen]in "Psixologiya" (2.000 nüsxə), D.Şərifovun "Mədəniyyət tarixi" (10.000 nüsxə), avqust-sentyabr "Yeni türk əlifbası" (15.000 nüsxə), A.Şaiqin "İşçinin ikinci kitabı" əsərləri və s. nəşr olunub.[4]

Hesabatda göstərilib ki, bu əsərlər nəşrə hazırdır: Mühiddin [Birgen]in "Türk dilinin etimologiya və sintaksisi" (I-IV cildlər), Harun ər-Rəşidin "Botanika", Şərifovun "Azərbaycan coğrafiyası" və s.[5]

25 dekabr 1924-cü ildə XMK kollegiyasının iclasında (46-cı protokol) 11-ci məsələ kimi Azərbaycan Dövlət Nəşriyyatı nəşrlər bölməsinin müdiri Sami Kamalın 1 sentyabr-25 dekabr 1924-cü il arasındakı fəaliyyəti haqqında məruzəsi dinlənilib. Məruzədə 2-ci məsələ türkcə dərsliklərin dili və terminologiyasıdır. Çıxarılan qərarda nəşriyyat bölməsinə tapşırılıb ki, türkcə kitab və dərsliklər nəşr edilərkən *yalnız Azərbaycan şivəsinə əsaslanılsın və dil sadələşdirilsin,* buna görə tərcümə edilmiş kitabların şivəsini yoxlamaq və düzəltməkdən ötrü bölmənin ştatına bir məsul katib daxil edilsin.[6] Başqa sözlə desək, əslən Türkiyədən olan kommunist Sami Kamalın dərslik işinə cəlb edilməsi ilə dərslik və kitablarda indiyədək mövcud olan, İstanbul şivəsinə üstünlük verilən ortaq türk ədəbi dilinə qarşı müharibə elan edilib, halbuki indiyədək M.Zeynallı Türkiyə və Azərbaycanın ortaq dildə yazması prinsipini dərsliklərdə ciddi gözləmişdi.

[1] ARDA, fond 57, siyahı 1, iş 260, vərəq 143.
[2] Yenə orada, vərəq 178.
[3] Yenə orada, vv. 74-75.
[4] Yenə orada, vərəq 272.
[5] Yenə orada, vərəq 273.
[6] Yenə orada, iş 264, vərəq 35a.

Bu da maraqlıdır ki, H.Zeynallı ədəbiyyatçı-folklorçu kimi məşhur olsa da bir sıra riyaziyyat üzrə kitabların da müəllifidir. Məsələn, 1923-cü ildə Maarif Komissarlığı Təlif və Tərcümə Əncüməni onun "Müsəvvər müxtəsər üsuli-həndəsə" kitabını nəşr etmişdi.[1]

Zeynallı yalnız dərslik nəşri və tərcümələrlə məhdudlaşaraq qalmır, mətbuatda bir-birindən maraqlı elmi-tənqidi yazıları ilə çıxış edirdi. İlk vaxtlar Hüseyn Cavid yaradıcılığına ciddi diqqət yetirərək *"Şeyda" xüsusunda qısa bir mülahizə"*,[2] *"Maral" xüsusunda qısa mülahizə"*,[3] *"Hüseyn Cavidin yazdığı "Peyğəmbər" haqqında mülahizələrim"*,[4] *"Şeyx Sənan" haqqında mülahizələrim"*[5] kimi sanballı təhlili məqalələrini ortaya qoyan müəllif getdikcə cəsarətlənir və ədəbiyyatşünaslığımıza istiqamət verən əsərlər ortaya qoyurdu. Bu yazılarının çoxunu mərhum ədəbiyyatşünasımız, görkəmli mətnşünas Rasim Tağıyev bir yerə toplayıb nəşr etdirdiyindən, onlar haqında burada danışmağı artıq sayırıq.

* * *

1935-ci ildə Moskvada "Academia" nəşriyyatı rusca 668 səhifəlik "Azərbaycan Türk nağılları" kitabını nəşr edib. Tərcümə, məqalə və şərhlər A.V.Baqri və H.Zeynallınındır.[6] Burada Baqrinin "Toplunun tərtibçisindən" önsözü,[7] Zeynallının isə geniş "Azərbaycan Türk nağılları" adlı elmi-nəzəri-təhlili məqaləsi[8] var. Çox təəssüf ki, bu əsərdən söhbət düşərkən, nədənsə, Hənəfi Zeynallının adı unudulur və yalnız Baqrinin adı xatırlanır. Biz Baqrinin əməyini əsla danmırıq, ancaq Hənəfi Zeynallının əməyinin unudulmasını da tarixi ədalətsizlik sayırıq.

Məsələn, Türkiyədə yaşamış görkəmli azərbaycanlı tədqiqatçı Səlim Rəfiq Rəfioğlu (1905-1980) "Azərbaycan Türk nağılları" kitabına Ankarada çıxan "Oluş" dərgisində (07.05.1939, sayı 19, s.299) rəy yazaraq, çox təəssüf ki, kitabın tərtibçisi kimi yalnız prof. Baqrini göstərib, eyni zamanda H.Zeynallını haqsız yerə kəskin tənqid edib.

Türkiyəli dostumuz Ömər Özcan bəy Bakıda nəşr edilmiş "Səlim Rəfiq Rəfioğlu" kitabında bu məsələyə toxunaraq yazıb:

"Hənəfi Zeynallı Azərbaycanın folklor sahəsində önəmli çalışmalarıyla tanınmış dəyərli alimdir. 1896-da Bakıda doğulmuş, 1919-da Azərbaycan Dövlət Universitetinə girmiş, 1927-də oranı bitirmişdir. Şərq fakültəsinin Azərbaycan Türk ədəbiyyatı tarixi kafedrasında, sonra Azərbaycan Pedaqoji İnstitutunda çalışmış, 1930-da ona dosent elmi dərəcəsi verilmişdir. 1923-dən Azərbaycan Dövlət Nəşriyyatının əsas yaradıcılarından biri olmuş və oranın baş redaktoru vəzifəsində çalışmışdır. 1923-1931 illəri arasında "Kommunist" qəzetində, "Maarif və mədəniyyət", "İnqilab və mədəniyyət", "Maarif işçisi" dərgilərində işləmiş, onlarda çoxlu məqalələr dərc etdirmişdir. 1926-da "Azərbaycan atalar sözləri və məsəllər", 1928-də "Türk ədəbiyyatı üzrə iş kitabı" adlı əsərləri nəşr olunmuşdur. O, folklor, terminologiya və b. sahələr haqqında çoxlu məqalələr yazmışdır. 28 yanvar 1937-də əksinqilabçı kimi həbs olunmüşdur. Ondan Türkiyəyə dönən müəllimi İsmayıl Hikmət Ərtaylanla sonrakı məktublaşması, Dr. Xəlil Fikrət Kanad, Əhməd Cavad, Cəfər Cabbarlı, Əli Nazım və b. şəxslərlə əlaqəsi soruşulmuş, 13.10.1937 tarixində güllələnmişdir.

[1] *Zeynallı H.* Müsəvvər müxtəsər üsuli-həndəsə. 3 hissədən ibarət olaraq müəllim və mütəəllimlərə rəhbərdir. Bakı, 1923.

[2] *Hənəfi.* "Şeyda" xüsusunda qısa bir mülahizə. // *"Maarif və mədəniyyət"*, 1923, № 1, ss. 31-32.

[3] *Hənəfi.* "Maral" xüsusunda qısa mülahizə. // *"Maarif və mədəniyyət"*, 1923, № 2, ss. 24-26.

[4] *Zeynallı H.* Hüseyn Cavidin yazdığı "Peyğəmbər" haqqında mülahizələrim. //*"Maarif və mədəniyyət"*, 1926, № 9, ss. 42-45; № 10-11, ss. 55-59.

[5] *Zeynallı H.* "Şeyx Sənan" haqqında mülahizələrim. // *"Maarif və mədəniyyət"*, 1926, № 12, ss. 47-49; 1927, № 1-2, ss. 50-53; № 3, ss. 44-46; № 4-5, ss. 68-69.

[6] Азербайджанские тюркские сказки. Перевод, статьи и комментарии А.Багрия и Х.Зейналлы. [Москва], 1935.

[7] *Багрий А.В.* От составителя сборника. // Азербайджанские тюркские сказки, ss. V-X.

[8] *Зейналлы Х.* Азербайджанские тюркские сказки. // Азербайджанские тюркские сказки, ss. XI-XX.

Səlim bəy bu kitabtanıtma yazısında Zeynallını kəskin tənqid etmişdir. Yazısının məzmunundan onun bütün Azərbaycan ədəbiyyatı haqqında yetərli bilgi sahibi olduğu anlaşılır. Ancaq bu yazını qələmə aldığı tarixlərdə Zeynallının məhv edildiyindən xəbərsiz olduğu anlaşılır. Buradan da həmin dönəm Azərbaycan mətbuatında aydınlara yönəlik repressiyaya dair xəbərlərin çıxmasına icazə verilmədiyi ağla gəlməkdədir".[1]

Ömər bəyin bu qeydlərini yetərli sayaraq, biz Rəfioğlunun tənqidi üzərində geniş dayanmırıq.

* * *

